AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ

AZƏRBAYCAN İQTİSADÇILAR İTTİFAQI

AR KƏND TƏSƏRRÜFATI NAZİRLİYİNİN AQRAR ELM VƏ İNFORMASİYA MƏSLƏHƏT MƏRKƏZİ

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ "MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ VƏ AQRAR SAHƏNİN RƏQABƏTQABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ PROBLEMLƏRİ" MÖVZUSUNDA

BEYNƏLXALQ ELMİ-PRAKTİK KONFRANSIN MATERİALLARI

МАТЕРИАЛЫ МЕЖДУНАРОДНОЙ НАУЧНО-ПРАКТИЧЕСКОЙ КОНФЕРЕНЦИИ НА ТЕМУ:

"ПРОБЛЕМЫ ОБЕСПЕЧЕНИЯ ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ НЕЗАВИСИМОГО АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВА И ПОВЫШЕНИЯ КОНКУРЕНТОСПОСОБНОСТИ АГРАРНОЙ СФЕРЫ", ПОСВЯЩЕННОЙ 100 - ЛЕТИЮ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ

THE MATERIALS OF INTERNATIONAL SCIENTIFIC-PRACTICAL CONFERENCE

"THE PROBLEMS OF PROVISION OF FOOD SECURITY OF INDEPENDENT AZERBAIJAN GOVERNMENT AND THE INCREASE OF COMPETITIVENESS OF AGRARIAN SPHERE" DEVOTED TO 100 ANNIVERSARY OF AZERBAIJAN DEMOCRATIC REPUBLIC

Bakı, 1-2 iyun 2018

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ

AZƏRBAYCAN İQTİSADÇILAR İTTİFAQI

AR KƏND TƏSƏRRÜFATI NAZİRLİYİNİN AQRAR ELM VƏ İNFORMASİYA MƏSLƏHƏT MƏRKƏZİ

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 100 İLLİYİNƏ HƏSR EDİLMİŞ "MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ VƏ AQRAR SAHƏNİN RƏQABƏTQABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ PROBLEMLƏRİ" MÖVZUSUNDA

Beynəlxalq elmi - praktiki konfransın materialları

Материалы международной научно – практической конференции на тему:

«ПРОБЛЕМЫ ОБЕСПЕЧЕНИЯ ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ НЕЗАВИСИМОГО АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВА И ПОВЫШЕНИЯ КОНКУРЕНТОСПОСОБНОСТИ АГРАРНОЙ СФЕРЫ», ПОСВЯЩЕННОЙ 100 – ЛЕТИЮ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ

The materials of internatıonal scientific-practical conference

"THE PROBLEMS OF PROVISION OF FOOD SECURITY OF INDEPENDENT AZERBAIJAN GOVERNMENT AND THE INCREASE OF COMPETITIVENESS OF AGRARIAN SPHERE" DEVOTED TO 100 ANNIVERSARY OF AZERBAIJAN DEMOCRATIC REPUBLIC

Bakı, 1-2 iyun 2018

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Azərbaycan xalqının həyatında tarixi hadisə olmuşdur və xalqımızın dövlətçilik salnaməsinin parlaq səhifələrindəndir.

Ümummilli lider Heydər Əliyev

Создание в 1918 году Азербайджанской Демократической Республики явилось историческим событием в жизни азербайджанского народа и стало яркой страницей летописи его государственности.

Общенациональный лидер Гейдар Алиев

The establishment of the Azerbaijan Democratic Republic in 1918 was a historic event in the life of the Azerbaijani people and it is one of the brilliant pages of the history of our people's statehood chronicle.

The national leader Heydar Aliyev

Yüz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Сто лет тому назад впервые в мусульманском мире создана демократическая республика. Мы гордимся тем, что эту республику создал азербайджанский народ, еще раз продемонстрировав всему миру, что он – великий народ, талантливый народ, свободный народ.

Президент Азербайджанской Республики
Ильхам Алиев

The Democratic Republic was established for the first time in the Muslim world one hundred years ago. We are proud that the Azerbaijanian people have created that Republic and once again demonstrated to the whole world that Azerbaijanian people are a great nation, talented and free people.

President of Azerbaijan Republic
Ilham Aliyev

ÖN SÖZ

01 iyun 2018-ci il tarixdə Azərbaycan Xalq Cumhuriyyətinin 100 illiyinə həsr olunmuş "Müstəqil Azərbaycan dövlətinin ərzaq təhlükəsizliyinin təmin edilməsi və aqrar sahənin rəqabətqabiliyyətinin yüksəldilməsi problemləri" mövzusunda Azərbaycan Kooperasiya Universitetinin, Azərbaycan Respublikası Təhsil Nazirliyinin, İqtisadçılar İttifaqının, Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzinin birgə təşkilatçılığı ilə beynəlxalq elmi-praktiki konfrans keçirilmişdir.



Konfransı giriş sözü ilə Azərittifaqın İdarə Heyətinin sədri, Azərbaycan Kooperasiya Universitetinin rektoru, Azərbaycan Respublikası Milli Məclisinin Aqrar Siyasət Komitəsinin sədr müavini, professor Eldar Quliyev açdı. Konfransın qonaqlarını və iştirakçılarını salamlayan Eldar Quliyev Azərbaycan Xalq Cumhuriyyətinin yaranma tarixi, onun fəaliyyət göstərdiyi dövr ərzində keçdiyi şərəfli yol haqqında ətraflı məlumat verdi. Konfransın plenar iclasında Azərbaycan Kooperasiya Universitetinin rektoru professor Eldar Quliyev, Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, Azərbaycan İqtisadçılar İttifaqının sədri, Beynəlxalq İqtisadçılar İttifaqının vitse-prezidenti.akademik Ziyad Səmədzadə, Azərbaycan Respublikası Milli Məclisinin Aqrar Siyasət Komitəsinin sədri, i.e.d., professor Eldar İbrahimov, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Regional İqtisadi və Sosial Araşdırmalar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, i.e.d., professor Əli Nuriyev, AMEA İqtisadiyyat İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü, i.e.d., professor Akif Musayev, Bakı Biznes Universitetinin kafedra müdiri, Əməkdar Kənd Təsərrüfatı İşçisi, i.e.d., professor İslam İbrahimov, İsveçrəli alim prof. Dr. Mehmet Şükrü Güzel, Rusiya Kooperasiya Universitetinin rektoru, professor Sergey Qil, Türkiyəli alim prof. Dr. Cengiz Güneş, Belorusiya İqtisadiyyat və Ticarət Universitetinin rektoru, professor Svetlana Lebedeva, Poltava Dövlət Aqrar Akademiyasının rektoru, professor Valentina Arançiy, Rusiya Kooperasiya Universitetinin kafedra müdiri, professor Dmitriy Vali-

qurskiy, Bakı Dövlət Universitetinin magistri Arzu İbrahimli Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 16 may 2017-ci il tarixli Sərəncamını rəhbər tutaraq, Azərbaycan Xalq Cumhuriyyətinin varisi olan müasir Azərbaycanın uğurlu iqtisadi siyasəti nəticəsində ölkədə ərzaq təhlükəsizliyinin etibarlı təminatı və aqrar sahənin perspektiv inkişafı barədə geniş məruzələrlə çıxış etdilər.



Plenar iclasın ertəsi günü, yəni 2 iyun 2018-ci il tarixdə konfrans öz işini dörd bölmədə davam etdirdi. Bölmə iclaslarından sonra onların rəhbərlərinin hesabatları dinlənildi və qəbul edilən tövsiyələr, konfransın nəticələri və gələcəkdə görüləcək işlər haqqında ətraflı müzakirələr aparıldı. Konfransın sonunda yekun sözü ilə çıxış edən Azərbaycan Kooperasiya Universitetinin rektoru, Azərbaycan Respublikası Milli Məclisinin Aqrar Siyasət Komitəsinin sədr müavini, professor Eldar Quliyev tədbir iştirakçılarına təşəkkürünü bildirdi və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayaraq konfransı bağlı elan etdi.

TƏŞKİLAT KOMİTƏSİ

Sədr: ***Eldar Quliyev*** - Azərbaycan Kooperasiya Universitetinin rektoru, Azərbaycan Respublikası Milli Məclisinin Aqrar Siyasət Komitəsi sədrinin müavini, professor

Həmsədr: ***Ziyad Səmədzadə*** - akademik, Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq Komitəsinin sədri, Azərbaycan İqtisadçılar İttifaqının sədri, Beynəlxalq İqtisadçılar İttifaqının vitse-prezidenti

Sədr müavini: ***Bəyalı Ataşov*** - Azərbaycan Kooperasiya Universitetinin elmi işlər üzrə prorektoru, Əməkdar elm xadimi, professor

TƏŞKİLAT KOMİTƏSİNİN ÜZVLƏRİ

1. **Ceyhun Bayramov** - Azərbaycan Respublikası Təhsil Naziri.
2. **Eldar İbrahimov** - Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, professor.
3. **Əminağa Sadıqov** - AMEA Elm idarəsinin rəisi, AMEA-nın müxbir üzvü, professor.
4. **Rəsul Balayev** -Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzinin baş direktoru, professor.
5. **Amil Məhərrəmov** - BDU, kafedra müdiri, professor.
6. **Elsevər Kərimov** - AKU, Doktorantura və magistratura şöbəsinin müdiri, dosent.
7. **Sergey Qil** - Rusiya Kooperasiya Universitetinin rektoru, professor - Rusiya Federasiyası.
8. **Aleksey Nestulya** - Poltava İqtisadiyyat və Ticarət Universitetinin rektoru, professor – Ukrayna.
9. **Valentina Arançiy** - Poltava Dövlət Aqrar Akademiyasının rektoru, professor – Ukrayna.
10. **Prof. Dr. Çengiz Güneş** - Türkiyə.
11. **Prof. Dr. Manfred Büchele** - Almaniya.
12. **Svetlana Lebedeva** - Belorusiya İqtisadiyyat və Ticarət Universitetinin rektoru, professor - Belarus.
13. **Vitali Teplov** - Belqorod Kooperasiya Universitetinin rektoru, professor – Rusiya.
14. **Prof. Dr. Mehmet Şükrü Güzel** - İsveçrə.
15. **Erkara Aymaqambetov** - Karaqanda İqtisad Universitetinin rektoru, professor – Qazaxıstan.

0503229412-164
124-2018

© "Kooperasiya" nəşriyyatı - 2018

Elmi redaktor: Ziyad Səmədzadə - akademik, Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, Azərbaycan İqtisadçılar İttifaqının sədri, Beynəlxalq İqtisadçılar İttifaqının vitse-prezidenti

Elmi redaksiya heyəti:
Eldar Quliyev - i.e.d., prof.,
Əli Nuriyev - AMEA-nın müxbir üzvü, i.e.d., prof.,
Əminağa Sadıqov - AMEA-nın müxbir üzvü, f.r.e.d., prof.,
Bəyalı Ataşov - Əməkdar elm xadimi, i.e.d., prof.,
Gəncəli Gənciyev - i.e.d., prof.,
Amil Məhərrəmov - i.e.d., prof.,
Vahid Novruzov - i.e.d., prof.,
Hacıağa Rüstəmbəyov - i.e.d., prof.,
Elsevər Kərimov - i.e.n., dos.,
Sergey Qil - professor,
Valentina Arançiy - professor,
Çengiz Güneş - Prof. Dr.,
Svetlana Lebedeva - professor.

İşçi qrupu:
Bəyalı Ataşov - Əməkdar elm xadimi, i.e.d., prof.,
Rəsul Balayev - i.e.d., prof.,
Elşad Səmədzadə - i.e.n., dos.,
Elsevər Kərimov - i.e.n., dos.,
Elşən İbrahimov - i.e.n., dos.,
Samirə Məmmədova - i.f.d.,
Əhməd Ziyəddinoğlu - Nəşriyyat-poliqrafiya şöbəsinin müdiri,
Hacı İsmayılov,
Gülsüm Bədirzadə,
Aydana Qasımova

KONFRANSDA İŞTİRAK EDƏN ELMİ QURUMLAR VƏ TƏŞKİLATLARIN SİYAHISI

1. Akdeniz Universiteti – Türkiyə
2. AMEA-nın Elm və Təhsil İdarəsi
3. AMEA-nın İqtisadiyyat İnstitutu
4. Azərbaycan Dövlət Aqrar Universiteti
5. Azərbaycan Dövlət İqtisad Universiteti
6. Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
7. Azərbaycan İqtisadçılar İttifaqı
8. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Əmək və Sosial Problemlər üzrə Elmi-Tədqiqat və Tədris Mərkəzi
9. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu
10. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi
11. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi
12. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kənd Təsərrüfatının İqtisadiyyatı İnstitutu
13. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
14. Azərbaycan Respublikası Təhsil Nazirliyi
15. Azərbaycan Respublikasi Auditorlar Palatası
16. Azərbaycan Texniki Universiteti
17. Azərbaycan Texnologiya Universiteti
18. Azərbaycan Universiteti
19. Bakı Biznes Universiteti
20. Bakı Dövlət Universiteti
21. Bakı Mühəndislik Universiteti
22. Belarus Ticarət və İqtisadiyyat Universiteti
23. Belqorod Kooperasiya Universiteti – Rusiya
24. Dağıstan Xalq Təsərrüfatı İnstitutu – Rusiya
25. Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universiteti
26. Karakanda İqtisad Universiteti – Qazaxıstan
27. Naxçıvan Dövlət Universiteti
28. Odlar Yurdu Universiteti
29. Poltava Dövlət Aqrar Akademiyası – Ukrayna
30. Poltava Ticarət və İqtisadiyyat Universiteti – Ukrayna
31. Rusiya Kooperasiya Universiteti
32. Suxişvili Universiteti – Gürcüstan
33. Suxumi Dövlət Universiteti – Gürcüstan
34. Sumqayıt Dövlət Universiteti
35. Tacikistan Dövlət Kommersiya Universiteti
36. Ternopol İqtisadiyyat Universiteti – Ukrayna
37. Türkiye Giresun Universiteti
38. Ukrayna Milli Meşə Texniki Universiteti

PLENAR İCLASDA EDİLƏN MƏRUZƏLƏR

Eldar Allahyar oğlu QULİYEV,
Milli Məclisin Aqrar siyasət komitəsinin sədrinin müavini,
Azərbaycan Kooperasiya Universitetinin rektoru,
iqtisad elmləri doktoru, professor

DAVAMLI İNKİŞAF VƏ TƏRƏQQİ KONTEKSTİNDƏ ƏRZAQ ƏLÇATANLIĞI

Dünyanın bir çox ölkələrində və müxtəlif ərazilərində ərzaq əlçatanlığının yaxşılaşdırılması məqsədilə aparılan tədbirlər və Minilliyin İnkişaf Hədəflərinin qəbul edilməsindən sonrakı dövrlərdə reallaşdırılan işlər nəticəsində əhəmiyyətli nəticələr əldə olunmuşdur. Amma bununla belə, dünya ölkələrində bu istiqamətdə problemlər qalmaqdadır və bu baxımdan, ərzaq əlçatanlığı kimi mürəkkəb problemə daha təsirli tədbirlər kontekstində baxılması, dünya iqtisadiyyatının davamlı inkişaf və tərəqqi prinsiplərindən çıxış etməklə sürətləndirilməsi çağırışları hələ də qalmaqdadır.

Davamlı inkişaf və ərzaq əlçatanlığı arasındakı qarşılıqlı əlaqənin baxılması və qiymətləndirilməsi, ilk növbədə dünya əhalisinin təmiz, təhlükəsiz qida məhsulları ilə təminatı ilə bərabər, kənd təsərrüfatının inkişafının genişləndirilməsi ilə əlaqədar olaraq tədbirlərin icrasında torpaqdan və digər təbii resurslardan səmərəli istifadənin gözlənilməsi, cəmiyyətin və iqtisadiyyatın inkişafı üzrə maraqların balanslaşdırılması, milli iqtisadi inkişaf maraqlarına zidd olan tendensiyaların aradan qaldırılması, ölkənin iqtisadi təhlükəsizliyi kontekstində ərzaq təhlükəsizliyi məsələlərinin ən yüksək səviyyədə baxılması və dəyərləndirilməsi, əhalinin işsizlik və yoxsulluq səviyyəsinin azaldılması tədbirlərinin genişləndirilməsi və s. nəzərə alınmalı, qiymətləndirilməlidir.

Qeyd edək ki, ərzaq əlçatanlığına tam mənada nail olmaq üçün elmi-texniki yeniliklər, biliklər və sosial-iqtisadi siyasət arasında güclü inteqrativ yanaşmalar ərzaq əlçatanlığının vacib prinsiplərinin qorunması üçün böyük əhəmiyyət kəsb edir. Belə ki, ərzaq əlçatanlığının təmin edilməsi bir çox amillərə xüsusi diqqət yetirilməsini, o cümlədən davamlı inkişaf, dayanıqlı iqtisadi sistemin və milli iqtisadi inkişaf modelinin formalaşdırılmasını, bu proseslərdə elm və texnologiyaların son nailiyyətlərindən fəal istifadə edilməsini şərtləndirir. Digər tərəfdən, ərzaq əlçatanlığının təmin olunmasında müəyyən xarici və daxili təhlükələrin genişlənməsi bütün dövrlərdə olmuş, mövcuddur və gələcəkdə də bu kimi tendensiyalardan qaçmaq mümkün olmayacaqdır.

Çünki, kənd təsərrüfatının genişləndirilməsi, burada sənayeləşmə səviyyəsinin artması yeni emal müəssisələrinin tikilməsini, infrastruktur şəbəkəsinin yaradılmasını tələb edir. Bunlar isə, öz növbəsində torpaq, su mənbələrinə, meşə fonduna və ölkənin biomüxtəlifliyinə, florasına, faunasına, ərtaf mühitinə mənfi təsir göstərir, ekoloji sistemin balansını pozur və cəmiyyətlə iqtisadi inkişaf prosesləri arasında gərginliyə səbəb olan ziddiyyətlər yaradır, aparılan yeniliklərin, tədbirlərin əhəmiyyətini kiçildir, dövlətin bu sahədəki iqtisadi siyasətinin əsasını sarsıdır, dövlətlə cəmiyyət arasında qarşılıqlı anlaşma və etimad mühitini zəiflədir, nəticədə isə görülən işlərin məhsuldarlığı aşağı düşür, proqnozlar özünü doğrultmur.

Xarici amillər sırasında isə dünya bazarlarındakı rəqabətin səviyyəsi, iqtisadi, maliyyə, valyuta qeyri-sabitliyi, kredit resurslarına çıxışların mürəkkəbləşməsi, məhsulların qiymətləri və dünya bazarlarına çıxarılması üzrə 1994-cü ildə Dünya Ticarət Təşkilatı səviyyəsində qəbul edilmiş meyarların və prinsiplərin dövlətlər tərəfindən gözlənilməməsi, qeyri-bərabər ticarət sövdələşmələrinin artması, iqlim dəyişiklikləri ilə bağlı problemlərin çoxalması, digər təbii amillərin kənd təsərrüfatı məhsullarının istehsalına edə biləcəyi mənfi təsirin yüksək olması və s. daha çox yer almışdır.

Ərzaq əlçatanlığının baza prinsiplərinin qorunmasında və bununla əlaqədar mühüm tədbirlə-

rin kompleks şəkildə baxılmasında davamlı inkişaf mexanizmlərinin və yanaşmalarının, bu istiqamətdə mütərəqqi təcrübənin rolu böyükdür. Belə ki, ölkə resurslarından qənaət rejimində istifadənin təşkili, ekoloji problemlərin həllinə sistemli yanaşmanın təmin edilməsi, ekoloji-iqtisadi aspektlərin balanslaşdırılması, milli resurslardan istifadə proseslərində ətraf mühitlə bağlı problemlərə etinasız yanaşmalara yol verilməməsi, regionlararası iqtisadi inkişaf fərqlərinin aradan qaldırılması, yüksək texnologiyalar əsasında kənd təsərrüfatı və aqrosənaye kompleksi müəssisələrinin müasir şəbəkəsinin yaradılması vacib şərtlərdəndir. Tükənən resurslarla münasibətdə, həmçinin təbii nemətlərlə, təbiətlə bağlı bütün sahələrdə gələcək nəsillərin maraqları mütləq şəkildə qorunmalı, bunlarla əlaqədar görülən tədbirlər obyektiv reallıqlardan çıxış etməklə qiymətləndirilməli, icra və nəzarət mexanizmləri maksimum səviyyədə optimallaşdırılmalıdır.

Davamlı iqtisadi inkişafın və iqtisadi tərəqqinin sürətləndirilməsi ilə ərzaq əlçatanlığının səviyyəsinin yüksəldilməsində üzvi əlaqənin geniş spektrləri diqqət çəkir. Belə ki, bu proseslərdə fərdi insanlardan tutmuş ən ali dövlət srtukturuna kimi qurumlar özlərinin fəaliyyəti ilə bir-birini tamamlayır, ölkənin davamlı iqtisadi inkişafına, iqtisadi tərəqqisinə öz töhfəsini verir, ərzaq məhsullarının istehsalının və çeşidinin artırılması proseslərində fəal iştirak edir və son nəticədə əhalinin əhəmiyyətli hissəsinin ehtiyacı olduğu ərzaq əlçatanlığının təmin edilməsinə ümumi səy göstərirlər.

Davamlı iqtisadi inkişafa yönəldilmiş səylər bütün səviyyələrdə - regional, dövlət, ailə və fərd səviyyələrində daha kompakt - vahid fəaliyyət çərçivəsində birləşdikdə yüksək nəticələrin əldə edilməsi üçün münbit şərait yaranır. Bu halda davamlı iqtisadi inkişafın və tərəqqinin təmin edilməsi, bu müstəvidə ölkənin ərzaq təhlükəsizliyinin gücləndirilməsi, ərzaq əlçatanlığının yaxşılaşdırılması daha da reallaşır və bununla əlaqədar olaraq kənd təsərrüfatı sektorunun inkişafı, iqtisadi sistemin dayanıqlı mexanizmlərinin dövriyyəyə cəlb edilməsi, davamlı şəkildə və geniş həcmdə ərzaq məhsullarının istehsalının təşkili, qida təhlükəsizliyi tədbirlərinin görülməsi, ehtiyat ərzaq fondlarının yaradılması tədbirlərinin həyata keçirilməsinə geniş imkanlar formalaşır.

Görülən tədbirlər, iqtisadi və sosial rifah baxımından davamlılıq və dayanıqlılıq əhalinin mühüm ərzaq məhsullarına çıxışını asanlaşdıra və onların ərzaq əlçatanlığı səviyyəsinin yüksəldilməsinə əlverişli şərait yaradar. Bunun üçün sosial-iqtisadi inkişafın davamlı və dayanıqlı olması vacib şərtlərdəndir və bu sırada üç amilin - sosial, iqtisadi və mühit amilinin kompleks şəkildə nəzərə alınması ölkə əhalisinin ərzaq əlçatanlığının sabitləşdirilməsində əhəmiyyətli rol oynaya bilər.

Bunlarla bərabər, 2009-cu ildə Davamlı Qlobal Ərzaq əlçatanlığı üçün Beş Roma Prinsipinə konkret şəkildə əlavə edilən uzunmüddətli zaman ölçüsünün tələbləri də nəzərə alınmalıdır. Bu tələb ilk növbədə adekvat ərzaq hüququnun mütərəqqi şəkildə dərk edilməsi də daxil olmaqla aclıq və yoxsulluğun əsas səbəblərinin aradan qaldırılması məqsədilə ən həssas məqamlara: 1) orta səviyyəli və uzunmüddətli davamlı kənd təsərrüfatı, ərzaq əlçatanlığı, qidalanma və kənd yerlərində inkişaf proqramlarının təşkilinə, aclığa son qoymaq tədbirlərinin genişləndirilməsinə; 2) ərzaq əlçatanlığının təmin edilməsi ilə bağlı tədbirlərə sistemli yanaşmanın təşkilinə xüsusi diqqət yetirilməsindən ibarətdir.

Məlumdur ki, Minilliyin İnkişaf Hədəflərində ərzaq əlçatanlığı məsələsinə ilk Hədəfdə toxunulmuşdur və qeyd edilmişdir ki, ifrat yoxsulluğa və aclığa son qoyulması əsas hədəfdir. Bundan əlavə, kənd təsərrüfatı və kənd yerlərində inkişafla əlaqədar məsələlər, ətraf mühitin davamlı inkişaf prinsipləri əsasında qorunması üzrə qlobal tərəfdaşlıq meyarları 7-ci və 8-ci Hədəflərdə verilmişdir.

Bunlarla belə, kənd təsərrüfatının inkişafı məsələlərinə məhdud çərçivədə və istiqamətdə baxılması məqsədəuyğun sayılmamışdır və bunlara ayrıca olaraq toxunulmamışdır. Minilliyin İnkişaf Hədəflərinin ardınca davamlı kənd təsərrüfatı və ərzaq əlçatanlığı məsələlərini əhatə edəcək yeni hədəflərin müəyyənləşdirilməsində isə dünya ölkələrinin liderləri arasında ümumi razılıq əldə olundu.

Buna görə də, 2014-cü ildə Rio+20 konfransında dünya liderləri 2015-ci ildən sonrakı inkişaf hədəflərini və məqsədlərini - Davamlı İnkişaf Hədəflərinin planını və əsas hədəflərini hazırla-

maq barəsində razılığa gəldilər. Bunlarla əlaqədar olaraq, qlobal və dövlət səviyyələrində tərəfdaşların məsləhətləşmələri, çoxsaylı beynəlxalq seminarlar, bəyanatlar, BMT-nin ixtisaslaşmış təşkilatları və qeyri-hökumət təşkilatlarının məruzələri, ən yüksək səviyyəli dövlət xadimləri, siyasətçilər, dünya məşhurları, alimlər və mütəxəssislər də bu istiqamətlərdə öz töhfələrini, fikirlərini və təkliflərini vermiş, problemlərin həlli üçün səylər göstərmişlər. Minilliyin İnkişaf Hədəfləri çərçivəsində dünyada aclığa son qoymaq hədəfi kalori qəbulunun həcmi ilə də sıx bağlıdır və bununla əlaqədar olaraq, Davamlı İnkişaf Hədəfləri içərisində ərzaq məhsullarının qidalanma dəyərinə də xüsusi diqqətin yetirilməsi vurğulanmışdır. Davamlı İnkişaf Hədəfləri bütün dünya ölkələrinə və hər bir insana aid olduğu halda, Minilliyin İnkişaf Hədəfləri əsasən yoxsul ölkələri əhatə edir. 2015-ci ildən sonrakı inkişaf hədəfləri Minilliyin İnkişaf Hədəflərindən daha fərqli olaraq, yeni bir yanaşma tərzilə fərqlənir. Bu fərq yalnız hədəflər çərçivəsində deyil, həmçinin Davamlı İnkişaf Hədəflərinin yoxsulluğun əsas səbəblərini və davamlı inkişafa mane olan sədləri müəyyənləşdirməklə, qarşıya qoyulan hədəflərdə dəyişikliklər edilməsindən ibarətdir. Müxtəlif səbəblərdən ərzaq çatışmazlığının yaranması hallarına qarşı tədbirlərin görülməsi, sosial mühitdən qeyri-qanuni təcrid olunanların ərzaq əlçatanlığına imkanlarının məhdudlaşdırılması yolverilməzdir.

Davamlı İnkişaf Hədəflərinin əsas tərkib hissələri kimi ərzaq əlçatanlığı, davamlı inkişaf və tərəqqi arasındakı əlaqələr və əhatəli iqtisadi inkişaf təmayülləri, yeni iş yerlərinin yaradılması, əhali sayının dinamikası, məşğulluq, sosial müdafiə, enerji, su, səhiyyə, sanitariya, təbii resursların idarə edilməsi, ekosistemlərin mühafizəsi və s. daha çox diqqət çəkən məsələlərdəndir. Əsas fəaliyyət istiqamətlərindən bir qrupu da, kənd təsərrüfatı sahələrinin inkişafının və genişləndirilməsinin əlavə dəyər zənciri üzərində təkmilləşdirilməsi, məhsul yığımı proseslərinin səmərəli təşkili, hazır məhsulların saxlanılması infrastrukturunun yaradılması və itkilərin azaldılması, həmçinin son istehlakçılara ərzaq məhsullarının çatdırılması mexanizmlərinin yüksək səviyyədə təşkil edilməsidir.

Yeni yanaşmaların digər qrupu isə, ərzaq əlçatanlığının yüksəldilməsi proseslərində kiçik sahibkarlıq subyektlərindən və kəndli təsərrüfatlarından məhsuldar istifadənin təmin olunmasıdır. Bu subyektlərin daha məhsuldar işləməsi üçün müvafiq şərait yaradılmalı, texniki vasitələrə çıxışları yaxşılaşdırılmalı, onların inkişafına mane olan süni müdaxilələr aradan qaldırılmalı, torpaq sahələrinin ayrılmasında bürokratik hallara yol verilməməli, enerji daşıyıcılarla təminat məsələləri etibarlı şəkildə həll olunmalı, regional, milli və xarici bazarlara çıxış imkanları yaradılmalıdır.

Qeyd edək ki, BMT və digər qlobal təşkilatların əksəriyyətinin öhdəlikləri əsasən infrastruktur şəbəkəsinin (nəqliyyat, enerji və suvarma) inkişafı, maliyyə sektorunun inkişafı (kiçik və orta səviyyəli müəssisələrin inkişafı və mikro kredit) və regional əməkdaşlığın, inteqrasiyanın (ticarətin asanlaşdırılması) genişləndirilməsi ilə bilavasitə bağlıdır.

Buna görə də, Davamlı İnkişaf Hədəfləri davamlı ərzaq əlçatanlığına nail olunmasında birbaşa və dolayı yolla edilən töhfələrlə diqqət çəkir. 2015-ci ildən sonrakı inkişaf hədəfləri də həmçinin ərzaq əlçatanlığı üzrə çoxsektorlu əməliyyatların təsirlərini, xüsusilə yoxsul və əlverişsiz şəraitdə yaşayan insanlar üçün daha çox səmərəliliyin təmin edilməsini və əlavə dəyər formalaşdırılmasını hədəfləyir:

- ərzaq məhsuldarlığı və istehsal üzrə durğunluğun aradan qaldırılması;
- kənd yerlərində maliyyə resurslarına çıxışların asanlaşdırılması, infrastrukturun və texnologiyaların inkişaf etdirilməsi, bazarlara çıxış üçün imkanların yaradılması, burada yaşayan insanların gəlirlərinin artırılması tədbirlərinin görülməsi;
- iqlim dəyişikliyi və ərzaq qiymətlərinin qeyri-sabitliyi ilə bağlı məsələlərin balanslaşdırılması, preventiv tədbirlərin görülməsi və bunlarla əlaqədar olaraq - məhsuldarlığın artırılması, istehsal olunan məhsulların rəqabətqabiliyyətliliyinin gücləndirilməsi və s.

Bu qeyd olunan tədbirlər çərçivəsində və yanaşmalar kontekstində ölkədə kənd təsərrüfatı sahələrinin inkişafı və idarə edilməsində yeni mexanizmlərin tətbiqi asanlaşır, emal müəssisələrinin təşkili və şəbəkələrinin genişlənməsi imkanları artır, satış bazarlarına çıxışlar genişlənir, hazır məhsulların saxlanılması və potensial istehlakçılar arasında bölüşdürülməsi şəbəkəsi yara-

dılır, əhalinin maddi rifahı yaxşılaşdırılır, gəlirləri çoxalır, yoxsulluq və işsizlik səviyyəsi azalır, son nəticədə isə mühüm ərzaq məhsulları ilə təminatın səviyyəsi yüksəlir və ərzaq əlçatanlığı təmin olunur.

Digər mühüm prinsiplərdən və yeni yanaşmalardan bir qrupu da davamlı və çevik üsulla istehsal olunmuş qida məhsullarının və ərzaqların təmin edilməsi məqsədilə, yeni iş yerlərinin yaradılması, biomüxtəlifliyi qorumaqla enerji, torpaq və zərərvericilərə qarşı zəhərli vasitələrdən - dərmanlardan az istifadə edilməsi ilə bağlıdır. Bunlarla əlaqədar bir sıra hədəflər və xüsusiyyətlər diqqət çəkir:

1) torpaqların deqradasiyaya və eroziyaya uğraması hallarına yol verilməməsi və yararsız torpaqların dövriyyəyə qaytarılması tədbirlərinin təşkili;

2) ümumi səmərəli və etibarlı ərzaq təminatı zənciri üzrə 20 faiz artım təmin edilməklə, "tarladan süfrəyə qədər" itkilərin və israfçılığın azaldılması;

3) kənd təsərrüfatı məhsullarının əkilməsi və yetişdirilməsində su resurslarından istifadənin səmərəliliyində 20 faiz artıma nail olunması, mütərəqqi suvarma sistemlərinin yaradılması, hər damla su hesabına daha çox qidalanma və məhsul istehsalına nail olunması;

4) yüksək texnologiyadan istifadə hesabına hər damla sudan səmərəli istifadəyə nail olmaqla, torpağın suvarılmasında 70 faiz artımın əldə edilməsi və s.

Bu qeyd edilən hədəflərin həyata keçirilməsi ilə bağlı yanaşmalar, üsullar və hədəf səviyyələri bunlardan ibarətdir:

1) kənd təsərrüfatı sektorunun inkişafı, məhsul istehsalının həcminin və çeşidinin artırılması, ərzaq əlçatanlığının təmin edilməsi və kənd yerlərinin sosial-iqtisadi inkişaf problemlərinin həll olunması məqsədilə, xaricdən cəlb olunan investisiyaların və yardımların həcminin 20 faiz artırılmasına nail olmaq;

2) yerli istehsala və istehsalçılara əməli dəstək məqsədilə, kiçik sahibkarlar və qadın fermerlərə maliyyə yardımlarının həcminin artırılması və verilmiş güzəştli kreditlərin müddətinin uzadılması;

3) ölkələr və regionlar arasında texniki-iqtisadi əməkdaşlığın gücləndirilməsi daxil olmaqla, tam ərzaq və qidalanma əlçatanlığına nail olunması, kənd təsərrüfatı sektorunun və kənd ərazilərinin davamlı inkişafının təmin edilməsi, bu məqsədlərlə iqtisadi və sosial inkişaf proqramlarının həyata keçirilməsi və s.

BMT və digər qlobal səviyyəli beynəlxalq təşkilatların dünya ölkələrində ərzaq əlçatanlığının maksimum yaxşılaşdırılması, aclıqdan əziyyət çəkənlərin sayının azaldılması istiqamətində daha təsirli tədbirlərinin görülməsi üçün il ərzində təxminən 2 milyard dollara qədər vəsaitin cəlb edilməsi zəruridir.

Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı beynəlxalq əməkdaşlıq çərçivəsində inkişaf etmiş ölkələrin imkanlarından istifadə etməklə bu hədəfin reallaşdırılması istiqamətində geniş - həcmli işlər aparır. Bu hədəfə nail olmaqla aşağıda qeyd olunan və geniş təsir spektrinə malik olan tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

a) Dünyada yoxsulluqdan əziyyət çəkən insanların, xüsusi ilə, qadınlar və digər həssas qrupların ərzaq əlçatanlığında məhdudiyyətlərin aradan qaldırılması və təsirli tədbirlərin görülməsi üçün çoxsektorlu yanaşma tərzinin beynəlxalq təşkilatlar və dünya ölkələrinin dövlətləri üçün prioritet fəaliyyət istiqaməti kimi formalaşmasına nail olmaq;

b) Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının ərzaq problemlərinin həlli üzrə qlobal səviyyədə əldə etdiyi və topladığı təcrübələrdən, potensialdan daha səmərəli istifadə etməklə yanaşı, Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Maliyyə Yardımı, Dünya Ərzaq Proqramı, beynəlxalq, regional və milli kənd təsərrüfatı təqdiqat institutları, mülki cəmiyyət təşkilatları və özəl sektor subyektləri ilə birlikdə daha geniş miqyasda məhsuldar tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsini təmin etmək, bey-nəlxalq səviyyədə ərzaq əlçatanlığı üzrə tərəfdaşlığı genişləndirmək və dərinləşdirmək;

c) Ərzaq əlçatanlığı problemləri ilə bağlı məsələlərin əksər dünya ölkələrinin dövlətləri tərəfindən daha dərinliklə dərk edilməsi, hər bir ölkənin öz real potensialından çıxış etməklə bu istiqamətdə töhfəsini verməsi, Minilliyin İnkişaf Hədəflərindən irəli gələn vəzifələrin öz ölkə-

lərinin kənd təsərrüfatı sektorlarında və kənd yerlərində reallaşdırılması imkanlarının daha obyektiv qiymətləndirilməsi problemlərinə kompleks və ardıcıl yanaşmanı təmin etmək;

d) Dünyada aclıqdan əziyyət çəkən insanların problemlərini həll etmək və bu məqsədlə ərzaq əlçatanlığına nail olmaq məqsədi ilə, beynəlxalq əməkdaşlıq, regional layihələr və ölkə tərəfdaşlığı proqramları çərçivəsində, kənd təsərrüfatı sahələrinin davamlı və dayanıqlı inkişafının təmin olunması, ərzaq məhsulları istehsalında məhsuldarlığın artırılması problemlərinin həll edilməsi, ərzaq ehtiyatlarının yaradılması və bölüşdürülməsi üzrə dünya təcrübəsinin tətbiqi ilə bağlı maarifləndirmə tədbirlərinin genişləndirilməsinə, bu sahədə birgə təlimlərin və treninqlərin keçirilməsinə sistemli şəkildə nail olmaq və s.

Qeyd edək ki, davamlı inkişafın təmin edilməsi, yoxsulluğun və kasıbçılığın səviyyəsinin azaldılması, aclıqdan əziyyət çəkən insanların problemlərinə kompleks yanaşmanın təşkili və bu məqsədlərlə onların yaşadığı ərazilərdə kənd təsərrüfatı sahələrinin inkişafının sürətləndirilməsi üçün ciddi maneələr vardır. Belə ki, əsas problemlər sırasında torpaq sahələrinin və su mənbələrinin çatışmaması, suvarma sistemlərinin və infrastruktur şəbəkəsinin olmamasıdır.

Digər tərəfdən, bu kimi yerlərdə insanların işlə təminatı, onların sosial-iqtisadi problemlərinin həlli istiqamətində çətinliklər də kifayət qədər çoxdur. Maliyyə resursları çatışmır, bazarlar inkişaf etməyib və bu regionlarda fəaliyyət göstərən zəif sahibkarlıq subyektlərinin müasir texnologiyalara çıxışları yoxdur, xarici investisiyaların cəlbi isə daha çox işlərin görülməsini tələb edir. Bunlarla əlaqədar olaraq üç mühüm istiqamətdə kompleks tədbirlərin və sistemli yanaşmanın təmin edilməsi vacibdir:

1. Ərzaq məhsulları istehsalının genişləndirilməsi və çeşidinin artırılması məqsədi ilə kənd təsərrüfatı sahələrinin inkişafı problemlərilə bu sahələrlə sıx əlaqəsi olan digər iqtisadiyyat sahələrinin inteqrativ və kooperasiya şəklində əlaqəli inkişafı mexanizmlərinin təşkili və tətbiqinə nail olmaq;

2. Kənd regionlarında həssas əhali təbəqələrinin ərzaq problemlərinin davamlı və dayanıqlı şəkildə həll edilməsi məqsədi ilə, bu regionlarda yaşayan və fəaliyyət göstərən insanların, xüsusi ilə qadınların işlə təminatı problemlərinin həlli üçün real addımların atılmasına, ailə təsərrüfatlarının inkişafının intensivləşdirilməsinə, qadınların başçılıq etdiyi fermer təsərrüfatlarının inkişafının stimullaşdırılmasına, kənd təsərrüfatı sahələrinin sənayeləşdirilməsi proseslərinin sürətləndirilməsinə, nisbətən maddi imkanları zəif olan və yoxsul əhali təbəqələrinin mühüm ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılmasına və ərzaq əlçatanlığına nail olunmasına imkan verən şəraiti və mühiti formalaşdırmaq;

3. Kənd təsərrüfatı məhsullarının, mühüm ərzaq və qida növlərinin qiymətlərinin ölkə əhalisinin gəlirlərinə adekvat səviyyədə saxlanılması və süni qiymət artımlarına yol verilməməsi tədbirlərinin səmərəliliyinə nail olmaq və s.

Müasir dövrdə dünya ölkələrinin əksəriyyətində fermer təsərrüfatlarının inkişaf etdirilməsində sistemli yanaşmaya nail olunmuşdur. Mövcud torpaq sahələrindən, əkin yerlərindən, otlaqlardan və biçənəklərdən, su ehtiyatlarından, digər yerli təbii və iqtisadi resurslardan səmərəli istifadənin təmin edilməsi üçün birgə səylərin, o cümlədən "dövlət - özəl sektor" əməkdaşlığının gücləndirilməsi prosesləri diqqət çəkir.

Digər tərəfdən, yeni texnologiyaların fəal olaraq dövriyyəyə cəlb edilməsi kənd təsərrüfatı məhsullarının istehsalında yüksək məhsuldarlığa nail olmaq üçün əlavə güclü imkanlar formalaşdırmışdır. Texnoloji və innovativ yanaşmalar, funksiyalar kənd təsərrüfatı məhsullarına, emal proseslərində alınan ərzaq və qida növlərinə çəkilən xərclərin optimallaşdırılması üçün də əlavə stimullar və imkanlar vermişdir. İstehsalın sabitliyi və daimi xərclərin optimallaşdırılması nəticəsində məhsulların daha rəqabətqabiliyyətli qiymətləri formalaşır, onların bazarlarda möhkəmlənmək potensialı artır və eyni zamanda yoxsul əhali təbəqəsinin sərfəli qiymətlərlə mühüm ərzaq məhsullarına olan tələbatını ödəməsi üçün də əlverişli şərait yaranır. Başqa sözlə, dünyada ərzaq əlçatanlığının gücləndirilməsi prosesləri üçün münbit şərait və məhsuldar mühit formalaşır.

Beynəlxalq əməkdaşlıq çərçivəsində qlobal səviyyədə ərzaq problemlərinin və ərzaq əlçatanlığı məsələlərinin uzunmüddətli dövr üçün həll edilməsi istiqamətində təsirli tədbirlərin gö-

rülməsində Dünya Ticarət Təşkilatının da rolu böyükdür. Bu təşkilatın yürütdüyü siyasət nəticəsində dünya bazarlarında sağlam rəqabər mühitinin formalaşdırılması və ayrı-ayrı ölkələrin, inhisarçı istehsalçıların, kompaniya və şirkətlərin sui-istifadə hallarına yol verməməsi məqsədi ilə genişmiqyaslı tədbirlər görülür, tənzimləyici mexanizmlər və meyarlar hazırlanır və dünya ölkələri ilə əməkdaşlıq çərçivəsində reallaşdırılır.

Kənd təsərrüfatı sahələrinin intensiv inkişafına nail olmaq üçün hazırda istehsal olunan məhsullarla bərabər, yeni alternativ kənd təsərrüfatı məhsullarının seleksiyası, yaradılması və inkişaf etdirilməsi tədbirlərinə də ciddi önəm verilir. Bu məqsədlərlə tədqiqat işləri genişləndirilir, toxum bankları yaradılır, kənd təsərrüfatı sahələrinin və prioritet kənd təsərrüfatı məhsullarının intensiv və məhsuldar inkişafının təmin edilməsi məqsədi ilə təbii resurslardan səmərəli istifadənin yeni mexanizmləri hazırlanır və dünya səviyyəli, regional miqyaslı, həmçinin ölkə tərəfdaşlığı layihələrində həyata keçirilir.

Bu sırada səmərəli tədbirlərdən bir qrupu da, BMT-nin ixtisaslaşdırılmış təşkilatlarının, agentliklərinin, ilk növbədə FAO başda olmaqla beynəlxalq təşkilatların davamlı və təsirli fəaliyyəti nəticəsində kəndli təsərrüfatlarının və fermerlərinin dünyada mövcud olan ən son texniki avadanlıqlarla təchiz olunması və bunlarla bağlı olaraq kənd təsərrüfatının inkişafı üzrə mərkəzlərin yaradılması, bu mərkəzlərdə kənd təsərrüfatı müəssisələrinə, ərzaq məhsulu istehsalçılarına geniş çeşiddə texniki xidmətlərin göstərilməsi, mövcud xidmətlərin təkmilləşdirilməsi olmuşdur.

Davamlı inkişafın təmin edilməsi və dünya əhalisinin qlobal şəraitdə ərzaq təhlükəsizliyinin gücləndirilməsi problemləri sırasında istehsal olunan ərzaq məhsullarının təhlükəsizliyi və həmçinin ekoloji amillərin qorunması da daha çox diqqət çəkir. Dünya əhalisi gözlənilən proqnozlardan daha çox artmaqdadır və disproporsiya təxminən 20 milyon səviyyəsindədir.

Təəssüf ki, dünya əhalisinin cinsi tərkibində və strukturunda da disproporsiyalar artmaqdadır. Belə ki, qız uşaqlarının doğulmasında bir çox dünya ölkələrində valideynlərin maraqlı olmaması və ailə planlaşdırılmasındakı problemlər, boşanmaların sayının artması, demoqrafik vəziyyətin pisləşməsi və s. amillər səbəbindən dünyada hər min kişiyə 933 qadın düşür və bu baxımdan həyəcan təbilinin daha güclü şəkildə çalınması vacibdir, dünya ölkələrinin liderlərinin bu problemlərə yanaşmasının yenilənməsi isə bir zərurət kimi qalmaqdadır.

Əksər dünya ölkələrində qadınların savadsızlığı yüksək olaraq qalmaqdadır, yoxsulluq və digər səbəblərdən çox hallarda qız uşaqları məktəblərə göndərilmir, onlar hətta ibtidai təhsildən belə məhrum olurlar. Digər tərəfdən, bu kimi ərazilərdə və ölkələrdə səhiyyə sisteminin də əlçatan olmaması əhalinin yoxsul təbəqəsinin vəziyyətinin daha da pisləşməsinə və ərzaq əlçatanlığının çətinləşməsinə gətirib çıxarır.

Qlobal səviyyənin gücləndiyi şəraitdə - son onillikdə yeni informasiya texnologiyaları qlobal iqtisadiyyata və iqtisadi inkişafa köklü dəyişikliklər gətirmişdir. Bu yeniliklərdən kənd təsərrüfatı sahələrinin inkişafının intensivləşdirilməsində və məhsuldarlığının artırılmasında daha səmərəli istifadə imkanları yaranmışdır.

Məlumdur ki, sənaye cəhətdən inkişaf etmiş ölkələrdə elm və texnologiya, tədqiqat müəssisələri ilə sənaye sektoru subyektləri arasında səmərəli əməkdaşlıq istiqamətləri mövcuddur və bunların nəticəsində elmi-texniki yeniliklərin son nəticələri, başqa sözlə, müasir texnologiyaların tez bir zamanda istehsal proseslərinə tətbiqi mümkün olur və nəticədə istehsalın səviyyəsini artırmaq, keyfiyyətini yaxşılaşdırmaq potensialı gücləndirilir.

Məsələn, dünya iqtisadiyyatının lider ölkəsi olan ABŞ-da yüksək texnologiyalarla kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsində mütərəqqi təcrübə toplanmışdır və bu məqsədlərlə elmi-texniki parklar yaradılmışdır. Həmin elmi-texniki və tədqiqat mərkəzlərində əldə edilmiş nəticələr, yaradılmış texnologiyalar mübadiləsi dünyada kənd təsərrüfatı məhsullarının istehsal sahələrinin inkişafına və məhsuldarlığının artımına əhəmiyyətli səviyyədə müsbət təsir göstərir.

Digər tərəfdən, mövcud torpaq resurslarından istifadənin modelləşdirilməsi, həmçinin müasir aqro-iqlim və torpaq xəritələrinin hazırlanması dünya və ölkələr səviyyəsində Coğrafi İnformasiya Sisteminin (CİS) planlaşdırılmasını mümkün edir. Bu mütərəqqi və yeni üsullar, yanaşmalar, texnologiyalar inkişaf etməkdə olan ölkələrdəki mövcud kənd təsərrüfatı məhsulları istehsa-

lı resurslarından daha məhsuldar istifadənin təşkilinə, kənd regionlarında yaşayanların həyat səviyyəsinin yüksəldilməsinə, gəlirlərinin artırılmasına, yeni iş yerlərinin yaradılmasına və kənd təsərrüfatı sahələrinin müasir texnologiyalar əsasında inkişafına əlavə stimullar verir.

Dünya mütərəqqi təcrübəsindən çıxış etsək bu qənaətə gəlmək olar ki, qlobal səviyyədə kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi və mühüm ərzaq məhsullarının istehsalı üzrə yüksək nəticələrə nail olmaq üçün dünyada əsaslandırılmış meyarlardan, üsullardan vahid yanaşma çərçivəsində istifadə edilməsi daha səmərəli ola bilər.

Məsələn, heyvandarlıq məhsullarının istehsalı, balıq məhsullarının, həmçinin digər mühüm qidaların istehsalı, tədarükü ilə yanaşı, bu vacib ərzaq və qida məhsullarının dünya bazarlarına çıxarılması, ərzaq əlçatanlığı səviyyəsinə adekvat formada bölüşdürülməsi, son istehlakçılara çatdırılması məsələləri üzrə yüksək və etibarlı mexanizmlərə malik zəmanətli satış sistemləri və şəbəkəsinin olması vacib şərtlərdəndir.

Digər tərəfdən, məhsul istehsalını artırmaqla məhsulun qiymətinin azalması çətinliyi ilə bağlı problemlər də kiçik və orta sahibkarlar üçün xarakterikdir. Bu baxımdan, həmin sahibkarlıq subyektlərinə xidmətlərin göstərilməsində, suvarma sistemlərinə və kənd təsərrüfatı gübrələrinə çıxışlarının təmin olunmasında, marketinq strategiyasının reallaşdırılmasında, hazır məhsulların tədarükü və satışı sistemlərinin yaradılmasında dövlət dəstəyi mexanizmlərinin genişləndirilməsi vacib məsələlərdəndir. Bu məqsədlərlə dünyanın bir çox ölkələrində ictimai birliklər və institusional qurumlar formalaşdırılır.

Məsələn, Hindistan və Niderland kimi ölkələrdə kiçik və orta sahibkarlıq subyektlərinin inkişafına dəstək məqsədi ilə kəndli təsərrüfat fermerlərinin konsorsiumu yaradılmışdır. Bundan əlavə, bir çox Avropa Birliyi ölkələrində fəaliyyət göstərən kooperativlər, ticarət və digər müvafiq institusional qurumları əlaqələndirən fermer federasiyaları, ictimai birlikləri yaradılmışdır. Bu baxımdan, analoji yanaşma və institusional təşkilatlanma prosesləri ərzaq əlçatanlığı ilə bağlı çətinliklərin daha çox olduğu inkişaf etməkdə olan ölkələrdə də fəal şəkildə getməli və sürətləndirilməlidir.

Belə olduğu halda, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan sahibkar-lıq subyektlərinin və fermer təsərrüfatlarının üzləşdiyi problemlərə geniş miqyasda və məşvərət formasında yanaşmanın təmin edilməsi mümkünləşər və əlaqəli tədbirlərin görülməsi imkanları əhəmiyyətli səviyyədə artardı. Bundan əlavə, texnoloji nailiyyətlərdən istifadə edilməsində ümumi səylərin gücləndirilməsi, kənd təsərrüfatı məhsullarının istehsalı ilə bərabər, onların saxlanması və satış şəbəkəsinin formalaşdırılmasında da səmərəli fəaliyyət istiqamətlərinin birgə müəyyənləşdirilməsində, daha yüksək nəticələr əldə edilməsində qarşılıqlı əlaqələrin genişləndirilməsi imkanları çoxalardı.

Ümumilikdə isə, ərzaq bolluğunun yaradılması istiqamətində səylərin birləşdirilməsi institusional və texnoloji islahatların səmərəliliyini artırmaqla, kənd təsərrüfatı sahələrinin mövcud imkanlarından daha yaxşı istifadə etməyə və ərzaq əlçatanlığı səviyyəsini yüksəltməyə əlavə stimullar verə bilər.

Kənd təsərrüfatı sahələrinin milli iqtisadiyyatın strukturunda daha çox olduğu dünya ölkələrində bu sahənin davamlı və tarazlı inkişafından ümumilikdə ölkə əhalisinin maddi rifahının yaxşılaşdırılması və ərzaq əlçatanlığının təmin edilməsi asılıdır. Əkinçilik və heyvandarlıq sahələrinin balanslı, səmərəli inkişafının təşkili, daxili su hövzələri və dəniz balıqçılığı, meşəçilik və xüsusi ilə aqrar meşəçilik, aqrar istehsalat və aqrobiznes sahələrini əhatə edən kənd təsərrüfatı təmayüllü bir çox ölkələrdə əhalinin işlə təminatı və gəlirlərinin formalaşması bu sahələrin inkişafının səviyyəsi ilə bilavasitə əlaqədardır. Heç də təsadüfi deyildir ki, işlə təmin olunma və dolanışıq səviyyəsinin adekvatlığı iqtisadi və davamlı inkişaf siyasətinin əsas göstəriciləri sırasındadır.

Məlumdur ki, müasir dövrdə informasiya texnologiyalarına və biliklərə əsaslanan iqtisadiyyat sahələri geniş şəkildə əmək sərfini tələb etmir və bu baxımdan ölkədəki əmək ehtiyatlarına adekvat yeni iş yerlərinin yaradılmasına imkan vermir. Əhalinin yoxsul və savadsız təbəqələri bu kimi yüksək inkişaf etmiş iqtisadiyyat sahələrinə inteqrasiya olunmaq imkanlarından əsasən məhrumdurlar. Digər tərəfdən, bu təbəqədən olan insanların böyük əksəriyyəti məskun-

laşdığı ərazilərdə, kənd təsərrüfatı sahələrində, əkinçilik və biçinçilik işlərində özlərini görmək istəyirlər, çünki, bu məşğuliyyət sahələri bu qəbildən olan insanlar üçün ənənəvidir, yüksək təhsil və intellekt tələb etmir. Əkinçilik sahələri bir sıra inkişaf etməkdə olan ölkələrdə ən iri özəl sahibkarlıq sektoru kimi diqqət çəkir. Bu kateqoriyadan olan ölkələrdə işçilərin təxminən 59%-i gəlir və dolanışıqları üçün kənd təsərrüfatı sahələrinin fəaliyyətindən birbaşa asılıdır.

Son onillikdə ümumi milli məhsul istehsalında kənd təsərrüfatı sektorunun payı azaldığı üçün bu istiqamətdə dünya ölkələrində mövcud olan resurslardan və potensialdan istifadənin yeni mexanizmlərinin hazırlanması və reallaşdırılması vacib şərtlərdəndir. Bu istiqamətlərdə prioritet fəaliyyət mexanizmləri və hədəfləri kimi kənd təsərrüfatı sahələrinin məhsuldarlığını artırmaq və kənd yerlərindəki yoxsulluq səviyyəsini azaltmaq tədbirləri daha çox önəm təşkil edir.

Kənd təsərrüfatı sahələrinin inkişafında yeni texnologiyalar əsaslı bio-gübrələr, zərərvericilər əleyhinə bio-dərmanlar, bio-istehsalat, sağlam qidalar, torpaq və maye tullantılarının yenidən emalı, əkinçilik və aqrar emal maşınlarının yeni nəslinin yaradılması, ekoloji məhsulların istehsalı imkanlarını artırır. Bu məqsədlərlə, kənd təsərrüfatı sektorunda sahibkarlığın inkişafının müasir mexanizmlərinin yaradılması və biznes mühitinin gücləndirilməsi əsas şərtlərdəndir. Xüsusi ilə, ətraf mühitin qorunması, təbii varlıqlardan və ehtiyatlardan səmərəli istifadənin təmin edilməsi, genetik ehtiyatların maksimum dəyərləndirilməsi və bunların idarə edilməsinin təkmilləşdirilməsi, xəstəliklərdən azad kənd təsərrüfatı və ərzaq məhsullarının yetişdirilməsi üzrə toxum fondlarının yaradılması və s. tədbirlərin həyata keçirilməsi ərzaq əlçatanlığı tədbirlərinin səmərəliliyinin artırılmasına imkan verən amillərdəndir.

Davamlı iqtisadi inkişaf, ərzaq əlçatanlığı və bunlarla əlaqədar digər iqtisadiyyat sahələrinin qarşılıqlı fəaliyyət dairəsi inklüziv xüsusiyyətli ərzaq və kənd təsərrüfatı sahələrinin dəyər zəncirinin mahiyyətini və əhəmiyyətini özündə əks etdirir. Bu tsikldə və dəyər zənciri üzrə mərhələlərdə qlobal meyillərin təsir dairəsi nəzərə alınmaqla kənd təsərrüfatı sahələrində çalışan fermer təsərrüfatlarının və digər kiçik sahibkarlıq subyektlərinin iqtisadi fəallığının, məhsuldar fəaliyyətinin təmin edilməsi tədbirləri xüsusi diqqət mərkəzində saxlanılmalıdır. Dövlət tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalının balanslaşdırılması və ərzaq əlçatanlığının təmin edilməsinin etibarlı sistemi və mexanizmləri yaradılmalı, bu sahələrə müasir texnologiyaların vasitəsi ilə optimal idarəetmə və nəzarət sistemləri gətirilməlidir. İnklüziv fəaliyyət sahələrinin genişləndirilməsi, ilk növbədə dövlətin strateji maraq dairəsində olmalıdır.

Bu xüsusiyyətli sahələrin inkişafı davamlı və dayanıqlı inkişafa müsbət təsir göstərməklə bərabər, iqtisadi artıma töhfələr verir, əlavə iş yerləri yaradılır, emal sahələri inkişaf etdirilir və ixrac potensialının artırılması üçün yeni mənbələr formalaşdırır. Amma bu proseslərin əsasında dövlətin mühüm vəzifələrindən biri də davamlı və dayanıqlı iqtisadi inkişaf prinsiplərinin ardıcıl olaraq həyata keçirilməsi və bütövlükdə ölkə əhalisinin ərzaq əlçatanlığının təmin edilməsinə adekvat iqtisadi siyasətin yürüdülməsidir. Bunlarla əlaqədar olaraq, iqtisadi proseslərin məhsuldarlığının, adekvatlığının obyektiv qiymətləndirilməsindən çıxış etməklə, ərzaq əlçatanlığı səviyyəsinin ölçülməsi üzrə yanaşmalara xüsusi diqqət yetirilməsini şərtləndirir.

Bir çox hallarda ərzaq bolluğunun təmin edilməsi və ərzaq mövcudluğunun səviyyəsinin qorunması məqsədi ilə heyvan və bitki mənşəli qida mənbələri arasındakı balansa ciddi fikir verilmir. Amma dünyada ərzaq əlçatanlığının təmin edilməsinin daha optimal yollarının müəyyənləşdirilməsi və ərzaq təhlükəsizliyinin təmin edilməsi yanaşmalarında bu problemlərə münasibət dəyişilməli və yanaşmalar təkmilləşdirilməlidir.

Qlobal ərzaq əlçatanlığı üzrə müvafiq göstəricilər dünyanın əksər ölkələri üçün sabit və adekvat səviyyədə olmalıdır. Əslində elə İkinci Dünya müharibəsi başa çatmamış, dərhal - FAO-nun yaradılmasında başlıca məqsəd dünyada ərzaq əlçatanlığı üzrə problemlərin öyrənilməsi, bununla əlaqədar dünya ölkələrinin əməkdaşlığının təmin edilməsi, bu sahədə göstəricilər sisteminin formalaşdırılması ilə bağlı idi.

Həmin dövrlərdə ərzaq əlçatanlığının əsas göstəriciləri kalori və protein çatışmazlığına əsaslanırdı. Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı 1950-60-cı illərdə ilk dəfə olaraq əhatəli və beynəlxalq səviyyəli məlumat bazasını, göstəricilər sistemini hazırlamağa nail oldu.

Bununla əlaqədar olaraq çoxlu sayda məhdudiyyətlərlə üzləşən və güclü tənqidlərə məruz

qalan Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı bu istiqamətdəki axtarışları və tədqiqatları davamlı şəkildə təşkil etməyə nail olmuşdur. Sonrakı mərhələlərdə ərzaq əlçatanlığının qlobal səviyyədə qiymətləndirilməsinin yeni yanaşmalarının, eyni zamanda əksər dünya dövlətləri tərəfindən müqavimətsiz qəbul olunan mexanizmlərinin hazırlanması təmin edildi.

Artıq, 1996-cı il Dünya Ərzaq zirvə toplantısı Fəaliyyət Planının əsas məqsədlərinə yeni yanaşmalar və prioritet fəaliyyət istiqamətlərinin daxil edilməsi baş tutdu və razılaşdırıldı. Belə ki, həmin fəaliyyət planı çərçivəsində əvvəldə qeyd etdiymiz kimi, 2015-ci ilə qədər olan dövr üçün dünyada aclıqdan əziyyət çəkənlərin sayının yarıya qədər azaldılması məqsədinə doğru inkişaf tədbirlərinin icrasına nəzarətetmə funksiyası və məsuliyyəti FAO-ya verildi.

Ərzaq əlçatanlığında və qidalanmada əsas yanaşmalardan biri kimi də Sukhatmenin təklif etdiyi kalori çatışmazlığının parametrik göstəriciləri qəbul edilmişdir. 2000-ci illərin əvvəllərində isə Minilliyin İnkişaf Hədəfləri çərçivəsində 1-ci hədəfdə nəzərdə tutulan - aclıqdan əziyyət çəkən əhalinin sayının yarıya qədər azaldılması planındakı inkişaf parametrlərinin ölçülməsi üçün bu göstərici əsas göstərici kimi qəbul olundu.

Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının 2012-ci ilin yanvarında keçirilmiş Ərzaq və Ərzaq əlçatanlığının ölçülməsi üzrə beynəlxalq elmi simpoziumun yekunu olaraq gəlinmiş nəticələrə görə, kifayət qədər qidalanmama zaman və vaxt baxımından geniş əhatə dairəsinə malik olan az sayda göstəricilərdən biri olaraq qalır. Eyni zamanda, bu da məlumdur ki, təkcə kifayət qədər qidalanmama faktı ərzaq əlçatanlığının bütün ölçülərini əhatə etmir və səviyyənin obyektiv ölçülməsi üçün daha əhatəli yanaşma tələb olunur.

Son illərdə FAO, Kənd Təsərrüfatının inkişafı üçün Beynəlxalq Fond, eləcə də Dünya Ərzaq Proqramı hər bir qidanın təhlükəsizlik ölçüsünü rəqəmlərlə göstərən Ərzaq Əlçatanlığı Göstəricilərinin Paketini təklif edir. Bu göstəriciləri vahid göstəricilər kimi bir yerə toplamaq üçün səylər artmaqdadır.

Ərzaq əlçatanlığının bütün fərqli ölçüləri arasında FAO ərzaq təhlükəsizliyi göstəriciləri paketinə sabitliyi ilə diqqət çəkən göstəriciləri daxil edib. Bu göstəricilər müxtəlif fərqli göstəricilər içərisindən seçilmişdir. Ərzaq nümunələrinin həm davamlılığını, həm də sağlamlıq dərəcəsini ölçəcək üsullar da artıq yaradılmışdır. Bunlarla bərabər, bir çox digər göstəricilər də mövcuddur və bunlara yanaşma birmənalı deyildir.

Mövcud 70 göstəricinin 12 qrup halında göstəricilər sxeminə daxil edilməsinə baxmayaraq, ərzaq əlçatanlığının davamlılığının ölçülməsi ilə bağlı problemləri tam həll etmək mümkün olmamışdır. Bu baxımdan, ərzaq əlçatanlığının davamlılıq səviyyəsinin daha obyektiv ölçülməsi üçün mükəmməl beynəlxalq göstəricilər sistemi yaradılmalıdır. Onların düzgün və obyektiv olması təmin edilməli, beynəlxalq təşkilatlar, dünya dövlətləri və aparıcı mütəxəssislər tərəfindən birmənalı şəkildə qəbul olunmalıdır.

Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi, ərzaq məhsulları istehsalının artırılması və ərzaq əlçatanlığının davamlılığının təmin edilməsi məqsədi ilə dünya ölkələrinin fəal və inanaraq istifadə edə biləcəkləri məlumatlar bazasına və göstəricilər, qiymətləndirmələr sisteminə böyük ehtiyacı vardır.

Məsələn, dünya əhalisinin əhəmiyyətli hissəsi pəhrizlərdən, bununla bağlı xüsusi rejimlərdən və yanaşmalardan fəal istifadə edir. Pəhriz səviyyəsi və onun strukturu, kalorilik dərəcələri, sağlamlığa müsbət və mənfi cəhətləri nəzərə alınmaqla, göstəricilər sisteminin formalaşdırılması ərzaq ehtiyatlarının təşkilində və ərzaq təhlükəsizliyinin təmin edilməsində, ərzaq əlçatanlığı səviyyəsinin modelləşdirilməsində əhəmiyyətli rol oynaya bilər.

Optimal ərzaq əlçatanlığı göstəricilərinin müəyyənləşdirilməsi və davamlı iqtisadi inkişaf tələbləri nəzərə alınmaqla bu göstəricilərin adekvatlılığının obyektiv qiymətləndirilməsi əslində dövlət və cəmiyyət üçün, eyni zamanda həssas sosial təbəqədən olan insanlar, xüsusi ilə yoxsulluq səviyyəsi aşağı olan insanlar üçün əhəmiyyətli göstəricilər hesab edilə bilər. Bundan əlavə, ətraf mühitin qorunması göstəriciləri radikal məhdudlaşdırıcı xarakter daşımamalı və onların ərzaq əlçatanlığının təmin edilməsi üçün istifadəsinin mümkünlüyü kontekstində formalaşdırılmalıdır.

2050-ci ilədək olan dövr üçün hazırlanmış FAO layihələrinin təhlili göstərir ki, kənd təsərrü-

fatı sahələrinin və ərzaq məhsullarının istehsalı xüsusiyyətlərinə və meyillərinə əsasən bu qənaətə gəlmək olar ki, növbəti onilliklərdə əsas problemlərdən biri kimi torpaq resurslarının çatışmaması olacaqdır və mövcud torpaq sahələrində istehsalın məhsuldarlığının artırılması prosesləri daha da intensivləşəcəkdir. Bu, ilk növbədə qlobal səviyyədə ərzaq və qida məhsullarına daim artan tələblə və əhalinin gəlirlərinin artımı ilə bilavasitə bağlıdır.

Ərzaq və qida məhsullarına artan tələbat isə zəncirvari olaraq əsasən kənd təsərrüfatı sektorunun müxtəlif sahələrinin inkişafının genişləndirilməsini tələb edəcəkdir. Bunlar isə, intensivləşmə mühiti yaradacaq və torpaq, su, təbii ehtiyatların çatışmazlığı ilə bağlı gərginliyə səbəb olacaqdır. Digər tərəfdən, qlobal təzyiqlərin və dünyada güclənən iqlim dəyişikliklərinin uzunmüddətli dövr üçün təsir dairəsi daha optimal və obyektiv qiymətləndirilməli, dünya ictimaiyyəti bunlarla bağlı dürüst məlumatlandırılmalıdır.

Ərzaq problemlərinin kəskinləşməsi ilə bağlı tendensiyalar və problemlərin mahiyyəti Butler tərəfindən daha çox diqqətə çatdırılmışdır. Bunlarla bağlı diskussiyalar maltusçular və optimistlər arasında uzunmüddətli müzakirələrə səbəb olmuşdur. Bu müzakirələrin əsas obyekti kimi, Asiya-Sakit okean regionu götürülmüşdür. Amma analoji problemlərin dünyanın digər regionlar üçün də xarakterik ola bilməsi fikirləri səslənmişdir.

Tədqiqatların nəticəsi olaraq, Butler gələcəkdə ərzaq əlçatanlığı ilə bağlı yarana biləcək 5 problemi daha çox qabartmışdır: iqlim dəyişikliyi; su çatışmazlığı; ozon qatının çirklənməsi; fosforlu və ənənəvi neftin tükənməsi və əhalinin miqrasiya proseslərinin intensivləşməsi. Butler belə bir qənaətə diqqət yönəltmişdir ki, ərzaq əlçatanlığının təmin edilməsi və bununla bağlı proseslərin davamlılığına nail olunması üçün bir sıra məsələlərin həlli vacibdir. O, bunlara cəmiyyətin ətraf mühitlə bağlı narahatçılığını, əhali artımı, kənd təsərrüfatı sahələrinin inkişafı üzrə tədqiqatların genişləndirilməsi, hüquq, imkan və səlahiyyətlərin bölüşdürülməsində optimallığın təmin edilməsi ilə bağlı yanaşmaların əsaslı şəkildə dəyişdirilməsini aid etmişdir.

Təsadüfi deyildir ki, ərzaq əlçatanlığı, qidalanma və bunlarla bağlı proseslərin davamlılığı ətrafında diskussiyaların dərinləşməsi prosesləri hələ də intensivləşməkdə-dir. Belə bir fikir daha çox irəli sürülür ki, ərzaq əlçatanlığının təmin edilməsi və qida məhsullarının çeşidinin genişləndirilməsi, istehsal həcminin artırılması prosesləri üzrə fəaliyyət zəncirinin hər bir mərhələsində əhalinin yoxsul təbəqəsinin imkanları kontekstindən tədbirlərin görülməsi vacibdir. Bu istiqamətdə planlaşdırmaların və təhlillərin aparılması, tədqiqatların dairəsinin genişləndirilməsi, mühüm problemlər üzrə yeni yanaşmaların dövriyyəyə cəlb olunması vacib şərtlərdəndir.

Elə etmək lazımdır ki, kənd təsərrüfatı sahələrinin və qida məhsullarının istehsalı, emalı zənciri boyunca aparılan tədbirlərin ətraf mühitə vurduğu zərərlərin minimuma endirilməsi təmin edilsin və bununla əlaqədar olaraq preventiv tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılsın.

Ərzaq əlçatanlığının təmin edilməsi tədbirlərinin gücləndirilməsi prosesində ətraf mühitlə bağlı sosial məsuliyyət hissinin artırılmasının geniş təbliğ edilməsi də vacib məsələlərdən biri kimi xarakterizə olunur. Dünyada ərzaq əlçatanlığı ilə fəal məşğul olan 80 təşkilat və proqramlar qeydə alınmışdır və bu baxımdan ərzaq əlçatanlığı problem-lərinin həlli istiqamətində fəallığın təmin edilməsi qənaətinə gəlmək mümkündür.

Amma, görülən tədbirlərin davamlılıq konsepsiyası kontekstində balanslaşdırılması və davamlı inkişaf meyarlarının qorunması şərtilə uzlaşdırılması həll olunmalıdır. Həyata keçirilən ərzaq əlçatanlığı proqramlarının uğurlu icra edilməsi yüz milyonlarla insanın yaşayış şəraitinə və taleyinə ciddi təsir göstərmək iqtidarındadır.

Bu baxımdan, beynəlxalq təşkilatlar və dünya ölkələrinin dövlətləri bütün hallarda insan amilinə, yoxsulluq problemi ilə üz-üzə qalmış insanların düşdüyü vəziyyətə obyektiv istinad etməklə, daha əsaslandırılmış qərarlar verməli, təsirli tədbirlərin əhatəsini genişləndirməli və iqtisadi siyasət mexanizmlərini reallıqlardan çıxış etməklə təkmilləşdirməlidirlər.

Ziyad Əliabbas oğlu SƏMƏDZADƏ,
Azərbaycan Respublikası Milli Məclisinin
İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri,
Azərbaycan İqtisadçılar İttifaqının sədri,
Beynəlxalq İqtisadçılar İttifaqının vitse-prezidenti, akademik

AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAF STRATEGİYASINDA ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN YERİ VƏ ROLU: REALLIQLAR VƏ PERSPEKTİVLƏR

Dünyada çoxsaylı müstəqil dövlətlər var. Amma onların heç də hamısı iqtisadi cəhətdən müstəqil deyillər. Bu gün Azərbaycan öz iqtisadi müstəqilliyini təmin edən və dinamik inkişaf edən bir dövlətdir. Bu nailiyyət heç də dövlətimizə, xalqımıza asan başa gəlməmişdir.

Azərbaycan iqtisadiyyatı müstəqillik dövrünün ilk illərində həm SSRİ dövründən miras qalmış tənəzzül içində idi, həm də səriştəsiz və məsuliyyətsiz idarəçilik nəticəsində çox sürətlə geriləməklə dərin böhran keçirirdi. Dağlıq Qarabağ problemi və bununla əlaqədar olaraq Azərbaycanın zorla müharibəyə cəlb edilməsi, torpaqlarımızın 20 faizinin erməni qəsbkarları tərəfindən işğal olunması, 1 milyona qədər qaçqın, respublikada siyasi sabitliyin olmaması nəticəsində iqtisadiyyatda ağır böhran yaşanırdı.

Xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gələn Heydər Əliyev respublikanı ağır fəlakətdən qurtarmaq üçün onun tarixi inkişaf xüsusiyyətlərini, milli-mənəvi dəyərlərini, qlobal dünyada baş verən prosesləri milli maraqlar baxımından obyektiv qiymətləndirərək, Azərbaycanın uzun bir gələcəyə hədəflənən inkişaf strategiyasını hazırladı.

1994-cü ilin sentyabr ayında beynəlxalq neft şirkətləri konsorsiumu ilə çoxmilyardlıq kontrakt imzalanması Azərbaycanın iqtisadi potensialının artırılması və ölkəyə xarici investisiyaların cəlb edilməsi yollarını müəyyənləşdirən dönüş məqamı oldu. Bu taleyüklü hadisələrdən sonra Azərbaycan iqtisadiyyatı bütünlüklə qlobal bazara daxil olmuşdur. Eyni zamanda, inzibati-amillik sistemindən bazar sisteminə keçid sahəsində genişmiqyaslı və çoxplanlı iş başa çatdırılmışdır. Neft kontraktları və bazar islahatları əmlakın dövlətsizləşdirilməsi və bazarın inkişafı mexanizmini işə salaraq, artıq sürətlə inkişaf etməkdə olan özəl sektorun yüksək kapitallaşma səviyyəsini təmin etmişdir. Bununla yanaşı, Azərbaycanın xarici ticarət fəaliyyətinin milli maraqlara və səmərəli beynəlxalq inteqrasiyaya cavab verən istiqamətlərdə davam etdirilməsi, maliyyənin, kapitalın və işçi qüvvəsinin sərbəst hərəkəti təmin edilmiş, idxal tariflərinin sayı və dərəcələri azaldılmış, xarici iqtisadi fəaliyyət prosedurları sadələşdirilmişdir. Mülkiyyət formalarının müxtəlifliyi və bazarın bütün subyektlərinin bərabərhüquqlu rəqabəti üçün şərait yaradılması istiqamətində böyük işlər görülmüşdür. Karbohidrogen xammalının ixracından əldə edilən gəlirlərin səmərəli istifadə olunması məqsədilə 1999-cu ilin dekabr ayında Azərbaycan Dövlət Neft Fondu yaradılmışdır. Ötən illər ərzində Fondun vəsaitləri hesabına dövlət investisiya layihələri, ölkənin strateji məqsədlərinə xidmət edən bir sıra mühüm layihələr reallaşmış, eyni zamanda valyuta ehtiyatlarının istifadə strategiyası hazırlanmışdır. Bu gün Azərbaycanın valyuta ehtiyatlarının həcmi bir çox iri ölkələrin müvafiq göstəricilərindən dəfələrlə çoxdur ki, bu da qlobal risklərdən qorunmaq üçün güclü maliyyə vəsaitidir. Azərbaycan dövlətinin əsaslandırılmış iqtisadi inkişaf strategiyasının uğurla reallaşması ölkənin başlıca iqtisadi sosial göstəricilərinin dinamikasında müsbət meyilləri gücləndirmiş, dövlətimizin beynəlxalq aləmdə nüfuzunun artmasını təmin etmişdir.

Heç şübhəsiz ki, bu nailiyyətlərin əsasında iqtisadi inkişafın Azərbaycan modeli dayanır. Heydər Əliyevin 25 il bundan əvvəl müəyyən etdiyi əsas strateji məqsədlərin hər biri bu gün üçün də çox aktualdır. Müstəqilliyimizin ilk illərindən başlayaraq bizə bildirirdilər ki, tam sərbəst bazar tənzimləməsinə malik olan qərb monitar iqtisadi modelinin dünyada alternativi yoxdur. Lakin son vaxtlar tez-tez baş verən dünyəvi proseslər qlobal iqtisadi böhran haqqında iqtisadi nəzəriyyənin bəzi fundamental əsaslarının və mövcud bazar təsərrüfatını idarəetmə sisteminin səmərəsiz olduğunu təsdiq etmişdi, çünki bunlar durğunluq dövründə ciddi və miqyaslı mənfi sosial-iqtisadi proseslərin qarşını ala bilməmişdi. Məlum olmuşdur ki, qloballaşma şərai-

tində dünyanın idarə edilmə qaydaları və müstəqil dövlətin fəaliyyət prinsipləri heç də hər zaman üst-üstə düşmür. Dünyanı vahid oyun qaydaları ilə idarə etmək istəyənlər və radikal islahatçılar bilməlidirlər ki, dövlətin iqtisadiyyatda iştirakının tam minimuma endirilməsi mümkün deyildir, bunların arasında tarazlığın bərpası üçün konsensus təmin edilməlidir. Əfsuslar olsun ki, əksər hallarda buna nail olmaq mümkün olmur və nəticədə, maraqlar balansı pozulur. Böyük səmərə verən iqtisadi inkişaf modelləri də vardır. Buna misal olaraq uğurlu alternativ kimi, Çin iqtisadi modeli göstərilə bilər. Bu ölkədə bazar mexanizmləri dövlət planlaşdırması sistemi ilə məharətlə uzlaşdırılır. Məhz bu uzlaşma, eləcə də milli maraqları əsas tutan, bazar münasibətlərini fetişləşdirməyən Çin bu gün dünyada dinamik və sürətlə inkişaf edən ölkədir. Azərbaycan da öz inkişaf modelini seçmişdir. Bu modelə görə, iqtisadiyyatda islahatlar aparılarkən cəmiyyətin uzunmüddətli strateji maraqları və səmərəli dövlət tənzimləməsi əsas götürülür. Azərbaycan bir sıra beynəlxalq maliyyə təşkilatlarının böyük təzyiqlərinə baxmayaraq, özünün karbohidrogen resursları, energetika, dəmiryol, dəniz və boru kəməri nəqliyyatı sahəsinin özəlləşdirilməsi ideyasından imtina etmişdir. Dövlət strateji əhəmiyyətli neft-qaz və nəqliyyat infrastrukturu üzərində nəzarəti saxlayaraq, sonralar bütövlükdə iqtisadiyyatın kapitallaşmasının və diversifikasiyasının yüksək sürətlə aparılması üçün möhkəm əsaslar yaratdı və özünün müstəqilliyini, keyfiyyətli inkişafını təmin etmək üçün güclü iqtisadi, siyasi imkanlar əldə etdi... Bu kimi iqtisadi-siyasi dayaqlara əsaslanaraq, Azərbaycan dövləti uzunmüddətli səmərəli sənaye siyasətini həyata keçirmək istiqamətində böyük işlər görür. Təbii ki, qloballaşan dünyada yeni çağırışlar, baş verən risklər inkişaf strategiyasında müəyyən dəyişikliklərin edilməsini zəruri edir. Məsələn, neftin dünya bazarında qiymətinin artıb-azalması iqtisadi, sosial inkişaf parametrlərinə bu və ya digər dərəcədə təsir edir. Bu kimi dəyişiklik son vaxtlar tez-tez təkrar olunur. 2018-ci ilin dövlət büdcəsi layihəsi hazırlanarkən bir barrel neftin qiyməti 45 dollar müəyyən edilmişdi. Son 5-6 ayda bu rəqəm 60-70 dollar civarında olub. Bunu ona görə qeyd edirəm ki, qiymətlərin artıb-azalması müəyyən adekvat tədbirlərin görülməsini tələb etsə də, bu, ölkənin iqtisadi siyasətinin mahiyyətinin ana xəttini, inkişaf strategiyasının mahiyyətini dəyişmir. Prezident İlham Əliyev dəfələrlə demişdir ki, bizim əldə etdiyimiz uğurların kökündə ulu öndər Heydər Əliyev siyasəti durur və bu siyasət Azərbaycan xalqına xoşbəxtlik gətirib, müstəqilliyimizi qoruyubdur, mən bu siyasətə sadiqəm və onu davam etdirəcəyəm. Bu fikirlər bir daha onu sübut edir ki, inkişafın Azərbaycan modeli uzun illər, neçə-neçə onilliklər, yüzilliklər Azərbaycanın siyasi, iqtisadi müstəqilliyini qoruyacaqdır.

Ancaq bu yerdə bir vacib məqama da diqqət çəkmək istərdim. Bu gün dünyada qloballaşma yaşanır, eyni zamanda, qloballaşma ilə milli suverenliklər arasında ziddiyyətlər dərinləşir. Çünki bir çox milli suveren dövlətlər dünyada hamı üçün eyni olan "vahid oyun qaydaları"ndan istifadəni məqsədəuyğun saymırlar.

Məsələn, bəzi beynəlxalq təşkilatların, iqtisad elmindən xəbəri olmayan "beynəlxalq ekspertlər"in bir çox tövsiyələri var ki, onlar milli iqtisadiyyatların əleyhinə, ziyanına işləyir. Ona görə də Azərbaycan dövləti tələm-tələsik Ümumdünya Ticarət Təşkilatına daxil olmadı. Bu gün tam liberallaşmanın tərəfdarı olan ölkələr belə Ümumdünya Ticarət Təşkilatının (ÜTT) prinsiplərinə əməl etmirlər, onları ciddi şəkildə pozurlar. Nəyə görə? Ona görə ki, bu şəraitdə milli iqtisadiyyatların çətinliklərlə üzləşdiklərini görürlər. Bu gün ABŞ-la Avropa ölkələrinin daxili bazarın qorunması istiqamətində atdıqları addımlar ÜTT-nin digər üzv dövlətlərində ciddi etirazlarla qarşılanır.

Əgər inkişaf etmiş ölkələr ÜTT-nin prinsiplərini ciddi surətdə pozurlarsa, o zaman hansı əsaslarla, hansı məntiqlə Azərbaycanın ÜTT-yə daxil olmasını sürətləndirməyə çağırırlar?! Hesab edirəm ki, biz bu çağırışlara çox həssaslıqla, çox diqqətlə yanaşmalıyıq. Ciddi elmi təhlillər, araşdırmalar aparmalıyıq və xüsusilə də, ölkə iqtisadiyyatının mühüm sahələrinin, daha çox qeyri-neft sektorunun rəqabətliliyinin yüksəldilməsi ilə bağlı böyük işlərin görüldüyü bir şəraitdə çox ehtiyatla davranmalıyıq.

Hökumət ölkənin iqtisadi potensialının güclənməsi, rəqabətə dözmək imkanı o qədər də yüksək olmayan aqrar sektorun tarazlı inkişafının təmin edilməsi məqsədi ilə kompleks tədbirlər müəyyən etmişdir ki, onların da hazırda uğurla reallaşması prosesi gedir. Fikrimizcə, aqrar

infrastrukturun müasir tələblərə uyğun modernləşdirilməsi və ya kənd təsərrüfatı texnikası təchizatına investisiya qoyuluşu istiqamətində işlərin bundan sonra da davam etməsi, heç şübhəsiz ki, aqrar sektorun səmərəlilik göstəricilərinin yaxşılaşması ilə müşayiət olunacaqdır. Bütün bunlar da başqa məqsədlərlə yanaşı, ÜTT ilə daha əsaslı danışıqlar aparılması üçün çox vacibdir.

Azərbaycan dövlətinin apardığı iqtisadi siyasətdə infrastrukturun və sənayenin inkişafı ölkənin investisiya siyasətinin başlıca hədəfi kimi seçilmişdir ki, bu seçimi də bir sıra vacib amillər şərtləndirir. Bununla əlaqədar bir məsələyə diqqəti cəlb etmək istərdim.

Bu gün dünyanın bir çox təşkilatları, xüsusilə də dünyanın bir mərkəzdən idarə olunmasını təbliğ edənlər postsənaye dövrünün başa çatdığını bildirirlər. Əlbəttə, bu fikirləri bütün ölkələrə aid etmək olmaz. Son dövrlərə qədər bu termin və onun mahiyyəti barədə fikirlərə, demək olar ki, elmi ədəbiyyatlarda rast gəlinmirdi. Bu ideyanı irəli sürənlər onu əsas götürürlər ki, hazırki sənaye inkişafı kifayət qədər yüksəkdir və bundan sonra əsas həlledici istiqamət xidmət sahəsinin inkişafı olmalıdır. Az qala, bu termini bizə zorla qəbul etdirmək istəyirlər: bu, tam yanlış, milli maraqlara cavab verməyən mövqedir. Sistemli araşdırmalar, müqayisəli təhlillər sübut edir ki, respublikamızda sənaye siyasətinin reallaşması istiqamətində hələ çoxlu işlər görülməlidir. Sənayenin sahə, ərazi quruluşunda elmtutumlu, daxili tələbatı, eləcə də ixracın artırılmasını təmin edən sahələrin xüsusi çəkisi aşağıdır... Ona görə "Azərbaycan postsənaye dövrünə keçmişdir" fikri bizə şamil edilə bilməz. Respublikamızda dövlətin və cəmiyyətin davamlı inkişafının, bütövlükdə, ölkənin milli təhlükəsizliyinin, iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün düşünülmüş sənaye siyasətinin aparılması obyektiv zərurətə çevrilir və bu istiqamətdə sistemli işlərin görülməsi, heç şübhəsiz ki, öz səmərəsini verəcəkdir. Bu baxımdan regionların iqtisadi-sosial inkişafına dair dövlət proqramları, texnoparkların, sənaye məhəllələrinin, biznes-inkubatorlarının yaradılması, energetikanın, nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi müstəsna əhəmiyyət kəsb edir. Bütün bu layihələrdə dövlətin fəal iştirakı obyektiv zərurətdən doğur. Bakı-Tbilisi-Qars dəmiryol dəhlizinin, yeni beynəlxalq dəniz limanının, Ələt azad iqtisadi zonasının, yeni elektrik stansiyalarının tikintisi, qaz və su infrastrukturunun əsaslı surətdə yenidən qurulması, minlərcə kilometr avtomagistralların çəkilməsi Azərbaycanın iqtisadi gücünün artmasını təmin edir. Heç şübhəsiz ki, bu cür maliyyətutumlu investisiya proqramları həyata keçirilməsəydi, daxili və xarici investorların bundan sonra da iqtisadiyyata cəlb edilməsi üçün infrastruktur bazası formalaşdırıla, sahibkarlığın ölkə iqtisadiyyatındakı rolu arta bilməzdi. Məhz bu cür düzgün siyasətin nəticəsidir ki, qeyri-neft sektorunun sabit, dinamik inkişafı təmin edilir, qeyri-xammal sahələrinin artım sürətləri ümumi daxili məhsul artımının göstəricilərini bir neçə dəfə üstələyir.

İqtisadiyyatın rəqabət qabiliyyətinə və investorlar üçün cəlbediciliyinə görə Azərbaycan uzun illərdir ki, MDB-də ən qabaqcıl dövlətlərdən biri sayılır. Bunu Davos ümumdünya iqtisadi forumunun reytinqləri, bir sıra reytinq agentliklərinin və digər nüfuzlu beynəlxalq qurumların verdikləri qiymətlər də təsdiq edir. Son 20 il ərzində ölkə iqtisadiyyatına 230 milyard dollara qədər investisiya cəlb edildiyini, bunun da təqribən yarısının xarici kapital qoyuluşlarının payına düşdüyünü nəzərə alsaq, bu qiymətləndirilmələr tamamilə əsaslıdır. Əlverişli işgüzar mühiti qoruyub saxlamaq və investorları ölkəmizə cəlb etmək məqsədi ilə azad sahibkarlıq fəaliyyətinin zəruri hüquqi bazası yaradılmış, o cümlədən "Sahibkarlıq fəaliyyəti haqqında", "Səhmdar cəmiyyətləri haqqında", "Torpaq islahatı haqqında", "Antiinhisar fəaliyyəti haqqında", "Əmtəə birjası haqqında", "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" və s. qanunlar qəbul edilmişdir. Vergi və gömrük məcəllələrinin təkmilləşdirilməsi, xüsusilə də bu kimi qanunlarda tez-tez dəyişikliklərin edilməməsi üçün ciddi işlər aparılır. İqtisadiyyat sahələrinin dəstəklənməsinə, kiçik və orta sahibkarlıq subyektlərinin stimullaşdırılmasına dair dövlət proqramları həyata keçirilir. Biznesin elektron qeydiyyatı üçün "bir pəncərə", "elektron hökumət" interaktiv portalı, sahibkarlıq subyektlərinin yoxlanılmasının mərkəzləşdirilmiş dövlət reyestri kimi formalar uğurla tətbiq edilir. Dövlət tərəfindən göstərilən xidmətlərin sürətləndirilməsi və sadələşdirilməsi məqsədi ilə ASAN-ın xidmətlərindən istifadə genişləndirilir.

Eyni zamanda, bank sektorunun real sektora dəstəyinin artırılması, daha dəqiq desək, bank sektoru ilə real sektor arasında mövcud olan uyğunsuzluqların aradan qaldırılması,

əhalinin bank sektoruna inamının artırılması üçün hər iki tərəf arasında vacib məsələlərdə konsensusa nail olunması, müvafiq işlərin görülməsi, bir sıra bankların obyektiv, subyektiv səbəblərə görə bağlanması və ya birləşməsi nəticəsində ixtisar olunmuş peşəkar kadrların aktiv fəaliyyətə cəlb edilməsinə həssaslıqla yanaşılması diqqətdən kənarda qalmamalıdır.

Daha bir məsələ barədə. Dünya təcrübəsi göstərir ki, hər bir yeniliyin, o cümlədən elmi-texniki inqilabın bu və ya digər istiqamətlərinin müsbət və mənfi cəhətləri vardır. İdarəetmədə də, siyasətdə də, biznesdə də ustalıq odur ki, öyrənilən hər bir yeniliyə, tətbiq edilən hər bir ideyaya sistemli yanaşılmalı, obyektiv qiymətləndirmələr aparılmalıdır.

Azərbaycan iqtisadiyyatının keyfiyyətli inkişafını təmin edən amillərdən biri İKT hesab edilir. Bu gün dünyada elektron iqtisadiyyat, rəqəmsal iqtisadiyyatın dünyada sürətli inkişaf meyilləri özünü göstərir. Heç şübhəsiz ki, İKT-nin açdığı imkanlar respublikamızda rəqəmsal iqtisadiyyatın sürətli inkişafını şərtləndirir. Eyni zamanda, real iqtisadiyyatla rəqəmsal iqtisadiyyat arasında ümumi və spesifik cəhətlər, onların hər birinin müəyyən edilməsi, ölkə iqtisadiyyatının tarazlı inkişafı, strukturunun şaxələndirilməsi, sosial problemlərin həllində, xüsusilə də spesifik demoqrafik şəraitilə fərqlənən respublikamızda məşğulluğun dinamikasında müsbət meyillərin qorunmasında onların rollarının düzgün qiymətləndirilməsi çox vacibdir.

Artıq xeyli müddətdir ki, ölkədə başlıca investor rolunda dövlət çıxış edir. Bu meyil, heç şübhəsiz, ölkə iqtisadiyyatının keyfiyyətli inkişafının təmin edilməsi baxımından tamamilə məqbul hesab edilməlidir.

Bir daha qeyd etmək istəyirik ki, iqtisadiyyatın əsas investoru kimi dövlətin başlıca rolu inkişafın bu mərhələsində tamamilə əsaslıdır: dünyanın əksər inkişaf etmiş ölkələri - Çin və Türkiyə, Asiyanın "balaca pələngləri" Cənubi Koreya, Malayziya və s. bu yolla getmişlər. Məlumdur ki, hələ 15-20 il öncə Azərbaycanın yaranmaqda olan özəl sektoru genişmiqyaslı infrastruktur və sənaye layihələrini həyata keçirmək üçün yetərli vəsaitə və təcrübəyə malik deyildi. Lakin bu gün ölkənin məcmu istehsalında özəl sektorun payı 80 faizi keçir və hazırda sənaye, irimiqyaslı infrastruktur layihələrinin böyük əksəriyyəti özəl mənbələrdən maliyyələşdirilir. Fikrimizcə, bu rəqəm kifayət qədər yüksəkdir və onun daima artırılması strategiyası bir vəzifə kimi qiymətləndirilə bilməz. Çünki dünyanın bütün ölkələrində dövlət mülkiyyəti var və ona müvafiq dövlət sahibkarlığı da fəaliyyət göstərir. Bu sektorların paralel, rəqabət mübarizəsi şəraitində keyfiyyətli inkişafı, hər iki sahibkarlıq formasının sosial məsuliyyət amilinin daima diqqətdə saxlanılması çox vacibdir. Onu da deyək ki, özəl sektor ölkədə iş yerlərinin dörddə üçündən çoxunu təmin edir. Digər tərəfdən, əməkqabiliyyətli əhalinin xeyli hissəsini gənclər təşkil edir və dinamik doğum səviyyəsi dövlətdən məşğulluq problemlərinə daim diqqət göstərməyi tələb edir. Bu o deməkdir ki, qeyri-neft sektoru idxalın əvəzlənməsi və qeyri-xammal mallarının ixracının artırılması vəzifələrini yerinə yetirməklə yanaşı, yeni iş yerlərinin yaradılmasından ibarət olan sosial məsələlərin həllində fəal iştirak etməlidir. Burada ağırlıq mərkəzi ilk növbədə özəl sektorun üzərinə düşür. Ona görə də Prezident İlham Əliyev bu sektorun hərtərəfli dəstəklənməsini iqtisadi strategiyamızın başlıca parametri kimi müəyyən etmişdir. Sahibkarlığa Kömək Milli Fondunun və Azərbaycan İnvestisiya Şirkətinin xətti ilə güzəştli maliyyələşdirmənin həyata keçirilməsi, güclü aqrar lizinq strukturunun formalaşdırılması, kənd təsərrüfatı istehsalçılarına subsidiyaların ayrılması, aqroparklarda investorlara uzunmüddətli güzəştlər verilməsi - bütün bunlar özəl investisiyaları cəlb etmək üçün dövlətin tətbiq etdiyi stimulların tam olmayan siyahısıdır. Artıq bu kimi iqtisadi mexanizmlərin tətbiqi sayəsində ölkə əhalisinin ərzaq istehlakında yüksək yer tutan emal və qida sənayesini formalaşdırmışdır. Eyni zamanda, potensialı 9-10 milyondan çox istehlakçıdan ibarət olan kifayət qədər tutumlu daxili bazar qeyri-neft sektorunun inkişafı üçün başlıca stimul olaraq qalır. Üstəlik, multiplikasiya effekti nəzərə alınmaqla, aqrar və yüngül sənayenin inkişafı ilə əlaqəli sahələri də cəlb edərək, bu gün istehsalın əhəmiyyətli dərəcədə artımını təmin edir. Onu da deyim ki, investisiya siyasəti müəyyən edilərkən rentabellik və ya yüksək mənfəət normalarını əsas götürməklə yanaşı, bütövlükdə sosial-iqtisadi inkişaf mənafeləri, xüsusilə də yeni iş yerlərinin yaradılması məqsədləri diqqət mərkəzində saxlanılmalıdır.

Məlumdur ki, tarix boyu insanları düşündürən mühüm problemlərdən biri əhalinin ərzaqla təminatı məsələsi olmuşdur. Dünyanın bir çox ölkələrində hələ neçə-neçə onilliklər bundan əvvəl Maltusun nəzəriyyəsinin düzgünlüyünü əsaslandıran konsepsiyalar, proqnozlar hazırlanmışdı. Tarixi inkişaf təcrübəsi göstərir ki, əhalinin artımı yalnız insanın fəaliyyətsiz qaldığı, təbiətdən səmərəli istifadə etməkdə, qida məhsulları istehsalını artırmaqda acizlik göstərdiyi halda fəlakətə gətirib çıxarır. Bu baxımdan bir sıra proqnozların əksinə olaraq, XX əsrin ikinci yarısında dünyanın iqtisadi inkişafı nəinki dayanmadı, ərzaq məhsulları istehsalı nəinki azalmadı, əksinə, miqyası baxımından əvvəlki dövrləri ötüb keçdi. **Bununla belə təbiətin dəyişməsi, ərzaqla bağlı pessimist proqnozlar özünü doğrultmasa da, bu proqnozlarda rasional elementlər çoxdur və ona görə də onlara biganəlik daha ağır nəticələr verə bilər. Bu ağır nəticələrin qarşısı o halda alına bilər ki, ictimai-iqtisadi münasibətlər düzgün səmtə yönəldilsin, düzgün inkişaf modelləri seçilsin, verilən proqnozlar gözlənilən proseslərin düzgün qiymətləndirilməsinə əsaslansın.**

Dünyada ərzaq problemi ilə əlaqədar son bir neçə onilliklər ərzində əmələ gələn bəzi meyilləri qısaca da olsa, qeyd edək:

Müəllif bu məsələləri araşdırarkən dünya ölkələri üzrə əhalinin ərzaqla təminatını xarakterizə edən, demək olar ki, bütün əsas göstəriciləri, o cümlədən taxıl, ət, süd istehsalı, onların adambaşına istehlakı, qidalanmanın enerji təminatı və s. bir daha nəzərdən keçirmiş və belə nəticəyə gəlmişdir ki, bir çox ölkələrdə reallaşdırılan layihələr dünyada aclığın, ifrat yoxsulluğun azaldılmasına əhəmiyyətli bir dəstək kimi qiymətləndirilməlidir. Bununla belə, hələ də bəşər əhalisinin **tox** və **ac** dünyalara bölünməsini deməyə obyektiv əsaslar var.

İri dövlətlərin, beynəlxalq maliyyə qurumlarının, digər nüfuzlu təşkilatların səylərinə baxmayaraq, aclıq, ifrat yoxsulluq şəraitində yaşayan əhalinin çoxluğu narahatlıq doğurmaya bilməz. Bir yazıda bu cür vəziyyətin səbəblərini tam aşkar etmək qeyri-mümkündür. Gəldiyim qənaət ondan ibarətdir ki, hələ də dünyanın əksər nüfuzlu elm mərkəzləri, kasıblıq, aclıq şəraitində yaşayan ölkələrin başçıları, rəhbərləri dərk etməmişlər ki, bu cür vəziyyətdən ayrı-ayrı lokal tədbirlərlə çıxmaq qeyri-mümkündür. Ərzaq qıtlığına qarşı dünya miqyasında görülən tədbirlərin, ilk növbədə sistemli, ardıcıl, tam maliyyə təminatı şəraitində həyata keçirilməsinə nail olmaq mümkündür.

Bir sıra ölkələrdə əhalinin 70-80 faizi kənd təsərrüfatı ilə məşğul olur. İnkişaf etmiş ölkələrdə isə ümumi daxili məhsulun strukturunda kənd təsərrüfatının xüsusi çəkisi müntəzəm olaraq azalmağa meyil edir. Hazırda bu sahənin payı cəmi 2-3 faizdir. Belə bir fərqli şəraitdə inkişaf etməkdə olan ölkələrdə bir neçə yüz milyon əhali qida yoxluğundan hələ də əziyyət çəkir, kənd təsərrüfatı məhsulları istehsalını artırmaq sahəsində görülən tədbirlər o qədər də yüksək səmərə vermir. **Ona görə də inkişaf etmiş kənd təsərrüfatına malik olan ölkələrin ərzaq bazarında hegemon rolu davam edir, məhz bu səbəbdən zəif inkişaf etmiş, eləcə də yeni müstəqil dövlətlərdə ərzaq təhlükəsizliyinin təmin edilməsi, bu məsələnin optimal həlli yollarının tapılması XXI əsrdə də öz aktuallığını itirməyəcək.**

Demək olar ki, dünya ölkələrinin əksəriyyətində kənd təsərrüfatı ilə sənaye arasında inteqrasiya əlaqələri getdikcə inkişaf edir və möhkəmlənir. Elmi ədəbiyyatda və təcrübədə aqrar-sənaye kompleksi kimi qəbul edilmiş bu sahə kənd təsərrüfatı üçün maşın texnikası istehsal edən sənaye və müvafiq xidmət növlərini (I) əhatə edən bölmədən, bilavasitə kənd təsərrüfatı (II) və ərzaq məhsullarının daşınmasını, emalını və satışını (III) əhatə edən bölmələrdən ibarətdir. İnkişaf etmiş ölkələrdə axırıncı bölmənin rolu artmağa meyil edir. Əksər inkişaf etmiş ölkələrdə ərzaq məhsullarının daşınması, emalı və satışı bölməsinin payına, bütövlükdə aqrar-sənaye kompleksinin 3/4 hissəsi düşür. İnkişaf etməkdə olan ölkələrin əksəriyyətində isə aqrar-sənaye kompleksində primitiv texnologiyaya, əl əməyinə əsaslanan kənd təsərrüfatı məhsullarının istehsalının xüsusi çəkisi 75-90% arasında tərəddüd edir.

Konfrans iştirakçılarına - qonaqlarımıza məlumat vermək istərdik ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev islahatlar prosesində öz xalqını düzgün istiqamətə, ərzaq bolluğunu təmin etmək üçün bütün imkanlardan istifadə etməyə yönəltdi və respublikamız bu problemin həllində əhəmiyyətli nailiyyətlər əldə etdi. Müstəqil Azərbaycan keçmiş sovetlər məka-

nında respublikalar içərisində bənzəri olmayan aqrar islahat apardı. Torpaq onu becərənlərə pulsuz paylandı. Keçmiş sovet strukturları ləğv olundu. Son 20 ildə kənd təsərrüfatının inkişafı üçün çox mühüm işlər görüldü. Kənddə qaynar həyatın təmin olunması üçün həyata keçirilən tədbirlər, eləcə də ölkənin maliyyə imkanlarının genişlənməsi ölkənin ərzaq təhlükəsizliyi probleminin əhəmiyyətli dərəcədə həllini təmin etmişdir. Aqrar sektora dəstək bir çox istiqamətlərdə aparılır, o cümlədən bilavasitə istehsal, kəndlinin torpaq vergisindən başqa bütün vergilərdən azad olunması, kənddə meliorasiya və irriqasiya işlərinin genişləndirilməsi, istehsal və sosial infrastrukturun yenilənməsi, dövlət xətti ilə ixtisaslı kadrların hazırlanması və s. həyata keçirilir.

Bununla belə, kənd təsərrüfatı məhsullarının istehsalı ilə emalı arasında müəyyən uyğunsuzluqlar mövcuddur, daha doğrusu, emal sənayesi xammal istehsalından geri qalır. İri təsərrüfatların xırda təsərrüfatlara nisbətən üstünlükləri barədə ətraflı danışmağa ehtiyac yoxdur. Amma bu güclü inkişaf amilindən zəif istifadə olunması səbəblərinin sistemli təhlilə ehtiyacı vardır. İqtisadçı alimlərimiz bu barədə düşünməlidirlər. Problemin aktuallığını şərtləndirən təkcə bir amili qeyd etmək istərdim. İri təsərrüfatlarda məhsuldarlıq, səmərəlilik, əmək məhsuldarlığı, göstəriciləri kiçik təsərrüfatlar üzrə müvafiq göstəricilərdən 4-5 dəfə yüksəkdir...

İqtisadi orqanlar, rayonların icra strukturları bu işin həllinə, fikrimizcə, diqqəti, fəallıqlarını daha da artırmalıdırlar. Onu da qeyd edək ki, sahibkarlıq, kiçik və orta biznesin inkişafı üçün daha əlverişli şəraitin yaradılması, müvafiq qanunvericilik bazasının təkmilləşdirilməsi bu problemlərin həlli imkanlarını xeyli genişləndirərdi.

Bu, bir həqiqətdir ki, Bakıda, Sumqayıtda iş qurmaqla, biznesi təşkil etməklə kənd rayonlarında iş qurmaq, biznes təşkil etmək arasında böyük fərq vardır. Bunu hamımız dərk etməliyik. Deməli, reallığı nəzərə alıb düşünülmüş tənzimləmə mexanizmləri hazırlanmalı, investisiya mühitinin yaxşılaşmasına kömək edən bütün faktlar təhlil edilməlidir. Kim deyirsə ki, bazar iqtisadiyyatı güzəştli mexanizmlərin əleyhinədir, deməli, onun dünyanın, o cümlədən inkişaf etmiş ölkələrin inkişaf meyillərindən xəbəri yoxdur. Bu gün də dünyanın bir çox ölkələrində nisbətən zəif inkişaf etmiş regionların inkişafını sürətləndirmək üçün güzəştli iqtisadi mexanizmlərdən istifadə edilir. İdarəetmə strukturları alim və mütəxəssislərin iştirakı ilə bu barədə araşdırmalar aparmalı, milli mənafelərə xidmət edən tövsiyələr hazırlamalıdırlar.

Daxili bazarın, yerli istehsalçıların qorunması, haqsız rəqabətə qarşı mübarizə, kənd təsərrüfatı istehsalçılarına xidmətin yaxşılaşdırılması, kəndli təsərrüfatlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, toxumçuluq bazasının inkişaf etdirilməsi, yem emal müəssisələrinin yaradılması vacib məsələlərdəndir.

***

Konfransda Azərbaycan tarixinin məsuliyyətli bir mərhələsində Vətən torpağının gələcək iqtisadi inkişaf problemləri barədə maraqlı fikirlər səslənəcək. Bir peşəkar iqtisadçı kimi əminliklə bildirmək istəyirəm ki, bu fikir və təkliflər Azərbaycanın davamlı, sabit inkişafına, milli maraqlara, müstəqilliyimizin qorunmasına, Azərbaycan dövlətinin beynəlxalq aləmdə imicinin yüksəlməsinə, xalqımızın gələcəyinə xidmət edən baxışlardır...

Görüləsi işlərin miqyası çox böyükdür. Onların uğurla həlli daxili imkanlarımızın obyektiv qiymətləndirilməsini, prioritetlərin düzgün seçilməsini, ölkənin iqtisadi təhlükəsizliyinə, ərzaq təhlükəsizliyinə xidmət edən tədbirlərin davam etdirilməsini, inkişaf strategiyası və taktikasının qarşılıqlı ahəngdarlığının təmin edilməsini tələb edir.

Biz müstəqilliyimizin çətin, ağır mərhələlərini, sosial sarsıntılarla müşayiət olunan illəri arxada qoymuşuq. Bu gün Azərbaycan dövləti əvvəlki illərdəkindən qat-qat güclüdür. Bu və qazanılan təcrübə əsas verir ki, mövcud problemlər daha sistemli, daha ardıcıl həll olunsun. Dünya dəyişir, dəyişən dünyada dövlətin rolu da dəyişir. Bu gün Azərbaycan dövləti, bütünlükdə, öz fəaliyyətində reallıqdan, sabit və dinamik inkişafdan doğan prosesləri, dünya iqtisadiyyatında baş verən dəyişiklikləri daha miqyaslı şəkildə nəzərə almaq imkanına malikdir.

Tarixi şəxsiyyət Heydər Əliyevin müəyyən etdiyi Azərbaycanın inkişaf modelinin reallaşmasının nəticəsi olan bu imkan, davamlı, sabit və dinamik inkişaf, doğma Vətən torpağının çiçəklənməsi naminə yaranmış ümumxalq birliyi uzun dövrlər davam edəcək, müstəqil Azərbaycanın daha qüdrətli, keyfiyyətli tərəqqisini təmin edəcəkdir.

Eldar Rza oğlu İBRAHİMOV
Azərbaycan Respublikası Milli Məclisinin
Aqrar Siyasət Komitəsinin sədri, i.e.d., professor

AZƏRBAYCAN RESPUBLİKASINDA ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN MÖVCUD VƏZİYYƏTİ

Son vaxtlar dünya ictimaiyyətinin və tədqiqatçıların gələcəyə baxışında 40-a yaxın həll olunmamış problemin olduğu, bunlardan isə əsasən 9-nun qlobal xarakter aldığı qeyd olunur. Bu problemlər sırasında isə ərzaq problemi xüsusi vurğulanır.

Ərzaq problemi insan yarandığı gündən bütün tarixi boyu onu müşayiət etmiş və onun inkişafına uyğun olaraq öz xüsusiyyətini və miqyasını dəyişməklə həmişə mövcud olmuş və hazırda da mövcud olan mühüm problemdir.

Baxmayaraq ki, insanların təbiətin bir çox sirrinə yiyələnib, atom enerjisini, biotexnologiyanı özünün xidmətinə cəlb edib və kosmosa çıxıb, habelə kənd təsərrüfatında məhsuldar qüvvələr inkişaf edib, ərzaq problemi hələ də həll edilməyib. İndinin özündə də ye kürəsində hər il 13-18 milyon insan aclıqdan və tam qidalanmamaqdan dünyasını dəyişir.

Ərzaq problemini ilk dəfə qlobl səviyyədə təhlil edən iqtisadçı T.Maltus olmuşdur. O, elan etmişdir ki, bütün canlılar onlara xas olan qanunauyğunluğa əsasən ixtiyarlarında olan qidadan asılı olmayaraq daha tez çoxalmağa cəhd edirlər. Buradan da Maltus belə qənaətə gəlir ki, say artımının sürəti firavanlıq (sağlamlıq) üçün daimi təhlükədir. Bununla da hələ 200 il bundan öncə ərzaq problemi elmi cəhətdən tədqiq edilsə də, o, yalnız 20-ci əsrin ikinci yarısından başlayaraq dünyəvi, qlobal xarakter almışdır.

Dünyada ərzaq ehtiyatlarının mövcudluğu və gələcək üçün proqnozlar beynəlxalq təşkilatlar, ilk növbədə isə BMT-nin nəzdində yaradılan Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) tərəfindən təhlil edilir və izlənilir. Ərzaq problemi mütəmadi olaraq beynəlxalq forumlarda (sammitlərdə) müzakirə olunur.

Qeyd etmək lazımdır ki, ərzaq təhlükəsizliyi dövlətin iqtisadi təhlükəsizliyi ilə yanaşı həm də onun siyasi və ekoloji təhlükəsizliyinin vacib elementidir və milli təhlükəsizliyin təmin olunmasında önəmli rola malikdir. Azərbaycan Respublikasında da ərzaq təhlükəsizliyi millii təhlükəsizlik sisteminin mərkəzi problemlərindən biri hesab olunur və bu məsələyə dövlət səviyyəsində xüsusi qayğı və diqqət göstərilir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, dövlətin ərzaq təhlükəsizliyi o vaxt təmin edilmiş hesab edilir ki, ölkə ərazisinə xaricdən ərzaq məhsullarının daxil olması dayandıqda ərzaq böhranı baş verməsin və bazarda sdatılan kənd təsərrüfatı xammalının və ərzağın ümumi həcmində yerli istehsal 80-95 fazi təşkil etsin. Ölkəmizdə ərzaq təhlükəsizliyi problemində mövcud vəziyyət nəzərə alınaraq hələ 2001-ci ildə Ulu öndər Heydər Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı" təsdiq edilmiş və bu Proqram çərçivəsində görülmüş işlər nəticəsində kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı əhəmiyyətli dərəcədə artmışdır. Bununla belə dünya ərzaq bazarında mövcud vəziyyət daxili ərzaq bazarının idxaldan asılılığının maksimum azaldılması və ərzaq ehtiyatlarının yaradılması məsələsinə kompleks yanaşma tələb edir.

Məhz bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2008-ci il 25 avqust tarixli Sərəncamı ilə "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatın dair Dövlət Proqramı" qəbul edilmişdir. Proqramda 2015-ci il üçün kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına dair konkret hədəflər müəyyən edilmiş və onların icrasını təmin edən müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bu tədbirlər nəticəsində 2015-ci ilin yekununa görə ğlkəmizdə əsas ərzaq məhsulları üzrə özünütəminetmə səviyyəsi taxıl-64%, ət və ət məhsulları-95%, süd və süd məhsulları-80%, yumurta-100%, kartof-90%, bitki yağları-67% təşkil etmiş, meyvə və tərəvəzlə özünü təminetmə isə 100 faizdən çox olmuşdur.

Bu onu göstərir ki, müstəqillik əldə etdiyimiz qısa zaman kəsiyində bəzi məhsullar istisna olmaq şərtilə biz ərzaq təhlükəsizliyi məsələlərinin həllində böyük nailiyyət əldə etdik.Bununla

belə Azərbaycan Respublikası Prezidentinin qeyd etdiyi kimi sonrakı illərdə harada ki, biz özümüzü təmin edə bilmirik, o sahələrə xüsusi diqqət verilməli və ərzaq məhsullarının maya dəyərində xarici amillərdən asılılığı ən aşağı səviyyəyə çatdırmalıyıq.

Ərzaq təhlükəsizliyinin təmin edilməsinə nail olmaq üçün bu problemə təsir edən bəzi amillərə diqqət yetirmək lazımdır. Azərbaycan Respublikası üçün xarakterik olan bu faktorlardan ən önəmlisi olan əhali artımını göstərmək olar. Azərbaycan Respublikasında son vaxtlar 115-120 min nəfər hər il təbii artım müşahidə olunur və bu da əhalinin cavanlaşmasına və əmək qabiliyyətli yaşda olan əhalinin getdikcə artmasına səbəb olur. Eyni zamanda bu amil ərzaq məhsullarına tələbatı da artırdığından yeni iş yerlərinin açılmasını və kənd təsərrüfatı məhsulları istehsalının artımını zəruri edir. Bu məqsədlə ölkəizdə hər il yüz mindən çox iş yerinin açılması və kənd təsərrüfatı məhsulları istehsalının çoxalması təmin edilir.

Ölkələr arasında ərzaq məhsullarına olan tələbatın ödənilməsində mühüm əhəmiyyət kəsb edən faktorlardan biri də nəqliyyatın və ticarətin inkişafıdır. Bu mənada ölkəmizsə mövcud olan yerüstü, hava və su nəqliyyatının inkişafı dövlətin diqqət mərkəzindədir. Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Şimal-Cənub dəmiryolu xəttinin tikintisinin yaxın vaxtlarda başa çatması, hava və su nəqliyyatının genişlənməsi getdikcə daha çox ölkə ilə ticarət əlaqəsinin qurulmasına rəvac verir.

Ərzaq təhlükəsizliyinin bazasını təşkil edən kənd təsərrüfatı məhsulları istehsalının azalmasına səbəb olan əsas amillərdən biri də əkin sahəsinin azalmasıdır. Belə ki, respublikamızda kənd təsərrüfatına yararlı torpaqlar və əkin sahələrinin ümumi sahəsi azalmasa da 2000-ci ilə nisbətən 2016-cı ildə adambaşına düşən kənd təsərrüfatına yararlı torpaqlar 0,58 kektardan 0,49 hektara və əkin sahələri 0,22 hektardan 0,20 hektara düşmüşdür. Bu azalma əhalinin artımı və torpaqların tənəzzülə uğraması ilə əlaqədar olduğundan getdikcə davam edəcək və kənd təsərrüfatı məhsulları istehsalının artımına öz təsirini göstərəcəkdir. Bunu nəzərə alaraq ölkə rəhbərliyinin tapşırığı ilə yararsız və tənəzzülə uğramış torpaqların yararlı hala salınması və əvvəllər istifadə olunmayan torpaqların istifadəyə verilməsi nəticəsində son illər 200 min hektara yaxın əkin sahəsinin dövriyyəyə daxil edilməsi bu problemin aradan qaldırılmasına təkan vermişdir.

Bununla yanaşı kənd təsərrüfatı məhsulları istehsalının ekstensiv yolla inkişafının məhdud olmasını nəzərə alaraq ölkəmizdə intensiv inkişaf əsas istiqamət hesab olunmuşdur.Belə ki, məhsuldarlığın az olması-ərzaq təhlükəsizliyinin təmin edilməsində müasir şəraitdə və gələcəkdə ən çox diqqət cəlb edən faktor hesab olunur. İstər bitkiçilik istərsə də heyvandarlıqda məhsuldarlığın Avropa ölkələri ilə müqayisədə xeyli aşağı olması kənd təsərrüfatının intensiv inkişafında ölkəmizin böyük potensiala malik olduğunu göstərir. Bu potensialdan səmərəli istifadə etmək üçün artıq bir neçə ildir ki, xarici ölkələrdən yüksək məhsuldar heyvanlar gətirilir və süni mayalama işləri genişləndirilir. Eyni zamanda müxtəlif bitki sortları sınaqdan keçirilir və ən əsası ölkə daxilində damazlıq və toxumçuluq işləri geniş vüsət almışdır. Bundan başqa 45 aqroparkın və 30-dan çox iri təsərrüfatların yaradılması, onların yüksək məhsuldar bitki sortları və cins heyvanlarla, habelə müasir texnika və texnologiya ilə təmin edilməsi həmin təsərrüfatlarda ölkəmiz üçün rekord məhsuldarlığa - hər hektardan 55-60 sentner buğda, hər inəkdən 6-7 min litr süd sağmağa imkan verir. Gələcəkdə bu təsərrüfatların sayının artırılması ölkəmizdə ərzaq təhlükəsizliyini yerli istehsal hesabına təmin edəcək və yüksək rəqabətə davamlı məhsullarla xarici bazarlara çıxışına imkan verəcəkdir.

Ərzaq təhlükəsizliyinin təmin olunmasına sənayeləşmənin və urbanızasiya prosesinin sürətlənməsi, kənd təsərrüfatı məhsullarının itkisinə yol verilməsi və digər amillər də təsir göstərir. Bütün bunlar ölkə Prezidentinin Fərmanı 2016-cı ildə təsdiq edilmiş Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində öz əksini tapmışdır.

Hesab edirik ki, kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalının artırılmasına, yeni iş yerlərinin açılmasına, əahlinin sosial rifah halının yaxşılaşmasına yönəlmiş kompleks tədbirlər yaxın vaxtlarda əhalinin ərzaq məhsullarına fiziki və iqtisadi əlçatanlığını yüksək səviyyəyə qaldıracaq, ölkəmiz özünün ərzaq təhlükəsizliyini keyfiyyətli məhsullarla təmin etməklə yanaşı həm də rəqabət qabiliyyətli bu məhsulların ixracını artıraraq bir çox ölkələrin ehtiyacını ödəməyə sanballı töhfələr verəcəkdir.

Əli Xudu oğlu NURİYEV
Azərbaycan Respublikasının Prezidenti
yanında Dövlət İdarəçilik Akademiyasında Regional
İqtisadi və Sosial Araşdırmalar İnstitutunun direktoru,
AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, i.e.d., professor

AZƏRBAYCANIN MÜASİR AQRAR SİYASƏTİ ZƏMNİNDƏ ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ İSTİQAMƏTLƏRİ

Hörmətli konfrans iştirakçıları, hörmətli həmkarlar, əziz tələbələr. Hər birinizi salamlayır, hər birinizə xoş əhval-ruhiyyə, sağlam və məhsuldar həyat arzulayıram. Bu konfrans həqiqətən müasir dünyamızda çox aktual olan bir problemə həsr edilmişdir.

Hər bir fərdin, bütövlükdə cəmiyyət üzvülərinin normal yaşaması və faydalı fəaliyyət göstərməsi üçün birinci növbədə onların lazımı miqdarda və keyfiyyətdə ərzaq məhsullarına olan tələbatı ödənilməlidir.

Ərzaq təhlükəsizliyi problemi yalnız iqtisadi və sosial problem deyil, həm də siyasi problemdir. Xalqın öz dövlətinə inamı, onun ətrafında daha sıx birləşməsi, dövlətin siyasətini dəstəkləməsi əhəmiyyətli dərəcədə ərzaq təminatı səviyyəsindən asılıdır. Nəhayət ərzaq təhlükəsizliyi xalqın sağlamlığı, əmək qabiliyyətinin, ümumiyyətlə insan potensialının inkişaf etdirilməsi və ondan səmərəli istifadə edilməsi məsələsidir. Həmişə ərzaq təhlükəsi başının üstündə olan ölkədə dövlətin müstəqilliyindən və xalqla dövlətin birliyindən danışmaq mənasızdır.

Beləliklə, bu problem zaman-zaman daha çox aktuallıq kəsb edən ümumbəşəri, dünyəvi problemdir. Onun həlli demokratik cəmiyyətin inkişafının bütün mərhələlərində həmişə diqqət mərkəzində olmuş və bu istiqamətdə tədbirlər həyata keçirilmişdir. Lakin ərzaq təhlükəsizliyi, aclığın ləğv edilməsi problemi heç vaxt özünün tam həllini tapmamışdır. Cəmiyyət irəliyə doğru inkişaf etdikcə bu problem bütün istiqamətlərdə qarşıya çıxır, öz həllini gözləyir. Heçdə təsadüfi deyil ki, BMT 25 sentyabr 2015-ci ildə qəbul etdiyi yeni proqramda " hər yerdə yoxsulluğun bütün formalarının və aclığın ləğv edilməsini, ərzaq təhlükəsizliyinin təmin edilməsi, qidalanmanın yaxşılaşdırılması və kənd təsərrüfatının davamlı inkişafının təmin edilməsi" ni davamlı inkişafın bir nömrəli məqsədi kimi təsdiq etmişdir. Bütün bunlara baxmayaraq dünyada aclıq , yoxsulluq və ərzaq təhlükəsi azalmır. Dünyada 1.2 mlrddan çox yoxsul, 10 milyonlarla ac,işsiz, 50-51 milyon məcburi köçkün və qaçqın olduğu müasir dövrdə əhalinin ərzaqla təminatı problemi xüsusi aktuallıq kəsb edir. Adam başına ərzaq məhsulu istehsalı neçə ölkədə artırsa, təqribən bir o qədər ölkədə də adam başına ərzaq məhsulu istehsalı azalır. Bu cəhətdən inkişaf etməkdə olan ölkələrdə (51 ölkə), xüsusilə Cənubi Afrika ölkələrinin göstəriciləri daha aşağıdır.

Əhalinin ərzaq məhsullarına tələbatının ödənilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi bu məhsulların istehsalı ilə bərabər, ərzaq bazarının təşkilindən , ölkədə aparılan aqrar siyasətinin vəziyyətindən asılıdır. Aqrar sahənin inkişafı və strukturunun səmərəlilik və əhalinin tələbatının ödənilməsi baxımından düzgün qurulması problemin həllinə əsaslı surətdə şərait yaradır.

Müstəqillik illərində Azərbaycan ümummilli liderimiz Heydər Əliyevin və onun layiqli davamçısı prezident İlham Əliyevin siyasətini ardıcıl olaraq həyata keçirərək başqa sahələrdə olduğu kimi kənd təsərrüfatının inkişafı və ərzaq təhlükəsizliyi probleminin həlli sahəsində də böyük uğurlar qazanmışdır. Əhalinin ərzaq təminatının yaxşılaşmasına dair 2001-2008-ci illərdə dövlət proqramları qəbul və icra edilmişdir. Əhalinin gəlirləri artmış, həyat səviyyəsi yüksəlmiş, əmək haqqı, müavinət və pensiyalar artmış, işsizlik və yoxsulluq səviyyəsi aşağı düşmüşdür (5%, 5.4%). Eyni zamanda 2004-2017-ci illərdə kənd təsərrüfatı məhsulu istehsalı 1.7 dəfə artmış, bir çox ərzaq məhsullarının istehsal səviyyəsi ya Azərbaycanın tələbatını ödəmək səviyyəsinə çatmış, ya da ondan artıqdır, geni dəyişmiş məhsul idxalı tamamilə aradan qaldırılmışdı. Ən başlıcası Azərbaycan müxtəlif dövlətlərlə mehriban qonşuluq və əməkdaşlıq münasibəti qurmuşdur. Respublikamızın hər hansı ərzaq məhsulunu idxal etmək imkanı vardır. Xalqımızın ərzaqla təminatında elə bir çətinlik yoxdur. Lakin nailliyyətlərimizi layiqincə qiymətləndirməklə yanaşı biz demokratik cəmiyyətin inkişaf qanunauyğunluqlarını və Azərbaycanın daxil

olduğu yeni dövrün xüsusiyyətlərini və tələblərini də nəzərə almalıyıq. Azərbaycan demokratik cəmiyyətə keçid dövrünü başa vurub təqribən 10 ilə yaxındır ki, tədricən demokratik cəmiyyətin öz əsasları üzərində yüksək səviyyədə inkişafı və təkmilləşməsi dövrünə daxil olmuşdur. Məlumdur ki, məhz inkişaf etmiş demokratik ölkələr bu dövrü sənaye cəmiyyəti dövrü kimi xarakterizə etmiş, öz təbii resurs və sərvətlərini, insan potensialını, geniş miqyasda o dövrün yeni texnikası-texnologiyası əsasında təsərrüfat dövriyyəsinə cəlb edərək güclü sənaye yaratmış, istehsal güclərini artırmışdır. Ərzaq problemini də əvvəlki dövrlərlə müqayisədə daha yüksək səviyyədə həll etmişlər. Azərbaycan öz inkişafında bu mərhələnin vəzifələrini yenicə yerinə yetirməyə başlamışdır. Təbiidir ki, Azərbaycanın hazırda mövcud olan istehsal gücləri və yerli istehsal hesabına ərzaq təminatı inkişaf etmiş demokratik cəmiyyətin tələblərilə müqayisədə hələ nisbətən aşağıdır. Heç də təsadüfi deyil ki, Respublikamız ümumi inkişaf səviyyəsinə görə dünyanın inkişaf etməkdə olan ölkələri arasında 3-cü yeri tutduğu halda istifadə edilən iqtisadi potensialına görə yalnız 26-cı yeri tutur.

Azərbaycan özünü hələlik ,öz istehsalı hesabına bir çox mühüm ərzaq məhsulları ilə təmin edə bilmir. 2016-cı ildə Azərbaycan yerli istehsal hesabına özünü buğda ilə 55%, kərə yağı ilə 76%, bitki yağı ilə 48%, soya -4 %, çayla-45%, makaron məmulatları ilə 37% təmin etmişdir. Bununla bərabər bu ərzaq məhsullarının istehsalında da xarici ölkələrdən az-çox asılılıq vardır. Məsələn makaron məmulatları istehsalında xammalın 95%-i ,şəkər istehsalında 73%-i, bitki yağı istehsalında xammalın 80%-i xaricdən alınır. Süd və süd məhsulları, yumurta, buğda, kərə yağı, soya və digər məhsulların istehsalı və əhalinin tələbatının ödənilməsində xarici ölkələrdən müəyyən dərəcədə asılılıq vardır. Nəticədə Respublikamız qlobal ərzaq təhlükəsizliyində nisbətən aşağı yer tutur. 2015-ci ildə qlobal ərzaq təhlükəsizliyi indeksində Azərbaycan qida təminatına görə 61-ci, qidanın keyfiyyətinə görə 86-cı yeri tutmuşdur. Ərzaq məhsullarının satış qiymətinin əhalinin tələbatı ilə uzlaşması və qiymətlərdə də problemlər var. Əlbəttə Azərbaycanın bu mövqeyini yüksəltmək üçün imkanları da var.

Beləliklə, Azərbaycanı iqtisadi cəhətdən qüdrətli dövlətə çevirmək və ərzaq məhsulları istehsalını artırmaq üçün onun istifadə olunan iqtisadi potensialının: istehsal güclərinin, istehsal edilən rəqabət qabiliyyətli daxili ümumi məhsulun, dövlət büdcəsinin gəlir və xərclərinin hazırda olduğuna nisbətən daha sürətlə artımına ehtiyac yaranmışdır. Azərbaycan Respublikasının prezidentı İlham Əliyev yeni inkişaf mərhələsində iqtisadi potensialı gücləndirməyi və ixrac yönümlü məhsul istehsalını artırmağı, qeyri-neft sektorunun səmərəliliyini yüksəltməyi, eyni zamanda xaricdən ərzaq asılılığını azaltmağı qarşıya mühüm strateji vəzifə kimi qoymuşdur. Bunun üçün infrastruktur sahələrinin inkişafını davam etdirməklə yanaşı birinci növbədə sənayenin və kənd təsərrüfatının güclü, səmərəli və rəqabət qabiliyyətli inkişafına nail olmaq lazımdır. Sənayedə və kənd təsərrüfatında inkişafına üstünlük verilən sahələr əvvəla, iqtisadi baxımdan səmərəli, rəqabət qabiliyyətli olmalı və regionun bütün potensialından səmərəli istifadəyə şərait yaradılmasında mühüm rol oynamalıdır. Bu vəzifələr birinci növbədə aqrar sahəyə aiddir.

Birinci növbədə kənd təsərrüfatının bütövlükdə güclü , səmərəli və rəqabət qabiliyyətli inkişafına nail olmaq lazımdır.

Ərzaq təhlükəsizliyi mövzusunu isə 2 hissəyə bölmək olar. Birincisi ərzaq təhlükəsizliyi, ikinci isə ərzağın təhlükəsizliyidir. Yəni birincidə biz ərzaq təhlükəsizliyi deyəndə ərzaq bolluğu, alıcılıq qabiliyyətinə uyğun təklifin formalaşmasını nəzərdə tuturuq. Ola bilər ki ərzaq bol olsun, amma qiymətləri yüksək olsun, bu qənaətbəxş deyil. İkinci məsələ isə ərzağın özünün təhlükəsizliyi, yəni ərzağın keyfiyyətidir. Məqaləm əsasən birinci məsələ ilə bağlıdır.

İnsanlar qədimdən ərzaq bolluğu yaratmağa çalışır. Öz sisteminin təhlükəsizliyini təmin etmək üçün əvvəla ekstensiv üsullardan istifadə edir. Yəni, müharibələr törədir və qonşularındakı münbit torpaqları ələ keçirməyə çalışır. İkincisi intensiv üsullardan istifadə edir, yəni suvarma kanalları yaradır, mövcud əkin sahələrinin münbitliyini artırır və s. Eyni zamanda, məhsulları saxlamaq üçün anbarlar yaradır. Bu cür ehtiyatların yaradılması yaxın keçmişin kəşfi deyil. Misir fironlarının dövründə də taxıl ehtiyatları olub. Quraqlıq və aclıq olanda həmin dövlət ehtiyatlarındakı taxıl əhaliyə paylanılıb.

Beləliklə, bəşər inkişaf etdikcə ərzaq təhlükəsizliyi məsələsi qabarır. İngilis keşişi və iqtisadçısı Tomas Maltusun nəzəriyyəsinə görə əhali artımı qida məhsulları artımını üstələyir. Hətta belə bir müqayisə var idi ki, qida ədədi silsilə ilə, əhali isə həndəsi silsilə ilə artır. Bu kimi təhlükələr pozitiv düşünən insanları bolluq üçün yol tapmaga sövq edib. Hətta görkəmli rus alimi Konstantin Tsiolkovski kosmik mühərriki kəşf edib ki, gələcəkdə Yer kürəsində ərzaq çatışmayacaq və biz başqa planetlərdən resurs əldə edə bilək.

XXI əsrin əvvəllərində bir mövzu gündəmə gəlib ki, Yer üzündə insanlara ərzaq çatmır və yalnız seçmə ölkələrdən 1 milyard (qızıl milyard) insanın yaşamağ haqqı var.

Bu mövqeni şiddətləndirən beynəlxalq institutların fikirləri var. Məsələn, Dünya Müşahidə İnstitutunun (World Watch İnstitute) rəhbəri amerikan aqrar alimi Lester Braun soruşur ki,

“Qlobal ərzaq böhranı sivilizasiyanın sonuna aparırmı?” Onların fikrincə bizim sivilizasiyadan əvvəl başqaları olub və ərzaq çatmadığından məhv olub.

BMT-nin 17 davamlı inkişaf məqsədlərinin 7-si də məhz ərzaqla bağlıdır. Xatırlayaq ki, BMT-nin davamlı inkişafı 3 sütun üzərində qurulub: iqtisadiyyat, ətraf mühit və sosial həyat.

Siyahıda 2-ci məqsəd aclığa son qoymaq, qida təhlükəsizliyinə nail olmaq, dayanıqlı kənd təsərrüfatı yaratmaq.

6-cı məqsəd: hər kəsi su ilə təmin etmək.

11-ci məqsəd: şəhərlər və digər yaşayış məskənlərini təhlükəsiz və dayanıqlı etmək.

12 mədsəd: dayanıqlı istehlakı inkişaf etdirmək.

13 məqsəd: iqlim dəyişikliyi və onunla mübarizə (kənd təsərrüfatına təsir də nəzərdə tutulur).

14-ci məqsəd: dayanıqlı su hövzələrini qorumaq.

15-ci məqsəd: torpaq deqradasiyasının qarşısını almaq.

Ərzaq çatışmamazlığı ilə mübarizədə bir ciddi fikir var.Əhalinin artım tempi və taxil istehsalına dair 100 illik təhlilə əsasən görürük ki, taxıl istehsalı əhalinin artım tempini üstələyir. 1900-cü ildə dünyanın əhalisi 1,6 milyard, 2018-cı ildə isə 7,44 milyard olub. Taxıl istehsalı isə təkcə yarım əsr ərzində 631 milyon tondan 2 milyard tona qədər çatıb. Yəni taxıl istehsalı əhali artımını üstələyib .

Amma başqa problemlər də var. Əsas məsələ kənd təsərrüfatı məhsullarının real qiymətlərində ciddi artımın olmasıdır. Başqa bir təhlil var. Ərzaq Siyasətinin Tədqidi Beynəlxlq İnstitutunun (IFRPI) təhlinə əsasən 1974-2005-ci illərdə dünyada ərzaqın real qiymətləri 75% azalıb. Amma 2005-2008-ci illərdə isə əksinə 75 faiz artıb. Bu da dünya iqtisadi böhranı ilə bağlıdır. Ümumilikdə isə, inkişaf etmiş ölkələrdə problem yoxdur, amma inkişaf etməkdə olan ölkələrdə problem var. Geridə qalmış ölkələrdə isə problem daha çoxdur ki, bu da özünü rasionda ciddi azalmada biruzə verir. Yəni, karbohidrat istehlakı əsasən normaldır. Amma zülal, yağ, xüsusi ilə mikroelementlər istehlakında çatışmamazlıq var.

Akademik Ziyad Səmədzadənin qeyd etdiyi kimi, dünyanın bəzi yerlərində 3000 kalorinin əvəzinə 1200 kalori istehlak edənlər var. Bəs görəsən bunun səbəbləri nədir? Bu sahədə rus alimi i.e.d. Yevqeniy Kovalövun sistemli fikirləri və digər tədqiqatçıların təhlillərinə reallıqlarımız çərçivəsində baxaraq belə ümumiləşdiririk ki, kənd təsərrüfatında qiymət artımının səbəbləri:

1. Neft-qaz sənayəsində qalxan qiymətlərdir. Çünki kənd təsərrüfatı yüksək enerji tutumlu sahədir. Biz onun enerji istehlakına baxsaq görərik ki, kənd təsərrüfatının enerji istehlakının 34 faizi əkin sahələrinin şumlanmasına yönəlir. Neft-qazdan hazırlanan güblələr enerjinin 28 faizini, suvarma 7% - ni məsrəf edir. Bunlardan əlavə daşınma, neft-qazdan hazırlanan zərərvericilərə əleyhinə dərmanlar, qurudulma və sair enerji tələb edir. Bütün bunlar enrejitutumluğa gətirir və neftin, qazın qiyməti qalxan kimi qlobal aqrar xərclər artır.

2. Yanacağın qiyməti artdığı üçün taxıl və digər bitkilərdən alınan alternativ enerji mənbəyi olan bioyanacağın həcmi çoxalıb. 2007-ci ildə təqribən 100 milyon ton taxıl buna sərf olunub. Yəni, istehsal olunumuş 2 milyard ton taxıldan 100 milyon tonu məhz bioyanacağ üçün xammal kimi istifadə olunur. ABŞ və Avropa İttifaqı bioyanacağ istehsalını subsidiyalaşdırır və ondan istifadənin normalarını müəyyən edir. Nəticədə bioyanacağ dünya yanacağ istehlakının 2%-ni verir (2005). Bu da kənd təsərrüfat məhsullarını əsas təyinatından çıxararaq bazarda təklifi azaldır. Amma artıq dünya ictimaiyyəti qəbul edib ki, bu problem yaradacaq. Böyük 8-liyin Xokkaydo görüşündə (6-8 iyul 2008-ci il) bioyanacaq istehsalı üçün tez böyüyən ağacların oduncağı və sair kimi qeyri-ərzaq xammalından istifadə tövsiyə edilib. Amma bu da tez böyüyən ağacların əkini üçün kənd təsərrüfat torpaqlarının ayrılmasını tələb edir və ərzaq istehsalını məhdudlaşdırır.

3. Qlobal istilik. Müasir dövrdə Yer üzündə temperatur hər il artır və bu ətraf mühitdə ciddi dəyişikliklər yaradır. Eləcə də su qıtlığı problemi yaradır ki, biz onu ayrıca vurğulayırıq.

4. Artan su qıtlığı məsələsidir, su qıtlığı o qədər problemlidir ki, BMT 2005-2015-ci illəri su onilliyi elan edib. Belə bir qayda var: əkinə yağıntıdan daha çox su verəndə əkin dərinliyi artmalıdır. Yəni toxum, ya başqa əkin materialı torpağ səthindən daha aşağı əkilməlidir. Bu da su resurslarının bərpasını çətinləşdirir. Məsələn, dünyanın əsas taxıl sahələrindən olan Şimali Çin yaylasında qrunt sularının səviyyəsi ildə 3 metr aşağı düşür. Meliorasiya və Su Təsərrüfatı

ASC- nin məlumatına əsasən Azərbaycanda yerüstü su ehtiyatları 32.2 milyard m^3-dir və onun da 70%-i ölkəmizdən kənarda formalaşır. Bu ciddi problem daim diqqətdə saxlanılmalıdır.

5. Sənayeləşmə və urbanizasiya, avtomobil sayının coxalması, asfalt - beton örtüyün artmasına görə kənd təsərrüfat təyinatlı torpağlar azalır. Əgər 1950-ci ildə adambaşına düşən taxılaltı əkin sahəsi 2,4 ha idisə, 2007-ci ildə 1,2 ha olub. Bu barədə başqa rəqəmlər də bildirilir. Lakin məsələnin kökü odur ki, kənd təsərrüfat təyinatlı torpaqlar azalır.

6. Ekologiya. Bu amil 2 yerə bölünür:

həm torpaqların çirklənməsi və bunun məhsuldarlığın azalmasına təsiri, həm də əvvəlki dövrdən fərqli olaraq əhalinin pestisidlə qorunmuş ərzağı qəbul etməməsi. Avropa İttifaqında zərərli ərzağa qarşı ciddi etirazlar var. Bu da kənd təsərrüfatında qeyri - kimyəvi müdafiəyə keçməyi istiqamətləndirir və beləliklə ekoloji tələblərin artırılması aqrar xərcləri də çoxaldır. Amma bu insanlığın faydasınadır.

7. Dövlət və özəl sektorun kənd təsərrüfatı məsullarının iri həcmdə ehtiyatlarını yaratmasıdır. Bu labüd haldır. Azərbaycanda FHN bu işlə məşğuldur. Bununla yanaşı şirkətlər də var ki, mövsümü olaraq aqrar məhsulları iri həcmdə ya öz istehsalı üçün tədarük edir ya da ucuz qiymətlərə alır və baha satır. Nəticədə yenə də kənd təsərrüfatı dövriyyəsindən məhsullar çıxır və bu da qiymətə əlavə təzyiq yaradır.

8. Dövlətlərin əkinə yararlı torpağları konservləşdirilməsi. Biz həmişə eşitmişik ki, Amerika Birləşmiş Ştatları neft yataqlarını konservləşdirir. Lakin konservləşmə başqa sahələrə də aiddir. ABŞ-da 18-20 milyon ha əkinə yararlı torpağ əkin dövriyyəsindən çıxarılıb və bunun müqabilində özəl torpaq sahiblərinə subsidiya verilir. Yəni "torpağı əkməyin, dövlət sizə pul ödəyəcək" prinsipi işləyir. Avropa İttifaqında da 2008-ci ilədək konservləşdirilmiş torpaqlara görə fermerlərə subsidiya verilirdi. 2008-ci ildə böhrandan sonra Avropa bu mexanizmi saxlaya bilmədi və konservləşməni açdı. Bu da qiymət azalmasına kömək oldu.

9. Dünya əhalisinin 1/3 hissəsindən çoxu Hind-Çin yarımadasında yaşayır. Bu regionun inkişafı ilə gəlirlər yüksəlib. Bu da ət-süd məhsullarının istehlakını artırıb. Nəticədə yem kimi taxıl istehlakının coxalması baş verib. İri buynuzlu malın 1 kq artması üçün rasiondan aslı olaraq 8-18 kq yem tələb olunur. Bu da taxıl qiymətinə təzyiqi artırır.

Bəs bizi nə gözləyir? Süni ət? FAO- nun (BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı) belə bir təklifi var ki, bəşəriyyətin yaşaması üçün nə hərəkət edirsə (həşəratlar, sürünənlər, vəhşi heyvanlar, sair canlılar) yeyilməlidir. Deyirlər ki, bu insan üçün faydalı protein mənbəyidir. Amma mən Nəsimi filmində Teymurləngin bir sözünü xatırlayıram: " Xırda həşəratlar böyük həşəratlardan qorxur." Biz fikirləşirik ki, xırda həşəratı böyük həşərat yeməlidir. Beləcə qida zənciri bizim üçün ənənəvi qidanı təmin etməlidir. Bakıda Çinlilər var ki, səhər kabab yeyir.

Dünya təcrübəsi, meyllər öyrənilməlidir. İnkişaf etmiş ölkələrdə innovativ, orqanik (ekoloji) təmiz kənd təsərrüfatı artır. Isveçrədə də bu cürdür. Hollandiyanın təcrübəsi də faydalıdır.

2015-ci ildə Hollandiya 80 milyard avro məbləğində kənd təsərrüfatı məhsulu ixrac edib. Bunun başqa maraqlı cəhəti odur ki, öz istehsalından 2 milyon ton daha çox tərəvəz ixrac edib. Nəyin hesabına? Başqa ölkələrdən alır, emal edir, baha qiymətə xaricə satır. Kənd təsərrüfatı inkişaf etdikcə sahəvi texnika istehsalı da inkişaf edir. Bu ölkəni genetika ölkəsi adlandırırlar ki, yeni modifikasiyalı kənd təsərrüfatı məhsulları istehsal edir. Hollandiyanın təcrübi əhəmiyyətli nailiyyətləri olan Vaqeninqen Universiteti kimi təhsil - tədqiqat mərkəzləri var. Bəs sual olur ki, bu sahədə ölkəyə kömək edən nə olub? Hollandların ümumiyyətlə başqa sahədə uğurları. Tarixə nəzər salaraq unutmayaq ki, Azərbaycana yürüşlər təşkil edən rus carı İ Pyotr da gəmi istehsalının sirlərini öyrənmək üçün Hollandiyaya getmişdi. Dövrümüzdə isə informasiya texnologiyalarındakı uğurlar bütün sahələlə, o cümlədən kənd təsərrüfatına da kömək edib.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən 2016-cı ilin dekabrın 6-da imzalanmış Strateji Yol Xəritəsində də torpaqsız kənd təsərrüfatının inkişafı nəzərdə tutulub. Artıq istixanalarda torpaq qatının üzərində deyil, kokos substratı üzərində məhsul yetişdirirlər. Strateji Yol Xəritəsində nəzərdə tutulan məsələlərdən bir hissəsi yerinə yetirilib. Məsələn, Qida Təhlükəsizliyi Agentliyi yaradılıb. Amma kənd təsərrüfatının qorunması üçün siğorta fondunun yaranması isə hələ həllini gözləyən məslələrdən biridir.

Ölkə iqtisadiyyatının neft-qaz sənayesindən asılılığını azaltmaq taleyüklü məsələdir. Strateji Yol Xəritəsi ilə əlaqədar, konfransda dediyim kimi, iqtisadiyyatımızı gəmiyə bənzədək. Gəmi o vaxt davamlı üzə bilər ki, o bölmələrdən ibarət olsun. Yəni, gəmi zədələnsə və 1 bölməyə su dolsa belə salamat bölmələrin hesabına üzməyə davam etsin. Eləcə də ölkə təkcə neft- qazdan asılı olmasın. Ölkə iqtisadiyyatı strukturunda sənaye, informasiya texnologiyaları, kənd təsərrüfatı, nəqliyyat, turizm, sair sahələr olsun və onların arasında səmərəli nisbət müəyyən edilsin. Əlbəttə planlı iqtisadiyyatdan fərqli olaraq bazar iqtisadiyyatında sərt bölgü ola bilməz. Amma mövcud alətlər- təşviqlə istiqamətləndirmək faydalı olar. Fikirləşirik ki, ümumilikdə iqtisadiyyatı bu cür sahələrə böldüyümüz kimi hər bir sahənin özü də şaxələrə bölünməlidir. Məsələn, kənd təsərrüfatı üzrə belə bir yanaşma olsun ki, strukturda dənli bitkilər, texniki bitkilər, bağçılıq, istixanalar, iri buynuzlu heyvadarlıq, xırda buynuzlu heyvandarlıq, quşçuluq və s arasında nisbət səmərəli olsun. Bunların balanslı şəkildə düzgün istiqamətləndirilməsi nəticəsində yəqin ki, bir sahənin inkişafı, digər sahənin tənnəzülünə gətirib çıxarmaz. Bu məsələ diqqətdə olmalıdır ki, bitkiçilik heyvandarlığımız hesabına inkişaf etməsin.

Azərbaycanın özünün ərzaq təhlükəsizliyi məsələsi var. Bir də var Azərbaycanın bəşəri ərzaq təhlükəsizliyində rolu. Məlumdur ki, bitkilər günəş enerjisini toplayır. Belə bir fikir də vardır ki, bu gün bitkilər günəş enerjisinin cəmi 2 faizini toplaya bilir. Əgər saglam genetikanın inkişafı nəticəsində bu göstərici 50 faizə çatdırılsa əhali artımını nəzərə almaqla belə Yer üzündə ərzaq problemi yüz illərlə olmaz. Bəs günəş enerjisini harada toplamaq olar? Əlbəttə günəş enerjisinin bol oldugu yerlərdə, məsələn Azərbaycanda. Norveç gözəl ölkədir, lakin günəş enerjisi azdır. Norvec kəndində günəş görünmədiyi üçün 2 güzgünü alt- alta qoyurlar ki, güzgünün biri işığı toplasın, biri də işığı kəndə ötürsün. 50 metr^2 ərazidə insanlar günəş enerjisini hiss edə bilsinlər. İndi görün ki, biz nə qədər böyük resursa sahibik. Vətənimiz isə günəşli Azərbaycan adlanır. Ona görə də bəşəri borcumuz var. Kənd təsərrüfatı məhsulları yetişdirək və ixrac edək. Ümumiləşdirərək deyə bilərik ki, ərzaq sahəsində olan pessimizmə qarşı bir islami kəlam dayanır. "Allah insanı dünyaya gətirəndə onun ruzisini də gətirir". Amma Karl Veber deyirdi ki, dünyada ən çətin sənət idarəetmə sənətidir. Resurslardan qənaətlə istifadə etsək Yer üzünü ərzaqla təmin etmək mümkündür. Və mən burada tükənməz təbii resurslardan istifadəni dəyərləndirmək üçün Sədi Şirazini yada salmaq istəyirəm. O deyir ki:

Sənə bir parça çörək vermək üçün çərxi-fələk,
Çalışır ayla günəş, göydə buludlarla, külək!

Bu resurslardan Azərbaycanda boldur. Qəbul olunmuş faktdır ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyində iştirak edir. Biz fikirləşirik ki, Azərbaycan bəşəriyyətin ərzaq təhlükəsizliyində iştirak edə bilər. Bunun üçün Azərbaycan kəndlisinə müraciət edirik. Ey Azərbaycan kəndlisi! Ey Azərbaycan kəndlisi, bəşəri təhlükəsizliyi qoru!

Fikrət Vəli oğlu QULİYEV
i.e.n., dos. AKU-nun Tədris işləri üzrə prorektoru

İSTEHLAK BAZARININ MARKETİNQ TƏDQİQİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Xülasə

Məqalədə istehlak bazarının marketinq tədqiqi ilə bağlı məsələlər işıqlandırılmışdır. İstehlak məhsulları istehsal edən müəssisələrin bazara adaptasiyasına dair elmi əsaslandırılmış təkliflər verilmişdir.

Açar sözlər: istehlak bazarı, marketinq tədqiqatları, bazar fəaliyyəti, istehlak məhsulları, bazarın tutumu.

***

Müəssisə və təsərrüfatların bazar fəaliyyətinə dair səmərəli strategiyaların işlənib hazırlanması onların məhsullarını təklif etdiyi bazarın marketinq tədqiqindən alınan informasiyalar əsasında mümkündür. Bu informasiyalar əsasında müəssisə və təsərrüfatlar özlərinin bazarla bağlı-

lıqlarını təmin etməyə və bazarın tələblərinə uyğunlaşmağa müvəffəq olurlar. Bu baxımdan mütəxəssislər marketinq tədqiqatlarını müəssisəni bazarla əlaqələndirən kommunikasiya kanalı da hesab edirlər. "Marketinq tədqiqatlarını firmanı xarici mühitlə əlaqələndirən kommunikasiya kanalı adlandırmaq olar. Bu tədqiqatlar firmanın marketinq planının səmərəlilik dərəcəsi haqqında informasiyanın alınması, ötürülməsi və işlənməsi üsuludur [4, s. 22].

Tanınmış rus iqtisadçı alimi və marketoloqu İ.K.Belyaevski marketinq təhlilinə dair yazır: "Marketinq təhlilində öz aralarında bir - biri ilə bağlı və qismən biri digərinə keçən iki başlıca istiqaməti ayırmaq olar: operativ (və yaxud əməliyyat) və strateji təhlil" [3, s. 94].

İ.K.Belyaevski operativ səviyyədə təhlilin bazar konyunkturasının qiymətləndirilməsindən başlandığını qeyd edir və buraya bazarın balanslılığının, onun miqyasının, proporsionallığının və tutumunun təhlilini, həmçinin bazarın inkişaf meylinin, inkişafın dayanıqlılığının və tsiklliyinin təhlilini aid edir.O, bazarın strateji təhlilinə dair yazaraq göstərir ki, əmtəə bazarının strateji təhlili firmanın ətraf mühitlə kompleks qarşılıqlı əlaqələrini aşkara çıxarır, o cümlədən bazarın firmanın marketinq tədbirlərinə cavab reaksiyasını qiymətləndirməyə imkan verir. İstehsal firmasının strateji təhlil fəaliyyətinə innovasiya proseslərinin, əmtəənin keyfiyyətinin və rəqabətqabiliyyətliliyinin öyrənilməsi daxil olur.

Göründüyü kimi, bazar, marketinq baxımından müxtəlif səviyyələrdə və müxtəlif xarakterli məsələlərin həlli məqsədilə təhlil edilə bilər.

İstehlak bazarının marketinq tədqiqinin məzmunu və xarakteri konkret şərtlərdən asılıdır, lakin buna baxmayaraq, sözügedən tədqiqatın aşağıdakı istiqamətlərini fərqləndirirlər: bazarın faktiki və potensial tutumu; bazarın artım tempi; bazarın mənfəətliliyi; bazar fəaliyyəti üçün tələb olunan məsrəflərin strukturu; məhsulları bölüşdürmə və satış sistemi; bazarda müşahidə olunan dəyişikliklər və meyillər; bazar fəaliyyəti üçün tələb olunan əsas müvəffəqiyyət amilləri.

İstehlak bazarının marketinq tədqiqinin başlanğıc nöqtəsi satışın mümkün ola biləcək ümumi həcminin müəyyənləşdirilməsidir. Bazarın ümumi həcmi haqqında məlumatlara malik olmaqla yanaşı, onun ayrı-ayrı seqmentlərinin tutumu haqqında məlumatlara malik olmaq çox lazımdır. Bu, onunla əlaqədardır ki, bəzən müəssisə və təsərrüfatların perspektiv inkişaf imkanları bütövlükdə istehlak bazarının potensial tutumundan deyil, onun konkret seqmentlərinin tutumundan asılı olur. Məsələn, aparılan tədqiqatlar göstərir ki, Azərbaycanın istehlak bazarının seqmenti kimi fəaliyyət göstərən ərzaq bazarının tutumu təqribən 2,0 dəfədən çox artım potensialına malikdir. Bu bazarın əsas növ məsul seqmentləri sırasında isə ən böyük artım potensialına malik seqment ət və ət məhsulları, süd və süd məhsulları, balıq və balıq məhsulları seqmentidir. Hazırda sadalanan məhsulların istehlakı əvvəllər mövcud olmuş səmərəli istehlak normalarından çox aşağıdır. Bu, qeyd edilən məhsul seqmentlərinin potensial tutumunun böyük olmasının göstəricisidir.

Bazarın həcmini və yaxud başqa sözlə desək, tutumunu dövlət təşkilatlarının və ticarət assosiasiyalarının məlumatları əsasında qiymətləndirmək mümkündür. Bu mənbələrdə istehsalın, istehlakın (məhsulların satışının), idxalın və ixracın həcmi haqqında məlumatlar müntəzəm olaraq dərc edilir.

İstehlak məhsulları bazarının ayrı-ayrı məhsul seqmentlərinin potensial tutumunun hesablanması üçün hər nəfərin bir il üzrə səmərəli istehlak normasından istifadə edilə bilər. Azərbaycanda bu normalar təsdiq edilmədiyinə görə ayrı-ayrı məhsul seqmentlərinin potensial tutumunun müəyyənləşdirilməsi mümkün olmur. Lakin keçmiş Sovetlər İttifaqında əsas götürülən səmərəli istehlak normalarına əsasən istehlak məhsulları bazarının ayrı-ayrı məhsul seqmentlərinin potensial tutumunun təqribi də olsa hesablanması mümkündür. Ölkəmizdə bu normaların minimum səviyyəsi ərzaq və qeyri - ərzaq məhsulları üzrə müəyyənləşdirildiyinə görə müvafiq məhsullar üzrə bazarın minimum tutumunun dinamikasını izləmək mümkündür.

Bazar potensialı haqqında məlumata malik olduqdan sonra, istehsal-satış fəaliyyətini marketinq prinsipləri əsasında həyata keçirən bu və ya digər müəssisə və yaxud təsərrüfat bazar fəaliyyətinin perspektivini görmək imkanlarına malik olur və həmin perspektivi reallaşdırmaq üçün marketinq planları və strategiyalar işləyib hazırlaya bilir. Bütün hallarda bazar fəaliyyəti üzrə müvəffəqiyyətli marketinq strategiyalarının işlənib hazırlanması bazarın marketinq tədqiqindən

alınan məlumatlar əsasında mümkündür. Ona görə də bazara uyğunlaşmaq və fəaliyyətinin davamlılığına nail olmaq istəyən hər bir müəssisə yuxarıda sadalanan istiqamətlər üzrə bazarın marketinq tədqiqi məsələlərinə fikir verməlidir.

İstehlak bazarının tutumu həm də mikro səviyyədə müəyyənləşdirilə bilər. Belə ki, hər bir müəssisə bu və ya digər bazarda sata biləcəyi məhsulun həcmini hesablamaqla öz bazarının tutumu və bazar payı haqqında məlumatlara malik ola bilər. Müəssisənin ticarət assosiasiyalarının məlumatlarına müraciət etməklə, rəqiblərin bazar fəaliyyəti və bazarların coğrafiyası haqqında məlumatlar əldə etməsi də mümkündür. İstehlak bazarına məhsul təklif edən müəssisəni maraqlandıran məhsulların satışı haqqında məlumatları həm də açıq maliyyə hesabatlarından, müştərilərdən və başqa bazar iştirakçılarından da əldə etmək olar.

Onu da qeyd edək ki, istehlak bazarının marketinq tədqiqi zamanı istehlakçıların sorğuları əsasında müəssisənin bazarının həcminin qiymətləndirilməsi və istehlakın səviyyəsinin proqnozlaşdırılması da mümkündür, lakin bu yanaşma daha çox əməktutumludur və daha çox məsrəflər tələb edir.

Müəssisə və təsərrüfatların bazar fəaliyyətinin səmərəliliyinin təmin olun ması baxımından bazarın tutumuna təsir edən amillərin öyrənilməsi də mühüm əhəmiyyət kəsb edir. İstehlak bazarının tutumuna təsir göstərən ən mühüm amillərə aşağıdakıları aid etmək olar: əhalinin sayı; əhalinin pul gəlirləri; qiymətlərin səviyyəsi; satış infrastrukturunun inkişafı; milli adət və ənənələr; gəlirlərin əhali təbəqələri arasında bölüşdürülməsinin xarakteri və s.

Yuxarıda sadalanan amillər əsas götürülməklə bazarın tutumu modelləşdirilə -bazarın tutumu ilə ona təsir edən amillər arasında asılılığın reqressiya tənliyi müəyyən edilə bilər.

İstehlak bazarının və onun ən mühüm seqmentlərinin tutumunun qiymətləndirilməsi ilə yanaşı, onun artım tempinin (gələcəkdə bazarda satışın mümkün ola biləcək həcminin satışın əvvəlki dövrdə həcminə nisbətinin faizlərlə ifadəsi) öyrənilməsi də mühüm əhəmiyyət kəsb edir. Artım tempi yüksək olan bazarlarda müəssisənin bazar payının artmadığı hallarda belə onun mənfəətinin artımı üçün imkanlar mövcud ola bilir. Bu baxımdan müəssisə və təsərrüfatlar tərəfindən istehlak bazarının bu və ya digər seqmentinin artım tempinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Bazarın bu istiqamətdə marketinq tədqiqindən alınan nəticələr müəssisənin və yaxud təsərrüfatın konkret bazarda qalıb-qalmamasına dair düzgün qərar qəbul etməyə imkan verir. Ola bilsin, istehlak bazarının konkret məhsul seqmentinin artım tempi müəssisəni qane etməsin. Bu halda müəssisə bazar fəaliyyəti üzrə imkanlarını onu artım tempi daha çox qane edən məhsul seqmentlərinə yönəldə bilər. Əlbəttə, bunun üçün müəssisənin həmin seqmentdə müvəffəqiyyətlə fəaliyyət göstərməsinə imkan verəcək aktivləri və kompetensiyaları olmalıdır.

İstehlak bazarına daxil olmaq istəyən hər bir müəssisə və yaxud təsərrüfat bazar fəaliyyətinin səmərəliliyini irəlicədən təqribi də olsa qiymətləndirməlidir. Hər bir müəssisə və təsərrüfat rəhbəri bazar fəaliyyətində istehlakçıların tələblərinin dolğun ödənilməsi ilə yanaşı, həm də geniş təkrar istehsalın həyata keçirilməsi üçün kifayət qədər mənfəət əldə edilməsini qarşıya məqsəd qoyur. Hər iki məqsədə eyni zamanda nail olunması elə də asan məsələ deyil və onların əlaqələndirilməsi aparılacaq tədqiqatın spektrinin daha da genişləndirilməsini tələb edir.Bu baxımdan bazarın mənfəətliliyinin tədqiqi mühüm əhəmiyyət kəsb edir və marketinq tədqiqatlarının istiqamətlərindən biri hesab edilir. Bu istiqamətdə tədqiqat gələcəkdə müəssisənin bazar fəaliyyətində meydana çıxa biləcək riskləri minimumlaşdırmağa imkan verir.

Amerika iqtisadçısı Maykl Porterə görə bu və ya digər sahənin(və yaxud bazarın) cəlbediciliyini (və yaxud cəlbedici olmamasını), eyni zamanda onun mənfəətliliyini(və yaxud mənfəətli olmamasını) beş amilin və yaxud qüvvənin təsiri şərtləndirir. Onlara aşağıdakılar aiddir: bazarda fəaliyyət göstərən (mövcud) müəssisələr; alıcıların bazar mövqeyi; malgöndərənlərin bazar mövqeyi; əvəzedici məhsulları bazara təklif edən müəssisələrin meydana çıxma təhlükəsi; bazara yeni iştirakçıların daxilolma təhlükəsi. Sadalanan bu qüvvələr və yaxud amillər istehlak bazarına məhsul təklif edən müəssisələrin marketinq tədqiqatlarının predmeti ola bilər. Bu qüvvələrin və yaxud amillərin ətraflı öyrənilməsi onların müəssisəyə təzyiqini azaltmağa imkan verən strategiyalar işləyib hazırlamağa imkan verir.

Yuxarıda sadalanan amillərin və yaxud qüvvələrin müəssisənin bazar fəaliyyətinə təsiri müəyyənləşdirildikdən sonra həmin fəaliyyətin səmərəli olub-olmayacağı haqqında qənaətə gəlmək mümkün olur. İstehlak bazarına məhsul təklif edən müəssisələrin mənfəət əldə edib - etməyəcəyi bu qüvvələrin təsirindən asılıdır.

İstehlak bazarında fəaliyyəti üçün tələb olunan məsrəflərin strukturu haqqında bilgilərə malikolma həmin bazar üzrə müəssisənin müvəffəqiyyətli fəaliyyətinə təsir edən amilləri müəyyənləşdirməyə imkan verir. Müəssisənin bazar fəaliyyəti üzrə müvəffəqiyyətinin əsas amillərini müəyyənləşdirmək üçün isə, istehlakçılar üçün dəyərin yaradılması zəncirinin (marketinq həm də istehlakçı üçün dəyərin yaradılması prosesi kimi izah edilir) təhlilinə ehtiyac yaranır. Bu təhlil nəticəsində dəyərin yaradılması prosesinin ayrı-ayrı mərhələlərində tələb olunan xərcləri müəyyənləşdirmək, daha çox xərc tələb edilən mərhələdə xərclərin səviyyəsinin optimallaşdırılmasına nail olmaq və beləliklə də rəqabət üstünlüyü qazanmaq mümkün olur.

Bazar fəaliyyətini bölüşdürmə və satış sistemi olmadan təsəvvür etmək mümkün deyil. Səmərəli bölüşdürmə kanalının mövcudluğu müəssisə və təsərrüfatların bazara əlyetərliliyini müəyyənləşdirən amillərdən biridir. Bu baxımdan, bazarın təhlili zamanı məhsulların bölüşdürülməsi və satış sisteminin öyrənilməsinə xüsusi fikir verilməlidir. Bazar nə qədər cəlbedici olsa da, müəssisə və təsərrüfatların həmin bazar üzrə məhsulları bölüşdürmə və satış sistemi yoxdursa, onda həmin bazar üzrə həmin müəssisə və təsərrüfatların fəaliyyətinin perspektivi də yoxdur. Məhsulların bölüşdürülməsi sistemi öyrənilən zaman hansı alternativ bölüşdürmə kanalının mövcud olduğu müəyyənləşdirilməli, bu kanallarda nə kimi dəyişikliklərin baş verdiyi aşkara çıxarılmalı, bu və ya digər kanaldan istifadə zamanı kanal iştirakçılarından kimin mövqeyinin güclü olduğu və hansı yeni kanalın meydana gəldiyi aydınlaşdırılmalıdır.

Müəssisənin xarici marketinq mühitinin təhlilinin ən mühüm istiqamətlərindən biri bazarın inkişaf meylinin təhlilidir. Bazarın inkişaf meylinin təhlili prosesində sahədə hansı dəyişiklikər baş verdiyi və bu dəyişikliklərin nə dərəcədə əhəmiyyətli olduğu müəyyənləşdirilməlidir. Bu aspektdə təhlil müəssisə və təsərrüfatların bazar fəaliyyətinin dayanıqlılığı və davamlılığı baxımdan strateji əhəmiyyət kəsb edir. Bazarın inkişaf meyli haqqında hərtərəfli təsəvvürə malik olmaq üçün istehlakçıların, rəqiblərin və başqa bazar subyektlərinin təhlilinin nəticələrinin ümumiləşdirilməsinə ehtiyac olur.

İstehlak bazarının marketinq tədqiqi zamanı həmin bazarda fəaliyyət göstərmək üçün tələb olunan aktivlər və kompetensiyalar (səriştə və bacarıqlar) da öyrənilə bilər. Bu aktivlərin və kompetensiyaların mövcudluğu sayəsində müəssisənin bazar fəaliyyətinin davamlılığını təmin etmək mümkün olur.

ƏDƏBİYYAT

1. Анурин В. и др. Маркетинговые исследования потребительского рынка. Уч. пос. М., 2004, Учебное издание, 269 с.
2. Арман Дейан. Изучение рынка. Санкт-Петербург, Издательский дом «Нева», 2003.
3. Беляевский И.К. Маркетинговое исследование. М., 2002.
4. Гилберт Черчилль А. Маркетинговые исследования. - СПб: Питер, 2000.
5. Голубков Е.П. Маркетинговые исследования: теория, практика и методология.- М.: Финпресс, 2000.

Фикрет Вали оглы Гулиев,
к.э.н., доц. проректор по учебной части АУК

Основные направления маркетенговых исследований потребительского рынка

Резюме

В данной статье рассматриваются вопросы маркетинговых исследований потребительского рынка. Также даны научно-обоснованные предложения по адаптации предприятий к рынку, которые производят потребительские товары.

Ключевые слова: потребительский рынок, маркетинговые исследования, рыночная деятельность, потребительские товары, объем рынка.

Fikret Vali Guliyev
Ph.D., ass. prof. of economics Vice-Rector
for the academic part ACU

Main Directions of Research of consumer market

Summary

The given article deals with marketing research problems of consumer market. Scientifically based proposals for adaptation of enerprises to the market that produces common consumption goods have also been given.

Key words: consumer market, market, market activity, common consumption goods, market volume.

Tahir Şükür oğlu ŞÜKÜROV
i.e.n., dosent, Azərbaycan Kooperasiya Universiteti,

Rəfail Şükür oğlu ŞÜKÜROV
i.e.n.,dosent, Azərbaycan Texnologiya Universiteti

ƏRZAQ TƏHLÜKƏSİZLİYİ DÖVLƏTİN MİLLİ İQTİSADİ TƏHLÜKƏSİZLİYİNİN ƏSAS ELEMENTLƏRİNDƏN BİRİ KİMİ

Xülasə

Məqalədə Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsinin dövlət siyasətinin məzmunu, ölkədə kənd təsərrüfatının vəziyyəti və inkişaf perspektivləri, inkişaf etmiş xarici ölkələrin təcrübəsi və ərzaq təhlükəsizliyinin təminatı üçün ölkənin qarşısında duran vəzifələrə baxılmışdır.

Müəlliflər tərəfindən, ərzaq təhlükəsizliyinin yalnız kompleks yanaşma çərçivəsində qanunvericilik səviyyəsində təminatının mümkünlüyü əsaslandırılmışdır. Ölkənin daxili resurslarla təchizatı hesabına ərzaq təhlükəsizliyinin təminatının əsas metodları, ixrac mallarının əsaslandırılmış həcmi və ölkənin ASK sahələrinin inkişaf səviyyəsi və sürəti göstərilmişdir.

Açar sözlər: ərzaq təhlükəsizliyi, kənd təsərrüfatı, iqtisadiyyat, aqrar-sənaye kompleksi, milli iqtisadi təhlükəsizlik.

Ərzaq təhlükəsizliyi dövlətin aqrar və iqtisadi siyasətinin başlıca məqsədlərindən biridir. O, hər hansı milli ərzaq sisteminin ideal vəziyyətə gətirilməsi istiqamətini formalaşdırır. Bu mənada ərzaq təhlükəsizliyinə cəhd etmək fasiləsiz bir prosesdir. Bununla yanaşı, ona nail olmaq üçün aqrar siyasətin inkişaf prioritetində və icta mexanizmində qismən dəyişiklik baş verir.

"Ərzaq təhlükəsizliyi" dedikdə ölkənin iqtisadi və aqrar-sənaye kompleksinin elə vəziyyəti başa düşülür ki, daxili və xarici şəraitlərdən asılı olmayaraq məskunlaşma mühitini qorumaq və yaxşılaşdırmaqla ölkə əhalisinin elmi cəhətdən əsaslandırılmış normadan aşağı olmayan həcmdə əlverişli qiymətlərlə sağlamlıq üçün fasiləsiz ekoloji təmiz və faydalı qida məhsulu alması mümkün olur. [4, səh. 3]

Ərzaq təhlükəsizliyi artıq dünya təcrübəsində qəbul edilmiş və hazırda geniş istifadə olunan anlayışdır. O, mahiyyətcə, ölkənin ərzaq bazarını, eyni zamanda, milli iqtisadiyyatın mövcud vəziyyətini səciyyələndirir. Beynəlxalq səviyyədə ərzaq təhlükəsizliyi terminindən ilk dəfə olaraq 1972-1973-cü illərdən, yəni dünyanı bürümüş taxıl böhranından sonra istifadə edilmişdir. [3, səh. 12]

1996-cı ildə İtaliyada qəbul edilmiş "Ümumdünya ərzaq təhlükəsizliyi" üzrə Roma Bəyannaməsi"ndə hər bir insanın sağlamlıq və tam dəyərli qida məhsulu ilə təhlükəsizliyinə imkan verən hüququnu təmin etmək hər bir dövlətin borcu olduğu göstərilmişdir. Bu görüşdə formalaşmış ərzaq təhlükəsizliyi anlayışının məzmununa fiziki və iqtisadi imkanlar, milli ərzaq sisteminə iqtisadi müstəqillik, coğrafi amillərin təsirinin minimumlaşdırılması və milli ərzaq sisteminin geniş təkrar istehsal rejimində sabitliyi və s. kimi elementlər daxil edilmişdir.

BMT-nin Ümumdünya Ərzaq Təhlükəsizliyi Proqramı - (ÜƏP-World Food Proqramme-WFP) əhalini ildə 4 mln. tona yaxın qida məhsulu ilə təmin edən və əsası 1963-cü ildə qoyulmuş dünyada ərzaq yardımı üzrə orqan kimi, iri humanitar təşkilatdır. Bununla yanaşı, BMT-nin Ərzaq və Kənd təsərrüfatı Təşkilatının (FAO) da əsas vəzifəsi dünyada ərzaq təhlükəsizliyi və aclıqla mübarizədən ibarətdir.

Bütün dövrlərdə əhalinin ərzaq təminatı dünya dövlətlərinin milli iqtisadi təhlükəsizliyinin çox mühüm aktual problemlərindən biri olaraq qalmışdır. Ərzaq təhlükəsizliyi-milli təhlükəsizliyin tərkib və mühüm hissəsi kimi, əsas qida məhsullarının dayanıqlı istehsalını və onların əhali üçün əlçatan olmasını təmin edir. O, hər şeydən əvvəl, çox mühüm insan hüquqlarının təminatının sosial istiqamətlərini əks etdirir. Bu cəhətdən ərzaq təhlükəsizliyi həyat təminatının mühüm əsası kimi çıxış edir. Dünyanın inkişaf etmiş ölkələrində ərzaq təhlükəsizliyinin təminatı dövlətlərin aktiv iştirakı ilə mühüm milli prioritet kimi qəbul edilir. Əsas qida məhsulları ilə özünütəminat səviyyəsi ABŞ, Fransa, Almaniya və digər ölkələrdə 100 faiz və daha yuxarı təşkil edir. [4, səh. 48]

"Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının üçüncü ilinin yekunlarına həsr olunan komfransda Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin yekun nitqində söylədiyi kimi, ölkənin ərzaq təhlükəsizliyi ilə bağlı məsələlər daim diqqət mərkəzindədir. Bizim əsas ərzaq məhsulları ilə özümüzü təminetmə səviyyəsi mal əti üzrə-94 faiz, qoyun əti üzrə-99 faiz, süd və süd məhsulları üzrə-88 faiz, yumurta üzrə-99 faiz, kərə yağı-76 faiz, buğda-53 faiz, arpa-102 faiz, qarğıdalı-71 faiz, meyvə və giləmeyvə üzrə 122 faiz, bütün növ tərəvəz üzrə-96 faiz, kartof üzrə-86 faiz, şəkər və şəkərdən hazırlanan məhsullar üzrə isə-115 faiz olmuşdur. Bu rəqəmlər ölkəmizin ərzaq təhlükəsizliyinin təminatı sahəsində qazandığı böyük uğurları təsdiq edir.

Azərbaycan Prezidentinin "Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" 16 yanvar 2014-cü il tarixli Sərəncamı, "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların qiymətləndirilməsi ilə bağlı tədbirlər haqqında" 16 aprel 2014-cü il tarixli Fərmanı, 2015-ci ilin Azərbaycanda "Kənd təsərrüfatı ili" elan edilməsi barədə müvafiq Sərəncamı, "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" və son illərdə verilmiş digər Fərman və Sərəncamlarında ərzaq təhlükəsizliyinin əsas şərti kimi, əhalinin ərzağa olan tələbatının tam ödənilməsi və bununla da qida məhsullarının normal səviyyədə istehlakı, onların yaxşılaşdırılması və əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsi və s. mühüm dövlət və sosial əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

Aqrar sahəyə göstərilən dövlət dəstəyi tədbirləri nəticəsində 2003-2017-ci illərdə Azərbaycandan ixrac olunan kənd təsərrüfatı məhsullarının həcmi 6,3 dəfə, o cümlədən meyvə-tərəvəz məhsullarının ixracı 10,4 dəfə artmışdır. Kənd təsərrüfatı sahəsində çalışan təxminən 32 min sahibkara dövlət büdcəsi vəsaiti hesabına 1,5 mlrd. manat həcmində kredit verilmiş, ölkədə yaradılmış 32 fermer təsərrüfatı layihəsinə 70,5 mln. manat güzəştli kredit ayrılmış və hazırda 45 aqroparkın yaradılması istiqamətində intensiv işlər aparılır. [3, səh.13]

Yaradılmaqda olan bu aqroparklardan 28-i bitkiçilik, 17-si heyvandarlıq kompleksidir. Bütün bunlar, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinə və ixrac imkanlarının genişlənməsinə təkan verəcəkdir. FAO-nun ərzaq təhlükəsizliyinə verdiyi tərifə görə, bu, qəbul edilmiş fizioloji normalar üzrə bütün əhali təbəqəsini qida məhsulları ilə təmin edən fəaliyyət sistemidir. [4, səh. 5] Bu, istehsal üçün daxili şəraitin olmadığı qida məhsulları üzrə zəruri idxalın optimallaşdırılması, öz istehsalı hesabına əhalinin tələbatının ödənilməsi, həmçinin əmək haqqı, pensiya və ərzaq yardımı hesabına qida məhsullarına imkanları nəzərdə tutur.

Kənd təsərrüfatı əhalinin ərzaq təminatına və bir sıra sənaye sahələri üçün xammal alınmasına yönəlmiş iqtisadiyyatın əsas sahələrindən biridir. FAO-nun məlumatına görə, dünya kənd təsərrüfatında 1 milyarda yaxın iqtisadi fəal əhali çalışır. Dövlətin ərzaq təhlükəsizliyi sahənin vəziyyətindən asılıdır.

ABŞ və Avropa İttifaqı (Aİ) ölkələri dünyada kənd təsərrüfatı məhsullarının istehsalı və istehlakında aparıcı dövlətlərdir.

Kənd təsərrüfatı istehsalının inkişafı və məhsuldarlığı ölkə iqtisadiyyatının tənzimlənməsinə, siyasi şəraitə və onun ərzaq müstəqilliyinə təsir edir. Bununla yanaşı, bu sahə digər sahələrlə tam rəqabət aparmaq qabiliyyətində deyil. Odur ki, aqrar sahənin, o cümlədən ərzaq təhlükəsizliyinin təminatının aparıcı sahəsi olan kənd təsərrüfatı istehsalının inkişafına dövlət dəstəyi kimi, bazar qiymətlərini tənzimləməklə istehsalın rentabelliyini təmin etmək, subsidiyaların ayrılması, kompensasiya ödəmələri və ya sığorta, kəndlilərin (fermerlərin) güzəştli kreditləşməsi və vergiqoyma, elmi-tədqiqat, təhsil və kənd təsərrüfatı işçilərinin ixtisasının artırılmasının maliyyələşdirilməsi, birbaşa xarici investisiyanın cəlb edilməsi, kənd infrastrukturunun inkişafı, torpağın rekultivasiyası və irriqasiya layihələri və normativ-hüquqi aktların hazırlanması prosesləri daim təkmilləşdirilməlidir.

Bir çox inkişaf etmiş ölkələrin təcrübəsi təsdiq edir ki, kənd təsərrüfatı istehsalçılarına dövlət dəstəyi aqrar siyasətin prioritetidir. Aİ ölkələrində son illər kənd təsərrüfatına yararlı sahə üçün hər hektara görə-300 dollar, Yaponiyada-473 doll./ha, ABŞ-da-324 doll./ha, Kanadada-188 doll./ha və Rusiyada isə-10doll./ha təşkil etmişdir.

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə ümumi kənd təsərrüfatı məhsullarının dəyərindən istehsalçılara məcmu büdcə dəstəyi 32-35 faiz təşkil etdiyi halda, Rusiyada və inkişaf etməkdə olan ölkələrdə bu göstərici 7 faizdən çox deyildir. [1]

Ölkə iqtisadiyyatında və ya regionlarda kənd təsərrüfatının rolu onun quruluşu və inkişaf səviyyəsini göstərir. Bu göstərici isə əsasən iqtisadi fəal əhali arasında kənd təsərrüfatında məşğul olanların payı, həmçinin ümumi daxili məhsulun quruluşunda kənd təsərrüfatının xüsusi çəkisi ilə müəyyən edilir. Belə ki, 2016-cı ildə Azərbaycanda iqtisadi fəal əhalinin ümumi sayından məşğul olanlar 1729,6 min nəfər və ya sonuncunun payı 36,3 faiz və ümumi daxili məhsul 60.393,6 mln.man., kənd təsərrüfatı məhsulları 5873,5 mln.man. və ya ümumi daxili məhsulun quruluşunda sonuncunun xüsusi çəkisi-9,7 faiz təşkil etmişdir. [2, səh.39, 40;101-104]

Bu göstəricilər iqtisadi fəal əhalinin yarıdan çoxunun kənd təsərrüfatında məşğul olduğu bir sıra inkişaf etməkdə olan ölkələrdə olduqca çox yüksəkdir.

Nəzərə almaq lazımdır ki, ölkəmizdə əhalinin 47 faizi kənd yerlərində yaşayır. Bu baxımdan, hər bir ölkənin ərzaq təhlükəsizliyi milli iqtisadi təhlükəsizliyinin əsas elementlərindən biridir. Ərzaq təhlükəsizliyi həm də ölkənin ərzaq təminatı sahəsində müstəqilliyini, dövlətin iqtisadi və sosial dayaqlarının nə dərəcədə möhkəm olmasını xarakterizə edir. Son 5 ildə, ölkəyə gətirilən ərzaq məhsulları ümumi idxalın orta hesabla 14-15 faizi arasında dəyişir. Dünya təcrübəsinə əsasən ərzaq təhlükəsizliyi ərzaq təminatı sahəsində ölkənin nə dərəcədə müstəqil olması meyarına görə qiymətləndirilir. Bu meyara əsasən idxal olunan ərzaq məhsulunun həcmi məhsulun ölkə üzrə istehlakının 30 faizindən çox olmamalıdır. [3, səh.12]

Müxtəlif qiymətləndirmələrə görə, hal-hazırda respublikamızda ərzaq təhlükəsizliyinin səviyyəsi 50-60 faiz təşkil edir.

DSK-nın məlumatına əsasən Azərbaycanda 2016-cı ildə 2010-cu ilə nisbətən bütün təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatının ümumi məhsulu 45,3 faiz, buğda ehtiyatları və istifadəsi 22 faiz və bütün növ mal-qara və quş ətinin ehtiyatları və istifadəsi-20,1 faiz artmışdır. [2, səh. 504]

Ümumiyyətlə, ölkədə ərzaq təhlükəsizliyinin yaxşılaşdırılması üçün ASK-nın fəaliyyətinin normativ-hüquqi bazasının daha da təkmilləşdirilməsi, ərzaq təminatının vəziyyəinin monitorinqi, proqnozlaşdırılması və nəzarətin həyata keçirilməsi, ölkənin iqtisadiyyatının dünya ərzaq bazarındakı dəyişikliyə dayanıqlığının qiymətləndirilməsi, qida məhsullarının idxalından asılı olaraq şəhər və regionların sabit ərzaq təminatının müəyyən edilməsi və ərzaq təhlükəsizliyinin təminatı sferasında dövlət informasiya resurslarının formalaşdırılması istiqamətində fəaliyyət genişləndirilməlidir.

Ölkənin ərzaq təhlükəsizliyi yalnız kompleks yanaşma çərçivəsində təmin edilə bilər. Bunun üçün, baza elementləri qanunvericilik səviyyəsində möhkəmləndirilməlidir.

Bütün inkişaf etmiş ölkələrdə-Almaniya, Fransa, İsveçrə, ABŞ, həmçinin Çində, Belarusda və s. ərzaq təhlükəsizliyi haqqında qanun qəbul edilmişdir.

Dünya standartlarına görə, dövlətin ərzaq təhlükəsizliyinin təminatı ölkədə istehlak edilən qida məhsullarının 80 faizindən az olmayaraq ölkənin öz aqrar sektorunda istehsalı, kənd təsərrüfatına dövlətin daimi dəstəyi, əhalinin gəlirlərinin elmi-cəhətdən əsaslandırılmış normaya uyğun qida məhsulları almaq imkanlarına uyğun şərtlərə cavab verməlidir. Bu norma ildə adambaşına ət və ət məhsulları üzrə-81 kq və süd məhsulları üzrə 400 kq müəyyən edilmişdir. [5, səh. 2]

Ərzaq təhlükəsizliyi üzrə Ümumdünya Sammitinin (2009-cu il, 16-18 noyabr, Roma) qiymətləndirməsinə əsasən 2050-ci ildə dünya əhalisinin sayının 9 mlrd. nəfərdən çox artacağı nəzərə alınmaqla kənd təsərrüfatı məhsullarının istehsalının həcmini həmin ildə 70 faiz artırmaq tələb olunur.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi cəmiyyətdə dayanıqlı sosial mühiti formalaşdırır. Regionlarda zəruri ərzaq ehtiyatlarının olmaması əhalinin narazılığına səbəb ola bilər ki, bu da ölkənin milli iqtisadi təhlükəsizliyini təmin edən mühüm struktur elementlərin əsas problemi hesab edilməlidir.

Ərzaq təhlükəsizliyinin təmin edilməsinin əsasında bütünlükdə ASK-nın bitki və heyvanların yetişdirilməsindən onun istehsal vasitələri ilə təminatı və son məhsulun satışınadək təşkili durur. Bu problemlər əmək resursları, xammal, material və s. kimi problemləri əhatə edir.

FAO ekspertləri dünya ərzaq təhlükəsizliyinin vəziyyətini taxılın dünya ehtiyatları və onun adambaşına düşən həcminə görə qiymətləndirirlər. Bu təhlükəsizlik ikiaylıq müddətə görə, ümumi istehlakın 17 faizinə bərabər olan keçid ehtiyatı hesab edilir. Bu səviyyə 17 faizdən aşağı olduqda, taxılın dünya qiymətlərinin artımına səbəb olur. Müxtəlif ölkələrdə ərzaq ehtiyatlarının böhranlı səviyyəsi fərqli müəyyən edilir. Bu, ABŞ-da orta illik istehlakın 40 faizi kimi qəbul edilmişdir.

Hər hansı ölkənin ərzaq təhlükəsizliyi hərbi və milli təhlükəsizliklə yanaşı, həm də onunla birlikdə dövlətin müstəqilliyini təmin edir və onun etibarlı mövcudluğuna xeyli dərəcədə təminat verir.

Təbiidir ki, əksər dövlətlər çox vaxt yüksək xərclərə baxmayaraq, öz ölkələrinin ərzaq təhlükəsizliyini təmin etməyə çalışırlar.

Azərbaycanda, 2016-cı ildə əhalinin hər nəfərinə düşən qida məhsullarının istehlakı ət və ətə çevrilməklə ət məhsulları üzrə-33,5 kq, süd və süd məhsulları-270,7 kq, yumurta-158 ədəd, tərəvəz və bostan məhsulları-106,6 kq və çörək məhsulları-138,3 kq təşkil etmişdir. Həmin ildə ölkədə kənd təsərrüfatı məhsulları və ərzağın ən mühüm növləri əhalinin hər nəfərinə 310 kq taxıl, o cümlədən-187 kq buğda, 94 kq kartof, 180 kq tərəvəz və bostan, 54 kq ət (diri çəkidə), 200 kq süd və 167 ədəd yumurta istehsal edilmişdir. Müqayisə edilən dövrdə əhalinin ərzaq məhsullarına sərf etdiyi istehlak xərclərinin xüsusi çəkisi qeyri-ərzaq məhsullarının xeyrinə 2010-cu ildəki 48,2 faizdən 40,5 faizə enmişdir. Bununla yanaşı, əhalinin ərzaq məhsulları, içkilər və tütün məmulatlarına tələbinin ödənilmə səviyyəsi 2010-cu ilə nisbətən 2016-cı ildə 75,8 faiz yüksəlmişdir. Pərakəndə ticarət dövriyyəsində bu məhsulların xüsusi çəkisi 49,9 faiz olmuşdur.

Ölkədə taxılçılıq və heyvandarlıq ərzaq təhlükəsizliyini təmin edən əsas strateji sahələrdir. Respublikamızda əhalinin buğda ilə özünütəmin səviyyəsi 53 faiz, ət və süd məhsulları ilə özünütəmin səviyyəsi isə təqribən 80-90 faiz təşkil edir.

Ümumiyyətlə, ölkədə aqrar sahənin inkişafı və kənd təsərrüfatı istehsalçılarına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi ərzaq təhlükəsizliyinin təminatı üçün mühüm əhəmiyyət kəsb edir. ASK tam olaraq aqrar sektoru, kənd təsərrüfatı məhsullarının emalını, istehsal vasitələri bazarını özündə birləşdirir.

Əgər ölkədə istehlak edilən ərzağın 100 faizi və daha çoxu istehsal edilirsə, onda tam ərzaq təhlükəsizliyi təmin edilmiş hesab edilir. İstehsalın intensivləşməsi yüksək olduqca, dotasiya da yüksək olur. ABŞ-da dövlətin dotasiyası realizə olunan məhsulun dəyərinin 25-30 faizinə çatır.

Beləliklə, ərzaq təhlükəsizliyinin təminatı sferasında sosial-iqtisadi siyasətin aparılması milli iqtisadi təhlükəsizliyin mühüm tərkib hissəsi kimi, Azərbaycanın ərzaq təhlükəsizliyini təmin etməyə, ölkənin iqtisadiyyatı üçün yarana biləcək təhlükə və riskləri proqnozlaşdırmağa və qarşısını almağa, onun dayanıqlığını yüksəltməyə, ölkənin ASK-nın dinamik inkişafı üçün şərait yaratmağa və əhalinin rifah halının yaxşılaşdırılmasına imkan verəcəkdir.

ƏDƏBİYYAT

1. Продовольственная безопасность. Материалы из Википедия. ру.wикипедиа. org./wiki/2018.
2. Azərbaycanın Statistik Göstəriciləri-2017, Bakı, 2017 səh. 39, 40; 101,104.
3. Mehdiyev R. Prezident İ.Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri. "Azərbaycan" qəzeti 17.04.2018, № 85, səh.12.
4. Ларионов В.Г. Продовольственная безопасность России. Продовольственная политика и безопасность-2015, том 2,- № 1 стр.48.
5. Продовольственная безопасность страны /красвремйа.ру/31 май 2014

Тахир Шукюр оглы Шукюров
к.э.н., доц. Азербайджанский
Университет Кооперации, проректор,

Рафаэль Шукюр оглы Шукюров
к.э.н., доц. Азербайджанский
Технологический Университет

Продовольственная безопасность как одно из основных элементов национальной экономической безопасности государства.

Резюме

В статье рассматривается содержание государственной политики обеспечение продовольственной безопасности Азербайджана, состояние и перспективы развития сельского хозяйства страны, опыт развитых зарубежных стран и задачи, состоящие перед страной для обеспечения продовольственной безопасности.

Автором обоснован тот факт, что в настоящее время продовольственная безопасность страны может быть обеспечена только в рамках комплексного подхода, при этом ее базовые составляющие должны быть закреплены на законодательном уровне.

Показаны основные методы обеспечения продовольственной безопасности за счет снабжения страны собственными ресурсами, обоснованным объемом импортных поставок, уровнем и темпами развития отраслей АПК страны.

Ключевые слова: продовольственная безопасность, сельское хозяйство, экономика, агропромышленный комплекс, национальная экономическая безопасность.

Tahir Shukur Shukurov
PHD of economics, senior lecturer
Azerbaijan Cooperation University,

Rafael Shukur Shukurov
PHD of economics, senior lecturer
Azerbaijan Technology University

Food security is one of the main elements of national economic security of government

Summary

The content of government policy provision of food security of Azerbaijan, the condition and perspectives of progress of agriculture of the country, the experience of developed foreign countries and the tasks that stand in front of government fir the provision of food security have been issued in the article.

The author has showed the fact that nowadays the food security of the country can be provided only in the frame of complex approach, and due to this its base components should be secured by legal level.

The main methods of provision of food security by means of provision of country by own resources that based on the extent of import supply by the level and tempus of the development of branches of agro industrial complex have been showed in the article.

Key words: food security, agriculture, economy, agro-industrial complex, national economic security.

Elsevər Nəriman oğlu KƏRİMOV
Azərbaycan Kooperasiya Universitetinin
"Doktorantura və magistratura" şöbəsinin müdiri, i.f.d., dosent;

Namiq Məhəmmədəli oğlu MƏNSURLU
"Bakı Biznes və Kooperasiya Kolleci" nin
"Mühasibat uçotu və maliyyə işi" şöbəsinin müdiri, i.f.d.

ƏRZAQ TƏHLÜKƏSİZLİYİ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏZAHÜR FORMASI KİMİ

Xülasə

Milli iqtisadiyyatın və milli bazarın formalaşması ölkənin iqtisadi təhlükəsizliyinin maddi əsasıdır. Müasir dünyada baş verən ərzaq problemi böhranı bu mühüm sahənin hərtərəfli şəkildə inkişaf etməsini zəruri edir. Tezisdə ərzaq təhlükəsizliyinin nəzəri əsasları və praktiki məsələləri təhlil edilir və inkişaf istiqamətləri göstərilir.

Açar sözlər: milli iqtisadiyyat, təzahür forması, iqtisadi islahatlar.

Giriş

İqtisadi təhlükəsizliyin əsas təzahür forması ərzaq təhlükəsizliyidir. Hər bir milli iqtisadiyyat ərzaq təhlükəsizliyini təmin etmək üçün əhalinin yaşayışının əsasını təşkil edən əsas ərzaq məhsullarını özü istehsal etməlidir. Çünki, əsas ərzaq məhsullarının xaricdən gətirilməsi bir tərəfdən ölkənin digər ölkə və ölkələrdən bu və ya digər dərəcədə asılı vəziyyətə düşməsinə səbəb olur. Digər tərəfdən isə xaricdən gətirilmiş əsas ərzaq məhsulları əhalinin sağlamlığına tam təminat vermir. Belə ki, bir tərəfdən onlar xeyli köhnəlmiş və öz keyfiyyətini itirmiş olur. Digər tərəfdən isə bir çox coğrafi mühitdə yetişmiş ərzaq məhsulları digər coğrafi mühitdə yaşayan insanlar üçün bioloji cəhətdən o qədər də faydalı deyildir. Buna görə də milli iqtisadiyyat əhalinin əsas \rzaq məhsullarına olan tələbatını mümkün qədər daxili istehsal hesabına ödəməlidir. Ərzaq təhlükəsizliyinin təmiin edilməsi sosial-iqtisadi səmərəliliyin göstəricisi olan əhalinin həyat səviyyəsinin yüksəlməsinə səbəb olur. Akademik A.V.Yablokovun fikrincə, istifadə edilən ərzaq məhsullarının böyük bir əksəriyyəti insan sağlamlığı üçün, xüsusən riskli əhali qrupları üçün bu və ya digər dərəcədə təhlükəli xarakter daşıyır. Ərzaq məhsullarının tərkibində olan konsorgen maddələrin, nitratların və digər təhlükəli kimyəvi maddələrin miqdarına bu ərzaq məhsullarının radioaktivliyi səviyyəsinə ciddi nəzarət sisteminin tətbiqi olduqca vacibdir. Bir faktı nzərər almaq lazımdır ki, inkişaf etmiş ölkələr öz ölkələrində çirkli ərzaq məhsullarından istifadəyə qadağa tətbiq etsələr də, belə məhsullarının ixracına icazə verirlər. Bu mənada hər bir ölkədə ərzaq məhsullarının keyfiyyətinə ciddi nəzarət sisteminin tətbiqi, nəzərat metodlarından işlənib hazırlanması, bu sahədə sistemin yenidən qurulması, informasiya aclığının təmin edilməsi strateji əhəmiyyət kəsb edir.

Bildiyimiz kimi "ərzaq təhlükəsizliyi – dövlət və cəmiyyət tərəfindən əhali-nin həmişə aktiv və sağlam həyat tərzini saxlamaq üçün, müəyyən edilmiş keyfiyyət standartları çərçivəsində əsas qida məhsullarına olan tələbatının fasiləsiz, uzunmüddətli ödənilməsini təmin edən tədbirlər kompleksini nəzərdə tuitur. Ərzaq təhlükəsizliyinin hüquqi əsasını ölkə konstitusiyasi təşkil edir və hər bir ölkənin milli ərzaq müstəqilliyinə əsaslanır. Ölkənin milli ərzaq suverenliyi - baş verə biləcək hər hansı fövqəladə vəziyyətlər zamanı, dövlətin əhalini ərzaq və qida

məhulları ilə təmin etmək imkanına, eləcə də hər kəsin əsas ərzaq məhsulları əldə et-mək üçün fiziki, sosial və iqtisadi imkanlara malik olması deməkdir"[1, s. 178].

Ərzaq problemi təkcə kənd təsərrüfatı çərçivəsində həll olunan məsələ deyildir. Ərzaq tə-minatında aqrar sahənin payı, ölkənin texnoloji baxımından hansı inkişaf səviyyəsində olma-sından bilavasitə asılıdır. Ərzaq bazarının vəziyyəti isə, öz növbəsində aqrar bölmənin fəaliyyət ahəngdarlığına mühüm təsir imkanına malikdir. Ərzaq bazarının fəaliyyətini xarakterizə edən göstəricilər, xüsusilə, qiymətlər, istehlak səbətinin dəyəri, fermerlərin gəlirləri kimi göstəricilər - aqrar sahənin inkişaf strategiyasını bu və ya digər zaman kəsiyində hansı prioritetlər əsa-sında reallaşmasından asılı olaraq formalaşır.

Aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, dövlətin ərzaq təhlükəsizliyi o vaxt təmin edilmiş hesab edilir ki, ölkə ərazisinə xaricdən ərzaq məhsullarının daxil olması dayan-dıqda ərzaq böhranı baş verməsin və bazarda satılan kənd təsərrüfatı xammalının və ərzağın ümumi həcmində yerli istehsal taxıl üzrə -90%, kartof 95, şəkər-80, bitki yağı-80, ət və ət məh-sulları, süd və süd məhsulları -85-90, balıq və balıq məhsulları üzrə - 80 faizdən az olmasın. Ərzaq məhsulalrına olan ümumi tələbatı yerli istehsal hesabına ödəmək üçün bu parametrlər nəzərə alınmaqla əhalinin sayı və adambaşına düşən əsas ərzaq məhsulları normaları əsasında istehsal ediləcək kənd təsərrüfatı məhsullarının həcmi müəyyən olunur. Adambaşına ərzaq norması hər bir ölkənin iqtisadi vəziyyətindən, iqlim və ərazi şəraitindən, peşəkar ənənələrin-dən, hansı qurşaqda yerləşməsindən və s. asılı olaraq insanların normal yaşaması və səmərəli fəaliyyət göstərməsinə imkan verən hansı məhsuldan nə qədər qəbul etməsi normaları əsasında müəyyən edilir. Bu halda hər bir insanın gün ərzində qəbul edəcəyi enerji kkalori nəzərə alınır. Bu göstərici dünya ölkələri üzrə 1961-1963-cü illərdə 2300, 1990-1992-ci illərdə 2710 və 2010-cu ildə 2860 kkalori, 2017-ci ildə 2953.3 kkalori olmuşdur. FAO-nun hesablamasına görə gündə 1760-1836 kkalori qəbul edilməsi ölkədə kifayət qədər qida maddəsinin qəbul edilməməsinin və ya aclığın göstəricisidir [2, s. 8].

Ərzaq təhlükəsizliyinin təminatı problemlərinin tədqiqi göstərir ki, ölkəmizdə də müasir qlobal çağırışlara uyğun olaraq, bu istiqamətdə yeni strategiyanın işlənməsi və müvafiq doktrinanın ha-zırlanmasına ehtiyac vardır. Qeyd olunmalıdır ki, ölkədə genişmiqyaslı aqrar islahatlar prosesi aparılmışdır. İndi müvafiq sektorda islahatların yeni mərhələsinə keçid edilmişdir. Bu keçidlə bağlı aqrar sektorun strukturu və idarəetmə şəbəkəsi bazar iqtisadiyyatının tənzim metodlarına istinadən yenidən qurulmaqdadır. Ailə təsərrüfatlarına kreditlər və subsidiyaların ayrılması, iqtisa-di güzəştlər, toxum, gübrə və texnika təminatı, məhsul qoruma anbarlarının inşası buna misaldır. Ölkənin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində yeni müasir taxıl saxlama anbarlarının inşası və istifadəyə verilməsi yüksək qiymətləndirilir. Bununla bərabər, əhalinin ərzaq təhlükə-sizliyinin təminatı məsələsində qabaqcıl dünya təcrübəsinin mənimsənilməsi, kooperasiya siste-minin yenidən qurulması, ərzaq təminatı sistemini mütləq hesabda idxal məhsulundan azad etmək, yerli istehsalçıların xarici ticarət əlaqələri qurması, məhsulların ixraca yönəlməsinin stimullaş-dırılması da vacib dövləti tədbirlər sisteminə daxil edilməlidir [yenə orada, s.63].

Ərzaq təşlükəsizliyinin mövcud durumu

Artıq qeyd olunduğu kimi, Azərbaycan Respublikasında əhalinin zəruri ərzaq məhsulları ilə təmin edilməsi dövlətin iqtisadi siyasətində mərkəzi yer tutur. Buna uyğun olaraq, ölkədə ərzaq məhsullarının istehsalı sahəsində köklü islahatlar aparılmış, həyata keçirilən kompleks tədbirlər isə göstərilən sahənin daha sürətli inkişaf etdirilməsinə əlverişli şərait formalaşdırmışdır. Ümummilli liderimiz Heydər Əliyevin 2001-ci il 2 mart tarixli, 640 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı"nda nəzərdə tutulan təd-birlərin həyata keçirilməsi, ölkədə ərzaq təminatı ilə bağlı işlərin daha səmərəli aparılmasına təkan vermişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 avqust 2008-ci il tarixli Sərəncamı ilə qüvvəyə minən "Azərbaycan Respublikasında əhalinin ərzaq məhsul-ları ilə etibarlı təminatına dair Dövlət Proqramı" isə, heç şübhəsiz ki, ulu öndərimizin imzaladığı sərəncamın davamı kimi çox böyük əhəmiyyət daşıyır.

2003-cü ildə başlayaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəh-bərliyi ilə həyata keçirilən düşünülmüş iqtisadi siyasət nəticəsində, Azərbaycan əhalisinin xüsu-

sən son illərdə ərzağın iqtisadi əlyetərliyi məsələsinin həllində böyük və nəzərəçarpacaq dəyişikliklər əldə edilmişdir. Respublikamızda yoxsulluq səviyyəsinin azaldılması nəticəsində ölkə əhalisinin maliyyə gəlirləri xeyli artmış, buna uyğun olaraq alıcılq qabiliyyəti də əhəmiyyətli şəkildə yüksəlmişdir. Kənd təsərrüfatının inkişafına dövlət səviyyəsində göstərilən qayğı, regionlarda yeni, müasir tələblərə cavab verən modern emal müəssisələrinin yaradılması, ərzaq məhsullarına tələbatın yerli istehsal hesabına təmin edilməsi siyasəti artıq öz mühüm nəticələrini verməkdədir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Avropa üzrə Bakı şəhərində keçirilən 28-ci regional konfransında qeyd etmişdir ki, "...kənd təsərrüfatı sahəsi hər bir insan üçün çox önəmlidir, xüsusilə Azərbaycan üçün. Çünki əhalimizin təxminən yarısı, ondan bir qədər az qismi kənd zonalarında, kəndlərdə yaşayır. Kəndlərdə müasir infra-strukturun yaradılması, müasir xidmətin göstərilməsi məsələləri də bizim üçün prioritetdir...Biz qarşıya hədəf qoymuşuq ki, özümüzü əsas ərzaq məhsulları ilə tam şəkildə təmin etməliyik. Bu istiqamətdə çox ciddi addımlar atılmışdır. Hazırda biz özümüzü əsas qida məhsulları ilə böyük dərəcədə - təxminən 80-90 faiz səviyyəsində təmin edirik. Eyni zamanda, bizdə çox güclü ixrac potensialı da formalaşır. İxrac potensialını daha da artırmaq üçün biz indi müxtəlif stimulverici amillərdən istifadə edirik. Yeni bazarlara çıxırıq. Azərbaycanda demək olar bütün yeni, müasir emal müəssisələri dünya standartlarına cavab verir ki, biz məhsulumuzu istənilən bazarlara ixrac edə bilək. Hazırda bizim üçün əsas ixrac bazarı qonşu ölkələrdir. Bu, ənənəvi bazardır. Ancaq biz məhsullarımızla artıq Avropa İttifaqı məkanına da çıxırıq. Əminəm ki, yaxın zamanlarda bu işlər daha da sürətlə gedəcəkdir [3, s.1].

Aparılan təhlillər onu göstərir ki, "...iqtisadiyyatın şaxələndirilməsi bütün digər sahələr kimi aqrar bölmənin də inkişaf etdirilməsi üçün əlverişli imkanlar yaratmışdır. Onu da deyək ki, hazırda əhalisinin təqribən yarısı bölgələrdə yaşayan Azərbaycanda aqrar sahənin böhrandan çıxarılması, daxili bazarın mühüm kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi mühüm əhəmiyyət kəsb edir. Məhz bunun nəticəsidir ki, kənd təsərrüfatı getdikcə ölkə iqtisadiyyatının prioritet sahələrindən birinə çevrilmişdir. Qeyd edildiyi kimi, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən 2008-ci ilin avqust ayında qəbul olunmuş müvafiq Dövlət Proqramı müstəsna əhəmiyyət kəsb edir. Ötən müddətdə proqramın icrası ilə bağlı həyata keçirilmiş mühüm tədbirlər nəticəsində kənd təsərrüfatında əhəmiyyətli artım baş vermiş, yerli istehsal hesabına daxili bazarda məhsul bolluğu müşahidə olunmuşdur. Bu tendensiya son illərdə də davam etmişdir. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2017-vci ildə ölkənin aqrar bölməsində faktiki qiymətlərlə 6 milyard 580 milyon manatlıq məhsul istehsal olunmuşdur ki, bu da 2016-ci ilə nisbətən 16,8 faiz çoxdur. 2017-ci ildə bitkiçilik məhsulları 3019 mln. Manatlıq heyvandarlıq məhsulları isə 3561 mln. manatlıq olmuşdur ki, bu da əvvəlki illə müqayisədə müvafiq olaraq 17,1 faiz, və 16,6 faiz artmım deməkdir. Bu da qeyd etdiyimiz kimi, ölkəmizin ərzaq təhlükəsizliyinin təminatına, daxili bazarın tələbatının yerli istehsal hesabına ödənilməsinə mühüm töhfələr vermişdir. Təsadüfi deyil ki, Nazirlər Kabinetinin hər il qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlət başçısı İlham Əliyev bu vacib məsələyə toxunaraq demişdir: "2016-cı ildə Bitkiçilik məhsulları ilə özünütəminetmə səviyyəsi 63,8%, heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi 87,9%-dir. Amma əlbəttə, istərdim ki, biz özümüzü 100 faiz təmin etmək səviyyəsinə çataq. Artıq görülən işlər, xüsusilə iri fermer təsərrüfatlarının yaradılması, meliorativ tədbirlərin görülməsi, kreditlərin verilməsi, infrastruktur, yolların və s. məsələlərin həlli hesabına biz buna nail olacağıq ki, Azərbaycan özünü əsas ərzaq məhsulları ilə tam şəkildə təmin etsin... Bu, həm təhlükəsizlik nöqteyi-nəzərdən vacibdir, eyni zamanda, yerli istehsalın gücləndirilməsi deməkdir və dövlətimiz bu məqsədə çatmaq üçün, demək olar ki, hər şeyi edir" [4, s.2].

Beləliklə, son illər aqrar sahənin inkişafına dövlət dəstəyi xeyli artmış, kənd təsərrüfatında sahibkarlıq hissinin gücləndirilməsi istiqamətində bir sıra stimullaşdırıcı tədbirlər həyata keçirilmişdir... Yeri gəlmişkən, regionların sosial-iqtisadi inkişafına və əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin uğurla həyata keçirilməsi, "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" ölkə Pre-

zidentinin 2007-ci il 23 yanvar tarixli sərəncamında hər hektar əkin sahəsinin becərilməsində istifadə edilən yanacağa və motor yağlarına görə büdcə vəsaiti hesabına 40 manat yardımın verilməsi, habelə istehsalçılara satılan mineral gübrələrin dəyərinin orta hesabla 50 faizinin dövlət tərəfindən ödənilməsi nəzərdə tutulmuşdur. Bundan əlavə, adıçəkilən sərəncama uyğun olaraq ölkədə buğda istehsalının stimullaşdırılması məqsədilə hər hektar üçün əlavə 40 manat yardımın verilməsi və bütövlükdə sahibkarlara göstərilən hərtərəfli dövlət dəstəyinin gücləndirilməsi ayrı-ayrı kənd təsərrüfatı məhsullarının istehsalının artmasına öz müsbət təsirini göstərmişdir. Təkcə onu demək kifayətdir ki, ilkin məlumatlara görə, yola saldığımız 2017-ci ildə Azərbaycanda dənli və dənli paxlalılar (pambıq, tütün, kartof, tərəvəz və bostan bitkiləri) 977.2 min hektar sahənin hər hektarından orta hesabla 29.8 sentner olmaqla ilkin çəkidə 2 milyon 928.8 min ton taxıl məhsulu toplanmışdır. Bu da əvvəlki illə müqayisədə 136,3 min ton və ya 4,4 faiz azdır. Dənli və dənli paxlalıların isə 62,1faizi payızlıq və yazlıq buğda buğdanın payına düşmüşdür. 2017-ci il ərzində ölkə üzrə 913.9 min ton kartof, 1milyon 405,6 min ton tərəvəz məhsulu toplanmışdır ki, bu da əvvəlki illə müqayisədə xeyli çoxdur. İl ərzində bostan məhsullarının istehsalı isə bir qədər azalaraq 438,1 min ton təşkil etmişdir. 2017-ci ildə Azərbaycanda meyvə və giləmeyvə istehsalı 71,9 min ton, üzüm istehsalı 16,3 min ton, artmış, çay yarpağı istehsalı isə 0,2 ton azalmışdır.

...Kənd təsərrüfatının ikinci mühüm sahəsi sayılan heyvandarlığın inkişaf etdirilməsi üçün də ötən il bir sıra vacib işlər görülmüşdür. Belə ki, il ərzində sürünün cins tərkibinin yaxşılaşdırılması istiqamətində həyata keçirilmiş tədbirlər heyvanların məhsuldarlığının yüksəlməsinə və mal-qaranın baş sayının, xüsusən də bu sahədə məhsul istehsalının artmasına səbəb olmuşdur. Belə ki, 2017-ci ildə ölkə üzrə kəsilmiş çəkidə 316,8 min ton ət, 2024,1 min ton süd, 1714,0 milyon ədəd yumurta və 16,1 min ton yun istehsal edilmişdir ki, bu da əvvəlki illə müqayisədə xeyli çoxdur. Bundan əlavə, heyvandarlığın inkişaf etmiş ənənəvi sahələrindən sayılan iri və xırda buynuzlu mal-qaranın yetişdirilməsi üzrə həyata keçirilmiş tədbirlər də müsbət nəticələr vermiş, 2017-cü il yanvarın 1-nə ölkədə iribuynuzlu mal-qaranın sayı 2672,9 min başa çatmışdır [5, s.2].

Ərzaq təhlükəsizliyinin dayanıqlı inkişaf istiqamətləri

Ərzaq təhlükəsizliyinin dayanıqlı inkişafı sahəsində həyata keçiriləcək tədbirlərin əsas məqsədi – ölkə iqtisadiyyatında aqrar sahənin gəlirlilik və rəqabətqabiliyyətlik səviyyəsinin artırılması, həmçinin onun beynəlxalq iqtisadi sistemə səmərəli inteqrasiya olunmasını nəzərdə tutmalıdır. Ərzaq təhlükəsizliyi isə, əsasən ölkədə kənd təsərrüfatının davamlı inkişafı və ekoloji təmiz, keyfiyyətli yerli ərzaq məhsullarının istehsal həcminin artırlması hesabına təmin edilməlidir.

Fikrimizcə, ölkədə ərzaq təhlükəsizliyini təmin etməsi üçün daxili ehtiyatlarının üzə çıxarılması çox müsbət haldır. Çünki, dayanıqlı ərzaq təhlükəsizliyi eyni zamanda respublikamızın siyasi və sosial-iqtisadi cəhətdən möhkəmliyi deməkdir. Deyni zamanda, istehsal prosesinin elmi əsaslarla təşkil edildiyi şəraitdə yerli məhsullar ekoloji cəhətdən daha təmiz olur, az nəqliyyat xərci ilə bazara daxil olaraq, digər ərazilərdən gətirilən məhsullara nisbətən daha ucuz qiymətə satıla bilər.

Yuxarıda göstərilənlər isə, həm də bu sahələrlə əlaqədar olan sənaye müəssisələrinin xammal ilə təmin olunmasında əvəzedilməz rol oynayır. Bu isə xarici ticarətin strukturunun genişlənməsinə və rəqabət qabiliyyətinin durmadan artmasına təkan verir. Bu zaman, ilk növbədə ət və süd məhsulları, şərab, meyvə - tərəvəz, tütün, çay emal edən müəssisələri misal göstərmək olar. Bununla yanaşı, aqrar sahibkarlıq təsərrüfatlarının bazar iqtisadiyyatı tələblərinə cavab verən qurumlara çevrilməsi üçün, kənddə infrastrukturun inkişafına kömək edən dövlət investisiya siyasətinin aparılması əhalinin ərzaqla, emal sənayesinin yerli xammalla təmin edilməsində mühüm rol oynaya bilər. Bunlara uyğun zəruri tədbirlərin görülməsi, xüsusi proqramların həyata keçirilməsi də yaxın gələcəkdə aqrar sahədə güclü iqtisadi potensialın yaranmasına gətirib çıxarır. Hesab etsək ki, ərzaqla özünü təminetmə həm də ixrac potensialının gücləmməsinə, idxalın yalnız zəruri sahələri əhatə etməsinə və bununla yanaşı işsizliyin aradan qaldırılmasına, kənd rayonlarının isə davamlı inkişafına təkan verə bilər.

Bununla yanaşı, kənd təsərrüfatı məhsulları və xüsusən də maddi-texniki ehtiyatlar bazarında qiymət disparitetinin aradan qaldırılmasına uyğun istehsalçılara ödənilən subsidiyaların məbləği

elmi təhlillərə əsaslanmalı, güzəştli kreditlərin verilməsi genişləndirilməli, kredit faizlərinin ödənilməsində xüsusi güzəştlər tətbiq edilməli, ixracda rüsumların və vergilərin ləğv edilməsi və yaxud azaldılması, digər tədbirlərin həyata keçirilməsi kənd təsərrüfatında rentabelliyin artmasına, kənd təsərrüfatı məhsulları istehsalçılarının geniş təkrar istehsala marağının stimullaşdırılmasına təkan verərdi.

Hesab edirik ki, ərzaq məhsullarının istehsalı genişləndikcə bu məsələnin əhəmiyyəti nəinki azalmır, eyni zamanda müasir geosiyasi durum və dünyada ərzaq qıtlığının güclənməsi nəticəsində, onun əhəmiyyəti daha da artır. Bununla yanaşı, həyata keçirilən tədbirlərin mühüm istiqamətlərindən biri - ETT-nin nailiyyətlərindən, məhsul istehsalının səmərəli təşkili üçün zəruri olan maddi-texniki resurslardan daha da səmərəli istifadə edilməsindən ibarət olmalıdır. Ərazi və bölmələr üzrə məhsul istehsalının geniş miqyaslı olması, ayrı-ayrı ərazilər üzrə təbii-iqtisadi şəraitin müxtəlifliyi, eyni zamanda şəhərlə kənd arasında məsafənin uzaqlığı nəzə-rə alınaraq, məhsulların daşınması ilə əlaqədar olan mövsümi xərclərin azaldılmasına, əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsinə səmərəli ərzaq bazarının formalaşdırılmasında məhsul keyfiyyətinin yüksəldilməsinə təsir edən amillərin məcmusu kimi də dəyərləndirmək mümkündür.

Nəticə

Ölkəmizdə ərzaq təhlükəsizliyinin səmərəli təmin edilməsinin prioritet istiqamətlərinə uyğun olaraq, ilk növbədə aşağıdakı tədbirlərin həyata keçirilməsini zəruri hesab edirik:

- kənd təsərrüfatı məhsullarının emalı bölmələrinin daha da inkişaf etdirilməsi və onların fəaliyyətinin hərtərəfli stimullaşdırılması;
-zəruri tələbat duyulan və strateji hesab edilən mühüm növ ərzaq məhsulları istehsalı, tədarükü və satışına dövlət qayğısının yüksəldilməsi;
- istehsal edilən daxili ərzaq məhsullarının keyfiyyət parametrlərinin və rəqabətqabiliyyətliliyinin artırılması istiqamətində davamlı tədbirlərin görülməsi;
- ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı prosesində genetik modifikasiya olunmuş orqanizmlər və onların törəmələrindən istifadə edilməsinə sərt qadağaların qoyulnası;
- lazımi avadanlıq və cihazları əldə edərək həm yerli, həm də ölkəmizə idxal olunan ərzaq məhsullarının keyfiyyəti və təhlükəsizliyinin monitorinqi təmin edilməsi, bu istiqamətdə yüksək ixtisaslı mütəxəssislərin hazırlanması və s;

ƏDƏBİYYAT

1. Böyük İqtisadi Ensiklopediya, II cild, Bakı: "Şərq-Qərb", 2012, 632 s.
2. "Ərzaq təhlükəsizliyinin təmin edilməsinin sosial-iqtisadi problemləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı: "Avropa" nəşriyyatı, 2011, 377 s.

Эльсевер Нариман оглы Керимов
АУК зав. кафедрой «Докторантуры и магистратуры», к.э.н., доцент;

Намиг Махаммадали оглу Мансурлы
«Бакинский Колледж Бизнеса и Кооперации»
Начальник отдела бухгалтерского учета и финансов, к.э.н.

Продовольственная безопасность как форма экономической безопасности

Резюме

Формирование национальной экономики и национального рынка является материальной основой экономической безопасности страны. Кризис продовольственной проблемы в современном мире требует всестороннего развития этой важной области. В тезисе анализируются теоретические основы и практические вопросы безопасности пищевых продуктов и показаны тенденции развития.

Ключевые слова: национальная экономика, форма проявления, экономические реформы

Elsevar Nariman Karimov
head of the department "Doctorate and magistracy",
Ph.D on economics, assistant professor ACU;

Namig Mahammadali Mansurlu
head of the department "Accounting and finance"
Ph.D on economics, BB and CC

Food security as a manifestation form of economic security

Summary

The formation of the national economy and market is the material basis of the country's economic security. The crisis of food problem in the modern world necessitates the comprehensive development of this important area. The theoretical basis of food security and practical issues are analyzed and the development trends are shown in the thesis.

Key words: national economy, manifestation form, economic reforms.

Fazil Həşim oğlu ABBASOV
Azərbaycan Kooperasiya Universitetinin
kafedra müdiri, i.e.n., professor

ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN BƏZİ KONTURLARI

Xülasə

Tezisdə BMT-nin proqnozlarına görə 2050-ci ilə dünya əhalisinin sayının 7,9 mlrd nəfərdən 10,9 mlrd nəfərə çatacağı və proqnoza əsasən yaxın 50 ildə dünya əhalisinin 40% artacağı qeyd olunmuş, bu da ərzaq məhsullarının istehsalının radikal surətdə intensivləşdirilməsini, ərzaq məhsullarının qıymətlərinin əhalinin bütün təbəqələri üçün optimal şəkildə əlyetərli olması məsələsini aktuallaşdırmışdır. Bu baxımdan tezisdə perspektiv dövrdə ərzaq təhlükəsizliyinin təmin edilməsinin prioritetləri öz əksini tapmışdır.

Açar sözlər: FAO, deklarasiya, kvota, fizioloji, intensiv.

Giriş

Tədqiqatlar göstərir ki, XXI əsrdə bəşəriyyət öz tarixində qarşılaşmadığı çox ciddi ərzaq problemi ilə üzləşməkdədir. Odur ki, yaxınlaşan aclıq təhlükəsinin dərk edilməsi və aclıq çəkən əhalinin sayının artım prosesinin mümkün qədər dayandırılması və ərzaq məhsullarının istehsalının artırılması artıq müasir dövrün ən aktual siyasi çağırışlarından birinə çevrilmişdir.

"Ərzaq təhlükəsizliyi", "ərzaq siyasəti" anlayışı hazırkı dövrdə müxtəlif beynəlxalq sənədlərdə bir çox dövlət qanunvericilik orqanlarında öz əksini tapmaqla yanaşı bununla əlaqədar simpoziumlar və konfranslar keçirilməkdədir. "Ərzaq təhlükəsizliyi" anlayışı siyasi dairələrdə xüsusən də İkinci Dünya müharibəsindən sonra, ərzaq problemi bir çox ölkələr üçün mühüm əhəmiyyət kəsb etdiyindən geniş yayılmış və hazırda da öz aktuallığını qoruyub saxlamaqdadır.

1974-cü ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası "Dünyada ərzaq təhlükəsizliyinin təmin olunması üzrə beynəlxalq öhdəlik" kimi xüsusi qətnamə qəbul etmişdir.

Qətnamədə "planet əhalisinin, zəruri aktiv həyat tərzi üçün zəmanətli ərzaq resursları ilə necə təmin edilməsi müəyyənləşmişdir."

1996-cı ilin noyabr ayında Romada 173 ölkənin iştirakı ilə, o cümlədən 100 nəfəri isə dövlət başçısı formatında təmsil olunmaqla qidalanma məsələləri ilə əlaqədar Ümumdünya konfransı çağırılmışdır. Konfransda inkişaf etməkdə olan ölkələrdə 840 mln. əhalinin, o cümlədən 200 mln. uşaq olmaqla xroniki olaraq aclıq keçirdikləri vurğulanır. Dünyada istehsal olunan ərzaq

məhsullarının 50%-ni inkişaf etmiş ölkələrin əhalisi istehlak edir ki, bu da dünya əhalisinin vurtut 20%-ni təşkil edir.

Konfransda "Dünyada ərzaq təhlükəsizliyi məsələsi" ilə əlaqədar deklarasiya qəbul edilmişdir. Deklarasiyada qeyd olunmuşdur ki, 2015-ci ilədək dünyada 800 mln. aclıq vəziyyətində yaşayan əhalinin sayının 400 mln-a endirilməsi təmin edilsin.

Ərzaq təhlükəsizliyi - iqtisadi təhlükəsizliyin mühüm tərkib hissəsi olub, əhalinin davamlı olaraq ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsini nəzərdə tutur. Ərzaq təhlükəsizliyinin əsas meyarı olan ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin 70-80% hədlərində olması əsas götürülür. Ərzaq təhlükəsizliyinin təmin edilməsi cəmiyyətdə davamlı sosial sabitliyin yaradılması ilə səciyyələnir. Ərzaq təhlükəsizliyi probleminə beynəlxalq yanaşmanı nəzərə almaqla, birinci növbədə özünü təminetmə hesabına və ətraf mühitə xələl gətirməmək şərtilə əhalinin ərzaq məhsulları ilə kifayət qədər təmin olunması və kənd ərazisinin sosial-iqtisadi inkişafının zəmanətli təminatı ön plana çəkilməlidir. [2, s. 176]

Ərzaq təhlükəsizliyi ölkə iqtisadiyyatının elə inkişaf səviyyəsini özündə ehtiva edir ki, əhalinin uyğun resurslarla təminatı, xarici və daxili şəraitdən asılı olmayaraq dövlətin ərzaq ehtiyatlarının sabit saxlanılması, fizioloji normalara uyğun ərzaq məhsulları ilə ödənilməsi təmin edilsin.

"Ərzaq asılısızlığı" və "ərzaqla özünü təminetmə". anlayışları ərzaq təhlükəsizliyinin ən mühüm problematikasını təşkil edir.

Ərzaq təhlükəsizliyi çoxaspektli xarakterə malikdir. Əhalinin ərzaqla təmin olunması aşağıdakı istiqamətlərlə reallaşır:

-intensivləşdirmə, meliorasiya, kimyalaşdırma, mexanikləşdirmə, biotexnologiya, inteqrasiya və kooperativləşmə, itkiləri azaltmaq üçün xammalın kompleks emal edilməsi faktorlarından istifadə etməklə daxili istehsalın inkişaf etdirilməsi;

-hazır məhsulların idxal olunmasına kvota qoyulması, milli istehsalçıların dəstəklənməsi;

ərzaq təhlükəsizliyi anlayışını müəyyənləşdirərkən, idxaldan asılı olmayan kənd təsərrüfatı məhsulları ilə özünü təmin edən ölkələr üçün 80-85% həddində, böhranlı hallarda isə 75% qiymətləndirmişlər. [3, s.176]

Dövlətin qidalanma siyasətini qiymətləndirmə göstəricisi müəyyənləşmişdir. Bunlara aiddir:

Bir nəfərə hesablanmış fizioloji istehlak norması. Bu göstərici ərzaq təhlükəsizliyinin təmin olunması baxımından aqrar siyasətin hədəflərindən başlıcasıdır. Lakin hazırda bu məsələyə lazımi diqqət yetirilmir.

Bir çox ölkələrin hökumətləri aqrar istehsalın inkişafı ilə əlaqədar dövlət proqramı işləyib hazırlamaqla əlavə kənd təsərrüfatı torpaqlarının bərpası və mühafizəsi, onlardan səmərəli istifadənin yüksəldilməsi, iqtisadi dəstək kimi daha mühüm proqramların birbaşa büdcədən maliyyələşdirilməsinə ciddi diqqət yetirirlər.

Bütün inkişaf etmiş ölkələrdə aqrar-ərzaq məhsullarının istehsalının artırılmasına iqtisadi cəhətdən dəstək verilməklə yanaşı, daxili bazarın xarici rəqabətin zərərli təzahürlərindən effektiv şəkildə qorunmasına istiqamətlənmiş zəruri tədbirlər həyata keçirilir. Müasir dövrdə ərzaq təhlükəsizliyinin təmin olunması bir çox ölkələrdə və dövlətlərarası ittifaqlarda prioritet siyasətə çevrilmişdir. [4, s. 3]

Tezisdə BMT-nin proqnozlarına görə 2050-ci ilə dünya əhalisinin sayının 7,9 mlrd. nəfərdən 10,9 mlrd nəfərə çatacağı və proqnoza əsasən yaxın 50 ildə dünya əhalisinin 40% artacağı qeyd olunmuş, bu da ərzaq məhsullarının istehsalının radikal surətdə intensivləşdirilməsini, ərzaq məhsullarının qıymətlərinin əhalinin bütün təbəqələri üçün optimal şəkildə əlyetərli olması məsələsini aktuallaşdırmışdır.

Bu situasiyadan necə çıxmalı? Mümkün variantlar:

1. ərzaq istehsalını artırmaq (əksər ekspertlər bunu real hesab etmirlər);

2. əhali artımını azaltmaq (belə qısa müddət ərzində bunun real olması mümkün deyil);

3. gələcəkdə əhalinin həyat keyfiyyətini və ərzaq istehlakı səviyyəsini azaltmaq (əksər ekspertlər bu variantı daha məqbul hesab edirlər). [3, s.185]

Ərzaq təhlükəsizliyinin dünyada qlobal problem olduğu nəzərə alınmaqla eləcə də dövlətimiz bu istiqamətdə məqsədyönlü təşkilati, iqtisadi tədbirlər həyata keçirir. "Ərzaq təhlükəsiz-

liyinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 02 aprel 2001-ci il tarixli Fərmanı buna bariz nümunədir.

Bundan əlavə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektoru ilə strateji yol xəritəsinin təsdiq edilməsi haqqında" 06 dekabr 2016-cı il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı qəbul edilmişdir ki, həmin Fərmandan irəli gələn vəzifələrdə "Ərzaq təhlükəsizliyinin dayanıqlığı və əhalinin ərzaqa əlyetərliyi, etibarlı ərzaq təminatına nail olunmasının işlək mexanizmi işlənib hazırlanmış və fəaliyyət göstərməkdədir."

Aparılan uğurlu iqtisadi siyasət nəticəsində ötən il kənd təsərrüfatının artım tempi 4,1% olmuşdur. Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında Prezident İlham Əliyev qeyd etdi ki, Davos Ümumdünya İqtisadi Forumu ərzaq təhlükəsizliyi ilə bağlı hesablama aparmış, ərzaq təhlükəsizliyi indeksinə görə Azərbaycan 57-ci yerdə qərarlaşmışdır. Ərzaq təhlükəsizliyinin başlıca parametrlərindən biri olan ərzaq buğdasının istehsalı sahəsində təxirəsalınmaz tədbirlər həyata keçirilməlidir ki, idxaldan asılılıq azalsın. [1, s. 4]

Azərbaycanın iqlim şəraiti imkan verir ki, il ərzində bitkiçiliyin bəzi növlərindən iki dəfə məhsul götürək.

Daha bir vacib məqamı vurğulamaq istərdik: taxıl səpini zamanı intensiv texnologiyalardan heç də həmişə səmərəli istifadə olunmadığından alaq otlarına, ziyanverici və xəstəliklərə qarşı mübarizə tədbirləri aparıla bilmir. Qeyd olunan intensiv texnologiyalardan istefadə edilməklə aprel ayının sonunadək çiləyici aqreqatlar vasitəsilə dənli bitkilərin plantasiyalarlnda qeyd olunan mübarizə tədbirlərini aparmaqla, nəticədə ərzağa yararlı məhsul istehsal etmək olar. [5, s. 200]

ƏDƏBİYYAT

1. "Respublika " qəzeti. 11 yanvar 2018-ci il.
2. A.F.Abbasov. "Ərzaq təhlükəsizliyi". Bakı, 2008. 603 s.
3. Б.Б.Кузнецов. «Экономика и управление аграрным производством». Ростов-на-Дону. 2008- 714 с.
4. И.А.Маценович, А.М.Ходачек. Продовольственная безопасность и продовольственная политика. Санкт-Петербург. 2014- 136с.
5. F.H.Abbasov. "Qlobal ərzaq probleminin konturları". "Kooperasiya" elmi - praktik jurnalı 2017. N1.215 s.

Фазиль Гашим оглы Аббасов
Азербайджанского Университета Кооперации
к.э.н, профессор, заведующий кафедрой

Некоторые контуры продовольственной безопасности

Резюме

Согласно прогнозу демографического фонда ООН в 2050 году численность населения увеличится с 7,9 до 10,9 млрд (в среднем 9/3 млрд) и в соответствии с этим прогнозом население планеты увеличится на 40% в течение 50 лет, которые были отмечены в статье и радикальное интенсивное пищевых материалов, оптимальное достижение доступа к продуктам питания являются основными вопросами мировой продовольственной системы. Перспективные события, которые будут реализованы правительством Азербайджана и предложения были даны в этом направлении.

Ключевые слова: ФАО, декларация, квоты, физиология, интенсивная.

Fazil Hashim Abbasov
head of the department,
candidate of economic sciences,
associate professor ACU

Some contours of food security

Summary

According to the prognosis of demographic fond of the UN in 2050 the number of population will increase from 7.9 to 10.9 billion (average 9/3 billion) and according to this prognosis the world population will increase 40% during 50 years that have been pointed in the article and the radical intensive of food materials, the optimal achievement of food access are the main questions of world food system. The perspective events that will be realized by Azerbaijan government and the suggestions have been given in this direction.

Key words: FAO, declaration, quota, physiology, intensive.

Vasif Balaxan oğlu HƏZİYEV
dos. "Menecment və ticarət" kafedrasının müdiri, AKU

ƏRZAQ MALLARI BAZARININ TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFININ NƏZƏRİ ƏSASLARI

Xülasə

Ərzaq malları bazarının təşəkkülü və inkişafı prosesində proqram-məqsədli yanaşmanı zəruri edən cəhətlərə aşağıdakıları aid etmək olar.

Əhalinin ərzaq malları ilə təchizi nəinki iqtisadi inkişafın və makroiqtisadi sabitliyin əsas şərtidir, həm də dövlət müsrəqilliyinin ayrılmaz tərkib hissəsidirt

Bazarda tələblə təklif arasında dinamik tarazlığın saxlanılması dövlətin ərzaq resurslarının artmasına nail ola bilməsindən funksional asılılıqdadırt

Ərzaq malları bazarının normal inkişafı sahələrarası münasibətlərin (həm makro, həm də mikro səviyyədə) səmərəli təşkili ilə düz mütənasibdir.

Açar sözlər: araşdırmalar, iqtisadi inkişaf, istehsalın kütləvi xarakteri, ölkədaxili və ölkələrarası mübadilə, sosial təzahür, əmtəə tədavülü, mal mübadiləsi sferası.

***

İctimai - iqtisadi münasibətlər sferasında sistemli islahatların aparılması, sahibkarlar təbəqəsinin formalaşması, ümumilikdə bazar iqtisadiyyatının həyata keçirilməsi dövrümüzün ən aktual problərindən biridir. Bu şəraitdə bazarın sosial-iqtisadi kateqoriya kimi araşdırılması və onun nəzəri əsaslarının müasir gerçəkliyə uyğun formalaşdırılması obyektiv zərurətə çevrilmişdir.

Bəşəriyyətin iqtisadi-sosial inkişafı prosesində bazar münasibətlərinin böyük rolu olmuşdur. O, insan cəmiyyətinin inkişafının ilk mərhələlərindən xeyli sonralar meydana çıxsa da, iqtisadi proseslərin dinamik artımında xüsusi əhəmiyyət kəsb etmişdir. Bazarın təkamül tarixinin ayrı-ayrı dövrləri bəşəriyyətin iqtisadi inkişaf mərhələrinə uyğun olaraq formalaşmış və onun müəyyən xüsusiyyətlərini özündə əks etdirmişdir. İqtisadi inkişaf dövrünü bir - birindən mühim keyfiyyət cəhətlərilə fərqlənən iki mərhələyə bölmək olar; əmtəə istehsalatına qədərki dövr və əmtəə istehsalı dövrü.

Əmtəə istehsalı dövrünün özü də bir neçə mərhələyə bölünə bilər ki, bunların dairəsində sənaye inqilabı dövrünü (XIX əsr və informasiya dövrünü XX əsrin 40-50-ci illərində müasir vaxta qədər) xüsusi qeyd etmək lazımdır.

Məlumdur ki, bazar kapitalizməqədərki ictimai - iqtisadi formasiyalarda ictimai əmək bölgüsünün nəticəsi kimi meydana çıxmışdır. Lakin , həmin dövrün xarakterik xüsusiyyəti ondan ibarət idi ki, iqtisadi vahidlər arasında əlaqələr müntəzəm deyildi və sadəcə olaraq, epizodik xarakter daşıyırdı.

İctimai əmək bölgüsünün və istehlakçıların iqtisadi əlahiddələşmələri meylinin tədricən dərinləşməsi qlobal səviyyədə əmtəə istehsalını ön mövqeyə keçirdi ki, bu da real bazar münasibətlərinin təşəkkülünə və azad rəqabətli bazarın formalaşmasına gətirib çıxardı.

İri maşınlı sənayenin yaradılması ictimai əmək məhsullarının görünməmiş vüsətlə inkişafına və beləliklə də istehsalın və kapitalın təmərküzləşməsinə, istehsalın kütləvi xarakter almasına və milli sərhədləri aşmaqla, beynəlxalq istehsal münasibətlərinin formalaşmasına, inhisarın müxtəlif növlərinin yaranmasına səbəb oldu. Nəticədə, Qərb iqtisadçılarının " satıcı bazarı" adlandırdıqları bazar təşəkkül tapdı. [1. s 56]

Elmi - texniki inqilabın nailiyyətlərinin iqtisadiyyatda geniş tətbiqi, yenu mallar probleminin və satış probleminin kəskinləşməsi bazar subyektləri arasındakı qarşılıqlı əlaqələrdə informasiyanın rolunu əhəmiyyətli dərəcədə yüksəltməklə, bazarın iqtisadi mahiyyətində keyfiyyət dəyişikliklərinə zəmin yaratdı. Nəticədə "alıcı bazarı" formalaşdı. F.Kotlerin fikrincə, "satıcı bazarında" satıcılar, "alıcı bazarında" isə alıcılar üstün mövqeyə malik olurlar.

Fikrimizcə "alıcı" və "satıcı" bazarları arasındakı fərqi aşağıdakı kimi xarakterizə etmək mümkündür. [2. s. 15]

BAZAR

"Satıcı bazarı "	"Alıcı bazarı "
Bazar fəaliyyətinin çıxış nöqtəsi mal təklifi haqqında informasiyadır	Bazar fəaliyyətinin çıxış nöqtəsi tələb haqqında informasiyadır
İstehsal kütləvi xarakter daşıyır	İstehsal kütləvi deyil, lakin ünvanlıdır
Fəaliyyətin ağırlıq mərkəzi mal təklifi və satışıdır	Fəaliyyətin ağırlıq mərkəzi istehlakçı tələbidir
Qiymətlər nisbətən sabitdir	Qiymətlər sabit deyil
Qiymət üzrə rəqabət üstünlük təşkil edir	Qeyri - qiymət rəqabəti hökmrandır
Maksimum mənfəət istehsal xərclərinin azaldılması hesabına əldə olunur	Maksimum mənfəət tələbin ödənilməsi ilə uyğun səviyyədə əldə olunur
Sair amillər	Sair amillər

Bəzi iqtisadçılar sosializm cəmiyyətində bazarın olmadığı fikrini irəli sürürlər. Həqiqətən də müəssisə və təşkilatların fəaliyyətinin ciddi reqlamentləşdirilmiş plan əsasında həyata keçirildiyi bir şəraitdə real bazar münasibətlərindən danışmaq mümkün deyildir. Bazar ictimai mülkiyyətə əsaslansa da, lakin iqtisadi proseslərin tənzimlənməsində özünəməxsus rolu oynamırdı. Əksinə, ümumtəsərrüfat planlaşdırılması çərçivəsində onun idarə olunmasına cəhd göstərilirdi.

Bununla belə, sosializm cəmiyyəti əmtəə - pul münasibətlərini ləğv etmədiyindən bazar deformasiya olunmuş şəkildə fəaliyyət göstərirdi.

Müasir dövrə qədər bazar anlayışının məzmununun, mahiyyətinin və inkişaf qanunauyğunluqlarının araşdırılmasına çoxlu sayda elmi - tədqiqat işləri həsr edilmişdir. Bununla belə, bazar məfhumu müxtəlif mövqelərdən izah olunur.

Bazar - elə nizamlanmış strukturdur ki, onun vasitəsilə əmtəənin alıcıları və satıcıları malın qiymətini və miqdarını müəyyən etmək üçün qarşılıqlı fəaliyyət göstərirlər.

Bazar - mal mübadiləsi sferası olub, malların alqı - satqısı prosesini özündə əks etdirməklə, istehsal və satışla əlaqədar olan konkret təsərrüfat fəaliyyətini əhatə edir.

Bazar - əmtəə tədavülü dairəsi, əmtəələrin alqı - satqısı üzrə bütün iqtisadi münasibətlərin məcmusudur.

Bazar - ictimai təkrar istehsal prosesində iqtisadi münasibətlərin, ən əvvəl əmtəə-pul münasibətlərinin təzahür etdiyi mürəkkəb mexanizmdir.

Bazar - ayrı - ayrı mal və xidmət alıcıları və satıcılarını bir yerə toplayan mexanizmdir.

Bazar - o vaxt mövcud olur ki, insanlar ya birbaşa, ya da vasitəçilərin köməyi ilə mal, yaxud xidmətlərin alqı-satqısını həyata keçirmək üçün görüşürlər.

Bazar - əmtəə istehsalı və tədavülü qanunları üzrə təşkil olunmuş mübadilə, mal mübadiləsi münasibətlərinin məcmusudur.

Bazar - satıcı və alıcıların, başqa sözlə, tələb və təklifin qarşılıqlı təsir mexanizmdir.

Bazar - ölkədaxili və ölkələrarası mübadilə sferası olub, məhsul istehsalçıları və istehlakçılarını bir-biri ilə əlaqələndirir.

Bazar - mövcud olan və potensial mal alıcılarının məcmusudur və s.

Göründüyü kimi, bazar anlayışına mahiyyətcə eyni, formaca müxtəlif mövqelərdən yanaşılır. Bir sıra iqtisadçılar yuxarıda göstərilən tərifl ərin mahiyyətcə ticarətə məxsus olduğunu, digər tərəfdən "... bazarın heç də münasibətlər məcmusu deyil, əksinə, bu münasibətlərin baş verdiyi həddi-hüdudu görünməyən və eyni zamanda konkret sahə, məkan, mühit, meydan olması" fikrini irəli sürürlər. [3. s 210]

Beləliklə, bazarın mahiyyəti üzrə irəli sürülən fikirləri yekunlaşdıraraq, qeyd etmək istəyirik ki, əvvəla bu tərifl ərin hər birində müəyyən həqiqət, uyğunluq vardır. İkinci, bazar bütövlükdə ictimai həyatın bütün sferalarında təzahür edir. Buna görə də, ona kompleks şəkildə yanaşmaq lazımdır. Belə ki, bazarı sırf sosial təzahür də hesab etmək olar. Üçüncü, iqtisadi proseslərin mahiyyətində və ümumiyyətlə, bütövlükdə ictimai-siyasi həyatda baş verən keyfiyyət dəyişiklikləri bazarla dialektik qarşılıqlı vəhdətdə götürülməli və hər hansı konkret vaxt intervalında meydana çıxan xüsusiyyətlər kompleksinin bazar fəaliyyətinə təsiri bu baxımdan səciyyələndirilməlidir. Deməli, bazarın fərqli mövqelərdən qiymətləndirilməsi heç də metodoloji yanaşmanın müxtəlifliyi ilə əlaqədar deyildir.

Beləliklə:

1) Bazar -geniş təkrar istehsal prosesində mərhələdir. Lakin, o, marksizm klassiklərinin göstərdikləri kimi mübadilə sferası ilə məhdudlaşmır. Əksinə, iqtisadi proseslərin məhz tədavüldə başa çatmasını nəzərə alsaq, onda göstərilən sxematik əlaqəni aşağıdakı kimi ifadə etmək olar:

İqtisadi proses

İstehsal amilləri bazarı	İstehsal	Hazır mallar bazarı	İstehlak

2) Bazar -tələbatın və tələbin formalaşdığı məkandır. Belə ki, bazara daxil olan mallar (xidmətlər) ya mövcud tələbin (tələbatın) ödənilməsinə yönəldilir, ya da yeni tələb yaradır;

3) Məhz bazarda ictimai-əmək bölgüsünün mahiyyəti özünü büruzə verir. İctimai əmək bölgüsü tələb və təklifin mövcudluğu ilə ifadə olunur.

ƏDƏBİYYAT

1. Котлер Ф.Основы маркетинга. М.Прогрес, 1992, стр. 56.
2. P. Samuelson, Ekonomika 1 cild, M: 1992. səh. 15.
3. Економика торговли. М: “Економика”, 1990. стр. 68.
4. Ümumi iqtisadi nəzəriyyə. Bakı “Siyasət ”. 1995, səh 210.
5. F.N.Ələsgərov. İstehlak malları bazarı: idarəetmə formaları və metodları. Azərnəşr. 1993, səh. 11.
6. К.Макконелли, Сменли Л.Брю. Економикс. 1 том, “Азербайджан” 1992, стр. 61.
7. А.Хоскинг. Курс предпринимательства. М: “МО”, 1993, стр. 104.
8. Еконимика, М: “БЕК” 1995, стр. 15.
9. Основы маркетинга, М: “Прогрес”. 1992 г, стр. 54.
10. İ.Ə.Feyzullabəyli. Biznes: bazar, ticarət, marketinq, plan -nə nədir. Azərnəşr. 1995, səh 30.

Васиф Балахан оглы Газиев
заведующий кафедры «Менеджмент и торговля», доцент АУК

Основы и развития рынка продовольственных товаров

Резюме

К аспектам программно - ориентированного подхода к созданию и развитию продовольственного рынка относятся следующие: продовольственное снабжение населения является ключом не только для экономического развития и макроэкономической стабильности, а также неотъемлемой частью государственной независимости. Сохранение динамического баланса между спросом и предложением на рынке функционально зависит от того,что государство может добиться увеличения поставок продовольствия. Нормальное развитие продовольственного рынка пропорциональна межотраслевым отношениям на равне (как макро, так и микроуровне) с эффективной организацией.

Ключевые слова: иследования, экономическое развитие, массовый характер производства, государственный и межгосударственный обмен, социальное развитие, товар сфера обмена товаров.

Vasif Balakhan Haziyev
ass. prof. head of chair “Management and Commerce” ACU

The theoretical basis of food market improvement

Summary

The featares making important the programme aimed approach in food market improvement can be considered as following/ Providing the population with food products is not only the main condition of economic growth and steady state macroeconomy, it is also indispensable part of our governmental independence.

Dejnamic balance between demend and supply in the market mainly depends on reaching the growth of food products resources by government. The normal growth of food products market is related to the effective organization of relations of spheres (on macro or micro levels)

Key words: researches economic growth, commen character of production, internal and international exchange, social expression, goods exchange, goods exchange sphere.

Aytən Ziyad qızı SƏMƏDZADƏ
"İqtisadiyyat" qəzetinin baş redaktoru,
iqtisad üzrə fəlsəfə doktoru

ƏRZAQ BOLLUĞU SAĞLAM QİDALANMANIN VƏ UZUNÖMÜRLÜLÜYÜN RƏHNİDİR

Xülasə

Məqalədə hər bir ölkənin iqtisadi siyasətinin vacib sahəsi olan ərzaq təhlükəsizliyindən, hazırkı dövrdə onun təminatında baş verən çətinliklərdən bəhs edilir. Qloballaşma və urbanizasiya şəraitində ərzaq bolluğunun insanların həyat tərzinə, həyat səviyyəsinə və sağlamlığına təsir edən amilləri nəzərdən keçirilir. Müasir dünyanın bir sıra ölkələrində baş verən münaqişələrin və ziddiyyətlərin yoxsulluq, aclıq kimi problemlərə yol açdığı göstərilir, müvafiq təkliflər irəli sürülür.

Açar sözlər: iqtisadi təhlükəzislik, ərzaq təhlükəzisliyi, ərzaq bolluğu, qida məhsulları, həyat səviyyəsi, həyat tərzi, gəlirlər, xərclər, aclıq, yoxsulluq, hərbi münaqişələr.

***

Ölkə əhalisinin ərzaqla təmin olunması hər zaman dövlət başçılarının, hökumət rəhbərlərinin ciddi diqqət yetirdiyi ən vacib məsələ olmuş və bu gün də olmaqdadır.

Hər bir ölkənin ərzaq təhlükəzisliyi dedikdə onun iqtisadi təhlükəsizliyinin ən mühüm və həlli vacib olan sahəsi başa düşülür və bütün dövlətlərin iqtisadi siyasətinin ən başlıca istiqamətlərindən biri kimi diqqət mərkəzindədir.

Ərzaq təhlükəzisliyinin təmin edilməsi nə üçün bu qədər vacib və əhəmiyyətlidir?

İnsan dünyaya gəldiyi ilk gündən ərzaqla təmin edilir. Tanrı onu yaşamaq, həyatda qalmaq, böyümək üçün ilk günlərdən əvəzolunmaz təbii qida ilə - ana südü ilə təmin edir. Lakin bəlli zaman keçdikcə insanın fiziki inkişafı və bioloji tələbatlarının ödənilməsi üçün lazımi qida maddələri ilə təmin olunması başlıca məqsədə çevrilir. Əslində hərtərəfli qidalanma fərdin sonrakı sağlam yaşamının təməlini qoyan, normal fizioloji inkişafını təmin edən, gələcək yetginliyinə təkan verən prosesdir. Sağlam ali varlıq isə sağlam nəsil, qənaətbəxş əhali sayı və təbii artımı, tükənməyən işçi qüvvəsi, davamlı iqtisadi inkişaf, iqtisadi artım, fəallıq, bir sözlə, ölkənin iqtisadi inkişaf səviyyəsinin əsas göstəricilərindən biridir. Məhz buna görə də ərzaq təhlükəsizliyi hər bir dövlətin iqtisadi inkişafının, iqtisadi siyasətinin prioritet istiqaməti kimi hər zaman mühüm əhəmiyyət kəsb etməlidir.

Hər bir canlı varlıq özünəməxsus qidalanır: insanların min illər boyu təkamül prosesində təbiətin bəxş etdiyi nemətlərdən necə, hansı yollarla, nə qədər, nə zaman yararlanması əsrlərlə formalaşmış, illərin təcrübəsi, müşahidələri nəinki alimlərə, elə insanın özünə də çox şeyi öyrətmişdir.

Əhalisinin fəal şəkildə öz həyat fəaliyyətini davam etdirməyə əsas verən, fizioloji normalara əsaslanaraq təhlükəsiz və sağlam qida məhsulları ilə təmin olunması ölkənin ərzaq təhlükəsizliyi adı altında ümumiləşdirilir. Elm və texnologiyalar tərəqqi etdikcə ölkələrin iqtisadi inkişaf səviyyəsi qeyri-bərabər şəkildə dəyişir. Bundan başqa, dünya ölkələrinin hər birində müxtəlif coğrafi iqlim şəraiti, təbii resurslar, əhalinin sıxlığı, demoqrafik problemlər etibarlı ərzaq təminatında müəyyən çətinliklər yaradır. Kənd təsərrüfatına yararlı sahələrin azalması və ya onların mövcudluğu şəraitində onlardan digər məqsədlər üçün istifadə edilməsi, eləcə də güclü sənayeləşmə, urbanizasiyanın doğurduğu problemlər bu məsələnin uğurlu həllinə maneələr törədir. Təəssüf ki, bu gün də davam edən siyasi və hərbi münaqişələr, məcburi miqrasiyanın yaratdığı təsirlər ərzaq təhlükəsizliyinin təmin olumasında bir sıra çətinliklər və qeyri-bərabərliklər yaradır. Tədqiqatlar göstərir ki, inkişaf etmiş ölkələr bu problemin həll edilməsinə nail olsalar da, inkişaf etməmiş ölkələrdə ərzaq təminatının kifayət qədər olmaması müşahidə edilməkdədir. Bu ölkələrdə kənd təsərrüfatında mövcud problemlərin baş verməsi, suvarma sistemlərinin qeyri-qənaətbəxş olması, müasir texnologiya və infrastrukturların çatışmazlığı, təhsil və məşğulluğun aşağı səviyyəsi nəticəsində əhali gəlirlərinin gündəlik, aylıq qidalanma normalarına əməl etməyə imkan vermir. Bu zaman insanlar məcburiyyət qarşısında qalaraq nəinki gündəlik fizioloji qidalanma normalarına riayət etmir, bəzən də acından ölməməkçün keyfiyyətsiz, sağlamlıq

üçün təhlükəli sayılan ərzaq məhsullarına üz tutur, onlarla qidalanmaq məcburiyyətində qalırlar. Bu isə gələcəkdə onların səhhətində mütləq şəkildə özünü büruzə verir. Hələ üstəlik yaşadığımız əsrdə ekoloji durumun yaratdığı təhlükələrin, texniki vasitələrin atmosferə buraxdığı zərərli maddələrin, qlobal istiləşmənin fəsadlarının sağlamlığa vurduğu ciddi ziyanı da nəzərdən qaçırmayaq. Bunlar azmış kimi, dünya əhalisini ərzaqla təmin etmək məqsədilə yaradılmış geni dəyişdirilmiş məhsulların getdikcə artan istehsalı, 3-cü dünya ölkələrində satılması gələcək nəsillərin sağlamlığına ciddi zərbə vurur.

Keyfiyyətli və təhlükəsiz, ekoloji təmiz qida məhsulları ilə təmin olunma hər bir vətəndaşın haqqıdır. Bu məsələlər müəyyən qədər qanunvericilikdə də öz əksini tapmışdır. Bu baxımdan hesab edirik ki, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli "Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı ilə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin yaradılması qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsinə böyük təkan verəcəkdir.

Ərzaq bolluğunun *təmin edilməsinin sağlam qidalanma üçün əhəmiyyəti danılmazdır.*

Bir çox hallarda ifrat dərəcədə qidalanma piylənmə, ürək-damar xəstəlikləri, şəkərli diabet və bu kimi başqa xəstəliklərin inkişafına yol açır. Müasir ədəbiyyatlarda sağlam qidalanma dedikdə məsələyə kompleks yanaşma başa düşülür. Şübhəsiz, bura ilk növbədə keyfiyyətli və fizioloji normalara əsaslanan, yaş, cins, məişət və iş şəraiti nəzərə alınmaqla qidalanma, vaxtında və balanslaşdırılmış ərzaq məhsullarının lazımi miqdarda istehlak edilməsi nəzərdə tutulur.

Dietoloqlar hesab edirlər ki, düzgün və rasional qidalanmaya riayət edilməsi insanın normal həyat fəaliyyətini və onun uzunömürlülüyünü təmin etmiş olur.

Müasir tibbi ədəbiyyatlarda insanın fiziki və fizioloji tələbatlarını ödəmək üçün lazım olan əsas komponentlər: yağ, zülal, karbohidratlar, eləcə də vitaminlər və mikroelementlər hesab edilir. Onların hər biri insan orqanizmi üçün vacib funksiya yerinə yetirir, orqan və sistemlərin normal fəaliyyətini tənzimləyir, bioloji və fizioloji proseslərin normal getməsini təmin edir. Onların qəbul vaxtı, miqdarı, bir-birinə uyğunlaşması haqda bəzi yeni fikirlər, yeni meyillər yaransa da, insan orqanizmində bu maddələrin rolu danılmazdır. Qidanın tərkibində bu vacib komponentlərin çatışmazlığı və ya əksinə, artıqlığı orqanizmdə bir çox fəsadlar yaratmış olur.

Son zamanlar yer üzündə əhalinin həyat tərzi qloballaşma və urbanizasiya prosesləri ilə əlaqədar dəyişdikcə şişman insanların da sayı artmaqda davam edir. Mütəxəssislər hesab edirlər ki, bu hal təkcə həddindən artıq qida qəbulu, hərəkət fəaliyyətinin azalması ilə deyil, daha çox cəmiyyətin həyat tərzindəki qlobal dəyişikliklərlə izah olunur.

Müasir həyatda avtomatlaşmanın məişətimizə möhkəm daxil olaraq dərin kök salması, hətta sağlam qidalanma fonunda da öz mənfi təsirini göstərir. Vaxtilə insanın öz rahatlığı, əl əməyini yüngülləşdirmək üçün icad etdiyi qurğular, texniki vasitələr indi onun bir növ düşməninə çevrilib desək, yanılmarıq. Fiziki aktivliyin azalması, əzələ fəaliyyətinin aşagı düşməsi isə sağlam qidalanma fonunda belə insan orqanizmində fizioloji proseslərin normal getməsinə maneə törədir, müəyyən müddətdən sonra öz izini qoyur.

BMT-nin məlumatlarına əsasən, qida çatışmazlığına məruz qalanların sayı hələ 1980-ci ildə 920 milyon olduğu halda, 2000-ci ildə 799 milyona enmişdir. Müasir dünyada insanlar arasında aclıqdan ölənlərdən çox ürək-damar, şəkərli diabet, xərçəng xəstəliklərindən vəfat edənlərin sayı artır. Artıq çəki bu xəstəliklərin inkişafına, gedişinə və ağırlaşmasına təkan verir. Hazırda ABŞ piylənmə problemi olan ölkələr arasında ön sıradadır. Lakin Avropa ölkələrinin çoxu, Avstraliya, Asiya, inkişaf etmiş Latın Amerikası ölkələri də buna yaxınlaşır. Piylənmə ilə qeydə alınanların sayı QİÇS-lə qeydə alınanların sayından dəfələrlə çoxdur. Piylənmənin müalicəsi isə alkoqolizm və siqaretlə mübarizədən daha baha başa gəlir. Əsasən ucuz qidalanma nəticəsində baş verən piylənmə ABŞ-da əlilliyin əsas səbəbi sayılır.

Bəzi analitiklər hesab edirlər ki, artıq çəki probleminin geniş vüsət almasına səbəb insanın əvvəllər vərdiş etmədiyi məhsulları qəbul etməsidir. Cəmiyyət özünün tarixi inkişaf dövründə müxtəlif mədəniyyətlər, yerli təbii şəraitlə və imkanla əlaqədar fərqli qidalanma sistemini yaratmışdır. Qloballaşma və urbanizasiya prosesləri isə planetin əhalisinin həyat tərzinə mənfi təsirlərindən birini bu formada göstərir. Mütəxəssislər hesab edirlər ki, qida istehsalçılarının əsas

məqsədi daha çox mənfəət əldə etməkdir. Ona görə də onlar daha çox ucuz məhsul istehsal edirlər ki, bu da öz növbəsində qeyri-sağlam qida məhsullarının ifrat dərəcədə artmasına gətirib çıxarır və nəticədə bunu əldə edən insanların sağlamlığında öz əksini tapır.

2013-cü ildə artıq çəki və piylənmə problemi ilə üzləşən 5 yaşa qədər uşaqların sayı 42 milyon olmuşdur. Bu isə gələcəyin xəstə insanı deməkdir.

Dünya əhalisinin əksər hissəsi ölüm səbəblərinin daha çox piylənmə və artıq çəki problemi təşkil etdiyi ölkələrdə yaşayır. Piylənmə problemi hər il dünya iqtisadiyyatına 2 trilyon dollara başa gəlir. Buraya sağlamlıqla bağlı xərclər və əmək məhsuldarlığının enməsi nəticəsində yaranan itkilər daxildir. Məsələn, ABŞ-da piylənmə problemi ildə 663 milyon dollar ziyana səbəb olur.

2014-cü ildə verilən məlumatlara görə, 18 yaş və ondan yuxarı 1,9 milyard insanda (39%) artıq çəki problemi mövcuddur ki, onlardan 600 milyonu (13%) piylənmədən əziyyət çəkir. "The Lancet" jurnalının verdiyi proqnozlara görə, 2025-ci ildə Yer üzündə əhalinin 20%-i piylənmədən əziyyət çəkəcək.

Piylənmə və aclıq bir çox xəstəliklərə yol açır. Bu da sağlamlığın məhdudlaşması, hətta itirilməsi ilə bərabər, istehlak xərclərində səhiyyə xərclərinin xüsusi çəkisinin artması ilə müşayiət olunur. Səhiyyə xidmətlərinin gündən-günə artdığı şəraitdə bunun nə demək olduğu hər kəsə aydındır. Dünya Bankının son məlumatlarına görə, əgər əvvəllər piylənmə və artıq çəki problemi gəlirləri yüksək olan ölkələrdə daha çox təsadüf olunurdusa, indi nisbətən aşağı və orta gəlirli sayılan ölkələrdə bu təhlükə qarşısında qalan uşaqların sayı 30% çoxdur. Belə ki, onların sağlamlığına, qəbul etdiyi qida məhsullarının tərkibinə lazımi diqqət yetirilmir, idmanla məşğul olmurlar.

BMT hesablamalarına görə bu gün dünyada milyonlarla insan aclıqdan əziyyət çəkir. Kifayət qədər qidalanmama cəmiyyətə çox baha başa gəlir və bu fonda bir sıra xəstəliklərin baş qaldırması müşahidə edilir ki, bu da ağır fəsadlarla müşayiət olunur. Təxminən 2 milyard əhali normal həyat üçün zəruri olan vitamin və mineral maddələrin çatmamazlığı problemini yaşayır.

"Təbii fəlakətlər, hərbi münaqişələrin artması nəticəsində Yer üzündə aclıq çəkən insanların sayı 2 il ərzində 55% artaraq 124 milyona çatmışdır". Bu fikir BMT Təhlükəsizlik Şurasının builki iclasında səsləndirilmişdir. Avropa İttifaqının ƏKTT və Dünya Ərzaq Proqramının birgə bəyanatında qeyd olunmuşdur ki, 51 ölkənin 124 milyon əhalisi kəskin ərzaq çatışmazlığı ilə üz-üzədir, onların humanitar yardıma ehtiyacları var. İki il bundan əvvəl bu rəqəm 80 milyon idi. BMT məlumatlarına əsasən bu insanlar Suriya, Yəmən, Somali, Sudan, Konqo, Myanma, Nigeriyada baş verən hərbi münaqişələr və həmçinin təbii kataklizmlər nəticəsində bu qədər artmışdır. Aclıq və münaqişələr arasında əlaqə o qədər sıxdır ki, bu da ərzaq təhlükəsizliyinin pozulmasına gətirib çıxarır. Nəticədə qeyri-stabillik və gərginlik baş verir ki, bu da öz növbəsində zorakılıq yaradır. BMT-nin Dünya Ərzaq proqramının direktoru Devid Bisli insanları bu müharibələrə son qoymağa və təhlükələrə reaksiya verməyə, hökumət və qeyri-hökumət təşkilatlarını insanların müharibələr və aclıq üzündən əziyyət çəkdiyi yerlərdə güclü iqtisadiyyatın inkişafı, o cümlədən etibarlı ərzaq təminatı üçün qüvvələri səfərbər edərək birləşməyə çağırmışdır.

Ölkələr arasında iqtisadi əlaqələrin durmadan artması, inteqrasiya proseslərinin sürətlənməsi ərzaq təhlükəsizliyinin həlli problemini ölkə səviyyəsinin hüdudlarından çıxararaq daha geniş məna kəsb edir. Bu baxımdan dövlətlər nəinki öz ölkələrində bu məsələni həll etmək, əhalinin ərzaqla təminatını yaxşılaşdırmaq, eləcə də bəşəriyyət səviyyəsində ərzaq təhlükəsizliyinin təmin olunmasına çalışmalıdırlar.

Айтен Зияд кызы Самедзаде
д.ф.э., главный редактор газета «Экономика»

Продовольственное изобилие пищи является источником здорового питания и долголетия

Резюме

В статье рассматривается продовольственная безопасность, как важная область экономической политики каждой страны и трудности ее удовлетворения в нынешнем периоде.

Рассматриваются факторы, влияющие на образ жизни людей, уровень жизни и здоровье в условиях глобализации и урбанизации. Предоставляются как конфликты и противоречия в ряде современных стран мира привели к таким проблемам, как нищета и голод, и выдвигаются соответствующие предложения.

Ключевые слова: экономическая безопасность, продовольственная безопасность, продовольственное изобилие, продукты питания, уровень жизни, образ жизни, доходы, расходы, голодание, нищета, военные конфликты.

Ayten Ziyad Samedzade
PhD ec. chief editor newspaper "Economics"

Food abundance of food is a source healthy food and longevity

Summary

In article food security as the important field of economic policy of each country and difficulty of her satisfaction in the present period is considered. The factors influencing a way of life of people, the standard of living and health in the conditions of globalization and urbanization are considered. Are provided as the conflicts and contradictions in a number of the modern countries of the world have led to such problems as poverty and hunger, and the relevant proposals are made.

Key words: economic security, food security, food abundance, living level, lifestyle, incomes, expenditure, starvation, poverty, military conflicts.

Elmira Əli qızı BALAYEVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent, AKU;

Əlişir Yaqub oğlu ŞƏKƏRƏLİYEV
magistr AKU

MALİYYƏ BAZARLARININ İNKİŞAFININ İQTİSADİ TƏHLÜKƏSİZLİK ASPEKTLƏRİ

Xülasə

Məqalədə maliyyə bazarlarının formalaşmasının müasir meyilləri səciyyələndirilmişdir. Bu məqsədlə iqtisadi təhlükəsizlik baxımından qiymətli kağızlar, kredit, sığorta və qızıl bazarlarının formalaşması və inkişafı prosesləri araşdırılmışdır. Milli iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsi məqsədilə maliyyə bazarlarının tənzimlənməsinin bəzi imkanları aşkar edilmişdir.

Açar sözlər: maliyyə bazarı, qiymətli kağızlar, kredit, iqtisadi təhlükəsizlik, sığorta, qızıl bazarı.

***

Qiymətli kağızlar bazarının sabitləşməsi və dayanıqlığı, valyuta kursunun sabit saxlanması, inflyasiyanın aşağı salınması, maliyyə vəsaitlərinin istehsal sferasına qoyuluşuna imkan verən faiz dərəcələrinin səviyyəsinə əməl edilməsinə əsaslanır. İstehsalın canlanması, fond bazarının infrastrukturu, professional fəaliyyətin genişlənməsi gələcəkdə normal rəqabət şəraitində qiymətli kağızlar bazarının bütün seqmentlərinin inkişafı üçün bərabər şərait yaratmağa yönəldir. Hər bir qiymətli kağız seqmentinin səviyyəsi təklif, tələb, gəlirlilik və likvidlik ilə müəyyənləşdirilir. Qiymətli kağızlar vasitəsilə istər makro, istərsə də mikro çərçivədə iqtisadiyyata və iqtisadi proseslərə nəzarət etmək mümkündür. İqtisadi təhlükəsizlik meyarlarına bu halda xüsusi önəm verilməlidir. Qiymətli kağızların etibarlılığı bazarın vəziyyətindən asılı olan bir çox amillərin təsir dairəsindədir. Başqa sözlə, bu alətlərin etibarlılıq göstəricisi onun likvidlik və gəlirlilik dərəcəsindən başqa, siyasi, sosial və elmi-texniki amillərlə şərtlənir. Qiymətli kağızların satılması satışın həcmi, ümumi mədaxil, vergi dərəcəsi, balans gəliri, xalis gəlir, aktivlərin paylanması və s. göstəricilərdən birbaşa asılıdır.

Xarici investorların qiymətli kağızlar bazarındakı fəaliyyəti iqtisadi təhlükəsizliyin predmetidir. Qiymətli kağızlar portfelinin idarəedilməsini həyata keçirmək üçün normal maliyyə bazarı formalaşmalı və investorda sərbəst pul vəsaiti olmalıdır. Qiymətli kağızlar bazarının diversifikasiyası investisiya işində riski azaltsa da, onu aradan qaldıra bilməz. İnvestor üçün ən vacib iş riskin qiymətləndirilməsidir. Mikroiqtisadi proseslər haqqında ətraflı informasiya risk ehtimalını azaldır. Diversifikasiya investisiya qoyulan obyektlərin qiymətinə, götürüləcək gəlirin müxtəlifliyinə və onların tez-tez dəyişilməsinə əsaslanır. Dövlətin qiymətli kağızlar bazarının fəaliyyət istiqamətlərinə: - borca xidmət xərcləri azaldıqca, dövriyyədə olan qiymətli kağızların həcminin artırılması, əhalinin, həmçinin təşkilati investorların vəsaitinin daha fəal cəlb edilməsi, möhkəm faiz dərəcələrindən və ödəmə şərtlərindən istifadə edərək, dövriyyəyə yeni qiymətli kağız növlərinin buraxılması, borc öhdəliklərinin orta tədavül müddətinin artırılması və uzunmüddətli qiymətli kağızların payının yüksəldilməsi aid edilir.

Qiymətli kağızlar bazarının inkişafının və borcların idarə edilməsi meyarlarında oxşar cəhətlər az deyildir. Belə ki, yaxın və orta perspektivə olan borcların idarə edilməsində əsas məqsədlər aşağıdakılar olmalıdır: dövlətin borca olan tələbini səmərəli fəaliyyət göstərən birinci və ikinci dövlət qiymətli kağızlar bazarı əsasında təmin etmək; borca xidmət xərclərini azaltmaq; dövlət borclarının idarə edilməsi siyasətini ümumi iqtisadi siyasətlə uzlaşdırmaq.

"Qiymətli kağızlar bazarının inkişafı özəlləşdirmənin tempindən, bankların uçot normasından, inflyasiyanın tempindən və digər makroiqtisadi amillərdən asılıdır. Müvəqqəti sərbəst pul vəsaitlərinin qiymətli kağızlara qoyuluşu investorları o halda cəlb edir ki, qoyuluşların gəlirliyi inflyasiya tempindən və bankda saxlanılan pullara ödənilən faizdən yüksək olsun" [1, s. 79]. Dövlət qiymətli kağızlar bölməsinin imkanlarını artırmaq məqsədilə yeni alətlərdən istifadə edilməsi məqsədəuyğundur. Bu halda bir cəhət xüsusilə diqqət mərkəzində olmalıdır. Belə ki, faiz dərəcələrinin aşağı düşdüyü bir şəraitdə qeyd olunmuş faizlə uzunmüddətli qiymətli kağızlara nisbətən, dəyişkən faizli istiqrazlar öz cəlbediciliyini itirə bilər. Korporativ qiymətli kağızlar bölməsinin inkişafı istehsalın canlanması və real sektora investisiya qoyuluşları üçün əhəmiyyətli amil ola bilər. İnvestisiyaya tələb qiymətli kağızların buraxılışına tələbi formalaşdırır. İqtisadiyyatda problemlər real sektora kapital qoyuluşlarını ləngidə bilər. Korporativ qiymətli kağızlar bazarının inkişafını ləngidən səbəblərdən biri də yüksək gəlirli dövlət borc öhdəliklərinin genişmiqyaslı emissiyası ola bilər.

Vergi bazasının möhkəmlənməsi, büdcə probleminin həlli, milli valyutanın möhkəmlənməsi, kommersiya bankları və şirkətlərin milli valyutaya tələbatının artırılması dayanıqlı iqtisadi inkişaf nəticəsində mümkündür. İqtisadi artım isə öz növbəsində vergiqoyma, pul tədavülü və kredit, özəlləşdirmə, qiymət tənzimlənməsi və xarici bazarlarda yerli istehsalçıların maraqlarının qorunması sahəsində zəruri tədbirlərin həyata keçirilməsindən birbaşa asılıdır.

İqtisadi təhlükəsizlik nöqteyi-nəzərindən hər bir dövlət, hətta maliyyə bazarlarının liberallaşdığı bir şəraitdə ölkəyə gətirilən və ölkədən çıxarılan kapitalın hərəkətinə nəzarəti gücləndirməlidir. Valyuta-maliyyə sferasında ölkə öz iqtisadi təhlükəsizliyini müdafiə etmək üçün xarici borcların vəziyyətinə nəzarətin sərtləşdirilməsi, xarici borcların mərhələlər üzrə ləğvi proqramının işlənib hazırlanması, iqtisadiyyatın struktur və sənaye siyasətinə xidmət edən xarici investisiya axınının stimullaşdırılması istiqamətində tədbirlər həyata keçirməlidir.

Sahibkarlıq fəaliyyətinin inkişafı, mübadilə əməliyyatları və müqavilə öhdəlikləri dairəsinin genişlənməsi, etibarlı zəmanət sisteminin yaradılmasını tələb edir. Bu sistem sığorta sayəsində təşəkkül tapır. İctimai və şəxsi mənafelərin istehsal, bölgü, mübadilə və istehlak proseslərində mühafizəsi sığorta vasitəsilə mümkündür. Azərbaycanın bank sistemində uzunmüddətli investisiya resursları yaratmaq üçün bank faizləri inflyasiyanın səviyyəsini qabaqlamalı, əmanətlərin sığortalanmasında beynəlxalq təcrübədən geniş istifadə edilməli, əmanətlər xarici valyutaya nəzərən indeksləşdirilməlidir. Ölkədə kommersiya banklarında vəsait çatışmazlığını aradan qaldırmaq üçün əhalidən əlverişli faizlərlə əmanətçilər çəlb edilir və onlar sığortalanır.

Azərbaycanda sığorta bazarı ölkənin qanunları əsasında yaradılan müxtəlif mülkiyyət və təşkilati-hüquqi statusa malik sığorta şirkətlərinin iştirakı ilə formalaşır. Sığorta münasibətləri, sığorta haqqında Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman-

ları, sığorta məsələləri üzrə hökumətin qərarları, sığorta fəaliyyətinə nəzarəti həyata keçirən icra aparatının normativ aktları əsasında tənzimlənir. Sığorta işinin inkişafı və həyata keçirilməsi sığortaçıların maliyyə bazasının möhkəmləndirilməsini, sığorta sahəsində fəaliyyət göstərən fiziki və hüquqi şəxslərin peşə fəaliyyətini - sığorta müqavilələrindən irəli gələn münasibətlərin tənzimlənməsini, sığorta sahəsində dövlət orqanlarının səlahiyyətlərinin müəyyən edilməsini nəzərdə tutur. Son illər mühüm müsbət meyillərin baş verdiyini qeyd etməklə yanaşı, onu da deyək ki, hazırda Azərbaycanda sığorta bazarının mövcud vəziyyəti sığorta mükafatlarının xeyli hissəsinin ölkədə qalmasına imkan vermir. Sığorta şirkətləri tərəfindən alınmış sığorta mükafatlarının yarıdan çoxu təkrar sığortaya verilir ki, bunun da xeyli hissəsi xaricə gedir. Sığorta şirkətinin nizamnamə kapitalında xarici tərəfdaşın payına qoyulan məhdudiyyət (bu ən çoxu 49% ola bilər) Azərbaycanda sığorta bazarının mühafizəsinə xidmət edir. Göstərilən limit qoyulmazsa, aydındır ki, mükafatları çox cüzi miqdarda olan yenicə formalaşmış sığorta bazarı xarici sığorta şirkətləri ilə rəqabət apara bilməz. Yüksək sığorta risklərinin bir hissəsinin qismən də olsa təkrar sığortalanması yolu ilə ölkə ərazisində bölüşdürülməsi, təkrarsığorta əməliyyatları üzrə xarici dövlətlərə valyuta axınının qarşısını almaq məqsədilə, sığorta bazarının formalaşmasına müsbət təsir edəcək güclü maliyyə imkanlarına malik təkrar sığorta qurumunun yaradılması məqsədəuyğundur.

Sığorta ehtiyatlarının yerləşdirilməsi dünya təcrübəsinin, ümumən qəbul edilmiş aşağıdakı prinsipləri üzrə həyata keçirilir: diversifikasiya prinsipi. Bu prinsip investisiya obyektlərinin geniş dairəsinin mövcudluğunu nəzərdə tutur. Həmin obyektlərin çoxluğu investisiya risklərinin azaldılmasına və sığortaçının investisiya portfelinin dayanıqlığının təmin edilməsinə şərait yaradır; qaytarılma prinsipi. Bu prinsip aktivlərin maksimal etibarlı yerləşdirilməsini və investisiya vasitələrinin tam həcmdə və mütləq qaydada qaytarılmasını nəzərdə tutur; mənfəətlilik. Bu prinsip müntəzəm və kifayət qədər gəlir əldə edilməsi ilə əlaqədar investisiya məqsədlərinin reallaşdırılmasını nəzərdə tutur; likvidlik. Bu prinsip sığorta ödənişləri üzrə öhdəliklərin yerinə yetirilməsini, zəruri halda investisiya aktivlərinin onların nominal dəyərlərindən aşağı olmayaraq təcili reallaşması imkanlarını nəzərdə tutur. Sığorta şirkətlərinə investisiya vəsaitlərinin istiqamətləndirilməsi üçün geniş imkanlar verilmişdir. Sığorta ehtiyatları aşağıdakı istiqamətlərdə yerləşdirilə bilər: dövlət qiymətli kağızları; bank hesablarındakı pul vəsaitləri; qeyri-dövlət qiymətli kağızları; öz işçilərinə pul vəsaitlərinin borc verilməsi; digər hüquqi şəxslərin nizamnamə kapitalında payçı kimi iştirakı;daşınmaz əmlak (o cümlədən mənzillər); valyuta qiymətliləri.

Ayrı-ayrı ölkələrin inkişaf xüsusiyyətləri ilə əlaqədar olan valyuta məzənnələrindəki xüsusi dəyişikliklər yalnız yerli qızıl bazarlarının konyunkturuna təsir edir. Bu təsirin milli sərhədləri aşaraq, dünya qızıl bazarlarında öz əksini tapması daxili bazarda qızılın və ABŞ dollarının məzənnələrindəki dəyişikliklərin sıx qırşılıqlı əlaqədə baş verməsi halında müşahidə olunur. ABŞ dolları ucuzlaşdığı dövrdə ABŞ-ın ərazisində və beynəlxalq ticarət mərkəzlərində qızılın dollarda ifadə olunan qiyməti dəyişmir. Lakin, əgər dollara nisbətən avro bahalaşarsa, onda avro zonasına daxil olan qızıl bazarlarında qızılın qiyməti aşağı düşür. Belə vəziyyət isə qızıla tələbi artırır, qızıl təklifini aşağı salır. Dolların ucuzlaşdığı ərazi genişləndikcə, yerli bazarlarda qızılın qiymətinin aşağı düşməsi prosesi də sürətlənir.

XXI əsrin ilk illərində beynəlxalq miqyasda dolların və qızılın qiymətləri arasında əlaqələrin təzahür formaları daha rəngarəng olmuşdur. Əgər bu əlaqələri xarakterizə etməyə cəhd göstərsək, aşağıdakıları söyləyə bilərik. Qızılın qiymətinin artım tempi dolların başqa valyutalara nisbətən ucuzlaşması tempini qabaqlayırsa, bu halda yerli qiymətlərdə azalma baş vermir. Tədqiqatlar göstərir ki, belə vəziyyətdə yerli bazarlarda qızılın qiymətinin artım tempinin dünya qızıl bazarlarının qiymətinin artım tempindən geri qalması müşahidə edilir.

Qızıl bazarında tələb-təklif nisbətini şərtləndirən amillər çoxsaylı və kifayət qədər müxtəlif xarakterlidir. Bu və digər səbəblərdən həmin bazarın tənzimlənməsi olduqca mürəkkəb prosesdir. Belə vəziyyəti şərtləndirən əsas səbəblərdən biri qızılın qiymətinin proqnozlaşdırılmasında qarşıya çıxan çətinliklərdir. “Dünyada qızılın qiymətini hətta yaxın perspektivə belə proqnozlaşdırmaq çətindir. Buna səbəb təsir edən amillərin sayca çoxluğu deyil, onların bəzən qeyri-iqtisadi xarakterli olmasıdır” [2, s. 44]. İnvestisiya-tezavrasiya tələbinin dinamikası fərqli xüsusiyyətlərə malikdir. Həmin fərqlər bir-birinə zidd olan iki meylin kəskinləşməsindən meydana gəl-

mişdir. Belə ki, artan qiymət özəl mənbələrdən qızılın satışa çıxarılması ilə müşayiət oluna bilər. Adətən, bu, daha ucuz qiymətə alınmış və ehtiyat saxlanılan qiymətli metaldır. Digər tərəfdən, iqtisadi və siyasi gərginlik investor-tezavratorların qızıla marağını artırır. Belə vəziyyətdə qızılın qiyməti qalxsa da, insanlar ona etibar etdiyindən əksər hallarda qızılı satmaqdan çəkinirlər.

ƏDƏBİYYAT

1. Cəbiyev R.M. Azərbaycanda bazar infrastrukturunun formalaşması və inkişafı. Bakı, ATU, 2000, 236 s.
2. Balayeva E.Ə. Qızıl bazarının vəziyyəti və bəzi inkişaf meyilləri// «Kooperasiya» jurnalı. №3 (26), 2012, s.39-45.

Элмира Али кызы Балаева
д.ф.э., доц. АУК;

Алишир Ягуб оглы Шакералиев
магистр АУК

Аспекты экономической безопасности развития финансовых рынков

Резюме

В статье характеризуются современные тенденции формирования финансовых рынков. С этой целью исследованы процессы формирования и развития рынка ценных бумаг, кредита, страхования и золота с точки-зрения экономической безопасности. Выявлены некоторые возможности регулирования финансовых рынков с целью укрепления национальной экономической безопасности.

Ключевые слова: финасовые рынки, ценные бумаги, кредит, экономическая безопасность, страхование, рынок золота.

Elmira Ali Balayeva,
PhD in economics, ass. prof. ACU;

Alishir Yagub Shakaraliyev
master ACU

The issues of economic security for thevelopment of financial markets

Summary

The paper describes modern trends in formation of financial markets. From the economic security viewpoint the paper reviewes the formation and development processes of securities, credit, ensurance and gold markets. Some possibilities for regulating financial markets have been identified to strengthen national economic security.

Key words: financial market, securities, credit, economic security, ensurance, gold market.

Анар Али оглы АЗИЗОВ
д.ф.э.н., доцент, заведующий кафедрой
«Экономической теории»
Азербайджанского Университета Кооперации

НЕКОТОРЫЕ АСПЕКТЫ ВЗАИМОСВЯЗИ ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ И СЕЛЬСКОГО ТУРИЗМА

Резюме

Данная статья посвящена некоторым аспектам взаимосвязи продовольственной безопасности и сельского туризма. Показана роль продовольственной безопасности и сельского туризма, а также значение их взаимосвязи в решении социальных проблем регионов.

Продовольственная безопасность и туризм рассматриваются как комплексные общественные отношения. Рассмотрены отличительные признаки продовольственной безопасности и сельского туризма. Представлены обобщающие элементы для продовольственной безопасности и туризма в целом. Обозначены позитивные стороны взаимосвязи сельского хозяйства с туризмом.

Ключевые слова: продовольственная безопасность, сельский туризм, сельское хозяйство, взаимосвязь, развитие, потребитель, признак.

Ведение

В Азербайджане в последние годы туризм стал одним из приоритетных и перспективных сфер экономики.

Стоит отметить, что возрастающая популярность Азербайджана среди туристов стала результатом огромной поддержки сферы туризма со стороны Президента Азербайджана И.Г.Алиева.

Важнейшей задачей поставленной Президентом Азербайджана перед исполнительными органами власти является создание во всех регионах республики современной инфраструктуры для интенсивного развития сельского туризма.

На данном этапе исследования проблем продовольственной безопасности и развития сельского туризма приобретают особую актуальность.

Актуальность проблем продовольственной безопасности и туризма еще более усиливается в связи с утвержденным Президентом Азербайджанской Республики от 6 декабря 2016-го года важным документом «Стратегической дорожной карты» по национальной экономике и основным секторам экономики [4].

Экономические предпосылки развития сельского туризма

В Азербайджане имеются все условия, начиная с неописуемой природы, древних традиций гостеприимства и самобытной культуры, которые привлекают зарубежных туристов. Достаточно отметить, что 2015 году Габала, считающаяся лидером периферии принял более 25 тыс. гостей, в том числе из дальнего зарубежья, которые насладились прелестями сельского туризма Азербайджана.

Сельский туризм в Европе стал активно развиваться, прежде всего, из-за снижения экономического значения сельского хозяйства. По причине того, что сельская местность стала менее экономически привлекательной, некоторые фермерские комплексы были вынуждены прибегнуть к подобному средству для получения дополнительных доходов.

В Азербайджане в последние годы сельский туризм интенсивно развивается, благодаря низким затратам на его организацию, а также одной из возможности получать доход в условиях сельской местности.

Этот вид туризма приносит большой доход в государственный бюджет. Эта относится, прежде всего, к государствам с развивающейся экономикой, для которых высокие доходы в бюджет от сельского туризма очень ощутимы. Для многих территорий сельский туризм станет, той отраслью специализации, которая будет противовесом для хозяйственной деятельности, отрицательно воздействующей на природу.

Сельский туризм предполагает не только проживание на какой-то промежуток времени, но и приятное и активное времяпровождения – туристы могут совершать походы в горы, в лес, увлекательные прогулки. Помимо этого, туристы могут принимать активное участие в хозяйственных работах, производимых местным населением.

В последние годы большое предпочтение такому отдыху отдают жители городов нашей страны.

Отметим, что к примеру в России сельский туризм развивается больше как тренд, т.к. это модное направление. Туристы, насытившись отдыхом на зарубежных курортах, пересматривают свои предпочтения в сторону внутреннего туризма, а поскольку отдых загородом на природе, в том числе и сельский туризм, становится все популярнее с каждым годом, то увеличивается и предложение. Российские бизнесмены начинают вкладывать

деньги в открытие агротуристических фирм [5, с. 39].

Такое же положение складывается и в Азербайджане, где бурно развивается внутренний туризм, в том числе сельский.

Стоит признать, что по линии сельского туризма по официальным данным в 1987-м году наши сёла посетило 50 тыс. зарубежных туристов и 250 тыс. из бывших советских городов и весей. Поток туристов резко сократился в связи с карабахскими событиями и распадам СССР. И только с начала 2000-х годов этот вид туризма стал заново возрождаться.

Развитие сельского туризма стимулирует сохранение культурных традиций, изучение истории, возрождение традиционных ремесел, экономическое развитие отдаленных сельскохозяйственных территорий, занятость местного населения в сфере услуг и в производстве экологически чистых продуктов питания [3, с. 30].

Взаимосвязь продовольственной безопасности и сельского туризма

Обеспечение продовольственной безопасности, в рамках международных санкций считается наиважнейшей категорией. Именно поэтому для эффективного правового регулирования следует принимать во внимание статическое содержание продовольственной безопасности. Это означает, что продовольственную безопасность следует рассматривать как правовое состояние, которое возникает вне правоотношений, а также необходимо учитывать динамичность туризма, то есть регулирование правоотношений в данной области.

Правореализация грамотного законодательства о сельском хозяйстве и туризме, позволяющего развить некрупные хозяйства, выполняющие функции как сельхозпроизводителя, так и обслуживания туристов, станет элементом статического, общерегламентационного, информационного влияния государства на управленческие общественные отношения в целях моделирования и установления общего правового режима обеспечения продовольственной безопасности [1, с. 65].

Для выявления обобщающего показателя между сельским туризмом и продовольственной безопасностью, обозначим их отличительные признаки.

Важными признаками продовольственной безопасности являются: собственное производство продовольствия, которое обеспечивает продовольственную независимость государства; производство и оборот продовольствия как один из главных показателей экономики; реализация права человека на оптимальное питание; качество и количество продовольствия, обеспечивающее здоровую, достойную жизнь и воспроизводство населения; сохранение нормального уровня экологии и, что очень важно состояние общества.

Применив Модельный закон СНГ о туристской деятельности, выделим основные признаки сельского туризма: деятельность по организации отдыха туристов; место отдыха – сельская местность или малые города (при отсутствии промышленных зон и застройки); размещение в частном секторе; возможность трудового участия, ориентация на использование природных, культурно-исторических и других ресурсов, традиционных для данной местности [2, с. 306].

В сельском туризме, объектом потребления считается сельское хозяйство, в особенности в форме частных фермерских хозяйств. Без эффективного функционирования частных ферм сегодня, невозможно развитие сельского туризма. Интенсивное развитие сельского туризма будет способствовать развитию сельского хозяйства и выхода на более качественный уровень развития, но и, что очень значимо, позволит неэффективным хозяйствам полностью переориентировать свою деятельность.

Таким образом, обобщающим элементом для двух категорий можно считать сельское хозяйство и сельское население. При этом значимую роль они играют для продовольственной безопасности, а для туризма в целом – вспомогательную. Туризм в данном случае следует рассматривать с позиции реализации важного принципа обеспечения продовольственной безопасности – принцип доступности продовольствия. Если же рассматривать взаимосвязь сельского хозяйства с туризмом, то можно отметить, что сельское хозяйство для туризма создаст условия для увеличения предложений потребителю, а туризм для сельского хозяйства даст возможность реализовать принцип обеспечения баланса интере-

сов сельского населения регионов Азербайджана, туристов посещающих эти регионы, и субъектов сферы туризма, которые направляют туристов (путешественников), в части развития территорий и повышения числа рабочих мест. Следует отметить, что для повышения уровня занятости и соответственно уровня и качества жизни сельского населения необходимо, прежде всего, разнообразить инфраструктурные проекты с целью свободного доступа населения к продовольствию; улучшить качество продовольствия, повысить уровень образованности сельского населения, благоустроить сельские территории.

Интенсивное развитие сельского туризма сделает возможным сформировать такую инфраструктуру, которая позволит осуществлять не только доставки продовольствия населению, но и населения к продовольствию. Из этого процесса выбывают перекупщики сельхозпродукции; возрастает вероятность обеспечения свежей сельхозпродукции, и, что важно цена её будет ниже, чем доставки продовольствия населению, поскольку транспортные услуги оплачивает турист. Отметим, что мелкие производители будут иметь дополнительную возможность на сбыт своей выращенной сельхозпродукции.

Следует признать, что у туриста, как потребителя продовольствия появится возможность иметь свои представления о качестве продовольствия. В сущности, активное развитие сельского туризма повысит степень знаний потребителя, а также расширит свободный доступ потребителя к сельхозпродукции высокого качества, что в результате будет способствовать улучшению уровня и качества жизни населения.

Вывод

Главный вывод заключается в том, что продовольственную безопасность следует рассматривать как комплексные общественные отношения. Связь рассматриваемых категорий (продовольственная безопасность и сельский туризм) необходимо осуществлять по схеме «туризм-сельское хозяйство-продовольственная безопасность», где возникающие туристские отношения позволят обеспечить продовольственную безопасность.

ЛИТЕРАТУРА

1. Калинина Л.Е. Взаимосвязь продовольственной безопасности и сельского туризма: проблемы публично-правового регулирования. Nota Bene. 2016, № 1, с.63-68.
2. Модельный закон о туристской деятельности // Информационный бюллетень. Межпарламентская Ассамблея государств – участников Содружества Независимых Государств. 2007, № 39 (ч. 2), с. 262-369.
3. Полякова А.Г. Модернизация структуры экономического пространства региона // Вестник Череповецкого государственного университета. 2011, Т. 2, № 2-30, с. 28-31.
4. «Стратегическая дорожная карта» по национальной экономике и основным секторам экономики. Баку, 2016, № 1897.
5. Шарафанова Е.Е. О достоверности исследований природного туризма. В книге: Туризм на сельских территориях: опыт, проблемы, перспективы: коллективная монография. СПб, 2013, с. 39-43.

Anar Əli oğlu Əzizov
i.f.d., dos. Azərbaycan Kooperasiya Universitetinin
"İqtisadi nəzəriyyə" kafedrasının müdiri

Ərzaq təhlükəsizliyinin və kənd turizminin arasındakı əlaqələrin bəzi aspektləri

Xülasə

Məqalə ərzaq təhlükəsizliyinin və kənd turizminin arasındakı əlaqələrin bəzi aspektlərinə həsr olunmuşdur. Burada bu iki kateqoriyanın rolu, həmşinin regionların sosial problemlərinin həllində onların mahiyyəti göstərilmişdir.

Ərzaq təhlükəsizliyi və turizmə kompleks ictimai münasibətlər kimi baxılır. Ərzaq təhlükə-

sizliyinin və kənd turizminin fərqli cəhətləri nəzərdən keçirilmişdir. Ərzaq təhlükəsizliyi və kənd turizmi üçün bütövlükdə ümumiləşdirici elementlər təqdim edilmişdir. Həmçinin məqalədə ərzaq təhlükəsizliyinin və kənd turizminin arasındakı əlaqələrin müsbət cəhətləri qeyd edilmişdir.

Açar sözlər: ərzaq təhlükəsizliyi, kənd turizmi, kənd təsərrüfatı, əlaqələr, inkişaf, istehlakçı, cəhət.

Anar Ali Azizov
ass., prof. Azerbaijan Cooperation University,
head of "Economic theory" chair

Some aspects of food security and rural tourism

Summary

The article deals with some aspects of food security and rural tourism. The role of these two categories, as well as their essence in solving social problems in the regions. Has been demonstrated here.

Food security and tourism are regarded as complex social relations. Different aspects of food security and rural tourism have been minimized. Generally summarizing elements for food security and rural tourism have been presented. The article also outlines the positive aspects of food security and rural tourism.

Key words: food security, rural tourism, agriculture, relations, development, consumer, aspect.

Şakur Oruc oğlu SƏFƏROV
i.f.d., dosent, Azərbaycan Kooperasiya Universiteti

ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİNATINDA KOOPERASİYANIN ROLU

Xülasə

Aqrar sahədə iqtisadi münasibətlərin tənzimlənməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində müstəsna rol oynayır bu istiqamətdə kooperasiyanın məzmun və formasını müəyyənləşdirir. Həmçinin kooperativlərin müasir vəziyyəti və gələcək perspektivləri təhlil edilir.

Açar sözlər: ərzaq təhlükəsi, kooperativ cəmiyyətlər, kooperasiya, bazar münasibətləri, istehlak kooperativləri.

***

Ölkədə davamlı və dayanıqlı ərzaq təminatının təmin edilməsi üçün vəziyyətdən çıxış yolu kooperativlər yaratmaqdadır. Birinin torpağı, digərinin texnikası, başqa birinin isə pulu olar və güclərini bir yerə toplayıb təsərrüfat yaradarlar, qazanc götürərlər.

İndi dünyada mövcud olan kənd təsərrüfatı kooperativləri ilə sovet kolxozlarını eyniləşdirmək yanlışdır. Kolxozlar xüsusi mülkiyyətə əsaslanmırdı və administrativ qaydada formalaşdırılmışdı. Eyni zamanda həmin qurumlar mərkəzləşdirilmiş iqtisadi sistem qarşısında sərt plan öhdəlikləri daşıyırdı və dövlətin inzibati-idarəetmə sisteminin bir elementi idi. Bazar münasibətləri şəraitində fəaliyyət göstərən kooperativlər isə üzvlərin tam könüllüyünə əsaslanır, bütün yerdə qalan özəl təsərrüfat subyektləri kimi dövlətlə bu qurumları bir-birinə yalnız vergi öhdəlikləri bağlayır.

Müasir şəraitdə ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi bütün sahələrdə dayanıqlı inkişafdan bilavasitə asılıdır. Bu prosesin özünəməxsus obyektiv və subyektiv səbəbləri mövcuddur. Belə ki, neft sektoruna yatırılan iri həcmli investisiyalar, eləcə də müasir texnologiyaların tətbiqi son nəticədə ölkənin sürətli inkişafını şərtləndirir. Bu baxımdan aqrar sahənin spesifik xüsusiyyətləri onun iqtisadiyyatın digər sahələri ilə müqayisədə sürətli inkişafını əngəllə-

mişdir. Odur ki, qloballaşma prosesinin destruktiv təzahürlərinin ölkənin kənd ərazilərinə təsirini neytrallaşdırmaq məqsədilə aqrar sahənin dayanıqlı inkişafının təmin edilməsi zəruridir. Aqrar sahənin dayanıqlı inkişafı ölkənin milli ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından da aktuallıq kəsb edir. Kifayət qədər geniş və çoxtərəfli problemləri əhatə edən milli təhlükəsizlik sisteminin mühüm tərkib hissəsi ərzaq təhlükəsizliyinin təminatıdır. Tarixən zamandan və məkandan, ictimai-siyasi quruluşundan və idarəetmə sistemindən asılı olmayaraq hər bir dövlətin qarşısında duran ən vacib vəzifələrdən biri əhalinin təhlükəsiz ərzaq məhsulları ilə etibarlı təminatı olmuşdur. Bu məsələ müasir dövr üçün də öz aktuallığını itirməmiş, əksinə, daha da ciddiləşmişdir. Ərzaq təhlükəsizliyi problemi 20-ci əsrin əvvəllərində qloballaşmanın beynəlxalq aspektlərinin gücləndiyi ayrı-ayrı ölkələrdə əhalinin əksər qruplarının aclıq təhlükəsi ilə qarşılaşdığı və minimum fizioloji normal səviyyəsində qidalanmanın çətinləşdiyi şəraitdə özünü tam kəskinliyi ilə büruzə verməkdədir. Ərzaq məsələsi və ərzaq təhlükəsi problemi artıq ölkədaxili çərçivədən çıxmış və kifayət gədər beynəlxalq miqyas kəsb etmişdir. Ərzaq təhlükəsizliyi-iqtisadi rifahın ayrılmaz tərkib hissəsi olub eyni zamanda hər bir dövlətin milli təhlükəsizliyinin prioritet istiqamətlərindən birini təşkil edir. 1.211. Ərzaq təhlükəsizliyi bütövlükdə dövlət siyasətinin müvəffəqiyyətli şəkildə reallaşdırılmasına xidmət etməklə iqtisadi, sosial, demoqrafik və ekoloji faktorların təsiri altında formalaşır. Məhz buna görə də böyük dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ölkənin ərzaq təhlükəsizliyi məsələsini daim diqqət mərkəzində saxlamış və bu məsələnin gələcək nəsillər üçün olduqca vacib və aktual olduğunu nəzərə alaraq özünün dövlətçilik strategiyasının əsas elementləri sırasına daxil etmişdir. Ümummilli liderin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev də ölkə əhalisinin ərzaq məhsulları ilə etibarlı təminatı məsələsini özünün iqtisadi strategiyasının əsas komponenti kimi daim diqqət mərkəzində saxlayır və bu istiqamətdə xüsusi dövlət tədbirləri həyata keçirir. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə həyata keçirilmiş birinci Dövlət Proqramı bu sahədə böyük uğurların qazanılmasına şərait yaratmış, ölkə Prezidentinin 14 aprel 2009-cu il tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın isə icrasına başlanmışdır. Əminliklə demək olar ki, ikinci Dövlət Proqramının icrası da ərzaq təminatı sahəsində ciddi nailiyyətlərə səbəb olacaqdır. Bundan əlavə, Prezidentin 25 avqust 2008-ci il tarixli Sərəncamı ilə təsdiqlənmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"da uğurla icra olunmuşdur və ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində müstəsna əhəmiyyətə malikdir. Ərzaq ehtiyatının tələb olunan səviyyədə saxlanılması üçün müasir tələblərə cavab verən infrastrukturun yaradılması, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı müəssisələrinə ayrılan güzəştli kreditlərin həcminin artırılması, müasir sığorta mexanizmlərinin tətbiq olunması və sair dövlət proqramının başlıca prioritetlərini təşkil edir. Ərzaq təhlükəsizliyi proqramında taxıl əkini sahələrinin gücləndirilməsi və intensiv inkişafa nail olmaqla hər hektara 32 sentnerə çatdırmaq nəzərdə tutulub. Başqa sözlə, ən azı 2,8 milyon ton taxıl istehsal olunacaq. Hökumət digət kənd təsərrüfatı məhsullarının istehsalını da 40-50% artırmağı düşünür. Məsələn, ət istehsalının 340 min tona, süd və süd məhsullarının istehsalının isə 2,4 milyon tona catdırılması planlaşdırılıb. Quş əti istehsalı 80 min tona, yumurta istehsalı 1,3 milyard ədədə çatdırılacaq.

Görülən tədbirlər nəticəsində kartof istehsalının artırılmasına ehtiyac var. Görülən tədbirlər nəticəsində kartof istehsalının həcmi 1 milyon 120 min ton, tərəvəz və bostan məhsulları 1 milyon 72 min ton, meyvə istehsalı 800 min ton təşkil edəcək. Beləliklə, həmin məhsulların istehsalı elə bir səviyyəyə çatacaq ki, nəinki yerli tələbatı ödəmək mümkün olacaq, həm də xaricə məhsul ixracının həcmi də artacaq. Təkcə respublikamızda deyil, eləcə də xarici ölkələrin iqtisadiyyatında ərzaq təhlükəsizliyi üzrə aparılan təcrübələr əsas rola malikdir, çünki bu problem dünya miqyaslı problem kimi qəbul edilir.

Hazırda inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı kooperativlərinin 2 fərqli forması fəaliyyət göstərir. Birinci forma istehsal kooperativləridir və aqrar istehsalın vahid müəssisə çərçivəsində təşkilini nəzərdə tutur. Təcrübə göstərir ki, kiçik ölçülü fermer təsərrüfatlarının və şəxsi ev tə-

sərrüfatlarının aqrar sektorda dominantlıq qazandığı şəraitdə bu cür kooperativlər kənd təsərrüfatı istehsalının səmərəliliyini yüksəltmək üçün mühüm iqtisadi alət rolunda çıxış edə bilir. Bu halda eyni profilli, məsələn, taxıl, ət və ya süd istehsalı üzrə ixtisaslaşmış, amma pərakəndə fəaliyyət göstərən xirda istehsalçılar əmlaklarını və maliyyə resurslarını kooperativ müəssisə çərçivəsində birləşdirirlər. Lakin hər bir üzv nizamnamənin şərtlərinə uyğun olaraq istədiyi anda əmlakını geri çəkməklə müstəqilləşə də bilir.

İkinci forma istehlak kooperativləridir. Ayrı-ayrı ölkələrin təcrübəsində bu cür kooperativlər istehsal mərhələsi istisna olmaqla məhsulun saxlanması, tədarükü, emalı və satışı mərhələsinin hər biri üzrə ayrılıqda və ya birlikdə yaradılır. Məsələn, emal kooperativləri yalnız son məhsulun hazırlanması, satışla məşgul olanlar məhsulların çeşidlənməsi, qablanması və satışı, xidmətlərin çatdırılması ilə məşğul olurlar. Məsələn, süd emalı ilə məşğul olan bir neçə fermer təsərrüfatı eyni kooperativdə birləşir və onların özlərinə məxsus emal müəssisəsi olur.

Hazırda aqrar sektorun geniş potensiala malik olduğu inkişaf etmiş ölkələrin hamısında kənd təsərrüfatı sektoru yüksək kooperasiyalaşma səviyyəsinə malikdir. Məsələn, Danimarka həm əhali sayına, həm də kənd təsərrüfatına yararlı torpaqların həcminə görə Azərbaycandan 2 dəfə, kənd təsərrüfatı sektorunda çalışanların sayına görə isə 13 dəfə geri qalır. Amma bu ölkənin aqrar istehsalının indiki həcmi Azərbaycandan iki dəfə böyük olan ölkənin kənd təsərrüfatı məhsullarını 100% ödəməyə çatır.

Danimarka aqrar məhsulların ixrac həcminə görə dünyanın 15 ölkəsi sırasında yer alır. Bu ölkə dünyanın nadir ölkələrindəndir ki, aqrar istehsalının 80%-ə qədəri ixraca yönəlir. Heç şübhəsiz, bu inkişafın əsas səbəblərindən biri son yüzillikdə Danimarkada aqrar sektorun tam kooperasiya münasibətlərinə keçididir. Ölkədə mövcud olan 40 mindən artıq fermer təsərrüfatının hamısı istehlak kooperativlərində birləşiblər. Həmin kooperativlər əsasən süd və ət emalı üzrə ixtisaslaşıblar. Kooperativlərə üzv olan fermerlər öz məhsullarını məhz onların nəzdində fəaliyyət göstərən zavodlara satmaq öhdəliyinə malikdirlər. Bu həm də məhsulun fermerdən alınacağına dair təminat mexanizminin yaradılması deməkdir.

Azərbaycanda aqrar sektorun hazırkı durmu kənd təsərrüfatının kooperasiyalaşmasını zəruri edir. Aqrar məhsulların 95%-dən çoxu ev təsərrüfatlarında formalaşır. Fermer təsərrüfatları yox səviyyəsindədir. Orta hesabla bir ev təsərrüfatına 1,5-2 hektar becərilən torpaq sahəsi düşür. Halbuki dünya ölkələrinin təcrübəsi göstərir ki, fermerlərin sərəncamında 10-15 hektardan az torpaq olduqda həmin təsərrüfatlar rentabelli işləyə bilmir, onların bazar və ixrac yönümlü məhsul istehsalını təşkil etmək potensialı aşağı olur. Kooperasiyalaşma mexanizmi vasitəsi ilə sayı 800 minə çatan kiçik ölçülü ailə-kəndli təsərrüfatlarının konsolidasiyası son dərəcə vacibdir. Azərbaycanda istehlak kooperativləri ilə yanaşı istehsal yönümlü strukturların da formalaşdırılması son dərəcə mühümdür. Qonşularımızdan Qazaxıstan və Rusiya xeyli müddətdir kooperasiyalaşma ilə bağlı zəruri hüquqi baza formalaşdırıblar.

Hökumət kooperativlərin yaradılmasına Azərbaycanın ağır vəziyyətdə olan aqrar sektorunu xilas edəcək sehirli çubuq kimi baxırsa, səhvə yol verir: "Əslində, hökumət kooperasiya qanununa qədər vacib olan başqa qanunları da qəbul etməlidir. Məsələn, kənd təsrrüfatının dövlət tənzimlənməsi barədə qanunun qəbulu mühümdür. Həmin sənəddə aqrar sahənin dövlət tənzimlənməsinin prinsip və istiqamətləri, formaları, xüsusilə də zəmanətli qiymətlərin tətbiqi zəruri olan kənd məhsullarının əhatə dairəsi və qiymətqoymanın prinsipləri, ixracın stimullaşdırılması mexanizmləri, aqrar sektorun maliyyələşdirilməsi üçün hökumətin minimum öhdəliklərini orada dəqiq müəyyən etməlidir.

Kənd təsərrüfatı istehsalçılarının kredit kooperativlərinə dair hüquqi mexanizmlərin yaradılmasına da ehtiyac var. Xarici təcrübədə bu cür ittifaqlar üzvlərinin və dövlətin maliyyə dəstəyi ilə formalaşır, əsasən maliyyə-kredit istitutlarına çıxışı olmayan xırda istehsalçıların maliyyə resurslarına olan tələbatını ödəyir. Qərbdə bu qurumlara kredit kassaları da deyirlər. İnkişaf etmiş ölkələrin az qala hər kəndində belə kassalar mövcuddur. Onlar rəqabət mühitində xırda fermerlərin iri kapitallı təsərrüfatlar tərəfindən udulmasına qarşı peyvənd rolunda çıxış edir".

Kənd təsərrüfatı kooperativlərinin effektiv işləməsi üçün daha 3 problemin həlli vacibdir. "Əvvəla, dövlət və bələdiyyə mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqlardan istifa-

dəyə bütün fermerlərin eyni dərəcədə çıxışı olmalı, həmin torpaqlardan istifadə üzərində ictimai nəzarət imkanları genişləndirilməlidir.

İkincisi, aqrar məhsulların ixrac qabiliyyətliliyinin artırılması üçün anoloji məhsulların idxalına olan gizli maraqlar zərərsizləşdirilməlidir.

Nəhayət, fermerlərin maraqlarını müdafiə edən və hökumətin aqrar sahə ilə baglı qərarlarına təsir imkanları olan müxtəlif birliklərin yaradılması dəstəklənməlidir. Məsələn, bir çox ölkələrdə xırda torpaq mülkiyyətçilərinin, iri torpaq sahiblərinin, süd, ət, taxıl, meyvə istehsalçılarının hər birinin ayrıca assosiasiyaları fəaliyyət göstərir. Hökumət hər il bu qurumlarla rəsmi aqrar sazişlər imzalayır. Həmin sazişdə hökumətin aqrar sektorun problemlərinə dair dəqiq öhdəlikləri müəyyən olunur. Əgər belə mexanizmlər olmayacaqsa, kooperativlərin yaradılması vəziyyəti dəyişməyəcək".

ƏDƏBİYYAT

1. A.F.Abbasov. "Ərzaq təhlükəsizliyi". "Nasir" nəşriyyatı, 2007.
2. T.A.Кулиев. "Крестьянская потребительская кооперация". Баку, 2014.
3. А.Олещин. "Кооперативные отнощения в АСК: экономика управление. 1998, №8, с. 54-57"

Шакур Орудж оглу Сафаров
д.ф.н., АУК

Роль кооператива в обеспечении продовольственной безопасности

Резюме

В статье говориться сотрудничество в области продовольственной безопасности, оказание помощи и роли кооперативов. Анализируються современное состояние и будушие перспективы кооперативов.

Ключевые слова: продовольственная опасность, кооперативы, сотрудничество, рыночные отношения, потребительские кооперативы.

Shakyr Oruc Safaraov
PhD of economics ACU

The role of the cooperative in ensuring food security

Summary

The article refers to cooperation in the field of food security, assistance and the role of cooperatives. The current status and future prospects of cooperatives.

Key words: food hazard, cooperative societies, cooperation, market relations, consumer cooperatives.

Azər Ağazeynal oğlu QURBANZADƏ
iqtisad elmləri namizədi, dosent
Azərbaycan Kooperasiya Universiteti

QLOBALLAŞMA ŞƏRAİTİNDƏ DAYANIQLI ƏRZAQ KOMPLEKSİNİN İNKİŞAFI

Xülasə

Məqalədə qloballaşma fonunda ərzaq kompleksinin formalaşması, funksional strategiyasının dayanıqlığının təyinatı təhlil edilir. Ərzaq kompleksinin ölkənin ümumi iqtisadi inkişafına təsiri, ÜDM-nin səviyyəsində xüsusi çəkisinin artırılması istiqamətləri əsaslandırılmışdır.

Açar sözlər: dayanıqlı inkişaf, funksional yanaşma, kompleks inkişaf, innovativ inkişaf.

***

Ərzaq kompleksi (ƏK) - bəşəriyyətin tələb etdiyi və qlobal kontekstdə ərzaq iqtisadiyyatının dayanıqlı inkişafı strategiyasının tərkib hissəsidir. İnsanlığın varlığını təmin edən ərzaq məhsulları qlobal xarakterə malik olub, elmi-praktiki mənbələrdə geniş təhlilləri aparılmışdır. Problemin həllində kənd təsərrüfatı və emalı məhsulları ərzaq kompleksinin formalaşmasının əsasını təşkil edir. Ərzaq kompleksinin təşkili və ərzaq bazarının mövqeyi qlobal miqyasda və eləcə də ölkələrin dayanıqlı göstəricisi kimi önəmli problemlərdən sayılır.

Ərzaq məhsulları istehsalı, bölgüsü, ixrac potensialı və istehlakı qlobal iqtisadi inkişafın tərkib hissəsi olmaqla yanaşı,dünya ölkələri arasında öncül siyasi əlaqələrdə də xüsusi yer tutması ilə fərqlənir. Problemin önəmli istiqamətlərindən biri də qloballaşan iqtisadiyyatın əsas subyekti və obyekti olan insanın həyat fəaliyyətinin dayanıqlı inkişafı, ərzaq istehsalı və ərzaq təhlükəsizliyi ilə bağlıdır. Bu bağlılıq ilkin olaraq kənd təsərrüfatının inkişafı, ilə əlaqəlidir.Hələ iki min il əvvəl qədim yunan filosofu Ksenofond əsaslı şəkildə ifadə edirdi ki, « ... kənd təsərrüfatı bütün başqa peşələrin anası və ailə başçısıdır: kənd təsərrüfatı yaxşı idarə olunduqda,bütün digər peşələr tərəqqi edir». Müasir iqtisadi inkişaf mərhələsində digər sahələrlə yanaşı kənd təsərrüfatı və onun emalı sahələri beynəlxalq iqtisadi-sosial əlaqələrin mühüm mənbələri kimi elmi-tədqiqat obyektinə çevrilmişdir. Qlobal iqtisadi mühitin sosial-iqtisadi əhəmiyyəti əhalinin ərzaq məhsulları ilə və eləcə də emal sənaye sahələrinin təminatında ərzaq kompleksinin yaradılması probleminin öyrənilməsi məsələləri iqtisadiyyat elmində əsas ideya mənbəyi kimi strateji mahiyyətə malikdir.Bununla yanaşı ərzaq kompleksi məhsulları insanların qidalanma kalorisinin təminatında iştirak edir, onların həyat fəaliyyətinin aktivləşdirilməsinə yardım edir [1].

Ərzaq kompleksi,onun innovativ iqtisadi inkişafının mühüm tərkib hissəsi olmaqla, hər bir ölkənin siyasi həyat tərzinin formalaşmasında öncül istiqamətlərində xüsusi mövqe tutur. Məsələnin strateji tərəfinin əsas subyekti və obyekti olan əhalinin ərzaq təminatının dayanıqlı fəaliyyəti ilə bağlı innovasiya yönümlü yanaşmalarla əlaqəli idarə olunmasıdır.

Ərzaq təminatının dayanıqlı inkişaf konsepsiyası iqtisadi-sosial problemlər miqyasında əhalinin ərzaq məhsulları balansının təmin edilməsi ideyasından irəli gəlir.İlk dəfə "dayanıqlı inkişaf" ideyasının modeli BMT-nin Ətraf Mühit və İnkişaf üzrə Ümumdünya Komissiyası tərəfindən qəbul olunmuşdur. Dayanıqlı ərzaq təminatı modelinə keçid ərzaq məhsullarının qorunmasının effektli idarəedilməsi mexanizminin - yeni texnologiyalar əsasında aqrar iqtisadiyyatın müxtəlif struktur sahələrinin kompleksinin yaradılmasını tələb edir. Fikrimizcə, dayanıqlı inkişaf modelinə keçid imkanı ərzaq təminatının iqtisadi inkişafının strateji mahiyyətini özündə əks etdirməklə yanaşı, milli aqrar ixrac potensialının iqtisadiyyatının formalaşması ilə iqtisadi-sosial əlaqələrinin dayanıqlığını da özündə birləşdirir.

Dayanıqlı ərzaq kompleksinin xammal resursları ilə təminatı, özünütəminatı səviyyəsinin artırılması məqsədində xarici şirkətlərin iştirakı, habelə ölkədaxili investisiyaların rolu[19] UNCTAD-ın hesabatlarında təhlillər aparılır. Əsas önəm ondan ibarətdir ki, ərzaq kompleksinin idarə edilməsi fəaliyyətində ən iri TMK (25-ə yaxın) iştirak edir. TMK-lar qrupuna qida məhsullarının, sənaye əsaslarla ərzaq məhsullarının bazar münasibətlərinə uyğunlaşdırılmasının təşkili və idarə edilməsi və s. daxildir. Məsələn,qida məhsulları və içkilərin ən böyük şirkəti sayılan "Nestle" (İsveçrə) TMK-sı 66 mlrd. $ məbləğində xarici aktivlərə, ərzaq məhsulları ilə pərakəndə ticarət sahəsində fəaliyyət göstərən "Walt-Mart Stores" (ABŞ) 63 mlrd.$ məbləğində aktivlərə nəzarət edir. Qida məhsullarının dayanıqlı və kompleks istehsalı sahəsində 50 aparıcı şirkətdən 40-ı inkişaf etmiş sənaye ölkələrində yaradılmışdır. Bunlardan Karft Foords İnc., H.J.Heinz Co., Sara Lee Co. və s. (ABŞ); SABMiller, Diageo plc., Cadbury plc. və s. (Böyük Britaniya); Heinken və s. (Almaniya); Kirin Holdings Company Ltd (Yaponiya) və s. göstərmək olar. Dünyanın inkişaf etmiş ölkələrində yerləşən 25 ən iri ərzaq kompleksinin 24%-i ABŞ ölkəsində təşkil olunmuşdur [2].

Ərzaq kompleksinin fəaliyyətində TMK ilə yanaşı beynəlxalq təşkilatların rolu da mövcuddur. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO), Kənd Təsərrüfatının İnkişafı üzrə

[19] UNCTAD. Word investment Report, 2010. Transnational Corporations, Agricultural Production and Development.

Beynəlxalq Fond (İFAD) və Beynəlxaq Ərzaq Proqramı (BƏR) tərəfindən verilən layihə və proqramların tətqiqinin nəticəsində müəyyən ölkələrdə, xüsusən Azərbaycanda ərzaq kompleksinin strateji inkişaf fəaliyyətinin miqyası genişlənməkdədir.

Qlobal mühitdə ərzaq və kənd təsərrüfatı təşkilatı (FAO) 1945-ci ildə yaradılmışdır.Təşkilat səmərəli aqrar sahənın kompleksliyini təmin edən layihələri həyata keçirir. FAO sistemində (1967-ci ildə) dünya ölkələrində ərzaq iqtisadiyyatının təşkili və idarə edilməsi məsələlərinə dair proqramlar fəaliyyət göstərir. FAO -nun hesablamalarına əsasən ərzaq məhsullarının çatışmamasından əziyyət çəkən əhali 134 mln. nəfərdən çoxdur (təxminən dünya əhalisinin 18.7%-i). Bu göstərici inkişaf etməkdə olan ölkələrdə isə 22,6%-ə yaxındır (2010-2015-ci illərdə). FAO tərəfindən dünya əhalisinin qida rasionunun tələbatlarına uyğun qiymətləndirilməsi dair hesablamalar hər il aparılılır və xüsusi bülletenlərdə öz əksini tapır.

Minilliyin İnkişaf Məqsədləri Proqramına əsasən ərzaq böhranlarınının təkrar olmamasını nəzərə almaq şərtində yaxın dövrlərdə ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsində dəyişikliklərin yaranmasında yüksəlmə müşahidə olunur. Son iki onillikdə yer kürəsində yaşayan əhalinin ərzaq məhsullarının çatışmamazlığının səviyyəsi 28-29% aşağı düşmüşdür. Asiyada əhalinin artmasına baxmayaraq ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi 14.2% -dən 22.6%-ə, Latın Amerikası ölkələrində isə 9.5%-dən 14.9%-ə qalxmışdır.

Dünya ölkələrinin dayanıqlı inkişafı praktikasında modernizasiya strateji məzmuna malik olmaqla yanaşı, həm də siyasi problem kimi mühüm əhəmiyyətə malikdir. Modernizasiya - ərzaq kompleksinin dayanıqlığını təmin etmək məqsədilə tədqiqat obyektinin yeni norma və texniki-iqtisadi keyfiyyət tələblərinə uyğunlaşdırılması kimi qəbul edilir.

Modernizasiya probleminin parktikasında araşdırmalar aparan M.Bermanın ideyasına əsasən, heç nə daimi deyil, hər bir hadisə (obyekt) daima dəyişilməlidir ki, yenilər formalaşmaya meyl göstərsinlər. Onun modernləşdirilməyə yanaşma tərzinin xarakteri belədir ki, hər hansı bir proses strateji məqsədlərə uyğun daim dəyişilir, yeni məzmun kəsb edir [3].

V.Qasımlının fikrinə görə, modernizasiya prosesini innovativ inkişaf olmadan təsəvvür etmək mümkün deyildir. Məsələnin mahiyyəti ondan ibarətdir ki,modernləşmə yeniliklərin – innovasiyaların tətbiqini ehtiva edir.[20] Elmi araşdırmaların nəticələri göstərir ki, ərzaq kompleksi modernizasiya kontekstində innovasiya baxışlarının gerçəkliklərini özündə birləşdirir: yeni texnoloji əsaslarla məhsul istehsalı; yeni təkliflərin elmi mənbələri; ixrac yönümlü, dayanıqlı bazarların olması və s. Fikrimizcə, dinamik iqtisadi milli modelə əsaslanan ərzaq kompleksi sferası modernizasiya həddinə çatdıqdan sonra müəyyən texnologiyaların tətbiqi səviyyələrində dayanıqlı effektə malik olur. Bu səbəbdən də elmi tədqiqatların praktiki tədbiqinin nəticəsində ərzaq məhsullarının təminatı və buna uyğun olaraq istehsalın keyfiyyət parametrlərini müəyyən etmək mümkünlüyü meydana gəlir.

Elmi-praktiki dəyərlərə söykənən sənaye mənşəli ərzaq məhsullarının təminatı və onun elmi əsaslarla modernizasiyası ideyasında təhlillərin aparılması hər bir ölkənin strategiyasının əsas istiqamətlərindən biridir. Modernləşmə: yeni texnologiyaların tədbiqi, məhsuldar kənd təsərrüfatı məhsullarının yetişdirilməsi,ərzaq məhsullarının kəmiyyət və keyfiyyət parametrlərinin müəyyən edilməsi, ekoloji ərzaq məhsullarının dayanıqlığını təmin edən yeni praktikanın tədbiqinin önəmə gətirilməsini və s. məsələləri əhatə edir.

ABŞ, Çin, Almaniya və s. ölkələr tərəfindən ərzaq kompleks sahəsində texnoloji və elmi dəyərlərə söykənən proqramlar, layihələr hazırlanmış və praktiki həllinə doğru istiqamətlər həyata keçirilir. FAO-nun təlimatına əsasən 2030-cu il ərəfəsində normal qidalanan əhali gündəlik 3050 kilokalori ərzaq məhsulları istehsal edəcəkdir. Bu göstəricinin müasir dövrdəki 2800 kilokalorilik göstəricidən 8.9% çox olması nəzərdə tutulmuşdur.

Ərzaq təminatı qlobal problem olduğu üçün hər bir ölkənin siyasi-iqtisadi strategiyasının əsas bölmələrindən sayılır.Ölkənin milli ərzaq siyasəti, əhalini ərzaq məhsulları ilə təmin etmək imkanları kənd təsərrüfatının inkişafı ilə bağlıdır. Təhlillər göstərir ki, müəyyən iqtisadi inkişaf istiqamətlərinə baxmayaraq planetimizin 2/5 hissəsində yaşayan əhalinin həyat tərzi əsasən kənd

[20] Qasımlı V. İqtisadi modernizasiya. Bakı, 2014.


təsərrüfatı məhsullarından istifadəsi ilə əlaqədardır. BMT-nin məlumatına əsasən dünya üzrə iqtisadi cəhətdən fəal əhalinin 40%-i kənd təsərrüfatında fəaliyyət göstərir.Bu göstərici sənaye cəhətdən inkişaf etmiş ölkələrdə 3-4 %, inkişaf etməkdə olanan ölkələrdə isə təxminən 70-80% təşkil edir. Dünya kənd təsərrüfatı məhsullarının ən iri istehsalçıları: Çin (22%), Hindistan (16%), ABŞ (8%) və s. əhalisi çox olan ölkələr bu cəhətdən fərqlənir. Əhalinin ərzaq taxıl məhsullarının xüsusi çəkisində təxminən 50%-i inkişaf etmiş ölkələr (ABŞ-25%, Avropa İttifaqı ölkələri-16%) təmin edir [4].

Qlobal səviyyədə ərzaq məhsulları istehsalının dinamik göstəricilərində inkişaf etməkdə olan ölkələrin potensial imkanları yüksəkdir. FAO-nun iqtisadi ekspertlərinin verdiyi statistik məlumatlara görə inkişaf etməkdə olan ölkələrdə ərzaq məhsullarının 80%-ə yaxını istehsal olunur və bu ölkələrdə dünya əhalisinin 75%-i məskunlaşmışdır.

BMT-nin statistik mənbələrinə görə,dünya üzrə ərzaq kompleksinin təminatında bitkiçilik məhsulları üstünlük təşkil edir. Ərzaq təminatında taxıl istehsalı etalon götürülür (dünya əhalisinin qida rasionunun 60%-dən yuxarısını taxıl məhsulları təşkil edir). Qlobal miqyasda taxılın bazardakı mövqeyi ölkələrdə ərzaq kompleksinin yaranmasının göstəricisi kimi fəaliyyət göstərir. FAO-nun ekspertlərinin araşdırmalarına əsasən dayanıqlı inkişafın miqyasında ərzaq təminatı proqramlarını hazırlayarkən, ölkələrdə taxıl ehtiyatının ümumdünya istehsalına nisbətinə uyğun əsas arqumentin reallıq kimi qəbul edilməsi təklif olunur. Dünya taxıl istehlakının 60 gününə bərabər (cəmi istehlakın 17% -i miqdarında) olan keçid taxıl ehtiyatının həçmi təhlükəsiz səviyyəni əhatə edir [5]. Təhlillərə əsasən taxıl ixrac edən ölkələr tərəfindən təklif edilən buğdanın,qarğıdalının və düyünün qiymətləri əsas göstərici kimi qəbul edilmişdir.

Beynəlxalq bazarda qiymətlərin aşağı səviyyəsi taxıl ehtiyatlarının toplanmasının indikatoru,qiymətlərin yüksək səviyyəsi isə taxıl ehtiyatlarından istifadənin indikatoru funksiyasını yerinə yetirir. Taxıl sahəsinin ərzaq kompleksinin iqtisadi inkişafında yeri, cəlbedilmə və dövretmə miqyasının metodikası ilə müəyyən edilir. Qloballaşma şəraitində əhalinin qida rasionu potensialının göstəricilərinin variantlarında taxıl və onun emal məhsulları ərzaq təminatının əsasını təşkil edir. Bununla yanaşı əhalinin ərzaq təminatının potensialında digər sənaye mənşəli qida məhsullarının istehsalı da önəmli hesab edilir.

Qlobal miqyasda ərzaq kompleksinin formalaşması bir tərəfdən əhalinin ərzaqla təminatının effektliyini artırır,digər tərəfdən isə iqtisadi-siyasi mövqe nümayiş etdirir (şəkil 1).



Şəkil: 1. Ərzaq kompleksinin qlobal modern konteksti.

Dayanıqlı ərzaq kompleksinin mövcud olması -istehlak bazarında kifayət qədər yüksək qida keyfiyyətinə malik olan məhsulların möcudluğu və bolluğu deməkdir. Əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasının ərzağın iqtisadi və siyasi imkanları ilə əlaqələndirilməsi önəmli məsələ kimi qəbul edilir. Qlobal ərzaq təhlükəsizliyinin modernizasiyası ekoloji cəhətdən ərzaq məhsullarının təhlükəsizliyinin təsnifatı, ərzaqın analoji qidalandırıcı tərkibi,ekoloji cəhətdən təmiz qida məhsullarının istehsalı və istehlakının modernizasiyası nəzərdə tutulur. İqtisadi elmi araşdırmalara əsasən, ərzaq məhsullarının 25%-dən çoxu xarici ölkələrin hesabına yerinə yetirilirsə, həmin ölkənin ərzaq təminatı təhlükəli sayılır. Son dövrlərdə əhalinin qida rasionu da dəyişilmiş,heyvandarlıq məhsullarının istehlakına meyillik artmaqdadır. Müasir iqtisadi inkişafın konseptual məsələlərindən biri milli ərzaq iqtisadi syasəti səviyyəsində özünütəminetmək və qloballaşan ərzaq sahələri arasında optimal nisbətlərin müəyyən edilməsidir. Qloballaşan ərzaq siyasəti ümumbəşəri dəyərlərlə yanaşı,əhalinin fasiləsiz qida rasionunun dayanıqlığı-

nı təmin edir,yeni texnologiya ilə ərzaq məhsullarının istehsalının balanslaşdırılması funksiyasını yerinə yetirir.

XIX əsrin axırı XX əsrin əvvəlindən başlayaraq ölkələrarası ərzaq məhsullarının ticarət əlaqələrinin dinamikasının optimallıq səviyyəsinin artması və sonrakı illərdə isə vahid ərzaq iqtisadi, bəşəri məkanına çevrilməsinə səbəb olmuşdur. Məsələ ondan ibarətdir ki, iqtisadi inkişafın dinamikası dövrlərində inkişaf etmiş ölkələrin ərzaq məhsulları istehsalının mövqeyi ərzaq bazarı məkanında saxlanılır. Vahid qlobal ərzaq bazarının yaranması,açıq ərzaq siyasəti ilk baxışda daha çox geri qalmış ölkələr üçün zəruri görünsə də, əslində iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin ərzaq təminatında daha böyük ehtiyacların mövcudluğu nəzəri cəlb edir. Bu baxımdan dünya ölkələrinin ümumi iqtisadi inkişafında ərzaq təminatı qlobal məzmuna çevrilməsi ilə fərqlənir. Elmi təhlillərin nəticələri göstərir ki,müasir dünya əhalisinin real yaşayış durumuna və ərzaq kompleksinin dayanıqlı inkişafına uyğun gələn ərzaq təminatı modellərinin formalaşmasının prosesləri müasir dövrdə də davam edir.

FAO-nun ekspertlərinin problemlə bağlı elmi araşdırmalarına əsəsən kənd təsərrüfatına investisiyalar 50% artırılmalıdır. Hesablamalara görə dünya əhalisinin sayının 2050-ci il ərəfəsində 9.0 mlrd. nəfər olması proqnozlaşdırılmışdır. Bu məqsədlə hər il inkişaf edən ölkələrin kənd təsərrüfatı məhsulları istehsalı üçün xalis investisiya qoyuluşu 83.0 mlrd. ABS $ tələb olunması hesablanmışdır.Tələb olunan investisiyaların kənd təsərrüfatı məhsullarının istehsalına,o cümlədən soyuducu kameralara, anbar və marketinq sferalarına,emal sənaye məhsullarına yönəldilməsi nəzərdə tutulmuşdur. Dünya iqtisadiyyatında enerji daşıyıcıları arasında qiymətlərin qeyri-sabitliyi, aparıcı ölkələrin maliyyə resurs bazarında baş verən dinamiklik səviyyəsi, əhalinin sürətlə artımı və s. məsələlər ərzaq məhsulları təminatının xarakterində qlobal səviyyədə dəyişkənliklərinin yaranmasına səbəb olmuşdur. Müasir gerçəklikdə elə bir şərait yaranmışdır ki, əhalinin ərzaq təminatının tamlığını yaratmaq üçün vahid ölkə məkanında praktiki olaraq qeyri-mümkündür. Bu baxımdan ölkə məkanında ərzaq təminatının dayanıqlığının yaradılması və idarəedilməsi məqsədi ilə dünya ölkələrinin elmi-tədqiqat araşdırmalarından kompleks istifadə edilməsi önəmlidir. Kənd təsərrüfatı və ərzaq təminatının inkişafının gələcəyi dünyada baş verən iqlim dəyişkənliyi ilə sıx əlaqəlidir.Təhlil materiallarının nəticələrinə əsasən iqlim dəyişkənliyinin yaranması səbəbindən gələcəkdə ərzaq məhsullarının artım tempinə müəyyən dərəcədə təsir edilməsi proqnozlaşdırılır.Müasir dövrdə ərzaq məhsullarının çatışmaması nisbətləri iqlim dəyişkənliyinə daha həssasdır. FAO-nun məlumatına görə,iqlim dəyişkənliyinin ərzaq məhsul istehsalına təsirinin az olduğu zaman, ən azından 2050-ci ilədək ərzaq istehsalına təsir göstərəcəkdir. Qlobal istiləşmə nəticəsində sənaye cəhətdən inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı məhsul istehsalının ümumi həcminin 9%-dən 21%-ə enməsi əsaslandırılmışdır. İqlim dəyişkənliyinə cavab olaraq, elm mərkəzlərində yeni ideyaların tədbiqinə başlanmışdır. Ərzaq məhsul istehsalında meliorativ tədbirlər nəticəsində torpaqdan karbon qazının çıxarılmasının, həmçinin torpağın becərilməsinin və deqradasiya olunmuş torpaqların yenidən bərpası ilə əlaqədar layihələr həyata keçirilir. FAO-nun son proqnozlarına görə 2050-ci ildə əlavə 2.3 mlrd. nəfər əhalini ərzaq məhsulları ilə təmin etmək üçün dünya kənd təsərrüfatı istehsalının təxminən 65-70%-dək artırılması təklif olunur. Ərzaq təminatının metodikası çərçivəsində məhsuldar kənd təsərrüfatı bitki sortlarının yaradılması və istifadə edilməsində mühüm məsələlərdən sayılır.Yeni məhsuldar bitki sortlarından istifadə edilməsi ilkin olaraq ərzaq məhsullarının istehsalında iqlim dəyişkənliyi və su resurslarının çatışmazlığına daha dayanıqlı reaksiya yaranır. Elmi mənbələrin təhlili metodikasına əsasən ərzaq kompleksinin modernizasiya çərçivəsi cəmiyyət və iqtisadi inkişafın dayanıqlığının reallıqlarını özündə birləşdirir. Məntiqi nəticə ondan ibarətdir ki, ərzaq kompleksinin effektli təşkili və idarə ediməsi qlobal məzmuna malik olub aqrar iqtisadiyyat elminin tədqiqat aparatının tərkib hissəsidir.

Aqrar iqtisadiyyat elminin metodlarından istifadə etməklə ərzaq kompleksinin dayanıqlı inkişafının təyinatında bir sıra yanaşmaların yerinə yetirilməsi mühüm məsələ kimi qəbul edilir. Digər tərəfdən isə ərzaq strukturlarının koordinasiyasının optimallıq səviyyəsinin önəmə gətirilməklə elmi cəhətdən idarəetmə formalarının tədbiqi formalarının təyin edilməsinə imkanlar yaranır. Tədqiqat koordinasiyasının optimallıq səviyyəsi aqrar iqtisadiyyat elminin nəzəri pred-

meti hesab edilir və dayanıqlıq səviyyəsini ümumiləşdirir. Elmi mənbələrdə ərzaq kompleksi elmin metodlarına söykənən konstruktiv ideyaların reallıqlarını özündə birləşdirir.

Elmi-ekspertiza institutları aqrar iqtisadiyyatın nəzəri-metodoloji əsaslarına dair kompleks proqramlar və layihələrin tədbiqi nəticəsində radikal dəyişkənliklərin yaranmasına səbəb olmuşdur. Qlobal səviyyədə özünütəminat və xarici ticarət ərzaq kompleksinin dayanıqlı inkişafı ilə əlaqələndirilir. Ayrı-ayrı ölkələrdə ərzaq kompleksinin yaradılması ilkin olaraq xarici ticarətin hesabına formalaşmışdır. Göstərmək məqsədəuyğundur ki, müasir şəraitdə ixrac kvotası ilə dünyada kənd təsərrüfatı məhsulları istehsalının ümumi həcminin nisbəti 34-36 % arasında dəyişilir. Qərb ölkələri dünyada kənd təsərrüfatı məhsullarının ixracını təxminən 70%-dək, idxalını isə 60 %-dək təmin edirlər [7]. ABŞ-ın dünya üzrə ərzaq məhsullarının ixracatında xüsusi çəkisi - 15%-dir. Avropa İttifaqı ölkələrində bu kəmiyyət göstəricisi - 45 % təşkil edir.

ƏDƏBİYYAT

1. Qasımlı V.Ə. İqtisadi modernizasiya. Bakı, 2014, s. 295.
2. Haydar B. Milli Ekonomi Model. İstanbul. 2005, s. 354.
3. Особенности консепции устойчивого развития. Москва, 2010, с.110.
4. FAO: Report of the Global Consultation on agricultural Extension. Rome, 2011.
5. A.A.Qurbanzadə. Aqrar islahatlar və dayanıqlı ərzaq təminatının əsas prioritetləri.//Azərbaycan Aqrar Elmi, 6 say, 2010, 14-17 s.
6. A.A.Qurbanzadə. Azərbaycanın ərzaq məhsullarının beynəlxalq ticarət sisteminə inteqrasiyasının metodiki əsasları.//Az.ETKTİ və Tİ-nin Elmi əsərləri, 4 say, 2009, 81-85 s.
7. The State of Food Insecuriry in the Word 2017. FAO.

Азер Агазейнал оглы Курбанзаде
кандидат экономических наук, доцент
Азербайджанского Университета Кооперации

Развитие стабильного продовольственного комплекса в контексте глобализации

Резюме

В статье рассматривается устойчевое развитие аграрно-промышленного комплекса. Также изучается влияние аграрно-промышленного комплекса на общее развитие экономики. Для этого, на поставку продуктов питания в контексте устойчивого развития и значимости будущих направлений введенных.

Ключевые слова: функционалная развитие, комплексная развитие, устойчивое развитие, конструктивный подход, переработка сельскохозяйственной продукции, управление.

Azer Agazeynal Gurbanzadeh
candidate of economic sciences,
Associate professor Azerbaijan Cooperation University

Development of a stable food complex in the context of globalization

Summary

Agrarian reform, sustainable food policy in the context of the economic and social views summary The author of the agrarian reform policies in accordance with the priorities of sustainable food supply are analyzed. For this purpose, the supply of food in the context of sustainable development and significance of future directions introduced.

Key words: food security, food policy, sustainable development, the constructive approach, the agro-processing.

Çingiz Allahyar oğlu İBRAHİMLİ
AKU-nun "Kommersiya" kafedrasının müdiri,
iqtisad üzrə fəlsəfə doktoru, dosent

KOMMERSİYA FƏALİYYƏTİNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİNİN ÖLKƏNİN ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASINDA ROLU

Xülasə

Tezisdə qida sənayesi müəssisələrində kommersiya fəaliyyətinin xüsusiyyətləri ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından araşdırılır. Azərbaycan Respublikasında sənaye emalından keçmiş bir sıra ərzaq məhsullarının istehsalı, idxalı, ixracı ilə bağlı göstəricilər təhlil edilir. Kommersiya fəaliyyətinin təşkilinin təkmilləşdirilməsinin müəssisələrin anbarlarında hazır məhsul ehtiyatları və itkilərin səviyyəsinin azaldılmasındakı rolu əsaslandırılmaqla, müəllif tərəfindən bu istiqamətdə bir sıra təkliflər irəli sürülür.

Açar sözlər: kommersiya fəaliyyəti, qida sənayesi, ərzaq təhlükəsizliyi, hazır məhsul.

***

Son illərdə dünyanın bir çox ölkələrində ərzaq təhlükəsizliyinin təmin olunması və ərzaq bazarının səmərəli fəaliyyət göstərməsi problemlərinə xüsusi diqqət yetirilməkdədir. Araşdırmalara görə, digər amillərlə yanaşı, "...qloballaşmanın sürətli inkişafı, dünya iqtisadiyyatının inteqrasiyasının intensivləşməsi nəticəsində ərzaq təhlükəsizliyinin önəmi artıq qlobal səviyyədən milli səviyyəyə doğru dəyişmək tendensiyası fazasına keçmişdir." [4, s. 130]

Dünya təcrübəsi göstərir ki, hər bir ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi siyasəti konkret siyasi-iqtisadi şəraitin tələbləri nəzərə alınmaqla ardıcıl surətdə həyata keçirilməlidir. Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi dövlətin sosial-iqtisadi siyasətinin prioritet istiqamətlərindən biri kimi daima diqqət mərkəzində saxlanılmışdır. Belə ki, Azərbaycan Respublikasının Prezidentinin 2 mart 2001-ci il tarixli 640 saylı sərəncamına əsasən təsdiq edilmiş "Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyi Proqramı" bu sahədə vacib addımların atılmasına şərait yaratmışdır.

Müasir dövrdə daxili ərzaq bazarının möhkəmləndirilməsi və ərzaq ehtiyatlarının yaradılması ilə bağlı məsələlərin aktuallığı daha incə, eyni zamanda kompleks yanaşma tələb edir. Ölkə Prezidenti tərəfindən 25 avqust 2008-ci il tarixli sərəncam ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" məhz bu məqsədə xidmət etmişdir.

Ərzaq təhlükəsizliyinin mühüm tərəflərindən biri kimi ölkə əhalisinin müvafiq ərzaga fiziki və iqtisadi baxımdan əlyetərliliyinin təmin olunması çıxış edir. Bazar münasibətlərinin dinamik inkişafı ayrı-ayrı müəssisələr və regionlar arasında kommersiya əlaqələrinin kompleks şəkildə öyrənilməsinin zəruriliyini şərtləndirir. Bu baxımdan, ölkə əhalisinin yüksək keyfiyyətli ərzaq malları ilə təminatı əsasən yerli kənd təsərrüfatı məhsullarının emalını həyata keçirən qida sənayesi müəssisələrinin kommersiya fəaliyyətinin səmərəli təşkili və reallaşmasından birbaşa asılıdır. Qida müəssisələrində kommersiya fəaliyyəti müəssisənin başlıca sosial-iqtisadi məqsədlərinin həyata keçirilməsinə istiqamətlənir. Burada, ilk növbədə, ölkənin ərzaq təhlükəsizliyinə nail olmaq və əhalinin tələbatına uyğun olaraq ərzaq məhsulları ilə təmin olunması, ikincisi isə, sabit mənfəət əldə edilməsi nəzərdə tutulur. Bu məqsədlərə nail olmaq üçün qida sənayesi müəssisələri əmtəə və xidmətlər bazarında müəssisənin rəqabətqabiliyyətliliyinin təmin olunması; yeni bazar seqmentlərinin üzə çıxarılması; buraxılan məhsulların çeşidinin genişləndirilməsi; satış bazarının genişləndirilməsi və s. kimi vəzifələri həll etməlidirlər. Beləliklə, qida sənayesi müəssisələrinin kommersiya fəaliyyətini idarəetmə və dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi yollarının axtarışı və əsaslandırılması müasir iqtisad elmi qarşısında duran aktual problemlərdən biri kimi qəbul edilə bilər.

Müasir dövrdə kommersiya fəaliyyəti qida sənayesi müəssisələrinin işinə əhəmiyyətli dərəcədə təsir edir. Qida sənayesi müəssisələrinin kommersiya fəaliyyəti yalnız tədarük və satış fəaliyyətini deyil, həm də rəqabətqabiliyyətli kommersiya xüsusiyyətlərinə malik məhsul çeşi-

dinin formalaşdırılması məsələlərini ifadə edir. 2016-cı ilin statistik məlumatlarına əsasən, 510 müəssisədə işləyənlərin orta siyahı sayı 24,8 min nəfər, sənayedə məşğul olanların ümumi sayında işçilərinin payı 13,3% təşkil edən qida məhsullarının istehsalı və içki istehsalı müəssisələri [2, s.106-108] ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır.

Qida sənayesi müəssisələrində kommersiya funksiyaları ümumi cəhətlərlə yanaşı, bir sıra özünəməxsus fərqləndirici xüsusiyyətlərə də malikdir. Buraya kənd təsərrüfatı xammalı bazarının öyrənilməsi və daha perspektivli malgöndərənlərin seçilməsi; kənd təsərrüfatı istehsalçıları ilə uzunmüddətli kommersiya əlaqələrinin formalaşdırılması; istehsal olunan məhsulların nisbətən tez xarab olma ehtimalını nəzərə alaraq ödəməqabiliyyətli tələbin tam və vaxtında təmin edilməsinin təşkili və s. aid etmək olar.

Dünya təcrübəsi göstərir ki, müəssisənin anbarında hazır məhsul ehtiyatlarının çatışmazlığı daxil olan sifarişlərin natamam ödənilməsinə və alıcıların daha sabit şərtlər təqdim edən digər istehsalçılara istiqamətlənmələrinə səbəb olur. Beləliklə də, müəssisə mənfəət itkisi ilə üzləşir. Digər tərəfdən isə, hazır məhsulların istehsalçı müəssisələrin anbarlarında qalması, öz alıcısını tapmaması kommersiya işinin təşkilində yol verilən nöqsanlardan xəbər verir. Bu isə, pul vəsaitlərinin çatışmazlığına, kredit resurslarına tələbin, habelə malgöndərənlərə, enerjiyə, büdcəyə, işçilərə əmək haqqı üzrə kreditor borclarının artmasına səbəb olur [5]. Təsadüfi deyil ki, "Azərbaycan Respublikasında ticarətin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" ölkə Prezidentinin 23 iyul 1999-cu il tarixli 160 saylı fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 1999-2002-ci illər üçün ticarətin inkişafı üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi üçün nəzərdə tutulan əsas tədbirlərdən biri də "anbarlarda yığılıb qalmış malların satışına dövlət köməyinin həyata keçirilməsi" olmuşdur [1].

Ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması probleminin öyrənilməsi zamanı kənd təsərrüfatı məhsulları ilə yanaşı, sənaye emalından keçmiş ərzaq məhsullarının istehsalı və istifadəsi göstəricilərinin də təhlili vacibdir. 2012-2016-cı illər ərzində ölkəmizdə qida məhsullarının istehsalı 26,5%, içki istehsalı isə, 18,5% artmışdır (cədvəl 1.)

Cədvəl 1.

2012-2016-ci illərdə Azərbaycanda qida məhsullarının istehsalı və içki istehsalı ilə məşğul olan müəssisələrin istehsal-kommersiya fəaliyyətinin bəzi göstəriciləri

İllər / Göstəricilər	2012	2013	2014	2015	2016
Məhsul istehsalı, faktiki qiymətlərlə, mln man					
Qida məhsullarının istehsalı	2574,8	2516,2	2596,7	2547,2	3257,0
İçki istehsalı	175,5	207,7	232,1	194,7	208,0
Yüklənmiş mallar, mln man					
Qida məhsullarının istehsalı	2575	2518	2695	2541	3229
İçki istehsalı	167,1	204,1	239,7	198,2	206,9
Ümumi istehsala nisbətən yüklənmiş mallar, faizlə					
Qida məhsullarının istehsalı	100,01	100,07	103,78	99,75	99,14
İçki istehsalı	95,21	98,26	103,27	101,79	99,47
Anbarlarında hazır məhsul ehtiyatı, mln man					
Qida məhsullarının istehsalı	-	14,8	17,8	21,1	47,6
İçki istehsalı	-	27,5	32,1	27,7	27,7
Ümumi istehsala nisbətən hazır məhsul ehtiyatı, faizlə					
Qida məhsullarının istehsalı	-	0,57	0,68	0,82	1,46
İçki istehsalı	-	13,24	13,83	14,22	13,31

Mənbə: Cədvəl "Azərbaycanın sənayesi"/ Statistik məcmuə /2017. Bakı, 2017. s. 43-44 və 106 da əks olunmuş məlumatlar əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Bununla yanaşı, istehsalçı müəssisələr tərəfindən hazır məhsulların realizəsini əks etdirən yüklənmiş mallar üzrə göstəricilər də (müvafiq olaraq, 25,4% və 23,8%) real artımdan xəbər verir.

Göründüyü kimi, 2014 və 2015-ci illər ərzində içki istehsalı sahəsində məhsulların satışı hət-

ta faktiki buraxılışdan da çoxdur. Eyni zamanda, nəzərə alınmalıdır ki, hər il içki istehsalı sahəsində buraxılan məhsulun orta hesabla 13,65% -i müəssisələrin anbarlarında yığılıb qalır.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2012-2016-cı illər ərzində ölkəmizdə bir sıra məhsullar (məs., un, tərkibində sirop, yumurta, pendir və ya meyvə cemi olmayan təzə çörək, suxarı və peçenye, uzun müddət saxlanan qənnadı məmulatları, bütün növ pendirlər, şirinləşdirilməmiş mineral və qazlı sular) üzrə özünütəminetmə səviyyəsində əsaslı dəyişikliklər baş verməmişdir. Bu məhsullar üzrə özünütəminetmə səviyyəsi ya kifayət qədər yüksək (məs., meyvə və tərəvəz şirələrində 110%), ya da nisbətən aşağı səviyyədə (məs, suxarı və peçenye, uzun müddət saxlanan qənnadı məmulatlarında 31,5%) olmuşdur. Ümumiyyətlə, 2016-cı ildə özünütəminetmə səviyyəsi üzrə ən aşağı göstəricilər şəkər istehsalı üçün xammal, təmizlənmiş düyü və bütün növ yarmalarda müvafiq olaraq 5,9%, 10,1% və 17,6% təşkil etmişdir. 2012-2016-cı illər ərzində tortlar və sirniyyat məmulatları, şirinləşdirici maddələr qatılmış sair çörək-bulka məmulatları, habelə kərə yağlarında özünütəminetmə səviyyəsinin əsasən artması (müvafiq olaraq, 32,89% və 50%) müşahidə edilir [3, s.76].

Bununla yanaşı, ərzaq məhsullarının ilin sonuna olan qalıqlarının nisbətən yuxarı olan göstəriciləri diqqəti cəlb edir. Belə ki, 2016-cı ildə ölkəmizdə 48114 ton tort və sirniyyat məmulatları, şirinləşdirici maddələr qatılmış sair çörək-bulka məmulatları istehsal, 10940 ton məhsul isə, idxal edilmişdir. Qeyd edilən il ərzində əhali tərəfindən ərzaq kimi istifadə edilmiş bu məhsulların həcminin 58543 ton, ixrac edilmiş məhsulun 71 ton olması bu sahədə istehsal və satışın yaxşı təşkil edilməsi qənaətinə gəlməyə əsas verərdi. Lakin ilin əvvəlində 5216 ton və ilin sonunda 4968 ton (ümumi məhsul ehtiyatlarının 7,72%-i) məhsulun anbarlarda və ticarət müəssisələrində qalmasını, habelə 688 ton məhsulun itkiyə getməsini nəzərə alsaq, bu sahədə əhali tələbinin öyrənilməsi və satışın təşkilinin təkmilləşdirilməsi işinə ehtiyac olması aydın şəkildə görünməkdədir [3, s.13.]. Beləliklə, yerli müəssisələrin istehsal-kommersiya fəaliyyətinin bu sahədə kompleks araşdırmaların nəticələri nəzərə alınmaqla həyata keçirilməsi, həm idxal-ixrac arasında optimal balansın əldə edilməsi, həm də ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində daha yaxşı göstəricilərə nail olmağa imkan yarada bilər.

Aparılmış tədqiqatın nəticəsi kimi qida sənayesi müəssisələrinin kommersiya fəaliyyətinin ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsindəki rolunun artırılması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

- İstehsal-kommersiya strukturlarının, habelə bu sahələrə xidmət edən qeyri-istehsal infrastrukturunun inkişaf etdirilməsi;
- Müasir qlobal iqtisadi təsirləri nəzərə almaqla məhsul istehsalı, idxalı və ixracı arasında balansın əldə olunması istiqamətində araşdırmaların nəticələrinin ayrı-ayrı müəssisələr üçün əlyetərliliyinin təmin edilməsi işinin genişləndirilməsi;
- Qida məhsullarının tez xarab olma ehtimalını nəzərə almaqla onların vaxtında istehlakçılara çatdırılması üçün müvafiq infrastrukturların yaradılması və daima təkmilləşdirilməsi;
- Alıcı tələbatının öyrənilməsi, habelə satış işinin təşkilinin təkmilləşdirilməsi istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi yolu ilə istehsal və ticarət müəssisələrində hazır məhsul ehtiyatlarının optimallığının təmin edilməsi;
- əmtəə istehsalçılarının şəxsi əmtəə yeridilişi kanallarının yaradılması və firma ticarətinin formalaşdırılması sahəsində diversifikasiyasının inkişafı ilə yanaşı, ticarət subyektlərinin məhsulların satışı sahəsində uzunmüddətli tərəfdaş kimi himayə edilməsi.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycan Respublikasında ticarətin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" 23.07.1999-cu il tarixli 160 saylı Fərmanı.
2. "Azərbaycanın sənayesi"/ Statistik məcmuə/2017. Bakı, 2017.
3. "Azərbaycanın ərzaq balansları"/ Statistik məcmuə/ Bakı, 2017.
4. Quliyev E.A. Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər. Bakı, "Kooperasiya" nəşriyyatı, 2018.
5. http://www.finman.ru/articles/2007/1/4724.html

Чингиз Аллахьяр оглы Ибрагимли,
АУК, заведующий кафедрой «Коммерция»,
доктор философии по экономике, доцент

Роль повышения эффективности коммерческой деятельности в обеспечении продовольственной безопасности страны

Резюме

В тезисе исследуются особенности коммерческой деятельности предприятий в области пищевой промышленности ъ точки зрения обеспечения продовольственной безопасности страны. Анализируются показатели производства, импорта и экспорта ряда продовольственных товаров в Азербайджанской Республике. Обосновывая роль ъовершенствования организации коммерческой деятельности в снижениии уровня потерь и запасов готовой продукции на складах предприятия, автором выдвигаются в этом направлении некоторые предложения.

Ключевые слова: коммерческая деятельность, пищевая промышленность, продовольственная безопасность, готовая продукция.

Chingiz Allahyar Ibrahimli,
ACU, head of the department "Commerce",
PhD on economy, associate professor

Role of increasing the effectiveness of commercial activities in providing country's food safety

Summary

In the thesis is investigated the characteristics of the commercial activities of enterprises in the food industry in terms of ensuring food safety of the country. The production, import, export of a number of food products in the Republic of Azerbaijan has been analyzed. Justifying the role of improving the organization of commercial activities in reducing the resources of finished products in the company's warehouses and the level of losses, the author puts forward some proposals in this direction.

Key words: commercial activity, food industry, food safety, finished products.

Ədalət Məhiyəddin oğlu ƏSƏDOV
“Kommersiya” kafedrasının dosent əvəzi,
iqtisad üzrə fəlsəfə doktoru, AKU;

Anar Rakif oğlu RZAYEV
AMEA-nın İqtisadiyyat İnstitutunun doktorantı

ETİBARLI ƏRZAQ TƏMİNATI VƏ TƏHLÜKƏSİZLİYİNİN BAŞLICA AMİLLƏRİ

Xülasə

Məqalədə ərzaq təhlükəsizliyi və təminatının sosial-iqtisadi mahiyyəti və məzmunu verilmişdir. Müəlliflər aqrar sektora həm ərzaq təhlükəsizliyinin, həm də regional inkişafın mühüm amili kimi yanaşmışlar. Məqalədə aqrar sektorun dayanıqlı inkişafına təsir edən amillər göstərilmişdir. Hazır məhsulların satışı məsələsi aqrar sektorun dayanıqlı inkişafının və ərzaq təminatının zəruri şərti kimi nəzərdən keçirilmişdir. Ona görə də müəlliflər aqrar sektorda nəqliyyat xidmətlərinin təşkili məsələlərini geniş tədqiq etmişlər. Məqalədə regional avtobazaların yaradılması və bununla da aqrar sektor məhsullarının bazarlara daha səmərəli şəkildə çıxarılması yolları təklif edilmişdir. Müəlliflər, belə avtobazaların yaradılmasının həm aqrar sahənin inkişa-

fı, həm də etibarlı ərzaq təminatı və təhlükəsizliyinin təmin olunması baxımından zəruri olduğunu əsaslandırmışlar.

Açar sözlər: ərzaq təhlükəsizliyi, kənd təsərrüfatı, nəqliyyat sektoru, nəqliyyat xidmətləri, avtobazalar və s.

***

Ərzaq təhlükəsizliyi milli iqtisadi təhlükəsizliyin əsas şərtlərindən və həlledici elementlərindən biridir. O, hər şeydən əvvəl daxili bazarda yetərli həcmdə ərzaq məhsullarının mövcudluğunu və əhalinin bu məhsullara olan tələbatının ödənilməsini nəzərdə tutur. Ərzaq təhlükəsizliyi həm də ölkənin ərzaq təminatı sahəsində müstəqilliyini, dövlətin iqtisadi və sosial dayaqlarının nə dərəcədə möhkəm olmasını xarakterizə edir. Bu baxımdan ərzaq təhlükəsizliyinin iki aspektini - sosial-iqtisadi və siyasi-iqtisadi aspektlərini qeyd edə bilərik. Sosial-iqtisadi aspektə görə hər bir dövlət öz vətəndaşlarının əsas qida məhsulları üzrə istehlakını qəbul edilmiş norma və standartlara uyğun olaraq təmin etməlidir.

Ərzaq çatışmazlığı probleminin yaranma tarixini təhlil etdikdə aydın olur ki, bütün tarixi dövrlərdə ərzaq problemi və ona qarşı mübarizə mövcud olmuşdur. Hal-hazırda da bütün dünyanı narahat edən qlobal problemlərdən biri də ərzaq təhlükəsizliyi ilə bağlıdır. Bu gün cəmiyyəti, xüsusilə elm adamlarını dərindən düşündürən və hər bir ölkənin iqtisadi təhlükəsizliyinin mühüm amili olan ərzaq təhlükəsizliyi iki istiqamətdə özünü büruzə verir. Bu məsələni daha əyani şəkildə izah edə bilmək üçün, əvvəlcə ərzaq təhlükəsizliyinin mahiyyətini aydınlaşdıraq.

Araşdırmalardan aydın olur ki, ərzaq təhlükəsizliyi insanların lazımi keyfiyyətdə və normada qida məhsulları ilə təmin edilməsidir. Deməli, ərzaq təhlükəsizliyinin təmin olunması üçün əsas iki tələb irəli sürülür: a) lazımi keyfiyyət standartı; b) lazımi norma. Təbii ki, söhbət ərzaq təhlükəsizliyindən, insanların normal qida məhsulları ilə təmin olunmasından gedirsə, burada aparıcı rol insanları gündəlik tələbat malları ilə təmin edən kənd təsərrüfatının və bu məhsullardan xammal kimi istifadə edib yeni məhsul istehsal edənlərin üzərinə düşür. Eyni zamanda, ərzaq təhlükəsizliyinin təmin olunması iki istiqamətdə işlərin təkmilləşdirilməsini tələb edir. Birincisi istehsal prosesində, ikincisi satış mərhələsində [1; 2].

Aydındır ki, istehsal prosesində ərzaq təhlükəsizliyi xammal və istehsalçı qarşısında bir çox tələblər qoyur. Təbii ki, xammalın keyfiyyətli olması vacibdir, amma istehsalçıdan o qədər də asılı deyil. Bu həm torpağın məhsuldarlığından, həm becərilmə xüsusiyyətlərindən, həm də toxumdan asılıdır. Keyfiyyətli məhsul istehsalçısı isə, mümkün qədər yaxşı xammal seçməlidir. Burada istehsalçı ilə bağlı bəzi məsələlərə aydınlıq gətirilməsi məqsədəuyğun olardı.

Ərzaq təhlükəsizliyinin siyasi-iqtisadi aspekti əhalinin ərzaqla təminatının yerli istehsala əsaslanmasını və ölkənin ərzaq asılılığının minimuma endirilməsini xarakterizə edir. Bununla belə, bir məsələni xatırlatmaq yerinə düşərdi ki, sağlam və gümrah yaşamaqda ərzaq təminatı və keyfiyyəti mühüm şərtlərdən biridir. Eyni zamanda, qidalanma gənc nəslin, yeni doğulan körpələrin sağlam böyüməsində xüsusi əhəmiyyət kəsb edir. Bütün hallarda qida təhlükəsizliyi, xüsusilə keyfiyyətli qida təminatı baxımından istehsalçıların üzərinə böyük məsuliyyət düşür, hansı ki, biz bunları gündəlik həyatımızda da şahidi oluruq. Belə ki, ölkə başçısının qəbul etdiyi qərarlar və müvafiq qurumlara tapşırıqları əsasında həyata keçirilən nəzarət-tənzimləmə tədbirlərinin nəticəsi olaraq tez-tez bazarlarda keyfiyyətsiz məhsullara, istehsal yerlərində antisanitariya hallarına rast gəlinir, istehsal qaydalarına, məhsulun tərkibi haqqında tələblərə və s. əməl edilmədiyinin şahidi oluruq. Bu istiqamətdə davamlı olaraq tədbirlərin həyata keçirildiyi, tənzimləyici qərarların qəbul edildiyi, Qida Təhlükəsizliyi ilə məşğul olan müvafiq mərkəzi icra qurumunun yaradıldığına baxmayaraq istehsal prosesində neqativ hallara mütəmadi olaraq rast gəlinir. Ona görə də buradan belə bir nəticə çıxarmaq olar ki, inzibati tədbirlər problemin qarşısını qismən alsa da, ümumilikdə problemlər hələ də qalmaqdadır. Bu isə, öz növbəsində inzibati metodlarla yanaşı, təşviq və maarifləndirmə metodlarının da tətbiqini zəruri edir. Xüsusilə, maarifləndirmə inzibati metodlardan daha təsirli görünür və həm də mövcud təcrübə də bunu bir daha təsdiq edir [1; 3, s. 96-108].

Maarifləndirmə əsasında istehsalçının milli şüuru formalaşdırılmalı, istehsalçı istehlakçıya doğma münasibət göstərməli, keyfiyyətinə tam zəmanət vermədiyi məhsulları bazara çıxarma-

malıdır. Daha sadə ifadə etsək, istehsalçı özü süfrəsinə məsləhət bilmədiyi məhsulu satışa da təklif etməməlidir. Bu isə, zənnimizcə, yalnız milli düşüncənin formalaşdırılması ilə mümkündür. Bu baxımdan da, ərzaq təhlükəsizliyinin başlıca amillərindən biri milli şüura malik istehsalçıların yetişdirilməsidir.

Qeyd edildiyi kimi, ərzaq təhlükəsizliyinin mühüm mərhələlərindən biri də satış şəraiti, məhsulların bazara çıxarılması imkanları ilə bağlıdır. Məlumdur ki, keçmiş SSRİ-nin tərkibində olarkən ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalı və əhalinin ərzaq təminatı ittifaq əmək bölgüsünə uyğun qurulmuşdur. Ərzaq məhsulları, əsasən ittifaq fondları hesabına ödənilirdi ki, bu da daxili bazarı doldura biləcək şəxsi təsərrüfatların inkişafında çoxlu maneələr yaradır və onların təkmilləşdirilməsinə ciddi əngəllər törədirdi.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra dünya iqtisadiyyatına inteqrasiya olunmağa, öz istehsalını beynəlxalq əmək bölgüsünə uyğun qurmağa, ölkənin iqtisadi və ərzaq təhlükəsizliyini formalaşdırmağa, beləliklə də digər dövlətlərdən asılılığı minimuma endirməyə istiqamətlənən inkişaf yolu seçmişdir. Bu məqsədlə ölkədə aparılan uğurlu iqtisadi islahatlar milli iqtisadiyyatın ayrı-ayrı sahələrində müasir tələblərə cavab verən təsərrüfat formalarının yaranmasına və inkişafına təkan verdi. Təbii ki, həyata keçirilən islahatlar aqrar sektora da təsirsiz ötüşə bilməzdi. Bu tədbirlərin nəticəsidir ki, aqrar sahədə nəzərəçarpacaq irəliləyişlər əldə edilmiş və ölkəmizdə, nəinki MDB məkanında, eləcə də Şərqdə analoqu olmayan aqrar islahatlar aparılmış, bu sahənin daha da inkişaf etdirilməsi üçün müxtəlif normativ-hüquqi sənədlər və Dövlət Proqramları qəbul edilmişdir. Nəticədə ölkəmizin ayrı-ayrı regionlarında aqrar islahatların sürətləndirilməsi, kənd təsərrüfatının inkişaf etdirilməsi və çoxşaxəli mülkiyyət formalarının yaradılmasında ciddi irəliləyişlərə nail olunmuşdur [1; 4,s.112-124].

Yuxarıda qeyd olunduğu kimi, ərzaq çatışmazlığı problemi hər zaman dünya alimlərini düşündürən bir məsələ olmuşdur. Bu da ondan irəli gəlir ki, dünyada insanların sayı və onların tələbatı durmadan artır. İqtisadiyyatın isə başlıca vəzifəsi insanların daimi artan tələbatının məhdud iqtisadi resurslarla ödənilməsindən, eləcə də resurslardan maksimum qənaətlə istifadənin təmin edilməsindən ibarətdir.

Bütün qeyd olunanlarla yanaşı, yuxarıda göstərildiyi kimi, ərzaq təhlükəsizliyinin əsas tələbləri ərzağın miqdarı və keyfiyyəti ilə bağlıdır. Nəzərə alsaq ki, ərzaq məhsullarının istehsalçıdan istehlakçıya çatdırılması, eləcə də vaxtında, itkisiz və keyfiyyətlə çatdırılması kimi vəzifə nəqliyyat sisteminin üzərinə düşür, onda ölkənin nəqliyyat sisteminin də ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynadığı məlum olar.

Aydındır ki, ərzaq məhsullarının qiyməti lazımi normanın əldə edilməsində mühüm rol oynayır və satış qiymətinin formalaşmasında nəqliyyat xərcləri ciddi təsirə malikdir. Eyni zamanda, müşahidələr göstərir ki, məsafədən asılı olaraq, regionlardan Bakı şəhərinə gətirilmiş kənd təsərrüfatı məhsullarının qiyməti region-Bakı müqayisəsində 100%-dən də artıq fərqlənir ki, bunu da iş adamları daha çox nəqliyyat xərcləri ilə izah edirlər. O cümlədən, Aqrar Elm Mərkəzinin məlumatlarına əsasən, xüsusən nəqliyyat xərclərinin çox yüksək olması səbəbindən məhsulun pərakəndə satış qiyməti tədarük qiymətindən 1.5-2 dəfəyə qədər çox olur. Bu isə istehsal edilmiş kənd təsərrüfatı məhsullarının bazara çıxışını çətinləşdirir, kəndlinin məhsul istehsalına marağını azaldır və digər belə təsirlərlə ümumilikdə aqrar sektorun inkişafına əngəl törədir. Bu isə, yekunda ərzaq təminatına mənfi təsir edir. Ona görə də, ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsində əsas məsələlərdən biri də ölkə ərazisində nəqliyyat əlaqələrinin genişləndirilməsi, nəqliyyat xidmətlərinin keyfiyyətinin yüksəldilməsi və istehsal edilmiş məhsulların bazarlara operativ çıxışına nail olunmasıdır [6, s.114-131; 7, s.131-147].

Məlumdur ki, ölkəmizdə nəqliyyat sektoru, milli iqtisadiyyatın mühüm infrastrukturlarından biri olaraq, qeyri-neft sektorunun aparıcı sahəsi kimi qiymətləndirilir. Digər tərəfdən, aksiomadır ki, nəqliyyat vasitələri olmadan yollar əhəmiyyətsiz olur, yollar keyfiyyətsiz olduqda isə nəqliyyat vasitələrinin səmərəli istismarı mümkün deyildir. Başqa sözlə desək, nəqliyyat sisteminin və onun mühüm infrastrukturlarından biri olan yolların vəziyyətini yaxşılaşdırmadan, arzu edilən, tarazlı regional inkişafa nail olmaq qeyri-mümkündür. Bütün bunları dəqiqliklə qiymətləndirən Azərbaycan Hökuməti tərəfindən nəqliyyat sektoruna irihəcmli investisiyaların yönəl-

dilməsi nəticəsində hava limanlarının, körpülərin, tunellərin, yol qovşaqlarının tikilməsi, yeni avtomobil və dəmir yollarının çəkilməsi, yenidən qurulması və s. işlər davam etdirilmişdir.

Tranzit potensialının reallaşdırılması istiqamətində də irimiqyaslı layihələr həyata keçirilmiş, o cümlədən Avropa-Qafqaz-Asiya (TRASECA) nəqliyyat dəhlizinin fəaliyyəti güclənmiş, Bakı-Tbilisi-Qars dəmir yolu istismara verilmiş, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksində Ro-Ro terminalının açılışı olmuş, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri üzrə magistral yolların tikintisi layihələri uğurla davam etdirilmişdir. Bütün bunlarla yanaşı, regionlarda nəqliyyat xidmətlərinin daha da yaxşılaşdırılması istiqamətində müəyyən problemlər hələ də qalmaqdadır. Məhz bu səbəbdən də, kənd təsərrüfatı istehsalının artırılması, ən əsası hazır məhsulların satış bazarlarına daha rahat və tez çatdırılımasını təmin etmək məqsədilə yol tikintisi və təmirinin ucqar kəndlərə qədər davam etdirilməsi ərzaq təminatına dair proqramda da xüsusilə qeyd edilmiş, kənddaxili və kəndarası yolların yenidənqurulması üçün müvafiq konkret vəzifələr müəyyənləşdirilmişdir [1; 8].

Son dövrlər aqrar sahənin inkişafına milli təsərrüfatın digər sahələrilə müqayisədə daha çox önəm verilməsi, eləcə də kənd təsərrüfatı və ərzaq məhsulları istehsalının stabilləşdirilməsinə dövlət qayğısının artırılması ölkənin ərzaq və iqtisadi təhlükəsizliyinin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, respublikamızda əhalinin 48%-i kənd yerlərində yaşayır. Bu baxımdan burada yaşayan əhalinin əsas məşğuliyyət növü kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlıdır. Burada yaşayan əhalinin kənd təsərrüfatı ilə məşğul olması üçün torpaqların onlara verilməsi də başa çatmışdır. Hal-hazırda həmin torpaqlarda hansı məhsulun yetişdirilməsini onlar özləri müəyyənləşdirirlər. Lakin burada hələ də hazır məhsulların lazımi bazarlara çıxarılmasında çətinliklər qalmaqdadır [1; 7].

Aydındır ki, təkrar istehsalın əsas təkanverici qüvvəsi istehsal edilmiş məhsulların satışıdır. O cümlədən də, kənd təsərrüfatının inkişafına təsir edən ən mühüm amillərdən biri də satış bazarlarının və məhsulun bazara çıxışının təşkilidir. Ona görə də bazar iqtisadiyyatı şəraitində istehsalın çoxsahəli inkişafında, məhsuldar qüvvələrin, daxili və xarici iqtisadi əlaqələrin formalaşmasında nəqliyyat amili mühüm əhəmiyyət kəsb etdiyi üçün öz aktuallığı ilə daim diqqət mərkəzində saxlanılmalıdır. Yaxşı olardı ki, əlaqədar dövlət qurumları regional inkişafa, aqrar sahənin tərəqqisinə və kənd təsərrüfatı məhsullarının istehsalına diqqət və qayğı göstərdikləri kimi, hazır (becərilmiş, istehsal edilmiş) məhsulların lazımi bazarlara çıxarılması istiqamətində də müəyyən tədbirlər görsünlər.

Nəzərə almaq lazımdır ki, kənd təsərrüfatı istehsalçıları daşıma xidmətləri göstərən şəxslərə daşımanın keyfiyyəti və qiyməti ilə bağlı hər hansı təsir göstərmək imkanında deyildir. Halhazırkı şəraitdə isə, dövlət əmlakının özəlləşdirilməsi ilə əlaqədar böyük yükgötürmə qabiliyyətinə malik nəqliyyat vasitələri ayrı-ayrı fiziki və hüquqi şəxslərə məxsusdur. Bu baxımdan da, ərzaq təhlükəsizliyi və təminatında xüsusi rol oynayan aqrar sektorun inkişaf etdirilməsində aktual problemlərdən biri də kənd təsərrüfatı məhsullarının daşınması ilə məşğul olan regional avtobazaların yaradılmasıdır. Bu avtobazalar mülkiyyət formasından asılı olaraq kooperativ, səhmdar və s. formada təşkil edilə bilər. Dövlətin bu istiqamətdə lazımi tədbirlər görməsi günümüzün vacib problemlərindəndir. Daha çox kənd təsərrüfatı məhsulları istehsal edən müxtəlif regionlarda avtobazaların və ya yükdaşıma şirkətlərinin nümayəndəliklərinin yaradılması məqsədəuyğun olardı. Bu mərkəzləri lazımi yeni avadanlıqlarla (telefon, kompüter və s.) təmin etmək və daşıma sifarişlərini burada qəbul etmək daha səmərəli olardı. Belə ki, hər bir mərkəz fəaliyyət göstərdiyi zonada sifarişləri qəbul etməklə nəqliyyyat vasitələrinin yükgötürmə qabiliyyətindən və yürüşdən istifadə əmsalını artırar ki, bu da daşıma qiymətinin, son nəticədə isə məhsulların qiymətlərinin enməsinə səbəb ola bilər [2; 4; 8].

Araşdırmaların nəticəsi kimi, təklif edilir ki, sırf kənd təsərrüfatı məhsullarının daşınması ilə məşğul olan avtobazaların Kənd Təsərrüfatı Nazirliyinin "Aqromarketinq" mərkəzləri ilə paralel formada fəaliyyət göstərməsi məqsədəuyğun olardı. Kənd təsərrüfatı məhsulları tez xarab olan məhsul kimi yüksək sürətli və daşıma müddətində məhsulların keyfiyyətini qoruya bilən nəqliyyat vasitələrinin tətbiqini tələb edir. Bu baxımdan, yaradılacaq avtobazaların tərkibində sürətli və soyuducu ilə təmin edilmiş avtomobillərin üstünlük təşkil etməsi vacibdir.

Tədqiqatlar göstərir ki, aqrar sahənin inkişaf etdirilməsi, bu sahədə geniş təkrar istehsalın təmin edilməsi, istehsal edilmiş məhsulların lazımi bazarlara daha səmərəli yollarla çıxarılması və s. irəliləyişlərə nail olunması üçün dövlətin aqrar sahəyə bu istiqamətdə yardımlar etməsi, bu məqsədlə müvafiq Qanunlarda dəyişikliklər edilməsi və beləliklə də regionlarda sırf aqrar sahənin daşıma işlərini həyata keçirən avtobazaların yaradılması məqsədəuyğun olardı. Təklif edilən avtobazaların yaradılmasında "Azərittifaq"ın təcrübəsindən və potensialından istifadə imkanlarının nəzərdən keçirilməsi də mümkündür. Daha konkret desək, "Azərittifaq"ın təcrübəsindən istifadə edərək regional bazalar və avtobazalar yaradılması məqsədəuyğun olardı. Belə ki, istehsal etdikləri məhsulları lazımi bazarlara çıxara bilməyən kəndlilərin məhsulları həmin bazalarda toplanar, daha sonra satış bazarlarına daşınardı. Belə olduqda, kəndlinin istehsal etdiyi məhsullar müvafiq qiymətə ondan alınardı ki, bu da, kənd təsərrüfatının davamlı inkişafına ciddi dəstək verə bilər. Ümumilikdə qeyd edilən tədbirlərin həyata keçirilməsi Azərbaycan hökumətinin regional inkişaf siyasətinə uyğun olmaqla bərabər, ərzaq təhlükəsizliyinin təmin olunması, yeni iş yerlərinin yaradılması, kənd təsərrüfatı məhsullarının süni qiymət artımının qarşısının alınması və kənd təsərrüfatı məhsulları istehsalının stimullaşdırılması baxımından səmərəli ola bilər ki, bütün bunlar da etibarlı ərzaq təminatı və təhlükəsizliyi üçün çox vacibdir.

ƏDƏBİYYAT

1. R.Mehtiyev. "Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri".
2. A.F.Abbasov. "Qloballaşma şəraitində ölkənin aqrar-ərzaq təhlükəsizliyinin təmin edilməsi mexanizminin təkmilləşdirilməsi". "Aqrar islahatların ilkin nəticələri və perspektivləri" mövzusunda Respublika elmi-praktiki konfransının materialları. Bakı, Az.ETKTİTİ, 2003, s. 66-73.
3. S.Y.Hüseynov və b. "Milli iqtisadiyyat: modernləşmə və davamlı inkişaf". Bakı: "Avropa" nəşriyyatı, 2013, 501 s.
4. İ.H.Alıyev. "Qloballaşma şəraitində aqrar sahənin dayanıqlı inkişafının təmin olunmasının sosial-iqtisadi problemləri". Bakı, "Elm", 2007, s.400.
5. M.Hüseynov. "Aqrar iqtisadiyyatın tənzimlənməsi və dayanıqlı inkişaf perspektivləri". "Aqrar sahənin dayanıqlı inkişaf problemləri", Bakı, Nurlar nəşriyyat-poliqrafiya mərkəzi, 2006, s.-260-282;
6. İ.M.Rzayev. "Azərbaycan Respublikasinda regionların davamlı sosial-iqtisadi inkişafı: mövcud vəziyyət və gələcək perspektivlər". Bakı, Elm, 2010, 468 s.
7. Ə.Y.Nəsirov. "Aqrar-sənaye kompleksinin dayanıqlı inkişafının təmin edilməsində beynəlxalq nəqliyyat dəhlizlərinin rolu". Bakı, Avropa nəşriyyatı, 2017, 208 s.
8. Azərbaycan Respublikasının Nəqliyyat Sektorunun İnkişafı Strategiyası.

Адалят Махяддин оглы Асадов,
д.ф.э., доц. АУК;

Анар Ракиф оглы Рзаев
докторант ИЭ НАНА

Основные факторы продовольственной обеспечение и безопасности

Резюме

В статье было дано содержание и сущность продовольственной обеспечение и безопасности. Авторы исследовали аграрного сектора с точки зрения продовольственной безопасности и регионального развития. В статье показаны факторы, влияющие на устойчивое развитие сельского хозяйства. Вопрос продажи готовой продукции считалось необходимым условии для устойчивого развития сельского хозяйства. Таким образом, авторы изучили широкий круг вопросы, транспортных услуг в сельскохозяйственном секторе. В статье были предложены пути создания региональных автобаз и тем самым более эффективного вывоза на рынок продуктов аграрного сектора. Авторы создание таких автобаз обосновали как необходимость обеспечения развития аграрного сектора, продовольственной обеспечение и безопасности.

Ключевые слова: продовольственной безопасности, промышленность, сельское хозяйство, транспорт, промышленность, транспорт, услуги.

Adalat Makhyaddin Asadov
PhD in economy, ass. prof ACU;

Anar Rakif Rzayev
doctoral student of IE ANSA

The main factors of reliable food supply and safety

Summary

İn the article was given socio-economic essence and content of food supply and safety. The authors were approached to agrarian sector as a main factor of food safety and regional development.The article shows the factors that influence to sustainable development of the agrarian sector. The issue of sale of finished products were considered as a necessary condition for sustainable development of the agrarian sector. Therefore, authors have studied issues to organize transport services in the agrarian sector. In the article have been suggested creation of regional motor-transport depot and effective delivery ways of agrarian products to markets. The authors were substantiated necessity creation of motor-transport depot for improving food supply and safety.

Key words: food safety, industry, agriculture, transport sector, transport services, motor-transport depot.

Alina Məcid qızı ƏLİYEVA
Azərbaycan Dövlət İqtisad Universiteti
"Nəzəri və praktiki iqtisadiyyat"
kafedrasının dosenti, i.e.n.

KƏND TƏSƏRRÜFATI İSTEHSALININ DAYANIQLIĞI ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİNİDİR

Xülasə

Ölkənin uzunmüddətli dayanıqlı inkişafının təmin olunması baxımından kənd təsərrüfatı məhsullarının, o cümlədən ənənəvi kənd təsərrüfatı sahələrinin artırılması, onların rəqabətqabiliyyətinin yüksəldilməsi və ixrac imkanlarının genişləndirilməsi, idxaldan asılılığın azaldılması, yeni qida növlərinin yaradılması, əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbinin yerli istehsalın hesabına ödənilməsinə səbəb olur ki, bu da ərzaq təhlükəsizliyinə şərait yaradır.

Açar sözlər: aqrar sahə, kənd təsərrüfatı məhsulları, ərzaq təhlükəsizliyi, dayanıqlı iqtisadiyyat, ixrac potensialı, rəqabətli iqtisadiyyat.

***

Son illərdə geosiyasi baxımdan yenidən formalaşan dünyada qlobal miqyasda siyasi, iqtisadi və sosial sahələrdə qeyri-sabitlik milli iqtisadiyyatların inkişafında yeni-yeni problemlər yaradır. Dünya təsərrüfatının müstəqil subyekti olan Azərbaycanın da qlobal təhlükələrə və dünya bazarının qeyri-sabitliyinə davam gətirmək, öz iqtisadiyyatının ekoloji, sosial və iqtisadi təhlükəsizliyini qorumaq üçün davamlı və dayanıqlı inkişafını təmin etməsi bir zərurətə çevrilmişdir.

Dayanıqlı iqtisadi inkişaf anlayışı 1992-ci ildə BMT-nin 24-cü Beynəlxalq konfransında qəbul olunmuş, hazırkı və gələcək nəsillərin həyati tələbatlarını nəzərə alaraq milli iqtisadiyyatların dinamik və tarazlı inkişafı kimi qəbul olunmuşdur. Onun nəticəsi olan dayanıqlı iqtisadiyyat milli iqtisadiyyatın inkişafının hər bir mərhələsində zəruri bir proses olub, iqtisadiyyatın ayrı-ayrı sahələrinin tarazlı və fasiləsiz artımını əks etdirir.

Azərbaycan dövləti dayanıqlı inkişaf strategiyasına uyğun olaraq "Dünyanın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində gündəlik"də BMT üzvü olan dövlətlərin 17 daya-

nıqlı inkişafı və 169 hədəfi özündə birləşdirən öhdəliklərə qoşulmuş və bunu Milli Əlaqələndirmə Şurası vasitəsilə həyata keçirir. Ölkənin əlverişli coğrafi mövqeyi, geoiqtisadi və geopolitik məkanda yerləşməsi ("Şimal-Cənub, Şərq-Qərb" nəqliyyat dəhlizinin kəsişməsi), ictimai-siyasi sabitlik, 2004-2014-cü illərdə mövcud maliyyə və iqtisadi potensial hesabına həyata keçirilən islahatlar nəticəsində makroiqtisadi dayanıqlığın təmini bu öhdəliklərin yerinə yetirilməsinə yönəlmişdir. 2014-cü ildən başlayan qlobal iqtisadi böhranın mənfi təsirindən iqtisadi inkişafın dayanıqlığı daha aktual olmuş, ölkə dünya iqtisadi böhranının təsirlərindən qoruna bilmiş və dayanıqlığını saxlamışdır. Respublika prezidenti İ.Əliyev Nazirlər Kabinetinin "2016-cı ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr haqqında" iclasında göstərmişdir ki, 2016-cı il Azərbaycan iqtisadiyyatı üçün ən çətin il olmasına baxmayaraq, qeyri-neft sənayesinə qoyulan investisiyaların çoxalması, ixracyönümlü sənaye və kənd təsərrüfatı məhsullarının artırılması, ənənəvi istehsal sahələrinin geniş çeşiddə ixrac bazarlarına çıxışının təmin edilməsi və s. tədbirlərin həyata keçirilməsi ilə iqtisadi inkişafın dayanıqlığını saxlaya bilərik. [1]

Dayanıqlı inkişaf strategiyasının əsas hədəflərindən biri də iqtisadi təhlükəsizliyin ən mühüm istiqamətlərindən biri olan ərzaq təhlükəsizliyinin təmin edilməsi və bu sahədə təkmilləşdirilmiş dövlət siyasətinin formalaşdırılmasıdır. Təsadüfi deyil ki, inkişaf etmiş ölkələr ərzaq təhlükəsizliyinə və kənd təsərrüfatı sahələrinin inkişafına strateji məqsədlər kimi baxırlar. Bu dövlətlər milli kənd təsərrüfatı məhsulları istehsalçılarının maraqlarını qorumaqla onların daxili və beynəlxalq bazarlarda rəqabətqabiliyyətinin güclü olmasına əlavə stimul verirlər.

Ərzaq təhlükəsizliyində əsas rol oynayan və iqtisadi artımın prioritet istiqamətlərindən biri olan kənd təsərrüfatı məhsullarının istehsalı, onların rəqabətliliyi, ixrac problemləri davamlı inkişafı ləngitməsinə baxmayaraq Azərbaycan iqtisadiyyatı qlobal böhrana dayanıqlıq nümayiş etdirərək artım dinamikasını və sosial-inkişaf səviyyəsini qoruya bilmişdir. Belə ki, 2016-cı ildə kənd təsərrüfatında məhsul istehsalı 2,5% artmışdırsa, 2017-ci ildə isə 2,8% artım olmuşdur. Qeyri-neft sektorunun çox böyük sahəsi olan kənd təsərrüfatında əmək fəaliyyətli əhalinin təxminən 39%-i məşğuldur, aqrar sahənin inkişaf etməsi üçün imkanlar daha çoxdur, ixrac potensialı kifayət qədər böyükdür. Bu həm də ölkədə məşğulluq probleminin həlli baxımından çox önəmlidir. Son illərdə müsbət dəyişikliklər baş verməsinə baxmayaraq bu sahənin inkişaf etməsi üçün potensial imkanlar daha çoxdur.

Əhalinin rifah səviyyəsinin yaxşılaşdırılması üçün gündəlik tələbat məhsulları istehsalını həyata keçirən kənd təsərrüfatı sahələrinin tarazlı və dinamik inkişafı dayanıqlı inkişafın təminində mühüm rol oynayır. Dünya ölkələrində aqrar sahənin inkişafının təhlili göstərir ki, bu sahədə istehsalın dayanıqlığını təmin etmək üçün mənfi meyillərə qarşı səmərəli və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi dövlətin dəstəyi və tənzimləmə vasitələri ilə olur. Aqrar iqtisadiyyatın dövlət tənzimlənməsinin səmərəliliyi onun maliyyə vəziyyətinin sabitləşdirilməsi məqsədini güdür. Son illər müvafiq fərman və sərəncamlarda aqrar sahəyə dövlət dəstəyini və tənzimlənməsini nəzərdə tutan məqsədli proqramlar bu sahənin balanslaşdırılması, tarazlı və dinamik inkişafına yönəldilmişdir. Belə ki, islahatlar ilində barama, pambıq və tütün istehsalçılarına subsidiyalar, pambıqçılıqla məşğul olan 260-dək fermerə 3,2 milyon manat, tütünçülük sahəsi üzrə isə 30-a yaxın fermerə 220 min manat güzəştli kredit verilmişdir. 27 rayonda 100 min hektar sahə əkin dövriyyəsinə cəlb olunub, 20 rayonda 40 min hektar 22 sahibkarlıq subyekti tərəfindən 32 fermer təsərrüfatı yaradılıb. Ümumi dəyəri 193 min manat olan təsərrüfatların yaradılmasına 70,5 min manat güzəştli kredit verilib. [2] Bu tədbirlər regionlarda ixracyönümlü və rəqabətə davamlı məhsul istehsalının artmasına, sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə səbəb olmaqla yanaşı iqtisadiyyatın dayanıqlığını təmin etmişdir. Ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi tədbirləri üzrə 24 rayonda 32 aqroparkın, o cümlədən 12 heyvandarlıq kompleksinin, 20 iri bitkiçilik təsərrüfatının yaradılması üzrə işlər davam edir.

Həmçinin böyük ixrac potensialına və ölkəyə valyuta gətirmək imkanına malik olan ənənəvi sahələrin, meyvə-tərəvəz məhsulları, fındıq, badam, zeytun yağı, şəkər çuğunduru, ipək istehsalı ixracının artırılması, pambıqçılığın, tütünçülüyün, xalçaçılığın inkişaf etdirilməsi, yun emalının təşkili məqsədilə yun tədarükü müəssisələrinin yaradılması, şərabçılığın inkişafı və stimullaşdırılması, balıqçılıq sənayesinin yaradılması istiqamətində nəzərdə tutulan işlərin həyata ke-

çirilməsi üçün dövlət dəstəyinin davam etdirilməsi iqtisadiyyatın dayanıqlığının təmin edilməsini sürətləndirir. Kənd təsərrüfatı sahələrinin ixrac məhsullarının çeşidinin və həcminin artırılması məqsədilə "Made in Azerbaijani" brendi adı ilə Çin, Honkonq, BƏƏ, Almaniya, Qazaxıstan, Əfqanıstan, Pakistan və Qətərə 7 ixrac istiqaməti işə düşmüş, ixracın stimullaşdırılması məqsədilə bu məhsulların gömrük dəyərinin 6%-dək büdcə vəsaitləri hesabına ödənilməsi həyata keçirilir. Bundan başqa Belorusiyada, Ukraynada, Rusiya, Qazaxıstan, Asiya qitəsi və körfəz ölkələrində ticarət evlərinin yaradılması, yerli sənaye məhsullarının təmsil edilməsi işlərinin görülməsi də zəruri tədbirlərdəndir. Əhalinin ərzaq məhsulları ilə təminatına dair Dövlət Proqramına uyğun olaraq 49 müasir quşçuluq və 23 heyvandarlıq komplekslərinin, 39 bağçılıq və üzümçülük təsərrüfatlarının, 22 taxıl anbarları kompleksinin, 8 ət-süd emalı, 16 meyvə-tərəvəz emalı müəssisələrinin yaradılması istehlak bazarının sabitləşməsinə, idxaldan asılılığın azalmasını, ümumilikdə isə əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi və kənd təsərrüfatı məhsullarına olan tələbatının yerli istehsalın hesabına ödənilməsini təmin edir. Ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi tədbirləri üzrə 32 aqroparkın, o cümlədən 12 heyvandarlıq kompleksinin, 20 bitkiçilik təsərrüfatının yaradılması üzrə işlər davam edir. [3]

İqtisadiyyatın tarazlı və dinamik inkişafında, əhalinin məşğulluğunun artırılmasında, onun optimal strukturunun yaradılmasında, iqtisadiyyatın şaxələndirilməsi fonunda kənd təsərrüfatı sahəsi ilə sıx əlaqəli olan regionların inkişaf strategiyasının müstəsna əhəmiyyəti var. Regionların sosial-iqtisadi inkişaf proqramları (2004-2008, 2009-2013, 2014-2018) ölkə iqtisadiyyatının inkişafında yeni bir mərhələ olmaqla rəqabətqabiliyyətli yeni istehsal və xidmət sahələrinin istifadəyə verilməsi, sosial və iqtisadi infrastrukturunun qurulması, sənaye və aqrar sahədə özəl sektorun inkişafı, şəhərlə kənd arasında iqtisadi mühitin tarazlaşması ilə əhalinin məşğulluğu və real gəlirlərinin artımına şərait yaradır. Bu illər ərzində büdcə gəlirləri 16 dəfə artmış, orta əmək haqqı 5,5 dəfə yüksəlmiş, pensiyaların artımı 9,6 dəfə olmuş, əhalinin əmanətləri isə 27 dəfəyə qədər artmışdır. Ölkənin bütün bölgələrinin iqtisadi potensialının iqtisadi dövriyyəyə cəlb edilməsi, regionlarda ənənəvi və yeni təsərrüfat sahələrinin müasir səviyyəyə uyğun qurulması, onların rəqabətli istehsal və ixrac imkanlarının genişləndirilməsi və s. inkişafın dayanıqlığını təmin edir. Yeni şəraitdə ölkədə vergi bazasının genişləndirilməsi yolu ilə kənd təsərrüfatı sahəsi ilə məşğul olan sahibkarların vergi yükünün azaldılması, gömrük daxilolmalarının sadələşdirilməsi, şəffaflığın artırılması istiqamətində görülən ciddi tədbirlər də iqtisadi aktivliyin təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır.

Ərzaq təhlükəsizliyində əsas rol oynayan kənd təsərrüfatı məhsulları istehsalının və ixracının artırılması, onların çeşidlərinin genişləndirilməsi "Milli iqtisadiyyatın strateji yol xəritəsi"ndə də hədəf kimi qarşıya qoyulmuşdur. Ölkənin ərzaq təhlükəsizliyinin təmini üçün kənd təsərrüfatı məhsullarının artırılması, yeni qida növlərinin, regional və yerli alternativ qida zəncirinin formalaşması, itki və tullantıların azaldılması və yenidən emal imkanlarının genişləndirilməsi, ərzaq idxalının azaldılması nəzərdə tutulur. [4] Ölkənin uzunmüddətli dayanıqlı inkişafının təmin olunması baxımından kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi kənd təsərrüfatı müəssisələrinin maliyyə vəziyyətinin yaxşılaşmasına və aqrar sektorun ümumrifahının artmasına şərait yaradacaqdır.

ƏDƏBİYYAT

1. "2016-cı ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr haqqında" Nazirlər Kabinetinin iclası.
2. Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında İlham Əliyevin giriş nitqi.http:// president.az
3. Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında İlham Əliyevin yekun nitqi.http:// president.az
4. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri". Bakı 2016. http://iqtisadiislahat.org

Алина Меджид кызы Алиева
Азербайджанский Государственный
Экономический Университет кафедра
«Теоретическая и практическая
экономика» доцент, к.э.н.

Устойчивость сельскохозяйственного производства обеспечивает продовольственной безопасности

Резюме

В целях обеспечения долгосрочного устойчивого развития страны, увеличения сельскохозяйственной продукции, в том числе традиционных сельскохозяйственных районов, повышения их конкурентоспособности и расширения экспортных возможностей, снижения зависимости от импорта, создания новых видов продовольствия и требования спроса населения на сельскохозяйственную продукцию за счет местного производства, что также способствует обеспечению продовольственной безопасности.

Ключевые слова: аграрный сектор, сельскохозяйственные продукты, продовольственная безопасность, устойчивая экономика, экспортный потенциал, конкурентоспособность экономики.

Alina Majid Aliyeva
Azerbaijan State Economic University
the chair of "Theoretical and
practical economy" ass. prof., c.e.s.

The sustainability of agricultural production is to ensure food security

Summary

In order to ensure long-term sustainable development of the country, increasing the agricultural products, including traditional agricultural areas, raising their competitiveness and expanding export opportunities, reducing dependence on imports, creating new types of food, and demanding the population's demand for agricultural products at the expense of local production, which also contributes to food security.

Key words: agrarian sector, agricultural products, food security, sustainable economy, export potential, economy competitiveness.

İsmayıl Mahmud oğlu XEYİRXƏBƏROV
i.e.n., ADİU-nun "Marketinq" kafedrasının dosenti

MARKETİNQİN ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ ROLU VƏ ƏHƏMİYYƏTİ

Xülasə

Məqalədə marketinqin ərzaq təhlükəsizliyinin təmin edilməsində yeri və rolu izah edilmişdir. Kənd təsərrüfatı və ərzaq məhsulları istehsalçılarının marketinq fəaliyyətinin dövlət tərəfindən müdafiə edilməsinə dair elmi əsaslandırılmış təkliflər verilmişdir.

Açar sözlər: marketinq, ərzaq təhlükəsizliyi, kənd təsərrüfatı, ərzaq məhsulları, satış infrastrukturu.

***

Bazar münasibətləri şəraitində kənd təsərrüfatı və ərzaq məhsulları istehsal edən müəssisə və təsərrüfatların istehsal-satış fəaliyyətlərinin təşkili və idarə edilməsini marketinqsiz təsəvvür etmək mümkün deyil. Marketinq müəssisə və təsərrüfatların istehsal-satış fəaliyyətinin idarəe-

dilməsi metodu kimi onların bazara uyğunlaşmasını təmin edir və bazar fəaliyyətinin davamlılığına şərait yaradır. Nəticədə müəssisə və təsərrüfatların qəqabətqabiliyyətliliyi təmin edilir, eyni zamanda istehlakçıların ehtiyac və tələbatlarına uyğun məhsulları onlara(istehlakçılara) təklif etmək mümkün olur. Göründüyü kimi, marketinqin müəssisə və təsərrüfatlarda tətbiqi həm müəssisə, həm də ölkə səviyyəsində həlli vacib problemlərin həllinə imkan verir. Baxılan halda müəssisə səviyyəsində problemə həmin müəssisənin bazar fəaliyyətinin davamlılığını, ölkə səviyyəsində isə ərzaq təhlükəsizliyinin təmin edilməsi problemini aid etmək olar.

Məlum olduğu kimi, marketinq həm də istehlakçıların ehtiyac və tələbatlarının mübadilə vasitəsilə ödənilməsinə yönəldilmiş tədbirlər sistemi kimi izah edilir və bu tədbirlər sisteminin yerinə yetirilməsi nəticəsində istehlakçıların ehtiyac və tələbatlarını daha hərtərəfli ödəmək mümkün olur. Sözügedən tədbirlər sisteminin icrası marketinq kompleksinin elementlərilə (məhsul, qiymət, məhsulların bölüşdürülməsi və satışı, satışın stimullaşdırılması və reklam fəaliyyəti) əlaqədardır və onlardan hər hansı birinin lazımi səviyyədə icra edilməməsi müəssisə və təsərrüfatların bazar mövqeyinə, eyni zamanda ərzaq təhlükəsizliyinin təmin olunma səviyyəsinə təsir göstərir. Məsələn, kənd təsərrüfatı və ərzaq məhsulları istehlakçılarının tələblərinə uyğun məhsulların istehsal edilməsinə baxmayaraq, həmin məhsulların bazara çatdırılması ilə bağlı problem mövcuddursa, onda həmin məhsullara əhali təbəqələrinin əlyetərliliyi təmin olunmayacaq, nəticədə məhsulların istehsalına sərf olunmuş məsrəflər faydasız olacaqdır. Deyilənləri həm də kənd təsərrüfatı və ərzaq məhsullarına tələbin formalaşdırılması məsələlərinə aid etmək olar. Belə ki, məsələn, yerli istehsalçılar tərəfindən bazara təklif edilən məhsulların xarici ölkə istehsalçılarının bazara təklif etdiyi məhsullarla müqayisədə üstünlüyü istehlakçılara çatdırılmırsa (izah edilmirsə), onda bu, yerli məhsul istehsalçılarının bazar mövqeyinin zəifləməsi və ərzaq təhlükəsizliyinin təmin olunma səviyyəsinin azalması ilə nəticələnəcəkdir. Sadalanan məsələlərlə bağlı tədbirlərin icrası marketinq fəaliyyətinin tərkib hissələridir və ərzaq təhlükəsizliyi ilə bilavasitə bağlıdır. Bu baxımdan marketinqin kənd təsərrüfatı və ərzaq məhsulları istehsal edən müəssisələrdə tətbiqinin əhəmiyyəti böyükdür və müəssisə və təsərrüfatların marketinq yanaşma əsasında istehsal-satış problemini təşkil edib idarəetmələrini ərzaq təhlükəsizliyinin həlledici şərti hesab etmək olar. Onu da qeyd edək ki, heç bir müəssisə və ya yaxud təsərrüfat marketinqi ideal şəkildə tətbiq etmir, lakin qeyd etdiyimiz kimi, bazar münasibətlərini marketinqsiz də təsəvvür etmək mümkün deyil. "Bununla belə, qabaqcıl firma ideal marketinqə can atmalıdır. Ola bilər ki, ideal marketinq mifdir, lakin bu, hərəkətverici mifdir və firmalar bunu öz fəaliyyətlərində əldə rəhbər tutmalıdırlar" [3, s. 35].

Lakin bilavasitə ərzaq kimi istifadə edilən kənd təsərrüfatı məhsullarının istehsalçılarının özləri tərəfindən marketinqlə bağlı funksiyaların icrası çox çətin olur. Bu, təkcə Azərbaycan üçün deyil, həm də dünyanın əksər ölkələri üçün belədir. Bu funksiyalara nümunə kimi, kənd təsərrüfatı və ərzaq məhsulları bazarının təhlilini, məhsulların bölüşdürülməsi və satışını, nəql olunmanı və s. aid etmək olar. Ona görə də bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrdə kənd təsərrüfatı və ərzaq məhsulları istehsalçılarının marketinq fəaliyyəti dövlət tərəfindən müdafiə edilir və bu məqsədlə proqramlar işlənib hazırlanır və reallaşdırılır. Buradan belə nəticəyə gələ bilərik ki, marketinq kənd təsərrüfatı və ərzaq məhsulları istehsalçılarının fəaliyyətini bazara uyğunlaşdırmaq vasitəsilə yanaşı, həm də tənzimlənmə obyektidir.

Kənd təsərrüfatı və ərzaq məhsulları istehsalçılarının marketinq fəaliyyətində tənzimlənmə obyektlərindən biri məhsulların qiymətləridir. Belə ki, məsələn, dünyanın əksər ölkələrində marketinq kompleksinin elementlərindən biri kimi qiymət tənzimlənir, daha doğrusu, kənd təsərrüfatı və ərzaq məhsullarının bazar qiymətləri əlaqədar dövlət strukturları tərəfindən müdafiə edilir. Doğrudur, bazar münasibətləri şəraitində kənd təsərrüfatı və ərzaq məhsulları istehsalçıları məhsullarına qiymətləri müəyyənləşdirməkdə tamamilə sərbəstdir, lakin onlar arzuladıqları qiymət səviyyəsində məhsulları sata bilmədiklərinə görə geniş təkrar istehsalın həyata keçirilməsi problemə çevrilir, bu isə öz növbəsində ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından problemlər yaradır. Bu problemin aradan qaldırılması üçün bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrdə kənd təsərrüfatı və ərzaq məhsullarının qiymətlərinin müdafiəsi məqsədilə proqramlar işlənib hazırlanır və reallaşdırılır. Kənd təsərrüfatı məhsulları istehsalçılarının

geniş təkrar istehsalı həyata keçirmək baxımından zəruri gəlirlilik səviyyəsinin təmin olunmasında həmin proqramların reallaşdırılmasının əhəmiyyəti çox böyükdür.

İstehsalçıların və istehlakçıların (eyni zamanda bütün bazar iştirakçılarının) mənafeyinə cavab verən ərzaq bazarının formalaşdırılması ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasına müsbət planda təsit göstərir. Bu halda istehsalçılar reallaşdırdıqları məhsullardan əldə etdikləri gəlirlər hesabına fəaliyyətlərini davam etdirə bilir, istehlakçılar isə bütün tələblərə cavab verən məhsullar əldə etməklə ehtiyac və tələbatlarını daha dolğun ödəyə bilirlər. Bu məqsədə nail olunması marketinqin bazar tədqiqatları funksiyasının icrası vasitəsilə təmin edilir. Bu funksiya bazara məhsul təklif edən həm ayrıca müəssisə və təsərrüfat tərəfindən, həm də makro səviyyədə müvafiq struktur bölmə tərəfindən (məsələn, kənd təsərrüfatı nazirliyinin müvafiq struktur bölməsi) aparıla bilər. Bazar tədqiqatlarını aparmaq iqtidarında olan ayrıca müəssisə və yaxud təsərrüfat bazarda gedən proseslər haqqında zəruri informasiyalar əldə etməklə öz fəaliyyətini bazarın tələbatına uyğunlaşdıra bilir. Lakin kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalçılarının əksəriyyəti marketinq tədqiqatlarını aparmaq iqtidarında deyillər. Ona görə də ölkəmizin kənd təsərrüfatı məhsulları istehsalçılarının istehsal-satış fəaliyyətində qeyri-müəyyənlik səviyyəsi yüksəlir və deməli, onların geniş təkrar istehsalı həyata keçirmək baxımından problemləri yaranır. Kənd təsərrüfatında fəaliyyət göstərən müəssisə və təsərrüfatlar tərəfindən marketinq tədqiqatlarının aparılmasının mümkün olmaması onların bu sahədə rəhbər işçilərinin və mütəxəssislərinin bilgilərinin azlığı ilə əlaqədardır. Sözügedən müəssisə və təsərrüfatların iqtisadi ölçüləri kiçik olduğuna görə tədqiqatların aparılması məqsədilə onların marketinq tədqiqatları bazarında fəaliyyət göstərən subyektlərə müraciət etmək imkanları yoxdur. Deyilənlər nəzərə alınmaqla, ölkəmizin kənd təsərrüfatında fəaliyyət göstərən müəssisə və təsərrüfatlara marketinq inkformasiyalarının əldə edilməsi baxımından dəstəyin göstərilməsi çox vacibdir. Bu, onların bazar fəaliyyətində meydana çıxa biləcək qeyri-müəyyənlik səviyyəsinin azalmasına və beləliklə də, ölkənin ərzaq təhlükəsizliyinin təmin olunma səviyyəsinin yüksəlişinə gətirib çıxara bilər. Buradan marketinqin ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasının yüksəldilməsində bir vasitə olduğu aydın görünür. Deməli, marketinq kənd təsərrüfatı müəssisə və təsərrüfatlarının istehsal-satış fəaliyyətinin idarə edilməsi metodu ilə yanaşı, həm də onların fəaliyyətinin bazara uyğunlaşdırılması vasitəsidir və bu vasitədən bacarıqla istifadə edilməsi ərzaq təhlükəsizliyi probleminin həllinə öz töhfəsini verə bilər.

Kənd təsərrüfatı və ərzaq məhsulları istehsalçılarının marketinq fəaliyyətinin müdafiə olunması istiqamətlərindən biri onlara(məhsul istehsalçılarına) məhsulların satışı baxımından əlverişli şəraitin yaradılmasıdır. Buna bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrin əksəriyyətində satış infrastrukturunun inkişaf etdirilməsi vasitəsilə nail olunur. Ölkəmizdə bu sahədə problemlər yaşanır, ona görə də həm istehsalçılar tərəfindən geniş təkrar istehsalın həyata keçirilməsi zamanı, həm də ərzaq təhlükəsizliyinin təmin olunması baxımından neqativ məqamlar özünü göstərir. Məsələn, kənd təsərrüfatı məhsulları istehsalçılarının özlərinin satış bazarlarından uzaq düşməsi çoxsəviyyəli satış kanalının formalaşmasına gətirib çıxarmışdır ki, bu da sonda istehlakçıların ərzaq məhsullarına əlyetərlilik səviyyəsinin aşağı düşməsilə nəticələnir. Belə ki, çoxsəviyyəli satış kanalında (bir neçə vasitəçidən keçməklə məhsulların istehlakçılara satışında) məhsulların istehlak qiyməti istehsalçıların məhsullarını yerlərdə satdığı qiymətdən dəfələrlə yüksək olur ki, bu da öz növbəsində istehlakçıların məhsullara iqtisadi baxımdan əlyetərliliyinin azalmasına gətirib çıxarır. Bu problemin həlli ərzaq təhlükəsizliyinin təmin olunma səviyyəsinin yüksəlməsinə gətirib çıxara bilər. Bu sahədə bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrdə zəngin təcrübə var və həmin təcrübədən yararlanma ölkəmizdə bu problemin həllinə imkan verə bilər. Burada söhbət kənd təsərrüfatı və ərzaq məhsullarının satış infrastrukturunun tələblər səviyyəsində formalaşdırılmasına nail olmaqla ərzaq təhlükəsizliyinin təmin olıunma səviyyəsinin yüksəldilməsindən gedir. "Hazırda ölkədə kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun bir neçə istiqamətdə inkişaf etdirilməsinə ehtiyac vardır. İlk növbədə regionlarda kənd təsərrüfatı məhsullarının yeni topdansatış və logistika mərkəzləri yaradılmalıdır. Eyni zamanda paytaxtda və digər iri şəhərlərdə kənd təsərrüfatı məhsullarının müasir tələblərə uyğun pərakəndə satış şəbəkələri genişləndirilməlidir" [1, s. 104].

Bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrdə kənd təsərrüfatı və ərzaq məhsullarının satışı üçün əsas infrastruktur rolunu topdansatış ərzaq bazarları oynayır. Sözügedən ölkələrdə bu bazarların təşkili vasitəsilə bir tərəfdən istehsalçının özünün öz məhsullarını bazarda qalıb satmalarına şərait yaradılır, başqa bir tərəfdən isə ölkənin ərzaq təhlükəsizliyinin təmin olunma səviyyəsinin yüksəldilməsi üçün mühüm strateji vəzifənin yerinə yetirilməsi təmin olunur. İstehsalçıların öz məhsullarının reallaşdırılmasına lazımi şəraitin yaradılması bir neçə vasitəçinin iştirak etdiyi satış kanalından məhsulların birbaşa satışına keçid deməkdir ki, bunun da nəticəsi məhsulların istehlak qiymətlərinin azalması və həmin məhsullara iqtisadi baxımıdan əlyetərliliyin yüksəlməsi şəklində özünü göstərir. Məhz belə şəraitdə məhsulların mümkün qədər istehlakına - istehlakçıların tələbatlarının daha dolğun ödənilməsinə (bu, kənd təsərrüfatı və ərzaq məhsulları istehsalçılarının marketinq fəaliyyətində qarşılarına qoyduqları məqsədlərdən biridir) nail olmaq olur. Başqa bir tərəfdən, topdansatış ərzaq bazarlarının təşkili vasitəsilə bazara keyfiyyətsiz və insanların sağlamlığı üçün zərərli olan ərzaq məhsullarının qarşısını almaq olur (bu bazara daxil olacaq məhsulların keyfiyyət xüsusiyyətləri irəlicədən reqlamentləşdirilir) ki, bu da ərzaq təhlükəsizliyinin təmin edilməsi və insanların sağlam qidalanmaları və sağlam həyat tərzi keçirmələri üçün mühüm məqamdır. Bütün bunlarla yanaşı, sözügedən bazarların təşkili kənd təsərrüfatı və ərzaq məhsullarının elə həmin bazarda reklam kampaniyalarını həyata keçirməyə, eyni zamanda bazarda gedən proseslər haqqında ətraflı marketinq informasiyaları almağa imkan verir. Nəticədə kənd təsərrüfatı və ərzaq məhsulları istehsalçılarının marketinq fəaliyyətnin təkmilləşdirilməsi və beləliklə də, ərzaq təhlükəsizliyinin təmin olunmasının yüksəldilməsi üçün imkanlar yaranır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı.
2. Дубровин И.А. Маркетинг продовольственных товаров. Москва: Колос, 2008.
3. Жан-Жак Ламбен. Менеджмент, ориентированный на рынок / Пер. с англ. под ред. В.Б.Колчанова. - СПб.: Питер, 2007 - 800 с.
4. Колз Ричард Л., Ул Джозеф Н. Маркетинг сельскохозяйственной продукци / Пер. с англ. В. Г. Долгополова.-8-е изд.- М.: Колос, 2000,-512с.
5. Ханс Хершген. Маркетинг: основы профессионального успеха. Пер. с немецкого. - М.: ИНФРА - М, 2000 - 334 с.

Исмаил Махмуд оглы Хейирхабаров
к.е.н. доцент кафедры «Маркетинг», АГЭУ

Роль и важность маркетинга в обеспечении продовольственной безопасности

Резюме

В статье изучается роль и место маркетинга в обеспечении продовольственной безопасности. Были сделаны научно-обоснованные предложения по государственной поддержке маркетинговой деятельности производителей сельскохозяйственной и пищевой продукциию.

Ключевые слова: маркетинг, продовольственная безопасность, сельское хозяйство, продукты питания, инфраструктура продаж.

Ismayil Makhmud Khairkhabarov
c.e.s., UNEC associate professor of "Marketing" department

The role and importance of marketing in ensuring food security

Summary

The article describes the role and place of marketing in ensuring food security. Scientifically substantiated proposals for the protection of marketing activities of producers of agricultural and food products have been provided by the state.

Key words: marketing, food security, agriculture, food products, sales infrastructure.

Könül Zakir qızı ŞABANOVA
i.f.d. Azərbaycan Kooperasiya Universiteti

AQRAR SAHƏNİN İNKİŞAFI ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN VƏ ƏHALİ MƏŞĞULLUĞUNUN TƏMİNATIDIR

Xülasə

Məqalədə ərzaq təhlükəsizliyinin və kənd əhalisinin məşğulluğunun təmin olunmasında rəqabətqabiliyyətli aqrar sektorun formalaşdırılması məsələlərinə toxunulmuş, bu sahədə mövcud problemlərin aradan qaldırılmasının əsas istiqamətləri göstərilmişdir.

Açar sözlər: təhlükəsizlik, məşğulluq, dövlət dəstəyi, məhsuldarlıq, idxal-ixrac.

***

Son illər dünyada baş verən neqativ proseslər, əksər ölkələri əhatə edən qlobal maliyyə-iqtisadi böhran, kəskin iqlim dəyişiklikləri, ayrı-ayrı regionlarda mövcud olan münaqişələr əhalinin istehlak malları ilə təminatında ciddi problemlər yaradır. Beynəlxalq təşkilatların hesablamalarına görə, hazırda dünyada 1 milyarddan çox insan aclıq çəkir. Belə bir şəraitdə ərzaq təhlükəsizliyinin təmin olunması ən vacib məsələlərdən biri kimi qarşıya çıxır. Ərzaq təhlükəsizliyi ilk növbədə dünya bazarlarında müntəzəm meydana gələn təbəddülatlarla əlaqədar risklərdən sığortalanmaq üçün zəruri ərzaq məhsulları idxalından asılılığın minimuma endirilməsini, istehlakın əsasən yerli istehsalın inkişafı hesabına təmin olunmasını tələb edir.

Bu baxımdan ərzaq malları istehsalı üçün zəruri olan əsas xammalın-kənd təsərrüfatı məhsullarının kifayət qədər istehsal olunması vacibdir.Aqrar sahə iqtisadiyyatın balanslaşdırılmış inkişafında, sosial-iqtsadi problemlərin həllində, regionların əhalisinin məşğulluğunun təmin olunmasında önəmli yer tutur. Xüsusən iqtsadiyyatın əsasını illərlə neft-qaz sektoru təşkil etmiş Azərbaycan kimi ölkələrdə iqtisadiyyatın şaxələndirilərək qeyri-neft sektoruna, o cümlədən bu sektorun aparıcı sahələrindən biri olan kənd təsərrüfatının inkişafına diqqətin artırılması həyati zərurətə çevrilir. Aqrar iqtisadiyyatın görkəmli araşdırıcılarından biri olan Əməkdar elm xadimi, professor B.Ataşovun qeyd etdiyi kimi, "Aqrar iqtisadiyyat ilk növbədə sayı daim artan əhalinin ərzaq ehtiyaclarını zəruri səviyyədə ödəməli, ətraf mühitin təhlükəsizliyini, təbii resursların qorunmasını təmin etməli, dəyişən iqlim şəraitinə uyğunlaşmalıdır [4; s.7].

Mütəxəssislərin hesablamalarına görə, aqrar sektor ölkəmizin əhalisinin əsas kənd təsərrüfatı məhsullarına olan tələbatını (bəzi məhsullarla artıqlaması ilə, bəzi məhsullarla böyük ölçüdə) ödəmək iqtidarındadır.Azərbaycan kənd təsərrüfatının inkişaf potensialı böyük olan ölkələrdən sayılır və gələcəkdə bu sahənin 2-3 dəfə artmasına şərait vardır.

Ölkəmizdə aqrar sektorun inkişafında əsaslı dönüşə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1995-ci ildə "Aqrar islahatın əsasları haqqında" Qanunun qəbul edilməsi ilə başlanıldı.Aqrar bölməyə dövlət təminatı, mühüm kənd təsərrüfatı məhsulları istehsalının və bölməyə investisiya qoyuluşunun stimullaşdırılması, maliyyə-kredit müəssisələrinin işinin aqrar bazarın tələbatına uyğunlaşdırılması, sığorta işinin təkmilləşdirilməsi, sovxoz və kolxozların islahatı, torpaq islahatı kimi vacib məsələləri özündə ehtiva edən bu qanun Azərbaycanda yeni torpaq münasibətləri formalaşdırılmasının əsasını qoydu. [1] Bu istiqamətdə sonradan qəbul olunan qanunların, eləcə də Ulu öndərin layiqli davamçısı, Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamların, müxtəlif illəri əhatə edən Dövlət Proqramlarının uğurla yerinə yetiriməsi aqrar sahədə ciddi irəliləyişə nail olmağa imkan verdi.1992-1995-ci illərdə kənd təsərrüfatında ümumi məhsul istehsalı ildə orta hesabla 12,0 faiz aşağı düşürdüsə, həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində ilbəil artım müşahidə olunmağa başladı və son illər bu artım 5,0-6,0 faiz civarındadır.

2016-cı ildə dünya bazarlarında neftin qiymətinin kəskin aşağı düşməsi Azərbaycan iqtisadiyyatına da öz neqativ təsirini göstərdi.Milli valyutamız il ərzində ikiqat devalvasiyaya məruz qaldı, ölkəyə xarici valyutanın daxilolmaları və bununla bağlı valyuta ehtiyatları azaldı, istehlak mallarının qiyməti yüksəldi. Belə bir kritik vəziyyətdə ölkə rəhbərliyi müdrikliklə çevik qərarlar qəbul etdi, iqtisadiyyatın diversifikasiyası sürətləndi, qeyri-neft sektorunun inkişafına diqqət

artırıldı, sahibkarlığa münbit şərait yaradılaraq əsas ərzaq məhsulları ilə təminatın yerli istehsal hesabına ödənilməsi qarşıya məqsəd qoyuldu, bitkiçilik və heyvandarlığın inzibati rayonlar üzrə ənənəvi sahələr tədqiq edilməklə pambıqçılıq, üzümçülük, baramaçılıq, tütünçülük, heyvandarlıq intensiv surətdə inkişaf etdirildi. Könüllülük əsasında kənd təsərrüfatı kooperativlərinin təşkilinə şərait yaratmaq, kooperativlərin dayanıqlı fəaliyyətini təmin etmək, aqrar sahədə kooperasiyanın formalaşmasına dəstək vermək məqsədi ilə "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı" təsdiq edildi.

2016-cı ildə ölkəmizə idxal olunan ərzaq məhsullarının bu məhsulların ixracından 1 milyard dollardan çox artıq olmasını narahatlıq doğuran amil kimi qiymətləndirən ölkə başçısı vəziyyətin köklü surətdə dəyişməsini qarşıya məqsəd qoydu.Onun 6 dekabr 2016-cı il tarixdə imzaladığı "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Fərman qarşıdakı illərdə iqtisadiyyatın inkişaf istqamətlərini müəyyənləşdirdi. Bu fərmanda iqtisadiyyatın digər sahələri ilə yanaşı aqrar sektor da prioritet sahələr sırasına daxil edilmişdir.Strateji yol xəritəsində kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair 9 strateji hədəf və 36 prioritet istiqamət müəyyənləşdirilmiş, bu hədəfləri və istiqamətləri əhatə edən 117 tədbir nəzərdə tutulmuşdur [2].

Aqrar sahənin inkişafına dövlət böyük qayğı göstərir və hazırda bu qayğıya ciddi ehtiyac vardır. Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev qeyd etmişdir: Kənd təsərrüfatı dövlətin dəstəyi olmadan inkişaf edə bilməz. Bunu hamı bilməlidir. Dövlət ilkin mərhələdə öz dəstəyini göstərir, bundan sonra hər şey öz yoluna düşəcək. Necə ki, biz indi kənd təsərrüfatının istehsalında bu artımı görürük. Əgər dövlət lazım olan vaxtda öz dəstəyini göstərməsəydi bu gün kənd təsərrüfatında 4,1 faiz artımdan söhbət belə gedə bilməzdi və əksinə, bəlkə də bu sahə tənəzzülə uğrayardı [3, 4].

Həqiqətən də, dövlətin lazımi dəstəyi olmasaydı aqrar sahənin yeni texnika və avadanlıqla təmin olunması, infrastruktur layihələrin həyata keçirilməsi, fermerlərə subsidiyalar, güzəştli kreditlər, xaricdən dövlət vəsaiti hesabına alınan yüksək məhsuldarlıqlı toxumlar və cins malqara verilməsi mümkün olmazdı.Həmin müşavirədə qeyd edildiyi kimi, başqa ölkələrdə sahibkarların özləri tərəfindən görülən infrastruktur işləri, meliorativ tədbirləri, kanalların çəkilməsini, suyun sahələrə verilməsini dövlətimiz öz üzərinə götürür ki, bu da dünya praktikasında nadir hallarda rast gəlinən məsələdir.

2017-ci ildə kənd təsərrüfatında əldə olunan göstəricilər müsbət meyillərin başlanıldığına dəlalət edir. Həmin dövrdə Ümumi Daxili Məhsulda kənd təsərrüfatının payı 5,6 faiz təşkil etmiş, 2016-cı illə müqayisədə 4,1 faizlik artıma nail olunmuşdur. Strateji kənd təsərrüfatı məhsulları istehsalı daha intensiv sürətlə artır. Pambıq istehsalı əvvəlki illə müqayisədə 2,3 dəfə, barama istehsalı 3,5 dəfə, tütün istehsalı 1,5 dəfə artmışdır.

Yuxarıda qeyd etdiyimiz kimi, aqrar sahənin inkişafı əhalinin zəruri ərzaq mallarına olan tələbatının daxili istehsal hesabına ödənilməsinə, bu sahədə riskli idxaldan asılılığın məhdudlaşdırılmasına və beləliklə, ərzaq təhlükəsizliyinin qorunmasına imkan verir. Azərbaycanda 2003-cü illə müqayisədə 2017-ci ildə ət istehsalı (quş əti də daxil olmaqla) 1,7 dəfə, kərə yağı istehsalı 1,8 dəfə, bitki yağları istehsalı 1,5 dəfə, pendir və kəsmik istehsalı 1,7 dəfə, marqarin istehsalı 5,9 dəfə, qənnadı məmulatları istehsalı 1,3 dəfə, yumurta istehsalı 2 dəfə, yodlaşdırılmış duz istehsalı 24,5 dəfə, makaron məmulatları istehsalı 8,8 dəfə artmışdır. Hazırda ölkəmiz özünü bir çox məhsullarla tam təmin edir. Nazirlər Kabinetinin adıçəkilən iclasında ölkə başçımız yaxın gələcəkdə özümüzü ət və süd məhsulları ilə təmin edəcəyimizə əmin olduğunu bildirmişdir. Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına əsasən hazırda Azərbaycan ərzaq təhlükəsizliyi indeksinə görə dünyada 57-ci yerdədir.

İstehsal olunan kənd təsərrüfatı məhsulları ölkə əhalisinin tələbatının ödənilməsinə, yeyinti sənayesinin xammal təchizatına yönəldilməklə yanaşı xarici bazara çıxarılaraq ölkənin valyuta ehtiyatlarının artırılmasında mühüm rol oynayır. Qeyd etmək kifayətdir ki, ötən il fermerlərimiz yalnız pomidor ixracından 140 milyon dollar, fındıq ixracından 100 milyon dollardan artıq məbləğdə vəsait əldə etmişlər.

Məhsul istehsalının və ixrac həcminin ilbəil artması aqrar sahənin rəqabətqabiliyyətinin və dayanıqlığının yüksəlməsinin təzahürüdür. Bununla yanaşı, kənd təsərrüfatının inkişafı əhalinin, xüsusən kənd əhalisinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayır. 2017-ci ildə ölkəmizdə 211 min, o cümlədən 177 min daimi iş yeri açılmışdır ki, bunların böyük hissəsi aqrar sektorun inkişafı hesabına kənd yerlərinin payına düşür. Əgər kənd təsərrüfatının tənəzzül içərisində olduğu müstəqilliyin ilk illərində əmək qabiliyyətli kənd əhalisinin böyük bir hissəsi iş tapmaq üçün şəhərlərə üz tuturdusa, hazırda əks proseslər gedir, yəni əhali regionlara qayıdaraq təsərrüfatda çalışmağa üsütünlük verir.Yenə də həmin iclasda cənab Prezidentin sözlərinə diqqət yetirək: "Bölgələrdə olarkən maraqlanıram və mənə məlumat verilir ki, indi kənd təsərrüfatına bu qədər dəstəyin verildiyi bir vaxtda vətəndaşlar-yəni kəndlilər daha çox kənd təsərrüfatı işləri ilə məşğuldurlar, orada daha çox pul qazanırlar" [3]. Qeyd etmək kifayətdir ki, 2016-cı ildə kənd təsərrüfatında çalışan işçilərin sayı 2000-ci illə müqayisədə 220 min nəfər çox olmuşdur və sonrakı illərdə bu meylin daha da intensivləşəcəyi proqnozlaşdırılır.

Kənd təsərrüfatı məhsulları istehsalını inkişaf etmiş ölkələrin səviyyəsinə qaldırmaq üçün xeyli iş görülməlidir. Hazırda aqrar sahəni innovasiyalar tətbiq etmədən, zamanın çağırışlarına uyğun iqtisadi modellərdən istifadə etmədən inkişaf etdirmək mümkün deyildir. Son 40 ildə dünya üzrə əkin sahələri cəmi 9,0 faiz artdığı halda bitkiçilik məhsulları istehsalının 2,3 dəfə artması kənd təsərrüfatının sürətli intensivləşməsinin göstəricisidir. Qeyd etdiyimiz kimi, ölkəmizdə də kənd təsərrüfatı ilbəil inkişaf edir, məhsul istehsalı artır. Lakin bu artıma əkin sahələrinin və ya heyvanların baş sayının artırılması hesabına deyil, ən önəmli intensiv faktor olan məhsuldarlığın yüksəldilməsi hesabına nail olmaq vacib vəzifə kimi qarşıda durur.Ölkəmizdə məhsuldarlığın nə qədər aşağı olduğunu ayrı-ayrı tərəvəzlərin istehsalında olan vəziyyətdən görmək olar. Hazırda tərəvəz istehsalı ümumilikdə artsa da, məhsuldarlığın yüksəldilməsində ciddi irəliləyiş yoxdur. Belə ki, pomidor istehsalı hər hektardan Türkiyədə 380 sentner, Fransada 1900 sentner, Almaniyada 2000 sentner, Hollandiyada 4900 sentner təşkil etdiyi halda ölkəmizdə cəmi 190 sentner təşkil edir. Türkiyədə hər hektardan 278 sentner, Fransada 751 sentner, Hollandiyada 6600 sentner xiyar istehsal olunduğu halda Azərbaycanda bu göstərici 150 sentnerdir.

Bitkiçilik məhsulları istehsalının artırılmasında yüksək məhsuldar toxumlara olan tələbatın dolğun ödənilməsi zəruridir. Heyvandarlıq məhsulları istehsalında məhsuldarlığın yüksəldilməsinə də ciddi ehtiyac vardır. Burada fermerlərin, yeni yaradılan heyvandarlıq aqroparklarının yüksək məhsuldar mal-qara ilə təmin olunması ilə yanaşı zəif yem bazası ilə bağlı problemin aradan qaldırılmasına zərurət vardır. Əlbəttə, bu problemin idxal hesabına həlli mümkündür. Lakin problemin bu yolla həllinin istehsal olunan məhsulun maya dəyərinin yüksəlməsinə və beləliklə, sahənin rentabelliyinin aşağı düşməsinə səbəb olacağı nəzərə alınmalıdır. Son illər heyvan və quş yeminin qlobal ixracda artan məhsullar sırasında olduğu və dünya üzrə bu məhsullara tələbatın artdığı nəzərə alınarsa, ölkəmizdə daxili istehsal hesabına güclü yem bazası yaradılması ilə bağlı çevik tədbirlərin görülməsi də olduqca vacibdir.

ƏDƏBİYYAT

1. "Aqrar islahatın əsasları haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı.1995.
2. "Azərbaycan Respublikasında kən təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
3. Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycan Respublikası Prezidentinin nitqi. "Respublika" qəzeti, 11 yanvar 2018-ci il.
4. Ataşov B.X. "Aqrar sahə struktur və səmərəlilik problemləri".Bakı, "Kooperasiya". 2017, 535 s.
5. Azərbaycanın statistik göstəriciləri. 2017, Bakı, 2017, 814 s.

Конул Закир кызы Шабанова
АУК, доктор философии по экономики

Развитие аграрного сектора гарантия продовольственной безопасности и занятости населения

Резюме

В статье затронуты вопросы формирования конкурентоно- способного аграрного сектора для обеспчения продовольственной безопасности и занятости сельского населения, а также показаны основные направления для устранения существующих проблем в этой сфере.

Ключевые слова: безопасность, занятость, государственная поддержка, прозводительность, импорт-экспорт.

Konul Zakir Shabanova
doctor of philosophy in economics, ACU

Agrarian sector development is the provision of food safety and population imployment

Summary

The article touches the problems of food safety and rural populations employment orovision in competitive agrarian sector formation. Main directions of removal of current problems have been shown as weel.

Key words: food safety, imployment, state support productivity, import-export.

b.ü.f.d., Mehriban Rauf qızı YUSİFOVA;
dosent Elsevər Baba oğlu FƏRZƏLİYEV;
dosent Mehriban Həmid qızı MƏHƏRRƏMOVA;
i.ü.f.d., b/m. Günəş Məzahir qızı NƏSRULLAYEVA;
magistrant Anar Allahverdi oğlu ALLAHVERDİYEV
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

AZƏRBAYCANDA YETİŞDİRİLƏN BUĞDA SORTLARINDAN ALINAN UNUN ÇÖRƏK-BULKA MƏMULATLARI İSTEHSALINDA TƏHLÜKƏSİZLİK ASPEKTLƏRİNİN ARAŞDIRILMASI

Xülasə

Məqalədə Azərbaycanda taxıl məhsullarının istehsalı və istehlakı, çörək-bulka məmulatlarının çeşidi, çörək sənayesinin inkişafı və görülən tədbirlər xarakterizə edilmişdir.

Açar sözlər: buğda sortları, qida təhlükəsizliyi, çörək sənayesi, çörəkbişirmə müəssisələri.

***

Bütün dünyada, eləcə də Azərbaycanda yüksək keyfiyyətli buğda dəninin istehsalı ərzaq təhlükəsizliyinin təminatında böyük əhəmiyyət kəsb edən problemdir. Müasir dövrümüzdə ərzaq təhlükəsizliyi hər bir ölkənin iqtisadi və siyasi mövqeyinin əsasını təşkil edir. Bu məsələnin həllində taxılçılıq təsərrüfatlarının və orada görülən işlərin rolu böyükdür. Təsərrüfatlarda məhsuldarlıq yüksək olsa da, dənin keyfiyyəti, əksər hallarda sənaye tələblərini ödəmir. Bu baxımdan dənin keyfiyyətinin formalaşmasına təsir edən amillərin öyrənilməsi və onun yüksəldilmə yollarının kompleks tədqiqi aktual və vacibdir. [1, səh. 210]

2017-ci il iyul ayının 24-nə olan məlumata əsasən payızlıq və yazlıq dənli və dənli-paxlalı (qarğıdalısız) bitkilər üzrə biçilməsi nəzərdə tutulmuş 944,5 min hektar sahənin 870,8 min hektarı və yaxud 92,2 faizi biçilərək məhsulu yığılmışdır. Toplanmış məhsul 2515,1 min ton təşkil etmiş və məhsuldarlıq 28,9 sentnerə bərabər olmuşdur. Yığılmış məhsulun 1696,6 min tonu və yaxud 67,5 faizi buğda, 797,8 min tonu (31,7 faizi) arpa, 20,7 min tonu (0,8 faizi) digər dənli və dənli-paxlalı bitkiləri idi. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin digər mə-

lumatlarına görə, 2005-2015-ci illər ərzində natural ifadədə idxal olunan buğda 50 faiz artmışdır. Bu, ölkəmiz üçün ciddi problemdir və ərzaq təhlükəsizliyinə mənfi fəsadlar göstərir. Bunun əsas səbəbi kimi buğda sortlarının lazımi səviyyədə olmaması, əkinçilərin lazımi bilik və səriştələrə malik olmaması, bununla torpağa lazımlı qayğı göstərməməsi, eləcə də gərəkli kənd təsərrüfatı kadrlarının azlığıdır.

Bu problemin həlli kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılması və onlardan səmərəli istifadə olunması, kadr və maddi-texniki bazanın yaradılması ilə aradan qaldırıla bilər. Ərzaq təyinatlı yumşaq buğda və digər dənli-paxlalıların istehsalının həcminin artırılması istiqamətində müvafiq tədbirlərin görülməsi çərçivəsində əsas diqqət taxılçılığın daha səmərəli olduğu rayonların müəyyənləşdirilməsi, istehsalın maksimum intensivləşdirilməsi, əkin sahələrinin maddi-texniki təminatının yaxşılaşdırılması, məhsuldarlığın yüksəldilməsi hesabına mövcud əkin sahələrini genişləndirmədən istehsalın həcminin artırılmasına yönəlməlidir. Müvafiq rayonlarda makaron, şirniyyat kimi taxıl məmulatı istehsalı müəssisələrinin yaradılması imkanları araşdırılmalı və buna uyğun inkişaf planları hazırlanmalıdır. [3] Həmçinin, bazar infrastrukturunun inkişafı tədbirləri çərçivəsində əsas taxılçılıq bölgələrində kiçik və orta həcmli taxıl anbarlarının, istehsal kooperativlərinin yaradılması nəzərdən keçirilməlidir.

Hazırda Respublikamızda yüksək dən keyfiyyətinə malik məhsuldar və hibrid sortların yaradılması əsas prioritet məsələlərdəndir. Bu məqsədlə ilk növbədə dövlət səviyyəsində müxtəlif mənşəli yumşaq buğda sortlarının hərtərəfli tədqiqi aparılmalı, biomorfoloji, biokimyəvi və molekulyar markerlər əsasında genetik müxtəlifliyi öyrənilməli, yeni sortların yaradılmasının reallaşdırılması, genotiplərin identifikasiyası həyata keçirilməli və genetik pasportları tərtib edilməlidir. Eyni zamanda, əlamətlərin idarə olunması sistemi haqqında məlumat toplanılmalıdır. Nümunə kimi xüsusi spesifikliyə malik, yaxşı fərqləndirilə bilən, növ, növmüxtəliflikləri və yeni alınmış sortların genetik identifikasiyasına imkan verən zülallardan istifadə olunur.

Çörəkdə mövcud olan mineral maddələrin yaxşı mənimsənilməsi ilk növbədə kalsium, fosfor və maqnezium birləşmələrindən asılıdır. Belə ki, fosforun 60-80 %- i dəndə fitin turşusu şəklində rast gəlinir. O, nəinki orqanizm tərəfindən mənimsənilmir, hətta bir çox mineral maddələrlə (kalsium, maqnezium, dəmir) həll olmayan birləşmələr əmələ gətirir. [2, səh. 75 -80] Əgər orqanizm tərəfindən rahat mənimsənilən kalsium və fosfor birləşmələrinin qidada nisbəti 1:1,5 - 1: 2 təşkil edirsə,kalsiumdan asılı olaraq bu nisbət azalaraq çovdarda 1:5, buğdada isə 1:7,5 olur.

Yuxarıda qeyd olunanlardan belə nəticə çıxarmaq olar ki, çörək insan orqanizmi üçün əsas enerji, bitki zülalları, karbohidrat mənbəyidir. Eyni zamanda kalsiuma, maqneziuma, dəmirə, B və PP vitaminlərinə, bitki liflərinə olan tələbatı müəyyən dərəcədə təmin edir. Lakin çörək-bulka məmulatlarının zülal keyfiyyətini artırmaq üçün onların hazırlanma resepturasına aminturşulardan lizin və treonin daxil etmək, kalsium-fosfor, kalsium və maqnezium balansını yaxşılaşdırmaq, unu və yarımfabrikatları vitaminləşdirmək, onları dənin emal məhsullarında, meyvə - tərəvəz tozlarında olan bitki lifləri ilə zənginləşdirmək lazımdır.

Azərbaycanda çörək sənayesi. Son illərə qədər Azərbaycan çörəkbişirmə sənayesinin aparıcı qüvvəsi kiçik və orta sahibkarlığı təmsil edən kiçik çörək sexləri idi. Son illərdə ölkəmizdə, xüsusilə Bakıda dövlətin dəstəyi ilə iri çörəkbişirmə müəssisələri açılmışdır. Ölkəmizdə çörək-bulka məhsullarının həcminin artırılması və ixracın stimullaşdırılması məqsədilə Sahibkarlığa Kömək Milli Fondunun maliyyə dəstəyi ilə iri çörək zavodları işə salınmışdır. 2014-cü ildə 39 istehsal və emal müəssisəsi, o cümlədən gündəlik istehsal gücü 79.8 ton (illik 29.2 min ton) çörək olan 3 çörək zavodu, 2015-ci ildə isə 49 istehsal və emal müəssisələri, o cümlədən gündəlik istehsal gücü 67 ton (illik 24.4 min ton) çörək olan 5 çörək zavodu istifadəyə verilmişdir. [4] Bu zavodlar tam gücü ilə fəaliyyət göstərəndən sonra Bakı və Sumqayıtda yaşayan istehlakçıların 70 faizini yüksək keyfiyyətli və müxtəlif çeşidli çörək və çörək məmulatları ilə təmin edə bilmişdir. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2017-ci ilin yanvar-aprel aylarında ölkədə 192,6 min ton çörək və çörək-bulka məmulatı istehsal olunmuşdur. Sahibkarlığa Kömək Milli Fondunun məlumatına görə isə, son bir neçə ildə güzəştli kreditlər hesabına illik istehsal gücü 298 min ton olan 27 çörək istehsalı müəssisəsi qurulub. Təkcə 2015-ci ildə gündəlik istehsal gücü 43.6 ton olan 4 çörək zavodunun tikintisi maliyyələşdirilmişdir. Çörəkbişirmə müəssisəsi-

nin fəaliyyətə başlaması və davam etməsi üçün bir sıra addımlar atılmalıdır. Bu mərhələləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1) çörəkbişirmə fəaliyyətinin dövlət qeydiyyatına alınması;

2) xidmətin həyata keçirildiyi əmlak üzərində mülkiyyət və ya icarə hüququnun dövlət qeydiyyatına alınması;

3) istehsal üçün Uygunluq və Gigiyenik sertifikatların, Sanitariya pasportunun alınması;

4) çörəkbişirmə sahəsində əsas sanitar-gigiyenik normalara əməl olunması;

5) işçilərlə əmək, xidmət göstərənlərlə mülki (xidmət) müqavilələrinin bağlanılması;

6) işçilərin icbari sığortaya cəlb edilməsi;

7) işçilərin dövri tibbi müayinəyə cəlbinin təmin olunması, sexlərin sanitar-gigiyenik qaydalara uyğunluğunun yoxlanılması;

8) sahibkarın vergi və sosial sığorta öhdəliklərinin icrası;

9) dövlət orqanlarına hesabatların təqdim olunması;

10) Azərbaycan Respublikasında çörəkbişirmə sahəsində tətbiq edilən dövlət standartlarının tətbiqi.

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi çörəkbişirmə sahəsində məcburi olan standartları beynəlxalq İSO və digər standartlarla bərabər hüquqlu şəkildə həyata keçirir. Çörəkbişirmə müəssisələri beynəlxalq, regional, dövlətlərarası və milli standartlardan istifadə etmək hüququna sahibdirlər.

Beləliklə, belə nəticəyə gəlmək olur ki, Respublikamızda çörək-bulka məmulatlarının istehsalı və istehlakında böyük nailiyyətlər qazanılmışdır. Ancaq, yuxarıda qeyd etdiyimiz kimi, hələ də milli buğda sortlarının keyfiyyətinin yaxşılaşdırılması və istehsal həcminin artırılması, eləcə də qida sənayesində səmərəli istifadə edilməsi mexanizmləri işlənib hazırlanmalıdır. Əlavə olaraq, çörək-bulka məmulatlarının funksionallığının artırılması, onun bəlli miqdarda istehlakı və ölkəmizin əhalisinin sağlamlağının qorunması da diqqətdə saxlanılmalıdır.

ƏDƏBİYYAT

1. Ауэрман Л.Я. Технология хлебопекарного производства. Профессия, Санкт-Петербург, 2005.
2. Матвеева И.В., Беляевская И.Г. Биотехнологические основы приготовления хлеба.- М.: Делпринт, 2001.
3. Musayev. Ərzaq malları əmtəəşünaslığının nəzəri əsasları. Bakı, 2005
4. Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi saytı https://www.stat.gov.az_İqtisadi Tədqiqatlar Mərkəzi "Kiçik sahibkarlığa dəstək" layihəsi.

к.б.н., Мехрибан Рауф кызы Юсифова;
доцент Эльсевар Баба оглы Фарзалиев;
доцент Мехрибан Гамид кызы Магеррамова;
к.э.н.Гюнаш Мазахир кызы Насруллаева;
магистр Анар Аллахверди оглу Аллахвердиев,
Азербайджанский Государственный
Экономический Университет (UNEC)

Исследование аспектов безопасности применениям муки, который выращивается в азербайджане, в производство хлеба, хлебобулочных изделий

Резюме

В статье описывается производство и потребление зерновых продуктов в Азербайджане, сорта хлебобулочных изделий, развитие хлебопекарной промышленности и принимаемые меры.

Ключевые слова: сорт зерна, пищевая безопасность, хлебопекарная промышленность, хлебопекарные предприятия.

doctor of biological science Mehriban Rauf Yusifova;
ass. prof. Elsevar Baba Farzaliyev;
ass. prof. Mehriban Hamid Maharramova;
doctor of economics Sunruz Mazahir Nasrullayeva;
masters Anar Allahverdi Allahverdiyev
Azerbaijan State Economic University (UNEC)

Stydy of the prıncıples flour prepared of wheat varıetıes cultıvated ın Azerbaijan ın productıon bread bakery products

Summary

The article describes the production and consumption of grain products in Azerbaijan, the range of bread and bakery products, the development of the bakery industry and the measures taken.

Key words: nutrition, food security, bakery industry, baking enterprises.

Şahin Əsədulla oğlu HƏBULLAYEV,
t.e.n., dosent;

Əzim Buxsay oğlu ABDULƏZİMOV,
i.e.n., dosent,
Azərbaycan Kooperasiya Universiteti

XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNİN AZƏRBAYCANIN ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ ROLU

Xülasə

Ərzaq təhlükəsizliyi kimi strateji hədəflərin həllinə nail olmaq istəyən Azərbaycan üçün əsas imkanlardan biri də qlobal miqyaslı təşkilatlarla əməkdaşlıq çərçivəsində fəaliyyətdən keçir.

Azərbaycan dövləti iqtisadi təhlükəsizliyini qorumaq, o cümlədən ərzaq təhlükəsizliyini təmin etmək üçün təkmil sənaye siyasətinin həyata keçirilməsini ön plana çəkmişdir.

Açar sözlər: xarici ticarət, iqtisadi təhlükəsizlik, ərzaq təhlükəsizliyi, xarici ticarət dövriyyəsi, milli iqtisadiyyatın stimullaşdırılması, iqtisadi əlaqələr.

Giriş

Son illərdə Azərbaycan dövləti özünün maliyyə resurslarını artırmış, ölkənin sosial-iqtisadi inkişaf strategiyasında müəyyən edilmiş vəzifələrin həyata keçirilməsində heç bir maneə, sıxıntı hiss etməmişdir.

Hal-hazırda dövlət büdcəsinin xərcləri ümumi daxili məhsulun 34-35%-ni təşkil edir. Bu, kifayət qədər məqbul rəqəmdir və Azərbaycanın gələcək inkişaf perspektivlərinin müəyyən edilmiş hədəfləri ilə uyğunluq təşkil edir [1, səh.5].

Beynəlxalq maliyyə qurumları ilə səmərəli əməkdaşlıq edən Azərbaycanda aparılan islahatlar, sosial siyasət, həyata keçirilən infrastruktur layihələri və digər zəruri tədbirlər düşünülmüş strategiyaya əsaslanır, ölkənin davamlı inkişafına və həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilir.

Ölkəmizdə mövcud iqtisadi sərbəstlik, özəl bölmənin inkişafı üçün yaradılmış münbit şərait, ən başlıcası isə respublikamızın yerləşdiyi əlverişli coğrafi şərait nəticəsində xarici ticarət əlaqələrinin həcmi və miqyası getdikcə artır. Bunun nəticəsidir ki, son illər özünü bütün dünyaya etibarlı tərəfdaş kimi tanıtmağa müvəffəq olmuş Azərbaycanla iqtisadi əlaqələr qurmağa can atan ölkələrin sırası getdikcə genişlənir. Xarici ticarət dövriyyəsi, idxal-ixrac əməliyyatları ölkələrarası münasibətlərin, iqtisadi əlaqələrin inkişafında mühüm amillərdəndir. Məhz buna görədir ki, son illər dövlət başçıları, eləcə də nümayəndə heyətləri arasında keçirilən görüşlərin, danışıqların əsas mövzularından birini də məhz xarici ticarət dövriyyəsinin artırılması təşkil edir.

Ərzaq təhlükəsizliyi iqtisadi təhlükəsizlik problemidir

Məlumdur ki, ərzaq təhlükəsizliyi daxili təhlükəsizlik amilidir. Daxili təhlükəsizlik siyasətinin həyata keçirilməsinin məqsədi sistemi və ya dövləti risklərdən qorumaqdır. Bu baxımdan ərzaq təhlükəsizliyi məsələsinə yanaşdıqda, belə qənaətə gəlmək olar ki, məcmu istehlakı idxal asılılığından azaltmaqla yerdə qalan tələbat yerli istehsal hesabına təmin edilməlidir. Beləliklə, təhlükəsizlik və inkişaf bir-birindən ayrılmazdır. İnkişafını daimi etmək istəyən təhlükəsizlik sistemini həll etməlidir.

Ərzaq təhlükəsizliyi bir problem olaraq hamını düşündürməlidir. Tədqiqatlar göstərib ki, dünya üzrə istehlak olunan ərzağın 30 faizindən çoxu və ya 1.3 milyard tonu ya itirilib, yaxud da tullantıya çevrilir. Demək, ərzaq təhlükəsizliyinin həll olunması üçün birinci növbədə mövcud resurslardan səmərəli istifadə edilməlidir.

Azərbaycan 22 il bundan öncə beynəlxalq konvensiyalara qoşulması ilə bağlı (1996) üzərinə öhdəlik götürüb. Həmin il "Dünya ərzaq təhlükəsizliyi haqqında Roma Bəyannaməsi" adlanan sənədə 173 iştirakçı ölkə qoşulmuşdur. Bu sənəddə ölkəmiz əhalisinin ərzaq təhlükəsizliyini təmin etmək istiqamətində qlobal miqyasda səylərini davam etdirəcəyini bəyan edib. Demək, beynəlxalq konvensiyalara qoşulan Azərbaycan eyni zamanda dünya ərzaq təhlükəsizliyi ilə bağlı reytinq cədvəllərində və hesabatlarda layiqli yer tutması üçün çox ciddi çalışmalıdır.

Aparılan elmi-tədqiqat işləri zamanı belə qənaətə gəlinmişdir ki, hazırda dünyanı narahat edən qlobal maliyyə-iqtisadi böhranın nəticələri tam aradan qaldırıldıqdan sonra dünya dövlətlərinin qarşısında duran ən vacib məsələlərdən biri ərzaq təhlükəsizliyinin təmin edilməsi olacaq [2, səh. 8].

Ölkələrin ərzaq təhlükəsizliyinin təmin edilməsinin əsas istiqamətlərindən olan kənd təsərrüfatı məhsullarının istehsal səviyyəsi və onun keyfiyyətinin yeksəldilməsinə xüsusi ehtiyac var. Məhz ölkədə kənd təsərrüfatı məhsullarının istehsalının genişlənməsi və məhsuldarlığının yüksəlməsi hesabına ölkə əhalisinin ərzaq məhsullarının idxaldan asılılığının azalmasına nail olmaq olar. Bunun üçün bizdə bir neçə vacib resurs mövcuddur. Bunlardan önəmlisi ölkənin məşğul əhalisinin 38 faizə yaxınının məhz kənd təsərrüfatı sektorunda çalışması və müəyyən vərdişlərinin mövcud olmasıdır. Digəri, ölkənin imkanlarının geniş olmasını (strateji valyuta ehtiyatları, artan neft pulları) göstərmək olar. Üçüncüsü, regional və dünya bazarına çıxış imkanlarının əlverişli olması və s. kimi amilləri qeyd edə bilərik [3, səh .68].

Ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün strateji məhsullar sırasında əsas yeri taxıl tutur. Bu baxımdan iri taxılçılıq təsərrüfatlarının yaradılması istər ölkəmizin özününtəminatına, istərsə də xaricdən idxala yönələn maliyyə sərfiyyatının azalmasına xidmət edir. Belə təsərrüfatların yaradılması hər hektar sahədən bol məhsuldarlıq əldə etməklə yanaşı, yüksək reproduksiyalı toxumların artırılmasını şərtləndirir. Dövlətin əsas siyasəti idxaldan asılılığı minimuma endirmək, ərzaq bolluğu yaradıb ixrac potensialına münbit şərait yaratmaqdır.

Son illər Azərbaycanda heyvandarlığın inkişafı istiqamətində də işlər sürətlənməkdədir. Xaricdən cins mal-qaranın alınması, modern üslublu komplekslərin yaradılması, süni mayalanma yolu ilə alınan hər buzova görə dövlət tərəfindən verilən 100 manat həcmində subsidiya, eləcə də süd zavodlarının açılışı əhalinin süd və süd məhsulları ilə təminatında mühüm rol oynayıb. Kərə yağı və pendirlə təminatda yaranan problem də yaxın illərdə aradan qaldırılacaq.

Ərzaq təhlükəsizliyində ət və quş əti istehsalı da mühüm yer tutur. Artıq bu sahədə ixrac üçün əlverişli şərait yaranıb. Son iki ildə quş ətinin ixracı artıb. Bu da ölkəmizin adıçəkilən sahələr üzrə özünü 100 faiz təmin etməyə yaxınlaşmasıdır. Yeni fermalar, aqroparklar, quş fabrikləri, süd zavodları açılandan sonra təminat 100 faizi keçəcək. Nəticədə əlavə bazarlar axtarılacaq. Bu istiqamətdə heyvandarlığın inkişafı üzrə dövlət proqramının hazırlanaraq qəbul edilməsi gözlənilir. Azərbaycan bu il dövlət xətti ilə xaricdən daha 10 min baş cins mal-qara alacaq, Göygöl rayonunda açılmış Süd Mayalanma Mərkəzinin fəaliyyəti nəticəsində mal -qaranın cins tərkibi daxili imkanlar hesabına yaxşılaşdırılacaq. Son illər ölkəmizdə yaradılan Aqroparklar ərzaq təhlükəsizliyinin təminatı üçün mühüm amildir. Aqroparklar ilk növbədə, kənd təsərrüfatı istehsalının qeyri-kənd təsərrüfatı fəaliyyətləri ilə vahid istehsal məkanında birləşməsinə zəmin yaradır. İstehsal, emal, marketinq və menecment sisteminin zəncirvari quruluşu, müasir texnika,

informasiya-kommunikasiya texnologiyalarının səmərəli tətbiqi, məsrəflərin minimuma endirilməsi, ərtaf mühitin qorunması, su və torpaq resurslarından səmərəli istifadə bir daha onu sübut etdi ki, ölkədə aqrar sektorun keyfiyyətcə yeni və daha sivil siması qurulur. Azərbaycan Prezidentinin təşəbbüsü və dəstəyi ilə həyata vəsiqə alan aqroparklar ölkə iqtisadiyyatında ən səmərəli model kimi təsdiqini tapıb. Artıq neçə ildir soyuducular və taxıl anbarları, logistika ilə bağı digər məsələlər ölkəmizdə uğurla həll edilir.

Hazırda 28 rayonda 43 aqroparkın yaradılması nəzərdə tutulur. Onlardan 27-si bitkiçilik, 16-sı isə heyvandarlıq üzrə aqroparklardır. Bu aqroparklara 183 min hektar torpaq ayrılıb.

Ərzaq təhlükəsizliyinə xidmət edən daha bir qurumun-Qida təhlükəsizliyi Agentliyinin yaradılması da əhalinin keydiyyətli qidalarla təminatı üçün vacib addımdır. Hazırda dünyada orqanik məhsullar daha baha satılır. Bu xüsusda keyfiyyətli məhsulların ixracının daha da artırılmasında heç bir problem yaranmayacaq. Ona görə ki, Azərbaycanda orqanik məhsulların istehsalı ilə bağlı narahatlıq yoxdur. Belə məhsullar həm də tərəvəz istehsalına aiddir. 2018- ci ildə tərəvəz istehsalı və ixracı kəskin artacaq. Buna həm də dörd yüz hektardan çox sahəsi olan istixanaların yaradılması böyük stimul verəcək. İstixana komplekslərinə marağın artması, üstəlik gigiyenik şəraitdə yetişdirilən məhsullara ehtiyacın duyulması ixrac potensialını kəskin şəkildə artıracaq. 400 hektarda salınacaq istixanaların əsas prinsipi daxili bazara deyil, ixraca yönələcək.Təkcə 2017-ci ildə pomidor ixracından 151 milyon dollar gəlirin əldə edilməsi, sözügedən sahəyə maliyyə vəsaiti ayrılmasının düzgün qərar olduğunu göstərir.

Meyvə istehsalının artımı da ərzaq təhlükəsizliyinin mühüm faktorudur. Yalnız xurma və nar istehsalının artımı və ixracında bu sahənin inkişafını müşahidə etmək mümkündür.

Bundan başqa, intensiv bağçılığa çox böyük diqqət göstərilir. Alma bağları da sürətlə genişlənir və bu da ixrac üçün çox önəmli sahəyə çevrilib.

Ərzaq təhlükəsizliyi insanların istənilən vaxt aktiv və sağlam həyat tərzi sürməsinə yönələn böyük proqramdır. Belə təhlükəsizliyin əsas elementi ölkənin milli ərzaq sisteminin iqtisadi baxımdan müstəqilliyidir.

Ərzaq Təhlükəsizliyi nöqteyi-nəzərindən adambaşına düşən kənd təsərrüfatı məhsullarının digər ölkələrlə müqayisə edilməsi daha mühüm əhəmiyyət kəsb edir.

Əsas növ kənd təsərrüfatı və ərzaq məhsulları idxal - ixracının dinamikası

2016-cı ildə Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 186 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 116 ölkəyə məhsul ixrac olunmuş, 177 ölkədən idxal olunmuşdur.

İxracın dəyərinin 17,1 faizi İtaliyaya, 12,4 faizi Türkiyəyə, 8,7 faizi Tayvana (Çinin əyaləti), 7,3 faizi İsrailə, 6,7 faizi Almaniyaya, 5,4 faizi Fransaya, 4,8 faizi Hindistana, 4,5 faizi Rusiyaya, 3,8 faizi Gürcüstana, 3,0 faizi Çinə, qalan 26,3 faizi isə digər ölkələrə göndərilmiş məhsullar əsasında formalaşmışdır. İdxal olunmuş məhsulların dəyərinin 19,2 faizi Rusiyanın, 13,8 faizi Türkiyənin, 8,2 faizi Çinin, 5,8 faizi Birləşmiş Krallığın, 5,5 faizi ABŞ-ın, 4,7 faizi Almaniyanın, 3,9 faizi İtaliyanın, 3,4 faizi Ukraynanın, 3,3 faizi Yaponiyanın, 3,2 faizi Norveçin, 29,0 faizi isə digər ölkələrin payına düşmüşdür.

2016-cı ildə 1237,1 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac edilmişdir ki, bu da 2015-ci ilə nisbətən real ifadədə 16,4 faiz azdır. 2016-cı ildə 2015-ci illə müqayisədə mühüm məhsul növlərindən təzə meyvə ixracı 23,9 faiz, təzə tərəvəz - 49,5 faiz, kartof - 4,1 faiz, qara metallardan borular - 5,3 dəfə, pambıq ipliyi - 11,0 faiz artmış, şəkər ixracı isə 50,9 faiz, bitki yağları - 56,3 faiz, çay - 73,5 faiz, marqarin, qida üçün yararlı digər qarışıqlar - 89,1 faiz, polietilen - 3,7 faiz, emal olunmamış alüminium - 22,7 faiz azalmışdır. 2015-ci illə müqayisədə 2016-cı ildə buğda idxalı 18,2 faiz, xam şəkər və şəkər - 25,3 faiz, bitki yağları - 20,1 faiz, təzə meyvə - 24,7 faiz, kərə yağı, digər süd yağları və pastaları - 4,1 faiz, çay - 69,0 faiz, kartof - 46,7 faiz, quş əti və onun əlavə məhsulları - 3,3 dəfə, təzə tərəvəz - 80,1 faiz, mal əti - 3,9 faiz artmışdır.

Cədvəl 1-dən göründüyü kimi, 2013-ci ilə nəzərən 2017-ci ildə buğda, kartof, kolbasa, balıq, bitki yağları, kərə yağı və makaron məmulatlarının idxalı artmış, digər məhsulların idxalı isə azalmışdır. 2017-ci ildə 1 milyon 275 min ton buğda idxal olunub. Bu, 2016-cı illə müqayisədə 20 faiz azdır.

Cədvəl 1

Əsas növ kənd təsərrüfatı və ərzaq məhsulları idxalının dinamikası, min ton

№	Kənd təsərrüfatı və ərzaq məhsullarının adı	2013	2014	2015	2016	2017
1	Buğda	1451.3	1195.7	1353.1	1599,6	1 274, 4
2	Kartof	62.5	129.4	124.8	183,0	106.7
3	Təzə tərəvəz	21.5	22.7	25.5	45,9	31,6
4	Təzə meyvə	20.2	14.1	57.9	72,2	61,7
5	Süd və qaymaq	12.1	10.0	8.8	5,5	8,9
6	Quş yumurtaları, mln ədəd	46.2	54.7	51.4	46,1	43,6
7	Buğda unu	46.4	4.0	5.8	3,7	3,2
8	Xam şəkər və şəkər	399.8	432.8	291.5	365,2	368,7
9	Şəkərdən hazırlanan qənnadı məmulatlar	23.1	23.7	21.2	18,2	16,8
10	İribuynuzlu heyvan əti	5.1	4.4	5.1	5.3	4,0
11	Quş əti və əlavə ət məhsulları	2.6	9.2	7.4	24,4	12,3
12	Ət kolbasası və digər analoji məhsullar	0.7	1.4	1.1	1,9	1,3
13	Təzə və dondurulmuş balıq	12.7	12.7	9.9	9,4	8,7
14	Kərə yağı, digər süd yağları və pastaları	8.4	9.8	13.8	14,4	13, 8
15	Bitki yağları	107.5	115.5	115.2	138,4	140,3
16	Marqarin, digər qida qarışıqları	7.7	14.3	14.1	15,3	14,9
17	Makaron məmulatları	5.9	5.5	9.1	8,7	7,7
18	Çay	9.0	8.2	7.5	12,6	13,6

Qeyd edək ki, istehsal olunan ərzağın müəyyən hissəsi ixrac edilir. Aşağıda əsas növ kənd təsərrüfatı və ərzaq məhsulları ixracının 2013-2017-ci illər üzrə dinamikası verilmişdir.

Cədvəl 2 - dən göründüyü kimi un ixracı 2014, 2015, 2016 - ci illəri əhatə etmişdir. Tərəvəz və marqarin istisna olmaqla 2013-ci ilə nəzərən 2017-ci ildə digər məhsulların ixracı azalmışdır.

Bazar iqtisadiyyatı şəraitində milli iqtisadiyyatı dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiya etmədən inkişaf etdirmək mümkün deyil. Bu dünya təcrübəsində sınaqdan keçirilmiş təbii bir prosesdir. Xarici iqtisadi əlaqələrin, o cümlədən xarici ticarət dövriyyəsinin müqayisəli üstünlük nəzəriyyəsinin prinsipləri əsasında həyata keçirilməsi üçün bir sıra strateji məsələlər həll edilməlidir və ölkənin ixrac potensialının elmtutumlu məhsullar hesabına artırılmasına yönəldilməlidir.

Cədvəl 2

Əsas növ kənd təsərrüfatı və ərzaq məhsulları ixracının dinamikası, min ton

№	Kənd təsərrüfatı və ərzaq məhsullarının adı	2013	2014	2015	2016	2017
1	Buğda unu	-	0.04	0.06	0.02	0,03
2	Kartof	53.9	49.5	36.7	38,2	57,1
3	Təzə tərəvəz	65.5	76.7	83.3	124,5	128,4
4	Təzə meyvə	173.2	156.6	173.0	214,4	228,1
5	Şəkər	249.3	230.4	220.8	108,4	61 ,2
6	Bitki yağları	37.0	27.4	23.5	10,2	13.3
7	Marqarin, digər qida qarışıqları	20.2	23.9	27.2	30,0	28,6
8	Meyvə və tərəvəz konservləri	8.7	5.6	2.9	5,8	6,3
9	Meyvə və tərəvəz şirələri	9.8	8.4	6.7	6,1	5,8
10	Çay	7.6	5.4	4.3	1,2	1 ,7

Nəticə

Ərzaq istehlakı norması ölkə üzrə elmi cəhətdən əsaslandırılmış qida təhlükəsizliyinə müvafiq müəyyənləşdirilməlidir və ərzaq təhlükəsizliyinin ölkə üzrə vahid informasiya sistemi yaradılmalıdır.

Ərzaq təhlükəsizliyinin əsasən kənd təsərrüfatı məhsullarının yerli istehsalının artırılmasından keçdiyini nəzərə alsaq, o zaman bu sahədə bir neçə vacib təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini həll etməliyik.

Ərzaq təhlükəsizliyi sadəcə əhalinin istehlakının idxal və yerli istehsal hesabına təmin edilməsi deyildir. Ərzaq təhlükəsizliyi kimi strateji hədəflərin həllinə nail olmaq istəyən Azərbaycan üçün əsas imkanlardan biri də qlobal miqyaslı təşkilatlarla əməkdaşlıq çərçivəsində fəaliyyətdən keçir.

ƏDƏBİYYAT

1. Azərbaycan İqtisadiyyatının Strateji Yol Xəritəsi: Hesabatlılıq və şəffaflıq problemləri (Beynəlxalq Elmi-Praktik Konfrans) Bakı, 21-23 sentyabr 2017-ci il.
2. E.A.Quliyev. "Kənd təsərrüfatı məhsullarının topdansatış bazarlarının formalaşdırılması problemləri"
3. www.azadliqciragi.org Ərzaq təhlükəsizliyi; təhdidlər və imkanlar.
4. Н.Шагайда, В.Узун. Продовольственная безопасность: Проблемы оценки. Вопросы экономики. № 5. С. 63-78. 2015.

Шахин Асадулла оглы Габуллаев
доцент;

Азим Вухсай оглы Абдулазимов
доцент,
Азербайджанский Университет Кооперации

Роль внешнеторговых отношений в обеспечении продовольственной безопасности Азербайджана

Резюме

Одной из основных возможностей для Азербайджана, которая стремится достичь стратегических целей, таких как продовольственная безопасность, является сотрудничество в партнерстве с глобальными организациями.

Для обеспечения экономической безопасности, в том числе продовольственной безопасности, государство Азербайджана сосредоточилось на реализации комплексной промышленной политики.

Ключевые слова: внешняя торговля, экономическая безопасность, продовольственная безопасность, внешнеторговый оборот, стимулирования национальной экономики, экономические связи.

Shahin Asadulla Habullayev
ass. professor;

Azim Buxsay oqlu Abdulazimov
ass. professor,
Azerbaijan Cooperation University

The role of foreign trade relations in ensuring food security in Azerbaijan

Summary

One of the main opportunities for Azerbaijan, which seekc to achieve strategic goals, such as food security, is cooperation in partnership with global organizations.

To ensure economic security, including food security, the state of Azerbaijan focused on the implementation of an integrated industrial policy.

Keywords: foreign trade, economic security, food security, foreign trade turnover, stimulation of the national economy, economical relations.

Şövkət Abuzər qızı YUSİFOVA
i.f.d., Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCANDA ƏHALİNİN ALICILIQ QABİLİYYƏTİNİN VƏ ƏRZAQ MƏHSULLARI İLƏ TƏMİNAT SƏVİYYƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Məqalədə Azərbaycanda əhalinin alıcılıq qabiliyyəti və ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi təhlil olunmuşdur. Statistik məlumatlar əsasında təhlillər aparılmış və müvafiq təkliflər verilmişdir.

Açar sözlər: ərzaq təhlükəsizliyi, özünütəminetmə, iqtisadiyyat, inkişaf, istehlak, alıcılıq qabiliyyəti.

Giriş

Azərbaycanda rəsmi məlumatlara əsasən, 2017-ci il üçün yaşayış minimumu ölkə üzrə 155 manat, əmək qabiliyyətli əhali üçün 164,5 manat, pensiyaçılar üçün 130,2 manat, uşaqlar üçün 136,6 manat məbləğində müəyyən edilmişdir. 2018-ci ildə isə yaşayış minimumu ölkə üzrə 173 manat, əmək qabiliyyətli əhali üçün 183 manat, pensiyaçılar üçün 144 manat, uşaqlar üçün 154 manat məbləğində müəyyən edilib.

Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş minimum istehlak səbəti üzrə əsas növ ərzaq məhsullarının illik istehlak normalarına görə, orta hesabla bütün əhalinin hər nəfəri üçün çörək və çörək məhsulları 126,2 kq; kartof 50,7 kq, tərəvəz və bostan məhsulları 97 kq; meyvə və giləmeyvə 46 kq; ət və ət məhsulları 31,5 kq; süd və süd məhsulları 231,3 kq; balıq və balıq məhsulları 7,7 kq; yumurta 153 kq, şəkər və qənd məhsulları 17,4 kq; bitki yağları, marqarin və digər piylər 9,8 kq; kərə yağı 6,7 kq təşkil edir. Aparılan hesablamalar göstərir ki, mövcud bazar qiymətləri ilə bir nəfər üçün orta illik ərzaq xərci 1289,16 manat təşkil edir.

Aparılan araşdırmalar göstərir ki, ölkə əhalisinin bir çox ərzaq məhsulları ilə təminatı yerli istehsal hesabına mümkün olmuş və idxaldan asılılıq səviyyəsi əvvəlki illərlə müqayisədə azalmışdır. Lakin onu da qeyd etmək lazımdır ki, ərzaq təhlükəsizliyinin təmin edilməsi tək ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi ilə müəyyən edilmir və burada əhalinin alıcılıq qabiliyyəti də mühüm göstəricilərdən biridir.

Statistik məlumatların təhlili göstərir ki, əhalinin 90,3%-nin orta aylıq gəlirləri 300 manata qədər təşkil edir. 2016-cı ildə əhalinin orta aylıq gəlirlər səviyyəsinə görə bölgüsü cədvəl 1-də verilmişdir.

Statistik məlumatların təhlili göstərir ki, əhalinin alıcılıq qabiliyyəti tələb olunan səviyyədə deyil, orta illik gəlir kommunal xərclərin, sosial xərclərin ödənilməsinə, yaxşı ev-mənzil şəraiti ilə təmin edilməsinə və digər xərclərə kifayət edəcək həddə deyil. Aparılan sorğu və müşahidələrin təhlili göstərir ki, son illərdə sosial-iqtisadi inkişafın təmin edilməsi ilə bağlı görülən tədbirlər nəticəsində əhalinin gəlirlərinin artmasına baxmayaraq, xərclər strukturunu yaxşılaşdırmaq hələ ki, tam mümkün olmamışdır. Ərzaq xərclərinin əsas payı çörək və taxıl məhsullarına düşür. Qeyd edək ki, istehlakçı səbətinin formalaşması üçün dünya standartları mövcuddur ki, bu məhsulların payı yaşayış minimumunun 40% -dən artıq olmamalıdır.

İnsanın, cəmiyyətin inkişafı üçün siyasi, iqtisadi, sosial, hərbi, ekoloji və s. tədbirlərin hazırlanması böyük əhəmiyyət daşıyır. Bu təhlükəsizlik sistemi ölkənin milli iqtisadiyyatının inkişafına, sosial-iqtisadi sabitliyinin möhkəmlənməsinə imkan verir. Ona görə də iqtisadi təhlükəsizlik milli təhlükəsizliyin ağırlıq mərkəzini, cəmiyyətin və dövlətin iqtisadi müstəqilliyinin əsasını təşkil edir. Ölkənin iqtisadi təhlükəsizliyi strateji milli maraqların müdafiəsinə xidmət etməklə aşağıdakı istiqamətləri özündə əks etdirir:

1) davamlı iqtisadi artım;
2) məhsul istehsalının rəqabət qabiliyyətinin yüksəldilməsi;
3) əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, gəlirlərinin artırılması, məşğulluğun təmin edilməsi. [2. səh. 175]

Cədvəl 1

2016-cı ildə əhalinin orta aylıq gəlirlər səviyyəsinə görə bölgüsü

	Min nəfər	**Faizlə**
Cəmi əhali	**9757,8**	**100**
O cümlədən hər nəfərə gəlirlər, manatla		
105 manata qədər	5,9	0,1
105,1-110,0	10,7	0,1
110,1-115,0	16,9	0,2
115,1-120,0	18,6	0,2
120,1-125,0	32,6	0,3
125,1-130,0	51,1	0,5
130,1-135,0	74,0	0,8
135,1-140,0	101,6	1,0
140,1-145,0	140,2	1,4
145,1-150,0	192,7	2,0
150,1-155,0	240,2	2,5
155,1-160,0	268,7	2,8
160,1-170,0	645,1	6,6
170,1-180,0	779,7	8,0
180,1-190,0	881,4	9,0
190,1-200,0	841,4	8,6
200,1-210,0	788,7	8,1
210,1-220,0	726,2	7,4
220,1-230,0	642,0	6,6
230,1-240,0	529,5	5,4
240,1-250,0	444,3	4,6
250,1-300,0	1372,9	14,1
300 və çox	953,7	9,8

Mənbə: Azərbaycanın Statistik Göstəriciləri, DSK-nın məlumatları, Bakı 2017, səh-165.

Qeyd edək ki, ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm şərtlərdən biri də əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsi, gəlirlərinin artırılmasıdır. Dünya təcrübəsi göstərir ki, ölkənin iqtisadi böhrandan çıxarılmasının əsas aləti əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsindədir. Alıcılıq qabiliyyəti müxtəlif göstəricilərlə ifadə edilir. Məsələn, bu və ya digər istehlak olunan bir məhsulun həcmi ilə, hansı ki, bir iş saatı dəyərində əldə edilən vəsait hesabına əldə etmək mümkündür və ya tələb olunan məhsul və xidmətləri orta aylıq əmək haqqı və ya gəlirlər hesabına əldə etmək mümkündür. Lakin, proqnozlaşdırma məqsədi ilə gəlirlərin alcılıq qabiliyyəti göstəricisi əhalinin gəlir səviyyəsinin nisbəti və yaşayış xərcləri kimi bir göstəriciyə uyğun gəlir. Azərbaycanda 2016-cı ildə yaşayış yerləri üzrə istehlak xərcləri cədvəl 2-də verilmişdir.

Statistik məlumatların təhlilinə əsasən ərzaq məhsullarına çəkilən xərclər ümumi istehlak xərclərinin 40,5%-ni, o cümlədən şəhər yerləri üzrə 40,3%, kənd yerləri üzrə isə 40,6% təşkil edir və bu dünya standarlarına uyğun gəlir. Əhalinin gəlirlərinin yüksəldilməsi istiqamətində müvafiq tədbirlər davamlı olaraq görülməkdədir. Eyni zamanda, onu da qeyd edək ki, əhalinin gəlirlərinin artırılması məqsədilə 2018-ci ildə dövlət sektorunda çalışanların əmək haqları əlavə olaraq 10%-həddində ölkə Prezidentinin sahələr üzrə verilmiş müvafiq sərəncamları ilə artırılmışdır.

Qeyd edək ki, 2015-ci idlə iki dəfə baş verən devalvasiya əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsinə səbəb olmuşdur. Məhsulların bazar qiymətlərinin təhlili göstərir ki, 2014-cü illə müqayisədə məhsulların qiymətləri 2 dəfə və daha çox yüksəlmişdir. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən 2017-ci ildə Azərbaycanda istehlak qiymətləri 12,9% artıb. Rəsmi hesablamalara görə ötən il ərzaq 16,4 faiz, qeyri-ərzaq məhsulları 11,6 faiz, əhaliyə pullu xid-

mətlər 9,3 faiz bahalanıb. Gələcək dövrdə ictimai siyasətin əsas məqsədi dəfələrlə və ədalətli şəkildə vurğulanmışdır ki, yoxsulluğa qarşı mübarizə aparılır və bu il Azərbaycanda yoxsulluq səviyyəsi 5,9% təşkil etmişdir. Buna baxmayaraq, əhalinin gəliri və istehlakı arasında fərqin yaranmasında baş verən azalma özü bir nəticə kimi xidmət edir və bazar iqtisadiyyatı şəraitində belə bir qaçılmaz fərqlilik böyük sosial problemdir. Məhz bu baxımdan hesab edirik ki, yaşamaq xərcləri və yaşayış minimumunun ölçüsü inflyasiya dərəcələri və ya istehlak qiymətləri indeksləri şəklində əks etdirilə bilən inflyasiya nisbətinin ən mühüm amil kimi müəyyən edilməsi daha məqsədəuyğundur.

Cədvəl 2.

Azərbaycanda 2016-cı ildə yaşayış yerləri üzrə istehlak xərcləri

	Yaşayış yerləri üzrə istehlak xərcləri (ayda hər nəfərə, manat)			Yaşayış yerləri üzrə istehlak xərclərinin quruluşu, %-lə		
	Cəmi	Şəhər yerləri	Kənd yerləri	Cəmi	Şəhər yerləri	Kənd yerləri
İstehlak xərcləri, cəmi	264,69	275,48	252,48	100	100	100
Ərzaq məhsullarına	107,10	111,06	102,60	40,5	40,3	40,6
Alkoqollu içkilərə	1,47	1,49	1,44	0,6	0,5	0,6
Tütün məmulatlarına	3,61	3,63	3,58	1,4	1,3	1,4
Paltar və ayaqqabıyla	17,89	19,01	16,62	6,8	6,9	6,6
Su, işıq, qaz və digər yanacaq növlərinə	19,77	20,36	19,11	7,5	7,4	7,6
Ev əşyaları, məişət texnikası və gündəlik qulluğa	24,24	24,32	24,14	9,1	8,8	9,6
Səhiyyə xidmətlərinə	12,86	13,10	12,59	4,9	4,8	5
Nəqliyyat xərclərinə	16,68	17,74	15,48	6,3	6,4	6,1
Rabitə xərclərinə	8,96	10,01	7,77	3,4	3,6	3,1
İstirahət və mədəniyyət xərclərinə	11,52	12,69	10,19	4,3	4,6	4
Təhsil xərclərinə	5,02	5,60	4,37	1,9	2	1,7
Mehmanxana, kafe, restoran və yeməkxanaya	22,99	23,36	22,57	8,6	8,5	8,9
Digər mal və xidmətlərə	12,58	13,11	12,02	4,7	4,9	4,8

Mənbə: Azərbaycanın statistik göstəriciləri, DSK-nın məlumatları, Bakı 2017, səh-172-173.

ƏDƏBİYYAT

1. Azərbaycanın Statistik Göstəriciləri. Bakı-2017, 812 s.
2. İ.H.İbrahimov. Aqrar sahənin iqtisadiyyatı. (Monoqrafiya). Bakı-2016, 653 s.
3. Алиева А.Г. Азербайджан: продовольственная безопасность и развитие аграрного сектора, // Российское предпринимательство. №3 (201), 2012, стр.

Шовкат Абузар кызы Юсифова
к.э.н., АУК

Оценка покупательной способности населения и уровня продовольственной безопасности в Азербайджане

Резюме

В статье анализируется уровень самооценки в Азербайджане с покупательной способностью населения и продуктов питания. На основе статистических данных были сделаны анализы и сделаны соответствующие предложения.

Ключевые слова: родовольственная безопасность, самообеспеченность, экономика, развитие, потребление, покупательная способность.

Shovkat Abuzar Yusifova
PhD on economics, ACU

Assessment of population's purchasing power and food security level in Azerbaijan

Summary

The article analyzes the level of self-esteem in Azerbaijan with the purchasing power of the population and food products. Based on statistical data, analyzes were made and relevant proposals were made.

Key words: food security, self-sufficiency, economy, development, consumption, purchasing power.

Müslümat Allahverdi qızı ALLAHVERDİYEVA
dos., i.e.n. AKU;

Bəsti İsgəndər qızı CAHANGİROVA
b/m.

QLOBAL ƏRZAQ BAZARINDA GENİ DƏYİŞDİRİLMİŞ MƏHSULLAR İSTEHSALINDA TRANSMİLLİ ŞİRKƏTLƏRİN ROLU

Xülasə

Bu məqalədə qlobal ərzaq bazarının hazırkı vəziyyəti, qida təhlükəsizliyi və ərzaq təhlükəsizliyinin fərqi, FAO-nun əsas missiyaları, qlobal ərzaq bazarında TMŞ-rin rolu, Monsantonun ərzaq təhlükəsizliyində geni dəyişdirilmiş ərzaqlar istehsal edərək dünya ərzaq bazarında yaratdığı mənzərə, onun fəaliyyətinə mütəxəssislər tərəfindən lehinə və əleyinə münasibətlər, bu ərzaqların bəşəriyyətə təsiri,onların azaldılması istiqamətində dünyada və bizim respublikamızda dövlət səviyyəsində görülən tədbirlər öz əksini tapır.

Açar sözlər: (TMŞ) transmilli şirkətlər, GDO (geni dəyişdirilmiş ərzaqlar), Monsanto, FAO.

***

Ərzaq təhlükəsizliyi – alıcı üçün ərzağın bazarda mövcudluğu və alıcının onu almaq imkanı başa düşülür. Qida təhlükəsizliyi isə hansısa bir ərzağın insanın sağlamlığı üçün təhlükə mənbəyi olmaq ehtimalından azad olmasıdır. Ərzaq keyfiyyəti - ərzağın alıcı üçün dəyərliliyi ilə xarakterizə olunur.

Hazırda dünyada qida təhlükəsizliyini idarə edən ən səmərəli sistem HACCP (Təhlükəli faktorların analizi və kritik nəzarət nöqtələri) sistemidir. Bu sistemin standartlaşdırılmış beynəlxalq təşkilatlarından biri Codex Alimentarius Komissiyasıdır. Qida təhlükəsizliyi milli genofondun qorunmasında mühüm rol oynayır. [1]

1994-cü ildə Dünya Bankı (DB) tərəfindən Ümumdünya Ərzaq Təhlükəsizliyi Proqramı qəbul edildi. 1996-cı ildə 130 dövlət Romada Ümumdünya ərzaq forumu keçirdi. «Yer kürəsi əhalisini necə yedizdirməli?» FAO-nun (BMT-nin ərzaq və kənd təsərrüfatı təşkilatı) xüsusi məruzəsində deyilirdi ki, dünya əhalisini doyuzdurmaq üçün ərzaq istehsalını 70% artırmaq lazımdır. Qərara alındı ki, bu məqsədlə geni dəyişdirilmiş ərzaqlar köməyə gələ bilər. [2]

Bu yeni orqanizmlər, GDO-lar, onlardan alınan məhsullar qısa müddət ərzində (25 ildə) dünyada elə bir sürətlə yayılmağa başladı ki, hətta zəka sahibləri onların zərərli və ya sərfəli olduqlarını araşdırmağa imkan tapmadılar. İndi dünyanın ən inkişaf etmiş ölkələrində (ABŞ, Kanada, Çin, Yaponiya və s.) ərzaq məhsullarının, meyvə və tərəvəzlərin 70%-dən çoxunun tərkibində transgen inqredientlər var.

Biotexnologiyanın ən son nailiyyətlərinə əsaslanan bu məhsulların planetimizdə əhalinin ərzaq təhlükəsizliyində rolu danılmazdır. 3 milyarddan artıq əhalinin aclıqdan əziyyət çəkdiyi indiki dövrdə bu məhsulların nə dərəcədə vacib olduğu heç şübhə doğurmur.

Mütəxəssislərin sözlərinə görə, hazırda bir çox transmilli şirkətlər əhalisinin əksəriyyəti yoxsulluq səviyyəsində yaşayan dövlətlərdə genetik səviyyədə modifikasiyalara uğramış ərzaq məhsullarının satışını durmadan artırır. Çünki bu ucuz başa gəlir və alıcılar üçün cəlbedicidir. Bu cür ərzaq isə, qeyd etdiyimiz kimi, insanlar üçün çox ciddi təhlükə yaradır.

Daha ucuz başa gələn (kimya sənayesinin hesabına) qida məhsullarında təbii elementlər sünilərlə əvəzlənir. Hazırda əksər müəssisələr müxtəlif tozlar, rəngarəng ekstraktlar, tərkiblər, kimyəvi maddələrlə işlənmiş cürbəcür qatışıqlardan geniş istifadə edir. Təbii qida maddələrinin müxtəlif kimyəvi tərkiblərlə emalı nəticəsində isə faydalı maddələr itib-batır.

2009-cu ildə YUNKTAD ilk dəfə "Dünya investisiyası haqqında" məruzə hazırladı. Həmin məruzə TMŞ və onların kənd təsərrüfatının inkişafında poluna toxundu. 200-dən artıq dövlətə təqdim olundu. TMŞ-lər dünya istehsalının 1/3-ni, sənaye istehsalının yarısını istehsal edir. Bütün yeni texnologiyalara lisenziyanın 80%-i onların payına düşür. Buğda, kofe, qarğıdalı istehsalının 90%-i, banan istehsalının 70%-i TMŞ-lərin payına düşür.Yeni ziyanvericilərin təsirinə davamlı ərzaqlar istehsal edilir və bununla da dünya əhalisini doyuzdurmağa çalışırlar.TMŞ-lər bu istiqamətdə liderdirlər. 1980-ci ildən onlar ABŞ-da gen modifikasiyasına başladılar. GDO-lar ucuz və məhsuldar olduqlarına görə böyük kütləvilik qazanırlar .

Yer kürəsində əhalinin sürətli artımı və ərzaq malları istehsalının artımının harmonizasiyasına nail olmaq üçün gen mühəndisliyinə ehtiyac yarandı. Bu, istehsal həcminin artırılmasında mühüm rol oynayır. Amma təhlükələr də var.

Qida təhlükəsizliyi barədə əhalidə informasiyaların yetərincə olmaması aqrar siyasətin bu bölməsinə diqqətin artırılmasını zəruri edir. Bu məsələ inkişaf etməkdə olan olkələrdə daha qabarıqdır.

Məlumdur ki, əhalini doyuzdurmaq üçün kənd təsərrüfatına qoyulan investisiyalar artırılmalıdır. Bu istiqamətdə qoyulacaq investisiyalar 40 mlrd dollar təşkil edir.

İri istehsalçılar ABŞ,Britaniya, Yaponiya və Fransa TMŞ-ləridir. Malaziyanın "Darbi Berhad" şirkəti də bu istiqamətdə ön sıralardadır. ABŞ-ın "Doulfud" və "Del market" şirkətləri çox məşhurdur.

Geni dəyişdirilmiş orqanizmlər istehsal edən ən böyük TMŞ Monsantodur.

Biotexnoloji bitkilər üzrə dünya lideridir. Əsas məhsulları gmo qarğıdalı, soya, pambıq toxumudur. 1901-ci ildə kimya şirkəti kimi yaranıb. 1996-cı ildə Bellqrad pambığını istehsal etdi. Bu pambıq həşəratların təsirinə məruz qalmır (herbisid "raundap"). Monsantonun Toxumçuluq şirkəti "Seminis"tərəvəz və meyvələr üzrə toxumlar hazırlayır.

ABŞ Monsanto sayəsində Vyetnamda 1940-cı ildə dioksini, 1987-ci ildə isə GDO-nu sınaqdan çıxardı. 1996-cı ildə soya və pambığı yaratdı.Yer kürəsində ən cox GDO istehsal edən Monsantodur. 2009-cu ildən GDO məhsullarının 88%-ni istehsal edir. 1987-ci ildə Monsanto ilk dəfə genetikası dəyişdirilmiş bitkilərin sahə, tarla sınağını həyata keçirdi. 1987-ci ilin payızında Monsantonun elmi mərkəzində (Sent-Luis, Missuri) SSRİ-nin Dövlət Aqrar sənaye Komitəsinin nümayəndələri də olmuşdur. [3].

Monsanto TMŞ-dir. Biotexnoloji bitkilər üzrə dünya lideridir. Əsas məhsulları gmo qarğıdalı, soya, pambıq toxumudur. Monsanto 46 ölkədə GDO istehsal edir. Əsasən aşağıdakı sahələrdə GDO istehsal edən TMŞ-lər daha geniş yayılıb:

- taxıl məhsulları və emalı sənayesi məhsulları istehsal edən TMŞ-lər;
- pərakəndə və topdan ticarət TMŞ-ləri;
- kənd təsərrüfatı üçün xammal göndərən TMŞ-lər;

İri geni dəyişdirilmiş ərzaq istehsalçılarından 1-ci yeri "Nestle"(xarici aktivləri 66 mlrd $) tutur. 2-ci yeri WoLL-Mart-Stors (63 mlrd), 3-cü yeri Darbi Berhad (5 mlrd. dollar) tutur. [4]

Azərbaycanda da ərzaq məhsullarının təhlükəsizliyi haqqında qanun var. Qanuna əlavələr edilmişdir. Milli Məclisə GDO-lu ərzaq məhsullarının istehsalı və qəbulu haqqında qanun layihəsi təqdim olunub. Azərbaycanda, həmçinin GDO-lu məhsulların markalanması haqqında da qanun qəbul olunacaq. Bizim respublikamızda satılan bitki yağlarının 90%-də, yetişdirilən kartofun 90%-də, qarğıdalının 60%-də GDO var. Quşçuluq fabriklərində quşları GDO-lu yemlə bəsləyirlər.

Ümumiyyətlə, dünyada istehsal olunan soyanın 95%-i GDO-dur. Uşaq qidalarına GDO komponentləri əlavə edilir.

Dünya GDO əleyhinə mübarizə aparır. Avstriya, Venesuela, Yunanıstan, Polşa və İsveçrə transgenlərin istifadəsindən imtina etdi.

- 26 Afrika ölkəsi ÜTT geni dəyişdirilmiş ərzaqları humanitar yardım kimi alınmaqdan imtina etdi. [5]
- AİB-də GDO limiti 0,9 qəbul edildi.
- Ottava, Monreal, Vaşinqton, Tokio və Sidney - 9 fevral 2010-cu ildə 26 ölkəni təmsil edən 233 istehlakçı və fermer qrupu "Definitive Global Rejection of GM Wheat" protokolu ilə etiraz kompaniyası təşkil etmiş, dünya xalqlarını və fermerlərini bu etiraza qoşulmağa çağırmışlar;
- Hindistan hökuməti GDO badımcanın ölkə ərazisində əkilməsini qadağan etmişdir və onların etirazını Danimarkanın ekologiya naziri Roseanna Cunnungham alqışlamışdır;
- 5 fevral 2010-cu ildə Bolqarıstan hökuməti ölkədə GDO bitkilərin əkilməsinə və onların məhsullarının yayılmasına 5 illik qadağa qoymuşdur;
- 29 yanvar 2010-cu ildə Rusiya Fedarasiyasının parlamenti GDO məhsulların üzərində onun mənşəyi və tərkibi haqqında məlumatların yazılması üçün qərar qəbul etmişdir;
- 15 dekabr 2009-cu idə Polşa parlamenti GM bitkilərinin adi bitkilərlə yanbayan əkilməsini qadağan edən qərar vermişdir.

ƏDƏBİYYAT

1. "İnternet portal GMO ru"
2. www.parlament.nsw.gov.au
3. В.Кузнецов, А.Баранов. Статья "Генетический модифицированные организмы". Журнал "Наука и жизнь", №6, 2012.
4. В.Лебедев. "Миф о трансгенной угрозе". Журнал "Наука и жизнь" №11, 2014.
5. Г.Клещенко. "ГМО городские мифы". Химия и жизнь, №7, 2012.

Муслумат Аллахверди кызы Аллахвердиева
доц., к.э.н. АУК;
Басти Искендер кызы Джахангирова
ст.пред.

Роль транснациональных компаний в производстве генетически модифицированных продуктов на мировом продовольственном рынке

Резюме

В этой статье описывается текущее состояние мирового продовольственного рынка, различие между продовольственной безопасностью и продовольственной безопасностью, основные миссии ФАО, роль ТНК на мировом продовольственном рынке. Появление Монсанто на мировом продовольственном рынке и производство ГМО продуктов, последствия этих продуктов для человечества, их сокращение в мире и меры, принятые на уровне цивилизации в нашей стране.

Muslumat Allahverdi Allahverdiyeva
PhD of ekonomics ACU;
h/t. Cahangirova Basti Isgender

The role of transnational companies in the production of genetically modified products in the global food market

Summary

This article describes the current state of the global food market, the difference between food security and food security, FAO's key missions, the role of TMC in the global food market, the appearance of Monsanto in the world food market, the effects of these foods on humanity, their reduction in the world and the measures taken at the level of civilization in our country.

Adil Həsi oğlu GÜLƏLİYEV
b/m., i.e.n., Azərbaycan Koooperasiya Universiteti
"Əmtəəşünaslıq və ekspertiza" kafedrası

ƏRZAQ MƏHSULLARININ TƏHLÜKƏSİZLİYİ VƏ KEYFİYYƏTƏ NƏZARƏT

Xülasə

Ərzaq məhsullarının keyfiyyətinin yüksəldilməsini təmin edən normativ sənədlərə uyğun olaraq standartlar əsas yerlərdən birini tutur. Standartlarda keyfiyyətin əsas göstəriciləri və bu göstəricilərin ölçülərinin xarakteristikası verilir. Ərzaq və qida məhsullarına aid standart, məhsul keyfiyyətinin ən etibarlı təminatıdır. Yeyinti məhsullarının təhlükəsizliyi müasir dövrün ən əsas problemidir.

Açar sözlər: icazə verilməyən, polimer, rezin və metal materialdan hazırlanan avadanlıq, tara inventarlar, nitratlar, nitritlər, keyfiyyət standartları, fiziki-kimyəvi, mikrobioloji tustoloji, göstəricilər.

***

Yeyinti məhsullarının təhlükəsizliyi dövrün ən əsas problemlərindən biridir. Qida insanın sağlamlığı üçün təhlükəli olan kimyəvi maddələrin mənbəyi və daşıyıcısı ola bilər. Qida məhsulları ilə insan orqanizminə 70%-ə qədər kimyəvi maddələr düşdüyü halda su və hava ilə 30%-ə qədər düşür. Bu maddələrin ərzaq məhsullarına düşmə yolları müxtəlifdir.

Müasir dövrdə fasiləsiz olaraq yeyinti məhsullarının çeşidi genişlənir, qidanın xarakteri dəyişir, istehsalın yeni texnoloji prosesləri yaranır, müxtəlif kimyəvi birləşmələrin tədqiqi və miqdarı artır. Yeyinti məhsullarının tərkibinə toksiki maddələrin düşməsinə əsas səbəb ətraf mühitin sənaye və kənd təsərrüfatı tullantıları ilə çirklənməsidir. Aparılan tədqiqat işləri təsdiq edir ki, istehsal olunan qida məhsullarının əksəriyyəti toksiki kimyəvi birləşmələr, bioloji agentlər və mikroorqanizmlərlə yüksək dərəcədə çirklənir. Meyvə-tərəvəzlərdəki nitratların miqdarı gündəlik normadan 8 dəfə çoxdur. Tədqiq olunan kərə yağının 52%-də toksiki elementlərin (mis, dəmir, sink, qurğuşun və s.) miqdarı yolverilən normadan çoxdur.

Yeyinti məhsullarının zərərsizliyi problemini həll etmək üçün ilk növbədə istehsalata verilən xammalın ekoloji təmizliyinə fikir verilməlidir. Çünki son vaxtlara qədər zərərli maddələrin miqdarı yalnız hazır məhsullarla yoxlanılır və normallaşdırılır. Əvvəllər bu göstərici istehsala verilən xammala aid edilmirdi. Ona görə də kənd təsərrüfatı məhsullarının sertifikasiyasına köklü dəyişikliklərlə yanaşmaq lazımdır. Bu qlobal məsələdir və onun həlli tək müəyyən vaxt deyil, həm də vəsait tələb edir. Tədqiqatlar göstərir ki, qida məhsullarının ərzaq xammallarının çirklənməsi aşağıdakı səbəblərdən olur:

- bitkiçilikdə və heyvandarlıqda gübrələrdən, suvarma sularından, pestisidlərdən, stimulyatorlardan istifadə qaydalarının pozulmasından;
- ərzaq xammalına və yeyinti məhsullarına ətraf mühitdən - atmosfer havasından, torpaqdan, sututarlardan və s. toksiki maddələrin düşməsindən;
- yeyinti məhsullarının istehsal texnologiyası, saxlanılması prosesində sanitariya tələblərinə əməl edilməməsi nəticəsində bakterial toksinlərin əmələ gəlməsi;
- yeyinti məhsullarının istehsalında yeni, qeyri-ənənəvi, əsasən də yoxlanılmamış texnologiyanın tətbiqi, icazə verilməyən və qadağan olunan qida əlavələrindən (boya maddələri, konservant, antioksidləşdirici və s.) istifadə olunmasından;
- xammalın yığımı vaxtı yağış, külək, daşınmada olan problemlər, nəmlik, saxlanmada olan ilkin problemlər;
- icazə verilməyən polimer, rezin və metal materiallarından hazırlanan avadanlıq, qab, inventar, taraya düşən toksiki maddələrin keçməsindən;
- yeyinti məhsullarının istehsalı və istehsaldan sonra temperatur sisteminin aşağı-yuxarı qeyri-normada saxlanılması, müəyyən toksiki birləşmələrin əmələ gəlməsinə zəmin yaradır.

Kənd təsərrüfatı bitkilərinin (kartof, tərəvəz, taxıl və s.) yetişdirilməsi prosesində müəyyən miqdarda qidalı maddələr tələb olunur. Bu birləşmələri torpağa verdikdə azot, bitkilər tərəfin-

dən mənimsənilir və zülala çevrilir. Nitritlərdən fərqli olaraq nitratlar methemoqlobin əmələ gətirə bilmir. Lakin orqanizmdə nitratların miqdarı 1-4 q. olduqda kəskin zəhərlənmə halları müşahidə edilir, 8 q olduqda öldürücü təsir göstərir. Rusiya Səhiyyə Nazirliyinin təklif etdiyi normaya müvafiq olaraq nitrat-ionların maksimum miqdarı mq/kq-la aşağıdakı kimi olmalıdır.

Kartof-80, ağbaş kələm-300, yerkökü-300, pomidor-60, xiyar-150, aşxana çuğunduru-1400, baş soğan-60, qovun-45, qarpız-45. Əgər ayrı-ayrı məhsullarda nitratların miqdarı normadan 2 dəfə çoxdursa onda həmin tərəvəz bişmiş halda istifadə edilə bilər. Məhsulun kulinar emalı onların tərkibindəki nitratları azaldır, məsələn, yerkökünü 15 dəqiqə bişirdikdə nitratın miqdarı 48,4%, kartof 25 dəqiqə bişdikdə 59,9% azalır. Müasir kənd təsərrüfatı bitkilərinin mühafizəsi üçün geniş çeşiddə kimyəvi maddələrdən istifadə edilir ki, nəticə etibarı ilə alınan məhsul tam ekoloji cəhətdən saf qida məhsulu olur. Odur ki, hər bir dövlət kimi Azərbaycan Respublikasında da dünya praktikasından maksimum dərəcədə istifadə edərək istehlakçı üçün nərərdə tutulan ərzaq məhsullarının keyfiyyətinə tam üstünlük verərək zəmanətlə istehsal edirlər. Ayrı-ayrı ərzaq məhsullarındakı pestisidlərin yolverilən miqdarı təbii-bioloji tələblər təlimatında verilmişdir. Son zamanlar yeyinti məhsullarında antibiotiklərin olması çox qeyd olunmuşdur. Bu, ondan irəli gəlir ki, antibiotiklərdən kənd təsərüfatında heyvanların müalicəsi, onların böyüməsi və yemlərə əlavə kimi istifadə olunmasında nöqsanlara yol verilir. Qida qəbulu zamanı antibiotiklərin zərərli təsiri orqanizmin mübadilə reaksiyalarının dəyişməsində və alergik reaksiyalarda özünü büruzə verir. Hazırda Rusiyada 58 adda antibiotik preparatlarından istifadə olunur. Bu maddələr əsasən ət, süd, yumurta və başqa yeyinti məhsullarının tərkibində mütləq qalır. Sənaye müəssisələrinin tullantıları ilə çirklənmiş su və torpaq gələcəkdə bitkilərin və heyvanların da orqanizminə keçir. Odur ki, hər bir istehsalçı istehlak üçün nəzərdə tutduğu məhsulu tam ekoloji cəhətdən sanitariya, texniki qaydalara riayət etməklə istehsal etməlidir. Ərzaq məhsullarının təhlükəsizliyindən danışdıqda müxtəlif yeyinti məhsullarına əlavə qatmalara diqqət yetirmək lazımdır. Yeyinti qatmaları ərzaq məhsulları istehsalında onların dadının, iyinin, zahiri görünüşünün yaxşılaşdırılmasına, saxlanma müddətinin uzadılmasına səbəb olur. Belə qatmalara boya maddələri, konservantlar, stabilləşdiricilər, yumşaldıcılar, şirinləşdiricilər və s. aiddir. Tamlı qatmaların əlavə edilməsində əsas məqsəd lazımi dadların verilməsi, müxtəlif xarabolmalara qarşı, davamlılığın müddətinin uzadılması və məhsulun quruluşunun qorunmasından ibarətdir. Müasir dövrdə yalnız meyvə-tərəvəz, mineral sular, süd, yumurta kimi məhsullara heç bir qatma tətbiq edilmir.

Ərzaq malları əsas qrup əhalinin qidası üçün nəzərdə tutulur. Ərzaq malları bir neçə qrupa bölünür: uşaq qida məhsulu, pəhriz qida məhsulu, əsas xammal, yardımçı xammal, yardımçı materiallar. Ümumilikdə qrupların keyfiyyət göstəriciləri olur və onları müxtəlif formada yoxlayırlar. Hər bir məhsulun standartı və lisenziyası mövcuddur. Məhsulun keyfiyyəti-onun təyinatına uyğun olaraq müəyyən tələbatı ödəmək qabiliyyətini əsaslandıran yararlılıq xassələrinin məcmusundan ibarətdir. (QOST15467- 49). AZ.

Ərzaq mallarının keyfiyyəti - standartların, texniki şərtlərin, təsdiq edilmiş mal nümunələrinin, (etalonların) mal göndərilməsinə dair şərtlərin və müqavilələrin tələbinə, malın nə dərəcədə cavab verməsidir. Ərzaq mallarının keyfiyyət göstəriciləri-malın zahiri görünüşü, qoxusu, dadı, konsistensiyası (sensor göstəriciləri) və kimyəvi tərkibi, fiziki-kimyəvi, mikrobioloji, histoloji göstəriciləri (alətlərlə təyin edilən göstəricilər). Buraya təyinat göstəriciləri, saxlanılmağa, daşınmağa yararlılıq, istehlakda etibarlılıq və zərərsizlik, estetik və ekoloji göstəricilər də aid edilir.

Ərzaq məhsulları ilə zəhərlənmələrin qarşısını almaq üçün dəqiq proqramın olması və əhalinin təhlükəsiz qida məhsulları ilə təmin olunması təşkil edilməlidir. Bu sahədə çalışan mütəxəssislərin əsas vəzifəsi ərzaq mallarının təhlükəsizlik göstəricilərinin proqnozlaşdırılması və müəyyən edilməsidir. Respublikamızda ərzaq məhsullarının təhlükəsizliyinə daim nəzarət edilir.

Respublikamızda istehsal olunan və xaricdən gətirilən mallara Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1iyul 2013-cü il tarixli 343 saylı qərarı ilə təsdiq olunmuş aşağıdakı siyahı üzrə nəzarət edilir.

Sıra sayı	Məhsullar
1	Ət və ət məhsulları
2	Süd və süd məhsulları
3	Balıq və balıq məhsulları
4	Taxıl, un, yarmalar
5	Çörək-kökə, makaron məmulatları
6	Qəhvə, çay və ədviyyat
7	Təbii bal
8	Meyvə-tərəvəz və onların emalı məhsulları
9	Heyvanat bitki yağları
10	Piylər
11	Marqarin və mətbəx yağları
12	Şəkər, şirniyyat məhsulları
13	Pivə, spirtsiz içkilər, sirkə
14	Xörək duzu
15	Tütün və tütün məmulatları
16	Konyak, şampan şərabı likör-araq məhsulları və şərab
17	Uşaq yeməkləri üçün konservlər, uşaq yeməkləri üçün süd qatışığı
18	Dənli və dənli-paxlalı bitkilərin dənləri
19	İçməli su

Azərbaycan Respublikası bütün sahələr üzrə inkişaf edir. Dünya ölkələrinə, xalq təsərrüfatının bütün sahələri üzrə inteqrasiya edərək dünya praktikasından lazımınca istifadə edir. Gömrük keçid məntəqələrində mal və nəqliyyat vasitələrinin idxal və ixrac zamanı dünya standartlarına uyğun olaraq ərzaq mallarının keyfiyyət ekspertizası həyata keçirilir. Respublikaya idxal olunan ərzaq məhsulları müasir texniki avadanlıqlar vasitəsi ilə laborator şəraitdə yoxlanılır və aksizləşməyə cəlb edilir.

Müasir dövrdə Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi siyasətin başlıca xüsusiyyəti idxaldan asılılığı aradan qaldırmaqdan ibarətdir.

ƏDƏBİYYAT

1. Musayev M.X. Əmtəəşünaslığın nəzəri əsasları. Bakı, ADİU, 2013.
2. Azərbaycan Respublikasının Dövlət Standartlaşdırma Sistemi. Bakı, ADS, 1998.
3. Həsənov Ə.P., Vəliməmmədov Ç.M., Həsənov N.N. Əmtəəşünaslığın nəzəri əsasları. Bakı, ADİU nəşriyyatı, 2003.
4. Базарова В.У. и др. Исследование продовольственных товаров. М., Экономика - 1986.

Адил Гаси оглы Гюлалиев
ст. пред., к.э.н., АУК

Безопасность пищевых продуктов и контроль качества

Резюме

Стандарты соответствуют одному из ключевых моментов в соответствии с нормативными документами, которые улучшают качество пищевых продуктов. Стандарты содержат рекомендации по качеству и характеристикам этих показателей. Стандартное качество продукции для продуктов питания и пищевых продуктов является наиболее надежным. Безвредность пищевых продуктов является самой важной проблемой современной эпохи.

Adil Hasi Gulaliyev
h/t., c.e.s. ACU

Food safety and quality control

Summary

Standards comply one of the key points in accordance with regulatory documents that improve the quality of food products. The standards provide guidelines for quality and the characteristics of these indicators. The standard product quality for food and food products is the most trusted. Safety of food products is a major problem of the modern era.

Sərxan Yunus oğlu ABDULOV
i.f.d., Azərbaycan Kooperasiya Universiteti

ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN ARAŞDIRILMASI ZAMANI STATİSTİK REGİSTRLƏRDƏN İSTİFADƏ VƏ BEYNƏLXALQ TƏCRÜBƏ

Xülasə

Statistik vahidlərin dövlət reyestri vasitəsi ilə əhalinin həyat səviyyəsini müxtəlif aspektlərdən səciyyələndirən informasiyanın əldə edilməsində seçmə müşahidəsi mühüm rol oynayır ki, bu zaman ərzaq təhlükəsizliyinin təmin olunmasi uçun real rəqəmlərə ehtiyac vardir. Məqalədə müəllif reyestrlərin beynəlxalq əlaqələrinə toxunmuş və onların üstün cəhətlərini təhlil etmişdir. Reyestrlər həmişə tam aktual olmalı, bununla da seçmə müşahidəsinin düzgün olmasına şərait yaranmalıdır. Məqalədə reyestrdən istifadə edilməsinin bir sıra nəzəri və metodoloji aspektləri də araşdırılır.

Açar sözlər; ərzaq təhlükəsizliyi, statistik vahidlərin dövlət regestri, seçmə müşahidəsi.

***

Bir qrup ölkələrdə statistik müşahidələr, o cümlədən, ərzaq təhlükəsizliyinin araşdırılması üçün hazırlanmış registirlərin inteqrasiyası və keyfiyyətinin yüksəldilməsi üzrə xüsusi proqramların həyata keçirilməsi istiqamətində işlər görülür. Bu məsələnin həllini həyata keçirmək üçün əsas vəzifə inzibati və statistik registrlərin inteqrasiyası üzrə qaydalar (kriteriyalar) hazırlamaqdan ibarətdir.

Bunun üçün aşağıdakı əsas qaydalar nəzərdə tutulur:

- registrin harmonizasiyası;
- əhatəlilik;
- aktuallaşma;
- vahidlərin demoqrafiyası (yaranması, ləğvi və s.);
- registrin keyfiyyətinin yaxşılaşdırılması.

İqtisadi inkişaf və iqtisadiyyatın strukturuna nəzarət üçün statistik məlumatlar registri xüsusi əhəmiyyət kəsb edir. Registrlərin əhatəsi, həcmi və keyfiyyəti ölkədən asılı olaraq dəyişir. Statistik məlumatların istehsalı məsələsi registrlərin konkret standartlara cavab verməsini tələb edir ki, bu zaman əsas fəaliyyət növü yeyinti məhsulları istehsal edən uçot vahidləri ayrıca olaraq təhlil edilir. Registrin harmonizasiyası məlumatın təqdim edilməsinə məhdudiyyət qoymaq üçün şərait yaratmalı, hətta bəzi hallarda onların ixtisar edilməsini təmin etməlidir.

Statistik məlumatları toplamaq və yekunlaşdırmaq üçün bir qrup ölkələr statistik vahidlər məcmusunda aşağıdakıları nəzərdə tutur:

- istifadə olunan hər bir vahidin ümumi təyinatı olmalıdır və o, yeganə olmalıdır, konkret halda yeyinti məhsulları istehsalı;
- statistik vahidlər çoxluğu ölkələrin hər birində istifadə olunmalıdır.

Bütün müəssisələr və onların yerli strukturları registrə daxil edilməli və registrdən götürülmüş statistik məlumatlarda xətalara yol verilməməlidir.

Registr vahidləri zəruri hallarda yaradılır, dəyişdirilir və ya ləğv edilərək registrdən çıxarılırlar. Zaman keçdikcə onların xarakteristikaları da dəyişir. Əgər vahidlərin demoqrafiyası standart metodologiyaya uyğunlaşdırılmayıbsa, beynəlxalq müqayisələri həyata keçirmək olduqca çətin olacaq.

Vahidlər və onlara aid xarakteristikalar da harmonizasiya edilməlidir. Onlar seçmədə istifadə olunan stratların müqayisəliliyini, alt çoxluqların harmonizasiyasını (maraqlara görə, məsələn, dövlət müəssisələri), bəzi iqtisadi vahidlərin standartlaşmasını müəyyən edir.

Registrin keyfiyyəti onun tərkibi və mövcud reallığa uyğunluğu ilə müəyyən olunur. Keyfiyyət aktuallaşmanın tezliyi və xarakterindən asılıdır, onu müəyyənləşdirmək və qiymətləndirmək mümkündür. Keyfiyyəti təmin etmək üçün milli registrləri harmonizə etmək məqsədə uyğun hesab edilir. Hər bir ölkə öz registrinin yaradılması və aktuallaşdırılması metodlarını sərbəst müəyyən edir. Bunun üçün keyfiyyət meyarlarının minimum norması müəyyən edilir və registrin istifadəsində aşkar olunan uyğunsuzluqlar müntəzəm olaraq nəzərdən keçirilir. Registrlərin aktuallaşmasının hansı müddətə və hansı əhatəliklə həyata keçirilməsi dəqiq müəyyənləşməlidir. Keyfiyyəti müəyyən edən dörd meyar mövcuddur. Bunlara aiddir:

- birinci meyar registr "daxilolmalarının" müddəti və əhatəliliyinə aiddir. t ilində yaradılan vahidlərin 95%-nin t+1 ilində qeydiyyata düşməsini müəyyənləşdirmək olar;
- ikinci meyar qeydiyyatların sayına (xüsusi çəkisinə) aiddir. Həqiqətdə eyni vahidin bir neçə dəfə qeydiyyatdan keçməsi müşahidə zamanı yol verilən xətalara səbəb olur;
- üçüncü meyar "yalançı" fəal vahidlərin sayına (xüsusi çəkisinə) aiddir. İqtisadi fəallığın dayandırılmasına baxmayaraq, registrlərin aparılması zamanı sistematik natamam qeydiyyat qaçılmazdır və fəaliyyəti dayandırılmış vahidlər registrdə fəal vahid kimi qeyd olunur;
- dördüncü meyar vahidlərin iqtisadi fəaliyyət növlərinin və ölçülərinin təsnifləşməsi zamanı yol verilən xətalara aiddir.

Bu xətalar müşahidələrin keyfiyyətli yerinə yetirilməsinə mənfi təsir göstərir. Müşahidələrin nəticələri təshih edilsə də, mütəxəssislərin müəyyənləşdirdiyi dəqiqliyi əldə etmək mümkün olmur. Beləliklə, ümumi məcmunu stratlara ayırmaq üçün istifadə olunan göstəriciləri müntəzəm olaraq aktuallaşdırmaq və onlara nəzarət etmək lazımdır. Müşahidənin nəticəsini qiymətləndirmək üçün registrə daxil edilmiş vahidlər üzrə ildə bir dəfə, qalan vahidlər üzrə ən azı dörd ildə bir dəfə aktuallaşmanın aparılması tövsiyə olunur.

Keyfiyyət meyarlarının norması keyfiyyətin qiymətləndirilməsində istifadə edilir.

Milli registrlərin harmonizasiyası uzunmüddətli və tədrici bir prosesdir. Qəbul edilmiş normativ aktlar bu harmonizasiyanın aparılması üçün əsas verir, hüquqi və statistik vahidlərin qeydiyyatı üçün norma müəyyən edir. Normativ aktlar milli registrlərin harmonizasiyası və keyfiyyət dinamikasını müəyyən edir ki, bu da statistik registrin məlumatları ilə inzibati registrin məlumatları arasında sıx əlaqə yaradır.

Milli registrlərin işlənib hazırlanması və yeniləşməsində nəzərə alınmış xarakteristikaları müəyyən etmək üçün registrin funksiyası və təyinatını düzgün təhlil etmək lazımdır. Registr-müəssisələr statistikası sisteminin təməlidir, çünkü bu sistem ardıcıl və əsaslandırılmış məlumatlar çoxluğunun hər il müntəzəm toplanması üçün nəzərdə tutulmuşdur.

Registrdən istifadənin beş əsas təyinatı mövcuddur. Bunlar aşağıdakılardır:

1) statistik vahidlərin aşkar edilməsi və yaradılması;
2) müşahidələrin aparılması və əlaqələndirilməsi;
3) müəssisələrin demoqrafiyasının statistik məlumat mənbələri;
4) inzibati mənbələrin məlumatlarının cəlb edilməsi;
5) məlumatların yayılması vasitəsi.

Statistik vahidlər hüquqi şəxslərə və mövcud inzibati vahidlərə həmişə birbaşa uyğun olmur. İnzibati mənbələr bütövlükdə ölkədə hüquqi vahidlərin yaradılması və mövcudluğu haqqında məlumat verir. Bu hüquqi vahidlərin ünvanları sosial qanunların tətbiqinə görə məsuliyyət daşıyan inzibati hakimiyyət orqanlarına və sosial sığorta təşkilatlarına məlumdur. Başdan - başa müşahidənin aparılması iqtisadi cəhətdən sərfəli deyil. Belə ki, mütəmadi olaraq yeni fermer təsərrüfatları, ərzaq istehsal edən uçot vahidləri ya yaranır, ya ləğv edilir və ya fəaliyyətlərini dayandırırlar.

Ölkələrin işləyib hazırladıqları registrlər eyni zamanda hüquqi vahidlər, müəssisələr, yerli vahidlər, iqtisadi fəaliyyət vahidləri registridir.

Registr müşahidələrin aparılması və nəticənin yoxlanması üçün istifadə olunan məlumatlardan ibarətdir. Müşahidə aparmaq üçün aşağıdakılar yerinə yetirilməlidir:

- illik siyahı hazırlanmalı və bu siyahı üzrə statistik müşahidələrin sorğu anketlərini paylamaq üçün ünvanların siyahısı tərtib edilməli;
- səmərəli seçmə şəbəkəsi (müəssisələr çoxluğu) hazırlanmalı;
- müəssisələrdən sorğu yolu ilə alınmış məlumatlar ekstrapolyasiya edilməli;
- müxtəlif müşahidələrin nəticələri təhlil edilməli;
- məlumatlar ekspertlər tərəfindən diqqətlə öyrənilməlidir.

Registrdən düzgün istifadə sorğu zamanı kiçik müəssisələrin statistik yükünə nəzarət etmək imkanı verir, eyni vahidləri təkrar seçməyə düşmək zərurətindən qoruyur.

Сархан Юнус оглы Абдулов
Д.ф.э., АУК

В процессе исследований безопасность продуктов с помощью статистических регистров и международных практикантов

Резюме

Выборочное наблюдение играет важную роль в получении информации, характеризующей различные аспекты уровня жизни населения государственном реестром статистических единиц. И в этом случае требуются реальные цифры для обеспечения продовольственной безопасности. В статье автором рассматриваются международные связи разных реестров и анализированы их преимущества. Реестры должны всегда быть обновленными и тем самым привести к правильности выборочного наблюдения. Кроме того, в статье также изучается ряд теоретических и методологических аспекты использования реестра.

Ключевые слова: безопасность продуктов, статестический регистр, выборочные наблюдение.

Sarxan Yunus Abdulov
PhD. in economcs ACU

Use of statistical registers and international experience in food safety research

Summary

Selected obserction plays important role in obtaining information on characterising different aspects of living standart of the population by state registry of statistic units and in this case there is a need in real datas for food security. The author touched upon international relations of the registries and analysed its adavntages. The registries must be updated all the time and thus facilitate to the correctness of the selected observation. In addition the article analysis theoretical and methodological aspects of the use of registry.

Key words: food insecurity, state registry of statistical units, selective observation.

Nizami Vidadi oğlu HÜSEYNOV
aqrar elmləri üzrə fəlsəfə doktoru, aparıcı elmi işçi
Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu

ƏRZAQ TƏHLÜKƏSİZLİYİNDƏ PAMBIQ BİTKİSİNİN ƏHƏMİYYƏTİ

Xülasə

Təqdim edilən məqalə təbii seolit mineralının gübrələrlə birlikdə tətbiqinin pambıq bitkisinin boy və inkişafına təsirinə həsr olunmuşdur. Tədqiqatın aparılmasında əsas məqsədimiz Gəncə-Qazax bölgəsində suvarılan boz-qəhvəyi (şabalıdı) torpaqlarda təbii seolit mineralı və peyin zəminində mineral gübrələrin birlikdə tətbiqinin pambıq bitkisinin məhsuldarlığına, keyfiyyətinə və torpaq münbitliyinə təsir edən optimal normalarını müəyyən etməkdən ibarətdir.

Açar sözlər: təbii seolit, pambıq, peyin, mineral gübrələr, boy, qönçələr, qoza.

***

Pambıq bitkisi ölkəmizdə əkilən aparıcı texniki bitkilərdən biridir. Onun əsas məhsulu lifidir. O, toxumun üzərində tükəbənzər çıxıntılar halında əmələ gəlir. Bu da onu digər lifli bitkilərdən fərqləndirir. İstehsalatda müxtəlif növ süni liflərdən istifadə olunmasına baxmayaraq, pambıq lifi universallığına görə həmişə özünün müstəsna əhəmiyyətini qoruyub saxlayır. O, əsasən müxtəlif çeşidli pambıq, kağız parçaların hazırlanmasında istifadə olunur. Bu gün xalq təsərrüfatının elə bir sahəsi yoxdur ki, orada pambıqdan alınan məhsullardan istifadə olunmasın. Onun xalq təsərrüfatı əhəmiyyəti, lifverən bitkilər içərisində əsas yeri tutmasıdır [1, səh. 26-29].

Xam pambıq məhsulu zavodda emal edildikdən sonra ondan aşağıda göstərilən nisbətdə məhsul alınır: 1. Mahlıc 35-36%; 2.Çiyid 60-61%; 3.Pambıq linti 2-2,5%; 4.İtki 1-1,5%. Emal zavodlarında 1 ton xam pambıqdan 592 kq çiyid, 345 kq lif alınır. 592 kq çiyiddən isə 10 kq hiqroskopik pambıq, 13 kq paltar pambığı, 250 kq şirəli yem, 28 kq lint, 11 kq qliserin, 25 kq spirt, 178 kq sabun, 190 kq şulka, 113 kq yağ əldə etmək olur. 345 kq lifdən isə 42000 m tağalaq sapı, 3400-4000 m parça, 280 kq iplik əldə edilir [2, səh. 26-29].

Pambığın ən qiymətli məhsulu mahlıcdır ki, o da liflərdən təşkil olunmuşdur. Mahlıcdan müxtəlif növ məmulatlar: adi toxunma və böyük çeşidli paltar, yataq dəsti parçaları, süni ipək, toxuma sapları, kəndir, kanatlar, balıqtutma torları, rezin şlanklar üçün xüsusi materiallar, filtirlər, elektrik buraxmayan lentlər və s. hazırlanır. Bəzi pambıq sortlarının lifi xüsusi kord parçaların hazırlanmasında istifadə olunur ki, bu da avtomobil şinlərinin hazırlanmasında işlənilir. Pambıq lifindən selliloid, foto, kino plyonkaları, laklar, yüksək keyfiyyətli yazı kağızları və bir çox başqa materiallar hazırlanır. Pambığın ikinci məhsulu olan çiyiddən yağ, piy, sabun, qliserin, habelə heyvandarlıqda isə qüvvəli yem kimi istifadə edilən jmıx və çiyid qabığı alınır [4, səh. 316-319].

Sortundan və növündən asılı olaraq çiyidin tərkibində 17-25% və daha çox yağ, 25%-ə yaxın zülali maddə, 33% azotsuz maddələr (nişasta, şəkər və s.), 21% sellüloza və 10-20% su vardır. Çiyid yağı qənnadı məmulatları istehsalında geniş istifadə edilir. O, eyni zamanda qiymətli ərzaq məhsuludur. Ondan konserv sənayesində süni piy və marqarin hazırlanmasında istifadə edilir [3, səh. 120-121].

Çiyidin üzəri tüksüz, tüklə yarım örtülü, bəzi növlərdə isə bir və ya ikiqat lifaltlığı ilə tam örtülü olur. Bu lifaltlığına pəmbəaltlıq deyilir. Birinci sort pəmbəaltı lifin uzunluğu 22 mm olmaqla tənzif toxumaq və mahlıc əldə etmək üçün istifadə olunur. Qeyri növlərindən isə avtomobil və gəmi sükanları, asetat ipəyi, maqnit sarğıları və s. hazırlanır. Pəmbəaltı lifindən gön, qıl ipək, elektirik izoləedici, sellüloid, süni fetr, şüşə, foto və kino lentləri, linolium, plastik kütlə, selifon, ebonit, partlayıcı maddə, habelə yumşaq mebel materialı və qiymətli kağızlar hazırlanır. Bundan başqa, qısa lifə malik olan pəmbəaltı hidrolizə edilərək tərkibində olan polisaxaridlər parçalanır və buna su əlavə edilərək qlükoza alırlar [6, səh. 124-127].

Limon turşusu yeyinti, toxuculuq, tibb sənayesində (əczaçılıqda) geniş istifadə olunur. Bu bitkinin ayrı-ayrı orqanlarında çoxlu miqdarda vitaminlər, reagentlər (boy maddələri), 100-ə yaxın müxtəlif birləşmələr tapılmışdır. Hektardan 30 sentner məhsul alınmaqla 1000 hektar sahədən alınmış lif məhsulundan 2 min ədədə qədər don, çiyidindən alınmış yağdan isə 15-20 min insanın yağa olan illik tələbatını ödəmək olar. [8, səh. 87-91].


Nəhayət, pambıq bal verən bitki hesab edildiyindən ondan arıçılıqda yem bazası kimi istifadə olunur. Müəyyən edilmişdir ki, pambıq bitkisinin bir vegetasiyası dövründə bal arıları hektardan 300-350 kq-a qədər yüksək keyfiyyətli bal toplaya bilir.

Seolitin və gübrələrin pambıq bitkisinin məhsuldarlığına təsiri aydın verilmişdir. Göründüyü kimi, pambığın məhsuldarlığı 3 ildən orta hesabla nəzarət (gübrəsiz) variantında 25,6 s/ha olduğu halda, peyin 10 t/ha variantında 29,3 s/ha, nəzarətə nisbətən artım 3,7 s/ha və ya 14,5%-dir.

Seolit 10 t/ha+peyin 10 t/ha (zəmin) variantında bu göstəricilər 32,3 s/ha, nəzarətə nisbətən artım 6,7 s/ha və ya 26,2%-dir. Seolitin hesabına xam pambıq məhsulu peyin 10 t/ha variantına nisbətən 3,0 s/ha artmışdır [9 səh. 95-101].

Seolit və peyin zəminində mineral gübrələrin müxtəlif normalarının tətbiqi xam pambıq məhsulunu nəzarət, peyin 10 t/ha və zəmin (seolit 10 t/ha+peyin 10 t/ha) variantlarına nisbətən xeyli yüksəltmişdir. Belə ki, zəmin+$N_{60}P_{90}K_{60}$ variantında məhsuldarlıq 37,0 s/ha, nəzarətə nis-

bətən artım 11,4 s/ha və ya 44,5%-dir. Ən yüksək xam pambıq məhsulu zəmin+$N_{90}P_{120}K_{90}$ variantında müşahidə edilmiş və müvafiq olaraq 42,2; 16,6 s/ha və ya 65,0% təşkil etmişdir [10, səh. 23-24].



E = 0,45-1,0 s/ha
P = 1,36-2,78%

Təbii seolit mineralının gübrələrlə birlikdə tətbiqinin pambıq bitkisinin məhsuldarlığına təsiri (3 ildən orta)

1. Nəzarət (gübrəsiz); 2. Peyin 10 t/ha; 3. Seolit 10 t/ha+Peyin 10 t/ha (zəmin);
4. Zəmin+$N_{60}P_{90}K_{60}$; 5. Zəmin+$N_{90}P_{120}K_{90}$; 6. Zəmin+$N_{120}P_{150}K_{120}$

Beləliklə, tədqiqat təbii seolit mineralının gübrələrlə birlikdə tətbiqinin pambıq bitkisinin boy və inkişafına təsirinə həsr olunmuşdur. Tədqiqatın aparılmasında əsas məqsədimiz Gəncə-Qazax bölgəsində suvarılan boz-qəhvəyi (şabalıdı) torpaqlarda təbii seolit mineralı və peyin zəminində mineral gübrələrin birlikdə tətbiqinin pambıq bitkisinin məhsuldarlğına, keyfiyyətinə və torpaq münbitliyinə təsir edən optimal normalarını müəyyən etməkdən ibarətdir.

ƏDƏBİYYAT

1. Aslanov H.Ə., Hüseynov N.V. Azərbaycan Aqrar Elmi jurnalı. Bakı, 2013-cü il (1) s.26-29.
2. Aslanov H.Ə., Hüseynov N.V. Azərbaycan Dövlət Aqrar Universitetinin Elmi Əsərləri. Gəncə, 2016-cı il. səh. 47-51.
3. Hüseynov N.V. "Gənc alimlərin kənd təsərrüfatında rolu: problemlər və imkanlar" Bakı, 17-18 iyun 2014-cü il. səh. 120-121.
4. Hüseynov N.V. Müasir kimya və biologiyanın aktual problemləri. Gəncə, 12-13 may 2016-cı il. səh. 316-319.
5. Hüseynov N.V. Ümumrespublika Elmi-Praktik Konfransının Materialları. Gəncə, 2016-cı il. səh. 205-208.
6. Hüseynov N.V., Həsənova T.Ə., Novruzova H.X., Əliyeva A.Ə., Əliyeva G.Ə. Azərbaycan Aqrar Elmi jurnalı. Bakı, 2013-cü il (2) səh. 124-127.
7. Aslanov H.Ə., Hüseynov N.V. Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Elmi Əsərlər Məcmuəsi. Bakı, 2016-cı il. səh. 375-378.
8. Hüseynov N.V. Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsinin Xəbərlər Məcmuəsi. Gəncə, 2016-cı il. № 1 (63) səh. 87-91.
9. Hüseynov N.V. Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsinin Xəbərlər Məcmuəsi. Gəncə, 2016-cı il. № 4 (62) səh. 95-101.
10. Гусейнов Н.В. Аграрная Наука. Москва 2016, № 3. 16 с. 23-24.

Низами Видади оглы Гусейнов
Научно-Исследовательский Институт Защиты
Растений и Технических Культур

Важность хлопка в продовольственной безопасности

Резюме

Статья посвящена влиянию минерала натурального цеолита и удобрений на рост и развитие хлопчатника. Основной целью проведения исследования является определение оптимальных норм минерала натурального цеолита и минеральных удобрений на фоне навоза на серо-коричневых (каштановых) почвах Гянджа-Казахского района.

Ключевые слова: натуральный цеолит, хлопчатник, навоз, минеральные удобрения, рост, бутоны, коробочка.

Nizami Vidadi Huseynov
Plant Protection and Technical Crops
Scientific Research Institute

The importance of cotton in food security

Summary

The article is devoted to the joint introduction of natural zeolite mineral and fertilizers on growth and development of cotton plant. The main purpose in conduction of the research work is determination of optimum norms of natural zeolite mineral and mineral fertilizers at manure background on productiveness, quality of cotton and soil fertility on grey-brown (chestnut) soils under irrigation in Ganja-Kazakh region.

Key words: natural zeolite, grey-brown, cotton, manure, mineral fertilizers, height, buds, balls.

Ülviyyə Bəxtiyar qızı ÖMƏROVA
Əmək və Sosial Problemlər üzrə
Elmi -Tədqiqat və Tədris Mərkəzinin doktorantı

MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ VƏ AQRAR SAHƏNİN RƏQABƏT QABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ PROBLEMLƏRİ

Xülasə

Ərzaq təhlükəsizliyi baxımından kənd təsərrüfatı məhsulları ilə özünü təminetmə həlledici amil kimi çıxış edir. Odur ki, kənd təsərrüfatının inkişafı ilə bağlı problemlərin həlli Azərbaycan Respublikasının iqtisadiyyatının inkişafında yaxın dövr üçün əsas prioritet kimi qəbul edilir. Bu məqalədə Azərbaycanda kənd təsərrüfatı istehsalı ilə bağlı problemlər araşdırılır və müvafiq təkliflər verilir.

Açar sözlər: ərzaq təhlükəsizliyi, kənd təsərrüfatı, taxıl, subsidiya, rəqabət qabliyyəti.

***

Azərbaycan geniş çeşiddə ərzaq və kənd təsərrüfatı məhsulları istehsal etmək üçün münbit torpaq və iqlim şəraitinə malikdir. Ölkəmizin digər bir üstünlüyü də bazarların yaxınlığında yerləşməsidir. Müstəqillikdən öncə monokultur ağırlıqlı kənd təsərrüfatı və aqroekosistemlərdən səmərəsiz istifadə ekoloji problemlərə səbəb olmuşdur ki, bu da məhsuldarlıq və rəqabətliliyə mənfi təsir göstərmişdir. Müstəqillikdən sonra isə kənd təsərrüfatına təsir edən əlverişsiz amillərdən ən əsası respublikamızın iqtisadi potensialının artmasında mühüm rol oynayan və əkinə yararlı sahələri olan 7 rayonumuz və bütünlükdə Dağlıq Qarabağın uzun illərdir ki, düşmən tapdağında olmasıdır. Bu hesabla əkinə yararlı torpaqlarımız azalıb, əhali Ermənistandan və işğal

olunmuş digər ərazilərimizdən didərgin salınmış soydaşlarımız hesabına artmışdır. Həmçinin, onları yerləşdirmək üçün on min hektarlarla əkinə yararlı sahələrdə qaçqın şəhərcikləri salınıb, fərdi evlər tikilib, qeyri-kənd təsərrüfatı obyektləri inşa edilib, min hektarlarla sahə uzun illər nəzarətsiz qaldığından eroziyaya uğrayıb. Beləliklə, ölkə üçün zəruri həcmdə ərzaq ehtiyatının yaradılması və onun müasir tələblər səviyyəsində idarə edilməsi dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindəndir. Bu sahədə makroiqtisadi sabitliyə əsaslanan daha yüksək və davamlı inkişafın əldə olunması dövlətin əsas prioritetlərindən biridir.

Bu istiqamətlərdə bir sıra konkret addımlar atılmışdır. Belə ki, 2001-ci ildə "Azərbaycanda Ərzaq Təhlükəsizliyi Proqramı" qəbul olunmuşdur. Həmin Proqram çərçivəsində həyata keçirilən geniş tədbirlər kompleksi əhalinin gündəlik tələbatının əsası hesab olunan kənd təsərrüfatı və ərzaq məhsulları istehsalının əhəmiyyətli dərəcədə artmasına güclü təkan vermişdir. "Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə təminatına dair Dövlət Proqramı" isə çox mühüm bir məsələyə-2008-2015-ci illər ərzində daxili ərzaq bazarının idxaldan asılılığının maksimum dərəcədə azaldılmasına, ölkədə güclü ərzaq ehtiyatının yaradılmasına xidmət etmişdir. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə , kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sənayesi sahələrində mövcud vəziyyət müvafiq dövlət orqanlarının, tədqiqat mərkəzlərinin və müstəqil ekspertlərin iştirakı ilə sistemli və əhatəli şəkildə təhlil olunmaqla, silsilə müzakirələr keçirilmiş və müvafiq qiymətləndirmələr aparılmış, bunun əsasında "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" (bundan sonra - Strateji Yol Xəritəsi) hazırlanmışdır. Bu Strateji Yol Xəritəsində ölkənin kənd təsərrüfatı sahəsinin inkişafı ilə bağlı 2020-ci ilədək strateji baxış, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış əks olunub ki, bu da kənd təsərrüfatı sahəsində həm orta, həm də uzunmüddətli dövr üzrə strateji inkişaf hədəflərinə çatmaq üçün dövlətin ardıcıl mərhələlərlə icra ediləcək aydın yol xəritəsinə malik olmasını ifadə edir.

Azərbaycanda təsərrüfatların 90%-dən çoxu (620,000) kiçik pay torpaqlarıdır. Ölkəmizdə becərilən torpaqların 40%-dən çoxu ***taxıl bitkilərinin*** payına düşür və ərzaqla özünütəminetməyə verdiyi böyük töhfəyə görə bu sahəyə xüsusi diqqət ayrılır. Bununla əlaqədar olaraq, Azərbaycan hökuməti taxıl istehsalını hər ərazi vahidi üzrə birbaşa ödəmələr yolu ilə subsidiyalaşdırır. Bundan başqa, yanacaq və kimyəvi gübrələr üçün də ayrıca subsidiyalar ayrılır. Buna baxmayaraq buğda, dəyər ifadəsi baxımından əsas idxal məhsuludur. Ancaq son illərin statistikasına nəzər yetirərsək taxılçılıq sahəsində müəyyən uğurlar əldə edildiyini görə bilərik. Belə ki, 2017-ci ildəAzərbaycan 1,2 milyon ton buğda idxal edib. Bu, 2016-cı ildə qeydə alınan göstəricidən 25 faiz azdır. Ümumilikdə ötən il buğdanın idxalına 227 milyon dollar xərclənib. İdxal olunan buğda ölkədə istehlakın 37 faizini təşkil edib.

İdxal edilən ərzaq və kənd təsərrüfatı məhsulları ümumi idxalın 20%-ni təşkil edir. Əsas ***idxal edilən məhsullar*** isə, ev quşları, tütün, buğda, düyü, tərəvəz, meyvə, emal edilmiş ərzaqlar və quru süddür. Digər tərəfdən, Azərbaycandan xarici ölkələrə konservləşdirilmiş və tər meyvələr, tərəvəzlər, meyvə şirəsi, tez yetişən kartof və tütün xammalı ixrac edilir.

Kənd təsərrüfatı məhsullarının ***ixrac və idxalını*** müqayisə etdikdə, idxal olunan məhsulların daha çox olduğunun şahidi olarıq ki, bu da idxaldan asılılığı nümayiş etdirir. Azərbaycanın müxtəlif heyvan və bitki məhsulları üzrə idxal tərəfdaşlarının ilk üçlüyü aşağıdakı kimi bölünmüşdür: Diri mal-qara, Gürcüstan, Rusiya Federasiyası və Ukrayna; Diri quşlar, İran İslam Respublikası, Türkiyə, Niderland; Mal-qara əti- Hindistan, Ukrayna, Braziliya; Quş əti və əlavə ət məhsulları, Amerika Birləşmiş Ştatları, Braziliya, Türkiyə; Təzə və buzlu balıq, Vyetnam, İslandiya, Rusiya Federasiyası; Süd və qaymaq, Ukrayna, Rusiya Federasiyası, Belarus; Kərə yağı və süddən hazırlanmış digər yağlar, Yeni Zellandiya, Litva, Belarus; Pendir və qaymaq, Danimarka, Rusiya Federasiyası, Almaniya; Yumurta, Türkiyə, Çex Respublikası, İran İslam Respublikası; Kartof, Rusiya Federasiyası, İran İslam Respublikası, Niderland; Tər tərəvəz, Türkiyə, İran İslam Respublikası, Özbəkistan; Tər meyvə, Ekvador, İran İslam Respublikası, Tailand; Çay, Şri Lanka, Hindistan, İran İslam Respublikası; Buğda, Rusiya Federasiyası, Qazaxıstan, Türkiyə; Düyü, Rusiya Federasiyası, Hindistan, Tailand; Buğda unu, Rusiya Federasiyası, Qazaxıstan,

Türkiyə; Bitki yağı, İndoneziya, Rusiya Federasiyası, Amerika Birləşmiş Ştatları. Ərzaq və içki növlərinin əsas tədarükçüsü qismində Rusiya, Ukrayna, Braziliya və Belarus çıxış edirlər.

İdxaldan asılılığın daha da azaldılması üçün kənd təsərrüfatı məhsullarının ***tədarükü və satış sistemi*** inkişaf etdirilməlidir. Ekoloji təmiz kənd təsərrüfatının inkişafı da olduqca vacibdir. Belə ki, Azərbaycanda əlverişli təbii torpaq və iqlim şəraitinin, aqrar sektorda elmi-tədris institutlarının mövcudluğu və regionlarda təcrübəli fermerlərin fəaliyyət göstərməsi baxımından ölkədə ekoloji təmiz kənd təsərrüfatının inkişaf etdirilməsinin böyük potensialı mövcuddur. Və bu sahə də son dövrlərdə ixrac potensialı baxımından olduqca gəlirli sahədir. Hal-hazırda dünyanın 179 ölkəsində orqanik kənd təsərrüfatı fəaliyyəti mövcuddur. 2015 ilin məlumatına görə, dünyanın 85 ölkəsində orqanik (orqanik, üzvi) kənd təsərrüfatı haqqında milli qanunvericilik qəbul edilib (Viller H. və Lernu J və s., 2017). Bu sahədə qlobal statistikanı FIBL (İsveçrə) və IFOAM (Almaniya) təşkilatları birgə toplayırlar.

Kənd təsərrüfatı və əlaqəli sektorlarla bağlı bir neçə hesabat mövcuddur. Rəsmi araşdırmalara əsaslanan FAO-nun qısa hesabatında qeyd edilir ki, Azərbaycanın meyvə (portağal, alma və nar) və tərəvəz (pomidor və kələm), o cümlədən, günəbaxan tumları və qoz-fındıq istehsalında müəyyən üstünlükləri var.

Ölkəmiz üçün strateji sahə olan aqrar sahənin inkişafı üçün müəyyən addımlar atılmalıdır. Aqrar sektorun maliyyə resurslarına çıxış imkanlarının artırılması, istehsalın səmərəliliyinin təmin edilməsi və istehsal həcminin artırılması üçün yerli istehsalçıların fəaliyyətinə əlavə stimullar verəcək mexanizmlər yaradılmalıdır. Kredit zəmanət fondunun yaradılması isə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrində fəaliyyət göstərən müəssisələrin maliyyələşmə ilə bağlı məsələlərini həll edə bilər. Kənd təsərrüfatında innovativ və girovsuz kreditlərin tətbiqi mexanizmlərinin hazırlanması aqrar sahənin davamlı inkişafının dəstəklənməsi üçün onun maliyyə təminatı sahəsində prioritet istiqamət kimi nəzərdə tutula bilər.

Aqrar sahədə informasiya-məsləhət xidmətlərinin təşkili, elmi-tədqiqat müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, onların fəaliyyətinin bazar iqtisadiyyatının tələbləri əsasında yenidən təşkili də qarşıda duran prioritetlərdəndir. Bundan başqa, aqrar sahənin ixrac potensialının artırılması , ayrı-ayrı iqtisadi rayonların ixtisaslaşma səviyyəsinin yüksəldilməsi, ixrac bazarlarının diversifikasiyası və genişləndirilməsi prioritet hesab oluna bilər.

Son illər bu sahədə əldə olunmuş nailiyyətlərin davam etdirilməsi və ölkənin əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi məqsədilə ardıcıl tədbirlər çərçivəsində mövcud torpaq sahələrindən səmərəli istifadə olunması, yeni torpaqların istifadəyə verilməsi ilə yanaşı,***iri təsərrüfatların və aqroparkların yaradılması*** üzrə də işlər intensivləşdiriləcəkdir.

Təsərrüfatlar daha çox əvvəlki nəsildən əldə edilmiş ənənəvi bilgilər əsasında fərdi qaydada idarə olunur. ***Xidmət sistemlərinin və fermer təşkilatlarının genişləndirilməsinə*** yenidən baxılır və bu sahədə fəaliyyət aktivləşdirilir.

Müasir dövrdə qlobal səviyyədə kənd təsərrüfatı sahəsi "Yaşıl inqilab" mərhələsindən "İkinci yaşıl inqilab" və ya "Biotexnologiya inqilabı" mərhələsinə keçid dövrünü yaşayır. İnkişaf etməkdə olan, o cümlədən də zəif inkişaf etmiş ölkələr kənd təsərrüfatı və ərzaq məhsulları istehsalının həcminin artırılması çağırışını reallaşdırmaq üçün kənd təsərrüfatına, bundan daha çox isə bu sahə ilə bağlı istiqamətlərə investisiya qoyuluşunun həcmini artırmalıdırlar. FAO-nun hesablamalarına görə, istehsal həcmini lazımi səviyyədə artırmaq üçün bu ölkələrdə kənd təsərrüfatına tələb olunan cəmi illik xalis investisiya qoyuluşu təqribən 83 milyard ABŞ dolları həcmində qiymətləndirilir. Bu investisiyaların 24 faizinin bitkiçiliyə, 16 faizinin heyvandarlığa, 60 faizinin isə kənd təsərrüfatı istehsalına xidmət edən bazar infrastrukturuna yönəldilməsi zəruri hesab edilir. Azərbaycanın rastlaşdığı ekoloji problemlər hava, torpaq və suyun keyfiyyətinə öz mənfi təsirini göstərir. Əsas çirkləndirici sahələr neft və enerji sektorları olsa da, pambıqçılıq kimi çoxillik bitki və aqroekosistemlərdən düzgün istifadə edilməməsi xüsusilə torpağın deqradasiyasına və suyun çirklənməsinə gətirib çıxarır. Daha bir əlavə problemsə, iqlim dəyişikliyi ilə bağlıdır ki, bu da həm hazırda, həm də yaxın gələcəkdə əsas şirin su ehtiyatı olan səth suları-

na təsirsiz ötüşmür. Bu səbəbdən hər bir region və əsas becərilən məhsullarla bağlı proqnozlar verilməlidir.

Hal-hazırda Azərbaycanda kənd təsərrüfatı və digər qida məhsullarının təhlükəsizliyini yoxlamaq üçün məhdud analitik potensiala malik bir neçə torpaq və su analizi laboratoriyası mövcuddur. Bunlar, əsasən Bakıda qərarlaşan KTN-nin Dövlət Fitosanitar Nəzarət Xidmətinin toksikologiya laboratoriyası, Dövlət Gömrük Komitəsinin laboratoriyası və İN-nin laboratoriyası istinad laboratoriyaları kimi inkişaf edir. Gömrük laboratoriyası aflatoksin analizi apara bilər və ixrac olunan fındığı yoxlamağa səlahiyyətlidir. Azərbaycanda bioloji təhlükəsizlik haqqında qanunun qəbul edilməsinə baxmayaraq, GMO analizlərini apara bilən laboratoriya yoxdur. Təsərrüfatların kiçik olması və fermer kooperativlərinin/birliklərinin azlığı fermerlərin bazara çıxışında çətinliklər yaradır.Azərbaycanda kənd təsərrüfatı sahəsində elmi-tədqiqat işləri dövlət təsisatları tərəfindən, yəni, elmi-tədqiqat institutları və ali təhsil müəssisələri tərəfindən həyata keçirilir. Kənd Təsərrüfatı Nazirliyinin (KTN) tabeli qurumu olan Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi Bakıda və əyalətlərdə yerləşən elmi-tədqiqat institutları şəbəkəsini əlaqələndirir. Gəncədə yerləşən aqrar universitet də KTN strukturuna daxildir. Gəncədəki Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) orqanik kənd təsərrüfatı kafedrası açılıb; beləliklə, bu sahədə təhsil imkanları mövcuddur və ölkədəki maraqlı tərəflərin ehtiyacları qarşılana bilər. Lakin orqanik kənd təsərrüfatında marağı olan qrupları bir araya gətirmək üçün müvafiq strukturlar yaratmaq və onları maliyyələşdirmək tələb olunur.

Beləliklə, ölkənin kənd təsərrüfatı sektorunun davamlı inkişafı üçün başlıca məqsəd ərzaq təhlükəsizliyinin dayanıqlılığının təmin edilməsi, rəqabətqabiliyyətli və idxalı əvəz etmək potensialı olan kənd təsərrüfatı və onun emal sənayesi məhsullarının istehsalının artırılmasından ibarətdir. Bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanları ilə təsdiq olunmuş ***"Azərbaycan-2020 gələcəyə baxış"*** İnkişaf Konsepsiyası və **Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi** üzrə müəyyən edilmiş istiqamətlərə uyğun olaraq 2018-2021-ci illərdə də aqrar sektorda zəruri tədbirlərin tətbiqinin prioritetliliyi təmin olunacaqdır.

ƏDƏBİYYAT

1. "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" nın həyata keçirilməsi üzrə Tədbirlər Planı (2011-2015-ci illər).
2. BMT-nin Minilliyin İnkişaf Bəyannaməsi. http://www.un.org
3. Кузнецов В.В. и др. Экономикасельскогохозяйства, 2003.
4. "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2009-cu il 14 aprel).
5. "Azərbaycan-2020 gələcəyə baxış" İnkişaf Konsepsiyası.

References

1. Comparative analysis of agriculture of South Caucasus
2. Business reforms in Azerbaijan.http://www.doingbusiness.org/data/exploreeconomies/azerbaijan
3. Azerbaijan's Agricultural : An Overview Dr. YlliBicoku
4. World bank reports
5. IFAD, IFAD in Azerbaijan http://operations.ifad.org/web/ifad/opera ons/country/home/tags/azerbaijan IFAD, IFAD in Azerbaijan http://operati ons.ifad.org/web/ifad/operations/country/home/tags/Azerbaijan
6. USAID Analytical Foundations Assessment- Agriculture (Rural Productivity)
7. Marie-Claire C.S. Ashfaq K. Sustainable development law-principles, practices and prospects.

Ульвия Бахтияр кызы Омарова
докторант Исследовательского и Учебного Центра
По Труду и Социальным Проблемам

Вопросы продовольственной безопасности независимого Азербайджана и проблемы повышения конкурентоспособности аграрного сектора

Резюме

Что касается продовольственной безопасности, то решающим фактором является самообеспеченность сельскохозяйственной продукцией. Поэтому решение этой проблемы считается ключевым приоритетом экономического развития Азербайджанской Республики. В этой статье рассматриваются проблемы, связанные с сельскохозяйственным производством в Азербайджане, и приводятся соответствующие рекомендации

Ключевые слова: продовольственная безопасность, сельское хозяйство, зерно, субсидии, конкурентоспособность.

Ulviyya Bakhtiyar Omarova
A doctoral student of the Research and Training
Center for Labor and Social Problems.

Issues of food security of independent Azerbaijan and the problems of increasing the competitiveness of the agricultural sector

Summary

With regard to food security, the decisive factor is self-sufficiency in agricultural products. Therefore the solution of this problem is considered the key priority of the economic development of the Republic of Azerbaijan.This article examines the problems associated with agricultural production in Azerbaijan and provides relevant recommendations

Key words: food security, agriculture, grain, subsidies, competitiveness.

Nuranə Məmməd qızı QOCAYEVA
AKU, magistr

ÖLKƏNİN ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ BALIQ VƏ BALIQ MƏHSULLARININ İSTEHSALININ ARTIRILMASININ ROLU

Xülasə

Dünya miqyasında (xüsusilə də sahilyanı dövlətlər arasında) balıqçılıq dövlətin ərzaq təhlükəsizliyinin təmin edilməsinin ən mühüm komponentlərindən biri hesab olunur və ölkənin əhalisini balıq məhsulları ilə təmin etməkdə mühüm rol oynayır.Ölkənin balıqçılıq kompleksi tərəfindən hazırlanan ərzaq məhsulları həyatın təminatı üçün vacib amildir. Rasional qidalanmanın təşkili üçün balıq məhsullarının əhəmiyyəti onların ən xeyirli zülal mənbəyi olmasıdır, lakin bu məhsullar az qidalı, dietik heyvan mənşəli məhsullardır.

Açar sözlər: balıq təsərrüfatı, tələbat,təminat,ərzaq təhlükəsizliyi,balıq sənayesi.

***

Balıq sənayesi ölkənin əhalisini qiymətli qida məhsulları ilə təmin etmək məqsədi ilə böyük istehsal xərcləri olan yüksək texnologiyalı, kapital intensiv, inteqrasiya olunmuş məhsuldur.

Balıqçılıq kompleksi dünyanın bir çox ölkələrinin tarixində xüsusi yer tutur. Burada baş verən proseslər ölkənin iqtisadi inkişafının, onun siyasi strukturunun və əhalinin milli xüsusiyyətlərinin ümumi səviyyəsinə bağlıdır. Balıqçılıq sənayesinin inkişafı tez-tez birbaşa dövlətin geosiyasi ambisiyalarından asılıdır. Bu sektorda, bəlkə də, başqa ölkələrdə olduğu kimi, xalqların tarixi ənənələri və elm və texnologiyanın son nailiyyətləri bir-birinə sıx bağlıdır.

Hər hansı bir dövlətin milli təhlükəsizliyinin ən mühüm elementi əhalinin həyat səviyyəsinin uzunluğu və əhalinin sağlamlığıdır. Bu, öz növbəsində istehlak edilən qidaların kəmiyyət və keyfiyyət göstəricilərindən ən çox asılıdır. Buna görə milli təhlükəsizliyin ayrılmaz tərkib hissəsi kimi qida təhlükəsizliyinin təmin edilməsi daxili bazarın qida məhsulları ilə sabit bir şəkildə doldurulmasını deyil, həm də ölkənin bütün sakinləri üçün onların alınmasının mümkünlüyünü nəzərdə tutur.

Ərzaq təhlükəsizliyinin təmin edilməsində böyük rol oynayan balıqçılıq, əhalini balıq və digər hidrobionlardan qiymətli və tez-tez əvəzsiz ərzaq məhsulları ilə təmin edir. Su heyvanlarından əldə edilən məhsullar bütün lazımi amin turşularının optimal balanslaşdırılmış nisbətdə olduğu zülalla zəngindir. Balıq proteini tez həzm olur və yaxşı sindirilir. Balıq əti ilə yanaşı kükürd tərkibli amin turşuları (metionin və sistin) və orqanizmin (lizin və triptofan) artım töhfə amin turşuları kifayət qədər var. Ət, balıq yağlar, xüsusilə dəniz və digər su orqanizmləri fərqli olaraq omeqa-3 və omeqa-6 insan çoxlu doymamış yağ turşusu qrupları üçün əsas olan - demək olar ki, 60% ümumi ölüm müəyyən ürək-damar xəstəliyi qarşısını almaq üçün ən mühüm vasitələrdən biridir. Kardioloqların sözlərinə görə, müntəzəm balıq istehlakı ürək xəstəliklərindən ölüm ehtimalını 15% azaldır. Balıq və dəniz məhsulları yağda çözünür vitaminlər (A, D2) yaxşı bir mənbəyidir. Dəniz hidrobionlarının əti tərkibində mineral tərkibi makro - və mikro elementlər (kalsium, flüor, dəmir, yod, mis, sink və s.) geniş spektri ilə fərqlənir. Su bioloji ehtiyatlarından olan məhsullar, terapevtik və diyet məhsulları və koronar ürək xəstəliyinin, aterosklerozun qarşısını almaq, qan kolesterolunu aşağı salmaq və qan damarlarının elastikliyini qorumaq üçün balıq yağı kimi istifadə olunur.

Balıq zülallarının bioloji dəyəri istiqanlı heyvanların ətindən aşağı deyil, lakin onlarla müqayisədə balıq proteinləri orqanizm tərəfindən daha asan mənimsənir. Kiçik yağ tərkibli (2% -ə qədər) okean balığının bir çox növündə artan miqdarda protein var (20% -ə qədər).

Balıq təkcə zülal və yağ deyil, həmçinin bəzi faydalı minerallar, eləcə də B, H, PP, A, E qruplarının vitaminlərini özündə birləşdirir. Bu su məhsulları xammalının dərin emalını təşkil edərək, müxtəlif yem fermentləri və digər bioloji aktiv maddələr, uşaq qidaları üçün çox vacib olan birləşdirilmiş məhsulların yaradılması, təbii bioloji əsaslarla yeni dərman preparatları yaradılmasına böyük imkanlar açmaq olar.

Bundan başqa balıq məhsullarından alınan aqar və aqaroid materialları , qida sənayesi üçün böyük əhəmiyyət kəsb edən müxtəlif qənnadı məmulatları, souslar, kremlər, mayonez, jele və.s. istehsalında da istifadə edilir. Ölkənin sənayesinin kənd təsərrüfatı sektorunda da balıq məhsulları texniki və yem məhsullarının tədarükçüsü kimi çıxış edir.

Azərbaycan Respublikasının yerli balıq təsərrüfatı kompleksində iqtisadi təhlükəsizlik bir sıra əlaqəli sahələr vasitəsilə təmin olunur: qida, sənaye və xammal (balıqçılıq qaydalarına riayət olunmasına nəzarət), daxili bazarın ödəmə qabiliyyətinin qorunması, sosial, maliyyə, xarici ticarət, beynəlxalq, informasiya, texniki sahə və s. Balıq məhsullarının gerçək istehlakı istehlak səbəti tərəfindən təklif olunan normalardan aşağıdır, 20%. Bu gün balıq məhsulları istehsal edən və satan müəssisələrin əksəriyyəti əsasən orta gəlirli istehlakçılara yönəldilmişdir. Buna görə əhalinin adambaşına düşən gəlirlərinin artması ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün ən vacib şərtlərdən biridir Azərbaycanda balıq ixracının fəal inkişafı ixrac və idxal arasında bir tarazlığın olmadığını göstərir.

Əksinə, daxili bazarda tələbatın olduğu məhsulların ixracı eyni məhsulların xaricdən gətirilməsini stimullaşdırır, lakin artıq yüksək qiymətlərlə. İstehsalçılara daxili bazarda mal təmin etmək üçün zərərsiz olur, məhsul qiymətləri və ixracatı artmaqdadır.

Lakin, balıq məhsullarının idxalının məhdudlaşdırılması yalnız inzibati tədbirlər vasitəsi ilə edilə bilməz və edilməməlidir. Buradakı əsas tədbir, əmtəə istehsalçısı daxil olmaqla, daxili balıq bazarının dəstəklənməsi üçün geniş siyasətin tətbiqidir. Balıq bazarının istifadəsi balıq məhsullarının satışı üçün idarəetmə sistemlərinin, təkrarlanan əlaqələr istisna olmaqla, əməliyyat və yaxşı strukturlaşdırılmış təşkili ilə məhsulların istehsalını və satışını birləşdirməklə başlamalıdır.

Milli balıq təsərrüfatının rəqabət qabiliyyətini artırmaq üçün daxili balıqçılıq müəssisələri əhəmiyyətli kapital qoyuluşu ilə əlaqəli ciddi texniki modernləşdirmə tələb edir. Bununla yana-

şı, ölkə hələ də balıqçılıq kompleksi və daxili bazarda balıq məhsullarının ticarətinin təşkili üçün dövlət dəstəyi sistemi qurmamışdır.

Bununla əlaqədar, dövlətin və sənayenin maraq və imkanlarını tam nəzərə alaraq, balıqçılıq kompleksinin fəaliyyətinin tənzimlənməsi üçün yaxşı düşünülmüş dövlət siyasətinin hazırlanması lazımdır.

Ölkənin balıqçılıq sahəsindəkı mövcud vəziyyət göstərir ki, orta müddətdə sənayenin davamlı və effektiv inkişafı aşağıdakı əsas problemlərin sistemli həlli olmadan mümkün deyildir:

- lazımlı tənzimləyici və hüquqi çərçivənin yaradılması, bu resursların paylanmasının şəffaflığı daxil olmaqla, balıqçılıq kompleksinin səmərəli davamlı fəaliyyətini və inkişafını təmin edən mexanizmlərin işlənib hazırlanması;
- əsas və köməkçi sahələrdə əsas istehsal aktivlərinin modernləşdirilməsi, onların fiziki aşınma səviyyəsinin kəskin şəkildə azaldılması və mütərəqqi mənəvi yaşlanmanın azaldılması, istehsal olunan məhsulların rəqabət qabiliyyətinin artırılması;
- maliyyə-kredit münasibətlərinin inkişafı, sənaye müəssisələrinin maliyyə bərpası, müasir daxili balıq məhsullarının və xidmətlərinin bazarının formalaşdırılması və inkişafı, səmərəli bazar infrastrukturlarının bərpası;
- balıqçılıq kompleksində struktur bərabərsizliyin aradan qaldırılması və dağılmasının aradan qaldırılması;
- balıq məhsullarının ixracatının səmərəliliyini artıraraq, balıq məhsullarının istehsalat sahələri də daxil olmaqla yüksək səviyyəli emal ilə artırılması.

Azərbaycan Respublikasının balıqçılıq kompleksinin uzunmüddətli inkişafı mövcud təbii, resurs, bazar, iqtisadi və sosial amillərlə şərtlənir.Təbii şərtlər sənayenin xammal bazasını, inkişaf istiqamətlərini və perspektivlərini müəyyənləşdirir.

Ölkənin iqtisadi inkişafının artması və əhalinin gəlirlərinin artması daxili bazarda balıq məhsullarının tələbatının artırılması üçün ən vacib şərtlərdəndir. Yerli balıq bazarının genişləndirilməsinə əsas maneələr qiymətlərin çatışmazlığıdır, o cümlədən mühüm vasitəçi vasitələrlə əlaqəli olanlar və idxal olunan balıq məhsullarından rəqabət artmaqdadır.

Respublikanın balıqçılıq iqtisadiyyatının inkişafı üçün iqtisadi şərtlər balıqçılıq idarəsi sahəsində vergi, gömrük, investisiya və digər qanunvericiliyin təkmilləşdirilməsi imkanlarıdır; xüsusilə sığorta və lizinq fondları, müəssisələrə güzəştli kreditlər verilməsi və azad mənbələrə geniş şəkildə cəlb edilməsi vasitəsilə sənaye müəssisələrinin investisiya fəaliyyətinin gücləndirilməsindən asılıdır.

Son illərdə sənayenin inkişafı əhalinin balıq məhsulları və milli iqtisadiyyata sənaye istehsalında və xidmətində tələbatının təmin edilməsi, istehsal aparatının effektiv bərpası və modernləşdirilməsi prosesinin başlanğıcının və sənayenin mal və xidmətlərinin rəqabət qabiliyyətinin artım səviyyəsinin artırılmasını nəzərdə tutur. Balıqçılıq sənayesinin inkişafı əsasən dövlətin sənaye və iqtisadi siyasətinin real perspektivləri, ölkədə balıq məhsullarının tələbatının səviyyəsi ilə müəyyənləşdirilməlidir.

İqtisadi sabitləşmə şəraitində ölkənin əhali gəlirlərinin artırılması nəticəsində balıq məhsullarının tələbatının artacağını nəzərə alaraq daxili bazarlarda balıq və balıq məhsullarının bolluğu yaradılmalıdır. Diri və soyudulmuş balıqların istehsalı artmalıdır.

Daxili bazarın balıq məhsullarına olan tələbinin artması aşağıdakılardan ibarətdir:

- ölkədə, xüsusən sahil bölgələrində balıq məhsullarının topdansatışının müasir sistemi;
- balıq məhsulları ilə fyuçers əməliyyatlarını kreditləşdirmək;
- konservləşdirilmiş məhsullar, eləcə də texniki məhsullar (balıq yeməyi) daxil olmaqla yeməli balıq məhsullarının kütləvi növləri üçün ehtiyac olan məhsullar üçün dövlət sifarişinin tətbiqinin bərpası.

ƏDƏBİYYAT

1. «Balıqçılıq haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 27 mart 1998-ci il, № 457-IQ.
2. Романов Е.А. Экономический эффект и эффективность в рыбном хозяйстве. Рыбное хоз-во. 2004, № 6. Вкладка. С. 3-8.

3. Штеренлихт, Д.В. Учебник для студентов вузов, обуч. по направлениям подготовки дипломированных спец. в области техники и технологии, сельского и рыбного хозяйства М.: КолосС, 2005.- 655 с.

Нурана Мамед кызы Коджаева
магистр АУК

Роль увеличения производства рыбы и рыбной продукции в обеспечении продовольственной безопасности страны

Резюме

Рыболовство во всем мире, особенно между прибрежными государствами, считается одним из важнейших компонентов продовольственной безопасности государства и играет важную роль в обеспечении населения страны рыбными продуктами. Продукты, приготовленные рыболовным комплексом страны, являются важным фактором обеспечения жизни. Важность промысловых продуктов для организации рационального питания заключается в том, что они являются наиболее предпочтительным источником белка, но эти продукты менее питательны, диетические продукты животного происхождения.

Ключевые слова: рыболовство, потребление, продовольственная безопасность, рыбная промышленность.

Nurana Mammad Kodjaeva
master ACU

Role of increasing the production of fish and fish products in the country's food security

Summary

Fisheries around the world, especially between riparian states, are considered one of the most important components of the food security of the state and plays an important role in providing the country's population with fish products. The products prepared by the country's fishing complex are an important factor in ensuring life. The importance of commercial products for organizing a healthy diet is that they are the most preferred source of protein, but these foods are less nutritious, dietary products of animal origin.

Key words: fishery, consumption, food security, fish industry.

Ruhəngiz Sarastan qızı ƏLİYEVA
baş müəllim, Azərbaycan Universiteti

ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ AQRAR BÖLMƏNİN ROLU

Xülasə

Ərzaq təhlükəsizliyi sahəsində uzunmüddətli tədbirlərin başlıca məqsədi Azərbaycanın kənd təsərrüfatının gəlirliliyini və rəqabət qabiliyyətinin artırılmasını, eləcə də onun beynəlxalq iqtisadi sistemə inteqrasiya olunmasını nəzərdə tutmalıdır. Ərzaq təhlükəsizliyi əsasən ölkədə kənd təsərrüfatının inkişafı və ərzaq istehsalı vəziyyətinin yaxşılaşdırılması hesabına təmin edilməlidir. Məlumdur ki, hər bir ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması - çoxsaylı təbii - texnogen, texnoloji, aqroekoloji, sosial - iqtisadi, siyasi və digər risklərlə bağlıdır. Bu baxımdan, müasir şəraitdə aqrar sahənin mövcud potensialı keyfiyyətli və ekoloji təmiz məhsul sahəsində məhsuldarlığın yüksəldilməsinə, əkinə yararlı istifadəsiz torpaqların bərpasına, heyvandarlığın və onun yem bazasının inkişafına, lazımi dövlət dəstəyinin göstərilməsinə, kənddə sosial proqramların həyata keçirilməsinə və digər anoloji tədbirlərin aparılmasına yönəldilməlidir

Açar sözlər. ərzaq təhlükəsizliyi, sabit və adekvat ərzaq təklifi,ərzaq problemi.

***

Ərzaq təhlükəsizliyi ölkənin iqtisadi və milli təhlükəsizliyinin ayrılmaz hissəsidir. Əhalinin ərzaq məhsulları ilə təmin edilməsi dövlət üçün mühüm əhəmiyyət kəsb edən və həlli vacib olan sosial-iqtisadi problemlərdən biridir. Ərzaq təhlükəsizliyi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Belə ki, bu problemin həlli milli, iqtisadi, sosial, demoqrafik və ekoloji faktorların geniş spektrini əhatə edir. Buna görə də dövlət səviyyəsində sosial-iqtisadi sistem ərzaq təhlükəsizliyi ilə sıx əlaqədardır. Məhz bu baxımdan ərzaq təhlükəsizliyinin təmini daxili resursların mobilizə edilməsinə əsaslanmışdır. Bu yanaşma milli iqtisadi islahatlar strategiyasının işlənib hazırlanması, dayanıqlı inkişafı, effektiv hüquqi normaların istifadəsi, əhalinin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı bir çox dəyişikliklərə əsaslanır. Ərzaq təhlükəsizliyi ilk növbədə hər bir ölkənin milli ərzaq müstəqilliyinə əsaslanır. Hər hansı bir dövlətin siyasi suverenlyi hələ onun ərzaq suverenliyinin təmin edilməsi demək deyildir. Ölkənin milli ərzaq suverenliyi o deməkdir ki, baş verə biləcək hər hansı ekstremal fövqəladə vəziyyətlər zamanı dövlət əhalini ərzaq və qida məhsulları ilə təmin etmək məqsədi ilə xarici ölkəyə üz tutmur. Yaranmış tələbatı xüsusi mənbələr hesabına ödəmək iqtidarında olur və ölkənin ərzaq böhranı yaşamasına imkan vermir.

Ərzaq təhlükəsizliyinin, eyni zamanda ölkənin milli ərzaq müstəqilliyinin təmin edilməsini şərtləndirən amillər mövcuddur ki, bunlara da aşağıdakılar aid edilir:

- ölkədə ərzaq və yeyinti məhsullarının istehsal səviyyəsi;
- qida məhsullarının istehsalının iqtisadi cəhətdən sərfəliliyi;
- qida məhsullarının qiymətliliyinin səviyyəsi;
- ölkə əhalisinin alıcılıq qabiliyyəti;
- əhalinin gəlirləri və əməkhaqqının orta aylıq səviyyəsi;
- dövlət tərəfindən aztəminatlı əhali təbəqələrinə verilən güzəştlər və müavinətlər;
- dövlətin ərzaq resursları.

Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyinin əsas təminat məsələləri daxili və xarici amillərdən asılı olmayaraq aşağıdakılardan ibarətdir:

- ölkənin hər bir vətəndaşının müəyyən edilmiş rasional istehlak normasına əsasən fəal, sağlam həyat tərzi üçün lazımi təhlükəsiz və keyfiyyətli yeyinti məhsulları ilə fiziki və iqtisadi cəhətcə təmin edilməsinə nail olunması və onun yüksək səviyyədə saxlanılmasının təmin edilməsi;
- ölkənin ərzaq məhsulları ilə təmin edilməsinə əsas daxili ərzaq növlərinin dayanıqlı istehsalının inkişaf etdirilməsi ilə nail olunması;
- istehlak edilən yeyinti məhsullarının təhlükəsizliyinə və keyfiyyətinə nail olunması.

Ölkənin ərzaq təhlükəsizliyi problemi daxili və xarici mənbədən olan zərərli tendensiyaların təsiri nəticəsində yaranır. Daxili və xarici mənbədən olan zərərli təsirlər ölkənin ərzaq kompleksində destruktiv proseslərə gətirib çıxarır və dövlət paralel olaraq sosial qeyri-stabillik şəraitini yaşayır. Aqrar iqtisadiyyata, o cümlədən ölkənin ərzaq təhlükəsizliyinə zərərli təsir göstərən daxili faktorlar daha çox mənfi təsirə malik olur. [1,səh 38]. Problemə sırf Azərbaycan reallıqlarından yanaşdıqda belə qənaətə gəlmək olar ki, ərzaq təhlükəsizliyi probleminin daxili amilləri respublika iqtisadiyyatında kifayət qədər fəal rol oynamışdır. Göstərilmiş faktorlar və ərzaq təhlükəsizliyi istiqamətləri nəzərə alınaraq Azərbaycan dövləti məhz əhalinin ərzaq məhsulları ilə etibarlı surətdə təmin edilməsi üçün 2008 - 2015 - ci illərə dair proqram qəbul etmişdir. Dövlət Proqramının əsas məqsədi ölkənin hər bir vətəndaşının sağlam və məhsuldar həyat tərzi üçün onun qəbul edilmiş normalara uyğun ərzaq məhsulları ilə tam təmin edilməsinə nail olmaqdır. Bu məqsədə nail olmaq üçün Dövlət Proqramı çərçivəsində aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

- ölkədə ərzaq məhsulları istehsalının artırılması;
- əhalinin təhlükəsiz və keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsi;
- ərzaq təminatı sahəsində risklərin idarə olunmasının təmin edilməsi;
- ərzaq təminatı sisteminin institusional inkişafını həyata keçirmək və sahibkarlıq mühitinin yaxşılaşdırılması;

Yuxarıda göstərilən başlıca və mühüm vəzifələrin yerinə yetirilməsi üçün həyata keçiriləcək tədbirlər ölkədə sabit və adekvat ərzaq təklifinin formalaşdırılmasına, səmərəli istehsal və satış infrastrukturunun yaradılmasına, ərzaq məhsullarının keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsinə və hər bir vətəndaşın ərzaq məhsullarına çıxışının təmin olunmasına yönəldilməsi. Sabit və adekvat ərzaq təklifi, ilk növbədə aqrar sektorda intensiv geniş təkrar istehsalın, o cümlədən kənd təsərrüfatı məhsullarının istehsalının və emalının inkişaf etdirilməsi yolu ilə əldə olunacaqdır. Bununla yanaşı, tələbatın bir qismi xarici asılılığı nəzarətdə saxlamaq şərti ilə idxal hesabına ödənilməsi. Nəzərə alınmalıdır ki, iqtisadi qanunlara görə ölkədə istehlak olunan ərzaq məhsullarının 25%-dən çoxu xarici ölkələrdən gətirilirsə, həmin ölkənin ərzaq təminatı təhlükəli sayılır. Ərzaq təminatı sahəsində dövlət siyasətinin əsas istiqamətlərinin 2015-ci ilə qədər yerinə yetirilməsi üçün konkret olaraq Tədbirlər Planında nəzərdə tutulmuşdur: Səmərəli istehsal, saxlanılma və satış infrastrukturunun yaradılması da ərzaq təminatı sisteminin ən vacib elementlərindəndir. Buna görə də bu sahələrə dövlət investisiyaları artırılacaq və özəl təşəbbüslərin hərtərəfli dəstəklənməsi, ərzaq təklifinin səmərəli bazar mexanizmi vasitəsilə adekvat tələblə qarşılaşması üçün ölkə vətəndaşlarının hər biri istənilən zaman ərzaqla təmin olunma imkanına malik olmalıdır. Bu, həmin ictimai resursların aztəminatlı vətəndaşlara birbaşa yönəldilməsi, həm də ödəmə qabiliyyətli tələbin formalaşdırılması vasitəsilə həyata keçirilməlidir. Ərzaq təminatı dövlət siyasətinin əsas istiqamətlərindən biri də əhalinin nəinki kəmiyyətcə, həm də keyfiyyətcə müasir tələblərə cavab verən, ekoloji təmiz məhsullarla təchiz edilməsidir. Bu məqsədlə, keyfiyyətə və təhlükəsizliyə səmərəli nəzarət sistemi qurulması, ərzaq təminatı sisteminin ən mühüm elementlərindən biri ehtimal olunan risklərin səmərəli şəkildə idarə edilməsidir. Bu məqsədlə qarşıdakı illərdə zəruri həcmdə dövlət ərzaq ehtiyatının yaradılması və onun müasir tələblər səviyyəsində idarə edilməsi təmin olunmalı, qabaqcıl sığorta mexanizmlərinin tətbiqi genişləndirilməlidir.

İlk növbədə həyati zərurət olan torpaq və sudan istifadənin səmərəliliyinin artırılması tədbirləri nəzərdə tutulmuşdur. Həmin kompleks tədbirlər içərisində xüsusi əhəmiyyəti olan tədbirlər aşağıdakılardır:

- torpaqların münbitliyinin və suvarılan torpaq sahələrinin artırılması;
- çirklənmiş, deqradasiyaya uğramış torpaqların əkin dövriyyəsinə cəlb edilməsinin stimullaşdırılması;
- əkinə yararlı torpaqlarda tikintilərin aparılmasının qarşısının alınması;
- pay torpaqları əsasında formalaşmış xırda ailə və fermer təsərrüfatlarının könüllülük əsasında kooperasiyalarda birləşməsinin stimullaşdırılması;
- kənd təsərrüfatı istehsalçılarına suvarma suyunun çatdırılması mexanizminin təkmilləşdirilməsi.

Müasir dövrdə ərzaq təhlükəsizliyi qlobal səciyyə daşımaqla, müxtəlif sosial, iqtisadi, siyasi, texnoloji, bioloji, coğrafi, tarixi, etnik və həmçinin mənəvi kökə malik olan amillərin təsiri altında formalaşır .Nəzəri iqtisadi baxımdan ərzaq təhlükəsizliyi - qida məhsullarının istehsalı, daşınması, emalı, bölgüsü və istehlakını özündə əks etdirən münasibətlər sistemini əhatə edir. Bu problemin nəzəri həllində ərzağın həcmi ilə əhalinin sayı arasındakı nisbət, hər nəfər hesabı ilə qida məhsulları istehlakının orta norması, tərkibi, yeyinti məhsulu kimi qiymətləndirilməsi, yoxsulluq həddi, ərzaqla təmin olunma səviyyəsi və digər məsələlər müəyyən edilir. Bu əsas kriteriyalardan əlavə olaraq, ərzaq təhlükəsizliyi anlayışına ərzaq məhsullarının kalorilik səviyyəsi, keyfiyyəti, görünüşü və digər amillər də daxildir. Ərzaq probleminin bu cür sosial-iqtisadi təbiətə malik olması onu göstərir ki, qeyd olunan məsələ kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalına nisbətən daha geniş məna daşıyır. Ümumiyyətlə, ərzaq probleminin qlobal səviyyədə həlli - müxtəlif ölkələrin qarşılaşdıqları bir çox sosial-iqtisadi problemlər ilə bağlıdır. Buraya sənayeləşmə və urbanizasiya proseslərinin güclənməsi, kənd təsərrüfatı məhsullarının istehsalı istiqamətlərinin təyinat və ölçülərinin dəyişməsi, ekoloji təmiz ərzaq məhsullarının həcminin azalması və digər taleyüklü, həmçinin ciddi narahatlıq doğuran məsələləri aid etmək olar. Eyni zamanda, qlobal ərzaq probleminin yaranmasında təbii ehtiyatların mövcudluğu, iqtisadi inkişaf səviyyəsi, yığımın artım sürəti, kənd təsərrüfatının texnika ilə silahlanma səviyyəsi, qabaqcıl is-

tehsal üsullarından istifadə edilməsi, kənd əhalisinin məşğulluq və təhsil səviyyəsi, aqrar - ərzaq kompleksində dövlətin tənzimləyici rolu, demokratik idarəçilik formalarının mövcudluğu kimi bu və digər amillər həlledici rola malikdir.

Azərbaycan Respublikası aqrar sahəyə dair hüquqi-normativ bazasını modernləşdirməklə, milli istehsal səviyyəsini həm keyfiyyətcə, həm də kəmiyyətcə yüksəldərək dünya bazarında həmin boşluğu doldurmaq imkanı qazana bilər. Müasir dünya artıq ekoloji təmiz ərzaq, kənd təsərrüfatı məhsullarının vacibliyini yəqin etmişdir və belə məhsulların istehlakına üstünlüyü davamlı olaraq artırmaqdadır. Bu baxımdan, ölkəmizdə də milli istehsal beynəlxalq standartların tələblərinə uyğunlaşdırılaraq qlobal bazarın bu seqmentində geniş yer ala bilər. Hüquqi-normativ bazanın modernləşdirilməsi həm də mövcud xammal potensialından daha səmərəli istifadəni şərtləndirir ki, bu da öz növbəsində aqrar sahənin ümumi inkişafı üçün geniş imkanlar yaradır. Qanunvericilik bazasının inkişaf etmiş dünya ölkələrinin təcrübəsinə uyğunlaşdırılması kimi məsələlər ölkəmizin ərzaq təhlükəsizliyi məsələsinin etibarlı həlli üçün də olduqca önəmlidir. Ərzaq təhlükəsizliyinin əsas məqsədi - ölkə əhalisini kənd təsərrüfatı məhsulları, xammal və ərzaqla davamlı olaraq etibarlı təmin etməkdən ibarətdir. Bu məqsədə çatmaq üçün daxili istehlak bazarında həyat və sağlamlıq üçün təhlükəsiz ərzaq məhsullarının yetərincə fiziki mövcudluğu təmin edilməlidir. Əhali isə həmin ərzağı əldə etmək imkanına malik olmalıdır. Ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün qısa və orta müddətli keçici tədbirlərin səmərəli tətbiqi də çox zəruridir. Bu isə əsasən özəl sektorun və sahibkarlığın inkişafı ilə təmin olunmalı və aşağıdakı istiqamətləri əhatə etməlidir:

- istehlakçıların müdafiəsinin gücləndirilməsi;
- ərzaq təhlükəsizliyi sahəsində müvafiq məlumat sisteminin yaradılması yolu ilə fövqəladə vəziyyətə hazırlıqla bağlı əlavə tədbirlərin həyata keçirilməsi və s.

Ərzaq təhlükəsizliyi sahəsində uzunmüddətli tədbirlərin başlıca məqsədi Azərbaycanın kənd təsərrüfatının gəlirliliyini və rəqabət qabiliyyətinin artırılmasını, eləcə də onun beynəlxalq iqtisadi sistemə inteqrasiya olunmasını nəzərdə tutmalıdır. Ərzaq təhlükəsizliyi əsasən ölkədə kənd təsərrüfatının inkişafı və ərzaq istehsalı vəziyyətinin yaxşılaşdırılması hesabına təmin edilməlidir.

ƏDƏBİYYAT

1. Abbasov İsmət Dursun oğlu. Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı. Bakı, 2013, səh 38.

Рухангиз Сарастан кызы Алиева
старший преподаватель
Азербайджанского Университета

Роль аграрного подразделения в обеспечении продовольственной безопасности

Резюме

Основная цель этой политики - обеспечить, чтобы производительность и конкурентоспособность соблюдались в международной экономической системе. Безопасность пищевых продуктов должна быть обеспечена. Известно, что продовольственная безопасность в каждой стране связана с многочисленными природно-техногенными, технологическими, агроэкологическими, социально-экономическими, политическими и другими рисками. В этой связи нынешний аграрный сектор в современных условиях продуктивности посевов и использования современного уровня. программы в деревне и другие эстетические меры.

Ключевые слова: продовольственная безопасность, стабильное и адекватное снабжение продовольствием, проблемы с продовольствием.

Ruhangiz Sarastan Aliyeva
senior teacher Azerbaijan University

The role of the agrarian unit in ensuring food security

Summary

The main purpose of long-term measures in food security should be to increase the profitability and competitiveness of Azerbaijan's agriculture and to integrate it into the international economic system. Food security should be ensured primarily by improving agriculture and improving food production in the country. It is known that food security in each country is related to numerous natural-technogenic, technological, agro-ecological, socio-economic, political and other risks. In this regard, the current potential of the agrarian sector in modern conditions should be directed to the improvement of productivity in quality and environmentally friendly crops, restoration of unused lands, development of livestock and feed bases, provision of necessary state support, implementation of social programs in the village and other aesthetic

Key words: food security, stable and adequate food supply, food problem.

Səadət Mirağa qızı MƏCİDOVA
Azərbaycan Dövlət İqtisad Universiteti, müəllim

DAYANIQLI İNKİŞAF VƏ ƏRZAQ TƏHLÜKƏSİZLİYİ

Xülasə

XXI əsrdə dünyada baş verən iqtisadi proseslərlə əlaqədar olaraq ərzaq təhlükəsizliyi problemi qlobal xarakter almışdır. Bu problemin həllini sadəcə olaraq ölkə əhalisinin tələbatını ödəyəcək miqdarda məhsul və xidmətlərin istehsalı ilə məhdudlaşdırmaq düzgün sayılmır. Ona görə ki, burada məhsulların keyfiyyətinə nəzarət olunması müstəvisində əhalinin sağlamlığının qorunması heç də az əhəmiyyət kəsb etmir. Yerli istehsalın artırılması, idxaldan asılılığın azaldılması, əhalinin sağlamlığının qorunması və rifahının yaxşılaşdırılması məsələlərinin kompleks həlli dayanıqlı milli iqtisadiyyata söykənir. Ona görə də ərzaq təhlükəsizliyi ilə bağlı məsələlərin həllinə ümumiyyətlə iqtisadiyyatın dayanıqlı inkişafı probleminin həlli prizmasından yanaşmaq lazımdır.

Açar sözlər: inkişaf, tələbat, istehsal, istehlak, ixrac, büdcə, gəlir, təminat.

***

Respublikamızda əhalinin etibarlı ərzaq təminatı dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biridir. Son illər ərzində ərzaq təhlükəsizliyinin təmin edilməsi, əsas ərzaq məhsullarının keyfiyyətinin yüksəldilməsi, ixrac potensialının artırılması sahəsində xeyli işlər görülmüşdür. Burada minimum daxili tələbatın ödənilməsini təmin edəcək miqdarda məhsul istehsalı ilə yanaşı keyfiyyət məsələsi də ön plana çəkilir. Belə ki, ərzaq təhlükəsizliyi problemi əhalinin sağlamlığından kənarda həll oluna bilməz. Bu baxımdan Bakı şəhərində, Naxçıvanda və ölkənin digər regionlarında, yüksək maddi-texniki bazaya və kadr potensialına malik müasir tipli laboratoriyalar yaradılmışdır. Həmin laboratoriyalarda bir sıra ərzaq məhsullarının keyfiyyət və təhlükəsizlik göstəricilərinin milli və beynəlxalq standartların tələblərinə uyğun müayinələri aparılır.

Görülmüş tədbirlərə baxmayaraq hələ də ticarət, ictimai iaşə, məişət və digər xidmət sahələrində müxtəlif növ yeyinti məhsulları keyfiyyət baxımından normativ-texniki sənədlərin tələblərinə cavab vermir, onların saxlanma müddətinə və şəraitinə əməl olunmur, satışda mənşəyi bilinməyən yeyinti məhsulları aşkar edilir. Bu halların aradan qaldırılması üçün keyfiyyətə nəzarətin idarəetmə sisteminin təkmilləşdirilməsinə, bununla bağlı qanunvericilik bazasına müvafiq dəyişikliklərin edilməsinə, milli standartların beynəlxalq tələblərə tam uyğunlaşdırılmasına, müasir laboratoriyalar şəbəkəsinin genişləndirilməsinə və beynəlxalq təşkilatlarla əməkdaşlığın dərinləşdirilməsinə ehtiyac vardır.

Ərzaq təminatı ilə bağlı məsələnin ciddiliyini təsdiq etmək üçün təkcə bir faktı nəzərə almalıyıq ki, Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının məlumatına görə 1950-1985-ci illərdə ərzaq istehsalının illik artımı 30 milyon ton, 1985-1995-ci illərdə 12 milyon ton təşkil etdiyi halda, 2030-cu ilədək bu göstəricinin 9 milyon tona qədər azalacağı gözlənilir.

Statistik məlumatların təhlili göstərir ki, hazırda Azərbaycanda əsas ərzaq məhsullarının adambaşına istehlakı həcmi aşağıdakı kimi olmuşdur: taxıl və taxıl məhsulları - 182,0 kq, çörək və çörək məhsulları -158,9 kq, ət və ət məhsulları -22,8 kq, süd və süd məhsulları -178,7 litr, yumurta - 97 ədəd, kartof - 96,7 kq, tərəvəz -191,6 kq, meyvə və giləmeyvə -70,7 kq, şəkər (qənnadı məmulatları daxil olmaqla)- 14,2 kq, bitki yağı -8,7 kq, balıq -2,4 kq. Bunun nəticəsində gündəlik qida rasionunun kaloriliyi əvvəlki illərlə müqayisədə artaraq, adambaşına gündə 2505,4 kilokalori təşkil etmişdir. Bu, minimum istehlak səbətinin tərkibində müəyyən olunmuş ərzaq məhsulları toplusunun minimal həddindən (adambaşına gündə 2258 kilokalori) 247,4 kilokalori, yaxud 10,9 faiz yüksəkdir. Belə qənaətə gəlmək olar ki, əhalinin ərzaq təminatının yaxşılaşdırılması istiqamətində aparılan tədbirlər öz bəhrəsini vermişdir. Müvafiq tədbirlərin davam etdirilməsi və qarşıdakı dövrdə adambaşına düşən ərzaq istehlakının tədricən qabaqcıl ölkələrin səviyyəsinə çatdırılması zəruridir.

Respublikamızda ərzaq təhlükəsizliyinin təmin olunması dayanıqlı inkişafın strategiyasının əsas hədəflərindən biridir. Ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi üzrə tədbirlər regionlarda aqroparkların, heyvandarlıq komplekslərinin, iri bitkiçilik təsərrüfatlarının yaradılması yönümündə fasiləsiz olaraq davam etdirilir. Kənd təsərrüfatı sahələrinin ixrac məhsullarının çeşidinin və həcminin artırılması məqsədilə "Made in Azerbaijani" brendi adı ilə yeddi ixrac istiqaməti işə düşmüş, ixracın stimullaşdırılması məqsədilə bu məhsulların gömrük dəyərinin 6%-dək büdcə vəsaitləri hesabına ödənilməsi həyata keçirilir.

Meyvə-tərəvəz məhsullarının, fındıq, badam, zeytun yağı, şəkər çuğunduru, ipək istehsalının və ixracının artırılması, pambıqçılığın, tütünçülüyün inkişaf etdirilməsi, şərabçılığın inkişafı və stimullaşdırılması, balıqçılıq sənayesinin yaradılması istiqamətində nəzərdə tutulan işlərin həyata keçirilməsi iqtisadiyyatın dayanıqlığının təmin edilməsini sürətləndirir. Əhalinin ərzaq məhsulları ilə təminatına dair Dövlət Proqramına uyğun olaraq müasir quşçuluq və heyvandarlıq komplekslərinin, intensiv bağçılıq və üzümçülük təsərrüfatlarının, taxıl anbarları kompleksinin yaradılması, istehlak bazarının sabitləşməsinə, idxaldan asılılığın azalmasına şərait yaratmalıdır.

İqtisadiyyatın davamlı inkişafına nail olmaq üçün iqtisadi potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın optimal strukturuna əsaslanan yüksək rəqabətlilik, əhalinin həyat səviyyəsinin keyfiyyətcə artımı və insan kapitalının inkişafı təmin olunmalıdır. Dayanıqlı və dinamik inkişafın təmin edilməsi təsərrüfat subyektlərinin dünya bazarına nüfuz etməsi və ondan faydalanma imkanından da əhəmiyyətli dərəcədə asılıdır. Həmçinin "Dünyanın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində gündəlik"dən irəli gələn öhdəliklərdə də nəzərdə tutulan məsələlərdən - sosial problemlərin aradan qaldırılması, sosial müdafiənin güclənməsi, hər bir vətəndaşın rifahının artırılmasına imkan verən dayanıqlı iqtisadi inkişafın təmin edilməsidir.

Məlumdur ki, əhalinin sosial rifahının artırılması ölkələrin sosial-iqtisadi inkişafının qiymətləndirilməsində mühüm amildir. Bu göstərici ölkənin iqtisadi inkişafının vəziyyətini göstərir. Eyni zamanda sosial rifahın güclənməsi iqtisadi inkişafın dayanıqlı və davamlı olmasından asılıdır. Dayanıqlı inkişafın məqsədi həmçinin sosial sahələrin inkişafı üçün Dövlət Proqramlarının və strategiyalarının dayanıqlı iqtisadiyyatın inkişafı ilə uzlaşdırılmasıdır. Sosial problemlərin aradan qaldırılması, sosial müdafiənin gücləndirilməsi, ölkə əhalisinin rifah səviyyəsinin və keyfiyyətinin artırılmasına imkan verən mühitin yaradılması iqtisadiyyatın dayanıqlığının reallaşdırılması vasitəsidir.

İqtisadiyyatın dayanıqlığı və davamlılığı üçün sahibkarlıq fəaliyyətinin genişlənməsi prioritet olaraq qalır və xüsusi rolu vardır. Qlobal iqtisadi böhranın mənfi təsirlərinə qarşı çoxsahəli iqtisadiyyatın yaradılması və rəqabətin artırılması, sahibkarlıq fəaliyyətinə dövlət dəstəyinin genişləndirilməsi üçün əlverişli imkanların yaradılması, qeyri -neft sektorunun ixrac potensialının artırılması, ənənəvi istehsal sahələrinin bərpası, yeni istehsal sferalarının, resurs mənbələrinin ax-

tarılıb tapılması, investisiya və biznes mühitinin yaxşılaşdırılması istiqamətində islahatların davam etdirilməsi dinamik iqtisadi artımın təmin edilməsinə, eləcə də iqtisadiyyatın dayanıqlı inkişafına şərait yaradır. Özəl sektora dövlət tərəfindən güzəştli kreditlərin verilməsi, həmçinin siyasi dəstək göstərilməsilə müasir sahibkarlıq subyektlərinin formalaşmasına geniş imkan yaratmış, onların öz potensiallarından səmərəli istifadə etmələri üçün əlverişli mühit formalaşdırılmışdır. Aparılan struktur islahatların nəticəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı artdıqca digərlərinin işlə təmin edilməsi artır, həm onların gəlirlərini artırır, həm də dövlətdən pay alanların sayı azalır, büdcəyə əlavə vəsaitlər daxil olur və bu da əhalinin rifahının artmasına təkan verir [2, səh. 43].

İqtisadiyyatın bütün sahələrində, o cümlədən regionlarda sahibkarlığın inkişafına əlverişli şərait yaratmaqla mərkəzlə onlar arasında optimal nisbətin formalaşması, onların iqtisadi imkanları arasındakı fərqliliyin aradan qaldırılması, istehsal potensialından səmərəli istifadə edilməsi sosial həyatın yaxşılaşdırılması imkanlarını artırır. Beləliklə, sahibkarlığın geniş inkişafı, onların rəqabətliliyinin və s. artırılması həm sahibkarların, həm də dövlətin iqtisadi imkanlarının və gəlirlərinin artmasına səbəb olur. Bu da dövlət büdcəsindən maliyyələşdirilən əhali kateqoriyalarının gəlirlərinin artırılmasına imkan yaradır.

Əhalinin maddi, mənəvi tələbatlarının ödənməsi üçün zəruri şəraitin yaradılması, yaşayış səviyyəsinin yaxşılaşdırılması, maaşların, pensiyaların artırılması sosial siyasətin prioritet istiqamətlərindəndir. Lakin bu problemlərin həlli, sosial siyasəti lazımi səviyyədə həyata keçirmək üçün əsas mexanizm iqtisadiyyatı inkişaf etdirmək, qeyri-neft gəlirlərini artırmaq, onun dayanıqlığını təmin etmək, yüksək maliyyə imkanlarına malik olmaq gərəkir. İqtisadiyyatın davamlı şəkildə sürətli inkişafı isə cəmiyyətin başlıca sosial problemlərinin həlli üçün imkanlar açır. Digər cəhətdən əhalinin sosial vəziyyətinin yaxşılaşması, rifahının təmin edilməsi dayanıqlı və davamlı inkişafın təminidir [3, səh. 78].

Hər bir dövlətin sosial siyasətinin əsas məqsədi əhalinin həyat səviyyəsinin və keyfiyyətinin yüksəldilməsidir. Bu, əhalinin məşğulluğunun, tibbi xidmətin yüksək səviyyəsinin, pensiyaçıların, çoxuşaqlı ailələrin, əlillərin hüquqlarının müdafiəsinin təmini yolu ilə həyata keçirilir.

Yerli istehsalın artırılması, yeni istehsal müəssisələrinin yaradılması, həm də əməktutumlu iş yerlərinin yaradılması iqtisadiyyatın inkişaf imkanlarını artırmaqla onun dayanıqlığını təmin edir. Eyni zamanda məşğulluğun artırılması əlavə pul gəlirlərinin əldə edilməsinə imkan yaradır ki, bu da əhalinin sosial vəziyyətinin yaxşılaşmasına səbəb olur.

Ölkədə aparılan iqtisadi islahatların təhlili qeyri-neft sektoruna dövlətin diqqət və qayğısı sayəsində xeyli irəliləmiş və inkişaf etmişdir. Kənd təsərrüfatına ayrılan diqqət son bir neçə ildə taxılçılığın, pambıqçılığın, baramaçılığın, tütünçülüyün, üzümçülüyün, tərəvəzçiliyin, bağçılığın və heyvandarlığın inkişafını xeyli sürətləndirib, bu sahələrə göstərilən güzəştlər insanların torpağa qayıdışını təmin edib. İqtisadiyyatın sürətli inkişafı xarici ölkələrdə ticarət evlərinin açılması məsələsinin zəruriliyini gündəmə gətirir. Əvvəllər əsasən qonşu dövlətlərə məhsul ixracına daha çox diqqət yetirilirdisə, hazırda dünya standartlarına uyğun istehsal və emal sənayesinin formalaşması Avropa bazarına çıxış üçün əlavə imkanlar yaratmışdır. Düşünürük ki, ölkəmizin iştirakı ilə beynəlxalq nəqliyyat qovşaqlarının qurulması yerli istehsal məhsullarının ixracı həcminin artırılmasına və çeşidlərinin gemişləndirilməsinə stimul yaradacaqdır. Bununla da ölkəyə valyuta daxilolmalarının həcminin artırılması, iqtisadi inkişafımızı təsdiq edən amillərdən biri kimi Azərbaycanın idxalçı ölkədən ixrac edən ölkəyə çevrilməsi məqsədi reallaşdırıla bilər.

ƏDƏBİYYAT

1. "Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair" Strateji Yol Xəritəsi. Bakı, 2016.
2. Журнал АПК: экономика, управление, № 12, 2016.
3. Aqrar sahənin dayanıqlı inkişaf problemləri. S.V.Salahovun, R.Ə.Balayevin, N.V.Əlibəyovun redaktəsi ilə/. Bakı, 2012.
4. Aqrobiznes və ərzaq təhlükəsizliyi. İ.Ş.Qarayevin redaktəsi ilə. Bakı, 2015.

Сеадат Мирага кызы Меджидова
Азербайджанский Государственный
Экономический Университет, преподаватель

Устойчивое развитие и продоволственная безопасность

Резюме

В XXЫ веке проблема продовольственной безопасности носит глобальный характер в связи с экономическими событиями происходящие в мире. Нецелесообразно ограничивать проблему исключительно производством товаров и услуг для удовлетворения потребностей населения страны. Потому что, защита здоровья населения в плане контроля качества продукции здесь имеет второстепенное значение. Комплексное решение вопросов увеличения внутреннего производства, снижения зависимости от импорта, улучшения здоровья населения и улучшения благосостояния основывается на устойчивой национальной экономике. Поэтому решение вопросов, связанных с продовольственной безопасностью, должно в основном основываться на призматике проблемы устойчивого развития экономики.

Ключевые слова: развитие, потребность, производство, потребление, экспорт, бюджет, доход, обеспеченность.

Seadat Miraga Majidova
Azerbaijan State Economic University, teacher

Resistance development and food safety

Summary

In the twenty-first century, the food security problem has been of global nature due to the global economic developments. It is not appropriate to limit the problem solely to the production of goods and services to meet the needs of the country's population. Because the protection of the health of the population in terms of controlling the quality of products here is of minor importance. A comprehensive solution to the issues of increasing domestic production, reducing dependence on imports, improving the health of the population and improving the wellbeing is based on a sustainable national economy. Therefore, the solution of issues related to food security should generally be based on the prism of the problem of sustainable development of the economy.

Key words: development, demand, production, consumption, export, budget, income, security.

Rauf Gündüz oğlu SƏFƏROV
Azərbaycan Kooperasiya Universitetinin doktorantı

BEYNƏLXALQ İNVESTİSİYA REJİMLƏRİ VƏ AZƏRBAYCANIN İQTİSADİ TƏHLÜKƏSİZLİYİ

Açar sözlər: İnvestisiya rejimləri, iqtisadi təhlükəsizlik, optimal uzlaşdırma, beynəlxalq nəqliyyat dəhlizi, investisiya layihələri, proteksionist müdaxilə, Milli tənzimlənmə.

Giriş

Beynəlxalq təcrübədə hər hansı bir ölkəyə investisiyaların cəlb olunması həmin ölkədə mövcud olan investisiya rejimlərinin formalaşmasından asılı olur. İnvestisiya rejimlərinin bir tərəfdən xarici investisiyaların ölkəyə cəlb olunmasında oynadığı əhəmiyyətli rolu, digər tərəfdən isə beynəlxalq investisiya əməkdaşlığına qoşulmaqda çətinliklərin olması üzündən xaricdən daxilolmaların azalması şəraitində milli investisiya rejimləri hərtərəfli öyrənilməlidir. İstər investisiya ixracatçılarının, istərsə də investisiya idxalçılarının investisiya fəaliyyəti ilə bağlı qərar-

larına və bu qərarların qəbuluna beynəlxalq investisiya əməkdaşlığının prinsipləri, əməkdaşlığa girən ölkələrin xarici iqtisadi siyasətinin istiqaməti təsir göstərsə də hər halda ölkələrin milli investisiya rejimində aparılan sistemli dəyişikliklərin təsiri də xüsusi olaraq nəzərə alınmalıdır. [1.s.10] Eyni zamanda nəzərə alınmalıdır ki, həmin təsirlər özünün gücünə görə daha optimal uzlaşdırılır və balanslaşdırılır. Bu isə öz növbəsində milli investisiya rejimlərinin beynəlxalq investisiya rejiminə uyğunlaşdırılmasına real imkanlar yaradır.

Beynəlxalq investisiya rejimlərinin formalaşması amilləri

Beynəlxalq investisiya əməkdaşlığı müstəvisində beynəlxalq investisiya rejiminin formalaşması və möhkəmlənməsinin amilləri çox olsa da hər halda onların sırasında başlıca olanları aşağıdakılardır:

- Beynəlxalq investisiya əməkdaşlığının iştirakçılarının sayı və dairəsi məhdud olsa da investisiya ixracı və idxalı ilə əlaqədar məsələlərin, müddəaların və iqtisadi sazişlərin sayının çox olması;
- Regional və beynəlxalq nəqliyyat dəhlizləri (Şimal - Cənub, Şərq - Qərb TRASECA dəhlizləri) üzrə beynəlxalq investisiya əməkdaşlığının yaradılması;
- Beynəlxalq investisiya əməkdaşlığı üzrə bağlanılan müqavilələrin əsas sənədlərinin və hətta digər sənədlərdə mövcud olan uyğunsuzluqların aradan qaldırılması üçün müqavilələrin bəzi maddələrinin dəyişdirilməsi və bəzilərinə əlavələr edilməsi;
- Beynəlxalq investisiya əməkdaşlığı müstəvisində investisiya layihələrinin yerinə yetirilməsi üzrə nümunə müqavilələrinin hazırlanması uyğun ticarət sazişlərinin nəticələrinin təhlili bazasında əvvəllər bağlanılmış müqavilələrin təkmilləşdirilməsi yolu ilə əməkdaşlığa daxil olan dövlətlərin beynəlxalq investisiya siyasətində dəyişikliklərin edilməsi.

Nəzərə almalıyıq ki, yeni bağlanan beynəlxalq investisiya müqavilələrinin əvvəlki müqavilələrin maddələri və müddəaları ilə əlaqələndirilməsindən asılı olmayaraq Azərbaycanın müasir investisiya əməkdaşlığı göstərir ki, investisiyanın ixracı və idxalı prosesində investisiya layihələrinin reallaşmasında dövlət tənzimlənməsi hüququndan istifadəyə, həmin hüququn qorunub saxlanılmasına çox cəhd göstərir. İlk növbədə investisiya layihələrinin həyata keçirilməsi üçün investisiya müqavilələrinin müddəalarını daha şəffaf ifadə etmək, tərəflərin öhdəliklərinin təsir dairəsini dəqiqləşdirmək istiqamətində dövlət tənzimlənməsinin metodlarından, onların hüquqi normalarından istifadə edilməlidir. Beynəlxalq investisiya əməkdaşlığı üzrə bağlanılan indiki müqavilələrin maddələrinə ərzaq və maliyyə təhlükəsizliyinin məqsədlərinə çatmaq vasitələrinin aşkara çıxarılması və həmin vasitələrin əldə olunmasına istiqamət götürülməlidir.

Beynəlxalq hüquq normalarının beynəlxalq investisiya mübahisələrinin həllinin başlıca aləti olmasına baxmayaraq investisiya layihələrinin həyata keçirilməsi üzrə əməkdaşlığa girən ölkələr arasında investisiya mübahisələri yarana bilir və bu mübahisələrin tənzimlənməsi üsullarında və metodlarında mürəkkəbliklər özünə yer tapır. Azərbaycanda son illərin təcrübəsində investorların narazılıqlarının aradan qaldırılması, daha çox isə qaldırılan mübahisələrin həll edilməsinin səmərəli yollarının tapılması istiqaməti diqqəti cəlb edir. Beynəlxalq investisiya layihələrinin reallaşdırılması üzrə əməkdaşlığa girən ölkələr, özlərinin investisiya müqavilələrində investisiya ixrac edən ölkələrlə həmin investisiyaları idxal edən ölkələr arasında mübahisələrin həlli istiqamətində müqavilələrin bir sıra müddəalarının təkmilləşdirilməsinə də cəhd göstərirlər.

İnkişaf etməkdə olan ölkələrin iqtisadi təhlükəsizliyi və beynəlxalq iqtisadi qaydalar

Qeyd edilən istiqamətdə beynəlxalq hüquq normaları bir çox beynəlxalq iqtisadi təşkilatların tövsiyələri ilə bir tərəfdən təkmilləşdirilir, digər tərəfdən isə həmin normalara əməl edilməsinə nəzarət edilir. Belə nüfuzlu beynəlxalq iqtisadi (maliyyə) təşkilatlarından biri olan Dünya Bankıdır (DB), onun strukturuna daxil olan investisiya mübahisələrinin həlli üzrə beynəlxalq mərkəzdir. Nəzərə almalıyıq ki, inkişaf etməkdə olan ölkələrin bir çoxu İMHBM-nin mövcud qaydaları ilə razılaşmadıqlarını bildirərək həmin qanun və qaydaların qüvvədən düşdüyünü elan etmişlər. Eyni zamanda inkişaf etməkdə olan ölkələr investisiya mübahisələrinin həllinin yollarını bildirmiş və həmin mübahisələrin qarşısının alınmasının daha optimal üsullarından istifadənin mümkünlüyünü irəli sürmüşlər.

Beynəlxalq investisiya əməkdaşlığı çərçivəsində bağlanılan investisiya müqavilələri sırasında iqtisadi təhlükəsizlik problemlərinin həllinə daha çox töhfə verən, strateji təşəbbüslərlə uğurlu nəticələr qazanan beynəlxalq investisiya layihələrinin sayı artır. Belə ki, son vaxtlar BMT-nin ticarət və inkişaf (UNCTAD), Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı təşkilatı (FAO) və Dünya Bankı Qrupu birgə səy göstərərək aqrar sektora əsaslı investisiyalar yatırılmasının həyata keçirilməsi üzrə birgə fəaliyyət göstərməyə addım atmışlar. Əsas məqsəd dünya iqtisadiyyatının kənd təsərrüfatı sahəsində özünü göstərən neqativ təsirləri azaltmaqdır. Bunun üçün kənd təsərrüfatına bir başa xarici investisiya yatırılmasının səmərəliliyini artırmaq və bununla da həm lokal və regional və həm də qlobal səviyyədə ərzaq təhlükəsizliyinə şərait yaratmaq lazımdır. Təsadüfi deyildir ki, G-20-nin üzvü olan dövlətlər ticarət və investisiyalar sahələrində proteksionist müdaxilələrdən çəkinmək təşəbbüsünə qoşulmuşlar. Nəzərdə tutulmuşdur ki, hər iki sahədə proteksionizmin məhdudlaşdırılması haqqında geniş məlumat bazası yaradılmalı və həmin məlumatların dərc olunması ilə əlaqədar yuxarıda qeyd edilən beynəlxalq təşkilatlara, xüsusən də UNSTAA müdafiə olunmuşdur. Mövcud vəziyyət belədir ki, bir tərəfdən lokal və regional, digər tərəfdən isə beynəlxalq səviyyədə iqtisadi təhlükəsizliyin təminatı, beynəlxalq iqtisadiyyatda yaranan boşluqlar üzündən qlobal maliyyə - iqtisadi böhranın baş verməsi və bu böhranın aradan qaldırılması istiqamətində məqsədyönlü işlər aparılır. Belə səmərəli işlər sözsüz ki, ayrı-ayrı ölkələrə və regionlara birbaşa xarici investisiya axınları üçün daha diqqətəlayiq nəticələr verə bilər. [2. s.378]

Son illərdə tədricən mülayimləşmə istiqamətində davam edən qlobal maliyyə - iqtisadi böhranı, investisiya ixracı və idxalı ilə əlaqədar proteksionizmin artması imkanlarının genişlənməsi bir çox narahatçılıq yaratmışdır. Lakin bu narahatçılığa baxmayaraq, beynəlxalq investisiyaların ixrac və idxalında daha çox şəffaflığın yaradılması, yeni beynəlxalq investisiya axınlarının qarşısına çıxan maneələrin aradan qaldırılması, daha vacib isə birbaşa investisiya yatırımlarından əldə edilən gəlirlərə görə tutulan vergilərin aşağı salınmasıdır. Bu məqsdlə birbaşa xarici investisiya yatırımları sahəsində milli qanunlarda, normativ aktlarda və təlimatlarda dəyişikliklərlə əlaqədar BMT-nin Ticarət və İnkişaf üzrə konfransı (UNCTAD) dövri olaraq apardığı araşdırmalardan aydın oldu ki, həmin dəyişikliklər nəticəsində yeni tədbirlər həyata keçirilmiş, onların 3/4 hissəsi həm investorlar üçün, həm də investisiya yatırılan ölkələr üçün faydalı olmuşdur. Hazırda beynəlxalq investisiya layihələri sırasında birbaşa xarici investisiya yatırımları üçün faydalı olmayan tədbirlərin xüsusi çəkisi dəyişməz olaraq qalmaqdadır.

Hesablamalara görə, dünya iqtisadiyyatının inkişafı üzrə uyğun tarixi dövrlərin müqayisəsi nəticəsində beynəlxalq investisiya rejimlərinin tənzimlənməsi istiqamətində beynəlxalq investisiya əməkdaşlığında daha güclü birləşmə meyli üstünlük təşkil etməkdədir. Hətta 1990-cı illərdəki investisiya rejimi müasir dövrün investisiya rejimi ilə müqayisədə daha əlverişli olmuşdur. Dünyanın ayrı-ayrı ölkələrinin milli tənzimlənmə metodlarında və üsullarında aparılmış dəyişikliklər haqqında məlumatları aşağıdakı cədvəldən görmək olar. (bax cədvəl 1)

Cədvəl 1

Milli tənzimlənmə metodları və üsullarında aparılmış dəyişikliklər [3]

Dəyişiklik edilən göstəricilər	**Ölkələrin orta illik sayı**					
	1990	**1995**	**2000**	**2005**	**2010**	**2015**
İnvestisiya rejimlərinin tənzimlənməsi sistemində dəyişiklik etmiş ölkələrin sayı	47	65	70	92	59	54
İnvestisiya rejimlərinin tənzimlənməsi sistemində aparılmış dəyişikliklərin sayı	94	130	150	203	112	108
Məqsədəuyğun dəyişikliklərin sayı	93	120	147	162	87	85
Məqsədəuyğun olmayan dəyişikliklərin sayı	1	10	3	41	25	17

Cədvəl 1-də göstərilən məlumatlardan aydın olur ki, beynəlxalq investisiya rejiminin tənzimlənmə metodları və üsullarının miqyası, əhatə dairəsi genişlənmiş, investisiya ixracatçılarının hüquq və vəzifələrinin əlaqələndirilməsi istiqamətində əsaslı işlər görülmüşdür. Hər şeydən əv-

vəl beynəlxalq investisiya əməkdaşlığı çərçivəsində bağlanılan investisiya sazişlərinin sayı, həm də həmin sazişlərlə bağlı qarşıya çıxa bilən mübahisələrin həlli istiqamətində arbitraj qərarlarının əhatə dairəsi genişlənmiş və təsir imkanları çoxalmışdır. Belə dəyişkənliklərin kəmiyyət və keyfiyyət tərəflərinin çox olması nəticəsində investisiya rejimi həm öz-özlüyündə və həm də onun tənzimlənməsi metodlarında və üsullarında sürətli təkamül prosesi getməkdədir. Yalnız 2010-2015-ci illər ərzində bağlanılan beynəlxalq investisiya sazişlərinin orta illik sayı 200-ə yaxın olmuşdur ki, bu göstəricini aylara bölsək, demək olar ki, hər aya orta hesabla 20-yə yaxın saziş düşür. Hesablamalar göstərir ki, növbəti illərdə Qərbi Avropa, Cənub-Şərqi Asiya dövlətləri beynəlxalq investisiya müqavilələri bağlamaq istiqamətində əsaslı təkmilləşdirmələr edilməsinə istiqamət götürmüşlər.

ƏDƏBİYYAT

1. Milli İqtisadiyyat Perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı.
2. R.Xasbulatov. Beynəlxalq İqtisadi Münasibətlər. Rus dilindən tərcümə. Bakı, 2014.

Sona Əhməd qızı ƏSGƏROVA
Azərbaycan Kooperasiya Universiteti, müəllim

ƏRZAQ ÖZÜNÜTƏMİNATININ QİYMƏTLƏNDİRİLMƏSİ METODOLOGİYASI

Xülasə

Əhalinin ərzaq təminatının reallaşdırılması dövlətin sosial-iqtisadi siyasətinin əsas istiqamətlərindəndir. Onun yerinə yetirilməsi dərəcəsinin qiymətləndirilməsinə müxtəlif yanaşmalar mövcuddur. Nəzərə alınmalıdır ki, ərzaq təminatı yalnız kəmiyyət deyil, həm də keyfiyyət göstəricisidir. Burada satışa çıxarılacaq məhsulların kaloriliyi, isteklakçı normaları, məhsulların saxlanılması və daşınması zamanı itkilərin azaldılması göstəriciləri də metodoloji prosedurdan kənarda qalmamalıdır. Ümumiyyətlə, ərzaq özünütəminatının müəyyən olunması əhalinin istehlakı ilə bağlı bütün amilləri əhatə etməlidir.

Açar sözlər: böhran, qiymət, yoxsulluq, tələbat, idxal, özünütəminat.

***

Hazırda kənd təsərrüfatının davamlı inkişafı, bir tərəfdən ölkənin etibarlı ərzaq təminatı siyasəti, digər tərəfdən isə regionların və qeyri-neft sektorunun inkişafı siyasətinin prioritet istiqamətini təşkil edir.

Dünya ölkələrinin əksəriyyətində kənd rayonlarının əhalinin qocalması, zəif infrastruktur problemi ilə üzləşməsi xarakterik haldır. Bu da öz növbəsində dövlət idarəetməsinin və aqrar biznesin səmərəliliyinin azalmasına gətirib çıxarır. Bununla əlaqədar olaraq regionların müasir iqtisadiyyatda rolunun yüksəldilməsinə və onların səmərəli inkişafı yollarının axtarılmasına ehtiyac vardır.

Dünyada 850 milyon nəfərdən artıq insan aclıqdan əziyyət çəkir. Onların əksəriyyəti gündəlik 1 dollardan az vəsait xərcləyir. İnkişaf etməkdə olan ölkələrdə aclığın əsas səbəbinin yüksək qiymətlər deyil, yoxsulluq olduğunu nəzərə alsaq, uzunmüddətli dövrdə ərzaq təhlükəsizliyinə zəmanət verilə bilməz. Onu da nəzərə almaq lazımdır ki, dünyada kasıb əhalinin 2/3-si kənd yerlərində yaşayır. Ona görə də İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının ekspertlərinin tövsiyələri özündə kənd təsərrüfatına dövlət və özəl investisiyaları birləşdirir.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv olan ölkələrin statistik məlumatlarının təhlili əsasında ekspertlər aqrar siyasətin işlənilməsində dövlət subsidiyalarından məhsuldarlığın yüksəldilməsinə investisiya qoyuluşuna, təbii resurslardan səmərəli istifadəyə və iqtisadi risklərin azaldılmasına keçid edilməsini tövsiyə edirlər.

Dünya əhalisinin əksər hissəsi kənd yerlərində yaşadığından kənd təsərrüfatının diversifikasiyası və onun səmərəliliyinin yüksəldilməsi ərzaq çatışmazlığı ilə mübarizədə və yoxsulluq sə-

viyyəsinin azaldılmasında əhəmiyyətli rol oynayır. İnkişaf etməkdə olan ölkələrin kənd təsərrüfatında tətbiq olunan metodları təhlil edərək İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının ekspertləri məhsulların qiymətlərinin tənzimlənməsi, gübrə və yanacağa görə subsidiyaların verilməsi formasında dövlət müdaxiləsinin səmərəsizliyi qənaətinə gəlmişlər. Dünya təcrübəsi kənd infrastrukturuna dövlət investisiyasının və ehtiyacı olan əkinçilərə sosial yardımın iqtisadi üstünlüklərini nümayiş etdirir.

Kənd təsərrüfatı sektorunda ümumi əlavə dəyərin 80%-nin payına düşdüyü 47 ölkədə aqrar siyasətin tədqiqi göstərir ki, iqtisadi böhranla şərtlənən tərəddüdlərə baxmayaraq uzunmüddətli dövrdə aqrar təsərrüfat subyektlərinə dövlət yardımının səviyyəsi tədricən azalır. Belə ki, bu göstərici 1995-1997-ci illərdəki 21%-dən 2010-2012-ci illərdə 16%-ə enmişdir. Bu zaman regionlar və ölkələr arasında da əhəmiyyətli fərqlər müşahidə olunur. Onu da qeyd etmək lazımdır ki, Avropa İttifaqı zonasında dövlət yardımının göstərilməsi istehsal prosesindən az asılıdır, zəif inkişaf etmiş ölkələr isə proteksionist tədbirlərə meyillidirlər.

Ölkənin ərzaq təminatında böhran vəziyyətinin yaşanması dünya birliyində onun imicinə xələl gətirir. Ona görə də ərzaq müstəqilliyinə nail olunması aqrar siyasətin inkişafı üzrə dövlət strategiyasına, təkmil qanunvericilik bazasına, kənd təsərrüfatının çoxfunksiyalılığına, onun ölkə iqtisadiyyatında rolunun yüksəldilməsinə əsaslanmalıdır.

«Özünütəminat» anlayışı haqqında vahid rəy yoxdur. Region istehlak etdiyi qədər istehsal etdiyi halda özünü təmin etmiş sayılır. Ona görə də özünütəminat səviyyəsi istehsalın istehlaka nisbəti kimi müəyyən edilir.

$$ƏƏ_{ö} = \frac{I_s}{I_k} \times 100$$

Burada, I_s- *y* məhsulunun regionda istehsal həcmi; I_k -*y* məhsulunun regionda istehlakı həcmidir. Bu bərabərlik məxtəlif ölçü vahidləri vasitəsilə digər formalarda ifadə oluna bilər. Lakin, özünütəminatın qiymətləndirilməsi barədə vahid metod yoxdur və daha dəqiq göstərici almaq üçün onu təkmilləşdirmək lazımdır. Ərzaq ehtiyatlarını pul formasında aqreqatlaşdıran özünütəminat göstəriciləri daha geniş tətbiq olunur. Məsələn, O`Xaqan regionun yerli əhalinin əsaslandırılmış normalar üzrə tələbatını ödəmək qabiliyyətini uçota almadan özünütəminatlıq səviyyəsinə ərzağın qida dəyərliliyi (kkal/adam/sutka) göstəricisi vasitəsilə baxır. Belə qiymətləndirmə regionun ərzaq vəziyyətinin yanlış təsvirinə şərait yaradır. Məsələn, aşağı istehsal potensialına malik regionda, adambaşına istehlakın həcmi tövsiyə olunan normadan aşağı olsa da özünütəminat səviyyəsi yüksək olacaqdır [4, səh. 57].

Ayrı-ayrı məhsullar üzrə özünütəminatlılığın qiymətləndirilməsindən regionun ərzaq siyasətinin hansı cəhətinə xüsusi diqqət yetirilməsi ilə bağlı məsələnin həllində istifadə olunur. Beləliklə, ümumi iqtisadiyyat baxımından özünütəminatlılığın yüksək səviyyəsinə nail olunduğu məhsulların buraxılışını artırmaq deyil, müvafiq göstəricinin aşağı olduğu məhsulun istehsalını artırmaq daha səmərəlidir.

Ərzaq istehsalı və emal sənayesi üçün xammal olan əsas növ kənd təsərrüfatı məhsullarının istehsalı üzrə rəsmi statistik məlumatlara istinad edərək ölkədə özünütəminat səviyyəsini qiymətləndirmək olar. Birmənalı şəkildə qeyd edə bilərik ki, özünütəminat səviyyəsi yüksəkdirsə bu qəbildən olan məhsulların idxalı həcmi bir o qədər məhdud olmalıdır, yaxud məhdudlaşdırılmalıdır. Bu bir tərəfdən yerlı istehlakçıların maraqları naminə, digər tərəfdən isə genidəyişdirilmiş məhsulların ölkə ərazisinə daxili olmasının qarşısının alınması naminə həyata keçirilməlidir. Lakin özünütəminat səviyyəsinin aşağı olması və nəticədə idxaldan asılılıq bu məsələni arxa plana çəkir. Şübhəsiz ki, bütün məhsullar üzrə regional özünütəminatlığına nail olunması heç də həmişə səmərəli deyil. Tələb olunan bütün məhsullar regionda istehsal olunmur, onların bir hissəsi kənardan gətirilməlidir. Ona görə də regionlararası mübadilə uçota alınmalıdır (məsələn, heyvandarlıq gətirilən yemə əsaslanır). Bu halda əvvəlki bərabərlik aşağıdakı kimi ifadə olunacaqdır.

$$ƏƏ_{ö} = \frac{I_s - Z_y}{I_k} \times 100$$

burada, Z_y- regionda y məhsulunun istehsalı üçün kənd təsərrüfatı xammalının göndəriş həcmidir. Regional ərzaq kompleksləri mərkəzləşdirilmiş ərzaq fondunun yaradılması üçün zəruri miqdarda məhsul istehsal etməlidir. Ayrı-ayrı məhsul növləri üzrə tələbat yerli istehsal, eləcə də idxal hesabına ödənilə bilər. Regionun ərzaq resursları ilə təminatının planlaşdırılmasında ilk növbədə xüsusi istehsal məhsullarının və yerli ehtiyacların ödənilməsi üçün idxal olunan məhsulların nisbətlərindəki dəyişikliklər təhlil olunmalıdır. Eyni zamanda xüsusi istehsal məhsullarının istifadəsi, yəni regionda qalan və regiondan kənara çıxarılan məhsulların xüsusi çəkisi də öyrənilməlidir. Bu, təminatlığın təşkilində ərazi diferensiallaşdırılmasının qanunauyğunluqlarını tam öyrənməyə və regionlararası əlaqələri planlaşdırmağa imkan verə bilər [3, səh.114].

Əhalinin ərzaqla təminatlığının real qiymətləndirilməsi üçün normativ qiymətləndirmə lazımdır. Bu, istehsalı nəzarət rəqəmi ilə, mövcud vəziyyətdə əhalinin ərzağa olan əsaslandırılmış tələbatı ilə müqayisə edir. İstehsal istehlakı və məhsulların normativ itkiləri nisbi sabit olduğundan region əhalisinin təminat səviyyəsi bir nəfərə düşən xüsusi istehsalın kəmiyyəti ilə müəyyən olunur. Özünütəminat səviyyəsi region əhalisinin onun sərhədləri daxilində istehsal olunan kənd təsərrüfatı məhsuluna olan tələbatının mümkün ödənilməsi səviyyəsini xarakterizə edir.

Beləliklə, özünütəminat indeksini adambaşına kənd təsərrüfatı istehsalının kəmiyyətinin (istehsal istehlakı və normativ itkilər çıxılmaqla) əsaslandırılmış istehlak normasına nisbəti kimi müəyyən etmək olar.

$$Ə_ö = \frac{I_s^t}{\bar{S}} : N_y$$

Burada, I_s^t -t dövründə regionda son məhsulun istehsalı həcmi (istehsal istehlakı və normativ itkilər çıxılmaqla); $\bar{S}$- regionda əhalinin orta sayı; N_y- region əhalisinin y məhsulunun istehlakının əsaslandırılmış normasıdır. Bu göstəriciyə tədiyyə qabiliyyətli tələbin elastikliyi əmsalının uçotu ilə düzəliş edilə bilər.

Göstərilən indeks aşağıdakı kəmiyyətlərlə ölçülə bilər:

- $Ə_ö = 1$ olarsa, onda regionda özünütəminat üçün istehsal həcmi qənaətbəxşdir;
- $Ə_ö < 1$ olduğu halda regionda özünütəminat üçün istehsal həcmi qənaətbəxş deyil və $(1- Ə_ö)$ kəmiyyəti ilə müəyyən olunan miqdarda məhsul idxalı zəruridir.
- $Ə_ö > 1$ olması regionun məhsul istehsalında yüksək ixtisaslaşmasını təsdiq edir və $(Ə_ö - 1)$ kəmiyyəti ilə müəyyən olunan səviyyədə məhsulun kənara göndərilməsi imkanlarını təsdiqləyir.

Bütün regionlar özünütəminat üçün zəruri resurslara malik deyil. Ona görə də özünütəminat səviyyəsindən istifadə edərək regionlararası əlaqələri planlaşdırarkən regionların üç qrupa bölgüsünü aparmaq lazımdır.

Birincisi, təbii - iqtisadi resurslar ərzaq məhsullarının istehsalını əhalinin yalnız tez xarab olan məhsullara olan tələbatını ödəyəcək səviyyəyə qədər çatdırmaq olar, qalan hissə isə emal olunmuş şəkildə idxal olunur.

İkincisi, resurslar ərzaq istehsalını xüsusi istehsal hesabına əhalinin tələbatının tam ödənilməsi səviyyəsinə çatdırılmasını təmin edir.

Üçüncüsü, yerli tələbatdan yüksək miqdarda məhsul istehsalı imkanlarına malik olan regionlardır. Bu regionların hesabına birinci qrup regionlarda mövcud olan məhsul qıtlığını aradan qaldırmaq olar.

Ümumiyyətlə, ərzaqla özünütəminatın yaxşılaşdırılmasının iki yolu vardır: istehsalın artırılması və məhsullardan istifadə səviyyəsinin yüksəldilməsi. Ərzaqla regional özünütəminatın səmərəli planlaşdırılması zamanı qeyd olunan hər iki istiqamət uçota alınmalıdır.

Beləliklə, perspektiv dövrdə prioritet vəzifə ərzaq istehsalının strukturunun mövcud resurslardan səmərəli istifadə etməklə istehlakın strukturuna uyğunluğunun təmin edilməsidir. Bundan əlavə, hər hansı regionun özünütəminatı onun ərzaq kompleksinin tam qapalı olması kimi qəbul edilməməlidir. Regionun kənd təsərrüfatının məhdud istehsal potensialı uzunmüddətli dövrdə regionlararası əlaqələrin inkişafı ilə tarazlaşdırılmalıdır.

ƏDƏBİYYAT

1. Milli iqtisadiyyat perspektivləri üzrə Strateji Yol Xəritəsi. Bakı, 2016.
2. Abbasov A.F. Ərzaq təhlükəsizliyi. Bakı: Nasir, 2007.
3. Abbasov V.H. Aqrar sahədə iqtisadi tənzimləmənin aktual problemləri. Bakı, 2012.
4. Журнал АПК: экономика,управление, № 2, 2017.

Сона Ахмед кызы Аскерова
Азербайджанский Университет Кооперации, преподаватель

Методология оценки продовольственной самообеспеченности

Резюме

Реализация продовольственного снабжения населения является одним из основных направлений социально-экономической политики государства. Существуют различные подходы к оценке степени его выполнения. Следует учитывать, что продовольственное обеспеченность не только количественное, но и показатель качества. Калорийность продуктов, предлагаемых в продажу, нормы потребления, потери при хранении и транспортировке товаров также не должна исключаться из методологической процедуры. В целом определение продовольственной самообеспеченности должно охватывать все факторы, которые влияют на потребление населения.

Ключевые слова: кризис, цена, бедность, потребность, импорт, самообеспечение.

Sona Ahmad Askerova
Azerbaijan Cooperative University, teacher

Methodology of assessment of food examination

Summary

Realization of food supply of the population is one of the main directions of the state's socio-economic policy. There are various approaches to assessing the degree of its fulfillment. It should be taken into account that food is not only quantitative, but also a quality indicator. Caloric content of products to be sold on sale, emission standards, loss of costs during storage and transportation of goods should also not be excluded from the methodological procedure. In general, determination of food self-sufficiency should cover all the factors related to the consumption of the population.

Key words: crisis, price, poverty, demand, import, self-reliance.

Arzu Nurəddin qızı RÜSTƏMOVA
i.f.d., Azərbaycan Kooperasiya Universiteti

ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ YOLLARI

Xülasə

Tezisdə aqrar sahədə ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində, məhsul istehsalının artırılmasında Azərbaycan Respublikasının "Ərzaq təhlükəsizliyi" proqramının maliyyə öhdəlikləri, büdcə imkanları şərh edilmiş, ərzaq təhlükəsizliyinin məqsədləri, strategiyası və qarşıda duran problemlərin həlli yolları göstərilmişdir. Eyni zamanda kənd təsərrüfatında rəqabətin yüksəldilməsi, qiymət, tələb, təklifin düzgün istiqamətlənməsi də öz əksini tapmışdır.

Açar sözlər: ərzaq təhlükəsizliyi, aqrar sektor, rəqabətqabiliyyətli, bazar münasibətləri.

Giriş

Son illər milli iqtisadiyyatın bütün sahələrində davamlı inkişaf prosesləri müşahidə olunmaqdadır. Yeni iqtisadi münasibətlərin formalaşdığı və inkişaf etdiyi sahələrdən biri də ölkənin aq-

rar sektoru hesab olunur. Aqrar sektorun inkişafı ilə bağlı ölkə başçısı İlham Əliyev cənablarının çıxışında deyilir:

"Biz aqrar sektorun inkişafı istiqamətində bütün imkanları səfərbər etməklə yanaşı, kənd təsərrüfatı istehsalçılarından da keyfiyyətli məhsul, mütərəqqi təsərrüfatçılıq gözləyirik".

Bu vəzifələrin yerinə yetirilməsi sahəsində ölkə iqtisadi siyasəti müəyyənləşdirilərkən aqrar sektorun inkişafı ilə bağlı çox əhəmiyyətli qanunlar və qərarlar, xüsusi Dövlət Proqramları qəbul edilmiş və qarşıya konkret vəzifələr qoyulmuşdur. Bu baxımdan "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı" Dövlət Proqramı (2004-2008) və onun ikinci mərhələsi olan «Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı" Dövlət Proqramı xüsusi əhəmiyyət kəsb edir.

Ərzad məhsulları istehsalının artırılması. Hər bir ölkə əhalisini ekoloji cəhətdən təmiz ərzaq məhsulları ilə təmin etmək üçün həm öz daxili istehsalına arxalanmalı, həm də başqa ölkələrdən ərzaq məhsulları gətirməlidir.Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi iqtisadi, sosial və siyasi mahiyyət daşıyır. Ərzaq təhlükəsizliyinin təmin edilməsi kənd təsərrüfatı məhsulları istehsalının artırılmasından, onun rəqabətədavamlılığının yüksəldilməsindən bilavasitə asılıdır. Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi iqtisadi, sosial və siyasi mahiyyət daşıyır. [6, s. 156]

Bildiyimiz kimi, dünyada əhalinin sayının dəyişməsi, əmək qabiliyyətli əhalinin sayı, məşğulluğun miqyası və səviyyəsi, ehtiyatlardan istifadə, qiymətlər, cəmiyyətdə baş verən sosial-iqtisadi dəyişmələr və s. ərzaq bazarına təsirsiz ötüşmür. Ərzaq məhsulları istehsalının artırılması daim bütün ölkələrin diqqət mərkəzində olmuş, ərzaq təhlükəsizliyi və ərzaq ticarəti ön plana çəkilmişdir. Buna görə də ərzaq təhlükəsizliyi proqramının qəbul edilməsi olduqca önəmli olmuşdur.

Azərbaycan Respublikasının "Ərzaq Təhlükəsizliyi" Proqramı Azərbaycan Respublikası Hökumətinin ərzaq təhlükəsizliyi sahəsində öhdəlik və məqsədlərini əhatə edir. Bu proqramın dövlətin maliyyə öhdəlikləri və büdcə imkanları çərçivəsində həyata keçirilməsi nəzərdə tutulur.

Ərzaq təhlükəsizliyi proqramının məqsədləri aşağıdakılardan ibarətdir:

- yerli kənd təsərrüfatı məhsulları istehsalının artırılması və ərzaq məhsullarının qiymətlərinin məqbul səviyyədə saxlanmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi;
- kəskin ərzaq qıtlığı hallarına yol verilməsi sisteminin yaradılması.

Ərzaq təhlükəsizliyinə nail olmaq üçün Azərbaycan Respublikası Hökuməti ikimərhələli strategiyasının həyata keçirilməsini öhdəsinə götürür:

1. Ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün müəyyən müddətli tədbirlərin həyata keçirilməsi, fermer təsərrüfatçılığına və sahibkarlara kömək göstərilməsi öndə olan tədbirlərdən birinə çevrilmişdir. Bu mərhələdə tədbirlərin bəzi istiqamətlərdə aparılması nəzərdə tutulur:

- müvafiq qanunların həyata keçirilməsinə nəzarət;
- lazımi büdcə ayırmalarının dəqiqləşdirilməsi;
- qida məhsullarının istehsalı, emalı və satışı üçün kreditlərin alınmasına kömək göstərilməsi;
- istehlakçıların müdafiəsinin gücləndirilməsi və s.

2. Ərzaq təhlükəsizliyi sahəsində uzunmüddətli tədbirlərin başlıca məqsədi Azərbaycanın kənd təsəsrrüfatının gəlirliliyinin və rəqabətqabiliyyətinin artırılmasını nəzərdə tutur. Eləcə də Beynəlxalq iqtisadi sistemə də inteqrasiya olunması vacib məsələlərdən biri hesab olunur. Ölkədə ərzaq təhlükəsizliyi əsasən ərzaq istehlakı vəziyyətinin və kənd təsərrüfatı inkişafının yaxşılaşdırılması hesabına təmin edilməlidir. Bütün bunlara da nail olmaq üçün dörd istiqamətdə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- ərzaq təhlükəsizliyi ilə bağlı idarəertmə mexanizmlərinin möhkəmləndirilməsi;
- kənd təsərrüfatı və ərzaq sektorları üçün müəyyən olunan güzəştlərin mərhələlərlə məhdudlaşdırılması;
- ölkədə ərzaq məhsullarının növlərinin istehsalının inkişafı və kənd təsərrüfatının rəqabət qabiliyyətinin təmin edilməsi;
- dövlət kənd təsərrüfatı infrastrukturunun inkişafına kömək məqsədilə investisiya qoyuluşunun təmin edilməsi. [5, s. 109-110]

Rəqabətqabiliyyətli kənd təsərrüfatlı məhsullarının istehsalının artırılması. Rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalının artırılması ölkənin aqrar siyasətinin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Rəqabət qabiliyyətinin yüksəldilməsi ilk növbədə məhsulun keyfiyyətinin artırılması deməkdir. Bildiyimiz kimi, kənd təsərrüfatı təbii iqlim şəraitindən asılı və riskli bir sahədir. İstehsalın həyata keçirilməsində kənd təsərrüfatında iqlimdə baş verən hər bir dəyişiklik son nəticədə məhsuldarlığın aşağı düşməsinə və əmtəə istehsalçılarının zərərlə qarşılaşmasına səbəb ola bilər. Buna görə də kənd təsərrüfatı əmtəə istehsalçılarının risklərdən sığortalanması, davamlı olaraq əmtəə istehsalçılarına dövlət yardımlarının göstərilməsi zəruridir. Ərzaq bazarında yüksək keyfiyyətə malik olan məhsulun ekoloji cəhətdən təmiz olması vacib şərtlərdən biridir.

Bazar münasibətləri inkişaf etdikcə qiymət, tələb, təklif və rəqabətlə əlaqədar olaraq tənzimlənsə də və real nəticələr əldə edilsə də bu münasibətlərdə aqrar sahənin inkişafı və ərzaq təhlükəsizliyinin təmin edilməsini daha da yaxşılaşdırmaq üçün dövlətin sosial-iqtisadı inkişafa müdaxiləsi önəmlidir. Dövlətin müdaxiləsi aqrar sahədə əhalinin sosial vəziyyəti, xüsusən də əmtəəlik məhsullar istehsalının artırılması, maliyyə-kredit, texniki təminat və s. məsələlər üzrə cəmləşməlidir. [6, s. 191].

Nəticə

1. Ərzaq məhsulları istehsalının artırılması, ərzaq təhlükəsizliyi və ərzaq ticarəti ön plana çəkilməlidir.
2. "Ərzaq təhlükəsizliyi" proqramının məqsədlərinin həyata keçirilməsi üçün büdcə imkanları və maliyyə öhdəliklərinin nəzərə alınması zəruridir.
3. Ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün müəyyən müddətli tədbirlərin həyata keçirilməsi, fermer təsərrüfatçılığına və sahibkarlara kömək göstərilməsi öndə olan məsələlərdən birinə çevrilməlidir.
4. Əmtəələrin və rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalının artırılması ölkənin aqrar siyasətinin qarşısında duran ən mühüm vəzifələrdən biri olmalıdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının "Ərzaq Təhlükəsizliyi" Proqramının təsdiq edilməsi haqqında Sərəncam. Bakı- 2001.
2. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə soaial-iqtisadi inkişafı".
3. E. Quliyev. "Aqrar iqtisadiyyat". Bakı-2015.
4. B. Ataşov. "Aqrar sahədə struktur və səmərəlilik problemləri". Bakı-2017.
5. B. Ataşov. "Aqrar sahənin aktual problemləri". Bakı-2005.
6. İ. İbrahimov. "Aqrar sahənin iqtisadiyyatı". Bakı-2016.

Арзу Нураддин кызы Рустамова
доктор философии по экономике
Азербайджанский Университет Кооперации

Пути обеспечения продовольственной безопасности

Резюме

В тезисе показан обеспечение продовольственной безопасности в аграрной отрасли, а также увеличение производства товара и финансовых обязательств по программе Азербайджанской Республики под названием "Продовольственной безопасность" бюджетные и их интерпретация цели продовольственной безопасности её стратегия и пути развития предстоящих проблем и их решения.

В тоже время повышение конкурентноспособности, правильное ориентация, цен спроса и предложений, которые нашли своё отражение в данной тезисе.

Ключевые слова: продовольственной безопасность, аграрный сектор, конкурентноспособность, рыночные отношения.

Arzu Nureddin Rustamova
PhD in economics, Azerbaijan Cooperation University

The way of the security of the nutritive safety

Summary

Thesis shows the security of the nutritive safety in agrarian branch, the production increasing of the item and financial assurance on the programme of the Azerbaijan Republic named "Nutritive safety", budgetary possibilities and their version, the aims of the nutritive safety, its strategy and the ways of the development of the forthcoming problems and their solution .

At the same time the competitive ability increasing, correct attitude of the prices, demands and offer which present in this thesis.

Key word: nutritive safety, agrarian branch, competitive ability, market, version.

İlhamə Eybulla qızı ASLANOVA
Azərbaycan Universitetinin baş müəllimi,
AMEA-nın dissertantı

AZƏRBAYCAN RESPUBLİKASINDA ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNİN DAVAMLI İNKİŞAFA TƏSİRİ

Xülasə

Məqalə ölkənin ərzaq təhlükəsizliyinə, dövlətçilik və suverenliyin saxlanılmasına, həyat təminatlılığı sisteminə yönəldilmişdir. Ölkə əhalisinin ərzaqla təminatının daha da yaxşılaşdırılması, ölkənin ərzaq təhlükəsizliyinin təminatı dövlət qarşısında duran ən vacib məsələlərdən biri kimi məqalədə canlandırılmışdır.

Açar sözlər: davamlı inkişaf, ərzaq təhlükəsizliyi, ərzaqla təminatı, ərzaq təhlükəsizliyinin təminatı.

***

Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi dövlət siyasətinin ən mühüm istiqamətlərindən birini təşkil etdiyi üçün növbəti illərdə də bu sahədə görülən işlər genişləndiriləcək, nəzərdə tutulan tədbirlər ölkə əhalisinin zəruri həcmdə və keyfiyyətdə ərzaq məhsulları ilə daimi əsaslarla təmin edilməsinə istiqamətlənəcəkdir. Ölkənin ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsi, o cümlədən ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi ilə bağlı Strateji Yol Xəritəsində müəyyən edilmiş çoxsaylı prioritetlər çərçivəsində geniş əhatəli tədbirlər nəzərdə tutulmuşdur. Eyni zamanda, ərzaq təhlükəsizliyinin dayanıqlılığının təmin edilməsi üçün institusional potensialın gücləndirilməsi istiqamətində də zəruri tədbirlər görüləcəkdir. Tədbirlərə əsasən üç prioritet istiqamət üzrə tədbirlər həyata keçiriləcəkdir. İlk olaraq, ərzaq təhlükəsizliyi üzrə informasiya və monitorinq sisteminin formalaşdırılması məsələlərinə baxılacaqdır. Burada ölkədaxili və beynəlxalq təşkilatların ərzaq təhlükəsizliyi ilə bağlı məlumatlarının vahid məlumat bazasında sistemləşdirilməsi nəzərdə tutulur. Həmçinin, ərzaq məhsullarının istehsalı, idxalı, saxlanılması və ticarəti üzrə informasiya portalı yaradılacaqdır ki, bu da ərzaq təhlükəsizliyi ilə bağlı qərarların qəbul edilməsi prosesinin effektivliyini daha da artıracaqdır. Ölkə əhalisinin ərzaqla təminatının daha da yaxşılaşdırılması məqsədilə, əhalinin bütün təbəqələrinin ərzağa əlyetərlik səviyyəsi mütəmadi monitorinq olunmaqla, əlyetərliyə təsir edən iqtisadi, fiziki və s. səbəblər təhlil ediləcəkdir. İkinci prioritet çərçivəsində ərzaq təhlükəsizliyi sahəsində aparılan monitorinqlərin nəticəsi olaraq əhalinin bütün təbəqələrinin etibarlı ərzaq təminatına nail olunması üçün hər bir region və məhsul qrupu üzrə, xüsusilə də fövqəladə hallar nəzərə alınmaqla, mexanizmlərin formalaşdırılması ilə bağlı ehtiyaclar müəyyən olunacaq və bu istiqamətdə tədbirlər həyata keçiriləcəkdir. Bu strateji hədəfin üçüncü prioriteti isə ölkədə qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsindən ibarətdir. Qida təhlükəsizliyi sahəsində müxtəlif dövlət orqanları tərəfindən paralel olaraq və total şəkildə həyata keçirilən nəzarət prosedurları sa-

dələşdirilərək, effektiv və riskəsaslı yanaşma tətbiq olunacaq, dəyər zəncirinin bütün mərhələlərini əhatə edən və ərzaq təchizatı sisteminin iştirakçılarının özlərinin daha çox məsuliyyət daşıdığı, habelə ictimai nəzarət mexanizmlərinin gücləndirildiyi qida təhlükəsizliyi sisteminin qurulması istiqamətində tədbirlər həyata keçiriləcəkdir. [1, s. 51]

Dünya əhalisinin sayının 2050 - ci ildə 9,0 milyarda çatması gözlənilir. Hər kəs üçün kifayət qədər qidanın olmasına əmin olmaq üçün ərzaq sistemlərinin vəziyyəti barədə düşünülməsinə ehtiyac vardır. Belə ki, ərzaq sistemlərinin ətraf mühitə təsirinin azaldılması zərurəti yaranmışdır, çünki bu gün ərzaq məhsullarının istehsalı nəticəsində atmosferə çoxlu miqdarda istixana qazları buraxılır, su ehtiyatları sahəsində gərginlik yaradılır. Ərzaq alışı seçimlərinin dünyanın başqa bölgələrində yoxsul fermerlərə necə təsir etdiyi daha dərindən dərk edilməlidir. Zəncirboyu - ərzağın nəqli, saxlanması, super - marketlərdə və evdə ərzaq itkisinin qarşısının alınması yolları öyrənilməlidir. BMT hesablamalarına görə bu gün dünyada milyonlarla insan aclıqdan əziyyət çəkir. Kifayət qədər qidalanmama cəmiyyətə çox baha başa gəlir və müxtəlif formalarda təzahür edir. Dünyada beş yaşından aşağı hər dörd uşaqdan biri aclıqdan əziyyət çəkir. Bu o deməkdir ki, kifayət qədər qidalanmayan 165 milyon uşaq həyat boyu tam fiziki və əqli inkişafdan geri qalacaqdır. Təxminən 2 milyard əhali sağlam həyat üçün zəruri olan vitamin və mineral maddələrin çatışmazlığı ilə üzləşmişdir

Dünya əhalisinin 1,4 milyard nəfəri, o cümlədən, 43 milyon uşaq artıq çəkidən əziyyət çəkir. Bunların üçdə biri piylənməyə düçar olmuş və ürək-damar xəstəlikləri, şəkərli diabet və digər sağlamlıq problemləri ilə üzləşmək riskindədir. Dünya üzrə piylənmənin göstəricisi 1980-ci ildən bu günədək iki dəfə artıb. Hər il dünyada 2,8 milyon insan artıq çəki və piylənmədən dünyasını dəyişir. Kifayət qədər qidalanmamanın məhsuldarlığın itirilməsi və birbaşa səhiyyə xərcləri baxımından dünya iqtisadiyyatına vurduğu zərər nə az, nə çox qlobal gəlirin 5 faizi həcmində ölçülür ki, bu da illik 3,5 trilyon ABŞ dolları və ya adam başına 500 ABŞ dolları ekvivalentinə bərabərdir.

Kifayət qədər qidalanmamanın köklü səbəbləri daha mürəkkəbdir və daha geniş iqtisadi, sosial, siyasi, mədəni və fiziki ətraf mühiti əhatə edir. Bu baxımdan, kifayət qədər qidalanmama probleminin ünvanlanması kənd təsərrüfatı və ərzaq sistemində, təbii ehtiyatların idarə edilməsində, ictimai sağlamlıq və təhsildə inteqrə edilmiş fəaliyyət və əlavə müdaxilə tələb edir. Çünki zəruri fəaliyyətlər adətən bir neçə hökumət qurumlarını cəlb edir və koordinasiya edilmiş səyləri həvəsləndimək üçün yüksək səviyyəli siyasi dəstək tələb olunur.

Ərzaq məhsullarının istehsalının artırılması vacib məsələdir, lakin tam həll yolu deyil. Aclığın əsas səbəbi ərzaq məhsullarına çıxışın olmamasıdır. Dünyada istehlak üçün istehsal edilən ərzağın üçdə bir hissəsi, bu da illik əsasda təxminən 1,3 milyard ton itirilir və ya tullanılır. Problemlərin qarşısını almaq üçün innovativ və dayanıqlı yanaşmaların tətbiqinə ehtiyac vardır.

Son illər Azərbaycan neft və təbii qaz ehtiyatlarının əldə edilməsi və ixracı sayəsində mənfəətdən bəhrələnmişdir. Demək olar ki, bütün insanların yaşayış şəraiti yaxşılaşmış, Ünvanlandırılmış Sosial Yardım isə ən yoxsul ailələri dəstəkləmək üçün istifadə edilir. Yoxsulluq səviyyəsi əhəmiyyətli dərəcədə enmişdir, lakin bir çox ailələr gəlir əldə etməkdə və uşaqlarının əsas ehtiyaclarını təmin etməkdə hələ də çətinliklərlə üzləşirlər.

Azərbaycan əhalisi Ümumdünya Səhiyyə Təşkilatının müəyyən etdiyi gündəlik və illik qida normasından xeyli aşağı miqdarda ərzaq məhsulları istehlak edir, xüsusən yüksək kalorili məhsulların istehlakı müəyyən olunmuş normadan xeyli aşağıdır: "Ət və ət məhsulları istehlakının adambaşına illik norması 84 kiloqramdır. Reallıqda isə ölkə əhalisi adambaşına ildə cəmi 33 kiloqram ət istehlak edir. Süd və süd məhsullarının istehlakı norması adambaşına 360 kiloqram müəyyən olunsa da, il ərzində 248 kiloqram, balıq və balıq məhsulları üzrə norma 20 kiloqram olduğu halda 6,8 kiloqram, yumurta norması 280 ədəd müəyyənləşdiyi halda bunun yarısından da az, yəni 131 ədəd istehlak edilir".

Qidalanma - insanın həyat fəaliyyətinin əsasıdır, onun mövcud olmasına, uzunömürlülüyünə, əhval - ruhiyyəsinə, infeksiyalara qarşı davamlığına və ətraf mühitin digər əlverişsiz faktorlarına dayanıqlığının əsas şərtlərindən biridir. Qidaya və heyvanların yem rasionuna ərzaq və yemlərin keyfiyyəti birbaşa təsir etdiyindən onların həcmi, strukturu müəyyənləşdirilir. Bundan baş-

qa, qida rasionunun optimallaşdırılması bir çox xəstəliklərin profilaktikası və müalicəsi üçün istifadə edilir. [2, s. 132]

Ölkənin ərzaq təhlükəsizliyinin təminatı dövlət qarşısında duran ən vacib məsələlərdən biridir. Bu problemi dövlət xarici və daxili təhlükələri aradan qaldıraraq həll edir. Müxtəlif mənbələrdə ərzaq təhlükəsi probleminin fərqli variantları təklif olunur. Belə ki, ərzaq təhlükəsini şərtləndirən amillər kimi əsas ərzaq məhsullarının istehsalının həcminin azalması, ərzaq məhsullarının idxalının həcminin artması, aqrar sənaye kompleksinin istehsal potensialının azalması, strateji rezervlər, operativ və sığorta ehtiyatlarının çatışmazlığı göstərilmişdir. Uşaçev İ.Q. ərzaq təhlükəsini şərtləndirən daxili amillər sırasına təbii fəlakətləri (quraqlıq, daşqınlar və s.), cəmiyyətdə təbəqələşmənin dərinləşməsi və aztəminatlı əhalinin çəkisinin (payının) artması, kənd təsərrüfatında və ASK-nin digər sahələrində genişlənmiş təkrar istehsalın səviyyəsinin aşağı düşməsini (və ya tamamilə olmaması), xarici faktorlara isə ölkənin, onun ayrı-ayrı regionlarının, iri şəhərlərin, sənaye mərkəzlərinin ərzaq məhsullarının idxalından asılılığını aid edir. [2, s.155]

Ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə çevik və effektiv qərarlar real vəziyyətin obyektiv məlumatlar əsasında qiymətləndirilməsi, mövcud və gələcəkdə baş verə biləcək problemlərin aşkarlanması və aradan qaldırılması üçün qısa, orta və uzunmüddətli tədbirlərin müəyyənləşdirilməsi vasitəsilə verilir. Qeyd edilən problemlərin həlli istiqamətində tədbirlərin müəyyənləşdirilməsi və qərar qəbul edilməsi prosesinin effektivliyinin artırılması üçün ərzaq təhlükəsizliyi üzrə etibarlı informasiya və monitorinq sistemi formalaşdırılmalıdır. Hazırda ölkədə ayrı-ayrı qurumlarda və təşkilatlarda ərzaq təhlükəsizliyi üzrə məlumat bazaları mövcud olsa da, ərzaq təhlükəsizliyi üzrə ixtisaslaşdırılmış informasiya və monitorinq sistemi hələ ki, mövcud deyildir. Belə ki, mövcud sistemlərdə ərzaq təhlükəsizliyi ilə bağlı məlumatlar vardır. Dövlət Statistika Komitəsində ərzaq məhsullarının istehsalı, satış qiyməti, istehlakı, ərzaq balansları və s. kimi məlumatlar mövcuddur. Ekologiya və Təbii Sərvətlər Nazirliyində və digər qurumlarda hava şəraiti və yağıntılarla, torpaq, su resurslarının vəziyyəti ilə bağlı məlumatlar toplanır. Lakin bütün bu məlumatların ərzaq təhlükəsizliyi baxımından uyğunlaşdırılmasına və vahid məlumat bazasında sistemləşdirilməsinə ehtiyac vardır. Qeyd edilən məlumatların sistemləşdirilməsi ərzaq təhlükəsizliyi ilə bağlı vəziyyətin kompleks monitorinqinə imkan verəcək və beləliklə də sahə ilə bağlı qəbul edilən qərarların effektivliyi daha da yüksələcəkdir. [1, s. 52]

Azərbaycanda adambaşına 0,55 ha kənd təsərrüfatına yararlı torpaq sahəsi düşür. Qeyd etmək lazımdır ki, yalnız bu göstərici kənd təsərrüfatında istehsalın həcmini müəyyənləşdirən səbəblər sırasında əsas fondların yetərincə ödənilməməsi, kənd təsərrüfatı, ərzaq və emal sənayesini material-texniki avadanlıqla təmin edən istehsal sahələrinin qismən və ya tamamilə məhdudlaşdırılması və torpağın münbitliyinin azalması, toxumçuluq sisteminin deqredasiyası və s. misal göstərmək olar. Eləcə də, sadə texnologiya kənd təsərrüfatı istehsalının iqtisadi səmərəliliyinin azalmasını, bu isə öz növbəsində yerli məhsulların rəqabət qabiliyyətinin aşağı düşməsini şərtləndirir. Kənd təsərrüfatı məhsullarının qiymətlərindəki disparitet, gəlirlərin elə bölgüsünə gətirib çıxarır ki, bu vəziyyət nəinki kənd təsərrüfatında genişlənmiş təkrar istehsal üçün əlverişli şərait yaradır, hətta bu sahənin ixtisarına gətirib çıxarır. Bu baxımdan dövlətin kənd təsərrüfatını dəstəkləməsi (dotasiya və subsidiyalar şəklində) çox vacibdir. Bu dəstəyin genişləndirilməsi və ünvanlı şəkildə yönəldilməsi, bu vəsaitlər üzərində ciddi nəzarət (müəyyən proqramlar daxilində) ölkənin ərzaq təhlükəsizliyi probleminin həllində öz müsbət təsirini göstərə bilər. İxtiyari ölkənin kənd təsərrüfatı məhsullarının istehsalının səviyyəsi istehsal faktorunun və dövlət tərəfindən ərzaq təhlükəsizliyinin təmin edilməsi imkanlarının nəticəsi kimi səciyyələnir.

Ölkənin ərzaq təhlükəsizliyi dövlətçilik və suverenliyin saxlanılması, demoqrafik siyasətin mühüm seqmenti, həyat təminatlığı sistemi, sağlamlığın qorunmasının zəruri şərti, fiziki aktivlik, uzunömürlülük və ölkə əhalisinin yüksək həyat keyfiyyətliliyi olan mühüm elemetlərini özündə birləşdirərək milli təhlükəsizliyin tərkib hissəsi kimi təyinat alır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. 2016.

2. Abbasov İsmət Dursun oğlu. Ərzaq təhlükəsizliyi və kənd təsərrüfatının prioritet istiqamətləri. Bakı, 2011.
3. İsrafilov H.A. Qloballaşma şəraitində istehlak kooperasiyasının inkişaf perspektivləri. Bakı, 2010.
4. Azərbaycanın Statistik Göstəriciləri. Bakı, 2016.
5. Əliyev F.G. "Ev təsərrüfatı gəlirləri, həyat səviyyəsi və yoxsulluq". "Elm", Bakı, 2000.

Elektron mənbələr

6. http://www.fao.org
7. http://www.agro.gov.az/
8. http://musavat.com/news/gundem/erzaq-tehlukesizliyi-strateji-meqseddir.

Илхама Ейбулла кызы Асланова
ст. пред. Университет Азербайджана,
диссертант НАНА

Влияние продовольственной безопасности на устойчивое развитие в Азербайджанской Республике

Резюме

В статье основное внимание уделяется продовольственной безопасности страны, государственности и суверенитету, а также жизнеобеспечения. Дальнейшее улучшение продовольственного снабжения населения страны, обеспечение продовольственной безопасности страны стало одной из важнейших проблем, стоящих перед государством.

Ключевые слова: устойчивое развитие, продовольственная безопасность.

Ilhama Eybulla Aslanova
H/t. of Azerbaijan University,
candidate for a degree of ANSA

Influence of food security on sustainable development in the Republic of Azerbaijan

Summary

The article focuses on the country's food security, statehood and sovereignty, and the life support system. Further improvement of food supply of the country's population, provision of food security of the country has been promoted as one of the most important issues facing the state.

Key words: sustainable development, food security.

Aynurə Fazil qızı ALLAHYAROVA
AKTN Kənd Təsərrüfatının İqtisadiyyatı ET İnstitutu

ƏRZAQ BAZARINDA TARAZLIĞIN TƏMİN EDİLMƏSİNİN MAKROİQTİSADİ VƏ MİKROİQTİSADİ AMİLLƏRİ

Xülasə

Ərzaq bazarı digər bazarlardan fərqli olaraq əhalinin təbii tələbat məhsullarının reallaşdığı bazardır. Bu baxımdan bu bazarın dərindən araşdırılması mühüm əhəmiyyət kəsb edir. Ərzaq bazarına təsir edən amillər ayrı-ayrılıqda öyrənilməli və ərzaq bazarında tarazlığı pozan amillər aradan qaldırılmalıdır. Məqalədə tarazlığa təsir edən amillər araşdırılır.

Açar sözlər: ərzaq bazarı, tarazlıq, tələb, təklif, rəqabət.

***

Ümumiyyətlə götürdükdə, ərzaq bazarında tarazlığın təmin edilməsinin zəruriliyini əsaslandırarkən daha çox dövlətin strateji maraqlarını və eləcə də cəmiyyət üzvlərinin ehtiyaclarının

qarşılanmasını, onların sosial şəraitinin yaxşılaşdırılmasının vacibliyini dərk etmək ön plana çəkilməlidir.

İstər nəzəri tədqiqatlar və istərsə də inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, ərzaq bazarında tarazlığın təmin edilməsinin zəruriliyi ilk növbədə dövlətin strateji maraqlarının qorunması ilə bağlıdır. Məlum olduğu kimi dövlətin strateji maraqlarının qorunması ilk növbədə ölkənin milli təhlükəsizliyinin təmin edilməsinin vacib şərti kimi səciyyələnir. Bundan əlavə, ərzaq bazarında tarazlığın təmin edilməsini mikroaspektdən də dəyərləndirmək mümkündür və bu mikroaspektlər həm cəmiyyət üzvlərinin sosial ehtiyaclarının qarşılanması və eləcə də kənd təsərrüfatı və ərzaq məhsullarının, eləcə də yeyinti məhsullarının istehsalı ilə məşğul olan təsərrüfat subyektlərinin öz gəlirli fəaliyyətini reallaşdırması ilə sıx bağlıdır. Ümumiyyətlə götürdükdə, proseslər daha çox daxili bazarın qorunması aspektindən də əhəmiyyət kəsb edir və ərzaq bazarında tarazlığın qorunmasına nail olunması üçün ilk növbədə təsərrüfat subyektlərinin rentabelli fəaliyyət göstərməsi, onların təsərrüfat fəaliyyətini gəlirlə başa çatdırması mühüm əhəmiyyətə malikdir.

Aparılan araşdırmaları ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, ərzaq bazarında tarazlığın təmin edilməsinin zəruriliyini məhz aşağıdakı faktorlarla əsaslandırmaq mümkündür, daha doğrusu, ərzaq bazarında tarazlığın təmin edilməsinin zəruriliyi aşağıdakı arqumentlərlə sıx əlaqədardır:

- ərzaq bazarında tarazlığın təmin edilməsinin strateji arqumentləri;
- ərzaq bazarında tarazlığın təmin edilməsinin makroiqtisadi aspektləri;
- ərzaq bazarında tarazlığın təmin edilməsinin mikroiqtisadi aspektləri;
- ərzaq bazarında tarazlığın təmin edilməsinin sosial aspektləri.

Yuxarıda adı çəkilən arqumentlər ərzaq bazarında tarazlığın təmin edilməsinin zəruriliyini şərtləndirən amillər kimi çıxış etməklə yanaşı, eyni zamanda ərzaq bazarının qorunmasının və eləcə də ölkənin ərzaq təminatının yaxşılaşdırılmasının və bütövlükdə dövlətin ərzaq təhlükəsizliyinin təmin edilməsinin əsas arqumentləri sayıla bilər.

Ərzaq bazarında tarazlığın təmin edilməsinin zəruriliyini əsaslandıran ən aparıcı arqument strateji amillərlə bağlıdır. Ərzaq bazarında tarazlığın təmin edilməsinin zəruriliyini şərtldəndirən strateji arqument, yuxarıda qeyd etdiyimiz kimi, ilk növbədə dövlətin strateji maraqları ilə sıx bağlıdır. Dövlətin strateji maraqları isə, məlum olduğu kimi, aqrar sahədə dövlətin iqtisadi təhlükəsizliyinin qorunması, daha doğrusu, dövlətin ərzaq təhlükəsizliyinin təmin edilməsi zərurəti ilə sıx bağlıdır.

Məlum olduğu kimi, dövlətin ərzaq təhlükəsizliyinin təmin edilməsi kifayət qədər mürəkkəb və kompleks tədbirlərin həyata keçirilməsi zərurətini özündə əks etdirir və ərzaq təhlükəsizliyinin təmin edilməsi bir sıra amillərlə yanaşı, eyni zamanda ərzaq bazarında tarazlığın təmin edilməsindən də bilavasitə asılıdır.

İ.e.d. A.Abbasov hesab edir ki, ərzaq təhlükəsizliyi iqtisadiyyatın elə bir vəziyyətini özündə əks etdirir ki, mövcud imkanlar hesabına əhalinin fəal və sağlam həyat tərzi keçirməsi üçün zəruri həcmdə ərzaq məhsullarına olan tələbatı təmin etmək mümkün olsun. Ərzaq təhlükəsizliyi hər bir vətəndaşın ərzaq istehlakı səviyyəsindən bilavasitə asılı olmaqla həm mikro və makro, həm də qlobal səciyyə daşıyır. Ərzaq təhlükəsizliyinin mikro səciyyə daşıması hər bir fərdin yaşamaq imkanları ilə xarakterizə olunur. Təbii ki, makro aspektlər ölkənin ümumi inkişaf səviyyəsi, qlobal aspektlər isə beynəlxalq münasibətlər və dünyada baş verən geosiyasi dəyişikliklərlə bilavasitə bağlıdır. Ümumiyyətlə götürdükdə isə ərzaq təhlükəsizliyi həm xroniki və həm də müvəqqəti dövri olaraq özünün kəskinlik mərhələsini yaşayır. Ərzaq təhlükəsizliyinin xaotik xroniki xarakter daşıması adətən inkişaf etməkdə olan ölkələr üçün səciyyəvi hal hesab olunur. Bu proses həmin ölkələrdə iqtisadi inkişaf səviyyəsinin aşağı olması, eyni zamanda büdcə imkanlarının məhdudluğu, kənd təsərrüfatında və onunla bağlı digər sahələrdə intensiv texnologiyaların tətbiqinin aşağı səviyyədə olması, infrastrukturun zəif inkişafı, əhalinin alıcılıq qabiliyyətinin, yerli ərzaq istehsalının rəqabətədavamlılığının keyfiyyətinin aşağı olması və s. çoxsaylı faktorlarla bağlıdır [1, s. 178-181].

İ.e.d. A.Abbasovun fikirləri ilə razılaşmaqla yanaşı həm də onun fikirlərini dəstəkləmək baxımından ifadə etmək istəyirik ki, ərzaq təhlükəsizliyinin təmin edilməsi həm də məhsulun reallaş-

dırılması şərtlərindən də bilavasitə asılıdır. Bu baxımdan ərzaq bazarında tarazlığın təmin edilməsinə istiqamətlənmiş tədbirlər çərçivəsində ərzaq bazarının maddi əsasını təşkil edən əmtəə təklifinin, xüsusi ilə yerlə əmtəə təklifinin iqtisadi cəhətdən stimullaşdırılması mühüm əhəmiyyətə malikdir. Ərzaq bazarında təklifin səviyyəsinin artırılması istiqamətində həyata keçirilən tədbirlər ilk növbədə qiymətlərin səviyyəsinin istehlakçılar üçün əlyetərli olmasına gətirib çıxarır. Məlum olduğu kimi, ərzaq bazarında tələbin səviyyəsi xüsusilə elastik xarakter daşıyır və belə bir şəraitdə tələbin səviyyəsinin artmasına istiqamətlənmiş adekvat tədbirlərin həyata keçirilməsi məhz yerli təklifin həcminin artırılması ilə sıx bağlıdır. Yerli təklifin həcminin artırılması isə ərzaq təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynayır.

Ərzaq bazarında tarazlığın təmin edilməsinin obyektiv zəruriliyini şərtləndirən strateji arqumentlər içərisində eyni zamanda daxili bazarın qorunmasına yönəldilmiş tədbirlərin də mühüm əhəmiyyət kəsb etdiyini qeyd etmək mümkündür. Belə ki, adı çəkilən strateji arqumentlər içərisində daxili bazarın qorunmasına istiqamətlənmiş tədbirlər daxili ərzaq bazarının qorunmasında əhəmiyyətli rol oynayır və bütün bunlar eyni zamanda ərzaq bazarında yerli məhsulların rəqabətqabiliyyətinin yüksəldliməsi ilə sıx bağlıdır. Ərzaq bazarında rəqabət qabiliyyətinin yüksəldilməsinə istiqamətlənmiş tədbirlər həm tarazlığın təmin edilməsinə əhəmiyyətli təsir göstərir və həm də ərzaq bazarında yerli məhsulun xüsusi çəkisinin yüksəldilməsinə gətirib çıxarır və bütün bunlar ərzaq təhlükəsizliyinin təmin edilməsində də mühüm rola malikdir. Məlum olduğu kimi, ərzaq təhlükəsizliyinin təmin edilməsinin ən başlıca meyarı ərzaq məhsulları ilə özünütəminat səviyyəsinin yüksəldilməsi ilə sıx bağlıdır. Yerli ərzaq məhsulları ilə özünütəminat səviyyəsinin yüksəldilməsi hesabına ərzaq bazarında əmtəə təklifinin həcmini artırmaq mümkündür ki, bu da ərzaq bazarında artmaqda olan tələbin səviyyəsinin yüksəlməsinə adekvat reaksiya göstərməsi deməkdir. Məhz belə bir şəraitdə qiymətlərin səviyyəsinin sabitləşdirilməsinə nail olmaq mümkündür. Ərzaq bazarında tarazlı situasiyanın yaranması eyni zamanda idxal kanallarından asılılığın neytrallaşdırılması deməkdir. Bu isə beynəlxalq bazar konyunkturunda baş verən dalğalanmadardan yerli ərzaq bazarının etibarlı şəkildə sığortalanmasını şərtləndirən başlıca amillərdən biri hesab edilir. Məhz tarazlı ərzaq bazarını formalaşdırmaq, eyni zamanda tarazlı qiymət səviyyəsini müdafiə etmək dövlətin strateji məqsədlərindən biri hesab edilməklə yanaşı eyni zamanda həm dövlətin sosial siyasətinin və həm də aqrar siyasətin başlıca vəzifələrindən biri hesab edilir.

Ərzaq bazarının və tarazlığın təmin edilməsinin zəruriliyini şərtləndirən arqumentlər içərisində makroiqtisadi amillər də əhəmiyyətli rol oynayır. Makroiqtisadi amillər ilk növbədə ərzaq bazarında əmtəə təklifinin əsasını təşkil edən yerli məhsulların iqtisadi cəhətdən istehsalının stimullaşdırılmasını özündə əks etdirir. Makroiqtisadi amillər ilk növbədə yerli əmtəə istehsalçılarının stimullaşdırılmasını nəzərdə tutmaqla yanaşı eyni zamanda makroiqtisadi baxımdan cəmiyyətdə sabitliyin yaranmasının başlıca ilkin şərti hesab edilir. Məlum olduğu kimi, makroiqtisadi sabitliyin təmin edilməsi bir sıra amillərlə yanaşı eyni zamanda ərzaq bazarında tarazlığın təmin edilməsindən də bilavasitə asılıdır. Makroiqtisadi sabitlik və makroiqtisadi tarazlıq əsas etibarı ilə ərzaq bazarında tarazlığın təmin edilməsi ilə sıx bağlı olmaqla yanaşı, həm də cəmiyyətdə sosial-iqtisadi sabitliyin qorunub saxlanılmasının başlıca ilkin şərtidir.

Ərzaq bazarında tarazlığın təmin edilməsi eyni zamanda cəmiyyətdə sosial şəraitin yaxşılaşdırılmasını özündə ehtiva edir. Cəmiyyətdə sosial sabitliyin təmin edilməsi isə cəmiyyət üzvlərinin, xüsusilə aztəminatlı əhali kateqoriyalarının əlyetərli qiymətə ərzaq məhsulları əldə etmək imkanlarından da bilavasitə asılıdır. Makroiqtisadi tarazlığın təmin edilməsinə istiqamətlənmiş tədbirlər çərçivəsində həm yerli əmtəə istehsalçılarının maraqlarının müdafiə edilməsi və həm də istehlakçıların əlyetərli qiymətə məhsul reallaşdırmaq imkanları mühüm rola malikdir.

Ərzaq bazarında tarazlığın təmin edilməsinin obyektiv zəruriliyini şərtləndirən amillər içərisində mikroiqtisadi faktorlar da mühüm rola malikdir. Məlum olduğu kimi, cəmiyyətin bütün üzvləri ərzaq məhsullarını istehlak edir və həmin istehlak ilk növbədə təbii ehtiyacların təmin edilməsi zərurəti ilə sıx bağlıdır. Nəzərə almaq lazımdır ki, ərzaq bazarını kənd təsərrüfatı və yeyinti məhsulları ilə təmin edən təsərrüfat subyektləri kənd təsərrüfatı əmtəə istehsalçıları və onlarla sıx bağlı olan yeyinti sənaye məhsullarının istehsalçıları hesab edilir. Adı çəkilən təsərrüfat subyektləri isə mikroiqtisadiyyatın ən böyük subyektləri hesab olunur. Məlum olduğu ki-

mi, ərzaq bazarının əmtəə təminatını təşkil edən əmtəə istehsalçıları əsasən fiziki şəxs statuslu ailə təsərrüfatları, kooperativ strukturlar, yeyinti sənayesində məhsul istehsal edən təsərrüfat subyektləri və digər qurumlardır. Məhz ərzaq bazarında tarazlığın təmin edilməsi əmtəə təklifinin həcminin artırılması ilə sıx bağlı olduğundan ərzaq bazarında mövcud tarazlı şərtlərin qorunub saxlanılması ilk növbədə mikroiqtisadiyyatın subyektləri olan yerli əmtəə istehsalçılarının rentabelli fəaliyyət göstərməsinin başlıca ilkin şərti kimi çıxış edir. Məhz belə bir şəraitdə həmin mikroiqtisadiyyatın subyektləri sayılan fiziki şəxs statuslu təsərrüfat suybektləri, kooperativlər, fermer təsərrüfatları və digər qurumlar gələcəkdə geniş təkrar istehsal proseslərini uğurla həyata keçirə bilirlər ki, bu da onların müflisləşməsinin qarşısının alınması deməkdir. Beləliklə, ərzaq bazarının subyektini təşkil edən qurumların müflisləşməsinin qarşısının alınmasına yönəldilmiş fəaliyyət iqtisadiyyatın ən mühüm və strateji əhəmiyyətli sahəsi olan kənd təsərrüfatının davamlı inkişafının başlıca ilkin şərti kimi çıxış edir. İstehsal, mübadilə, eyni zamanda bölgü və istehlak geniş təkrar istehsal prosesinin ən mühüm həlqələrini təşkil etdiyindən bütövlükdə ərzaq bazarının və tarazlığın qorunmasına yönəldilmiş fəaliyyət həm istehsal-mübadilə, bölgü və həm də istehlak şərtlərinin yaxşılaşdırılmasında əhəmiyyətli rol oynayır.

Ərzaq bazarında tarazlığın təmin edilməsinin zəruriliyini şərtləndirən ən mühüm arqumentlərdən biri sosial arqumentlər hesab edilir. Yuxarıda qeyd etdiyimiz kimi, ərzaq bazarında mövcud durum ilk növbədə cəmiyyətin sosial şərtlərinə, sosial dayanıqlığına əhəmiyyətli təsir göstərir. Məlum olduğu kimi cəmiyyət heç də yeknəsək aspektdən formalaşmış istehlakçı təbəqəsindən ibarət deyil. Belə ki, cəmiyyət üzvləri sosial qurumlarına görə həm yüksək istehlak imkanlarına malik, orta istehlak imkanlarına malik və aşağı istehlak imkanlarına malik təbəqələrdən formalaşır. Beləliklə, əslində ərzaq bazarında tarazlığın təmin edilməsi və eləcə də ərzaq bazarında əlyetərli qiymətə məhsulun istehlak olunma imkanlarının saxlanılması cəmiyyətin bütün təbəqələri üçün mövcud əlverişli şərtlərin formalaşdırılması deməkdir. Beləliklə, ərzaq bazarında tarazlığın təmin edilməsinə istiqamətlənmiş fəaliyyət tarazlı qiymətlərlə aztəminatlı əhali təbəqələrinin ərzaq və kənd təsərrüfatı və yeyinti məhsullarının istehlak imkanlarını yaxşılaşdırır ki, bu da cəmiyyətdə sosial sabitliyin qorunub saxlanılmasının başlıca ilkin şərti hesab edilir. Vaxtilə Türkiyənin cümhur başqanlarından biri olmuş və eyni zamanda Türkiyədə baş nazir vəzifəsini yerinə yetirmiş Turqut Özal hesab edirdi ki, dövlət əslində varlı millətdən formalaşır. Varlı cəmiyyət üzvləri varlıların sosial vəziyyətinin yaxşılaşdırılması hesabına dövlətin iqtisadi və sosial gücünü artırmaq və onu beynəlxalq münasibətlər sisteminin qüdrətli subyektlərindən biri etmək iqtidarındadır. Bu aspektdən yanaşdıqda məhz cəmiyyətdə sosial sabitliyin qorunub saxlanılması və onun mühüm qarantı olan ərzaq bazarında tarazlığın təmin edilməsinə istiqamətlənmiş tədbirlərin həyata keçirilməsinə xüsusi önəm verilməlidir.

Beləliklə, yuxarıda qeyd edilənləri ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, əslində ərzaq bazarında tarazlığın təmin edilməsinin zəruriliyini şərtləndirən amillər strateji aspektdən dövlətin ərzaq müstəqilliyinin, ərzaq təhlükəsizliyinin qorunması ilə sıx bağlı olmaqla yanaşı, eyni zamanda makroiqtisadi və mikroiqtisadi amillərdən və sosial arqumentlərdən bilavasitə asılıdır.

ƏDƏBİYYAT

1. A.F.Abbasov. Ərzaq təhlükəsizliyi. Bakı-2007, 602 s.
2. Экономическая теория: Микроэкономика, макроэкономика, мегоэкономика. Учебник для ВУЗов. Под ред. А.И.Подвинина, Л.С.Порасевича. Санкт-Петербург 2008. 544 с.

Айнура Фазил кызы Аллахярова
АЗНИЦЭ и ОСХ

Макроэкономические и микроэкономические факторы в обеспечении баланса на продовольственном рынке

Резюме

Продовольственный рынок отличается от других рынков тем, что на этом рынке реализуется потребность населения в натуральных продуктах. Связи ъ этой важно глубоко изу-

чить этот рынок. Факторы, влияющие на продовольственный рынок, должны изучаться отдельно, а негативно влияющие факторы на равновесие рынка должны быть устранены. В статье рассматриваются факторы, влияющие на равновесие.

Ключевые слова: продовольственный рынок, равновесие, спрос, предложение, конкуренция.

Aynura Fazil Allahyarova
ASRIE and OA

Macroeconomic and microeconomic factors in ensuring balance in the food market

Summary

The variety of food market from other markets is realization of population's demand for natural products. In this regard, it is important to explore this market. Factors affecting the food market should be studied separately and the food-market equality factors should be eliminated. Affecting factors of the equality are investigated in this article.

Key words: food market, balance, demand, supply, competition.

Vüsalə Musa qızı BABAYEVA
Kənd Təsərrüfatının İqtisadiyyatı
İnstitutunun şöbə müdiri, i.f.d.

ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ ƏSAS PRİORİTET İSTİQAMƏTLƏR

Xülasə

Məqalədə ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi məsələləri təhlil olunmuşdur. Eyni zamanda ərzaq məhsulları istehsalının artırılmasında kənd təsərrüfatının inkişaf etdirilməsi məsələləri öz əksini tapmışdır.

Açar sözlər: ərzaq təhlükəsizliyi, kənd təsərrüfatı, alıcılıq qabiliyyəti, istehlak, istehsal, iqtisadi inkişaf.

***

Kənd təsərrüfatının inkişaf etdirilməsi ölkə iqtisadiyyatının inkişafının əsasını təşkil edir. Belə ki, kənd təsərrüfatında istehsal olunan məhsullar həm əhalinin ərzaq məhsullarına olan tələbatının, həm də emal sənaye sahələrinin xammala olan tələbatının ödənilməsində əsas rol oynayır. Eyni zamanda, kənd təsərrüfatı məhsullarının istehsalında tələb olunan resursların istehsalına ehtiyac yaranır ki, bu da yeni istehsal sahələrinin yaradılmasını şərtləndirir. Məhz bu bağlılıq və sıx əlaqələrin mövcudluğu kənd təsərrüfatı ilə bağlı sahələrin inkişafını şərtləndirməklə əhalinin işsizlik səviyyəsinin azalmasında, məşğulluq səviyyəsinin yüksəlməsində və gəlirlərinin artırılmasında mühüm rol oynayır. Onu da qeyd edək ki, əhalinin gəlirlərinin artması onların alıcılıq qabiliyyətinin yüksəlməsini stimullaşdırmaqla ərzaq təhlükəsizliyinin təmin edilməsində vacib olan şərtlərdən birinin ödənilməsini təmin edir. Məlumdur ki, ərzaq təhlükəsizliyinin təmin edilməsinin dörd əsas istiqaməti mövcuddur. Bura aşağıdakılar daxildir:

- ərzaq məhsullarının mövcudluğu;
- ərzaq məhsullarına əlçatanlıq;
- ərzaq məhsullarının istifadəsi;
- stabillik (sağlam və keyfiyyətli ərzaq məhsullarının istehsal imkanlarının mövcudluğu).

Ərzağın mövcudluğu - ərzaq məhsullarının fiziki mövcudluğu, ərzaq məhsullarının yaradılmış ehtiyatı, ərzaq istehsalı, ehtiyat və xalis ticarət səviyyələri ilə müəyyən edilir. Ərzaq məhsularına olan tələbatın ödənilməsi yerli istehsal və ərzaq məhsullarının idxalı hesabına təmin edilir.

Ərzaq məhsullarına əlçatanlılıq - Ərzağa iqtisadi və fiziki əlçatanlıq kimi qəbul edilir. İqtisadi əlçatanlıq əhalinin alıcılıq qabiliyyəti, onların gəlirləri, əldə etdikləri mənfəət, ərzaq məhsullarının qiymətləri, həmçinin sosial təminat və onlara çıxış imkanları ilə müəyyən edilir. Fiziki əlçatanlıq isə ərzaq məhsullarının istehlakçıya çatdırılması infrastrukturunun mövcudluğu və keyfiyyəti, bazarların fəaliyyətinə kömək edən digər amillər(məhsulların saxlanılması, bazar iştirakçılarının normal fəaliyyəti üçün şəraitin mövcudluğu və s.) tərəfindən müəyyən edilir. Bir çox inkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatı, meşələr, balıqçılıq və su təminatı ərzaq təhlükəsizliyinin nəticələrinin müəyyən edilməsində əsas rol oynayır.

İstifadəsi - Ərzaq məhsullarını istehlak edən bazar seqmentlərinin düzgün müəyyən edilməsi, əmək fəaliyyətində itirilən enerjinin bərpası, məhsulların kaloriliyinə görə düzgün qəbulu, istehlakçıların tələbatının bioloji ödənilməsi səviyyəsi ilə müəyyən edilir.

Stabillik - yuxarıdakı üç ölçünün sabitliyinin təmin olunması zəruridir.Yəni respublikamızda ərzaq ehtiyatının kifayət qədər olmasına baxmayaraq ərzaq təhlükəsizliyinin təmin edilməsi daima diqqət mərkəzində ola bilər. Kənd təsərrüfatı məhsulları istehsalının təbii-iqlim şəraitindən asılılığı və bu baxımdan risklərin (quraqlıq, doluvurma, xəstəlik, selbasma) daim mövcudluğu məhsulların qıtlığının yaranmasına, qiymətlərin həddən artıq qalxmasına səbəb ola bilər. Digər tərəfdən, müharibə riskinin daim mövcud olması, işsizlik və qiymətlərin qalxması ərzaq təhlükəsizliyinin vəziyyətinə təsir göstərə bilər.

Qeyd edək ki, hər bir vətəndaş sağlam həyat yaşamaq üçün yetərincə faydalı və əlverişli ərzaq və qida nəhsulları əldə etmək məqsədi ilə daimi işləyir və çalışır. Onlar əldə etdikləri gəlirlərin bir hissəsini ərzaq məhsullarının istehlakına sərf edirlər. Ümumilikdə əhali gəlirlərinin 40%-nin ərzaq məhsullarının istehlakına xərclənməsi normal və iqtisadi qanunauyğun hal kimi qəbul edilir. Əhalinin ərzaq məhsulları ilə təmin edilməsi problemi bütün dövrlərdə öz aktuallığını saxlamışdır. Onu da qeyd edək ki, dünyada və eləcə də ayrı-ayrı ölkələrdə əhalinin artımı ərzaq məhsullarına olan tələbatın yüksəlməsini şərtləndirir. Ərzaq məhsullarının əsas və başlıca istehsal sahəsi isə kənd təsərrüfatıdır. Kənd təsərrüfatına yararlı torpaqların artımı mümkün deyil və digər sahələr hesabına əkin sahələrinin genişlənməsi isə kənd təsərrüfatında tarazlığın pozulmasına səbəb olur. Məhz bu baxımdan, kənd təsərrüfatında ərzaq məhsullarının artırılması istehsalın intensiv yollarla inkişaf etdirilməsini, sahədən məhsuldarlığın artırılmasını şərtləndirir.

Ərzaq təhlükəsizliyi problemlərini araşdıran bir çox tədqiqatçı alimlərin qənaətinə görə, əhalinin etibarlı ərzaq təminatına mənfi təsir edən amillər içərisində su və hasil olunan enerji resurslarının tükənməsi, iqlim şəraitinin və torpağın münbitliyinin pisləşməsi mühüm rol oynayır. Bunlarla bərabər bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərmək, iqtisadi liberallığın mövcudluğu, dövlətin bir növ müəyyən vasitələrlə tənzimləməyə çalışmasına baxmayaraq yaranmış problemlərin tam aradan qalxmaması da ərzaq məhsulları istehsalının artmasına mənfi təsir göstərir.

Ərzaq təhlükəsizliyinin iqtisadi anlamı əhalinin ərzaq məhsullarına olan tələbatının təmin edilməsi üçün mövcud daxili imkanlar, o cümlədən ölkənin aqrar sahədəki ehtiyatlardan səmərəli istifadə edilməsi imkanları ilə şərtlənir. Ərzaq təhlükəsizliyinin iqtisadi tərəfi dövlətin daxili bazarı xarici rəqabətin əlverişsiz təsirlərindən qoruması və çevik iqtisadi siyasəti vasitəsilə təmin edilir. [3, s. 179]

Statistik məlumatların təhlili göstərir ki, 2016-cı ildə ərzaq məhsulları istehsalında potensial məhsuldarlığa nisbətən faktiki məhsuldarlıq ayrı-ayrı bitkilər üzrə (yaşıl çay yarpağı) 28,2%-lə 98,6% (bostan) arasında dəyişmişdir. Çayın məhsuldarlığı potensial məhsuldarlığa nisbətən 28,2%, dənli və dənli paxlalılar 43,7%, kartof 46,7%, dən üçün qarğıdalı 25,3%, üzüm 40,7%, şəkər çuğunduru 98,0 % təşkil etmişdir. 2005-ci ildən sonrakı dövrdə kartofda, 1995-ci ildən sonrakı dövrdə ərzaqlıq bostan, şəkər çuğunduru, üzüm, dən üçün günəbaxanın məhsuldarlığında dinamik artım müşahidə olunmuşdur. Taxılın məhsuldarlığında artma - azalma müşahidə olunsa da məhsuldarlıq gözlənilən səviyyədən aşağıdır. Əhalinin ərzaq məhsullarına olan tələbatının il boyu ödənilməsi üçün idxalına ehtiyac yaranır. Azərbaycanda ərzaq məhsulları üzrə idxaldan asılılıq səviyyəsi cədvəl 1-də verilmişdir.

Cədvəl 1

	2012	2013	2014	2015	2016	Əvvəlki ilə nisbətən Artma + Azalma -
Dənlilər cəmi	35,7	36,1	39,4	35,5	36,5	+1
- buğda	43,2	44,1	45,9	45,2	47,1	+1,9
Paxlalılar	28,9	24,2	24,0	30,7	31,7	+1
Kartof	7,8	7,7	15,7	14,8	18,1	+3,3
Bütün növ tərəvəz	5,7	3,1	3,4	3,4	5,1	+1,7
Meyvə və giləmeyvə	10,1	4,9	3,6	9,6	12,6	+3
Bütün növ mal-qara və quş əti	8,8	8,1	8,1	5,6	12,1	+6,5
- mal əti və ət məhsulları	8,9	14,8	13,2	8,8	6,6	-2,2
- qoyun (keçi) əti və ət məhsulları	1,5	2,3	2,1	0,7	1,3	+0,6
- quş əti və ət məhsulları	12,2	1,5	2,1	1,4	20,9	+19,5
- süd və süd məhsulları	27,5	24,3	23,9	16,0	12,6	-3,4
Yumurta	4,2	0,1	0,3	0,3	1,2	+0,9

Mənbə: stat.gov.az, ərzaq balansları. Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Statistik məlumatların təhlili göstərir ki, son illərdə kənd təsərrüfatı məhsulları istehsalına tələbat artmışdır. Burada əsas amillərdən biri də əhalinin artımıdır. Belə ki, əhalinin sayı 2012-ci ildə 9356,5 min nəfər təşkil edirdisə, bu göstərici 2016-cı ildə 453,5 min nəfər artaraq 9810,0 min nəfərə çatmışdır. Təbii, bu halda istehlak mallarına, o cümlədən ərzaq məhsullarına olan tələbat artmalıdır. Eyni zamanda kənd təsərrüfatında istehsal olunan ərzaq məhsulları istehsalında da ciddi artım müşahidə olunmamışdır. Belə ki, 2012-ci ildə təmizlənmiş çəkidə buğda istehsalı 1796,2 min ton təşkil edirdisə, bu göstərici 2016-cı ildə 1795,7 min olmuşdur ki, burada da 0,5 min ton azalma baş vermişdir. Bu da öz növbəsində idxaldan asılılıq səviyyəsinin buğda üzrə 3,9% artmasına səbəb olmuşdur. Onu da qeyd edək ki, taxıl üzrə idxaldan asılılıq səviyyəsi son beş ildə 35-37% arasında tərəddüd edir və 2015-ci illə müqayisədə 2016-cı ildə idxaldan asılılıq səviyyəsi 1% yüksəlmişdir.

Əhalinin ərzaq məhsullarına olan tələbatının daxili istehsal hesabına ödənilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi və kənd təsərrüfatı məhsulları istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsi, sahədən məhsuldarlığın artırılması bir sıra amillərin nəzərə alınmasını zəruri edir. Bu amillərin başlıcası əsas istehsal vasitəsi olan torpaq sahələrindən səmərəli istifadə edilməsidir. Torpaqlardan səmərəli istifadə zamanı onun iqtisadi səmərəliliyi yüksəlir. Məhsuldarlığın artırılması xərclərin azalmasına və rəqabət qabiliyyətinin yüksəlməsinə, istehsalçı gəlirlərinin və istehsala marağın artmasına səbəb olur.

Ərzaq təhlükəsizliyi məsələləri nə üçün vacibdir? Bunu aşağıdakı amillərlə izah etmək olar.

- Qlobal ərzaq təhlükəsizliyi ailələrə və təsərrüfatlara daha müstəqil və firavan həyat üçün təməllər qurmağa kömək edir.
- Kənd təsərrüfatının inkişafına və ərzaq təhlükəsizliyinin təmin edilməsinə investisiya qoyuluşlarının nəticələri tibbi, təhsil və iqtisadi imkanları artırır.
- Kənd təsərrüfatının məhsuldarlığını təmin edən və insanlara kifayət qədər əlverişli, faydalı ərzaq əldəetmə imkanı verən cəmiyyətlər gözlənilməz şoklara daha az həssasdırlar və uzunmüddətli dayanıqlıq yaratmağı daha yaxşı bacarırlar.

Ölkəmizdə ərzaq təhlükəsizliyini gücləndirmək üçün aşağıda qeyd edilən məsələlərin öz həllini tapması məqsədəuyğundur.

Kənd təsərrüfatının inkişaf etdirilməsi üçün hökumət və aqrar elm sahələri özəl sektorlar, universitetlər və QHT-lərlə əməkdaşlıq etməklə kiçik fermerlərə, xüsusilə də qadınlara dəstək göstərilməlidir. Belə ki, kənd təsərrüfatının inkişaf etdirilməsi və bu sahəyə investisiyaların qoyulması yoxsulluğun daha tez aradan qalxmasına, idxaldan asılılıq səviyyəsinin azalmasına və əhalinin gəlirlərinin və alıcılıq qabiliyyətinin yüksəlməsinə səbəb olacaq.

Ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm amillərdən birini kənd təsərrüfatı məhsullarının ticarəti təşkil edir. Sovet iqtisadi sistemində kənd təsərrüfatı məhsullarının əsas satınalması dövlət tədarükü hesabına olurdu. Bu halda istehsalçı bir çox problemlərdən azad idi. O, bazar haqqında düşünmür, məhsulun daşınmasında, saxlanılmasında və qiymətlərinin dəyişməsində narahatçılıq keçirmir. Demək olar ki, bir çox xərclərdən azad olurdu ki, bu da öz növbəsində məhsul istehsalına çəkilən xərclərin azalmasına, itkilərin minimuma enməsinə səbəb olurdu. Bir sözlə, istehsalçı itki ilə üzləşmirdi. Qiymətlərin vahid sistem üzrə müəyyən edilməsi və istehlakçının alıcılıq qabiliyyətinə uyğun tənzimlənməsinə baxmayaraq ümumi nəticədə bir çox təsərrüfatların zərərlə işləməsinə və təsərrüfatların dotasiyalar hesabına fəaliyyətlərini davam etmələrinə səbəb olurdu ki, bu da iqtisadi baxımdan əlverişli deyildir.

Bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən təsərrüfatlarda problem başqa müstəvidə özünü göstərməyə başladı. Bura aşağıdakılar daxildir:

- istehsal resursları ilə təminat və onların əldə edilməsində maliyyə çatışmazlığı;
- keyfiyyətli toxumların əldə edilməsi;
- məhsulların qablaşdırılması;
- məhsulların saxlanılması;
- bazarlara çıxış imkanlarının məhdudluğu;
- məhsulların qiymətinin tələb-təklifdən asılı olaraq tənzimlənməsi;
- emalçıların qiymətləri diqtə etməsi və s.

Aparılan tədqiqatlar göstərir ki, kənd təsərrüfatı məhsullarının istehsalında və istehsaldan sonrakı mərhələdə yəni son istehlakçıya çatdırılmasında mövcud olan problemlər ərzaq məhsulları istehsalının azalmasına səbəb olur. Məhsul istehsalçıları öz istehsal etdikləri məhsulları bazarlara çıxarmaqda çətinliklərlə üzləşirlər, eyni zamanda bütün məhsul istehsalçılarının bazara məhsul çıxarması da infrastruktur baxımından mümkün deyildir. Odur ki, kənd təsərrüfatı məhsullarının xüsusilə də ərzaq məhsullarının bazarlarda satışı aralıq vasitəçiləri tərəfindən həyata keçirilir ki, bu da məhsulların qiymətinin bir neçə dəfə iqtisadi əsası olmadan artmasına səbəb olur. Bazarda qiymətlərin artımı istehsal dəyərindən bir neçə dəfə artıq olamqla əhalinin alıcılıq qabiliyyətini də bir neçə dəfə üstələyir. Təbii, burada əhalinin gəlirlərinin aşağı olması özü də ərzaq təhlükəsizliyi prinsiplərinin pozulmasına dəlalət edir.

Kənd təsərrüfatının ən vacib sahələrindən biri olan heyvandarlıq sahəsi əhalini ərzaq məhsulları içərisində ət, süd və yumurta ilə təmin edən bir sahədir. Məhz bu baxımdan heyvandarlıq sahəsi özü bir müstəqil statistik tədqiqat obyektidir. Kənd təsərrüfatı fəaliyyətinin səmərəliliyi göstəricilər sistemi ilə müəyyən edilir ki, bunların işərisində rentabelliyə dair məlumatlar xüsusi əhəmiyyət daşıyır. Kənd təsərrüfatında qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsi üçün zəruri şərait onun iqtisadi səmərəliliyini artırmaqdır. Kənd təsərrüfatı istehsalının iqtisadi səmərəliliyinin artırılması məsələsi getdikcə əhəmiyyətli sosial və iqtisadi bir problemə çevrilir, çünki kənd təsərrüfatında bazar münasibətlərinə keçid tənəzzül dövrünü nəzərə almasaq istər bitkiçilik sahəsində, istərsə də heyvandarlıq sahəsində məhsuldarlığın əhəmiyyətli dərəcədə azalmasına səbəb olmuşdur.

Qeyd edək ki, heyvandarlıq məhsullarının, xüsusən də ət və süd məhsullarının istehsalı əsasən ailə-kəndli və ev təsərrüfatlarında baş verir. Bu təsərrüfatların 90%-də, demək olar ki, heyvanların iribuynuzlu heyvanlar üzrə baş sayı 1-5 arası, xırdabuynuzlu heyvanlar üzrə isə 5-30 arası dəyişir. Təbii ki, bu sayda heyvanların saxlanılmasında innovativ texnologiyaların tətbiqi məhduddur, demək olar ki, mümkün deyildir.

Ət və süd məhsullarının istehsalında resursların səmərəli istifadəsinin böyük üstünlükləri vardır. Belə ki, heyvanların istehsal istiqamətinə görə düzgün yem ehtiyatları yaradılmalı və yemləmə səviyyəsi yüksəldilməlidir. Qeyd edək ki, qidalanma nisbətlərinin azaldılması, məhsulların istehsalı, emalı, saxlanması və satışında kompleks mexanizasiyanın və səmərəli texnologiyaların tətbiqi; avadanlıqların və onların keyfiyyətinin yaxşılaşdırılması; maddi istehlakın azaldılması və məhsulların sərmayə intensivliyi; sabit yem bazasının yaradılması, yem bitkilərinin məhsuldarlığının artırılması, resursların qənaətcil texnologiyalarının tətbiqi heyvandarlıq sahəsində məhsuldarlığın artırılmasında başlıca şərtdir.

ƏDƏBİYYAT

1. “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2008-ci il tarixli Sərəncamı.
2. Azərbaycanın Statistik Göstəriciləri, Bakı 2017.
3. İslam İbrahimov. Aqrar sahənin iqtisadiyyatı. Bakı - 2016, 653 s.

Вусаля Муса кызы Бабаева
Институт Экономики Сельского Хозяйства
доктор экономики по философии

Основные приоритетные направления обеспечения продовольственной безопасности

Резюме

В статье анализируются вопросы обеспечения продовольственной безопасности страны. В то же время отражены вопросы развития сельского хозяйства в увеличении производства продовольственной продукции.

Ключевые слова: продовольственная безопасность, сельское хозяйство, покупательная способность, потребление, производство, экономическое развитие.

Vusala Musa Babayeva
Institute of the Economy of
Agriculture PhD of economy

The main priority directions for ensuring food security

Summary

The issues of ensuring food securitythe country is analyzedin the article.At the same time, are reflected the issues of the development of agriculture in increasing the production of food products.

Key words: food security, agriculture, purchasing power, consumption, production, economic development.

Bayram Kamran oğlu ƏHMƏDOV
Azərbaycan Dövlət İqtisad Universiteti
Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi

MİLLİ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN NƏZƏRİ ƏSASLARI VƏ KONSEPSİYALARI

Xülasə

Məqalədə Milli iqtisadi təhlükəsizliyin nəzəri əsasları, konsepsiyaları və müddəaları araşdırılmış, dövlət orqan və hakimiyyət qurumları tərəfindən milli maraqların təminatlı qorunması, iqtisadi təhlükəsizlik elementləri, iqtisadi təhlükəsizlik indikatorları, o cümlədən iqtisadi artım və xarici bazarlardan asılılığın minimuma çatdırılmasını səciyyələndirən indikatorlar iqtisadi təhlükəsizliyin elementləri kimi araşdırılıb. Astana kəmiyyətləri iqtisadi sistemin təhlilinin, proqnozlaşdırılması və proqramlaşdırılmasının ən zəruri alətlərindən biri olaraq təhlil olunmuşdur.

Açar sözlər: Milli iqtisadi təhlükəsizlik, iqtisadi təhlükəsizlik elementləri, iqtisadi təhlükəsizlik indikatorları, iqtisadi sistemin təhlili, astana kəmiyyətləri.

Giriş

«Milli təhlükəsizlik» anlayışı möhkəm surətdə müasir cəmiyyətin həyatına daxil olmuş, əksər dövlətlərin daxili və xarici siyasətinin ayrılmaz hissəsinə çevrilmişdir. Məsələn, ABŞ və bir sıra digər dövlətlər özlərinin milli təhlükəsizlik strategiyasını işləyib hazırlayırlar. Təsdiq olun-

muş müddəaya görə, nə qədər ki, iqtisadiyyat cəmiyyətin, dövlətin və şəxsiyyətin həyati cəhətdən vacib fəaliyyət tərəflərindən birini özündə ehtiva edir, bir o qədər də milli təhlükəsizlik anlayışı mümkün daxili və xarici təhlükələr zamanı iqtisadiyyatın həyat qabiliyyətini, onun möhkəmliyini qiymətləndirmədən boş söz olaraq qalacaqdır.

Aydındır ki, milli təhlükəsizlik anlayışı iqtisadi təhlükəsizlik anlayışına nisbətən daha geniş anlayış olub, özündə maliyə, sosial, ekoloji, energetika və s. təhlükəsizlikləri birləşdirir. Lakin təhlükəsizliyin bu və ya digər tərəflərinə baxarkən onların iqtisadi aspektlərini nəzərə almamaq olmaz. Bir sıra ümumi şərtlər və amillər bu anlayışı ön plana çəkməsələr də, hər halda cəmiyyətin və dövlətin müasir həyatına sistemli baxışı formalaşdıran anlayışlar sırasına daxil edirlər. Birincisi, bu fərqlər milli maraqlardadır, inteqrasiya proseslərinin inkişafına baxmayaraq onları ümumi maraqlardan daha tam şəkildə ayırmağa cəhd edilməsindədir. Maraqların spesifikliyi onların reallaşdırılması mexanizmlərinin müəyyən edilməsini və müvafiq strategiyanın işlənib hazırlanmasını tələb edir. İkincisi, təbii resrusların məhdudluğu, ayrı-ayrı ölkələrin bu resurslarla müxtəlif dərəcədə təmin olunması həmin resruslardan istifadə uğrunda iqtisadi və siyasi mübarizənin kəskinləşməsi üçün potensial imkanı özündə saxlayır. Üçüncüsü, əmtəə istehsalı və satışında, xüsusilə də maliyyə-bank xidmətləri sferasında rəqabət amilinin əhəmiyyəti artır. Maliyyə-bank sektorunun inkişafı üçün zəruri şərait yaratmaq və onun dəqiq işini nizamlamaq bacarığı yeni sənaye və kənd təsərrüfatı texnologiyaları yaratmaq bacarığı ilə eyni sıraya qoyulur. Məhz buna görədir ki, bir qrup ölkələrin rəqabət qabiliyyətinin artması digərləri tərəfindən real təhlükə, onların milli maraqlarına təhdid kimi qiymətləndirilir.

Milli iqtisadi təhlükəsizliyin təmin olunması haqda nəzəri baxışlar

Hər bir ölkə üçün milli iqtisadi təhlükəsizlik sistemi konsepsiyası iqtisadi inkişafın müxtəlif pillələrində konkret tarixi əhəmiyyət kəsb edir. Respublikamız üçün iqtisadi təhlükəsizlik məsələsini mövcud reallıqlar baxımından yaşadığımız XXI əsrin ən mühüm problemlərindən biri kimi səciyyələndirən akademik Z.Ə.Səmədzadənin fikrincə, ölkə daxilində siyasi sabitliyin təmin olunduğu şəraitdə belə, suveren dövlətə iqtisadi sfera ilə bağlı xarici təhlükələr heç də azalmayacaqdır [6, s. 4]. Ona görə ki, «… beynəlxalq maliyyə bazarı, dünya ticarəti, transmilli şirkətlərin fəaliyyəti genişləndikcə, informasiya və telekommunikasiya texnologiyaları inkişaf etdikcə, bu və ya digər ölkələrin iqtisadi təhlükəsizlik problemləri də mürəkkəbləşir». Heç bir xarici dövlət, beynəlxalq təşkilat, xarici investor başqa ölkəyə maraqsız kömək etmir, hər belə köməyin arxasında mənafelər durur. Ona görə də hər bir xarici kömək milli mənafelər baxımından qiymətləndirilməlidir [7, s. 207].

Keçmiş İttifaqın tərkibində olduğu zaman Azərbaycanın iqtisadi təhlükəsizliyi əsasən mümkün qədər ittifaq büdcəsindən daha çox vəsait əldə etməklə şərtlənirdisə, hazırda bu problem mövcud resurslardan səmərəli istifadə etməklə ümummilli mənafelərin reallaşdırılması, sağlam milli iqtisadiyyatın formalaşdırılması prinsiplərinə tabe edilir [3, s. 8]. Odur ki, bütün bunlar nəzərə alınmaqla, respublikamızın mövcud reallıqlarına cavab verən milli iqtisadi təhlükəsizlik sisteminin formalaşması konsepsiyasının işlənib hazırlanması xüsusi əhəmiyyət kəsb edir.

İqtisadi ədəbiyyatda bəzən ümummilli mənafelərin təsnifatı zamanı iqtisadi təhlükəsizlik milli təhlükəsizlikdən ayrılır [2, s. 31], bəzən isə səhv olaraq informasiya və hərbi təhlükəsizliklər də iqtisadi təhlükəsizliyə daxil edilir [10, s. 59]. Fikrimizcə, hərbi təhlükəsizliyin daxilindən müdafiə-sənaye təhlükəsizliyinin ayrılaraq iqtisadi təhlükəsizliyə aid edilməsi daha düzgün olardı. Ona görə ki, müdafiə-sənaye təhlükəsizliyi bir tərəfdən, hərbi-sənaye kompleksinin Azərbaycanın ən əlverişsiz beynəlxalq şəraitdə inkişafı və geosiyasi statusunun aşağı düşməsi təhdidləri zamanı hərbi (müdafiə) təhlükəsizliyi qoruyub saxlamaq qabiliyyətidir, digər tərəfdən isə, sənayenin fəaliyyət sferasıdır.

Beləliklə, milli təhlükəsizlik iqtisadi təhlükəsizlikdən geniş anlayış olub, iqtisadi təhlükəsizlikdən başqa özünə siyasi, hərbi, sosial, informasiya, ekologiya, elm, mədəniyyət, mənəviyyat və s. təhlükəsizliyi daxil edir [1, s. 4].

Prof. L.P.Qonçarenkonun ümumi redaktəsi ilə 2008-ci ildə çap olunmuş «Экономическая и национальная безопасность» adlı dərsliyində qeyd olunur ki, milli iqtisadi təhlükəsizlik iqtisadiyyatın və hakimiyyət institutlarının elə bir vəziyyətidir ki, bu zaman milli maraqların zəma-

nətli müdafiəsi, bütövlükdə ölkənin harmonik, sosial istiqamətli inkişafı, kifayət qədər iqtisadi və müdafiə potensialı təmin edilir [12, s.31].

Azərbaycanın iqtisadçı alimləri N.Məmmədov və M.Bərxudarovun "İqtisadi təhlükəsizlik" adlı dərsliyində (2006-cı il) qeyd olunur ki, milli iqtisadi təhlükəsizlik milli iqtisadiyyatın inkişaf səviyyəsindən və ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsindən, milli mənafeyin əsas götürülməsindən, millətin mənəviyyatının sağlam və ya qeyri-sağlamlığının inkişaf istiqamətindən, müdafiə potensialının istifadə edilməsi bacarığından və s. asılıdır [5, s.108].

Ü.Əliyevin fikrincə, iqtisadi təhlükəsizliyin mahiyyəti dövlət institut və hakimiyyət orqanları tərəfindən milli mənafelərin təminatlı müdafiəsi, hətta daxili və xarici əlverişsiz şəraitin mövcud olduğu dövrdə kifayət dərəcədə müdafiə potensialını təmin etməkdən ibarətdir [4, s.18]. Rus iqtisadçısı V.K.Sençaqov isə iqtisadi təhlükəsizliyə hansısa mücərrəd nəzəri konstruksiya kimi baxmağı məsləhət görmür. Onun təbirincə, milli maraqların qorunması hakimiyyət institutlarının yerli iqtisadiyyatın inkişafı, cəmiyyətin sosial-siyasi sabitliyinin qorunub saxlanması üzrə milli maraqların reallaşması və qorunması mexanizmlərini yaratmaq hazırlığı və qabiliyyəti ilə təmin edilir [10, s.58-59].

İqtisadçı alim A.İllarionovun fikrincə, iqtisadi təhlükəsizlik dedikdə, iqtisadi, siyasi və hüquqi şəraitlərin elə bir uzlaşması başa düşülür ki, bu zaman uzunmüddətli perspektivdə daha səmərəli üsulla əhalinin hər nəfərinə iqtisadi resrusların maksimum miqdarının dayanıqlı istehsalı təmin olunur [8, s.35-38].

Fikrimizcə, iqtisadi təhlükəsizliyin daha dəqiq və əhatəli tərifini akademik Z.Ə.Səmədzadə vermişdir. Onun fikrincə, iqtisadi təhlükəsizlik dedikdə, «…iqtisadiyyatın və onun qurumlarının elə vəziyyəti başa düşülür ki, bu, milli mənafeləri müdafiə etməyə, yeridilən siyasətin sosial yönümlüyünə, iqtisadiyyatın, ölkənin müdafiə qabiliyyətinin tələb olunan səviyyədə olmasına imkan yaratsın» [6, s.208].

İqtisadi təhlükəsizlik haqqında yuxarıda qeyd olunan fikirlər bir-birindən prinsipcə fərqlənmirlər. Belə ki, iqtisadi ədəbiyyatda ümumi halda milli iqtisadi təhlükəsizlik dedikdə, cəmiyyətin iki mühüm hissəsinin, daha doğrusu, dövlət və bazarın ölkənin vətəndaşları ilə birgə təhlükəsizliyinin təmin edilməsi başa düşülür [3, s. 8]. Beynəlxalq təcrübə göstərir ki, bu iki yarımsistemin hər bir ünsürü ölkədə yeridilən iqtisadi siyasətdən asılı olaraq biri digərinə nisbətən təhlükə mənbəyi və yaxud təhlükəsizliyin təminatçısı rolunu oynaya bilər.

Beləliklə, iqtisadi təhlükəsizliyin mahiyyətini daxili və xarici proseslərin hətta əlverişsiz inkişafı şəraitində milli maraqların zəmanətli müdafiəsinin, kifayət qədər müdafiə potensialının təmin edildiyi iqtisadiyyatın və hakimiyyət institutlarının vəziyyəti kimi müəyyən etmək olar. Başqa sözlə desək,iqtisadi təhlükəsizlik-yalnız milli maraqların qorunması demək deyil, həm də yerli iqtisadiyyatın inkişafı, cəmiyyətin sosial-siyasi sabitliyinin qorunması üzrə milli maraqların reallaşması və müdafiəsi mexanizmlərini yaratmaq sahəsində hakimiyyət institutlarının hazırlığını və qabiliyyətini ifadə edir.

Ölkənin iqtisadi təhlükəsizlik səviyyəsinin müəyyənləşdirilməsi konsepsiyası

İqtisadiyyat daha mürəkkəb bir sistem kimi onun vəziyyətini xarakterizə edən minlərlə göstəricilərə malikdir. Təkcə ölkənin hər hansı il üçün sosial -iqtisadi inkişaf proqnozunun rəsmi cədvəllərində 300-dən çox göstərici mövcuddur. Fikrimizcə, iqtisadi təhlükəsizliyin təhlili məqsədi üçün bütün bu məcmu göstəricilərdən təxminən 150-yə qədərini aşağıdakı fərqli xüsusiyyətlərinə görə indikator adlandırmaq olar:

- onlar miqdar formasında iqtisadi təhlükəsizlik təhdidlərini əks etdirir;
- onlar yüksək həssaslığa və dəyişikliyə malikdirlər. Ona görə də hökumətin iqtisadi siyasət sferasında qəbul etdiyi tədbirlər nəticəsində hökumətin makroiqtisadi vəziyyətin dəyişməsi ilə əlaqədar mümkün təhlükələr haqqında cəmiyyətə, dövlətə və bazar subyektlərinə xəbərdarlıq edə bilərlər;
- bu indikatorlar öz aralarında kifayət qədər güclü dərəcədə qarşılıqlı təsirə malikdirlər.

Çox vaxt iqtisadi ədəbiyyatda astana kəmiyyətlərini keçmiş planlaşdırma təcrübəsilə eyniləşdirirlər. Əslində isə astana kəmiyyətləri sistemin təhlilinin, proqnozlaşdırılmasının və sosial-iqtisadi proqramlaşdırmanın ən vacib alətlərindən sayılır. Bu alətin köməyilə bu və ya digər

obyekt, indiki halda iqtisadiyyat onun vəziyyətinin ölkənin milli maraqlarına uyğunluq meyli nöqteyi-nəzərdən baxılır. Təhlükəsizlik nəzəriyyəsi yalnız o vaxt praktiki əhəmiyyət kəsb edir ki, o, öz strukturuna obyektin son hədd kəmiyyətini daxil etsin.

Nəticə

Yekun olaraq onu qeyd edək ki, Milli iqtisadi təhlükəsizlik sisteminin kəmiyyət parametrləri vaxt etibarilə beynəlxalq hərbi və siyasi vəziyyətdən, bu və ya digər təhlükənin yaranması ehtimalı dərəcəsindən, elmi - texniki yeniliklərdən, əhalinin, cəmiyyətin və dövlətin yeni tələblərindən asılı olaraq dəyişir. Həmin astana kəmiyyətlərinin iqtisadiyyatın inkişafının faktiki və yaxud proqnozlaşdırılan səviyyə və xarkterindən mənfi istiqamətə kənarlaşması iqtisadi təhlükəsizliyin zəifləməsindən xəbər verir və vəziyyətin nizamlanması üçün xüsusi, o cümlədən dövlət tədbirlərinin həyata keçirilməsini şərtləndirir. Qeyd etmək lazımdır ki, dövlətin bütün təsərrüfat subyektlərinin fəaliyyətini direktiv metodlarla istiqamətləndirə bilmədiyi çoxukladlı bazar iqtisadiyyatı şəraitində iqtisadiyyatın, birinci olaraq, makroiqtisadi parametrlərə təsir etmək yolu ilə dövlət tənzimlənməsi, struktur dəyişikliklərin və pul - maliyyə axınlarının məqsədyönlü tənzimlənməsi zəruridir. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi mexanizminin təkmilləşdirilməsi üzrə nəzəri və praktiki məsələlərin gələcəkdə işlənib hazırlanması Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasına əsaslanmalıdır.

ƏDƏBİYYAT

1. "Milli Təhlükəsizlik Haqqında" Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. N 8, 31 avqust, 2004.
2. Bayramov Ə.İ. Regional iqtisadi inteqrasiya və qloballaşma: nəzəriyyə və praktika. Azərnəşr, Bakı,1997, 208 s.
3. Əhmədov M.A. Milli iqtisadiyyatın iqtisadi təhlükəsizliyi və rəqabətədavamlılığının təmin olunmasının nəzəri əsasları [I Məqalə]. "İqtisad elmləri: nəzəriyyə və praktika" jurnalı,№1-2, Bakı 2000.
4. Əliyev Ü. Azərbaycanın iqtisadi təhlükəsizliyinin nəzəri və təcrübi məsələləri // İqtisad elmləri: nəzəriyyə və praktika. №1-2, Bakı, 2002.
5. Məmmədov N.M., Bərxudarov M.İ. İqtisadi təhlükəsizlik, Bakı, "İqtisad Universiteti" nəşriyyatı. 2006, 452 s.
6. Səmədzadə Z.Ə. Azərbaycanın sosial-iqtisadi inkişaf istiqamətləri. «Xalq qəzeti» 10 dekabr 2003-cü il.
7. Səmədzadə Z.Ə. Dünya iqtisadiyyatı. Çin iqtisadi möcüzəsi. B.: Gənclik, 2001, 317 s.
8. Илларионов А. Критерии экономической безопасности // Вопросы экономики. 1998 №10, с.35-38.
9. Самедзаде З.А. Экономической безопасность государства -важнейшее завоевание независимого Азербайджана. «İqtisadiyyat» газети, 18 октябр-01 ноябрь 2001, с.7-8.
10. Сенчагов В.К. Экономическая безопасность:геополитика, глобализация, самосохранение и развитие[Книга ıv]. Институт Экономики Ран М.:Зао «Финстатинформ, 2002.
11. Экономическая безопасность, производство-финансы-банки. Под ред. акад. В.К.Сенчагова М., Зао «Финстатинформ, 1998, 621 с.
12. Экономическая и национальная безопасность: Учебник /Под ред. Е.А.Олейникова. М.: Издательство «Экзамен», 2004. 768 с.

Байрам Кямран оглу Ахмедов
АГЭУ

Научные основы и концепции национальной экономической безопасности

Резюме

В статье раскрыта научные основы и концепции национальной экономической безопасности, национальные интересы, интересы государственных органов и властных структур,

сущность экономической безопасности, элементы экономической безопасности, индикаторы, в том числе зависимость экономического роста и внешних рынков.

Ключевые слова: Национальная экономическая безопасность, индикаторы экономической безопасности, элементы экономической безопасности, анализ экономической системы, пороговые показатели.

Bayram Kamran Ahmadov
ASEU

National economic security to take a look at the basics and concepts

Summary

The article National economic security perspective on the foundations, concepts and regulations, state bodies and power structures, national interests, guaranteed protection, economic security, economic security indicators, including economic growth and dependence on external markets to minimize delivery of characterizing indicators of economic security elements has been studied. transition improve the quality of economic system analysis, prognosis and programmes of the most essential tools as part of the analysis was.

Key words: national economic security, indicators of economic security, elements of economic security, analysis of the economic system, thresholds.

Sehran Tomar oğlu ƏHMƏDOV
Azərbaycan Kooperasiya Univeristetinin magistri

ÖLKƏ ƏHALİSİNİN ƏRZAQ TƏMİNATI İLƏ BAĞLI DÖVLƏT SİYASƏTİ

Xülasə

Ərzaq təhlükəsizliyi ölkənin milli təhlükəsizliyinin əsasıdır. Ölkədə ərzaq təminatına nail olmaq üçün Azərbaycan Respublikasının Prezidentinin 2 mart 2001-ci il tarixli sərancamı ilə 2 mərhələdən ibarət "Azərbaycan Respublikasının Ərzaq təhlükəsizliyi Proqramı" təsdiq edilmişdir. Daha sonra ölkə rəhbərinin 2008-ci il mayın 1-i tarixli sərəncamına uyğun olaraq təsdiqlənmiş "Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə təminatına dair Dövlət Proqramı" çox mühüm bir məsələyə-2008-2015-ci illər ərzində daxili ərzaq bazarının idxaldan asılılığının maksimum dərəcədə azaldılmasına, ölkədə güclü ərzaq ehtiyatının yaradılmasına xidmət edir.

Açar sözlər: ərzaq təhlükəsizliyi, dövlət proqramı, torpaq.

***

Ölkədə aparılan aqrar islahatların dərinləşməsini, kənd təsərrüfatı məhsulları istehsalının artırılmasını və əhalinin ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılmasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Prezidentinin 2 mart 2001-ci il tarixli Xüsusi Sərəncamı ilə "Azərbaycan Respublikasının Ərzaq təhlükəsizliyi Proqramı" təsdiq edilmişdir. [1, s. 485]

Bu proqram ölkə hökumətinin ərzaq təhlükəsizliyi sahəsində öhdəlik və məqsədlərini əhatə edir. Proqramın əsas və başlıca məqsədləri aşağıdakılardan ibarətdir:

- yerli kənd təsərrüfatı məhsulları istehsalının artırılması və ərzaq məhsulları qiymətlərinin məqbul səviyyədə saxlanılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi;
- kəskin ərzaq qıtlığı hallarına yol verilməməsi sisteminin yaradılması.

Bu Proqramın icrasına nail olmaq üçün ölkə hökuməti iki mərhələdən ibarət olan aşağıdakı strategiyanın həyata keçirilməsini öhdəsinə götürür. [5, s. 2]

1. İslahatlar aparıldığı müddətdə ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün qısa və orta müddətli keçid tədbirlərin tətbiqi.

Bu mərhələdə tədbirlərin aşağıdakı istiqamətdə aparılması nəzərdə tutulur:

- müvafiq qanunların həyata keçirilməsinə nəzarət;

- gözlənilən ilkin nəticələrin əldə edilməsi üçün lazım olan büdcə ayrılmalarının dəqiqləşdirilməsi;
- ərzaq istehsalı sahəsində müvəqqəti vergi güzəştlərinin tətbiq olunması;
- qida məhsullarının istehsalı, emalı və satışı üçün kreditlərin alınmasına kömək göstərilməsi;
- qida məhsulları istehsalçılarının ərzaq idxalından müdafiəsi;
- müəssisələr arasında qarşılıqlı borcların resrukurizasiyası;
- istehlakçıların müdafiəsinin gücləndirilməsi.
- ərzaq təhlükəsizliyi sahəsində müvafiq məlumat sisteminin yaradılması yolu ilə fövqəladə vəziyyətə hazırlıqla bağlı əlavə tədbirlərin həyata keçirilməsi və s.

2. Ərzaq təhlükəsizliyi sahəsində uzunmüddətli tədbirlərin başlıca məqsədi ölkənin kənd təsərrüfatı gəlirliliyinin və rəqabət qabiliyyətinin artırılmasını, eləcə də beynəlxalq iqtisadi sistemə inteqrasiya olunmasını nəzərdə tutur.

Buna nail olmaq üçün aşağıdakı dörd istiqamətdə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- ərzaq təhlükəsizliyi ilə bağlı idarəetmə mexanizmlərinin möhkəmləndirilməsi;
- fermer təsərrüfatı kommersiyası və bazar iqtisadiyyatı tələblərinə cavab verən qurumlara çevrilməsi, kənd təsərrüfatı və ərzaq sektorları üçün müəyyən olunan güzəştlərin mərhələlərlə məhdudlaşdırılması;
- ölkədə ərzaq məhsullarının istehsalının inkişafı və kənd təsərrüfatının rəqabət qabiliyyətinin təmin edilməsi;
- kənddə infrastrukturun inkişafına kömək edən dövlət investisiya siyasətinin aparılması və s.

Ölkəmizdə 1995-ci ildə Ümumi sabitləşdirmə Proqramının həyata keçirilməsinə başlanılmış və ÜDM-in artım perspektivləri genişləndirilmişdir.1996-cı ildən Ümumi daxili məhsul artımı başlanılmışdır. Bu artım sonrakı illərdə davam edərək, 2000-ci ildə 11,4%-ə çatmışdır. [2, s, 120]

Ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün bir sıra islahatlar həyata keçirilmişdir:

Pul siyasəti. 2001-ci ildən həyata keçirilən pul siyasəti ümumi daxili məhsulun gözlənilən 8.5%-lik artımı fonunda pul kütləsinin 15% artımına yönəlmişdir.

Büdcə siyasəti. Məlum olduğu kimi, büdcə siyasəti makroiqtisadi sabitliyin vacib hissəsidir. Büdcə kəsrinin ümumi daxili məhsula nisbəti 1993-cü ildəki 15%-dən 1997-ci ildə 2,5%-ə, 1998-ci ildə isə 2%-ə endirilmişdir.Eyni zamanda maliyyə yardımları sayəsində borclar azaldılmışdır. [3, s. 125]

Vergi siyasəti. Büdcə gəlirlərinin artımı vergi sisteminin idarə olunması sahəsində həyata keçirilən bir sıra müsbət dəyişikliklər hesabına əldə edilmişdir. Onlara aşağıdakıları misal göstərmək olar:

- vergi ödəyicilərinin iri birliklərinin yaradılması;
- auditorların sayının artırılması və ödəmələrin məcburi köçürmə qaydalarının yaxşılaşdırılması yolu ilə vergi xidməti orqanlarının fəaliyyətinin gücləndirilməsi;
- alkoqollu içkilərə və tütün məmulatına tətbiq olunan aksiz vergilərinin yığımının yaxşılaşdırılması və s.

Torpaq islahatı. "Torpaq islahatı haqqında" Qanun 1996-cı ilin iyun ayında qəbul edilmişdir. Bu qanun kənd təsərrüfatı torpaqlarının özəlləşdirilməsinə imkan yaratmışdır. İlkin ümumi torpaq ehtiyatlarını təşkil edən, 8,6 milyon hektarın dövlət mülkiyyətində saxlanılması, 2,7 milyon hektarın bələdiyyə mülkiyyətinə verilməsi və 2,1 milyon hektar torpaq sahəsinin özəlləşdirilməsi nəzərdə tutulmuşdur.

2001-ci ilin əvvəlinə kimi 1,329 milyon hektar torpaq sahəsi özəlləşdirilmişdir. 3,21 milyon subyekt 818 min pay torpaqları üzərində mülkiyyət hüququnu təsdiq edən Dövlət aktı verilmişdir.

Torpaqlardan və təbii otlaqlardan istifadənin yaxşılaşdırılması. Ölkədə torpaqların 1,2 milyon hektarı bu və ya digər dərəcədə şorlaşmış,müxtəlif növ eroziyaya məruz qalmış,50 min

hektardan artıq torpaq çirklənmişdir. Bu torpaqların tənəzzülə uğramasının qarşısının alınması üçün mərhələli tədbirlərin görülməsi zəruridir. Bu tədbirlər torpaqlardan istifadə etmək haqqında əsasnamələrin qəbul edilməsini və onların həyata keçirilməsini, torpaqların tədqiqatının və müvafiq xəritələrin tərtib edilməsini, torpaqların sağlamlaşdırılmasına və torpaq keyfiyyətinin yaxşılaşdırılmasına dair hazırlanmış tədbirlərin həyata keçirilməsini əhatə etməlidir. [4, s.130]

Bütün bunlardan əlavə ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı üzrə Dövlət Proqramı"(2002-2005-ci illər üçün), "Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişafı üzrə Dövlət Proqramı" (2003-2005-ci illər üçün), "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2004-2008-ci illər üçün) və digər tarixi sənədlərdə qarşıya qoyulmuş təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsi sahəsində atılan uğurlu addımlar da əhalinin istehlakında yerli məhsulların xüsusi çəkisinin artmasına yardımçı oldu. Lakin hadisələrin gedişi göstərdi ki, ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatını yalnız yerli istehsal hesabına ödəmək o qədər də asan məsələ deyil.

Ölkə rəhbərinin 2008-ci il mayın 1-i tarixli sərəncamına uyğun olaraq təsdiqlənmiş "Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə təminatına dair Dövlət Proqramı" çox mühüm bir məsələyə-2008-2015-ci illər ərzində daxili ərzaq bazarının idxaldan asılılığının maksimum dərəcədə azaldılmasına, ölkədə güclü ərzaq ehtiyatının yaradılmasına xidmət edir. [6, s.1]

Bu gün ət, süd məhsulları, bitki yağları, şəkər və digər ərzaq məhsullarına olan tələbatın 95 faizini Azərbaycan özü ödəyir. Respublika Prezidenti İlham Əliyev ölkənin taxıla olan tələbatını da tam yerli istehsal hesabına ödəməyi təxirəsalınmaz vəzifə kimi qarşıya qoymuşdur. Hazırda taxılçılığın inkişaf etdirilməsi üçün böyük fermer təsərrüfatlarının yaradılması istiqamətində mühüm işlər görülməkdədir. Beynəlxalq mütəxəssislərin fikrincə, Azərbaycanda ərzaq təhlükəsizliyi göstəriciləri ötən 10 il ərzində xeyli yaxşılaşmışdır. Aqrar sektorun inkişafı, əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında da əsas istiqamətlərdən biri kimi nəzərdə tutulur. Dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri kimi məhz özəl sektorun hərtərəfli dəstəklənməsi, onun meydanının daha da genişləndirilməsi üçün əlverişli mühitin yaradılması, bu sahədə müxtəlif yardım və təşviq mexanizmlərinin tətbiq edilməsi əsas götürülür.

Son illərdə dünyanın bir çox ölkələri iqtisadi böhran bataqlığında çırpındığı halda, Azərbaycan nəinki makroiqtisadi sabitliyi qoruyub saxlayıb, həm də iqtisadi artıma görə dünyanın aparıcı dövlətlərindən birinə çevrilib. Təkcə bir faktı qeyd edək ki, Dövlət Proqramında qarşıya qoyulmuş vəzifələrə düzgün əməl edilməsi nəticəsində bu il sahələrdən 2 milyon 900 min tona yaxın, yəni 2012-ci ildəkindən 100 min ton çox dənli və dənli-paxlalı məhsul əldə olunub ki, bunun da 65 faizdən çoxunu, yəni 1 milyon 880 min tonunu buğda təşkil edir. Belə ki, əgər 2003-cü ildə adambaşına düşən taxılın həcmi 246 kiloqram idisə, artıq bu rəqəm 292 kiloqrama qalxıb. Adambaşına kartof, bostan-tərəvəz bitkiləri, şəkər çuğunduru və heyvandarlıq məhsulları sahəsində də böyük uğurlara imza atılıb. Əhalinin ərzaq məhsulları ilə təminatına dair dövlət proqramının icrasının uğurla davam etdirilməsi sayəsində kənd təsərrüfatı sahəsində 5,8 faiz artıma nail olunub.

ƏDƏBİYYAT

1. Məmmədov C.C. Aqrar bölmədə maddi-texniki təminat və xidmət işinin təşkili. Bakı, 2004 s. 529.
2. İbrahimov İ.H. Aqrar iqtisadiyyatın aktual problemləri. Bakı, 2002 s. 220.
3. İbrahimov İ.H. Aqrar islahatın təşkilati-iqtisadi mexanizmi. Bakı,1998 s.168.
4. Niftullayev V.M. Kənd təsərrüfatı iqtisadiyyatı. Bakı, "Elm", 1996 s. 220.
5. "Azərbaycan Respublikasının Ərzaq təhlükəsizliyi Proqramı". 2 mart 2001.
6. "Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə təminatına dair Dövlət Proqramı". 1 may 2008-ci il.

Сейран Томар оглы Ахмедов
магистр АУК

Государственной политика, связанная с продовольственным обеспечением населения страны

Резюме

Основа национальной безопасности продовольственной безопасности страны. В стране продовольственное обеспечение для достижения распоряжением Президента Азербайджанской Республики от 2 марта 2001 года «Продовольственной безопасности Азербайджанской Республики была утверждена Программа», состоящая из 2 этапов. Затем главой Государства от 1 мая 2008 года утверждена «Государственная Программа по обеспечению населения В Азербайджанской Республике продовольственными товарами» в зависимости внутреннего продовольственного рынка от импорта продовольственных запасов служат созданию в стране сильной, максимальное сокращение очень важный 2008-2015 годы в соответствии с распоряжением.

Ключевые слова: продовольственная безопасность, земля.

Sehran Tomar Akhmedov
master of ACU

The state policy on food security of the population

Summary

Food security is the basis of the country's national security. In order to achieve food security in the country “The Food Security Program of the Republic of Azerbaijan” consisting of 2 stages was approved by the President of the Republic of Azerbaijan on March 2, 2001. “State Program on Provision of Population with Food Products in the Republic of Azerbaijan”, which was approved on May 1, 2008, serves to reduce the dependence of the domestic food market on imports in 2008-2015 years and to create strong food reserves in the country.

Key words: food security, state program, land.

Şakir Hüseynqulu oğlu ƏLİYEV
texnika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Texnologiya Universiteti

İNSAN SAĞLAMLIĞINDA ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN ROLU

Xülasə

Ərzaq təhlükəsizliyi ölkənin milli təhlükəsizliyinin ən vacib elementlərindən biridir, buna görə Azərbaycan özünü kənd təsərrüfatı məhsulları ilə təmin etməlidir. Əhalini xaricdən alınan məhsullarla deyil, yerli məhsullar ilə təmin etmək daha məqsədəuyğundur. Azərbaycan dövlətinin bu sahədə qəbul etdiyi proqramlar ərzaq təhlükəsizliyinin aradan qaldırılması üçün müsbət haldır. Ərzaq təhlükəsizliyinin aşağı səviyyədə olması ölkənin milli suverenliyinə təhdid ola bilər.

Açar sölər: İqtisadi təhlükəsizlik, qida təhlükəsizliyi, insan sağlamlığı, meyvə - tərəvəz, vitamin.

***

Dövlətin iqtisadi təhlükəsizliyi onun milli təhlükəsizliyinin çox vacib tərkib hissəsidir. İqtisadi təhlükəsizliyin vacib tərkib hissələrindən biri də ərzaq təhlükəsizliyidir.

Ərzaq təhlükəsizliyi dövlətin milli təhlükəsizliyinin, dövlətçiliyinin, müstəqilliyinin, demoqrafik siyasətinin və yaşam təminatının tərkib hissəsidir. O, həmçinin sağlamlığın, fiziki aktivliyin, uzunömürlülüyün və keyfiyyətli aktiv həyat tərzinin zəruri şərtidir. Ərzaq təhlükəsizliyinin təmin edilməsində məqsəd görünən və gözlənilən təhdidləri aradan qaldırmaqdır, çünki əks təqdirdə bunlar istehsalın həcminin azalmasına, əhalinin müxtəlif ərzaq növləri ilə təchizatının

pisləşməsinə səbəb olar. Ona görə də hər bir dövlət bazarın dəyişkən dövründə öz vətəndaşlarını ərzaqla təmin etməklə əhalisini qida qıtlığı riskindən sığortalamış olar.

BMT-nin Kənd Təsərrüfatı və Ərzaq Təşkilatının (FAO) mütəxəssisləri tərəfindən müəyyən edilmiş kriteriyalara görə ərzaq təhlükəsizliyi dedikdə elə situasiya nəzərdə tutulur ki, bütün insanlar istənilən vaxt aktiv və sağlam həyat tərzi sürə bilmək üçün kifayət qədər keyfiyyətli qidaya fiziki və iqtisadi çıxış imkanlarına malik olsun. FAO-nun 2008-ci ildə Romada təşkil etdiyi sammitdə qəbul edilmiş bəyannamədə deyilir ki, istənilən dövlət öz vətəndaşlarının sağlamlıq üçün təhlükəsiz qida əldə etmək və aclıqdan azad olmaq hüququnu təmin etməyə borcludur.

Ərzaq təhlükəsizliyinin əsas elementləri hər bir vətəndaşın keyfiyyətli qidaya fiziki və iqtisadi çıxış imkanlarının olması ilə yanaşı, ölkənin milli ərzaq sisteminin iqtisadi baxımdan müstəqilliyini, yəni əsas ərzaq malları üzrə ixracdan asılı olmamasını, etibarlılığı, yəni ərzaq sistemini mövsüm, hava və digər amillərlə bağlı olan risklərdən qorumağı, dayanıqlılığı, yəni milli ərzaq sisteminin istehsalın genişləndirilməsi rejimində inkişafını nəzərdə tutur. Ərzaq təhlükəsizliyi probleminin kəskin xarakter almasından sonra bu məsələ istənilən dövlət, o cümlədən Azərbaycan üçün milli təhlükəsizliyin ən mühüm tərkib hissələrindən birinə çevrildi. [1, səh.48].

Azərbaycanda ərzaq təhlükəsizliyi səviyyəsini aşağıdakı göstəricilərlə qiymətləndirmək olar:

1. Əsas qida məhsulları və qida maddələri (adambaşına düşən) üzrə təbii istehsal göstəriciləri. Vacib təbii istehsal göstəriciləri - taxıl, qida, heyvan və yem zülalları istehsalı Aqrar Sənaye Kompeksinin vəziyyətini xarekterizə edir.

2. Ərzaq məhsullarının idxal məhsullarının bir hissəsi (qarşılıqlı əvəz oluna bilən ixracın nəzərdə tutulan kateqoriyaya uyğun ərzağın carı səviyyəsinə nisbətini çıxmaqla) olaraq ondan asılı olmasının mühüm nisbi göstəricisi.

3. Aqrar Sənaye Kompleksinin və maddi bazanın (əkin sahələri), vəziyyətini xarekterizə edən texniki - iqtisadi göstəricilər. Bu göstəricilər ərzaq təhlükəsizliyinin ortamüddətli meyillərini xarakterizə edir və cari və orta müddət vaxtı üçün planlaşdırma proqnozu üçün lazım olur.

4. Kənd yerlərində əmək resurslarının dinamikası və əhalinin reproduksiyasının sosial - demoqrafik göstəriciləri.

Azərbaycan müxtəlif çeşiddə tərəvəz məhsulları və tərəvəz konservləri ilə zəngin ölkədir. Əhalinin zəruri ərzaq məhsulları ilə təmin edilməsi dövlətin sosial iqtisadi siyasətində əsas yer tutur. Bu sahədə qarşıda duran məsələlərin həllinin əsas şərtləri konservləşdirmə texnologiyalarının sonrakı inkişafı, elmi-texniki tərəqqi əsasında səmərəliliyin artırılması, yeni texnoloji proseslərin işlənib hazırlanması və istehsalatda mənimsənilməsindən ibarətdir. Bu məqsədlə ölkədə müxtəlif tərəvəz məhsulları və konservləri istehsalında, xüsusi ilə bu sahənin xammal bazası kimi aqrar bölmədə bir sıra köklü islahatlar aparılmışdır. Bu istiqamətdə görülən işlər sahənin daha sürətlə inkişafına əlverişli zəmin yaratmışdır.

Hazırda dövlət tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına və emal müəssisələrinə geniş texniki və maliyyə dəstəyi göstərilir. Odur ki, son illər respublikada meyvə-tərəvəzin və onun emalı məhsullarının istehsalı ilbəil artır.

Son illər dünyada ekoloji vəziyyətin pisləşməsi, əhalinin xəstələnmə səviyyəsinin artması, orta ömür müddətinin qısalması müşahidə olunmaqdadır. Belə şəraitdə əhalinin sağlamlığının yaxşılaşdırılması müasir cəmiyyət üçün ən vacib və aktual məsələlərdən birinə çevrilir. İnsan orqanizminə ətraf mühitin antropogen təsirini azaltmaq üçün onun bu təsirlərdən mühafizə edilməsi və yaxud biosferin ziyanlı təsirini neytrallaşdıra bilən miqdarda ona ekoloji təmiz ərzaq məhsulları vermək lazımdır [2, internet mənbə, 3, səh, 24**]**.

Təzə tərəvəz istehsalının mövsümi xarakter daşımasına baxmayaraq, bunlar ilboyu gündəlik qidanın tərkibinə daxil olmalıdır. Müəyyən olunmuş fizioloji normaya əsasən, orqanizmin normal fəaliyyəti üçün hər adam ildə orta hesabla 106 kq meyvə-giləmeyvə və üzüm (gündə ən azı 300 qram), 110 kq kartof (gündə 300-350 qram), 130 kq tərəvəz və bostan məhsulları (gündə 350-400 qram) istehlak etməlidir. İlin bütün mövsümlərində lazımi qədər meyvə- tərəvəz istifadə edə bilmək üçün onları müxtəlif üsullarla konservləşdirirlər [4, səh 22**]**.

Konserv istehsalı yeyinti sənayesinin ən mürəkkəb istehsal sahələrindən biridir. O, istifadə olunan xammalın böyük müxtəlifliyi ilə, çoxlu sayda texnoloji proseslər və onların parametrləri

ilə fərqlənir. Əgər məhsulların qidalılıq dəyəri ilk növbədə onların kimyəvi tərkibi ilə səciyyələnirsə, onda onlardan hazırlanmış konservlərin keyfiyyəti və dəyəri texnoloji tələbatlara və parametrlərə riayət edilməsi ilə səciyyələnir [5, səh .67].

Son illər sağlam qidalanmanın daha çox populyarlaşması müşahidə olunur. Bununla əlaqədar olaraq qida tərkibində funksional məhsulların payı da artmışdır. Yeni növ funksional ərzaq məhsulları yaradılan zaman başlıca prinsip məmulatın tamdəyərliliyi və təhlükəsizliyinin zəmanət altına alınmasından ibarətdir.

Funksional qidalanma sağlamlığı qoruyur, hər hansı miqdarda dərmanları əvəz etmiş olur. Profilaktik qidalanma xəstəliklərin sayının azalmasına kömək edir ki, bu xəstəliklərin 80%-i qocalıqla, 50%-i diabetlə, 25%-i ürək çatışmamazlığı və 20%-i görmə zəifləməsi ilə əlaqədardır.

Azərbaycanda il ərzində min tonlarla qənnadı məmulatı istehlak olunur. Bunların çeşidləri müxtəlif yaş qrupundan olan əhalinin geniş tələbatına cavab verir. Bu məhsul Respublika əhalisinin böyük hissəsinin rasionunda mövcuddur. Hətta qeyri-sabit iqtisadi dövrlərdə belə istehlakçılar qənnadı məhsullarından tam şəkildə imtina etmirlər. Tədqiqatlara görə dünya üzrə qənnadı sənayesinin gəliri 176 milyard ABŞ dolları edir. Qənnadı məmulatı bazarının inkişafına təsir edən amillər əsasən - istehlakçıların gəlirinin artması; işləyən qadın personalının artması; urbanizasiya; sağlamlığın qorunmasına qayğının artması və s. hesab olunur.

Çoxsaylı marketinq tədqiqatları göstərir ki, müasir istehlakçılar qidalanma məsələlərinə daha çox diqqət ayırmaqla sağlamlıq üçün faydalı və təbii inqredientlərdən hazırlanmış ərzaq məhsullarına üstünlük verirlər.

Funksional qənnadı məmulatı bu gün də rəfləri tutan məhsul durumunda qalmaqdadır. Ancaq şirniyyat istehsalçıları daim öz məhsullarını rəqabət məhsullarından fərqləndirən yeni yollar axtarmaqla onların sürətlə artmasına şərait yaradırlar [6, səh. 58].

Ekspertlər hesablamışlar ki, funksional qənnadı məmulatının bazarda payı son ildə 28% (11 milyard ABŞ dolları səviyyəsində) artmışdır. Bununla belə funksional qənnadı məmulatının ümumi qənnadı bazarında payı yalnız 8% təşkil edir. Hazırda ölkədə ərzaq məhsulları istehsalı sahəsində iri müəssisələr fəaliyyət göstərməkdədir. İyirmibeş il bundan əvvəl Azərbaycanda fəaliyyətə başlayan "Azərsun Holding" MMC qida istehsalı, pərakəndə satış və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən, ölkənin qabaqcıl şirkətidir. Qida sektorunda Azərbaycanın istehsalçı və ixracatçı ölkə halına gəlməsində böyük rol oynayan "Azərsun Holding", tərkibində fəaliyyət göstərən zavodların güclü istehsal potensialı ilə yanaşı geniş ixracat şəbəkəsinə sahibdir. "Azərsun Holding" MMC-də Sun Tea Azərbaycan, Bakı Yağ Fabriki, Zeytun Emalı Fabriki, Qafqaz Konserv Zavodu, Azərbaycan Şəkər İstehsalat Birliyi, Zaqatala Fındıq Fabriki, Qənd İstehsalı Fabriki, Qida Paketləmə Müəssisəsi, Azərbaycan Duz İstehsalatı Birliyi, Biləsuvar Konserv Zavodu kimi ərzaq istehsalı üzrə iri müəssisələr fəaliyyət göstərməkdədirlər.

Azərbaycan Dövləti və hökuməti tərəfindən qəbul edilən Dövlət Proqramlarının məqsədi qeyd olunan problemlərin aradan götürülməsi ilə əhalinin sağlamlığının qorunması və möhkəmləndirilməsi, tamdəyərli olmayan və balanslaşmamış qidalanmanın yaratdığı xəstəliklərin profilaktikasının aparılmasından ibarətdir. Burada əhalinin sağlam qidalanması sahəsində dövlət siyasətinin əsas məsələləri əvəzolunmaz komponentlərlə, funksional və dietik təyinatlı məhsullarla (müalicəvi və profilaktik) zənginləşdirilmiş ərzaq məhsulları istehsalı ilə sıx surətdə bağlıdır. Sağlam qidalanma sahəsində dövlət siyasətinin həyata keçirilməsi üzrə təxirəsalınmaz tədbirlər arasında yüksək qidalılıq və bioloji dəyərə malik, vitamin və mineral maddələrlə zənginləşdirilmiş kütləvi tələbat məhsulları payının artırılmasına yönəlmiş qidalanma strukturunun korreksiya olunması xüsusi yer tutur.

ƏDƏBİYYAT

1. Məsimov M.Ə., Abdullazadə L.F. Qida Təhlükəsizliyi Agentliyinin yaradılması zərurətdir. //İnnovasiyalı iqtisadiyyat və menecment, 2018, №1, səh.48-51.
2. Abdullayeva N. Konservləşdirilmiş məhsul ixracını artırmalıyıq: Palitranews.az/new.php?id=65667 Bakı: «Palitra» qəzeti, 2017.

3. Каленик Т.К., Парфенова Т.В., Новицкая Е.Г., Коростелева Л.А. Функциональные нектары из тыквы с добавлением сока ягод дикоросов // Пиво и напитки, 2009, №6,с.24 -25.
4. Калинина Т.М. и др. Новые безалкогольные напитки повышенной биологической ценности на основе овощных соков и минеральной воды // Пиво и напитки, 1999, №1, с.22.
5. Назарова А.И., Фан-Юнг А.Ф. Технология плодоовощных консервов. М.: Легкая промышленность, 1981, 239 с.
6. Xasməmmədov M.N. Yüngül və yeyinti sənayesi sahələrinin xammal bazarı və onların genişləndirilməsi imkanları: Magistr dissertasiyası. Bakı, 2015, 108 s.

Шакир Гусейнгулу оглы Алиев
д.ф.т., доц. АзТУ

Роль продовольственной безопасности в здоровье человека

Резюме

Продовольственная безопасность является одним из важнейших составных элементов национальной безопасности страны. Более целесообразно обеспечит населению местными продуктами, а не продуктами, вывезенного за границу. Программы, принятые азербайджанским государством в этой области, являются положительным фактором для ликвидации продовольственной безопасности. Низкая продовольственная безопасность может угрожать национальному суверенитету страны.

Ключевые слова: экономическая безопасность, продовольственная безопасность, здоровье человека, фрукты и овощи, витамины.

Shakir Huseynqulu Aliyev
doctor of tecnical sciences, ass. prof. ATU

The role of food security in human health

Summary

Food security is one of the most important constituent elements of national security. Therefore Azerbaijan should be provide with agricultural products. It is advisable to pro-vide the population with local products, not with the products taken abroad. The programs adopted by the Azerbaijani state in this area are a positive factor for the elimination of food security. Low food security can threaten the country's national sovereignty

Key words: Economic security, food security, human health, fruits and vegetables, vitamins.

Günay Rza qızı ƏLİYEVA
Azərbaycan Dövlət İqtisad Universiteti, magistr

Qeyri-neft sektorunun inkişafı bizim əsas prioritetimizdir, artan qeyri-neft sektoru iqtisadiyyatımızın uğurlu islahatlarının göstəricisidir.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

AZƏRBAYCANDA ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİNATINDA DÖVLƏTİN MALİYYƏ SİYASƏTİ

Xülasə

Məqalədə Azərbaycanda ərzaq təhlükəsizliyinin təminatında dövlətin maliyyə siyasətinin rolu, onun müasir vəziyyəti və aqrar sahədə maliyyələşmə mexanizminin təkmilləşdirilməsi istiqamətləri araşdırılıb.

Açar sözlər: ərzaq təhlükəsizliyi, maliyyə siyasəti, dövlət proqramları, aqrar sahə.

***

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının 2016-cı ilin yekunlarına həsr olunan konfransda cənab Prezident İlham Əliyev qeyd etmişdir: "Ərzaq təhlükəsizliyinin təmin edilməsi bizim üçün prioritet məsələdir. Bizim üçün kənd təsərrüfatı o sahədir ki, qeyri-neft ixracımızı, ərzaq təhlükəsizliyini, insanları işlə təmin edəcək. Ona görə, keçən il "Kənd təsərrüfatı ili" olmuşdur. Ancaq hesab edin ki, bu il də "Kənd təsərrüfatı ili"dir. Hər il "Kənd təsərrüfatı ili" olmalıdır".

Hər bir ölkə vətəndaşının yüksək keyfiyyətli ərzaq məhsulları ilə etibarlı təminatı, bu sahədə makroiqtisadi sabitliyə əsaslanan davamlı inkişafın əldə olunması dövlətin iqtisadi siyasətinin başlıca məqsədidir. Məhz müstəqillik əldə edildikdən sonra ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi islahatlar ilk növbədə əhalinin etibarlı ərzaq təminatına yönəldi. Belə ki, MDB məkanında ilk olaraq Azərbaycanda aqrar islahatların aparılmasına, beynəlxalq təşkilatlarla bir çox layihələrin həyata keçirilməsinə başlanıldı. 2001-ci ildə isə Prezident Heydər Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı"nın təsdiq edilməsi aqrar sahədə yeni nailiyyətlərin əldə olunmasına mühüm töhfə oldu. Proqram çərçivəsində görülmüş işlər nəticəsində ərzaq məhsullarının istehsalı əhəmiyyətli dərəcədə artmağa başladı.

Hazırda bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmiz bir çox strateji ərzaq məhsulları üzrə tələbatını yerli istehsal hesabına ödəyir. Ölkə prezidentinin bu istiqamətdə verdiyi fərman və sərəncamlar, təsdiq etdiyi müvafiq proqramlar ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində ölkəmizin imkanlarını genişləndirdi. "2002-2005-ci illər Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı üzrə Dövlət Proqramı", "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" bu qəbildən olan proqramlardır. Bu dövlət proqramlarının maliyyələşdirilməsi dövlət büdcəsi, büdcədənkənar fondlar, yerli büdcələr, yerli və xarici birbaşa investisiyalar və digər mənbələr hesabına reallaşır.

Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalçıları müxtəlif formalarda dövlət tərəfindən dəstəklənir. Bu istiqamətdə ölkə prezidentinin 2007-ci ildə qəbul etdiyi "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" Sərəncamı mühüm əhəmiyyətə malikdir. Son dövrlərdə əhəmiyyətli dövlət dəstəyi və həyata keçirilən maliyyə siyasəti nəticəsində aqrar sahənin inkişafında irəliləyişə nail olunub. Belə ki, kənd təsərrüfatı məhsulları istehsalçılarına maliyyə çatışmamazlığını aradan qaldırmaq məqsədilə güzəştli kreditlər və subsidiyalar verilir.


Kənd təsərrüfatı məhsulları istehsalçıları istifadə etdikləri yanacaq və sürtkü yağlarına görə hər hektar sahəyə dövlət vəsaiti hesabına 50 manat, buğda və çəltik əkinlərinə görə 40 manat məbləğində subsidiya alır. 2007-ci ildən verilmiş subsidiyaların həcmi isə 1 milyard manata çatıb.

Verilən kreditlərə görə istehsalçının ödəməli olduğu faiz məbləğinin müəyyən hissəsi dövlət büdcəsi hesabına həyata keçirilir. "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsullarının etibarlı təminatına dair Dövlət Proqramı" çərçivəsində Sahibkarlığa Kömək Milli Fondu və Kənd Təsərrüfatı Nazirliyi yanında kredit üzrə Dövlət Agentliyi tərəfindən güzəştli kreditlər verilib. 2017-ci ildə isə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 146,0 milyon manat güzəştli kredit verilmişdir ki, onun 64,1%-i məhz kənd təsərrüfatı məhsulları istehsalçılarının payına düşmüşdür.

2017-ci ildə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası çərçivəsində Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti tərəfindən isə 57 sahibkara 9513,2 min manat məbləğində güzəştli kreditlər verilmişdir. Bunların da 5068,2 min manatı pambıqçılıq, 2975,0 min manatı heyvandarlıq, 600,0 min manatı kartofçuluq, 570,0 min manatı istixana, 200,0 min manatı bağçılıq, 100,0 min manatı isə un emalı sahələrinə ayrılmışdır. Şəkil 1.

Kənd təsərrüfatı məhsulları istehsalçılarının təbii fəlakətdən sığortasında dövlətin iştirakını təmin etmək məqsədilə 2002-ci ildə "Kənd təsərrüfatında sığortanın stimullaşdırılması" haqqında Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Bu qanuna əsasən müqavilə üzrə hesablanmış sığorta haqqının 50%-i həcmində vəsait dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

Şəkil 1



2014-cü ildə "Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında" Qanuna edilmiş dəyişikliyə əsasən kənd təsərrüfatı məhsullarının istehsalçıları 2014-cü il yanvarın 1-dən 5 il müddətinə mənfəət vergisi, əlavə dəyər vergisi, sadələşdirilmiş sistem üzrə vergi və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərin əmlak vergisindən azad olunublar. Müasir kənd təsərrüfatı texnikasının alınması məqsədilə 2004-cü ildə Azərbaycan Respublikasının Prezidentinin sərəncamına əsasən "Aqrolizinq" ASC yaradılmışdır. "Aqrolizinq" ASC tərəfindən satılan kənd təsərrüfatı maşın, texnika və avadanlıqlarının dəyərinin 40 faizi büdcədən ödənilir və lizinq yolu ilə satılır. 2005-2015-ci illər ərzində "Aqrolizinq" ASC tərəfindən 18090 ədəd kənd təsərrüfatı texnikası fiziki və hüquqi şəxslərə lizinq yolu ilə satılmışdır.

Ölkədə aparılan uğurlu islahatlar nəticəsində kənd təsərrüfatı istehsalı üzrə müsbət nəticələr əldə olunmuşdur. Belə ki, aşağıdakı statistik məlumata nəzər yetirdikdə görürük ki, kənd təsərrüfatı məhsullarının istehsalı 1990-cı illə müqayisədə 2016-cı ildə əhəmiyyətli dərəcədə artmışdır. 1990-cı ildə kənd təsərrüfatının ümumi istehsalı 0,102 milyon manat olduğu halda, 2016-cı ildə bu göstərici 5632,4 milyon manat təşkil etmişdir. Cədvəl 2. [3, s. 499]

Hazırda dünyada iqtisadi böhran davam edir, lakin ölkə rəhbəri əhalinin etibarlı ərzaq təminatının inkişafını daim diqqət mərkəzində saxlayır. Respublika Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu iqtisadi siyasət nəticəsində aqrar sahədə böyük uğurlar qazanılır, ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında, əhalinin maddi rifahının yaxşılaşdırılmasında nailiyyətlər əldə olunur. Hazırkı göstəricilər onu deməyə əsas verir ki, aqrar sahədə əldə olunan müsbət inkişaf dinamikası növbəti illərdə də davam edəcək.

Cədvəl 2.

Kənd təsərrüfatının ümumi məhsulu, faktiki qiymətlərlə milyon manat

İllər	Cəmi	o cümlədən	
		bitkiçilik məhsulları	heyvandarlıq məhsulları
Bütün təsərrüfat kateqoriyaları			
1990	0,102	0,065	0,037
1995	726,8	418,1	308,7
2000	1112,4	617,7	494,7
2005	1844,8	988,2	856,6
2010	3877,7	1999,2	1878,5
2011	4525,2	2339,8	2185,4
2012	4844,6	2458,2	2386,4
2013	5244,6	2629,6	2615,0
2014	5225,8	2449,4	2776,4
2015	5635,3	2761,1	2874,2
2016	5632,4	2577,2	3055,2

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" hazırlanmışdır. Strateji Yol Xəritəsinin həyata keçirildiyi 2016-2020-ci illər ərzində ölkədə rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunun formalaşdırılmasına nail olacağıq. Burada strateji hədəflərdən biri də ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə aqrar sahədə maliyyəyə çıxışın asanlaşdırılmasıdır. Aqrar sahədə maliyyəyə çıxışın asanlaşdırılması istehsalçıların maliyyə resursları ilə təminatının yaxşılaşdırılmasını, bu sahədə risklərin azaldılması üzrə mexanizmlərin təkmilləşdirilməsini əhatə edir.

Maliyyəyə çıxışın asanlaşdırılması məqsədilə üç istiqamət üzrə tədbirlər həyata keçiriləcək:

- Aqrar sahədə maliyyələşmə mexanizminin təkmilləşdirilməsi;
- Ölkədə aqrar sığortanın inkişaf etdirilməsi;
- Kənd təsərrüfatına yerli və xarici investisiyaların cəlb edilməsinin stimullaşdırılması.

Bu strateji hədəf çərçivəsində kredit zəmanət fondunun yaradılması, innovativ və girovsuz kreditlərin tətbiqi mexanizmlərinin hazırlanması, kreditlər üçün girov bazasının genişləndirilməsi mexanizmlərinin təkmilləşdirilməsi, Aqrar Sığorta Fondunun yaradılması, investisiya mühitinin yaxşılaşdırılması və digər tədbirlər həyata keçiriləcək. [1, s. 82]

2017-ci ildə Avropa İttifaqı və Avropa Yenidənqurma və İnkişaf Bankının müştərək layihəsi olan "Azərbaycan Kənd Təsərrüfatı Maliyyə Aləti" layihəsi (AZAFF) çərçivəsində Kənd Təsərrüfatı Kreditlərinin Qiymətləndirilməsi Sistemi (AZALES) hazırlanmışdır. Sistem kredit təşkilatları tərəfindən kredit risklərinin qiymətləndirilməsinə və kreditləşmə üzrə əsaslı qərarların verilməsinə imkan yaradacaq.

Azərbaycan ərzaq təhlükəsizliyilə bağlı əldə etdiyi uğurlara görə 2015-ci ildə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının mükafatına layiq görülmüşdür. Çünki ölkəmiz 2000-ci ildə qəbul olunmuş Minilliyin İnkişaf Məqsədlərinə uyğun olaraq yoxsulluğun yarıyadək azaldılmasına və 5 faizdən aşağı endirilməsi üzrə hədəflərə vaxtından tez nail olmuşdur.

Davos Ümumdünya İqtisadi Forumu da ərzaq təhlükəsizliyi ilə bağlı hesablama aparıb. Ərzaq təhlükəsizliyi indeksinə görə Azərbaycan 57-ci yerdədir.

Ərzaq təhlükəsizliyinin təminatı məqsədilə aqrar sahənin maliyyələşdirilməsi istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirəm:

- kənd təsərrüfatına qoyulan kreditlərin həcminin kredit portfelində payının artırılması istiqamətində tədbirlərin davam etdirilməsi;
- aqrar sahəyə uzunmüddətli investisiyanın qoyulmasında dövlət və özəl sektorun əməkdaşlığı mexanizminin təkmilləşdirilməsi;
- ərzaq təhlükəsizliyi sahəsində istifadə olunan büdcə vəsaitlərinə maliyyə nəzarətinin gücləndirilməsi.

Ölkə Prezidenti İlham Əliyev ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində tədbirlərin davam etdirilməsinin vacibliyini nəzərə çatdıraraq qeyd etmişdi ki, biz kənd təsərrüfatının inkişafı, xüsusilə ərzaq təhlükəsizliyi məsələləri ilə bağlı çox böyük nailiyyətlərə imza atmışıq. Bu gün biz ərzaq təhlükəsizliyini şərtləndirən əsas sahələr üzrə özümüzü tam təmin edirik. Ümid edirik ki, növbəti illərdə də cənab Prezidentin əhalinin ərzaq təminatı istiqamətində qəbul etdiyi dövlət proqramlarının icrası nəticəsində əhalinin sosial rifah halı daha da yaxşılaşacaq, məşğulluq səviyyəsi artacaqdır. Milli iqtisadiyyatımızın inkişafında ciddi keyfiyyət dəyişiklikləri baş verəcək. Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edəcəkdir.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi". 177 s.
2. Quliyev E.A. "Aqrar iqtisadiyyat". «Kooperasiya» nəşriyyatı, Bakı-2015, 320 s.
3. "Azərbaycanın statistik göstəriciləri" Bakı-2017, 812 s.
4. http://www.agro.gov.az

Гюнай Рза кызы Алиева,
магистр, Азербайджанский Государственный
Экономический Университет

Государственная финансовая политика в обеспечении продовольственной безопасности в Азербайджане

Резюме

В статье рассматривается роль финансовой политики государства в обеспечении продовольственной безопасности в Азербайджане, его нынешнем состоянии и совершенствовании механизмов финансирования в аграрном секторе.

Ключевые слова: продовольственная безопасность, финансовая политика, государственные программы, аграрный сектор.

Gunay Rza Aliyeva
master, Azerbaijan State
University of Economics

State's financial policy in ensuring food security in Azerbaijan

Summary

The article examines the role of the state's financial policy in ensuring food security in Azerbaijan, its current state and the improvement of funding mechanisms in the agrarian sector.

Key words: food security, financial policy, state programs, agrarian sector.

Məsumə Rəsul qızı ƏLİYEVA
Azərbaycan Kooperasiya Universitetinin dissertantı

MİLLİ ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİNATINDA MALİYYƏ İNNOVASİYALARININ ROLUNUN ARTIRILMASI

Xülasə

Məqalədə milli ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi məqsədilə maliyyə innovasiyalarının tətbiqinin nəzəri-metodoloji məsələləri nəzərdən keçirilmişdir. Maliyyə innovasiyalarının aqrar-ərzaq sektorunda yerini və rolunu şərtləndirən amillər xarakterizə olunmuşdur. Maliyyə bazarında aqrar-sənaye innovasiyalarının səmərəliliyinin yüksəldilməsinin bəzi imkanları aşkar edilmişdir.

Açar sözlər: maliyyə innovasiyası, ərzaq təhlükəsizliyi, maliyyə alətləri və texnologiyaları, aqrar-sənaye sahələri, dayanıqlı inkişaf.

***

Milli ərzaq təhlükəsizliyinin təmin edilməsi dayanıqlı inkişafın başlıca şərtidir. Onun təminatında innovasiyaların, o cümlədən maliyyə innovasiyalarının artan rolu yeni əsrin reallığıdır. Maliyyə innovasiyaları dedikdə, ilk növbədə yeni maliyyə alətləri və maliyyə texnologiyaları nəzərdə tutulur. Maliyyə innovasiyalarına həmçinin yeni maliyyə məhsulları və institutlarının yaradılması aid edilir. Maliyyə bazarında işləmək üçün təklif olunan yeni üsulların məcmusu kimi maliyyə innovasiyaları, əslində yuxarıda sadalanan bütün elementlərin funksionallığını və səmərəliliyini təmin edir. Aqrar - sənaye sahələrinin inkişafında maliyyə innovasiyalarının rolundan danışarkən, ilk növbədə maliyyə alətləri və maliyyə texnologiyaları üzərində dayanmaq lazımdır. Maliyyə alətlərinin yeniliyi onların konseptual və fiziki vasitələrində təzahür edir. Başqa sözlə, yeni maliyyə alətlərinin maliyyə bazarındakı fəaliyyəti yeni konseptual yanaşma kimi diqqətəlayiqdir. Maliyyə alətlərinin yeniliyinin fiziki təzahür forması kimi qiymətli kağız-

larla elektron ticarətdə yeni sistem yanaşmaları, borcalanlarla işin yeni texniki təminatı və bu kimi bir sıra digər halları göstərmək olar.

Maliyyə alətləri və texnologiyalarının innovativliyinin konseptual əsaslarının yeniliyi, əhəmiyyətli dərəcədə nəzəri-metodoloji müddəalarla, metodiki təminatın təkmilləşdirilməsi ilə, o cümlədən mütərəqqi informasiya texnologiyalarının, iqtisadi-riyazi üsulların və modellərin geniş tətbiqi ilə şərtlənə bilər. Son tədqiqatlarda məhz maliyyə bazarında texnoloji innovasiyalar maliyyə resurslarının hərəkəti arealının qloballaşması və həmin hərəkətin idarə edilməsi proseslərinin əhatə dairəsinin genişlənməsinin mühüm amili kimi nəzərdən keçirilir. Beynəlxalq maliyyə əməliyyatlarının həyata keçirilməsinin sürəti və həcminin, əsas etibarı ilə texnoloji maliyyə innovasiyaları sayəsində geniş miqyas alması faktı, bir çox tədqiqatçılar tərəfindən qəbul edilir.

Maliyyə innovasiyaları, əsasən aşağıdakı istiqamətlərdə formalaşır: təsəvvürlərdə keyfiyyət sıçrayışı və ya başqa sözlə desək, yeni paradiqmaları formalaşdıran yeni mülahizələrin üstünlük təşkil etməsi; məlum ideyaların istifadəsində yeni keyfiyyət səviyyəsinin əldə edilməsi; mövcud maliyyə texnologiyalarının birgə istifadəsi halında meydana çıxan sinergetik effekt. Maliyyə bazarında fəaliyyətin innovativliyinin əsasında konseptual yanaşmaların kökündən yenilənməsi daha az baş verən, lakin nəticə etibarı ilə daha inqilabi maliyyə texnologiyalarının meydana çıxmasında həlledici rol oynayan istiqamət kimi diqqətəlayiqdir. Bu hal üçün nümunə olaraq ipoteka pulu əsasında yaradılan ilk alət, sıfır kuponlu ilk obliqasiya və i.a. göstərilə bilər. Maliyyə bazarında artıq istifadə olunan məlum ideyaların tətbiqindəki yeniliklərə misal olaraq müddətli kontraktların əhatə dairəsinin genişləndirilməsi, qarşılıqlı əlaqəli fondların yeni növlərinin yaradılması, svopların mahiyyətcə yeni variantlarının tətbiqi və sairəni göstərə bilərik.

Mövcud maliyyə alətləri və texnologiyalarının birgə istifadəsi maliyyə bazarında fəaliyyətin innovativliyini əhəmiyyətli dərəcədə artıra bilər. Təsadüfi deyildir ki, maliyyə innovasiyalarının formalaşmasının bu istiqaməti maliyyə bazarındakı fəaliyyətin innovativliyi baxımından, bir sıra hallarda az müddət tələb etdiyindən daha məqbul hesab edilir. Maliyyə innovasiyalarının formalaşmasının haqqında danışılan bu istiqamətinə misal olaraq maliyyə risklərinin azaldılması üçün istifadə olunan alətlərin birgə tətbiqi, vergi qanunvericiliyindən və mühasibat uçotunun xüsusiyyətlərindən faydalanma və i.a. göstərilə bilər.

Maliyyə innovasiyalarının yaranması və yayılması, onlardan istifadə səmərəliliyi araşdırılarkən yuxarıda sadalanan istiqamətlərin hansına üstünlük verilməsi məsələsi xüsusi aktuallıq kəsb etmir. Müasir riyazi modellər və informasiya texnologiyalarından istifadə sayəsində qiymətli kağızlar bazarında yeni texnologiyaların artıq uzun müddət istifadə edilən ideyaların yeni imkanlarının gerçəkləşdirilməsi heç də nadir hal deyildir. Başqa sözlə, deyək ki, səhm bazarında müasir proqram təminatı və kompüter şəbəkələri hesabına çoxdan istifadə edilən ideyalara və konseptual müddəalara yeni keyfiyyət bəxş edilir.

Aqrar-sənaye sahələrinin inkişafına maliyyə innovasiyalarının təsiri, onların bütünlükdə milli iqtisadiyyata təsirinin xarakter və vektorlarına anolojidir. Bunu şərtləndirən səbəblərə aqrar-sənaye sahələrinin çoxfunksiyalı və sistem əmələ gətirən olması, burada təkrar istehsalın bütün mərhələlərinə xas olan əsas cəhətləri özündə ehtiva etməsi aid edilməlidir. Maliyyə innovasiyalarının dayanıqlı inkişafa təsirinə gəldikdə isə onun neqativ nəticələrinin neytrallaşdırılması məsələsi aqrar sahədə xüsusilə aktualdır. Aqrar-sənaye istehsalının dayanıqlı inkişafı tələblərindən (ətraf mühitin mühafizəsi, ənənələrin həyat tərzinə müsbət təsirinin qorunması, təbiətdən istifadənin intensivliyinə qoyulan yuxarı həddi və s.) irəli gələn məhdudiyyət şərtləri məhsuldarlığın və keyfiyyətin artırılması tələbləri ilə uzlaşdırılmalıdır. Digər tərəfdən, aqrar-sənayedə istehsal subyektlərinin öz gəlirlərini artırması istiqamətində fəaliyyətinin vahid məkanda baş verməsi, bir qayda olaraq maliyyə innovasiyalarının yaratdığı müsbət effekti gücləndirir. Deyək ki, təbii resursların məhdudluğu və tükənməsi şəraitində onlardan ekoloji cəhətdən reqlamentləşdirilməmiş intensiv istifadə ciddi fəsadlarla müşayiət olunur. Həmin fəsadların aradan qaldırılmasına yönəldilən maliyyə innovasiyaları dayanıqlı inkişaf baxımından yolverilməzdir. Maliyyə alətləri və texnologiyalarının təbii resursların cari və perspektiv xarakteristikalarına adekvatlığının təmin edilməsi məsələsi, demək olar ki, daim gündəlikdədir.

Maliyyə bazarında innovativ fəaliyyətin milli iqtisadi çərçivəni aşaraq qloballaşması potensialı, onların gerçəkləşdirilməsi imkanları ilə ziddiyyət yarada bilər. Deyək ki, kredit kartları mütərəqqi texnologiyalar sayəsində virtual bazarı genişləndirməklə, daxili bazarın qorunması tədbirlərinin səmərəsini azaldır. Digər tərəfdən bu maliyyə innovasiyaları qlobal miqyasda risklər və gəlirlər arasında müvazinətli mühitin formalaşmasında nəzərəçarpacaq rol oynayır. İqtisadiyyatın sosiallaşması baxımından maliyyə innovasiyaları insanın əmək qabiliyyətli və ondan sonrakı dövrlər arasında gəlirlərin xərclərlə zaman baxımından tənzimlənməsinə imkan verir.

Maliyyə innovasiyaları, ümumilikdə innovasiyaların məhsul və proses innovasiyaları kimi təsnifatına uyğun olaraq yeni maliyyə məhsulu və yeni maliyyə əməliyyatları kimi fərqləndirilir. Maliyyə məhsulu, məlum olduğu kimi maliyyə institutunun rəsmiləşdirilmiş xidmətlərinin maddi hissəsini ifadə edir. Yeni maliyyə əməliyyatları dedikdə maliyyə resurslarının idarə edilməsi məsələlərinin həllinə yeni imkanlar açan fəaliyyətin prosedurlarının qaydaya salınmış prosesi başa düşülür. Gəlir və xərclər balansının və digər maliyyə planlarının tərtibi, investisiyalaşmanın təkmilləşdirilmiş interaktiv üsullarının, ümumilikdə pul vəsaitlərinin hərəkətinin uçotu və ona nəzarətin yeni formalarının tətbiqi innovasiyalı maliyyə əməliyyatlarına aid edilə bilər. Onu da qeyd edək ki, innovasiyalı maliyyə əməliyyatları, eləcə də maliyyə təhlilini, təsərrüfat subyektlərindəki maliyyə işinin təşkilindəki yenilikləri və sairəni də əhatə edir.

Maliyyə məhsulu və maliyyə əməliyyatlarına edilmiş bütün məqsədyönlü dəyişikliklər innovativlik kimi qəbul edilmir. Deyək ki, bank faizlərinin dəyişdirilməsi sisteminin çevikliyi, digər addımlarla müşayiət olunmursa, maliyyə əməliyyatlarının innovativliyinə dəlalət etmir. Başqa sözlə, maliyyə məhsulu və ya maliyyə əməliyyatlarında mahiyyətcə yenilik olmayan dəyişikliklər innovasiya yaratmır.

Maliyyə innovasiyaları inkişafın bu və ya digər mərhələsinə uyğunluq baxımından böhran (böhran dövrü üçün nəzərdə tutulan) və inkişaf innnovasiyaları kimi təsnifləşdirilə bilər. İlkin yanaşmada böhran innovasiyaları zərərləri minimumlaşdırmağa, inkişaf innovasiyaları isə faydanı (mənfəəti) artırmağa xidmət etməlidir. Digər innovasiyalar kimi maliyyə innovasiyaları da zamanın funksiyası olduğu üçün böhran, daha doğrusu, böhrana qarşı olan innovasiyaların tətbiqi dövrü məhduddur. Onu da qeyd edək ki, tsiklik inkişafın səciyyəvi olduğu bazar iqtisadiyyatı şəraitində böhran innovasiyalarının tətbiqi də dövri ola bilir. Maliyyə innovasiyalarının iqtisadi kateqoriya kimi bir sıra özünəməxsus cəhətləri vardır. İlk növbədə, onu qeyd edək ki, maliyyə məhsulu və ya maliyyə əməliyyatları o vaxt yeni sayılır ki, onlar bazarda reallaşdırıla bilsin. Başqa sözlə, bazarda yeni kimi qəbul edilməsi maliyyə məhsulu və ya maliyyə əməliyyatlarının innovativliyinin mühüm şərtidir. Maliyyə innovasiyaları zamandan asılıdır, yəni onlar həyat tsiklinə malikdir. Başqa sözlə, bütün hallarda yenilik zaman və məkanla bağlıdır. Bu məsələnin məkan aspektinə gəldikdə isə onu qeyd edək ki, yalnız bir maliyyə təsisatı üçün yeni olan maliyyə məhsulu və ya əməliyyatı innovativ sayılmır. Bir sözlə: "1. Yeni maliyyə məhsulunun maliyyə innovasiyaları bazarında satıla bilməsi mütləq şərtdir. 2. Maliyyə əməliyyatlarının bazarda və ya təsərrüfatçılıq subyekti daxilində həyata keçirilməsinin mütləqliyi. 3. Maliyyə innovasiyalarının zamandan funksional asılılığı. 4. Maliyyə məhsulunun özünəməxsusluğu, birincisi ona fərdi və kütləvi tələbatın mövcudluğu; ikincisi limitləşdirilmiş və limitləşdirilməmiş məhsulun istifadə olunması; üçüncüsü məhsulun əmlak və əmlak hüququ formasında mövcudluğu" [1, s. 165] maliyyə innovasiyalarının özünəməxsus cəhətləridir.

Maliyyə innovasiyaları, istisnasız olaraq risklərlə əlaqədardır. Məsələ ondadır ki, formalaşmış maliyyə sistemlərində hər hansı radikal dəyişikliklər qeyri-müəyyənliyi artırır. Odur ki, maliyyə risklərinin azaldılması istiqamətində yeniliklərin axtarışları diqqətdən kənarda qalmamalıdır. Aqrar-sənaye sahələrində dayanıqlı inkişaf meyarları baxımından risklərin idarə edilməsi sisteminin təkmilləşdirilməsi prioritetləri qismində: mükəmməl informasiya-monitorinq sisteminin qurulması və riskləri artıran amilləri xarakterizə edən analitik bazanın yaradılması; risklərin minimuma endirilməsində qabaqlayıcı tədbirlərin səmərəliliyinin artırılması; çoxvariantlı inkişaf ssenariləri üzrə risklərin imitasiyası strategiyasının hazırlanması və risk-menecmentin texnoloji təminatının gücləndirilməsi qeyd oluna bilər.

Aqrar - ərzaq sektorunun dayanıqlı inkişafında maliyyə innovasiyalarının səmərəliliyinin yüksəldilməsində, son onilliklərdə innovasiya menecmentinin artan rolu müşahidə olunur. Məlum olduğu kimi, yeniliyin idarə olunması mənasında işlənən innovasiya menecmenti ixtiraların, yeni texnologiyaların və yeni məhsulların işlənib hazırlanması ilə yanaşı, yeniliklərin kommersiyalaşması və yayımı, kreativ düşüncəli kadrların hazırlanması, innovasiya infrastrukturunun idarə edilməsi məsələlərini əhatə edir. Zənnimizcə, innovasiya menecmentinə innovasiya proseslərinin idarə edilməsi kimi də yanaşmaq olar.

Müəssisə səviyyəsində maliyyə idarəetməsi maliyyə təhlili, proqnozlaşdırma, pul vəsaitlərinin idarə edilməsi, kredit və vergi təşkilatları ilə əlaqələri həyata keçirən bölmə və ya bölmələrin funksiyasına daxildir. Aqrar - sənaye sahələrinin dayanıqlı inkişafında maliyyə innovasiyalarının səmərəliliyinin artırılmasında həmin bölmələrin rolu kapital və məhsul bazarları arasında maliyyə münasibətlərinin təşkili və onlara nəzarətin innovativliyi səviyyəsi ilə bilavasitə əlaqədardır. Belə ki, texnoloji, istehsal, iqtisadi yeniliklərin yaradılması və tətbiqini nəzərdə tutan innovasiya proqramlarının hazırlanmasını, həmin proqramların maddi, maliyyə və intellektual təminatını, innovasiya fəaliyyəti ilə məşğul olan xüsusi bölmənin fəaliyyətini, yeni məhsulun (xidmətin) işlənib hazırlanmasını nəzardə tutan innovasiya menecmenti dayanıqlı inkişaf imkanlarını reallaşdıra bilər.

Aqrar - sənaye sahələrinin dayanıqlı inkişafında maliyyə innovasiyalarının səmərəliliyi burada fəaliyyət göstərən müəssisənin innovasiya proqramının keyfiyyətindən asılıdır. Müəssisənin innovasiya proqramının keyfiyyətini, ilk növbədə müəssisənin idarə edilməsinin təkmilləşdirilməsinin konseptual müddəaları və əsas prinsiplərinin, habelə innovasiyaların mənimsənilməsinin məqsədi və vəzifələrinin əsaslandırma dərəcəsi, innovasiyaların mənimsənilməsi üzrə tədbirlərin konkretliyi kimi həm empirik, həm də evristik yanaşmalarla ölçülməli olan göstəricilərlə qiymətləndirmək olar. Haqqında danışılan proqramda resurslara tələbatın müəyyənləşdirilməsi üzrə hesablamaların nəticəsi əks etdirilməli, bu zaman işlərin maliyyələşdirilməsi və innovasiya proseslərinin stimullaşdırılması imkanları nəzərə alınmalıdır. Müəssisənin innovasiya proqramında müəssisənin idarə edilməsi üzrə tədqiqatçılar və mütəxəssislər arasında qarşılıqlı fəaliyyət qaydaları, habelə innovasiya proseslərində elmi təsisatlar, kollektivlər və təşkilatlar arasında qarşılıqlı əlaqələrin kəmiyyət xarakteristikaları dəqiqləşdikcə, həmin proqramın reallaşdırılması imkanları hərtərəfli nəzərə alınmalıdır.

İnnovasiyalı inkişafa neqativ təsir edən amillərin neytrallaşdırılması, təbii ki, aqrar-sənaye istehsalında innovativliyin səmərəliliyini yüksəldir. İnnovasiyalı inkişafa neqativ təsir edən amillərə aşağıdakılar aid edilir: "aqrar-sənaye istehsalında innovasiyaların tətbiqinin yüksək riskliliyi; maliyyələşmənin aşağı səviyyəsi; kənd təsərrüfatı və sənaye məhsullarının qiymət disparitеti; kənd təsərrüfatında ixtisaslı kadrların çatışmaması; dövlətin innovasiya strategiyasının olmaması; aqrar sektorun və burada innovasiyaların kreditləşdirilməsi sisteminin inkişaf etməməsi; aqrar-sənaye sektorunun kadr heyətinin innovasiya menecmenti sahəsində hazırlığının olmaması" [2, s. 105]. Qeyd olunan problemlərin bir çoxunun həlli üçün Azərbaycanda ciddi addımlar atılmışdır. Sadalanan digər amillərin neqativ təsirinin aradan qaldırılması, göründüyü kimi, iqtisadi və institusional islahatların dərinləşdirilməsini, onların bir-birini tamamlamasını tələb edir.

Aqrar - sənaye sahələrinin dayanıqlı inkişafında maliyyə innovasiyalarının rolunun artırılması məqsədi ilə aşağıdakı imkanlar reallaşdırılmalıdır: artıq tətbiq olunan maliyyə texnologiyalarının birgə istifadəsindən sinergetik effektin əldə edilməsi; innovasiya menecmentinin təkmilləşdirilməsi tədbirlərində iqtisadi və institusional aspektlərin birgəliyinin təmin edilməsi; informasiya-monitorinq sisteminin əhatə dairəsinin optimallaşdırılması; risklərin azaldılması üzrə qabaqlayıcı tədbirlərin səmərəliliyinin artırılması və risklərin idarə edilməsi üzrə analitik bazanın gücləndirilməsi; aqrar-sənaye inteqrasiyasının çoxvariantlı inkişaf ssenariləri üzrə risklərin imitasiyasına imkan verən risk-menecmentin texnologiyalarının təkmilləşdirilməsi; sahələrarası innovasiyalı inkişafın maliyyə stimullaşdırılması sisteminin təkmilləşdirilməsi; aqrar sahəyə dövlət dəstəyi mexanizminin şəffaflığının artırılması.

ƏDƏBİYYAT

1. Балабанов И.Т. Инновационный менеджмент. СПб, «Питер», 2002, 304 с.
2. Кучиева М.В., Тускаев Т.Р. Проблемы инновационного развития агропромышленного комплекса России // Креативная экономика. 2010. № 11 (47), с. 103-107.

Масума Расул кызы Алиева
диссертант АУК

Повышение роли финансовых инноваций в обеспечение национальной продовольственной безопасности

Резюме

В статье рассматриваются теоретико - методологические вопросы применения финансовых инноваций, с целью укрепления продовольственной безопасности. Характеризованы факторы обуславливающие место и роли финансовых инноваций в агропродовольственном секторе. Выявлены некоторые возможности повышение эффективности агропромышленных инноваций в финансовом рынке.

Ключевые слова: финансовая инновация, продовольственная безопасность, финансовые инструменты и технологии, агропромышленные отрасли, устойчивое развитие.

Masuma Rasul Aliyeva
candidate for a degree of ACU

Enhancing the role of financial innovation in ensuring national food security

Summary

The article deals with theoretical and methodological issues of application of financial innovations aimed at strengthening food security. The factors that determine the place and role of financial innovations in the agro-food sector are characterized. Some opportunities have been identified to improve the efficiency of agro-industrial innovations in the financial market.

Key words: financial innovation, food security, financial tools and technologies, agro-industrial branches, sustainable development.

İmran Balamirzə oğlu ƏMİROV;
Hicran Rafiq qızı KÖÇƏRLİ
Sumqayıt Dövlət Universitetinin baş müəllimləri

YÜKSƏK TEXNOLOGİYALARDAN İSTİFADƏ ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİNATÇISI KİMİ

Xülasə

Məqalənin hazırlanmasında əsas məqsəd ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsində özünütəminetmə səviyyəsinin yüksəldilməsinin tədqiq edilməsidir. Burada həmçinin ərzaq təhlükəsizliyinin təmin olunmasında aqrar sənaye sahəsinin son dövrlər üzrə müasir vəziyyətinin qısaca təhlili də aparılmışdır.

Aparılan araşdırmalar zamanı aqrar sənaye komplekslərinin davamlı inkişafında müasir və yüksək texnologiyalardan istifadənin zəruriliyi xüsusi vurğulanmışdır.

Açar sözlər: ərzaq təhlükəsizliyi, aqrar sahə, proqram, tələbat, ixrac, idxal, bitkiçilik, heyvandarlıq.

***

Dünyada iqtisadi inteqrasiyanın gücləndiyi bir şəraitdə Azərbaycanın milli-iqtisadi təhlükəsizlik sisteminin formalaşması böyük əhəmiyyət kəsb etməkdədir. Bu səbəbdən də öncə ölkə-

mizdə iqtisadi təhlükəsizliyin təmin olunmasının müasir vəziyyəti təhlil edilməklə qiymətləndirilməlidir.

Hazırda ölkə iqtisadiyyatının qarşısında duran ən mühüm vəzifələrdən biri ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Ərzaq təhlükəsizliyi problemi hələ keçən əsrin 70-ci illərində FAO (BMT-nin ixtisaslaşdırılmış ərzaq və k/t təşkilatı) tərəfindən qaldırılmışdır. O vaxtdan etibarən bu təşkilatın daimi fəaliyyətdə olan Beynəlxalq Ərzaq Təhlükəsizliyi Komitəsi yaradılmışdır. Məhz, bu komitənin yaxından iştirakı və dəstəyi ilə dünya ölkələrinin əksəriyyətində "Milli ərzaq təhlükəsizliyi proqramı" işlənib hazırlanmış və həyata keçirilmişdir.

Ərzaq təhlükəsizliyi ölkə əhalisinin fəal və sağlam dolanışıqları üçün zəruri miqdarda ərzaqla təmin edilməsi məsələləri ilə bağlıdır. Dünya təcrübəsində ərzaq təhlükəsizliyinin xroniki və müvəqqəti ola bilməsi qənaətinə gəlinmişdir. Bu təhlükə o zaman reallaşır ki, qida məhsullarını əldə etməyin mümkünsüzlüyü səbəbindən bu məhsulların istehlakı fizioloji tələbatı qane etmir və ya lazımi miqdarda ərzaq istehlakı baş vermir. Ərzaq mallarının qiymətlərinin vaxtaşırı artması, aqrar sektorda məhsul qıtlığı və ya gəlir səviyyəsinin aşağı düşməsi nəticəsində əhalinin ərzaq mallarından istifadə imkanlarının sabitliyi pozulur ki, bu da əslində müvəqqəti ərzaq təhlükəsinin yaranmasına gətirib çıxarır.

Ərzaq təhlükəsizliyini ölkədə təmin etmək üçün özünütəminetmə səviyyəsinin yüksəldilməsi tələb olunur. Bu məqsədlə H.Əliyev 2001-ci ilin martında özünün imzaladığı 640 saylı sərəncamı ilə Azərbaycan Respublikasının (AR-nın) Ərzaq təhlükəsizliyi Proqramını təsdiq etmişdir. Proqrama əsasən ərzaq təhlükəsizliyi siyasətinin həyata keçirilməsi istiqamətləri müəyyən edilmiş, konkret tədbirlər sistemi işlənib hazırlanmış, onların icrası müddətləri və cavabdeh təşkilatlar göstərilmişdir [1, s. 335].

Qeyd etmək lazımdır ki, ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin edilməsi birbaşa olaraq ***aqrar sahənin*** inkişaf etdirilməsi ilə əlaqədardır. Ötən hesabat ilində AR-da kənd təsərrüfatı (k/t) 4,1% artmaqla ərzaq təhlükəsizliyi məsələləri həll edilmişdir. Davos Ümumdünya İqtisadi Forumunun ərzaq təhlükəsizliyi ilə bağlı hesablamalarına görə bu təhlükəsizlik indeksinə görə ölkəmiz 57-ci yerdədir. Ərzaq təhlükəsizliyi sahəsində ən mühüm məsələ taxılçılıqla bağlıdır. Belə ki, bu sahədə əlavə tədbirlərin görülməsi, idxaldan asılılığın azaldılması və ixracyönümlü məhsulların həcminin artırılması günümüzün ən mühüm vəzifələrindəndir.

Cari il 140 min ha-a yaxın sahədə pambıq əkininin həyata keçirilməsi nəzərdə tutulub və bu istiqamətdə işlər görülür. Ötən il isə 22 rayonda 136 hektar (ha) sahədə pambıq əkilmişdi. K/t Nazirliyinin məlumatına görə, indi tədarükçü şirkətlər fermerlərlə yeni müqavilələr bağlayır.

AR Dövlət Statistika Komitəsindən (DSK-dan) verilən məlumata əsasən, indiyədək ölkə üzrə pambıq qəbulu məntəqələrinə 207 min t.-dan artıq məhsul təhvil verilib. Növbəti ildə istehsal olunan məhsulun artması proqnoz edilir. Məlumatlara görə, məqsəd yüksək keyfiyyətli məhsulun əldə olunması, ölkənin emal müəssisələrinin xammala olan tələbatını ödəmək, eyni zamanda son məhsulun ixracı ilə ölkəyə valyuta daxil olmasına təkan verməkdir.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxışı zamanı 2 il ərzində pambıq istehsalının 8 dəfə artdığını vurğulayıb. Onun sözlərinə görə, pambıqçılıq sahəsində 200 minə yaxın insan çalışır. Ötən il bölgələrdə pambıqçılıq, baramaçılıq, fındıqçılıq, tütünçülük, çayçılıq, çəltikçilik, sitrusçuluq üzrə müşavirələr keçirilib, bir neçə dövlət proqramı qəbul edilib. Dövlət başçısının 13.07.17-ci ildə təsdiqlədiyi "AR-da pambıqçılığın inkişafına daiir 2017-2022-ci illər üçün Dövlət Proqramı" Azərbaycanda pambıqçılığın inkişaf etdirilməsi, bu sahədə ixrac potensialının artırılması və kənd əhalisinin məşğulluğunun təmin edilməsi məqsədi daşıyır.

Digər məhsul növlərinə nəzər salsaq burada da inkişaf əldə edilməsini müşahidə etmək çətin deyildir. Baramaçılıq üzrə 2015 və 2016-cı illərdə müvafiq olaraq 200 kq və 70 t. məhsul tədarük edildiyi halda ötən il 245 t. barama tədarükünə nail olunmuşdur. Fındıqçılıq üzrə ötən il 18 min hektara (ha) yaxın fındıq bağları salınmaqla onların sahəsi 55 min ha çatdırılmışdır (hədəfimiz 80 min ha-dır). Gələcəkdə fındıqçılığın k/t-nın inkişafı və ixrac imkanlarımızın genişlənməsi üçün önəmli yer tutması gözlənilir. Bu gün ixrac edilən k/t məhsulları arasında fındıqçılıq 2-ci yerdədir. Fermerlər bu məhsulun ixracından 200 mln. $-dan çox vəsait əldə ediblər. Bi-

rinci yerdə pomidor ixracı dayanmışdır ki, bu sahəyə də böyük maraq və tələbat var. Keçən il 140 mln. $ dəyərində pomidor ixrac edilmişdir. İndi ölkəmizdə 400 min ha-dan böyük bir sahədə yeni istixana komplekslərinin yaradılmasını nəzərə alsaq ölkəmizin tərəvəz ixracı daha da artacaqdır. Ölkəmiz öz əhalisini artıq çoxdan tərəvəzlə təmin edə bilir.

K/t-da heyvandarlığın inkişafına da böyük diqqət göstərilir və bu il ölkəmizə minlərlə cins mal-qara gətiriləcək. AR-da 40-dan çox aqroparkların arasında heyvandarlıq aqroparkları önəmli yer tutur. Yaxın gələcəkdə ölkəmizdə ət və süd məhsulları üzrə tam təminat əldə ediləcəkdir. Yeni k/t texnikasının alınması üçün 160 mln. man. vəsait nəzərdə tutulmuşdur [2, s.3].

Hazırda yeni iqtisadi şəraitdə ölkəyə ərzaq idxalının tənzimlənməsi gündəmdə duran ən vacib məsələlərdən biridir. Bunun üçün ilkin şərt kimi tənzimləmə tədbirlərinin yumşaq və məhdud xarakter daşımasıdır. Ona görə ki, iqtisadi islahatlar dövründə idxalın liberallaşdırılması ilə əlaqədar ərzaq bazarında çox böyük məbləğdə büdcə vəsaitinin ayrılması ilə bağlıdırsa, digər tərəfdən ərzaq məhsullarının qiymətlərinin yüksəldilməsi ilə səciyyələnir.

Şübhəsiz ki, idxalın azaldılmasına zəmin yaradan məsələlərdən də biri daxili ərzaq bazarının qorunmasıdır. Daxili istehsal hesabına tələbatın ödənilməsi bazarımızı qorumaqla yanaşı rəqabət qabiliyyətli məhsulların istehsalını stimullaşdıracaqdır. Belə ki, məhz meyvə-tərəvəz məhsullarının daxildə yetərli istehsalı hesabına idxal olunan məhsulların bazara çıxarılması nəticəsində qiymətlərin aşağı düşməsi müşahidə olunur.

Yuxarıda qeyd edilənlərlə yanaşı dövlət miqyasında ərzaq təhlükəsizliyi ölkə əhalisini qida məhsulları ilə özünün cari və fövqəladə ehtiyaclarını ilk növbədə daxili istehsal hesabına ödəmək qabiliyyəti deməkdir. Ərzaq təhlükəsizliyinin təmin edilməsində ən başlıca məsələ əkin sahələrindən səmərəli istifadə edilməsi və onların yararlılığının artırılmasıdır. Son illər AR-da əkin sahələrinin çoxalması müşahidə olunur ki, bu da yekunda k/t məhsullarının istehsalında artımın əldə ediləcəyindən xəbər verir. Bütün təsərrüfat kateqoriyaları üzrə AR-da k/t bitkilərinin əkin sahələri 1 saylı cədvəldə verilmişdir.

Cədvəl 1.

Bütün təsərrüfat kateqoriyaları üzrə AR-da k/t bitkilərinin əkin sahələri (min ha)

№	Əkin sahələri	2013	2014	2015	2016
1	Cəmi:	1684,2	1613,8	1585,4	1628,3
	O cümlədən dənli və dənli paxlalı bitkilər	1074,1	1001,4	952,1	997,5
2	Texniki bitkilər	42,2	43,8	38,7	73,6
	Ondan: pambıq	23,5	22,9	18,7	51,4
	tütün	1,2	1,1	1,4	2,4
	şəkər çuğunduru (emala)	5,5	5,7	4,9	7,1
	dən üçün günəbaxan	9,4	11,7	10,7	8,2
3	Kartof, bostan və tərəvəz bitkiləri	171,5	165,7	166	163
	ondan: kartof	65,3	61,7	61	62,8
	tərəvəz	77,6	76	77,1	73,7
	bostan bitkiləri	28,5	28	28,8	26,4
4	Yem bitkiləri	396,4	402,9	428,6	394,1
	Meyvə və giləmeyvə bağları	134,2	138,5	144,1	171,8
	ondan: bar verən yaşda	113,9	117,2	123,4	133,1
5	Üzümçülük	16,1	15,9	16,1	16
	ondan: bar verən yaşda	13,1	13,5	13,5	13,9
6	Çay əkmələri	0,9	1	1	1
	ondan bar verən yaşda	0,5	0,5	0,5	0,7
7	Fərdi sahibkarların ümumi torpaqları, ha	44267	34101	33363	30424
	k/t-na yararlı	43072	33224	32530	29780
	o cümlədən əkin yeri, ha	33280	24032	23379	20704

Mənbə: AR DSK-nın məlumatları əsasında müəlliflər tərəfindən tərtib olunmuşdur.

Cədvəl 1-in göstəricilərinin təhlili göstərir ki, 2016-cı ildə əkin sahələri əvvəlki illə müqayisədə ölkə üzrə 42,9 min ha (1628,3-1585,4) artaraq 1628,3 ha çatdırılmışdır. AR DSK-nın məlumatlarına istinadən bütün təsərrüfat kateqoriyaları üzrə k/t bitkilərinin əkin sahələri ötən 2017-ci ildə də 1665,5 min ha təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 37,2 min ha (1665,5-1628,3) artım deməkdir. İqtisadi rayonlar üzrə k/t bitkilərinin ümumi əkin sahəsinə gəldikdə isə tərkibində 18 rayon ərazisini cəmləşdirən Aran rayonu 695906 ha təşkil etməklə öndə gedir. Növbəti yerləri isə Gəncə-Qazax və Şəki-Zaqatala iqtisadi rayonları bölüşdürür ki, burada da əkin sahələri 2016-cı ildə müvafiq olaraq 195866 və 193992 ha çatmışdır [3, s. 503].

Hazırda torpaqlardan səmərəli istifadə etmək və əkin sahələrini çoxaltmaqla ərzaq təhlükəsizliyinin təmin edilməsini daha da gücləndirmək vacib məsələlərdən biridir. FAO-nun "Torpaqların Konsolidasiyası üzrə Milli Strategiyanın Hazırlanması və Torpaqların Konsolidasiyası üzrə Pilot Layihə" təklifi təşkilat tərəfindən təqdim edilmişdir. Layihənin məqsədi torpaqların konsolidasiyası üzrə milli strategiyanı həyata keçirməklə kənd yerlərində torpağa sahiblik mexanizmininin uzunmüddətli təkmilləşdirilməsi vasitəsi ilə AR-da kənd yerlərinin və k/t-nın dayanıqlı inkişafına töhfə verməkdən ibarətdir.

Gələcəkdə ərzaq problemlərinin həlli təkcə mülkiyyət formasının dəyişməsindən deyil, həmçinin elmi-texniki tərəqqinin (ETT-nin) nailiyyətlərinin geniş tətbiqindən də həlledici dərəcədə asılıdır. Tələbatın bol və yüksək keyfiyyətli qida məhsulları ilə ödənilməsi təkcə k/t-nın təsərrüfatçılığından asılı olmamalıdır. Burada eyni zamanda emal sənayesində, ticarətdə, elmdə və texniki araşdırmalarda və digər sahələrdə çalışan yüksək əmək məhsuldarlığına malik olan bütün insanların birgə fəaliyyəti zəruridir. Məhz bu halda ərzaq təhlükəsizliyi məsələləri yüksək səviyyədə uğurla həllini tapa bilər [4, səh.7].

Tədqiqatlar bir daha onu göstərir ki, yaşayış göstəriciləri yaşam üçün önəmli olmaqla ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm əhəmiyyət kəsb edir. Belə ki, dövlətimizin müstəqilliyinin qorunması, əhalinin fəallığının və ərzaqla təminatının yüksəldilməsi birbaşa olaraq ərzaq təhlükəsizliyimizin təminı ilə əlaqədardır. Onun da əsasında k/t və yeyinti sənayesinin dinamik inkişafı dayanır. AR-da təsərrüfat kateqoriyaları üzrə k/t-nın ümumi məhsulu faktiki qiymətlərlə heç də eyni olmamışdır (cədvəl 2).

Cədvəl 2

Təsərrüfat kateqoriyaları üzrə k/t-nın ümumi məhsulu faktiki qiymətlərlə (mln.man.)

№	Göstəricilər	2013	2014	2015	2016
1	Bütün təsərrüfat kateqoriyaları,	5244,6	5225,8	5635,3	5632,4
	Bitkiçilik	2629,6	2449,4	2761,1	2577,2
	Heyvandarlıq	2615	2776,4	2874,2	3055,2
2	K/t müəssisələrində və s.	363,9	404,5	410,1	449,2
	Bitkiçilik	120,5	111,8	132,5	145,8
	Heyvandarlıq	243,4	292,7	277,6	303,4
3	Fərdi sahibkar, ailə, kəndli və	4880,7	4821,3	5225,2	5183,2
	Bitkiçilik	2509,1	2337,6	2628,6	2431,4
	Heyvandarlıq	2371,6	2483,7	2596,6	2751,8
	Meyvəçilik, balıqçılıq və ovçuluq üzrə ümumi məhsulun dəyəri (min man.)				
4	Meyvəçilik	10569,7	11341,3	11401,8	11238,8
5	Balıqçılıq	190767,9	194583,3	190133,6	229581,6
6	Ovçuluq	125	127	129	130

Mənbə: AR DSK-nın məlumatları əsasında müəlliflər tərəfindən tərtib olunmuşdur.

Aqrar sahədə bitkiçilik və heyvandarlıq məhsullarının müqayisəsi onu göstərir ki, bitkiçilikdən fərqli olaraq heyvandarlıqda son 4 ildə davamlı artım əldə olunmuşdur. K/t-nın meyvəçilik, balıqçılıq və ovçuluq sahələri üzrə də son dövrlərdə ümumi məhsulun dəyərində cədvəl 2-yə əsasən artımları müşahidə etmək çətin deyildir.

Hazırda k/t-nın inkişaf etdirilməsi sahəsində çoxsaylı layihələr həyata keçirilməkdədir. BMT İnkişaf Proqramının (BMTİP) "Qlobal əhəmiyyətli aqro-bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsi" layihəsi AR Hökuməti və BMTİP tərəfindən imzalanmışdır. Layihənin əsas məqsədi ölkəmizdə biomüxtəliflikdə, ərzaq təhlükəsizliyində və torpaqların davamlı idarə edilməsində vacib rol oynayan və qlobal miqyasda nəsli kəsilmək təhlükəsinə məruz qalan bitki sortlarının qorunmasını və davamlı əsaslarla istifadəsini təmin etməkdir. Layihə ölkədə bitkilərin yabanı əcdadlarının və yerli sortların öz təbii ərazilərində mühafizəsinin gücləndirilməsini, bitkilərin becərilməsi məqsədilə genetik resursların müvafiq ehtiyatlarını təmin etmək üçün yabanı növlərin və yerli sortların mühafizəsinin artırılması və yerli sortların k/t üzrə ailə təsərrüfatlarında, kommersiya yönümlü təsərrüfatlarda məhsuldarlığının və istifadə müddətinin artırılması kimi fəaliyyətləri özündə əks etdirir [5].

Beləliklə, aqrar sahənin inkişaf etdirilməsi dövlətimizin daima diqqət mərkəzində olmalıdır ki, bu sahəyə yüksək texnologiyaların nailiyyətləri geniş tətbiq edilə bilsin. Məhz bu əsasda ölkə əhalisinin ərzaq məhsulları ilə yetərincə təchiz edilməsi həyata keçirilməklə əhalinin güzəranı yaxşılaşdırılar və dövlətimizin təhlükəsizliyi təmin olunar.

ƏDƏBİYYAT

1. Arif Şəkərəli oğlu Şəkərəliyev. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər. Monoqrafiya. Bakı, «İqtisad Universiteti», 2009 s. 416.
2. «İqtisadiyyat» qəzeti №03 (998) 18, 24 yanvar 2018, s. 8.
3. Azərbaycanın statistik göstəriciləri 2017. Statistikal Yearbook of Azerbaijan 2017, Bakı, 2017, s. 814 AR DSK 2017.
4. A.H.Tağıyev, İ.B.Əmirov. AMEA-nın xəbərləri, İqtisadiyyat seriyası, elmi-praktiki jurnal. Yanvar-fevral 2017, Bakı, s. 55.
5. agrocredit.gov.az

Имран Баламирза оглы Амиров;
Хиджран Рафиг кызы Кочарли
ст. препод. Сумгаитского
Государственного Университета

Использование высокой технологии как обеспечение продовольственной безопасности

Резюме

Основная цель в подготовленной статье является исследования увеличения уровня самообеспечения в продовольственной безопасности нашего государства. За последние годы здесь также проведен краткий анализ в обеспечении продовольственной безопасности в отраслей аграрной промышленности.

Во время разъяснения особо отмечено необходимость использования современной и высокой технологии в длительном развитии аграрно-промышленных комплексов.

Ключевые слова: продовольственная безопасность, аграрный сектор, программа, потребность, экспорт, импорт, растениеводство, животноводство.

Imran Balamirza Amirov;
Hijran Rafig Kocharli
senior teachers of Sumgayit State University

Usage as guarantor of the food-stuffs safety from high technologies

Summary

Ultimate goal is to investigate of raising of the level of securing yourself secure provide of the food-stuffs safety of our country in the preparing of the article. Analysis of the present situation

on last periods of the agrarian industrial branch have been carried out taken away provide here of the safety of and food-stuffs briefly.

Necessity of the usage has been special emphasized durable development complex of agrarian industry from modern and high technologies in the time of carrying out taking away investigations.

Key words: food-stuffs safety, agrarian area, program, need, export, import, plant-growing, cattle-breeding.

Aydan İlham qızı HADIYEVA
Azərbaycan Texniki Universitetinin dissertantı

İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASINDA SƏNAYENİN ROLU

Xülasə

Tezis ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasında sənayenin roluna həsr olunub. Azərbaycan iqtisadiyyatında sənayenin xüsusi payı göstərilir. Ölkənin iqtisadi inkişafı baxımından sənayenin rolunun böyük əhəmiyyətə malik olduğunu nəzərə alaraq, iqtisadi təhlükəsizliyin amilləri sənaye baxımından təhlil edilir.

Açar sözlər: iqtisadi təhlükəsizlik, daxili amillər, xarici amillər, keyfiyyət, ÜDM, struktur, əlavə dəyər, investisiya mühiti.

***

İqtisadi təhlükəsizliyin təmin olunmasını əks etdirən başlıca amillər ölkə iqtisadiyyatında baş verən proseslərdəki kəmiyyət və keyfiyyət dəyişmələri ilə bağlıdır. Bu dəyişmələr bir tərəfdən həm ölkə iqtisadiyyatının inkişafını xarakterizə edir, digər tərəfdən isə bu inkişafın nə dərəcədə dayanıqlı olmasını xarakterizə edir. İqtisadi inkişafın dayanıqlılığı isə dahı çox onun keyfiyyət tərəflərindən asılı olur. İqtisadi inkişafın keyfiyyət tərəfi isə əsasən ölkədə stabil iqtisadi inkişafın təmin olunmas ilə, əhalinin həyat səviyyəsinin yüksəlməsiylə, xaricdən asılılıq dərəcəsinin aşağı düşməsiylə bilavasitə xarakterizə olunur. Qeyd etdiyimiz kimi, iqtisadi təhlükəsizliyin təmin olunması ölkədə dayanıqlı iqtisadi inkişafın təmin olunmasından da kifayət qədər asılıdır. Fikrimizcə, istənilən ölkədə dayanıqlı iqtisadi inkişafın əsas faktoru sənayenin inkişafı ilə bağlıdır. Bu amil əksər ölkələr üçün keçərlidir. Son illərin statistikası göstərir ki, Azərbaycanda da ÜDM-də sənayenin payı 50,5%, eləcə də yaradılan əlavə dəyərdə payı 40%-dən az deyildir. Deməli, iqtisadi inkişafın təmin olunması baxımından sənayenin inkişafının nəzərə alınması həmişə aktual olaraq nəzarət edilməli, onun inkişafına xüsusi yanaşılmalıdır. Beynəlxalq təcrübə göstərir ki, sənayenin iqtisadi təhlükəsizliyinin təmin olunması daxili və xarici amillərə ayrılır. Bu amillərdən biri sənayenin strukturunun deformasiyası və maddi istehsalın aşağı düşməsi ilə bağlıdır. İqtisadiyyatın strukturunda mühüm iqtisadi proseslərin baş verməsi, onlar arasındakı əlaqələrin zəifləməsi, ölkə iqtisadiyyatının bütün sisteminə, eləcə də onun alt sistemlərini, istehsal güclərinin ərazi və sferalar üzrə bölgüsünə təsir edir ki, bu da sənayenin inkişafında xoşagəlməz amillərin yaranmasına səbəb olur. Nəzərə almaq lazımdır ki, sənaye sahələrinin yaradılması, təkcə məhsuldar qüvvələrin birbaşa inkişafı ilə deyil, eyni zamanda nəqliyyat qovşaqlarına yaxınlığı, xammal resurslarına əlçatanlığı da sənayenin inkişafında mühüm amildir.

Təcürbə göstərir ki, ümumiyyətlə, iqtisadiyyatın özünün strukturunda deformasya prosesləri iqtisadiyyatın müxtəlif sahələrinin tənəzzülə uğramasını, onlar arasında iqtisadi əlaqələrin pozulmasını, yeni sahələrin yaradılması imkanlarının məhdudlaşmasını özündə əks etdirir. İqtisadiyyatın struktur deformasiyası ilk olaraq real sektorda özünü göstərir ki, bu da birbaşa maliyyə sektoru arasındakı əlaqələrin pozulmasına, eləcə də, onların fəaliyyətində müəyyən qeyri-sabitliyin yaranmasına gətirib çıxarır. Təbii ki, bu mərhələdə istehsalın altsistemləri və bank sektoru da əziyyət çəkir. İqtisadiyyatın strukturunun deformasiyası nəticəsində istehsal böhranı ilə əlaqədar maddi istehsalın həcminin kəskin şəkildə aşağı düşməsi ölkədə həm məhsul qıtlığına, həm daxili bazarın idxal məhsulları ilə (çox zaman keyfiyyətsiz məhsullarla) dolmasına, həm də bunun nəticəsi olaraq xaricdən asılılığın artmasına səbəb olur. Ölkənin iqtisadi cəhətdən xa-

ricdən asılılığının artması həm iqtisadiyyatın yenidən qurulması prosesini ləngidir, həm ölkənin daxili tələbatının idxal hesabına təmin olunması ilə əlaqədar olaraq ölkədən valyuta axınını sürətləndirir, həm də ölkə iqtsadiyyatı üçün bir sıra təhlükələrin yaranmasına şərait yaradır.

Beləliklə, ölkənin iqtisadi maraqlarının və iqtisadi təhlükəsizliyinin təmin olunması məqsədilə həm iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi və yeni şəraitə uyğunlaşdırılması, həm də ölkədə maddi istehsalın həcminin artırılması və bu əsasda ölkənin xaricdən asılılığının minimuma endirilməsi mühüm əhəmiyyət kəsb edir.

İkinci mühüm amil isə investisiya mühitinin pisləşməsi və elmi-texniki potensialın zəifləməsi ilə bağlıdır. İnvestisyalar ölkənin iqtisadi, o cümlədən istehsal güclərinin yeniləşdirilməsi və inkişaf etdirilməsinin mühüm mənbələrindən biridir. Yəni ölkənin iqtisadi inkişafının mühüm göstəricisi kimi təsərrüfat sisteminin texniki-texnoloji səviyyəsi və onun yüksəldilməsi ölkə iqtisadiyyatına yönəldilən investisyaların, o cümlədən real investisiyaların həcmindən asılıdır. Həmçinin iqtisadi nəzəriyyədən bizə məlumdur ki, ölkədə məcmu gəlirlərin səviyyəsinin artımı iqtisadiyyata yönəldilən investisiyaların həcmindən çox asılıdır. Bu baxımdan ölkədə invistisiya mühitinin pisləşməsi iqtisadiyyatın ehtiyac duyduğu investisiyaların ölkəyə axınının həcminin azalmasına gətirib çıxarmaqla bərabər ölkədə məcmu gəlirlərin səviyyəsini aşağı salır. Ölkədə investisiyaların aşağı düşməsi istehsal sahələrinin inkişafını ləngidir, iqtisadiyyatda müəyyən gərginliklər yaradır və nəticədə bir tərəfdən dövlət büdcəsinə daxilolmalar azalır, digər tərəfdən isə dövlətin iqtisadiyyatda yaranan gərginliyin yumşaldılması və özünün sosial-iqtisadi funksiyalarını yerinə yetirmək imkanlarını məhdudlaşdırır. Beləliklə, investisiya mühitinin pisləşməsi ölkədə həm iqtisadi, həm də sosial problemlərin meydana çıxması ilə nəticələnir.

Ölkənin iqtisadi ikişafının əsas parametrlərindən biri olan elmi-texniki potensialın zəifləməsi ölkə üçün əsas təhlükələrdən biridir. Ölkənin elmi-texniki potensialı iqtisadi inkişafın əsas göstəricilərindən biri olmaqla bərabər, özü inkişafın əsas hərəkətverici qüvvəsidir.

M.Porter ölkənin elmi-texniki potensialını iqtisadi inkişafın tərəqqi amili və iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin əsas şərti kimi qəbul edirdi. Belə ki, elmi-texniki potensialın zəifləməsi ölkədə həm yeni texnologiyaların hazırlanması, həm də istehsalata yeni texnologiyaların tətbiqi prosesini ləngidir. Bu isə öz növbəsində iqtisadiyyatın texnoloji cəhətdən digər ölkələrdən geri qarması və onun rəqabət qabiliyyətinin aşağı düşməsilə, həmçinin texnoloji cəhətdən xarici ölkələrdən asılılığının artması ilə nəticələnir. Habelə qeyd etmək lazımdır ki, elmi-texniki potensialın zəifləməsi ölkə təsərrüfatının intensivləşdirilməsinə və sosial-iqtisadi inkişafın təmin olunmasına mənfi təsir göstərir. Beləliklə, ölkənin iqtisadi maraqlarının və rəqabətqabiliyyətliliyinin təmin olunmasının əsas amili kimi elmi-texniki potensialın zəifləməsi iqtisadiyyat üçün ən böyük təhlükələrdən biridir. Elmi-texniki potensialın zəifləməsinə təsir göstərən əsas amillərdən biri ölkədə innovasya mühitinin əlverişsiz olmasıdır. Hələ İ.Şumpeter qeyd edirdi ki, ölkədə iqtisadi inkişafın təmin olunmasının əsas amili yenilikçilik-iqtisadiyyata yeniliklərin tətbiq olunmasıdır. O, iqtisadi inkişafın təmin olunmasnın ən səmərəli yolu kimi həm dövlət, həm də sahibkarlar tərəfindən iqtisadiyyata yeniliklərin tətbiq olunması və ölkədə əlverişli innovasiya mühitinin yaradılmasını göstərirdi. Buradan belə bir nəticəyə gələ bilərik ki, ölkədə innovasiya mühitinin pisləşməsi həm innovasiya aktivliyinin aşağı düşməsiylə, həm də qısa bir zamanda iqtisadiyyatda geriləmələrin müşahidə olunmasıyla nəticələnir. Beləliklə ölkənin elmi-texniki potensialının yüksəldilməsi, əlverişli innovasiya mühitinin yaradılması və onların dövlətin iqtisadi maraqlarına uyğunlaşdırılması mühüm əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. В.Сенчагов. Экономическая безопасность. Москва 2008, с. 402.
2. В.С.Балабанов, Е.Н Борисенко. Продовольственная Безопасность. Международные и внутренние аспекты. Москва, 2012.
3. А.С.Филлипенко. Экономическое развитие. Цивилизационный подход. 2009.
4. www.stat.gov.az

Айдан Илхам кызы Гадиева
диссертант АзТУ

Роль промышленности в обеспечении экономической безопасности

Резюме

В статье основное внимание уделяется роли промышленности в обеспечении экономической безопасности страны. Показана особая доля отрасли в экономике Азербайджана. Учитывая важность отрасли в плане экономического развития страны, факторы экономической безопасности анализируются с промышленной точки зрения.

Ключевые слова: экономическая безопасность, внутренние факторы, внешние факторы, качество, ВВП, структура, добавленная стоимость, инвестиционный климат.

Aydan İlham Hadiyeva
candidate for a degree of AzTU

The role of industry in ensuring economic security

Summary

Thesis is devoted to the role of industry in ensuring the economic security of the country. The industry's special share in the Azerbaijani economy is shown. Given the importance of the industry in terms of economic development of the country, the factors of economic security are analyzed from the industrial point of view.

Key words: economic security, internal factors, external factors, quality, GDP, structure, value added, investment climate.

Azər Sədrəddin oğlu HÜSEYN
texnika üzrə fəlsəfə doktoru, dosent, AzTU;

Ruslan Qambay oğlu TALIBOV
iqtisad üzrə fəlsəfə doktoru,
baş müəllim Modenis MMC;

Şakir Sərdar oğlu ƏLİZADƏ,
baş müəllim, AzTU

ƏRZAQ BOLLUĞUNUN YARANMASINA TƏKAN VERƏN AMİLLƏR

Xülasə

Ərzaq təhlükəsizliyinin təmin edilməsi insanların əsas hüquqlarındandır. Ərzaq təhlükəsizliyi hər insanın sağlam və məhsuldar həyat tərzi üçün ərzaqla kifayət qədər təmin edilməsi deməkdir.

Açar sözlər: ərzaq, ərzaq təhlükəsizliyi, ərzaq məhsulları, keyfiyyətli.

***

Təmiz, keyfiyyətli və əhalinin büdcəsinə uyğun olan ərzaq məhsullarının bazara çıxarılması ərzaq təhlükəsizliyi və təminatının vacib faktorlarındandır. Ərzaq təhlükəsizliyinin təmin edilməsi insanların əsas hüquqlarındandır. Ərzaq təhlükəsizliyi hər insanın sağlam və məhsuldar həyat tərzi üçün ərzaqla kifayət qədər təmin edilməsi deməkdir [1. səh 1].

Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün hüquqi baza hələ 2 mart 2001-ci ildə Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyev tərəfindən yaradılmışdır.

Məlumdur ki, ərzaq təminatı ölkə ərazisində istehsal olunan və ölkəyə idxal edilən məhsullar vasitəsi ilə həyata keçirilir. Burada əsas məsələlər aşağıdakılardır:

- ərzaq məhsullarının keyfiyyətli istehsalına münbit şərait yaratmaq;
- ərzaq məhsullarına keyfiyyəti nisbətində qiymətin müəyyən edilməsi;

- ərzaq məhsullarının satışının genişləndirilməsi üçün rəqabət mühiti yaratmaq, belə ki, ölkə ərazisində ərzaq yarmarkaları, ixtisaslaşmış bazarlar və marketlərin (super və hiper marketlər) yaradılmasını təmin etmək;

- idxal olunan məhsulların qiymətlərinin istehlak səbətinə uyğun olması üçün gömrük və vergi mexanizmlərinin yüngülləşdirilməsi ilə ucuzlaşmasını təmin etmək.

Ərzaq məhsullarının böyük əksəriyyəti son 5 ildə 100 - 200 % artıb. 2018-ci ilin mart ayında ərzaq məhsullarının qiymətləri 4,5 % bahalaşıb, aprel ayında isə ərzaq məhsullarının qiymətləri 0,5 % azalıb.(2) Buradan görünür ki, ərzaq məhsullarının bolluğunu təmin etmək üçün tədbirlər görülməlidir. Bu gün ölkə əhalisinin büdcəsinin böyük qismini ərzaq məhsullarına ayrılan xərclər tutur. Məhz bu baxımdan əhalinin ərzaqa olan tələbatını nəzərə alaraq ölkə prezidenti kənd təsərrüfatının inkişafına təkan verən qərar və sərəncamlar verir. Bununla yanaşı prezident İlham Əliyevin vergi yoxlamalarının 2021-ci ilə qədər uzadılması ilə bağlı verdiyi qərar bu sahənin inkişafına ciddi təkan verməkdədir. Belə ki, sahibkarlardan qeyri-qanuni tələblər aradan qaldırılmışdır və sahibkarların daha çox sərmayə qoymaq imkanı artmışdır, istehsalın və məhsuldarlığın həcmi artmışdır, eyni zamanda sahibkarın vergi stresi aradan qalxmış, onun yerini işin inkişafına motivasiya tutmuşdur. Sahibkarların iş həcmi böyüyərək işçi ehtiyacları yaranmış və işsizliyin azalmasına səbəb olmuşdur. Ərzaq təsərrüfatına dövlət himayəsi, bir qayda olaraq əhəmiyyətli vəsait qoyuluşları hesabına reallaşdırılır. Sahənin imtiyazlı mövqeyini şərtləndirən amillər sırasında - gəlirlərin mənfi dinamikası, kənd ərazilərinin inkişafı və təbiəti mühafizə tədbirlərinin zəruriliyi haqlı olaraq gündəlikdə qalır. [3. s. 18-19].

Ərzaq təhlükəsizliyi probleminin həlli yollarının yaxşılaşdırılmasından biri də Qlobal Qida Təhlükəsizliyi İndeksində önəmli yerin tutulmasından ibarət olmalıdır. Ərzaq təhlükəsizliyinin təmin olunmasında əsas şərtlər qida istehsalının həcminin artmasına səbəb olan iqtisadi artım, insanların real gəlirləri və yoxsul əhaliyə dövlətin aktiv yardım siyasətidir. [4. s. 223]. Hazırda Azərbaycanda aclıqdan əziyyət çəkən insanlar 3 %-dən azdır. [5. s. 98] Milli istehsalın get-gedə inkişafı ərzaq məhsullarının bolluğuna və ucuzlaşmasına gətirib çıxaracaqdır. Dövlətimiz ərzaq təminatının gücləndirilməsi üçün davamlı olaraq müxtəlif tədbirlər həyata keçirir.

1994-2008-ci illərdə Ümumdünya Ərzaq Proqramı çərçivəsində Azərbaycanda məcburi köçkün və qaçqınlara 165 min ton ərzaq paylanıb. Yardım xarakterli ərzaq təminatının faydası vardır. Lakin, ərzaq bolluğunun yaranması üçün istehsalata əhəmiyyət vermək davamlılığı təmin edir. Ölkə ərazisində ərzaq məhsullarının artımına sübut olaraq bir faktı qeyd etmək məqsədəuyğundur: ərzaq təyinatlı kənd təsərrüfatı məhsullarına daxili tələbatın ödənilməsi səviyyəsinin artımı 2010-2015-ci illər arasında bütün növ tərəvəzlərdə 5,8%, meyvə və giləmeyvələrdə 5,8%, üzümdə 2,7%, süd və süd məhsullarında 13,9%, kərə yağında 19,2% kimi olmuşdur. Buradan görünür ki, Azərsun, Atena, Milla və s. emal səanayesi müəssisələrinin yaradılması ərzaq sənayesi məhsullarının artımına zəmin yaratmışdır.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikası ərzaq təhlükəsizliyi Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı;
2. https://oxu.az <http://www.oxu.az>/economy/250725;
3. Faiq Məmmədov. "Ərzaq məhsulları xarici ticarəti: tənzimləmə və liberallaşdırma məsələləri". Gənc Tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı. Qafqaz Universiteti 25-26 aprel, Bakı 2013;
4. Xudaverdiyeva Elnarə Misir qızı. "Azərbaycanda ərzaq təhlükəsizliyi və onun yaxşılaşdırılması yolları". Qloballaşma və regional inteqrasiya respublika elmi konfransı. Mingəçevir Dövlət Universiteti. Mingəçevir 2016.
5. Bəyalı Xanalı oğlu Ataşov. Aqrar sahədə struktur və səmərəlilik problemləri. Monoqrafiya. "Koopersiya" nəşriyyatı. Bakı 2017.

Азер Садраддин оглы Гусейн
доктор философии по техника, доцент АзТУ;

Руслан Гамбай оглы Талибов.
кандидат экономических наук, доцент
Modenis MMC;

Шакир Сардар оглы Ализаде, ст. пред. АзТУ

Факторы, повышающие пищевое богатство

Резюме

Обеспечение продовольственной безопасности является одним из основных прав человека. Безопасность продовольствия означает обеспечение каждого человека необходимыми продуктами для ведения здорового образа жизни. Сегодня основной бюджет населения страны составляют расходы на продовольственные товары.

Ключевые слова: питание, безопасность пищевых продуктов, пищевые продукты, качества.

Azer Sadraddin Huseyn
Doctor of Ph in technique, ass. prof. AzTU

Ruslan Gambay Talibov
PhD in economics, ass. prof. Modenis MMC;

Shakir Sardar Alizadeh
senior lecturer, AzTU

Factors that boost food abundance

Summary

One of the main rights of a man is providing his food security. Food security means the supply of each person by the food products necessary for his healthy way of living. Today the main part of the budget of the country's population is the expenses on the food products.

Key words: food, food safety, food ingredients, quality.

Məzahir İbrahim oğlu KAZIMOV
KTİETİ-nin dissertantı, böyük elmi işçi

ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ ÜZÜMÇÜLÜK - ŞƏRABÇILIQ YARIMKOMPLEKSİNİN ROLU VƏ ƏHƏMİYYƏTİ

Xülasə

Məqalədə Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin olunmasında üzümçülük - şərabçılığın əhəmiyyətindən bəhs edilmişdir. Eyni zamanda məqalədə bir sıra şərab müəssisələrinin emal şəraiti səciyyələndirilmişdir.

Açar sözlər: ərzaq təhlükəsizliyi, üzümçülük, şərabçılıq, şərab, istehsal, xammal.

***

Hər bir dövlətin qarşısında duran əsas vəzifələrdən biri ölkənin milli təhlükəsizlik məsələsidir. Kifayət qədər geniş və çoxtərəfli problemləri əhatə edən milli təhlükəsizlik sisteminin mühüm tərkib hissəsi ərzaq təhlükəsizliyinin təminatıdır. "Ərzaq təhlükəsizliyi" dedikdə müəyyən edilmiş keyfiyyət standartları çərçivəsində əhalinin həssas qida məhsuluna olan tələbatının fasiləsiz, uzunmüddətli və dayanıqlı şəkildə ödənilməsini təmin edən tədbirlər kompleksi nəzərdə tutulur.

2000-ci ilin iyun ayında Azərbaycan hökuməti Avropa Komissyasının ərzaq təhlükəsizliyi proqramına qoşulmaq üçün memorandum imzalamışdır. Beləliklə, 2001-ci ildə Heydər Əliyevin Sərəncamı ilə "Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyi Proqramı" təsdiq edilmişdir.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi aqrar sahə ilə birbaşa əlaqəli olduğundan, bu problemin həll edilməsində də məhz aqrar bölmənin işinin yaxşılaşdırılması prioritet məsələlərdən biridir. Bildiyimiz klimi, ölkə əhalisinin tələbatı olan ərzaq məhsulları əsasən kənd təsərrüfatı sahələrində istehsal və emal olunur.

Bir sıra əhəmiyyətli kənd təsərrüfatı məhsullarının - dənli və texniki bitkilərin, habelə, meyvə - tərəvəz, ət - süd və üzümçülük - şərabçılıq məhsullarının keyfiyyətinin yaxşılaşdırılması,istehsalının genişləndirilməsi, təmiz və gigiyenik şəraitdə qablaşdırılması və saxlanılması ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində görülə biləcək ən vacib işlərdən birdir.Burada əsas diqqət əhalinin daha ucuz və yüksək keyfiyyətli qida məhsulları ilə təmin olunmasına yönəldilməlidir ki,bu da geniş əhali qruplarının sağlam və düzgün həyat şəraitinin göstəricisidir.

Ərzaq təhlükəsizliyi proqramının yerinə yetirilməsi və əhalinin ərzaq təhlükəsizliyinin təmin olunmasında digər ərzaq məhsulları ilə yanaşı üzümçülük - şərabçılıq məhsullarının da öz yeri vardır. Üzümün kimyəvi tərkibi göstərir ki,o başqa yeyinti məhsullarından daha yüksək kaloriyə malikdir. Misal üçün, 1 kq alma 400, 1kq kartof 650, 1kq süd 700 kalori istilik verirsə,1kq üzüm 900 kalori istilik verir.

Bildiyimiz kimi, üzüm şərabçılıq sənayesinin əsasını təşkil edir. Respublikamızda istehsal olunan bir sıra şərablar dünyada məşhur olmuş,beynəlxalq sərgilərdə qızıl və gümüş medallar almışdır. Üzümçülukdə əmək məhsuldarlığı başqa sahələrə nisbətən xeyli yüksəkdir. Məhsuldarlıq nə qədər yüksək olarsa, üzümçülükdə əmək və vəsaitdən nə qədər səmərəli istifadə edilərsə, üzümün maya dəyəri də bir o qədər aşağı olur və o sahədə çalışanlar daha çox xalis gəlir əldə edirlər.

Təcrübə aparmaq məqsədilə Şamaxı rayonunda həm üzüm, həm də günəbaxan yetişdirilir. Bunların hər ikisi əsasən satlıq məhsuldur.Rayon üzrə üzümün bir sentnerinin istehslına 10,54 əmək günü sərf edilmiş, onun maya dəyəri 197 manat 43 qəpik olmuşdur. Orta satış qiyməti isə 390 manatdır. Deməli, bir sentner üzümdən əldə edilən xalis gəlir 192 manat 57qəpik olmuşdur. Günəbaxanın bir sentnerinin istehsalına isə 14,18 əməkgünü sərf esilmiş və maya dəyəri 248 manat 90 qəpiyə başa gəlmişdir. Buradan aydın olur ki, günəbaxandan üzümün hər sentnerinə nisbətən 88 manat 90 qəpik az gəlir götürmüşlər

Azərbaycanda üzüm emalı və şərabçılıq yaxın keçmişdə üzümün ilkin emalı müəssisələri və şərab emalı zavodları formasında mövcud olmuşdur. Son illərdə fəaliyyət göstərən üzümün ilkin emalı müəssisələrinin və şərab zavodlarının fəaliyyəti, müasir durumu tədqiq olunaraq qiymətləndirilmişdir. Hazırda ilkin emal müəssisələrinin bir neçəsi də artıq şərab süzmə və konyak istehsalı ilə məşğul olurlar. Halbuki, yaxın keçmişdə bu müəssisələrin əsas funksiyası ilkin şərabçılıq olmuşdur.

Bakı Şampan Şərab zavodu 2001-ci ildə tam özəlləşdirilərək **Bakı Şampan Şərab Açıq Tipli Səhmdar Cəmiyyətinə (ATSC)** çevrilmişdir və bu müəssisə 378 nəfər işçiyə malik olmuşdur. Burada araq, konyak, şərab və konyak spirti istehsal etmək üçün lisenziya almışdır. Zavodun istehsal gücü 20 milyon şüşədir. 2001-ci ildə 2 milyon şüşə müxtəlif spirtli içkilər istehsal edilmişdir. Göründüyü kimi, zavod öz istehsal gücünün az bir hissəsini, yəni cəmi 10%-ndən istifadə edə bilmişdir ki, bu da əsasən xammal qıtlığı ilə izah olunur. Belə ki, zavodun fəaliyyəti tamamilə satınalma şərab materialları əsasında qurulmuşdur. Burada istehsal olunan məhsulların hamısı ölkə daxilində realizə edilir.

Gəncə Şərab zavodunun əsası 1924-cü ildə Forer qardaşları tərəfindən qoyulmuşdur. Zavod 1984-cü ildə yenidən bərpa edilmişdir. 1999-cu ildə bu müəssisə tamamilə özəlləşdirilərək Gəncə Şərab 2 ATSC səhmdar cəmiyyətinə çevrilmişdir. Müəssisə araq, konyak, şərab, konyak spirti istehsalı üçün lisenziyaya malikdir.

Zavodun 178 əməkdaşı vardır. Emal satınalma üzüm hesabına həyata keçirilir və istehsal gücü 1,5 milyon dekalitrdir. 2002-ci ildə 3,5 min ton üzüm emal olunmuşdur. Süzmə xəttinin gücü saatda 8000 butulkadır. Hazır məhsul butulkalarda respublika daxilində satışa göndərilir. Habelə sistemlərdə şərab materialı ixrac olunur.

Bu müəssisə 1999-cu ildə Almaniyanın Korund firması ilə birgə müəssisə yaratmışdır. Cəmi 4 növ qırmızı şərab istehsalı üçün Almaniyadan böyük həcmdə Bordo tipli butulkalar gətirilmiş-

dir (0,75 litrlik 33 mm hündürlüyündə). "Mədrəsə", "Qız qalası", "Yeddi gözəl", "Naznazı" kimi şərabların butulkaları üçün istifadə olunan etiketlər və qapaqlara beynəlxalq standartlara uyğun olan cəlbedicilik verilmişdir. Yerli xammalın çatışmazlığı ucbatından şərab üçün üzüm 300 km məsafədə yerləşən İsmayıllı rayonu İvanovka kəndindən gətirilir. Buna görə də zavod öz üzüm bağlarının salınması istiqamətində məqsədyönlü işlər görür. Bu bağlarda da əsasən Kabern Savinyon sortlarının becərilməsi nəzərdə tutulur.

Şəmkir şərab zavodu 1999-cu ildə tamamilə özəlləşdirilərək **Şəmkir Şərab 1 ATSC** açıq tipli səhmdar cəmiyyətə çevrilmişdir. Burada 2001-ci ildə cəmi 250 ton üzüm emal edilmişdir. Zavoda şərab istehsalı üzrə lisenziya verilmişdir. Müəssisə satınalma xammal əsasında fəaliyyət göstərir. Şəmkir "Şərab 1 ATSC" öz məhsulunun az bir hissəsini süzüb butulkalara doldurur. Avtomatik doldurma avadanlığına malik olmadığı üçün şərab əl ilə şüşələrə doldurulur, əldə hazırlanmış tıxacla bağlanılır və əl ilə də etiketləşdirilir.Şüşələrə doldurulmuş şərab daxili bazarda realizə olunur, ixrac üçün isə şərab materialı sistemlərlə göndərilir.

Şəmkir Şərab 2 ATSC - 1916-cı ildə Forer qardaşları tərəfindən Annenfelddə ilk dəfə kooperativ kimi yaranmışdır. Təqribən 1000 m^2 sahəsi olan yeraltı zirzəmi, əla iqlimi ilə (daimi 8-12°C, nisbi rütubət) fərqlənir. Dağ döşündə olduğu üçün hər tərəfdən yerlə bərabər girişlər mövcuddur. Burada təmiz su (bulaq suyu) və texniki su üçün ötürmə xətti mövcuddur. Mövcud 80 illik ağac çəlləklərinin 95%-i istifadəyə artıq yaramır. Çöldə 2,0 min dekalitr həcmli və təqribən 30,0 min dekalitr üçün yaxşı vəziyyətdə qalmış iç üzü emal ilə örtülmüş polad və korroziyaya uğramayan polad çəlləkləri vardır. Müəssisənin qazanxanası və laboratoriyası mövcuddur. Laboratoriyada mühüm əhəmiyyət kəsb edən içkilərin analizləri üçün aparatlar mövcuddur. Şüşə və qapaqlar Polşadan ixrac edilir. 1996-cı ildə zavodda yenidənqurma işləri görülmüşdür. Ümumiyyətlə, müəssisənin istehsal gücü 20 min tondur. Saatda 6000 butulka dolduran xəttə malikdir. 2015-ci ildə 300 ton məhsul istehsal olunmuşdur. Zavod konyak və şərab istehsalı üçün lisenziyaya malikdir. Xammalla təminat müqavilə əsasında üzümün yetişdirilməsi və satın alınması yolu ilə həyata keçirilir. Digər zavodlar ilə müqayisədə müəssisənin yaxşı istehsal imkanları vardır. Burada laboratoriya, su təchizatı və doldurma sexi ilə yanaşı elektrik enerjisi ilə təminatı cəhətdən yaxşı infrastruktura, mövcud yeraltı zirzəmi və Bakı sahələrində satış üzrə idarəsi mövcuddur. Bundan əlavə, gələcəkdə üzüm plantasiyasının salınması da nəzərdə tutulmuşdur.

"Bakı ALKO LTD" Birgə Müəssisəsi (Azərbaycan - İrlandiya). Araq, konyak, şərab, spirt-retifikat istehsalı üçün lisenziyaya malikdir. Müəssisədə 2001-ci ildə 60 mln butulka araq istehsal edilmişdir.Zavodun məhsulları daxili bazarda satılır. "ALKO LTD" müəssisəsi yalnız araq istehsalı üzrə ixtisaslaşmışdır. 1996-cı ildə bir alman mütəxəssisi tərəfindən (Kuchenbauer) paslanmayan metaldan hazırlanmış və istifadə olunmuş bir dəst distillə avadanlığı montaj edilmişdir. Müəssisənin gündəlik istehsal gücü 5000 litrdir.Burada keyfiyyət nəzarəti üçün aparatlarla təchiz olunmuş müasir laboratoriya vardır.

Tovuz "Qızıl salxım" MMM 1998-ci ildə yaradılmışdır. İstehsal gücü 500 min ton dekalitrdir. Bu müəssisə şərab, konyak, konyak spirtinin istehsalı üzrə lisenziyaya malikdir. Müəssisənin texnoloji cəhətdən müxtəlif imkanları (opsiyaları) var. Şərab və konyak istehsalı üzrə avadanlıqlardan başqa meyvə emalı və meyvə şirələrinin istehsalı avadanlıqları da vardır. Zavodda şirə konsentratının istehsalı üçün lazım olan avadanlıqlarla yanaşı mineral suların karbonatlaşdırılması üzrə də avadanlıqlar mövcuddur. Burada müxtəlif məhsulların saxlanması üçün lazım olan çəlləklər, maşın və avadanlıqlar qənaətbəxş vəziyyətdədir. Müəssisədə saatda 6000 şüşə dolduran avadanlıqlar mövcuddur. Müəssisəni dəmir yolu ilə bilavasitə birləşdirən xəttin olması isə məhsulun sistem ilə səmərəli daşınmasına imkan verir.

Xanlar ASK 1897-ci ildə fəaliyyətə başlamışdır. Bu zavodun istehsal gücü 20 min tondur. 2001-ci ildə 1000 ton üzüm emal edilmişdir. Müəssisə araq, konyak, konyak spirti, şampan şərabı istehsalı üçün lisenziyaya malikdir. Zavod xammalı əsasən satın alır.

Müəssisə keçmiş Sovet İttifaqında ən iri şərab istehsalı müəssisələrindən sayılırdı. Onun yaranma tarixi Helenendorfda (indiki Xanlar) yaradılmış Konkordiya kooperativi ilə bağlıdır. Müəssisənin lisenziyası olmasına baxmayaraq son illərdə istehsal dayandırılıb. Müəssisənin 1000 m^2 sahəsi olan ikimərtəbəli yeraltı zirzəmisi vardır. Şampan şərabı istehsalı üçün avadan-

lıq son 10 ildən artıq istifadə edilmir. Müəssisənin ərazisi təqribən 7 ha təşkil edir, burada üzüm qəbuledici məntəqələr, distillə suyu üçün avadanlıq, laboratoriya və xüsusi qablaşdırma avadanlığı mövcuddur Müəssisə 10 ildən artıqdır ki, tam gücü ilə işləmir. Yeraltı zirzəmilər hələ ki, yaxşı vəziyyətdədir və şərab hazırlanması və onların anbarlaşdırılması üçün burada ideal şərait vardır. Buna baxmayaraq, bütün ağac çənlər artıq yararsız haldadırlar. Bu həmçinin anbarda yerləşdirilmiş içi emal ilə örtülmüş çənlərə də aiddir. Maşınların və avadanlıqların böyük bir hissəsi başlı-başına buraxılmış və istifadə üçün, demək olar ki, yararsız vəziyyətdədir.

Samux rayonu "Zaman" firması. 1995-ci ildə bu müəssisədə yenidənqurma işləri aparılmışdır. İstehsal gücü 1000 ton olmaqla, 2001-ci ildə müəssisədə 1000 ton üzüm məhsulu emal edilmişdir. Xammal əsasən müəssisəyə məxsus üzüm bağlarından, qismən isə başqa yerlərdən satın alınır. Qablaşdırma saatda 6000 butulka təşkil edir. Müəssisə 1857-ci ildə alman mənşəli Forer qardaşları tərəfindən yaradılmışdır. Zavodun palıd çənləri yerləşdirilmiş zirzəmi hal-hazırda təmir olunur. Müəssisənin 30 ha üzüm bağları vardır və 35 ha üzüm bağları icarəyə götürülmüşdür. Üzüm yığımı zamanı məhsulun dəmir hissələrlə toqquşmasını aradan qaldırmaq məqsədi ilə üzüm yığılan qoşqular plastik müşəmbə ilə örtülür. Zavodun soyuducu avadanlığı olmadığı üçün məhsulu saxlamaq üçün yalnız açıq havada yerləşdirilmiş paslanmayan polad çənlərdən istifadə olunur. Müəssisədə yalnız qırmızı şərab istehsal olunur. İstehsalın təxminən 80%-i butulkalara qablaşdırılmış halda daxili bazarda satılır.Zavod üçün lazım olan butulkalar Gürcüstandan alınır.

Xaçmaz Şərab ATSC 1972-ci ildə yaradılmışdır. Zavodun üzüm emalı gücü 25 min ton olmaqla 2001 -ci ildə 70% özəlləşdirilmişdir.

Müəssisənin iki ayrı-ayrı qırmızı və ağ şərablar üçün üzüm qəbuletmə məntəqəsi vardır. Qırmızı şərab üçün paslanmayan poladdan hazırlanmış çənlər çəkmə qurğusu ilə təchiz edilmişdir və açıq havada yerləşdirilmişdir. 25000 ton ümumi anbarlaşdırma gücündən yalnız 10%-i bağlı anbarda qənaətbəxş vəziyyətdə olan iç üzü emal ilə örtülmüş çənlərdə saxlanılır. Süzmə avadanlığı yaxşı vəziyyətdədir, çünki onlar 1999-cu ildə quraşdırıldıqdan sonra nadir hallarda istifadə olunmuşdur. Distillə üçün avadanlıq isə qeyri-qənaətbəxş vəziyyətdədir. Şərablıqda inkişafın dayandığı bir şəraitdə bu müəssisə həmçinin meyvə-tərəvəz emalı ilə də məşğul olur (tomat çeşidləri). Yaxşı bulaq suyu və elektrik enerjisi ilə təmin olunması müsbət hal kimi qiymətləndirilməlidir. İşlək vəziyyətdə olan süzülmə üçün avadanlığın olmasına baxmayaraq, satış sistemlərlə ixrac həyata keçirilir.

"Aran" firması (Bakı) - 1997-ci ildə yaradılmışdır. 1998-ci ildən isə tamamilə özəlləşdirilmişdir. Müəssisənin emal gücü 30 min tondur. Saatda 6 min butulka dolduran süzmə xəttinə malikdir. Müəssisənin üzüm emalı və şərab materialının satın alınması, onun sağlamlaşdırılması, durulaşdırılması və süzülməsi ilə məhdudlaşır. Təklif edilən assortiment 12 müxtəlif şərab və tərkibində şərab olan ətirləşdirilmiş içkiləri əhatə edir. Məhsul yalnız ölkənin daxili bazarında satılır. Artıq istifadə edilmiş şüşələr iç və üz tərəfindən butulkayuyan maşında təmizlənir. Süzülmə xətti süzülmə və butulkaların ağızlarını bağlayan vahidlərdən ibarətdir. Probka ilə yanaşı burada rezbalı qapaqlardan da istifadə olunur. Kiçik həcmli partiyalar üçün əl ilə doldurucular və yarımavtomat probka maşınları istifadə edilir. Müəssisənin kifayət qədər avadanlıqla təchiz edilmiş laboratoriyası vardır. Maşınlar və avadanlıqlar texnoloji cəhətdən istifadə üçün tam hazır və işlək vəziyyətdədirlər.

Göygöl Şərab Zavodu 2007-ci ildən başlayaraq, Azərbaycanın alkaqollu içkilər bazarında "Xan" brendi ilə tanınmış istehsalçılardan birinə çevrilmişdir. Müəssisədə istehsal olunan məhsulların qablaşdırılması üçün 3 ədəd süzmə xətti işləyir. Göygöl Şərab Zavodunun məhsulları yüksək səviyyəli Beynəlxalq şərab müsabiqəsində 40 medala layiq görülmüşdür. Zavodun iş fəaliyyəti Moskvada Beynəlxalq qızıl keyfiyyət sertifikatı ilə qiymətləndirilmişdir.

Qeyd edilənlər bir daha təsdiq edir ki, Azərbaycan Respublikası öz daxili istehalı hesabına nəinki öz əhalisini yüksək keyfiyyətli ərzaq məhsulları, o cümlədən üzümçülük - şərabçılıq məhsulları ilə təmin edə, həm də bir sıra ölkələrin bazarı üçün həmin məhsulların davamlı ixracatçısına çevrilə bilər.

ƏDƏBİYYAT

1. Xəlilov H.A. "Milli ərzaq təhlükəsizliyi: bazar transformasiyaları və iqtisadi qloballaşma amilləri". Bakı, 2001.
2. "Səhmdar cəmiyyətləri haqqında" Azərbaycan Respublikasının Qanunu. Biznesmenin bülleteni, Bakı,1993- 12s
3. Аскеров Ш.Н. Эффективность развития интегрированного винодельческого производства. Автр. Канд. дис. Б.1992.
4. Şərabçılıq sənayesundə xammaldan istifadənin optimallaşdırılması. Kişinyov: kortya Moldovenyasko. 1974. Роль и значение подсекторов виноградарства и виноделия в обеспечении продовольственной безопасности

Мазахир Ибрагим оглы Казимов
диссертант НИИЭСХ, старший научный сотрудник

Роль и важность виноградарско-винодельческого полукомплекса в обеспечении продовольственной безопасности

Резюме

В статье, рассматривается роль и важность виноградарства и виноделия в продовольственной безопасности Азербайджана. В то же время в статье охарактеризованы условия обработки некоторых винных предприятий.

Ключевые слова: продовольственная безопасность, виноградарство, виноделие, вино, производство, сырье.

Mazahir Ibrahim Kazimov
Phddissertant and senior researcher of ISRAE

The role and importance of the viticulture-winemaking semi-complex in ensuring food security

Summary

The article deals with the importance of viticulture and wine-making in the provision of food security in Azerbaijan. At the same time, the conditions for the processing of a number of winery enterprises have been characterized.

Key words: food security,viticulture, winemaking,wine, production, raw material.

Мехрибан Вагиф кызы КЕРИМЗАДЕ
Азербайджанский Государственный Экономический Университет (UNEC),
д.ф.э., старший преподаватель
кафедры «Цена и оценка»

НАПРАВЛЕНИЯ И ФАКТОРЫ ОБЕСПЕЧЕНИЯ ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ

Аннотация

В статье исследуются приоритетные направления в обеспечении продовольственной безопасности, как важнейший элемент экономической безопасности, а также раскрывается ее сущность и современное состояние. Недостаточность продовольствия возникает по причине стихийных бедствий, вызванных природными явлениями, войн, экономических кризисов в государстве, радикальных изменений общественного строя и отношений собственности, быстрого роста народонаселения Земли и непропорциональности размещения по территории численности населения и производства продовольствия. В статье рассматривается сущность, современное состояние продовольственной безопасности и ее приори-

теты как важный аспект экономической политики государства. Поскольку продовольственная безопасность является одним из основных условий поддержания экономической стабильности и суверенитета по всей стране, в статье расследуются направления и факторы ее обеспечения.

Ключевые слова: продовольственная безопасность, сельскохозяйственная продукция, государственное регулирование, экономическая поддержка, FAO.

***

Фундаментом в обеспечении продовольственной безопасности людей и достижения продовольственной независимости государством является развитая продовольственная система страны. В зависимости от ее состояния, эффективности использования, увеличения производственно-экономического потенциала определяется уровень обеспеченности населения основными видами продуктов питания отечественного производства. Увеличение импорта отрицательно влияет на состояние продовольственной системы страны, оказывая сдерживающее влияние на ее развитие.

Хотя спектр глобальных проблем в мире является очень широким, среди них проблема обеспечения продовольственной безопасности является наиболее острой. Эта проблема выделяется также тем, что непосредственно связана с физиологической и жизненной потребностью человека. Эта проблема берет свои корни со времени формирования человеческой цивилизации. Однако за последние сто лет она приобрела более глобальный характер. Следует подчеркнуть, что несмотря на внедрения в сельском хозяйстве достижений НТП, проблема обеспечения населения земли продовольственными товарами так и не была полностью решена. По данным Продовольственной и сельскохозяйственной организации (FAO) при ООН за последние 40 лет количество людей страдающих от голода стало больше 1 миллиарда человек и эта цифра не перестает расти. Основная часть этих людей живет в развивающихся странах. Результатом этого стало то, что за последние 4-5 лет, в более чем 60-ти таких странах были зарегистрированы массовые беспорядки. Если на одной чаше весов в обострении проблемы глобальной продовольственной безопасности лежит нехватка продовольствия, то другая ее чаша это демографическая проблема. Продовольственная безопасность считается гарантированной, если налажено ритмичное и бесперебойное по медицинским нормам (не менее 2100 ккал/сутки) обеспечение населения основными продуктами питания (хлеб, крупы, масло, мясо, молоко), Она является обеспеченной, если отсутствует сама возможность голода или длительного недоедания у большой массы людей. Согласно классификации FAO лица, которые потребляют 1520 ккал, относятся к категории голодающих, а 1150 ккал - к находящимся на грани голода и недоедания [3, с.68].

По FAO национальная продовольственная стратегия это политика, позволяющая стране достигнуть наиболее высокой степени самообеспечения продовольствием, путем объединенных, направленных на увеличение производства жизненно необходимых продуктов, улучшение системы снабжения и потребления продовольствия, устранение недоедания и голода [3, с.10].

В зависимости от базового потенциала сельскохозяйственного производства, инвестиций в сферу производства продовольствия, включающей сферу агробизнеса зависит уровень обеспечения продовольственной безопасности. Для формирования политики, обеспечивающей оптимальную степень обеспечения продовольственной безопасности необходима взаимосвязь теоретических и методологических положений на которых она основывается. Реализация данной политики должна быть ориентирована на создание определенных социально-экономических условий, которые нужны для работы, с целью оказания помощи товаропроизводителю.

Значимость вопросов продовольственной безопасности в контексте вопросов национальной безопасности состоит в том, что она взаимосвязана с экологической безопасностью. В результате аграрной деятельности начинает ухудшаться экологическая ситуация и это приводит к замедлению роста производства аграрной продукции, которое является сырьем для

производства продовольствия, а также является причиной производства продукции, загрязненной отравляющими веществами. Так или иначе, проблема продовольственной безопасности страны усложняется в результате сокращения снабжения населения продовольствием или негативного воздействия на здоровье и продолжительность его жизни.

Население мира растет, и потребности в продовольствии растут соответственно. Обеспечение продовольственной безопасности один из решающих вопросов, которые стоят перед государством. Эту проблему государство решает посредством устранения внутренних и внешних угроз. В различных источниках можно встретить различные варианты проблемы продовольственной безопасности. Таким образом, факторами, обуславливающими продовольственную безопасность являются сокращение производства основных продуктов питания, снижение производственного потенциала аграрно-производственного комплекса, нехватка стратегических резервов, увеличение импорта. Ушачев И.Г. относит к внутренним факторам, характеризующим продовольственную безопасность природные катаклизмы (засухи, наводнения и т.д.), углубление дальнейшего расслоения общества увеличение доли малообеспеченных слоев населения, уменьшение уровня расширенного воспроизводства в сельском хозяйстве и других отраслях АПК, к внешним факторам – зависимость отдельных регионов страны и крупных промышленных городов от импорта продовольственных товаров [4, с. 9].

Хромов Е.С. в список внешних факторов добавил ввозимые в страну некачественные и представляющие опасность для жизни продукты питания [5, с. 27]. Моисеев Е.В. основными факторами, характеризующими продовольственную безопасность отмечает низкий уровень доходов населения, недостаточный уровень внутреннего производства. Он разделил факторы, характеризующие продовольственную безопасность на четыре основные группы:

- снижение объемов производства продуктов питания;
- наличие экономических барьеров в приобретении продуктов питания для большей части населения;
- снижение качества продовольственных товаров;
- большая зависимость в обеспечения продовольствием от импорта.

Кроме вышеперечисленных к внешним факторам, затрудняющим обеспечение продовольственной безопасности относят следующие:

- зависимость импортируемого продовольствия от воздействия конъюнктуры мировых рыночных цен;
- в зависимости от географического положения страны зависимость от водных ресурсов, поступающих с территории соседних государств;
- невыгодные условия международной продовольственной торговли с зарубежными странами, сохранение в этой сфере режима дискриминации со стороны международных организаций, переход в собственность иностранных инвесторов стратегически важных объектов, производящих продукты питания.

Основной целью государства является сведение к минимуму этих угроз. Каждое государство разрабатывает пакет мер, при помощи которых в той или иной мере удается решить проблемы, связанные с продовольствием. Главным условием обеспечения продовольственной безопасности является самообеспечение. Под самообеспечением понимается обеспечение потребности в продовольственных товарах за счет внутреннего их производства.

Одним из главных показателей продовольственной политики является производство зерна на душу населения. Данный показатель в итоге обрисовывает направление развития состояния продовольствия в стране.

Уровень запасов зерна показывает соотношение его производства и потребления на душу населения. Сокращение уровня запасов до конечного минимума показывает, что мировая продовольственная политика находится в критическом состоянии, так как при уменьшении объема запасов ниже обозначенного уровня, как правило, обозначает быстрый рост мировых цен на зерно (так было в 1972-1973 и 1979-1980 гг.) [6, с.89].

Вместе с тем, уровень запасов продовольствия надо рассматривать в контексте общего состояния продовольственной программы, степени производства и потребления продуктов питания, полного удовлетворения населения в продуктах питания. Кроме того, одним из основных компонентов продовольственной безопасности является также определенные гарантии качества продуктов питания.

В итоге, к основным показателям продовольственной безопасности относятся – степень развития производства сельскохозяйственной продукции; уровень самообеспечения продуктами питания; факт наличия переходящих запасов; потребление основных продуктов питания, соответствующих стандартам качества, повышение качества жизни трудоспособного населения, осуществление мер по социальной защите малоимущих слоев населения.

Важнейшей особенностью продовольственной безопасности является способность сельского хозяйства производить необходимые продукты питания для страны в достаточных количествах. Зависимость в продовольствии возникает в результате неэффективности развития агропромышленного производства.

При этом существующее аграрное производство может столкнуться с двумя основными проблемами. Первое это низкая покупательская способность населения, второе - неимение сформировавшейся инфраструктуры доставки готовой продукции до потребителя.

Однако надо еще учитывать сохранение негативных воздействий предприятий агробизнеса на окружающую среду, также остается актуальным решение проблемы деградации земель. Не преодолена тенденция по уменьшению участков особенно нужных угодий в сельском хозяйстве, серьезной проблемой также являются процессы эрозионного характера. Весьма велик ущерб от чрезвычайных ситуаций природного характера.

Кроме вышеперечисленных причин на уменьшение площадей пригодных для сельского хозяйства земель влияет также рост населения республики. Если в 2000 г. на одного человека приходилось 0,58 га пригодной для сельского хозяйства земли, то в 2014 г. эта цифра опустилась до 0,50 га. Поэтому, мы считаем, что для дальнейшего развития аграрной сферы необходимо переводить производство с существующего экстенсивного типа развития на интенсивный. Для этого необходимо, как мы уже отмечали выше, усилить степень поддержки аграрного сектора со стороны государства, обеспечить вливание в него внутренних и внешних инвестиций, создать для фермеров условия развития, в виде выдачи кредитов, субсидий, обеспечения техникой, семенами лучших сортов и т.д.

Нужно также отметить применение морально устаревших технологий в сельском хозяйстве. А это, в свою очередь, приводит к уменьшению конкурентоспособности местной продукции. Наличие диспаритета цен на сельскохозяйственную продукцию создает такую ситуацию, которая не только не способствует развитию расширенного воспроизводства, но даже приводит к сокращению этой сферы.

С этой точки зрения очень важна поддержка сельского хозяйства государством в виде дотаций и субсидий. Расширение этой поддержки и ее адресное направление, серьезный контроль над этими средствами может оказать свое позитивное влияние в решении проблемы продовольственной безопасности страны.

Исследования показывают, что в отличие от других отраслей экономики, развитие аграрной сферы связано с природными условиями, что создает трудности в формировании производительных сил в этой сфере. Развитие производительных сил в аграрной сфере, в отличии от уровня их развития в других отраслях экономики является более слабым. Уровень производительности труда в аграрной сфере намного ниже, чем в других отраслях и основной причиной этого является сильное влияние природных факторов на эту отрасль экономики.

Именно поэтому регулирование развития сельского хозяйства нуждается в непосредственной опеке со стороны государства и формируется и развивается с его помощью. Однако надо отметить, что потребности предпринимателей в материально-технических средствах, развитой инфраструктуре, воде для орошения, создании условий для переработки и продаже продукции, новых, имеющих высокую урожайность сортах семян, племенного скота,

применении современных технологий, подготовке высококвалифицированных специалистах и т.д. приводят к финансовым затруднениям и в итоге к финансовой зависимости.

Основной целью в аграрной политике государства должно стать ускорение темпов роста производства сельского хозяйства путем усиления его конкурентоспособности и повышения привлекательности жизни на селе.

Для обеспечения продовольственной безопасности страны, при рыночной системе хозяйствования кроме усилий государства большое значение имеют и усилия общества в целом, отдельных его слоев и групп, самого агробизнеса. При налаженной рыночной экономике роли государства в продовольственной сфере отводится регулирование процессов обеспечения продовольствием, контроль над их успешным развитием, поддержка национальных производителей продовольствия и создание запасов на случай чрезвычайных обстоятельств.

В целях дальнейшего улучшения продовольственного снабжения населения уровень доступности продовольствия для всех слоев населения должен контролироваться на регулярной основе, должны быть проанализированы причины, влияющие на доступность, включая экономические, физические и другие факторы.

ЛИТЕРАТУРА

1. Стратегическая дорожная карта по производству и переработке сельскохозяйственной продукции. Баку, 2016.
2. Abbasov İ.D. Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı. Bakı, 2013.
3. Стариков И.В. Продовольственная безопасность России: принципы и механизм обеспечения. Новосибирск, 2000, 150 стр.
4. Ушачев И.Г. Стратегические направления обеспечения продовольственной безопасности России. Экономика сельскохозяйственных и перерабатывающих предприятий. 2002. С.7-11.
5. Хромов Ю.С. Проблемы продовольственной безопасности России. Международные и внутренние аспекты. Москва 1995, 252 с.
6. Сидоров А.Н. Стратегические направления обеспечения хозяйствующими субъектами АПК экономической и продовольственной безопасности России. (Теория, методология и практика). Москва. 2007, стр. 289.
7. http://www.fao.org

Mehriban Vaqif qızı Kərimzadə
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),
i.f.d., "Qiymət və qiymətləndirmə"
kafedrasının baş müəllimi

Ərzaq təhlükəsizliyinin təmin edilməsinin istiqamətləri və amilləri

Xülasə

Məqalədə ərzaq təhlükəsizliyinin təmin edilməsində prioritet istiqamətləri araşdırılır, onun mahiyyəti və müasir vəziyyəti, eləcə də ərzaq təhlükəsizliyi iqtisadi təhlükəsizliyin mühüm elementi kimi açılır. Ərzaq çatışmazlığı təbii fəlakətlər, müharibələr, iqtisadi böhranlar, dövlətdə radikal dəyişikliklər, əhalinin sürətli artımı zamanı əmələ gəlir. Məqalədə ərzaq təhlükəsizliyinin mahiyyəti, müasir ərzaq təhlükəsizliyinin vəziyyətinə baxılır və onun prioritetləri dövlətin iqtisadi siyasətinin mühüm aspekti kimi araşdırılır. Çünki bütün ölkədə iqtisadi sabitliyin və suverenliyin dəstəklənməsinin əsas şərtlərindən biri də ərzaq təhlükəsizliyidir ki, məqalədə onun istiqamətləri və təminatı amilləri araşdırılır.

Açar sözlər: ərzaq təhlükəsizliyi, kənd təsərrüfatı məhsulları, dövlət tənzimlənməsi, iqtisadi dəstək, FAO.

Mehriban Vagif Karimzada
Azerbaijan State University of Economics (UNEC),
PhD, senior lecturer of the
department "Price and evaluation"

Directions and factors of food security

Summary

The article explores priority directions in ensuring food security, as an important element of economic security, and reveals its essence and current state. Food insecurity arises from natural disasters caused by natural phenomena, wars, economic crises in the state, radical changes in the social system and property relations, the rapid growth of the population of the Earth and the disproportionate distribution of population and food production over the territory. The article deals with the essence, the current state of food security and its priorities as an important aspect of the state's economic policy. Since food security is one of the main conditions for maintaining economic stability and sovereignty throughout the country, the article investigates the directions and factors of its provision.

Key words: food security, agricultural products, state regulation, economic support , FAO.

Ramiz Bulut oğlu MƏHƏRRƏMOV
Azərbaycan Respublikası Vergilər Nazirliyinin
Tədris Mərkəzi, Azərbaycan Dövlət
İqtisad Universiteti (UNEC) i.e.n, dosent

ÖLKƏNİN İQTİSADİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ VERGİ TƏNZİMLƏNMƏSİNİN ROLU

Xülasə

Məqalədə ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində dövlətin yeritdiyi iqtisadi siyasətin məzmunu açıqlanmış, bununla əlaqədar qəbul edilmiş Strateji Yol Xəritəsinin istiqamətləri göstərilmiş, dünyada baş vermiş iqtisadi böhranların yaranma səbəbləri və böhranlardan çıxış yolları araşdırılmış, ümumi iqtisadi təhlükəsizlik göstəricilərinin strukturu, vergi tənzimləmə mexanizminin arzuolunan səmərəni verməsi üçün məsələnin həlli yolları göstərilmişdir.

Açar sözlər: iqtisadi təhlükəsizlik, iqtisadi böhran, vergi sistemi.

***

Ölkənin iqtisadi təhlükəsizlik sisteminin ən zəruri elementini dövlət tənzimlənməsi təşkil edir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" bütövlükdə həm ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsini, həm də bu proseslərin həyata keçirilməsində dövlət tənzimlənməsini nəzərdə tutur. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"nin Tədbirlər Planının 4.1.2-ci yarımbəndində nəzərdə tutulmuş "Səmərəli vergi sisteminin təşviq edilməsi" məsələləri ön plana çəkilir.

İqtisadi təhlükəsizliyin təmin edilməsi məqsədilə 1994-cü ildə ilkin neft kontraktları imzalandı, inflyasiyanın səviyyəsi minimuma endirildi və iqtisadiyyatda sabitlik meyilləri başlandı. 1996-cı ili Azərbaycan iqtisadiyyatında tənəzzülün dayandırılması və inkişafın başlanğıc ili kimi də qeyd etmək olar. Həmin dövrdən ümummilli liderimiz Heydər Əliyev tərəfindən bazar iqtisadiyyatının inkişafına, iqtisadiyyatın liberallaşdırılmasına, sahibkarlığın inkişafına, habelə nəzarət sisteminin təkmilləşdirilməsinə və onun səmərəliliyinin artırılmasına, bu sahənin normativ-hüquqi bazasının yaradılmasına xüsusi diqqət göstərildi.

İlk dəfə olaraq beynəlxalq standartlara uyğun vergi sisteminin formalaşdırılması, bazar münasibətlərinə adekvat vergi siyasətinin yürüdülməsi ön plana çəkildi. İqtisadi siyasətin tərkib his-

səsi olan vergi sahəsində də əsaslı dəyişikliklər, vergi sisteminin beynəlxalq standartlar əsasında formalaşması başlandı. Ötən illər ərzində ümummilli liderimiz Heydər Əliyevin bilavasitə diqqəti və qayğısı nəticəsində vergi sisteminin təkmilləşdirilməsi, vergi dərəcələrinin aşağı salınması və güzəştlərin azaldılması hesabına vergitutma bazasının genişləndirilməsi, sahibkarlıq üçün əlverişli şəraitin yaradılmasına yönəldilən vergi siyasətinin həyata keçirilməsi, habelə vergi orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində məqsədyönlü iş aparıldı.

Son illər dünya iqtisadiyyatında baş verən disproporsiya və uyğunsuzluqlar, həmçinin müxtəlif regionlarda ərzaq və maliyyə böhranları sürətlə bütün inkişaf etmiş ölkələrin iqtisadiyyatına əsaslı təsir göstərmiş, inkişaf etməkdə olan ölkələri isə ağır iqtisadi vəziyyətə salmışdır.

Vaxtaşırı baş verən bu cür böhranlar bir növ dünya iqtisadi sistemində qanunauyğun bir haldır. Hələ 1825-ci ildə İngiltərədə ilk dəfə olaraq başlayan ifrat istehsal böhranı təqribən on illər ərzində davam etmişdir [3, s. 3]. Daha sonra isə ayrı-ayrı ölkələrdə lokal səviyyələrdə istehsal, aqrar və digər bu tip böhranlar baş versə də, bütövlükdə dünya iqtisadiyyatını əhatə edən və miqyasına görə indiyədək ən nəhəng hesab olunan qlobal böhran 1929-33-cü illərdə baş vermişdir. Bu illər ərzində dünyada istehsal səviyyəsi 5,2 dəfə, beynəlxalq ticarət isə 5,3 dəfə aşağı düşmüşdü. İşsizlərin sayı o dövrdə 30 milyon nəfəri əhatə etmiş, baş verən böhran nəticəsində əksər ölkələrin iqtisadiyyatı dərin tənəzzülə uğramışdı. İndiki halda baş verən müasir dünya böhranı da məhz bu qəbildəndir [6, s. 57-64]. 1997-ci ildə Şərqi Asiyada böyük maliyyə iqtisadi böhranı başlamışdır. Onun başlanması ilə Asiya fond bazarının iri miqyaslı dağılmasına səbəb olmuşdur. Onun 25 səbəbləri arasında regionun milli valyutalarının devalvasiyası və Şərqi Asiya ölkələrinin ödəniş balansının yüksək defisit səviyyəsi durur. İqtisadçıların hesablamalarına görə, Asiya böhranı dünya ÜDM-ni 2 trln. dollara kimi azaltmışdır [5, s. 319]. Müasir böhran öz mahiyyətinə və miqyasına görə əvvəlkilərindən daha əsaslı şəkildə fərqlənir. Çünki bu böhran dünya iqtisadiyyatının sürətlə qloballaşdığı bir mərhələdə baş verir və ölkələr arasında siyasi gərginliyin olduğu dövrə təsadüf edir (bu tip siyasi-iqtisadi böhranın motivində artıq ikisistemli dünya yox, yalnız kapitalist ölkələri sırası durur, həmçinin neft böhranı da burada mühüm rol oynamaqdadır). Bu amillərin hər biri ayrı-ayrılıqda böhranın aradan qaldırılmasına maneçilik edən mühüm ünsürlərdəndir. Ona görə də hər hansı bir dövlətin standart antiböhran tədbirlərindən tam istifadə etməsi də qeyri-mümkündür.

2008-ci ildən başlayan və fərqli dövrlərdə ayrı-ayrı regionlarda (ABŞ, AB, Postsovet məkanı, Neft ixrac edən ölkələr və s.) ciddi təsirləri ilə müşahidə olunan qlobal iqtisadi böhran milli iqtisadiyyatlar qarşısında yeni tələblər yaratdı. Bu tələblər bilavasitə, milli dövlətlərin müvafiq antiböhran strategiyalarının hazırlanması və qlobal çağırışlara adekvat preventiv tədbirlər sisteminin formalaşdırılması istiqamətində yeni strateji yol xəritələrinin cızılması və izlənməsi zərurətini yaratmış oldu.


Hazırkı dövrdə hesab etmək olar ki, Azərbaycanın etibarlı iqtisadi təhlükəsizlik modeli onu dünya iqtisadi böhranının sərt təsirlərindən qoruyur. Belə ki, bu amil möhtərəm Prezidentimiz İlham Əliyevin iqtisadi siyasətinin prioritet istiqamətlərindəndir. Milli və iqtisadi təhlükəsizlik baxımından cəmiyyətin tolerantlığı və sabitliyinin mahiyyəti ölkə iqtisadiyyatının bütün elementlərinin etibarlılığını və təşəbbüskarlıq formalarını nəzərdə tutur.

Hər bir ölkənin iqtisadi təhlükəsizliyi onun milli iqtisadiyyatının inkişaf səviyyəsindən, iqtisadi təhlükəsizliyin təmin edilməsində milli mənafeyin əsas götürülməsindən, millətin mənəviyyatının sağlam və ya qeyri-sağlamlığının səviyyəsindən, habelə ölkənin sosial inkişaf istiqamətindən, müdafiə potensialından necə istifadə etməsindən və s. asılıdır.

İqtisadi təhlükəsizlik sisteminin ən zəruri elementini dövlət tənzimlənməsi təşkil edir. Müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasının qarşısında dövlət müstəqilliyini qorumaq və möhkəmləndirmək, demokratik, hüquqi, dünyəvi dövlət qurmaq, əhalinin təhlükəsizliyini təmin etmək, milli istehsalın inkişafı bazasında xalqın maddi rifahını yüksəltmək, dövlətin iqtisadi maraqlarını və təhlükəsizliyini təmin etməklə dünya iqtisadi sisteminə inteqrasiya etmək və s. kimi vacib olan problemlər dururdu. Bunun üçün isə ilk növbədə, ölkənin milli maraqlarından irəli gələn daxili və xarici siyasətin elmi cəhətdən əsaslandırılmış xətti işlənilib hazırlandı, Azərbay-

canın bütün təbii, iqtisadi, texniki və intellektual potensialı bu xəttin ardıcıl şəkildə həyata keçirilməsinə yönəldildi.

Respublikanın iqtisadiyyatına təhlükə törədən əsas göstəriciləri nəzərdən keçirdikdə, yalnız bu göstəricilərlə iqtisadi təhlükəsizliyi məhdudlaşdırmaq olmaz. Ümumi iqtisadi təhlükəsizlik göstəricilərinə struktur halında baxaq:



Bu cədvəldə iqtisadi təhlükəsizlik sisteminin göstəricilərinə kompleks yanaşma prinsipi əsas götürülmüşdür. Bu doğrudur. Ona görə ki, əvvəla, iqtisadi təhlükəsizliyin göstəriciləri həddindən artıq çoxdur, onun hamısını nəzərə almaq mümkün deyil. İkincisi, hər bir dövlətin tarixən keçdiyi inkişaf yolu, iqtisadiyyatının inkişaf səviyyəsi, geopolitik məkan müxtəlif olduğundan iqtisadi təhlükəsizlik göstəricilərində yerdəyişmələri ola bilər. Bunu hər bir dövlət milli mənafeyə uyğun özü müəyyən edir.

Qeyd etmək lazımdır ki, baş verən dünya böhranı ayrı-ayrı inkişaf etmiş ölkələrin maliyyə-bank sisteminə ciddi təsir göstərmişdir. Bu yaxınlara qədər dünyanın iqtisadi inkişafını tənzimləmək yolunda hegemonluq edən Beynəlxalq Valyuta Fondu və Dünya Bankı da artıq bir növ ayrı-ayrı ölkələrin iqtisadiyyatını tənzimləməkdə aciz qalmışdır. Belə ki, dünyada baş verən maliyyə böhranı iqtisadi böhranın təzahürü formasında ən çox inkişaf etmiş ölkələrin bank və maliyyə sistemini iflic vəziyyətdə qoymuşdur. Belə halda ölkəmizdə maliyyə-bank sisteminin sürətlə artan inkişaf meyillərinə uyğun qurulması və daim təkmilləşdirilməsi bizi bu böhranlardan sığortalayan mühüm amillərdən biri hesab olunur. Bu baxımdan ölkədə maliyyə sisteminin daim tənzimlənməsi, yeni şəraitə uyğun maliyyə-pul-kredit sisteminin dəstəklənməsi, həmçinin daxili tələbatların stimullaşdırılması üçün vergi sisteminin təkmilləşdirilməsi də mühüm əhəmiyyət kəsb edir.

Vergi sistemi bazar münasibətlərinin formalaşdırılmasında və inkişafında iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin əsas vasitələrindən biridir. Bu vasitədən səmərəli istifadə etmək üçün onu formalaşan iqtisadi sistemin fəaliyyət mexanizmlərinə paralel istifadə etmək üçün təkmilləşdirmək zərurətdir. Bu zaman tətbiq edilən vergi sisteminin arzuolunan səmərəni verməsi üç vacib məsələnin həll edilməsini tələb edir:

- birincisi, yarana biləcək iqtisadi böhranların və inflyasiyanın qarşısını almaq, bu sahədə nisbi sabitlik yaratmaq; ikincisi, azad sahibkarlığın inkişafına geniş şərait yaratmaq, özəlləşdirmə prosesini dərinləşdirmək; üçüncüsü, milli valyutanı dövriyyədə möhkəmləndirmək və onu başqa ölkələrin valyutalarına nisbətən məzənnəsinin qaldırılmasını təmin etmək.

Vergi sistemi mahiyyət etibarı ilə bütünlükdə dövlətçilik sisteminin təşkilinin inikasıdır. Belə

ki, cəmiyyətdə vergi sisteminin yeri dövlətin və vətəndaşların qarşılıqlı münasibətlərinin tarixi inkişafının xarakterini, eləcə də onların spesifik institusional formasını əks etdirir. İqtisadi baxımdan bu mühüm əhəmiyyət kəsb edir, çünki formalaşmış resurslardan dövlət vergitutma vasitəsi ilə istifadə edə bilər. Dövlətin iqtisadi siyasəti müxtəlif istiqamətlərdə həyata keçirilsə də, burada dövlətin maddi və pul vəsaitləri ilə təminatın əsas aləti olan vergi siyasəti mühüm yer tutur.

Hazırda respublikamızda bu yolda irəliləyişlərə nail olunmuş, öz qanunvericiliyini beynəlxalq standartlara və bazar iqtisadiyyatı prinsiplərinə uyğunlaşdırmış, investisiya baxımından cəlbedilmə parametrləri artırılmış, bu siyasətin həyata keçirilməsini təmin edən inzibati sistemin quruculuğuna başlanmışdır.

Ölkədə aparılan düzgün vergi siyasətinin məntiqi nəticəsidir ki, vergi rejiminin liberallaşdırılması, vergilərin sayının və dərəcələrinin azaldığı bir dövrdə dövlət büdcəsinin gəlirləri ötən dövr ərzində əhəmiyyətli dərəcədə artmışdır və bu da öz növbəsində həm dövlət büdcəsinin kəsirinin ilbəil azaldılmasına, həm də daha dolğun və cəsarətli xərc siyasətinin aparılmasına imkan yaratmışdır.

ƏDƏBİYYAT

1. Alıyev İ. Azərbaycanın davamlı inkişaf yolu dönməzdir. «Respublika», 2009.
2. Allahverdiyev D.İ. Büdcə-vergi siyasəti və iqtisadi təhlükəsizlik. Bakı, 2002.
3. Bağırov S. "Dünya maliyyə böhranı kapitalizmin böhranıdır?" Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu. Bakı, 2013, səh.3.
4. Kəlbiyev Y.A. Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri. Bakı, 2005.
5. Kindelberqer Ç., Aliber R. "Dünya maliyyə böhranları": İflas, təşviş və maniyalar"/ingilis dilindən tərcümə, "İqtisad Universiteti" nəşriyyatı, Bakı, 2010, s. 319.
6. Язьков Е.Ф. "Новый курс Ф.Рузвельта и его место в истории США". 1996, с.57-64.
7. www.taxes.gov.az
8. www.iqtisadiyyat.com

Рамиз Булут оглы Магеррамов
к.э.н., доцент, Учебный Центр Министерства
Налогов Азербайджанской Республики,
АГЭУ (UNEC)

Роль налогового регулирования в обеспечении экономической безопасности страны

Резюме

В статье раскрыта сущность экономической политики, выдвигаемая государством для обеспечения экономической безопасности страны, в этой связи указаны направления, принятая государством Стратегической Дорожной Карты, исследованы причины возникновения экономических кризис в мире и пути выхода из кризиса, указана структура показателей общеэкономической безопасности, для получения экономической выгоды указаны механизмы налогового регулирования.

Ключевые слова: экономическая безопасность, экономический кризис, налоговая система.

Ramiz Bulut Maharramov
Training Center of the Ministry of Taxes of the Republic of Azerbaijan,
ASEU (UNEC) candidate of economic sciences, ass. prof.

The role of tax regulation ın economic security of the country

Summary

This article is devoted to economic policy implemented by government. In order to provide economic security of the country put forward the directions adopted by the state of the Strategic Roadmap where investigated the reasons for the economic crisis in the world and analyze the way out of the crisis, the structure of indicators of general economic security, the mechanisms of tax regulation.

Key words: economic security, economic crisis, tax system.

Zibeydə Abbas qızı ƏLİYEVA
a.e.ü.f.d., dosent, Seleksiya və toxumçuluq
şöbəsinin müdiri, Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu

ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ YENİ YARADILMIŞ YERLİ TƏRƏVƏZ SORTLARININ ƏHƏMİYYƏTİ

Xülasə

Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin müasir vəziyyəti, onun öyrənilməsi, müvafiq proqnozların hazırlanaraq vacib tədbirlərin görülməsinə ehtiyac vardır. Qlobal iqtisadi böhranın daha da dərinləşdiyi bir şəraitdə ərzaq təhlükəsizliyinin sosial-iqtisadi və siyasi vacibliyini nəzərə alaraq Azərbaycanda da bu sahədə müvafiq işlər görülür.

Açar sözlər: ərzaq təhlükəsizliyi, inkişaf, aqrar sektoru, kənd təsərrüfatı, məhsuldarlıq, sort, seleksiya, toxum.

***

Kənd təsərrüfatının müxtəlif sahələrinin dinamik inkişafının təmin edilməsində istər yerli və istərsə də beynəlxalq miqyasda baş verən müxtəlif dəyişikliklər əhalinin ərzaq təhlükəsizliyinin etibarlı şəkildə təmin edilməsi baxımından özünəməxsus xüsusiyyətləri ilə fərqlənir.

Respublikamız müstəqillik əldə etdikdən sonra aqrar sahənin strukturunun müstəqil dövlət baxımı prinsipindən qurulması ön planda olmuşdur. Aqrar sahənin inkişafı, respublika rəhbərliyinin iqtisadi və xüsusən aqrar islahatlar kursunun düzgün seçilməsini sübut edir. Qeyd etmək lazımdır ki, Azərbaycanın kənd təsərrüfatı sahəsi böyük potensiala malikdir və onu tam şəkildə istifadə etmək üçün müasir, innovasiyalı texnologiyaların tətbiqini sürətləndirmək gərəkdir. İlk növbədə torpaqların məhsuldarlığını yüksəltmək, əmək və maddi resursların qənaətli istifadəsini, ətraf mühitin yaxşılaşdırılmasına dair texnologiyaların yaradılmasını təşkil etmək, eyni zamanda, bitkiçilikdə seleksiya üsullarının təkmilləşdirilməsini və yeni sortların yaradılmasını təmin etmək lazımdır.

Azərbaycan dövləti demokratik, hüquqi və sivil dövlət kimi öz xalqının və hər bir vətəndaşının ərzaq təhlükəsizliyinin təmin edilməsini öz üzərinə götürmüşdür [1, maddə 17-18].

Bu qanundan bir qədər sonra, "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi haqqında Dövlət Proqramı" qəbul edilmiş və ulu öndər Azərbaycan Respublikasının prezidenti H.Əliyev cənabları tərəfindən təsdiq edilmişdir [2, 2 mart 2001-ci il]. Bu qanunda qeyd olunan maddələrdən biri də ölkədə ərzaq məhsulları növlərinin istehsalının inkişafı və kənd təsərrüfatının rəqabət qabiliyyətinin təmin edilməsi olmuşdur. Kənd təsərrüfatında artım tendensiyasını saxlamaq üçün dövlət tərəfindən fermerlərə güzəştli şərtlərlə kreditlər verilir, məhsuldar toxum sortları, texnika, gübrələr və digər maddi-texniki bazanın möhkəmlənməsi üçün subsidiyalar və digər məqsədli aqrar siyasət həyata keçirilir.

Ərzaq təhlükəsizliyi dövlətin milli təhlükəsizliyinin tərkib hissəsi olmaqla iqtisadi sabitliyin təmin olunmasının, əhalinin sağlam və təhlükəsiz yaşamasının, ölkənin qüdrətinin və suverenliyinin saxlanılmasında başlıca amildir.

Son dövrlər ölkə başçısının rəhbərliyi altında keçirilən müşavirələr, verilən sərəncamlar ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün şərait yaratmışdır. Cənab prezidentin sərəncamı ilə Ərzaq təhlükəsizliyi Agentliyinin yaradılması görülmüş işlərə bir sübutdur. Ərzaq təhlükəsizliyinin təmin edilməsində vacib amillərdən biri də bioloji müxtəlifliyin, eləcə də bitkilər aləminin genetik zənginliyinin öyrənilməsi olub, bu da öz növbəsində cəmiyyətin rifah halının, yaşayış tərzinin yaxşılaşdırılmasının əsasını təşkil edir.

Ərzaq təhlükəsizliyinin əsas problemlərindən biri ərzağın keyfiyyətidir. Təəssüflər olsun ki, sahibkarlar - fermerlər alimlərin yaratdığı məhsuldar, xəstəlik və zərərvericilərə davamlı, yüksək keyfiyyətli göstəricilərə malik yerli tərəvəz sortlarının əvəzində xarici ölkələrdən çox baha qiymətlərə alınmış toxumlardan istifadə edirlər. Nəticədə əhaliyə yaxşı aldadıcı görünüşü olan, lakin keyfiyyətsiz qida məhsulu təqdim edirlər. Respublika iqtisadiyyatının inkişaf etdirilməsində kənd təsərrüfatının müxtəlif sahələrinə, o cümlədən tərəvəzçiliyə xüsusi əhəmiyyət verilir.

Tərəvəzçilik respublikamızın iqtisadiyyatının əsas sahələrindən biridir. Dövlət Proqramlarında tərəvəzin ümumi istehsalının artırılmasına, çeşidinin genişləndirilməsinə, məhsulun keyfiyyətinin yüksəldilməsinə böyük əhəmiyyət verilir. Elmi-tədqiqat işlərində bioloji müxtəliflikdən istifadə təkcə bu günün tələbatlarını ödəmək üçün deyil, həm də gələcəkdə seleksiya tədqiqatlarının aparılaraq canlı təbiəti qorumaq, gələcək nəsillərə ekoloji təmiz növləri çatdırmaq baxımından da çox vacibdir. Kənd təsərrüfatı bitkilərinin seleksiyasında yerli populyasiyalardan istifadə tükənməz mənbədir [3, səh.163]. Buna görə də Azərbaycanda tərəvəzçiliyin elmi əsaslarının işlənib hazırlanması kollektivimizin öhdəsinə düşür. Təsərrüfatın tələblərinə cavab verən yeni tərəvəz sortlarının yaradılması və geniş sahələrdə becərilməsi aktual nəzəri və təcrübi məqsədimizdir.

Tərəvəz məhsulları istehsalının artımında seleksiya nailiyyətlərindən istifadə edilməsi mühüm rol oynayır [4, səh. 4-101]. Belə ki, bitkilərin məhsuldarlığı və keyfiyyət göstəricilərinə görə sort tərkibinin müəyyən edilməsi və yeni sortların yaradılması mühüm məsələlərdəndir. Bununla əlaqədar olaraq, əməkdaşlarımız tədqiqat-təcrübə işlərini əsasən iki istiqamətdə aparırlar; tərəvəz, bostan bitkiləri və kartofun seleksiyası, toxumçuluğu və onların istehsal texnologiyası. Beləliklə, isntitutda müxtəlif tərəvəz bitkiləri növlərindən yeni sortların yaradılması üçün aşağıdakı istiqamətlərdən istifadə edilir:

- Yüksək keyfiyyətli və məhsuldar tərəvəz sortlarının yaradılması;
- Biotik və abiotik amillərə davamlı yüksək məhsuldar sortların yaradılması;
- Duza və quraqlığa dözümlü sortların yaradılması;
- Yüksək keyfiyyət göstəricilərinə malik sortların yaradılması;
- Xəstəlik və zərərvericilərə davamlı məhsuldar, əmtəəlik sortların yaradılması.

Bu məqsədləri yüksək səviyyədə həyata keçirmək üçün həm yerli və aborigen sort və nümunələrdən, həm də beynəlxalq mərkəzlərdən və bir sıra xarici ölkələrdən alınmış sort və nümunələrin kolleksiyasından istifadə edilir.

Aparılan məqsədyönlü seleksiya işlərinin nəticəsində seleksiyaçı alimlərimiz institut yarandığı vaxtdan (1965) bu günə kimi 100-dən artıq müxtəlif tərəvəz sortları yaratmış, onlardan 65 yeni tərəvəz və bostan sortları yaradılmış və onlara KTN yanında Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidməti tərəfindən müəlliflik şəhadətnamələri və patentlər verilmişdir [5, səh. 30].

Onlar aşağıdakılardır:

Pomidor - Elim, İlkin, Vətən-1, Leyla, Zərrabi, İlyas, Nuru, Şəkər, Yubiley-60, Xəzər, Zəfər, Alsu, Mirvari, Azərbaycan-94;

- Örtülü sahə üçün - Bənövşə, Şəlalə, Şahin;

Badımcan - Zəhra, Gəncə, Billur, Məhərrəm, Türkan, Fədai;

Şirin bibər - Murad, Şəfa, Yadigar, Zümrüd, Humay;

- Örtülü sahə üçün - Töhfə;

Acı bibər - Göygöl, Ulduz, Şəfəq, Odlu;

Xiyar - Azəri;

- Örtülü sahə üçün - Bahar;

Payızlıq ağbaş kələm - Yerli yaxşılaşdırılmış Abşeron, Rəcəbli-104, Abşeronskaya ozimaya, Araz, Sahil;

Yazlıq ağbaş kələm - Azərbaycan, Jalə;

Baş soğan - Sabir, Yerli yaxşılaşdırılmış Hövsan, Aydan, Aytac;

Sarımsaq - Cəlilabad, Qusarçay, Elçin;

Yerkökü - Yubileynaya, Abşeronskaya zimnyaya;

Qarpız - Mərcan;

Yemiş - Veteran;

Tərəvəz noxudu - Fidan, Namiq;

Tərəvəz lobyası - Zülal, Sevinc, İsa, İsa-12, Bəyaz, Aylin;

Şüyüd - Otello;

Kartof - Sevinc, Əmiri-600, Telman

Seleksiyaçı alimlərimizin yaratdıqları rayonlaşdırılmış sortlar torpaq-iqlim şəraitinə daha yaxşı uyğunlaşmaları, yüksək məhsuldarlığı, keyfiyyətli məhsula, xəstəlik və zərərvericilərə qarşı davamlı olmaları ilə fərqlənirlər [6, səh. 5-177]. Azərbaycan şəraitində tərəvəz bitkilərinin elit və reproduksiya toxumlarının əsas hissəsi institut və onun stansiyalarında işləyən əməkdaşlar tərəfindən yetişdirilir. Elmi cəhətdən əsaslandırılmış, düzgün təşkil edilmiş toxumçuluq isə yalnız yeni rayonlaşdırılan sortların toxumlarını çoxaltmağa deyil, həm də təsərrüfatlarda becərilən sortların genetik şərtlənən əlamətlərinin və xassələrinin qorunub saxlanmasına da müsbət təsir göstərir. Bu sortlar haqqında ətraflı məlumatlar 2 dildə (azərbaycan və rus) bu məqalənin müəllifi tərəfindən hazırlanmış və çap etdirilmiş Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun tərəvəz, bostan və kartof bitkilərinin rayonlaşmış və perspektiv sortlarının kataloqu kitabında qeyd edilmişdir. Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunda aparılan işlər yeni yaradılmış sortların saxlanılması, yayılması və toxumçuluğu işi üçün çox mühüm əhəmiyyət kəsb edir.

Bütün bu göstərilənlər belə bir nəticəyə gəlməyə əsas verir ki, əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından yeni yaradılmış yerli müxtəli növ tərəvəz sortlarının becərilməsi ilə məhsul istehsalının dinamik artımına nail olmaq mümkündür ki, bu həm də fermerlər üçün iqtisadi baxımdan daha əlverişlidir. Əməkdaşlarımız tərəfindən ayrı-ayrı bölgələr üçün tərəvəz bitkilərinin becərilməsi texnologiyasına və əsas tərəvəz bitkilərinin toxumçuluğuna aid aqronomiya qaydaları, fermerlərə kömək məqsədilə bukletlər hazırlanmış və rayonlaşdırılmış yeni tərəvəz sortlarının rəngli illüstrasiyalı kataloqu, tərəvəz bitkilərinin becərilməsinə və toxumçuluğuna aid metodiki vəsaitlər, 3 dəfə yeni nəşrlərlə dərc olunmuş tərəvəzçinin sorğu kitabı, elmin yeniliklərindən bəhs edən tematik məcmuələr və nəhayətdə, tərəvəzçilik elmində öz sözünü demiş alimlərin bioqrafiyasından bəhs edən "Tərəvəzçi alimlər" kitabı və ilk dəfə olaraq "Tərəvəzçinin illik fəaliyyət təqvimi" hazırlanmışdır. Ölkəmizdə ərzaq təhlükəsizliyinə aid Dövlət Proqramlarının həyata keçirilməsi üçün alimlərimiz Azərbaycanda tərəvəzçiliyi intensiv inkişaf etdirmək məqsədilə bundan sonra da gərgin axtarışlar aparmalı, tədqiqat işlərinin səmərəliliyini yüksəltməli və elmi nailiyyətlərinin istehsalata geniş tətbiqinə nail olmalıdırlar.

Qeyd: Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunda yaradılmış yerli şəraitə uyğun yeni sortlarn yüksək keyfiyyətli toxumlarını institutun seleksiya və toxumçuluq şöbəsində bu sortların müəlliflərindən sifariş və ya birbaşa yolla ala bilərsiniz.

Ünvan: Abşeron rayonu, sovxoz № 2, Tərəvəzçilik ET İnstitutu.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının "Yeyinti məhsulları haqqında" Qanunu. 18 noyabr 1999-cu il, maddə 17-18.
2. "Azərbaycan Respublikasında Ərzaq təhlükəsizliyi Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 2 mart 2001-ci il tarixli 640 saylı Sərəncamı.
3. Əliyeva Z. A., Quliyev N.Ə. İtmək təhlükəsi altında olan tərəvəz nümunələrinin bərpası //Biomüxtəlifliyin genetik ehtiyatları I Beynəlxalq Elmi Konfrans. Bakı, 2006, 263 s.
4. Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun tərəvəz, bostan və kartof bitkilərinin rayonlaşmış və perspektiv sortlarının kataloqu. Bakı, 2012, s. 4-101.
5. Azərbaycan Respublikası ərazisində kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadəsinə icazə verilmiş və mühafizə olunan Seleksiya Nailiyyətlərinin Dövlət Reyestri. Bakı, 2016, s. 30-45.
6. Azərbaycanın Tərəvəzçi Alimləri. Bakı, «Asim» MMC, 2010, səh. 5-177.

Зибейда Аббас кызы Алиева
Научно-Исследовательский Институт Овощеводства

Значение в обеспечении безопасной продукции созданных новых местных сортов овощных растений

Резюме

В Азербайджанской Республике с целью получения безопасной продукции возникает необходимость для её прогнозирования и в дальнейшем её планирования.

В условиях углубления экономического кризиса, учитывая социально-экономическую и политическую необходимость, для получения безопасной продукции в Азербайджане выполняются соответствующие меры.

Ключевые слова: продовольственная безопасность, аграрный сектор, сельское хозяйство, продуктивность, сорт, селекция, семена.

Zibeyde Abbas Aliyeva
Vegetable Scientific Research Institute

The importance of newly created local vegetable varieties in providing food security

Summary

In the article, it has been explained that there is need to study the current situation of food security in Azerbaijan Republic and take necessary actions by preparing relevant prognoses. The proper works are done, taking into account of the socio-economic and political importance of food security under the condition of global economic crisis.

Key words: food security, agricultural sector, agriculture, productivity, variety, breeding, seed.

Feyruz Faiq oğlu ŞAMİLOV
KTİETİ-nin elmi işçisi

ƏHALİNİN ƏRZAQ MƏHSULLARINA OLAN TƏLƏBATININ TƏMİN EDİLMƏSİ YOLLARI

Xülasə

Məqalədə ərzaq təhlükəsizliyinin mahiyyəti açıqlanmış və onun əhəmiyyətindən bəhs edilmişdir. Kənd təsərrüfatı məhsullarının istehsalı, istehlak normaları, təminetmə səviyyəsi araşdırılmışdır. Eyni zamanda əhalinin əsas ərzaq məhsullarına olan tələbatı da tədqiq edilmişdir.

Açar sözlər: istehlak normaları, ərzaq məhsulları, əhalinin tələbatı, qida təhlükəsizliyi, ərzaq təhlükəsizliyi, alıcılıq qabiliyyəti.

***

Ərzaq təhlükəsizliyi iqtisadi və sosial sabitliyə, ərzaq müstəqilliyinin təmin edilməsinə, ölkənin strateji maraqlarının qorunmasına, idxaldan asılılığının aradan qaldırılmasına, lazımi həcmdə və keyfiyyətdə təminatının yaxşılaşdırılmasına xidmət edir. Ərzaq təhlükəsizliyi və ərzaq təminatı anlayışları bir-birini tamamlayıb ərzaq probleminin həllinə yönəldilmişdir. Real istehlakın tələbata nisbəti ərzaq təminatı kimi xarakterizə oluna bilər. Ərzaq təhlükəsizliyi eyni zamanda ərzaq itkisi, məhsulun qiyməti, istehlakçının alıcılıq qabiliyyəti, kənd təsərrüfatı məhsullarının bazarda zəruri səviyyədə olması, qidanın keyfiyyəti və yeyinti məhsullarının təhlükəsizliyi ilə əlaqədar olur. Ərzaq təhlükəsizliyi ekoloji, siyasi, sosial, iqtisadi, təbii sahələri əhatə edir [1, s. 65].

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ərzaq təhlükəsizliyində mühüm islahatlar həyata keçirilmiş, onun layiqli davamçısı olan İ.Əliyev müvəffəqiyyətlə davam etdirmişdir. Ərzaq təhlükəsizliyini yüksəltmək məqsədilə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin "Aqrar sahədə islahatların sürətlənməsinə dair bəzi tədbirlər haqqında" Fərmanını, Azərbaycan Respublikası Prezidentinin 2 mart 2001-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyi Proqramı", Azərbaycan Respublikası Prezidentinin 25.08.2008-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ni qeyd etmək olar.

Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə

təsdiq edilmişdir. Burada ərzaq təhlükəsizliyinin dayanıqlılığının təmin edilməsi üçün institusional potensialın gücləndirilməsi üzrə strateji hədəf müəyyən edilmişdir. Bu strateji hədəf 3 prioritet istiqamət üzrə həyata keçiriləcəkdir. Birinci istiqamət ərzaq təhlükəsizliyinin dayanıqlılığı və əhalinin ərzağa əlyetərliyi ilə bağlı məlumat və monitorinq sisteminin qurulması adlanır. İkinci prioritet çərçivəsində ərzaq təhlükəsizliyi sahəsində aparılan monitorinqlərin nəticəsi olaraq əhalinin bütün təbəqələrinin etibarlı ərzaq təminatına nail olunması üçün hər bir region və məhsul qrupu üzrə, xüsusilə də fövqəladə hallar nəzərə alınmaqla, mexanizmlərin formalaşdırılması ilə bağlı ehtiyaclar müəyyən olunacaq və bu istiqamətdə tədbirlər həyata keçiriləcəkdir. Bu strateji hədəfin üçüncü prioriteti isə ölkədə qida təhlükəsizliyi sisteminin qurulması istiqamətində tədbirlər həyata keçiriləcəkdir. Üçüncü prioritet istiqamət dəyər zəncirinin bütün mərhələlərini əhatə edən və risklərin təhlili yanaşmasına əsaslanan qida təhlükəsizliyi sisteminin formalaşdırılması adlanıb aşağıdakı tədbirləri əhatə edir [3].

Dövlət ərzaq təhlükəsizliyini təmin etmək üçün müəyyən müddətə ehtiyat fondunu yaradır. Taxıl ehtiyatları üzrə ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə 60 günlük və ya illik istehlakının 17-20% həcmində taxıl ehtiyatı olan ölkənin ehtiyatı FAO tərəfindən təhlükəsiz hesab edilir [2, s.51]. Dövlətin kənd təsərrüfatı məhsulları ilə özünütəminetmə səviyyəsi mühüm əhəmiyyət kəsb edir. 2016-cı ildə meyvə və giləmeyvə məhsulları ilə özünütəminetmə səviyyəsi 116,4% olmaqla ən yüksək göstəriciyə malik olmuşdur. Buğda məhsulunda təminat 2010-cu ildə 48,9% idisə, 2016-cı ildə 52,9% təşkil edib. 2016-cı ildə heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsində yumurta 98,8% təşkil etdiyinə görə ən yüksək göstəriciyə malik olub. Süd və süd məhsullarında 2010-cu ildə özünütəminetmə səviyyəsi 70,4% təşkil edirdisə, 2016-cı ildə 17,3% artaraq 87,7% təşkil etmişdir. 2010-cu ildə quş əti və ət məhsullarında 70,6% idisə, 2016-cı ildə 8,5% artaraq 79,1% təşkil etmişdir. Balıq və balıq məhsullarında 2010-cu ildə 76,6% idisə, 2016-cı ildə 5,7% artaraq 82,3% təşkil etmişdir.

2016-cı ildə heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsində yumurta 98,8% təşkil etdiyinə görə ən yüksək göstəriciyə malik olub. Süd və süd məhsullarında 2010-cu ildə özünütəminetmə səviyyəsi 70,4 % təşkil edirdisə, 2016-cı 2016-cı ildə 17,3% artaraq 87,7% təşkil etmişdir. 2010-cu ildə quş əti və ət məhsullarında 70,6 % idisə, 2016-cı ildə 8,5 % artaraq 79,1% təşkil etmişdir. Balıq və balıq məhsullarında 2010-cu ildə 76,6% idisə, 2016-cı ildə 5,7% artaraq 82,3% təşkil etmişdir. 2010-cu illə müqayisədə 2016-cı ildə 1000 ha əkinə düşən traktorların sayı 21,7% azalmasına baxmayaraq, 2015-ci illə müqayisədə 36,4% artmış, bir traktora düşən əkin sahəsi isə 28% artmışdır. Əsas ərzaq məhsullarının istehsalı, adambaşına 2016-cı ildə 2010-cu illə müqayisədə taxıl (təmiz çəkidə) 42,2%, şəkər çuğunduru (sənaye emalı üçün) 14,2%, meyvə və giləmeyvə 112,1% artmış, kartof 12,2%, tərəvəz 0,8 %, ərzaqlıq bostan bitkiləri 2,1% azalmışdır. 2016-cı ildə 2010-cu illə müqayisədə adambaşına ət və ət məhsullarının istehlakı 6,3%, yumurtanın 20,6%, bitki yağlarının 19,3%, balıq və balıq məhsullarının 4,3%, kartofun 32,4%, tərəvəz və bostan məhsullarının 22,4%, meyvə və giləmeyvənin, üzümün 20,3% artmışdır. Süd və süd məhsullarının istehlakı 7,5%, qənd və qənnadı məmulatlarının 4,1%, çörək, un məmulatları, yarmalar, düyü və paxlalıların 9,8% azalmışdır. 2016-cı ildə norma ilə müqayisədə çörək və çörək məhsulları (una çevirməklə) 9,6%, kartof 42,6%, tərəvəz və bostan məhsulları 9,9%, meyvə və giləmeyvə 70%, ət və ət məhsulları 6,3%, süd və süd məhsulları 16,5%, yumurta 3,3%, şəkər və qənnadı məmulatları (şəkərə çevirməklə) 73,6%, bitki yağları, marqarin və digər piylər 7,1% artıq istehlak olunmuşdur. Balıq və balıq məhsullarında isə 6,5% azalma olmuşdur. Azərbaycan Respublikasının istehlak normalarını FAO-nun istehlak normaları ilə müqayisə edəndə tərəvəz və bostan məhsulları 66,6 kq, təzə meyvə 67,2 kq, süd və süd məhsulları (südə çevirməklə) 86,4 litr, şəkər və qənnadı məmulatları (şəkərə çevirməklə) 5,4 kq artıq istehlak olunur. Çörək və çörək məhsulları (una çevirməklə) 40,4 kq, kartof 73,7 kq, ət və ət məhsulları 8,5 kq, yumurta 25 ədəd az istehlak olunur [6].

Bundan, əlavə ərzaq təminatını yüksəltmək məqsədilə aqroparkların yaradılması nəzərdə tutulur. Azərbaycanda da yüksək texnologiyalı parkların yaradılması və inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə dekabrın 4-də Xəzər rayonunun Zirə qəsəbəsində "Baku AqroPark"ın açılışı olub. "Baku Aq-

roPark”ın birinci mərhələsində 10 hektar sahədə illik istehsal gücü 3,3 min ton pomidor məhsulu olan istixana kompleksi yaradılıb. Dördüncü nəslə aid istixana kompleksi Niderland texnologiyasından istifadə olunmaqla qurulub. Kompleksin texniki zonasında su, gübrə çənləri qoyulub, qazanxana və sutəmizləmə sistemi quraşdırılıb. İstixananın suvarılmasını təmin etmək üçün 21 min kubmetr tutumu olan su hövzəsi yaradılıb. İstixanada yüksək keyfiyyət göstəricilərinə malik olan ekoloji təmiz məhsullar istehsal edilir. Daha bir üstün cəhət isə istehsal prosesinin tam avtomatlaşdırılmasıdır. Bu isə öz növbəsində yerli mütəxəssislərin intellektual və peşəkarlıq səviyyəsinin artırılmasını, bu sahədə yüksək ixtisaslı kadrların formalaşmasını şərtləndirir. Kompleksin idarə olunmasında və yerli kadrların yetişdirilməsində Avropa mütəxəssislərinin xidmətindən istifadə olunur. Burada yüksək əmək təhlükəsizliyinə və gigiyenik-sanitar normalara riayət olunur, işçilərin işə gətirilməsi, aparılması və nahar yeməyinin verilməsi təmin edilir. İstehsal olunan məhsullar “Tomat.az” brendi ilə əsasən ixrac edilir.

Hövsan qəsəbəsində“Abşeron AqroPark” kompleksi də fəaliyyətə başlayıb. “Abşeron AqroPark” kompleksi innovativ və müasir texnologiyaların tətbiqi ilə istehsal, emal, logistika (saxlama, çeşidləmə, qablaşdırma, markalama, daşınma, daxili və xarici bazarlarda satış) təşkilini nəzərdə tutur. Məhsuldarlığı 270 ton / ha olub əsasən pomidor istehsalı üzrə ixtisaslaşıb.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 12 sentyabr tarixli 254s nömrəli Sərəncamına əsasən Xaçmaz rayonunun Yalama kəndi ərazisində 523 hektar torpaq sahəsində özəl pilot heyvandarlıq təsərrüfatı yaradılmışdır. Bu məqsədlə 523 hektar torpaq sahəsi “Yalama AqroPark” MMC-yə 49 il müddətinə icarəyə verilmişdir. “Aqrolizinq” ASC vasitəsi ilə Avstriyadan “Simmental” cinsindən olan 485 baş boğaz düyələr təsərrüfata gətirilmişdir; «Aqrolizinq» ASC vasitəsi ilə 16 adda 22 ədəd texnika və aqreqatlar alınmışdır. Dövlət tərəfindən təsərrüfatda aparılmış əkin üzrə güzəştli şərtlərlə gübrə və istifadə olunmuş yanacağa görə subsidiya ödənilmişdir [4].

Respublikamızda 13 iyun 2008-ci ildə “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” Azərbaycan Respublikası Qanunu qəbul edilmişdir. Qanunda əsas məqsəd ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalını, emalını, sertifikatlaşdırılmasını həyata keçirtməkdir. Ölkəmizdə bu sahədə Gəncə Aqrobiznes Assosiasiyası fəaliyyətə başlayıb. Respublikada 30 min hektardan çox sahədə ekoloji təmiz kənd təsərrüfatı məhsulları becərilir və bu sahələr genişlənir. Azərbaycan Respublikasında ilk ekoloji sertifikatlaşdırma orqanı olan Azekosert fəaliyyətə başlayıb və bir çox ekofermerlərə sertifikatlar verilmişdir. Ekoloji təmiz məhsul istehsalı ilə “Miri Pak” və “Azərsun Holdinq” şirkətlər qrupunun müəssisələri məşğul olurlar. Ümumilikdə Azərbaycan Respublikasında ərzaq məhsullarına olan tələbat bir çox normalara görə tam ödənilir.

ƏDƏBİYYAT

1. Ataşov B.X. Ərzaq təhlükəsizliyinin aktual problemləri. Bakı, 2005, 336 s.
2. Quliyev E. Aqrar İqtisadiyyat. Bakı, 2015, 320 s.
3. http:// president.az.
4. http://agroeconomy.az.
5. http://www.agro.gov.az
6. http:// FAO

Фейруз Фаик оглы Шамилов
науч. сотрудник, АзНИЦЭ и ОСХ

Пути обеспечение спроса на продовольственные продукты

Резюме

В статье раскрыты суть и значение продовольственный безопасности. Так же, исследуются производство, нормы потребления, степень обеспечение сельскохозяйственной продукции. Анализируется спрос на основные продовольственные продукты.

Ключевые слова: нормы потребления, продовольственные товары, спрос населения, пищевая безопасность, продовольственная безопасность, покупательская способность.

Feyruz Faik Shamilov
ASRİE and OA scientist

Ways of providing population with food products

Summary

The article describes the essence of food security and its importance. The production of agricultural products, consumption norms and supply levels were investigated. At the same time, the population's demand for basic food products has also been studied.

Key words: consumption norms, food products, population demand, food security, food safety, purchasing power.

Suqra İnqilab qızı HÜMBƏTOVA
i. f.d. Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
"Qiymət və qiymətləndirmə" kafedrası, müəllim

AZƏRBAYCANDA ƏRZAQ MƏHSULLARININ QİYMƏTLƏRİ VƏ ƏHALİNİN İSTEHLAK DAVRANIŞININ MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ

Xülasə

Məqalədə Azərbaycanda ərzaq məhsullarının qiymətləri və əhalinin istehlak davranışının mövcud vəziyyəti təhlil olunmuş, ərzaq bazarının nəzəri əsasları geniş və hərtərəfli şərh olunmuş, ərzaq bazarında istehlak davranışına və qiymətlərə təsir edən amillər araşdırılmış, ərzaq bazarının, o cümlədən əhalinin xərclərinin və əhalinin gəlirlərinin trend tənlikləri verilmişdir.

Açar sözlər: ərzaq bazarı, qiymət, istehlakçı davranışı, əhali gəlirləri, trend tənlikləri.

Giriş

Bazar iqtisadiyyatında məhsul buraxılışı miqdarını, struktur və həcmini tələb və o cümlədən əhalinin istehlak davranışı formalaşdırır. Tələb bazar subyektlərinin fəaliyyətinin təkcə həcm-miqdar göstəricilərini deyil, həm də inkişaf strategiyasının əsas parametrlərini də müəyyən edir. Bunun nəticəsində tələbi və əhalinin istehlak davranışını müəyyən edən elementlər məhsul istehsalını dinamik artıma kökləyən əhəmiyyətli alətlərdən biri olur. Tələbin və əhalinin istehlak davranışının bu və digər istiqamətdə dəyişməsi istər sənaye, istərsə də kənd təsərrüfatı müəssisəsində istehsalın müsbət və ya mənfi reaksiyasına səbəb olur. Əhalinin tələbin aşağı düşməsi ilə müşayiət olunan istehlak davranışı staqnasiyaya, böhrana, artması isə yüksəlişə, çiçəklənməyə səbəb olur.

Ərzaq bazarının nəzəri əsasları. Bazar iqtisadiyyatının nüvəsi məhsul buraxılışının miqdarını, strukturunu, həcmini formalaşdıran tələbdir. Tələb bazar subyektlərinin fəaliyyətinin təkcə həcm-miqdar göstəricilərini deyil, həm də inkişaf strategiyasının əsas parametrlərini də müəyyən edir. Bunun nəticəsində tələbi müəyyən edən elementlər istehsalı dinamik artıma kökləyən əhəmiyyətli alətlərdən biri olur. Tələbin bu və digər tərəfə dəyişməsi istər sənaye və istərsə də kənd təsərrüfatı müəssisəsi olsun, istehsal tərəfindən müsbət və ya mənfi reaksiyaya səbəb olur. Aydındır ki, tələbin aşağı düşməsi staqnasiyaya, böhrana, artması isə yüksəlişə, çiçəklənməyə səbəb olur. Ərzaq bazarı alıcıların və satıcıların seçilməsində, qiymətlərin [5] müəyyən edilməsində, resursların formalaşmasında təsərrüfat subyektlərinin azadlığı ilə səciyyələndirilən, ərzaq əmtəələrinin istehsalı, mübadiləsi və bölgüsü prosesində qurulan iqtisadi münasibətlər sistemidir [6, s.7]. Lakin ərzaq bazarının sərhədləri kənd təsərrüfatı bazarının sərhədlərindən daha genişdir, necə ki, ərzaq məhsulunun bəzi hissəsi kənd təsərrüfatı mənşəli deyildir [10, s.13]. Bununla yanaşı ərzaq bazarı kimi əhalinin ərzaq məhsullarına olan tələbatının eyni zamanda ödənilməsi ilə kənd təsərrüfatı məhsullarının istehsalı, onun alınması, emalı, daşınması, saxlanması, reallaşdırılması sferasında iqtisadi münasibətlər sistemini başa düşmək lazımdır

(9,s.10). Bununla yanaşı ərzaq bazarı vasitəsilə kənd təsərrüfatı əmtəələrinin satışı və alışı yerinə yetirilir, mübadilə sferasında əmtəə istehsalçılarının sosial-iqtisadi münasibətlər məcmusu kimi çıxış edir [1, s. 20], aqrar sənaye kompleksinin əsas iştirakçıları arasında münasibətləri tənzimləyən sistemi kimi fəaliyyət göstərir [8, s. 20].

Bundan başqa, ərzaq bazarı iqtisadiyyatın ərzaq xammalının və ərzaq məhsullarının istehsalını, bölgüsünü, mübadilə və istehlakını əhatə edən tərkib hissəsi kimi [10, s. 32], iqtisadi mühitin və dövlətin təsiri altında formalaşan və inkişaf edən, ərzağın istehsalı, bölgüsü, mübadilə və istehlakı proseslərini özündə birləşdirən sosial-iqtisadi sistem kimi də müəyyən edilirdi [4, s.18].

Ərzaq bazarı verilən ölkədə (regionda) istehsal edilən və ya oraya başqa ölkələrdən idxal edilən ərzaq yarımfabrikatları və hazır məhsulların, kənd təsərrüfatı xammalının ticarətinin logistika və informasiya şəbəkələri sferasının istifadəsi ilə birja, topdansatış, pərakəndə satış sistemləri vasitəsilə kənd təsərrüfatı və ərzaq məhsullarını son istehlakçıya çatdırmağın iqtisadi münasibətlər və institusional formalar sistemidir [7, s.8-9]. Qeyd edək ki, bəzi iqtisadçılar ərzaq bazarına mövcud tələbatların ödənilməsi və yenilərinin formalaşması əsasında kənd təsərrüfatı məhsullarının və ərzaq əmtəələrinin aqrosənaye istehsalı üçün zəruri olan resurs və xidmətlərin alıcıları və satıcıları arasında iqtisadi münasibətlər sistemi kimi [7, s.19], əmtəə və xidmətlərə tələbin, təklif və qiymətlərin formalaşdırdığı aqro-ərzaq iqtisadiyyatında iqtisadi münasibətlər forması kimi tərif verirlər [3, s. 32].

Ərzaq bazarında istehlak davranışına və qiymətlərə təsir edən amillərin təhlili. Bazar iqtisadiyyatına keçid müəyyən mənada ərzaq bazarında qıtlığı aradan qaldırdı, lakin əhalinin müəyyən təbəqəsi, qrupu üçün yüksək kalorili məhsullara əlçatımlılıq bir qədər çətinləşmişdi. Əlbəttə, bu gün ərzaq bazarı böyük çeşiddə müxtəlif məhsullar təklif edir, lakin, əhalinin gəlirlər üzrə və tədiyyə qabiliyyətləri üzrə diferensiasiyası əhalinin ərzaq məhsulları ilə tam ödənilməsi və ərzaq bazarının inkişafı qarşısında duran ən əhəmiyyətli sədlərdən biridir. Bazarın formalaşmasının və effektiv funksiyalaşmasının əsas həlqəsi ev təsərrüfatlarının məcmu tələbinə təsir göstərilməsi üzrə alətlərin işlənib hazırlanmasıdır. Bu amillər arasında iqtisadi azadlıqların artırılması, alıcılıq aktivliyinin yüksəldilməsi, malik olunan gəlirlərdən rasional istifadə və s. vardır. Tələbin, o cümlədən tədiyyə qabiliyyətli tələbin vacib rolu təkcə onun bazarın inkişaf amili olması ilə, onun konkret bazarda hakim olmaq, yekun tələbi əsaslandırmaq qabiliyyətinin olması ilə bitmir, həm də bütövlükdə istehsala əhəmiyyətli dərəcədə təsir etmək qabiliyyətinin olması ilə seçilir.

Bazar şəraitində tədiyyə qabiliyyətli tələbin genişlənməsi və o cümlədən əhalinin istehlak davranışı daima problemlərlə qarşılanır. Belə ki, iqtisadiyyatın istehsal imkanlarından, eyni zamanda vətəndaşların gəlir və rifah hallarının səviyyəsindən də asılıdır. Bazarda tədiyyə qabiliyyətli tələb istehlakçıların onlara lazım olan əmtəə və xidmətləri almaq imkanları ilə şərtlənirlər. Bazarda tədiyyə qabiliyyətli tələbin tərkibinə və əhalinin istehlak davranışına istehlakçının malik olduğu maddi xarakter də daxildir. Bütün əhalinin gəlirlərinin artması az təminatlı əhalinin gəlirlərinin daha sürətli artması və ya daha təminatlı əhali qrupunun gəlirlərinin yüksəlməsi hesabına əhalinin bütün qruplarının gəlirlərinin dəfələrlə artması variantı da mümkündür. Bu əhali qruplarında ərzaq məhsullarına tələb artacaq, lakin, az təminatlı əhali təbəqəsi üçün ilkin tələbat, zərurət məhsullarına tələbin yüksəlməsindən ibarət olur. İkinci qrup əhali üçün isə bahalı istehlak əmtəələrinə tələbin artması baş verir.

Ərzaq bazarı məhsullarının istehlakının vəziyyəti və proqnozunun, bazar tələbinin strukturunun müəyyən edilməsi üçün bir qayda olaraq Engel qanunundan çıxış edirlər. Bu qanuna əsasən əhalinin gəlirlərinin artması üzrə aqrar bazar məhsullarına çəkilən xərclərin xüsusi çəkisi azalır. Bu zaman istehlakın rasionunda dəyişikliklər baş verir, yüksək keyfiyyətə malik olan ərzaq məhsullarının payı artır.

Respublikanın və onun regionlarının daxili ərzaq-aqrar bazar məhsulları ilə təminatı aşağıdakı vəzifələri həll etməlidir:

- birinci, tibb normalarına müvafiq olan ərzaq əmtəələrinin istehlak səviyyəsinə çatmaq;
- ikincisi, iqtisadi inkişaf etmiş dövlətlər üçün xarakterik olan ərzaq istehlak səviyyəsinə nail olmaq.

Bu mövqedən iqtisadi rayonların və Respublikanın bütövlükdə vəziyyətini araşdıraq və əhalinin rifah halının təhlilindən başlayaq.

İstehlak davranışına və qiymətlərə təsir edən əsas amillər sırasına əhali gəlirləri daxil edilir**.** Ümumən Azərbaycanda cəmi əhalinin gəlirləri 2016-ci ildə 2003-ci ilə nisbətən 7,91 dəfə artaraq 45395,1 milyon manat olmuşdur. Bu göstərici 2005-ci ilə nisbətən 5,63 dəfə, 2010-cu ilə nisbətən 1,77 dəfə artıq deməkdir. Azərbaycanda əhalinin bir nəfərinə düşən pərakəndə ticarət dövriyyəsi 2016-ci ildə 1991-ci ilə nisbətən 449,87 dəfə artaraq 2699,20 min manat olmuşdur. Bu göstərici 1995-ci ilə nisbətən 19,49 dəfə, 2000-ci ilə nisbətən 10,22 dəfə, 2005-ci ilə nisbətən 4,97 dəfə, 2010-cu ilə nisbətən 1,82 dəfə artıq deməkdir. Əhalinin bir nəfərinə düşən pərakəndə ticarət dövriyyəsinin artım trendi belə olmuşdur:

Cədvəl 1.

Əhalinin bir nəfərinə düşən pərakəndə ticarət dövriyyəsinin artım trendləri

1995 2015 (1995=100)	2000 2015 (2000=100)	2005 2015 (2005=100)	2010 2015 (2010=100)
$y=5,95x^2$ 41,88x +196,76	$y = e^{(4,385+0,168t)}$	y= 38,66x+ 51,05	$y=e^{(4,51+0,11t)}$

Ticarət dövriyyəsi və ya əmtəə və məhsullara tələb və təklif öz növbəsində qiymətlərlə qarşılıqlı əlaqədə olur və istehlakçı davranışının nəticəsi kimi çıxış edirlər. Azərbaycanda pərakəndə ticarət dövriyyəsi 2015-ci ildə 1991-ci ilə nisbətən 61607,38 dəfə artaraq 25721082,6 manat olmuşdur. Bu göstərici 1995-ci ilə nisbətən 24,54 dəfə, 2000-ci ilə nisbətən 12,23 dəfə, 2005-ci ilə nisbətən 5,66 dəfə, 2010-cu ilə nisbətən 1,93 dəfə artıq deməkdir. Əhalinin bir nəfərinə düşən pərakəndə ticarət dövriyyəsinin artım trendləri R^2 ən böyük və p əhəmiyyətli olanlar yəni t-statistika uyğunluğu qəbul edilib.

Cədvəl 2.

Pərakəndə ticarət dövriyyəsinin artım trendləri

1995 2015 (1995=100)	2000 2015 (2000=100)	2005 2015 (2005=100)	2010 2015 (2010=100)
$Y =7,96x^2$ 64,19x	$y = e^{(4,367+0,180t)}$	$y= 1,15x^2+31,38x+66,02$	$y=e^{(4,502+0,126t)}$

Azərbaycanda yerli istehsal məhsullarının pərakəndə ticarət dövriyyəsi son 3 ildə aşağıdakı kimi olmuşdur: 2015-ci ildə 2013-cü ilə nisbətən 25 % artaraq 16165633,70 manat olmuşdur. Bu göstərici 2014-ci ilə nisbətən 9 % artıq deməkdir.

İstər İQİ-nə və o cümlədən ərzaq məhsullarının qiymətlərinə, istərsə də əhalinin istehlak davranışına əhəmiyyətli şəkildə təsir edən əsas amillərdən biri olan əhalinin gəlirlərinə gəldikdə isə o, 1997-2015-ci illər ərzində 2473,4 milyon manatdan 41744,8 milyon manata qədər artmışdır. Lakin əhali gəlirlərinin dollarla ifadədə göstəricilərində müəyyən anlaşılmazlıq yaranır. Belə ki, əhali gəlirlərinin dollarla ifadədə məzənnənin (1$= manat) təqribən 0,7974 (1997-ci il), 0,9827 (2004-ci il), 0,7844 (2014-cü il) olduğu illərdə 1997-ci ildə 3101,9 milyon dollardan 2014-cü ildə 50321,5 milyon dollara qədər artmışdır. Əhali dollarla gəlirləri 2014-cü ildə 1997-ci illə müqayisədə 16,22 dəfə, 2005-ci illə müqayisədə 5,90 dəfə, 2010-cu illə müqayisədə 1,57 dəfə artmışdır.

Lakin məzənnənin 1,0261 olduğu 2015-ci ildə bu gəlir göstəricisi 2014-cü illə müqayisədə 19,26% və məzənnənin 1,5959 olduğu 2016-ci ildə isə 2014-cü illə müqayisədə 43,48%, 2015-ci illə müqayisədə isə 30,09 % azalmışdır. Bunu, təbii ki, əhalinin adambaşına düşən dollarla gəlirləri haqda da söyləmək olar.

Cədvəl 3.

Əhalinin gəlirlərinin artım trendləri

2003 2016 (2003=100)	2005 2016 (2005=100)	2010 2016 (2010=100)
$y=67,91x^{0,91}$	$y = 0,41x^2+ 51,63x + 38,87$	$y = 0,42x^3$ $5,87x^2+35,93x +68,92$

İstər İQİ-nə və o cümlədən ərzaq məhsullarının qiymətlərinə, istərsə də əhalinin istehlak davranışına əhəmiyyətli şəkildə təsir edən digər əsas amillərdən biri də əhalinin nominal əmək haqqıdır. O, 2015-ci ildə 466,9 manat olaraq 1995-ci illə müqayisədə 37,3 dəfə, 2000-ci illə müqayisədə 10,5 dəfə, 2005-ci illə müqayisədə 3,8 dəfə, 2010-cu illə müqayisədə 1,4 dəfə artmışdır. Bundan başqa əhalinin nominal gəlirləri 2015-ci ildə 41744,80 milyon manat olaraq 1997-ci illə müqayisədə 16,9 dəfə, 2000-ci illə müqayisədə 10,3 dəfə, 2005-ci illə müqayisədə 5,2 dəfə, 2010-cu illə müqayisədə 1,6 dəfə artmışdır. 2016-cı ildə isə 45395,1 milyon manat olmuşdur. Əhalinin xərcləri haqda onu söyləmək olar ki, 2015-ci ildə 34963,4 milyon manat olaraq 2000-ci illə müqayisədə 10,7 dəfə, 2005-ci illə müqayisədə 5,3 dəfə, 2010-cu illə müqayisədə 1,8 dəfə artmışdır. 2016-cı ildə isə 39773,4 milyon manat olmuşdur.

İstər əhalinin xərclərinin və istərsə də əhalinin gəlirlərinin zamana nisbətdə trend tənlikləri onların mütləq göstəriciləri əsasında qəbul edilmişdir. Və tənliklər seçilən zaman R^2 və parametrlərin t-statistikasının əhəmiyyətliliyinə, başqa sözlə 95%, 99% və 99,9% ehtimallar qəbul edilib (*p<0,05,**p<0,01 və ***p<0,001 şərtləri). Bu səbəbdən də tənliklər müxtəlif alınıb. Trend tənliklərinə nəzər yetirəndə aydın olur ki, 2001-2015-ci illərin trend tənliklərində əsas yeri kub, kvadrat və natural loqarifmik (eksponent *e*) tənliklər yer almışdır. Bu həmin dövrlərdə artımın həndəsi mənada şaquliliyindən xəbər verir. Burada 2001-2015-ci və 2005-2015-ci illərin trend tənlikləri arasında kub tənliklər üstünlük təşkil etsə də sonradan əsas tənliklər xətti və üstlü və loqarifmik tənliklər olmuşlar.

Nəticə

Tədqiqatdan belə nəticəyə gəlmək olur ki, iqtisadi inkişaf boyu bütün makroiqtisadi göstəricilərlə yanaşı istehalak bazarının, pərakəndə ticarət dövriyyəsinin, əhalinin bir nəfərinə düşən pərakəndə ticarət dövriyyəsinin, pərakəndə ticarət müəssisələrinin məhsul ehtiyatlarının, pərakəndə ticarət müəssisələrində qeyri-ərzaq məhsullarının ehtiyatlarının, pərakəndə ticarət müəssisələrində ərzaq məhsullarının ehtiyatlarının artması müşayiət olunmuşdur. Bu illər ərzində artımın ən sürətli dövrü 2006-cı ildən sonranı ("Əsrin müqaviləsi"nin tam şəkildə fəaliyyətə başlanması) əhatə edir. Bu özünü xüsusilə ictimai iaşə və pullu xidmətlərin həcminin artmasında büruzə vermişdir. Bununla yanaşı qiymət indekslərinə və əhalinin istehlakçı davranışına təsir edən əsas amillər qismində çıxış edən əhalinin gəlirləri və iqtisadiyyat üzrə orta əmək haqqının da sürətli artımı baş vermişdir. Eyni zamanda əhalinin istehlak xərclərində və bu istehlak xərclərinin strukturunda da əsaslı dəyişikliklər olmuşdur.

ƏDƏBİYYAT

1. Владимирова Н.В. Организация и формирование программы развития продовольственного рынка региона (на материалах республики Карелия) / - М.: Информационно-внедренческий центр «Маркетинг», 2010. - 88 с.
2. Гончаров В.Д. Формирование и функционирование товарных рынков в России / - М.: АгроНИИТЭИПП, 2001. - 166 с.
3. Гордеев А.В., Бутковский. В.А. Россия - зерновая держава / - Издание 2-е, перераб. и дополн. - М.: ДеЛи принт, 2009. - 471 с.
4. Добросоцкий В.И. Государственное регулирование продовольственного рынка / - М.: ГНУ Информагротех, 2000. - 124 с.
5. Добрынин В.А. Актуальные проблемы экономики агропромышленного комплекса / - М.: Изд-во МГСХА, 2001. - 402 с.
6. Крылатых Э.Н., Семенова И.В., Кресникова Н.И и др. Интеграция аграрных рынков: методология, анализ тенденций, перспективы. / -М.: Энциклопедия российских деревень, Науч. тр. ВИАПИ, вып. 12, 2005. - 313 с.
7. Закшевская Е.В. Функционирование и развитие агропродовольственного рынка: теория, методология, практика: автореф. доктора эк. наук: 08.00.05 / - Воронеж, 2004. - 50 с
8. Леонтьева Л.А. Шпаковский Д.В. Взаимодействие сельхозтоваропроизводителей на продовольственном рынке: монография / - Оренбург: Издательский центр ОГАУ, 2010. - 166 с.

9. Медведева Т.М. Функционирование продовольственного рынка региона и взаимодействие его элементов. Монография / - Улан-Удэ: Изд-во БГСХА им. В.Р.Филиппова, 2010. - 125 с
10. Шайкин В.В. Ахметов Р.Г., Коваленко Н.Я. и др. Сельскохозяйственные рынки / - М.: Колос, 2001. - 262 с.

Сугра Ингилаб кызы Гумбатова
д.ф.э., пред, АГЭУ

Цены на продовольственные товары и анализ современного состояния потребительского поведения населения в Азербайджане

Резюме

В статье проанализирован цены на продовольственные товары и современное состояние потребительского поведения населения, дана всеохватывающий и объёмный комментарий теоретических основ продовольственного рынка, исследован факторы, влияющие на цены и на потребительского поведения населения на продовольственном рынка, составлены трендовые уравнения продовольственном рынка, в том числе расходов и доходов населения.

Ключевые слова: продовольственный рынок, цена, потребительского поведения, доходы населения, трендовые уравнения.

Sugra İngilab Humbatova
PhD in economics, teacher UNEC

Food prıces and analysıs of the current sıtuatıon of consumer behavıor ın Azerbaıjan

Summary

The article analyzes the prices of food products and the current situation of consumer behavior of the population, gives an all-encompassing and extensive commentary on the theoretical foundations of the food market, the factors affecting prices and consumer behavior of the population on the food market, compiled trend equations of the food market, including expenditures and incomes.

Key words: food market, price, consumer behavior, incomes, trend equations.

Tamerlan Eldar oğlu ƏKBƏROV
Azərbaycan Kooperasiya Universitetinin magistri

İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASINDA DÖVLƏT PROQRAMLARININ ROLU

Xülasə

Məqalədə Azərbaycanda aparılan məqsədyönlü iqtisadi siyasət və bu siyasətin son illərdə ölkəmizə qazandırdığı üstünlüklər barəsində məlumat verilmişdir. Eyni zamanda, ölkəmizdə 2004-cü ildən bu yana qəbul olunmuş Dövlət Proqramlarının yüksək əhəmiyyəti vurğulanmış, həmin Proqramların Azərbaycanda iqtisadi təhlükəsizliyin təmin olunmasına verdiyi töhfələr araşdırılmışdır. Prezident Cənab İlham Əliyevin müvafiq fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyat və iqtisadiyyatın 11 əsas sektoru üzrə strateji yol xəritələrinin önəmi qeyd olunmuşdur.

Açar sözlər: sosial-iqtisadi inkişaf, qeyri-neft sektoru, Dövlət Proqramları, infrastruktur.

Giriş

Müasir Azərbaycanın qurucusu, inkişafın Azərbaycan modelinin müəllifi Ümummilli lider Heydər Əliyev strategiyasının həyata keçirilməsi nəticəsində ölkədə siyasi və makroiqtisadi sabitliyə nail olunmuş, iqtisadiyyatın bütün sahələrində köklü islahatlar aparılmış, dinamik sosial-

iqtisadi inkişafın möhkəm təməli yaradılmışdır. Son illərdə bütün sahələrdə böyük uğurlar qazanılmış, Azərbaycanın maliyyə imkanlarının artması, ölkəmizin transmilli layihələrin təşəbbüskarı və əsas iştirakçısı kimi çıxış etməsi, müasir tələblərə cavab verən infrastrukturun yaradılması, ən yeni texnologiyalara əsaslanan müəssisələrin fəaliyyətə başlaması, sahibkarlığın dəstəklənməsi, biznes mühitinin yaxşılaşdırılması Azərbaycanın dünyada nüfuzunun daha da artmasına, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəlməsinə, əhalinin həyat səviyyəsinin davamlı olaraq yaxşılaşdırılmasına səbəb olmuşdur. Ölkə bölgələrinin inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində son illərdə regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının icrası böyük əhəmiyyət kəsb edir.

İqtisadi inkişaf strategiyasında prioritet istiqamətlər

Ölkənin sosial-iqtisadi inkişaf strategiyasında prioritet kimi müəyyən edilmiş və iqtisadi gəlir mənbələrindən səmərəli istifadə etməklə regional tarazlığın təmin edilməsi istiqamətində müstəsna rol oynayan regional inkişaf üzrə Dövlət Proqramları əhalinin işgüzar fəallığının artmasına, regionlarda sahibkarlıq fəaliyyətinin daha da genişlənməsinə, infrastruktur layihələrinin həyata keçirilməsinə, beynəlxalq tələblərə cavab verən rəqabətqabiliyyətli və ixracyönümlü məhsullar istehsal edən yeni müəssisə və obyektlərin yaradılmasına səbəb olmuş, vətəndaşların rifahını xarakterizə edən keyfiyyət göstəricilərini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır. Bu baxımdan Azərbaycan Respublikasının Prezidentinin 2004-cü il 11 fevral tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)" əsas məqsədi qeyri-neft sektorunun davamlı inkişafı, ölkə regionlarının tarazlı inkişafının təmin edilməsi, regionlarda kommunal xidmət və sosial infrastruktur təminatının yaxşılaşdırılması, yeni iş yerlərinin və müəssisələrin yaradılması nəticəsində əhalinin məşğulluq səviyyəsinin artırılması və həyat səviyyəsinin yüksəldilməsindən ibarət olmuşdur.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)"nın uğurlu icrası bütün regionların inkişafında yeni bir mərhələnin yaranmasına səbəb olmuş, formalaşmış əlverişli iqtisadi mühit ölkənin sosial-iqtisadi inkişafı sahəsində başlanmış tədbirlərin davam etdirilməsi zərurətini yaratmışdır. Ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olunması məqsədilə 2004-cü ildən başlanmış tədbirlərin davam etdirilməsi üçün Azərbaycan Respublikasının Prezidentinin 2009-cu il 14 aprel tarixli 80 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın uğurlu icrası nəticəsində ölkədə makroiqtisadi göstəricilərin səviyyəsində yüksək artım əldə edilmiş, sosial-iqtisadi inkişaf sahəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi əhalinin həyat səviyyəsinin daha da yüksəlməsində mühüm rol oynamışdır. Regional inkişaf üzrə hər iki dövlət proqramlarının icrası dövründə bütün iqtisadi rayonlara daxil olan şəhər və rayonların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə 240 sərəncam imzalanmışdır.

Regionların hərtərəfli inkişafı sahəsində 2004-cü ildən başlanılmış məqsədyönlü siyasətin davamı olaraq "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" hazırlanmışdır. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə, makroiqtisadi sabitliyin təmin olunmasında, regionlarda sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaranmasında, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsində, nəticədə əhalinin rifah halının daha da yaxşılaşdırılmasında və yoxsulluq səviyyəsinin aşağı düşməsində müstəsna rol oynamışdır.

Azərbaycanda qeyri-neft sektorunun inkişafı prioritet istiqamət kimi

Azərbaycanda aparılan uğurlu, məqsədyönlü siyasət nəticəsində iqtisadiyyatın formalaşdırılması ölkədə işgüzar fəallığın daha da yüksəlməsinə, neft sektoru ilə yanaşı, qeyri-neft sektoru-

nun da sürətli inkişafına, yoxsulluğun azalmasına əlverişli şərait yaradıb, əhalinin etibarlı sosial müdafiəsini, maddi-rifah halının əhəmiyyətli dərəcədə yaxşılaşmasını təmin edib.

Respublikada elmi əsaslara söykənərək hazırlanan regional dövlət proqramlarının uğurla reallaşdırılması nəticəsində ölkəmizin dünyadakı nüfuzu durmadan artıb, regionun siyasi, iqtisadi və mədəni mərkəzlərindən birinə çevrilib. Azərbaycanda neftdən əldə olunan gəlirlər hesabına infrastrukturun modernləşdirilməsi, qeyri-neft iqtisadiyyatına sərmayə yatırılması, ümumi daxili məhsulun həcmindən artıq strateji valyuta ehtiyatlarının yaradılması, biznes mühitinin daha da yaxşılaşması və ölkəmizin beynəlxalq tranzit imkanlarının çoxalması nəticə etibarilə iqtisadi inkişafa təkan verib. 2014-cü ildən etibarən isə beynəlxalq iqtisadi sistemdə baş verən proseslərin yekunu olaraq neftin qiymətinin kəskin ucuzlaşması, eyni zamanda, Azərbaycanın ticarət tərəfdaşları olan ölkələrdə böhran nəticəsində iqtisadi artımın dinamikasının azalması nəticə etibarilə respublikamızda iqtisadi inkişafa dair yeni yanaşmaların ortaya qoyulmasını zəruri edib. Bu zaman qarşıya qoyulan əsas vəzifə qeyri-neft sektorundakı mövcud potensialın hərəkətə gətirilməsi, bu sahədə dinamik inkişafın təmin edilməsi üçün yeni iqtisadi islahatların həyata keçirilməsi olub.

2015-ci ilin sonu, 2016-cı ilin əvvəllərindən başlayaraq bu istiqamətdə yeni islahatların həyata keçirilməsinə start verildi. Qeyri-neft istehsalının stimullaşdırılması, sahibkarlıq fəaliyyətinə daha münbit şəraitin yaradılması, o cümlədən kənd təsərrüfatında ölkəmizə valyuta gətirə biləcək sahələrin inkşafı üçün təxirəsalınmaz addımlar atıldı. Dövlət başçısının imzaladığı fərman və sərəncamlar, Milli Məclisin, Nazirlər Kabinetinin qəbul etdiyi müvafiq qanun və qərarlar yeni iqtisadi islahatların hüquqi bazasını təşkil etdi. Reallıq göstərir ki, aparılan iqtisadi islahatlar nəticəsində son illər sözügedən sahədə mühüm nailiyyətlər əldə olunub, qeyri-neft sektorunun ümumi daxili məhsulda xüsusi çəkisi artıb, rəqabətqabiliyyətli malların istehsalı genişlənib.

Dövlət başçısı cənab İlham Əliyev qeyri-neft sektorunu, xüsusən də kənd təsərrüfatı və emal sənayesini ölkənin gələcək inkişafında əsas prioritet sahələr kimi göstərib, bununla bağlı hökumətin qarşısında ciddi tələblərin qoyulduğunu, görüləsi işlərin çox olduğunu bəyan edib: "Əlbəttə ki, indiki şəraitdə qeyri-neft sektorunun inkişafı daha da böyük prioritet olmalıdır. Mən qeyri-neft sektorunun inkişafı haqqında artıq neçə ildir ki, həm deyirəm, həm də praktik addımlar atılır. Regionların inkişafı, regionlarda infrastrukturun, sosial infrastrukturun yaradılması, yolların, qaz xətlərinin, elektrik stansiyalarının, kənd yollarının tikintisi, müəssisələrin, iş yerlərinin yaradılması - bütün bunlar son illər Azərbaycan reallıqlarını əks etdirir. Əgər vaxtilə qeyri-neft sektorunun inkişafı ilə məşğul olmasaydıq, bu gün biz ölkə daxilində olan tələbatı heç ödəyə də bilməzdik".

Azərbaycanda qeyri-neft sektorunun inkişafına mühüm təsir göstərən sahələrdən biri də aqrar sahədir. Ölkə rəhbəri İlham Əliyevin intensiv metodlara əsaslanan aqrar sektorun yaradılmasına yönələn siyasəti, həyata keçirilən dövlət dəstəyi tədbirləri də öz uğurlu nəticəsini verib, bu, kənd təsərrüfatı məhsullarının istehsalının və ixracının artmasına, özünütəminetmə səviyyəsinin yüksəlməsinə səbəb olub.

Bu gün əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi, aqrar sahədə ixrac potensialının artırılması məqsədi ilə ölkəmizdə müasir aqroparklar və iri fermer təsərrüfatları təşkil edilir. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində bölgələrdə müasir infrastruktur qurulur, kəndlərarası avtomobil yollarının şəbəkəsi genişləndirilir.

Qlobal iqtisadi çağırışlara konseptual yanaşma: strateji yol xəritələri

Ölkəmizdə aparılan ardıcıl iqtisadi islahatlar qlobal iqtisadi çağırışlara konseptual yanaşmalarla daha da təkmilləşdirilməkdədir. Bu baxımdan Prezident İlham Əliyevin müvafiq fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyat və iqtisadiyyatın 11 əsas sektoru üzrə strateji yol xəritələri xüsusilə önəmlidir. Xarici ekspertlərin və məsləhətçi beyin mərkəzlərinin iştirakı, beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq çərçivəsində hazırlanmış strateji yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı əhatə edir.

Strateji yol xəritələri iqtisadi islahatlara uyğun kompleks tədbirlərin həyata keçirilməsini, iqtisadi inkişafın keyfiyyətcə yeni modelinin formalaşdırılmasını təmin edəcək. Sənədin məqsədi

Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və rəqabətqabiliyyətliyinin gücləndirilməsi, neftdən asılılığın aradan qaldırılması, qeyri-neft sektorunun və keyfiyyətli ixrac məhsullarının artırılması, əhalinin məşğulluq səviyyəsinin və rifahının daha da yüksəldilməsidir. Sənəddə qeyd edilən iqtisadi sahələr kənd təsərrüfatından tutmuş sənayeyə qədər bütün sferaları, həmçinin insan kapitalının inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması kimi əsas istiqamətləri əhatə edir. Sənəddə görüləcək hər bir işin nəticələri dəqiq meyarlarla ölçüləcək. Bu isə, öz növbəsində, həmin işlərin effektivliyinin və icraçıların məsuliyyətinin dəfələrlə artmasına stimul yaradır. "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərlə bağlı dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə dövlət başçısının müvafiq fərmanı ilə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır.

Beləliklə, Prezident İlham Əliyevin "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" prinsipinin uğurlu nəticələri Azərbaycanın qarşıdakı illərdə də dayanıqlı inkişafı üçün möhkəm zəmin yaradır, yeni iqtisadi şəraitdə sistemli islahatların böyük əzm və qətiyyətlə həyata keçirilməsi Azərbaycanı qarşıya qoyulmuş hədəfə - dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevrilmək məqsədinə doğru inamla aparır.

Nəticə

Beləliklə, iqtisadiyyatın təhlükəsizliyi dedikdə, ilk növbədə, iqtisadiyyatın və onun qurumlarının elə vəziyyəti başa düşülür ki, bu milli mənafeləri müdafiə etməyə, yeridilən siyasətin sosialyönümlüyünə, iqtisadiyyatın, ölkənin müdafiə qabiliyyətinin tələb olunan səviyyədə olmasına imkan yaratsın. Qeyd etmək lazımdır ki, iqtisadi təhlükəsizlik məsələsinə dövlət özünün inkişaf strategiyasının meyarlarından biri kimi baxır. İqtisadi təhlükəsizlik milli təhlükəsizliyin tərkib hissəsidir. İqtisadi təhlükəsizliyi təmin etmədən milli təhlükəsizliyi təmin etmək qeyri-mümkündür. Dövlətin iqtisadi təhlükəsizliyi, ilk növbədə, ölkənin siyasi-iqtisadi müstəqilliyinin qorunmasının istisna bilməyən şərti və əsasıdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi, Sənədlər, Fərmanlar, Sərəncamlar, https://www.president.az
2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin rəsmi internet səhifəsi, İqtisadiyyatın inkişafı, Dövlət Proqramları, http://www.economy.gov.az
3. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M., "Milli iqtisadiyyatın dövlət tənzimlənməsi", Bakı, 2007.
4. Əhmədov M.A., Hüseyn A.C. "İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları", Bakı, 2011.
5. Qafarov Ş.S. "Müasir iqtisadi sistem və qloballaşma", Bakı, 2005.

Тамерлан Эльдар оглы Акберов,
магистр Азербайджанский Университет Кооперации

Роль государственных программ в обеспечении экономической безопасности

Резюме

Статья даёт информацию о целесообразно экономической политике проведённой в Азербайджане и о приобретённых преимуществ за последние годы этой политики нашей страны. В то же время выделено большое значение общепринятых государственных программ в нашей стране с 2004 года, а также были исследованы взносы по обеспечению экономических программ в Азербайджане. Была отмечена стратегическая значимость дорожных карт национальной экономики и экономики 11 главных сектаров по соответствующему постановлению утверждённой президентом Ильхамом Алиевым.

Ключевые слова: социально-экономическое развитие, не-нефтяной сектор, государственные программы, инфаструктура.

Tamerlan Eldar Akbarov
Master of Azerbaijan Cooperation University

The role of the state program in economical security provision

Summary

The article gives information about purposeful economical policy and recent preferences for our country. The importance of State Program that has been in power since 2004, is also stated, and contribution given for providing economical security in Azerbaijan by this program has been investigated . The significance of the decree on strategic route map of national economy and economy of 11 main sectors, confirmed by president Mr. Ilham Aliyev, has been noted.

Key words: social-economic development, non-oil sector, state programs, infrastructure.

Nüşabə Zahir qızı MEHDİYEVA
Azərbaycan Kooperasiya Universitetinin dissertantı

İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASINDA QEYRİ-NEFT SƏNAYE SAHƏLƏRİNİN İNKİŞAFININ DÖVLƏT TƏNZİMLƏNMƏ MEXANİZMLƏRİ

Xülasə

Məqalədə iqtisadi təhlükəsizliyin təmin olunması baxımından qeyri-neft sənaye sahələrinin inkişafı təhlil edilmiş, beynəlxalq təcrübə öyrənilmiş, qeyri-neft sektorunun inkişafı baxımından dövlətin tənzimlənmə istiqamətləri sadalanmışdır.

Açar sözlər: iqtisadi təhlükəsizlik, qeyri-neft sektoru, milli valyuta, diversifikasiya, rəqabət, təbii sərvət.

***

İqtisadi təhlükəsizlik mahiyyət etibarı ilə milli mənafelərin təminatlı müdafiəsi, iqtisadiyyatın strukturunun səmərəli formalaşma potensialını təmin etməkdən ibarətdir kimi də demək olar. Bu baxımdan son 40 ildə təbii sərvətlərlə zəngin bir çox ölkədə müzakirə olunan mövzulardan biri də budur ki, həmin məhsulların ixracından əldə edilən gəlirlər iqtisadi inkişafa, rəqabətqabiliyyətliliyə, sosial-iqtisadi məsələlərin həllinə, yoxsa əksinə, cəmiyyətdə bərabərsizliyə, əhalinin həyat səviyyəsinin aşağı düşməsinə və bir sıra xoşagəlməz halların yaranmasına səbəb olur. Bu baxımdan təbii sərvətləri bol olan ölkələri iki qrupa ayırmaq olar. Birinci qrup ölkələr təbii sərvətlərdən səmərəli istifadə edən ölkələr, ikinci qrup ölkələr isə təbii sərvətlərdən səmərəli istifadə etməyən ölkələrdir.

Təcrübə göstərir ki, bəzi ölkələrdə təbii ehtiyatların bol olması yüksək inkişafın, rəqabətin və insan kapitalının inkişafının əsas mənbəyi kimi çıxış edir. Belə ölkələrə nümunə kimi, Norveç, ABŞ, Kanada, Böyük Britaniyanı göstərmək olar. Lakin digər bir qisim ölkələrdə təbii sərvətlərin bolluğu əhalinin həyat səviyyəsinin pisləşməsinə və iqtisadiyyatın birtərəfli qaydada inkişafına gətirib çıxarır. Belə ölkələrə nümunə kimi, İraq, Anqola, Suriya, Sudan, Kolumbiya, Əlcəzair, Nigeriya və s. göstərmək olar. Bu fikirləri müəyyən mənada qonşu Rusiya üçün də söyləmək olar. Belə ki, ərazi baxımından dünyanın ən böyük dövləti və bütün təbii sərvətləri olan Rusiyanın iqtisadiyyatı heç də dünyanın iqtisadi baxımdan lider ölkələri ilə rəqabət apara bilmir. Ümumiyyətlə, deyə bilərik ki, təbii sərvətlərdən səmərəli istifadə edən ölkələrlə müqayisədə, həmin təbii sərvətlərdən səmərəli istifadə etməyən ölkələrin sayı dünyada daha çoxdur.

Müşahidələr təsdiqləyir ki, təbii sərvəti xammal formasında ixrac edən bir çox ölkələrin dövlət büdcəsi adətən həmin təbii sərvətlərin beynəlxalq bazar qiymətlərindən asılı vəziyyətə düşür, yüksək inflyasiya, milli valyutanın məzənnəsində tez-tez enib-qalxmalar, korrupsiya və s. kimi neqativ hallara səbəb olur. Buna görə də qarşıya qoyulan bu çətin vəzifənin öhdəsindən gəlmək üçün əsasən xam neft ixrac edən ölkələr adətən neft fondu, digər təbii sərvət ixrac edənlər isə "sabitləşdirmə fondu" yaradırlar. Belə fondlar yaradılanda əsasən ölkəyə təbii sər-

vət ixracından daxil olan vəsaitlərdən daha səmərəli istifadə edilməsi və gələcək nəsillər üçün də saxlanılması düşünülür. Bu baxımdan təbii sərvətlərin ixracından gələn gəlirlərin xərclərinin müəyyənləşdirilməsi də ən aktual məsələlərdəndir. Həmin müzakirə edilən məsələlər kimi aşağıdakılar çıxış edir:

1. Hansı qeyri-neft sənaye sahələrini və necə inkişaf etdirməli;
2. Neft gəlirləri əhalinin sosial müdafiəsində necə istifadə olunmalı;
3. "Neft lənətindən" necə xilas olmalı.

Qeyd edilənlərə əsaslanaraq deyə bilərik ki, belə ölkələrdə təbii sərvətlər nəticə etibarı ilə heç də həmişə əhalinin həyat səviyyəsinin yüksəlməsinə deyil, əksinə, iqtisadiyyatın təkqütblü inkişafına, makroiqtisadi tarazlığın pozulmasına və əhalinin maddi vəziyyətini pisləşdirən amilə də çevrilə bilir.

Lakin, bununla belə istər təbii sərvətləri bol olan, istərsə də təbii sərvətləri olmayan və ya zəif olan ölkələrin iqtisadiyyatının müəyyən bir strukturu vardır. İqtisadiyyatın adətən ya tarixi ənənələrə, ya da təbii iqtisadi üstünlüklərə əsaslanaraq müəyyən bir strukturu formalaşır. Təbii ki, iqtisadiyyatın strukturunun formalaşmasında ictimai əmək bölgüsünün də xüsusi payı vardır.

Burada əsas məqam ondan ibarətdir ki, iqtisadiyyatın birtərəfli qaydada inkişafına, hər hansı bir sahənin inkişafından asılılığına yol verilməməli, elmi-texniki tərəqqinin təsiri nəticəsində mövcud iqtisadi strukturun innovativ şəkildə yenidən qurulması dövlət tərəfindən tənzimlənməlidir. Daha dəqiq desək, xammal ixracını maksimal dərəcədə nəzarət altında saxlamaq və hazır məhsul istehsal edən sənaye sahələrinin inkişafına üstünlük verilməsi məqsədəmüvafiq olardı. Bununla bağlı konkret olaraq Norveçin təcrübəsinə nəzər salmaq maraqlı olardı. Belə ki, bu ölkə dünya bazarına neft-qaz ixrac edən ölkələrdən biri olmaqla bərabər 2017-ci ildə dünyaya neft-qaz ixracının həcminə görə ən çox satan 7-ci ölkədir. Buna baxmayaraq, qeyd edilən ölkədə xammal ixracı ilə bağlı heç bir problem yoxdur. Müşahidələr təsdiqləyir ki, Norveçin belə bir uğur əldə etməsinin ilkin səbəbi ölkənin neft-qaz təsərrüfatının və ondan gələn gəlirlərin səmərəli və şəffaf idarəedilməsidir. Digər iqtisadi əsaslar kimi aşağıdakılar çıxış edir:

- Dövlət büdcəsinin neft-qaz gəlirləri hesabına şişməsinə imkan verilmir;
- Sənaye strukturunun diversifikasiyası həyata keçirilir;
- Makroiqtisadi stabilliyin qorunub saxlanılması təmin edilir.

Təcrübə göstərir ki, iqtisadiyyatın neft asılılığından azad olmasının ilkin şərti onun diversifikasiyasına nail olmaqdır. Bu məsələ ilə bağlı 1970-1975-ci ildə ABŞ özünün enerjidən asılılığını təmin etmək üçün xüsusi plan hazırlamışdır. Həmçinin 1980-ci illərdə ABŞ, Yaponiya və Almaniyanın hər birinin elmtutumlu iqtisadiyyatın inkişafı üçün xüsusi proqramları mövcud olmuşdur. Yəni müasir dövrdə iqtisadi inkişafda müəyyən uğura nail olan ölkələrdə bu təsadüfi deyil, sistemli və məntiqi yanaşma, plan əsasında mümkün olmuşdurr [2, s. 38-40].

Müşahidələr təsdiqləyir ki, iqtisadiyyatda struktur tənzimlənməsi adətən elmi-texniki tərəqqidə, texnika və texnologiyada baş verən mütərəqqi yeniliklərin uyğun olaraq ictimai və fərdi tələbatları təmin etmək əsasında ictimai istehsalın yenidən qurulmasına yönəldilmiş tədbirlər sistemi olmalıdır. Qeyri-neft sənaye sahələrinin inkişafını tənzimləmək üçün dövlət adətən aşağıdakı sahələrə xüsusi diqqət verməlidir:

1. Elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqini təmin etmək;
2. Qeyri-neft sənaye sahələrinin inkişafına əsaslı investisiya qoyuluşunu həyata keçirmək;
3. Qeyri-neft sənaye sahələrinin inkişafına uyğun məhsuldar qüvvələrin yerləşdirilməsinə nail olunması;
4. Yeni məhsul istehsalı üçün texnologiyanın yaradılmasını həvəsləndirmək;
5. İqtisadiyyatın innovativ qurulmasını təmin etmək;
6. Xarici investorların təkliflərindən istifadə edilmək.

Qeyd edək ki, dövlətin həyata keçirdiyi düzgün və səmərəli iqtisadi siyasət nəticəsində təbii sərvətlərinin ixracından əldə edilən gəlirlər, qeyri-neft sənaye sahələrinin inkişafına yönəldilməsi ki, dövlət tənzimləmə mexanizmlərinin əsası kimi çıxış edir.

Müşahidələr təsdiqləyir ki, bir çox ölkələr neft gəlirlərindən istifadə əsasında infrastruktur siyasəti həyata keçirirlər ki, bu da əsasən ilkin olaraq tikinti bumu ilə başlayır. İkinci mühüm istiqamət isə ölkənin mövcud bank sisteminin heç bir girov sistemi tətbiq etmədən və ya zəif girov sistemi ilə bank kreditlərinin hüquqi və fiziki şəxslərə verilməsi ilə bağlı olur. Belə halda bank sektorunda vaxtı keçmiş kreditlər də iqtisadiyyatda bir problem olaraq ortaya çıxır.

Belə məsələlərin həll edilməsinin ən optimal yolu kimi aşağıdakılar çıxış edir:

- Milli valyutanın optimal məzənnəsinin qorunub saxlanılması;
- Büdcə tarazlığına və fiskal intizama riayət olunması.

Müstəqil Azərbaycan dövlətinın iqtisadiyyatında qeyri-neft sənaye sahələrinin inkişafının dövlət tənzimlənməsinin əsası kimi az material və enerji tutumlu strukturun yaradılmasına, maşınqayırma sahələrinin inkişafına üstünlük verilməsi məqsədəuyğun olardı. Yanacaq-energetika kompleksinin respublika iqtisadiyyatında həlledici rolunu nəzərə alaraq, bu sferada struktur dəyişikliklərini sürətləndirmək də olduqca vacibdir. Qeyd etmək lazımdır ki, yanacaq-energetika sahələrində yeni tədbirləri həyata keçirmək daha asan başa gələ bilər, çünki bu sahə istər əmək resursları, istərsə də istehsal fondları ilə təmin olunması baxımından daha əlverişli vəziyyətdədir. Əsasən material istehsalı ilə məşğul olan metallurgiya, kimya və neft-kimya sənayelərində də iqtisadiyyatın müxtəlif sahələrini yüksək keyfiyyətli və geniş çeşiddə materiallarla təchiz etmək üçün daha səmərəli struktur dəyişiklikləri tələb olunur.

Respublikamızın iqtisadiyyatının iqtisadi təhlükəsizliyinin və qeyri-neft sənaye sahələrinin inkişafının yaxşılaşdırılması, onun dinamikliyi və çevikliyinin təmin edilməsi üçün, ilk növbədə, sənaye sahələrində struktur dəyişiklikləri aparılmalıdır. Mütərəqqi təcrübəyə əsaslanaraq deyə bilərik ki, iqtisadiyyatın qeyri-neft sənaye sahələrinin inkisafını tənzimlənmək məqsədilə dövlət ilk növbdə investisiya siyasətindən daha səmərəli təsiretmə vasitəsi kimi istifadə etməli və qeyri-nerf sektoruna investisiya qoyuluşunu stimullaşdırmalıdır. Bunun üçün isə həm makro səviyyədə və həm də mikro səviyyədə yanaşmalardan istifadə olunmalıdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.
2. Şəkərəliyev A.S. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər (monoqrafiya). Bakı, "İqtisad Universiteti", 2009, 415 s.
3. Salahov S.V. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı, «Nurlar», 2004, 504 s.
4. www.stat.gov.az

Нушаба Захир гызы Мехтиева
диссертант Азербайджанский Университет Кооперации

Механизмы государственного регулирования развития ненефтяной промышленности в экономической безопасности

Резюме

В статье с точки зрения защиты обеспечения экономической безопасности анализирован развитие область ненефтяной промышленности, изучается международный опыт, с точки зрения развития ненефтяного сектора перечислены пути государственного урегулирования.

Ключевые слова: экономическая безопасность, ненефтяной сектор, национальная валюта, диверсификация, конкуренция, полезные ископаемые.

Nushaba Zahir Mekhtiyeva
candidate for a degree Azerbaijan Cooperation University

Mechanisms of state regulation of non-oil industry development in economic security

Summary

In article the development of the non-oil industry has been analysed due to providing the economical security. The international experience has been studied, balancing the governmental aspects has been pointed out due to developing the non-oil sector.

Key words: economical security, non-oil sector, national currency, diversification, competition, natural wealth.

Xəyalə Yaqub qızı QULİYEVA
Kənd Təsərrüfatının İqtisadiyyatı
ET İnstitutunun dissertantı

ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ VƏ AQRAR SAHƏNİN RƏQABƏTLİLİYİNİN YÜKSƏLDİLMƏSİNDƏ KLASTERLƏRİN ƏHƏMİYYƏTİ

Xülasə

Məqalədə milli ərzaq təhlükəsizliyinin təmin olunmasında bir vasitə kimi aqrar əsaslı klasterləşmənin bəzi məsələləri nəzərdən keçirilmiş, klaster təşkilatlarının formalaşma yolları göstərilmişdir. İqtisadi təhlükəsizliyin təmin edilməsində kənd təsərrüfatı klasterlərinin rolunu müəyyənləşdirən metodlar göstərilmişdir. Aqrar-əsaslı klasterlərdə rəqabətqabiliyyətliliyin yüksəldilməsini şərtləndirən amillər müəyyən edilmişdir.

Açar sözlər: ərzaq təhlükəsizliyi, rəqabətqabiliyyətlilik, aqrar əsaslı klaster, rəqabət, müqayisəli üstünlük, innovasiya.

***

Əhalinin ərzaq məhsulları ilə təmin edilməsi dövlət üçün mühüm əhəmiyyət kəsb edən və həlli vacib olan sosial-iqtisadi problemlərdən biridir. Qloballaşma prosesləri ərzaq məhsullarına olan tələbatın da yerli istehsal hesabına ödənilməsini zəruri etmişdir. İdxaldan asılılıq, son nəticədə, ərzaq bazarının strukturuna kifayət qədər mənfi təsir göstərə bilər. Kənd təsərrüfatının təkmilləşdirilməsi və dayanıqlı inkişafının təmin edilməsi makroiqtisadi baxımdan ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində ən mühüm vasitələrdən hesab edilir. Bu səbəbdən ölkəmizdə qeyri-neft sektorunun əsas elementlərindən biri olan kənd təsərrüfatı və emal sənayesində makroiqtisadi və dinamik inkişafın təmin edilməsi daim ön plana çəkilir.

Müasir qloballaşma şəraitində beynəlxalq münasibətlər sistemində təhlükəsizliyin təmin edilməsi əsasən iki istiqamətdə özünü büruzə verir. Bunlardan birincisi enerji, ikincisi isə ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlıdır [1, s. 52].

Müstəqillik əldə edildikdən sonra ölkəmizdə həyata keçirilən aqrar islahatlar və bazar iqtisadiyyatına keçidin mühüm elementlərindən olan sahibkarlığın inkişafı, bu sahəyə dövlət dəstəyinin göstərilməsi ərzaq təhlükəsizliyi sahəsində mühüm dəyişikliklərin yaranmasına gətirib çıxarmış, müstəqilliyin əvvəllərində mövcud olan qıtlıq tamamilə aradan qaldırılmış, ərzaq bazarında rəqabət səviyyəsinin yüksəlməsinə əlverişli şərait yaranmışdır. Kənd təsərrüfatı məhsul istehsalçılarının torpaq vergisi istisna olmaqla digər vergi növlərindən azad edilməsi, ayrı- ayrı istehsal sahələrinə subsidiyaların verilməsi bu sahədə fəaliyyət göstərən istehsalçıların iqtisadi dayanıqlılığının artırılmasına xidmət etmişdir. İdxalın əvəzlənməsi, ixracın dəstəklənməsi, yerli məhsul istehsalının stimullaşdırılması, kənd təsərrüfatı istehsalının intensivləşdirilməsi istiqamətində görülən tədbirlər yerli istehsalın genişləndirilməsinə xidmət edir. Bu baxımdan "2016-2020-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" müstəsna əhəmiyyətə malikdir. Bu Dövlət Proqramı qloballaşma şəraitində dünya ərzaq ba-

zarında müşahidə olunan qeyri-sabitliyin ərzaq məhsullarının qiymətinə təsirinin neytrallaşdırılmasına, ərzaq bazarının idxaldan asılılığının aradan qaldırılmasına xidmət edən mühüm dövlət sənədidir. Dövlət Proqramının məqsədi ölkənin hər bir vətəndaşının sağlam və məhsuldar həyat tərzi üçün qəbul edilmiş normalara uyğun ərzaq məhsulları ilə tam təmin edilməsinə nail olmaqdır. Klasterlərin formalaşması və inkişafı postsovet məkanı ölkələri üçün qismən yeni olsa da, bu istiqamətdə müəyyən tədqiqatlar aparılır. O cümlədən, klasterial inkişafın konseptual əsasları araşdırılmış, klaster təşəbbüsləri və aqrar sahənin xüsusiyyətləri səciyyələndirilmiş, aqrar-sənaye klasterlərinin inkişafının dünya təcrübəsi nəzərdən keçirilmiş, Azərbaycanda aqrar sahənin klasterial inkişafına proqramlı yanaşmanın bəzi cəhətləri şərh olunmuşdur [3, s. 92].

Qərb ədəbiyyatında iqtisadi klasterin ilk konsepsiyası Michael Porter tərəfindən təqdim edilmişdir: Klaster-qarşılıqlı əlaqəli şirkətlərin, ixtisaslaşmış təchizatçıların, xidmət təminatçılarının, müvafiq sahələr üzrə firmaların, həmçinin onların fəaliyyəti ilə əlaqəli təşkilatların (məsələn, universitetlər, standartlaşdırma qurumları və ticarət birlikləri) müəyyən sahələrdə coğrafi əlamətlərə görə cəmləşən, rəqabət aparan, eyni zamanda birgə iş aparan qruplardır [2, s. 3]. Porterə görə, klasterin hər bir iştirakçısının bazara hakim olması üçün həm birbaşa öz rəqibləri ilə, həm də özünün alıcıları və tədarükçüləri ilə rəqabətə girməsi klasterin yaranması və inkişafı üçün zəruri şərt hesab edilir.

Yalnız kənd təsərrüfatı məhsullarının istehsalında artımla ərzaq təhlükəsizliyinə nail olmaq mümkün deyil. Qida təhlükəsizliyinin təmin edilməsi ölkənin hər bir bölgəsində mövcud vəziyyətə dair araşdırmaların aparılmasını, əhalinin adambaşına düşən gəlirlərinin artırılmasını, kənd təsərrüfatı məhsullarının maya dəyərinin azaldılmasını, rasional qida norması haqqında əhalinin biliklərinin formalaşdırılmasını, yerli ticarət nümayəndələri ilə kənd təsərrüfatı istehsalçıları arasında sıx əməkdaşlığın yaradılmasını, infrastrukturun inkişafını, aktiv dövlət dəstəyi və s. tələb edir. Ərzaq təhlükəsizliyinə nail olunması, onun formalaşmasında iştirak edən bütün təşkilatların sıx əməkdaşlığı ilə həyata keçirilməlidir. Belə sıx əməkdaşlığın təşkili uğurlu beynəlxalq təcrübəyə, hakimiyyət orqanlarının metodik tövsiyələrinə, həmçinin bu birliyin müəyyən etdiyimiz bütün üstünlüklərinə əsaslanaraq, kənd təsərrüfatı klasterləri çərçivəsində həyata keçirilməlidir.

Hal-hazırda klasterial inkişaf konsepsiyası dünyanın qabaqcıl ölkələrinin sosial-iqtisadi inkişaf və ərzaq təhlükəsizliyinin təmin edilməsi strategiyalarının əsas elementi kimi istifadə olunur. Xüsusilə, Danimarka, Finlandiya və İsveç kimi ölkələrdə sənaye sahələri tam olaraq klasterləşmişdir. Xüsusi klasterlər Almaniyada (kimya və maşınqayırma), Fransada (ərzaq və kosmetika istehsalı), Sinqapurda (neft kimyası), Yaponiyada (avtomobil sənayesi) və dünyanın digər ölkələrində uğurla işləyir. İnkişaf etməkdə olan ölkələrdə, bölgələrin sosial-iqtisadi inkişafının tənzimlənməsində klasterial inkişaf yanaşmasından istifadənin mümkünlüyü ilə bağlı aktual müzakirələr aparılır. [4, s. 288]. Hazırda Azərbaycanda klasterial layihələr həyata keçirilmir. Ancaq regionların inkişafında klasterlərin rolu çox böyükdür, çünki onlar yalnız regionun deyil, bütün milli iqtisadiyyatın "inkişaf nöqtələridir".

Ərzaq təhlükəsizliyi problemi inkişaf etməkdə olan ölkələrdə xüsusilə əhəmiyyətlidir, bu da öz növbəsində ərzaq təhlükəsizliyinin artırılması üçün effektiv vasitələrin axtarışını tələb edir ki, bunlardan biri də kənd təsərrüfatı klasterlərinin yaradılmasıdır. Müasir ölkələrin və bölgələrin iqtisadi təhlükəsizliyinin təmin edilməsində kənd təsərrüfatı klasterlərinin rolunu müəyyənləşdirmək üçün aşağıdakı metodlardan istifadə olunur: müqayisəli və problem analizi metodları, sintezi, induksiyası, nəticə və statistik məlumatların təhlili.

Klaster, istehsalın ərazi və sektoral təşkili forması kimi (klaster üzvlər arasında əməkdaşlığın dərinləşdirilməsi vasitəsi ilə) iqtisadiyyatın inkişafı üçün hədəflənmiş proqramların yaradılmasını nəzərdə tutur. Klaster siyasəti dövlət və regional hakimiyyət orqanları, elmi və tədqiqat təşkilatları, təhsil müəssisələri və bizneslə birgə həyata keçirilməlidir. Məhz səylərin bü cürə birləşdirilməsi sosial-iqtisadi inkişafın yüksək səviyyəsi ilə nəticələnə bilər.

Rəqabətqabiliyyətlilik. Rəqabətqabiliyyətlilik hər bir ölkədə həm hökumətin, həm də sahibkarların diqqət mərkəzində olan başlıca məsələlərdəndir. Qlobal iqtisadiyyatda bazar əsaslı siyasətin arzuolunan sosial və iqtisadi məqsədlərə çevrilməsi beynəlxalq ticarəti izah edən *müqayisəli üstünlük* təməl konsepsiyası barədə düşüncələrdə əsaslı dəyişikliklər və müqayisəli

üstünlüyə əsaslanan qlobal bazarlar barədə anlayışın genişlənməsini tələb edir. Bu gün ölkələr firmalara və sənaye sahələrinə dünya bazarlarında rəqabət üstünlüyü qazanmağa imkan verən siyasətlərini irəli sürürlər, halbuki belə siyasət ənənəvi beynəlxalq ticarət çərçivələri ilə ziddiyyət təşkil edir. Ədəbiyyatda müqayisəli üstünlük anlayışı bir sıra fərqli mənalar daşıyır. Burada, biz bu konsepsiyanı İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) müəyyən etdiyi mənaya oxşar anlayış kimi istifadə edirik, yəni bir ölkə açıq bazar şərtləri altında xarici rəqabətə davamlı mallar istehsal edə bilir, eyni zamanda real daxili gəlirlərini saxlamağa və artırmağa nail olur. [OECD, 1992, səh. 237].

Müqayisəli üstünlük anlayışının əhəmiyyətli bir cəhəti rəqabət qabiliyyətini artırmaq məqsədi ilə bir çox təşkilatların əlverişli iqtisadi mühitin yaradılması istiqamətində tədbirlər görmək üçün göstərəcəkləri səylərdir. Qlobal və daxili bazarlarda rəqabət qabiliyyətli olmaq üçün qlobal çağırışlara cavab verən yeni alətlər lazımdır. Müxtəlif vasitələr arasında, aqrar əsaslı klasterlərin inkişafı kənd təsərrüfatının inkişafı üçün potensial bir vasitə kimi ortaya çıxmışdır. Aqrar əsaslı klaster sadəcə olaraq eyni kənd təsərrüfatı yaxud aqrar-sənaye sub-sektoru ilə məşğul olan, ortaq problemləri həll edərkən qarşılıqlı əlaqədə olan və dəyər şəbəkələri quran, eləcə də ortaq imkanlar artıran istehsalçıların, aqrobiznes müəssisələrinin və təsisatlarının təmərküzləşməsidir.

Fermerlər və kiçik və orta həcmli aqrobiznes müəssisələri aqrar əsaslı klasterlərdə iştirak etməklə faydalana bilərlər. Belə ki, fermerlər ixtisaslaşmış resurslardan istifadə etməklə məhsuldarlığın artırılması, informasiyaya çıxışın və qarşılıqlı əlaqənin təmin olunması, ictimai məhsula çıxış imkanı, tədqiqatlıar vasitəsi ilə innovasiyaya sürətli çıxış və s. sahələrdə bəhrələnə bilərlər. Bundan əlavə klasterlər milli yaxud regional brendin müəyyən edilməsinə kömək edə bilər. Klasterlər həm rəqabəti, həm də əməkdaşlığı inkişaf etdirir. Bir çox klasterlər xüsusi təlimlər, təhsil, informasiya təminatı, tədqiqat aparan və texniki dəstək verən universitetlər, standartları müəyyən edən agentliklər, analitik mərkəzlər, peşə təhsili verən müəssisələr kimi dövlət müəssisələrini və digər müəssisələri özündə birləşdirir. Aqrar əsaslı klasterdə kiçik istehsalçılar arasında qarşılıqlı əlaqələr üfüqi əlaqələrdir. İstehsalçılar klasterinin rəsmi olaraq yaradılmasına nail olmaq üçün kooperativ, istehsalçı qrupları, özünədəstək qrupları kimi formalar seçilə bilər.

Kənd təsərrüfatının inkişafı sahəsində ölkəmizdə xeyli işlər görülməsinə baxmayaraq aqrar-əsaslı klasterlər və ölkənin ərzaq təhlükəsizliyində onun roluna dair əsaslı tədqiqatlara az rast gəlinir. Aqrar-əsaslı klasterdə istehsal olunan o məhsulu rəqabətqabiliyyətli hesab etmək olar ki, həmin məhsul azad rəqabətə davam gətirsin və dünya bazarının tələblərinə cavab versin. Avropa ölkələrində yaradılmış klasterlərə nəzər salsaq gorərik ki, klaster təşəbbüsləri adətən kiçik və çevik təşkilatlar vasitəsi ilə irəli sürülüb. Avropada bütün klaster təşkilatları professor M. Porter tərəfindən 1990-cı ildə nəşr olunan "Ölkələrin Müqayisəli Üstünlüyü" nüfuzlu kitabından sonra formalaşmağa başlamışdır. Klaster üzvlərinin sayı müxtəlif ola bilər. Əksər klaster təşkilatlarında üzvlərin sayı adətən 20-100 arasında dəyişir. Yaxşı fəaliyyət göstərən klasterlər bir növ açıq innovasiya sistemidir.Klaster təşkilatları həqiqətən dövlət-özəl əməkdaşlığını özlərində ehtiva edir. Klaster təşkilatları bir sıra məqsədlər üçün yaradıla bilər. Avropadakı klaster təşkilatlarında prioritet məqsədlərə biznes mühitinin yaradılması, inkişaf və investisiya, ixracın genişlənməsi, dəyər zəncirinin inkişafı və s daxildir. Daha böyük klatsterlər üçün innovasiya, həmçinin tədqiqat və inkişaf məqsədi çox vacibdir. Avropada klasterləşmə hər hansı bir layihə çərçivəsində başlayaraq sonradan rəsmi klaster təşkilatına çevrilərək bir həyat yolu keçmişdir. Avropada bütün klasterlərlə aparılmış sorğuya əsasən klasterlərin 65%-i hüquqi şəxs (məs., qeyri-kommersiya təşkilatı, kilsə ianəsi), 35%-i isə bəzi təşkilatlara aid (regional iqtisadi inkişaf və s) layihələrdir [5, səh. 22].

ƏDƏBİYYAT

1. Abbasov İsmət Dursun oğlu. Azərbaycanın kənd təsərrüfatı. Bakı, 2010, 590 səh.
2. Иванова А.А. Сельскохозяйственный кластер как способ обеспечения продовольственной безопасности населения Красноярского края. Вестник Красноярского государственного аграрного университета <https://cyberleninka.ru/journal/n/vestnik-krasnoyarskogo-gosudarstvennogo-agrarnogo-universiteta>, 2013, №2, 175 стр.

3. Quliyev E.A. Etibarlı ərzaq təminatı sistemi: kooperasiya və inteqrasiya problemləri. Monoqrafiya, Bakı, "Elm" nəşriyyatı, 2013, 308 s.
4. O.Borisova, L.Abramova, L.Zageeva, E.Popkova, İ.Morozova and T.Litvinova Role of Agricultural Clusters in Provision of Food Security <https://econpapers.repec.org/article/ersjournl/v_3axviii_3ay_3a2015_3ai_3a3_3ap_3a287-298.htm>, European Research Studies Journal, Volume XVIII, issue 3, 2015 pp 287-298
5. Dr. Ch. Ketels, Dr G. Lindqvist, Dr Ö. Sölvell, Strengthening Clusters and Competitiveness in Europe, Stocholm, 2012, 56 p.

Хаяле Якубовна Кулиева
Iиссертант Научно-Исследовательского
Института Экономики Сельского Хозяйства

Значение кластеров в обеспечении продовольственной безопасности и повышение конкурентоспособность аграрного сектора

Резюме

В статье рассматриваются некоторые вопросы аграрного кластера как инструмента обеспечения национальной продовольственной безопасности и показан способы формирования кластерных организаций. Показаны методы определения роли сельскохозяйственных кластеров в обеспечении экономической безопасности. Определены факторы, вызывающие повышенную конкурентоспособность в аграрных кластерах.

Ключевые слова: продовольственная безопасность, конкурентоспособность, агропромышленных кластеров, конкуренция, сравнительные преимущества, инновация.

Yagub Guliyeva Khayale
dissertant of the Research Institute of Agricultural Economy

The importance of clusters in ensuring food security and raising the competitiveness of agrarian sector

Summary

The article considers some issues of agrarian-based cluster as a tool to ensure national food security and ways of formation of cluster organizations. Methods for determining the role of agricultural clusters in ensuring economic security are shown. Factors stipulating increased competitiveness in agrarian clusters have been identified.

Key words: food security, competetiveness, agro-based claster, competition, comparative advantage, innovation.

Şamil Əyyub oğlu YAQUBOV
AMEA-nın İqtisadiyyat İnstitutunun
baş elmi işçisi, i.e.n.

ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ VƏ AQRAR SAHƏNİN YÜKSƏLDİLMƏSİ PROBLEMLƏRİ

Xülasə

Məqalədə ölkə əhalisinin ərzaq təminatının həyata keçirilməsindən və ərzaq təhlükəsizliyindən bəhs edilir. Həmçinin, ərzaq bazarının idarə edilməsi, əhalinin alıcılıq qabiliyyətini, büdcə gəlirləri və xərclərinin regionlar üzrə formalaşması dinamikasını və perspektiv dəyişmə meyillərini qiymətləndirmək yolu ilə baş verməsindən irəli gəlir.

Açar sözlər: kənd təsərrüfatı, emal sənayesi, ərzaq bazarı.

***

Ölkə əhalisinin ərzaq təminatının həyata keçirilməsinin başlıca prinsipi ərzaq təhlükəsizliyi hesab edilir. Ərzaq təhlükəsizliyi müasir şəraitdə nəinki iqtisadi təhlükəsizliyin mühüm tərkib hissəsi kimi çıxış edir, eləcə də hər bir dövlətin xarici ticarət siyasətinin mühüm prioritetinə çevrilir. Ərzaq bazarı dövlətin ərzaq müstəqilliyinin, bütövlükdə aqrar sahənin tənzimlənməsindən bilavasitə asılıdır. Ərzaq bazarının tənzimlənməsində əsas məqsəd ölkənin özünü təminetmə səviyyəsinin yüksəldilməsidir. Praktikada ərzağın təmin edilməsi aqrar sahənin dövlət tənzimlənməsinin məqsədi kimi dəyərləndirilir. İqtisadi təhlil və araşdırmalardan belə qənaətə gəlmək olar ki, ərzaq bazarının tənzimlənməsində başlıca məqsədlərdən biri istehlakçıların və həm də kənd təsərrüfatı əmtəə istehsalçılarının maraqlarının qorunmasından ibarətdir. İstehlakçıların maraqları o halda qorunur ki, onların fəaliyyəti istehlakçıların mənafeləri ilə ziddiyyət təşkil etməsin.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə həyata keçirilmiş birinci Dövlət Proqramı bu sahədə böyük uğurların qazanılmasına şərait yaratmış, ölkə Prezidentinin 14 aprel 2009- cu il tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın isə icrasına başlanmışdır. Əminliklə demək olar ki, ikinci Dövlət Proqramının icrası da ərzaq təminatı sahəsində ciddi nailiyyətlərə səbəb olacaqdır. Bundan əlavə, möhtərəm Prezidentin 25 avqust 2008-ci il tarixli Sərəncamı ilə təsdiqlənmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" da uğurla icra olunur və ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində müstəsna əhəmiyyətə malikdir.

Dövlətin iqtisadiyyata müdaxiləsinin optimallığı zaman keçdikcə bir sıra obyektiv və subyektiv amillərin təsiri, o cümlədən elm və texnikanın inkişaf səviyyəsi, istehsal münasibətlərinin xarakteri, yerli istehsalın səviyyəsi və s. ilə dəyişir.

Ərzaq bazarının hansı aspektdə tənzimlənməsinə baxmayaraq, bu zaman dövlətin başlıca məqsədi ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə nail olmaqdan, bütövlükdə isə ölkənin milli ərzaq təhlükəsizliyinin təmin edilməsinə nail olmaqdan ibarətdir.

Azərbaycan qloballaşan dünyanın bir hissəsidir. Müasir dövrdə tədric olunmuş halda və ya fərdi qaydada ölkənin ərzaq təhlükəsizliyini təmin etmək qeyri-mümkündür. Azərbaycan açıq və sərbəst iqtisadi sistemə, qloballaşan istehsal münasibətlərinə malik bir dövlətdir. Dünyada baş verən iqtisadi proseslər təbii ki, Azərbaycandan yan ötmür və öz təsirini göstərməkdədir. Ümumdünya ərzaq bazarının konyunkturasında baş verən proseslər milli istehsalların strukturunun və bazar konyunkturasının formalaşmasında mühüm rol oynayır.

Bazar iqtisadiyyatlı ölkələrdə ərzaq bazarı özəl müəssisələrin, bəzən isə iqtisadiyyatın bütöv sahələrinin dövlət tərəfindən büdcədən ayrılan vəsaitlə maliyyələşdirilməsi və yeni müəssisələr tikilməsi hesabına formalaşdırılır. İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə dövlət sahibkarlıq fəaliyyəti ilə məşğul olmur və eyni zamanda, kənd təsərrüfatında fəaliyyət göstərən digər özəl subyektlər kimi, bərabərhüquqlu tərəf-müqabil kimi çıxış edir. Aqrar sahənin dövlət tənzimlənməsinin inzibati metodları sırasında proqnozlaşdırma mühüm əhəmiyyət kəsb edir. Bu metodun əsas əhəmiyyəti ondadır ki, sosial-iqtisadi inkişaf proqnozları dövlət tənzimlənməsinin mühüm tərkib hissəsini özündə əks etdirir. [1. s. 23.]

İqtisadiyyatda gözlənilmiş zəruri nisbətlərin bazar vasitəsilə təmin olunması bazar iqtisadiyyatının mahiyyətini təşkil edir. Hazırda xalq təsərrüfatında, o cümlədən aqrar-sənaye kompleksində aparılan islahatların siyasi təminatında demokratik başlanğıcların möhkəmləndirilməsi böyük əhəmiyyətə malikdir, yalnız demokratik formaların ardıcıl inkişafı özünüdərketmənin genişləndirilməsi vasitəsilə istehsalatda, elmdə, texnikada, mədəniyyətdə, ictimai həyatın bütün sferalarında irəliləyiş əldə etmək mümkündür. Hər bir iqtisadi islahat, ilk növbədə, istehsal və təsərrüfat münasibətləri sistemində dəyişikliklərə yol açan hüquqi bir aktı tərənnüm edir. Məhz buna görə, hər bir konkret halda hərəkət mexanizmləri həyata keçirilən hər mərhələnin faydalılığını, uzunmüddətli nəticələrini müəyyən edən hüquqi və iqtisadi hadisə qismində islahatların özünəməxsus tsikllilik xüsusiyyəti qeyd edilməlidir. Ərzaq təhlükəsizliyi əhalinin fəal və sağlam həyatının təmin olunması üçün kifayət qədər ərzağın çatdırılması kimi başa düşülür.

Təhlükəsizliyin əsasında ərzağın kifayət qədər olması, əhalinin faizi və iqtisadi cəhətdən bu ərzağı əldə edə bilməsi durur. Ərzaq təhlükəsizliyi bir neçə səviyyədə müəyyən olunur. Beynəlxalq ərzaq təhlükəsizliyi dedikdə, artan tələbatı ödəmək üçün kifayət qədər dünya ərzaq istehsalının olması başa düşülür. Bununla bərabər, ticarətdə elə dəyişməz və sabit qiymətlər olmalıdır ki, ölkələr idxal hesabına öz ərzaq istehsalını tamamlasınlar.

Müasir bazar şəraitində respublikada bazarın məqsədli idarə edilməsində xüsusi olaraq marketinqin öyrənilməsi və fəaliyyətinin gücləndirilməsi böyük əhəmiyyət kəsb edir. Respublikamızda minlərlə ticarət və ictimai iaşə müəssisələri, kooperativləri, fermer təsərrüfatları fəaliyyət göstərir. Bütün bunlar bazar münasibətlərinin nə qədər mürəkkəb olduğunu bir daha sübut edir. Əhalinin xalq istehlakı mallarına olan tələbatının ödənilməsi və bazarın mallarla təmin edilməsi problemi ümumi dövlət problemi, eyni zamanda, müəssisələrarası kompleks problemdir. Onun həll edilməsinə bazarın bütün subyektləri qoşulmalıdır. Məhz onların obyektiv münasibəti həmin problemin həllinə ciddi təsir göstərə bilər.

Ərzaq bazarının idarə edilməsi əhalinin alıcılıq qabiliyyətini, büdcə gəlirləri və xərclərinin regionlar üzrə formalaşması dinamikasını və perspektiv dəyişmə meyillərini qiymətləndirmək yolu ilə baş verir. Regionlarda ərzaq ehtiyatları həmin regionun daxili potensialı və idxal üçün sərfəli şəraiti ilə müəyyənləşir. Azərbaycanın idxal strukturu onun geosiyasi vəziyyəti ilə müəyyənləşir. Belə ki, beynəlxalq ticarət formaları, xarici ölkələrlə ərzaq istehsalı və idxalı ilə əlaqədə olan sahibkarlıq və təsərrüfatçılıq formalarının inkişafı bazar subyekti olaraq bazarın ərzaq tələbi və təklifini formalaşdırır. Ərzaq tələbatının əsas maliyyə potensialını əhali gəlirləri müəyyən edir. Əhali gəlirləri məhsulu dövlət gəlirlərinin və fərdi gəlirlərin istehlak bazarına çıxan hissəsi, yaxud yığım üçün istifadə olunan pul vəsaitlərinin cari həcmi ilə müəyyənləşir. Əhali gəlirlərinin mənfəət xarakteri və hər nəfərə düşən miqdarı alıcılıq qabiliyyətini müəyyənləşdirir. [2. s. 18.]

Ərzaq bazarının idarə edilməsi çoxməqsədli olduğu üçün məqsədlərin vacibliyi, prioritetliyi və hər bir məqsədin özünün lokal resursları, onların dəyişmə meyilləri və ehtiyatları, həmçinin, xüsusi metodları mövcud olur. Beləliklə, kənd yerləri, onların tələbat strukturu, kənddə təsərrüfat və bazar tələbi və təklifində əlaqələr, kəndin sosial inkişafı və uyğun idarəetmə mexanizmlərinin yaranması ərazi idarəetməsinin daha səmərəli və adekvat proses olmasını sübut edir. Kənd təsərrüfatı, emal sənayesi, sosial və istehsal infrastrukturunun obyektləri özünün ərzaq bazarı sistemində əmək bölgüsü və səlahiyyətlərini müəyyənləşdirir. Mürəkkəb və çoxsaylı meyarlarla idarə olunan ərzaq bazarı ərazi və sahə idarəçiliyinin uzlaşma mexanizmlərini və onların qarşılıqlı əlaqələrini müəyyən edir. Maliyyə mexanizmi olaraq, regionda maliyyə balansı, onların formalaşma mənbələri və istifadəsi arasında gəlir və xərclər balansı tərtib olunur. Prinsipial sxem olaraq, bu balanslar inteqral və diferensial səviyyədə və sosial-demoqrafik tərkiblər üçün ayrıca tərtib olunur.

Ərzaq bazarına təsir dövlətin bir sıra mexanizmləri vasitəsilə reallaşır. İlk növbədə, təklifin həcmi, onun alıcılıq qabiliyyətinə uyğunluğu, istehlak bazarında seqmentləşməni təhlil etmək, seqmentləşməyə uyğun əmtəə və xidmət təklifinin strukturunu təkmilləşdirmək istiqamətləri proqnozlaşdırılır. İdxal və istehsal yolu ilə hər hansı məhsulun tələbatın ödənilmə dərəcəsinə yaxınlaşması müəyyənləşir. Dövlət mexanizmləri ərzaq bazarına istehsal mühiti, yaxud gəlirlər və alıcılıq qabiliyyəti vasitəsilə təsir edir. Belə ki, bazarda daha çox vacib olan məhsulların aztəminatlı ailələr üçün istehlak fazasını genişləndirmək məqsədilə qiymətlərin artımına təsir edən xərclərin üzərində nəzarət və həmçinin, strateji məhsulların ərzaq istehsalında qiymətlərinin dəyişməsində və inhisarçı qiymətlərin qarşısının alınmasında antiinhisar tədbirləri mühüm rol oynayır.

İstehlak bazarına təsirlər əhalinin aztəminatlılıq səviyyəsi, yoxsulluq həddi və istehlak səbəti vasitəsilə baş verir. Metodiki aspekt olaraq, yoxsulluq həddi ölkədə ərzaq bazarına ehtiyacların qütbləşməsini və qütbdə qiymət və struktur dəyişməsini dəyərləndirir. Belə ki, yoxsulluq həddi dünya ölkələri səviyyəsində adambaşına gündəlik gəlir səviyyəsi ilə müəyyənləşdiyi halda, onun reallaşması hər bir ölkədə əmtəə və xidmət istehlakının səviyyəsi ilə müəyyənləşir. Əhalinin istehlak səbəti ərzaq məhsullarının təklifini müəyyənləşdirir. Ona görə də hər bir ölkədə iqtisadi inkişaf amili olaraq qütbləşmə dərəcəsi istehlak davranışında qütbləşməni yaradır. Belə ki, aztəminatlı ailələrin istehlak davranışında ərzaq məhsullarının xüsusi çəkisi məhdud olmaq-

la, gəlirlərin artması onların istehlakına təsir edir. İstehlak davranışı olaraq, xərclərin seqmentləri arasında keçid əmtəə və xidmət bazarının strukturunu formalaşdırır. Ona görə də dövlət bazar münasibətləri şəraitində tələb və təklif amillərinə təsir etməklə, bazar tarazlığının qorunması məqsədini güdür.

Ərazi və sahə strukturları bir-birini tamamlamaqla, bazar maraqlarına uyğun tənzimlənir. Ərazi idarəetmə kompleksi kimi, ərzaq məhsullarının istehsalı, emalı və reallaşması vasitələri, uyğun maddi-texniki baza və kadr potensialı bütövlükdə inkişaf strategiyasını müəyyənləşdirir. Regionların kompleks inkişaf perspektivləri həmin regionlarda təbii-coğrafi torpaq və əmək ehtiyatlarının kompleks istifadəsinə şərait yaratmaq və həmin resursların təkrar istehsalını təmin etmək vəzifələrini meydana çıxarır. Beləliklə, ərazi kompleksləri, azad iqtisadi zonalar və həmçinin, sərhədyanı ticarət və digər beynəlxalq səviyyəli təşkilati-iqtisadi qurumlar istehsal və istehlakı daha da tarazlı inkişaf etdirir.

Azərbaycan Avropa İttifaqına və inkişaf etmiş dünyaya inteqrasiya yolunu seçmişdir. Qeyd etmək lazımdır ki, bu yolda xeyli uğurlar əldə edilmiş və hazırda işlər davam etdirilməkdədir. Respublikanın qanunvericilik və hüquqi-normativ bazasının Avropa İttifaqının qanunvericiliyinə uyğunlaşdırılması, respublikanın Ümumdünya Ticarət Təşkilatına üzv olması ilə əlaqədar sanitar və fitosanitar tədbirlərin modernləşdirilməsi və s. üçün xeyli işlər görülmüşdür. Azərbaycanda ərzaq keyfiyyəti və qida təhlükəsizliyinin idarə edilməsi sistemlərinin müasirləşdirilməsi də olduqca aktualdır və həmin tədbirlər sırasındadır. Əhalinin sağlam və təhlükəsiz qida məhsulları ilə təmin edilməsi, Azərbaycanın istehlak bazarına zərərli və keyfiyyətsiz ərzaq məhsullarının daxil olmasının qarşısının alınması məqsədilə təhlükəsizliyin idarəedilməsi sistemlərinin və nəzarət mexanizmlərinin beynəlxalq standartlara uyğunlaşdırılması əsas vəzifələrdən biridir. Lakin qida təhlükəsizliyinin idarəedilməsi sistemlərinin modernləşdirilməsi xeyli vaxt və vəsait, bilik və informasiya, sərištə və bacarıq tələb etdiyi üçün qabaqcıl təcrübənin öyrənilməsi, Azərbaycan şəraitində səmərəli işləyə biləcək mexanizmlərin tətbiq edilməsi üçün seçim edilməsi və uyğun olanların təbliği üçün əsaslar yaradılması olduqca vacibdir. [3. s. 7.]

Ərzaq təhlükəsizliyi dedikdə istehlakçı üçün ərzağın əlyetərliyi-istehlak bazarında ərzağın fiziki mövcudluğu və istehlakçının öz tələbatını ödəməsi üçün həmin ərzağı almaq, əldə etmək imkanı başa düşülür. Yəni, ərzaq təhlükəsizliyi ərzağın istehlak bazarındakı miqdarı və istehlakçının alıcılıq qabiliyyətinin vəhdəti ilə səciyyələnir.

Ərzaq keyfiyyəti ərzağın istehlakçı üçün dəyərliliyi ilə xarakterizə olunur. Ərzaq keyfiyyəti ərzaq xammalının növü, istehsal texnologiyası, dad, rəng, struktur quruluşu və s. kimi müsbət, habelə xarabolma, torpaqla çirklənmə, rəngin, iyin, dadın dəyişməsi və s. kimi mənfi atributları özündə əks etdirir. Qida təhlükəsizliyi dedikdə hər hansı bir qida məhsulunun insan sağlamlığı üçün zərərli olan bioloji, kimyəvi və fiziki təhlükəli faktorlardan azad olması nəzərdə tutulur. Qida təhlükəsizliyi hər hansı bir qidanın insan, heyvan və ətraf mühit sağlamlığı üçün təhlükə mənbəyi olmaq ehtimalından azad olmasıdır. Qida təhlükəsizliyi-sağlamlıq üçün fəsadlar yarada biləcək təhlükəli faktorların qidanın tərkibində qalmaq, sonradan yaranmaq və ya sonradan qidanın tərkibinə daxil olmaq ehtimalının istisnası deməkdir.

ƏDƏBİYYAT

1. R.Əliyev. Aqrar bazar və ərzaq təhlükəsizliyi məsələləri. Bakı, 2005.
2. Abbasov İ.D. Ərzaq təhlükəsizliyi və kənd təsərrüfatının prioritet istiqamətləri. Bakı, 2011.
3. Azərbaycan iqtisadiyyatı. İ.H.Alıyev və S.A.İbadovun red., Bakı, "Ağrıdağ" 1999.

Шамиль Эйюб оглы Ягубов
к.э.н., старший научный сотрудник
Института Экономики НАНА

Проблемы продовольственной безопасности и аграрного развития

Резюме

В статье рассматривается продовольственное обеспечение населения и продовольственная безопасность страны. В том числе, управление продовольственным рынком исхо-

дит из оценки покупательной способности населения, динамики формирования доходов бюджета и расходов на регионы и тенденций будущего изменения.

Ключевые слова: сельское хозяйство, перерабатывающая промышленность, продовольственный рынок.

Shamil Eyub Yagubov
C.e.s., senior researcher
Institute of Economics ANSA

Food security and agrarian improvement issues

Summary

The article deals with food security and food security of the country's population. Also, the management of the food market comes from the assessment of the population's purchasing power, the dynamics of the formation of budget revenues and expenditures on the regions and the trends of the future change.

Key words: agriculture, processing industry, food market.

Е.В.КАЛАШНИК
к.т.н., доцент,

О.В.БАРАБОЛЯ
к. с.-х. н., доцент
Полтавская Государственная Аграрная Академия, г. Полтава,

С.Э.МОРОЗ
к. пед. н., преподаватель-методист
Полтавский Кооперативный Колледж, г. Полтава

ИССЛЕДОВАНИЕ ПОКАЗАТЕЛЕЙ БЕЗОПАСНОСТИ ХЛЕБА ПШЕНИЧНОГО

Самая высокая социальная ценность, признанная в Украине на конституционном уровне – это жизнь и здоровье человека. К основным факторам благосостояния населения относятся безопасность и качество пищевых продуктов. Государственная политика регулирования качества и безопасности продовольственного сырья и пищевых продуктовв Украине ориентирована на обеспечение интересовчеловека, его жизни и здоровья [1]. Законом установлено, что безопасный пищевой продукт – продукт, который не производит вредного воздействия на здоровье человека и является пригодным для потребления [2].

Практически во всем мире хлеб является одним из наиболее традиционных продуктов питания, более того, именно он зачастую представляет собой некий общий символ еды, ведь большинство людей употребляет хлеб ежедневно. Современный рынок характеризуется разнообразием видов хлеба с разнообразными вкусовыми качествами, которые достигаются за счет использования различного сырья, технологий изготовления и тому подобное. Наибольшей популярностью потребителей пользуется хлеб, изготовленный из пшеничной муки.

Для определения уровня безопасности пищевых продуктов в Украине разработан ряд нормативных документов и нормативно-правовых актов. Основными из них являются Закон Украины «Об основных принципах и требованиях к безопасности и качеству пищевых продуктов» [2], Закон Украины «О государственном контроле за соблюдением законодательства о пищевых продуктах, кормах, побочных продуктах животного происхождения, здоровье и благополучии животных» [3] и другие.

«Медико-биологические требования и санитарные нормы качества продовольственного сырья и пищевых продуктов № 5061-89» [4] – один из основополагающих документовв сфере безопасности пищевых продуктов, который регламентирует критерии безопасности по отдельным группам пищевых продуктов. В соответствии с этимнормативным докумен-

том к загрязнителям химической и биологической природы для хлеба относят токсические элементы (свинец – 0,3 мг/кг; кадмий – 0,05мг/кг; мышьяк – 0,1 мг/кг; ртуть – 0,01 мг/кг; медь – 5,0 мг/кг; цинк – 25,0 мг/кг); микотоксины (афлатоксинB_1 – 0,005 мг/кг; дезоксиниваленол – 0,5мг/кг; зеараленон – 1,0 мг/кг); пестициды (не допускаютсяалдрин, афос, афуган, гептахлор, 2,4-Д и препараты на ее основе, 2,4-ДМ, диурон, ДНОК, линурон, метилмеркаптофос, метафос, дихлоральмочевина, нитрафен, нитрофен, пентахлорфенолятнатрия, ртутьсодержащие, тиофос, цирам).

ВУкраине также действуетстандарт ДСТУ 7517:2014 «Хлеб из пшеничной муки. Общие технические условия» [5], устанавливающий такой же как и в «Медико-биологические требования и санитарные нормы качества продовольственного сырья и пищевых продуктов № 5061-89» предельнодопустимый уровень токсичных элементов и микотоксинов. Этот нормативный документ устанавливает допустимое содержание радионуклидов в хлебе из пшеничной муки не более чем:^{137}Cs (Цезий – 137) 20,0 Бк/кг; ^{90}Sr (Стронций – 90) 5,0 Бк/кг.

Анализ нормативных документов позволил установить для хлеба допустимый уровень загрязнителей химической и биологической природы.

В лабораторных условиях Полтавской Государственной Аграрной Академиипо традиционной технологиибыли изготовлены образцы хлеба из пшеничной муки высшего сорта ТМ «Хуторок» (Днепропетровская обл. Днепровский район, пгт Слобожанское). Целью исследования было определение уровня токсичных элементов в образцах, изготовленного из данного сырья.

Для определения содержания цинка, кадмия, свинца и меди использован метод инверсионной вольтамперометрии, который основывается на электрохимическом концентрировании металлов при постоянном потенциале [6].Проведение вольтамперометрического анализа дало возможность определить уровни токсичных элементов в образцах хлеба пшеничного (рис. 1, табл. 1).




Рис. 1. Вольтамперограмма токсических элементов в образцах хлеба пшеничного.

Таблица1

Результаты анализауровня токсических элементов в образцах хлеба пшеничного

Название токсичного элемента	Предельно допустимый уровень, мг/кг	Измеренное значение, мг/кг
Zn	25,0	4.49
Cd	0.05	0.01
Cu	5.0	2.83
Pb	0.3	0.04

Какпоказаланализрезультатов проведенного исследования, уровень токсичных элементов в опытных образцах хлеба, изготовленного из пшеничной муки высшего сорта отечественного производителя по традиционной технологии, соответствовал регламенту предельно допустимых нормативных значений, что позволило нам сделать выводы о том, что изготовленные образцы по этим показателям являются безопасными для потребления.

СПИСОК ИСПОЛЬЗОВАННЫХ ИСТОЧНИКОВ

1. Брулевич В.В. Безпечність харчових продуктів за законодавством України та Європейського Союзу. URL (дата обращения: 26.04.2018).
2. Закон Украины «Об основных принципах и требованиях к безопасности и качеству пищевых продуктов». URL (дата обращения: 03.05.2018).
3. Закон Украины «О государственном контроле за соблюдением законодательства о пищевых продуктах, кормах, побочных продуктах животного происхождения, здоровье и благополучии животных». URL (дата обращения: 03.05.2018).
4. «Медико-биологические требования и санитарные нормы качества продовольственного сырья и пищевых продуктов № 5061-89».URL : 9(дата обращения: 03.05.2018).
5. ДСТУ 7517:2014 Хлеб из пшеничной муки. Общие технические условия. Киев, 2015. 15 с.6. Методика выполнения измерения содержания кадмия, свинца, меди в водных растворах инверсионным электрохимическим методом. Санкт-Петербург: Научно-производственное предприятие «Буревестник», 1992. 25 с.

Рашад Адиль оглы РАГИМОВ
к.э.н., докторант Института Мировой Экономики и Бизнеса Уральского Государственного Горного Университета

УКРЕПЛЕНИЕ ДЕНЕЖНОЙ СИСТЕМЫ В ЦЕЛЯХ ОБЕСПЕЧЕНИЯ ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ СТРАНЫ

Резюме

Продовольственная безопасность страны является залогом долгосрочного развития любого суверенного государства.

Ввиду того, что данной теме уделяется недостаточно внимания как в научной сфере, так и на практике есть необходимость дополнительного переосмысления рассматриваемой проблемы и принятия комплекса мер для достижения намеченных задач.

На наш взгляд в условиях неустойчивого развития мировых финансов и достижения стабильного развития отечественной экономики, реализации программы продовольственной безопасности необходимо принять следующие меры:

- максимально снизить уровень внешней задолженности для повышения финансовой устойчивости национальной экономики и укрепления политической безопасности страны;
- взять под жесткий контроль все внешнеторговые операции, чтобы обезопасить национальную валюту от финансовых потрясений;
- повысить привлекательность и устойчивость национальной валюты, используя все административные ресурсы;

Ключевые слова: деньги, товарно-денежные отношения, денежно-кредитное регулирование, денежная система, продовольственная безопасность, финансовая политика, финансовая устойчивость, экономическая безопасность.

***

Реформирование экономики Азербайджана, как и других стран из бывшего социалистического лагеря проходило под диктовку экономистов Всемирного банка и международного валютного фонда, что предполагало либерализацию всей сферы хозяйствования. В результате проводимых реформ изменения в мировых финансах моментально сказывались на состоянии экономики страны. Любые изменения во внешней среде будь то изменения цен на энергоносители, на государственные ценные бумаги, на продовольствие и т.д. прямым образом влияли на конъюнктуру цен в стране.

Соотношение величины валового внутреннего продукта и объема денежной массы в стране не находились в полной прямой зависимости. Жесткая монетарная политика правительства, которая помогала удерживать инфляцию и сбалансировать другие макроэконо-

мические показатели противоречила механизму роста ВВП страны и повышению благосостояния его граждан.Потребности сельскохозяйственного сектора экономики в стимулировании инвестиций не находили отклика со стороны финансово-экономического блока правительства. В этой связи стоит отметить, что главной целью правительства и его советников из-за рубежа стало удержать инфляцию на приемлемом уровне для обеспечения стабильного развития. На практике же, все эти преобразования приводили к углублению финансово-экономического кризиса, обнищанию населения, интеллектуальной деградации. Страна стала заложником внешней конъюнктуры. Вместо того, чтобы самому определять независимую денежно-кредитную политику, состояние мировой денежной системы, мировой торговли начало «диктовать» нам правила игры в макроэкономической сфере.

Однако, в последние десятилетия президент Ильхам Алиев четко определил одну из важных ролей сельского хозяйства в экономике Азербайджана. Указ Президента «Об утверждении главных направлений стратегической дорожной карты национальной экономики и основных секторов экономики» определил важнейшие контуры продовольственной безопасности страны [1]. Всемерная государственная поддержка сельского хозяйства, субсидирование аграрных проектов, создание инфраструктуры для перерабатывающей промышленности, системная поддержка экспорта продукции сельского хозяйства являются этому неоспоримым доказательством.

Не секрет, что большая часть инфраструктурных преобразований происходит за счет покупки товарно-материальных ценностей иностранных государств за валюту. К ним относятся продукция аграрного машиностроения, минеральных удобрений, строительных материалов, племенного скота, лекарственных препаратов и т.д. Исходя из этого любые изменения в макроэкономике – будь - то, инфляция, девальвация, повышение цен и т.п. негативно сказываются на инвестиционном климате страны и уровне конкурентоспособности отечественных сельхозпроизводителей.

В связи с выше указанным одним из наиболее актуальных задач современного государства в целях его политической и экономической безопасности является определение основных параметров независимой денежно-кредитной политики, определение главной роли денег в экономике. Потому, что без решения этого вопроса невозможно обеспечить продовольственную безопасность страны на долговременной основе.

В настоящее время денежная система представляет собой сложный механизм, который включает в себя разнообразие форм и видов денег, денежную массу и его структуру, систему денежно-кредитного регулирования. Несмотря на многовековую историю развития денежной системы и многочисленные исследования по этой проблематике, ни одна страна в мире не может гарантировать долгосрочное устойчивое развитие в современном мире. Парадоксальность ситуации заключается в том, что чем больше развивающиеся страны прислушиваются к мнениям ученых-экономистов из развитых стран, тем хуже начинают обстоять дела в финансово-экономической среде. Ярким примером может служить Россия, Аргентина, Бразилия, Украина и т.д. Особенно критически дела обстоят в области финансов, а именно в долгах государств перед мировыми финансово-промышленными группами. Достаточно привести некоторую статистику, чтобы убедиться в этом.

По данным Евростата и Всемирного банка сумма долгов всех стран на начало 2018-го года превысил уровень мирового ВВП. Крупнейшими должниками являются США – более 21 трлн. долларов, Великобритания – более 2,7 трлн. долларов, Германия – более 2 трлн. долларов и т.д.[6] Одновременно растут долги развивающихся стран перед мировыми кредиторами. Внешний долг правительства Азербайджана на начало 2018-го года составил 9,4 млрд. долларов, что равен 22,5% от ВВП страны, хотя в 2014-ом он был на уровне 8%. Эта величина является невысокой относительно других стран, однако тенденция к его увеличению является нежелательной, особенно в связи с серьезной финансовой-экономической нестабильностью в мире.

По данным газеты «The Financial Times» долги развивающихся стран за последние 30 лет увеличились с 211 млрд. долларов до 1,4 трлн. долларов [3]. Эти государства являются

не только банкротами, но самое главное – они утратили свой национальный суверенитет. Этот аспект является важным сигналом для стран, кто решает проблемы социально-экономического развития, привлекая внешние займы.

Современная денежная система - это совокупность денежных элементов, форм, методов и принципов денежного обращения. История развития мировых финансов и сопровождающие их мировые кризисы свидетельствуют тому, что любое государство должно независимо, отлаженно и четко развивать свою денежную систему. Любые новации в денежно-кредитной сфере в долгосрочном плане должны служить интересам национальной экономики.

Такие элементы денежной системы как рынок ценных бумаг, ипотека, потребительское кредитование населения должны развиваться под пристальным вниманием государства. Захлестнувший мир череда кризисов 2000-го года, азиатский финансовый кризис 2008-го года, современная долговая экономика где уровень задолженности государств превышает их уровень национального дохода должны коренным образом реформировать сложившуюся систему денежно-кредитных отношений. Особенно пристальное внимание государство должно уделять новым финансовым активам, чьей разновидностью являются криптовалюты. По данным центрального банка России с начала 2018 года в мире совершено 22 крупные мошеннические схемы с использованием цифровых финансовых активов, криптовалют. Похищено около 1,36 млрд. долларов в криптовалюте [8]. В январе 2018-го только с биржи CoinCheck было выведено более 420 млн. долларов [8]. Подобные денежные суррогаты не только не имеют под собой гарантированного обеспечения, но и отвлекают свободные денежные средства от вложения в реальный сектор экономики.

Учитывая все выше перечисленные факты государству следует определить программу мероприятий для укрепления национальной денежной системы. Основными приоритетными направлениями в целях создания независимой денежной системы, обеспечивающая экономическую, а также продовольственную безопасность государства, должны быть следующие положения:

- пересмотр основных функций денег в экономике в целях устранения уязвимых мест в денежной системе. На сегодняшний день известно 5 общепринятых функций денег – средство обращения, мера стоимости, средство платежа, средство накопления и сбережения, а также мировые деньги [2]. Если первые две являются базисными, то остальные нуждаются в пересмотре и оценке, так с научной точки зрения, так и из-за практической необходимости. Что касается функции, как средства платежа – в этом плане государству следует ужесточить контроль в стране, особенно в сфере наличного товарооборота. Любые платежи в долларах США и в других валютах должны быть жестко пресечены. Доверие к национальной валюте является жизненно важным атрибутом любого государства. Идеальным примером этому служит механизм контроля и регулирования внешнеторговых операций Советского Союза. Критики возразят на это тем, что тогда страна функционировала в условиях социализма, внешнеторговые операции были прерогативой государства. Однако, результат для сохранения стоимости национальной валюты и ограничения его от внешних спекуляций был очевиден. Государству не стоит серьезных усилий взять под свой контроль обменные операции для внешнеторговых операций отечественных производителей. При этом решится вопрос не только с «теневыми обменниками», но и можно будет достичь устойчивости национальной валюты, что принесет пользы всем.

На наш взгляд, сберегательная и накопительная функция денег в экономике играет двоякую роль. С одной стороны, понятно, что часть состоятельных граждан и успешных организаций свободные денежные средства копят на будущие нужды. С другой стороны, эта часть сберегаемых денежных средств выводится из оборота (для чего они были предназначены) и создают нехватку денежных средств в экономике. При этом государство прибегает к постоянной эмиссии денег и со временем эта эмиссионная часть денег вкупе с временно накопляемыми деньгами способствуют созданию хронических инфляционных процессов. В этом плане предложение различных экономистов о «порче и устаревании» денег носит вполне логический характер [5]. Почему деньги, которые были выпущены го-

сударством в оборот для совершения товарообменных операций в определенном времени и пространстве не должны терять свою стоимость, в отличие от товаров? Почему деньги должны быть «супертоваром» и изыматься из оборота, нарушая баланс товарообменных операций и при этом не терять свою стоимость? Временно свободные денежные средства являются источниками ростовщического, спекулятивного капитала, которые со временем отрицательно сказываются на реальном секторе экономике. Это обстоятельство действительно справедливо ставит вопрос о пересмотре накопительной и сберегательной функции денег в экономической теории в пользу его ограничения. Применяя к деньгам характер «устаревания» в виде снижения ценности с момента выпуска и изъятия из оборота, соответственно в начале и в конце календарного года, государство вынудит их держателей направлять временно свободные деньги на воспроизводственные процессы. Таким образом будут решены одновременно несколько проблем: во-первых, отпадет необходимость в дополнительной эмиссии денег (что чреват инфляционными процессами); во-вторых, отпадет необходимость в регулировании учетных ставок (в плане его колебания), что создаст устойчивый инвестиционный климат; в-третьих, деньги перестанут выполнять спекулятивные функции на товарных и финансовых рынках. И, наверное самое главное, как с научной, так и с практической точек зрения - не люди и предприятия будут вынуждены искать деньги под проценты, чтобы найти применения своим возможностям для создания общественно полезных благ, а деньги устремятся к труду, чтобы найти себе изначальное применение в качестве товарообменных операций.

Государству также следует создать механизм при котором сбережения и накопления граждан в манатах было бы гораздо выгоднее, чем в иных валютах. Для этого достаточно ограничить вклады в иностранной валюте и одновременно увеличить издержки по переводу денег в зарубежные банки. Альтернативой манату также могут служить драгоценные металлы – золото, серебро и т.д. Поскольку сбережения временно свободных денег в этих ценностях никак не сказывается в величине оборотного капитала в стране (таким образом не создаются основы инфляционным процессам), кроме того эти ценности исторически признаются реальным осязаемым богатством во все времена и в любом государстве.

Отдельно надо остановиться на такой функции денег как мировые деньги. Одно только обстоятельство, что долг США превышает ее ВВП (и продолжает с каждым днем расти) должен серьезно беспокоить страны, которые держат свои резервы в долларах США, а также в других финансовых активах стран крупных должников. По сути долги этих стран обеспечены только их военным могуществом, чисто в экономическом плане они полностью не обеспечены. Поскольку ежегодная величина процентов по долгам обычно превышает ежегодный прирост экономики. Поэтому считаем целесообразным держать большую часть золотовалютных резервов в золоте, серебре и в других драгоценных металлах. На протяжении последних десятилетий в отличие от валют, цена на золото растет и скорее всего будет расти, в связи с тем, что доллар постепенно утрачивает свое экономическое обеспечение, а евро все время «лихорадит» в связи с политической нестабильностью в еврозоне. Как с научной, так и с практической точки зрения является абсурдом то обстоятельство, что валюты отдельных стран служит источником богатства для других стран. Данное обстоятельство имело бы смысл исключительно только в одном случае, если бы все товары и услуги производились бы только на территории США, и таким образом доллар имел бы реальное материальное обеспечение. В отличие от фиатных денег, драгоценные металлы являются реальным товаром, которые применяются как в народном хозяйстве, так и могут служить обеспечением для выпуска денег любого государства.

- максимальное ограничение денежно-кредитных отношений в международной торговле для предотвращения внешних угроз национальной валюте. Наравне с выше указанными мероприятиями все внешнеторговые операции хозяйствующих субъектов должны быть тщательно контролируемы. Для обеспечения экономической безопасности государства последнему следует «заменить» или рефинансировать внешние займы организаций внутренними. Наглядным примером этому служит долговые проблемы Международного

банка Азербайджана. Задолженность этого банка перед иностранными кредиторами негативно отразилось не только на состояние самого банка, но и на обязательствах нашего государство, которое вынуждено было их признать и включить в текущие и среднесрочные обязательства. До сих пор нет внятного ответа на вопрос, почему наша страна, имея солидный уровень золотовалютных резервов, продолжает наращивать долги?

- пересмотр и совершенствование концепции вовлеченности населения страны к различным денежным суррогатам (фьючерсы, опционы и прочие производные финансовые инструменты фондового рынка, криптовалюты). Выше приведенные цифры о мошенничествах финансовых спекулянтов с криптовалютами, другие новации на мировых фондовых рынках должны служить сигналом для руководства нашей страны с целью максимального ограничения наших граждан и предприятий в вовлеченности различного рода, ничем не гарантированных финансовых операций;

- нахождение альтернативных источников финансирования международных товарообменных операций. Для ослабления зависимости страны от отдельных валют государству следует определиться с приоритетами в торгово-экономической сфере и входить в соответствующие валютные союзы. Не секрет, что главным партнером Азербайджана в аграрной сфере являются страны СНГ, Турция, Иран. Поэтому вхождение в такие объединения, как ШОС и т.д. помогут нашей стране нивелировать проблемы с прочими валютами;

Деньги и денежная система призваны служить интересам каждого государства. Денежная система государства должны быть изолирована от «внешних вирусов» в целях стабильного развития отечественной экономики. Зависимость национальной валюты от зарубежных в любой момент может подорвать экономическое благополучие государства. Только свободная денежная система может быть гарантом экономической безопасности любого государства.

ЛИТЕРАТУРА

1. Указ Президента Азербайджанской Республики. Об утверждении стратегических дорожных карт по национальной экономике и основным секторам экономики 06.12.2016.
2. Деньги, кредит, банки. Под редакцией О.И. Лаврушина. – М: Кнорус, 2015.
3. Глобальный кризис в ретроспективе. Л.Е. Гринин, А.В. Коротаев. – М: Либроком, 2012.
4. Аникин А.В. История финансовых потрясений. – М: Олимп бизнес 2009.
5. Сильвио Гезелль. Естественный экономический порядок. М.: 1906.
6. http://tass.ru/ekonomika/5111034
7. https://www.vedomosti.ru/economics/articles/2017/09/19/734482-dolg-razvivayuschihsya-udvoilsya Газета Ведомости 19 октября 2017 года
8. https://forklog.com/tsb-rf-ushherb-ot-krazh-kriptovalyut-v-2018-godu-uzhe-prevysil-1-36-mlrd/

Rəşad Adil oğlu Rəhimov
Ural Dövlət Dağ Universitetinin
İqtisadiyyat və Biznes İnstitutunun doktorantı

Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə pul sisteminin gücləndirilməsi

Xülasə

Fikrimizcə, dünya maliyyəsinin qeyri-stabil inkişafı şəraitində yerli iqtisadiyyatın stabil inkişafına nail olmaq və ərzaq təhlükəsizliyi proqramının həyata keçirilməsi üçün aşağıdakı tədbirlərin görülməsi zəruridir:

- milli iqtisadiyyatın maliyyə stabilliyini artırmaq və ölkənin siyasi təhlükəsizliyini gücləndirmək üçün xarici borc səviyyəsini maksimal dərəcədə azaltmaq;

- milli valyutanı maliyyə sarsıntılarından qorumaq üçün bütün xarici ticarət əməliyyatlarını ciddi nəzarət altına almaq;

- bütün inzibati resurslardan istifadə edərək milli valyutanın stabilliyi və cəlb olunmasını artırmaq;

- qızıl-valyuta ehtiyatlarının artırılmasının diqqət mərkəzini qiymətli metalların (qızıl, gümüş və s.) xeyrinə dəyişməklə ölkənin digər dövlətlərin valyutalarından asılılığını azaltmaq;

- xarici ticarət əməliyyatlarının intensiv səviyyəsi formalaşmış ölkələrlə birlikdə regional iqtisadi ittifaqlarda fəal iştirak etmək.

Açar sözlər: pul, əmtəə-pul münasibətləri, pul-kredit tənzimləməsi, pul sistemi, ərzaq təhlükəsizliyi, maliyyə siyasəti, maliyyə stabilliyi, iqtisadi təhlükəsizlik.

Rashad Adil Ragimov
PhD, doctoral student of the Institute world economy and business Of Ural State Mining University

Strengthening the monetary system to ensure the country's food security

Summary

In our opinion, under the conditions of unsustainable development of world finance, it is necessary to take the following measures for achieving stable development of domestic economy and implementing the food security program:

- to maximally reduce the level of foreign debts for improving the financial stability of the national economy and strengthening the country's political security;

- to take all foreign trade operations under strict control in order to protect the national currency from financial turmoil;

- to increase the attractiveness and stability of the national currency, using all administrative resources;

- to reduce the country's dependence on the currencies of other states, shifting the focus of replenishment of gold and foreign currency reserves to precious metals (gold, silver, etc.);

- to actively participate in regional economic unions with countries with which an intensive level of foreign trade operations is developed.

Key words: money, monetary-credit regulation, monetary system, food security, financial policy, financial stability, economical safety.

Yunis Musa oğlu SADIQOV
AMEA-nın İqtisadiyyat İnstitutunun böyük elmi işçisi, i.f.d.

ƏRZAQ TƏHLÜKƏSİZLİYİ VƏ AQRAR SAHƏ. İNKİŞAF PERSPEKTİVLƏRİ

Xülasə

Məqalədə ərzaq təhlükəsizliyi baxımından aqrar sektorun və aqrar emal sahəsinin rolu və əhəmiyyəti tədqiq olunur. Burada, ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsində aqrar müəssisələrin aparıcı rol oynaması xüsusi olaraq qeyd edilir. Aqrar sahə məhsullarının və aqrar-sənaye komplekslərinin inkişafı üçün dünya təcrübəsinin ölkəmizdə tətbiqi əsaslandırılır.Eyni zamanda məqalədə deyilir ki, təbii sərvətin zənginliyi böyük tərəqqi üçün yalnız imkandır, bu sərvətlərin ölkələrin inkişafında real faydası isə ancaq bu imkandan nə dərəcədə səmərəli və məqsədyönlü istifadə edilməsi ilə müəyyən olunur.Məqalədə aqrar sektorun digər mühüm vəzifələrinə, o cümlədən ixrac məsələlərinə toxunaraq, yekunda müəllif tədqiqat zamanı əldə edilmiş elmi nəticələri əks etdirmişdir.

Açar sözlər: aqrar sahə, ərzaq təhlükəsizliyi, aqrar emal sahəsi, beynalxalq iqtisadi münasibətlər, qloballaşma, qlobal iqtisadiyyat.

***

Müstəqil ölkənin sabit və dayanıqlı inkişafının təmin edilməsi üçün onun dünya təsərrüfatında tutduğu yerin müəyyənləşdirilməsi, xarici iqtisadi əlaqələrin milli iqtisadi mənafelər baxımından inkişaf etdirilməsi və təkmilləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Beynəlxalq iqtisadi münasibətlər sisteminin müasir dövrünün xüsusiyyətlərinin, həmçinin dünya iqtisadiyyatının

inkişaf meyillərinin təhlil olunaraq öyrənilməsi ayrı-ayrı sahələrdə, o cümlədən ümumilikdə Azərbaycan Respublikasında xarici iqtisadi əlaqələrin səmərəli fəaliyyət göstərməsinin təmin edilməsi nöqteyi-nəzərindən son dərəcə vacibdir. Bu səbəbdən respublikamızın dünya iqtisadiyyatı sisteminə inteqrasiya prosesinin təkmilləşdirilməsi, xarici iqtisadi sferada mövcud problemlərin həllinin mümkün yollarının axtarılması və bu yollardan ən səmərəlisinin müəyyənləşdirilməsi milli iqtisadiyyatın inkişafı üçün olduqca mühüm əhəmiyyətə malikdir.

Müasir dövrdə ərzaq problemi dünyanın qlobal problemlərindən birinə çevrilmişdir. Dünyanın gedişatı, inkişaf tempi belə nəticəyə gəlməyə əsas verir ki, bu problem hələ yaxın gələcəkdə də öz aktuallığını saxlayacaqdır. Belə ki, əgər son otuz ildə yer kürəsində taxıl istehsalı 2 dəfə artmışdırsa, əhali artımı da 1,8 dəfə olmuşdur. Nəticə isə belədir ki, yer kürəsində aclıqdan əziyyət çəkənlərin sayı hələ ki, artmaqdadır. Bəzi məlumatlara görə, hazırda dünya üzrə normaya uyğun qidalanmayanların sayı 800 milyondan çoxdur. Azərbaycan Respublikasında isə, belə insanların sayı FAO-nun 2011-ci il məlumatına əsasən hər 1000 nəfərə 9-10 nəfər təşkil edir. Eyni zamanda, 2017-ci ilin statistik məlumatlarına görə ölkədə yoxsulluq səviyyəsi dəfələrlə azalaraq 4%-ə düşmüşdür.

Əldə olunan nailiyyətlərlə yanaşı, ölkənin sosial-iqtisadi həyatında, xüsusilə regionların inkişafı və əhalinin məşğulluğu sahəsində hələ də həll edilməmiş problemlər qalmaqdadır. Belə ki, ölkənin sənaye potensialının böyük bir hissəsinin Bakı şəhərində yerləşməsi, eyni zamanda regionlarda bir çox müəssisələrin fəaliyyətinin zəifləməsi və ya dayanması əhalinin ölkə paytaxtına axınını sürətləndirmiş, iqtisadiyyatın regional baxımından inkişafına mənfi təsir göstərmişdir. Bu isə regionların inkişaf səviyyəsi arasında fərqin artmasına səbəb olmuşdur.

Təcrübə göstərir ki, aqrar sahənin inkişafı ölkə miqyasında şəhərlə kənd arasındakı fərqlərin aradan qaldırılmasında da mühüm əhəmiyyətə malikdir. Bu baxımdan da, Azərbaycan Respublikasının dünya təsərrüfatı sisteminə inteqrasiyası prosesində aqrar sahə məhsullarının və aqrar sənaye komplekslərinin rolunun son dərəcə böyük əhəmiyyət kəsb etdiyini göstərir. Aqrar sahə məhsullarının və aqrar-sənaye komplekslərinin inkişafı üçün dünya təcrübəsinin ölkəmizdə tətbiqi vacib məsələlərdəndir.

Dünya bazarına inteqrasiyanın ilk mərhələsindən iqtisadiyyatın ayrı-ayrı sahələrinin iflic vəziyyətə düşməsi, regional inkişafda nisbi tarazlığın tamamilə pozulması tələb edir ki, ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyasının səmərəliliyinin artırılması sahəsində gələcəkdə görüləcək bütün tədbirlər beynəlxalq rəqabətin şərtləri, habelə iqtisadiyyatın müxtəlif sahələrinin açıq iqtisadi inkişaf modelinə hazırlığının səviyyəsi nəzərə alınmaqla həyata keçirilsin.

Məlumdur ki, ölkənin təbii sərvətlərinin həmin ölkənin sosial-iqtisadi tərəqqisində oynadığı həlledici rolu inkaredilməz həqiqətdir. Amma bu da danılmazdır ki, təbii sərvətin zənginliyi böyük tərəqqi üçün yalnız imkandır, bu sərvətlərin ölkələrin inkişafında real faydası isə ancaq bu imkandan nə dərəcədə səmərəli və məqsədyönlü istifadə edilməsi ilə müəyyən olunur. Bu sahədə daha bir müsbət göstərici isə əlverişli strateji-coğrafi mövqe və səmərəli nəqliyyat əlaqələrinin olmasıdır. Unutmaq olmaz ki, zəngin neft, qızıl, almaz ehtiyatlarının olması bir çox ölkələrin xalqlarını heç də zəngin etməmişdir. İqtisadiyyatın tərəqqisinin başlıca şərti tarazlı iqtisadi siyasətin həyata keçirilməsi, beynəlxalq əmək bölgüsünün üstünlüklərindən optimal şəkildə, qarşılıqlı faydalılıq prinsipi əsasında istifadə edilməsidir.

Bu mənada, aqrar sektorun inkişafı olduqca mühüm əhəmiyyətə malikdir ki, bu da sahənin ixrac imkanlarından çox asılıdır. Ona görə də, ölkəmizdə aqrar sahəyə himayəçilik siyasəti gündəlikdə qalmaqdadır. Kənd təsərrüfatı inkişaf etmiş ölkələrin təcrübəsi də bunu sübut edir. Belə ölkələrdə kənd təsərrüfatı məhsullarının qiymətlərinin dəstəklənməsindən, daxili tələbatdan artıq istehsal olunmuş məhsulların dempinq qiymətləri ilə dünya bazarına çıxarılmasından və ixracı müdafiə siyasətindən xüsusilə danışmaq olar.

Ölkə iqtisadiyyatında aqrar emal sahəsinin rolunun gücləndirilməsi bu sahədə qabaqcıl təcrübənin öyrənilməsi, təsərrüfatçılıq və istehsalın idarə edilməsinin səmərəli formalarının tətbiq edilməsi, təşəbbüskarlığın aktivləşdirilməsi və s. əsasında istehsalın səmərəliliyinin artırılmasını tələb edir. Eyni zamanda, inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, zəngin xammal bazarına malik olan kənd təsərrüfatı məhsulları və onların ixracı ölkənin iqtisadi inkişafının

sürətlənməsinə ciddi yardım edir. Bu baxımdan son illərdə ölkəmizdə meyvə, tərəvəz, qoz, fındıq və digər bitki mənşəli məhsulları emal edən sənaye obyektlərinin yaradılması və köhnə müəssisələrin təkmilləşdirilməsi olduqca mühüm əhəmiyyət kəsb edir. Bundan başqa ixracın strukturunda diri heyvanlar və heyvandarlıq məhsullarının xüsusi çəkisi də ildən-ilə artmağa başlamışdır. Nəzərə alsaq ki, Azərbaycan Respublikası Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin qovşağında yerləşir, onda burada ixracın daha da stimullaşdırılması üçün zəngin perspektivlərin olduğu aydınlaşar.

Təbii ki, bütün bunlar ölkədə milli iqtisadiyyatın ayrı-ayrı sahələrinə bu və ya digər dərəcədə təsir edir. Nəqliyyat sistemində isə qloballaşmanın təsiri daha böyükdür. Ümumiyyətlə, qloballaşma və nəqliyyat əlaqələri bir-biri ilə sıx bağlı olan, bir-birini tamamlayan, inkişaf etdirən istiqamətlərdir. Belə ki, qloballaşma nəqliyyat əlaqələrinin genişlənməsinə, nəqliyyat əlaqələri isə, öz növbəsində, qloballaşmanın sürətlənməsinə ciddi təsir göstərir.

Digər tərəfdən, nəzərə alsaq ki, Azərbaycan Respublikası olduqca əlverişli coğrafi mövqedə yerləşir və bu mövqe ölkəmizə iki qitə (Avropa və Asiya) arasında zəngin tranzit imkanları yaradır, onda milli nəqliyyat sisteminin qloballaşmaya və əksinə təsirlərin daha güclü olduğu aydın olar. Avropa və Asiya arasında dünyanın aparıcı nəqliyyat qovşaqlarından birinə çevrilmiş müstəqil Azərbaycan Respublikası dünya nəqliyyat əməliyyatlarının və eləcə də qloballaşma prosesinin fəal iştirakçısına çevrilmişdir. Daha doğrusu, hazırda qeyd edilənlər milli iqtisadiyyatın sürətli və davamlı inkişafının zəruri şərti hesab edilir.

Məlumdur ki, ölkəmizin kənd təsərrüfatı güclü istehsal potensialına malikdir və müxtəlif illərdə bu potensialından müxtəlif səviyyədə istifadə olunmuşdur.

Aydındır ki, iqtisadi inkişafın əsas sistemlərindən biri xarici iqtisadi əlaqələrin yenidən qurulması və bu əlaqələr vasitəsilə dünya təsərrüfat sisteminə fəal inteqrasiya olunmaqdan ibarətdir. Cəmiyyətin hazırkı inkişaf mərhələsində dünya ölkələri üçün kənd təsərrüfatı xammalı və ərzaq bazarlarının sürətlə inkişaf etdirilməsi sayəsində xarici ticarət əlaqələrinin genişləndirilməsi səciyyələnir və bu iki başlıca amillə şərtlənir: İqtisadi qloballaşma və ərzaq təhlükəsizliyinin təmin edilməsi. Azərbaycanda xarici iqtisadi əlaqələrin yaradılmasında sənaye sahələrinin inkişafı əsas rol oynayır. Lakin, emal sənayesi üçün xammal olan aqrar məhsulların inkişafına lazımi şəkildə yanaşılmır. Xüsusilə, pambıq, tütün, tərəvəz və meyvənin xarici istehlak üçün ixtisaslaşması, texnoloji səviyyədə inkişafı və bununla əlaqəli infrastrukturların xarici standartlar səviyyəsində olması, hələlik tam təmin edilməmişdir. Əlverişli təbii-iqlim, coğrafi şəraiti və iqtisadi potensialı olan ölkəmizdə kənd təsərrüfatı məhsullarının ixrac potensialını artırmaq və xarici bazarlara rəqabət qabiliyyətli və keyfiyyətli məhsullar çıxarmaq üçün aşağıdakı istiqamətlərdə tədbirlər həyata keçirmək məqsədəuyğun olardı: -mövcud daxili ehtiyatlardan səmərəli istifadə edərək kənd təsərrüfatı məhsulları istehsalını artırmaq və yerli istehsalçıların stimullaşdırılması mexanizmini hazırlamaq; - yeni emal müəssisələrinin yaradılması, yeni texnologiyaların tətbiqi, rəqabət qabiliyyətli məhsullar hazırlanması üçün stimullaşdırıcı mexanizmin hazırlanması; - kənd təsərrüfatı və emal məhsulları istehsalını artırmaqla ixracın artırılması təmin edilməlidir.

Respublikada istehsalı və ixracı artırmaq və məhsulun keyfiyyətini yüksəltmək sahəsində kifayət qədər ehtiyatlar mövcuddur. Tədqiqat göstərir ki, respublikamızda mövcud olan ehtiyatlardan səmərəli istifadə etmək üçün kredit, texnika, yeni texnologiyalar və onları hərəkətə gətirə bilən ixtisaslı mütəxəssislər tələb olunur. Ona görə də dünya ərzaq bazarının konyunkturundan asılı olmamaq üçün və yaxud bu asılılığı azaltmaq üçün bütün ehtiyatlardan istifadə etməklə idxal olunan ərzaq məhsullarının ölkənin özündə istehsalı stimullaşdırılmalıdır.

Bunu ölkədə ərzaq məhsullarının adambaşına istehlakının mövcud səviyyəsi də tələb edir. Belə ki, əhalinin ərzaq məhsullarına tələbatının müəyyən qədər ödənilməsi yaxşılaşsa da 1990-cı il səviyyəsindən bəzi məhsullar üzrə hələ gerilik hiss olunur.

Bununla əlaqədar 2016-cı ildə qəbul edilmiş Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol Xəritəsində göstərilir ki, ölkənin regionlarının sərvətlərindən və təbii şəraitindən səmərəli istifadə etməklə kənd təsərrüfatı məhsulları istehsalını artırmaq, emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərin, turizmin inkişafı-

nı təmin etmək qarşıda duran əsas vəzifədir. Ayrı-ayrı sahələrin inkişafı, istehsal müəssisələrinin fəaliyyətinin genişləndirilməsi, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılması, yerli sahibkarların inkişafı Strateji Yol Xəritəsinin əsas məqsədi hesab edilmişdir.

Юнис Муса оглы Садыгов
старшый научный сотрудник
Института Экономики
НАН Азербайджана, к.э.н.

Продовольственной безопасности и аграрного сектора. Перспективы развития

Аннотация

В статье исследуется роль и значение аграрного и агроперерабатывающий сектора в международных экономических отношениях. Здесь особо подчеркивается ведущая роль аграрных предприятий в обеспечении продовольственной безопасности страны. Обосновывается применение мирового опыта в развитии агро-промышленного комплекса и отрасли аграрного производства. Вместе с тем, в статье указывается, что богатство природных ресурсов является только предпосылкой для прогресса, реальная польза от использования данных природных ресурсов в развитии нашей страны зависит от того, насколько эффективно и целесообразно они применяются. В статье, затрагивая другие важные вопросы аграрного сектора, в том число экспорте, автор приводит соответствующие выводы и предложения, полученные в ходе исследования.

Ключевые слова: аграрный сектор, агроперерабатующий отрасль, продовольственная безопасность, международные экономические отношения, глобализация, глобальная экономика.

Yunis Musa Sadigov
senior researcher Institute of Economy of
National Academy of Sciences of Azerbaijan

Food security and agrarian sector. Development perspectives

Summary

In the article a role and value of agrarian sector are investigated in international economic relations. Here the leading role of agrarian enterprises is especially underlined in providing of food safety of country. Application of world experience is grounded in development of agrarian and industrial complex and industry of agrarian production. At the same time, in the article specified, that riches of natural resources are only pre-condition for progress, the real benefit from the use of these natural resources in development of our country depends on that, as far as effectively and these ones are used expediently. In the article, affecting other important questions of agrarian sector, an author brings the corresponding conclusions over and suggestions, got during research.

Key words: agrarian sector, agricultural processing, food safety, international economic relations, globalization, global economy.

İlhamə Məhəmmədnəbi qızı MAHMUDOVA
Azərbaycan Dövlət İqtisad Universiteti, dosent

REGİONAL SOSİAL-İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Xülasə

Respublikamızda uğurla həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası nəticəsində ölkənin makroiqtisadi sabitliyi və davamlı iqtisadi inkişafı təmin edilmişdir. Bu strategiya nəticəsində qeyri-neft sahələrinin, regionların inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarının səmərəli

istifadəsi, iqtisadiyyatın diversifikasiyası təmin olunmuşdur. Azərbaycan Respublikasının iqtisadi təhlükəsizlik səviyyəsi qənaətbəxş səviyyədədir. Dövlətin kifayət qədər zəngin ehtiyatlara və investisiya imkanlarına malik olması, ixtisaslı kadr potensialı və s. iqtisadi təhlükəsizliyi təbii olaraq effektli təmin edir.

Açar sözlər: Azərbaycan regionları, milli təhlükəsizlik, regional siyasət, iqtisadi təhlükəsizlik, regional iqtisadiyyat, dinamik inkişaf, regional təhlükəsizlik, siyasi, iqtisadi amil.

***

Ölkənin milli təhlükəsizliyi təmin olunan zaman regional siyasətin işlənib hazırlanması, onun reallaşma mexanizminin yaradılması zəruri məsələdir. Bunun üçün də bütün müstəqil ölkələr özlərinin regional siyasətinin hazırlanıb reallaşdırılmasına xüsusi fikir verirlər. Çünki hər bir regionun özünəməxsus cəhətləri ilə əlaqədar olaraq burada gözlənilən və gözlənilməyən təhlükələr mövcuddur. Bunun qarşısı vaxtında alınmazsa, o, nəinki həmin regionun, həmçinin bütövlükdə ölkənin iqtisadi təhlükəsizliyinə neqativ təsir göstərə bilər. Bunun üçün də dövlətin ayrı-ayrı regionlarının iqtisadi təhlükəsizliyini müəyyənləşdirmək lazımdır.

Regional iqtisadi təhlükəsizlik regionlarda böhran vəziyyətinin yaranmasını törədən amillərin həcmindən asılıdır. Müstəqilliyin ilk illərinə nisbətən hazırda regionlarda iqtisadi inkişafda müəyyən qədər irəliləyiş olsa da regionlar çətin vəziyyətdən hələ tam çıxmamışdır.

Azərbaycanın regionlarında gərgin vəziyyətin yaranmasının subyektiv və obyektiv səbəbləri vardır. Obyektiv səbəb inzibati-amirlik sistemindən bazar iqtisadiyyatına keçməklə əlaqədardır. Subyektiv səbəblər isə obyektiv səbəblərdən doğmuşdur. Azərbaycan müstəqil dövlət kimi yaranmış çətin vəziyyəti aradan qaldırmağa qadirdi. Bunun üçün də Azərbaycan özünün regional iqtisadi siyasətini, onun iqtisadi təhlükəsizlik konsepsiyasını hazırlamalıdır. Həmin siyasətlə regional iqtisadiyyatın nəzəri əsasları öyrənilməli və onun əsasında konsepsiya hazırlanmalıdır. İstənilən regionun spesifik iqtisadi və təbii şəraiti vardır. Bunların mili iqtisadiyyatın formalaşdırılmasında, istehsalın yerləşdirilməsində, regionun təhlükəsizliyinin təmin edilməsində xüsusi rolu və əhəmiyyəti vardır. Regional siyasətdə də sosial problemlərin xüsusiyyətlərini nəzərə almaq lazımdır. Bunlara aşağıdakıları daxil etmək olar: a)yerli şərait nəzərə alınmaqla əhalinin xüsusiyyətlərinin nəzərə alınması; b) əhalinin müxtəlif təbəqələrinin həyat səviyyəsinin tarazlığının daim qorunub saxlanılması; c) əhalinin səmərəli yerləşdirilməsi planının işlənib-hazırlanması; d) ölkənin ətraf mühit və təbii resurslarının qorunmasının həyata keçirilməsi üçün tədbirlərin elmi əsaslarının hazırlanması [1, s. 58].

Regional iqtisadiyyatın əsas vəzifəsi Azərbaycanın iqtisadi zonalarının iqtisadi qanunauyğunluqlarını öyrənməklə bütövlükdə ölkədə məhsuldar qüvvələrin milli mənafeyə uyğun səmərəli yerləşdirilməsini təmin etməkdir. Regional iqtisadiyyatın praktiki və nəzəri vəzifələrini əsasən 3 qrupa bölmək olar:

- xalq təsərrüfatının ərazi proporsiyalarının praktiki və metodoloji tədqiqi;
- Azərbaycan məhsuldar qüvvələrinin milli mənafeyə uyğun olaraq ümumi nəzəri əsaslarını işləyib hazırlamaq, onu elmi cəhətdən əsaslandırmaq;
- ölkənin iqtisadi regionlarının əsas tədqiqat planını müəyyənləşdirmək.

Regional iqtisadi strukturu qiymətləndirərkən iqtisadi regionların inkişafının tarazlığı prinsipini nəzərdən qaçırmaq olmaz.

Beləliklə, regional sistemin təhlilini edərkən bilmək lazımdır ki, regional problemlərin hər şeydən əvvəl elmi əsaslarını öyrənmək, tənzimlənmə yollarını müəyyən etmək və problemlərin həllinin nəzəri aspektlərini işləyib hazırlamaq lazımdır. Məhsuldar qüvvələrin sürətli inkişafı, beynəlxalq və ərazi bölgüsünün dərinləşməsi iqtisadi münasibətləri ayrı-ayrı sahibkarların təsir dairəsi və imkanlarından xeyli kənara çıxardı. [4]

Regionların hərtərəfli inkişafını təmin etmək üçün 2004-cü ildən başlanılaraq regionlarının sosial-iqtisadi inkişafı üçün müxtəlif illərdə üç Dövlət Proqramı təsdiq edilmişdir. I Proqram 2004-2008-ci illəri, II Dövlət Proqramı 2009-2013-cü illəri əhatə etmişdir. Sonuncu proqram isə cənab İlham Əliyevin 2014-cü il 27 fevral tarixli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" olmuşdur. Azərbaycan dövlətinin qəbul etdiyi bu proqramın regionların inkişafında və regionların, bütövlükdə

Azərbaycanın iqtisadi təhlükəsizliyinin təmin edilməsində mühüm əhəmiyyəti olacaq və Azərbaycanın iqtisadiyyatının tarazlı inkişafına böyük təkan verəcəkdir. [3]

İqtisadiyyatın dinamik inkişafı ilə əlaqədar olaraq əhalinin rifah səviyyəsinin daha da yaxşılaşdırılması sahəsində dövlətin məqsədyönlü siyasətinə müvafiq olaraq Azərbaycan regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı üçün qəbul edilmiş Dövlət Proqramında regionlarda mövcud olan potensialdan səmərəli istifadə etməklə yeni emal və istehsal müəssisələrinin yaradılması, qeyri-neft sektorunun inkişafı, müəssisələrin istehsal fəaliyyətinin genişləndirilməsi, sosial infrastrukturun yaxşılaşdırılması, informasiya və rabitə texnologiyalarının tətbiqinin sürətləndirilməsi, şəhid ailələri və əlillər üçün yaşayış binalarının tikintisi, həmçinin müasir standartlara uyğun səhiyyə, elm, təhsil, idman və mədəniyyət obyektlərinin inşası, yenidənqurulması üzrə kompleks tədbirlərin görülməsi nəzərdə tutulmuşdur. Dövlət Proqramının əsas məqsədi qeyri-neft sektorunun inkişafı, regionların sürətli inkişafı prioritetində tədbirlərin davam etdirilməsi, iqtisadiyyatın diversifikasiyası, kəndlərin inkişafı ilə bağlı sosial xidmətlərin və infrastrukturun daha da yaxşılaşdırılmasından ibarətdir. Hər bir dövlət kimi Azərbaycan da özünün regional inkişaf siyasətini hazırlayarkən xarici, siyasi amilləri, beynəlxalq imkanları və şəraiti də nəzərə almalıdır. Çünki bu faktorlar regional inkişaf siyasətinə əhəmiyyətli təsir göstərən amillərdəndir. Bunu Azərbaycanın timsalında daha aydın göstərmək olar. Azərbaycanın Ermənistanla sərhəd olması, sərhəd olan bu bölgələrdə bərpası çətin olan, böyük maliyyə vəsaiti tələb edən problemlər Azərbaycanın digər regionları üçün təhlükə növlərinin mənbəyini yaratmışdır. [3]

Eyni zamanda proqramın hüquqi bazasını yaratmaq və başqa ölkələrin təcrübəsini öyrənmək ilə regional inkişaf siyasətini təkmilləşdirmək mühüm məsələlərdən biridir. Bu məqsədlə Azərbaycanda "Strateji planlaşdırma və müstəqil proqramlar haqqqında", "Regional siyasətin əsasları haqqında", "Şəhərlərin və kədlərin inkişafı haqqında" qanunların qəbul olunması daha yaxşı nəticə verə bilər. Məlumdur ki, mərkəzə nisbətən regionların sosial-iqtisadi inkişafının geri qalması məsələlərindən biri də ilkin kapital yığımının daha zəif olması, sahibkarlığın o qədər də inkişaf etməməsidir. Bu problemin həllində dövlətin uğurlu pul-kredit siyasəti xüsusi əhəmiyyət kəsb edir. Bununla əlaqədar olaraq bu parametlər Dövlət Proqramında əsas prioritetlərdən biri kimi götürülmüşdür. Dövlət Proqramında yazılır: Pul-kredit siyasətində, neft gəlirlərinin artımı ilə əlaqədar olaraq manatın məzənnə siyasətinin həyata keçirilməsinə və pul təklifi kanallarının optimallaşdırılmasına xüsusi diqqət yetiriləcəkdir. İnvestisiya siyasətində dövlət investisiyalarının əsasən regionlatın infrastruktur yaxşılaşdırılmasına, sosial obyektlərin inşasına yönəldilməsi əsas hədəf olacaqdır [2, s.117].

Kənd təsərrüfatı Azərbaycanın milli iqtisadiyyatının formalaşmasında, habelə iqtisadi təhlükəsizliyin təmin edilməsində əhəmiyyətli rola malikdir. Azərbaycanın milli iqtisadiyyatının inkişafı və formalaşması, həmçinin regionların təhlükəsizliyinin təmini xalq təsərrüfatının digər sahələrinin inkişafından deyil, daha çox ölkəmizin regionlarının inkişafından və aqrar bölməsindən asılı olacaqdır. Azərbaycanın kənd təsərrüfatında isə ənənəvi sahələr olan pambıqçılığın, taxılçılığın, meyvəçiliyin, üzümçülüyün, tütünçülüyün, ipəkçiliyin, çayçılığın və s. sahələrin inkişaf etdirilməsi prioritet vəzifə olacaqdır. Regionların sosial-iqtisadi inkişafının hər bir problemini dövlət üzərinə götürə bilməz. Bunun müəyyən bir payını sahibkarların öhdəsinə buraxmaq lazımdır. Regionlarda sahibkarlığın inkişafına dəstək kimi rayonlarda potensial imkanlara dair məlumat bazasının və sahibkarlar üçün məsləhət xidmətinin yaradılması; maliyyə köməyinin artırılması, marketinq xidməti, informasiya təminatı və digər xidmətlər göstərəcək mərkəzlərin yaradılması; rayonlarda ticarət yarmakalarının yaradılması, turizmin inkişaf etdirilməsi; vergi-gömrük siyasətinin həyata keçirilməsi; yerli ixtisaslaşmanı nəzərə almaqla peşə hazırlığının təkmilləşdirilməsi; təbii inhisarların tariflərinin daimi tənzimlənməsi və digər məsələlərin həlli nəzərdə tutulub. Məhz bu problemlərin həlli regionların sosial-iqtisadi təhlükəsizliyinin əsasını təşkil edir.

Azərbaycanın regionlarının iqtisadi təhlükəsizliyinin səviyyəsini müəyyən etməzdən əvvəl regionların iqtisadiyyatının inkişafının ümumi durumunu, regionların ölkənin iqtisadiyyatında tutduğu yeri və istehsalın ixtisaslaşma istiqamətini bilmək gərəkdir ki, regionlarda təhlükələrin növləri, onların iqtisadi təhlükəsizliyin dərəcəsi üzrə təsnifləşdirilməsi mümkün olsun.

Regionlarda da sosial-itisadi təhlükəsizliyin ən geniş yayılmış formalarından biri olan işsizlik hökm sürməkdədir. Region əhalisinin xeyli qisminin işləməməsi regionlarda əhalinin maddi vəziyyətinin pisləşməsinə, həyat səviyyəsinin aşağı düşməsinə zəmin yaradır. İstehsal müəssisələrinin çoxunun işləməməsi də bu kimi sosial problemlərin çoxalmasına səbəb yaradır. Belə olan halda region əhalisi bir çox sosial problemlə üzləşir, əhalisinin yoxsulluq səviyyəsi yüksəlir. Nəticədə kənd əhalisinin şəhərlərə axını sürətlənir.

Azərbaycanın regionlarının iqtisadi təhlükəsizliyinin ümumi cəhətləri ilə bərabər bir-birindən fərqləndirən, bu və ya digər iqtisadi təhlükə növünün daha yüksək olmasıdır. Çünki, Azərbacanın bölgələrində təbii amillə bağlı olaraq istehsalın ixtisaslaşdırılması və yerləşməsi müxtəlifdir. [4]

Beləliklə, Azərbaycanın şimal bölgələri Rusiya ilə sərhəddi, buna görə də bu bölgələrin iqtisadi, mədəni əlaqələri bu istiqamətdə geniş yer tutur. Onun üçün də Azərbaycan dövləti bu regionların iqtisadi təhlükəsizliyinin təmin olunmasına və iqtisadi inkişafına xüsusi fikir verməlidir.

ƏDƏBİYYAT

1. M.M.Mahmudov, İ.M.Mahmudova. “Regionların sosial iqtisadi inkişafının tənzimlənməsi”. Dərslik, 2012.
2. N.Məmmədov, M.Bərxudarov. "İqtisadi Təhlükəsizlik", Bakı-2015, 252 s.
3. http://www.republic.preslib.az
4. http://www.economy.gov.az

Ильхама Махаммаднаби кызы Махмудова
Азербайджанский Государственный
Экономический Университет, доцент

Основные направления региональной социально-экономической безопасности

Резюме

В результате успешной стратегии социально-экономического развития в нашей стране обеспечена макроэкономическая стабильность и устойчивое экономическое развитие страны. В результате этой стратегии ускорилось развитие ненефтяных секторов, регионов, обеспечено эффективное использование стратегических валютных резервов, диверсификация экономики. Уровень экономической безопасности Азербайджанской Республики удовлетворительный. Государство обладает богатыми запасами и инвестиционными возможностями, квалифицированным кадровым потенциалом и так далее. естественно эффективной экономической безопасности.

Ключевые слова: Регионы Азербайджана, национальная безопасность, региональная политика, экономическая безопасность, региональная экономика, динамичное развитие, региональная безопасность, политический, экономический фактор.

Ilhama Mahammadnabi Mahmudova
ASEU, associate professor

Main principles of regional sosial-economic safety insurance

Summary

As a result of the successful strategy of social and economic development in our country, macroeconomic stability and sustainable economic development of the country are ensured. As a result of this strategy, the development of non-oil sectors and regions has been accelerated, effective use of strategic foreign exchange reserves has been ensured, and the economy has diversified. The level of economic security of the Republic of Azerbaijan is satisfactory. The state has rich reserves and investment opportunities, qualified human resources and so on. naturally effective economic security.

Keywords: regions of Azerbaijan, national security, regional politics, economic security, regional economy, dinamic development, regional security, political, economic factor.

Лала Адиль гызы ГАМИДОВА
к.э.н., доцент кафедры «Экономика»
Азербайджанский Государственный
Экономический Университет

ЭКСПОРТНЫЙ ПОТЕНЦИАЛ ОРГАНИЧЕСКОЙ ПРОДУКЦИИ АЗЕРБАЙДЖАНА

Резюме

В последнее время органической продукции уделяется особое внимание. Употребление экологически чистой продукции влияет на здоровье будущей нации. Одна из возможностей расширения экспортного потенциала Азербайджана связана с органической продукцией. В тезисе дается характеристика деятельности GABA, Azersun холдинга, Габалинского консервного завода, компаний Miri Grand и Sarkhan, а также обосновываются перспективы экспорта органической продукции на российские рынки.

Ключевые слова: сельское хозяйство, органическая продукция, аграрный сектор, экспорт.

***

Сельское хозяйство было и остается важным видом деятельности для Азербайджана на протяжении всей его истории. Согласно данным Госкомстата Азербайджанской Республики за 2016 год, более 47% населения проживают в сельской местности, общая занятость в сельском хозяйстве составляет 36,4% [1, с. 51]. Сегодня сельское хозяйство является основным сектором, способствующим занятости и содействующим обеспечению продовольственной безопасности по сравнению с другими секторами экономики.

Климатические условия страны благоприятны для выращивания различных видов сельскохозяйственной продукции, как субтропических видов – цитрусовые, чай или оливки, а также, приспособленных к холодному или умеренному климату – грецкие орехи или яблоки. Несмотря на разнообразные климатические зоны, обеспечивающие сельскохозяйственное производство широким спектром растений и животных, включая продукты рыболовства и пчеловодства, Азербайджан является импортером продуктов питания.

В производстве и торговле агропродовольственной продукции имеется ряд проблем. Это прежде всего экологические проблемы, такие как засоленность почв, снижение плодородия и эрозия почв, опустынивание, появившиеся от длительной бесхозяйственности земель. Основная причина многих проблем происходит из-за слабой связи между участниками рынка, между производителем и покупателем. Все эти факторы привели к подрыву роста сельского хозяйства и устойчивого производства продовольствия.

В последние годы в экономике республики произошли существенные структурные изменения, включая землевладение и управленческий потенциал в практике ведения сельского хозяйства. В настоящее время сельское хозяйство в Азербайджане является основным источником экономического роста, занятости и борьбы с бедностью. Хотя его доля в валовом внутреннем продукте (ВВП) по-прежнему остается низкой, правительством особое внимание уделяется ненефтяным секторам во главе с сельским хозяйством для осуществления политики диверсификации экономической деятельности и достижения более высокого уровня самообеспечения продуктами питания.

Сельское хозяйство Азербайджана по данным 2016 года, обеспечивает 5,6% ВВП, 36,4% занятости [1, с. 52]. Для сравнения, занятость в нефтяном секторе составляет 1%. 99,8% сельскохозяйственных угодий являются частными, из которых 66,8% - семейные фермы, 32,8% заняты в натуральном хозяйстве, 0,2% – в сельскохозяйственных предприятиях. Агропромышленность играет решающую роль, генерируя 2,7 млрд. долл. США, что составляет 41% от всего объема производства [4, с. 25]. Основная область – производство мяса и молочных продуктов, консервирование фруктов и овощей. 99,8% производства приходится на малые и средние предприятия [3, с.4].

Доходы от экспорта агропродуктов очень низкие, по сравнению с экспортом нефти, который был на уровне 92,8% в 2016 году. Экономический кризис в январе 2016 года и высокая девальвация показали, что необходимы источники дохода, отличные от сырой нефти и более сильный агропродовольственный сектор. Производство и экспорт органических товаров можно рассматривать как одну из возможностей, которыми обладает Азербайджан, поскольку имеются соответствующая экология и природные ресурсы [2].

Экспорт органической продукции в Азербайджане осуществляется частным сектором. Есть несколько компаний, которые заняты органическим производством граната и некоторых других фруктов. Они также имеют современные перерабатывающие предприятия, производящие и экспортирующие органические фруктовые соки, которые соответствуют международным стандартам. Это конкурентное преимущество дает возможность продвинуться вверх по цепочке создания стоимости, производя экспортно-ориентированные консервы и продукты с более длительным сроком хранения.

Органическое производство и экспорт в Азербайджане началось с GABA (Гянджинская Ассоциация Агробизнеса), региональной неправительственной ассоциации, целью которой является содействие устойчивому развитию аграрного сектора страны посредством развития человеческого потенциала, передачи знаний и ресурсов. Основанная в 1996 году, GABA использует природные и человеческие ресурсы страны для производства и экспорта высококачественных органических продуктов и вносит свой вклад в национальную экономику [3, с. 67].

Второй пионерской агропромышленной компанией в Азербайджане является холдинг Azersun, который является первой зарубежной частной компанией в Азербайджане. Azersun Holding пытается производить сельскохозяйственные товары и расширять свою долю на рынке, особенно в соседних странах. Он работает на общей территории в 10000 га сельскохозяйственных угодий и выращивает соевые бобы, ячмень, пшеницу, зеленый горошек, кукурузу, подсолнечник, помидоры, огурцы, баклажаны, перец и другие овощи по сертификату Global GAP. Они также посадили более 400000 деревьев граната и айвы и создали органическую ферму для выращивания овощей и тыкв в этом районе. Для своей фермы по выращиванию биодобавок они используют только органические удобрения от своего близлежащего завода. Затем продукт обрабатывают на консервной фабрике, расположенной рядом с зоной культивации. Другим значительным вкладом Azersun в жизнеспособные цепочки создания стоимости в сельском хозяйстве является установка по переработке фундука в северном районе Загатала с годовой мощностью переработки 15000 тонн [3, с. 68].

Габалинский консервный завод, дочерняя компания Gilan Holding, является крупнейшим производителем натуральных соков, нектаров и концентратов в Азербайджане и во всем Кавказском регионе. Продукты Gilan Gabala Canning Plant Ltd. являются победителями различных международных продовольственных наград, включая ProdExpo и World Food. Компания производит следующие продукты: натуральные фруктовые и овощные соки и нектары; соки и нектары для диетических целей и для больных диабетом; ледяной чай с лимоном, манго и персиковым ароматом и фруктовыми хлопьями; органический гранатовый соковый концентрат превосходного качества.

Miri Grand Co. Ltd является лидером в экспорте натурального гранатового сока. Ежегодное производство составляет 3 миллиона литров в год. В дополнение к гранатовому соку компания также производит натуральные соки из айвы, вишни, фейхоа, облепихи и шиповника. Эти соки производятся в гораздо меньших объемах, чем гранатовый сок. Общий объем соков, извлеченных из разных фруктов, может быть значительно увеличен с помощью крупных оптовых заказов. В настоящее время компания экспортирует свою продукцию в Российскую Федерацию, Германию, Украину, Беларусь, Эстонию и ОАЭ. Она планирует расширить свои рынки в Исламскую Республику Иран, США, Европу, Турцию, Китай, Японию и Австралию.

Другая компания, занимающаяся органическими продуктами из граната – компания Sarkhan. Эта компания в основном экспортирует гранатовый сок, гранатовый концентрат, органический гранатовый сок, наршараб, гранатовые вина, вина, чай и травяные чаи.

У Азербайджана есть шанс увеличить экспорт в органически производимых товарах, особенно в Россию. Поскольку иностранными государствами, особенно странами Западной Европы, были введены санкции по отношению к России, это может обернуться положительно для Азербайджана. Аграрный сектор Азербайджана столкнулся с новыми возможностями на российских рынках. Власти Азербайджана считают, что их сельскохозяйственная продукция имеет больше шансов на российских рынках, чем любая другая европейская продукция, потому что они менее загрязнены, особенно пестицидами.

ЛИТЕРАТУРЫ

1. Azərbaycanın kənd təsərrüfatı. Statistik məcmuə. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı, 2017, 608 s.
2. Jafarova Aynur. Azerbaijan enjoys great capacity to export agricultural products, industrial goods. Azernews, (On-line), 2016. www. azernews.az/analysis/71635.html
3. Organic Agriculture In Azerbaijan: Current status and potentials for future development. Uygun Aksoy, İsmet Boz, Hezi Eynalov, Yagub Guliyev. Food and Agriculture Organization United Nations, Baku, 2018.
4. Халилов Х., Шалбузов Н., Гусейн Р. Национальный отчет: Азербайджан. НИИ экономики сельского хозяйства, 2015.

Lalə Adil qızı Həmidova
Azərbaycan Dövlət İqtisad Universiteti
"İqtisadiyyat" kafedrasının dosenti, i.e.n.

Azərbaycanın orqanik məhsulunun ixrac potensialı

Xülasə

Son zamanlarda orqanik məhsullara xüsusi diqqət yetirilir. Ekoloji cəhətdən təmiz məhsulların istehlakı gələcək nəsillərin sağlamlığına təsir göstərir. Azərbaycanın ixrac potensialının genişləndirilməsi imkanlarından biri də orqanik məhsullarla bağlıdır. Tezisdə GABA, Azersun Holding, Qəbələ konserv zavodu, Miri Grand və Sarkhan şirkətlərinin fəaliyyət xüsusiyyətləri ilə yanaşı orqanik məhsulların Rusiya bazarlarına ixrac perspektivləri əsaslandırılmışdır.

Açar sözlər: kənd təsərrüfatı, orqanik məhsullar, aqrar sektor, ixrac.

Lala Adil Hamidova
assist. prof. of "Economics" department
Azerbaijan State University of Economics

Export potential of organic production of Azerbaijan

Summary

Recently, organic products are given special attention. The use of environmentally friendly products affects the health of the future nation. One of the opportunities to expand Azerbaijan's export potential is related to organic products. The thesis gives a description of the activities of GABA, Azersun Holding, Gabala Canning Plant, Miri Grand and Sarkhan companies, and also outlines the prospects for export of organic products to Russian markets.

Key words: agriculture, organic products, agrarian sector, exports.

II BÖLMƏ.
AQRAR SAHƏNİN RƏQABƏTQABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ PROBLEMLƏRİ

РАЗДЕЛ II.
ПРОБЛЕМЫ ПОВЫШЕНИЯ КОНКУРЕНТОСПОСОБНОСТИ АГРАРНОЙ СФЕРЫ

SECTION II.
PROBLEMS OF INCREASING THE COMPETITIVENESS OF AGRARIAN SECTOR

Bəyalı Xanalı oğlu ATAŞOV,
Azərbaycan Kooperasiya Universitetinin
elmi işlər üzrə prorektoru, iqtisad elmlər doktoru,
professor, Əməkdar elm xadimi.

SƏMƏRƏLİLİK AQRAR İSTEHSALIN ƏSAS MEYARI KİMİ

İqtisadi nəzəriyyədə Adam Smit və klassik məktəbinin bir çox nümayəndələri maddi istehsalın təkamül yolu ilə inkişaf prosesinin bütün gedişi ilə şərtlənən ümumi mahiyyətindən çıxış edirdilər. Onlar əmtəə-pul mexanizminin səmərəliliyinə yönəlmiş uçot, funksional və stimullaşdırıcı prinsiplərin unikal olmasını göstərirdilər. Bu istiqamətlənmədə əsas yeri bazar rəqabəti tutur. Bazarda bir-biri ilə rəqabət aparan fərdlər istehsalın miqyasını artırmaq, məsrəfləri azaltmaq və məhsulun keyfiyyətini yüksəltməklə (bunlar səmərəliliyin əsas tərkib hissələridir) "yalnız özlərinin şəxsi səmərəsi üçün çalışmaqla eyni zamanda sanki gözəgörünməz bir əl ilə istiqamətləndirilərək cəmiyyətin mənafelərinə xidmət edirlər".

İqtisadi nəzəriyyənin və buna müvafiq olaraq səmərəlilik nəzəriyyəsinin bu əsas prinsipinin ifadə edildiyi vaxtdan ötən iki əsrdə mahiyyət etibarilə heç nə dəyişməmişdir. Bazar rəqabəti iqtisadiyyat və onun səmərəli təsərrüfatçılıqla məşğul olan subyektləri üçün əlverişli zəmindir. Çünki bu rəqabət "resurslardan rasional və səmərəli istifadə edilməsinə gətirib çıxarır, tənzimləyici mexanizm kimi xidmət edir, bazarlar və qiymətlər sistemi isə əsas təşkiledici qüvvə rolu oynayır".

Maddi istehsalda səmərəliliyin qarşılıqlı əlaqəli olan iki - iqtisadi və sosial - aspektləri var. İqtisadi səmərəlilik istehsalın genişləndirilməsinin və sosial inkişafın əsası olmaqla həlledici əhəmiyyət kəsb edir.

Səmərəlilik probleminin sosial tərkib hissəsi isə, öz növbəsində, iqtisadi səmərənin daha da artırılmasına təsir göstərir. Səmərəlilik kateqoriyasının elmi-metodiki əsaslarının işıqlandırılmasında, onun mahiyyətinin, meyarlarının və göstəricilərinin müəyyən edilməsində ziddiyyətlərin hələ də qalmasını nəzərə alaraq bu kateqoriyanın əsaslarını müfəssəl açıqlamaq, o, cümlədən kənd təsərrüfatı əməyinə tətbiqən yanaşmaları tənqidi mövqedən qiymətləndirmək xüsusi diqqətə layiqdir.

Bu kateqoriya yalnız o halda aqrar siyasətin məqsədyönlü şəkildə həyata keçirilməsinin və prioritetlərinin etibarlı oriyentiri ola bilər ki, o siyasətin mahiyyətinin, əsas strateji məqsədinin sosial istiqamətinin yuxarıda nəzərdən keçirdiyimiz elmi tərəfində səmərəlilik kateqoriyasının rolu və yeri aydınlaşdırılmış olsun.

İqtisadi səmərəlilik anlayışının ümumi metodoloji əsası məsrəflərin və istehsalda alınmış nəticələrin nisbətidir. Lakin əsas məsələ onların ictimai uçot formasında və iqtisadi səmərənin kəmiyyət artımının stimullaşdırılmasının və onun nisbi ifadəsinin (səmərəlilik səviyyəsinin) adekvat mexanizmindədir. Bu suala dünya iqtisad elmi ümumi iqtisadi qanunlara və səmərəlilik kateqoriyasının elmi-tədqiqat prinsiplərinə əsaslanaraq cavab verir.

Hazırda kənd təsərrüfatında və bütövlükdə xalq təsərrüfatında baş verən iqtisadi proseslərin araşdırılmasına "bazar yanaşması" obyektiv zərurətə çevrilmişdir. Lakin keçmişin ağır yükü hələ də özünü göstərir. Problemin metodologiyasının prinsipial məsələlərində qəti mövqe tutmaq üçün, ilk növbədə istehsalın səmərəliliyini artırmağın daim fəaliyyət göstərən əsas amilləri və ictimai uçotun vahid formaları ilə fərqlənən ümumi iqtisadi kateqoriya olmasını etiraf etmək lazımdır.

Bununla əlaqədar, iqtisadiyyatın bütün sahələri üçün vahid meyarlar və göstəricilər sisteminin iqtisadi səmərənin keyfiyyətini, bu və ya digər sahənin spesifikası nəzərə alınmaqla onun artmasını təmin etməyə yönəlmiş tədbirlər işlənib hazırlanmasını xarakterizə edən müqayisəli məlumatların mövcud olması şərti kimi zəruriliyi (ümumi ilə xüsusinin vəhdəti) obyektiv zərurətdir.

Problemin tədqiq edilməsinin metodoloji prinsiplərindən istifadə edilməsində və onların

praktikada reallaşdırılmasında müəyyən irəliləyiş əldə edilməsinə baxmayaraq, belə deməyə əsas yoxdur ki, fundamental elmi əsaslar və tətbiqi aspektlər nəzərdən keçirilərkən zəruri aydınlıq və müəyyənlik tam əldə edilmişdir. Bu, çox cəhətdən iqtisadi səmərəliliyin ümumi nəzəriyyəsinin və metodologiyasının prinsipial məsələlərinin işlənib hazırlanmasında, o cümlədən bu kateqoriyanın mahiyyətinin dərk edilməsində yarımçıqlıq və ziddiyyətlərlə əlaqədardır.

İctimai səmərəlilik problemində iqtisadi və sosial səmərəni fərqləndirmək, yoxsa təhlilin ümumi sosial-iqtisadi səmərəlilik baxımından aparılmalı olması məsələsində hələlik aydınlıq yoxdur. Eynilə iqtisadi və sosial səmərəliliyin əsas meyarlarının əsaslandırılmasına münasibətdə müxtəliflik var. Mahiyyət etibarı ilə vahid xalq təsərrüfatı sistemində vahid qlobal səmərəlilik meyarından istifadə edilməsinin qanuni olması, yoxsa onun müxtəlif səviyyələri üçün müxtəlif meyarlar tətbiqi hələlik sübut edilməmişdir. İqtisadi səmərəlilik göstəriciləri sistemində tam müəyyənlik yoxdur. Təbii ki, bütün bunlar aqrar siyasətin səmərəliliyinə və onun artırılmasının praktiki məsələlərinin həllinə məqsədyönlü şəkildə yeni elmi yanaşmaların işlənib hazırlanmasına mane olur.

Etiraf etmək lazımdır ki, marksist iqtisadi nəzəriyyədə səmərəlilik kateqoriyasının tədqiq edilməsinin ümumi metodoloji prinsiplərindən çıxış edən müddəalar az deyildir. Planlı sosializmə tətbiqən səmərəliliyin müvafiq uçotunun mexanizm və metodlarından istehlak dəyəri, natural meyarlar və bilavasitə əmək məsrəfləri göstəricilərindən istifadə edilməsi nəzərdə tutulurdu.

Hazırda iqtisadi səmərəliliyin, o cümlədən kənd təsərrüfatı istehsalının iqtisadi səmərəliliyinin metodologiyasında çox məsələlər öz yerini tapmışdır. Lakin bu problemin əsas elmi və tətbiqi aspektlərinin nəzərdən keçirilməsində tam aydınlıq və müəyyənlik əldə edildiyini demək olmaz. Bu, çox cəhətdən istehsalın səmərəliliyinin ümumi nəzəriyyə və metodologiyasının prinsipial məsələlərinin, o cümlədən bu kateqoriyanın mahiyyətinin anlaşılmasının yarımçıq və ziddiyyətli olması ilə əlaqədardır.

Daha bir səbəb bazar iqtisadiyyatında kənd təsərrüfatı istehsalının səmərəliliyinin artırılmasının ilk növbədə ümumi iqtisadi qanunlarla və əmtəə istehsalı kateqoriyaları ilə təsərrüfat mexanizminin ona adekvat idarəetmə sisteminin fəaliyyətinin vahid prinsipləri, dövlət tənzimlənməsi və s. amillərlə müəyyən edilməsinin lazımınca qiymətləndirilməməsi və ya bu faktların təkzib edilməsi ilə bağlıdır. Bu prinsiplər nəzərə alınmadan aqrar iqtisadiyyatın müasir dövr üçün səciyyəvi şəraitdə səmərəli inkişafının təsərrüfatdaxili problemlərini də uğurla həll etmək mümkün deyildir.

İndiki halda, ümumiyyətlə, səmərəlilik anlayışının ümumi iqtisadi kateqoriya olmasını sübut etməyə bəlkə də ehtiyac yoxdur. Buna görə də iqtisadi səmərəni ifadə edən eyni meyarlardan istifadə etməyin zəruri olması və səmərəliliyin səviyyəsinin müəyyən edilməsinin vahid metodları barədə, səmərəlilik cəmiyyətin sosial-iqtisadi quruluşunun xüsusiyyətləri ilə şərtləndiyinə görə müxtəlif istehsal üsulları üçün səmərəlilik meyarlarının da müxtəlif olması barədə mülahizələrin mövcudluğu təbii haldır. Əgər bu cür xüsusiyyətlər mövcud olsa belə, onlar ikinci dərəcəli, praktiki, sahəvi, regional, təsərrüfatdaxili əhəmiyyət kəsb edir və problemin araşdırılmasının ümumi metodoloji əsaslarını dəyişmirlər.

"Səmərə" və "nəticə" anlayışları eyni tərtibdən olmasına baxmayaraq, onların keyfiyyət fərqlərinə diqqət yetirmək lazımdır. İctimai istehsala aid sosial-iqtisadi kateqoriya olmaqla səmərəlilik bütövlükdə bu istehsalın müsbət nəticələndiyini ifadə edir. Lakin praktikada səmərəlilik müxtəlif formalarda təzahür edir və özünün iqtisadi funksiyalarına görə müxtəlif olan istehsal amillərinin ifadəsidir.

Məhsulun mütləq həcmi, kənd təsərrüfatı bitkilərinin, heyvanların məhsuldarlığı və s. göstəricilər kənd təsərrüfatı istehsalının səmərəliliyini xarakterizə edir, lakin onlar səmərəliliyin məcmu ifadəsi deyil, iqtisadi səmərənin tərkib hissələridir. Bundan əlavə, məsələn, müəyyən məhsul növünün istehsalının iqtisadi səmərəliliyi çox müxtəlif olduğu halda məhsuldarlıq eyni ola bilər.

Söhbət maddi istehsalın konkret kateqoriyasından getdiyi üçün əvvəlcə bu kateqoriyanın istehsalın səmərəliliyinin hansı cəhətini və hansı konkret məzmununu ifadə etdiyini aydınlaşdır-

maq lazımdır. İstehsalın nəzərdən keçirdiyimiz səmərəlilik kateqoriyasına xas olan meyarlar və göstəricilər, onlarla birlikdə təsərrüfat fəaliyyətinin səmərəliliyinin konkret cəhətinin dəyişməsi və ictimai uçotun kəmiyyət və keyfiyyət xarakteristikalarının dəqiq formaları da bununla müəyyən edilir.

Əgər səmərəliliyin hər hansı ifadəsini səmərəlilik hesab etsək, onda, əvvələn iqtisadi kateqoriyaların təhlilinin əsas elmi prinsipi (yəni onların anlayışının və mənasının dəqiq müəyyən edilmiş olması prinsipi) pozulur və ikincisi, səmərəlilik probleminin təhlili təkrar istehsalın ümumi problemləri arasında bir növ əriyib gedir.

Mübaliğəsiz deyə bilərik ki, istər aqrar siyasət baxımından, istərsə də onun reallaşdırılmasının tətbiqi aspektlərinin həllində labüd olaraq qeyri-müəyyənliyə gətirib çıxaran problemin elmi-metodik aspektlərinin müxtəlif mövqelərdən mənalandırılması həmişə ictimai istehsalın səmərəsinin və deməli, konkret iqtisadi kateqoriya kimi səmərəliliyin təhlilinin obyektiv zərurət olmasına lazımınca əhəmiyyət verilməməsinin və ya bu faktın birbaşa inkar edilməsinin nəticəsidir.

Səmərəlilik kateqoriyasının tədqiqatında ciddi konseptual müəyyənliyə nail olmaq üçün ən mühüm ilkin şərt-istehsalın ümumi səmərəliliyi ilə iqtisadi səmərəni bir-birindən fərqləndirmək və belə bir metodoloji prinsipi aydınlaşdırmaqdan ibarətdir ki, istehsal fəaliyyətinin nəticələrinin keyfiyyətcə müəyyən edilməsi forması olmaqla iqtisadi səmərəlilik ümumi nisbi səmərəliliyi ifadə edir.

Maddi istehsalın inkişafının səviyyəsindən, onun ümumi kəmiyyət göstəricisindən asılı olmayaraq iqtisadi səmərəlilik yalnız mənfəətlilik deyilən göstərici vasitəsilə müəyyən edilə bilər. Səmərəli nəticə yalnız o halda yaranır ki, istehsalın mütləq nəticəsi bütövlükdə istehsal sahələrinə, sferalarına məcmu ictimai əmək sərfindən çox olsun.

Müasir bazar iqtisadiyyatında bu məsrəflər bir meyarla - dəyərlə ölçülə bilər. Bu halda faydalı və ya xalis (məsrəflər çıxılmaqla) səmərənin vahid ictimai təzahür forması pul şəklində ifadə edilmiş xalis gəlir və ya mənfəətdir. Bu kəmiyyət səmərəliliyin əsas meyarı, onun təhlil edilməsi, göstəricilər sisteminin müəyyənləşdirilməsi üçün əsas olub, başlıca, ümumiləşdirici göstərici kimi çıxış edir.

Məcmu faydalı iqtisadi səmərənin ümumiləşdirilmiş ifadədə uçotunun aparılması, onun qiyməti və məhsulun keyfiyyətinin artırılması hesabına həmin məhsulun hər vahidinə çəkilən xərclərin azaldılmasını müəyyən etmək üçün zəruri olması fikrinə etiraz etmək çətindir. Buna görə də istehsalın səmərəlilik forması olmaqla faydalı gəlirliliklə əlaqədar olan iqtisadi səmərəlilik istər məzmununa, istərsə də ifadə formasına görə səmərəliliyin başqa ictimai-iqtisadi xarakteristikalarından fərqlənir. Onun mühüm elmi-metodik əlaməti bundan ibarətdir ki, iqtisadi səmərəlilik istehsal səmərəliliyinin mərkəzləşdirilmiş,sintetik xarakteristikası olmaqla istehsalın inkişafının həm kəmiyyət, həm də keyfiyyət cəhətini ifadə edir.

Əgər hər hansı istehsalın məqsədi şəxsi korporativ və ictimai tələbatı maksimum təmin etməkdən ibarətdirsə və bu məqsəd mövcud məhdud resurslardan ən səmərəli şəkildə istifadə edilməsi yolu ilə əldə edilirsə, onda iqtisadi səmərəlilik obyektiv olaraq aqrar siyasətin əsas oriyentirinə çevrilir.

Məlumdur ki, iqtisadi səmərəlilik anlayışının birtərəfli yozumu, onun təhlilinin istehsalın səmərəliliyinin başqa ifadə formaları ilə əvəz edilməsi problemə vahid elmi yanaşma işləyib hazırlamağa və deməli, iqtisadi səmərəliliyin artırılmasına yönəlmiş praktiki tədbirlərin həyata keçirilməsinə şərait yaratmır.

Çox vaxt müəlliflər səmərəliliyin bir iqtisadi kateqoriya kimi mahiyyətini açıqlamadan dərhal onun sosial aspektinə diqqəti cəlb edirlər. Lakin iqtisadi və sosial səmərəlilik arasında sıx əlaqə mövcud olmasına baxmayaraq sosial səmərəlilik adekvat meyarların və göstəricilərin müəyyənləşdirilməsi və onlardan istifadə edilməsi üçün ayrıca bir mövzudur.

İqtisadi və sosial səmərəliliyin ümumi sosial-iqtisadi səmərəlilik anlayışı şəklində birləşdirilməsi sistemsiz mexaniki göstəricilər toplusunun təkrarlanmasına gətirib çıxarır. Bu isə, təbii ki, obyektiv elmi müqayisələr aparmaq, eləcə də aqrar siyasətdə prioritetlərin və bilavasitə istehsalçılar üçün, eləcə də bütün cəmiyyət üçün ən əlverişli təsərrüfat qərarlarını düzgün seçmək imkanını istisna edir.

İqtisadi səmərəliliyin ümumiləşdirici meyarı kimi müxtəlif iqtisadçılar aşağıdakı göstəricilərdən istifadə etməyi təklif edirlər: məcmu ictimai məhsul, xalis məhsul (faktiki olaraq milli gəlir), izafi məhsul (xalis gəlir, mənfəət).

Məsrəflərin və resursların göstəricilər dairəsi daha genişdir, hərçənd əsas göstəricilər kimi istehsal xərcləri: təsərrüfat hesablı (C+V), xalq təsərrüfatı, tam əsaslı vəsait qoyuluşları (C+V+M), tətbiq edilən istehsal fondları, istifadə edilən bütün resurslar, əvvəlki əmək məsrəfləri, canlı əmək, əməyin konkret növləri və s. göstəricilərin düzgün seçimi səmərəlilik kateqoriyasının konkret olaraq istehsalın hansı səmərəsini ifadə etməsindən asılıdır.

İndiyə qədər səmərənin kəmiyyətinin əsas meyarı kimi ümumi və ya milli gəlirdən istifadə etmək təklif olunur. Bu təklifi onunla əsaslandırırlar ki, milli gəlir istehsal vasitələrinin və işçi qüvvəsi təkrar istehsalın, cəmiyyətin artan tələbatının təmin edilməsinin əsas mənbəyidir. Lakin bu cür sübut cəhdlərini kifayət qədər inandırıcı hesab etmək olmaz. Ən azı ona görə ki, dövlətin milli gəliri və ya təsərrüfatçılıq subyektinin ümumi gəliri istehsal xərclərini, praktiki olaraq bu xərclərin bir elementi olan əmək haqqını da əhatə edir.

Xalq təsərrüfatının səmərəliliyinin təhlilində milli gəlir müvafiq qeyd-şərtlərlə səmərəliliyin meyarı kimi, heç şübhəsiz, böyük əhəmiyyət kəsb edir. Lakin bu cür meyar kimi (özü də maddi istehsalın bütün səviyyələri üçün) xalis gəlir daha çox münasibdir, çünki "faydalı" (yəni məsrəflər çıxılmaqla) mütləq səmərə məhz xalis gəlirdə ifadə olunur.

Bazar yönümlü əsaslı iqtisadi islahatın həyata keçirildiyi indiki şəraitdə səmərəliliyin dəyər göstəricilərinin alternativi yoxdur. Bu həqiqət etiraf edilməsə elmi təhlildə onun obyektivliyinə riayət etmək, səmərəliliyin artmasına təsir göstərən bütün amillərdən məqsədyönlü şəkildə istifadə etməyin mümkünlüyünə və göstəricilərin bir-biri ilə müqayisə edilən olmasına, ilk növbədə iqtisadi amillərin, müstəqil əmtəə istehsalçılarının maraq və stimullarının istifadə edilməsinə nail olmaq mümkün deyil. Bazar münasibətləri mexanizminin kənd təsərrüfatında xüsusi təzahürü nəzərə alınmaqla bu mexanizmin tənzimləyici təsiri altında aqrar iqtisadiyyatın yüksək səmərəliliklə inkişaf etdirilməsinin dünya təcrübəsi bu fikri təsdiq edir. Aqrar siyasətin reallaşdırılması tədbirləri də bu təcrübənin dəstəklənməsinə yönəldilməlidir.

Səmərəliliyin bazar təsərrüfatçılıq mexanizmi vasitəsilə artımının stimullaşdırılması və onun müəyyən edilməsi xüsusiyyətləri bütün aqrar-sənaye sahəsində təzahür edir. Lakin bu xüsusiyyətləri doğuran şərait kənd təsərrüfatında təkrar istehsal prosesinin spesifikası ilə əlaqədardır. Təbii amillərin səmərənin kəmiyyətinə, onun regional diferensiasiyasına təsiri bilavasitə aqrar sferada təzahür edərək bütün aqrar-sənaye istehsalının məcmu iqtisadi səmərəliliyində əks olunur. Kənd təsərrüfatının özündə renta amili torpaq rentası formasında əlavə sabit gəlir yaranması sayəsində iqtisadi səmərənin kəmiyyətində ciddi fərqlər yaranmasına səbəb olur. Fərdi təsərrüfatların müxtəlif formalarının (fermerlərin, şəxsi yardımçı həyətyanı təsərrüfat sahiblərinin) səmərəliliyin artırılmasına töhfəsini obyektiv qiymətləndirmək üçün onun səviyyəsini müəyyən edərkən təbii rentayaradıcı amillərin bu gəlirə təsir dərəcəsini nəzərə almaq lazımdır.

Yalnız səmərəlilik prinsipi bazasında qiymətlərin tarazlaşdırılması çərçivəsində və hər bir məhsul növünün qiymətində optimal rentabellik normasının əks olunması şərti ilə səmərəliliyin faktiki səviyyə göstəricilərini müqayisə etmək mümkün olur və eyni zamanda onun daim artırılması üçün bərabər iqtisadi şərait və bərabər stimullar yaranır.

ASK-da qiymətlərin mövcud nisbəti, artıq qeyd etdiyimiz kimi, bazar iqtisadiyyatı qanunlarına müvafiq deyildir və buna görə də rentabelli iş üçün bərabər şərait təmin edilmir. Qiymətlərin nisbəti kənd təsərrüfatının rentayaradıcı sahə kimi spesifikasını əks etdirmir və məhsulun keyfiyyəti heç də həmişə lazımi dərəcədə nəzərə alınmır. Bazar subyektlərinin inhisarçı cəhdləri nəticəsində qiymət nisbətləri təhrif olunur. Xüsusən təsərrüfatdaxili münasibətlərdə effektivliyi müqayisəli şəkildə təhlil etdikdə normativ dəyər göstəricilərindən və qiymətlərdən, məsələn, müqayisə edilə bilən hesablanmış qiymətlərdən istifadə etmək zərurəti yaranır.

Doğrudan da, əgər bu cür qiymətlər optimal rentabellik prinsipinə əsaslanırsa, onlar səmərəlilik səviyyəsi göstəricilərinin optimal rentabelliyini, bir-biri ilə müqayisə oluna bilməsini təmin edir. Lakin bu prinsip pozulduqda həmin göstəricilər təkrar istehsalın real iqtisadi şəraitini, hətta bu və ya digər dərəcədə müqayisə edilə bilməyəcək real iqtisadi səmərəni belə əks etdirmir.

Əgər qiymətlərin qəsdən aşağı salınması nəticəsində müəssisə zəruri olan mənfəəti əldə etmirsə və ya ziyanla işləyirsə, müqayisəli hesablanmış qiymətdə nəzərə alınmış şərti effekt hesabına kifayət qədər və ya hətta minimal yığım da yaratmaq mümkün deyildir.

Bazar münasibətləri, yeni sahibkarlıq strukturlarının təşəkkülü və təsərrüfatçılıq formalarının müxtəlifliyi şəraitində aqrar istehsalın məcmu səmərəsi təşkilati-hüquqi formaların nisbətindən, onların ən prioritet sayılanlarının konkret təsərrüfatçılıq şəraitinə tətbiqən inkişaf dərəcəsindən bilavasitə asılıdır.

A.V.Çayanovun təbirincə desək, aqrar sahənin təsərrüfat subyektləri keyfiyyət vəziyyətinə görə, başqa sözlə desək, sözün ən geniş mənasında əməyin keyfiyyətinə görə üç qrupa bölünür:

- səmərəli təsərrüfatçılıqla məşğul olmaq istəyən və bunu bacaran təsərrüfatlar;
- təsərrüfatı uğurla idarə etmək istəyən, lakin bunu bacarmayanlar;
- yaxşı çalışmaq və təsərrüfatçılıqla məşğul olmaq istəməyən və bunu bacarmayanlar.

Aqrar sahənin resurs potensialının ümumən artırılması məsələlərinin həlli baxımından aqrar siyasətin oriyentirləri, onun həyata keçirilməsinin konkret tədbirləri və vasitələri ciddi diferensiasiya edilməli, birinci qrupa aid olan, yəni daha səmərəli, buna görə də rentabelli istehsalatın təmin olunması təşkilati, texniki və texnoloji səviyyənin artırılmasına yönəlmiş xüsusi proqramlar çərçivəsində daha artıq dərəcədə dəstəklənməlidir. Bu cür təsərrüfatların sayı onların torpaq sahələrinin həcminə görə cəmi 15-20% olduqda belə onlar kənd təsərrüfatının əmtəə məhsullarının əsas tədarükçülərinə çevrilə bilərlər.

İkinci qrupa aid təsərrüfatlara münasibətdə gəlirlərin lazımi səviyyədə saxlanılması üçün görülən tədbirləri kadr tərkibinin yaxşılaşdırılması, insan amilinin keyfiyyət vəziyyətinin ümumən təkmilləşdirilməsi, səmərəli təsərrüfatçılıq bacarığının artırılması tədbirləri ilə əlaqələndirmək, büdcədən ayrılan məqsədli vəsaitin həcmini bu bacarıqlardan asılı olaraq müəyyən etmək məqsədəuyğundur.

Səmərəli təsərrüfatçılıqla məşğul olmağı bacarmayan və bunu istəməyən, yarınatural istehsalatla məşğul olan təsərrüfatlara gəldikdə isə, burada institusional dəyişikliklər edilməsi, fəaliyyət növlərinin dəyişdirilməsi, hətta kənd təsərrüfatı ilə əlaqədar olmayan fəaliyyət növlərinə istiqamətlənmə zəruridir.

Təbii ki, bütün bunlar kənd yerlərində çoxfunksional həyat fəaliyyətinin zəruri iqtisadi və sosial şəraitinin yaradılması üçün aqrar siyasətin ümumi strategiyasının həyata keçirilməsində selektiv yanaşmaların ümumi istiqamətləridir.

Postsovet ölkələrinin bir çoxunda kəndin sosial inkişafının vəziyyəti böhranlı vəziyyət kimi qiymətləndirilir. Bu vəziyyətin əsaslı şəkildə yaxşılaşdırılması dövlətin həyati əhəmiyyət kəsb edən vəzifələrindən biridir. Sosial effektivlik bütün qeyri-istehsal sahəsinin həyati əhəmiyyət kəsb edən tərkib hissəsi kimi sosial sistemin fəaliyyətinin səmərəliliyinin konkret ifadəsidir (həm mahiyyət etibarı ilə, həm də kəmiyyət və keyfiyyət təhlilinin metodologiyasına, meyarlarına və göstəricilərinə görə).

Sosial sfera əhalinin mədəni, məişət və digər sosial ehtiyaclarını - təhsil, səhiyyə, sərnişin nəqliyyatı, rabitə, pensiya və sığorta təminatı, ticarət və ictimai iaşə obyektlərinin məcmusu və s. -təmin edən sahələri və xidmətləri əhatə edir. Sosial sferanın iqtisadiyyatının əsas tədqiqat obyektləri bu sferaya aid sahələrdə mülkiyyət, həmin obyektlərdə əmək münasibətləri, əməyin növü, xarakteri və keyfiyyəti nəzərə alınmaqla onun ödənilməsi, maliyyə, bölgü və təsərrüfat münasibətlərinin başqa formalarıdır. İnkişafın səmərəliliyinin konkret göstəriciləri həm ayrı-ayrı sahələrdə, həm də bütövlükdə sosial sferada hesablana bilər.

Hərçənd, iqtisadi səmərəlilikdən fərqli olaraq sosial effektivliyin ümumiləşdirici sintetik göstəricisini, xüsusən dəyər ifadəsində müəyyən etmək daha mürəkkəbdir və heç də həmişə mümkün olmur. Bir sıra hallarda bu hesablamalar yalnız təqribi, təxmini xarakter daşıyır.

Bazar şəraitində iqtisadi səmərənin, yəni maksimum mənfəətin əldə edilməsində bazarın özünütənzimləmə funksiyaları və dövlətin əlavə tənzimləyici rolu həlledici əhəmiyyət kəsb etdiyi halda, sosial səmərə heç də həmişə bilavasitə mənfəət əldə edilməsi ilə bağlı deyildir və o, bazar özünütənzimləmə sistemi vasitəsilə artırıla bilər. Burada dövlət tənzimləməsi rıçaqları və vasitələri həlledici əhəmiyyətə malikdir. Məsələn, təhsil üçün sərmayə qoyulması həm də mən-

fəət əldə edilməsinə şərait yaradacaqdır.

Lakin təhsil prosesi dövründə, xüsusən ümumi təhsildən söhbət gedirsə, mənfəəti deyil, xərcləri hesablamaq lazım gəlir. Kadrların marketinqə, bazar sahibkarlığı qaydalarına, yeni texnologiyalara yiyələnməsi ilə əlaqədar xüsusi hazırlıq və təkrar hazırlıq hesabına daha qısa müddətdə səmərə əldə etmək olar. Eyni sözlər sosial sferanın başqa sahələrinə də aiddir. Onlardan bəziləri (mənzil-kommunal şəraiti, yol-nəqliyyat xidməti və telefon rabitəsi, mədəniyyət obyektləri və s.) birbaşa mənfəət verməsələr də, nəticə etibarı ilə rentabelliyə bu və ya digər dərəcədə təsir göstərirlər, çünki onların inkişaf etməsi hesabına əmək şəraitinin və həyat keyfiyyətinin yaxşılaşması bilavasitə iqtisadi göstəricilərdə öz əksini tapır.

Sosial sferanın həyat səviyyəsi anlamı, ilk növbədə əməyin maddi mükafatlandırılma dərəcəsi, xüsusən əgər o iqtisadi səmərəliliyi təsdiq edən ümumiləşdirici və ya konkret məlumatlarla bağlıdırsa, onlar həmin göstəricilərə, o cümlədən iqtisadi effektivliyə birbaşa və daim təsir edir.

Mahiyyət etibarilə əməyin ödənilməsi həm iqtisadi, həm də sosial effektivliyin artmasına təsir göstərən amil kimi çıxış edir. Halbuki, sosial sferanın başqa elementləri iqtisadi və sosial obyektə dolayı yolla təsir göstərir, özü də bu təsir çox vaxt uzun müddətdən sonra təzahür edir. Burada "məsrəflər-nəticələr" prinsipi əsas istehsal fondlarının passiv hissəsinə əsaslı vəsait qoyuluşlarına analoji qaydada reallaşır.

Konkret sosial-iqtisadi vəziyyətdən, məsələn, dövlət üçün təhlükəli olan deqradasiya proseslərindən, aqrar istehsalatda və kənd yerlərinin ümumi vəziyyətində reqressiv meyillərdən asılı olaraq aqrar siyasətin prioritetləri tamamilə qanunauyğun olaraq sosial sfera sahələri tərəfə yerini dəyişə bilər və bu cür yerdəyişmə baş verməlidir. Lakin bu sferanın inkişafında prioritetlərin, o cümlədən sosial sferanın bu və ya digər sahəsinə həm cari dövrdə, həm də son nəticədə yönəldilən resursların səmərəsini nəzərə alan prioritetlər seçilməlidir.

Başqa sözlə desək, iqtisadi səmərəlilik meyarı həmişə aqrar siyasətin həlledici oriyentiri, o cümlədən sosial inkişaf sahəsində bu siyasətin məqsədi olaraq qalmalıdır. Lakin sosial sferaya sərmayə qoyuluşundan alınan iqtisadi səmərəni təyin etməkdən əvvəl adekvat metodik yanaşmadan istifadə etmək və ən azı bilavasitə sosial effektin təxmini hesabatını aparmaq lazımdır.

Məsələn, kənddə səhiyyənin səmərəliliyi insanların səhhətinin vəziyyəti barədə konkret göstəricilərlə ölçülə bilər, hərçənd o, bir sıra amillərdən (qidalanmanın səviyyəsindən və keyfiyyətindən, sağlam həyat tərzindən və s.) asılıdır. Buna görə də həmin göstəricilər yalnız təxmini hesablana bilər. Eyni qayda ilə kəndin sosial sferasının bu sahəsinə sərmayə qoyuluşlarının iqtisadi səmərəsi təxmini hesablana bilər.

Sosial sferanın sahələri üzrə və hətta bütövlükdə sosial sfera üzrə (məcmu sosial effektin təyin edilməsinin metodiki cəhətdən mürəkkəb olması nəzərə alınmaqla) səmərəlilik meyarları və göstəriciləri müxtəlif şəkildə əsaslandırılır və bu barədə yanaşmalar müxtəlifdir. Məsələn, belə hesab edirlər ki, sosial səmərənin ifadəsi sosial sferaya sərmayə qoyuluşlarının insanların bilik və mədəniyyət səviyyəsinin artmasına, onların sağlamlığının möhkəmlənməsinə, asudə vaxtlarının çoxalmasına şərait yaradır. Əvvələn, aydın deyil: nə üçün sosial sfera barədə bu cür məhdud təsəvvür yaradılır? İkincisi, effektivlik bu və ya digər səmərəliliyə "şərait yaradılması" demək deyildir, onun konkret ifadəsi məsrəflərin müəyyən nisbəti və bu nisbət əsasında əldə edilmiş nəticələr deməkdir (əvvəlcə sosial nəticələr, sonra isə onların şərtləndirdiyi iqtisadi nəticələr).

İnsanların səhhətinin yaxşılaşması, onların təhsil səviyyəsinin artması, insana rahat və əlverişli mənzil şəraiti, müasir kommunal xidmətlər, kənd yaşayış məntəqələrinin ərazisində abadlıq və s. məsələləri kəmiyyətcə qiymətləndirmək çox çətin, bəzən də qeyri-mümkün olur. Buna görə də sosial amillərin iqtisadi effektə təsirindən danışmağa dəyər, hərçənd bu təsirin dərəcəsini müəyyən etmək də çətindir. Görünür, bunu etmək mümkündür, çünki aparılmış hesablamalara görə təhsil üçün çəkilmiş xərclərin hər vahidi son nəticədə bir qədər artıq dəyərə malik olan məhsul artımını təmin edir.

Sosial səmərəlilik başqa gostəricilərlə yanaşı kənd təsərrüfatı işçilərinin əmək haqqının artmasında ifadə olunur. Ümumi oriyentir isə mənfəəti və rentabelliyi artırmaqdan ibarətdir. Digər tərəfdən, sosial sferaya sərmayə qoyuluşu istehsal sferası ilə müqayisədə həmişə iqtisadi

cəhətdən daha az səmərəli olur. Lakin bütün hallarda insan amilinin fəallaşmasına bilavasitə təsir göstərən sosial effekt əldə ediləcək, o isə insan amilinin fəallaşmasına və nəticə etibarı ilə, kənd təsərrüfatı istehsalının iqtisadi səmərəliliyinə bilavasitə təsir göstərir.

Sosial səmərəlilik də iqtisadi səmərəliliklə yanaşı aqrar siyasətin xüsusi prioriteti kimi obyektiv şərtlənir. Bəs sosial səmərəlilik nə dərəcədə reallaşır, bu prioritetin lazımınca qiymətləndirilməməsinin və ya ona məhəl qoyulmamasının səbəbləri nədən ibarətdir, kəndin sosial sferasının (elə istehsal sferasının da) inkişafı üçün dövlət resurslarının məhdud olması nəzərə alınmaqla bu səbəbləri necə aradan qaldırmaq olar? Müasir dövrdə bu mühüm məsələlər həm dövlət strukturlarından, həm də iqtisad elmindən cavab gözləyir.

Aygün Eldar qızı QULİYEVA,
Azərbaycan Kooperasiya Universitetinin
"Dünya iqtisadiyyatı" kafedrasının dosenti,
iqtisad üzrə fəlsəfə doktoru

REGİONLARIN İNVESTİSİYA POTENSİALININ İNKİŞAFININ İQTİSADİ VƏ İNSTİTUSİONAL ASPEKTLƏRİ

Aparılmış tədqiqatların nəticələrindən və qabaqcıl təcrübənin təhlilindən göründüyü kimi,investisiya potensialının formalaşmasının tempi və həmin potensialdan istifadənin səmərəliliyi, regionların sosial-iqtisadi inkişafının tempi və miqyasını müəyyənləşdirən mühüm amillərdəndir. İnkişafın bütün əsas komponentlərində müsbət dinamika şəraitində regional fərqləriminimuma endirmək dövlətin iqtisadi siyasətinin prioriteti olduqda məcmu sosial-iqtisadi səmərəliliyin qiymətləndirilməsində regional inkişafın tarazlığı (iqtisadi mərkəzəqaçma proseslərinin tənzimlənməsi) meyarı önə çəkilməlidir.

İnvestisiya siyasətində ölkədaxili regionlar arasındakı fərqləri azaltmaq istiqamətində görülən tədbirlər, iqtisadi məqsədəuyğunluq və sosial rifahın yüksəldilməsi meyarları üzrə, tarazlı inkişafın konseptual tələbləri və strateji hədəfləri nəzərə alınmaqla işlənib hazırlanmalı və həyata keçirilməlidir. Regional investisiya layihələrinin qiymətləndirilməsi prosesində iqtisadi və institusional aspektlər vahid müstəvidə araşdırılmalı, onların birgəliyi məsələləri diqqət mərkəzində olmalıdır. Bu və digər səbəblərdən investisiya potensialının tarazlı regional inkişafa yönəldilməsinin iqtisadi və institusional məsələləri xüsusi aktuallıq kəsb edir.

Məlim olduğu kimi, regional inkişaf tarazlı və qeyri-tarazlı (disbalans) ola bilər. Təcrübədə dövlət tənzimlənməsi və tarazlı inkişaf kursu arasında əlaqələrdən yararlanma halları daha çoxdur. Bununla belə, regional inkişaf tarazlı və qeyri-tarazlı inkişaf konsepsiyaları arasında konsensusun tapılması istiqamətindəelmi-nəzəri tədqiqatlar aparılır və onların təcrübi reallaşdırılması üçün davamlı cəhdlər edilir. Eyni zamanda regionların investisiya potensialının reallaşdırılmasında da konsensus variantlarına üstünlük verilməsi də heç də nadir hal deyildir.

Tarazlı regional inkişaf investisiyaya tələbatın müəyyənləşdirilməsindən tutmuş, müvafiq potensialın istifadə səmərəliliyinin qiymətləndirilməsinə qədər bütün mərhələlərdə özünəməxsus tələblər qoyur. Bu tələblərin böyük əksəriyyəti struktur investisiya siyasətində nəzərə alınır. İnvestisiya potensialının tarazlı regional inkişafa yönəldilməsi məsələlərinin həllində struktur investisiya siyasətinin roluna lazımi diqqət yetirilməlidir. "İnvestisiyanın iqtisadiyyatın inkişafına və istehsalın artımına təsirini araşdırarkən, struktur investisiya siyasətinin formalaşması zərurəti ilə qarşılaşırıq. Prioritet investisiyalaşmanın struktur siyasətində kapitalın cəlb edilməsi, səfərbər olunması, transformasiyası və prioritet layihələrə yönəldilməsi və s. ilə əlaqədar problemlər meydana çıxır" [1, s. 43]. Qeyd olunan problemlərin həllində, təcrübədən göründüyü kimi, regional inkişaf üzrə dövlət proqramlarının tədbirlər planının bütün əsas mərhələlərdə tarazlıq meyarlarına uyğunlaşdırılması cəhdləri əhəmiyyətli rol oynaya bilir.

Artıq qeyd edildiyi kimi, investisiya siyasətində regionlararası fərqləri minimumalşdırmaq üçün görülən tədbirlərtarazlı inkişafın konseptual tələbləri və strateji hədəfləri nəzərə alınmaq-

la işlənib hazırlanaraq icra edilməlidir. Bu halda, əksər mütəxəssislər tərəfindən qəbul edilən icra indikatorlarının müəyyən edilməsi, həmin indikatorların köməyi ilə hədəfə doğru hərəkətin xarakteristikalarının kəmiyyətcə qiymətləndirilməsi, regional investisiya siyasətinin iqtisadi və institusional aspektlərini vahid müstəvidə araşdırmağa imkan verir.

Tarazlıq və inkişaf anlayışlarına, onların alternativliyini iddia edənlərin mövqeyindən deyil, həmin anlayışların bir-birini tamamlaması aspektində yanaşma, zənnimizcə, daha məhsuldar hesab edilməlidir. Məsələ ondadır ki, müasir anlamda regionların inkişafındakı tarazlıq, inkişafın temp və miqyasını yuxarıdan məhdudlaşdırmağı nəzərdə tutmur. Əlbəttə, region və şəhər iqtisadiyyatı bir müstəvidə araşdırıldıqda, urbanizasiyanın arzuolunmaz intensivliyinin qarşısının alınması tədbirlərində bir sıra məkan və qismən zaman məhdudiyyətləri nəzərdə tutulur.

Dayanıqlı və tarazlı regional iqtisadiyyatın investisiyalaşdırılması tədbirlərinin prioritetləşdirilməsində ekoloji amilin rolu get-gedə artır. Ekoloji iqtisadiyyat artım iqtisadiyyatından yaşıl iqtisadiyyata keçid mərhələsi kimi qəbul edilməsi, investisiya proseslərinin ekoloji-iqtisadi tənzimlənməsinin fəallaşdırılması zərurətini ortaya qoyur. Bu və digər səbəblərdən, investisiya potensialından istifadə və tarazlı regional inkişaf vektorlarının əsaslandırılması məsələlərinə birgə baxış zamanı artım iqtisadiyyatının deyil, yaşıl iqtisadiyyatın tənzimlənməsi prioritetləri önə çəkilməlidir.

Son onilliklərdə ənənəviartım iqtisadiyyatı adını almış sistemdən fərqli olaraq yaşıl iqtisadiyyatda əsas amillər sırasında "öndə biosferin vəziyyəti və cəmiyyət, daha sonra isə istehsal və istehlak durur. Yaşıl və artım iqtisadiyyatı arasındakı ziddiyyət bu və digər səbəblərdən yaranır ki, onlar da insanın cari və perspektiv rifahı arasındakı seçimdə ifadə olunur. Yaşıl iqtisadiyyat, sözün həqiqi mənasında cari və perspektiv inkişafın üzvi vəhdətini, artım iqtisadiyyatı isə cari rifahı ödəməklə, gələcəkdə onun daha yüksək səviyyəyə çatdırılmasını nəzərdə tutur" [2, s. 21]. Məsələ ondadır ki, insanın sağlamlığını önə çəkən yaşıl iqtisadiyyat, bunu həlledici dərəcədəbiosferin və biomüxtəlifliyin qorunması, ətraf mühitin sağlamlaşdırılması və texnogen təsirlərin minimuma endirilməsi hesabına əldə etməyi nəzərdə tutur.

Keçmiş SSRİ-də həyata keçirilən mərkəzləşdirilmiş iqtisadi siyasət kursu şəhər və kənd, habelə regionlar arasında fərqlərin azaldılmasına yönəldiyi bəyan edilsə də, əslində bu siyasət respublika iqtisadiyyatının, habelə aqrar sahənin birtərəfli inkişafına səbəb olmuşdur. Keçmiş ittifaqın əmək bölgüsü sisteminə uyğun olaraq həyata keçirilən aqrar siyasət bir çox sahələrdə, xüsusilə keçən əsrin 70-80-ci illərində böyük uğurlarına baxmayaraq, Azərbaycanın ərzaq təhlükəsizliyinin təmin etmək vəzifəsini qarşısına qoymamışdı. Odur ki, müasir dövrdə tarazlıregional inkişaf konsepsiyasının hazırlanması və reallaşdırılması prosesində bir neçə amilə, o cümlədən 70 ildən artıq davam edən mərkəzləşdirilmiş iqtisadi siyasətin nəticələrinə və qloballaşma şəraitinin tələbləri nəzərə alınmaqla milli ərzaq təhlükəsizliyinin təmin edilməsi zərurətinə xüsusi diqqət verilir.

Müstəqilliyin bərpasından sonra Azərbaycanda yürüdülən regional siyasətdə, xüsusilə XXI əsrin ilk illərindən başlayaraq tarazlı inkişaf xəttinə, daha əyani surətdə üstünlük verilmişdir. Eyni zamanda nəzərə alınır ki, sivil bazar münasibətləri şəraitində, intensivləşən urbanizasiya prosesləri iqtisadi mərkəzəqaçma meyillərini nəzərə almalıdır. İri şəhərlərdə, mövcud və formalaşan sənaye mərkəzlərində, qismən onlara yaxın ərazilərdə investisiya fəallığının yüksək olması, müasir dövrün reallığıdır. Bu və digər amillər investisiya potensialından istifadə zamanı tarazlı inkişaf meyarlarının və onların tətbiqi ilə əsaslandırılmış inkişaf prioritetlərinin reallaşdırılma mühitini araşdırmağı tələb edir. Haqqında danışılan mühit tarazlı regional inkişaf tələblərinə cavab verən normativ-hüquqi bazanın möhkəmləndirilməsini, o cümlədən, yığımların investisiyaya çevrilməsinin normativ-hüquqi bazasının təkmilləşdirilməsini nəzərdə tutur. Digər və heç də bundan az əhəmiyyət kəsb etməyən məsələ, ölkə ərazisində məhsuldar qüvvələrin yerləşdirilməsinin məcmu səmərəliliyini təmin edən amillərin təsirinin kompleks şəkildə qiymətləndirilməsidir.

Ölkəmizdə "regional siyasətin qarşıya qoyduğu strateji məqsədlərə çatmaq üçün qarşıda duran əsas vəzifə bütün respublikadaxili iqtisadi rayonların əmək ehtiyatlarından, istehsalın maddi ünsürlərindən, müxtəlif təbii ehtiyatlarından, iqlim şəraitindən, maliyyə imkanlarından, xarici investisiya və elmi-texniki potensialdan səmərəli istifadə etməklə müxtəlif təsərrüfatçılıq for-

malarının inkişafına və respublikanın iqtisadi rayonlarında daha səmərəli yerləşməsinə nail olmaqdır"[3, s.119].

Qabaqcıl xarici təcrübədən göründüyü kimi,tarazlı regional siyasətin prioritetləri, elmi-texniki potensialın reallaşdırılması mühitinin formalaşmasının tempi və miqyasına ciddi təsir edə bilir. Belə ki, həmin prioritetlərin innovasiyalı tarazlı inkişafa, onun investisiyalaşmasına, ümumilikdə investisiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə, bu və ya digər regionun investisiya cəlbediciliyini nəzərə alan mexanizmin formalaşdırılmasına xidmət etməsi texnoloji, ekoloji və digər xarakterli yeniliklərin reallaşdırılmasında məqsədli investisiya proqramlarının yeri və rolunu müəyyənləşdirməyə imkan verir.

İnvestisiya potensialının tarazlı regional inkişafa yönəldilməsinin iqtisadi və institusional problemlərinin həllində proqram-məqsədli yanaşmanın rolu, hər şeydən əvvəl ortaq potensiallı regionların sosial-iqtisadi inkişaf imkanlarına inteqral yanaşmanı mümkün edir. Digər tərəfdən, rəqabət mühitini dəstəkləyən proqram- məqsədli yanaşma, regional istehsal komplekslərində çoxtəyinatlı infrastruktur elementlərinin imkanlarını səfərbər edir. Tarazlı regional inkişaf baxımından investisiya potensialından səmərəli istifadə məşğulluq və investisiya siyasətinə vahid müstəvidə yanaşma tələb edir.

İqtisadi məqsədəuyğunluğun insanların rifahının yüksəldilməsi tələbləri baxımından regional səviyyədə təcrübi qiymətləndirilməsi üzrə məlum yanaşmalar, natamam informasiya şəraitində, bir qayda olaraq qənaətbəxş nəticələr vermir. Bununla belə, qeyd etmək lazımdır ki, regionların sosial və iqtisadi inkişafının üzvi vəhdətinin əldə edilməsi istiqamətində, daha əhəmiyyətli və əyani nəticələr investisiyaların səmərəliliyinin məhz ayrı-ayrı regionlarda məşğulluq aspektində qiymətləndirilməsi zamanı əldə edilir. Regionun müqayisəli üstünlüklərinin reallaşdırılmasında innovasiyalı-intensiv inkişafın artan rolu şəraitində investisiya potensialının formalaşması və ondan istifadənin səmərəliliyində kadr təminatının keyfiyyət xarakteristikaları həlledici əhəmiyyət kəsb edir. Odur ki, Azərbaycan Respublikasının regional inkişaf proqramlarında kadr təminatının, müasir tələblər baxımından yeni hesab edilən keyfiyyət səviyyəsinin əldə edilməsi şəhərlərin və regionların investisiya potensialının reallaşmasının prioritet istiqaməti hesab edilmişdir.

Regional iqtisadiyyatın istiqamətlər üzrə təhlili müxtəlif aspektlərdə (iqtisadi, texnoloji, ekoloji və i.a.) fəaliyyət inteqrasiyası effektinə münasibət bildirməyə imkan verir. Son iki onillikdə dövlət və özəl bölmə tərəfdaşlığı fəaliyyət inteqrasiyası effektinin vacib amili kimi önə çəkilir. Belə ki, tarazlı regional inkişaf üzrə məqsədli proqramların birgə maliyyələşdirilməsi, özəl bölmə və yerli özünüidarəetmə orqanları arasında qarşılıqlı fəaliyyətdə öhdəliklərin bölüşdürülməsinin optimal rejiminin təmin edilməsi investisya potensialından istifadənin iqtisadi və institusional səmərəliliyinin yüksəldilməsi imkanlarını nəzərə çarpacaq dərəcədə genişləndirir. Həmin imkanlar, hər şeydən əvvəl:

- resursqoruyucu və bərpa olunan enerji mənbələrindən istifadəni nəzərdə tutan texnologiyaların geniş tətbiqində;
- ölkənin və onun ayrı-ayrı iqtisadi rayonlarının investisiya cəlbediciliyinin yüksəldilməsində;
- investisiya proseslərinin şəffaflığının artırılmasında;
- dayanıqlı inkişafın innovativliyində və i.a. öz ifadəsini tapır.

Tarazlı inkişafın investisiya potensialından istifadə mühitinə qarşı qoyduğu tələblər qismində, inkişafın müasir mərhələsində regional fərqlərin və onların aradan qaldırılması üzrə imkanların qiymətləndirilməsi, həmin imkanların gerçəkləşdirilməsi baxımından Azərbaycanın ayrı-ayrı iqtisadi rayonlarında investisiya artımı sürətinin tənzimlənməsi xüsusi qeyd olunmalıdır.

İnvestisiya potensialının tarazlı regional inkişafa yönəldilməsinin iqtisadi məqsədəuyğunluğu, ilk növbədə, aşağıdakı hallarda təmin olunur:

-iqtisadi mərkəzəqaçma effektini nəzərə alan regional investisiya siyasətinin prioritetlərinin hərtərəfli əsaslandırılması, o cümlədəniqtisadi- ekoloji səmərəliliyi qiymətləndirməyə imkan verən göstəricilər sisteminin müəyyənləşdirilməsi. Həmin göstəricilər iqtisadi mərkəzəqaçma amilinin tarazlı regional inkişafa mənfi təsirinin neytrallaşdırılması imkanlarını və onların gerçəkləşdirilməsi yollarını müəyyənləşdirməyə xidmət etməlidir. Həmin yollar qismində region-

larda biznes mühitinin yaxşılaşdırılması, əhalinin sosial sifarişlərinə vaxtında və lazımi cavab verilməsi, habelə, regionlarda innovasiya fəallığının dəstəklənməsi qeyd edilməlidir;

- investisiya mühitinin, iqtisadi təhlükəsizlik tələblərinə cavab verməsinə, daxili və xarici investorların maraqları baxımından əlverişliyinə və regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə xidmət edən tənzimləmə sisteminin formalaşdırılması;

- regional investisiya layihələrinin maliyyələşdirilməsi prosesinin səmərəliliyinin tarazlıq və ahəngdarlıq meyarları əsasında monitorinqinin nəticələrinin müsbət olması;

- tarazlı və dayanıqlı inkişaf xarakteristikalarının birgə yaxşılaşdırılması tələblərinə riayət edilməsi.

İnvestisiya potensialının tarazlı regional inkişafa yönəldilməsi imkanlarını müəyyənləşdirmək üçün start vəziyyəti qiymətləndirilməli, mövcud investisiya resurslarından çıxış edərək regional tarazlığın məqbul səviyyəsi proqnozlaşdırılmalı, həmin səviyyənin iqtisadi və sosial xarakteristikaları, məcmu və proqram-məqsədli inkişaf meyarları üzrə dəyərləndirilməlidir.

Artıq qeyd edildiyi kimi, Azərbaycan Respublikası Prezidentinin 2004-ci il 11 fevral tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının regionlarının sosial - iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" və Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2009-cu il tarixli fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial - iqtisadi inkişafı Dövlət Proqramı"uğurla icra olunmuş, tarazlı regional inkişaf kursu ölkə başçısının 27 fevral 2014-cü il tarixli fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın həyata keçirilməsi ilə davam etdirilir. Görülmüş olduqca böyük və geniş miqyaslı işlər, bütün regionları əhatə edən modern infrastruktur şəbəkəsi tarazlı regional siyasətin uğurları olmaqla, milli miqyasda dayanıqlı inkişaf tələblərinə adekvat investisiya mühitinin formalaşmasını sürətləndirir. Bu proses ayrı-ayrı regionların investisiya cəlbediciliyindəki fərqləri azaltmaqla, ölkəyə investorların marağının daha da artması ilə müşayiət olunur. Eyni zamanda, tarazlı regional inkişafın strateji məqsədləri uzun müddəti əhatə edən fəaliyyət proqramı üzrə əldə olunur. Son onillikdə"regionların inkişafında mövcud olan kəskin fərqlər azalır. Lakin unutmaq olmaz ki, bu fərqlər uzun illər ərzində yaranmışdır və onların imkan daxilində aradan qaldırılması üçün çox vaxt tələb olunur"[4, s. 46].

Məşğulluğun səviyyəsindəki regional fərqlərin aradan qaldırılmasında sahibkarlıq amilinin roluna lazımi diqqət yetirilir.Sahibkarlıq subyektlərinin inkişafında prioritet istiqamətlərin müəyyənləşdirilməsi zamanı, bir sıra digər tələblərlə yanaşı rəqabət qabiliyyətinin yüksəldilməsi və tarazlı inkişaf tələbləri önə çəkilmişdir. Haqqında danışılan dövlət proqramının həyata keçirildiyi dövrdə sahibkarlığa dövlət dəstəyinin mexanizmi təkmilləşdirilmiş, o cümlədən müxtəlif mənbələrdən sahibkarların güzəştli kreditləşdirilməsi üzrə, ekspertlər tərəfindən səmərəlihesab edilən mexanizm formalaşdırılmışdır. Həmin mexanizmdə imkanları artmaqda olan Sahibkarlığa Kömək Milli Fondunun özünəməxsus rolu danılmazdır. Ümumilikdə həmin fondun vəsaitləri hesabına 2004-2008-ci illər ərzində 6991 sahibkarlıq subyektinə 323,4 milyon manat kredit təqdim olunmuşdur.

İnvestisiya potensialının tarazlı regional inkişafa yönəldilməsində bankların artan rolu, müvafiq şəbəkənin formalaşması ilə müşayiət olunmuşdur. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)"nın həyata keçirilməsi dövründə ölkənin müxtəlif rayonlarında 567 filial və 99 bank şöbəsi müvəffəqiyyətlə fəaliyyət göstərmişdir.

"Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial - iqtisadi inkişafı Dövlət Proqramı" nda qarşıya qoyulmuş məqsədə nail olmaq üçün, o cümlədən ölkənin təbii və əmək potensialından səmərəli istifadə etməklə qeyri-neft bölməsinin üstün inkişafı təmin edilmiş, infrastruktur təminatı yaxşılaşdırılmış, regional iqtisadiyyatın inkişafına investisiyaların cəlb olunması üzrə tədbirlər davam etdirilmişdir.İki proqramın həyata keçirilməsi dövründə Azərbaycana olduqca böyük miqdarda 160 milyard dollar investisiya cəlb olunmuşdur. Respublika qısa müddət ərzində daxili investisiya imkanlarını dəfələrlə gücləndirmişdir. "Daxili sərmayələr artıq xarici sərmayələri üstələyir. Bu da çox müsbət haldır. Düzdür, daxili sərmayələrin tərkibində dövlət investisiya xərcləri hələ ki, üstünlük təşkil edir. Bu da təbiidir. Çünki infrastruktur

layihələri və ölkə iqtisadiyyatı üçün lazım olan digər proqramlar icra edilir. Ancaq özəl sektor da Azərbaycana investisiya qoyuluşunu artırır. Bu da ilk növbədə, ölkəmizdə hökm sürən sabitliyin hesabınadır və özəl sektorun Azərbaycanın gələcəyinə inamının təzahürüdür. Ona görə əminəm ki, gələcək illərdə investisiyanın həcmi, qoyulan sərmayə azalmayacaqdır. Çünki görüləsi işlər çoxdur"[5].

Regionların tarazlı inkişafı siyasətinin rellaşdırılmasının institusional təminatı investisiya potensialından istifadə prioritetlərinin həyata keçirilməsi mühitinə ilkin tələblər qoyur. Həmin tələblərə aşağıdakılar aid edilməlidir:

- dövlət satınalmaları üzrə mükəmməl institusional strukturun yaradılması, çünki istehsala dövlət sifarişi regionların tarazlı inkişafında mühüm rol oynayır;
- institusional dekompozisiya prosesinin dönərli olması;
- idarəetmə strukturunun dayanıqlı inkişafa adekvatlığı;
- institusional şəbəkənin fəaliyyətinin tənzimlənməsində regional iqtisadi mərkəzlərin rolunun daha da konkretləşdirilməsi;
- investisiya potensialının tarazlı regional inkişaf tələblərinə cavab verən, o cümlədən dinamik müvazinətin nisbi davamlılığını təmin edən institusional strukturun formalaşdırılması;
- institusional təminatın formalaşmasında texniki-texnoloji sistemlərin modernləşdirilməsinin investisiya prioritetlərinin əsaslandırılması;
- regional inkişafdatarazlıq, idarəetmədə, ahəgdarlıq və operativlik tələblərinə cavab verən institusional strukturun mövcudluğu və i.a.

İnvestisiya potensialından tarazlı regional inkişafa yönəlmiş vəsaitinin istifadəsi üçün institusional təminatda, təşkilati idarəetmə sisteminin strukturunda istehsalat - ərazi prinsipi nəzərə alınır. Məlum olduğu kimi, ənənəvi təsərrüfatçılıq sistemində "istehsal bölmələrinin idarə edilməsi qəbul edilmiş təşkilat quruluşuna uyğun istehsalat - ərazi prinsipi əsasında qurulmuşdur. Təsərrüfatın təşkilat quruluşunu onun ayrı-ayrı bölmələrinin cəmi təşkil edir. Sahibkarlıq təsərrüfatlarında idarəetmənin təşkilat forması və quruluşu, onun yerləşdiyi təbii şəraitə uyğun olmaqla, təsərrüfatın ixtisaslaşdırılması və təmərküzləşdirilməsinə, kənd təsərrüfatının sənaye əsasına keçirilməsinə, müasir idarəetmə üsullarının tətbiqinə şərait yaratmalıdır" [6, s. 276].

Regionun tarazlı inkişafına yönəlmiş investisiya siyasətində, investisiya potensialından istifadə zamanı bu və ya digər regionun sosial-iqtisadi inkişafında aparıcı rola malik sahələr müəyyənləşdirilməlidir. Regionda investisya strategiyası prioritetləri həmin sahələrin seçimində nəzərə alınır. Bu və ya digər sahənin innovasiyalı inkişafı imkanları, daha dəqiq desək, multiplikasiya effekti yaratma imkanları, onun regionun inkişafındakı rolunun qiymətləndirilməsinin mühüm göstəricisi olmalıdır. Haqqında danışılan imkanların reallığımüasir texnologiyaların tətbiqi, rəqabətin dəstəklənməsi, məcmu istehsal məsrəflərinin səviyyəsindən, ümumilikdəortaq potensiala malik regionlarda innovasiyaların investisiyalaşdırılması vəziyyətindən asılıdır.

Nəhayət, investisiya potensialının tarazlı regional inkişafa yönəldilməsinin iqtisadi və institusional aspektlərinin birgəliyini təmin edən mühiti müxtəsər surətdə xarakterizə edək. İlk növbədə, bu baxımdan ərazi planlaşdırmasının elmi təminatının yaxşılaşdırılması istiqamətində həyata keçirilməli tədbirlərin rolu qeyd edilməlidir. Kompleks xarakterli həmin tədbirlərin nəticəsində regionun investisiya potensialından istifadə səmərəliyinin yüksəldilməsi təmin edilməli, bu məqsədlə isə istehsal-kommersiya fəaliyyətinin ərazi planlaşdırması çoxmeyarlı əsasda ssenariləşdirilərək həyata keçirilməlidir. Haqqında danışılan meyarlar arasında səmərəlilik, rəqabət mühitinin sağlamlaşdırılması və dövlətin tənzimləyici təsirlərinin milli və regional səviyyədə vəhdəti önə çəkilməlidir.

İnvestisiya potensialının tarazlı regional inkişafa yönəldilməsinin iqtisadi və institusional aspektlərinin birgəliyini təmin edən mühitin formalaşmasında proqram- məqsədli yanaşma, konkret halda Azərbaycanda həyata keçirilən regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramları və onların icrası üçün hazırlanmış tədbirlər planının həyata keçirilməsi həlledici rol oynayır. Belə ki, həmin proqramların icra müddəti və əsas icraçıların müəyyənləşdirildiyi tədbirlər planında ölkə əhəmiyyətli tədbirlər sırasında vergi və pul-kredit siyasəti, sənaye və kənd təsərrüfatı istehsalının genişləndirilməsi, ekologiya və təbii sərvətlərdən istifadə, yol təsərrüfatı

və nəqliyyat, elektrik enerjisi, istilik və qaz təchizatı, rabitə xidmətlərinin yaxşılaşdırılması, meliorasiya və irriqasiya, əhalinin təhlükəsizliyi və sosial müdafiə tədbirlərinin kompleks şəkildə həyata keçirilməsi nəzərdə tutulur.

Sadalanan ölkə əhəmiyyətli tədbirlərin hər bir qrupu geniş spektrli və kompleks halda reallaşdırılması nəzərdə tutulan fəaliyyəti əhatə edir.Deyək ki, vergi və pul-kredit siyasəti bölməsində rəqabət mühitinin sağlamlaşdırılması tədbirlərinin davam etdirilməsi, vergi dərəcələrinin optimallaşdırılması, sahibkarların kredit resurslarına çıxışını asanlaşdırmaq məqsədilə normativ-hüquqi bazanın təkmilləşdirilməsi, bank, sığorta, lizinq xidmətlərinin inkişaf etdirilməsi, bankların regional filial şəbəkəsinin genişləndirilməsi kimi məsələlərin həllinin müddəti və icraçıları müəyyən olunmuşdur.

Bakı və respublikanın digər iri şəhərlərinin rayon və qəsəbələrini əhatə edən tədbirlər sırasında yuxarıda sadalananlarla yanaşı su təchizatının və kanalizasiya xidmətlərinin yaxşılaşdırılması, mənzil təsərrüfatı və sosial müdafiə tədbirləri xüsusi diqqət mərkəzindədir.

Digər inzibati rayonlarda sənaye və kənd təsərrüfatı istehsalının genişləndirilməsi, ekologiya və təbii sərvətlərdən istifadə, elektrik enerjisi, istilik və qaz təchizatı, yol təsərrüfatı və nəqliyyat, mənzil təsərrüfatı və sosial müdafiə tədbirlərinin davam etdirilməsi nəzərdə tutulur. Ölkənin əksər şəhərlərində və rayonlarında Qarabağ müharibəsi əlillərinin və şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması dövlət proqramlarının tədbirlər planına daxil edilir. Göründüyü kimi, dövlət proqramları və onların icrasının tədbirlər planına daxil olan işlər investisiya potensialının tarazlı regional inkişafa yönəldilməsinin iqtisadi və institusional aspektlərinin birgəliyini təmin etməyə yönəlmişdir.

ƏDƏBİYYAT

1. Taqiev N. F. Modeli upravleniə invetiüionnımi proüessami v usloviəx tranzitivnoy gkonomiki. Riqa, BRİ, 2004, 304 s.
2. Balayev R.Ə. Milli ərzaq təhlükəsizliyi fəaliyyətinin xəritələşdirilməsi və onun informasiya təminatı problemləri. "Kooperasiya" elmi-nəzəri jurnal №2(25). Bakı, 2012.s.18-22
3. Nuriyev Ə.X. Regional idarəetmənin əsasları. Bakı, "ELM", 2007, 428s.
4. Azərbaycanın regionlarında iqtisadiyyatın dayanıqlı inkişafı. Red. Ə.X.Nuriyev, R.P.Sultanova. Bakı, "Elm", 2009, 296 s.
5. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrasına həsr olunan konfransda (5 fevral 2014-cü il) Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin çıxışı. "Respublika" qəzeti 6 fevral 2014-cü il.
6. Əhmədov İ.V. Kənd təsərrüfatının idarə edilməsi. Bakı, "Ozan", 2006, 880s.

Sadıq Vəli oğlu SALAHOV
Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı İnstitutunun direktoru, iqtisad elmləri doktoru, professor

KƏND TƏSƏRRÜFATININ İDARƏ OLUNMASI MODELLƏRİ

Xülasə

Məqalədə aqrar sahənin idarə olunmasında hazırkı vəziyyət, iqtisadi və dövlət səviyyəsində idarəetmə və tənzimləmə modelleri üzrə aparıcı aqro-sənaye ölkələri hökumətlərinin qarşılıqlı təcrübəsi nəzərə alınmışdır. Müqayisəli təhlil göstərir ki, müxtəlif ölkələrdə dövlət və yerli idarəetmə orqanlarının qarşılıqlı əlaqəsinin həm oxşarlıqları, həm də fundamental fərqlilikləri var. Məqalədə dövlət və yerli hökumət səviyyəsində kənd təsərrüfatının idarəedilməsi metodları, təşkilati strukturu və funksiyaları verilmişdir.

Açar sözlər: Aqrar-sənaye kompleksi, kənd təsərrüfatı, yerli hökumət orqanları, aqrar istehsalçılar.

***

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkə iqtisadiyyatı sosialist təsərrüfatçılıq sisteminin tamamilə tənəzzülə uğradığı bir gərçəkliklə qarşılaşmışdı. Artıq bu sistemin davam etdirilməsinin mənasızlığını görən ümummilli lider Heydər Əliyev bazar iqtisadiyyatına keçilməsini birmənalı surətdə ortaya qoydu. İlkin olaraq aqrar sahədə həyata keçirilən islahatlar nəticəsində kənd təsərrüfatında mülkiyyət forması dəyişdirildi, torpaq islahatı həyata keçirildi.

Nəticədə, əvvəlki sistemdən fərqli kiçik və orta ölçülü özəl sahibkarlar yaradıldı. İlk illərdə ölkədə ərzaq qıtlığının aradan qaldırılmasında, kənd əhalisinin gəlirlərinin artırılmasında mühüm rol oynayan bu təssərüfatlar zaman keçdikcə ciddi problemlərlə qarşılaşdılar. Bu çoxsaylı problemlərdən biri və bəlkə də ən əsası idarəetmə məsələlərinin həlli ilə bağlı idi.

Kənd təsərrüfatının idarə edilməsi və tənzimlənməsi sahəsində xarici ölkələrin təcrübəsinin Azərbaycan Respublikasında mövcud şəraitə uyğunlaşdırıla bilən və xüsusilə yerli özünüidarə səviyyəsində aqrar siyasəti təkmilləşdirməyə və aqrar-sənaye istehsalının inkişafına imkan yaradan innovasiya istiqamətlərini üzə çıxarmaq üçün bu təcrübənin öyrənilməsi zəruridir.

Xarici ölkələrdə kənd təsərrüfatı məhsulları istehsalının dövlət səviyyəsində idarə edilməsinin və tənzimlənməsinin məqsədləri: ölkədə istehsal edilən kənd təsərrüfatı məhsullarının əsas növləri üzrə tam ərzaq müstəqilliyi məsələsinin həlli; əhalinin münasib (aşağı) qiymətli ərzaq məhsulları ilə təmin edilməsi; fermerlərin həyat səviyyəsinin yaxşılaşdırılması, o cümlədən gəlirliliyin artırılması və ixracın dəstəklənməsi hesabına; kənd təsərrüfatı məhsulları istehsalının ətraf mühitə mənfi təsirinin aradan qaldırılması.

Xarici ölkələrdə kənd təsərrüfatının idarə edilməsində kənd təsərrüfatı məhsulları istehsalçılarının gəlirinin və mənfəətinin formalaşmasına xüsusi əhəmiyyət verilir.

Xarici ölkələrdə kənd təsərrüfatının idarə edilməsi sistemi dövlət səviyyəsində idarəçilikdən (dövlət tənzimləməsindən) və təsərrüfat səviyyəsində idarəçilikdən ibarətdir. Bu halda dövlət tənzimləməsi kənd təsərrüfatını dövlət və bələdiyyə idarəetmə orqanlarının prioritetli idarəçilik funksiyalarından biridir. İnkişaf etmiş xarici ölkələrdə təsərrüfat səviyyəsində idarəçilik sistemi kənd təsərrüfatının tərkibinə daxil olan təsərrüfat subyektlərinin kooperasiya və inteqrasiyası əsasında qurulmuşdur. Fermer kooperativlərinin, müvafiq ittifaqların və assosiasiyaların sərəncamında anbar yerləri, avadanlıq və kompüter texnikası olur. Bu qurumlar kənd təsərrüfatı məhsullarının yetişdirilməsi, emalı, satışı və başqa fəaliyyət növləri ilə məşğul olurlar.

Təsərrüfatlar, emal müəssisələri və ticarət müəssisələri arasında kontraktasiyaya əsaslanan inteqrasiya əlaqələrinin güclənməsi xarici ölkələrdəki müəssisə və təşkilatların səciyyəvi cəhətidir. Məsələn, ABŞ-da qarışıq yem istehsal edən iri şirkətlərin mülkiyyətində quşçuluq və donuzkökəltmə müəssisələri vardır. Qarışıq yem istehsalı üzrə ixtisaslaşan kooperativlər Qərbi Avropada da geniş yayılmışdır. Kənd təsərrüfatı əmtəə istehsalçıları tərəfindən yaradılan belə müəssisələrin çoxunun öz ticarət şəbəkələri var.

Aqrar cəhətdən inkişaf etmiş ölkələrdə dövlət orqanları ilə yerli özünüidarə orqanlarının qarşılıqlı fəaliyyətini və bu halda istifadə edilən iqtisadi, təşkilati və başqa mexanizmləri araşdırarkən qeyd etmək lazımdır ki, yerli hakimiyyət orqanlarına özünüidarə hüququ verilmiş olsa da, onların qüvvədə olan milli qanunvericilik çərçivəsindən kənara çıxmaması üçün dövlət hakimiyyəti orqanları yerli hakimiyyət orqanlarının fəaliyyətinə nəzarət etməyə çalışırlar.

Xarici ölkələrdə aqrar-sənaye kompleksi sahəsində dövlətin yerli idarəetmə orqanlarına əsas təsir mexanizmləri aşağıda qeyd edilənlərdir:

- öz rayonlarında kənd təsərrüfatı məhsulları istehsalının təşkili vaxtı yerli orqanların maliyyə asılılığı faktından, həmçinin, xüsusilə ixrac vaxtı, istehsal edilmiş məhsulun reallaşdırılmasına kömək edən təşkilati tədbirlərdən istifadə edilməsi;
- istehsalın kvotalaşdırılması, fermerlərin iştirak etdiyi müxtəlif məqsədli proqramların (kənd təsərrüfatı təyinatlı torpaqların konservasiyası, dövri xarakter daşımayan ödənişlər, kənd təsərrüfatı bitkilərinin məhsullarının müxtəlif risklərdən sığortalanması və s.) işlənib hazırlanması və maliyyələşdirilməsi yolu ilə yerli hakimiyyət orqanlarının və bilavasitə fermer təsərrüfatlarının fəaliyyətinin tənzimlənməsi;

- yerli hakimiyyət orqanlarının işinə nəzarət edilməsi məqsədilə onların fəaliyyətinə kuratorluq funksiyalarının müəyyən edilməsi;
- yerli hakimiyyət orqanlarının federal hakimiyyət orqanları qarşısında, xüsusən ayrılmış maliyyə vasitələrinin məqsədli istifadəsi hissəsində hesabatının bəzi növlərinin müəyyən edilməsi.

İnkişaf etmiş xarici ölkələrdə aqrar-sənaye kompleksi sahəsində federal və yerli idarəetmə orqanlarının qarşılıqlı təsirinin kifayət qədər effektiv modellərindən istifadə edilir. Uzun illər ərzində yaranmış bu modellərin kənd təsərrüfatı məhsulları, xammal və ərzaq istehsalı və satışında tətbiqi müsbət nəticələr verir. Avropa İttifaqının üzvü olan bir sıra ölkələrdə (Fransa, Almaniya, İtaliya və başqaları) yerli orqanların dövlət orqanlarına tabeliyi sistemi əsasında qurulmuş modellərdə bu orqanların qarşılıqlı təsiri vertikalı izlənir. Bəzi ölkələrdə, məsələn, ABŞ-da, Böyük Britaniyada tətbiq edilən modellərdə isə hüquqi baxımdan tabelik münasibətləri yoxdur, amma praktikada həm kənd təsərrüfatı məhsullarının istehsalı vaxtı, həm də milli və dünya ərzaq bazarlarında bu məhsulların satışı zamanı qarşılıqlı əlaqə və böyük asılılıq, əsasən, maliyyə asılılığı mövcuddur.

Aparılmış müqayisəli təhlil göstərir ki, müxtəlif ölkələrdə federal və yerli idarəetmə orqanlarının qarşılıqlı əlaqəsi modellərində müəyyən oxşarlıqlarla bərabər prinsipial fərqlər də var. Məsələn, Amerika və alman modelləri arasında əsas oxşarlıq təsir vasitələrinin və formalarının oxşar olmasıdır, amma hər bir yerli orqan bu təsir vasitələrinin yerli fermerlər üçün daha münasib olan formasını seçir. Lakin xarici ölkələrin əksəriyyətində dövlət hakimiyyəti orqanları ilə yerli idarəetmə orqanları arasında qarşılıqlı təsir modelləri mükəmməllikdən uzaqdır, çünki həmin ölkələrdə tarixi ənənələr, yerli əhalinin kənd təsərrüfatı məhsullarına ehtiyacı, kənd ərazilərinin inkişaf səviyyəsi, təbii landşaftların qorunub saxlanması və ən başlıcası - kənd əhalisinin yaşayış səviyyəsinin və kənd təsərrüfatı əmtəə istehsalçılarının gəlirlərinin artırılması zərurəti nəzərə alınmalıdır.

Amerika Birləşmiş Ştatları kənd təsərrüfatı məhsullarının bir sıra növlərinin istehsalı və dünya ərzaq bazarına çatdırılması üzrə dünyada aparıcı yerləri tutan ən böyük aqrar dövlətdir. Bu ölkədə kənd təsərrüfatı xammalının bəzi növləri daxili tələbatdan artıq istehsal edilir. Kiçik ailə fermalarından başlamış, böyük torpaq sahələrinə malik olan iri beynəlxalq şirkətlərə qədər müxtəlif fermer təsərrüfatlarında kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan 3 milyon işçi çalışır [1].

Bu ölkədə hər 6 ildə bir dəfə qəbul edilən xüsusi qanunla milli iqtisadiyyatın aqrar sektorunun inkişafının hədəf göstəriciləri, bu göstəricilərə nail olmaq mexanizmləri, həmçinin kənd təsərrüfatında bazar münasibətlərinin inkişafı və dövlət tənzimləməsi arasında əsas nisbətlər müəyyən edilir. ABŞ-da fermerlərin 91%-inin istifadəsində olan kənd təsərrüfatı təyinatlı torpaqlar tamamilə və ya qismən onlara məxsusdur və fermerlərin yalnız 9%-i belə torpaqları icarəyə götürürlər.

ABŞ Kənd Təsərrüfatı Nazirliyinin tərkibində fermer təsərrüfatlarına risklərin idarə edilməsi, digər mühüm istiqamətlər üzrə 10 müxtəlif xidmət qurumları, iki agentlik, məhsulun sığortası üzrə korporasiya; heyvanların və bitkilərin sağlamlığı məsələləri üzrə müfəttişlik və sair bölmələr fəaliyyət göstərir. Nazirliyin tərkibində olan xidmətlər sırasında:

- daxili və xarici kənd təsərrüfatı bazarları üzrə xidmətlər;
- tədqiqatlar, təhsil və ekstensiv kənd təsərrüfatı sahəsində qarşılıqlı əlaqələr üzrə dövlət xidməti;
- təbii resursların mühafizəsi xidməti və iqtisadi araşdırmalar xidməti xüsusi qeyd edilməlidir. Hər bir ştatda kənd təsərrüfatı departamentləri var. Həmin departamentlərin ən mühüm funksiyaları kənd təsərrüfatı məhsulları bazarının iştirakçılarının maliyyə durumunun monitorinqini keçirməkdən və müvafiq standartlar müəyyən etməkdən ibarətdir.

Aqrar sahəyə aid bir sıra dövlət proqramlarının reallaşdırılması ilə bağlı işlərin xeyli hissəsi yerli səviyyədə və ştatlar səviyyəsində həll edilir. Bundan başqa, bu hakimiyyət orqanları kənd təsərrüfatının dövlət tənzimlənməsində iştirak edir, ona elmi-informasiya xidmətinə, təbiətdən

istifadənin tənzimlənməsinə və kənd regionlarının inkişafına əhəmiyyətli dərəcədə təsir göstərirlər. Vergitutma, aqrar məhsulların marketinq sistemləri, ərzağın keyfiyyətinə nəzarət və ərzaq təhlükəsizliyi, imkansız vətəndaşlara ərzaq yardımı kimi məsələlərin tənzimlənməsində yerli hakimiyyət orqanları ciddi məsuliyyət daşımırlar.

Dövlət səviyyəsində hər il 10-dan çox sahələrarası **məqsədli proqramlar** həyata keçirilir. Amerika fermerlərinin 1/3 hissəsi "**Qiymətlərin dəstəklənməsi üzrə Dövlət Proqramı**"nda iştirak edir. Bu məqsədlə ayrılan maliyyə vəsaitinin 70%-i əmtəə məhsulunun həcmi ən azı 100 min dollar olan fermer təsərrüfatlarının payına düşür. "**Fermerlərin gəlirlərinin sabitləşməsi**" proqramı da əsas proqramlar sırasına aiddir. Hazırda bütün büdcə təxsisatlarının 50%-ə qədəri bu proqramın reallaşdırılmasına yönəldilir. **Bu proqramın tərkibinə iki altproqram daxildir: "Məhsulun sığortalanması" və "Kənd təsərrüfatı krediti".** Fermerlər məqsədli proqramlara ayrılan maliyyə vəsaitlərindən ştatlar və yerli səviyyəli idarəetmə orqanları tərəfindən aparılan bölgü yolu ilə istifadə edirlər. Hər il bütün fermer təsərrüfatlarının təxminən 90%-i dövlət proqramlarında iştirak edirlər. Nazirlik bir sıra məhsulların, xüsusən taxılın və pambığın qiymətlərinin fermerlər üçün minimal səviyyədə saxlanmasına **yönəlmiş proqramların reallaşdırılmasına xüsusi diqqət yetirir**. Qiymətlərin dəstəklənməsi proqramları üçün büdcədən ayrılan xərclər illər üzrə fərqlənir: məhsul bol, daxili bazarda qiymətlər aşağı olan illərdə büdcədən ayrılan xərclər artır. ABŞ Kənd Təsərrüfatı Nazirliyi həm fermer təsərrüfatlarına maliyyə yardımı göstərmək, həm də dünya ərzaq bazarında standart tələblər və qiymətlər haqqında fermer təsərrüfatlarına tam informasiya təqdim etməklə, istehsal edilmiş məhsulun rəqabətə davamlılıq göstəricisinin kifayət qədər yüksək olmasına zəmanət verir.

Avropa İttifaqında kənd təsərrüfatı məhsulları istehsalı üzrə aparıcı yerləri Fransa və Almaniya tutur. Bu ölkələrdə kənd təsərrüfatının idarə olunmasına fövqəlmilli və milli orqanlar cəlb edilmişdir. Kənd təsərrüfatının idarə olunmasına cəlb edilmiş fövqəlmilli orqanlar (Avropa Birliyinin rəhbər orqanları) əsasən Avropa İttifaqına daxil olan ölkələrin dövlət orqanları ilə qarşılıqlı əlaqə saxlayır, həmin ölkələrin daxilində isə idarəetmə və əlaqələndirmə funksiyaları milli federal hakimiyyət orqanlarına - Fransada Kənd Təsərrüfatı və Meşə Təsərrüfatı Nazirliyinə, Almaniyada isə Federal Ərzaq və Kənd Təsərrüfatı Nazirliyinə həvalə edilmişdir.

Fransada ərzaq kompleksinin idarə edilməsi funksiyaları Kənd Təsərrüfatı və Meşə Təsərrüfatı Nazirliyi, Nazirliyin regional idarələri və departamentləri, kənd təsərrüfatı palataları, həmçinin bir sıra qarışıq - yarımdövlət və peşəkar təşkilatlar tərəfindən həyata keçirilir. Nazirliyin əsas funksiyalarına aiddir:

- ərzaq kompleksi və meşə təsərrüfatı sahəsində maliyyə, inzibati və texniki xarakterli tədbirlərin əlaqələndirilməsi;
- kənd təsərrüfatının modernləşdirilməsi probleminin və tarif siyasətinin öyrənilməsi;
- kənd təsərrüfatı məhsulları bazarına təsir və məhsul ixracının təşviq edilməsi;
- ərzaq məhsullarının keyfiyyətinə nəzarət, bitkilərin və heyvanların mühafizəsi;
- kənd təsərrüfatı məhsulları istehsalında beynəlxalq kooperasiya məsələləri.

Nazirliyin tərkibinə 9 bölmə daxildir. Bu bölmələr onların qarşısına qoyulmuş məsələlərin həlli üçün dar ixtisaslaşdırılmış struktur vahidləri şəklində komplektləşdirilmişdir. Kənd təsərrüfatının yerli səviyyədə idarə edilməsi funksiyaları 22 regional idarə və 100 departament tərəfindən həyata keçirilir. Regional və departament idarələri emal sənayesi ilə, fermerlər və başqa kateqoriyalara aid kənd əhalisi ilə bilavasitə əlaqədə olur.

Bu ölkədə kənd təsərrüfatının idarəedilmə sisteminin səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, bu sistemdə müxtəlif peşəkar kənd təsərrüfatı orqanları mühüm yer tutur. Kənd təsərrüfatı palataları sistemi və həmkarlar ittifaqları şəbəkəsi aqrar siyasətin formalaşmasına nəzərəçarpacaq dərəcədə təsir göstərirlər. Onlar müəyyən normativ səlahiyyətləri, yerli kənd təsərrüfatı ənənələrinin qorunmasını və kənd təsərrüfatı məhsullarının satışı üzrə normalarını tətbiq edirlər. İnkişaf etmiş həmkarlar ittifaqları şəbəkəsi dövlətin aqrar siyasətinə ciddi təsir göstərir. Fransada kənd təsərrüfatı məhsulları istehsalı və məhsul satış bazarlarını idarəetmə orqanlarının

vahid sistemi fəaliyyət göstərir. İxtisaslaşdırılmış orqanlar fermer təsərrüfatlarının fəaliyyətində məsləhət, informasiya və əlaqələndirmə funksiyalarını yerinə yetirirlər [3].

Avropada kənd təsərrüfatı məhsulları istehsalı üzrə Fransadan sonra ikinci yeri **Almaniya** tutur. Bu ölkənin hökuməti, siyasi və ictimai təşkilatları Avropa İttifaqının vahid aqrar siyasəti çərçivəsində kənd təsərrüfatının inkişafına imkan yaradırlar. Aqrar strukturun təkmilləşdirilməsi, fermer təsərrüfatlarına kreditlər verilməsi və onların maliyyələşdirilməsi ilə bağlı məsələlərin həllini dövlət orqanları öz üzərinə götürür. Almaniyada qəbul edilmiş **Kənd Təsərrüfatı haqqında Qanunda** Aqrosənaye Kompleksi sahəsində mərkəzi və yerli idarəetmə orqanlarının qarşılıqlı fəaliyyətinin prinsipləri təsbit olunmuşdur. Almaniyada kooperasiya prinsipləri əsasında yaradılmış çoxsaylı **cəmiyyətlər,** ictimai ittifaqlar və təşkilatlar əmtəə istehsalçılarının mənafelərini yerli, əyalət, federal və ümumavropa səviyyələrində təmsil edirlər. Kənd təsərrüfatı məhsullarının istehsalı və satışı sahəsində fəaliyyət göstərən müxtəlif növ kooperativ qurumlar iri özəl firmalarla sıx əməkdaşlıq edirlər. **Almaniya kooperativləri** kənd təsərrüfatında inteqrasiya sxemlərinin yaradılması məsələlərində özəl firmalarla müqayisədə **bir sıra üstünlüklərə malikdirlər.**

Qərarlar qəbul edilməsi ilə bağlı əsas funksiyalar rayon və yerli idarəetmə orqanlarına, yəni yerlərdə konkret qərarların hazırlanması üçün lazım olan ilkin informasiyanın yarandığı strukturlara aiddir. Bu halda yerli orqanlar kənd təsərrüfatı məhsulları istehsalının təşkili və planlaşdırılması zamanı yerli təbii və iqtisadi xüsusiyyətləri maksimum dərəcədə nəzərə almaq imkanı əldə edirlər. Bununla birlikdə, Almaniyanın tərkibinə inzibati bölgü vahidləri kimi daxil olan 16 federativ əyalətdə federal nazirlik - əyalət nazirliyi xətti üzrə vertikal koordinasiya təcrübəsi formalaşmışdır.

Bu ölkədə yerli idarəetmə orqanları və fermer təsərrüfatları ilə birbaşa qarşılıqlı əlaqə federal əyalət nazirlikləri tərəfindən həyata keçirilir. Bu nazirliklər yetərli sayda bölmələr və mütəxəssislərlə komplektləşdirilmişdir. Məsələn, Bavariya federal əyalətinin Ərzaq, Kənd Təsərrüfat və Meşə Təsərrüfatı Nazirliyinin tərkibinə 3 baş idarə, kənd yerlərinin inkişafı üzrə 7 xidmət, Texnologiya və Dəstək Mərkəzi, Rəhbər Kadrların Dövlət Akademiyası yanında 47 ərzaq, kənd təsərrüfat və meşə təsərrüfatı xidməti, aqrar iqtisadiyyat üzrə 7 peşə məktəbi, 3 ali əkinçilik məktəbi və ixtisaslaşdırılmış bölmələri, o cümlədən ev təsərrüfatı bölməsi olan bir çox başqa kənd təsərrüfatı məktəbləri daxildir. Nazirlik onun tabeliyində olan idarə və təşkilatların işgüzar sahədə fəaliyyətinə, aqrar sahədə və ev təsərrüfatı sahəsində təhsil və məsləhət məsələlərinə nəzarət, Avropa İttifaqının ödəmə kassasından ayrılan vəsaitlərin bölgüsü funksiyalarını həyata keçirir [2].

İngiltərədə geniş yayılmış fermer təsərrüfatlarının hər birində istifadə edilən kənd təsərrüfatı təyinatlı torpaqların sahəsi təxminən 70 hektar həddindədir. Bu ölkədə təxminən 405 fermer təsərrüfatının hər birinin malik olduğu torpaq sahəsi isə 100 hektardan çox deyil. Fermerlər əksər hallarda öz torpaq sahələrinin sahibləri olur və servis, marketinq və məsləhət xidmətlərinə ehtiyac duyurlar, belə xidmətlər idarəçi şirkətlər və banklar tərəfindən onların menecerləri vasitəsilə təqdim edilir.

Böyük Britaniyanın Kənd Təsərrüfatı İdarəsi aşağıda sadalanan istiqamətlər üçün cəmiyyət qarşısında məsuliyyət daşıyır:

- əhalinin sağlamlığının qorunması və keyfiyyətsiz kənd təsərrüfatı məhsullarından mühafizə;
- dövlətin ərzaq təhlükəsizliyi; kənd təsərrüfatı məhsulları istehsalının ekoloji təhlükəsizliyi;
- torpaqdan istehsal vasitəsi kimi istifadə;
- sahənin iqtisadi göstəricilərinin və onların dəyişmə meyillərinin təhlili;
- kənd təsərrüfatı üzrə ümumavropa qanunvericiliyinin reallaşdırılması;
- Avropa İttifaqı ölkələri ilə əməkdaşlıq və britaniyalı fermerlərin mənafelərinin müdafiəsi;
- kənd təsərrüfatı heyvanlarının mühafizəsi;
- sahənin daxili resurslarından istifadə.

İdarə fermer təsərrüfatlarının işlərinə qarışmadan, bütün sadalanan istiqamətlər üzrə yalnız ümumdövlət əhəmiyyətli problemləri həll edir.

Böyük Britaniyanın Kənd Təsərrüfatı İdarəsinin idarəçi və əlaqələndirici rolu, həmçinin fermer təsərrüfatları ilə qarşılıqlı əlaqəsi aşağı səviyyədədir və ya praktik olaraq yoxdur. Fermerlərin müxtəlif təşkilatları əksər hallarda **kooperativ formasında yaradılır və öz problemlərini çox vaxt özləri həll edir. Burada fermer cəmi bir funt sterlinq həcmində səhmə malik olur və kooperativi direktorlar şurası idarə edir**. Hazırda kooperativlər ixtisaslaşma prinsipi üzrə təşkil olmaqla marketinq və təchizat kooperativlərindən ibarətdir. Lakin yeni iştirakçıların cəlb edilməsi üçün sərt rəqabət şəraitində kooperativlər adi ixtisaslaşma çərçivəsindən kənara çıxaraq öz fəaliyyət sahələrini genişləndirməyə məcbur olurlar. Bir qayda olaraq, iri emal şirkətlərinə və ya torpaq sahibkarlarına məxsus olan iri çoxsahəli fermalarda idarəetmənin ciddi ixtisaslaşması bu fermaların daxili təşkilinin və onların idarə edilməsinin fərqləndirici xüsusiyyətidir. Burada "taxılçılıq üzrə menecer", "tərəvəzçilik üzrə menecer" və s. anlayışlar adi hal almışdır. Sahəvi strukturları özündə birləşdirən ərazi qurumlarına baş direktor rəhbərlik edir. Böyük Britaniyada kənd təsərrüfatını idarə edən dövlət orqanları ilə yerli orqanlar arasında qarşılıqlı əlaqə zəifdir.

Son illərdə - bu ölkə Dünya Ticarət Təşkilatına daxil olandan və mərhələli şəkildə bazar islahatları həyata keçirildikdən sonra kənd təsərrüfatını idarə edən dövlət orqanları ilə yerli orqanlar və kəndlilər arasında qarşılıqlı əlaqənin müxtəlif formalarından istifadə yolu ilə kənd təsərrüfatında sabit iqtisadi və sosial artım müşahidə olunur. Çin, kənd təsərrüfatının iqtisadi potensialının ardıcıl atımını təmin etməklə, istehsalın həcmində və əhalinin həyat səviyyəsində kəskin geriləməyə yol vermədən, yeni iqtisadi sistemə nisbətən ağrısız keçidə müvəffəq olmuşdur. Bu irəliləyiş taxıl istehsalı sahəsində daha ciddi hiss olunur. Belə ki, taxıl istehsalının illik ümumi həcmi 621 milyon tona çatdırılmışdır. Çin Hökuməti hazırda kəndlilərə hərtərəfli dəstək siyasətini tətbiq edir, onlar kənd təsərrüfatı vergisindən tamamilə azad ediliblər. Subsidiyalar və dotasiyalar artırılıb, taxıl üçün minimal satınalma qiymətləri, həcminə və satınalma qiymətlərinə zəmanət verilən dövlət sifarişləri tətbiq olunur.

Ölkədə kənd təsərrüfatının idarə edilməsinin ikiqat strukturu tətbiq olunur - sahəvi prinsip və siyasi prinsip. Bu halda, Kommunist Partiyasının qərarları federal və regional idarəetmə orqanları üçün məcburidir. Çində kənd təsərrüfatını idarəetmə sistemində aşağı səviyyəli idarəetmə orqanlarının (əyalətlər, kəndli kommunaları və başqaları) Kənd Təsərrüfatı Nazirliyinə tabeliyi vertikalı praktiki olaraq dəyişməz qalmışdır. Nazirlik kənd təsərrüfatı məhsullarının istehsalı üzrə inkişaf planlarını və müvafiq tapşırıqları aşağı səviyyəli idarəetmə orqanlarına çatdırır, onların icrasını təşkil edir, işlərin gedişinə və onların tamamlanmasına nəzarət edir [4].

Belarus Respublikasında aqrosənaye kompleksinin idarə edilməsi çoxsəviyyəli struktura malik olub, dövlət, vilayət və rayon səviyyələrini əhatə edir. Aqrosənaye kompleksi sahəsində dövlət siyasətinin idarə edilməsi Belarus Respublikası Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi tərəfindən həyata keçirilir. Bu Nazirliyin tərkibinə 17 struktur bölmə, 10 baş idarə, 2 bölmə, 1 departament və 4 idarə daxildir.

Kənd təsərrüfatının idarə edilməsi, əlaqələndirilməsi və tənzimlənməsi sahəsində Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinin əsas vəzifələri bunlardır:

- kənd təsərrüfatı sahəsində vahid dövlət siyasətinin həyata keçirilməsi;
- dövlət idarəçiliyi sahəsində başqa orqanların, həmçinin yerli icraedici və sərəncamverici orqanların səlahiyyətlərinə daxil olan məsələlər üzrə fəaliyyətinin əlaqələndirilməsi;
- kənd təsərrüfatı texnikasının texniki vəziyyətinə dövlət nəzarəti; qanunvericiliklə müəyyən edilmiş başqa nəzarət və əlaqələndirmə funksiyaları.

Belarusda Baş Dövlət Texniki Nəzarət İdarəsi, bitki mühafizəsi, baytarlıq və cinsyetişdirmə xidmətləri Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinə tabedirlər.Regional səviyyədə kənd təsərrüfatının idarə edilməsi və tənzimlənməsi fəaliyyəti vilayət kənd təsərrüfatı və ərzaq komitələri tərəfindən həyata keçirilir. Bu komitələr hüquqi şəxs statusuna malikdir və öz fəaliyyətində Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinə tabedirlər [5].

Beləliklə, Belarus Respublikasında aqrosənaye kompleksinin idarə edilməsi sahəsində dəqiq idarəetmə vertikalı yaranmışdır. Aşağı səviyyəli idarəetmə orqanları öz işlərinin nəticələrinə görə Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi qarşısında məsuliyyət daşıyırlar. Bunun

sayəsində kənd təsərrüfatında xüsusilə südlük heyvandarlıq sahəsində yüksək nailiyyətlər qazanılmışdır. Belarus Respublikasında istehsal olunan süd və süd məhsulları dünyanın 24 ölkəsinə ixrac edilir.

Xarici ölkələrdə kənd təsərrüfatı sahəsində fəaliyyətin tənzimlənməsi və əlaqələndirilməsi təcrübəsindən irəli gələn nəticələri aşağıdakı kimi səciyyələndirmək olar:

1) Qabaqcıl xarici ölkələrlə müqayisədə Azərbaycanda yerli özünüidarəetmə orqanları arasında qarşılıqlı təsirin zəifliyinin əsas səbəblərindən biri xarici ölkələrlə müqayisədə yerli özünüidarə orqanlarının aqrar istehsalın maliyyə və maddi-texniki təminatında kifayət qədər iştirak edə bilməməsidir. Bu, orqanların struktur tərkiblərinin bəsitliyindən irəli gəlir. Bu məsələnin həllində Fransa, ABŞ və Belarusun təcrübəsindən istifadə edilməsi maraq doğurur.

2) Yerli kənd təsərrüfatı xammalının və ərzağın keyfiyyətinə səmərəli nəzarətin Avropa İttifaqı ölkələrinin və ABŞ-ın təcrübəsi nəzərə alınmaqla təşkil edilməsi mümkündür.

3) Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mərkəzi aparatında Alman təcrübəsinə əsasən yerli özünüidarə orqanları və kənd təsərrüfatı əmtəə istehsalçıları assosiasiyalarının (ittifaqlarının) fəaliyyətinin əlaqələndirilməsi üzrə bölmənin yaradılması məqsədəuyğundur.

4) Satış kooperativlərini dəstəkləmək və yerli kənd təsərrüfatı məhsullarının yüksək rəqabətədavamlılığını təmin etmək, o cümlədən dünya ərzaq bazarında, xüsusən rəqib ölkələrdə standart tələblər və qiymətlər haqqında etibarlı informasiyanın yerli özünüidarə orqanlarına çatdırılması; ABŞ Kənd Təsərrüfatı Nazirliyinin təcrübəsindən istifadə edilərək formalaşdırılması zəruridir.

5) Avropa İttifaqının üzvü olan bir sıra ölkələrdə (Fransa, Almaniya, İtaliya), həmçinin Çin, Belarus və başqa ölkələrin idarəetmə modellərində yerli orqanların mərkəzi orqanlar tabeçiliyi təcrübəsindən istifadə edilməsi maraq doğura bilər. Bu halda onların qarşılıqlı fəaliyyət vertikalı daha dəqiq izlənilə bilir.

Beləliklə, aqrar sahəsi inkişaf etmiş xarici ölkələrdə kənd təsərrüfatı məhsulları istehsalının idarə edilməsi sistemlərinin və modellərinin təhlili göstərir ki, bu xarici ölkələrin əksəriyyətində kənd təsərrüfatı idarəetmə sistem və modellərinə aşağıdakı institusional strukturlar daxil edilir:

- ixtisaslaşdırılmış dövlət orqanları, kənd təsərrüfatı nazirliyi;
- aşağı kənd təsərrüfatı strukturlarının və fermer təsərrüfatlarının fəaliyyətini tənzimləyən ərazi idarələri, komitələr və komissiyalar;
- peşəkar kənd təsərrüfatı təşkilatları və kooperativ özünüidarə təşkilatları daxil edilmişdir.

Xarici ölkələrdə kənd təsərrüfatının idarə edilməsi təcrübəsindən bir sıra dəyərli istiqamətlərin Azərbaycan Respublikasında tətbiq edilməsini tövsiyə etmək olar:

- yerli idarəetmə orqanlarının mərkəzi orqanlara tabeliyinə əsaslanan dəqiq qarşılıqlı əlaqə vertikalının formalaşdırılması;
- satış kooperativlərinə daha səmərəli dəstəyin verilməsi;
- Kənd Təsərrüfatı Nazirliyinin mərkəzi aparatında yerli özünüidarə orqanlarının fəaliyyətinin əlaqələndirilməsi üzrə ayrıca bölmə yaradılması;
- yerli kənd təsərrüfatı xammalının və ərzağın keyfiyyətinə daha səmərəli nəzarətin formalaşdırılması;
- aqrosənaye kompleksi sahəsində yerli özünüidarəyə daha səmərəli dəstəyin verilməsi.

Belə bir idarəetmə fəaliyyətinin formalaşdırılması respublika kənd təsərrüfatında iqtisadi artıma və səmərəliliyin yüksəldilməsinə əsaslı zəmin yarada bilər.

ƏDƏBİYYAT

1. Опыт функционирования моделей структур управления сельским хозяйством за рубежом и его использование [Текст] / О.И. Павлушкина, О.В. Кирсанова, А.Е. Черная // Электронный научно-практический журнал «Синергия». 2016. №6. С.61-68.
2. Регулирование сельского хозяйства в развитых странах [Электронный ресурс] - Режим доступа //http://works.doklad /ru/view/LQUCZMYV2VK/3/html.
3. Структура АПК зарубежных стран. [Электронный ресурс] - Режим доступа //http://geolike.ru/page/gl…5288.htm.

4. Главной задачей Китая в 2014 году станет развитие сельского хозяйства. [Электронный ресурс] - Режим доступа // http: // scecoop . ru / articles.
5. Государственное регулирование устойчивого развития сельского хозяйства: зарубежный опыт [Текст] / П.Д. Косинский, А.В. Харитонов // Проблемы современной экономики. 2016. №4. с. 227-231.

Садых Вали оглы Салахов
д.э.н., проф.

Модели управления сельским хозяйством

Резюме

В статье рассматривается опыт управления аграрной сферой ведущих агропромышленных стран, по государственному и экономическому моделированию и управлению. Как показывает сравнительный анализ, отношения между государственными органами и органами местного самоуправления имеют сходство и фундаментальные различия в разных странах. Кроме того, на уровне местного самоуправления рассмотрены формы, методы и организационная структура управления сельским хозяйством.

Ключевые слова: агропромышленный комплекс, местные органы самоуправления, объединение производителей.

Sadig Vali Salakhov
PhD in economics, prof.

Agricultural management models

Summary

In the article the current state of management of agrarian sector, the management and regulation models' experience of interaction of the leading agro-industrial governments on economic and state-level governance and regulatory models are considered. Comparative analysis shows that the relationship between the state and local government bodies has similarities both in the different countries and in fundamental differences. At the local government level, agricultural management methods, organizational structure and their function are given. The article describes in detail.

Key words: agrarian-industrial complex, local government bodies, agrarian-producer associations.

İsa Hüseyn oğlu ALIYEV
AMEA İqtisadiyyat İnstitutunun şöbə müdiri,
iqtisad üzrə elmlər doktoru, professor,

Aqil Məhiyəddin oğlu ƏSƏDOV
AMEA İqtisadiyyat İnstitutunun şöbə müdiri,
iqtisad üzrə fəlsəfə doktoru, dosent

MODERNLƏŞMƏ AQRAR SEKTORUN RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN ƏSASINI TƏŞKİL EDİR

Xülasə

Təqdim edilən məqalədə aqrar sektorun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi məsələləri tədqiq edilir. Bu məqsədlə modernləşmənin əsasını təşkil edən innovasiyalara baxılmışdır. Eyni zamanda, məqalədə rəqabətqabiliyyətliliyin formalaşdırılmasına aqrar istehsalın təkmilləşdirilməsi və satış proseslərinin səmərəli təşkili baxımından yanaşılmışdır. Məqalədə aqrar sektorda

istehsal proseslərinə innovativ yanaşma, daşımaların optimal və səmərəli təşkili istiqamətində müəyyən fikir və mülahizələr verilmişdir.

Açar sözlər: aqrar sektor, innovasiya, rəqabətqabiliyyətlilik, davamlı inkişaf, satış, daşımalar və s.

***

İnformasiya və inteqrasiya əsri kimi qəbul edilən XXI əsr iqtisadi sferada da bir sıra dəyişikliklərin aparılmasını zəruri edir. Hansı ki, bu dəyişikliklər ayrı-ayrı sahələrin müasir dövrün tələbləri ilə ayaqlaşmasını təmin edir, tələbatın daha dolğun ödənilməsinə şərait yaradır. Bu isə, təbii ki, ən son yeniliklərin tətbiqi, xammal və resurs ehtiyatlarından qənaətlə və səmərəli istifadə ilə mümkündür. Bütün bunlar isə, hər bir sahənin modernləşdirilməsini tələb edir. Təbii ki, modernləşmə təbii-iqtisadi amillərdən, resurs potensialından, iqlim şəraitindən asılı olan sahələrdə daha zəruridir. Belə sahələrdən biri də ölkədə normal yaşayışın, əhalinin ərzaq təhlükəsizliyinin ödənilməsində, insanların gündəlik tələbat məhsullarına tələbatının ödənilməsində aparıcı mövqeyə sahib olan aqrar sektordur. Eyni zamanda, aqrar sektor məhsulları normal yaşayış üçün zəruri olduğuna görə, bu sahənin modernləşdirilməsi, davamlı inkişafı və rəqabətqabiliyyətliliyi məsələlərinə kompleks yanaşılması daha məqsədəuyğundur. Əslində isə, modernləşmə elə davamlı inkişafın başlıca şərti kimi qəbul edilə bilər. Bunun üçün, modernləşmə, davamlı inkişaf və rəqabətqabiliyyətlilik məsələlərinə ayrılıqda nəzər salaq. [1, s.112-124; 9]

Məlum olduğu kimi, davamlı inkişaf indiki nəslin tələbatının, gələcək nəslin tələbatına toxunmdan, dolğun şəkildə ödənilməsidir. Eyni zamanda, davamlı inkişaf sosial, iqtisadi və ekoloji inkişafın kompleks şəkildə təmin olunmasını, ayrı-ayrı sahələrdə yaranan problemlərə sistem şəklində yanaşmanı irəli sürür.

Öz növbəsində rəqabətqabiliyyətliliyin formalaşdırılması tələbləri də bütün növ resurslardan qənaətlə istifadəni, hər bir sahədə texnika və texnologiyanın ən son nailiyyətlərinin tətbiqini, müasir dünya reallıqlarından irəli gələn idarəetmə və texnoloji yeniliklərdən istifadəni və s. tələb edir, eləcə də bütün proseslərə kompleks şəkildə yanaşmanı dəstəkləyir. Təbii ki, bütün bunlar, yuxarıda qeyd edildiyi kimi, istər texnoloji, istərsə də idarəetmə sahəsində müasirliyi tələb edir. Bu baxımdan da, müxtəlif sahələrdə istehsal və xidmət proseslərində yeni texnika və texnologiyanın geniş miqyaslı tətbiqi, müasir idarəetmə metodlarından istifadə milli iqtisadiyyatın modernləşdirilməsinin başlıca amillərindən biri kimi qəbul edilə bilər. Yeni texnika və texnologiyanın tətbiqi ETT-nin nailiyyətlərindən bəhrələnməyi tələb edirsə, idarəetmə sahəsində təkmilləşmə isə, öz növbəsində, kadr hazırlığı və təminatının yaxşılaşdırılmasını tələb edir. [2, s.123-131; 5, s.214-221]

Qeyd edilənlərdən aydın olduğu kimi, söhbət ETT-nin nailiyyətlərinin istehsalatda geniş miqyaslı tətbiqindən, kadr təminatı və hazırlığının təkmilləşdirilməsindən gedirsə, ümumilikdə bütün bunları innovasiya siyasətinin tərkib hissəsi hesab etmək olar. Hansı ki, innovasiya, innovativ yanaşma da istər modernləşmənin, istərsə də rəqabətqabiliyyətliliyin əsasını təşkil edir. Belə olduqda isə, innovasiya siyasətini modernləşmənin və rəqabətqabiliyyətliliyin mühüm amili kimi qəbul etmək mümkündür. İstər innovasiya, istərsə də modernləşmə, yekunda rəqabət qabiliyyətliliyin yüksəldilməsinə kömək edir ki, bu da müasir davamlı inkişafın əsas tələblərindən biridir. Belə ki, hər hansı bir sahənin davamlı inkişaf etməsi həmin sahənin digər alternativ sahələrlə rəqabət mübarizəsindən çox asılıdır. Qloballaşma və inteqrasiya proseslərinin sürətləndiyi müasir dövrdə, istər milli, istərsə də qlobal səviyyədə rəqabət mübarizəsində iştirak etmək, bu mübarizədə müflis olmamaq uzunmüddətli fasiləsiz fəaliyyətin başlıca şərtlərindən biridir. Göründüyü kimi, milli iqtisadiyyatın modernləşdirilməsi, innovasiya siyasəti, davamlı inkişaf, rəqabətqabiliyyətlilik və s. biri-biri ilə sıx bağlı olub qarşılıqlı əlaqəlidir. Eyni zamanda, biri digərinin təkanvericisi və ya tamamlayıcısıdır. Başqa sözlə desək, bu anlayışlara ayrılıqda deyil, kompleks şəkildə yanaşılması daha məqsədəuyğundur. [1; 9]

Konkret olaraq, aqrar sektorda modernləşmə aqrar-sənaye kompleksinin daha səmərəli inkişafına, torpaq, su, yeraltı və yerüstü sərvətlər və s. kimi həyati əhəmiyyətli resurs ehtiyatlarından qənaətlə və maksimum səmərəli istifadəyə şərait yaradar ki, bu da davamlı və dinamik inkişafın zəruri şərtlərindəndir. Onu da qeyd edək ki, aqrar sektorda modernləşmə müxtəlif istiqa-

mətləri əhatə etməlidir. Təbii ki, burada birinci yeri məhsul istehsalı ilə bağlı olan mərhələlər tutur və burada yüksək, eləcə də keyfiyyətli məhsuldarlıq təmin edilir. Sonrakı mərhələdə isə aqrar-sənaye kompleksinin modernləşdirilməsi zəruridir. Ona görə ki, emal sənayesinin səmərəli fəaliyyəti aqrar sektorun fəaliyyətinin nəticələrinin daha rentabelli olmasına zəmin yaradır. Nəzərə alsaq ki, aqrar sektorun davamlı inkişafının vacib amillərindən biri də hazır məhsulların sərfəli şəkildə reallaşdırılmasıdır, onda satış mərhələsində də müvafiq modernləşdirmə tədbirlərinin həyata keçirilməsinin zəruriliyi aydın olar. Ona görə də bu sahəyə xidmət edən daşıma subyektlərinin fəaliyyətinin də modernləşdirilməsi məqsədəuyğun olardı. [1; 4; 5]

Başqa sözlə desək, satış mərhələsi aqrar sektorun rəqabətə davamlılığı üçün xüsusi əhəmiyyət kəsb edir ki, bunun da mühüm istiqaməti daşımalarla bağlıdır. Bu baxımdan da aqrar sektorda daşıma xidmətlərinin təkmilləşdirilməsi (modernləşdirilməsi) həm sektorun davamlı inkişafı üçün, həm də ümumilikdə ərzaq təminatı və təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb edir. Digər tərəfdən, daşıma xidmətlərinin modernləşdirilməsi də, öz növbəsində, iki mərhələdə reallaşır. Burada istismar edilən nəqliyyat vasitələrinin keyfiyyəti, istismara yararlılığı nə qədər əhəmiyyətlidirsə, daşıma prosesinin özünün təşkili də bir o qədər əhəmiyyətlidir. Ona görə də rəqabətqabiliyyətli aqrar sektorun formalaşmasında nəqliyyat xidmətlərinin rolunun artırılması üçün nəqliyyat vasitələrinin müasirliyi və çevik daşıma proseslərinin təşkili zəruridir. Təqdim edilən məqalədə də, məhz bu istiqamətdə fikir və mülahizələr bildirilir.

ƏDƏBİYYAT

1. İ.H.Alıyev və b. “Milli iqtisadiyyat: modernləşmə və davamlı inkişaf”. Bakı, “Avropa” nəşriyyatı, 2013, 475 s.
2. Ə.X.Nuriyev. “Regional idarəetmənin əsasları”. Bakı, Elm, 2007, 465 s.
3. D.Ə.Vəliyev. “Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabət qabiliyyətinin artırılması yolları”. “Azərbaycan Respublikasında iqtisadi islahatlar: ilkin nəticələr, problemlər və perspektivlər” mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, Avanqard MMC, 2003, s. 295-298.
4. Ə.Y.Nəsirov. “Aqrar-sənaye kompleksinin dayanıqlı inkişafının təmin edilməsində beynəlxalq nəqliyyat dəhlizlərinin rolu”. Bakı, “Avropa” nəşriyyatı, 2017, 208 s.
5. H.A.Xəlilov. “Aqrar iqtisadiyyatda sistem transformasiyaları və modernləşmə şəraiti”. Bakı, 2005, 354 s.
6. C.Məmmədov. “Aqrar bölmədə maddi-texniki təminat və xidmət işinin təşkili”. Bakı, 2004, 143 s.
7. İ.M.Rzayev. “Azərbaycan Respublikasında regionların davamlı sosial-iqtisadi inkişafı: mövcud vəziyyət və gələcək perspektivlər”. Bakı, Elm, 2010, 468 s.
8. A.M.Əsədov. “Ərzaq təhlükəsizliyinin təmin edilməsində nəqliyyatın rolu”. AMEA İİ, “Ərzaq təhlükəsizliyinin təmin edilməsinin sosial-iqtisadi problemləri” Beynəlxalq elmi-praktiki konfransın materialları, Bakı, 2011, s.73-74.
9. И.Алыев, А.Асадов. «Модернизация как начальное условие устойчивого развития аграрного сектора». “Системный Анализ и прогнозирование экономики”, Минск, 6-я меж. научная конференция, с.124-127;

Иса Гюсейн оьлы Алыев
д.э.н., профессор,

Агил Махияддин оглы Асадов
д.э.н., профессор

Основу конкурентоспособности аграрного сектора является модернизация

Резюме

В представленной статье рассматриваются вопросы повышения конкурентоспособности аграрного сектора. Для этой цели были рассмотрены инновации как основе модерни-

зации. В то же время в статье было разработано формирование конкурентоспособности с точки зрения улучшения аграрного производства и эффективной организации процессов продаж. В статье даны некоторые предложены в направление инновационного подхода к производственным процессам в аграрном секторе и оптимальные и эффективные механизмы транспортировки.

Ключевые слова: аграрный сектор, инновации, конкурентоспособность, устойчивое развитие, продажи, транспорт.

İsa Huseyn Alıyev
d.e.s., professor

Aqil Mahiyaddin Asadov
d.e.s., professor

The basis of competitiveness of the agrarian sector's is modernization

Summary

The presented article examines the issues of raising competitiveness of the agrarian sector. For this purpose were looked innovations as the basis of modernization. At the same time, in the article was elaborated the formation of competitiveness in terms of agrarian production improvement and effective organization of sales processes. The article was given some insights and perceptions about the innovative approach to production processes in the agrarian sector and the optimal and efficient transportation.

Key words: agrarian sector, innovation, competitiveness, sustainable development, sales, transportation.

Qabil Nadir oğlu MANAFOV
ADİU-nun professoru, i.e.d.

AQRAR SAHƏDƏ SAHİBKARLIĞIN İNKİŞAFINDA MALİYYƏ-KREDİT MEXANİZMLƏRİNDƏN İSTİFADƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Xülasə

Məqalədə ölkə iqtisadiyyatının hazırkı inkişaf mərhələsində sahibkarlığın dəstəklənməsi tədbirləri nəzərdən keçirilərək ümumiləşdirilmiş, aqrar sektorda sahibkarlığın maliyyələşdirilməsinin mövcud mexanizmi təhlil edilərək qiymətləndirilmiş, aqrar sahibkarlığın inkişafında maliyyə-kredit problemləri üzə çıxarılmış və onların aradan qaldırılması yolları ilə bağlı müvafiq təkliflər verilmişdir.

Açar sözlər: aqrar sahibkarlıq, aqrar sahə, maliyyə-kredit mexanizmi.

Giriş

*"*Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə bu sahədə mövcud vəziyyət təhlil olunur, strateji baxış, hədəf indikatorları, strategiyanın məqsədləri, strateji hədəflər, maliyyələşmə mexanizmləri, icra, monitorinq və qiymətləndirmə qaydaları müəyyən edilir, tədbirlər planı təsdiq edilir. Eyni zamanda, kifayət qədər geniş və əhatəli sənəd olan Strateji Yol Xəritəsində sahibkarlıq fəaliyyətinin inkişafı, biznes mühitinin yaxşılaşdırılması sahəsində indiyədək görülmüş işlər sadalanır, mövcud vəziyyət təhlil edilir, çatışmazlıqlar və onların aradan qaldırılması yolları göstərilir. Bunun üçün sənəddə KOS-lar beynəlxalq təcrübədə mövcud olan müsbət və mütərəqqi mexanizmlərin ölkəmizdə tətbiqi nəzərdə tutulur. [1]

Bütün bunlardan göründüyü kimi, son illərdə qanunvericilik bazasını, inzibati prosedurları və dövlət-sahibkar münasibətlərini təkmilləşdirmək yönümündə dövlət tərəfindən kompleks tədbirlər icra edilir. Aparılan islahatların KOS subyektlərinə təsirinin qiymətləndirilməsi üçün qanunvericilik sisteminin səmərəli tətbiq olunması nəzərdə tutulur. Həmin sistemin mövcud qa-

nunvericiliyin respublikada həyata keçirilən islahatlara təsirinin ölçülməsinə və müvafiq təkmilləşdirmələrin qarşılanmasına imkan verəcəyi realdır. Dünya ölkələrinin təcrübəsində sistemin tətbiqi yolları öyrənilərək, ölkədə KOS-un xüsusiyyətləri nəzərə alınmaqla, zəruri tədbirlərin icrası nəzərdə tutulur.

Ölkə qarşısında əsas strateji hədəflərdən biri kimi ölkədə ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi məqsədinə uyğun olaraq aqrar sahədə biznes mühitini daha da yaxşılaşdırmaq yönümündə islahatları davam etdirmək müəyyənləşdirilmişdir. Hədəfə nail olunması məqsədilə dövlət-sahibkar münasibətlərini inkişaf etdirmək, aqrar sektorda biznes və investisiya mühitini dəstəkləmək zərurəti yaranmışdır.

İqtisadi inkişafın hazırkı mərhələsində aqrar sahibkarlığın dəstəklənməsi tədbirləri

Davamlı inkişafın təmin edilməsi məqsədilə aqrar sahibkarlığın inkişafı tədbirləri ölkə iqtisadiyyatının inkişafının hazırkı mərhələsində regional inkişafda qeyri-bərabərliyin aradan qaldırılmasına, ölkə iqtisadiyyatının səmərəli sahə strukturunun formalaşmasına, texnoloji inkişafın sürətləndirilməsinə, ölkənin ixrac potensialının səmərəli reallaşdırılmasına, qeyri-neft sektorunun inkişafına, məşğulluğun optimal səviyyəsinin təmin edilməsinə və orta təbəqənin formalaşması prosesinin sürətləndirilməsinə yönəldilməlidir. Fikrimizcə, göstərilən öncül məqsədlərə nail olunması üçün ilk növbədə sahibkarlığın inkişafının normativ-hüquqi bazası mütəmadi aparılmalı olan təhlil əsasında təkmilləşdirilməli, bu siyasət dövlətin təsərrüfat funksiyalarının məhdudlaşdırılması, tənzimləmənin isə səmərəliliyinin artırılmasına yönəldilməlidir. İkincisi, aqrar sahibkarlığın maliyyə təminatı gücləndirilməli, bu istiqamətdə məqsədli dövlət maliyyələşməsi ilə yanaşı, alternativ maliyyə mənbələrinin daha da aktivləşdirilməsi üzrə zəruri mühit yaradılmalı, bu fəaliyyət stimullaşdırılmalı, start kapitalının formalaşması imkanları genişləndirilməlidir; Üçüncüsü, aqrar sahibkarlığın inkişafına yönəldilmiş təşkilati tədbirlərin əhatə dairəsi genişləndirilməli, müxtəlif istiqamətdə davamlı və sistemli xidmətlər göstərən təsisatlar yaradılmalıdır. Xüsusilə də ölkənin ixrac potensialının səmərəli reallaşdırılması məqsədilə ixrac qabiliyyətli sahələr üzrə məhsul istehsalı, onun dünya bazarlarına çatdırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi tədbirləri ilə dəstəkləyəcək İxracın və İnvestisiyaların Təşviqi Fondunun səmərəli fəaliyyəti təmin edilməlidir.

Aqrar sektorda sahibkarlığın maliyyələşdirilməsinin mövcud mexanizminin qiymətləndirilməsi

Azərbaycanda iqtisadiyyatın kreditləşdirilməsinin mühüm istiqamətlərindən biri özəl investisiya qoyuluşlarının dövlət büdcəsinin vəsaitləri hesabına maliyyələşdirilməsi mexanizminin təkmilləşdirilməsidir. Son illərdə ölkədə bu məqsədlə bir sıra inkişaf institutları yaradılmışdır. Bunlardan biri Sahibkarlığa Kömək Milli Fondudur. Bütövlükdə, 2006-2017-ci illər ərzində Sahibkarlığa Kömək Milli Fonduna dövlət büdcəsindən 1896,2 mln. manat vəsait ayrılmışdır[1].

Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına orta hesabla 2011-2017-ci illərdə 5450 sahibkarlıq subyektinə 240,2 milyon manat güzəştli kredit verilmişdir. Həmin kreditlər hesabına 16144-dək yeni iş yerinin yaradılması təmin olunmuşdur. Güzəştli kreditlərin 67,6%-i aqrar sektorun və 32,4%-i müxtəlif sənaye məhsullarının istehsalı və emalına verilmişdir. Verilmiş kreditlərin 65,0%-i respublikanın regionlarının, 35,0%-i isə Bakı şəhəri, kənd və qəsəbələrinin payına düşür [1]

Göründüyü kimi, Fondun vəsaitləri artdıqca onun aqrar-sənaye kompleksinə investisiya qoyuluşlarının maliyyələşdirilməsində payı da artır.

2017-ci ildə SKMF-nun vasitəsilə 1953 sahibkarlıq subyektinə 20,2 milyon manat güzəştli kreditlər verilmiş və bu kreditlər hesabına 6591 yeni iş yerinin açılması imkanı yaranmışdır [2, s. 268].

2005-ci illə müqayisədə 2017-ci ildə kənd təsərrüfatı məhsullarının emalına yönəldilmiş güzəştli kreditlərin həcmi 3,7 dəfə, kənd təsərrüfatı məhsullarının istehsalına ayrılan kreditlərin həcmi isə 10,5 dəfə artaraq, müvafiq olaraq 22,5 və 120,9 mln. manat təşkil etmişdir [1].

Qeyd etmək lazımdır ki, hazırda Sahibkarlığa Kömək Milli Fondu tərəfindən investisiya layihələrinin seçilməsi mexanizmində dəyişikliklər edilmişdir. Belə ki, əvvəllər güzəştli kreditin alınması üçün Fonda sahibkarlar müraciət edirdi və onların investisiya layihələri qiymətləndirilib kredit verilməsi haqqında qərar verilirdi. Belə şəraitdə eyni sahəyə aid layihələri müqayisə

etmək imkanı olmurdu. Hazırda prioritet istiqamətlər üzrə sahibkarlıq subyektlərindən investisiya təkliflərinin qəbulu ücün muxtəlif istiqamətlər üzrə kütləvi informasiya vasitələrində elanlar verilir, bir istiqamət üzrə verilmiş müxtəlif təkliflər qiymətləndirilir və qalib layihələr Fond tərəfindən yuksək səviyyədə (investisiya tələbatının 60-70 faizi səviyyəsində) guzəştli qaydada maliyyələşdirilir. Bu mexanizm milli iqtisadiyyatın inkişafına təsir baxımından daha səmərəli investisiya layihələrinin seçilməsinə imkan verir. Sahibkarlığa kömək Milli Fondu tərəfindən 2009-2017-ci illərdə bu yolla müasir texnologiyaların tətbiqinə əsaslanan 500-dən çox investisiya layihəsi maliyyələşdirilmişdir. Həmin layihələr üzrə güzəştli şərtlərlə maliyyələşdirmə əsasən ətlik və südlük istiqamətli cins iribuynuzlu heyvandarlıq komplekslərinin, logistika və yaşıl market mərkəzlərinin, müasir tələblərə cavab verən meyvə-tərəvəz məhsulları üzrə emal müəssisələrinin, iri fermer təsərrüfatlarının, qarışıq yem istehsalı və müasir çörək istehsalı, digər sənaye (yüngül, tikinti, kimya, maşınqayırma və s.) müəssisələrinin, müasir istixana komplekslərinin, intensiv bağçılıq (üzüm, alma, nar və s.) və ya tingçilik təsərrüfatlarının yaradılmasına, kiçik sahibkarlığın inkişafına yönəldilmişdir [1].

Ölkədə aqrar sahibkarlığın inkişafında maliyyə-kredit problemləri və onların aradan qaldırılması yolları

Araşdırmalar göstərir ki, yeni yaradılan və inkişafda olan kənd təsərrüfatı qurumları və təsərrüfatları maliyyə və pul vəsaitlərinin çatışmazlığı üzündən malik olduqları istehsal resurslarından (xüsusilə torpaq, maşın və avadanlıqlardan) səmərəli istifadə edə bilmirlər. Respublikanın əksər iqtisadi zonalarında kənd təsərrüfatı və emal sahələri ilə məşğul olanların torpaqdan və emaledici güclərdən istifadə səviyyəsi xeyli aşağıdır. Vəziyyəti yaxşılaşdırmaq üçün ilk növbədə respublikanın bütün iqtisadi rayonlarında aqrar sahibkarlara aşağı faiz dərəcələri ilə uzun müddətli bank kreditlərinin verilməsi xüsusən vacibdir. Bununla yanaşı Mərkəzi Bank tərəfindən elə bir kredit siyasəti həyata keçirilməlidir ki, kommersiya banklarında aqrar sahədə sahibkarlıq fəaliyyəti məqsədləri üçün güzəştli kreditlərin ayrılmasında stimul yaratsın.

Digər tərəfdən, indiki halda əkilən strateji məhsullar yalnız taxıl (buğda) və çəltik yetişdirilməsindən ibarət olmamalıdır. Bu cür halın digər strateji məhsullara, o cümlədən də Azərbaycanda istehsalı üçün geniş imkanlar olan, lakin istehsalı əvvəlki dovrlərlə müqayisədə kəskin azalmış bəzi məhsullara, məsələn, pambıq, tütün və ölkənin ərzaq təhlükəsizliyi ilə birbaşa bağlı olan digər məhsullara da aid edilməsinə ehtiyac var.

Araşdırmalar göstərir ki, indiyə kimi respublikada aqrar sahibkarlığın investisiya problemlərinin həlli mexanizmi axıradək işlənib hazırlanmamışdır. Ona görə də hesab edirik ki, kredit dərəcələrinin azaldılması imkanlarının tapılması, investisiyalardan istifadəyə görə müxtəlif vergi güzəştlərinin tətbiqi, cəlb edilmiş kredit resurslarının bölüşdürülməsi və idarə olunması sisteminin son dərəcə sadələşdirilməsi və s. tədbirlərin görülməsi ən vacib məsələlərdəndir.

Hazırkı şəraitdə Azərbaycanda aqrar sahibkarlığın investisiya problemlərinin həlli ilə səmərəli surətdə məşğul ola bilən çoxlu miqdarda ixtisaslaşmış mikrokreditləşmə maliyyə qurumlarının yaradılmasına ehtiyac vardır. Azərbaycanda belə bir təcrübənin olmasına baxmayaraq, onun daha genişləndirilməsi və səmərəli sisteminin qurulması çox vacibdir.

Respublikada xüsusilə aqrar sahədə kiçik sahibkarlığın maliyyə problemlərinin həllində kredit ittifaqlarının yaradılması mühüm əhəmiyyət kəsb edir. Qeyri-bank təşkilatı forması kimi çıxış edən həmin ittifaqın fəaliyyəti sahibkarlıqla məşğul olan fiziki şəxslərin qarşılıqlı maliyyə köməkliyinə əsaslanır. Deməli, kredit ittifaqının vəsaitindən bu ittifaqa daxil olmayan şəxslər istifadə edə bilməzlər.

Hazırda sahibkarlıq fəaliyyətinin daha səmərəli təşkili üçün kredit kooperativlərinin imkanlarından geniş istifadə etmək lazımdır. Bununla əlaqədar Respublika Prezidentinin 22 iyul 2000-ci il tarixli Fərmanı ilə "Kredit İttifaqı haqqında" müvafiq qanun qəbul edilmişdir. Həmin qanuna görə, Kredit İttifaqı anlayışı mənafe ümumiliyi əsasında könüllü birləşən fiziki şəxslərin və kiçik sahibkarlıq subyekti olan hüquqi şəxslərin sərbəst pul vəsaitini cəmləşdirmək yolu ilə özlərinin qarşılıqlı kreditləşdirilməsi üçün yaradılan bank olmayan kredit təşkilatıdır.

Hazırda respublikada kənd təsərrüfatı istehsalçılarının 30-dan çox belə təşkilatı mövcuddur. Həmin ittifaqların səmərəli fəaliyyəti üçün əlverişli investisiya mühitinin yaradılması qarşıda du-

ran ən mühüm vəzifələrdəndir.

Araşdırmalar göstərir ki, son dövrlərdə aqrar-sənaye müəssisələrində investisiya qoyuluşlarının artması aqrar sahədə bu vəsaitlərin istifadə səmərəliliyini də artırmışdır. Lakin yenə də sahibkarlığın, aqrar təsərrüfat vahidlərinin fəaliyyətlərinin genişləndirilməsində onların öz maliyyə imkanları kifayət qədər deyildir. Aqrar sənaye müəssisələrinin kreditləşdirilməsində yarana biləcək hər hansı bir risk problemi kredit təşkilatlarının aqrar sahibkarlığa münasibətdə fəallığını zəiflədir.

Aqrar sahibkarlığın kredit təminatında perspektivli istiqamətlərin seçilməsi xüsusiyyətləri müxtəlif səviyyələrdə fərqli ola bilər. Bu baxımdan aqrar sahibkarın maliyyə imkanlarının aşağı olması amili kreditləşmənin seçilməsində əsas kimi nəzərə alınmalıdır. Aqrar-sənaye kompleksinin inkişafını təmin etmək üçün lizinq kreditləşməsi daha mütərəqqidir, belə ki, lizinq obyekti ödəniş qabiliyyətsizliyindən etibarlı qaydada sığorta edir. Lizinq şirkəti istənilən zaman öhdəliyinin ödənilməsi üçün əmlakı geri almaq imkanına malik olur. Bu amil də özlüyündə aqrar sahədə sahibkarların kreditin lizinq formasından istifadəsi üzrə imkanlarını genişləndirir və onu aktuallaşdırır.

Beləliklə, Azərbaycanda aqrar sahibkarlığın inkişafı üçün ilk növbədə onun dövlət tənzimlənməsinin maliyyə-kredit mexanizmini təkmilləşdirmək, biznesin institusional artım amillərinin inkişafına kömək etmək tələb olunur.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
2. www.anfes.gov.az - Sahibkarlığa Kömək Milli Fondu.
3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci ildə fəaliyyəti haqqında hesabat. Bakı, 2017, 435 s.

Габиль Надир оглы Манафов
д.э.н., профессор АГЭУ

Совершенствование финансово-кредитного механизма в развитии предпринимательства в аграрной сфере

Резюме

В статье анализируются меры, принятые для поддержки предпринимательства на современном этапе экономики страны, проанализированы действующий механизм финансирования предпринимательства в аграрном секторе, выявлены финансовые и кредитные проблемы в развитии аграрного предпринимательства и сделаны соответствующие предложения о путях их решения.

Ключевые слова: аграрное предпринимательство, аграрный сектор, финансово-кредитный механизм

Gabil Nadir Manafov
Professor of the UNEC, doctor of economic sciences

In the development of agrarian entrepreneurship improving the use of financial and credit potential

Summary

The article analyzes the measures taken to support entrepreneurship in the present stage of the country's economy, analyzed the current mechanism of financing entrepreneurship in the agrarian sector, revealed financial and credit problems in the development of agrarian entrepreneurship and made relevant proposals on ways to address them.

Key words: agrarian entrepreneurship, agrarian sector, financial and credit mechanism.

Anar Nizami oğlu HƏTƏMOV
İqtisad üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Aqrar Universiteti (ADAU)
Tədris işləri üzrə prorektor

AQRAR TƏHSİLİN VƏ İSTEHSALIN İNTEQRASİYASININ ADAU MODELİ: NƏTİCƏLƏR VƏ PERSPEKTİVLƏR

Xülasə

Məqalədə Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) timsalında aqrar təhsilin və istehsalatın inteqrasiyasından bəhs olunur. Belə ki, burada,müsbət dəyişikliklərin, o cümlədən yeni təsisatların, aparıcı aqrobiznes şirkətlərlə əməkdaşlıq əlaqələrinin, tələbələrin startap layihələrinin, istehsalat təcrübələrinin, məzun yarmarkalarının və digər tədbirlərin ADAU-da mütəxəssis hazırlığına təsiri məsələləri şərh edilir.

Açar sözlər: ADAU, inteqrasiya, aqrar təhsil, sənaye, əmək bazarı, təcrübə, məzun.

***

Qloballaşmanın daha intensiv xarakter aldığı müasir dövrdə ərzaq təhlükəsizliyinin təmin edilməsi və aqrar sahənin rəqabət qabiliyyətinin yüksəldilməsi əmək bazarının tələblərinə cavab verən aqrar mütəxəssis hazırlığının səviyyəsindən bilavasitə asılıdır. Təhsilin keyfiyyətinin və hazırlanan mütəxəssislərin rəqabət qabiliyyətinin yüksəldilməsində təhsil və istehsalın inteqrasiyası mühüm rol oynayır.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına görə, bu gün dünyada hər bir insanın qidalanması üçün kifayət qədər ərzaq istehsal olunsa da, hələ də 815 milyon insan xroniki aclıqdan əziyyət çəkir və planetin əhalisinin üçdə biri doyunca qidalana bilmir. Dünyanın qarşılaşdığı mühüm çağırışlardan biri 2050-ci ilə qədər sayı 10 milyard nəfərə çatacağı proqnozlaşdırılan əhalinin sağlam həyatı üçün ərzaq ehtiyaclarının ödənilməsidir. Bunun başlıca səbəbi planetimizin su və torpaq resurslarının məhdudluğu, torpaq və biomüxtəlifliyin deqradasiyası, iqlim dəyişiklikləridir [1].

Azərbaycanda həyata keçirilən aqrar siyasət tədbirləri əsas kənd təsərrüfatı məhsulları istehsalının artmasına, əhalinin tələbatının yerli istehsal hesabına ödənilmə səviyyəsinin yüksəlməsinə səbəb olsa da, idxalın əmtəə quruluşunda ərzaq məhsullarının xüsusi çəkisi məqbul səviyyədə deyil.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, 2017-ci ildə ölkəyə 1 403 818,51 min ABŞ dolları dəyərində yeyinti məhsulları idxal olunmuşdur ki, bu da ümumi idxalın 15,99 faizinə bərabər olmuşdur [2].

Düzdür, son illərdə bir sıra kənd təsərrüfatı məhsullarının ixracının artması sahə üzrə ticarət balansında müsbət meyillərə səbəb olmuşdur. Bununla belə, aqrar sahədə innovativ texnologiyaların tətbiqi ilə intensiv inkişafın üstünlüyünün təmin edilməsi aktual problemlərdən biri olaraq qalmaqdadır.

Ölkəmizdə ali təhsilli aqrar mütəxəssislərin hazırlığının mərkəzi olan Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) təhsilin və istehsalın inteqrasiyasının yeni modelinin formalaşdırılması istiqamətində mühüm nəticələr əldə edilmişdir. Bu modelin əsasında son illərdə təhsil müəssisəsinin maddi-texniki bazasının yenidən qurulması, o cümlədən tələbə evlərinin, quşçuluq, süni mayalanma, arıçılıq və bildirçin yetişdirilməsi üzrə tədris mərkəzlərinin, qapalı və açıq balıqyetişdirmə, torpaqşünaslıq və aqrokimya laboratoriyalarının, müasir heyvandarlıq kompleksinin, istixanaların, maşın-traktor parkının, bitki və baytarlıq klinikalarının və digər təsisatların istifadəyə verilməsi, habelə ölkənin aqrobiznes şirkətləri, dünyanın aparıcı ali təhsil müəssisələri ilə qarşılıqlı fayda verən əməkdaşlıq əlaqələrinin qurulması, beynəlxalq mübadilə proqramlarında iştirak, təhsil standartlarının beynəlxalq təcrübəyə əsaslanaraq yenidən hazırlanması, idarəetmədə "tələbəyə yönəlik" qərarların qəbul edilməsinin üstünlük təşkil etməsi durur.

ADAU-da təhsilin və istehsalın inteqrasiyasının təmin edilməsi strategiyası Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə

əksini tapmış müvafiq hədəflərə əsaslanır. Sənəddə qeyd olunur ki, kənd təsərrüfatı sahəsində ölkənin kadr hazırlığı mərkəzi olan Azərbaycan Dövlət Aqrar Universitetinin bütün laboratoriyaları tamamilə yenilənmiş, müasir avadanlıqlarla təchiz edilmiş və yeni təcrübə bazaları yaradılmışdır. Bununla bərabər, universitetin təlim planları və proqramları Avropa və Türkiyə universitetləri ilə əməkdaşlıq çərçivəsində təkmilləşdirilir. Eyni zamanda, təhsilin keyfiyyətini artırmaq üçün müasir tələblərə cavab verən kurikulumların işlənib hazırlanmasının davam etdirilməsi, universitetin müəllimlərinin və tədqiqatçılarının elmin müasir yenilikləri ilə tanış olması, eləcə də biliklərinin daha da dərinləşdirilməsi üçün beynəlxalq konfranslarda, seminarlarda və müxtəlif ixtisasartırma kurslarında iştirakını təşviq edən xüsusi proqramların hazırlanması kimi vəzifələr müəyyən olunmuşdur [3].

Universitetdə təhsilin istehsalla inteqrasiyasının bariz nümunələrindən biri kimi "Gilan Holdinq" MMC ilə əməkdaşlıq müqaviləsi çərçivəsində aqronomluq fakültəsində təhsil alan tələbələr arasında seçim əsasında eksperimental tədris qrupunun yaradılmasını qeyd etmək olar. Qrupda təhsil alan tələbələrə əlavə olaraq praktiki məşğələlər tədris olunur, şirkərin müəssisələrinə mütəmadi olaraq səfərlər təşkil edilir.

Universitetdə aqrar məsləhət xidmətinin yaradılması istehsalla əlaqələrin genişlənməsi istiqamətində atılmış mühüm addımlardandır. Məsləhət xidmətinin əməkdaşları tərəfindən kənd təsərrüfatı istehsalçılarına aqronomluq, aqrobiznes, aqrar iqtisadiyyat, aqrotexnologiya, baytarlıq təbabəti və zoomühəndislik,mühəndislik istiqamətləri üzrə təlimlər verilir, habelə torpaqşünaslıq və aqrokimya, toxumçuluq laboratoriyalarının, bitki və heyvan klinikalarının, maşın-traktor parkının, müasir heyvandarlıq kompleksinin, süni mayalandırma tədris mərkəzinin və digər təsisatların potensial imkanlarından istifadə etməklə səmərli xidmətlər göstərilir.

"Aztexnika MMC" ilə əməkdaşlıq əlaqələri tədris və istehsalın inteqrasiyasının ADAU modelini xaraketizə edən mühüm elementlərdən biridir. Müəssisə ilə əməkdaşlıq çərçivəsində mühəndislik fakültəsinin tələbələri 2017-ci ildə "Aqro Dairy" MMC-nin Ceyrançöl əkin sahələrində taxıl biçinində iştirak etmiş, "John Deere 9970 markalı" pambıqyığan kombaynın istismarı ilə əlaqədar respublikanın müxtəlif bölgələrindən olan 230-dan çox operatora fakültə əməkdaşları tərəfindən təlimlər keçirilmişdir. Müəssisənin mühəndislik fakültəsinin tədris koprusunda yaratdığı "John Deere" Təlim Mərkəzində mövcud olan avadanlıqlar vasitəsilə müasir standartlara uyğun mühəndis kadrlar hazırlanır.

"Grand Motors" MMC-nin mühəndislik fakültəsində "New Holland Agriculture" təlim mərkəzinin yaradılması, 5 tələbənin Türkiyədə və Belçikada təcrübə keçməsi üçün tələb olunan xərclərin şirkət tərəfindən maliyyələşdirilməsi də istehsalat müəssisələrinin universitetə inamının təzahür formalarından biridir.

Universitetdə təhsilin istehsalatla inteqrasiyasında istehsalat təcrübələri mühüm rol oynayır. Tələbənin aldığı nəzəri bilikləri möhkəmləndirmək, dərinləşdirmək və sonrakı əmək fəaliyyətində istifadəsini təmin etmək, ixtisasın profilindən və xüsusiyyətindən asılı olaraq, yeni texnologiyalarla, iş üsulları ilə, elmi-tədqiqatlarla və digər məsələlərlə tanış etmək, işgüzarlıq, təşkilatçılıq və kommunikativ vərdişləri aşılamaq, tələbələrin peşələrinə meyli və marağını möhkəmləndirmək məqsədini daşıyan təcrübələrin obyektlərinin düzgün seçilməsi, bu sahədə effektiv idarəetmə mexanizminin formalaşdırılması prioritet istqamətlərdən biridir.

İnnovativ müəssisələrlə əlaqələrin qurulması istiqmətində görülmüş işlərdən biri kimi, "YalamaAqropark" MMC ilə əməkdaşlıq memorandumu imzalanmış, tələbələrin bir qismi istehsalat təcrübəsinə qeyd olunan müəssisəyə göndərilmişdir.

ADAU tələbləri təcrübəyə yalnız ölkədə yerləşən müəssisələrə deyil, eyni zamanda, Türkiyənin və Almaniyanın qabaqcıl təsərrüfatlarına da göndərilir. 2016/2017-ci tədris ilində bakalavriat səviyyəsində "menecment (alman proqramı)" ixtisası üzrə 10 tələbə LOGO və PRAXX proqramları çərçivəsində Almaniyada, "baytarlıq", "aqronomluq" və "torpaqşünaslıq və aqrokimya" ixtisasları üzrə isə 7 tələbə İstanbul Universiteti ilə ADAU arasında bağlanmış əməkdaşlıq müqaviləsinə əsasən qeyd olunan universitetdə istehsalat təcrübəsi keçmişlər.

Universitetdə tələbələrin innovativ ideyalarının, startap layihələrinin dəstəklənməsi və həyata keçirilməsinə sahibkarların cəlb edilməsi istehsalla inteqrasiyasının təmin olunmasının əsas

istiqamətlərindən biri kimi qəbul olunur. Hələ ki, tələbələrin startap layihələrinin maliyyələşdirilməsində universitetin büdcəsi əsas mənbə olaraq qalmaqdadır. Buna misal olaraq, 2017-ci ildə universitetdə istehsal olunan məhsulların "ADAU brendi"nin yaradılması, qida dəyəri zəncirinin inkişafı, aqrar yönümlü universitetlərdə texnoloji parklar, ekoloji kənd təsərrüfatı məhsullarının marketinqi, elektron kənd təsərrüfatı, aqrar sahədə alternativ enerji mənbələrindən istifadə, kənd təsərrüfatında mütərəqqi suvarma üsullarının tətbiqi, kənd təsərrüfatı bitkilərinin xəstəlik və zərərvericilərdən qorunması, ADAU-da "yaşıl market"in yaradılması istiqamətləri üzrə tələbələrin startap layihələrinin müsabiqəsinin keçirilməsi və qaliblərin universitetin büdcəsi hesabına mükafatlandırılmasını göstərmək olar [4].

Ali təhsilin istehsalla inteqrasiyasını, hazırlanan mütəxəssislərin bilik və bacarıqlarının əmək bazarının tələblərinə uyğunluğunu əks etdirən mühüm göstəricilərdən biri məzunların məşğulluq səviyyəsi, o cümlədən onların ixtisasları üzrə işlə təmin olunmalarıdır. Təhlil göstərir ki, son illərdə universitet məzunlarının məşğulluq səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlmişdir. "Mən necə karyera qurdum?" mövzusu üzrə iş adamlarının universitet tələbələri ilə görüşünün, ənənəvi məzun yarmarkalarının təşkili, məzunların təkmil elektron bazasının yaradılması istiqamətində görülmüş işlər məzunların uğurlu karyerasında mühüm rol oynayır.

Məzunların əmək bazarında hərəkətinin izlənilməsi, onların əldə etdikləri uğurların təşviq edilməsi universitetin təcrübə və işədüzəltmə şöbəsi tərəfindən həyata keçirilir. Hazırda bu sahədə qarşıda duran əsas vəzifələrdən biri uğur əldə etmiş məzunların tədris prosesinə, universitetdə sosial yönümlü layihələrin həyata keçirilməsinə cəlb edilməsidir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, ADAU-da təhsillə istehsalın inteqrasiyasının təmin edilməsi istiqamətində görülmüş işlər ilkin müsbət nəticələrini verir. Bu sahədə daha səmərəli mexanizmlərin işlənilməsi istehal müəssisələri ilə yanaşı ölkədə müvafiq sahə üzrə mütəxəssis hazırlığı aparan ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, əldə olunmuş ən yaxşı təcrübələrin yayılması və səmərəli istifadəsi, birgə layihələrin həyata keçirilməsi daha yüksək nəticələrin əldə olunmasına səbəb olar.

ƏDƏBİYYAT

1. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının rəsmi internet səhifəsi. http://www.fao.org/state-of-food-security-nutrition/en/
2. Azərbaycan Respublikası Xarici Ticarətinin Gömrük Statistikası. AR DGK Fəaliyyətin Qiymətləndirilməsi və İnkişaf Proqramları Baş İdarəsi.Hesabat dövrü: 01.01.2017-31.12.2017. s.13.
3. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilib.
4. Azərbaycan Dövlət Aqrar Universitetinin rəsmi internet səhifəsi. http://adau.edu.az/event/adau-da-telebelerin-startap-layihelerinin-teqdimati-kecirilir

Анар Низами оглы Гатамов
доктор философии по экономике,
доцент Азербайджанского Государственного
Аграрного Университета (АГАУ)
Проректор по учебной части

Интеграция аграрного образования и производства модель АГАУ: итоги и перспективы

Резюме

В статье говорится об интеграции аграрного образования и производства на примере Азербайджанского Государственного Аграрного Университета (АГАУ). Здесь комментируются положительные тенденции, в том числе влияние новых учреждений, взаимоотношений с ведущими компаниями агробизнеса, стартап проектов студентов, производствен-

ной практики, организации ярмарки выпускников рассматриваются вопросы и прочих мероприятий на подготовку специалистов в АГАУ.

Ключевые словва: АГАУ, интеграция, аграрное образование, промышленность, ранок труда, практика, выпускник.

Anar Nizami Hatamov
PhD on economics, associate professor
Azerbaijan State Agricultural University (ADAU)
Vice Rector for Academic Affairs

ADAU (Azerbaijan State Agricultural University) model of integration of agricultural education and industry: consequences and prospects

Summary

The article deals with the current situation of integration of agricultural education and industry in the case of ADAU. The impact of positive changes incliduing the establishment of new facilities, cooperation with leading agribusiness companies, startup projects of students, internships, alumni fairs and other achievements on the preparation of agricultural specialists at ADAU, are being dealt in the article.

Key words: ADAU, integration, agricultural education, industry, labor market, internship, alumni.

Zaur Fərhad oğlu ƏZİZOV
Azərbaycan Texniki Universiteti, dissertant

Albert Həmid oğlu TAĞIYEV
Sumqayıt Dövlət Universiteti, dos.

AQRAR SAHƏ MÜƏSSİSƏLƏRİNİN RƏQABƏTLİLİK QABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ İNNOVASİYA MÜHİTİNİN FORMALAŞDIRILMASININ ROLU

Xülasə

Məqalədə aqrar sahə müəssisəsinin rəqabətlilik qabiliyyətinin yüksəldilməsində aparıcı rol oynayan innovasiya mühitinin formalaşdırılması probleminin həlli tədqiq edilmişdir.

Açar sözlər: rəqabətlilik qabiliyyəti, müəssisə, innovasiya mühiti, innovasiya fəallığı, insan kapitalı, yüksək texnologiyalar.

***

Qloballaşan dünyamızda son zamanlar aqrar sahənin qabaqcıl müəssisələrində məqsədyönlü strateji istiqamətləndirmə müşahidə olunur. Bu ilk növbədə innovasiya prosesinin və onun ayrı-ayrı mərhələlərində yerinə yetirilən innovasiya fəaliyyətinin gücləndirilməsilə əlaqədardır ki, bu da nəticədə müəssisənin rəqabətlilik qabiliyyətini təmin edir.

İnnovasiya prosesinin sürətləndirilməsi-müəssisədə yüksək texnologiyaların işlənilməsi və tətbiqi, mütəmadi olaraq müəssisə əməkdaşlarının innovasiya fəallıqlarının yüksəldilməsi, yenilik axtarışı üsullarının müəyyən edilməsi və bu axtarışın motivləşdirilməsi, müəssisənin funksional bölmələrində, eləcə də, təşkili və idarə edilməsində innovasiya yönümlü inkişafı zəruri edir. Bir sözlə, müəssisədə innovasiya mühitinin formalaşdırılmasını zəruri edir. Müəssisənin innovasiya mühiti dedikdə müəssisə daxilində innovasiya prosesinin sürətləndirilməsi və innovasiya fəaliyyətinin həyata keçirilməsinə hərtərəfli şəraitin və dəstəyin olması nəzərdə tutulur. Bu sahədə müəssisədə innovasiya fəallığı mühüm rol oynayır.

İnnovasiya fəallığı - məhsul, texnoloji və təşkilati idarəetmə, yeniliklərin yaradılması, istehsalda mənimsənilməsi, bazara daxil olması üzrə məqsədyönlü fəaliyyətdir. İnnovasiya fəallığı

iqtisadi artımın və təşkilati idarəetmə yeniliklərinin zəruri şərtidir. Buna görə də, dövlətin və müəssisənin innovasiya siyasətinin reallaşmasında mərkəzi yer tutur. İnnovasiya fəallığının səviyyəsi bütövlükdə milli iqtisadiyyatın inkişaf sürətini və ayrı-ayrı sahə və müəssisələrin rəqabət qabiliyyətini müəyyən edir. İnkişaf etmiş ölkələrdə innovasiya fəallığının ən mühüm göstəricisi elmi-tədqiqat və təcrübə konstruktor işlərinə (ETTKİ) və istehsal investisiyalarına yönəldilən milli məsrəflərin həcminin tədricən yaxınlaşdırılmasıdır. Digər göstəricilərə aiddir: patent və lisenziyanın miqdarı (hər 1000 nəfərə düşən), xarici ticarətin saldosu (patentlər, lisenziyalar, yüksək texnologiyalı məhsullar üzrə), məhsulun resurs tutumu və elm tutumu və s.

Makrosəviyyədə innovasiya fəallığı həm ölkənin iqtisadi və elmi-texniki potensialı ilə, həm də cəmiyyətin mənəvi vəziyyəti ilə, onun milli innovasiya doktrinasını, elmi-texniki inkişaf strategiyasını ifadə etmək, innovasiya siyasətinin istiqamətlərini və formalarını müəyyənləşdirmək, resursları onun reallaşmasına cəmləşdirmək qabiliyyəti ilə şərtlənir. İnnovasiya fəallığı inkişaf etmiş bazar və rəqabət mühiti olmadan mümkün deyildir.

Sahə və müəssisə səviyyəsində innovasiya fəallığı innovasiya strategiyasının seçilməsinin düzgünlüyündən və innovasiya fəaliyyətinin idarə edilməsinin keyfiyyətindən, istehsal sistemlərinin çevikliyindən, resursların istehsal edilməsində manevretmə qabiliyyətindən, idarəetmənin yüksək təbəqəsindən aşağı təbəqəyə bir sıra funksiyaların verilməsindən, təşəbbüskarlığın və daxili sahibkarlığın inkişafından, innovasiya mədəniyyətinin formalaşmasından həlledici dərəcədə asılıdır. Sahibkar üçün innovasiyalara aid olan mühüm stimul sahibkarlıq rentasının alınması, zəruri şərti isə güclü hüquqi müdafiə mexanizminin olmasıdır.

İnnovasiya menecmentinin uğuru müəyyən prinsiplərə riayət olunmasını tələb edir. Elmi və texniki yenilik daim dəyişən bazar konyunkturu şəraitində müəssisənin müştərilərinin tələbatlarının daha tam ödənilməsinə yönəldilməlidir. Hər bir istehsal olunan məhsulu sabit dəyişikliklərin obyekti kimi nəzərdən keçirmək lazımdır. Buna görə də ilk mərhələdə maraq doğuran kiçik layihələrə vəsaitlərin qoyulmasına üstünlük verilməlidir. Bunların yerinə yetirilməsi üçün tamamilə müstəqil bölmələrin yaradılması lazımdır. Rəqibləri yalnız qarşı tərəf kimi yox, həm də ideyaların mümkün mənbələri kimi öyrənmək zəruridir.

Şəxsi yaradıcılıq təşəbbüsü innovasiya prosesinin başlanğıcına təkan verən qüvvədir. Yenilikçiyə dəstək olmadan innovasiya fəallığı qeyri-mümkündür. Lakin, təşəbbüsə çoxsaylı şəxsi-təşkilati maneələr zidd gəlir, buna görə də çox zaman təşəbbüskarlıq onun reallaşması müddətindən üstün olan vaxt ərzində tanınır.

İnnovasiya fəallığının inkişaf etmiş ölkələrdə digər geniş yayılmış formaları korporasiyaların "xarici vençurları"və bir qayda olaraq yenilikçilərin özlərinin təsis etdiyi müstəqil vençurlardır. Risk innovasiya sahibkarlığının inkişafı vençur kapitalının və əqli mülkiyyətin təsirli hüquqi müdafiə mexanizminin olmasını tələb edir. [1, s. 10-11]

İnnovasiya fəallığının yüksəlməsində nəzərə alınması zəruri olan ən vacib məsələlərdən biri onun inkişafına mane olan və təkan verən amillərin nəzərə alınmasıdır. Başqa sözlə, onun inkişafına mane olan amilləri neytrallaşdırmalı, yaxud tamamilə aradan qaldırmalı, inkişafına təkan verən amillər isə gücləndirilməlidir.

Müəssisənin innovasiya mühitinin yaradılmasında ən əsas təkanverici qüvvə insan kapitalının formalaşdırılmasıdır. İnsan kapitalı çoxmənalı anlayış olduğundan onun izahına aydınlıq gətirək.

İnsan kapitalı-kapital qoyuluşlarının xüsusi növü, insan potensialının təkrar istehsalının inkişafına, məhsulun keyfiyyətinin və iş qüvvəsinin fəaliyyət göstərməsinin yaxşılaşdırılmasına çəkilən məsrəflərin məcmusudur. [1, s. 28]

Son zamanlar insan kapitalının yönəldildiyi subyekt də insan kapitalı kimi qəbul edilir.

Fikrimizcə, insan kapitalına aşağıdakı kimi tərif verə bilərik.

İnsan kapitalı- bu, yüksək intellekt səviyyəsinə malik olan, innovasiya ideyasını yarada bilən və onu maddiləşdirən insandır. Buna sinonim olaraq - innovatoru qəbul etmək olar.

Apardığımız tədqiqatlara əsasən [2,3,4,5,6] bu qənaətə gəlinmişdir ki, insan kapitalının müəssisədə formalaşdırılması çoxmərhələli və uzunmüddətli bir prosesdir. Bu mərhələlər: insanın innovasiya sahəsində maarifləndirilməsi, onun innovasiya fəallığının yüksəldilməsi, ideya axtarışına istiqamətləndirilməsi və ideyanın kapitallaşdırılmasıdır.

Bunların hər biri qeyd edilən mənbələrdə geniş verilmişdir.

Sonda bu nəticəyə gəlmək olar ki, innovasiya mühitinin aqrar sahə müəssisələrində formalaşdırılması üzrə qeyd edilən işlər ardıcıl surətdə yerinə yetirilərsə, bu, müəssisənin uzunmüddətli rəqabət qabiliyyətini təmin etmiş olar.

ƏDƏBİYYAT

1. Böyük İqtisadi Ensiklopediya. Azərbaycan İqtisadçılar Birliyi. Bakı-2012, III cild, 606 s.
2. A.H.Tağıyev, S.T.Məmmədova, Z.F.Əzizov. İnsan sermayesi Egitim və təkrar Egitim sürecidir. Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyası VIII, Uluslararası Sempozyum bildiriləri, II cild, Ekonomi və texnik bildirimləri. Ankara / Türkiyə, 2016.
3. А.Г.Тагиев, И.Б. Амиров. Пути повышения инновационной активности на предприятиях Азербайджана // Международный научно-исследовательский журнал. Екатеринбург, 2015, ст. 99-105.
4. A.H.Tağıyev, İ.A.Aslanzadə. İnnovasiya menecmenti (dərs vəsaiti, II hissə, s. 8-29), Bakı, AMİU-nun nəşriyyatı, 2017, 352 s.
5. А.Г.Тагиев, И.Б.Амиров. Метод функционально - стоимостного анализа в поиске инновационных идей, с. 99-105 // Международная научно-практическая конференция. Украина - 2017 г., Полтава, ст. 175.
6. A.H. Tağıyev. Müəssisədə insan kapitalının formalaşdırılmasında yenilik ideyası axtarışının rolu. “İqtisadiyyat” qəzeti, İqtisadçılar İttifaqının nəşri, 11-17 yanvar 2018-ci il.

диссертант Заур Фархад оглы Азизов
Азербайджанский Технический Университет,

доцент Алберт Гамид оглы Тагиев
Сумгаитиский Государственный Университет

Роль формирования инновационной среды в усилении конкурентоспособности предприятий в аграрной сфере

Резюме

В статье исследованы решения проблем формирование инновационной среды в предприятиях аграрной сферы, которые играют большую роль в увеличении конкурентоспособности.

Ключевые слова: конкурентоспособность, предприятие, инновационной среда, инновационная активность, человеческий капиталь, высокие технологии.

candidate for a degree Zaur Farhad Azizov
Azerbaijan Texnical University,
ass. prof. Albert Hamid Tagiyev
Sumgayit State University

The role of formation of innovative environment in strengthening competitiveness of enterprises in agrarian sphere

Summary

The article explores the solutions to the problems of the formation of an innovation environment in agrarian enterprises, which play an important role in increasing competitiveness.

Key words: competitiveness, enterprise, innovation environment, innovative activity, human capital, high technologies.

Səbinə İzzət qızı VƏLİYEVA
Azərbaycan Kooperasiya Universitetinin
baş müəllimi, iqtisad üzrə fəlsəfə doktoru,
Az.ETKTİ-nin doktorantı

AZƏRBAYCANDA QEYRİ-NEFT İXRACININ ARTMASINDA AQRAR SAHƏNİN ROLU

Xülasə

Azərbaycan Respublikasında kənd təsərrüfatına verilən real dövlət dəstəyi özünü məhsul istehsalının və ixracının artımında göstərmişdir. Hətta qlobal iqtisadi proseslərin təsiri ilə son 3 ildə ölkədə ümumi iqtisadi artımın zəifləməsi fonunda kənd təsərrüfatında dinamik artım müşahidə edilmişdir. Kənd təsərrüfatında artım 2015-ci ildə 6,6 faiz, 2016-cı ildə 2,6 faiz, 2017-ci ildə isə 4,2 faiz olmuşdur. Ölkədə həyata keçirilən islahat tədbirləri növbəti 5 ildə də aqrar sahədə istehsalın və ixracın artmasını proqnozlaşdırmağa əsas verir. Bu araşdırmada da müəllif ölkəmizdə aqrar sahə üzrə ixracın mövcud vəziyyətini qiymətləndirir və əldə olunan nəticələrdən çıxış edərək müvafiq təkliflər verir.

Açar sözlər: aqrar sahə,aqrar islahat, strateji yol xəritəsi, meyvə-tərəvəz, ixrac.

***

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən aqrar islahatların birinci mərhələsi kənd təsərrüfatı sahəsinin inkişafı üçün möhkəm təməl yaratmış, kəndli torpağın əsl sahibinə çevrilmişdir. Ədalətlilik prinsiplərinə əsaslanan aqrar islahatların Azərbaycan modeli bazar münasibətlərinə sürətli keçidə və sahənin davamlı inkişafına möhkəm təməl yaratması ilə tarixə düşmüşdür. 2003-cü ildən etibarən isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə aqrar islahatların ikinci mərhələsinə start verilmişdir. Prezident İlham Əliyev 2003-cü il 24 noyabr tarixində imzaladığı "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərmanla aqrar sektorda islahatların ikinci mərhələsinə başlanılmış [4] və qısa müddətdə böyük işlər görülmüşdür. Kənd təsərrüfatı ölkə iqtisadiyyatının mühüm tərkib hissəsi olduğuna görə, bu sahədə həyata keçirilən tədbirlər ümumilkdə ölkə iqtisadiyyatına müsbət təsir göstərmişdir.

Akademik Ramiz Mehdiyevin qeyd etdiyi kimi, Azərbaycanda kənd təsərrüfatı multiplikator rolunu oynayaraq, iqtisadiyyatın digər sahələrinin də inkişafını stimullaşdırır, şaxələndirmə prosesinə həlledici təsir göstərir. Bu baxımdan kənd təsərrüfatı təkcə iqtisadi fəaliyyət növü deyil, o, həm də iqtisadi inkişafın təkanverici qüvvəsidir. Bu, həmin sahənin sinergetik, sistemyaradıcı xüsusiyyətindən irəli gəlir [3].

Ölkəmizdə aqrar islahatların ikinci mərhələsi çərçivəsində kənd təsərrüfatına verilən real dövlət dəstəyi özünü məhsul istehsalının və ixracının artımında göstərmişdir. Belə ki, 2003-2017-ci illər ərzində Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının real artımı 166,4 faiz olmuşdur. Kənd təsərrüfatı üzrə 2003-2017-ci illər ərzində baş verən artım əsas məhsulların istehsalı üçün xarakterik olmuşdur.


Qeyd edək ki, aqrar islahatların müasir mərhələsi həm də kənd təsərrüfatının yüksək əlavə dəyər yaradan ənənəvi sahələrinin inkişafı baxımından tarixi dönüş dövrü olmuşdur. Belə ki, son 2 ildə kənd təsərrüfatının pambıqçılıq, tütünçülük, şəkər çuğunduru, baramaçılıq, çayçılıq, üzümçülük, meyvəçilik və faraş tərəvəz istehsalı kimi yüksək əlavə dəyər yaradan və kəndlərdə geniş məşğulluq imkanı yaradan sənaye təyinatlı və ixrac yönümlü sahələrində yüksək inkişaf dinamikasına nail olunmuşdur. 2016-cı illə müqayisədə 2017-ci ildə pambıq istehsalı 2,3 dəfə, günəbaxan istehsalı 78,1 faiz, şəkər çuğunduru istehsalı 21,8 faiz, tütün istehsalı 45,4 faiz, tərəvəz istehsalı 10,6 faiz, üzüm istehsalı 12,0 faiz və barama istehsalı isə 3 dəfə artmışdır. Azərbaycanın kənd təsərrüfatı məhsullarının istehsalı ilə yanaşı bu məhsulların ixracında da yüksək artım dinamikasına nail olunmuşdur. 2017-ci ildə Azərbaycandan ixrac olunan kənd təsərrüfatı məhsullarının dəyəri də 570 milyon ABŞ dolları təşkil etmişdir və 2003-cü ilə nəzərən 6,3 dəfə artmışdır.

Cədvəl 1.

2003-2017-ci illər ərzində əsas kənd təsərrüfatı məhsullarının istehsal dinamikası (ton)

Məhsullar	**2003**	**2008**	**2013**	**2014**	**2015**	**2016**	**2017**	**2017-2003-cü illə müqayisədə 2017-ci ildə, %**
Dənli və dənli-paxlalılar	2057.8	2498.3	2955.3	2383.3	2999.4	3065.1	2928.8	**142.3**
Pambıq	99.6	55.4	45.2	41.0	35.2	89.4	207.5	**2.1 d.**
Tütün	4.7	2.5	3.5	2.9	3.5	3.6	5.2	**110.6**
Kartof	769.0	1077.1	992.8	819.3	839.8	902.4	913.9	**118.8**
Tərəvəz	1046.3	1228.3	1236.3	1187.7	1275.3	1270.6	1405.6	**134.3**
Ərzaqlıq bostan bitkiləri	356.7	407.7	429.8	440.9	484.5	464.8	438.1	**122.8**
Meyvə və giləmeyvə	572.1	712.8	853.8	850.8	888.4	882.8	954.8	**166.9**
Üzüm	65.0	115.8	148.5	147.7	157.1	136.5	152.8	**2.3 d.**
Ət, kəsilmiş çəkidə - cəmi	185.6	228.0	286.9	291.2	298.6	302.2	316.8	**170.7**
Süd	1167.8	1381.3	1796.7	1855.8	1924.5	2009.9	2024.1	**173.3**
Yumurta, milyon ədəd	681.9	1101.2	1401.5	1562.7	1552.9	1609.8	1714.0	**2.5 d.**
Yun	12.1	14.8	16.5	16.8	17.0	16.7	16.0	**132.2**
Barama	130.9	24	1.4	0.974	0.236	70.8	245.2	**187.3**


Mənbə: [5;7]



Şəkil 1. Kənd təsərrüfatı məhsullarının ixrac dinamikası, milyon ABŞ dolları (7).

Məlumat üçün bildirək ki, 2017-ci il ərzində qeyri-neft sektoru üzrə ixrac 1 milyard 538 milyon ABŞ dolları təşkil etmişdir [6]. 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə ötən il qeyri-neft sektoru üzrə ixrac 24 faiz artmışdır. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, 2017-ci il ərzində ən çox qeyri-neft məhsulları Rusiya Federasiyasına ixrac edilmişdir (553 milyon ABŞ dolları). 2017-ci il ərzində ixrac olunan qeyri-neft sektoru məhsulları arasında pomidor (tomat) birinci, qızıl ikinci, qabığı təmizlənmiş meşə fındığı isə üçüncü olmuşdur. Göründüyü kimi, ötən il qeyri-neft sektoru üzrə ən çox ixrac olunan 3 məhsuldan 2-si kənd təsərrüfatına aiddir.

Ümumiyyətlə, ötən il ərzində meyvə-tərəvəz ixracı 503 milyon ABŞ dolları təşkil etmişdir. 2016-cı illə müqayisədə 2017-ci ildə meyvə-tərəvəz ixracı 35 faiz artmışdır. 2017-ci ildə qeyri-neft sektoru üzrə ixracın 33 faizini meyvə-tərəvəz təşkil etmişdir.



Şəkil 2. 2017-ci ildə bəzi kənd təsərrüfatı məhsullarının ixrac göstəriciləri (6).

Qeyd edək ki, yerli istehsal potensialının güclənməsi və rəqabətqabiliyyətliliyinin yüksəlməsi hesabına ölkəmizin ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi də yüksəlmişdir. Əgər Azərbaycan dövlət müstəqilliyini əldə etdiyi vaxt ət və süd məhsulları ilə ölkənin özünütəminat səviyyəsi təqribən 30-35 faiz təşkil edirdisə, hazırda ölkənin bu məhsullar üzrə özünütəminat səviyyəsi müvafiq olaraq 87,9 və 87,7 faizə qədər artmışdır. Həmin dövrdə ölkənin kartofa olan tələbatının ödənilməsində idxal böyük paya malik idisə, hazırda özümüzü təminetmə səviyyəsi 85,5 faizdir, üstəlik hazırda hər il 10 min tonlarla təzə kartof ixrac edirik. Bütün növ tərəvəz ilə özünü təminetmə səviyyəsi 105,4 faiz, meyvə və giləmeyvə ilə üzrə isə 116,4 faiz təşkil edir.

Apardığımız təhlillər göstərir ki, qarşıdakı illərdə də kənd təsərrüfatı məhsullarının istehsalı və ixracı artacaq və "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə qeyri-neft sektoru üzrə ixracın 2025-ci ildə adambaşına ən azı 450 ABŞ dollarına çatdırılması hədəfinin reallaşmasında ciddi rol oynayacaq [1]. Həmçinin "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin icrası çərçivəsində aqrar islahatların müasir mərhələsinin uğurla davam etdirilməsi də bunu deməyə əsas verir. Strateji Yol Xəritəsinin icrası çərçivəsində dayanıqlı inkişaf prinsiplərinə əsaslanmaqla, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunun formalaşdırılmasına nail olmaq baxımından əlverişli mühitin yaradılması məqsədilə 9 strateji hədəfin reallaşdırılması nəzərdə tutulur.Bu strateji hədəflər aşağıdakı məsələləri əhatə edir [2]:

- ərzaq təhlükəsizliyinin dayanıqlılığının gücləndirilməsi üçün yeni institusional mexanizmlərin yaradılması;
- kənd təsərrüfatı sahəsində istehsal potensialının dəyər zəncirinin həlqələri üzrə artırılması;
- kənd təsərrüfatı sahəsi üzrə istehsal vasitələri bazarının inkişafı və müvafiq resurslara, o cümlədən maliyyəyə çıxışın asanlaşdırılması;
- kənd təsərrüfatı sahəsində elmi təminatın və təhsilin keyfiyyətinin yüksəldilməsi;
- kənd təsərrüfatı sahəsində məsləhət-informasiya xidmətləri sisteminin inkişaf etdirilməsi;
- bazar infrastrukturunun inkişafı və istehsalçıların bazara çıxışının asanlaşdırılması;
- təbii resurslardan dayanıqlı istifadə mexanizmlərinin formalaşdırılması;
- aqrar sahə üzrə biznes mühitinin təkmilləşdirilməsi;
- kənd yerlərində rifahın yüksəldilməsi.

Yekun olaraq qeyd edə bilərik ki, qarşıdakı illərdə ölkəmizdə qeyri-neft sektoru üzrə ixracın artmasında aqrar sahə müstəsna rol oynayacaqdır. Hazırda aqrar islahatların müasir mərhələsi çərçivəsində iki istiqamət üzrə - kənd təsərrüfatı sahəsində potensial müasir istehsal texnologiyalarının tətbiqinin və mütərəqqi təsərrüfatçılıq fəaliyyətlərinin genişləndirilməsi, başqa sözlə, intensiv metodlarla inkişaf hesabına daha da artırılması; təsərrüfatların istehsal fəaliyyətinin daxili və qlobal dəyər zəncirlərinə inteqrasiyası gücləndirilməklə, onların bazara çıxış imkanlarının yaxşılaşdırılması və aqrar sahədə yaradılan əlavə dəyərin yüksəldilməsi - tədbirlərin sistemli şəkildə həyata keçirilməsi belə düşünməyə tam əsas verir. Məhz həyata keçirilən bu siyasət

nəticəsində aqrar sahədə dayanıqlı inkişafın gücləndirilməsinə və keyfiyyət dəyişiklikləri hesabına qlobal bazarda rəqabətqabiliyyətliliyin yüksəldilməsinə nail olunacaqdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. 6 dekabr 2016-cı il.
2. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. 6 dekabr 2016-cı il.
3. Mehdiyev R.Ə. Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri/ https://azertag.az/xeber/Prezident_Ilham_Aliyevin_iqtisadi_inkisaf_strategiyasinin_esas_istiqametleri-1153387
4. http://president.az/
5. https://www.stat.gov.az
6. http://customs.gov.az/az/faydali/gomruk-statistikasi/
7. http://agro.gov.az

Сабина Иззат кызы Валиева
д.ф.э., ст. пред. АУК

Роль аграрного сектора в увеличении ненефтяного экспорта в Азербайджане

Резюме

Реальная государственная поддержка сельского хозяйства в Азербайджанской Республике показала себя в росте производства и экспорта. Даже в последние 3 года с последствиями глобальных экономических процессов резко возросло сельское хозяйство на фоне ослабления общего экономического роста в стране. Рост в сельском хозяйстве составил 6,6% в 2015 году, 2,6% в 2016 году и 4,2% в 2017 году. Реформы в стране, создаваемые в стране, создают предпосылки для прогнозирования роста аграрного производства и экспорта в течение следующих 5 лет. В этом исследовании автор оценивает текущее состояние экспорта в нашей стране и делает соответствующие предложения на основе полученных результатов.

Ключевые слова: аграрный сектор, аграрная реформа, стратегическая дорожная карта, фрукты и овощи, экспорт.

Sabina İzzat Valiyeva
PhD in economics, h/t. of ACU

The role of the agrarian sector in increase of non-oil export in Azerbaijan

Summary

The real state support given to agriculture in the Republic of Azerbaijan has shown itself in the growth of production and exports. Even in the last 3 years with the impact of global economic processes, there has been a dramatic increase in agriculture in the background of the weakening of the overall economic growth in the country. Growth in agriculture was 6.6 % in 2015, 2.6% in 2016, and 4.2% in 2017. Reform measures implemented in the country create condition to predicting an increase in agrarian production and exports over the next 5 years. In this study, the author evaluates the current state of exports in our country and makes relevant proposals based on the results obtained.

Key words: agrarian sector, agrarian reform, strategic roadmap, fruits and vegetables, export.

Elnur Qara oğlu ALLAHVERDİYEV
Azərbaycan Kooperasiya Universitetinin dissertantı

KƏND TƏSƏRRÜFATINDA ƏRZAQ MƏHSULLARI İSTEHSALININ ARTIRILMASI MƏSƏLƏLƏRİ

Xülasə

Məqalədə kənd təsərrüfatında ərzaq məhsulları istehsalının artırılması və onun ərzaq təhlükəsizliyinin təmin edilməsində rolu təhlil olunmuşdur. Məhsul istehsalının artırılması üçün torpaqlardan səmərli istifadə imkanları və təsərrüfat formaları üzrə torpaqlardan istifadənin struktur təhlili verilmişdir.

Açar sözlər: kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi, iqtisadiyyat, istehsal, intensiv, inkişaf.

***

Ərzaq təhlükəsizliyinin strateji məqsədi əhalini təhlükəsiz ekoloji təmiz kənd təsərrüfatı məhsulları ilə təmin etməkdir. Burada "təhlükəsiz" deyəndə, əhalinin sağlam həyat tərzi üçün kifayət qədər qida ilə təmin etməklə yanaşı, dövlət tərəfindən təhlükəsiz istehsal və idxal olunan kənd təsərrüfatı və aqrar sənaye məhsullarının keyfiyyətinin tənzimlənməsi üçün müvafiq tədbirlərin görülməsi də nəzərə alınmalıdır. Ölkə daxilində təhlükəli ərzaq məhsullarının idxalına qoyulan məhdudiyyətlərin səbəblərindən biri də, əsasən idxal olunan məhsulların keyfiyyətinə görə səsləndirilən (məsələn: geni dəyişdirilmiş məhsullar) iddialardır.

Müasir şəraitdə ərzaq təhlükəsizliyi dünyanın bir çox ölkələrinin ən vacib problemlərindən biridir. Dövlətin iqtisadi əsasları olan ərzaq təhlükəsizliyi əhalinin əsas ərzaq ehtiyaclarını təmin etmək, əhalinin sağlamlığının qorunması və cəmiyyətin rifahının yaxşılaşdırılmasına yönəlib. Dünya təcrübəsində, ərzaq və qida təhlükəsizliyi vəziyyətinin monitorinqi, dünya səviyyəsində aclıq edən insanların sayı və qida təhlükəsizliyinə nəzarət müxtəlif səviyyələrdə olan bölgələri müəyyən etmək üçün illik məlumat verən beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilir.

İqtisadi ədəbiyyatların təhlili göstərir ki, əhalinin yaşayış səviyyəsinin göstəriciləri, o cümlədən ərzaq təchizatı, optimal qidalanma ölkənin və regionların sosial-iqtisadi inkişafının ümumi səviyyəsinə bağlıdır. Əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsi və yoxsulluq səviyyəsinin azaldılması ərzaq istehlakının artmasının əsas səbəbidir.

Müstəqilliyin ilk illərində əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təminat səviyyəsinin həm kəmiyyət, həm də həcmdə aşağı salınması ərzaq təhlükəsizliyi məsələsini ön plana çəkmiş və daim dövlətin diqqətində olmasını bir daha şərtləndirmişdir.

Ərzaq təhlükəsizliyi milli və dövlət təhlükəsizliyinin bir hissəsi olmaqla dövlətin iqtisadi və siyasi müstəqilliyini, ölkə vətəndaşlarının milli və dövlət maraqlarına zərər vermədən onların ehtiyaclarını ödəmək qabiliyyətini xarakterizə edir.

Məlum olduğu kimi əhalini ərzaq məhsulları ilə təminetmə aşağıda qeyd edilən iki yolla mümkündür:

- yerli istehsal hesabına ərzaq məhsullarına olan tələbatın ödənilməsi;
- idxal hesabına ərzaq məhsullarına olan tələbatın ödənilməsi.

Eyni zamanda, ərzaq təhlükəsizliyini təmin etmək üçün ilk növbədə yerli əmtəə istehsalçısının dəstəklənməsi və onların fəaliyyətlərinin stimullaşdırılması məqsədəuyğundur.

Təcrübə göstərir ki, ümumilikdə Azərbaycanda 1990-2000-ci illərdə kənd təsərrüfatında məhsul, o cümlədən ərzaq məhsulları istehsalı kritik həddə qədər azalması ilə müşayət olunurdu. İqtisadiyyatın digər sahələrində resurslara (maddi və maliyyə) olan tələbat və onların iqtisadi fəaliyyət yolu ilə əldə olma ehtimalı arasında kənd təsərrüfatında olduğu kimi geniş miqyaslı bir boşluq yoxdur. Burada azaldılmış resurs təminatına uyğunlaşma prosesi kənd təsərrüfatı torpaqlarının, heyvandarlıq və malların istehsalının azaldılması ilə nəticələnir. Belə olan halda, ölkədə kənd təsərrüfatı məhsulları istehsalçılarının öz resursları hesabına əhalinin yerli ərzaq məhsulları ilə təmin edilməsində problemlər yaranır, hansı ki, bu problemləri onlar sərbəst həll edə bilmirlər.

Sahibkarların mülkiyyətində və istifadəsində olan torpaqların münbitliyinin qorunub saxlanması və yaxşılaşdırılması, suvarılan torpaqların su ilə təminatının yaxşılaşdırılması və mütərəqqi

suvarma texnologiyalarının tətbiq edilməsi ölkədə sahibkarlıq fəaliyyətinin inkişafına və ərzaq məhsulları istehsalına təsir göstərən amillərdəndir. Hazırda kənd təsərrüfatında istifadə olunan torpaqların müəyyən hissəsinin şorlaşması və eroziyaya uğraması məhsuldarlığın kəskin azalmasına səbəb olur. Əvvəllər respublikada hər il 100 min hektara yaxın sahədə torpaqların yuyulması aparıldığı halda, bu işlərin həcmi get-gedə azaldılmış, sonradan tamamilə dayandırılmışdır. Şoran və şorəkət torpaqların yuyulması həm becərilən torpaq sahəsinin, həm də sahibkarların gəlirlərinin artmasında müsbət rol oynaya bilər. [1, s.198-199]

Ərzaq təhlükəsizliyi səviyyəsinin öyrənilməsi ölkənin və əhalinin səviyyəsində kəmiyyət ölçmə üçün meyarlar və metodlar sisteminin inkişaf etdirilməsi zərurəti ilə müəyyən edilir. Ərzaq təhlükəsizliyinin səviyyəsini müəyyən etmək üçün göstəricilər və meyarlar vardır. Yəni, qarşıya qoyulan əsas məqsəd mövcud və gözlənilən vəziyyətə uyğun olaraq yaradılmış keyfiyyət göstəricilərini və göstəricilərin hədəflərə uyğunluğunun miqyası ölçüsünü ifadə edir.

Ərzaq təhlükəsizliyinin səviyyəsini araşdırarkən əsasən aşağıdakı meyarların nəzərdən keçirilməsi məqsədəuyğundur:

1. Əsas kənd təsərrüfatı məhsullarının istehsal səviyyəsinin qiymətləndirilməsi:
   a) torpaq ehtiyatları və əkin yeri ilə təmin edilmə səviyyəsi;
   b) kənd təsərrüfatı istehsalçıları tərəfindən istehsal olunan məhsulların həcmi.
2. Ərzaq və qida məhsullarının fiziki əlçatanlıq səviyyəsi. Kənd təsərrüfatı məhsullarının əsas növlərinin istehsal səviyyəsinin təhlili:
   a) torpaq ehtiyatları və əkin yeri ilə təmin edilmə səviyyəsi.

Müxtəlif təsərrüfat formaları üzrə 2012-2016-cı illər üzrə torpaq ehtiyatlarından istifadənin strukturu cədvəl 1-də verilmişdir.

Cədvəl 1

Müxtəlif təsərrüfat formaları üzrə 2012-2016-cı illər üzrə torpaq ehtiyatlarından istifadənin strukturu

	2012	2013	2014	2015	2016	2012-ci ilə nisbətən 2016-cı ildə %-lə
Respublika üzrə						
Ümumi torpaq sahəsi, min ha	8655,0	8655,0	8655,0	8655,0	8655,0	100
Ondan kənd təsərrüfatına yararlı torpaq sahəsi, min ha	4768,3	4769,8	4769,7	4769,8	4772,9	100,1
O cümlədən: əkin yeri, min ha	1855,0	1884,3	1885,6	1897,5	1959,1	105,6
Kənd təsərrüfatı müəssisələri üzrə						
Ümumi torpaq sahəsi	224,5	227,1	226,5	237,7	231,8	103,2
Ondan kənd təsərrüfatına yararlı torpaq sahəsi, min ha	189,9	195,6	195,5	208,4	215,5	113,5
O cümlədən: əkin yeri, min ha	95,0	95,5	100,3	102,6	101,6	106,9
Fərdi Sahibkar təsərrüfatları üzrə						
Ümumi torpaq sahəsi	48,5	44,3	34,1	33,4	30,4	62,7
Ondan kənd təsərrüfatına yararlı torpaq sahəsi, min ha	47,3	43,1	33,2	32,5	29,8	63,0
O cümlədən: əkin yeri, min ha	35,6	33,3	24,0	23,4	20,7	58,1
Dövlət, bələdiyyə, Ailə kəndli və ev təsərrüfatları üzrə						
Ümumi torpaq sahəsi	8382,0	8383,6	8394,4	8383,9	8392,8	100,1
Ondan kənd təsərrüfatına yararlı torpaq sahəsi, min ha	4531,1	4531,1	4541,0	4528,9	4527,6	99,9
O cümlədən: əkin yeri, min ha	1724,4	1755,5	1761,3	1771,5	1836,8	106,5

Mənbə: cədvəl Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Statistik məlumatların təhlili göstərir ki, əsas torpaq sahələri dövlət, bələdiyyə, ailə-kəndli və ev təsərrüfatlarında çəmləşib. Buna baxmayaraq əsas əkin yeri ailə-kəndli və ev təsərrüfatlarının istifadəsindədir. Belə ki, əkin yerinin 92-94%-i ailə-kəndli və ev təsərrüfatlarının istifadəsindədir və kənd təsərrüfatında istehsal olunan məhsulların 95%-ə qədəri məhz bu təsərrüfatların payına düşür. Onu da nəzərə almaq lazımdır ki, bələdiyyə mülkiyyətində olan əkin yerləri müxtəlif təsərrüfatlara uzunmüddətli icarəyə verilmişdir. Kiçik torpaq sahələrinə malik olan kəndlilər üçün təsərrüfat fəaliyyətlərində intensiv inkişafa nail olmaq çox çətindir.

Əhalinin etibarlı ərzaq məhsulları və ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi kənd təsərrüfatının intsensiv inkişaf etdirilməsini, torpaqlardan istifadənin səmərəliliyinin artırılmasını və məhsuldarlığın yüksəldilməsini şərtləndirir.

Araşdırmalar göstərir ki, yüksək məhsudarlığa nail olmaq üçün payızlıq taxıl bitkisinə hektara 250 kq azot, 350 kq fosfor və 100 kq kalium gübrəsi tələb olunur. Digər əməliyyatları da nəzərə aldıqda hektara tələb olunan xərc 700 manat və ya daha çox olur. Bu halda hektardan məhsuldarlıq 50 sentnerdən az olmamalıdır. Nəzərə alsaq ki, 2017-ci ildə taxılın bazar qiyməti 0,26-0,4 manat arasında dəyişib və orta məhsuldarlıq 29 sentner olmuşdur, bu, taxıl istehsalında iqtisadi səmərəliliyin aşağı və torpaqlardan səmərəsiz istifadə olunduğunu, eyni zamanda, intensiv inkişafın təmin olunmadığını göstərir.

Kənd təsərrüfatının intensivləşdirilməsi təbii və dəyər, ümumi və fərdi göstəricilər sistemi ilə xarakterizə olunur. Bir çox qiymətləndirmə göstəricisi kənd təsərrüfatı istehsalının iqtisadiyyatının çoxtərəfli istiqamətlərini əhatə edən kompleks bir iqtisadi proses olduğunu təsdiqləyir. Kənd təsərrüfatının intensivləşməsinin iqtisadi səmərəliliyi məsələsinin istehsal intensivliyi konsepsiyasının tərifindən nəzərə alınması vacibdir. Şiddət və intensivlik anlayışları fərqlidir, lakin onlar bir-biri ilə əlaqəli və bir-birinə bağlıdır. Kənd təsərrüfatı istehsalının intensivliyini müəyyən etmək üçün əsasən əldə edilən məhsuldarlığın potensial məhsuldarlıqla müqayisəsi və hər şəkilən xərc vahidinə düşən ümumi məhsul, sərf olunan adam-saata düşən ümumi məhsul kimi göstəricilərdən istifadə edilir.

Qeyd edək ki, kənd təsərrüfatının intensiv inkişafının əsasları tətbiq olunan texnoloji və texnologiyanın təkmilləşdirilməsi, daha effektiv gübrələrin və bitki mühafizəsi məhsullarının istifadəsi, yeni məhsuldar bitki növləri və cins heyvanların yetişdirilməsi, torpağın məhsuldarlığının artması və s. ilə bağlı olan elmi və texnoloji inkişafdır.

ƏDƏBİYYAT

1. Azərbaycanın Kənd Təsərrüfatı. DSK. Bakı-2017, 605 s.
2. Kənd təsərrüfatı müəssisələrinin və fərdi sahibkar təsərrüfatlarının əsas göstəriciləri. DSK, Bakı, 2017, 329 s.
3. İ.H.İbrahimov. Aqrar sahənin iqtisadiyyatı. (Monoqrafiya). Bakı-2016, 653 s.

Aytən Səfəralı qızı ZEYNALOVA
iqtisad üzrə fəlsəfə doktoru, baş müəllim
Azərbaycan Kooperasiya Universiteti

ŞƏHƏRƏTRAFI ZONADA ƏRZAQ MƏHSULLARI İSTEHSALININ İQTİSADİ-EKOLOJİ XÜSUSİYYƏTLƏRİ

Xülasə

Böyük şəhərlər və şəhərətrafı zonada ərzaq təminatının yaxşılaşdırılması ərzaq məhsulları istehsalının özünəməxsus cəhətlərini araşdırmağı zəruri edir. Bu baxımdan məqalədə şəhərətrafı zonada ərzaq məhsulları istehsalının keyfiyyət xüsusiyyətləri, bununla yanaşı ərzaq məhsulları istehsalının ekoloji aspektləri araşdırılmışdır. Şəhərətrafı zonada kənd təsərrüfatının inkişafı üçün Azərbaycan Respublikası Prezidentinin sərəncamlarından irəli gələn məsələlərə də baxılmışdır.

Açar sözlər: aqrar sahə, şəhərətrafı zona, kənd təsərrüfatı istehsalı, təzə ərzaq məhsulları, ərzaq təhlükəsizliyi, keyfiyyət.

Giriş

Aqrar sahənin inkişafı ərazilərin mənimsənilməsində bərabərsizliyi gücləndirən urbanizasiya proseslərini nəzərə almağı tələb edir. İqtisadi potensialın fəallaşdırılmasında artan rola malik olan böyük şəhərlərin ərzaq təminatının yaxşılaşdırılması zərurəti şəhərətrafı zonada ərzaq məhsulları istehsalının özünəməxsus cəhətlərini araşdırmağı nəzərdə tutur.

Beynəlxalq təcrübənin təhlili və tədqiqatların nəticələri belə bir fikirlə razılaşmağa imkan verir ki, şəhərətrafı kənd təsərrüfatı böyük şəhərin keyfiyyətli təzə ərzaq məhsulları ilə təminatı istiqamətində ixtisaslaşmalı, istehsalın yüksək intensivlik səviyyəsi dəstəklənməlidir.

Ötən əsrlərdə dünyada neft hasilatı ilə tanınan Abşeronda tarixən kənd təsərrüfatının inkişafına kifayət qədər diqqət yetirilməmişdir. Bakı aqlomerasiyasının formalaşdığı bu ərazidə böyük torpaq sahələri neft və neft məhsulları ilə çirklənmiş, tədricən kənd təsərrüfatı dövriyyəsindən çıxmışdır. Odur ki, şəhərətrafı zonada ərzaq məhsulları istehsalının iqtisadi-ekoloji problemləri diqqətəlayiqdir.

Şəhərətrafı zonada təzə ərzaq məhsulları istehsalının keyfiyyət xüsusiyyətləri

Təzə ərzaq məhsullarının keyfiyyətcə həssaslığı şəhərətrafı kənd təsərrüfatı üçün xarakterik haldır. Belə ki, burada təzə və tez xarab olan ərzaq məhsulları istehsal olunur. Şəhərin ətraf zona hesabına ərzaqla təminatı məsələlərinin həlli prosesində məhsulun keyfiyyəti və ekoloji təmizliyi arasında qarşılıqlı əlaqə aktuallaşır. Əks halda, dünyanın bir çox ölkələrinin paytaxtları və iri şəhərlərinin yaxın ətraflarında ərzaq zonasının formalaşmasının iqtisadi mexanizmini izah etmək çətin olardı.

Yeyinti məhsulları istehsalı və satışı ilə məşğul olan bir sıra nəhəng şirkətlər öz mallarını min kilometrlərlə məsafələrə daşıyır, planetin bu başından o başına ərzaq məhsulları çatdırırlar. Zaman və məsafə həmin məhsulların keyfiyyətinə bilavasitə təsir edir. Daha doğrusu, bu halda tərs mütənasiblikdən danışmaq olar. Belə ki, istehsal və istehlak məkanları arasında olan məsafəsi artdıqca, yeyinti məhsulunun tərkibində tez xarab olan keyfiyyətli komponentləri uzun müddət dadını saxlayan süni komponentlərlə əvəz etmək lazım gəlir.

Təzə ərzaq tez xarab olan və ilkin vəziyyətində uzaq məsafəyə daşınırsa, onun istehsaldan istehlaka qədər keçdiyi müddətin minimumlaşdırılması, əslində keyfiyyətin maksimum qorunması deməkdir.

Böyük şəhərin yaxınlığı, başqa sözlə, yerləşmə amili kənd təsərrüfatı məhsulları istehsalına bəzi üstünlüklər verir. Burada aşağıdakıları qeyd etmək olar:

- şəhərin infrastrukturundan istifadə olunması;
- şəhərin istehsal və resurs potensialının şəhərlilərin təzə ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılması işinə cəlb edilməsi;
- yeyinti sənayesi və iaşə müəssisələrinin, ev təsərrüfatlarının qida məhsulları tullantılarının şəhərətrafı heyvandarlıqda istifadəsi;
- satış bazarlarının yaxınlığı və s.

Ötən əsrin ortalarında ərzaq məhsulunun təzə olması onun yüksək keyfiyyətinə zəmanət hesab edilirdisə, hazırda vəziyyət köklü surətdə dəyişmişdir. Ekoloji böhran təzə kənd təsərrüfatı məhsulunun tərkibinə, onun bütün elementlərinin vəziyyətinə daha ciddi yanaşmağı tələb edir. Başqa sözlə, artıq ərzaq məhsulunun təzə olması, təəssüf ki, birmənalı olaraq onun yüksək keyfiyyətinə dəlalət etmir və əlavə qiymətləndirmə tələb edir.

Urbanizasiya zonalarının, xüsusilə şəhərətrafı zonaların kənd təsərrüfatı istehsalının ixtisaslaşma xüsusiyyətləri təxirəsalınmaz resursqoruyucu tədbirlərin həyata keçirilməsini tələb edir. Belə ki, şəhərətrafı kənd təsərrüfatı müəssisələri, bir qayda olaraq, təzə və tez xarab olan ərzaq məhsulları istehsalı üzrə ixtisaslaşırlar. [4, s.180]

Bunun əsas səbəbi həmin ərazidəki aqrar fəaliyyətin şəhərin tələbatına tabe olması, şəhərətrafı ərazinin bir hissəsi kimi şəhərətrafı zonanın funksional təyinatıdır. Təzə ərzaq məhsulları-

nın keyfiyyətinə xələl gətirmədən uzaq məsafəyə daşınmasının çətinliyi, ilkin emala xərclər şəhərətrafı kənd təsərrüfatı zonasının istehsal istiqamətini şərtləndirir.

Təbii şəkildə istehlak olunan kənd təsərrüfatı mənşəli ərzaq məhsulları təzə ərzaq məhsulları hesab olunur. Bu məhsulların ayrıca qrupda əhatə olunması zərurəti biokimyəvi tərkibinə görə təzə ərzaq məhsullarının digər analoji təyinatlı məhsullardan fərqli olmasından irəli gəlir. Emal prosesində insan həyatı üçün zəruri olan elementlərin xeyli hissəsini itirən təzə ərzaqlar uzaq məsafəyə təbii şəkildə daşına bilmir. Həmin məhsulların istehlak məkanına yaxın yerlərdə istehsal edilməsi bir çox cəhətdən sərfəlidir. Təzə ərzaq məhsullarının xüsusi qrupda birləşdirilməsi üçün ikinci amil təzə ərzaq məhsullarının istehlakının böyük hissəsinin şəhər əhalisinin payına düşməsidir. Məsələ ondadır ki, əhalinin yarıdan çoxu (təqribən 52%-i) şəhərlərdə yaşayır və otra şəhərli orta kənd əhalisinə nisbətən daha çox təzə ərzaq məhsulu ala bilir.

Məlum olduğu kimi, təzə ərzaq məhsullarına emal olunmadan istehlak edilən tərəvəz və meyvə növləri, süd və pəhriz yumurtası, təzə ət aid edilir. Şəhərətrafı ərazilərdə təzə ərzaq məhsullarının, xüsusilə faraş tərəvəzin, təzə südün və pəhriz yumurtasının daşınmasında qabaqcıl texnologiyaların tətbiqi imkanları digər ərazilərə nisbətən daha genişdir. Məhsulun nəql olunması zamanı nəqliyyat vasitəsilə optimal temperaturun təmin olunması, ixtisaslaşdırılmış avtomobillərdən istifadə, çeşidləmənin mükəmməl texnologiyalarından istifadə məsələlərini şəhər ticarət şəbəkələrinin imkanı daxilində həll etmək mümkündür. Bunun üçün, ötən əsrin 80-ci illərində bir çox iri şəhərlərin təzə ərzaq təminatında sınaqdan çıxmış "tarla-mağaza" sxemini daha operativ şəkildə tərəfdaşların mənafelərini uzlaşdırmaqla reallaşdırmaq məqsədəuyğundur.

Bakı və Sumqayıt şəhərlərində qablaşdırma vasitələri istehsalının mövcud bazasını genişləndirmək və yeni müəssisələr yaratmaqla, təzə ərzaq məhsullarını gündəlik istehlak üçün əlverişli çəkilərdə qablaşdırmaqla keyfiyyəti yüksəltmək və itkini minimumlaşdırmaq olar.

Keyfiyyətin yüksəldilməsi imkanlarının yuxarı həddi maksimum rəqabət qabiliyyətinin təminatı, aşağı həddi isə onların ekoloji təhlükəsizliyidir. Bu hədlər mövcud təsərrüfatçılıq reallığında birmənalı qiymətləndirilmir. Belə ki, keyfiyyətli hesab edilən məhsulun heç də həmişə ekoloji təmiz olduğuna zəmanət verilmir. Odur ki, keyfiyyəti müəyyənləşdirilən məhsulun qiymətləndirilməsində başlıca parametrlər beynəlxalq miqyasda tətbiq edilən standartlar əsasında qiymətləndirilməlidir.

Şəhərətrafı zonada kənd təsərrüfatı müəssisələrinin digər ərazilərdə yerləşən aqrar qurumlarla müqayisədə üstünlükləri, nəticə etibarilə son istehlakçıya daha yüksək keyfiyyətli məhsul təqdim etmək imkanında ifadə olunur. Başqa sözlə, şəhərətrafı təsərrüfatlar daxili ərzaq bazarında əsasən keyfiyyət amili hesabına möhkəmlənə bilər.

Artıq qeyd edildiyi kimi, şəhərətrafı təsərrüfatların ixtisaslaşmasında başlıca istiqamət təzə ərzaq məhsulları istehsalıdır. Təzə ərzaq məhsulları keyfiyyəti uzun müddət saxlaya bilmir və həmin məhsullar ilkin emaldan sonra qısa vaxtda istehlakçıya (pərakəndə satış şəbəkəsinə) çatdırılmalıdır. Bitkiçiliyin və heyvandarlığın təzə məhsullarının qiymət və keyfiyyət parametrləri "rəqabət apardığı" ərzaq bazarında sonuncudan daha çox asılıdır.

Şəhərətrafı zonadakı təsərrüfatların ümumi məhsulunda örtülü sahədə yetişdirilən tərəvəz istehsalı mühüm yer tutur. Aqrobioloji proseslərin, demək olar ki, proqramlaşdırıldığı bu sahədə intensivləşmə səviyyəsi məhsulun keyfiyyətinə ciddi tələb edir. Həmin nəzarətin mexanizmi əmtəəşünaslığın müasir üsul və vasitələrinə, keyfiyyət və iqtisadi səmərəliliyin vəhdətini təmin edən yanaşmalara əsaslanmalıdır.

"Ölkənin ərzaq təhlükəsizliyini təmin etmək istiqamətində aşağıdakıları təklif etmək mümkündür:

- ərzaq məhsullarının keyfiyyət struktur dəyişikliklərinin iqtisadi-coğrafi parametrlərindən istifadə etməklə təbii resurslardan optimal istifadə edilməsi;
- bazar münasibətlərinin müasir inkişaf mərhələsində respublikamızda ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün obyektiv zərurətdən irəli gələn mexanizmlərdən istifadə etmək şərtilə aqrar istehsal strukturlarının təşkilinə aid proqramlar, layihələr tərtib olunması məqsədəuyğundur;

- daxili resurslardan istifadə etməklə, respublikamızda xaricdən gətirilən məhsulların qarşısını almaq mümkündür. Bu isə eyni zamanda respublikanın siyasi və sosial-iqtisadi cəhətdən möhkəmliyini atrıra bilər". [5, s.62-63]

Əhalinin qidalanmasının yaxşılaşdırılmasına nail olmaq üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

- ərzaq məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarət mexanizminin yaradılması və tətbiq edilməsi;
- yerli ərzaq məhsullarının istehsalının, emalının və marketinqinin inkişafına nail olunması.

Şəhərin ərzaq təminatında idxalın xüsusi çəkisi keyfiyyət probleminin aktuallıq dərəcəsi ilə balavasitə əlaqədardır. Əhalinin aşağı alıcılıq qabiliyyəti xarici ticarətin liberallaşdırılması şəraitində ölkəyə əhəmiyyətli miqdarda aşağı keyfiyyətli ərzaq məhsullarının gətirilməsini şərtləndirir.

"Yüksək kalorili zəruri qida məhsullarının cəlb edilməsində alıcılıq qabiliyyəti məhdud olduğu üçün əhalinin bir qismi məcbur olub çeşid seçimini dəyişir. Belə seçim edərkən enerji qıtlığı daha ucuz və ekoloji cəhətdən daha təhlükəli qida məhsulları ilə doldurulur, əvəzləşdirilir. Bu isə insanların sağlamlığına çox mənfi təsir göstərir". [3, s.102]

İdxal, keyfiyyət və səmərəlilik məsələlərinin qarşılıqlı əlaqələrindən danışarkən problemin daha geniş miqyaslı olduğunu qeyd etməliyik.

"Ərzağın keyfiyyəti və qiyməti istehlakçı baxımından əsas meyarlardır. Qiymət məhsulun istehsalına və onun son istehlakçıya çatdırılmasına məcmu xərclərlə, keyfiyyət isə son istehlakçıya çatdırılma müddəti ilə əlaqədardır. Göründüyü kimi, hər iki meyar üzrə yanaşmada məhsulun istehsalçıdan istehlakçıya çatdırılması müddəti, başqa sözlə, məhsulun qət etdiyi məsafə əhəmiyyətlidir". [4, s.128]

İnsanların gəlirləri artdıqca, onlar qiymət, yoxsa keyfiyyət seçimində ikinciyə daha çox üstünlük verirlər. Əlbəttə, bu proses avtomotik olmayıb, mövcud və yaxın perspektivə daxili aqrar potensialın reallaşması mühitinin təsiri altında, dövlətin tənzimləyici funksiyasını yerinə yetirməsi səviyyəsindən asılı olaraq baş verir.

Ərzaq məhsullarının keyfiyyətinə nəzarət nə qədər ciddi və səmərəli olursa, bu milli iqtisadiyyata ümumilikdə müsbət təsir edir. Belə ki, iqtisadiyyatın idxaldan asılılığı azalır, ölkənin tədiyyə qabiliyyəti möhkəmlənir.

Şəhərətrafı zonada istehsal edilən ərzaq məhsullarının keyfiyyəti məhsuldar fəaliyyətin müxtəlif növlərinin məhdud məkanda kəsişdiyi urbanizasiya mühitində xarakterik xüsusiyyətlərə malikdir. Urbanizasiya proseslərinin intensiv baş verdiyi mühitdə fəaliyyət növlərinin inteqrasiyası sistemində kənd təsərrüfatının ixtisaslaşmasının səmərəliliyi onun məhsullarının keyfiyyətinin aparıcı şərtinə çevrilir.

Ərzaq məhsulları istehsalının ekoloji aspektləri

Şəhərətrafı zonada kənd təsərrüfatı istehsalının ekoloji həssaslığı daha yüksəkdir və həssaslıq başlıca olaraq məhsulda, xüsusilə ərzaq məhsullarının keyfiyyətində öz ifadəsini tapır. Belə ki, şəhərətrafı zonada atmosferin, torpağın və suyun çirklənməsi dərəcəsi, artıq qeyd edildiyi kimi, daha yüksəkdir, texnogen amillərin təsiri kəsilməzdir və s. Bunun nəticəsində şəhərətrafı kənd təsərrüfatında məhsuldarlıq atrır, məhsulun keyfiyyətinə mənfi təsirlər olur, şəhərin böyüməsi və sürətlənən eroziya nəticəsində kənd təsərrüfatı təyinatlı torpaqlar dövriyyədən çıxır. Bütün bunlar şəhərətrafi kənd təsərrüfatı zonasında istehsal olunan və şəhərlilərin birbaşa istehsalına gedən təzə ərzaq məhsullarının keyfiyyətinin yüksəldilməsi imkanlarını araşdırmağı, bu imkanların reallaşmasının iqtisadi-ekoloji istiqamətlərinin reallaşmasını aktuallaşdırır.

Sözügedən istiqamətlərdə, ilk növbədə şəhərətrafi kənd təsərrüfatı istehsalının ekoloji həssaslığına diferensasiyalı münasibətin mexanizminin təkmilləşdirilməsi aid edilməlidir. Sadalanan neqativ təsirlərin şəhərətrafı kənd təsərrüfatı zonasında istehsalın səmərəliliyinə təsirini qiymətləndirmək fərdi yanaşma tələb edir. Belə ki:

- ətraf mühitin çirklənməsinin kənd təsərrüfatında məhsuldarlığa təsirinin qiymətləndirilməsi yalnız bir sıra parametrlər (çirklənmənin xarakteri, səviyyəsi, miqyası) müəyyənləşdirildikdən sonra mümkündür;

- kənd təsərrüfatı məhsullarının, xüsusilə ərzaq məhsullarının keyfiyyətinə texnogen amillərin təsirinin qiymətləndirilməsi üçün tövsiyə olunan yanaşmalar məhsul və məhsul qrupları üzrə konkretləşdirilməlidir;

- şəhərin və ona bitişik ərazilərin vəhdətdə inkişafı strategiyası işlənib hazırlanmalı, strateji ərazi planlaşdırılması metodologiyası yerli xüsusiyyətləri nəzərə almalıdır.

Şəhərətrafı zonada olan ərazilərdə atmosfer, torpaq və suyun çiklənməsinin təkcə məhsuldarlığa deyil, ilk növbədə və başlıca olaraq keyfiyyətə təsiri qiymətləndirilməlidir. Bu məqsədlə mövcud müqayisəli təhlil metodologiyası təkmilləşdirilməli, onun riyazi aparatı gücləndirilməli və nisbətlərin keyfiyyətcə qiymətləndirilməsi zamanı informasiya texnologiyalarının yeni imkanları gerçəkləşdirilməlidir. O cümlədən:

- süni intellekt sistemlərinin zəruri elementlərinin əlaqələndirilməsi;
- natamam informasiya təminatı şəraitində situasiyaların qiymətləndirilməsi;
- ekspert texnologiyaların imkanlarından istifadə və s. kimi məsələlərin nəzəri və praktiki aspektləri açıqlanmalıdır.

Ekoloji mühitdə ekstremal şərait elementlərinin get-gedə üstünlük təşkil etməsi fonunda antropogen təzyiqin artan səviyyəsini dəf etmək istiqamətində tədbirlər kompleks xarakterli olmaqla sinxron şəkildə həyata keçirilməlidir.

Şəhərətrafı zonalarda ekoloji tarazlığın pozulması digər zonalara nisbətən daha çoxdur. Alimlərin fikrincə, şəhərətrafı zonaların əksəriyyətində torpaqlar böhran vəziyyətindədir. Hazırda eroziya prosesini şərtləndirən əsas amil insanın təbiətə münasibətdə fəaliyyətidir. Mütəxəssislərin hesablamalarına görə, eroziya prosesinin intensivliyi torpaq əmələgəlməsi prosesini 10 dəfə qabaqlayır.

Belə ki, torpaqların rekultivaziyası, neftlə çrklənmiş ərazilərin bərpası, hətta təsərrüfatçılıq məqsədləri üçün belə istifadə oluna bilməyən sütütların ləğvi, potensial şüalanma mənbələrinin aşkar edilərək müvafiq siyahılara aid edilməsi əkin dövriyyəsində, sürünün strukturunda, bitkilərin rayonlaşdırılmasında və s. istiqamətlərdə müvafiq dəyişikliklərlə müşayiət olunmalıdır.

"Müasir mərhələdə kənd təsərrüfatı istehsalı və təsərrüfatçılıq ekologiyasının təmin edilməsi hesabına respublika əhalisinin ərzaq məhsulları ilə yetərincə təchiz edilməsi aqrosənaye kompleksi qarşısında duran ən vacib ümumbəşəri vəzifələrdən biridir". [3, s.92]

Keyfiyyət və təsərrüfatçılığın ekoloji parametrlərinin qarşılıqlı təsiri kənd təsərrüfatında intensiv texnologiyaların tətbiq tempinin artması və əhatə dairəsinin genişlənməsi ilə güclənir. Məlumdur ki, torpaq sahəsi vahidinə daha çox gübrə və kimyəvi maddələr tətbiq edildikcə, enerji istehlakı artdıqca təsərrüfatçılığın ekoloji durumu pisləşir, kənd təsərrüfatı məhsulunun keyfiyyəti kəmiyyətin xeyrinə olaraq arxa plana keçir. Digər bir meyil isə, innovasiyalar hesabına kənd təsərrüfatının ekoloji həssaslığının azalmasıdır. Şəhərətrafi kənd təsərrüfatı zonasında bu meyil xüsusilə diqqətəlayiqdir.

Prezident İlham Əliyevin gerçəkləşdirdiyi islahatlar nəticəsində respublikada aqrar-sənaye kompleksini inkişaf etdirmək, ərzaq təminatını yaxşılaşdırmaq üçün ilk növbədə qanunvericilik bazası təkmilləşdirilmişdir. Dövlət proqramları və digər qəbul olunmuş sənədlərdən irəli gələn vəzifələrin yerinə yetirilməsi, o cümlədən aqrar sahəyə maliyyə və texniki dəstəyin göstərilməsi, sahibkarlığın inkişafı, regionlarda infrastruktur layihələrinin həyata keçirilməsi əhalinin istehlakında yerli məhsulların xüsusi çəkisinin artmasını təmin etmişdir.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə makroiqtisadi sabitliyin təmin olunmasında, regionlarda sahibkarlıq fəaliyyətinin genişlənməsində, aqrar sahənin inkişafı və əhalinin rufah halının daha da yaxşılaşdırılmasında müstəsna rol oynayacaqdır. O cümlədən, proqramda şəhərətrafı zonada:

- kənd təsərrüfatı məhsullarının istehsalı və emalının dəstəklənməsi;
- kənd təsərrüfatı istehsalının inkişafına xidmət edən infrastrukturun maddi-texniki bazasının möhkəmləndirilməsi nəzərdə tutulmuşdur.

"Azərbaycan Respublikası kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə isə qeyd edilir ki, kənd təsərrüfatı məhsullarının intensiv istehsalı, resursların

istifadəsində səmərəliliyin artırılması ekoloji dayanıqlığın təmin edilməsinə şərait yaradacaqdır. Bununla belə, məhsuldarlığın artırılması nəticəsində ətraf mühitin çirklənməsi təhlükəsinin yaranmaması üçün nəzarət tədbirləri həyata keçiriləcəkdir. Həmçinin, təsərrüfat fəaliyyətinin genişlənməsi nəticəsində su, torpaq və digər təbii tesursların mənfi təsirə məruz qalmaması üçün müvafiq nəzarət mexanizmləri və standartları tətbiq ediləcəkdir.

Paytaxt əhalisi üçün normal əmtəələr qismində təzə ət və süd, pəhriz yumurtası qəbul edilə bilər. Başqa sözlə, paytaxt sakinlərinin gəlirləri artdıqca, bu əmtəələrə tələbin atracağını gözləmək olar.

Məlum olduğu kimi, qida məhsullarına olan tələbatın ödənilməsi əhalinin həyat səviyyəsini xarakterizə edən mühüm arqument olmaqla, cəmiyyət üzvlərinin yaşayış imkanlarının nə dərəcədə reallaşdırılmasını şərtləndirir. Bu proses əslində fasiləsiz, davamlı xarakter daşıyır, ən azı ona görə ki, bəşəriyyət heç zaman istehlakı dayandıra bilməz, istehlakın dayandırılması hər bir fərdin fiziki mövcudluğunun sonu deməkdir. Odur ki, qida məhsullarının istehsalı davamlı olaraq artırılmalıdır.

Şəhər əhalisinin qidalanmasının strukturunda baş verən dəyişikliklər gəlirlərin səviyyəsi ilə yanaşı həyat tərzindəki dəyişikliklərdən, fiziki əməyin xüsusi çəkisinin aşağı düşməsindən və digər amillərdən asılı olaraq baş verir. Son illərin müşahidələri göstərir ki, qida məhsullarının istehlakında ilkin tələbat məhsullarının xüsusi çəkisinin artması ilə yanaşı protein və yağlı məhsulların xüsusi çəkisinin bir qədər azalması müşahidə edilir.

Nəticə

Şəhərətrafı kənd təsərrüfatı zonasında ərzaq məhsulları istehsalının ekoloji tənzimlənməsi mexanizmində özünəməxsus cəhətlər vardır. Həmin spesifik cəhətlərə aşağıdakılar aid oluna bilər:

- ərzaq məhsullarının keyfiyyətinin idarə edilməsinin iqtisadi-ekoloji elementləri əhəmiyyətli səviyyədə resurs tutumludur. Belə olan təqdirdə bu idarəetmə mexanizminin tam miqyasda reallaşdırılması üçün ciddi maliyyə təminatına ehtiyac vardır. Paytaxta yaxın ərazilərdə bu ehtiyacın ödənilməsi imkanları, digər ərazilərə nisbətən xeyli genişdir. Bununla belə, həmin imkanların gerçəkləşməsində şəhərətrafı zonanın inkişafına proqram-məqsədli yanaşmanın rolu da nəzərdən qaçmamalıdır;
- şəhərətrafı ərazilərdə ekoloji tarazlığın bərpası layihələrinin maliyyələşdirilməsi zamanı həmin ərazilərin kənd təsərrüfatı və aqrorekreasiya dövriyyəsinə qaytarılması məsələləri bir çox hallarda nəzərə alınır;
- ərzaq məhsullarının keyfiyyətinə nəzarət mexanizmi böyük şəhərin təsir zonasında daha səmərəli fəaliyyət göstərir. Məhz, bunun hesabına müvafiq ərazilərdə istehsal edilən ərzaq məhsullarının keyfiyyətinin yüksəldilməsi və ekoloji xarakteristikasının yaxşılaşdırılması üçün imkanlar yaranır.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı".
2. "Azərbaycan Respublikası kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi".
3. Ataşov A.X. Ərzaq təhlükəsizliyinin aktual problemləri. Bakı, 2005, 336s.
4. Balayev R.Ə. Urbanizasiya: şəhər iqtisadiyyatı və ərzaq problemi. Bakı, 2007, 295s.
5. Qurbanzadə A.A. Aqrar strukturun regional inkişaf modeli: iqtisadi-coğrafi konsepsiyası. Bakı, 2004, 431s.

Айтен Сафаралы кызы Зейналова
ст. пред. Азербайджанского Университета Кооперации

Экономико-экологические особенности производства продовольственных продуктов в пригородной зоне

Резюме

Необходимость улучшения продовольственного обеспечения в больших городах и пригородной зоне делает важным исследование специфических особенностей производства продовольственных продуктов в пригородной зоне. С этой точки зрения, в статье исследованы качественные характеристики производства продовольственных продуктов в пригородной зоне, а также наряду с этим, экологические аспекты производства продовольственных продуктов. Также были рассмотрены вопросы, исходящие из указов Президента Азербайджанской Республики для развития сельского хозяйства в пригородной зоне.

Ключевые слова: аграрный сектор, пригородная зона, сельскохозяйственное производство, новые продовольственные продукты, продовольственная безопасность, качество.

Ayten Safaralı Zeynalova
PhD in economics
Azerbaijan Cooperation University

The economics and ecological characteristics of food production in suburban zone

Summary

Big cities and improvement of food security in suburban zone make necessary to explore specific features of food production. In this regard in the article thequalities of food production in suburban zone besides the ecological aspects of food production were explored. The problems arising from the orders of the Azerbaijan Republic were also considered.

Key words: agrarian field, suburban zone, agricultural production, fresh food production, food security, quality.

канд. экон. наук, профессор В.И.АРАНЧИЙ;

канд. экон. наук И.А.ЯСНОЛОБ;

Я.В.РАДИОНОВА;
Полтавская Государственная
Аграрная Академия, Украина, г. Полтава

ПЕРСПЕКТИВНЫЕ НАПРАВЛЕНИЯ И ПУТИ ПОВЫШЕНИЯ КОНКУРЕНТОСПОСОБНОСТИ АГРАРНОЙ СФЕРЫ УКРАИНЫ

Интеграция украинского общества в европейское сообщество и усиления процессов глобализации, либерализации торговли требуют адаптации к новым и постоянно меняющимся условиям рыночной среды, а соответственно и дальнейшего совершенствования аграрной политики.

Потенциал производства украинского аграрного сектора значительно превышает потребности внутреннего рынка, и выступает звеном. С одной стороны это может стать локомотивом развития национальной экономики, а с другой - рост доходов, задействованного в аграрной экономике сельского населения, может дать мультипликативный эффект в развитии других отраслей экономики [11, стр. 12]. Учитывая это, украинские производи-

тели аграрного сектора должны производить продукцию высокоэффективную и конкурентоспособную как на внутреннем, так и внешнем рынках. Согласно этому, основой успешного функционирования предприятий аграрной сферы экономики является обеспечение их конкурентных преимуществ, а, следовательно, конкурентоспособности.

Исследованию различных аспектов конкуренции и конкурентных позиций аграрной сферы посвящены труды таких иностранных ученых, как Ф. Букер, А. Вайсман, Р. Дамари, Е. Дихтль, А. Лайан, Х. Хершген, Х. Швальбе и другие, среди украинских ученых исследованию этой проблемы посвящены работы Г. Азоев, Н. Безуглого, Н. Дмитренко, И. Должанского, В. Иванюты, М. Крапивка, Т. Лозинской, М. Малики, Е. Миргородской, И. Отенко, П. Саблука, А. Ситковской, Н. Тарановской, Р. Фатхутдинова и др.

Анализ научной литературы свидетельствует, что конкурентоспособность аграрных предприятий - понятие сложное и трактуется неоднозначно. Следовательно, полно и системно раскрывает понятие конкурентоспособности сельскохозяйственных предприятий в своем определении М. Малик, как способность субъектов экономической деятельности аграрной сферы приспосабливаться к новым условиям хозяйствования использовать свои конкурентные преимущества и побеждать в конкурентной борьбе на рынках сельскохозяйственной продукции и услуг, максимально эффективно использовать земельные ресурсы, как можно полнее удовлетворять потребности покупателя путем анализа структуры рынка и гибко реагировать на изменение и ого конъюнктуры [7, стр. 128].

Однако обеспечения конкурентоспособности сельскохозяйственных предприятий не ограничивается использованием только земельных ресурсов. Специфика сельскохозяйственного производства состоит в значительной зависимости от погодных условий, природных ресурсов, длительным циклом производства, и др.

Конкурентоспособность сельскохозяйственных предприятий имеет характерные особенности связанные с: 1) спецификой сельского хозяйства как вида экономической деятельности; 2) значительным уровнем конкуренции в среде сельскохозяйственных товаропроизводителей; 3) большим количеством и разнообразием производителей (предприятий).

Поэтому, на наш взгляд, конкурентоспособность аграрных предприятий - это во-первых возможность результативного использования стратегического потенциала, во-вторых способность предприятия быстро реагировать на изменения потребностей потребителей, способность к адекватным действиям на нововведения конкурентов.

Сегодня стремительное снижение конкурентоспособности и эффективности деятельности аграрных предприятий Украины происходит под влиянием совокупности таких внешних факторов как: политическая нестабильность, крупная иностранная конкуренция производителей сельскохозяйственной продукции, отсутствие должной государственной поддержки отечественных сельхозпроизводителей, уменьшение спроса на сельскохозяйственную продукцию в связи с низкой платежеспособностью населения и других составляющих и внутренних факторов.

Также существенное влияние внутренних факторов на конкурентоспособность, к которым относятся: сокращение объемов производства аграрной продукции и снижение ее качества, слабая материально-техническая база аграрных предприятий, низкий уровень инвестиционной привлекательности и инновационных внедрений, недостаточно эффективная организация управления, которая не всегда способна вести конкурентную борьбу на аграрном рынке [10, стр. 6].

В мировой агросфере основным направлениям современной инновационной деятельности признаются агробиотехнологии (генная модификация, маркерная селекция, селекция сельхозкультур, устойчивых к воздействию разного рода негативных факторов, сельхозкультур для производства биотоплива II поколения, создания биопестицидов, биоудобрений, ферментов и т.д.), а также развитие экологически ориентированных систем земледелия и агрохозяйствования. Основными целями внедрения новаций определено сохранение и повышение уровня эффективности использования ресурсов агропроизводства.

Основными видами прогрессивных технологий, которые применяются в украинском сельхозпроизводстве, являются следующие: почвозащитные системы обработки, семенной материал (новые сорта, гибриды и т.д.), органическое земледелие, технологии земледелия Но-тилл (система "прямого сева"), использование биопестицидов, биоудобрений, новые породы животных, прогрессивные системы откорма, новейшие машины и оборудование, котлы на альтернативном топливе, биогазовые установки, маркетинговые технологии (в частности, организация собственных точек сбыта продукции, участие в овраг марковых и выставочных мероприятиях и т.п.) и др. [8, стр. 92].

Одной из весомых причин торможения инновационного процесса в аграрном секторе Украины является отсутствие средств на создание инновационного продукта. Одним их путей решения этой проблемы может быть проведение прикладных исследований благодаря внутренним ресурсам. Также необходимо учитывать важность успешного маркетинга в реализации нового товара и создание промежуточной цепи между производителями и потребителями продукции.

На современном этапе развития аграрного производства важная роль отводится специализации, поскольку максимальный выход валовой и товарной продукции с единицы земельной площади возможен только при условии углубления специализации, рациональной концентрации и правильного соотношения отраслей в комплексе с агротехническими мероприятиями.

Во время углубления специализации использования производственных ресурсов растет и они эффективнее функционируют параллельно со снижением трудоемкости производства и ростом показателей эффективности - производительности скота и рентабельности производства молока. Без углубления специализации невозможно интегрировать аграрную сферу на интенсивный путь развития, внедрить индустриальную технологию во всех ее отраслях, выйти на мировой уровень производительности труда. А для достижения максимального уровня эффективности производства необходимо не только правильно выбрать главные отрасли предприятия и наметить направление их развития на перспективу, но и оптимизировать структуру производства каждой из них в отдельности.

Следовательно, повышение конкурентоспособности продукции сельского хозяйства и продовольствия Украины возможно путем:

1) создания мотивации к технологическому оснащению и модернизации отраслей аграрного производства, путем стимулирования обеспечения необходимыми машинами, оборудованием и производственной инфраструктурой кооперативных структур; 2) формирование действенной инфраструктуры аграрного рынка и обеспечения расширенного доступа производителей к организованным каналов сбыта сельскохозяйственной продукции, в частности сети складских и элеваторных мощностей, а также расширение возможностей участия малых форм хозяйствования в организованном рынке; 3) содействие развитию отраслевых, межкооперативных объединений товаропроизводителей и повышение уровня их ответственности: за формирование и соблюдение отраслевых балансов, за качество и безопасность продукции, произведенной ее членами, в т.ч. путем создания коллективных брендов продуктов; 4) введение системы согласования экономических интересов в цепочке «производство - переработка - торговля»; 5) стимулирование рационального размещения и специализации аграрного производства в соответствии с природно-климатическим условиям; 6) содействие становлению системы совместной реализации продукции национального аграрного сектора на целевых внешних рынках; 7) научное обеспечение инновационного развития, формирования партнерских отношений между саморегулируемыми объединениями сельскохозяйственных товаропроизводителей, государством и отраслевой наукой в сфере развития семеноводства, селекции и племенного дела, технико-технологического обеспечения аграрного сектора; 8) создание условий для углубления переработки продукции, направляемой на экспорт; 9) содействие развитию органического земледелия, прежде всего в малых и средних хозяйствах.

Таким образом, повышение конкурентоспособности предприятий агропромышленного комплекса Украины будет способствовать привлечению в отрасль агроинноваций и формирования действенной инфраструктуры аграрного рынка.

Список использованных источников:

1. Азоев Г.Л. Конкурентные преимущества фирмы / Г.Л. Азоев, А.П. Челенков - М.: Тип. Новости, 2000. – 256 с.
2. Дмитренко Н.М. Конкурентоспроможність переробних підприємств малого бізнесу в АПК: Автореф. дис. канд. екон. наук. - Дніпропетровськ: ДДАУ, 2008.- С.6.
3. Довідник менеджера по управлінню конкурентоспроможністю для магістрів усіх форм навчання / [укл.: А.Д. Дудник]. - К.: КНЕУ, 1999. - 60с.
4. Должанський І.З. Конкурентоспроможність підприємства: [навч. посіб.] / І.З. Должанський, Т.О Загорна. - К., 2006. -384с.
5. Іванюта .В.Ф. Теоретико-методологічні підходи формування конкурентоспроможності / В.Ф. Іванюта // Агроінком - 2008 - № 1-2. - С. 97-101.
6. Інноваційна Україна 2020: [національна доповідь] / / за заг. ред. В.М. Гейця та ін.; НАН України. - К., 2015. - 336 с.
7. Малік М.Й. Конкурентоспроможність аграрних підприємств: методологія і механізми: [монографія.] / М.Й. Малік, О.А. Нужна. - К.: Інститут аграрної економіки, 2007. - 270с.
8. Миргородская Е. О. Конкурентоспособность как интегральное свойство рыночной системы хозяйствования / Е. О. Миргородская // Философия хозяйства. - М., 2005. - № 4/5. - С. 203-213
9. Отенко І. П. Управління конкурентними перевагами підприємства / І. П. Отенко, Є. О. Полтавська. - Х. : ХНЕУ, 2005. - 210 с.
10. Сітковська А.О. Конкурентоспроможність аграрних підприємств: стан і перспективи. // О.А. Сітковська / Економіка, фінанси, право. 2012. № 6. С.6.
11. Стратегія розвитку аграрної сектору економіки України на період до 2020 року: [проект] / Міністерство аграрної політики та продовольства України. − К., 2013. - 34 с.
12. Тарнавска Н.П. Управління конкурентоспроможністю підприємств: теорія, методологія, практика / Н.П. Тарнавська; Тернопільський економічний ун-т. - Тернопіль: Економічна думка, 2008. - 570с.
13. Фатхутдинов Р.А. Управление конкурентоспособностью организации / Р.А. Фатхутдинов. - М. : Эксмо, 2004. - 544 с.

Raibə Məmmədbağır qızı CƏFƏROVA
i.f.d., dosent ADAU

KƏND TƏSƏRRÜFATINDA İXRAC YÖNÜMLÜ MƏHSUL İSTEHSALININ MÖVCUD VƏZİYYƏTİ

Xülasə

Məqalədə kənd təsərrüfatında ixrac yönümlü məhsul istehsalının mövcud vəziyyəti, aqrar sektorun inkişafının və ixrac üçün məhsul istehsalının stimullaşdırılması yolları göstərilmişdir. Eyni zamanda məqalədə Azərbaycan Respublikasında qəbul edilən proqramlarda ixrac yönümlü kənd təsərrüfatı məhsullarının istehsalının stimullaşdırılmasının vacibliyi məsələlərinə önəm verildiyi göstərilir.

Açar sözlər: intensiv inkişaf, ixrac, idxal, gömrük prosedurları, kiçik və orta sahibkarlıq, iqtisadi artım.

***

Azərbaycanda aparılan uğurlu, məqsədyönlü siyasət nəticəsində iqtisadiyyatın formalaşdırılması ölkədə işgüzar fəallığın daha da yüksəldilməsinə, neft sektoru ilə yanaşı, qeyri-neft sekto-

runun da sürətli inkişafına şərait yaratmışdır. Bu gün ölkəmizdə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən sosial-iqtisadi inkişaf strategiyasının prioritetlərindən olan aqrar sahənin inkişafı əhəmiyyətli rol oynayır. Həm yerli məhsulların rəqabətqabiliyyətliyinin, həm də aqrar-sənaye sistemində fəaliyyət göstərən sahibkarlıq strukturlarının rəqabətqabiliyyətliyinin yüksəldilməsi bütövlükdə aqrar-sənaye sisteminin dayanıqlı fəaliyyət göstərməsinin yaxşılaşmasına gətirib çıxara bilər. Bütün bunlar isə nəticədə ölkənin iqtisadi təhlükəsizliyinin daha yaxşı təmin olunması deməkdir. Azərbaycan Respublikası Prezidentinin 2012-ci ildə təsdiq etdiyi"Azərbaycan 2020-Gələcəyə baxış" inkişaf konsepsiyası və "2014-2018-ci illərdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın qəbulu, şübhəsiz ki, ölkədə kənd təsərrüfatının hərtərəfli inkişafına təsir göstərmişdir. Bazar iqtisadiyyatının indiki və gələcək inkişaf mərhələlərində kənd təsərrüfatında iqtisadi inkişafın əsas sahələrindən biri xarici iqtisadi əlaqələrin qurulması və bu əlaqələr vasitəsi ilə beynəlxalq bazara inteqrasiya etmək, mövcud potensiallardan səmərəli istifadə edərək cəmiyyətin məhsula olan tələbatını ödəməkdir. Qloballaşma şəraitində aqrar istehsalın artırılması və ixracın stimullaşdırılması xarici iqtisadi fəaliyyətdə ticarətin inkişafına, elmi-texniki əməkdaşlığa, sahibkarlıq fəliyyətinin formalaşmasına və xarici kapitalın cəlb edilməsinə zəmin yaradır.

Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının təsdiq edilməsi haqqında" Fərmanında göstərilir: "Xarici iqtisadi siyasət istehsal olunmuş məhsulların ixracı üçün əlverişli şəraitin yaradılmasına, eyni zamanda, daxili bazarın haqsız rəqabətdən qorunmasına yönələcəkdir."

Ölkədə əhalinin ərzaq məhsullarına istehlak tələbatının 70%-nin daxili istehsal hesabına ödənilməsi və xarici iqtisadi əlaqələrdə iştirak etməsi üçün kifayət qədər təbii iqtisadi resurslar mövcuddur və qarşıda duran əsas vəzifə odur ki, bu resurslardan səmərəli istifadə olunsun. 2016-cı ildə Azərbaycan Respublikası 186 ölkə ilə ticarət sahəsində qarşılıqlı əməkdaşlıq etmişdir ki,bu ildə xarici ticarət dövriyyəsi 17 675,7 mln. dollar təşkil etmişdir. Bunun da təqribən 52 %-ni (9143,3 mln. dollar) ölkədən ixrac olunmuş mallar, 48,3 %-ni (8532,4 mln. dollar) ölkəmizə idxal edilmiş mallar təşkil etmişdir və 610,9 milyon dollarlıq müsbət saldo yaranmışdır. 2016-cı ildə Azərbaycan Respublikasının MDB dövlətləri ilə ticarət dövriyyəsinin həcmi 17675727,29 min. ABŞ dolları, digər ölkələr ilə 14850387,59 min ABŞ dolları, o cümlədən ixracın həcmi 663612 min. ABŞ dolları təşkil etmişdir. 2016-cı ildə MDB dövlətlərinin Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsindəki payı 16%, o cümlədən ixracda təqribən 7,3% olmuşdur. Respublikadan 2016-cı ildə ixrac olunan mallar bunlardır: kartof, təzə tərəvəz, təzə meyvə, çay, bitki yağları, şəkər, meyvə və tərəvəz şirələri, tünd spirtli içkilər, xam neft, təbii qaz, elektrik enerjisi, iri buynuzlu heyvanın dəriləri, pambıq ipliyi və s. Son illərdə bütün növ aqrar məhsulların ixracı artmışdır.

"Azərbaycan 2020: gələcəyə baxiş" İnkişaf Konsepsiyasına müvafiq olaraq qeyri-neft sənayesinin inkişafı və ərzaq təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət kəsb edən sahələrdən biri kimi, kənd təsərrüfatı məhsullarının istehsalı və emalına xüsusi diqqət yetiriləcək, müasir texnologiyaların tətbiqi yolu ilə mövcud aqroemal müəssisələrinin istehsal gücünün artırılması və yeni belə müəssisələrin yaradılması istiqamətində kompleks tədbirlər həyata keçiriləcəkdir. Ölkədə ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı stimullaşdırılacaq, genetik ehtiyatların və bioloji müxtəlifliyin qorunması, tingçilik, toxumçuluq və damazlıq işlərinin, mal-qaranın cins tərkibinin daha da yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçiriləcəkdir. Kənd təsərrüfatı istehsalçılarının müasir texnika, texnoloji avadanlıq, gübrə, toxum və ting ilə təminatı yaxşılaşdırılacaqdır. [1] Bu baxımdan aqrar sahədə elmi təminat və kadr hazırlığının daha da yaxşılaşdırılması nəzərdə tutulur. Kənd təsərrüfatının müxtəlif sahələrinin intensiv inkişaf etdirilməsi üçün stimullaşdırıcı tədbirlər görülür.

Gələcəkdə idxaldan asılılığı minimuma endirmək və yerli məhsullarla özünü təminetmə səviyyəsini daha da yüksəltmək məqsədilə rəqabətqabiliyyətli qeyri-neft məhsullarının istehsalı və ixracının təşviqi sahəsində Azərbaycan hökuməti qanunvericilik bazasında bir sıra mühüm dəyişiklik həyata keçirmişdir. "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 yanvar 2016-cı il tarixli

1713 nömrəli Sərəncamı və "Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 1 mart 2016-cı il tarixli 811 nömrəli Fərmanı ölkənin ixracının şaxələndirilməsi və rəqabət qabiliyyətinin yüksəldilməsinə təkan verəcəkdir. [3, s. 24]

Kənd təsərrüfatının intensiv inkişafı, mövsümi qiymətlərin tənzimlənməsi, məhsul itkisinin qarşısının alınması, daxili bazarın qorunması və ixrac potensialının artırılması baxımından bölgələrdə ən müasir texnologiyalar əsasında anbar komplekslərinin yaradılmasının əhəmiyyəti nəzərə alınaraq, bu sahədə ardıcıl tədbirlər davam etdiriləcəkdir. Sahibkarların vərdiş və biliklərinin artırılması üçün informasiya və məsləhət xidmətlərinin əhatə dairəsi genişləndirilərək, baytarlıq və fitosanitar sahədə beynəlxalq təşkilatlarla əməkdaşlıq daha da inkişaf etdirilir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında ixrac yönümlü iqtisadi model əsas götürülmüşdür və nəzərdə tutulmuşdur ki, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi və strukturunun təkmilləşdirilməsi qeyri-neft ixracının artımına səbəb olsun. Bunlarla əlaqədar son illərdə xarici ticarət prosedurlarının sadələşdirilməsi və təkmilləşdirilməsi, beynəlxalq bazarlara çıxışda və xarici bazarlarda rəqabət gücünün artırılmasında sahibkarlara göstərilən dövlət dəstəyinin artırılması istiqamətində tədbirlər həyata keçirilir.

Kiçik və orta sahibkarlıq subyektlərinin ixrac qabiliyyətini artırmaq məqsədi ilə tədbirlər həyata keçirilərək, sahibkarlıq subyektlərinin dövlət tərəfindən güzəştli kreditlərlə təminat səviyyəsi yüksəldilir və daxili bazarın haqsız rəqabətdən qorunması üçün beynəlxalq təcrübədə qəbul olunmuş antidempinq və digər qoruyucu tədbirlər həyata keçirilir. Eyni zamanda gömrük və miqrasiya prosedurlarının təkmilləşdirilməsi, həmçinin investorları yerli bazarlara daxil olmaqdan çəkindirən amillərin aradan qaldırılması üçün səylər edilir. Ümumdünya Ticarət Təşkilatına (ÜTT) daxil olmaq üçün beynəlxalq ticarət sisteminə uyğun islahatların həyata keçirilməsi, qanunların dünya ticarət sistemində tətbiq edilən praktikaya uyğunlaşdırılması son nəticə olaraq yerli şirkətlərin və bütövlükdə ölkə iqtisadiyyatının inkişafına yeni imkanlar açacaqdır.

Əlverişli təbii-iqlim, coğrafi şəraiti və iqtisadi potensialı olan ölkəmizdə kənd təsərrüfatı məhsullarının ixrac potensialını artırmaq və xarici bazarlara rəqabət qabiliyyətli və keyfiyyətli məhsullar çıxarmaq üçün aşağıdakı istiqamətlərdə tədbirlər həyata keçirmək məqsədəuyğun olardı:

- mövcud daxili ehtiyatlardan səmərəli istifadə edərək kənd təsərrüfatı məhsulları istehsalını artırmaq və yerli istehsalçıların stimullaşdırılması mexanizminin hazırlanması; emal müəssisələrinin yaradılması, yeni texnologiyaların tətbiqi rəqabət qabiliyyətli məhsullar hazırlanması üçün stimullaşdırıcı mexanizmin hazırlanması (kredit, vergi, gömrük və s); kənd təsərrüfatı və emal məhsulları istehsalını artırmaqla ixracın artırılması təmin edilməlidir.

ƏDƏBİYYAT

1. «Azərbaycan 2020-Gələcəyə baxış» İnkişaf Konsepsiyası. Bakı, 2012-ci il.
2. «2014-2018-ci illərdə Azərbaycan Respublikası regionlarının sosial- iqtisadi inkişafı Dövlət Proqramı». Bakı, 2013.
3. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Bakı, 2016.

Раиба Мамедбагир кызы Джафарова
доцент

Современное состояние производства экспортанаправленной сельскохозяйственной продукции

Резюме

В статье рассматривается современное состояние производства экспортанаправленной сельскохозяйственной продукции и показаны пути стимулирования развития аграрного сектора и производства продукции для экспорта. В статье также показано внимание которое уделяется в принятых в Азербайджанской Республике Государственных Программах

вопросам важности и стимулирования производства экспортонаправленной сельскохозяйственной продукции.

Ключевые слова: интенсивное развитие, экспорт, импорт, таможенные процедуры, малое и среднее предпринимательство, экономический рост.

Raibe Mammadbagir Jafarova
ass. prof.

The current state of production of export intended agricultural products

Summary

In the article, the current statement of the export intended agricultural products and the ways of stimulating the development of the agricultural sector and production for export was investigated. In the article, the attention was also paid to the State Program of The Azerbaijan Republic on the stimulation of the production of export intended agricultural products.

Key words: intensive development, export, import, customs procedures, small and medium entrepreneurship, economic growth.

Əhməd Əli oğlu MUXTAROV
Milli Aviasiya Akademiyası
"Dünya iqtisadiyyatı" kafedrasının dosenti

AZƏRBAYCAN İQTİSADİYYATININ İNKİŞAF STRATEGİYASINDA KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN YERİ

Müstəqillik illərində Azərbaycan Respublikası dövlət əhəmiyyətli bir çox iqtisadi proqramlar və strateji hədəflər reallaşdırmışdır. Reallaşdırılan bu layihələr içərisində "Strateji Yol Xəritəsi" öz aktuallığı ilə seçilir. Milli iqtisadiyyatın əsas sektorları üzrə hazırlanan strateji yol xəritələri ölkədə davamlı iqtisadi inkişafın təmin olunmasına, iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artmasına və sosial rifahın daha da yaxşılaşmasına xidmət edəcəkdir. "Strateji Yol Xəritəsi"ndə milli iqtisadiyyatın perspektivi çərçivəsində dörd strateji hədəf seçilmişdir ki, bu hədəflərin də 11 sektor üzrə reallaşdırılması nəzərdə tutulmuşdur. Həmin strateji hədəfləri aşağıdakı kimi göstərmək olar.

1. Fiskal və monetar siyasətlərin uzlaşdırılması.
2. Hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması və özəlləşdirmənin dərinləşdirilməsi.
3. İnsan kapitalının inkişafı.
4. Biznes mühitinin daha da yaxşılaşdırılması.

Qarşıya qoyulan bu hədəflərin reallaşdırılması birinci amil üzrə makroiqtisadi sabitliyin təmin edilməsinə, ikinci hədəfin reallaşması iqtisadi inkişafda dinamikliyə nail olunmasına, üçüncü hədəfin reallaşması əmək bazarının inkişafının milli iqtisadiyyat perspektivinə uyğunlaşdırılmasına və nəhayət dördüncü hədəfin reallaşması ölkədə işgüzar aktivliyin artmasına xidmət edəcəkdir. Bütün bu hədəflərin reallaşdırılması isə kompleks yanaşmanı tələb edir. Bununla bağlı son illər ölkədə həyata keçirilən iqtisadi islahatlar makroiqtisadi sabitliyin qorunub saxlanılmasına xidmət etmiş, real sektorun potensialının gücləndirilməsi, xüsusilə də, qeyri-neft sektorunun inkişafının təmin olunması, ölkədə investisiya fəallığının artırılması və investisiya mühitinin yaxşılaşdırılması, ümumilikdə ölkə iqtisadiyyatının bazar iqtisadiyyatı prinsiplərinə uyğunlaşdırılmasına və milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə inteqrasiyasının gücləndirilməsinə istiqamətlənmişdir.

İqtisadi subyektlərin bazar təsərrüfatı şəraitində sahibkarlıq fəaliyyəti xüsusi rola malikdir. Çünki, istehsal amili kimi ilkin olaraq sahibkarlıq fəaliyyəti özünün istehsal prosesinin təşkili və fəaliyyəti ilə əlaqədar olaraq, istehsal amillərinin birləşdirilib hərəkətə gətirilməsi ilə əlaqədar olaraq xüsusi fəaliyyət növü kimi meydana gəlir.

Ölkə qanunvericiliyində iri, orta və kiçik sahibkar meyarlarının müəyyən edilməsi və sahibkarların təsnifatlaşdırılması, sahibkarlıq subyektlərinin dolğun statistikasının və təhlilinin aparılması, bununla bağlı dövlət tənzimlənməsinin həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin 2 iyun 2015-ci il tarixli 215 nömrəli Qərarı ilə "İri, orta və kiçik sahibkar meyarları" təsdiq edilmişdir. Həmin qərara əsasən kiçik sahibkar işçilərinin orta siyahı sayı 25 nəfərədək olan və illik gəliri 200 min manatadək olanlar, orta sahibkarlar isə işçilərinin orta siyahı sayı 25 nəfərdən 125 nəfərədək, illik gəliri 200 min manatdan 1.250 min manatadək olanlardır.

Ölkədə sahibkarlıq hədlərinin müəyyən edilməsi iqtisadi inkişaf baxımından əhəmiyyətlidir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarında kiçik sahibkarların sayının 196327 müəssisə olduğu və bunlardan da 90%-dən çoxunun fərdi sahibkarlar olduğu görünür. Kiçik sahibkarlıq subyektlərinin iqtisadi fəaliyyət növləri üzrə məhsul buraxılışını araşdırdıqda aydın olur ki, 2011-2015-ci illərdə sahibkarlıq subyektlərinin də istehsal etdikləri məhsulların həcmi ildən-ilə artmışdır. Belə ki, əgər 2011-ci ildə təsərrüfat subyektləri 4,208.5 mln. manatlıq məhsul istehsal etmişlərsə, bu göstərici 2015-ci illə müqayisədə 1778 mln. manat və ya 42,2% artaraq 5,986.3 mln. manat səviyyəsinə çatmışdır. Beynəlxalq təcrübə göstərir ki, inkişaf etmiş ölkələrdə kiçik sahibkarlıq subyektləri ÜDM-in 30%-dən çox məhsul və xidmətlər istehsal etdiyi halda Azərbaycanda kiçik təsərrüfat subyektlərinin istehsal etdikləri məhsul və xidmətin ÜDM-də xüsusi çəkisi 11%-dən artıq deyildir. Fikrimcə, bu rəqəm olduqca aşağı səviyyəlidir. Təhlillər göstərir ki, kiçik sahibkarlıq subyektlərinin iqtisadi fəaliyyət növləri üzrə məhsul buraxılışında topdan və pərakəndə ticarət; avtomobillərin və motosikletlərin təmirinin xüsusi çəkisi 56,8%, nəqliyyat və anbar təsərrüfatı 10,7%, yaşayışın təşkili və ictimai iaşə 10,3% təşkil edir.

Cədvəl 1

Kiçik sahibkarlıq subyektlərinin iqtisadi fəaliyyət növləri üzrə məhsul buraxılışı (mln. man)

	2011	2012	2013	2014	2015
İqtisadiyyatın bütün sahələri üzrə – cəmi	4,208.5	5,100.6	6,072.6	5,951.7	5,986.3
ondan fiziki şəxslər – fərdi sahibkarlar	2,395.9	2,778.5	3,032.7	3,404.5	4,073.4
kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq	80.7	93.1	127.1	251.6	62.1
fiziki şəxslər – fərdi sahibkarlar	31.0	29.6	30.3	24.8	25.8
sənaye	418.5	408.9	505.6	654.7	316.4
fiziki şəxslər – fərdi sahibkarlar	166.2	165.2	211.3	268.4	270.2
tikinti	547.5	974.9	1,422.9	416.3	171.2
fiziki şəxslər – fərdi sahibkarlar	3.7	38.0	47.0	48.3	40.9
topdan və pərakəndə ticarət; avtomobillərin və motosikletlərin təmiri	1,666.0	1,844.6	1,985.8	2,209.2	3,401.1
fiziki şəxslər – fərdi sahibkarlar	1,058.6	1,233.7	1,343.6	1,557.2	2,162.2
nəqliyyat və anbar təsərrüfatı	536.7	633.7	684.7	717.3	639.0
fiziki şəxslər – fərdi sahibkarlar	495.5	547.6	568.9	592.3	594.3
yaşayışın təşkili və ictimai iaşə	324.7	397.6	465.0	550.7	614.5
fiziki şəxslər – fərdi sahibkarlar	306.7	387.7	454.4	533.8	595.4
informasiya və rabitə	29.6	62.5	91.8	131.8	44.1
fiziki şəxslər – fərdi sahibkarlar	-	-	-	-	-
daşınmaz əmlakla əlaqədar əməliyyatlar	11.4	13.1	18.0	32.4	17.2
fiziki şəxslər – fərdi sahibkarlar	2.6	2.7	1.4	1.6	1.8
təhsil	3.0	3.0	4.9	7.3	69.9
fiziki şəxslər – fərdi sahibkarlar	-	-	-	-	-
əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi	3.5	8.6	12.5	21.3	12.8
fiziki şəxslər – fərdi sahibkarlar	-	-	-	-	-
digər sahələr	586.9	660.6	754.3	959.1	638.0
fiziki şəxslər – fərdi sahibkarlar	331.6	374.0	375.8	378.1	382.8

Mənbə: http://www.stat.gov.az/

Eyni zamanda kiçik sahibkarlar üzrə istehsal olunan məhsulun 2011-ci ildə 56,9%-i fərdi sahibkarların payına düşürdüsə 2015-ci ildə 68,1% olmuşdur.

Onu da qeyd edək ki, Azərbaycanda əhalinin istehlak bazarının həcmi 34,295 mln. manat, kiçik sahibkarlıq subyektlərinin, iqtisadi fəaliyyət növləri üzrə məhsul buraxılışının həcmi isə 5,986 mln. manat olmuşdur. Deməli, istehlak mallarına olan tələbatın ödənilməsində kiçik sahibkarların payı 2015-ci ildə 17,5% təşkil etmişdir.

Qeyd etmək zəruridir ki, Azərbaycan iqtisadiyyatının təkcə neft sektoruna deyil, həm də qeyri-neft sektoruna xarici investisiyaların cəlb edilməsi məqsədilə intensiv işlər görülür.

Son dövrlər ölkə iqtisadiyyatında müsbət məqamlarla ynaşı bir sıra xoşagəlməz meyillər və mənfi tendensiyalar da mövcuddur ki, burada ilk növbədə milli valyutanın məzənnəsindəki dalğalanmalar, son iki ildə inflyasiyanın səviyyəsi və ölkənin qızıl-valyuta ehtiyatlarının azalması ümumi makroiqtisadi tarazlığın pozulması baxımından təhlükəli tendensiyalardır (Cədvəl 2).

Cədvəl 2

ABŞ dollarına nisbətən manatın məzənnəsi və istehlak qiymətləri indeksinin dinamikası

İllər	2006	2007	2008	2009	2010	2011	2012	2013	2014	2015	2016	2017
Manatın ABŞ dollarına nisbətən məzənnəsi	0.86	0.85	0.81	0.8	0.8	0.79	0.78	0.78	0.78	1.55	1.76	1.7
İnflyasiya	8.3	16.7	20.8	1.5	5.7	7.9	1.1	2.4	1.4	4	12.4	12.9

Mənbə: www.stat.gov.az

Aparılan təhlillər göstərir ki, 2006-2014-ci illərdə inflyasiya və milli valyutanın məzənnəsi məqbul səviyyədə saxlanılmışdır. Belə ki, təhlil olunan 2006-2014-cü illərdə inflyasiyanın orta illik səviyyəsi 7,3% təşkil etmişdir ki, bu da həmin dövrdə işgüzar fəallığın yüksəlməsinə müsbət təsir göstərmişdir. 2017-ci ildə ölkədə məcmu tələbin sürətlə genişlənməsi, valyuta gəlirlərinin artması, xarici və daxili amillərin intensivləşməsi ilə əlaqədar təzyiqlərin çoxalmasına baxmayaraq, istehlak qiymətləri indeksi məqbul səviyyədə (orta illik 12.9%) saxlanılmışdır.

İsənilən ölkənin dünya təsərrüfat sisteminə inteqrasiyası və makroiqtisadi göstəricilərin təhlili baxımından tədiyyə balansının mövcud vəziyyətinin təhlili də maraq doğurur. 2017-ci ildə ölkədə iqtisadi artımın təmin edilməsi, milli məhsullara xarici tələbatın yüksəlməsi, kapital axınının genişlənməsi, dünya bazarlarında neftin qiymətinin artması kimi amillər tədiyyə balansı göstəricilərinin nəzərəçarpacaq dərəcədə yaxşılaşmasını şərtləndirmişdir. Ölkənin tədiyyə balansında 1,7 mlrd. ABŞ dolları həcmində müsbət saldonun əmələ gəlməsinə səbəb olmuşdur ki, bu da ölkədə strateji valyuta ehtiyatlarının səviyyəsinin artmasına xidmət etmişdir. Ölkədə mövcud olan problemlərdən biri də problemli kreditlərin həcminin artması ilə bağlıdır. Bunun üçün cədvəl 3-ə nəzər salaq.

Cədvəl 3-dəki məlumatlar bunu bir daha təsdiqləyir. Belə ki, əgər vaxtı keçmiş kreditlərin cəmi kreditlərdə xüsusi çəkisi 2006-cı ildə 3,29% olmuşdursa, bu göstərici ilbəil artaraq 2017-ci ildə 13,84%-ə çatmışdır ki, bu da iqtisadiyyatda xoşagəlməz hallara səbəb ola bilər.

Ölkə iqtisadiyyatında struktur disbalansın aradan qaldırılması da sistemli iqtisadi inkişaf üçün önəmlidir. Bunun üçün də ölkədə:

- istehsalın perspektiv sahələrinin müəyyənləşdirilməsi*;*
- qeyri-neft sektoruna investisiya qoyuluşlarının artırılması*;*
- ölkədə rəqabət mühitinin formalaşdırılması*;*
- idxalı əvəz edən əmtəələr assortimentinin müəyyənləşdirilməsi Azərbaycan iqtisadiyyatının iqtisadi inkişafının perspektivləri baxımından önəmlidir.

Cədvəl 3

Kreditlərin strukturu (mln. manatla)

İllər	Cəmi kreditlər	Vaxtı keçmiş kreditlər	Vaxtı keçmiş kreditlərin cəmi kreditlərdə xüsusi çəkisi
2006	2362,7	77,7	3.29
2007	4681,8	100,3	2.14
2008	7191,3	159,8	2.22
2009	8407,5	303,5	3.61
2010	9163,4	492,9	5.38
2011	9850,3	633,8	6.43
2012	12243,7	748,8	6.12
2013	15422,9	792,8	5.14
2014	18542,6	976,3	5.27
2015	21730,4	1508,5	6.94
2016	16444,6	1472,6	8.95
2017	11757,8	1626,7	13.84

Mənbə: www.cbar.az

Eldəniz Məzahir oğlu MƏHƏRRƏMOV
i.f.d., Azərbaycan Kooperasiya Universiteti

KƏND TƏSƏRRÜFATINDA ƏRZAQ MƏHSULLARI İSTEHSALININ STİMULLAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

Xülasə

Məqalədə kənd təsərrüfatında ərzaq məhsulları istehsalının artırılması istiqamətləri təhlil olunur. Məhsul istehsalının artırılmasında mövcud olan problemlər aşkarlanaraq təhlil olunur və onların həlli istiqamətində təklif və tövsiyələr verilir.

Açar sözlər: kənd təsərrüfatı, ərzaq, istehal, stimullaşdırma, iqtisadiyyat, inkişaf, səmərəli.

***

«Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında 2020-ci ilədək aqrar-sənaye sahələrinin inkişaf dinamikasının müxtəlif istiqamətlərə yönəldilmiş amillərin təsiri altında inkişaf etdirilməsi əsas məqsəd kimi qarşıya qoyulmuşdur. Bir tərəfdən, son illərdə iqtisadiyyatın davamlılığını yaxşılaşdırmaq üçün görülən tədbirlər, digər tərəfdən, iqtisadiyyatın aqrar sektorunun davamlı və dinamik inkişafı üçün risklərin həyata keçirilməsinin mümkünlüyünü artıran böhranın nəticələrinə görə mürəkkəb makroiqtisadi vəziyyətə təsir edəcəkdir.

Kənd təsərrüfatı məhsullarının istehsalının artırılması ilk növbədə istehsal resurslarından istifadənin iqtisadi səmərəliliyinin artırılmasını və kənd təsərrüfatına yararlı torpaq sahələrində meliorativ tədbirlərin həyata keçirilməsi nəticəsində yeni torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsinin təmin edilməsini şərtləndirir.

Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli 1138 saylı Fərmanı ilə təsdiq edilmiş "Azərbayan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə də Strateji hədəf 1-də ərzaq təhlükəsizliyinin dayanıqlılığının təmin edilməsi üçün institusional potensialın gücləndirilməsi, eyni zamanda, Strateji hədəf 4-də kənd təsərrüfatı sahəsi üzrə istehsal vasitələri bazarının inkişafı və xidmətlərlə təminatın yaxşılaşdırılması öz əkini tapmışdır. Strateji hədəf 4-ün 1-ci hədəfində isə "Torpaq kənd təsərrüfatı məhsulları istehsalında əsas istehsal vasitəsi olduğu üçün kənd təsərrüfatı məhsulu istehsalçılarının bu istehsal vasitəsinə çıxışının yaxşılaşdırılması və ümumilikdə torpaq resurslarından səmərəli istifadə olunması aqrar sahədə istehsalın stimullaşdırılması baxımından mühüm əhəmiyyətə malikdir. Ölkədə kiçik torpaq sahələrinə malik ailə təsərrüfatlarının üstünlük təşkil et-

məsi bu sahənin rəqabətqabiliyyətliliyinə ciddi mane olan əsas faktorlardan biridir. Kənd təsərrüfatı təyinatlı torpaqlardan bir sıra hallarda öz təyinatı üzrə istifadə olunmaması isə bu istiqamətdə son dövrlərdə bir çox işlərin görülməsinə baxmayaraq mühüm bir problem olaraq qaldığı qeyd edilmişdir. [1, s. 51 və 88]

Kənd təsərrüfatı məhsulları istehsalının, xüsusən də ərzaq məhsulları istehsalının artırılması üçün torpaqlardan istifadənin iqtisadi səmərliliyini yüksəltmək və bu məqsədlə aşağıdakı mühüm tədbirlərin yerinə yetirilməsi tələb olunur:

- torpağın məhsuldarlığına investisiya qoyuluşu və kənd təsərrüfatı məqsədləri üçün torpaqların meliorativ inkişafı, əkilən torpaqların istifadəsinin stimullaşdırılması;
- heyvandarlıq sahəsində sahələr üzrə kompleks inkişafın təmin edilməsi və ət və ət məhsullarının, süd və süd məhsullarının istehsalının və ixracının artırılmasına şərait yaradılması;
- təbii potensialın və torpağın iqtisadi münbitliyinin qorunması, ərzaq təhlükəsizliyinin yaxşılaşdırılması məqsədilə bitkiçilik, heyvandarlıq və qida sənayesində yeni texnologiyaların tətbiqi əsasında aqro-sənaye istehsalının ekoloji və bioloji təmizliyi.

Kənd təsərrüfatında intensiv texnologiyaları tətbiq etmək üçün həmin texnologiyaya uyğun texnika və avadanlıqlar olmalıdır. Lakin bir sıra istehsal sahələrinin spesifikasına uyğun texnikalar hələlik respublikamıza gətirilmədiyinə görə bir çox hallarda əl əməyindən istifadə olunur ki, bu da məhsuldarlığın aşağı və məhsulun maya dəyərinin yuxarı olması ilə nəticələnir. [2, S. 2017]

Bitkiçilikdə bitkilərin vegetasiya dövründə normal inkişafı üçün tələb olunan mineral gübrələrlə aqrotexnoloji qaydalara uyğun olaraq təminatını yaxşılaşdırmaq, yeni məhsuldar traktorlar və kənd təsərrüfatı maşınları əsasında intensiv texnologiyaların tətbiqi, yüksək məhsuldar və hibridli toxum sortlarından istifadə səviyyəsini yüksəltmək tələb olunur. Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün ərzaqlıq bitkilərin sahələrinin əhəmiyyətli dərəcədə genişləndirilməsi lazımdır.

Heyvandarlıqda ət və süd istehsalı artımının sürətləndirilməsi məsələsi həmin məhsulların əhali tərəfindən istehlak səviyyəsini artırmaqla eyni vaxtda üst-üstə düşməli və əhalinin alıcılıq qabiliyyətinin arıtırılması mərkəzində olmalıdır. Heyvandarlığın və onun alt təsərrüfatlarının inkişafında xüsusi diqqəti əhalinin tələbatı və ixrac imkanlarının diqqətlə öyrənilməsi tələb olunur.

Kənd təsərrüfatı müəssisələrində toxumçuluq əkinçiliyin inkişafında mühüm rol oynayır. Toxumçuluğun inkişafı kənd təsərrüfatı məhsulları istehsalının yüksək məhsuldarlıq nəticələri ilə əldə edilməsinin idxaldan asılılıq səviyyəsini minimuma endirir.

Kənd təsərrüfatı müəssisələrində 2016-cı ildə bitkiçilik ərzaq məhsulları üzrə ümumi əkin sahəsinin 79,3%-ni, ərzaq məhsulları üzrə isə ümumi məhsulun dəyərində təxminən 80% -ni tutur və məhsulun satışından əldə edilən mənfəətin əsas hissəsini verir. Kənd təsərrüfatı müəssisələrində məhsul istehsalının həcminin dinamikası cədvəl 1-də verilmişdir.

Statistik məlumatların təhlili göstərir ki, 2016-cı ildə 2012-ci ilə nisbətən təsərrüfatlarda (KTM) əkin sahələri 6,6 min hektar, yaxud 7,0 faiz artmışdır. 2016-cı ildə müəssisələrin əsas istehsal aktivlərinin dəyəri baza ili ilə müqayisədə 28,9% artmış və 504,0 mln. manat təşkil etmişdir. Ümumilikdə 5 il ərzində ümumi məhsulun dəyəri 55,3% artaraq, hesabat ilində 408711 min manat təşkil etmişdir. Buna baxmayaraq, 2016-ci ilədək dinamikada işçilərin sayı azalıb və 15 min nəfər təşkil edilərkən, baza dövründən 6,2% aşağı olmuşdur.

Dəyişikliklər əhəmiyyətli deyil və təbii faktorların təsirinə səbəb olmasına baxmayaraq, müqayisə olan dövrdə əsas kənd təsərrüfatı məhsullarının istehsalı sabit deyil. Ərzaq məhsulları üzrə istehsal inkişaf etmişdir: dənli bitkilər və dənli paxlalılar 47,4%, kartof istehsalı müvafiq olaraq 2,6 dəfə, meyvə və giləmeyvə 7,3 dəfə, süd istehsal isə 3,9 dəfə artıb.

Qeyd edək ki, əsas məhsul istehsalçıları olan ailə kəndli təsərrüfatları və fərdi təsərrüfatlar iş prosesində qaçınılmaz bir sıra problemlərlə üzləşirlər və kənd təsərrüfatının problemləri özünə xas xüsusiyyətlərə malik olduğundan, bu həlli tapmaq çətin olur.

Xüsusilə, kənd təsərrüfatının riskli olması və təbii iqlim şəraitindən asılılıq, aqrar sığorta problemi də əlavə olunmaqla, təsərrüfat sahiblərinin fəaliyyət risklərini artırır və kənd təsərrüfatına investisiya qoyuluşunu ləngidir. Onu da qeyd edək ki, kənd təsərrüfatının sığortası problemi bəzi ölkələrdə həll olumayaraq qalmaqdadır və həlli yollarının tapılması, demək olar ki,

bütün təsərrüfat sahiblərini də maraqlandırır. Ərzaq təhlükəsizliyi müxtəlif kompleks amillərin təsiri nəticəsində formalaşır və bu amillərin təsirlərinin təhlüksizliyin təmin edilməsinə yönləndirilməsi hər bir amilə fərqli yanaşmalar tələb edir.

Kənd təsərrüfatı müəssisələrində ərzaq məhsulları istehsalının həcmi

	2012	2013	2014	2015	2016	2012-ci ilə nisbətən 2016-cı ildə %-lə
Kənd təsərrüfatına yararlı torpaq sahəsi ha	189885	195635	195535	208415	215524	113,5
əkin sahəsi ha	95007	95485	100316	102594	101651	107,0
Satışdan əldə edilən gəlir, min manat	294726	333604	402402	391801	441506	149,8
Ümumi gəlir(faktiki qiymətlərlə) min manat	86045	91903	102723	84990	119130	138,4
Ümumi məhsul min manat	263180	304766	359315	374320	408711	155,3
İşçilərin orta illik sayı min nəfərlə	16,1	14,6	14,7	15,3	15	93,2
Kənd təsərrüfatı təyinatlı əsas fondların dəyəri min manat	391091	379196	391319	425159	504032	128,9
Məhsul istehsalı min ton o cümlədən:						
- dənli və dənli paxlalılar	195,4	239,9	209,6	272,8	288,0	147,4
- kartof	3,6	8,8	15,2	7,7	9,4	2,6 dəfə
- tərəvəz	34,8	38,8	45,6	48,6	68,9	198,0
- meyvə və giləmeyvə	3,6	6,2	8,4	17,0	26,3	7,3 dəfə
- bostan məhsulları	5,8	3,8	4,9	9,2	8,0	137,9
- şəkər çuğunduru	67,2	48,1	47,4	48,9	87,5	130,2
- ət (kəsilmiş çəkidə) min ton	48,8	56,7	65,8	60,9	55,6	113,9
- süd	19,6	32,6	46,8	68,0	75,9	3,9 dəfə
- yumurta milyon ədəd	442,9	562,3	704,8	650,4	694,3	156,8

Mənbə: *Cədvəl Kənd Təsərrüfatının Statistikası və stat.gov.az saytından DSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Əhalinin ərzaq təminatı probleminin kəskinləşməsi sosial-iqtisadi dəyişikliklərdən birbaşa asılıdır. Sosial-iqtisadi dəyişikliklər də ərzaq təminatında problemlər yaradır ki, bu da dövlətin daxili təhlükəsizliyinə mənfi təsir göstərir. [3, s. 296]

İnkişaf etmiş ölkələrdə sənaye sahələrinin sürətlə inkişafı kənd əhalisinin eyni templə azalmasına və şəhər həyatına üstünlük verməsinə səbəb olur. Bu halda onlar kənd təsərrüfatı məhsulları istehsal etməkdən imtina edirlər və ölkənin kənd təsərrüfatı məhsullarına olan daxili tələbatını idxal hesabına ödəməyə üstünlük verirlər. Belə olan halda, sözsüz ki, torpaq sahələri boş qalmaqla onlar böyük təsərrüfata çevrilə bilərlər və təsərrüfatın gəlirləri artmış olar, amma istehsalın dayanması kənd təsərrüfatının innovativ inkişafdan dayanmasına səbəb olur. Onu da nəzərə almaq lazımdır ki, kənd təsərrüfatı məhsullarının istehsalından imtina edilməsi ölkəni digər dövlətlərdən asılı salmağa məcbur edir və ərzaq təhlükəsizliyi təmin edilmir. Buna görə də, kənd təsərrüfatının inkişaf etdirilməsi ola bilər ki, ölkəyə yüksək maliyyə vəsaiti gətirməsin, amma, Azərbaycan kimi ölkədə əhalinin işsizlik səviyyəsinin azalmasını, məşğulluq səviyyəsinin yüksəlməsini və iqtisadi müstəqilliyin yüksək səviyyəsini təmin etməyə kömək edir.

Başqa bir problem isə əhali arasında, xüsusilə də gənclər arasında kənd təsərrüfatında işləməyin mənasız olması düşüncəsidir, çünki, bütün ilboyu işləyib sonda az gəlir əldə etmələri onları qane etmir və daha yaxşı yaşamaq üçün başqa sahələrdə işləməyə üstünlük verirlər. Azərbaycanda bu vəziyyət ən çox dağ rayonlarında və dağ kəndlərində müşahidə olunur. Bundan əlavə, kənd təsərrüfatı sahəsində mütəxəssislərin çatışmazlığı və bununla bağlı ali təhsil müəssisəsinə müraciət arasında iqtisadiyyat istisna olmaqla digər sahələrə müraciətlərin az olması

aqrar sahədə mütəxəssis çatışmazlığına gətirib çıxarır. Nəticədə, ölkə kənd təsərrüfatı sahəsində işləmək istəyən və istəyə biləcək ixtisaslı mütəxəssislərdən məhrum olur. Kənd təsərrüfatının bu cür problemləri hərtərəfli həll olunmalıdır və onları həll etmək üçün tədbirlər kompleks xarakter daşımalı, təhsil sahəsində rəsmi dəyişikliklərlə və ya əmək haqqının artırılması məsələləri ilə məhdudlaşmamalıdır. Kənd təsərrüfatında çalışanların fəaliyyəti stimullaşdırılmalı və rayonlarda sənaye sahələrinin inkişafı istiqamətində proqramlar hazırlanmalı, əhalinin məşğulluq səviyyəsi artırılmalıdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli 1138 saylı Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının itehsalına və emalına dair Strateji Yol Xəritəsi". Bakı-2016.
2. E.A.Quliyev. Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər. Bakı-2018.
3. İ.H.İbrahimov. Aqrar sahənin iqtisadiyyatı. Bakı-2016.
4. Богданов И.Я. Экономическая безопасность России. Теория и практика. М., 2001.

Элдениз Мазахир оглы Магеррамов
Азербайджанский Университет Кооперации
кандидат экономических наук

Направлений для стимулирования производства продуктов питания в сельском хозяйстве

Резюме

Направления увеличения производства продуктов питания, проанализированные в этой статье. Существовавшие проблемы в увеличении производства продуктов питаний были обнаружены и проанализированы, а также предложения и рекомендации были даны для решения в этой статье.

Ключевые слова: сельское хозяйство, продукты питания, производство, стимулирование, экономика, развитие, эффективное.

Eldeniz Mezahir Maherremov
Azerbaijan Cooperation University
PhD of economics

The directions for the stimulation of food production in agriculture

Summary

The directions of the increase of food production have been analyzed in the article. The existed problems in the increase of food production have been found out and analyzed, and the suggestions and advice have been given for the solution in the article.

Key words: agriculture, food, production, stimulation, economy, development, efficient.

Əsli Alı qızı QURBANOVA
i.f.d., dosent
Azərbaycan Dövlət Aqrar Universiteti

KƏND TƏSƏRRÜFATININ İNKİŞAFINDA KOOPERASİYANIN ROLU VƏ ÜSTÜNLÜKLƏRİ

Xülasə

Məqalədə kooperasiyanın iqtisadi mahiyyəti, onun nəzəri-metodoloji əsasları, dünya kənd təsərrüfatının iqtisadi inkişafında oynadığı rol, inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə et-

məklə ölkəmizdə aqrar sahədə kooperasiyanın inkişaf istiqamətləri təhlil edilmişdir. Məqalədə kənd təsərrüfatında kooperasiyanın üstünlükləri və bu sahədə əldə edilən nailiyyətlər şərh edilimişdir. Eyni zamanda kooperativ hərəkatın həyata keçirilməsində dövlət dəstəyinin rolu da geniş qeyd edilmişdir. Bu baxımdan fermerlərə hər hektara görə subsidiyaların artırılması, güzəştli kreditlərin faizlərinin bir qədər də azaldılması kimi məsələlər də öz əksini tapmışdır.

Açar sözlər: kooperasiya, təsərrüfatçılıq, gəlirlilik, aqrar sahə, subsidiyalar, aqrar mülkiyyətçi, kooperativləşmə, fermer təsərrüfatı.

***

Kooperativlərin fəaliyyəti barədə göstəricilər ölkəmizdə kooperasiya meyillərinin qənaətbəxş səviyyədə olmadığından xəbər verir. Rəsmi statistik məlumatlara görə, Azərbaycanda kooperativ əsaslarla yaradılan kənd təsərrüfatı müəssisələrinin sayı 2000-ci ildə 250 olduğu halda, 2016-cı ildə 55-ə enib. Eyni zamanda, mövcud kənd təsərrüfatı kooperativlərinin müvafiq fəaliyyət göstəriciləri də (istehsal həcmi, satış dövriyyəsi, işçi sayı) potensial imkanlardan xeyli aşağıdır.

Hazırda xırda təsərrüfatların üstünlük təşkil etməsi aqrar sahənin əsas problemlərindən biridir. Bu təsərrüfatların əksəriyyətində torpaq sahəsi 1,5-2 hektardan çox deyil. Fermerlərin sərəncamında torpaq sahəsi az olduqda onlar rentabelli işləyə bilmirlər, müasir kənd təsərrüfatı texnikası tətbiq etmək, səmərəli meliorasiya və irriqasiya sistemləri qurmaq, əlverişli şərtlərlə kredit əldə etmək imkanları məhdudlaşır, istehsalçılar məhsulun satışı və ixracında ciddi çətinliklərlə üzləşirlər. Təcrübə göstərir ki, xırda təsərrüfatlarda maliyyə imkanları məhdud olduğundan fermerlər istehsalı genişləndirə bilmirlər, növbəli əkin sisteminin tətbiqi mümkün olmur, torpaqlarda rekultivasiya və suvarma işlərinin aparılması çətinləşir. Buna görə də birgə təsərrüfatların yaradılması, o cümlədən kənd təsərrüfatı kooperasiyasının inkişaf etdirilməsi aqrar siyasətin aktual vəzifələrindən birinə çevrilir. "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"nda, həmçinin diqqətə çatdırılır ki, respublikada kənd təsərrüfatı məhsulları istehsalçılarının əksəriyyəti xırda təsərrüfatlar formasında fəaliyyət göstərir [2, s. 3]. Belə ki, rəsmi statistik məlumatlara əsasən, 2005-ci ildə ölkədə ümumi kənd təsərrüfatı məhsulu istehsalının 96,3 faizi ailə-kəndli, ev təsərrüfatları və fərdi sahibkarlar, 3,7 faizi isə nisbətən böyük torpaq sahələrinə malik kənd təsərrüfatı müəssisələri və digər təşkilatlar tərəfindən həyata keçirilirdisə, ötən il bu göstəricilər müvafiq surətdə 92 faiz və 8 faiz olub. Eyni zamanda, kənd təsərrüfatı müəssisələrinin və digər təşkilatların payı bitkiçilik məhsullarının istehsalında 1,4 faizdən 5,7 faizə, heyvandarlıq məhsullarının istehsalında isə 6,4 faizdən 9,9 faizə yüksəlib. Az da olsa müsbət dinamikanın yaranmasına baxmayaraq, kənd təsərrüfatı məhsulları istehsalının əsas hissəsi hələ də xırda təsərrüfatların payına düşür. Ötən il 1,2 milyon hektar sahədə aparılan əkinlər üçün yanacaq və motor yağlarına görə dövlət yardımı almaq məqsədilə Kənd Təsərrüfatı Nazirliyinə müraciət edən 385,2 min istehsalçının 74,1 faizi 3 hektara qədər, 15,5 faizi 3-4,9 hektar, 7,4 faizi 5-9,9 hektar, 1,9 faizi 10-19,9 hektar, 0,9 faizi 20-49,9 hektar, 0,4 faizi 50 hektar və daha çox torpaq sahəsinə malikdir. Orta hesabla bir istehsalçıya düşən əkin sahəsinin 3,1 hektar təşkil etməsinə baxmayaraq, əksər istehsalçılara məxsus əkin sahələri orta göstəricidən aşağıdır. Təsərrüfatların 5 hektara qədər torpağa malik olan 89,6 faizi ümumi subsidiya alan təsərrüfatların istifadəsində olan torpaqların 51,5 faizinə sahiblik edir. Analoji hal heyvandarlıq təsərrüfatlarının fəaliyyətində də nəzərə çarpır. Həmin təsərrüfatların bir hissəsinin birləşməsi isə həm investorlar üçün cəlbedici ola bilər, həm də həmin təsərrüfatların bazasında müəyyən istehsal və emal müəssisələrinin təşkili üçün imkan yaradar. Dövlət proqramında vurğulanır ki, hazırda həyata keçirilən bir sıra tədbirlər kənd təsərrüfatı kooperasiyasının formalaşmasına müəyyən şərait yaradır. Xüsusilə də kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun inkişaf etdirilməsi, istehsalçıların müvafiq istehsal vasitələri ilə təminatının gücləndirilməsi, kənd təsərrüfatı məhsulları istehsalçıları üçün dövlət dəstəyi tədbirlərinin genişləndirilməsi, emal sənayesinin inkişaf etdirilməsi kooperasiya meyillərinin dərinləşməsinə təkan verməkdədir. Azərbaycanda kənd təsərrüfatı kooperasiyasının inkişafına mühüm önəm verilməsi təsadüfi deyil.

Şübhəsiz ki, dövlət proqramı da bu sahənin inkişafını yeni mərhələyə qaldırmaq, eyni zamanda, sürətləndirmək məqsədi daşıyır.

Kənd təsərrüfatı kooperativlərinin fəaliyyəti üçün ilkin hüquqi baza mövcuddur, lakin olkəmizdə aqrar sahədə kooperasiya zəif inkişaf etmişdir. Bu, fermerlərin kooperasiyaya inamsızlığının nəticəsidir. Fermerlər belə fərz edirlər ki, gələcəkdə kooperasiya kolxozların yaranmasına səbəb ola bilər. Qeyd etmək lazımdır ki, kooperasiyanın zəif inkişaf etməsini ilk növbədə, fermerlərin fərdi təsərrüfatçılığa üstünlük verməsi, istehsalçıların zəif təşəbbüskarlığı, birgə təsərrüfatçılıq formalarının iqtisadi mexanizmlərinin olmaması ilə izah etmək olar. İnamsızlıq kooperasiya münasibətlərinin inkişafına əks təsir göstərir, fermerlər təsərrüfatlarının birləşməsi nəticəsində əldə olunmuş məhsulun və gəlirin ədalətli bölgüsünə şübhə ilə yanaşır və tərəddüd keçirirlər.

İnkişaf etmiş ölkələrdə kooperasiyanın formalaşması uzunmüddətli proses olsa da, aqrar sektorda iqtisadi effektivliyə nail olmağın başlıca şərti sayılır. İnkişaf etmiş ölkələrdə məhsul istehsalçıları təsərrüfatın gəlirliliyini artırmaq, xərcləri minimuma endirmək üçün özlərinə məxsus aqrar mülkiyyəti (torpaq, kənd təsərrüfatı texnikası və digər resursları) könüllülük prinsipi əsasında kooperativlərdə birləşdirməklə səmərəli fəaliyyət göstərmək imkanına malik olmuşlar. Kooperativlər fermerlərə təchizat, tədarük və satış məsələlərində kömək göstərirlər. İstehsal edilmiş məhsulun satışını, emalını, kreditlərin əldə edilməsini, toxum, cins mal-qara və texnikanın satın alınmasını həyata keçirirlər [4, s. 15.] Kooperativlər təsərrüfat fəaliyyətinin təşkilinin mütərəqqi və ədalətli forması kimi iştirakçıların mülkiyyət hüquqlarına toxunmur və yalnız birgə təsərrüfatçılığa şərait yaradır. Kənd təsərrüfatında kooperasiya təsərrüfatçılıq forması kimi kooperativlərin xüsusi rolu olsa da, onların təbliğində hər hansı yanlışlığa və təhrifə yol verilməməlidir, çünki bu, torpaq mülkiyyətçiləri arasında müəyyən çaşqınlıq yarada bilər. Bəzən kooperativlər yanlış olaraq kollektiv təsərrüfatlarla (kolxozlarla) eyniləşdirilir. Halbuki, bu iki təsərrüfat subyekti arasında prinsipial fərqlər vardır. Kolxozdan fərqli olaraq kooperativlər mülkiyyətçilərin müstəqil sahibkarlığına əsaslanır. Burada da torpaq və əmlakdan birgə istifadə nəzərdə tutulsa da, fermer istənilən vaxt öz daşınan və daşınmaz əmlakı ilə kooperativin tərkibindən çıxa bilər. İndi kooperativlərin formalaşması könüllülük prinsipinə əsaslanır. Azad bazar iqtisadiyyatının bərqərar olduğu indiki şəraitdə xüsusi mülkiyyət sahibi olan fermeri məcburi şəkildə kooperativləşməyə cəlb etmək olmaz və bu qeyri-mümkündür. Kooperativlərin inkişafı yalnız iqtisadi alətlərlə - güzəştli vergiqoyma və kreditləşmə mexanizmi, xüsusi subsidiyaların tətbiqi və digər vasitələrlə təşviq edilə bilər. Ölkəmizdə aqrar sektorda mülkiyyət münasibətləri və onun strukturu MDB-yə daxil olan digər ölkələrdən əsaslı şəkildə fərqlənir. Bu ölkələrin bir çoxunda kəndlinin torpaq üzərində xüsusi mülkiyyət hüququ təsbit edilməyib və hazırda torpaq-mülkiyyət münasibətlərinə yenidən baxılması onların aqrar siyasətinin ən aktual məsələsi kimi gündəmdədir. Təcrübə göstərir ki, kosmetik dəyişikliklərə məruz qalan kolxoz və sovxozlarda gerçək kooperasiya prinsiplərinin reallaşması praktiki olaraq mümkün deyildir. Kooperasiyanın əsas xüsusiyyəti iştirakçıların öz müstəqilliyini saxlamasında, demokratik idarəetmə formasında, mənfəətin birgə bölüşdürülməsindədir. Kooperativlər birgə fəaliyyət forması kimi əsasən yüksək mənfəət qazanmağa yox, öz üzvlərini dəstəkləməklə onlara müəyyən xidmətlər göstərməyə üstünlük verirlər. [1, s.12.]

Fermerlərin və kənd təsərrüfatı məhsulları istehsalçılarının kooperativ təsərrüfatlarda birləşməsi onların təsərrüfat fəaliyyətlərinin sürətlənməsinə, aqrar istehsalın səmərəliliyinin yüksəldilməsinə, istehsal olunan kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətinin artmasına əhəmiyyətli dərəcədə təsir göstərəcək və istehsalçıların gəlirlərinin artmasına zəmin yaradacaqdır. Təsərrüfatçılığın kooperasiya formasında iştirakçılar iqtisadi münasibətlərin keyfiyyətcə yeni subyektinə çevrilr, kənd təsərrüfatı istehsalçıları arasında üfüqi və şaquli inteqrasiyanın formalaşmasına da zəmin yaradır. Eyni zamanda maliyyə resurslarına çıxışı da xeyli asanlaşdırır.

Kənd təsərrüfatında kooperasiya sisteminin əsas məqsədi həm də kooperativ üzvlərinin təsərrüfat fəaliyyəti üçün əlverişli şərait yaratmaqdan ibarətdir. Məhsul istehsalı ilə məşğul olan fermer istehsal etdiyi məhsulu satmaqda və məhsul istehsalı üçün lazım olan toxum, gübrə, texnika və digər vasitələri almaqda çətinlik çəkdiyinə görə bu vəzifələri fermerlərin özlərinin ya-

ratdıqları kooperativlərə həvalə edir. Aqrar sektorun inkişafının indiki mərhələsi istehsalın effektiv təşkilini və rəqabətədavamlılığını, fermerlərin gəlirlərinin artırılmasını tələb edir. Bu vəzifələrin reallaşdırılmasında birgə təsərrüfatçılıq forması kimi kənd təsərrüfatı kooperativləri xüsusi rol oynaya bilər. Kənd təsərrüfatında mövcud resurslardan səmərəli istifadə edilməsi, eyni zamanda, kooperativ təsərrüfatlarda becərilən bitkilərin məhsuldarlığının yüksəldilməsinə, məhsul vahidinin maya dəyərinin azaldılmasına, istehsalın genişləndirilməsi və daxili investisiya qoyuluşu üçün sərbəst maliyyə ehtiyatının yaranmasına və təsərrüfatın rentabelliyinin artmasına imkan verəcək. Kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalçıdan istehlakçıya çatdırılmasında, başqa sözlə, fermerlərin bazarla əlaqəsinin təmin edilməsində kooperativlərin rolu əhəmiyyətli dərəcədə artacaqdır. Kooperasiya aqrar sahə üzrə risklərin azaldılmasına, kənd təsərrüfatı istehsalında səmərəliliyin təmin edilməsinə, istehsal, emal və xidmət arasında çevik əlaqə qurulmasına, aqrar sektorda investisiya fəallığının artmasına, daxili bazarda yerli istehsalçıların mövqeyinin güclənməsinə, aqrotexniki qaydaların effektiv həyata keçirilməsinə, növbəli əkin sisteminin tətbiqinə, kənd təsərrüfatında uçot, hesabat və nəzarət işinin qurulmasına, rəqabətədavamlı məhsul istehsalına, torpaqdan səmərəli istifadəyə, əmək məhsuldarlığının yüksəlməsinə, aqrar sahəyə dövlət dəstəyinin daha rasional təşkilinə, fermerlərin gəlirlərinin artmasına əlverişli şərait yaradacaqdır.

Dünya təcrübəsi göstərir ki, kənd təsərrüfatında kooperasiya torpaq üzərində xüsusi mülkiyyətə əsaslanmaqla, dövlətin praktiki dəstəyi ilə və aqrobiznes üçün əlverişli şərait yaratmaqla inkişaf etdirilə bilər.

Həyata keçirilən tədbirlər kooperasiya hərəkatını sürətləndirəcək, kənd yerlərində birgə təsərrüfatçılıq formalarının inkişafına təkan verəcək, kooperativ üzvlərinin gəlirlərinin artmasına, həmin təsərrüfatlara investisiyaların cəlbedilməsinə əlverişli şərait yaradacaq. Bu da kəndlərdə yaşayan əhalinin sosial rifah halının yüksəlməsinə, məşğulluq səviyyəsinin artmasına gətirib çıxaracaq. Eyni zamanda, kənd təsərrüfatı kooperativləri üzrə istehsal və satış həcminin artmasına, konsolidə olunmuş torpaq sahələrinin genişlənməsinə, iri torpaq sahələrində müasir irriqasiya sistemlərinin qurulmasına, emal və ixracın artırılmasına, yeni iş yerlərinin yaradılmasına müsbət təsir göstərəcək.

ƏDƏBİYYAT

1. "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 14 iyun 2016.
2. "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı". Bakı, 14 iyul 2017.
3. Dilbazi A.Ə. Müasir iqtisadi şəraitdə kooperasiya münasibətlərinin inkişaf məsələləri. Bakı-2014.
4. Quliyev E.A. İslahatların dərinləşməsi şəraitində kooperasiya və inteqrasiya əlaqələrinin inkişafının stimullaşdırılması istiqamətləri. ADAU Elmi-praktiki konfransın materialları. Gəncə - 29. 30 may 2014.
5. Quliyev E.A. Kooperativlər - sahibkarlığın təşkilati - təsərrüfat formalarından biri kimi. "Regional iqtisadi siyasət və kooperasiya münasibətlərinin inkişafı" Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı 22 noyabr 2014.

Асли Алы кызы Курбанова
д.ф.э., доц. АГАУ

Роль и преимущества кооперации в развитии сельского хозяйства

Резюме

В статье были проанализированы направления развития кооперации в аграрном секторе страны, используя лучший опыт развитых стран, определена экономическая сущность, теоретико-методологические основы кооперации, а также определена роль кооперации в

экономическом развитии сельского хозяйства. Также в статье были прокомментированы преимущества кооперации в сельском хозяйстве и основные результаты, достигнутые в этой сфере. В тоже время была отмечена роль государственной поддержки в проведении кооперативного движения. В этой связи были отражены такие вопросы как увеличение размера субсидий фермерам за каждый гектар посевной площади, уменьшение процентов по льготным кредитам и т.д.

Ключевые слова: кооперация, хозяйствование, прибыльность, аграрный сектор, субсидии, аграрный собственник, фермерское хозяйство.

Asli Ali Kurbanova
Doctor of philosiphy in economics
Azerbaycan State Agrarian University

The role and advantages of the cooperation in development of the agriculture

Summary

In the article it was analyzed the directions of the development of cooperation in the agricultural sector of the country using the best experience of the developed countries, defined the economic essence and theoretical and methodological basis of the cooperation as well as defined the role of cooperation in the economic development of agriculture. Also it was commented in the article the advantages of cooperation in agriculture and the main results achieved in this field. At the same time, the role of state support in conducting the cooperative movement was noted. In this regard, such issues as increasing the subsidy to farmers for each hectare of crop area, reducing interest on preferential loans, etc. were reflected.

Key words: cooperation, householding, Profitability, agrarian sector, subsidies, agrarian proprietorship, farmers' households.

Esmira Canəli qızı ABDULLAYEVA
müəllim, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

AQRAR SAHƏDƏ QİYMƏT MEXANİZMİNƏ TƏSİR EDƏN AMİLLƏRİN TƏHLİLİ

Xülasə

Məqalədə Azərbaycan Respublikasında kənd təsərrüfatı sferasına dövlət maliyyə dəstəyi səviyyəsi - bütövlükdə aqrar sektorun inkişafı, qiymət disparitetinin səviyyəsinin azalması və aqrar sahibkarlığın gəlirlərinin artımı üçün mühüm mexanizmdən istifadə səviyyəsi öyrənilir. Kənd təsərrüfatı istehsalçılarına verilən subsidiyaların mütləq həcminin çox yüksək olmaması aşkarlanır və həm də subsidiyaların artımındakı dinamizm diqqətə çatdırılır. Bu dinamizm çox pozitiv bir meyil kimi dəyərləndirilir.

Açar sözlər: sahibkarlıq, qiymət dispariteti, dəstəklənmə.

***

Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında Prezident İlham Əliyev kənd təsərrüfatındakı inkişafın əsas səbəbini "Ölkədə aparılan islahatlar, eyni zamanda, dövlət tərəfindən fermerlərə verilən dəstək, subsidiyalar, texnika təminatı və bütövlükdə dövlət siyasətidir"[1] və bu iddia tamamilə doğrudur.

Məlumdur ki, hələlik Azərbaycanda aqrar sferanın və aqrar sahibkarlığın inkişafında mühüm rol oynaya bilən qiymət mexanizminin formalaşması üçün kənd təsərrüfatı məhsullarının qiymətinə birbaşa təsir edən rıçaqlardan əhatəli səviyyədə istifadə olunmur. Ancaq dolayı yollar - xüsusilə, aqrar məhsulun məstəflərinə təsir edən tədbirlər də bu baxımdan əhəmiyyətlidir və bu

tədbirlər də sahibkarlığın inkişafında eyni effektə malikdir. Belə ki, qiymət tələb-təklif tarazlığında formalaşsa da, istehsal xərcləri də qiymətin əmələ gəlməsində sonuncu rol oynamır.

Aqrar sferanın idarəedilməsi təcrübəsində bu tip tədbirlərdən 2002-ci ildən başlayaraq istifadə edilir və mütləq qeyd olunmalıdır ki, bu təcrübə üçün hüquqi zəmin H.Əliyevin 22 mart 1999-cu il Fərmanı ilə yaradılıb. "Aqrar sahədə islahatların sürətləndirilməsinə dair bəzi tədbirlər haqqında" Fərmanla bir sıra mühüm məsələlər həllini tapmışdı. Birincisi, kənd təsərrüfatı sferası 5 il müddətinə bütün vergilərdən(torpaq vergisi istisna olmaqla) azad edildi və 1999-cu ildən başlayan bu güzəştli mühit ardıcıl qərarlarla bu günə qədər də davam etdirilib. İkincisi, fərman kənd təsərrüfatında istifadə olunan neft məhsullarına və s. görə istehsalçılara güzəştlər verilməsini nəzərdə tuturdu. Bu siyasətin ardıcıl inkişafı 2007-ci ildə Prezident İ.Əliyev tərəfindən verilən sərəncamla "Kənd təsərrüfat məhsullarının istehsalçılarına dövlət dəstəyi haqqında" Sərəncamla davam etdirildi və NK-nin 15 fevral 2007-ci il qərarı ilə kənd təsərrüfatı istehsalçılarına yanacaq, gübrə məsrəflərinə görə verilən güzəştlər barədə "Qaydalar" təsdiq olundu. Həmin il praktik fəaliyyət də həyata keçirildi və aqrar sahibkar dövlət büdcə vəsaiti hesabına yanacaq, gübrə məsrəfinin müqabilində müəyyən vəsait əldə etdi.

Öncə qeyd edilənləri də nəzərə alıb, bir əhəmiyyətli məsələni də vurğulamaq lazımdır. Prezidentin 6 iyun 2014-cü il sərəncamı - "Azərbaycan Respublikasında heyvandarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamı damazlıq heyvanların kənd təsərrüfatı məhsulları istehsalçılarına lizinq yolu ilə 50% güzəştlə satılmasına imkan yaradır və deməli, hökumət təkcə bitkiçilik deyil, həm də bu sahə üçün dolayı maliyyə dəstəyini reallaşdırır. Beləliklə, 2007-ci ildən kənd təsərrüfatı məhsullarının qiymət mexanizminə dolayı müdaxilələr reallaşdırılır.

Beləliklə, kənd təsərrüfatı istehsalçılarına birbaşa dövlət dəstəyi haqqında müəyyən təsəvvürlər olundu və bu göstəricilər əsasında kənd təsərrüfatı məhsullarının qiymətinin dəstəklənməsi səviyyəsini - bəlli metodlarla müəyyənləşən səviyyəni aşkarlamaq olar. Amma məsələyə bir qədər əhatəli yanaşsaq, başqa çətinliklərlə üzləşirik. Belə ki, büdcə vəsaitləri hesabına ayrılan bu birbaşa yardımlardan başqa kənd təsərrüfatı sektoru öncə göstərdiyimiz kimi, həm də dolayı yardımlar alır. Məsələn, vergi güzəştləri kifayət qədər dolayı maliyyə yardımlarını şərtləndirir. Doğrudur, bu güzəştlərin həcminin müəyyən edilməsi yetərincə müşkül bir məsələdir və hətta bu istiqamətdəki tədqiqatlarda da konkret rəqəmlər göstərilmir və sadəcə qeyd edilir ki, "istehsalçılar milyonlarla manat vəsaitə qənaət edə bilərlər". [3] Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin rəyinə görə isə 2007 - 2016-cı illərdə vergidən azad olma nəticəsində kənd təsərrüfatına 1 mld 400 mln. manat maliyyə dəstəyi göstərilib. Belə ki, bu dövrdə kənd təsərrüfatı ümumi məhsulu 14 mld 614 mln manat həcmində olub və belə görünə bilər ki, kənd təsərrüfatı sferasında vergi yükü 10%-ə bərabərləşməliydi. Nəzərə alsaq ki, 2016-cı ildə qeyri - neft sektoru üzrə ÜDM 32,6 mld. manat, vergi gəlirləri isə 3.76 mld.manat olub, yəni vergi yükü 11%-ə bərabərləşib, onda güzəşt həcmi barədə iddialar inandırıcı görünmür. Ümumiyyətlə, aydındır ki, kənd təsərrüfatına tətbiq olunan vergi güzəştləri, aqrar sahibkarlığa əlavə və əhəmiyyətli maliyyə dəstəyidir, ancaq bu güzəştlərin məbləği daha çox 100-120 mln. manat ətrafında dəyişə bilər. Çünki aqrar istehsalçıların böyük əksəriyyəti sadə vergi sistemi üzrə ödəyicilərdir və dövriyyənin 2%-i həddində vergi ödəyirlər.Əksər tədqiqatlarda kənd təsərrüfatı sektoruna dolayı maliyyə dəstəyinin istiqamətlərindən biri kənd təsərrüfatı kreditləşməsi üzrə Dövlət Agentliyi və SKMF tərəfindən verilən güzəştli kreditlər hesab olunur. Zənnimizcə, bu iddialar qismən doğrudur. Doğrudan da, Azərbaycan maliyyə bazarında illik 6%-lə vəsait cəlbi güzəştli bir hal hesab olunur və kommersiya kreditlərinin faiz dərəcəsi ilə müqayisədə(20-22%) güzəştlər tam aşkardır. Ancaq beynəlxalq maliyyə bazarındakı faizlərlə müqayisədə hər hansı güzəştlər barədə danışmaq olmur. Bu baxımdan kreditlər hesabına güzəştlər və dolayı maliyyə dəstəyi reallıqda kifayət qədər mübahisəli bir məsələdir.

Ümumiyyətlə, aqrar sahibkarlığa dövlət dəstəyinin yetərli olub - olmaması bir qədər mübahisəli bir məsələ olsa da, başqa bir məqamda mübahisələrə ehtiyac yoxdur. Qiymət disparitetinin aradan qaldırılmasına əhəmiyyətli təsir göstərən susbsidiya və güzəşt mexanizmindən istifadədə çox böyük dinamizm var. Belə ki, 2016-cı ildə yüksək reproduksiyalı toxumdan istifadəyə görə subsidiyaların həcmi 2007-ci illə müqayisədə 11dəfə artıb.Həmin il gübrə satışı 2007-ci

ildən 3,8 dəfə çox olub və bu istiqamət üzrə subsidiyaların həcmindəki artım 13 dəfəyə yüksəlib. Bu tendensiyanı olduqca pozitiv - qiymət disparitetinin minimallaşdırılmasına və sahibkarlığın inkişafına çox müsbət təsir göstərən amil kimi dəyərləndirmək olar . Hesab etmək olar ki, belə meyillərin davamlılığı effektiv və rəqabətədavamlı kənd təsərrüfatı sektorunun formalaşmasının əsas faktorlarından biri olacaq. Qeyd olunanları yekunlaşdırıb, aşağıdakı nəticələri çıxarmaq mümkündür:

- Müasir mərhələdə dövlət maliyyə dəstəyi kənd təsərrüfat sferasının inkişafı, qiymət disparitetinin səviyyəsinin azalması və aqrar sahibkarlığın gəlirlərinin artımı üçün mühüm mexanizmlərdən biridir;
- 2007-ci ildən başlayaraq aqrar sferaya ciddi maliyyə dəstəyinin verilməsi - yüksək reproduksiyalı toxumlardan, mineral gübrələrdən istifadəyə, yanacaq və motor yağlarının dəyərinin qismən ödənilməsinə, buğda və çəltik səpininə görə istehsalçılara verilən subsidiyalar kənd təsərrüfatının inkişafında, aqrar sahibkarlığın dəstəklənməsində, aqrar bazarda qiymət mexanizminin təkmilləşdirilməsində əhəmiyyətli rol oynayıb;
- aqrar sferaya vergi güzəştləri hesabına dolayı maliyyə dəstəyi - daha dürüst dəyərləndirmələrə görə həcmi 100 - 120 mln. manata bərabər olan dolayı dövlət yardımı da birbaşa subsidiyaların təsiri ilə anoloji olan effektlərə gətirir;
- yüksək reproduksiyalı toxumlardan, mineral gübrələrdən istifadəyə, yanacaq və motor yağlarının dəyərinin qismən ödənilməsinə, buğda və çəltik səpininə görə istehsalçılara verilən subsidiyaların mütləq həcmi çox yüksək olmasa da - 645 mln.manat təşkil etsə də, subsidiyaların artımındakı dinamizm çox pozitiv bir meyil kimi dəyərləndirilməlidir.

ƏDƏBİYYAT

1. Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında İlham Əliyevin nitqi.
2. Maliyyə Nazirliyinin məlumatları, elektron resurs.
3. Əhmədov R. Vergi tənzimlənməsinin aqrar sektorun inkişafına təsiri. «Vergi» jurnalı 2013, №2 s.149-162
4. Azərbaycan Respublikası Statisika Komitəsinin məlumatları. Elektron resurs.
5. Abbasov İ. Azərbaycan və dünya ölkələrinin kənd təsərrüfatı. Bakı, 2014 s.11.

Есмира Джанали кызы Абдуллаева
ст. пред. АГЭУ

Анализ факторов, влияющих на ценовой механизм в аграрной сфере

Резюме

В статье исследуется уровень финансовой господдержки аграрного сектора.Выявляется что, абсолютный обьем субсидий производителям аграрной продукции не слишком высок, но в росте субсидий отслеживается очень высокий динамизм. Динамизм в росте субсидий оценивается как позитивная тенденция.

Ключевые слова: предпринимательство, ценовой диспаритет, поддержка.

Esmira Djanali Abdullayeva
teacher ASEU

Analysis of factors affecting the price mechanism in the agrarian sector

Summary

The article investigates the the level of financial state support of the agricultural sector. It reveals that the absolute volume of subsidies to producers of agricultural products is not very high, but the growth is monitored very high subsidies dinamizm. Dinamizm in the growth of subsidies is assessed as a positive trend.

Key words: entrepreneurship, price disparity, support.

Fərhad Firudin oğlu MEHBALIYEV
AƏSMA, "İqtisadiyyat və idarəetmə"
kafedrasının müdiri, i.f.d., dosent,

Nurəngiz Yanvar qızı MİKAYILOVA
AƏSMA, "İqtisadiyyat və idarəetmə"
kafedrasının dosenti, i.f.d.

AQRAR SAHƏDƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN (AXC) HƏYATA KEÇİRDİYİ İQTİSADİ İSLAHATLAR

Xülasə

Məqalədə əsas diqqət Azərbaycan Xalq Cümhuriyyətinin aqrar sektorda iqtisadi islahatların həyata keçirilməsi məsələlərinə yönəldilmişdir. Eyni zamanda həmin dövrdə kəndli təsərrüfatının sosial strukturu, ayrı-ayrı kateqoriyalar üzrə torpaq sahibliyinin bölünməsi və bu sahədə qarşıya çıxan çoxsaylı problemlər işıqlandırılmışdır.

Məqalədə Cümhuriyyətlə bağlı prezident fərmanları və müasir dövrdə aqrar sahəni dəstəkləyən "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" ndən istifadə edilmişdir.

Açar sözlər: Azərbaycan Xalq Cümhuriyyəti, mülkiyyət, aqrar siyasət, maliyyə, islahatlar

***

Bu gün müstəqilliyə və suverenliyə qovuşmuş Azərbaycan xalqı dövlətçiliyini möhkəmləndirmək, iqtisadi islahatları həyata keçirmək kimi məsələləri həll edir. Öz kökünə, tarixinə, ənənələrinə qayıdır, tarixi təcrübədən faydalanmağa çalışır. Azərbaycan Prezidenti ulu öndər Heydər Əliyevin dediyi kimi, "dövlət quruculuğunda nəinki tarixi və milli ənənələrimiz nəzərə alınır, həm də dünya təcrübəsindən, demokratik prinsiplərdən istifadə edilir".[1] 1918-20-ci illərdə Azərbaycanda mövcud olmuş parlamentli, demokratik respublika formasında dünyəvi bir dövlət uzun illər geniş ictimaiyyət, hətta tarix elmi üçün qaranlıq bir səhifə kimi qalmış, yaddaşımızdan tamamilə silinmişdir. İndiki mədəni dünyada əsas demokratik normalar sayılan xalq hakimiyyəti, insan haqları, milli və irqi bərabərlik, söz, mətbuat, ittifaqlar azadlığı kimi dəyərlər Yaxın və Orta Şərqdə ilk dəfə olaraq, Azərbaycan Xalq Cümhuriyyətində elan edilmiş və əməli həyata keçirilmişdi. Çar Rusiyasının dağılmasından sonra onun ucqarlarında yaranmış siyasi qurumlar içərisində Azərbaycan Xalq Cümhuriyyəti ən demokratik dövlətlərdən biri idi, onun dövlət strukturlarında Azərbaycanda fəaliyyət göstərən bütün siyasi partiyalar, milli azlıqlar və az-çox əhəmiyyətli ictimai təşkilatlar təmsil olunmuşdu. Tarixi keçmişimizə və onun müasirliklə əlaqəsinə dair Azərbaycan Respublikasının Prezidenti ulu öndər Heydər Əliyevin aşağıdakı fikri tariximizin və bu günümüzün qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir: "1918-ci ildə yaranmış Azərbaycan Demokratik Cümhuriyyəti bizim milli sərvətimizdir, tariximizin parlaq səhifəsidir. Ondan sonrakı illər, onilliklər də həyatımızın böyük mərhələləridir, parlaq səhifələridir, xalqımızın böyük nailiyyətidir. Məhz bunlar hamısı birlikdə indiki müstəqil Azərbaycanın həm iqtisadi, həm intellektual, həm də mədəni potensialını yaradıbdır". [1]

Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi platformasında mülkiyyət plüralizmi-dövlət mülkiyyəti, xüsusi, şəxsi, səhmdar, bələdiyyə mülkiyyəti və digər mülkiyyət formalarının inkişafı üçün bərabər imkanlar yaradılması nəzərdə tutulurdu. Bolşevizmdən fərqli olaraq, Cümhuriyyət liderləri fabrik, zavod, torpaq və digər əsas istehsal vasitələri üzərində xüsusi mülkiyyəti rədd etmirdilər. Əksinə, hesab edirdilər ki, bu cür mülkiyyəti tamamilə aradan qaldırmaq indiki vəziyyətdə insanların şəxsi təşəbbüs qüvvətini zorakı olaraq aradan götürür. Eyni zamanda, xüsusi mülkiyyətin miqyası müəyyənləşdirilir, bu işdə ifrata varmağın zərərli olduğu göstərilirdi. Qeyri-məhdud mülkiyyət hüququ və mənimsəmədə ifratçılıq xüsusi mülkiyyətin yoxluğu qədər zərərli sayılırdı. "Hər bir əkinçi özünün əkib-biçə biləcəyi miqdarda torpağa sahiblik etməlidir!" prinsipini əsas götürən Azərbaycan islahatçıları geniş torpaqları ölü halında buraxan torpaq sahiblərinin mülkiyyət haqqını rədd edirdilər. Bu cür torpaq sahələri əvvəlki sahiblərindən alınıb,

əkinçi vətəndaşlar arasında yenidən bölüşdürülməli idi. Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi siyasətində nəzərdə tutulurdu ki, xüsusi mülkiyyətin mövcudluğu mülkiyyətin tamamilə xırdalanmasına aparmamalıdır. Xüsusən də, fabrik və zavodların xırdalanması yolverilməz hesab edilirdi. Respublikanın iqtisadi qanunvericiliyinə görə, "dövlət mülkiyyətinə, qismən də bələdiyyə mülkiyyətinə dövlətin sərvət və gəlir qaynağını təşkil edən yeraltı mədənlər", həmçinin "dəmir yolu, işıq, su, teleqraf və sair bu kimi ümumi işlərə xidmət edən quruluşlar" daxil edilirdi. Azərbaycan Xalq Cümhuriyyətinin aqrar proqramının əsasını aqrar islahatı haqqında Parlamentə təqdim olunmuş "Müsavat" fraksiyasının və Əkinçilik Nazirliyinin mövqeyini əks etdirən qanun layihələri təşkil edirdi. Göstərilən qanun layihələrinin hər ikisinin məqsədi, müəyyən fərqlərinə baxmayaraq, torpaqsız və aztorpaqlı əhalini torpaqla təmin etmək idi. Həm də, xüsusi torpaq mülkiyyətini ləğv etmək deyil, torpağı xüsusi mülkiyyətə elə istehlak normaları üzrə vermək nəzərdə tutulurdu ki, bir tərəfdən kənd əhalisini gəlirlə təmin etmək mümkün olsun, digər tərəfdən istifadəsiz xüsusi sahibkar torpaqları qalmasın. "Müsavat" fraksiyasının qanun layihəsində torpaqların əvəzsiz paylanması, digər qanun layihəsində isə müəyyən əvəz müqabilində verilməsi nəzərdə tutulurdu. Birinci qanun layihəsində əvvəlki sahibkarların mülkiyyətində 75 desyatin, digər qanun layihəsində isə, yerli şəraitdən asılı olaraq, müxtəlif miqdarda torpaq sahəsinin saxlanması müəyyənləşdirilmişdi.

Azərbaycan aqrar ölkəsi olduğundan torpaq məsələsi ən kəskin iqtisadi, sosial və siyasi məsələlər sırasına daxil idi. Kənd təsərrüfatı neft sənayesindən sonra iqtisadiyyatın əsas özəyini təşkil edirdi. 1917-ci ildə kəndli sektorunun sosial strukturu aşağıdakı kimi idi:

- yoxsul təsərrüfatları - 54,4%;
- ortabablar - 34%;
- qolçomaqlar - 6,2% [3, s. 212].

İslahatların keçirilməyə başlandığı dövrdə Azərbaycanda torpaq mülkiyyəti formalarının qısa xarakteristikası bundan ibarət idi. Belə ki, mülkiyyət formalarından dövlət və mülkədar torpaq sahibliyi üstünlük təşkil edirdi. Mülkədarların mülkiyyətində 29,6%, dövlətin payında isə 68,8% torpaq olduğu halda, bütün kənd təsərrüfatı sahəsinin yalnız 1,8%-i kəndlilərə məxsus idi. Torpaqsız və aztorpaqlı kəndlilər mülkədarlardan torpaq icarə etməyə və ya muzdur kimi işləməyə məcbur idilər. İcarə Azərbaycanın bütün qəzalarında torpaqdan adi istifadə forması idi. Mülkədar təsərrüfatlarında muzdlu əməkdən geniş istifadə olunurdu. Bu iş "Torpaq layihəsi" deyilən bir sənədin müəllifləri tərəfindən yerinə yetirilirdi. Azərbaycan hökuməti başa düşürdü ki, bu "qanunla" kütlə arasına çıxmaq mümkün deyil və dövlətin həyatm maraqlarına cavab verə biləcək daha ciddi sənəd lazımdır. Məhz buna görə də F.Xoyski 1918-ci il iyunun 22-də "aqrar qanunun" şərtlərinin Azərbaycan Cümhuriyyətinin ərazisinə şamil edilməməsi haqqında fərman vermişdi. Hökumət kabinetinin formalaşmasından sonra ilk çıxışında baş nazir F. Xoyskinin millətin tərəqqisi üçün siyasi və təsərrüfat sərbəstliyinin zəruriliyini qeyd etməsi dövlətin ictimai tərəqqini aqrar məsələnin uğurla həll edilməsi ilə bilavasitə bağladığını sübut edir. Zəhmətkeşlərin mənafeyinin təmin edilməsi bəyanatda xüsusi yer tuturdu. Bəyanatda qeyd olunurdu ki, kəndli və fəhlə ünsürlərinin təminatı, qayğısı hökumətin ən başlıca vəzifəsi olmalıdır... Torpaq kəndliyə havayı verilməlidir. Lakin, məhum oldu ki, belə sosial islahatın istiqamətini nəzərdə tutmaq, müvafiq qanunvericiliyin qəbul edilməsindən daha asan imiş. Bu sahədə, cüzi zaman fərqilə, iki istiqamətdə - parlament komissiyası çərçivəsində və hökumət səviyyəsində iş gedirdi. "Torpaq islahatı haqqında" Qanun layihəsinin hazırlanması ilə əlaqədar olaraq 1919-cu il fevralında Səməd bəy Ağamalıoğlu başda olmaqla müxtəlif siyasi fraksiyaların nümayəndələrindən olan 9 nəfərdən ibarət parlament aqrar komissiyası yaradıldı. Komissiyanın rəngarəng siyasi tərkibi qanun layihəsini lap əvvəldən müvəffəqiyyətsizliyə məhkum etmişdi, çünki məlum olduğu kimi, partiyaların aqrar məsələ üzrə yekdil nöqteyi-nəzəri yox idi. Ona görə də layihənin alternativ variantına malik olmayan komissiya, Seymin 1918-ci il martın 7-də qəbul olunmuş "Aqrar qanunu"n əsasları ilə kifayətlənməli olmuşdu. Həm də komissiyanın sədri S.Ağamalıoğlu vaxtı ilə Seym variantının tərtib olunmasında iştirak etmişdi. Görünür, bu səbəbdən yeni layihə, əvvəlcə qeyd olunduğu kimi, dövrün tələbinə cavab verməyib.

1919-cu il avqustun sonu-sentyabrın əvvəllərində, nəhayət, torpaq komissiyası layihə üzərində işini tamamladı. Layihənin əsas tezisləri aşağıdakılardan ibarət idi:

1) Respublika ərazisindəki bütün torpaqlar dövlətin mülkiyyətidir;

2) torpaq əvəzsiz olaraq dövlətin ixtiyarına keçir;

3) əvvəlki mülklərin müəyyən hissəsi aşağıdakı normalar üzrə əsas sahibkarlara onların istifadəsi üçün saxlanılır: 1-ci kateqoriya torpaqlar - 7 desyatin (bağlar və becərilən torpaqlar), 2-ci kateqoriya torpaqlar-15 desyatindən 29 desyatinədək (əkin yerləri); 3-cü kateqoriya - 40 desyatindən 50 desyatinədək (otlaqlar).

Bütün qalan torpaqlar dövlət torpaq fonduna daxil edilir. Torpaq haqqında qanunun son variantı Azərbaycan Müəssislər Məclisi tərəfindən təsdiq olunmalı idi. Lakin layihə olduğu şəkildə də havadan asılı vəziyyətdə qaldı. Məhz buna görə də 1919-cu il iyunun 6-da Nazirliyin nəzdində aqrar islahatlar şöbəsi təsis edildi və ona tapşırıldı ki, bir ay müddətinə aqrar islahatlar layihəsini bəyənilmək üçün Nazirlər Kabinetinə təqdim etsin. Nazirlikdə işlər kifayət qədər sürətlə aparılırdı və artıq 1919-cu ilin avqustunda Ziraət nazirinin müavini Hidayət bəy Sultanovun rəhbərliyi altında 2 qanun layihəsi başa çatdırıldı:

1) "Azərbaycan Cümhuriyyəti əhalisinin torpaq təminatı haqqında".

2) "Xüsusi sahibkar meşələrinin dövlətin mülkiyyatinə çevrilməsi haqqında".

Qanun layihələrində qoyulan əsas məsələlər xüsusi sahibkar torpaqlarının əhalinin hansı kateqoriyasından nə qədər və hansı şərtlərlə dövlət torpaq fonduna keçirilməsi haqqındakı məsələlər idi. Bu məsələlərdən birincisini Ziraət Nazirliyi xüsusi sahibkar torpaqlarını, torpağın istismar zamanı verdiyi gəlir qədər əvəzi ödənilməklə özgələşdirilməsi yolu ilə həll etməyi nəzərdə tuturdu. Nazirlik belə hesab edirdi ki, xüsusi sahibkar torpaqlarını əvəzi ödənilmədən müsadirə etmək xüsusi mülkiyyəti ləğv etməyə bərabərdir. Buna görə də qanun layihəsi torpağın əkinçi əhaliyə yalnız istehlak norması üzrə xüsusi mülkiyyətə verilməsini nəzərdə tuturdu.

Cədvəl 1

Azərbaycan Cümhuriyyəti ərazisinin tərkibi
(ayrı-ayrı kateqoriyalar üzrə torpaq sahibliyinin bölünməsi)

Desyatinlə (1 des.=1,0982 ha)

Quberniyalar	Ərazisi	Yararlı Torpaq (k/t və meşə üçün)	Yararsız torpaq (şəhərlər, yaşayış məntəqələri və s.	Nadel torpaqları	Dövlət torpaqları	İcarə kəndli torpaqları	Meşələr
Bakı	3.570.235	2.590.453	979.782	1.424.270	94.958	5.546	823.894
Gəncə	4.054.078	3.317.923	736.155	1.400.010	43.961	35.858	1.178.967
Zaqatala	364.793	289.566	75.226	140.865	464	1.569	96.008
Yekun	7.989.106	6.197.942	1.791.198	94.958	139.383	42.973	2.098.869

Mənbə: [3, s. 217]

Lakin bu qanun layihələrinin də taleyi parlament qanun layihəsinin taleyini təkrar etdi. Azərbaycanda baş vermiş hökumət böhranı onların heç müzakirə olunmasına da imkan vermədi. Baş nazir Nəsib bəy Usubbəyovun Cümhuriyyətin kifayət qədər radikal dünyagörüşlü daha gənc siyasi xadimlərindən təşkil etdiyi yeni hökumət kabineti özünün yeni aqrar kurs işləyib hazırlamaq əzmində olduğunu bəyan etdi. Ziraət Nazirliyinin işləri sosialist Əhməd Cövdət bəy Pepinova həvalə edildi. O, ləngimədən qanun layihəsini təkmilləşdirilmək üçün onun Nazirliyə qaytarılmasını tələb etdi. 1920-ci il martın əvvəllərində Nazirlik "Xüsusi sahibkar torpaqlarının dövlət torpaq fonduna keçirilməsi və Azərbaycan Cümhuriyyəti əhalisinin torpaqla təmin olunması" haqqında Qanunun yeni layihəsi üzərində işi başa çatdırıb, onu baxılmaq üçün hökumətə təqdim etdi. Bu qanun layihəsinin əsasında Azərbaycan sosial-demokratiyası tərəfindən bəyənilən Gürcüstan sosial-demokrat hökumətinin aqrar qanunu dururdu. Bu layihədə əsasən kənd yerlərində olan xüsusi sahibkar hüquqi şəxslərin bütün torpaqları, o cümlədən monastır, vəqf,

məscid və kilsə torpaqları, habelə şəhər yerləri hüdudunda olan və şəhər mülkiyyətinə daxil olmayan torpaqlar sahiblərindən alınır və əvəzsiz olaraq dövlət torpaq fonduna verilirdi. Mülkiyyəti əlindən alınmış sahibkarlar üçün saxlanılan torpaq sahəsinin ölçüsü kənd yerlərinin becərilmə şəraitinə uyğun olaraq müəyyən edilirdi.

Parlament komissiyası torpağın əvəzsiz olaraq alınması şüarı israrında davam edirdi. Bu layihənin parlamentə təqdim olunması təəccüb doğurmur. Ölkədə vəziyyət gərginləşmişdi. Hökumət hələ də aqrar qanunun müzakirəsinə başlamamışdı. M.Ə. Rəsulzadə çox haqlı olaraq göstərmişdi ki, bu məsələdə tələskənlik, eləcə də onu həddən ziyadə uzatmaq eyni dərəcədə mənfi nəticələrə gətirib çıxara bilər. 1920-ci il fevralın 16-da parlamentin növbəti 123-cü iclasında "Müsavat" fraksiyası aqrar məsələ üzrə qurultayda bəyənilmiş qanun layihəsini təqdim etdi. "Müsavat" partiyasının qanun layihəsi də xüsusi sahibkar torpaqlarının əvəzsiz olaraq alınıb dövlət torpaq fonduna verilməsini nəzərdə tuturdu. Lakin burada göstərilirdi ki, sahibkarların mülkiyyətində bağ və həyətlər də daxil olmaqla, 25-75 desyatin torpaq saxlanılır.

Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ilin aprelində süqut etdi, Azərbaycanda sovet hakimiyyəti quruldu. 1918-ci ildə Azərbaycanda yaranmış respublika müstəqil dövlət kimi süqut etsə də, respublika quruluşu yaşanmış, müstəqillik hissləri xalqımızı heç vaxt tərk etməmişdir. 1991-ci ildə dövlət müstəqilliyini bərpa edən xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli fəaliyyətinin zəngin ənənələrindən istifadə etmiş və bu tarixi varislik üzərində müstəqil Azərbaycan dövlətini yaratmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi. Ümummilli lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı.

Bu gün aqrar sahəyə sistemli yanaşmanı təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli Sərəncamı ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri" təsdiq edilmişdir. Buna uyğun olaraq, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sənayesi sahələrində mövcud vəziyyət müvafiq dövlət orqanlarının, tədqiqat mərkəzlərinin və müstəqil ekspertlərin iştirakı ilə sistemli və əhatəli şəkildə təhlil olunmaqla, silsilə müzakirələr keçirilmiş və müvafiq qiymətləndirmələr aparılmış, bunun əsasında "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" hazırlanmışdır.

Bu Strateji Yol Xəritəsində ölkənin kənd təsərrüfatı sahəsinin inkişafı ilə bağlı 2020-ci ilədək strateji baxış, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış əks olunub ki, bu da kənd təsərrüfatı sahəsində həm orta, həm də uzunmüddətli dövr üzrə strateji inkişaf hədəflərinə çatmaq üçün dövlətin ardıcıl mərhələlərlə icra ediləcək aydın yol xəritəsinə malik olmasını ifadə edir.

2018-ci il may ayının 28-də müsəlman Şərqində ilk parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi tamam olur. 16 may 2017-ci il ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Sərəncam imzalamışdı. Sərəncamda qeyd edildiyi kimi: "1991-ci ildə müstəqilliyinin bərpasına nail olarkən müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi, Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi". [2] Xalqımız Cümhuriyyətin istiqlalını dünyaya yaydığı 28 May gününü həmin vaxtdan Respublika Günü olaraq təntənə ilə qeyd edir.

ƏDƏBİYYAT

1. "Azərbaycan Xalq Cümhuriyyətinə abidə ucaldılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti, Bakı şəhəri, *1 fevral 2003-cü il* .

2. “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti, Bakı şəhəri, 16 may 2017-ci il.
3. F.Maqsudov, İ.Əliyev, N.Ağamalıyev, Ş.Alışanlı. “Azərbaycan Cümhuriyyəti (1918-1920)”. “Elm”:1998, 336 s.

Фархад Фирудин оглу Мехбалыев
АТСО, Зав.кафедрой «Экономика и управление»,
кандидат экономических наук, доцент,

Нурангиз Январ кызы Микаилова
АТСО, доцент кафедры «Экономика и управление»,
кандидат экономических наук

Экономические реформы в аграрном секторе, претворяемые в жизнь Азербайджанской Демократической Республикой

Резюме

В статье основное внимание уделяется на экономические реформы в агроном секторе, претворяетые в жизнь Азербайджанской Демократической Республикой. Одновременно освещены социальная структура крестьянского хозяйства того времени, деление земельной собственности по отдельным категориям и другие проблемы, встречающиеся в этой сфере.

В статье имеются ссылки на Указы Президента АР, связанные с деятельностью АДР и конечно, «Стратегическая дорожная карта о производстве и обработке сельскохозяйственных продуктов в Азербайджанской Республике», что являются основой для поддержания аграрного сектора на современном этапе.

Ключевые слова: Азербайджанская Демократическая Республика, собственность, аграрная политика, финансы, реформы.

Farhad Firudin Mehbalyev
ALRA, Head of the Department
"Economics and Management",
PhD., associate professor,

Nurangiz Yanvar Mikayılova
ALRA, Associate Professor, Department of
“Economics and Management”, Ph.D.

Implementation of the Azerbaijan Democratic Republic (ADR) in the agrarian sector of economic reforms

Summary

The article focuses on the implementation of economic reforms in the agrarian sector of the Azerbaijan Democratic Republic. At the same time, the social structure of the peasant economy, the division of land ownership in separate categories and numerous problems in this area were covered. The article deals with presidential decree on the republic and the "Roadmap for the production and processing of agricultural products in the Republic of Azerbaijan", which supports the agrarian sector in modern times.

Key words: Azerbaijan Democratic Republic, property, agrarian policy, finance, reforms.

i.f.d. Gülnisə Əlisəfa qızı MUSTAFAYEVA
magistr Elxan İsgəndər oğlu SULTANOV
Azərbaycan Kooperasiya Universiteti

AQRAR SAHƏDƏ İSTEHSAL İNFRASTRUKTURUNUN FORMALAŞMASI VƏ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Xülasə

Aqrar sahədə istehsal və əmək resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsi, emal sənayesinin inkişaf etdirilməsi, aqrar bazarın tam formalaşdırılması, marketinq, menecment və informasiya yayım şəbəkələrinin, xidmət sahələrinin təşkili, mütərəqqi və yeni tələblərə uyğun infrastruktur sistemlərinin yaradılması və digər çoxsaylı məsələlərin həllinə nail olmadan, rəqabətə davamlı aqrar sahənin formalaşdırılması qeyri-mümkündür. Yəni, aqrar sahənin inkişaf strategiyasının hazırlanması və həyata keçirilməsi, rəqabətə davamlı kənd təsərrüfatı istehsalının formalaşması və inkişafında mühüm rol oynayır.

Açar sözlər: aqrar sahə, emal sənayesi, infrastruktur sistemlər, rəqabətə davamlı, aqrar sahənin formalaşması, marketinq sistemi.

***

Aqrar sahəyə ölkə iqtisadiyyatının prioritet sahəsi kimi yanaşılması və onun makroiqtisadi baxımdan tənzimlənməsi mühüm əhəmiyyət kəsb edir və iqtisadi tərəqqinin yalnız bu zaman yüksək səviyyəyə çatması mümkündür. İqtisadi artımn sürəti, iqtisadiyyatın tarazlı inkişafı, istehsal prosesinin səmərəliliyi, regionların kompleks inkişafı və ərazi-istehsal komplekslərinin formalaşması, müasir inteqrasiya prosesləri və s. problemli məsələlər infrastrukturun vəziyyəti ilə bilavasitə bağlıdır. İnfrastruktur sistemin mükəmməl olmaması, iqtisadi inkişaf tempinin azalmasına gətirib çıxarır. Məhz bu baxımdan, infrastrukturun inkişafı əsas istehsal vasitələrinin inkişafından geri qalmamalıdır, onunla yanaşı və hətta ondan əvvəl inkişaf etdirilməlidir. Aqrar sahəyə investisiya qoyuluşları zamanı bu amillərin nəzərə alınması çox vacib və məqsədəuygundur.

Ölkəmizdə infrastruktur sahələrin inkişaf etdirilməsi siyasi və iqtisadi müstəilliyin gücləndiyi müasir şəraitdə istehsal prosesinin intensivləşdirilməsi və onun səmərəliliyinin yüksəldilməsinin əsas şərtlərindən biridir. Təbiidir ki, Azərbaycanda infrastruktur sahələrinin regional xüsusiyyətləri, sosial-iqtisadi, təbii-iqlim, tarixi, milli demoqrafik xüsusiyyətlər xarakterli amilər kompleksi nəzərə alınmaqla formalaşdırılması daha məqsədəuyğundur. [1]

Ötən illərin təcrübəsi sübut edir ki, bazar münasibətlərinə keçid şəraitində aqrar sahənin inkişafı - bu sahədə fəaliyyət göstərən müxtəlif təsərrüfat subyektlərinin istehsalın səmərəliliyinin yüksəldilməsi istiqamətlərinin müəyyənləşdirilməsindən asılıdır. Bu, ilk növbədə bazarda istehlakçıların ehtiyac və tələblərinin ödənilməsinə xidmət edən bazar infrstrukturunun və marketinqin idarə olunma sisteminin formalaşdırılmasını tələb edir.

Təbiidir ki, rəqabət qabiliyyətli və geniş çeşidli məhsulların istehsalı və satışının təşkili kimi mürəkkəb məsələlərin həlli mülkiyyətçiləri daim düşündürməlidir. Lakin, məhdud maliyyə imkanları və maddi-texniki resursların çatışmazlığı şəraitində bu vəzifələrin öhdəsindən uğurla gəlməkdə mülkiyyətçilər bir sıra çətinliklərlə üzləşirlər.

Ümumiyyətlə, bazar münasibətləri şəraitində aqrar sahədə infrastruktur elementlərinin formalaşdırılması və inkişafı rəqabət qabiliyyətli istehsala əlverişli zəmin yaradır. Topdansatış bazarlar sistemini, alqı-satqı birjalarını, istehsal və elmi informasiya təminatı sistemini və digər sahələri əhatə edən infrastruktur istehsal olunan məhsulların əkverişli satış bazarlarına çıxarılmasını təmin edir,təsərrüfat subyektlərinin aqrar bazarda mövqelərini möhkəmləndirir, onların rəqabətqabiliyyətli fəaliyyətini stimullaşdırır. Ölkədə aparılan aqrar islahatlarla əlaqədar olaraq son 10 ildə 1,5 dəfə, taxıl istehsalı 43,9%, kartof istehsalı 29,1%, tərəvəz 17,8%, bostan məhsulları 20,5%, meyvə və giləmeyvə 49,1%, üzüm istehsalı isə 2,4 dəfə artmışdır. Ağcabədi və Beyləqan rayonlarında iri özəl taxılçılıq təsərrüfatları yaradılmış və hər hektardan rekord həddə - 55 sentner taxıl tədarük olunmuşdur. [1]

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"ında qeyd edildiyi kimi, dövlətimiz regionların inkişafını və əhalinin məşğulluğunun təmin edilməsini qarşıya əsas məqsəd kimi qoyaraq, aqrar sahədə istehsal münasibətlərinin inkişaf etdirilməsi, yeni iş yerlərinin açılması istiqamətində mühüm tədbirlər həyata keçirir. Bu istiqamətdə qəbul edilmiş müvafiq hüquqi sənədlərdə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərin kreditlərə olan ehtiyaclarını ödəmək, regionlarda aqroservislər yaratmaq, lizinq xidmətini genişləndirmək, bir sözlə, aqrar sahədə istehsal infrastrukturunu genişləndirmək məqsədilə büdcədən böyük həcmdə pul vəsaitlərinin ayrılması nəzərdə tutulmuşdur. Son illərdə aparılan islahatlar və qəbul edilən müvafiq sənədlərdə göstərilən istiqamətdə aparılan işlər kənd təsərrüfatı sahəsində ərzaq təhlükəsizliyinin təmin olunması üçün bitkiçilik və heyvandarlıq sahələri inkişaf etdirilmiş, ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsi daha da yaxşılaşdırılmışdır. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarının istifadə etdikləri yanacağın, motor yağlarının və mineral gübrələrin dəyərinin orta hesabla 50%-nin dövlət tərəfindən ödənilməsi, eləcə də dövlət büdcəsinin vəsaiti hesabına buğda istehsalının stimullaşdırılması məqsədilə yardım verilməsi, toxumçuluq və damazlıq işləri üzrə müəyyən işlərin görülməsi, aqroservis xidmətlərindən güzəştli qiymətlərlə istifadə, Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu və Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına verilmiş güzəştli kreditlər kənd təsərrüfatı istehsalı sahəsində ilbəil dinamik inkişafın əldə edilməsini təmin edən amillərdən olmuşdur. Yerli istehsal sahələrinin yenidən qurulması və uğurla həyata keçirilən aqrar islahatların aparılması bir sıra yerli qida məhsullarının istehsalının artmasına və ölkəmizə idxalının azalmasına səbəb olmuşdur.

Yerli məhsullar daxili bazarımızı zənginləşdirmiş, əsas qida məhsullarına idxaldan asılılığımızı azaltmışdır.Tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki,aqrar sahədə infrastruktur elementlərinin mövcud vəziyyəti istehsal edilən kənd təsərrüfatı məhsullarının keyfiyyətini itirmədən saxlanılmasına, onların müvafiq vaxtlarda bazarlara çıxarılmasına,əlverişli şərtlərlə satışının həyata keçirilməsinə müəyyən maneələr yaradır. Aqrar bazarda kənd təsərrüfatı məhsullarının saxlanması üçün müvafiq şəraitin (xüsusiləşdirilmiş anbar və soyuducular) olmaması ilə əlaqədar olaraq, yetişdirilən məhsulların, xüsusilə də tez xarab olan məhsulların ticarət vasitəçilərinə aşağı qiymətə kəndlilər tərəfindən satılması məcburiyyəti yaranır. Nəticədə satış qiyməti bir çox hallarda maya dəyərindən aşağı olur və təsərrüfat fəaliyyəti zərərlə nəticələnir. Məhz bu neqativ halları aradan qaldırmaq üçün dövlətimiz tərəfindən müvafiq tədbirlər görülür. Belə ki, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial iqtisadi inkişafı Dövlət Proqramı"ında ölkənin qeyri-neft sektorunun inkişafında əsas prioritet sahə olan kənd təsərrüfatının inkişafına yönələn ardıcıl islahatlar və yeni texnologiyaların cəlb edilməsinin davam etdirilməsi xüsusi qeyd edilmişdir. Həmçinin, bu sənəddə kənd təsərrüfatında fermerlərin birləşməsi və kooperativlərin yaradılması aqrar sektorda gəlirlərin və kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətliliyinin daha da artırılmasına və beynəlxalq standartlara uyğunlaşmasına təkan verəcəyi xüsusi vurğulanmışdır. Aqrar sektorun inkişafı və əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi Dövlət Proqramında əsas istiqamətlərdən biri kimi nəzərdə tutulur. Aqrar bölmənin inkişafı istiqamətləri aşağıdakılardan ibarətdir:

• aqrar bölmənin xammal istehsalı və emalı sahələrinin əlaqəli inkişafı, rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalının artırılmasının stimullaşdırılması, əsas ərzaq məhsulları ilə özünü təminetmə ilə bağlı tədbirlərin davam etdirilməsi;

• aqrar bölməyə maliyyə dəstəyinin artırılması və ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafının stimullaşdırılması tədbirlərinin davam etdirilməsi;

• bitkiçilikdə və heyvandarlıqda ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqi və bu sahədə təsərrüfat subyektlərinin fəaliyyətinin stimullaşdırılması;

• iri taxılçılıq və ya toxumçuluq, tingçilik, üzümçülük, intensiv bağçılıq təsərrüfatlarının yaradılması;

• regionlarda kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü, saxlanması və satışı məqsədi ilə istixana, soyuducu və taxıl anbarı komplekslərinin (logistika mərkəzlərinin) yaradılmasının

davam etdirilməsi;

• hər bir rayonun xüsusiyyəti, təbii və iqlim şəraiti nəzərə alınmaqla kənd təsərrüfatı məhsullarının istehsalının ixtisaslaşması üzrə müvafiq tədbirlərin həyata keçirilməsi;

• ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsulları bazarının formalaşması;

• aqrar bölmənin maddi-texniki bazasının möhkəmləndirilməsi və bazar prinsipləri əsasında fəaliyyət göstərəcək yeni strukturların yaradılması;

• kənd təsərrüfatında suvarma və meliorasiya təminatının yaxşılaşdırılması tədbirlərinin davam etdirilməsi, torpaq və su ehtiyatlarından səmərəli istifadə olunması;

• torpaqların elektron texniki uçotunun aparılması və fermerlərin elektron qeydiyyat sisteminin yaradılması istiqamətində müvafiq işlərin görülməsi.

Ümumiyyətlə, aqrar sahədə istehsalın artımına və infrastruktur səviyyəsinin yüksəldilməsinə nail olmaq üçün, aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsini zəruri hesab etmək olar:

- istehsalçıların ehtiyac və tələbatlarına uyğun bazardakı konyunktur dəyişikliklərə tez bir zamanda reaksiya verə bilən, elmi-texnoloji və innovasiyalı dəyişiklikləri mənimsəməsini, yüksək servis xidmətlərinə malik məqsədyönlü, dialektik və geniş əhatəli marketinq sisteminin formalaşdırılması;

- təsərrüfat fəaliyyətini mexanikləşdirmək və informasiya təlimatını yaxşılaşdırmaq yolu ilə məhsuldarlığın yüksəldilməsində, yükdaşımalarda, yükləmə-yükboşaltma əməliyyatlarının və məhsulların satışında tərəqqiyə və sürətə malik olmaq;

- kiçik ailə təsərrüfatlarının və digər təsərrüfat subyektlərinin inteqrasiya olunmuş şəkildə birləşməsi və istehsal resurslarından birgə istifadəsi nəticəsində,aqrar marketinq sistemində təşkilati mexanizmləri inkişaf etdirmək;

- aqrar marketinq strategiyalarını və idarəetmə mexanizmlərini təkmilləşdirmək yolu ilə marketinqin idarəolunma sisteminin inkişafına nail olunması və s.

Nəticə

Beləliklə, aqrar sahədə infrastrukturun formalaşdırılması və inkişafı nəticəsində kənd təsərrüfatında müxtəlif ölçülü və mülkiyyət formalı təsərrüfatların yaradılması və fəaliyyətini düzgün qiymətləndirərək onlar arasında rəqabətin güclənməsinə,daha təkmil, çevik mexanizmə malik sahibkarlığın formalaşmasına və inkişafına imkan yaranar.

ƏDƏBİYYAT

1. “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”.
2. Alıyev İ.H. “Azərbaycan Respublikasında aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi”. Bakı, 2003.
3. Salahov S.V. “Aqrar sahənin dövlət tənzimlənməsi problemləri”. Bakı, 2004.
4. Ataşov B.X. “Ərzaq təhlükəsizliyinin aktual problemləri”. Bakı, 2005.

д.ф.н. Гюльниса Алисафа кызы Мустафаева,
магистр Элхан Искендер оглы Султанов
АУК

Формирование и развитие характеристик сельскохозяйственной инфраструктуры в аграрном секторе

Резюме

Конкурентоспособность в области сельскохозяйственного производства, повышение производительности и использования трудовых ресурсов, развитие обрабатывающей промышленности, формирование аграрного рынка, организация сетей маркетинга, управления и информационного вещания, сферы обслуживания, создание прогрессивных и новых требований, инфраструктурные решения и многие другие вопросы невозможно сформиро-

вать аграрную сферу. То есть подготовка и реализация стратегии аграрного развития играет важную роль в формировании и развитии конкурентоспособного сельскохозяйственного производства.

Ключевые слова: аграрная промышленность, перерабатывающая промышленность, инфраструктурные системы, конкурентоспособность, развитие аграрного сектора, система маркетинга.

Gulnisa Alisafa Mustafayeva
PhD of economics ACU,
masters Elxan Isgender Sultanov

Formation and developmental characteristics of agricultural infrastructure in the agrarian sector

Summary

Competitiveness in the field of agricultural production, increase of productivity and use of labor resources, development of processing industry, formation of agrarian market, organization of marketing, management and information broadcasting networks, service areas, creation of progressive and new requirements, infrastructure solutions and many other issues it is impossible to form an agrarian field. That is, the preparation and implementation of the agrarian development strategy, plays an important role in the formation and development of competitive agricultural production.

Key words: agrarian industry, processing industry, infrastructure systems, competition-resistant, agrarian sector development, marketing system.

Gültəkin Qabil qızı MƏMMƏDOVA
ADİU-nun baş müəllimi

AQRAR SEKTORDA ÖLKƏNİN MALİYYƏ SİSTEMİNİN MÖVCUD RESURS POTENSİALINDAN İSTİFADƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Xülasə

Məqalədə aqrar sahəyə investisiya qoyuluşlarının təşviqi zəruriliyi əsaslandırılmış, aqrar sektorda vergi güzəştlərinin tətbiqi mexanizmindəki mövcud problemlər aşkara çıxarılaraq qiymətləndirilmiş və kənd təsərrüfatı fəaliyyətinin kreditləşməsində bank kreditlərindən istifadənin artırılması yolları müəyyən edilmişdir.

Açar sözlər: aqrar sahə, investisiya, ərzaq təhlükəsizliyi, vergi güzəştləri, bank kreditləri.

Giriş

Ölkənin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində investisiyaların rolu çox mühümdür. Belə ki, birincisi, investisiyalar müəssisələrin əsas və dövriyyə fondlarının formalaşmasına gətirib çıxarır. İkincisi, müasir texnologiyalarla təchiz edilmiş təsərrüfatların istər istehsal, istərsə də emal sahəsində fəaliyyət göstərən digər mütərəqqi təsərrüfatlarla kooperasiya əlaqəsinə girmələrinə zəmin yaradır. Fikrimizcə, qeyd edilənləri nəzərə alaraq, müasir texnologiyaların kənd təsərrüfatına gətirilməsi və kənd təsərrüfatında istehsal münasibətlərinin modernəşdirilməsi üçün ayrı-ayrı məhsullar üzrə idxaldan asılılığı aradan qaldırmaqla ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində bu prosesi stimullaşdıran maliyyə-investisiya siyasəti həyata keçirilməlidir.

Aqrar sahəyə investisiya qoyuluşlarının təşviqi zəruriliyinin əsaslandırılması

Son dövrlərdə Azərbaycanda aqrar sahəyə qoyulan investisiyaların ümumi həcmindəki artıma baxmayaraq, ümumilikdə bu sahəyə investisiya qoyuluşları iqtisadiyyatın digər sektorları ilə müqayisədə çox aşağıdır. Son on ildə iqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş investisiyaların strukturuna baxdıqda, kənd təsərrüfatına yönəldilmiş investisiyaların payının orta

hesabla cəmi 3,05% olduğunu görmək olar. İqtisadiyyata qoyulan birbaşa xarici investisiyaların həcminin son illərdə bir neçə dəfə artmasına baxmayaraq, ölkədə kənd təsərrüfatı sektoruna birbaşa xarici investisiya, demək olar ki, qoyulmur. Bu səbəbdən də aqrar sahəyə investisiya qoyuluşlarının təşviqi "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə əsas prioritetlərdən biri kimi müəyyənləşdirilib. Prioritet çərçivəsində "Aqrar investisiya ehtiyaclarının qiymətləndirilməsi və investisiya layihələrinin hazırlanması" və "Aqrar sahədə investisiya mühitinin yaxşılaşdırılması" istiqamətində kompleks tədbirlərin görülməsi nəzərdə tutulur. Bu tədbirlər sayəsində 2020-ci ilədək aşağıdakı nəticələrin əldə olunması gözlənilir. [1, s. 87]:

- aqrar sektora cəlb edilən investisiyaların həcminin iki dəfə artması;
- inzibati rayonlar və sahələr üzrə azı 100 investisiya layihəsinin hazırlanması.

Fikrimizcə, dövlət hazırlanacaq investisiya layihələrini daim nəzarətdə saxlamalı və əsas hədəf gələcəkdə aqrar sahədə təsərrüfatlararası kooperasiyaların inkişafına təkan verəcək layihələrin reallaşdırılması olmalı, belə layihələrin reallaşdırılması məqsədilə kompleks vergi güzəştləri nəzərdə tutulmalıdır.

Aqrar sektorda vergi güzəştlərinin tətbiqi mexanizminin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə yönəldilməsi

Aparılan tədqiqat nəticəsində belə qənaətə gəlirik ki, kənd təssərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi ilə bağlı Azərbaycan Respublikasının Vergi Məcəlləsinə edilmiş dəyişiklik aqrar sahədə səmərəliliyin yüksəldilməsinə müsbət təsir göstərmişdir. Belə ki, kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin tətbiqi 2001-ci ildən başlayıb 2015-ci ilədək 1,4 milyard manat vəsaitin fermerlərdə qalmasına və həmin vəsaitin təkrar istehsalın inkişafına yönəldilməsinə imkan verib. Nəticədə istehsalın həcmi 4,4 dəfə artıb. Aqrar sektorda tətbiq edilən güzəşt mexanizmi sahibkarların xərc problemlərinin azalmasına gətirib çıxarıb. Mülkiyyətçilər üçün vergi güzəştləri nəticəsində kənd təsərrüfatında xərclər 10%-dək azalıb [2].

Yuxarıda qeyd olunanlarla yanaşı bir məsələ də nəzərə alınmalıdır ki, bəzən fermerlər arasında elə fikir yaranır ki, hazırda aqrar sahəyə tətbiq olunan azadolmalar kənd təsərrüfatının bütün fəaliyyət sferasını, o cümlədən aqrar kooperativlərin fəaliyyət sferasını əhatə edir. Məlumat üçün bildirək ki, Vergi Məcəlləsində nəzərdə tutulan azadolmalar yalnız istehsal edilmiş kənd təsərrüfatı məhsullarının istehsalçı tərəfindən satışına şamil edilir. Vergi Məcəlləsinin 13.2.60-cı maddəsinə əsasən isə kənd təsərrüfatı məhsullarının istehsalı dedikdə - heyvanların və quşların yetişdirilməsi, bəslənməsi (həmçinin sənaye üsulu ilə), diri şəkildə olarkən onlardan məhsulların (ilkin forması, kimyəvi tərkibi dəyişdirilmədən, yarımfabrikat kimi istifadə olunaraq yeni məhsula çevrilmədən, konservləşdirilmədən) əldə olunması, bitkiçilik məhsullarının becərilməsi nəzərdə tutulur. [3] Həmin məhsulların satışına azadolmanın tətbiq edilməsi üçün istehsal olunan (həmçinin sənaye üsulu ilə) canlılar diri formada, habelə onlardan diri şəkildə olarkən əldə olunmuş məhsullar ilkin formada, kimyəvi təsirsiz təqdim edilməlidir. Məsələn, fermer iri buynuzlu malı diri satarsa, vergi tətbiq edilmir, yox əgər kəsib satarsa, vergiyə cəlb olunmalıdır. Həmçinin, südün satışı vergiyə cəlb edilməsə də süddən hazırlanan məhsulların (yağ, pendir, xama və s.) satışına vergi tətbiq edilməlidir.

Kənd təsərrüfatı fəaliyyətinin kreditləşməsində bank kreditlərindən istifadənin artırılması yolları

Aqrar sahədə maliyyə çatışmazlığı şəraitində cari və maliyyə xərclərinin ödənilməsi baxımından müəssisə və təşkilatların diqqətini çəkə biləcək əsas maliyyə mənbəyi bank kreditləridir. Aqrar sahədə işləyən əhalinin gəlirləri, əksər hallarda, özəl qurumların, sahibkarlığın inkişaf etdirilməsi üçün pul yığımı yaratmağa imkan vermir. Belə şəraitdə özəl qurumlara, sahibkarlara başqa ölkələrdə olduğu kimi investisiya köməkliyinin göstərilməsi zəruri, gündəmdə olan bir nömrəli vəzifədir. Belə ki, bu sahəyə hər il müəyyən məbləğ vəsaitin ayrılması nəzərdə tutulur və ayrılır, lakin təşkilati-hüquqi baxımdan bu vəsaitin həddindən artıq az olması məsələnin həllinə lazımi köməklik göstərə bilmir. Maliyyə təminatı olmaması üzündən qeydiyyatdan keçmiş özəl qurumların bir çoxu ya fəaliyyətə başlaya bilmir, ya da məhdud səviyyədə fəaliyyət

göstərir. Belə ki, kənd təsərrüfatına dövlət büdcəsindən kifayət qədər və aşağı faizli kreditlərin ayrılmaması, beynəlxalq təşkilatların ayırdığı kreditlərin verilməsində isə bir sıra məhdudiyyətlərin olması kəndlinin kredit almaq imkanını çətinləşdirir. Kredit verən bankların yerlərdə şöbələrinin olmaması da kəndli üçün əlavə çətinliklər yaradır. Eyni zamanda, qəbul edilməlidir ki, banklar az gəlirli və riskli sayılan kənd təsərrüfatına kredit verməkdə bir o qədər də maraqlı deyillər və bu baxımdan da verilən kreditlər də xüsusi çəki etibarilə az olmuşdur. Bu da təbiidir, ona görə ki, kənd təsərrüfatı riskli sahədir. Təbiət hadisələri, daxili bazarın qorunmaması, bazar qiymətlərinin enib-qalxması alınmış borc vəsaitlərinin ödənilməsinə də təsir göstərir. Aqrar sahədə istehsalın mövsümiliyi və bilavasitə təbii amillərdən asılılıq sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxsləri yüksək faizli kredit götürməkdən çəkindirir. Buna görə də kənd təsərrüfatı məhsulları istehsalı üzrə fəaliyyət göstərən müəssisələrdə dövlətin kredit siyasəti başqa strukturlardan fərqlənməli, yeni güzəştlər müəyyənləşdirilməli, nəticə olaraq onların maliyyə vəziyyətinin yüksəldilməsinə şərait yaradılmalıdır.

Araşdırmalar göstərir ki, ölkəmizdə aqrar-sənaye müəssisələrinə banklar tərəfindən verilən kreditlərin həcmi çox azdır, faiz dərəcələri isə yüksəkdir. Son illərin dinamikasında respublika iqtisadiyyatının inkişafına ayrılan kreditin həcmi 2016-cı ildə 2005-cı ilə nisbətən 11,4 dəfə artdığı halda, aqrar bölməyə kreditin həcmi 4,5 dəfə artmışdır. Nəticədə aqrar bölməyə ayrılan vəsaitin ümumi kredit qoyuluşunun həcmində xüsusi çəkisi 2005-cı ildəki 6,8 faizdən 2016-cı ildə 2,7 faizə qədər enmişdir.

Aqrar-sənaye müəssisələrinə yönəldilən kredit qoyuluşlarının mövcud vəziyyətində çatışmayan əsas məsələlərdən biri də verilən kreditlərin əsasən qısamüddətli olmasıdır. Qeyd etməliyik ki, aqrar-sənaye müəssisələrinə yönəldilən kreditlərdə riskin səviyyəsi yüksəkdir. Aqrar sənayenin spesifik xüsusiyyətlərindən asılı olaraq bu sahəyə kredit qoyuluşu əsasən uzunmüddətli olmalıdır ki, sahənin maddi-texniki təminatını yüksəltmək mümkün olsun. Kreditlərin əsasən qısamüddətli olması o deməkdir ki, verilən kredit yalnız cari dövriyyə vəsaitinə olan tələbatı ödəyə bilir. Bu səbəbdən də son dövrlərdə aqrar-sənaye müəssisələrində əsaslı tikinti səngimiş, torpağın melorasiya və irriqasiya işləri kifayət qədər həyata keçirilməmiş, müasir tələblərə cavab verən yeni texnika və texnologiya az əldə edilmişdir. Bütövlükdə isə aqrar-sənaye müəssisələrinə kredit qoyuluşunun ümumi həcmi, yuxarıda göstərildiyi kimi, artmışdır.

Bazar iqtisadiyyatında bank sisteminin kredit imkanları aqrar sahənin inkişafı mühitini dəyərləndirmək baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu imkanların genişləndirilməsi dövlətin aqrar sahəyə kreditlərin verilməsi mexanizminin çevikliyindən asılıdır və müvafiq fondlar, müvəkkil bankların iştirakı ilə müsbət nəticələr verir. Hazırda kommersiya banklarının aqrar iqtisadiyyata nüfuz etməsi istiqamətində işlər aparılır. Kommersiya banklarının təşkil etdiyi kredit yarmarkalarında əksər rayonlar üzrə sifarişlər qəbul edilir.

Kənd təsərrüfatı sahəsinin maliyyə-kredit təminatının yaxşılaşdırılması istiqamətində Dünya Bankının "Təsərrüfatların özəlləşdirilməsi" layihəsi üzrə minlərlə sahibkara böyük məbləğdə kredit verilmişdir. Bu vəsaitlər özlüyündə aqrar qurumların inkişafı üzrə Beynəlxalq Fondla Azərbaycan hökuməti arasında aqrar sahənin regional inkişafı üzrə razılaşmalarda müsbət nəticələr vermişdir. Bu səpgidə "Dağlıq və yüksək dağlıq ərazilərdə kənd təsərrüfatının inkişaf etdirilməsi" proqramı üzrə əldə edilmiş kredit razılaşması bir çox rayonlarda həyata keçirilmişdir.

Aqrar-sənaye müəssisələrində kreditə olan tələbatın ödənilməsinin müxtəlif mənbələrinin araşdırılması üçün bank kreditləşdirilməsi təkmilləşdirilməlidir. Aqrar-sənaye müəssisələrində qısa müddətli kreditə olan tələbatın bir hissəsi kommersiya bankları tərəfindən aparılır. Kommersiya banklarının aqrar sahəyə marağı son dövrdə kifayət qədər artmışdır. Belə vəziyyəti şərtləndirən amillərə girov mexanizminin bazar münasibətlərinin formalaşması tempinə və istehsala uyğunlaşdırılmasındakı təkmilləşdirmələr aid olunmalıdır.

Nəticə

Aparılan iqtisadi araşdırmalar göstərir ki, aqrar-sənaye müəssisələrinin kreditləşdirilməsi üzrə çoxlu problemlər vardır və bu hal iqtisadi siyasətdə, o cümlədən kredit siyasətində dəyişikliklər aparılmasını və təkmilləşdirilməni tələb edir.

Şübhəsiz ki, iqtisadiyyatın tarazlı və dayanıqlı inkişafı səmərəli kredit qoyuluşu siyasətindən asılıdır. Kredit qoyuluşunun proqnozlaşması zamanı mövcud istehsal və yeni yaradılan obyektlərə vahid bir sistem kimi baxılmalıdır. Kreditləşmə burada birinci növbədə mövcud obyektlərin cari təsərrüfat mexanizminin tələbləri əsasında yenidən təşkilinə və texniki silahlanmasına yönəldilməlidir.

Aqrar-sənaye müəssisələrinin istehsal etdikləri məhsulun rəqabətə davamlılığını təmin etmək və dünya bazarına çıxmaq üçün bütün növ kapital və əsas vəsait qoyuluşlarını yeni texnika və texnologiyaların inkişafına yönəltmək, ondan istifadəni ön plana çəkmək lazımdır.

Tədqiqatlar göstərir ki, hazırkı inkişaf mərhələsində aqrar sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinin fəaliyyətlərinin iqtisadi səmərəliliyinin müəyyən olunması üçün elə göstəricilər sistemindən istifadə olunmalıdır ki, bu göstəricilər sistemi təsərrüfat və müəssisələrin istehsal imkanlarını əhatə etməklə, onların inkişafını, təsərrüfat subyektlərində həm istehsal və həm də maliyyə resusrlarından istifadəni tam xarakterizə edə bilsin.

Aqrar sahədə müəssisə və təsərrüfat subyektlərinin maliyyə resursları onların ixtiyarında olan və maliyyə öhdəliklərinin yerinə yetirilməsi, təkrar istehsalın genişləndirilməsi və işçilərin iqtisadi stimullaşdırılması ilə bağlı olaraq xərclərin azaldılmasına nail olunması, pul gəlirləri və daxilolmaların artırılmasıdır. Maliyyə resurslarının artırılmasına şəxsi vəsaitlərin, maliyyə bazarında resursların səfərbərliyə alınması və yenidən bölgü qaydasında maliyyə sisteminin pul vəsaitlərinin daxil olmasının həyata keçirilməsi yolu ilə nail oluna bilər.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
2. Əhmədov R.K. "Aqrar sektorun maliyyə təminatinin yüksəldilməsində vergi güzəştlərinin rolu". Azərbaycanın Vergi Jurnalı, 2015, №5, s.149-161.
3. Azərbaycan Respublikasının Vergi Məcəlləsi.

Гюльтекинь Габиль кызы Мамедова
ст. пред. АГЭУ

Совершенствование использования существующего ресурсного потенциалафинансовой системы страны в аграрном секторе

Резюме

В статье обоснована необходимость поощрения инвестиций в аграрный сектор, выявлены существующие проблемы в налоговоммеханизме в аграрном секторе и определены пути увеличения использования банковских кредитов в кредитовании сельскохозяйственной деятельности.

Ключевые слова: аграрный сектор, инвестиции, продовольственная безопасность, налоговые льготы, банковские кредиты.

Gultekin Gabil Mammadova
h/t. of ASEU

The country's financial system in the agrarian sector improving existing resource potential

Summary

The article outlines the necessity of encouraging investment in agrarian sector, the existing problems in the mechanism of application of tax discrimination in the agrarian sector have been assessed and ways to increase the use of bank loans in agricultural activity crediting have been identified.

Key words: agrarian sector, investment, food security, tax breaks, bank loans.

Günay Zahid qızı MƏMMƏDOVA
Azərbaycan Kooperasiya Universiteti
i.f.d., dosent

QUBA-XAÇMAZ İQTİSADİ RAYONUNDA AQRAR-SƏNAYE MÜƏSSİSƏLƏRİNİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Xülasə

Quba - Xaçmaz iqtisadi rayonu respublikanın mühüm kənd təsərrüfatı rayonu olub, təbii iqtisadi şəraitinə və sənaye əhəmiyyətli təbii resursların zənginliyinə görə respublikanın digər iqtisadi rayonlarından fərqlənir. Həmin sənaye əhəmiyyətli resursların istehsal dövriyyəsinə cəlb olunması sənaye sahələrinin inkişafı ilə yanaşı aqrar sənaye müəssisələrinin inkişaf istiqamətlərini müəyyənləşdirən əsas amillərdəndir.

Açar sözlər: bitkiçilik, taxılçılıq, meyvəçilik, heyvandarlıq, meyvə konserv emalı, ət-süd emal müəssisələri.

Giriş

Quba - Xaçmaz iqtisadi rayonunun əlverişli təbii iqtisadi şəraitə malik olması aqrar-sənaye müəssisələrinin inkişafında mühüm rol oynayan əsas amillərdən hesab olunur. Kənd təsərrüfatının əsas sahəsi hesab olunan bitkiçiliyin və heyvandarlığın sahələr üzrə inkişafı və ixtisaslaşması, aqrar-sənaye sahələrinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Bitkiçilikdə əsas yeri taxılçılıq, tərəvəzçilik, meyvəçilik; heyvandarlıqda isə iribuynuzlu maldarlıq, qoyunçuluğun yüksək səviyyədə inkişafı aqrar sənaye müəssisələrinin inkişaf istiqamətlərini müəyyənləşdirən əsas amillərdəndir. Son illərdə kənd təsərrüfatında olan dinamik inkişaf aqrar sənaye müəssisələrinin yeni istiqamətdə inkişafına zəmin yaratmışdır. İqtisadi rayonda aqrar sənaye müəssisələrinin inkişafı təsərrüfat sahələrinin inkişafından asılı olaraq fərqli xüsusiyyətlərə malikdir. İqtisadi rayonda taxılçılığın bazası əsasında un və un məmulatları istehsal edən 15 müəssisə fəaliyyət göstərir ki, onlardan üçü Şabran şəhəri, ikisi Siyəzən şəhəri, altısı Xaçmaz şəhəri, biri Qusar, üçü isə Quba şəhərində fəaliyyət göstərir.

Cədvəl 1.

Quba - Xaçmaz iqtisadi rayonunda un və un məmulatları istehsal edən sənaye müəssisələrinin strukturu

№	Müəssisənin ünvanı	Müəssisənin fəaliyyəti	Müəssisənin istehsal gücü	İşçilərin sayı
1	Şabran şəhəri üzrə	Un və un məhsulları istehsalı və çörəkbişirmə	İki müəssisə taxıl üyüdülməsi üzrə, bir müəssisə çörək bişirmə üzrə ixtisaslaşmış: istehsal gücləri 182 min ton taxıl və 45 ton çörək istehsalına malikdir.	100 nəfər
2	Siyəzən şəhəri	Yem istehsalı	Gündəlik 6 ton	3 nəfər
		Çörək bişirmə	İllik çörək istehsalı 198 ton .	8 nəfər
3	Xaçmaz şəhəri	Un məhsulları və çörək istehsalı	İldə 247 ton çörək; 184 ton un istehsal olunur.	34 nəfər
		Çörək istehsalı üzrə 4 müəssisə fəaliyyət göstərir	Həmin müəssisələr üzrə çörək istehsal olunur.	65 nəfər
		Peçenyə istehsalı	Gündəlik istehsal gücü: (40 - 50 kq) istehsal edir.	3 nəfər
4	Quba şəhəri üzrə	Çörək istehsalı, şirniyyat və paxlava istehsalı	İllik istehsal gücü 1500 ton çörək, gündəlik 50 kq şirniyyat, 50 kq paxlava istehsal olunur.	30 nəfər
5	Qusar şəhəri	Çörək istehsalı	İllik istehsal gücü. 360 ton	8 nəfər

Qeyd: Cədvəl inzibati rayonların müvafiq materialları əsasında tərtib olunmuşdur.

İqtisadi rayonda meyvə istehsal edən sənaye müəssisələri üzrə 9 ədəd müəssisə fəaliyyət göstərir ki, onlardan 3 ədədi Quba - Qusar, qalanları isə digər inzibati rayonların payına düşür. Şabran rayonunda meyvə şirəsi və şərab istehsalı, Xaçmaz rayonunda konserv məhsulları istehsalı, fındıq tədarükü fabriki, limonad istehsalı, quru meyvə istehsal edən müəssisələr fəaliyyət göstərir. [4, s. 35] Qusar şəhərində, "Qafqaz aqua" mineral süfrə suları və limonad istehsalı, meyvə şirəsi, qazlı və qazsız su istehsalı, Quba şəhərində konserv məhsulları istehsal edən sənaye müəssisələri fəaliyyət göstərir. [5, s. 52]

Quba - Xaçmaz iqtisadi rayonunda heyvandarlıq sahələrinin bazası əsasında bir sıra müəssisələr fəaliyyət göstərir. Həmin müəssisələrdən Şabran şəhərində fəaliyyət göstərən kolbasa istehsalı - illik istehsal gücü 360 ton kolbasa istehsalına malikdir. Xaçmaz rayonunda saçaqlı pendir istehsalı, Quba şəhərində fəaliyyət göstərən "süd emalı və süd məhsullarının istehsalı" müəssisələrini aid etmək olar. Quşçuluğun bazası əsasında quş əti istehsal edən müəssisələr bir çox inzibati rayonlarda fəaliyyət göstərir.

Şabran şəhərində quş əti istehsalı, emalı, yumurta istehsalı, broyler üsulu ilə quş əti istehsalı, Qubada quş əti istehsalı, Xaçmaz rayonunda quş əti istehsalı, Siyəzən rayonunda quş əti və yumurta istehsalı, damazlıq yumurta istehsalı müəssisələri fəaliyyət göstərir. [2, s. 18]

Nəticə

Aparılan təhlillərdən belə nəticəyə gəlmək olur ki, təhlil olunan iqtisadi rayon ərazisində bitkiçilikdə müasir aqrotexniki qaydalardan səmərəli istifadə olunmaqla, məhsuldarlığı artırmaq yolu ilə fəaliyyət göstərən müəssisələrin istehsal gücündən tam istifadə etməklə aqrar sənaye məhsullarını 2 - 3 dəfə artırmaq mümkündür. Heyvandarlıq sahəsində mütərəqqi metodlardan və texnologiyalardan səmərəli istifadə etməklə bu sahədə yeni nailiyyətlər qazanmaq olar. Xüsusilə qapalı şəraitdə say başla az iribuynuzlu heyvan saxlamaqla daha çox məhsuldarlığa nail olmaq olar. Ət və süd məhsullarının daşınması prosesində baş verən itkini azaltmaq məqsədilə heyvandarlıq təsərrüfatının bazası əsasında ilkin emal müəssisələrinin yaradılması məsləhət bilinir.

ƏDƏBİYYAT

1. Alıyev İ.H. "Aqrar sahənin inkişafının təkmilləşdirilməsi və regionlarda istehsalatların keyfiyyətcə səmərəli aparılması". Bakı, 2004.
2. İmrani Z.T. "Quba - Xaçmaz iqtisadi rayonu". Bakı, 2007.
3. Qurbanzadə A.A. "Aqrar strukturun regional inkişaf modeli" . Bakı, 2004.
4. Paşayev N.Ə. "Quba - Xaçmaz iqtiadi rayonunda istehsalın ərazi təşkilinin müasir problemləri. AMEA-nın Xəbərləri, Yer elmləri seriyası" Bakı, 2000.
5. Məmmədov. Z.S. "Regionların iqtisadi inkişaf problemləri". Bakı, 2007.

Гюнай Захид кызы Мамедова
Азербайджанский Университет Кооперации
доктор философии по экономическим наукам, доцент

Особенности развития агропромышленных предприятий Губа-Хачмазского экономического района

Резюме

В статье обосновываются направления развития агропромышленных предприятий на основе сельскохозяйственной базы Губа-Хачмазского экономического района. Определяются перспективы предприятий перерабатывающей промышленности аграрного сектора на основе продукции растениеводства и животноводства по административным районам.

Ключевые слова: растениеводство, зерноводство, фруктоводство, животноводство, переработка и консервирование фруктов, мясомолочные перерабатывающие предприятия.

Gunay Zahid Mammadova
PhD of economics, senior lecturer,
Azerbaijan Cooperation University

The progress features of Agrarian Industrial Enterprises in economic region Quba - Khachmaz

Summary

The progress features of agrarian industrial enterprises are defined on the base of agriculture of economic region Quba - Khachmaz in the article. The perspectives of agrarian processing enterprises on the base of plant and cattle - breeding products over the administrative regions are defined in the article.

Key words: plant, grain growing, fruit growing, cattle - breeding, fruit can processing, meat, diary processing enterprises.

Günay Şadət qızı MUSAYEVA
Azərbaycan Kooperasiya Universitetinin
"İqtisadi nəzəriyyə" kafedrasının müəllimi

AZƏRBAYCAN KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN YÜKSƏLDİLMƏSİ PROBLEMLƏRİ

Xülasə

Məqalədə kənd təsərrüfatı sektorunun dünya bazarlarında malik olduğu rəqabət üstünlükləri qiymətləndirilmış və bu üstünlüklərdən səmərəli istifadə olunması məsələləri araşdırılmışdır. Əvvəlcə rəqabətqabiliyyətlilik problemi ilə bağlı mövcud nəzəri yanaşmaların icmalı və ümumiləşdirilməsi aparılmış, eyni zamanda, kənd təsərrüfatı sektorunun rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi üçün metodologiya seçimi müəyyənləşdirilmişdir. Kənd təsərrüfatı sektoru üzrə rəqabətqabiliyyətliliyin qiymətləndirilməsi üçün Aşkar Müqayisəli Üstünlüklər metodu seçilmiş, müvafiq nəticələr alınmış və tövsiyələr verilmişdir.

Açar sözlər: rəqabətqabiliyyətlilik, Balassa indeksi, Xalis İxrac İndeksi, Grubel-LLoyd indeksi, sahədaxili inteqrasiya, sahələrarası inteqrasiya, kənd təsərrüfatı məhsulları.

Giriş

Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunun formalaşdırılmasına nail olmaq üçün ərzaq təhlükəsizliyinin dayanıqlılığının gücləndirilməsi, kənd təsərrüfatı məhsullarının istehsal potensialının dəyər zəncirinin həlqələri üzrə artırılması, kənd təsərrüfatı sahəsi üzrə istehsal vasitələri bazarının inkişafı və müvafiq resurslara, o cümlədən maliyyəyə çıxışın asanlaşdırılması, kənd təsərrüfatı sahəsində elmi təminatın və təhsilin keyfiyyətinin yüksəldilməsi və məsləhət-informasiya xidmətləri sisteminin inkişaf etdirilməsi, bazar infrastrukturunun inkişafı və istehsalçıların bazara çıxışının asanlaşdırılması, təbii resurslardan dayanıqlı istifadə mexanizmlərinin formalaşdırılması, aqrar sahə üzrə biznes mühitinin təkmilləşdirilməsi və kənd yerlərində rifahın yüksəldilməsi məsələlərinin öyrənilməsi mütləqdir. Məhz "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin qəbulu və icrası deyilənlərin aktuallığının sübutudur.

Kənd təsərrüfatı məhsullarının rəqabətqabiliyyətliliyinin təhlili üçün istifadə edilən informasiyanın mənbəyi isə Dünya Bankının World İntegrated Trade Solution məlumat bazası və Ümumdünya Ticarət Təşkilatının PC-TAC ticarət statistikası məlumat bazasıdır və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin müvafiq statistik göstəriciləridir.

Ölkənin cari rəqabət üstünlüklərinin qiymətləndirilməsində B.Balassa (1965) tərəfindən irəli sürülmüş Aşkar müqayisəli üstünlüyün (AMÜ) Balassa prinsipi metodundan daha geniş istifadə

edilir. Bu tədqiqat metodu, ölkənin müxtəlif amillərə əsaslanan və həmçinin hazırda reallaşdırılan rəqabət üstünlüklərinin "görünən" nəticəsi olan xarici ticarət göstəriciləri əsasında təhlil aparmaqla, ölkənin cari rəqabət üstünlüklərini qiymətləndirməyə imkan verir. [3,s.315]

AMÜ Balassa prinsipi metodu ilə rəqabət üstünlüklərinin qiymətləndirilməsi üçün bir neçə göstərici vardır. Bu göstəricilərdən biri B.Balassanın (1965) özü tərəfindən təklif olunmuş Balassa indeksidir. [2, s.30] Balassa indeksi (Bij) aşağıdıkı kimidir:

$B_{ij} = X_{ij} \backslash X_{iw}$ Burada: X_{ij} - i məhsulunun ixracının ölkənin ümumi ixracında payı;

X_{iw} - i məhsulunun dünya üzrə ixracının ümumi dünya ixracında payıdır.

Balassa indeksi sadəcə, j ölkəsində i məhsulunun ixracının j ölkəsinin ümumi ixracında payını, həmin məhsulun dünya üzrə ixracının ümumi dünya ixracında payı ilə müqaiysə edir. Balassa indeksinin 1-dən çox olması rəqabət üstünlüyünün mövcudluğunu, 1-dən aşağı olması isə onun mövcud olmadığını göstərir.

Məhsulların xarici bazarlarda potensial rəqabət üstünlüyünü qiymətləndirməkdən ötrü biz başqa bir AMÜ göstəricisi olan Xalis İxrac İndeksindən də istifadə etməliyik (NER_{ij}) [2, s.14]:

$$RCA_{NERij} = (X_{ij} - M_{ij})/ (X_{ij} + M_{ij})$$

Burada: X_{ij} - i məhsulunun j ölkəsi tərəfindən ixracı; M_{ij} - i məhsulunun j ölkəsinə idxalıdır.

Bununla belə,müasir dövrdə beynəlxalq ticarət sistemi tam liberal deyil və mövcud ticarət axınları yalnız sərbəst bazar amillərinin obyektiv təsiri, hökumətlərin beynəlxalq ticarətlə bağlı siyasətindən və digər iqtisadi siyasət tədbirlərindən əsaslı dərəcədə asılıdır. [1, s.27]

Qeyd etdiyimiz problemi aradan qaldırmaq üçün, ölkədə sahədaxili və sahələrarası ticarətin keyfiyyətini təhlil etmək lazımdır. İstifadə ediləcək Grubel-Lloyd indeksi hər hansı bir məhsul yaxud xidmətlə ticarətin sahədaxili strukturunu müəyyən etməyə imkan verir ki, GL indeksi vahidə nə qədər çox yanınlaşarsa sahədaxili ticarətin keyfiyyəti bir o qədər yaxşılaşar:

$$I_{G-I} = \frac{\sum_{i=1}^{n}(X_i + M_i) - \sum_{i=1}^{n}|X_i - M_i|}{\sum_{i=1}^{n}(X_i + M_i)} = 1 - \frac{\sum_{i=1}^{n}|X_i - M_i|}{\sum_{i=1}^{n}(X_i + M_i)}$$

Cədvəl 1.

İxrac edilən məhsulların rəqabətqabiliyyətinin Balassa İndeksi ilə qiymətləndirilməsinin nəticələri

HS-kodu	**Mal qrupları**	**BALASSA İNDEKSİ** $_{ixrac}$				
	Cəmi / İllər	2012	2013	2014	2015	2016
7	Tərəvəzlər, meyvəköklülər və kök yumruları	0,67	0,75	1,25	2	3,5
8	Yeməli meyvələr və qoz-fındıq, sitrus bitkiləri	1,8	1,6	1,5	3,17	3,86
9	Qəhvə, çay, mate və ədviyyatlar	0,67	1	0,33	0,67	0,33
15	Heyvan və ya bitki mənşəli piylər və yağlar	1,5	2	1,8	2,6	0,4
	Hazır ərzaq məhsulları, spirtli və spirtsiz içkilər, sirkə, tütün		-	-	-	
16	Ətdən və balıqdan alınan hazır məhsullar	0,33	-	-	-	
17	Şəkər və şəkərdən hazırlanan qənnadı məmulatları	3	3,67	5	9,5	2,34
18	Kakao və ondan hazırlanan məhsullar	-	0,5	0,33	0,33	0,33
19	Taxıldan, undan və ya süddən alınan hazır məhsullar, unlu qənnadı məmulatları	-	-	-	-	
20	Tərəvəz, meyvə, qoz- fındıq və bitkilərin digər hissələrinin emal məhsulları	0,33	0,33	0,33	0,25	0,25
22	Spirtli və spirtsiz içkilər, sirkə	0,17	0,17	0,17	0,33	0,28
23	Yeyinti sənayesinin qalıqları və tullantıları	0,25	-	-	-	0,25
24	Tütün və tütünün sənaye əvəzediciləri	-	-	0,5	0,5	0,33

Mənbə:Cədvəldəki hesablamalar müəllif tərəfindən http://www.stat.gov.az/source/trade/ və /www.wto.org, http://data.worldbank.org materiallarına əsasən aparılmışdır.

Ayrı-ayrı məhsullar üzrə təhlil apardıqda isə bitki yağları və çay üzrə sahədaxili ticarətə zəif; meyvə və tərəvəz konservləri, marqarin, qida üçün yararlı digər qarışıqlar, şəkər, təbii üzüm şərabları və üzüm suslosu, kartof üzrə sahədaxili ticarətə güclü; təzə tərəvəz,təzə meyvələr, meyvə və tərəvəz konservləri üzrə sahələrarası ticarətə zəif, meyvə və tərəvəz şirələri,tütün üzrə sahələrarası ticarətə güclü meyil olduğu məlum olur. (Cədvəl 2)

Beləliklə, Aşkar Müqayisəli Üstünlüklərin Balassa prinsipi metodu ilə aparılan qiymətləndirməyə və ixrac edilən əmtəənin strukturunun təhlilinə əsasən Azərbaycanda istehsal edilən aşağıdakı kənd təsərrüfatı və emal sənayesi məhsulları beynəlxalq rəqabətqabiliyyətliliyə malikdirlər:

- kənd təsərrüfatı məhsulları: tütün, alma, qoz-fındıq, subtropik meyvələr, digər meyvə və giləmeyvələr, yaşıl çay, tərəvəzlər, təbii bal, dərman bitkiləri, yağlı toxumlar, pambıq, yun, göndəri xammalı, xam ipək və s.;

Cədvəl 2.

İxrac edilən məhsulların rəqabətqabiliyyətinin Xalis İxrac İndeksi (RCA) və GL indeksi ilə qiymətləndirilməsinin nəticələri

HS-kodu	**Mal qrupları**	**Xalis İxrac İndeksi (RCA) 2016-cı il üçün**	***Grubel-Lloyd İndeksi (2016-cı il üçün)***
	Diri heyvanlar və heyvan mənşəli məhsullar	-0,95	0,047
1	Diri heyvanlar	-0,96	0,038
2	Ət və əlavə ət qida məhsulları	-1,00	0,003
3	Balıqlar və xərçəngkimilər, digər su onurğasızları	-0,98	0,020
7	Tərəvəzlər, meyvəköklülər və kök yumruları	0,35	0,649
8	Yeməli meyvələr və qoz-fındıq, sitrus bitkiləri	0,54	0,461
9	Qəhvə, çay, mate və ədviyyatlar	-0,78	0,225
12	Yağlı toxum və meyvələr, digər toxum, dərman bitkiləri	-0,80	0,197
	Hazır ərzaq məhsulları, spirtli və spirtsiz içkilər, sirkə, tütün	-0,70	0,302
16	Ətdən və balıqdan alınan hazır məhsullar	-0,96	0,038
20	Tərəvəz, meyvə, qoz- fındıq və bitkilərin digər hissələrinin emal məhsulları	-0,38	0,623
23	Yeyinti sənayesinin qalıqları və tullantıları	-0,69	0,305

Mənbə:Cədvəldəki hesablamalar müəllif tərəfindən http://www.stat.gov.az/source/trade/ və /www.wto.org, http://data.worldbank.org materiallarına əsasən aparılmışdır.

- kənd təsərrüfatının emalı məhsulları: təbii meyvə şirələri, meyvə-tərəvəz konservləri, şərabçılıq məhsulları, fermentləşdirilmiş tütün, siqaret, pambıq yağı, zeytun yağı, saflor yağı və digər bitki yağları və s.;

- ölkəmizdə kənd təsərrüfatı məhsullarına tələbin qiymət elastikliyi 0,20-0,25 arasında dəyişir və qeyri-elastikdir. Sahədə qiymətin dəyişməsinə tələb və təklif zəif təsir etdiyi onu göstərir ki, ərzaq məhsulları istehsalı sahəsində tələb-təklif münasibətləri lazımi dinamikada inkişaf etmir;

- istehlak bazarı sektorunda rəqabətqabiliyyətliliyin təhlili nəticəsi göstərir ki, aparılan siyasət sahənin, xüsusilə aqrar sektorun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi baxımından kifayət qədər təsirə sahib deyil. İstehsal vasitələrindən fərqli olaraq, Azərbaycanda fermerlərin istehsal etdikləri məhsulların beynəlxalq paritet qiymətləri daxili qiymətlərindən yüksəkdir. O cümlədən, aqrar sahədə monopsoniya və lokal inhisarçılığın olması, istehlak malları istehsalı sahəsində maddi-texniki baza, istehsal güclərinin zəifliyi, sahədə sosial və bazar infrastrukturunun nizamsızlığı, kadrların hazırlığı və ixtisas-peşə səviyyəsinin lazımi səviyyədə olmaması da önəmli maneədir.

Ölkədə yerli kənd təsərrüfatı xammalı əsasında ənənəvi olaraq fəaliyyət göstərən, nisbətən inkişaf etmiş emal sənayesi də mövcud olsa da, dövriyyə vəsaitinin çatışmamazlığı və bazar münasibətlərinə uyğun fəaliyyətə keçə bilməmələri səbəbindən öz istehsal güclərindən zəif istifadə edir. Həmçinin, emal sənayesi müəssisələrinin texnoloji avadanlıqları fiziki aşınıb və beynəlxalq standartlara tam uyğun deyil. Bu problemlər isə müəssisələrdə keyfiyyətli və rəqabətqabiliyyətli məhsullar istehsal edilməsinə böyük maneədir.

Son illər yerli və xarici investorların investisiyaları ilə çay, ət və süd məhsulları, meyvə-tərəvəz şirələri və konservləri, bitki yağları, pivə, şərab məhsulları, istehsalı müəssisələri müasir texnologiyaların tətbiqi ilə yenidən qurulmuş, müasir texnologiyalar əsasında fəaliyyət göstərən yeni müəssisələr yaradılmışdır. Həmçinin, kənd təsərrüfatına dövlət dəstəyinin davam etdirilməsi, tütünçülük, heyvandarlıq, taxılçılıq, pambıqçılıq və baramaçılığın inkişafının sürətləndirilməsi üçün 2017-ci ildə dövlət və icmal büdcələrdən 581,0 mln. manat vəsait ayrılıb. Xüsusilə, pambıqçılığın inkişafı məqsədilə xüsusi təyinatlı kənd təsərrüfatı texnikalarının alınmasına son iki ildə 295,0 milyon manat vəsait ayrılıb, pambıq istehsalına görə 30,0 milyon manatadək subsidiya verilib.

Hesab edirik ki, yuxarıdakı maneələr aradan qaldırılmaq şərtilə, xarici bazarlarda məhz hazırda cari və potensial rəqabət üstünlüyünə malik məhsulların sahəvi və regional inkişafı, zəruri infrastrukturların qurulması, istehsalçıların istehsal vasitələrinə, informasiya-məsləhət xidmətinə, daxili və xarici bazarlara çıxışının asanlaşdırılması, müvafiq sahələrdə elm və təhsilin keyfiyyətinin yüksəldilməsi nəticəsində kiçik və orta sahibkarlıq subyektləri tərəfindən ixracı stimullaşdırmaqla ixracın şaxələndirilməsi və daxili bazarda xarici mallarla rəqabətə davamlı yerli məhsulların istehsalı mümkündür.

Nəticə və təkliflər

Cədvəl 1-də əks edilən təhlil nəticələri göstərir ki, nəzərdən keçirilən zaman kəsiyində kənd təsərrüfatı məhsullarımızdan beynəlxalq rəqabət üstünlüyünə malik məhsullar tərəvəzlər, meyvəköklülər və kök yumruları, yeməli meyvələr və qoz-fındıq, sitrus bitkiləri, heyvan və ya bitki mənşəli piylər və yağlar, şəkər və şəkərdən hazırlanan qənnadı məmulatlardır.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasında kənd təsərrüfatı sektorunun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemləri". Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi, İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu. Bakı, 2009. s. 104.
2. Karaaslan Ahmet, Tuncer Güner. Uluslararası Rekabet Gücünün Artırılmasında Temel Devlet Politikaları. Dumlupınar Universitesi Sosyal Bilimler Dergisi. Sayı 26, Nisan 2010, s. 12-45.
3. Белова Л.Г. Эволюция подходов к оценке конкурентных преимуществ различных стран. Аудит и Финансовый анализ. №5, 2012, с.314-319.

Гюнай Шадет кызы Мусаева
Пред. АУК

Проблемы повышения конкурентоспособности сельскохозяйственной продукции в Азербайджане

Резюме

В статье оцениваются конкурентные преимущества сельскохозяйственного сектора на мировых рынках и изучено пути эффективного использование этих преимуществ. Первоначально сделан обзор обзор и обобщение существующих теоретических подходов к проблеме конкурентоспособности и методологии оценки конкурентоспособности сельскохозяйственного сектора. Были выбраны сравнительные сравнительные методы оценки конкурентоспособности в сельскохозяйственном секторе, получены соответствующие результаты и даны рекомендации.

Ключевые слова: конкурентоспособность, индекс Балассы, индекс чистого экспорта, индекс Грубеля-Ллойда, внутриотраслевая интеграция, межотраслевая интеграция, сельскохозяйственные продукты.

Musayeva Gunay Shadat
Teacher ACU

Problems of raising competitiveness of agricultural products in Azerbaijan

Summary

In this article, the competitive advantages of the agrarian sector are evaluated in the global markets and are explored effectively by the use of the advantages. Firstly, the review of theoretical approaches to the challenge of non-competitiveness and methodology of assessment of the competitiveness of the agricultural sector had been done. The revealed comparative method had been chosen to estimate the competitiveness of the agricultural sector, obtained essential conclusions and given recommendation.

Key words: competitiveness, balassa index, the net export index (NEI), index of Grubel-Lloyd index , intra-industry integration, inter-industry integration, agricultural products.

Möhübbət Musa oğlu HÜSEYNOV
i.f.d., dosent, Azərbaycan Kooperasiya Universiteti

AQRAR SAHƏDƏ KLASTERLƏRİN İNKİŞAFI

Xülasə

Ölkə iqtisadiyyatının ən mühüm və aparıcı sahələrindən biri olan aqrar sahənin modernləşməsində klasterlərin inkişafı mühüm rol oynayır. Hər bir regionun xüsusiyyətlərinə uyğun aqrar klasterlərin düzgün seçilərək təşkil olunması və inkişaf etdirilməsi günümüzün vacib məsələlərindəndir. Məqalədə, yuxarıda göstərilənlər ətraflı araşdırılmış və konkret təkliflər verilmişdir.

Açar sözlər: aqrar sahə, modernləşmə, klasterli inkişaf, texnoparklar, region.

Giriş

Son illər iqtisadi leksikonumuza daxil olan və haqqında geniş bəhs edilən terminlərdən biri də klasterlərdir. Düzdür, bu ifadə dilimizdə yeni səslənsə də, əslində onun məzmun elementləri əvvələ gedib çıxır. Məsələn, əvvəl yaşadığımız keçmiş iqtisadi sistemdə ölkə iqtisadiyyatının əsas və aparıcı sahələrinin kompleks inkişafına dair müxtəlif proqramlar qəbul edilir, tədbirlər həyata keçirilirdi. Lakin beynəlxalq yanaşmaya görə, müasir dövrdə rəqabətqabiliyyətli iqtisadiyyatın inkişafı - klaster yanaşma meyilləri ilə çulğalaşır.

Klaster yanaşması - əlavə dəyəri əmələ gətirən yeni istehsal və xidmət sahələrinin yaradılması ilə bağlı və elmi əsaslara söykənməklə, ölkənin dünya bazarındakı müqayisəli üstünlüklərini əks etdirir. O, əsasən bir məhsul, yaxud bir sahə üzərində qurularaq, kompleks şəkildə formalaşmanı və inkişafı təmin edir. Bu zaman istehsal fəaliyyəti, məhsulun emalı, hazır məhsulun əldə olunması, bazara çıxarılması və istehlakçılara çatdırılması kimi marketinq tədbirləri kompleks və ardıcıl formada həyata keçirilir. Bunlarla yanaşı, yaranmış mövcud resurslardan və infrastruktur imkanlarından daha səmərəli istifadə olunur.

Klasterlərə nəzəri yanaşmalar

Klaster dedikdə, müəyyən bir ərazi və sahə əlamətləri üzrə istehsal, infrastruktur, innovasiya, marketinq və digər proseslərin birgə fəaliyyətini nəzərdə tutan, həmçinin yüksək rəqabətqabiliyyətlilik və iqtisadi səmərəlilik meyarlarına əsaslanan bütöv iqtisadi proses başa düşülür.

Qeyd edək ki, "...müxtəlif iqtisadi ədəbiyyatlarda klaster yanaşma nəzəriyyəsinin banisi kimi Harvard Universitetinin məşhur professoru Maykl Porter götürülür. "Rəqabət" kitabında Porter hər hansı bir dövlətdə və ya regionda inkişaf strategiyası klasterlərinin müvəffəqiyyətli tərəqqi faktoru olduğunu bildirmişdir.

Porterə görə klasterlər - müəyyən sahədə fəaliyyət göstərən, bir-birini tamamlayan, coğrafi cəhətdən qonşuluq edən, qarşılıqlı əlaqədə olan kompaniyalar və onunla bağlı təşkilatlardır. Av-

ropa ölkələrində dövlət və regionların rəqabətədavamlılığının artırılmasında klaster yanaşması siyasəti geniş vüsət tapmışdır". [1, s.10-11]

İqtisadçı alim Vüsal Qasımlı isə hesab edir ki, "klasterlər - son istehsalçılar, təchizatçılar, xidmət provayderləri, tədqiqat laboratoriyaları, tədris müəssisələri və iqtisadiyyatın müəyyən sahəsi üzrə digər təsisatlar regional iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsidir... Əgər inkişaf etmiş dövlətlərdə klasterlər daha çox biznes mühitinin yaxşılaşmasında fokuslaşırsa, inkişaf etməkdə olan və keçid ölkələrində əlavə dəyərin yaranması və ixracın gücləndirilməsi istiqamətində fokuslaşma var. Məsələn, inkişaf etməkdə olan dövlətlərdə donor təşəbbüsü ilə yaranan klasterlərdə ixracın genişləndirilməsi hədəflənməklə, təchizat zəncirinin inkişafı məqsəd seçilr. Əlavə dəyərin artırılması və biznes mühitinin yaxşılaşdırılması da seçilən məqsədlər arasındadır. Keçid ölkələrində isə donor təşəbbüsü ilə yaranan klasterlər daha çox ixracın təşviqi və əlavə dəyərin artırılması məqsədi daşıyır. Bu mənada, dövlət və ya biznesin təşəbbüsü ilə yaranan klasterlərdə məqsəd dəyişir.

Klasterlərin inkişaf konsepsiyasında aşağıdakı kəmiyyət və keyfiyyət qiymətləndirilmə üsullarından istifadə edilir: lokallaşma əmsalı, regional "xərclər - buraxılış" cədvəli, Porterin rəqabət üstünlükləri rombu, bazarların qiymətləndirilməsi, marketinq tədqiqatı, ekspert qiymətləndirilməsi və s.". [2, s. 210 - 211]

Təhlillər göstərir ki, bu gün dünyada klasterlərin inkişafına əsasən 3 yanaşma meyli mövcuddur. Bunlar aşağıdakılardır:

1) Amerika (Şimali Amerika - ABŞ, Kanada) modeli. Bu modelin tətbiqi zamanı dövlət dəstəyinə daha çox istinad edilir və onun yardımlarından istifadə olunur;

2) Avropa modeli. Bu zaman isə həm dövlət, həm də özəl qurumların vəsaitlərindən istifadə olunaraq, onların birgə fəaliyyəti təmin edilir;

3) Asiya modeli. Bu gün dünyada böyüklüyü və iqtisadi artım templəri ilə diqqəti çəkən Asiya dövlətlərində, xüsusən də Çin, Yaponiya, Hindistan və digər iqtisadi sıçrayışa malik ölkələrdə müşahidə olunur.

Çağdaş dövrdə, klaster yanaşma əsasında iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi məsələləri - dünyanın əksər ölkələrinin inkişaf strategiyasının əsas məsələsinə çevrilmişdir. Bunu, son on il ərzində 20 ölkədə ("iyirmilik") həyata keçirilən klaster yanaşmaları sübut edir. Bura isə Şimali Amerika (ABŞ və Kanada), Avropa Birliyi və Cənub-Şərqi Asiya ölələri daxildir. Həmin ölkələrdə klasterləşmə tədbirləri ölkə iqtisadiyyatının 50%-ə qədərini təşkil edir. Yaradılmış klasterlər və innovasiya mərkəzlərinin əsas nümunələrinə aşağıdakıları misal göstərə bilərik: Silikon vadisi (ABŞ), Endhoven - Leven - Aahen beynəlxalq klasteri (qısa adı ELAT, Niderland - Almaniya - Belçika), rəqabət qabiliyyətli klaster (Fransa), gəmiqayırma klasteri(Cənubi Koreya), biotexnoloji vadi (İsveçrə), maşınqayırma klasterləri (Yaponiya), "Şanxay zonası"(ÇXR) və s.

Klasterlərin yaranması və inkişafı (təkamülü) sahəsində dünya təcrübəsi göstərir ki:

1) klaster yanaşmasının tətbiqi iqtisadi inkişafın qanunauyğun mərhələsini əks etdirir və onun genişlənməsi - iqtisadiyyatın yüksək səviyyəli inkişafının başlıca əlaməti kimi qəbul edilə bilər;

2) klaster siyasətinin əsasını (bünövrəsini) aidiyyatı dövlət orqanları, biznes subyektləri və elm - təhsil qurumlarının sıx qarşılıqlı əlaqəsini təmin edən üçbucaq sistemi təşkil etdir;

3) klasterlər bilavasitə "yuxarıların" göstərişi ilə deyil, innovasiyalı inkişaf prosesində formalaşırlar. Bu prosesdə dövlətin əsas məqsədi - həmin proseslərin daha çevik və ardıcıl şəkildə təşkil olunmasına hərtərəfli yardım göstərilməsidir;

4) klasterlərin əsas xüsusiyyəti - onun iştirakçılarının sinergetik səmərəliliyinin əldə olunması, başqa sözlə desək - ora daxil olan müxtəlif təşkilatların məcmu rəqabətqabiliyyətlilik göstəricilərinin, ayrılıqda fəaliyyət göstərən təsərrüfat subyektlərinə nisbətən yüksək olmasıdır;

5) yeni forma klasterlərin keçmiş sənaye klasterlərindən (komplekslərdən) əsas fərqləndirici xüsusiyyəti - onların innovasiya yönümlü olmasıdır və s.

Müşahidələr göstərir ki, 2030-cu ilə qədər yüksək texnologiyalı məhsullar bazarının həcmi 10 - 12 trilyon ABŞ dollarına qədər, xammal resursları bazarının həcmi isə 1,5 trilyon ABŞ dol-

larına qədər arta bilər. Fərq göz qabağındadır. Həm də bio və nano texnologiyalar, kompozitlər və s. kimi yeni materiallar iqtisadiyyatın hərtərəfli inkişafına güclü təsir göstərməkdədir. Bu baxımdan, Azərbaycan Respublikasında klasterlərin inkişafı sahəsində dövlət siyasətinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi zamanı, yuxarıdakı amillərin nəzərə alınması mütləq və zəruridir.

Aqrar sektorun regionlarda inkişaf meyilləri

Məlumdur ki, ölkə iqtisadiyyatının müqayisəli üstünlüklər baxımından prioritet əhəmiyyət kəsb edən ən mühüm sahələrindən biri də kənd təsərrüfatıdır. O, qeyri-neft sektorunda xüsusi çəkiyə və yerə malik olmaqla, çoxsahəli və çoxfunksiyalı missiyanı yerinə yetirir. Xüsusən də bu sahənin sosial-iqtisadi, ekoloji, innovasiyalı və informasiya xarakterli funksiyaları, göstərilənlər baxımından böyük əhəmiyyət kəsb edir. Aparılan təhlillər göstərir ki, bu gün respublikamızda kənd təsərrüfatına yararlı 4 milyon 757,2 min hektar torpaq sahəsi vardır. Onun 38,5%-i, yaxud 1 milyon 832, 5 min hektarı isə əkin üçün yararlı sahələrdir. Adambaşına kənd təsərrüfatına yararlı torpaq sahəsi və əkin yeri isə, anoloji olaraq 0,55 hektar və 0,20 hektar təşkil edir. Bu gün ölkə üzrə ümumi daxili məhsulun (ÜDM) 5,4%-i, əsas fondların 7,9 %-i, məşğul əhalinin 38%-i isə aqrar sahənin payına düşür. Eyni zamanda, aqrar sahədə 2 min 800 fərdi sahibkarlıq subyekti, 10 mindən artıq ailə-kəndli təsərrüfatı, 24 min kənd təsərrüfatı müəssisəsi, həmçinin 550-dən artıq emal qurumu və s. mövcuddur.

Kənd təsərrüfatının mühüm bölməsi olan bitkiçilikdə son 10 ildə əkin sahələri 64,2 min hektar artmışdır. Bununla yanaşı, bir çox bitki növləri üzrə məhsuldarlıq səviyyəsində də əhəmiyyətli artımlar əldə olunmuşdur. Göstərilən amillər nəticəsində isə həmin dövrdə bitkiçilik məhsulları istehsalı 3 dəfə artmış və 2 milyard 627 milyon manat olmuşdur. Əgər heyvandarlıq məhsulları istehsalı 2004-cü ildə 697 milyon manat təşkil etmişdirsə, artıq 2013-cü ildə 2 milyard 617 milyon manat həcmində olmuş (təxminən 3,8 dəfə artmış) və beləliklə, ümumi kənd təsərrüfatı məhsulunun tərkibindəki payı 49,5%-ə çatmışdır. Belə ki, son on il ərzində iribuynuzlu mal-qaranın baş sayı 17,1% artaraq 2 milyon 713 min başa, qoyun və keçilərin baş sayı 15,6% artaraq 8 milyon 661 min başa, quşların sayı isə 40,1% artaraq 25,5 milyon başa çatmışdır. Bu artım isə əsasən mütərəqqi metodlara əsaslanmaqla, mövcud cinslərin daha məhsuldar cinslərlə əvəz edilməsi və sair nəticəsində baş vermişdir ki, son nəticədə ət istehsalının həcmi 51,3%, süd istehsalının həcmi 49,9%, yumurta istehsalının həcmi isə 68,9% yüksəlmişdir.

Bu məqamda, Azərbaycan regionlarında aqrar sahənin payını və xüsusi çəkisini nəzərdən keçirmək məqsədəuyğun hesab edilə bilər. Məsələn, ölkənin əsas ərazisindən aralı düşən və işğalçı Ermənistan ilə həmsərhəd olan *Naxçıvan Muxtar Respublikasında* istehsal olunan ümumi məhsulun 17,0 %-i kənd təsərrüfatının payına düşür. Kənd təsərrüfatı bitkilərinin ümumi əkin sahəsi 37 min 911 hektardır (2014). Burada əsas təsərrüfat sahəsi taxılçılıqdır. Respublikada istehsal edilən üzümün 16,5%-i, meyvənin 6,0%-i, heyvandarlıq məhsullarının 5,0%-i, o cümlədən qoyunçuluğun 7,0%-i onun payına düşür.

Gəncə - Qazax iqtisadi rayonunda isə ümumi məhsulun 42,6% - i məhz aqrar sahənin payına düşür. Kənd təsərrüfatı bitkilərinin ümumi əkin sahəsi 95 min 035 hektardır (2014). Ölkə üzrə kənd təsərrüfatı məhsulunun 14,0% -i, o cümlədən taxılın 9,0% - i, tərəvəzin 20,4% - i, kartofun 55,7% - i, meyvənin 15,0% - i, ətin 14,2% - i və s. bu regionda istehsal edilir.

Şəki - Zaqatala iqtisadi rayonunda istehsal olunan ümumi məhsulun 47,6% -i kənd təsərrüfatına aiddir. Kənd təsərrüfatı bitkilərinin ümumi əkin sahəsi 160 min 439 hektardır (2014). Regionda yerli kənd təsərrüfatının emalı əsasında inkişaf etmiş kənd təsərrüfatı məhsullarının istehsalı, mövcud sənaye məhsulunun 95,0%-ni təşkil edir. Bütövlükdə isə, Azərbaycan Respublikasında istehsal olunan tütünün 75,0%-i, baramanın 35,0%-i, taxılın 12,2%-i, tərəvəzin 27,1%-i, ət məhsulları istehsalının 13,2%-i göstərilən regiona aiddir.

Ölkəmizin həm ərazi, həm də əhalinin sayılna görə ən böyük regionu hesab edilən *Aran iqtisadi rayonunda* isə, istehsal olunan ümumi məhsulun 35,8%-i kənd təsərrüfatının payına düşür. Kənd təsərrüfatı bitkilərinin ümumi əkin sahəsi 330 min 916 hektardır (2014). Belə ki,

məcmu taxılın 42,1 %-i, pambığın 89,7%-i, tərəvəzin 20,8%-i, bostan məhsullarının 62,1%-i, meyvənin 27,1%-i, üzümün 21,1%-i, süd istehsalının 37,6%-i və s. məhsullar burada yetişdirilir.

Quba - Xaçmaz iqtisadi rayonunda istehsal edilən ümumi məhsulun 35,0%-ni kənd təsərrüfatı təşkil edir. Kənd təsərrüfatı bitkilərinin ümumi əkin sahəsi 105 min 805 hektardır (2014). Belə ki, respublikada istehsal edilən tərəvəzin 20,0%-i, kartofun 6,9%-i, meyvənin 28,5%-i və digərləri həmin regionun payına düşür. Region ərazisindən keçən dəmiryol şəbəkəsi, yüksək tutumlu telekommunikasiya xətləri, həmçinin magistral neft, qaz və su kəmərləri regionun hərtərəfli və dayanıqlı inkişafına əlverişli şərait yaradır.

Dağlıq Şirvan iqtisadi rayonunda istehsal edilən ümumi məhsulun 42,8%-ni kənd təsərrüfatı məhsulları təşkil edir. Kənd təsərrüfatı bitkilərinin ümumi əkin sahəsi 114 min 268 hektardır (2014). Burada aparıcı yeri - taxılçılıq və heyvandarlıq (əsasən də maldarlıq) tutur. Region Abşeron iqtisadi rayonundan sonra, paytaxta yaxınlığı ilə seçilir.

Abşeron iqtisadi rayonunda isə, istehsal edilən ümumi məhsulun tərkibində göstərilən sahənin xüsusi çəkisi 6,49 %-dir. Burada kənd təsərrüfatı bitkilərinin ümumi əkin sahəsi 2 min 425 hektardır (2014). Burada həm daxili, həm də yerli bazarda böyük tələbat duyulan zeytun, zəfəran, Abşeron şanısı, əncir, püstə, badam, iydə və s. yetişdirilir. Bütövlükdə isə, urbanizasiya proseslərinə məruz qalan və Böyük Bakı aqlomerasiyasının yerləşdiyi iqtisadi rayon - çox əlverişli coğrafi - iqtisadi mövqeyə, yüksək səviyyədə inkişaf etmiş infrastruktura, həmçinin ixtisaslı işçi qüvvəsinə malikdir.

Aqrar sahənin texnoparklar əsasında inkişaf imkanları

ASK-da son zamanlar klasterlərin - bir məhdud ərazidə (iri müəssisədə və ya bir şəhərin hüdudunda) yerləşən və müəyyən dərəcədə bir-biri ilə istehsal əlaqələri ilə bağlı olan müəssisələrin məcmusunun yaradılması dəbə düşüb.

Aydındır ki, bütün kiçik müəssisələrin müasir istehsal avadanlığı ilə təchiz edilməsi ona görə mümkün deyil ki, onların nisbətən kiçik istehsal həcmi müasir istehsal avadanlığından səmərəli istifadə etməyə imkan vermir. Müasir dəzgahın dəyəri bir neçə yüz min dollar olduğu üçün onu satın almağa və ondan səmərəli şəkildə istifadə etməyə yalnız kifayət qədər iri müəssisənin imkanı ola bilər. Beləliklə, bu səbəbdən kənd təsərrüfatında bir çox kiçik və orta müəssisələr istehsal zamanı yeni texnologiyalardan istifadə etmək imkanından məhrum olur. Bu vəziyyətdən çıxış yolu xidmət mərkəzlərində avadanlıqlardan kollektiv istifadəetmədir.

Kollektiv istifadə mərkəzlərinin təşkili əksər müəssisələr üçün müasir texnologiyaların əlçatarlığını iqtisadi baxımdan məqsədəuyğun şəkildə təmin etməyə imkan verir və Azərbaycan iqtisadiyyatını innovativ inkişaf yoluna keçirməyə kömək edən bir çox əlavə müsbət effektlər verir.

Konsaltinq infrastruktur - konsaltinq təşkilatlarının məcmusudur. İnnovasiya fəaliyyəti bir sıra spesifik xüsusiyyətlərə malikdir və bunlara yalnız praktiki təcrübədə yiyələnmək olur. Kiçik innovasiya müəssisələrinin (KİM) "qeyri-peşəkar" menecerlər tərəfindən yaradılması ona gətirib çıxarır ki, belə müəssisələrdə fəaliyyətini davam etdirmək imkanı az olur. Bu səbəbdən peşəkar konsaltinq (maliyyə, iqtisadi, marketinq, həmçinin xarici iqtisadi fəaliyyət üzrə məsləhətlər) innovasiya inkişafına yönəldilən vəsaitlərdən səmərəli istifadəni artırma vasitəsi kimi çıxış edir.

Bu məsələlərin çoxusunun kompleks həlli ilə məşğul olmaq texnologiya transferi mərkəzlərinin (TTM) vəzifəsidir. Hal-hazırda dünyada TTM, bir qayda olaraq, iri ali təhsil müəssisələri nəzdində yaradılır, çünki məhz onlar yeni texnologiyaların işlənib hazırlanması sahəsində ən çox məhsul yaradır. TTM ya innovasiya işləmələrinə malik olan təşkilatların struktur bölməsi kimi, ya müstəqil hüquqi şəxs kimi təsis edilir.

TTM-lər şəbəkəsi inkişaf etməyə başladığı zaman yaranan əsas problemlər onların komplektləşdirilməsi üçün ixtisaslı kadrların olmamasıdır. Əgər kadrların problemi həll olunsa, TTM-lər bölgələrdə innovasiya fəaliyyətinin inkişafını stimullaşdıran mühüm struktur elementlərdən birinə çevrilə bilər.

Əgər kadr hazırlığının problemlərini daha ətraflı nəzərdən keçirməli olsaq, bu sahədə bir sıra kompleks problem qeyd etməliyik. Yuxarıda qeyd edildiyi kimi, tədqiqat və işləmələrlə məşğul

olan kadrlarla bağlı problemlər artır, orta texniki heyət və ixtisaslı işçi çatışmazlığı problemi kəskinləşir. Son zamanlar innovasiya məhsulu buraxan müəssisələrin problemi əsas texnologiya daşıyıcısı olan kadrların qocalmasıdır. Cavan işçilər işə götürülmədikdə istifadə olunan texnologiyalar qismən itirilə bilər.

Aparılan müşahidə və təhlillər göstərir ki, bu gün aqrar sahənin inkişaf etdiyi bir çox ölkələr də məhz bu yolla gedərək çox böyük uğurlar əldə edirlər. Misal üçün, süd və süd məhsulları istehsalı, emalı, daşınması və istehlakçılara çatdırılması sahəsində dünyaca tanınmış marka hesab edilən "Valio" məhsullarını nümunə göstərə bilərik. Qeyd edək ki, Finlandiyanın bu məşhur şirkəti öz fəaliyyətinə hələ keçən əsrin əvvəllərində, daha doğrusu, 1905-ci ildə başlamışdır. O, yağ - süd, pendir, kəsmik və digər çoxsaylı məhsulların geniş çeşidini hazırlayaraq, ölkənin süd bazarının 80%-nə nəzarət edir (illik 2,0 milyon tona yaxın). 8800 femer təsərrüfatının birləşdiyi 18 kooperativ "Valio"nun təsisçisi qismində çıxış edir. Onlardan 9-u bilavasitə "Valio Qrup"un idarəçiliyində iştirak edir. Onun ölkənin daxilində 15, eyni zamanda Estoniyada 2, Belçikada 1 və Rusiyada 1 süd zavodu fəaliyyət göstərir. İllik dövriyyəsi 2,0 milyard avro həcmində olan bu şirkətin özünün tədqiqat və araşdırmalar mərkəzi fəaliyyət göstərir. Burada istehlakçıların zövqü və tələbinə uyğun məhsulların hazırlanması məqsədilə geniş bazar araşdırmaları aparılır.

Təbii ki, bütün bunlar - aqrar klasterlərin səmərəli təşkilinin nəticəsi kimi çıxış edir. Bütövlükdə isə, bu gün Avropa Birliyi ölkələrində böyük illik dövriyyəsi olan çoxsaylı iri kənd təsərrüfatı kooperativləri fəaliyyət göstərir.

Məlumdur ki, aqrar sahənin inkişafını sənayeləşmə olmadan təsəvvür etmək mümkün deyildir. Bu baxımdan, "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında - sənayeləşmə strategiyasına uyğun və sənaye sektorunda olduğu kimi, aqrar bölmədə də texnoparkların yaradılması nəzərdə tutulur. Aqrar parkların yaradılması ilə kənd təsərrüfatı məhsullarının emalına xüsusi diqqətin yetirilməsi, mövcud aqroemal müəssisələrinin müasir texnologiyaların tətbiqi nəticəsində istehsal güclərinin artırılması və yeni müəssisələrin yaradılması istiqamətində kompleks tədbirlər həyata keçirilməsi planlaşdırılır. [4]

Aqropark dedikdə, kənd təsərrüfatı və ərzaq məhsulları istehsalının qeyri- kənd təsərrüfatı fəaliyyətləri ilə bir yerdə, vahid istehsal məkanında qruplaşdırılması və yaxud həmin fəaliyyətlərin kombinasiyasıdır: yəni kənd təsərrüfatı məhsullarının istehsalı ilə emal proseslərinin, aqrotexniki və logistika, sanitar və fitosanitar, marketinq və digər xidmətlərin vahid məkanda, eyni istehsal ərazisində, elə bir tərzdə kombinasiyasıdır ki, həm xammal istehsalı, həm də emal prosesləri yüksək rentabelli olsun, ətraf mühitin qorunması, torpaq və su resurslarından səmərəli istifadə və onların mühafizəsi təmin olunsun, həm bitkiçiliyin, həm də heyvandarlığın və bunlarla yanaşı emal sənayesinin inkişafı üçün möhkəm əsaslar yaransın.

Qeyd etməliyik ki, müasir dövrdə aqroparklar bir sıra səbəblərə görə digər təsərrüfatçılq formalarına nəzərən üstünlüklərə malikdir:

- aqroparklarda istehsal - emal - logistika - marketinq qapalı zənciri yaranır və qurumun hər bir komponenti özünüidarə və özünəcavabdehlik prinsipi əsasında çalışır ki, nəticədə ortaq problemlər və ümumi maraqlar ətrafında birləşməklə müəssisənin rəqabətə davamlılıq qabiliyyəti təmin olunur;
- müasir texnika və texnologiyaların, informasiya - kommunikasiya texnologiyalarının tətbiqi üçün şərait yaranır, texnikalardan istifadə əmsalı yüksək olur, ortaq xərclər minimuma endirilir;
- nəqliyyat xərcləri və enerji sərfi azalır;
- kənd ərazilərinin inkişafına, kənd yerlərində informasiya-kommunikasiya texnologiyalarının genişlənməsinə şərait yaranır;
- ətraf mühitin qorunması, su və torpaq resurslarından səmərəli istifadə və onların mühafizəsi təmin edilir;
- peşəkar kadrlara tələbat yaratmaqla kənd təəsrrüfatı və ərzaq sənayesi üzrə kadr hazırlığı stimullaşdırılır;
- heyvanların bəslənmə şəraitini mexanikləşdirməklə və saxlanma yerlərini genişləndirərək onların sərbəst hərəkət imkanlarını artırmaqla intensiv heyvandarlıq praktikasına əməl edilir;
- ehtimal olunan hər hansı bir xəstəliyin yayılması məhdudlaşdırılır;

- istehsalçılarla istehlakçılar arasında olan boşluq üzərindən "körpü" salınır;
- iqtisadi və sosial fayda yuksək olur və beləliklə də urbanizasiyanın azaldılmasına dəstək verilir və s.

Beləliklə, aqroparklar - kənd təsərrüfatının, emal və aqrar sənayenin tamamilə yenidən qurulmasını əhatə edir. Aqrar sektorun sahibkarlıq potensialının inkişaf etdirilməsi və yeni fəaliyyət növlərinin və məhsullarının inkişafına əlverişli mühitin formalaşdırılması ilə yanaşı, qabaqcıl texnologiyaların tətbiqi və mənimsənilməsi istiqamətində tədbirlərin gücləndirilməsi, elmtutumlu məhsulların və texnologiyaların işlənilməsi və tətbiqi üçün texnoparkların və innovasiya zonalarının yaradılması da zəruridir. [5, s. 5]

Nəticə

Aqrar sahənin mövcud durumu və inkişaf istiqamətlərinə klaster yanaşma meyilləri göstərir ki, bu prosesdə kənd təsərrüfatında hər bir bölmə və ərazinin mövcud durumu, həmçinin gələcək inkişaf perspektivləri düzgün təhlil edilməli, rəqabət baxımdan daha geniş imkanlara malik olan istiqamətlərə üstünlük verilməli, müxtəlif ərazilər üzrə modern klasterlər yaradılmalıdır. Eyni zamanda, klasterlərin inkişafına uyğun səmərəli informasiya - texnologiya sistemlərinin işlənib hazırlanması, digər adekvat tədbirlərin görülməsi də zəruridir. İlk öncə, aqrar sahədə klasterlərin təşkili prosesini, şərti olaraq aşağıdakı beş əsas mərhələyə bölə bilərik:

1) hazırlıq mərhələsi - bu mərhələdə həm sahə (bölmə), həm də ərazilər üzrə klasterə daxil olacaq potensial iştirakçıların düzgün müəyyən olunması;

2) nəzəri mərhələ - ümumi strategiyanın formalaşdırılması və işlənib hazırlanması;

3) praktiki mərhələ - əsasən, klaster pilot layihələrin işlənib hazırlanması;

4) strateji mərhələ - klaster strateji layihələrin işlənməsi;

5) muxtariyyət mərhələsi - öz fəaliyyətini tənzimləmə və idarəetmə.

Bunlarla yanaşı, aşağıdakı təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini də məqsədəuyğun hesab edirik:

1. İlk növbədə, aqrar sahədə klasterlərin inkişafı üçün rəqabət üstünlüyü olan əsas məhsul növləri və bölmələrin müəyyən olunması, bu istiqamətdə zəruri hüquqi əsasların formalaşması və inkişaf etdirilməsi. Belə ki, kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü, emalı, istehlakçılara çatdırılması, marketinqi və sair prosesləri kompleks şəkildə özündə əks etdirən zəruri qanunverici aktın (qanun və ya dövlət proqramının) qəbul edilməsi;

2. Həmin prosesdə daha çox rəqabət üstünlüyünə malik və rəqabətqabiliyyətliliyi olan istiqamətlərin seçilməsi, bu zaman klasterlərin rəqabətli təklif metodlarına üstünlük verilməsi, xüsusən də ilk növbədə aqrar sahənin mövcud resurs potensialının düzgün qiymətləndirilərək, düzgün istifadə imkanlarının müəyyən edilməsi;

3. Aqrar sahənin mövcud potensialından səmərəli istifadə olunması, həmçinin onun dayanıqlı artımı və səmərəli inkişafının təmin edilməsi məqsədilə, strateji proqnozlaşdırma və məqsədyönlü, düzgün planlaşdırmaya ciddi fikir verilməsi;

4. Klasterlərin inkişafıın maliyyə - kredit və qiymət mexanizmləri üzrə əsas istiqamətlərinin hazırlanması və tətbiq olunması, ilk növbədə isə investisiya cəlbediciliyinin yüksəldilməsi və maliyyə vəsaitlərinin əhəmiyyətli hissəsinin bu istiqamətlərə yönəldilməsi ;

5. Aqrar sahənin klasterlərin inkişafına təkan verən səmərəli biznes -marketinq strategiyasının işlənib hazırlanması və mövcud marketinq xidmətlərinin modernləşdirilməsi;

6. Aqrar sahənin dayanıqlı inkişafına nail olmaq məqsədilə, menecment işinin səmərəli təşkil olunması;

7. Regionlarda kooperasiyaya əsaslanan iri aqrar təsərrüfatların təşkili və inkişaf etdirilməsi;

8. Göstərilən inkişaf meyillərinə uyğun olan informasiya - kommunikasiya tədbirlərinin işlənib hazırlanması;

9. Aqrar sahədə klaster fəaliyyətin sağlam inkişafına təkan verən güclü kadr potensialının yaradılması və s.

ƏDƏBİYYAT

1. AMEA Xəbərləri (iqtisadiyyat seriyası), №1(9)/2012, Bakı: 2012, 107 s.
2. Qasımlı V.Ə. İqtisadi modernizasiya. Bakı: 2014, 311 s.
3. "Azərbaycan" qəzeti, 20 dekabr 2012, 8 s.
4. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası.
5. "Respublika" qəzeti, 3 mart 2013-cü il, 8 s.

Мохуббат Муса оглы Гусейнов
к.э.н, доцент
Азербайджанского Университета Кооперации

Развитие кластеров в аграрном секторе

Резюме

Кластерное развитие играет важную роль в модернизации аграрного сектора страны. Организация и правильный выбор аграрного кластера в соответствии с каждым регионом, является важной задачей на сегодняшний день. В статье исследуются выше перечисленные факты и даются конкретные предложения.

Ключевые слова: аграрный сектор, модернизация, кластерное развитие, технопарки, регион.

Mohubbat Musa Huseynov
PhD on economics, associate professor
Azerbaijan Cooperation University

Claster developmentin agrarian sector

Summary

Claster development plays an important role in modernization of agrarian sector in modernization of agrarian sector of the country. The organization and a right of an agrarian claster according to each region is an important task today. In article the above - metioned facts are investigated and specific proposals are given.

Key words: agrarian sector, modernization, clasterial development, technoparks, region.

İbrahim Qədim oğlu QULİYEV
Azərbycan Dövlət İqtisad Universiteti (UNEC), baş müəllim

AQRAR SFERADA SIĞORTA VƏ QİYMƏT SİSTEMLƏRİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

Xülasə

Aqrar sığorta münasibətlərinin inkişafı müvafiq sahənin tərəqqisinə dövlət qayğısının başlıca istiqamətlərindən biridir. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə müəyyən edilmiş prioritetlərdə bu məsələyə ayrıca yer verilmişdir. Lakin, sığorta hadisələrinin təsdiqinin, itkilərin qiymətləndirilməsinin və risklərin bölüşdürülməsinin konkret mexanizmi göstərilməmişdir.

Təqdim edilən məqalədə aqrar sığorta ilə bağlı hədəflər təhlil olunmuş, onlara müəllif yanaşması bildirilmiş və müvafiq təkliflər verilmişdir.

Açar sözlər: subsidiya, sığorta, qiymət, maya dəyəri, risk, qiymətləndirmə.

***

Son illərdə ölkəmizdə aqrar sahənin inkişafına dövlət himayədarlığı tədricən gücləndirilir, onun ixrac potensialının yüksəldilməsi istiqamətində sanballı tədbirlər həyata keçirilir. Bununla yanaşı həmin sahədə istehsalçılara hərtərəfli maliyyə və texniki dəstəyin göstərilməsi ilə yanaşı

onların itkilərdən, daha dəqiq desək, sığorta risklərindən qorunması mexanizminin işlənilməsi və reallaşdırılması da əhəmiyyətli məsələlər sırasındadır.

Aqrar sahə digər istehsal sferaları ilə müqayisədə daha yüksək risklərlə xarakterizə olunur. Onun təsərrüfat nəticələrinə gözlənilməz təbii hadisələrin təsir dərəcəsinin və ardıcıl olaraq itkilərin baş verməsi ehtimalının yüksək olması aqrar sığortaya olan marağı azaldır. Bununla yanaşı respublikamızda aqrar sığorta sisteminin inkişafına mane olan bəzi metodiki məsələləri də qeyd etmək lazımdır. Birincisi, itkilərin qiymətləndirilməsinə və tənzimlənməsinə vahid yanaşma yoxdur. Sığorta hdisələri baş verən zaman ödənişlərin verilməsində şəffaflığın təmin olunması üçün itkilərin kəmiyyətinin diferensiallaşdırılması, bir sözlə, sığorta ödənişlərinin verilməsi sxemi işlənilməlidir. Bu problemin həll olunması üçün sığorta halları üzrə sığortaçı ekspertlərin köməyi ilə itkilərin tənzimlənməsi, sığorta olunan əmlaka baxışın keçirilməsi, həmçinin itkinin səbəblərinin və kəmiyyətinin müəyyən edilməsi üzrə vahid metodologiya işlənilməlidir.

İkincisi, təhlükəli təbii hadisələrin və onların təsdiqinin standart meyarlarının işlənilməsi vacib hesab edilir. Bu zaman bitkilərin bioloji xüsusiyyətlərinin uçotu ilə katostrofik risklərdən sığorta məqsədilə təhlükəli aqrometeoroloji hadisələrin meyarlarının müəyyən edilməsi və qanunvericilik aktlarında təsbit olunması zəruridir. Ona görə ki, sığorta ekspertləri tərəfindən müəyyən edilən meyarlarin hidrometeoroloji meyarlardan fərqlənməsi hallarında sığortaçı ilə sığorta olunan arasında mübahisələr yarana bilər.

Üçüncüsü, subsidiyalaşdırmanın son həddnormasının hesablanması metodikasının təkmilləşdirilməsinə ehtiyac vardır. Bu həm də onunla bağlıdır ki, indiyə qədər aqrar sığorta obyektlərinin itkilərini əks etdirən müfəssəl statistika yoxdur. Ona görə də baş vermiş təbii fəlakətlərlə əlaqədar kənd təsərrüfatı məhsulları üzrə itkilərin müşahidəsi və statistik informasiyanın toplanılması, aktual metodlardan istifadə etməklə subsidiyalaşdırmanın son həddi dərəcələrinin müəyyən edilməsi zəruridir. Bu, həmçinin onların bazar gözləmələrinə və sığorta tariflərinə uyğunluğunu təmin etməlidir.

Dördüncüsü, gələcək məhsulun sığorta dəyərinin hesablanması üçün məhsuldarlığın müəyyən edilməsi metodikası işlənib hazırlanmalıdır. Aqrar istehsalçıların məhsulun sığortalanmasına marağının olmaması yaxud zəifliyi məhz məhsuldarlığın müəyyən edilməsi şərtləri ilə bağlıdır. Belə ki, bu zaman təsərrüfatlar tərəfindən tətbiq olunan texnologiyanın təkmilləşdirilməsinə investisiyalar nəzərə alınmır. Başlıca problemlərdən biri 1 hektardan planlaşdırılan məhsulun əldə olunmasının texnologiyanın uçotu əmsalının olmamasıdır.

Qeyd olunan problemləri nəzərə almaqla kənd təsərrüfatı risklərinin sığortalanmasında alternativ qərar məhsuldarlığın indeksli sığortalanması proqramı ola bilər. Təcrübə göstərir ki, bu proqram bir qayda olaraq, aşağıdakılar üzrə həyata keçirilir:

- proqnozlaşdırılan əkin sahələri üzrə (bu zaman əkin kampaniyasının başa çatmasını gözləmək zəruri deyil);
- region miqyasında kənd təsərrüfatı məhsullarının gözlənilən istehsal həcminə görə;
- istehsal olunmuş bir sentner məhsulun qiyməti əsasında. Bu zaman istehsalçı risklərin hansı hissəsini öz üzərinə götürdüyünü müəyyən edir. Nəticə etibarilə baza göstərici məhsulun proqnoz qiyməti yaxud maya dəyəri də ola bilər. [2, s. 48]

Ölkə prezidenti tərəfindən təsdiq olunmuş "Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair" Strateji Yol Xəritəsində müvafiq sahənin davamlı və dayanıqlı inkişafının əsas istiqamətləri öz əksini tapmışdır. Lakin, demək olar ki, burada aqrar istehsalçıların sığortalanması mexanizminin təşkilinə nisbətən az yer verilmişdir. Bu prosesin dövlət dəstəyi ilə həyata keçirilməsi ayrıca vurğulansa da sığorta hadisələrinin və obyektlərinin tərkibi heç də qənaətləndirici görünmür. Əgər diqqət yetirsək məlum olar ki, Azərbaycan kimi təbii-iqlim şəraiti olan ölkədə şaxta vurması sığorta hadisəsi kimi qəbul olunur, lakin quraqlıq yox. Hər bir vətəndaş bilir ki, bu heç də real yanaşma sayılmır. Eyni zamanda məhsulların şaxta vurması ilə əlaqədar itkisinin bilavasitə sahibkarın məsuliyyətsizliyi ucbatından baş verməsini söyləmək olar, lakin, quraqlıqla bağlı belə bir iddianın əsası yoxdur. Bundan əlavə, sığorta hadisəsi kimi məhdud sayda təbii hadisələrin, o cümlədən, yanğın, dolu, sel, daşqın və şaxta vurmasının baş verməsi ehtimalları respublikanın bütün regionları üçün eyni ola bilməz. Əvvəldə qeyd etdiyimiz kimi, bu

siyahıda olan şaxta vurmasının quraqlıqla əvəz olunması daha real sayılır. Digər tərəfdən, ayrı-ayrı regionların meteoroloji vəziyyəti və onilliklər boyu baş vermiş təbii hadisələrin xronologiyası aqrar sığorta sisteminə baxışların kökündən dəyişilməsini tələb edir. Nəzərə almalıyıq ki, sığorta obyektləri hesab edilən buğda, arpa, qarğıdalı, kartof, şəkər çuğunduru, tərəvəz və s. daha yüksək məhsuldarlıqla yetişdirilməsi üçün zəruri olan təbii iqlim şəraitində regional fərqlər olduqca dərindir. Ona görə də sığorta hadisələri, sığortalanma obyektləri və sığorta məbləğinin dövlət və istehsalçılar arasında bölgüsünü əks etdirən matrisin qurulmasına ehtiyac yaranır. Sığorta məbləğinin tam olaraq dövlətin üzərinə qoyulması istehsalçıları hər cür itkilərdən sığortalamaqla, onlarda arxayınçılıq və demək olar ki, məsuliyyətsizlik yarada bilər. Məsələn, quraqlıqla və dolu ilə mübarizədə istehsalçı nə qədər zəif olsa da, kənd təsərrüfatı təyinatlı binaların, maşın və avadanlıqların qorunmasında bir o qədər səriştəli ola bilər. Düşünürük ki, bu qəbildən olan əmlak obyektlərinin sığortası xərcləri tam olaraq istehsalçı tərəfindən ödənilməlidir.

Beləliklə, respublikamızın iqtisadi rayonları üzrə aqrar sığorta sisteminin təşkilinin təxmini sxemini, daha dəqiq desək, sığorta məbləğinin istehsalçı və dövlət arasında bölünməsi məqsədəuyğun sayılan sığorta obyektlərini və hadisələrini aşağıdakı kimi təsnifləşdirmək olar.

№	İqtisadi rayonlar	Sığorta obyektləri	Sığorta hadisələri
1	Abşeron	üzüm bağları, meyvə, tərəvəz	yoluxucu xəstəliklər
2	Gəncə-Qazax	kartof, üzüm bağları	quraqlıq, dolu
3	Aran	şəkər çuğunduru,buğda	quraqlıq,ziyanvericilər
4	Şəki-Zaqatala	meyvə	quraqlıq,sel
5	Quba-Xaçmaz	tərəvəz, meyvə	daşqın, sel
6	Lənkəran-Astara	sitrus bağları,üzüm bağları, kartof	daşqın,quraqlıq
7	Dağlıq Şirvan	üzüm bağları, meyvə	quraqlıq
8	Yuxarı Qarabağ	buğda,meyvə	yoluxucu xəstəliklər, ziyanvericilər

Təqdim olunan cədvəl subyektiv düşüncənin və yanaşmanın nəticəsi olsa da onun təkmil variantının sığortaçılardan, hidrometeoroloqlardan və sahibkarlardan ibarət komissiya tərəfindən hazırlanması daha səmərəli ola bilər. Cədvəldəki sığorta obyektləri arasında kənd təsərrüfatı təyinatlı maşın və avadanlıqların özünə yer almaması onunla əsaslandırıla bilər ki, onların respublikaya idxal edilməsi zamanı istehsalçılara kifayət qədər vergi və gömrük güzəştləri göstərilir. Ona görə də istehsalçıların üzərinə düşən öhdəlik və məsuliyyət bilavasitə həmin texniki vasitələri xarab olmaqdan, dağılmaqdan və s. qorumaq, bu məqsədlə sığortalamaq olmalıdır. Bu həm də risklərin azaldılmasına çalışmaq və onların bölüşdürülməsinin təşkili deməkdir.

Hesab edirik ki, iqtisadi rayonlar üzrə digər sığorta obyektlərinin sığortalanması istehsalçılar tərəfindən və onların öz vəsaitləri hesabına aparılmalıdır. Bu zaman baş verməsi ehtimalı tədricən azalan sığorta hadisələrinə görə ödənişlər də azaldılmalıdır. Müxtəlif məhsul növlərinin yetişdirilməsi üçün daha əlverişli şərait olan iqtisadi rayonlar üzrə aqrar sığorta sisteminin tətbiqi əlverişli ola bilər. Məsələn, Gədəbəy, Tovuz, Şəmkir və Cəlilabad rayonlarında kartofun sığortalanmasının həyata keçirilməsi daha məqsədəuyğundur. Sığorta obyektləri üzrə belə diferensial yanaşmanın tətbiqi öz mövbəsində məhsuldarlığın yüksəlməsinə və sığorta şirkətlərinin daha inamlı olmasına səbəb ola bilər. Bir məsələni də nəzərə almaq lazımdır ki, aqrar sığorta sisteminin işlək olması müvafiq sahədə qiymətlərin səviyyə və dinamikasına da öz təsirini göstərir. Belə ki, sığorta hadisəsi nəticəsində dəymiş zərərin sığorta şirkəti tərəfindən ödənilməməsi zamanı istehsalçı onun yerdə qalan məhsullarin satış qiymətlərinin yüksəldilməsi hesabına kompensasiya olunmasına səy göstərir. Bu da bazar təklifinin azalması müstəvisində qiymətin yüksəlməsinə stimul verir.

Şübhəsiz ki, kənd təsərrüfatı məhsullarının qiymətləri onların təkrar istehsal xərclərini təmin edə biləcək rentabellik səviyyəsində nəzərdə tutulmalıdır. Bundan əlavə, kənd təsərrüfatı ilə sənaye arasında mübadilənin ekvivalentliyinin təmin olunmasında qiymətlər mühüm amil kimi çıxış etməlidir. Hər bir təsərrüfat ilinin əvvəlində resurs səbəti əsasında paritet qiymət indekslə-

ri müəyyən edilməlidir. Bu həmçinin kənd təsərrüfatı məhsullarının qiymətlərinə zəmanət rolunu da oynaya bilər. Əgər bu istiqamətdə real addımlar atılarsa, onda aqrar istehsal təyinatlı maşın və avadanlıqların sığortalanması xərclərinin tam şəkildə istehsalçıların üzərinə ötürülməsi daha obyektiv xarakter almış olar.

Düşünürük ki, aqrar istehsalçılara dövlət yardımı və himayədarlıq sistemindən tədricən əlverişli sığorta və kreditləşmə sisteminə keçirilməsi məqsədəuyğundur. Verilən kreditlərə görə faizlər və sığorta tarifləri elə müəyyənləşdirilməlidir ki, onlar qiymət artımının indikatoru kimi deyil, qiymətlərin aşağı düşməsinin obyektiv səbəbləri kimi çıxış etsin.

Nəzərə almaq lazımdır ki, Azərbaycanda aqrar istehsalla məşğul olan fərdi təsərrüfat subyektlərinin orta ölçüsü 10,2 ha, ABŞ-da 180 ha, Avropa İttifaqında (Bolqarıstan və Rumıniya çıxılmaqla) 17 ha, Böyük Britaniyada 55 ha, Danimarkada 54 ha, İspaniyada 22 ha-dır. Respublikamızda fəaliyyət göstərən təsərrüfat subyektlərinin 71 faizinin sərəncamında olan torpaq sahələrinin ölçüsü isə üç hektara qədərdir. [1, s. 17] Bu da səmərəlilik nöqteyi-nəzərindən xırda təsərrüfatların tədricən birləşmək məsələsini gündəmə gətirir. Əgər bu proses baş verərsə, məhsul vahidinə düşən sabit xərclərin azalması hesabına qiymətlər də aşağı düşər. Onun daha sürətləndirilməsi üçün məhsul növləri üzrə aqrar sığorta sisteminin tətbiqi dairəsinə düşəcək əkin sahələrinin aşağı həddinin müəyyən edilməsi də müzakirə predmeti ola bilər.

ƏDƏBİYYAT

1. "Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair" Strateji Yol Xəritəsi. Bakı, 2016.
2. Журнал АПК: экономика, управление. № 12, 2016.
3. Лапченко Д.А. Оценка и управление экономическим риском: теория и практика. Минск, Амалфея, 2007.
4. Макаревич Л.М. Управление предпринимательскими рисками. М.: ДИС, 2014.

Ибрагим Гадим оглы Гулиев
ст. преп. Азербайджанский Государственный Экономический Университет

Перспективы развития ценовых и страховых систем в аграрной сфере

Резюме

Развитие аграрных страховых отношений является одним из основных направлений государственной поддержки соответствующей отрасли. В приоритетах по производству и переработке сельскохозяйственной продукции к этому вопросу уделено особое внимание. Однако нет конкретного механизма по оценке страховых случаев, потерь и распределения рисков.

В представленной статье анализируются цели аграрного страхования, выражена авторский подход и сделаны соответствующие предложения.

Ключевые слова: субсидия, страхование, цена, себестоимость,риск,оценка.

İbrahim Gadim Guliyev
Azerbaijan State Economic University
senior teacher

Development perspectives of agrarian insurance and price systems

Summary

Development of agrarian insurance relations is one of the main directions of state care for the progress of the relevant field. The issue has been set out in the priorities for the production and processing of agricultural products. However, there is no specific mechanism for the approval of insurance incidents, the assessment of losses and the allocation of risks.

In the presented article, targets on agrarian insurance have been analyzed, author's approach has been reported, and relevant proposals have been made.

Key words: subsidium, insuranse, price, prime cost, risk, valuation.

İlkin Qalib oğlu SOLTANLI
i.f.d., dosent AMEA İqtisadiyyat İnstitutu

AQRAR SAHƏNİN RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN YÜKSƏLDİLMƏSİNƏ KLASTERİAL İNKİŞAFIN TƏSİR MEXANİZMLƏRİ

Xülasə

Qeyri - neft sektorunun prioritet istiqaməti olan aqrar sahənin modernləşməsi və rəqabət qabiliyyətliliyinin yüksəldilməsində klasterial inkişaf mühüm rol oynayır. Xüsusən də, kənd təsərrüfatının özünəməxsus ərazi xüsusiyyətlərinə uyğun olaraq, aqrar klasterlərin düzgün seçilərək təşkil olunması və davamlı inkişaf etdirilməsi günümüzün vacib məsələlərindən hesab edilir. Yazıda, yuxarıda göstərilən məsələlər haqqında fikir mübadiləsi aparılaraq, konkret nəticələrə gəlinmişdir.

Açar sözlər: qeyri-neft sektoru, aqrar sahə, modernləşmə, rəqabət qabiliyyəti, klasterial inkişaf, davamlı inkişaf.

Giriş

İqtisadi leksikonumuza nisbətən son dövrlər daxil olan və qısa müddətdə haqqında daha geniş bəhs edilən terminlərdən biri də - klasterlərdir. Düzdür, bu ifadə dilimizdə yeni səslənsə də, əslində onun məzmun elementləri əvvələ gedib çıxır. Belə ki, yaşadığımız keçmiş iqtisadi sistemdə ölkə iqtisadiyyatının aparıcı sahələrinin kompleks inkişafına dair müxtəlif proqramlar qəbul edilir, tədbirlər həyata keçirilirdi. Lakin beynəlxalq yanaşmaya görə, müasir dövrdə rəqabətqabiliyyətli iqtisadiyyatın inkişafı klasterial yanaşma meyilləri ilə daha geniş çulğalaşır.

Klasterial yanaşma - əlavə dəyəri əmələ gətirən yeni istehsal və xidmət sahələrinin yaradılması ilə bağlı olan və elmi əsaslara söykənməklə, ölkənin dünya bazarındakı müqayisəli üstünlüklərini əks etdirir. O, əsasən hər hansı bir məhsul, yaxud müəyyən sahə üzərində səmərəli təşkil olunaraq, kompleks şəkildə formalaşmanı və dayanıqlı inkişafı təmin edir. Bu zaman istehsal fəaliyyəti, məhsulun emalı, hazır məhsulun əldə olunması, bazara çıxarılması və istehlakçılara çatdırılması və sair tədbirlər dəyər zəncirinin həlqələri üzrə ardıcıl və kompleks formada həyata keçirilir. Bunlarla yanaşı, göstərilən prosesdə yaranmış mövcud resurslardan və infrastruktur imkanlarından daha səmərəli, məqsədyönlü istifadə olunur.

Beləliklə, klaster dedikdə - hər hansı bir ərazi və sahə əlamətləri üzrə istehsal, infrastruktur, innovasiya, marketinq və digər proseslərin birgə fəaliyyətini nəzərdə tutan, həmçinin yüksək rəqabətqabiliyyətlilik və iqtisadi səmərəlilik meyarlarına əsaslanan bütöv iqtisadi proses başa düşülür.

İnkişaf etmiş ölkələrdə klaster yönümlü iqtisadi siyasət tədbirləri geniş formada tətbiq edilərək, innovasiyalı inkişafın adekvat mexanizmi kimi təşəkkül tapmışdır. Bu zaman istehsal fəaliyyəti, məhsulun emalı, hazır məhsulun əldə olunması, bazara çıxarılması və istehlakçılara çatdırılması kimi marketinq tədbirləri kompleks və ardıcıl formada həyata keçirilir.

Klasterlər çox müxtəlif struktura malik ola bilərlər. Lakin əsas iştirakçılar qismində son məhsul istehsalçıları, ixtisaslaşmış xammal və ya yarımfabrikat, avadanlıq, ehtiyat hissəsi və digər məhsul təchizatçıları, maliyyə qurumları, müştərilər, ixtisaslaşmış infrastruktur xidməti təminatçıları, təhsil, araşdırma və texniki dəstək təmin edən qurumlar və standartlaşdırma agentlikləri çıxış edirlər. Klasterə daxil olan sahibkarlıq subyektləri öz müstəqilliklərini itirmədən fəaliyyət göstərə, ümumi istifadə üçün infrastruktur layihələri (ortaq araşdırma mərkəzi, laboratoriya, anbar və s.) həyata keçirə bilərlər. Burada xammal tədarükündən, məhsulun bazara çıxarılması mərhələsinə qədər olan bütün iş prosesində ortaq hərəkətetmə imkanı əldə edilir. [1]

Aqrar sahədə klasterial inkişafın formalaşması zərurəti və əsas istiqamətləri

Aqrar sahənin mövcud durumu və inkişaf istiqamətlərinə klasterial yanaşma meyillərinin təhlili göstərir ki, bu prosesdə kənd təsərrüfatında hər bir bölmə və ərazinin mövcud durumu, həmçinin gələcək inkişaf perspektivlərinin düzgün təhlili, rəqabət baxımdan geniş imkanlara malik olan istiqamətlərə üstünlük verilməsi, müxtəlif regional xüsusiyyətlərə əsaslanan modern

klasterlərin təşkili zəruri və vacbdir. Həmin prosesdə aqrar kooperasiyanın böyük əhəmiyyət daşıdığını unutmaq olmaz.

Mövcud şəraitə uyğun olaraq, Azərbaycan Respublikasında aqrar sahənin modern inkişafı istiqamətində atılan bir sıra addımlar və həyata keçirilən müəyyən tədbirlər onu deməyə əsas verir ki, göstərilən sahədə həyata keçirilən keyfiyyət yönümlü tədbirlər - yüksək məhsuldarlıq və keyfiyyətə əsaslanan klasterial inkişaf əsasında səmərəliliyi təmin etməlidir. Bu sahədə aparılan müxtəlif araşdırmalar da söylədiyimiz fikirləri təsdiq edir. Belə ki, "...Azərbaycan Respublikasının regionlarında aqrar-sənaye klasterlərinin yaradılması və səmərəliliyə əsaslanan mövcud inkişafı zamanı qabaqcıl dünya təcrübəsi yetərincə öyrənilməli və bu prosesdə ən uyğun, optimal variantlar seçilməlidir. Təhlillər apardığımız Rusiyanın və Qazaxıstanın timsalında açıq şəkildə görmək olur ki, dövlət klasterlərin təşəkkül tapmasında və inkişafında dominant mövqeyə malikdir. Vurğulamaq yerinə düşər ki, hər iki ölkədə klasterlərin inkişaf etdirilməsi üçün xüsusi dövlət proqramları qəbul edilib. Belə ki, aqrar - sənaye sahələrinin klasterial inkişafı daha çox regional fəaliyyətin balanslaşmasına və iqtisadiyyatın diversifikasiyasına xidmət edir. Belə bir motivasiya isə daha çox dövlət siyasətinə uyğun gəlir.

Beynəlxalq təcrübədən çıxış edərək söyləyə bilərik ki, Azərbaycanda aqrar-sənaye sahələrinin klasterial inkişafı üçün dövlətin ayrı-ayrı elm mərkəzləri, müxtəlif biznes və təcrübəli donor qurumlarla məqsədyönlü əməkdaşlığı çərçivəsində müvafiq proqramın qəbul edilməsi və həyata keçirilməsi nəinki mümkün, hətta zəruridir. Qeyd olunan sahədə klasterial inkişaf üzrə dövlət proqramının əsas vəzifəsi isə, rəqabət üstünlüyünə malik aqrar-sənaye sahələrində klasterial inkişafın əsaslarını və istiqamətlərini düzgün müəyyən etməkdir".[2]

Müasir şəraitdə dünya iqtisadiyyatında baş verən keyfiyyət dəyişiklikləri və yeni yanaşma meyilləri ölkə iqtisadiyyatına, o cümlədən onun əsas sahələrindən hesab edilən aqrar sahəyə də təsirsiz ötüşməmişdir. Bu sahənin müqayisəli üstünlüklər əsasında inkişaf etdirilməsi və rəqabətqabiliyyətlilik səviyyəsinin yüksəldilməsi-onun modernləşdirilməsini zəruri edir. Bu prosesin mühüm tərkib ünsürlərindən birini isə aqrar klasterlər təşkil edir. Həmin məsələ ilə bağlı, aqrar qanunvericilik sahəsində böyük təcrübəyə malik millət vəkili, professor Eldar İbrahimovun aşağıdakı fikirləri maraq doğurur ki: "... hazırda kənd rayonlarının əksəriyyətində kənd təsərrüfatı məhsullarını saxlamaq üçün anbarlar və emal müəssisələri tikilib istifadəyə verilir. Lakin təcrübə göstərir ki, bu obyektlər qiymət məsələlərində diktə edən tərəf kimi çıxış edir və məhsul istehsalçılarını narazı salmaqla həmin obyektlərdən səmərəli istifadəyə imkan vermir. Bu da bəzi hallarda məhsul istehsalının azalmasına səbəb olur. Belə hal uzun müddət davam edərsə, gələcəkdə bir çox məhsulların istehsalında problemlər yarana bilər.

Bununla əlaqədar, aqrar sahənin klaster əsasında (klaster-sıx birləşmiş qrup, yəni kənd təsərrüfatının hər hansı bir sahəsi (məsələn, xam pambıq istehsalı), bu sahənin fəaliyyətini təmin edən sahələr (təchizat, aqroservis, kadr hazırlığı və s.), bu sahənin məhsullarından istifadə edərək öz fəaliyyətini həyata keçirən sahələr (pambıq emalı, yüngül və yeyinti sahəsi və s.) deməkdir) inkişaf etdirilməsini və bu prosesdə kənd təsərrüfatı istehsal və istehlak kooperativlərinin əsas qurum kimi çıxış etməsini məqsədəuyğun hesab edirik. Digər tərəfdən, ölkə iqtisadiyyatı imkan verir ki, bir çox aqrar sahələrin klaster əsasında inkişaf etdirilməsinə nail olaq. Yəni istehsal edilən xammalı son istehlak malına kimi emal etmək üçün tələb olunan müəssisələr tikib onları kooperativlərin icarəsinə və ya uzunmüddətli kredit əsasında istifadəsinə verməklə hazır istehlak malları ilə daxili və xarici bazara çıxmaq olar. Bu isə, aqrar bölmədə yaranan əlavə dəyəri xeyli artırmaqla ölkəmizin ümumi daxili məhsulunun artımına da davamlı təsir edə bilər". [3]

Aqrar rəqabətqabiliyyətliliyin yüksəlməsində klasterial inkişafın təsir mexanizmləri

Aqrar rəqabətqabiliyyətliliyin yüksəlməsində klasterial inkişafın təsir meyilləri göstərir ki, bu prosesdə kənd təsərrüfatında hər bir bölmə və ərazinin mövcud durumu, həmçinin gələcək inkişaf perspektivlərinin düzgün təhlili, rəqabət baxımdan daha geniş imkanlara malik olan istiqamətlərə üstünlük verilməsi, həmçinin müxtəlif ərazilər üzrə modern klasterlər yaradılması mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, klasterial inkişafa uyğun səmərəli informasiya-

texnoloji sistemlərin təşkili, digər adekvat tədbirlərin görülməsi də zəruridir.Ümumilikdə,, aqrar sahədə klasterlərin təşkili prosesini, şərti olaraq aşağıdakı beş əsas mərhələyə bölə bilərik:

1) hazırlıq mərhələsi-bu mərhələdə həm sahə (bölmə), həm də ərazilər üzrə klasterə daxil olacaq potensial iştirakçıların düzgün müəyyən olunması;

2) nəzəri mərhələ-ümumi strategiyanın formalaşdırılması və işlənib hazırlanması;

3) praktiki mərhələ-əsasən, klasterial pilot layihələrin işlənib hazırlanması;

4) strateji mərhələ - klasterial strateji layihələrin işlənməsi;

5) muxtariyyət mərhələsi-öz fəaliyyətini tənzimləmə və idarəetmə.

Qeyd edək ki, son illərdə aqrar sahənin rəqabətqabiliyyətli və innovasiya yönümlü inkişafında mühüm rol oynayan aqroparkların səmərəli formalaşması və inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Təbii ki, həmin istiqamətdə dövlət tərəfindən verilən zəruri dəstək tədbirləri mühüm çəkiyə malikdir. Bu gün klasterial inkişafın ən mühüm forması kimi təşkil olunan "...aqroparklar kənd təsərrüfatının, emal və aqrar sənayenin tamamilə yenidən qurulmasını əhatə edir. Aqrar sektorun sahibkarlıq potensialının inkişaf etdirilməsi və yeni fəaliyyət növlərinin və məhsullarının inkişafına əlverişli mühitin formalaşdırılması ilə yanaşı, qabaqcıl texnologiyaların tətbiqi və mənimsənilməsi istiqamətində tədbirlərin gücləndirilməsi, elmtutumlu məhsulların və texnologiyaların işlənilməsi və tətbiqi üçün texnoparkların və innovasiya zonalarının yaradılması da nəzərdə tutulur.

Aqroparkların əsas hədəflərindən bir - ərzaq təhlükəsizliyi ilə bağlı güclü mexanizmlərin tətbiqidir. Azərbaycanda ərzaq təhlükəsizliyi sahəsində beynəlxalq standartların qəbul edilməsi və yeni milli standartların inkişaf etdirilməsi nəzərdə tutulur. Əsas məqsəd ölkədə aqrar sektorda fəaliyyət göstərən və xüsusilə də rəqabəti artırmaq, ərzaq məhsullarının keyfiyyət və təhlükəsizlik standartlarına cavab verməsinə şərait yaratmaq, yeni məhsulların istehsalını və bazar əlaqələrini inkişaf etdirmək, mülkiyyətçilərin maliyyə xidmətlərinə çıxışını artırmaqdır.

Layihə çərçivəsində aqrar sahəyə maliyyə dəstəyi və özəl bankların bu istiqamətdə kapitallaşmanı gücləndirməsi də yeni strateji konsepsiyada yer alan meyarlardandır. Maliyyələşmə siyasəti aqrar biznesdə rəqabətliliyin təmin edilməsinə, yeni texnologiyalara çıxışın artırılmasına, qida təhlükəsizliyinə zəmin yaradan avadanlıqların və proseslərin təkmilləşdirilməsinə və bazarlara çıxışın yaxşılaşdırılmasına, həmçinin məhsulun keyfiyyət və təhlükəsizliyinə dəstək verən, innovasiyalara yol açan investisiyalara imkan yaradacaq.

Aqroparkların yaradılması zamanı kənd təsərrüfatında intensiv və ekstensiv amillərin nəzərə alınması çox zəruridir. Kənd təsərrüfatında maddi-texniki resursların yeniləşdirilməsi geniş təkrar istehsal prosesinin əsas motivini təşkil etməklə istehsalın intensivləşdirilməsi ilə sıx əlaqədardır. Maddi-texniki resursların iqtisadi mahiyyəti, əslində, əsas etibarilə əsas və dövriyyə fondlarının yenidən qurulmasını özündə əks etdirir. Kənd təsərrüfatında geniş təkrar istehsal prosesi də məhz əsas və dövriyyə fondlarının kəmiyyət və keyfiyyət xarakteristikalarının yüksəldilməsini özündə birləşdirir. Kənd təsərrüfatı məhsulları istehsalının artırılması davamlı inkişafın başlıca ilkin şərti kimi çıxış etməklə ərzaq bazarında yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsinə zəmanət yaradır". [4]

Hesab edirik ki, müxtəlif regionlarda kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı üstünlük təşkil edirsə, bu zaman həmin ərazilərin rəqabətqabiliyyətliliyi özünü aqropark forrmalı klasterial inkişaf istiqamətində göstərə bilər. Rəqabətqabiliyyətli klasterlərin yaranması üçün-yeni texniki, texnoloji, investisiyalı, səmərəli istehsal strukturu, həmçinin ixtisaslı kadrlar və elmi-tədqiqat mühiti formalaşmalıdır... Klasterlər yeni, mütərəqqi bir inkişaf forması olmaqla, sağlam rəqabəti və kooperasiyanı düzgün formalaşdırırlar. Əgər aqrar iqtisadiyyatda klasterlər yoxdursa, onda bu sahə tam rəqabətqabiliyyətli ola bilməz.

Nəticə

Göstərilən istiqamətlərdə aşağıdakı tədbirlərin həyata keçirilməsini zəruri hesab edirik:

- ilk növbədə, aqrar sahədə klasterial inkişaf üçün rəqabət üstünlüyü olan əsas məhsul növləri və bölmələrin düzgün müəyyən olunması, bu istiqamətdə zəruri hüquqi əsasların inkişafı. Belə ki, məhsul istehsalı, tədarükü, emalı, istehlakçılara çatdırılması, marketinqi və s.-ni kompleks

şəkildə özündə əks etdirən zəruri qanunverici aktın (qanun və ya dövlət proqramı) qəbul edilməsi;

- həmin prosesdə daha çox rəqabət üstünlüyünə malik və rəqabət qabiliyyətli istiqamətlərin seçilməsi, bu zaman klasterlərin rəqabətli təklif metodlarına üstünlük verilməsi, ilk növbədə aqrar sahənin mövcud resurs potensialını qiymətləndirərək, istifadə imkanlarının müəyyən edilməsi;
- klasterial inkişafın maliyyə-kredit və qiymət mexanizmləri üzrə əsas istiqamətlərinin hazırlanması və tətbiq olunması, ilk növbədə isə investisiya cəlbediciliyinin yüksəldilməsi və maliyyə vəsaitlərinin əhəmiyyətli hissəsinin bu istiqamətlərə yönəldilməsi ;
- aqrar sahənin klasterial inkişafına təkan verən səmərəli biznes-marketinq strategiyasının işlənib hazırlanması və mövcud marketinq xidmətlərinin modernləşdirilməsi;
- aqrar sahənin dayanıqlı inkişafına nail olmaq məqsədilə, menecment işinin səmərəli təşkil olunması;
- regionlarda kooperasiyaya əsaslanan iri aqrar təsərrüfatların təşkili və inkişaf etdirilməsi;
- bu inkişaf meyillərinə uyğun informasiya - kommunikasiya tədbirlərinin hazırlanması;
- aqrar klasterial fəaliyyətin inkişafına təkan verən güclü kadr potensialının təşkili və s.

ƏDƏBİYYAT

1. Texnoparklar: kiçik sahibkarlar üçün bələdçi. Bakı: 2015, 48 s., s.25.
2. Qasımlı V.Ə. İqtisadi modernizasiya. Bakı: 2014, 312 s., s. 117
3. «Azərbaycan» qəzeti, 20 dekabr 2012.
4. www.vergiler.az/art-view/1641/
5. Digər məlumat mənbələri.

Илкин Галиб оглы Солтанлы
к.э.н., доцент Институт Экономики НАНА

Механизмы влияния кластерного развития на повышения конкурентоспособности аграрного сектора

Резюме

Развитие кластеров играет важную роль в совершенствовании аграрного сектора и повышении его конкурентоспособности, что является приоритетом для ненефтяного сектора. В частности, правильный выбор и устойчивое развитие аграрных кластеров считается одним из важных вопросов сегодняшнего дня в соответствии с конкретными территориальными характеристиками сельского хозяйства. В этой статье стороны обменялись мнениями по вышеуказанным вопросам и пришли к конкретным выводам.

Ключевые слова: ненефтяной сектор, аграрный сектор, модернизация, конкурентоспособность, кластерное развитие, устойчивое развитие.

Ilkin Galib Soltanli
c.e.s., ass. prof. Institute of Economics of ANAS

The mechanism of influense of cluster development on raising competetitivenes of agrarian sektor

Summary

Cluster development plays an important role in modernizing the agrarian sector and raising competitiveness of the non - oil sector. Particularli, proper selection and sustainable development of agrarian clusters is considered to be one of the important importantissues of today, in line üith the specific territorial characteristics of agriculture. İn the article, the sides exchanged vieüs on the above mentioned issues and reached specific conclusions.

Key words: non-oil sector, agrarian sector, modernization, compettiveness, cluster development, sustainable development.

Köçəri Şamil oğlu ALLAHVERDİYEV
c.e.n.,dosent Azərbaycan Kooperasiya Universiteti

Səbunə Habil qızı İBADOVA
magistr, Azərbaycan Kooperasiya Universiteti

KÜR-ARAZ OVALIĞINDA AQRAR SAHƏLƏRİN İNKİŞAFINA VƏ ƏHALİNİN MƏSKUNLAŞMASINA TƏBİİ - DAĞIDICI PROSES VƏ HADİSƏLƏRİN TƏSİRİ

Xülasə

Kür-Araz ovalığında aqrar sahələrin inkişafı və əhalinin məskunlaşmaq məqsədi ilə yaşayış yerləri olan şəhər və kəndlərin salınması və təsərrüfat işləri ilə məşğul olmaq məsələləri izah olunur. Rayonun ərazisində nəqliyyat-kommunikasiya şəbəkəsi yaradılması imkanları, aqrar təsərrüfat sahələrinin inkişafı üçün suvarma kollektor - drenaj sistemləri yaradılması baxımından elmi cəhətcə əsaslandırılmış təkliflər verilmişdir. Tədqiq olunan ərazidə təbii - dağıdıcı hadisələrin başvermə səbəbləri, təkrarolunma intensivliyi, dağıdıcı gücün öyrənilməsi ilə dəyən zərərlərin azaldılması və qabaqlayıcı və mühafizə - müdafiə tədbirlərinin görülməsi açılıb göstərilir. Nəticə olaraq aqrar təsərrüfat sahələrini inkişaf etdirmək üçün bəzi elmi proqnozlar işlənib hazırlanmışdır.

Açar sözlər: aqrar təsərrüfat sahələri, təbii - dağıdıcı hadisələr, əhali məskunlaşma vahidlərinin davamlı inkişafı, qabaqlayıcı və mühafizə - müdafiə tədbirləri və s.

Giriş

Kür-Araz ovalığı şimalda Böyük Qafqaz, çənib - şərqdə Kiçik Qafqaz, cənubda Lənkəran coğrafi rayonları, şərqdə isə Xəzər dənizi ilə həmsərhəddir. Aran (Kür - Araz) iqtsadi rayonunun tərkibinə Yevlax, Ağdaş, Ucar, Göyçay, Kürdəmir, Hacıqabul, Zərdab, Bərdə, Ağcabədi, Beyləqan, İmişli, Saatlı, Sabirabad, Biləsuvar, Salyan, Neftçala inzibati rayonları, respublika tabeliyində olan Mingəçevir, Yevlax və Şirvan şəhərləri daxildir. Azərbaycan Respublikası əhalisinin 21%-i (1584 min nəfər), ərazisinin 21,0%-i Aran coğrafi rayonunun payına düşür. Cənubda Qafqazı Xəzər sahillərindən Qara dəniz sahillərinə qədər kəsib keçən əsas nəqliyyat xətləri (dəniz və şosse yolları) Aran iqtisadi rayonundan keçir. Azərbaycanın paytaxtı Bakı şəhərini respublikanın əsas iqtisadi - coğrafi rayonları, Gürcüstan Respublikası, İran və Türkiyə ilə birləşdirən nəqliyyat yolları bu rayonun ərazisindən keçir.

Ərazi aqrar sahələrin və əhalinin məskunlaşdırılması üçün daim əlverişli yer olması ilə seçilir. Ərazidə yaşayış yerləri olan şəhər və kəndlərin salınması üçün deyil, həm də aqrar təsərrüfat işləri ilə məşğul olmaq üçün şirin su mənbələri, əlverişli torpaq - iqlim şəraiti, onların yüksək məhsuldarlığa imkan verən göstəriciləri nəzərə alınır. Bu baxımdan düzən relyef ətraf ərazilərlə əlaqələr saxlamaq üçün əlverişlidir. Bu da nəqliyyat - kommunikasiya şəbəkəsi yaradılması imkanları, kənd təsərrüfatı işləri aparılması, suvarma, kollektor - drenaj sistemləri yaradılması üçün vacib amillərdən biridir.

Təbii - dağıdıcı hadisələrin (TDH) yayılması arealları və intensivliyinin müəyyən edilməsi aqrar təsərrüfat sahələrinin və məskunlaşma vahidlərinin davamlı inkişafı və təsərrüfat sahələrinin fəaliyyətinin təmin edilməsində yeri və rolu.

Öyrəndiyimiz bu ərazidə məskunlaşma vahidlərinin davamlı inkişafı və təsərrüfat sahələrinin fəaliyyətinin təmin edilməsi üçün baş verən təbii - dağıdıcı hadisələrin yayılması arealları və intensivliyinin müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir. Təbii - dağıdıcı hadisələrin baş verməsi səbəblərinin, təkrarlanması intensivliyinin, dağıdıcı gücünün öyrənilməsi ilə onların zərərlərinin azaldılması, qabaqlayıcı və mühafizə - müdafiə tədbirləri görülməsi asanlaşır. Bu proseslərin ölkənin təsərrüfat kompleksində, ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm yer tutan Aran iqtisadi rayonunda da öyrənilməsi ən vacib məsələlərdəndir. [1, s, 64]

Düzənlik ərazilərdən axan çaylarda baş verən ən təhlükəli və geniş yayılma areallarına malik olan dağıdıcı hadisələrindən biri - daşqınlar hesab olunur, Kür-Araz ovalığı yastı relyefə malik ol-

duğuna görə yaz - yay gursululuğu və payızda olan leysan yağıntıları zamanı çaylarda suyun səviyyəsinin qalxması geniş ərazilərin su altında qalmasına səbəb olur. Çayların sahilləri boyu bəndlər çəkildiyinə görə sızan sular kənar ərazilərdə yeraltı suların qalxmasına, subasma zonalarının genişlənməsinə və təkrar şoranlaşma zonalarının genişlənməsinə və təkrar şoranlaşmasının baş verməsinə gətirib çıxarır. Bu da kənd təsərrüfatı işlərinin aparılmasına maneçilik törədir.

Tədqiq etdiyimiz ərazidə olan iri çaylarda dəfələrlə daşqınlar baş vermişdir. Keçən əsrdən başlayaraq çayların üzərində anbarlar sisteminin yaradılması daşqınların qarşısının alınmasına imkan vermişdir. Bütün bunlara baxmayaraq insanların təsərrüfat fəaliyyətinin genişlənməsi və onların mənfi təsirləri çayların su rejiminin pozulmasına gətirib çıxarır. Nəticədə, suyun səviyyəsinin qalxması çox halda təbii fəlakətlərin baş verməsinə və sahilboyu çoxsaylı yaşayış məntəqələrinin su altında qalmasına səbəb olur, kənd təsərrüfatı əkinləri məhv olur, yollar, sənaye və sosial xidmət obyektləri dağılır.

Kür və Araz çaylarında daşqın vaxtı gələn sular su anbarları vasitəsilə tənzimlənirdi. Lakin son vaxtlar baş verən iqlim dəyişmələri, hidrometeoroloji anomaliyalar çayların rejimdə də tərəddüdlərə gətirib çıxarır.

XXI əsrin əvvəllərində yazda baş verən daşqınlar nəticəsində Kür çayının sahilləri boy yerləşən Salyan, Neftçala, Saatlı, Sabirabad və Hacıqabul rayonlarında 17,4 min ha əkin sahəsi, 300-dən çox yaşayış məntəqəsi, onlarda yerləşən 5,3 min fərdi yaşayış evi daşqına məruz qalmış və ziyan çəkmişdir. Dəymiş ziyanın ümumi dəyəri 20 mln. manatdan çox olmuşdur. Neftçala rayonunda 1200-dən çox yaşayış evləri ziyan çəkmiş, 120 ev tamamilə yararsız hala düşmüşdür, 2 min ha əkin sahəsi su altında qalmışdır. Kür çayı ilə eyni vaxtda bura tökülən Araz və digər kiçik çaylarda suyun səviyyəsinin qalxması nəticəsində Saatlı rayonundan başlayaraq mənsəbə qədər ərazilərdə suyun səviyyəsi qalxmış, bir neçə yerdə bəndlər dağılmışdır. Buna görə də Sabirabad rayonunda 5 kənd, İmişli rayonunda 2 kənd, Hacıqabul rayonunda 1 kənd, Şirvan şəhərinin ətraf sahələri daşqın sularının altında qalmış, çayda uyğun sərfi 2500 m^3/san-yə qədər yüksəlmişdir. [2, s, 64-65]

Təbii fəlakətlərin iqtisadi rayonun sənaye və təsərrüfat sahələrinin yaradılmasına təsiri

Azərbayacan Alp - Himalay geosinklinal qurşağında yerləşsə də, Aran iqisadi rayonu nisbətən zəif seysmik zonaya daxildir. Burada baş verən zəzələlər episentrə yaxın ərazilərdə xeyli dağıntılara və fəsadlara səbəb olur, əhaliyə məxsus şəxsi tikililərə, infrastruktur obyektlərinə, istehsal sahələrinə xeyli ziyan dəyir. Aran iqtisadi rayonu seysmoloji rayonlaşdırmada 7 ballıq zəlzələ zonasına daxildir. Tarixən bura daxil olan ərazilərdə çoxsaylı zəlzələlər qeyd olunmuşdur. Son vaxtlarda İmişlidə (5 bal), Ağdaşda (5 bal), Mingəçevir (4 bal), Hacıqabulda zəlzələlər baş vermişdir. [3, s,103] Ona görə də zəlzələ baş verən ərazilərdə tikinti işləri aparılması zamanı əlavə texniki tədbirlər görülür, binaların bünövrəsi möhkəmləndirilir.

Küləklər atmosfer dövranının mühüm tərkib hissəsidir. İl ərzində hakim olan hava kütlələrinin fəsillərdən asılı olaraq dəyişməsi, quru və su sahələrinin yanaşı olması, relyef şəraiti Arandа küləklərin rejimini müəyyən edir. Burada temepratur və təzyiq fərqinin tez-tez dəyişməsi, kəskin təzyiqlər fərqinin yaranması küləklərin əsməsinə səbəb olur. Ayrı-ayrı illərdə yaranan güclü küləklər təsərrüfat obyektlərinə, taxıl əkinlərinə və tərəvəzçiliyə, şəxsi tikililərə, energetika təsərrüfatına ciddi ziyan vurması ilə yadda qalır. Küləyin sürəti 25 - 30 m/san-dən çox olursa güclü hesab olunur, çox halda dağıntılara səbəb olur, təsərrüfata və əhaliyə ziyan vurur. Aparılan hesablamalar göstərir ki, Aran iqtisadi rayonunda il ərzində 10 – 15 gün şiddətli küləklər əsir. Küləklərin ən çox təkrarlandığı məntəqələrə Mingəçevir şəhəri, Kürdəmir və Neftçala rayonları aiddir. Bu rayonlarda küləklərin təkrarlanması 27 - 40 günə çatır. [4, s,132]

Aran iqtisadi rayonunda kənd əhalisinin sayı davamlı olaraq artır. Təbii hərəkət əmsallarının, əhalinin yaş - cins tərkibinin təhlilinə əsasən belə demək olar ki, buralardakı kənd yaşayış məntəqələri yüksək demoqrafik potensiala malikdir. Lakin iqtisadi rayonda əksər inzibati rayonlar üzrə uzun illərdir ki, miqrasiya balansının mənfi olduğuna görə kəndlərdə əhalinin sayı zəif templə artır. Belə bir şəraitdə əhalinin kənd yerlərindən kütləvi surətdə çıxıb getməsinin qarşısının alınması zəruridir. [4, s,108]

Aran iqtisadi rayonunda aqrar təsərrüfat sahələrinin kənd əhalisinin məskunlaşması və kənd yaşayış məskənlərinin təhlilinə əsasən aşağıdakıları söyləmək olar.

Nəticə

1. Düzən relyefin və əlverişli iqlim şəraitinin, o cümlədən bol aqroiqlim ehtiyatlarının mövcudluğu, kənd təsərrüfatının əməktutumlu pambıqçılıq sahəsinin və infrastruktun inkişafı yaşayış məntəqələrinin davamlı inkişaf etməsinə imkan verir. Nəticədə Aran iqtisadi rayonunda kənd yaşayış məntəqələri sürətlə böyüyür, ölkənin digər rayonları ilə müqayisədə daha çox əhaliyə malikdirlər.
2. Son illərdə kənd əhalisinin sayı Biləsuvar, Zərdab, Ağcabədi, Ağdaş rayonlarında zəif templə artmışdır. İqtisadi rayonda bəzi kənd yaşayış məntəqələrinin qəsəbəyə çevrilməsi kənd əhalisinin sayının azalmasına və ya zəif templə artmasına gətirib çıxarır.
3. Saatlı, Sabirabad, Kürdəmir, Ucar, Biləsuvar, Zərdab rayonlarında ümumi kənd əhalisinin xüsusi çəkisi daha yüksəkdir.
4. Kəndlərin inkişafının sosial - iqtisadi bazasını pambıqçılıq, taxılçılıq, üzümçülük, meyvəçilik, heyvandarlıq kimi təsərrüfat sahələrinin daha sürətlə inkişaf etdirilməsi, rayonlarda infrastrukturun yaxşılaşdırılması, kənd sakinlərinin maddi və sosial tələbatlarının daha yüksək səviyyədə ödənilməsi vacibdir.
5. Kür çayının kənarlarında yerləşən kəndlərin daşqınlardan mühafizəsi üçün sahilqoruyucu bəndlərin tikilməsi və bu sahədə fəaliyyətin nizamlanması zəruridir və s.

ƏDƏBİYYAT

1. S.Q.Əliyeva. Kür - Araz ovlağında təbii - dağıdıcı proses və hadisələrin məskunlaşmağa təsiri. Bakı - 2015-ci il.
2. M.R.Musayeva. 2010-cu il daşqınlarının Aran iqtisadi rayonunun yaşayış məntəqələrinə və əhali məskunlaşmasına təsiri. Bakı - 2011- ci il.
3. N.A.Babaxanov, N.Ə.Paşayev. Təbii fəlakətlərin iqtisadi və sosial - coğrafi öyrənilməsi. Bakı – 2004.
4. N.A.Babaxanov. Təbii fəlakətləri ram etmək olarmı? Bakı - 2006-cı il.
5. S.Q.Əliyeva. Azərbaycanda daşqınlar problemi. Bakı - 2010-cu il.

Кочери Шамиль оглы Аллахвердиев
доцент, кандидат географических наук,
Азербайджанский Университет Кооперации

Сабуна Габиль кызы Ибадова
магистр, Азербайджанский Университет Кооперации

Воздействие природно-разрушительных процессов и явлений на расселение населения и развитие аграрных сфер в Куро - Араксинской низменности

Резюме

В статье исследуются возможности создания транспортно - коммуникационных сетей, а также системы орошения и коллекторно-дренажных сетей для сельскохозяйственной деятельности. Анализируются причины возникновения природно-разрушительных процессов, интенсивность их повторения. Изучаются разрушительные силы этих процессов, уменьшение нанесенного ими ущерба и проведение срочных , защитных мероприятий.

Ключевые слова: развитие аграрных сфер, природно-разрушительные процессы, Устойчивое развитие единицы расселения населения, срочные и защитные мероприятия и др.

Kochari Shamil Allahverdiyev
PhD of geographical sciences
Azerbaijan Cooperation University

Sabina Gabil Ibadova
master of Azerbaijan Cooperation University

The influence of naturally-destroying processes and facts on moving away of population and on the development of the agrarian spheres in Kura-Araksin lowland.

Summary

This article contains the research of opportunities, creating transport - communicating nets, also the systems of watering (irrigation) and collect ring - draining nets for agricultural activity. The article analyses the reasons of forming naturally - destroying processes, intensity of their repeatedly. The destroying forces of these processes, reducing the harm, caused by these processes and charring out the urgent - protecting operations are studied here.

Key words: growth of agrarian spheres, naturally - destroying processes, steady growth of units for moving the population away, urgent and protecting operations and etc.

Nizami Cəlal oğlu QAFAROV
dos. Azərbaycan Kooperasiya Universiteti
"Aqrar sahənin və sənayenin iqtisadiyyatı kafedrası"

MÜASİR ŞƏRAİTDƏ AQRAR-ƏRZAQ SEKTORUNDA İSTEHSAL-İQTİSADİ ƏLAQƏLƏRİN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

Xülasə

Məqalədə müasir şəraitdə aqrar-ərzaq sektorunda istehsal-iqtisadi əlaqələrin formalaşmasının zəruri ilkin şərtləri şərh edilmiş, aqrar-ərzaq sektorunda biznes münasibətlərinin inkişafı xüsusiyyətləri aşkara çıxarılmış, sahələrarası əlaqələrin təşkilati-hüquqi formalarının təkmilləşdirilməsi yolları təklif olunmuşdur.

Açar sözlər: aqrar-ərzaq sektoru, istehsal-iqtisadi əlaqələr, biznes münasibətləri, sahələrarası əlaqələr.

Giriş

Son dövrlərdə Azərbaycanda davamlı inkişaf prinsiplərini rəhbər tutmaqla rəqabətqabiliyyətli aqrar məhsulların istehsalı yönümündə çoxşaxəli tədbirlər həyata keçirilir, aqrar sahədə həm orta, həm də uzunmüddətli dövr üzrə strateji inkişaf hədəflərini müəyyən edən "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulmuş tədbirlər reallaşmaqdadır. Belə bir vaxtda bu istiqamətdə görülən işlərin uğuru xeyli dərəcədə aqrar-ərzaq sektorunda istehsal-iqtisadi əlaqələrin düzgün qurulmasından və daha da möhkəmləndirilməsindən asılıdır. Bundan əlavə, könüllülük əsasında kənd təsərrüfatı kooperativlərinin təşkilinə əlverişli şərait yaratmaq, kooperativlərin dayanıqlı fəaliyyətini təmin etmək, eləcə də aqrar sahədə kooperasiyanın formalaşması və inkişafına dəstək vermək məqsədilə 2017-ci ildə ölkə başçısının müvafiq sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyanın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"nın icrasına başlanılması da aqrar-ərzaq zəncirində istehsal-iqtisadi və sahəvi əlaqələrin daha da möhkəmləndirilməsi zərurətini ortaya qoymuşdur. Hesab edirik ki, bu yönümdə strateji hədəf prioritetlərinin reallaşdırılması isə öz növbəsində ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində atılan addımların səmərəliliyinin daha da artırılmasına xidmət etmiş olacaqdır.

Müasir dövrdə aqrar-ərzaq sektorunda istehsal-iqtisadi əlaqələrin formalaşmasının zəruri ilkin şərtləri

İstənilən dövlətin iqtisadiyyatı mürəkkəb daxili quruluşla, proporsiyalarla, hissələrin nisbəti ilə xarakterizə olunur. Ölkə iqtisadiyyatı, o cümlədən aqrar-ərzaq sektoru üçün struktur çoxcəhətliliyi səciyyəvidir: maddi-əşyavi struktur istehsal vasitələrinin və istehlak predmetlərinin istehsalını birləşdirir; dəyər strukturu ictimai məhsulun istehsalına sərf olunan müxtəlif növ əməyin nisbətini aşkara çıxarır; sosial struktur - ölkənin ictimai quruluşunun xarakterini əks etdirir; regional struktur inzibati-ərazi vahidləri üzrə aqrar-ərzaq bazarının yerləşməsini göstərir [4, s. 5-8].

Müasir dövrdə iqtisadiyyatın bütün sahələrinin, o cümlədən aqrar-ərzaq sektorunun inkişafı istehsalın inkişaf qanunlarının tələblərinə əsaslanaraq, ayrı-ayrı sahələr arasında zəruri nisbətlər nəticəsində baş verir. Ona görə də torpaqdan, vəsait qoyuluşundan və əmək ehtiyatlarından daha dolğun istifadə edilməsi üçün dərin ıxtisaslaşma ilə yanaşı, ayrı-ayrı sahələr arasında düzgün nisbətin yaradılması da böyük əhəmiyyət kəsb edir. Beynəlxalq təcrübə və aparılan tədqiqatların nəticələri göstərir ki, düzgün ixtisaslaşdırma və sahələrin səmərəli əlaqələndirilməsi nəticəsində kənd təsərrüfatı məhsulları istehsalının səmərəliliyi yüksəlir, torpaq, əmək və istehsal vasitələrindən daha dolğun istifadə edilir. Onu da qeyd edək ki, ictimai əmək bölgüsü təkcə məhsuldar qüvvələrdən deyil, məhsuldar qüvvələrin inkişafı prosesində meydana çıxan istehsal münasibətlərindən də asılıdır.

Aqrar-ərzaq bazarında biznes münasibətlərinin inkişafı xüsusiyyətləri

Müasir şəraitdə aqrar-ərzaq bazarında sahələrarası əlaqələr müxtəlif təşkilati-hüquqi formalarla həyata keçirilir. Onlardan geniş yayılanı maddi-texniki təchizat, kənd təsərrüfatının istehsal xidməti, aqrar bölmənin məhsullarının tədarükü, satışı və bir çox başqa məsələləri üzrə qarşılıqlı münasibətlərin ifadə edildiyi təsərrüfat müqavilələridir. Aqrar-ərzaq bazarında təsərrüfat müqavilələri onun tərkibinə daxil olan müəssisələri, birliklər arasında daimi qarşılıqlı işgüzar əlaqələr yaratmaq, bu münasibətlərə təminat vermək və inkişaf etdirmək məqsədinə xidmət edir.

Hazırda aqrar-ərzaq bazarında kəndli (fermer) təsərrüfatları, kooperativlər, kiçik müəssisələr, müştərək müəssisələr fəaliyyət göstərir. Bu təsərrüfat formaları əsasən öz fəaliyyətini zərərlə başa vuran, aşağı rentabelli kolxoz və sovxozların, təsərrüfatlararası kənd təsərrüfatı müəssisələrinin bazalarında yaradılmışdır. Respublikada aqrar islahatlar Dövlət aqrar islahat komissiyası və Kənd Təsərrüfatı Nazirliyinin baş Aqrar İslahat İdarəsi, Yerli aqrar islahat komissiyaları tərəfindən həyata keçirilir. 2016-cı ilin hesabat məlumatlarına əsasən respublikanın kənd təsərrüfatı, meşəçilik və ovçuluq sistemində 9034 müəssisə olmuşdur ki, onun da 1021-i 2001-ci ildə yaradılmışdır. 1998-ci ilin sonuna Azərbaycan Respublikasında kolxoz və sovxozlar tamamilə islahatlar yolu ilə ləğv edilmişdir. 2013-cü ilin statistik məlumatlarına görə ilin sonuna 1249 iri kənd təsərrüfatı müəssisələri fəaliyyət göstərmişdir ki, onlardan da 1091-i özəl, 158-i dövlət müəssisəsi olmuşdur. Həmin ildə kəndli (fermer) təsərrüfatlarının sayı 1468-ə çatmışdır [1, s. 62].

Aqrar-ərzaq sektorunda islahatın ilk dövrlərdə ləng, səmərəsiz aparılması istehsalın nəticəsinə mənfi təsir göstərmiş, böhranlı vəziyyəti dərinləşdirmişdir. 1996-cı ildən başlayaraq aqrar islahatın aparılması sahəsində ciddi dəyişikliklər edilmiş, yerli aqrar islahat komissiyalarının fəaliyyəti gücləndirilmiş, onların normativ-hüquqi bazaları nisbətən möhkəmləndirilmişdir. Torpaq islahatlarının həyata keçirilməsi, torpağın xüsusi mülkiyyətə verilməsi, kolxoz və sovxozların mülkiyyətinin özəlləşdirilməsi üçün zəruri normativ-hüquqi bazanın yaranması iqtisadiyyatın digər sahələrinə nisbətən kənd təsərrüfatında iqtisadiyyatın daha sürətlə aparılmasına təkan yaratmışdır. Nəticədə qeyri-dövlət bölməsinin xüsusi çəkisi 85%-ə çatdırılmışdır. 2017-ci ildə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 6,58 mlrd. manat (2003-cü il 1,45 mlrd. manat) təşkil etmiş və 2003-ci ilə nisbətən 4,5 dəfə, o cümlədən bitkiçilik məhsulları üzrə 3,3 dəfə, heyvandarlıq məhsulları üzrə 4,4 dəfə artmışdır [1, s. 55].

Aqrar-ərzaq sektorunda sahələrarası əlaqələrin təşkilati-hüquqi formalarının təkmilləşdirilməsi yolları

Beynəlxalq təcrübə göstərir ki, kənd təsərrüfatı müəssisələrinin hər bir istehsal tipi öz aralarında əlaqələndirilən sahələrin optimal tərkibinə malik olmalıdır. Çoxsahəli təsərrüfata, daha doğrusu, səmərəli tərkibə və sahələrin birləşməsinə malik olmadan, yalnız bir məhsulun istehsalına yönəlməklə və hətta müəyyən dövrdə əlverişli olsa belə, kənd təsərrüfatı müəssisəsi yaşaya bilməz. Başqa sözlə, təsirlərin effektiv ixtisaslaşması ilə yanaşı, istehsalın effektiv şaxələnməsi məsələsini də səriştəli həll etmək lazımdır. Təsərrüfatın müvafiq istehsal tiplərində texnoloji və iqtisadi münasibətlərinə uyğun əlaqələndirilən sahələrin səmərəli tərkibini təmin etmək lazımdır. Təsərrüfatlarda sahələrin tərkibinə daha böyük təsiri təsərrüfatlararası, təsərrüfatdaxili kooperasiya və aqrar-sənaye inteqrasiya göstərir [2, s. 35].

Təsərrüfat müqavilə münasibətlərinin təşkili və onun təkmilləşdirilməsində müxtəlif formada fəaliyyət göstərən aqrar-sənaye birləşmələrinin rolu və əhəmiyyəti böyükdür. Bu qəbildən olan birləşmələr geniş idarəetmə və nəzarət funksiyasına malik olduğu üçün elə etməlidir ki, təsərrüfat müqaviləsi müəssisə və təşkilatların hüquq və vəzifələrini müəyyən edən əsas sənəd olsun.

Odur ki, inteqrasiya birliklərinin yaradılmasının əsas prinsipləri sırasına aşağıdakılar aid olunur:

- gələcək iştirakçıların könüllü razılığı;
- inteqrasiyanın tipi, inteqrator müəssisənin seçilməsi;
- iştirakçıların iqtisadi potensialının öyrənilməsi, onların mümkün birləşmə dərəcəsinin və müstəqillik səviyyəsinin müəyyən edilməsi;
- qrupların ixtisaslaşmasının əsas istiqamətlərinin, məhsul növlərinin müəyyən edilməsi;
- məhsul növləri üzrə bazarın vəziyyəti haqqında marketinq informasiyasının alınması;
- qrupun idarəedilənliyinin təmin olunması imkanlarının təhlili, vahid təsərrüfatçılıq strategiyasının reallaşdırılması;
- hüquq və səlahiyyətlərin rəsmiləşdirilməsi mexanizmi;
- qrupda iqtisadi cəhətdən əsaslandırılmış mexanizmin, mənfəətin bölüşdürülməsinin və məcmu məsuliyyətin nizamlanması;
- dövlətlə, müxtəlif səviyyəli idarəetmə orqanları ilə qarşılıqlı münasibətlərin formaları;
- müxtəlif səviyyələrdə assosiasiyaların (ittifaqların) yaradılması [3, s. 36].

Nəticə

Aqrar-ərzaq sektoru müəssisələrinin öz daxili və müəssisələrarası istehsal- iqtisadi əlaqələri bütövlükdə sektorun, həmçinin bu sektora daxil olan müəssisələrin maddi maraqlarının ödənilməsinə xidmət etməlidir. Yalnız bu halda o, milli məqsədlərin reallaşmasının vasitələrindən biri kimi çıxış edə bilər. Bu vəzifəni reallaşdırmaq üçün müəssisələr arasında bağlanan müqavilələrin növü, miqdarı, müqavilə öhdəliklərinin yerinə yetirilməsi vaxtı, müqavilənin bağlanması və yerinə yetirilməsində baş verən iddia və tələblərin xarakteri barədə dəqiq məlumat olmalıdır. Bununla yanaşı, yeni şəraitdə biznes fəaliyyəti ilə məşğul olan tərəflər arasındakı müqavilə münasibətlərində hüquq pozuntuları törədən səbəblərin aşkar edilməsinə xüsusi diqqət yetirilməlidir.

ƏDƏBİYYAT

1. Azərbaycanın kənd təsərrüfatı. Statistik məcmuə. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Bakı, 2014, 636 s.
2. Крячков И.Т., Пронская О.Н., Сонина Ю.В. Актуальные вопросы состава сочетающихся отраслей в системе воспроизводства сельскохозяйственных предприятий //Экономика сельскохозяйственных и перерабатывающих предприятий №4, 2009, с.35-37 .
3. Пушина Н.Н. Регулирование межотраслевых отношений в условиях рынка (на примере АПК Удмуртской Республики): Дисс. канд.экон. наук, Ижевск: 1999, 130 с.
4. Экономика муниципального сектора. Под ред. А.В.Пикулькина. М.ЮНИТИ-ДАНА. 2007,-464 с.

Низами Джалал оглы Гафаров
доцент Азербайджанский Университет Кооперации
«Экономика промышленности и аграрного сектора»

Пути совершенствования производственно-экономических связей в агропродовольственном секторе на современном этапе развития

Резюме

В данной статье интерпретируются необходимые первичные условия формирования производственно-экономических связей в агропродовольственном секторе, выявлены особенности развития предпринимательских отношений, предложены пути совершенствования организационно-правовых форм межотраслевых связей в агропродовольственном секторе на современном этапе развития.

Ключевые слова: агропродовольственный сектор, производственно-экономические свзи, предпринимательские отношения, межотраслевые связи.

Nizami Jalal Gafarov
ass. prof. Azerbaijan Cooperation University
"Economy of industry and agrarian sector"

In the modern food industry ways to improve the economic and economic relations

Summary

The article discusses the necessary prerequisites for the establishment of stable economic relations in the agrarian-food sector in modern conditions, revealing the features of business relations in the agrarian and food sector, and ways to improve the organizational and legal aspects of interstate relations.

Key words: agrarian-food sector, production-economic relations, business relations, good relations.

Nüşabə Aslan qızı HACIYEVA
i.f.d., dosent, Azərbaycan Texnologiya Universiteti,

Sevinc Firuddin qızı BABAKİŞİYEVA
baş müəllim, Azərbaycan Texnologiya Universiteti,

Arzu Tahir qızı PAŞA
assistent, Azərbaycan Texnologiya Universiteti

AQRAR SAHƏNİN İNKİŞAFI VƏ ƏRZAQ TƏHLÜKƏSİZLİYİ

Xülasə

Azərbaycanda ərzaq təhlükəsizliyinin yaxşılaşdırılması ölkənin öz reproduktivi əsasında mümkündür. Ərzaq təhlükəsizliyinin təmin olunmasında əsas şərtlər: qida istehsalının həcminin artmasına səbəb olan iqtisadi artım, insanların real gəlirləri və yoxsul əhaliyə dövlətin aktiv yardım siyasətidir.

Açar sözlər: ərzaq təhlükəsizliyi, ərzaq təminatı, qeyri-neft sektoru, aqrolizinq, inkişaf strategiyası, informasiya texnologiyaları.

***

Etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. Bu baxımdan Azərbaycan dövləti əhalisinin ərzaqla etibarlı təminatına dair çoxyönlü tədbirlər həyata keçirir və ərzaq təhlükəsizliyinin birbaşa asılı olduğu aqrar sahənin inkişafına

yönələn irimiqyaslı dövlət proqramları həyata keçirir. Hazırda ölkədə əhalinin etibarlı ərzaq təminatı dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən birini təşkil edir.

Əhalinin əsas ərzaq məhsulları ilə etibarlı təmin olunması və ölkənin məşğul əhalisinin böyük hissəsinin çalışdığı aqrar sektorun inkişafı siyasətinin əsası 90-cı illərin ortalarında qoyulub. Azərbaycanda MDB ölkələri arasında ən sürətli torpaq islahatları həyata keçirilib, kənd təsərrüfatı istehsalçılarına yardım mexanizmləri formalaşdırılıb, beynəlxalq təşkilatlarla, o cümlədən Dünya Bankı və BMT-nin Ərzaq Təşkilatı (FAO) ilə birlikdə bu sahədə əhəmiyyətli layihələrin icrasına başlanıb. 2001-ci ildə ölkə rəhbərinin Sərəncamı ilə "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı" təsdiq edilib. Bu proqram çərçivəsində görülmüş işlər nəticəsində kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı əhəmiyyətli dərəcədə artıb. Sonradan Azərbaycanda sürətli iqtisadi inkişafın başlaması nəticəsində aqrar sahənin daha da inkişaf etdirilməsi üçün görülən tədbirlər də genişlənib. Aqrar sahənin inkişafı Azərbaycan dövlətinin iqtisadiyyatın şaxələndirilməsi strategiyasının başlıca istiqamətlərindən birini təşkil edib. Belə ki, ölkə əhalisinin təxminən 1,5 milyon nəfərinin aqrar sektorda çalışması baxımından bu sahənin inkişaf etdirilməsi həm də qeyri-neft sektorunun inkişafı, işsizliyin və yoxsulluğun aradan qaldırılması baxımından xüsusi əhəmiyyət kəsb etməkdədir.

FAO-nun hesablamalarına əsasən, dünyada ərzaq və heyvan yemi üçün taxıla tələbatın hazırkı 2,1 milyard tondan 2050-ci ildə təqribən 3 milyard tona, habelə ət istehsalının 200 milyon tondan 470 milyon tona yüksələcəyi gözlənilir. Bu sahədə də Azərbaycanda vəziyyət qənaətbəxşdir.

Aqrar sahənin inkişafı yoxsulluğun azaldılması və regionların sosial-iqtisadi inkişafına dair qəbul edilən dövlət proqramlarında aparıcı yeri tutub. "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı», «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı üzrə Dövlət Proqramı (2002-2005-ci illər)», «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» və digər qəbul olunmuş sənədlərdən irəli gələn vəzifələrin yerinə yetirilməsi, o cümlədən fermerlərə maliyyə və texniki dəstəyin göstərilməsi, sahibkarlığın inkişafı, regionlarda infrastruktur layihələrinin həyata keçirilməsi əhalinin istehlakında yerli məhsulların xüsusi çəkisinin artmasını təmin edib. "2008-2015-ci illərdə Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı proqramı" da əsasən regionlarda işsizliyin aradan qaldırılmasına və ərzaq təhlükəsizliyinin təmin olunmasına yönəldilib. Bu problemlərin həlli aqrar sahənin inkişaf strategiyasının əsasını təşkil edir və aqrar sektorla sıx bağlıdır.

Dünya Bankının verdiyi proqnozlara görə, ölkəmizdə 2017-ci və 2018-ci illərdə aqrar sahədə hər il 4 faiz artım gözlənilir ki, bu da hesabatın əhatə etdiyi Şərqi və Mərkəzi Avropa ölkələri arasında Azərbaycanın ön yerlərdən birini tutduğunu göstərir. Aparılan aqrar islahatların nəticəsidir ki, kənd təsərrüfatı üzrə yerli istehsalın artımı heyvandarlıq məhsullarının əksəriyyəti üzrə idxalın həcminin kəskin şəkildə azalmasına səbəb olmuşdur. İdxalın həcmi ət və ət məhsulları üzrə 2,8 faiz, süd və süd məhsulları üzrə isə 15,7 faiz, iribuynuzlu heyvanların baş sayı üzrə 74,5 faiz, xırdabuynuzlu heyvanlar üzrə 94,2 faiz, damazlıq cücə üzrə 51,6 faiz azalmıdır.

Analoji vəziyyət süd məhsullarının idxalında da müşahidə olunmuşdur. Belə ki, azalma xama üzrə 18 faiz, pendir üzrə 6,6 faiz, kərə yağı üzrə 18,8 faiz təşkil etmişdir. Əsas hədəf heyvanların cins tərkibini dəyişməklə, yem bazasını gücləndirməklə, ənənəvi bitki növlərinin istehsalını artırmaqla məhsuldarlığı 5-6 dəfə yüksəltməkdir. Hazırda taxılçılığın, üzümçülüyün, çəltikçiliyin, çayçılığın, soyanın və digər əhəmiyyətli qida məhsullarının istehsalının artırılması üçün kompleks tədbirlər görülür, potensialdan tam səmərəli istifadə metodları tətbiq olunur.

Aqrar sektorun inkişafı və ərzaq məhsullarının istehsalının artırılması üçün yeni innovativ texnologiyaların və müasir texnikanın cəlb edilməsi həlledici əhəmiyyət kəsb edir. Lakin yeni texnologiyaların cəlb edilməsi, müasir kənd təsərrüfatı texnikalarının alınması böyük vəsaitlər tələb etdiyindən dövlətin dəstəyi olmadan bu sahədə dönüş yaratmaq mümkün olmazdı. Bunu nəzərə alaraq Azərbaycan prezidenti 2004-cü ildə "Aqrolizinq" ASC-nin yaradılması barədə sərəncam verib. "Aqrolizinq" ASC-yə mineral gübrələrin, pestisidlərin, texnoloji avadanlıqların, tinglərin, buğda toxumlarının, cins damazlıq heyvanların ölkəyə gətirilib istehsalçılara çatdırılması və digər funksiyalar həvalə edilib.

"Aqrolizinq" ASC dövlət büdcəsi hesabına alınmış kənd təsərrüfatı texnikaları və texnoloji avadanlıqları fiziki və hüquqi şəxslərə dəyərinin 20 faizini qabaqcadan, qalan hissəsini isə 10 il müddətinə qədər (dəyərindən asılı olaraq) ödəmək şərti ilə lizinqə verir və ya lizinq yolu ilə satılır. İndiyədək "Aqrolizinq" ASC xəttilə 9452 ədəd müxtəlif markalı kənd təsərrüfatı texnikaları alınıb.

Dövlət siyasətinin əsas istiqaməti həm də ona yönəlib ki, daxili ərzaq bazarı idxalı maksimum azaldılsın və ərzaq ehtiyatlarının yaradılması üçün kompleks tədbirlər həyata keçirilsin. 2008-ci ilin mayında isə ölkə prezidenti tərəfindən əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair ayrıca Dövlət Proqramı qəbul edilib. Bu proqram 2008-2015-ci illəri əhatə edir. Həmin Dövlət Proqramı Azərbaycanda aqrar sektorun inkişafı və ərzaq təhlükəsizliyinin təmin olunması baxımından ən mühüm sənəd hesab olunur. Proqramın qəbul olunmasının ardınca nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini təmin etmək üçün büdcədən kənd təsərrüfatına ayrılan xərclər də 2009-cu ildə əhəmiyyətli dərəcədə 44 faiz artaraq 388.2 milyon manata çatdırılıb. Bu artım tendensiyası sonrakı illərdə də davam edib və gələcəkdə də davam edəcəyi gözlənilir.

Əhalinin ərzaqla etibarlı təminatına yönələn dövlət siyasətinin nəticəsi olaraq 2003-cü ildən sonra aqrar sektorda inkişaf davamlı tendensiyaya çevrilib. 2003-2007-ci illər ərzində aqrar sahədə real artım orta hesabla ildə 4,5 faiz təşkil edib. Bu tendensiya sonrakı illərdə də davam edib. 2011-ci ildə bitkiçilik məhsulları istehsalı 9,4 faiz, heyvandarlıq məhsulları istehsalı 3,6 faiz və kənd təsərrüfatının ümumi məhsul istehsalı 6,8 faiz artıb. 2017-ci ilin yekunlarına əsasən isə kənd təsərrüfatı sahəsində 6,3 faiz artım əldə olunmuşdur. Həmçinin 2016-cı illə müqayisədə taxıl istehsalı 1,6 faiz, o cümlədən buğda istehsalı 1,7 faiz artıb. Statistik göstəricilərə görə kənd təsərrüfatı Azərbaycana ÜDM-in 5,4%-ni verir. Burada əsas fondların 7,9%-i, məşğul əhalinin isə 38%-i cəmlənib. Hazırda bu sahədə 24000 müəssisə, 2800 fərdi sahibkar, 10000 ailə fermer təsərrüfatı fəaliyyət göstərir və 550 emal müəssisəsi işə salınıb.

Əhalinin çoxalması ilə şərtlənən daxili tələbatın tam ödənilməsi üçün isə daha çox ərzaq məhsulunun istehsalına ehtiyac duyulur. Qeyri-neft sektorunun inkişafının başlıca məqsədlərindən olan ixrac yönümlü keyfiyyətli məhsul istehsalının artırılması aqrar sahədə də başlıca vəzifə kimi önəmini saxlayır. Azərbaycan brendi ilə tanınan rəqabətqabiliyyətli ərzaq məhsullarının dunya bazarlarına çıxarılması da başlıca hədəflərdən olsa da daxili tələbatı yerli məhsullarla təmin etmək birinci dərəcəli vəzifələrdir. Ərzaq təhlükəsizliyi probleminin həllində də daxili tələbat əhəmiyyətli və bir-birini tamamlayan vəzifədir. Azərbaycanda əhalinin ərzaq təhlükəsizliyi tam şəkildə təmin olunur. Ət istehsalı Azərbaycanın tələbatını demək olar ki, ödəyir. Növbəti illərdə görüləcək tədbirlər nəticəsində ət və ət məhsullarının, süd və süd məhsullarının böyük ixrac potensialına nail olunacaq. Ölkə əhalisinin toyuq əti ilə tələbatı 100, süd və süd məmulatları ilə ehtiyacı 80 faiz səviyyəsində təmin olunur. Azərbaycandan böyük həcmdə meyvə-tərəvəz ixrac edilir.

Növbəti illərdə ixracla bağlı daha da böyük nəticələr olacaq. 2016-cı ildə pamidor ixracı 55, kartof 63, soğan 1100, süd məhsulları təqribən 400, meyvə və tərəvəz emalı məhsulları 54 faiz, spirtli və spirtsiz içkilər 16 faiz, o cümlədən şərab 13 faiz, alma təxminən 200 faiz, xurma 14 faiz, nar 106 faiz, çay 50, şokolad 50, bitki-heyvan mənşəli yağlar 7 faiz artıb. Qarşıda duran vəzifələri isə cənab İlham Əliyev bu sözləri ilə bildirir: "Beləliklə, biz bundan sonra bu gözəl nəticələr əsasında işimizi daha da təkmilləşdirməliyik, fəaliyyətimizi genişləndirməliyik. Əlbəttə ki, qeyri-neft ixracını artırmaq üçün, ilk növbədə, daxili tələbatı yerli məhsullarla təmin etməliyik və biz buna yaxınlaşırıq. Hər il regional inkişaf proqramına yekun vururuq. Bu mövzu daim gündəlikdə olur ki, biz hansı məhsullarla özümüzü nə qədər təmin edirik, hər il də dinamikanı görürük. Ancaq hələ ki, buna tam nail ola bilməmişik. Ona görə də hesab edirəm, növbəti 3-4 il ərzində biz çalışmalıyıq ki, əsas istehlak mallarımızla özümüzü tam şəkildə təmin edək. Beləliklə, ixrac üçün əlavə imkanlar yaranacaq».

Kənd təsərrüfatında artım tendensiyasını saxlamaq üçün dövlət tərəfindən bu sahəyə yönələn subsidiya və güzəştli kredit siyasəti yürüdülür. Elmi-tədqiqat institutlarında istehsal olunmuş məhsuldar toxumların dəyərinin isə 30-40 faizi dövlət tərəfindən ödənilir. Fermerlərə yanacaq 50% endirimlə satılır, onlar gübrələri dəyərinin 50-75%-nə alırlar. Bu maddi yardımlar kənd təsərrüfatı məhsullarının idxaldan asılılığını əhəmiyyətli dərəcədə azaldır. İqtisadi İnkişaf Nazir-

liyinin Sahibkarlığa yardım milli fondu tərəfindən verilən vəsaitlərin əsas hissəsi də kənd təsərrüfatına yönəlib. Həmçinin ət, süd və yağ istehsalında artıma nail olmaq üçün ölkəyə damazlıq heyvanların gətirilməsi üçün xüsusi proqram qəbul edilib. Bu proqram əsasında Kənd Təsərrüfatı Nazirliyi dövlət vəsaitləri hesabına Avropa ölkələrindən indiyədək 5 mindən çox damazlıq heyvanları gətirib, proses gələcəkdə də davam edəcək. Gətirilən heyvanların hamısı lizinq yolu ilə kəndlilərə verilib. Digər fəaliyyət sahəsi iri fermer təsərrüfatlarının yaradılmasıdır və prezidentin tapşırığına əsasən yaxın illərdə ölkədə 50 iri taxılçılıq təsərrüfatı formalaşdırılmalıdır.

Təkcə 2017-ci ilin 6 ayında sahibkarlara güzəştli şərtlərlə 63 milyon manat kredit verilib. Ümumiyyətlə, bütövlükdə güzəştli şərtlərlə iki milyard manat kredit verilib. "İnvestisiya təşviqi mexanizmi özünü tam doğruldub. Bu, çox düzgün addım idi. İnvestisiya təşviqi mexanizminin işə düşməsindən sonra məhz bu təşəbbüsə görə Azərbaycana 1,6 milyard manat dəyərində investisiya qoyulub" söyləyən Prezident İlham Əliyev aqrar sahədə də investisiya təşviqi mexanizminin tətbiqini faydalı amil kimi dəyərləndirir. Sahibkarlar isə dövlətin onlara göstərdiyi dəstəyi daxili bazarda yaranan məhsul bolluğu ilə doğruldur.

Beynəlxalq təşkilat - "Economist İntelligence Unit" araşdırma mərkəzi (London) dünya ölkələrinin ərzaq təhlükəsizliyi reytinqini tərtib etmişdi. Reytinq ərzaq bolluğu, insanların yüksək gəlirli, başqa mal və məhsullarla müqayisədə ərzağa daha az pul xərcləməsi, kənd təsərrüfatı sahəsində elmi-tədqiqat və inkişafa böyük sərmayə yatırılması meyarlarına əsaslanır. Reytinq cədvəlinə ABŞ, Danimarka və Fransa başçılıq edirlər. Azərbaycan isə 105 ölkə arasında 67-cidir. Hesabatda Azərbaycanın zəif cəhətləri kimi kənd təsərrüfatı sahəsində elmi tədqiqatlara xərclərin azlığı, ərzaq təhlükəsizliyi ilə bağlı konkret proqramların məhdudluğu, ailələrin başqa mal və məhsullarla müqayisədə ərzağa çox pul xərcləməsi, siyasi sabitlik, demokratiya məsələlərində əskikliklər, ümumi daxili məhsulun adambaşma düşən həcminin kiçikliyi göstərilib.

Sürətlə dəyişən dünyada inkişaf yalnız müəyyən faydaları deyil, yeni təhdidləri də meydana gətirir. İnsanlıq elə həddə çatıb ki, təhdidlərə məhəl qoymamaq mümkün deyil və müasir dünyanın təhlükəsiz inkişafının təmin edilməsi problemi ön plana çıxır, o cümlədən də ərzaq təhlükəsizliyi məsələsi. Ərzaq təhlükəsizliyi problemi həll olmadan digər aktual iqtisadi və sosial problemlərin həlli çətin görünür. Bu, müxtəlif səviyyələrdə nəzərə alınmalıdır: qlobal, milli, regional, məişət, fərdi və s. Ərzaq təhlükəsizliyi probleminin əhəmiyyəti, ilk növbədə insan ehtiyacları strukturunda qidaya olan ehtiyac kımi ön plana çıxır və onun ödənilmə dərəcəsi isə kifayət qədər deyil.

Dövlətin ərzaq təhlükəsizliyi - iqtisadi və milli təhlükəsizliyinın ən mühüm tərkib hissəsidir. Azərbaycan üçün ərzaq təhlükəsizliyi aktualdır. Bu məsələ müasir dövr üçün də öz aktuallığını itirməmiş, əksinə, daha da ciddiləşmişdir. Yəqinliklə demək olar kı, istənilən dövlətın qarşısında duran çoxsaylı vəzifələr arasında ölkə əhalisinin təhlükəsiz ərzaq məhsulları ilə etibarlı təminatı məsələsi xüsusi yer tutur. Bunu çox yaxşı bilən böyük dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ölkənin ərzaq təhlükəsizliyi məsələsini daim diqqət mərkəzində saxlamış və bu məsələnin gələcək nəsillər üçün olduqca vacib və aktual olduğunu nəzərə alaraq ərzaq təhlükəsizliyi məsələsini özünün dövlətçilik strategiyasının əsas elementləri sırasına daxil etmişdir [3]. Dövlətin qida probleminin həll prosesi gec-tez bitir, ərzaq təhlükəsizliyinin təmin edilməsi prosesinin isə sonu olmamalıdır. Ərzaq təhlükəsizliyi problemi bütün hallarda öz müsbət həllini tapmalıdır.

Kənd təsərrüfatı məhsullarının intensivləşdirilməsi ilə bağlı ətraf mühitin çirklənməsinin də artdığını görürük. Dövlət ekoloji tələblər əsasında kənd təsərrüfatı istehsalının tənzimlənməsi üçün tədbirlər həyata keçirməlidır. Bu, genetik cəhətdən modifikasiya olunmuş qidaların və onların istehsal komponentlərinin Azərbaycana axınına nəzarət (ət, süd, qarğıdalı, buğda, soya və s.); sanitar və fitosanitar standartların beynəlxalq ictimaiyyətlə uyğunlaşdırılması, kənd təsərrüfatı məhsullannın idxalına ekoloji nəzarətin gücləndirilməsidir [2].

Ərzaq təhlükəsizliyi probleminin həlli yollarının yaxşılaşdırılmasından biri də Qlobal Qida Təhlükəsizliyi İndeksində önəmli yerın tutulmasından ibarət olmalıdır [1]. Qeyd edək ki, 2013-cü il üçün hazırlanmış hesabatda Azərbaycan "qismən yaxşı ölkələr" sırasında yer almışdır.

Qloballaşma dövründə daxili bazarda rəqabət mövqelərinin saxlanılması üçün dövlət öz

problemlərinin həll edılməsi bacarığına malik olmalıdır. Hazırda ölkədə, dünya standartlarına cavab verən infrastrukturların yaradılmasının təmin edilməsi və milli rəqabətqabiliyyətliliyin yüksəldilməsi dövlətin əsas funksiyalarından biridir [4]. Azərbaycanın öz potensialı ilə uğurlu beynəlxalq standartlara müvafiq infrastrukturunun formalaşdırılması ölkənin nəinki müasır texnologiyaların tətbiqi və inkışafına əsaslanan modernləşdirilməsini sürətləndirəcək, həm də Azərbaycan iqtisadıyyatının rəqabətqabiliyyətliliyinin gələcəkdə artmasına kömək edəcəkdir. Ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin gücləndirilməsi Azərbaycan Respublikasında əhalinin maddi rifahının yaxşılaşdırılmasının, sosial-iqtisadi sabitliyinin, iqtisadi və milli təhlükəsizliyinin təmin edilməsi üçün həlledici amildir.

ƏDƏBİYYAT

1. Ataşov B.X. Ərzaq təhlükəsizliyinın aktual problemləri. Bakı: Elm, 2005, 335 s.
2. Buzdalov İ.N. Kənd təsərrüfatı və emal müəssisələrinin iqtisadiyyatı. Bakı: 2010
3. İmanov K. Azərbaycan. Bakı: 2009
4. İsrafilov H.A. Qloballaşma şəraitındə istehlak kooperasiyasının inkişaf perspektivləri. Bakı: 2010
5. Xəlilov H.A. Milli ərzaq təhlükəsizliyı: bazar transformasiyaları və iqtisadi qloballaşma amilləri. Bakı: Adiloğlu, 2001

Нушаба Аслан кызы Гаджиева
д.ф.э., доц. АзТУ,

Севиндж Фируддин кызы Бабакишиева
ст. пред. АзТУ,

Арзу Тахир кызы Паша
ассистент АзТУ

Развитие аграрной сферы и продовольственная безопастность

Резюме

Улучшение продовольственной безопасности в Азербайджане возможно на основе собственной репродуктивной базы. Основными условиями обеспечения продовольственной безопасности являются экономический рост, который ведет к увеличению производства продуктов питания, реальным выгодам населения и активной поддержки правительства.

Ключевые слова: продовольственная безопасность, продовольственное обеспечение, ненефтяной сектор, агролизинг, стратегия развития, информационные технологии.

Nushaba Aslan Hajiyeva
PhD in economics, ass. prof. AzTU,

Sevindj Firuddin Babakishiyeva
h/t. AzTU,

Arzu Tahir Pasha
assistent AzTU

Development of agrarian sphere and food security

Summary

Improving food security in Azerbaijan is possible on the basis of its own reproductive base. The main conditions for ensuring food security are the economic growth that leads to an increase in food production, the real benefits of people, and the government's active aid policy to the poor.

Key words: food security, food supply, non-oil sector, agroleasing, development strategy, information technology.

Zakir Qəşəm oğlu QULİYEV
i.f.d., Bakı Biznes Universiteti
"Mühasibat uçotu və audit" kafedrası

AQRAR SAHƏNİN KREDİT TƏMİNATININ PERSPEKTİV İSTİQAMƏTLƏRİ

Xülasə

Bu məqalədə aqrar sektorun kreditləşməsi ilə bağlı bəzi məsələlər nəzərdən keçirilir. Dövlət tərəfindən aqrar sektorun tənzimlənməsinin vacibliyi, kredit münasibətlərinin formalaşdırılmasında açar rolunu oynaması, bazar sisteminə daxil olmasının üsullarından biri kimi qeyd olunur.

Açar sözlər: məqsədəuyğunluq, dövrilik, təminatlılıq, kredit mexanizmi, kredit münasibətləri, aqrar islahatlar, kreditləşdirilmə fondu.

***

Aqrar sahənin tənzimlənməsində kredit mexanizminin formalaşması

Məlumdur ki, aqrar sahədə kredit mexanizmində kreditvermənin səmərəliliyi məqsədəuyğunluq, dövrilik, təminatlılıq və digər ümumi prinsiplərə uyğun olaraq həyata keçrilir. Eyni zamanda həmin proses bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq bir sıra özünəməxsus cəhətlərə də malikdir. Müasir şəraitdə aqrar sahənin tənzimlənməsi kredit mexanizmi bir sıra amillərlə, məsələn, təsərrüfat qurumlarına maliyyə güzəştlərinin verilməsi, səmərəli aqrar kredit sisteminin formalaşdırılması ilə də sıx bağlıdır.

Aqrar sahədə iqtisadi islahatların ikinci mərhələsinin həyata keçirildiyi indiki vaxtda, təsərrüfat subyektlərinin kapital resurslarına olan ehtiyaclarının ödənilməsi səmərəli kreditləşmə sisteminin formalaşması və onun təkmilləşdirilməsindən əhmiyyətli dərəcədə asılıdır. Fikrimizcə, aqrar sahədə kredit mexanizminin təkmilləşdirilməsi, metodoloji baxımdan bazar sahibkarlıq, özəlləşdirmə kimi iqtisadi kateqoriyalar ilə daha sıx bağlıdır.

Bazar mexanizminin formalaşması və inkişafı şəraitində aqrar sahənin əsas vəzifəsi-mövcud iqtisadi inkişafı sabitləşdirmək, cəmiyyətin və dövlətin bu sahənin qarşısına qoyduğu məqsədə nail olmaq üçün keyfiyyət halını artırmaq, orta səviyyəli tarazlıq və dinamik inkişaf əldə etməkdir. Bu dinamiklik isə ancaq bazar münasibətləri şəraitində qazanıla bilər.

Belə ki, bu dəyişikliklərə məqsədyönlü uyğunlaşmaq, təsərrüfat mexanizmi strukturunda islahatları ardıcıl surətdə həyata keçirmək, aqrar islahatçıların maliyyə kredit təminatını, xüsusən də onların kredit resurslarına olan ehtiyaclarını yetərincə ödəmək, həmçinin idarəetmənin funksiya və amilləri arasında qarşılıqlı əlaqəni formalaşdırmaq kimi bu və ya digər məsələlər indiki dövrün həllini tələb edən mühüm məsələlərindəndir. Aqrar sahədə iqtisadi mexanizmin, o cümlədən onun mühüm tərkib hissəsi olan maliyyə-kredit münasibətlərinin ifadə etdiyi bu məqsəd həmin sistemdə fəaliyyəti optimallaşdırmaq, daha az səy və məsrəfə mümkün olan daha çox iqtisadi nəticələrə nail olmaq və bununla da əhalinin ərzaq məhsullarına, digər sahələrin isə kənd təsərrüfatı məhsullarına olan tələbatını ödəməkdir. Sosial baxımdan isə, işsizliyi minimuma çatdırmağa, kasıbçılığı və yoxsulluğu aradan qaldırmağa kömək göstərmək əsas istiqamətli tədbirlərdəndir [5, s. 36-41].

Hələ vaxtilə "Aqrar sahədə islahatların sürətləndirilməsinə dair bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 22 mart 1999-cu il tarixli fərmanında aqrar islahatların həyata keçirilməsində yol verilmiş nöqsanlar ciddi tənqid edilərək göstərilmişdir ki, "islahatların dərinləşməsinə yönəlmiş tədbirlər heç də lazımi qədər həyata keçrilmir, aqrar sahədə mövcud istehsal münasibətləri bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılmır. Mövcud olan problemlərin elmi təhlili aparılmır, bunun nəticəsində aqrar sahədə planlaşdırılmış maliyyə, kredit, bank, vergi, qiymət, daxili bazarın qorunması tədbirlərini nəzərdə tutan islahatların ikinci mərhələsini təmin edən proqram indiyə qədər hazırlanmamışdır [1, s. 676-677]. Düzdür, bu kimi hallar aradan qaldırılsa da, hələ də buna oxşar digər məsələlərin diqqətdə saxlanması lazım gəlir.

Təhlillər göstərir ki, bir neçə ildir ki, dövlət büdcəsindən fermer təsərrüfatlarının kreditləşdirilməsi fonduna, müəssisələrin özəlləşdirmədən sonrakı sağlamlaşdırılması fonduna, eləcə də aqrar islahatların həyata keçirilməsi ilə bağlı xərclərin maliyyələşdirilməsi yetərincə aparılmamış, nəticədə iqtisadi islahatların, o cümlədən aqrar islahatların həyata keçirilməsinə, islahatların inkişafına, bir sıra sosial problemlərin həllinə və eləcə də dövlət büdcəsinin gəlirlərinə zərər dəymişdir.

Müşahidələr göstərir ki, bu gün əksər kənd təsərrüfatı məhsullarının istehsalçıları, öz məhsullarını xammal kimi satırlar. Bu isə böyük iqtisadi çətinliklər yaratmaqla, aqrar subyektlərin təsərrüfat-maliyyə fəaliyyətinin rentabelli nəticələnməsinə imkan vermir. Bu həm də iqtisadi cəhətdən istənilən səmərəni vermir. İstehsalçıların çoxu cari işlərin yerinə yetrilməsi üçün (əkin, səpin aparmaq, toxum, gübrə, zərərli kimyəvi maddələr almaq və s.) qısa müddətli bank kreditlərindən istifadə etməli olurlar.

Qeyd olunduğu kimi, aqrar təsərrüfatların maddi-texniki bazasının möhkəmləndirilməsi, kiçik emal sexlərinin, tədarük, satış, təchizat-servis xidməti müəssisələrinin və digər bazar infrastrukturunun yaradılması ləng həyata keçirilir. Bu isə istehsal olunan məhsulların alıcılara çatdırılmasında çətinliklər yaradır və külli miqdarda məhsul itkisinə səbəb olur. Aqrar sahədə fəaliyyət göstərən məhsul istehsalçılarının bir çoxunun emal müəssisələri ilə birbaşa əlaqəsi olmadığına görə, istehsal etdikləri məhsulların əksəriyyətini çox ucuz qiymətə satmağa məcbur olurlar. Bu eyni zamanda məhsulların tez xarab olması və saxlama imkanlarının zəifliyindən irəli gəlir. Keçmiş illərdən mövcud olan emal müəssisələrinin əksəriyyəti bu məhsulların alışında, qiymətlərinin müəyyən edilməsində rəqabət olmadığına görə öz qiymətlərini diktə edirlər. Buradan belə bir nəticəyə gəlmək olar ki, ölkənin aqrar sahəsinə kredit qoyuluşu kimi həlli vacib problemlərinə hələ də lazımınca diqqət yetirilməmişdir [4, s. 27-38].

Aqrar sahənin kreditləşdirilməsində bank və səhmdar kredit təşkilatlarının rolu.

Ulu öndər Heydər Əliyevin dediyi kimi, "hər bir ölkənin bankı onun iqtisadiyyatının, maliyyəsinin ən mötəbər bir hissəsidir". Hazırda Azərbaycanda 46 bank, 27 bank olmayan kredit təşkilatı, 77 kredit ittifaqı vardır. Regionlarda 244 bank filialı, 15 bank olmayan kredit təşkilatı və 78 kredit ittifaqı fəaliyyət göstərir. Görülmüş tədbirlər nəticəsində, son üç ildə bankların aktivləri 1 milyart 6 milyon manatdan 4 milyard 890 milyon manata, məcmu kapitalı isə 120 milyon manatdan 764 milyon manata, kredit qoyuluşu 996 milyon manatdan 3 milyard 763 milyon manata, o cümlədən kənd təsərrüfatına qoyulan kreditlərin həcmi isə 56 milyon manatdan 537 milyon manata yüksəlmişdir. Aqrar sahəyə maliyyə yardımında Kənd Təsərrüfatı Nazirliyi yanında kənd təsərrüfatı kreditləri üzrə Dövlət Agentliyinin mühüm rolu vardır. Bu agentlik ölkə hökumətinin beynəlxalq təşkilatlar və maliyyə qurumları ilə bağlanılan sazişlər əsasında "Kənd Təsərrüfatının İnkişafı və Kreditləşdirilməsi", Dağ və Yüksək Dağlıq Ərazilərinin İnkişafı Etdirilməsi Proqramı". "Şimal-Şərq İnkişaf" və "Kənd İnvestisiya" layihələrinin həyata keçirilməsini təmin edir. Bu layihələrin kredit komponenti çərçivəsində 96 min aqrar sahibkarlara 78 milyon manat məbləğində əsasən mikro kreditlər verilib.

Aqrar sahibkarlara güzəştli kreditlər vermək üçün 2017-ci ilin investisiya proqramı daxilində Dövlət Agentliyindən 8 milyon məbləğində vəsait ayrılır. Bu vəsait hesabına müvəkkil kredit təşkilatları vasitəsi ilə 39 rayonda fəaliyyət göstərən 401 sahibkara heyvandarlığın, quşçuluq və meyvəçiliyin, kartofçuluğun, üzümçülüyün, arıçılığın və digər bölmələrin inkişafı üçün kredit verilib.

Aqrar sahənin kreditləşdirilməsində mühüm rol oynayan digər maliyyə qrumu "Aqrarkredit" səhmdar kredit təşkilatı da Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərinin yerləşdirilməsində, 2004-cü ildə müvəkkil kredit təşkilatı kimi iştirak edir. Ötən dövr ərzində fondun vəsaitləri hesabına ölkənin ayrı-ayrı bölgələrində kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və infrastrukturun inkişafına 2,1 milyon manat məbləğində 300-dən artıq kredit verilib. Eyni zamanda ötən dövr ərzində kənd yerlərində çalışan 9 minə yaxın sahibkarlıq qurumuna 39 milyon manat kredit, Yaponiya krediti hesabına isə 26 milyon manat dəyərində 1100-dən artıq kənd təsərrüfatı texnikası Aqrolizinq qaydasında icarəyə verilib. Bu isə 23 mindən artıq insanın işlə təmin olunması deməkdir.

Araşdırmalar göstərir ki, bu gün qeyri-bank kredit təşkilatları bütün kredit bazarının 10%-ni əhatə edirlər. Ümumilikdə isə 20-ə yaxın təşkilat mikromaliyyələşdirmə prosesi ilə məşğul olur. Onlardan Azer Credit, Cred-Aqro (ACDI\VOCA), Viator Micro Credit, Merey Corp, Finca Azerbaijcan, Shore Overseas Azerbaijan və digərlərini misal göstərə bilərik. Bu qurumlardan Azer Credit (World Vision) təşkilati 10,05 milyon dollar, Finka Azerbaijan qurumu 12.41 milyon dollar, Cred-Aqro qurumu isə 5.4 milyon dollarlıq kredit portfelinə malikdir.

Məsələn, qeyri-bank kredit təşkilatı olan "World Wision Azer Credit"in 4500 üzvü vardır. 2004-cü ildən isə "Aqrar Credit" və "Aqrar Credit fondu" kredit təşkilatları vahid qurumda birləşmişlər [2, s. 14].

Yuxarıdakı misallardan göründüyü kimi, ölkəmizdə aqrar sahənin kreditlədirilməsi ilə xeyli qurumlar (bank və qeyri-bank qurumları) məşğul olurlar. Lakin aqrar təsərrüfatların yaradılması və inkişaf etdirilməsi üçün dövlət tərəfindən daha sanballı kredit yardımı zəruridir. Bunun üçün, hər şeydən əvvəl həmin ehtiyaclara cavab verən yeni kredit mexanizmi yaradılmalıdır. Bu baxımdan, artıq səhmdar cəmiyyət olmuş aqrar-sənaye bankının fəaliyyətini yenidən bərpa etmək və həmin məqsədlərə istiqamətləndirmək lazımdır. Çünki, kreditlərdən səmərəli istifadə olunması istehsalın səmərəliliyinin artırılmasında geniş formada idarəçilik mexanizminin möhkəmləndirilməsi üçün əsas yaratmış olur.

Ümumiyyətlə, iqtisadiyyatın kənd təsərrüfatı kimi mühüm bir sahəsinin kreditləşdirilməsi üçün möhkəm maliyyə-kredit bazasına malik olan ixtisaslaşdırılmış dövlət bankının fəaliyyətinin yenidən təmin edilməsi zəruridir. Bütün vəsaitlərdən istifadə edərək, həmin bankı yeni yaradılan təsərrüfat strukturlarının maliyyə dayağına çevirmək tələb olunur. Eyni zamanda yaradılan aqrar təsərrüfat subyektlərinin maliyyə durumunun zəifliyi və onların borc vəsaitlərə cəlb edilməsinə böyük ehtiyacı olduğu , habelə, aqrar sahənin özünün ciddi maliyyə sıxıntıları içində olduğu nəzərə alınaraq, bu sahədə fəaliyyət göstərəcək xüsusi kommersiya banklarının yaradılması hər vasitə ilə stimullaşdırılmalı və onların sağlam əsaslar üzərində fəaliyyət göstərməsi üçün tədbirlər görülməlidir [3, s. 20-48].

Tədqiqatlar göstərir ki, kənd təsərrüfatı subyektləri istehsal üçün aldıqları kreditləri təyinatına uyğun istifadə etdiyi və nəzərdə tutulan məhsullar yığıldığı halda, bəzi subyektiv səbəblərdən kreditlərin qaytarılması çətinləşmiş, bununla da onun dövretmə müddəti uzanmış, bankın fəaliyyəti pisləşmiş, beləliklə, yenidən kreditlər verilməsinə imkanları olmamışdır. Deyildiyi kimi, bu tələbat indiyə qədər Səhmdar-Kommersiya Aqrar-Sənaye Bankı tərəfindən ödənilmişdir. Lakin həmin bank kənd təsərrüfatı məhsullarının istehsalına, emalına, eləcə də əhalinin işlə təmin olunmasına, onların pul gəlirlərinin artmasına və sosial durumunun yaxşılaşmasına tam şərait yarada bilməmişdir. Bu bankdan alınan kreditlərdən indiyə qədər xeyli borc yığılıb qalmışdır.

Fikrimizcə, aqrar islahatların **ikinci mərhələsində** alınmış kreditlərin vaxtında qaytarılması və ümumiyyətlə istehsalçıların kredit təminatının təkmilləşdirilməsi üçün aşağıdakı tədbirlər həyata keçirilməsi vacibdir:

- əkinçi birlikləri yaradılaraq. Onlara sahə təhkim edilməlidir;
- xüsusi ilə tez xarab olan meyvə və digər kənd təsərrüfatı məhsulları üçün ayrıca soyuducu anbarlar tikilməlidir;
- sourtinq deyilən texnoloji sistem (standart ayırma) inkişaf etdirilməlidir;
- hər kənd təsərrüfatı məhsulu üçün minimum qiymət siyasəti aparılmalıdır;
- satış kooperativləri yaradılmalı və xarici bazarlara çıxış sistemi genişləndirilməlidir;
- kəndlilərin aldığı kreditlərin və başqa borcların ödənilməsində yumşaq və dözümlü hərəkət edilməlidir.

Məlumdur ki, aqrar sahədə yeni məzmunlu iqtisadi münasibətlərin, o cümlədən kredit münasibətlərinin inkişafı və təkmilləşdirilməsi metodoloji baxımdan bazar, sahibkarlıq, özəlləşdirmə koteqoriyaları ilə sıx bağlıdır. İqtisadiyyatın aqrar bölməsində həmin koteqoriyanın məntiqi bağlılıqlarını başa düşmədən, məsələnin əsl mahiyyətini duymaq qeyri-mümkündür. Aqrar sahədə bazar münasibətlərinin formalaşmasının əsas vəzifəsi mövcud iqtisadi inkişafı sabitləşdirmək,

orta səviyyəli dinamik inkişaf və tarazlıq əldə etmək, qarşıya qoyulan məqsədlərə nail olmaq üçün keyfiyyət halını artırmaqdır.

Qeyd olunan dinamiklik halı isə, ancaq müasir bazar münasibətləri şəraitində qazanıla bilər. Artıq qeyd olunduğu kimi, bu dəyişikliklərə məqsədyönlü uyğunlaşmaq, təsərrüfat mexanizmi strukturunda islahatları həyata keçirmək, bazar münasibətlərinin əsas funksiyası və amilləri arasında, o cümlədən kreditləşdirmə sahəsində qarşılıqlı əlaqələri formalaşdırmaq indiki dövrün həllini tələb edən mühüm məsələlərindəndir [6, s. 110].

Nəticə

Aqrar sahədə yeni təsərrüfat mexanizminin əsas məqsədi isə, bu sahədə fəaliyyətin optimallaşdırılması, daha az məsrəflərlə daha çox iqtisadi nəticələrə nail olunması, əhalinin ərzaq məhsullarına, digər sahələrin isə bu məhsullara olan tələbatını ödəməkdən ibarətdir. Aqrar sahədə mövcud olan sahibkarlıq formaları yeni istehsal- idarəetmə və səhmdar münasibətləri texnoloji-təşkilati, sosial-psixoloji və digər amillərin təsiri altında formalaşır, təşəkkül tapır və inkişaf edir.

ƏDƏBİYYAT

1. "Heydər Əliyev və dövlətin aqrar siyasəti", Bakı, "Gənclik", 2003.
2. "Maliyyə və uçot" jurnalı, №1 (133) 2004. səh.14
3. Azərbaycan XXI əsrin astanasında" (elmi-praktik konfrans materialları), I hissə, 1997, II hissə, 1998. səh 20-48
4. Alıyev İ.H. Azərbaycan Respublikasında aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi. Bakı, "Elm" 2003. səh. 27-38
5. Alıyev İ.H. "Milli iqtisadiyyat və aqrar sahənin inkişaf problemləri", Bakı 2006. səh. 36-41
6. Alıyev İ.H. Aqrar sahənin inkişafının təkmilləşdirilməsi və regionlarda islahatların keyfiyyətcə səmərəli aparılması. Bakı 2004, 110 s.

Закир Гашам оглы Гулиев
к.э.н. Вакинский Университет Бизнеса

Некотырые теоретические вопросы кредитования аграрного сектора

Резюме

В статье рассматривается некотырые теоретические вопросы кредитования аграрного сектора. Отмечается что, регулирования аграрного сектора со страны государство важно и является из способов включения в рыночную система а это является важным ключем к влиянию формирования кредитной отнешения аграрном секторе.

Ключевые слова:целосообразность, периодурность, обеспечаность, механизм кредита, кредитное отношение, аграрные реформы, фонд кредитования.

Zakir Gasham Guliyev
PhD in economics Baku Business University

Some theoretical questions of the lending the agrarian sector

Summary

Some theoretical questions is considered in article about lending the agrarian sector. It Is Noted that, requlations of the agrarian sector on the part of state it is important and one of the ways of the sut-in in market system, and this is an important key to influents of the shaping credit relations in agrarian sector.

Key words: expediency, periodicity, pledge, credit mechanism, credit relationships, agrarian reform, lending fund.

Ənvər Sadıq oğlu SALAHOV
i.f.d., dosent, Azərbaycan Dövlət İqtisad Universiteti

AQRAR SEKTORUN KİÇİK VƏ ORTA SAHİBKARLIQ SUBYEKTLƏRİNDƏ ELEKTRON MÜHASİBAT UÇOTUNUN TƏŞKİLİ İSTİQAMƏTLƏRİ

Xülasə

Müasir dövrdə iqtisadiyyatın digər sahələrində olduğu kimi, aqrar sektorda fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektlərində də mühasibat uçotunun təkmilləşdirilməsi mühüm əhəmiyyətə malikdir. Mühasibat uçotunda elektron informasiya işləmələrindən geniş istifadə edilməsi onun müasir iqtisadi şəraitə uyğun təkmilləşdirilməsi istiqamətlərindən biridir. Burada verilən tezislər aqrar sektorun kiçik və orta sahibkarlıq subyektlərində elektron mühasibat uçotunun təşkili məsələlərinə həsr edilmişdir.

Açar sözlər: aqrar sektor, kiçik və orta sahibkarlıq subyektləri, elektron mühasibat uçotu, elektron maliyyə hesabatı.

Giriş

Müasir dövrdə ölkəmizdə iqtisadiyyatın inkişafının daha da sürətləndirilməsi və onun idarəedilməsi səmərəliliyinin yüksəldilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli 1138 saylı Fərmanı ilə "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" təsdiq edilmişdir. Ölkəmizin iqtisadi inkişafının məqsədyönlü istiqamətləndirilməsində mühüm əhəmiyyətə malik olan bu dövlət sənədində kiçik və orta sahibkarlıq subyektlərinin inkişafına xüsusi diqqət ayrılmışdır.

***

Ölkəmizin iqtisadi inkişafının müasir mərhələsində kiçik və orta sahibkarlıq müəssisələrinin yüksək sürətlə inkişaf etdirilməsi və ölkənin ümumi iqtisadiyyatında kiçik və orta sahibkarlıq subyektlərinin payının artırılması mühüm əhəmiyyətə malikdir. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsində göstərilir ki, kiçik və orta sahibkarlıq subyektləri üçün təşkil ediləcək yeni biznes assosiasiyaları müvafiq dövlət agentliyi ilə birlikdə öz fəaliyyət sahələri üzrə müvafiq sektorlardakı müəssisələrin problemlərinin mütəmadi təhlilini həyata keçirəcək, onları müvafiq qurumlarda səsləndirəcək və həlli yollarını axtaracaqlar [1, s. 300]. Bu halda kiçik və orta sahibkarlıq müəssisələrinin mövcud problemlərini aşkar etmək və onların mütəmadi təhlilini həyata keçirmək üçün həmin müəssisələrin təsərrüfat fəaliyyətini real çəkildə əks etdirən mühasibat uçotu informasiyalarına ehtiyac olacaqdır. Lakin kiçik və orta sahibkarlıq subyektləri olan müəssisələrdə çalışan işçi heyətin mühasibat uçotu və maliyyə hesabatına dair bilikləri qaneedici səviyyədə deyildir və onların artırılmasına ehtiyac vardır. Bu barədə Yol Xəritəsində belə qeyd edilmişdir: "Kiçik və orta sahibkarlıq subyektlərinin inkişafı lazımi istedad və bacarıqlara malik müvafiq işçi ehtiyatının yaradılmasından, eləcə də mövcud idarəetmə təcrübələrinin inkişaf etdirilməsindən birbaşa asılıdır. Kiçik və orta sahibkarlıq subyektlərinin mövcud işçi qüvvəsinin maliyyə biliklərinin və biznesi idarəetmə bacarıqlarının artırılmasına ehtiyac vardır. Bu bilik və bacarıqlar strateji planlaşdırma, maliyyə hesabatlarının hazırlanması və digər əsas biznes fəaliyyətlərinin həyata keçirilməsi baxımından çox böyük önəm daşıyır. Bundan əlavə, kiçik və orta sahibkarlıq subyektlərinin təsisçiləri və sahibləri innovasiyaəsaslı artıma təkan verə bilmək üçün sahibkarlıq bacarıqlarını inkişaf etdirməlidirlər" [1, s. 351]. Ölkə iqtisadiyyatının Strateji Yol Xəritəsində öz əksini tapmış bu məsələlərin həyata keçirilməsində kiçik və orta sahibkarlıq subyektlərində elektron mühasibat uçotunun tətbiq edilməsi mühüm rol oynaya bilər.

Elektron mühasibat uçotu dedikdə, mühasibat uçotu məlumatlarının elektron informasiya texnologiyaları ilə işlənməsi başa düşülür. Elektron mühasibat uçotu sistemi müəssisə və təşkilatın təsərrüfat-maliyyə fəaliyyəti prosesində baş verən bütün təsərrüfat əməliyyatlarına dair operativ, statistik və mühasibat uçotu informasiyalarının müasir tələblər səviyyəsində işlənməsini təmin edə bilən texniki və məntiqi əsasa malik yeni informasiya işləmələri texnologiyasıdır.

Müəssisədə elektron mühasibat uçotunun tətbiq edilməsi elektron maliyyə hesabatının işlənməsi və təqdim edilməsinə, eləcə də təsərrüfat fəaliyyəti üzərində operativ elektron maliyyə nəzarətinin həyata keçirilməsinə şərait yaradır. Bununla yanaşı, elektron mühasibat uçotu vergi və maliyyə orqanları, həmçinin dövlət və bələdiyyə idarəçiliyi qurumları ilə çevik və operativ əlaqələrin yaradılmasına yardım edir. Elektron mühasibat uçotu müəssisə ilə göstərilən idarəetmə orqanları arasında sənəd, hesabat və digər informasiya mübadiləsini təmin etməklə, eyni zamanda müəssisənin cari xərclərinin idarə edilməsi proseslərinin yerinə yetirilməsini asanlaşdırır.

Aqrar sektorun kiçik və orta sahibkarlıq subyektlərində elektron mühasibat uçotu sisteminin fomalaşdırılması və bunun əsasında elektron maliyyə hesabatı və nəzarət sisteminin yaradılması üçün bir sıra kompüter mühasibatı proqramlarından istifadə edilə bilər ki, bunlardan da daha sadə formaya malik olanı və kiçik və orta sahibkarlıq subyektləri üçün daha əlçatan olanı "Azmühasib" mühasibat uçotu proqramları paketidir. Bu proqramın kiçik və orta sahibkarlıq müəssisələrində tətbiq edilməsi burada elektron mühasibat uçotu sisteminin təşkil edilməsinə, bu əsasda elektron maliyyə hesabatı formalarının tam avtomatlaşdırılmış səviyyədə işlənərək, onların yuxarı təşkilatlara "on-layn" rejimində təqdim edilməsinə və cari elektron maliyyə sənədlərinin zəruri proseduralar çərçivəsində işlənməsinə şərait yaradır. Aqrar sektorun kiçik və orta sahibkarlıq subyektlərində elektron mühasibat uçotu sisteminin fomalaşdırılması üçün "Azmühasib" mühasibat uçotu proqramları paketi ilə yanaşı, "Excel" və "Word" kimi kütləvi kompüter proqramlarından da istifadə etməklə, elektron mühasibat uçotunun ayrı-ayrı proseslərini asanlıqla yerinə yetirmək olar. Göstərilən proqram təminatının istifadə edilməsi müəssisədə pul vəsaitlərinin, hesablaşma əməliyyatlarının, torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin, mal əməliyyatlarının, vergitutma, əmək ödənişi, gəlir və xərclərin idarəedilməsi, maliyyə nəticələrinin müəyyənləşdirilməsi və digər bu kimi əməliyyatların elektron uçotunun aparılmasını, eləcə də buradan irəli gələn müxtəlif çeşidli elektron idarəetmə uçotu informasiyalarının işlənməsini təmin edir [2].

Aqrar sektorun kiçik və orta sahibkarlıq subyektlərində elektron mühasibat uçotunun tətbiq edilməsi eyni zamanda elektron maliyyə hesabatı sisteminin tətbiq edilməsi üçün əlverişli şərait yaradır. Elektron mühasibat uçotu prosesində avtomatlaşdırılmış rejimdə tərtib edilmiş maliyyə hesabatının formaları Azərbaycan Respublikası Maliyyə Nazirliyinin "www.maliyye.gov.az" saytında verilmiş imkanlar vasitəsilə "on-layn" rejimində, elektron formatda təqdim edilir [3].

Beləliklə, müasir dövrdə aqrar sektorun kiçik və orta sahibkarlıq subyektlərində elektron mühasibat uçotunun tətbiq edilməsi Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi üzrə müəyyən edilmiş iqtisadi inkişaf hədəflərinə çatmaq üçün əlverişli bir vasitə olmaqla, mühüm itarəetmə mexanizmi kimi istifadə edilə bilər.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Bakı-2016.
2. Salahov Ə.S. Mühasibat uçotunun kompüterləşdirilməsi. "Azmühasib" mühasibat uçotu proqramları paketinin tətbiqi xüsusiyyətləri. Dərs vəsaiti. Bakı-2008.
3. www.maliyye.gov.az -Azərbaycan Respublikası Maliyyə Nazirliyinin saytı.

Анвар Садых оглы Салахов
к.э.н., дос. кафедры
«Бухгалтерского учета и аудита» АГЭУ

Направления организации электронного учета в субъектах малого и среднего бизнеса аграрного сектора

Резюме

В современном периоде совершенствование бухгалтерского учета в субъектах малого и средного бизнеса функционирующих в аграрном секторе, как и в других секторах эконо-

мики, имеет важного значения. Широкое использование электронной информации в бухгалтерском учете является одним из способов его совершенствования в соответствии с современными экономическими условиями. Представленные здесь тезисы посвящены организации электронного учета в малом и среднем бизнесе в аграрном секторе.

Ключевые слова: аграрный сектор, малый и средний бизнес, электронный учет, электронный финансовый отчет.

Anvar Sadig Salahov
PhD in Economics, ass. prof. of
"Accounting and audit" Department, UNEC

Directions of organization of electronic accounting in small and medium business subjects of the agrarian sector

Summary

In the modern period, the improvement of accounting in the subjects of small and medium businesses operating in the agricultural sector, as in other sectors of the economy, is of great importance. The wide use of electronic information in accounting is one of the ways to improve it in accordance with modern economic conditions. The theses presented here are devoted to the organization of electronic accounting in small and medium business in the agricultural sector.

Key words: agrarian sector, small and medium business, electronic accounting, electronic financial report.

Samirə Yaşar qızı MƏMMƏDOVA
i.f.d., Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCANDA RƏQABƏTQABİLİYYƏTLİ İQTİSADİYYATIN FORMALAŞMASI İSTİQAMƏTLƏRİ

Xülasə

Əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş, uzunmüddətli dövr üçün düşünülmüş iqtisadi siyasət ölkədə makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf üçün əsaslı zəmin yaratmışdır.

Azərbaycan Respublikasında qeyri-neft sektorunun davamlı və rəqabətqabiliyyətli inkişafı dövlətin iqtisadi siyasətinin prioritet istiqamətidir. Qeyri-neft sektorunun inkişafı sahəsində hökumət müxtəlif istiqamətlərdə iqtisadi siyasət həyata keçirir. Qeyri-neft sənayesinin inkişafı və ərzaq təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət kəsb edən sahələrdən biri kimi, kənd təsərrüfatı məhsullarının istehsalı və emalına xüsusi diqqət yetiriləcək, müasir texnologiyaların tətbiqi yolu ilə mövcud aqroemal müəssisələrinin istehsal gücünün artırılması və yeni belə müəssisələrin yaradılması istiqamətində kompleks tədbirlər həyata keçiriləcəkdir. İqtisadi inkişaf sahəsində ən mühüm və qlobal hədəf Azərbaycanda yüksək rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşdırılmasıdır.

Açar sözlər: qeyri-neft sektoru, rəqabətqabiliyyətli iqtisadiyyat, ərzaq təhlükəsizliyi, iqtisadi inkişaf.

***

Azərbaycan müstəqillik əldə etdikdən sonra özünün yeni iqtisadi modelini formalaşdırmışdır. Respublikanın iqtisadiyyatında neft amilinin rolu xeyli artmış, investisiya qoyuluşlarının həcmində bu sektor üstünlük təşkil etmişdir. Nəticədə, ölkə iqtisadiyyatının digər sahələrinə nisbətən neft sektoru üstün inkişaf etmişdir. Neftdən əldə olunan gəlirlər hesabına milli iqtisadiyyatın infrastrukturunun yenilənməsi baş vermiş, neft sektoru ölkə iqtisadiyyatının lokomotivinə çevrilmişdir. Uğurlu neft strategiyası iqtisadiyyatın digər sahələrinin inkişafına da zəmin yaratmış-

dır. Lakin iqtisadiyyatın yalnız bir istiqamətdə inkişafını, resurs, yəni neft amilindən asılılığını aradan qaldırmaq, dünya neft bazarında neftin qiymətində baş verən oynamalardan,neftin qiymətinin aşağı düşməsindən iqtisadiyyatı sığortalaya bilmək üçün digər sahələrin, qeyri-neft sektorunun üstün inkişafı indiki mərhələdə Azərbaycan üçün aktuallıq kəsb edən əsas məsələdir. Ölkədə iqtisadiyyatın dayanıqlı və tarazlı inkişafını təmin etmək, əhalinin social iqtisadi rifahını yüksəltmək, iqtisadi inkişafın keyfiyyətcə yeni modelini formalaşdırmaq,ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyini artırmaq,dünya iqtisadiyyatına səmərəli inteqrasiya etmək üçün və ölkənin uzunmüddətli inkişaf strategiyasına uyğun olaraq qeyri-neft sektorunun inkişaf etdirilməsi və onun ixrac imkanlarının genişləndirilməsi hazırkı mərhələdə dövlətin qarşıya qoyulmuş əsas vəzifələrindəndir və qeyri-neft sektorunun inkişaf etdirilməsi hökumətin iqtisadi siyasətinin əsas prioritetini təşkil edir.

İqtisadi inkişafın bir mənbədən asılılığının aradan qaldırılması üçün həyata keçirilən iqtisadiyyatın şaxələndirilməsi(diversifikasiya), qeyri-neft sektoruna xarici investisiyaların cəlb edilməsi, qeyri-neft sektorunda investisiya qoyuluşlarının maliyyələşdirilməsi üçün əlverişli şəraitin yaradılması, o cümlədən, daxili investorlar üçün əlverişli investisiya mühitinin yaradılması, sahibkarlıq fəaliyyətini tənzimləyən,sahibkarlığın inkişafının stimullaşdırılması və təkmilləşdirilməsi, biznes mühitinin, özəl bölmənin yaxşılaşdırılması, səmərəli vergi siyasəti və s. qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün dövlətin iqtisadi siyasətinin əsas istiqamətləridir.

Qeyri-neft sektorunun inkişaf etdirilməsi hökumətin Azərbaycan iqtisadiyyatının dayanıqlı və davamlı inkişafının təmin edilməsi istiqamətində həyata keçirdiyi siyasətin əsas prioriteti hesab edilir. Bu sektorda həyata keçirilən şaxələndirmə tədbirləri,əlverişli investisiya mühitinin yaradılması və yaxşılaşdırılması, rəqabətqabiliyyətli alt-sahələrinin müəyyənləşdirilməsi, sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması,eləcə də xarici ticarətin strukturu və dəyişmə dinamikası istiqamətində aparılan təhlillər göstərir ki, son illərdə ölkə iqtisadiyyatında həyata keçirilən islahatlar və düşünülmüş iqtisadi siyasət nəticəsində qeyri-neft sənayesinin inkişafı və onun ixracının genişləndirilməsi sahəsində ciddi nailiyyətlər əldə edilmişdir. Bu inkişafın davamlılığını təmin etmək, dünya iqtisadiyyatına səmərəli inteqrasiya prosesində ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyini artırmaq və ölkənin uzunmüddətli inkişaf strategiyasına uyğun olaraq qeyri-neft sahələrinin daha da inkişaf etdirilməsinə nail olmaq üçün müvafiq tədbirlər görülməlidir. Qeyri-neft sektorunun inkişafı sahəsində hökumət müxtəlif istiqamətlədə iqtisadi siyasət həyata keçirir.Hökumətin diversifikasiya siyasəti onun iqtisadi siyasətinin əsas prioritet istiqamətlərindən hesab edilə bilər. Diversifikasiya siyasəti təbii resursların mövcudluğu və iqtisadiyyatı bunun nəticəsində inkişaf edən ölkələrdə qeyri-resurs sahələrinin üstün inkişafı sayəsində iqtisadi inkişafın bir mənbədən asılılığının aradan qaldırılması üçün həyata keçirilir. İqtisadi diversifikasiyanın əsas hədəfi olaraq uzunmüddətli perspektivdə davamlı iqtisadi inkişafın təmin edilməsi nəzərdə tutulur. Hökumət isə bu hədəfə ixrac yönümlü və yüksək əlavə dəyərə malik mürəkkəb texnoloji istehsala, qabaqcıl innovasiyalara, xidmət sektorunun dominantlığına əsaslanan iqtisadiyyata keçidlə nail olmaqla çalışır. Bildiyimiz kimi, 1994-cü il sentyabrın 20-də bağlanmış Əsrin müqaviləsindən sonra Azərbaycan iqtisadiyyatında dönüş yarandı və böyük işlərə başlanıldı. Hökumət isə 2000-ci illərin ortalarından başlayaraq iqtisadi diversifikasiyaya yönəlik çoxsaylı qanunlar, strategiyalar və proqramlar hazırlamağa başladı. Çünki bu dövr ölkə və onun sonrakı inkişafı üçün mühüm əhəmiyyət kəsb edirdi. Belə ki, ölkəyə böyük neft pullarının daxil olması digər qeyri-neft sahələrinin inkişafına da kifayət qədər investisiya ayırmaq şansı yaratdı.

"Azərbaycan 2020: gələcəyə baxiş" İnkişaf Konsepsiyasına müvafiq olaraq qeyri-neft sənayesinin inkişafı və ərzaq təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət kəsb edən sahələrdən biri kimi, kənd təsərrüfatı məhsullarının istehsalı və emalına xüsusi diqqət yetiriləcək, müasir texnologiyaların tətbiqi yolu ilə mövcud aqroemal müəssisələrinin istehsal gücünün artırılması və yeni belə müəssisələrin yaradılması istiqamətində kompleks tədbirlər həyata keçiriləcəkdir. Ölkədə ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı stimullaşdırılacaq, genetik ehtiyatların və bioloji müxtəlifliyin qorunması, tingçilik, toxumçuluq və damazlıq işlərinin, mal-qaranın cins tərkibinin daha da yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həya-

ta keçiriləcəkdir. Kənd təsərrüfatı istehsalçılarının müasir texnika, texnoloji avadanlıq, gübrə, toxum və ting ilə təminatı yaxşılaşdırılacaqdır [1].

Etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. Bu baxımdan Azərbaycan dövləti əhalinin ərzaqla etibarlı təminatına dair çoxşaxəli tədbirlər həyata keçirir və ərzaq təhlükəsizliyinin birbaşa asılı olduğu aqrar sahənin inkişafına yönələn irimiqyaslı dövlət proqramları qəbul edir. Hazırda ölkədə əhalinin etibarlı ərzaq təminatı dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri sayılır.

Aqrar sahənin inkişafı iqtisadiyyatın şaxələndirilməsi strategiyasının əsas istiqamətlərindən biri kimi gündəmdə durur. Kənd təsərrüfatının inkişafı növbəti illərdə də iqtisadi sahədə prioritet məsələ kimi qalacaqdır. Kənd təsərrüfatının inkişafı ilə bağlı yeni tədbirlər görülür.

Aqrar sahənin rəqabətqabiliyyətliliyi dedikdə, həmin sahədə daha səmərəli bazar münasibətlərinin formalaşmasının mühüm şərti, onun dayanıqlı inkişafının əsas hərəkətverici elementi başa düşülür. Aqrar sahədə məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi kənd təsərrüfatında iqtisadi təhlükəsizliyin təmin edilməsi və ölkənin ərzaq təhlükəsizliyinin qorunub saxlanılmasının vacib ünsürü, mühüm tərkib hissəsi olmaqla, həm də ölkənin milli rəqabət qabiliyyətinin yüksəldilməsində önəmli yer tutur

Aqrar sahənin mövcud potensialından səmərəli istifadə olunması, həmçinin onun dayanıqlı artımı və səmərəli inkişafının təmin edilməsi məqsədilə, perspektiv fəaliyyət istiqamətlərini nəzərdə tutan strateji proqnozlaşdırmaya və məqsədyönlü, düzgün planlaşdırmaya ciddi fikir verilməsi, bu sahədə inkişaf üçün rəqabət üstünlüyü olan əsas məhsul növləri və bölmələrin müəyyən olunması, zəruri hüquqi əsasların formalaşdırılması və inkişaf etdirilməsi, həmin prosesdə daha çox rəqabət üstünlüyünə malik və rəqabət qabiliyyətliliyi olan istiqamətlərin seçilməsi, bu zaman rəqabətli təklif metodlarına üstünlük verilməsi, xüsusən də aqrar sahənin mövcud resurs potensialını düzgün qiymətləndirərək, düzgün istifadə imkanlarının müəyyən edilməsi, aqrar menecment işinin səmərəli təşkil olunması, kooperasiyaya əsaslanan iri aqrar təsərrüfatların təşkili və inkişaf etdirilməsi, mövcud fəaliyyətin sağlam inkişafına təkan verən güclü kadr potensialının formalaşdırılaraq ondan istifadə olunması, səmərəli aqrobiznes - marketinq strategiyasının işlənib hazırlanması və mövcud marketinq xidmətlərinin modernləşdirilməsi kimi tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab etmək olar.

İlk növbədə aqrar sahənin dayanıqlı inkişafı problemlərini nəzərə alaraq, bu sahədə mövcud çağırışlar və onların həlli istiqamətləri ilə bağlı "Aqrar islahatlar və ərzaq təhlükəsizliyi problemləri" sahəsində geniş tədqiqatlar aparılır. Bununla yanaşı, müasir dönəmdə aqrar sahənin qarşısında duran çoxsaylı problemlər və onların səmərəli həlli yolları ilə əlaqədar informasiyalar verilir. Ən başlıcası isə yuxarıda göstərilən problemlərin əksəriyyətinin həlli yollarına işıq salan və aqrar sahənin modernləşməsi dönəmində onun rəqabət qabiliyyətliliyinin təmin olunmasının təkmilləşdirilməsi işləri gedir. [2, s.189].

Ölkədə ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı stimullaşdırılacaq, genetik ehtiyatların və bioloji müxtəlifliyin qorunması, tingçilik, toxumçuluq və damazlıq işlərinin, mal-qaranın cins tərkibinin daha da yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçiriləcəkdir. Kənd təsərrüfatı istehsalçılarının müasir texnika, texnoloji avadanlıq, gübrə, toxum və ting ilə təminatı yaxşılaşdırılacaqdır [1]. Bu baxımdan aqrar sahədə elmi təminat və kadr hazırlığının daha da yaxşılaşdırılması nəzərdə tutulur. Kənd təsərrüfatının müxtəlif sahələrinin intensiv inkişaf etdirilməsi üçün stimullaşdırıcı tədbirlər görülür.

Qeyri-neft sənayesinin inkişafı və ərzaq təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət kəsb edən sahələrdən biri kimi kənd təsərrüfatı məhsullarının istehsalı və emalına xüsusi diqqət yetiriləcək, müasir texnologiyaların tətbiqi yolu ilə mövcud aqroemal müəssisələrinin istehsal gücünün artırılması və bu cür yeni müəssisələrin yaradılması istiqamətində kompleks tədbirlər həyata keçiriləcəkdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə *Strateji Yol Xəritəsi*. Bakı, 2016.
2. İ.Alıyev, İ.Soltanlı. Aqrar sahənin modernləşməsi və rəqabətqabiliyyətliliyinin təmin olunması problemləri. Bakı, 2017.
3. "Azərbaycan 2020-Gələcəyə baxış" İnkişaf Konsepsiyası. Bakı, 2012.
4. http://president.az/articles/25478
5. www.economy.gov.az

Самира Яшар кызы Мамедова
д.ф.э. Азербайджанский Университет Кооперации

Направления формирования конкурентоспособной экономики в Азербайджане

Резюме

Основанная национальным лидером азербайджанского народа Гейдаром Алиевым, долгосрочная экономическая политика создала прочную основу для макроэкономической стабильности и динамичного экономического развития страны.

Устойчивое и конкурентоспособное развитие ненефтяного сектора в Азербайджанской Республике является приоритетным направлением экономической политики государства. В развитии ненефтяного сектора правительство реализует экономическую политику в различных областях. Особое внимание будет уделено производству и переработке сельскохозяйственной продукции как одной из областей развития ненефтяной промышленности и безопасности пищевых продуктов. Будут приняты комплексные меры по увеличению производственных мощностей существующих агроперерабатывающих заводов и созданию новых таких предприятий за счет внедрения современных технологий. Важнейшей и глобальной целью экономического развития является формирование в Азербайджане высококонкурентной экономики.

Ключевые слова: ненефтяной сектор, конкурентоспособная экономика, продовольственная безопасность, экономическое развитие.

Samira Yashar Mammadova
PhD on economics of ACU

Directions of formation of a competitive economy in Azerbaijan

Summary

Established by the national leader of the Azerbaijani people Heydar Aliyev, the long-term economic policy has created a solid base for macroeconomic stability and dynamic economic development in the country.

The sustainable and competitive development of the non-oil sector in the Republic of Azerbaijan is a priority direction of the state's economic policy. The government implements economic policies in various areas for the development of the non-oil sector. Special attention will be paid to the production and processing of agricultural products, as one of the most important areas for non-oil industry development and food security. Complex measures will be taken to increase the production capacity of existing agro-processing enterprises and to create new such enterprises through the introduction of modern technologies. The most important and global target for economic development is to form a highly competitive economy in Azerbaijan.

Key words: non-oil sector, competitive economy, food security, economic development.

Firuzə Qaraxan qızı ABBASOVA,
iqtisad üzrə fəlsəfə doktoru,

Səbinə Sadıx qızı ƏSƏDOVA
Azərbaycan Kooperasiya Universitetinin magistri

AQRAR SAHƏDƏ İSTEHLAKÇI DAVRANIŞININ FORMALAŞMASINA TƏSİR EDƏN AMİLLƏR

Xülasə

Məqalədə marketinq tədqiqatının obyekti kimi aqrar sahədə istehlakçı davranışı nəzərdən keçirilir, həmçinin onun formalaşmasına təsir göstərən amillərin, fərdi və xarici mühit determinantlarının marketinq araşdırması aparılır.

Məlum olduğu kimi, aqrar bazarda istehlakçıların davranışı onların tələbatı və onun təmin edilməsi xüsusiyyətləri ilə xarakterizə olunur. İstehlakçı psixologiyasının öyrənilməsi istehlak davranışının formalaşması prosesinin qanunauyğunluqlarını izləmək imkanı verir və nəticədə, onun bu və ya digər tələbatlara doğru inkişafını proqnozlaşdırmağa şərait yaradır.

Açar sözlər: istehlakçı davranışı, kənd təsərrüfatı, marketinq tədqiqatları, xarici mühit determinantları.

***

Azərbaycan kənd təsərrüfatının inkişafı baxımından böyük potensiala malik ölkələrdən hesab olunur. Hazırda ölkəmizdə aqrar sektorun inkişafı əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatını ödəməyə imkan verir. Aqrar sektorun inkişafı, əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi "Azərbaycan - 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasında da əsas istiqamətlərdən biri kimi nəzərdə tutulur. Bu sahədə atılan ən mühüm addımlardan biri də 8 ili əhatə edən "2008- 2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"dır. Dövlət Proqramının əsas məqsədi ölkənin hər bir vətəndaşının sağlam və məhsuldar həyat tərzi üçün onun qəbul edilmiş normalara uyğun olan ərzaq məhsulları ilə tam təmin edilməsinə nail olmaqdır. Aqrar sahəyə göstərilən dövlət dəstəyi tədbirləri nəticəsində 2003-2017-ci illərdə Azərbaycandan ixrac olunan kənd təsərrüfatı məhsullarının həcmi 6,3 dəfə, o cümlədən meyvə-tərəvəz məhsullarının ixracı 10,4 dəfə artmışdır [5, s.12].

Aqrar bazarın müasir mərhələsinin formalaşmasında kənd təsərrüfatı məhsullarının səmərəli istehsalının planlaşdırılmasına yalnız istehlakçı davranışının tədqiqi vasitəsilə nail olmaq mümkündür. Bu tədqiqat nəinki ayrı-ayrı məhsul istehsalçılarının, eləcə də bazarın və bütövlüklə regionun inkişaf perspektivlərini müəyyən etməyə imkan yaradır. Sözügedən məqsədə çatmaq üçün aqrar biznesin istehlakçıya yönəlmiş effektiv sisteminin yaradılmasında marketinqin rolu müəyyən edilməli, ərzaq məhsullarına istehlakçı tələbatının fərqləndirici xüsusiyyətlərinin məcmusu əsaslandırılmalı və ona təsir edən amillər aşkar edilməlidir.

Azərbaycanda da bir sıra yeni müəssisələrin yaranması, bazara xarici şirkətlərin daxil olması, kifayət qədər xarici brendlərin, həmçinin yerli məhsulların mövcudluğu Azərbaycan istehlakçısının alış motivlərinin, qərarlarının mürəkkəbləşməsinə səbəb olur. Məhz belə bir şəraitdə, xüsusilə də yerli müəssisələr üçün istehlakçı davranışının öyrənilməsi daha da aktuallaşır. Belə ki, istehlakçıların davranışı öyrənilməli, ona təsir edən amillər qruplaşdırılmalı, təhlil edilməli və əldə edilmiş nəticələr marketinq tədqiqatlarında nəzərə alınmalıdır. Bu halda marketinqdə istehlakçıların davranışının modelləşdirilməsi ən məqsədəuyğun variant kimi qəbul edilir. İstehlakçıların davranışının modelləşdirilməsi iki istiqamət üzrə - son istehlakçılar və işgüzar istehlakçıların davranışı istiqamətində həyata keçirilir. Son istehlakçıların davranışına iki amil, marketinq amilləri və istehlakçıların şəxsiyyəti ilə əlaqədar amillər təsir edir. İstehlakçıların şəxsiyyəti ilə bağlı amillər dörd qrupda təsnifləşdirilir:

1. Mədəniyyət amilləri
2. Sosial amillər
3. İstehlakçının şəxsi keyfiyyəti ilə əlaqədar amillər

4. Psixoloji amillər

Bu amillərin təsirinə qısaca nəzər salaq. Belə ki, mədəniyyət - uşaqlıqdan aiəldən və başqa ictimai institutlardan mənimsənilən müəyyən yığım dəyərlər, qavrayış stereotipləri və davranışlardır ki, bunlar da fərdin tələbat və davranışlarının müəyyənedici amili kimi çıxış edir. Eyni zamanda, hər bir mədəniyyət submədəniyyətlərdən ibarətdir. Bunlar da insana özünə oxşar fərdlərlə eyniləşməyə və sıx ünsiyyət saxlamağa imkan verir. Submədəniyyətlər milli, dini, irqi və ya regional əsaslarda formalaşır. Bir çox submədəniyyətlər bazar seqmentlərinin bünövrəsini təşkil edir. Bu da satıcıları məhsulları və marketinq proqramlarını istehlakçıların tələbatlarına uyğunlaşdırmağa məcbur edir [4, s. 191]. İstehlakçıların davranışında təzahür edən qavrayış stereotiplərindən bəhs edərkən, yerli məhsulların keyfiyyət, qiymət əlçatanlığı, eləcə də müxtəlif regionlar üzrə ərzaq məhsullarının hər hansı növünün brendə çevrilməsi stereotiplərinin formalaşmasını qeyd etmək mümkündür.

Aqrar sahədə istehsal olunmuş məhsullara istehlakçıların münasibəti həmin məhsulların ekoloji təmizliyi məsələsi ilə bağlı olur. Belə ki, Azərbaycan Respublikanın ayrı-ayrı regionları təbii şəraitinə, ehtiyatlarına, təsərrüfatın sahə və ərazi quruluşuna, tarixi inkişaf xüsusiyyətlərinə və əhalinin məskunlaşmasının inkişaf səviyyəsinə görə bir-birindən fərqlənir. Ona görə də ölkənin yalnız müəyyən hissəsində bu və ya digər məhsulu istehsal etmək və xidmət sahəsini inkişaf etdirmək başqa ərazilərə nisbətən səmərəli olur [6, s. 97].

Son məhsula «ekoloji təmiz» statusu vermək üçün yoxlayıcı orqanlar onun «dən mərhələsindən piştaxta mərhələsinə» qədər bütün yolunu izləyirlər. Söhbət kənd təsərrüfatı - əkin sahəsi, səpin materialı, emal metodları, qablaşdırılma şəraitindən gedir. Buna nəzarət Milli Sertifikatlaşdırma Təşkilatı tərəfindən həyata keçirilir. Bu təşkilatın məhsulun üzərindəki işarəsi onun keyfiyyət və ekoloji təmizliyinə etibarlı zəmanət deməkdir.

Uğurlu brendin yaradılması üçün istehlakçıların şüurunda keyfiyyət təsəvvürünün yaradılması vacibdir. Həmçinin, uğurlu brendin yaradılması ətraflı bazar araşdırması, yeni ideya və məhsulların üzə çıxarılması, tələbatın öyrənilməsi, düzgün sloqan və loqotipin seçilməsi, yüksək reputasiyanın təmin olunmasını tələb edir. Bu istiqamətdə Azərbaycanda kənd təsərrüfatı sahəsində yerli brendlərin yaradılması, inkişaf etdirilməsi və hədəf bazarlarda dəstəklənməsi ilə bağlı keyfiyyət, müştəri məmnunluğu, emosional təsir kimi kriteriyaları nəzərdə tutan yerli brend indeksin hazırlanması və onun əsasında "İlin brendi" müsabiqələrinin təşkil olunması, qalib brendlərin həvəsləndirilməsi kimi tədbirlər həyata keçirilir.

Həyata keçirilən marketinq strategiyasında istehlakçıda bu və digər məhsula emosional bağlılığın daha çox müşahidə olunması faktı psixoloji amillərin öyrənilməsini ön plana çəkir. Psixoloji amillər dedikdə, bura motivasiya, qavrayış, təlim, inam və münasibətlər daxil edilir. Hətta belə bir fikir də mövcuddur ki, istehsalçılar məhsul yaradır, psixoloqlar isə istehlakçıların psixoloji durumuna təsir etməklə həmin məhsula tələbat yaradır, istehlakçıları həmin məhsulu almağa sövq edirlər. İstehlakçıların psixoloji durumu onların ticarət markasına düşünülmüş və ya instinktiv münasibətini (müsbət və ya mənfi) formalaşdırır.

Məlum olduğu kimi, insan çox sayda tələbatlara sahibdir. Bu tələbatlar biogen və psixogen təbiətə malikdir. Biogen təbiət insan orqanizminin müəyyən fizioloji durumu (aclıq, susuzluq, istilik, rahatsızlıq və s.) ilə əlaqədar ortaya çıxır. Psixogen təbiət isə fərdin özünü təsdiqetmə, hörmət və mənəvi yaxınlıq kimi psixoloji gərginlik hallarının nəticəsidir. İnsan tələbatlarının əksər hissəsi dərhal təmin edilməni tələb etmirlər. Tələbat, fərdi hərəkət etməyə vadar etdiyi, onun təmin edilməsi isə psixoloji gərginliyin səviyyəsini aşağı saldığı zaman motivə çevrilir [2, s. 267].

Psixoloqlar tərəfindən insan motivasiyasının bir neçə əsas konsepsiyası işlənib hazırlanmışdır. Bu konsepsiyaların banilərindən ən məşhurları - Ziqmund Freyd, Abraham Maslou və Frederik Hersberq - öz tərəfdarlarını istehlakçıların və marketinq strategiyalarının tədqiqi üzrə tamamilə müxtəlif nəticələrə gətirib çıxarır.

Z. Freydin motivasiya nəzəriyyəsinə əsasən qeyd edə bilərik ki, insanların əksəriyyəti fərdin davranışını idarə edən psixoloji gücləri dərk etmirlər və onlar öz hərəkətlərinin motivlərini sona qədər başa düşmək iqtidarında deyildirlər. İnsanı idarə edən əsas motivlər - aşkar olanlardan ən

mürəkkəb olanlara qədər - «pilləkən» adı altında tanınan, tədrici keçid metodunun qurulmasına imkan verirlər. İstehlakçı ayrı- ayrı əmtəə markalarını incələyərkən, təkcə onların əsas xüsusiyyətlərinə yox, həm də az nəzərə çarpan cəhətlərinə də diqqət yetirirlər. Belə ki, forma, ölçü, rəng, marka adı və material müəyyən assosiasiya və emosiyalar yaradır.

A.Maslou hesab edir ki, insan tələbatları sistemi ierarxik qaydada, onun elementlərinin əhəmiyyətlilik dərəcələrinə müvafiq olaraq düzülmüşdür: fizioloji tələbatlar, müdafiəyə olan tələbatlar, sosial tələbatlar və özünü ifadəyə olan tələbatlar. Fərd, ilk növbədə, ən vacib tələbatları təmin etməyə çalışır. Sonra, təmin olunmuş tələbat artıq motivləşdirici xüsusiyyətə malik olmur və insan əhəmiyyətinə görə növbəti tələbatın ödənilməsinə keçir.

Frederik Hersberq insanın təminatı ilə məmnun olmasını prinsipial olaraq iki qrup müxtəlif amillər üzrə müəyyən olunduğunu iddia edən ikiamilli motivasiya nəzəriyyəsinin müəllifidir. Alışın baş verməsi üçün məmnunluq duyğusunun olması kifayət deyil, məmnun qalma amilinin fəal mövcudluğu da tələb olunur [1, s. 150].

İstehsalçıların nəzərə aldıqları xüsusi şərtlərdən biri də, marka və əmtəələrə münasibətdə müəyyən inamların olması və onların hansı ölkədə istehsal edildiyidir. İnamdan başqa, fərdin münasibətləri də mühümdür. Münasbət - insan tərəfindən hər hansı obyekt və ya ideyanın dayanıqlı olaraq müsbət və ya mənfi qiymətləndirilməsidir. Obyektə qarşı olan münasibət insanları onu sevməyə və ya ona nifrət etməyə, ona yaxınlaşmağa və ya ondan uzaqlaşmağa vadar edir. Formalaşmış dayanıqlı qiymətləndirmə, insanların oxşar obyektlərə qarşı eyni münasibətlərini müəyyən edir [3].

Münasibətlər fərdin fiziki və əqli enerjiyə qənaət etməsinə kömək edir və məhz buna görə də onlar həddən artıq dayanıqlıdırlar və məntiqi cəhətdən əlaqələnmiş zənciri əks etdirirlər. Buna görə də, yeni əmtəələrin istehsalı zamanı istehlakçıların mövcud olan münasibətlərindən istifadə olunması və onların dəyişdirilməsinə çalışmamaq məqsədəuyğundur. Ancaq, istisna hallarda münasibətlərin dəyişməsi də baş verir [2, s. 288]. Son istehlakçıların şəxsi istehlakda məqsədi ondan fayda götürməkdir. Onların istehlak etdikləri məhsulların çeşidi geniş və müxtəlif olduğu üçün seçim imkanları da genişdir. Eyni zamanda, son istehlakçıların məhsul alınmasına dair qərarlar qəbul edilməsini təmin edən heç bir rəsmi sənəd yoxdur, qərarların qəbul edilməsində çox az sayda şəxslər iştirak edir, əksər halda alıcı təkbaşına qərar qəbul edir. Bütün bunlar bu və ya digər dərəcədə son istehlakçıların davranışına təsir edən amillərdə öz əksini tapır.

Beləliklə, mütəxəssislərin fikrincə, istehlakçıların davranışına məhsul, qiymət, reklam və satışın həvəsləndirilməsi, mövqeləşdirmə və diferensiallaşdırma kimi bir sıra xarici mühit determinantları da təsir göstərir. Bu amillərin hər birinin özünəməxsus spesifik xüsusiyyətləri və təsir formaları mövcuddur. İstehsalçıların uğurlu fəaliyyəti təkcə alıcılara təsir göstərmə üsullarının öyrənilməsini deyil, həm də onlar tərəfindən əmtəənin əldə edilməsi üzrə qərar qəbulu prosesinin məntiqinin başa düşülməsini nəzərdə tutur.

ƏDƏBİYYAT

1. Lamben J.J. Strateji marketinq. ekspress - kurs, 2-ci nəşri Bakı 2008.
2. И.В.Алешина. Поведение потребителей: учебник. - М.: Экономистъ, 2006. - 525 с.
3. Иванченко О.В., Баранова О.Ю. Анализ поведения потребителей на рынке продовольственного ритейла // Научно-методический электронный журнал «Концепт». - 2015. - Т. 30. - S. 396-400. - URL: http://e-koncept.ru/2015/65150.htm
4. F.Kotler, Q.Armstronq. «Marketinq: ilk addım», Bakı, 2005, 581 s.
5. Mehdiyev R. Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri. "Azərbaycan" qəzeti. 17.04 2018, №85, səh.12.
6. Səfərov Ş. Kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsi. - Bakı, «Avropa» nəşriyyatı - 2015, 262 s.

Фируза Гарахан кызы Аббасова
д.ф.э., Азербайбжанский Университет Кооперации,

Сабина Садых кызы Асадова
магистр Азербайбжанского Университета Кооперации

Факторы, влияющие на формирование потребительского поведения в аграрном секторе

Резюме

В статье рассматриваются потребительское поведение как объект маркетингового исследования в аграрном секторе, факторы, влияющие на его формирование, особенности маркетингового исследования потребительских поведений, а также проведено маркетинговое исследование влияния индивидуальных и внешних детерминантов на поведение потребителей.

Как известно, поведение потребителей на аграрном рынке имеет свои особенности. Решения о закупках зависят от конкретных ситуаций совершения покупки. Психология потребителя позволяет проследить закономерности процесса формирования потребительского поведения, а значит научиться прогнозировать возможное его развитие в сторону тех или иных потребностей.

Ключевые слова: потребительское поведение, сельское хозяйство, маркетинговые исследования, детерминанты внешней среды.

Firuza Garakhan Abbasova
doctor of philosophy in economics,
Azerbaijan Cooperation University,

Sabina Sadykh Asadova
master of Azerbaijan University of Cooperatives

Factors influencing the formation of consumer behavior in the agrarian sector

Summary

The article considers consumer behavior as an object of marketing research, factors influencing its formation, peculiarities of marketing research of consumer behavior, as well as a marketing research of the influence of individual and external determinants on consumer behavior. Consumer behavior in the market, enterprises have their own characteristics.

The decision on the procurement of this market depends on the specific situation of purchase. The psychology of the consumer makes it possible to trace the patterns of the process of formation of consumer behavior, and thus to learn how to forecast its possible development in the direction of these or those needs.

Key words: consumer behavior, agriculture, marketing researches, foreign environment determinants.

Şəhla Əli qızı CƏFƏROVA,
Azərbaycan Kooperasiya Universitetinin
"Mühasibat uçotu və audit" kafedrasının
müdiri, i.e.n., dosent

Şahraz. Müzzəfər oğlu İBRAHİMOV,
i.e.n., dosent,

Günel Oktay qızı HAQVERDİYEVA
magistr

AQRAR SAHƏNİN RƏQABƏTQABİLİYYƏTLİ İNKİŞAFINDA İDARƏETMƏNİN STRATEJİ PROBLEMLƏRİ

Məqalədə aqrar sahənin rəqabətqabiliyyətli inkişafında "Azərbaycan Respublikasının Strateji Yol Xəritəsi"nə uyğun strateji idarəetmənin təkmilləşdirilməsi verilmişdir. Həmçinin, ərzaq təhlükəsizliyinin təmin olunmasında aqrar sahənin inkişafının əsas istiqamətləri göstərilmişdir.

Açar sözlər: aqrar sahə, ərzaq istehsalı, rəqabətqabilyyətli, ərzaq təhlükəsizliyi,idarəetmə, strateji, idarəetmə qərarları.

Giriş

Aqrar sahə maddi istehsalın ən böyük sahələrindən biri olmaqla hər bir cəmiyyətdə insanların ilkin ərzaq tələbatını ödəyən və digər istehsal sahələrinin fəaliyyətində mühüm rol oynayan bir istehsal sahəsidir. Aqrar sfera xalq təsərrüfatı kompleksinin çox böyük və vacib bir sahəsinin iqtisadi inkişaf qanunauyğunluqlarını, bu sahədə formalaşan iqtisadi münasibətlərin bazar iqtisadiyyatı tələblərinə uyğun təkmilləşdirilməsini həyata keçirməklə ölkənin iqtisadi-sosial inkişafının əsasını təşkil edir. Problemin önəmli istiqamətlərindən biri də dünya iqtisadiyyatının əsas subyekti və obyekti olan insanın həyat fəaliyyətinin dayanıqlı inkişafı, ərzaq istehsalı və ərzaq təhlükəsizliyi ilə bağlıdır. Bu bağlılıq ilkin olaraq kənd təsərrüfatının inkişafı ilə əlaqəlidir. Hələ iki min il əvvəl qədim yunan filosofu Ksenofond əsaslı şəkildə ifadə edirdi ki, "... kənd təsərrüfatı bütün başqa peşələrin anası və ailə başçısıdır: kənd təsərrüfatı yaxşı idarə olunduqda, bütün digər peşələr tərəqqi edir". [7, s. 97]. Müasir iqtisadi inkişaf mərhələsində digər sahələrlə yanaşı kənd təsərrüfatı və onun emalı sahələri beynəlxalq iqtisadi-sosial əlaqələrin mühüm mənbələri kimi elmi tədqiqat obyektinə çevrilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilən "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri"ndə ölkədə dayanıqlı inkişafın təmin edilməsi, ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsulları istehsalının və emalının genişləndirilməsi üçün əlverişli mühitin yaradılmasını təmin etmək məqsədilə konkret hədəflər, o cümlədən "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə 9 strateji hədəf və 36 prioritet istiqamət müəyyən edilmişdir. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol Xəritəsi üzrə hədəfləri və prioritet istiqamətləri əhatə edən 177 tədbir nəzərdə tutulmuşdur." [1, s. 50-52]. Bu tədbirlərin 169-u bilavasitə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən icra olunmalı və ya onun iştirakı ilə həyata keçirilməlidir.

Respublikamızın iqtisadi inkişafının bu gün qarşısında duran ən mühüm məqsədlərdən biri iqtisadiyyatın neftdən asılılığını aradan qaldırmaqla, iqtisadi inkişafın ölkənin regionlarına, kənd yerlərinə daha çox şaxələnməsini təmin etməkdir. Azərbaycan iqtisadiyyatında kənd təsərrüfatı neft və tikinti sahələrindən sonra üçüncü ən iri sahəsidir. Ölkənin ümumi daxili məhsulunun 5,6 faizi kənd təsərrüfatının payına düşür. İqtisadi aktiv 3,8 mln. əhalinin 1,5 mln.- dan çoxu və ya 36,5 faizə qədəri aqrar sahədə çalışır. Ölkə əhalisinin təqribən 47%-dən çoxu kənd yerlərində yaşadığına görə kənd təsərrüfatı sektoru ailə təsərrüfatlarının müvafiq iş yerləri ilə və gəlirlərlə təmin edilməsində mühim mənbədir və ölkə iqtisadiyyatında aqrar sferanın sosial-iqtisadi əhəmiyyəti xüsusi yer tutur. Milli iqtisadiyyatın mühüm sahəsi olan kənd təsərrüfatı sənayenin

xammala olan ehtiyaclarının ödənilməsində böyük rol oynayır. Ölkə iqtisadiyyatının bir çox sahələrinin inkişafı kənd təsərrüfatının inkişaf səviyyəsindən asılıdır. Kənd təsərrüfatında istehsal olunan ərzaq məhsulları və onun emal sənayesi məhsulları ölkə əhalisinin istehlak şeylərinə olan tələbatının təxminən 75%-ni ödəyir. Eyni zamanda bu sahə həm də kənd yerlərində yoxsulluğun azaldılmasına əsaslı təsir edən mühüm sahədir.

Ümumiyyətlə, hər bir dövlətin uzunmüddətli inkişaf perspektivi onun etbarlı və sağlam təməl üzərində qurulmasından asılıdır. Bu gün ölkəmizin regionda əsas iqtisadi güc mərkəzinə çevrilməsində həyata keçirilmiş uğurlu iqtisadi islahatlar müasir Azərbaycanın qurucusu Ümummilli lider H.Əliyev və onun layiqli davamçısı cənab İ.Əliyevin fədakər fəaliyyəti nəticəsində mümkün olmuşdur.

Akademik Ramiz Mehdiyev "Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri" adlı məqaləsində fikrini ölkəmizdə həyat keçirilən iqtisadi inkişafla bağlı belə bildirmişdir: "Azərbaycanda regionların tarazlı inkişafını təmin etmək üçün digər sahələrlə yanaşı, bölgələrdə aqrar-sənaye kompleksinin sürətli inkişafına nail olmalıyıq.Nəzərə almalıyıq ki, kənd təsərrüfatı ölkə üzrə ÜDM-in 5,6 faizini istehsal edir. Əhalinin 47 faizi isə kənd yerlərində yaşayır və məşğul əhalinin 36,3 faizi kənd təsərrüfatında çalışır. Bu baxımdan kənd təsərrüfatının inkişaf etdirilməsi regionlardakı problemlərin aradan qaldırılmasına şərait yarada bilər". ("Respublika" qəzeti, 16.04.2018).

Müasir şəraitdə ölkədə yerli istehsalın inkişaf etdirilməsi hesabına idxaldan asılılığın aradan qaldırılması, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsulları istehsalının təşkili, regionlarda iqtisadi yüksəlişin dayanaqlılığı və davamı qarşıda duran başlıca vəzifə kimi qiymətləndirilir.

"**Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin aqrar sektorun inkişafında rolu**

Beynəlxalq təcrübəyə əsaslanan, milli iqtisadiyyatın inkişafında bələdçi rolunu oynayan Strateji Yol Xəritəsi yeni inkişaf mərhələsinə qədəm qoymuş sabit makroiqtisadiyyata malik ölkələrdə tətbiq olunur. Son illərdə neft gəlirlərinin azalması və nəticədə milli valyutanın kəskin devalvasiyaya uğraması illərlə sabit vəziyyətdə saxlanılan makroiqtisadi tarazlığın pozulmasına doğru apardığından dövlət inflyasiyanı nəzarətdə saxlamaq üçün sərt monetar siyasət həyata keçirməyə başladı.Ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar və istehsalın restrukturizasiyasına yönəldilmiş strateji lahiyələrin həyata keçirilməsi və keyfiyyət baxımından iqtisadi artıma nail olunmasına münbit şərait yaradır. Bu baxımdan Prezident İlham Əliyevin 2016-cı il dekabrın 6-da imzaladığı Fərmanla təsdiqlənmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" uzunmüddətli, dayanıqlı iqtisadi artım şəraitinə doğru "ötürücü mexanizm" rolunu oynayan mühüm sənəd olmaqla, aqrar sahənin inkişafında mühüm rol oynayacaqdır. [1, s. 13-108].

Aqrar sahədə effektiv iqtisadi inkişafa nail olmaq üçün sahənin makro, mezo və mikro səviyyəsində idarəetmənin təkmilləşdirilməsi tələb olunur. Bu sahənin dinamik inkişafı onun ilkin mərhələsindən (ilk həlqəsindən), yəni, sahələrarası və sahədaxili rasional əlaqələrdən, sahələrin qarşılıqlı iqtisadi əlaqələrindən, təkrar istehsal proseslərində qarşılıqlı iqtisadi münasibətlərin müasir dövrün tələblərinə uyğun qurulmasından asılıdır. Strateji idarəetmə aqrar sahə müəssisələrini tez- tez dəyişən ətraf mühitlə uyğunlaşmasını təmin etməklə, aqrar sənaye məhsullarının rəşadətliliyinin yüksəlməsinə kömək edir. Hər bir aqrar sahə müəssisəsi bazar subyekti olduğundan öz idarəetmə strategiyasını hazırlamalı və realizə etməlidir. Strateji idarəetmə uzunmüddətli inkişafda aqrar istehsalçını təmin etmək məqsədini daşıyır və onun təmin olunmasına zəmin yaradır. Belə ki, ölkəmizdə qəbul olunmuş "Strateji Yol Xəritəsi"ində kənd təsərrüfatı məhsulları istehsalının davamlılığına təsir edən amillərin əsas prinsipləri müəyyənləşdirilib. Başlıca prinsip ölkənin aqrar sektorunun mövcud istehsal imkanlarına və daxili ərzaq bazarının tələbatına uyğun olaraq, strateji planın hazırlanmasıdır. Bunun reallaşması üçün sabit istehsal dinamikası nəticəsində əhalinin ərzaqla təminatında daxili imkanlardan maksimum faydalanmaq prioritet hesab olunur. İlk növbədə, xarici ölkələrdən ərzaq asılılığının azaldılması nəzərdə tutulur. Buna nail olmaq üçün daxili istehsalçının rəqabət qabiliyyətinin artırılması, gəlir bazasının genişləndirilməsi yolu ilə istehsalın stimullaşdırılması istiqamətində konkret tədbirlər

(*diferensial subsidiyalaşma, məhsuldarlığın və gəlirlərin sığortalanması, tranzaksion xərclərin azaldılması və sair*) planlaşdırılır. Bu prinsiplərin reallaşması üçün aqrar siyasət üç əsas istiqamətdə həyata keçirilməlidir.

1. Daxili bazarlarda tələb və təklif parametrlərinin düzgün müəyyənləşdirilməsi baxımından kənd təsərrüfatı məhsullarının qiymət tənzimlənməsi mexanizmlərinin işlənib hazırlanması. Daxili bazarda istehlakçıların rəqabətqabiliyyətli yerli məhsullarla tələbatını ödəməklə, bazarın xüsusiyyətlərini təhlil edərək çeşidlilik və digər elementləri nəzərə almaq. Ərzaq təhlükəsizliyi və idxal əvəzedici mexanizmlərin ayrı-ayrılıqda yox, kompleks şəkildə həyata keçirilməsini təmin etmək.

"Strateji Yol Xəritəsi"nin əsas istiqamətlərindən biri ərzaq təhlükəsizliyi səviyyəsinin artırılmasına əsaslanan tədbirlərin davamlılığı ilə bərabər, daxili bazarda idxal məhsullarına qarşı iqtisadi üsullar vasitəsilə rəqabət aparmaqla, istehlakçının alıcılıq qabiliyyətinə uyğun keyfiyyətli məhsulların təklifi də artırılmalıdır.

2. Müasir texnika - texnologiyaları tətbiq etməklə, onların istehsal prosesində fəal iştirakını sürətləndirmək, ildə iki dəfə məhsul götürülməsinə, ərzaq məhsullarının istehsalında daha mükəmməl emal prosesinin qurulmasına nail olmaqdır.Yerli istehsalın stimullaşdırılması sahəsində ixrac potensialının artması nəzərdə tutulur ki, bu da daxili bazarın tələbatının dolğun ödənilməsinə, kənd təsərrüfatı istehsalının canlandırılmasına, nəticə etibarilə istehsal və istehlak arasında bütöv texnoloji və istehsal tsiklə malik iri təsərrüfatların yaranmasına zəmin yaradacaq. İnnovativ nailiyyətlərin öyrənilməsi və istehsal prosesində tətbiqi, daha səmərəli iqtisadi üsulların seçilməsini zəruri edir ki, bu da məhsul istehsalında texnologiyanın intensivliyini artıracaqdır. Buraya ixtisaslaşmanın yüksəldilməsi, aqrar istehsalın təmərküzləşməsi, məhsul emalında forma və metodların təkmilləşdirilməsi, əməyin təşkili və digər metodların da istifadə olunması daxildir.

3. Dünya ərzaq və kənd təsərrüfatı bazarına ekoloji cəhətdən təmiz məhsul ixracını maksimum artırmaq. Burada, əsasən ərzaq məhsullarının dərin emal prosesində avtomatlaşdırılmış texnologiyalarının tətbiqi, yüksək məhsuldar cins heyvanların, bitki sortlarının və biotexnologiyaların istifadəsi nəzərdə tutulur. Həmçinin müasir elm və təhsil komplekslərinin yaradılması, kənd təsərrüfatı məhsullarının kompleks emal texnologiyalarının tətbiqi və s planlaşdırılır ki, bunların həyata keçirilməsində dövlət dəstəyinə ehtiyac olacaqdır.

"Hər bir strateji hədəfin reallaşdırılması üçün 2016-2020-ci illər üzrə prioritet istiqamətlər müəyyən olunaraq əsaslandırılmışdır. Strateji Yol Xəritəsinin həyata keçirilməsi ilə bağlı planlaşdırılan bütün icra tədbirləri həmin prioritet istiqamətlər üzrə qruplaşdırılmışdır. Bu tədbirlərin hər birinin icrasının hansı meyarlar (indikatorlar) üzrə ölçüləcəyi əvvəlcədən müəyyən olunmuşdur ki, bunun da əsasında bütövlükdə Strateji Yol Xəritəsinin icrasının monitorinqi və qiymətləndirilməsi sistemi qurulacaqdır. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunda həyata keçiriləcək prioritetlərin 2020-ci ildə real ÜDM-i birbaşa 575 milyon manat, dolayı şəkildə isə 660 milyon manat olmaqla, ümumilikdə 1235 milyon manat artıracağı və təxminən 20 min yeni iş yerinin yaradılacağı proqnozlaşdırılır".

Strateji Yol Xəritəsində müəyyənləşdirilən hədəflərə nail olunması istiqamətində həyata keçirilən iqtisadi islahatlar, aqrar sahənin inkişafında, rəqabətqabiliyyətli və ixrac yönümlü məhsul istehsalında nail olunmasında kompas rolunu oynayır.

Rəqabət qabiliyyətli məhsul istehsalında strateji idarəetmənin əsas istiqamətləri.

Strateji idarəetmənin əsas məqsədi hazırkı fəaliyyətlərin nəticələrinin gələcəkdə müsbət dəyişiliklərin əldə olunmasına xidmət etməsidir. Məhz aqrar sahənin inkişafında strateji idaretmənin tətbiqi sahənin dayanıqlı inkişafının təmin edilməsində və rəqabətqabiliyyətli məhsul istehsalında başlıca amillərdən biridir. Strateji idarəetmə sahənin gələcəkdə hansı istiqamətdə inkişafını müəyyənləşdirir. İqtisadiyyatın sürətli və dayanıqlı inkişafında strateji idarəetmənin təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Strateji idarəetmənin təkmilləşdirilməsi iki istiqamətdə həyata keçirilməlidir: ***İstehsalın idarə olunmasının konkret şəraitlərində idarəetmə uçotunun təşkili istiqamətlərini və aparılması üsullarını müəyyən edən prinsiplər*** idarəetmə

uçotunu təsərrüfat subyektlərində qəbul ediləcək idarəetmə qərarlarının əsaslandırılması məqsədilə informasiyaların ümumiləşdirilməsinin xüsusi üsullarının istifadəsinə istiqamətləndirir.

- aqrar sahənin rəqabətqabiliyyətinin yüksəldilməsi;
- təbii resursların dayanıqlı idarəedilməsini təmin etmək;
- kənd yerlərində həyat səviyyəsinin yüksəldilməsi;
- kənd təsərrüfatında əlavə dəyər əlaqələrinin modernləşməsi;
- təhsil və kənd təsərrüfatı tədqiqatlarının restrukturizasiyası və modernləşdililməsi;
- infrastrukturanın, bazarların maliyyələşməsinə imkan yaradır.

Strateji idarəetmə kənd təsərrüfatında rəqabətqabiliyyətliliyin təmin olunması üzrə özlüyündə bir neçə mərhələni də birləşdirir. O mərhələlərə aşağıdakıları aid etmək olar:

- heyətin idarə olunması üzrə keyfiyyət tələblərinin yerinə yetirilməsi. Bu amil qabaqcıl ölkələrdə aqrar sahənin ETT ilə əlaqələndirilməsində mühüm rol oynamaqla "keyfiyyətli davranış normalarını" özündə birləşdirir. (Kanada, Avstriya, Belçikada daha çox tətbiq olunan bu tələb sahənin məhsuldarlığının artırılmasında özünü daha çox göstərmişdir. [7, s. 158-159]
- məhsulun keyfiyyəti üzrə tələblərin yerinə yetirilməsi. Aydın məsələdir ki, beynəlxlaq səviyyədə keyfiyyət normaları qəbul edilmiş, ölkələr bu normalardan çıxış edərək beynəlxalq bazarda rəqabətqabiliyyətliliyin təmin olunmasında geniş istifadə edirlər. İSO-9000 və s. keyfiyyət normalarını bu aspektdə misal göstərə bilərik. Bundan başqa kənd təsərrüfatı məhsulu üzrə qida sənayesinin də özünəməxsus tələbləri vardır. Ekoloji cəhətdən təmiz məhsulların tələb edilməsi ÜTT-də "Yaşıl zənbilə" aid olan kənd təsərrüfatı məhsullarının istehsal olunması müasir dövrdə ən aktual məsələlərdən hesab olunur.
- müəssisənin fəaliyyətində rəqabətqabiliyyətlilik tələbinin yerinə yetirilməsi. Qeyd olunur ki, heyətin və məhsulun idarə olunması üzrə strateji hədəflərə nail olmaq özlüyündə sahə üzrə müəssisələrin də rəqabətqabiliyyətli olmasına gətirib çıxardır.

Bu baxımdan strateji idarəetmə, rəqabətqabiliyyətliliyi şərtləndirən və müəssisələrdə qeyd olunan hər üç bənd üzrə "keyfiyyətin idarə edilməsi" sistemində özünü daha çox göstərməlidir. Müasir dövrdə Azərbaycanda kənd təsərrüfatının inkişafını nəzərdə tutan dövlətin strateji inkişaf proqramları məhz sahədə məhsulların rəqabətqabiliyyətli olması tələbini daha tez reallaşdırmaq imkanı vermişdir. Bu cəhətin yerinə yetirilməsi isə strateji menecmentin düzgün qurulmasından bilavasitə olaraq asılıdır. Strateji idarəetmə təkcə makroiqtisadi baxımdan deyil, mütləq mikroiqtisadi səviyyədə davranılmağı tələb etdiyindən təklif olunur ki, kənd təsərrüfatında fəaliyyət göstərən iqtisadi subyektlər mütləq strateji idarəetmə planlarını qəbul etməli, ilk öncə mikro səviyyədə daxili bazar konyunkturasına uyğun iş prinsipini (istehsal-xidmət) qurmalıdır.

Fikrimizcə, Azərbaycanda aqrar sahə üzrə məhsulların rəqabətqabiliyyətliliyinin təmin olunmasının ilk prinsipi uzunmüddətli dövr üçün strateji istehsal-xidmət planlarının tərtib edilməsidir.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol Xəritəsi". Bakı, 2017.
2. "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası prezidentinin Fərmanı. Bakı, 2016.
3. "Aqrar islahatların əsasları" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2005-ci il.
4. A.A.Rüstəmov, D.Q.Qasımov. "Aqrar sferanın iqtisadiyyatı və idarəedilməsi". Bakı, 2013.
5. E.A. Quliyev. "Aqrar iqtisadiyyat". Dərslik. "Kooperasiya nəşriyyatı". Bakı, 2015.
6. B.X.Ataşov. "Ərzaq təhlükəsizliyinin aktual problemləri". Bakı, 2005.
7. İ.X. İbrahimov "Aqrar iqtisadiyyatın aktual problemləri". Bakı, 2002.
8. İ.S. Qarayev, L.S.Amanova və b."Aqrar sferanın iqtisadiyyatı və idarəedilməsi". Bakı, 2011.

Шахла Али кызы Джафарова
к.э.н., доцент, заведующий кафедры
«Бухгалтерского учета и аудита»
Азербайджанского Университета Кооперации,

к.э.н., доцент, Шахраз Музаффар оглы Ибрагимов

магистр Гюнель Октай кызы Хагвердиева

Проблемы стратегического управления в конкурентноспособным развитии аграрного сектора

Резюме

В статье предусматривается улучшение стратегического управления в соответствии со «Стратегической дорожной картой Азербайджанской Республики» в конкурентном развитии аграрного сектора. Кроме того, основные направления развития аграрного сектора предоставляются в обеспечении продовольственной безопасности.

Ключевые слова: аграрная промышленность, производство продуктов питания, конкурентоспособная пища, продовольственная безопасность, управление, стратегия, ие решения.

Shahla Ali Jafarova
candidate of economic sciences,
ass. prof., head of chair "Accounting and audit",

Shahraz Muzzafar Ibrahimov,
candidate of economic sciences, ass. prof.,
Azerbaijan Cooperation University

master Gunel Oktay Hagverdiyeva

Strategic management in competitive development of the agricultural sector problems

Summary

The article provides for the improvement of strategic management in accordance with the "Strategic Road Map of the Republic of Azerbaijan" in the competitive development of the agricultural sector. In addition, the main directions of the development of the agricultural sector are provided in ensuring food security.

Key words: agrarian industry, food production, competitive food, food security, management, strategy, management decisions.

Сарвиназ Мамед Гасан кызы ХАНЛАРЗАДЕ
доц., к.э.н. кафедра «Экономика»
Азербайджанский Государственный Экономический Университет

ПРОБЛЕМЫ И ПУТИ ПОВЫШЕНИЯ КОНКУРЕНТОСПОСОБНОСТИ АГРАРНОГО СЕКТОРА АЗЕРБАЙДЖАНА

Резюме

В статье обосновывается, что в условиях увеличения доли импорта основных продуктов питания, и принимая во внимание важную социальную и экономическую значимость аграрного сектора, проблемы и основные направления повышения его конкурентоспособности приобретают особую актуальность.

В настоящее время сельскохозяйственные предприятия уделяют недостаточно внимания вопросам повышения конкурентоспособности своей продукции, в силу чего не готовы к активному ведению конкурентной борьбы. Низкая конкурентоспособность отечественных производителей требует создания механизма воздействия на формирование и реализацию конкурентных преимуществ предприятий.

Ключевые слова: аграрный сектор, конкурентоспособность, сельскохозяйственная продукция, экспортный потенциал, государственная поддержка.

***

Важным фактором успешного экономического развития Азербайджана является повышение общего уровня конкурентоспособности экономики республики, в том числе аграрного сектора. Необходимость повышения конкурентоспособности аграрного сектора является важнейшей задачей экономической политики государства, и оказание государственной поддержки аграрному сектору заложили основу для перехода на качественно новый этап развития данной сферы.

Повышение государственной поддержки развитию аграрного сектора в стране имело широкий охват, а именно в таких направлениях:

- ОАО "Агролизинг" применило 40% льготы на первоначальную стоимость сельскохозяйственной техники, передаваемой в лизинг;
- осуществлены стабильные бюджетные отчисления;
- увеличены с 50 до 70% скидки в стоимости продаваемого фермерам удобрения, а верхняя планка льготной суммы была поднята с 50 до 80 манатов за гектар;
- субсидии, выделяемые на покупку топлива и моторных масел, были увеличены на 25 %;
- выплачивается со стороны государства 40% стоимости современных оросительных систем, эта поддержка сыграет важную роль в переходе от традиционных методов орошения, приводящих к деградации и засолению земель, к современным методам, позволяющим экономить водные ресурсы;
- определены субсидии владельцам животных в размере 100 манатов за каждого теленка, полученного путем искусственного осеменения.
- создан Государственный зерновой фонд для обеспечения производителей продукции семенами высокого качества, что должно повлиять на повышение производительности в области растениеводства [5].

Однако предпринятые меры не оказали должного воздействия на аграрный сектор.

На внутреннем рынке страны сохраняется высокая доля импорта продовольствия из-за низкой конкурентоспособности сельскохозяйственной продукции. Надо отметить, что сохранение определенной доли импорта по сельскохозяйственным продуктам необходимо для расширения ассортимента, улучшения качества продукции и сохранения конкурентной среды.

Развитию аграрного сектора в Азербайджане препятствуют выдача «длинных» кредитов, не использование новых технологий и современной техники, а также не применение иностранного капитала для развития агрокомплекса.

Нехватка денежных средств - основной фактор, сдерживающий развитие аграрного сектора. По данным Ассоциации микрофинансирования Азербайджана в 2017 г. было выдано кредитов на 20 млрд. манатов, которые получили более 5 млн. человек, то есть, средняя сумма кредита составила 400 манатов. Ассоциация сообщает, что эти средства были выделены на развитие сельского хозяйства, а это очень маленькая сумма даже для микрофинансирования. Аграрным предприятиям трудно брать кредиты в коммерческих банках из-за высокой процентной ставки.

Для развития аграрного сектора необходимы вложения, оцениваемые миллиардами манатами. Наравне с государственной финансовой поддержкой, необходимо привлекать иностранных инвесторов за счет либерализации законодательной базы, снижения налоговых ставок и т.д. Это одна из отраслей экономики, которая нуждается в «длинных» кредитах по низким процентам, так как сельскохозяйственная сфера приносит прибыль только спустя несколько лет.

Решающее значение для развития аграрного сектора и увеличения производства продовольственных продуктов имеет привлечение новых технологий и современной техники, что требует крупных инвестиций. Без государственной помощи невозможно осуществить перелом в этой сфере.

Проблема конкурентоспособности аграрного сектора занимает одно из ведущих мест в экономическом анализе, что объясняется усилением международной конкуренции. Развитие аграрного сектора экономики может стать самым приоритетным, поскольку имеет высокий экспортный потенциал, способный поднять благосостояние нашей страны.

Конкурентоспособность аграрного сектора выражается в способности аграрных предприятий приспосабливаться к новым условиям хозяйствования, использовать свои конкурентные преимущества и побеждать в конкурентной борьбе на рынках сельскохозяйственной продукции и услуг, максимально эффективно использовать земельные ресурсы, полностью удовлетворять потребности покупателя путем анализа структуры рынка, гибко реагировать на изменение конъюнктуры рынка [3, с. 162].

Необходимо отметить, что на конкурентоспособность аграрных предприятий влияют также погодные условия, природные ресурсы и длительность производственного цикла.

На создание конкурентоспособной продукции в сельском хозяйстве особое влияние оказывает материально-техническая база, кадровое обеспечение, рациональная специализация и организация производства, качество продукции, товарность, низкая себестоимость, государственная поддержка аграрного бизнеса. Формирование предприятиями конкурентных преимуществ приводит к уменьшению себестоимости и улучшения качества продукции [2, с. 67].

В аграрном секторе основным показателем конкурентоспособности является качество продукции. Чтобы обеспечить высокое качество продуктов необходимо соблюдать требования технологии, проводить дательный контроль от начала процесса производства и до момента поступления к потребителю, что должно регламентироваться азербайджанскими и международными нормативными документами.

К основным причинам снижения объемов производства в аграрном секторе относят: снижение технологического уровня производства; устаревание и снос оборудования; рост цен на материально-технические средства, потребляемые в отрасли; несовершенство земельных отношений в аграрной сфере; снижение инвестиционного потенциала; несоответствие продукции международным стандартам; несовершенство законодательства [1, с. 308].

Для того, чтобы повысить конкурентоспособность аграрных предприятий в республике, необходимо предпринять такие меры:

- обеспечить товаропроизводителей современной техникой;
- использовать новейшие технологии выращивания и повышения урожайности сельскохозяйственных культур;
- обеспечить прирост поголовья животных с высокой производительностью и генетическим потенциалом;
- финансирование сельскохозяйственного производства и повышение инвестиционной привлекательности отрасли;
- усовершенствовать нормативно-правовую базу в данной сфере;
- создать сеть национальных организаций, уполномоченных проводить сертификацию продукции;
- расширить круг потребителей на международных рынках;
- подготовить высококвалифицированных работников;
- создать благоприятную экономическую среду, способствующей инновационному развитию и привлечению инвестиций в аграрный сектор.

Повышение конкурентоспособности азербайджанской сельскохозяйственной продукции требует значительных изменений, таких как, создание в регионах складских комплексов на основе самых современных технологий, регулирование сезонных цен, предотвра-

щение потерь продукции, повышение стандартов выпускаемой продукции, защиты внутреннего рынка, что скажется на решении проблем аграрного сектора и повлияет на увеличение экспортного потенциала отечественных производителей [4, с. 19].

В быстроизменяющихся условиях рыночной экономики для повышения уровня потенциала аграрных предприятий необходимо совершенствовать их инновационную деятельность. Инновационная деятельность должна включать оперативное внедрение в производство научных достижений и передового опыта. Она направлена, в первую очередь, на создание конкурентоспособной продукции, увеличение объемов ее производства и повышение рентабельности сельского хозяйства.

Инновационная деятельность в аграрном секторе обеспечит непрерывное обновление технической и технологической базы сельскохозяйственного производства и создание новых видов конкурентоспособной продукции.

Основными задачами инновационной деятельности должны являться:

- организация инновационных центров (лабораторий);
- создание региональных центров сельскохозяйственного консультирования;
- повышение удельного веса энергетических ресурсов, производимых сельскохозяйственными предприятиями с использованием возобновляемых источников энергии.

Реализация этих мер повлияет на рост производительности труда в аграрном секторе Азербайджана, повышение доходности предприятий АПК, качество аграрной продукции.

Необходимо отметить, что около 1,5 миллиона граждан страны трудится в аграрном секторе и наличие этого факта говорит о том, что развитие данной сферы имеет особое значение, которое повлияет на снижение безработицы и бедности, обеспечит потребность населения страны в основной сельскохозяйственной продукции.

Обеспечение конкурентоспособности аграрного сектора во многом связано с государственной политикой в области регулирования аграрного рынка. Азербайджан путем осуществления последовательной государственной программы развития аграрного сектора постепенно укрепит свои позиции на мировом рынке посредством развития региональной интеграции в аграрной сфере, модернизации производства и сбыта сельскохозяйственной продукции, привлечения иностранных инвестиций и широкого проведения агроэкологических мероприятий.

ЛИТЕРАТУРА

1. Кандакова Г.В. Проблемы повышения конкурентоспособности аграрного сектора России в условиях вступления в ВТО и направления их решения. Вестник ФТУИЖ, №4, 2013, стр.307-311.
2. Минько, Э.В. Качество и конкурентоспособность продукции и процессов [Текст]: учебное пособие / Э.В.Минько, А.Э.Минько, В.П.Смирнов. - СПб: СПбГУАП, 2010. - 240 с.
3. Фищук Б. П. Конкурентоспроможність сільськогосподарської продукції / Б. П. Фіщук, О. П. Лукашенко, О. М. Хмарук // Збірник наукових праць ВНАУ. - 2012. - № 4 (70) .- С. 160-164.
4. Концепция развития «Азербайджан - 2020: Взгляд в будущее» [Электронный ресурс]. - Rejim dostupa: www.president.az/files/future_ru.pdf
5. https://www.trend.az/business/economy/ 2479107.html

Sərvinaz Məmməd Həsən qızı Xanlarzadə
i.e.n., dos. «İqtisadiyyat» kafedrası
Azərbaycan Dövlət İqtisad Universiteti

Azərbaycanın aqrar sektorunun problemləri və rəqabət qabiliyyətinin artırılması yolları

Xülasə

Məqalədə əsaslandırılır ki, əsas ərzaq məhsullarının idxal payının artırılması və aqrar sektorun sosial və iqtisadi əhəmiyyətini nəzərə alaraq, onun rəqabət qabiliyyətinin artırılmasının əsas istiqamətləri və problemləri xüsusi aktuallıq kəsb edir.

Hal-hazırda kənd təsərrüfatı müəssisələri öz məhsullarının rəqabət qabiliyyətinin artırılmasına kifayət qədər diqqət yetirmirlər, buna görə fəal rəqabət mübarizəsinə hazır deyillər. Yerli istehsalçıların aşağı rəqabət qabiliyyəti tələb edir ki, müəssisələrin rəqabət üstünlüklərinin formalaşmasına və həyata keçirilməsinə təsir göstərən mexanizm yaradılmalıdır.

Açar sözlər: aqrar sektor, rəqabət qabiliyyəti, kənd təsərrüfatı məhsulları, ixrac potensialı, dövlət dəstəyi.

Sarvinaz Mammad Hasan Khanlarzadeh
PhD, assistant professor at "Economy"
Department of Azerbaijan State Economic University

Problems and ways of increasing the competitiveness of the agricultural sector of Azerbaijan

Summary

The article substantiates that, in the context of increasing the share of imports of basic food products, and taking into account the important social and economic importance of the agrarian sector, the problems and the main directions for increasing its competitiveness acquire special relevance.

Currently, agricultural enterprises are giving insufficient attention to improving the competitiveness of their products, which is why they are not ready for active leadership of competition. Low competitiveness of domestic manufacturers requires the creation of a mechanism for influencing the formation and implementation of competitive advantages of enterprises.

Key words: agrarian sector, competitiveness, agricultural products, export potential, state support.

Mehriban Kərəm qızı TAĞIYEVA
i.f.d. Azərbaycan Kooperasiya Universitetinin
"Mühasibat uçotu və audit" kafedrasının dosenti

AQRAR SAHƏNİN İNKİŞAFINDA ÜMUMİLƏŞDİRİCİ STATİSTİK GÖSTƏRİCİLƏR SİSTEMİNİN TƏTBİQİ XÜSUSİYYƏTLƏRİ

Xülasə

Məqalədə aqrar sahənin inkişafında ümumiləşdirici göstəricilərin əsasını təşkil edən indekslərin tətbiqi xüsusiyyətləri verilmiş və bununla bağlı təkliflər irəli sürülmüşdür. O cümlədən, qeyri-neft sektoru, əsasən də kənd təsərrüfatı sahələrinin inkişafında stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi və gələcək inkişaf perspektivləri göstərilmişdir.

Açar sözlər: aqrar sahə, qeyri-neft sektorları, ümumiləşdirici statistik göstəricilər sistemi, indekslər.

***

Azərbaycanın dövlət müstəqilliyinin təmin edilməsi, aparılan iqtisadi islahatlar, ölkə iqtisadiyyatının inkişafı və dünya təsərrüfat sisteminə daha sıx inteqrasiya olunması üçün əlverişli şərait yaratmışdır. Məhz belə bir şəraitdə milli iqtisadiyyatın formalaşması və ölkənin dünya bazarında yerinin müəyyən edilməsi, onun mövqeyinin perspektiv dövr üçün möhkəmləndirilməsi dövlətin siyasi-iqtisadi fəaliyyətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Azərbaycan dövləti daxili bazarın inkişafı və fəaliyyəti üçün çevik infrastrukturun yaradılması, biznes və sahibkarlıq fəaliyyətinin inkişafı, xarici iqtisadi əlaqələrin genişləndirilməsi, maliyyə-kredit, bank işi, pul tədavülünün yenidən qurulması, yeni iş yerlərinin açılması, inflyasiya və işsizliyin qarşısının alınması, əhalinin sosial müdafiəsinin təşkili sahəsində məqsədyönlü iş aparmışdır. Respublikamızda xidmət sferalarının, istehsal sahələrinin daha da genişləndirilməsi ümumi daxili məhsulun yüksəlməsinə zəmin yaradıb. Bu müvafiq işlərin gerçəkləşməsində dövlət öz funk-

siyası çərçivəsində iqtisadiyyatın müxtəlif sahələrinə aid tənzimləyici tədbirlər həyata keçirir. Azərbaycan dövlətinin həyata keçirdiyi iqtisadi siyasət artıq öz bəhrəsini verir və bu xalqın maddi rifahının daha da yüksəldilməsi ilə müşayiət olunur. Azərbaycan dövlətinin strateji yolu yalnız demokratiya, sərbəst bazar iqtisadiyyatı, ölkədə sahibkarlıq fəaliyyəti, biznesin və kənd təsərrüfatının inkişaf etdirilməsidir. Bütün bunlar öz növbəsində makroiqtisadi göstəricilərin artmasına və bununla da dövlət büdcəsinin gəlirlərinin yüksəlməsinə müsbət təsirini göstərəcək.

Bu səbəbdən kənd təsərrüfatı sahələrinin ümumiləşdirici göstəricilər sistemi vasitəsilə təhlil edilib nəticə çıxarılması gələcək dövrün inkişafına müsbət təkan verər. Azərbaycan Respublikasının bütün təsərrüfat kateqoriyalarında kənd təsərrüfatının ümumi məhsulu 2010-cu ilə nisbətən 2016-cı ildə 145,3%, 2017-ci ildə isə 153,8% təşkil etmişdir. Respublikamızda kənd təsərrüfatının ümumi məhsulunun həcminin dəyişilməsini xarakterizə edən bu ümumiləşdirici göstəricilər ümumi indekslərdir. Respublikanın kənd təsərrüfatının bitkiçilik sahəsində ümumi məhsul 2010-cu ilə nisbətən 2016-cı ildə 128,9%, heyvandarlıq sahəsində isə müvafiq olaraq 162,6% olmuşdur. [1] Bu göstəricilər qrup indeksləri olub kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq sahələrində ümumi məhsulun həcminin dəyişilməsini xarakterizə edir.

Müxtəlif istehlak dəyərlərinə malik olan məhsulların əsas dövrə nisbətən hesabat dövründə qiymətlərinin dəyişməsini öyrənərkən sadəcə olaraq onları cəmləmək olmaz. Eyni ölcü vahidlərində ifadə olunmalarına baxmayaraq, süd pendir, yağ, ət və s. məhsulların qiymətlərini cəmləyib orta qiymət hesablamaq və bu qiymətlərin birində dəyişilməsini müəyyən etmək düzgün deyildir. Müxtəlif cinsli məhsulların qiymətlərini bilavasitə cəmləmək olmaz, çünki, onlar müxtəlif istehlak dəyərlərinə malikdirlər, həmçinin onların istehsalına müxtəlif miqdarda əmək sərf edilir. Belə məhsulları bilavasitə cəmləmək və müqayisə etmək üçün onları müqayisəli kəmiyyətdə, yəni ortaq ölçüdə ifadə etmək lazımdır. Müxtəlif növ məhsulları ortaq ölçüdə xarakterizə etmək üçün onları dəyər ifadəsində vermək lazımdır. Dəyər ifadəsində verilən müxtəlif məhsulları cəmləmək və müqayisə etmək olar. Bu zaman istehsal edilmiş və ya satılmış məhsulların miqdarını məhsul vahidinin qiymətinə vurub cəmləyərək mürəkkəb hadisəni məbləğ, dəyər şəklində ifadə edə bilərik. Belə göstəricini müqayisə edib əmtəə dövriyyəsinin dəyişilməsini müəyyən etmək mümkündür. Bu zaman əmtəə dövriyyəsinin müvafiq dövrün qiymətlərində ifadə olunması məqsədəuyğundur.

Müxtəlif məhsulların qiymətlərinin dəyişilməsi öyrənilərkən qiymətlər indeksləşdirilən kəmiyyət, məhsulların həcmi isə çəki olur. Qiymətlər indeksində hesabat dövründə satılmış məhsulların miqdarı, həcmi çəki kimi götürülür. Çünki, bizi maraqlandıran cəhət əsas dövrə nisbətən hesabat dövründə satılmış məhsullardan əldə edilmiş qənaəti və ya artıq xərci müəyyən etməkdir. Deməli, qiymətlər indeksində çəkinin hesabat dövründə satılmış məhsulların miqdarı kimi götürülməsi məqsədəuyğundur. Əmtəə dövriyyəsinin və ya istehsal edilmiş məhsulların fiziki həcm indeksində indeksləşdirilən kəmiyyət məhsulun miqdarı olur, çəki rolunda isə əsas dövrün qiymətləri götürülür. [3, s. 35]

Qrup və yaxud ümumi indekslərdə çəki qarşıda duran tədqiqatın vəzifəsindən asılı olaraq müəyyən edilir. Elə bu səbəbdən ümumi qiymətlər indeksini hesablamaq üçün əmtəə kütləsinin həcminin indeksə təsirini aradan qaldırmaq lazımdır. Onda ümumi qiymətlər indeksinin aqreqat düsturu aşağıdakı kimi yazıla bilər:

$$\text{İ}_p = \frac{\sum q_1 p_1}{\sum q_0 p_0}$$

Burada, q_1p_1 - hesabat dövründə əmtəə dövriyyəsidir, q_0p_0 - əsas dövrün qiymətinin əmtəə dövriyyəsidir.

Düsturdan göründüyü kimi, ümumi qiymətlər indeksində hesabat dövründə satılmış (istehsal edilmiş) əmtəənin həcmi çəki kimi götürülür. Ümumi qiymətlər indeksini hesabat dövründə satılmış əmtəənin həcmi əsasında hesabladıqda qiymətlərin dəyişilməsi nəticəsində əhalinin əldə etdiyi qənaətin və ya artıq xərcin mütləq məbləğini müəyyən etmək mümkündür. Zənnimizcə, əhalinin əldə etdiyi qənaətin və ya xərcin mütləq məbləğini müəyyən etmək üçün yuxarıdakı düsturun surətindən məxrəcini çıxmaq (q_1p_1 - q_0p_0) lazımdır. Cavab mənfi olarsa qənaəti, müsbət olarsa artıq xərci göstərir.

İqtisadi mahiyyəti olan bu indeksdən Azərbaycan Respublikasının kənd təsərrüfatı sahələrində daha çox istifadə edilir. Bu səbəbdən əsas dövrün qiyməti ilə ümumi qiymətlər indeksinin aqreqat düsturunun aşağıdakı kimi hesablanması məqsədəuyğun sayılır:

$$\text{İ}_{qp} = \frac{\sum q_1 p_0}{\sum q_0 p_0}$$

Burada, q_1p_0 - əsas dövrün qiyməti ilə cari dövrdə şərti əmtəə dövriyyəsidir, q_0p_0 - əsas dövrdə əmtəə dövriyyəsidir.

Bu indeks düsturundan istifadə edilməsinə üstünlük verilir, cünki, təcrübə cəhətdən o daha faydalıdır. Belə ki, cari dövrün çəkilərilə qiymətlər indeksinin hesablanmasında hər dəfə cari dövrdə satılmış əmtəələrin miqdarı haqqında məlumat olmasını tələb edir. Cari dövrün çəkilərilə hesablanan qiymətlər indeksinin iqtisadi mahiyyəti ondan ibarətdir ki, hesabat dövründə qiymətlərin dəyişilməsi nəticəsində əhalinin əldə etdiyi qənaətin və yaxud artıq xərcin mütləq məbləğini müəyyən etmək mümkündür. Bundan başqa, cari dövrün çəkilərilə hesablanan ümumi qiymət indeksi düsturunun surəti (q_1p_1) cari dövrdə real iqtisadi kəmiyyətdir, yəni əmtəə dövriyyəsidir.

Hesabat dövrünün qiymətini nəzərə alsaq, onda hesablamanın aşağıdakı kimi həyata keçirilməsi məqsədəuyğun olar.

$$\text{İ}_{pq} = \frac{\sum q_1}{p_1}$$

Bütün bu hesablamalar aqrar sahənin inkişafında böyük əhəmiyyət kəsb edir. Bu ümumiləşdirici göstəricilər sisteminin tətbiqi nəinki, aqrar sahənin, o cümlədən qeyri-neft sektorunun inkişafında da böyük rol oynayır. Belə ki, bölgələrdə müasir güclü infrastrukturun yaradılması, təbii resuslarla zəngin olan bölgələrdə qeyri-neft sektorunun inkişafı təmin edilməlidir ki, Azərbaycan iqtisadiyyatı dayanıqlı olsun.

Qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın strukturunun diversifikasiyası Azərbaycan hökumətinin iqtisadi strategiyasının mühüm prioritetlərindən biridir. Bu məqsədlə həyata keçirilən dövlət siyasəti qeyri-neft sektorunun həm tələb, həm də təklif yönümündən stimullaşdırılmasını nəzərdə tutan kompleks tədbirləri əhatə edir. Bunun nəticəsidir ki, ilkin məlumatlara görə 2017-ci ildə ölkənin ümumi daxili məhsulu əvvəlki illə müqayisədə 0,1 faiz artaraq 70135,1 milyon manata çatmışdır.

Ümumi daxili məhsulun 62,8 faizi iqtisadiyyatın qeyri-neft sahələrində, 37,2 faizi isə neft-qaz sektorunda istehsal edilmişdir. Bu dövrdə iqtisadiyyatın neft sektorunda istehsal olunmuş əlavə dəyər 5,0 faiz azalmış, qeyri-neft sektorunda isə 2,7 faiz, o cümlədən nəqliyyat və anbar təsərrüfatı sahələrində 8,5 faiz, informasiya və rabitə sahələrində 6,6 faiz, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində 5,9 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində 4,2 faiz, ticarət; nəqliyyat vasitələrinin təmiri sahələrində 2,5 faiz, sosial və digər xidmət sahələrində 1,5 faiz artmışdır. Eyni zamanda, qeyri-neft sənayesində məhsul istehsalı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,7 faiz, bu sahədə yaradılmış əlavə dəyər isə 3,8 faiz artmışdır.

ÜDM istehsalının 40,1 faizi sənayenin, 10,4 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri sahələrinin, 9,5 faizi tikintinin, 6,8 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,6 faizi informasiya və rabitə sahələrinin, 16,4 faizi isə digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 7,3 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 7205,0 manata bərabər olmuşdur. [1]

Qeyri-neft sektorunun təklif yönündən stimullaşdırılması tədbirlərinə sahibkarlıq fəaliyyəti üçün daha əlverişli şəraitin yaradılması, investisiya mühitinin yaxşılaşdırılması, istehsalın təşviq edilməsi, vergilərin ildən-ilə azaldılması, struktur islahatlarının dərinləşdirilməsi, iqtisadi subyektlərin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi aiddir. Bu tədbirlər qeyri-neft sektoru müəssisələrinin modernləşərək bazarın daim dəyişən tədbirlərinə çevik adaptasiya olunmalarına, onlar tərəfindən adekvat və geniş çeşidli məhsul təklifinin formalaşdırılmasına imkan verəcək.

Respublikamızda həyata keçirilən bu iqtisadi islahatlar qeyri-neft sektorunun, o cümlədən aqrar sənayenin dinamik inkişafına təkan verəcək.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də bu məsələ ilə bağlı mövqeyini qəti şəkildə bildirib və hökumətdən qeyri-neft sektorunda, xüsusilə də kənd təsərrüfatında ciddi islahatlar həyata keçirməyi və bu sahədə böyük irəliləyişin əldə olunmasını tələb edib. Bu istiqamətdə ölkədə həyata keçiriləsi iş və həlli vacib məsələlərdən birincisi, regionlarda iqtisadi inkişafın daha da sürətləndirilməsidir.

Regionlarda mövcud olan sərvətlərdən və təbii şəraitdən səmərəli istifadə etməklə kənd təsərrüfatı məhsulları istehsalını artırmaq, qeyri-neft sənaye sahələrinin, o cümlədən emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərinin, turizmin inkişafını təmin etmək, məşğulluq səviyyəsini yüksəltmək məqsədilə dövlət başçısı tərəfindən "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 2017-ci il 14 iyul tarixli 3099 nömrəli sərəncamı təsdiq edilmişdir. Dövlət Proqramının icrasının təmin edilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən aidiyyatı mərkəzi və yerli icra hakimiyyəti orqanlarına tapşırıqlar verilib. Bu proqramdan irəli gələn tələblərin icrası istiqamətində çox böyük işlər həyata keçirilib və hazırda davam etdirilməkdədir. Artıq torpaq islahatları faktiki olaraq başa çatıb və 1390 min hektardan çox torpaq sahəsi əvəzsiz olaraq kəndlilərə paylanıb. Respublikada istehsal olunan kənd təsərrüfatı məhsulunun 99 faizi özəl bölmənin üzərinə düşür.

Bu sahənin inkişafını növbəti illərdə daha da sürətləndirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri"ndə ölkədə dayanıqlı inkişafın təmin edilməsi, ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsulları istehsalının və emalının genişləndirilməsi üçün əlverişli mühitin yaradılmasını təmin etmək məqsədilə konkret hədəflər, o cümlədən "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə 9 strateji hədəf və 36 prioritet istiqamət müəyyən edilmişdir. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol Xəritəsi üzrə hədəfləri və prioritet istiqamətləri əhatə edən 177 tədbir nəzərdə tutulur.

Strateji Yol Xəritəsinin əsas məqsədlərindən biri də dünya ərzaq və kənd təsərrüfatı bazarına ekoloji cəhətdən təmiz məhsul ixracını maksimum artırmaqdır. Burada, əsasən ərzaq məhsullarının dərin emal prosesində robotlaşdırma texnologiyalarının tətbiqi, yüksək məhsuldar cins heyvanların, bitki sortlarının və biotexnologiyaların istifadəsi nəzərdə tutulur. Həmçinin güclü elm və təhsil komplekslərinin yaradılması, kənd təsərrüfatı məhsullarının və ərzaq tullantılarının dərin və kompleks emal texnologiyalarının tətbiqi və sair planlaşdırılır. Bu istiqamətdə dövlət tərəfindən böyük dəstəyə ehtiyac var.

Onu da qeyd edək ki, Strateji Yol Xəritəsində müəyyənləşdirilən hədəflərə nail olunması nəticəsində kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunda 2020-ci ildə real ümumi daxili məhsulun birbaşa 575 milyon manat, dolayı şəkildə isə 660 milyon manat olmaqla, ümumilikdə, 1235 milyon manat artacağı və təxminən 20 min yeni iş yerinin yaradılacağı gözlənilir.

Bu sahənin inkişafını növbəti illərdə daha da sürətləndirmək məqsədilə «Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında» Azərbaycan Respublikası Qanununun qüvvədə olma müddətinin uzadılması barədə qanun layihəsi müzakirə edilmiş və təsdiqlənmişdir. Bununla da kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisindən başqa, bütün vergilərdən azad edilmişlər. Artıq neçə dəfədir ki, Azərbaycan hökuməti kənd təsərrüfatında vergi güzəştlərini tətbiq edir. Bu günə qədər kənd təsərrüfatının inkişafı üçün tətbiq edilən vergi güzəştləri də məhz bu sahənin inkişafına stimul vermək məqsədini daşıyıb. Tətbiq edilən vergi güzəştlərinə görə regionlarda əkin - biçinlə məşğul olanlar torpaq vergisindən başqa, bütün vergilərdən azad olunmuşlar. Ölkəmizin başçısı hər il kənd təsərrüfatında stimullaşdırıcı qərarlar qəbul edərək, bu sahənin inkişafına təkan verir. Bütün bu tədbirlər respublikamızda ərzaq təhlükəsizliyinə, iqtisadi və sosial məsələlərin həllinə öz müsbət təsirini göstə-

rəcək. Azərbaycan əhalisinin yarıdan çoxunun kənd təsərrüfatı bölgələrində yaşamasını nəzərə alsaq, bu işin iqtisadi əhəmiyyətini aydın görə bilərik.

Bu nailiyyətlərin gələcəkdə davam etdirilməsi vergi siyasətindən çox asılıdır. Çünki, büdcə gəlirlərinin formalaşması bilavasitə, vergi daxilolmaları ilə bağlıdır. Gələcəkdə bu işin yaxşılaşdırılması məqsədilə iqtisadi sahələrdə, o cümlədən kənd təsərrüfatında vergi güzəştlərinin davam etdirilməsini və ümumiləşdirici statistik göstəricilərin tətbiqini zəruri sayıram.

ƏDƏBİYYAT

1. Azərbaycanın Statistik Göstəriciləri 2017.
2. O.Q.Məmmədli, N.Ə.Cavadov, X.N.Cavadzadə. "Sosial-iqtisadi statistika"I hissə. Dərslik, Bakı-2014.
3. Ə.İ.Əliyev. "Statistika" Bakı-2010.

Мехрибан Керем кызы Тагиева
доцент кафедры «Бухгалтерский учет и аудит»

Особенности применения системы статистических показателей в развитии аграрного сектора

Резюме

В статье излагаются особенности показателей, которые составляют основу совокупных показателей развития аграрной отрасли, и предлагаются предложения по этому вопросу. В частности, в ненефтяном секторе основное внимание уделяется реализации стимулирующих мер в области развития сельскохозяйственных месторождений и перспективам дальнейшего развития.

Ключевые слова: аграрный сектор, ненефтяной сектор, система статистических показателей, индексы.

Mehriban Kerem Taghiyeva
PhD on economics Azerbaijan University of Cooperatives
Associate Professor of "Accounting and Audit"

Specifics of the application of the system of statistical indicators in the development of agrarian sector

Summary

The article outlines the features of the indices that form the basis of aggregate indicators in the development of agrarian field, and suggestions on this have been put forward. In particular, the non-oil sector mainly focuses on the implementation of incentives and development prospects in the development of agricultural fields.

Key words: agrarian sector, non-oil sector, system of statistical indicators, indexes.

Telli Xələf qızı HACIYEVA
i.f.d. Azərbaycan Koopersiya Universitetinin
"İqtisadi nəzəriyyə" kafedrasının dosenti

RƏQABƏT MÜHİTİNİN FORMALAŞMASINDA BİZNES-İNKUBATORLARIN YERİ VƏ ROLU

Xülasə

Məqalədə iqtisadi ədəbiyyatlarda biznes-inkubatorların yaradılması sahəsində bir çox alimlərin fərqli yanaşması araşdırılmışdır. Biznes-inkubatorların texnoloji parklardan fərqi əsaslandırılmışdır, biznes inkubatorların təşkilinin əsas şərtlərinin elmi əsaslı təsnifatı verilmişdir. Bundan sonra, ümumiyyətlə Azərbaycanda və onun ayrı-ayrı bölgələrində biznes-inkubatorların təş-

kili və inkişafı üçün standart metodologiyanın hazırlanması üçün müəllifin yanaşması təklif olunur.

Açar sözlər: biznes-inkubator, texnopark, innovasiya, rəqabət, səmərəlilik , intellektual biznes.

Giriş

Dünyada elə bir kəskin rəqabət, sürətlə yenilənmə hökm sürür ki,buna dözmək və qalib gəlmək üçün ölkəmiz daxili iqtisadiyyatın bütün sahələrində dünya təcrübəsini öyrənməli, yeniliklər edərək tətbiq etməlidir. Belə layihələrdən biri də kiçik biznesi inkişaf etdirmək sahəsində qabaqcıl dünya ölkələrində tətbiq olunmuş Biznes-inkubator layihələridir. Bir sıra dünya ölkələrində biznes-inkubatorların sürətli inkişafı və sayının kəskin artması bu modelin səmərəli olmasına sübutdur.

Müasir biznes sahəsində elmi və texniki nailiyyətlərin savadlı və düzgün tətbiqini nəzərdə tutan innovasiya sisteminə heç bir alternativ yoxdur. Bu zaman biznes-inkubatorlar daha mühüm rol oynamaqla kiçik və bir qayda olaraq, innovasiya müəssisəsinin yaradılması və inkişafına kömək edirlər. Bu funksiya getdikcə daha vacib əhəmiyyət kəsb edir, çünki vaxt keçdikcə yeni müəssisənin bazara çıxışı tədricən artmaqda olan rəqabət üzündən mürəkkəb xarakter almaqdadır. Biznes-inkubatorun əsas vəzifəsi maraqlı biznes ideyanı aşkara çıxarmaq və onun biznes layihəsinə çevrilməsinə kömək etmək, məhsul istehsalına yardım göstərmək və bazara çıxışı təmin etməkdən ibarətdir. Bütün bu vəzifələrin yerinə yetirilməsinə, xüsusilə məhsulun bazara çıxışına yardım göstərmək kifayət qədər mürəkkəb məsələdir. Buna yalnız ölkə daxilində, eləcə də beynəlxalq aləmdə düzgün biznes siyasəti aparmaqla, biznes infrastrukturunun işlək mexanizmlərini hərəkətə gətirməklə nail olmaq mümkündür. Biznesin inkubasiyası uzunmüddətli dövrə hesablanmış sahibkarlığa köməyin infrastruktur mexanizmlərindən biri sayılır. Biznes-inkubatorlar bir qayda olaraq, innovasiya tipli kiçik və orta müəssisənin yaradılmasına kömək edir.

Azərbaycan Respublikasında biznes-inkubasiya prosesinin modeli. Azərbaycanda və onun ayrı-ayrı regionlarında biznes-inkubatorların bu funksiyası yerli müəssisələrin daxili mövcud və xarici bazarlara çıxışı zamanı daxili və xarici rəqabətin güclənməsi səbəbindən mürəkkəb vəziyyətin yaranması ilə əlaqədar daha vacib əhəmiyyət kəsb edir. Kiçik sahibkarlığa köməyin əsas istiqaməti kimi Azərbaycanda biznes-inkubatoruna təkamül xarakterli spesifik xüsusiyyətlər xasdır.

Biznes-inkubatorların iqtisadi inkişafda effektiv rola malik olması inkişaf etmiş bir çox ölkələrin təcrübəsində sübut edilmişdir. Biznes inkubatorlar regionlarda sahibkarlığı inkişaf etdirməklə yanaşı intellektual və digər iqtisadi resursların səmərəli istifadəsinə, rəqabət qabiliyyətli məhsul istehsalının inkişafına və bu sahələrin böyük biznesə açılan "qapıya" çevrilməsinə səbəb olurlar. Biznes-inkubatorların təşkilati modellərini yaradarkən nəzərə almaq lazımdır ki, ölkəmiz üçün aktual problem olan sahibkarlıq və rəqabət mühitinin yaradılması, yeni iş yerlərinin açılması, istehsalın genişləndirilməsi, bir çox sənaye sahələrinin inkişafı, daşınmaz əmlakdan səmərəli istifadə yerli və regional məsələlərin həllinə yönəldilməlidir.

Biznes-inkubator çərçivəsində kiçik biznesin, sənayenin, tədqiqat və tədris institutlarının və bütövlükdə respublikanın maraqlarının uzlaşdırılmasına nail olunur. Biznes-inkubator mexanizmi vasitəsilə müəssisələr özünün malik olduğu resurslardan istifadə nəticəsində gəlir əldə edə bilərlər.

Biznes-inkubatorlarda birgə fəaliyyət kiçik firmalara ərazinin elmi-texniki və istehsal potensialından, elmi kadrlarından və maddi bazasından birgə istifadə etməklə yeni texnologiyaların tətbiqini sürətləndirməyə, buraxılan məmulatların rəqabət qabiliyyətini yüksəltməyə, elmi-texniki və təcrübi konstruktor işlərinin aparılmasına xərcləri azaltmağa imkan verir. Nəticədə kiçik biznesdə əlavə iş yerləri, yeni məhsullar, xidmət və texnologiyalar yaranır, ayrı-ayrı regionların nüfuzu yüksəlir, əlavə kapital cəlb olunur, sosial infrastruktur təkmilləşir, təhsil və elmin inkişafı stimullaşdırılır


Dünya təcrübəsi göstərir ki, biznes-inkubasiyalaşma iki paralel məsələni həll edə bilər və həll etməlidirlər. Bir tərəfdən, o, yeni kiçik müəssisələrin yaradılması və inkişafına rəğmən yeni imkanlar verir, digər tərəfdən isə, artıq mövcud olan, qeyri-effektiv strukturların sağlamlaşdı-

rılması baxımından xeyli məhsuldar sayılır, biznes-inkubasiyalaşma kiçik sahibkarlığa köməyin daha effektiv üsullarından biri sayılır. Azərbaycanda yeni nəsil biznesin inkubasiyası iqtisadiyyatın aktual problemlərini həll etməyə imkan verir. Bunların içərisində aşağıdakıları qeyd etmək olar:

- innovasiya sahibkarlığının və rəqabət mühitinin inkişafı;
- iş yerlərinin yaradılması və sosial gərginliyin aşağı salınması;
- istehsalın restrukturizasiyası və kiçik infrastruktur, intellektual biznes sferasında mütərəqqi sənaye sahələrinin inkişafı;
- daşınmaz əmlak və resurslar sferasında münasibətlərin inkişafı.

Sxem 1

Azərbaycan Respublikasında biznes-inkubasiya prosesinin modeli və onun ölkənin sosial-iqtisadi inkişafına təsiri



Sxem müəllif tərəfindən hazırlanmışdır.

Regionlararası biznes-inkubatorun inzibati struktur modeli. Azərbaycan Respublikasında innovasiya sahibkarlığı sferasının təhlili göstərdi ki, kiçik innovasiya sahibkarlığının aktivləşməsi və inkişafı eyni zamanda kiçik sahibkarlığa kömək infrastrukturunun da formalaşmasını və inkişafını tələb edir.

Ölkə səviyyəsində biznes-inkubatorlarla yanaşı, innovasiya-texnologiya birjalarının, innovasiyanın-tətbiqi mərkəzlərinin, innovasiya-texnologiya mərkəzlərinin, sahə istiqamətli texnoparkların və texnoloji-inkubatorların yaradılmasının stimullaşdırılmasını məqsədəuyğun sayırıq.

Kifayət miqdarda biznes-inkubatorun yaradılması kiçik sahibkarlıq firmalarının "yetişdirilməsi" üçün stimul olacaqdır, çünki biznes-inkubatorlar kiçik sahibkarlar və digər sahə strukturları arasında əlaqələndirici rolu yerinə yetirir.

Biznes-inkubatorun yaradılması metodikası dedikdə, biz ilk növbədə biznes-inkubatorların formalaşması alqoritminin, məntiqi sxeminin və strukturunun işlənib hazırlanmasını nəzərdə tuturuq. İnnovasiya sahibkarlığına müxtəlif kömək formalarının təhlili əsasında bizim tərəfimizdən kiçik biznesin innovasiya fəaliyyətinin təşkilati metodik mexanizmi işlənib hazırlanmışdır.

Bu isə biznes-inkubatorun geniş yayılması üçün bütün zəruri şərtlərin yaradılması deməkdir. Biznes-inkubatorun formalaşması alqoritmi aşağıdakılardan ibarətdir:


- təsisçilərin seçilməsi;
- biznes-inkubatorun təşkilati-hüquqi formalaşmasının müəyyən edilməsi;
- inkubator tipinin(ümumi ixtisaslaşmış);
- kiçik müəssisəyə köməyin bu formasına xas olan xidmətlər siyahısının müəyyən olunması;
- müştərinin seçilməsi meyarlarının müəyyən edilməsi;
- firmaların biznes-inkubatordan çıxması üçün meyarların müəyyən edilməsi;
- qarşılıqlı maraqlar balansına əsaslanan, müştəri firmalar və inkubator direktorluğu arasında qarşılıqlı münasibətlərin tənzimlənməsi prinsiplərinin işlənməsi;
- biznes-inkubator əməkdaşlarının və müştərilərinin təşkilati mədəniyyət prinsiplərinin işlənib hazırlanması;
- inkubatorun yerinin seçilməsi;
- hakimiyyət və idarəetmə orqanları ilə, banklarla, konsaltinq firmalar ilə, ali təhsil müəssisələri ilə, iri sahibkarlıq strukturları ilə işgüzar əlaqə istiqamətlərinin və formalarının müəyyən olunması.

Biznes-inkubatorun yaradılmasının təklif olunan alqoritminin reallaşdırılması ölkəmizdə biznes-inkubatorların yaradılması prosesində, eləcə də ayrı-ayrı regionlarda artıq işləyən kiçik firmaların bazara daxil olması probleminin həll olunması zamanı istifadə oluna bilər.

Ölkə ərazisində biznes-inkubatorların yaradılması kiçik innovasiya müəssisələrinə güzəştli şərtlərlə icarəyə götürülən binalar təqdim etməyə, müvafiq məsləhət xidmətləri(vergi, ekspert, maliyyə, marketinq, hüquqi), psixoloji xidmətlər göstərməyə imkan verir.

Sxem 2.

Regionlararası biznes-inkubatorun inzibati struktur modeli



Sxem müəllif tərəfindən hazırlanmışdır.


Azərbaycan Respublikasında innovasiya sahibkarlığına dair bütün yuxarıda qeyd edilən problemlərin həlli üçün sahibkarlığın innovasiya fəaliyyəti üzrə respublika əlaqələndirmə mərkəzini yaratmaqla innovasiya firmalarının monitorinqinin aparılması məqsədəuyğundur

Aydındır ki, biznes-inkubatorun profili, miqyası, xidmətlər dəsti, istiqamətliliyi, ilk növbədə, onların yaradıldığı ərazinin şəraiti ilə müəyyən olunmalıdır. Regionda biznes-inkubator yaradılarkən, etnik mədəniyyət, geoiqtisadi, siyasi, resurs aspektləri, onların məqsədlərinin inteqrasiyası əsasında qarşılıqlı inkişafını nəzərə almaq lazımdır. Məhz bu aspektlər qrupda regionların fərqini müəyyən edir. Biznes-inkubator öz fəaliyyətinin başlanğıcından etibarən, regionun vəziyyəti, strategiyası və təkamülü ilə şərtlənən bu məqsədə uyğun gəlmələlidir.

Regionların təsərrüfat fəaliyyəti biznes-inkubator qarşısında yeni vəzifələr qoyur. Bu qərarların həlli regionlarda formalaşan əlaqəli münasibətlərin bütün müxtəlifliyindən istifadə etmədən mümkün deyildir. Müasir şəraitdə regionun inkişafının rəhni təkcə istehsal deyil, həm də maliyyə axınlarının idarə edilməsi, səriştəli işçi qüvvəsinin və investisiyanın cəlb olunması, innovasiya texnologiyalarının istifadəsi sayılır. Regionlararası tipdə biznes-inkubator makroregionun resurslarını tam istifadə edə bilər, regionun iqtisadi sisteminin sahəvi ixtisaslaşması və klasterizasiyası, sahələrarası inteqrasiyası və sosial konsolidasiyası üçün resursa çevrilə bilər

Sxem 3

Regionlararası tipdə biznes- inkubatorların formalaşması amilləri



Sxem müəllif tərəfindən hazırlanmışdır.

Regionlararası tipdə biznes-inkubator kiçik müəssisələrlə birbaşa qarşılıqlı təsirdə olmaqla, makroregionda onların uğurlu fəaliyyət şərtlərini yaratmaqla kiçik biznesə köməyin mühüm infrastruktur elementidir.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

2. “Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı”. Bakı, 2 mart 2001-ci il.
3. Biznesin əsasları. Dərslik. Prof. A.B. Abbasovun ümumi redaktəsi ilə. Bakı, “Nurlan”, 2005, 656 s.
4. Ломоносова Т.В. Основы создания бизнес-инкубаторов для поддержки малого предпринимательства и инвестиций. 1999. 5 с.
5. Берп О.В. Некоторые вопросы концепции проекта федерального закона «Об общих принципах организации местного самоуправления в Российской Федерации». // Государственная власть и местное самоуправление. 2003. №2. ст 8.
6. Положительный опыт малого предпринимательства в России // Аналитический сборник. - М.: АМиР, ИПИ, 2000.
7. Словарь маркетинга, http://www.i-u.ru/biblio/dict.aspx
8. Капитаненко М.С. Механизмы и возможности активизации инвестиционных процессов. - М.: 2003// ОАО «Типография «Новости».
9. Плевако С.М. Об эффективности местного управления // Муниципальный мир. 1999. №3.

Телли Халаф кызы Гаджиева
д.ф.э., доц. АУК

Роль и место бизнес-инкубаторов в формировании конкурентной среды

Резюме

В данной статье обобщаются различные подходы по вопросам целью создания бизнес-инкубаторов, изложенными многими учеными в экономической литературе. Обосновывается различие бизнес-инкубаторов от технологических парков, дается научно-обоснованная классификация основных условий организации бизнес-инкубаторов. После того, предлагается авторский подход по разработке типовой методики организация и развития бизнес-инкубаторов в целом в Азербайджане и на его отдельных регионах.

Ключевые слова: бизнес-инкубатор, технопарк, инновации, конкуренция, эффективность, интеллектуальный бизнес.

Telli Khalaf Hajiyeva
PhD in economics, ass. prof. ACU

The role and place of business incubators in shaping the competitive environment

Summary

In given clause various approaches on questions by the purpose of creation of the business - incubators, the stated many scientists in the economic literature are generalized. It is proved various business - incubators from technological parks, the scientifically-grounded classification of the basic conditions of the organization of business - incubators is given. After that, the author's approach on development of a typical technique the organization and developments of business - incubators as a whole in Azerbaijan and its separate regions is offered.

Key words: business incubator, technopark, innovation, competition, efficiency, intellectual business.

Vahid Vaqif oğlu GƏRAYEV
i.f.d., dosent, Azərbaycan Kooperasiya Universiteti

AQRAR SAHƏNİN DAYANIQLI İNKİŞAFINDA AQROMARKETİNQİN ROLU

Xülasə

Məqalədə aqrar sahənin inkişafına nail olunmasında aqromarketinq tədbirlərinin tətbiq edilməsinin vacibliyi göstərlilmişdir. Bu istiqamətdə aqrar sahənin müəyyən problemləri araşdırılmış, aqromarketinqin başqa marketinq formalarından fərqlı xüsusiyyətləri təhlil edilmişdir. Respublikamızda aqromarketinq üzrə peşəkar mütəxəssislərin az olması, inhisarçılıq meyilləri, istehsalçılara bazar informasiyalarının çatdırılması sahəsində və s. məsələlərlə bağlı problemlərin mövcudluğu əsaslandırılmış, son illərdə bu sahədə müəyyən inkişafın olduğu qeyd olunmuşdur. Həmçinin, məqalədə problemlərin həlli istiqamətində bir sıra təkliflər və tövsiyələr verilmişdir.

Açar sözlər: aqrar sahə, aqromarketinq, bazarın seqmentləşdirilməsi, aqrofirma, marketinq strategiyası, bazarın tədqiq olunması.

Giriş

Aqrar sahənin, aqrar bazarın inkişaf etməsi üçün bütün başqa tədbirlərlə yanaşı aqromarketinq işləri də çox fəallıqla aparılmalıdır. Adi istehsal və satış qaydalarından fərqli olaraq aqromarketinq tədbirlərinin tətbiqi hələ istehsala başlamamışdan qabaq bazarın tədqiqi və onun öyrənilməsini ön plana çəkir. Çünki bazarı tədqiq etmədən, istehlakçıların ehtiyac və tələbatlarını öyrənmədən marketinq fəaliyyətinin səmərəli təşkilindən söhbət gedə bilməz. Başqa sözlə, müəssisənin yüksək məhsuldarlığa nail olması və uğurlu satış prosesinin həyata keçirilməsi marketinq konsepsiyasının tətbiqi əsasında mümkündür.

Aqrar sahənin inkişaf etdirilməsi istehsal olunan məhsulun daxili və xarici bazarlarda rəqabətədavamlılığını təmin etmək üçün aqromarketinq siyasətinin aparılması və ya təkmilləşdirilməsinin xüsusi əhəmiyyəti vardır. Aqromarketinq tədbirlərinin sayəsində kənd təsərrüfatının inkişafı xarici ölkələrin təcrübəsində özünü göstərmişdir.

Aqrar sahədə məhsul istehsalçılarının ən böyük problemlərindən biri istehsal etdikləri məhsulları bazarlarda sərfəli qiymətlərə sata bilməmələridir. Nəticədə əldə etdikləri gəlirlər onların ehtiyac və tələbatlarını ödəmir. Bu da onların həvəsdən düşməsinə və bu sahəyə maraqlarının azalmasına səbəb olur. Aqrar sahədə marketinq siyasətinin olmaması və istehsalçılara bu sahədə bilgilərin verilməməsi qeyd olunan problemlərin yaranmasına səbəb olur.

Aqromarketinq siyasəti kənd təsərrüfatında istehsal olunacaq məhsulun seçilməsinin, satış məkanının və onun qiymətinin müəyyən edilməsində, istehsalçıların gələcək fəaliyyətləri haqqında düzgün qərarlar qəbul etmələrində mühüm rol oynayır.

Aqromarketinqin xarakterik xüsusiyyətləri və bazarın seqmentləşdirilməsi

Aqromarketinq başqa marketinq formalarından fərqli olaraq özünün spesifik xüsusiyyətləri ilə seçilir. Bu xüsusiyyətlərin bir neçəsini nəzərdən keçirək.

Aqromarketinq xidmətinin birinci xüsusiyyəti insanlar üçün çox vacib olan həyati əhəmiyyətli məhsulların istehsalı və satışı prosesini əhatə etməsidir. Belə ki, kənd təsərrüfatı və ərzaq məhsulları insanların fizioloji tələbatını ödəyən və ilk növbədə tələb olunan məhsullar hesab olunur. Ona görə də aqromarketinq prinsipləri ilə fəaliyyət göstərən müəssisələr istehlakçıların sağlamlığına xələl gətirməyən, onların tələbatlarına uyğun olan kənd təsərrüfatı və ərzaq məhsullarını vaxtlı-vaxtında, zəruri həcmdə və çeşiddə istehsal etməklə tələb olunan yerlərə çatdırmalıdırlar. Kənd təsərrüfatı məhsulları adətən tezxarabolan olduqları üçün, onların operativ göndərilməsi, məqsədəuyğun bükülməsi (qablaşdırılması), servis və estetik xidmət tələb olunur.

Aqromarketinqin ikinci mühüm xüsusiyyəti iş dövrü ilə istehsal dövrünün uyğunsuzluğudur. Məsələn, bitkiçilik məhsulları il ərzində bir-iki dəfə əldə olunduğu halda həmin məhsulların istehsal dövrü demək olar ki, il boyu davam edir. Başqa sözlə, kənd təsərrüfatında istehsalın mövsümiliyi aqromarketinq fəaliyyətinin həyata keçirilməsi prosesində istifadə olunan metodların

və üsulların seçilməsinə təsir göstərir və onların başqa marketinq formalarında istifadə olunan metod və üsullardan fərqli cəhətlərini ortaya çıxarır.

Aqromarketinqin üçüncü mühüm xüsusiyyəti kənd təsərrüfatı məhsulları istehsalının torpaqla bağlı olması və torpağın əsas istehsal vasitəsi kimi çıxış etməsi ilə bağlıdır. Belə ki, kənd təsərrüfatında məhsuldarlığın və keyfiyyətin artırılmasına torpağın özünün münbitliyi və onun intensiv istifadə olunması bilavasitə təsir göstərir. Bununla yanaşı, torpaqdan istifadə heyvandarlıq sahələrinin inkişafı ilə sıx əlaqədardır. Bütün bunlar məhsulun həcmini, çeşidini və keyfiyyətini müəyyən edir, aqromarketinqin təşkili prosesinə konkret xüsusiyyət verir.

Aqromarketinqin dördüncü xüsusiyyəti marketinq prosesində elmi nailiyyətlərin digər sahələrlə müqayisədə aşağı səviyyədə olmasıdır. Bu, ölkəmizdə bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrlə müqayisədə çox-çox aşağıdır. Ümumilikdə bütün dünya ölkələrində aqromarketinq başqa marketinq formaları ilə müqayisədə özünün zəif inkişafı ilə fərqlənir. Bunun da səbəbi kənd təsərrüfatında istehsalın spesifik xüsusiyyətləri və bu sahədə istehsal-satış prosesinin müxtəlif xarakterli, çoxsaylı amillərdən asılılığı ilə bağlıdır.

Aqromarketinqdə bazarın seqmentləşdirilməsi meyarları: coğrafi, demoqrafik, sosial-iqtisadi, psixoqrafik, davranış və s. amillərə əsasən kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və satışı üzrə istehlakçı qruplarını xarakterizə edir [4. s. 324].

Aqromarketinq tədqiqatlarının aparılmasının mühüm şərtlərindən biri olan bazarın seqmentləşdirilməsi həm də bazarın tutumunu müəyyən etməyə imkan verir. Bazarın seqmentləşdirilməsi tələbin həcmini və quruluşunu müəyyən etməyə, son nəticədə isə marketinqin strategiya və taktikasının optimal variantının seçilməsi üçün daha əlverişli şəraitin aşkar edilməsinə imkan verir.


Aqrar bazar kənd təsərrüfatı və ərzaq məhsullarının alqı-satqısı ilə bağlı formalaşan təşkilati-iqtisadi münasibətlərin məcmusu kimi, istehsalçı və istehlakçı seqmentlərindən ibarətdir. Təbiidir ki, istehlakçılar bir-birindən yaşlarına, gəlir və təhsil səviyyələrinə, həmçinin zövqlərinə və digər əlamətlərinə görə fərqlənirlər. Aqrar bazarın istehsalçı seqmentlərini isə mülkiyyətin müxtəlif formalarına mənsub olan aqrar əmtəə istehsalçıları təşkil edir. Qeyd etmək lazımdır ki, kənd təsərrüfatında aqromarketinqin imkanlarından səmərəli istifadə edilməməsi aqrar sahənin inkişafına mənfi təsir göstərir. Bunun isə iki əsas səbəbi vardır: birincisi, hazırda kənd təsərrüfatı məhsulları istehsalında intensivlik səviyyəsinin aşağı olması, ikincisi isə aqrar bazar infrastrukturlarının zəif inkişaf etməsi.

Müşahidələr göstərir ki, aqrar bazarın inkişafı istehlakçıların tələblərinin mütəmadi öyrənilməsindən də bilavasitə asılıdır. Bu baxımdan alıcıların tələbatlarının reallaşdırılmasına iqtisadi, sosial, fərdi və psixoloji amillər böyük təsir göstərir. İqtisadi amillərə məhsulun qiyməti, rəqabət mühiti, satışın təşkili, aqromarketinq və bazar infrastrukturunun düzgün formalaşdırılması və digər şərtlər aid edilir. Sadalanan amillər həm də respublikamızın iqtisadi regionlarının xüsusiyyətləri ilə də sıx bağlıdır.

Aqromarketinqin müasir problemləri və inkişaf perspektivləri

Respublikamızda kənd təsərrüfatı məhsullarının istehsalından satışına qədər olan proseslərin həyata keçirilməsi və yüksək nailiyyətlərin əldə edilməməsinin əsas səbəblərindən biri də aqromarketinq fəaliyyətinin zəif həyata keçirilməsidir. Təsərrüfatçılıq fəaliyyətinin bazar prinsiplərinə uyğunlaşdırılması marketinq xidmətlərinin yüksək iqtisadi perspektivləri olsa da bu gün ondan istifadə çox aşağı səviyyədədir.

Müşahidələr göstərir ki, ölkədə fəaliyyət göstərən ailə-kəndli və ev təsərrüfatları kiçik ölçüyə malik olduqlarından, onların böyük təsərrüfatı innovativ texnologiya və istehsal vasitələrindən, o cümlədən gübrə və kimyəvi preparatlardan, demək olar ki, istifadə etmirlər. Bu istehsalçıların məhsullarının saxlanılmasında, qablaşdırılmasında və satılmasında ciddi problemlər olduğundan onlar məhsullarını əlverişli şərtlərlə sata bilmirlər. Ölkədə fəaliyyət göstərən emal və saxlama müəssisələrinin məhsulların alınmasında və saxlanılmasında istehsalçılar üçün əlverişli olmayan şərtlər irəli sürməsi nəticəsində məhsulun maya dəyəri qiymətinə, bəzən daha aşağı qiymətə satılmasına da səbəb olur. Belə hallarda məhsulların satışından əldə olunan mənfəət istehsalçılardan çox, məhsulları ucuz qiymətə alan aralıq vasitəçilərinə çatır (sxem 1.).



Sxem 1. Kənd təsərrüfatı məhsullarının satış kanalları.

Tədqiqatlar göstərir ki, aqrar sahədə marketinq fəaliyyətinin qurulmasında bir çox problemlər mövcuddur və onlara aşağıdakıları aid etmək olar:

- sahibkarlıq fəaliyyətinin müasir elmi əsaslarla, intensiv metodlarla deyil, primitiv ənənələrə uyğun qurulması;
- bazarda inhisarçılıq meyillərinin olması;
- aqromarketinq üzrə peşəkar mütəxəssislərin az olması;
- məhsulun tələbata uyğunluğunun və ixrac variantlarının olmamasını araşdırmadan kortəbii istehsalı;
- aqrar sahədə marketinq xidmətinin maliyyə təminatının və stimullaşdırılması metodlarının olmaması;
- istehsalçılara bazar informasiyalarının çatdırılması sahəsindəki problemlər;
- məhsulların saxlanması ilə bağlı problemlər;
- məhsulların emalı ilə bağlı problemlər;
- məhsulun qablaşdırılması ilə bağlı problemlər;
- məhsulların təminatlı satış kanalları ilə təmin olunması ilə bağlı problemlər və s.

Aqromarketinq fəaliyyətinin qeyd olunan problemlərinin həlli inkişaf etmiş ölkələrdə olduğu kimi kənd təsərrüfatı kooperativləri və digər xidmət sahələrinin təşkili vasitəsilə mümkündür. Məsələn, kənd təsərrüfatı məhsullarının saxlanması, emalı və qablaşdırılması sahəsindəki problemlərin əhəmiyyətli hissəsini kooperativlərin və ya müxtəlif birliklərin təşkili vasitəsilə aradan qaldırmaq mümkündür. Digər problemlərin aradan qaldırılmasında isə dövlətin dəstəyinə ehtiyac vardır. Məsələn, satış infrastrukturunun inkişaf etdirilməsi və sahibkarların bazar informasiyaları ilə təminatının müəyyən hissəsi əlaqədar dövlət strukturları tərəfindən (məsələn, Kənd Təsərrüfatı Nazirliyində fəaliyyət göstərən marketinq xidməti tərəfindən) mümkündür [6].

Müşahidələr göstərir ki, kənd təsərrüfatı məhsulları qiymətlərinin tənzimlənməsində də düzgün təşkil olunmuş aqromarketinq tədbirləri mühüm rol oynayır. Marketinq anlayışını həm də bazar sahəsində satış və həvəsləndirməyə yönəldilmiş fəaliyyət kimi də istifadə etmək mümkündür. İdarəetmə problemləri üzrə aparıcı mütəxəssislərdən olan Peter Drukkerin sərrast qeyd etdiyi kimi, marketinqin məqsədi satış üzrə qüvvə sərfini lüzumsuz etməkdir. Onun məqsədi müştərini elə dərk etmək və başa düşməkdir ki, əmtəə və xidmətlər sonuncuya tamamilə münasib olsun və özləri özlərini satsınlar [5, s. 5].

Marketinqdə əmtəələrə mahiyyətcə, müəyyən xüsusiyyətlər toplusu kimi baxılır. İnsanlar verdikləri pulun müqabilində, onlara ən yaxşı iqtisadi səmərə verə biləcək xüsusiyyətlərə malik olan məhsulları seçməyə çalışırlar. İstehsal olunmuş məhsul istehlakçının arzusunu və zövqünü nə qədər yüksək dərəcədə təmin edə bilərsə, istehsalçı bir o qədər uğur, müvəffəqiyyət qazanar. Beləliklə, istehsalçı potensial istehlakçını axtarmalı, onun tələbatlarını öyrənməli, sonra isə bu tələbatları ödəyə bilən bir məhsul yaratmalıdır.

Bu baxımdan, hazırda təsərrüfatlarda çalışanların texniki, idarəetmə və iqtisadi biliklərinin artırılması məqsədilə qısamüddətli təlimlər, təcrübə yayımı, məsləhətlər və s. kimi praktiki öyrənmə metodlarının genişləndirilməsinə ehtiyac vardır. Bu istiqamətdə özəl məsləhət xidmətlə-

rinin yaradılması və inkişafının stimullaşdırılması üçün ilk dövrlər dövlətin də bu istiqamətdəki fəaliyyətinin gücləndirilməsi zəruridir [3, s. 500].

Fikrimizcə, aqrar sahədə məhsul istehsalçıları üçün marketinq strategiyası milli ərzaq təhlükəsizliyinin təmin edilməsi üzrə uzunmüddətli proqnozlara əsaslanaraq, kənd təsərrüfatı və ərzaq məhsullarının məqsədyönlü satış bazarlarının formalaşdırılmasını əks etdirməlidir. İlk növbədə onlar üçün səmərəli bazar tədqiqatları, marketinq araşdırmaları aparılmalıdır.

Bazar tədqiqatları əsas etibarilə kənd təsərrüfatı və ərzaq məhsullarının satışının məqsədyönlü təşkili üçün məlumatların toplanmasını əhatə edir və özündə aşağıdakıları birləşdirir:

- məhsulun keyfiyyətinin tədqiqi;
- qiymətlərin tədqiqi;
- satışın tədqiqi;
- reklamın tədqiqi;
- istehlakçıların tələblərinin ödənilməsi, onların razı salınmasının tədqiqi və s.

Bu tədbirlər sırasında qiymətlərin tədqiq edilməsi daha mühüm yer tutur. Belə ki, qiymətlərin tədqiqi müxtəlif kənd təsərrüfatı və ərzaq məhsulları üzrə alıcılıq qabiliyyətinin düzgün müəyyən edilməsinə imkan verməlidir. Araşdırmalar zamanı qarşıya çıxan əsas məsələ isə, xərcləri üstələməklə və mənfəət əldə etməklə məhsulların ardıcıl satılmasını həyata keçirməkdir.

Bazar münasibətləri şəraitində aqrar sahədə qiymət sistemi düzgün qurulmalı, çevik olmalı və sosial-iqtisadi inkişafda əsas amillərdən biri kimi fəaliyyət göstərməlidir. Qiymət istehsalla istehlak arasında bilavasitə əlaqə yaradan, nəticə etibarilə aqrar sahədə istehsalın nəticələrinə təsir göstərən və əhalinin həyat səviyyəsini müəyyənləşdirən çox mürəkkəb iqtisadi bir mexanizm olduğu üçün, həm də istehsalçı və istehlakçılar arasında iqtisadi münasibətləri tarazlaşdıran ən mühüm amildir. İndiki şəraitdə məhz bu cəhətə xüsusi diqqət yetirmək lazımdır. Bu amillərin tənzimlənməsi və aqrar sahədə səmərəli iqtisadi fəaliyyətə nail olmağın ən mükəmməl yolu elmi əsaslara söykənən aromarketinq tədbirlərinin sahibkarlıq fəaliyyətində tətbiqidir.

Azərbaycan Respublikasının iqtisadi potensialının gücləndirilməsi məsələləri "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında öz əksini tapmışdır. Qeyri-neft sənayesinin inkişafı və ərzaq təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət kəsb edən sahələrdən biri kimi, kənd təsərrüfatı məhsullarının istehsalı və emalına xüsusi diqqət yetiriləcək, müasir texnologiyaların tətbiqi yolu ilə mövcud aqroemal müəssisələrinin istehsal gücünün artırılması və yeni belə müəssisələrin yaradılması istiqamətində kompleks tədbirlər həyata keçiriləcəkdir. Aqrar sektorun intensiv və səmərəli inkişafının stimullaşdırılması üçün dövlət dəstəyi tədbirləri beynəlxalq təcrübəyə uyğun olaraq davam etdiriləcəkdir. Özəl bankları və kredit təşkilatlarını bu sektora vəsait (kredit) ayırmağa daha da təşviq edən bir mühit yaratmaq üçün əlavə tədbirlər görüləcək, kənd təsərrüfatının sığortalanması mexanizmi təkmilləşdiriləcəkdir. Nəticədə kənd təsərrüfatında məhsuldarlıq artacaq və kənd əhalisi qabaqcıl beynəlxalq təcrübə ilə daha yaxından tanış olacaqdır [1].

Ölkəmizdə həmçinin "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" hazırlanmışdır.

Bu Strateji Yol Xəritəsində ölkənin kənd təsərrüfatı sahəsinin inkişafı ilə bağlı 2020-ci ilədək strateji baxış, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış əks olunub ki, bu da kənd təsərrüfatı sahəsində həm orta, həm də uzunmüddətli dövr üzrə strateji inkişaf hədəflərinə çatmaq üçün dövlətin ardıcıl mərhələlərlə icra ediləcək aydın yol xəritəsinə malik olmasını ifadə edir [2].

Respublikamızda istehsal olunmuş əmtəələrin satışını asanlaşdırmaq məqsədilə bir sıra işlər görülmüşdür. Bunlardan biri də "Azexport.az" saytının yaradılmasıdır. "Azexport.az" saytı "Azərbaycan Respublikasında istehsal olunan malların vahid məlumat bazasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 sentyabr tarixli Sərəncamı əsasında yaradılmışdır. Portalın missiyası Azərbaycan mənşəli mallar haqqında məlumatların təqdim edilməsi və onların daxili və xarici bazarlarda satışı üçün əlverişli platforma yaradılmışdır. Portal dünyanın ən populyar elektron satış şəbəkələri ilə inteqrasiya olunaraq Azərbaycan mallarını dünyaya sərgiləyir [7].

ƏDƏBİYYAT

1. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası. Bakı, 2012.
2. “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”. Bakı, 2016.
3. Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika). Bakı, 2017, 536 s.
4. Şükürov T.Ş., Şükürov R.Ş. Marketinq tədqiqatları . Bakı, 2007, 424 s.
5. Kənd Təsərrüfatının İnkişafı və Kreditləşdirilməsi layihəsi: Aromarketinqin təşkili. Bakı, 2005, 79 s.
6. «http:// www.azjess.com/en/Number» 4, 2015.
7. “www.azexport.az”.

Вахид Вагиф оглы Гераев
д.ф.е, доцент, Азербайджанский
Университет Кооперации

Роль агрорынка в устойчивом развитии аграрной сферы

Резюме

В статье отмечена важность применения мероприятий агромаркета в достижении развития аграрной сферы. В данном направлении исследованы определенные проблемы аграрной сферы, проанализированы различные особенности агромаркетинга с другими формами маркетинга. В статье обосновывается отсутствие квалифицированных специальностей агромаркетинга в Республике, тенденция монополии, предоставления маркетинговой информации производителям и другие вопросы по другим проблемам, а в последнее время было отмечена определенный прогресс в этой сфере. В то же время в статье даны некоторые предложения и рекомендации по решению этих проблем.

Ключевые слова: аграрная сфера, агромаркетинг, сегмент рынка, агрофирма, маркетинговая стратегия, маркетинговые исследования.

Vahid Vaqif Gerayev
PhD in economics, senior lecturer
Azerbaijan Cooperation University

The role of agro market in the sustainable development of agrarian sphere

Summary

The importance of applying of agro market events in the achievement of agrarian sphere development has been pointed in the article. In this direction the definite problems of agrarian sphere have been investigated, the different features of agro marketing have been analyzed with other forms of marketing in the article. The lack of skilled specialties of agro marketing in Republic, the tendency of monopoly, the giving of marketing information to producers and other questions about other problems have been based, and in recent the definite progress in this sphere has been noted in the article. At the same time some suggestions and advice to the solution of the problems have been given in the article.

Key words: agrarian sphere, agro marketing, market segment, agro firm, marketing strategy, market research.

Vüqar Muxtar oğlu MEHDİYEV
iqtisad üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Kooperasiya Universiteti,
magistr Elgün Əmgül oğlu QURBANLI

AQRAR SEKTORUN MÜƏSSİSƏLƏRİNDƏ NİZAMNAMƏ KAPİTALININ AZALDILMASI ƏMƏLİYYATLARININ UÇOTUNUN BƏZİ MƏSƏLƏLƏRİ

Xülasə

Burada aqrar sektorun müəssisələrində nizamnamə kapitalının azaldılması hallarından və müvafiq təsərrüfat əməliyyatlarının təşkilinin bəzi normativ-hüquqi məsələlərindən bəhs edilir. Müəssisənin nizamnamə kapitalının azaldılması üzrə təsərrüfat əməliyyatlarının mühasibat uçotu aspektləri nəzərdən keçirilir.

Açar sözlər: nizamnamə kapitalı, aqrar sektor, məhdud məsuliyyətli cəmiyyət, səhmdar cəmiyyəti.

***

İqtisadiyyatın bütün sahələrində olduğu kimi, aqrar sektorun müəssisə və təşkilatlarında da nizamnamə kapitalının təsisçilər tərəfindən ilkin formalaşdırılması əməliyyatları bir çox iqtisadçı alimlərin əsərlərində ətraflı araşdırılmış və tədqiq edilmişdir. Lakin onun azaldılması əməliyyatları kifayət qədər tədqiq edilməmişdir. Bu onunla əlaqədardır ki, nizamnamə kapitalının artırılması prosesləri müəssisənin iqtisadi durumunun yaxşılaşdırılması ilə müşayiət olunan bir hal olmaqla, ümumilikdə ölkə iqtisadiyyatının yüksələn templə inkişafı şəraitində bütün müəssisələrdə və təşkilatlarda kütləvi şəkildə müşahidə olunur. Bununla yanaşı, iqtisadiyyatda sərt bazar prinsiplərinin təməl konsepsiyaları kimi hökmran olduğu müasir dövrdə heç də bütün müəssisələr ardıcıl olaraq müsbət meyillərlə inkişaf edə bilmir və onların iqtisadi göstəriciləri bu və ya digər səbəblərdən ildən-ilə geriyə gedir. Belə səbələrə misal olaraq, şirkətlər arasında mövcud olan kəskin rəqabəti, satış bazarlarının get-gedə məhdudlaşmasını, inflyasiyanı, monopoliya təzahürlərini, ölkələr arasındakı iqtisadi əlaqələrdə baş verən dəyişiklikləri və digər bu kimi halları göstərmək olar. Müəssisənin inkişafının zəifləməsi və iqtisadi göstəricilərinin ardıcıl olaraq geriləməsi son nəticədə onun nizamnamə kapitalının azaldılması zərurətini gündəmə gətirir. Aqrar sektorda fəaliyyət göstərən müəssisələrdə belə hallar iqtisadiyyatın digər sahələrinə nisbətdə daha tez-tez baş verir.

Aqrar sektorun müəssisələrində nizamnamə kapitalı aşağıda göstərilən 2 halda azaldıla bilər:

1) qanunla nəzərdə tutulmuş hallarda;

2) müəssisənin öz qərarı ilə.

Nizamnamə kapitalının azaldılması məsələlərində məhdud məsuliyyətli cəmiyyət ilə səhmdar cəmiyyəti arasında müəyyən fərqlər mövcuddur. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının azaldılması iştirakçıların paylarının dəyərinin azaldılması və ya hər hansı bir (və ya bir neçə) iştirakçının öz payını geri alaraq, müəssisədən çıxması yolu ilə həyata keçirilir.

Azərbaycan Respublikasının mövcud qanunvericiliyinin tələblərinə uyğun olaraq, MMC öz nizamnamə kapitalını aşağıdakı hallarda azaltmalıdır:

1) ikinci və hər bir növbəti maliyyə ilinin sonunda MMC-nin xalis aktivlərinin dəyəri nizamnamə kapitalının məbləğindən az olduqda, MMC-nin nizamnamə kapitalının məbləği mövcud olan fərq qədər azaldılır;

2) əgər ümumilikdə müəssisəyə məxsus olan pay (və ya onun hissəsi) müəssisənin ümumi hesabına keçid tarixindən etibarən bir il ərzində satılmamışdırsa, yaxud iştirakçılar arasında onların paylarına mütənasib uyğunluqla bölünməmişdirsə, onda belə pay və ya onun hissəsi ləğv edilir və nizamnamə kapitalının məbləği də o qədər azaldılır;

3) cəmiyyətin xalis aktivlərinin dəyəri ilə nizamnamə kapitalının məbləği arasındakı fərq iştirakçı cəmiyyətdən çıxdıqda onun payının (və ya payın hissəsinin) həqiqi məbləğinin ödənilməsi üçün çatışmadıqda nizamnamə kapitalı çatışmayan məbləğ qədəq azaldılır.

Səhmdar cəmiyyətinin nizamnamə kapitalı ya səhmlərin ümumi sayının azaldılması, ya da onların nominal dəyərinin azaldılması yolu ilə azaldıla bilər [1; s.44].

Səhmdar cəmiyyəti öz nizamnamə kapitalını aşağıdakı hallarda azaltmaq məcburiyyətindədir:

1) Mülki Məcəllənin 103.5-ci maddəsinin şərtlərinə uyğun olaraq cəmiyyətin ixtiyarına keçirilmiş səhmlər onların alınmasından bir il keçənədək nominal dəyərdən aşağı olmayan qiymətə satılmadığı hallarda;

2) cəmiyyətə məxsus olan, eləcə də Mülki Məcəllənin 104.1-ci maddəsinin şərtlərinə uyğun olaraq cəmiyyət tərəfindən alınmış və geri qaytarılmış səhmlər onların cəmiyyətin ixtiyarına keçdiyi gündən bir il müddətində satılmadıqda;

3) ikinci və hər bir növbəti hesabat ilinin sonunda səhmdar cəmiyyətinin xalis aktivlərinin dəyəri onun nizamnamə kapitalının məbləğindən az olduğu hallarda.

Belə halda ümumən səhmdar cəmiyyətinin nizamnamə kapitalının məbləğinin kommersiya müəssisəsinin müvafiq növü üçün icazə verilən minimal həddən aşağı olacaq qədər azaldılmasına yol verilmir. Əgər səhmdar cəmiyyətinin xalis aktivlərinin dəyəri nizamnamə kapitalının müəyyən edilmiş minimum məbləğindən az olarsa, cəmiyyət ləğv edilməlidir [1; s.44].

İqtisadiyyatın bütün sahələrində olduğu kimi, aqrar sektorun müəssisələrində də nizamnamə kapitalının azaldılması əməliyyatları müəssisənin nizamnaməsində müvafiq dəyişikliklərin aparılması ilə müşayiət olunmalıdır. Belə dəyişikliyin müvafiq dövlət orqanı tərəfindən rəsmi qeydiyyata alınması nizamnamə kapitalının azaldılmasını təsdiq edən sənəd kimi qəbul edilir. Ona görə də müəssisənin nizamnamə kapitalının azaldılması üzrə təsərrüfat əməliyyatları mühasibat uçotunda nizanmnamədə müvafiq dəyişikliklərin aparılmasından və nizamnamənin dövlət qeydiyyatından keçirilməsindən sonra əks olunmalıdır. Nizamnamə kapitalının azaldılması üzrə təsərrüfat əməliyyatları 301№-li "Nominal (nizamnamə) kapital" hesabının debetində əks olunur [2; s.22]. Müəssisənin nizamnamə kapitalının həcminin xalis aktivlərin dəyərinə bərabərləşdirilməsinə dair Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq, nizamnamə kapitalının azaldılması, eləcə də iştirakçının payının (payın hissəsinin) ödənilməsi üçün nizamnamə kapitalının məbləği ilə cəmiyyətin xalis aktivləri arasındakı fərqin çatışmaması hallarında mühasibat uçotunda aşağıdakı müxabirləşmə tərtib edilir:

D-t 301 "Nominal (nizamnamə) kapital"

K-t 304 "Keçmiş illərin bölüşdürülməmiş mənfəəti (ödənilməmiş zərəri)"

Əgər iştirakçılar tərəfindən nizamnamə kapitalının azaldılması və bundan irəli gələrək, iştirakçılara onların qoymuş olduqları qoyuluşların bir hissəsinin qaytarılması haqqında qərar qəbul edilərsə, onda mühasibat uçotunda belə müxabirləşmə tərtib edilir:

D-t 301 "Nominal (nizamnamə) kapital"

K-t 302 "Nominal (nizamnamə) kapitalın ödənilməmiş hissəsi"

Sonra isə müəssisənin təsisçilərə (iştirakçılara) olan borclarının kassadan və yaxud bankdan ödənişi əməliyyatlarına dair aşağıdakı müxabirləşmələr tərtib edilir:

ödəniş kassadan edildikdə:

D-t 302 "Nominal (nizamnamə) kapitalın ödənilməmiş hissəsi"

K-t 221 "Kassa";

ödəniş bankdan edildikdə:

D-t 302 "Nominal (nizamnamə) kapitalın ödənilməmiş hissəsi"

K-t 223 "Bank hesablaşma hesabları".

Nizamnamə kapitalının azaldılması ilə əlaqədar olaraq, iştirakçılara (səhmdarlara) nağd pulla və ya digər vəsaitlərlə verilməli olan ödənişlərin verilməsi müddəti (şərtləri) mövcud qanunvericiliklə tənzimlənmədiyinə görə, belə ödənişlər nizamnaməyə dəyişikliklər edilməzdən əvvəl də başlana bilər.

Beləliklə, nizamnamə kapitalının azaldılması ilə əlaqədar olan təsərrüfat əməliyyatlarının baş verməsi müəssisənin iqtisadi durumu ilə şərtlənir. Belə təsərrüfat əməliyyatları bu sahədə mövcud olan qanunların tələbləri əsasında qeydə alınır və müasir uçot standartlarına uyğun formalaşmış qaydalar əsasında uçotda əks etdirilir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı - 2000. 469 s.
2. "Maliyyə hesabatlarının təqdimatı üzrə" kommersiya müəssisələri üçün 1№-li Milli Mühasibat Uçotu Standartı. Bakı, 2008. 48 s.

Вугар Мухтар оглы Мехдиев
доктор философии по экономике, доцент
Азербайджанского Университета Кооперации,

магистр Елгюн Емгул оглу Курбанлы

Некоторые вопросы учета операций по уменьшению уставного капитала в предприятиях аграрного сектора

Резюме

Здесь излагаются о случаях сокращения капитала на предприятиях аграрного сектора и некоторых нормативно-правовых вопросах, связанных с организацией соответствующих экономических операций. Рассматриваются аспекты бухгалтерского учета хозяйственных операций по сокращению уставного капитала предприятия.

Ключевые слова: уставный капитал, аграрный сектор, общество с ограниченной ответственностью, акционерное общество.

Vuqar Mukhtar Mehdiyev
PhD in economics, ass. prof.
Azerbaijan Universiti of Cooperation,

master Elgun Amgul Gurbanli

Some issues of accounting operations to reduce the equity capital in the enterprises of the agricultural sector

Summary

Here, we talk about the cases of reducing capital in enterprises of the agrarian sector and some of the normative-legal issues related to the organization of relevant economic transactions. Accounting aspects of business operations on reducing the company's equity capital are reviewed.

Key words: equity capital, agricultural sector, limited liability company, stock company.

Vüsalə Yavər qızı NAĞIYEVA
AKU-nun dosenti

AQRAR SAHƏDƏ RİSKLƏRİN İDARƏ OLUNMASI XÜSUSİYYƏTLƏRİ

Xülasə

Məqalədə risk anlayışı nəzəri təhlil edilmiş, aqrar sahədə yaranan risklər təsnifatlaşdırılmış və bu risklərin idarə edilməsinin prioritetləri müəyyənləşdirilmişdir.

Açar sözlər: risk, disparitet, diversifikasiya, fyuçers, opsion, farvord müqaviləsi, sığortaların subsidiyalaşdırılması.

Giriş

Aqrar sahə sosial-iqtisadi və çoxfunksiyalı xüsusiyyətinə görə hər bir ölkənin strateji əhəmiyyətli sahələrindən biridir. Aqrar sahənin təbiətlə bağlı olması, bu sahənin investisiya cəlbediciliyini azaldır. Belə ki, aqrar sahə bu xüsusiyyətinə görə daim risklərlə üz-üzədir. Başqa söz-

lə desək, aqrar sahə bir sıra mənfi obyektiv və subyektiv təbiət hadisələrinə məruz qalır ki, bu da risk anlayışı ilə xarakterizə olunur. İqtisadi ədəbiyyatlarda riskin bir çox tərifləri var: risk- hər hansı itki və ya zərərə aparan hadisənin başvermə ehtimalının dəyər ifadəsidir. *[1];*

Risk anlayışına nəzəri yanaşma

Risk- təhlükə, zərər və ya zərər ehtimalıdır *[2];* risk -təhlükə, müvəffəqiyyətsizlik ehtimalıdır (məsələn, riskə getmək, heç bir risk olmadan, həyat riski) *[3.];* Risk- təbii fəlakətlər, hadisələrin uğursuz gedişi, alıcı və satıcıların səhvləri, təsərrüfat fəaliyyətinin digər iştirakçıları tərəfindən öhdəliklərin pozulması, qiymətlərin, vergilərin, ödənişlərin, siyasi vəziyyətin dəyişməsidir. *[4];* Risk - müəyyən tədbirlər və ya qərarlar nəticəsində mənfi nəticələrə səbəb olan hadisə ehtimalıdır *[5];* Risk -faktiki hadisələrin strateji planlaşdırmadan sapma ehtimalıdır *[6];* Risk - elə fəaliyyət növüdür ki, əlverişli nəticə əldə etmək ümidi ilə alternativlər arasından seçilmiş elə variantdır ki, uğursuzluq baş verdiyi halda digər variantdan daha pis vəziyyətə düşmək ehtimalı mövcuddur. [7]; Risk - qaçılmaz seçim şəraitində qeyri-müəyyənliyin qarşısının alınması məqsədilə atılmış addımdır. Bu zaman gözlənilən nəticəni, uğursuzluğu, məqsəddən yayınmanı kəmiyyət və keyfiyyətcə ölçmək mümkündür. [8.] və s.

Risklərin xarakterik xüsusiyyətləri və aqrar sahədə yaranan risklərin təsnifatı

Verilmiş anlayışlar əsasında riskə xas bir sıra gözlənilməz nəticələr, informasiyanın asimmetriyası, gözlənilməz təzahürlü riskin ortaya çıxması, bir hadisənin baş verməsi və ya bir hərəkətin dayandırılması kimi xüsusiyyətləri qeyd etmək olar. Başqa sözlə, risk - təsərrüfat rəhbərinin daim yaradıcılıq, təşəbbüskarlıq axtarışında və gələcəkdə daha çox mənfəət əldə etmək ehtimalı olan qeyri-standart idarəetmə qərarlarının qəbul edilməsi iqtidarında olmasını tələb edir. Odur ki, risklərin aşağıdakı əsas cizgilərini qeyd etmək olar:

- ziddiyyətlilik;
- alternativlik;
- qeyri-müəyyənlik.

Riskin ziddiyyətliliyi özünü onda büruzə verir ki, o, bir tərəfdən təşəbbüslərin, novator ideyaların, eksperimentlərin həyata keçirilməsini təmin edir, yəni ictimai və texniki tərəqqini sürətləndirir. Digər tərəfdən risk hadisələrin inkişafının obyektiv qanunauyğunluqlarını lazımi səviyyədə uçota almadan alternativ seçilərkən avanturizmə, sosial tərəqqinin ləngidilməsinə səbəb olur.

Alternativlilik qərarların bir neçə mümkün variantlarının seçilməsi ilə bağlıdır. Harada seçim yoxdursa, orada riskli vəziyyət yaranmamış və deməli risk yoxdur. Risk vəziyyətinin konkret mahiyyətindən asılı olaraq alternativlik müxtəlif üsullarla həll edilir. Sadə vəziyyətlərdə seçim keçmiş təcrübə və inflyasiya əsasında həyata keçirilir, mürəkkəb vəziyyətlərdə isə xüsusi metod və metodikalardan istifadə edilməsi vacibdir.

Riskin mövcudluğu bilavasitə məzmununa və büruzəvermə formasına görə həmcins olmayan qeyri-müəyyənliklə bağlıdır. Risk özlüyündə inandırıcılığın bilinməməsini, birmənalılığın olmamasını ifadə edən qeyri-müəyyənliyin aradan qaldırılması üsullarından biridir. Qeyri-müəyyənliyin aradan qaldırılması üçün riskin mənbələrini öyrənmək zəruridir*[9];*).

Riskin xarakterik xüsusiyyətlərini nəzərə alaraq onları aşağıdakı kimi təsnifatlaşdırmaq olar. Təsnifat müxtəlif meyarlara əsasən aparılır: miqyasına, mənşəyinə, təhlükəsizlik imkanlarına, zərərin həcminə, sistemliliyinə və s. görə.

Risklərin spesifikliyi və onların aqrar sahədə təzahür etməsinin xarakteri daha çox obyektiv amillərdən və kənd təsərrüfatı istehsalının xüsusiyyətlərindən asılı olaraq təzahür edir. Ümumilikdə isə aqrar sahədə risklər kənd təsərrüfatı istehsalının xüsusiyyətlərindən və ölkədə kənd təsərrüfatı müəssisələrinin fəaliyyətindən asılıdır.

Belə ki, rus alimi Krılatıx E.N. bütün riskləri iki qrupa bölməyi təklif edir - obyektiv və subyektiv. [10] Hər iki qrupun əhəmiyyətinin yüksək olduğunu qeyd edir, lakin, məsələn, taxılın məhsuldarlığının azalmasına orta hesabla 60% hava şəraiti (obyektiv amil) və 40% isə torpağın təmizləmə sistemi (subyektiv amil) səbəb olmuşdur [11]. Eyni zamanda Krılatıx E.N. risklərin aşağıdakı növlərini müəyyənləşdirmişdir [10]: sənaye, biznes, bank, kredit, investisiya, innovasiya, qiymət, sığorta, iqtisadi, informasiya, hava. Digər rus alimi Balabanov İ.T. isə risklə-

rin təsnifatını bir qədər dərinləşdirmişdir: istehsal, təbii, ekoloji, siyasi, nəqliyyat və kommersiya risklərini vurğulayaraq, struktur xüsusiyyətinə əsasən isə kommersiya, mülkiyyət, istehsal, ticarət, maliyyə riskləri və onların detallarına bölünməsini qeyd etmişdir. [12].

Müxtəlif meyarlara görə risklərin təsnifatı

Əlamətlərinə görə	*Risklərin növləri*
Miqyasına görə	Qlobal, lokal
mənşəyinə görə	daxili (endogen), xarici (ekzogen)
İqtisadi səviyyəsinə	Makroiqtisadi, mikroiqtisadi
Risklərdən qorunma imkanı	Sığorta olunmuş və sığorta olunmamış
Zərərin dərəcəsinə	qismən, qəbul edilə bilən, kritik, fəlakətli
Mənbəyinə	iqtisadi (daxili və xarici), siyasi, sosial / ictimai, ekoloji, hüquqi-normativ (institusional), təbii-iqlim, texnoloji
İstehsal satış dövrünün mərhələlərinə	müqavilə (müqavilələrin bağlanması, materialların və xammalın alınması), istehsal (əkin, əkin dövrü, yığım), marketinq
Sistematiklik	sistematik, qeyri-sistematik

Hal-hazırda bazar riskləri içərisində ən önəmlisi marketinq risklərıdir ki, istehsalçıların təxminən 60%-i məhsulun marketinq problemi riski ilə üzləşir. Belə ki, kiçik kənd təsərrüfatı istehsalçıları bu risklərlə daha tez-tez rastlaşırlar. Satış (marketinq) riski əsasən məhsul istehsalının artdığı şəraitda, əlavə ehtiyatların saxlanması üçün əlavə xərclərin yaranması, torpaqların qorunması və iqtisadi potensialdan istifadə edilməməsi nəticəsində yaranır.

Maliyyə riskləri aqro-sənaye kompleksində maliyyə münasibətlərinin xüsusiyyətlərindən asılıdır. Mövsümilik və maliyyə investisiyalarının nisbətən yavaş şəkildə geri qaytarılması və borc öhdəlikləri ödənmədikdə, investisiya riskləri maliyyə riskini artırır.

Logistik risklər - məhsulların nəqli və saxlanma şərtlərinin mürəkkəbliyi ilə bağlıdır.

Azad bazar təsərrüfatçılığı şəraitində bir təsərrüfatçının azadlığı digər bazar subyektlərinin azadlığı ilə müşayiət olunur, onlar bir-birlərinin məhsullarını ala və ya almaya bilər, onun müqabilində başqa qiymətə məhsul təklif edə, öz qiymətlərini diktə edə bilərlər. Beləliklə, birinin qazancı digərinin zərərinə səbəb ola bilər.

İnstitusional risklər təşkilatların səmərəsizliyi, institusional mühitin yaranmaması və s. iqtisadi subyeklərin fürsətçi davranışı nəticəsində yaranır.

İnformasiya riskləri rəqiblərə, tərəfdaşlara və emal müəssisələrinə dair məlumatların xammal təchizatçıları, distribyutorlar tərəfindən asimmetriya və təhrif olunması nəticəsində yaranır.

Siyasi risklər kəskin daxili və xarici siyasi dəyişikliklər, qanunvericilikdəki dəyişikliklər və s. zamanı yaranır.

Bütün bunlarla yanaşı ölkənin böhran şəraitində aqrar sahədə yaranan risklərə aşağıdakılar aiddir:

- torpağın azaldılması və torpağın məhsuldarlığının azalması riski;
- ölkə ərazisinin çoxunun riskli əkinçilik zonasında olması ilə ifadə olunan təbii və iqlim riski;
- kənd təsərrüfatı məhsullarının qiymətlərinin artımını məhdudlaşdıran risklər, daxili bazarda daha ucuz idxal məhsulları möhkəmlənir;
- kənd təsərrüfatı məhsullarının beynəlxalq rəqabət qabiliyyətinin azaldılması riskləri;
- əsas vəsaitlərin aşağı təchizatı riskləri, kənd təsərrüfatı maşınları, istehsal və texniki imkanların azaldılması;
- aqrar müəssisələrin ödəmə qabiliyyətinin aşağı olması- maliyyə riski;
- dövlət büdcəsinin qeyri-kafi səviyyədə dəstəklənməsi riskləri;
- kənd əhalisinin sosial riskləri, əmək haqqının aşağı səviyyədə olması, kənd infrastrukturunun olmaması, kənd yerlərinin dağılması, əhalinin əmək qabiliyyətli və ixtisaslı hissəsinin miqrasiyası.

Nəticə

Risklərin idarə edilməsində əsas strategiya mənfi nəticə ehtimalının azaldılmasıdır. Müvafiq istehsal texnologiyalarının seçilməsi, ehtimal ki, bu kontekstdə ən ümumi yanaşmadır. Məsələn, quraqlığa görə məhsul itkiləri ehtimalını azaltmaq üçün fermerlər quraqlığa davamlı məhsul növlərini inkişaf etdirə və ya suvarma müəssisələrinə investisiya qoya bilərlər. Birinci halda, dəyər aşağı orta mənfəət şəklində, ikinci halda isə fermerin kapitalı və əməliyyat xərcləri şəklində ola bilər.

İkinci seçim variantı riskin azaldılmasına yönəldilmişdir. Bu halda diversifikasiya risklərin idarə olunmasının əsas forması kimi çıxış edir. Ev təsərrüfatlarında fərqli risk nümunələri olan bir neçə məhsulun eyni vaxtda istehsal edilməsi təbii faktorlarla əlaqəli riskləri azalda bilər. Fərqli gəlir mənbələrinin, təsərrüfat və qeyri-təsərrüfatların birləşməsi, ev təsərrüfatlarının ümumi gəlirinin inkişafını düzəldə bilər. Diversifikasiyanın dəyəri ümumiyyətlə aşağı-orta gəlir şəklində daxil olur, çünki bu halda bu ən gəlirli fəaliyyət sayılır.

Qiymət riskini müxtəlif bazar yanaşmalarından istifadə edərək azaltmaq olar. Bunun üçün törəmə maliyyə alətləri olan fyuçers və opsionlardan istifadə etməklə qiymətləri tənzimləmək olar. Kənd təsərrüfatı məhsullarının qiymətləri tez-tez dəyişən ölkələrdə (məsələn ABŞ-da) fermerlər bu maliyyə alətlərindən uzun müddət istifadə edirlər. Qiymətlərin sabit olduğu Avropada isə fyuçers və opsionlardan istifadə olunmur. Belə ki, Avropada kənd təsərrüfatı məhsullarının reallaşması üçün istehsal bazarlarına maraq daha çoxdur. Məsələn, Avropanın müxtəlif bölgələrində bir sıra tistehsal bazarları yaradılıb ki, bu bazarlarda müxtəlif kənd təsərrüfatı məhsulları şəkərdən tutmuş taxıladək, kartof, zeytun yağı və donuz belə satılır. Bunun üçün də Avropa digər kənd təsərrüfatı məhsulları üçün süd məhsulları da daxil olmaqla, törəmə bazarları yaratmaqda maraqlıdır. Son illərdə Avropanın istehsal bazarlarında kənd təsərrüfatı məhsullarının satışı üçün müqavilələrin sayı artır və bazarların tənzimlənməsində direktiv vasitələrdən xüsusilə istifadə edilir.

Araşdırmalardan aydın olur ki, fermerlər qiymət riskini, həmçinin, forvard müqavilələri, uzunmüddətli müqavilələr və şaquli inteqrasiya yolu öz məhsullarını marketinq yanaşmaları vasitəsilə azalda bilərlər.

Risklərin azaldılmasının digər ənənəvi forması aqrar sığortanın tətbiqidir. Avropa İttifaqının üzv dövlətlərində fermerlər müxtəlif istehsal növlərinə qarşı sığorta edilə bilirlər və bir çox ölkələrdə bu sığorta növləri dövlət tərəfindən subsidiyalaşdırılır. Bir çox ölkələrdə isə dövlət kənd təsərrüfatı məhsullarının sığortalanmasının subsidiyalaşdırılmasına güclü meyil göstərir. baxmayaraq ki, bu təbii fəlakətlər zamanı yaranmış risklərin aradan qaldırılmasında istifadə edilən effektiv vasitələrdən biridir.

ƏDƏBİYYAT

1. V.İ.Yaroçkin, Y.V. Buzanova. “Biznesin və sahibkarlığın təhlükəsizliyinin əsasları”. Bakı-2008, s.174.
2. Webster`s Third New International Dictionary of the English Language. Unabridged = Mejdunarodnıy slovarğ Vebstera. - Konemann. - 1993. - 2663 c.
3. Ожегов С.И., Шведова Н.Ю. Толковый словарь русского языка: 80 000 слов и фразеологических выражений / Российская академия наук. Институт русского языка им. В.В. Виноградова. - 4-е изд., дополненное. - М.: Азбуковник, 1999. - 944 с
4. Böyük İqtisadi Ensiklopediya. Bakı-2012, 590.
5. Большой экономический словарь / Под ред. А.Н.Азрилияна. - 3-е изд. - М.: Институт новой экономики, 1998. 864 с
6. Рувиль В.С. Риски в развитии рыбного и морского зверобойного промыслов региона Крайнего Севера Дальнего Востока //Аграрная Россия. - 2010. - № 1. 178.
7. В.В.Боков, П.В.Забелин, В.Г.Федцов. Предпринимательские риски и хеджирование в отечественной и зарубежной экономике. Учебное пособие. М.: 1999, с.63.
8. Алгин А.П. Риск и его рол в обшественной жизне. М., 1989 с.53.
9. X.Kazımlı. İ.Quliyev. “İqtisadi risklərin qiymətləndirilməsi və idarə edilməsi”. Bakı-2011, 187

10. Крылатых Э.Н. Экономические риски в агропромышленном комплексе//АПК: экономика и управление. - 1999. - № 7. - с. 3-14.
11. Милащенко Н.З., Литвак Ш.И., Тимофеев О.В. Агротехнические и погодные условия в системе страхования урожая. Агрострахование и кредитование. - М.: Изд-во ОВСК «ОВС-АГРО», Июнь 2005. - с. 48-54.
12. Балабанов И.Т. Риск-менеджмент [Электронный ресурс]. - М.: ФИНАНСЫ И СТАТИСТИКА, 1996. - Режим доступа: http://www.bibliotekar.ru/risk-menedgment/7.htm

Вусала Явер кызы Нагиева
доцент АУК

Особенность управление рисками в аграрном секторе

Резюме

В статье теоретически анализируется концепция риска и классифицируются аграрные риски и определены приоритеты управления рисками.

Ключевые слова: риск, несоответствие, диверсификация, фьючерсы, опционы, контракт фарворд, субсидирование страхования.

Vusala Yavar Nagiyeva
ass. prof. of ACU

Feature of risk management in the agricultural sector

Summary

The article theoretically analyzes the risk concept and classifies agrarian risks and prioritizes risk management.

Key words: risk, discrepancy, diversification, futures, options, contract equity, insurance subsidies.

t.e.d., prof. Zabit Yunus oğlu ASLANOV,
tex.f.d. İlqar Saleh oğlu RƏCƏBOV
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

ÖLKƏMİZDƏ AQRAR SEKTORUN İNKİŞAFININ MÜASİR VƏZİYYƏTLƏRİNİN KOMPLEKS TƏHLİLİ

Xülasə

Aqrar sahənin inkişafında dövlətin rolu açıqlanmışdır. İnnovativ texnoloji yeniliklərdən istifadə imkanları göstərilmişdir. Göstərilmişdir ki, ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. Makrofunksiyaların istiqamətləri təhlil edilmişdir.

Açar sözlər: aqrar sahə, dövlət sektoru, kənd təsərrüfatı, iqtisadi münasibətlər, idarəetmə, konsepsiya.

***

Ölkə Prezidentinin 16 aprel 2014-cü il tarixli "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı məhz bu məqsədə xidmət edir. Fərmanda aqrar sektorun daha sürətli, daha təkmil, daha etibarlı inkişafına yönələn Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, eləcə də Kənd Təsərrüfatı, İqtisadiyyat və Sənaye Nazirlikləri, Dövlət Torpaq və Xəritəçəkmə, Əmək Məsələləri Dövlət Komitəsi, Meliorasiya və Su təsərrüfatı dövlət qurumları qarşısında konkret vəzifələr qoyulub.

Bu gün söyləyə bilərik ki, iqtisadi islahatların başlanmasından 20 il keçməsinə baxmayaraq, respublikada aqrar sahə müasir iqtisadiyyatın təkrar istehsalı prosesində bazar tələblərinə uyğun formada öz funksiyasını icra etməkdə hələ də çətinliklərlə üzləşir. Belə ki, daha çox ön plana çəkilmiş institusional, iqtisadi, texniki-texnoloji və digər cəhətlər bu sahənin inkişafı üçün lazı-

mi formada təkmilləşə bilməmişdir. Ona görə də aqrar sahədə dövlət sektorunun rolu bir çox sahələrlə - seqmentlər, istiqamətlər, miqyaslar, funksiyalar, forma, növ və aqrar iqtisadiyyata dövlətin müdaxilə metodları ilə müəyyən olunmalıdır. Həmçinin dövlət sektoruna aid müəssisə və təşkilatların gəlirləri və xərclərinin müəyyən olunması da bu yöndə dövlətin rolunu zəruri edən amil kimi çıxış edir.

Aqrar sahədə dövlət sektorunun iştirakı kənd təsərrüfatında istehsalın növü ilə bilavasitə şərtlənir. Arzuolunmaz iqlim və ekoloji təhlükələr şəraitində, yerli istehsalçıları müdafiə etmək məqsədi ilə idxalın subsidiyalaşdırılması və beynəlxalq rəqabətə tab gətirilməsi zərurəti ortaya çıxdıqda, şübhəsiz ki, dövlətin bu sahədə rolu əhəmiyyətli dərəcədə artır[1, səh.130].

Aqrar sahədə dövlət sektorunun sərhədləri və miqyasının müəyyənləşməsinə metodoloji cəhətdən yanaşmaq lazımdır. Burada minimum yanaşmaya istinad edilməlidir. Məlumdur ki, həm dövlət, həm də bazar səmərəli reallaşdıra biləcəyi funksiyaları üzərlərinə götürürlər. Lakin özəl sektorun daha çox gəlir götürmək marağı və sosial-ekoloji səmərəliliyi aqrar sahədə bir o qədər nəzərə almaması fonunda dövlətin üzərinə böyük məsuliyyət düşür. Belə bir şəraitdə özəl sektordan fərqli olaraq dövlət üçün iqtisadi maraq ikinci dərəcəli vəzifəyə çevrilir. Dövlət aqrar sahədə həmçinin hər bir təsərrüfat subyekti üçün bərabər rəqabət mühiti yaratmaqla şirkətlərin işgüzar aktivliyinə müdaxilə etməməlidir.

Bu gün aqrar sahədə başlıca problem əhalinin aqrar məhsullara tələbatını yerli istehsal hesabına mümkün olduğu halda tam ödəyə bilməməsidir. Qeyd edilən cəhətin hazırlanacaq konsepsiyada prioritetlər sırasında olması şərtdir. Bu aspektdən aqrar sahəyə dövlətin dəstək və qayğısı keyfiyyətcə yeni mərhələyə keçməlidir. Belə ki, bu dəstək və qayğı öncəki illərdə olduğu kimi, dövlətin iqtisadi vəzifəsi formasında deyil, faydalanma və gəlir götürmək məqsədi ilə yanaşmasından irəli gəlməlidir. Şübhəsiz ki, bu da kifayət qədər mülkiyyət payı, maliyyə resursları, təbii resurslara çıxışı, iqtisadi siyasəti müəyyənləşdirən və ən nəhayət, beynəlxalq aləmlə geniş əlaqələri olan dövlətin (dövlət sektoru mahiyyətində) mövcud problemlərin həllinə müdaxiləsi ilə mümkün ola bilər. Burada əsas məqsəd mülkiyyət baxımından aqrar sahədə dövlətin funksiyasının deyil, gəlirin və mənfəətin artırılmasındakı rolunun genişlənməsidir. Bunun üçün dövlət qarşısında başlıca vəzifələr aşağıdakılardan ibarətdir:

- ölkə üzrə aqrar sahənin potensial imkanları (təbii resurs, mühit, infrastruktur, işçi qüvvəsi, maliyyə imkanları və s.) qiymətləndirilərək bu baxımdan "iqtisadi xəritəsi" tərtib olunmalı;
- ölkəyə idxal olunan kənd təsərrüfatı məhsullarının tərkibi, keyfiyyəti və digər göstəriciləri dərindən öyrənilməli və aqrar sahənin potensialı ilə müqayisə edilməli;
- aqrar sahə ilə paralel kəndin sosial-iqtisadi vəziyyətini yaxşılaşdıracaq davamlı tədbirlər görülməli;
- kənd təsərrüfatı məhsullarının istehsalı ilə əlaqədar dövlətin tətbiq etdiyi güzəştlər keyfiyyətcə yeni sistemə salınmalı və genişləndirilməlidir. Pərakəndə formada keçirilən yarmarkalar öz yerini ixtisaslaşdırılmış kənd təsərrüfatı məhsulları bazarına verməli və bu bazarlar da müəyyən imtiyazlardan yararlanmalıdır. Bu bazarların fəaliyyətinin şəffaflığına mütləq nəzarət edilməlidir.

Hazırda Azərbaycanda aqrar sektorun inkişafı əhalinin əsas kənd təsərrüfatı məhsullarına olan tələbatını (bəzi məhsullara görə artıqlaması ilə, bəzi məhsullara görə böyük ölçüdə) ödəməyə imkan verir və mütəxəssislərə görə ərzaq təhlükəsizliyinin təminolunması baxımından orta səviyyədə qiymətləndirilir. Azərbaycan kənd təsərrüfatının inkişafı baxımından böyük potensiala malik ölkələrdən hesab olunur və ardıcıl xarakter daşıyan dövlət siyasətinin davam etdirilməsi bu sahədə gələcəkdə 2-3 dəfəlik artıma nail olmağa imkan verə bilər. Aqrar sektorun inkişafı, əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi "Azərbaycan - 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasında da əsas istiqamətlərdən biri kimi nəzərdə tutulur [2, s. 50].

Çevik gömrük siyasəti ilə həyata keçirilən iqtisadi tədbirlərə qiymət siyasəti vasitəsi ilə paralel cavab verilməli və bu prosesdə yarana biləcək inhisarçılığın qarşısı alınmalıdır. Yəni istənilən halda aqrar sektorun inkişafı rəqabət mühitinin genişlənməsi və inkişafından keçir. Bundan əlavə, aqrar sahənin inkişafı üçün zəruri olan investisiya və lizinq xidmətlərinin genişlənməsinə dövlət təminatı artırılmalıdır. Xüsusilə də qabaqcıl texnologiyaya əsaslanan xarici müəssisələrin bu sahəyə daxil olması həm hüquqi, həm də iqtisadi cəhətdən dəstəklənməlidir.

Qarşıya qoyulmuş bu vəzifələrin həlli bilavasitə dövlət dəstəyi ilə öz həllini tapmalıdır. Belə ki, kənd təsərrüfatı məhsulları ilə əhalinin tələbatının ödənilməsində dövlət həm istehsalçı, istehlakçı (sifarişçi) və stimullaşdırıcı, həm də maraqların düzgün, ədalətli təmin olunmasının təminatçısı kimi çıxış etməlidir. Yəni dövlət bu prosesə sistemli və kompleks yanaşmalıdır.

Kifayət qədər maliyyə resurslarına malik olan ölkəmiz bu gün bütövlükdə aqrar sahənin modernləşdirilməsinə başlamalıdır. Modernləşdirmə inkişafın əsas istiqaməti kimi aqrar sahənin təkcə tərkib elementlərinin deyil, həmçinin onun daxili harmoniyasının müasirləşməsinə də xidmət etməlidir. Çünki iqtisadiyyatın digər sahələrinə nisbətən aqrar sektor daha çox sosial-iqtisadi yanaşmanı zəruri edir. Ona görə də modernləşdirmə sosial-iqtisadi əsaslarla həyata keçirilməlidir [3, s. 28].

Aqrar sahədə dövlət sektorunun iştirak mexanizmi öncə vacib vəzifənin reallaşmasına köklənməlidir: şaquli və üfüqi istiqamətdə aqrar sahənin təşkilati-strukturunun yenidən qurulmasını və qiymət pariteti konsepsiyası əsasında kənd təsərrüfatı istehsalçılarının müdafiəsini təmin etmək; qırılmış əlaqələrə və bazarın yaranmasına uyğun kooperasiya əlaqələrini formalaşdırmaq və s. Hazırda aqrar sahədə dövlət sektorunun miqyası və sərhədləri haqda tam, dolğun izahat vermək olduqca çətindir. Bütövlükdə hər bir ölkədə dövlət sektorunu tənzimləyən hüquqi-normativ aktlar mövcuddur. Bu hüquqi sənədlər özəlləşdirmənin gedişindən asılı olaraq müəyyən dəyişikliklərə məruz qalır. Amma bütün hallarda aqrar sahədə dövlət sektorunun sərhədlərini, onun müəssisələrinin fəaliyyət məqsədlərini, miqyasını və sosial-iqtisadi məzmununu müəyyən etmək üçün mütləq əmlak münasibətləri sahəsində struktur yeniləşməsinə uyğun dövlətin siyasəti nəzərə alınmalıdır. Bəzi qəbul edilən proqram sənədlərdə dövlət qısa və orta müddətdə aqrar sahədə öz rolunu ortaya qoymaqla həm milli iqtisadiyyatın təhlükəsizliyini, həm də öz strateji maraqlarını təmin etmiş olur. Çünki müasir dövrü xarakterizə etdikdə aydın olur ki, ərzaq təhlükəsizliyi milli iqtisadi təhlükəsizliyin bir hissəsi kimi dövlətin spesifik idarəetmə obyektinə çevrilmişdir. Artıq aqrar sahənin inkişafında dövlətin rolu danılmaz faktdır və inkişaf etmiş ölkələrin təcrübələri buna əyani sübutdur.

Nəzərə almaq lazımdır ki, keçid prosesini yaşayan ölkələrdə aqrar sahə, onun inkişafında dövlətin rolu məsələsi çox ciddi və zəruri bir məsələ kimi milli iqtisadiyyatın qarşısında duran əsas vəzifədir. Əgər biz keçid prosesini yaşayan ölkələrin təcrübəsinə baxsaq, görərik ki, aqrar sektor üçün ümumi olan problemlər (qiymətlər liberallaşandan sonra sahələrarası iqtisadi münasibətlərdə qeyri-bərabərlik sürətlənmiş, bu da öz növbəsində, kənd təsərrüfatında son məhsulun hazırlanması prosesini ləngitmişdir; aqrar-sənaye kompleksində inteqrasiyanın və kooperasiya əlaqələrinin mövcud vəziyyəti dəqiq təsbit edilmədən xidmət və emaledici sahələrdə özəlləşdirmə prosesi həyata keçirilmişdir; kənd təsərrüfatının spesifik xüsusiyyətlərinin və məhsul istehsalının dövri xarakter daşımasının nəzərə alınması kreditlərin verilməsində öz əksini tapmış, bu da öz növbəsində, kapitalın dövr etməsini zəiflətmişdir; bazar infrastrukturunun zəif inkişaf etməsi kənd təsərrüfatı məhsullarının sərbəst bazara çatdırılmasında problemlər yaratmış, məhsulların satılmasında bölgü dolayı xarakter daşımışdır ki, bu da bəzi inhisar qiymətlərinin yaranması ilə nəticələnmişdir və s.) mövcuddur. Bunlar problemlərin yalnız bir qismidir[4, səh.36].

Aqrar sahədə qəbul olunmuş proqramlar dövlətin idarəetmə baxımından rolunu təsbit edir. Belə proqramlardan biri də 2007-2015-ci illəri əhatə edən kənd təsərrüfatının inkişafına dair dövlət proqramıdır. Proqramın başlıca hədəfi birinci ərzaq məhsulu olan taxılın istehsalının artırılması və əhalinin ərzaqla təminatının yaxşılaşdırılmasını təmin etməkdən ibarətdir. Dövlət proqramında nəzərdə tutuluan amillər Gələcəyə baxış Konsepsiyasının hazırlanmasında mühüm rol oynaya bilər. Bu baxımdan hesab edirik ki, konsepsiyada bir sıra tədbirlər (aqrar sənaye kompleksinin dayanıqlı inkişafını təmin etmək üçün konkret addımların atılması, kənd təsərrüfatı və sənaye məhsullarının qiymət paritetinin qorunması; kənd təsərrüfatına xidmət edən sənaye müəssisələri arasında sağlam rəqabət mühitinin formalaşdırılması; investisiya siyasətinin, kənd təsərrüfatının texniki-texnoloji təchizatının təkmilləşdirilməsi, aqrar elmin prioritet inkişaf istiqamətlərinin müəyyən edilməsi; ASK-nın idarə edilməsi metodu və sisteminin yenidən təşkili məsələsinə baxılması;kəndlərin sosial inkişaf proqramlarının təkmilləşdirilməsi və bu əsasda kadrların hazırlanması; böhran zamanı kənd təsərrüfatı istehsalçılarına maddi yardımın göstəril-

məsi və aqrar sahə üçün proteksionist siyasətin yürüdülməsi;kənd təsərrüfatı məhsullarının satış yarmarkasının əhatə dairəsinin genişləndirilməsi, iqtisadi və sosial məqsədlərin uyğunluğu və s. tədbirlərin həyata keçirilməsi) xüsusi vurğulanmalıdır.

Məlumdur ki, qloballaşma prosesi, onun milli iqtisadiyyatlar üçün təsirləri birmənalı qarşılanmır. 2008-ci ildə geniş vüsət almış dünya maliyyə böhranı özü-özlüyündə bir çox problemlərin həllini aktuallaşdırdı ki, bunlardan da ən vacibi ərzaq təhlükəsizliyi məsələsidir. Ərzaq təhlükəsizliyi baxımından əsas diqqət kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasına yönəldilməlidir. Prezident İlham Əliyevin Azərbaycanda əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı üçün dövlət proqramının hazırlanmasına dair sərəncamı problemin həlli istiqamətində atılmış ən vacib addımlardan hesab olunur. Həmin sənədin əsas məqsədlərindən biri əhalinin ərzaqla təminatını və həyat səviyyəsini yaxşılaşdırmaq, daxili ərzaq bazarının idxaldan asılılığını maksimum azaltmaq, ümumilikdə ölkənin ərzaq ehtiyatlarının yaradılmasından ibarətdir. İdxaldan asılılığı və ərzaq ehtiyatının yaradılması aqrar sahədə dövlət mülkiyyəti obyektlərinin fəaliyyəti və dövlət sektoru çərçivəsində baş verməlidir. Burada dövlət mülkiyyəti anlayışı ilə dövlət sektoru ifadələri arasında müəyyən cəhətlər üzə çıxır. Belə ki, dövlət əmlakı ilə idarəetmə təkcə sahibolma, istifadəetmə və sərəncamvermədən yaranan mülkiyyət münasibətləri ilə deyil, həmçinin dövlətin normativ-hüquqi aktlarla tənzimlənən investisiyalarda (və ya sahib olduğu korporasiyaların kapitalında) iştirakı ilə də həyata keçirilir. Burada normativ-hüquqi aktlarla idarəetmə mülkiyyət hüququndan fərqli aspektdə dəyərləndirilməlidir. Dövlət sektorunun bütövlükdə milli iqtisadiyyatda 19 faiz təşkil etməsi halında onun aqrar sahədəki fəaliyyət sərhədlərini, miqyasını müəyyən etmək olduqca çətindir. Öncə qeyd etdiyimiz kimi, dövlət sektorunun aqrar sahədəki sərhədləri bu sahədə olan müəssisə və təşkilatların formalaşma məqsədləri, vəzifələri, rolu, miqyası və sosial-iqtisadi məzmunu nəzərə alınaraq dəqiqləşdirilməlidir. Yaddan çıxarmaq olmaz ki, qeyd edilən amillər üzrə və keçid dövrü ilə əlaqədar bu sahənin deformasiyaya uğramış strukturu üzrə dövlətin iqtisadi siyasəti də həmin sərhədlərin müəyyənləşməsində önəmli rola malikdir. Yəni sözügedən tədbirlərin həyata keçirilməsində dövlət sektorunun həm hüquqi, həm də iqtisadi əsasları tam formada ifadə edilməlidir [5, s. 77].

Ümumiyyətlə, aqrar-sənaye kompleksində (ASK) dövlət sektoru məsələsini özündə ehtiva edən proqram sənədin qəbulu zəruridir. Proqramda kənd və kənd təsərrüfatında dövlətin rolu və yardımının mahiyyəti fərqləndirilməlidir. Məqsədəuyğundur ki, dövlət öz fəaliyyətini ASK-nın müəyyən mərhələsində qursun. Məsələn, son məhsulun istehsalı prosesinə kömək və ya onun reallaşmasını həyata keçirməkdə yardımçı olsun.

Dövlət sektorunun tərkibinin müxtəlif və mürəkkəb olması dövlət müdaxiləsini nəzəri-metodoloji tədqiqatı baxımından daha da vacib problemə çevirir. Fikrimizcə, dövlət mülkiyyəti probleminə aid olan proqram, normativ-hüquqi sənədlərdə cəmiyyətin kompleks tədqiqi və cəmiyyətin daxili münasibətləri mütləq nəzərə alınmalıdır. Buna görə də aqrar sahədə dövlətin iqtisadi fəaliyyətinin sərhəd və miqyasını dövlət müdaxiləsinin intensivliyi və hüdudları çərçivəsində müəyyən etmək lazımdır.

Beləliklə, nəticə çıxarmaq olar ki, hazırkı mərhələdə dövlət sektorunun fəaliyyəti özünü xərclərdə daha çox büruzə verir. Şübhəsiz ki, bunların içərisində aqrar sahəyə çəkilən xərclər də vardır. Və həmin xərclər müxtəlif ölkələrdə fərqlidir. Əgər Avropa İttifaqı ölkələrində bu xərc ÜDM-in 1,7 faizini təşkil edirsə, həmin rəqəm Rusiyada 0,8 faiz həcmindədir. Şübhəsiz ki, burada xərclərin məbləği ilə yanaşı, ÜDM-in həcmindəki fərqləri də diqqətdə saxlamaq lazımdır. Bunun üçün də məqsədəuyğundur ki, təhlillər kənd təsərrüfatına yararlı torpaqlara görə hər hektara düşən xərcə əsasən aparılsın. Onda müəyyən qənaətə gəlmək asandır. Məsələn, yuxarıdakı müqayisəni hər hektara çəkilən xərc üçün aparsaq, görəcəyik ki, Rusiyada hər hektara düşən xərc 9,5 dollar təşkil edirsə, bu rəqəm Avropa İttifaqı ölkələrində 801 dollara bərabərdir.

Beynəlxalq aləmdə aqroməhsul sistemi fəaliyyət göstərir. Həmin sistemə üzv olmaq qloballaşma şəraitində iqtisadiyyatın digər sahələri kimi, vacib məsələlərdən hesab edilir. Bu baxımdan dünya bazarına rəqabətqabiliyyətli məhsul çıxarmaq üçün ölkə ərazisində mövcud aqrar-sənaye sistemi bütün aqrar regionlarda inkişaf etdirilməlidir.

Hesab edirik ki, müasir dövr üçün iqtisadiyyatın digər sahələrində olduğu kimi, aqrar sahədə də dövlət 3 əsas makrofunksiyanı reallaşdırmalıdır: sahələrarası proporsiyanın optimallaşdırılması üçün resursların yenidən bölgüsünü həyata keçirmək; sosial bərabərsizliyin minimuma endirilməsi üçün əhalinin gəlirlərinin ədalətli yenidən bölgüsünə nail olmaq; makroiqtisadi stabilliyi təmin etmək. Bu tədbirlər ümumi xarakter daşısa da, əsas məqsəd ondan ibarətdir ki, dövlət belə tədbirləri həyata keçirərkən aqrar sahədə mövcud vəziyyəti mütləq nəzərə alsın. Bundan başqa, aqrar sahədə dövlət idarəetməsindəki diferensiasiyanı da mütləq nəzərə almaq lazımdır. Belə ki, başda dövlət olmaqla bələdiyyə strukturu, xüsusi mülkiyyətdə olan təsərrüfat strukturları qarşılıqlı bazar qüvvələrini təşkil etməlidir [4, s. 36].

Beləliklə, hazırlanacaq konsepsiyada aqrar sahənin inkişafı xüsusi əhəmiyyət daşımalıdır. Qeyri-neft sektoru kimi özünü göstərən bu sahədə inkişafın davamlı olması üçün dövlətin iqtisadi rolu mütləq yeni keyfiyyət müstəvisində reallaşmalıdır. Bunun üçün isə problemin həllinə dövlət sektoru çərçivəsində yanaşılması məqsədəuyğundur. Çünki aqrar sahənin inkişafında dövlətin rolu, sadəcə, vəzifə və funksiya xarakteri daşımamalı, həmçinin iqtisadi bir subyekt kimi ümumi təsərrüfat mexanizminin işləməsində faydalanan tərəf kimi çıxış etməlidir. Yalnız belə halda rəqabətqabiliyyətli mühitin inkişafı təmin edilər, innovativ-texnoloji yeniliklərdən istifadə imkanları genişlənər.

ƏDƏBİYYAT

1. Həsənov R.T. Azərbaycan Respublikasının social-iqtisadi inkişafının bazar modelinin konseptual əsasları. Bakı, «Elm» nəşriyyatı, 1998.
2. İbrahimov İ.H. Aqrar iqtisadiyyatın aktual problemləri. Bakı, «Təhsil» EİM, 2002, 220 s.
3. Xəlilov H.A. Aqrar iqtisadiyyatda sistem transformasiyaları və modernləşdirmə şəraiti. Bakı, 2005.
4. Salahov S. Aqrar sferada dövlət tənzimlənməsinin konseptual əsasları və prioritetləri. Bakı, 2002.
5. Портер М. Международная конкуренция. М.: 1993.

д.т.н., проф. Забит Юнус оглы Асланов,
д.ф.т. Илгар Салех оглы Раджабов
АГЭУ

Комплексный анализ современного положения развития аграрного сектора в нашей стране

Резюме

Роль государства в развитии аграрного сектора. Была показана возможность использования инновационных технологических новшеств. Установлено, что продовольственная обеспеченность является главным условием социальной стабильностью и устойчивостью экономики каждой страны. Были проанализированы направления макрофункции.

Ключевые слова: государственный аграрный сектор, сектор, сельское хозяйство, экономические отношения, управления, концепция

PhD. in tec., prof. Zabit Yunus Aslanov,
PhD in tec. Ilgar Salekh Rajabov
ASEU

The current state of the agricultural sector in our country Complex analysis

Summary

The role of the state in the development of the agricultural sector published. Shows the use of innovative technological innovations. Shows that the food supply is essential for the stability of the social and economic stability of any country. Analysis of mokrofunksiyaların areas.

Key words: the agricultural sector, public sector, agriculture, economic relations and management, concepts.

Adilə Firdovsi qızı MƏMMƏDOVA
Azərbaycan Kooperasiya Universitetinin
"Mühasibat uçotu və audit" kafedrasının
dosenti, iqtisad üzrə fəlsəfə doktoru,

Eyyub Qənbər oğlu QARAYEV
baş müəllim,

Rövşən Fazil oğlu VƏLİYEV
magistr

ƏRZAQ MƏHSULLARININ ETİBARLI TƏMİNATI VƏ AQRAR SAHƏNİN PERSPEKTİV İNKİŞAFI MƏSƏLƏLƏRİ

Xülasə

Ərzaq təminatı milli təhlükəsizliyin ən mühüm kateqoriyası olmaqla hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. Ona görə də cəmiyyətin hər bir üzvünün əsas ərzaq məhsullarına olan tələbatının tam ödənilməsi üçün davamlı olaraq müvafiq tədbirlərin həyata keçirilməsi çox vacibdir.

Açar sözlər - ərzaq təminatı, intensiv təsərrüfatçılıq, idxaldan asılılığın azaldılması.

Giriş

Qloballaşan dünya düzənində əhalinin etibarlı təminatı çoxfunksiyalı mahiyyət daşıyır. Bu təminat sisteminə insan həyatını əhatə edən gündəlik və fasiləli tələbatlar toplusu daxildir. Bunlardan ən başlıcası ərzağa olan ehtiyacdır. İnsanların qida ehtiyacı fasiləsizdir, bu proses özlüyündə tükənməyən təbii resurs, əmək, əlavə ehtiyatlar tələb etməkdədir.

Ərzaq təminatı problemləri

Müasir dünyada əhalinin etibarlı ərzaq təminatına təhlükə yaradan faktorlar aşağıdakı kimi xarakterizə olunmaqdadır: enerji bazarlarında daşıyıcıların qiymətlərinin artımı, aparıcı ölkələrin maliyyə bazarında baş verən neqativ meyillər, habelə ölkələrin demoqrafik xəritələrində baş verən tendensiyalar - əhali artımı nəticədə ərzaq məhsullarına olan tələbatın yüksəlməsinə səbəb olur, iqlim dəyişkənliyi, su ehtiyatlarının məhdudluğu və digər səbəblərə görə əsas ərzaq məhsullarının dünya bazarlarında qiymətləri artmağa başlayır, hətta bəzi ölkələrdə ərzaq qıtlığı real təhlükəyə çevrilir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına görə, 1950-1985-ci illərdə ərzaq istehsalının illik artımı 30 milyon ton, 1985-1995-ci illərdə 12 milyon ton təşkil edirdisə, 2030-cu ilədək bu göstərici cəmi 9 milyon ton səviyyəsində olacaqdır. [1, s. 86-128] Artımın bu qədər aşağı düşməsi ilə bağlı təhlükələr sırasına getdikcə artan regional və beynəlxalq xarakterli etnik münaqişələr, qlobal istiləşmənin artması, torpaq resurslarının sıradan çıxması kimi faktorları qeyd etmək olar.

Ərzaq təminatı üzrə görülmüş işlər

Azərbaycan Respublikasında əhalinin etibarlı ərzaq təminatının həyata keçiriməsi məqsədi ilə ötən əsrin sonlarından başlayaraq institusional tədbirlər həyata keçirilməkdədir. İlkin mərhələdə torpaq islahatları həyata keçirilmiş, kənd təsərrüfatı istehsalçılarına yardım mexanizmləri formalaşdırılmış, beynəlxalq təşkilatlarla birlikdə bu sahədə əhəmiyyətli layihələrin icrasına başlanmışdır. 2001-ci ildə ölkə prezidentinin sərəncamı ilə "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı" təsdiq edilmiş və bu Proqram çərçivəsində görülmüş işlər nəticəsində kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı əhəmiyyətli dərəcədə artmışdır.Bununla yanaşı, "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı" Dövlət Proqramları və digər qəbul olunmuş sənədlərdən irəli gələn vəzifələrin yerinə yetirilməsi, o cümlədən fermerlərə maliyyə və texniki dəstəyin göstərilməsi, sahibkarlığın inkişafı, regionlarda infrastruktur layihələrinin həyata keçirilməsi əhalinin istehlakında yerli məhsulların xüsusi çəkisinin artmasını təmin etmişdir. Lakin, ölkədə əsas ərzaq məhsullarına olan tələbatın

yerli istehsal hesabına tam təminatı hələ ki, mümkün olmamışdır. Digər tərəfdən, dünya ərzaq bazarlarında müşahidə olunan qeyri-sabitlik Azərbaycanda da ərzaq məhsullarının qiymətinə öz təsirini göstərir.

Perspektiv inkişaf üçün atılacaq addımlar

Mövcud vəziyyət daxili ərzaq bazarının idxaldan asılılığının maksimum azaldılması və ərzaq ehtiyatlarının yaradılması məsələsinə kompleks yanaşma tələb etməkdədir.

Azərbaycan Respublikasında ərzaq məhsulları ilə təminatın mövcud vəziyyəti bir sıra istiqamətdə təhlillərin aparılmasına imkan verir.

Birinci istiqamət, aqrar bölmədə mövcud vəziyyətin araşdırılmasıdır. Son illər aqrar bölmədə real artım hər il orta hesabla 3-4,5 faiz təşkil etmişdir. Aparılmış islahatlar nəticəsində ilk növbədə bazar iqtisadiyyatı prinsiplərinə uyğun olan qanunvericilik bazası yaradılmış, torpaq islahatları həyata keçirilmiş, islahatlar nəticəsində ləğv edilmiş sovxoz, kolxoz və təsərrüfatlararası müəssisələrin özəlləşdirilən torpaq və əmlakları əsasında 1191 kollektiv, 156 kənd təsərrüfatı istehsalı kooperativləri, 2651 ailə-kəndli təsərrüfatı və digər özəl qurumlar yaranmış, 843,2 min ailə fiziki şəxs kimi fəaliyyətə başlamışdır. 1999-cu ildən etibarən, kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad edilmiş, fermerlərə yanacağın, motor yağının və gübrənin alınmasına çəkilən xərclərin 50-70 faizinin dövlət tərəfindən ödənilməsinə, taxıl əkinlərinə görə subsidiyaların verilməsinə başlanılmış, texniki təminatın yaxşılaşdırılması üçün "Aqrolizinq" ASC yaradılmış, istehsalçılara lizinq yolu ilə güzəştli şərtlər əsasında texnikanın və gübrələrin verilməsi həyata keçirilmiş, tədarük-təchizat sisteminin qurulması üçün "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC yaradılmışdır. Nəticədə, kənd təsərrüfatı məhsulları istehsalında özəl bölmənin xüsusi çəkisi 99,7 faizə çatmışdır. [2, s.6-22]

İkinci istiqamət kimi, bitkiçilik məhsullarının istehsalı və emalı istiqamətində istehsalın strukturunda müəyyən dəyişikliklərə səbəb olmuşdur. Bu, ilk növbədə, ölkənin əkin strukturuna təsir edərək, onun daxili və xarici bazarın tələblərinə uyğun formalaşmasına imkan vermişdir. Ölkədə bir sıra məhsullar üzrə ərzaq təminatının balansı müsbət saldoya doğru dəyişməyə başlamışdır. Artıq tərəvəz və bostan məhsullarına və meyvəyə əhalinin illik tələbatı daxili istehsal hesabına təmin olunur və onların ixrac imkanları genişlənir.Lakin taxıl da daxil olmaqla, ümumən bitkiçilik məhsullarının istehsal göstəriciləri sahənin potensial imkanlarından xeyli aşağıdır. Əsas ərzaq məhsulu olan dənli və dənli-paxlalılar üzrə orta məhsuldarlıq Azərbaycanda 27,1 s/ha təşkil edir, bununla belə müasir texnologiyalar tətbiq etməklə, əkin sahələrini genişləndirmədən məhsul istehsalını əhəmiyyətli dərəcədə artırmaq mümkündür.Ərzaq məhsullarına olan tələbatın ödənilməsində idxaldan ən yüksək asılılıq bitki yağlarının payına düşür. Eyni zamanda, ölkədə bu məhsulun, xüsusilə zeytunun istehsalının artırılması üçün böyük potensial mövcuddur. Eynilə kartof, tərəvəz, şəkər çuğunduru və digər kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində təsərrüfat fəaliyyətinin intensivləşdirilməsi əsasında məhsul artımına nail olmaq mümkündür.Toxumçuluq kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılmasında, keyfiyyətinin yüksəldilməsində və ərzaq təminatının yaxşılaşdırılmasında xüsusi əhəmiyyətə malikdir. Hazırda toxum və ting istehsalı ilə 300-dən çox hüquqi və fiziki təsərrüfat subyekti, o cümlədən 20 dövlət kənd təsərrüfatı istehsalı müəssisəsi məşğul olur. Göstərilən təsərrüfatlarda hər il ölkə üzrə tələbatın cəmi 7-10 faizi həcmində taxıl toxumu istehsal olunur. Bununla bərabər, toxum və ting istehsalı ilə məşğul olan dövlət və özəl təsərrüfatlarda toxumçuluq sahəsindəki işləri müasir tələblərə uyğunlaşdırmağa ehtiyac vardır.

Üçüncü istiqamət isə heyvandarlıq məhsullarının istehsalı, emalı və damazlıq işidir. İslahatlar nəticəsində mal-qaranın sayında və heyvandarlıq məhsullarının istehsalında ciddi artım əldə edildi. Hazırda ölkədə 26 quşçuluq müəssisəsi fəaliyyət göstərir. Bu müəssisələrdə istehsal olunan quş əti ölkə üzrə istehlakın təxminən 70 faizini təmin edir.Bütün bunlara baxmayaraq, ölkədə ət və süd istehsalı sahəsində tələbatın tam ödənilməsi baxımından hələlik gerilik mövcuddur.

Genişmiqyaslı tədbirlərin həyata keçirilməsinə baxmayaraq hər inək və camışdan ildə 1110 kq süd sağılması onu göstərir ki, iribuynuzlu mal-qara arasında damazlıq işi də tələb olunan səviyyədə aparılmır, qısırlığa qarşı mübarizə tədbirləri zəif həyata keçirilir.Hazırda ölkədə 80-dən çox iri özəl damazlıq təsərrüfatı fəaliyyət göstərir. Eyni zamanda, 11 regional, 60 şəhər və ra-

yon süni mayalama mərkəzi, 900 kənd və qəsəbə süni mayalama məntəqəsi yaradılmışdır. Bu sahədə problemlərin aradan qaldırılması üçün iribuynuzlu mal-qaranın cins tərkibinin yaxşılaşdırılması ilə bağlı aparılan işlər genişləndirilməli və hər il xaricdən ən azı 7-8 min baş cins mal gətirilməlidir.

Növbəti istiqamət, aqrar bölmənin maddi-texniki bazasının qurulmasıdır. Texnikanın çatışmazlığı aqrotexniki tədbirlərin müəyyən olunmuş müddətdə həyata keçirilməsini, məhsulun vaxtında və itkisiz yığılmasını çətinləşdirir, istehsal proseslərinə ciddi maneələr törədir. Mövcud köhnə texnika ilə aparılan işlər keyfiyyətsiz olduğundan, xeyli itkilərə yol verilir. Ümumiyyətlə, maddi-texniki bazanın zəifliyi nəticəsində bitkiçilik sahəsində ildə orta hesabla ən azı 30-40 milyon manatlıq məhsul itkisinə yol verilir. Ona görə də müasir tələblərə cavab verən servis xidməti müəssisələrinin geniş şəbəkəsinin yaradılması zərurəti meydana çıxır. Aqrar sahədə nəzərdə tutulan xidmət işlərinin yerinə yetirilməsini sürətləndirmək, sahibkarların əməyini yüngülləşdirmək, onların lazımi texnika ilə vaxtında və güzəştli şərtlərlə təmin edilməsi məqsədilə "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 23 oktyabr tarixli 468 nömrəli Sərəncamı ilə "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır. Hazırda ölkənin bölgələrində onun 10 satış xidmət bazası və 57 rayonda texniki xidmət servisləri fəaliyyət göstərir.

Əldə edilmiş nailiyyətlərlə yanaşı, ərzaq təminatı sahəsində sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə, bununla bağlı əlavə həvəsləndirici tədbirlərin görülməsinə, aqrar sektorun kreditləşdirilməsinin artırılmasına ciddi ehtiyac vardır. Xüsusilə ərzaq məhsullarının saxlanılması üçün anbarların, soyuducu kameraların, elevatorların, eləcə də kənd təsərrüfatı texnikası və gübrə istehsalı, qablaşdırma müəssisələrinin yaradılması, taxıl, yem, ət və süd məhsulları, meyvə-tərəvəz və digər ərzaq məhsullarının istehsalının genişləndirilməsi, emal sənayesinin inkişafı ilə bağlı tədbirlərin görülməsi zəruridir.Çünki, ərzaq təhlükəsizliyinin əsas şərti əhalinin ərzağa olan tələbatının tam ödənilməsi və bununla da qida məhsullarının normal səviyyədə istehlakının təmin edilməsidir. Ərzaq təhlükəsizliyi həm də cəmiyyətdəki bir sıra sosial-iqtisadi problemlərin sistemli və kompleks həllini şərtləndirir. [3, s.12]

Aqrar sahənin perspektiv inkişafı məsələləri:

- ölkədə ərzaq məhsulları istehsalını artırmaq;
- əhalini təhlükəsiz və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək;
- ərzaq təminatı sahəsində risklərin idarə olunmasını təmin etmək;
- ərzaq təminatı sisteminin institusional inkişafını həyata keçirmək və sahibkarlıq mühitini yaxşılaşdırmaq;
- regionlarda infrastruktur təminatının yaxşılaşdırılmasına, sosial xidmətlərin həcminin və keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş büdcə siyasətini davam etdirmək;
- ərzaq istehsalının artırılmasının həvəsləndirilməsinə yönəldilmiş vergi siyasətini həyata keçirmək;
- torpaq və sudan istifadənin səmərəliliyinin artırılması ilə bağlı tədbirləri davam etdirmək;
- bitkiçilik və heyvandarlığı intensiv təsərrüfatçılıq əsasında inkişaf etdirmək, bu sahənin maddi-texniki təchizatını yaxşılaşdırmaq, toxumçuluq və damazlıq işlərini mövcud tələblər səviyyəsində qurmaq;
- aqrar sahənin statistikasını təkmilləşdirmək;
- beynəlxalq təşkilatlarla ərzaq təminatının yaxşılaşdırılması sahəsində əməkdaşlığı inkişaf etdirmək;
- ərzaq məhsullarının istehsalı sahəsində İSO standartlarına uyğun keyfiyyətin idarə edilməsi sistemlərinin tətbiqi üçün normativ-hüquqi baza yaratmaq;
- ərzaq təhlükəsizliyi mexanizmlərini təkmilləşdirmək, beynəlxalq HACCP (Təhlükəli amillərin təhlili və kritik nöqtələrə nəzarət) sisteminə keçid üçün normativ-hüquqi baza yaratmaq;
- ərzaq məhsullarının istehsalı sahəsində beynəlxalq təcrübə nəzərə alınmaqla milli standartlar hazırlamaq və tətbiq etmək;

- “Tarladan süfrəyədək” prinsipi əsasında ərzaq istehsalı zəncirinin bütün mərhələlərində müvafiq sahələr üzrə keyfiyyətə nəzarət sistemini və mexanizmini işləyib hazırlamaq və həyata keçirmək. [4, s.126-145] , [5, s.63-78]

Nəticə

Ölkənin ərzaq təminatının təmin edilməsi iqtisadi sabitliyin və sosial dayanıqlığın başlıca şərtidir. Azərbaycan Respublikasında əhalinin etibarlı ərzaq təminatının həyata keçirilməsi məqsədi ilə ötən əsrin sonlarından başlayaraq institusional tədbirlər həyata keçirilməkdədir. Lakin, ölkədə əsas ərzaq məhsullarına olan tələbatın yerli istehsal hesabına tam təminatı hələ ki, mümkün olmamışdır. Mövcud vəziyyət daxili ərzaq bazarının idxaldan asılılığının maksimum azaldılması və ərzaq ehtiyatlarının yaradılması məsələsinə kompleks yanaşma tələb etməkdədir.

Azərbaycan Respublikasında ərzaq məhsulları ilə təminatın mövcud vəziyyəti bir sıra istiqamətdə təhlillərin aparılmasına imkan verir. Birinci istiqamət, aqrar bölmədə mövcud vəziyyətin araşdırılmasıdır. İkinci istiqamət, intensiv əkin sisteminin tətbiqi ilə yanaşı, toxum və ting istehsalı ilə məşğul olan dövlət və özəl təsərrüfatlarda toxumçuluq sahəsindəki işləri müasir tələblərə uyğunlaşdırmağa ehtiyac vardır. Üçüncü istiqamət isə heyvandarlıq məhsullarının istehsalı, emalı və damazlıq işidir. Növbəti istiqamət aqrar bölmənin maddi-texniki bazasının qurulmasıdır.

Əldə edilmiş nailiyyətlərlə yanaşı, ərzaq təminatı sahəsində sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə, bununla bağlı əlavə həvəsləndirici tədbirlərin görülməsinə, aqrar sektorun kreditləşdirilməsinin artırılmasına ciddi ehtiyac vardır. Xüsusilə ərzaq məhsullarının saxlanılması üçün anbarların, soyuducu kameraların, elevatorların, eləcə də kənd təsərrüfatı texnikası və gübrə istehsalı, qablaşdırma müəssisələrinin yaradılması, taxıl, yem, ət və süd məhsulları, meyvətərəvəz və digər ərzaq məhsullarının istehsalının genişləndirilməsi, emal sənayesinin inkişafı ilə bağlı tədbirlərin görülməsi zəruridir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı 2008-2015-ci illər”. s. 86-128, Bakı, 2008.
2. “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”. 2016.
3. R.Mehdiyev. Prezident İ.Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri. Bakı, 2018.
4. Д.В.Балдов, С.А.Суслов. Методика расчета уровня продовольственной безопасности. 2016.
5. Н.Шагайда, В.Узун. Продовольственная безопасность: Проблемы оценки. Вопросы экономики. 2015.

Адила Фирдовси кызы Мамедова
д.ф.е., доцент, кафедры «Бухгалтерского учета и аудита»
Азербайджанского Университета Кооперации,

Эйюб Ганбар оглы Гараев
старший преподователь,

Ровшан Фазил оглы Валиев
магистр

Вопросы перспективное развитие аграрного сектора и надежное обеспечение продуктов питания

Резюме

Продовольственная безопасность является важнейшей категорией национальной безопасности и является ключевой предпосылкой для экономической стабильности и социаль-

ной устойчивости каждой страны. В этой связи крайне важно последовательное проведение в жизнь соответствующих мер для полного удовлетворения каждым членом общества основных потребностей в продовольствии.

Ключевые слова: продовольственная безопасность, интенсивное сельское хозяйство, снижение зависимости от импорта.

Adila Firdovsi Mammadova
candidate of economic sciences, associate professor,
"Accounting and audit" Azerbaijan Cooperation University,

Eyyub Ganbar Garayev
head of chair,

Rövshen Fazil Valiyev
master

The problems of perspective improvement of agrarian sector and relible providing with food products

Summary

Food security is the most important category of national security and is a key prerequisite for economic stability and social sustainability of each country. Therefore, it is crucial that all members of the community continue to take consistent measures to fully meet their basic food needs.

Key words: food security, intensive farming, reducing dependence on imports.

канд. с.-х. наук, профессор О.А.ГОРБ;

канд. экон. наук Т.А.ЧАЙКА;

канд. экон. наук И.А.ЯСНОЛОБ;
Полтавская Государственная
Аграрная Академия, Украина, г. Полтава

ОРГАНИЧЕСКОЕ СЕЛЬСКОЕ ХОЗЯЙСТВО: ЭКОЛОГИЗАЦИЯ ПРОИЗВОДСТВА - ПРОДОВОЛЬСТВЕННАЯ БЕЗОПАСНОСТЬ – КОНКУРЕНТОСПОСОБНОСТЬ АГРАРНОЙ СФЕРЫ

Наши многочисленные исследования показывают, что повышение конкурентоспособности аграрного производства невозможно без обеспечения его экологической составляющей, то есть внедрения органических методов ведения сельского хозяйства. В связи со значительным ухудшением экологической ситуации в мире и необходимости обеспечения продовольственной безопасности, мировое сообщество все больше подчеркивает необходимость внедрения агропроизводственной практики: не использует синтетические химикаты (удобрения, пестициды, антибиотики и т.п.); осуществляет минимальную пахоту грунта; не применяет генетически модифицированных организмов (ГМО); охватывает различные сферы - растениеводство, животноводство, птицеводство, садоводство [1, стр. 18].

Итак, органическое сельское хозяйство по своей сути можно определить как многофункциональную агроэкологическую модель производства с определенными целями, принципами и методами, основаную на тщательном менеджменте (планировании и управлении) агроэкосистем [2, стр. 22]:

1. Цели органического сельского хозяйства:

1) создание жизнеспособной системы ведения хозяйства;

2) повышение уровня биологического разнообразия, стабилизация биологического равновесия в природе;

3) производство продукции и сырья высокого качества, которое не вредит окружающей среде, здоровью человека, животным;

4) улучшение санитарного состояния почвы, растений, животных и поддержания баланса между ними;

5) применение экологически безопасных методов и средств ведения хозяйства.

2. Принципы органического сельского хозяйства:

1) экологичности - грунтование на живых экосистемах и природных циклах;

2) обеспечение и сохранение здоровья почвы, растений, животных и человека как единой экосистемы;

3) ответственности за здоровье и благополучие нынешнего и будущего поколений, окружающей среды;

4) справедливости относительно окружающей среды и равных возможностей каждого человека.

3. Методы органического сельского хозяйства:

1) агроэкологические методы борьбы с вредителями и болезнями;

2) внесение органических удобрений (сидератов, мульчи)

3) использование экологичной упаковки (стекло, бумага, био-растворимая упаковка и т.п.);

4) разумное использование природной среды;

5) учет природных возможностей экосистемы.

Таким образом, целесообразность внедрения органического сельскохозяйственного производства обусловлена необходимостью [3, стр. 325]:

- воспроизводства плодородия почв и сохранения окружающей среды;
- развития сельских территорий и повышение уровня жизни сельского населения;
- повышения эффективности и прибыльности сельскохозяйственного производства;
- обеспечения потребительского рынка здоровой качественной продукцией;
- укрепление экспортного потенциала страны;
- улучшения имиджа страны как производителя и экспортера высококачественной полезной органической продукции;
- обеспечения продовольственной безопасности страны;
- улучшения общего благосостояния граждан страны.

Прежде всего, органическое сельское хозяйство основывается на методах минимальной обработки почвы, которая обеспечивает улучшения и сохраняет его структуру, способствует сохранению микроорганизмов, которые его насылают, предотвращает распад гумуса благодаря отказу от глубокого и интенсивного разрыхления. Также улучшается упругость и защита от эрозии почвы, ее водного баланса. Однако, несмотря на указанные преимущества, отказ от обработки плугом бросает определенные вызовы. Например, может значительно повыситься вредное воздействие со стороны сорняков или нарушиться обеспечения растений питательными веществами.

Однако, с целью повышения эффективности земледелия и их соответствия принципам органического сельского хозяйства возможно использовать системы обработки почвы, которые предусматривают минимизацию глубины обработки и совмещение выполнения технологических операций, использование новейших технологий, применение которых позволяет выполнять требования отечественного и мирового законодательства по органического земледелия без потери качества продукции и положительно влиять на природную окружающую среду [4, стр. 386].

Существенная роль в осуществлении общих принципов биологизации и экологизации растениеводства, на которых основывается органическое земледелие, принадлежит севооборотам. Научно обоснованное чередование культур в севооборотах является главным в обеспечении и поддержании фитосанитарного благополучия полей и посевов, экологически чистым мерой против распространения сорняков, вредителей и болезней, источником

обогащения полезной почвенной микрофлоры, органических веществ почвы, обогащения его азотом, поддержание на оптимальном уровне общего баланса влаги в пределах не только севооборота, но и всего агроландшафта или даже агроэкосистемы.

По нашим исследованиям, рекомендуется использовать классический принцип построения севооборотов на основе правильной организации территории и оптимальной структуры площадей для конкретных почвенно-климатических условий каждого хозяйства. В севооборот вводят культуры с чередованием по типу правильной плодосмены [5, стр. 10].

Также значительное внимание в системе органического земледелия уделяют сидеральным культурам, которые выращивают перед посадкой основной культуры, для обогащения почвы полезными элементами. Они восстанавливают запасы гумуса, улучшают структуру, повышают плодородие верхнего пахотного слоя. Ценность и важность сидеральных культур не ограничивается только свойством замечательного заменителя традиционных органических удобрений. Широкое использование этих культур также повышает эффективность природопользования, способствует повышению плодородия почвы, получению с единицы площади большего количества продукции. Кроме того, сидерация ощутимо улучшает экологическую ситуацию, становится в наше время одной из жизненно важных проблем [6, стр. 42].

С целью повышения производительности органического производства и качества продукции максимально используются биологические факторы увеличения естественного плодородия почв, агроэкологические методы борьбы с вредителями и болезнями, а также преимущества биоразнообразия, в частности местных и уникальных видов, сортов, пород и т.

По нашим исследованиям, органическая продукция, на сегодня, пользуется повышенным спросом во всем мире, а количество ее производителей и сельскохозяйственных угодий, занятых под ее производством, ежегодно растут. Как показывает практика, применение системы органического земледелия дает возможность получать стабильную, биоклиматического, энергетически и экономически обоснованную продуктивность пашни, повышать качество продукции растениеводства, сохраняя и воспроизводя плодородие почвы [1, стр. 48].

Выращенная на органической основе продукция должна быть екологичино чистой и отвечать национальным и международным стандартам качества. Для этого производители органического сырья и продукции должны соблюдать стандарты органического сельского хозяйства и требований к маркировке в соответствии с рынков сбыта. Однако, все стандарты сертификации предусматривают соблюдение главных принципов органического сельского хозяйства, созданные с целью усиления органического движения в полном объеме. Они применяются целостно и неотъемлемо друг от друга, является основой для развития различных программ, концепций, стандартов и распространении во всем мире. Они составлены как этические принципы здоровья, экологии, справедливости и заботы.

Итак, производство органической сельскохозяйственной продукции для потребления целесообразно и в условиях ухудшения экологического состояния окружающей среды - необходимым. Также из природоохранного точки зрения, органическое сельское хозяйство выполняет две важные функции - охраны природы и сохранения окружающей среды. Функция охраны природы отражается в сохранении сельскохозяйственного биоразнообразия, или агробиоразнообразия, что сегодня является актуальной задачей природоохранной политики многих европейских стран [7, стр. 170].

В то же время, несмотря на указанное не все отечественные производители могут за счет собственных мощностей (как производственных, так и финансовых) осуществить переход от традиционного производства к органическому. Последнее представляет собой значительно более сложную систему и требует более взвешенного подхода к внедрению. Поэтому переход сельскохозяйственных товаропроизводителей на органические методы хозяйствования может быть возможным только при условии их осознание преимуществ органического производства по сравнению с традиционным. Органическое производство

скорее имеет преимущества в целом для общества, чем для конкретного производителя органической продукции.

The article examined the scientific and theoretical aspects of price parity for industrial and agricultural products, analyzed the current state of prices in the agrarian-industrial complex of Azerbaijan and revealed the existing problems of price disparity in Azerbaijan. The ways to improve the economic adjustment of the balance of prices were determined and the world practice of price parity provision in agrarian-industrial complex was studied and its application in Azerbaijan was given.

Key words: agro-industrial complex, industry, agriculture, price, parity.

Aydın Ehtibar oğlu BƏHRƏMOV
Azərbaycan Kooperasiya Universitetinin dissertantı

KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ XARİCİ BAZARLARA ÇIXIŞ İMKANLARININ REALLAŞDIRILMASININ ALQORİTMİ

Xülasə

Təqdim olunan məqalədə kənd təsərrüfatı məhsullarının xarici bazara çıxış imkanlarının reallaşdırılması alqoritminin seçilməsi məsələləri araşdırılmışdır. Həmin məhsulların xarici bazara çıxış qərarının əsaslandırılması üçün alqoritm seçilmişdir. Kənd təsərrüfatı məhsullarının xarici bazara çıxarılması alqoritmində bəzi addımların təkmilləşdirilməsi imkanları müəyyən olunmuşdur.

Açar sözlər: alqoritm, ardıcıllıq, qərar, xarici bazar, kənd təsərrüfatı.

***

Kənd təsərrüfatı müəssisəsinin xarici bazara çıxış addımlarının ardıcıllığında müşahidə edilən fərqləri şərtləndirən amillərin sistem əmələgətirmə qabiliyyəti və həmin sistemin determinasiyalılığı səviyyəsi kənd təsərrüfatı məhsullarının xarici bazara çıxış alqoritminin variantlarının sayını müəyyən edən səbəblər kimi xüsusi diqqətə layiqdir. Kənd təsərrüfatı məhsulunun növü, həcmi və göndərmələrin dövriliyi, ixrac infrastrukturunun inkişaf səviyyəsi, rəqabətin kəskinliyi və bu kimi bir sıra digər amillərin təsiri altında formalaşan sistemin determinasiyalılığı azaldıqca haqqında danışılan alqoritmin addımları və onların ardıcıllığında müşahidə edilən fərqlər özünü daha əyani şəkildə göstərir.

Kənd təsərrüfatı müəssisəsinin xarici bazara çıxışı barədə qərarın hazırlanması və qəbulu üzrə əlverişli alqoritmin seçilməsi zamanı məhz bu fərqli cəhətlərə önəm verilməlidir. Müəssisə, o cümlədən kənd təsərrüfatı müəssisəsi səviyyəsində xarici bazara çıxış barədə əsaslandırılmış qərarın qəbulu alqoritmi kimi, müvafiq mənbələrdə aşağıdakı yanaşmaya kifayət qədər tez-tez rast gəlinir:

1. Müəssisənin rəqiblərlə müqayisədə, hazırkı vaxtda və perspektivdə daxili bazardakı mövqeyi;
2. Perspektivli xarici bazarların öyrənilməsi;
3. Xarici bazarda rəqabətin təhlili;
4. Marketinq imkanları və təhlükələrinin aşkar edilməsi;
5. Potensial məqsədli xarici bazarın seçilməsi;
6. Konkret bazara çıxış yolları barədə qərar qəbul edilməsi;
7. Beynəlxalq marketinq strategiyasının işlənib hazırlanması;
8. Məqsədli bazarda taktiki fəaliyyət proqramının işlənib hazırlanması;
9. Xarici bazarda firmanın əldə etdiyi nəticələrin təhlili və təshihlərin aparılması. [2, s. 98]

Təqdim olunan ardıcıllıqla həyata keçirilən tədbirlər sayəsində xarici bazara çıxış barədə qəbul edilmiş qərarlar artıq on illərdir ki, geniş ixrac potensialına malik ölkələrdə və transmilli şirkətlərdə, kifayət qədər fərqli situasiyalarda özünü doğrultmuşdur. Bununla belə, tövsiyə olunan alqoritmin addımlarının demək olar ki, əksəriyyətində təkmilləşdirmə imkanları vardır və onların reallaşdırılması məqsədilə addımların hər birinin üzərində dayanmağa ehtiyac vardır.

1. Daxili bazarda müəssisənin mövqeyinin təhlili və rəqiblərlə müqayisədə həmin mövqenin müasir vəziyyətinin və perspektivlərinin səciyyələndirilməsi. Bu halda aşağıdakılar tədqiq olunur: müəssisənin bazarın hər bir seqmenti nəzərə alınmaqla bazar payı, müəssisənin ölçüsü, məhsulun keyfiyyəti, çeşidi və bir sıra digər göstəriciləri, məhsulun istehlakçıya doğru yeridilişi, o cümlədən, satışı və bölgüsü, maliyyə, kadr ehtiyatları, qiymət, ödəniş qaydaları, müəssisənin alıcılarla, banklarla, malgöndərənlərlə, hakimiyyət strukturları ilə əlaqələri, xidmətin səviyyəsi. Qeyd olunan göstəricilərin kəmiyyətcə dəqiqləşdirilməsi səviyyəsi ilkin informasiyanın əldə edilməsi, sistemləşdirilməsi, bu və ya digər dərəcədə aqreqasiyası (verilənlərin informativliyində itkiyə yol vermədən onların həcminin azaldılması) üzrə atılan addımların xarakteri və ardıcıllığından asılıdır. Başqa sözlə, xarici bazara çıxış barədə qərarın qəbulu alqoritminin birinci addımının səmərəliliyi, öz növbəsində ilkin informasiya massivlərinin yaradılması və icmal informasiya massivlərinə qədərki çevirmə alqoritminin əsaslandırılma dərəcəsindən asılıdır.

2. Xarici bazarın təhlili mərhələsində aşağıdakı göstəricilər təhlil olunur: xarici bazarın tutumu, xarici bazara əlyetənlik, xarici bazarın həssaslığı (cavab reaksiyasının xarakteri), xarici bazarın stabilliyi.

Xarici bazarın tutumu. Bu halda məlum və yeni məhsullar üzrə tutum fərqli qaydada hesablanır. Belə ki, məlum məhsullar üçün potensial anoloji məhsullar üzrə bir ilə nəzərdə tutulan mövcud və ya gələcək tələb üzrə müəyyən edilir. Yeni məhsullar üzrə potensialın hesablanması təcrübəsi belədir: həmin potensial ekvivalent məhsullar mövcud olduqda onlara olan tələb üzrə müəyyən edilir; ekvivalent məhsullar mövcud olmadıqda həmin potensial yeni məhsulların ödədikləri tələbatın dinamikasına əsaslanmaqla müəyyənləşdirilir.

Xarici bazara əlyetənlik anlayışı geniş və demək olar ki, hər bir halda əlavə dəqiqləşdirilməyə ehtiyacı olan anlayışdır. Məsələ ondadır ki, potensial bazar ilk baxışda cəlbedici görünsə də, müxtəlif səbəblərdən kifayət qədər əlyetən olmaya bilər. Həmin səbəblər qismində, ilk növbədə tarif və qeyri-tarif maneələri, bazarın mənimsənilməsi məsrəflərinin çox yüksək olması qeyd edilməlidir.

Xarici bazarın həssaslığı, konkret halda onun cavab reaksiyasının xarakteristikaları təcrübədə adətən sınaq satışları və yoxlama məqsədilə xidmətlərin göstərilməsi sayəsində müəyyən edilir. Xarici bazarın həssaslığının qiymətləndirilməsində məqsəd bazar tərəddüdlərinin güclənməsi halında marketinq kompleksində təshihlər aparmaqdır.

Xarici bazarın stabilliyi burada ümumi vəziyyətin təhlili və qiymətləndirilməsi baxımından kifayət qədər mühüm və geniş diapazonlu göstəricilər qrupu hesab edilir. Həmin göstəricilər qrupu xarici bazarda siyasi və iqtisadi vəziyyəti xarakterizə edir. Bu halda ilk növbədə, "müəssisələrin və əhalinin ödəniş qabiliyyəti, əmlakın dövlət tərəfindən müsadirə olunması ehtimalı kimi göstəricilərə önəm verilir". [3, s. 87]

3. Xarici bazarda rəqabətin (rəqabət mühitinin) təhlili. Xarici bazara çıxış barədə qərarın qəbulu alqoritmində ümumi məqsəd kontekstində bu mərhələnin altməqsədi müəssisənin rəqiblərlə müqayisədə öz rəqabət üstünlükləri və çatışmayan cəhətlərini aşkar etməkdir. Ölkə hüdudlarından satış məqsədilə kənara məhsul çıxaran müəssisənin müqayisəli rəqabət üstünlüklərinin müəyyən edilməsi üçün, adətən aşağıdakı göstəricilər qrupu təhlilə cəlb olunur: marketinq kompleksinin elementlərinin (məhsul, qiymət, satış yeri, malın yeridilişi) xarakteristikası; işçi heyətin xarakteristikaları, o cümlədən ixtisas dərəcəsi, riskli fəaliyyət qabiliyyəti, korrupsiyalaşma səviyyəsi; hakimiyyət strukturları, banklar və müxtəlif assosiasiyalarla əlaqələrin (fəaliyyətin xarici mühitini formalaşdıran əlaqələrin) vəziyyətini əks etdirən göstəricilər; kənd təsərrüfatı və onunla birbaşa əlqədar olan sahələrdə istehsal, iqtisadi və texnoloji göstəricilər.

4. Marketinq imkanlarının və təhlükələrinin aşkar edilməsi və qiymətləndirilməsi. Kənd təsərrüfatı müəssisələrinin xarici bazara çıxış imkanlarının və onların rastlaşdığı təhlükələrin müəyyən edilməsi zamanı aşağıdakılar diqqət mərkəzində olmalıdır: ixracatçı ölkənin xarici mühiti; idxalçı ölkənin xarici mühiti; müəssisənin öz vəziyyəti.

Kənd təsərrüfatı müəssisələrinin marketinq imkanlarının və təhlükələrinin aşkar edilməsi prosesində ölkənin idxalın və ixracın inkişafına münasibəti və yürüdülən iqtisadi və xarici ticarət siyasətinin prioritetləri nəzərə alınmalıdır. Bu baxımdan ölkələrin işləyib hazırladığı və həyata keçirdiyi strategiyaları, əsasən aşağıdakı dörd istiqamətdə fərqləndirirlər:

- azad ticarət. Bu strategiyanı, bazarda bu və ya digər məhsullar üzrə aparıcı mövqeyə malik, rəqabətdən çəkinməyən ölkələr həyata keçirirlər;
- proteksionizm. Daxili istehsalı dəstəkləmək üçün idxala qoyulan məhdudiyyətləri nəzərdə tutur;
- təcridolma. Beynəlxalq ticarət əlaqələrində iştirk etməmək barədə qərar qəbulunu reallaşdıran strategiyadır;
- bir sıra kənd təsərrüfatı məhsullarının qıt olduğu bazarın doldurulması. Bu strategiyanı öz daxili istehsalçıları tərəfindən istehsal edilə bilməyən məhsullarla bazarı doldurmaq məcburiyyətində olan ölkələr həyata keçirirlər. Sonuncu hala milli ərzaq təhlükəsizliyinin təminatının xüsusilə aktual olduğu ölkələrdə daha çox rast gəlinir. Sadalanan startegiyalar sərt və çevik ola bilər. Sərt dedikdə bu halda strateji xəttin bütün bazarlarda və bütün məhsul növləri üzrə həyata keçirilməsi nəzərdə tutulur. Strategiyanın çevikliyi isə şərh olunan istiqamətlərin bazarın bu və ya digər seqmentində reallaşdırılması halını ifadə edir.

Kənd təsərrüfatı müəssisələrinin əsas marketinq imkanları aşağıdakı amillər hesabına formalaşır: məhsul və xidmətin həyat dövrünün artırılması; məhsul vahidinə düşən məsrəflərin aşağı salınması; dövlət dotasiyalarının, subsidiyaların və digər güzəştlərin əldə edilməsi; mənfəətin artımı və rentabelliyin yüksəldilməsi; müəssisənin istehsalçı və tərəfdaş nüfuzunun yüksəldilməsi. [1, s. 281]

5. Potensial məqsədli perspektiv xarici bazarın seçilməsi. Xarici bazarda konkret məqsədə uyğun olaraq seçilən seqmentlərin sayını müəyyən etmək üçün əsasən təmərküzləşmə və dispers üsullarından istifadə olunur.

6. Konkret xarici bazara çıxış yollarının seçimi barədə qərarın qəbul edilməsi. Kənd təsərrüfatı müəssisəsi xarici bazara çıxışın aşağıda sadalanan yollarının bir və ya bir neçəsindən istifadə edə bilər: istehsal kooperasiyası, ixrac, müştərək müəssisə, lisenziya razılaşmaları, müqavilə üzrə məhsul istehsalı, idarəetmə müqavilələri, françayzinq, kompensasiya sövdələşmələri və ya barter, birbaşa investisiyalaşma.

7. Beynəlxalq marketinq strategiyasının işlənib hazırlanması. Məhsul satışının səmərəliliyini yüksəltmək məqsədilə, məlum olduğu kimi, analitik proqramlardan və aparılan tədqiqatlardan istifadə edərək istehlakçının davranışının qanunauyğunluqları və meyillərinin öyrənilməsini nəzərdə tutan marketinq strategiyasının aşağıdakı növləri fərqləndirilir: bazara nüfuzetmə, hücum, müdafiə, iflasdan qurtulmaq üçün geriçəkilmə, artım və şaxələndirmə strategiyaları. Beynəlxalq marketinqin sadalanan strategiyalarının məhz hansı birinin və ya hansı kombinasiyasının seçilməsi müəssisənin mövcud və yaxın perspektivə hesablanan potensialının xarakteristikasından və xarici mühit amillərinin təsirinin qiymətləndirilməsinin nəticələrindən asılıdır.

8. Xarici bazarda fəaliyyətin taktiki proqramının işlənib hazırlanması. Kənd təsərrüfatı müəssisəsinin xarici bazardakı fəaliyyətinin taktiki proqramı hazırlanarkən aşağıdakı iki yanaşma arasında seçim etmək və ya onların birgə tətbiqi imkanlarını reallaşdırmaq lazım gəlir: resurslara qənaət edilməsi; satış bazarının genişləndirilməsinə vəsaitin artırılması.

Xarici bazarda fəaliyyətin taktiki planlaşdırılması təcrübəsi aşağıdakı addımların işlənib hazırlanması və həyata keçirilməsini nəzərdə tutur: aqrobiznesin imkan və problemlərinin mümkün detallaşdırma səviyyəsində müəyyən edilməsi; aqrobiznesin özünəməxsus və real məqsədlərinin müəyyən edilməsi; proqramın icrası üzrə məsul olan şəxslərin (qurumların) təyin edilməsi; işlərin və proqramın icrası üzərində nəzarətin qrafikinin işlənib hazırlanması; məqsəd və proqramlardan proqnoz və büdcələrə keçid.

9. Müəssisənin xarici bazarda fəaliyyətinin nəticələrinin təhlili və təshihlərin aparılması. Haqqında danışılan təhlilin səmərəliliyi, əvvəlcədən müəssisənin xarici bazara çıxış proqramı əsaslandırılarkən üstünlük verilən prinsiplərə və metodologiyaya əsaslanmalıdır. Məhz belə yanaşma, kənd təsərrüfatı müəssisəsinin xarici bazarda fəaliyyətinin nəticələrinin təhlilinə əsaslanaraq apardığı təshihlərin səmərəliliyini ilkin yanaşmada təmin edir.

ƏDƏBİYYAT

1. E.A.Quliyev. "Aqrar iqtisadiyyat". Bakı-2015.
2. Авдокушин Е.Ф. "Международные экономические отношения". Москва, Юристъ- 2004.
3. Хмелев И.Б. "Мировая экономика". Москва, Изд. ЕАОИ- 2009.

Айдын Эхтибар оглы Бахрамов
диссертант Азербайджанского Университета Кооперации

Алгоритм реализации возможностей выхода на внешний рынок сельскохозяйственной продукции

Резюме

В представленной статье были исследованы вопросы выбора алгоритма реализации возможностей выхода на внешний рынок сельскохозяйственной продукции. Был выбран алгоритм для обоснования решения выхода данной продукции на внешний рынок. Были установлены возможности совершенствования некоторых шагов в алгоритме выхода на внешний рынок сельскохозяйственной продукции.

Ключевые слова: алгоритм, последовательность, решение, внешний рынок, сельское хозяйство.

Aydin Ehtibar Bahramov
dissertator of Azerbaijan Cooperation University

The algorithm of the realization of the opinions of the entry into external market of agricultural products

Summary

The algorithm of the realization of the opinions of the entry into external market of agricultural products was researched in produced article. The algorithm for the grounds of the decision on the entry into external market of these products was chosen. The opinions of the improvement of some steps in the algorithm of the entry into external market of agricultural products were determined.

Key words: algorithm, sequence, decision, external market, agriculture.

Cavid Əhməd oğlu AĞAYEV
Azərbaycan Kooperasiya Universitetinin magistri

AQRAR SAHƏDƏ İNVESTİSİYA FƏALİYYƏTİNƏ TƏSİR EDƏN AMİLLƏR

Xülasə

Məqalədə aqrar sahədə investisiya fəaliyyətinə təsir edən əsas amillər təhlil edilir. İnvestisiya mühitinin formalaşması problemləri, ona təsir edən bank faiz dərəcəsi, sərbəst pul və maliyyə kapitalının təsiri araşdırılır. Sahibkarlıq riskləri və investisiyaların səmərəliliyi təyin edilir.

Açar sözlər: investisiya, investisiya mühiti, sahibkarlıqda risk, faiz dərəcəsi, səmərəlilik, sərbəst pul vəsaitləri, maliyyə kapitalı.

Ölkədə aqrar sahədə və təsərrüfat subyektlərində özünün texniki-texnoloji və iqtisadi inkişafının ən vacib və strateji məqsədlərini işləyib hazırlayarkən, bu məqsədlərin xarici mühit tərəfindən necə qəbul olunacağını əvvəlcədən müəyyən etməlidirlər. İnvestisiya mühiti ayrı-ayrı ölkələr üçün spesifik olan firmaların məhsuldar investisiyalar həyata keçirmək əsasında öz fəaliyyət miqyaslarını genişləndirmək, yeni iş yerlərini yaratmaq və qlobal rəqabətdə aktiv iştirak etmək imkanlarını və stimullarını müəyyən edir. İnvestisiya mühiti mikro və makro mühitdən ibarətdir. Mikro mühit aqrar fermalara, müəssisəyə və onun müştərilərə xidmət göstərməsi imkanlarına bilavasitə aidiyyatı olan qüvvələrlə, mal göndərənlər, marketinq, vasitəçilər, müştərilər, rəqiblər və müxtəlif ünsiyyət qrupları ilə təmsil olunur.

Makro mühit demoqrafik, iqtisadi, siyasi, hüquqi, texnoloji, coğrafi, təşkilati, texniki, sosial-mədəni amillərin məcmusudur.

Ölkədə investisiya fəaliyyəti üçün əlverişli mühitin formalaşması bir sıra amillərin təsiri altında baş verir. Bu amillərə aşağıdakılar daxildir:

- sahibkarlığın zəruri qanunvericilik bazasının yaradılması;
- sahibkarlığın dövlət tərəfindən himayə edilməsi;
- yeni müəssisələrin işə düşməsinə, fəaliyyətdə olanların isə genişlənməsinə imkan verən vergi, gömrük, kredit dərəcələrinin müəyyən edilməsi;
- dövlət və xüsusi bölmə tərəfindən sahibkarlığın inkişafına yönəldilən maliyyə vəsaitlərinin durmadan artması;
- firmaları geniş surətdə xarici iqtisadi əlaqələrə cəlb edə bilən tədbirlərin həyata keçirilməsi;
- istehsal infrastrukturunun formalaşması və ya onların səmərəli fəaliyyəti üçün şəraitin təmin edilməsi və s.

Məhz investisiya mühiti ölkənin investisiya cəlbediciliyini formalaşdırır, investisiya qoyuluşlarının səmərəliliyinə və investisiya riskinin səviyyəsinə təsir göstərir.

Ölkədə investisiya fəallığı bir tərəfdən faiz dərəcəsindən, digər tərəfdən isə onun səmərəliliyindən asılıdır. Daha doğrusu, investisiyanın səmərəliliyinin aşağı həddini faiz dərəcəsi müəy-

yən edir. Bu onunla əlaqədardır ki, investisiyanın həyata keçirilməsi ilə gəlirlərin qazanılması arasındakı vaxt fərqi vardır.

Faiz dərəcəsi investorun öz vəsaitlərinə sərəncam və istifadə hüququnu müəyyən müddətə itirdiyi üçün aldığı haqqı göstərir. Digər tərəfdən, təsərrüfat subyekti faiz dərəcəsinin səviyyəsinə uyğun qiymətə əldə etdiyi investisiya vəsaitinə faiz dərəcəsindən yüksək mənfəət normasını təmin etməlidir. Yüksək faiz dərəcəsi firmaların investisiya qoyuluşuna maraqları azaldır, kiçik faiz dərəcəsi olduqda isə investisiya qoyuluşlarının həcmi artır.

Cəmiyyətdə hər bir sahibkar investisiyanı həyata keçirərkən onun nəzərdə tutduğu normal mənfəət normasını faiz dərəcəsinin səviyyəsi ilə investisiyanın qoyulduğu sahədəki riskin səviyyəsi müəyyən edir. Qeyd etmək lazımdır ki, faiz dərəcəsi müxtəlif dövrlərə görə dəyişərək mənfəət normasına təsir göstərdiyi halda, investisiya mühitinin sabit halında ayrı-ayrı istehsal növləri üzrə mənfəət normaları arasındakı fərq riskin səviyyəsinə uyğun müəyyən olunur.

Sahibkarlıqda risk dedikdə, müəssisənin zərər və itkilərə məruz qalması ehtimalı nəzərdə tutulur. Risk artdıqca, bu sahəyə investisiyanın da həcmi azalır və sahibkarlar da mənfəət normasını daha yüksək planlaşdırırlar. Çünki, əlavə stimul bu sahəyə əlavə investisiya cəlb edə bilər. Ümumiyyətlə, insanlar öz vəsaitlərini hər hansı bir obyektə qoyarkən, onları təmin edə bilən mənfəət norması mövcud olur. Bu mənfəət norması hər kəs tərəfindən normal mənfəət norması kimi qəbul olunur.

Müəssisələr investisiya qoyuluşlarında həyata keçiriləcək təsərrüfat tədbirlərinin texniki-iqtisadi əsaslandırılmasını işləyib hazırlayırlar və bu tədqiqat nəticəsində riskin səviyyəsinə uyğun müəssisəni təmin edə bilən mənfəət norması və onun əldə olunması imkanlarını hərtərəfli qiymətləndirirlər. Bütövlükdə, sahə üzrə normal mənfəət norması risksiz dərəcə ilə maliyyə və kommersiya risklərinə görə mükafatın məbləğinə bərabər olur. Risksiz dərəcə isə, adətən, dövlətin buraxdığı qısamüddətli istiqraz vərəqələrinin gəlirlik dərəcəsi hesab edilir.

Aydındır ki, investorlara öz vəsaitlərini dövlət təminatında olan qısamüddətli istiqraz vərəqələrinə deyil, daha riskli olan istehsal müəssisələrinə qoymaq üçün əlavə stimul gərəkdir. Qeyd edilənlər, ayrı-ayrı müəssisələrdə mənfəət normalarının bərabər olması fikrinin təsdiqlənməsi üçün əsas ola bilməz. Əksinə, təsərrüfat fəaliyyəti prosesində ayrı-ayrı müəssisələr iqtisadi resurslardan səmərəli istifadə səviyyəsi və istehsal xərclərinin səviyyəsi baxımından fərqlənirlər. Bəzi müəssisələr zərərlə işləyir, bəzi müəssisələr isə hətta müflis olurlar.

İnvestisiya mühiti - investisiya obyektinin investisiya cəlbediciliyinə təsir göstərən müxtəlif makro, mezo və mikro xarakteristikaların məcmusudur. Burada investisiya obyekti kimi həm ayrıca investisiya layihəsi, həm də müəssisə, firma, şəhər, region, sahə, dövlət, eləcə də iqtisadi sistemin, onun investisiya potensialının və investorların fəaliyyət şərtlərini xarakterizə edən investisiya fəaliyyətinin inkişafına və genişlənməsinə obyektiv imkanın olunmasından çıxış edir.

Sosial sabitliyin, iqtisadi artım dinamikliyinin, xarici iqtisadi sferanın liberallaşma dərəcəsinin, inkişaf etmiş sənaye infrastrukturunun, bank və telekommunikasiya sisteminin, nisbətən ucuz ixtisaslı işçi qüvvəsi bazarlarının olması və s. kimi amillərdən istifadə edərək beynəlxalq standartlar üzrə ümumilikdə investisiya mühitini qiymətləndirərək təsdiq etmək olar ki, bütün istiqamətlərdə müəyyən inkişaf tendensiyası əldə edilsə də, bu parametrlər üzrə dünyanın inkişaf etmiş ölkələrində davamlı tədbirlərin həyata keçirilməsi çox vacibdir.

İqtisadiyyatın hər hansı sahəsinə investisiyaların cəlb edilməsinin səmərəliliyi bir sıra makroiqtisadi göstəricilərlə müəyyən olunur ki, bunlara da aşağıdakılar aiddir:

- ölkəyə investisiya qoyuluşlarının ümumi həcmində sahə üzrə investisiyaların xüsusi çəkisi;
- istehsalın ümumi həcmində yeni qoyulmuş investisiyaların iştirakı ilə yaradılan müəssisələrdə buraxılan məhsulların həcmi və payı;
- iqtisadi fəal insanların ümumi sayında yeni yaradılan müəssisələrdə məşğul olanların miqdarı;
- investisiya qoyuluşlarının təsiri ilə yaradılan yeni müəssisələrdə əmək məhsuldarlığı;
- ölkənin ümumi ixrac və idxalında xarici investisiyalı müəssisələrdə istehsal edilən məhsulların payı;
- yeni yaradılan müəssisələrdə istehsal edilən məhsulların ÜDM-də xüsusi çəkisi.

Qeyd olunduğu kimi, istər milli iqtisadiyyatın dinamik inkişafı, istərsə də iqtisadi təhlükəsizlik baxımından cəlb edilən investisiyaların həcmi ilə yanaşı, vəsaitlərin səmərəli yerləşdirilməsi və düzgün bölüşdürülməsi də xüsusi əhəmiyyət kəsb edir. İnvestisiya cəlbediciliyinin idarə edilməsi tələb olunan investisiya həcminin əldə edilməsinə yönəldilən tədbirlərin işlənib hazırlanmasına gətirib çıxarmalıdır ki, bu da investisiya strukturunun, onun tənzimlənməsi üzrə tədbirlərin müəyyən edilməsini nəzərdə tutur. İnvestisiya fəallığına təsir edən ikinci amil məcmu buraxılış həcminin artması ilə əlaqədardır.

Ölkədə müəssisələrin istehsal gücündən tam istifadə olunmadığı şəraitdə investisiya fəallığı aşağı olur. Çünki, investisiya qoyuluşu əsasən əlavə istehsal güclərinin yaradılmasına gətirib çıxarır. Ölkədə sərbəst istehsal gücləri mövcuddursa, investisiya qoyuluşu üçün tələb yaranmır, əks halda isə, yaranmış tələbi mövcud istehsal gücləri ödəyə bilmirsə, onda investisiya qoyuluşları həyata keçirilir. İnvestisiya fəallığına təsir edən üçüncü amil sahibkarların ölkə iqtisadiyyatının vəziyyəti ilə əlaqədar gözləntiləridir. Ölkədəki iqtisadi konyunkturaya və iqtisadi inkişafın templərinə dair qiymətləndirmələrin nəticələri investisiya qərarlarına əhəmiyyətli dərəcədə təsir göstərir.

İnvestisiya fəallığına ölkədə maliyyə bazarlarının inkişaf səviyyəsi əhəmiyyətli dərəcədə təsir göstərir. Müasir bazar iqtisadiyyatı mürəkkəb sistemdir və özündə bir çox elementləri birləşdirir. Ev təsərrüfatları, aqrar firmalar, bu subyektlər arasında əlaqə yaradan resurs və məhsul bazarları, hökumət qurumları özünəməxsus funksiyalar yerinə yetirərək vahid iqtisadi sistemi əmələ gətirirlər. Bu iqtisadi sistemdə bəzi iqtisadi subyektlər sərbəst pul vəsaitlərinə malik olurlar, bəzilərinin isə əlavə pul vəsaitlərinə ehtiyacları yaranır. Belə ki, cəmiyyətin illik gəlirlərinin bir hissəsi (böyük hissəsi) istehlak xərclərinə, qalan hissəsi isə yığıma yönəldilir.

Adətən, sərbəst pul vəsaitlərinə malik olanlarla bu vəsaitlərə ehtiyacı olanlar bir-birlərindən fərqlənirlər. İqtisadiyyatda maliyyə aktivlərinin yaranması vətəndaşların, firmaların və hökumətin yığımının onların real aktivlərə investisiya qoyuluşlarının həcmindən fərqlənməsi ilə əlaqədar olur. Belə şəraitdə iqtisadiyyatın normal inkişafı üçün fiziki və hüquqi şəxslərin müvəqqəti sərbəst pul vəsaitlərinin kommersiya əsasında səfərbər edilməsi və onların iqtisadiyyatın müxtəlif sektorları arasında bölüşdürülməsi və yenidən bölüşdürülməsi tələb olunur. Bu baxımdan iqtisadi sistemin səmərəli inkişfının təmin edilməsində sərbəst pul vəsaitlərinə malik olanlarla belə vəsaitlərə ehtiyacı olanlar arasında əlaqə yaradan təkmil maliyyə bazarının mövcud olmasının mühüm əhəmiyyəti vardır.

Maliyyə bazarı sərbəst pul vəsaitlərinə malik olanlarla, pula ehtiyacı olanlar arasında maliyyə alətləri vasitəsilə və maliyyə qurumlarının iştirakı ilə əlaqə yaradan mexanizmdir. Onun təyinatı - yığımın son istehlakçılar arasında bölüşdürülməsindən ibarətdir. Yəni bir sahədə maliyyə vəsaitlərinin artıqlığı, digər sahədə çatışmazlığı varsa, vəsaitin bir sahədən (subyektdən) başqa sahəyə axını baş verir. Bu axın maliyyə vasitəçiliyi və maliyyə bazarı vasitəsilə həyata keçirilir.

Qeyd etmək lazımdır ki, əhalidə, müəssisə və təşkilatların kassasında, həmçinin bank hesablarında olan əmtəə və xidmətlərin alqı-satqı əqdlərinə xidmət edən, kapital kimi istifadə edilməyən pul vəsaitləri maliyyə kapitalına aid edilmir.

İnvestisiya qoyuluşunu şərtləndirən başlıca amil kimi gözlənilən mənfəətin həcmi, həmçinin borc alınmış vəsaitə görə ödənilən faiz dərəcəsi çıxış edir. Göstərilən amillərlə yanaşı, bir sıra amillər mövcuddur ki, həmin amillər investisiya kimi qoyulan vəsaitin həcmindən asılı deyil, lakin investisiya qoyuluşlarına tələbatı müəyyənləşdirir. Həmin amillərə aşağıdakılar aiddir:

1) avadanlıqların əldə edilməsinə və istismarına çəkilən xərclər;
2) sahibkarlar tərəfindən ödənilən vergilər;
3) texnoloji dəyişikliklər;
4) mövcud olan əsas kapital;
5) sahibkarların gözləntiləri.

Bütövlükdə, ölkədə investisiya fəallığının artırılması üçün qeyd edilən amillərin nəzərə alınması və onların təsirinin qiymətləndirilməsi zəruridir. Bu qiymətləndirmələri nəzərə almaqla ölkədə investisiya fəallığının artırılması istiqamətində konkret tədbirlər planının hazırlanması

və reallaşdırılması hesabına iqtisadi artımın təmin olunmasına və iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsinə nail olmaq olar.

ƏDƏBİYYAT

1. Aqrar iqtisadiyyatın aktual problemləri. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun 50 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2012, 581 s.
2. Aqrar sahənin dayanıqlı inkişaf problemləri. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı İnstitutunun əməkdaşları tərəfindən hazırlanmış monoqrafiya. Bakı, 2012, 438 s.
3. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Dərslik. prof. İ.Ş.Qarayevin rəhbərliyi altında. Bakı, "İqtisad Universiteti", 2011, 522 s.
4. İbrahimov E.R. Aqrar sahibkarlığın inkişafının iqtisadi problemləri. Monoqrafiya. Gəncə, 2010, 380 s.
5. Alıyev İ.H. Milli iqtisadiyyat və aqrar sahənin inkişaf problemləri. Monoqrafiya. Bakı, "Elm", 2006, 380 s.
6. İbrahimov İ.H. Aqrar sahənin iqtisadiyyatı. Monoqrafiya. Bakı, 2016, 655 s.

Джавид Ахмед оглы Агаев
магистр, Азербайджанский Университет Кооперации

Факторы влияющие на инвестиционную деятельность в аграрномсекторе

Резюме

В статье «Факторы влияющие на инвестиционную деятельность в аграрном секторе» рассматриваются основные факторы, влияющие на инвестиционную деятельность в аграрном секторе экономики. Изучаются проблемы формирования инвестиционной среды, влияния на нее банковской процентной ставки, наличия свободных денег и финансового капитала. Определяются возможные предпринимательские риски и эффективность инвестиций.

Ключевые слова: инвестиция, инвестиционная среда, предпринимательский риск, процентная ставка, эффективность, свободные денежные средства, финансовый капитал.

Javid Ahmad Aghayev
master, Azerbaijan Cooperation University

Main factors which affect the investment in agriculture sector

Summary

This article shows main factors which affect the investment in agriculture sector. Problems regarding establishment of investment climate, interest rate affecting this issue, the impact of money and capital are analyzed. Entrepreneurship risks and investment efficiency are defined.

Key words: investment, investment climate, entrepreneurship risks, interest rate, efficiency, the impact of money, finance capital.

Əlisoltan Hacıbaba oğlu BABAYEV
a.e.d., b.e.i.,
Zenfira Kamil qızı ƏLİYEVA
a.e.ü.f.d., dos.
Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu

AZƏRBAYCANIN ÖRTÜLÜ TORPAQ SAHƏLƏRİNDƏ FARAŞ TƏRƏVƏZ İSTEHSALININ VƏZİYYƏTİ VƏ ONUN GƏLƏCƏK İNKİŞAF PERSPEKTİVİ HAQQINDA

Xülasə

Məqalədə Azərbaycanda örtülü sahə tərəvəzçiliyinin müasir vəziyyəti, onun bölgələrdə yerləşmə strukturu və məhsul istehsalı üzrə təhlillər edilmiş, gələcəkdə tikilməsi planlaşdırılmış 400 ha müasir tipli istixanaların yerləşdirilməsi ilə əlaqədar elmi təkliflər verilmişdir.

Açar sözlər: prioritet və digər istixana bitkiləri, bölgələr üzrə qruplar, ixrac yönümlü məhsul, ilboyu fasiləsiz təminat.

***

Son illərdə ölkənin örtülü torpaq sahələrində tərəvəz məhsullarının istehsalı ilbəil artmaqdadır. İstixanalarda becərilən əsas tərəvəz növləri pomidor, xiyar, bibər və badımcan, qismən də digər bitkilərdir. [1, s.114; 2, s. 3; 3, s.7; 4, s.11]


Məlumdur ki, 2017-ci ilin oktyabr ayına qədər ölkə büdcəsinə ən çox valyuta (152,0 mln dollar) məhz pomidor məhsulunun xarici bazarlarda satışından daxil olmuşdur ki, onun da 65%-dən çoxu istixana pomidorunun payına düşür.

Son illərdə istixana tərəvəzçiliyi sahəsində qazanılmış iqtisadi uğurlar, onun kənd təsərrüfatının prioritet istehsal sahələrindən biri olduğunu təsdiq etmişdir. Bununla əlaqədar gələcək 2-3 il ərzində ölkədə 400 ha yeni, müasir tipli istixanaların tikilməsi planlaşdırılmışdır.

Ölkədə prioritet tərəvəz bitkisi olan pomidorun istixana şəraitində istehsalı ilə məşğul olan bölgələrdəki əkin sahəsinə və texniki təchizat səviyyəsinə görə onları 5 qrupa bölmək olar:

Birinci qrupa Şəmkir, Abşeron, Göyçay, Bakı, Salyan və Masallı rayonları daxildir ki, burada da istixanaların sahəsi, respublikada olan istixanaların ümumi sahəsinin (1647,73 ha) 14,3%-ni təşkil edir. Bu rayonlarda müasir tipli istixanalar mövcuddur ki, orada da istehsal olunmuş məhsullar əsasən xaricə ixrac edilir. Bu bölgələrdəki istixanalarda əhalinin bir hissəsi daimi və müvəqqəti işlə təmin edilmişdir ki, bu da ölkədə işsizlik probleminin həllinə kömək deməkdir (qrafik).

Qrafik. Mövcud pomidor istixanalarının bölgələrdə yerləşmə strukturu (Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2017-ci il)



İkinci qrupa pomidor istixana qurğuları ilə yüksək səviyyədə təmin olunmuş 5 rayon (Tovuz, Ağdaş, Samux, Balakən və Sabirabad) daxildir ki, bunların da ümumi sahəsi 151,15 hektardır, bu da mövcud ölkə üzrə istixanaların 11,91%-ni təşkil edir. Təbiidir ki, I və II qruplara aid bölgələrin sayı nə qədər çox olarsa, büdcə gəlirlərinin də miqdarı yüksələr, yerlərdə insanların işlə təminatı artar.

Üçüncü qrupa pomidor istixanaları ilə orta səviyyədə təmin olunmuş 6 rayon (Xaçmaz, Göygöl, Goranboy, Hacıqabul, Ucar və Yevlax) daxildir ki, bu da ölkə üzrə ümumi istixanaların 14,3%-ni təşkil edir. Burada istehsal olunmuş məhsul ölkədə daxili bazarın və iri şəhərlərin əhalisinin faraş məhsula olan tələbatını əhəmiyyətli dərəcədə ödəyir. Belə istixanaların sayının artırılması bölgələrdə kiçik və orta sahibkarlığın inkişafının sürətləndirilməsinə, istixana biznesi mühitinin yaxşılaşmasına səbəb olar.

Dördüncü qrupa pomidor istixanalarının zəif inkişaf etdiyi Xızı, Qazax, Ağcabədi, Bərdə, Şəki və Ağsu rayonları daxildir ki, burada da mövcud istixanaların 14,3%-i cəmləşmişdir. Bu rayonlara məxsus istixanaların texniki-təchizat səviyyəsi, bitkilərin becərilmə texnologiyası, tətbiq olunan sortlar (hibridlər) və bitki müdafiəsi sistemləri nisbətən zəifdir. Burada istehsal olunmuş məhsul yalnız daxili bazarda reallaşdırılır. Bu bölgələrin fermerlərinə maliyyə köməkliyinin göstərilməsi istixana tərəvəzçiliyinin müasir tələblər səviyyəsində inkişafına səbəb olardı.

Beşinci qrupa sadə təchizatlı istixanalarda pomidor istehsalının çox zəif olduğu 19 rayon daxildir ki, onlar da ölkədə olan ümumi istixana sahəsinin 45,24%-ni təşkil edir. Bu rayonlarda müasir tipli istixana qurğularının tikilməsi yerli əhalini işlə təmin etməklə bərabər, eyni zamanda ixrac yönümlü faraş məhsul istehsalını və ölkənin valyuta gəlirlərinin artmasına səbəb olardı.

Dövlət Statistika Komitəsinin rəsmi məlumatına (2017-ci il, 1.VIII) əsasən, hazırda respublikada 2462,88 ha, qeyri-rəsmi statistikaya görə isə 7600 ha istixana sahəsi vardir ki, onun da 76,3%-ində pomidor, 9,73%-ində xiyar, 13,98%-ində isə digər tərəvəz bitkiləri becərilir.

2017-ci ildə ölkə üzrə istixanalarda cəmi 302266,0 t tərəvəz məhsulları istehsal edilmişdir ki, bunun da 272254,2 tonu (90,07%) pomidor, 18246,9 tonu (6,04%) xiyar, 11764,9 tonu (3,89%) isə digər məhsullardır. Rəqəmlərdən göründüyü kimi, pomidor prioritet bitkidir. Ümumiyyətlə götürdükdə ölkənin 42 şəhər və rayonlarında olan istixanalarda tərəvəz məhsulları becərilməkdədir .

Əhalinin ilboyu təzə tərəvəz məhsulları ilə fasiləsiz təminatında və ixrac yönümlü məhsulların həcminin artırılması məqsədi ilə, ölkədə yaxın gələcəkdə 400 ha sahədə müasir tipli yeni istixana qurğularının tikilməsi qərara alınmışdır. Respublikada istixana tərəvəzçiliyinin bölgələrdə tədricən inkişaf etdirilməsi sayəsində, belə məhsulların xaricdən idxalı azalacaqdır ki, bu da xaricə valyuta axınının qarşısının alınmasına səbəb olacaqdır.

Tikilməsi nəzərdə tutulmuş 400 ha istixanaların normal fəaliyyət göstərməsi üçün bir sıra texniki şərtlərin nəzərə alınması vacibdir:

1) tikiləcək istixanalarda fasiləsiz suvarma, içməli su, kanalizasiya xidmətləri, istilik və elektrik təchizatlarının yaradılması;

2) isitmənin qaz vasitəsi ilə, işıqlanmanın və havalandırmanın isə avtomatik idarəetmə sistemi ilə icrası vacibdir.

Bu təminatlar əsasında tikiləcək müasir tipli istixanalarda pomidorun hər kv.m sahədən məhsuldarlığı 40-45 kq, hər bitkidən isə 13-14 kq həddində olacaqdır.

Fikrimizcə, respublikada gələcəkdə istixana tərəvəzçiliyinin aşağıda təklif etdiyimiz bölgələr üzrə genişləndirilməsi, orada əhalinin işlə təminatını yüksəldər və onların maliyyə vəziyyətini yaxşılaşdırar (cədvəl).

Beləliklə, respublikanın rütubətli və quru subtropik iqlimə malik infrastrukturlu ərazilərində müasir tipli yeni istixanaların tikintisinin genişləndirilməsinin böyük iqtisadi-sosial əhəmiyyəti vardır.

Cədvəl 1

Bölgələrdə örtülü torpaq sahələrində qurulacaq 400 ha tərəvəz istixanalarının tikilməsinə dair təklif

Qruplar və onlara aid olan rayonların adları	Tikintinin sahəsi, ha	Karkasın və örtük materialının xarakteri
I qrup - Abşeron, Bakı və Bakı ətrafı, Sumqayıt, Gəncə, Şəmkir, Göyçay, Tovuz, Ağdaş, Ağstafa, Qazax, Samux, Masallı, Lənkəran, Astara, Salyan, Sabirabad, Mingəçevir (17 rayon)	Cəmi 218 ha (hər rayonda 12,82 ha)	Alüminium karkaslı, polikarbonat və ya şüşə örtüklü
II qrup – Kürdəmir, Goranboy, Tərtər, Bərdə, Göyçay, Hacıqabul, Ucar, Ağsu, Gögöl, Yevlax, Ağcabədi, Biləsuvar, İmişli, Neftçala, Cəlilabad, Füzuli (16 rayon)	Cəmi 110 ha (hər rayonda 6,47 ha)	Alüminium karkaslı, şüşə və ya polikarbonat örtüklü
III qrup – Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, İsmayıllı, Quba, Qusar, Xaçmaz, Siyəzən, Şabran, Xızı, Lerik (14 rayon)	Cəmi 56 ha (hər rayonda 4 ha)	Dəmir karkaslı (rənglənmiş və ya Zn-lə örtülmüş şəkildə), şüşə və ya polikarbonat örtüklü
IV qrupa – Naxçıvan, Şərur, Culfa, Sədərək (4 rayon)	Cəmi 16 ha (hər rayonda 4 ha)	Dəmir karkaslı (rənglənmiş və ya Zn-lə örtülmüş şəkildə), şüşə və ya polikarbonat örtüklü

ƏDƏBİYYAT

1. Babayev Ə.H., Əliyeva Z.K. Örtülü sahə qurğularında tərəvəz istehsalının elmi əsasları. "ASİM"-2010 MMC Bakı 2013, 45 s.
2. Babayev Ə.H., Əliyeva Z.K. Pərdə örtüklü yaz istixanaları üçün insuxt əsaslı yeni xiyar hibridlərinin təsərrüfat əlamətləri kompleksinə görə qiymətləndirilməsi ETT. İnstitutunun elmi əsərləri, tematik məcmuəsi, XIV cild, Bakı-2011, s. 113-116.
3. Babayev Ə.H., Əliyeva Z.K. Pərdə örtüklü yaz istixanası şəraitində pomidorun rayonlaşmış Bənövşə, Şəlalə və Şahin sortlarının becərilmə texnologiyasına aid metodik vəsait. "ASİM"-2010 MMC, Bakı, 2013-28 s.
4. Babayev Ə.H., Əliyeva Z.K. Pərdə örtüklü istixana qurğularında pomidor, badımcan, bibər və xiyar bitkiləri. Tərəvəzçinin illik fəaliyyət təqvimi, Bakı, 2016. s. 14-20.

Алисолтан Гаджибаба оглы Бабаев
докт. а.н., с.н.с.,

Зенфира Камил кызы Алиева
докт. фил.по. а.н., дос.
Научно-Исследовательский Институт Овощеводства

Современное состояние производства ранних овощей из сооружений зарытого грунта Азербайджана и перспективы его развития

Резюме

В статье даётся обоснованный научный анализ о современном состоянии производства ранних обощей из сооружений закрытого грунта, о структуре их размещения и о перспективах строительства новых современных теплиц на площади 400 га в различных экономических зонах Азербайджана.

Ключевые слова: приоритетные и другие тепличные растения, группы по зонам, экспортная продукция, беспрерывное годовое обеспечение.

Alisoltan Hajibaba Babaev
Dr. in agrarian sciences,

Zenfira Kamil Aliyeva,
PhD in agrarian sciences, associate professor
Vegetable Scientific-Research İnstitute

The real state of early vegetable production under protected grounds and its future development perspectives

Summary

In the article, the contemporary state of greenhouse vegetable cultivation in Azerbaijan, the analyses for its location structure in regions and production, and the scientific-practical suggestions based on the arrangement of new modern greenhouses in regions, which will be built in 400 ha for future, have been presented.

Key words: priority and other greenhouse plants, groups for regions, export production, all-year round continuous provision.

Полад Русхатович АЗИЗОВ
ст. пред. Азербайджанский Университет

РОЛЬ СЕЛЬСКОГО ХОЗЯЙСТВА В ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ СТРАНЫ

Резюме

Сельское хозяйство является неотъемлемой и важной отраслью всей экономики страны, а также главным источником продовольствия. Роль сельского хозяйства в экономике страны или региона показывает её структуру и уровень развития. Развитие сельского хозяйства в мире обуславливается рядом причин, определяющих исключительную роль аграрного производства в мире. Сельскохозяйственный сектор играет стратегическую роль в процессе экономического развития страны.

Ключевые слова: сельское хозяйство, агросектор, экономика, экономическое развитие.

***

Сельское хозяйство вносит значительный вклад в экономическое процветание развитых стран, и его роль в экономическом развитии менее развитых стран имеет жизненно важное значение. Другими словами, если реальный доход на душу населения низок, основное внимание уделяется сельскому хозяйству и другим основным отраслям. [1, с.14]

История Англии является явным свидетельством того, что Сельскохозяйственная революция предшествовала промышленной революции. В США и Японии также развитие сельского хозяйства в большей степени способствовало их индустриализации. Аналогичным образом, различные недостаточно развитые страны мира, участвующие в процессе экономического развития, в настоящее время изучили ограничения чрезмерного акцента на индустриализацию как средства достижения более высоких реальных доходов на душу населения. [3, с. 8]

Увеличение производства сельскохозяйственной продукции и производительности, как правило, в значительной степени способствуют общему экономическому развитию страны, будет рациональным и целесообразным уделять больше внимания дальнейшему развитию сельскохозяйственного сектора. [1, с.15]

Сельское хозяйство вносит свой вклад в экономическое развитие несколькими способами:

1) Обеспечивая продовольствие и сырье для несельскохозяйственных секторов экономики,

2) Создавая спрос на товары, произведенные в несельскохозяйственных секторах, сельские жители в силу покупательной способности, получаемые ими при продаже товарного излишка,

3) Предоставляя инвестиционные излишки в виде сбережений и налогов, которые будут инвестированы в несельскохозяйственный сектор,

4) Получая ценную валюту через экспорт сельскохозяйственной продукции. [1, с.17]

Роль сельского хозяйства в экономическом развитии:

Сельскохозяйственный сектор является основой экономики, которая обеспечивает основные компоненты для человечества и теперь сырье для индустриализации.

Роль сельского хозяйства в развитии экономики можно сформулировать так:

1. Вклад в национальный доход:

Экономической истории многих развитых стран, говорят о том, что сельскохозяйственное процветание внесло значительный вклад в содействие экономическому развитию. Правильно отмечено, что «ведущие промышленно развитые страны когда-то были преимущественно сельскохозяйственными, а развивающиеся страны по-прежнему занимали доминирующее положение в сельском хозяйстве и в значительной степени вносят свой вклад в национальный доход. В Индии все еще 28% национального дохода поступает из этого сектора.

2. Источник питания:

Сельское хозяйство является основным источником поставок продовольствия для всех стран мира - слаборазвитым, развивающимся или даже развитым. Из-за сильного давления населения в слаборазвитых и развивающихся странах и его быстрого роста спрос на продовольствие растет быстрыми темпами. Если сельское хозяйство не справится с растущим спросом на продовольственные товары, это, как установлено, отрицательно скажется на темпах роста экономики. Таким образом, увеличение предложения продовольствия сельскохозяйственным сектором имеет большое значение для экономического роста страны.

3. Предварительное требование к сырью:

Развитие сельского хозяйства необходимо для улучшения поставок сырья для агропромышленных предприятий, особенно в развивающихся странах. Нехватка сельскохозяйственных товаров влияет на промышленное производство и, соответственно, на повышение общего уровня цен. Это будет препятствовать росту экономики страны. Мукомольные заводы, рисовой шелухи, маслодельные мельницы, хлеб, мясо, молочные продукты сахарные заводы, винодельни, джутовые мельницы, текстильные фабрики и многие другие отрасли промышленности основаны на сельскохозяйственной продукции.

4. Излишки потребителей:

Прогресс в сельскохозяйственном секторе создает излишки для увеличения экспорта сельскохозяйственной продукции. На более ранних этапах развития увеличение заработка на экспорт является более желательным из-за больших напряжений в валютной ситуации, необходимых для финансирования импорта и основных капитальных товаров.

5. Сдвиг рабочей силы:

Первоначально сельское хозяйство поглощает большое количество рабочей силы. В Индии все еще около 62% труда поглощается в этом секторе. Прогресс в сельском хозяйстве позволяет переносить трудовые ресурсы из сельского хозяйства в несельскохозяйственный сектор.

6. Создание инфраструктуры:

Для развития сельского хозяйства требуются дороги, торговые площадки, хранилища, транспортные железные дороги, почтовые услуги и многие другие для инфраструктуры, создающей спрос на промышленные товары и развитие коммерческого сектора.

7. Освобождение от нехватки капитала:

Развитие сельскохозяйственного сектора сведено к минимуму бремя нескольких развитых стран, столкнувшихся с нехваткой иностранного капитала. Если иностранный капитал доступен с привязанными к нему «струнами», это создаст еще одну серьезную проблему.

Сельскохозяйственный сектор требует меньшего капитала для своего развития, поэтому он сводит к минимуму проблему роста иностранного капитала.

8. Помогает уменьшить неравенство:

В стране, которая является преимущественно сельскохозяйственной и перенаселенной, растет неравенство доходов между сельскими и городскими районами страны. Чтобы уменьшить это неравенство доходов, необходимо уделять больше внимания сельскому хозяйству. Благосостояние сельского хозяйства повысило бы доходы большинства сельского населения, и, следовательно, неравенство в доходах может быть уменьшено до определенной степени.

9. Основываясь на демократических представлениях:

Если сельскохозяйственный сектор не будет расти быстрее, это может привести к растущему недовольству среди масс, которые никогда не являются здоровыми для бесперебойного функционирования демократических правительств. Для экономического развития необходимо свести к минимуму как политическую, так и социальную напряженность. В случае, если большинство людей нужно воспламенять надеждами на процветание, это может быть достигнуто с помощью сельскохозяйственного прогресса. Таким образом, развитие сельскохозяйственного сектора также актуально по политическим и социальным причинам.

10. Создать эффективный спрос:

Развитие сельскохозяйственного сектора будет способствовать увеличению покупательной способности агрономов, что будет способствовать росту несельскохозяйственного сектора страны. Это обеспечит рынок для увеличения производства. В слаборазвитых странах хорошо известно, что большинство людей зависит от сельского хозяйства, и именно они должны быть в состоянии позволить себе потреблять произведенные товары.

11. Полезно в поэтапном отказе от экономической депрессии:

Во время депрессии промышленное производство может быть остановлено или сокращено, но сельскохозяйственное производство продолжается по мере того, как оно производит основные жизненные потребности. Таким образом, он продолжает создавать эффективный спрос даже в неблагоприятных условиях экономики.

12. Источник иностранной валюты для страны:

Большинство развивающихся стран мира являются экспортерами первичной продукции. Эти продукты вносят 60-70% от их общего объема экспортных поступлений. Таким образом, способность импортировать капитальные товары и машины для промышленного развития в решающей степени зависит от экспорта сельскохозяйственного сектора. Если экспорт сельскохозяйственных товаров не будет увеличиваться с достаточно высокими темпами, эти страны вынуждены будут нести большой дефицит платежного баланса, что приведет к серьезной проблеме с иностранной валютой.

13. Вклад в формирование капитала:

Недоразвитые и развивающиеся страны нуждаются в огромном капитале для своего экономического развития. На начальных этапах экономического развития именно сельское хозяйство является значительным источником капитала.

14. Возможности занятости для сельских жителей:

Сельское хозяйство предоставляет возможности трудоустройства для сельских жителей в больших масштабах в слаборазвитых и развивающихся странах. Это важный источник средств к существованию. Эти сельские подразделения выполняют только местные требования. В Индии около 70,6% общей рабочей силы зависит от сельского хозяйства.

15. Улучшение благосостояния сельских районов:

Настало время, когда сельская экономика зависит от сельского хозяйства и смежных профессий в слаборазвитой стране. Возрастающий излишек сельскохозяйственной продукции, вызванный увеличением сельскохозяйственного производства и производительности, имеет тенденцию улучшать социальное обеспечение, особенно в сельских районах. Таким образом уровень жизни сельских масс будет расти.

16. Расширение рынка промышленной продукции:

В результате сельскохозяйственного прогресса будет продолжен рынок промышленной продукции. Повышение производительности сельского хозяйства приводит к увеличению доходов сельского населения, что приводит к увеличению спроса на промышленные товары, таким образом, развитию промышленного сектора. [2, с.74]

Увеличение сельскохозяйственного производства и рост доходов на душу населения сельского населения, а также индустриализация и урбанизация приводят к увеличению спроса на промышленное производство. Таким образом, сельскохозяйственный сектор помогает содействовать экономическому росту путем обеспечения в качестве дополнения к промышленному сектору. [3, с. 22]

Заключение

Из приведенного выше объяснения мы делаем вывод, что развитие сельского хозяйства является обязательным условием экономического развития страны. Развитые страны делают упор на развитие сельского хозяйства. По словам А.Смита, «сельскохозяйственный прогресс имеет важное значение для обеспечения продовольствия для выращивания несельскохозяйственной рабочей силы, сырья для промышленного производства и экономии и налоговых поступлений для поддержки развития остальной экономики, для получения иностранной валюты и для обеспечения растущего рынка для отечественных производителей». И в этом Азербайджан имеет большие возможности для удовлетворения спроса на сельскохозяйственную продукцию как на внутреннем рынке, так и наращивание производства для экспорта на мировые рынки.

ЛИТЕРАТУРЫ

1. İ.e.d., prof. Eldar Allahyar oğlu Quliyev. Aqrar iqtisadiyyat. Ali məktəblər üçün dərs vəsaiti. Bakı,“Kooperasiya”, 2015.
2. Адуков Р.Х, Адукова А.Н. и др. Управление сельским хозяйством в условиях ВТО: возможности регулирования бюджетной поддержки - М.: ООО «НИПКЦ Восход-А», 2013. -200 с.
3. Цатхланова Т.Т. Условия эффективного функционирования сельскохозяйственного производства. Управление экономическими системами: электронный научный журнал. 2011. № 33.

Polad Rüsxət oğlu Əzizov
b/m. Azərbaycan Universiteti

Ölkənin iqtisadi inkişafında kənd təsərrüfatının rolu

Xülasə

Kənd təsərrüfatı ölkənin bütün iqtisadiyyatının ayrılmaz və vacib bir hissəsidir, eyni zamanda ərzaq təminatının əsas mənbəyidir. Ölkə və ya region iqtisadiyyatının inkişaf səviyyəsi kənd təsərrüfatı və onun strukturuna görə də müəyyən edilir. Kənd təsərrüfatının inkişafı dünyada aqrar istehsalın müstəsna rolunu müəyyənləşdirən bir sıra səbəblərlə şərtlənir. Eyni zamanda kənd təsərrüfatı sektoru ölkənin iqtisadi inkişaf prosesində strateji rol oynayır.

Açar sözlər: kənd təsərrüfatı, aqrar sahə, iqtisadiyyat, iqtisadi inkişaf.

Polad Ruskhat Azizov
h/t., Azerbaijan University

The role of agriculture in the economic development of the country

Summary

Agriculture is an integral and important branch of the entire economy of the country, as well as the main source of food. The role of agriculture in the economy of a country or region shows

its structure and level of development. The development of agriculture in the world is determined by a number of factors that determine the exceptional role of agricultural production in the world. The agricultural sector plays a strategic role in the country's economic development.

Key words: agriculture, agricultural sector, economy, economic development.

Gülsüm Ağababa qızı ABDULLAYEVA
AKU, «Coğrafiya və ekologiya» kafedrası, magistr

KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ RƏQABƏT QABİLİYYƏTİNİN YÜKSƏDİLMƏSİNİN SƏMƏRƏLİ TƏŞKİLİ METODLARI

Xülasə

Kənd təsərrüfatının ərazi təşkilində səmərəli tədqiqat metodlarına dair mənbələr təhlil olunur. Bu məqsədlə rəqabətədavamlı kənd təsərrüfatı məhsullarının inkişafına önəm gətirilmişdir.

Açar sözlər: dayanıqlı inkişaf, innovativ iqtisadiyyat, kənd təsərrüfatının çoxfunksionallığı.

***

"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" ndə iqtisadiyyatın əsas sektorlarının başlıca istiqamətləri səmərəli təhlillərlə əsaslandırılmışdır. Bu sferada respublikanın kənd təsərrüfatının inkişaf istiqamətləri dair təhlili prinsipləri qarşıya məqsəd qoyulmuşdur. Təhlil zamanı müxtəlif beynəlxalq təcrübəyə əsaslanan metodların səmərəli təşkili ilə aqrar sahədə rəqabət qabiliyyətinin yüksəldilməsi problemlərinin həlli prioritetlərdən hesab edilmişdir.

Bildiyimiz kimi, hazırda bütün beynəlxalq bazarlarda olduğu kimi kənd təsərrüfatı bazarlarında da keyfiyyətli məhsul uğrunda rəqabət gedir. Bu istiqamətdə yüksək keyfiyyətli, ixrac tutumlu, beynəlxalq bazarlarda müqayisəli üstünlüyə malik məhsul istehsalı ən mühüm məsələlərdəndir. Keyfiyyətli məhsul istehsalı, aqrar sahədə rəqabət qabiliyyətinin yüksəldilməsi üçün ilk növbədə aqrar struktur sahələrinin inkişafına mane olan aspektlərə nəzər salaq. Bunlardan- emal sahələrinin zəif inkişafı, kənd təsərrüfatı infrastrukturu, nəqliyyat əlaqələrinin lazımi səviyyədə olmaması; iri həcmli kənd təsərrüfatı emal müəssisələrinin optimal səviyyədə olmaması, istehsal diversifikasiyasının zəif inkişafı, ixtisaslı kadr çatışmazlığı əsas səbəblərdəndir. Bu problemlərin səmərəli həlli istiqamətində beynəlxalq təcrübəyə istinadən bir neçə metodun təhlil və tətbiqi istiqamətinə nəzər salaq.

İlk olaraq qeyd edək ki, qloballaşma dövrünü yaşadığımız bir zamanda ***innovativ iqtisadi inkişafın*** səmərəliliyi prinsiplərini və hər bir sahənin *elmi əsaslarla* təşkilinin daha effektiv nəticə verə biləcəyinin vacibliyini nəzərə alaq.

1. İnnovativ iqtisadi inkişaf - dayanıqlı dialektik elm və istehsal arasında əlaqələrin yaradılması və idarəedilməsi müstəvisində həyata keçirilir. [2, s.137] İnnovasiya qloballaşan cəmiyyətin fəlsəfəsinin ayrılmaz prosesi olmaqla yanaşı, dayanıqlı inkişafın istehsal əlaqələrinin potensial tsiklini tamamlayır və inkişaf etdirir. Məntiqi olaraq aydındır ki, istər emal prosesinin, istərsə də istehsal diversifikasiyasının optimal səviyyədə təşkilində innovativ texnoloji əsasların tətbiqi olduqca zəruridir. Müasir regional inkişaf miqyasında innovativ iqtisadi inkişafın məzmunu aşağıdakı funksiyaları özündə birləşdirir:

***** resurs potensialının "kəmiyyət - keyfiyyət" transformasiyasının idarəolunan funksiyanın dialektik məntiqi nəticəsi formasında fəaliyyəti;

***** qlobal-iqtisadi prosesin dayanıqlılığında tsiklli inkişaf ritminin fəaliyyəti;

***** informasiya və strateji kreativ resurs fəaliyyəti.

Müasir dövrün tələbləri baxımından inkişaf etmiş makrosənaye ölkələri (ABŞ, Yaponiya və s.) "bilik iqtisadiyyatı"nın optimallığının nəticəsində dünyanın "güc qüvvəsi"nə çevrilmişdir. Son dövrlər Şimali Avropa ölkələri (İsveç, Norveç,Belçika, Finlandiya) innovativ adaptasiya nəticəsində müxtəlif sahələrdə kifayət qədər inkişaf etmişlər. Asiya ölkələri (Çin, Hindistan, Sinqapur, İndoneziya və s.) bu sahələr üzrə əhəmiyyətli dərəcədə fəallıq göstərir.

Kənd təsərrüfatında texnoloji irəliləyişlərə nail olmaq, həmçinin istehsal prosesinin dayanıqlı inkişafını təmin etmək üçün, yeni innovativ texnologiyaların tətbiqinə nail olmaq vacibdir. Bu istiqamətdə son illərdə respublikada bir sıra proqramlar həyata keçirilmişdir. Azərbaycan ilə Yaponiya arasında imzalanmış Notalar mübadiləsinə əsasən müxtəlif kənd təsərrüfatı texnikası ölkəmizə gətirilmişdir. Ölkənin kənd təsərrüfatı sahəsinə digər ölkələrdən texnika və avadanlıqlar daxil olmaqdadır.

2. Kənd təsərrüfatının çoxfunksionallığı modeli - BMT-nin Rio-de-Janeyro sammitində (1992-ci il) qəbul olunmuş kənd təsərrüfatının çoxfunksionallığı termini "kənd təsərrüfatının çoxfunksionallığına xüsusilə ərzaq təhlükəsizliyi və dayanıqlı inkişafın təmin olunması məsələləri aiddir" ifadəsində öz əksini tapmışdır. Bu konsepsiya ərazi-istehsal resurslarından kompleks istifadə edən sahələri əhatə edən optimal konsepsiyadır.

Beləliklə, ***kənd təsərrüfatının çoxfunksionallığı konsepsiyası:*** torpaqdan, insan resurslarından və kapitaldan istifadənin optimallaşdırılması və kəndin sosial inkişafının təmin edilməsi, ətraf mühitin qorunması və təkrar istehsal əsasında cəmiyyətin ərzaq məhsullarına artan tələbatını təmin etmək məqsədilə kənd təsərrüfatı istehsalının fasiləsiz artmasına nail olunması deməkdir [1, s. 21].

Elmi mənbələrin təhlilləri göstərir ki, kənd təsərrüfatı coğrafiyasının çoxfunksionallığı konsepsiyasından bir sıra Avropa Birliyi ölkələri, Yaponiya, sənaye cəhətdən inkişaf etmiş bir sıra ölkələr (Cənubi Koreya, İsrail, Norveç və s.) istifadə etmiş və iqtisadi səmərəlilik əldə etmişlər.

Bu modelin metod və prinsiplərinin respublikamızın aqrar sferasında tətbiqində əsas məqsəd, rəqabətədavamlı, çoxçeşidli, yüksək potensial imkanlara malik keyfiyyətli məhsul istehsalına nail olmaqdır. Mahiyyət etibarilə çoxfunksionallıq modelinin düzgün tətbiqi respublikamızda aqrar sektorda gedən zəif emal prosesinin sürətlənməsinə, məhsulun istehsal diversifikasiyasının çeşidlənməsinə səbəb olmaqla, bu kimi problemləri aradan qaldırmış olacaqdır. Qloballaşma şəraitində kənd təsərrüfatı sahələri ölkənin ixrac potensialını yaratmaqla bərabər, həmçinin daxili bazarın qorunmasında əhəmiyyətli dərəcədə təsir göstərir. Məlumdur ki, hər bir inkişaf etmiş dövlət ilk növbədə ölkə əhalisinin daxili tələbatını tam şəkildə ödəməklə xaricə məhsul ixracını həyata keçirə bilər.

Kənd təsərrüfatının çoxfunksionallığı modeli bu səbəbdən iqtisadi coğrafiya elminin tədqiqat mənbələrində istehsal sahələrinin ən optimal idarəetmə funksiyalarından biri kimi götürülür. Bu model iqtisadi-coğrafi araşdırmaların dayanıqlı inkişafının mühüm dinamik formalaşma səviyyəsi olub, bazar anlayışının məzmununda onun funksiyaları strateji xətt ilə inkişaf etməkdədir. Azərbaycan iqtisadi strategiyasının əsas məsələlərindən biri kənd təsərrüfatının makroiqtisadi səviyyədə iqtisadi-coğrafi kodeksində öyrənilməsindən ibarətdir. Bu məsələnin əsas ideyası bazar modelinə əsaslanan kənd təsərrüfatının texnoloji əsaslarla çoxfunksional modeldə təşkili və idarə edilməsidir.

Məntiqi olaraq çoxfunksionallıq modelinin tətbiqi ərazinin daxili resurslarından səmərəli istifadəni təmin etməklə kənd təsərrüfatının ərazi-istehsal münasibətlərinin formalaşmasına şərait yaradır. Bu məqsədlə aşağıdakı aspektlərə diqqət yetirilməlidir:

***** dayanıqlı ərazi təşkilinin təminatı;

***** aqrar-sənaye tsikllərinin modelləşdirilməsi;

***** coğrafi mühitin istifadə səviyyəsini optimallaşdırmaqla aqrar sahədə innovasion-texnoloji xəttin modernizasiyası;

***** bu metodun (çoxfunksionallıq) prinsiplərinə əsasən kənd təsərrüfatı məhsullarının istehsalını artırmaqla əhalinin daxili tələbatının ödənilməsi;

* beynəlxalq bazar standartlarına müvafiq məhsul istehsalı və ixrac potensialının təşkili.

Yuxarıda göstərilən problemlərin həlli nəticəsində respublikada aqrar sahə iqtisadiyyatında çoxfunksionallıq sahələrinin yaranması hesabına dayanıqlı inkişafa nail olmaq mümkündür. Dayanıqlı inkişaflı bir çox dünya ölkələrində olduğu kimi Azərbaycanda da transformasiya şəraitində kənd təsərrüfatının modernizasiyası prosesləri baş verir. Bu maksimalist yanaşma nəticəsində aqrar sənaye sahələrinin düzgün modelləşməsi səmərəli tənzimləmə siyasətinə uyğunlaşdırılmalıdır.

Çoxfunksional inkişafın iqtisadi-sosial və siyasi xarakteristikasına dair müxtəlif istiqamətli tədqiqat nəticələrinin kompleksliliyini özündə əks etdirən ideyalar təklif olunur. Ümumilikdə isə regionun çoxfunksionallıq konsepsiyasına - iqtisadi inkişafın təhlükəsizliyi, dayanıqlı inkişaf modeli əsasında məhsul istehsalı, iqtisadi strukturların komleks inkişafı, ərazi-istehsal sistemində ekoloji tarazlığın təmin edilməsi, rəqabətədavamlı və ixractutumlu məhsul əldə edilməsi və s. qeyd etdiyimiz bu kimi prinsiplərin əsasını təşkil edir.

3. Aqrar sahədə klaster metodu - Klaster (ingilis dilində cluster - "qarşılıqlı vəhdət" deməkdir) ifadəsinin məzmunu - eyni növlü müxtəlif obyektlərin qarşılıqlı istehsal sahələrinin müəyyən vahidlərinin yaranması və ərazi təşkili kimi qəbul olunmuşdur. [2, s. 158] Qərb ölkələrinin elmi mənbələrində daha çox istifadə edilən klaster təlimi ərazi strukturlarının təşkili və idarə edilməsi prosesində yeni məzmun almışdır. ***Klaster*** - milli aqrar iqtisadiyyatın rəqabət qabiliyyətinə təminat verən, iqtisadi subyektlərin fəaliyyətini uyğunlaşdıran, bir-birinə qarşılıqlı yardım göstərən dayanıqlı iqtisadi sistemdir. Ərazi strukturlarının təşkili prosesində məqsədli formada klaster metodu əsasən iki istiqamətdə aparılması ideyasına əsaslanır: 1)-regional təbii-iqtisadi resursların dialektik vəhdətinin əsasında kənd təsərrüfatının struktur inkişafının ideyalarının gerçəkləşdirilməsi; 2)-regional srtukturların strateji inkişafı çərçivəsində qarşılıqlı vəhdətini təmin edən investisiya və rəqabətədavamlı funksiyaların təhlilinin elmi-praktiki əsaslandırılması.

Səmərəli hesab olunan metodlar sistemində son illər klaster metodundan geniş istifadə edilir. Klaster metodu ideya və məzmunca enerji-istehsal tsikllər nəzəriyyəsinə çox yaxındır. Əsas fərqli cəhət ondan ibarətdir ki, klaster metodunun real nəticələri qloballaşan iqtisadi funksiyaları, xüsusən bazar münasibətlərini təhlil edir. Klaster metodu ərazi-istehsal strukturlarının idarə edilməsi, əhalinin məskunlaşması, sosial, siyasi, ekoloji və s. sferaların dialektikası çərçivəsində əsaslanır. Başqa ifadə ilə desək, klaster metodu "təbiət-cəmiyyət" əlaqələrinin şaxələnməsi üzrə təhlillər aparır.

Ərazi-istehsal kompleksinin (ƏİK) klasterial idarə edilməsinin əhəmiyyəti göstərir ki, ölkənin ümumi inkişafında emaledici müəssisələrin iqdisadi təhlili önəmlidir. Təhlillər göstərir ki, emaledici komplekslərin elmi əsaslarla yaradılması, istehsal tsikllərinin idarəedilməsi klaster metodunun araşdırılmasının tərkib hissəsidir. ƏİK-nin fəaliyyəti hər bir ölkənin milli iqtisadi inkişafının mövcud durumundan, elm və kapital resurs təminatından bilavasitə asılıdır. [5, s.107]

Klaster metodunun əsasında funksional üstünlüklərin təhlili tipoloji cəhətdən mühüm elmi-praktiki əhəmiyyət kəsb edir. Təhlillər göstərir ki, funksional strukturun təşkili və idarəedilməsində klaster metodunun tətbiqindən çox asılıdır. İlkin olaraq ölkənin rəqabətədavamlı sənaye və aqrar kompleks məhsullarının diversifikasiyası və məhsulun ixrac potensialının coğrafiyası çərçivəsinin tamamlanmasında klaster metodu fəallıq göstərir. Klaster metodiki yanaşma tərzi ölkənin iqtisadi-sosial və siyasi inkişafının təminatında vacib sayılır.

Respublikamızın dialektik inkişafına əsasən dayanıqlı inkişaf tempi müxtəlif klasterlərə üstünlük verilməsi şəraitində təmin olunmalıdır. Regionlar üzrə klasterlərin yaradılması və idarə edilməsi nəticəsində ərazi-istehsal strukturlarının inkişaf səviyyəsi yüksəlir və nəticədə istehsal sahələrinin formalaşması baş verir. Formalaşmış sahələr öz növbəsində klasterin ayrı-ayrı komponentlərinin yaranmasına şərait yaradır.

Nəticə etibarilə mövcud olan tədqiqatlar göstərir ki, ƏİK-nin sahələrinin klasterial metodlarla təşkilinin strateji mahiyyəti ölkənin ümumi iqtisadi-sosial dəyişkənliyində, xüsusilə məhsulun keyfiyyət dəyərinin yüksəldilməsində mühüm əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Qurbanzadə A.A. "Azərbaycanın kənd təsərrüfatı coğrafiyası". Bakı-2011.
2. Qurbanzadə A.A. "Regionalogiya". Bakı-2013.
3. Vəliyev Ə.M. "Azərbaycanın Şirvan iqtisadi rayonunda məskunlaşmanın sosial-coğrafi problemləri". Bakı-1994.
4. www.stat.gov.az
5. Qurbanzadə A.A. "Analitik coğrafiya". Bakı-2018.

Гюлсьум Агабаба Абдуллаева
АУК, факультет «Географии и екологии» магистр

Эффективная организация пошывения конкурентостпособности сельскохоляйственной продукции

Резюме

Источники еффективных исследовательских методологий анализируются в области организации селького хозяозяйства. С етой целью поощряются развитие конкурентоспособной продукции.

Ключие слова: устойчивое развитие, инновационная экономика, многофункциональность селького хозяозяйства.

Gulsum Agababa Abdullayeva
ACU, Department of Geography and ecology, master

Effective organization of raising competitiveness of agricultural products

Summary

The sources of effective research methodologies are analyzed in the field organization of agriculture. For this purpose, the development of competitive agricultural products has been promoted.

Key words: sustainable development, innovative economy, multifunctionality of agriculture.

Natiq Qədim oğlu HACIYEV
i.f.d., baş müəllim
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
«İqtisadiyyatın tənzimlənməsi» kafedrası

AQRAR SAHƏDƏ İNVESTİSİYANIN SƏMƏRƏLİLİYİNİN MÜƏYYƏN EDİLMƏSİNİN METODİKASI VƏ QİYMƏTLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

Xülasə

Məqalədə aqrar sahədə investisiyanın səmərəliliyinin müəyyən edilməsinin metodikasi və qiymətləndirilməsi məsələləri araşdırılıb, kənd təsərrüfatına kapital qoyuluşunun əhəmiyyətliyi əsaslandırılmış, dövlətin investisiya siyasətinin vacib xüsusiyyəti göstərilmiş və nəzəri-metodoloji mülahizələri şərh edilmişdir.

Açar sözlər: aqrar sahə, investisiya, investisiyaların orta səmərəliliyi modeli.

***

Kənd təsərrüfatı az mənfəətli və kapital qoyuluşu üçün az cəlbedici olan əsas sahədir, lakin bütün iqtisadiyyatın artımı onun inkişafından asılıdır. [7, s. 107] Ümumdünya iqtisadi-maliyyə böhranı və intensiv qloballaşma şəraitində aqrar iqtisadiyyatın pozitiv inkişaf etdirilməsi üçün kənd təsərrüfatının ayrı-ayrı sahələrində investisiya layihələrinin səmərəliliyinin yüksəldilməsinə yönəldilmiş zəruri zəmin yaratmaq lazımdır. [6]

Mövcud təsərrüfat şəraitinin dərin təhlili nəticəsində ölkənin iqtisadi və sosial inkişafının konkret vəzifələrinin nəzərə alınması ilə hökumət özünün iqtisadi strategiyasının əsas problemi kimi, bütün sahələrin və sferaların əsasən intensiv yoluna köçürülməsi yolu ilə sürətləndirilmiş inkişafını irəli sürmüşdür. Bu, əməyin optimal intensivliyini, bütün istehsal və təbii resursların qənaətini, malik olunan istehsal fondlarından və investisiyalardan yekun iqtisadi nəticələrin yaxşılaşdırılmasını və yekunda isə iqtisadi səmərəliliyin yüksəldilməsini təmin edən tam şəkildə

kompleks elmi-texniki, təşkilati, iqtisadi və sosial tədbirləri daxil edir. Burada həlledici rol investisiya sferasına məxsusdur, hansı ki, kapital qoyuluşunun əsas fondları şəklində maddiləşir.

İnvestisiya siyasətinin vacib xüsusiyyətinə ETT-nin sürətləndirilməsinə MT təminatın və aqrar sahədə istehsal strukturunun keyfiyyət və yenidən təşkil edilməsinin zəmininin (özülünün) yaradılması aiddir. Bu siyasətin uğurlu şəkildə həyata keçirilməsi daha çox ayrılan resursların nə qədər səmərəli istifadəsilə, investisiyaların sahəvi aspektdə və təkrar istehsal strukturu aspektində istiqamətlərilə əlaqəlidir.

Kənd təsərrüfatında investisiyaların formalaşması iqtisadi əsasla qoyulmuş vəsaitlərin geri qaytarılmasının sürətinin nəzərə alınması ilə həyata keçirilir. [5] İnvestisiyaların təkrar istehsal strukturu onun müxtəlif istiqamətləri arasında nisbəti əks etdirir. Müasir şəraitdə aqrar sahədə texniki yenidənsilahlanmaya və rekonstruksiyaya istiqamətlənmiş investisiyaların xüsusi çəkisi artmaqdadır. Əsas məsələ az səmərəli avadanlıqların mütərəqqi, yüksək məhsuldarlığa malik olan avadanlıqlarla daha sürətli şəkildə dəyişdirilməsindən ibarətdir.

Həqiqətən də, aqrar sahədə iqtisadi səmərəliliyin yüksəldilməsi və əmək məhsuldarlığının sürətləndirilməsi mövcud aqrar sahə müəssisələrinin texniki yenidənsilahlanması, əməyin əl proseslərinin minimuma endirilməsi vacib əhəmiyyət kəsb edir ki, bu da investisiyanın təkrar istehsal quruluşunun dəyişməsini doğurur. Aqrar sahədə intensifikasiyanın maraqları, ağırlıq mərkəzinin investisiyaların yeni tikintidən mövcud müəssisələrin texniki yenidən silahlanmasına və rekonstruksiyaya yönəldilməsini tələb edir.

Bu onunla bağlıdır ki, aqrar sahədə bir tərəfdən rekonstruksiya və texniki yenidənsilahlanma probleminə və digər tərəfdən genişlənməyə və ya yeni tikili probleminə sadəlikcəsinə yanaşmaq olmaz. Heç də nadir olmayaraq bəzi yeni aqrar sahə müəssisələri, hansılar ki, ən mütərəqqi texnologiyadan istifadə edirlər, belə sadələşdirilmiş yanaşma zamanı təkrar istehsalın ekstensiv növü kimi istehsal prosesinin köhnə texnologiya ilə və iqtisadi əsaslarla davam etdiyi rekonstruksiya edilmiş müəssisələr isə intensivlik sırasına daxil olurlar. Buna görə də aqrar sahə müəssisələrində investisiyaların real səmərəsinin olması, istər yeni tikili olsun və ya istər rekonstruksiya olunmuş olsun, aqrar sahədə intensivliyin sürətləndirilməsi üzrə məsələlərin həlli üçün investisiyaların istiqamətlərini müəyyən edir.

Müasir iqtisadi durum investisiyaların idarə edilməsinin mexanizminin formalaşmasına yeni yanaşma tələb edir. Sahələrarası inteqrasiya diapazonunun genişlənməsi, müxtəlif növ kapital vəsaitlərinin tətbiqi aqrar sahədə investisiyaların bir sıra nəzəri-metodoloji müddəalarının yaxşılaşdırılmasını tələb edir. [2, s. 30] Bu hər şeydən qabaq real bazar münasibətləri şəraitində, başqa sözlə, yeni təsərrüfatçılıq şəraitində investisiyaların müəyyən edilməsinin və qiymətləndirilməsinin məzmununa və üsullarına edilən tələblərin formalaşmasına aiddir. Aşağıda iqtisadi ədəbiyyatda kifayət qədər işıqlanmayan, lakin, praktiki baxımdan geniş yayılmış, qiymətləndirmə üsullarının idarəetmənin ümumi alqoritmində öz əksini tapan, investisiyaların səmərəlilik göstəricilərinin hesablanması və ya onun ölçülməsi üsulları tədqiqinə cəhd ediləcəkdir.

Aqrar sahədə investisiyaların həcminin artımı milli layihələr çərçivəsində aqrobiznesin güzəştli kreditləşdirilməsinin inkişafı ilə birbaşa bağlıdır. [3, s. 23]

Aqrar sahədə istehsalın hərtərəfli intensivliyinin artırılmasına yönəlmiş tədbirlər iki istiqaməti əhatə edir. Onlardan biri, yaradılmış potensialın və bütün resursların verim göstəricilərinin yüksəldilməsinə əsaslanan geniş təkrar istehsalın intensivləşdirici təsirinə, ikinci isə aqrar sahədə ETT-nin nailiyyətlərinin reallaşmasının birdəfəlik xərclərlə bağlılığı ilə müşayiət olunan geniş təkrar istehsalın intensivləşdirici təsirinə əsaslanır. Onların həyata keçirilməsi daima artan verim tələb edir. Məhz investisiyaların səmərəliliyinin yüksəldilməsi bundan ibarətdir.

İnvestisiya fəaliyyətinin inkişafı üçün stimulların yaradılması sahəsində dövlətin dəqiq, dürüst, şəffaf, elmi tədqiqatlara əsaslanan və ardıcıl iqtisadi siyasəti iqtisadiyyatın aqrar sferasına potensial investorların cəlb olunmasına səbəb olur. [1, s.1448]

Investisiyaların səmərəliliyi nəzəriyyəsinin problemlərinin tədqiqatçıları arasında nəticə və ya səmərənin onu doğuran xərclərə nisbəti şəklində müvafiq göstəricilərinin müəyyən edilməsinin ümumi sxemi məsələsi üzrə heç bir ziddiyyətlər yoxdur. Lakin çoxlu miqdarda suallar

(məsələlər) mövcuddur ki, onları həll etmədən hesablama münasibətində çox sadə olan göstəricini real iqtisadi məzmunla doldurmaq çətin olacaqdır.

Aqrar sektorun investisiya inkişafı – bu, müdafiə olunan daxili bazar və Çin və Belarusiyaya xarakterik olan ixraca səmtlənmiş milli istehsaldır. [4, s. 343]

Axın kimi araşdırılan investisiya zaman ritmliyinə, təkrar istehsal və texnoloji strukturlara malikdirlər ki, bunları da aqrar sahədə investisiyaların səmərəliliyinin müəyyən edilməsi zamanı nəzərə almaq lazımdır. Əgər investisiyaların səmərəliliyinin ölçülməsi bu müvafiq göstəricilərin səviyyəsinin müəyyən edilməsidirsə, onda onun qiymətləndirilməsi isə onun səviyyəsinin təyin olunmuş tələblərə uyğunluq dərəcəsinin tapılmasını bildirir. Bunlar haqda informasiyaya səmərəlilik normativləri malikdirlər. İnvestisiyaların səmərəliliyi nəzəriyyəsinin, onun müəyyən edilməsinin doğruluğunun yüksəldilməsi şərti kimi inkişafının vacibliyi və aktuallığı həm də onların həcmlərindən irəli gəlir.

Aqrar sahədə investisiyaların orta səmərəliliyi modelinin fermer təsərrüfatları və aqrar sahəyə daxil olan ayrı müəssisələr tipləri səviyyəsində həyata keçirilməsi zəruridir. Prinsipial münasibətdə burada yanaşma region və ya ölkə üçün olduğu kimidir. Lakin bu zaman fərq ondan ibarətdir ki, investisiya obyektləri kimi yeni müəssisələrin tikintisi və müəssisələrin genişləndirilməsi, texniki yenidənsilahlanma və rekonstruksiya, mövcud aqrar sahə müəssisələrinin gücünün saxlanılması çıxış edir və aqrar sahə müəssisələrinin istehsal və yerləşmə rayonları üzrə ərazi diferensiallaşdırılması ilə digər bəzi istiqamətləri üzrə də fərqlər yaranır.

Aqrar sahəyə aid olan hər bir müəssisə özünün investisiya layihələrini həyata keçirərək öz kollektivində sosial problemlərin həlli ilə də maraqlanmalı və qeydinə qalmalıdır. Nəticə etibarilə isə o, özünün investisiyalarının müəyyən hissəsini qeyri-istehsal sferaya (təbiətin, ətraf mühitin müdafiəsi və normal əmək şəraitinin yaradılması məqsədlərilə) yönəldir, yəni bu məhsul həcminin adi adət olunmuş formasında ifadə oluna bilən nəticələrini verə bilən xərclər olmayacaqdır. Düzdür, bu xərclərə qarşı dəyər formasında qarşısı alınan ziyanın və ya mənfəətin qarşısı alınan itkisinin həcmini qoymaq olar. Aqrar sahədə investisiyaların səmərəliliyinin hesablanmasının və göstəricilərinin təkmilləşdirilməsinin bu istiqamətinin hələ ki, formalaşmaya və inkişaf etdirilməsinə ehtiyacı vardır. Praktik olaraq belə yanaşma iradlı və ya inzibati qərarlarda istifadə olunur. Burada çatışmamazlıq, bu qərarı qəbul edən şəxsin və ya orqanın təcrübəsindən asılı olan qeyri-obyektivliyin və səhvlərin böyük etimalının olmasından ibarətdir.

Aqrar sahə müəssisələri üzrə investisiyaların orta səmərəliliyi ayrı-ayrı tədbirlərə xərclərin səmərəliliyilə və investisiyanın ümumi həcmində onların xüsusi çəkisilə formalaşır. Səmərəlilik nə qədər yüksəkdirsə, daha çox sayda obyektlər birdəfəlik xərclərlə təmin olunacaqdır. Beləliklə, orta səmərəlilik ölçüsü investisiyanı elə bil ki, onların tələbatları ilə balanslaşdırır. Onun, bu resursların, planlaşdırılması investisiya üçün nəzərdə tutulmuş vəsaitlərin istehsal, sosial-mədəni və məişət təyinatlı obyektlər arasında bölüşdürülməsindən ibarət olan mürəkkəb bir vəzifəsini həll etməyə imkan verir. Bu zaman əksdən (tərs) hesablamadan istifadə edərək ayrı-ayrı investisiya obyektləri və istiqamətlər üzrə xərclərin səmərəliliyinin arzu edilən səviyyəsinin əldə edilməsi məqsədilə layihəçilər üçün vəzifəni (tapşırığı) müəyyən etmək olar. Quraşdırmaların konkretliliyi hiss olunan maddi stimullaşdırma ilə vəhdətdə bir qayda olaraq investisiyaların səmərəliliyinin yüksəldilməsinin zəruri hissələrinin və ehtiyatlarının tapılmasına imkan verir. Bu, nəticələrin (investisiyaların nəticələrinin) və xərclərin nisbətlərinin zəruri səviyyəsinə nail olmaqdan ötrü layihəçinin sərəncamında materialların, konstruktivləşmiş qərarlarların, texnologiyalarların, istehsalın təşkilininin və s. çoxlu sayda istifadə üsullarının olması ilə aydınlaşdırılır.

Aqrar sahədə investisiyanın səmərəliliyin idarə edilməsi alqoritminin əsasında, xərclərin ilkin obyektinin müvafiq göstəricisi durur. Burada iqtisadi normativlər vacib rola malikdir.

Öz məzmununa görə investisiyanın səmərəliliyinin normativi - bu onun yol verilən, imkan verilən göstəricisinin sərhəddidir. Xalq təsərrüfatı səviyyəsində investisiyaların səmərəliliyinin normativi cəmiyyətin xalis gəlirinin minimal yol verilən səviyyəsini əks etdirir. Bu da ki, göstərilən xərclərin hər manatından alınmalıdır. İnvestisiyanın ümumi axını üzrə orta səmərəlilik modeli investisiya qoyuluşlarının dəyişməz strukturunda (xərclərin obyektlərinin xüsusi çəkilərinin

daimiliyində) orta səmərəliliyin artımının, ancaq, səmərəliliyin obyektlər üzrə əhəmiyyətinin (göstəricisinin) «azalmamasında» və artımında mümkün olmasından xəbər verir. Bu o haqda deyir ki, onun normativləri kifayət dərəcədə diferensiallaşmış olmalıdırlar. Buradan da, orta səviyyənin azalmamasına zəmanət verən bir hal kimi, nail olunan səviyyədən normalaşdırma cəhdi tam təbii şəkil alır. Lakin normativ kimi yaxşı məlum analoqun - həyata keçirilən və ya layihələşdirən - səmərəliliyini götürmək daha düzgün olardı. Xarici iqtisadi əlaqələrin genişlənməsinə yönələn müasir kursa, tətbiq üsullarında və məqsədlərində olan fərqlərin nəzərə alınması ilə həm yerli və həm də xarici analoqlardan istifadə etmək tam şəkildə cavab verir.

Nəzəri baxımdan, aqrar sahədə investisiyaların orta səmərəliliyinin artımını faktiki şəkildə və ya layihədə nail olunmuş maksimal fərdi səmərəlilik səviyyəsində təyin olunmuş vahid normativ də stimullaşdıra bilər. Lakin bu normativ, müasir şəraitdə onun səviyyəsinə nail olmağın prinsipcə qeyri-mümkünlüyü ilə bağlı olan obyektiv səbəblərdən qeyri-reallaşdırılandır.

Aqrar sahədə iqtisadi inkişafın intensivliyinin əldə olunması üçün investisiyaların səmərəliliyinin normativləri bir sıra tələblərə, xüsusilə tətbiqetmə şərtlərinə uyğun olmasına, çevikliyə, mütərəqqiliyə, iqtisadi məzmunun dəqiqliyinə cavab verməlidir.

Yekun nəticə olaraq aqrar sahədə investisiyaların səmərəliliyinin müəyyən edilməsi metodologiyasının inkişafının müasir istiqamətlərini formalaşdıraq:

1. Xərclərin və nəticələrin müəyyən edilməsi və əsaslandırılması;
2. Aqrar sahə iqtisadiyyatının səviyyələri üzrə (müəssisə, region - sahə) investisiyanın səmərəliliyinin hesablanmasında zaman intervalının nəzərə alınması metodologiyasının işlənib hazırlanması;
3. Variantlar, zaman dövrləri və təsərrüfatçı səviyyələri üzrə səmərəliliyin göstəricilərinin tutuşdurulmasının, qarşılıqlı müqayisənin təmin edilməsi metodikasının yaradılması;
4. İnvestisiyanın səmərəliliyinin artırılması amillərinin və ehtiyatlarının aşkar edilməsi və təsnifləşdirilməsi;
5. İnvestisiyanın səmərəliliyi göstəricilərinin tətbiq sahəsinin təsnifi və müəyyən edilməsi.

ƏDƏBİYYAT

1. Глотова И.И., Томилина Е.П. Оценка инвестиционной активности АПК Ставропольского края и определение направлений его развития // Научно-методический электронный журнал «Концепт».2014. Т. 20. с. 1446-1450. - URL: http://e-koncept.ru /2014/ 54553.htm
2. Мустафаев А.А. Методология оценки инвестиций в АПК// Современные технологии управления. 2014. № 4 (40) с. 28 - 36. Режим доступа: http://sovman.ru/article/
3. Суменков С.Н. За молоко и мясо! Инвестиции как важнейший фактор развития сельского хозяйства //Российское предпринимательство, 2007, № 4 (2) с.22-25.
4. Скульская Л.В., Широкова Т.К. Проблемы развития сельского хозяйства, инвестиционный климат и инновации // Научные труды: Институт народнохозяйственного прогнозирования РАН. 2013. № 11. с. 332-362. URL: http://cyberleninka.ru/article/n/ problemy-razvitiya-selskogo-hozyaystva-investitsionnyy-klimat-i-innovatsii
5. Трусова Н.В., Толмачёва Н.В. Реальные инвестиции в сельском хозяйстве // http://edu.rgazu.ru/file.php/1/vestnik_rgazu/data/20140519154233/026.html
6. Тяпкин Н. Т., Кукина М.А., Панина Н.А. Повышение эффективности инвестиций в сельском хозяйстве// Экономика сельскохозяйственных и перерабатывающих предприятий. М. 2015.№5. http://naukarus.com/povyshenie-effektivnosti-investitsiy-v-selskom-
7. Шкарупа Е. А. Особенности привлечения инвестиций в сельское хозяйство: современное состояние и тенденции развития // Вестник ВолГУ. Серия 3: Экономика. Экология. 2011. №2. URL: http://cyberleninka.ru/article/n/osobennosti-privlecheniya-investitsiy-v-selskoe -hozyaystvo-sovremennoe-sostoyanie-i-tendentsii-razvitiya (data obraheniə: 31.05.2017). s. 107-113.

Натиг Гадим оглы Гаджиев
д.ф.э., ст. пред. АГЭУ

Методика определения и оценка эффективности инвестиций в аграрном секторе

Резюме

В статье исследована методика определения и оценка эффективности инвестиций в аграрном секторе, обоснована значения капитального вложения в сельском хозяйстве, показана важные особенности государственной инвестиционной политики и дана комментарии теоретика - методологическим положениям.

Ключевые слова: аграрный сектор, инвестиция, модели средней эффективности инвестиций.

Natig Gadim Hajiyev
PhD in economics, h/t of UNEC

Method of determining and assessing the effectiveness of investment in agricultural sector

Summary

The paper studies the method of determination and evaluation of investment efficiency in the agricultural sector, justified by the values of capital investments in agriculture shows important features of the state investment policy, and given the comments of the theorist - methodological provisions.

Key words: agricultural sector investment model, the average efficiency of investment.

Hafis Əhməd oğlu HACIYEV
Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC)
"Mühasibat uçotu və audit" kafedrasının dosenti,
iqtisad elmləri namizədi

AQRAR SAHƏNİN RƏQABƏT QABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ İDARƏETMƏ UÇOTUNUN ROLU

Xülasə

Məlum olduğu kimi, bu gün daxili bazarda öz emal güclərini yaratmış, xərclərin və maliyyə resurslarının səmərəli idarə olunmasını təmin edən yeni texnologiyalara sərmayə yatıran, fəaliyyətdə olan aqrar-sənaye kompleksi müəssisələrinin yalnız bir qismi rəqabət qabiliyyətlidir. Aqrar-sənaye kompleksi məhsulunun rəqabət qabiliyyətinin aşağı olmasının əsas səbəblərinə öz məhsulunu istehsal etmək üçün real bazis şəraitinin və potensial imkanların kifayət qədər düzgün nəzərə alınmamasını, məhsulu istehsal etmək üçün ilkin resursların az və baha olmasını, ixracata işləmək üçün marağın aşağı səviyyədə olmasını, idarəetmə uçotu alətlərindən az istifadə olunmasını aid etmək olar. Bu baxımdan məqalədə aqrar-sənaye kompleksi müəssisələrinə rəhbərliyin həyata keçirilməsində idarəetmə uçotunun əhəmiyyəti öyrənilmiş, onun sisteminin seçilməsinə təsir edən amillər və obyektlər qrupları aşkar edilmiş, metodologiyasının inkişaf etdirilməsi zərurəti əsaslandırılmışdır.

Açar sözlər: aqrar-sənaye kompleksi, rəqabət qabiliyyəti, idarəetmə uçotu, informasiya, proseslər, resurslar.

***

Dünya iqtisadiyyatına inteqrasiya etmiş bir çox ölkənin aqrar-sənaye kompleksinin (ASK) inkişafı göstərir ki, təkcə bazar mexanizmlərinin mövcud olması bu gün yaranmış iqtisadi böhranlardan çıxmaq üçün kifayət etmir. ASK-nın təsərrüfat subyektlərinin bazar şəraitində vəziyyəti onların maliyyə-iqtisadi sisteminin son dərəcə qeyri-stabilliyi ilə səciyyələnir, bu da bütövlükdə ölkənin ASK-nın qeyri-qənaətbəxş vəziyyətinə təsir edir. Bazar iqtisadiyyatına keçid prosesin-

də ölkədə ASK-nın təsərrüfat fəaliyyətinin və müəssisələrinin transformasiyası baş verdi. İstər yerli, istərsə də xarici istehsalçıların təklif etdiyi malların çeşidi genişləndi, bu da tələbatın artmasına və bazarın həcminin böyüməsinə gətirib çıxardı. Daha çevik və bazarın tələbatlarına daha tez reaksiya verən özəl sektor yarandı və sürətlə inkişaf etməyə başladı. ASK-nın iri təsərrüfat strukturlarının aparıcı yerləri tutmasına baxmayaraq, kiçik və orta biznes nümayəndələri xərcləri aşağı salmaq, daha ucuz qiymət, satış nöqtələrini istehlakçılara yaxınlaşdırmaq, başqa fəaliyyət növləri ilə məşğul olmaq imkanları axtarmaq hesabına öz rəqabət üstünlüklərini gerçəkləşdirməyə çalışırlar. Ölkə səviyyəsində mühüm iqtisadi islahatların keçirildiyi, təsərrüfat subyektləri səviyyəsində isə idarəetmə prosesinin mürəkkəbləşdiyi müasir təsərrüfatçılıq şəraitində idarəetmə qərarlarının qəbul edilməsində müstəqilliyin əhəmiyyətli dərəcədə genişlənməsi və daxili iqtisadi münasibətlərin müxtəlifliyi inkişafın əsas məzmununu və məqsəd strategiyasını təşkil etməlidir.

ASK müəssisələrinin idarə edilməsinin təkmilləşdirilməsi zərurəti təsərrüfat fəaliyyətinin aparılma xüsusiyyətləri ilə, təbii-iqlim, coğrafi və bioloji-texnoloji amillərdən birbaşa asılılıqla müəyyən olunur. ASK-nın təsərrüfat subyektlərinin fəaliyyətinin idarə edilməsinin təkmilləşdirilməsi probleminin aktuallığı sahədə islahatların aparılmasının mürəkkəb vəzifələri və yüksək rəqabətlə müəyyən olunur. Bu şəraitdə idarəetmə sistemi malların son istehlakçıya doğru hərəkəti ilə bağlı biznes proseslərin yerinə yetirilməsinin səmərəliliyini təmin etməli, menecment isə idarəetmə qərarlarının qəbul edilməsi, müxtəlif səviyyələrdə cari proseslərin təhlilinin aparılması və onlara nəzarəti təmin etmək üçün tam və dolğun informasiya almalıdır.

Ölkədə sosial yönümlü iqtisadiyyatın inkişaf etdirilməsi və sivil aqrar-ərzaq bazarının formalaşması ilə bağlı ən ümdə və strateji vəzifələrin həlli yerli ASK-nın rəqabət qabiliyyətinin artırılması ilə birbaşa bağlıdır. Rəqabət qabiliyyəti anlayışı istənilən təsərrüfat subyektinin fəaliyyətinin məhsul istehsalının planlaşdırılmasından tutmuş satılmasına qədər, demək olar ki, bütün aspektlərini əhatə edir. Bu fakt adı çəkilən iqtisadi kateqoriyanın mürəkkəbliyi və çoxşaxəliliyi, həmçinin onun təmin olunmasına təsir edən çoxsaylı amillərin mövcud olmasından xəbər verir. Bu gün daxili bazarda öz emal güclərini yaratmış, xərclərin və maliyyə resurslarının səmərəli idarə olunmasını təmin edən yeni texnologiyalara sərmayə yatıran, fəaliyyətdə olan ASK-nın müəssisələrinin yalnız bir qismi rəqabət qabiliyyətlidir. ASK-nın məhsulunun rəqabət qabiliyyətinin aşağı olmasının əsas səbəblərinə öz məhsulunu istehsal etmək üçün real bazis şəraitinin və potensial imkanların kifayət qədər düzgün nəzərə alınmamasını, məhsulu istehsal etmək üçün ilkin resursların az və baha olmasını, ixracata işləmək üçün marağın aşağı səviyyədə olmasını, idarəetmə uçotu alətlərindən az istifadə olunmasını aid etmək olar.

Azərbaycan və xarici ölkə iqtisadçıları əsərlərinin təhlili göstərir ki, son zamanlar idarəetmə uçotu haqqında təkcə spesifik praktik fəaliyyət kimi deyil, həm də tətbiqi iqtisadi araşdırmaların istiqaməti kimi konseptual təsəvvürlər formalaşmağa başlamışdır. İdarəetmə uçotunun mahiyyəti və təyinatı "idarə etmək üçün informasiya istehsal etmək" ifadəsi ilə çox sərrast şəkildə izah olunur. Yəqin ki, bu da tarixi faktlarla təsdiq olunur ki, idarəetmə məqsədləri üçün uçot mühasibat elminin inkişafı ilə formalaşmağa başladı və hər ölkənin idarəetmə üçün uçot barədə öz təsəvvürü və tətbiqi üsulu yaranmışdır. Bir sıra iqtisadçının mövqeyini təhlil edərək idarəetmə uçotunun konseptual əsaslarının struktur elementlərini səviyyələr üzrə seçmək olar. Birinci səviyyəni tədqiqat metodunun, predmetinin və obyektinin xüsusiyyətlərini müəyyən edən və idarəetmə uçotunun metodik təminatını formalaşdıran nəzəriyyələrin, postulatların, prinsiplərin, kateqoriyaların daxil olduğu ümumi nəzəri və metodoloji əsaslar xarakterizə edir. Tənzimlənmənin milli təcrübəsindən asılı olaraq bu səviyyədə normativ-hüquqi aktlar və idarəetmə uçotunun standartları işlənib hazırlana bilər. İkinci səviyyəni təsərrüfat subyekti səviyyəsində idarəetmə uçotu əsaslarının komponentləri xarakterizə edir. Bura uçot siyasəti, idarəetmə uçotunun daxili standartları və idarəetmə uçotunun təşkilati-metodik təminatını müəyyən edən digər sərəncamverici sənədlər daxildir. Qeyd edilmiş sənədlərin məzmunu və onlara qarşı tələblər təkcə ümumnəzəri əsaslardan deyil, həm də inkişafın subyektiv məqsəd və vəzifələrindən, fəaliyyətin həyata keçirildiyi sahə üçün səciyyəvi olan istehsal-texnoloji xüsusiyyətlərdən irəli gəlir.

Təsərrüfatçılığın Qərb və ölkə təcrübəsinin ümumiləşdirilməsi belə bir nəticəyə gəlməyə

imkan verir ki, hal-hazırda idarəetmə uçotu nəinki bütövlükdə təsərrüfat subyekti üzrə, həm də onun komponentləri üzrə uçot, planlaşdırma, nəzarət, tənzimləmə və optimallaşdırma funksiyalarını səmərəli şəkildə həyata keçirməyə imkan verir, çünki idarəetmə uçotu sistemləri ənənəvi uçot modelləri ilə müqayisədə bazar münasibətlərinin daxili və xarici amillərini daha çox nəzərə alır.

Son illər ərzində ölkədə baş verən ciddi dəyişikliklər bir çox prinsipə, ilk növbədə isə iqtisadi subyektlərin idarə edilməsinin təşkili prinsiplərinə yenidən baxılmasını tələb edir. İnformasiya sahəsi xeyli böyümüş, idarəetmə qərarlarının qəbul edilməsi üçün informasiya həcmi artmış və informasiyanın doğru və vaxtında olmasına dair tələblər xeyli sərtləşmiş, təsərrüfat fəaliyyətinin tənzimlənməsinin normativ bazası bariz şəkildə genişlənmişdir. İdarəetmə vəzifələri bu gün hər bir təsərrüfat strukturunun uçot-maliyyə altsistemləri ilə generasiya edən yeni informasiya növlərini tələb edir. İqtisadiyyatın dövlətsizləşdirilməsi, çoxlu sayda yeni kiçik və orta müəssisələrin yaranması, özəl sektorun böyüməsi, "rəqabət qabiliyyəti" iqtisadi kateqoriyasının əhəmiyyətinin artması iqtisadi subyekt sahibləri və idarəçiləri tərəfindən qarşıya qoyulmuş məqsədlərə nail olmağa imkan verən müxtəlif səviyyəli idarəetmə qərarlarının qəbul edilməsi zərurətini yaratmışdır.

Bazar iqtisadiyyatı şəraitində hər bir iqtisadi subyektin dinamik inkişafının əsas şərtləri kimi qarşıya qoyulmuş məqsədlərə fəaliyyətdə çatmaq qabiliyyəti, nəzərdə tutulmuş istiqamətlərə və hazırlanmış inkişaf strategiyalarına dəqiq və səmərəli əməl edilməsi, dayanıqlı maliyyə-iqtisad və hüquqi mövqeyinin qorunub saxlanılması çıxış edir. Müasir dövrdə işçilərin idarəetmə uçotunun aparılmasına cəlb edilməsində fərqli potensiala baxmayaraq ASK-nın əksər təsərrüfat subyektlərində bu iş aparılır.

İdarəetmə uçotu sisteminin təşkili təsərrüfat subyektlərinin ölçüsü, istehsal edilən məhsulların xarakteristikası və idarəetmə prinsipləri ilə müəyyən olunmuşdur. Əsaslandırılmışdır ki, idarəetmə uçotunun prinsiplər sistemini maliyyə uçotunun məqsədləri üçün müəyyən edilmiş fundamental prinsiplər və idarəetmə uçotunun spesifik prinsipləri təşkil edir. Prinsiplərin birinci qrupu mühasibat uçotu standartlarında açıqlanmışdır. İkinci qrupa informasiyanın operativliyi, məxfiliyi və faydalılığı prinsipi; idarəetmə uçotu sisteminin çevikliyi və onun gələcəyə yönümlü olması prinsipi; məsuliyyətin və motivasiyanın icraçıya yönəldilməsi prinsipi; kənarlaşmalar üzrə idarəetmə prinsipi; daxili hesabat göstəricilərinin nəzarət oluna bilmə prinsipi aid edilə bilər.

İnformasiya texnologiyalarının inkişafı ilə əlaqədar olaraq maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrini təhlil etməyə, maliyyə vəziyyətini qiymətləndirməyə, investisiya layihələrinin ekspertizasını həyata keçirməyə, biznes-prosesləri idarə etməyə imkan verən müxtəlif intellektual sistemlərə tələbat getdikcə artır. Bu sahədə artıq mövcud olan və aparılan yeni elmi araşdırmalar idarəetmə uçotunda getdikcə daha çox tətbiq olunmağa başlayır.

İdarəetmə uçotunda bütün üsullar bir məqsədə - biznesin inkişaf etdirilməsinin alternativ variantlarının müqayisə olunması əsasında idarəetmə qərarının səmərəli variantını seçmək üçün real imkanın yaradılmasına xidmət edir və istər retrospektiv, istərsə də indiki, cari və gələcək proqnoz xarakterli vəzifələri effektiv şəkildə həll etməyə imkan verən vahid təşkilati sistemi əmələ gətirir.

İdarəetmə uçotu sisteminin seçilməsinə müxtəlif amillər təsir göstərir: **1) iqtisadi:** sahənin vəziyyəti və xüsusiyyətləri, fəaliyyət şəraiti, bazar konyunkturu, qiymət və vergiqoyma, investisiya mühiti; **2) təşkilati:** iqtisadi subyektin strukturu, məsuliyyətin bölüşdürülməsi, icra intizamının səviyyəsi, işçilərin peşəkarlığı və onların yeni şəraitə sürətlə uyğunlaşa bilmək qabiliyyəti; **3) hüquqi**: maliyyə, kommersiya və əmək fəaliyyətinin hüquqi bazasının vəziyyəti; **4) sosial**: əməyin motivasiyası, kollektivdə psixoloji mühit və s.

ASK-nın müəssisələri üçün idarəetmə uçotunun obyektlər qruplarını seçərkən aşağıdakı təsnifatı rəhbər tutmaq olar: 1) fəaliyyət təşkil edən proseslərin məcmusu; 2) proseslərdə istifadə edilən resurslar; 3) prosesdə iştirak edən struktur vahidləri; 4) yuxarıda təqdim olunan idarəetmə obyektləri qruplarının kəmiyyət və keyfiyyət xarakteristikalarını əks etdirən göstəricilər.

Birinci obyektlər qrupu proses yanaşmasından istifadə etməklə hazırlanıb və mahiyyəti on-

dan ibarətdir ki, bütün resurs və fəaliyyətlər ayrı proses kimi idarə edilir. Beləliklə, bu qrupa aqrar-sənaye müəssisəsinin fəaliyyətini təmin edən bütün proseslər aiddir. Hər bir prosesin yerinə yetirilməsinin səmərəliliyi bütövlükdə bütün fəaliyyətin keyfiyyət göstəricilərinin artmasına gətirib çıxarır. ASK-nın müəssisəsi kənar mühitlə daim informasiya mübadiləsində olduğuna görə açıq sistemdir və obyekt və subyekt olmaqla iki müstəqil və qarşılıqlı əlaqədə olan komponentlərdən ibarətdir. Təsir obyekti olaraq sistemdə maddi şəraitin, texnoloji, təşkilati proseslərin, habelə ASK-nın müəssisəsi öz funksiyalarını yerinə yetirərkən işçilər arasında yaranan münasibətlərin məcmusu qəbul olunur. Subyekt qismində isə öhdəliklərinə götürdükləri vəzifələrin keyfiyyətli yerinə yetirilməsinə görə məsuliyyət daşıyan, iqtisadi təsir formaları vasitəsilə obyektin məqsədyönlü fəaliyyətini həyata keçirən işçilərin özləri çıxış edir. Üstəlik, subyektin obyektə təsiri yalnız informasiyanın hərəkət etməsi şərti ilə həyata keçirilə bilər. Kənar mühit ASK-nın müəssisəsinə giriş vasitəsilə, ASK-nın müəssisəsi isə öz növbəsində kənar mühitə çıxış vasitəsilə təsir edir. Nəzərə almaq lazımdır ki, ASK-nın müəssisəsi ölkənin ərzaq təhlükəsizliyini təmin edən sosial-iqtisadi sistemdir. İkinci qrupa isə qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün ASK-nın müəssisəsinin istifadə edə biləcəyi hər şey aiddir. Üçüncü qrupa ASK-nın müəssisəsinin struktur vahidləri, yəni hər hansı qəbul olunmuş təsnifat əlamətinə görə seçilmiş hissələri aiddir. Müqayisə üçün ən kiçik struktur vahidi kimi müəssisənin işçisi, ən böyük struktur vahidi kimi isə müəssisənin özü çıxış edə bilər. Təsnifat struktur vahidləri tərəfindən istehlak edilən resurslar baxımından aparılarsa, xərclərin baş vermə yerləri barədə söz açılmalıdır. Resurslardan istifadə hüququ və onlardan istifadənin nəticələrinə görə məsuliyyət baxımından nəzərdən keçirilən struktur vahidi məsuliyyət mərkəzi adlanır. İdarəetmə uçotu obyektlərinin dördüncü qrupuna tədqiq olunan obyektlərin kəmiyyət və keyfiyyət xarakteristikalarını əks etdirən göstəricilər aiddir. Göstəricilər obyektlər qrupu olaraq digər obyektlər qrupları ilə müqayisədə xüsusi özəlliyə malikdir - biz onları idarə etməklə bütün obyektlər qruplarını və bütövlükdə fəaliyyəti idarə etmiş oluruq. Bu, əksər hallarda idarəetmə uçotunda idarəetmə prosesinin "dolayı" yolla (faktiki olaraq idarəetmə subyekti ilə obyekti arasında "vasitəçi" rolunu oynayan və qarşıya qoyulmuş məqsədlərə çatma məhsuldarlığının ölçülməsini təmin edən müvafiq göstəricilər vasitəsilə) həyata keçirilməsi nəticəsində baş verir. İdarəetmə uçotunun müasir inkişaf mərhələsində biznesin uğurla aparılması üçün təkcə maliyyə informasiyası deyil, həm də idarəetmə texnologiyalarının tətbiq edilməsi nəticəsində əldə olunan qeyri-maliyyə informasiyası (məsələn, müştərilərin fəaliyyətin keyfiyyətinə nisbəti və s.) da lazımdır. İdarəetmə uçotunda biznes proseslərlə bağlı təsərrüfat fəaliyyətinin nəticələrini xarakterizə edən göstəricilər resursların istifadəsi və məhsulun proseslər məcmusunun nəticəsi kimi alınması ilə eyni vaxtda əks olunmalıdır.

Beləliklə, ASK-nın müəssisələri üçün səciyyəvi olan idarəetmə uçotunun aşağıdakı obyektlərini fərqləndirmək olar: 1) proseslər; 2) fəaliyyət zamanı istifadə olunan resurslar; 3) maliyyə məsuliyyəti mərkəzi kimi qəbul olunan struktur bölmələr; 4) bölmələrin fəaliyyət göstəriciləri. ASK-nın müəssisələrinin xüsusiyyətləri bu obyektlərin xarakterizə olunmasında təzahür edir. Belə ki, biznes proseslərin tərkibində fəaliyyətin bütün idarəetmə sistemini əhatə etməli və dövlət tənzimlənməsi tələblərinə uyğun gəlməli olan nəzarət xüsusi yer tutur. Hər bir proses üçün normativ-hüquqi aktların xüsusi tələblərini seçmək olar. Nəzarət obyektləri qismində isə resurslar, proseslərin giriş və çıxışları, məsrəflər və nəticələr çıxış edir. Bunlar idarəetmə uçotu sistemində ikitərəfli nəzarətin yaradılması zərurəti barədə nəticəyə gəlməyə imkan verir.

ASK-nın rəqabətqabiliyyətliliyi amili kimi idarəetmə uçotunun inkişaf əhəmiyyətinin tədqiqi qüvvədə olan bütün uçot sistemlərinin fəaliyyət xüsusiyyətlərini nəzərə almaqla vahid təşkilati, informasiya və metodik təminatı nəzərdə tutan sistemli yanaşmanın gerçəkləşməsini tələb edir. Aqrar-sənaye müəssisələri bu gün idarəetmə uçotu alətlərini tam həcmdə istifadə etmədiyinə görə (bu isə həmin subyektlərin təsərrüfatçılığı şəraitində onun aparılması ilə bağlı nəzəri, metodoloji və metodik işlərin çatışmazlığı ilə birbaşa əlaqəlidir) idarəetmə uçotunun metodologiyasının inkişaf etdirilməsi, ASK-nın müəssisələrinin xüsusiyyətlərini nəzərə alan metodik alətlər sisteminin təkmilləşdirilməsi zərurəti meydana çıxır.

ƏDƏBİYYAT

1. “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının 29 iyun 2004-cü il tarixli Qanunu. Bakı, 2004-cü il.
2. Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarının konseptual əsasları. Bakı, 2007-ci il.
3. Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları. Bakı, 2009-cu il.
4. Иванов В.В., Хан О.К. Управленческий учет для эффективного менеджмента. М., 2013.
5. Столярова М.А. Международные стандарты учета и финансовой отчетности: теория и практика применения // Учебное пособие. Краснодар, 2009.
6. Рыжова Л.И. Основные элементы организации, этапы внедрения внутрифирменного бюджетирования и системы внутреннего контроля на сельскохозяйственных предприятиях: монография / Марийский Государственный Университет. Йошкар-Ола, 2015 год, с.93.

Гафиз Ахмед оглы Гаджиев
к.э.н., доц. АГЭУ

Роль управленческого учета в повышении конкурентоспособности аграрного сектора

Резюме

Как известно, сегодня на внутреннем рынке конкурентоспособна только лишь определенная часть действующих предприятий агропромышленного комплекса, сумевших создать собственные перерабатывающие мощности и осуществлять инвестиции в новые технологии, обеспечивающие эффективное управление затратами и финансовыми ресурсами. К основным причинам низкой конкурентоспособности продукции агропромышленного комплекса следует отнести недостаточный учет как реальных базисных условий, так и потенциальных возможностей производства продукции, недостаток и в тоже время высокая стоимость исходных ресурсов для ее производства, слабая мотивация в работе на экспорт, недостаточное использование инструментов управленческого учета. В связи с этим в статье изучено значение управленческого учета при руководстве предприятий агропромышленного комплекса, выявлены факторы, влияющие на выбор его системы, и группы объектов, обоснована необходимость развития методологии.

Ключевые слова: агропромышленный комплекс, конкурентоспособность, управленческий учет, информация, процессы, ресурсы.

Hafiz Ahmed Hajiyev
c.e.s., ass. prof. ASEU

The role of management accounting in raising the competıtıveness of agrarıan sector

Summary

As it is known, today only certain part of the existing enterprises of the agro-industrial complex has managed to establish its own processing capacity, invest in new technology and create effective management of its expenditures and financial resources. Insufficient consideration of the existing basic conditions, potential opportunities for production, lack of and high cost of the initial resources for production, weak motivation in export and insufficient use of instruments of management accounting. In connection with this, the article looks into the importance of management accounting of the agro-industrial complex enterprise, identifies factors affecting selection of its system, groups of objects and justifies the need for developing a methodology.

Key words: agro-industrial complex, competitiveness, management accounting, information, processes, resources.

Zümrüd Məhərrəm qızı HÜSEYNOVA
Azərbaycan Kooperasiya Universiteti, dissertant

AZƏRBAYCANIN KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ EMALI MÜƏSSİSƏLƏRİNİN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ

Xülasə

Məqalədə qeyd olunur ki, qəbul olunmuş Dövlət Proqramları əsasən ölkə əhalisinin ərzaq məhsulları ilə tələbatının ödənilməsinə yönəldilmişdir. Belə ki, son illərdə ölkədə kənd təsərrüfatı məhsullarının emalı müəssisələrində artım müşahidə olunmaqdadır ki, bu da tədqiq olunan sahəyə dövlət dəstəyinin olmasından xəbər verir. Lakin bütün bunlara baxmayaraq bu sahədə problemlər hələ də qalmaqdadır. Ümumilikdə, müəllif kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin rəqabətqabiliyyətliliyinin artırılmasına dair bir sıra təkliflər irəli sürmüşdür.

Açar sözlər: kənd təsərrüfatı emalı, müəssisə, sahə, məhsul, region, sənaye.

Giriş

Qeyd etmək lazımdır ki, "2008-2015-ci illər Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"-nın təsdiq edilməsi ölkəmizdə qida sənayesində yeni bir səhifə açmışdır. Dövlət Proqramının əsas məqsədi ölkənin hər bir vətəndaşının sağlam və məhsuldar həyat tərzi üçün onun qəbul edilmiş normalara uyğun ərzaq məhsulları ilə tam təmin edilməsinə nail olmaqdır. Dövlət Proqramının icrasının təmin edilməsi məqsədi ilə digər tədbirlərlə yanaşı, ölkədə ərzaq məhsulları istehsalını artırmaq; əhalini təhlükəsiz və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək nəzərdə tutulmuşdur.

Son dövrdə respublikada kənd təsərrüfatı məhsullarının emalı müəssisələrində artım müşahidə olunmaqdadır ki, bu da birbaşa regionlarla bağlı III Dövlət Proqramının icrası ilə bağlıdır: 2010-cu illə müqayisədə 2015-ci ildə istehsal olunan məhsul ümumi sənayedə 33,9% təşkil etmişdir.

Respublikamızda fəaliyyət göstərən ümumi qida məhsulları istehsalı və tütün emalı müəssisələrin istehsal etdiyi məhsulun dəyəri, faktiki qiymətlərlə 2010-cu ildə 1924 milyon manat olduğu halda bu rəqəm 2015-ci ildə 2547 milyon manat təşkil etmişdir. Bu da bütün növ emal sənayesi müəssisələrində istehsal edilmiş məhsulun 33,9%-ni təşkil etmişdir. Qida məhsullarının istehsalının əhəmiyyətli hissəsi qeyri-dövlət sektorunun payına düşür.

Respublikamızda nisbətən yaxşı inkişaf etmiş emal sənaye sahəsinin başlıca istiqaməti olan konserv sənayesidir. Respublikanın müxtəlif bölgələrində 45 konserv zavodu var idi. Bunlardan 14 - ü Quba - Xaçmaz, 9-u Şəki - Zaqatala, 8- i Şirvan və qalan 14-ü isə başqa bölgələrdə fəaliyyət göstərirdi. Konserv zavodlarının istehsal gücü xammal istehsalından asılı olaraq olduqca müxtəlifdir.

Bu zavodların gücü 776,2 milyon şərti banka təşkil edir. Həmin zavodların çoxu mütərəqqi texnika və texnologiya ilə təmin olunmuş, müxtəlif çeşiddə və yüksək keyfiyyətdə məhsul istehsal etmək imkanlarına malik idilər. Lakin hazırda bu zavod və kombinatlar da pis vəziyyətə salınmışdır. 2015-ci ildə cəmi 147,9 min ton konservləşdirilmiş tərəvəz və meyvələr istehsal edilmişdi. [5,s.496.]

Respublikamızda pambıq strateji əhəmiyyətə malik olan sahədir. Ölkəmizdə kənd təsərrüfatının intensiv inkişaf etdirilməsi ilə əlaqədar bu sahənin sürətlə yüksəlməsinə nail olunmuşdur.

Azərbaycanda fəaliyyət göstərən 18 pambıq emalı müəssisəsinin 7-i Mil - Qarabağ; 4-ü Şirvan; 5 - i Muğan - Səlyan və qalan 2 zavod isə başqa bölgələrdə yerləşdirilmişdir.

Azərbaycanda fəaliyyət göstərən pambıq emalı zavodlarının istehsal gücü 800 min tondur. Lakin hazırda həmin zavodların istehsal gücündən istifadə göstəricisi 10 - 15% - dən artıq deyildir. Bu ona görə baş verir ki, xam pambıq istehsalı kəskin olaraq azalmışdır. Bəzi pambıq emalı müəssisələri öz fəaliyyətini müvəqqəti, mövsümi olaraq dayandırırlar. Nəticədə 2015-ci ildə 9,1 min ton pambıq ipliyi və 6,6 min ton pambıq lifi istehsal olunmuşdur.

Hazırda ölkədə tütün istehsalı mühüm əhəmiyyətə malikdir. Lakin son illər bu sahədə də böyük çətinliklər müşahidə olunmaqdadır. Respublikada 1985-ci ildə 60 min ton, 1990-cı ildə

53 min ton və 2015-ci ildə isə 3,5 min ton tütün istehsal edilmiş, tütünün məhsuldarlığı müvafiq olaraq 35,5 sent, 32,7 sent və 25,4 sent olmuşdur. [5, s. 496] Məhsulun azalması tütün emal edən müəssisələrin və son məhsul istehsal edən müəssisələrin fəaliyyətinin pisləşməsinə səbəb olmuşdur. Göstərmək lazımdır ki, respublikada tütün fermentasiyası müəssisələrinin gücü 48 min tondur. Lakin məhsul istehsalı bu gücün heç yarısını da təmin etmir. 2015-ci ildə 1,7 min ton fermentləşdirilmiş tütün istehsal edilmişdir. [5, s. 496]

Üzümçülük respublikanın zona və bölgələrini əhatə etməklə üzümün emalına dair ümumi gücü 1600 min ton olan 79 zavod fəaliyyətə başlamış, lakin bəzi zavodların xırdalanması ilə onların sayı 108-ə qədər artmışdır. Bu zavodlar müasir texnika və texnologiya əsasında yaradılmışdır. Lakin son illər üzüm istehsalının kəskin surətdə azalması, 2015-ci ildə cəmi 86,6 min tona düşməsi nəticəsində bu zavodların əksəriyyəti dayanmış, onların maddi - texniki təchizatı məhv olmuşdur. Halbuki, 1981-1985-ci illərdə orta hesabla respublikada 1831 min ton üzüm istehsal olunurdu.

Respublikamızda heyvandarlıq məhsullarının emalı ilə əlaqədar əksər zona və rayonlarda bir çox müasir müəssisələr yaradılmış, onlar tələb olunan texnologiya ilə təmin edilmişdir. Lakin son illər bütün bu sahələrdə də böyük dəyişikliklər baş vermiş, ət, süd və digər məhsulları istehsal edən müəssisələrin bəzisi fəaliyyətini tamamilə dayandırmış, əksəriyyəti isə istehsal gücünün 30 - 35,0%-i həcmində fəaliyyət göstərirlər.

Ölkəmizdə istehsal olunan əsas növ kənd təsərrüfatı məhsullarının emalı səmərəli qurulmadığına görə çoxlu itkilərə yol verilir və eyni zamanda məhsulların əksər hissəsi emal olunmadan xammal halında satılır.

Hazırda ölkə regionlarında yerli xammala əsaslanan kənd təsərrüfatı emalı sənaye müəssisələrində məhsulun rəqabətədavamlılığının artırılması, dünya standartlarına uyğun istehsal olunması əsas bir şərt kimi ortaya çıxır. Tədqiqatda bu istiqamətdə aşağıdakı təkliflər irəli sürülmüşdür:

- əhalinin ərzaq məhsulları ilə tələbatının təmin olunması məqsədilə kənd təsərrüfatı məhsullarının emalı müəssisələrində istehsal olunmuş məhsulların çeşidinin artırılması, onların keyfiyyətinin yüksəldilməsinə dair tədbirlərin keçirilməsi məqsədəuyğundur;
- kənd təsərrüfatı emalı məhsullarının istehsalının və ixracının genişləndirilməsinin stimullaşdırılması;
- keyfiyyətin, bioloji dəyərliliyin və dad keyfiyyətinin təmin edilməsi;
- məhsulların sterilləşdirilməsi proseslərinin gücləndirilməsi;
- məhsulun saxlanması, nəqli və emalı zamanı itkilərin azaldılması, xammalın kompleks istifadəsi, təkrar xammal resurslarının emalı və yeyinti məhsullarının çeşidinin artırılmasında müasir texnologiyaların tətbiqinin stimullaşdırılması.

ƏDƏBİYYAT

1. "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı".
2. "2012 - 2020 - ci illərdə üzümçülüyün inkişafının Dövlət Proqramı".
3. "Kənd təsərrüfatı kooperasiyası haqqında "Azərbaycan Respublikasının Qanunu. 14 iyul 2016 - cı il.
5. Azərbaycanın Statistik Göstəriciləri. Dövlət Statistika Komitəsi. Bakı: Səda, 2016, s. 822 s.

Зумруд Магеррам кызы Гусейнова
Азербайджанский Университет Кооперации, диссертант

Анализ современного состояния предприятий сельхозпереработки Азербайджана

Резюме

В статье отмечается, что принятые Государственные Программы в основном направлены на удовлетворение потребностей населения в продовольственных товарах. Так, в последние годы наблюдается рост в производстве продукции предприятий сельхозпереработки, что говорит о государственной поддержке исследуемой отрасли. Несмотря на это, в

этой отрасли проблемы ещё существуют. В общем, автор выдвигает свои предложения по повышению конкурентоспособности предприятий сельхозпереработки.

Ключевые слова: сельхозпереработка, предприятие, отрасль, про-дукция, регион, промышленность.

Zumrud Maharram Huseynova
Azerbaijan University of Cooperation
candidate for a degree

Analysis of the modern situation of companies of processing of Azerbaijan agricultural products

Summary

The article states that the adopted State Programs are mainly aimed at meeting the needs of the population of the country with food products. So that, in recent years there has been an increase in agricultural processing enterprises in the country, which indicates the state support for the study area. But, though all those, problems remain in this area. In general, the author proposed a number of proposals to increase the competitiveness of agricultural products processing.

Key words*: *agricultural processing, enterprise, area, product, region, industry.

Fuad Elsevər oğlu İSMAYILZADƏ
Əmək və Sosial problemlər üzrə Elmi-Tədqiqat
və Tədris Mərkəzinin doktorantı

AQRAR SAHƏNİN RƏQABƏT QABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ ƏMƏYİN MOTİVLƏŞDİRİLMƏSİNİN ROLU

Xülasə

Məqalədə aqrar sahənin rəqabət qabiliyyətinin xüsusiyyətləri araşdırılır, sahənin rəqabət qabiliyyətinin yüksəldilməsi vasitəsi kimi əməyin motivləşdirilməsinin mühüm rolu olduğu əsaslandırılmışdır.

Açar sözlər: aqrar sahə, rəqabət qabiliyyəti, innovasiya, motivləşdirmə, elmi-tədqiqat.

***

Bazar iqtisadiyyatının iqtisadi münasibətlərin tənzimlənməsinin başlıca formasına çevrildiyi müasir şəraitdə iqtisadiyyatın müxtəlif sahələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi ölkənin sosial-iqtisadi inkişafının əsasını təşkil edir. İstənilən iqtisadi sahənin rəqabət qabiliyyəti dünyanın və daxili bazarların tələblərinə cavab verən mal və xidmətlərin istehsalına və müəssisələrin rəqabət potensialının artırılması üçün şərait yaratmaq qabiliyyəti kimi nəzərdən keçirilə bilər. Hər hansı bir sahənin rəqabət qabiliyyətinin artırılmasının məqsədi əhalinin həyat səviyyəsini və keyfiyyətini artırmaqdan ibarətdir. Lakin, ölkənin ərzaq təhlükəsizliyini təmin etdiyinə görə, ölkə iqtisadiyyatında aqrar sahə aparıcı rol oynayır. Odur ki, bu sahənin rəqabət qabiliyyətinin yüksəldilməsi xüsusi əhəmiyyət kəsb edir.

"Rəqabət" və "rəqabətqabiliyyətlilik" anlayışları iqtisadi ədəbiyyatda yeni deyil. Hələ XV-XVII əsrlərdə merkantilistlər bu məsələlərə diqqət yetirmişlər. Merkantilizmin son dövrünün nümayəndələrindən olan T.Menin bu sahədə mühüm tədqiqatları olmuşdur. [9, s. 20, 21] "Rəqabət" anlayışının klassik konsepsiyasının yaradılması isə A.Smitin adı ilə bağlıdır. [8] "Rəqabət" və "rəqabətqabiliyyəti" kateqoriyalarının daha ətraflı araşdırılması M.Porter tərəfindən aparılmışdır. M.Porter belə nəticəyə gəlmişdir ki, iqtisadi sahələrin rəqabət qabiliyyəti rəqabət üstünlüklərinə əsaslanır ki, onları da öz növbəsində iki əsas növə ayırmaq olar: ehtiyatlar və texnologiyalar. [6] Qeyd etmək lazımdır ki, ehtiyatlar içərisində ən önəmlisi insan resursudur.

Müəssisənin digər ehtiyatlarını bir araya gətirən və istehsal prosesində onların səmərəli istifadəsini təmin edən insan faktorudur. Beləliklə, insan amilinin inkişafı çox vacibdir.

Aqrar sahə bir çox cəhətdən iqtisadiyyatın digər sahələrindən fərqlənir. Odur ki, rəqabətqabiliyyətliliyin təhlili aqrar sahənin xüsusiyyətlərini nəzərə almaqla aparılmalıdır. İqtisadiyyatın digər sahələrinə nisbətən aqrar sahənin rəqabətqabiliyyətinin yüksəkdilməsi imkanları daha genişdir. İqtisadi ədəbiyyatın araşdırılması göstərir ki, aqrar sahənin əsas rəqabət üstünlükləri təbii sərvətlər, kənd təsərrüfatı məhsullarının texnologiyasının səviyyəsi və məhsulun keyfiyyəti, maddi və maliyyə resursları, kadrların ixtisas səviyyəsi, dövlət dəstəyinin mövcudluğu və güzəştli vergi şərtləridir. [7] Bu faktorların səmərəli istifadəsində mühüm rol əməyin motivasiyasına aiddir. Belə ki, hər bir müəssisənin əsas məqsədi olan rentabelliyin əldə edilməsi üçün orada çalışanların səmərəli və məhsuldar fəaliyyət göstərməsi lazımdır. Bu isə, işçilərin motivasiyasını artırmaqla mümkündür.

T.Ə.Quliyevin fikrincə, əməyin motivləşməsi prosesinin mahiyyətini əmək davranışının daxili sövqedici qüvvəsinin formalaşması (tələbat, mənafelər, arzular, ciddi-cəhd, dəyərlər, dəyərlər meyli, ideallar, bütövlükdə motivin özü) təşkil edir. Motivləşdirmə əmək məhsuldarlığına, buraxılan məhsulun keyfiyyətinə, işçilərin peşə-ixtisas hazırlığına müsbət təsir edir. [3, s. 505, 512]

Motivləşdirmə, müəssisənin məqsədləri ilə orada çalışanların məqsədlərinin bir-birinə uyğunlaşdırılması üçün həyata keçirilən tədbirləri ehtiva edir. İşçilərin vicdanlı, qabiliyyətli, innovativ fəaliyyət göstərməsi və məhsuldar olması üçün onlar maddi, fiziki, psixoloji və sosial baxımdan motivləşdirilməlidir. Motivasiya işçilərə öz bilik və bacarıqlarını inkişaf etdirmək, onu nümayiş etdirmək, işçilərarası rəqabəti artırmaq və sosial ehtiyacları qarşılamaq üçün imkan yaradır [4, s. 269-270].

İşçilərin motivasiyası müəssisənin maliyyə imkanlarının artırılması ilə birbaşa bağlıdır. Belə ki, müəssisənin imkanları nə qədər çox olarsa, işçilərin motivasiyası da o qədər yüksək olar. Digər tərəfdən, müəssisənin imkanlarının geniş olması üçün işçilərin motivasiyasının yüksək səviyyəsi təmin olunmalıdır.

Müasir dövrdə aqrar sahədə çalışanların motivasiya mexanizminin inkişaf etdirilməsi məhsuldarlığın artımına nail olmaq üçün vacib şərtlərdən biridir. Belə ki, əməyin motivləşdirilməsi sistemi düzgün qurulduqda, işçilər müəssisənin dəyərlərinə qiymət verir, əmək fəaliyyətindəki passivlk aradan qaldırılır, əmək fəallığı inkişaf edir, kollektiv məsuliyyət güclənir və nəticədə əmək məhsuldarlığı artır.

Urbanizasiya prosesinin gücləndiyi, gənclərin daha çox şəhər həyatına meyil etdiyi müasir dövrdə aqrar sahənin cəlbediciliyinin artırılması, bu sahədə çalışanların maddi və mənəvi motivləşdirilməsi xüsusi əhəmiyyət daşıyır. Aqrar sahədə əməyin motivləşdirilməsinə təsir edən bir sıra tədbirlər, o cümlədən kənd təsərrüfatı istehsalçılarına güzəştli əsaslarla kreditlərin və subsidiyaların verilməsi, onların müasir texnika və köməkçi vasitələrlə təminatı, qabaqcıl texnologiyaların tətbiqi bu sahədə istehsal həcmini artırmaqla yanaşı, yüksək məhsuldarlığa və səmərəliliyə, emal müəssisələri şəbəkəsinin genişləndirilməsinə və rəqabət qabiliyyətinin artırılmasına gətirib çıxarır.

Qeyd etmək lazımdır ki, aqrar sahənin səmərəli inkişafı sisteminin yaradılmasının əsasını sahənin texniki və texnoloji təminatının yenilənməsinə əsaslanan innovasiya fəaliyyəti təşkil edir. İnnovasiya fəaliyyəti istehsalın aşağı düşməsinin qarşısını almaq, onun struktur yenidənqurmalarını təmin etmək, bazarı müxtəlif rəqabətqabiliyyətli mallarla doldurmağın möhkəm vasitəsidir. [2, s. 236] Aqrar sahədə innovasiya fəaliyyətinin əsas istiqamətlərindən biri insan faktoruna innovativ yanaşmadır. Bura yeni texnika və texnologiyaları tətbiq etməyi bacaran mütəxəssislərin hazırlanması, ixtisasının artırılması və yenidən hazırlanması daxildir.

Kənddə azad sahibkarlığı inkişaf etdirmək, istehsal vasitələri və torpaq üzərində sahibkarlıq hissini yaratmaq, sərbəst mütərəqqi təsərrüfatçılıq üsullarına keçmək, yeni mülkiyyət münasibətlərini formalaşdırmaq, torpaqdan, texnikadan, sudan və sair maddi ehtiyatlardan səmərəli istifadə etmək yolu ilə məhsul istehsalını artırmaq mümkündür. Bütün bu məqsədlərin uğurla gerçəkləşdirilməsində isə, ilk növbədə aqrar elm öz sözünü deməlidir. [1] Aqrar sahənin rəqabət

qabiliyyətini artırmağa xidmət edən effektiv və əsaslandırılmış elmi tədqiqatlar aparılmalı, vətəndaşların gələcəkdə ərzaq məhsullarına tələbatının elmi cəhətdən əsaslandırılmış proqnozları verilməli, təcrübədə özünü doğruldan və elmi əsaslara söykənən yeni metodlar işlənməlidir. Bütün bunlar əhalinin ərzaq təhlükəsizliyinin təminatı baxımından ən vacib məsələlərdəndir. Eyni zamanda, aqrar sahədə bioloji, texniki, kimyəvi, iqtisadi, sosial xarakterli innovativ texnologiyaların tətbiqini təmin etmək üçün güclü elmi potensialın formalaşması da zəruridir. Beləliklə, elmi potensial aqrar sahədə rəqabətqabiliyyətliliyin təmin edilməsi üçün zəruri resurslardan biri kimi çıxış edir. Elmi potensialın gücləndirilməsi üçün isə, elmi tədqiqatların həyata keçirilməsinin motivləşdirilməsi vacibdir. Çünki elmi tədqiqatların zəifləməsi aqrar sahənin gerilməsinə səbəb olur, bu isə öz növbəsində bütövlükdə iqtisadiyyatın inkişafına mənfi təsir edir. Yalnız mütəmadi elmi-texniki tərəqqi sahənin dinamik inkişafını təmin edə bilər. Onun əsas şərtləri texnologiyanın daim yenilənməsi və ən son elmi nailiyyətlərin geniş istifadə olunmasıdır. Dövlətin, elmin və aqro-sənaye istehsalının birgə səyləri gələcəkdə ölkənin kənd təsərrüfatında innovativ fəaliyyətini artıra bilər. Bu, istehsalın səmərəliliyini artırmaqla yanaşı, beynəlxalq ərzaq bazarında da rəqabət qabiliyyətini artıracaqdır. [10]

Aqrar sahədə elmi fəaliyyət digər sahələrdəkindən fərqlidir. Belə ki, elmi-tədqiqatların nəticələrinin təcrübədə yoxlanılması və tətbiqi prosesi uzun müddət tələb edir. Məsələn, kənd təsərrüfatı bitkilərinin seleksiyası sahəsində elmi nailiyyətlərin tətbiqi 15-20 il sonra, heyvan cinslərinin seleksiyası sahəsində isə 20-30 il və daha uzun müddətdə maksimum gəlir gətirir. [5] Bütün bunlar aqrar sahədə elmə marağın azalmasına səbəb olur. Odur ki, bu sahədə elmi-tədqiqatların təşviq edilməsi, elmi potensialın inkişaf etdirilməsi, elmi fəaliyyətin motivləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Burada maddi motivləşdirmə ilə yanaşı, əmək məhsuldarlığının yüksəldilməsinə sosial-psixoloji mühitin yaradılması, səmərəli idarəetmə, tədqiqat prosesində lazımi informasiya və ədəbiyyatları əldə etmə, habelə onlardan istifadə etmək üçün müasir informasiya texnologiyalarının mövcudluğu kimi motivləşdirici vasitələr də az rol oynamır. Beləliklə, elmi-tədqiqat işləri yerinə yetirənlərin maddi və mənəvi maraqlarının təmin edilməsi vasitəsi ilə aqrar sahəin inkişafına və rəqabət qabiliyyətinin yüksəldilməsinə nail olmaq mümkündür.

ƏDƏBİYYAT

1. Əhmədov G.Ə. Aqrar sahə iqtisadiyyatının innovasiya yönümlü inkişafını təmin edən strategiya. «Xalq qəzeti», 16.02.2010, s.4.
2. Quliyev E.A. Aqrar iqtisadiyyat. Ali məktəb tələbələri üçün dərslik. Bakı, 2015, "Kooperasiya" nəşriyyatı, 320 s.
3. Quliyev T.Ə. İnsan resurslarının idarə edilməsi (insan naminə). Bakı,"Nağıl evi", 2013,828 s.
4. Nurullah Genç. Yönetim ve Organizasyon. Çağdaş Sistemler ve Yaklaşımlar. Geliştirilmiş 4. Baskı. SEÇKİN/İşletme & Finans, 2012, 420 s.
5. Бугара А.Н. Инновационный потенциал предприятий аграрного сектора сельских территорий // Управление инновациями: теория, методология, практика: сборник материалов XB Международной научно-практической конференции. - Новосибирск: ЦРНС, 2016, с. 96-99.
6. Портер М. Конкуренция: пер. с англ. / М. Портер. М.: Изд. дом «Вильямс», 2005, 608 с.
7. Потехина Е.Н., Юричева Е.Ю. Конкурентные преимущества сельскохозяйственных товаропроизводителей в рамках разных режимов. //Электронный научный журнал «Современные проблемы науки и образования», № 6, 2014; https://www.science-education.ru/ru/article/view?id=17178
8. Смит А. Исследование о природе и причинах богатства народов / А. Смит. М.: Эконом; Ключ, 1993, 475 с.
9. Ядгаров Я.С. История экономических учений: учеб. для вузов. 3-е изд. / Я.С.Ядгаров. М.: ИНФРА-М, 2000, 567 с.
10. Шабанова Т.И. Развитие сельского хозяйства в России // Сибирский торгово-экономический журнал. 2010, № 10.

Фуад Эльсевар оглы Исмаилзаде
докторант НИУЦ по Труду и Социальным Проблемам

Роль мотивации труда в повышении конкурентоспособности аграрного сектора

Резюме

В статье рассматриваются особенности конкурентоспособности аграрного сектора, обосновывается важная роль мотивации труда как инструмента повышения конкурентоспособности отрасли.

Ключевые слова: аграрный сектор, конкурентоспособность, инновации, мотивация, научные исследования.

Fuad Elsever Ismayilzadeh
doctoral student of Scientific Research and
Training Center on Labor and Social Problems

Role of employee motivation in increasing the competitiveness of the agricultural sector

Summary

The article deals with the features of the competitiveness of the agricultural sector, the important role of employee motivation as a tool for increasing the competitiveness of the industry is grounded.

Key words: agrarian sector, competitiveness, innovation, motivation, scientific research.

Kəmalə Əkbər qızı HÜSEYNOVA
Azərbaycan Kooperasiya Universitetinin
"Mühasibat uçotu və audit" kafedrasının
baş müəllimi, dissertant,

Coşqun Araz oğlu BABAZADƏ
magistr

AQRAR SAHƏNİN İNKİŞAFININ KƏNDLƏRDƏ MƏŞĞULLUĞUN ARTMASINDA ROLU

Xülasə

Aqrar sahədə iş qüvvəsinin təklifi tələbi daha çox üstələdiyindən kənd əhalisinin məşğulluğu o qədər də yüksək deyil. Məqalədə bu gün qarşıda duran əsas məsələlərdən biri kimi aqrar sahənin inkişafını təmin etməklə kənd yerlərində əhalinin məşğulluğunun səviyyəsinin artırılması məsələsinə baxılmışdır.

Açar sözlər: aqrar sahə, inkişaf, kənd əhalisi, işsizlik, məşğulluq, sosial islahatlar, kəndli (fermer) təsərrüfatları, sahibkarlıq fəaliyyəti, ixtisasartırma, peşəyönümü, investisiya qoyuluşu.

Giriş

Məşğulluq bazar iqtisadiyyatının əsas problemlərindən biri olub, məqsədyönlü fəaliyyət nəticəsində insanlar arasında yaranan iqtisadi münasibətləri əks etdirir.

Bu münasibətlərin əsas məqsədi artan ehtiyacların ödənilməsini təmin etməkdən ibarətdir. İnsan fəaliyyətinin bütün sahələrində təzahür edən məşğulluq, bütövlükdə, cəmiyyətin mövcudluğunun maddi-mənəvi əsası, səmərəli iqtisadi fəaliyyətin nizamlanması üçün başlıca şərtlərdən biridir. İnsan əməyi olmadan heç bir istehsal prosesini həyata keçirmək olmaz. Ona görə də müasir iqtisadi şəraitdə dövlətimizin makroiqtisadi siyasətinin əsas məqsədlərindən biri əmək

qabiliyyətli əhalinin məşğulluğunun təmin edilməsidir. Məşğulluq sahəsində dövlət siyasətinin əsas istiqamətlərindən biri kəndlərdə iqtisadi fəal əhalinin işlə təmin olunması, sahibkarlığı inkişaf etdirməklə əhalinin məşğulluq səviyyəsini artırmaqdan ibarətdir.

Əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi, əmək bazarının tələbi ilə işçi qüvvəsi təklifi arasındakı əlaqələrin gücləndirilməsi üçün cəmiyyətdə sosial əməkdaşlıq prinsiplərinin bərqərar olunması xüsusi əhəmiyyətə malikdir. Son illər əhalinin məşğulluğu sahəsində sosial tərəfdaşlığı həyata keçirmək üçün zəruri qanunvericilik bazası yaradılmışdır. 1999-cu il iyulun 1-dən qüvvəyə minmiş Azərbaycan Respublikasının Əmək Məcəlləsində "Kollektiv müqavilə və saziş" adlı xüsusi bölmə ayrılmış, 2001-ci il avqust ayından qüvvəyə minmiş "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda bu sahədə sosial tərəfdaşlıq münasibətləri, "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda isə tərəflərin hüquq və vəzifələri müəyyən edilmişdir. Azərbaycan Respublikasında məşğulluq sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, ölkədə əmək bazarının inkişaf etdirilməsi, yeni iş yerlərinin açılmasının sürətləndirilməsi və əhalinin səmərəli məşğulluğunun təmin edilməsi məqsədilə 2005-ci il oktyabrın 26-da "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)" təsdiq olunmuşdur. 2004-2008-ci illər üçün qəbul edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" kənd yerlərində məşğulluğun təmin olunması üçün həyata keçiriləcək tədbirləri müəyyənləşdirmişdir.

Kəndin sosial - iqtisadi xüsusiyyətləri və məşğulluq

Kəndin sosial-iqtisadi xüsusiyyətləri kənd təsərrüfatı və təbii sərvətlərin xüsusiyyətləri ilə formalaşır. Ona görə də kəndin sosial-iqtisadi potensialını qiymətləndirmək üçün təbii-coğrafi mühit və onların istifadəsinin səmərəli variantları, kənd əhalisinin təbii artımı, onun sosial-demoqrafik və əhalinin məşğulluq səviyyəsi, kənd təsərrüfatı və kənddə təsərrüfat fəaliyyətinin iqtisadi formaları, kənd əhalisinin gəlirlərinin formalaşma mənbələri, onun sahə quruluşu, əhalinin istehlakının formalaşma mənbələri, kənd əhalisinin istehlak səviyyəsinin və istehlak strukturunun formalaşmasında kənd təsərrüfatının rolu və kəndin maliyyə resursları, kəndin bazar tələb və təklifinin formalaşmasında rolu, kəndin ayrı-ayrı sahələrinin və tələbatın ödənilməsinin konkret üsulları, dövlətin kəndin sosial-iqtisadi inkişafı üçün proteksionist siyasəti və əsas mexanizmlərinin spesifik xüsusiyyətləri kimi bir sıra amilləri qruplaşdırmaq olar.

Azərbaycanda kənd əhalisinin məşğulluğu o qədər də yüksək deyil. Bu onu göstərir ki, kənddə iş qüvvəsinin təklifi tələbi daha çox üstələyir.

Kənd təsərrüfatı üçün xarakterik olan problemlərdən biri işlərin əsasən mövsümi xarakter daşımasıdır. "Mövsümi işlərdə çalışanların əksəriyyət hissəsi yalnız ilin müəyyən hissəsində məşğul olur, digər dövrlərdə isə faktiki olaraq işsiz qalırlar. Belə iş yerlərinə turizmlə məşğul olan komplekslər, bir sıra istirahət mərkəzləri, bir sözlə, il ərzində eyni gərginliklə işləməyən müəssisələr və s. iş yerləri aiddir. Belə yerlərdə çalışanların əksəriyyəti mövsümün başa çatması ilə əlaqədar işlərini dayandırmaq məcburiyyətdə qalırlar. Kənd təsərrüfatı ilə bağlı olan bir çox işlər də mövsümi xarakter daşıyır." [4, s.13]

Bir qayda olaraq, aşağı əmək haqqı olan bu sahədə işin mövsümi xarakter daşıması nəticəsində əmək qabiliyyətli insanlar eyni zamanda yaşayış yerlərini tərk edərək şəhərlərə üz tuturlar. İstər daxili miqrasiyada, istərsə də xarici ölkələrə iş axtarmaq üçün gedənlər içərisində kənd əhalisi xüsusi çəkiyə malikdir.

Bu sahədə fəaliyyət göstərən sahibkarların və kənd təsərrüfatı istehsalçılarının sözügedən problemini həll etməkdən ötrü dünyanın bütün ölkələrində məqsədyönlü şəkildə tədbirlər işlənib hazırlanır və reallaşdırılır. Həmin tədbirlər sistemi içərisində istehsalı strateji əhəmiyyət kəsb edən və zərərlə başa gələn məhsullar üzrə dotasiyaların, subvensiyaların, subsidiyaların ayrılması mühüm yer tutur. Avropa Birliyi ölkələrində və inkişaf etmiş ölkələrdə isə kənd təsərrüfatı məhsulları istehsalçılarının dövlət tərəfindən himayə olunma səviyyəsi daha yüksəkdir.

Kəndə məşğulluğun artırılması istiqamətləri

Kənddə məşğulluğun təmin edilməsində əsas yerlərdən birini kənd təsərrüfatı sahələrinin düzgün və məqsədyönlü şəkildə ixtisaslaşdırılması tutur. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi münasibətlərin inkişafının yekunlarına və

qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bildirmişdir ki, Azərbaycanda xalçaçılığın, baramaçılığın, pampıqçılığın və tütünçülüyün inkişafına dövlət dəstəyi həmişə olmuş, bundan sonra da davam etdiriləcəkdir. Bu sahələr həmişə kənd təsərrüfatının aparıcı sahələrindən biri olmuş, iqtisadi əhəmiyyətinə görə kənd yerlərində məşğulluğun təmin olunmasında və əhalinin maddi mənəvi səviyyəsinin yüksəldilməsində müstəsna rol oynamışdır. Azərbaycanda məşğulluq könüllülük prinsipinə əsaslandığından ölkənin əsas qanun da aşağıdakı kimi təsbit olunmuşdur.

Ölkə Konstitusiyasının müvafiq maddələrini təhlil edərkən məşğulluqla bağlı dövlətin mövqeyinin aşağıdakılardan ibarət olduğu müəyyən olunur:

• Hər kəs özünün istehsal və yaradıcılıq potensialı üzərində müstəsna sərəncam vermək hüququna malikdir. Hər kəs bu potensialından könüllü surətdə istifadə edə bilər. Heç kəs məcburi əməyə cəlb edilə bilməz. Əməyə icbari cəlbedilmə yalnız qanunvericilikdə müəyyən edilən hallarda yol verilə bilər.

• Dövlət hər kəsin əmək hüquqlarının təmin edilməsini özünün pozitiv öhdəliyi kimi bəyan edir. Hər kəsin öz istehsal və yaradıcılıq potensialından istifadə etməsi üçün dövlət səyləri həyata keçirilməlidir. Əgər dövlət belə bir şəraiti tam yarada bilmirsə, onda ölkədəki sosial-iqtisadi şərait nəzərə alınmaqla işsizlərə müavinətlər verilməlidir. Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında mühüm əhəmiyyət kəsb edən istqamətlərdən biri də "İnsan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması" istiqamətidir. Təqdim olunan tədqiqat sənədində həmin istiqamətin əmək münasibətlərinə aid olan hissəsi təhlil edilir. Konsepsiyada əmək münasibətlərinə və məşğulluq məsələlərinə dair nəzərdə tutulan əsas tədbirlər aşağıdakılardır:

- işləyən vətəndaşların layiqli həyat səviyyəsini təmin etmək məqsədi ilə iqtisadiyyatın inkişafından asılı olaraq minimum əmək haqqı məbləğinin tədricən minimum yaşayış standartlarına və Avropa ölkələrində müəyyən edilmiş normativə - orta aylıq əmək haqqının 60 faizi məbləğinə çatdırılması istiqamətində tədbirlər;
- əhalinin ümumi gəlirlərində əməyin ödənilməsi payının artırılması üçün işlərin davam etdirilməsi;
- işləyən vətəndaşların təhlükəsiz və sağlam əmək şəraitinin təmin edilməsi sahəsində işlərin gücləndirilməsi, əməyin mühafizəsi və əmək şəraitinin yaxşılaşdırılması üzrə Dövlət Proqramı hazırlanması;
- əmək və məşğulluq sahəsində milli informasiya sisteminin yaradılması, əmək bazarında yaranan vəziyyətin monitorinqi və təhlili sisteminin qurulması;
- qeyri-formal məşğulluğun qarşısının alınması üzrə ciddi tədbirlərin görülməsi;
- əlilliyi olan şəxslərin bacarıq və qabiliyyətlərinin inkişaf etdirilməsi,onlar üçün məşğulluq imkanlarının artırılması məqsədi ilə sosial və peşə reabilitasiya müəssisələrinin sayının artırılması;
- əmək miqrasiyası proseslərinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətində beynəlxalq əməkdaşlığın davam etdirilməsi, ölkə vətəndaşlarının əməkçi miqrantlar qismində xarici ölkələrə göndərilməsi işinin beynəlxalq təcrübəyə uyğun tənzimlənməsinin təmin olunması.

Kənd təsərrüfatının ixtisaslaşması dedikdə, torpağın iqlim şəraitindən və təbii istehsal potensialından asılı olaraq, bir neçə rəqabətqabiliyyətli məhsul üzrə intensiv inkişafın təmin edilməsi, bu şəraitdən asılı olaraq iqtisadi rayonlar və ya ayrı-ayrılıqda hər bir rayon üzrə sahədən məhsuldarlığı yüksək olan bitkilərin becərilməsi və məhsuldar cins heyvanların bəslənib yetişdirilməsi ixtisaslaşma səviyyəsinin müəyyən edilməsi nəzərdə tutulur. Bunun da nəticəsində kənddə çoxsahəli istehsal sahələri inkişaf edir, mövcud emal sahələri ilə yanaşı, yeni emal müəssisələri yaranır.Yeni sahələr və güclü məhsul istehsalı azad rəqabət mühitini formalaşdırır.Kənd təsərrüfatı üçün faydalı olan yeni kənd təsərrüfatı və sənaye sahələrinin yaranması yeni iş yerlərinin yaranmasına və əhalinin işlə məşğulluğuna müsbət təsir göstərir. "İxtisaslaşdırma kənd təsərrüfatı məhsulları istehsalının yerləşdirilməsi ilə sıx əlaqədardır. İxtisaslaşdırma işi həyata keçirilərkən zonanın, rayonun və kəndin təbii-iqtisadi şəraiti diqqətlə nəzərə alınmaqla öyrənilir

və beləliklə, kənd təsərrüfatı istehsalının düzgün yerləşdirilməsi təmin edilir." [5] Məsələn, 2015-ci ildə Abşeron iqtisadi rayonu üzrə ixtisaslaşma aşağıdakı kimi müəyyənləşmişdir:

Kənd təsərrüfatı bitkilərinin əkin sahəsi (bütün təsərrüfat kateqoriyaları üzrə), ha	
2015-ci il	
Dənli və dənli paxlalılar	1774
Kartof	50
Tərəvəz	564
Meyvə, giləmeyvə	2782
Üzüm	191
Mal-qaranın sayı (bütün təsərrüfat kateqoriyaları üzrə), baş	
İri buynuzlu mal-qara	35042
Qoyunlar və keçilər	194867
Donuzlar	566
Quşlar	2613531

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi-www.stat.gov.az

Cədvəldən aydın olur ki, Abşeron iqtisadi rayonu taxılçılıq, meyvəçilik, qoyunçuluq və quşçuluq istiqamətində ixtisaslaşmışdır.

Kənddə məşğulluq üzrə problemlərin həllində sahibkarlıq fəaliyyətinin genişləndirilməsi də mühüm yer tutur. "Hazırda Azərbaycanda sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı 677 mindən çoxdur. ÜDM-in həcmində isə özəl sektorun payı 80 faiz təşkil edir." [2, s.3] Buna baxmayaraq, Azərbaycanda son illərdə ölkədə sahibkarlıq fəaliyyətinin inkişafı sahəsində əldə edilən müvəffəqiyyətlər kənddə məşğulluq məsələlərinin həllinə öz təsirini göstərə bilməmiş, bir sıra özəl müəssisələr özünü doğrultmamış, gəlir əldə etməyərək bağlanmışdır. "Aqrar sahədə fəaliyyət göstərən sahibkarların gəlirləri iqtisadiyyatın başqa sahələrində sahibkarlıq fəaliyyəti ilə məşğul olan sahibkarların gəlirləri ilə müqayisədə daha kəskin dəyişmələrə məruz qalır, ümumi halda götürüldükdə isə həmişə azalmağa meyilli olur." [3, s.10]

İşsiz kənd sakinlərinə bazarın tələblərindən çıxış edərək göstərilən müxtəlif təhsil xidmətlərinin mühüm rolu vardır. Məsələn, Quba rayonunda yaradılan Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi 2016-cı il 31 yanvar-8 fevral tarixlərində "Fermer evi"ndə meyvə bağlarının idarə olunması üzrə qısamüddətli təlim kursları təşkil etmişdir. Təlimləri Consulting Group MMC və Quba Regional Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzinin mütəxəssisləri aparmışlar. Kurslarda nümunəvi bağçılıq, intensiv bağçılığa keçid, becərmə və zərərvericilərə qarşı mübarizə, yığım və depolama, logistika və marketinq mövzularının öyrədilməsi nəzərdə tutulmuşdu. [5]

Azərbaycan Dövlət Aqrar Universitetində "Mən necə karyera qurdum?" adlı daha bir layihəyə start verilib. Bu layihədə əsas məqsəd tanınan iş adamları ilə ixtisaslar üzrə tələbələrin görüşünün keçirilməsidir. Layihənin həyata keçiriləcəyi müddət ərzində iş adamları tələbələrin içərisindən öz müəssisələrində çalışmaq üçün kadrlar seçəcəkdir. Bu, kənd yerində yaşayan insanlara şəxsi karyeranı qurmağa kömək edəcəkdir.

Qeyri-neft sektorunun aparıcı sahələrindən biri olan aqrar sektorun inkişafı ölkə əhalisinin ərzaq təhlükəsizliyinin və məşğulluğunun təmin edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Aqrar sahənin daha da inkişaf etdirilməsi məqsədilə dövlət tərəfindən investisiya layihələrinin reallaşdırılmasına, güzəştli kreditlərin verilməsinə xüsusi əhəmiyyət verilir və bu istiqamətdə fəaliyyət getdikcə genişlənir. Bu dəstək tədbirlərinə misal olaraq Fondun vəsaitləri hesabına dövlətin güzəştli kreditlərinin verilməsini göstərmək olar. Aqrar sektorun inkişafı ilə bağlı 2351 (94.9%) layihəyə 156 (82.3%) milyon manatadək dövlətin güzəştli kreditləri verilmişdir. Əhalinin ərzaq təminatını yerli istehsal hesabına daha da yaxşılaşdırmaq məqsədilə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq, respublikanın 20 rayonunda

44 min hektaradək sahədə 22 sahibkarlıq subyekti tərəfindən 32 iri fermer təsərrüfatı yaradılmışdır. Hazırda təsərrüfatlarda əsasən müasir suvarma sistemləri yaradılmışdır.

Qeyd etmək lazımdır ki, "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)"nın əsas məqsədi də məşğulluq sisteminin inkişaf etdirilməsi, yeni iş yerlərinin yaradılması, əmək bazarının tənzimlənməsi və qeyri-məşğul əhalinin sosial müdafiəsinin gücləndirilməsidir. Bu strategiyanın vasitəsilə kənd yerlərində də işsizlərin sosial müdafiəsinin təmin edilməsi, işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin edilməsinə kömək edən xüsusi tədbirlərin həyata keçirilməsi, sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafının, eləcə də fərdi əmək fəaliyyəti ilə məşğul olanların (xüsusilə də əmək bazarında gərginlik olan ərazilərdə) iqtisadi həvəsləndirilməsinin təmin edilməsi, peşə təhsilinin əmək bazarının dəyişən tələblərinə uyğunlaşdırılması məqsədi ilə bu sahədə ixtisas və ixtisaslaşma təsnifatının təkmilləşdirilməsi həyata keçirilir.

ƏDƏBİYYAT

1. Azərbaycanda Sosial Müdafiə Sistemi: Qiymətləndirmə və Təkmilləşdirilməsi İstiqamətləri: Layihə/ CESD Tədqiqat Qrupu. Bakı, 2016, s.18. (22 s.)
2. Cəfərli R. İqtisadi inkişafın banisi //Azərbaycan.-2016.-30 aprel.-s.3.
3. Cəfərov V. Kənd təsərrüfatında sahibkarlıq məşğulluğun səmərəliliyindən asılıdır// Ekspress. 2012.-22-24 dekabr.-S.-10.
4. Məmmədov S. Avropaya inteqrasiya edən Azərbaycanda məşğulluq siyasəti. Bakı, 2008, s.13. (30 s.)
5. ƏƏSMN-nin məşğulluq xidmətləri və işsizlik müavinəti sisteminin-www.salamnews.org

Камала Акбар кызы Гусейнова
старший преподователь, диссертант кафедры
«Бухгалтерского учета и аудита»
Азербайджанского Университета Кооперации,

Джошгун Араз оглу Бабазаде
магистр

Роль аграрного развития в увеличении занятости в селах

Резюме

В деревне спрос и предложение на работу превышает рабочие силы. Из-за этого увеличение занятости сельского населения не так высоко. Сегодня одной из основных проблем, является обеспечение занятости в селах. Проблема решается за счет развития предпринимательства, инноваций, за привлечение внутренних и иностранных инвестиций и возрождения секторов сельского хозяйства.

Ключевые слова: аграрный сектор, ъельское население, безработица, занятость, социальные реформы, крестьянские (фермерские) хозяйства, предпринимательство, квалификация, вложение инвестиций, ълужбы занятости.

Kamala Akber Huseynova
candidate for a degree of the
chair "Accounting and audit"
Azerbaijan Cooperation University,

Coshgun Araz Babazadeh
master

The role of agrarian development in the increase of employment in the villages

Summary

The employment of the population in the village is not so high as the demand for the labor force. That is why the growth of employment of rural population is not so high. One of the main

challenges facing today is the employment of the population in rural areas. This problem is gradually eliminated through the creation of farms, entrepreneurship development, innovation, attracting domestic and foreign investments, and the revitalization of the agricultural sector.

Key words: agrarian sector, rural population, unemployment, employment, social reform, peasant farms, entrepreneurship activities, professional development, investment, employment services.

Əzizə Mahir qızı MAHMUDOVA
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin magistri

AQRAR SEKTORUN İNKİŞAFINDA İNNOVASİYALARIN TƏTBİQİNİN ƏHƏMİYYƏTİ

Xülasə

Məqalədə, kənd təsərrüfatında baş verən regional proseslərin araşdırılmasında və kənd təsərrüfatı müəssisələrinin perspektivli inkişafının proqnozlaşdırılmasında tətbiq edilən ən səmərəli üsullardan biri olan ssenari üsullarından bəhs edilmiş və onların geniş təhlili verilmişdir. Həmçinin, innovasiyaların tətbiq edilməsinin kənd təsərrüfatı müəssisələrində iqtisadi imkanları əhəmiyyətli dərəcədə genişləndirməsindən bəhs edilir.

Açar sözlər: İnnovasiya, kənd təsərrüfatı istehsalı, ekonometrik model, innovativ inkişaf xətti, iqtisadi effekt.

***

İqtisadiyyatın inkişafının mühüm sahəsi olan kənd təsərrüfatı qeyri-neft sektorunun tərkib hissəsi kimi vacib əhəmiyyət kəsb edir. 2001-ci ildə ölkə rəhbərinin sərəncamı ilə "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı" təsdiq edilib. Bu proqram çərçivəsində görülmüş işlər nəticəsində kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı əhəmiyyətli dərəcədə artıb. Azərbaycanda sürətli iqtisadi inkişafın başlaması nəticəsində aqrar sahənin daha da inkişaf etdirilməsi üçün görülən tədbirlər də genişlənib. Aqrar sahənin inkişafı Azərbaycan Prezidentinin iqtisadiyyatın şaxələndirilməsi strategiyasının başlıca istiqamətlərindən birini təşkil edib. Belə ki, ölkə əhalisinin təxminən 1,5 milyon nəfərinin aqrar sektorda çalışması baxımından bu sahənin inkişaf etdirilməsi həm də qeyri-neft sektorunun inkişafı, işsizliyin və yoxsulluğun azaldılması baxımından xüsusi əhəmiyyət kəsb etməkdədir. Kənd təsərrüfatının müxtəlif sahələrində fəallığın artırılması üçün stimullaşdırma həyata keçirilməlidir ki, bu sahədə məşğul olan fərdi təsərrüfat sübyektləri, kəndli fermer təsərrüfatlarının səmərəli işləməsinin, eləcə də ölkənin kənd təsərrüfatı məhsulları ilə təmin olunmasında,ərzaq təhlükəsizliyinin təminatlı olmasında böyük rol oynasın [3].

Aqrar sektorda innovasiya sistemi maddi-texniki resursların mövcudluğu və elmi-texniki potensialla müəyyənləşir. İnnovasiya siyasətinin məqsədi məhsulun rentabelli istehsalı, makrosəviyyədə isə innovasiya fəallığının artırılması üçün şəraitin yaradılması, elmi mexanizmlərin formalaşdırılmasından ibarətdir. Məhz həmin mexanizmlərin köməyi ilə istehsalın təşkilati, iqtisadi, texniki və texnoloji yeniləşdirilməsi prosesi həyata keçirilir. İnnovasiya siyasətinin formalaşdırılmasında bir sıra mühüm amillərin nəzərə alınması vacibdir:

- innovasiya bazarında, iqtisadiyyatda, məhsulların və texnologiyaların çeşidində strateji dəyişikliklərin qabaqcadan proqnozlaşdırılması;
- innovasiya qərarlarına müvafiq münasibət bildirilməsi və onların dəstəklənməsi üçün zəruri tədbirlərin hazırlanması;
- innovasiya dinamikasının ilkin şəraitinin aşkar edilməsi.

İnnovasiya fəaliyyətinin səviyyəsi kadrların təhsilindən, texniki-texnoloji hazırlıq səviyyəsindən, baza ixtisasının mövcud olub-olmamasından asılıdır. Bu amil innovasiyanın qavranılmasını və istehsalatda onun istifadəsindən gözlənilən səmərənin əvvəlcədən qiymətləndirilməsini təmin edir. Bundan başqa ölkə iqtisadiyyatında nail olunmağa çalışılan davamlı inkişaf və bu is-

tiqamətdə ətraf mühitin "dostu" hesab edilən mal və xidmətlərin ekoloji standartlara uyğun istehsalı üçün innovasiyanın inkişafı [4, s.1759] və onların kənd təsərrüfatında tətbiqi zəruridir.

Bazar iqtisadiyyatı şəraitində çoxukladlı kənd təsərrüfatının səmərəliliyi mütəxəssislərin hazırlıq səviyyəsindən və işgüzar keyfiyyətlərindən asılıdır. İstehsalın təkmilləşdirilməsi, sahibkarlıq, menecment, marketinq və qiymətyaratma, vergitutma və maliyyə-kredit təminatı, xarici iqtisadi fəaliyyətin əsasları, habelə hüquq məsələlərinə dair biliklərin mənimsənilməsi praktik mütəxəssis və rəhbər işçi üçün zəruri keyfiyyətlərdir. Kadr ehtiyatlarının zəruri keyfiyyət dəyişiklikləri aqrar sahə mütəxəssislərinin hazırlanmasını, əmək bazarında vəziyyətin dəyişməsi ilə əlaqədar təkrar hazırlıq və ixtisas səviyyəsinin artırılması sisteminin təkmilləşdirilməsini nəzərdə tutur [1, s.136]. Bu sistem işçinin bazar konyunkturunun dəyişməsi şəraitində peşəkarlıq baxımından səriştəli və mobil, lazım gəldikdə qısa müddətdə başqa peşə öyrənməyə hazır, informasiya axınından baş çıxara bilən, innovasiyaları qavramağı, daim öz ixtisas səviyyəsini artırmağı bacaran vəziyyətdə olmasına imkan verən biliklər həcmində fundamental baza təhsili almaq konsepsiyasını əsas götürməlidir.

Aqrar sektorun inkişafı və ərzaq məhsullarının istehsalının artırılması üçün yeni texnologiyaların və müasir texnikanın cəlb edilməsi həlledici əhəmiyyət kəsb edir. Kənd təsərrüfatında çalışan əhali üçün mineral gübrələrin, texnoloji avadanlıqların, tinglərin, buğda toxumlarının, cins damazlıq heyvanların ölkəyə gətirilib istehsalçılara çatdırılması dövlətin başlıca məqsədlərindəndir. Aqroservislər yaratmaqla əhalinin müxtəlif növ kənd təsərrüfatı texnikasına olan tələbatının ödənilməsi ilə, eləcə də bu sahə üçün önəmli olan, məhsuldarlığın artmasında müstəsna rol oynayan gübrələrin qiymətində daha çox güzəştə getməklə, heyvandarlıq sahəsinin inkişafı üçün damazlıq və daha məhsuldar heyvan cinslərinin ölkəmizə gətirilməsi hevandarlıq ilə məşğul olan təsərrüfat subyektlərinin böyük marağına səbəb olur. Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul edilmiş qanunlar və Azərbaycan Prezidenti tərəfindən verilən fərman və sərəncamlar kənd təsərrüfatının inkişafını sürətləndirəcək və ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verəcəkdir [2, s.91-94].

Nəticə

Aparılan tədqiqatlar göstərir ki, perspektiv baxımından, innovasiyaların hər yerdə tətbiq edilməsi kənd təsərrüfatı müəssisələrinin iqtisadi imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir, onların sosial, iqtisadi və ekoloji effektivliyinin artırılmasına, istehsal edilən məhsul vahidi üçün sərf olunan pul vəsaitləri, maddi xərclərin, həmçinin, kənd təsərrüfatı məhsullarının resurs tutumunun azaldılmasına şərait yaradır. İnnovasiyaların geniş tətbiqi kənd təsərrüfatı məhsullarının rəqabətədavamlılıq qabiliyyətini artırmış olur.

ƏDƏBİYYAT

1. Bəşirova S.A. "Aqrar sektorda istehsalın inkişaf perspektivlərinin ekonometrik modellər əsasında qiymətləndirilməsi", Elmlər Akademiyası, jurnal, N5.,2017.
2. S.A.Bəşirova. "Qeyri-xətti ekonometrik modellər əsasında Aqrar sektorda istehsalın inkişaf perspektivlərinin qiymətləndirilməsi", Qlobal iqtisadi böhran şəraitində Azərbaycanın Davamlı İnkişafının təmin edilməsi- Respublika elmi-praktik konfrans-2016, s.91-94.
3. http://diskurs.az/en/az-rbaycan-k-nd-t-s-rrufatinin-inkisafi-probleml-ri/
4. Zivar Zeynalova. The role of economic and social instruments of environmental policy, *International Society For Development And Sustainability*, Japan, 2017, 6 (11) 1757-1767.

Азиза Махир кызы Махмудова
магистр АГН и ПУ

Важность применения инноваций в развитии аграрного сектора

Резюме

Исследование показывает, что в долгосрочной перспективе, инновация повсеместно применяться для сельскохозяйственных предприятий, экономические возможности значительно расширить свою социальную, экономическую и экологическую эффективность

производства продукции в расчете на единицу потраченной денежные средств и материальные затраты, а также сельскохозяйственные ресурсы способствует уменьшению емкости. Способность широкого внедрения инноваций в прочности повышает конкурентоспособность сельскохозяйственной продукции.

Ключевые слова: инновации, сельскохозяйственное производство, эконометрическая модель, сценарный подход, экономический эффект.

Aziza Mahir Mahmudova
master of ASO and İU

Importance of applying innovations in the development of the agricultural sector

Summary

The study shows that in the long term, innovation is universally applied to agricultural enterprises, economic opportunities significantly expand their social, economic and environmental efficiency of production per unit spent money and material costs, and agricultural resources contribute to a decrease in capacity. The ability to widely introduce innovations in strength increases the competitiveness of agricultural products.

Key words: innovation, agricultural production, econometric model, the scenario approach, the economic effect.

Məhin Xəqani qızı ŞAHSUVARLI
Azərbaycan Kooperasiya Universitetinin dissertantı

KLASTERLƏRİN AQRAR SAHƏNİN İNKİŞAFINDA ROLU

Xülasə

Məqalədə aqrar sferanın inkişafında klasterlərin rolu və onun tətbiqi istiqamətlərinə baxılmışdır. Azərbaycan Respublikasının "Strateji Yol Xəritəsi"nə uyğun aqrar sahədə klasterlərin yaradılması zəruriliyindən danışılır. Aqrar sahədə klasterlərin fəaliyyəti təhlil edilmiş və həmin fəaliyyətin təkmilləşdirilməsinə dair elmi əsaslandırılmış təkliflər verilmişdir.

Açar sözlər: klaster, aqrar sahə, rəqabətlilik, müəssisə, biznes, əmtəə bazarı.

Giriş

Müasir iqtisadi şəraitdə kənd təsərrüfatı məhsullarının istehsalına təsir edən amillər "Strateji Yol Xəritəsi"nin əsas prinsipləri ilə müəyyənləşdirilmişdir. Aqrar sektorun inkişafı ilə bağlı həm orta, həm də uzunmüddətli dövrdə strateji inkişaf hədəflərinə çatmaq üçün müxtəlif amillərdən biri də bu sahədə klaster hesab olunur. Klaster beynəlxalq təcrübəyə əsasən özünü daha çox sənaye sferasında göstərməsinə baxmayaraq, struktur və fəaliyyət məzmununa görə aqrar sahədə səmərəliliyin yüksəldilməsində mühüm rol oynayır. Azərbaycanda aqrar sahənin inkişaf səviyyəsini nəzərə alaraq, bu sahədə klasterlərin yaradılması və ona dövlət dəstəyinin olması bir vəzifə kimi qarşıya qoyulmalıdır. Qarşıya qoyulmuş bu məqsədlərə innovativ texnika-texnologiyaların tətbiqi, istehsal olunan məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi və istehsal məsrəflərinin azaldılması, yeni iş yerlərinin yaradılması və s. aid etmək olar.

Strateji yol xəritəsində göstərildiyi kimi, məqsədlərə nail olmaq üçün istifadə edilən bütün amillərin, o, cümələdən klasterlərin yaradılmasına dövlət dəstəyi olmalı və onun yaradılmasında dövlət yaxından iştirak etməlidir. Çünki, klasterlərin yaradılması struktur baxımından mürəkkəb mexanizmə əsaslanır.

Klasterlərin yaradılması zərurəti

Klasterlər haqqında ilkin nəzəri əsaslar ingilis iqtisadçı alimi A.Marşall tərəfindən qoyulmuş, "Ekonomiksin prinsipləri" əsərində xüsusi sənaye regionları fonunda tədqiq edilmişdir.

Klaster modeli XX əsrin 60-70-ci illərindən başlayaraq tətbiq edilən bir mexanizmdir və tətbiq edildiyi ölkələrin əksəriyyətində iqtisadi cəhətdən çox əhəmiyyətli mövqeyə malikdir. Klasterlər - eyni və ya bənzər sektorda fəaliyyət göstərən, əlaqəli və bir-birini tamamlayıcı fəaliyyət sahələrinin müəyyən coğrafi bölgədə yerləşməsi ilə meydana gələn, ümumi infrastruktur, texnologiya, vahid bazar, işçi qüvvəsi və xidmətləri paylaşaraq qarşılıqlı ticarət əlaqələrinin qurulması, kommunikasiya və qarşılıqlı dialoq imkanlarına malik olan sahibkarlıq subyektlərindən ibarət sistemlərdir.

Müasir dövrdə isə klasterlərə daha çox strukturlaşma və bu baxımdan müxtəlif səviyyəli rəqabət imkanlarının yaradılması kimi yanaşılır. Bildiyimiz kimi, klasterlərin strukturlaşma səviyyəsinə keçməsinin başlıca səbəbi dünya iqtisadiyyatında qlobal proseslərin inkişaf etməsi və getdikcə genişlənməsidir. Qeyd etmək lazımdır ki, klasterlərin mahiyyətinin müəyyən olunmasında ilk klassik yanaşmanı dünya şöhrətlı iqtisadçı alım. M. Porter ortaya qoymuşdur. Ona görə "Klaster bir- biri ilə qarşılıqlı əlaqədə olan coğrafi şirkətlər qrupunu, təşkilat, institut və s. kimi sahələri özündə birləşdirən strukturları ifadə edir." (səh. 413. M.Porter "Конкуренция – M. -2005)

M.Porterin klaster haqqında verdiyi təsnifat sənaye sahəsinə aid olan müəssisələri əhatə etsə də, yaradılmasının səbəb və məqsədi baxımından iqtisadiyyatın aqrar sahəsinə də tətbiqi bu sahənin inkişafında mühüm rol oynayır.

Aqrar sahədə klasterlərin yaradılmasının başlıca məqsədi aşağıdakılardır:

- klaster iştirakçılarının innovativ texnika-texnologiyalar əsasında rəqabətliliyinin yüksəldilməsi:
- istehsal məsrəflərinin azaldılması;
- istehsal olunan məhsulun keyfiyyətinin yüksəldilməsi, keyfiyyətin unifikasiyası, logistik, mühəndis, informasiya texnologiyaları əsasında idarə olunması;
- klaster iştirakçılarının ümumi maraqlarının dövlət idarəetmə srukturunda müdafiə olunması;
- yeni iş yerlərinin yaradılması və istehsal tsiklinin təmin olunması;
- aqrar məhsullar üzrə daxili tələbatı ödəməklə dünya bazarlarına və aqrar birjalara çıxmaq;
- tam istehsal tsiklinin təmin olunması;
- bazarlarda mümkün tələb və təklif haqqında informasiyaların mübadiləsi və onların əlçatan olması.

Aqrar sahədə mövcud olan klaster srukturları digər strukturlara nisbətən daha həssasdır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, aqrar sahədə daha çox ikinci tip klasterlərin - innovasiya və istehsal tipləri üzrə yaradılması və formalaşması məqsədəuyğundur. [2, s.94]

İnnovasiyalı klasterlər aqrar sahə üçün rəqabət üstünlüklərini əldə etməkdən ötrü özünü proqressiv forma kimi göstərir. Çünki, proqressiv forma özlüyündə elmi, elmi-tədqiqat, təhsil müəssisələrini, konsaltinq kompaniyalarını, innovasiyanı dəstəkləyən biznes strukturlarını, bazar mexanizminə xidmət edən və mərkəzləşdirilmiş koordinasiya sistemini əks etdirən təşkilatları birləşdirir.

Aqrar sahədə klasterlərin yaradılması informasiya amili baxımından, qeyd etdiyimiz kimi, özündə rəqabət üstünlüklərini birləşdirir və aşağıdakı təsir imkanlarına malik olur:

- Sahə strukturunu dəyişir və rəqabət üçün yeni qaydalar irəli sürür;
- Məhsuldarlıq baxımından rəqibləri keçmək imkanı yaradacaq güclü rəqabət mövqeyi ortaya qoyur;
- Biznes proseslərinə kənd təsərrüfatı klasterləri hesabına istiqamət və nizam verir;
- Yüksək ixtisaslı işçilərin daim işləməsi üçün şərait yaradır.

İnformasiya texnologiyalarının əldə olunması nəticəsində regional və bələdiyyələr səviyyəsində olan sahə strukturlarının idarə olunmasında dəyişikliyə məruz qalır. Yeni əsaslarla işçilərin kadr hazırlığı yüksəlir ki, bu da sonda informasiya texnologiyaları üzrə idarəetmənin yüksək səmərə verməsi ilə nəticələnir. Çünki klaster yanaşması özlüyündə kənd təsərrüfatı müəssisələrinin rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə, ərazi və sahələrarası idarəetmə prinsipinə əsaslanmaqla iqtisadiyyatın mezo səviyyəsində inteqrasiya proseslərini stimullaşdırır. Rəqabət-

lilik nöqteyi-nəzərdən kənd təsərrüfatında klasterlərin yaradılması onun iştirakçıları arasında sinergetik effekt əlaqələrini inkişaf etdirir. Bununla yanaşı rəqabətlilik klasterlərin yaradılmasında aqrar bazar üçün nə qədər əhəmiyyət kəsb edirsə, bir o qədər də qlobal rəqabət üçün əhəmiyyət kəsb edir.

Aqrar sahədə istehsal tipli klaster respublikamızın regionlarının xarakterik xüsusiyyətləri nəzərə alınmaqla, özlüyündə kənd təsərrüfatı məhsulları istehsalçılarını, soyuducu-saxlayıcı şəbəkələri, logistika- marketinq sistemini, xidmət sahələri müəssisələrini birləşdirir. Bu tipli klasterlərin başlıca üstünlükləri ondan ibarətdir ki, aqrar istehsalı təşkil edərkən burada təsərrüfatdaxili əlaqələr daha sıx və sürətli olur. Nəticə etibarı ilə bu da məhsuldar qüvvələrdən istifadəni daha effektiv edir. Aşağıdakı şərtlər daxilində klasterlərin fəaliyyəti daha uğurlu olur:

- mövcud torpaq ehtiyatlarını bazis kimi götürməklə məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsini təmin etmək;
- fəaliyyətdə olan bir sıra aqrar müəssisələrin ümumi məqsəd və maraqlarından çıxış edərək rəqabət üstünlükləri üzrə səylərini birləşdirmək;
- idarəetmə orqanlarının koordinasiyasını yerinə yetirmək funksiyasını təmin edəcək mərkəz yaratmaq;
- bütün səviyyələrdə , xüsusən də aqrar bazar üzrə infrastrukturu təşkil etmək;
- maliyyə-kredit institutlarının (bank tipli) xidmətlərini yüksəltməklə onların klaster iştirakçılarına çevrilməsi və bu əsasda lizinq, sığorta və s. bu kimi əməliyyatlara şərait yaratmaq [3. s. 43]
- dünya təcrübəsinə nəzər saldıqda aydın olur ki, dövlətin klaster təhsili proqramlarını dəstəkləməsi aqrar sferada rəqabət qabiliyyətinin təmin olunmasında yüksək səmərə vermişdir. Burada əsas həlqə «elm - (təhsil) - istehsal» seçilmişdir. [4. s. 322]. Hesab edirik ki, ölkəmizdə klaster siyasətinin inkişafı aqrar sferada klasterlərin yaradılmasına təkan verməklə bu sahənin səmərəliliyini artıracaq və əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatını ödəməklə ixrac potensialını artıracaqdır.

Nəticə

Qeyd etmək lazımdır ki, ölkəmizdə aqrar sahədə klasterlərin formalaşması mexanizmi lazımi səviyyədə deyil və bu sahənin inkişafında ciddi rol oynaya bilmir. Bu sahədə klasterlərin yaradılması potensial resursları özündə birləşdirən təkrar istehsalın normal variantını özündə əks etdirməlidir. Aqrar klasterlərin yaradılması müasir dövrün tələblərinə cavab verən kriteriyalara uyğun müəyyən olunmalıdır ki, ölkədə ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynaya bilsin.

1. Aqrar sahədə klaster işçilərinin mövcud şəraitə uyğun strukturunun yaradılması;
2. İstehlak nemətlərinin marketinq potensialının yüksəldilməsi;
3. Klasterə daxil olan müəssisələrin istehsal etdiyi məhsulların keyfiyyətinin bütün səviyyələrdə idarə olunması siyasəti və strategiyasının hazırlanması;
4. Kənd təsərrüfatı klasterlərinin təşkilati strukturunun hazırlanması;
5. Kənd təsərrüfatı klasterlərinə daxil olmanın sadələşdirilməsi və kadrların təkmilləşdirilməsi və s.

Bu kriteriyaları, fikrimizcə, iki istiqamətdə göstərmək olar:

- birincisi, potensial klaster özlüyündə mümkün klaster iştirakçılarını birləşdirir;
- ikincisi, fəaliyyətdə olan klaster- özlüyündə klaster iştirakçılarının qarşılıqlı əlaqəsini təmin edir.

ƏDƏBİYYAT

1. Портер М.Э «Конкуренция». (Перевод с анг.) – 2005 г.
2. Сельскохозяйственный комплекс Украины. М.А.Хвесика, А.С.Лисецко (монография) НАН Украины, 2009-216).
3. Пятинкин С.Ф. «Развитие кластеров:сущность, актуальные подходы,зарубежный опыт. Минск: 2008 г -72.

4. И.В.Крючкова. Конкурентоспособность Экономики Украины. (Монография)-2007.
5. “Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası. (http://www/president/az/
6. “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”

Мехин Хагани кызы Шахсуварлы
диссертант Азербайджанского Университета Кооперации

Роль кластеров в развитии аграрной отрасли

Резюме

В статье рассмотрена рол кластеров в развитии аграрной отрасли. А так же необходимость создания кластеров, согласно «Стратегической Дорожной Карте» Азербайджанской Республики по развитию аграрного сектора. Проанализирован деятельность кластеров и дано научно обоснованное предложения о совершенствование деятельности. в аграрном секторе.

Ключевые слова: кластер, аграрная отрасли, конкуренция, аграрный бизнес, предприятия, товарный рынок.

Mahin Khaqani Shahsuvarli
candidate for a degree of the
Azerbaijan Cooperation University

The role of clusters in development of aqrarian fleld

Summary

İn presented the role of clusters in development of aqrarian fleld are considered. Direktions for the grantion of in the aqrarian sphere, according to the “ Strategic roadmap”.

The work of clusters in agriculture was analyzed and scientifically based proposals for the development of that work were given.

Key words: cluster, aqrarian fleld, competitiveness, aqrarian market, enterprise, aqrarian business.

Nərgiz Şamil qızı XALIQOVA
iqtisad üzrə fəlsəfə doktoru, baş müəllim,
Azərbaycan Kooperasiya Universiteti

AQRAR BAZARDA ƏMTƏƏ TƏKLİFİ: MÖVCUD SƏVİYYƏ VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ

Xülasə

Məqalədə Azərbaycanın aqrar bazarının mövcud vəziyyəti araşdırılmış, burada tələb və təklifin səviyyəsi öyrənilmişdir. Həmçinin, son illər ərzində bu sahədə həyata keçirilmiş iqtisadi islahatlar və onların aqrar bazara, kənd təsərrüfatına və bütövlükdə iqtisadiyyata təsiri təhlil edilmişdir. Bununla yanaşı, respublikada aqrar bazarın inkişaf istiqamətləri müəyyən edilmişdir.

Açar sözlər: kənd təsərrüfatı, aqrar bazar, əmtəə təklifi, qeyri-neft sektoru, tənzimləmə, islahatlar.

Giriş

Kənd təsərrüfatında bazar təsərrüfatçılıq sisteminə keçilməsi ilk növbədə aqrar sektorda mülkiyyət münasibətlərinin yenidən qurulmasını, müxtəlif təsərrüfatçılıq formalarının yaradılmasını nəzərdə tutur. İnkişaf etmiş dünya dövlətlərinin təcrübəsi göstərir ki, aqrar islahatların həyata

keçirilməsi qısamüddətli tədbir olmayıb, tarixi bir prosesdir. Aqrar islahatlar mahiyyət etibarilə əvvəlki təsərrüfatçılıq sisteminin yeni bazar münasibətləri sisteminə əvəzlənməsi və kənd təsərrüfatının idarə edilməsinin liberal iqtisadiyyatın tələblərinə uyğunlaşdırılması ilə şərtlənir. Aqrar islahatlar kənd təsərrüfatında köklü struktur dəyişikliklərinin həyata keçirilməsini, dövlət mülkiyyətinin özəlləşdirilməsini, yeni mülkiyyət münasibətlərinin və çoxukladlı təsərrüfatçılıq qurumlarının yaradılmasını, sahibkarlığın inkişafı üçün hüquqi, iqtisadi, təşkilati və texniki şəraitin yaradılmasını, istehsalçılar arasında azad rəqabət mühitinin yaradılmasını nəzərdə tutur.

Aqrar bazarın müxtəlif seqmentləri üzrə əmtəə təklifinin mövcud vəziyyəti.

Təcrübədə aqrar bazarın seqmentlərinə aşağıdakılar şamil edilir:

- kənd təsərrüfatı;
- emal sənayesi;
- maddi-texniki resursları üzrə ixtisaslaşmış sahə;
- ticarət və kommersiya qurumları.

Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinin kooperasiyası və onların iqtisadi cəhətdən inteqrasiyası aqrar sahədə formalaşır. Qeyd etmək lazımdır ki, müstəqil Azərbaycan Respublikasının milli iqtisadiyyatının formalaşdırılmasında və inkişafında aqrar sahə mühüm rol oynayır. Əhalinin ərzaq, yeyinti və istehlak məhsullarına olan tələbatı aqrar sahə və onunla qarşılıqlı əlaqəyə malik olan sahələr tərəfindən ödənilir. 2017-ci ilin məlumatlarına görə ümumi daxili məhsulun 5,6%-ə qədəri kənd təsərrüfatının payına düşür. Ölkə iqtisadiyyatında çalışan əmək qabiliyyətli əhalinin 37,7%-i kənd təsərrüfatı istehsalında çalışır. Ötən ildən etibarən Azərbaycanda həyata keçirilən yeni iqtisadi islahatların əsas istiqamətləri iqtisadiyyatın şaxələndirilməsini və investisiya qoyuluşunu sürətləndirmək, neft gəlirlərinin səviyyəsindən asılı olmayaraq qeyri-neft sektorunun yüksək inkişaf tempini təmin etmək, ölkəmizin ixrac imkanlarını genişləndirməkdir. Məlum olduğu kimi, ötən il ərzində Prezident İlham Əliyev tərəfindən bu sahədə bir neçə sərəncam imzalanmışdır.

Ölkə rəhbərinin "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 18 yanvar 2016-cı il tarixli sərəncamı, "Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 1 mart 2016-cı il tarixli fərmanı və digər hüquqi sənədlər göstərdi ki, Azərbaycanda qeyri-neft sektorunun inkişafında yeni mərhələ başlayır. Sərəncamlara əsasən, qeyri-neft sektorunda istehsalın və ixracın stimullaşdırılması kimi mühüm tədbirlər həyata keçirildi, iş adamlarına vergi və gömrük güzəştləri tətbiq olundu. Azərbaycan məhsullarının xarici ölkələrdə tanıdılması üçün ixrac missiyalarının həyata keçirilməsinə başlanıldı. Son nəticədə bütün bunlar qeyri-neft sektorunun inkişafına və qarşıdan gələn dövrdə yeni iqtisadi uğurların əldə edilməsinə yol açdı. Həyata keçirilən islahatların ilkin nəticələri hələ bu ilin ilk aylarından özünü göstərməyə başlamışdı. Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Milli İqtisadiyyat Perspektivi üzrə Strateji Yol Xəritəsi də daha bir uğurlu başlanğıca atılmış imza oldu.

Marketinq nöqteyi-nəzərindən aqrar bazarın inkişaf perspektivi həmin bazarın cəlbediciliyi və ona istehsalçıların əlyetərliyi ilə müəyyən olunur. Əgər bazarın cəlbediciliyi yüksəkdirsə və istehsalçıların ona əlyetərliyi təmin olunursa onda həmin bazarı inkişaf perspektivinə malik bazar hesab edirlər. Bazarın cəlbediciliyi yüksək olduqda, istehsalçıların isə ona əlyetərliliyi təmin olunmadıqda bazarın perspektiv inkişafından danışmaq çox çətindir. Hazırda Azərbaycanın aqrar bazarının kənd təsərrüfatı məhsulları seqmenti kifayət qədər cəlbedicidir. Bu da onunla əlaqədardır ki, sözügedən bazarın potensial tutumu kifayət qədər çoxdur və son illər kənd təsərrüfatı və ərzaq məhsullarına formalaşan qiymətlərin səviyyəsinin yüksəlişi bazarın bu seqmentinə çıxmaq iqtidarında olan istehsalçılara kifayət qədər yüksək gəlir əldə etməyə imkan verir. Təkcə onu qeyd etmək lazımdır ki, bütövlükdə natural ifadədə kənd təsərrüfatı və ərzaq məhsulları bazarının tutumu 1,8-1,9 dəfə artırıla bilər. Bu, bazarın bəzi seqmentlərində daha çoxdur. Məsələn, ət və ət məhsulları bazarının tutumu 3,0 dəfəyə qədər artım imkanına malikdir.

Ümumiyyətlə, bazarın cəlbediciliyi aşağıdakı amillərlə müəyyən olunur:

- bazarın tutumu;
- bazarın artım tempi;

- rəqabətin kəskinliyi;
- texnologiyaların dəyişmə sürəti;
- bazara daxilolma yolunda maneələr;
- bazarda fəaliyyət göstərmək üçün tələb olunan kapital qoyuluşları;
- bazarın dövlət tərəfindən tənzimlənməsi və s.

İndiki şəraitdə sadalanan amillər üzrə Azərbaycanın aqrar bazarının cəlbediciliyinin təhlili onun kənd təsərrüfatı məhsulları istehsalçıları üçün əlverişli olması haqqında qənaətə gəlməyə əsas verir. Lakin onu da qeyd etmək lazımdır ki, kənd təsərrüfatı və ərzaq məhsulları bazarının cəlbedici olmasına baxmayaraq, həmin bazara çıxış üçün istehsalçıların yetərincə imkanları yoxdur. Bunun da ən başlıca səbəblərindən biri satış infrastrukturunun inkişaf etməməsi və məhsulların səmərəli bölüşdürülməsi və satışı kanallarının mövcud olmamasıdır. Ona görə də indiki şəraitdə Azərbaycanın aqroməhsul istehsalçılarının aqrar bazara əlyetərliliyi - istehsalçıların öz məhsullarını bazara çıxarma və bazarda reallaşdırma imkanları - aşağı səviyyədə qiymətləndirilə bilər. Bütün bunları nəzərə alaraq biz belə hesab edirik ki, aqrar bazarın perspektiv inkişafına nail olmaqdan ötrü ilk növbədə aqrar bazar infrastrukturunun özü inkişaf etdirilməlidir. Aqrar bazar infrastrukturu dedikdə isə aqrar bazarın səmərəli fəaliyyətinə imkan verə biləcək strukturların və qurumların mövcudluğu başa düşülür.

Bazar münasibətləri şəraitində aqrar bazarın ən mühüm infrastruktur elementindən biri kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalçılar və istehlakçılar üçün əlverişli şəkildə satışına imkan verə biləcək topdansatış bazarları çıxış edir. Ölkəmizin aqrar sahəsinin bazar münasibətləri əsasında inkişafına keçilməsinə baxmayaraq hələlik sözügedən infrastruktur elementini formalaşdırmaq mümkün olmamışdır. Ona görə də məhsul istehsalçıları öz məhsullarını bazarda qalıb reallaşdırmaqda çox böyük çətinliklərlə qarşılaşırlar. Aqrar bazarın perspektiv inkişafına nail olmaqdan ötrü topdansatış kənd təsərrüfatı və ərzaq məhsulları bazarı bir infrastruktur elementi kimi təxirəsalınmadan formalaşdırılmalı və onun normal fəaliyyəti təmin olunmalıdır.

Aqrar bazarın inkişaf meylləri. Aqrar bazarın inkişafı və aqrar sahədə yaradılmış çoxsaylı müxtəlif təsərrüfatçılıq formalarının texniki potensialının daha da möhkəmləndirilməsi bu sahədə istehsal vasitələri bazarının formalaşdırılmasından və inkişafından bilavasitə aslıdır. Lakin o da məlumdur ki, ölkəmizin aqrar sahəsinin ehtiyaclarının istehsal vasitələrinə tələbatının istənilməsi üçün müvafiq infrastruktur olmalıdır. Sözügedən infrastrukturun ölkəmizdə lazımi səviyyədə inkişaf etməməsi aqrar sahədə məhsul istehsalı ilə məşğul olan obyektlərin (müxtəlif təsərrüfatçılıq formalarının) mənafelərinə cavab verə biləcək istehsal vasitələri bazarının formalaşdırılmasına imkan vermir. Belə şəraitdə aqrar sahədə lizinqin təşkili yeni yaradılmış təsərrüfatçılıq formalarına texniki servis xidmətinin göstərilməsi probleminin həll olunması baxımından çox vacibdir.

Hazırda ölkəmizdə kənd təsərrüfatı məhsulları istehsalçıları müxtəlif təyinatlı texniki resurslarla təmin olunma səviyyəsinin yüksəldilməsi üçün lizinq əməliyyatlarından istifadə olunur. Bu sahədə işlərin görülməsi üçün zəruri hüquqi baza yaradılmış və real əməliyyatlar üçün maliyyə mənbələri dəqiqləşdirilmişdir.

Azərbaycanda istehsal vasitələri istehsal edən infrastruktur çox zəif inkişaf etdiyindən, bizim fikrimizcə, kənd təsərrüfatında məhsul istehsalçılarının mütərəqqi istehsal vasitələri ilə təminatında və aqrar bazarın inkişafında lizinq əməliyyatlarının tətbiqi hələlik çox böyük rol oynamalıdır. Bunları nəzərə alaraq, belə hesab edirik ki, hazırkı şəraitdə məhsul istehsalçılarına lizinq əsasında təklif olunan texniki resursların istifadəsindən daxil olan vəsaitlərin yenidən lizinq fondunda toplanması, sonradan isə həmin vəsaitlərə yeni texniki resursların alınması məqsədəmüvafiqdir. Bu yolla ölkəmizdə kənd təsərrüfatı məhsulları istehsalçılarının mütərəqqi texniki resurslarla təminatı daha da genişləndirilməli və ya aqrar bazar inkişaf etdirilməlidir.

Bir tərəfdən ölkədə lizinq yolu ilə təsərrüfatlara istifadə olunmaq və alınmaq üçün təklif olunan texniki resursların verilmə (və yaxud satılma) şərtlərinin ağırlığı, başqa bir tərəfdən isə ölkənin aqrar sahəsində fəaliyyət göstərən istehsal strukturları üçün texniki servis xidməti göstərən müəssisələrin özlərinin sayının azlığı təsərrüfatlara texniki servis xidmətinin göstərilməsinin və onların yaradılmasının yeni istiqamətlərini aşkarlamağı tələb edir. Bizim fikrimizcə, tə-

sərrüfatlarda texniki resursların kəskin çatışmazlığı şəraitində həmin təsərrüfatlara servis xidmətinin göstərilməsini müəyyən dərəcədə yaxşılaşdırmaqdan ötrü təsərrüfatlararası (fermerlərarası) kooperasiyanın təşkilinə ciddi fikir verilməlidir. Aqrar bazarın perspektiv inkişafı da təsərrüfatların kooperasiyalaşmasından bilavasitə asılıdır.

Kooperasiyalaşma yolu ilə fermerlərin texnikanı birgə əldə və istifadə etmələri zamanı texnikanın istifadə dövrü və intensivliyi ilə əlaqədar müəyyən ziddiyyətli məqamların - bu və ya digər təsərrüfat sahibini qane etməyən məqamların meydana çıxması istisna olunmur. Lakin buna baxmayaraq, Azərbaycanın aqrar sahəsində fəaliyyət göstərən istehsalla məşğul olan sahibkarlıq strukturlarının texniki resurslardan istifadə sahəsində kooperasiyalaşmanın nəzərdən keçirilən növündən istifadə etmələri qaçılmazdır və kooperasiyalaşma olmadan aqrar bazarın inkişafını təsəvvür etmək çox çətindir.

Aqrar sektorda dövlət səviyyəsində bu sahənin daha da inkişaf etdirilməsi üçün bir sıra köklü tədbirlər həyata keçirilmiş və bu proses hazırda da davam etdirilməkdədir. Belə ki, uzun müddət formalaşmış inzibati idarəetmə sistemi yeniləşdirilmiş, kənd və rayon səviyyələrində idarəetmə orqanları ləğv edilmiş, respublika səviyyəsində isə idarəetmənin təşkilati strukturu sadələşdirilmiş və onların vəzifə funksiyaları dəqiqləşdirilərək bazar münasibətləri prinsiplərinə uyğunlaşdırılmışdır. Ölkənin aqrar bölməsinin bazar münasibətlərinə keçilməsinin hüquqi bazası yaradılmış, istehsal, tədarük, xidmət, emal və satış sahələrində özəlləşdirmə prosesi başa çatdırılmışdır. Hazırda Azərbaycan kəndində bazar iqtisadiyyatına xas olan yeni təsərrüfat subyektləri formalaşır, çoxukladlı iqtisadiyyatın prinsiplərinə əsasən yeni mülkiyyətçilər və sahibkarlar təbəqəsi təşəkkül tapır və geniş vüsət alır.

İslahatın aparılmasının müsbət cəhəti onunla nəticələnmişdir ki, 90-cı illərin əvvəllərindən başlanan məhsul istehsalının ilbəil azalması meyilləri dayandırılmış və bütövlükdə aqrar sektorda davamlı iqtisadi inkişafa nail olunmuşdur.

Araşdırmalar göstərir ki, pambıq, tütün, üzüm, çay yarpağı və barama istehsalının həcmində kəskin azalma meyillərinin yaranması adı çəkilən məhsullar üzrə dünya bazar qiymətlərinin son illərədək aşağı olması, eləcə də həmin məhsulların satışı üzrə inhisarçılığın davam etməsi, emal müəssisələri tərəfindən bürokratik əngəllərin mövcudluğu, habelə üzüm plantasiyalarının məhv olması, üzüm emalı zavodlarının isə baxımsızlıq, təsərrüfatsızlıq halları, ənənəvi satış bazarlarının itirilməsi ilə şərtlənir.

Yuxarıda qeyd edildiyi kimi, respublikamızda aparılan uğurlu aqrar islahatlar kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına əlverişli şərait yaratmışdır ki, bu da aqrar bazarda daxili təklifin səviyyəsinin yüksəlməsinə gətirib çıxarmış, aqrar bazarın doydurulmasında idxal kanallarının təsirini zəiflətmişdir.

Kənd təsərrüfatının inkişaf səviyyəsi yeni istehsal münasibətlərinin tələblərinə uyğun olaraq ölkə əhalisinin ərzaq və yeyinti məhsullarına olan tələbatının ödənilməsi mənbəyini, eləcə də aqrar bazarın maddi əsasını, onun strukturunu təşkil edir. Aqrar bazarın formalaşdırılmasının xarakterik xüsusiyyətlərini əsas götürərək belə qənaətə gəlmək olar ki, aqrar bazarın tutumu və onun doydurulması kənd təsərrüfatı məhsulları istehsalının həcmindən və onun artım tempindən bilavasitə asılıdır.

Aqrar bazarın kənd təsərrüfatı seqmentində məhsul istehsalının artımı əsas etibarilə əkin sahəsinin və məhsuldarlığın səviyyəsinin yüksəlməsilə sıx əlaqədardır.

Son illər kənd təsərrüfatının inkişafında diqqəti cəlb edən cəhətlərdən biri ondan ibarətdir ki, məhsul istehsalı sahəsində intensiv üsul getdikcə özünü daha çox bərqərar etməkdədir.

Respublikanın kənd təsərrüfatında yeganə əmək tutumlu sahə olan pambıqçılıq ənənəvi olaraq aparıcı və gəlirli sahələrdən biri olmasına baxmayaraq, müəyyən obyektiv və subyektiv səbəblərə görə onun əkin sahəsi və məhsul istehsalı ilbəil azalmaqda davam edir.

Araşdırmalar göstərir ki, aqrar islahatlar nəticəsində mülkiyyətin strukturunun dəyişməsi, eləcə də bazar konyunkturundakı dəyişikliklər kənd təsərrüfatı məhsullarının istehsalının strukturunda da nəzərəçarpacaq dəyişikliklərə səbəb olmuşdur.

Qeyd etmək lazımdır ki, respublika üçün ənənəvi olan texniki bitkilərin kənd təsərrüfatında xüsusi çəkisinin azalması, yuxarıda qeyd etdiyimiz kimi, həmin məhsulların dünya bazarında

qiymətlərinin aşağı düşməsi ilə əlaqələndirilsə də eyni zamanda istehsal və emal müəssisələri arasında səmərəli inteqrasiya münasibətlərinin kifayət qədər formalaşdırılmaması nəticə etibarı ilə istehsalçıların lazımi mənfəət əldə etmək imkanlarını məhdudlaşdırmışdır.

Transformasiya yönümlü tədbirlərin həyata keçirilməsi, səmərəli sahibkarlıq mühitinin formalaşdırılması, eləcə də özəlləşdirmə və torpaq islahatının aparılması nəticəsində istər mikro və istərsə də makroiqtsiadiyyatda radikal xarakterli dəyişikliklər baş vermişdir. Belə ki, artıq özəl sahibkarlıq qurumları xalq təsərrüfatının bütün sahələrində real güc mərkəzinə çevrilmiş və iqtisadiyyatda əhəmiyyətli xüsusi çəkiyə malik olmaqdadır. Aqrar sektorda həyata keçirilən köklü dəyişikliklər nəticəsində toxumçuluq, seleksiya və damazlıq təyinatlı kənd təsərrüfatı müəssisələri istisna olmaqla, demək olar ki, bütün digər təsərrüfat subyektləri özəlləşdirilərək xüsusi bölmənin sərəncamına verilmişdir.

Torpaqların özəlləşdirilməsi sayəsində istehsalın strukturunda da dəyişikliklər baş vermişdir. Azərbaycan kəndinin simasını dəyişdirmiş və nəticədə kənddə müxtəlif mülkiyyət mənsubiyyətinə malik təsərrüfatçılıq qurumları formalaşmış və çoxukladlı iqtisadiyyat yaradılmışdır. Heyvandarlıqda müşahidə olunan artım mal-qara və quşların məhsuldarlığının da yüksəlməsilə müşaiyət olunmuşdur.

Aqrar bazarın ən vacib seqmentlərindən biri emal və yeyinti sənaye sahələri hesab edilir. Emal və yeyinti sənaye sahələri aqrar bazarda əhəmiyyətli xüsusi çəkiyə malik olmaqla əhalinin qida məhsullarına olan tələbatının ödənilməsində mühüm rol oynayır. Lakin aqrar-sənaye kompleksinin bütün sahələrində olduğu kimi, emal sənayesində də iqtisadi islahatların aparılması yeni müəssisələrin yaradılması, məhsul istehsalında da nəzərəçarpacaq artım meyillərinin yaranmasına gətirib çıxarmışdır.

Apardığımız tədqiqatlar göstərir ki, aqrar bazarın seqmentlərində məhsul istehsalının artırılması, tələb və təklif arasındakı tarazlığın təmin edilməsi nəticə etibarilə ölkə əhalisinin kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsinə, istehlakın səviyyəsinin yaxşılaşdırılmasına xidmət edir. Əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi səviyyəsini müəyyənləşdirməkdən ötrü istehlakın səviyyəsi tibbi baxımdan əsaslandırılmış fizioloji norma ilə müqayisə edilir.

Qeyd etmək lazımdır ki, son illər kənd təsərrüfatında irimiqyaslı dövlət proqramlarının həyata keçirilməsi nəticəsində aqrar-sənaye kompleksi sahələrinin istehsal potensialı zəifləyir, torpaqların münbitliyi, heyvandarlıqda cins mal-qara yetişdirilməsi və toxumçuluq işi pisləşir, texnika və avadanlıqlar köhnəlir, yüksək ixtisaslı mütəxəssislər iş yerlərini tərk edir, əkinçilik sisteminin tələbləri və istehsalın texnoloji proporsiyaları gözlənilmir.

Tətbiq edilən mineral və üzvi gübrələrin həcminin kəskin dərəcədə azalması torpaqların qidalılıq balansını pozur, nəticədə torpaqlar kənd təsərrüfatı dövriyyəsindən çıxarılır və məhsuldarlığı aşağı düşür. Torpaqlarda humusun miqdarının azalması prosesi güclənir.

Torpaqların balansında humus çatışmazlığının olmaması üçün hər il orta hesabla torpaqlara 4200 min ton üzvi gübrə verilməsi tələb olunur. Hal-hazırda isə torpaqlara verilən üzvi gübrənin faktiki miqdarı 1900 min ton təşkil edir. Torpaqların münbitliyini təmin etmək üçün cəmi 740 min ton (fiziki çəkidə) mineral gübrə tələb olunduğu halda hal-hazırda torpaqlara vur-tut 50 min ton mineral gübrə verilir.

Bitkilərin xəstəlik və zərərvericilərinə qarşı işlədilən kimyəvi dərmanlar, demək olar ki, cüzi həcmdə gətirilir, torpaqlarda meliorasiya və irriqasiya işləri çox zəif aparılır, hidrotexniki qurğularda əsaslı təmir işləri lazımi səviyyədə yerinə yetirilmir. Heyvandarlıqda yaranmış vəziyyət və qənaətbəxş deyil. Mal-qara özəlləşdirilərək əhaliyə verilmişdirsə də, mövcud heyvandarlıq kompleksləri istifadəsiz qalmışdır. Şəxsi təsərrüfatlarda cəmləşdirilmiş mal-qara primitiv binalarda saxlanılır, sahədə məhsul istehsalı əl əməyinə əsaslanmaqla mütərəqqi texologiya tətbiq edilmir.

Наргиз Шамиль кызы Халыгова
доктор философии по экономике,
старший преподаватель, АУК

Товарные поставки на аграрном рынке: текущий уровень и тенденции развития

Резюме

В статье исследовано современное состояние аграрного рынка Азербайджана, изучен уровень спроса и предложения на этом рынке. Также проанализированы экономические реформы, осуществлённые в течение последних нескольких лет, и их влияние на аграрный рынок, сельское хозяйство и, экономику в целом. Наряду с этим, определены направления развития аграрного рынка в республике.

Ключевые слова: сельское хозяйство, аграрный рынок, предложение товара, ненефтяной сектор, регулирование, реформы.

Nargiz Shamil Khaligova
PhD in economics, senior lecturer,
Azerbaijan Cooperation University

Commodity supply in the agrarian market: current level and development trends

Summary

The article examines the current state of the agrarian market of Azerbaijan, the level of demand and supply has been studied. Also, recent economic reforms in this area and their impact on agrarian markets, agriculture and the economy as a whole have been analyzed. At the same time, the agrarian market development trends have been identified.

Key words: agriculture, agrarian market, commodity supply, non-oil sector, regulation, reform.

Afiq Cavanşir oğlu NƏSİBOV
Azərbaycan Kooperasiya Universitetinin dissertantı

KƏND TƏSƏRRÜFATININ MALİYYƏ TƏNZİMLƏNMƏSİNİN ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNƏ TƏSİRİ

Xülasə

Məqalədə kənd təsərrüfatının maliyyə tənzimlənməsinin ərzaq təhlükəsizliyinin təmin edilməsinə təsiri məsələləri öyrənilmişdir. Kənd təsərrüfatının maliyyə tənzimlənməsinin təkmilləşdirilməsinə dair elmi əsaslandırılmış təkliflər verilmişdir.

Açar sözlər: ərzaq təhlükəsizliyi; maliyyə tənzimlənməsi, idxaldan asılılıq, aqrar sığorta, davamlı inkişaf.

***

Məlum olduğu kimi, ölkə əhalisinin əsas növ ərzaq məhsullarına tələbatlarının ödənilməsi zamanı əhalinin şəxsi istehlakında idxal məhsullarının payının 20%-i aşması ölkənin ərzaq təhlükəsizliyinin pozulması hesab edilir. Həm də bu zaman həyati əhəmiyyətə malik vacib sahə kimi kənd təsərrüfatının iqtisadiyyatın başqa sahələrinin inkişafına göstərə biləcəyi kumulyativ təsiri itir, eyni zamanda bu sahədə geniş təkrar istehsalın həyata keçirilməsi baxımından problemlər yaranır. Kənd təsərrüfatı məhsulları istehsalçılarının geniş təkrar istehsalı həyata keçirmə imkanlarının yaxşılaşdırılması onların maliyyə baxımından müdafiəsini şərtləndirir və bu yolla ərzaq təhlükəsizliyinin təmin olunma səviyyəsinin yüksəldilməsinə nail olmaq mümkün olur.

Ölkənin ayrı-ayrı ərzaq məhsulları üzrə təhlükəsizliyinin hansı səviyyədə təmin olunması haqqında təsəvvürə malik olmaqdan ötrü həmin məhsulların istehlakında idxalın payının müəyyənləşdirilməsinə ehtiyac yaranır. Son illər bəzi əsas növ ərzaq məhsulları üzrə sözügedən göstəricinin səviyyəsinin dəyişmə meyli haqqında məlumatlar cədvəl 1-də verilmişdir.

Cədvəl 1

Ölkə üzrə əsas növ ərzaq məhsullarının istehlakının tərkibində idxalın payının dəyişmə meyli (% - lə)

Məhsulların adları	İllər					2012-ci illə müqayisədə 2016-cı ildə artma/+/, azalma/-/
	2012	2013	2014	2015	2016	
Dənlilər və dənli-paxlalılıar	69,7	71,0	64,2	67,1	68,5	-1,2
Kartof	11,5	11,3	21,0	20,4	26,5	15,0
Tərəvəz	6,3	3,5	3,7	3,8	5,7	-0,6
Meyvə və giləmeyvə	10,3	5,0	3,6	9,9	12,9	2,6
Üzüm	6,1	6,1	3,6	9,9	12,9	6,8
Mal-qara və quş əti	8,7	8,0	8,0	5,4	11,6	2,9
Yumurta	4,6	0,09	0,3	0,4	1,3	-3,3
Süd	15,9	13,9	13,7	8,5	6,7	-9,2

Cədvəl Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəlin məlumatlarından göründüyü kimi, dənli və dənli-paxlalılar üzrə idxal edilən məhsulların həmin məhsulların bütövlükdə ölkə əhalisi tərəfindən istehlakında payı yol verilə bilən həddən yuxarı səviyyədədir. Son beş ildə sözügedən məhsullar üzrə həmin göstəricinin səviyyəsi 69,7 % -dən 68,5% -ə düşmüş və yaxud 1,2 % bənd azalmışdır. Dənli və dənli-paxlalılar üzrə idxaldan asılılığın yüksək səviyyədə saxlanılması ölkəmizdə həmin məhsulun həm məhsuldarlığının, həm də keyfiyyətinin aşağı səviyyədə olması ilə əlaqədardır. Ona görə də bu məhsuldan istifadə edilməklə istehsal edilən bəzi sənaye məhsulları üzrə də idxaldan asılılıq səviyyəsi də yüksək olaraq qalır. Bəzi növ sənaye məhsulları üzrə idxaldan asılılıq səviyyəsinin dəyişmə meyli cədvəl 2-də verilmiş məlumatlar ilə xarakterizə edilir.

Cədvəl 2

Bəzi növ sənaye məhsulları üzrə təminatda idxaldan asılılıq səviyyəsinin dəyişmə meyli,%-lə

Məhsulların adları	İllər					2012-ci illə müqayisədə 2016-cı ildə artma/+/, azalma/-/
	2012	2013	2014	2015	2016	
Təmizlənmiş düyü	87,3	85,5	91,7	90,5	90,0	2,7
Un (bütün növdən)	6,4	6,5	5,5	5,1	4,0	-2,4
Yarmalar (bütün növləri)	83,5	80,8	81,9	82,1	83,2	-0,3
Suxarı və peçenye istehsalı, uzun müddət saxlanılan qənnadı məmulatları	76,5	79,9	82,1	67,8	69,9	-6,6
Makaron məmulatları	50,2	65,0	53,4	52,1	52,8	2,6
Bitki yağları	87,3	86,1	81,2	73,3	68,9	-18,4

Cədvəl Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəlin məlumatlarından göründüyü kimi, 2012-ci illə müqayisədə 2016-cı ildə təmizlənmiş düyü üzrə idxaldan asılılıq səviyyəsi 2,7% bənd, makaron məmulatları üzrə isə 2,6% bənd

artmışdır. Sadalanan məhsullar üzrə idxaldan asılılıq səviyyəsinin azaldılması taxılçılığın inkişafının intensiv əssalarla inkişafını və istehsal edilən taxılın keyfiyyətinin yüksəldilməsini tələb edir.

Cədvəllərin məlumatlarından göründüyü kimi, bitki yağları, süd və süd məhsulları üzrə də idxaldan asılılıq səviyyəsi kifayət qədər yüksəkdir. Bu, o deməkdir ki, həmin məhsul seqmentləri üzrə yerli istehsalçıların mövqeləri ilə müqayisədə xarici ölkələrdən ölkəmizin kənd təsərrüfatı və ərzaq məhsulları bazarına daxil olan istehsalçıların mövqelərinin möhkəmlənməsi müşahidə edilir. Bunun qarşısının alınması və ölkənin ərzaq təhlükəsizliyinin təmin edilmə səviyyəsinin yüksəldilməsi üçün göstərilən məhsul seqmentləri üzrə idxalı müəyyən qədər əvəzləməyə imkan verə biləcək səmərəli tədbirlər işlənib hazırlanmalı və reallaşdırılmalıdır. Bu tədbirlərin sırasında müəssisə və təsərrüfatların geniş təkrar istehsalı həyata keçirmələrinə lazımi şəraitin yaradılması mühüm əhəmiyyət kəsb edir. Bunun üçün isə kənd təsərrüfatının maliyyə tənzimlənməsinin təkmilləşdirilməsinə ehtiyac var.

Məlum olduğu kimi, kənd təsərrüfatı müəssisə və təşkilatlarının geniş təkrar istehsalı həyata keçirmək üçün maliyyə resursları iqtisadiyyatın başqa sahələrində fəaliyyət göstərən başqa müəssisə və təşkilatların maliyyə resursaları ilə müqayisədə azlıq təşkil edir. Ona görə də onların maliyyə vəziyyətinin yaxşılaşdırılmasına yönəlik tədbirlərin işlənib hazırlanması və reallaşdırılması qaçılmaz olur. Ölkəmizdə bu istiqamətdə tənzimləmə tədbirlərinin həyata keçirilməsinə xüsusi fikir verilir. Lakin həmin tədbirlər sırasında sığortalanmanın lazımi səviyyədə təşkil edilməməsi kənd təsərrüfatında geniş təkrar istehsalın həyata keçirilməsinə neqativ planda daha güclü təsir göstərir.”Hazırda kənd təsərrüfatı məhsulları istehsalçılarının sığorta xidmətlərindən istifadə səviyyəsi çox aşağı səviyyədədir. Belə ki, Maliyyə Nazirliyinin məlumatlarına görə, 2015-ci ildə ölkədə əmlak sığortasına görə ödənilmiş cəmi haqlarda kənd təsərrüfatı bitkiləri və heyvanlarının sığortasının payı 1,3%-ə bərabər olmuşdur. Kənd təsərrüfatı bitkiləri və heyvanlarının sığortalanması da əsasən “Aqrolizinq” ASC (ölkəyə idxal olunan cins heyvanlara görə) və kənd təsərrüfatı istehsalı ilə məşğul olan bir neçə iri maliyyə -sənaye qrupları tərəfindən aparılmışdır. Azərbaycanda kənd təsərrüfatı istehsalçılarının sığortalanmasına dövlət dəstəyi həyata keçirilsə də, bu dəstək tədbirləri praktik olaraq istifadə olunmur” [1, s. 84].

Qeyd edək ki, Azərbaycanda kənd təsərrüfatında sığortanın stimullaşdırılmasına dair mütərəqqi qanun qəbul edilmişdir. Lakin hələ də bu qanunun işlək mexanizmləri yaradılmamışdır. Ona görə də kənd təsərrüfatı bitkilərinin əkin sahələrinin və heyvanların əksəriyyətinin hələ də sığortalanması problem olaraq qalır. Belə şəraitdə gələcəkdə ölkənin ərzaq müstəqilliyinin və təhlükəsizliyinin təmin olunması zamanı risklər meydana çıxa bilər. Bunların baş verməməsi üçün bu sahədə bazar iqtisadiyyatının inkişaf etdiyi xarici ölkələrin təcrübəsi öyrənilməli və kənd təsərrüfatı müəssisə və təsərrüfatlarının bazar fəaliyyətlərinin davamlılığına şərait yaradılmalıdır. Burada onu da qeyd edək ki, bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrdə kənd təsərrüfatı məhsulları istehsalçıları tərəfindən sığorta şirkətlərinə sığorta haqlarının 50% - i ödənilir. Bəzi ölkələrdə bu məbləğ bir qədər də yuxarıdır. Bu ölkələrdə kənd təsərrüfatı bitkilərinin əkin sahələrinin və heyvanların baş sayının təqribən 80%-dən çoxu sığortalanır və ona görə də həmin ölkələrin məhsul istehsalçılarının geniş təkrar istehsalı həyata keçirmək baxımından problemləri az olur və yaxud demək olar ki, müşahidə edilmir. “Sığorta xidməti dəyərə və istehlak dəyərinə malik əmtəədir. Sığorta xidmətinin istehlak dəyəri dəymiş ziyanın maddi bərpası yolu ilə istehsalın risklərdən müdafiəsinin təmini ilə bağlıdır ki, bu da sığortalanana geniş təkrar istehsalın davam etdirilməsinə imkan verir” [4, s.49].

Ölkəmizdə kənd təsərrüfatı məhsulları istehsalçılarının sığortalanması probleminin həlli məqsədilə, fikrimizcə, maliyyə resurslarının çatışmazlığı yaşanmır. Azərbaycanın dövlət müstəqilliyi şəraitində bu problemin həlli çox vacibdir. Belə ki, dövlət müsəqilliyini ərzaq müstəqilliyi olmadan çətin təsəvvür etmək olur və ərzaq məhsullarının çatışmazlığı şəraitində ölkəmizin dünya üzrə kənd təsərrüfatı və ərzaq məhsullarının ixracında daha böyük paya malik olan ölkələr tərəfindən hər zaman təhdidlərlə üzləşmək ehtimalı gözlənilə bilər.

Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində aqrar sahədə sığorta sisteminin inkişaf etdirilməsi məqsədilə konkret təd-

birlərin işlənib hazırlanması və həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bu tədbirlər sırasına kənd təsərrüfatında sığorta sistemi ilə bağlı mövcud qanunvericiliyin təkmilləşdirilməsi, bu sahə üzrə sığorta fondunun yaradılması imkanlarının dəyərləndirilməsi, sığorta hadisələri reyestrinin hazırlanması, kənd təsərrüfatı məhsulları istehsalçılarının sığorta savadlılığının artırılması və s. aiddir. Fikrimizcə, bu tədbirlərin həyata keçirilməsi kənd təsərrüfatında fəaliyyət göstərən müəssisə və təsərrüfatların maliyyə vəziyyətinin dayanıqlılığının artımına və beləliklə də, ərzaq təhlükəsizliyinin təmin olunma səviyyəsinin daha da yüksəlişinə gətirib çıxaracaqdır.Kənd təsərrüfatının inkişafı baxımından çox böyük əhəmiyyət kəsb edən bu sənəddə aqrar sığortanın əhatə dairəsinin genişlənəcəyi vurğulanır və göstərilir ki, sığortalanacaq kənd təsərrüfatı məhsulları istehsalçılarının ümumi sayı ən azı üç dəfə artacaqdır. Bu, kənd təsərrüfatı müəssisə və təsərrüfatlarının maliyyə vəziyyətinin dayanıqlılığının artırılması baxımından çox müsbət haldır. Lakin nəzərə alımaq lazımdır ki, ölkəmizin kənd təsərrüfatında fəaliyyət göstərən müəssisə və təsərrüfatların əksəriyyətinin iqtisadi və fiziki ölçüləri çox kiçikdir və belə olan halda sığortalananların sayının üç dəfə çoxalmasının ərzaq təhlükəsizliyinin təmin olunma səviyyəsinin yüksəldilməsinə təsiri çox da böyük olmaya bilər. Ona görə də aqrar sığorta üzrə hədəflərin həm də taxıl əkin sahəsi üzrə müəyyənləşdirilməsi daha məqsədəmüvafiq olardı . Bu, onunla əlaqədardır ki, ərzaq təhlükəsizliyi dedikdə, ilk növbədə, ölkənin özünü taxıla yüksək səviyyədə təminatı və taxıl üzrə idxaldan minimum səviyyədə asılılıq başa düşülür. Əvvəldə də qeyd etdiyimiz kimi, ölkəmizin taxıl və taxıl məhsulları üzrə idxaldan asılılığı yüksək olaraq qalır.

Kənd təsərrüfatının maliyyə tənzimlənməsi bu sahədə təkcə sığortalanmanın dövlət tərəfindən müdafiə olunması ilə bitmir. Buraya həm də kənd təsərrüfatı məhsulları istehsalçılarına sığortalanma ilə bağlı olmayan subsidiyaların, subvensiyaların və dotasiyaların verilməsi aiddir. Ölkəmizdə bu aspektdə də istehsalçıları müdafiə məqsədilə müəyyən tədbirlər həyata keçirilir. Bu tədbirlər bazara həm bitkiçilik, həm də heyvandarlıq məhsulları təklif edən istehsalçıları əhatə edir. Ölkəmizdə taxıl və taxıl məhsulları üzrə idxaldan asılılıq səviyyəsi yüksək olduğuna, eyni zamanda ət və ət məhsulları resursları beynəlxalq təşkilatların tövsiyəsinə müvafiq səmərəli istehlak normalarından aşağı səviyyədə formalaşdırıldığına görə qeyd edilən məhsul istehsalçılarının müdafiəsinə yönəldilmiş tədbirlərin davamlı olmasına ehtiyac var.

ƏDƏBİYYAT

1.Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı.

2. Ильина З.М., Мирочицкая И.В. Рынки сельскохозяйственного сырья и продовольствия. Минск: БГЭУ, 2000, с. 43-73.

3. Кундиус В.А. Экономика агропромышленного комплекса: учебное пособие / - М.: КНОРУС, 2010. - 544 с.

4. Экономическое регулирование воспроизводства в аграрном секторе экономики / М.: НИПКЦ Восход - А, 2008 - 132 с.

Афик Джаваншир оглы Насибов
диссертант АУК

Влияние регулирования сельского хозяйства на продовольственную безопасность

Резюме

В статье рассматривается влияние финансового регулирования сельского хозяйства на продовольственную безопасность. Разработаны научно - обоснованные предложения по улучшению финансового регулирования сельского хозяйства.

Ключевые слова: продовольственная безопасность, финансовое регулирование, зависимость от импорта, аграрное страхование, устойчивое развитие.

Afiq Javanshir Nasibov
candidate for a degree of ACU

Impact of agricultural regulation on food security

Summary

The article examines the impact of agricultural regulation on food security on food security. Scientifically substantiated proposals for improving the financial regulation of agriculture.

Key words: food safety, financial regulation, import dependence, agrarian insurance, sustainable development.

Təranə Hidayət qızı QURBANOVA
Azərbaycan Respublikası Milli Məclisi
Sosial Qanunvericilik şöbəsinin məsləhətçisi,
iqtisad üzrə fəlsəfə doktoru

REGİONAL İDARƏETMƏ VƏ İNNOVATİV KƏND TƏSƏRRÜFATININ İNKİŞAF İSTİQAMƏTLƏRİ

Xülasə

Məqalədə regional inkişaf xüsusiyyətləri, bazar proseslərinin regional idarə edilməsinin ümumiləşdirilmiş metodları göstərilir. Regional inkişafın idarə olunmasının təkmilləşdirilməsi istiqamətləri, regional marketinq, regionlarda innovasiya və kənd təsərrüfatının innovativ inkişafı araşdırılır.

Açar sözlər: regional idarəetmə, regional marketinq, innovativ inkişaf.

***

Ölkəmizdə aqrar sahənin inkişafına istiqamətlənmiş dövlət strategiyasının əsasını regionlarda sahibkarlığın geniş vüsət alması, aqrar sahənin innovativ inkişafının təmin edilməsi, yerli resurslardan istifadənin səmərəsinin artırılması, ölkənin ərzaq təhlükəsizliyinin gücləndirilməsi, keyfiyyətli və rəqabət qabiliyyətli yerli məhsullar istehsalının artırılması, ölkənin xarici ölkələrdən ərzaq asılılığının minimum səviyyəyə endirilməsi və aqrar bazar proseslərinin idarə edilməsi kimi məsələlərin həlli təşkil edir.

Həmçinin, iqtisadiyyatın kənd təsərrüfatı kimi mühüm sahəsinin inkişaf etdirilməsində regionların inkişaf proqramının icrasına diqqətin artırılması da vacib məsələlərdəndir. Bunun üçün ilk növbədə bütün ölkədaxili regionların maddi, əmək və maliyyə ehtiyatlarından səmərəli istifadə, sosial infrastrukturun inkişaf səviyyəsində regionlar arasında tarixən yaranmış kəskin fərqlərin tədricən minimuma endirilməsi, azad sahibkarlığın inkişafına dövlət dəstəyi, respublikanın və onun regionlarının iqtisadi təhlükəsizliyinin təmin olunması, dövlət proqramlarının icrasına maliyyə nəzarətinin artırılması kimi məsələlər önə çəkilməlidir. Nəzərə alınmalıdır ki, regional inkişaf təkcə regionun coğrafi mövqe, təbii sərvətləri və s. ilə deyil, həm də bu inkişaf idarəetmənin keyfiyyəti ilə müəyyən olunur. Ona görə də regionların idarə edilməsində, xüsusilə də regional bazar proseslərinin idarə edilməsində müasir regional menecmentin metodlarından geniş istifadə olunması məqsədəuyğundur. [1, s. 112, 119]

Regional inkişafın idarə olunmasının təkmilləşdirilməsi istiqamətində regional inkişafın strateji planlaşdırma sistemininin formalaşdırılması vacib amildir. Bunun üçün ilk növbədə regionda olan inkişaf tendensiyasının problemlərini müəyyən etmək və SWOT təhlili metodunu tətbiq etmək, ikinci regionun sosial-iqtisadi sistemində birinci və ikinci dərəcəli məqsədləri müəyyənləşdirmək, hər iki səviyyədə olan məqsədlərə çatmaq üçün əsas göstəriciləri seçmək məqsədəuyğundur.

Bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq, regionlar öz ərazilərində yerləşən infrastruktur obyektlərinin və müəssisələrin inkişafına investisiyaları cəlb etmək, yerli müəssisələrin

məhsulunu daxili və xarici bazarlara çıxarmaq üçün rəqabətə girməli olurlar. Bütün bunlar idarəetmənin ciddi şəkildə modernləşdirilməsini, regional inkişafın idarəolunmasına yanaşmaların, idarəetmənin yeni texnologiyalarının və təşkilati formaların tətbiq olunmasını tələb edir, regional inkişaf strategiyasını iqtisadiyyatda və cəmiyyətdə baş verən dəyişikliklərə və rəqabətin güclənməsinə reaksiya kimi idarəetmənin vacib elementinə çevrilir.

Müasir dövrdə regional marketinq fəaliyyətini regional inkişafın aləti kimi qiymətləndirmək olar.Belə ki, regional inkişaf proqramının hazırlanması mərhələsində region iqtisadiyyatının vəziyyətinin ənənəvi təhlili ilə yanaşı həm də regionda istehsal olunan məhsul və xidmət bazarlarının vəziyyətini əks etdirən kifayət qədər dərin regional marketinq tədqiqatları aparılmalıdır. Təsadüfi deyil ki, son dövrlərdə regional inkişafın idarəolunması prosesində innovasiyalar geniş tətbiq olunmağa başlayır.[2, s. 96]

Hazırkı mərhələdə ölkə iqtisadiyyatının neftdən asılılığını azaltmaq üçün qeyri-neft sektorunun və onun əsas sahələrindən biri olan aqrar sektorun inkişafı prioritet istiqaməti kimi önə çəkilmişdir. Qeyri-neft sektorunun və onun tərkib hissəsi olan aqrar sektorun inkişafı regionların sosial-iqtisadi inkişafından asılı olduğuna görə bu sahəyə diqqətin artırılması ölkədə formalaşan iqtisadi strategiyanın əsasını təşkil edir.

Aparılan araşdırmalar göstərir ki, ərzaq təhlükəsizliyinin həllinə və rəqabət qabiliyyətli aqrar-sənaye kompleksinin təmin edilməsinə nail olmaq üçün iqtisadi cəhətdən ən əlverişli yollardan biri innovativ metodlardan istifadə edilməsidir. Bu tendensiya iqtisadiyyatı inkişaf etmiş ölkələrin təcrübəsində əyani surətdə özünü göstərir. Məhz bu xüsusiyyətlərinə görə onlar daxili məhsul bazarında balansı təklif və tələb əsasında saxlaya və dünyanın qabaqcıl bazarlarına daxil ola bilirlər. Ona görə də qabaqcıl ölkələrdə olduğu kimi Azərbaycan Respublikasında da aqrar-sənaye kompleksinin innovasiyalı inkişafı qarşıda duran əsas vəzifə kimi qiymətləndirilməlidir.

Eyni zamanda, bazar iqtisadiyyatı şəraitində səmərəliliyin, inkişafın, rəqabətə davamlılığın təmin edilməsi innovativ məhsulların istehsalından asılıdır. Belə ki, bazar iqtisadiyyatı şəraitində dünya iqtisadiyyatında baş verən iqtisadi proseslər, inteqrasiya və milli iqtisadiyyatda aparılan köklü islahatlar istehsal müəssisələrinin həm daxili, həm də xarici mühitinin idarə edilməsində yeni keyfiyyət dəyişikliklərini zəruri edir.

Xatırladaq ki, innovasiya istehsal sahəsində mütərəqqi, keyfiyyətcə yeni dəyişikliklərə yol açır. İnnovasiyaların əsas məqsədi bir qayda olaraq, məhsulun maya dəyərinin minimuma endirilməsi, eləcə də texnoloji, təşkilati və idarəetmə qərarlarının keyfiyyətinin yüksəldilməsindən ibarətdir. Bu baxımdan İqtisadi münasibətlərin təkmilləşdirilməsi və perspektivli formalarının tətbiq edilməsi, əməyin motivləşdirilməsi, yeni texnologiyaların tətbiqi, məhsuldarlığın artırılması və məhsulun keyfiyyətinin yaxşılaşdırılması, istehsalın ekolojiləşdirilməsi, əmək və material məsrəflərinə qənaət edilməsi kimi məsələlər kənd təsərrüfatında innovasiyanın prioritet istiqamətləridir.

Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, aqrar-sənaye kompleksinin innovasiyalı inkişafını həyata keçirmək üçün innovasiya fəaliyyətinin müvafiq infrastrukturu - informasiya, maliyyə, kadr, marketinq, menecment və s. vasitələrin məcmusu olmalıdır. Çünki kənd təsərrüfatında innovasiyaların yayılması təsərrüfat subyektləri tərəfindən informasiyaların qavranılması vəziyyətindən asılıdır. Bunun üçün də istehsalçıların marketinq, biznes planlaşdırması, təsərrüfatın maliyyə və istehsal vasitələri ilə təminatı, yeni texnika və texnologiyalar, innovasiyalı məhsullar və bir çox digər məsələlər barədə informasiyalar almağa və müvafiq biliklərə yiyələnməyə böyük ehtiyacı vardır.

Kənd təsərrüfatında innovasiya fəaliyyətinin genişlənməsi və innovasiyalı məhsul istehsalının artırılması üçün əsas tədbirlərdən biri də yeni texnika və texnologiyaların təsərrüfat subyektlərində tətbiqi üçün əlverişli şəraitin yaradılmasıdır. Bu bir həqiqətdir ki, hazırda sözügedən sahə üzrə ixtisas təhsili olmayan çoxsaylı istehsalçıların kənd təsərrüfatı istehsalının təşkili, marketinq, biznes planlaşdırması, təsərrüfatın maliyyə və istehsal vasitələri ilə təminatı, yeni texnika və texnologiyalar, innovasiyalı məhsullar və bir çox digər məsələlər barədə informasiyalar almağa və müvafiq biliklərə yiyələnməyə böyük ehtiyacı vardır. [3, s. 237]

İnnovasiyaların mənimsənilməsi və tətbiqi prosesində innovasiya marketinq funksiyalarını yerinə yetirən ixtisaslaşdırılmış informasiya-tətbiq qurumlarının iştirakı zəruridir. İnnovasiya məhsullarının istehlakı başlanğıc mərhələdə əsasən bu məhsulların mövcud olmasına yönəlmişdisə, müasir dövrdə əsas qüvvələr mövcud istehsalın təkmilləşdirilməsinə yönəlmişdir, gələcəkdə isə elmi məhsulların istehsalçılarının əsas vəzifəsi ünvanlı tələbatın təmin edilməsindən ibarət olmalıdır. Marketinq fəaliyyətinə və menecmentin funksiyalarına əsaslanaraq, ayrı-ayrı təsərrüfatlar, müəssisələr və kənd təsərrüfatı istehsalçıları arasında innovasiya məhsullarının tətbiqinin təşkili və bazarda imkanları barədə kənd təsərrüfatı istehsalçılarına vaxtında məlumat verilməsi məqsədyönlüdür. Regional səviyyədə mövcud müəssisələrdə innovasiya menecmentinin səmərəli təşkili rentabellik fəaliyyətinin gücləndirilməsinə, eləcə də müəssisədə istehsal edilən məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət etmiş olar.

Bunları nəzərə alaraq, Azərbaycan Respublikasının Milli Məclisi bu günlərdə "Kənd təsərrüfatı informasiya-məsləhət xidməti haqqında" Qanun qəbul etmişdir. Qanunda kənd təsərrüfatı məhsul istehsalçılarına innovasiya fəaliyyəti və innovasiyalı kənd təsərrüfatı məhsullarının istehsalı haqqında informasiyaların və məsləhətlərin verilməsi də öz əksini tapmışdır.

İnnovativ kənd təsərrüfatı məhsullarının istehsalında əsas problemlərdən biri də ondan ibarətdir ki, hazırda respublikamızda kənd təsərrüfatında xırda təsərrüfatlar çox böyük üstünlük təşkil etdiyinə görə məhsul istehsalçılarının maliyyə imkanları innovasiyanın tətbiqinə imkan vermir. Bu çətinliyi aradan qaldırmaq üçün "Kənd təsərrüfatı kooperasiyası haqqında" Qanun hazırlanmışdır və həmin qanunda kooperativ təsərrüfatların yaradılması ilə yanaşı innovasiya tətbiq edən təsərrüfat subyektlərinin stimullaşdırılması da nəzərdə tutulur.

Lakin mövcud çətinliklərlə yanaşı, ölkəmizdə yeni yaradılmış iri taxılçılıq təsərrüfatları və südçülük kompleksləri vardır ki, orada tətbiq edilən innovasiyalar öz bəhrəsini verir. Bu gün yerli marketlərdə öz keyfiyyət göstəricilərinə, ekoloji təmizliyinə, rəqabət qabiliyyətinə, qablaşdırılması və digər xüsusiyyətlərinə görə həmin süd və süd məhsulları daxili bazarda öz üstünlüyünü göstərir. Bu onunla izah olunur ki, innovasiyaların tətbiqi və ya təkmilləşdirilmiş texnoloji prosesin nəticəsi olaraq yeni və ya təkmilləşdirilmiş məhsul reallaşdırılır. Bütün bunlar zəncirvari olaraq ideyadan konkret məhsula, texnologiyaya, xidmətədək yetişir və praktiki istifadə zamanı yayılır. Buradan aydın olur ki, istehsal texnologiyasını təkmilləşdirməklə buraxılan məhsulların nomenklaturasının genişləndirilməsi və təzələnməsinə, sonradan onların daxili və xarici bazarlarda səmərəli şəkildə reallaşdırılmasına nail olmaq mümkündür.

İnnovasiyalı kənd təsərrüfatı məhsullarının tətbiqi müasir idarəetmə mexanimlərinin - sənaye parklarının, aqroparkların, biznes inkubatorların, klasterlərin yaradılmasını aktuallaşdırır. Burada ən əsası kənd təsərrüfatı istehsalının səmərəsinin artırılması, istehsal güclərinin yeniləşdirilməsi, innovasiyaların mənimsənilməsi üçün təsərrüfatçılığın əlverişli iqtisadi şəraitinin yaradılması, dövlətin güzəştli kredit imkanlarından istifadə edilməsi kimi amillər mühüm əhəmiyyət kəsb edir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, Azərbaycanda aqrar sahə üzrə innovasiyanın prioritet istiqamətləri kimi aşağıdakı məsələlərin həlli məqsədəuyğun hesab edilir:

- istehsal prosesində təşkilati iqtisadi münasibətlərin təkmilləşdirilməsi;
- istehsalın və idarəetmənin təşkilinin perspektivli formalarının tətbiq edilməsi;
- kadrların hazırlanması, onların ixtisasının artırılması və əməyin motivləşdirilməsi sisteminin təkmilləşdirilməsi;
- maliyyə-kredit mexanizminin, vergi sisteminin və kənd təsərrüfatı məhsullarının qiymətyaranma prinsiplərinin təkmilləşdirilməsi;
- yeni innovasiya texnologiyalarından və kompüter texnikasından istifadə edilməsi əsasında istehsalın planlaşdırılması, idarə edilməsi, uçot və nəzarət sisteminin təkmilləşdirilməsi;
- istehsalın ekolojiləşdirilməsi;
- bitkiçilik və heyvandarlıq məhsulları istehsalının yüksək texnologiyalarının mənimsənilməsi;
- təmir-bərpa bazasının və texniki servisin intensiv inkişafı.

Bununla yanaşı dövlət regional səviyyədə əlverişli şərait yaratmaqla investisiya siyasəti vasitəsilə innovasiya fəallığının stimullaşdırılması prosesinə çox əhəmiyyətli dərəcədə təsir göstərə bilər, iqtisadiyyatın aqrar-sənaye sektoruna investisiyalar qoyulmasını həll edə bilər.

ƏDƏBİYYAT

1. Nuriyev Ə.X. Regional idarəetmənin əsasları. Bakı, 2007, 427 s.
2. Hüseynova X.M. Regional inkişaf proqramları: nəzəri və praktik məsələlər. Bakı: "Ozan", 2010, 224 s.
3. Qarayev N. İnnovasiya menecmenti. Bakı, 2011, 224 s.

Тарана Гидаят кызы Курбанова
д.ф.э.

Региональное управление и инновационные направления развития сельского хозяйства

Резюме

Статья предпринята попытка описать специфику регионального развития и процессы-регионального управления рынком. Указаны факторы развития в области регионального управления, регионального маркетинга и инновационное развитие сельскогохозяйства.

Ключевые слова: региональное управление, региональный маркетинг, инновационное развитие.

Tarana Hidayat Gurbanova
PhD in economics

Regional governance and innovative agricultural development directions

Summary

The article attempts to describe the specifics of regional development and the processes of regional market management. The factors of development in the field of regional management, regional marketing and innovative development of agriculture are indicated.

Key words: regional management, regional marketing, innovative development.

Rəna Əbülfəz qızı QƏFƏROVA
Azərbaycan Kooperasiya Universitetinin doktorantı

BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRİN İNKİŞAFINDA TEXNOLOGİYA VƏ İNFORMASİYA MÜBADİLƏSİ

Müasir qloballaşma şəraitində milli iqtisadiyyatın ən problemli məsələlərindən biri məhz ölkənin beynəlxalq iqtisadi münasibətlərinin qurulması, milli iqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasiyası, dünya təsərrüfatında bərabər hüquqlu bir subyekt kimi çıxış etməsidir. Belə bir şəraitdə beynəlxalq iqtisadi münasibətlərin qurulması və onun tənzimlənməsi olduqca aktuallaşır. Burada əsas məsələ beynəlxalq iqtisadi münasibətlərin daha prioritet sahələrinin seçilməsi və ona üstünlük verilməsidir. Bu mənada texnologiya və informasiyanın beynəlxalq mübadiləsi sahəsi daha aktual hesab edilir. Ölkələr arasında real olaraq öz yerini dəyişən məhsullar siyahısından informasiya və texnologiyanı ayırmaq nə həmişə mümkün olmur, nə də özünü doğrultmur. Belə ki, bu məhsulların dünyada istehsal olunan məhsulların ümumi dəyərində və ümumdünya ticarətində xüsusi çəkisi və əhəmiyyəti günü-gündən yüksək sürətlə artmaqdadır və müvafiq

kəmiyyət müəyyənliyinə malikdir. Burada beynəlxalq iqtisadi münasibətlərin obyektlərinin qarşılıqlı əlaqəsi daha sıxdır.

Beynəlxalq texnologiya mübadiləsi beynəlxalq mübadilənin yeni sferası olub, onun obyektini təsərrüfatçılıq təcrübəsində tətbiq oluna bilən və yaxud müəyyən məqsədlərə nail olmağa imkan verən, metodlardan, vərdiş və təcrübələrdən ibarət olan insanların praktiki bilikləri təşkil edir. Bütün texnologiyalar beynəlxalq münasibətlərin obyekti deyildir. İnsan fəaliyyətinin bir sıra sferalarında qeyri-iqtisadi texnologiyalar: siyasi, sosial, hüquqi, hərbi xarakterli texnologiyalar da vardır ki, onların da iqtisadi nəticələri mövcud ola bilir. Beynəlxalq texnologiya mübadiləsi ölkələr arasında təsərrüfatçılıq proseslərinin yayılmasında və müxtəlif subyektlərin praktiki məsələlərin həlli ilə əlaqədar fəaliyyətində təzahür edir. Texnologiyanın tətbiq edilməsində məqsəd - müvafiq xarakteristikaya malik olan məhsulların istehsalı, tələb olunan keyfiyyətdə məhsul və ya xidmət, idarəetmə və marketinq problemlərinin həlli və s. ola bilir. Beynəlxalq texnologiya mübadiləsi haqqı ödənilməklə və ya havayı ola bilər. Beynəlxalq texnologiyanın əksər hissəsi haqqı ödənilmədən mübadilə edilir. Texnologiyanın müəyyən hissəsi isə iqtisadi əhəmiyyətindən asılı olaraq müvafiq müqavilələrdə əksini tapan dəyər ifadəsində qiymətləndirilir və alıcı tərəfindən haqqı ödənilir.

İnformasiyanın beynəlxalq mübadiləsi isə nisbətən daha sadədir. İnformasiya dünya təsərrüfatçılığı prosesinin tərkib hissəsi və iqtisadi problemlərin həlli olmasa da, iqtisadi qərarların qəbul edilməsinin əsasını təşkil etməklə müəyyən iqtisadi gəlir əldə etməyə imkan verir. Özünün məzmununa görə beynəlxalq mübadilədə statistik, mühasibat, analtik, hüquqi, elmi, tibbi, kompüter, əyləncə xarakterli müxtəlif informasiya məhsulları iştirak edir. İnformasiyanın məzmunu və iqtisadi əhəmiyyətindən və emal edilməsi səviyyəsindən asılı olaraq onun beynəlxalq dövriyyədə müxtəlif qiymətləri ola bilir. Məsələn, analitik məzmuna malik informasiyalar daha yüksək qiymətləndirilir. Qeyd etmək lazımdır ki, informasiyanın da müəyyən hissəsi haqqı ödənilmədən əldə olunur. İnformasiya ölkələr arasında konkret informasiya məhsulları formasında - informasiya əmtəələri və informasiya xidmətləri kimi hərəkət edir. Birinciyə qəzet, jurnallar, kitablar, proqram təminatı, məlumat bazası, reytinqlər, musiqi və incəsənət əsərləri və s. daxildir. İnformasiya xidməti informasiya məhsullarının hazırlanması, yaradılması, yenidən işlənilməsi və yayılması ilə əlaqədar fəaliyyəti özündə birləşdirir. Aparılmış tədqiqatlarla sübut edilmişdir ki, ölkədə əhalinin təhsil səviyyəsindən, telefonla təchiz olunmasından və ölkə iqtisadiyyatının açıqlıq səviyyəsindən asılı olaraq adambaşına düşən ümumdaxili məhsulun səviyyəsində fərqlər əmələ gəlir. Hansı ölkələrdə qeyd olunan göstəricilər yüksəkdirsə, o ölkədə ÜDM da bir o qədər çox istehsal olunur.

Müasir beynəlxalq texnologiya və informasiya mübadiləsini ona uyğun olan hüquqi, maliyə, təşkilati, innovasiya və texniki təminat olmadan həyata keçirmək mümkün deyildir. İntellektual mülkiyyətin obyektlərindən istifadə edənlərin hüquqlarının müdafiəsi müasir dünyada informasiya texnologiyasının və hüququn inkişafında çox mühüm nailiyyətdir. Belə ki, o, təsərrüfatçılıq əlaqələrinin inkişaf etdirilməsində və informasiya texnologiyasının daha da yayılmasında mühüm rol oynayır. İntellektual mülkiyyətin obyektlərindən istifadəyə verilən lisenziyaları sahibkarlıq fəaliyyətini tənzimləmək üçün verilən lisenziyalarla eyniləşdirmək olmaz. Lisenziya intellektual mülkiyyətin xüsusi obyektlərindən istifadə etməyə icazə hüququ verir və elmi-texniki, texnoloji və digər formada olan intellektual mülkiyyətdən digərlərinin, yəni müqavilə ilə tənzimlənən dəyərdə ödənişlər əsasında verilir.

Beynəlxalq informasiya-texnologiya mübadiləsində intellektual mülkiyyətin obyektlərini haqqı ödəməklə əldə etdikdə hesablaşmaların müəyyən sxeması geniş tətbiq edilir. Hesablaşmaların əsas formaları royalti, pauşal və kombinə edilmiş ödənişlərdir. Royalti beynəlxalq texnologiya və informasiya mübadiləsində ən geniş yayılmış ödəniş formasıdır. Çox vaxt royaltini intellektual mülkiyyətdən istifadə rentası adlandırırlar. Royalti, lisenziya müqaviləsində gostərilən həcmdə mənfəətin müəyyən hissəsinin lisenziat tərəfindən dövri olaraq ödənilməsini nəzərdə tutur ki, onun da səviyyəsi alınmış texnologiyadan səmərəli istifadə edilməsindən asılıdır. Beləliklə, royalti dərəcəsi yeni texnologiyanın tətbiqindən əldə olunan əlavə mənfəətin xalis məhsul satışının dəyərinin həcminə nisbəti ilə müəyyən olunur. Hər iki kəmiyyət orta illik hesablanır.

Bundan başqa royalti məhsul buraxılışının həcmindən, lisenziyanın fəaliyyət müddətindən və növündən asılıdır. Ən yüksək royalti tam lisenziyada 30%-dən yuxarı, müstəsna lisenziyada 20%, sadə lisenziyada isə 10% təşkil edir. Bununla belə royaltinin səviyyəsinin təyin edilməsi həmişə müəyyən təqribiliklə mümkün olur, çünki heç də həmişə yeni texnologiyadan gələcək gəlirləri, satışın həcmini əvvəlcədən dəqiq proqnoz etmək mümkün olmur.

Müasir dövrdə Azərbaycanın beynəlxalq texnologiya və informasiya mübadiləsində iştirakı da mühüm vəzifə kimi qarşıya qoyulmuşdur. Bunu ölkəmizdə bazar münasibətlərinin inkişaf xüsusiyyətləri obyektiv zərurətə çevirmişdir. XXI əsrdə Azərbaycanda informasiya cəmiyyətinə keçid və onun qurulması, "Elektron hökumət"in formalaşdırılması və intellektual potensialın inkişafı sayəsində sosial-iqtisadi inkişafın yüksəldilməsi aktual məsələlərdən birinə çevrilmişdir. Müasir dövrdə və gələcəkdə informasiya-kommunikasiya texnologiyalarının əhəmiyyəti ön plana keçməklə, ölkənin milli fəaliyyət və elektron strategiya sahəsindəki proqramların əsas müddəalarını təşkil etmişdir. Ölkə rəhbərliyi tərəfindən informasiya-kommunikasiya texnologiyaları sektorunun inkişafı neft və qaz sənayesindən sonra ikinci prioritet sahə kimi müəyyən edilmişdir. Bunu biz aşağıdakı statistik göstəricilərdən daha aydın görə bilərik. Belə ki, 2012-ci ildə informasiya-kommunikasiya texnologiyaları və poçt sektoru müəssisələri tərəfindən müqayisəli qiymətlərlə 1363,9 milyon manat həcmində və ya əvvəlki il ilə müqayisədə 15,8% çox xidmət göstərilmişdir. Əhaliyə göstərilmiş rabitə xidmətlərinin həcmi əvvəlki il ilə müqayisədə 23,7% artaraq müqayisəli qiymətlərlə 978,0 milyon manat təşkil etmişdir. 2012-ci il ərzində informasiya-kommunikasiya texnologiyaları və rabitə sektorunun inkişafına 325,3 milyon manat investisiya qoyuluşu yönəldilmişdir

Birləşmiş Millətlər Təşkilatının müvafiq komitəsində Azərbaycan kosmik ölkələr sırasına qəbul olunmuş, ölkəmiz kosmik fəzanın sülh məqsədlərlə istifadəsi üzrə öhdəliklər götürmüşdür. Rabitə və İnformasiya Texnologiya Nazirliyinin nəzdində olan Yüksək Texnologiyalar üzrə Tədqiqat Mərkəzində nanotexnologiyalar üzrə laboratoriya quraşdırılmış və burada tədqiqat və yüksək nanotexnologiya əsaslı məhsulların alınması üzrə işlər aparılmışdır. Mobil abunəçilərin sayı 10,1 milyonu ötmüşdür. Hazırda hər 100 nəfərə 110 mobil abunəçi düşür ki, bu da dünya orta göstəricisini ümumi hesabla 30 faiz qabaqlayır. Ölkədə ən yeni mobil texnologiya - 4G xidməti istifadəyə verilmiş və Azərbaycan bu texnologiyanı tətbiq edən Avropanın 9-cu, dünyanın isə 37-ci ölkəsidir. 2012-ci ilin sonuna əhalinin hər 100 nəfərinə düşən kompyuterin sayı 20 ədədə, internet istifadəçilərinin sayı isə 70 nəfərə çatmış və beləliklə son 9 ildə müvafiq olaraq 12,5 dəfə və 7,0 dəfə artmışdır. Azərbaycan internet istifadəçilərinin sıxlığına görə Müstəqil Dövlətlər Birliyi ölkələri arasında birinci yerdədir və dünya orta göstəricilərini 2 dəfədən çox qabaqlayır.

İnformasiya Kommunikasiya Texnologiyalarının 2014-2017-ci illərdə inkişaf strategiyasının əsasını "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya"ya uyğun olaraq informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə etməklə ölkənin demokratik inkişafını təmin etmək, sahənin gələcək inkişafı üçün islahatların aparılmasının effektiv mexanizminin formalaşdırılması və qlobal informasiya fəzasına inteqrasiyanın genişləndirilməsi təşkil edir.

ƏDƏBİYYAT

1. V.K.Lomakin. Dünya iqtisadiyyatı. Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2013.
2. V.E.Rıbalkin. Beynəlxalq iqtisadi münasibətlər. "İqtisad Universiteti" nəşriyyatı, 2012.
3. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinin və Dövlət Statistika Komitəsinin hesabatları.

Rövşən Ağahüseyn oğlu HƏSƏNOV
Azərbaycan Kooperasiya Universiteti
iqtisad üzrə fəlsəfə doktoru, baş müəllim

AQRAR SAHƏDƏ MODERNLƏŞDİRMƏ

Xülasə

Tezisdə, Azərbaycanda iqtisadi konyunktura, ölkə iqtisadiyyatının gələcək inkişaf perspektivləri, modernləşdirmənin nəzəri-metodoloji əsasları, aqrar sahənin modernləşdirilməsi xüsusiyyətləri araşdırılmış, istehsalın modernləşdirilməsində əmək qüvvəsinin və aqrar sahədə modernləşdirmənin davamlı iqtisadi inkişafda rolu tədqiq olunmuş, davamlı ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində beynəlxalq təcrübə araşdırılmışdır.

Açar sözlər: modernizasiya, klasterlər, prioritet, strategiya, təchizat zənciri.

Giriş

Ərzaq təhlükəsizliyi və rəqabət üstünlüyünə malik sahələrin inkişafı bir medalın iki tərəfidir. Milli səviyyədə ərzaq təhlükəsizliyi bütün ərzaq məhsulları ilə 100 faizlik təminatı əsas götürsə, rəqabət üstünlüyü nəzəriyyəsi ölkənin yalnız rəqabət üstünlüyünə malik olduğu sahələrin inkişafını zəruri hesab edir. Məsələn, taxıl istehsalı Azərbaycanın ərzaq təhlükəsizliyi baxımından vacib hesab edilsə də, rəqabət üstünlüyünə malik deyil. Bu zaman ərzaq təhlükəsizliyi ilə rəqabət üstünlüyü arasında "kompromis"in əldə olunması zəruridir. Modernləşmə bu kompromisin əldə olunmasında böyük əhəmiyyətə malikdir. Belə ki, modernizasiya daha az resursla daha çox məhsul istehsalına imkan verir, bu da ərzaq təhlükəsizliyi və rəqabət qabiliyyəti arasında balansın daha tez tapılmasına şərait yaradır. Kənd təsərrüfatı sahələrinin istehsal, bölgü, mübadilə və istehlak sferalarını əhatə etməklə ərzaq təhlükəsizliyinin təmin olunmasında modernizasiya böyük əhəmiyyət kəsb edir.

Ərzaq təhlükəsizliyinin təmin edilməsinin qiymətləndirilməsi ərzağın fiziki əldə olunması imkanlarına, ərzağın iqtisadi əldə olunması imkanlarına, istifadə üçün təhlükəsiz qidanın olması göstəricilərinə əsasən müəyyənləşdirilir.

Qeyd olunan faktorları nəzərə almaqla, ərzaq təminatı siyasəti kompleks tədbirlərin həyata keçirilməsini zərurətə çevirir, istehsalın artırılması və əhalinin alıcılıq qabiliyyətinin birliyi daha çox dövlət büdcəsindən və ölkənin maliyyə imkanlarından asılı edir.

Müasir dövrdə ərzaq təhlükəsizliyinin təmin edilməsi biri digərini şərtləndirən iki faktora:

- ərzaq bazarında məhsulların mövcudluğuna;
- məhsulların əldə edilməsi üçün maliyyə imkanlarının olmasına əsaslanır.

Ərzaq məhsullarının mövcudluğu istehsal və idxal münasibətlərindən asılı olursa, maliyyə imkanları adambaşına aylıq gəlirlərin səviyyəsinə görə hesablanır. Elə buna görə bu iki amilə daha çox fikir verilir. [1, s. 53]

Ərzaq təhlükəsizliyi hər bir dövlətin milli təhlükəsizliyinin prioritet istiqamətlərindən biri olmaqla iqtisadi rifahın ayrılmaz tərkib hissəsini təşkil edir. Eyni zamanda ərzaq təhlükəsizliyi bütövlükdə dövlət siyasətinin müvəffəqiyyətli reallaşdırılmasına xidmət etməklə iqtisadi, sosial, demoqrafik və ekoloji faktorların təsiri altında formalaşır.

Təcrübə göstərir ki, inkişaf etmiş dövlətlərdə ərzaq təhlükəsizliyi siyasəti və strategiyası ASK-nın inkişafında iki konsepsiyanın tətbiqi ilə şərtlənir. Birincisi, ASK-nın inkişafında liberal meyillərin gücləndirilməsinə əsaslanan klassik model daha çox ABŞ, Fransa və Böyük Britaniyada tətbiq edilir. İkincisi kənd təsərrüfatında proteksionist siyasətin reallaşması ilə səciyyələnir və bir qayda olaraq Kanada, İsveçrə, Yaponiya və Avropa Birliyi ölkələrində tətbiq edilir. Bu dövlətlərdə innovasiya siyasəti aqrar sektorda mütərəqqi texnologiyaların tətbiq edilməsinə istiqamətləndirilir.

Əgər inkişaf etmiş dövlətlərdə klasterlər (son istehsalçılar, təchizatçılar, xidmət provayderləri, tədqiqat laboratoriyaları, tədris müəssisələri və iqtisadiyyatın müəyyən sahəsi üzrə digər təsisatlar regional iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsidir) daha çox innovasiya və biz-

nes mühitinin yaxşılaşdırılmasında fokuslaşırsa, inkişaf etməkdə olan və keçid ölkələrində əlavə dəyərin yaranması və ixracın gücləndirilməsi istiqamətində fokuslaşma var. Məsələn, inkişaf etməkdə olan dövlətlərdə donor təşəbbüsü ilə rəqabət üstünlükləri rombu, bazarların aranan klasterlərdə ixracın genişlənməsi hədəflənməklə təchizat zəncirinin (supply chain) inkişafı məqsəd seçilir. Əlavə dəyərin artırılması və biznes mühitinin yaxşılaşdırılması da seçilən məqsədlər arasındadır. Keçid ölkələrində isə donor təşəbbüsü ilə yaranan klasterlər daha çox ixracın təşviqi, əlavə dəyərin artırılması məqsədi daşıyır. Bu mənada dövlət və ya biznesin təşəbbüsü ilə yaranan klasterlərdə məqsədlər fərqlidir.

Klasterlərin inkişaf konsepsiyasında aşağıdakı kəmiyyət və keyfiyyət qiymətləndirmə üsullarından istifadə edilir: lokallaşma əmsalı, regional "xərclər-buraxılış" cədvəli, Porterin rəqabət üstünlükləri rombu, bazarın qiymətləndirilməsi, markrtinq tədqiqatı, ekspert qiymətləndirilməsi və s. [3, s.211]

Aqrar sahədə rəqabətqabiliyyətli məhsulun istehsalı üçün mövcud müəssisə və təşkilatlarda istehsal prosesində "elmi məhsulların" tətbiqi müasir dövrün ən aktual problemlərindəndir. Bir çox inkişaf etmiş dövlətlərdə aqrar məhsullar aqrar "elmi istehsal" birləşməsində hazırlanır. Respublikamızda da bunu həyata keçirmək dövlətin əsas vəzifələrindən biri olmalı, aqrar sənaye istehsalı ilə elmi tədqiqat müəssisələrinin qarşılıqlı münasibətləri təşkil edilməlidir. Bu münasibətlər Qərb ölkələrində "elmi praktiki" təşkilatlar adı altında reallaşır.Bu sahəni yaxşı bilən kadr potensialını formalaşdırmaq, elmi işlərə maliyyə dəstəyi vermək, onların reallaşdırılmasını həyata keçirmək ilk növbədə dövlətun köməyi ilə reallaşa bilər. Beynəlxalq təcrübəyə görə, ASK-nın inkişaf ölkələrində kənd təsərrüfatı məhsullarının 60 faizini yenilikçi-elmtutumlu məhsullar təşkil edir ki, onların da həyat dövrü 3-5 ildir. [4, s. 4]

Belə innovativ məhsulların həm yerli, həm də xarici bazarlarda rəqabət qabiliyyəti yüksək olur, bu da ərzaq təhlükəsizliyinin gücləndirilməsində öz sözünü deyir.

Respublikamızda bu sahənin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar sırasında Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ni xüsusi qeyd etmək lazımdır.

Strateji Yol Xəritəsinin həyata keçirilməsi hesabına ölkədə dayanıqlı iqtisadi inkişaf prinsiplərinə əsaslanmaqla, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunun formalaşdırılmasına nail olmaq baxımından əlverişli mühitin yaradılması üçün 9 strateji hədəfin (bu strateji hədəflər sırasında ərzaq təhlükəsizliyinin dayanıqlılığının gücləndirilməsi əsas yer tutur) reallaşdırılması nəzərdə tutularaq, 2020-ci ilədək strateji baxış, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış, 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış müəyyənləşdirilmişdir. [2, s. 5-6, 44-48]

ƏDƏBİYYAT

1. E.A.Quliyev. "Aqrar iqtisadiyyat"/ Bakı -2015. 319 s.
2. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir.
3. V.Ə.Qasımlı. "İqtisadi modernizasiya". Bakı -2014. 311s.
4. İ. Alıyev, A. Mustafayev. "Aqrqr sahə modernləşmə mərhələsindədir". "Azərbaycan" qəzeti, 30 noyabr 2012, s. 4.

Ровшан Агагусейн оглы Гасанов
АУК, доктор философии по экономике, ст. пред.

Модернизация в сельскохозяйственном секторе

Резюме

В статье подробно изучены экономическая конъектура в Азербайджане, будущие перспективы экономического развития страны, теоретико-методологические основы модер-

низации, особенности модернизации сельско-хозяйственного сектора, исследована роль рабочей мощности в модернизации производства и модернизации сельскохозяйственного сектора в стремительном экономическом развитии государства, исследован международный опыт в области обеспечения продолжительной продовольственной безопасности.

Ключевые слова: модернизация, кластеры, приоритет, стратегия, цепь поставки

Rovshan Aghhuseyn Hasanov
Azerbaijan Cooperation University
PhD in economics, h/t

Modernization of the agricultural sector

Summary

The article examines in detail the economic situation in Azerbaijan, the future prospects of the country's economic development, the theoretical and methodological foundations of modernization, peculiarities of agricultural sector modernization, the role of working capacity in modernization of production and modernization of the agricultural sector in the rapid economic development of the country, the international experience in ensuring long-term food security was explored.

Key words: modernization, clusters, priority, strategy, supply chain.

Səidə Feyzullah qızı RÜSTƏMZADƏ
Azərbaycan Kooperasiya Universitetinin doktorantı
ADNSU-nun nəzdində Bakı Neft-Energetika Kollecinin müəllimi

AQRAR SEKTORUN İNKİŞAFINDA İNNOVASİYA FƏALİYYƏTİNİN AKTİVLƏŞDİRİLMƏSİ

Xülasə

Məqalədə ölkə iqtisadiyyatının qeyri-neft sektorunun prioritet sahələrindən biri kimi aqrar sahənin inkişafı və bu inkişafda dövlətin rolu araşdırılmışdır. Eyni zamanda qeyd edilmişdir ki, aqrar sahə ölkənin milli iqtisadiyyatının formalaşdırılmasında, əhalinin keyfiyyətli ərzaq məhsullarına olan tələbatının ödənilməsində, həmçinin dövlətlərarası iqtisadi əlaqələrin və beynəlxalq münasibətlərin inkişafında mühüm rol daşıyır. Eyni zamanda aqrar sektorun inkişafında xarici ölkələrin təcrübələri, ölkə prezidentinin aqrar sahəyə aid sərəncamları və bu sərəncamlardan irəli gələn məsələlər də şəth edilmişdir.

Açar sözlər: aqrar sektor, innovasiya siyasəti, innovativ inkişaf*, *dayanıqlı inkişaf.

Giriş

Ölkə iqtisadiyyatında, o cümlədən aqrar sahədə aparılan genişmiqyaslı və davamlı köklü iqtisadi islahatlar yeni mülkiyyət formalarının və sahibkarlığın inkişafına da əlverişli şərait yaratmışdır. Tədqiqatçılar göstərir ki, aqrar sahədə fəaliyyət göstərən sahibkarlar əksər hallarda ən azı üç subyektin:təbii inhisarçıların, emal müəssisələrinin və vasitəçi təşkilatların iqtisadi təzyiqlərinə məruz qalır, nəticədə məhsul istehsalını mənfəətlə qura bilmir və bütövlükdə aqrar məhsul istehsalçılarının təsərrüfat-maliyyə fəaliyyəti zərərlə başa çatır. Belə bir şəraitdə isə, fiziki və istərsə də hüquqi şəxs statuslu təsərrüfat subyektləri maliyyə vasitələrinin çatışmamazlığı ilə qarşılaşır və növbəti ildə məhsul istehsalı imkanlarını itirirlər. Bütün bu neqativ halların qarşısının alınması, fermerlərdə aqrar sahəyə marağın artırılması üçün dövlət dəstəyinə ehtiyac böyükdür. Bu qəbildən Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli fərmanı ilə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" və 14 aprel 2009-cu il tarixli fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"aqrar sahədə sahibkarlığın inkişafına böyük dövlət dəstəyidir. [4. s. 117]

Aqrar sahənin inkişafında dövlətin rolu

Araşdırmalar göstərir ki, kənd təsərrüfatında uzun müddət ekstensiv amillərdən istifadəyə üstünlük verilməsi bu sahədə zaman-zaman əmək məhsuldarlığının, fondveriminin və istehsalın səmərəliliyinin aşağı olmasına gətirib çıxarmışdır. Son dövrdə aqrar sahənin inkişaf etdirilməsində intensiv amillərə və keyfiyyətcə yeni istiqamətlərdə inkişafına üstünlük verilməsi, ölkənin aqrar siyasətində əhəmiyyətli məsələlərdən olmuşdur.

Müasir dövrdə respublikanın aqrar sahəsinin istehsal ehtiyatlarından istifadənin iqtisadi səmərəliliyinin yüksəldilməsi məsələsi nəzəri və metodoloji baxımdan tədqiq olunmasını tələb edir. Uzun müddət ərzində formalaşan metodologiya yeni təsərrüfatçılıq şəraiti üçün əsas meyar ola bilməz. Odur ki, iqtisadi mexanizmin bazar iqtisadiyyatının prinsiplərinə uyğun yeni və daha mütərəqqi metodoloji məsələlərinin elmi yolla daha dəqiq müəyyənləşdirilməsi zəruridir. Digər tərəfdən, aqrar sahədə yeni istehsal münasibətlərinin inkişaf etdirilməsi və istehsal resurslarından səmərəli istifadə edilməsi də bu məsələni daha aktual edir.

Aqrar sahənin dirçəldilməsində və modernləşdirilməsində dövlətin rolunun artırılması hesabına kənd təsərrüfatı istehsalında innovasiyanın sürətləndirilməsi strategiyası iqtisadiyyatın aqrar sektorunun səmərəliliyinin artırılmasının prioritet istiqamətinə çevrilə bilər. İqtisadiyyatın idarə edilməsinin inzibati prinsiplərindən imtina edilməsi elmi-texniki yeniliklərin həyata keçirilməsində müxtəlif təşkilati formaların inkişafı, alternativ sahibkarlıq variantlarının müxtəlif növlərinin artırılması üçün geniş perspektivlər yaradır. [2. s. 47]

Aqrar sahənin idarə edilməsi üzrə dövlət orqanlarının innovasiya siyasəti əlverişli innovasiya mühitinin yaradılmasında, elmi-texniki potensialın və innovasiyaların mənimsənilməsinin yeni sisteminin formalaşmasının inkişafında və qorunub saxlanılmasında təzahür etməlidir. [3. s. 653]

Aqrar sahədə innovasiyanın inkişafında dövlətin rolu

Aqrar sahədə innovasiyanın inkişafında dövlətin rolunu artırmaq üçün:

- dövlətin innovasiya siyasətinin prioritetlərini müəyyən etmək;
- innovasiyaların bazar infrastrukturunun formalaşmasına şərait yaratmaq və aqrar sahənin elmi-texniki inkişafı üzrə bazaryönümlü institusional dəyişiklikləri həyata keçirmək;
- dövlətin investisiya fəaliyyətini gücləndirmək və aqrar sektora özəl strukturların investisiyalarının cəlb edilməsinə şərait yaratmaq zəruridir.

İnnovasiyaların mənimsənilməsi əsasən kənd təsərrüfatı əmtəə istehsalçılarının özləri tərəfindən maliyyələşdirilir.Elit toxum növlərinin, gübrələrin, pestisidlərin, cins mal-qaranın alınması ilə bağlı məsrəflərin bir hissəsi dövlət büdcəsindən ödənilir.

Onu da qeyd etməyi lazım bilirik ki, yaxın illərdə Azərbaycanın kənd təsərrüfatında innovasiya lazımi səviyyədə mənimsənilərsə, aqrar sahənin iqtisadiyyatının dayanıqlı və səmərəli inkişafını təmin etmək olar.

Bundan başqa dövlət innovasiya biznesinə birbaşa və dolayı şəkildə təsir etməlidir. Bu sahədə dövlət tənzimlənməsinin birbaşa metodları ilk növbədə elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin istehsalda tətbiqi ilə bağlı sahələrdə güzəştli vergiqoyma və subsidiyalaşdırma sistemindən istifadə edilməsi və bu sahəyə qoyulan kapitalın qiymətinin aşağı salınması ilə sıx bağlıdır ki, məhz bununla da vəziyyəti sabitləşdirmək mümkündür. İnnovasiya biznesinin dövlət tənzimlənməsində ən mühüm yer tutan amillərdən biri əslində sənaye müəssisələri ilə elmi-tədqiqat müəssisələri arasında kooperasiya münasibətlərinin stimullaşdırılması, eləcə də universitetlərlə sənaye sahələri arasında əməkdaşlığın təmin edilməsindən ibarət olmalıdır. [1. s. 816]

Hal-hazırda innovasiya fəaliyyətinin aktivləşdirilməsi üçün dövlət siyasətinin bir neçə istiqamətini təsnifləşdirmək mümkündür:

- vergi güzəştlərinin formalaşdırılması, innovasiya müəssisələrinin vergi yükünün azaldılması;
- yaxın bir neçə ildə dövlət təyinatlı əsas innovasiya layihələrinin siyahısının müəyyənləşdirilməsi və onların reallaşdırılan mexanizminin formalaşdırılması;
- bank faizlərinin dərəcələrinin aşağı salınması;
- kiçik innovasiya sahibkarlığının inkişafı üçün əlverişli şəraitin formalaşdırılması;
- innovasiyaya istiqamətlənmiş müəssisələrə hərtərəfli yardım göstərilməsi;

Nəticə

İnnovasiyaların mənimsənilməsi əsasən kənd təsərrüfatı əmtəə istehsalçılarının özləri tərəfindən maliyyələşdirilir. Elit toxum növlərinin, gübrələrinin, pestisidlərin, cins mal-qaranın alınması ilə bağlı məsrəflərin bir hissəsi dövlət büdcəsindən ödənilir.İnnovasiya fəallığının stimullaşdırılması düzünə və dolayı yolla ola bilər.İnnovasiyanın dolayı yolla stimullaşdırılması maliyyələşdirmə və kreditləşdirmə,vergi güzəştləri, dövlət tərəfindən həyata keçirilən digər köməkliklər və s. ola bilər. Onu da qeyd etməyi lazım bilirik ki, yaxın illərdə Azərbaycanın aqrar sektorunda innovasiya lazımi səviyyədə mənimsənilərsə, aqrar sahənin iqtisadiyyatının dayanıqlı və səmərəli inkişafını təmin etmək olar.

ƏDƏBİYYAT

1. S.V.Salahov. Aqrar sahənin innovasiya yönümlü inkişafının konseptual əsasları. İnnovasiyalı kənd təsərrüfatı istehsalının formalaşdırılması problemlərinə həsr edilmiş Beynəlxalq elmi-praktiki konfransın materialları. Azərbaycan ETKTİ və Tİ. Bakı, 2010, s. 818
2. N.Məmmədov, M.Bərxudarov. İqtisadi təhlükəsizlik. Bakı, 2006.
3. İ.H.İbrahimov. Aqrar sahənin iqtisadiyyatı. Monoqrafiya. Bakı, 2016. 653 s.
4. "Azərbaycan Respublikası regionlarının 2009-2013-cu illərdə sosial-iqtisadi inkişafı" Dövlət Proqramı.

Саида Фейзуллах кызы Рустамзаде
докторант Азербайджанского Университета Кооперации,
учитель Бакинского Нефтяного и
Энергетического Колледжа при АДНСУ

Инновации в развитии аграрного сектора активация активности

Резюме

Инновации финансируются в первую очередь сельскохозяйственными товаропроизводителями. Часть затрат на семена, удобрения, пестициды и домашний скот оплачиваются из государственного бюджета.Инновации могут стимулироваться стимулами и косвенным путем. Стимулирование, фискальная интеграция и кредитование, налоговые льготы, другая государственная помощь и т. д. Важно также отметить, что в ближайшие годы устойчивое и эффективное развитие экономики аграрного сектора может быть обеспечено при надлежащем использовании инноваций в аграрном секторе Азербайджана.

Ключевые слова: аграрный сектор, инновационная политика, инновационное развитие, устойчивое развитие.

Saida Feyzullah's Rustamzade
doctorate of Azerbaijan University of Cooperatives
teacher at the Baku Oil and Energy College at ADNSU

İnnovation in the development of the agrarian sector activity activation

Summary

Innovations are funded primarily by agricultural commodity producers. Part of the costs of seeds, fertilizers, pesticides, and livestock are paid from the state budget. Innovation can be stimulated by incentives and by indirect way.Innovation stimulation, fiscal inclusion and lending, tax rebates, other government assistance, etc. It is also important to note that in the coming years, the sustainable and efficient development of the agrarian sector's economy can be ensured if innovations in the agrarian sector of Azerbaijan are appropriately used.

Key words: agrarian sector, innovation policy, innovative development, sustainable development.

İlqar Vaqif oğlu SADIQOV
Azərbaycan Kooperasiya Universitetinin dissertantı

AZƏRBAYCANDA BİZNES MÜHİTİNİN İNKİŞAFI

Azərbaycanda həyata keçirilən iqtisadi islahatların əsas məqsədlərindən biri biznes mühitinin yaxşılaşdırılması və sahibkarlığın inkişafıdır. Ölkə başçısının 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"nə əsasən sahibkarlığın inkişafı məqsədilə biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində islahatlar aparılır. Bu sənədə əsasən, 2025-ci ilədək Azərbaycanda müasir texnologiyalara, bazarlara və maliyyə vəsaitlərinə bərabər çıxış imkanları təmin edən rəqabət mühiti yaradılacaq. Habelə yerli şirkətlərin canlanmasına və investorların dünya standartlarına uyğun fəaliyyət göstərmələrinə şərait yaradacaq biznes mühiti təmin ediləcək. Biznes mühitinin yaxşılaşdırılması isə ölkədə sahibkarlığın davamlı inkişafına şərait yaradacaq. "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə ölkədə kiçik və orta sahibkarlığın (KOS) vəziyyəti təhlil edilir, xüsusilə bu sahədə görülmüş işlər, həyata keçirilmiş islahatlar, mövcud statistika barədə ətraflı məlumat verilir. Həmin yol xəritəsində 2020-ci ilədək strateji, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış əhatə edilir. Yol xəritəsində adıçəkilən baxışlarda nəzərdə tutulan məqsədlərə nail olmaq üçün beş strateji hədəf müəyyən edilmişdir.

Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması istiqamətində aparılan islahatların nəticəsi olaraq beynəlxalq səviyyədə ölkələrin biznes mühitini qiymətləndirən və hər il Dünya Bankı tərəfindən açıqlanan mühüm hesabatlardan biri olan "Doing Business 2018" hesabatında Azərbaycan 8 pillə irəliləyərək 57-ci mövqeyə yüksəlib, 6 göstərici üzrə ölkəmizin mövqeyi yaxşılaşıb. Belə ki, Azərbaycan "Kiçik investorların maraqlarının qorunması" göstəricisi üzrə 22 pillə irəliləyərək 10-cu pilləyə, "Əmlakın qeydiyyatı" göstəricisi üzrə 1 pillə irəliləyərək 21-ci pilləyə, "Vergilərin ödənişi" göstəricisi üzrə 5 pillə irəliləyərək 35-ci pilləyə, "Müqavilələrin icrasının təmin edilməsi" göstəricisi üzrə 6 pillədən 38-ci pilləyə, "Müəssisənin bağlanması" göstəricisi üzrə 39 pillədən 47-ci pilləyə, "Elektrik təchizatı şəbəkələrinə qoşulma" göstəricisi üzrə 3 pillə irəliləyərək 102-ci pilləyə yüksəlmişdir. Hesabatda bir sıra göstəricilər üzrə biznes mühitinin yaxşılaşdırılması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi sahəsində ölkəmizdə aparılan islahatlar xüsusi qeyd edilmişdir. Belə ki, Azərbaycan "Doing Business 2018" hesabatında Avropa və Mərkəzi Asiyada 4 və daha çox islahat aparan 3 ölkədən biri kimi qiymətləndirilmişdir. Belə ki, "Kiçik investorların maraqlarının qorunması" göstəricisi üzrə 25 aprel 2017-ci il tarixində Azərbaycan Respublikasının Mülki Məcəlləsinə edilmiş dəyişikliklər, "Kreditin əldə edilməsi" göstəricisi üzrə "Kredit büroları haqqında" Azərbaycan Respublikasının 28 oktyabr 2016-cı il tarixli qanununun qəbul edilməsi, "Müqavilələrin bağlanması" göstəricisi üzrə məhkəmə ödənişlərinin "Hökumət Ödəniş Portalı" vasitəsilə elektron qaydada həyata keçirilməsinin tətbiqi, "Müflisləşmənin həlli" göstəricisi üzrə "Müflisləşmə və iflas haqqında" Qanuna edilmiş 25 aprel 2017-ci il tarixli dəyişikliklər "Doing Business 2018" hesabatında Azərbaycanın həyata keçirdiyi islahatlar kimi xüsusi qeyd olunmuşdur.

Azərbaycanda son illər həyata keçirilən bu iqtisadi islahatlar biznes mühitinin daha da yaxşılaşdırılmasını, təşviq siyasətinin davam etdirilməsini və institusional islahatları əhatə edir. Makroiqtisadi sabitlik və infrastrukturun inkişafını dəstəkləməklə dövlət biznes şəraitinin yaxşılaşdırılmasına öz töhfəsini verməyə bundan sonra da davam edəcək. Bu, Strateji Yol Xəritəsində biznes mühitinin yaxşılaşdırılması ilə bağlı 11 sektoru əhatə edən konseptual məsələlərdə öz əksini tapıb.

2015-ci ilin sonlarından etibarən ölkə başçısı tərəfindən sahibkarlığın inkişafı ilə bağlı verilmiş mühüm qərarlar biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində çox əhəmiyyətli addımlardır. Belə ki, bu müddətdə biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində görülmüş işlər çərçivəsində sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 il müddəti-

nə dayandırılmış, sahibkarların təkrar şikayətlərinə baxılması üçün Apellyasiya Şuraları yaradılmış, lisenziya tələb olunan fəaliyyət növlərinin və icazələrin sayı ciddi şəkildə azaldılmış, onların verilməsi üçün tələb olunan prosedurlar sadələşdirilmiş, vergi inzibatçılığı daha da təkmilləşdirilmiş, elektron gömrük xidmətləri genişləndirilmiş, ixracın və investisiyaların təşviqi, yerli istehsalın dəstəklənməsi, dövlət satınalmalarında yerli istehsala üstünlük verilməsi, kənd təsərrüfatı məhsullarının istehsalının və emalının stimullaşdırılması mexanizmləri yaradılmış, sahibkarların elektrik təchizatı şəbəkəsinə qoşulması üçün tələb edilən prosedurlar sadələşdirilmiş, ümumilikdə sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, bir pəncərə sisteminin və elektron xidmətlərin genişləndirilməsi, inzibati prosedurlar üçün tələb edilən vaxtın qısaldıması, maliyyə əlçatanlığının genişləndirilməsi və s. sahələrdə sistemli islahatlar həyata keçirilmişdir.

Sahibkarların hüquqlarının müdafiəsinin daha da gücləndirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2016-cı il tarixli fərmanına əsasən Azərbaycan Respublikasının Prezidenti yanında və 762 nömrəli Fərmanına əsasən mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuraları yaradılmış, onların fəaliyyətini tənzimləyən əsasnamələr təsdiq edilmişdir. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları sahibkarlar tərəfindən özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı müvafiq icra hakimiyyəti orqanının qərarlarından (qərarların qəbul edilməsindən imtinadan) və ya sərəncamından, əmrindən, hərəkət və ya hərəkətsizliyindən verilmiş təkrar şikayətlərə baxan kollegial orqandır. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuralarının qərarlarından, hərəkət və hərəkətsizliyindən verilmiş şikayətlərə isə Azərbaycan Respublikasının Prezidenti yanında yaradılmış Apellyasiya Şurasında baxılır. Azərbaycan Prezidentinin 21 aprel 2016-cı il tarixli sərəncamı ilə ölkənin iqtisadiyyatında sahibkarların artan rolunu, məşğulluğun təmin olunmasında sahibkarlığın inkişafının müstəsna əhəmiyyətini nəzərə alaraq, cəmiyyətdə sahibkarlığa dəstək əhval-ruhiyyəsinin artırılmasına təkan vermək məqsədi ilə hər il aprelin 25-i "Sahibkarlar Günü" kimi təsis edilmişdir. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" ölkə Prezidentinin 3 noyabr 2017-ci il tarixli Fərmanı ilə sahibkarlıq sahəsində aparılan yoxlamalar 2021-ci il yanvarın 1-dək dayandırılmışdır.

Dövlətin vergi siyasəti də biznes mühitinə mühüm təsir göstərir. Son illər bu sahədə də sahibkarların xeyrinə mühüm qərarlar qəbul edilmişdir. Belə ki, Azərbaycan Prezidentinin 4 avqust 2016-cı il tarixli 2257 nömrəli sərəncamı ilə vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması və ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun olaraq real vergi potensialının müəyyən edilməsi üçün vergi sistemində islahatların davam etdirilməsi və vergi inzibatçılığının daha da təkmilləşdirilməsi məqsədi ilə "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri" təsdiq edilmişdir. Vergidən yayınma hallarının azaldılması, vergi uçotunun sadələşdirilməsi və vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Vergi Məcəlləsinə 16 dekabr 2016-cı il tarixində bir çox dəyişiklik edilmişdir. Belə ki, Vergi Məcəlləsinə 115 yeni maddə əlavə olunmuş, 83 maddəyə dəyişiklik edilmiş, 3 maddə isə ləğv olunmuşdur. Dəyişikliklərə əsasən, buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı, həmçinin quş ətinin satışı 2017-ci ilin yanvarın 1-dən 3 il müddətinə ƏDV-dən azad edilmişdir. Torpaq sahələrinin təqdim edilməsi və bəzi fəaliyyət növləri (məişət cihazlarının təmiri, nəqqaşlıq və s.) sadələşdirilmiş vergiyə cəlb olunmuşdur.

Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması üzrə aparılan iqtisadi islahatlar ölkədə sahibkarlığın inkişafına təkan vermişdir. Xüsusən də dövlət-sahibkar münasibətlərinin, investisiya mühitinin yaxşılaşdırılması, qeyri-neft sektorunun stimullaşdırılması, o cümlədən özəl sektora təşviq mexanizmlərinin tətbiqi, aqrar sektora dövlət qayğısının artırılması, kiçik və orta sahibkarlığın dəstəklənməsi bu baxımdan əhəmiyyətlidir. Bunların nəticəsidir ki, ölkədə, xüsusən də qeyri-neft sektorunda özəl sektorun inkişafı meyilləri müşahidə olunur. Belə ki, Azərbaycanda ÜDM-də iqtisadiyyatın bütün sahələri üzrə qeyri-dövlət bölməsinin payının artımı müşahidə olunur. Əgər 1995-ci ildə ÜDM-də özəl sektorun payı 30,3 faiz, 2000-ci ildə 70,8 faiz idisə, sonrakı illərdə də artaraq 2005-ci ildə 77,8%-ə, 2010-cu ildə 81,7%-ə yüksəlmiş, 2016-cı ildə

83,7% təşkil etmişdir. Müqayisə edilən 20 il ərzində iqtisadiyyatın bütün sahələrində özəl sektorun xüsusi çəkisi çoxalmışdır. 2000-2016-cı illərdə qeyri-dövlət bölməsinin payı sənayedə 48,4%-dən 87,6%-ə, tikintidə 63,5%-dən 86,8%-ə, kənd təsərrüfatında 99%-dən 99,9%-ə, ticarət və xidmət sahələrində 98,3%-dən 99,6%-ə, nəqliyyatda 62,6%-dən 82,8%-ə, rabitədə 57,8%-dən 80,5%-ə, sosial və digər xidmətlər sahəsində isə 2005-ci ildəki 31,8%-dən 2015-ci ildə 58%-ə çatmışdır.

Bazar münasibətlərinə keçid istiqamətində islahatların sürətləndirilməsi, struktur dəyişikliklərinin tez bir zamanda həyata keçirilməsi, özəl sektorun inkişafına rəvac verən normativ-hüquqi bazanın yaradılması, özəlləşdirmə proqramlarının uğurla həyata keçirilməsi və s. ölkəmizdə biznes sektorunun inkişafına da ciddi təsir etdi. Əslində biznes fəaliyyətinin təşkili və genişləndirilməsi bazar iqtisadiyyatının başlıca şərtidir. Lakin biznesin təşkili, onun həyata keçirilməsi və inkişafı üçün münbit şəraitin yaradılması və s. xüsusilə vacibdir. Müstəqil Azərbaycan Respublikasında bazar iqtisadiyyatına keçidlə əlaqədar dövlətin həyata keçirdiyi ardıcıl və uğurlu iqtisadi islahatlar biznes mühitinin formalaşmasında və azad rəqabətin inkişafında mühüm rol oynadı. Nəticədə respublikamızda 1995-ci ildən etibarən biznes sektorunun dinamik inkişafı təmin edildi. 20 il ərzində ÜDM-də özəl sektorun payı 30,3 faizdən 83,7 faizədək atrıb ki, bu ölkədə sahibkarlığın inkişafı üçün formalaşmış əlverişli biznes mühiti ilə bağlıdır**.**

İqtisadiyyatın bütün sahələrində - sənaye, tikinti, kənd təsərrüfatı, ticarət və xidmətlər, nəqliyyat, rabitə və sosial xidmətlər bölməsində özəl sektorun inkişafı meyilləri müşahidə olunur. Sosial sfera istisna olmaqla, digər bütün sahələrdə özəl sektorun payı 80%-dən yüksəkdir ki, bu da sahibkarlıq fəaliyyətinin ölkə iqtisadiyyatındakı yüksək rolundan xəbər verir.

İnkişaf etmiş bazar iqtisadiyyatına malik ölkələrin təcrübəsi göstərir ki, onların iqtisadi cəhətdən inkişafı dövlətlə özəl biznesin səmərəli qarşılıqlı fəaliyyətinə əsaslanır. Bu özünü dövlət tərəfindən özəl biznesin müxtəlif formalarının inkişafı üçün əlverişli hüquqi-iqtisadi mühitin yaradılmasında, biznesin və fərdi təşəbbüsün inkişafının müxtəlif iqtisadi metodlarla həvəsləndirilməsində büruzə verir. Öz növbəsində özəl biznes cəmiyyətin qarşısında duran vəzifələrin, sosial-iqtisadi problemlərin həllində, iqtisadiyyatın əsas sahələrinin maliyyələşdirilməsində və inkişafında dövlətə yardımçı olur. Azərbaycanda da aparılmış köklü islahatlar və toplanmış təcrübə bir daha sübut edir ki, dövlət-sahibkar münasibətlərinin tənzimlənməsi müasir bazar iqtisadiyyatının prinsiplərinə əsaslandığı halda daha yaxşı nəticələrə nail olunur, sahibkarlıq fəaliyyəti isə ölkədə sosial-iqtisadi inkişafın əsas aparıcı qüvvəsinə çevrilir. Sahibkarlığın inkişafının stimullaşdırılmasının müxtəlif vasitələri var. Bunların sırasında əlverişli vergi siyasətinin yürüdülməsi, bank-kredit siyasəti, maliyyə mənbələrinin formalaşdırılması, dövlət yardımı sisteminin təşəkkülü, qanunvericilik bazasının təkmilləşdirilməsi, özəlləşdirmənin səmərəli aparılması, infrastruktur problemlərinin həlli və s. göstərmək olar. Dövlət sahibkarlığın inkişafı üçün hər şeydən əvvəl əlverişli investisiya mühiti formalaşdırmalıdır Müsbət haldır ki, dövlət büdcəsinin hesabına maliyyələşdirilən İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığa Kömək Milli Fondu (SKMF) vasitəsilə hər il sahibkarların layihələrinə güzəştli şərtlərlə kredit ayrılır ki, bu da sahibkarlığa dövlət dəstəyinin ən səmərəli formalarından biridir.

SKMF-nun vəsaitləri hesabına verilən güzəştli kreditlər Dövlət Başçısının fərman və sərəncamlarında, dövlət proqramlarında müəyyən edilmiş, ölkənin sosial-iqtisadi inkişafının prioritet istiqamətlərinə uyğun olaraq qeyri-neft sektorunun və regionların tarazlı inkişafı, sahibkarlığın, o cəmlədən kiçik və orta sahibkarlığın dəstəklənməsi, yoxsulluğun azaldılması, məşğulluğun təmin edilməsi ilə bilavasitə əlaqəli olan sahələrdə dinamik iqtisadi inkişafın təmin edilməsinə yönəldilir. Ölkəmizdə dövlət-sahibkar münasibətlərini tənzimləyən əsas prinsiplər müəyyənləşdirilmişdir. Dövlətin uzunmüddətli iqtisadi siyasətinin başlıca istiqamətləri və prinsipləri əsasında sahibkarlığın inkişafı keyfiyyətcə yeni təsərrüfatçılıq münasibətləri sisteminin formalaşmasına əsaslanır. Müasir mərhələdə Azərbaycanda dövlət iqtisadiyyatın bütün sektorlarını birbaşa və dolayı iqtisadi mexanizmləri ilə tənzimləməklə mülkiyyətin bütün formalarının inkişafı üçün şərait yaradır. Bu proses şəxsi və ictimai maraqları təmin edir.

Sahibkarlığın inkişafına respublikada yalnız mənfəət, biznes fəaliyyəti kimi baxılmır, həmçinin iqtisadi artımın əsası, sosial-iqtisadi inkişafın sosial amili və yeni iş yerlərinin təşkili, əhali-

nin məskunlaşmasının nəticəsi kimi qiymətləndirilir. Bu mühüm amillər nəzərə alınaraq Azərbaycanda sahibkarlığın inkişafı üçün iqtisadi islahatlar və biznes mühitinin yaxşılaşdırılması siyasəti davam etdirilir. Müsbət haldır ki, bütün bunlar iqtisadiyyatın müxtəlif sferalarında sahibkarlıq fəaliyyətinin rolunun artmasına imkan verir.

Dünya təcrübəsi göstərir ki, sahibkarlıq - təsərrüfat fəaliyyətinin liberallaşdırılması ilə dövlət qurumlarının səmərəli işinin üzvi surətdə əlaqələndirildiyi, kiçik və orta biznesə fəal dövlət yardımının həyata keçirildiyi və daxili bazarda haqlı rəqabətin bərqərar olduğu ölkələrdə daha geniş yayılır və sürətlə inkişaf edir. Eyni zamanda, milli iqtisadiyyatın tərəqqisi üçün sahibkarlıq resurslarının inkişafının təmin edilməsi və onlardan səmərəli istifadə olunması mühüm əhəmiyyət kəsb edir. Aydın məsələdir ki, ölkədə bundan sonrakı iqtisadi artım, müasir texnologiyaların tədbiqi, özəl sektordan dövlət büdcəsinə vergi daxilolmalarının artması, ərzaq təhlükəsizliyi problemlərinin həlli, işsizliyin azaldılması, yoxsulluğun aradan qaldırılması həm də sahibkarlığın inkişafından və milli sahibkarlar təbəqəsinin formalaşmasından asılıdır. Bötövlükdə qeyri-neft sektorunun inkişafı sahibkarlığın tərəqqisi hesabına mümkündür. Bazar münasibətlərinə xas olan işgüzar aktivlik məhz bu fəaliyyət sahəsində aşkarlanır. Bazar mexanizminin mühüm elementi olan sağlam rəqabət mühitinin formalaşmasında sahibkarlığın inkişafı əsas şərtdir. Bunun üçün isə azad sahibkarlıq və liberal iqtisadiyyat siyasəti genişləndirilməlidir. Əvəzində inkişaf edən sahibkarlıq bölməsi, özəl sektor məşğulluq, rəqabət qabiliyyətli məhsulların buraxılması, xidmətlərin göstərilməsi, dövlət büdcəsinə vergilərin ödənilməsi, xidmət sferasında keyfiyyətin yaxşılaşdırılması və s. bu kimi problemlərin həllini öz üzərinə götürür.

Azərbaycanda aparılan iqtisadi islahatlar nəticəsində ölkədə biznes mühiti yaxşılaşır, sahibkarlıq fəaliyyəti inkişaf edir və ÜDM-də, iqtisadiyyatın bütün sahələrində özəl sektorun xüsusi çəkisi artır. Dövlət müxtəlif vasitələrlə özəl sektorun inkişafını təşviq edir. Bu məqsədlə qanunvericilik bazası daim təkmilləşdirilir, özəlləşdirmə aparılır, müxtəlif proqramlar qəbul edilib, vergi və kömrük sistemində islahatlar həyata keçirilib, özəl sektorun dəstəklənməsi üzrə müxtəlif maliyyə mənbələri formalaşdırılıb, infrastruktur problemləri həll olunur və s. 2017-ci il də dərin iqtisadi islahatlar və sabitləşmə ili olmuş, ölkə iqtisadiyyatı yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Respublikada biznes mühitinin əlverişliliyinin artırılması istiqamətində kompleks tədbirlər davam etdirilmiş, sahibkarlığın inkişafı istiqamətində səylər gücləndirilmiş, iqtisadiyyatın diversifikasiyası və qeyri-neft sektorunda sahibkarlığın tərəqqisi istiqamətində kompleks tədbirlər görülmüşdür. Biznes mühitinin yaxşılaşdırılması məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi sahibkarlığın inkişafını stimullaşdırır, Dünya Bankının "Doing Business" kimi beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeləri bir qədər də yüksəlir. İslahatların davamlı olması növbəti illərdə də həmin reytinqlərin daha da yaxşılaşacağını proqnozlaşdırmağa zəmin yaradır.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 6 dekabr 2016-cı il.
2. Biznes sektorunda İKT-dən istifadənin təkmilləşdirilməsi istiqamətləri. AMEA-nın İqtisadiyyat İnstitutu, Bakı, 2011.
3. Əliyev R.T. Qloballaşma şəraitində özəl biznesin və dövlətin qarşılıqlı fəaliyyətinin təşkilinin bəzi məsələləri // AMEA Xəbərləri İqtisadiyyat seriyası №3-2011. Bakı-2011.
4. Novruzov V. Sahibkarlığın inkişafında bazar infrastrukturunun rolu. AR Auditorlar Palatası, «Azərbaycan Respublikasında sahibkarlığın inkişaf problemləri» elmi-praktik konfransın materilları. Bakı, 2003.
5. http://www.stat.gov.az

Gülnarə Adil qızı TAĞIYEVA
assistent, Azərbaycan Dövlət Aqrar Universiteti

AQRAR SAHƏNİN RƏQABƏTQABİLİYYƏTLİ VƏ İNNOVASİYAYÖNÜMLÜ DAYANIQLI İNKİŞAF İSTİQAMƏTLƏRİ

Xülasə

Müasir və dinamik inkişaf mərhələsində olan Azərbaycanın əsas hədəfi çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, genişləndirilməsi, əhali rifahının beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılmasıdır. Ölkənin beynəlxalq rəqabətqabiliyyətliliyinin yüksəldilməsi sosial-iqtisadi həyatın bütün sferalarında effektiv, sistemli tədbirlərin reallaşdırılmasını tələb edir. Rəqabətqabiliyyətliliyin yüksəldilməsi üçün ilk növbədə ölkənin rəqabətqabiliyyətlilik amillərinin obyektiv qiymətləndirilməsi, o cümlədən əsas rəqabətqabiliyyətlilik parametrlərinin dinamikasının təhlili, milli iqtisadi inkişaf strategiyasının qiymətləndirilməsi vacibdir.

Açar sözlər: aqrar sahə, innovasiya, rəqabətqabiliyyətlilik, dayanıqlı inkişaf, səmərə.

***

Aqrar sahə cəmiyyətin sağlam yaşamasını və inkişafını şərtləndirən, iqtisadiyyatın prioritet əhəmiyyət kəsb edən strateji sahələrindən biridir. Bu, tarix baxımından da həmişə belə olmuş və əbədi olaraq qalacaqdır. Çünki bəşəriyyət öz mövcudluğunu qoruyub saxlamaqla normal inkişaf etməli və uğurlu fəaliyyət göstərmək üçün keyfiyyətli qidalanmalı, aqrar sahənin böyük imkanlarından səmərəli istifadə etməlidir. Bu sahə qeyri-neft sektorunda xüsusi çəkiyə malik olmaqla, həm də çoxşaxəli və çoxfunksiyalı bir vəzifəni yerinə yetirir. Xüsusilə də aqrar sahənin sosial-iqtisadi, ekoloji, innovasiyalı, informasiya və digər xarakterli funksiyaları göstərilənlər baxımından böyük əhəmiyyət kəsb edir.

Müasir dövrdə dünya iqtisadiyyatına yeni yanaşma meyilləri və zəruri keyfiyyət dəyişiklikləri ölkə iqtisadiyyatına, o cümlədən onun əsas sahələrindən biri olan aqrar sahəyə də təsirsiz ötüşməmişdir. Bu sahənin müqayisəli üstünlüklər əsasında inkişaf etdirilməsi və rəqabətqabiliyyətlilik səviyyəsinin yüksəldilməsi - onun modernləşdirilməsi məsələsini gündəmə gətirmişdir.

Aqrar sahənin dayanıqlı inkişaf strategiyasını məcmu olaraq, sürətlə artan əhalinin kənd təsərrüfatı və ərzaq məhsullarına olan tələbatının daim yüksəlməsi şəraitində mövcud ehtiyacların daha səmərəli təmin olunmasına əsaslanan və mümkün potensialdan daha geniş, düşünülmüş şəkildə istifadəyə yönəldilmiş tədbirlər məcmusu kimi qəbul edə bilərik [1, s. 218]. Onun əsas xüsusiyyəti bu prosesə təsir göstərən çoxsaylı amillərin qarşılıqlı, sıx əlaqədə fəaliyyət göstərməsidir. Hazırda yaşadığımız bazar iqtisadiyyatı sisteminin tələblərinə uyğun olaraq, aqrar sahənin dayanıqlı inkişafına yanaşma istiqamətləri fərqli ola bilər. Təbii ki, hər bir cəmiyyətin inkişafının əsas məqsədi sosialyönümlülüyə əsaslanır. Ancaq aqrar iqtisadiyyatın sosialyönlülüyü əvəzinə səmərəlilik terminindən istifadə edilməsini daha məqsədəuyğun hesab etmək olar. Bu mənim fikrimdir və müəyyən obyektiv mülahizələrə əsaslanır.

Aqrar sahədə iqtisadi şaxələndirmə, yaxud diversifikasiya zəruri modernləşdirmə tədbirləri ilə birgə, onun daha da sürətlənməsinə rəvac verməlidir. Mütərəqqi yeniliklərin iqtisadi proseslərə tətbiqini nəzərə alan modernləşdirmənin əsas xüsusiyyətlərindən biri də institusional islahatların həyata keçirilməsidir. Bu proses, həm də aqrar sahənin inkişafına yönəldilmiş müxtəlif xarakterli tədbirlərin kompleks şəkildə və eyni müddətdə aparılmasını tələb edir. Lakin qeyd etmək lazımdır ki, bu çoxistiqamətlilik müxtəlif istiqamətlərdə aparılan tədbirlərin üstünlüyünü təmin etməlidir.

Mövcud dönəmdə aqrar sahədə iqtisadi şaxələndirməyə (diversifikasiyaya) yönəlmiş əsas çağırışlara - sürətlə dəyişən təbii - ekoloji təzahürlərin (iqlim dəyişiklikləri, normal vegetasiya şərtlərinin pozulması, şoranlaşma və digər neqativ hallar) təsir imkanlarının azaldılmasına yönəldilmiş tədbirlərin daha sürətlə həyata keçirilməsini, tarixən ölkəmizdə formalaşan və əlverişli imkanlara malik kənd təsərrüfatının potensial imkanlarından düzgün yararlanmaqla idxaldan tam ixraca keçirilməsini (xüsusən də ərzağa yönəldilmiş valyuta vəsaitlərinin ölkədən kə-

nara çıxarılmasının qarşısının alınması və onların daxili bazarın tələblərinə uyğun istifadəsi) göstərmək olar. Bundan başqa aqrar sahədə diversifikasiyaya aqrar sahibkarlığın kooperasiya yönümlü inkişafının təmin olunmasnı, ən başlıcası isə aqrar istehsalla yanaşı, bilavasitə kənd ərazilərinin kompleks inkişafına yönəldilən, bu gün iri şəhərlərə daha rahat yaşam üçün gələn əmək ehtiyatlarının könüllü şəkildə torpağa qayıdaraq onu becərmələri üçün əlverişli şəraitin yaradılmasını və s. göstərmək olar.

Biz, tarixən formalaşmış əlverişli şərait, əkinçilik mədəniyyəti və digər imkanlara istinad edə bilərik. Əksər hallarda torpaqlardan öz təyinatı üzrə istifadə olunmaması, münbitliyin azalmasına, məhsuldarlıq səviyyəsinin aşağı düşməsinə və digər anoloji hallara gətirib çıxarır [2, s. 97]. Hesab edirəm ki, bütün hallarda həlli özümüzdən asılı olan bir çox məsələlərin - aqrar sahənin mövcud və potensial imkanlarının düzgün dəyərləndirilməsi (ölçülməsi), onun iqtisadi idarəetmə obyekti kimi qiymətləndirilməsi, investisiya problemlərinin yetərli həlli, milli seleksiyanın üstünlüklərindən istifadə olunması, kənd əhalisinin məşğulluq səviyyəsinin optimal həll olunması, antiinhisarçılığa əməl etməklə aqrar sahibkarlığın, xüsusən də KOS sektorunun davamlı şəkildə inkişaf etdirilməsi və digər tədbirlər nəticəsində daxili bazarı səmərəli qorumaq mümkündür. Aqrar sahədə əsasən istehsal, emal, texnoloji və dayanıqlı inkişafla bağlı strateji proqramların seçilməsi, onların həyata keçirilməsində səmərəli üsulların tətbiq edilməsi, həmin istiqamətlərdə çevik texnologiyaların tətbiq olunması, məhsul və xammalın əldə olunmasında uzunmüddətli təminatın əldə edilməsi kimi məsələlər də daxili bazarın qorunmasına xidmət edən əsas amillərdən hesab edilir. Belə strateji məqamlara nail olunması isə təbii, əmək, texniki və texnoloji ehtiyatlardan bazarın tələblərinə uyğun maksimum səmərəli istifadə olunmasını tələb edir. Sevindirici haldır ki, bu gün göstərilən problemlərin əksəriyyətinin kompleks həlli - milli iqtisadiyyatın əsas sektorlarından biri olan aqrar sahə üzrə yol xəritəsinin hazırlanmasında əks olunmaqdadır.

Aqrar sahənin rəqabətqabiliyyətliliyi dedikdə, həmin sahədə daha səmərəli bazar münasibətlərinin formalaşmasının mühüm şərti, onun dayanıqlı inkişafının əsas hərəkətverici elementi başa düşülür. Aqrar sahədə məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi kənd təsərrüfatında iqtisadi təhlükəsizliyin təmin edilməsi və ölkənin ərzaq təhlükəsizliyinin qorunub saxlanılmasının vacib ünsürü, mühüm tərkib hissəsi olmaqla, həm də ölkənin milli rəqabət qabiliyyətinin yüksəldilməsində önəmli yer tutur [3, s. 367]. Beləliklə, bu prosesi, aqrar bazar münasibətlərini təşkil edən iqtisadi mexanizmin əsas ünsürü hesab etmək mümkündür. Onun səmərəli təmin edilməsinin başlıca amillərindən biri isə, sağlam rəqabət prosesinin formalaşması və inkişafına lazımi mühitin və sağlam şəraitin təşkil edilməsidir. Qeyd etdiklərimə uyğun olaraq, aqrar sahənin məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsi göstərilən sahədə, ilk növbədə texnoloji geriliyin aradan qaldırılmasını və düzgün kooperasiya meyillərinə əsaslanan təsərrüfatçılığın inkişafını tələb edir. Bütövlükdə isə aqrar sahə məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsi daxili və xarici bazarlarda tələbatın səmərəli şəkildə qarşılanması və məhsulun keyfiyyətinin daha da yüksəldilməsinə istiqamətlənmiş tədbirlərin gücləndirilməsi ilə bağlıdır. Göründüyü kimi, aqrar sahədə təsərrüfat subyektlərinin rəqabət qabiliyyətinin yüksəldilməsi prosesi həmin sahənin həm dayanıqlı, həm də daha səmərəli inkişafının əsas şərti kimi çıxış edir. Söz yox ki, bu zaman müqayisəli üstünlüklərin qorunub saxlanılması da mühüm əhəmiyyətə malikdir.

Aqrar sahənin mövcud potensialından səmərəli istifadə olunması, həmçinin onun dayanıqlı artımı və səmərəli inkişafının təmin edilməsi məqsədilə, perspektiv fəaliyyət istiqamətlərini nəzərdə tutan strateji proqnozlaşdırmaya və məqsədyönlü, düzgün planlaşdırmaya ciddi fikir verilməsi, bu sahədə inkişaf üçün rəqabət üstünlüyü olan əsas məhsul növləri və bölmələrin müəyyən olunması, zəruri hüquqi əsasların formalaşdırılması və inkişaf etdirilməsi, həmin prosesdə daha çox rəqabət üstünlüyünə malik və rəqabətqabiliyyətliliyi olan istiqamətlərin seçilməsi, bu zaman rəqabətli təklif metodlarına üstünlük verilməsi, xüsusən də aqrar sahənin mövcud resurs potensialını düzgün qiymətləndirərək, düzgün istifadə imkanlarının müəyyən edilməsi, aqrar menecment işinin səmərəli təşkil olunması, kooperasiyaya əsaslanan iri aqrar təsərrüfatların təşkili və inkişaf etdirilməsi, mövcud fəaliyyətin sağlam inkişafına təkan verən güclü kadr potensialının formalaşdırılaraq ondan istifadə olunması, səmərəli aqrobiznes - marketinq strategiyası-

nın işlənib hazırlanması və mövcud marketinq xidmətlərinin modernləşdirilməsi kimi tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab etmək olar [4, s. 113].

İlk növbədə aqrar sahənin dayanıqlı inkişafı problemlərini nəzərə alaraq, bu sahədə mövcud çağırışlar və onların həlli istiqamətləri ilə bağlı "Aqrar islahatlar və ərzaq təhlükəsizliyi problemləri" sahəsində geniş tədqiqatlar aparılır. Bununla yanaşı, müasir dönəmdə aqrar sahənin qarşısında duran çoxsaylı problemlər və onların səmərəli həlli yolları ilə əlaqədar informasiyalar verilir. Ən başlıcası isə yuxarıda göstərilən problemlərin əksəriyyətinin həlli yollarına işıq salan və aqrar sahənin modernləşməsi dönəmində onun rəqabətqabiliyyətliliyinin təmin olunmasının təkmilləşdirilməsi işləri gedir. [5, s. 189].

Aparılan tədqiqatlar göstərmişdir ki, perspektiv baxımından, innovasiyaların tətbiq edilməsi aqrar sahənin iqtisadi imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir, onların sosial, iqtisadi və ekoloji effektivliyinin artırılmasına, istehsal edilən məhsul vahidi üçün sərf olunan pul vəsaitləri, maddi xərclərin, həmçinin, kənd təsərrüfatı məhsullarının resurs tutumunun azaldılmasına şərait yaradır. İnnovasiyaların geniş tətbiqi kənd təsərrüfatı məhsullarının rəqabətə davamlılıq qabiliyyətini artırmış olur.

ƏDƏBİYYAT

1. G.Ə.Əhmədov. Kənd təsərrüfatında innovasiyaların tətbiqi istiqamətləri, Bakı "Elm", 2010
2. V.Qasımlı. (2014). İqtisadi modernizasiya. Bakı, Strateji araşdırmalar mərkəzi
3. А.А.Голубев. Экономика и управление инновационной деятельностью, учебное пособие, Санкт Петербург, 2012
4. Salahov S.V. Aqrar sahədə dövlət tənzimlənməsinin problemləri, Bakı, 2004
5. İ.Alıyev, İ.Soltanlı. Aqrar sahənin modernləşməsi və rəqabətqabiliyyətliliyinin təmin olunması problemləri, Bakı 2017

Гюльнара Адиль кызы Тагиева
ассистент Азербайджанский Государственный Аграрный Университет

Конкурентные и инновационные тенденции устойчивого развития в аграрной отрасли

Резюме

Главная цель Азербайджана которая находится на этапе современного и динамичного развития - формирование и расширение диверсифицированной, эффективной и инновационной экономики, обеспечивающей благосостояние населения по международным стандартам. Повышение международной конкурентоспособности страны требует внедрения эффективных, систематических мер во всех сферах социально-экономической жизни. В целях повышения конкурентоспособности важно сначала оценить факторы конкурентоспособности страны, в том числе анализ динамики основных параметров конкурентоспособности и стратегии национального экономического развития.

Ключевые слова: аграрная отрасль, инновации, конкурентоспособность, устойчивое развитие, продуктивность

Gulnara Adil Tagiyeva
Assistent Azerbaijan State Agrarian University

The competitive and innovations oriented sustainable development trends of the agrarian sector

Summary

The main goal of Azerbaijan, which is at the stage of modern and dynamic development, is the formation and expansion of a diversified, efficient and innovations oriented economy, which

will bring the welfare of the population to the international standards. Increase of the country's international competitiveness requires the implementation of effective, systematic measures in all spheres of social-economic life. In order to increase the competitiveness, it is important to assess the country's competitiveness factors, including the analysis of the dynamics of the main competitiveness parameters and the national economic development strategy first.

Key words: agrarian field, innovation, competitiveness, sustainable development, productivity.

Tubu Qafar qızı BAQİŞEVA
Azərbaycan Kooperasiya Universitetinin
"Mühasibat uçotu və audit" kafedrasının
baş müəllimi,

dissertant Ruslan Rafik oğlu BAQİŞEV

BİTKİÇİLİKDƏ İSTEHSAL MƏSRƏFLƏRİNİN UÇOTU VƏ MƏHSULLARIN MAYA DƏYƏRİNİN KALKULYASİYASININ TƏKMİLLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

Xülasə

Məqalədə bitkiçilikdə istehsal məsrəflərinin uçotu və məhsulların maya dəyərinin kalkulyasiya edilməsinin təkmilləşdirilməsi məsələləri verilmişdir. Həmçinin kənd təsərrüfatında uçotun müasir vəziyyəti, xüsusilə istehsal məsrəflərinin uçotu və məhsulun maya dəyərinin kalkulyasiyasının aqrar bölmənin inkişaf səviyyəsinə uyğunlaşdırılması göstərilmişdir.

Açar sözlər: kənd təsərrüfatı, aqrar sahə, məsrəflər, strategiya, istehsal məsrəfləri, maya dəyərinin kalkulyasiyası.

Giriş

Müasir iqtisadi şəraitdə ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına dair həyata keçirilən tədbirlər kompleksi sistemində kənd təsərrüfatı məhsullarının istehsalının artırılması mühüm yer tutur. Bununla əlaqədar olaraq kənd təsərrüfatında islahatlar genişlənir, müxtəlif təsərrüfatçılıq üsulları yaradılır, sahibkarlıq sürətlə formalaşır.

"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə iqtisadiyyatın mövcud vəziyyətinin dərin təhlili əsasında Strateji Yol Xəritəsi hazırlanmış, buna uyğun olaraq, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sənayesi sahələrində mövcud vəziyyət sistemli və əhatəli şəkildə təhlil olunmaqla, "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" (bundan sonra - Strateji Yol Xəritəsi) hazırlanmışdır. (1. Azərbaycan Respublikasının "Strateji Yol Xəritəsi").

Aqrar islahatların sürətlənməsi və sahibkarlığın inkişafı istehsal-iqtisadi göstəricilərin yüksəldilməsi üçün istehsal məsrəflərinin uçotu, onun təhlili və aşağı salınması yollarına dair yeni araşdırmaların aparılmasını, onun təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsini tələb edir.

Bitkiçilikdə istehsal məsrəflərinin uçotu xüsusiyyətləri

Bitkiçilik kənd təsərrüfatının əsas istehsal sahəsidir. Bitkiçilik əhalinin ərzaqla təminatında, emal, yüngül və yeyinti sənaye sahələrinin xammalla tələbatının ödənilməsində başlıca sahə olmaqla yanaşı heyvandarlığın inkişafında da həlledici əhəmiyyətə malikdir.Bitkiçiliyin intensiv inkişaf etdirilməsi əhalinin ucuz və keyfiyyətli ərzaqla təmin edilməsinə şərait yaradır, sənaye sahələrini və heyvandarlığı daha ucuz xammal və yemlə təmin edir.

Hazırda Azərbaycanda müxtəlif mülkiyyət münasibətləri və təsərrüfat formaları fəaliyyət göstərir. Ölkədə xüsusi mülkiyyətə əsaslanan kəndli-fermer təsərrüfatları, kiçik müəssisələr,

kooperativlər və s.bitkiçilik məhsullarının istehsalı ilə məşğul olaraq əhalini tərəvəz, meyvə, üzüm, taxıl, sənaye sahələrini pambıq, tütün, heyvandarlığı isə müxtəlif yemlərlə təmin edirlər.

Xüsusi təsərrüfatların işinin sərbəst qurulması və istehsal-iqtisadi əlaqələrin azad həyata keçirilməsi,hesabat kalkulyasiyasında istehsal edilən bitkiçilik məhsullarının maya dəyərinin düzgün müəyyənləşdirilməsini tələb edir.

Bu, həmin müəssisələrin fəaliyyətinə operativ rəhbərliyi həyata keçirir,məhsulun maya dəyərini aşağı salmaq üçün mövcud ehtiyatları aşkara çıxarıb onlardan maksimum istifadə etməyə imkan yaradır.Ona görə də xüsusi təsərrüfatlarda bu məsələlərə ciddi fikir verilməlidir.

Xüsusi təsərrüfatlarda bitkiçiliyə məsrəflər həmin sahəyə məsrəflərin tərkibindən asılı olaraq ilk sənədlərlə rəsmiyyətə salınır. Xüsusi təsərrüfatlarda tərtib edilmiş ilk sənədlərdə mütləq bitkiçiliklərin adı və qrupu, sərf edilən gübrələrin növü (azot, fosfor, kalium, toyuq peyni, peyin və s.) göstərilməlidir.

Kənd təsərrüfatı müəssisələrində bitkiçiliyə məsrəfləri uçota almaq üçün 202 saylı "İstehsalat məsrəfləri" hesabından istifadə olunur. Xərcləri uçota almaq üçün həmin hesabın tərkibində hər bir bitki növü və qrupu üçün ayrıca analitik hesab açılır.Həmin hesabın və onun analitik hesablarının debetində cari ilin məhsulunun istehsalına və gələcək illərin məhsuluna məsrəflər uçota alınır.

Kənd təsərrüfatı müəssisələrində bitkiçiliyə məsrəflərin analitik uçotu K-39 saylı kitabda aşağıdakı ardıcıllıqla aparılır:pambıq,tütün,payızlıq dənli bitkilər,yazlıq dənli bitkilər,kartof, tərəvəz və bostan bitkiləri, yem bitkiləri,birillik otlar, çoxillik otlar, təbii biçənəklər, mədəni otlar, meyvə, üzüm, giləmeyvə bağları və başqa çoxillik əkmələr,bitməmiş istehsal.

Kənd təsərrüfatı müəssisələrində 202 "İstehsalat məsrəfləri" saylı hesabda xərclər aşağıdakı maddələr üzrə uçota alınır:

- əmək haqqı sosial sığortaya ayırmalarla birlikdə, toxum və basdırma materialları,traktor, kombayn və digər kənd təsərrüfatı maşın və mexanizmləri üçün yanacaq və sürtkü materialları, gübrələr (üzvi mineral), nəqliyyat xərcləri, əsas vəsaitlərin əsaslı təmiri,sığorta ödəmələri,sair müstəqim xərclər, təsərrüfatın idarəedilməsi xərcləri (ümumistehsal və ümumtəsərrüfat xərcləri);
- əsas və əlavə əmək haqqı (sosial ehtiyaclara ayırmalarla birlikdə) maddəsində bilavasitə həmin bitkinin becərilməsində və məhsul istehsalında istifadə olunan müxtəlif dərəcəli işçilərə hesablanan əmək haqqına müvafiq olaraq sığorta orqanlarına hesablanan ayırmalar uçota alınır;
- "Toxum və basdırma materialları" maddəsində - səpin üçün toxumun təmizlənməsi,növləşdirilməsi və daşınması ilə əlaqədar xərcləri də daxil etməklə hesabat ilində səpinə sərf olunan toxumun dəyəri göstərilir;
- "Yanacaq və sürtkü materialları" maddəsində - ayrı-ayrı bitkilərin becərilməsi və məhsulun yığılması ilə əlaqədar olaraq sərf olunan yanacaq və sürtkü materialları silinir;
- "Gübrə" maddəsində- bitkiçilikdə istifadə edilən mineral və üzvi gübrələr bitki və bitki qrupları üzrə yazılır;
- "Avtonəqliyyat" maddəsində - xüsusi təsərrüfatlara kənar təşkilatların və xidmət müəssisələrinin nəqliyyat vasitələri xidmət göstərdikdə faktiki dəyəri silinir.

Kənd təsərrüfatının xüsusiyyətinə uyğun olaraq əsas vəsaitlərin bir çox növləri il ərzində bitkiçiliyin və heyvandarlığın müxtəlif sahələrinə xidmət göstərir. Ona görə də bu cür əsas vəsaitlərdən hesablanan amortizasiya ayırmalarını il ərzində konkret uçot obyektinə aid etmək olmur. Həmin əsas vəsaitlərdən hesablanan amortizasiya ayırmaları il ərzində ayrıca "Əsas vəsaitlər üzrə bölüşdürülməmiş amortizasiya ayırmaları" adlı analitik hesabda uçota alınmalı və ilin sonunda mütənasib qaydada ayrı-ayrı uçot obyektləri arasında bölüşdürülməlidir.

Əsas vəsaitlərin cari, orta və əsaslı təmiri ilə əlaqədar olan xərclər də əvvəlcə amortizasiya ayırmaları kimi ayrıca hesabda uçota alınmalı, ilin sonunda kompleks maddə şəklində bitki qrupları və bitməmiş istehsal sahələri arasında bölüşdürülməlidir.

"Sığota ödəmələri maddəsinə bilavasitə bitkiçilikdə istifadə olunan və sığorta üzrə ödənilən əsas vəsaitlər yazılır. Həmin ödəmələr ayrı-ayrı bitkilər və bitki qrupları arasında hesablanmış amortizasiya ayırmalarının məbləğinə mütənasib olaraq bğlüşdürülür. Bitkilərin becərilməsi üzrə yuxarıda göstərilən maddələrdə öz əksini tapmayan əsas xərclər "Sair əsas məsrəflər"

maddəsində əks etdirilir. Bu maddəyə suvarma suyunun və başqa materialların dəyəri, canlı qoşqu qüvvəsinin xidməti və s. aid edilir.

Bitkiçilik sahəsinin idarə olunması və xidməti ilə əlaqədar olan xərclər "Ümumistehsalat xərcləri" və "İnzibati xərclər" maddələrində yazılır. Həmin xərclər il ərzində 202.8 saylı "Ümumistehsalat xərcləri" subhesabında və 721 saylı "İnzibati xərclər" hesabında uçota alınıb, ilin axırında bitkilər və ya bitki qrupları arasında əsas əmək haqqı, avadanlığın saxlanılması və istismarı ilə əlaqədar olan xərclərin məbləğinə mütənasib olaraq bölüşdürülür.

Tərtib edilmiş və mühasibata təqdim olunmuş ilk sənədlərə əsasən 202 saylı hesabın debeti, 533, 522,201,221, 223, 531, 202.8,202.9,və 721 saylı hesabların krediti ilə müxabirləşir:

Cari ilin məhsuluna keçən ildə sərf olunan bitməmiş istehsala məsrəflər 202 saylı hesabın kreditinə, cari ildə bitkilər üzrə məsrəfləri uçota almaq üçün açılan analitik hesabların debetinə köçürülür. Beləliklə, 202 saylı hesabda açılmış analitik hesabların debetində ümumiyyətlə bitkiçiliyə, hər bir bitkiyə və ya bitki qrupuna sərf olunan faktiki məsrəflər toplanır ki, o da bitkiçilik məhsullarının faktiki maya dəyərini təşkil edir.

Bitkiçilik məhsullarının maya dəyərinin kalkulyasiya edilməsi

Mülkiyyət və təsərrüfatçılıq formasından asılı olmayaraq hər bir kənd təsərrüfatı məhsulları istehsal edən təsərrüfat məhsul əldə etmək üçün maşın, mexanizm, yanacaq, toxum almaq üçün, həmçinin işçilərin əmək haqqının ödənilməsi üçün müəyyən xərc çəkməlidir. Bütün bunlar məhsul vahidinin maya dəyərini təşkil edir.

Hər bir məhsul istehsal edən məhsulun maya dəyərinin ucuz başa gəlməsi məqsədi ilə maya dəyərini tərtib edən amilləri bilməli,onların xüsusi çəkisini öyrənməlidir. Məhsulun maya dəyərini təşkil edən xərc ünsürlərinin əhəmiyyətini onun kalkulyasiyasını aparmaqla müəyyənləşdirmək mümkündür.

İlin sonunda bütün xərclər 202 saylı hesabın debetində göstərildikdən, habelə istehsal edilmiş məhsulların plan maya dəyəri ilə həqiqi maya dəyəri arasındakı fərq müəyyənləşdirilib öz təyinatına silindikdən sonra bitkiçilik məhsullarının maya dəyərinin kalkulyasiyasına başlamaq olar.

Əvvəlcə təbii fəlakət nəticəsində tamamilə tələf olan bitkilərin əkin sahəsinə çəkilən xərclər müəyyən edilir və 801 saylı "Ümumi mənfəət (zərər)" hesabına silinir.Tam tələf olmayan əkin sahələrinə məsrəflər itkilərə silinmir. [4. s. 173]

Bitkiçilik məhsulları aşağıdakı qaydada kalkulyasiya edilir: - taxıl-franko tarla,məhsulun yığımı ilə birlikdə və yaxud yığımdan sonra aparılan təmizlənməyə sərf olunan xərclər də daxil edilməklə; birillik və çoxillik otlar və samanı-franko-taya və başqa saxlama yeri; - kökümeyvəlilər, kartof, tərəvəz və başqa bitkilər -franko-saxlama yerləri; - silos-franko-silos qurğusu; - yaşıl yem-franko istifadə olunma yeri; - ot toxumu-franko anbar; - isti şitillik tərəvəzi, meyvə, giləmeyvə-franko qəbul məntəqəsi.

Bitkiçilik məhsullarının maya dəyərini kalkulyasiya etmək üçün bütün əsas, əlaqədar və əlavə məhsullar müvafiq əmsalların köməyi ilə şərti məhsula çevrilir.

Bundan başqa hər bir məhsulun cəmi məhsulun tərkibində xüsusi çəkisi tapılır.Həmin xüsusi çəkiyə əsasən cəmi xərclərdən hər bir məhsul növünə düşən xərcləri həmin məhsulun miqdarına bölməklə məhsul vahidinin maya dəyəri hesablanır.

Bitkiçilkdə istehsal məsrəflərini əsas, əlaqədar və əlavə məhsullar arasında bölüşdürmək üçün aşağıdakı cədvəldə göstərilən əmsallardan istifadə edilməsi təklif olunur (cədvəl 1).

Dənli bitkilərin maya dəyərinin əsas kalkulyasiya obyekti əsas məhsullar kimi dən, əlavə məhsul kimi saman hesab olunur. Dənin və samanın maya dəyəri aşağıdakı ardıcıllıqla kalkulyasiya edilir.

Əvvəla, sentner hesabı ilə əsas və əlavə məhsulun çıxışı, habelə onların istehsalına məsrəflərin ümumi məbləği tapılır. Sonra dənin və samanın ümumi miqdarı onlar üçün müəyyən edilmiş şərti məhsula çevirmə əmsalına vurulur.Alınan nəticə toplanır və şərti məhsula çevrilmiş dənin və samanın ümumi miqdarı tapılır. Əsas və əlavə məhsulların xüsusi çəkisinin cəmi məhsulun tərkibində faizlə miqdarına vurulub, yüzə bölünür.

Cədvəl 1

Bitkiçilikdə məsrəflərin bölüşdürülməsinə dair əmsallar

Bitkilər(bitki qrupu)	Məhsulun adı	Müxtəlif növ məhsulu 1 sentner əsas növ məhsula çevirmək əmsalı
Dənli bitkilər	1 sentner dən	1,0
Qarğıdalı:	1 sentner saman..... 1 sentner dən..... 1 sentner gövdə.....	0,008 1,0 0,17
Şəkər çuğunduru	1 sentner çuğundur... 1 sentner yarpaq.....	1,0 0,2
Birillik otlar	1 sentner ot.... 1 sentner toxum.... 1 sentner saman.... 1 sentner yaşıl kütlə..	1,0 9,0 0,17 0,25
Çoxillik otlar	1 sentner ot... 1 sentner toxum... 1 sentner saman.... 1 sentner yaşıl kütlə...	1,0 75,0 0,17 0,3

Mənbə : Aqrar sahədə bitkiçiliyin inkişafı- 2016-cı il bülleteni

Bununla da əsas və əlavə məhsulun istehsalına düşən məsrəflər tapılır. Əsas və əlavə məhsulun istehsalına düşən məsrəfləri sentner hesabı ilə əsas və əlavə məhsulun miqdarına bölündükdə alınan rəqəm 1 sentner dənin və samanın maya dəyəri deməkdir.

Kənd təsərrüfatı Azərbaycan iqtisadiyyatının strateji sektoru kimi, növləşdirmə və qoruma aktına əsasən itkinin miqdarı və dəyəri taxılın hansı məqsədlə istifadə edilməsindən asılı olaraq 205 və yaxud 204 saylı hesabın debetinə, 202 saylı hesabın kreditinə yazılmalıdır.

Aparılmış tədqiqatlar göstərir ki, aqrar sektorda təşkilati fəaliyyətlə bağlı məsrəflər həm istehsal, həm də ümumtəsərrüfat xarakteri daşıya bilər. Bu səbəbdən məsrəfləri aşağıda göstərdiyimiz iki qrupda təsnifləşdirmək məqsədəuyğundur:

1. İstehsal xarakteri daşıyan təşkilati fəaliyyətlə bağlı məsrəflər;
2. Ümumtəsərrüfat xarakteri daşıyan təşkilati fəaliyyətlə bağlı məsrəflər.

Məsrəflərin belə qruplaşdırılması onların aşağı salınmasına və ehtiyatların aşkara çıxarılmasına şərait yarada bilər ki, bu da nəticədə aqrar sahədə səmərəliliyin yüksəlməsinə səbəb olar. [3. s. 211]

Son illərdə dünya aqrar inkişaf praktikasında təşəkkül tapmış ümumi qanunauyğunluqların, həmçinin Azərbaycanda uzun illər formalaşmış meyillərin əksinə olaraq, kənd təsərrüfatında işləyənlərin sayı və ümumi məşğulluqda payı artmaqdadır. Belə ki, 1995-ci ildə məşğul əhalinin 30,8%-i bu sahədə çalışırdısa, 2015-ci ilin əvvəlində həmin rəqəm 36.7 %-ə yüksəlmişdir. Şübhə yoxdur ki, yaxın gələcəkdə alternativ fəaliyyət sahələrinin yaradılması hesabına kənd təsərrüfatının məşğulluqdakı payında tədricən azalma müşahidə olunacaq. Amma hələ uzun müddət bu sektor ölkə iqtisadiyyatındakı mühüm mövqeyini qoruyacaq. Onun üçün də qarşıdakı illərdə kənd təsərrüfatı məhsullarının emal sahələrini inkişaf etdirmək, ticarət və təchizat məsələlərini təkmilləşdirmək, kənd təsərrüfatı istehsalçılarına xidmətlərin təşkili, əhalinin məşğulluğunun yüksəldilməsi və işsizliyin azaldılması, sosial və infrastruktur sahələri inkişaf etdirmək yolu ilə kəndlə şəhər arasındakı fərqləri aradan qaldırmaq istiqamətində fəaliyyət dərinləşdirilməlidir [2. s. 57]

Məhz Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli sərəncamı ilə təsdiq edilən "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" adlı sənəd çərçivəsində kənd təsərrüfatının inkişafının prioritet elan olunması da bu məqsədə xidmət edəcəkdir. Bu, kənd təsərrüfatının dayanıqlı inkişafına nail olunmasının və onun rəqabətqabliyyətli sektora çevrilməsinin strateji hədəf olduğundan xəbər verir. Hədəfə

nail olunması isə Azərbaycanda çoxsahəli kənd təsərrüfatının inkişafına və ərzaq təhlükəsizliyinin təminə səbəb olacaqdır. Bütün bu qeyd olunan məsələlərin həlli respublikada rəqabətqabiliyyətli kənd təsərrüfatı və kənd təsərrüfatı məhsullarının emalı sektorunun inkişafı üçün əlverişli mühit yaradacaqdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının "Strateji Yol Xəritəsi".
2. "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illər iqtisadi inkişafı".Dövlət Proqramı.
3. Abdulov Ş.V., Əhmədov Y.B. "Kənd təsərrüfatında mühasibat (maliyyə) uçotu. Bakı - "Mütərcim" - 2009.
4. Abdulov Ş.V., Əhmədov Y.B. "Kənd təsərrüfatında mühasibat (maliyyə) hesabatı". Gəncə - 2016.
5. Abbasov Q.Ə., Səbzəliyev S.Ə. Mühasibat (Maliyyə) uçotu. Bakı -2011.

Тубу Кафар кызы Багишева
старший преподователь, кафедры
«Бухгалтерского учета и аудита» ,

Руслан Рафиг оглу Багишев, диссертант
Азербайджанского Университета Кооперации

Учот расходов производства растеневодства и задачи усовершенствования калькулирования себестоимости продукции

Резюме

Статья посвящена расчету и затрат на производство продукции, вопросы связанные с повышением и улучшением оценки себестоимости продукции. Так же, текущее состояние сельскохозяйственного учета, особенно с учетом производственных издержек и разработка товарный стоимости продукта до уровню развития аграрного подразделения.

Ключевые слова: ъельское хозяйство, аграрный сектор, издержки производства, калькуляция себестоимости.

Tubu Gafar Bagisheva
chair "Accounting and audit"

Rushlan Rafig Bagishev
candidate for a degree of the
Azerbaijan Cooperation University

Issues related the development of the calculation of products net cost and the account of production expences in plant growing

Summary

Accounting of producing expences in planting and improvement of the calculation of products producing cost are revealed in this article.

Besides modern position of accounting in agriculture especially registration of producing expences and the coincidence of the calculation of the products producing cost to the developed level of agrar sector are also pointed out.

Key words: agriculture, agrarian field, production costs, cost value calculation.

Ülkər Xəlil qızı MAHMUDOVA
c.e.n., dos. "Ekologiya və coğrafiya kafedrası"
Azərbaycan Kooperasiya Universiteti,

Ceyran Umavir qızı NƏBİYEVA
magistr, Azərbaycan Kooperasiya Universiteti

ABŞERON İQTİSADİ-COĞRAFİ RAYONUNUN SOSİAL-DEMOQRAFİK İNKİŞAFINDA AQRAR SƏNAYENİN ROLU

Xülasə

Abşeron iqtisadi rayonu respublikanın mühüm aqrar və aqrar-sənaye strukturuna malik olan rayonlarından sayılır. Bu rayonun potensial iqtisadi və təbii resursları müxtəlif istiqamətli aqrar-sənaye müəssisələrinin formalaşmasına səbəb olmuşdur. Rayonda kənd təsərrüfatı məhsullarının əsasında şəhərətrafı aqrar-sənaye kompleksləri yaradılmışdır. Bu komplekslərə daxildir: meyvə-tərəvəz, ət-süd, üzüm-şərab, quru subtropik meyvəçilik və s. Son dövrlərdə Abşeronda yeni texnologiyalı istixana kompleksləri də yaradılmış və istifadəyə verilmişdir.

Açar sözlər: aqrar-sənaye, meyvə, tərəvəz, ət-süd, üzüm-şərab, quru-subtropik meyvəçilik, istixana kompleksləri və s.

Giriş

Abşeron iqtisadi rayonunun sahəsi 5,42 min km^2, ölkə ərazisinin 6,3%-ni əhatə edir. Əhalisinin sayı 568 min nəfərdir (2017). Bu rayona Abşeron, Xızı inzibati rayonları və Sumqayıt şəhəri daxildir.

"Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında Abşeron rayonunda aqrar və aqrar-sənaye sferasının kompleks inkişafına dair elmi-praktiki istiqamətlər önəmə gətirilmişdir. Problem ondan ibarətdir ki, yeni informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi aqrar-sənaye sferasının prioritet sahələri üzrə diversifikasiya təsnifatına uyğun istehsal tsikllərinin yaradılmasıdır. Bu məqsədlə rayonun potensial resurs imkanlarının nəzərə alınması nəticəsində gələcəkdə aqrar-ərazi istehsal kompleksinin tərkibində aqrar-sənaye müəssisələrinin təşkili və idarə edilməsinin optimal variantlarının müəyyən edilməsindən ibarətdir. [1, s.59-78].

Aqrar-sənaye müəssisələrinin optimallığının səviyyə göstəriciləri rayonun dayanıqlı iqtisadi-sosial inkişafının təmin edilməsini stimullaşdıracaq, bu da aqrar və aqrar-sənaye məhsullarının istehsal dövriyyəsinin artırılmasına imkanlar yaradacaqdır.

Abşeron rayonunun iqtisadi-sosial inkişaf strategiyası dövlət proqramlarında əsaslandırılmışdır. Aqrar-sənaye sferasında dövlətin güzəştli kreditlərinin verilməsi inkişafın təmin edilməsində strateji dayanıqlı əhəmiyyət kəsb edir. Sahibkarlığa Kömək Milli Fondunun vasitəsi ilə kreditlərin verilməsi Abşeron rayonunda aqrar və aqrar-sənaye sferasının iqtisadi inkişafı üçün mühüm mövqe tutur.

Sahibkarlığa Kömək Milli Fondu (2013-cü ildə) Abşeron rayonunda müasir texnologiyalara əsaslanan aşağıdakı aqrar-sənaye sahələri üzrə investisiya layihələrinin maliyyələşdirilməsini təmin etmişdir: [2, s.13-58]

- südlük və ətlik istiqamətli heyvandarlıq komplekslərinin yaradılması;
- quşçuluq təsərrüfatlarının yaradılması;
- ət kəsimi və emalı müəssisələrində yeni texnologiyaların tətbiqi;
- çörək istehsalı zavodlarının tikilməsi.

Abşeron və Bakı şəhərətrafı qəsəbələrinin iqtisadi potensialının reallaşdırılması istiqamətində aqrar-sənaye sferasının optimal səviyyədə ərazi təşkilinə dövlət səviyyəsində proqramlar həyata keçirilir. Dövlət proqramlarına uyğun olaraq yaxın gələcəkdə rayonda elmi və texnoloji əsaslarla zeytun emalı, zəfəran emalı, quşçuluğun sənaye əsaslarla yeni komplekslərinin yaradılması nəzərdə tutulmuşdur. Müasir texnologiyaların tətbiqi ilə istixana komplekslərinin (faraş-tərəvəz) yaradılması gələcəkdə də inkişaf etdiriləcəkdir. [3, s.6-12]

Abşeron rayonunun aqrar -sənaye kompleksinin formalaşmasının miqyası genişdir. Quba-Xaçmaz, Lənkəran, Dağlıq-Şirvan və s. kənd təsərrüfatı məhsullarının emalı müəssisələri ilə müəyyən səviyyədə əlaqələr formalaşmışdır.

Abşeron rayonunda aqrar-sənaye kompleksinin ətrazi təşkilinin mühüm problemlərindən biri, onların istehsal potensialı ilə müvafiq xammal resurs bazası arasında optimal tarazlığın olmamasıdır. Optimal tarazlığın yaradılmasında qonşu rayonların kənd təsərrüfatının xammal resurslarını müəyyən səviyyədə təmin etmək funksiyasını yerinə yetirirlər.

Təhlillər göstərir ki, rayonda aqrar təsərrüfatın və aqrar - sənaye komplekslərinin yaradılmasında xarici şirkətlərin maraq dairəsi artdıqca, xammalın kompleks emalı və tullantısız texnologiyanın tətbiqi prosesinə nail olmağa başlanmışdır. Ona görə də respublikada digər aqrar strukturlara nisbətən aqrar-sənaye müəssisələrində texnoloji xətlərin yaradılması ilə əlaqədar olaraq tullantılar nisbətən azalmış və keyfiyyət yüksəlmişdir.Nəticədə ekoloji cəhətdən dünya standartlarına cavab verən və keyfiyyətli aqrar emal sənaye məhsul istehsalına nail olmaq rəqabət qabiliyyətini artıra bilər.

Müasir dövrdə Abşeron rayonunda aqro-sənaye istehlak məhsulları istehsal edilir. Mövcud praktika hallarını əks etdirən maliyyə vəsaitləri, təbii ki, bu məhsullara əsaslanır. Tədqiqat zamanı yeni texnologiya ilə un istehsalı; köhnə və yeni texnologiya ilə alma şirəsi istehsalı; təzə süddən hazırlanmış pasterizə edilmiş süd və süd tozundan hazırlanmış pasterizə edilmiş süd və s. müəssisələrinin fəaliyyəti ilə maraqlanmışdır.Bu yolla məhsulun müxtəlif variantlarının aqroemal istehsal xərclərinin strukturunu müqayisə etmək mümkün olmuşdur.Odur ki, aqrar emal sənayesinin ərazi təşkili, burada daha effektli strukturların müəyyən edilməsi, elmi əsaslarla təhlili və optimal idarə edilməsi metodlarının tətbiqi son dərəcədə səmərəlidir.

Abşeron rayonunda aqrar struktur sferasında bazar münasibətlərinin aqrar-sənayenin formalaşmasına optimal təsiri yeni sahə və ərazi strukturunun yaranmasına, sahələrarası inteqrasiya əlaqələrinin tamamilə fərqli forma və məzmunda təşkilinə səbəb olmuşdur. Bazarın tələbinə əsaslanan aqrar struktur sferası iqtisadi səmərəlilik və müqayisəli üstünlüklər çərçivəsində aqroemal məhsullar bazarında rəqabət və tələblə təklifin tarazlığına əsaslanan qiymətlər mexanizminin təsiri altında idarə olunur.Bu idarəetmə aqrar-sənaye sferasının istehsal sistemini resurslarla təmin edir və onun texnoloji əsaslarla təşkilini optimallaşdırmaqdadır.

Tədqiqatlar göstərir ki, aqrar struktur və aqrar -sənaye sferasında yeni texnologiyanın tətbiqi nəticəsində son məhsulun bazar qiymətlərinin formalaşmasına həlledici təsir göstərir:

- region çərçivəsində yerləşən emal-sənaye müəssisələrinin istehsal gücləri xammalın tədarükündə rəqabətin formasını və qiymətin xarakterini müəyyən edir;
- aqrar-emal sənayesinin özünün son məhsuluna daxili və beynəlxalq bazarda tələbat qiymətləri bu sahənin aqrar strukturları ilə effektli iqtisadi-sosial əlaqələrin tamlığını tənzimləyir;
- dövlətin iqtisadi sosial tənzimləmə aqrar-struktur siyasəti nəticəsində aqroemal məhsullarının potensialı, gəlirləri, iqtisadi artımı optimallaşır.

Nəticə

Tədqiqatlar göstərir ki, aqrar-sənaye sferasının təşkili istiqamətində ölkənin iqtisadi inkişafının bazar mərhələsində yerli imkan və tələbləri nəzərə alınmaqla, ümumi dövlət nöqteyi-nəzərindən bu mühüm sahənin iqtisadi-sosial effekti təyin edilmişdir.

Aqrar-emal sənayesinin ayrı-ayrı tiplərinin ancaq səmərəli iqtisadi rolunu müəyyən etməklə, onların məqsədəuyğun inkişaf səviyyəsi texnoloji əsaslarla təşkil edilmişdir.

Abşeron və Bakı şəhərətrafı zonalarda formalaşan aqrar-sənaye müəssisələri əsasən rəqabətə davamlılığı ilə fərqlənir. Xüsusilə Bakıətrafı zonalarda təşkil olunmuş aqrar-sənaye kompleksləri daha effektli sayılır.

Bakı şəhərətrafı aqrar-sənaye mühitinin formalaşmasını xarakterizə edən cəhətlərdən biri də əhalinin təzə və keyfiyyətli ərzaq məhsulları ilə ritmik təmin edilməsidir.

ƏDƏBİYYAT

1. “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı. (2004-2008 və 2009-2013-cü illər).”
2. “2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”.
3. “Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi Sahibkarlığa Kömək Milli Fondu” 2013-cü il.
4. Alıyev İ.H. Aqrar sahənin inkişafının təkmilləşdirilməsi və regionlarda islahatların keyfiyyətcə səmərəli aparılması. Bakı, 2004.

Улькер Халил кызы Махмудова
доктор философии по географическим наукам,
доцент кафедры «Экология и география»,
Азербайджанский Университет Кооперации,

Джейран Умавир гызы Набиева
магистр Азербайджанского Университета Кооперации

Роль аграрной промышленности в социально-демографическом развитии Абшеронского экономико-географического района

Резюме

Абшеронский экономический район считается одним из районов, обладающих важнейшей аграрной и аграрно-промышленной структурой. Потенциальные экономические и природные ресурсы данного района способствовали формированию аграрно-промышленных предприятий различного направления. На базе сельскохозяйственнойпродукции в районе созданы пригородные аграрно-промышленные комплексы. В эти комплексы входят фрукты и овощи, мясо-молоко, виноград-вино, фруктоводство сухих субтропиков и т.д. В последнее время, на Абшероне, созданы и сданы в эксплуатацию тепличные комплексы на основе новых технологий.

Ключевые слова: аграрная промышленность, фрукты, овощи, мясо, молоко, виноград-вино, фруктоводство сухих субтропиков, парниковые комплексы.

Ulkar Khalil Mahmudova
Azerbaijan Cooperation University
ass. prof of the Department of «Ecology and Geography», PhD in geography,

Jeyran Umavir Nabiyeva
master of Azerbaijan Cooperation University

The role of the agrarian industry in the socio-demographic development of the Absheron economic and geographical region

Summary

Absheron economic region is considered one of the regions with the most important agrarian and agro-industrial structure. Thepotential economic and natural resources of this region contributed to the formation of agro-industrial enterprises of various directions. On the basis of agricultural products, suburban agro-industrial complexes have been established in the region. These complexes include: fruits and vegetables, meat and milk, grape, wine, fruit cultivation of dry subtropics, etc. Recently, on the Absheron, greenhouse complexes have been created and used on the basis of new technologies.

Key words: agrarian industry, fruits vegetables, meat, milk, grape, wine, fruit cultivation of dry subtropics, greenhouse complexes.

i.f.d. Vüqar Bəhram oğlu KƏRİMLİ
AMEA-nın İqtisadiyyat İnstitutunun böyük elmi işçisi

AQRAR SAHƏNİN RƏQABƏT QABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ İDARƏETMƏNİN ROLU

Xülasə

Tezisdə müasir dövrdə aqrar sahənin rəqabət qabiliyyətinin yüksəldilməsində idarəetmənin rolu öyrənilir və aqrar sahənin xüsusiyyətləri nəzərə alınaraq dövrün tələblərinə uyğun inkişaf etməsi üçün yeni idarəetmə prinsiplərinin tətbiqi araşdırılır**.** Tezisdə əsas istiqamətlər müəyyən edilir və ölkənin aqrar sahəsi üçün tətbiqi nəzərdən keçirilir.

Açar sözlər: aqrar sahə, idarəetmə, rəqabət qabiliyyəti, xüsusiyyət, prinsip.

***

Çağdaş dövrdə milli iqtisadiyyatın inkişafında rəqabətqabiliyyətliliyin yüksəldilməsi ən vacib məsələlərdən biri kimi qəbul edilmişdir. Rəqabətqabiliyyətliliyin yüksəldilməsi ilə əlaqədar kifayət qədər tədqiqatlar və araşdırmalar aparılmışdır. Bu göstəricinin təmin olunması olduqca vacibdir. Bununla əlaqədar rəqabətqabiliyyətliliyin yüksəldilməsində idarəetmənin xüsusi rolu vardır. Lakin sözdə deyil, real bazar müstəvisində onun qiymətləndirilməsi həyata keçirilir. Yəni, bu göstəricinin təmin olunması üçün zəruri olan alt sistemlər tərtib edilə və mexanzim kimi işləyərək həyata keçirilsə də, sonda qiymətləndirməni bazar özü verəcəkdir. Bu baxımdan birmənalı olaraq qeyd etmək lazımdır ki, hansı sahədən asılı olmayaraq rəqabətqabiliyyətlilik göstəricisinin təmin olunması bazarın tələbindən, onun konyunkturasından və "dəyişən" prinsiplərindən bilavasitə asılıdır.

Aqrar sahənin dayanıqlı inkişafı və müasir tələblərə cavab verməsi onun bu meyara görə dinamik yüksəlməsindən və düzgün idarəermənin təşkilindən bilavasitə asılıdır. Yəni, rəqabətqabiliyyətlilik meyarı, xüsusilə də onun yüksəldilməsi artıq bütün sahələrdə qəbul edilmiş və onun təmin edilməsi prioritetlər sırasında ilk sıralardan birini tutur. Aqrar sahə üçün rəqabətqabiliyyətlilik müxtəlif aspektlərdən dəyərləndirilməli və qəbul edilməlidir. İlk olaraq onu qeyd edək ki, sahənin rəqabətqabiliyyətli olması üçün onun alt sistemlərinin, yarımsahələrinin bu meyara cavab verməsi gərəkir. Beləliklə, aqrar sahə üçün tələb olunan rəqabətqabiliyyətlilik meyarı aşağıdakı ardıcıllıqla təmin edilməlidir:

- istehsal olunmuş məhsulun rəqabətli olması və müxtəlif bazarlarda rəqabət qabiliyyətini ifadə etməsi;
- rəqabətqabiliyyətli məhsul istehsalı prosesində istehsalın, heyətin və keyfiyyətin ən yüksək səviyyədə idarə edilməsi, aqromarketinqin çevik olması;
-müəssisənin qeyd olunan iki halı təmin etdikdən sonra onun bir təsərrüfat subyekti kimi rəqabətqabiliyyətli olması, yəni digər rəqib müəssisələrə nisbətdə bazar seqmenti üzrə təkliflərinin dayanıqlı və cəlbedici olması;
- sahəyə aid olan müəssisə və təşkilatın qeyd olunan mərhələlərdən sonra prestijinin və performansının formalaşması;
- müəssisənin maliyyə dayanıqlığının təsbit olunması, bu dayanıqlığın tənəzzül və böhran dövrlərində davamlı xarakter alması;
- müəssisələrin istehsal etdikləri məhsulların ekoloji cəhətdən təmiz və sağlamlıq baxımından zəruri tələblərə cavab verməsi;
- bütün sadalanan mərhələlərdə sahəyə aid olan müəssisənin fəaliyyətinə dövlətin ən yüksək səviyyədə dəstəyi olması;
- bir müəssisənin timsalında sahənin digər müəssisələrinin də bu mərhələləri adlaması;
- nəticədə sahənin özünün rəqabətqabiliyyətli sahəyə çevrilməsi.

Sadalanan zəruri meyar mərhələləri əsasən üç həlqəni özündə birləşdirmişdir. Bunlar məhsulun, müəssisənin və sahənin rəqabətqabiliyyətli olmasıdır. Bu ardıcıllığın təmin olunması və bir-birini tamamlaması vacibdir.

Qeyd etmək lazımdır ki, aqrar sahədə rəqabətqabiliyyətlilik amilinin təmin olunması istehsal olunmuş məhsulların keyfiyyətindən bilavasitə olaraq asılıdır. Yəni istehsal olunmuş məhsul nə-qədər keyfiyyətli olarsa bir o qədər rəqabətqabiliyyətli olar. Əlavə olaraq onu da qeyd etmək la-zımdır ki, keyfiyyətli məhsul istehsal etmək üçün idarəetməni düzgün təşkil etmək və onun prinsiplərinə rəayət etmək lazımdır. Nəzərə almaq lazımdır ki, aqrar sahənin əsas məhsullarının keyfiyyətinə nəzarəti həyata keçirdən Dövlət Fitosanitar Nəzarəti Xidməti topdan və pərakəndə satış ticarəti şəbəkələrində fəaliyyətini təmin etməkdədir. Aqrar sahə üzrə həm bitkiçilik, həm də heyvandarlıq məhsullarının keyfiyyətinə nəzarəti təkcə yaradılmış olan qurumlar vasitəsi ilə deyil, həmçinin ictimai münasibət vasitəsi ilə də həyata keçirilməsi vacibdir. Aparılan təhlillər nəticəsində bəlli olmuşdur ki, ölkə iqtisadiyyatında aqrar sahənin inkişafı ilə əlaqədar dövlətin müəyyən edilmiş dəstəyi bir çox iqtisadçılar tərəfindən birmənalı olaraq qarşılanmamaqdadır. Belə ki, ÜTT-yə üzvlük məsələsində dövlət dəstəyinin və subsidiyaların aradan qaldırılması şərti aktual olduğu bir şəraitdə aqrar sahənin inkişafı üçün bu məsələ ciddi problemə çevriləcəkdir . Ona görə də xüsusən də rəqabətqabiliyyətlilik məsələsinin həlli istiqamətində aqrar sahənin inkişafında "düşünülmüş xətt" seçilməlidir.

Respublikanın aqrar sahəsinin iqtisadi göstəricilərinin təhlili əsasında çıxarılan nəticələrə görə söyləmək olar ki, sahənin rəqabətqabiliyyətli olması, fikrimizcə, iki yanaşmanı özündə ehtiva etməlidir.

Aqrar sahənin rəqabətqabiliyyətli halda olması və bu səviyyəyə cavab verməsi, qeyd etdik ki, kompleks tədbirlər sistemini özündə birləşdirir. Bu tədbirlər sisteminə daxil olan əsas əlamətlərdən biri də, heç şübhəsiz ki, lizinq əməliyyatlarının effektivliyidir. Ölkəmizdə "Aqrolizinq" ASC-nin yaradılması və bu istiqamətdə fəaliyyəti hesab edirik ki, olduqca müsbət hal kimi qiymətləndirilməlidir. Aqrar sahəyə aid müəssisələrin idarəetmənin funksiyalarından biri olan uğurlu marketinq strategiyası və buna uyğun lizinq fəaliyyətinin inkişafı onun rəaqbət üstünlüyünü artıran amillər sırasındadır. Bunun üçün müəssisələrin rəqabət üstünlüyünü müəyyən edən göstəricilər sistemindən və ya müxtəf modellərdən istifadə olunur.

Qeyd etdik ki, sənaye sferası üzrə bir sıra emal müəssisələri vardır ki, aqrar sahəyə aid olan müəssisə və təşkilatlardan daha çox gəlir əldə edir. O da məlumdur ki, kənd təsərrüfatında məhsulun rəqabətqabiliyyətli olması üçün onun keyfiyyətinə təsir edən amillərdən başlıcası bu sahəyə aid olan emal müəssisələrinin mövcudluğudur ki, onların da texnoloji avadanlığı müasir dövrün tələblərinə cavab verməlidir. Hal-hazırkı, vəziyyətə görə respublikada kənd təsərrüfatı üzrə "Milk Pro" LTD şirkətindən başqa elə bir emal müəssisəsi yoxdur ki, məhsulunu dünya bazarına rahat çıxara bilsin. Bu da əlbəttə ki, mənfi hal kimi qiymətləndirilməlidir. Həmçinin, onu da qeyd edək ki, indiki dövr üçün fəaliyyət göstərən 45 ət və 130-dan çox kiçik süd emalı müəssisələri vardır ki, heyvandarlığın inkişafı və mövcud potensiala cavab vermək gücündə deyillər [2, s. 53]. Buna görə də təklif olunur ki, kənd təsərrüfatı məhsulları istehsalı üzrə kooperasiya şəbəkəsinin inkişaf etdirilməsi istiqamətində yeni emal müəssisələri açılsın. Bu proses dövlətin bilavasitə dəstəyi əsasında həyata keçirilməklə reallaşmalıdır. Çünki, qeyd olunanlardan məlum olur ki, özəl sektorun təəccübləndirici aqrar sahə üzrə perspektiv planları demək olar ki, yoxdur. Buna görə də aqrar sahədə istehsal-xidmət-bölgü-mübadilə-satış dövriyyəsini təmin etmək, bu dövriyyəyə xidmət edən infrastrukturun yaradılmasını təşkil etmək olduqca vacibdir. Xüsusən vurğulamaq lazımdır ki, dövlətin aqrar sahə üzrə həyata keçirtdiyi tədbirlər uyğunlaşdırılmış şəkildə olmalıdır. Əlavə olaraq qeyd etmək lazımdır ki, aqrar sahədə idarəetməni təşkil edən zaman sahənin spesifik xüsusiyyətlərini nəzərə almaq lazımdır. [4, s. 315]

ƏDƏBİYYAT

1. http://www.economy.gov.az/
2. İbrahimov İ.H. Kənd təsərrüfatı məhsullarının keyfiyyətinə təsir edən amillər. Audit №2, 2014.
3. http://www.agro.gov.az/
4. Alıyev İ.H."Azərbaycan Respublikasında aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi". Bakı-2003. 315 s.

Вугар Бахрам оглу Керимли
д.ф.э., старший научный сотрудник ИЭ НАНА

Роль управления в повышении конкурентоспособности аграрного сектора

Резюме

В настоящее время изучается роль в повышении конкурентоспособности аграрного сектора, в особенности развития потребности для того, чтобы новые применения принципов управления в соответствии с требованиями времени и управления, тезисе аграрного сектора. Определены основные направления аграрного сектора страны и рассматривается применения в тезисе.

Ключевые слова: аграрная сфера, управления, конкурентоспособности, принцип, особенность.

Vugar Bahram Kerimli
PhD, head scientist of EU ANSA

The role of management in raising the competitiveness of the agrarian sector

Summary

Thesis examines the role of management in raising competitiveness of the agrarian sector in the modern era and the application of new management principles in order to meet the requirements of the agrarian sector. Thesis defines the main directions and the application of the country's agrarian sector.

Key words: agrarian sector, management, competitiveness, feature, principle.

Xavər Abdulməcid qızı HÜSEYNOVA
"Menecment və ticarət" kafedrasının baş müəllimi

AQRAR SAHİBKARLIĞIN ƏSAS İNKİŞAF YOLLARI

Xülasə

Aqrar sahibkarlığın inkişafı, onun yeni iqtisadi sistemin tələblərinə uyğun qurulması sahibkarlıq fəaliyyətinin məqsədyönlü inkişaf etdirilməsindən asılıdır. Ölkənin sosial-iqtisadi yüksəlişinin təmin edilməsinə aqrar sferanın inkişafının böyük təsiri vardır. Aqrar sferanın inkişaf etdirilməsi üçün hər zaman mühüm tədbirlər həyata keçirilir. Ölkəmizdə aqrar islahatlar uğurla aparılmış, aqrar sahibkarlıq formalaşmış, iqtisadi mexanizm yenidən qurulmuşdur. Hal -hazırda ölkəmizdə aqrar sahibkarlığın intensiv inkişafına dair mühüm tədbirlər həyata keçirilir, bunun nəticəsində də istehsal artır, iqtisadi səmərəlilik yüksəlir.

Açar sözlər: aqrar sahibkarlıq, mənfəət, tədbirlər, sfera, istehsal, səmərəlilik.

***

Kənd təsərrüfatı Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun əsasını təşkil edir, buna görə də onun möhkəmləndirilməsi daha mühüm məsələdir. Eyni zamanda, ölkədə kənd təsərrüfatı məhsullarının güvənli və artımlı istehsalının təmin edilməsi strateji ərzaq təhlükəsizliyinin əsas amilidir. Odur ki, aqrar sahəyə qayğı-dövlət siyasətinin mühüm bir sahəsi kimi çox əhəmiyyət kəsb edir.Azərbaycan iqtisadiyyatının aqrar sahəsinə aid mühüm məsələlər (elmi, texniki, təşkili, maliyyə, təchizat, peşəkar hazırlıq və s.) daim mühüm, əhəmiyyətli strukturların diqqət mərkəzindədir. Aqrar sektorun inkişafına xidmət edən ən müxtəlif amillərin sistemli şəkildə hesablanıb, bir-birinə uyğunlaşdırılıb tətbiq edilməsi üçün ölkəmizdə əlverişli mühit mövcuddur.

Aparılan aqrar islahatlar nəticəsində kənd təsərrüfatında mülkiyyət münasibətlərinin əsas subyekti sərbəst sahibkar olmuşdur.

Ardıcıl surətdə keçirilən islahat xarakterli tədbirlər və dövlət tərəfindən qəbul olunmuş qanunlar kənd təsərrüfatında məhsul istehsalının artımına, onun iqtisadi səmərəsinin yüksəldilməsinə geniş şərait yaratmışdır.

Aqrar sahibkarlığın inkişafına dair strateji zərurət üç başlıca faktla müəyyən olunmuşdur [2, s. 5-10].

1. Kənd təsərrüfatı qeyri-neft sektorunun əsasını təşkil edir.

2. Fermer fəaliyyəti ölkənin ərzaq təhlükəsizliyini təmin edən əsas amildir.

3. Sahibkarlıq fəaliyyətinin regional inkişafı ilk növbədə aqrar sahibkarlığın inkişafı sayəsində gerçəkləşir.

Aparılan araşdırmalar göstərir ki, qloballaşma şəraitində kənd təsərrüfatının sahibkarlıq fəaliyyətinin inkişafı istiqamətləri bunlardır:

- kənd təsərrüfatında sahibkarlığa dövlət qayğısının təkmilləşdirilməsi;
- ərzaq əmtəə istehsalçılarına dövlət yardımının zərurəti;
- kənd təsərrüfatında vergi güzəştlərini nəzərdə tutan vergiqoyma sisteminin davamlı tətbiqi;
- aqrar sektoruna yönəlmiş maliyyələşmə, kreditləşmə, sığorta və güzəştli vergiqoyma sistemlərinin bundan sonra daha da həvəsləndirmə mexanizmləri ilə zənginləşməsi;
- kənd təsərrüfatı məhsullarının idxal-ixrac təcrübəsinin tənzimlənməsi.

İnkişaf etmiş ölkələrdə aqrar sahibkarlığa edilən maliyyə yardımının yaxşılaşdırılması üçün kompleks tənzimləmə tədbirləri aparılır.Yaranan fərq isə idxal zamanı əldə olunan rüsum və bütün əmtəəlik məhsullara tətbiq olunan dolayı vergilər hesabına ödənilir. İdxal həm də kvotalar və tarif dərəcələri ilə məhdudlaşdırılır. Bu ölkələrdə dövlət aqrar sahənin inkişafını hər vasitə ilə stimullaşdırır və qiymətləri tənzimləyir. Kənd təsərrüfatı məhsullarının və ərzaq mallarının qiymətinin yuxarı və aşağı həddini dövlət özü müəyyən edir. Qiymətlər üzərində dövlətin müəyyən dövr ərzində nəzarətinin olması vacibdir. Bu proses sahibkarlığın yardım istiqamətlərində ən mühüm tədbirlərdən biri sayılır.

Bazar münasibətlərinin müasir inkişafı şəraitində ölkənin sosial-iqtisadi yüksəlişinin təmin edilməsi və əhalinin həyat şəraitinin yaxşılaşdırılması aqrar sferanın inkişafı ilə bağlıdır. Aqrar sferanın inkişafı isə müasir dövrün tələblərinə tam cavab verən tədbirlərin tətbiqindən asılıdır.

Aqrar sferanın inkişafına dair həyata keçirilən tədbirlərin başlıca istiqaməti sahibkarlığın formalaşdırılması və onların səmərəli fəaliyyət göstərməsinin təmin edilməsidir.Bunların nəticəsidir ki, hazırda çoxlu sayda sahibkarlıq formaları yaradılmış, onlar bütün istehsal sahələrini əhatə etməklə bütün regionlarda uğurla fəaliyyət göstərir, məhsul istehsalının artırılmasında və əhalinin həyat şəraitinin yaxşılaşdırılmasında həlledici rol oynayırlar.

Aqrar sferada fəaliyyət göstərən sahibkarlıq subyekti olan torpaq mülkiyyətçisinin istehsal etdiyi məhsul ilk növbədə ərzaq məhsuludur. Həmin məhsulun istehsalçıları bütün mərhələlərdə yəni əkin və ya səpində sahələrin becərilməsi və məhsul yığımı mərhələlərində aqrotexniki qaydalara və təcrübədə özünü doğrultmuş texnologiyalara tam riayət etməlidirlər [4, s. 51].

Aqrar təsərrüfat qurumlarının rəhbərləri istehsal etdikləri məhsullara olan tələb və təklifin mövcudluğunu bilməli, onların harada və hansı qiymətlərlə satırılmasının uyğunluğu haqqında informasiya ilə təmin edilməlidirlər.

Aqrar sahibkarlığın inkişafi və kənd təsərrüfatı istehsalının artırılması ilə bağlı tədbirlər davam edir. Ökəmizdə aqrar siyasətin tərkib hissəsi olaraq “Kənd təsərrüfatı məhsulları istehsalçılarının toxum, gübrə və damazlıq heyvanlar ilə təmin edilməsinə əlavə dəstək verilməsi barədə” Sərəncam verilmişdir. Bu sərəcamda ölkədə kənd təsərrüfatı məhsulları istehsalını daha da artırmaq, məhsul istehsalçılarının buğda toxumu və mineral gübrələrlə təminatını yaxşılaşdırmaq, habelə damazlıq heyvandarlığı inkişaf etdirmək əsas məqsəd kimi qarşıya qoyulur.

Bütün bunlar kənd təsərrüfatı məhsullarının istehsalının artmasına ciddi təsir göstərir.

Aqrar sahibkarlığın inkişafına dair həyata keçirilən tədbirlər, onların fəaliyyətinin nizamlanmasına və düzgün istiqamətləndirilməsinə dair qəbul edilmiş qanun və sərəncamlar, təsdiq edilmiş qərarlar, irəli sürülən təkliflər məhsul istehsalının artmasına və iqtisadi səmərəliliyin yük-

səldilməsinə real imkanlar açmış və əlverişli şərait yaratmışdır.Bütün bunlar aqrar sahibkarlıq formalarında maddi-texniki resurslardan, maliyyə vəsaitlərindən səmərəli istifadə olunmasına marağın artmasını təmin etmiş, sosial şərait xeyli yaxşılaşmış, əsas növ bitkiçilik və heyvandarlıq məhsulları istehsalı artmış, itkilərin qarşısı alınmış, səmərəlilik əhəmiyyətli dərəcədə yüksəlmişdir. [5, s. 33-34]

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2003-cü il tarixli Fərmanı.
2. "Azərbaycan Respublikası regionlarının 2008-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" 14 aprel 2009.
3. Abbasov L.D. Azərbaycan kənd təsərrüfatı. 2010.
4. Aqrar-sənaye müəssisələrinin iqtisadiyyatı və idarə olunması. 2003.
5. Regional iqtisadi siyasət və kooperasiya münasibətlərinin inkişafı. Bakı, 2014.

Хавар Абдулмаджид кызы Гусейнова
ст. пред. АУК

Основные пути развития аграрного предпринимательства

Резюме

Развитие аграрного предпринимательства и его построение соответствует требованиями современной, новой экономической системы. Развитие аграрной сферы оказывает сильное влияние на обеспечение социально-экономического подъема страны. Для развития аграрной сферы постоянно реализуются значительные мероприятия. В нашей стране реформы проведены с успехом, уже сформировано аграрное предпринимательство, экономический механизм построен заново. В данное время реализуются значимые мероприятия для интенсивного развития аграрного предпринимательства. В результате этого растет производство продукции и повышается экономическая эффективность.

Ключевые слова: аграрное предпринимательство, прибыль, мероприятия, сфера, производство.

Khaver Abdulmajid Guseynova
head teacher of ACU

The main developing ways of agrarian ownership

Summary

The development of agrarian ownership, its establishment on the conditions of modern economic system depends on reasonable improvement of ownership actinty the development of ownership actinty.The development of agrarian sphere influences on the social-economic improvement of the country .In the country main actions for agrarian sphere development are always hold.The agrarian reforms have been carried successfully, agrarian ownership has been formed.The economic mechanism has been reformed.At present the main actions coneerning agrarian ownership and its intensive development are pernformed, and as a result the production is growing, economic efficiency is increasing.

Key words: agrarian ownership, benefit, actions.

Yasin Qaibqulu oğlu GÖZƏLOV
Zootexniki və biokimyəvi tədqiqatlar laboratoriyasının müdiri,
Heyvandarlıq Elmi Tədqiqat İnstitutu
Göygöl rayonu, Firuzabad qəsəbəsi

HEYDƏR ƏLİYEV SİYASƏTİ VƏ TORPAQ İSLAHATLARI

Xülasə

Azərbaycan Xalq Cümhuriyyətinin xalqımızın dövlətçilik və ictimai-siyasi fikir tarixində rolu misilsizdir. Azərbaycan Xalq Cümhuriyyəti sübut etdi ki, Azərbaycan xalqı müstəqil yaşamağa, öz dövlətçilik ənənələrini bərpa etməyə qadirdir. Azərbaycan xalqı 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Xalq Cümhuriyyətinin ideallarını davam etdirərək bu tarixi varislik üzərində yeni müstəqil Azərbaycan dövlətini yaratmışdır.

Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan Respublikasında aqrar islahatlar və onların mühüm tərkib hissəsi olan torpaq islahatları aparıldı, kənd təsərrüfatının inkişafı, kənd təsərrüfatı məhsulları istehsalı artırıldı, istehsalçıların maddi rifah halı yüksəldildi, istehsal şəraiti yaxşılaşdırıldı, uzun əsrlərdən bəri Azərbaycan əkinçisinin torpaq mülkiyyətçisi olması arzusu nəhayət reallaşdı, o cümlədən torpağa münasibətdə tarixi ədalət bərpa edilərək torpaqlar pulsuz olaraq kəndliyə verildi və yeni torpaq əkinçi münasibətlərinin formalaşması üçün real şərait yaradıldı. Azərbaycanda 850 mindən artıq ailə torpaq mülkiyyətçisinə çevrilmişdir.

Açar sözlər: Azərbaycan Xalq Cümhuriyyəti, Heydər Əliyev siyasəti, kənd təsərrüfatı, aqrar sahə, torpaq islahatı, torpaq mülkiyyəti, məhsul istehsalı.

***

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması Azərbaycan xalqının həyatına böyük və əlamətdar hadisə kimi əbədi daxil olmuşdur. Həmin tarix Respublika günü kimi təntənə ilə qeyd edilir. 1918-ci il mayın 27-də Müsəlman Fraksiyasının, yəni Zaqafqaziya müsəlman şurasının (Zaqafqaziya müsəlman parlamentinin) üzvləri iclas keçirmiş və Zaqafqaziya müsəlman şurası özünü Azərbaycan Milli Şurası, daha doğrusu, Azərbaycan Parlamenti elan etdi. Bununla, əslində Azərbaycanın tarixində ilk parlament yarandı və ilk parlamentli respublikanın bünövrəsi qoyuldu. Həmin iclasda Azərbaycan Milli Şurasının rəyasət heyəti və sədri seçildi. Məmməd Əmin Rəsulzadə Milli Şuranın sədri oldu. Mayın 28-də Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli Şurasının tarixi iclası keçirildi. İclasda iştirak edən Həsən bəy Ağayev (sədr), Mustafa Mahmudov (katib), Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Yusifbəyli, Mir Hidayət Seyidov, Nəriman bəy Nərimanbəyov, Heybət Qulu Məmmədbəyov, Mehdi bəy Hacinski, Əli Əskər bəy Mahmudbəyov, Asian bəy Qardaşov, Sultan Məcid Qənizadə, Əkbər Ağa Şeyxülislamov, Mehdi bəy Hacıbababəyov, Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlik-Aslanov, Rəhim bəy Vəkilov, Həmid bəy Şahtaxtinski, Firudun bəy Köçərlinski, Camo bəy Hacınski, Şəfi bəy Rüstəmbəyov, Xosrov Paşa bəy Sultanov, Cəfər Axundov, Məhəmməd Məhərrəmov, Cavad Məlik-Yeqanov və Hacı Molla Səlim Axundzadə Azərbaycanın **İSTİQLAL BƏYANNAMƏSİNİ** qəbul etdilər. Azərbaycan Milli Şurası həmin iclasında, eyni zamanda, bitərəf Fətəli xan Xoyskinin başçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin ilk Müvəqqəti hökumətinin tərkibini də təsdiq etdi. İlk Müvəqqəti hökumət bu tərkibdə idi: Fətəli xan Xoyski - Nazirlər Şurasının sədri və daxili işlər naziri; Xosrov Paşa bəy Sultanov - hərbi nazir; Məmməd Həsən Hacınski - xarici işlər naziri; Nəsib bəy Yusifbəyli - maliyyə naziri və xalq maarifi naziri; Xəlil bəy Xasməmmədov - ədliyyə naziri; Məmməd Yusif Cəfərov - ticarət və sənaye naziri; Əkbər Ağa Şeyxülislamov - əkinçilik naziri və əmək naziri; Xudadat bəy Məlik-Aslanov - yollar naziri və poçt-teleqraf naziri; Camo bəy Hacınski - dövlət nəzarətçisi [1, s. 28].

AXC hökumətinin aqrar məsələnin həlli yönümündə atdığı addımlardan biri - Torpaq Nazirliyində 1919-cu il 6 iyun tarixində "Aqrar İslahat Şöbəsi"nin təsis edilməsidir. Şöbənin vəzifəsi torpaq islahatına hazırlığın yerinə yetirilməsi və dərindən tədqiq edilməsindən, eləcə də höku-

mətin qanunvericiliyə uyğun fikirlərinin, gələcəkdə isə torpaq islahatının həyata keçirilməsində rəhbərliyin irəli sürdüyü bütün işləri həyata keçirməkdən ibarət idi.

Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdə, ümumiyyətlə 155 parlament iclası keçirilmişdir ki, bunun da 10-u Azərbaycan Milli Şurasının (27 may-19 noyabr 1918-ci il), 145-i isə Azərbaycan Parlamentinin fəaliyyət göstərdiyi dövrdə (7 dekabr 1918-ci il - 27 aprel 1920-ci il) olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin xalqımızın dövlətçilik və ictimai-siyasi fikir tarixində rolu misilsizdir. Cəmi 23 ay yaşamasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti sübut etdi ki, Azərbaycan xalqı müstəqil yaşamağa, öz dövlətçilik ənənələrini bərpa etməyə qadirdir.

Azərbaycan xalqı 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Xalq Cümhuriyyətinin ideallarını davam etdirərək bu tarixi varislik üzərində yeni müstəqil Azərbaycan dövlətini yaratmışdır [2, s. 4].

Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının rəhbəri kimi ikinci dəfə hakimiyyətə qayıdışından sonra aqrar sahənin mövcud problemləri ilə dərindən məşğul olmağa başlayaraq, bu sahənin böhrandan çıxarılması yolunun ancaq aqrar islahatların aparılmasında olduğunu bir daha müəyyən etdi.

Torpaq islahatları 3 mərhələdə aparıldı.

1. Azərbaycanda torpaqlar məhz onun təşəbbüsü ilə vətəndaşlara pulsuz olaraq əvəzsiz verildi. Nəticədə 3 milyon 500 minə qədər insan torpaq mülkiyyətçisinə çevrildi. Bu isə yeni, güclü mülkiyyətçilər sinfi yaratmaqla, yeni torpaq əkinçi münasibətləri formalaşdıraraq, torpaqdan səmərəli və məhsuldar istifadəetməni şərtləndirdi, torpağa qayğı və doğma münasibəti zəruri etdi.

2. Torpaqların ən yararlısı və keyfiyyətlisi özəlləşdirildi. Başqa sözlə, MDB məkanının digər ölkələrindən fərqli olaraq vətəndaşa yararsız və ya az yararlı torpaqlar deyil, keçmiş kolxoz və sovxozların ən yararlı və münbit torpaqları verildi. Eyni zamanda Azərbaycan Respublikasının fiziki və hüquqi şəxslərinə öz mülkiyyətlərindəki torpaq sahələri üzərində müstəsna hüquqlar, alqı-satqı, bağışlama, icarəyə və ya istifadəyə vermə, vərəsəlik, girov qoyma və s. kimi hüquqlar verdi ki, bu da Azərbaycanda torpaq islahatlarının keçmiş SSRİ-nin digər respublikalarında olduğu kimi formal deyil, əsaslı zəmində və fundamental şəkildə həyata keçirildiyini sübut etdi.

3. Respublikamızın ərazisində yaşayan bütün vətəndaşlara harada yaşamasından və kimliyindən asılı olmayaraq torpaqlardan istifadə və icarə hüququ verildi, eyni zamanda Azərbaycanın hər bir vətəndaşı torpaq alqı-satqısı prosesində iştirak etmək hüququ əldə etdi. Yəni, hər bir Azərbaycan vətəndaşı respublikamızda formalaşan torpaqla bağlı yeni mülkiyyət münasibətlərində birbaşa iştirakçı olma hüququ qazandı [3, s. 5].

Torpaq islahatları zamanı respublikamızda mövcud olmuş 2032 təsərrüfat, yəni kolxoz və sovxozlar ləğv edilərək, onların əkinə yararlı münbit torpaqları əhaliyə paylandı. Hər bir subyektə verilən torpaq onlara mülkiyyət hüququnu təsdiq edən hüquqi sənəd, dövlət aktları ilə rəsmiləşdirilərək, naturada sahiblərinə tanıdılmışdır. Bu mərhələdə ölkəmizdə torpaq payı almaq hüququ olan 873 618 ailədən 869 268-nə torpaq payı verilmişdir. Bu isə 3 442 778 subyekt deməkdir. Nəticədə, ölkəmizdə torpaq islahatı 99,5% yerinə yetirilmişdir [4, s. 3].

Heydər Əliyevin rəhbərliyi və təşkilatçılığı ilə aparılan torpaq islahatlarını, bu sahədə əldə edilən uğurları, nailiyyətləri belə qiymətləndirmək olar:

- bazar iqtisadiyyatına keçid və kənddə sahibkarlığın inkişafı üçün hüquqi-normativ baza yaradılmışdır;
- kənddə torpağın və mülkiyyətin sahibi kəndli olmuşdur, torpaqlar onun əbədi mülkiyyətinə verilmişdir;
- kənd təsərrüfatı sahəsində idarəetmə strukturları təkmilləşdirilmiş və bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılmışdır;
- nəhayət, kənd təsərrüfatı məhsulları istehsalı iqtisadiyyatın ən mühüm və aparıcı sahəsinə çevrilmişdir [5, s. 7].

Aparılan islahatlar, qəbul edilmiş hüquqi-normativ sənədlər, kənd təsərrüfatı məhsulları istehsalçılarının dövlət tərəfindən hərtərəfli dəstəklənməsi, əhalinin ərzaq məhsullarına artan tə-

ləbatının ödənilməsi ilə ərzaq təhlükəsizliyinin təmin edilməsi Heydər Əliyevin bu sahədə apardığı siyasətin nəticəsidir.

ƏDƏBİYYAT

1. R.S.Əliyev. Azərbaycan Demokratik Respublikasının yaranması, fəaliyyəti və süqutu. Dərs vəsaiti. Bakı:, Elm nəş., 2006, 130 s.
2. N.R.Məmmədov.Azərbaycan dövləti Xalq Cümhuriyyətinin varisidir. // Azərbaycan. 27 may 2007, s. 3-8.
3. azərbaijan.az/_Economy/_.../agriculture_03_a.html
4. www.yap.org.az/...heyder-eliyev-aqrar-islahatları-sosial-iqti...
5. www.e-qanun.az/framework/4207

Ясин Гаибгулу оглы Гёзалов
заведующий лаборатории зоотехнических и биохимических исследований
Научно-исследовательский институт животноводства
город Гёйгёль, посёлок Фирузабад

Политика Гейдара Алиева и земельные реформы

Резюме

Роль Азербайджанской Демократической Республики в истории нашей государственности и общественно-политической жизнь не имеет себе равных. Азербайджанская Демократическая Республика доказала, что народ Азербайджана способен самостоятельно жить и восстанавливать свои традиции государственности. После восстановления своей независимости в 1991 году азербайджанский народ, следуя идеалам Азербайджанской Демократической Республики, создал новое независимое государство.

Под руководством Гейдара Алиева в Азербайджанской Республике были проведены аграрные реформы и одним из них является земельные реформы. После этих реформ увеличилось производство сельскохозяйственной продукции усилились темпы развития сельского хозяйства, наметились улучшения в материальном состоянии производителей, реализовалась многовековая мечта азербайджанского земледельца стать собственником земли. Была восстановлена историческая справедливость в отношении земли - она была безвозмездно передана сельским жителям, и возникли реальные условия для формирования нового отношения земледельца к земле. В Азербайджане свыше 850 тысяч семей стали собственников земли.

Ключевые слова: Азербайджанская Демократическая Республика, политика Гейдара Алиева, сельское хозяйство, аграрный сектор, земельная реформа, земельная собственность, производимый продукт.

Yasin Gaibgulu Gozalov
head of Laboratory of Zootechnical and Biochemical Research,
Livestock Scientific Research Institute
Goygol city, Firuzabad settlement

Heydar Aliyev`s policy and land reform

Summary

The role of the Azerbaijan Democratic Republic in the history of the state and the social-political life of the country. The Azerbaijan Democratic Republic reiterated that the Azerbaijani people were able to indulge in self-sacrificing and reviving traditions of the state. After the resurg-

ence of the indifference of the Azerbaijani population in 1991, the ideals of the Democratic People 's Republic of Azerbaijan became the basis of the new undisputed state.

Under the leadership of Heydar Aliyev in Azerbaijan were held agrarian reform and one of them is land reform. Following these reforms, increased agricultural production have increased the pace of development of agriculture, there have been improvements in the material condition manufacturers realized the centuries-old dream of the Azerbaijani farmer to become the owner of the land. Historical justice in relation to land was restored - it was donated to the villagers, and any real conditions for the formation of a new attitude of the farmer to the ground. In Azerbaijan, more than 850 thousand families have become owners of the land.

Key words: Azerbaijan Democratic Republic, Heydar Aliyev's policy, agriculture, the agricultural sector, land reform, land ownership, produced product.

Orxan Çərkəz oğlu YUSUBOV
Azərbaycan Kooperasiya Universitetinin doktorantı

AQRAR SAHƏNİN İNKİŞAFINDA VALYUTA MƏZƏNNƏSİNİN ROLU

Xülasə

Məqalədə valyutanın məzənnəsinin iqtisadi inkişafda həlledici faktorlardan biri olduğu vurğulanır. Göstərilir ki, valyutanın ucuzlaşması idxalı bahalaşdırır ki, bu da ölkədə qiymətlərin artmasını, mal ixracının və istehlakının azalmasını, yaxud idxalı əvəz edən sahələrin inkişafını stimullaşdırır. Valyuta məzənnəsinin aşağı düşməsi milli valyuta ilə borcların real məbləğini azaldır, xarici valyutada ifadə olunmuş xarici borcların yükünü ağırlaşdırır. Ölkədə mənfəət, faiz, divident şəklində xarici investorların gəlirlərinin xaricə aparılmasının əlverişsiz olduğu göstərilir.

Açar sözlər: valyuta, kənd təsərrüfatı, məzənnə, dünya bazarı, ehtiyat norması, açıq bazar əməliyyatı və s.

***

Məlum olduğu kimi, stabil iqtisadi inkişafın dayanıqlı təmin edilməsində valyuta məzənnəsinin stabil olması böyük əhəmiyyət kəsb edir. Adətən valyuta məzənnəsi hər hansı bir xarici valyutanın milli pul vahidi ilə qiyməti olsa da, valyuta məzənnəsi spesifik xarakterə malik pul kateqoriyasıdır. Bu baxımdan valyuta milli iqtisadiyyatla dünya iqtisadiyyatı arasındakı qarşılıqlı əlaqəni ifadə edir. Valyuta məzənnəsi beynəlxalq tədavül sferasının elementlərindən biridir. Beynəlxalq iqtisadi əlaqələr həyata keçirilərkən iki növ qiymətlər (daxili və xarici) müqayisə edilir. Birincisi, malların müxtəlif milli dəyərləri əsasında formalaşır. İkincisi, onların beynəlxalq dəyərləri əsasında yaranır. Ayrı-ayrı ölkələrin malları beynəlxalq dövriyyəyə daxil olduqda, sanki öz üzərindən milli qiymətləri atır və əksər hallarda dünya bazarı qiyməti ilə satılır. Valyuta məzənnəsi milli əmtəə dəyərlərinin ölçüsü rolunu bilavasitə deyil, dolayı şəkildə - milli pul vahidlərinin müqayisə olunması vasitəsilə oynayır. Valyuta məzənnəsində qiymət, əmək məhsuldarlığı, əmək haqqı, istehsal xərcləri, iqtisadi inkişaf sürəti və s. iqtisadi kateqoriyalarda əksini tapır.

Milli və dünya bazarlarının dəyər göstəriciləri arasında əlaqə yaradan bir alət rolunu oynayan valyuta məzənnəsi beynəlxalq iqtisadi münasibətlərdə və geniş təkrar istehsalda fəal iştirak edir. Valyuta məzənnəsi ixrac və idxal qiymətləri nisbətinə, firmaların rəqabət qabiliyyətinə, müəssisələrin mənfəətinə müəyyən təsir göstərir.

Valyuta məzənnəsinin aşağı düşməsi onu göstərir ki, xarici valyutaya çevrilərkən müəyyən məbləğ milli valyuta indi əvvəlkinə nisbətən az miqdarda xarici valyutanı ifadə edir və əksinə, hər vahid xarici valyutaya daha çox yerli valyuta əldə etmək olar. Bu halda xarici ixracatçı öz valyutasında əvvəlki məbləği əldə etmək üçün malın bu ölkə valyutası ilə ixrac qiymətini artırmağa məcbur olur. Bu, ixraca gedən malın bütün istehsal xərclərinin ödənilməsi və müəyyən mənfəət əldə edilməsi zəruriliyi ilə əlaqədardır. Lakin ixrac qiymətlərinin belə qaldırılması həmin malın ixrac miqdarının azalmasına səbəb olur. Çünki bir tərəfdən həmin malın yerli istehsalçıları arasında rəqabət artır, digər tərəfdən isə yerli əvəzedici malların istehlakına keçilməsi

ehtimalı yaranır. Eyni zamanda ixrac qiymətlərinin lazımi qədər artırıla bilməməsi həmin malın bu ölkəyə satılmasını qeyri-rentabelli edir.

Milli valyutanın ucuzlaşması eyni zamanda idxalı bahalaşdırır ki, bu da ölkədə qiymətlərin artmasını, mal ixracının və istehlakının azalmasını, yaxud idxalı əvəz edən sahələrin inkişafını stimullaşdırır. Valyuta məzənnəsinin aşağı düşməsi milli valyuta ilə borcların real məbləğini azaldır, xarici valyutada ifadə olunmuş xarici borcların yükünü ağırlaşdırır. Ölkədə mənfəət, faiz, divident şəklində xarici investorların gəlirlərinin xaricə aparılması əlverişsiz olur.

Eyni zamanda valyutası ucuzlaşan ölkədə ixracın artmasına stimul çoxalır. Çünki xaricdə mal satışından əldə edilmiş eyni miqdar xarici ödəmə vasitələri dəyişdirilərkən, indi xarici valyuta ilə ifadə olunmuş daha çox məbləğ əldə etmək mümkündür. Beləliklə, ixracatçılar öz valyutaları qiymətdən düşdükdən sonra malları xaricdə rəqabət qabiliyyətli dünya qiymətləri ilə valyutada lazım olan mənfəəti əldə edərlər. Valyuta bahalaşdıqda əks mənzərə yaranır.

Valyuta məzənnəsi yüksəldikdə daxili qiymətlərin rəqabət gücü azalır, ixracın səmərəliliyi azalır. Bunlar isə ixrac sahələri və milli istehsalın bütövlükdə azalmasına gətirib çıxara bilər. İdxal isə əksinə, genişlənir. Ölkəyə xarici və milli kapitalın axını təşviq edilir, xarici investisiyalar üzrə mənfəətin xaricə aparılması artır. Xarici valyuta ilə ifadə olunmuş xarici borcların real məbləği azalır.

Valyutanın xarici və daxili ucuzlaşması, yəni onun məzənnəsi ilə alıcılıq qabiliyyəti arasında fərq beynəlxalq iqtisadi münasibətlər üçün mühüm əhəmiyyətə malikdir. Əgər pulun daxili inflyasiya xarakterli qiymətdən düşməsi valyuta məzənnəsinin azalmasından sürətlidirsə, digər eyni şərtlər daxilində mal idxalı təşviq edilir. Əgər inflyasiya nəticəsində valyutanın xarici alıcılıq qabiliyyəti onun daxili alıcılıq qabiliyyətindən sürətlə aşağı düşürsə, xarici rəqiblərin bazardan sıxışdırılıb çıxarılması məqsədilə valyuta dempinqi, yəni malların orta dünya qiymətlərindən ucuz qiymətlərlə kütləvi ixracı üçün şərait yaranır.

Beləliklə, valyuta məzənnəsinin dəyişməsi ümumi milli məhsulun xarici bazarlarda satılan hissəsinin ölkələr arasında yenidən bölüşdürülməsinə təsir edir.

Bu gün dünyada bütün ölkələr tərəfindən mənimsənilən, konvensiyalarla qurulmuş, eyni kurs sisteminə görə bir beynəlxalq valyuta sistemi yoxdur. Bunun əvəzinə sabit kurs sistemindən üzən kurs sisteminə qədər dəyişə bilən və ölkələrin özləri tərəfindən seçilən fərqli sistemlər vardır.

Bir ölkənin pulunun xarici ölkənin pulundan asılı olmasında təməl faktor - o ölkənin inflyasiya nisbətidir. Başqa bir sözlə, o ölkə pulunun dəyəri də üçüncü ölkələr qarşısında, asılı olduğu ölkənin inflyasiya nisbətinə görə dəyişir. Məhz buna görə, bəzi ölkələr dəyəri daha sabit saxlamaq üçün pullarını müxtəlif ölkələrin valyutalarının qarışığından meydana gələn «pul səbətlərinə» və ya birləşmiş valyutalara bağlayırlar.

Məlum olduğu kimi, əksər ölkələrdə valyutanın tənzimlənməsini Mərkəzi Bank həyata keçirir. Mərkəzi Bank vlayutanın məzənnəsini (kursu) müəyyənləşdirir və qiymətlin sabitlyinə çalışır, dövriyyədə kağız pulların həcmini artırıb-azaltmaqla iqtisadiyyata təsir edir.

Ümumiyyətlə, Mərkəzi Bank pul kütləsini tənzimləmək üçün üç siyasətdən istifadə edir:

- açıq bazar əməliyyatı;
- ehtiyyat normasının dəyişdirilməsi siyasəti;
- faiz dərəcəsinin dəyişdirilməsi siyasəti.

Mərkəzi Bank açıq bazar əməliyyatı vasitəsilə yəni tədavüldə pul azlıq təşkil edərsə, Mərkəzi Bank dövlət istiqrazlarını və kommersiya banklarının qiymətli kağızlarını almaqla tədavülə əlavə pul buraxır. Əgər tədavüldə pul artıqlıq təşkil edərsə, Mərkəzi Bank dövlət istiqrazlarını və kommersiya banklarının qiymətli kağızlarını satmaqla tədavüldəki artıq pulu yığır. Digər tərəfdən məlumdur ki, kommersiya banklarının hər birinin Mərkəzi Bankda ehtiyat norması olur. Bu ehtiyat normasını dəyişməklə iqtisadiyyatda aktivlik yarada bilir. Son faiz dərəcələri adlanan siyasət vasitəsilə Mərkəzi banklar banklara satdıqları pulların faiz dərəcəsini aşağı salmaqla təsir edə bilir.

Hər milli valyuta digər valyutalara nisbətən pul dəyərinə malikdir ki, buna valyuta kursunun (məzənnəsinin) təyin edilməsi, ticarət əməliyyatları həyata keçirmək üçün, dünya bazar qiymət-

ləri ilə daxili milli bazar qiymətlərini müqayisə etmək üçün, müəssisə və təşkilatların hesablarının xarici valyutada yenidən qiymətləndirilməsi üçün vacib sayılır. Bazar iqtisadiyyatında dövlət tərəfindən həyata keçirilən belə tənzimləmələr valyuta siyasətində əks olunur. Valyuta siyasətinin 2 forması mövcuddur:

1) Sturuktur valyuta siyasəti - Dünya valyuta sistemində sturuktur dəyişikliklərin həyata keçirilməsinə yönəldilən uzunmüddətli tədbirlər məcmusudur. O, valyuta islahatları formasında reallaşdırılır.

2) Cari valyuta siyasəti - Bu, operativ olaraq valyuta məzənnəsinin tənzimlənməsinə, gündəlik valyuta əməliyyatlarının, valyuta bazarının və qızıl bazarının tənzimlənməsinə yönəldilən qısamüddətli tədbirlər məcmusudur.

Pul-kredit siyasəti yalnız makromaliyyə sabitliyi naminə deyil, istehsalın canlandırılması və sağlamlaşdırılmasına və bütövlükdə iqtisadi konyunkturanın yaxşılaşdırılmasına kömək etməlidir. Manatın sabitliyinin və inflyasiyanın cilovlanmasını təmin edən sərt pul-kredit siyasəti elə aparılmalıdır ki, bu siyasətin iqtisadiyyata olan mənfi təsirini minimuma endirmək mümkün olsun. Bu gün iqtisadi islahatları uğurla aparmaq üçün sabit manat və inflyasiyanın aşağı olması vacibdir. Buna nail olmaq üçün möhkəm iqtisadiyyata söykənən əsl maliyyə sabitliyi olan mikromaliyyə sabitliyinin yaradılması zəruridir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının «Banklar haqqında» Qanunu. Bakı şəhəri, 16 yanvar 2004-cü il.
2. Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında. Bakı şəhəri, 10 dekabr 2004-cü il.
3. Bəşirov R.A. Bank işi. Bakı-2007.
4. Zahid Məmmədov. Bank fəaliyyətinin əsasları. Bakı-2013.
5. Ceyhun İsmayilov. Bank işi. Bakı-2015.
6. Q.C.İmanov, Y.H.Həsənli. "Azərbaycanın sosial-iqtisadi inkişafının modelləri (makroiqtisadi təhlil)", Bakı, "Elm", 2001.

Faruq Həmzə oğlu ZİYADOV
Azərbaycan Kooperasiya Universitetinin doktorantı

MÜASİR DÖVRDƏ AQRAR-EMAL MÜƏSSİSƏLƏRİNİN İNVESTİSİYA MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ PROBLEMLƏRİ

Xülasə

Müasir dövrdə aqrar-emal müəssisələrinin investisiya mexanizmlərinin təkmilləşdirilməsi problemləri araşdırılmışdır. Bunun üçün ölkəmizdə aqrar-emal müəssisələrinin əsas xammal bazası olan kənd təsərrüfatı məhsullarının istehsalı üçün resurs potensialı təhlil edilmişdir. Bir çox mühüm kənd təsərrüfatı məhsullarının istehsalı dinamikası və həcminə baxılmışdır. Aqrar-emal müəssisələrinin investisiya mexanizmlərinin inkişafını ləngidən problemlərə toxunulmuşdur və onların mahiyyəti açıqlanmışdır. Aqrar-emal müəssisələrinin investisiya mexanizmlərinin təkmilləşdirilməsi məqsədi ilə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

Açar sözlər: aqrar-emal müəssisələri, investisiya mexanizmləri, investisiya fəaliyyəti, investisiya cəlbediciliyi, aqrar-emal müəssisələrinin investisiya cəlbediciliyi problemləri, aqrar-emal müəssisələrinin investisiya mexanizmlərinin təkmilləşdirilməsi.

***

Müasir dövrdə aqrar-emal müəssisələrinin fəaliyyətinin gücləndirilməsi və aqrar sektorda tarazlı inkişafın təmin edilməsi vacib şərtlərdəndir. Hər bir ölkənin iqtisadi və xüsusi ilə ərzaq təhlükəsizliyi problemlərinin həllində aqrar sektorun və onun aqrar-sənaye kompleksinin mühüm rolu vardır. Ölkədə vacib qida məhsullarının və gündəlik tələb olunan ərzaqların istehsalının təşkili, tələb olunan səviyyədə ehtiyatların yaradılması bu istiqamətdə dövlət siyasətinin təkmilləşdirilməsini tələb edir. Dünya təcrübəsində kənd təsərrüfatının inkişaf persperktivləri və bununla əla-

qədar strateji hədəflər aqrar-emal müəssisələrinin inkişaf etdirilməsi ilə bilavasitə bağlıdır. Bu kateqoriyadan olan müəssisələrin inkişafının təmin edilməsi kənd təsərrüfatı məhsullarının emalı, qablaşdırılması, ehtiyatların yaradılması, ixrac fəaliyyətinin genişləndirilməsi ilə əlaqədardır. Bunu üçün, şübhəsiz, aqrar-emal müəssisələrinin inkişaf etdirilməsinə investisiyaların yatırılması vacib şərtlərdəndir. Aqrar-emal müəssisələrinə investisiyaların yönəldilməsi və bu tip müəssisələrdə investisiya mexanizmlərinin təkmilləşdirilməsi tədbirlərinin həyata keçirilməsi müasir dövrdə kifayət qədər aktuallığı ilə fərqlənir. Belə ki, aqrar siyasət kənd təsərrüfatına investisiya qoyuluşlarının artırılmasını nəzərdə tutur. Bu sahəyə investisiyaların cəlb edilməsi iqtisadiyyatın diversifikasiyasının əsas şərtidir. Aqrar-sənaye kompleksinə kredit və investisiya qoyuluşlarının artırılması ilk növbədə, bu sahənin gəlirliliyinin təmin edilməsindən asılıdır [1].

Bundan əlavə, ölkəmizdə son illərdə aqrar sahənin modernləşdirilməsi, onun rəqabət qabiliyyətli müəssisələr şəbəkəsinin formalaşdırılması prosesləri sürətlənməkdədir. "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezdentinin 16 aprel 2014-cü il Fərmanının icrası ilə bağlı olaraq bu istiqamətdə əhəmiyyətli dəyişikliklər həyata keçirilməkdədir [2].


Ölkənin regionlarında bir-birinin ardınca aqrar komplekslər - aqroparklar yaradılmaqdadır və yaxın illərdə bu kimi aqroparkların sayının 47-yə çatdırılması gözlənilir. Bu və ya digər qəbildən olan kompleks və sistemli tədbirlərin reallaşdırılması aqrar sahənin investisiya cəlbediciliyinin artırılmasına və ölkəmizin mühüm ərzaq növləri üzrə idxaldan asılılığının minimuma endirilməsinə imkan verəcəkdir.

Qeyd edək ki, son illərdə qeyri-neft sektoru sahələrinin, xüsusi ilə aqrar sektorun fəaliyyətinin tənzimlənməsi məqsədi ilə institusional islahatlar dərinləşdirilməkdədir. Bu sahədə bir çox yeni modern müəssisələr - əvvəldə qeyd etdiyimiz kimi, aqroparklar, logistik mərkəzlər, süd və ət məhsulları kompleksləri, iri heyvandarlıq təsərrüfatları və kənd təsərrüfatı müəssisələri yaradılmaqdadır. Lakin, əsas problemlərdən biri bu tip müəssisələrə investisiya resurslarının cəlbedilməsi, başqa sözlə, ölkəmizdə aqrar-emal müəssisələrində investisiya cəlbediciliyinin artırılması problemlərini həll etmək lazımdır. Hazırda ölkəmizdə reallaşdırılan strateji xəritələr çərçivəsində aqrar-emal müəssisələrinin rəqabətqabiliyyətliliyinin gücləndirilməsi, onların yüksək standartlara malik, o cümlədən ixracyönlü məhsullar istehsal etmək imkanlarının artırılması üçün sistemli tədbirlər görülməkdədir.

Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə qeyd edilmişdir ki, ərzaqtəyinatlı emal sənayesi məhsullarının əksəriyyətinin istehsal həcmində əsaslı şəkildə artımın olması müqabilində, pambıq və ipək xammalı məhsullarının, habelə qarışıq yem və tütün məhsulları istehsalı kəskin şəkildə azalmışdır[3]. Məlumdur ki, bu sahələrin inkişaf etdirilməsi üçün ölkəmizdə kifayət qədər təbii və iqtisadi resurslar, o cümlədən əmək ehtiyatları mövcuddur. Amma, həmin sahələrə investisiyaların cəlbi problemlərinin həlli yollarının tapılması və bunlarla bağlı fəaliyyətin intensivləşdirilməsi aktual məsələlərdən biri kimi qalmaqdadır. Aqrar-emal müəssisələrinin potensialının yüksəldilməsi və investisiya cəlbediciliyinin təmin edilməsi üçün ölkəmizdə davamlı şəkildə kompleks tədbirlər görülmüşdür. Həmin istiqamətdə qanunvericilik bazası formalaşdırılmış və torpaq islahatları həyata keçirilmişdir. Bu islahatların reallaşdırılması aqrar islahatlar barəsində qanunvericilik aktının qəbul edilməsindən, yəni 1995-ci ildə «Aqrar islahatın əsasları haqqında» və 1996-cı ildə «Torpaq islahatı haqqında» Azərbaycan Respublikasının Qanunlarının qəbulundan sonra mümkün olmuşdur [4; 5]. Aqrar sahədə və torpaq islahatlarının keçirilməsi nəticəsində, ölkəmizdə kənd təsərrüfatına yararlı torpaqlardan istifadəyə yeni imkanlar açılmışdır.

Qeyd edək ki, bu qəbildən olan torpaqların ümumi sahəsi 4769,8 min hektardır, bundan kənd təsərrüfatının fəaliyyət-təsərrüfat dövriyyəsində 4572,9 min hektar istifadə olunur, eyni zamanda bu torpağın 1792,5 hektarı dövlət mülkiyyətində, 1113,5 min hektarı bələdiyyə mülkiyyətində və 1666,8 min hektarı isə xüsusi mülkiyyətdədir [6]. İslahatların gedişində ölkəmizdə 869,3 min yaxın ailəyə torpaq payı verilmiş və həmin torpaq sahələrinin ümumi ərazisi 1695 min hektara yaxın olmuşdur, bu isə ölkə üzrə əkinə yararlı torpaqların 20 %-ə yaxını deməkdir. Bundan əlavə, aqrar-

emal müəssisələrinin xammal bazasının gücləndirilməsi məqsədi ilə kənd təsərrüfatı məhsullarının istehsalının həcminin və çeşidinin artırılması istiqamətində təsirli tədbirlərin görülməsinə nail olunmuşdur. Kənd təsərrüfatı müəssisələri, fermer təsərrüfatları, aqrar sənaye kompleksində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər dövlət dəstəyi mexanizmləri ilə əhatə edilmiş, onların əlverişli şərtlərlə kredit təminatına çıxışlarına şərait yaradılmış, güzəştli şərtlərlə kənd təsərrüfatı texnikası və gübrələri verilmişdir. Orta və iri aqro-emal müəssisələrinin tikintisinə əlverişli şərtlərlə kreditlər ayrılmış və dövlət tərəfindən aqrar sektorun, həmçinin aqrar-emal sənaye kompleksinin inkişafına məqsədli şəkildə investisiyalar yatırılmış, əsaslı kapital qoyuluşu təmin edilmişdir. Məhz, bu kimi tədbirlərin nəticəsində 2011-2016-cı illər ərzində ölkəmizdə kənd təsərrüfatının ümumi məhsul istehsalı 25,1 % artmış və 2016-cı ilin yekununda 5,63 mlrd. manat səviyyəsində olmuşdur. Son illərdə aqrar-emal müəssisələrinə davamlı şəkildə investisiyaların yatırılması nəticəsində kənd təsərrüfatının iki mühüm sahəsinin - heyvandarlıq və bitkiçiliyin inkişafında yeni mərhələnin başlanmasını qeyd etmək mümkündür. Ölkəmizdə 2016-cı ilin yekunu üzrə kənd təsərrüfatı məhsulları istehsalının sahələr üzrə strukturu Şəkil 1-də verilmişdir.




Şəkil 1. Azərbaycanda 2016-cı ilin yekunu üzrə kənd təsərrüfatı məhsulları istehsalının sahələr üzrə strukturu, %-lə.

Qeyd: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır. http://www.azstat.org.

Digər tərəfdən, aqrar-emal müəssisələrinin fasiləsiz şəkildə xammalla təmin edilməsi davamlı olaraq heyvandarlıq və bitkiçiliyin yüksək texnologiyalar əsasında inkişafını şərtləndirir. Bunlar isə öz növbəsində, həmin sahələrə, həmçinin aqrar-emal müəssisələrinin özlərinə fəal sürətdə investisiyaların cəlbedilməsini tələb edir və bu baxımdan investisiya mexanizmlərinin təkmilləşdirilməsi, müasir dövrün tələblərinə uyğunlaşdırılması vacib məsələlərdəndir.


Şəkil 2-də Azərbaycanda 2016-cı ilin yekunu üzrə əsas kənd təsərrüfatı məhsullarının – aqrar-emal müəssisələrinin mühüm xammal növlərinin istehsal göstəriciləri verilmişdir.



Şəkil 2. Azərbaycanda 2016-cı ildə kənd təsərrüfatı məhsullarının ümumi yığımı, min ton.

Qeyd: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır. http://www.azstat.org.


Qeyd edək ki, 2017-ci il ərzində şəkil 2-də göstərilən əksər aqrar-emal müəssisələrinin mühüm xammal növləri üzrə istehsalın artımı qeydə alınmışdır, xüsusilə pambıqçılıq sahəsində artım yüksək olmuşdur və keçən il ümumi pambıq yığımı 207 mindən çox olmuşdur. Bütün bunlar həmin sahələrə dövlət dəstəyi mexanizmlərinin yüksək olması və investisiyaların yatırılmasının intensivləşdirilməsi nəticəsində mümkün olmuşdur. Şəkil 3-də isə ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalının təsərrüfat kateqoriyaları üzrə strukturu verilmişdir.



Şəkil. 3. Azərbaycanda 2016-cı il üzrə kənd təsərrüfatı məhsulları istehsalının təsərrüfat kateqoriyaları üzrə strukturu, %-lə.

Qeyd: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır. http://www.azstat.org.

Hesab edirik ki, yaxın perspektivdə kənd təsərrüfatı məhsullarının istehsalı və onların emalı ilə məşğul olan aqrar-emal müəssisələrinin inteqrativ əlaqələrinin yeni formalarının işlənib hazırlanması və daha məhsuldar fəaliyyət mühitinin yaradılması lazım gələcəkdir. Bu proseslərdə əsas mexanizmlərdən biri kimi investisiya mexanizminin çoxfunksiyalı xüsusiyyətlərindən maksimum səmərəli istifadə edilməsi vacib məsələlərdəndir. Belə ki, aqrar-emal müəssisələrinin investisiya cəlbediciliyi hazırda o qədər də yüksək deyildir və kommersiya bankları bu sahələrə, bu tip müəssisələrə kredit resursları yatırmağa ciddi həvəs göstərmirlər. Belə ki, sahənin risklilik səviyyəsi, həmçinin investisiya cəlbediciliyi problemləri yetərincə öyrənilməyib və obyektiv reallıqdan qiymətləndirilməmişdir. Şəkil 4-də ölkəmizin kommersiya banklarının iqtisadiyyata yönəltdiyi kredit resurslarının həcmi verilmişdir. Şəkil 4-dən göründüyü kimi 2017-ci ildə real iqtisadiyyata yönəldilən kredit resurslarının həcmi azalmışdır və bu tendensiya xeyli yüksəkdir. Bu baxımdan, aqrar – emal müəssisələrinə investisiyaların cəlbedilməsi mexanizmlərinin daha müasir modellərinin hazırlanması və reallaşdırılması zərurəti kifayət qədər güclü hiss olunur.



Şəkil 4. Azərbaycanda kommersiya banklarının iqtisadiyyata yönəltdiyi kredit resurslarının həcmi, mln. manat.

Qeyd: Azərbaycan Banklar Assosiasiyasının məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır. http://www.aba.az.

2016-cı il 14 iyunda qəbul olunmuş "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu bu istiqamətdə daha fəal və əhatəli tədbirlərin görülməsinə zəmin yaratmışdır [7]. Bir qrup tədqiqatçılar - R.A.Əsgərov, V.E. Süleymanov, T.T.Əbdülhəsənov, V.A.Qasımov, M.Güləliyev, R.Əliyev Azərbaycanda qeyri-neft sektoru sahələrinə, o cümlədən aqrar-emal müəssisələrinə investisiyaların cəlbi mexanizmlərinin təkmilləşdirilməsi mexanizmlərinə toxunmuşlar. R.A.Əsgərov belə hesab edir ki, xarici investisiyalar daha çox ixracyönümlü emal-sənaye sahələrinə cəlb olunmalıdır. Qeyri-neft sektoru sahələrinin investisiya mühiti yaxşılaşdırılmalı və xarici investorların bu sahələrə gəlməsi maraqları stimullaşdırılmalıdır [8, s. 26]. Bunun üçün emal-sənaye müəssisələrinə investisiyaların cəlbi mexanizmləri ölkə iqtisadiyyatının inkişaf təmayülünə uyğun təkmilləşdirilməli və bu istiqamətdə dövlət siyasətinin əsas mexanizmləri yenilənməlidir. Ölkə iqtisadiyyatının strukturunun optimallaşdırılması, onun yeni keyfiyyət xarakteristikası kəsb etməsi dövlətin səmərəli investisiya siyasətindən bilavasitə asılıdır [9, s.3]. Digər tərəfdən, aqrar sahəyə investisiyaların tələb olunan səviyyədə yönəldilməməsi son nəticədə bu sahənin müəssisələrinin rəqabətqabiliyyətliliyinin aşağı düşməməsinə səbəb olur. Buna görə də, ölkəmizdə neftqaz sektoru ilə yanaşı digər iqtisadiyyat sahələrinə, o cümlədən aqrar sektora - aqrar-emal müəssisələrinə investisiyaların məhsuldar cəlbi mexanizmləri tətbiq edilməlidir [10;11;12]. Ölkənin regionları və ayrı-ayrı rayonları üzrə aparılmış monitorinqin nəticələri göstərmişdir ki, aqrar-emal müəssisələrinin fəaliyyət göstərdiyi əksər ölkə rayonlarının investisiya reytinqi o qədər də yüksək deyildir [13]. Bu baxımdan, milli iqtisadiyyatın inkişafının modelləşdirilməsi, o cümlədən ayrı-ayrı iqtisadiyyat sahələrinin inkişafının təmin edilməsi üçün investisiya cəlbediciliyi tədbirləri görülməlidir [14].

Fikrimizcə, yaxın dövrlərdə aqrar-emal müəssisələrinin investisiya mexanizmlərinin təkmilləşdirməsi problemlərinin həlli üçün aşağıdakı məsələlərə daha ciddi önəm verilməlidir:

- Aqrar-emal müəssisələrinin xammal və digər resurs potensiallarından çıxış etməklə, uzunmüddətli dövrü əhatə edən investisiya strategiyası modeli işlənib hazırlanmalı və onun tətbiqinə nail olunmalıdır;
- Aqrar-emal müəssisələrinin istehsal və ixrac potensiallarına uyğun optimal investisiya proqramları və mexanizmləri dövriyyəyə cəlb edilməlidir;
- Ölkəmizin aqrar-emal müəssisələrinin investisiya mexanizmlərinin təkmilləşdirilməsi proseslərinə dünya səviyyəsində bu sahədə ixtisaslaşmış kompaniyaların, o cümlədən investisiya fondlarının və təşkilatlarının cəlbedilməsi təmin olunmalıdır və s.

ƏDƏBİYYAT

1. Aqrar sahədə Dövlət siyasətinin əsas vəzifələri. http://www.elibrary.az/
2. «Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər» Azərbaycan Respublikası Prezdentinin Fərmanı. Bakı şəhəri, 16 aprel 2014, №152.
3. «Azərbaycan Respublikası kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi» Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016.- 177 s.
4. «Aqrar islahatın əsasları haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı 1995.
5. «Torpaq islahatı haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 16 iyul 1996-cı il, № 155-IQ.
6. Azərbaycanın kənd təsərrüfatı. Statistik məcmuə. Bakı, 2017.- 608 s.
7. «Kənd təsərrüfatı kooperasiyası haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 14 iyun 2016-cı il .
8. Əsgərov R.A. Azərbaycanın qeyri-neft sektoruna investisiya qoyuluşu və onun tənzimlənməsi. İ.f.d. dissertasiyasının Avtoreferatı. Gəncə, 2016.-32 s.
9. Süleymanov V.E. Dövlətin investisiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi məsələləri. İ.f.d. dissertasiyasının Avtoreferatı. Bakı, 2009.-26 s.

10. Гюльалиев М., Алиев Р. Динамика и отраслевая структура иностранных инвестиций, направленных в экономику Азербайджана // Экономический Вестник Донбасса, №3 (41), 2015.-с. 67-74
11. Абдулагасанов Т.Т. Инвестиционный климат Азербайджанской Республики, как ключевой фактор развития сельского хозяйства // Журнал Экономика АПК, №12, 2014.-С. 97-102.
12. Гасымов В.А. Роль государственного регулирования инвестиционной деятельности в аграрном секторе Азербайджана // Международный технико-экономический журнал, Издательство: Учебно-методический центр «Триада» (Москва), №1, 2009.-С.- 16-19.
13. Rayonların investisiya reytinqi. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi. Bakı, 19 aprel 2017 il - 8 s. http://ecoreform.az
14. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt Dövlət Universiteti, 2018.-384 s.

Фаруг Гамза оглы Зиядов
докторант АУК

Проблемы совершенствования инвестиционных механизмов аграрно-обрабатывающих предприятий в современную эпоху

Резюме

Исследованы проблемы совершенствования инвестиционных механизмов предприятия агропереработки в современном периоде. Для этого анализировано ресурсный потенциал основных сырьевых баз предприятий агропереработки - производства сельскохозяйственных продукций. Рассмотрено динамика и объем производства ряд важных сельскохозяйственных продукций. Раскрыто сущность и причины проблема замедляющие развития инвестиционных механизмов предприятий агропереработки. Подготовлены рекомендации и даны предложения по совершенствованию инвестиционных механизмов предприятий агропереработки.

Ключевые слова: предприятия агропереработки, инвестиционные механизмы, инвестиционная деятельность, инвестиционная привлекательность, проблемы инвестиционной привлекательности предприятия агропереработки, совершенствование инвестиционного механизма предприятия агропереработки.

Farug Gamza Ziyadov
doctoral student of ACU

Problems of improving investment mechanisms of agrarian-processing enterprises in modern times

Summary

The problems of perfection of investment mechanisms of the agro-processing enterprise in the modern period are investigated. For this purpose, the resource potential of the main raw materials bases of agro processing enterprises - agricultural production was analyzed. The dynamics and volume of production of a number of important agricultural products are considered. The essence and causes of the problem are slowed down the development of investment mechanisms of agro processing enterprises. Recommendations were prepared and suggestions were made for improving the investment mechanisms of agro-processing enterprises.

Key words: enterprises of agro-processing, investment mechanisms, investment activity, investment attractiveness, problems of investment attractiveness of the agroprocessing enterprise, improvement of the investment mechanism of the agroprocessing enterprise.

Мелек Фазиль кызы Исмаилова
докторант НИУЦ по
Труду и Социальным Проблемам

ИННОВАЦИОННЫЙ ПОТЕНЦИАЛ РАБОТНИКОВ СЕЛА - КАК ФАКТОР РАЗВИТИЯ АГРАРНОГО СЕКТОРА АЗЕРБАЙДЖАНА

Резюме

В статье рассмотрены: роль и значение аграрного сектора в продовольственной и национальной безопасности страны, политика Азербайджана в области сельского хозяйства: основные тенденции, проблемы и новые перспективы. Особое внимание уделено значению формирования и развития инновационного потенциала работников села подъеме сельскохозяйственного производства, указаны основные проблемы и возможные пути решения.

Ключевые слова: ненефтяной сектор, инновационный потенциал работников села, интеллектуальное сельское хозяйство.

***

Правительство Азербайджана успешно проводит политику, направленную на диверсификацию экономики. Основное внимание при этом уделяется обеспечению опережающего развития ненефтяного сектора, повышению эффективности и конкурентоспособности экономики на инновационной основе. Одной из основных и приоритетных сфер ненефтяного сектора, обеспечивающего национальную продовольственную безопасность, политическую и экономическую стабильность, является развитие сельского хозяйства республики. В Азербайджане на правительственном уровне созданы благоприятные условия для развития данного сектора, приняты государственные программы по усилению государственной поддержки динамичного развития его традиционных отраслей - хлопководства, табаководства, шелководства. Согласно концепции развития «Азербайджан 2020: взгляд в будущее», утвержденной Президентом Азербайджанской Республики Ильхамом Алиевым от 29 декабря 2012 года, осуществлены дополнительные меры по созданию среды, еще больше поощряющей выделение частными банками и кредитными организациями средств в данный сектор, усовершенствован механизм страхования сельского хозяйства. Будет стимулироваться производство в стране экологически чистой сельскохозяйственной и продовольственной продукции. Улучшается обеспечение сельскохозяйственных производителей современной техникой, удобрениями, семенами и саженцами. Кроме того, предусмотрено дальнейшее улучшение научного обеспечения и подготовки кадров в аграрном секторе. [1]

Отметим, что по данным Госкомитета по статистике объем сельскохозяйственного производства в Азербайджане в январе-ноябре 2017 года составил 6 млрд 200,6 млн манатов, что на 4,2% выше показателя аналогичного периода прошлого года. В январе-ноябре 2017 года объем производства продукции в животноводстве составил 3 млрд 258,6 млн манатов, растениеводства - 2 млрд. 942 млн. манатов. Производство продукции растениеводства возросло на 5,9%. Урожай картофеля, по данным на 1 декабря, составил 889,4 тыс. тонн, т. е. возрос на 1,1%, овощей - 1 млн. 370,5 тыс. тонн (рост на 10,9%), фруктов и ягод - 923,7 тыс. тонн (рост на 5,4%), винограда - 145,8 тыс. тонн (рост на 8,4%), табака - 5,1 тыс. тонн (рост на 41%). В целом рост сельского хозяйства в 2017 году составило около 4%. [2]

Несомненно, что дальнейшее развитие аграрного сектора, повышение его конкурентоспособности на внутреннем и внешнем рынках в современных условиях модернизации экономики невозможно без обеспечения его инновативности, интеллектуальности путем применения таких новаций, как системы точного земледелия, компьютеризация и автоматизация производства, контроля качества работ и др. В условиях формирования интеллектуального сельского хозяйства повышается роль человеческого фактора в данном секто-

ре, требования к уровню образования, интеллектуальным способностям, креативным качествам, культурным потребностям работников села.

В условиях постоянного совершенствования техники и технологий современный работник сельского хозяйства должен уметь своевременно генерировать, развивать, а также применять новые идеи, технологии, продукты и претворять их в жизнь, совершенствовать свои знания и навыки. Инновативный человеческий фактор становится одним из важных аспектов устойчивого развития сельского хозяйства. В целях сохранения не только продовольственной, но и экономической безопасности страны формирование и развитие инновационного потенциала работников в аграрном секторе должно стать стратегической задачей государства.

Одной из основных проблем аграрного сектора остается то, что данный сектор пока еще малопривлекателен для молодежи. Ученики сельских школ, как и раньше, выбирают несельскохозяйственные учебные заведения, а в аграрное производство приходят те, которые имеют низкий уровень образования. Аграрные предприятия страны нуждаются в высокообразованных зоотехниках, агрономах и ветеринарах. Это, прежде всего, зависит от того, что уровень заработной платы в сельском хозяйстве сравнительно ниже, чем в других отраслях экономики. Государственный комитет по статистике обнародовал размер среднемесячной заработной платы по видам экономической деятельности, согласно которому меньше всех в 2017 году зарабатывали работники сферы сельского и лесного хозяйства - 208 манат 20 гепик в месяц (до выплаты налогов и отчислений социального страхования). Среднемесячная заработная плата в аграрном секторе с учетом частных предприятий составляет 264,6 манат. [3]

Инновационность сельского хозяйства обуславливает необходимость использования креативных, инициативных, высококвалифицированных работников, способных творчески относится к труду, поэтому стоимость человеческого капитала в сельском хозяйстве должна прирастать.

Нужно также пересмотреть систему подготовки и переподготовки кадров. В период инновационных технологий знания и навыки быстро устаревают. Аграрным организациям необходимо направлять на учебу выпускников школ, оплачивая при этом повышенную стипендию.

Государственная политика Азербайджана по развитию сельского хозяйства включает взаимодействие с международными организациями, использование передового опыта, совершенствование инфраструктуры и создание экономических институтов в рамках данного сотрудничества. Активное и успешное сотрудничество Азербайджана с международными организациями, такими как МВФ, Всемирный Банк, Продовольственная организация Объединенных Наций (FAO), Международный фонд сельскохозяйственного развития (IFAD), позволяет привлечь значительные инвестиции в проекты в области сельского хозяйства, а также положительно влияет на развитие инновационного потенциала работников села.

Значение сельского хозяйства для продовольственной и национальной безопасности страны неоспоримо. Правительство проводит политику активизации и подъема сельскохозяйственного производства. Основная миссия при этих условиях возлагается на сельскую молодежь и тех, кто намерен и способен связать свою жизнь с селом. Поэтому важным звеном аграрной политики государства является обеспечение аграрного сектора высококвалифицированными кадрами, подъем культурно-технического уровня, формирование и развитие инновационного потенциала работников села.

ЛИТЕРАТУРА

1. https://www.president.az/files/future_ru.pdf
2. http://ru.echo.az/?p=66132
3. https://www.azstat.org/MESearch/details

Mələk Fazil qızı İsmayılova
doktorant, Əmək və Sosial problemlər üzrə ETTM

Kənd təsərrüfatı işçilərinin innovativ potensialı Azərbaycanın aqrar sektorunun inkişafı faktoru kimi

Xülasə

Məqalədə ölkənin ərzaq və milli təhlükəsizliyində aqrar sektorun rolu və əhəmiyyəti, Azərbaycan dövlətinin kənd təsərrüfatı sahəsində siyasəti: əsas meyillər, problemlər və yeni perspektivlər araşdırılır. Kənd təsərrüfatı istehsalının inkişafında kənd işçilərinin innovasiya potensialının formalaşmasının və inkişafının vacibliyinə xüsusi diqqət yetirilir, əsas problemlər və mümkün həllər müəyyən edilir.

Açar sözlər: qeyri-neft sektoru, kənd işçilərinin innovativ potensialı, intellektual kənd təsərrüfatı.

Melek Fazil Ismayilova
doctoral candidate, scientific research and
Training Center on Labour and Social Problems

Innovatıve potentıal of village's workers - as a factor of development of agrarian sector of Azerbaıjan

Summary

The article examines: the role and importance of the agrarian sector in the country's food and national security, the policy of Azerbaijan in the field of agriculture: the main trends, problems and new perspectives. Particular attention is paid to the importance of the formation and development of the innovative potential of rural workers in the development of agricultural production, outlines the main problems and possible solutions.

Key words: non-oil sector, innovative potential of village workers, intellectual agriculture.

доктор экон. наук, профессор Х.З.МАХМУДОВ,
канд. экон. наук Ю.П.КАЛЮЖНАЯ,
канд. экон. наук А.П.ЗОРЯ,
Полтавская Государственная
Аграрная Академия, Украина, г. Полтава

КОНКУРЕНТОСПОСОБНОСТЬ КАК СОСТАВЛЯЮЩАЯ ЧАСТЬ ХОЗЯЙСТВЕННОГО МЕХАНИЗМА ПРЕДПРИЯТИЯ

1995-2015-ci illər ərzində ölkə iqtisadiyyatına investisiya qoyuluşlarının həcminin təhlilini aparsaq görərik ki, bu dövr ərzində ən çox investisiya yatırımı 2013-cü ilə təsadüf etmişdir. Ümumi götürdükdə isə təhlil apardığımız dövr ərzində ölkə iqtisadiyyatına 160 milyard dollar həcmində investisiya qoyuluşu olmuşdur ki, bunun da təxminən 50 faizi daxili investisiya hesabına həyata keçirilmişdir. Aşağıdakı şəklə diqqət edək. [5]



Şəkil 1. Azərbaycan iqtisadiyyatına yönəldilmiş investisiyaların həcmi.

Şəkil 1-dən də aydın olduğu kimi, 1995-2000-ci illər ərzində ölkə iqtisadiyyatına investisiya yatırımı, demək olar ki, çox aşağı səviyyədə olmuşdur. Lakin 2000-ci ildən etibarən ölkə iqtisadiyyatına cəlb edilən investisiyaların həcmində kifayət qədər canlanmanın şahidi oluruq. 2014-cü ildə ölkə iqtisadiyyatına 28 milyard dollar həcmində investisiya cəlb olunmuşdur ki, həmin

investisiyaların da 50 faizə qədərini yenə daxili mənbələr təşkil etmişdir. Ölkə iqtisadiyyatına cəlb edilən investisiyaların isə böyük əksəriyyəti sənaye sahələrinin inkişafına yönəldilmişdir.

Cədvəl 1.

Ölkə iqtisadiyyatına cəlb olunmuş investisiyalar

	2010	**2011**	**2012**	**2013**	**2014**	**2015**	**2016**	**2017**
Bütün mənbələr üzrə investisiya qoyuluşları (xarici investisiyalar nəzərə alınmaqla):								
mln. manat	480.7	1,289.8	6 733.4	14,118.9	17,048.8	20,251.1	21,448.2	21,890.6
mln. dollar	544.1	1,441.40	7 118.5	17,591.4	21,588.9	25,777.8	27,340.0	27,907.5
Xarici investisiyalar:								
mln. manat	331.4	829.5	4 628.5	6 619.7	6,849.8	8,102.7	8,269.3	9,175.7
mln. dollar	375.1	927.0	4 893.2	8 247.8	8,673.9	10,314.0	10,540.9	11,697.7
Daxili investisiyalar:								
mln. manat	149.3	460.3	2 104.9	7,499.2	10,199.0	12,148.4	13,178.9	12,715.0
mln. dollar	169.0	514.40	2 225.3	9,343.6	12,915.0	15,463.8	16,799.1	16,209.8

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. www.stat.gov.az

Cədvəl 1-dən də aydın olduğu kimi, 2017-ci il ərzində Azərbaycan iqtisadiyyatına cəlb olunmuş investisiyaların ümumi həcmi təxminən 162 milyard dollar səviyyəsində olmuşdur ki, 2016-cı illə müqayisədə bu göstəricidə geriləmə müşahidə olunmaqdadır. Belə ki, 2016-cı ildə ölkə iqtisadiyyatına cəlb olunan investisiyaların ümumi həcmi 167.9 milyard dollar səviyyəsində olmuşdur. [5]

Son 7 ilin əhatəli təhlilindən məlum olur ki, investisiya qoyuluşlarının tərkibində xüsusilə fərqlənən xarici investisiyaların böyük əksəriyyəti sənaye, rabitə və eləcə də tikinti və nəqliyyat sahələrini əhatə etmişdir.

Kənd təsərrüfatı sahələrinə isə, çox təəssüf ki, investisiya yatırımı az müşahidə olunmaqdadır. Halbuki, bu sahələrə xarici investorların cəlb edilməsi əsas prioritet istiqamətlərdən sayılmaqla, eyni zamanda da iqtisadiyyatın inkişafına özünün müsbət töhfəsini verəcəkdir.

Azərbaycanda aqrar sahəyə dövlət himayəsi

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, respublikada aqrar sahənin inkişafına dövlət qayğısının artırılmasını diqqət mərkəzində saxlayacaq, bu sahədə mövcud çətinliklərin aradan qaldırılması istiqamətində bütün zəruri tədbirlərin görülməsinə şəxsən özü nəzarət edəcəkdir. Doğrudur, son illər bu sahədə kifayət qədər iş görülmüşdür. Kənd təsərrüfatı məhsulları istehsalçıları, torpaq vergisi istisna olmaqla, digər vergilərdən azad edilmişlər. Əkin sahəsinin becərilməsində istifadə olunan yanacaq və motor yağlarına görə istehsalçılara hər hektar üçün 40 manat, buğda və çəltik istehsalçılarına isə hər hektar səpilmiş sahəyə görə əlavə olaraq 40 manat subsidiya verilir. Fermer və sahibkarlar güzəştli şərtlərlə kredit, toxum, gübrə, texnika, damazlıq mal-qara almaq imkanlarına malikdirlər. Məhz bu siyasətin nəticəsində də aqrar sahə üzrə büdcə xərcləri davamlı olaraq artırılmışdır. Lakin bu müsbət tendensiyalara baxmayaraq hələ də respublika üzrə əsas kapitala yönəldilmiş vəsaitlərin əsas hissəsi paytaxt Bakının payına düşür.

Kənd təsərrüfatına investisiya qoyuluşları sahənin investisiya cəlbediciliyinin aşağı olması səbəbindən ilk növbədə dövlətin büdcə resursları hesabına həyata keçirilməlidir. İnvestisiya qoyuluşlarında dövlətin büdcə resursları əsas etibarilə aşağıdakı istiqamətlərə yönəldilməlidir: [1, s. 88]



Şəkil 2. 2017-ci ildə əsas kapitala yönəldilmiş vəsaitlər. (min manat).

- kənddə texniki potensialın bərpa edilməsinə;
- əvvəllər başlanmış tikinti obyektlərinin başa çatdırılmasına;
- kənd təsərrüfatı elminin maddi-texniki bazasının möhkəmləndirilməsinə;
- kənd təsərrüfatında toxumçuluq-damazlıq işinin yaxşılaşdırılmasına;
- emal sənayesinin mütərəqqi texnologiyalarla təchiz edilməsinə;
- kənddə mənzil tikintisinə;
- kənd təsərrüfatında kiçik biznesin və sahibkarlığın dəstəklənməsinə;
- təbii fəlakətin qarşısının alınmasına;
- istehsalın ekoloji təhlükəsizliyinin təmin edilməsinə;
- kənd təsərrüfatı əmtəə istehsalçılarının maddi-texniki resurslara olan tələbatının ödənilməsinə;
- torpaqların meliorasiyası və irriqasiyasına.

Ümumilikdə götürdükdə isə, ölkə iqtisadiyyatına yönəldilən investisiyaların ümumi həcminin dəfələrlə artmasına baxmayaraq, aqrar sahənin maddi-texniki bazasının yenidən qurulmasına və genişləndirilməsinə digər sektorlarla müqayisədə az investisiya yönəldilir. Təhlil göstərir ki, 2010-2017-ci illər ərzində ümumi investisiyanın yalnız 0.7-2,1%-i aqrar sektorda istifadə edilmişdir.(5)

Ümumilikdə dövlətin aqrar sahədə investisiya siyasətinin başlıca məqsədi istehsalın və keyfiyyətin artırılması yolu ilə rəqabətə davamlı aqrar bölmə yaradılmasından ibarət olmuşdur. Azərbaycan kənd təsərrüfatı istehsalının mövcud səmərəliliyini artırmaq və öz müqayisəli üstünlük mövqelərini təkmilləşdirmək potensialına malikdir. Bütün bu üstünlükləri nəzərə alaraq qeyd edək ki, investisiya qoyuluşu zamanı onun səmərəliliyinə diqqət yetirilməlidir.

Aparılan araşdırmalar göstərir ki, aqrar sahədə lizinq fəaliyyətinə dövlət yardımının göstərilməsi, eləcə də ixtisaslaşmış kənd təsərrüfatı kreditləşdirilməsi sisteminin formalaşdırılması investisiya cəlbediciliyinin yüksəldilməsində əhəmiyyətli rol oynayır. Kənd təsərrüfatının investisiya cəlbediciliyinin yüksəldilməsində kənd təsərrüfatı və ərzaq məhsulları istehsalçılarının dövlət büdcəsindən dəstəklənməsi məqsədilə ünvanlı fondların rolu genişləndirilməli və həmin fondların vəsaitlərindən istehsalın texniki təminatının maliyyələşdirilməsində, eləcə də məqsədli kreditləşdirmə fəaliyyətinin həyata keçirilməsində və maliyyələşdirmənin yerli mənbələrinin səfərbərliyə alınmasında geniş şəkildə istifadə edilməlidir.

Nəticə və təkliflər

Kənd təsərrüfatının dünya bazarının etibarlı subyektinə və daxili bazarın təminatçısına çevrilməsi üçün onun perspektiv inkişafı 4 əsas prinsipə əsaslanmalıdır:

- Kənd təsərrüfatında istehsal edilən məhsulların dünya standartlarına uyğun rəqabət qabiliyyətinin təmin edilməsi;
- Dünya bazarına çıxarılacaq məhsulların strukturunun müəyyən edilməsi;

- Ölkənin daxili istehsal hesabına tələbatının təmin edilməsi;
- Respublikada istehsal edilən məhsulların investisiya cəlbediciliyinin aşkar edilməsi.

Yekun olaraq qeyd edə bilərik ki, Azərbaycanda kənd təsərrüfatının inkişafı və fermerlər üçün bir sıra güzəştlər müəyyən edilmişdir. Həmçinin, «Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin Sərəncamı da məhsulun istehsalçıdan istehlakçıya çatdırılması mərhələsində mövcud maneələrin aradan qaldırılması, ərzaq bazarında süni qiymət artımının qarşısının alınması, kənd təsərrüfatı və ərzaq məhsullarının qəbulu üzrə ixtisaslaşmış terminalların və onların saxlanılması üçün anbarların yaradılması, həmin məhsulların daşınmasına xidmət edən nəqliyyat infrastrukturunun təşkili, xüsusi ərzaq mağazaları şəbəkəsinin genişləndirilməsi istiqamətində təxirəsalınmaz tədbirlərin görülməsinə öz töhfəsini verəcəkdir.

ƏDƏBİYYAT

1. «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası. Bakı, 29 dekabr 2012-ci il.
2. Abasov İ.D. Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı. Bakı, 2013, 712 s.
3. Abbasov V.H.Aqrar sahədə iqtisadi tənzimləmənin aktual problemləri. Bakı, 2012, 424 s.
4. www.president.az/articles/9716
5. www.stat.gov.az

Самир Рамиз оглы Агаев
докторант АУК

Финансирование и регулирование инвестиций в аграрный сектор

Резюме

Развитие аграрного сектора в Азербайджанской Республике является одним из основных направлений особого приоритета государства и считается одним из приоритетов развития экономики. Это связано с тем, что 2015 год был объявлен «Годом сельского хозяйства», и это еще раз доказало, что спрос на сельское хозяйство был высоким для аграрной сферы.

Инвестиционная политика, которая имеет особое значение для развития каждой области, является одним из ключевых факторов быстрого развития аграрного сектора. Основной вопрос здесь - обеспечить формирование инвестиционной среды в развитии аграрной сферы, а также выявить источники финансирования ключевых инвестиций.

Ключевые слова: аграрный сектор, инвестиции, финансовая поддержка.

Samir Ramiz Aghayev
Doctoral student of ACU

Funding and regulation of investment in agrarian sector

Summary

Development of the agrarian sector in the Republic of Azerbaijan is one of the main areas of the state's special priority and is considered as one of the priorities for the development of the economy. It is because of the fact that 2015 was declared the "Year of Agriculture", and this once again proved that the demand for agriculture was high for the agrarian sphere.

Investment policy, which is of particular importance in the development of each area, is one of the key factors in the rapid development of the agrarian sector. The main issue here is to ensure the formation of an investment environment in the development of the agrarian sphere, as well as to reveal sources of funding for key investments.

Key words: agrarian sector, investment, financial support.

Azad Xanoğlan oğlu QULİYEV
Azərbaycan Kooperasiya Universitetinin doktorantı

KƏND TƏSƏRRÜFATINDA İSTEHSALIN İNTENSİVLƏŞDİRİLMƏSİNİN İQTİSADİ SƏMƏRƏLİLİYİ

Xülasə

Məqalədə kənd təsərrüfatının inkişaf etdirilməsində istehsalın intensivləşdirilməsi və onun səmərəliliyi araşdırılmışdır. Müasir dövrdə aqrar sahənin inkişafında mexanikləşmənin və ən yeni texnologiyaların tətbiq edilməsi və bu sahədə peşəkar kadrların sayının artırılması məqsədəuyğun hesab edilmişdir. Regionlarda müasir aqro-parkların və sənaye məhəllələrinin yaradılmasının kənd təsərrüfatı ilə sənayenin əlaqələrinin genişlənməsinin, xalq təsərrüfatında digər sahələrin də inkişafına şərait yaratması qeyd olunmuşdur.

Açar sözlər: kənd təsərrüfatı, intensivləşmə, aqrar-sənaye kompleksi, kooperasiya, fermer, innovasiya.

***

Kənd təsərrüfatı xalq təsərrüfatının ən geniş və həyati əhəmiyyətli sahəsidir, bu sahəni yetərincə inkişaf etdirmədən əhali üçün qida məhsulları və sənaye üçün xammal bolluğu yaratmaq mümkün deyil.

Keçən əsrin müxtəlif illərində kənd təsərrüfatında tədqiqatlar aparan alimlər sübut etmişdilər ki, kənd təsərrüfatı məhsulları istehsalının becərilən torpaq sahələrinin genişləndirilməsi yolu ilə artırılması artıq həlledici və müəyyənedici vasitə deyil. Kənd təsərrüfatı məhsulları istehsalının intensivləşdirilməsi bu sahənin əsas inkişaf yoluna çevrilməlidir. Kənd təsərrüfatında başlıca istehsal vasitəsi kimi torpağın xüsusiyyətlərinin nəzərə alınmasına əsaslanan intensivləşdirmə xətti mexanikləşdirmə, elektrikləşdirilmə, kimyalaşdırılma və suvarmanın inkişafı, elmin və qabaqcıl təcrübənin nailiyyətlərinin istehsalda geniş tətbiqi əsasında həyata keçirilməlidir.

Müasir dövrdə Azərbaycanın yüksək dərəcədə mexanikləşdirilmiş, kifayət qədər ixtisaslı mütəxəssislərə malik olan kənd təsərrüfatı ilbəil inkişaf edir. Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2015-ci ilin kənd təsərrüfatı ili elan edilməsi bu sahənin inkişafına böyük stimul yaratmışdır. Artıq kənd təsərrüfatı məhsullarının istehsalında ilbəil artım sürəti buna əyani sübutdur.

Kənd təsərrüfatının intensivləşdirilməsi bir sıra amillərdən asılıdır. Bu proses həm kənd təsərrüfatının mexanikləşdirilməsi, elektrikləşdirilməsi və kimyalaşdırılması səviyyəsinin artırılması yolu ilə, həm də kənd təsərrüfatı məhsulları istehsalında yeni aqrozootexniki metodların tətbiqi yolu ilə, böyük zəhmət tələb edən intensiv bitkilərin becərilməsi, suvarılan torpaq sahələrinin genişləndirilməsi və başqa vasitələrlə həyata keçirilir.

Kənd təsərrüfatının intensivləşdirilməsinin bu iki istiqaməti arasında müəyyən nisbətlər olmalıdır. Fermerlər tərəfindən istehsal təcrübəsində həmin nisbətlərə riayət edilərsə, bu intensivləşdirmənin səmərəliliyini daha da artıracaqdır.

Becərilən torpaq sahələrinin hər vahidindən kənd təsərrüfatı məhsulları istehsalının artımına müxtəlif yollarla nail olmaq mümkündür: a) məhsulun artımı, demək olar ki, əlavə kapital qoyulmadan əldə edilir; b) məhsulun artımı dövriyyə vəsaitlərinin əlavə birdəfəlik xərclənməsini tələb edir; c) məhsulun artımı həm dövriyyə vəsaitlərinin, həm də əsas istehsal vasitələrinin xərclənməsi yolu ilə əldə edilir.

Becərilən torpaq sahələrinin hər vahidindən kənd təsərrüfatı məhsulları istehsalının artırılmasının birinci üsulu mövcud vəsaitlərin və əməyin rasional istifadəsini, əməyin və istehsalın təşkilinin yaxşılaşdırılmasını, ən məhsuldar sortlardan istifadə edilməsini, məhsul itkilərinin aradan qaldırılmasını, aqrozootexniki üsul və metodlara riayət edilməsini və sair tədbirlər görülməsini nəzərdə tutur.

Kənd təsərrüfatı istehsalının daha yüksək dərəcədə intensivləşdirilməsi emal edilən torpaq sahələrinin hər vahidinə əlavə dövriyyə istehsal vasitələri xərclənməsini tələb edir. Mineral və üzvi gübrələrdən, eləcə də pestisidlərdən istifadə həcminin artması, həmçinin aşağı məhsuldar-

lıqlı, az gəlirli bitkilərin daha məhsuldarlıqlı, yüksək gəlirli intensiv bitkilərlə əvəz edilməsi dövriyyə vasitələrinə əlavə xərclərin artımı ilə müşayiət olunur.

Kənd təsərrüfatı məhsulları istehsalının intensivləşdirilməsində məhsul artımına nail olmaq üçün əsas istehsal vasitələrinə əlavə xərclər sərf edilməlidir.

Kənd təsərrüfatı məhsulları istehsalının intensivləşdirilməsi üzrə geniş tədbirlərin həyata keçirildiyi müasir şəraitdə məhsulun hər vahidinə ən az vəsait və əmək sərf etməklə torpaq sahəsinin hər vahidindən daha çox məhsul alınmasında fermerlərin maddi marağının artırılması xüsusi əhəmiyyət kəsb edir.

Maddi stimullaşdırma prinsipləri intensivləşdirmənin əsas məsələsinin həllinə, hər hektar torpaqdan məhsul istehsalının artırılmasına imkan yaratmalıdır. Bu, istehsal mədəniyyətinin yüksəldilməsinə, kənd təsərrüfatı bitkilərinin ümumi məhsulunun həcminə, əmək məhsuldarlığının artmasına, məhsulun maya dəyərinin azalmasına və bu əsasda bütün kənd təsərrüfatı istehsalının inkişafına imkan yaradar.

Kənd təsərrüfatı sahəsində respublikada aparılan müasir aqrar siyasət bütövlükdə kənd təsərrüfatı məhsulları istehsalının keyfiyyətinin yüksəldilməsinə, ən mühüm iqtisadi və sosial hədəflərin əldə olunmasına istiqamətlənmişdir. Burada əsas məqsəd kənd təsərrüfatı və inkişaf etmiş iqtisadi sahənin əhalinin qida məhsullarına, inkişaf etməkdə olan sənayenin isə kənd təsərrüfatı xammalına olan tələbatlarını etibarlı şəkildə təmin etməyə qadir olan sektora çevirməkdən, şəhər və kənd əhalisinin maddi, mədəni-məişət həyat şəraitini yaxşılaşdırmaqdan ibarətdir. Bu məsələlər prinsipial, iqtisadi və siyasi əhəmiyyət kəsb edir. Müvafiq strateji xəttin uğurla həyata keçirilməsində kənd təsərrüfatının maddi-texniki bazasının inkişaf etdirilməsi və möhkəmləndirilməsi, onun müasir sənaye əsasları üzərinə keçirilməsi həlledici rol oynayır. Ölkədə kənd təsərrüfatı məhsulları istehsalının daha da intensivləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir sənaye əsaslarına keçidin reallaşdırılması üzrə ardıcıl və məqsədyönlü şəkildə genişmiqyaslı tədbirlər həyata keçirilir. Azərbaycan Respublikası Prezidentinin son illər qeyri-neft sektorunun inkişafı ilə əlaqədar regionlarda keçirdiyi müşavirələrdə verdiyi tapşırıqlar və sahənin inkişafı ilə bağlı məqsədyönlü tədbirlərin həyata keçirilməsi nəticəsində respublikada bu istiqamətdə böyük işlər görülmüşdür. Respublikada kənd təsərrüfatının intensivləşdirilməsinə və sənayeləşdirilməsinə yönəldilmiş kompleks inkişaf proqramı ardıcıllıqla həyata keçirilir. Kənd təsərrüfatı istehsalının təşkilinin keyfiyyətcə yeni mərhələsi, aqrosənaye inteqrasiyası əsasında müəyyən edilməsi və bu tədbirlərin həyata keçirilməsi nəticəsində respublikanın kənd təsərrüfatının bütün sahələrində irəliləyiş əldə edilmişdir.

Respublikada regionlarda maşın-traktor parkları, demək olar ki, tamamilə yenilənmiş, onun keyfiyyət tərkibi yaxşılaşmış, böyük gücə, yükqaldırma qabiliyyətinə və məhsuldarlığa malik olan müasir texnologiyalara cavab verən traktorların və kənd təsərrüfatı maşınlarının sayı artmışdır.

Respublikada torpağın məhsuldarlığının yüksəldilməsi ilə əlaqədar kəndli fermer təsərrüfatlarının mineral gübrələrlə təchizatı ilbəil atrmaqdadır. Həmçinin regionlarda son illər istifadəyə verilmiş iritutumlu su anbarlarlnın, meliorasiya işləri aparılan, suvarılan torpaqların sahələrinin çoxalmasında böyük əhəmiyyəti olmuşdur.

Respublikanın kənd təsərrüfatının inkişafının müasir mərhələsi elmi-texniki tərəqqinin nailiyyətlərinin daha geniş tətbiqi ilə səciyyələnir. Regionlarda fəaliyyət göstərən fermer təsərrüfatlarında kənd təsərrüfatı bitkilərinin çox məhsuldar növləri, mal-qaranın daha məhsuldar cinsləri, yeni mütərəqqi texnologiyalar, kənd təsərrüfatı istehsalının və əməyin təşkilinin müasir formaları istehsalda geniş tətbiq edilmişdir.

Ölkə rəhbərliyinin aqrar siyasəti və müasir innovativ texnologiyaların tətbiqi sayəsində respublikanın kənd təsərrüfatının inkişafında keyfiyyətli irəliləyiş daha dərin və çoxşaxəli xarakter kəsb edir.

Məlum olduğu kimi, təsərrüfat fəaliyyətinin əsas meyarı istehsalın son nəticələridir. Respublikanın kənd təsərrüfatının inkişafını müvafiq mövqedən qiymətləndirərək demək olar ki, son illər dünyada baş verən qlobal maliyyə böhranı dövründə, ölkə rəhbərliyinin apardığı məqsədyönlü aqrar siyasət nəticəsində respublikada xalq təsərrüfatının bu sahəsində böyük müvəffə-

qiyyətlər qazanılmış, bütün kənd təsərrüfatı məhsullarının istehsalı və tədarükü artmış, kənd təsərrüfatı bitkilərinin və heyvandarlığın məhsuldarlığı yüksəlmişdir. Kənd təsərrüfatı məhsulları istehsalının artması qida məhsulları istehlakını əhəmiyyətli dərəcədə yüksəltməyə imkan vermişdir.

Kənd təsərrüfatı məhsulları istehsalının artımında böyük uğurların təmin edilməsində, respublikanın kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmlədilməsi həlledici rol oynamışdır ki, bu da respublika iqtisadiyyatının dinamik inkişafına, onun bütün iqtisadi göstəricilərinin ildən-ilə sistematik yaxşılaşmasına parlaq sübutdur.

İntensivləşdirmənin səmərəliliyinin artırılması kənd təsərrüfatının inkişafı üçün böyük ehtiyat mənbəyidir, və bu şəraitdə aqrar iqtisadiyyat sektorunun müasir sənaye əsasları üzərinə keçirilməsi intensivləşmənin yeni mərhələsidir.

Elmi-texniki tərəqqinin inkişafının müasir mərhələsində kənd təsərrüfatı məhsulları istehsalının səmərəliliyinin artırılması zərurəti bir sıra səbəblərlə izah olunur. Birincisi, xalqın maddi rifahının və həyat səviyyəsinin sistematik artırılması zəruridir. Kənd təsərrüfatı isə bu xəttin təcrübədə həyata keçirilməsində mühüm yer tutur. Bunu qeyd etmək lazımdır ki, tədqiqatlar sübut edir ki, istehlak fondunun təxminən ¾ hissəsi adətən kənd təsərrüfatı mənşəli məhsullar hesabına formalaşır. İkincisi, inteqrasiya prosesləri intensivləşir, bir tərəfdən, kənd təsərrüfatı, digər tərəfdən, sənaye, tikinti və nəqliyyat sahələri arasında qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq dərinləşir və genişlənir. Bu şəraitdə kənd təsərrüfatının onunla əlaqədar sahələrdə istehsala müəyyənedici təsiri get-gedə artır və buna görə də onun yetərincə səmərəli inkişaf etməməsi ümumi iqtisadi artım tempinə bilavasitə təsir göstərir. Sənaye ilə yanaşı, kənd təsərrüfatı iqtisadiyyatın inkişafının ən mühüm sabitləşdirici amilinə çevrilmişdir. Buna görə müasir şəraitdə kənd təsərrüfatının effektivliyinin artırılması problemləri iqtisadi inkişaf üçün birinci dərəcəli əhəmiyyət kəsb edir.

Kənd təsərrüfatı, xüsusilə, əgər o müasir sənaye əsasında intensivləşdirilmişdirsə yüksək gəlirli sahədir. Buna görə, respublikanın kənd təsərrüfatının inkişafının əsas istiqaməti onun kompleks şəkildə intensivləşdirilməsi, müasir sənaye əsasları üzərinə keçirilməsidir.

Kənd təsərrüfatının daha da intensivləşdirilməsinin və sənaye əsasları üzərinə keçirilməsinin ən mühüm istiqaməti kompleks mexanikləşdirmədir. Buna görə, respublikada kənd təsərrüfatının texniki təchizatının yaxşılaşdırılması, mexanizator kadrlarının hazırlanması məsələlərinə xüsusi diqqət yetirilməlidir. Buna görə də, kənd təsərrüfatının kompleks mexanikləşdirməsi o cümlədən, bitkiçilikdə və heyvandarlıqda mexanikləşdirmənin səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəldilməsi daim diqqət mərkəzində olmalıdır. Respublikada kənd təsərrüfatının mexanikləşdirilməsi və elektrikləşdirilməsi səviyyəsinin artırılması və texnikadan istifadənin yaxşılaşdırılması üzrə nəzərdə tutulmuş tədbirlərin ardıcıl olaraq sistematik həyata keçirilməsi bu sahənin inkişafını daha da artıracaqdır.

Respublika əhalisinin ət və süd məhsullarına tələbatını yerli istehsal hesabına tamamilə təmin etmək üçün Azərbaycanda heyvandarlığın daha sürətlə inkişafına dair konkret tədbirlər həyata keçirilmişdir. Bunun üçün heyvandarlıq məhsulları istehsalının artımını təmin edən ehtiyatların səmərəli istifadəsi və onun sənaye əsasları üzərinə keçirilməsi böyük əhəmiyyət kəsb edir.

Sovetlər dövründə Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə heyvandarlıq müəssisələrində maşınlar sistemi sənayedə olduğu kimi, bütün il boyu eyni gərginliklə işləyirdi ki, nəticədə heyvanların saxlandığı yerlərin təmizlənməsinə qədər bütün əməliyyatlar mexanikləşdirilmişdi. Bu da heyvandarlıqda əl əməyinin payının kifayət qədər azaldılmasına səbəb olurdu.

Heyvandarlığın sənaye əsasları üzərinə keçirilməsi bütün istehsal proseslərinin kompleks şəkildə mexanikləşdirilmiş və avtomatlaşdırılmış olduğu müasir iri müəssisələrin yaradılması ilə həyata keçirilməlidir. Əgər heyvandarlığın yem bazası zəif olarsa, bu sahənin həddən artıq zəhmət tələb etməsini nəzərə alsaq və mexanikləşdirmənin aşağı səviyyədə olması onun inkişafını ləngidər və əl əməyinin üstünlük təşkil etməsi heyvandarlıq məhsullarının maya dəyərinin yüksəlməsinə səbəb olar.

Son illər ərzində respublikada heyvandarlığın yem bazasının möhkəmləndirilməsi üzrə böyük işlər görülmüşdür. Heyvandarlığın inkişafının mühüm problemini yem istehsalının müasir sənaye əsasları üzərinə keçirilməsi təşkil edir. Yem istehsalının sənayeləşdirilməsi, heyvandarlığın inkişaf perspektivlərinə əhəmiyyətli təsir edir və onun maya dəyərinin aşağı düşməsinə imkan verir. Kompleks mexanikləşdirmə elmi-texniki tərəqqinin nailiyyətləri, inovativ yeni məhsuldar maşınlar kənd təsərrüfatı texnikasının fasiləsiz təkmilləşdirilməsini tələb edir.

Kənd təsərrüfatının texniki təchizatının yeniləşdirilməsi sahəsində əsas məsələlərdən biri müasir sürətli traktorların - aqreqatın bir keçidi ərzində bir neçə texnoloji əməliyyatı yerinə yetirən daha mükəmməl, universal maşınların geniş tətbiq edilməsidir. Dünya təcrübəsi göstərir ki, kənd təsərrüfatının sənayeləşdirilməsi dövründə maşınlara və avadanlığa, xüsusilə müasir sürətli və güclü traktorların istehsalına çəkilən xərclər kəskin artır. Bu da təbii olaraq, kənd təsərrüfatına ümumi sərmayə qoyuluşlarının həcmində müvafiq xərclərin nisbi payının artmasına gətirib çıxarır.

Sənayeləşdirmə səviyyəsi artdıqca, kənd təsərrüfatının effektivliyi maddiləşmiş əməyin, ilk növbədə, əsas fondların səmərəli istifadəsindən daha çox asılı olacaq. Təcrübə göstərir ki, kənd təsərrüfatının sənayeləşdirilməsi şəraitində maddiləşmiş əməyin, o cümlədən əsas fondların səmərəliliyinin artırılması üçün onların strukturunu təkmilləşdirmək lazımdır. Əsas fondların strukturunda onların aktiv hissəsi, ilk növbədə, əmək məhsuldarlığının artmasına bilavasitə təsir edən, kənd təsərrüfatında texniki tərəqqinin səviyyəsini yüksəldən maşınların və mexanizmlərin nisbi payı artmalıdır və nəticədə məhsulun fond tutumu və maya dəyəri isə azalır.

Son illər respublikada iri fermer təsərrüfatlarının yaradılması və bununla əlaqədar məqsədyönlü tədbirlərin həyata keçirilməsi ilə yanaşı qeyd etmək lazımdır ki, gələcəkdə əsas fondlar yeni binaların və tikililərin, iri heyvandarlıq komplekslərinin və anbar təsərrüfatlarının, digər obyektlərin istifadəyə verilməsi hesabına artacaqdır.

Kənd təsərrüfatı məhsullarının itkilərinin aradan qaldırılması, onların istehlakçıya vaxtında və ən az itkilərlə çatdırılması məsələlərinə diqqəti artırmaq lazımdır. Bu isə xeyli dərəcədə kənd təsərrüfatı məhsullarının daşınması, saxlanması və emalından asılıdır. Ona görə də kənd təsərrüfatının və ona xidmət edən sənaye sahələrinin inkişafı, kənd təsərrüfatı məhsullarının tədarükü, saxlanması, daşınması və emalı məsələlərini əlaqələndirmək lazımdır. Kənd təsərrüfatı məhsulları istehsalının intensivləşdirilməsi, onun sənaye istehsal vasitələri ilə təchizatı və sənaye əsaslarına keçidi işçi qüvvəsinin fasiləsiz surətdə sənaye və kənd təsərrüfatı ilə bağlı olmayan digər xalq təsərrüfatı sahələrinin də səmərəli paylaşdırmasını həyata keçirməyə imkan verir.

Son illərdə Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafı ilə əlaqədar apardığı məqsədyönlü aqrar siyasətin nəticəsində ölkəmizdə regionlarda yaradılmış Aqro-parklar, Sənaye məhəllələrinin sayı artmaqdadır. Bu da kənd təsərrüfatının sənaye ilə əlaqələrini artırır və itkisiz, keyfiyyətli kənd təsərrüfatı məhsullarının emal edilməsinə böyük şərait yaradır.

Kənd təsərrüfatının sənayeləşdirilməsi, istehsalın idarə edilməsi ilə əlaqədar, mühəndis-texniki işçilərin də rolunu artırır. Regionlarda kənd təsərrüfatı istehsal sahələrində çalışan ali və orta ixtisas təhsilli mütəxəssislərin sayı artırılmalıdır. Hazırda kənd təsərrüfatına elə mütəxəssislər, məsələn kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə texnoloqlar lazımdır ki, onlar müasir inovativ mexanikləşdirməyə və avtomatlaşdırmaya, elmi-texniki tərəqqinin son nailiyyətlərinin istehsala geniş tətbiqinə əsaslanan sənaye tipli mürəkkəb prosesləri idarə etməyi bacarsınlar. Bütün bunlar, təbii ki, obyektiv olaraq, mütəxəssislər hazırlığının yenidən qurulmasını zəruri edir. Kənd təsərrüfatı üçün kadrların hazırlanması və onların ixtisas səviyyəsinin artırılması həm ümumtəhsil hazırlıq səviyyəsinin artırılması yolu ilə, həm də xüsusi peşə təhsilinin yaxşılaşdırılması yolu ilə olmalıdır. İxtisaslaşdırılmış kadrlara tələbatın get-gedə artması yaxşı təşkil edilmiş peşəkar kənd təsərrüfatı təhsili sistemi yaradılmasını tələb edir.

Respublikamızda bu proseslərin uğurla həyata keçirilməsi kənd təsərrüfatında geriliyin aradan qaldırılmasına və onun maddi-texniki bazasının möhkəmləndirilməsinə, kənd təsərrüfatı ilə sənaye arasındakı əlaqələrin yüksəlməsinə böyük təsir edəcəkdir.

Respublikada kənd təsərrüfatının regionlar üzrə ixtisaslaşmasının həyata keçirilməsi aqrosənaye inteqrasiyası əsasında istehsalın təmərküzləşməsinə nail olacaqdır. Regionlarda təbii-iqti-

sadi zonalar onlara xas olan əsas, eləcə də müvafiq əlavə sahələrin, məhsulların istehsalı üzrə ixtisaslaşacaqdır.

Aqrar-sənaye müəssisələrində, yeni yaradılmış Sənaye məhəllələrində, o cümlədən kəndli fermer təsərrüfatlarında istehsal fondlarından daha yaxşı istifadə olunması nəticəsində, kənd təsərrüfatı istehsalında mövsümiliyin təsiri azalır, kənd təsərrüfatı məhsullarının emalının keyfiyyəti artır, məhsulların istehsalçıdan istehlakçıya keçmə vaxtı əhəmiyyətli dərəcədə qısalır, ticarətin yeni mütərəqqi formaları inkişaf edir. Bütün bunların nəticəsində kənd təsərrüfatının və əlaqəli sahələrin müəssisələrinin effektivlik göstəriciləri artır.

Azərbaycanın təcrübəsi göstərir ki, kooperasiya və aqrosənaye inteqrasiyası əsasında kənd təsərrüfatı məhsulları istehsalının ixtisaslaşmasını və təmərküzləşməsini inkişaf etdirməyin yüksək effekti və sosial əhəmiyyəti vardır. Bu halda istehsalın daha yüksək inkişaf səviyyəsinə və istehsal münasibətlərinin təkmilləşdirilməsinə nail olmaq üçün iqtisadi və sosial şərait yaranır, o cümlədən elmi-texniki tərəqqinin nailiyyətlərinin geniş tətbiq edilməsi, kənd təsərrüfatının müasir sənaye əsasları üzərinə keçirilməsi regionların sosial problemlərinin həllinə öz müsbət təsirini göstərir.

Nəticə

Kənd təsərrüfatı məhsulları istehsalının intensivləşdirilməsi, geniş təkrar istehsalın bir forması kimi, becərilən torpaq sahəsinin hər vahidinə əlavə vəsait və əmək sərf edilməsini, habelə onlardan səmərəli istifadə dərəcəsinin artırılmasını nəzərdə tutur. Kənd təsərrüfatının intensivləşməsi nəticəsində əldə edilən əlavə xalis gəlir, əlavə vəsait və əmək məsrəflərinin birbaşa nəticəsi və eyni zamanda, əsas istehsal fondlarının genişlənməsi və yenilənməsi, kənd təsərrüfatında intensivləşmənin əsas mənbələrindən biridir. Buna görə də kənd təsərrüfatında intensivləşmənin iqtisadi effektivliyini təyin etmək çox vacibdir. Kənd təsərrüfatı məhsulları istehsalının səmərəli intensivləşdirilməsi məhsulun həcminin artırılması ilə bərabər, həm də onun maya dəyərinin azaldılmasını nəzərdə tutur. Kənd təsərrüfatında intensivləşmə, becərilən torpaq sahəsinin hər vahidinə əlavə məsrəflərin artırılması əmək məhsuldarlığının və istehsalın rentabelliyinin artırılmasının maddi əsasıdır. Kənd təsərrüfatı məhsulları istehsalının intensivləşməsinin iqtisadi effektivliyini və məqalədə qeyd edilən üstünlükləri nəzərə almaq lazımdır.

ƏDƏBİYYAT

1. Ziyad Səmədzadə. “Böyük İqtisadi Ensiklopediya” 3-cü cild. Bakı, 2013. 606 s.
2. İsmət Abbasov. Azərbaycan və dünya ölkələrinin kənd təsərrüfatı. Bakı, 2013. 711 s.
3. İsa Əhmədov. Kənd təsərrüfatının idarə edilməsi. Bakı-2006. 880 s.
4. Azərbaycanın Regionları 2016. Dövlət Statistika Komitəsi. Bakı, 2016.834 s
5. Azərbaycanda Ətraf Mühit, Meşəçilik, Balıqçılıq və Ovçuluq Təsərrüfatları. Dövlət Statistika Komitəsi 2014. Bakı, 2014. 137s.
6. Azərbaycanda Kiçik Sahibkarlıq. Dövlət Statistika Komitəsi. Bakı, 2013. 200s.
7. Azərbaycanın Ərzaq Balansları. Dövlət Statistika Komitəsi. Bakı, 2014. 99 s.
8. Azərbaycanın Statistik Göstəriciləri. 2017. 822 s.
9. Regionların Sosial-İqtisadi İnkişafı (2014-2018-ci illər). Dövlət Statistika Komitəsi 2015.668 s.

Азад Ханоглан оглу Гулиев
докторант АУК

Экономическая эффективность интенсификации сельскохозяйственного производства

Резюме

В статье рассматривается интенсификация производства и его эффективность в развитии сельского хозяйства. Было сочтено целесообразным провести модернизацию аграрного сектора в области модернизации механизации и использования новейших технологий и

увеличения числа профессиональных сотрудников в этой области. Создание современных агропарков и промышленных районов в регионах способствовало расширению связей сельского хозяйства и промышленности, а также развитию других сфер в национальной экономике.

Ключевые слова: сельское хозяйство, интенсификация, аграрно-промышленный комплекс, кооперация, фермер, инновации.

Azad Xanoglan Guliyev
doctoral of the Azerbaijan Cooperation University

Economic efficiency of intensification of agricultural production

Summary

The article considers the intensification of production and its effectiveness in the development of agriculture. It was considered advisable to modernize the agricultural sector in the field of mechanization modernization and use of the latest technologies and increase the number of professional employees in this field. The creation of modern agro-parks and industrial regions in the regions promoted the expansion of the ties between agriculture and industry, as well as the development of other spheres in the national economy.

Key words: agriculture, intensification, agrarian and industrial complex, cooperation, farmer, innovations.

Tamella Cəlal qızı ABBASOVA
i.f.d., b/m, Azərbaycan Dövlət İqtisad Universiteti
"Nəzəri və praktiki iqtisadiyyat" kafedrası

AZƏRBAYCANDA AQRAR MÜNASİBƏTLƏRİN İNKİŞAFI VƏ İNVESTİSİYA CƏLBEDİCİLİYİNİN YÜKSƏLDİLMƏSİ YOLLARI

Xülasə

Məqalədə bazar münasibətləri şəraitində aqrar sahədə iqtisadi səmərəliliyin təmin olunması, məhsul istehsalının artımı zəruri məsələ kimi qarşıda durur. Eyni zamanda kənd təsərrüfatının davamlı inkişafının təmin edilməsi və investisiya cəlbediciliyinin yüksəldilməsi vacib sayılır. Ən ümdə məsələ isə dövlət köməyi ilə aqrar sahə və iqtisadi səmərəlilik arasında qarşılıqlı əlaqə və təsərrüfatçılıq formalarının inkişafında daxili və xarici amillərin fəaliyyətinin öz əksini tapmasıdır.

Açar sözlər: bazar münasibətləri, aqrar münasibətlər, kənd təsərrüfatı, sosial-iqtisadi səmərəlilik, investisiya, istehsal.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sürətli sosial-iqtisadi inkişaf göstəricilərinə görə, Azərbaycan qazandığı nailiyyətlərin miqyasını mütəmadi olaraq genişləndirməkdə və yeni uğurlar qazanmaqda davam edir. Artıq dinamik sosial-iqtisadi tərəqqi sahəsində öz modelini yaradan Azərbaycan üçün əsas fərqləndirici xüsusiyyətlərdən biri bu inkişafın davamlı xarakter daşıması, möhkəm bünövrə üzərində qurulmasıdır. Həyata keçirilən və sosial yönümlü problemlərin kompleks həllinə geniş imkanlar açan məqsədyönlü siyasət, səmərəli islahatlar respublikamızda müşahidə olunan iqtisadi inkişafın sürətləndirilməsinə xidmət etməklə yanaşı, dünyada Azərbaycanın mövqelərinin daha da möhkəmlənməsində mühüm rol oynayır.

Bazar iqtisadiyyatı şəraitində aqrar sahədə məhsul istehsalının artırılmasının başlıca istiqaməti intensivləşmənin sürətlənməsi, elmi-texniki tərəqqinin inkişafı, azad sahibkarlığın formalaşması, istehsal-iqtisadi münasibətlərin təkmilləşdirilməsidir. Bütün bunlar əlavə vəsait qoyu-

luşu tələb edir. Göstərmək lazımdır ki, məhsul istehsalının artımı əmək və vəsait sərfinin çoxalmasına səbəb olduğu üçün əsaslı vəsait qoyuluşundan, istehsal xərclərindən səmərəli istifadə edilməsi aqrar iqtisadiyyatın başlıca problemlərindən biri hesab edilir. [4, s.197]

Ümumiyyətlə, aqrar sektor çox çətin və mürəkkəb region və ərazi xüsusiyyətinə malikdir. Belə ki, ayrılıqda götürülmüş hər hansı bir regionda aqrar sənaye istehsalı bir çox sahə və istehsalatların qarşılıqlı uyğunluğu əsasında formalaşır və inkişaf edir. Bu, aqrar sənaye istehsalının ərazilər üzrə təşkilini həyata keçirməyə imkan yaradır. Bundan başqa əmtəə istehsalının tsikllləri əsasında hər regionun optimal istehsalatını sahənin ərazi sistemi, əsas istehsalatın ətrafında yaranan və əlaqəli şəkildə inkişaf edən istehsalatlar kimi göstərmək imkanı vardır. [5, s.153]

Aqrar sektorda islahatların əsas prinsiplərindən biri də bir sahə kimi təkcə kənd təsərrüfatının deyil, ümumilikdə kəndin inkişafında dövlətin mövqeyinin düzgün təyini və dəqiq korrektə edilməsidir. Kənd əhalisinin və aqrar sektorun inkişafında dövlətin strateji-proqram və strukturidarəetmə rolunu təyin etmək son dərəcə vacibdir. Respublika prezidenti İlham Əliyev cənabları bu məsələ ətrafında, yəni kənd yerlərində infrastrukturun modernləşdirilməsinin nəticələri barədə danışaraq göstərmişdir ki, "kəndlərin infrastrukturu, enerji təminatı yaxşılaşdırılır, yeni yollar, kommunikasiya xətləri çəkilir, sosial-mədəni obyektlərin tikintisi uğurla davam etdirilir". [1] Dövlət başçısı tərəfindən göstərilən qayğı çox böyük problemlərin həll edilməsini vurğulayır, ona görə ki, bir çox hallarda kənd sakini informasiya axınından kənarda qalır və mədəni-kütləvi, əyləncəli tədbirlər əsas etibarilə daha çox şəhər əhalisinin prepoqatividir. Burada həmçinin bələdiyyələr də fəal iştirak etməlidirlər. Onu da qeyd edək ki, aqrar sahədə istehsalın iqtisadi səmərəliliyi mürəkkəb və çoxsahəli olduğu üçün onun müəyyən edilməsi adətən, çətindir. İqtisadi səmərəlilik bir iqtisadi kateqoriya kimi texnoloji, iqtisadi və sosial sferalarda material və əmək ehtiyatlarından, istehsal məsrəflərindən istifadə səviyyəsini əks etdirir, onların istehsalın məqsədinə nə dərəcədə müvafiq gəlməsini göstərir.

Hal-hazırda ölkəmiz sosial-iqtisadi inkişafın elə həlledici mərhələsindədir ki, milli maraqlar baxımından bütün elmi sahələr eyni məsafədə dayanır: hər birinin müstəsnalığı, əhəmiyyəti birmənalı qəbul olunur. Hesab edirik ki, respublikanın milli iqtisadi inkişaf modelinin nəzəri-praktik əsaslandırılması baxımından aqrar sektorda həyata keçirilmiş islahatlara, mövcud problemlərə də nəzər salmaq, aqrar elminin qarşısında duran vəzifələri müəyyənləşdirmək zəruridir. Bu zərurəti şərtləndirən həm də odur ki, Azərbaycan qeyri-neft sektorunun prioritetliyinə əsaslanan inkişaf yolu seçməklə yanaşı, tarixən aqrar-sənaye respublikası kimi tanınmış və ixtisaslaşmışdır. Respublikada bazar təsərrüfatçılıq sisteminə transformasiya prosesi də məhz aqrar sahədən başlamışdır. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlişindən sonra bir çox sahələr kimi kənd təsərrüfatının da 90-cı illərin əvvəllərindən özünü kəskin büruzə verən tənəzzül meyilləri aradan qaldırılmış, səmərəli islahatların əsası qoyulmuşdur. Hər bir vətəndaşın mənafeyi əsas tutulmaqla gerçəkləşdirilən aqrar islahatlar ölkə iqtisadiyyatında bazar münasibətlərinin qurulmasına, torpaq və əmlakın səmərəli istifadə edilməsinə, aqrar bölmənin sahə strukturunun təkmilləşdirilməsinə, sahibkarlığın formalaşması və inkişafı bütünlükdə bazar mexanizminin qanunauyğunluqları və prinsiplərinə tabe etdirilmiş, bu sahədə çoxsaylı normativ-hüquqi aktlar qəbul edilmiş, məhsulun satışı, gəlirlərin bölüşdürülməsi və digər texnoloji proseslərdə mülkiyyət mənsubiyyətindən asılı olmayaraq, kənd təsərrüfatı əmtəə istehsalçılarının təsərrüfat-iqtisadi müstəqilliyi təmin edilmişdir.

Bütün bunları keyfiyyətcə yeni mərhələdə uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çevik və işlək mexanizmlər əsasında gerçəkləşdirdiyi islahatlar nəticəsində respublika aqrar-sənaye kompleksini inkişaf etdirmək, ərzaq təminatını yaxşılaşdırmaq üçün ilk növbədə qanunvericilik bazası təkmilləşdirilmiş, fermerlərə yanacağın, gübrənin alınmasına çəkilən xərclərin 50%-i dövlət tərəfindən ödənilməsi, taxıl əkinlərinə görə subsidiyaların verilməsi təmin edilmiş, texniki təminatın yaxşılaşdırılması üçün istehsalçılara lizinq yolu ilə güzəştli şərtlər əsasında texnikanın və gübrələrin verilməsinə başlanmışdır.

Göründüyü kimi, kənd təsərrüfatı məhsullarının istehsalı, sahələrarası istehsal kooperasiyasına əsaslanaraq iqtisadiyyatın digər onunla əlaqədar olan sahələri bazasında inkişaf edir. Belə ki, kənd təsərrüfatı istehsalı üçün zəruri olan:

- istehsal vasitələri və digər istehsalı şərtləndirən texnika ilə təmin edir;
- digər tərəfdən, kənd təsərrüfatı xammalını emal edərək, istehsal üçün hazırlanmaqla, onu istehlakçıya çatdırır. [6, s. 340]

Məlum həqiqətdir ki, iqtisadiyyatın ən mühüm strateji əhəmiyyətli sahələrindən olan aqrar ərzaq kompleksinin bütün sferaları, o cümlədən kənd təsərrüfatı, emal sənayesi və kəndin sosial sferası daha çox investisiya tutumludur. Odur ki, aqrar sahəyə investisiyaların kütləvi axınının stimullaşdırılması müasir şəraitdə dövlətin aqrar siyasət strategiyasının ən mühüm elementi olmalıdır. Hər şeydən əvvəl dövlət səviyyəsində aqrar sahənin inkişafı üçün bazar mühitinə ekvivalent iqtisadi cəhətdən əlverişli şərait formalaşdırılmalı və bütövlükdə aqrar iqtisadiyyat investisiya resursları ilə davamlı şəkildə təmin edilməlidir. Nəzərə almaq lazımdır ki, aqrar islahatların ilkin mərhələlərində yaranan təsərrüfat subyektlərinin əsas kapitalının yeniləşdirilməsi üçün investisiya imkanları məhdud xarakter daşıyır. Kənd təsərrüfatında investisiya fəaliyyətinin genişləndirilməsi ilk növbədə aqrar istehsalın modernləşdirilməsinə və rekonstruksiyasına xidmət edir. Bu baxımdan dövlət tərəfindən həyata keçirilən dəstəklənmə tədbirləri innovasiyaların investisiya təminatı hesabına istehsalın intensivləşdirilməsinə istiqamətlənməlidir. Bazar münasibətləri şəraitində dövlət investisiya proseslərinin genişlənməsinə istiqamətlənmiş tənzimləyici tədbirlər həyata keçirilməlidir ki, bunun da əsas motivini azgəlirli sahələrin, o cümlədən, kənd təsərrüfatının investisiya cəlbediciliyinin yüksəldilməsi təşkil etməlidir. Dövlət tərəfindən kənd təsərrüfatının investisiya cəlbediciliyinin yüksəldilməsinə istiqamətlənmiş tədbirlər sisteminə aşağıdakıları şamil etmək olar:
- kənd təsərrüfatı və onunla qarşılıqlı əlaqəyə malik olan sahələrdə məhsulun satışı və xidmətlərin göstərilməsi zamanı təminatlı qiymətqoyma sisteminin tətbiqi;
- mülkiyyət mənsubiyyətindən asılı olmayaraq kənd təsərrüfatı əmtəə istehsalçılarının güzəştli kredit resursları ilə təmin edilməsi;
- aqrar sahənin maraqları nəzərə alınmaqla çevik vergi və amortizasiya siyasətinin həyata keçirilməsi;
- məqsədli dövlət maliyyələşdirilməsi proqramlarının həyata keçirilməsi;
- aqrar ərzaq kompleksinin bütün sferalarında investisiyalaşdırma və kapital qoyuluşlarının prioritet istiqamətlərinin müəyyənləşdirilməsi;
- kənd təsərrüfatında kapital qoyuluşlarının indikativ planlaşdırma əsasında həyata keçirilməsi.

Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından kənd təsərrüfatının investisiya cəlbediciliyinin yüksəldilməsi yollarından biri də hətta aşağı səviyyədə texnologiyanın tətbiqi və kənd təsərrüfatı məhsullarının dünya bazarında qiymətlərinin aşağı düşdüyü halda belə, bitkiçilik və heyvandarlıq məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsinə əlverişli şərait yaradılmasından ibarətdir. [2, s. 450] Neft bölməsinin gəlirlərinin gözlənilən artımı fonunda, aşağı səviyyəli texnologiya və texnoloji biliklər şəraitində, kənd təsərrüfatında yeni yaranmış sahibkarlıq qurumlarının investisiya resurslarına olan tələbatının ödənilməməsi iqtisadiyyatda struktur deformasiyalarının yaranmasına və qeyri-tarazlı inkişafa gətirib çıxaracaqdır. Neft gəlirlərinin artımının aqrar sahəyə mənfi təsirlərini neytrallaşdırmaq məqsədilə dövlətin zəruri tənzimləmə mexanizmləri həyata keçirilməli və kənd təsərrüfatına investisiya qoyuluşları stimullaşdırılmalıdır. Dövlətin aqrar sahədə investisiya siyasətinin başlıca məqsədi istehsalın və keyfiyyətin artırılması yolu ilə rəqabətə davamlı aqrar bölmə yaradılmasından ibarətdir. Aparılan tədqiqatlar göstərir ki, Azərbaycan kənd təsərrüfatı istehsalının mövcud səmərəliliyini artırmaq və beləliklə də öz müqayisəli üstünlük mövqelərini təkmilləşdirmək potensialına malikdir. Bu baxımdan aqrar sahə kənd əhalisi üçün uzunmüddətli məşğulluq şəraiti yarada bilər ki, bu da nəinki daxili tələbat üçün təminatlı ərzaq bazarı, həm də yüksək mənfəətli ixrac üçün məhsulların istehsalına yönələrək ixtisaslaşmış kənd təsərrüfatı yaradılması vasitəsilə əldə edilə bilər.

Aqrar sahənin məhsullarının keyfiyyəti yüksəldikcə onların istehsalının iqtisadi səmərəliliyi artır, keyfiyyətin yüksəlməsi əlavə xərc çəkmədən məhsul istehsalının artması deməkdir. Ona görə də məhsulun keyfiyyətinin yüksəldilməsi cəmiyyətin tələbatının ödənilməsi sahəsində yerinə yetirilməsi çox zəruri olan tədbirlərdən biridir. Bu tədbirlərin hər birinin elmi əsaslarla tə-

ləb olunan qaydada icra edilməsi aqrar sahədə iqtisadi səmərəliliyin təmin olunmasında həlledici rol oynayır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev. Kənd təsərrüfatı işçilərinə. Bakı, 30 oktyabr 2008-ci il.
2. Abbasov A.F. Ərzaq təhlükəsizliyi. Bakı, 2007-ci il, s.602.
3. Qafarov N.C. Aqrar iqtisadiyyat. Bakı, 2009.
4. Hacıyev Ə.H. Aqrar-sənaye kompleksinin iqtisadiyyatı. Bakı, 2006.
5. Niftullayev V.M. Sahibkarlığın əsasları. Bakı, 2002, s.618.
6. Ибрагимов М.А. Социально-экономическая эффективность аграрных реформ в Азербайджанской Республике ФГОУ. ВПОРГАУ - МСХА им К.А.Тимирязева. Москва - 2010

Тамелла Джалал кызы Аббасова
Азербайджанский Государственный
Экономический Университет кафедра
«Теоретическая и практическая экономика» д.ф.э.н.

Развитие аграрных отношений в Азербайджане и пути повышения инвестиционной привлекательности

Резюме

В статье, в контексте рыночных отношений, экономическая эффективность аграрного сектора, рост производительности - это необходимый вопрос. В то же время важно обеспечить устойчивое развитие сельского хозяйства и повысить инвестиционную привлекательность. Важнейшим вопросом является отражение внутренних и внешних факторов в развитии взаимоотношений и форм экономического сотрудничества между государством и аграрной и экономической эффективностью.

Ключевые слова: рыночные отношения, аграрные отношения, сельское хозяйство, социально-экономическая эффективность, инвестиции, производство.

Tamella Jalal Abbasova
the Azerbaijan State Economic University
"Theoretical and Practical Economy"
PhD in economics

Development of agrarian attitudes in Azerbaijan and the pitty art investment incentive

Summary

In the article, in the context of market relations, the economic efficiency of the agrarian sector, the growth of productivity is a necessary issue. At the same time it is important to ensure the sustainable development of agriculture and to increase investment attractiveness. The most important issue is the reflection of the internal and external factors in the development of mutual relations and forms of economic cooperation between the state and the agrarian and economic efficiency.

Key words: market relations, agrarian relations, agriculture, socio-economic efficiency, investment, production.

Aynur Əsgər qızı ADIGÖZƏLOVA
Azərbaycan Kooperasiya Universitetinin
"Mühasibat uçotu və audit" kafedrasının
baş müəllimi, dissertant

AQRAR SEKTORDA SEQMENT UÇOTUNUN TƏŞKİLİNİN BƏZİ ASPEKTLƏRİ

Xülasə

Aqrar sektorun ayrı-ayrı sahələrinə uyğun əməliyyat seqmentləri və coğrafi seqmentlərin müəyyən edilməsi məsələlərindən bəhs edilir. Burada seqment uçotunun təşkil edilməsi və seqmentar maliyyə hesabatının istifadə edilməsi nəticəsində gəlirliliyin yüksəlməsi və xərclərə qənaət edilməsi mənbələrinin aşkar edilməsi, aqrar müəssisənin daxili təsərrüfat strukturları arasında resursların optimal bölüşdürülməsi və ümumilikdə müəssisənin təsərrüfat fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi yolları göstərilir.

Açar sözlər: aqrar sektor, seqment uçotu, seqment hesabatı, əməliyyat seqmenti, coğrafi seqment, səmərəlilik.

Giriş

İqtisadiyyatın müxtəlif sahələrinə aid olan müəssisə və təşkilatlarda seqment uçotunun təşkil edilməsi onların daxili təsərrüfat subyektlərinin gəlirləri və xərclərinin formalaşması proseslərinin optimal idarə edilməsinə, bununla da təsərrüfat fəaliyyəti prosesindən alınan gəlirlərin artırılmasına, xərclərin ixtisar edilməsinə və ümumilikdə müəssisənin maliyyə nəticələrinin yaxşılaşdırılmasına, rentabelliyin daha da yüksəldilməsinə xidmət edir. Aqrar sektorun müəssisələrində təsərrüfatdaxili seqmentlərin müəyyən edilməsi və seqment uçotunun qurulması bir sıra özünəməsus xüsusiyyətlərə malikdir.

***

Aqrar sektorun müəssisələrində seqment müəssisənin gəlirləri və xərcləri ayrıca hesablanıla bilən qeyri-əlahiddə daxili təşkilat quruluşudur. Aqrar müəssisələrdə seqmentlər həm əməliyyat, həm də coğrafi əlamətlər üzrə müəyyən edilə bilər. Əməliyyat seqmentləri müəssisənin təsərrüfat fəaliyyətinin xüsusiyyətləri üzrə biri digərindən fərqlənən fəaliyyət növləri kimi qəbul edilə bilər. Coğrafi seqmentlər isə müəssisənin müxtəlif coğrafi məkanlarda yerləşən hissələri üzrə, ayrı-ayrı ərazilərdə göstərilən təsərrüfat fəaliyyəti üzrə təşkil edilə bilər. [1]

Aqrar sektorun emal müəssisələrində seqmentlər ayrı-ayrı məhsul növləri üzrə istehsal sahələri, ayrı-ayrı sexlər, ayrı-ayrı maddi-məsul şəxslərin öhdəsində olan istehsalat qurğuları və digər bu kimi emal sənayesi qurumları ola bilər.

Tədqiqat prosesində İsmayıllı rayonunun İvanovka kəndinə məxsus olan aqrar infrastruktur elementləri öyrənilmişdir. [2, 3] Bunun əsasında qeyd etmək olar ki, burada aqrar sektorun müəssisələrində seqmentlərin müəyyən edilməsi üçün zəruri şərait mövcuddur. Ümumilikdə İvanovka kəndinin iqtisadiyyatında həm kənd təsərrüfatı, həm emal və həm də ticarət sahələrinə aid edilə bilən əlahiddə təsərrüfat vahidləri vardır. Əgər bu təsərrüfat vahidlərinin hər birinin ayrı-ayrılıqda gəlirlərini və xərclərini müəyyən etməyə imkan verən informasiyaların formalaşdırılmasına şərait olsa, onda burada ayrı-ayrı seqmentlərin müəyyən edilməsi mümkün olar. Belə bir şəraitdə seqmentlərin müəyyən edilməsi yaşayış məntəqəsinin iqtisadiyyatının səmərəli inkişaf etdirilməsinin vacib şərtlərindən biridir, çünki aqrar sektorun kənd təsərrüfatı, emal və ticarət fəaliyyəti ilə birgə şəkildə məşğul olduğu müəssisələrdə maliyyə-təsərrüfat fəaliyyətinin səmərəli idarə olunmasında bir sıra çətinliklər meydana çıxır. Bunlara xas olan çətinliklərin sırasında maliyyə vəsaitlərinin istiqamətləndirilməsi, maliyyə mənbələrinin formalaşması barədə zəruri informasiyaların əldə edilməsi, gəlir və xərclərin büdcələşdirilməsi və digər bu kimi maliyyə-iqtisad xarakterli məsələlər xüsusi yer tutur. Bu tipli müəssisələrdə sadalanan xarakterə uyğun maliyyə-iqtisad yönümlü problemlərin həll edilməsində seqment uçotunun təşkili mühüm əhəmiyyətə malikdir, çünki müəssisənin hər bir seqmenti üzrə büdcələşdirmə proseslərinin optimallaşdırılması hesabına gəlir və xərclərin səmərəli idarə edilməsi ilk növbədə

ayrı-ayrı seqmentlər üzrə müvafiq informasiyaların formalaşdırılması və uçot qaydaları ilə işlənməsindən asılıdır.

İsmayıllı rayonunun İvanovka kəndinin coğrafi mövqeyi, əhalinin mədəniyyət, yaşayış və təsərrüfat ənənələri, kənd iqtisadiyyatının zaman-zaman formalaşması, inkişaf etdirilməsi və müasir vəziyyətə yetişməsi xüsusiyyətləri [3] göstərir ki, kəndin sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi və uzunmüddətli davamlı inkişaf meylinin gələcəkdə də davam etdirilməsi üçün bu kəndin iqtisadiyyatında aşağıda göstərilən əməliyyat seqmentlərinin müəyyən edilməsi və gələcəkdə N.V.Nikitin adına kolxozda burada göstərilən quruluşda seqment uçotunun təşkil edilərək, nəticədə hər bir seqment və alt seqment üzrə seqmentar maliyyə hesabatının işlənməsi məqsədəuyğundur:

1-ci seqment: kənd təsərrüfatı istehsalı fəaliyyəti;

A-alt seqmenti: heyvandarlıq məhsullarının istehsalı fəaliyyəti;

B-alt seqmenti: bitkiçilik məhsullarının istehsalı fəaliyyəti;

2-ci seqment: sənaye istehsalı fəaliyyəti;

A-alt seqmenti: emal sənayesi məhsullarının istehsalı fəaliyyəti;

B-alt seqmenti: digər məhsulların istehsalı fəaliyyəti;

3-cü seqment: ticarət və ictimai iaşə fəaliyyəti;

A-alt seqmenti: kənd təsərrüfatı və emal sənayesi məhsullarının satışı fəaliyyəti;

B-alt seqmenti: ictimai iaşə fəaliyyəti.

Yaşayış məntəqəsinin iqtisadiyyatında burada göstərilən fəaliyyət növlərindən kənar bəzi təsərrüfat əməliyyatları da baş verir ki, bunlar heç bir əməliyyat seqmentinə aid edilmir. Buna misal olaraq, idarə aparatının saxlanmasına çəkilən xərcləri göstərmək olar. Bununla yanaşı, aqrar iqtisadiyyatın daha çevik idarəedilməsi və bu prosesdə uçot-hesabat informasiyalarından daha səmərəli istifadə edilməsi məqsədi ilə hər bir alt seqmentin tərkibində yeni müstəqil seqmentlər də yaradıla bilər.

Nəticə

Bizim fikrimizcə, İsmayıllı rayonunun İvanovka kəndinin iqtisadiyyatı timsalında nəzərdən keçirilmiş aqrar sektorun emal və ticarət müəssisələrində seqmentlərin burada göstərilən prinsiplər üzrə müəyyənləşdirilərək, seqment uçotunun təşkil edilməsi və hər bir seqment üzrə seqmentar maliyyə hesabatının işlənməsi aqrar sektor iqtisadiyyatının dayanıqlığını möhkəmləndirər və maliyyə nəticələrini daha da yaxşılaşdırar.

ƏDƏBİYYAT

1. Kommersiya Təşkilatları üçün 34№-li Milli Mühasibat Uçotu Standartı. “Əməliyyat seqmentləri üzrə”. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin internet saytı. www.maliyye.gov.az. 11 s.
2. http://ismayilli-ih.gov.az/page/125.html
3. Emil Eyyubov. Azərbaycanın koloritli kəndləri: İvanovka və digər molokan kəndləri. Bakı, Azərbaycan Dövlət İnformasiya Agentliyi-AzərTAc <http://azertag.az/>, 15 mart 2018.

Айнур Аскер кызы Адыгезалова
диссертант кафедры «Бухгалтерского учета и аудита»
Азербайджанского Университета Кооперации

Некоторые аспекты организации сегментарного учета в аграрном секторе

Резюме

Рассматривается ряд особенностей сегментарного учета в предприятиях аграрного сектора. Здесь указываются некоторые вопросы определения операционных и географических сегментов, а также делается акцент на то, что в результате организации сегментного

бухгалтерского учета и сегментарной финансовой отчетности, повышается доходность и выявится новые источники сокращения расходов, обеспечиваются оптимальное распределение ресурсов между внутрихозяйственными структурными подразделением предприятия и, в целом, повышается эффективность его хозяйственной деятельности.

Ключевые слова: аграрный сектор, сегментный учет, сегментарная отчетность, операционный сегмент, географический сегмент, эффективность.

Aynur Asger Adigozalova
candidate for degree of
"Accounting and audit" department, ACU

Some aspects of segment accounting in the agrarian sector

Summary

A number of peculiarities of segmental accounting in the enterprises of the agrarian sector are considered. Here, some questions of defining operational and geographical segments are indicated, and also the emphasis is placed on the fact that as a result of organization of segment accounting and segmental financial reporting, profitability increases and new sources of cost reductions are revealed, optimal allocation of resources between the intra-enterprise structural subdivisions of the enterprise and, in In general, the efficiency of its economic activities is increasing.

Key words: ***agrarian sector, segment accounting, segment reporting, operating segment, geographical segment, efficiency.***

dosent Xalidə Mehdi qızı AĞAYEVA,
assistent Vüsal Eldəniz oğlu BAYRAMOV
Azərbaycan Texnologiya Universiteti

MƏHSULUN RƏQABƏT QABİLİYYƏTİ VƏ KEYFİYYƏTİNİ ARTIRAN XÜSUSİYYƏTLƏR

Xülasə

Məqalədə məhsulun mövcud qiymətlərlə qiymətləndirilməsində ümumi və xalis gəlirdən istifadə olması və məhsulun istehsalı, saxlanması, daşınması prosesində itkilərin azaldılması, marketinq əsasında məhsulun satışının təkmilləşdirilməsi üsulları, rəqabətqabiliyyətli məhsulun istehsal edilməsinin artırılması xüsusiyyətləri aşkara çıxarılır.

Açar sözlər: məhsul, rəqabət qabiliyyəti, keyfiyyət, təkrar istehsal, qiymət, gəlir.

Giriş

Bazar şəraitində müəssisənin fəaliyyəti onun davamlılıq vəziyyəti, əmtəə və xidmətlərin rəqabət qabiliyyəti səviyyəsi ilə müəyyən edilir. Bazara çıxarılmış hər hansı məhsul alıcıların tələbatını ödəməsi üçün sınaqdan keçirilir. Alıcı elə məhsul alır ki, onun tələbini daha çox ödəsin. Azərbaycanda aparılan uğurlu iqtisadi siyasət nəticəsində ölkə iqtisadiyyatı dinamik inkişaf edir, rəqabətqabiliyyətli məhsul istehsalının həcmi artır, ixrac imkanları genişlənir. Özəl sektora kompleks dövlət dəstəyi tədbirləri, məqsədli dövlət proqramlarının icrası, güzəştli kreditlərin verilməsi və s. kimi tədbirlər sahibkarlığın inkişafını stimullaşdırır, müasir texnologiyaların tətbiqinə əsaslanan iri istehsal müəssisələri yaradılır. Bu müəssisələrdə istehsal olunan rəqabətqabiliyyətli məhsullar dünyanın bir sıra ölkələrinə ixrac olunur. [3, s. 1].

MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Rəqabət qabiliyyətli məhsullar bazarda mövcud olan məhsullarla müqayisədə daha çox istehlak xüsusiyyətinə və yüksək istehlak tələbinə malik olan məhsullardır. Məhsulun rəqabətqabiliyyətliliyini rəqabətdə olan məhsullarla müqayisə etmək vasitəsilə müəyyən etmək olar.

Rəqabət qabiliyyəti iki əsas amillə müəyyən olunur:

1. Məhsulun keyfiyyəti;

2. Qiymət.

Məhsulun keyfiyyəti birbaşa onun istehlak dəyəri ilə əlaqədardır. İstehlakçı üçün əsas tələb məhsulun əmtəəlik olmasıdır. Məhsulların əmtəəlik keyfiyyəti bir sıra amillərdən asılıdır. Marketinq bazarın kompleks öyrənilməsini, mübadilə prosesini effektiv həyata keçirmək üçün istehlakçıların tələbatlarının müəyyən edilməsi üzərində qurulmuş elm sahəsidir. Marketinqə yönəlmiş məntiqi fəaliyyət sxemi belədir: ilk öncə istehsal olunacaq məhsula istehlakçı tələbi öyrənilir, sonra eyni əmtəə rəqabətçilərinin oxşar parametrləri qiymətləndirilir və sonda həmin məhsulun istehsalı və satışı haqqında düşünülür. Alqı-satqı zamanı mövcud olan əmtəənin bazar şəraitinə uyğunluğunu istehlakçı müəyyən edir. Əgər çoxlu sayda alıcı əmtəənin bazar şəraitinə uyğun olmasını təsdiq edərsə, deməli məhsul, əmtəə bir o qədər rəqabətqabiliyyətlidir.

Kənd təsərrüfatı məhsullarının rəqabətqabiliyyətliliyini digər amillərlə də müəyyən etmək olar: reklam, qablaşdırma və s.

Məhsulun keyfiyyəti - məhsulun təyinatına uyğun olaraq müəyyən tələbatı ödəmək qabiliyyətinə əsaslanan yararlılıq xassələrinin məcmusudur.

Alıcı o məhsulları keyfiyyətli hesab edir ki, təyinat tələbindən asılı olmayaraq onun istehlak şərtini ödəyir. Eyni malın keyfiyyəti bir məqsəd üçün istifadə ediləndə yüksək keyfiyyət təyinatlı olur. Amma başqa məqsədlər üçün istifadə edildikdə aşağı keyfiyyət kimi özünü göstərir. Yəni istehsal olunan hər hansı bir məhsul təyinatında göstərilən məqsədə xidmət edilməsi həcmində keyfiyyətlidir. Alıcı üçün məhsulun rəqabətqabiliyyəti onların maraq doğuran xüsusiyyətləri ilə (ölçüsü, yeniliyi və s.) müəyyən edilir.

Rəqabət bazarının inkişafı istehlakçılardan məhsulun keyfiyyətinin yaxşılaşdırılmasını və faydalılığının artırılmasını tələb edir. [1, s. 274] Buna görə də əmtəə istehsalçıları keyfiyyətin və onun idarə edilməsinin planlaşdırılmasını düzgün aparmalı, müvəffəqiyyət əldə etmək üçün daha qənaətli variant seçməlidir. Bütün bu problemlər o zaman həllini tapır ki, müəssisələrdə keyfiyyət standartları tətbiq edilsin.

Standartlaşdırma - tələblərin normal qaydada səciyyəvi xüsusiyyətləri və bərpasına, qurulmasına istiqamətlənmiş fəaliyyətdir. Bu, istehlakçının əmtəəni əldə etmə hüquqlarının təmin edilməsidir və onun münasib qiymətə alınması keyfiyyətini təmin edir.

Məhsulun keyfiyyətinin daim yaxşılaşdırılmasına və təminatına həlledici təsir edən amil əmək resurslarının tərkibinin təkmilləşdirilməsidir.

Aqrar sferanın tənzimləyici mexanizmlərindən biri də qiymətdir. İstehsal xərclərinin ödənməsi və müəssisənin gəlirləri qiymətdən asılıdır. Qiymət mexanizmi aqrar sferanın müəyyən növ məhsullarının istehlakçısı və ya istehsalçısı rolunda çıxış edən ayrı-ayrı müəssisələrin sahələri arasındakı qarşılıqlı iqtisadi münasibətlərin xarakterini müəyyən edir.

Aqrar sferada qiymətlər kənd təsərrüfatı və onun digər sahələri arasında ekvivalent rolunu oynayır və kompleksin son nəticələrini özündə əks etdirir. Qiymətlərin səviyyəsi elə olmalıdır ki, məhsul artımı və onun keyfiyyətinin yaxşılaşdırılması, məsrəflərin azaldılması aqrar sferanın bütün bölmələrini maraqlandırsın. Aqrar sferada fəaliyyət göstərən müəssisələrin məhsulunun qiymətinin yüksəlməsi həmin məhsulun istehsalının artmasını stimullaşdırır. Kənd təsərrüfatı məhsullarının qiymətinin dəyişməsi aqrar sferada istehsal və digər sahələrə material resurslarının axınının yenidən bölüşdürülməsinə şərait yaradır.

Bazarda qiymətlərin dəyişməsi əmtəə və xidmətlərin həcmini artırıb-azaldaraq tələb və təklif kəmiyyətlərinin tarazlaşmasına səbəb olur. Qiymətlərin tənzimlənməsinin əsas metodu ərzaq məhsullarına ticarət əlavələrinin müəyyən ölçüsünün və ya bəzi məhsulların rentabelliyinin son həd səviyyəsinin müəyyən edilməsindən ibarətdir. Ayrı-ayrı istehsal sahələrinə dotasiyaların təqdim edilməsi də qiymətlərin tənzimlənməsi ilə bağlıdır.

Ərzaq təminatının yaxşılaşdırılması məqsədilə ilk növbədə ölkədə aqrar sahibkarlığın inkişafı, ev təsərrüfatlarının iqtisadi imkanlarından daha səmərəli istifadə edilməsi, yerli ərzaq növlərinin istehlak və istehsalına üstünlük verilməsi üçün əhalinin istehlak vərdişlərinin dəyişdirilməsi sahəsində sistemli tədbirlər həyata keçirilməlidir.

Qida sənayesinin ölkədə inkişafı müxtəlif iş yerlərinin yaranması ilə yanaşı, həmin ölkənin səmərəli və məhsuldar torpaqlarından yararlanması deməkdir. Qida sənayesi həm də dövlətin iqtisadi baxımdan güclənməsi ilə yanaşı, insanların rifah halının yüksəlməsinə təsir göstərən amildir. Kənd təsərrüfatı dinamik şəkildə inkişaf etdirilməlidir ki, ölkənin ərzaq təhlükəsizliyi təmin edilsin.

Sabit və adekvat ərzaq təklifi, ilk növbədə aqrar sektorda intensiv geniş təkrar istehsalın, o cümlədən kənd təsərrüfatı məhsullarının istehsalının və emalının inkişaf etdirilməsi yolu ilə əldə olunmalıdır. Bu zaman tələbatın bir hissəsi xarici asılılığı nəzarətdə saxlamaqla idxal hesabına ödənməlidir.

Ərzaq təklifi kəmiyyətcə qənaətbəxş səviyyədə olmaqla yanaşı həm də keyfiyyətcə müasir tələblərə cavab verməli, ölkə əhalisi ekoloji təmiz məhsullarla təchiz edilməlidir. Bunun üçün keyfiyyətə və təhlükəsizliyə səmərəli nəzarət sistemi qurulmalıdır. Beynəlxalq təcrübə göstərir ki, etibarlı ərzaq təminatı sisteminin ən mühüm elementlərindən biri ehtimal olunan risklərin səmərəli şəkildə idarə edilməsindən ibarətdir. [2, s. 112].

Nəticə

Məhsulun keyfiyyətinin daim yaxşılaşdırılmasına və təminatına həlledici təsir edən amil əmək resurslarının tərkibinin təkmilləşdirilməsidir. Unutmaq lazım deyil ki, yerinə yetirilən işin keyfiyyətli olması maddi həvəsləndirmədən asılıdır. Əmək haqqı ödəmələrinin səviyyəsini işin və istehsal edilmiş məhsulun keyfiyyəti ilə əlaqələndirmək lazımdır. Etibarlı, yüksək məhsuldar texnika, vaxtında optimal müddətə aqro-texniki əməliyyatları keyfiyyətli yerinə yetirməyə, bir sözlə, məhsulun keyfiyyətinin yüksəldilməsinə imkan verir. Birbaşa keyfiyyəti yaxşı olan məhsulun alınmasına təsir göstərən əsas və maddi dövriyyə vəsaitləri daha yüksək keyfiyyət xarakteristikasına malik olmalıdır.

Aqrar sahədə istehsal olunan məhsulun rəqabət qabiliyyəti və keyfiyyətinin artırılma xüsusiyyətləri böyük əhəmiyyət kəsb edir. İrəli sürülən təkliflər əsasında kənd təsərrüfatı sahəsində xammalın əldə olunmasının səmərəliliyi, məhsul istehsalında təkmilləşdirilmiş avadanlıqlardan istifadə olunması ilə keyfiyyətli məhsul istehsalının artmasına istiqamətlənmişdir.

Aqrar sferada kənd təsərrüfatı məhsullarının qiymətinin tənzimlənməsi, bazara çıxarılan məhsulların keyfiyyətinin yaxşılaşdırılması, müasir standartlara cavab verən istehsal və texniki vasitələrdən səmərəli istifadə etməklə istehlakçıların tələbatına uyğun faydalı məhsulların istehsal olunmasına təkan verir.

ƏDƏBİYYAT

1. E.Quliyev. Aqrar iqtisadiyyat. Ali məktəblər üçün dərslik. Bakı: “Kooperasiya” nəşriyyatı, 2015. 320 s.
2. İ.Ş.Qarayev, Ə.H.Hacıyev, S.N.Əliyev, V.M.Xəlilov, L.S.Amanova, N.K.Eyvazova. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Dərslik. Bakı: “İqtisad Universiteti” nəşriyyatı, 2011. - 522 s.
3. az.trend.az saytında verilən biznes və iqtisadiyyat xəbərləri bölməsində yerləşdirilən “Aqrar-sənaye kompleksinin rəqabətqabiliyyətinin artırılması” mövzusunda keçirilən müzakirə. https://az.trend.az/business/economy/2320722.html

Халида Мехди кызы Агаева,
Вусал Элданиз оглы Байрамов
Азербайджанский Технологический Университет

Свойства продукта, повышающие его качество и конкурентоспособность

Резюме

В статье используется общий и чистый доходы для оценки текущих цен продукта и снижения потерь в при производстве, хранении, транспортировке, способах улучшения

продаж продукции на основе маркетинга и способности увеличить производство конкурентоспособной продукции.

Ключевые слова: продукт, конкурентоспособность, качество, воспроизведение, цена, доход.

Khalida Mehdi Agayeva
Vusal Eldaniz Bayramov
Azerbaijan Technological University

Features increasıng competitiveness and quality of the product

Summary

The article discusses the use of general and net income to estimate current product prices and reduce losses in production, storage, transportation, ways to improve sales of products based on marketing and the ability to increase the production of competitive products.

Key words: product, competitiveness, quality, reproduction, price, revenue.

Elnur Abil oğlu MƏMMƏDOV
iqtisad üzrə fəlsəfə doktoru,
Azərbaycan Kooperasiya Universiteti

AQRAR SAHƏDƏ RİSKLƏRİN İDARƏ OLUNMASINA HOLİSTİK YANAŞMALAR

Xülasə

Aqrar sahədə risklərin idarə olunması məsələləri, o cümlədən müxtəlif risk növlərinin fərqləndirilməsi, onlar arasında olan qarşılıqlı təsir və asılılıq əlaqələrinin müəyyənləşdirilməsi və ayrı-ayrı risk növləri üzrə fərqli strategiyaların formalaşdırılması ilə bağlı mühüm məqamlar burada klassik əsaslı modern "holistik yanaşma" kontekstində tədqiq olunur. Risklərin idarə olunmasına "xətti yanaşma"dan fərqli olaraq daha optimal məzmunlu sayılan "holistik yanaşma"ya üstünlük verilməsinin zəruriliyi burada müxtəlif aspektlərdə əsaslandırılır. Risklərin idarə olunmasının "holistik sistemi" isə onun ehtiva etdiyi üç əsas istiqamət - risk mənbələrinin müəyyənləşdirilməsi, potensial risklərin qarşısının alınması və ya artıq ortaya çıxmış risklərin isə təsirinin neytrallaşdırılması məqsədilə müvafiq konkret strategiyaların işlənib hazırlanması və bu sahədə institutsional dövlət dəstəyi alətlərindən faydalanılması üzrə məsələlərin qarşılıqlı surətdə əlaqələndirilməsi əsasında geniş şərh olunur.

Açar sözlər: aqrar sektor, risk, menecment, xətti yanaşma, holistik yanaşma, strategiya, institutsional dəstək.

***

İnsan həyatının və fəaliyyətinin ən müxtəlif tərəflərini ehtiva edən bu və ya digər risk amilləri onun qidalanma kimi zəruri fizioloji ehtiyacının ödənilməsində əvəzolunmaz rol oynayan ərzaq məhsullarının ilkin formalaşma mənbəyi hesab olunan torpaq amilindən və bu amil üzərində qərarlaşan müvafiq fəaliyyət sahəsindən - kənd təsərrüfatından nəinki yan keçmir, əksinə, sosial-iqtisadi fəaliyyətin bu sahəsi digər fəaliyyət sahələri ilə müqayisədə ən müxtəlif məzmunlu, xüsusilə də insan iradəsindən asılı olmayan təbii amillərə daha çox həssas olması ilə seçilir. Konkret olaraq "risk" məfhumu ən müxtəlif mənalarda ifadə olunur ki, onların da arasında həmin anlayışın daha çox "gözlənilməz və xoşagəlməz meyllərin meydana gəlməsi ehtimalı və potensialı" kimi səciyyələndirilməsi xüsusilə seçilir.

Risk idarəetməsində modern yanaşma tərzlərindən olan "holistik risk menecmenti" yanaşmasının əsasını isə "holistik düşüncə" və ya başqa sözlə desək, "holizm" ideyası təşkil edir. "Holistik düşüncə" və ya "holizm" ideyası mahiyyət etibarilə idealist oriyental fəlsəfi baxışlardan təsirlənərək ortaya çıxan postmodern elmi yanaşma hesab olunur. Etimoloji baxımdan "holizm"

ifadəsi yunan mənşəli və hərfi mənası "bütöv" və "tam" olan "holos" sözündən formalaşmışdır. Sözün geniş mənasında isə "holizm" və ya "holistik düşüncə" öz ideyalarına görə emercent təkamülünə yaxın olan və vahid bir tamlığın həmin tamlığı formalaşdıran ünsürlərin məcmusundan daha üstün və bütöv bir mahiyyətə malik olduğunu ifadə edən fəlsəfi baxış və dünyagörüşüdür. Holistik fəlsəfi baxış konsepsiyası ilk dəfə antik dövr yunan filosofu və mütəfəkkiri Aristotelin "Metafizika" əsərində "bütöv və tam olan hər hansı bir vahid onu təşkil edən elementlərin cəmindən çoxdur" tezisi şəklində yer almışdır. [2] Məsələn, "vahid olan kainat onu təşkil edən bütün kosmik cisimlərin və sistemlərin cəmindən çoxdur" tezisi holistik baxışa əyani misal olaraq göstərilə bilər. Daha öncə vurğulanan "emercentlik prinsipi" isə holistik yanaşmada əsas istinad nöqtəsi kimi çıxış edir. Sistem nəzəriyyəsində isə "emercentlik prinsipi" hər hansı bir sistemin komponentlərinin məcmu halında nəzərə alınmasını ehtiva edir.

Elmi-nəzəri yanaşmalarda holistik baxışa əks mövqedə olan "reduksionizm" yanaşmasından da istifadə olunur ki, bu da müvafiq qərarların qəbulu məqsədilə bütöv bir sistemin yalnız ən mühüm elementlərinin tədqiqinə və öyrənilməsinə əsaslanır.

Milli iqtisadiyyatın aqrar sektorunun inkişaf etdirilməsi məqsədilə sahə üzrə potensial risklərin qarşısının alınmasına istiqamətlənmiş adaptiv və səmərəli idarəetmə sistemlərinin formalaşdırılmasına xüsusi ehtiyac duyulur. Kənd təsərrüfatında mövcud olan və xüsusilə də gizli xarakter daşıyan risklərin, o cümlədən bazara daxilolma ilə bağlı olan qeyri-sabit xərclər, dəyəri aşağı düşən təbii aktivlər, iqlim dəyişkənliyinə qarşı müvazinətsizlik, ətraf mühitlə bağlı olan qarşılıqlı neqativ təsirlər, istehlakçı meyllərinin dəyişilməsi tendensiyası və s. kimi risk növlərinin birgə surətdə nəzərə alınaraq öyrənilməsi isə məhz "holistik risk idarəetməsi", başqa sözlə desək, "holistik risk menecmenti" çərçivəsində təmin olunur. [9]

Qarşılıqlı təsir və asılılıq baxımından sıx əlaqədə olan bu və ya digər risk növlərinin nəinki kompleks şəkildə nəzərə alınması, hətta bu məsələdə daha da dərinləşdirilmiş, yəni, sistemli yanaşmanın tətbiqi isə məhz "holistik risk idarəetməsi" çərçivəsində təmin oluna bilər. Məhz bu zərurətdən irəli gələrək kənd təsərrüfatının idarə olunması üzrə müasir dünya təcrübəsində təqdirəlayiq olaraq "holistik menecment" konsepsiyasından geniş şəkildə istifadə olunur. "Holistik menecment" kənd təsərrüfatına yönəldilən investisiyaların rentabelliyini, təhlükəsizliyini və dayanıqlılığını yüksəltməyə də zəmin yaradır. "Holistik menecment" yanaşması "daha az risk, daha çox mənfəət" tezisinə dayanmaqla, onun tətbiqi kənd təsərrüfatında riskləri azaldır, bu sahə təbii amiilərə, o cümlədən quraqlıq, fırtına, soyuq və ya isti hava ilə bağlı olan təhlükələrə, həmçinin xəstəlik və zərərvericilərə qarşı və hətta neft qiymətlərinin tərəddüdləri fonunda da daha çox dayanıqlı olur. [12] Hətta dayanıqlı kənd təsərrüfatı sistemi də özü-özlüyündə bu sahəyə holistik yanaşmanın əyani ifadəsi olmaqla, ziyanvericilərlə mübarizə, torpağın sağlamlığı, mədəni ənənələr, fermer təsərrüfatlarının uzunmüddətli həyat fəaliyyətinin təmin olunması və s. kimi mühüm məqamları özündə ehtiva edir. [14] Məhz "holistik menecment" sayəsində hər bir fermer özünün unikallığını təmin etməklə yanaşı, ən müxtəlif risklərin minimallaşdırılmasına və ayrı-ayrı resurs növlərinin öz hüquqi maraqları müstəvisində mənimsənilməsinə və istifadəsinə nail ola bilər.

"Holistik menecment" istər kənd təsərrüfatında, istərsə də digər fəaliyyət sahələrində iqtisadi, ekoloji və sosial cəhətdən əsaslandırılmış qərarların qəbul edilməsini də özündə ehtiva edir. Əslində isə "holistik menecment" konsepsiyasının əsasında ətraf mühitin mühafizəsi dayanmış olsa da, onun tətbiqi özündə insan həyatının maddi-fiziki, mənəvi-psixoloji, sosial-iqtisadi və s. tərəflərini, o cümlədən ev təsərrüfatlarını, kənd və şəhər yerlərində fəaliyyət göstərən təsərrüfat subyektlərini, dövlət və hökumət qurumlarını, sosial təyinatlı fəaliyyət subyektlərini, o cümlədən təhsil və səhiyyə obyektlərini və s. ehtiva edir. [3]

"Holistik menecment" ekoloji, iqtisadi və sosial faydaların əldə edilməsi məqsədilə fermerlərə və digər torpaq sahiblərinə onların kənd təsərrüfatı üzrə resurslarını daha optimal şəkildə idarə etmələrinə zəmin yaradan bütöv bir təsərrüfat planlaşdırması sistemidir. Gözlənilən faydaların bu "üçqat xəttinə" isə mövcud resursların idarə olunmasında səmərəliliyi maksimum dərəcədə artırmaqla nail oluna bilər. "Holistik idarəetmə" ilə bağlı olan çoxsaylı eksperimentlər bir qayda olaraq torpaq, insanlar və maddi-maliyyə resursları arasında qarşılıqlı əlaqələrin daha

dərindən dərk olunması üçün işlənib hazırlanır və həyata keçirilir. Həmin təcrübələr isə müvafiq nəticələrə nail olmaq üçün zəruri olan resursları, prosesləri və sistemləri müəyyən edən holistik məqsədləri təyin edirlər. Bütövlükdə isə holistik idarəetmənin təməl ünsürləri qismində maliyyə planlaşdırılması, torpaq planlaşdırılması və bioloji monitorinq tədbirləri çıxış edirlər. [13] Hətta, Dünya Bankının holistik landşaft yanaşması üzrə xüsusi olaraq diqqət yetirdiyi məqamlardan biri də kənd təsərrüfatında risklərin sığortalanması vasitəsilə bu sektorda bütöv bir landşaft yanaşmasının praktiki surətdə tətbiqinə və ekoloji təmiz kənd təsərrüfatının formalaşdırılmasına dəstəyin təmin olunmasıdır. [7]

Müxtəlif fəaliyyət sahələrində, o cümlədən kənd təsərrüfatında uğurla tətbiq olunan və orqanik məhsul istehsalı prosesində təbii, ekoloji, iqtisadi, sosial və digər çoxsaylı amilləri də nəzərə alan, eləcə də bütövlükdə aqrar sahədə resursların və risklərin idarə olunmasına sistemli yanaşma kimi çıxış edən "holistik menecment" konsepsiyasının isə dünya miqyasında tanınmış Zimbabve ekoloqu, pedaqoqu və özünün adı ilə bağlı olan Savori İnstitutunun həmtəsisçisi və prezidenti Klifford Allan Redin Savori tərəfindən hələ 1960-cı illərdə irəli sürülmüş olmasına baxmayaraq, bu konsepsiya müasir dövrdə də öz aktuallığını nəinki qoruyub-saxlamış, o eyni zamanda modern kənd təsərrüfatının formalaşdırılmasının başlıca şərtləndirici elementlərindən biri kimi də çıxış etməkdədir. [11] Hətta sırf humanizm dəyərlərinə əsaslanan orqanik kənd təsərrüfatı sisteminin özü də bəzən kənd təsərrüfatında holistik yanaşmanın prototipi olaraq səciyyələndirilir.

İstər aqrar sahədə, istərsə də sosial-iqtisadi həyatın digər sferalarında istənilən cari və ya gözlənilməz konkret situasiyalarla bağlı olaraq inteqral əsaslı, dinamik və eyni zamanda çevik konseptual yanaşmaların seçilməsi tələb olunur. Məhz bu nöqteyi-nəzərdən yanaşıldıqda kənd təsərrüfatında risklərin idarə edilməsi modelinin formalaşdırılması üçün holistik paradiqmaya əsaslanan xüsusi idarəetmə konsepsiyasının işlənib hazırlanması zərurəti də meydana çxır.

Müasir informasiya çağında risklərin idarə edilməsi strategiyaları bir qayda olaraq kənd təsərrüfatında fəaliyyətin idarə edilməsinə təsir göstərən biznes əməliyyatları üzrə müxtəlif risk növlərinə və onların qarşılıqlı təsirinə holistik məzmunlu geniş baxış əsasında formalaşdırılmalı və inkişaf etdirilməlidir. Belə ki, daha öncəki tarixi dövrlərdən fərqli olaraq müasir informasiya əsrində biznes risklərinin struktur quruluşu onlar üzrə istənilən strategiya təşəbbüsünün formalaşdırılması zamanı kənd təsərrüfatı üçün çoxölçülü risk ehtimalının mümkünlüyünü də nəzərə almaqla müvafiq risklərin azaldılmasını tələb edir. Risklərin kompleks surətdə idarə edilməsi ayrı-ayrı risklərdən dolayı ortaya çıxa biləcək potensial təhdidlərin müəyyənləşdirilməsinə də kömək edir ki, bu da öz növbəsində sonradan qəbul olunacaq iqtisadi qərarların icrası üzrə rasional və səmərəli gözləntilərin real surətdə təmin olunmasına əlverişli zəmin yaratmış olur. İnteqrasiya olunmuş vahid risk menecmenti perspektivdə fermer təsərrüfatının formalaşdırılması üzrə biznes strategiyasına dair bir sıra qeyri-müəyyənliklərin aşkara çıxarılması və qiymətləndirilməsi üçün xüsusi bir çərçivənin müəyyənləşdirilməsini də təmin edir. Belə bir mühüm problemə holistik yanaşma isə müvafiq problemin daha üstün və optimal həll yolunun müəyyənləşdirilməsinə və kənd təsərrüfatı üzrə risklərdən təsirlənən və onları idarə etmək üçün tədbirlər görən bütün maraqlı tərəfləri bu prosesə cəlb etmək üçün qarşılıqlı münasibətlərin formalaşdırılmasına, risklərin tam spektrini nəzərdən keçirməyə, risk menecmenti üzrə müxtəlif strategiyaları təhlil etməyə və risklərin idarə edilməsi prosesinin ən müxtəlif mərhələlərinin mahiyyətinin daha dərindən dərk olunmasına zəmin yaradır. Kənd təsərrüfatında risklərin idarə edilməsi özü-özlüyündə konkret surətdə fermerlərə dəstək məqsədli olmaqla kifayətlənməməli və müvafiq sahədə sosial-iqtisadi inkişaf prosesində nail olunmuş səmərəliliyin daha da yüksəldilməsinə istiqamətlənməlidir. Əks təqdirdə isə bu, kənd təsərrüfatı sektorunda artan risk dəyişkənliyini daha da dərinləşdirməklə yanaşı, eyni zamanda inkişafa, iqtisadi artıma və yoxsulluğun azaldılmasına ciddi maneə ola bilər. [8]

Aqrar sahədə risklərin idarə olunması sisteminin formalaşdırılması ilk növbədə, bu istiqamətdə konseptual əsasların müəyyənləşdirilməsini nəzərdə tutmalıdır. Nəticə etibarilə isə, aqrar sektorda risklərin idarə olunması konsepsiyası bu sahədə fəaliyyət göstərən subyektlərin, o

cümlədən, fiziki və hüquqi şəxslərin, xüsusilə də fərdi fermer təsərrüfatlarının dayanıqlı fəaliyyətə nail olmalarını təmin etməlidir.

Risklərin idarə olunmasının holistik sistemi özündə üç əsas istiqaməti - çoxsaylı risk mənbələrinin müəyyənləşdirilməsini, müvafiq potensial risklərin qarşısının alınması və ya artıq ortaya çıxmış risklərin isə təsirinin neytrallaşdırılması məqsədilə konkret strategiyaların işlənib hazırlanmasını və bu sahədə müvafiq dövlət siyasəti istiqamətlərinin, o cümlədən institutsional dəstək alətlərinin seçilməsini və onlardan faydalanılmasını ehtiva etməlidir. Kənd təsərrüfatı məhsulları istehsalına dair hər hansı bir qərar və fəaliyyət planı isə müxtəlif ehtimallar əsasında potensial nəticələrlə əlaqələndirilməlidir. [5] Məhz bu aspektdən yanaşıldıqda aqrar sahədə risk menecmenti sırf emercent effektinə dayanaraq risklərin ilkin mənbələrinin müəyyən olunması, ayrı-ayrı risk növlərinin təsirinin neytrallaşdırılması üzrə mövcud vasitələrdən istifadəni ehtiva edən strategiyaların işlənib hazırlanması və bu istiqamətdə müvafiq dövlət dəstəyinin təmin olunması da daxil olmaqla üç əsas istiqamət arasında kompleks və sistemli əlaqələrin qurulması şəklində xarakterizə olunur. Bu mənada, aqrar sahə üzrə risk menecmenti müvafiq bazar şərtlərinin və dövlət dəstəyi tədbirlərinin fermerlərin riskləri və fəaliyyət strategiyaları ilə qarşılıqlı surətdə uzlaşdırılması sistemi qismində də çıxış etməlidir. Belə bir mürəkkəb sistemin formalaşdırılması isə birmənalı olaraq müvafiq dövlət dəstəyi tədbirlərini və təsərrüfat subyektlərinin risklərinin idarə olunması kimi məsələləri özündə ehtiva edən istehsal və bazar fəaliyyəti strategiyaları arasındakı uzlaşdırılma şərtlərinin sadələşdirilməsi istiqamətində səylərin göstərilməsindən də əhəmiyyətli dərəcədə asılıdır. Bu isə özü-özlüyündə kənd təsərrüfatında "holistik risk menecmenti"nin formalaşdırılmasının ən əsas şərtləndirici amili kimi çıxış edir.

Risklərin idarə olunması təcrübəsində əsas etibarilə iki - "xətti" və "holistik" yanaşmadan istifadə olunur. Belə ki, "xətti yanaşma" əsasında aparılan təhlillər yalnız konkret bir risk növünü, məhz həmin risk növü üzrə konkret strategiyanı və müvafiq olaraq institutsional dəstək timsalında dövlətin yalnız bir stimullaşdırıcı tədbirini əhatə etdiyi halda, "holistik yanaşma"ya əsaslanan təhlillər zamanı isə yalnız konkret deyil, çoxsaylı risk mənbələri, həmin risklərin təsirinin neytrallaşdırılması üzrə çoxsaylı strategiyalar və çoxsaylı müvafiq dövlət dəstəyi tədbirləri qarşılıqlı təsir və asılılıq əlaqəsində nəzərdən keçirilir.

Kənd təsərrüfatı ilə bağlı olan risklər bir-birilə sıx əlaqəlidir, onlar bəzən bir-birlərinin təsirini artırır və ya bir-birlərini kompensasiya edirlər. Məsələn, müəyyən xammallar, məsələn, mineral gübrələr və kənd təsərrüfatı məhsulları üzrə qiymətlərin artımı mənfəət həcminin azalmasına səbəb ola bilər. Lakin, istehsal risklərinin qiymət tərəddüdləri ilə kompensasiyası da mümkündür ki, bu da məhsuldarlığın aşağı düşdüyü təqdirdə belə, bazarda yüksək qiymətlərin mövcudluğu sayəsində fermerlərin gəlirlərinin artımının təmin olunması və ya ən pis halda isə sabit qalması timsalında özünü büruzə verə bilər. [1]

Kənd təsərrüfatında risklərin idarə olunması üzrə strategiyaların formalaşdırılması zamanı müvafiq risklərin və onların təzahür mənbələrinin qiymətləndirilməsinə də xüsusi diqqət yetirilməlidir. Həmin strategiyalar ayrı-ayrı risklərin təsirinin qarşısının alınması məqsədilə təsərrüfat subyektinin aktivlərindən yararlanılması, o cümlədən, həmin aktivlərdən optimal səviyyədə istifadə imkanlarının konkretləşdirilməsi, gözlənilməz neqativ tendensiyalara qarşı preventiv tədbirlərin seçilməsi və s. kimi mühüm istiqamətləri özündə ehtiva etməlidir. Müvafiq strategiyalar həmçinin, fermer təsərrüfatlarının fəaliyyətinin diversifikasiyasına istiqamətlənmiş metodların konkretləşdirilməsini də nəzərdə tutmalıdır.

Risklərin idarə olunmasında tənzimləyici dövlət müdaxiləsi meylləri və bazar alətlərindən istifadə isə bu prosesdə ictimai iştirakı istisna etmədən təmin olunmalıdır. Belə ki, fermerlər risklərin idarə olunması ilə bağlı olaraq öz üzərlərinə düşən məsuliyyətin real surətdə ifadəsini təmin etməli, müvafiq dövlət dəstəyi tədbirləri isə fermer təsərrüfatları ilə bağlı olan ayrı-ayrı risklərin korrelyasiyasına istiqamətlənməlidir. Məhz müxtəlif dövlət siyasəti alətləri və proqramları ilə dəstəklənən bazar mexanizmləri vasitəsilə risklərin birbaşa və ya dolayı yollarla azaldılmasına nail olmaq mümkündür. Lakin bununla yanaşı, kənd təsərrüfatı üzrə müvafiq risklərin məhz dövlət dəstəyi proqramları vasitəsilə aradan qaldırılmasına olan bu və ya digər dərəcədə ifrat arxayınçılığın isə fermerlərin risklər üzrə əlavə strategiyaları formalaşdırmalarına

olan marağını azalda biləcəyi də istisna olunmamalıdır. Dövlət siyasəti tədbirləri ayrı-ayrı risklərə fərdi əsaslarla yanaşmamalı və müxtəlif risklərin ümumi quruluşunu, eləcə də onların fermerlərin fəaliyyətinə mümkün təsirlərini də nəzərə almalıdır. Məhz bu nöqteyi-nəzərdən yanaşıldıqda, aqrar sahədə dövlət dəstəyi də holistik yanaşma əsasında həyata keçirilməli və bu çərçivədə fermerlərə maliyyə, sığorta, institutsional və digər istiqamətlərlə yanaşı, risklərin qiymətləndirilməsi və idarə olunması məsələləri üzrə də dəstək təmin olunmalıdır. Konkret olaraq dövlətin sırf sığorta sahəsində dəstəyi isə həmçinin, müvafiq sığorta proqramlarında olan mümkün informasiya asimmetriyalarının aradan qaldırılmasına da istiqamətlənməlidir. Bu isə ilk növbədə, bir çox hallarda hətta sığorta şirkətləri tərəfindən də qiymətləndirilməsi olduqca çətin olan mənəvi təhlükələrə və zərərlərə səbəb olan risklərin meydana gəlməsinin, eləcə də arzuolunmaz seçimlərin istisnasızlığı ilə əlaqələndirilə bilər. Xüsusilə də təbii amillərlə bağlı olan bu və ya digər risk ehtimallarının təsirinin qismən də olsa neytrallaşdırılması məqsədilə müvafiq dövlət qurumu tərəfindən meteoroloji məlumatların kənd təsərrüfatı məhsulları istehsalçılarına operativ surətdə ötürülməsi ilə bağlı institutsional dəstək təmin olunmalıdır. Lakin fermerlərin bu və ya digər hallarda sırf dövlət dəstəyinə olan kortəbii arxayınçılıqları onların üzləşmiş olduqları zərərlərin aradan qaldırılması ilə bağlı fərdi məsuliyyətini və təşəbbüslərini bəzən məhdudlaşdırmış və ya zəiflətmiş olur. [4]

Aqrar sahədə risk menecmenti kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ilə məşğul olan subyektlərin aktivlərinin qorunması, yerli bazarların fəaliyyətinin stimullaşdırılması, aqroservis, maliyyə, sığorta, institutsional və s. məzmunlu xidmətlərin göstərilməsinin dəstəklənməsi, risklərin ötürülməsi, onların sayının azaldılması, müvafiq risklərin minimal həddə saxlanılan təsirinin davametmə müddətinin uzadılması və innovasiyalı texniki dəyişikliklərin dəstəklənməsi kimi mühüm məsələlərin həllinə də istiqamətlənməlidir.

Risklərin neqativ təsir ehtimallarının və nəticələrinin minimuma endirilməsi öz növbəsində bəzən müvafiq ixtisaslaşma proseslərinə, eləcə də məhsuldarlığın artımına maneə yarada bilər ki, bu da ölkədə yoxsulluq kimi ciddi sosial problemin ortaya çıxmasına və tədricən gərgin xarakter almasına yol açmış olar. [10]

Holistik yanaşmanın təməl prinsipini müvafiq obyektlər üzrə struktur elementlərinə konkret vahid bir sistemin elementləri kimi və onlar arasındakı qarşılıqlı təsir və asılılıq əlaqələri müstəvisində baxılmasının təşkil etdiyini nəzərə alaraq, risklərin idarə olunması istiqamətində başlıca siyasət xətti ən müxtəlif risk mənbələri ilə bağlı olan idarəetmə strategiyalarının, dövlət dəstəyi proqramlarının və tənzimləmə alətlərindən istifadənin səmərəliliyinin qiymətləndirilməsinə istiqamətlənməlidir.

Holistik yanaşmadan istifadə etməklə aqrar sahədə risklərin müxtəlif aspektlərdə təhlili aparıla bilər ki, onların da arasında iki mühüm istiqamət xüsusilə seçilir. Bunlardan birincisi, aqrar sahədə risklərin idarə olunmasına tematik aspektdən yanaşılması, ikincisi isə, risklərin konseptual strukturuna istinad edərək onların empirik modellər əsasında təhlilinin aparılmasıdır. Hər iki təhlil istiqaməti hətta İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Kənd Təsərrüfatı üzrə Komitəsinin işçi proqramında da xüsusi yer tutur. [6]

Aqrar sahədə risklərin idarə olunması prosesində holistik yanaşmanın çoxsaylı üstünlüklərindən optimal surətdə və rasional əsaslarla istifadə edilməsi nəticə etibarilə həmin sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinə daha geniş və potensial fəaliyyət imkanları yaratmaqla yanaşı, onların gələcəkdə də öz fəaliyyətlərini yüksək inamla və qətiyyətlə davam etdirmələrinin də ən mühüm şərtləndirici amilləri sırasında nəzərə alınmalıdır.

İSTİFADƏ OLUNMUŞ MƏNBƏLƏR

1. Agricultural Risk Management: A Holistic Approach. Organisation for Economic Co-operation and Development (OECD), April 2016 / https://www.oecd.org/tad/policynotes/agricultural-risk-management-holistic-approach.pdf
2. Holism. New World Encyclopedia. This page was last modified on 12 January 2018 / http://www.newworldencyclopedia.org/entry/Holism

3. Holistic Management. Inside Outside Management Pty Ltd, Australia (2018) / https://www.insideoutsidemgt.com.au/holistic-management
4. Izabela Lipi ska. Managing The Risk In Agriculture Production: The Role Of Government. European Countryside, VOLUME 8 (2016), Number 2 https://www.degruyter.com/downloadpdf/j/euco.2016.8.issue-2/euco-2016-0007/euco-2016-0007.pdf
5. Jescs Antun, Andry Pascal. Agricultural Policies and Risk Management: A Holistic Approach. Paper prepared for presentation at the 108th EAAE Seminar 'Income stabilisation in a changing agricultural world: policy and tools', Warsaw, 8-9 February 2008 / https://core.ac.uk/download/pdf/6239047.pdf
6. Jescs Antun. Risk Management in Agriculture - A Holistic Conceptual Framework. Organisation for Economic Co-operation and Development (OECD). Working Party on Agricultural Policies and Markets. TRADE AND AGRICULTURE DIRECTORATE. COMMITTEE FOR AGRICULTURE. 10 March 2009 / http://www.oecd.org/agriculture/agricultural-policies/42750215.pdf
7. Juergen Voegele. Land, Water, Forests & Food Security: They're All Connected. 14 September 2012 / http://www.worldbank.org/en/news/feature/2012/09/14/land-water-forests-food-security-all-connected
8. Lina Novickyt. Holistic Risk Assessment in Agriculture: Concepts, Models, and Application (AGRIRISK). 1 December 2017 / https://www.laei.lt/x_file_download.php?pid=3011
9. McMahon P. The Investment Case for Ecological Farming. SLM Partners. Holistic Management Case Studies, Profiles and Popular Articles, 2016 / https://www.savory.global/wp-content/uploads/2017/02/Holistic-Management-Case-Studies-Profiles-Articles.pdf
10. Piero Conforti, Federica Angelucci. FAO and disaster risk management for agriculture in developing countries. Food and Agriculture Organization of the United Nations. (FAO) Workshop on Risk Management in Agriculture: Towards Effective Policies Organisation for Economic Co-operation and Development (OECD) Conference Center 22-23 November 2010 / http://www.oecd.org/agriculture/agricultural-policies/46467714.pdf
11. Robin McConchie. Holistic farming guru visits Australia. 2 August 2013 / http://www.abc.net.au/news/rural/2013-08-02/rural-alan-savory/4861942
12. The Holistic Investing Approach: Making Better Decisions. The Foundation of Holistic Investing. Sheldon Frith - Holistic Management and Regenerative Agriculture. 15 March 2017 / http://www.regenerateland.com/the-holistic-investing-approach-making-better-decisions/
13. What is Holistic Management? 7 December 2011 / https://holisticmanagement.org/wp-content/uploads/2011/12/HolisticManagement-1-22.pdf
14. What is sustainable agriculture? Sustainable Agriculture Research & Education (2018) / https://www.nesare.org/About-Us/What-is-sustainable-agriculture

Эльнур Абиль оглы Мамедов
д.ф.э., АУК

Холистические подходы к управлению рисками в аграрном секторе

Резюме

Вопросы управления рисками в аграрном секторе, в том числе дифференциация между различными видами риска, установление взаимодействия и зависимости между ними и важные моменты, связанные с формированием различных стратегий по различным видам риска исследуется в контексте модернного «холистического подхода» с классический основанный. Необходимость предпочтения «холистического подхода» с более оптимальным содержанием в отличие от «линейного подхода» к управлению рисками здесь обосновывается в различных аспектах. «Холистическая система» управления рисками широко излагается на основании трех основных направлений - установление источников риска, предот-

вращение потенциальных рисков или разработка соответствующих конкретных стратегий с целью нейтрализации действия возникшего риска и взаимодействия таких вопросов как использование инструментами институциональной государственной поддержки в данной сфере.

Ключевые слова: аграрный сектор, риск, менеджмент, линейный подход, холистический подход, стратегия, институциональная поддержка.

Elnur Abil Mammadov
PhD in economics, ACU

Holistic approaches to risk management in the agricultural sector

Summary

Risk management issues in the agricultural sector, as well as, differentiation of different types of risk, determination of dependency relationships and the interaction between them and important issues regarding formation of different strategies on different types of risk explored here in the context of the classical based modern "holistic approach". Besides the "linear approach" to risks management, the necessity to give advantage to a more optimal "holistic approach" is also grounded herein on various aspects. "Holistic system" of risks management is explained in detail on the basis of interaction of issues such as, development of relevant specific strategies and profited by institutional government support tools in this field for the purpose of its three main focused directions - determination of risk sources, prevention of potential risks or neutralization of effects of emerging risks.

Key words: agricultural sector, risk, management, linear approach, holistic approach, strategy, institutional support.

Е.Р.БОРИСОВА
док филос. н., к.э.н., профессор
Чебоксарский Кооперативный Институт РУК
г. Чебоксары, Россия

ФИНАНСОВЫЕ РЕСУРСЫ ПРЕДПРИЯТИЯ КАК ФАКТОР УСТОЙЧИВОСТИ

В настоящее время в условиях внешних угроз экономического характера усиливается необходимость изыскания внутренних факторов роста и повышения конкурентоспособности предприятия. В этой связи актуализируются вопросы разработки новых подходов в управлении финансовыми ресурсами предприятий и организаций, обеспечении финансовой устойчивости с учетом допустимого уровня финансовых рисков.

Финансовые отношения, складывающиеся в процессе производственной деятельности, опосредуют производственные взаимосвязи экономических субъектов. В связи с изменениями, протекающими в обществе, меняется характер финансовых отношений [1]. Финансы экономических субъектов, как сфера финансовой системы, отражают распределительные отношения на уровне отдельных субъектов хозяйствования. С этих позиций финансовые ресурсы выступают в качестве объекта управления финансами, и в качестве инструмента управляющего воздействия.

Необходимо отметить, что в научном сообществе остаются дискуссионными вопросы определения сущности финансовых ресурсов, соотношения финансовых ресурсов и капитала, роли финансовых ресурсов в повышении конкурентоспособности экономического субъекта. Все это актуализирует необходимость разработки методологических подходов управления финансовыми ресурсами, как на макро-уровне, так и на микро-уровне (организации, предприятия, компании).

Обобщив теоретические разработки российских экономистов, можно констатировать о наличии трех подходов в определении сущности финансовых ресурсов.

Представители первого направления рассматривают финансовые ресурсы как совокупность денежных доходов и поступлений предприятия. Финансовые ресурсы представляются как совокупность собственных и поступивших извне денежных доходов. Эти ресурсы находятся в распоряжении предприятия и предназначаются для выполнения финансовых обязательств, финансирования текущих расходов и расходов.

По нашему мнению, такое понимание сущности финансовых ресурсов основано на выделении направлений использования доходов предприятия.

Однако, на наш взгляд, финансовые ресурсы нельзя отождествлять только с доходами. Финансовые ресурсы являются источниками формирования доходов, т.е. они опосредуют процесс получения доходов. Доходы же являются результатом этого процесса.

Сторонники второго подхода представляют финансовые ресурсы в качестве совокупности денежных средств предприятия.

Третий подход в определении финансовых ресурсов акцентирует внимание на их способностиобразовывать фонды денежных средств, которые находятся в распоряжении различных субъектов (государства и экономические субъектов). Такое представление финансовых ресурсов не отождествляет их с денежными доходами и денежными средствами предприятия. По нашему мнению данная трактовка финансовых ресурсов наиболее приемлема, поскольку фондовый характер финансов в целом есть сущностный их признак. К тому же материальным носителем финансовых отношений являются финансовые ресурсы, как совокупности фондов денежных средств. Финансовые ресурсы находятся в постоянном движении.

Критический сравнительный анализ трактовок финансовых ресурсов позволяет определить их как совокупность фондов денежных средств экономических субъектов и государства, имеющих целевое назначение, являющиеся источником расширенного воспроизводства.

Нам представляется, что подчеркивая сущностной признак финансов как источника расширенного воспроизводства, подтверждается отнесение их к системе воспроизводственных категорий. В процессе расширенного воспроизводства, охватывающего производство, распределение, обмен и потребление, происходит формирование и использование финансовых ресурсов в процессе структурного распределения стоимости.В процессе кругооборота происходит смена функциональных форм финансовых ресурсов: денежная форма преобразуется в товарную, затем в производительную в процессе производства, пройдя стадию распределения и обмена, производительная форма превращается в товарную и денежную. Стадия производственного потребления является источником расширенного воспроизводства, являясь основой дальнейшего производственного цикла, когда происходит возврат вложенных ранее финансовых ресурсов с некоторым их увеличением. Таким образом, финансовые ресурсы являются источником не только простого, но и расширенного воспроизводства.

В экономической литературе некоторыми авторами финансовые ресурсы отождествляются с понятием капитала.

Хотя финансовые ресурсы и капитал имеют одну экономическую основу, тем не менее, на наш взгляд, не следует ставить между нами знак эквивалента. Сущностным отличительным признаком капитала, раскрывающим его природу, является его способность приносить добавочную стоимость.

Капитал возникает у экономического субъекта появляется с вовлечением финансовых ресурсов в деловой хозяйственный оборот. Далее процесс движения капитала по своему содержанию совпадает с кругооборотом финансовых ресурсов, но, как мы отметили ранее, отличается количеством стадий, что порождает несовпадение величины капитала и финансовых ресурсов.

Отсюда следуют два фактора, трансформирующие финансовые ресурсы в капитал: участие в реальном деловом хозяйственном обороте; способность увеличивать стоимость.

Конечной целью любого экономического субъекта получение прибыли за счет эффективного использования имеющегося потенциала, в том числе финансовых ресурсов. Следовательно, конкуренция выступает фактором развития экономики. Конкурентоспособность экономического субъекта выражается в его способности приносить прибыль на вложенный капитал. Основой конкурентоспособности любого предприятия служит его способность эффективно организовать деятельность в постоянно меняющейся среде. В этих условиях требуется изыскать источники, формирующие конкурентоспособность предприятия.

С этих позиций основными финансовыми параметрами конкурентоспособности, на котором базируется финансовая устойчивость предприятия является достаточность собственного капитала, способность привлечения финансовых ресурсов для реализации инвестиционных проектов, эффективность использования финансовых ресурсов. Мониторинг, анализ и оперативное управление по данным направлениям позволяет своевременно реагировать на изменения, обусловленные внутренними и внешними факторами, что, в конечном счете, непосредственно влияет на рост конкурентоспособности предприятия.

В современной экономической теории разработка стратегии повышения конкурентоспособности предприятия строится с использованием системы показателей, отражающих процесс формирования и использования финансовых ресурсов. К таковым, по нашему мнению, относятся: финансовая зависимость, текущая ликвидность, срочная ликвидность, абсолютная ликвидность, рентабельность всех активов, рентабельность собственного капитала, эффективность использования активов для производства продукции, доля заемных средств в общей сумме источников, доля накопленного капитала.

Исходя из вышеизложенного, необходимость повышения конкурентоспособности экономического субъекта требует исследования вопросов эффективного использования финансовых ресурсов. Неоднозначность трактовки понятия финансовых ресурсов, капитала предприятия требует дальнейшего исследования вопросов финансирования расширенного воспроизводства, обоснования содержания управления финансовыми ресурсами в зависимости от стадий кругооборота с целью эффективного использования имеющегося потенциала. Таким образом, признавая значимость макроэкономических, внешних условий на конкурентоспособность, считаем, что основным фактором ее роста является формирование стратегии эффективного использования финансовых ресурсов.

ЛИТЕРАТУРА

1. Борисова Е.Р. Основные проблемы развития современной российской экономики // Вестник Российского университета кооперации. № 3 (21). - 2015. -с.16-18.
2. Финансы: Учебник / под ред. В.М. Родионовой. - М.: Финансы и статистика, 1993.
3. Финансы организаций (предприятий). Учебник для вузов / под ред. Н.В. Колчиной. - М.: ЮНИТИ-ДАНА, 2004.
4. Бланк И.А. Финансовая стратегия предприятия. - Киев: Ника-Центр Эльга, 2004.
5. Учебник для вузов/ под ред. Л. А. Дробозиной. - М.: ЮНИТИ, 2001. - 527 с.

İradə Şərafəddin qızı MEHDİYEVA
Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti

AQRAR SAHƏNİN DİNAMİK İNKİŞAFINDA QİYMƏT AMİLİ

Xülasə

Aqrar sahənin inkişafının bir sıra amilləri və xüsusiyyətləri vardır. Onlar arasında qiymət amili öz xüsusi çəkisi və təsir gücü ilə seçilir. Son illərdə bu amilə lazımi dərəcədə diqqət yetirilməsə də o, Strateji Yol Xəritələri ilə qarşıya qoyulan vəzifələrin reallaşdırılmasının mühüm vasitələrindən birinə çevrilmişdir.Ona görə də başlıca məqsəd aqrar sahibkarlığın imkişafına sti-

mul verən, əhalinin, istehsalçıların və dövlətin maraqlarının koordinasiyasını təmin edən qiymət sisteminin formalaşdırılmasıdır. Bu proses öz gedişində qiymətlərin sərbəst təyini və dövlət tənzimlənməsi mexanizmlərinin əlaqələndirilməsini tələb edir. Əldə olunacaq nəticə aqrar sahənin dinamik inkişafının olmasını, bu sahədə qiymət mexanizminə yeni yanaşmanın tətbiqini tələb edir.

Açar sözlər: inkişaf, qiymət, rəqabət, gəlir, tələb, təklif,səmərəlilik, tənzimləmə.

***

Aqrar sahənin dayanıqlı və dinamik inkişafı əhalinin ərzaq məhsullarına artan tələbatının effektiv şəkildə qarşılanması zərurətindən irəli gəlir. Dayanıqlı inkişafa nail olunması eyni zamanda kənd təsərrüfatının çoxfunksiyalılığından irəli gəlir. Məlum olduğu kimi, aqrar sahə yalnız əhalinin ərzaq məhsullarına olan tələbatını ödəmir. O, eyni zamanda sənayenin xammalla təchiz olunmasında da əhəmiyyətli rola malikdir. Aqrar sahə ümumiyyətlə ölkənin strateji maraqlarına xidmət edən sahədir. Belə ki, aqrar sahənin dayanıqlı inkişafına nail olunması ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Aqrar sahədə müşahidə olunan hər hansı bir qeyri - sabitlik bilavasitə özünü ərzaq bazarında büruzə verir. Odur ki, aqrar sahənin dayanıqlı və dinamik inkişafına nail olunması sosial sabitliyin qarantı kimi çıxış edir. Aqrar sahənin dinamik inkişafı probleminə üç aspektdən yanaşmaq lazımdır:

- İqtisadi dəyişikliklərin ölkə əhalisinin həyat səviyyəsinə mənfi təsirinin qarşısının alınması;
- İqtisadiyyatin sahə və ərazi komplekslərində yaranan struktur ziddiyyətlərin və qeyri - bərabər inkişafın qarşısının alınması;
- Qloballaşmanın mənfi təzahürlərinin aqrar sahəyə mənfi təsirinin neytrallaşdırılması.

Aqrar sahədə istehsalın çoxsaylı və özünəməxsus xüsusiyyətləri, həmçinin müxtəlif, bəzən də ziddiyyətli amillərin təsiri qiymətqoyma prosesini mürəkkəbləşdirir. Bunlar isə təsərrüfatlara həmin amillərin hər birinin xüsusiyyətlərini nəzərə almaqla kompleks formada baxılmasını tələb edir. Ümumiyyətlə, alqı-satqı prosesində yaranan müxtəlif əmtəə qruplarının iqtisadi əlaqələrini müəyyən edən qiymət mexanizmi bazar münasibətlərinin əsas atributu kimi sosial - iqtisadi proseslərin istiqamətlərinə uyğun olaraq ardıcıl şəkildə təkmilləşməni vacib məsələ kimi qarşıya qoyur. [3, s. 214].

Bütövlükdə kənd təsərrüfatının dayanıqlı inkişafı onun ayrı-ayrı subyektlərinin davamlı, fasiləsiz fəaliyyətindən və inkişafından asılıdır. Buna görə də kənd təsərrüfatının dayanıqlı inkişafından danışarkən ilk növbədə kənd təsərrüfatı müəssisələrinin istehsal prosesinə və mikrosəviyyədə qiymətəmələgəlmə məsələlərinə diqqət yetirmək lazımdır.

Qiymət mexanizmi ümumi iqtisadi mexanizmin tərkib hissəsi olduğundan qiymət özü də digər iqtisadi və maliyyə göstəriciləri ilə sıx bağlıdır. Elə buna görə də kənd təsərrüfatının dayanıqlı və dinamik inkişafında qiymətin rolu digər iqtisadi maliyyə göstəriciləri ilə əlaqəli şəkildə nəzərdən keçirilməlidir.

İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatı fəaliyyəti rəqabət mühitinə mənfi təsir göstərmədən yerli istehsalçıların mənafeyi baxımından aşağıdakı istiqamətlərdə tənzimlənir:

- qiymətlər (məhdud nomenklatura üzrə);
- fermerlərin gəlirləri;
- kredit ödəmə qabiliyyəti;
- investisiya cəlbediciliyi.

Yerli istehsalçıların mənafelərinin qorunması və onlara dövlət himayəsi prinsip etibarilə milli təsərrüfat subyektlərində inhisarçılığa meyil yarada bilər. İnhisarçılıq meyilləri daha çox kənd təsərrüfatı istehsalçısı ilə tərəfdaşlığa can atan emal müəssisələri və birlikləri üçün xarakterikdir. Texniki bitkilərin istehsalı və emalı sahəsində inhisarçılıq meyillərinin güclənməsi daha realdır. Bu səbəbdən, sağlam rəqabət mühitinin inkişaf etdirilməsi və inhisarçı təsərrüfat subyektləri tərəfindən sui-istifadə hallarının qarşısının alınmasına imkan verən səmərəli tənzimləyici mexanizm işlənib hazırlanmalıdır. İnhisarçı məhsullarının qiymətlərinə nəzarətin, istehsal və kommersiya strukturlarının analoji qurumlardan dəfələrlə böyük olması zamanı onların hissələrə bölünməsinin, diversifikasiyanın aqrar sahədə tətbiqi xüsusi yanaşma tələb edir. Belə ki, inhisarçılıqda şübhəli bilinən aqrar subyektin bazara çıxardığı məhsulların qiymətlərinə ciddi nəza-

rət və məhdudlaşdırıcı tədbirlər onların idxal məhsulları ilə rəqabət qabiliyyətini aşağı salır və ərzaq təhlükəsizliyinin təminatında problemlər yaradır.

Rəqabət şəraitində istehsalçı məhsulu yüksək qiymətə satmaq üçün onun keyfiyyətini yüksəltməli və ya keyfiyyətli saxlanılmasına nail olmalıdır. Daha doğrusu, məhsulun istehsalı, saxlanılması, daşınması və istehlakı mərhələlərində itkiyə yol verilməməsi və məhsulun keyfiyyətinin saxlanılması təmin edilməlidir. Elə bir iqtisadi mexanizm hazırlanmalıdır ki, istehsal edilən məhsul istehlakçıya keyfiyyətlə çatdırılsın.

İstehsalçının öz məhsullarına qiymətləri sərbəst surətdə müəyyənləşdirmək imkanı olmayan şəraitdə bazar iqtisadi münasibətlərinin formalaşmasından danışmaq mümkün deyil. Bu zərurət nəzərə alınmaqla islahatların ilkin mərhələsində kənd təsərrüfatı məhsullarının qiymətləri sərbəstləşdirilmişdir və hazırda qiymətlər bilavasitə tələb-təklif nisbətlərinin təsiri altında formalaşır. Lakin qiymətlərin aqrar bölmədə tamamilə tələb-təklif mexanizminin təsiri altında formalaşması heç də bu sahənin inkişafına güclü təkan verməmişdir. Deyilənlər özünü aqrar sferada istehsalçıların gəlirlərinin azalması, kənd və şəhər arasında ekvivalent əmtəə mübadilələrinin pozulması, kənd təsərrüfatı məhsulları istehsalçılarının emal müəssisələrinin inhisarçı mövqeləri ilə qarşılaşması şəklində büruzə verir.

Aqrar sahənin dinamik inkişafında qiymətin rolunu araşdırarkən kənd təsərrüfatı məhsulları istehsalında iştirak edən istehsal vasitələrinin qiymətləri ilə məhsulların qiymətlərinin əlaqəli şəkildə bir-birinə təsiri öyrənilməlidir. Kənd təsərrüfatında istifadə edilən sənaye təyinatlı məhsulların qiymətləri kənd təsərrüfatı məhsullarına nisbətən nə qədər sürətlə artarsa istehsalçıların maraqlarına bir o qədər mənfi təsir göstərir. Belə vəziyyət kənd təsərrüfatı istehsalçılarının maliyyə imkanlarını daha da məhdudlaşdırır və bəzən istehsalı səmərəsiz edir.

Tədqiqat göstərir ki son beş ildə əsas növ kənd təsərrüfatı məhsulları üzrə qiymət artımı bütövlükdə orta hesabla 25-30 faiz olduğu halda kənd təsərrüfatına satılan texnikanın və gübrələrin qiyməti 2-3 dəfə artmışdır. Nəticədə kənd təsərrüfatı məhsulları üzrə qiymət artımı ilə kənd təsərrüfatına xidmət edən sənaye məhsulları üzrə qiymət artımı arasında nisbətlər kəskin surətdə sonuncunun xeyrinə dəyişmişdir.

Bütün yuxarıda deyilənlər kənd təsərrüfatında müasir vəziyyətin çox yaxşı vəziyyətdə olması demək deyildir. Kənd təsərrüfatı elə bir sahədir ki, burada təsərrüfat fəaliyyətinin və qiymət əmələgəlmənin bir çox spesifik amillərdən asılı olması burada qiymət amilinin rolunu daha da artırır və bu məsələyə xüsusi diqqətlə yanaşılmasını tələb edir. Məhz buna görə də bir çox inkişaf etmiş ölkələrdə dövlət kənd təsərrüfatı sahəsində qiymət məsələsi ilə bağlı xüsusi siyasət aparır və bu sahəni daim nəzarətdə saxlayır.

Hazırda qiymət tarazlığını təmin etməklə aqrar sahənin məhsullarının qiymətlərinin istehsalçının maraqlarına uyğun olması qarşıda duran mühüm məsələlərdəndir, Bazar iqtisadiyyatı ölkələrində belə problemlər əsasən büdcə vəsaiti hesabına aqrar sahəyə dövlət yardımı vasitəsilə həll edilir.

Qiymətlərin büdcə vəsaiti hesabına tənzimlənməsi müxtəlif istiqamətlərdə həyata keçirilir. Məsələn, bazarda qiymət səviyyəsinin əvvəlcədən müəyyən edilməsi yaxud bazar qiymətlərinin səviyyəsinə zəmanət verilməsi; qiymət tarazlığının təmin olunması üçün sənaye təyinatlı məhsulların qiymətlərinin aqrar sahədə istehsal olunan məhsulların qiymətinin artımından çox olan hissəsinin büdcə vəsaiti hesabına kompensasiya olunması kimi variantlar təklif oluna bilər.

Ümumiyyətlə, qiymət uyğunsuzluğunu aradan qaldırmaq məqsədilə tədbirlər həyata keçirilərkən aşağıdakı prinsiplərə riayət olunmalıdır:

- kənd təsərrüfatı məhsullarına sərbəst qiymətəmələgəlmə ilə dövlət tənzimlənməsinin əlaqələndirilməsi;
- aqrar sahədə sahibkarlıq subyektlərinin geniş təkrar istehsalı həyata keçirmək baxımından zəruri gəlir səviyyəsinin təmin olunması;
- aqrar istehsalın səmərəliliyinin yüksəldilməsi və istehsal xərclərinin azaldılması;
- qiymət və maliyyə sistemlərinin qarşılıqlı əlaqələrinin optimallışdırılması. [4, s. 89]

Ölkə prezidenti tərəfindən təsdiq olunmuş Strateji Yol Xəritələrində kənd təsərrüfatının imkişafı ilə bağlı prioritetlərdən biri məhz qiymət sistemi ilə əlaqədardır. Danılmaz faktdır ki,

pambığın, tütünün, fındığın və baramanın tədarük qiymətlərinin artırılması, eləcə də əlavə subsidiyaların nəzərdə tutulması aqrar sahədə ciddi irəliləyişlərə səbəb olmuşdur. Bu, qiymətlərin öz stimullaşdırıcı funksiyalarını yerinə yetirməsi müstəvisində istehsalın həcminin və keyfiyyətin yüksəldilməsi deməkdir.

Yuxarıda sadalanan prinsiplərə nail olunmaqla dövlət tərəfindən həyata keçirilən qiymət tənzimlənməsi tədbirləri aqrar bölmədə aşağıdakı mühüm əhəmiyyət kəsb edən məsələlərin həllinə imkan verməlidir:

- ölkənin əsas ərzaq məhsulları ilə özünütəminatının stimullaşdırılması və ərzaq təhlükəsizliyinin təmin edilməsi;
- kənd təsərrüfatı, onu istehsal vasitələri ilə təmin edən sahələr, həmçinin emal sahələri arasında əlverişli mübadilə münasibətlərinə nail olunması;
- kənd təsərrüfatı və sənaye sahələri arasında əmtəə mübadiləsinin ekvivalentliliyinin təmin olunması. Belə mütənasibliyə nail olmadan gələcəkdə aqrar bölmənin iqtisadiyyatın başqa bölmələri ilə müqayisədə bərabər əsaslarla inkişafını təsəvvür etmək çox çətindir;
- aqrar bölmədə məhsul istehsalı ilə məşğul olanların beynəlxalq bazarlara çıxışları üçün əlverişli şəraitin təmin olunması.

Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan sahibkarların normal cari fəaliyyətini təmin etmək və geniş təkrar istehsal prosesini həyata keçirə bilmələri üçün dövlət tərəfindən qiymət mexanizmi vasitəsi ilə tənzimlənən əlverişli şəraitin yaradılması müvafiq sahənin dinamik inkişafına təkan verə bilər.

ƏDƏBİYYAT

1. Milli iqtisadiyyat perspektivləri üzrə Strateji Yol Xəritəsi. Bakı, 2016.
2. Alıyev İ.H. Milli İqtisadiyyat və aqrar sahənin inkişaf problemləri. Bakı, 2006.
3. İbrahimov İ.H. Regionlarda sahibkarlığın inkişaf meyilləri və xüsusiyyətləri. Bakı, "Səda" 2007.
4. Musayev M.Q. "Aqrar sahədə intensiv inkişafın iqtisadi problemləri". Bakı, "Nurlar", 2007.
5. Elektron resurslar.

Ирада Шарафеддин кызы Мехтиева
Азербайджанский Государственный
Экономический Университет, доцент

Ценовой фактор в динамическом развитии аграрного сектора

Резюме

Развитие аграрного сектора имеет ряд факторов и особенностей. Фактор цен выделяется среди них по своему удельному весу и силе действия. Несмотря на то, что в последние годы этому фактору не было уделено должного внимания, он стал одним из важнейших инструментов реализации задач, поставленных Стратегическими Дорожными Картами. Поэтому главной целью является - формирование системы цен, стимулирующей развитие аграрного предпринимательства и обеспечивающей координацию интересов населения, производителей, а также государства. В ходе реализации этого процесса необходимо установить взаимосвязь и координировать механизмы свободного установления и государственного регулирования цен. Для динамичного развития аграрного сектора требуется кардинально новый подход к механизму ценообразования в этой сфере экономики.

Ключевые слова: развитие, цена, конкуренция, доход, спрос, предложение, эффективность, регулирование.

Irada Sherefaddin Mehdiyeva
Azerbaijan State Economic University
associate professor

Price in the dynamic development of the aqar field

Summary

The development of the agrarian sector has a number of factors and features. The price factor among them is selected by its specific weight and impact strength. Although this factor has not been adequately addressed in recent years, it has become one of the most important tools for implementing the Strategic Road Maps. Therefore, the main objective is to formulate a price system that promotes agrarian entrepreneurship and provides coordination of the interests of the population, producers and the state. This process requires a free-of-charge assessment of prices and coordination of state regulation mechanisms. Due to the dynamic development of the agrarian sector, the result is a new approach to the pricing mechanism in this area.

Key words: development, price, competition, income, demand, offer, efficiency, regulation.

Ляман Айдын кызы КАШИЕВА
к.э.н., доцент, Аз.ГЭУ

СОВРЕМЕННОЕ СОСТОЯНИЕ СЕЛЬСКОГО ХОЗЯЙСТВА АЗЕРБАЙДЖАНА И СТЕПЕНЬ ГОТОВНОСТИ ЕГО ВСТУПЛЕНИЯ В ВТО

Аннотация

Сегодня, основным вопросом, с точки зрения процесса присоединения Азербайджана к ВТО является то, каким образом можно будет преодолеть отставание отечественного сельскохозяйственного производства в условиях открытия продовольственного рынка зарубежной конкуренции.

В статье анализируются уровень развития сельского хозяйства, определены риски и возможности для данной отрасли Азербайджана при вступлении его в ВТО, проведен анализ продовольственного баланса, как важного направления обеспечения продовольственной безопасности Азербайджана.

Ключевые слова:сельскохозяйственное производство, продовольственный баланс, национальная продовольственная безопасность, процесс присоединения Азербайджана к ВТО.

***

Правительство Азербайджана на протяжении длительного периода проводит политику, направленную на диверсификацию экономики. И в этом контексте одним из важнейших векторов реализации данной стратегии является развитие сельского хозяйства республики.

Общеизвестно, что, несмотря на почти 10-летний катастрофический экономический упадок, который поразил сельскохозяйственный сектор Азербайджана, роль его в отечественной экономике остается значительной.

В этих условиях основной вопрос с точки зрения процесса присоединения Азербайджана к ВТО заключается в том, каким образом можно будет преодолеть отставание отечественного сельскохозяйственного производства в условиях открытия продовольственного рынка зарубежной конкуренции.

Значительная важность данной сферы подчеркивается на правительственном уровне и находит свое отражение в соответствующих законодательных инициативах и государственных программах.

Государственная политика по стимулированию ненефтяного сектора азербайджанской экономики реализуется в сельском хозяйстве путем осуществления крупномасштабных

комплексных программ, направленных на улучшение социально-экономического положения и снижение бедности в сельских районах.

Для поддержки фермеров и крестьянских хозяйств выделяются значительные государственные субсидии, предоставляются льготные кредиты, создаются институты поддержки предпринимательства. Достаточно отметить, что Национальный фонд поддержки предпринимательства при Министерстве экономики уже в начале 2016 года большую часть кредитов, а именно 82,3% от общего объема льготного финансирования, направил на производство и обработку сельскохозяйственной продукции.

Важным этапом государственной сельскохозяйственной политики явилась «Государственная программа по социально-экономическому развитию регионов Азербайджанской Республики в 2008–2015 годы» [3], ставящая, помимо прочего, своей целью укрепление продовольственной безопасности Азербайджана.

Параллельно с ней реализовалась «Государственная программа по надежному обеспечению продовольственной продукциейнаселения в Азербайджанской Республике на 2008 - 2015годы», направленная на сокращение импорта продуктов питания и создание собственных продовольственных запасов.

Общими целями данных программ, является – на основе модернизации производства, ускоренного роста ряда подотраслей сельского хозяйства, стабильного воспроизводства земельных и других природных ресурсов земледелия добиться устойчивого развитие сельских территорий, и как результат, повышение конкурентоспособности отечественной сельскохозяйственной продукции,занятости и уровня жизни сельского населения.

Для определения целей и направлений перспективного развития сельского хозяйства страны, обеспечения их реализации, указом Президента АР от 6 декабря 2016 года была утверждена “Стратегическая дорожная карта по производству и переработке сельскохозяйственной продукции”.

Основными целями "дорожной карты” являются усиление устойчивости продовольственной безопасности, упрощение выхода к финансовым ресурсам, повышение качества профильного образования, развитие консалтинговых и информационных услуг, упрощение выхода производителей на рынки, развитие рыночной инфраструктуры, совершенствование бизнес-среды в аграрном секторе и другие вопросы.

В целях усовершенствования механизмов финансирования в сфере сельского хозяйства в Азербайджане, развития аграрного страхования и поощрения инвестирования аграрного сектора, Президентом Азербайджанской Республики подписано соответствующее Распоряжение от 11 апреля 2017 года «О дополнительных мерах по развитию сельского хозяйства в Азербайджанской Республике».

Большое внимание уделяется в Азербайджане обеспечению национальной продовольственной безопасности. Государственные программы в этом направлении реализуются в тесной взаимосвязи с политикой по развитию сельского хозяйства.

Очень важно отметить следующее: при вступлении в ВТО от Азербайджана требуют сокращения поддержки сельского хозяйства. Однако, по нашему мнению, без государственной поддержки даже сельское хозяйство Европы было бы неконкурентоспособным.

Для того чтобы правильно оценить те риски и последствия, которые несет наше членство в ВТО, в том числе и для сельского хозяйства, надо понимать, на каком уровне развития находится отрасль, чего мы достигли за последние годы, реализуя вышеуказанные национальные проекты.

Важным направлением обеспечения продовольственной безопасности Азербайджана является составление продовольственных балансов.

Анализ продовольственного баланса [5. с. 496.] показывает, чтообеспечение Азербайджана продукцией растениеводства по некоторым товарам значительно зависит отимпорта. По данным Госкомстата АР в 2016году импорт зерновых составил 57% объема собственного производства, что составляет 28,1% общего запаса зерна в стране. По итогам 2016

года в республику было завезено1694210 тонн зерновых. Основная доля этого показателя приходится на пшеницу – 94%.

Рост производства зерновых в Азербайджане по-прежнему не обеспечивает потребности страны в зерне, сохраняются значительные объемы импорта пшеницы и кукурузы (8 %) .Объем производства прочих видов зерновых – гречиха, перловка, и др. (без риса) незначителен (580 тонн) и практически в 2,5 раза больше импортируется (1303). Собственное производство картофеля в 2016 году также не обеспечило население и импортозамещения этого вида товара составило 21,2 % от всего запаса картофеля в стране. Объем производства других продуктов растениеводства в стране значительно превышает импорт.

Согласно анализу данных Госкомстата АР [5. с. 499-500] в 2016 году импорт мяса составил 13,8 % от общего запаса мяса в стране. Суммарно в 2016 году в Азербайджан ввезли 41719 тонн мяса. Основная доля этого показателя приходится на мясо птицы и продукции из птицы – 61,0 % которая импортируется в республику в основном из Турции, США и Бразилии.

Обратим внимание на внешнеторговые аспекты рыбного хозяйства Азербайджана. Несмотря на то, что официальный объем промысла в 2016 году достиг уровня 63 146 тонн, страна все еще импортирует около 13794 тонн рыбной продукции. При этом,из Азербайджан вывозится сырье, а в структуре же импорта, напротив, повышается доля готовой продукции - филе, пресервов, консервов и т.п.

Общие торговые нормы ВТО в большинстве случаях неприменимы к рыболовству, поскольку воспроизводимые объекты данного промысла представляют собой ограниченные естественные запасы, и, при отсутствии должного надзора, быстро убавляются.

Для насыщения внутреннего рынка необходимо ужесточить механизм экспорта и импорта рыбных товаров, например, ввести квотирование экспорта, что допускается требованиям ВТО, касающимся продовольственной безопасности.

По ряду стратегических продовольственных товаров преимущественная часть потребности Азербайджана обеспечивается за счет импорта. Так, согласно балансу [5. с. 499-500], в 2016 году из России, Индии и Таиланда было экспортировано 48186 тонн риса, что составляет 88% всего запаса страны. Зависимость от импорта очень высока по запасам таких продуктов, как: растительные масла- 153577 тонн (60, 1%), чай- 12654 тонн (57,4 %), крупы 10763 тонн (53,6 %), какао, шоколад кондитерские изделия из сахара - 24942 тонн (54,4%) и пр. Причем, согласно статистике, по ряду позиций импорт увеличивается из года в год.

Исходя из проведенного анализа, можно предложить, что внешнеторговая политика Азербайджана с ВТО, должна быть выстроена так, чтобы ввозимая сельскохозяйственная продукции не превышала ее реального дефицита на внутреннем рынке, и, следовательно, не препятствовал развитию собственной отрасли.

Что касается экспорта, то доля Азербайджана в международной торговле сельскохозяйственными продуктами крайне низка. Экспорт продукции сельского хозяйства и продуктов питания из Азербайджана в 2016 году составил, 426 млн. долларов.

Несмотря на растущие объемы экспорта, доля сельскохозяйственной продукции и продовольственных товаров в общем экспорте республики составила лишь 3,7%.

Наши партнеры в ходе переговоров требуют облегчения импорта продовольственных товаров за счет снижения ввозных тарифов, смягчения нетарифного регулирования, в том числе экологического и фитосанитарного контроля, ограничения или отмены квотирования, сокращения государственной поддержки сельского хозяйства, поэтапного повышения цен на топливо до уровня мировых для снижения конкурентного потенциала отечественной экономики.

На сегодняшний день сельское хозяйство является самым слабым звеном отечественного народного хозяйства, и слишком большие уступки в ходе переговоров способны его разрушить.

Положительное решение проблемы вступления в ВТО поставит перед Азербайджаном целый ряд непростых экономических и социальных проблем.

Выступая на конференции, по экономическому развитию регионов страны, президент Азербайджана Ильхам Алиев заявил:«Азербайджан не намерен вступать во Всемирную торговую организацию (ВТО) в ближайшей перспективе.

Каждая страна должна защищать свой рынок и Азербайджан идет по этому пути. Азербайджан вступит в ВТО, когда сельское хозяйство и промышленность будут ориентированы на экспорт» [4].

ЛИТЕРАТУРЫ

1. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı.
2. Распоряжение Президента Азербайджанской Республики «О дополнительных мерах по развитию сельского хозяйства в Азербайджанской Республике», 11 апреля 2017 года.
3. «Государственная программа по социально-экономическому развитию регионов Азербайджанской Республики в 2008-2015 годы»
4. Алиев И.Г. Речь на конференции, посвященной итогам первого года реализации «Госпрограммы по социально-экономическому развитию регионов Азербайджана на 2014-2018 гг.»
5. http//www. stat.gov.az

Ləman Aydın qızı Kaşiyeva
ADİU-nun dosenti

Azərbaycanın kənd təsərrüfatının müasir vəziyyəti və onun ÜTT-yə daxil olmağa hazırlıq səviyyəsi

Xülasə

Müasir dövrdə Azərbaycanın ÜTT-yə qoşulması prosesi baxımından əsas problem ölkənin ərzaq bazarının beynəlxalq rəqabət üçün açıqlığı şəraitində kənd təsərrüfatında mövcud olan geriliyi necə aradan qaldırmağın mümkün olacağı məsələsidir.

Məqalədə kənd təsərrüfatının inkişaf səviyyəsi təhlil olunur. ÜTT-yə daxil olacağı zaman bu sahənin imkanları və riskləri müəyyən edilir, Azərbaycanın ərzaq təhlükəsizliyinin təmin olunmasının əsas şərtlərindən biri kimi ərzaq balansı araşdırılır.

Açar sözlər: kənd təsərrüfatı istehsalı, ərzaq balansı, milli ərzaq təhlükəsizliyi, Azərbaycanın ÜTT-yə daxil olması.

Laman Aydin Kashiyeva
ass. prof. of the ASEU

The current state of agriculture in Azerbaijan and the degree of its readiness to join the WTO

Summary

Today, the main issue from the point of view of the process of Azerbaijan's joining the WTO is how it will be possible to overcome the delay in domestic agricultural production in the conditions of opening the food market of foreign competition.

The article analyzes the level of development of agriculture, identifies risks and opportunities for this branch of Azerbaijan when it joins the WTO, carries out analysis of the food balance as an important direction of ensuring food security of Azerbaijan.

Key words: agricultural production, food balance, national food security, process of Azerbaijan's joining the WTO.

III BÖLMƏ.
KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ İSTEHSALI, EKSPERTİZASI VƏ KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ PROBLEMLƏRİ

РАЗДЕЛ III.
ПРОБЛЕМЫ ПРОИЗВОДСТВА, ЭКСПЕРТИЗЫ И ПОВЫШЕНИЯ КАЧЕСТВА СЕЛЬСКОХОЗЯЙСТВЕННОЙ ПРОДУКЦИИ

SECTION III.
PROBLEMS OF PRODUCTION, EXPERTISE AND IMPROVEMENT OF QUALITY OF AGRICULTURAL PRODUCTS

t.e.d. Tariyel Məhəmməd oğlu PƏNAHOV,
t.f.d. Mövlud Ərəstun oğlu HÜSEYNOV,
a.e.f.d. Hikmət Nəsir oğlu NƏSİBOV,
a.e.f.d. Xuraman Tofiq qızı ABASOVA
Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu

ÜZÜM MƏHSULLARININ KEYFİYYƏT EKSPERTİZASI

Xülasə

Məqalədə məqsəd üzümdən alınan qidalı yeyinti məhsullarının keyfiyyətinin qiymətləndirilməsi olmuşdur. Pərakəndə ticarət şəbəkəsində olan üzümün emalı məhsullarından 3-nün, o cümlədən doşab, kişmiş və üzüm şirəsinin orqanoleptik və fiziki-kimyəvi keyfiyyət göstəriciləri tədqiq edilmişdir. Müəyyən edilmişdir ki, tədqiq edilən məhsullar normativ-texniki sənədlərin tələblərinə uyğundur.

Açar sözlər. üzüm, kişmiş, doşab, şirə, keyfiyyət, ekspertiza.

***

Üzümdən müxtəlif yeyinti məhsulları, o cümlədən abqora (qora suyu), duza qoyulmuş üzüm yarpağı, jele, İsfahan halvası, iskəncəbi, riçal, üzüm kvası, marmelad, must, pasta, povidlo, çurçxela (sucuq), cem, şərbət, kokteyl və digər məhsullar istehsal edilir [1-3, 5-7]. Biz üzümdən alınan bəzi məhsullar haqqında ətraflı məlumat toplayıb onların əmtəəlik göstəricilərini öyrənməyi nəzərdə tuturuq. Odur ki, üzümdən alınan qidalı yeyinti məhsullarının istehlak xassələrinin, keyfiyyət və ekoloji təmizlik göstəricilərinin öyrənilməsi günün aktual problemlərindəndir [4].

Tədqiqat aparmaq üçün qurudulmuş üzüm, üzüm şirəsi və doşab götürülmüş, onların keyfiyyət göstəriciləri öyrənilmişdir. Bu məhsulların keyfiyyəti qüvvədə olan normativ sənədlərin tələbinə müvafiq olaraq müasir aparatlarla və arbitraj tədqiqat üsulları ilə tədqiq edilmişdir.

Qurudulmuş üzümün sortundan asılı olaraq əla və 1-ci sorta ayrılır, açıq yaşıl (Soyaqi), açıq qəhvəyi və başqa rənglərə çalır (Səbzə), günəşdə qurudulmuş üzüm açıq yaşıldan qızılı və ya sarımtıl rəngə, ştabeldə qurudulmuş səbzə qəhvəyi qonurtəhər, müxtəlif çalarlı qonur (Bidanə) rəngdə olur.

Soyaqi kişmiş üzümün diametri sortundan asılı olaraq ən az 6-10 mm, zədələnmiş, zəifləri 3-7%, başqa növ üzümün miqdarı 0,3-1,0 artıq olmamalıdır.

Günəşdə qurudulmuş səbzədə diametr növündən asılı olaraq 6-10 mm, bundan az diametrli 4-10%, başqa növ üzüm 0,3-0,5%-dən artıq olmamalıdır. Bidanə üzümündə diametri sortundan asılı olaraq ən azı 6-10 mm, bundan kiçiyi 1-5%, zədələnmiş və zəifləri 3-12%-dən artıq, başqa növ üzüm qarışığı 0,3-0,5%-dən artıq olmamalıdır.

Üzüm şirəsi rənginə, tərkibindəki şəkərin və karbon qazının miqdarına görə müxtəlif olur. Rənginə görə şirələr ağ, çəhrayı və qırmızı olurlar. Tərkibindəki karbon qazının miqdarına görə şirələr sakit və qazlaşdırılmış olurlar. Şəkərliyinə görə isə şirələr süfrə və desert çeşidində olur.

Şəffaflaşdırılmış şirələr şəffaf, rəngi təzə şirəyə uyğun, dadı xammalın dadını verməlidir.

Şəffaflaşdırılmamış şirələrdə hissəciklər xırda olmaqla eynicinsli, qeyri-şəffaf, rəngi hazırlandığı məhsulun rənginə uyğun, dad və ətri yaxşı hiss olunmalıdır.

Üzümdən alınan bəkməzin keyfiyyəti texniki şərtlərin tələblərinə cavab verməlidir (TU-10 Azərb.Respub. 3-01-86). İlk növbədə bəkməz istehsalı üçün istifadə olunan üzümün şəkərliliyi (QOST 24433-80) və titrlənən turşuluğu (QOST 14252-73) təyin olunur. Üzümdən alınan şirənin filtrdən keçirildikdən sonra şəkərliliyi, titrlənən turşuluğu, dəmirin miqdarı, sulfit turşusunun miqdarı (QOST 14351-73) təyin olunur. Hazır bəkməzi təhlil etmək üçün QOST 26313 müvafiq olaraq orta nümunə götürülür və QOST 26671-85-ə müvafiq olaraq laboratoriya tədqiqinə hazırlanır.

Tədqiq olunan üzüm məhsullarının fiziki-kimyəvi göstəricilərinin ekspertizasından alınan nəticələr cədvəldə verilmişdir.

Cədvəl

Tədqiq olunan üzüm məhsullarının fiziki-kimyəvi göstəriciləri

Göstəricilərin və məhsulun adı	Təhlil nəticəsi	Standart göstəricisi	Kənarlaşma
1. Suyun (nəmliyin) faizlə miqdarı:			
Bəkməz	40,2	40	+0,2
Üzüm şirəsi	87,4	87	+0,4
Üzüm qurusu Səbzə	19,5	18	+1,5
2. Minerallı maddələrin (külün) faizlə miqdarı:			
Bəkməz	1,67	1,6	+0,07
Üzüm şirəsi	0,4	0,4	-
Üzüm qurusu Səbzə	4,052	4,0	+0,052
3. Turşuluq, faizlə:			
Bəkməz	1,032	1,0	+0,032
Üzüm şirəsi	4,434	4,8	-0,366
Üzüm qurusu Səbzə	1,30	1,2	+0,1
4. Ümumi şəkər, faizlə:			
Bəkməz	57,82	58	-0,18
Üzüm şirəsi	13,8	14,7	-0,9
Üzüm qurusu Səbzə	64,7	66	-1,3

Aparılan tədqiqatın nəticələri göstərdi ki, Bakı ticarətində realizə olunan üzüm məhsullarının keyfiyyət göstəriciləri qüvvədə olan normativ-texniki sənədlərin tələbinə tam cavab verir.

Aparılan tədqiqat işlərinə yekun vuraraq aşağıdakı təkliflər verilir.

1. Üzümdən istehsal olunan yeyinti məhsullarının çeşidinin yeniləşdirilməsi və keyfiyyətinin yaxşılaşdırılması məsləhət görülür. 2. Respublikamızın milli xüsusiyyətlərini və kulinariyamızın tələblərini nəzərə alaraq sənaye üsulu ilə abqora, üzüm sirkəsi, doşab, üzüm qurusu və sirkəyə qoyulmuş üzüm istehsalı artırılmalıdır. 3. Əhalinin qış mövsümündə üzüm yarpağına olan ehtiyacını ödəmək məqsədilə sənaye üsulu ilə üzüm yarpağının konservləşdirilməsinə başlanmasını və bu məhsulu kiçik taralarda buraxmağı məsləhət görürük. 4. Üzümün kişmiş sortlarının əkin sahəsi və qurudulmuş üzüm (kişmiş) istehsalı artırılmalıdır.

ƏDƏBİYYAT

1. Əhmədov Ə.İ., Musayev N.X. Ərzaq mallarının ekspertizası. I hissə. Bakı. «Çaşıoğlu», 2005, 568 səh.
2. Hüseynov M.Ə., Əhmədli C.Y. Üzümdən alınan qidalı yeyinti məhsullarının keyfiyyət ekspertizası. Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun elmi əsərlər məcmuəsi. XXI cild, Bakı 2017, 69-73 s.
3. Hüseynov M.Ə., Əhmədov Ə.İ. Milli Azərbaycan şərbətləri və spirtsiz içkilər. Monoqrafiya. Bakı: "Çaşıoğlu" nəşriyyatı, 2014, 272 s.
4. Шепелев А.Ф. и др. Товароведение и экспертиза плодоовощных товаров. Изд. Центр «Март», Ростов - на Дону, 2001, 205 с.
5. Pənahov T.M. Azərbaycanda istehsal olunan şərabçılıq məhsullarının texnologiyası. Bakı: "Elm" 2015, 546 s.
6. Панахов Т.М. Сборник технологических инструкций по производству вин и коньяков на винодельческих предприятиях Азербайджанской Республики. Баку: "Unicild",2011. 476 с.
7. Panahov T.M. Technology of wine-making products produced in Azerbaijan. döringDRUCK Braunschweig 2016, 545 p.

д.ф.т. Тариел Магоммед оглы Панахов,
д.ф.т. Мовлуд Арастун оглы Гусейнов,
д.ф.с. Хикмет Насир оглы Насибов,
д.ф.с. Хураман Тофик кызы Абасова
Научно-Исследовательский Институт
Виноградарства и Виноделия

Качественная экспертиза виноградных продуктов

Резюме

Целью работы являлось экспертиза качества продуктов переработки винограда. В задачу входило изучение органолептических и физико-химических показателей качества трех видов продуктов переработки винограда, в том числе дошаб, кишмиш и виноградный сок. Результаты исследования показывают, что качества продуктов переработки винограда, реализуемой в торговой сети гор. Баку соответствуют требованиям действующих нормативно-технических документов.

Ключевые слова: виноград, кишмиш, дошаб, сок, качество, экспертиза.

PhD in tex. Tariyel Mahammad Panahov,
PhD in tex. Movlud Arastun Huseynov,
PhD in agr. Hikmet Nasir Nasibov,
PhD in agr. Khuraman Tofig Abasova
The Research-Institute of Viticulture and Wine making

Quality expertise of grape products

Summary

The objective was to study the organoleptic and physico-chemical indicators of the quality of the 3 types of food processing grapes, including doshab, raisins and grape juice. Results of the study show that the quality of the products of processing grapes, sold in the retail network of the mountains. Baku complies with the requirements of regulatory and technical documents. The laboratory result tests were subjected to mathematical and statistical processing. The calculation results are good, since the relative error of the calculation is closer to unity.

Key words: grapes, kishmish, doshab, juice, quality, expertise.

Vilayət Abbas oğlu ƏLİYEV
Azərbaycan Kooperasiya Universitetinin
"Əmtəəşünaslıq və ekspertiza" kafedrasının müdiri, professor

HİSLƏNMİŞ KOLBASALARIN KEYFİYYƏTİNİN TƏDQİQATI

Xülasə

Hislənmiş kolbasa məmulatının keyfiyyətinin yüksəldilməsi əmtəəşünaslıq elminin qarşısında duran əsas vəzifələrdən biridir. Hazırda respublikada hislənmiş kolbasaların istehsalı çox genişdir. Lakin qeyd edilməlidir ki, hislənmiş kolbasa çeşidləri haqqında tədqiqatın aparılması elmi və təcrübi əhəmiyyətə malikdir.

Açar sözlər: keyfiyyət, qiymətləndirmə metodu, hislənmiş kolbasa məmulatının standartı, kolbasa məmulatının fiziki-kimyəvi göstəriciləri, lipid, miofibrilyar, sarkoplazma.

Giriş

Hislənmiş kolbasa məmulatları əhalinin qidasında çox mühüm rol oynayır. Məhz bu baxımdan insanların bu məmulata tələbinin yüksək olması onun istehsalının yüksək templə inkişaf etdirilməsi ilə yanaşı onun qidalılıq dəyərinin tam xüsusiyyətinin və enerji vermə qabiliyyətinin yüksək olması həmişə diqqət mərkəzində saxlanılır. Hislənmiş kolbasaların tərkibində olan bütün maddələr zülal, yağ, mineral maddələr, azotlu ekstraktlı maddələr, vitaminlər, fermentlər və digər maddələrlə zənginliyi onu daha yüksək dəyərləndirir. Hislənmiş kolbasalar istehsal edildiyi xammaldan daha yüksək kaloriliyə malikdir. Belə ki, bişmiş kolbasaların 100 qr.-ı 140 kkal və ya 1200 kcoul enerji verdiyi halda, hislənmiş kolbasaların 100 qr.-ı orqanizmdə həzm olunarkən 1600,0 kkal və ya 1890,0 kcoul enerji verir.

Hislənmiş kolbasaların keyfiyyətini tədqiq etmək üçün "Halal kolbasa" firmasından 3 kq. hislənmiş kolbasa alınmışdır. Bu kolbasalardan orta nümunə hazırlanmışdır. Orta nümunə DÖST 9793-74, 9967-73 standartına uyğun hazırlanmışdır. Orta nümunə kip bağlanan şüşə bankaya yığılıb aşağı temperaturlu şəraitdə (-8°S, 80-85% nisbi rütubətdə) saxlanılır. Bu nümunələrə əsasən hislənmiş kolbasaların əmtəəşünaslıq xassələri tədqiq edilmişdir.

Hislənmiş kolbasa məmulatı yüksək qidalılıq dəyəri ilə xarakterizə edilir. Bunu araşdırmaq üçün kolbasa məmulatının kimyəvi tərkibi tədqiq edilmişdir. Tədqiqat nəticəsində müəyyənləşdirilmiş nəticə aşağıdakı cədvəldə verilir.

Cədvəl 1

Hislənmiş kolbasaların kimyəvi tərkibi

	Hislənmiş kolbasalar	**100 qr. məhsulda qramla miqdarı**				**Kül**		**100 qr. məhsulda kcoul**
		Su	**Zülal**	**Yağ**	**Karbo-hidrat**	**Ümumi miqdarı**	**o, cümlədən**	
1.	Bişirilib hislənmiş kolbasalar:							
	Həvəskar	39,1	17,3	39,0	-	4,6	3,8	1757,0
	Servelat	39,6	28,2	27,5	-	4,7	3,8	1508,0
2.	Yarımhislənmiş kolbasalar:							
	Krakov	34,6	16,2	44,6	-	4,6	3,6	1950,0
	Paltava	39,8	16,4	39,0	-	4,8	4,0	1748,0
	Ukrayna	44,4	16,5	34,4	-	4,7	4,0	1673,0
3.	Çiy hislənmiş kolbasalar:							
	Həvəskar	25,2	20,9	47,8	-	6,1	5,0	2151,0
	Moskva	27,6	24,8	41,5	-	6,1	5,0	1779,0
	Paytaxt	26,0	24,0	43,4	-	6,6	5.5	2038,0

1 saylı cədvəlin rəqəmlərindən görünür ki, bişirilib hislənmiş kolbasalarda rütubətin miqdarı Servelat kolbasasında az miqdarda çoxdur, zülalın miqdarı da Servelat kolbasasında bir qədər çoxdur, yağın miqdarına görə Həvəskar kolbasa fərqlənir, külün miqdarı hər iki çeşiddə eynidir.

Yarımhislənmiş kolbasalarda rütubətin miqdarı Ukrayna kolbasasında, zülalın miqdarı Ukrayna, yağın miqdarı Krakov kolbasalarında bir qədər üstündür, külün miqdarı da bir-birindən çox fərqlənmir.

Çiy hislənmiş kolbasalarda rütubətin miqdarı Moskva, zülalın miqdarı Moskva, yağın miqdarı Həvəskar kolbasalarda üstünlük təşkil edir, külün miqdarı Paytaxt kolbasasında nisbətən çoxdur.

Bişirilib hislənmiş kolbasalarda enerji dəyərinə görə Həvəskar, yarımhislənmiş kolbasalarda Paltava kolbasası, enerji dəyərinə görə çiy hislənmiş kolbasalardan, Həvəskar kolbasa enerji dəyərinə görə fərqlənirlər.

Hislənmiş kolbasaların tərkibində olan mineral maddələrin tədqiqatı çox böyük təcrübi əhəmiyyətə malikdir. Kolbasalarda mineral maddələrin miqdarının tədqiqatı nəticəsində müəyyən edilmişdir ki, hislənmiş kolbaslarda Na, Fe, K və P-un miqdarı nisbətən çoxdur.

Məlumdur ki, kolbasaların orqanoleptiki göstəricilərinə görə keyfiyyəti müəyyənləşir, daha doğrusu, kolbasa məmulatının keyfiyyəti orqanoleptiki, fiziki, kimyəvi və bakterioloji metodlarla qiymətləndirilməsi tədqiq edilmişdir. Hər üç növ kolbasaların göstəriciləri standart göstəriciləri ilə müqayisə edilmiş, heç bir kənarlaşma müəyyən edilməmişdir.

Məlumdur ki, bütün qida məhsullarının iy və tamının formalaşdırılması da çox əhəmiyyətlidir. Eyni zamanda lipidlər hislənmiş kolbasaların tərkibində ikinci əsas üzvi maddələrdir. Məhz bu baxımdan lipidlərin tədqiqatının elmi və təcrübi əhəmiyyəti böyükdür. Digər tərəfdən, hislənmiş kolbasaların tərkibindəki lipid fraksiyaları öyrənilmədən, kolbasaların saxlanması zamanı baş verən biokimyəvi dəyişmələrdən danışmaq mümkün deyildir. Hislənmiş kolbasaların lipid fraksiyalarının tədqiqatı aşağıdakı cədvəldə verilir.

2 saylı cədvəlin rəqəmlərindən görünür ki, lipid fraksiyalarından karbohidrogenlər, mum və stearin efiri Servelat kolbasasında miqdarca üstündür, yarımhislənmiş kolbasalarda bu fraksiya Krakov kolbasasında nisbətən yüksəkdir. Çiy hislənmiş kolbasalardan Paytaxt kolbasasında üstünlük təşkil edir.

Triqliseridlərin miqdarı bişirilib hislənmiş kolbasa çeşidləri Servelat kolbasasında bir qədər artıqdır.

Cədvəl 2

Hislənmiş kolbasaların lipid fraksiyalarının tərkibi (yaş maddəyə dörə)

Lipid fraksiyaları	Bişirilib hislənmiş kolbasalar		Yarımhislənmiş kolbasalar			Çiy hislənmiş kolbasalar		
	Həvəskar	Servelat	Krakov	Paltava	Ukrayna	Həvəskar	Moskva	Paytaxt
Karbohidrogenlər,mum və stearin efirlər	3,23	3,61	4,23	4,11	3,97	3,52	3,11	3,76
Triqliseridlər	41,27	41,4	40,6	42,01	41,36	40,60	41,13	41,19
Sərbəst yağ turşuları	7,68	8,16	8,11	7.14	7,58	7,67	7,12	7,40
Diqliseridlər	5,81	6,89	6,42	6,64	6,21	5,82	6.17	5,41
Xolesterin	4,01	4,43	4,02	4.12	4,0	4,03	4,15	5,0
Monoqliseridlər	10,71	10,9	9,89	10,4	12,7	10,69	12,1	11,9
Fosfolipidlər+ qlikolipidlər	26,29	24,58	26,73	25,58	24,18	27,67	26,22	25,34

Yarımhislənmiş kolbasalarda triqliseridlərin miqdarı Paltava kolbasasında nisbətən çoxdur. Çiy hislənmiş kolbasalarda triqliseridlərin miqdarı çox az miqdarda Paytaxt kolbasasında üstünlük təşkil edir.

Sərbəst yağ turşuları bişirilib hislənmiş kolbasalardan Servelat çeşidində bu turşuların miqdarı bir qədər çoxdur. Yarımhislənmiş kolbasalarda sərbəst yağ turşularının miqdarı Krakov kolbasasında bir qədər çoxdur. Çiy hislənmiş kolbasalardan Həvəskar kolbasada bu yağ turşularının miqdarı bir qədər çoxdur.

Xolesterinin miqdarı bişirilib hislənmiş kolbasalardan Servelat çeşidində bir qədər çoxdur, yarımhislənmiş kolbasalardan Paltava çeşidində yüksəkdir. Çiy hislənmiş kolbasalarda xolesterinin miqdarı Paltava kolbasasında yüksəkdir.

Monoqliseridlərin miqdarı həvəskar kolbasasında bir qədər yüksəkdir, yarımhislənmiş kolbasalardan Ukrayna kolbasasında bir qədər yüksəkdir. Çiy hislənmiş kilbasalarda bu fraksiyanın miqdarı Moskva kolbasasında bir qədər yüksəkdir.

Fosfolipidlər-qlikolipidlərin miqdarı bişirilib hislənmiş kolbasalardan Həvəskar kolbasada bir qədər yüksəkdir, yarımhislənmiş kolbasalarda bu fraksiyanın miqdarı Krakov çeşidində bir qədər çoxdur. Çiy hislənmiş kolbasalarda fosfolipidlər+ qlikolipidlərin miqdarı Həvəskar çeşidində bir qədər yüksəkdir.

Məlumdur ki, zülallar canlı olduğundan onların orqanizm üçün həm plastik, həm də enerji mənbəyi kimi əhəmiyyəti vardır. Hislənmiş kolbasaların qidalılıq dəyərini və saxlanma şəraitini düzgün təşkil etmək, bu kolbasaların tərkibində olan zülal fraksiyalarının öyrənilməsinin əhəmiyyəti vardır. Hislənmiş kolbasaların zülal fraksiyaları tədqiq edilmiş və nəticə aşağıdakı cədvəldə verilir.

Hislənmiş kolbasaların zülal fraksiyalarının tərkibi (ümumi zülala nisbətən, %-lə)

Kolbasaların adları	Ümumi azotun miqdarı %-lə	Zülallı azot			Zülal olmayan azot	Aminli azot
		Miofibril-yar	Sarko-plazma	Denatur-Laşmış		
Bişirilib hislənmiş kolbasalar:						
Həvəskar	2,3	41,4	30,2	13,1	8,7	0,8
Servelat	2,5	42,7	32,4	13,6	9,0	0,9
Yarımhislənmiş kolbasalar:						
Krakov	2,7	43,6	31,7	12.9	8,7	0,8
Paltava	2,5	46,4	32,6	12,6	9,1	0,9
Ukrayna	2,4	45,7	32,9	12.7	9,3	0,7
Çiy hislənmiş kolbasalar:						
Həvəskar	2.6	42,6	32,3	12.6	9,0	0,8
Moskva	2,3	45,3	31,2	11,7	8,9	0,7
Paytaxt	2.2	44,1	32,6	11,5	8,7	0.9

2 saylı cədvəlin rəqəmlərindən görünür ki, bişirilib hislənmiş kolbasalardan Servelat kolbasasında ümumi azotun miqdarı bir qədər artıqdır. Miofibrilyar zülalın miqdarı Servelat kolbasasında çoxdur. Sarkoplazma zülalın miqdarı Servelat kolbasasında, denaturlaşmış zülalın miqdarı bır qədər yüksəkdir. Zülal olmayan və aminli azotun miqdarı az fərqlənir.

Yarımhislənmiş kolbasalarda ümumi miqdarı Krakov kolbasasında, miofibrilyar zülalın miqdarı Paltava kolbasasında, sarkoplazma zülalının miqdarı isə Krakov kolbasasında üstünlük təşkil edir. Bu kolbasalarda zülal olmayan azot və aminli azotun miqdarı Ukrayna və Paltava kolbasalarından cüzi fərqlənir.

Çiy hislənmiş kolbasalarda ümumi azotun miqdarı Həvəskar kolbasada, mifibrilyar zülalı Moskva kolbasasında, sarkoplazma zülalı Həvəskar kolbasada, denaturlaşmış zülal həvəskar kolbasada çoxluq təşkil edir. Zülal olmayan və aminli azotun miqdarı çiy hislənmiş kolbasalarda az fərqlənir.

Nəticə

Məlumdur ki,hislənmiş kolbasa məmulatları qidalılıq dəyərinə görə yüksək yeyinti məhsulları olduğundan onların keyfiyyətinin tədqiqatı böyük maraq doğurur. Buna görə də bişirilib-hislənmiş, yarımhislənmiş və çiy hislənmiş kolbasa növlərinin çeşidlərinin keyfiyyəti tədqiq edilmişdir. Eyni zamanda məlimdur ki, hislənmiş kolbasaların keyfiyyəti ilk növbədə onların

kimyəvi tərkibindən, tərkibindəki üzvi maddələrin miqdarından və yağların (lipidlərin) və zülalların fraksiya tərkibindən asılıdır.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, hər üç növ kolbasaların kimyəvi tərkibi (cədvəl 1) az da olsa fərqlənir. Kolbasaların kimyəvi tərkibi ilə yanaşı onların qidalılıq dəyəri də araşdırılmışdır. Eyni zamanda hislənmiş kolbasaların tərkibində olan və kolbasaların iy və tamını formalaşdıran lipid və zülal fraksiyaları tədqiq edilmişdir. Eyni zamanda kolbasa batonlarının orqanoleptiki göstəriciləri də standartla müqayisə edilmişdir və müəyyən edilmişdir ki, kolbasaların keyfiyyəti standarta uyğundur.

ƏDƏBİYYAT

1. V.A.Əliyev. "Qida kimyası" Türkiyə, 1998.
2. V.A.Əliyev. Ət ürünlərinin təbii rənginin qorunması. "Standart" bilgi yayımı, Türkiyə, Ankara, 1996.
3. V.A.Əliyev. Qida ürünlərinin kalitesinin araşdırma metodu. "Standart" bilgi yayımı, Türkiyə, Malatya, 1998.
4. V.A.Əliyev. "Ərzaq mallarının əmtəəşünaslığı, ekspertizası və sertifikatlaşdırılmasının nəzəri əsasları" Bakı,1999.
5. V.A.Əliyev. "Ət və balıq məhsulları əmtəəşünaslığının praktikumu" Bakı, "Maarif". 1991.
6. V.A.Əliyev, Ş.A.Yusifova. "İstehlak mallarının keyfiyyət ekspertizası" Kooperasiya nəşriyyatı, 2006.
7. V.A.Əliyev. "Ətin qidalılıq, bioloji, enerji dəyəri" "Kooperasiya" jurnalı №4, 2014
8. V.A.Əliyev "Kolbasa məmulatının keyfiyyətinin yüksıldilməsinin əsas istiqamətləri" Kooperasiya jurnalı №2, 2017.

Вилаят Аббас оглы Алиев
зав. кафедра, профессор
Азербайджанского Университета Кооперации

Исследование качества копченных колбасных изделий

Резюме

Копченые колбасы - это высокие пищевые продукты. Основной проблемой науки характеризующей качество колбасных изделий, является качество колбасных изделий. Важно отметить, однако, что исследования качества колбас сегодня очень ограничены. Это исследования очень важны и практичны.

Ключевые слова: качество, метод оценки, стандарт колбасных изделий, физико-химические параметры колбасных изделий, липид, миофибриллярный, саркоплазма.

Vilayat Abbas Aliyev
professor Azerbaijan Cooperation University

Study of quality of fired sausages

Summary

Stuffed sausages are high food products. The main problem of cucumber science in characterizing the quality of sausage products is the quality of sausage products. It is important to note, however, that research on the quality of sausages today is very limited. This field research is very important and practical.

Key words: quality, valuation method, standard of sausage products, physical and chemical parameters of sausage products, lipid, myofibrilary, sarcoplasma.

tex.e.d., prof. Vüqar Şahbaba oğlu MİKAYILOV,
prof. Elmidar Bəbir oğlu ƏLƏKBƏROV,
doktorant Rövşən Elmidar oğlu ƏLƏKBƏROV
Azərbaycan Kooperasiya Universiteti

BİTKİ XAMMALINDAN ALINMIŞ EKSTRAKTLARIN, KONSENTRATLARIN VƏ İÇKİ NÖVLƏRİNİN TEXNOLOGİYASININ VƏ STANDARTLAŞDIRILMASININ AKTUAL PROBLEMLƏRİ

Xülasə

İşə meyvə-giləmeyvəli alkoqollu içkilərin prinsipial texnologiyası, ekstraktların, konsentratların və fementləşdirilmiş içkilərin texnologiyası, qida əlavəediciləri üçün standartların hazirlanması texnologiyası, onların istehsalının əsas nəzəri müddəaları və texnoloji proseslərinin əsaslandırılması daxildir. Burada ekologiyanın aktual məsələlərinə və aspektlərinə xüsusi diqqət yetirilir.

Açar sözlər: texnologiya, bitki xammalı, ekstraktlar, konsentratlar və içki növləri, aktual problemlər.

Giriş

Qida və emal sənayesinin gələcək inkişafı təbii bitki ehtiyatlarının səmərəli istifadə edilməsini və müasir texnologiyalarla yeni məhsul növlərinin alınmasını nəzərdə tutur.

Müxtəlif mülkiyyət formalı qida sənaye müəssisələrində bitki xammalı şirələrə, ekstraktlara, meyvə giləmeyvəli alkoqollu və alkoqolsuz içkilərə və digər məhsullara çevrilir. Bitki xammalının emalı zamanı son məhsullarda və içkilərdə insan üçün xeyirli olan maddələrin və birləşmələrin qorunub saxlanması, daha doğrusu, bitki mənşəli qida xammalının emalı zamanı texnoloji proseslər həm enerji və ehtiyatlara qənaət baxımından, həm də bioloji aktiv maddələrin qorunub saxlanması baxımından optimal olmalıdır.

Alkoqolsuz içkilərin ümumi texnologiyası. Alkoqolsuz içkilər tərkibində ən az miqdarda spirtin olması ilə xarakterizə olunurlar. Onları susuzluğa qarşı və orqanizmin sağlamlaşdırılması üçün tətbiq edirlər [2, s. 27].

Əksər alkoqolsuz içkilər tonuslaşdırıcı xassələrə malikdirlər, tərkibinə daxil olan ekstraktların, konsentratların, morsların, şəkərlərin və digər ekstraktiv maddələrin hesabına xoş dadı və tamı olur. İçkilərin tərkibinə mineral maddələr, karbon dioksid, üzvi turşular, bioloji aktiv maddələr daxildir.

Bütövlükdə içkilərin əksəriyyəti qida xassələrinin məcmuusu ilə təyin olunan dəyərə malik olmaqla, fizioloji tələbatı təmin etmək və insan orqanizminə əlverişli təsir göstərmək qabiliyyətinə malikdirlər [1, s.7].

Dünyada istifadə olunan alkoqolsuz içkilərin 20%-ni qazlaşdırılmamış meyvə-giləmeyvə şirələri təşkil edir.

Avropa Birliyində idmançılar üçün tərkibinə kofein, jenşen, alma sirkəsi, yaşıl çay, diabet və ürək-damar xəstələri üçün tərkibinə yağlı turşular (immun sistemini möhkəmləndirmək məqsədilə), uşaqlar üçün içkilərə yoğurt əlavə etməklə hazırlanan içkilərə tələbat artmaqdadır.

Avropa ölkələrinin bir çoxunda tərkibinə vitaminlər və antioksidantlar əlavə etməklə sağlamlaşdırıcı təsirə malik içkilərin istehsalı artmaqdadır.

Buraxılma üsuluna görə qatılaşdırılmış içkilər və içkilərin konsentratları olurlar. Qatılaşdırılmış içkiləri şəffaf və bulanıq hazırlayırlar. Bunlarda çöküntünün və suspenziyanın olmasına yol verilir.

Avropa ölkələrinin bir çoxunda vitaminlər və antioksidantlar əlavə etməklə sağlamlaşdırıcı təsirə malik içkilərin istehsalı artmaqdadır.

Alkoqolsuz içkilər üçün konsentratlar birdəfəlik poroşok, kristallik, yaxud pastaya bənzər kütlə ilə nəmləşdirilmiş tabletkalar və müxtəlif ölçüdə qranullar formasında buraxılırlar.

Alkoqolsuz içkilərin istehlak xassələri əhəmiyyətli dərəcədə istifadə edilən suyun, meyvə-giləmeyvə, tərəvəz şirələrinin, şəkərlərin, şəkərəvəzedicilərin, rəngləyicilərin, ətirləşdiricilərin və digər komponentlərin keyfiyyətindən asılıdır.

Alkoqolsuz içkilərin ətirləndirilməsi, ətirləndirici cövhərin, efirli yağların, vanilinin köməyilə həyata keçirilir.

İçkilərin hər 1000dm^3-nə aşağıdakı miqdarda aromatizatorlar daxil edilir: koruandr- 533-0,0005 kq; muskat üzümü 523-0,006 kq; barbaris 502-0,1; armud 0,5-0,2; moruq 512-0,2; bal 536-0,2; nanə-0,2; alma0,5-0,2 kq, digər aromatizatorlardan 0,4-1,0 kq [2, s.193].

Alkoqolsuz içkilərin istehsalı zamanı onların tərkibinə ətirli ədviyyat bitki xammalı, konservantlar, vitaminlər və digər bioloji aktiv maddələr əlavə edirlər. Bitki xammalı ekstraktlaşdırmadan əvvəl xırdalanır, yağsızlaşdırılır, fermentləşdirilir [1, s.100].

Meyvə-giləmeyvəli alkoqollu içkilərin prinsipial texnologiyası. Meyvəli alkoqollu içkiləri təzə meyvələrin, yaxud qabaqcadan qıcqırdılmış meyvə əzintisinin şirinləşdirilmiş şirəsindən spirtlə qıcqırma yolu ilə alırlar.

Texnologiyanın əsas mərhələləri: meyvə-giləmeyvəli horranın alınması; horranın qıcqırdılması; alkoqollu içkilərin işlənməsi və möhkəmləndirilməsi; süzülməsi.

Meyvə-giləmeyvəli alkoqollu içkilərin istehsalı üçün əsas xammal aşağıdakılardır: təzə meyvələr və giləmeyvələr (ərik, heyva, xırda və iri meyvəli alça, barbaris) [4, s.245].

Meyvəli alkoqollu içkilərin hazırlanması üçün istifadə edilən xammal texnoloji yetişkənlik mərhələsində olmalıdır. Xammalın çeşidliyi transportyorda tənzimlənməlidir.

Emalın mühüm əməliyyatlarından biri xammalın xırdalanmasıdır. Şirə çıxımı və onda olan asılqanların miqdarı xammalın xırdalanma dərəcəsindən asılıdır.

Xammal çox kiçik xırdalanarkən şirə ayırmaya pis drenaj xassələrə malik pureyəbənzər kütlə daxil olur. Bu, xüsusilə yetişkənliyi ötmüş və incə meyvələrin emalı zamanı nəzərə çarpır. İri hissəcikli əzinti yüksək drenaj xassələrə malik olur. Lakin bu halda meyvə toxuması kifayət qədər dağıdılmadığından şirə çıxımı azalır. Bu o deməkdir ki, xırdalanma dərəcəsi meyvə toxumasının vəziyyətindən asılıdır. Bu halda sıx toxumaya malik olan meyvə hissəcikləri 2-3 mm ölçüdə olmalıdır, digər hallarda hissəciklərin ölçülərini 6-10mm qədər böyütmək olar.

Meyvə xammalının xırdalanması nəticəsində əzintinin bircinsli kütləsi alınır. Turşulaşmadan və kənar mikroorqanizmlərdən müdafiə məqsədilə hər 1 kq-a 100 mq hesabilə əzinti sulfitləşdirilir.

Ərik, alça, gavalı kimi meyvələrdən şirənin daha yaxşı alınması üçün əzintinin sonradan ferment preparatları, istiliklə (yaxud qıcqırma ilə yetişdirilməsi) əlavə emal edilməsi məsləhət görülür. Ferment preparatı sulu suspenziya, yaxud təzə şirə formasında xırdalayıcıya, yaxud əzinti toplayıcıya daxil edilir.

Əzintidən şirənin ayrılması üçün o axıcıya göndərilir, daha sonra preslənir. Alınmış şirə durultma yolu ilə şəffaflaşdırılır. Durulducu maddələrlə və ferment preparatları ilə işlənir. Daha sonra senrtrafuqalaşdırma yaxud filtrləmə yolu ilə dekantasiya edilir. Durultmanı aşağı temperaturda, 18-24 saat müddətində aparmaq məsləhət görülür.

Şəffaflaşdırılmış şirə qıcqırtmadan əvvəl lazım gəldikdə sirop yaxud şəkər tozu ilə şirinləşdirilir. 70-75% konsentrasiyalı sirop şirədən alınır. Bunun üçün onu əvvəl suda həll etməklə turşuluğu azaltmaq lazımdır [3, s.152].

Mayaların qidalanması üçün bəzi meyvələrin tərkibində kifayət miqdarda azotlu maddələr olmadığından, qıcqırmaqabağı şirələrin tərkibinə 0,1-0,5 q/dm^3 miqdarında ammonium turşusu əlavə etmək lazımdır. Həmçinin 0,4sm^3/dm^3 miqdarında 25 %-li ammiak məhlulundan istifadə oluna bilər.

Təzə alkoqollu içkini şəffaflaşdırmaq üçün onu çökdürmək məqsədilə 10-12 gün sakit vəziyyətdə saxlayırlar. Bundan sonra meyvəli alkoqollu içki çöküntüdən çıxarılıb filtrləşdirilir və qablara süzülür.

Quru meyvəli alkoqollu içkilərin istehsalı zamanı qıcqırma qalıq şəkərin miqdarı 0,3%-ə çatana qədər aparılır. Quru meyvəli alkoqollu içkilərin istehsal prosesinin ümumi müddəti təşkil edir: şirənin qıcqırdılması- 30-45 gün; şəffaflaşdırılması - 3-7 gün; çöküntünün götürülməsi-1 gün; materialların işlənməsi- 5-18 gün; istirahət-10 gün; filtrləmə və süzülmə - 1 gün.

Yarımturş, yarımşirin və şirin meyvəli alkoqollu içkilərin texnologiyasının xüsusiyyəti ondan ibarətdir ki, onlar quru meyvə materiallarından hazırlanır.

İşlənmiş meyvə materialları lazımi kondisiyaya qədər şirinləşdirilir, saxlanmadan sonra filtrləşdirilir, daha sonra butulkalara süzülür.

Desert içkilərin texnoloji xüsusiyyəti ondadır ki, qıcqırmadan sonra horra 5-8 gün müddətində durultma yolu ilə şəffaflaşdırılır. Bundan sonra çöküntüdən götürülür.

Spirtin konsentrasiyası yüksək olmadığından, meyvəli alkoqollu içkilərdə süd turşusu və sirkə turşusu bakteriyaları çox sürətlə inkişaf edirlər.Bunun üçün şərab hazır kondisiyaya çatana qədər üzərinə spirt-rektifikat əlavə edirlir və filtrləşdirilir. Meyvəli alkoqollu içkilərin filtrləşdirilməsi lazımi şəffaflığı təmin etmədikdə onun yapışdırıcılıq xassəsi yoxlanılır. Texnoloji işləmədən sonra meyvəli material 10 gün saxlanılır, süzülməyə davamlılığı yoxlanılır, sonra filtrləşdirilir və süzülür. Xüsusi texnologiyalı meyvəli alkoqollu içkilər, dada və tama təsir edən müxtəlif texnoloji fəndlərdən istifadə etməklə alma şirəsi əsasında istehsal olunur. Qıcqırma zamanı maya texnoloji emalın xüsusi növləri olan biokimyəvi proseslərə təsir edir.

Oksidləşmə proseslərinin eyniləşdirilməsi üçün bir gün sonra şərab materialları hava cərəyanı vasitəsilə 2-3 saat ərzində oksigenlə doydurulur. Modernləşdirmənin müddəti 42-50 gündür. Bundan sonra şərab materialı dekantlaşdırılır, yəni şərab servis edilməzdən bir qədər əvvəl başqa bir qaba tökülərək servis üçün gözlədilir, 30 gün saxlanılır, filtrləşdirilir və süzülür. Meyvəli alkoqollu içkiləri, şəkər və süni doydurulmuş CO_2 əlavə etməklə təzə meyvə şirələrinin tam və qıcqırdılması yolu ilə hazırlayırlar. İlkin xammaldan asılı olaraq meyvəli oynaq alkoqollu içkilər ağ rəngdə ola bilər (məsələn, almadan, mot-motudan, bənövşəyi və qırmızı qarağatdan, gilasdan, qara meyvəli quşüzümündən və s.).

Qıcqırmadan əvvəl alınmış şirəyə meyvə materialının şəkərə olan tələbatı miqdarda şəkər əlavə edirlər. Qıcqırma şəkərin miqdarı 0,3%-ə çatana qədər aparılır.

Qıcqırdılmış material maya çöküntüsündən çıxarılır, ümumi kükürd turşusunun miqdarına qədər (120 mq/dm^3) sulfitləşdirilir və yapışdırıcılığı götürülür. Meyvəli material çöküntüdən götürüldükdən sonra ümumi kükürd turşusunun miqdarı 200 mq/dm^3-ə çatana qədər sulfitləşdirilir və saxlanmaya göndərilir. Meyvəli material qapalı hermetik qabda saxlanılır.

Saturasiya qabağı (CO_2 ilə doydurulma) işlənmiş meyvə materialları kupajlaşdırılır, sonra kupaj lazımi kondisiyaya qədər ekspedisiya likyoru ilə şirinləşdirilir, 0-2^0 C-ə qədər soyudulur, çəkilmiş sidr materialı çöküntüdən ayrılır, filtrdən keçirilir, kükürd turşusunun miqdarı 200 mq/dm^3-ə çatana qədər təkrar sulfitləşdirilir. Alınmış sidr materialı oynaq sidrin hazırlanması zamanı ikinci qıcqırma üçün istifadə edilir. Bunun üçün şəffaflaşdırılmış sidr materialı, qarışıqda şəkərin miqdarı 3%-ə və ammoniumun miqdarı 0,3-0,4q/dm^3-ə çatana qədər tirajlı likyorla kupajlaşdırılır. Alınmış yarımfabrikat tiraj qarışığı sayılır. Onu iki dəqiqə ərzində 80-85^{0}C-də filtrləşdirir və pasterizə edirlər.

Tirajlı məhlulun ikinci qıcqırması, məhlulun 6-8%-i həcmində əlavə edilmiş təmiz maya kulturası ilə aparılır. Qıcqırma akratofor aparatlarında 0,4 mPa təzyiq altında baş verir. Bu halda içkinin dioksid karbonla təbii doydurulması baş verir.

İkinci qıcqırmadan sonra kondisiyaya qədər qıcqırdılmış quru sidr filtrdən keçirilir və 0-2^0 C temperaturda istilik - mübadilə aparatında soyudulur.

Nəticə

Sənayedə alkoqollu və alkoqolsuz içki istehsalının konkret aktual problemlərinə aiddir: bioloji aktiv birləşmələrlə zəngin fermentləşdirilmiş içkilərin texnologiyasının təkmilləşdirilməsi; müxtəlif meyvə-giləmeyvə, ətirli və müalicəvi bitki xammalından istifadə etməklə müalicə, profilaktika istiqamətli içki hissəsini artırmaqla çeşidlərin genişləndirilməsi; mikroorqanizmlərin yeni yüksək səmərəli ştammlarının seçilməsi - bu əlavə sərmayə qoymadan texnoloji prosesi intensivləşdirməyə və tərkibinə görə bioloji aktiv içkilərlə balanslaşdırılmış istehsalı təşkil etməyə imkan verir; içkilərin keqilərə doldurulmasının təşkili - bu onların kafelərdə, barlarda və s. yerlərdə satışını həyata keçirtməyə imkan verir; aparat tərtibatının təkmilləşdirilməsi, o cümlədən texnoloji prosesdə avtomatlaşdırmanın, nəzarət ölçü vasitələrinin tənzimləyicilərində

kompüterləşdirmənin tətbiqi; xüsusi təyinatlı içkilərin çeşidlərinin genişləndirilməsi; istehsalın sanitar-gigiyenik təmizliyinin yaxşılaşdırılması, müasir yuyucu vasitələrdən və dezinfektantlardan istifadə edilməsi hesabına içkilərin davamlılığının artırılması; konsentrat içkilərin və qida əlavəedicilərinin təbii xammalından sənaye istehsalının təşkili; hazir məhsulun maya dəyərinin aşağı salınması üçün müəssisələrin istehsal gücünün qaldırılması (bu xüsusilə təbii içkilər üçün daha da aktualdır).

Qida əlavəedicisi tətbiq edilərkən onun məqsədəuyğunluğunun və səmərəliliyinin təyini zamanı onların istər əvvəllər istifadə edilməyən ənənəvi qida məhsullarının və içkilərin istehsalı zamanı, istərsə də yeni qida məhsullarının və içkilərin yaradılması zamanı, qida əlavəedicilərin daxil edildiyi qida sistemlərinin xüsusiyyətlərinin nəzərə alınması, onun daxil edilməsinin mərhələləri və üsullarının düzgün təyin edilməsi, ondan istifadənin iqtisadi və sosial səmərəsi qiymətləndirilməlidir.

ƏDƏBİYYAT

1. Fərzəliyev E.B., Əliyev Ə.Y. Yeyinti məhsullarının ümumi texnologiyası (ali məktəblər üçün dərslik). Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2005. - 392 səh.
2. Fətəliyev H., Mikayılov V. Tünd alkoqollu içkilər. Dərs vəsaiti. Bakı: -"Elm"nəşriyyatı,2007, -168 səh.
3. Домарецкий В.А. Технология экстрактов, концентратов и напитков из растительного сырья: учебное пособие. 2015. - 444 стр.
4. Бачурская Л.Д., Гуляев В.Н. Пищевые концентраты. -М.: Пищевая промышленность, 1976. -335 стр.
5. Технология переработки продукции растениводства /под ред. Н.М.Мерко/. -М.: Колос. 2005, -552 стр.

д.т.н., проф. Вугар Шахбаба оглы Микаилов,
проф. Эльмидар Бабир оглы Алекберов,
докторант Ровшан Эльмидар оглы Алекберов,
Азербайджанский Университет Кооперации

Актуальные проблемы технологии и стандартизации экстрактов, концентратов и напитков полученных из растительного сырья

Резюме

В работу включена приципиальная технология фруктово - ягодных алкогольных напитков, разработка стандартов, технология экстрактов, концентратов и ферментативных напитков для пищевых добавок, обоснование их теоретической сущности и технологии процессов производства. Здесь особое внимание уделяется актуальным вопросом и аспектам экологии. Работа является началом научно - исследовательской работы кафедры стандартизации и технологии.

Ключевые слова: технология, растительное сырье, экстракты, концентраты и виды напитков, актуальные проблемы.

d.t.s., prof. Vuqar Shahbaba oghlu Mikayılov,
prof. Elmidar Babir Alakparov,
doctorate Rovshan Elmidar Alakparov,
Azerbaijan Cooperation University

Actual problems of technology and standardization of extracts, concentrates and beverages obtained from vegetable raw materials

Summary

The work includes the principle technology of fruit and berry alcoholic beverages, the development of standards, the technology of extracts, concentrates and enzymatic beverages for food

additives, justification of their theoretical nature and technology of production processes. Here, special attention is paid to topical issues and aspects of the environment. The work is the beginning of the research work of the Department of standardization and technology.

Key words: technology, plant material, extracts, concentrates and drinks, actual problems.

Zəbihə Nazim qızı ƏSGƏR
Azərbaycan Kooperasiya Universitetinin dissertantı
Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin
Əhali statistikası şöbəsi Gender statistikası sektorunun müdiri

REGİONAL İDARƏETMƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ: EMAL SƏNAYESİNİN İNKİŞAFI MƏSƏLƏLƏRİ

Xülasə

Məqalədə regional idarəetmənin təkmilləşdirilməsi istiqamətləri və həyata keçirilən tədbirlər qeyd edilir.Həmçinin, neft ixracından asılılığın aradan qaldırılması, qeyri-neft sektorunun, xüsusilə də ərzaq təhlükəsizliyinin təmin edilməsi və aqrar-sənaye kompleksinin inkişafına dövlət dəstəyinin artırılmasının zəruriliyi əsaslandırılır.

Açar sözlər: regional idarəetmə, inkişaf konsepsiyası, ərzaq təhlükəsizliyi, emal müəssisələri.

***

Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması zərurəti ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoyması ilə bağlıdır. Çünki qazanılmış nailiyyətlər imkan verir ki, Azərbaycan öz qarşısına daha yüksək məqsədlər qoysun və bu məqsədlərdən irəli gələn vəzifələri müəyyənləşdirsin.

Müasir mərhələdə inkişaf edən və yayılan informasiya və kommunikasiya texnologiyaları, bununla bağlı yeni vüsət almış qloballaşma prosesləri ölkələrin sosial-iqtisadi həyatına ciddi şəkildə təsir etməkdədir. Qlobal, planetar xarakterli amillər ölkə həyatında, iqtisadi, sosial, siyasi, humanitar-mədəni və s. sahələrdə gedən proseslərə nüfuz edir. Bununla yanaşı, hər bir ölkədə olduğu kimi, Azərbaycanda da öz mənşəyinə və təsir dairəsinə görə regional, yaxud ölkədaxili amillər mövcuddur ki, ölkənin ictimai həyatının müxtəlif sahələrinin idarə edilməsində onların da nəzərə alınması vacibdir.

Azərbaycanın qarşısında duran əsas məsələ dünya ölkələrinin inkişaf sürəti ilə müqayisədə geriliyə yol verməməkdir. Bu isə ilk növbədə iqtisadiyyatda neft ixracından asılılığı aradan qaldırmağı, qeyri-neft sektorunun, xüsusilə də ərzaq təhlükəsizliyinin aradan qaldırılmasında aqrar sənaye kompleksinin inkişafına dövlət dəstəyinin artırılmasını tələb edir.

Bu baxımdan konsepsiyanın başlıca strateji məqsədi mövcud imkan və resursları nəzərə almaqla, Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsinə nail olmaqdır. Göstərilən məqsədə çatmaq üçün bazar iqtisadiyyatı şəraitində sağlam rəqabəti təmin edən səmərəli dövlət tənzimləməsi, enerjidən səmərəli istifadə edən və yüksək əlavə dəyər yaradan ixrac yönümlü iqtisadiyyata transformasiya və sosial-iqtisadi sahələrin inkişafına kompleks yanaşma prinsipləri əsas götürülməlidir.

Konsepsiya çərçivəsində istehsal amillərinin ümumi məhsuldarlığının artımı nəticəsində ölkə iqtisadiyyatının səmərəliliyə əsaslanan iqtisadiyyata çevrilməsi və innovasiyaların üstünlüyü ilə səciyyələndirilən mərhələyə keçidin təmin olunması hədəflənir. İqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması makroiqtisadi sabitliyin qorunması, monetar və fiskal siyasətin koordinasiyasının gücləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması və özəl təşəbbüsün dəstəklənməsi, maliyyə xidmətləri bazarının inkişaf etdirilməsi, xarici ticarət və investisiya siyasətinin təkmilləşdirilməsi kimi istiqamətləri özündə cəmləşdirir.

Eyni zamanda, aqrar sahə üzrə emal sənayesinin modernləşdirilməsi, qeyri-neft sənayesinin şaxələndirilməsi və inkişaf etdirilməsi, aqrar sektorun inkişafı və ərzaq təhlükəsizliyinin gücləndirilməsi, sözügedən sahə üzrə ticarət və xidmət fəaliyyəti növlərinin genişləndirilməsi və

inkişaf etdirilməsi, xarici ticarətin və investisiyaların strukturunun təkmilləşdirilməsi prioritet istiqamətlər olacaqdır. [1]

Qarşıda duran məqsədlərə çatmaq üçün ölkənin bütün imkanlarından dolğun istifadə etmək, mövcud iqtisadi, sosial, siyasi resurslardan tam səmərə ilə yararlanmaq və ölkənin potensialının gücləndirilməsinə şərait yaratmaq vacib şərtdir. Bu baxımdan, enerji, nəqliyyat, tranzit və logistika infrastrukturunun genişləndirilməsi, bölgələrə xüsusi diqqət yetirilməsi və hər bir bölgənin rəqabət üstünlükləri nəzərə alınmaqla, regional inkişaf mərkəzlərinin yaradılması, şəhər və kənd yerlərində infrastrukturun və sosial xidmətlərin inkişaf etdirilməsi ilə bölgələr üzrə əhalinin yaşayış səviyyəsinin tarazlaşdırılmasına nail olmaq mümkündür.

Şübhəsiz ki, ölkənin bölgələrində infrastruktur təminatının yaxşılaşdırılması, informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, turizm və rekreasiya zonalarının, iqtisadiyyatın prioritet sahələri üzrə ərazi-istehsal klasterlərinin, hər bir bölgənin rəqabət üstünlükləri nəzərə alınmaqla, yeni regional inkişaf mərkəzlərinin yaradılması bölgələrin sosial-iqtisadi inkişafını sürətləndirəcəkdir. Regional inkişaf mərkəzləri bölgələrdə tarazlı sosial-iqtisadi inkişafın təmin edilməsini stimullaşdıracaq, bu isə regional bərabərsizliyin azaldılmasına, əmtəə dövriyyəsinin iqtisadi rayonlar üzrə strukturunda kəskin fərqlərin aradan qalxmasına, iqtisadi resursların, əsasən, mərkəzi şəhərlərdə təmərküzləşməsinin səngiməsinə gətirib çıxaracaqdır.

Qeyd etmək lazımdır ki, ölkə miqyasında həyata keçirilən regional iqtisadi siyasət dövlət siyasətinin tərkib hissələrindən biri olmaqla ölkənin seçmiş olduğu inkişaf strategiyasına uyğun olaraq milli məkanın tənzimlənməsinə yönəlmişdir. Sosial sahədə regional iqtisadi siyasətin məqsədi hər bir regionda layiqli həyat səviyyəsinin təmin edilməsi, bütün vətəndaşlar üçün bərabər həyat şanslarının yaradılması, yaşayış yerinin və əmək fəaliyyətinin sərbəst seçilməsi hüququnun reallaşdırılması, daxili sosial gərginliyin zəiflədilməsidir. Regional iqtisadi siyasət regionlarda iqtisadi inkişafa kömək etməyə, regionlarda sosial-iqtisadi şəraitin bərabərləşdirilməsi vasitəsilə dövlət quruluşunu möhkəmləndirməyə, regionlardakı mövcud potensialdan daha səmərəli istifadə edilməsinə xidmət edir. Regional inkişafın tənzimlənməsinin başlıca məqsədi ixtisaslaşmış sahələrin inkişafının stimullaşdırılması və ərazilərin üstünlüklərindən istifadə etməklə daxili ərazi proporsiyalarının formalaşması üçün əlverişli şəraitin yaradılmasından ibarətdir.

Dünya təcrübəsi göstərir ki, dövlətin müdaxilə etməməsi regional problemlərə gətirib çıxarır ki, bunlar da milli iqtisadiyyatın və cəmiyyətin bütövlüyünü dağıtmaq gücünə malikdir. Regional siyasətin nəticəsi regionlarda sosial münaqişələrin meydana gəlməsi üçün əsas yaradan, bütövlükdə ölkənin sosial-iqtisadi inkişafına maneçilik törədən qeyri-bərabərliyi minimuma endirməkdir. Regional iqtisadi siyasətin konkret məqsədləri regional qeyri-bərabərliyin meydanagəlmə səbəbləri ilə müəyyən edilir.

Müasir dövrdə Azərbaycan Respublikasının qarşısında duran ən vacib və təxirəsalınmaz məsələlərdən biri regionların inkişafının təmin edilməsindən, bu inkişafın idarə olunmasının səmərəli və çevik mexanizmlərinin yaradılmasından ibarətdir. Təcrübə göstərir ki, ölkədə sosial-iqtisadi inkişafın ağırlıq mərkəzi tədricən regional inkişafla bağlıdır və bu istiqamətdə görülən tədbirlərin uğurlu nəticəsi ölkənin gələcək inkişafının əsasını təmin edir. Regional inkişaf isə region və regionlararası iqtisadi mühitin möhkəmləndirilməsi ilə sıx bağlıdır.

Regionun iqtisadi inkişafının qiymətləndirilməsinin standart üsulu istehsalın səviyyəsinin və emal sənayesinin qiymətləndirilməsidir. Belə ki, istehsalla yanaşı emal sənayesini inkişaf etdirmədən kənd təsərrüfatını inkişaf etdirmək mümkün deyil.

Nəzərə almaq lazımdır ki, inteqrasiya əlaqələrində emal müəssisələrinin rolu əhəmiyyətlidir və həmin müəssisələr, xeyli dərəcədə istehsalçı arasında əlaqələrin texnoloji xüsusiyyətlərini şərtləndirmiş olur. Emal fəaliyyəti sıx qarşılıqlı münasibətlər mühitində reallaşmaqla, sahələrarası əlaqələri intensivləşdirir. Aqrar sahədə inteqrasiya əlaqələrinin mövcud vəziyyəti üçün xarakterik cəhət istehsal, emal, ticarət və xidmət proseslərinin vahid kontekstdə qiymətləndirilməsidir. [2, s. 82, 83]

Azərbaycanda aqrar-emal sənayesinin inkişaf səviyyəsi ölkənin bütünlükdə iqtisadi inkişaf səviyyəsini xarakterizə edən göstəricilərdən biridir. Aqrar sahə üzrə inkişaf etmiş ölkələr dünya bazarlarına məhz emal məhsulları vasitəsilə inteqrasiya edirlər. Emal sənayesinin digər üstünlüyü ondan ibarətdir ki, az kapital tutumludur, daha çox əlavə dəyər yaradır. Emal sənayesinin

inkişafı aqrar sektorun da inkişafına həlledici təsir göstərir.

Regional inkişafda mövcud olan mühüm əhəmiyyətli meyllərdən biri də daxili investisiyaların üstünlük təşkil etməsidir. Bütün bu mütərəqqi dəyişikliklər bazar iqtisadiyyatı sisteminin mühüm keyfiyyət göstəricisi olan gəlirlərin artmasına səbəb olur. Əlbəttə, bu proses avtomatik surətdə baş vermir, ilk növbədə institusional və digər problemlərin həlli sayəsində sərbəst fəaliyyət mühiti, sahibkarlıq üçün münbit şərait formalaşdırılır, hüquqi baza təkmilləşdirilir, vergilər tənzimlənir, kreditlər ucuzlaşdırılır və s. Bu da kapital yığımına müsbət təsir göstərməklə yanaşı, daxili investisiya imkanlarını artırır. [3, s. 214-215]

Qeyd etmək lazımdır ki, regionların potensial imkanları baxımından aqrar sahə üzrə emal müəssisələrinin inkişafı əhəmiyyət kəsb edir. Vacib məsələlərdən biri də iqtisadiyyatın strukturunun şaxələndirilməsi məqsədilə investisiyaları yeni, müasir istehsal sahələrinin, zavod və fabriklərin açılmasına yönəltməkdən ibarətdir. Bu kimi layihələri bir sıra meyarlarla yanaşı, həm də əməktutumluğu səviyyəsinə görə qiymətləndirmək lazımdır.

Hazırda ölkəmizdə qlobal sarsıntılara cavab verə biləcək güclü milli iqtisadi potensial yaratmaq, ərzaq təhlükəsizliyini və ölkə əhalisinin keyfiyyətli həyat səviyyəsini təmin etmək üçün sistemli tədbirlər müəyyənləşdirilib. Bununla əlaqədar olaraq, yeyinti sənayesinin inkişaf etdirilməsi istiqamətində fəaliyyətdə olan müəssisələrin texniki cəhətdən silahlandırılması, xarici investisiyaların, texnologiya və innovasiyaların cəlb edilməsi, digər yeyinti məhsulları istehsalçıları ilə əməkdaşlıq və kooperasiya əlaqələrinin qurulması, emal-yeyinti sənayesinin inkişafı üçün xammal mənbəyi hesab edilən kənd təsərrüfatı məhsullarının bölgələr üzrə inkişafı, xammal və hazır məhsulun ekoloji təmizliyinin və keyfiyyətinin dünya standartları səviyyəsinə çatdırılması, emal sənayesi üçün tələb olunan avadanlıqların respublikamızda istehsalının təşkil edilməsi zəruridir.

Onu da qeyd etmək lazımdır ki, iqtisadi rayonda kənd təsərrüfatı məhsullarının istehsalı üzrə böyük potensial olmasına baxmayaraq, emal müəssisələrinin az olması istehsal olunan məhsulun emalında çətinliklər yaradır. Mövcud vəziyyət istehsal olunan məhsulun itkisinə səbəb olmaqla yanaşı ərzaq təhlükəsizliyi riskini artırır. Emal müəssisələrinin sayının artması və ya mövcud müəssisələrin fəaliyyətinin stimullaşdırılması məhsul itkisinin qarşısını almaqla bərabər yerli məhsulların xarici bazarlara çıxmaq imkanını da artırar.

Bu baxımdan dövlət büdcəsi hesabına emal müəssisələrinin tikilməsinə, xüsusilə, Aran iqtisadi rayonuna aid meyvəçilik və tərəvəzçilik bölgələrində aqroparkların yaradılmasına böyük ehtiyac vardır.

ƏDƏBİYYAT

1. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı;
2. Quliyev E. Etibarlı ərzaq təminatı sistemi: Kooperasiya və inteqrasiya problemləri. Bakı, "Elm" 2013, 307s.;
3. Hüseynov T. Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika. Bakı "Elm", 2015, 465 s.

Забиха Назим кызы Аскер
диссертант Азербайджанского Университета Кооперации
Заведующая сектором Гендерной статистики
Отдела статистики населения
Государственного Комитета Статистики
Республики Азербайджан

Совершенствование регионального управления: развитие обрабатывающей промышленности

Резюме

В статье отмечаются направления совершенствования регионального управления и осуществленные мероприятия. Также обоснована необходимость устранения зависимости от экспорта нефти, необходимость увеличения государственной поддержки ненефтяного сек-

тора, в частности обеспечения продовольственной безопасности и развития аграрно-промышленного комплекса.

Ключевые слова: региональное управление, концепция развития, продовольственная безопасность, перерабатывающие предприятия.

Zabiha Nazim Asgar
Azerbaijan Cooperation University,
candidate for a degree
Head of sector of Gender statistics of
Departament Population statistics
of State Statistical Committee of the
Republic of Azerbaijan

Improving of regional management: development of manufacturing industry

Summary

The article outlines the directions and measures taken to improve regional governance. It also stresses the need to overcome dependence on oil exports, and to increase the state support for the non-oil sector, in particular food security and the development of the agrarian industry.

Keywords: regional management, developmentconcept, foodsecurity, processingenterprises.

doktorant SevdaTaleh qızı HACIYEVA,

b.f.d., aparıcı elmi işçi Sevinc Mehti qızı MƏMMƏDOVA,

a.e.ü.f.d., elmi katib Sevda Kamal qızı HACIYEVA,

a.e.ü.f.d., aparıcı elmi işçi Faiq Allahverdi oğlu XUDAYEV,

kiçik elmi işçi Röya Rafiq qızı ƏSGƏRLİ
Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi
Əkinçilik Elmi-Tədqiqat İnstitutu

BƏRK BUĞDANIN MÜXTƏLİF COĞRAFİ MƏNŞƏLİ SORTN ÜMUNƏLƏRİNİN TEXNOLOJİ-KEYFİYYƏT GÖSTƏRİCİLƏRİNİN TƏDQİQİ

Xülasə

Məqalədə 2016-2017-ci illərdə suvarma şəraitində kolleksiya pitomnikində bərk buğdanın 55 yerli və introduksiya olunmuş müxtəlif coğrafi mənşəli sort nümunələrinin tədqiqinin nəticələri haqqında məlumat verilmişdir. Belə ki, bu sort nümunələrdən yüksək təsərrüfat əhəmiyyətli əlamətlərə malik 28 nümunə seçilərək texnoloji-keyfiyyət göstəriciləri tədqiq edilmişdir. Tədqiqatlar nəticəsində yüksək keyfiyyət göstəricilərinə malik 8 bərk buğda nümunəsi seçilərək qiymətli başlanğıc material kimi hibridləşməyə cəlb edilmişdir.

Açar sözlər: seleksiya, kolleksiya, introduksiya, bərk buğda, keyfiyyət.

Giriş

Hazırda qlobal iqlim dəyişikliyi baş verən bir dövrdə bitkilərin biotik və abiotik stres amillərinə davamlılığının artırılması, əsasən ciddi seleksiya işlərinin aparılması, daha məhsuldar və keyfiyyətli sortların yaradılması yolu ilə əldə edilə bilər. Bərk buğdanın məhsuldarlığı və keyfiyyət göstəriciləri fizioloji proseslərin, ekoloji şəraitin, bitkinin genetik strukturunun və genetika ilə ekologiyanın qarşılıqlı təsirləri nəticəsində formalaşır.

Taxılçılığı inkişaf etdirmək və respublikada makaron istehsalı üçün xammal olan bərk buğdalara olan tələbatın ödənilməsi məqsədi ilə yüksək məhsuldarlığa və keyfiyyətə malik yeni sort-

ların yaradılması və onların istehsalata tətbiq edilməsi mühüm əhəmiyyət kəsb edir. Bərk buğdalarda dənin bərkliyi, proteinin çox olması onun makaron istehsalında əhəmiyyətini artırır. Bərk buğdanın dənindən makaron, vermişel, əriştə, lavaş, müxtəlif yarmalar, bulğur və milli xörəklərin hazırlanmasında geniş istifadə olunur və bəzi ölkələrdə onu makaron buğdası da adlandırırlar.

Buğda dünyada ən vacib ərzaq məhsulu olaraq hər bir insan tərəfindən qəbul olunan kalorinin 1/5-ni təmin edir [1, səh. 62].

Hal-hazırda ölkə iqtisadiyyatının sürətli inkişafı makoron və vermişel sənayesində istifadə olunan xammala olan tələbatı daha da artırır. Bu məqsədlə məhsuldar və keyfiyyətli olan yeni sortların yaradılmasına ehtiyac duyulur. Yeni sortların yaradılmasında əsas üsullardan biri də qiymətli başlanğıc materialın seçilməsi və məqsədyönlü şəkildə hibridləşməyə cəlb edilməsidir.

Bir çox tədqiqatlarla müəyyən edilmişdir ki, yeni yüksək keyfiyyətli sortların yaradılmasında başlanğıc materialın rolu son dərəcə mühüm əhəmiyyət kəsb edir. Seleksiya elminə başlanğıc material haqqında təlim və anlayışı ilk dəfə akademik N.İ.Vavilov gətirmişdir. O, öz əsərlərində qeyd etmişdir ki, yeni sortların yaradılmasında başlanğıc materialın rolu böyükdür [2, səh. 11-12; 3, səh. 7-259; 4, səh. 3-28].

Ədəbiyyat məlumatlarının təhlili və apardığımız tədqiqatlar əsasında belə bir fikrə gəlmək olar ki, başlanğıc materialın düzgün seçilməsi və onların məqsədyönlü olaraq hibridləşməyə cəlb edilməsi gələcəkdə yüksək məhsulun əsasını təmin edir.

Material və metodika. Seleksiya işinin səmərəliliyini artırmaq və daha məqsədəuyğun tədqiqat işləri aparmaq üçün sort nümunələrinin texnoloji-keyfiyyət göstəriciləri tədqiq edilmişdir.

Bu məqsədlə Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Abşeron Yardımçı Təcrübə Təsərrüfatında 2015-2016-cı illərdə suvarma şəraitində kolleksiya pitomnikində bərk buğdanın 55 yerli və introduksiya olunmuş müxtəlif coğrafi mənşəli xarici sort nümunələri tədqiq edilmişdir. Standart olaraq Aərbaycanda geniş əkin sahələrində becərilən Bərəkətli-95 sortu götürülmüşdür. Səpin, sələf paxlalı bitkilər olmaqla noyabr ayının birinci ongünlüyündə əllə aparılmaqla hər bir nümunə $1m^2$ sahədə səpilmiş, kütləvi cücərtilər noyabr ayının ikinci ongünlüyündə müşahidə edilmişdir.

Vegetasiya müddətində təcrübə sahəsində aqrotexniki qulluq işləri bölgə üçün müəyyən edilmiş tövsiyə əsasında həyata keçirilmiş, şum altına hektara 100 kq mürəkkəb gübrə (omofoska), erkən yazda kollanma fazasında hektara təsiredici maddə hesabı ilə 90 kq azot gübrəsi (NH_4NO_3) verilmişdir. Vegetasiya dövründə nümunələr üç dəfə (kollanma, sünbülləmə və dənin formalaşması mərhələsində) suvarılmışdır.

Tədqiqat illərində seçilmiş 28 bərk buğda nümunəsində kompleks texnoloji-keyfiyyət göstəriciləri qəbul edilmiş metodlar əsasında təyin edilmişdir [5, səh. 136; 6, səh. 53].

Nəticələr və onların müzakirəsi. Tədqiq edilən bərk buğda nümunələri standart sortla (Bərəkətli-95) müqayisə edilmiş və texnoloji-keyfiyyət əlamətlərinin standartdan fərqli göstəricilərə malik olması müəyyənləşdirilmiş və qruplaşdırılaraq təhlil edilmişdir.

Məlumdur ki, dənin şüşəvariliyi vegetasiya dövründə, xüsusi ilə dəndolma və yetişmə mərhələlərində düşən yağıntıların miqdarından və suvarma tezliyindən sıx asılıdır. Tədqiqat illərində bərk buğda nümunələrindən Bərəkətli - 95 sortunun şüşəvariliyi 92,5% olduğu halda, tədqiq edilən sort və sortnümunələrdə bu göstərici yüksək və qənaətbəxş olmaqla 60,1-100% arasında dəyişmişdir. Yerli nümunələrdən - Qaraqılçıq 2, Tərtər, Qarabağ, Turan və s. sortlarında bu göstərici yüksək (100%) olmuşdur.

Kleykovinanın miqdarı və keyfiyyəti bişirilən çörəyin keyfiyyətini birbaşa müəyyən edir. Kleykovinanın miqdarına görə sort və sortnümunələrin 47,6%-i standartdan (Bərəkətli - 95-28,0%) yüksək (28,1-34,0%), 52,4%-i isə aşağı (21,6-27,65) göstəriciyə malik olmuşdur.

Sort və sortnümunələrdən - Tərtər 2 -34,0%, Turan- 32,7%, Mirvari- 32,0% və s. bu göstəriciyə görə standartdan yüksək, v.hordeiforme - 21,6%, v.apulikum 23/28- 24,0% və s. isə aşağı olmuşdur.

Kleykovinanın keyfiyyəti onun elastiklik xassələri ilə xarakterizə olunaraq, kleykovinanın deformasiya əmsalı (KDƏ) ilə müəyyən edilir. Bu göstərici standart Bərəkətli - 95 sortunda

102,3 c.g. (cihaz göstəricisi) olub, nümunələrin 57,2%-i standartdan yüksək (90,2-100,7), 42,8%-i isə standartdan aşağı (103,6-112,8) olmuşlar.

Bir çox tədqiqatlarla müəyyən edilmişdir ki, müxtəlif morfoloji xüsusiyyətlərə malik sortların kəmiyyət və keyfiyyət göstəriciləri ekoloji şəraitdən və becərilmə texnologiyasından asılı olaraq dəyişir [7, səh. 42-44; 8, səh. 8-13].

Tədqiqat illərində sort və sortnümunələrdə zülalın miqdarı tədqiq edilmiş və nümunələrin 57,2%-i standartdan (12,7%) yüksək (12,8-14,7%), 42,8%-i isə aşağı (11,9-12,6%) göstəriciyə malik olmuşlar. Sort və sortnümunələrdən Tərtər 2- 15,1%, Mirvari- 14,7%, Tərtər- 14,2% və s. standartdan yüksək, Zatino- 11,8%, [Tərtər x Kəhrəba]- 11,9%, Zəngəzur- 12,0%, Göytəpə- 13,0% və s. aşağı göstəriciyə malik olmuşlar.

Tədqiqat illərində texnoloji-keyfiyyət göstəricilərinə görə tədqiq edilən sortnümunələrdən bəziləri standartla (Bərəkətli - 95) müqayisədə kompleks yüksək göstəricilərə malik olmuş və yüksək texnoloji-keyfiyyət göstəricilərinə malik yeni sortların alınması məqsədiylə hibridləşmə prosesinə cəlb edilmişdir. Tədqiq edilən sortlardan Turan, Kəhrəba, Tərtər-2 makaron sənayesi üçün daha münasib hesab edilir (cədvəl).

Kompleks müsbət texnoloji-keyfiyyət göstəricilərinə görə fərqlənən bərk buğda sortnümunələri (2015-2016-cı illər üzrə orta)

№	Nümunələrin adı	Mənşəyi	1000 dənin kütləsi, qr	Şüşəvarilik,%	Kleykovina, %	KDƏ, c.g.	Zülal, %
1.	Bərəkətli-95 (Standart)	Azərb.	49,4	92,5	26,6	102,3	12,7
2.	Qaraqılçıq-2	Azərb.	44,4	100	29,6	101,4	13,5
3.	Tərtər	Azərb.	48,7	100	29,9	99,0	14,2
4.	Qarabağ	Azərb.	51,8	100	29,5	100,4	13,5
5.	Turan	Azərb.	50,8	100	32,7	96,0	13,5
6.	Mirbəşir-50	Azərb.	43,6	100	29,8	100,2	14,2
7.	Kəhrəba	Azərb.	48,8	97,0	29,6	94,7	13,8
8.	Tərtər-2	Azərb.	52,8	100	34,0	96,7	15,1
9.	Mirvari	Azərb.	47,2	100	32,0	101,6	14,7

Seçilmiş sortnümunələrin müxtəlif əlamətlərə görə donorluq qabiliyyətinin müəyyənləşdirilməsi istiqamətində tədqiqat işləri davam etdirilir.

ƏDƏBİYYAT

1. Peleg Z., Fahima T., Korol A., Abbo S., Saranga Y. Genetic Analysis of wheat domestication and evolution under domestication. //Journal of Experimental Botany. 2011 Oct; 62 (14) p. 5054-61.
2. Прянишников А.И. Проблемы качества зерна и научные подходы ее решения. // Аграрный вестник Юго-Востока. 2009, №3, с. 11-12.
3. Вавилов Н. Scientific basis of wheat breeding, F. Bakhteev selected papers by N. Vavilov, Nauka, Leningrad, 1967, v. 2, p. 7-259.
4. Вавилов Н.И. Научные основы селекции пшеницы. М-Л., Сельхоз изд., 1985, с. 3-28.
5. Методы оценки технологических качеств зерна, «Научный совет по качеству зерна», Москва, 1971 с. 136.
6. Справочник по качеству зерна. Под ред., к.с-х наук Г.П.Жемелы, Киев «Урожай», 1977, с. 53.
7. Həsənova Q.M., Mahmudov R.U., Poladova G.H. Yüksək keyfiyyətli buğda sortlarının yaradılmasının elmi əsasları. //"Azərbaycan aqrar elmi" jur., 2007, №1-3, s. 42-44.
8. Snape J. Innes J. The impact of genomics and genetics on wheat quality improvement. Centre, Great Britain, 2004 c, №5, p. 8-13.

Севда Талех кызы Гаджиева,
Севиндж Мехти кызы Мамедова,
Севда Камал кызы Гаджиева,
Фаиг Аллахверди оглы Худаев,
Ройа Рафиг кызы Ескерли
Научно-Исследовательский Институт Земледелия,
НАНА Институт Генетических Ресурсов

Исследование технологически-качественных показателей сортообразцов твердой пшеницы различного географического происхождения

Резюме

В статье даны результаты изучения 55 местных интродуцированных сортообразцов твердой пшеницы различного происхождения коллекционного питомника в условиях орошения. В частности выделены 28 образцов с высокими хозяйственно-ценными признаками, которые подвергались изучению по технологически-качественным показателям.

В результате исследования отобраны 8 образцов твердой пшеницы по высоким качественным показателям и в качестве ценного исходного материала вовлечены в скрещивания.

Ключевые слова: селекция, коллекция, интродукция, твердая пшеница, качество.

Sevda Taleh Hajiyeva,
Sevinc Mehti Mammadova,
Sevda Kamal Hajiyeva,
Faiq Allahverdi Khudayev,
Roya Rafiq Asgerli
Research Institute of Crop Husbandry,
ANAS Genetic Resources Institute

Study of technological-qualitative indicators of different geographical origin durum wheat varietysamples

Summary

The article deal with information on results of carried out study of 55 local and introduced durum wheat variety samples of different geographical origin. Particularly have been selected 28 accessions with high economical valuable indicators which were studied on technological-qualitative indicators.

Consequently 8 durum wheat accessions were selected on high qualitative indicators and as an initial material were used in crossings.

Key words: breeding, collection, introduction, durum wheat, quality.

Azər Tapdıq oğlu TAĞIYEV
Azərbaycan Kooperasiya Universiteti
dekan müavini, dissertant

AZƏRBAYCANDA XERES ŞƏRABLARI İSTEHSALININ TƏDQİQİ

Xülasə

Respublikamızda xeres şərabları istehsal olunmur. Biz bu çatışmazlığı nəzərə alaraq yerli şəraitdə xeres şərabları istehsalının araşdırılması məqsədilə tədqiqat aparmışıq. Aparılan müşahidələr göstərir ki, şirəyə ammonium fosfat, kombi vitamin və maya avtolizatı əlavə olunması gələcək xeresləşmə üçün əlverişli zəmin yaratmış olur. Nəzarətlə müqayisədə isti işlənmiş şərab materialında xeres pərdəsinin yaranması daha intensiv gedir. Xeres tonu və xeresə məxsus xüsusiyyətlər xeyli əvvəl formalaşır.

Açar sözlər: xeres, şərab materialı, şərab, xeresləşmə, etil spirti, maya avtolizatı, şirə.

***

Respublikamızda keçən əsrin ortalarında bir markada «Azərbaycan tünd xeresi» adlı şərab buraxılsa da, son onilliklərdə bununla bağlı fəaliyyətlər yoxdur. O dövrdə bu məqsəd üçün 21-24% şəkərliyə malik Rkasiteli və Bayanşirə üzüm sortlarından istifadə olunurdu. Üzüm emalı şirəyə fenol birləşmələri və dəmirin keçməsinin minimuma endirilməsi şəraitində aparılırdı. Şirədə pH göstəricisi 3,5 və ondan yüksək olarsa, onun gipslənməsi aparılırdı. Bu məqsədlə istifadə olunan gips təmiz və kənar iysiz olmalı, aptek gipsindən istifadə olunmamalı idi.

Şirə 100-150 mq/dm^3 hesabı ilə sulfidləşdirilir və 12-18 saat sakit buraxılır. Çöküntüdən ayrılmış şirə zəif kükürdlənmiş qaba vurulur. Sonra üzərinə şiddətli qıcqırma mərhələsində olan təmiz xeres maya məhlulu əlavə olunaraq qıcqırdılır. Qıcqırma qurtardıqdan və şərab durulduqdan sonra çöküntüdən ayrılıb (birinci köçürmə) təmiz qaba doldurulur. Əgər tündlüyü 15 h.%-dən aşağı olarsa, rektifikasiya olunmuş təmiz etil spirtindən istifadə edilməklə, tündlük 16-16,5 h.%-ə çatdırılır [1, səh.11].

Cavan şərab materialının 20%-ə qədər yetişdirilmiş şərabla kupajına icazə verilir. Aldehidlərin miqdarı 300-400 mq/dm^3, asetallar 10 mq/dm^3 olduqda, eləcə də ətir və dadda aydın bilinən xeres tonu yarandıqda şərab pərdə altından götürülür və 35% miqdarda müxtəlif xeres şərablarının hazırlanması üçün kupaja verilirdi. Götürülən şərab materialının yerinə həmin miqdarda turş-tünd şərab materialı daxil edilirdi.

Tünd ordinar xeres almaq üçün aşağıdakı materiallardan istifadə edilməklə kupaj aparılırdı:

a) xeres şərab materialı; b) 50 h.%-ə qədər spirtləşdirilmiş turş şərab yaxud reftifikasiya olunmuş spirt; v) desert şərab yaxud vakuum şirəsi.

Alınan xeres şərabı dolu qablarda 40-42^{0}C temperaturda 30 gün yetişdirilir. Sonra şərab texnoloji sxemə uyğun işlənməklə, iki həftə dincə qoyulur və butulkalara doldurulurdu [1,səh.12].

Hazır şərab, 19-20 h.% spirtə, 3% şəkərə, 4-5 q/dm^3 titrləşən turşuluğa malik olurdu. Rəngi açıq samanıdan qoz rənginə qədər, dadı yumşaq, harmonikdir. Buketi meyvə-qoz tonludur. Şərab bir il pərdə altında yetişdirilib ikinci il realizə olunur.

E.N.Dadaşov Azərbaycanda pərdəli və pərdəsiz üsulla xeres almaq üçün tədqiqatlar aparmış, respublikanın şərabçılıq zonaları üçün əlverişli üzüm sortları kimi - Rkasiteli, Bayanşirə, Xındoqnı, Xərci və başqalarını qeyd etmişdir.Şərab materiallarından 3 tip xeres şərabı alınmışdır. Süfrə, spirt 14-15 h.%; tünd, spirt 19-20 h.%, şəkər 3-4%, kəmşirin, spirt 16 h.%, şəkər 5,2%-dir [2, səh. 397].

Göründüyü kimi, respublikamız Xeres şərabı istehsal etmək üçün əlverişli iqlimə və sort ehtiyatına malikdir. Lakin buna baxmayaraq, indi xeres şərabları istehsalının vəziyyəti heç də sevindirici deyildir. Konkret demiş olsaq, son 40-50 ildə respublikamızda xeres şərabları istehsal olunmur.

Biz bu çatışmazlığı nəzərə alaraq yerli şəraitdə xeres şərabları istehsalının araşdırılması məqsədilə tədqiqat aparmışıq. Xeres şərab materialı hazırlamaq üçün qəbul olunan üzüm "ağ üsulla" emal olunur. Yəni əzilərək darağı ayrılır və əzinti sıxılaraq dərhal şirəsi ayrılır. Alınan şirə SO_2 vurularaq dincə qoyulmuş və durulduqdan sonra çöküntüdən dekantasiya yolu ilə ayrılmışdır. Duru şirə təmiz maya məhlulu ilə qıcqırdılmışdır. Sona qədər qıcqırdılmış turş süfrə şərabı eqalizasiya olunmuş və rektifikasiya olunmuş 96h% -li etil spirtindən istifadə olunmaqla spirtləşdirilmişdir. Tündləşdirmə etil spirtinin miqdarının 16,5 h%-ə çatdırılmaq hesabı ilə aparılmışdır.

İstər şirə, istərsə də şərab materialına variantlar üzrə azot-vitamin əlavəsi kimi ammonium fosfat, kombi vitamin və maya avtolizatı vurulmuşdur.

Məlum olmuşdur ki,qıcqırmadan əvvəl azot-vitamin əlavəsinin vurulması qıcqırmanı intensivləşdirir və yarımçıq qıcqırma ehtimalını aradan qaldırmış olur. Şərab materiallarının tərkibinin təhlili zamanı məlum olmuşdur ki,təcrübə nümunələrində nəzarətlə müqayisədə etil spirtinin miqdarı 0,15-0,25h% artmış və titrləşən turşuların kütlə qatılığı azalmışdır. Belə nümunələrin xeresləşməsi zamanı dad və buketdə daha ifadəli xeres tonu əmələ gəlməklə, asetallar və ali spirtlərin toplanması müşahidə edilir.Nəticədə şərab materiallarının orqanoleptik keyfiyyətinin əsaslı dərəcədə yaxşılaşması nəzərə çarpmışdır.

Sonra alınan şərab materiallarının 65-70^{0}C temperaturda 5 gün müddətində istilə işlənməsi aparılmışdır.

İsti işlənmiş material bir qədər sakit buraxılmış və sonra xeresləşmə üçün verilərək ona xeres mayaları yoluxdurulmuşdur.

Qabların ağzı pambıqlı tənzif tıxacla bağlanır ki, şəraba hava sərbəst daxil ola bilsin.

Qabların təmizliyi mikrobioloji baxımdan nəzarətdə saxlanılır. Binalar vaxtaşırı havalandırılmış, təmiz saxlanmaqla, temperatur 16-18^{0}C tənzimlənmişdir. Şəraba xeres pərdəsi yoluxdurulduqdan sonra xeres mayalarının təmizliyinə və inkişafına sistemli şəkildə nəzarət olunur. Bununla belə, hər 15 gündən bir spirtin və uçucu turşuların miqdarı təyin olunur. Hər 10 gündən bir pərdədəki xeres mayalarına mikroskopla nəzarət olunur.

Bütün səthdə pərdə yarandıqdan sonra 2 həftədən bir şərabdan nümunə götürülüb, aldehid və asetalların miqdarı təyin edilir.

Apardığımız tədqiqatlar aşağıdakı ilkin nəticələrə gəlməyimizə imkan verir:

- Xeres şərablarının istehsalı özünəməxsus spesifik texnologiya tələb edir. Bu texnologiya - üzüm sortunun seçilməsi, şərab materialının hazırlanması və xeresləşmə proseslərini əhatə edir;
- Xeres üçün birinci növ şirə fraksiyasından istifadə olunmuşdur. Təcrübədə istifadə olunan üzümün şəkərliyi 18% olduqda, öz axını ilə ayrılan şirənin miqdarı 500 litr, yaxud 500 x 1,081=540,50 kq təşkil edir. Burada 1,081 - 18% şəkərlikdə şirənin sıxlığıdır. Bütün qalıq və itkilər çıxıldıqdan sonra 1000kq üzümdən hazır xeres şərab materialının yekun miqdarı 444,05 litr olur;
- Aparılan müşahidələr göstərir ki, şirəyə ammonium fosfat, kombi vitamin və maya avtolizatı əlavə olunması gələcək xeresləşmə üçün əlverişli zəmin yaratmış olur;
- Nəzarətlə müqayisədə isti işlənmiş şərab materialında xeres pərdəsinin yaranması daha intensiv gedir. Xeres tonu və xeresə məxsus xüsusiyyətlər xeyli əvvəl formalaşır.

ƏDƏBİYYAT

1. Fətəliyev H.K. Şərabçılıq. II hissə. Dərslik. Bakı, Bilik, 160 səh.
2. Fətəliyev H.K. Şərabın texnologiyası. Dərslik. Bakı, Elm, 2011, 596 səh.

Азер Тапдыг оглу Тагиев
диссертант АУК

Расследование производство херес вин в Азербайджане

Резюме

Херес вины не производится в нашей республике. Думая об этой нехватке мы стали вести расследование по производству херес вин в сетных условиях. По проведенные наблюдениям показали, что если мы добавим в сок аммониум фосфат, витамин комби и дрожжевые автолизатор то получим благоприятную основу для будущего херес. По сравнение с контролем в горячим использованным винном материале образование херес покров становится более интенсивно. Тон и черты хереса формируются более рано.

***Ключевые слова**: херес, винный материал, вино, добивать херес, этиловый спирт, дрожжевые автолизатор, сок.*

Azer Tapdig Taghiyev
candidate for a degree of ACU

The research kheres wine production in Azerbaijan

Summary

The sherry wine is not produced in our Republic. Considering about this lack we have investigated the production of sherry wine at local condition. According to researched observations, the adding of ammonium phosphate, vitamin combi and yeast autolyzer into the juice makes the advantageous base for future sherry. Comparison with the control in hot used wine material the appearing of sherry cover is being realized intensively. Sherry tint and its features are formed earlier.

***Key words**: kheres, wine material, being sherry, cloning, ethanol, yeast autolyzer, juice.*

Джавид Али оглы АГАКИШИЕВ
НИИ Виноградарства и Виноделия МСХА

ИСТОРИЯ РАЗВИТИЯ УНАБИ

Резюме

Унаби относится субтропических культур, который растет в диком виде в природе и одновременно выращивается культурном виде в разных хозяйствах мира. Одновременно также указано химический состав, формы, размеры плодов и их использование в медицине и народном хозяйстве. Научно-исследовательских учреждениях республики проводится большая работа по изучению сортов унаби отечественного происхождения, завезенных из зарубежных стран и новых сортов местной селекции.

Ключевые слова: унаби, вид, сорт, плод, почва, субтропические растение, семена, листья, витамины.

***

Унаби, Юйюба, Китайский финик описывается по как субтропическое растение теплых стран. Унаби (*Zizipus Mill*), по [1], род, который объединяет около 40 видов, по [2] 50 видов, обитающих в субтропических районах Азии, Африки и Австралии, принадлежит к семейству крушинных (*Rhamnaceae)*. Здесь описывается один вид, известный как в диком, так и в культурном состоянии *Ziziphus jujuba Mill*. Синонимы: *Rhamnus Ziziphus Z*, *Ziziphus Vulgaris lam*, *Ziziphus Sinensis lam*, *Ziziphus Sativa Geartin*.

В диком состоянии унаби распространено в Среднеземноморье, на Балканах, в Малой Азии, в Иране, в Афганистане, в Китае, в Монголии, в Японии и в других субтропических районах земного шара. В странах СНГ в диком виде произрастает *Ziziphus Sativa Gaertn.*

Унаби, наверное, является рекордсменом среди плодовых культур по количеству вариантов названия. Это растение известно также как зизифус, китайский финик, жожоба (или жужуба), юююба, анаб, чилион, чойлон, джиланджида, цзао, янап, арнап, иланджида и грудная ягода. Сам род Унаби включает в себя около 50 видов, растущих преимущественно в тропиках и субтропиках, однако, по данным археологических и палеонтологических раскопок, в далеком прошлом он рос далеко не только на юге, растения очень похожие на современные виды унаби, обнаруживались даже в Гренландии. Сейчас дикорастущие унаби можно встретить в Китае, Маньчжурии, Монголии, в Туркмении, в Узбекистане и частично в Таджикистане.

По одной из весьма спорных версий плоды попали в Китай из Сирии, откуда они были также вывезены римскими легионерами во главе с Секстусом Попиниусом и доставлены в конце правления императора Августа в Европу.

В 1837 году семена юююба (скорее всего *Ziziphus* vulgaris) были доставлены в Северную Каролину (США).

В культуре унаби распространен намного шире: по всей южной Европе, в Северной Африке, в обеих Америках иными словами, по всем субтропикам. Унаби культивируется в сухих субтропиках как исключительно засухоустойчивое растение: на Индо-китайском и Индостанском полуостровах, в Северной Африке, в Иране, в США, во всех странах Средиземноморья, в Средней Азии, на Кавказе, в Крыму.

Однако [5], давая общую ботаническую характеристику роду *Ziziphus Mill* и перечисляя наиболее распространенные виды, вовсе не упоминает о *Ziziphus Sativa Geartin*. Из его трактовки следует, что встречающиеся в Азербайджане в диком состоянии растения унаби относятся к виду *Ziziphus jujuba Mill*. также указывал на наличие в Азербайджане только одичавшего *Ziziphus jujuba*. описывали *Ziziphus Sativa* как синоним *Ziziphus jujuba*, сравнивая сорта унаби, полученные из Китая с местными формами, произрастающими в различных районах республики еще в 1945 году отметил их идентичность [2].

Единственным отличительными признаками является размер и качество плода. Но эти признаки отличают между собой формы или сорта, а не различные виды. Таким образом

следует констатировать, что в Азербайджане в диком, одичавшем и культурном состоянии встречается только один вид *Ziziphus jujuba Mill*. В Азербайджане унаби культивируется с давних времен. В свое время в Азербайджане на Ширване было много унабиевых садов. В селе Лакчылпаг в настоящее время имеются унабиевые сады старой посадки, где встречаются 200-300 летние деревья этой породы. Унаби в Азербайджане выращивается почти во всех районах республики и Нахчеванской АР. Много унабиевых садов имеется в Западном Азербайджане [2.3.4].

Унаби отличается исключительным богатством сортимента. Из литературных источников установлено, что в мире существует более 600 сортов унаби, из которых более 400 сортов выращивают в Китае. В Китае унаби занимает 3-4-ое место по количеству деревьев и валовым сборам вслед за яблоней и цитрусовыми. В настоящее время возделы-вается во всех районах страны и занимает более 200 тыс. га. Наибольшие площади под унаби заняты в Северном Китае, где известно более 400 сортов.

Только в Китае возделывается около 200 сортов, в Индии - 125 и около 80 сортов находится на сортоиспытаниях. Сорта унаби, в зависимости от сроков созревания, делятся на ранние, средние и поздние. На международный рынок поступают в основном сорта индийского ююба. В Индии сорта подразделяют на раннеспелые - созревающие в феврале (Gola, Safeda Selected, Seb, Sandhura Namaul и другие), среднеспелые - созревающие в марте (Kaithli, Sanaur 5, Reshmi, Muria Mur-hara, Desi Alwar, Banarsi Karaka и другие), и позднеспелые - созревающие между четвертой неделий марта и серединой апреля (Umran, Katha Pal, Ponda, Ilaichi, ZG 3 и другие). Сорт Umran –важнейший и наиболее возделы-ваемый в Индии сорт. Это один из самых урожайных и крупноплодных сортов. В год дерево ююба в условиях Индии дает до 250 кг. плодов. Его крупные плоды имеют овальную форму, а масса их варьирует от 32,5 до 60 г. В длину они достигают 4,82, в ширину - 3,62 см. Плоды имеют желтовато-коричневую окраску. Мякоть плотная, белая, сладкая, ее удельный вес в массе плодов составляет 96,4%. Массовая доля сухих веществ в плодах сорта составляет-19,5%, органических кислот -0,28-0,33%, витамина С -138,3 мг/100 г.

На европейский рынок плоды поставляются из Индии (февраль-апрель, июнь-июль), из Пакистана (февраль-июнь) и Таиланда (круглый год). Максимум предложения унаби приходится на период с августа по май.

Для лечения годны и сушено вяленые плоды, они хорошо сохраняются круглый год. Вино, соки с мякотью, пасты с добавками и без них, варенье, маринады, унаби с лимоном, чай заваренный сухим листом унаби, джемы, компоты, унаби жаренный и тушеный - можно приготовить из плодов этого удивительного растения

ЛИТЕРАТУРА

1. Жуковский П.М. Культурные растения и их сородичи. Ленинград: 1964, с.558-560.
2. Axund-zadə İ.M. Subtropik bitkilər. Bakı: 1954, s.46.
3. Асланов С.Р. Лучшие сорта унаби в Азербайджане. // Ж. Соц. с/х. Азербайджана, 1954, № 3,с 27-29.
4. Rəcəbli Ə.C. Azərbaycanın meyvə bitkiləri. Azərnəşr. Bakı, 1966, s.145-146.
5. Колесников А.И. Китайский финик. Москва:1956, с.51.

Cavid Əli oğlu Ağakişiyev
Üzümçülük və Şərabçılıq Tədqiqat İnstitutu

İnnabın inkişaf tarixi

Xülasə

İnnab quru subtropik bitkilər qrupuna aid olmaqla təbiətdə vəhşi halda bitməklə eyni zamanda dünyanın müxtəlif təsərrüfatlarında mədəni halda becərilir. Məqalədə innab bitkisinin tarixi, onun dünyada yayılma arealları, nüfuzlu alimlər tərəfindən tədqiq edilmiş sort və formaları ba-

rədə ətraflı məlumat verilmişdir. Həmçinin dünyada geniş yayılma sahələri, ən məhsuldar sortları və dünya bazarına ixrac edən ölkələr haqqında geniş yazılmışdır.

Açar sözlər: innab, növ, sort, meyvə, torpaq,subtropik bitkilər, toxum, yarpaq, vitaminlər.

Javid Ali Aghakishiyev
Institute of Wine-Making and Winery Research

Development history of unabi

Summary

Jujube belongs to the subtropical cultures which grows in wild nature and at the same time is cultivated as cultural form in different farms around the world. At the same time, the chemical composition, shape, size of the fruit and its use in the national economy are also indicated. Scientific and research institutions of the Republic are carrying out a large work on the study of the unabi varieties of domestic origin, imported from foreign countries and new sorts of local selection.

Key words: jujube, view, sort, fruit, land, subtropical crops, seeds, leaves, vitamins.

Gülşən Əlövsət qızı CƏFƏROVA
Azərbaycan Kooperasiya Universitetinin magistri

AZƏRBAYCANIN KİÇİK QAFQAZ DAĞ-MEŞƏ TORPAQLARININ EKOLOJİ-COĞRAFİ XÜSUSİYYƏTLƏRİ

Xülasə

Azərbaycanın Kiçik Qafqaz vilayətinin dağ-meşə torpaqlarının ekoloji-coğrafi cəhətdən təhlilində meyillilik dərəcələrinin mühüm əhəmiyyəti vardır. Dağ-meşə torpaqlarının iqlimi mülayim və soyuq olduğu üçün ana süxurlarının aşınması zəif gedir. Torpaqlardan düzgün və səmərəli istifadə olunmaması torpaqların deqradasiyaya uğramasına, onun gücdən düşərək məhsuldarlığın azalmasına gətirib çıxarır. Suvarma əkinçiliyi həyata keçirilən torpaq sahələrinin fiziki quruluşu və kimyəvi tərkibi bir-birindən fərqlənir. Heyvandarlıqda mal-qaranın sistemsiz otarılması, örüş və otlaqların normadan artıq yüklənməsi torpaqların münbitliyinin pozulmasına və çirklənməsinə gətirib çıxarır.

Açar sözlər: dağ-meşə zonası, ekoloji gərginlik, torpağın təbii mühiti.

***

Son dövrlərdə Kiçik Qafqazın meşə-ekoloji sistemlərində bitki örtüyünün azalması, kommunikasiya xətlərinin yaradılması xüsusən işğal altında olan rayonlarda torpaq sahələrinin ekologiyasını pozmuşdur. Bununla yanaşı Kiçik Qafqazın dağ-meşə zonasında ekosistemlərin biomüxtəlifliyi deqradasiyanın yaradılmasına səbəb olmuşdur [1, s. 96].

Kiçik Qafqaz vilayətində dağ-meşə torpaqları geniş areallar əmələ gətirmişdir. Təhlillər göstərir ki, bu torpaqlar Kiçik Qafqaz vilayətində 210.0 min ha sahədə formalaşmışdır. Ən geniş dağ-meşə torpaqları Tovuzçay, Zəyəmçay, Şəmkirçay və s. çay hövzələrində yayılmışdır. Bu ərazilərdə fıstıq-vələs, palıd-vələs və s. meşə massivləri üstünlük təşkil edir.

Dağ-meşə torpaqlarının iqlimi mülayim və soyuq olduğu üçün ana süxurların aşınması zəif getmişdir. Bu torpaqlarda bioiqlim şəraiti torpaqəmələgəlmə prosesinin normal getməsi üçün əlverişlidir. Fiziki gilin maksimum miqdarı 65.6 -70.5%-dir Bu torpaqlarda ümumi humusun miqdarı 9.91-13.5% təyin olunmuşdur.

Kiçik Qafqazın dağ-meşə torpaqlarının fiziki-kimyəvi xüsusiyyətinə görə: tipik qonur dağmeşə, karbonat qalıqlı qonur dağ-meşə və meşə altından çıxmış qonur dağ-meşə torpaq yarımtipləri ayrılmışdır.

Kiçik Qafqazın dağ-meşə torpaqlarının 42%-ə qədəri eroziyaya və ekoloji gərginliklərə məruz qalmışdır. Bu məqsədlə dövlət səviyyəsində ekoloji ekspertiza işləri yerinə yetirilir [5. səh.46]. Dağ-meşə torpaqları hündürlük zonallığına malikdir. Bu torpaqlar relyefdən, iqlimdən asılı olaraq dəyişilir. Son dövrlərdə dağ-meşə torpaqlarının ekoloji-coğrafi məsələlərinə dair geniş miqyasda araşdırmalar aparılmışdır.

Kiçik Qafqazın dağ-meşə torpaqları fiziki-coğrafi və ekoloji xüsusiyyətlərinə uyğun olaraq aşağıdakı təsnifatlara bölünür.

1. Dağ-meşə torpaqlarının dəniz səviyyəsindən 1200-1800 metr hündürlükdə yerləşən arealları. Bu areallarda qəhvəyi dağ-meşə, bozqırlaşmış dağ-meşə və çürüntülü karbonatlı torpaqlar üstünlük təşkil edir. Onların çox hissəsi kənd təsərrüfatı məqsədləri üçün istifadə edilir (40-43%).

2. Şabalıdı torpaqlar-dəniz səviyyəsindən 600-700 metr hündürlüklərdə yayılmışdır (30-35%). Bu torpaqlardan əkinçilik üçün istifadə edilir.

3. Dağ qonur meşə torpaqları. Bu torpaqlar dəniz səviyyəsindən 300-500 metr hündürlükdə yerləşir və ekoloji cəhətdən pozulmuş sahələrin 20-25%-ni əhatə edir.

Dağ-meşə torpaqlarının ekoloji-coğrafi cəhətdən təhlilində meyillilik dərəcələrinin mühüm əhəmiyyəti vardır. Ərazinin meyillilik dərəcələri onun istifadəsi üçün faydalıdır: 0-6 dərəcə meyillikdə 57.6%, 6-10 dərəcədə 2%, 10-15dərəcədə 12.8%, 15 dərəcədən yuxarı isə 89%-dir.

Kiçik Qafqazın ekoloji-coğrafi mühiti məskunlaşmaya da təsir göstərmişdir. Belə ki, maili düzənliklərdə (ərazinin 52.3%) məskunlaşma daha intensivdir. Kənd təsərrüfatına yararlı torpaqların 55%-i istifadə olunur. Burada kənd əhalisinin 35-38%-i, hər 100 kv.km-ə 2.8 kənd məntəqəsi düşür. Dağətəyi meşə torpaqları 21%-ni əhatə edir. Burada mənimsənilmə 35%-ə bərabərdir.

Orta dağ meşələrinin torpaqları ümumi sahənin 27%-ni təşkil edir. Kiçik Qafqazın əsas ekoloji problemlərindən biri kənd təsərrüfatına yararlı torpaqların çirklənərək, tədricən dövriyyədən çıxmasıdır. Belə ki, respublikamızın kənd təsərrüfatı üçün 4,1 mln. ha yararlı torpaq sahəsi bir sıra problemlərlə üzləşib. Respublika ərazisindəki torpaq sahələrinin 12%-i mineral gübrələr və kimyəvi maddələr, 10 min ha-dan çoxu isə neftlə çirklənib. Bu isə öz növbəsində torpaqlarda tez-tez meliorasiya və rekultivasiya işlərinin aparılmasını tələb edir.

Kiçik Qafqazın əhalisi əsasən məhsuldar torpaq sahələrində müxtəlif bitki növlərinin yetişdirilməsi və heyvandarlıqla məşğul olurlar. Kənd təsərrüfatına yararlı torpaqlar əsasən dəniz səviyyəsindən 200-1000m-ə qədər olan hündürlüklərdə yerləşir. Yüksək dağlıq ərazilərdə isə əsasən heyvandarlıq daha yaxşı inkişaf etmişdir [3, s. 74].

Kiçik Qafqazın ərazi torpaqlarının yuyulması və eroziyaya uğraması dəniz səviyyəsindən 500m-dən yüksək olan ərazilərdə (33%) daha intensiv gedir. Bu isə öz növbəsində irriqasion-antropogen-texnogen amillərin təsiri də daxil olmaqla, təbii tarazlığın kəskin pozulmasına səbəb olur. Dəniz səviyyəsindən 500m aşağı olan ərazilər isə (67%) akkumulyasiya proseslərinin getdiyi zonalara daxil olub, güclü antropogen yükləməyə məruz qalmışdır.

Torpaqlardan düzgün və səmərəli istifadə olunmaması torpaqların deqradasiyaya uğramasına, onun gücdən düşərək məhsuldarlığının azalmasına, həmçinin landşaftların ya qismən, ya da tamamilə məhv olmasına gətirib çıxarır [2, s.96].

Suvarma əkinçiliyi həyata keçirilən torpaq sahələrinin fiziki quruluşu və kimyəvi tərkibi birbirindən fərqlənir. Bu müxtəliflik torpaqların mexaniki tərkibi, qida elementlərinin miqdarı, eroziyaya uğrama dərəcəsi, qalınlığı və s. əlamətlərdə özünü göstərir. Həmçinin suvarılan torpaqlardan istifadə zamanı suvarılma normalarına düzgün əməl olunmaması, bütün bunlar mütərəqqi suvarma üsullarını və müasir texnikanı tətbiq etməklə, elmi cəhətdən əsaslandırılmış suvarma rejimini və aqrotexniki tədbirləri həyata keçirməklə yüksək mədəni əkinçilik sisteminin yaradılmasını tələb edir.

Heyvandarlıqda mal-qaranın sistemsiz otarılması, örüş və otlaqların normadan artıq yüklənməsi torpaqların münbitliyinin pozulmasına gətirib çıxarmışdır ki, bu da torpaqların deqradasiyasının əsas indikatorlarından biri kimi qiymətləndirilir. Mütəxəssislərin hesablamalarına görə Kiçik Qafqazda örüşlərin mal-qara sürülərini qəbul etməsi normadan 5-7 dəfə çoxdur.

Kənd təsərrüfatı bitkilərinin kəmiyyət və keyfiyyət göstəricilərinin daha da yüksəldilməsi üçün torpaqların yaxşılaşdırılmasının böyük əhəmiyyəti vardır. Belə ki, torpaqların becərilməsində antropogen fəaliyyətin əsas məqsədi kənd təsərrüfatı bitkilərinin qidalanması üçün əlverişli şəraitin yaradılmasıdır. Antropogen fəaliyyət nəticəsində torpaqlarda alaq otları məhv edilir, rütubət ehtiyatı toplanır və mühafizə edilir, faydalı mikroorqanizmlərin inkişafı üçün əlverişli şərait yaradılır, torpağa yaşıl və üzvi gübrələrin verilməsi təmin edilir, torpaqların eroziyaya uğramasına qarşı mübarizə tədbirləri hazırlanıb həyata keçirilir. Bütün bunlar torpağın su və qida rejimini yaxşılaşdırmaqla, onun daim münbit qalmasını təmin edir ki, bu da kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını artırır [4, s.111].

Kənd təsərrüfatı sahələrində istifadə olunan torpaqların ekoloji durumunun pisləşməsinin qarşısını almaq üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi labüddür:

* torpaqların məhsuldarlığını aşağı salan proseslərin qarşısı alınmalı;
* torpaqlara gübrə verilərkən elmi dəlillərə əsaslanmalı;
* heyvanların otlaq və biçənəklərdə nizamsız otarılmasının qarşısı alınmalı;
* torpaqlarda aparılan aqrotexniki qulluq təkmilləşdirilməli.

ƏDƏBİYYAT

1. Q.Məmmədov. Azərbaycan torpaqlarının ekologiyası. Bakı, 2009 s. 126-145.
2. A.A.Qurbanzadə. Azərbaycanın kənd təsərrüfatı strukturasının ekoloji-coğrafi sistemi. Bakı, 1997 s. 96-131.
3. B.Ə.Budaqov, A.A.Mikayılov. Fiziki-coğrafi rayonlaşma. Azərbaycan Respublikasının Konstruktiv coğrafiyası. Bakı, «Elm» 1996 s. 74-83.
4. Q.S.Yaqubov. Azərbaycan Respublikasının texnogen-pozulmuş torpaqlarının tədqiqi, genetik xüsusiyyətləri və onların rekultivasiya yolları. Bakı, 2003, səh. 111-126.
5. M.A.Müseyibov. Azərbaycanın fiziki coğrafiyası. səh. 48-86.

Гюльшен Алювсат кызы Джафарова
магистр Азербайжанский Университет Кооперации

Эколого-географические особенности горно-лесных земелъ Малого Кафказа Азербайджана

Резюме

В эколого-географическом анализе горно-лесных земел Малого Кафказа Азербайджана особою значимость представляет определение степени подверженности. В связи с умеренным и холодным климатом горнолесных земелъ, дробление материнских пород происходит крайне медленно. Неправилъно и неэффективно исполъзованные земли подвержены деградации, которая ведет к сниженню их продуктивности, Физическая структура и химический состав орошаемых земельных участков сущесственно отличвюутся друг от друга. Вследствие бессистемного и чресмерного выпаса скота, а также интенсивного исполъзования пастбищ происходит обезлессение и загрязние земелъ.

Ключевые слова: Зона горных лес, экологическая напряженность, природная среда почвы.

Gulshan Alovsat Jafarova
master of Azerbaijan Cooperation University

Ecological and geographical of the mountain-forest lands of the Lesser Causcasus of Azerbaijan

Summary

The determination of the degree of exposure has a particular importance in the ecological analysis of the mountain-forest lands of the Lesser Causcauus of Azerbaijan. Due to the moderate and cold climate of mountain-forest lands the fragmentation of the parent rocks is extremely

slow. Inadequate and inefficiently used lands are subject to degradation which leads to a decrease in their productivity. The physical structure and chemical composition of irrigated areas differ significantly from each other. Deforestation and contamination of lands occurs due to unsystematic and excessive grazing of livestock as well as intensive use of pastures.

Key words: mountain-forest zone, ecological tension, natural habitat.

Qızılgül Sabir qızı DADAŞOVA
böyük elmi işçi
KTN Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu

MÜASİR MEYVƏ TİNGLİYİNDƏ GÜBRƏLƏMƏ TƏDBİRLƏRİ SİSTEMİNİN ƏHƏMİYYƏTİ

Xülasə

Məqalədə Quba-Xaçmaz bölgəsi şəraitində "Azərbaycan" alma sortu tinglərinin müxtəlif calaqaltılar üzərində yetişdirilməsində makro və mikrogübrələrin, fizioloji fəal maddələrin və fertikasiya üsulu ilə mono ammonium fosfatın ($NH_4H_2PO_4$-12-61-0) 200qr/100l su nisbətində tədbiqinin nəticələri öz əksini tapmışdır.

Açar sözlər: meyvə tingləri, gübrələmə, fizioloji fəal maddələr, fertikasiya.

***

Meyvə tingliyində torpağın münbitliyinin saxlanması və vegetativ calaqaltılar üzərində peyvənd olunan tinglərin becərilməsi üçün tətbiq edilən aqrotexniki tədbirlərdən biri də gübrələmədir. Bitkilərin qidalanmasını və torpaqda olan əsas qida elementlərinin mənimsənilən formalarının miqdarını və ehtiyaclarını bilməklə gübrələrdən səmərəli istifadə olunması üsullarının öyrənilməsi aqrokimyəvi tədqiqatların vacib problemlərindən biridir [1, s. 142-150; 2, s. 28-29].

Quba-Xaçmaz bölgəsi şəraitində müxtəlif calaqaltılar üzərində müxtəlif alma sortları tinglərinin yetişdirilməsi işində makro, mikrogübrələrdən, eləcə də fizioloji fəal maddələrdən istifadə olunmaqla sağlam və dövlət standartının tələblərinə cavab verən tinglərin əldə edilməsi hazırkı dövrün aktual problemlərindən biridir.

Tədqiqatın metodikası. Tədqiqat aparılan sahənin torpağı çəmən-qəhvəyi tipli olub, aqrokimyəvi göstəriciləri aşağıdakı kimidir: PH - 7,5...8,2, humus - 2,3%, mütərrik fosfor - 18,4 mq/kq, torpaqda mənimsənilə bilən sink, mis, borun miqdarı isə müvafiq olaraq - 1,05 mq/kq, 1,77 mq/kq və 0,35 mq/kq-dır.

Təcrübə tingliyinin sahəsi 0,3 ha, calaqaltıların əkin sxemi 70 x 15 sm-dir. Tədqiqat 7 variant, üç təkrar üzrə aparılmışdır.

Əsas gübrə olaraq götürülmüş "Urojay" ($N_{16}P_{16}K_{16}$) gübrəsi payızda 120 kq/ha (t.e.m. hesabı ilə) olmaqla şum altına verilmişdir. Vegetasiya dövrü ərzində azot gübrəsi (NH_4NO_3) 1/3 norma hesabı ilə erkən yazda 40 kq/ha, birinci boyun sonu ikinci boyun əvəllərində 40 kq/ha olmaqla yemləmə şəklində verilmişdir. "Bolver" maye yarpaq gübrəsi və "Novosil" (və ya "Biosil") funqisid tərkibli boy tənzimləyici maddə 0,01-0,03 %-li məhlulu tinglərin yaşıl çətiri üzərinə tumurcuqların şişib açılması fazasında, birinci və ikinci boy fazalarından əvvəl, eləcə də zoğların yetişib bərkiməsi fazasında - il ərzində 4 dəfə tətbiq edilmişdir [3, s. 49-52; 4, s. 49-52].

Tədqiqatın nəticələri. Mineral və fizioloji fəal maddələrin tətbiqi ilə müxtəlif calaqaltılar üzərinə peyvənd olunmuş "Azərbaycan" alma sortu tinglərinin boy və inkişaf göstəriciləri aşağıdaki cədvəldə qeyd olunmuşdur. Cədvəldən göründüyü kimi, calaqaltılardan asılı olaraq tinglərin hündürlüyü 120-170 sm arasında dəyişmişdir. Ən hündür ting Fon+0,2% Novosil variantında PK-14 calaqaltısında (170 sm), daha sonra MM106 calaqaltısında (160 sm) qeydə alınmış, nəzarət (gübrəsiz) variantına nisbətən artım 27 və 40 sm çox olmuşdur.

Əldə olunmuş nəticələrə əsasən nəzarət variantında meşə cırı calaqaltısı üzərində tinglərin hündürlüyü 120 ± 5,2 sm, gövdənin diametri 14,0±0,9 mm, yarpaq səthi 20,5±0,8 sm^2; MM 106 calaqaltısı üzərində tinglərin hündürlüyü 130,0±6,0 sm, gövdənin diametri 15,0±1,0 mm; yarpaq

səthi 25,0 ±0,8 sm^2; M9 calaqaltısı üzərində tinglərin hündürlüyü 136±5,5 sm, gövdənin diametri 16,2±0,8 mm, yarpaq səthi 26,0±0,7 sm^2; PK-14 calaqaltısı üzərində tinglərin hündürlüyü 143,0±5,5 sm, gövdənin diametri 17,0±0,7mm, yarpaq səthi 24,0±1,1 sm^2-dir. Fon+0,3 % Novosil variantında meşə cırı calaqaltısına calaq edilmiş tinglərin hündürlüyü 150,0±6,3 sm, gövdənin diametri 18,8±1,3 mm, yarpaq səthi 34,8±1,3 sm^2; MM106 calaqaltısı üzərində tinglərin hündürlüyü 160,0 ±6,4 sm, gövdənin diametri 17,7±1,27mm, yarpaq səthi 35,7±1,4 sm^2; M9 calaqaltısı üzərində tinglərin hündürlüyü 163,3±6,2 sm; gövdənin diametri 18,0±1,24 mm; yarpaq səthi 35,7±1,4 sm^2; PK-14 calaqaltısı üzərində tinglərin hündürlüyü 170,0±7,2 sm; gövdənin diametri 18,3±1,21 mm; yarpaq səthi 35,6±1,4 sm^2 olmuşdur.

Cədvəl

Mineral və fizioloji fəal maddələrin tətbiqinin müxtəlif calaqaltılar üzərində yetişdirilən "Azərbaycan" alma sortu tinglərinin boy və inkişafına təsiri (2014-2017-ci illər üzrə orta)

Təcrübə variantları	Calaqaltı	Hündürlük sm	Ştambın diametri mm	Yarpaq səthi sm^2
Nəzarət gübrəsiz	Meşə cırı	120±5,2	14,0±0,9	20,5±0,8
	MM106	130±6,0	15,0±1,0	25,0±0,8
	M9	136±5,5	16,2±0,8	26,0±0,7
	PK-14	143±5,5	17,0±0,7	24,0±1,1
N_{90} P_{90} K_{90} Fon	Meşə cırı	130±6,2	12,3±1,1	23,9±1,2
	MM106	143,3±7,2	16,3±1,5	28,7±1,4
	M9	146,6±7,0	17,3±1,2	27,2±1,3
	PK-14	153,3±7,5	18,5±1,3	25,6±1,23
Fon+0,1 % Novosil	Meşə cırı	136,6±6,0	15,5±0,91	25,7±1,21
	MM106	137,3±6,1	16,0±1,2	30,2±1,39
	M9	140,0±6,5	16,3±1,25	28,6±1,4
	PK-14	148,3±6,7	16,2±1,21	26,7±1,21
Fon+0,2 % Novosil	Meşə cırı	140,0±6,5	16,3±1,25	27,5±1,2
	MM106	147,0±6,2	16,6±1,21	31,7±1,3
	M9	151,6±7,4	16,9±1,20	30,2±1,21
	PK-14	154,0±8,0	16,8±1,12	29±1,1
Fon+0,3 % Novosil	Meşə cırı	150,0±6,3	18,8±1,3	34,8±1,3
	MM106	160,0±6,4	17,7±1,27	36,4±1,23
	M9	163,3±6,2	18,0±1,24	35,7±1,4
	PK-14	170,0±7,2	18,3±1,21	35,6±1,4
N_{120} P_{120} K_{120} Urojay 3l norma erkən yazda, ikinci boydan əvvəl və payızda verilməklə	Meşə cırı	146,0±7,1	13,3±0,8	32,9±1,3
	MM106	153,3±7,5	13,6±0,7	34,7±1,3
	M9	156,6±7,6	12,6±0,4	33,8±1,22
	PK-14	159,3±7,7	13,0±0,5	34,9±1,3
Fon+Bolver 3 litr/1ton su	Meşə cırı	140±6,5	11,5±0,1	31,5±1,3
	MM106	142,6±6,7	10,6±0,2	32,8±1,25
	M9	142,0±6,6	11,8±0,11	30,7±1,22
	PK-14	148,3±6,5	11,2±0,10	29,7±1,23

Son illərdə suvarma üsullarında tədbiq olunan yeni texnologiyalar gübrələrin tədbiqini də asanlaşdırmışdır. Belə ki, müasir meyvə bağlarında gübrələrin tətbiqi damla suvarma sistemi vasitəsilə suvarma suyu ilə birlikdə həyata keçirilir. Fertikasiya adlandırılan bu üsulda istifadə olunan gübrə miqdarı klassik üsullara nisbətən daha azdır. Digər tərəfdən, fertikasiya üsulu ilə gübrələnmiş bağlarda daha çox iqtisadi səmərə əldə edilir [2, s. 28-29].

Bunu nəzərə alaraq, fertikasiya üsulu ilə tingliyə 200 qr/100 litr su mono ammonium fosfat ($NH_4H_2PO_4$-12-61-0); 500 qr/100 litr su Potasium Sulfat ((K_2SO_4) - 51% K_2O); 500 qr/100 litr su Potasium Nitrat ((KNO_3) - 46,2% K_2O, 13,7% N_2); 500 qr/100 litr su Kalsium nitrat ((Ca $(NO_3)_2$ - 26% suda həll olunan Ca və 15,5% N_2) gübrələri tədbiq edilmişdir. Aparılmış tədqi-

qatlar göstərdi ki, fertikasiya üsulu ilə mono ammonium fosfat (200 qr/100 litr su) gübrəsi və Fon+ 0,3 %-li Novosil fizioloji fəal maddəsinin tətbiqi müxtəlif calaqaltılar üzərində peyvənd olunmuş "Azərbaycan" sortu tinglərinin boy və inkişafına müsbət təsir göstərmişdir.

ƏDƏBİYYAT

1. Bayramova D.B., Şirinova Q.S., Əliyev F.Q. Mineral gübrə və fizioloji fəal maddələrin alma bitkisi calaqaltıları və peyvənd olunmuş tinglərin inkişafına təsiri. Ə.S.Nərimanovun 100 illik yubileyinə həsr olunmuş "Aqrar elmin zənginləşdirilərək təkmilləşdirilməsi əsasında ərzaq təhlükəsizliyinin təmini problemləri" mövzusunda elmi-praktiki konfransın materialları. Bakı, "Müəllim" nəşr., 2011. s. 142-150.
2. Eynalov H., Balakişiyev R., Paşayev M., Xankişiyeva E. Meyvə bağlarının idarə olunması. Bakı, Consulting Group MMC, 2017. s. 28-29.
3. Панков В.Д. Методические указания по проведению исследований в длительных опытах с удобрениями. Часть 2. Москва, 1983. с. 49-52.
4. Мамедов Г.Ш. Основные принципы определения оценки плодородия почв в Азербайджане. Изв. АН. Аз ССР. Сер.биол. науки, Баку, 1990, № 3. с. 49-52.

Гызылгуль Сабир кызы Дадашова
старший научный сотрудник

Значение системы удобрений в плодовом питомнике

Резюме

В статье показаны результаты применения макро и микроудобрений, физиологически активных добавок Новосил, Биосил 0,01-0,03 %, и моно аммония фосфата (НЩ4Щ2ПО4-12-61-0) в концентрации 200 г/л методом фертигации на возделывание сорта яблони "Азербайджан" на различных подвойных комбинациях в условиях Губа-Хачмазской зоны.

Ключевые слова: плодовые саженцы, удабривание, физиологически активные вещества, фертигация.

Gizilgul Sabir Dadashova
senior scientific worker

The importance of the fertilization system in modern fruit seedling

Summary

The article is in Guba-Khachmaz region macro-micro fertilizers, monosaconium phosphate ($NH_4H_2PO_4$-12-61-0) 200 g / 100 (liters of water) with Novosil, Biosil and fertilization drip irrigation with 0.3% physiological substance have had a positive effect on the longevity of the sapling in cultivation of "Azerbaijani" apple sapling on different combinations.

Key words: fruit seedlings, fertilizers, physiologically active substance, fertilization.

Dilarə Səfər qızı MARLAMOVA
Texniki bitkilərin aqrotexnikası şöbəsinin müdiri, böyük elmi işçi
Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu

BİTKİ SAYININ ŞƏKƏR ÇUĞUNDURUNUN İNKİŞAFINA VƏ MƏHSULDARLIĞINA TƏSİRİ

Xülasə

Boz-qəhvəyi (açıq-şabalıdı) torpaqlarda ölkəmizin qida sənayesinin əsasını təmin edən, şəkər istehsalında ölkəmiz üçün yeganə xammal mənbəyi olan şəkər çuğunduru birkisinin becəril-

məsi əlverişlidir. Bu bitkiyə qida rejimini düzgün tətbiq etdikdə və tarlada bitkilər tələb olunan miqdarda olduqda ondan yüksək kökümeyvə məhsulu əldə etmək olar.

Açar sözlər: texniki bitki, sort, şəkər çuğunduru, torpaq, münbitlik, gübrə, əkin sxemi, məhsuldarlıq.

***

Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2008-ci il tarixli sərəncamında "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda şəkər çuğundurunun yem kimi və şəkər istehsalında əhəmiyyətini nəzərə alaraq əkin sahələrini 20 min hektara çatdırmaq nəzərdə tutulmuşdur.

Verilən həmin sərəncamdan sonra, 2008-ci ildə İmişli şəhərində yeni şəkər istehsalı zavodu inşa edildi. Azərbaycanda bu bitki yeganə şəkər istehsalı mənbəyidir. Belə ki, dünya miqyasında 50-dən çox ölkə şəkəri-şəkər çuğundurundan, 70-dən çox ölkə isə şəkəri-şəkər qamışından istehsal edirlər. Avropanın əksər ölkələri, Türkiyə, ABŞ və b. şəkəri şəkər çuğundurundan istehsal edirlər.

Qeyd etmək lazımdır ki, şəkər çuğunduru kökümeyvəlilərin ən geniş yayılan bir növü olmaqla 2 illik bitkidir. O, cəmiyyət üçün zəruri, texniki bitkidir. Şəkər çuğundurunun kökü meyvəsindən istifadəyə XVIII əsrin ortalarından başlanılmışdır [1, səh. 26].

Şəkər çuğunduru çox mühüm texniki bitki olmaqla tərkibində orta hesabla 16-20%-ə qədər şəkər vardır. Şəkər isə orqanizmə lazım olan yüksək kalorili əsas qida maddəsi olmaqla insanın iş qabiliyyətinin saxlanılmasında və əqli təfəkkürün inkişafına həlledici rol oynayır.

Becərilən bitkilər içərisində şəkər çuğunduru ən yüksək kalorili olmaqla vahid sahədən daha çox məhsul toplanır və bu məhsulda şəkərdən başqa C, B, B_2 vitaminləri, müxtəlif duzlar, turşular vardır. Şəkər çuğundurunun kökümeyvəsindən şəkər çəkiləndən sonra əmələ gələn tullantılardan spirt, qliserin, petkin, maya və başqa maddələr istehsal olunur. Qeyd etmək lazımdır ki, 100 kq kökümeyvədən 12-15 kq təmiz şəkər alınır [2, səh.117].

Bitkinin ümumi bioloji kütləsinin 30-40%-ni yarpaq təşkil edir. Yarpaqda 15-22% quru maddə və həmin quru maddəyə görə 2-8% zülal, 0,4% yağ və digər vitaminlərdir. Belə ki, 100 kq yaşıl yarpaqda 22 yem vahidi və 2,2 kq həzm olunan protein, 100 kq cecədə isə 8, qurudulmuş cecədə 85 yem vahidi və 3,9 kq həzm olunan protein vardır [3, səh.117].

Respublikamızda şəkər çuğunduru qiymətli yem bitkisi kimi də becərilir. Şəkər çuğundurunun hər 100 kq kökümeyvəsində 26 yem vahidi və 1,2 kq həzm olunan protein vardır.

Şəkər çuğunduru qiymətli ərzaq, texniki və yem bitkisi olmaqla bərabər növbəli əkin sistemində kənd təsərrüfatı bitkiləri üçün ən yaxşı sələfdir [4, səh. 24].

Ərzaq təhlükəsizliyi baxımından qərb bölgəsi şəraitində qida maddələri ilə zəif təmin olunmuş boz-qəhvəyi torpaqlarda şəkər çuğundurunun məhsuldarlığının artırılması müasir dövrdə olduqca aktualdır. Məsələnin aktuallığını nəzərə alaraq həmin bölgədə üzvi və mineral gübrə normalarının torpağın münbitliyinə və şəkər çuğundurunun məhsuldarlığının artırılmasına təsirini öyrənmək məqsədi ilə 2013-2017-ci illərdə BM və TBETİ-nin texniki bitkilərin aqrotexnikası şöbəsində Gəncə RAE və İMM-n ərazisində olan əkin sahəsində tədqiqat işinə başlanılmışdır.

Tədqiqat 5 variant 4 təkrarda aparılmışdır. Hər variant 4 cərgə, cərgənin uzunu 35 m, eni 2,40 sm olmuşdur. Hər bir variantın sahəsi 84 m^2 təşkil etmişdir. Qeyd etmək lazımdır ki, səpin zamanı xəstəlik və ziyanvericilərə qarşı davamlı laboratoriya şəraitində cücərmə qabiliyyəti yoxlanılmış toxumlar səpilir. Təcrübəmizdə səpin əvvəlcədən səpici aqreqatı MTZ-82 markalı traktoruna qoşularaq hektara 6 kq Qafqaz sortu 8 aprel tarixində səpilmişdir. Cərgə arası məsafə 60 sm-dir. Səpin zamanı torpaqda nəmlik cücərtilərin alınmasını təmin edəcək miqdarında olduğu üçün səp-suvar olunmamışdır. Ümumiyyətlə, şəkər çuğundurunun səpin zamanı torpaqda nəmlik kifayət qədər olmalıdır. Səpindən 12 gün sonra, yəni torpaqda temperatur 11,7-12^{0}C olduqda cücərtilər alınmışdır. Kütləvi cücərtilər çıxışından 15 gün keçdikdən sonra 10 may tarixində bitkilərdə cüt yarpaqlar əmələ gəlmişdir. Bitkilərin sıxlaşması isə yəni cərgələrin qovuşması avqust ayının 15-25-nə təsadüf edir. Ədəbiyyat məlumatlarına görə 1-ci cüt yarpaqlar əmələ gəldikdən sonra bitkinin soyuğa davamlılığı artır. Bu da onun mülayim isti sevən bitki olduğunu göstərir. Şəkər çuğundurunun normal inkişafı üçün 2200-2600^{0}C, effektiv temperatur

tələb olunur və transspirasiya əmsalının aşağı olduğuna görə bitki quraqlığa dözümlüdür. Bu səbəbdən də onun kök sistemi torpağın 2-3 m dərinliyinə qədər gedə bilir.

Tədqiqatda bitkinin müxtəlif dövrlərində fenoloji müşahidələr aparılmışdır. Şəkər çuğundurunun vegetasiya dövrünün 1-ci ilində 8 inkişaf fazası qeydə alınır. 1) toxumun cücərməsi, 2) çıxışlar, 3) 1-ci cüt yarpaqlar, 4) 2-3 cüt yarpaqlar, 5) 7-8 cüt yarpaqlar, 6) cərgələrin qovuşması, 7) cərgəaralarının açılması, 8) texniki yetişmənin başlanması.

1-ci fenoloji müşahidələr 7-8 yarpaq əmələ gələndə aparılmışdır (cədvəl 1).

Cədvəl 1

7-8 yarpaq fazasında şəkər çuğundurunun təsərrüfat göstəriciləri (1 bitkidə)

№	1 m^2-də bitkilərin sayı, ədədlə	Yarpaqların sayı, ədəd	Bitkinin ümumi çəkisi, qr	Kök yumrusunun çəkisi, qr	Yarpaqların çəkisi, qr
1	9	8	12,6	3,3	9,3
2	8	9	12,5	3,0	9,5
3	8	7	12,9	3,4	9,5
4	8	8	9,7	3,1	6,6
5	9	8	10,0	3,0	7,0

Cədvəldən görünür ki, bitkinin ilk fazasında onun ümumi çəkisinin 2 hissəsini yarpaqlar, təxminən 4 hissəsini kökyumrusu təşkil edir. Digər fazalarda isə köküyumruların çəkiləri artır, yarpağın çəkisi aşağı düşür. Məsələn, yarpaqların sıxlaşma dövründə 1 köküyumrunun çəkisi yarpaqla birlikdə 542-856 qram arasında dəyişmişdir. Bu zaman yarpaqların çəkisi 230-126 qram, köküyumrunun çəkisi isə 312-730 qram təşkil etmişdir. Bu dövrdə bitkinin suya tələbatı artdığı üçün bitkilər 12-15 gündən bir suvarılmalıdır. Ümumiyyətlə, şəkər çuğunduru həyatının 1-ci ilində təbii iqlim şəraitindən asılı olaraq 5-6 dəfə suvarılmalıdır. Tədqiqat sahəsində su qıtlığı olduğu üçün əkin yalnız 3 dəfə suvarılmışdır. İlk vegetasiya suvarması 22-23 iyul tarixlərində olmuşdur. Bitkinin sonrakı dövrlərində bitkinin yerüstü hissəsi çox böyümür. Yəni bitki öz həyat fəaliyyətində 50-60 ədəd yarpaq əmələ gətirir. Hər yarpağın yaşama müddəti isə 20-25 gün çəkir. İlk yarpaqlar daha çox yaşayır. Bitkilərin yetişmə dövründə yarpaqlar tədricən saralaraq məhv olur. Şəkər çuğundurunda yetişmə 3 mərhələyə bölünür; Botaniki, bioloji və texniki yetişkənlik. Botaniki yetişkənlik bitkinin 2-ci ilində yəni toxum əmələ gətirəndə baş verir. Bitkinin 1-ci ilində xarici mühit amillərinin dəyişməsi ilə bitkilərin həyat fəfliyyətləri zəifləyir. Bu zaman havalar soyuyur, işıqlı günlərin sayı azalır. Bioloji yetişkənlik üçün köhnə yarpaqların məhv olması, kökmeyvənin böyüməsi və onlarda şəkərin artması, eyni zamanda kökmeyvədə suyun və külün miqdarının azalması xarakterikdir.

Cədvəl 2

Yetişmə dövründə şəkər çuğundurunun təsərrüfat göstəriciləri bitki sxemində

№	Bitkinin ümumi çəkisi, qr	Əkin sahəsi	Köküumrunun çəkisi, qr	Kökün diametri	Yarpaqların sayı, ədəd	Yarpaqların ümumi çəkisi, qr	Yarpaqda Saplağın uzunluğu, sm	Yarpaqların uzunu, sm	Ümumi yarpaqların uzunu, sm	1 m^2 olanların sayı, ədəd
1	1975	60x15-1	1663	11,8	48	312	30	27	57	8
2	2512	60x25-1	1997	10,6	53	515	26	35	61	9
3	3004	60x15-1	2434	12,5	53	570	31	29	60	8
4	3193	60x25-1	2855	12,9	57	615	27	35	62	9
5	3618	60x15-1	2982	13,1	57	636	30	35	65	9

Texniki yetişkənlik isə kökmeyvələrdə böyümənin və onun şəkərliyinin sutkalıq artımı ilə səciyyələnir. Bu zaman cərgəaraları yarpaqlar açılır, onlar saralaraq məhv olur, yumruların çə-

kiləri 3;1 bəzən də 4;1 nisbətində olmaqla ili başa vururlar. Tədqiqatımızda ilin sonunda bitkidə təsərrüfat göstəriciləri əkin sahəsində fenoloji müşahidələrlə müəyyən edilmişdir.

Cədvəldən məlum olmuşdur ki, yetişmənin sonunda köküyumruların diametri 10,6-13,1 sm arasında olmuşdur. Yumruların diametri yumrunun formasından asılı olaraq dəyişir. Yumrular bəzən uzunsov, bəzən də dairəvi formada olurlar. Yumruların böyüməsi əkin sahəsində olan bitkilərin sayından da asılı olaraq dəyişir. Belə ki, təcrübəmizdə 1 m^2-də bitkilər 8-9 və 12-14 ədəd olduqda göstəricilər aşağıdakı kimi dəyişmişdir. Yəni bitkilərin sayı artdıqca onların təsərrüfat göstəricilərində azalma müşahidə edilir.

Cədvəl 3

Yetişmə dövründə şəkər çuğundurunun təsərrüfat göstəriciləri

№	Bitkinin ümumi çəkisi, qr	Əkin sxemi	Bitkinin yarpaqlarının çəkisi, qr	Kökümeyvənin çəkisi, qr	Köküyumrunn diametri, sm	Yarpaqların sayı, ədəd	Yarpaqda saplağın uzunu, sm	Yarpaqların ayəsinin uzunu, sm	Yarpaqların uzunluğu, sm	1 m^2 olanların sayı, ədəd
1	1350	60x15-1	245	1105	12,3	45	21	28	49	13
2	1500	60x15-1	300	1200	12,1	48	25	32	57	12
3	1522	60x25-1	272	1250	11,0	50	21	34	55	14
4	1526	60x15-1	262	1264	11,5	55	28	32	60	13
5	1584	60x25-1	324	1260	13,6	48	25	29	54	14

Yetişmə dövründə şəkər çuğundurunda bitki ayəsinin səthi

$S = \frac{P.S1}{P1} = \frac{1403 \cdot 9,5}{3,4} = 18569,1 : 3713,8\ sm^2$ olmuşdur.

Bütün bu göstəricilər məhsuldarlıqda da özünü göstərmişdir.

Cədvəl 4

Şəkər çuğundurunun məhsuldarlığı

Təcrübənin variantları	Əkin sxemi	Təkrarlar					336 m^2-də kq-la	1 ha məhsuldarlıq	Fərq, s/ha
		I	84 m^2 üçün (kq)						
			II	III	IV	Orta			
Peyin	60x15-1	277	268	275	280	275	1100	327	-
Peyin $N_{60}P_{90}K_{60}$	60x15-1	315	322	330	323	322,5	1290	395,3	68,3
Peyin $N_{60}P_{90}K_{60}$	60x25-1	306	323	316	320	316,2	1265	383,9	56,9
Peyin $N_{90}P_{120}K_{90}$	60x15-1	329	343	325	331	332	1328	420,2	93,2
Peyin $N_{90}P_{120}K_{90}$	60x25-1	320	310	325	312	316,7	1267	385,9	58,9

Məhsuldarlıq cədvəlindən aydın olur ki, təcrübənin variantlarından yalnız peyin tətbiqində 84 m^2 sahədən 268-280 kq məhsul toplanmışdır ki, bu da orta hesabla 275 kq edir. Həmin rəqəmərli hektar üzrə hesablasaq 327,3 sentnerə bərabər olar. 2-ci variantda peyin zəminində $N_{60}P_{90}K_{60}$ gübrə norması tətbiq olunduqda nəzəri halda bitki sıxlığı 111 min bitkidə hektardan məhsuldarlıq 395,3 nəzəri 66,6 min bitki-faktiki 57 min bitki sıxlığında 395,3 sentner məhsul vermişdir. Gübrə normalarını $N_{90}P_{120}K_{90}$ verdikdə isə həmin sıxlıqda həmin rəqəmlər 420,2 və 380,9 sentner arasında dəyişmişdir.

Şəkər çuğunduru yüksək münbit torpaq, suvarma rejimi və qidalanma şəraitində yüksək məhsul verdiyi üçün həmin bitkinin becərilməsi respublikamızın iqtisadiyyatı üçün çox zəruridir.

ƏDƏBİYYAT

1. Əliyev S.C., Aslanov Ə. Şəkər çuğunduru. Bakı, AzETETİİ, 1991, 36 s.
2. Hümbətov H.S., Xəlilov X.O. Texniki bitkilər. Bakı. Aytac, 2010, 415 s.

3. Yusifov M. Bitkiçilik. Bakı, «Qanun», 2011, 368 s.
4. Гобунов Н.Н., Манжеев В.И., Кураков В.И. Главным фактор продуктивности «Сахарная свекла», 2004, №4, с. 24-26.

Дилара Сафар кызы Марламова
старший научный сотрудник
Научно-Иследовательский Институт Защиты
Растений и Технических Культур

Влияние количества растений на развития и урожайность сахарной свеклы

Резюме

В статье приведены данные по выращиванию единственного источника сырца, на серокоричневых (светло-каштановых) почвах являющихся основной пищевой промышленности и единственным источником сырца в производстве сахара в нашей стране. При правильной питательном режиме, а также при корректном размещении растений на участках, получение выского урожая корне клубней становится весьма возможным.

Ключевые слова: техническое растение, сорт, сахарная свекла, почва, плодородия, удобрение, схема выращивания, урожайность.

Dilara Safar Marlamova
senior scientific worker
Plant Protection and Technical
Crops Scientific Research Institute

Effect of plant quantity on development and productiveness of sugar-beet

Summary

Growing of the only origin of raw-cotton in our country, supporting sugar production, and the main basis of feedg industi industri on grey-brown (light-chestnut) soils is prezentid in this article. Its possible to get higt product by introducting correct feeding rejime and required plant guantity.

Key words: technicalplant, variety, sugar-beet soil, fertility, fertilizer, growing scheme, productiveness.

a.e.d. Ə.N.SADIQOV,

böy. el. işçi N.M.SADIQOVA
Azərbaycan Respublikası KTN Meyvəçilik və
Çayçılıq Elmi-Tədqiqat İnstitutu

ALMA BALLICASINA (PSYLLA MALİ SCHM) VƏ ONUN ZƏRƏRLİ TƏSİRİNDƏN BİTKİDƏ ƏMƏLƏ GƏLƏN PARAZİTAR MƏNŞƏLİ SAPROFİT GÖBƏLƏKLƏRƏ QARŞI MÜBARİZƏ TƏDBİRLƏRİ

Xülasə

Məqalədə son illərdə Quba-Xaçmaz bölgəsinin meyvə bağlarında geniş yayılmış, iqtisadi cəhətdən məhsuldarlığa mənfi təsir edən alma ballıcasının bioloji inkişaf dövründə qidalanması nəticəsində bitkinin vegetativ və generativ orqanlarının şirəli ifrazatla örtülməsi, üzərində parazitar mənşəli göbələklərin inkişafı səbəbindən yarpaq ayəsi sahəsinin və meyvələrin kütləcə inkişafdan qalması və ona qarşı mübarizə tədbirləri haqqında məlumat verilmişdir.

Açar sözlər: alma bitkisi, alma ballıcası, isektisidlər.

Bağçılığın sürətli inkişafı və intensivləşmə səviyyəsinin durmadan yüksəlməsi zərərli orqanizmlərin qidalana biləcəyi bitki çeşidinin bazasını artırmaqla, çoxalma imkanlarını yüksəldir. Elə bu səbəbdən də bağlarda zərərli canlı orqanizmlərin yayılma və rast gəlmə tezliyi təxminən 50 il bundan əvvəlki dövrlə müqayisədə daha çoxdur. Meyvə bağlarında (alma bitkisində) iqtisadi zərərvurma həddini keçən canlı orqanizmlərdən biri də alma ballıcasıdır. Alma ballıcası bitkinin müxtəlif orqanlarını sirayətləndirdiyindən (çiçək, yarpaq, zoğ, meyvə) zərərvericinin zərərli fəaliyyətinin qarşısının alınması və ona qarşı inteqrir mübarizə sisteminin təkmilləşdirilməsi zərurəti yaranır [1, s. 3-4].

Ədəbiyyat mənbələrinə görə törədicilərin növ müxtəlifliyi, bir fəsildə çoxlu nəsil vermələri, güclü mühafizə örtüklərinin olması, yeni şəraitə tez uyğunlaşmaları və ekoloji xüsusiyyətlərinin müxtəlifliyi nəticə etibarı ilə bitki və məhsulun itməsinə səbəb olur. Bu da öz növbəsində səmərəli mübarizə işini çətinləşdirir ki, nəticədə məhsuldarlıq azalır, ətraf mühit həddindən çox çirklənmiş olur [2, s. 42-45; 3, s. 81-83].

Tədqiqatın obyekti. Alma bitkisi, alma ballıcası zərərvericinin qidalanması nəticəsində əmələ gələn saprofit göbələklərin təsirindən yarpaq və meyvələrdə inkişafdan qalma.

Tədqiqatın məqsədi: Alma ballıcasının bioloji inkişafı dövründə özündən buraxdığı şirəli ifrazat üzərində əmələ gələn parazitar mənşəli göbələklərin zərərli təsirini azaltmaqla bitkinin vegetativ və generativ orqanlarının bioloji artım göstəricilərinin normal inkişafını təmin etməkdir.

Tədqiqatın materialı və metodikası. Tədqiqat işi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun Zərdabi Təcrübə Bazasında yerləşən 4,0 x 1,5 m sxemi ilə əkilmiş superintensiv tip introduksiya olunmuş sortlardan əkilmiş meyvə bağı sahəsində aparılmışdır. Tədqiqatın materialı olaraq qidalanması nəticəsində yarpaqlarda və meyvə məhsulunda kəmiyyət və keyfiyyət dəyişmələrinin əmələ gəlməsinə səbəb olan alma ballıcası və Confidor SC 350, Calypso OD 240 və Mostar preparatlarının zərərvericiyə təsiri parametrləri götürülmüşdür. Tədqiqat işi meyvəçilikdə qəbul olunmuş ümumi metodikaya (Miçurinsk, 1980) əsasən (çiçəkləmədən əvvəl, çiçəkləmədən sonra və məhsul toplanışına qədər olan dövr) tədqiqat obyekti kimi götürülmüş bitki üzərində vizual baxış müşahidə metodu və yaxud binokulyarın (lupanın) köməkliyi ilə, alınmış nəticələrin təhlili riyazi hesablama üsulu ilə, preparatların bioloji səmərəliliyi Abotta formulu ilə müəyyənləşdirilmişdir.

Tədqiqatın nəticəsi və müzakirəsi. Tədqiqat illərində (2015-2017) zərərvericinin bioloji inkişaf mərhələsində qidalanması nəticəsində bitkidə əmələ gələn parazitar mənşəli saprofit göbələklərin təsirindən yarpaqların və meyvələrin inkişafdan qalması, bitkinin məhsuldarlığına təsiri parametrləri və bu çatışmamazlıqları aradan qaldırmaq məqsədi ilə təcrübə sahəsində alma ballıcasının inkişaf dinamikası öyrənilmişdi. Tədqiqat illərində alma ballıcasının (Psylla mali Schm) monofaq həşərat olub, yalnız alma bitkisi ilə qidalandığı və inkişafı üçün tələb olunan temperaturun (10^0-dən yuxarı) mart ayının sonu, aprel və may aylarına düşdüyü təyin olundu. Ümumilikdə 2015-2017-ci illərdə təbii mühit və iqlim göstəriciləri alma ballıcasının inkişafı üçün çox əlverişli olmuşdur. Alma ballıcası ilə sirayətlənmiş bitki zəifləmiş, çiçək, yarpaq və meyvələri tökülmüşdür. Sürfələri yapışqanlı maye buraxdığından tumurcuqların, zoğ və yarpaqların, meyvələrin üzəri şirəli ifrazatla örtülmüşdür. Nəticədə çiçəklərdə tozlanma prosesi normal getmədiyindən meyvə tutumu azalmış, əmələ gələn meyvələr inkişafdan qalaraq çox kiçik ölçüdə olmuşdur. Şirəli ifrazat üzərində saprofit göbələklər inkişaf etdiyindən bitkinin orqanları qara örtüklə (hislə) örtülmüşdür (Şəkil 1). Sirayətlənmiş bitkilərdə fotosintez prosesi pozulduğundan inkişafdan qalaraq məhsuldarlığı aşağı düşmüşdür. Tədqiqat ilində alma bitkisinin normal inkişafını təmin etmək və parazitar mənşəli saprofit göbələklərdən mühafizə məqsədilə zərərvericinin sürfə və nimfa inkişaf mərhələsində təcrübə sahəsində tətbiq olunmuş Confidor SC 350+Saneb M 22, Calypso OD 240+Saneb M 22, Mostar+Saneb M 22 preparatlarının alma bitkisinin yarpaq və meyvələrinin bioloji artım göstəricilərinə təsiri öyrənilmişdir (Cədvəl).

Müşahidələr göstərir ki, zərərvericinin inkişaf mərhələsindən asılı olaraq 0,06%-li Confidor SC 350+Saneb M 22, Calypso OD 240+0,2%-li Saneb M 22 preparatlarını tətbiq etməklə bitkinin vegetativ və generativ orqanlarının inkişafını, fotosintez prosesinin normal gedişini təmin et-

mək, bitkinin yarpaq və meyvələrində inkişafdan qalma hallarını aradan qaldırmaq mümkündür (Şəkil 2).



Şəkil 1.Tətbiqdən əvvəl



Şəkil 2.Tətbiqdən sonra

Cədvəldən göründüyü kimi, kimyəvi preparatların alma ballıcasının alma bitkisinə zərəri nəticəsində əmələ gələn parazitar mənşəli saprofit göbələklərə təsiri parametrlərinin təhlili göstərir ki, bioloji artım göstəriciləri ən çox Confidor SC 350, Calypso OD 240 + Saneb M 22 preparatlarının 0,06+0,2%-li məsarif normasında tətbiqi variantlarından əldə olunmuşdur. Preparatların tətbiqindən alma ballıcasının və parazitar mənşəli saprofit göbələklərin zərərli təsiri aradan qaldırılmaqla variantlar üzrə uyğun olaraq yarpaq ayəsinin sahəsində nəzarət variantı ilə müqayisədə 37,4-44,4%, etalon (Mostar) variantı ilə müqayisədə 15,2-16,9%, meyvələrin kütləcə artım göstəricilərində isə anoloji olaraq 27,9-29,0% və 17,4-19,7% bioloji artım əldə olunmuşdur (cədvəl).

Cədvəl

Kimyəvi preparatların alma ballıcasının alma bitkisində zərərli təsirindən əmələ gələn parazitar mənşəli xəstəliklərə təsiri parametrləri

Variantlar üzrə tətbiq olunmuş preparatlar	Preparatın məsarif norması, %-lə	Yarpaq ayəsinin inkişafına təsiri,sm^2				Meyvələrin inkişafına təsiri,qr			
		Tətbiqdən əvvəl	Tətbiqdən sonra	Fərq	Nəzarət variantına nisbətən bioloji artım, %-lə	Tətbiqdən əvvəl	Tətbiqdən sonra	Fərq	Nəzarət variantına nisbətən bioloji artım, %-lə
Confidor SC 350 (t.m35% İmidachloprid) + Saneb M 22	0,02	12,7	18,9	6,2	118,9	205,7	255,9	50,2	121,7
	0,04	12,9	21,5	8,6	129,6	203,7	261,7	58,0	124,4
	0,06	13,2	23,4	10,2	**137,4**	**203,9**	**268,9**	**67,3**	**127,9**
Calypso OD 240 (t.mThiachloprid) + Saneb M 22	0,02	14,1	20,1	6,0	123,9	201,6	258,1	56,5	122,7
	0,04	13,9	23,8	9,9	139,1	202,4	264,3	62,2	125,7
	0,06	14,0	25,1	11,1	**144,4**	**203,8**	**271,2**	**67,4**	**129,0**
Etalon.Mostar (t.m.20%Asetamiprid) + Saneb M 22	0,03	13,3	17,2	3,9	111,9	204,1	241,1	37,0	114,6
	0,04	12,9	18,6	5,7	117,7	203,6	244,7	41,1	116,4
	0,06	13,0	19,8	6,8	122,2	204,0	251,5	47,5	119,6
Nəzarət (təsərrüfat)	-	13,0	14,3	1,3	100	201,3	210,3	9,0	100

Nəticədə Confidor SC 350 və Calypso OD 240 + Saneb M 22 preparatlarının 0,06%+0,2%-li məsarif normasında tətbiqi bitkini alma ballıcasının və parazitar mənşəli saprofit göbələklərin zərərli təsirindən (zərərvericinin bioloji inkişaf dövründə qidalanması nəticəsində əmələ gələn yarpaqların, meyvələrin və boyun inkişafdan qalması və s.) qoruyaraq nəzarət variantı ilə müqayisədə yarpaq ayəsi sahəsinin 8,9-9,8sm^2, meyvələrin isə 58,3-58,4qr kütləcə çox böyüməsinə (bioloji artım əldə olunmasına) səbəb olmuşdur.

ƏDƏBİYYAT

1. Axundova L.M., Sidirovnina E.P. Meyvə bitkilərinin zərərvericiləri ilə mübarizə.1975, s. 3-4.
2. Sadıqova N.M. Alma sort və formalarının alma ballıcasına qarşı davamlılıq əlamətlərinin qiymətləndirlməsi. Azərbaycan Aqrar Elmi jurnalı, 2016, № 5, s. 42-45.
3. Sadıqova N.M. Alma ballıcasının biologiyası və fenoloji inkişaf ardıcıllığına uyğun mübarizə tədbirlərinin tətbiqi. Azərbaycan Aqrar Elmi jurnalı, 2017, № 4, s. 81-83.

доктор сельскохозяйственных наук А.Н.Садыгов.,
старший научный сотрудник Н.М.Садыгова

Меры борьбы с яблонной медяницей (псйлла малы същм) и сапрофитными грибами паразитарного происхождения появляющимися в результате ее вредоносного воздействия на растения

Резюме

В статье изложены сведения о яблонной медянице и о мерах борьбы с нею. Яблонная медяница в последнее время широко распространена в плодовых садах Куба-Хачмазского региона, в следствии чего наносит большой экономический урон. Она в результате своего питания покрывает вегетативные и генеративные органы растения жидким выделением, которое становится причиной появления грибов паразитарного происхождения, сдерживающие развитие листовой пластины и плодов (в весе) растения.

Ключевые слова: культура яблони, яблоневая медяница, инсектициды.

doctor of agricultural sciences A.N.Sadigov,
senior scientific worker N.M.Sadigova

Psylla mali schm and measures to combat the parasitic saprophy fungi caused by its harmful effects

Summary

The article provides information on fighting activities about ehe massive development of the leaf area and fruits due to the transplantation of vegetative and generic organs of the vegetative and generic organs of the plant as a result of the nutrition of psylla mali Schm, which is widely spread in the gardens of Guba-Khachmaz region, during the biological developmental adversely affecting economic productivity.

Key words: apple plant, psylla mali Schm, insecticides.

t.e.d., prof. Elçin Barat oğlu İSGƏNDƏRZADƏ,
ass. Şükufə Vaqif qızı ƏHMƏDLİ,
doktorant Ülkər Rafiq qızı İSLAMOVA,
doktorant Lamiyə Sulduz qızı ƏLİYEVA
Azərbaycan Texniki Universiteti

ƏRZAQ İSTEHSALI AVADANLIQLARININ MÜRƏKKƏB DETALLARININ HƏNDƏSİ PARAMETRLƏRİNİN KOORDİNAT ÖLÇMƏ ÜSULU İLƏ TƏDQİQİ

Xülasə

Məqalədə ərzaq istehsalı sahəsində istifadə olunan texniki avadanlıqların mürəkkəb formalı detallarının koordinat metrologiyası üsulu ilə tədqiqi prinsipləri verilmişdir.

Açar sözlər: həndəsi parametrlər, forma xətaları, koordinat ölçmə maşınları, ölçmələrin vəhdəti.

***

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra əhalinin ərzaq təhlükəsizliyi ilə təmin edilməsi məsələsi böyük aktuallıq kəsb etdiyi üçün dövlətimizin prioritet məsələlərindən biri olmuşdur. Bu məsələ ilə bağlı çoxlu sayda önəmli qərarlar qəbul edilmiş və edilməkdədir. Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən 2 mart 2001-ci il tarixində imzalanmış "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı"nı xüsusi qeyd etmək lazımdır.

Ölkəmizdə əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi ərzaq istehsalı sahəsinin maşın və avadanlıqlarının yüksək dəqiqlikdə və keyfiyyətdə hazırlanmasından əhəmiyyətli dərəcədə asılıdır. Yüksək dəqiqlik və keyfiyyətə nail olunması isə bilavasitə həmin avadanlıqların xüsusi əhəmiyyətli detallarının həndəsi parametrlərinin və forma xətalarının müasir üsullarla metroloji tədqiqindən asılıdır.

Mürəkkəb formalı səthlərin həndəsi parametrlərinin ölçülməsi metroloji təminatında koordinat-ölçmə maşınları (KÖM) geniş tətbiq edilir. Xətti ölçülərin ölçülməsində koordinat-ölçmə maşınlarının yoxlanması normativ sənədlərə əsasən həyata keçirilir [1]. 2019-cu ilin yanvarından yeni standart qüvvəyə minir [2]. Koordinat-ölçmə maşınlarında mürəkkəb formalı səthlərin həndəsi parametrlərinin ölçülməsi beynəlxalq standartlara uyğun olaraq, [3] onların ölçülməsinin qeyri-müəyyənliyinin qiymətləndirilməsi tələb olunur. Modelləşdirmə bazasında səthin həndəsi parametrlərinin ölçülməsinin qeyri-müəyyənliyinin qiymətləndirilməsi məsələsini beynəlxalq standart [4] formalaşdırır.

Tədqiqat işində səthin həndəsi parametrlərinin koordinat ölçmələrinin 3D vəhdət təminatının 3D koordinat ölçmələrinin dəqiqliyinə və etibarlılığına təsir edən amilləri nəzərə alan əsas prinsipləri verilir. Kələ-kötürlük, forma və səthin yerləşməsinin 3D həndəsi parametrlərinin koordinat ölçmələrinin birölçülü xətti-bucaq ölçmələrindən əsas fərqinə baxılır.

Emal olunmuş səthlərin həndəsi parametrlərinin koordinat ölçmə prinsipləri uzunluğun ənənəvi və xətti ölçmələrindən çoxlu sayda fərqlərə malikdir və ənənəvi birölçülü ölçmələr üsulu ilə tədqiq və realizə edilə bilməz. Uzunluq vahidi ölçüsünün ənənəvi birölçülü xətti üsullarla birbaşa ölçülməsi və mürəkkəb formalı səthin həndəsi parametrlərin ölçülməsində ölçmə vasitələrinin müəyyən dəqiqlik itkisi olmadan mümkün deyil. Buna görə də fəza ölçmələrinin seçilməsi məqsədəuyğundur, hansı ki bu metrologiyanın sərbəst istiqaməti olan koordinat (3D) metrologiyası ilə həyata keçirilir. Həndəsi parametrlərin koordinat ölçmələri uyğun olaraq, həndəsi paramertlərin koordinat ölçmə vəhdətinin təmin edilməsinə yeni sistemli yanaşma tələb edir.

Universal koordinat ölçmə maşınları koordinat ölçmələrində ölçmə vasitələrinin şkalasının kalibrlənməsindən əlavə (hansı ki, vacibdir və uzunluğun birölçülü ölçülməsinin lazımi şərtidir) ortoqonal dekart koordinat sisteminə uyğun olaraq, nəzarət olunan səthin koordinat nöqtəsinin ölçülməsi həyata keçirilir.

Təcrübədə koordinat ölçmələri koordinat sisteminin mexaniki istifadəsi ilə həyata keçirilir. Buna görə koordinat ölçmə maşınlarının işçi həcminin istənilən oblastında koordinat nöqtələri ölçmələri xətalarının təyin edilməsi və kompensasiyası birbaşa üsulla və koordinat sisteminin attestasiya olunmuş fiziki realizə ölçmələri yolu ilə həyata keçirilə bilər. Bu alternativ isə mexaniki koordinat sisteminin xətalarının riyazi modelləşdirilməsidir və kalibrləmə vasitələrinin yaradılmasıdır, hansı ki, bunlar kompensasiya məqsədilə bu xətaları ayırd edir (məsələn, koordinat ölçmə maşınları koordinat sisteminin 21 parametrik modeli) [4].

Ölçmə vasitələrinin koordinatı kimi koordinat ölçmə maşınları birləşmələrinin uzunluq vahidinin ilkin etalonu lazer interferensiya sisteminin köməkliyi ilə həyata keçirilə bilər, hansı ki, koordinat ölçmə maşınları üçün uzunluq vahidini ötürür və həmçinin qalmış koordinat sistemi koordinat ölçmə maşınları 18 həndəsi parametrləri kompensasiya edir və ya digər material ölçüləri yığımının köməkliyilə həyata keçirilir, hansı ki, bu ölçmə vasitələrinin etalonu kimi qəbul edilir və lazer interferensiya sistemini əvəz edir [4]. Konkret həndəsi parametrlərin koordinat sistemi kimi koordinat ölçmə maşınları uzunluq etalonuna müqayisəsi iki üsulla həyata keçirilə bilər - (silindrik, dairəvi, fəza və s.) etalon ölçüləri köməkliyi ilə birbaşa komparator üsulu ilə, həmçinin dolayı üsulla, yəni proqram təminatı attestasiyası yolu ilə həyata keçirilə bilər ki, bu da həndəsi parametrlərin hesabatı ilə həyata keçirilir.

Həndəsi parametrlərin koordinat sisteminin forma sapmaları (fəza, evolvent, dairəvilik və s.) xüsusiləşmiş koordinat ölçmə vasitələrində (dairəölçən, evolventomer, müstəviölçən və s.) ümumi prinsiplərə malikdir, hansı ki, bu koordinat səthlərinin fiziki ölçülməsi proseslərinin müdafiə edilməsi məsələlərindən ibarətdir və özlüyündə normal üzrə forma xətaları ölçmələri və nominal xətaları təqdim edir. Buna görə koordinat ölçmə vasitələrinin ilkin forma etalonuna uyğunluğu normal uzunluq vahidi ölçüsünün ötürülməsini tələb edir və bu müstəvilikdən sapma ölçülmələri köməkliyi ilə və digər amillərlə təmin edilir.

Ənənəvi metroloji ölçmələrdən həndəsi parametrlərin koordinat ölçmələrinin müəyyən fərqi proqram təminatının olmasıdır, hansı ki, bu həndəsi parametrlərin dolayı ölçülməsini realizə edir, belə ki, tədqiq olunan səthin koordinatları haqda ilkin ölçmə informasiyası funksionaldır. Buna görə vəhdətin təmin koordinat ölçmələrinin nəzərə çarpacaq elementi həndəsi parametrlərin koordinat ölçmələri realizə edən proqram təminatı və alqoritmlərin attestasiyasıdır [5].

Mürəkkəb formalı emal olunmuş səthlərin həndəsi parametrlərinin fəza ölçmələrində uzunluq vahidi ölçüsünün birbaşa ötürülməsi müəyyən dərəcədə dövlət ilkin uzunluq etalonuna görə dəqiqlik ölçüsünün itkisi olmadan mümkün deyil, emal olunmuş səthlərin həndəsi parametrlərin koordinat ölçmələrin vəhdətinin təmini üçün dövlət xüsusi uzunluq vahidi etalonu kompleksi yaradılmalıdır. Bu xüsusi şəraitlərdə həndəsi parametrlərin dəqiq ölçülməsinin dairəvilikdən, müstəvilikdən, sferiklikdən, evolventlikdən və başqa qeyd olunan mürəkkəb analitik və alqoritmik asılılığını göstərir. Kələ-kötürlük, forma və mürəkkəb formalı səthin yerləşməsinin yaradılmış həndəsi parametrlərin xüsusi etalon kompleksi beynəlxalq əsaslı müqayisədən keçməli və ölkənin kalibrləşdirici məlumat bazasına daxil edilməlidir.

Yuxarıda göstərilmiş ümumi prinsiplərə əsaslanan koordinat ölçmələri oblastında vəhdətin təminatına vahid sistemli yanaşma məqsədəuyğun hesab edilir və tövsiyə olunur.

ƏDƏBİYYAT

1. МИ 2569 Машины 3-х координатные портального типа. Методика поверки.
2. Standart ISO 10360-2 :2009 Geometrical Product Specifications (GPS) - Acceptance and re-verification tests for coordinate measuring machines (CMM) - Part 2: CMMs used for measuring linear dimensions.
3. ISO/IEC 17025: 2017 Общие требования к компетентности испытательных и калибровочных лабораторий.
4. ISO/TS 15530-4 2008 Geometrical product specifications (GPS).Coordinate measuring machines (CMM):Testing for determining the uncertainty of measurement-part 4: Evaluating task- specific measurement uncertainty using simulation.
5. ГОСТ 8.883-2015 «Государственная система обеспечения единства измерений. Программное обеспечение средств измерений. Алгоритмы обработки, хранения, защиты и передачи измерительной информации. Методы испытаний».

d.f.m., prof. Elçin Barat oğlu İskəndərzadə,
as. Şükufə Vaqif qızı Əhmədli,
doktorant Ülkər Rafiq qızı İsmayılova,
doktorant Lamiyə Sultan qızı Əliyeva
AzTU

Исследование геометрических параметров сложных частей производства продуктов питания методом координатных измерений

Резюме

В статье представлены принципы изучения сложных деталей технического оборудования, используемого в пищевой промышленности, методом координатной метрологии.

Ключевые слова: геометрические параметры, ошибки формы, координатные измерительные машины, единство измерений.

PhD in tec., prof. Elchin Barat Isgandarzadeh,
ass. Shukufa Vagif Ahmedli,
doctoral student Ulkar Rafig Islamova,
doctoral student Lamiya Sulduz Aliyeva,
AzTU

Investigation of geometric parameters of complex parts of food production by the method of coordinate measurements

Summary

The article provides the principles of the study of the complex details of the technical equipment used in the food industry by the method of coordinate metrology.

Key words: geometric parameters, form mistakes, coordinate measuring machines, unity of measurements.

Eldəniz Ənvər oğlu BAYRAMOV
texnika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Texnologiya Universiteti

BAĞACIQLA ZƏDƏLƏNMİŞ BUĞDANIN UNUNDAN HAZIRLANAN ÇÖRƏKDƏ YARANAN QÜSURLAR

Xülasə

Məqalədə bağacıqla zədələnmiş buğdanın unundan hazırlanan çörəkdə yaranan qüsurlar və onların səbəbləri araşdırılmış, bu səbəbləri aradan qaldırmaq üçün tətbiq edilən üsullar sistemləşdirilmişdir.

Açar sözlər: un, xəmir, çörək, qüsurlar, bağacıq.

***

Vegetasiya dövründə taxılın dəni zərərvericilərlə zədələnə bilər. Bunlardan ən geniş yayılmış zərərverici bağacıqdır (Eurygaster integriceps Put) [1, səh. 8-10, 2, səh. 72-74]. Taxılın saxlanılması zamanı da zərərvericilər ona təsir edir [3, səh. 94]. Dən kütləsində zərərvericilərin müəyyən inkişaf mərhələsində olan canlı nümayəndələrinə təsadüf olunması həmin dənin yoluxduğundan xəbər verir. Yoluxmanı istənilən dən partiyasının keyfiyyətini qiymətləndirməklə bilmək olur [4, səh. 24]. Ona görə çörəyin qüsurlu olmasına səbəb xammalların keyfiyyətsiz olması və çörəyin istehsal texnologiyasının pozulması, eləcə də saxlanma və daşınma şərtlərinə riayət edilməməsidir [5, səh. 43-44].

Bağacıqla zədələnmiş buğdadan üyüdülmüş unun istifadə edilməsi çörəkbişirmə sənayesinin aktual problemlərindən biridir. Son zamanlar ekologiyanın pisləşməsi nəticəsində buğdanın bağacıqla yoluxması geniş yayılmışdır. Bununla bərabər belə buğdadan istehsal edilən unun da həcmi artmışdır. Müasir texnologiyaların tətbiq olunduğu bir vaxtda çörəkbişirmə müəssisələrinə bağacıqla zədələnmiş buğdanın unu gətirildikdə ondan istifadə etmək məcburiyyəti bir sıra çətinliklər yaradır. Belə undan istifadə edildikdə çörəkdə yolverilməz qüsurlar yaranır. Bu qüsurları aradan qaldırmaq üçün bir sıra tədbirlərin həyata keçirilməsinə baxmayaraq mütəxəssis-texnoloqlar qarşısında çox məsuliyyətli və çətinlik yaradan vəzifələr durur. Bu vəzifələrin öhdəsindən müvəffəqiyyətlə gəlmək üçün bağacıqla zədələnmiş buğdanın unundan hazırlanan çörəkdə yaranan qüsurlar və onların səbəbləri mükəmməl araşdırılmamış, çörəyin keyfiyyətini yaxşılaşdırmaq məqsədi ilə həmin qüsurların aradan qaldırılma üsulları yığcam şəkildə sistemləşdirlməmişdir. Ona görə tədqiqatların bu istiqamətdə aparılması aktual xarakter daşıyır.

Tədqiqatın məqsədi bağacıqla zədələnmiş buğdanın unundan hazırlanan çörəkdə yaranan qüsurları və onların səbəblərini araşdırmaq, bu səbəbləri aradan qaldırmaq üçün tətbiq edilən üsulları sistemləşdirməkdir.

Tədqiqat metodları mövcud ədəbiyyatların və internetin verilənlərinə əsasən aparılmaqla nəzəri və təcrübi-tətbiqi xarakter daşıyır.

Elmi yenilik. Aparılan tədqiqatlar nəticəsində bağacıqla zədələnmiş buğdanın unundan hazırlanan çörəkdə yaranan qüsurlar öyrənilmiş, onların səbəbləri araşdırılmış, bu səbəbləri aradan qaldırmaq üçün tətbiq edilən üsullar sistemləşdirilmişdir ki, bu da çörəkbişirmə müəssisələrinin istehsalat şəraitindən asılı olaraq texnoloqlar tərəfindən bu və ya digər tədbirlərin düzgün seçilməsinə imkan verir.

İşin faydası. Çörəkbişirmə müəssisəsinə bağacıqla zədələnmiş buğdanın unu gətirildikdə texnoloqlar vaxt itirmədən operativ tədbirlərin həyata keçirilməsinə imkan yaradır.

Buğda partiyasında bağacıqla zədələnmiş dənlər qarışığı olduqda alınan unun kleykovinası həddən artıq dartılan (çox uzanan) olur. Belə unda proteolitik fermentlərin aktivliyi yüksək olur, dincə qoyma prosesində kleykovinanın reoloji xassələri kəskin surətdə pisləşir - yaxılan, yapışqan və hörümçək torunun ipləri şəklində dartılıb uzanan olur [6, səh. 332-335].

Bağacıq xortumunu dənə batırıb qidalanan zaman tüpürcəyi vasitəsilə dənin tərkibinə proteinaza adlanan ferment buraxır. Bu ferment kleykovinanı parçalayır və buna görə kleykovina az miqdarda yuyulur, yaxud heç yuyulmur. Proteinaza fermenti zülalları peptid rabitələri üzrə hidrolitik parçalayır. Belə olduqda hidroliz məhsulu kimi peptonlar, polipeptidlər və sərbəst aminturşular əmələ gəlir.

Buğda, çovdar və başqa taxıl dənlərində papainaza tipli proteolitik fermentlərə aid edilən proteinazalar üçün səciyyəvi olan cəhət onların bərpaedici təsirli, ən çox da tərkibində -SH sulfhidril qrupları olan birləşmələrlə (sistein, qlütation) aktivləşmə qabiliyyətinə malik olmalarıdır. Bu tip proteinazalar üçün eynilə səciyyəvi olan cəhət həm də odur ki, onlar oksidləşdirici təsirli birləşmələrlə ($KBrO_3$, KJO_3, H_2O_2, havanın oksigeni və s.) inaktivləşmə qabiliyyətinə malikdirlər. Oksidləşmə zamanı sulfhidril qruplarının disulfid rabitə körpücüklərinə çevrilməsi fermentləri inaktivləşdirir.

Proteolizin aktivatoru buğda dənində, unda və mayalarda, deməli həm də xəmirdə olan qlütationdur. Oksidləşmiş vəziyyətdə qlütation proteolizi aktivləşdirə bilmir. Aktivatorlar (qlütation və sistein) olmadıqda, unun tərkibində kifayət qədər miqdarda olan proteinazanın aktivliyi az olur. Bu aktivatorlar əlavə edildikdə proteoliz kəskin surətdə güclənir və nəticədə xəmirin yayğınlığı artır.

Disulfid rabitələri (-S-S-) əmələ gəldikdə zülalın daxili molekulyar (daxili qlobulyar) strukturu möhkəmlənir, onun sıxlığı və sərtliyi artır. Disulfid rabitələri qırıldıqda isə zülal molekulunun strukturu zəifləyir, daha yumşaq və hərəkətli olur [7, səh. 98-101].

Bağacıqla zədələnmiş buğdanın ununda suda həll olan zülalların miqdarı çox olur. Ona görə belə undan hazırlanan xəmir tez sıyıqlaşır, onun qaz- və formasaxlama qabiliyyətləri aşağı olur. Bişirilən çörəklər kiçik həcmli və məsaməliyi pis olur. Çörək içi qeyri-elastik və bəzən çörəyin üst qabığı dayaz çatlarla örtülü olur [7, səh. 329-336, 8, səh. 208].

Apardığımız tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, bağacıqla zədələnmiş buğdanın unundan hazırlanan çörəkdə yaranan qüsurlar aşağıdakılardır:

- xəmirin tez sıyıqlaşması;
- döşəmə çörəyinin yayılma dərəcəsinin yüksək olması;
- çörəyin kiçik həcmli olması;
- çörək içinin məsamələrinin və elastikliyinin kifayət qədər olmaması;
- çörəyin üst qabığında xırda çatların olması.

Bağacıqla zədələnmiş buğdanın unundan hazırlanan çörəkdə yaranan qüsurların səbəbi unun tərkibindəki proteolitik fermentlərin aktivliyinin yüksək olmasıdır.

Bağacıqla zədələnmiş buğdanın unundan hazırlanan çörəkdə yaranan qüsurları aşağıdakı üsullarla:

- kompleks yaxşılaşdırıcılardan, quru kleykovinadan istifadə etməklə;
- balatının turşuluğunu 2^0, xəmirin turşuluğunu isə 1^0 artırmaqla;
- xəmiri çox qatı balatı üsulu ilə hazırlamaqla;
- xəmirin qıcqırma və yetişmə müddətini azaltmaqla;

• balatı və xəmirin nəmliyini 1% azaltmaqla;

• mayanın norma üzrə miqdarını 50%-dək artırıb balatını 25-26^{0}S, xəmiri isə 24-25^{0}S temperaturda qıcqırtmaqla;

• xörək duzunun miqdarını əla və birinci sort unlardan istifadə edildikdə 15%, ikinci sort undan istifadə edildikdə 15%, kəpəkli undan istifadə edildikdə 50% artırmaqla;

• bişirmə temperaturunu 10-20^{0}S artırmaqla;

• mayanı əvvəlcədən aktivləşdirməklə aradan qaldırmaq olar.

Balatının, xəmrənin və xəmir hazırlamaq üçün istifadə edilən digər yarımfabrikatların qıcqırma müddətini azaltmaq məqsədəuyğun deyil, çünki onların tərkibində xəmirin yetişməsinə səbəb olan qıcqırma məhsulları kifayət qədər toplanmalıdır. Yarımfabrikatların turşuluğunun yüksək olması xəmirin qıcqırma və bişirmə prosesində fermentlərin aktivliyini azaldır. Balatı və xəmirin turşuluğunu artırmaq üçün ümumi un kütləsinin 5%-i miqdarında süd turşulu xəmrədən, yetişmiş balatı, yaxud xəmirdən istifadə etmək olar.

Mayaların miqdarını artırarkən onların keyfiyyəti nəzərə alınmalıdır.

Yuxarıda şərh olunan tədbirlərlə yanaşı xəmiri çox maye balatı üsulu ilə hazırlamaq məqsədəuyğundur. Bu üsulla xəmirin yoğrulması zamanı su əlavə edilmir.

Nəticə

Aparılan tədqiqatlar nəticəsində bağacıqla zədələnmiş buğdanın unundan hazırlanan çörəkdə yaranan qüsurlar öyrənilmiş, onların səbəbləri araşdırılmış, bu səbəbləri aradan qaldırmaq üçün tətbiq edilən üsullar sistemləşdirilmişdir. Çörəyin qüsurlu olub-olmamasını bilmək və çörəyin yüksək keyfiyyətdə olmasını təmin etmək üçün unda kleykovinanın miqdarı və keyfiyyəti, fermentlərin aktivliyi təyin edilməli, unun "İDK" və "Düşmə sayı" göstəricilərinə xüsusi diqqət yetirilməlidir. Bağacıqla zədələnmiş buğdanın unundan hazırlanan çörəkdə yaranan qüsurları aradan qaldırmaq üçün sistemləşdirilmiş üsullar çörəkbişirmə müəssisələrində texnoloqlar tərəfindən müvəffəqiyyətlə istifadə edilə bilər.

ƏDƏBİYYAT

1. Цык В.В. Послеуборочная обработка и хранение зерна. Учебно-методическое пособие / В.В.Цык. - Горки: БГСХА, 2014. - 268 с. - с.8-10.
2. Черныш П.Г. Как повысить класс пшеницы. П.Г.Черныш, С.М.Каленская // журнал «Зерно».- Киев: Издательский дом «Зерно», 2009. - № 2. - С.72-74.
3. Əhmədov Ə.İ. Ərzaq malları əmtəəşünaslığı. Dərslik / Ə.İ.Əhmədov. - Bakı: İqtisad Universiteti, 2006.- 480 s. - S.94.
4. Fətəliyev H.K. Bitkiçilik məhsullarının saxlanması və emalı texnologiyası fənnindən praktikum. Dərs vəsaiti. - Bakı: Elm, 2013.- 227 s. - S.24.
5. Bayramov E.Ə. Çörəyin qüsurları və onların aradan qaldırılma yolları. / E.Ə.Bayramov, S.E. Bəşirbəyli // "Texnoloji innovasiyalar və elmi-tərəqqi" mövzusunda Respublika elmi-praktik konfransın materialları. - Gəncə: AzTU, 2013. - S.43-44.
6. Цыганова Т.Б. Технология хлебопекарного производства. Учебник / Т.Б. Цыганова. - М.: ПрофОбрИздат, 2002. - 432с. - с.332-335.
7. Ауэрман Л.Я. Технология хлебопекарного производства. / Под общей редакцией Л.И. Пучковой. - СПб.: Профессия, 2005. - 416 с. - с.98-101, 329-336.
8. Тошев А.Д. Технология продуктов питания. Учебное пособие / А.Д.Тошев, Г.Б.Хамраева. - Челябинск: ЮУрГУ, 2012. - 213 с. - с.208.

Елданиз Анвар оглы Байрамов
д.ф.т., доц. АзТУ

Дефекты хлеба из муки пшеницы, пораженной клопом-черепашкой

Резюме

В статье проанализированы и систематизированы дефекты хлеба из муки пшеницы, по-

раженной клопом-черепашкой, причины дефектов и применяемые способы для их устранения.

Ключевые слова: мука, тесто, хлеб, дефекты, клоп-черепашка.

Eldaniz Anvar Bayramov
PhD in tex. ass. prof. AzTU

Defects of bread from flour of wheat, by the damaged bedbug-tortoise

Summary

In the article analysed and systematized defects of bread from flour of wheat, by affected bedbug-tortoise, reasons of defects and applied methods for their removal.

Keywords: flour, dough, bread, defects, bedbug-tortoise.

Ələddin Nemət oğlu SADIQOV
aqrar elmləri üzrə elmlər doktoru,
baş elmi işçi, şöbə müdiri, Azərbaycan Respublikası
Kənd Təsərrüfatı Nazirliyi Meyvəçilik və
Çayçılıq Elmi-Tədqiqat İnstitutu

ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ SELEKSİYA YOLU İLƏ ƏLDƏ EDİLMİŞ MEYVƏ SORTLARININ ƏHƏMİYYƏTİ

Xülasə

Məqalədə respublikamızda ərzaq təhlükəsizliyinin təmin olunmasında Azərbaycan KTN Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun alimləri tərəfindən süni seleksiya yolu ilə yaradılmış meyvə sortlarından almanın - Azərbaycan, Quba, Şirvan reneti, Şirvan Tacı, Fəhimə, Quba reneti, Nailə, Təravətli, Payızlıq Quba, Qışlıq Quba, Sona alma, Sevinc, Şabran, Elvin, Nail, Məxməri, Sədəf, Emil, Çıraqqala, Zümrüd və s.; armudun - Lətifə, Əntiqə, Azərbaycan, Bağban, Elşən, Ərzuman, Alyanaq, Ətirli, Şərqiyyə, Yadigar, Ayşən, Rövşən, Oxşar, Gülşən və s., gilasın - Raya, Azəri; alçanın - Rəcəbli-1, Rəcəbli-2; şaftalının - Malik, Fədai, Məhsəti, Oktyabr və s. - əhəmiyyəti barəsində məlumat verilmişdir.

Açar sözlər: genefond, seleksiya, meyvə sortları, Azərbaycan.

***

Azərbaycanın torpaq bitki örtüyünün çox böyük müxtəlifliyinin əmələ gəlməsinə şərait yaradan müxtəlif iqlim tiplərinin mövcudluğu ilə yanaşı ölkənin coğrafi yerləşmə mövqeyinə uyğun günəş radiasiyasına və istiliyə malik olması bir çox bitkilərin becərilməsinə əlverişli imkan yaratmışdır [1, s.18-19].

Mövcud olan zəngin floradan indiyə qədər elm üçün 700 növ bitkinin təsviri verilmişdir. Son tədqiqatlardan məlum olmuşdur ki, Azərbaycan florasında 4500 növ bitki vardır ki, bu da Qafqaz florasının 64-70 %-ni, dünya florasının isə 11 %-nı təşkil edir [2, s.22-24, 3, 24 s.]. Respublikamızın genefonduna məxsus olan təbii halda bitən cır və yarımmədəni meyvə (alma, armud, heyva, gilas, şaftalı, alça, qoz, şabalıd, badam, püstə, zeytun, nar, əncir, xirnik, moruq, iydə, tut və s.) bitkiləri geniş ərazilərdə yayılmışdır [4, s.3-8; 5, s.503-543; 6, 69s.]. 1927-ci ildə ekspedisiyaya çıxan akademik V.V. Paşkeviç Azərbaycanın meyvəçilik bölgələrində alma və armudun 280-dən çox yerli sort və formalarının olduğunu aşkar etmişdir [7, 30 s.; 8, s.47-49].

Yayılma arealına görə Azərbaycanda mövcud olan meyvə bağlarının 50-65 %-ni tumlu, 20-25%-ni çəyirdəkli, digər sahələr isə qərzəkli və sitrus meyvə bitkiləridir [9, 49 s.]. Uzun müddət aparılmış tədqiqat işlərinin nəticələri göstərmişdir ki, həmin bağların salınmasında yerli, introduksiya edilmiş və Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun seleksiya sort və formalarından istifadə edilmişdir [10, s.65-67]. Bu bağlarda həddindən artıq sort qarışığının olması,

xüsusən introduksiya edilmiş sortların əksəriyyətinin respublikanın meyvəçilik bölgələrinin torpaq-iqlim şəraitinə adaptasiya olunmasının nəticəsində alınan məhsulun kəmiyyət və keyfiyyətinin günün tələblərinə cavab vermədiyini göstərmişdir.

Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev tərəfindən 2015-ci ildə əhalinin meyvəyə olan tələbatını adambaşına 63,2 kq-dan (2002-ci il) 88,5 kq-a çatdırmaq bir vəzifə olaraq qarşıya qoyulmuşdur.

Meyvəçilik sahəsinin kompleks idarə olunması üçün bazar iqtisadiyyatının münasibətlərinə uyğun təkmilləşdirilməsi, iqtisadi səmərəliliyin yüksəldilməsi, ətraf mühitin bərpası və qorunması, meyvəçilik sahəsində regional və beynəlxalq inteqrasiyanın dərinləşdirilməsi, daxili bazarın qorunması və ixrac əhəmiyyətinin dəstəklənməsi, meyvəçiliyin ərazilər üzrə mövcud resursları nəzərə alınmaqla inkişaf etdirilməsi, bağların sort tərkibinin təkmilləşdirilməsi prioritet istiqamətlərdən biridir.

Müstəqil respublikamızın milli iqtisadiyyatının yüksəldilməsində meyvəçiliyin inkişafı daha böyük əhəmiyyət kəsb etmək üzrədir. Ölkə əvvəllər başqa yerlərdən idxal olunan meyvə məhsuluna daxili tələbatı ödəmək zərurəti ilə üzləşirdirsə, hal-hazırda yeni innovasiya yönümlü elmi-tədqiqat işlərinin nəticələrinə əsaslanaraq əhalinin həmin məhsula olan tələbatının ödənilməsi əsas vəzifələrdən biridir. Xüsusən, son illərdə respublikaya mənşəyi məlum olmayan məhsulların (o cümlədən meyvə məhsulunun) gətirilməsi insan orqanizmində müəyyən problemlərin yaranmasına gətirib çıxarmaqdadır. Odur ki, həmin çatışmamazlıqları aradan qaldırmaq üçün uzun illər ölkəmizin torpaq-iqlim şəraitinə adaptasiya olmuş, yüksək genetik xüsusiyyətlərə malik, biotik və abiotik amillərə davamlı, spur tipli, tez məhsula düşən sortların seçilməsi və süni seleksiya yolu ilə yeni, daha səmərəli və davamlı sortların yaradılması, onların bilavasitə kəndli (fermer) təsərrüfatlarında müqayisəli surətdə öyrənilib daha çox uyğun gələnlərinin seçilməsinə, rayonlaşdırılmasına, tingçiliyin təşkil edilməsinə, nəticədə əkin sahələrinin genişləndirilməsinə və sabit meyvə məhsulunun təminatına böyük köməyi olar.

Bu baxımdan 1926-cı ildən başlayaraq respublikamızın müxtəlif ekoloji bölgələrinə mənsub olan tumlu və çəyirdəkli meyvə bitkilərinin genetik ehtiyatları Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun alimlərindən:-P.A.Ryabçenko, P.V.Kuznetsov, Ə.C.Rəcəbli, İ.M.Axundzadə, F.İ.Şıxıyeva, E.M.Maksimova, Z.A.Hidayətli, İ.B.Ərzumanov, R.L.Baxışova, V.M.Əliyev, Ə.N.Sadıqov və başqaları tərəfindən öyrənilərək süni seleksiya yolu ilə almanın - Azərbaycan, Şirvan reneti, Şirvan Tacı, Fəhimə, Quba reneti, Nailə, Təravətli, Payızlıq Quba, Qışlaq Quba, Sona alma, Sevinc, Şabran, Elvin, Nail, Məxməri, Sədəf, Emil, Çıraqqala, Zümrüd və s.; armudun - Lətifə, Əntiqə, Azərbaycan, Bağban, Elşən, Ərzuman, Alyanaq, Ətirli, Şərqiyyə, Azad, Yadigar, Ayşən, Rövşən, Oxşar, Gülşən və s.; gilasın - Raya, Azəri; alçanın - Rəcəbli-1, Rəcəbli-2; şaftalının - Malik, Fədai, Məhsəti, Oktyabr sortlarını əldə etmişlər [10, s.65-67]. Həmin sortların ata və ana valideyn cütləri tarixən respublikamızın torpaq-iqlim şəraitinə adaptasiya olunduğundan, introduksiya edilmiş sortlara nisbətən kəmiyyət və keyfiyyət göstəriciləri təxminən 10-12% yüksəkdir. Eyni zamanda hibridləşdirmə yolu ilə əldə edilmiş göstərilən sortlar yüksək genetik xüsusiyyətlərə malik olduqları üçün ekologiyanın təmizliyinin qorunub saxlanılmasında böyük əhəmiyyətə malikdirlər. Odur ki, bu müsbət göstərilənləri nəzərə alıb seleksiya yolu ilə əldə edilən rayonlaşdırılmış sortlar Dövlət və kəndli (fermer) təsərrüfatlarının tinglik təsərrüfatlarında kifayət qədər artırılaraq yeni meyvə bağlarının salınmasında istifadə edilməkdədir ki, bu da ölkəmizdə meyvəyə olan tələbatın ödənilməsində və ərzaq təhlükəsizliyinin qorunub saxlanılmasında mühüm rol oynamaqdadır.

ƏDƏBİYYAT

1. Musayev Ə.C. Seleksiya prosesində genefondun istifadəsinin bəzi aspektləri. /I Beynəlxalq Elmi konfrans. Biomüxtəlifliyin Genetik Ehtiyatları, B: Elm, 2006, s.18-19.
2. Hacıyev V.C., Musayev S.H. Azərbaycanın təbii bitkisinin flora müxtəlifliyi və onların qorunması. /I Beynəlxalq Elmi Konfrans. Biomüxtəlifliyin genetik ehtiyatları. B.: Elm, 2006, s.22-24

3. Axundzadə İ.M. Azərbaycanda kol alması. B: «Birləşmiş» nəşriyyat, 1950, 24 s.
4. Nərimanov Ə.S. Azərbaycanda meyvəçiliyin müasir tarixi vəziyyəti və gələcək inkişafı. Azərb. ETÜ və SBİ-nun əsərləri, I-IV. B., 1961, s.3-8
5. Məmmədov Q.Ş., Xəlilov M.Y. Ekologiya və ətraf mühitin mühafizəsi. B. «Elm», 2005, s. 503-543
6. Məmmədov M.S., Əsədov K.S., Məmmədov F.M. Dendrologiya. (Azərbaycan Ensiklopediyası) NPB, B.: 2000, 69 s.
7. Nərimanov Ə.S. Azərbaycanda meyvəçiliyin inkişafı haqqında. (Meyvəçiliyin kitabxanası). B: «ADN», 1966, 30 s.
8. Baxışova R.L., Sadıqov Ə.N., Ərzumanov İ.B. və b. Quba-Xaçmaz bölgəsində yayılmış meyvə sortları. Azərb. Aqrar Elmi, № 1-2. B.: 1990, s.47-49
9. Sadıqov Ə.N. Azərbaycan Respublikasının Quba-Xaçmaz bölgəsində alma bitkisinin sortlarının öyrənilməsi və seleksiyası. Avtoreferat. a.e.ü.e.d. B. 2015. 49 s.
10. Sadıqov Ə.N. Azərbaycanda alma bitkisinin biomüxtəlifliyi və onların seleksiya proqramında qiymətləndirilməsi. Azərb. Aqrar Elmi, № 4, 2017, s.65-67.

Аладдин Немат оглы Садыгов
доктор сельскохозяйственных наук, менеджер отдела

Значимость плодовых сортов полученных селекционным путем в обеспечении продовольственной безопастности

Резюме

В статье показана значимость в обеспечении продовольственной безопасности республики полученных учеными МСХА НИИ плодоводства и чаеводства путем искусственной селекции сортов яблони - Азербайджан, Губа, Ренет Ширванский, Ширван Таджи, Фахиме, Ренет Губинский, Наиля, Тараватли, Губинское осеннее, Губинское зимнее, Сона алма, Севидж, Шабран, Эльвин, Наиль, Мехмери, Седеф, Емиль, Чыраггала, Зумруд и др.; груши - Латифа, Антига, Азербайджан, Багбан, Эльшан, Арзуман, Алйанаг, Атирли, Шаргия, Ядигар, Айшан, Ровшан, Охшар, Гюльшан и др.; черешни - Рая, Азери; алычи - Раджабли-1, Раджабли-2; персика - Малик, Федаи, Мехсети и Октябрь.

Ключевые слова: генофонд, селекция, плодовые сорта, Азербайджан.

Aladdin Nemet Sadikhov
doctor of agricultural sciences, branch manager

The importance of selection fruit varietes in food safety

Summary

The article provides information on the importance of fruit species what were created on artificial selection by the part of scientists of the Azerbaijan Research Institute of Fruit and Tea Growing in ensuring food security in the republic- apple varietes : Azerbaijan, Guba, Shirvan reneti, Shirvan Taci, Fahimah, Guba Reneti, Naila, Taravatli, Payızlıg Guba, Gıshlıg Guba, Sona alma, Sevinj, Shabran, Elvin, Nail, Makhmari, Sadaf, Emil, Chiragqala, Zumrud etc., pear varietes : Latifa, Antiga, Azerbaijan, Bagban, Elshan, Erzuman, Alyanak, Atirli, Shargiyya, Yadigar, Ayshen, Rovshan, Oxşar, Gulshen etc., cherry varietes: Raya, Azeri; cherry-plum varietes: Rajabli-1, Rajabli-2; peach varietes: Malik, Fadayi, Mahsati, Oktyabr .

Key words: genefond, selection, fruit varieties, Azerbaijan.

Elmar İlham oğlu ALLAHVERDİYEV
dissertant, Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu

QİDALANMA SAHƏSİ VƏ BİTKİ SIXLIĞININ POMİDORUN MƏHSULDARLIĞINA TƏSİRİ

Xülasə

Abşeron yarımadası şəraitində pomidorun məhsuldarlığına qida sahəsi və bitkilərin sıxlaşdırılmasının təsiri öyrənilmişdir. Təcrübələr bircərgəli və ikicərgəli lent üsullarında aparılmışdır. Müəyyən edilmişdir ki, pomidorun Leyla və Zərrabi sortları ilə hər iki üsulla becərildikdə qida sahələri böyüdükcə bir meyvənin kütləsi, bir bitkidən alınan məhsul artır, bir hektardan alınan məhsul isə azalır. Hər iki sort üzrə 70x30-40 və 90+50x30-40 sm sxemlərindən daha yüksək pomidor məhsulu alınmışdır.

Açar sözlər: pomidor, qida sahəsi, meyvənin kütləsi, məhsuldarlıq, əmtəəlik və qeyri-əmtəəlik məhsul.

***

Azərbaycanda becərilən tərəvəz bitkiləri arasında ən mühüm yerlərdən birini pomidor tutur. Belə vacib bitkinin məhsuldarlığının yüksəldilməsi, keyfiyyətinin yaxşılaşdırılması qarşıda duran ən vacib məsələlərdən biridir. Buna yüksək məhsuldar sortların və hibridlərin düzgün aqrotexniki şəraitdə əkilib becərilməsi yolu ilə nail olmaq olar.

Məlumdur ki, tərəvəz bitkilərindən yüksək məhsul yalnız yüksək aqrotexniki qulluq göstərməklə alınır. Bu qulluqlardan birini əkin sahəsinin - hektarın tamlığı, tarlada lazımi sayda bitkilərin yerləşdirilməsi təşkil edir. Bitkilərin qidalanma sahəsinə, yerləşdirmə sıxlığına düzgün riayət etməklə yüksək məhsul almaq olar.

Pomidor bitkisinin də digər tərəvəz bitkiləri kimi onu torpaqdakı rütubət, qida maddələri, hava və günəş süaları ilə təmin edən müəyyən qida sahəsinə ehtiyacı vardır. Müxtəlif torpaq-iqlim şəraitləri və becərmə üsulları pomidordan yüksək məhsul almaq üçün optimal qidalanma sahəsi və bitkilərin yerləşmə formasını tələb edir.

Mənbələrdə bitki sıxlığının və qidalanma sahəsinin pomidorun məhsuldarlığına təsiri məsələsinə dair müxtəlif mülahizələrə rast gəlinməsinə baxmayaraq, bitkilərin məhsulu ilə onların yerləşmə sıxlığı arasında birbaşa əlaqə olduğu qeyd edilir. Müəlliflərin fikrinə görə böyük qida sahəsində pomidor bitkisi yüksək məhsuldarlığa malik daha güclü fotosintez aparatı yaradır. Buna görə də böyük qida sahəsində kiçik qida sahəsinə nisbətən bitkinin vegetasiya və generativ orqanlarının daha artıq kütləsi yaranır. Amma, qida sahəsi azaldıqca, başqa sözlə, bitkilərin yerləşmə sıxlığı artdıqca, vahid əkin sahəsində yaş və quru kütlənin miqdarı yüksəlir, müvafiq olaraq məhsuldarlıq da artır [2, 3, 5].

Məlumdur ki, Abşeron yarımadası şəhərətrafı tərəvəzçilik zonası olaraq pomidor bitkisinin əkilib becərilməsi üçün əlverişli torpaq-iqlim şəraitinə malikdir. Burada həm yaz, həm də yaypayız mövsümlərində günəşli günlərin çoxluğuna və suvarma suyunun olmasına görə ilin çox hissəsində açıq sahədə pomidor yetişdirmək olar.

Ona görə də bu bitkinin becərilməsi texnologiyasının - sortların seçilməsi, becərmə üsul və metodlarının işlənib hazırlanması həmişə aktuallıq kəsb edir. Bu məqsədlə 2015-2017-ci illərdə Tərəvəzçilik ET İnstitutunun təcrübə sahələrində pomidorun institutun seleksiyasının məhsulu olan Leyla və Zərrabi sortlarının məhsuldarlığına qida sahəsi və bitkilərin yerləşdirilməsi sıxlığının təsiri öyrənilmişdir.

Bunun üçün toxumların səpini 10-20 martda aparılmış, hazır şitillər 1-5 mayda 70 x 30-60 sm və 90+50x30-60 sm olmaqla 8 əkin sxemində - qida sahəsində açıq sahəyə əkilmişdir.

Təcrübələr 3 təkrarda qoyulmuş, hər variantın sahəsi 6,3 m^2 təşkil etmişdir. Tarlada müvafiq aqrotexniki qulluqlar (suvarma, yemləmə, bitkilərin dibinin yumşaldılması, doldurulması, alaqların məhv edilməsi) yerinə yetirilmişdir [4, səh. 51, 53, 70].

Bitkilər üzərində fenoloji müşahidələr aparılmış, texniki yetişmiş pomidor meyvələr toplanmışdır. Hər bir variantın məhsulu yığılıb, çəkilmiş, ümumi, əmtəəlik, qeyri-əmtəəlik məhsul,

həmçinin bir meyvənin orta kütləsi müəyyən edilmişdir. Alınan nəticələr cədvəldə göstərilmişdir.

Alınan təcrübi göstəricilərin təhlilindən aydın olur ki, Leyla və Zərrabi pomidor sortları müxtəlif qida sahələri və yerləşmə sıxlıqlarında yüksək məhsul verirlər və məhsuldarlıq hər hektardan 428-634 sentner arasında dəyişilir. Müəyyən edilmişdir ki, qida sahələri böyüdükcə, torpaq-hava qidalanması yaxşı olduqca daha iri meyvələr əmələ gəlir, meyvənin orta kütləsi artır. Belə ki, Leyla sortunda 70x30 sm sxemində bu göstərici 107 q təşkil etdiyi halda, 70x60sm-də 157 q olmuşdur ki, artım 1,5 dəfəyə bərabərdir. Lentşəkilli əkinlərdə də eyni nəticələr əldə olunmuş, qida sahələrində kiçik qida sahələrinə nisbətən iri meyvələr əmələ gəlmişdir.

Zərrabi sortunda da eyni nəticələr qeyd edilmişdir - kiçik qida sahələrində nisbətən xırda (110-120 qramlıq meyvələr), böyük qida sahələrində isə iri (140-150 qramlıq) meyvələr əmələ gəlmişdir.

Həmçinin qeyd etmək lazımdır ki, hər iki sort üzrə qida sahələri böyüdükcə bir bitkidən alınan məhsulun miqdarı da artmışdır. Bizim təcrübələrimizdə bu göstəricilər Leyla sortunda bircərgəli becərmə üsulunda 1284 qramdan 1884 qramadək, lent üsulunda isə 1236 qramdan 1908 qramadək artmışdır. Zərrabi sortunda isə bu göstəricilər müvafiq olaraq 1332-1800 q və 1320-1836 q təşkil etmişdir.

Müəyyənləşdirildi ki, təcrübələrimizdə pomidorun Leyla və Zərrabi sortlarının məhsuldarlığı qida sahələri böyüdükcə azalmışdır. Belə ki, hər iki sort üzrə və hər iki əkin üsulunda 70x30 sm və 90+50x30 sm sxemlərində hektarın məhsuldarlığı 588-611 və 628-634 sentner təşkil etdiyi halda, 70x60sm və 90+50x60 sm qida sahələrində bu göstəricilər 448-454 sentner və 428-437 sentner olmuşdur. Kiçik qida sahələrindən alınan pomidor məhsulu böyük qida sahələrinə, başqa sözlə, az bitki sıxlığına nisbətən 1,5 dəfə çox olmuşdur. Hektarın məhsuldarlığının aşağı düşməsi hektarda olan bitkilərin sayının 2 dəfəyə qədər azalması ilə əlaqədardır (cədvəl).

Qida sahəsinin və bitki sıxlığının pomidorun məhsuldarlığına təsiri

Əkin sxemləri, sm	1 ha-da bitkilərin sayı	1 meyvənin orta kütləsi, q	1 bitkidən alınan məhsul, q	məhsuldarlıq				
				ümumi, sen/ha	əmtəəlik		qeyri-əmtəəlik	
					sen/ha	%	sen/ha	%
LEYLA sortu								
70 x 30	47620	107	1284	611,44	532,41	87,07	79,03	12,93
70 x 40	35714	117	1404	501,42	460,12	91,76	41,30	8,24
70 x 50	28571	140	1680	479,99	442,86	92,26	37,13	7,74
70 x 60	23810	157	1884	448,58	423,47	94,40	25,11	5,60
90+50x30	47620	103	1236	588,58	518,65	88,10	69,93	11,90
90+50x40	35714	120	1440	514,28	471,55	91,69	42,73	8,31
90+50x50	28571	126	1512	431,99	397,59	92,04	34,40	7,96
90+50x60	23810	159	1908	454,29	424,22	93,38	30,07	6,62
ZƏRRABİ sortu								
70 x 30	47620	111	1332	634,29	573,06	90,34	61,23	9,66
70 x 40	35714	120	1440	514,28	480,30	93,39	33,98	6,61
70 x 50	28571	130	1560	445,70	419,20	94,05	26,50	5,95
70 x 60	23810	150	1800	428,58	409,11	95,45	19,47	4,55
90+50x30	47620	110	1320	628,58	563,58	89,66	65,00	10,34
90+50x40	35714	119	1428	509,99	460,31	90,26	49,68	9,74
90+50x50	28571	141	1692	483,42	451,80	93,46	31,62	6,54
90+50x60	23810	153	1836	437,15	409,15	93,59	28,00	6,41

Təhlillər göstərmişdir ki, qida sahələri böyüdükcə əmtəəlik məhsulun faizi yüksəlmişdir. Belə ki, kiçik qida sahələrində əmtəəlik məhsul hər iki sortda 87-90% təşkil etmişdir. Qida sahəsi böyüdükcə isə bu göstəricilər 4-7%-ədək artmışdır.

Qeyd etmək lazımdır ki, bitkilərin sıxlığının artırılması, başqa sözlə, qida saəsinin azaldılması zamanı bitkilər zəif inkişaf edir, vahid əkin sahəsində az assimilyasiya səthi əmələ gətirir. Meyvələr xırda olur, məhsul və onun yetişməsi tezləşir. Sıxlaşdırmanın müəyyən həddi nəticəsində ümumi məhsuldarlıq aşağı düşür, məhsulun keyfiyyəti pisləşir. Bizim təcrübələrimizdə hər iki sort üzrə sıxlaşdırmanın bitki aralarının 30-40 sm aparıldığı variantlardan ən yüksək ümumi və əmtəəlik pomidor məhsulu alınmışdır.

ƏDƏBİYYAT

1. Abbasov R.Ə. Bəzi tərəvəz bitkilərinin məhsuldarlığına əkin sxemlərinin, bitki sıxlığının və sortların təsiri. "Tərəvəzçiliyin inkişaf etdirilməsində elmin mütərəqqi rolu". (AzET Tərəvəzçilik İnstitutunun elmi əsərlərinin tematik məcmuəsi). Bakı, «Qanun» 2008, s.220-225.
2. Abbasov R.Ə. Pomidor bitkisinin cərgəaralarının becərilməsi. "Azərbaycanda tərəvəzçilik, bostançılıq və kartofçuluq, inkişaf tarixi və ərzaq təminatında yeri". (AzET Tərəvəzçilik İnstitutunun elmi əsərlərinin tematik məcmuəsi). XIV cild, Bakı-2011, s.245-255.
3. Ахмедова П.М. Площадь листовой поверхности и продуктивность фотосинтеза у скороспелых сортов томата. ж. «Овощи России», 4(21), 2013, с.54-57.
4. Литвинов С.С. Методика полевого опыта в овощеводстве. М. 2011. 650 с.
5. Тарканов Г.И., Михин В.Д., Шуин К.А. Овощеводство, М. Колос, 2002, 472 с.

Эльмар Илхам оглы Аллахвердиев
Научно-Исследовательский Институт Овощеводства

Влияние площади питания и густоты стояния растений на урожайность томата

Резюме

Изучено влияние площади питания и густоты стояния растений на урожайность томата в условиях Апшеронского полуострова. Опыты проводились одно рядковыми и двухрядково-ленточными способами. Установлено, что при выращивании сортов томата Лейла и Зарраби в указанные сроки с повышением площади питания повышается масса плода, урожай с одного растения, уменьшается урожай с гектара. От схем посадки 70х30-40 и 90+50х30-40 см по обоим сортам получены самые высокие урожаи.

Ключевые слова: томат, площадь питания, масса плода, урожайность, товарный и нетоварный урожай.

Elmar Ilham Allahverdiyev
candidate for a degree
Vegetable Scientific-Research Institute

The impact of spacing and plant population on the productivity of tomato

Summary

The impact of spacing and high-density plantings on the productivity of tomato has been studied on conditions of Absheron peninsula. Experiments have been carried out in the ways of single-row and double-row spacings. It has been defined that the larger spacings are getting, the more the weight of a fruit and harvest from a plant are increasing, and the lower the yield from a hectare is decreasing if the varieties of Leila and Zarrabi are cultivated in each of the two ways. Much more tomato harvest has been produced in the spacings of 70x30-40 and 90+50x30-40 cm for each of the two varieties.

Key words: tomato, spacing, weight of a fruit, productivity, commercial and no-commercial harvest.

Ələvsət Həsən oğlu SADIXOV,
aparıcı elmi işçi, b.e.f.d
Bitki Mühafizə və Texniki Bitkilər
Elmi-Tədqiqat İnstitutu

PERSPEKTİVLİ SELEKSİYA TUT FORMALARININ BƏZİ KƏMİYYƏT GÖSTƏRİCİLƏRİ

Xülasə

2011-2015-ci illərdə 2-ci seleksiya tingliyində tədqiqatlar aparılmış, müxtəlif mənşəli 214 forma üzərində böyümə və inkişaf fazalarının başvermə vaxtları öyrənilmiş və 5-ci yarpağın əmələ gəlməsinə görə tezyetişən, orta və gecyetişən formalar aşkar edilmiş, tumurcuqların açmasından 5-ci yarpağın əmələ gəlməsinə qədər fenointervallar müəyyən edilmişdir. Vizual müşahidələrə əsasən daha qiymətli 10 forma seçilmiş və onlar üzərində yarpaq məhsuldarlığının struktur elementləri öyrənilmişdir.Yarpaq məhsuldarlığına görə (87,21-168,21 s/ha arasında) 7forma fərqlənmişdir ki, onlar da institut sortsınağına məsləhət görülür.

Açar sözlər: tut, seleksiya, forma, sort, fenoloji müşahidə, yarpaq məhsuldarlığının struktur elementləri.

***

Azərbaycan ipəkçiliyi qədim tarixə və şanlı ənənələrə malikdir.1991-ci ildə respublikamızda 5996 ton barama tədarük edilmişdir. Hal-hazırda respublikada ipəkçiliyin bərpası və inkişafı üçün mühüm işlər görülür. Belə ki, 2016-cı ildə respublikamızda 71 ton, 2017-ci ildə 245 ton barama istehsal edilmiş və 2025-ci ildə 6000 ton barama tədarükü nəzərdə tutulur və hələlik tut tingləri Çindən satın alınır, fermerlərə pulsuz paylanır. Təbii ki, qarşıda qoyulan məqsədə çatmaq üçün yerli, yüksək məhsuldar sort, forma və hibridlərdən istifadə etməklə yem bazasını genişləndirmək tələb olunur.

Azərbaycanda tutun planlı seleksiya işlərinin aparıldığı son 80 ildə yüzlərlə qiymətli yemlik tut formaları, sortları yaradılmış və Dövlət sort sınağına təqdim edilmişdir. Bu sınaq işlərinin nəticəsində 10 yeni seleksiya tut sortları geniş rayonlaşdırma üçün təsdiq edilmiş və respublikada ipəkçiliyin yem bazasının yaradılmasında müstəsna rol oynamışlar. Sort yaratma işi fasiləsiz davam etdirilmiş, 2011-ci ildə yeni yaradılmış Şəmkir-tut və Teymur-tut sortları Dövlət sort sınaq komissiyasına qəbul edilmiş, 2015-ci ildə isə Ofelya-tut, Yasəmən-tut sortları Dövlət sortsınağına təqdim üçün tövsiyə edilmişlər [2, səh. 20-23].

Bu işlərlə yanaşı 2011-2015-ci illərdə Faxralı bazasında 2-ci seleksiya pitomnikində (tinglik) tədqiqatlar davam etdirilmiş və yeni sorta namizəd formalar seçilmişdir. Məlumdur ki, böyümə və inkişaf xüsusiyyətlərinin öyrənilməsi müxtəlif istiqamətlərdə daha qiymətli formaların seçilməsinə imkan verir. Belə ki, yalnız bütün fenoloji əlamətlərin məcmusu zəruri informasiya verir. Fenoloji əlamətlərin fonotarixləri və fenointervalları əhatə edən sistemi və onların dinamikası xarici mühitin dəyişən şəraitinə orqanizmlərin cavab reaksiyası kimi qiymətləndirilir (l,5,6). Yeni sortlar yaratmaq üçün sərbəst və istiqamətli tozlanmadan toxumlar toplanmış, seleksiya səpini aparılmış, toxmacar və ting mərhələsində qiymətləndirmədən sonra elit bitkilər seçilmiş və seleksiya tingliyinə keçirilmişdir və orada daha ətraflı tədqiqatlar aparılmışdır [2, səh. 42-46, 3, 4, 5, səh. 56]. Beləliklə də 2011-ci ildə 214 forma üzərində fenomüşahidələr aparılmış, böyümə və inkişafın mümkün fazaları, eləcə də 3-cü və 5-ci yarpağa görə fenointerval öyrənilmişdir. Öyrənilən formalara 5-ci yarpağın əmələ gəlməsi tarixinə görə qiymət verilmiş və faraş, orta və gecyetişən formalar müəyyən edilmişdir. Bundan sonra hər üç qrupdan cəmi 25 forma seçilmiş və sonrakı illərdə müşahidələr onların üzərində davam etdirilmişdir. Məlum olmuşdur ki, formalarda 5-ci yarpağın əmələ gəlməsi, yazı nisbətən sərin keçən 2011-ci ildə 3-14 may, mülayim keçən 2012-ci ildə 12-30 aprel və 2013-cü ildə 20-28 aprel arasında müşahidə edilir. Formalarda 5-ci yarpağa görə fenointerval, yəni tumurcuqların açmasından 5-ci yarpağın əmələ gəlməsinə qədər keçən vaxt illər üzrə uyğun olaraq 22-37, 10-20 və 19-31 gün arasında dəyişmişdir ki, bu da eyni ildə, əsasən eyni şəraitdə formalarda böyümə prosesinin intensivliyi-

ni, fotosintezin fəallığını və s.qiymətləndirməyə imkan verir. Bu formaların içərisindən vizual müşahidələr əsasında diqqəti cəlb edən 10 forma seçilmiş və onlarda yarpaq məhsuldarlığının struktur elementləri öyrənilmiş, nəticələr üç ildən orta hesabla cədvəldə verilmişdir. Göründüyü kimi, seçilmiş formalarda məhsuldar zoğların qiyməti 58,42-83,97% arasında dəyişmişdir. Hər il budanan formalarda çətirin illik artımı 13,20-26,84 m/ağac arasında dəyişmiş və bu göstərici ilə yarpaq məhsuldarlığı arasında əsasən düzünə asılılıq müşahidə edilmişdir. Buğumarasının uzunluğu sorta məxsus irsi əlamət olmaqla yeni formalarda 3,39-4,75 sm arasında tərəddüd etmişdir. Birillik budaq üzərində əmələ gələn cari zoğların yarpaqlanması qiymətli seleksiya və təsərrüfat əlamətidir və onun qiyməti yeni formaların boyatan zoğlarında 4,19-10,62 ədəd, boyatmayan zoğlarında isə 1,99-3,62 ədəd arasında dəyişmişdir. Budaqların yarpaqlılığı yeni formalarda l,23-3,63 qr/sm arasında dəyişmiş və məqsədəuyğun seçmə üçün zəmin yaranmışdır. Bir yarpağın kütləsinə görə də seçilmiş formalar arasında ciddi fərqlər olmuş və onun qiyməti boy atan zoğlarda l,57-5,54 qr, boyatmayan zoğlarda isə l,06-2,76 qr arasında dəyişmişdir. Qiymətli seleksiya və təsərrüfat göstəricisi olan yarpaq çıxımı formaların irsi imkanlarından, aqrotexniki xidmətin səviyyəsindən və s. asılı olaraq 53,46-72,73% arasında qiymət almışdır. Bir ağacdan və bir hektardan alınmış yarpaq məhsuldarlığı da öyrənilmişdir.

Seçilmiş formaların yarpaq məhsuldarlığının əsas struktur elementləri (3 ildən orta)

№	Formaların adı	Məhsuldar zoğlar, %-lə	Çətirin illik artımı, m/ağac	Buğum arasının uzunluğu, sm	Zoğların yarpaqlanması, ədəd		Budağın yarpaqlılığı, qr/sm	Bir yarpağın kütləsi, qr		Yarpaq çıxımı, %-lə	Yarpaq məhsuldarlığı	
					Boyatan zoğlarda	Boyatma yan zoğlarda		Boyatan zoğlarda	Boyatma yan zoğlarda		Kq/ağac	s/ha
1	SP2-47/29	64,21	17,94	3,69	8,35	2,39	1,71	3,87	2,29	65,57	2,60	86,77
2	SP2-47/37	82,73	15,60	3,39	7,84	3,62	2,06	2,34	1,38	59,50	2,62	87,33
3	SP2-47/39	80,50	13,20	4,75	9,00	3,07	1,45	3,31	1,50	72,04	1,83	60,99
4	SP2-47/66	65,29	14,24	3,80	9,01	2,69	2,05	4,49	2,06	66,29	2,46	82,10
5	SP2-47/72	58,42	15,88	3,79	10,16	2,94	1,90	4,50	2,19	65,39	2,62	87,21
6	SP2-48/73	63,36	22,14	3,70	7,88	1,99	1,78	5,54	2,71	60,28	3,41	113,55
7	SP2-48/81	68,83	16,95	4,22	10,62	2,01	1,83	5,30	2,72	57,97	2,63	87,46
8	SP2-49/39	79,17	14,40	3,75	4,19	3,54	1,23	1,57	1,06	53,48	1,77	58,99
9	SP2-49/59	83,97	12,68	3,74	9,29	3,03	3,63	5,38	2,76	72,73	3,93	130,90
10	SP2-49/68	69,12	26,84	3,61	7,88	3,16	2,31	4,09	2,42	64,88	5,05	168,21
11	X	71,56	16,99	3,81	9,26	2,84	1,99	4,04	2,11	63,81	2,89	96,35

Cədvəldən göründüyü kimi, yeni formalarda yarpaq məhsulu bir ağacdan l,77-5,05kq, bir hadan isə 3:l m əkin sıxlığında 58-99-168,21 s, arasında dəyişmişdir. Bu göstəriciyə görə Sp2-47/29, Sp2-47/37, Sp2-47/72, Sp2-48/73, Sp2-48/81, Sp2-49/59 və Sp2-49/68 formaları daha yaxşı fərqlənmişlər və Faxralı bazasında növbəti XI seriya sort sınaq plantasiyasının salınmasında istifadə üçün tövsiyə edilmişlər.

ƏDƏBİYYAT

l. Sadıxov Ə.H. Müxtəlif tut sortlarında fenoloji fazaların gedişinə havanın temperaturunun təsirinin öyrənilməsi. Azərbaycan Aqrar Elmi, №2, 2016, s. 66-69.

2. Sadıxov Ə.H., Ələkbərova O.R. Azərbaycanın Yemlik Seleksiya tut sortları. Gəncə, 2008, 293 səh.

3. Sadıxov Ə.H., Ələkbərova O.R., Məhərrəmova V.İ. Müsabiqəli İnstitut sınağı üçün seçilmiş tut formalarının bioloji və təsərrüfat xüsusiyyətləri. AZETİİ-nin elmi əsərlər məcmuəsi, XVI cild, Gəncə, 2004, s.78-88.
4. Sadıxov Ə.H., Məhərəmova V.İ. Yeni yaradılmış perspektivli tut formalarının bioloji və təsərrüfat xüsusiyyətləri. Azərbaycan Aqrar Elmi, №4-5,2008, s. 44-45.
5. Sadıxov Ə.H., Poladov F.C. Yeni tut sortlarında yarpaq məhsuldarlığı struktur elementlərinin öyrənilməsi. ADAU, №l, 2016, s.55-58.
6. Щпаков А.В., Волчков Е.А. Фенологический тип растений как предмет генетических исследований. «Генетика», Т 27,1991, стр. 1379-1387.

Аловсат Гасан оглы Садыхов
Научно-Иследовательский Институт Защиты
Растений и Технических Культур

Некоторые количественные показатели перспективных селекционных форм щелковицы

Резюме

В 2011-2015 гг проводились исследования во 2-ом селекционном питомнике изучались даты прохождения фаз роста и развития 214 форм различного происхождения и выявлены ранние, средние и поздние формы по образованию 5-го листа, установлены феноинтервалы от распускания почек до образования 5-го листа. На основании визуальных наблюдений отобраны более ценные 10 форм на которых изучались структурные элементы урожайности листа. По урожаю листа (от 87-21 до 168-21 ц/га) отличались 7 форм, которые рекомендуются к институтскому испытанию.

Ключевые слова: шелковица, селекция, форма, сорт, фенологические наблюдение, структурные элементы урожайности.

Alovsat Hasan Sadıkhov
Plant Protection and Technical
Crops Scientific Research Institute

Some quantities indicators of perspective selection mulberry form

Summary

In 2011-2015 years carry out research on 2-nd selection nursery, study date passing phase growth and development the 214 form different origin and exposure early, middle and lates form the formation the 5-th leafs, established phenointerval form bloming bud to formation the 5-th leafs.On base vizual observation selected more valuable 10 forms on which the study of structural elements of yield leaf. For a yield leaf (from 87,21 to 168,21 cent/hect) differed 7 form, which recommend to the institute testing.

Key words: mulberry, selection, form, variety, phenological observation, structural elements of yield.

Elsevər Baba oğlu FƏRZƏLİYEV
texnika elmləri namizədi, dosent
Azərbaycan Dövlət İqtisad Universiteti

MÜASİR AZƏRBAYCANDA QİDA SƏNAYESİNİN İNKİŞAFI: PROBLEMLƏR VƏ İMKANLAR

Xülasə

Məqalədə Azərbaycan Respublikasında müasir zamanda qida sənayesinin vəziyyəti araşdırılmış, mövcud problemlər və onların aradan qaldırılma imkanları göstərilmişdir. Eyni zamanda bitki və heyvan mənşəli "EKO", "BİO" və "Organic" məhsullar istehsalını təmin edən şərtlər göstərilmişdir.

Açar sözlər: Qida təhlükəsizliyi. "Bio" məhsullar; "Eko" məhsullar; "Organic" məhsullar.

***

Məlumdur ki, qidalanma - insanların həyat fəaliyyətində ən vacib sayılan və olduqca mühüm əhəmiyyət kəsb edən amillərdən biridir. Məhz bu baxımdan, qida məhsulları istehsalı zamanı istifadə edilən xammalların hansı şəraitlərdə yetişdirilməsi məsələsi olduqca önəmlidir, belə ki, orqanizmimizin sonrakı inkişafı qismən bu amildən asılıdır.

Azərbaycanda torpağın münbitliyi və ərazimizin doqquz iqlim qurşağında yerləşməsi ölkəmizin hərtərəfli inkişafına müsbət təsir göstərir. Respublikamızın belə münbit, əlverişli və təminatlı coğrafi qurşaqda yerləşməsi, istər turizm sektorunun inkişafı baxımından, istərsə də daxili potensial baxımından onun güclü olmasına zəmin yaradır.

Azərbaycanda qida sənayesinin bugünkü vəziyyətindən danışdıqda, bəzi sektorların işinin ürəkaçan olmasına baxmayaraq, bir çox sektorlar da mövcuddur ki, onların işi heç də xoşagələn deyil və onlar, qüvvədə olan yerli və Beynəlxalq Standartların tələblərinə cavab verən qida məhsulları istehsal etmir.

Bu gün ölkəmizin dünyaya inteqrasiya etdiyi, beynəlxalq və dünya miqyaslı tədbirlərə ev sahibliyi etdiyi və eləcə də milyonlarla ölçülən çoxsaylı turistlərin vətənimizə ayaq açdığı bir zamanda, təbiətimizin, görməli, gəzməli və tarixi yerlərimizin nə qədər böyük önəm kəsb etməsi ilə yanaşı, istifadə edilən qida məhsullarının yüksək keyfiyyətli və təhlükəsiz olması da bir o qədər vacib əhəmiyyətə malikdir.

Hazırda qida məhsulları insanlara kompleks şəkildə təqdim olunan obyektlərdə bir çox həlli vacib sayılan problemlər mövcuddur. Qida məhsullarının kompleks istifadəsi dedikdə qənnadı məmulatları (tort, kurabiyə, keks, noğul, nabat, iris, halva, marmelad, mürəbbə, cem, şokolad, povidlo və s.), ət məhsulları (kolbasa, sosis, sardelka və s.), baliq məhsulları (kürü, balıq yağı və s.), süd məhsulları (yağ, pendir, kəsmik, qatıq, ayran və s.) çörək-kökə və makaron məmulatları, meyvə-tərəvəz məhsulları (təzə-tər meyvə-tərəvəz, kompot, turşu və s.) və bu kimi digər məhsulların müxtəlif çeşidlərinin eyni bir istehlakçıya eyni bir zamanda təqdim edilməsi hesab olunur. Belə təqdim olunma insanların daha çox axın etdiyi müəssisələrdə - ictimai iaşə müəssisələrində - restoranlarda, hotellərdə, qış-yay turizm obyektlərindəki kafelərdə daha intensiv şəkildə baş verir.

Kütləvi istirahət və qidalanma məkanlarında xidmət personalından yerinə yetirilməsi tələb olunan birinci dərəcəli göstərici, onların sanitar-gigiyenik qaydalara əməl etməsidir. Ümumiyyətlə, qida məhsulları istehsalı və istehlakı sahəsi olduqca yüksək təmizlik tələb edir. Təmiz yuyulmamış xammal və yardımçı materiallardan istifadə etdikdə və eləcə də istifadə edilən texnoloji avadanlıqlar qüvvədə olan sanitar-gigiyenik tələblərə cavab vermədikdə, mikroorqanizmlərin inkişafı və çoxalması üçün əlverişli mühit yaranır və istehsal edilən qida məhsulunun keyfiyyəti aşağı düşür, təhlükəsizliyinə zəmanət vermək mümkün olmur. Bu isə qidalanma zamanı müxtəlif qida zəhərlənmələrinin baş verməsinə, müxtəlif infeksion xəstəliklərin əmələ gəlməsinə səbəb olmaqla yanaşı, insan orqanizmi üçün yararsız məhsul istehsalına və nəticə etibarilə məhsul itkisinə gətirib çıxarır [2, səh. 3-6].

Çoxsaylı mənbələrdə verilən məlumatlara istinadən söyləmək olar ki, bu gün bütün kənd təsərrüfatı məhsullarının genlərinə təsir göstərilmişdir və hazırda "Genetik Modifikasiya olunmuş Orqanizm"lər (GMO) istehsal edilir. Son zamanlaradək bu tip məhsullar istehsalı müsbət qarşılanırdı və bu Dünya ölkələrində ərzaq çatışmazlığının qarşısının alınmasında mühüm rol oynayırdı. Lakin son illərin elmi-texniki inkişafı GMO-ların insan orqanizminə göstərdiyi mənfi təsirləri araşdırmış və sübut etmişdir [3, səh. 5-7]. Ona görə də belə məhsulların qida rasionuna daxil edilməsi yolverilməz hesab olunur.

İnsan sağlamlığına zərər verməyən, yəni təhlükəsiz qida məhsullarını necə müəyyən etmək olar? Təhlükəsizlik şərtlərini təmin edən tələb və normalar kim tərəfindən müəyyən edilir?

Bunun üçün son zamanlar əksər Avropa ölkələrində tətbiq edilən sertifikatlaşdırma sisteminin irəli sürdüyü tələblərə diqqət yetirmək və onları yerinə yetirmək kifayətdir. Bu tələblərə müvafiq olaraq istehsal edilən məhsullar "EKO", "BİO" və ya "Organic" nişanları ilə buraxılır.

"EKO", "BİO" və ya "Organic" nişanlarının müxtəlif cür yazılmasına baxmayaraq, onların hər üçü eyni mahiyyət kəsb edir. "EKO", "BİO" və ya "Organic" nişanları elə qida məhsullarına təqdim olunur ki, onlar Avropa İttifaqının ekoloji torpaq standartına və ekoloji istehsal tələblərinə uyğun olaraq hazırlansın.

Azərbaycanda "EKO", "BİO" və "Organic" nişanlarına layiq görülən qida məhsulları istehsalını həyata keçirmək üçün ilk öncə "Ekoloji təmiz kənd təsərrüfatı" sisteminin yaradılmasına ehtiyac duyulur ki, bunun üçün də hər cür şərait mövcuddur (1, maddə 1.1 və 1.2).

"EKO", "BİO" və ya "Organic" nişanlarına müvafiq bitki mənşəli xammalların yetişdirilməsi zamanı "Genetik modifikasiya olunmuş" toxumlardan, sintetik (mineral) gübrələrdən, herbisidlərdən, fungisidlərdən və insektisidlərdən istifadə edilməsinə icazə verilmir (1, maddə 1.1 və 1.2).

Genetik modifikasiya olunmamış toxumlardan, quş zılı, peyin və bu kimi digər təbii gübrələrdən istifadə olunması, alaq otlarının mexaniki üsullarla təmizlənməsi, zərərvericilərlə mübarizənin quşlardan istifadə etməklə həyata keçirilməsi, ultrasəslə, tələlərlə, antaqonist bitkilərlə aparılması uyğun fərqlənmə nişanına müvafiq məhsul istehsalına zəmin yaradır.

Eyni qayda ilə, "EKO", "BİO" və ya "Organic" nişanlarına müvafiq heyvan mənşəli məhsullar istehsalı üçün xammalların yetişdirilməsi zamanı heyvanların süni yemlərlə, sümük unu ilə, "GMO"-lardan alınan yemlərlə qidalandırılmasına, antibiotiklərlə müalicə olunmasına, boy hormonlarından istifadə olunmasına, quşların, dovşanların, donuzların və digər heyvanların qəfəslərdə hərəkətsiz, balıqların isə xüsusi torlarda saxlanmasına icazə verilmir.

Eyni cinsdən olan heyvanların bir yerdə saxlanmasına, hər heyvan növü üçün təbii yemlərdən istifadə olunmasına, fitoterepevtik üsullarla (bitkilərlə) müalicə olunmasına, təzə yem və suyun verilməsinə, ən azı üç il ərzində heç bir sintetik gübrənin verilmədiyi otlaqlardan istifadəyə, əlverişsiz iqlim şəraitlərindən qorumaqla gündəlik normal hərəkətin təmin edilməsinə riayət olunmaqla qeyd edilən nişanlara müvafiq heyvan mənşəli məhsul istehsalını həyata keçirmək mümkündür.

Hazırda ölkə başçısının müvafiq Sərəncamı ilə, Respublikamızda qida məhsullarının təhlükəsizliyinə nəzarət edəcək "Qida Təhlükəsizliyi Agentliyi" yaradılmış və yuxarıda qeyd olunan problemlərin aradan qaldırılması bu quruma həvalə olunmuşdur. Bundan sonra həm ölkə əhalisinin və həm də respublikamıza gələn turistlərin sağlamlığını qoruyacaq təhlükəsiz qida məhsulları istehsalı üçün münbit şəraitin yaradılacağını və eləcə də xaricdən ölkəmizə yalnız sağlam və təhlükəsiz qida məhsullarının gətiriləcəyini gözləməyinə dəyər.

ƏDƏBİYYAT

1. «Ekoloji təmiz kənd təsərrüfatı haqqında» Azərbaycan Respublikasının Qanunu.
2. Qurbanov N. H., Omarova E. M. İaşə məhsulları texnologiyasının nəzəri əsasları. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2010. - 547 s.
3. Ермишин А.П. Генетически модифицированные организмы: Мифы и реальность. - Минск.: Тэхналогия, 2004. - 118 с.

Эльсевар Баба оглы Фарзалиев
к.т.н., доцент
Азербайджанский Государственный
Экономический Университет

Положение пищевой промышленности в современном Азербайджане: проблемы и возможности

Резюме

В статье рассматривается состояние пищевой промышленности в Азербайджанской Республике в современности, существующие проблемы и возможности их устранения. В то же время показаны условия производства растительного и животного происхождения продуктов «ЭКО», «БИО» и «Органические».

Ключевые слова: Пищевая безопасность, «Био» продукты, «Еко» продуты, «Органик» продукты.

Elsevar Baba Farzaliyev
ass. professor
Azerbaijan State University of Economics

Situatıion of the food industry in modern Azerbaijan: challenges and opportunities

Summary

The article examines the state of the food industry in the Republic of Azerbaijan in the modern times, existing problems and opportunities for their elimination. At the same time, the conditions for production of plant and animal origin "EKO", "BIO" and "Organic" products are shown.

Key words: Food safety, Bio products, Eco products, Organic products.

Ələmdar Tağı oğlu ƏSGƏROV
biologiya üzrə fəlsəfə doktoru,
elmi işlər üzrə direktor müavini,
Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun
elmi işlər üzrə direktor müavini

AZƏRBAYCANDA SARIMSAQÇILIĞIN İNKİŞAF PERSPEKTİVLƏRİ

Xülasə

Məqalədə sarımsaq bitkisinin həm ərzaq, həm dərman, həm də növbəli əkində seləf bitki kimi əhəmiyyəti açıqlanır, dünyada bu əvəzolunmaz bitkinin digər tərəvəz bitkiləri arasında tutduğu yer, onun becərilməsi üsulları və artırılması yolları qeyd olunur.

Ölkəmizdə əhalinin təzə halda qida kimi, konserv və dərman sənayesinin isə xammal kimi bu nadir bitkiyə olan tələbatını ödəmək üçün onun becərilməsi üçün daha perspektivli olan rayonların adları sadalanır. Həmçinin sarımsaqçılığın inkişafına mane olan səbəblərin aradan qaldırılması yolları göstərilir.

Açar sözlər: sort, soğanaq, diş, hava soğancığı, ərzaq, dərman, növbəli əkin, seləf, sarımsaqçılıq.

***

Tərəvəz insan üçün əvəzolunmayan bitki mənşəli ərzaq məhsuludur. Bu gün dünyada insan orqanizminə ekoloji və sosial yüklənmələrin hərtərəfli artması onun daha çox düzgün qidalanmasını tələb edir. Məlumdur ki, sarımsaq digər tərəvəz bitkiləri ilə birlikdə çox zəngin vitamin, təbii antioksidant, bioloji aktiv maddələr, əvəzolunmayan amin turşuları və digər vacib nutrientlər, o cümlədən, immunomodulyator, həmçinin mineral elementlər mənbəyidir. Özünün spesifik iyi ilə sarımsaq bizim qidalarımızı daha cəlbedici, iştahaçan, dadlı və bununla yanaşı asan mə-

nimsənilən və faydalı edir. Əminliklə demək olar ki, sarımsaq insanın sağlamlığı, iş qabiliyyəti və ömrünün uzunluğu ilə birbaşa bağlıdır. Odur ki, bu bitkinin məhsulunun inkişaf etdirilməsi digər kənd təsərrüfatı bitkiləri kimi həmişə dövlətimizin diqqət mərkəzində olmuşdur.

Sarımsaq (Allium sativum L.) soğanlar fəsiləsinə (Alliasea) və Allium cinsinə mənsubdur. Öz mənşəyi ilə əlaqədar 2 yarımnövə ayrılır: 1. Orta Asiya; 2. Aralıq dənizi sahili. Orta Asiya yarımnövü 2 ekoloji qrupa bölünür: 1. Özəkləyən kontinental; 2. Özəkləməyən kontinental. Uzun sürən təkamül prosesində sarımsaq mədəni bitki kimi toxumla çoxalmaq qabiliyyətini itirmiş və yalnız vegetativ üsulla-dişlərin və soğanaqların əkini və ya özəkləyən bitkilərin çiçək qrupunda əmələ gələn hava soğancıqlarının səpini ilə artırılır [1, s. 213].

Sarımsağa tələbat onun təzə və emal olunmuş halda qida kimi, həmçinin dərman sənayesi üçün xammal kimi istifadəsi ilə əlaqədardır. Onun qida və müalicəvi xüsusiyyətləri zəngin biokimyəvi və mineral tərkibli ilə müəyyən olunur. Bu maddələrdən biri infeksiyanı yaxşı neytrallaşdırır, digəri qanda şəkərin səviyyəsini aşağı salır, üçüncüsü şiş əleyhinə çox güclü təsirə malikdir, dördüncüsü xolesterini nizamlayır, beşincisi isə qan laxtalanmasının və tromb əmələgəlməsinin qarşısını alır.

Sarımsağın qida maddələrinin əsas hissəsini sulu karbonlar və tərkibində 27%-ə yaxın olan polisaxaridlər təşkil edir. Toplanan polisaxaridlər yüksək qidalılığa malik olub, orqanizm tərəfindən asan mənimsənilir. Sarımsaqda zülalın miqdarı 6,7%-13,3%, yağ-0,03%-0,08%, sellüloza 0,8%, şəkər 3,2%, nişasta 2%, üzvi turşu 0,1%, vitaminlərdən isə askorbin turşusu (70 mq və ya 5-8% təşkil edir), karotin, tiamin, priloflanin və nikotin turşusu vardır [3, s. 60].

Sarımsaqda fosfor, kalium, mis, yod, titan, kükürd, germanium, molibden, sirkonium, selen, natrium, qurğuşun, kalsium, kobalt, vanadium, maqnezium və manqan qeydə alınmışdır və dişlərdə onların ümumi miqdarı 1,4-3,7%-ə yaxındır. Tərkibindəki mikroelementlər bütün oksidləşmə-reduksiya reaksiyalarında iştirak edir. Bu reaksiyalar pozulan zaman insan xəstələnməyə başlayır [10, s.82].

Sarımsağın tərkibində olan fitonsidlər güclü antibiotik xüsusiyyətə malikdir və çox qısa bir vaxt ərzində insan üçün təhlükəli olan istənilən virusu məhv etməyə qadirdir. Əgər sarımsağın təsirini kimyəvi maddələrlə müqayisə etsək, o zaman sarımsağın daha üstün olduğunu görərik. Belə ki, karbon turşusu vərəm çöplərini bir günə, kükürd turşusu 30 dəqiqəyə öldürürsə, sarımsağın fitonsidi bu işin öhdəsindən cəmi 5 dəqiqəyə gəlir.

Efir yağlarının miqdarı sarımsaqda 2%-ə yaxıdur. Bu yağların əsas hissəsi diallildisulfiddir. Kükürd tərkibli birləşmələrdən başqa efir yağlarında ümumi həcmin 35%-ə yaxınını təşkil edən uçucu maddələr vardır [4, s.135].

Payızlıq sarımsağın sortlarının əsas təsərrüfat əhəmiyyətli əlamətlərinin analizi göstərdi ki, bəzi sortlar həm məhsuldarlığına, həm də mineral maddələrin miqdarına görə fərqlənirlər. Beləliklə, alınmış nəticələr payızlıq sarımsağın təkcə kalium, kalsium, fosfor, manqan, natrium mənbəyi kimi yox, həm də dəmir, sink, alüminium, silisium, bor və yod mənbəyi kimi qida maddəsidir [10, s.85].

Sarımsağın həm qida, həm də insanlarda olan bir sıra xəstəliklərin müalicəsi üçün mühüm əhəmiyyətə malik yeni xassələrinin kəşfi ilə əlaqədar bu bitkinin istehsalı və istehlakı xeyli artmış və hazırda dünyada 24 mln.tona yaxın sarımsaq istehsal olunur ki, onun da 80%-dən çoxu Çinin payına düşür. Hazırda dünyanın bir çox ölkələrində: ABŞ, Fransa, Çexiya, Ukrayna və s. kənd təsərrüfatı inkişaf etmiş ölkələrində gəlirli tərəvəz bitkilərindən biri hesab olunan bu bitkinin şərəfinə sarımsaq festivalı keçirilir [5, 6. s.34]. Qeyd etmək lazımdır ki, Azərbaycanda 2016-cı ildə sarımsağın əkin sahəsi 2,3 min ha, istehsalı 21,1 min ton, məhsuldarlığı isə 91 sen/ha olmuşdur. Sevindirici haldır ki, ümumi əkin sahəsi azalsa da, məhsuldarlığın artması hesabına ümumi istehsal son 5 ildə ən yüksək həddə çatmışdır.

Ölkəmizdə sarımsaqçılıqda müşahidə olunan müsbət meyil son illər bu məhsulun xarici ölkələrdən idxalını xeyli azaltmışdır. Artıq ölkəmizdə bu qiymətli məhsula görə idxaldan asılılıq yoxdur. Əksinə, Azərbaycan özü Türkiyə, Rusiya kimi ölkələrə sarımsaq ixrac edir.

Adambaşına sarımsaq məhsuluna olan illik istehlak normasının 2,2 kq, ölkə üzrə cəmi tələbatın 21,34 min ton olduğunu nəzərə alsaq, istehsal olunan ümumi məhsul əhalinin tələbatının tam

ödənilməsinə kifayət edər. Lakin, emal sənayesinin tələbatının ödənilməsi və ixrac üçün sarımsaq məhsulu istehsalı problemi ortaya çıxmış olur.

Bu səbəbdən də 2016-cı ildə ölkəmizdə emal sənayesinin və ixraca tələbatın artması nəticəsində sarımsağın həm əmtəəlik, həm də toxum kimi satış qiyməti daxili bazarda xeyli artmışdır. Bu isə Azərbaycanda sarımsaq məhsulunu artırmaq üçün böyük perspektivlər açır. Aqrotexniki qaydalara düzgün riayət olunduğu halda bu bitkidən daha yüksək məhsul almaq olar. Odur ki, ölkəmizdə sarımsağın becərilməsi üzrə yaranmış biznes mühit yüksək gəlir götürməyə imkan yaradır. Sarımsağın əsas istehlakçıları: yerli bazarlar (əhaliyə satış), böyük ticarət müəssisələri, qida emalı müəssisələri, dərman sənayesi müəssisələri, dövlət müəssisələri (dövlət satınalması), ictimai iaşə müəssisələridir [2, s.7].

Ümumi strukturda çəkilən xərclərdə əkin materialının dəyəri 25 %, qulluq və yığım 25 % və yığımdan sonrakı işlər 50 -% təşkil edir. Təəssüf ki, sarımsağın becərilməsi üçün dünyada istehsal olunan avadanlıqlar çeşidliliyinə görə zəngin deyil. Lakin hazırda daha çox əməktutumlu işləri mexanikləşdirməyə imkan verən avadanlıqlar vardır: asma soğan səpən SLN-88, sarımsaq əkən-Belarusiya istehsalı; «JJ Brochi» (İspaniya) kompaniyasının ixtisaslaşdırılmış sarımsaq əkəni, qoşqu kombaynı. Bu kombayn sarımsağı 2 variantda yığır: ya yığıb hörür, ya da yerüstü hissəni kolu kəsir və sarımsağı qutulara və ya kisələrə qablaşdırır. Həmçinin dişlərə ayırıb əkin materialı da hazırlayır. Bu zaman qarışıqlar təmizlənir və dişlər ölçülərinə görə çeşidlənir. Məhsuldarlığı 250-1000 kq/saatdır [7, s. 200].

Sarımsağın becərilməsi və seleksiyası üzrə ölkə alimləri xeyli təcrübə toplamışlar. 2016-cı ilin dekabrına olan məlumata görə Azərbaycanın Seleksiya nailiyyətləri dövlət reyestrində üç payızlıq sort qeydiyyata alınmışdır: Cəlilabad, Qusarçay və Elçin. Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun seleksiya və toxumçuluq şöbəsinin kolleksiyasında isə hazırda müxtəlif ölkələrdən gətirilmiş 15-ə yaxın sortnümunəsi becərilir. Halbuki, dünyada sarımsağın 600-dən çox sortu vardır [6, s. 26].

Sarımsaqçılığın inkişafına mane olan əsas amil bu bitkinin əkini üçün ayrılan ərazilərdə torpaq-iqlim şəraitinin düzgün nəzərə alınmamasıdır. Belə ki, sarımsaq becərilən torpaqlar soyuq və quru küləklərdən qorunmalıdır, bunun üçün suvarma və yağış sularının toplanmadığı torpaqlar daha yararlıdır. Belə ki, torpaqda suyun artıqlığı, xüsusən də payız əkinlərində sarımsağa pis təsir edir, bitkilər bakterial xəstəliklərə tez yoluxurlar. Sarımsağı az gilli və qumlu qara torpaqlarda əkmək daha yaxşıdır. Payız əkini zamanı qrunt sularının dərinliyini nəzərə almaq lazımdır,onların səviyyəsi aşağı olduğu zaman suvarma aparılmalıdır.

Sarımsaq üzvi və mineral gübrələrə çox tələbkardır. Odur ki, payızda əsas şumdan əvvəl torpağa hər hektara 40-80 t çürümüş peyin, 2-3 sen superfosfat, 1-2 sen kalium gübrəsi, yazda isə yemləmə kimi hər hektara 2-3 sen ammonium şorası verilir. Peyin birbaşa bitki altına verildikdə, bitki daha tez böyüyür.

Ölkəmizdə payız əkin müddəti daha yaxşı hesab olunur. Bu zaman əkilmiş dişlər daha yaxşı kök verir, lakin çox böyümür və bu vəziyyətdə qışı keçirir. Əkin 50+20x2 lent üsulu üzrə, cərgələrarası 50 və 20sm və cərgələrdə bitki arası 6-10 sm olmaqla aparılır.

Sarımsağın suvarılması ləklərdə becərilən zaman selləmə üsulu ilə aparılır. Vegetasiya dövründə regionlardan asılı olaraq 5-7 suvarma aparılır. Suvarma norması hektara 400-500 m^3 olmalıdır. Ölkəmizdə böyük təsərrüfatlarda sarımsaq daha çox şırımlardan istifadə etməklə suvarılan ərazilərdə olan torpaqlarda becərilir. Bu zaman suvarmaların sayı və suvarma norması təqribən eyni olur və sahə quruyan kimi bitkilərin dibi yumşaldılır.

Vegetasiya ərzində bitkilərə 2 dəfə: ilk həqiqi yarpaqlar əmələ gəldikdə və soğanaqlar əmələgəlməyə başladıqda yemləmə gübrəsi verilir. Bu zaman ümumilikdə 1,5-2 sen superfosfat, 1-1,5 sen kalium gübrəsi və 2-3 sen ammonim şorasını qarışdırmaqla şərti olaraq alınmış qarışıq 2 yerə bölünür və hissə-hissə iki dəfəyə verilir.

Ölkəmizdə sarımsaq istehsalının sürətlə artmasına mane olan digər səbəblər də var: becərmənin yüksək əmək tutumlu olması, bitkilərin xəstəlik və zərərvericilərin təsirinə məruz qalması, ən əsası isə kifayət qədər keyfiyyətli əkin materialının olmamasıdır [2, s.9].

Sarımsağı başla (soğanaqla), dişlərlə, bütöv yumrularla (hava soğancığından alınan arpacıqla), hava soğancığı ilə stolonvari hissəciklərlə artırırlar. Lakin, bütün bu çoxalma üsulları zamanı gizli xəstəliklər (göbələk, bakteriya, virus) nəsildən-nəsilə ötürülür. Bakterial xəstəliklər sarımsaqçılığa daha çox zərər vurur. Soğanaqların bakterial çürümə ilə yoluxması vegetasiya dövründə baş verir, xəstəlik isə otaqda havanın rütubətli və yüksək temperaturda saxlanması zamanı aşkara çıxır. Sarımsaq qara kif göbələk xəstəliyi ilə saxlanma zamanı havanın yüksək temperaturunda yoluxur. Xəstəlik soğanaqların üzərində qara his formasında özünü göstərir [4, s.9].

Sarımsaq müxtəlif zonalarda müxtəlif sələf bitkilərindən sonra becərilir: sarımsaq üçün ən yaxşı sələflər yazda vegetasiya dövrü tez başa çatan və altına üzvi gübrə verilən cərgəarası becərilən bitkilər hesab olunur. Belə ki, sələf bitkisinin tez yığılması və sahənin tez boşalması sarımsaq üçün çox vacibdir. Çünki, bu zaman torpağın əkinqabağı hazırlanması ilə əlaqədar lazım olan bütün tədbirləri həyata keçirmək üçün imkan olur. Tərəvəz bitkilərinin növbəli əkinində belə sələflər faraş kələm, kahı, xiyar, göy qabaq, patisson, paxlalı bitkilər və s. ola bilər. Sarımsaq üçün sələf kimi faraş kartof tövsiyə edilmir. Belə ki, həmin ərazidə becərilən sarımsaq fuzariozla güclü yoluxur [4, s. 244].

Sarımsaq bitkisinin özü isə soğanlar fəsiləsinə aid olmayan bütün bitkilər üçün sələf ola bilər. Bu zaman sarımsağın kökləri vasitəsi ilə torpağa buraxdığı fitonsidlər torpaqda olan bir çox xəstəlik və zərərvericilərin qarşısını alır və yoluxmuş torpaqları qismən müalicə edir. Bu isə sarımsağın daha bir faydalı xüsusiyyətidir.

Sarımsağa ən çox zərəri viruslar vurur. Daha çox zərəri üç soğan virusu (sarı moruvika LYSV, sarı cırtdanlıq GYSV və strik OYDV) və alaq otlarından sarımsağa keçən çoxsaylı poliviruslar verir. Yalnız soğanağın sarı cırtdanlıq virusu ilə bitkinin yoluxması məhsuldarlığın 30%-ə qədər azalmasına, əmtəəlik məhsulun xeyli pisləşməsinə, soğanaqların (başların) xırdalaşmasına, onların saxlanma zamanı vaxtından əvvəl cücərməsinə, sortun cırlaşmasına səbəb olur [9, s.92].

Sarımsağın dişlərlə artırılması (hektara 800-1000 kq toxum əkilir) ən geniş yayılmış üsuldur. Lakin bu üsul zamanı sortun cırlaşmasına gətirirb çıxara bilən ana bitkiyə xas olan kompleks xəstəliklərin nəslə ötürülməsi ehtimalı çox yüksək olur. Cırlaşmanın qarşısını almaq üçün dövri olaraq 3-6 ildən bir bütün əkin materialını bərpa etmək, yəni yeniləşdirmək lazımdır. Bunun üçün əkin materialının dişlərini hava soğanağından becərilmiş birdişli soğanaqlarla əvəz etmək lazımdır. Bu zaman ana bitkini *in vitro* texnologiyasının köməyi ilə almaq daha yaxşı səmərə verir [5, s.35].

Sortdan asılı olaraq başda (soğanaqda) 4-dən 15-ə qədər diş formalaşır. Bu zaman belə bir qanunauyğunluq müşahidə olunur: başda (soğanaqda) dişlərin sayı çox olduqca çoxalma üçün yararlı olan dişlərin sayı azalır. Bu səbəbdən də sarımsağın dişlərlə artırılması əmsalı xeyli məhdudlaşır.

Sortdan və becərilmə şəraitindən asılı olaraq sarımsaq bitkisində 40-dan 150-yə qədər hava soğancığı formalaşır. Onlar ana bitki ilə müqayisədə fitopatogen orqanizmlərlə daha az yoluxurlar və bu səbəbdən də perspektiv sortların sürətlə artırılması üçün böyük əhəmiyyətə malikdir [1, s.214].

Aparılmış tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, sarımsağın yığılması üçün optimal olan dövrdə özəyin hava soğancığı ilə birlikdə kəsilməsinə ən perspektivli üsul kimi baxıla bilər. Belə ki, bir bitkidən alınan hava soğancığının kütləsi (10,8 q) praktiki olaraq iki həftə ondan sonra yığılmış bitkinin hava soğancığının kütləsindən (11,2q) geri qalmır. Habelə bu üsulun istifadəsi zamanı soğanağın keyfiyyətinin pisləşməsi riski azalır [8, s.125].

Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunda aparılmış araşdırmalar zamanı müəyyən olunmuşdur ki, aşağıdakı rayonların torpaq-iqlim şəraiti sarımsaq bitkisinin böyüməsi və inkişafı üçün əlverişli olduğu üçün sarımsaqçılığın inkişafında perspektiv ərazi kimi tövsiyə edilə bilər: Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən, Samux, Göygöl, Goranboy, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, Astara, Lənkəran, Lerik, Yardımlı, Masallı, Cəlilabad, Qusar, Xaçmaz, Quba, Şabran, Siyəzən, Göyçay, Beyləqan, Ağcabədi, Bərdə, Biləsuvar, Ağdaş, Ucar, Saatlı, Sabirabad, İsmayıllı, Ağsu, Şamaxı, Ağdam, Tərtər, Füzuli.

Beləliklə, Azərbaycanda sarımsağın istehsalının artmasını ləngidən səbəbləri nəzərə alaraq bu sahədə inkişafa nail olmaq üçün xüsusi dövlət proqramı hazırlanmalıdır. Bu zaman əsas yeri əkin, becərmə, məhsulun yığımı və yığımda sonrakı işlər zamanı əməyin müasir, baha olmayan mexanikləşdirilməsi vasitələri kompleksinin işlənib hazırlanması, həmçinin seleksiya və sağlamlaşdırılmış əkin materialının istehsalı tutmalıdır. Belə ki, onlar ölkəmizdə sarımsaqçılığın inkişafının təməl daşı hesab olunurlar.

ƏDƏBİYYAT

1. Əliyev Ş.A. Tərəvəzçilik (II hissə). Dərslik-Bakı, Bakı Universiteti nəşriyyatı 1997, 308 səh.
2. Rzayev C., Sərkarov N. Sarımsaq. (fermerlər nəyi bilməlidir). Bakı: «Qanun», 2009-12 s.
3. Блок Э. Химические основы биологического действия чеснока и лука. 1985, 5. с. 59-65.
4. Казакова А.А. Лук. Ленинград, из-во «Колос», 1970, 358 с.
5. Капустина Л. Особенности выращивания чеснока в мире Украинский журнал для профессионалов «Овощеводство 9 (138) сентябрь, 2016, с. 33-35.
6. Малиновский Б. Первый в Украине фестиваль чеснока. Украинский журнал для профессионалов «Овощеводство», № 9 [149] сентябрь 2017 с. 25-27.
7. Мойсевич Н.В., Купреенко Н.П., Корецкий В.В. Сравнительный анализ способов выращивания чеснока озимого. Современное состояние и перспективы инновационного развития овощеводства: материалы Международной научно-практической конференции (п. Самохваловичы, 8-11 июля 2014 года), редкол: В.Ф.Карпович [и др.]-Минск: Институт овощеводства, 2014-201с.
8. Мойсевич Н.В., Купреенко Н.П., Корецкий В.В. Определение оптимальной фракции воздушных луковиц чеснока озимого для посадки. РУП «Институт овощеводства», Овощеводство, Сборник научных трудов, Том 22, Минск. 2014, с. 123-128.
9. Лазько В.Э., Боголенова Н.И. Оценка экологической пластичности сортов чеснока в разных почвенно-климатических зонах Краснодарского края. РУП «Институт Овощеводства», Овощеводство, Сборник научных трудов, Том 22, Минск, 2014, с. 91-96.
10. Середин Т.М., Агафонов А.Ф., Герасимова Л.И. Кривенков Л.В. Элементный состав чеснока озимого (Allium saticum L.) сортов селекции ВНИИССОК // Овощи России, 3-4 (28-29), 2015, с. 81-85.

Аламдар Таги оглы Аскеров
доктор философии по биологии,
Научно-Исследовательских Институт Овощеводства

перспективы развития чесноководства в Азербайджане

Резюме

В статье раскрывается значение культуры чеснока как питательный, лекарственный продукт и предшественник в севообороте, а также отмечается значение этой незаменимой культуры в сравнении с другими овощными культурами, способы его выращивания и пути размножения.

Перечисляются наиболее перспективные районы по выращиванию чеснока для удовлетворение потребностей населения страны в свежем виде и как сырье в консервной и лекарственной промышленности в целом, также указывается причины отставания развития чесноководства и пути его преодоления.

Ключевые слова: сорт, луковица, зубки, воздушные луковицы, продовольствие, лекарство, севооборот, предшественник, чесноководство.

Alamdar Tagı Asgarov
PhD in biology, Vegetable
Scientific-Research Institute

The development perspectives of garlic growing in Azerbaijan

Summary

In the article, the benefits of garlic like food, medicine and plant predecessor in crop rotation are explained, and the important position of this irreplaceable plant among other vegetables over the world, its cultivation methods and propagation ways are noted.

The names of more perspective districts for garlic cultivation to meet the demand of country people for this uncommon plant like fresh food and of canning and medicine industry like raw material are enumerated. Also, the elimination ways of the reasons, which make an obstacle to garlic-growing development, are presented.

Key words: cultivar, bulb, clove, bulbils, food, medicine, crop rotation, plant predecessor, garlic-growing.

Esmira Kərəm qızı MƏMMƏDOVA
Azərbaycan Kooperasiya Universitetinin magistri

QOYUN CİNSLƏRİNİN XARAKTERİSTİKASI

Xülasə

Respublikada bir tərəfdən qoyunçuluğun inkişaf etdirilməsi üçün əlverişli təbii iqlim şəraitinin mövcud olması, digər tərəfdən isə yerli əhalinin qoyun ətini başqa növ ətlərdən üstün tutması yaxın gələcəkdə heyvandarlığın digər sahələrinə nisbətən qoyunçuluğun daha intensiv inkişaf etdirilməsinə imkan yaradır.

Məhsuldarlıq istiqamətinə və qoyun cinslərinin bəslənilməsinə görə qoyunlar aşağıdakı qruplara ayrılır: ətlik, ətlik-yunluq, ətlik-piylik, xəzlik, südlük, kürklük, yunluq, ətlik-yunluq-südlük.

Açar sözlər: qoyun cinsləri, ətlik-piylik, ətlik-südlük, ətlik-yunluq, xəzlik.

Giriş

Əmtəəşünaslıqda əsasən ətlik-qoyun cinslərinə xüsusi yer verilir. Belə ki, bu cinslər tez böyüməsi, yaxşı ətlik keyfiyyətinə - yüksək diri kütləyə və ət çıxarına malik olması ilə fərqlənir. Ətlik istiqamətində bəslənilən ən geniş yayılmış cinslərə hempişir, linkolndoni-marş, şiropşir, Kuybışev və başqalarını göstərmək olar.

Kuybişev cinsini A.V.Vasilyev yetişdirmişdir. Bu cins qabayunlu qoyun cinsinə aiddir. Kuybişev cinsinin əzələ toxumaları yaxşı inkişaf edir, tez ətə dolur. Bu cinsin iri kütləsi 164 kiloqrama çatır, ətinin çıxarı 52-57% kiloqram olur, bu cinsin ət çıxarı 50-52 faizdir. Respublikanın İmişli, Ağdam, Ağcabədi, Beyləqan rayonlarında Qaradolaq qoyunu yetişdirilir. Qaradolaq tez böyüyür, diri kütləsi 90-110 kiloqram, cəmdəyin kütləsi 52-57 kq təşkil edir. Kuybışev cinsi tez yetişəndir. Belə ki, 4-5 aylıq toxumaların kütləsi 34-36 kiloqrama qədər olur, ətlik-piylik qoyun cinsləri əsasən yüksək keyfiyyətli ət və piy almaq üçün saxlanılır. Bu qrupa Hibay, Edilbay, Saraca, Həştərxan, Özbək və başqaları daxildir. Bu qoyunlarda yağ əsasən quyruqda, az miqdarda isə dərialtı və daxili üzvlər ətrafında toplaşır. Bəzi cinslərdə quyruğun kütləsi 15-30 kiloqrama çatır. Ana qoyunların diri kütləsi 60-90 kiloqram, qoçların kütləsi 100-125 kiloqram olur. Ət çıxarı 50%-ə qədərdir.

Ətlik-südlük qoyun cinsləri. Bu qrupa daxil olan cinslərə Qafqazda uzun illər ərzində xam seleksiyası tərəfindən yaradılan 30-dan artıq qoyun cinsləri daxildir. Bu cinslər həm ətlik, həm

də südlük keyfiyyətinə görə, demək olar ki, eyni dərəcədə faydalıdır. Respublikada yetişdirilən 10-dan artıq qoyun cinsləri - Balbas, Qarabağ, Bozan, Şirvan, Ləzgi, Mazex, Horik, Cəro, Gödək, Qaradalaq və başqaları bu qrupa aid edilir. Azərbaycanda yayılan qoyunların əksəriyyəti quyruqlu qoyunlardır. Balbas cinsi Azərbaycanda keçən əsrin ortalarında yetişdirilib və saxlanılıb. Bu cinslər ağ rəngdə olub, gözlərin ətrafı, burnunun deşikləri, dizləri, qulaqlarının ucları, dırnaqları xarakterik parlaq qara rənglidir. [1, səh. 105]

Gövdəsi nisbətən gödək və yığcamdır. Döşü yaxşı inkişaf etmiş və dərin olur, bədəni arxa tərəfdən ucadır. Sümüyü möhkəm və yüngüldür. Quyruğu böyük və uzun olub, aşağı ucu səkkizə bənzər əyilmiş olur, bu cinslərdə quyruq hissəsinin kütləsi 15 kiloqrama qədər olur. Qoyunçuluq üzrə məşhur mütəxəssislərin fikrinə görə, Balbas qoyunları qaba yunlu, yağlı, quyruqlu qoyunlar içərisində ən yaxşı cins hesab edilir. Ana qoyunların iri kütləsi 55-60 kiloqram, qoçlarınkı 85-90 kiloqram, bəzən isə 120 kiloqrama çatır. Balbas cinsinin ət çıxarı 52-54%-dir. Balbas cinsli qoyunların yüksək yunluq, ətlik və südlük keyfiyyətini nəzərə alaraq Azərbaycan qoyunçuluğunun cins rayonlaşma planına görə onları Naxçıvan Muxtar Respublikasında təmiz cins kimi yetişdirirlər.

Azərbaycan dağ Merinosu cinsi respublikamızda vaxtilə Gədəbəyə gətirilmiş Merinos qoyunlarının Askaşiya və Qafqaz erkəkləri ilə uzun müddət ərzində mürəkkəb cütləşdirilməsi nəticəsində yaradılmışdır. Ana qoyunlarının diri kütləsi 45-55 kiloqram, qoçlarınkı 65-51 kiloqrama çatır. Onlardan 10-15 kiloqrama qədər yun qırxılır. Merinos cinsi ən geniş yayılmış zərif yunlu cinsdir.

Bu cinslərin yaradılmasında yerli Bozax qoyunları Qroznı cinsləri iştirak etmişlər. Yüksək məhsuldarlığa, yerli şəraitə malikdirlər.

Sovet Merinosu cinsi ölkəmizdə ən geniş yayılmış heyvan cinsləridir. Ana qoyunların diri kütləsi 50-60 kq, qoçların diri kütləsi 112 kq-a çatır. Bir ildə 7-10 kq yun qırxılır.

Ölkədə heyvanların emalı islahatdan sonra şəxsi sektorlarla təşkil edilmiş fermer təsərrüfatlarında həyata keçirilir. Bütün ət emalı müəssisələrini texnoloji əməliyyatların mexanikləşdirilməsi və avtomatlaşdırılması səviyyəsindən, istehsal gücündən, həmçinin istehsal etdikləri hazır məhsulun çeşidindən asılı olaraq aşağıdakı tiplərə ayırmaq olar. Qoyun və keçilərin kəsildiyi məntəqələr, sallaqxanalar, soyuducu sallaqxanalar, ət kombinatları və ət emal edən zavodlar.

Qoyunlar və keçilər kəsilən məntəqələr ən sadə ət emalı müəssisəsi olub, əsasən kənd yerlərində, hərbi hissələrdə, ekspedisiyalarda, bir sözlə, stasionar sallaqxanalar olmayan yerlərdə istifadə edilir. Heyvanların kəsilməsində sadə alətlərdən istifadə olunur. Bir qayda olaraq qoyun və keçilər vertikal vəziyyətdə kəsilir. Alınan məhsullar emal üçün başqa ət emalı müəssisələrinə göndərilir. [3, səh.151]

Soyuduculu sallaqxanalar qoyunların və keçilərin regionallaşdırıldığı yerlərdə tikilir. Bu sallaqxanalarda heyvanların kəsilməsi, cəmdəyin işlənməsi, soyudulması və dondurulması, bağırsaqların işlənməsi, qanın, xam piyin emalı, dərinin aşılanması, şərti yararlı ətlərin zərərsizləşdirilməsi üçün ayrıca yerlər, habelə inzibati şöbə, baytarlıq kabineti və xəstə heyvanlar üçün karantin şöbəsi olur. Soyuducu sallaqxanalarda ət və ət məhsulları yalnız soyudulur və dondurulur, burada kolbasalar, yarımfabrikatlar, konserv və sair ət məhsulları istehsal edilmir. Əldə edilən qoyun və keçi ətləri satışa və ya müxtəlif ət məhsulları istehsal etmək üçün müxtəlif ət kombinalarına göndərilir. Bu sallaqxanalar yenidən qurulmaqla, müasir avadanlıqlarla təchiz edilərək ət kombinatlarına çevrilir. Ət kombinatları, ət emalı müəssisələrinin əsas tipini xarakterizə etmək bu müəssisədə hansı əməliyyatlar aparıldığından asılıdır.

Nəticə

Aparılan təhlildən belə nəticəyə gəlmək olar ki, qoyun ətinin digər ət növlərindən üstün tutulması qoyunçuluğun inkişafına gətirib çıxardı. Qoyunçuluğun inkişaf etdirilməsi isə yeni cinslərin yaradılmasına yol açdı. Qoyunlar ətinə, südünə, yununa görə yetişdirilir.

ƏDƏBİYYAT

1. Əliyev V.A. «İstehlak mallarının keyfiyyət ekspertizası». Bakı, 2006.
2. Əhmədov Ə.M., İsfəndiyarov S. «Yeni məhsulların əmtəəşünaslığı». Bakı, 1982.
3. Əliyev V.A. «Ərzaq malları əmtəəşünaslığı, ekspertizası və sertifikatlaşdırılmasının nəzəri əsasları», «Maarif» nəşriyyatı, Bakı, 1999.

Эсмира Карам кызы Мамедова
магистр Азербаиджанский Университет Кооперации

Характеристика пород овцов

Резюме

С одной стороны, наличие благоприятных природно-климатических условий для развития овцеводства в нашей Республике, а с другой стороны, коренное население, предпочитающее мясо овца другим видам мяса, обеспечит в ближайшем будущем интенсивное развитие овцеводства по сравнению с другими областями скотоводства.

По продуктивности и по методу кормления породы овцов подразделяют на нижеследующие группы: мясные, мясо-шерстяные, мясо-жирные, шубные, меховые, шерстяные, шерстно-молочные.

Ключевые слова: породы овец, предназначенные для убоя, мясо-молоко, мясо и птица мехов.

Esmira Karam Mammadova
master of Azerbaijan Cooperation University

The characteristics of the sheep species

Summary

From one hand, the advantageous climate of our Republic for the improvement of the sheep-breeding, and on the other hand, the prevalence of the mutton from the other types of the meat enable to develop the sheep-breeding intensively rather than other areas.

The sheeps are divided into the followings for their productivity and feeding for their species: intended for slaughter, intended for slaughter and wool, intended for fur, intended for milk, intended for sheepskin coat, intended for wool, intended for slaughter-wool-milk.

Key words: sheep breeds, meat, fat, meat-dairy, meat andpoultry, fur.

Faiq Qafar oğlu ƏLİYEV
a.e.f.d., laboratoriya müdiri
Azərbaycan Respublikası KTN Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu

QUBA-XAÇMAZ BÖLGƏSİ ALMA BAĞLARI ŞƏRAİTİNDƏ MİNERAL GÜBRƏLƏRİN KÖKDƏNKƏNAR VƏ DAMLA SUVARMA SİSTEMİ İLƏ TƏTBİQİNİN SƏMƏRƏLİLİYİ

Xülasə

Məqalədə Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun Zərdabi adına Elmi Təcrübə Təsərrüfatında 2015-2018-ci illərdə makro və mikrogübrələrin superintensiv tip texnologiya üzrə becərilən müasir alma bağında kökdənkənar ağacların yaşıl çətiri üzərinə çilənməsi və fertiqasiya üsulunda damlama suvarma sisteminə daxil etməklə gövdəətrafı torpağına tətbiqinin nəticələrinin şərhi verilmişdir.

Açar sözlər: gübrələmə, superintensiv bağ, fertikasiya, kökdənkənar yemləmə.

İntensiv alma bağlarından hər il yüksək miqdar tam keyfiyyətli meyvə məhsulu ilə kənarlaşdırılan qida maddələrinin geri qaytarılıb, istismar olunan bağ torpaqlarının təbii münbitliyinin qorunub saxlanması və mümkün olduqca potensial münbitliyinin artırıla bilməsinin təmini aqrokimyəvi tədqiqatların həlli vacib problemlərindən biridir [4, s. 4].

Məlumdur ki, törə boylu M 9 calaqaltılar üzərində becərilən alma sortları ağaclarının kök sistemi torpaq profilinin üst 0-50 sm dərinliyində yerləşib, çox da möhkəm torpağa bağlana bilinməyib xüsusi dayaq sistemi (şpaler) ilə təchiz olunub, qida maddələrinə təbii tələbatlarının çox yüksək olması spesifikliyi ilə səciyyələnirlər [1, s. 158-161; 2, s. 25; 3, s.124-133].

Digər tərəfdən də becərilmə mühitinin ekoloji (abiotik, edafik və s.) amillərinin təsiri altında mineral qidalanma rejimlərinin sürətlənə və ya tozlana bilmə ritmlərinin tənzimlənərək sürətli boy və inkişafın, eləcə də yüksək miqdar meyvə məhsulunun əldə olunmasının təmini işi "gübrələmə tədbirləri sistemi" aqrotexniki elementinin düzgün işlənib hazırlanması yolu ilə daha da yaxşılaşdırılmış olur [1, s. 158-161; 3, s.124-133].

Tədqiqatın metodikası. Superintensiv texnologiya ilə becərilib, damla suvarma sistemi qurulmuş olan təcrübə sahəsinin torpağı çəmən-qəhvəyi tip olub, aqrokimyəvi xüsusiyyətlərinin miqdar göstəriciləri aşağıdakı kimidir:

- üst humus horizontunun qalınlığı ümumi 0-39 sm, torpaq profilinin ümumi dərinliyi 1,5 m-dən çox və profilin orta hissəsində sementləşib bərkimiş olan qatın təsadüfi ilə yanaşı metamorfik;
- keçid qatından aşağıda nazik zolaq şəklində qum layının mövcudluğu fonunda, pH-ın 7,5...8,8 və humusun dəyişmə hədlərinin profil boyunca 2,3-0,05 % olmasıdır. Mənimsənilə bilən mütəhərrik fosforun 185 mq/kq torpaq, mübadiləvi kaliumun 185 mq/kq və asan hidroliz olunan azotun 115,9 mq/kq olmaları, eləcə də mənimsənilə bilən sink, mis və bor mikroqida elementlərinin əkin qatında (0-50 sm) miqdarlarının müvafiq olaraq 1,05 mq/kq, 1,77 mq/kq və 0,35 mq/kq təşkilidir [2, s. 25].

Təcrübədə məqsəd-yarpaq gübrələrinin, eləcə də fertikasiya oluna bilən yeni mürəkkəb makro-, mikrogübrələrin optimal, artırılmış və izafi dozalarının tətbiqinin səmərəliliyinin araşdırılmasından ibarətdir.

Təcrübə M 9 calaqaltısına peyvənd edilmiş 2015-ci ildə 4 m x 1,5 m əkin sxemi üzrə əkilmiş, damla suvarma sistemi qurulan bağda becərilən Qolden Delişes, Qala, Fuji və Qrani Smit alma sortlarının dörd yaşlı ağacları üzərində aparılmışdır.

Təcrübənin sxemi. Superintensiv tipli alma bağı yuxarıda qeyd edilən alma sortlarından ibarət olmaqla A, B və C mikrosahə blokları ayrılmış və həmin bağ mikrosahələri nəzarət və təcrübə variantları üzrə olmaqla iki hissəyə ayrılmışlar. Təcrübə variantlarında aşağıda adları cədvəl 1-də qeyd edilən makro və mikrogübrələrin bu və ya digər dozaları kökdənkənar və fertikasiya üsulunda tumurcuqların şişib açılması fazasından başlayaraq, kökdənkənar yemləmələr 15-gün fasilələr ilə altı dəfə, damla suyu ilə tətbiqləri isə həftə ərzində bir və ya iki dəfə olmaqla cəmisi 7-8 dəfə tətbiq olunmuşlar. Maye yarpaq gübrələrinin kökdənkənar ağacların yaşıl çətirləri üzərinə çilənmələri bitki mühafizəsi məqsədi ilə istifadə olunan pestisidlərlə kombinə olunaraq, zəif konsentrasiyalarda iqlim şəraiti, vegetativ inkişaf fazası və eləcə də bitki nümunələrinin (yarpaq) analizləri nəticələrinə əsaslanaraq müxtəlif dozalarda tətbiq olunmuşlar.

Mineral gübrə, insektisid-funqisid və s. qarışığı kombinasiyaları birbaşa çiləyici aparatın bakına (çəninə) əlavə olunmaqla istifadə olunmuş və bu zaman məhdudlaşdırıcı hal yüksək qələvili və ya mis tərkibli aqrokimyəvi maddə ilə uzlaşdırılmaması olmuşdur. Hər vegetasiya ili ərzində suvarma sisteminin kirəclərdən təmizlənməsi üçün iki dəfə fosforik asit (ortofosfot turşusu) işlədilmişdir.

Tədqiqat nəticələri. Mineral gübrələrin kökdənkənar və fertikasiya üsulunda tətbiqi ilə bu və ya digər alma sortu ağaclarının məhsuldarlıq göstəriciləri nəzərəçarpan dərəcədə artmışlar (cədvəl 2).

Məhsuldarlığın nəzarətə nisbətən artım fərqi, göründüyü kimi, müsbət olub, araşdırmaları həyata keçirilən mineral gübrə dozalarına qarşı təcrübə altında olan alma sortları ağacları həssas reaksiya verərək, onların təbii qida tələbatlarının optimallaşdırılmasının məqsədyönlü olması aşkarlanmışdır.

Cədvəl 1

Mineral gübrələrin A,B və C blokları üzrə kökdən (damla suyu ilə torpağa) və kökdənkənar (alma ağaclarının yaşıl çətiri üzərinə) tətbiqlərinin sxemi

sıra №	*Alma bitkisinin inkişaf fazası*	*Gübrənin adı*	*Tətbiq dozası və üsulu, kq (lt) /ha*
1.1.	Tumurcuqların şişib açılması	Carba 20-20-20+TE	1,5 kq damla üsulu ilə
1.2.		Nutri-leaf 20-20-20+ME	100-200 qr/100 litr su, kökdən kənar
2.1.	Çəhrayı konus	MAP (Monoammonium fosfat) $NH_4H_2PO_4$ 12-61-0	200 qr/100 litr su damla üsulu ilə
2.2.		Potasium nitrat 13,7-0-46,2	150-200 qr/100 litr su kökdən kənar iki dəfə
2.3.		Universal Violet 10-10-30+3,3 MgO+TE	1-2 kq/ 1 ton su damla suyu ilə həftədə iki dəfə
3.1.	Meyvələr fındıq ölçüsündə olduqda	MAP $NH_4H_2PO_4$ 12-61-0	200 qr/100 litr su damla üsulu ilə
3.2.		Nitri-leaf 20-20-20+ME	100-200 qr/100 litr su, kökdən kənar
4.1.	Meyvələr qoz ölçüsündə olduqda	Fertiqrov 20-20-20	3,5-4,0 kq/1 ton su/ha damla üsulu ilə
4.2.		MKP (Monopotasium fosfat) KH_2PO_4 0-52-34	200-250 qr/100 litr su, kökdən kənar
5.	Sonuncu çiləmədən 15 gün sonra	Kalsium nitrat Ca $(NO_3)_2$ Ca-26 % və $N_{2\text{-}15,5\ \%}$	2-5 kq/1 ton suya damla üsulu ilə
6	Özündən əvvəlki çiləmədən 15 gün sonra	Kalsium nitrat Ca $(NO_3)_2$ Ca-26 % və $N_{2\text{-}15,5\ \%}$	2-5 kq/1 ton suya damla üsulu ilə

Cədvəl 2

Kökdən və kökdənkənar yemləmələrin aparıldığı təcrübənin nəticələri (Zərdabi adına ETB, 2017-ci il)

Sortun adı	*A, B və C blokları üzrə nəzarət variantlarında məhsuldarlıq, ton/ha*	*A, B və C blokları üzrə nəzarət variantlarında məhsuldarlıq, ton/ha*	*Nəzarətə nisbətən məhsul artımı, ton/ha*
Qolden Delişes	13	26	+13
Qala	12	20	+8
Fuji	10	21	+11
Qrani Smit	8,5	13,4	+4,9

Nəticə

Yuxarıda şərhi verilən tədqiqat araşdırmalarının nəticələrinə görə, belə qənaətə gəlmək olar ki, damla suvarma sistemi olmayan bağlarda aparılan gübrələmə işinin səmərəliliyi ilə nisbətdə damla suyu ilə fertikasiya üsulunda, eləcə də kökdənkənar çiləmələrdə makro-, mikrogübrələrin səmərəliliyi dəfələrlə çox olur. Belə ki, bitkilərdə boy və inkişafın hormonik artımı müşahidə edilməklə bağların istismar müddətləri dövründə kifayət qədər yüksək miqdarda (13,4..... 26 ton/ha) təsərrüfat əhəmiyyətli və yaxşı keyfiyyət göstəricilərinə malik məhsul əldə etmək olar.

ƏDƏBİYYAT

1. Əliyev F.Q., Şirinova Q.S. Mineral gübrə normalarının lokal tətbiqinin alma bitkisinin boy, inkişaf və məhsuldarlığına təsiri. "Arıçılığın inkişafına dair Azərbaycan-Türkiyə Elmi-Tədqiqat əməkdaşlığı" toplantısı və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elm Mərkəzi Gənc Alimlər Şurasının II Beynəlxalq konfransının materialları, Gəncə, 09-11 iyun 2015, s. 158-161.
2. Əliyev F.Q. Quba-Xaçmaz bölgəsi şəraitində alma bitkisinin sink, mis və borla qidalanmasının pozulması və ona qarşı mübarizə tədbirləri. Avtoreferat, a.e.ü.f.d. almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2016, s. 25.
3. Ялийев Ф.Г. Влияние комплексных удобрений, микроэлементов и регуляторов роста на урожай яблони. Əliqulu Nərimanovun 100 illik yubileyinə həsr olunmuş. "Aqrar elmin zənginləşdirilərək təkmilləşdirilməsi əsasında ərzaq təhlükəsizliyinin təmini problemləri". Elmi-praktiki konfransın materialları. Bakı, 2011, s.124-133.
4. Минеев В.Г., Балтан К.И., Трепачев Е.П. и др. Методические указания по проведению исследований в длительных опытах с удобрениями. Часть 2. Москва, 1983. с. 4.

Фаиг Гафар оглы Алиев
доктор сельскохозяйственных наук

Эффективность внесения минеральных удобрений вне корня и системой капельного орошения в яблоневых садах Губа-Хачмазского региона

Резюме

В статье изложены результаты исследований по внесению макро и микроудобрений путем опрыскивания крон деревьев (внекорневая подкормка) и методом капельного орошения в яблоневом саду суперинтенсивного типа Научно-экспериментальной базы имени Зардаби НИИ плодоводства и чаеводства.

Ключевые слова: удабривание, суперинтенсивный сад, фертигация, внекорневая подкормка.

Faig Gafar Aliyev
doctor of agricultural sciences

Efficiency of applicatıon of mineral fertilizers with root and drıp irrigation system in Guba-Khachmaz region

Summary

In the article published in the Zardabi Scientific Practice Farming Azerbaijan Research Institute of Fruit and Tea Growing the modern apple germs of macro and microbugs developed by superintendent technology in 2015-2018, on the green umbrella of the rootstock and into the drip irrigation system by fertigation a description of the results of application to the surrounding land.

Key words: stamping, superintensive garden, fertigation, foliar top dressing.

Həsən Sultan oğlu QULİYEV
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) tələbəsi

RESPUBLİKANIN MÜASİR İQTİSADİ İNKİŞAF YOLUNDA ƏRZAQ KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ PRİNSİPİNİN ROLU

Xülasə

Azərbaycan Respublikası hal-hazırkı inkişaf mərhələsinə gəlib çatana kimi müəyyən iqtisadi inkişaf yolu keçmişdir . Danılmaz faktdır ki sözügedən uğurlu iqtisadi inkişaf yolunda keyfiyyətli iş prinsipi öz sözünü demişdir. Məhz elə bu cəhətdən yanaşsaq əgər biz daha da yüksək iqti-

sadi uğurlar əldə etmək istəyiriksə ilk növbədə keyfiyyətin yüksəldilməsi prinsipini ön plana çəkməliyik.

Açar sözlər: keyfiyyət, keyfiyyətli qida, qida təhlükəsizliyi, beynəlxalq aləmdə tanınma, iqtisadi inkişaf, qeyri-neft sektoru.

***

Müasir iqtisadi inkişaf dedikdə ağlımıza maliyyə bazarlarında canlanma, qeyri-neft və yaxud da neft sektorunun inkişafından əldə edilən maliyyə vəsaitləri və s. başa düşülür. Əslində həqiqət belədir, iqtisadi inkişaf ölkə iqtisadiyyatının müəyyən gəlirlər hesabına müsbət istiqamətdə dəyişməsidir. Bundan başqa, onu da qeyd etmək olar ki, respublikanın iqtisadi inkişafı neft və yaxud da qeyri-neft sektorunun inkişafı deməkdir. Bəs biz qeyri -neft və neft sektorunun inkişafı dedikdə nəyi başa düşürük? Ölkənin iqtisadi inkişafı, qeyd etdiyim kimi, onun gəlirgətirən sahələrinin inkişafı hesabına gedirsə, onda qeyri-neft və yaxud neft sektorunun inkişafı prosesləri necə və nəyin hesabına gedir? İndi isə bu məsələlərin hər birinə ayrı-ayrılıqda toxunaq .

Bildiyimiz kimi, hal-hazırda respublikamızda uğurlu iqtisadiyyat strategiyası prinsiplərinə uyğun olaraq bir sıra işlər görülür. Demək olar ki, bu işlərin 87,3 % faizi uğurlu nəticə ilə nəticələnir. Belə ki, hesablamalara görə iqtisadiyyatın ayrı-ayrı sahələrində müəssisə və təşkilatların mənfəəti 2015 ci ildə 16713,8 milyon manat olmuşdur [1]. Belə ki, ölkə iqtisadiyyatına təkan verən bir sıra amillər sırasında başlıca yeri qeyri-neft sektorunun inkişaf tendensiyaları tutur. Ölkəmizdə 2014-cü ilə qədər neft sektorunun inkişafına, bu yönümlü sahələrin dəstəklənməsinə xüsusi yer verilirdisə, 2014-cü ildə neftin qiymətinin dünya bazarında kəskin ucuzlaşmasından sonra neft sektoruna qoyulan investisiya yatırımlarının miqdarı xeyli azaldı. Belə olan halda qeyri neft sektorunun inkişafı üçün münbit şərait yarandı [2].

Artıq bir sıra böyük və orta sahibkarların qeyri-neft sektoruna investisiya yatırımları cəlb edib gəlir götürməyə maraqları artırdı. Bununla da 2014-cü ildən bu yana qeyri-neft sektorunda kəskin inkişaf mərhələsi özünü göstərməkdədir. Bu da bir sıra hallarda təbii olaraq mənfi və müsbət xüsusiyyətləri özündə əks etdirir.

Azərbaycan iqtisadiyyatı əvvəllər, demək olar ki, neftin üzərində qurulmuşdur. Buna görə də neftin qiymətinin birdən-birə kəskin azalması, respublikanın iqtisadiyyatının neft sektorundan qeyri-neft sektoruna keçidinin aktivləşməsini təmin etdi. Ancaq, qeyd etmək istəyərdim ki, neft sektorundan qeyri-neft sektoruna keçidin ani olmasına baxmayaraq iqtisadi inkişafda gözəçarpacaq kəskin geriləmələr olmamışdır. İqtisadi artım tendensiyalarında qeyd olunması lazım olan əsas məqam ondan ibarətdir ki, Azərbaycan iqtisadiyyatını gələcək inkişaf mərhələlərində neft sektorundan tamamilə qeyri-asılı hala gətirib çatdırmalıyıq.

Azərbaycan iqtisadiyyatının neft sektorundan asılılığını tamamilə azaltmağın başlıca yolu qeyri-neft sektorunun inkişafının kəskin surətdə artırılmasıdır. Qeyri-neft sektorunun inkişaf mərhələlərində başlıca mərhələ istehsal olunan məhsulların keyfiyyətinin yüksəldilməsi mərhələsidir. Bu mərhələnin vacibliyi oundan ibarətdir ki, Beynəlxalq bazarda kifayət qədər iqtisadiyyat cəhətdən inkişaf etmiş ölkələrin məhsulları vardır. Təbii haldır ki, iqtisadiyyatı güclü inkişaf etmiş ölkələr artıq beynəlxalq standartlardan istifadə etməkdədirlər. Bunun nəticəsidir ki, Beynəlxalq bazarda məhsulların rəqabətədavamlılıq xüsusiyyətləri çox yüksək səviyyədədir.

Bütün bunları nəzərə alaraq iqtisadi inkişafı qeyri-neft sektoruna yönəltmək istəyiriksə və qeyri-neft sektorundan yetərincə gəlir əldə etmək istəyiriksə, onda istehsal olunan məhsullarımız beynəlxalq bazara çıxmalıdır. Əgər nəzərə alsaq ki, beynəlxalq bazardakı məhsullarda rəqabətədavamlılıq qabilliyyəti həddən artıq yüksəkdir, deməli, bizim məqsədyönlü bir hədəfimiz olmalıdır. Bu hədəf də ilk növbədə ölkəmizdə istehsal ediləcək məhsulların keyfiyyət göstəricilərinin beynəlxalq standartarın tələblərinə cavab verməsindən və keyfiyyətin yüksəldilməsindən ibarət olmalıdır.

Məhsulun keyfiyyətinin yüksəldilməsi və beynəlxalq standartların respublikamızın istehsal müəssisələrinə tətbiqi, təbii ki, beynəlxalq aləmdə tanınma və beynəlxalq bazarda rəqabətədavamlı bir Azərbaycan brendinin çıxarılmasına şərait yaradacaqdır. İlk növbədə qeyd etməyin vacib olduğunu sandığım bir halı nəzərə çatdırım ki, hal-hazırda Azərbaycanda beynəlxalq standartlara uyğun məhsullar istehsal olunur və beynəlxalq bazara çıxarılır. Sadəcə olaraq, əvvəldə

qeyd etdiyim kimi, kifayət qədər rəqabətədavamlı məhsullarımız yoxdur və varsa da həddən artıq az saydadır. Təbii bir haldır ki, ölkə iqtisadiyyatını və iqtisadi inkişafı neftdən tamamilə qeyri-asılı hala gətirmək istəyiriksə bu cür ümumdaxili məhsul istehsalı ilə bu hədəfə çatmağın qeyri-mümkünlüyünü görə bilərik.

Deməli, Azərbaycan Respublikasında məhsulların istehsalı proseslərində tətbiq olunan beynəlxalq standartlara rast gəlinir ki, bunların da bir çoxu keyfiyyətə nəzarət prinsipinə aid olan İSO 9001 seriyalı standartlardır. Burdan ilk görünüşcə belə bir fikir oyana bilər ki, keyfiyyətə nəzarət prinsipi beynəlxalq standartlarla tənzim edilirsə, deməli, istehsal etdiyimiz məhsulların keyfiyyəti beynəlxalq standartlara uyğundur. Bunun həqiqətdə də belə olması çox ürəkaçan olardı, ancaq bu belə deyil. Hal-hazırda Azərbaycan Respublikasında keyfiyyət sistemi kifayət qədər inkişaf etməmişdir. Çünki Azərbaycan müəssisələrində, demək olar ki, əksərən sovet sistemindən qalma keyfiyyətə nəzarət prinsipləri kifayət qədərdir. Deməli, keyfiyyət sahəsindəki boşluqlar özünü göstərməkdədir.

Belə ki, bir sıra inkişaf etmiş ölkələrdə, məsələn: ABŞ , İngiltərə, Almaniya və s. kimi ölkələrdə yeyinti sənayesində keyfiyyətə nəzarət prinsipi HACCP sertifikatlaşdırma sistemi əsasında həyata keçirilir. HACCP ingilis dilində "Hazard Analysis and Critical Control Point" yəni "Risklərin təhlili və kritik nəzarət nöqtələri" ifadəsinin abbreviaturasından götürülmüşdür. HACCP standartı adına uyğun olaraq konkret müəssisədə yeyinti məhsullarının istehsalının, saxlanmasının, daşınmasının və hazırlanmasının zəruri təhlükəsizlik səviyyəsini əks etdirir. Yəni, göründüyü kimi, yeynti sənayesi üzrə ayrıca bir standartın tətbiqi və ondan istifadəsi aktual bir məsələdir . Bu məsələnin aktuallığını sübut etmək üçün bir fakta toxunmaq istərdim. Belə ki, hal-hazırda hər birimiz razılaşarıq ki, bizim yerli bazarımızda «Amerika istehsalıdır» və yaxud «Alman istehsalıdır» kimi ifadələr eşitdikdə məhsulun keyfiyyəti barədə şübhə duyulmur və keyfiyyətli bir məhsul olduğuna inanılır. Başqa sözlə desək, Amerika, Almaniya kimi ölkələrin istehsalı olması məhsulu brendləşdirir . Bəs bunun səbəbi təkcə onların inkişaf etmiş ölkə olmalarıdırmı? Bəli, onların inkişaf etmiş ölkə olmaları bir çox şeyi dəyişir, amma bazarda brend olmaları adıçəkilən ölkə istehsalı olan məhsulların keyfiyyətinə rəğbətin olmasından irəli gəlir . Belə ki, müəyyən statistik hesablamalara görə sözügedən ölkə istehsalı olan məhsullarda hər 100 000 məhsulda keyfiyyətsizlik faizi cəmi 0.5% dir. Bəs bu qədər keyfiyyətin səbəbi nədir? Təbii ki, bu dövlətlərin istehsal etdiyi yeyinti məhsulları üçün xüsusi keyfiyyət standartlarının tətbiqi.

Məhsulu keyfiyyətli olan ölkənin Beynəlxalq bazarda tanınma şansı və həmçinin məhsullarına tələbat artır . Məhsula tələbat artdıqda istehsal artır, istehsal artdıqda gəlirlər artır. Əgər ümumilikdə düşünsək ki, hər bir yerli istehsalat müəssisəsinin keyfiyyətli məhsul istehsal edib beynəlxalq bazara çıxardığı və beynəlxalq bazarda satdığı qida Şəkər və şəkərdən hazırlanan qənnadı məmulatlarının gömrük vergilərindən gələn gəliri ortalama məhsulun maya dəyərinin 15%-ni təşkil edir [3]. Onda burdan belə nəticəyə gələrik ki əgər hər bir istehsal müəssisəsi öz məhsulunu keyfiyyətli istehsal edib beynəlxaq bazara çıxarsa təkcə gömrük vergilərindən əldə olunan gəlir kifayət qədər iqtisadi artıma təkan verər. Bununla da belə nəticəyə gələ bilərik ki, keyfiyyət faktoru iqtisadi artımın kökündə dayanan məsələlərdən biridir. Deməli, iqtisadi artıma təkan verən keyfiyyət strukturunu inkişaf etdirməklə, bir sıra keçmiş və əlverişsiz keyfyyət sistemlərini dəyişməklə daha innovativ və əlverişli keyfiyyət strukturunu qurmaq mümkündür. Bununla da bir sıra uğurları əldə etmiş olarıq ki, bunlar da ölkə iqtisadiyyatına bilavasitə təsir göstərmiş olar.

Yuxarıda qeyd etdiyim kimi, ölkədə, ümumilikdə beynəlxalq aləmdə tanınma sırf keyfiyyət məsələsidir. Yüksək keyfiyyətli məhsul istehsal edən ölkə və yaxud da iqtisadiyyatının inkişafında keyfiyyət prinsipi əsas götürülmüş stratejik planlarla inkişaf etmiş ölkə nəinki regionda, eyni zamanda Beynəlxalq aləmdə tanınmış bir markaya çevrilə bilər. Bütün bu qeyd edilən məsələlər hal-hazırda həll olunması lazım olan aktual problemlərdəndir. Çünki, əgər biz nəzərə alsaq ki, neft sərvətləri bir neçə ildən sonra tükənə bilər və ölkə iqtisadiyyatının bir çox hissəsi neft sektorundan kəskin surətdə asılıdır, gələcəkdə iqtisadi inkişaf planında geriləmələrin olmaması məqsədi ilə bir sıra tədbirlər görülməlidir. Eyni zamanda Cənab prezidentin "Biz neft ka-

pitalını insan kapitalı ilə əvəz etməliyik" fikrini qeyd etmək istəyərdim. Çünki keyfiyyət prinsipi məhz əməkləçalışan mütəxəssislərin, əməklə çalışan insanların ali məqsədlərə çatmaq üçün qarşıya qoyulan vəzifəsidir. İqtisadiyyatımızı daha da inkişf etdirmək istəyiriksə ilk növbədə keyfiyyət sistemimizi yenidən qurmalı və inkişaf etdirməliyik. Elə bu kontekstdən yanaşma etmək istəyərdim ki, keyfiyyətli iqtisadiyyat prinsipi ilə dünyada inkişaf etmiş ölkələr sırasında olan Yaponiyanı nümunə göstərmək istəyərdim. Belə ki, Yaponiya heç bir təbii sərvəti olmayan və sırf keyfiyyətli bilik hesabına inkişaf etmiş ölkədir və bu da bir daha sübut edir ki, iqtisadiyyat bir ölkənin əsasını nə qədər təşkil edirsə, elə o qədər də keyfiyyət prinsipi iqtisadiyyatın əsasını təşkil edir. Elə məhz buna görə də biz müasir bazar iqtisadiyyatında Azərbaycan müəssisələrinin istehsal etdikləri məhsulların keyfiyyətinin davamlı inkişafına nail olmaq iqtidarındayıq.

ƏDƏBİYYAT

1. https://www.azstat.org/MESearch/details
2. http://www.xalqqazeti.com/az/news/economy/87734
3. http://www.az-customs.net/az/grup17.htm
4. Azərbaycan Respublikası Vergi Məcəlləsi . Bakı, 2010.
5. T.S.Vəliyevin, Ə.P.Babayevin və M.X.Meybullayevin ümumi elmi redaktəsi ilə. İqtisadi Nəzəriyə. Bakı, 2001.

Гасан Султан оглы Гулиев
студент АГЭУ

Роль принципа повышения качества продовольствия в современном экономическом развитии Республики

Резюме

В то время как состояние Азербайджанской Республики достигло нынешнего уровня развития, определенное экономическое развитие прошло. Бесспорныйфакт заключается в том, что принцип хорошего качества успешного экономического развития состоит в том, чтобы сформулировать его идею. Если мы посмотрим на это с точки зрения этого, мы должны прежде всего поставить принцип повышения качества, если мы хотим добиться высокого экономического успеха в будущем.

Ключевые слова: качество, качество пищи, безопасность пищевых продуктов, признание на международной арене, экономическое развитие, ненефтяной сектор.

Hasan Sultan Guliyev
student of UNEC

The role of the principle of improving food quality in the contemporary economic development of the republic

Summary

During the period of development of the state of the Azerbaijan Republic certain economic development has passed. Irrefutable fact is that the good quality principle behind the successful economic development has been its point of view. From this point of view, if we want to achieve high economic success in the future, first of all, we should put the principle of improving quality.

Key words: quality, quality food, food security, recognition in the international arena, economic development, the non-oil sector.

Seyfulla İmaməli oğlu HÜSEYNOV
b.ü.f.d., a.e.i. Əkinçilik Elmi-Tədqiqat İnstitutu

SU REJİMİ, MÜXTƏLİF YUMŞAQ BUĞDA SORTLARININ MƏHSULDARLIĞI VƏ KEYFİYYƏTİ

Xülasə

Məqalədə su rejiminin müxtəlif yumşaq buğda sortlarının məhsuldarlığına və keyfiyyətinə təsirindən bəhs edilir. Müxtəlif su rejimi şəraitində yumşaq buğda sortlarında sünbülün struktur elementləri, bitkinin məhsuldarlığı, 1000 dənin kütləsi, dəndə zülalın miqdarı və həmçinin hektardan zülal çıxımı göstəricilərinin bir-biri ilə müqayisəli şəkildə əlaqəsi öyrənilmişdir. Məlum olmuşdur ki, tədqiq olunan yumşaq buğda sortnümunələrinin dənində zülalın miqdarı ilə hektardan zülal çıxımı və məhsuldarlıq arasında tərs mütənasib, məhsuldarlıq və hektardan zülal çıxımı arasında isə düz mütənasib asılılıq mövcuddur.

Açar sözlər: yumşaq buğda, sort, məhsuldarlıq, sünbül elementləri, su rejimi.

***

Mövzunun aktuallığı. Yumşaq buğda çox qiymətli ərzaq məhsuludur. Dənli bitkilər, o cümlədən payızlıq buğda vegetasiya dövrünün ilk yarısında su çatışmamazlığından əziyyət çəkir. Bunun nəticəsində də fizioloji proseslərin normal gedişində kənaraçıxmalar yaranır ki, bu da məhsuldarlığın, dənin keyfiyyətinin aşağı düşməsinə səbəb olur [3].

Bu gün də quraqlıq stresi ildən ilə məhsuldarlığın aşağı düşməsinə səbəb olan əsas problemlərdən biridir [1,2].

Belə bir şəraitdə yüksək, stabil məhsul almağın daha rasional yolu-sortun becərildiyi konkret şəraitə maksimum uyğunlaşan yüksək məhsuldar, yüksək keyfiyyətli, quraqlığa, xəstəlik və zərərvericilərə qarşı davamlı yumşaq buğda sortlarının yaradılmasıdır [5].

Müstəqil Azərbaycan dövlətinin ərzaq təhlükəsizliyinin təmin edilməsi və aqrar sahənin rəqabət qabiliyyətinin yüksəldilməsi, ölkənin konkret bölgələri üçün yüksək məhsuldar və quraqlığadavamlı yumşaq buğda formalarının aşkarlanması və axtarılıb tapılması və məqsədyönlü seleksiya prosesi ilə yeni sabit, davamlı sortların alınmasında istifadə edilməsi və alınmış məhsulun fermer təsərrüfatlarında tətbiqi ilə mümkündür.

Hazırkı dövrdə illər üzrə yüksək məhsulun alınmasına mənfi təsir göstərən quraqlıq stresi əsas səbəblərdən biri olaraq var və həmişə olacaq.

Mövzunun məqsədi: Görülən işin məqsədi su rejimindən asılı olaraq quraqlığa davamlı sortların dəninin keyfiyyət və texnoloji keyfiyyətlərinin, quraqlığa davamsız sortların dəninin keyfiyyət və texnoloji keyfiyyət göstəricilərinin müqayisəli şəkildə öyrənilməsidir.

Tədqiqatın məqsədi respublikamızın kəskin fərqlənən torpaq iqlim şəraiti üçün əkilmiş buğda sortlarında keyfiyyətli dən məhsulunun əmələgəlməsi fizioloji - biokimyəvi xüsusiyyətlərinin öyrənilməsi və bu göstəricilərin yeni yüksək məhsuldar, yüksəkkeyfiyyətli və quraqlığa davamlı sortların yaradılması üçün seleksiya prosesində istifadə olunma mümkünlüyünün araşdırılması, keyfiyyət gstəriciləri ilə tez yetişkənlik, quraqlığa davamlılıq, məhsuldarlıq və keyfiyyət əlamətlərinin qarşılıqlı əlaqəsinin öyrənilməsidir.

Material və metodlar:Təcrübələr buğda genefondundan seçilmiş və yerli perspektiv sortlardan ibarət 14 ədəd yumşaq buğda sortları, hər ləkin sahəsi $10m^2$ olmaqla 4 (dörd) təkrarda Əkinçilik ET İnstitutunun Abşeron YTT-nın sahələrində, I - optimal suvarma və II - suvarılmayan variantda qoyulmuşdur.

Dəndə azotun miqdarı "Keltek 1003 (LKB firması)" cihazının köməkliyi ilə modifiksiya olunmuş Keldal mikrometodu üsulu ilə təyin olunmuşdur. Azotun miqdarını zülala çevirmək üçün (N X 5,7) əmsalından istifadə olunmuşdur [4].

Əldə olunan nəticələrin təhlili və müzakirəsi: Tədqiq olunan müxtəlif növ bərk və yumşaq buğda sortlarının dəninin analizi zamanı məlum olmuşdur ki, buğda sortlarının məhsuldarlığına, sünbülün struktur elementlərinə və dəndə zülali maddələrin əmələ gəlməsinə müxtəlif biotik və abotik amillərin təsiri zamanı gedən proseslərin öyrənilməsi və məqsədyönlu selek-

siya yolu ilə yeni yüksək məhsuldar, yüksək keyfiyyətli, şaxtaya və quraqlığa davamlı, xəstəlik və ziyanvericilərə qarşı davamlı sortların yaradılması üçün tətbiq olunacağını nəzərə alaraq dəndə zülali maddələrin miqdarı təyin edilmişdir.

Tədqiq olunan yumşaq buğda sortlarında optimal suvarma rejimində zülalın miqdarı (11,8-13,2 %), suvarılmayan variantda isə bu göstərici (12,2-15,4%) olmuşdur (Cədvəl 1) .

Cədvəl 1

Suvarma rejimindən asılı olaraq rayonlaşmış və perspektiv yumşaq buğda sortlarının dənində keyfiyyət göstəriciləri

№	Sortun adı	Təcrübənin variantı	1000 dənin kütləsi, q	Dənin kütləsi, q/m^2	Sünbüldə dənin		Azot, %	Zülal, %	Hek.zülal çıxımı, kq/ha
					sayı, əd	kütləsi, q			
1	Qiymətli 2/17	I	53,0	562	58,2	3,35	2,07	11,8	663,2
		II	49,3	468	50,0	2,02	2,19	12,5	585,0
2	Əkinçi 84	I	47,7	650	68,0	3,65	2,09	11,9	773,5
		II	47,0	610	61,2	3,05	2,16	12,3	750,3
3	Əzəmətli 95	I	47,1	625	68,4	3,26	2,14	12,2	762,5
		II	41,4	595	44,6	2,05	2,24	12,8	761,6
4	Nurlu 99	I	40,5	612	63,6	3,28	2,14	12,2	746,7
		II	37,0	570	53,4	2,30	2,19	12,5	712,5
5	Qobustan	I	47,1	650	72,4	3,66	2,10	12,0	780,0
		II	44,2	600	65,6	3,32	2,17	12,4	744,0
6	Ruzi 84	I	48,8	520	54,0	2,78	2,10	12,0	624,0
		II	47,8	420	43,6	2,07	2,14	12,2	512,4
7	Qırmızı gül 1	I	39,6	560	65,8	2,96	2,17	12,4	694,4
		II	39,4	485	50,2	2,00	2,23	12,7	616,0
8	Tale 38	I	46,1	529	60,6	2,98	2,31	13,2	698,3
		II	43,6	480	49,4	2,01	2,44	13,9	667,2
9	Pirşahin 1	I	46,8	537	51,8	2,52	2,09	11,9	639,0
		II	46,5	502	35,8	1,73	2,23	12,7	637,6
10	2nd FAWWON N97	I	38,3	590	57,8	2,84	2,10	12,0	708,0
		II	36,1	547	50,1	2,12	2,14	12,2	667,4
11	4th FEWSN N50	I	44,2	607	69,6	3,56	2,16	12,3	746,6
		II	38,7	542	47,0	2,02	2,26	12,9	699,1
12	Günəşli	I	50,6	583	46,6	2,80	2,14	12,2	717,1
		II	46,3	460	35,0	1,83	2,37	13,5	621,0
13	Dağdaş	I	38,8	626	41,0	1,77	2,16	12,3	770,0
		II	36,6	562	27,4	1,00	2,30	13,1	736,2
14	Sartovskaya-29	I	47,2	550	45,8	2,68	2,28	13,0	715,0
		II	44,5	480	36,0	2,50	2,52	14,4	691,2

Tədqiq olunan yumşaq buğda sortlarının dənində optimal suvarma rejimində zülalın miqdarı ən çox Tale 38-13,2%, Sartovskaya-29-13,0%, ən az isə Qiymətli 2/17-11,8%, Əkinçi 84-11,9%, Pirşahin 1- 11,9% sortlarında, suvarılmayan variantda isə bu göstərici ən çox Sartovskaya-29 - 14,4%, Tale 38- 13,9%, Günəşli 13,5%, ən az isə Ruzi 84 -12,2%, 2nd FAWWON N97 - 12,2%, Əkinçi 84 - 12,2% sortlarında qeyd olunmuşdur.

Hazırkı dövrdə Respublika əhalisi tərəfindən istifadə olunun un və un məhsullarında zülali maddələrin çatışmadığını və əhalinin bitki zülalına olan tələbatının daha çox olduğunu və daha çox ehtiyacında olduğumuz bitki zülalının artırılma yollarının daha vacib olduğunu nəzərə alaraq müxtəlif növ bərk və yumşaq buğda sortlarının dən məhsulunda hektarda toplanan zülalın miqdarına suvarma rejiminin təsirini öyrənmək məqsədilə dənin tərkibində hektardan zülal çıxımı hesablanmışdır Tədqiq olunan yumşaq buğda sortlarında isə optimal suvarma rejimində hektardan zülal çıxımı (624,0-780,0kq /ha), suvarılmayan variantda isə bu göstərici (512,4-761,6 kq

/ha) olmuşdur. Tədqiq olunan yumşaq buğda sortlarında isə optimal suvarma rejimində hektardan zülal çıxımına görə ən yüksək qiymət Qobustan-780,0 kq /ha, Əkinçi 84-750,3 kq /ha, Dağdaş-770,5 kq /ha, Əzəmətli 95-762,5 kq /ha, ən aşağı qiymət isə Ruzi 84- 624,0 kq /ha, Pirşahin 1- 639,0 kq /ha, suvarılmayan variantda isə bu göstərici ən çox Əzəmətli 95-761,6 kq /ha, Əkinçi 84-750,3 kq /ha, Nurlu 99-712,5 kq /ha, ən az isə Ruzi 84 - 512,4 kq /ha, Qiymətli 2/17-585,0 kq /ha sortlarında qeyd olunmuşdur.

I - optimal suvarma rejimi; II - suvarılmayan variant

Həmçinin, 1000 dənin kütləsi, dənin kütləsi, sünbüldə dənin sayı və kütləsi, dəndə azotun və zülalın miqdarı və hektardan zülal çıxımı arasında korrelyasiya əlaqələri öyrənilmişdir (Cədvəl 2).

Cədvəl 2

Suvarma rejimindən asılı olaraq rayonlaşmış və perspektiv yumşaq buğda sortlarının dənində keyfiyyət göstəriciləri arasında korrelyasiya əlaqələri

	1000 dənin kütləsi, q	Dənin kütləsi, q	Sünbüldə dənin sayı, əd	Sünbüldə dənin kütləsi, əd	Azot, %	Zulal, %	Hek. Zülal çıxımı kq/ha
1000 dənin kütləsi, q	1						
	28						
Dənin kütləsi, q	-0,122	1					
		28					
Sünbüldə dənin sayı, əd	0,182	0,589**	1				
			28				
Sünbüldə dənin kütləsi, əd	0,419*	0,579**	0,893**	1			
				28			
Azot, %	-0,168	-0,511**	-0,558**	-0,471*	1		
					28		
Zulal, %	-0,170	-0,509**	-0,550**	-0,463*	1,00**	1	
						28	
Hek. Zülal çıxımı kq/ha	-0,232	0,908**	0,401*	0,429*	-0,106	-0,104	

Aparılan təcrübələrdən məlum olmuşdur ki, tədqiq olunan yumşaq buğda sortlarının məhsuldarlığı və dəndə zülalın miqdarı arasında tərs mütənasib asılılıq mövcuddur (r = - 0,509**).

Həmçinin, tədqiq olunan yumşaq buğda sortlarının məhsuldarlığı və hektardan zülal çıxımı arasında düz (r= 0,908**), hektardan zülal çıxımı ilə dəndə zülalın miqdarı arasında tərs mütənasib asılılıq mövcuddur(r= 0,104). Sünbüldə dənin sayı və kütləsi ilə dəndə zülalın miqdarı arasında tərs mütənasib asılılıq uyğun olaraq (r = - 0,550**) və (r = - 0,463*) mövcuddur.

Sünbüldə dənin sayı və kütləsi ilə dənin kütləsi arasında düz mütənasib asılılıq uyğun olaraq (r = 0,589**) və (r = 0,579**) mövcuddur. Sünbüldə dənin sayı və kütləsi ilə hektardan zülal

çıxımı arasında düz mütənasib asılılıq uyğun olaraq (r = 0,401*) və (r = 0,429*) mövcuddur (Cədvəl 2).

Tədqiq olunan yumşaq buğda sortlarının dənində zülalın miqdarı ilə məhsuldarlıq və hektardan zülal çıxımı arasındakı korrelyativ asılılıqdan istifadə etməklə seleksiyaçılara yeni yüksək məhsuldar və yüksək keyfiyyətli buğda sortlarının alınması yolunda dəyərli tövsiyələr vermək olar.

Nəticə

Aparılmış tədqiqatlardan belə məlum olmuşdur ki, suvarma rejimindən asılı olaraq rayonlaşmış və perspektiv yumşaq buğda sortlarının dənində optimal suvarma variantında zülalın miqdarı 10,7-13,4%, hektardan zülal çıxımı isə 442,9-727,1 kq/ha, suvarılmayan variantinda isə bu göstəricilər uyğun olaraq 12,2-15,4%, hektardan zülal çıxımı isə 381,9-667,2 kq/ha arasında dəyişmişdir.

ƏDƏBİYYAT

1. Гусейнов С.И. Засухоустойчивые и высококачественные образцы пшеницы. Azərbaycan Aqrar Elmi jurnalı, 2009, №1-2, s. 58-59.
2. Hüseynov S.İ., Tələi C.M., Abdulbaqiyeva S.A., Mahmudov R.U. Dəmyə şəraiti üçün məhsuldarlıq və keyfiyyət göstəricilərinə görə fərqlənən perspektivli buğda sortlarının seçilməsi. Azərbaycan Elmi-Tədqiqat Əkinçilik İnstitutunun Elmi Əsərlərinin məcmuəsi, XXI cild, Bakı, 2005, s. 206-211.
3. Коновалов Ю.Б. Формирование продуктивности колоса яровой пшеницы и ячменя. М.,«Колос»,1981. с. 278.
4. Плешков Б.П. Практикум по биохимии растений. М., “Колос”, 1976. с. 256.
5. Стрельникова М.М. Повышение качества зерна пшеницы. Киев,“Урожай”. 1971. с. 296.

Сейфулла Имамали оглы Гусейнов
д.ф.б.н., в.н.с. Научно-Исследовательский Институт Земледелия

Водный режим , урожайность и качество разных сортов мягких пшениц

Резюме

В статье представлена информация о влияние водного режима на продуктивность и качество различных сортов мягкой пшеницы. В различном водном режиме у сортов мягкой пшеницы изучалась сравнительная взаимосвязь между структурными элементами колоса, продуктивностью растений, массой 1000 зерен, количеством белка в зерне, а также выходом белка с гектара. Было обнаружено, что существует отрицательная взаимосвязь между содержанием белка в зерне, выходом бела с гектара и продуктивности, и прямая зависимость между продуктивностью и выходом белка с гектара у исследуемых сортообразцах мягкой пшеницы.

Ключевые слова: мягкая пшеница, сорт, продуктивность, элементы колоса, водный режим.

Seyfulla Imamali Huseynov
PhD, l.s. Research Institute of Crop Husbandry

Water regime, yield and quality of dıfferent bread wheats varieties

Summary

The article presents information on the influence of the water regime on the productivity and quality of different varieties of bread wheat. In different water regime, the comparative relations-

hip between structural elements of spike, the productivity of plants, 1000 kernel weight, protein content of the grain, and yield of protein per hectare were studied in bread wheat varieties. It was found that there is a negative correlation between the protein content of the grain, yield of protein per hectare and the productivity, and the positive relationship between the productivity and yield of protein per hectare in the bread wheat varieties under study.

Key words: soft wheat, variety, productivity, spike elements, water regime.

b.e.f.d. İ.S.QURBANOV,

a.e.f.d. V.M.ƏLİYEV,

a.e. f.d. T.C.KƏRİMOV,

dissertant E.M.XANKİŞİYEVA
Azərbaycan Respublikası KTN Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu

ÇƏYİRDƏKLİ MEYVƏ BİTKİLƏRİNİN FORMALAŞDIRILMASI VƏ BUDANMASI TEXNOLOGİYASI

Xülasə

Məqalədə intensiv və superintensiv tipli meyvə bağlarında becərilən çəyirdəkli meyvə bitkiləri ağaclarının (gilas, albalı, şaftalı və ərik) formalaşdırılması və budanmasının innovativ texnologiyasından bəhs edilir.

Açar sözlər: gilas, albalı, şaftalı, ərik bitkiləri, formalaşdırma, budama.

***

Meyvə ağaclarına forma verilməsi ən məsul və mürəkkəb işlərdən biridir. Çətirlərinə yaxşı forma verilmiş meyvə ağacları daha möhkəm, uzunömürlü və məhsuldar olurlar. Ağacların çətirlərinə düzgün forma verilmiş bağlarda becərmə işləri, məhsulun toplanması, zərərverici və xəstəliklərə qarşı mübarizə işlərinin aparılması xeyli asanlaşır [1, s.32-33]. Cavan ağaclara forma verdikdə meyvə cinslərinin, növ və sortlarının bioloji xüsusiyyətləri nəzərə alınmalıdır. Cavan ağaclara elə forma verilməlidir ki, onlar tez bara düşməklə yüksək və keyfiyyətli məhsulu öz üzərində saxlaya bilsin. Buna görə də düzgün formavermə yolu ilə gövdə üzərində möhkəm skelet budaqları yaratmağa nail olmaq lazımdır. Meyvə tingləri bağa əkildikdən sonra formavermə əməliyyatı 4-5 il davam etməlidir [2, s. 170-174; 3, s. 364-374; 4, 24 s.].

Hal-hazırda respublikamızda meyvə ağaclarının formalaşdırılmasında aşağıdakı çətir formalarından - mərtəbəli, mərtəbəsiz, seyrək mərtəbəli və yaxşılaşdırılmış mərtəbəli çətir, kasa şəkilli çətir, kəsilmiş mərtəbəli çətir, eləcə də çəp və yarımçəp çətir formalarından - İtaliya palmeti, mərtəbəli palmet, sərbəst böyüyən palmet, kombinə edilmiş palmet və s. çətir formalarından istifadə olunur [3, s. 364-374; 5, 34 s.].

Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunda uzun illər ərzində aparılmış tədqiqat işlərinin nəticələrinə əsasən gilas, albalı, şaftalı və ərik bitkilərindən yüksək və stabil meyvə məhsulu əldə etmək üçün onların ağaclarına aşağıdakı qeyd olunmuş qaydada forma verilməsi və budanması məqsədəuyğun hesab olunur.

Gilas ağaclarının formalaşdırılması və budanması. Gilas güclü boy artmasına və zəif zoğ əmələ gətirməsinə görə digər çəyirdəkli meyvə bitkilərindən fərqlənir. Müxtəlif gilas sortlarında budaqlanma dərəcəsi eyni deyildir. Güclü budaqlanan sortlara Rannyaya Kassina, Napoleon Rozovıy, Krasavitsa Krıma, Ziraat, Öküz ürəyi və s. daxildir. Həmin sortlarda əsas boyu davam etdirən zoğdan əlavə 4-5 ədəd yan zoğlar olur. Zəif budaqlananlarda isə əsas ötürücü zoğdan əlavə il ərzində iki və bəzən bir ədəd yan zoğ əmələ gəlir. Belə sortlardan Ramon Oliva, Biqarro Qrollya, Rusalka, Biqarro Qoşe, Sambo, Burlat və s. göstərmək olar.

Gilas bitkisi birillik meyvə budaqcıqları və ya çoxillik dəstə meyvə budaqcıqların üzərində bar verir. Çoxillik dəstə meyvə budaqcıqlarının ömrü 3-5 il olur. Gilas bitkisinin bu xüsusiyyətləri budama vaxtı nəzərə alınmalıdır.

Skelet budaqlarının mərtəbəli şəkildə yerləşməsi ilə əlaqədar gilasa seyrək mərtəbəli çətir formasının verilməsi məsləhət görülür.

Bağa əkilmiş yan budaqları olmayan birillik gilas tingi 80-90 sm hündürlükdə kəsilir. Bunun 60-65 santimetri ştamb və 20-30 santimetri çətirin yaradılması üçündür. Bu zaman çətirin formalaşdırılmasına növbəti ildə yan zoğları əmələ gətirdikdən sonra başlanır.

Əgər ikillik və ya yan budaqları olan birillik gilas tingi əkilərsə, çətiri yaratmaq üçün müxtəlif istiqamətlərdə yerləşmış və bir-birindən 10-15 sm aralı olan 3 ədəd qüvvətli budaq saxlanılır. Birinci mərtəbəni yaratmaq məqsədilə saxlanılmış budaqlar, onların yoğunluğundan asılı olaraq 25-35 sm hündürlükdə qısaldılır. Çətir üçün saxlanılan budaqlar eyni bərabərlikdə kəsilməlidir. Qalan bütün budaqlar dibindən kəsilib kənar edilməlidir. Mərkəzi şah budaq yan budaqlardan 20-25 sm hündürlükdə kəsilir.

Seyrək mərtəbəli çətir formasını yaratmaq məqsədilə bir-birindən 45-50 sm aralı olmaqla mərtəbə yaradılır. Çətir yaratmaq üçün mərtəbələrin sayı üçdən və hər mərtəbədə birinci sıra skelet budaqların miqdarı isə 3-4 ədəddən çox olmamalıdır. Bundan sonra formavermənin davam etdirilməsi eyni qayda ilə gedir. Bu məqsədlə birinci dərəcəli skelet budaqların hər birinin üzərində bir-birindən və gövdədən 30-40 sm aralı 2-3 ədəd ikinci sıra skelet budaqları yaradılır.

Tam bara düşdükdən sonra gilas ağaclarında budama boy atmanın (birillik zoğlar) nizamlanmasından ibarətdir. Bu məqsədlə sıx budaqlanan və normal boy atan sortlarda çətir ancaq seyrəldilir, daha güclü boy atan sortlarda isə birillik zoğların uzunluğunun 1/3-1/2 hissəsi qədər qısaldılır.

Seyrək çətirli və birillik zoğların uzunluğu 30-45 sm olan sortlarda boyların 1/3 hissəsinin, daha çox uzun olanda isə yarısının qısaldılması vacibdir. Belə sortlarda çətirin seyrəldilməsi məsləhət görülmür. Birillik zoğların boyu çox uzun olanda isə yarısının qısaldılması vacibdir. Belə sortlarda çətirin seyrəldilməsi məsləhət görülmür. Birillik zoğların boyu çox zəif (10-15 sm) olan sortlarda yüngül cavanlaşdırıcı budama aparılır. Bu məqsədlə budaqlar 2-3 illik oduncağa kəsilir.

Boy tam dayanan dövrdə gilasın bütün sortlarının ağaclarında güclü cavanlaşdırıcı budama tətbiq edilir. Bu vaxt budaqlar, yaxşı inkişaf etmiş 3-4 illik yan budaqların oduncağına kəsilib kənar edilir.

Budama aparılmadığı üçün çox sıxlaşmış çətirə malik qocalmış gilas ağaclarında budama zamanı birinci, ikinci və üçüncü sıra skelet budaqlar üzərində olan quru, yarımquru, xəstə və sıxlıq əmələ gətirən bütün budaqlar kəsilib kənar edilir. Çox hündür ağaclarda çətir aşağı salınır və ağaclarda cavanlaşdırma işi aparılır.

Albalı ağaclarının formalaşdırılması və budanması. Boy və inkişafına, bar verməsinə görə albalı sortları ağacşəkilli və kolşəkilli sortlar qrupuna mənsubdur.

Ağacşəkilli albalı sortları boy artımına və bar verməsinə görə gilas sortlarına çox oxşar cəhətləri vardır. Bir qayda olaraq onlar dəstə meyvə budaqcıqlarında və az miqdarda cari ilin zoğlarında bar verirlər. Bu qrupa Mayduyuk, Muskatnaya, Anqliyskaya Rannyaya, Portuqalskaya, Kornasen və s. albalı sortları daxildir. Bu sortların ağaclarına verilən çətir forması və onların budanması gilas ağaclarında olduğu kimidir.

Kolşəkilli qrupa daxil olan sortlarda isə bar, əsasən birillik uzun zoğlar və həmçinin dəstə meyvə budaqcıqları üzərində əmələ gəlir. Belə sortlardan Anadolskaya, Podbelskaya, Qortenziya Rannyaya, Qortenziya Srednyaya, Vladimirskaya, Plodorodiye Miçurina və s. göstərmək olar. Bu qrupa daxil olan sortlarda zoğ əmələ gətirmə qabiliyyəti çox yüksəkdir. Lakin bunlarda dəstə meyvə budaqcıqların ömrü 3-5 il olur. Belə ki, çətir daxilində skelet budaqlarında olan meyvə budaqları tədricən tələf olurlar və nəticədə məhsul çətirin kənarındakı budaqlarda əmələ gəlməyə başlayır, çətirin ortası çılpaqlaşır və məhsuldarlıq kəskin şəkildə aşağı düşür.

Kolşəkilli albalı sortlarına əsasən mərtəbəsiz dəyişən liderli çətir formasının verilməsi məsləhətdir. Bundan başqa bu qrupa daxil olan sortların çətirlərinə seyrək kasaşəkilli forma da verilir.

Bu qrupun sortlarının birillik tingləri yaxşı şəraitdə becərildikdə əksər hallarda normal inkişaf etmiş zoğlara malik olur. Ona görə də çətirə forma verilməsinə onların bağa əkildiyi birinci ili başlamaq olar. Çətirə mərtəbəsiz forma vermək üçün birinci ili bir-birindən 20-25 sm aralı olan və müxtəlif tərəflərdə yerləşən iki ədəd birinci sıra skelet budaq saxlanılır. Gələcək ildə yenə də ştamb üzərində birinci sıra iki skelet budağı yaradılır. Həmin budaqlar birinci ili saxlanılmış skelet budaqlarına yanaşı yerləşdirilir. Bunlarla yanaşı hər bir birinci sıra skelet budaqları üzərində bir ədəd ikinci sıra budaq saxlanılır. Beləliklə, yuxarıda göstərilən miqdarda skelet budaqlarını gövdə üzərində düzgün yerləşdirməklə çox da hündür olmayan və sonrakı qulluq işləri aparmaq üçün münasib olan mərtəbəsiz çətirə malik ağaclar yetişdirilir.

Kolşəkilli qrupa daxil olan albalı sortları 3-4 yaşında bara düşürlər. Bu dövrdə onlar güclü boy atırlar. Ona görə də yığcam və sıx çətiri yaratmaq məqsədilə çoxlu miqdarda birillik zoğların əmələ gəlməsinə nail olmaq lazımdır. Bunun üçün hər il normal inkişaf edən zoğların uzunluğunun 1/3 hissəsi, daha uzun olanların isə yarısı qısaldılır. Həmçinin, sıx budaqlanan çətirə malik sortlarda bütün artıq budaqlar kəsilib kənar edilir.

Çox yaşlı, qocalmış albalı bitkilərində daha güclü cavanlaşdırıcı budamanın aparılması məsləhət görülür. Bu zaman budama aparılarkən budaqlar 4-5 illik sağlam oduncağa kəsilməlidir.

Şaftalı ağaclarının formalaşdırılması və budanması. Şaftalı formavermə və budamaya həssas bitkidir. Bioloji xüsusiyyətlərindən asılı olaraq, əksər şaftalı sortlarında, mərkəzdən çətirin kənarlarına doğru çılpaqlaşma baş verir və məhsul çətirin kənarlarında yaranır. Bu vaxt məhsul azalır və bitkinin zoğ bərpaetmə qabiliyyəti zəif olduğundan o, tezliklə yaşlaşır. Bunun qarşısını almaq üçün şaftalı bitkisində çətir daxili daim işıqla təmin olunmalıdır. Bu məqsədlə şaftalıya adi və ya yaxşılaşdırılmış kasaşəkilli çətir forması verilməlidir. Formaverici budama zamanı çətir daxilində sıxlıq yaradan zoğ və budaqlar kəsilib atılır. Bunun üçün normal budaqcıqların bir hissəsi əsasa yaxın olan iki vegetativ tumurcuğa kəsilir. Bunlardan əmələ gəlmiş iki zoğdan biri üzərində gələn il, sort xüsusiyyətindən asılı olaraq 6-8, digəri üzərində isə yenidən 2 tumurcuq saxlayıb yuxarı hissəsini kəsib atırlar. Birinci budaq məhsul, ikinci budaq isə yenə də iki boy zoğu verir. Yeni ildə, məhsul vermiş budaqcığı əsasından, digər iki budaqcıqdan birini yenə 6-8, digərini isə əvəzedici çilik üçün 2 tumurcuğa kəsilir. Nizamlayıcı budama üzümçülükdə tətbiq olunan əvəzedici çiliklə budamaya uyğundur. Çalışmaq lazımdır ki, məhsul üçün saxlanan budaq həmişə üst hissədə yerləşsin. Beləliklə, həm cavan və həm də yaşlı budaqların (çətirin üzərində olduğu kimi) mərkəzi həmişə boş qalır. Bu halda şaftalı uzun müddət və keyfiyyətli məhsul verir.

Cavan şaftalı ağaclarında yay budamasının da aparılması məsləhət görülür. Bu məqsədlə, çətirin əsas skelet budaqları, həmçinin onun daxili və aşağı hissəsinin üzərində olan sulu zoğlar (yəni yaşıl budama) kəsilib kənar edilir.

Bar verən şaftalı bağlarında hər il tələb olunan budamanın aparılmasına baxmayaraq, ağacların skelet budaqları tədricən çılpaqlaşır və böyümə prosesləri zəifləyir. Bunu nəzərə alaraq 7-8 yaşdan sonra ağaclarda hər il cavanlaşdırıcı budama aparılmalıdır. Bu məqsədlə 2-4 illik budaqlar dibindən kəsilib atılmalıdır. Ağaclar yaşa dolduqca (12-15 il) 4-5 və daha çox yaşlı budaqlar kəsilərək güclü budama aparılır. Bu cür budama aparılmış ağaclara yaxşı qulluq olunduqda çətir tezliklə bərpa edilir və bu əməliyyatdan sonra ikinci ili onların məhsuldarlığı artır.

Ərik ağaclarının formalaşdırılması və budanması. Ərik tez bar verən bitkidir. Bu bitki bağa əkildikdən 4-5 il sonra birinci məhsul verir.

Ərik ağacı adətən birillik budaqlarda məhsul verməyə başlayır və onların ömrü 4-6 il olur. Ərikdə məhsul qismən mahmız meyvə budaqcıqlar üzərində əmələ gəlir. Bu cür budaqların ömrü çox olmayıb, cəmi 2-4 il yaşayır. Yazda əkilən ərik ağaclarında formavermə işi əkindən dərhal sonra aparılır. Payızda əkilmiş ərik ağaclarına isə həmin dövrdə forma vermək məsləhət görülmür. Əgər bu əməliyyat əkindən sonra payızda aparılarsa, onda qış şaxtaları tərəfindən oduncağın zədələnməsi ehtimalı yarana bilər. Ona görə də payızda əkilən ərik ağaclarına, yazda

əkilən ağaclarda olduğu kimi, formaverməninvegetasiya dövrü başlanana qədər aparılması məsləhət görülür.

Ərik bitkisini formalaşdırmaq üçün üsullar çoxdur. Onlardan ən yaxşısı dəyişən liderli mərtəbəsiz formadır. Bu üsulda çətir bir-birindən 20-35 sm aralı olan 5-6 ədəd birinci sıra skelet budaqlarından yaradılır. Sonra onların üzərində bir-birindən və birinci sıra skelet budaqların əsasından 40-50 sm aralı həmin budaqların sağ və sol tərəfində ikinci sıra skelet budaqlar təşkil edilir.Üçüncü sıra budaqlar da müvafiq olaraq yuxarıda göstərilən qaydada formalaşdırılır.

Ərik ağacı tam bara düşdükdən sonra aparılan budamada əsas məqsəd skelet və yarımskelet budaqların üzərindəki qısa meyvə budaqcıqlarının fəaliyyətini hər il məhsul verməyə yönəltməkdən ibarətdir.

Hər il budama vaxtı ağacların yan budaqları çox qısaldılır, çətirin içərisinə gedən budaqlar isə seyrəldilir. 2-3 illik budaqlarda vaxtaşırı qısaltma aparılır. Bu əməliyyatın aparılma dərəcəsi ərik bitkisinin inkişaf etdiyi şəraitdən, onun sortundan və yaşından asılıdır.

Bar verən ərik bağlarında hər il budama aparılır. Ağacı budayan zaman qurumuş bütün budaqlar dibindən kəsilir, çox sıxlaşmış budaqlar seyrəldilir və zəif budaqlar isə meyvə budaqcıqları əmələ gətirmək məqsədilə sağlam tumurcuqlara kəsilir.

Ərik ağaclarında yay budaması da aparılır. Bu budama zoğların ikinci boy atdığı fazada, iyun ayının 10-dan başlayaraq 25-nə kimi olan dövrdə həyata keçirilir, bu yaşıl budama adlanır.

Yay budamasında da yaz budamasında olduğu kimi, birinci növbə çox sıx, qurumuş, xəstə, həmçinin çətirin daxilinə istiqamətlənməmiş bütün budaqlar kəsilib çıxarılır. Eyni zamanda cari ilin bütün yan budaqlarının ucları vurulur. Ancaq birinci, ikinci və üçüncü sıra normal inkişaf edən budaqları davam etdirən zoğların ucları isə vurulmur. Onlar gələn ilin yazında boyatmanın qüvvəsindən asılı olaraq uzunluqlarının 1/3-1/2 hissəsi qədər qısaldılır.

Aparılmış tədqiqat işlərinin yekunu olaraq belə bir nəticəyə gəlmək olar ki, gilas, albalı, şaftalı və ərik ağaclarının yuxarıda qeyd olunmuş texnologiyaya uyğun olaraq formalaşdırılması və budanması onların bağda dayanıqlığını, skelet və yarımskelet budaqların məhsul saxlama qabiliyyətini yüksəltməklə yanaşı, məhsuldarlığın artmasına öz müsbət təsirini göstərir. Bu da respublikamızda ərzaq bolluğunun yaradılmasına, daha doğrusu, ərzaq təhlükəsizliyinin təmin olunmasına və aqrar sahənin rəqabət qabiliyyətinin artırılmasına xidmət edir.

ƏDƏBİYYAT

1. Qurbanov İ.S., Əliyev V.M. və b. Azərbaycanda meyvəçiliyin müasir vəziyyəti və inkişaf perspektivləri. Azərbaycan Aqrar Elmi jurn., 2014, №3, s. 32-33.
2. Qurbanov İ.S., Əliyev V.M., Babayev B.G. Meyvəçilik, Bakı, 2009, s. 170-174.
3. Həsənov Z. M., Əliyev C. Meyvəçilik, Bakı, 2011, s. 364-374.
4. Березовский Г.А., Кузьменко М.С. Методические рекомендации по формированию плодовых деревьев в интенсивных садах Крыма. Симферополь, 1972, 24 с.
5. Джабаев Б.Р., Аширбеков И.М. Формирование и обрезка плодовых деревьев. Махачкала, 2002, 34 с.

И.С.Курбанов,
В.М.Алиев,
Т.Дж.Керимов,
Э.М.Ханкишиева

Технология формирования и обрезки косточковых плодовых культур

Резюме

В статье изложены инновационные технологии формирования и обрезки косточковых плодовых культур (черешни, вишни, персика и абрикоса) в интенсивных и суперинтенсивных садах.

Ключевые слова: плодовые культуры, черешня, вишня, персик, абрикос, формирование, обрезка.

I.S.Kurbanov,
V.M.Aliyev,
T.J.Kerimov,
E.M.Khankishiyeva

The technology of forming and pruning of stony fruits

Summary

In the article if is given the information about the technology of forming and pruning of stony fruits.

Key words: an orchard, the sorts of the stone fruits: cherry, sourcherry, peach and apricot, forming and pruning of the trees.

İradə Şəvahət qızı ƏLİYEVA
böyük elmi işçi
Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu

POMİDOR SORTNÜMUNƏLƏRİNİN BİOLOJİ VƏ TƏSƏRRÜFAT ƏHƏMİYYƏTLİ ƏLAMƏTLƏRİNİN ÖYRƏNİLMƏSİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Məqalədə müxtəlif coğrafi mənşəyə malik sortnümunələrinin biomorfoloji əlamətlərinin və keyfiyyət xüsusiyyətlərinin öyrənilməsindən bəhs olunur. Göstərilən əlamətlərə görə yüksək məhsuldar keyfiyyətli sortnümunələr seçilmiş və onlar üzərində tədqiqat davam edir.

Açar sözlər: seleksiya, sort, hibrid, seçmə, mənşə, pitomnik, bioloji göstəricilər.

***

Azərbaycan elminin özünəməxsus zəngin tarixi var. Zaman-zaman bu torpaqda yetişib ondan güc alan, öz görkəmli kəşfləri, ixtiraları, tədqiqatları ilə dünya elminə töhfələr verən alimlərimiz XX əsrdə aqrar sahədə də az uğur qazanmamışlar.

Milli istiqlal qazanmış xalqımız öz elminin və mədəniyyətinin səviyyəsi ilə dünya xalqlarının rəğbətinə nail oldu. Bu sahədəki minillik ənənələrimiz, tarixi milli yaddaşımız 70-ci illərdə Heydər Əliyevin simasında öz himayədarını tapdı. Məhz bu illərdə Azərbaycanda təhsil, elm və mədəniyyətin intibah illəri oldu. Bizim elmimiz - həm akademiya, həm də aqrar elm 70-ci illərdə dünya elminin ən aparıcı istiqamətlərində tədqiqatlar apardı, görkəmli nəticələr əldə etdi.

Müasir kənd təsərrüfatı həddindən artıq fundamental elmə, həmçinin öncül elmi-texniki işləmələrə söykənir. İndi ölkəmizin kənd təsərrüfatı bazar rəqabəti, əhalinin artan tələbatı, təbii fəlakət, ətraf mühitin çirklənməsi və yeni texnologiyaların meydana çıxması kimi müxtəlif amillərin daimi təsiri şəraitində inkişaf edir. Bütün bunlar kənd təsərrüfatının metod və avadanlıqlar arsenalının daimi təzələnməsi məqsədi ilə fermerlərin alim-tədqiqatçılarla sıx əməkdaşlığını zəruri edir. Daha sadə dildə desək, Elmi-Tədqiqat İnstitutları, tədqiqatçılar fundamental elmlə tətbiqi elmin əlaqəsini qurmaqla məhz fermerə, sahibkara lazım olan sahə üzrə, onun təşkil etdiyi istehsalın səmərəliliyinin konkret problemi üzərində işləməlidir. Bu zaman dünya təcrübəsi yaddan çıxmamalı, beynəlxalq elm mərkəzləri və dünya alimləri ilə qarşılıqlı əlaqələr yaratmalı, alim və mütəxəssislər yüksək öncül problemlərə və bəzi regional tədqiqat fəaliyyətinə ciddi fikir verməli, qrantlar üçün nəzərdə tutulan beynəlxalq fondlardan istifadə etməyə çalışmalıdırlar [1, səh. 58].

Bazar münasibətləri şəraitində dövlətin iqtisadi siyasətinin əsas istiqamətləri iqtisadiyyatın dövlət tənzimlənməsinin səmərəli mexanizminin formalaşması ilə sıx bağlıdır. Bu baxımdan dövlətin qlobal və strateji iqtisadi məqsədlərə nail olması, iqtisadi təhlükəsizliyin təmin edilməsi məqsədilə iqtisadi siyasətin formalaşdırılması məqsədəuyğun hesab edilir.

Bütün bunları nəzərə alıb aşağıdakı istiqamətlərdə kompleks tədbirlər yerinə yetirilməlidir: sahibkarlığın inkişafı üçün hüquqi və iqtisadi baza yaradılmalı; struktur siyasəti təkmilləşdirilməli; bank-maliyyə, vergi, kredit, investisiya siyasəti formalaşdırılmalı; aqrar -sənaye istehsalının dövlət tənzimlənməsinin iqtisadi mexanizmi yaradılmalıdır.

Bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatı qarşısında duran ümdə vəzifələrdən biri də respublika əhalisini bol və keyfiyyətli ərzaqla, sənayeni isə xammalla təmin etməkdən ibarətdir. Elə buna görə də Müstəqil Azərbaycan dövlətinin ərzaq təhlükəsizliyinin təmin edilməsi və aqrar sahənin yüksəldilməsi problemlərini aradan qaldırmaq üçün tərəvəz bitkilərinin, o cümlədən əsas (prioritet) bitki olan pomidorun sortnümunələrinin qiymətli-təsərrüfat əhəmiyyətli əlamətlərini öyrənmək, qiymətləndirmək, seçilmiş perspektiv sortları Dövlət Xidmətinə təqdim etmək və istehsalata tətbiq etmək lazımdır.

Pomidorun bioloji aktiv maddələrlə zəngin olması, qidalanmada əhəmiyyətini olduqca artırır. Tam yetişmiş meyvələrdə quru maddə 4-8%, şəkər 3-4%, 1%-ə qədər alma və limon turşuları, zülal 0,6-0,8%, pektin maddələri 0,13% və 0,6% mineral maddələr vardır. Hər 100 q meyvədə orta hesabla 4 mq natrium, 268 mq kalium, 11 mq kalsium, 12 mq maqnezium, 0,6 mq dəmir, 0,27 mq fosfor, 0,097 mq mis və digər maddələr vardır. Meyvələr həmçinin B_1, B_2, B_3, PP, C, A və digər vitaminlərlə zəngindir [2, səh. 9].

Tədqiqat işi 2016-2017-ci illərdə Abşeron bölgəsində yerləşən Tərəvəzçilik Elmi - Tədqiqat İnstitutunun Yardımçı Təcrübə Təsərrüfatının sahəsində aparılmışdır. Tədqiqat üçün material TETİ-nin genofondundan götürülmüş sortnümunələrdən, hibridlərdən, rayonlaşmış sortlardan, Ümumrusiya Bitkiçilik İnstitutundan və Kənd Təsərrüfatı Sərgisindən gətirilmiş kolleksiya nümunələrindən ibarət olmuşdur.

Cədvəl 1

Başlanğıc material pitomnikinin kolleksiya sahəsində olan sortnümunələrin qiymətli təsərrüfat əlamətləri (2016-2017-ci illər)

Sıra nömrəsi	TETİ-nin kataloq nömrəsi	Bir bitkidən alınan məhsul, kq-la	Meyvənin kütləsi, q-la	Quru maddə, %-lə	Nitrat, mq/kq	Vegetasiya müddəti, günlə
1	Elim (nəzarət)	0,5	115,0	5,1	64,0	112
2	Zərrabi (nəzarət)	0,5	180,0	5,0	52,0	113
3	122	0,5	106,0	5,6	88,3	112
4	124	0,4	130,0	6,2	88,6	112
5	125	0,4	90,6	4,8	99,6	112
6	127	0,6	133,0	4,5	63,0	113
7	132	0,4	94,3	4,4	110,0	112
8	133	0,5	77,5	4,3	98,6	112
9	136	0,7	76,2	3,6	47,9	112
10	136/A	0,5	294,0	5,2	101,6	112
11	137	0,5	97,5	4,2	137,0	112
12	138	0,5	137,5	5,7	4,3	110
13	144	0,6	47,0	4,8	77,0	112
14	145	0,7	10,0	5,9	101,0	113
15	146	0,4	22,8	4,5	109,0	112
16	147	0,8	74,4	5,0	83,3	111
17	148	0,5	118,0	5,2	86,0	111
18	149	1,0	10,7	4,0	75,0	112
19	150	1,3	10,4	4,9	109,3	112
20	151	1,1	17,0	4,9	92,3	111
21	152	0,5	120,0	5,0	68,0	112

Təcrübə başlanğıc material pitomnikinin kolleksiya sahəsində və seleksiya pitomnikində qoyulmuşdur. Tədqiqatda 27 sortnümunə əkilmişdir. Elmi-tədqiqat işinin əsas məqsədi müxtəlif coğrafi mənşəli sortnümunələrin yerli şəraitə uyğun qiymətli-təsərrüfat əhəmiyyətli əlamətlərinə, keyfiyyət göstəricilərinə və abiotik amillərə qarşı davamlı sortların seçilərək Az.KT Nazirliyi yanında Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmətinə təqdim etməkdən ibarətdir. Başlanğıc material pitomnikinin kolleksiya sahəsində sortnümunələr öyrənilmiş və ən perspektivliləri seçilmişdir.

Kolleksiya sahəsində sortnümunələr təkrarsız yerləşdirilmiş və nəzarət olaraq Elim və Zərrabi sortlarından istifadə olunmuşdur [3, səh.4] .

Cədvəl 1-dən göründüyü kimi, vegetasiya dövrünün uzunluğuna görə sortnümunələr ortayetişən qrupa daxil olmuşdur. Belə ki, çıxışdan sonuncu yığıma qədər 110-113 gün, nəzarət sortlarda isə 112-113 gün olmuşdur. Qiymətli-təsərrüfat xüsusiyyətlərinə görə bir bitkidən alınan məhsul kolleksiya nümunələrində 0,4-0,8 kq, nəzarət sortlarda isə 0,5 kq arasında olmuşdur. Quru maddənin miqdarı sortnümunələrdə 3,6-6,2 %, nəzarət sortlarda isə 5,0-5,1 % olmuşdur. Pomidor bitkisində norma 150 mq/kq olduğu halda, sortnümunələrdə nitratın miqdarı orta hesabla 4,3-119,0 mq/kq arasında dəyişmişdir. Ən aşağı göstərici 138 nömrəli nümunədə olmuşdur (4,3 mq/kq). Meyvənin kütləsi sortnümunələrdə 10,0-294,0 q, nəzarət sortlarda 115,0-180,0 q olmuşdur.

Beləliklə, sortnümunələrin bəziləri (150, 149, 151, 136, 147, 145, 144, 132) qiymətli təsərrüfat göstəricilərinə görə fərqlənmiş və seçilmişdir. Xüsusən də sərgidən gətirilmiş nümunələr (149, 150, 151) həm məhsuldarlıq, həm də görünüş etibarı ilə çox fərqlənmişlər. Meyvənin iriliyinə görə ən iri meyvə 136/A,127,138 nömrəli sortnümunələr (133,0-214,0 q) qalan sortnümunələrdən fərqlənmişdir.

Cədvəl 2

Seleksiya pitomnikinin kolleksiya sahəsində olan sortnümunələrin qiymətli-təsərrüfat əlamətləri (2016-2017-ci illər)

TETİ-nin kataloq nömrəsi	Ümumi məhsul, sen/ha	Əmtəəlik məhsul, sen/ha	Əmtəəlik məhsul, %-lə	Nəzarətə görə, %-lə	Meyvənin kütləsi, q-la	Quru maddə, %-lə	Nitrat mq/kq-la	Vegetasiya müddəti, günlə
Yubiley-60 (nəz)	302,6	310,6	102,6	100,0	105,0	5,2	85,4	111
114	391,0	348,5	89,1	129,2	152,0	4,2	82,6	113
116	463,0	450,5	97,3	153,0	92,0	4,1	77,3	113
119	464,5	417,4	89,8	153,5	109,0	4,0	87,3	112
120	326,5	301,0	92,2	107,9	56,0	4,0	91,6	113
121	345,5	294,6	85,2	114,2	115,0	5,4	78,6	113

Fenoloji müşahidələrin nəticələrinə görə sortnümunələr bir-birindən az fərqlənmişdir. Belə ki, sortnümunələr yetişkənliyinə görə 112-113 gün olmaqla, ortayetişən qrupa daxil olmuşdur. Nəzarət Yubiley-60 sortunda isə vegetasiya müddətinin uzunluğu 111 gün olmuşdur. Qiymətli-təsərrüfat əhəmiyyətli əlamətlərinə görə sortnümunələrdə və hibridlərdə məhsuldarlıq ötən illərə nisbətən az müşahidə olunmuşdur. Belə ki, ümumi məhsuldarlıq sortnümunələrdə 326,5-464,5 sen/ha, nəzarətdə isə 302,6 sen/ha olmaqla, seleksiya nümunələrindən aşağı olmuşdur. Ümumi məhsuldarlıq ən yüksək 116 və 119 nömrəli nümunələrdə olmuşdur. Meyvənin kütləsi sotnümunələrdə 92,0-152,0 q, nəzarətdə isə 105,0 q olmuşdur. Ən iri meyvəli 114 nömrəli hibrid nəsildə olmuşdur.

Quru maddənin miqdarı sortnümunələrdə 4,0-5,4 %, nəzarətdə isə 5,2 % arasında olmuşdur. Nitratın miqdarı sortnümunələrdə 77,3-91,6 mq/kq, nəzarət Yubiley-60 sortunda isə 85,4 mq/kq olmaqla, normadan aşağı olmuşdur.

Nəticə

Aparılan ikillik (2016-2017-ci illər) tədqiqat işlərindən belə nəticəyə gəlmək olar ki, Abşeron şəraitində başlanğıc material pitomnikinin kolleksiya sahəsində sınaqdan keçirilən sortnümunələr yetişkənliyinə görə ortayetişən qrupa daxil olmuşdur.

Bir bitkidən alınan məhsul Kənd Təsərrüfatı Sərgisindən gətirilmiş kolleksiya nümunələrində (149, 150, 151) 1,0-1,3 kq olmaqla, digər sortnümunələrdən və nəzarət sortlardan üstün olmuşdur.

Seleksiya pitomnikində də ikillik tədqiqat işlərinin nəticələrinə görə sınaqda olan sortnümunələr arasında qiymətli-təsərrüfat əlamətlərinə görə 116 və 119 nömrəli sortnümunələr seçilmişlər.

Bir meyvənin kütləsinə görə hər iki pitomnikdə ən iri meyvəli 136/A və 114 nömrəli sortnümunələrdə olmuşdur.

ƏDƏBİYYAT

1. X.T.Abdullayeva, İ.Ş.Əliyeva. Abşeron şəraitində pomidorun sortnümunələrinin qiymətli-təsərrüfat xüsusiyyətləri. Tərəvəzçiliyin inkişaf etdirilməsində elmin mütərəqqi rolu. Bakı-«Qanun», 2008. s. 58.
2. Ə.H.Babayev. Azərbaycanda pomidorun müasir metodlar əsasında seleksiyası. «Qanun» nəşriyyatı. Bakı, 2007. s. 9-10.
3. Azərbaycan Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun tərəvəz, bostan və kartof bitkilərinin rayonlaşmış və perspektiv sortlarının kataloqu. Bakı, 2012. s. 4-5, 12-23.

Ирада Шахават кызы Алиева
Научно-Исследовательский
Институт Овощеводства

Изучение и оценка значения биологических и хозяйственных признаков сортообразцов томатов

Резюме

В статье говорится о биоморфологических признаках и особенностях качества сортообразцов томат различного географического происхождения. По указанным признакам выделены высокопродуктивные сортообразцы и над ними продолжаются исследования.

Ключевые слова: селекция, сорт, гибрид, отбор, происхождения, питомник, биологические свойства.

İrade Shahavat Aliyeva
Vegetable Scientific Research Institute

Studying and assessment of the biological and economical features of tomato varieties

Summary

This article is about studying the biomorphological features and qualitative signs. On the indicated signs high productive qualitative varieties was selected and researches is continuing.

Key words: selection, variety, hybrid, origin, nursery, biological properties.

İsmayıl Rza oğlu NƏBİYEV
Texniki bitkilərin aqrotexnikası şöbəsinin böyük elmi işçisi,
Lalə Rasim qızı HÜSEYNOVA
dissertant
Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu

BİTKİ SIXLIĞININ GÜNƏBAXAN BİTKİSİNİN İNKİŞAFINA VƏ MƏHSULDARLIĞINA TƏSİRİ

Xülasə

Aparılmış 3 illik tədqiqatın nəticəsinə əsasən Gəncə-Qazax bölgəsi günəbaxan əkini üçün çox əlverişlidir. Bu bölgə üçün günəbaxan əkinində 70x35-1əkin sxemi, yəni 1 hektara 41 min bitki tövsiyə edilir.

Açar sözlər: günəbaxan, bitki sıxlığı, məhsuldarlıq, vegetasiya müddəti, inkişaf fazaları, effektiv temperatur, maya dəyəri, rentabellik, becərmə, aqrotexnika, səbət, çıxış, bitki.

***

Respublikada əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair dövlət proqramında yağlı bitkilərin əkin sahələrinin artırılması qarşıya məqsəd qoyulmuşdur. Eynilə az əmək tələb edən yağlı bitki olan günəbaxan bitkisinin əkin sahələrinin genişləndirilməsi və məhsuldarlığının artırılması da nəzərdə tutulmuşdur. Statistik məlumatlara əsasən respublikamızda istehsal olunan günəbaxan bitkisinin əkin sahələrinin 50%-i qərb bölgəsinə düşür. Ona görə də qiymətli ərzaq bitkisi kimi əhəmiyyətini nəzərə alaraq Gəncə-Qazax bölgəsində günəbaxan bitkisinin optimal becərmə aqrotexnologiyasının öyrənilməsi elmi axtarış kimi qarşıya qoyulmuşdur [1, səh. 25].

Təcrübə 2015-2017-ci illərdə VNİİMK-8883 günəbaxan sortunun 70x20-1, 70x30-1 və 70x40-1 sxemində 3 variantda və 4 təkrarda qoyulmuşdur. Təcrübə ləkləri hər lək üçün eni 2,8 metr, uzunluğu 90 metr olmaqla 252 m^2 təşkil edir. Cəmi təcrübənin ümumi sahəsi 12 lək olmaqla 3024 m^2-ə bərabər olmuşdur.

Təcrübə Gəncə RAEİMM-nin təcrübə sahələrində aparılmışdır.

Təcrübənin aparılmasında əsas məqsəd, vahid sahədən çox və keyfiyyətli məhsul alınmasına şərait yaradan optimal bitki sıxlığını müəyyən edib kəndli-fermer təsərrüfatlarına tövsiyə verməkdir.

Günəbaxan üçün ən yaxşı sələf payızlıq və yazlıq dənli taxıl bitkiləri, dənlik və silosluq qarğıdalıdır. Günəbaxan özü yazlıq buğda, vələmir, arpa və digər yazlıq taxıllar üçün yaxşı sələfdir. Günəbaxan növbəli əkində öz yerinə 8-10 ildən sonra qaytarılmalıdır. Əgər tez qaytarılarsa xəstəlik və zərərvericilərin yayılmasına səbəb olur [2, səh. 215].

Qranulometrik tərkibi yüngül olan münbit torpaqlarda günəbaxan yaxşı məhsul verir. Bataqlıq, qumlu və turş torpaqlardan başqa qalan torpaqlarda yüksək aqrotexnika tətbiq etməklə günəbaxandan yüksək məhsul götürmək olar [3, səh.168].

Günəbaxan üçün bitki sıxlığı 30 mindən aşağı və 70 mindən yuxarı həddi özünü doğrultmur [4, səh. 335]. Vahid sahədən çox və keyfiyyətli məhsul alınmasına şərait yaradan bitki sıxlığının düzgün müəyyən edilməsi- bitkilərin qida sahəsinə, torpaqda olan nəmlik ehtiyatının yaradılmasına və bitkilərin günəş enerjisi ilə maksimum təmin edilməsinə çox böyük təsiri olur. Bitki sıxlığı torpaq iqlim şəraitindən asılı olaraq müxtəlif ola bilər. Yəni bitki sıxlığı Rusiyada 40-42 min, Ukraynada 50-55 min təşkil edir. Vahid sahədə becərilən bitkilərin miqdarı (bitki sıxlığı) sortun öz xüsusiyyətindən və bölgənin torpaq-iqlim şəraitindən asılıdır. Bitki sıxlığının düzgün müəyyən edilməsi yüksək məhsul əldə edilməsinin əsasını təşkil edir [5, səh. 308].

1 saylı cədvəldə 2015-2017-ci illərdə günəbaxanın orta çıxış dinamikası göstərilmişdir.

Günəbaxan səpindən tam yetişməsinə qədər inkişafında 5 inkişaf fazası keçirir: 1-çıxış, 2-birinci cüt həqiqi yarpaqların əmələ gəlməsi, 3-qönçələmə, 4-çiçəkləmə, 5-yetişmə fazası.

2 saylı cədvəldə günəbaxan bitkisinin təsərrüfat qiymətli göstəriciləri verilmişdir.

Cədvəl 1

Səpin müddəti	Çıxışın alınma tarixi		2 xətti metrdə çıxışa qədər günlərin sayı	Səpindən 50% dən yuxarı çıxışa qədər günlərin sayı	Səpindən 50% dən yuxarı çıxışa qədər effektiv temperatur C^0
	ilk	50%-dən yuxarı			
8.IV	17.IV	23.IV	13	15	128

Cədvəl 2

2015-2017-ci illər (orta)

Variant	Bitkinin hüdürlüyü	Bitki sıxlığı		Bir səbətdə olan dənin çəkisi	Səbətlərin diametri	Məhsuldarlıq
		Faktiki	nəzəri			
	sm	min/ədəd		qr	sm	sen
I	182	67,0	71,4	43	19,49	28,81
II	179	43,7	47,5	71	20,53	31,02
III	178	33,7	35,7	98	21,68	33,03

Göründüyü kimi, ən yüksək məhsuldarlıq III variantda olmuşdur - 33,03 sen. Həmçinin bitkinin təsərrüfat qiymətli göstəriciləri də ən yaxşı III variantda olmuşdur.

3 saylı cədvəldə isə VNİİMK-8883 günəbaxan sortunun iqtisadi göstəriciləri göstərilmişdir.

Cədvəl 3

2015-2017-ci illər (orta)

Variant	Məhsuldarlıq	Maya dəyəri	Ümumi gəlir	Bir sentnerin maya dəyəri	Xalis gəlir	Rentabellik
	sen	man	man	man	man	%
I	28,81	658	1728	22,83	1070	162
II	31,02	658	1861	21,21	1203	183
III	33,03	658	1981	19,92	1323	201

Cədvəldən göründüyü kimi, ən yüksək iqtisadi göstəricilər III variantda olmuşdur. Yəni 70x40-1 əkin sxemində. Xalis gəlir I variantda 1070 man, II variantda 1203 man, III variantda 1323 man təşkil etmişdir. Həmçinin rentabellik variantlar üzrə 162%, 183% və 201% olmuşdur.

Tədqiqat aparılan illərdə hər il üçün B.A.Dospexovun metoduna əsasən riyazi təhlillər aparılmış, təcrübənin dəqiqliyi müəyyən edilmiş və nəticədə təcrübə etibarlı alınmışdır [6, səh. 251].

Beləliklə, üç ildə aparılmış tədqiqatlara əsasən aşağıdakı nəticələr alınmışdır.

1. Gəncə-Qazax bölgəsi günəbaxan əkini üçün çox əlverişli və rentabelli sahədir.
2. Günəbaxan əkinində aqrotexniki qaydalara riayət etməklə bir hektardan 35-40 sen məhsul almaq olar.
3. Gəncə-Qazax bölgəsində günəbaxan əkinində 70x35-1 əkin sxemi tövsiyə edilir, yəni 1 hektarda 41 min bitki olmalıdır.

ƏDƏBİYYAT

1. «2008-2015 ci illərdə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı». Bakı, 2008, səh. 61.
2. H.S. Hümbətov, X.Q Xəlilov. Texniki bitkilər, Bakı "Aytac", 2010, səh. 415.
3. M.Yusifov. Bitkiçilik, Bakı, 2011, səh. 368.
4. Q.Məmmədov, M. İsmayılov. Bitkiçilik, Bakı, 2012, səh. 365.
5. ww.aqromage. com.ctatid.phpia-401.
6. Б.А.Доспехов. Методика полевых и вегетационных опытов с хлопчатником, Ташкент, 1973, стр. 351.

Исмаил Рза оглы Набиев
старший научный сотрудник,
Лала Расим кызы Гусейнова
диссертант
Научно-Иследовательский Институт Защиты
Растений и Технических Культур

Влияние густоты стояния растений на развитие и урожайность подсолнечника

Резюме

На основании результатов исследований, проводимых в течение 3-х лет, Гянджа-Казахская зона является очень выгодной зоной для выращивания подсолнечника. Для этой зоны рекомендуется схема посева семян 70 х 35 х 1 растение, т.е. 41 тыс. растений на 1 га.

Ключевые слова: подсолнечник, густота стояния, урожайность, вегетационный период, фазы развития, эффективная температура, себестоимость, рентабельность, выращивание, агротехника, корзина, всходы, растение.

Ismayil Rza Nabiyev
senior researcher,
Lala Rasim Guseynova
candidate for a degree
Plant Protection and Technical Crops
Scientific Research Institute

Influence of plant density on the development and yield of sunflower

Summary

Based on the results of the research conducted during 3 years, the Ganja-Kazakh zone is a very profitable zone for growing sunflower. For this zone, a seed sowing scheme of 70 x 35 x 1 plant is recommended, i.e. 41 thousand plants per 1 hectare.

Key words: sunflower, plant density, yield, vegetation period, development phases, effective temperature, cost, profitability, cultivation, agrotechnics, basket, shoots, plant.

Kamil Arif oğlu İSMAYILOV
b.e.n., dosent,

Aysel Nizami qızı HÜSEYNOVA
magistr
Azərbaycan Kooperasiya Universiteti

BUĞDADA KİMYƏVİ VƏ FİZİKİ GÖSTƏRİCİLƏRİN ŞƏRAİTDƏN ASILI OLARAQ DƏYİŞMƏSİ

Xülasə

Buğda dəni hüceyrələrinə və ümumiyyətlə onun həyat fəaliyyətinə təsir edən ekzogen və endogen faktorların öyrənilməsinə böyük diqqət yetirilir. Bu sahədə buğdanın seleksiyası və digər xüsusiyyətləri ilə məşğul olan tədqiqatçıların səyi nəticəsində yüksək məhsullu buğda sortlarının alınmasına baxmayaraq, ondan hasil edilən xammal və çörəkbişirmədə texnoloji sxemlərin və texnoloji emal prosesinin gedişinə təsir edən amillərin öyrənilməsi mühüm və vacib məsələlərdən biri kimi qalmaqdadır.

Açar sözlər: buğda, zülal, nişasta, fiziki və kimyəvi göstəricilər.

***

Müəyyən edilmişdir ki, buğda dəninin kimyəvi tərkibi onun bioloji qidalılıq dəyəri, çörəkbişirmədəki texnoloji xüsusiyyətləri, buğdanın sortundan, becərilmə xüsusiyyətindən, torpaq-iqlim şəraitindən və digər faktorlardan asılıdır. Buna görə kütləvi qida məhsulu sayılan çörək və çörək-bulka məmulatlarının daha geniş çeşidlərini yaratmaq məqsədilə yeni buğda sortlarının öyrənilməsi nöqteyi-nəzərindən introduksiya olunmuş buğdaların tədqiqinə geniş fikir verilməsi və bu sahəyə diqqətin artırılması mühüm şərt kimi qarşıya çıxır.

Əldə olan məlumatlara əsasən buğda dənlərinin tam yetişmə fazasında dən kütləsinin azalması müşahidə edilir ki, bu da əvvəlki fazalarda toplanan quru maddələrin bir hissəsinin tənəffüs prosesinə sərf olunması ilə izah edilir.

Nəm havalarda bu itki 20-30%-ə qədər çata bilir ki, bu da öz növbəsində ümumi məhsuldarlığın aşağı düşməsinə gətirib çıxarır. Arpa ilə təcrübə zamanı tam yetişmə dövründən bir həftə sonra 1000 dənin çəkisi 29,8-dən 26,3 qrama qədər azalmış, ümumi məhsuldarlıq isə bir hektardan 22,9-dan 18,4 sentnerə enmişdir [1, səh. 151].

Dəndə zülalın, nişastanın yetişmə dövrlərində toplanması mühüm proseslərdən biridir.

Bu mərhələlərdə suda həll olan sulu karbonların və qeyri-zülali azotun, amin turşularının intensiv surətdə vegetativ orqanlardan generativ orqanlara axını başlayır, bu da öz növbəsində dəndə nişasta və zülalın sintezi üçün sərf edilir.

Dənin ilk yetişmə mərhələlərində əksər halda zülalların sintezi üstünlük təşkil edir. Nişastanın sintezi isə qismən zəif olur. Sonrakı mərhələlərdə bu birləşmələrin sintezi stabilləşir və hər ikisi, demək olar ki, bərabərləşir [2, səh. 28-29].

Alimlərin təcrübələrində Azərbaycanın bəzi bərk buğda sortlarının texnoloji xüsusiyyətlərinə biçim müddətlərinin təsiri məsələsinə dair tədqiqat işində daha yaxşı texnoloji xüsusiyyətə malik olan dənin alınmasında hansı biçim müddətinin əlverişli olduğunu müəyyən etmək mümkün olmuşdur.

Məlum olmuşdur ki, tədqiq olunan nümunələrdən 1000 ədəd dənin çəkisi, dənin şüşəvariliyi, kleykovinanın (quru və yaş halda) miqdarı və keyfiyyəti (elastikliyi, dartılma qabiliyyəti), ümumi azotun miqdarı, dənin və unun nəmliyi və başqa göstəriciləri buğda dənlərinin mum yetişmə və tam yetişmə fazalarında müşahidə olunur [3, səh. 275].

Alimlər öz işlərində dəmyə və suvarma şəraitində yetişdirilən sünbülün müxtəlif hissələrində yerləşən buğda dəninin keyfiyyətini öyrənmişlər. Onlar müəyyən etmişlər ki, istər dəmyə və ya istərsə də suvarılan sahədən götürülmüş sünbüllərin yuxarı və aşağı hissəsinə nisbətən orta hissəsində dənlər keyfiyyətli olur. Bu hissədə yerləşən dənlərin natura çəkisi, 1000 ədəd dənin çəkisi başqa hissələrdə yerləşən dənlərdən artıq olmuşdur.

Bəzi alimlərin məlumatlarına görə, yaxşı çörəkbişirmə keyfiyyətinə malik olan buğda dənlərində kleykovinanın keyfiyyətinə və miqdarına gənələrin çox mənfi təsiri vardır. Ən çox buğdaya onların ziyanı bitkilərin süd yetişmə dövründə olur. Mum yetişmə dövründə qismən ziyan vurulur ki, bu da texnoloji proseslərin gedişinə mənfi təsir göstərir. Çörəyin çıxım həcmi çox kiçik olub, hətta forma-qəliblər daxilində belə çörəyin həcmi kiçilir - belə undan hazırlanan xəmir forma saxlama qabiliyyətinə malik ola bilir. Axıcı olub, qazsaxlama xassəsi də qeyri-kafi olur.

Fermentlərin təsirindən onların təsir gücü o qədər nəzərə çarpır ki, azotlu maddələrin yarıdan çoxu kiçik molekullu birləşmələrə çevrilir.

Kleykovinanın əmələ gəlməsində iştirak edən zülallar, hidrolitik olaraq yüksək temperaturlara qarşı həssas olurlar. Hətta dənin qurudulması üçün işlənən temperatur (48-50°C) kleykovina çıxımının azalmasına gətirib çıxarır. Yuxarıda qeyd etdiyimiz kimi, torpaq-iqlim şəraiti taxıl bitkilərinin dənlərinin keyfiyyətinə müəyyən mənada çox böyük təsir göstərir. İqlim şəraitinin və torpaq tipinin bitkilərin inkişafına böyük təsirinə baxmayaraq bitkilərin qidalanması üçün əlavə gübrələrin verilməsi də vacib şərtlərdən biridir. Üzvi və mineral gübrələrin təsirindən bu taxıllarda yüksək məhsuldarlıqla bərabər dən keyfiyyətinin yaxşılaşdırılması, onların tərkibində zülal, nişasta, şəkər və digər birləşmələrin artması müşahidə edilir. Belə dənlərdən alınmış un və ondan hazırlanan xəmir əla keyfiyyətli olub, qatılması zamanı yaxşı boşaldılma xassəsinə malik olur.

Məlumdur ki, yaxşı dad və keyfiyyətə malik çörəyin alınması üçün çörək bişirilməmişdən əvvəl xəmir yumşaldılmalı və boşaldılmalıdır. Bunun da üç üsulu: biokimyəvi, kimyəvi və mexaniki üsulları mövcuddur.

Biokimyəvi üsulun mahiyyəti ondan ibarətdir ki, xəmirə maya göbələkləri daxil edilir və bunlar şəkəri spirt və karbon qazına qədər qıcqırdırlar.

$$C_6H_{12}O_6 = 2C_2H_5OH + 2CO_2$$

Biokimyəvi üsul ən geniş yayılmış üsullardan olub, keyfiyyətli buğda unlarından yaxşı mənada çörəkbişirmədə hasil edilən məhsulların alınmasında işlədilir.

ƏDƏBİYYAT

1. Əliyev M.T., Musayev N.X. Taxıl, un qənnadı məhsullarının əmtəəşünaslığı və keyfiyyətinin ekspertizası. Bakı, 1999, 532 s.
2. Андреев О.Б. Минеральная ценность хлеба. Киев, «Зерно и хлеб», 2000, №3, с. 28-29.
3. Ауэрман Л.Я. Технология хлебопекарного производства. 2002, 416 с.

Камиль Ариф оглы Исмаилов
к.б.н., доцент,

Айсель Низами кызы Гусеинова
магистр
Азербайджанский Университет Кооперации

Изменение зерна под воздействием условий физических и химических показателей

Резюме

Большое внимание уделяется на изучение экзогенных и эндогенных факторов, которые влияют на общую жизнедеятельность клеток зерна. Не смотря на получение высокоурожайных сортов пшеницы на основе усилий исследователей, занимающиеся селекцией зерна и другими ее свойствами, изучение факторов, влияющих на технологические схемы и технологические процессы производства, используемые при извлечение из него сырья и во время выпечки, по-прежнему остается одним из важным и главным вопросом.

Ключевые слова: зерно, белок, крахмал, химические и физические показатели.

Kamil Arif Ismayilov
c.b.s., docent,

Aysel Nizami Huseynova
master
Azerbaijan Cooperation University

Changing of the chemical and physical prescriptions in the wheat related to the condition

Summary

It has been noticed the study of the exogenous and endogenous factors that impact the cells of the grains and its life activity. As a result of the efforts of the researchers engaged in the selection of the wheat and other features, although the extraction of the sort of the wheat, the study of the raw materials extracted from it, technological schemes at the baking and the factors that impact on the process of technological processing remain as one of the main and important issues.

Key words: wheat, protein, starch, physical and chemical features.

Kamil Arif oğlu İSMAYILOV
b.e.n., dosent,
Könül Cümşüd qızı HÜSEYNOVA
magistr
Azərbaycan Kooperasiya Universiteti

TƏRƏVƏZ KONSERVLƏRİNİN KEYFİYYƏTİNİ FORMALAŞDIRAN AMİLLƏR

Xülasə

İnsanların qidalanmasında meyvə-tərəvəz və onların məhsulları əsas yer tutur. Müxtəlif bitki mənşəli məhsulların düzgün seçilməsi və onlardan hazırlanan məmulatlar orqanizmi karbohidratlar, vitaminlər, mineral maddələr və bir çox bioloji fəal maddələrlə təmin edir. Müasir dövrdə hər bir adam vitaminlərin orqanizm üçün əhəmiyyətini yaxşı başa düşür və artıq bir çox xəstəliklərin profilaktikasında və müalicəsində vitaminlərdən istifadə olunur. Lakin bir cəhəti yadda saxlamaq lazımdır ki, elmə məlum olan bir çox vitamin və vitaminəbənzər maddələr təbii halda meyvə-tərəvəz və göyərtilərin tərkibində olur. Odur ki, hər gün insan müəyyən miqdarda təzə və konservləşdirilmiş meyvə-tərəvəz məhsulu yeməlidir.

Açar sözlər: meyvə, tərəvəz, konservləşdirilmiş məhsullar, keyfiyyət.

***

İlboyu orqanizmin meyvə-tərəvəz məhsulları ilə lazımi miqdarda təmin olunması üçün mütləq müxtəlif konservləşdirmə üsullarından istifadə olunmalıdır. Sənayedə geniş çeşiddə meyvə-tərəvəz məhsulları istehsal olunur. Elm və texnikanın müasir nailiyyətlərindən istifadə olunmaqla meyvə-tərəvəzin konservləşdirilməsinin yeni üsulları işlənib hazırlanmışdır.

Konservlərin keyfiyyətini formalaşdıran amillər iki qrupa bölünür [1, səh. 256]: konservlərin keyfiyyətinin formalaşmasına təsir edən amillər və keyfiyyəti qoruyub saxlayan amillər.

Birinci qrupa normativ-texniki sənədlərin keyfiyyəti, məhsul istehsalında istifadə olunan alət və avadanlığın keyfiyyəti, xammal və yardımçı malların keyfiyyəti və istehsal texnologiyası rejiminə riayət edilməsi aiddir.

İkinci qrup amillərə məhsulları istehsaldan istehlaka çatdırılana qədər keyfiyyəti qoruyan amillər aiddir. Bu amillərə malların markalanması, qablaşdırılması, daşınması və saxlanılması aiddir.

Keyfiyyəti formalaşdıran amillər öz növbəsində obyektiv və subyektiv ola bilər. Obyektiv amillərə xammal, yarımfabrikatlar, istehsalın texniki səviyyəsi, mexanikləşdirilməsi və avtomatlaşdırılması, müasir istehsal texnologiyası və keyfiyyətə nəzarətin texniki vasitələri və s. aiddir. Obyektiv amillər subyektiv amillərə nisbətən daha stabil hesab edilir.

Subyektiv amillər insan fəaliyyəti ilə əlaqədar, onun öz funksiyasını yerinəyetirmə qabiliyyətindən və öz işinə münasibətindən asılıdır. Belə amillərdən işçilərin təhsil səviyyəsi, ustalıq dərəcəsi və qabiliyyəti nə qədər yüksək olarsa, məhsul keyfiyyəti də bir o qədər yüksək olar.

Konservlərin keyfiyyətinə malların standartlaşdırılması da təsir göstərir. Standartların səviyyəsinin yüksəlməsi malın keyfiyyətinə müsbət təsir göstərir. Keyfiyyətə verilən tələblər, ayrı- ayrı göstəricilərin normaları və səviyyəsi, mal haqqında digər məlumatlar standartlarda qanuni bir amil kimi nizama salınır. Standartlarda məhsulların keyfiyyəti və zərərsizliyi haqqında tələblər mütləq öz əksini tapmalıdır. Hazırda konserv məhsullarının çeşidi yeniləşir və genişlənir [2, səh.117]. Yerli və yeni xammallardan istifadə olunmaqla, az tapılan kənd təsərrüfatı xammalının əvəzedicilərindən istifadə olunmaqla yeni növ məhsul istehsalının texnologiyası işlənir və istehsalata tətbiq olunur. Ona görə də məhsul keyfiyyəti üçün əsas amil xammalın keyfiyyəti və onun müxtəlifliyidir. Bu isə məhsulun təyinatı nəzərə alınmaqla onun tərkibindən və texnoloji xassələrindən asılıdır.Məsələn, pomidordan tərkibində müxttəlif miqdarda quru maddə olan tomat-pasta və tomat-püre istehsal etmək olar. Xammal dedikdə hazır məhsul(fabrikat) və yarımfabrikat anlayışlarını fərqləndirmək lazımdır. Ərzaq məhsulları istehsalında bəzi fabrikatlar digər istehsal sahələri üçün yarımfabrikat rolunu oynayır. Məsələn, tomatlı dil konservası üçün tomat-püre yarımfabrikat hesab edilir, lakin tomat-püre hazır məhsul kimi ayrılıqda qida məqsədləri üçün istifadə olunur.

Konservlərin istehsalında istifadə olunan xammal və yarımfabrikatların keyfiyyəti qüvvədə olan normativ sənədlərin tələbinə uyğun olmalıdır. Xammalın, xüsusən də kənd təsərrüfatı xammalının keyfiyyətinə, kənd təsərrüfatı elminin inkişafının vəziyyəti, təsərrüfatların lazımi texnika ilə təchizi, ixtisaslaşdırılmış işçi qüvvəsi ilə təmin olunması, gübrələrdən, zəhərli kimyəvi maddələrdən düzgün istifadə olunması, istehsalın iqtisadi səmərəliliyi sistemi, məhsulun tədarükü və s. təsir edir.

Bu sahədə əsas amil kimi becərilən kənd təsərrüfatı bitkilərinin sortu nəzərə alınmalıdır. Bitkilərin sort aidiyyatı əsas təsərrüfat və istehlak xassərinin kompleks göstəricisidir. Bunlardan yetişmə müddəti, məhsuldarlıq, qidalılıq dəyəri, dad, ölçü, xarici görünüş, saxlanılmağa və daşınılmağa davamlılıq və s. aiddir. Məhsulun sortuna və keyfiyyətinə torpaq-iqlim şəraiti də təsir edir.

Təəssüflər olsun ki, çox vaxt kənd təsərrüfatı xammalının keyfiyyəti müvafiq məhsul istehsalının tələbatını ödəmir. Məsələn, pomidorun ətliyi bərk və toxum kameraları çox, lakin toxumu az olan yeni sortlarının əkin sahəsinin azlığı tomat-pasta istehsalının tələbinə cavab verir, lakin şəkər çuğundurunda saxarozanın miqdarının az olması ondan şəkər çıxarını azaldır. Meyvə və tərəvəzin keyfiyyəti qüvvədə olan normativ sənədlərin tələbinə cavab vermədikdə onlardan alınan konservlərin keyfiyyəti də aşağı olur [3, səh. 202].

Məhsul keyfiyyətinə istehsal texnologiyası və orada tətbiq olunan maşın və avadanlığın keyfiyyəti əhəmiyyətli dərəcədə təsir göstərir. Eyni xammaldan müxtəlif keyfiyyətdə məhsul istehsal edilə bilər.

Son illər istehsalatda yüksək texnologiyadan, avtomatlaşdırılmış və kompüterləşdirilmiş istehsal xətlərindən istifadə olunur. Müəssisələrdə tətbiq olunan müasir texnologiya, avtomatlaşdırılmış və mexanikləşdirilmiş istehsal texnologiyası yüksək keyfiyyətli konserv məhsullarının istehsal olunmmasına imkan verir. Konservlərin keyfiyyətini qoruyan amil kimi yüksək keyfiyyətli, zərərsiz materiallardan hazırlanan tara və qablaşdırıcı materiallardan istifadə edilir.

Azərbaycanda istehsal edilən ərzaq məhsullarının keyfiyyətini yüksəltmək üçün bütün sahələrdə yüksək məhsuldarlığa malik olan avadanlıqlardan, texnoloji xətlərdən, modernizə edilmiş və yeni konstruksiyalı avtomatlardan istifadə olunmalıdır [4, səh. 98].

Məhsul keyfiyyətinin artırılmasıda xammaldan səmərəli istifadə olunması, birinci növbədə aztullantılı və tullantısız texnologiyanın tətbiqi əsas amillərdən biridir. Bitki mənşəli xammalların emalı zamanı bəzən 50%-ə qədər tullantı alına bilər. Lakin yüksək keyfiyyətli xammaldan istifadə edərək, müasir texnologiya və avadanlıq tətbiq edib, əməyin təşkilini təkmilləşdirməklə tullantını tam azaltmaq mümkündür. İtkilərin azaldılması xammalların kompleks emalı ilə də mümkündür. Məsələn, almadan 45-50% şirə aldıqdan sonra yerdə qalan sıxıntıdan 40-45% püre almaq və nəhayət, tullantı hesab edilən jımıxı heyvanların yeminə istifadə etmək olar.

Ərzaq malları istehsalında istehsal texnologiyasını təkmilləşdirmək istiqamətində soyuqdan istifadə olunması əsas amildir. Bu xammalın, yarımfabrikatın və hazır məhsulun saxlanılma müddətini uzadır, itkilərin azaldılmasına və istehsalın mövsümlüyünün aradan qaldırılmasına imkan verir. Son zamanlar konserv sənayesində müşahidə olunan əsas meyil tərəvəzlərdən hazırlanan hazır xörəklərin və yarımfabrikatlrın çeşidinin genişlənməsidir. Yüksək bioloji dəyərliliyə malik olan yeni məhsulların, uşaq və pəhriz qidası üçün məhsulların istehsalı genişlənir və bu məhsulların keyfiyyətinə ciddi fikir verilir.

ƏDƏBİYYAT

1. Musayev N.X., Əhmədov Ə.İ., Xəlilov A. Ərzaq mallarının keyfiyyətinin ekspertizası. B., 2005. 448 səh.
2. Əhmədov Ə.İ., Əliyev N.T. Meyvə və tərəvəzin əmtəəşünaslığı. Dərslik, Bakı: «İqtisad Universiteti» Nəşriyyatı, 2009. 442 səh.
3. Əhmədov Ə.İ. Ərzaq malları əmtəəşünaslığı. 3-cü nəşr, Dərslik, Bakı: «İqtisad Universiteti» Nəşriyyatı, 2012. 480səh.
4. N.X.Musayev. Ərzaq malları əmtəəşünaslığının nəzəri əsasları. Bakı, «Çaşıoğlu», 2004, 380 səh.

Камил Ариф оглы Исмаилов
к.б.н., досент,

Конул Джумшуд кызы Гусейнова
магистр
Азербайджанский Университет Кооперации

Факторы определяетющие качество консервированных овощей

Резюме

Основное место в питании людей занимают овощи - фрукты и их обработанные продукты. Правильный выбор различных продуктов растительного происхождения обеспечивает организм углеводами, витаминами, минералами и разными биологически активными веществами. Настоящее время каждый человек понимает важность витаминов, и уже в профилактике и лечении многих болезней изпользуются витамины. Надо знать, что все известные науке витамины и витаминообразные вещества в органическом виде содержатся в свежих фруктах и овощах. Ежедневно в определенном количестве надо употреблять новые и консервированные овощные - фруктовые продукты.

Ключевые слова: фрукты, овоши, консервированные продукты, качество.

Kamil Arif Ismayilov
c.b.s., assistant professor,

Konul Jumshud Huseynova
master
Azerbaijan Cooperation University

The main factors forming the quality of canned vegetable

Summary

The main place in people`s nutrition is comprised by fruits and vegetables and their processed foods. Choosing the right organic products and various products prepared from them provide the body with carbohydrates, vitamins, minerals and various biologically active substances. Nowadays everybody realizes the importance of vitamins. Nowadays vitamins are used in treatment of different illnesses and diseases. But one thing must be remembered that all known vitamins and vitamin like substances found in fruits, vegetables, and greens. Thus, every day you need to consume fresh and canned fruits and vegetables in a certain amount.

Key words: fruit, vegetable, canned products, quality.

böyük elmi işçi M.Ə.PİRİYEVA,
böyük elmi işçi H.Ş.ABUBƏKİROV
Azərbaycan Respublikası KTN Meyvəçilik
və Çayçılıq Elmi-Tədqiqat İnstitutu

MÜXTƏLİF ŞƏRAİTLƏRDƏ ALMA SORTLARI MEYVƏLƏRİNİN SAXLANMASININ TƏDQİQİ

Xülasə

Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunda seleksiya yolu ilə əldə edilmiş alma sortlarının 2015-2017-ci illərdə həm adi atmosfer şəraitində, həm də soyuducu şəraitində saxlanma müddətləri öyrənilmişdir. Müəyyən edilmişdir ki, adi şəraitə nisbətən soyuducu şəraitində meyvələr daha çox qalmaqla, saxlamanın sonunda meyvələrdə təbii itkinin miqdarı 4,4-6,1% arasında dəyişmiş, standart meyvə çıxımı isə 90,1- 94,3% təşkil etmişdir.

Açar sözlər: alma meyvəsi, seleksiya sortları, soyuducu kamera, təbii itki, standart meyvə çıxımı.

***

Əhalinin ilboyu ərzaqla dayanıqlı və təhlükəsiz qaydada təminatı üçün kənd təsərrüfatının bütün sahələrinin son texnologiyalarından istifadə etməklə bu problemin həlli vacibdir. Əsas sahələrdən biri olan meyvəçiliyi inkişaf etdirmək, əhalinin və sənaye müəssisələrinin meyvəyə olan tələbatını ödəmək, qış mövsümündə xaricdən gətirilərək satılan meyvələri bazardan sıxışdırıb çıxarmaq, meyvələrin keyfiyyət və miqdarının artırılması üçün müxtəlif sortlar yaratmaq, meyvələrin səmərəli saxlanılması üçün perspektivli texnologiyalardan istifadə etmək xüsusi əhəmiyyət kəsb edir. Meyvə bitkiləri içərisində alma bitkisi Azərbaycan Respublikasının Quba-Xaçmaz bölgəsində geniş yayılmaqla iqtisadi cəhətdən gəlirli sahə sayılır. Alma və ondan alınan məhsullar yüksək qidalılıq və müalicəvi əhəmiyyətə malikdir. Bu baxımdan da alma meyvəsini son texnologiyalara uyğun yetişdirməklə yanaşı onun saxlanması və emalı da vacib şərtlərdən biridir. Dövlətimiz bölgələrdə ən mütərəqqi üsulları həyata keçirməyə imkan verən meyvəsaxlama ambarlarının tikintisinə dəstək verməkdədir. Alma meyvəsinin uzun müddətə itkisiz saxlanmasını tədqiq edən alimlər nəzarətli qaz mühitində (KA) saxlanmanın daha effektivliyini göstərirlər. Dünya ölkələrinin əksəriyyətində alma meyvəsi nəzarətli atmosferli (KA) soyuducularda saxlanılır [3, s. 15-27]. Tədqiqatçı alim V.A. Qudkovskiy Miçurin adına KTA-da apardığı çoxillik tədqiqatların nəticələrinə əsaslanaraq göstərir ki, Apot alma sortunun meyvələri adi şəraitdə 4ay, modifikasiya olunmuş qaz mühitində 5 ay, nəzarətli atmosferdə (KA) 7-8 ay qala bilir. Qolden Delişes sortunun meyvələri adi şəraitdə 6-7 ay, modifikasiya qaz mühitində (MQM) 7-8 ay, nəzarətli atmosferdə (KA) isə 9-10 ay qala bilir [4, s.48-50].

Alma meyvələrinin saxlanması zamanı əmələ gələn itkilər: fizioloji xəstəliklər (yanma, qabıqaltı ləkəlilik, lətin və özəyin qonurlaşması, köpmə və s.) və göbələk xəstəlikləri (meyvə çürüməsi, boz çürümə və s.), tənəffüs və transpirasiya nəticəsində (təbii itki), keyfiyyətin itməsi (bərkliyin azalması, xarici görünüş, dad və ətirin pisləşməsi) səbəbindən baş verir. Müasir saxlanma texnologiyaları adi atmosferdə, nəzarətli (KA) - 1,5% O_2, ultraaşağı 0,8-1,2% və daha aşağı 0,4-0,6% O_2 -də, modifikasiyalı atmosferdə saxlanma zamanı müəyyən çatışmamazlıqlar olmaqla, itkinin qarşısını tamamilə almaq mümkün deyildir [1, s. 44; 2; 3, s. 15-27].

Soyuducu kamerada atmosfer tərkibinə nəzarət edilməsinə görə nəzarətli atmosferli (KA) soyuducuların aşağıdakı tipləri vardır (5):

1. Ənənəvi nəzarətli atmosfer (Traditional Controlled Atmosphere) O_2 - 3-4% , CO_2- 3-5% ;

2. Oksigeni aşağı konsentrasiyada saxlamaq. ULO (Ultra LOW Oxygen) 2-2,5% O_2 və 1-3% CO_2; 3. Oksigeni ultra aşağı konsentrasiyada saxlamaq- LO(LOW Oxygen) 1-1,5% O_2 və 0-2% CO_2; 4. Oksigenin konsentrasiyasının sürətlə azaldılması texnologiyası - RCA (Rapid Controlled Atmosphere); 5. Qısa müddət ərzində O_2 -nin konsentrasiyasının yüksək sürətlə aşağı salınması- ILOS (Inital LOW Oxygen Stress); 6. Kamerada etilenin miqdarının azaldılması texnologiyası - LECA (LOW Ethylene Contolled Atmosphere); 7.CO_2 qazının şok həddə (30%) yüksəldilməsi texnologiyası; 8. Meyvələrin fizioloji vəziyyətindən aslı olaraq saxlanma rejiminə nəzarət edilməsi- DCA (Dynamic Contolled Atmosphere).

Hal-hazırda saxlanmanın yeni texnologiyası həm AA-da (adi atmosferdə) həm də KA-da (nəzarətli atmosfer) saxlanılan meyvələrdə yığımdan sonra etilenin biosintezinin ingibitorlardan (1-MCP, "Smart Fresh" ABŞ, "Fitomaq"Rusiya) istifadə etməklə saxlanma zamanı əmələ gələn itkilərin azaldılmasına və meyvələrin yüksək keyfiyyətdə qalmasına imkan verir [2].

Saxlanmanın son texnologiyalarından istifadə edilsə də, meyvələrin saxlanması sahəsində yaranan problemlərin həlli üçün elmi-tədqiqat işlərinin aparılması hər bir zaman aktualdır.

Tədqiqatın metodikası. Tədqiqat işində 2015-2017-ci illərdə Azərbaycan Respublikasının Quba-Xaçmaz bölgəsində yetişdirilmiş Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun seleksiya alma sortlarının meyvələri müxtəlif üsullarda saxlanılaraq onların orqanoleptik və kimyəvi xüsusiyyətləri, təbii və texniki itkisi, standart meyvə çıxımı öyrənilir.Tədqiqatın obyekti Vətən, Sevinc, Şabran, Nəsimi, Babək, Neftçilərə hədiyyə sortlarının meyvələri olmuşdur. Meyvə nümunələri üç təkrarda, hər təkrarda 20-25kq olmaqla götürülmüşdür.

Meyvələr optimal yığım yetişkənliyi dövründə kompleks fiziki-kimyəvi göstəricilərə görə (meyvənin həcmi və çəkisinə, rənginə, çiçəkləmənin sonundan yetişməyə qədər olan gün sayı-

na görə, neyvə lətinin bərkliyinə, toxumunun rənginə, nişastanın hidrolizolma dərəcəsinə görə) təyin edilərək yığılmışdır. Meyvələr adi şəraitdə və sadə soyuducu kamerada saxlanılmışdır. Soyuducu kamerada temperatur +2 ...+1,5ºC, nisbi rütubət isə 90-95% olmuşdur. Saxlanma dövründə meyvənin kimyəvi tərkibi, təbii itkinin, standart meyvə çıxımının miqdarı, fizioloji və göbələk xəstəlikləri təyin olunmuşdur (6). Təbii itki nümunənin çəkisindən sonrakı çəki fərqinə əsasən təyin olunur. Təcrübələr "Meyvə, tərəvəz və üzümün saxlanmasına dair metodiki tövsiyələr" (7, s. 12-128) əsasında aparılmışdır.

Tədqiqatın nəticələri. Tədqiqat işində istifadə edilən meyvələr optimal yığım vaxtında, təyinetmə üsulları tətbiq edilərək yığılmışdır. Sortlar arasında meyvələrin yetişmə dövrü payızlıq sortlarda 120-125 gün, qışlıq sortlarda isə 135-143 gün təskil etmişdir. Meyvə lətinin bərkliyi 7,1-10,0 kq/m^2 olmuşdur. Sortlar üzrə meyvələrin kimyəvi tərkibi saxlanmadan əvvəl aşağıdakı kimi olmuşdur: Ümumi şəkər 8,79%-10,84% arasında, ümumi turşuluq 0,50%-0,73%, həll olan quru maddə 12,0-13,2%, vitamin "C"-nin miqdarı 1,58mq /%-lə 1,94 mq/%.

Saxlanma dövrünün sonunda (adi şəraitdə 120 gün, soyuducu kamerada saxlanma müddəti 150 gün olmuşdur) meyvələrin tərkibində suyun, turşuluğun, vitamin "C"-nin miqdarı azalmış, həll olan quru maddə və ümumi şəkərin miqdarı artmışdır. Hər iki saxlanma üsulunda saxlanmanın sonunda meyvə lətinin bərkliyi də azalmışdır. Saxlanmanın sonunda adi şəraitdə meyvələrdə təbii itkinin miqdarı 9,04%-lə 10,9% arasında, soyuducu kamerada isə saxlanılan meyvələrdə sortlar üzrə təbii itkinin miqdarı 4,4%-6,1% arasında olmuşdur. Saxlanmanın sonunda meyvələrdə fizioloji xəstəliklərdən soluxma, köpmə, göbələk xəstəliklərindən isə meyvə çürüməsi, alternarioz xəstəlikləri müşahidə edilmişdir (cədvəl).

Cədvəl.

Alma meyvələrinin müxtəlif şəraitlərdə saxlanması zamanı əmtəə keyfiyyətləri (2015-2017-ci illər, %-lə)

Təcrübənin variantı	Təbii itki	Standart meyvə	Fizioloji xəstəliklər		Göbələk xəstəlikləri	
			Soluxma	Köpmə	Meyvə çürüməsi	Alternarioz
Vətən						
Adi şəraitdə	10,3	78,9	8,9	2,1	3,4	0
Soyuducu şəraitində	4,5	93,5	1,3	0	3,0	0
Nəsimi						
Adi şəraitdə	10,5	76,7	10,1	1	8,1	0
Soyuducu şəraitində	6,1	90,1	0	1,0	1,8	0
Şabran						
Adi şəraitdə	10,4	75,5	10,2	3,3	2,3	1,7
Soyuducu şəraitində	5,0	94,1	0	0	1	1,3
Neftçilərə hədiyyə						
Adi şəraitdə	10,0	79,5	10,5	0	4,5	0
Soyuducu şəraitində	4,4	94,3	0	0	1,7	0,3
Sevinc						
Adi şəraitdə	10,0	79,1	9,0	3,1	0	4,1
Soyuducu şəraitində	4,6	92,3	3,2	0	0	2,0
Babək						
Adi şəraitdə	10,2	77,8	0	0	9,0	72
Soyuducu şəraitində	4,9	91,9	0	1,2	3,8	1,0

Standart meyvə çıxımı hər iki saxlama üsulunda Vətən, Sevinc, Şabran və Neftçilərə hədiyyə sortlarında digər sortlarla müqayisədə çox olmuşdur. Adi şəraitdə standart meyvə çıxımı 68,9%-lə 79,5% arasında, soyuducu şəraitində isə 90,1%-lə 94,3% arasında olmuşdur.

Nəticə

1. MÇETİ-nin seleksiya alma sortlarından Vətən, Sevinc, Şabran və Neftçilərə hədiyyə sortları öyrənilmiş, digər sortlara nisbətən saxlanmaya davamlı sortlar hesab olunur.
2. Saxlanmanın sonunda adi şəraitdə təbii itkinin miqdarı 9,04%-10,9%, soyuducu mühitində 4,4%- 6,1% arasında olmuşdur.
3. Soyuducu şəraitində saxlanma zamanı meyvələr əmtəə keyfiyyəti yüksək səviyyədə qalmaqla standart meyvə çıxımı sortlar üzrə 90,1%-dən 94,5%-ə qədərdir.
4. Saxlanma dövründə yaranan fizioloji və göbələk xəstəlikləri soyuducu şəraitində daha az faiz təşkil etmişdir.

ƏDƏBİYYAT

1. Fətəliyev H. "Bitkiçilik məhsullarının saxlanması". Bakı, 2010, s. 44.
2. Гудковский В.А. и др. «Влияние условий хранения на поражаемость и качество плодов яблони средней зоны России». Ежедневный интернет журнал «Садоводство и питомниководство», 2014. Режим доступа: www.asprus.ru
3. Гудковский В.А. «Система сокращения качества плодов при хранении» Садоводство и виноградарство, №7, 1989, с. 15-27.
4. Гудковский В.А. «Система повышения лежкости плодов и винограда» Садоводство и виноградарство, 1987, №12, с.48-50.
5. Гладков Е.В. «Длительное хранение фруктов и овощей в регулируемой атмосфере». Режим доступа: www.infrost.ru
6. Дженеев С.Ю. «Методическое рекомендации по хранению плодов, овощей и винограда» Ялта, Магарач, 1998, с.198.
7. Ермаков А.И. «Методы биохимического исследования растений» С.Петербург, 1987, с. 12-128.

старший научный сотрудник М.А.Пириева,
старший научный сотрудник Ш.Абубакиров

Изучение хранения плодов яблоневых сортов в различных условиях

Резюме

В 2015-2017-м годах изучались сроки хранения селекционных яблоневых сортов НИИ плодоводства и чаеводства как в обычных атмосферных условиях, так и в условиях холодильной камеры. Было установлено, что к концу хранения естественная убыль в плодах составила 4,4% - 6,1%, а выход стандартных плодов составил 90,1% - 94,3%

Ключевые слова: яблоневые плоды, селекционные сорта, холодильная камера, выход стандартных плодов.

senior scientific worker M.A.Pirieva,
senior scientific worker G.Sh.Abubakirov

Study of storage of fruit of apples in various conditions

Summary

The fruits of the apple selection varietes of Research Institute of Fruit and Tea Growing 2015-2017 were kept in moisture, in the usual atmosphere. At the end of storage is dominant in the refrigerating environment, the natural fruits were 4.4% -6.1%, and the standard fruits output was 90.1% and 94.3% respectively.

Key words: apple fruit, selection varieties, refrigerator, natural loss, standard fruit output.

a.e.d., professor Maarif Almədət oğlu YUSİFOV,
b.e.f.d. Ələmdar Tağı oğlu ƏSGƏROV,
b.e.i. Firuzə Fikrət qızı MƏHƏRRƏMOVA
Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu

LOBYA BİTKİSİNİN MORFOLOJİ XÜSUSİYYƏTLƏRİNƏ VƏ MƏHSULDARLIĞINA SUVARMA REJİMLƏRİNİN TƏSİRİ

Xülasə

Məqalədə suvarma rejimlərinin lobya bitkisinin boyuna, yarpaqlarının sayına və həmçinin məhsuldarlığına təsiri şərh olunur. Bitkilərin suvarılması zamanı onların sayına görə yaradılmış suvarma rejimləri kəskin (4 suvarma), sərt (8 suvarma) və normal (12 suvarma) olmaqla tədqiqat prosesində bir-birilə müqayisəli şəkildə bitkilərə göstərdikləri təsirlər Bəyaz və Sevinc sortları üzrə müəyyənləşdirilmişdir. Aşkar edilmişdir ki, suvarma rejimlərindən ən dərin torpaq quraqlığı yaradan kəskin (4 suvarma) suvarma rejimi olmuşdur. Bitkilərdə yarpaqların sayı ilə səthi, həmçinin gövdənin uzunluğu ilə məhsuldarlığın quraqlığın təsirindən çox azalması məhz kəskin suvarma variantında baş vermişdir. Bu zaman quraqlığın təsirindən ən çox azalmalar Bəyaz sortlarda qeydə alınmışdır.

Açar sözlər: torpaq, quraqlıq, yarpaq, suvarma rejimləri, stress məhsuldarlıq, sort, gövdə.

Giriş

Torpaq quraqlığı mürəkkəb meteoroloji və ekoloji hadisədir. Müasir dövrdə isə qlobal istiləşmə və regionlarda iqlim dəyişmələrinin təsiri səbəbindən Yer kürəsinin müxtəlif ərazilərində quraqlıq hadisələrinin təkrarlanması intensivliyi güclənməkdə davam edir.

Yaranmış quraqlıqlar (hava və torpaq) bitkilərə çox güclü mənfi təsir göstərir. Bu zaman bitkilərdə ilk olaraq aşağıdakı fizioloji reaksiyalar baş verir: kökdə quruma əlamətlərinin görünməsi, osmotik təzyiqin tənzimlənməməsi, yarpaqlarda su potensialının azalması, karbon dioksidin çatdırılmasının azalması, karbon dioksidin daxili hüceyrələr arasında azalması, fofosintez prosesinin(intensivliyinin) azalması və bitkinin böyümə ölçülərinin azalması [3,s.111]. Bu zaman quraqlığa davamlılıqla əlaqədar olaraq bitkilərdə morfoloji dəyişikliklər də baş verir: məsələn, onlarda yarpaqların sayı və səthi azalır və həmçinin yarpaqlarda ağızcıqlar kiçilir, yarpaqların üstündə mum təbəqəsi yaranır, protoplazmanın hidratlaşması artır, guman edilir ki, bunlar bitkilərdə davamlılıq genlərinin seçici şəkildə aktivləşməsilə əlaqədardır [9, s.79].

Bununla yanaşı quraqlıq stresinin təsiri altında olan bitkilərdə bir neçə zülalların parçalanması sürətlənir. Nəticədə aminturşuların və amidlərin miqdarı artır. Lakin quraqlıq stresi H_{sp} və LEAS zülallarının fəallaşmasına səbəb olur ki,bu da özünü qorumağa imkan verir [14, s.24].

Su çatışmazlığı stresi hüceyrələrin böyüməsindən daha çox hüceyrənin bölünməsinin qarşısını alır və bitkinin böyüməsinin zəifləməsinə və fotosintez, transpirasiya, ionların udulması, qida maddələri ilə hormonların metabolizmi kimi fizioloji biokimyəvi proseslərin baş verməsinə mane olmaqla səbəb olur [16, s.45].

Kəskin və ciddi şəkildə olan su catışmazlığı və bununla bağlı, torpaq və hava quraqlıqları stresləri fotosintez prosesinin dayanması və bitkinin metabolizmində pozulmalar, son olaraq bitkinin quruyub məhv olması ilə nəticələnir [15, s.9].

Təcrübənin yeri, obyekti və metodları

Tədqiqat işləri institutumuzun Abşerondakı Yardımçı Təcrübə təsərrüfatının sahələrində aparılmışdır. Tədqiqat obyekti tərəvəz lobyasının rayonlaşmış sortları Bəyaz və Sevinc olmuşdur. Bu sortlar müxtəlif suvarma rejimlərində becərilmişdir. Təcrübədə kəskin (4 suvarma), sərt (8 suvarma) və optimal (12 suvarma) vegetasiya suvarma rejimləri müqayisəli şəkildə öyrənilmişdir.

Təcrübələrdə bir bitkidə yarpaqların sayı və səthi, gövdənin uzunluğu və məhsuldarlığı müqayisəli şəkildə tədqiq edilmişdir. Bitkilərdə yarpaqların sayı ilə səthi, həmçinin gövdənin

uzunluğunu təyin etmək üçün bitkilərin sahədə 4 dəfə suvarılmasından sonra, yəni iyun ayının əvvəllərindən başlayaraq bitki nümunələri götürülmüşdür. Nümunələrin götürülməsi və laboratoriya analizləri hər 15-17 gündən bir vegetasiya ərzində bir neçə dəfə (3-4 dəfə) təkrar olaraq dinamikada öyrənilmişdir. Bu zaman hər variantdan 3-5 ədəd bitki götürülmüşdür. Məhsulun miqdarı isə əvvəlcədən nişanlanmış bitkilərdə məhsul yetişdikcə öyrənilmişdir.

Təhlil və müzakirə

Respublikamızın iqlimi əsasən yüksək temperaturla xarakterizə olunur. Yüksək temperatur şəraitində bitki və torpaq səthindən güclü su buxarlanması gedir. Əgər suvarma gecikərsə, bitki orqanizmində su qıtlığı baş verir və bu da orqanizmdə gedən bütün həyat proseslərinə mənfi təsir göstərir. Nəticədə bitkilərin boyatmasında və inkişafında çoxlu dəyişikliklər baş verir. Bu zaman, əvvəldə göstərildiyi kimi, bitkilərin ölçüləri azalmağa məruz qalır, xüsusən yarpaqların sayı, ölçüləri və həmçinin bitkilərin hündürlüyü azalır [3, s.126].

Məlumdur ki, bitkilərdə yarpaqlar əsas fotosintezedici orqandır. Ona görə də məhsulun yaranması üçün yarpaqların səthi, fəallığı və fəaliyyət müddəti böyük əhəmiyyət kəsb edir. Qeyd edildiyi kimi, torpaq quraqlığı yarpaqların sayına azaldıcı təsir göstərir və onların fəaliyyətini zəiflədir. [3, s.95; 5, s.119; 6, s.44].

Bizim təcrübələrdə bitkilərdə yarpaqların sayına sortların bioloji xüsusiyyəti və suvarma rejimləri böyük təsir göstərmişdir. Belə ki, bütün sortlar və variantlarda vegetasiyanın əvvəllərində (cədvəl 1). Sevinc və Bəyaz sortları üzrə yarpaqların sayı suvarma rejimlərindən asılı olmayaraq 5,3 və 5,0 ədədə bərabər olmuşdur.

Cədvəl 1

Sıra sayı	***Sortlar***	***Suvarmaların sayı, dəfə***	***Təyinetmə günləri***			
			9-VI	***19-VI***	***29-VI***	***10-VII***
1	Sevinc	4	5,3	6,0	23,7	25,7
2	Sevinc	8	5,3	6,0	24,8	36,0
3	Sevinc	12	5,3	6,0	24,8	40,0
4	Bəyaz	4	5,0	5,6	12,5	24,2
5	Bəyaz	8	5,0	5,6	14,0	30,8
6	Bəyaz	12	5,0	5,6	14,0	31,8

Bitkilər sonralar böyüdüklərinə görə yarpaqların da sayı tədricən artmışdır. Bitkilərin çiçəkləmə və inkişaf fazasında sortlar arasında fərq çox az olmuşdur və Sevinc və Bəyaz sortları üzrə yarpaqların sayı müvafiq olaraq 6,0 və 5,6 ədəd təsdiq edilmişdir. Qeyd edildiyi kimi, bitkilər böyüdükcə yarpaqların sayı da artmışdır və bitkiləri 4 dəfə suvardıqdan sonra suvarma rejimləri arasında fərqlər yaranmışdır. Paxlaların əmələ gəlib böyüdükləri fazada yarpaqların sayı kəskin və sərt variantlarda (4 və 8 suvarma) sortlar üzrə müvafiq olaraq 23,7; 24,8 və 12,5; 14,0 ədədə bərabər olmuşlar. Göründüyü kimi, yarpaqların nisbətən çox miqdarı Sevinc sortunda müşahidə edilmişdir, lakin hər iki sortda kəskin və sərt suvarma variantları arasında fərqlər çox az olmuşdur. Hər iki sortda sonrakı inkişaf fazasında (paxlalıların sürətlə böyümə fazasında) yarpaqların sayı maksimal həddə çatmışdır. Sortlar və həmçinin variantlar üzrə onların miqdarı müvafiq olaraq 25,7; 36,0; 40,0 və 24,2; 30,8; 31,8 ədəd təşkil etmişdir. Göründüyü kimi, sortlar üzrə nisbətən çox yarpaq Sevinc sortunda yaranmışdır və suvarma variantları arasında ən böyük fərq kəskin və sərt arasında baş vermişdir. Sevinc və Bəyaz sortları arasında həmin fərqlər müvafiq olaraq 11 və 7 ədədə bərabər olmuşdur. Bu zaman sərt və normal suvarma rejimləri arasında fərq 4 və 1 ədəd təşkil etmişdir.

Əvvəldə göstərildiyi kimi, bitkilərdə yarpaq əsas fotosintezedici orqandır və məhsul əsasən yarpaqlarda gedən fotosintez prosesi nəticəsində yaranır [9, s. 35; 6 s. 45; 4, s. 147]. Bu prosesin yarpaqlarda uzun müddət optimal yarpaq səthində yüksək sürətlə səmərəli getməsi ümumi bioloji kütlənin və onun təsərrüfat yararlı məhsul hissəsinin toplanmasını artırır. Bu baxımdan yüksək məhsul yaranmasını təmin edən optimal yarpaq səthinin əmələ gəlməsi böyük əhəmiyyət kəsb edir [10 s. 567; 2, s.90; 5, s.211]. Yarpaq səthinin normal böyüməsini təmin edən

hər bir amilin (gübrə və su rejimləri, torpaq şəraiti, işıq, istilik və s.) mövcudluğu üçün çalışmaq yüksək məhsul uğrunda mübarizə kimi qiymətləndirilə bilər [7, s.]. Həmin amillərin içərisində ən təsirli və səmərəli olanlar gübrə və su rejimlərinin tətbiq edilməsidir [1, s.234; 8.s.59].

Göstərilənləri nəzərə alaraq bir lobya bitkisində yarpaqların sayı ilə yanaşı yarpaq səthinin ölçülərinin də süni yaradılmış suvarma rejimlərindən asılı olaraq dəyişikliklərini tədqiq etmişik.

Alınmış nəticələrdən aydın olmuşdur ki, bitkilərdə yarpaq səthinin miqdarı və böyümə dinamikasına kəskin (4 suvarma), sərt (8 suvarma) və normal (12 suvarma) rejimləri fərqli təsir göstərmişlər (cədvəl 2).

Cədvəl 2

Yarpaq səthinin dinamikasına suvarma rejimlərinin təsiri (bir bitkidə, sm^2)

Sıra sayı	***Sortlar***	***Suvarma variantları***	***Təyinetmə günləri***			
			I-VI	***17-VI***	***20-VI***	***13-VII***
1	Sevinc	4	146,7	136,4	1012,4	941,5
2	Sevinc	8	146,7	637,7	1674,8	1139,1
3	Sevinc	12	146,7	637,6	1712,8	1358,0
4	Bəyaz	4	213,4	869,1	1159,3	-
5	Bəyaz	8	213,4	1269,1	1469,0	-
6	Bəyaz	12	213,4	1269,1	1770,0	-

Cədvəldən göründüyü kimi, vegetasiyanın əvvəllərində bitkilərdə yarpaq səthi az olmuşdur, sonralar havaların istiləşməsi ilə yanaşı bikirlər və onlarda yarpaq səthi də böyümüşdür. Yarpaq səthi özünün maksimal həddinə barvermə (paxlaların kütləvi əmələ gəlməsi) inkişaf fazasında çatmışdır. Yarpaq səthinə görə tədqiq edilmiş Sevinc və Bəyaz sortları bütün vegetasiya ərzində fərqlənmişlər. Belə ki, vegetasiyanın əvvəllərindən başlayaraq sonuna qədər ən çox yarpaq səthi Bəyaz sortunda qeydə alınmışdır. Bu sortun bir bitkisində yarpaqların maksimal həddi zamanı yarpaq səthi kəskin, sərt və normal suvarma rejimlərində müvafiq olaraq bir bitkidə 1159,3; 1469,0 və 1770,0 sm^2-nə bərabər olmuşdur. Sevinc sortunda isə bu göstəricilər variantlar üzrə 1012, 4; 1674,8 və 1712,8 sm^2 təskil etmişdir. Qeyd etmək lazımdır ki, hər iki sortda variantlar arasında ən böyük fərq kəskin və sərt variantları arasında alınmışdır və sortlar üzrə 562,9 və 310,0 sm^2-ə, bərabər olmuşdur. Bu zaman sərt və normal suvarma rejimləri arasındakı fərqlər sortlar üzrə müvafiq olaraq 38,0 və 301,0 sm^2 təşkil etmişdir. Bundan sonra bütün variantlarda aşağı və orta yaruslarda yarpaqlar saralıb solduğuna görə bitkilərdə yaşıl yarpaqların səthi azalmağa məruz qalmışdır. İyulun axırına yaxın havanın temperaturu yüksək olduğuna görə Bəyaz sortunun bütün variantlarında yarpaqlar saralıb solmuşlar və buna görə də sonralar təyinetmə günündə yaşıl yarpaqlar yalnız Sevinc sortunda qeydə alınmış və ölçmələr həyata keçirilmişdir.

Bu vəziyyət göstərir ki, Bəyaz sortu yüksək temperatura və bununla əlaqədar yaranmış torpaq quraqlığına tab gətirə bilməmişdir, yəni stress amillərinə qarşı onun davamlılığı Sevinc sortuna nisbətən çox zəifdir.

Su stresi şəraitində becərilən bitkilərdə fötosintezin intensivliyinin azalması müşahidə olunan assimilyasiya prosesləri zəifləyir, dissimilyasiya prosesləri isə sürətlənir. Bunların nəticəsində gövdələrin uzanmasının ləngiməsi və metobalik reaksiyaların pozulması baş verir [12; s.1309; 11; s.1305]. Bəzi tədqiqatçılar qeyd edirlər ki, su stresi zamanı bitkilər məhv olmamaq üçün öz ölçülərini, o cümlədən, gövdənin uzunluğunu azaltmağa məruz qalırlar [3, s.216].

Təcrübələrimizdə suvarma rejimləri bitkilərdə yarpaqların sayına və səthinə olduğu kimi gövdələrin uzunluğuna da qısaldıcı təsir göstərmişdir (cədvəl 3). Belə ki, suvarmaların sayı ən aşağı olan kəskin variantlarda hər iki sort üzrə gövdələrin uzunluğu qısa olmuşdur.

Vegetasiyanın əvvəllərində bitkilərin boyu az olmuşdur və gövdələrin uzunluğu sortlar üzrə bir qədər fərqli olsa da sortdaxili variantlarda bir-birinə bərabər olmuşdur. Sevinc və Bəyaz sortları üzrə onun uzunluğu müvafiq olaraq 16,7 və 13,5 sm-ə bərabər olmuşdur. Sonralar havanın hərarəti yüksəldikcə bitkilərin boyu da artmışdır və gövdələrin uzunluğu özünün maksimal həddinə vegetasiyanın sonunda çatmışdır. Bu zaman onun uzunluğu sortlar üzrə fərqləndiyi kimi sortdaxili variantlarda da müxtəlif olmuşdur. Belə ki, Sevinc və Bəyaz sortları üzrə kəskin,

sərt və normal suvarma variantlarında onun uzunluğu müvafiq olaraq 27,3; 31,8; 32,7 və 28,6; 31,0; 31,0 sm təşkil etmişdir. Gövdələrin uzunluğunun normal varianta nisbətən kəskin və sərt variantlarda qısalması Sevinc və Bəyaz sortlarında müvafiq olaraq 4,4; 5,3 və 3,4; 3,4 sm təskil etmişdir. Bu zaman sortlar və variantlar üzrə gövdələrin uzunluğunda böyük fərqlər olmuşdur, xüsusən də normal ilə sərt variantlar arasında fərq çox cüzi olmuşdur.

Cədvəl 3

Bitkilərdə gövdələrin uzunluğuna suvarma rejimlərinin təsiri (sm)

Sıra sayı	*Sortlar*	*Suvarmaların sayı, dəfə*	*Təyinetmə günləri*			
			9-VI	*19-VI*	*29-VI*	*10-VII*
1	Sevinc	4	16,7	20,0	24,3	27,3
2	Sevinc	8	16,7	22,0	28,4	30,5
3	Sevinc	12	16,7	22,0	28,4	31,3
4	Bəyaz	4	13,5	24,3	23,2	25,4
5	Bəyaz	8	13,5	25,5	26,7	29,8
6	Bəyaz	12	13,5	25,5	26,7	30,8

Göründüyü kimi, lobya bitkisinin morfoloji xüsusiyyətləri olan yarpaqların sayına və səthinə, gövdənin uzunluğuna təsir edən torpaq quraqlığı kəskin suvarma variantında azalmalara səbəb olmuşdur. Bu azalmalar sortların bioloji xüsusiyyətlərindən asılı olaraq geniş miqyasda dəyişmişdir.

Məhsuldarlıq bitkilərdə gedən fotosintez prosesinin nəticəsində yaranır. Təcrübə aparılan bitkilərdə toplanmış məhsulun miqdarı vegetasiya ərzində getmiş fotosintez prosesini xarakterizə etmişdir. Əlbəttə, yarpaqların sayı və səthində, həmçinin gövdənin uzunluğunda olduğu kimi məhsuldarlıq da suvarma rejimlərinin təsirinə məruz qalmışdır (cədvəl 4). Belə ki, hər iki sortda məhsuldarlığın ən minimal həddi kəskin suvarma rejimində qeydə alınmışdır. Görünür ki, vegetasiya ərzində kəskin su rejimində yaranmış quraqlığın təsirindən bitkilərdə gedən fotosintez və başqa metabolik proseslər zəifləmiş və nəticədə yaranmış məhsulun miqdarı başqa su rejimlərinə nisbətən xeyli aşağı olmuşdur.

Cədvəl 4

Bitkilərin məhsuldarlığına suvarma rejimlərinin təsiri

Sıra sayı	*Sortlar*	*Suvarmaların sayı, dəfə*	*Normal suvarmaya nisbətən azalma*		
			Məhsuldarlıq	*%-lə*	*sen-lə*
1	Sevinc	4	20,2	51,9	18,7
2	Sevinc	8	37,8	9,7	1,1
3	Sevinc	12	38,9	-	-
4	Bəyaz	4	19,5	51,9	18,1
5	Bəyaz	8	36,8	9,8	0,8
6	Bəyaz	12	37,6	-	-

4 saylı cədvəldən göründüyü kimi, tədqiq olunmuş sortlar bir-birindən məhsuldarlığa görə çox az fərqlənmişlər, yəni Sevinc sortunun məhsuldarlığı Bəyazdan bir qədər artıq olmuşdur. Bunun da səbəbi odur ki, yüksək temperaturdan və bununla əlaqədar yaranmış torpaq quraqlığının təsirindən Bəyaz sortunun bitkiləri əvvəlcə kəskin, sonra sərt, ondan sonra da normal suvarma rejimlərində Sevincə nisbətən 25-30 gün tez saralıb solmuşlar.

Məhsuldarlığın kəskin və sərt suvarma rejimlərində normal suvarma rejiminə nisbətən azalması Sevinc və Bəyaz sortları üzrə müvafiq olaraq 51,9; 9,7 və 51,9; 9,8%-ə və ya18,7; 1,1 və 18,1; 0,8 sentnerə bərabər olmuşdur. Göründüyü kimi, məhsuldarlığın azalması quraqlığın təsirindən normal suvarma rejiminə nisbətən hər iki sort üzrə kəskin (4 suvarma) variantında baş vermişdir. Bu zaman sərt suvarma rejimində onun azalması çox cüzi olmuşdur.

Nəticə

1. Tədqiq olunarı sortları üzrə bitkilərin morfofizioloji göstəricilərinə kəskin və sərt suvarma rejimində baş vermiş torpaq quraqlığı azaldıcı təsir göstərmişdir. Nəticədə bitkilərin məhsuldarlığı xeyli azalmağa məruz qalmışdır. Normal suvarma rejiminə nisbətən kəskin suvarma rejimində torpaq quraqlığı daha dərin olduğundan onun azaldıcı təsiri xeyli yüksək olmuşdur. Buna səbəb bitkilərin cavan yaşlarında su qıtlığına (stresinə) daha həssas olmasıdır, bitkilər yaşlaşdıqda həmin həssaslıq azalmış, adaptasiya (uyğunlaşma) isə artmışdır. 2. İyul ayının axırında və avqust ayında yüksək istilər başlayan kimi Bəyaz sortunun bitkiləri yaranmış quraqlığa və istiliyə dözməyib (xüsusən də kəskin və sət suvarma rejimlərində) saralıb solmuşdur. Bu vəziyyət Sevinc sortunda baş verməmişdir. Güman etmək olar ki, bu sort quraqlığa xeyli davamlıdır və onu quraqlığa davamlı sortların yaradılması üçün seleksiyaçılara tövsiyə etmək olar. 3. Bütün öyrənilmiş məsələlər üzrə sərt suvarma rejiminə nisbətən normal suvarma rejimində artım (fərq) çox cüzi olmuşdur, bəzən də heç bir artım olmamışdır. Bu onu göstərir ki, Abşeron şəraitində lobya bitkisini becərərkən 8 dəfə suvarma (7-10 gündən bir) kifayətedicidir, çünki bu zaman bitkilər normal boy və inkişafa malik olurlar və yaxşı məhsul verirlər. Bununla yanaşı, bu suvarma rejimində normal (12 dəfə suvarma) rejiminə nisbətən 4 dəfə suvarma suyuna qənaət edilmiş olunur.

ƏDƏBİYYAT

1. Əliyev C.Ə. Bitkilərin fotosintez fəaliyyəti, mineral qidalanması və məhsuldarlığı. Bakı, "Elm" nəşriyyatı. 1976, 334 səh.
2. Əliyev C.Ə. Tərəvəz bitkilərinin mineral elementlərlə qidalanması və məhsulun fiziologiyası. Bakı, Azərnəşr, 1981, 92 səh.
3. Qasımov N.A. Bitki fiziologiyası. Bakı Dövlət Universitetinin nəşriyyatı, 2008, 403 s.
4. Sadıxova L.Q., Yusifov M.A., Sultanlı X.H., Qubadova M.B. Tərəvəz noxudu (Biomorfoloji xüsusiyyətləri, fizioloji əlamətləri və becərmə texnologiyası), Bakı,«Mütərcim», 2012,214 s.
5. Yusifov M.A. Qarpızın fiziologiyası. Bakı, «Nur-A», 2004, 216 səh.
6. Yusifov M.A. Əkinlərdə günəş enerjisinin istifadə olunması. "Azərbaycan Aqrar Elmi" jurnalı, Bakı, 2005, №4-6, səh. 43-46.
7. Yusifov M.A. Fotosintez, becərilmə şəraiti və məhsuldarlıq. Bakı, «Qanun», 2007, 136 səh.
8. Yusifov M.A. Tərəvəz noxudu bitkisinin məhsuldarlığına və onun struktur elementlərinə torpaq quraqlığının təsiri. "Azərbaycan Aqrar Elmi" jurnalı, Bakı, 2010, №2-3, səh. 58-60.
9. Алиев Д.А. Физиологические основы селекции пшеницы, толерантной к водному стрессу Ж. Известия НАНА Азербайджана (серия биологические наука), Баку, Элм, 2002, № 1-6, стр. 30-40.
10. Патрон П.И. О взаимосвязи минерального и углеродного питания и их влияния на продуктивность растений. Ж. Сельскозяйетвен. ная биология, Москва, «Наука» 1966, Т.1., №4 стр. 564-571.
11. Sircelj H., Tausz M., Grill L and Batic F.Biochetical responses in Geaves totwo applctrel cucivars subjected to progressing dronght. J. Plant physiol. 2005, 162, pp 1303-1318.
12. Maas E.V.Gricve C.M. Spike and leag development in sact-stressid Whcat Grop Sci, 1990, v. 30pp 1309-1313
13. Shinozaki K.and Yamaguchi-Shinozaki K. Gene netvorsk in volved in drought stress responce and tolerance, j eöp. Bot. 2007, 158, pp. 221-227.
14. Atac C. And Karus K. Cultivation and utilization of medicinal plant 1998 İndia p. 78.
15. Watkinson J.J., Hendricks L., Sioson A.A., Vasguer-Rabinct C., Verlyn S., Heath L.S., Schuler M., Bohnert H.Jı, Bonierbale M. And Grene R. Aecessions of solanum toberosum SSp. Andigena show differences in photosynthetic recovery after drought stress as reglested in gene expression profiles. Plant Science, 2006, 32, pp 1-14.
16. Jaleel C.A. Gopi R., Sankar B., Gomathinayagam M.and panneersecvan R. Differential resposes in Water use efficlcy in tvoo varieties of Catharanthus roscus under drought stress. CR. Biol. 2008, 331, pp 42-47.

д.с.н., проф. Мааріф Алмадат оглы Юсифов,

д.ф.б. Аламдар Таги оглы Аскеров,

к.б.н. Фирузе Фикрат кызы Магарралова

Влияние режимов опрощения на морфолические особенности и урожайность фасоли

Резюме

В статье анализируются данные о влияние режимов орощения на высоту растений, количество и площадь листья, а также урожайность фасоли. В опытах использовалась засуха созданная на основе количества проводимых орашений: глубокое (4 орощения). Поверхностной (8 орощений) и нормальное (12 орощений) Указанные режимы орашений по сортам Севиндж и Баяз изучались в сравнении. Установлено, что из приведенных режимов орашений самая сильная засуха оказалась в глубоком варианте. Так, наибольшее уменьшение количества и площади листьев, а также длины стеблей и урожайности отмечалось в этом же варианты. При этом наибольшее уменьшение этих показателей оказалось у сорта Баяз.

Ключевые слова: почвенная засуха, лист, режим орощения, стресс, урожайность, сорт стебель.

d.a.s., prof. Maarif Almadat Yusifov,

PhD in biology Alamdar Tagi Asgarov,

c.b.s. Firuze Fikrat Maharramova

The Impact Of Irrigation Regimes On The Morphological Features And Productivity Of Garden Bean

Summary

In the article, the impact of irrigation regimes on height, the number and surface of leaves as well as productivity of bean is explained. The irrigation regimes created according to their numbers during the watering of plants are divided into 3 types: Harsh (4 times), Hard (8 times) and Normal (12 times). In the process of research, the impact of irrigation regimes on plants in comparison among one another has been defined according to Beyaz and Sevinj varieties. It has been revealed that the one creating the most soil drought among irrigation regimes was the Harsh (4 times). Also, the number and surface of leaves as well as the length of the stem and productivity decreased due to drought was namely in the Harsh option. During this time, most decreases due to drought have been remarked in Beyaz variety.

Key words: soil, drought, leaf, irrigation regimes, stress productivity, variety, stem.

Maarif Almədət oğlu YUSİFOV
aqrar elmlər doktoru, professor, laboratoriya müdiri,
Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu

TƏRƏVƏZ NOXUDU BİTKİSİNDƏ GENERATİV ORQANLARIN ƏMƏLƏ GƏLMƏSİNƏ TORPAQ QURAQLIĞININ TƏSİRİ

Xülasə

Məqalədə tərəvəz noxudu bitkisində çiçək, paxla və dənin əmələ gəlməsinə torpaq quraqlığının təsirindən bəhs olunur. Tədqiqatda müəyyən edilmişdir ki, torpaq quraqlığı çiçək, paxla və dənin əmələ gəlməsinə mənfi təsir göstərərək onların sayının azalmasına səbəb olmuşdur. Eyni zamanda, torpaq quraqlığı paxlaların uzunluğunu da qısaltmış, enini isə əksinə - bir qədər artırmışdır ki, bu da dənin iriliyinin artması ilə əlaqədardır. Bunun da nəticəsində, 1000 dənin kütləsinin bir qədər yüksəlməsi baş vermişdir.

Açar sözlər: tərəvəz noxudu, sortnümunələr, quraqlıq, generativ orqanlar, dənin kütləsi.

***

Respublikamızın iqlim göstəricilərini əsasən istilik və bununla bağlı olan torpaq və hava quraqlığı təşkil edir. Torpaq və hava quraqlığı bitkilərin fotosintez fəaliyyətinə və maddələr mübadiləsinə pis təsir edərək onları zəiflədir, nəticədə bitkilərin bioloji və təsərrüfat məhsuldarlığı xeyli aşağı düşür. Çünki yüksək istilik zamanı bitki və torpaq səthində güclü buxarlanma baş verir və onlarda su qıtlığı yaradır [1: 242 səh].

Quraqlıq əksər dünya ölkələri üçün ümumi olan və mədəni bitkilərin məhsuldarlığını məhdudlaşdıran, ərzaq istehsalına ciddi təhlükə yaradan əsas stress amildir (2.89-925-940) . Qlobal iqlim dəyişiklikləri bu əlverişsiz mühit şəraitini genişləndirir. [3, səh. 484-451] . Quraqlıq çoxtərəfli stress amili olub, bitkilərə müxtəlif quraqlıq səviyyəsində təsir göstərir [4, səh.135-148]. Tam bitki səviyyəsində quraqlıq şəraitində fotosintezin sürətinin azalması və boyatmanın ləngiməsi baş verir. Bu azalmalar bitkinin bütöv orqanlarında, o cümlədən generativ orqanlarda da baş verir.

Göstərilənləri nəzərə alaraq, tərəvəz noxudu sortnümunələrində generativ orqanlara torpaq quraqlığının təsirini tədqiq etməyi zəruri hesab edirik.

Tədqiqatın obyekti və metodları. Tədqiqat işləri institutumuzun Abşerondakı Yardımçı Təcrübə təsərrüfatının sahələrində aparılmışdır. Təcrübənin obyekti tərəvəz noxudu bitkisinin rayonlaşmış və perspektiv sortnümunələri Ranniy 301, 29/1, 82/3, 36/1, və 64/3 olmuşdur. Bu sort sortnümunələrində çiçəklərin, paxlaların və dənlərin əmələ gəlməsinə torpaq quraqlığının təsiri suvarılan və suvarılmayan sahələrdə becərilən bitkilər üzrə müqayisəli şəkildə öyrənilmişdir.

Nəticələrin müzakirəsi. Tədqiqatlar göstərmişdir ki,tərəvəz noxudu sortnümunələrinin çiçək, paxla və dənlərinin sayı və ölçüləri, onların bioloji xüsusiyyətlərindən və suvarma rejimlərindən asılı olaraq geniş miqyasda dəyişirlər.

Tərəvəz noxudu bitkisində çiçəklər tək-tək yerləşir və bir saplaqda onların sayı 1 və ya 2 ədəd olur. Aparılan tədqiqatlar göstərmişdir ki, çiçəyin ölçüsü digər morfoloji əlamətlərlə yanaşı, paxlanın böyüklüyü, dənin ölçüsü və kütləsi ilə və vegetativ orqanlarla əlaqəli olurlar. Belə ki, boyu hündür enliyarpaqlı bitkilərin çiçəyi, paxlası və dənləri də iri olur. [1. 192]

Təcrüblərədə aşkar edilmişdir ki, bitkilərdə çiçəklərin əmələ gəlməsi, tökülməsi və paxla əmələ gəlməsinə torpaq quraqlığı ilə yanaşı, hava şəraitinin də böyük təsiri olmuşdur. Onu da qeyd etmək lazımdır ki, çiçəklərin güclü əmələ gəlməsi yaz vegetasiyasının əvvəllərində, paxlaların əmələ gəlməsi isə vegetasiyanın ortalarında baş vermişdir. İlk paxlaların quraqlıq sahədə əmələ gəlməsi suvarılan sahəyə nisbətən 15 gün tez baş vermişdir. Bununla yanaşı , quraqlıq sahədə dənin əmələ gəlməsi və onun yetişmə fazaları (süd, mum və tam) suvarılan sahəyə nisbətən sürətlə keçərək vegetasiyanın 15-20 gün tez başa çatmasına səbəb olmuşdur. Hesab etmək olar ki, bu proseslərin tez keçməsi bitkilərin sonralar olacaq yüksək məhvedici yüksək temperatur, torpaq və hava quraqlığından qaçmaq (qorunmaq) üçün bir vasitədir.

Cədvəl 1

Tərəvəz noxudu bitkisində çiçəklərin və paxlaların əmələ gəlmə dinamikası (Ranniy 301 sortu üzrə)

Orqanlar	Aprel				May				
	3	5	15	19	10	20	23	25	27
Suvarılan sahə									
Çiçək	3	6	46	20	14	25	23	7	-
Paxla				5	15	20	22	30	36
Suvarılmayan sahə									
Çiçək	6	12	30	36	20	5	-	-	-
Paxla	-	-	6	10	16	20	24	-	-

Qeyd etmək lazımdır ki, çiçəklərin əmələ gəlməsinə torpaq quraqlığı yaz vegetasiyasının əvvəllərində öz təsirini göstərməyə başlamışdır. Belə ki, vegetasiyanın əvvəllərində suvarılmayan

sahədə çiçəklərin sayı suvarılan sahəyə nisbətən bir qədər çox olmuşdur. Aprelin ortalarında bitkilərdə əmələ gələn çiçəklərin ən çox sayı suvarılan sahədə qeydə alınmışdır. Bu zaman suvarılmayan sahədə artıq paxlalar əmələ gəlməyə başlamışdır, yəni bu sahədə paxlaların əmələ gəlməsi suvarılan sahəyə nisbətən 15 gün tez baş vermişdir. Bu hadisə yüksək temperatur və torpaq quraqlığından qaçmaq hissiyatı ilə bağlıdır, bu da bitkilərdə nəsli davam etdirmə hissiyatının olmasını sübut edir. Ona görə də bu gündən sonrakı inkişaf fazalarının sürətlə keçməsi başlanır. Qeyd edildiyi kimi, bu zaman suvarılan sahədə çiçəklərin maksimal sayı (46 ədəd) əmələ gəlmişdir, suvarılmayan sahədə isə çiçəklərin maksimal həddi xeyli aşağı (36 ədəd) olmuşdur. Sonrakı müşahidə zamanı (14 gün sonra) aşkar edilmişdir ki, suvarılan sahədə bu dövrdə baş vermiş yağışlı küləklərin təsirindən çiçəklərin təqribən 60%-i tökülmüşdür, ancaq bu sahədə ilk paxlalar yaranmışdır. Onların əmələ gəlməsi suvarılmayan sahəyə nisbətən 15 gün gec başlamışdır. Bu zaman çiçəklərin sayı quraqlıq sahədə özünün maksimal həddinə çatır, sonra isə paxlaların əmələ gəlməsinə görə çiçəklərin sayı azalaraq 5 mayda minimal həddə enir. Lakin bu sahədə paxlaların sayı sürətlə artaraq 13 mayda özünün maksimal həddinə (24 ədəd) çatmışdır. Suvarılan sahədə isə suvarılmayan sahədən fərqli olaraq çiçəklərin yaranmasında bir qədər azalma baş verir, bundan 10 gün sonra çiçəklərin sayı bir qədər artaraq özünün ikinci maksimumuna (25 ədəd) çatır, sonralar paxlaların əmələ gəlməsi sürətləndiyinə görə çiçəklərin sayı azalaraq suvarılmayan sahəyə nisbətən 15 gün sonra çiçəklərin sayı minimuma enir, paxlalar isə öz maksimal həddinə (27 ədəd) yaxınlaşır və 27 mayda, yəni suvarılmayan sahəyə nisbətən paxlaların əmələ gəlməsi 15 gün gec sona çatır. Göründüyü kimi, suvarılan və suvarılmayan sahələrdə çiçəklərin sayında fərq olduğu (müvafiq olaraq 46 və 36 ədəd) kimi, paxlaların sayında da fərq (müvafiq olaraq 36 və 24 ədəd) əmələ gəlmişdir. Əmələ gəlmiş çiçəklərin hər iki sahədə hava şəraitindən və torpaq quraqlığından asılı olaraq hamısı paxlalara çevrilmədən göstərilən amillərin təsirindən müəyyən hissəsi tökülməyə məruz qalmışdır.

Alınmış nəticələr göstərmişdir ki, tərəvəz noxudu bitkisində çiçəklərin və paxlaların əmələ gəlməsinə torpaq quraqlığının təsir etdiyi kimi, paxlaların ölçülərinə, dənin sayına və 1000 dənin kütləsinə də onun təsiri olmuşdur. Cədvəl 2-dən göründüyü kimi, bütöv göstəricilər üzrə torpaq quraqlığının təsiri nəticəsində azalma (paxlaların qalınlığı müstəsna olmaqla) baş vermişdir və bu azalmalar sortnümunələrinin bioloji xüsusiyyətlərindən asılı olaraq geniş miqyasda dəyişmişdir. Tərəvəz noxudu bitkisində məhsulun struktur elementlərindən biri də paxlaların ölüçüləridir ki, bu da çox vacib göstəricidir, çünki paxlaların uzunu və eni çox olarsa, məhsuldarlıq da xeyli çox olar. [1. s. 192 səh]

Paxlaların uzunu suvarılan sahədə sortnümunələri Ranniy 301, 29/1, 83/3, 36/1 və 64/3 üzrə müvafiq olaraq 5,81; 6,38; 5,69; 5.91 və 3,91 sm , suvarılmayan sahədə isə bu göstəricilər bir qədər azalaraq 5,9; 5,2; 4,95; 5,19 və 5,35 sm-ə bərabər olmuşdur. Bu zaman paxlaların eni suvarılan sahədə sortnümunələri üzrə 10,0; 11,0; 10,3; 10,3 və 10,5 mm, suvarılmayan sahədə isə bu göstəricilər paxlaların uzunluğunun əksinə, artaraq 12,3; 12,5; 12,4; 12,6 və 12,8 mm təşkil etmişdir. Göründüyü kimi, quraqlığın təsirindən suvarılmayan sahədə becərilmiş bitkilərdə paxlaların uzunu suvarılan sahəyə nisbətən bir qədər azalır, eni isə onun əksinə- artmışdır.

Təcrübələr göstərmişdir ki, suvarılmayan sahədə becərilmiş bitkilərdə torpaq quraqlığının təsirindən bitkilərdə çiçək və paxlaların sayı axırıncıların uzunluğunun azaldığı kimi, bir paxlada dənin sayı da azalmağa məruz qalmışdır. Belə ki, suvarılan sahədə becərilmiş bitkilərdə bir paxlada dənin sayı sortnümunələri üzrə 3-4 arasında dəyişdiyi halda, suvarılmayan sahədə becərilmiş bitkilərdə o, azalaraq 2-3 ədəd arasında dəyişmişdir.Bu zaman sortnümunələri Ranniy 301, 29/1, 82/3, 36/1 və 64/3 üzrə bir paxlada dənin sayının azalması müvafiq olaraq 33,3; 100,0; 33,3; 33,3; və 50.0 %-ə bərabər olmuşdur.

Suvarılmayan sahədə becərilmiş bitkilərdə torpaq quraqlığının təsirindən bir paxlada dənlərin çəkisi başqa göstəricilərdən fərqli olaraq bir qədər çoxalma baş vermişdir. Belə ki, suvarılan sahədə becərilmiş bitkilərdə bir paxlada dənin çəkisi sortnümunələri üzrə 0,60-0,72 qr arasında dəyişmişdirsə, suvarılmayan sahədə bu göstərici bir qədər artaraq 0,69-0,87 qr arasında tərəddüd etmişdir. Bu artma sortnümunələri üzrə müvafiq olaraq 13,1; 42,6; 9,7; 45,0 və11,6%-ə bərabər olmuşdur.

Cədvəl 2

Tərəvəz noxudu bitkisində paxlaların ölçülərinə, paxlada dənin sayına və çəkisinə, 1000 dənin kütləsinə torpaq quraqlığının təsiri

Sortnümunələri	Paxlaların ölçüləri		Bir paxlada		1000 dənin kütləsi, qr.
	uzunu	eni	Dənin sayı, ədəd	Dənin çəkisi, qr.	
Suvarılan sahə					
Ranniy 301	5.80	10.0	4	0.61	152.6
29/1	6.30	11.0	4	0.61	153.9
82/3	5.64	10.3	3	0.72	202.3
36/1	5.91	10.3	4	0.50	151.1
64/3	5.91	10.3	4	0.69	173.1
Suvarılmayan sahə					
Ranniy 301	4.90	12.3	3	0.69	209.3
29/1	5.20	12.5	2	0.87	433.9
82/3	3.95	12.4	2	0.79	370.1
36/1	5.10	12.6	3	0.87	216.4
64/3	5.30	12.8	3	0.77	293.2

Əvvəldə göstərildiyi kimi, torpaq quraqlığının təsirindən paxlaların eni bir qədər artmışdır. Bu onu göstərir ki, paxladakı dənlər suvarılmayan sahədə nisbətən iri olmuşdur. Buna görə də onlarda 1000 dənin kütləsi suvarılan sahədə sortnümunələri Ranniy 301, 29/1, 82/3, 36/1 və 64/3 üzrə müvafiq olaraq 175,0; 174,0; 195,0; 177,5 qr., suvarılmayan sahədə isə 187,5; 195,0; 198,0; 210,0 və 200,5 qrama bərabər olmuşdur. Bu zaman 1000 dənin kütləsinin suvarılmayan sahədə suvarılan sahəyə nisbətən artması sortnümunələri üzrə müvafiq olaraq 7,2; 12,1; 10,51; 23,5 və 13,0%-ə bərabər olmuşdur. Buna bənzər nəticələr Q.V.Udavenkonun [6, 95-100] tədqiqatlarında da müşahidə olunmuşdur.

Nəticə

1. Torpaq quraqlığının təsirindən bitkilərdə çiçək, paxla və dənin sayı azalmğa məruz qalmışdır. Bu azalma sortnümunələri üzrə müxtəlif xarakter daşımışdır.
2. Tərəvəz noxudu bitkisində paxlaların əmələ gəlməsi torpaq quraqlığının təsirindən 15 gün tez başlamışdır. Ona görə də vegetasiyanın başa çatması 15-20 gün tez baş vermişdir.
3. Torpaq quraqlığının təsirindən paxlaların uzunluğu azalmış, eni isə, əksinə, artmışdır ki, bu da dənlərin iriliyinin artması ilə əlaqədar olmuşdur. Bunun nəticəsində 1000 dənin kütləsinin bir qədər yüksəlməsi baş vermişdir.

ƏDƏBİYYAT

1. Sadıxova L.Q., Yusifov M.A., Sultanlı X.H., Qubadova M.B. Tərəvəz noxudu (biomorfoloji xüsusiyyətləri, fizioloji əlamətləri və becərilmə texnologiyası). Bakı, Mütərcim, 2004, 242 s.
2. Araus J.L., Salte G.A., Reynolds M.P., Roya C. Plant bieding and water relations in C3 cercals: what should we breed for: Ann. Bot. London, 2002 89, 925-940 p.
3. Elisabetli S., Evan D.G., Mette T. Piess M.F, Andrew J.D. Tupologies of crop-drought vilnerability: an empirical analysis of the socio-economic factors that influence the sensivity and resilience to drought of tree major good crops in China (1961-2001) Enuironmtal Science and polly, 2009,12, 438-451.
4. Blüm A. Crop responces to trought and the interpetation of adaptation, Plant Growth Regul, 1996 20, 135-148.
5. Mwanamwenge J.S., Loss K.H. Siddiguc P.S. Effect of Water stress during floral initation, flowering and poding on the growh and yiold of faba bean (Vici faba L.) Eur.J.Agron, 1999.
6. Удовенко Г.В., Гопчарова Э.А. Влияние зкстремальных условий среды на струкруры урожая сельскохозяйственных растений. Лелинград, Гидгометеоиздат, 1992, стр 95-108.

Маариф Алмадат оглы Юсифов
доктор сельскохозяйственных наук, проф.

Влияние почвенной засухи на оброзование геперативных органов на растениях овощного гороха

Резюме

В статье приводятся данные о влияние почвенной засухи на динамику оброзования цветков,бобов и зерен на рвстениях овощного гороха. Опытами было установлено, что почвенная засуха отрицательно влияет на оброзования генеративных органов, уменьшая их количество на растениях. При зтом почвенная засуха повиляла также на параметри бобов-уменьшая их длины, ширину-наоборот, незначительно увеличивала.

Можно предположить, что последнее связано с незначительном увеличении диаметра зерен и это привадило к увеличеию массы 1000 зерен.

Ключевые слова: овощной горох, сортообразцы, засуха, генеративные органы, массы зерен.

Maarif Almadat Yusifov
doctor of agricultural sciences, prof.

The impact of soil drought on the formaston of generative organs in vegetable pea.

Summary

This article is about the effect of soil drought on accurrence of flowers, beans and grain in pea. According to the research, soil drought affected creation of flowers, beans and greans negatively which diminished their amount. Simultancously, soil drought shortened the lenght of beans while enlarged the width of them . This ease is related to the growth of size of grains which eventually led to increase of mass of 1000 grains.

Key words: vegetable bean, species, samples, drought, generic organs, mass of grain.

Məcid Bilal oğlu ADIGÖZƏLOV
"Emal və saxlama texnologiyaları laboratoriyası" nın müdiri,

e.i. Sevda Həsən qızı ADIGÖZƏLOVA
Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu

TƏRƏVƏZ MƏHSULLARININ SAXLANMASININ VƏ EMALININ ƏRZAQ TƏMİNATINDA ROLU

Xülasə

Məqalədə səmərəli konservləşdirmə üsullarından və Azərbaycanda ərzaq təhlükəsizliyi probleminin həllində onların rolundan bəhs edilir.

Açar sözlər: tərəvəz, konservləşdirmə, ərzaq təhlükəsizliyi, təbii qurutma, dondurma, qabaq, patisson, ərzaq ehtiyatı.

***

Qidalanma - insanın həyat fəaliyyətinin, uzunömürlülüyünün, əhval-ruhiyyəsinn və ətraf mühitin əlverişsiz faktorlarının təsirinə qarşı dayanıqlığının əsas şərtidir.

Ərzaq problemi insanın yarandığı gündən mövcud olmuş və onun həyat tərzi ilə bağlı növ tərkibini və miqdarını dəyişmişdir. Artıq XX əsrin ikinci yarısından başlayaraq qida məhsulları ilə təminat ümumbəşəri problemə çevrilmişdir. [2]

Ərzaq təhlükəsizliyi hər bir insanın sağlam və məhsuldar həyat tərzi üçün ərzaqla kifayət qədər təmin edilməsi deməkdir. Elmi əsaslandırmaya görə insanlar öz əmək qabiliyyətlərini sabit saxlamaq üçün gün ərzində 2300 ekvivalentdə müxtəlif ərzaq məhsulları qəbul etməlidirlər. [2. səh. 29;] Ümumdünya Səhiyyə Təşkilatının normasına görə adambaşına tərəvəzin illik istehlak norması 110kq, bostan məhsullarının isə 146kq nəzərdə tutulmuşdur.

Ərzaq təhlükəsizliyinin həllində kənd təsərrüfatı aparıcı rol oynayır. Statistikaya görə hazırda işləyən əhalinin 40%-i və ÜDM-in 5,6%-i bu sahənin payına düşür. [8]

Azərbaycan tərəvəz məhsullarının çeşidinə və qidalılıq dəyərinə görə dünyada mühüm yer tutan ölkələrdəndir [5. səh. 3]. Tərəvəz məhsulları insan orqanizminin mineral maddələrlə və vitaminlərlə təmin edilməsində əvəzsiz qida məhsullarıdır. Tərkibində sağlam qidalanma elementləri üstünlük təşkil etdiyinə görə tərəvəzlər qida rasionunun optimallaşdırılmasında, bir çox xəstəliklərin profilaktikası və müalicəsində əvəzedilməz mənbədirlər. [2. səh. 29]

Tərəvəz istehsalının mövsümi xarakter daşımasına baxmayaraq, bunlar il boyu gündəlik qidanın tərkibinə daxil olmalıdır. Müəyyən olunmuş fizioloji normaya əsasən, orqanizmin normal fəaliyyəti üçün hər adam ildə orta hesabla 106 kq meyvə-giləmeyvə və üzüm (gündə ən azı 300 qram), 110 kq kartof (gündə 300-350 qram), 130 kq tərəvəz və bostan məhsulları (gündə 350-400 qram) istehlak etməlidir. [9. səh. 3]

Tərəvəzlər mikroorqanizmlərin və fermentlərin təsirindən daha tez xarab olduğundan, məhsul itkisinin qarşısını almaq, ilin bütün mövsümlərində lazımi qədər tərəvəz istifadə edə bilmək üçün onları müxtəlif üsullarla konservləşdirirlər. Tərəvəzlərin saxlanmasını düzgün təşkil etməklə, məhsul itkisini 15-20% azaltmaq mümkündür. [3; səh. 7]

Qeyd etmək lazımdır ki, emal sahəsi kənd təsərrüfatının ən gəlirli sahələrindən olub, az vəsait qoyuluşu ilə yüksək gəlir əldə edilməsini təmin edir. [3. səh. 7] Müasir dövrdə konservləşdirmə yeyinti sənayesinin vacib sahələrindən biridir. Mövsümdə konservləşdirilən məhsula qida dəyərinə və iqtisadi səmərəsinə görə üstunlük verilir. Müəyyən olunmuşdur ki, təzə pomidora nisbətən onun emal olunmuş məhsullarında likopinin miqdarı, ümumiyyətlə təbii antioksidantlıq miqdarı daha çoxdur. [5; 6].

Təcrübələr göstərir ki, tərəvəzçiliyin gələcək inkişafını yüksəltmək üçün onun sənayeləşdirilməsi vacibdir. Yeni elmi nailiyyətləri tətbiq etmədən, sənaye ilə kənd təsərrüfatı üzvi şəkildə birləşmədən tərəvəzçiliyin yüksək səviyyədə inkişaf etdirilməsi mümkün deyildir. Sənayeləşmə ilboyu daxili tələbatın ödənilməsini yaxşılaşdırmaqla yanaşı, həm də tərəvəz məhsullarının ixrac potensialının yüksəldilməsinə imkan yaradır.

Ölkəmizdə emal sahəsinin inkişaf etdirilməsinin prioritet olması bir sıra Dövlət qərarlarında öz əksini tapmışdır. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə Respublikada kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi təsdiq edilmişdir. [1] Strateji Yol Xəritəsinin Tədbirlər Planında "Qurudulmuş və dondurulmuş tərəvəz məhsulları istehsalını artırmaq üçün müasir qurutma və dondurma üsullarını tərəvəzin daha geniş çeşidinə tətbiq etməklə bütün ilboyu əhalini bu məhsullarla təmin etmək üşün təkliflərin verilməsi" nəzərdə tutulmuşdur. [1. Tədbir: 2.1.5.]

Konservləşdirmənin sadə üsulları - günəş altında qurutma, duza qoyma, turşuya qoyma, təbii soyuqdan istifadə etmək çox qədimdən məlum olmuş və indi də tətbiq edilməkdədir. [3, səh. 262; 5. səh 184] Qurutma üsulu insanın təbiətdən öyrəndiyi və ərzaq ehtiyatı toplamaq üçün istifadə etdiyi ən qədim texnologiyadır. Hazirda bir sıra ölkələrdə qurutma üsulu sənayeləşdirilmişdir və qurudulmuş məhsulların ixracından yuksək gəlir əldə edilir.

Müasir dövrdə dunyada hazır qidalara tələbatin artması, bu qidalar ücün əvəzolunmaz xammal olan qurudulmuş tərəvəz məhsullarına da tələbatın artmasına səbəb olmuşdur. Qurudulmuş tərəvəzlər paket halında qablaşdırılan quru şorbalar və ədviyyatlar üçün dəyərli xammaldır. Daşınması və saxlanması rahat olduğu üçün ekspedisiyalarda, səyahətlərdə, orduda istifadəsi asandır, eləcə də iqtisadi cəhətdən səmərəli olduğu üçün ixrac potensialı yüksəkdir.

Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun "Emal və saxlama texnologiyaları laboratoriyası"nda tərəvəzlərin saxlanması və emalı, müxtəlif ceşidli məhsulların hazırlanması üzərində tədqiqat işləri aparılır. Strateji Yol Xəritəsinin Tədbirlər planına uyğun olaraq TETİ-un rayon-

laşmış və perspektiv pomidor sortlarından təbii qurutma üsulu ilə iki ceşiddə məhsul hazırlanmışdır. Bunlardan biri pomidorun bölünərək qurudulması, digəri isə pomidor lavaşıdır.

Qurutma üsulunu yetişmiş və ətli pomidor sortlarına tətbiq edərək Abşeron şəraitində tədqiqat işləri aparılmış və avqust ayı üçün ilkin müsbət nəticələr əldə olunmuşdur. Tədqiqat işinin yekunu olaraq, 15-16kq xammaldan günəş altında qurutma üsulu ilə 1kq. məhsul alındığı müəyyən olunmuşdur. Alınmış məhsul qızılı-sarı rəngə, parlaq, spesifik ətrə və dada malikdir.

İkinci emal məhsulu pomidor lavaşıdır ki, bu məhsulun hazırlanması ilk dəfə laboratoriyada sınaqdan keçirilmiş və qızılı-sarı rəngli, qidalılıq dəyəri yüksək olan lavaş şəklində quru məhsul alınmışdır. Bu pomidorun qurudularaq saxlanmasının yeni üsuludur. Pomidor lavaşını həm quru halda, həm də suda həll etməklə pomidor şirəsi kimi istifadə etmək olur. Pomidor məhsulu kimi qəlyanaltıların, şorbaların hazırlanmasında istifadə olunası mümkündür. Hər iki məhsul insanın pomidora olan tələbatını ödəyir.

Pomidordan toxum əldə edildikdən sonra yerdə qalan ərzağa yararlı xammaldan pomidor lavaşı hazırlamaq ərzaq itkisinə yol verməmək baxımından səmərəlidir.

Emal və saxlama texnologiyaları laboratoriyasında ölkəmizdə az becərilən bostan bitkilərindən olan qabaq və patissonun Abşeron şəraitində becərilərək ondan müxtəlif emal məhsullarının hazirlanması üzərində də elmi-tədqiqat işləri aparılmışdır. Bu bitkilərin məhsuldar və qulluga az tələbkar olduqları kimi konservləşdirmədə də qiymətli xammal olduğu müəyyənləşdirilmişdir. Qabaq və patisson zəngin kimyəvi tərkibə və müalicəvi xüsusiyyətinə görə əhəmiyyətlidir, pəhriz və uşaq yeməklərinin hazırlanmasında çox faydalidir. Marinadlaşdırılmış qabaq və patisson assortiləri gözəl görünüşə, dada və zəngin kimyəvi tərkibə malikdir. Bu tərəvəzlərin ölkəmizə baha qiymətə idxal olunmasını nəzərə alaraq deyə bilərik ki, təsərrufatlarda qabaq və patissonun becərilməsinin və emalının genişləndirilməsi müsbət nəticələr verə bilər. Gələcəkdə laboratoriyada bu tərəvəzlərdən müxtəlif çeşidli məhsullar hazırlanması nəzərdə tutulmuşdur. Ən müasir tədqiqat metodikaları, yeni cihaz və qurğularla təchiz olunmuş laboratoriyaların qurulması da yüksək keyfiyyətli, kifayət qədər uzun müddət ərzində korlanmadan saxlanma qabiliyyətinə malik, ekoloji cəhətdən təmiz və müxtəlif çeşidli tərəvəz konservlərinin hazırlanma texnologiyalarının müəyyənləşdirilməsinə imkan verəcəkdir.

Konservləşdirmənin digər üsulu sürətli dondurmadır. Bu üsul nisbətən yenidir və tərəvəz məhsullarına da tətbiq edilərək xüsusi dondurma qurğularında həyata keçirilir. Sürətli dondurulmuş məhsullar xüsusi daşınma, saxlama və realizə şəraiti tələb etsə də tərəvəz xammalının tərkibinə daxil olan qida maddələrinin tam saxlanmasını təmin etdiyi və kimyəvi qatqısız olduğu üçün mütərəqqi üsul sayılır və hazırda dunyada bu məhsullara da maraq böyükdür. [3, səh. 261]

Tərəvəz istehsalı üçün əlverişli torpaq-iqlim şəraitinə, ərzaq ehtiyatı toplamaqda xüsusi ənənələrə malik ölkəmizdə torpağın münbitliyinin, tərəvəz növlərinin dayanıqlı istehsalının, mütərəqqi texnologiyaların, elmi-texniki potensialın qorunub saxlanması və aqrosənaye kompleksinin potensialından maksimum istifadə edilməsi ilə ərzaq təhlükəsizliyinin həllinə kömək etmək olar.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. www.presidont.az/artikes /22110 177 səh.
2. E.Quliyev. Qlobal ərzaq təhlükəsizliyi: reallıq, çağırışlar və perspektivlər. Bakı, 2017. 357 s.
3. H.Fətəliyev. Bitkiçilik məhsullarının saxlanması və emalı texnologiyası. Dərslik. Bakı -2010. 429 səh.
4. Fərzəliyev E. Qida məhsullarının müasir tədqiqat üsulları. Bakı-2014, s. 365 səh.
5. H.Fətəliyev, A.Əsgərova, İ.Əsgərova. Meyvə və tərəvəzlərin emalı texnologiyası. Bakı-2017
6. Ş.A.Əliyev. Tərəvəzçilik. Bakı, 1997. 295 səh.
7. S.Q.İlçenko, A.T.Marx, A.F.Fan-Önq. Konservləşdirmənin texnologiyası və texniki-kimyəvi nəzarət. Bakı, 1966, 493səh.
8. Azərbaycan Dövlət Statistika Komitəsi.
9. Ə.Əhmədov, N.Əliyev. "Meyvə və tərəvəzlərin əmtəəşünaslığı". Bakı-2009, 437 səh.

Меджид Билал оглы Адигезалов
заведующий лабораторией технологий
переработк и их хранения,

н.с. Севда Гасан кызы Адигезалова,
Научно, Исследовательский Институт Овощеводства

Роль сохранение и переработки овощных продуктов в продовольственном обеспечение

Резюме

В статье рассматриваются эффективные методы консервирование и их роль в решении проблемы безопасности пищевых продуктов.

Ключевые слова: овощи, консервирование, продовольственный безопасность, натуральная сушка, замораживание, тыква, патиссон, продовольственный запас.

Majid Bilal Adiqezalov
head of the Laboratory of Processinq
and StorageTechnologies,

r.f. Sevda Hasan Adiqezalova
Vegetable Scientific-Research İnstitute

The role of preservation and processing of vegetable products in food supply

Summary

The article tells about effective method of preserving and their role in solving the problem of food security.

Key words: vegetables, preserve, food safety, natural drying, freezing, cucurbita, patisson, food reserves.

Tünzalə Əsgər qızı MİRZƏYEVA
Azərbaycan Kooperasiya Universitetinin magistri

DONDURULMUŞ BALIQ MƏHSULLARINDA QİDALI MADDƏLƏRİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Balıq məhsulları sənaye üsulu ilə çoxçeşidli olduğu üçün başqa qida məhsullarından fərqli olaraq Azərbaycan Respublikasında mülki əhali, hərbi, sənaye qida məhsulunda alternativ qida məhsullarından ən başlıcası sayılır. Ona görə ki, balıq yüngül, məqsədyönlü, vitaminlərlə zəngin, sənaye üsulu ilə saxlanması (uzunmüddətli) mümkündür. Məs: qaxac edilmiş, konservləşdirilmiş, dondurulmuş və s.

Açar sözlər: qida məhsulları, dondurulmuş balıq, balıq əti, uzunmüddətli saxlama, konservləşdirmə, Xəzər dənizi, fosfor, yod, bioloji maddələr.

***

Balıq ətinin qidalılıq dəyəri

Balıq ətinin insan orqanizmi üçün nə qədər faydalı olması hər kəsə məlumdur. Tərkibində bol miqdarda A, B və D vitaminləri, zülal, yağ, mineral maddələr (xüsusilə, fosfor və yod) və digər bioloji fəal maddələr olan balığın hər yaşda insan üçün çox faydalı olduğu bilinir. Bununla

birlikdə xüsusilə uşaqlar və inkişaf çağındakı gənclər üçün əsas qida məhsullarından biridir. Belə ki, bu məhsullardan insanlar gündəlik qida rasionlarında geniş istifadə edirlər. [5, səh.14]

Balıqçılıq sənayesi qida sənayesinin ən vacib sahələrindən biridir. Bu sənaye sahəsinə balığın ovlanması, emalı və çoxaldılması kimi funksiyalar daxildir. Respublikada Xəzər dənizi, Kür və Araz çayları, Mingəçevir dənizi və digər xırda göllər balıq ovunun mənbəyidir. Balıq sənayesi müxtəlif çeşiddə balıq məhsulları istehsal edir, lakin respublika əhalisinin balıq məhsullarına olan illik tələbatı tam ödənilmir. Normaya əsasən orta yaşlı insan ildə 18.2kq balıq istehlak etməlidir. Təəssüflər olsun ki, balıq qıtlığı ilə əlaqədar olaraq təqribən orta hesabla adambaşına 10kq-dan az balıq düşür. Daxili axmaz göllərdə və çaylarda balıq növlərinin ehtiyatını artırmaq üçün dövlət tərəfindən tədbirlər həyata keçirilir. Əhalinin ən çox ehtiyacı olan diri, soyudulmuş, dondurulmuş, qaxac edilmiş və hisləmiş balıq məhsulları ilə lazımi miqdarda təmin edilməsi vacib məsələlərdəndir.

Balıq və balıq məhsulları yüksək keyfiyyətə malik olduğundan qida sənayesində çox mühüm yer tutmaqla əhəmiyyətlidir. *Bəs dondurulmuş balıq məhsulları da eyni qidalılıq dəyərinə malikdirmi? Dondurulmuş bütün balıqların saxlanma müddəti eynidirmi? Hər balıq növü dondurula bilərmi?* Bu və yarana biləcək digər sualları cavablandırmaq üçün dondurulmuş balıqların xüsusiyyətinə nəzər salaq.

Balıq ətinin dondurulması

Balıqların dondurulması üçün bir neçə metoddan istifadə edilir: [2, səh. 93]

1. Təbii soyuq hava şəraitində;
2. Soyuq məhlullarda;
3. Karbon qazı və azot məhlulunda;
4. Duz-buz qarışığında.

Balığın dondurulması ən geniş yayılmış və tamamilə səmərəli konservləşdirmə metodudur. Eyni zamanda balıqların dondurulması ən qədim üsullardan biri olmaqla mikrobioloji proseslərin inkişafının qarşısını almaq üçün optimal şəraitin yaradılmasıdır. Dondurulma, konservləşdirilməyədək balıq xammalının saxlanılmasını xeyli artırmağa imkan verir, amma ətin tərkibində baş verən proseslər tamamilə dayandırılmır, yalnız xeyli ləngidilir.

Məlumdur ki, xammalın xarab olması fermentlərin və mikroorqanizmlərin fəaliyyəti ilə bağlıdır. Fermentlərin və mikroorqanizmlərin aktiv fəaliyyəti üçün başlıca olaraq su və onda həll olan maddələr lazımdır. -2.0^0C-dən aşağı temperaturlarda əzələ şirəsindəki suyun tədricən donması və buna uyğun olaraq, onda həll olan maddələrin qatılığının yüksəlməsi baş verir. Bu zaman hüceyrə şirəsinin donma temperaturu tədricən azalır.

Dondurulmuş balıqların orqanoleptiki qiymətləndirilməsi

Dondurulmuş balığın keyfiyyəti (QOST 1168-865) onun xarici görünüşünə, hissələrə ayrılma keyfiyyətinə, konsistensiyasına və iyinə görə müəyyənləşdirilir. Balığın donma dərəcəsi dondurulma üsulundan asılı olaraq dəyişir. [3, səh. 97]

Balığın xarici görünüşü bədən səthinin təmizliyi və rənginə, köklüyünə, mexaniki zədələnməsinə, sarı rəng və kif örtüyü nişanələrinə görə qiymətləndirilir. Balığın üst səthi təmiz, təbii rəngli olmalıdır. Balığın bədənində mexaniki zədələnmə olmamalıdır. Sadəcə kiçik cızıqların olmasına icazə verilir. Balıqların hissələrə ayrılması standarta, texniki şərtlərə və digər normativ sənədlərə uyğun başa çatdırılır. Baş hissəsi ayrılmış balıqlarda daxili orqanlar çıxarılmalıdır.

Balıq ətində fiziki dəyişikliklər

Təzə ovlanmış balıqlarda əzələ lifləri bir-birinə möhkəm yapışır və elastik qılafa malik olur. Balığın ölümündən sonrakı dəyişiklik zamanı əzələ lifləri tədricən sıxılır, yerini dəyişir və onlar arasındakı boşluqlar hüceyrə şirəsi ilə dolur. Belə balıq yavaş dondurularkən (-18^0C və aşağı temperaturda) liflər arasındakı boşluqlarda böyük buz kristalları yaranır ki, bu səbəblə də ətin həcmində dəyişiklik müşahidə olunur və eyni zamanda yaranmış buz kristalları zəifləmiş əzələ liflərinin qılafının tamlığını poza bilir. Məhz bu səbəbdən ətin donu açılarkən konsistensiyası kobudlaşır, quru və ya sulu olur. Buna görə də dondurulmaya, yüksək keyfiyyət göstəricilərinə malik balıq xammalı daxil olmalıdır. Əzələ toxumasının strukturuna, təkrar dondurulma prosesi də həmçinin, mənfi təsir göstərir. [1, səh.156]

Dondurulmuş balığı saxlayarkən, tədricən onun səthinin bir qədər quruması baş verir. Quruma təkcə balığın kütləsini azaltmır, həm də onun keyfiyyətinə təsir edir. Balığın əti kobudlaşır, konsistensiyası lifli olur, ətri zəifləyir və ya tamamilə yox olur.

Balıq ətinin qidalılıq dəyərində baş verən dəyişikliklər

Bir çox qidalandırıcı maddələrin nisbətində böyük dəyişikliklər olmur. Ancaq C vitamininin miqdarı olduqca azalır, çünki C vitamini aşağı temperatur şəraitində asanlıqla parçalana bilir. Balığın donu açılarkən buz kristalları əriyir və əmələ gələn su toxumalar tərəfindən udulur. Donun açılması zamanı balıqdan çıxan toxuma şirəsinin miqdarı ətin ləzzətini bərpa edir.

Balıq ətinin rəng dəyişimi

Piqment maddələrin parçalanması nəticəsində balığın rəngi dəyişir. Balıq ətinə rəng verən eritrositlər dondurulma zamanı aşağı temperaturun təsirilə parçalanır. Fermentlərin təsirilə ətə qırmızı rəng verən hemoqlobinin oksidləşməsi də ətin rəng dəyişiminə səbəb olur.

Dondurulmuş balığın əsas nöqsanları onun saxlanma zamanı yağının qaxsıması (acıması) və qurumasıdır. Yağın qaxsıması zamanı balığın dərisi və dərialtı piy saralaraq, xoşagəlməz qaxsımış yağ qoxusu və dadı verir. Yağların oksidləşməsi isə balığın dadını, qoxusunu və rəngini pisləşdirir. Yağın oksidləşməsi və parçalanması nəticəsində balıq ətinin üzəri sarımtıl-qırmızı ləkələrlə örtülür, yəni balıq əti "paslanır" və yeyinti əhəmiyyətini itirir. Yağların oksidləşməsinə ümumi olaraq yanması da deyilir. Yağlardakı dəyişikliklər nəticəsində ətin keyfiyyəti aşağı düşmüş olur. Belə balıqdan hazırlanmış yeməyin keyfiyyəti olduqca aşağıdır. Yağlardakı dəyişim sürəti dondurma metoduna görə dəyişir. Duz məhluluna salınaraq dondurulan balıq məhsullarının yağlarındakı dəyişmə daha aktivlik təşkil edir. Çünki duz fermentlərin sürətini artırır.

Dondurulmuş balıqlarda yağların turşu dəyəri çox, yod dəyəri isə çox az dəyişir. Turşu dəyərinin çox olması dondurulan ətlərdəki yağların hidroliz olmasından qaynaqlanır. Yəni, dondurulan balıq ətinin hidrolizi yüksək, oksidləşməsi aşağıdır.

Dondurulmuş balıqların saxlanılma şəraiti

Dondurulmuş balığın saxlama müddəti kameradakı havanın temperaturundan, rütubətindən, balığın növündən, onun yağının növündən, dondurulma üsulundan, üzərində buz təbəqəsinin olub-olmamasından və ya qalınlığından, qablaşdırmanın keyfiyyətindən asılıdır.

Dondurulmuş balıq -12^0C-dən -25^0C-yə qədər temperaturda, 95% nisbi rütubət rejimində bir aydan 12 aya qədər müddətdə saxlanılır. Təkrar dondurulmuş balıq uzunmüddətli saxlama üçün yararsızdır.

-5^0C, -6^0C temperaturda dondurulmuş balığın saxlanma həddi cəmi 14 gündür, 0^0C-yə yaxın temperaturda saxlama müddəti 2-3 günə qədər azalır. Soyuducular olmadıqda dondurulmuş balıq qaranlıq və sərin yerdə 1 gündən artıq saxlanılmamalıdır. [1, səh. 400]

Aparılan təhlildən belə nəticəyə gəlmək olar ki, balıq məhsullarının yüksək qidalılıq dəyərinə malik olması, eyni zamanda onun emalı məhsullarına da şamil edilir. Bu məqsədlə ovlanan balıqların miqdarını və növünü artırmaq üçün əsas məsələ balıqçılığı sənaye təməli üzərində inkişaf etdirmək, balıqdan maksimum səmərəli istifadə etməklə geniş çeşiddə yeyinti məhsulları istehsal etməkdir.

ƏDƏBİYYAT

1. Musayev N.X. - Ərzaq mallarının ekspertizası.Heyvanat mənşəli məhsulların ekspertizası. II hissə (Dərslik). "Çaşıoğlu" nəşriyyatı, Bakı, 2005.
2. Əliheydər Mahmudov . Balıq və balıq məhsulları. Bakı, 1979.
3. V.A. Əliyev. Ət və balıq məhsulları əmtəəşünaslığı. Bakı, 1998.
4. E.B.Fərzəliyev. Balıq emalı müəssisələrinin texnoloji layihələndirilməsi. Bakı, 2009.
5. N.Ə.Axundova. Balıq və balıq məhsulları texnologiyasının nəzəri əsasları. "İqtisad Universiteti" nəşriyyatı. Bakı, 2013.
6. Технология рыбы и рыбных продуктов. А.М.Ершова.-СПб: Гиорд,2006

Тунзала Аскер кызы Мирзоева
магистр Азербайджанский Кооперационный Университет

Анализ и оценка пищевых веществ в замороженных рыболовных продуктах

Резюме

Рыболовная продукция благодаря своему многообразию с точки зрения промышленности, в отличие от других пищевых продуктов является основным альтернативным продуктом питания в Азербайджанской Республике с гражданской, военной и промышленной точки зрения. Потому что продукты данного сорта отличаются своей лёгкостью и целесообразностью. Кроме того, они богаты витаминами и их можно хранить долго промышленным методом. Прим: в сухом, консервированным, заморожённом и т.д.

Ключевые слова: пищевые продукты, замороженная рыба, мясо рыбы, долгое хранение, консервирование, Каспийское море, фосфор, йод, биологические вещества.

Tunzala Asgar Mirzayeva
master of Azerbaijani Cooperation University

Analysis and evaluation of nutrients in frozen fish products

Summary

Fishing products due to their diversity in terms of industry, unlike other food products, is the main alternative food product in the Republic of Azerbaijan from a civil, military and industrial point of view.

Because products of this grade differ in the ease and expediency. Besides, they are vitamin-rich and they can be stored by long industrial method. For example: dry, tinned, frozen, etc.

Key words: foodstuff, the frozen fish, meat of fish, long storage, conservation, the Caspian Sea, phosphorus, iodine, biological substances.

i.f.d., b/m. Günəş Məzahir qızı NƏSRULLAYEVA,
dosent Elsevər Baba oğlu FƏRZƏLİYEV,
dosent Mehriban Həmid qızı MƏHƏRRƏMOVA,
b.f.d. Mehriban Rauf qızı YUSİFOVA
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

UNLU QƏNNADI MƏMULATLARI İSTEHSALINDA ƏLAVƏ XAMMAL KİMİ İSTİFADƏ EDİLƏN ÜZÜM TOZUNUN XƏMİRİN REOLOJİ XASSƏLƏRİNƏ TƏSİRİNİN ARAŞDIRILMASI

Xülasə

Unlu qənnadı məmulatlarının istehsal texnologiyasında əsas xammallarla yanaşı çoxlu miqdarda geniş çeşiddə yardımçı xammallardan da istifadə edilir. Təqdim olunan məqalədə unlu qənnadı məmulatları xəmirinə üyüdülmüş üzüm tozunu daxil edərək reoloji xüsusiyyətlərinin dəyişilməsi göstərilmişdir.

Açar sözlər: unlu qənnadı məmulatları, xəmir, üzüm tozu, kleykovina.

Giriş

Unlu qənnadı məmulatları xəmirinin xüsusiyyətinin yaxşılaşdırıcıları kimi natrium yodat və brom yodat birləşmələri haqqında geniş məlumatların olması bir çox işlərdə qeyd edilmişdir. İndiyədək bu yaxşılaşdırıcıların yalnız xəmirin və çörək çıxımı həcminin reoloji göstəricilərinə təsiri aspektindən öyrənildiyi məlumdur. Kalium yodatin əlavə edilməsi xəmirin bərkliyinin

sürətlə artırılmasına, onun dartılmasına isə əksinə təsir göstərməsi müəyyən edilmişdirsə, kalium bromatın isə bu reoloji göstəricilərindən dəyişikliklərin asta getdiyi müşahidə edilmişdir.

Müxtəlif qatılıqda bu maddələrin əlavə edilməsi xəmirdə reoloji xassələrə ayrı-ayrı təsirlər göstərərək, hətta kleykovina zülallarının tam dinaturasiya - pıxtalaşmasına gətirib çıxarır.

Üyüdülmüş üzüm qabığı tozu müəyyən miqdarda ümumi un kütləsinin 1,5-2,0%-i qədər əlavə edildikdə un nümunələrində nəzərəçarpacaq dərəcədə dəyişikliklərin əmələ gəldiyi müşahidə edilmişdir. Göründüyü kimi, səthi fəal maddələrin təsirindən unun tərkibindəki yapışqanlılığın xüsusi dəyişikliyə uğraması, güman edildiyi kimi, öz növbəsində reoloji göstəricilərin dəyişməsi sayəsində baş verir.

Unun tərkibində yapışqanlılıq xüsusiyyətinin dəyişməsinə, üzümdə olan polisaxaridlərin ayrı-ayrı nümayəndələrinin təsiri olduğu, demək olar, bir çox müəlliflərin işlərində göstərilmişdir [1, səh. 67; 2, səh. 36; 3, səh. 73].

Polisaxaridlərin ayrı-ayrı nümayəndələri unun və xəmirin xüsusiyyətlərinə müxəlif cür təsir göstərir. Tərkibində az miqdarda olan sulfatlı kükürdə malik polisaxaridlər xəmirin yapışqanlılıq xassəsinə təsir göstərir. Tərkibində sulfat efiri fəal anion emulqatorlar olan polisaxaridlər kleykovinanın xeyli möhkəmləndirmə xassəsinə malikdirlər.

Müəyyən nəmlikdə qıcqırdılmış unda temperaturun kleykovinanın xassələrinə təsiri olduğu müəyyən edilmişdir.

Un nümunələrində avtoliz xassəsi öyrənilərkən onların müəyyən faktorlardan asılı olaraq dəyişməsi müşahidə edilmişdir. Belə ki, 30C temperaturda 24 saat ərzində üyüdülmüş üzüm tozu qatılmış nümunələrdə avtoliz prosesinin əlavə edilməmiş nümunələrə nisbətən xeyli gec getdiyi aydın olmuşdur.

Bu halda elastik - möhkəm kleykovinanın əmələ gəlməsi müşahidə edilir ki, bunu da üyüdülmüş üzüm tozu qatılmamış nümunələrə nisbətən yaxşı nəticə kimi göstərmək olar. Təcrübə zamanı müəyyən edilmişdir ki, kleykovinanın avtolitik xassəsinə, avtoliz prosesinin gedişinə üzüm tozunun tərkibindəki səthi fəal maddələr səbəb olur. Bunlardan hidrosulfit və disulfit rabitəli qrupların onun tərkibində kifayət qədər olması ilə izah edilə bilər.

Üyüdülmüş üzüm tozunun xəmir və kleykovina zülallarına təsiri, göründüyü kimi, əsasən onların ikinci quruluşunda hidrogen rabitələrinin zəifləməsi sayəsində təsiri ilə də izah oluna bilər.

Üyüdülmüş üzüm tozu əlavə edilmiş xəmirin reoloji göstəriciləri ilə xəmir əmələgəlmə xassəsi arasında müsbət əlaqənin olması öyrənilən nümunələrdən aydın görünür.

Toz qatılmış nümunənin konsistensiyalılıq xassəsi artır ki, bu da üyüdülmüş üzüm tozunun xəmirin reoloji xüsusiyyətinə təsiri ilə əlaqədardır.

Əgər anion fəal emulqatorlar kleykovinanı möhkəmləndirirsə, onun ionların qarşılıqlı təsir əlaqələri ilə izah edildiyi güman edilirsə, qeyri-fəal səthi fəal maddələr dəqiqliklə müəyyən edilmişdir ki, kleykovinanı zəiflətməklə, onun möhkəmliyini azaltmaqla dartılmasını artırırlar ki, bu da bir çox təcrübələrdə müəyyən edilmişdir.

Səthi fəal maddələrin təsirindən yapışqanlılıq gelinin möhkəmləndirilməsi ion fəal emulqatorların bilavasitə zülali maddələrlə qarşılıqlı əlaqəsi və təmasda olması fərz edilir və bu müəyyən edilmişdir [4, səh. 70].

Buğda dənlərində onun əsas keyfiyyət göstəricilərindən olan dənin tərkibində kleykovinanın yapışqanlılığı həm yaş, həm də quru halda miqdarı mühüm əhəmiyyət kəsb edir.

Tədqiq edilən sortlarda kleykovina orta səviyyədən artıq, bəzi sortlarda isə, demək olar ki, çox yüksək dərəcəyə çatır (Arandəni -33,8%). Bir qayda olaraq bərk buğda sortlarında yumşaq buğdalar nisbətən bir qədər artıq olmuşdur.

Məlum olduğu kimi, mineral maddələr də taxıl dənlərində digər birləşmələr kimi mühüm yer tutur. Onun dəndə həddən artıq çoxluğu da arzuedilməzdir ki, unun keyfiyyətinə texnoloji proseslərin gedişində bəzən mənfi xüsusiyyətlər doğurur.

Mineral maddələr unun tərkibində adətən xam külün miqdarının nə dərəcədə olması ilə ölçülür ki, bu baxımdan onun dənlərdə miqdarının öyrənilməsi keyfiyyətinə qoyulan əsas tələblərdən biridir.

Öyrənilən buğda nümunələrində külün miqdarı, demək olar ki, norma daxilində olmuşdur. Buğda sortlarında onun miqdarı 2,21-2,67% arasında dəyişir ki, bu da çox cüzi, demək olar ki, bir o qədər də kəskin fərq sayılmır. [5, səh. 25].

Məlumdur ki, müxtəlif buğda sortlarının bioloji qidalılıq dəyərini qiymətləndirdikdə təkcə onların tərkibindəki zülal və kleykovinanın miqdarı deyil, zülalların tərkibinə daxil olan birləşmiş amin turşularının miqdarı mühüm göstəricilərdən biridir.

Orqanizm tərəfindən kənardan qəbul edilmiş amin turşuları zülallar üçün tikinti materialı hesab edilməklə vitamin, hormon və digər bioloji maddələrin sintezində də iştirak edirlər. Xüsusi bioloji əhəmiyyət kəsb edən amin turşuları otalim turşularıdır ki, onlar insan, heyvan orqanizmində sintez olunmur. Bunlar orqanizmə yalnız bitki ərzaq məhsulları vasitəsilə daxil olur ki, bunlardan lizin, metionin, nistidin, fenilalanin, triptofan, valin, leysin və izoleysini göstərmək olar. Bu amin turşularından birinin çatışmaması insan-heyvan orqanizmində maddələr mübadiləsinin pozulmasına və ağır xəstəliklərin əmələ gəlməsinə səbəb olur.

Buğda unundan hazırlanmış unlu-qənnadı məmulatları bütün bu amin turşuların özündə lazımi miqdarda cəmləşdirmişdir. Lakin, metionin, treonin, lizin, trentafon amin turşularının qatılığı özünü büruzə verir. Bu turşulardan triptofan (x-amino-b-indonil propion turşusu) ən zəruri amin turşuları sırasında olub, vitamin PP-nin orqanizmdə sintezinə yardım edir.

Xəmirin reoloji xassələri kleykovina tərkibində zülali birləşmələrin xüsusiyyətindən asılı olmasına baxmayaraq, xəmir özlüyündə mürəkkəb bir sistemi xatırladır.

Kleykovinanın yuyulması zamanı bir çox suda həll olan maddələr yuyulub sıradan çıxdığı məlumdur. Müəyyən dozada una qatılmış toz nəticəsində nisbətən dəyişiklik əmələ gəlməsi müşahidə edilir.

Nəticələrdən müəyyən olundu ki, bütün üzüm sortları üçün az miqdarda una qatılmış tozun (ümumi un kütləsinin 0,5%-i) miqdarından kleykovinanın xassələrində bir o qədər də dəyişiklik müşahidə edilmir. Lakin onun xəmirə qatılmış müxtəlif qatılıqları xəmirin xüsusiyyətini nəzərəçarpacaq dərəcədə yaxşılaşdırır. Xəmirin alveoqram göstəricisi yaxşılaşmaqla yanaşı onun möhkəmliyi və suudma xüsusiyyəti artır.

Qeyd etmək lazımdır ki, üyüdülmüş üzüm qabığı tozunun xəmirin xassələrinə təsiri öyrənilərkən, onun əsas göstəriciləri olan - zülalların miqdarı, xəmirin suudma xüsusiyyəti, xəmir əmələgəlmə sürətli də öyrənilmişdir. Analizlər nəticəsində alınan rəqəmlər 2. saylı cədvəldə verilmişdir.

Tətbiq edilən hər bir nümunədə ayrı-ayrılıqda yuxarıda adları çəkilən xüsusiyyətlər, yəni zülali maddələrin miqdarı, suudma xüsusiyyəti, xəmir əmələ gətirmə sürəti ilə yanaşı 50q un kütləsi üçün xəmir əmələgətirmə sürətinə üyüdülmüş üzüm qabığı tozunun təsiri öyrənilmişdir.

Nəticə

Müəyyən edilmişdir ki, öyrənilmiş nümunələrdə nəzərəçarpacaq dərəcədə dəyişikliklər olmuşdur. Belə ki, Mədrəsə, Rkasiteli və Ağ oval kişmişi üzüm sortlarının üzüm tozu təsirinə görə bir-birindən kəskin surətdə fərqlənir.

Aparılan tədqiqatın nəticələrindən göründü ki, öyrənilən nümunələrdə zülalların miqdarı 10,5-13,6%, xəmirin suudma xüsusiyyəti 62,8-70,0%, xəmir əmələgətirmə sürəti isə 6,5-13,5 dəqiqə arasında dəyişir.

Üyüdülmüş üzüm qabığı tozunun 50q üçün xəmirin əmələgəlmə sürətinə təsiri isə 56-86 mikromol arasında olmuşdur. Öyrənilmiş göstəricilərə görə birinci yeri Mədrəsə üzüm sortundan alınmış üzüm tozu qatılmış nümunə, ikinci yeri Rkasiteli və nəhayət Ağ oval kişmiş üzüm sortu tozu qatılmış nümunələr tutur.

Qeyd etmək lazımdır ki, bəzi göstəricilərə görə isə sortlar üzrə yerdəyişmə müşahidə edilir.

Beləliklə, apardığımız tədqiqat nəticəsində müəyyən edilmişdir ki, un və xəmirin reoloji göstəricilərinə üzüm tozu səthi fəal maddələrin əhəmiyyətli dərəcədə təsiri vardır.

ƏDƏBİYYAT

1. Авдьев П.Б., Сапожникова А.С. Определение качества зерна, муки и крупы. М. Колос, 2001, 416 с.
2. Бутейский И.Г., Жукова А.А. Технология приготовления мучных кондитерских изделий. Москва: «Академия», 2005.
3. Бутейкис Н.Г. Технология приготовления мучных кондитерских изделий. - М.: Проф ОбрИздат; 2002. – 304 с.
4. Матюхина З.П. Товароведение пищевых продуктов. - М.: Издательский центр Академия; 2003. – 272 с.
5. Павлов А.В. Сборник рецептур мучных кондитерских и булочных изделий. - СПб.: ПРОФИКС; 2006. – 296 с.

к.э.н. Гюнаш Мазахир кызы Насруллаева,

доцент Елсевар Баба оглы Фарзалиев,

доцент Мехрибан Гамид кызы Магеррамова,

к.э.н. Мехрибан Рауф кызы Юсифова
Азербайджанский Государственный
Экономический Университет (UNEC)

Особенности воздействие на реологические свойства теста как дополнительное сыре порошок винограда используемых при изготовлении мучных кондитерских изделий

Резюме

В технологии производства кондитерских изделий вместе с основным сырьем в широком диапазоне в больших количествах используются дополнительное сырье. В представленном статье было показана как, изменяется реологические свойства тесто мучных кондитерских изделий при добавки порошка винограда.

Ключевые слова: мучные кондитерские изделия, тесто, порошок винограда, клейковина.

c.e.s. Gunash Mazahir Nasrullayeva,

ass. prof. Elsevar Baba Farzaliyev,

ass. prof. Mehriban Hamid Maharramova,

c.e.s. Mehriban Rauf Yusifova
Azerbaijan State Economic University (UNEC)

Especially effects on rheologıcal properties of dough as extra cheese grape powder used in the manufacture of pastry

Summary

Technology of production of pastry wares together with basic raw material in a wide range in great numbers used additional raw material. In presented to the article it was shown as, changes reoloqiçeskie properties dough of flour pastry wares at additions dust squashed vine.

Key words: flour pastry wares, dough, powder of vine, gluten.

Nizami Yaqub oğlu SEYİDƏLİYEV
a.e.e.d., professor,
Gülşən Ceyhun qızı XOYLUYEVA
doktorant
Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu

BİTKİ SIXLIĞININ PAMBIĞIN BİOMORFOLOJİ VƏ TƏSƏRRÜFAT QİYMƏTLİ ƏLAMƏTLƏRİNƏ TƏSİRİNİN ÖYRƏNİLMƏSİ

Açar sözlər: pambıq, sıx əkin, sort, qoza, xam pambıq, lif çıxımı, lifin uzunluğu.

***

Azərbaycanda kənd təsərrüfatı iqtisadiyyatının aparıcı sahələrindən biri olan pambıqçılıq aqrar islahatdan sonra müvəqqəti tənəzzülə uğrasa da, hazırda fermer təsərrüfatlarında da ildən-ilə pambıq istehsalının artırılmasına xüsusi fikir verilir.

Elmin və qabaqcıl təcrübənin nailiyyətlərini pambıqçılıqda tətbiq etməklə xam pambığın məhsuldarlığını daha da artırmaq olar. Məhsulun artması ilə yanaşı, onun keyfiyyətinin yaxşılaşdırılmasına, tezyetişən sortların əkilməsinə, məhsulun optimal müddətdə yığılmasına, yeni texnologiyaların tətbiqinə və tədbirlərə geniş yer verilməlidir.

Strateji əhəmiyyətə malik bitki kimi pambıq ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayır. Kənd təsərrüfatının əsas vəzifəsi əhalinin ərzaq məhsullarına olan tələbatını, toxuçuluq sənayesinin isə xammala olan ehtiyacını təmin etməkdən ibarətdir. Bu qiymətli bitkinin mahlıcından paltar üçün parça toxunmasından əlavə sap, kəndir, kənaf, balıq tutmaq üçün əşyalar, rezin, süni ipək, partlayıcı maddələr, sellüloid, foto və kino lentləri, laklar, yüksək növ kağızlar və bir sıra digər məmulatlar hazırlanır.

Pambıqdan çoxlu miqdarda sənaye məhsulları alınır və həm də strateji əhəmiyyətə malikdir. Ona görə də bu bitkinin əkin sahəsinin və məhsuldarlığının artırılması hal-hazırda vacib məsələlərdən biri olduğu üçün son zamanlar Respublikamızın bölgələrində kiçik fermer təsərrüfatlarında pambıq sahələri genişləndirilir.

Tədqiqatın aparılmasında əsas məqsəd pambıqçılığın inkişaf etdirilməsi üçün əl əməyinin azaldılmasına, istehsal olunan məhsulun maya dəyərinin aşağı salınmasına, məhsuldarlığın artırılmasına nail olmaq üçün yeni, daha mütərəqqi becərmə texnologiyasını pambığın sıx əkin texnologiyasını hazırlamaq və həyata keçirtməkdən ibarətdir.

Tədqiqatın metodikası: Təcrübə Gəncə Regional Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzinin təcrübə sahəsində aparılmışdır. Təcrübədə 2 pambıq sortundan Gəncə -110 və Gəncə - 114 istifadə edilmişdir. Pambıq sortlarının toxumları 4 ləkdə, 4 təkrarda, 3 səpin sxemində "60x15x1", "30x15x1" və "15x15x1" maşınla səpilmişdir.

Cədvəl 1

Pambıq sortları	Əkin sxemi	Təkrarlar			
		I	II	III	IV
Gəncə - 110	60x15x1	1	7	13	19
	30x15x1	2	8	14	20
	15x15x1	3	9	15	21
Gəncə - 114	60x15x1	4	10	16	22
	30x15x1	5	11	17	23
	15x15x1	6	12	18	24

Hər bir ləkin uzunluğu 15 m olmuşdur. Təkrarlar iki yarusda yerləşdirilmişdir. Təcrübənin ümumi sahəsi 864 m^2-olmuşdur. Hər bir səpin sxemində bitkilərin hektarda sayı müəyyənləşdi-

rilmiş, bitkilərin boy və inkişaf tempi aydınlaşdırılmış, simpodial budaqların miqdarını, bar toplama qabiliyyətlərini müəyyən etmək məqsədilə hər təkrarda 25 tipik bitki götürülmüşdür. Lif çıxımını, lifin uçağanda uzunluğunu, bir qozadan alınan xam-pambığın kütləsini, eyni zamanda lifin texnoloji keyfiyyətini müəyyən etmək üçün hər təkrardan II-V bar budaqlarının birinci yerindən 50 qozadan ibarət sınaq nümunələri, hər təkrardan hesablı ailələrin xam-pambığı yığılmışdır.

Tədqiqat hissəsi: Təcrübələr hər iki sort üzrə 60x15x1, 30x15x1, 15x15x1 sxemi üzrə əkilmişdir. Səpin sxeminə uyğun olaraq əkilmiş sahədə bitkilərin sayı müəyyən edilmişdir. Belə ki, Gəncə-110 sortu əkin sxeminə uyğun olaraq 110, 211, 420 və Gəncə-114 sortu 107, 210 və 424 min ədəd bitki əkilmişdir. Tədqiqat ilində əkin sxeminə uyğun olaraq hər iki sortun hündürlüyü öyrənilmişdir. Müşahidələr nəticəsində hər iki sortun 60x15x1 sxemində daha hündür boy olduğu müəyyən edilmişdir. Təcrübə sahəsində pambıq bitkisinin simpodial budaqlarının sayı və bir kolda qozalarının sayı müəyyənləşdirilmişdir.

Cədvəl 2

Pambıq sortları	Səpin sxemi	Təkrarlar			
		Bitkilərin miqdarı, min ədəd	Bitkilərin hündürlüyü sm	Simpodial budaqların sayı, ədəd	Bir kolda qozaların sayı, ədəd
Gəncə - 110	60x15x1	110	62	5,9	6,7
	30x15x1	211	57	5,2	5,0
	15x15x1	420	48	4,8	3,7
Gəncə - 114	60x15x1	107	51	5,4	5,3
	30x15x1	210	46	4,7	3,8
	15x15x1	424	39	4,3	2,9

Aparılan tədqiqatda müəyyən olunmuşdur ki, hər iki sortun birinci səpin sxemində budaqların sayı və qozaların sayı çoxluq təşkil edir. Hər iki sortun 15x15x1 sxemində bu göstəricilər aşağı nəticə göstərsə də bitkilərin sayı birinci vaviantdan təxminən dörd dəfə, ikinci variantdan təxminən iki dəfə artıq olması məhsuldarlığın yüksək olmasına səbəb olmuşdur.

2 saylı cədvəldən göründüyü kimi 60x15x1 bitki sxemində bitkilərin miqdarı Gəncə-110 sortunda 110-min, Gəncə-114 sortunda 107 min, 30x15x1 bitki sxemində Gəncə-110 sortunda 211 min, Gəncə-114 sortunda 210 min, 15x15x1 bitki sxemində müvafiq olaraq 420 min və 424 min olmuşdur.

Tədqiqat ilində əkilmiş Gəncə-110 və Gəncə-114 pambıq sortlarının məhsuldarlığı, lif çıxımı, lifin uzunluğu və bir qozada olan xam pambığın kütləsi öyrənilmişdir. Gəncə-110 sortunda 60x15x1 səpin sxemində məhsuldarlıq 28,5 sent/ha, 30x15x1 səpin sxemində məhsuldarlıq 30,0 sent/ha, 15x15x1 səpin sxemində isə məhsuldarlıq 32,4 sent/ha, Gəncə-114 sortunda 60x15x1 səpin sxemində məhsuldarlıq 27,1 sent/ha, 30x15x1 səpin sxemində məhsuldarlıq 28,8 sent/ha, 15x15x1 səpin sxemində isə məhsuldarlıq 30,8 sent/ha müəyyən edilmişdir. Hər iki sortun müxtəlif səpin sxemlərindən nümunələr götürülərək laboratoriyada lif çıxımı, lifin uzunluğu və bir qozada olan xam pambığın kütləsi öyrənilmişdir. Analizlərin nəticəsi göstərir ki, üçüncü səpin sxemindən götürülmüş nümunələrdən alınan nəticələr digər səpin sxemlərində əldə olunan nəticələrdə nəzərəçarpacaq dərəcədə fərqlənmir. Belə ki, birinci səpin sxemində lif çıxımı 37,7% təşkil edirsə 3-cü səpin sxemində 35,4% təşkil edir. Lifin uzunluğuna gəldikdə birinci səpin sxemində lifin uzunluğu 34,5 mm olduğu halda, 3-cü səpin sxemində 34,2 mm təşkil edir. Bir qozada olan xam pambığın kütləsi birinci variantda 5,8 qr. təşkil edirsə 3-cü variantda 5,1 qr.-dır.

Cədvəl 3

Müxtəlif bitki sıxlığının pambığın təsərrüfat qiymətli əlamətlərinə təsiri

Pambıq sortları	Səpin sxemi	Təkrarlar			
		Məhsuldarlıq, sent/ha	Lif cıxımı, %	Lifin uzunluğu, mm	Bir qozada olan xam pambığın kütləsi qr
Gəncə - 110	60x15x1	28,5	37,7	34,5	5,8
	30x15x1	30,0	37,5	35,0	5,4
	15x15x1	32,4	35,4	34,2	5,1
Gəncə - 114	60x15x1	27,1	38,7	34,0	5,6
	30x15x1	28,8	35,4	34,8	5,1
	15x15x1	30,8	35,0	34,5	5,0

Nəticə

1. Hər iki sort üzrə bitkilərin sıxlığı artdıqca bitkilərin boyu, simpodial budaqların sayı, bir kolda olan qozaların sayı azalmışdır. 2. 15x15x1 səpin sxemi variantında bitkilərin sayı digər variantlardan çox olduğuna görə və pambıq lifinin göstəriciləri ilə az fərqləndiyinə görə pambıq bitkisinin həmin variantda əkilməsini tövsiyə edirik. 3. Bitki sıxlığı artdıqca lif çıxımı bir qozada olan xam-pambığın kütləsi azalsa da əksinə, məhsuldarlıq və lifin uzunluğu artmışdır.

ƏDƏBİYYAT

1. Aslanov H.Ə., Vəliyeva M.A. Pambıqçılıq. Bakı, "Elm" nəşriyyatı, 2014 səh 45-53
2. Aslanov H.Ə., Vəliyeva M.A. Pambıq bitkisi ilə aparılan tarla təcrübələrinin metodikası. Bakı, "Əsgəroğlu" nəşriyyatı, 2013 səh. 37-42
3. Seyidəliyev N.Y., Pambıqçılığın əsasları. Bakı, "Şərq- Qərb", 2012 səh. 75
4. Hümbətov H. S., Xəlilov X. Q. Pambıq lifinin texnologiyası. Bakı, "Nurlan", 2012 səh. 114.
5. Akparov Z.I., Aliyev R.T., Mammadova A.D. Steadiness evaluating of cotton varieties to stress factors according to indicators of department. International Meeting «Photosynthesis in the Post-Genomic Era: Structure and Function of Photosystems». - M., 2006 - P. 256
6. Дедова Ю.И. Наследование элементов продуктивности гибридов хлопчатника при отдаленно-географических скрещиваниях. Г.С.Шахмедова, Ю.И.Дедова // Естественные науки. - 2008 - № 2. - с. 51-54.
7. Дедова Ю.И. Наследование хозяйственно ценных признаков у гибридов хлопчатника при отдаленно-географических скрещиваниях. Г.С.Шахмедова, Ю.И.Дедова // Естественные науки. - 2008 - № 4. - с. 44-47.
8. Дедова Ю.И. Авторское свидетельство № 45959 на сорт Хлопчатник АС-1 от 08.07.2008 г. / Ю.И.Дедова, Г.С.Шахмедова, Н.Ю.Жарикова, Н.Д.Токарева.

проф. Низами Ягуб оглы Сеидалиев,

докторант Гюльшат Джейхун кызы Хойлуева
Научно-Исследовательский Институт
Защиты Растений и Технических Культур

Изучение влияния густоты стояния растений на биоморфологические и хозяйственно-ценные признаки хлопчатника

Резюме

Основная цель проведения работы - развитие хлопководства в республике. При этом учитывали снижение ручного труда, себестоимости урожая и повышение урожайности

хлопчатника. Для этой целью планировали опыты по уплотненному посеву различных сортов хлопчатника. Получены положительные результаты по работе.

Ключевые слова: сорт, загущенный посев, коробка, хлопка сырца, выход волокна, длина волокна.

prof. Nizami Yaqub Seyidaliyev,
doctoral Gulshen Ceyhun Khoyluyeva
Scientific Researches Institute of Crop Protection and Technical Plants

The study of plant density to biomorphologıcal and valuable creatures of cotton plant

Summary

The main aim of the work is to develop the cotton growing in our country. We take into account the reduction of manual labor, crop production cost and increase in yield of cotton. For this purpose, experiments sowing of various varieties of cotton. And we got positive result.

Key words: grade, thickened sowing, box, raw cotton, fiber yield, fiber length.

Orxan Rza oğlu BAĞIROV
aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent,
AMEA-nın Naxçıvan bölməsi

YERLİ GİLAS SORTLARINDA İQTİSADİ SƏMƏRƏLİLİYİN QİYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Tədqiqat işində Naxçıvan Muxtar Respublikasında becərilən 17 yerli gilas sortunun bir hektar üçün hesablanmış təsərrüfat göstəriciləri əsasında iqtisadi səmərəliliyi araşdırılmışdır. Hesablama nəticəsində sortların 41,2%-nin məhsuldarlığı yüksək olmuşdur ki, bu da ümumi gəlirin artmasına təsir etmişdir. Yerli gilas sortlarının 70,6%-də rentabelliyin 100%-dən çox olduğu müəyyənləşdirilmişdir. Rəqabətədavamlı məhsul istehsalının stimullaşdırılmasında rol oynayan yeni intensiv tipli meyvə bağlarının salınmasında yerli Nüs-Nüs, Sarı gilas, Şirin qara, Əbrəş, Əndəmic, Qara gilas, Qırmızı növrəst sortları tövsiyə olunmuşdur.

Açar sözlər: gilas, yerli sort, biometrik göstəricilər, məhsuldarlıq, rentabellik

***

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 13 dekabr tarixli "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" Qanununun tətbiqi barədə imzaladığı Fərman Naxçıvan Muxtar Respublikasında becərilən meyvə sortlarının qorunması, daim təkmilləşdirilməsi və istehsalında böyük nəzəri əhəmiyyət daşıyır. Son illər aqrar sektorda tətbiq edilən yeniliklər, dövlətin fermerlərə hərtərəfli qayğısı və bazarda tələbatı yüksək olan meyvə məhsullarının yetişdirilməsinə artan maraq sayəsində Muxtar Respublikada hektarlarla meyvə bağları salınmışdır.

Naxçıvan Muxtar Respublikasında çəyirdəkli meyvə bitkiləri digərlərinə nisbətən geniş şəkildə becərilir. Tarixən Naxçıvan ərazisində xalq seleksiyaçıları özlərinə məxsus üsullarla bir çox çəyirdəkli meyvələrin yeni-yeni sortlarını yetişdirmişlər. Meyvə sortları keyfiyyəti, yüksək məhsuldarlığı, eləcə də xəstəlik və ziyanvericilərə qarşı davamlığına görə də seleksiyaçı mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir.

Naxçıvan ərazisində beçərilən çəyirdəkli meyvə bitkiləri içərisində gilas biokütləsinin miqdarı və əhəmiyyətinə görə önəmli yer tutur. Naxçıvanda təsərrüfat əhəmiyyətli çəyirdəkli meyvə sortlarının becərilməsi baxımından gilas digərlərinə (ərik və şaftalı istisna olmaqla) nisbətən üstünlük təşkil edir [6, s. 133]. Muxtar Respublikanın yerli gilas sortlarının biomorfoloji və tə-

sərrüfat xüsusiyyətləri Ə.C.Rəcəblinin [4, səh. 121-123], T.M.Tağıyevin [5, səh. 47-48], O.R.Bağırov və T.H.Talıbovun [1, səh. 49-68, 112-123] araşdırmalarında öz əksini tapmışdır.

Muxtar Respublikada XIX əsrin əvvəllərindən başlayaraq daha geniş miqyasda inkişaf etmiş meyvəçilik, haliyədə iqtisadi baxımdan mükəmməl gəlir mənbəyi olan əsas fəaliyyət obyektlərindən birinə çevrilmişdir. Hazırda Muxtar Respublikada becərilən gilas sortlarının genetik tərkibinin 65,4%-ni yerli sortlar, 34,6%-ni isə introduksiya olunmuş sortlar təşkil edir. Becərilən yerli gilas sortlarının hər birinin özünəməxsus üstün təsərrüfat-texnoloji xüsusiyyətləri vardır ki, bu da onların müxtəlif məqsədlər üçün istifadəsinə imkan verir. Müasir gilas bağlarının salınmasında tədqiqatlar nəticəsində məhsuldarlığına və yüksək göstəricilərinə görə seçilən və tövsiyə olunan keyfiyyətli sortlara üstünlük verilməlidir. Bu baxımdan ərazidə geniş besərilən gilas bitkisinin üstün təsərrüfat göstəricilərinə malik yüksək rentabelli yerli sortlarının öyrənilməsi aktuallıq kəsb edir.

Tədqiqat materialı olaraq Naxçıvanda becərilən gilas bitkisinin 17 yerli sortu götürülmüşdür. Sort və formaların biometrik göstəriciləri və məhsuldarlığı (toplanılan materiallara əsasən) «Учеты, наблюдения, анализы, обработка данных в опытах с плодовыми и ягодными растениями» [8, səh. 20-25] və Z.M.Həsənovun [2, səh. 193-202] metodikasından və «Meyvəçilik» [3, səh. 319-326] kitabından istifadə edilərək öyrənilmişdir. Təsərrüfat məhsuldarlığ A.S.Ovsyannikovun formulu ilə [7], iqtisadi göstəricilər isə P.F.Dubrovanın metodikası əsasında [6] hesablanmışdır.

Ağacları bağda elə yerləşdirmək lazımdır ki, onların isması dövründə normal böyümə və məhsul vermələri üçün optimal şərait yaransın. Bu baxımdan bağ salınarkən aqrotexniki tədbirlərin vaxtında və lazımi şəkildə yerinə yetirilməsi nəzərə alınaraq müvafiq əkin sxemləri tətbiq edilir. Kvadrat və düzbucaqlı əkin sxemlərində digərlərinə nisbətən hektarda bitkilərin sayı az olsa da, az xərclə planlaşdırılır və aqrotexniki tədbirlər asan həyata keçirilir. Əkin sxeminə görə hektara əkiləcək bitki sayı bir bitkinin tutduğu optimal qida sahəsinə əsasən hesablanır [3, s. 196-197; 9]. Tədqiq edilən yerli sortlarda optimal qida sahəsi 24,2-66,7 m^2 arasında dəyişir. Sortlar üzrə optimal qida sahəsinə ən az tələbat yerli Əndəmic sortunda (24,2 m^2) müşahidə edilmişdir. O cümlədən, optimal qida sahəsinə tələbat tədqiq edilən yerli Əndəmic, Əbrəş (28,4 m^2), Nüs-Nüs (26,2 m^2), Növrəst (30,6 m^2) və Sarı gilas (30,6 m^2) sortlarında nəzarət olaraq götürülmüş ərazidə rayonlaşdırılmış Bianko gözəli sortuna (35,3 m^2) nisbətən az olmuşdur. Ümumiyyətlə, ərazidə becərilən yerli sortların 58,8%-də optimal qida sahəsinə tələbat 40,0 m^2-dən az olmuşdur ki, bu da qeyd olunan sortlarda hektarda ağac sayının çox olmasına zəmin yaratmışdır.

Hektarda olan gilas ağaclarının optimal sayı yerli sortlarda 150-413 ədəd arasında dəyişir. Sahəyə düşən optimal ağac sayı ən çox 413 ədəd olmaqla yerli Əndəmic sortunda qeydə alınmışdır. Tədqiq edilən sortların 29,4%-də sahəyə düşən optimal ağac sayı nəzarət olaraq götürülmüş Bianko gözəli sortu (283 ədəd) ilə müqayisədə çoxluq təşkil edir. Yerli Qırmızı növrəst və Acı qara sortlarında bir hektara düşən optimal ağas sayı 283 ədəd olmaqla nəzarət sortundan çox olmasa da qeyd olunan göstəriciyə görə tədqiq edilən sortların 58,8%-dən üstün olmuşdur. Həmçinin Nüs-Nüs sortunda hektara düşən optimal ağac sayı (382 ədəd) Əndəmic istisna olmaqla digər yerli sortlardan sayca üstün olmuşdur. Yerli sortların 70,6%-də hektarda olan ağacların optimal sayı 300-dən az olmuşdur ki, bu da məsarifin sərfinə müsbət təsir etmişdir.

Tədqiq edilən gilas sortlarında ən yüksək təsərrüfat məhsuldarlığı Nüs-Nüs (139,69 sen/ha) sortunda qeydə alınmışdır. Hektarda ağac sayının Əndəmic sortunda çox olmasına baxmayaraq Nüs-Nüs sortunun təsərrüfat məhsuldarlığı daha yüksəkdir. Sortların 47,1%-də təsərrüfat məhsuldarlığı nəzarət olaraq götürülmüş Bianko gözəli sortundan (84,65 sen/ha) üstün olmuşdur. Sarı gilas (135,29 sen/ha) və Əbrəş (135,28 sen/ha) sortlarının təsərrüfat məhsuldarlığı Nüs-Nüs istisna olmaqla digər yerli sortlardan yüksəkdir. Ümumiyyətlə, yerli gilas sortlarının 41,2%-nin hektardan məhsuldarlığı yüksək olmuşdur ki, bu da 1 sentner məhsulun maya dəyərinin az olmasına, buna müvafiq hesablamalara görə ümumi gəlirin artmasına gətirib çıxarmışdır.

Araşdırmalarla müəyyən olunmuşdur ki, bağın tam istismarına qədər onun salınmasına və becərilməsinə çəkilən xərclər 4-8 ildən sonra ödənilə bilər [3, s. 170]. Naxçıvan MR-də kvadrat əkin sxemi ilə salınacaq 1 ha gilas bağına çəkilən xərc müəyyən edilmiş və becərilən yerli sortlar üzrə tədarük edilən faktiki məhsula görə iqtisadi səmərəlilik hesablanmışdır.

Cədvəl


Yerli gilas sortlarının iqtisadi səmərəlilik göstəriciləri

№	Sortlar	Məsarif (man)	1 sen məhsulun maya dəyəri (man)	1 sen məhsulun satış dəyəri (man)	Ümumi gəlir (man)	Xalis gəlir (man)
1.	Qırmızı növrəst	2132,0	24,91	60	5134,8	3002,8
2.	Əbrəş	2408,0	17,80	55	7440,4	5032,4
3.	Şirin qara	2024,0	19,39	60	6262,8	4238,8
4.	Acı qara	2132,0	32,38	60	3950,4	1818,4
5.	Növrəst	2308,0	24,91	55	5095,8	2787,8
6.	Gülaman	1932,0	25,93	55	4097,5	2165,5
7.	Qırmızı gilas	1876,0	25,46	55	4052,4	2176,4
8.	Əndəmic	2652,0	21,27	55	6854,7	4202,7
9.	Nüs-Nüs	2528,0	18,09	60	8381,4	5853,4
10.	Şahbuz	2024,0	29,72	55	3744,4	1720,4
11.	Nəsirvaz	1804,0	33,41	60	3238,8	1434,8
12.	Pəzməri	1600,0	39,39	55	2436,6	836,6
13.	Məzrə	1876,0	24,75	55	4168,5	2292,5
14.	Ağ gilas	1876,0	31,17	60	3610,8	1734,8
15.	Sarı gilas	2308,0	17,05	60	7440,9	5132,9
16.	Qara gilas	2024,0	22,29	55	4992,4	2968,4
17.	Öküzürəyi	1932,0	27,08	60	4279,8	2347,8

Tədqiq edilən gilas sortları üzrə ən çox məsarif yerli Əndəmic (2652,0 manat), ən az isə Pəzməri (1600,0 manat) sortlarında qeydə alınmışdır. Müəyyən edilmişdir ki, tədqiqata cəlb edilən sortların 70,6%-nin sərf edilən məsarifi nəzarət sortu Bianko gözəli (2133,2 manat) sortuna nisbətən az olmuşdur. Ümumiyyətlə, yerli gilas sortlarının 41,2%-nə sərf edilən məsarif 2000,0 manatdan az olduğu müəyyən edilmişdir. Əbrəş (2408,0 manat), Nüs-Nüs (2528,0 manat), Əndəmic (2652,0 mant), Sarı gilas (2308,0 manat), Şirin qara (2024,0 manat) sortlarında məsarifin çox olmasına baxmayaraq məhsulun maya dəyəri aşağı olmuşdur ki, bu da əldə edilən ümumi və xalis gəlirin yüksək olmasına gətirib çıxarmışdır. Sədvəldən göründüyü kimi, bir sentner məhsulun maya dəyəri 17,05-39,39 manat arasında dəyişir. Ən az maya dəyəri Sarı gilas (17,05 manat) sortunda müşahidə edilmişdir. Sortların 52,9%-də maya dəyəri nəzarət sortuna (25,20 manat) nisbətən aşağı olmuşdur. Əbrəş sortuna sərf edilən maya dəyəri (17,80 manat) Sarı gilas sortundan nisbətən çox olsa da digərləri ilə müqayisədə azdır. Tədqiqat zamanı Sarı gilas, Əbrəş, Nüs-Nüs (18,09 manat), Əndəmic (21,27 manat), Şirin qara (19,39 manat), Qırmızı növrəst (24,91 manat) sortlarında bir sentner məhsulun maya dəyərinin nəzarət sortu ilə müqayisədə aşağı olması qeyd edilən sortlar üzrə ümumi, o cümlədən xalis gəlirin artmasına zəmin yaratmışdır. Sortlar arasında ən az maya dəyəri Sarı gilas sortunda olmasına baxmayaraq hektarda ağac sayının çoxluğu və məhsuldarlığın yüksək olması ilə əlaqədar ən çox ümumi (8381,4 man) və xalis gəlir (5853,4 man) Nüs-Nüs sortunda qeydə alınmışdır. Sortlar arasında ümumi gəlir 2436,6-8381,4 manat arasında tərəddüd edir. Hesablamalar zamanı sortların 41,2%-də ümumi gəlir 5000 manatdan yüksək olmaqla nəzarət olaraq götürülmüş Bianko gözəli sortundan (5079,0 manat) üstündür. Cədvəldən göründüyü kimi, sortlar arasında Nüs-Nüs sortu üzrə xalis gəlir ən yüksək (5853,4 manat) olmuşdur. Növrəst sortu ümumi gəlir göstəricisinə görə (5095,8 manat) nəzarət sortundan üstün olsa da sortun xalis gəliri nəzarət sortu ilə müqayisədə az

(2787,8 manat) olmuşdur. Qara gilas sortunda isə, əksinə, ümumi gəlir göstəricisi (4992,4 manat) nəzarət sortundan az olmasına baxmayaraq xalis gəlirdə (2968,4 manat) ondan üstündür.

Tədqiq edilən sortlarda rentabellik 52,3-231,5% arasında dəyişir. Ən yüksək rentabellik Nüs-Nüs sortunda (231,5%) müşahidə edilmişdir. Sarı gilas sortunda rentabellik (222,4%) yalnız Nüs-Nüs sortundan aşağı olmuşdur. Yerli Nüs-Nüs, Sarı gilas, Şirin qara (209,4%), Əbrəş (208,9%), Əndəmic (158,5%), Qara gilas (146,7%), Qırmızı növrəst (140,8%) sortlarında rentabellik nəzarət olaraq götürülmüş Bianko gözəli sortundan (138,1%) üstün olmuşdur. Qara gilas sortu ümumi gəlir göstəricisində nəzarət sortundan geri qalsa da xalis gəlir və rentabelliyə görə ondan üstün olmuşdur. Hesablamalar zamanı yerli sortların 70,6%-də rentabelliyin 100%-dən çox olduğu qeydə alınmışdır.



Qrafik. Yerli gilas sortlarının rentabelliyi (%)

Tədqiqat işi nəticəsində Naxçıvan Muxtar Respublikasında gilas istehsalını müasir tələblər səviyyəsində inkişaf etdirmək və əhalinin təzə meyvəyə olan tələbatını ödəmək üçün rəqabətədavamlı məhsul istehsalının stimullaşdırılmasında rol oynayan yeni intensiv tipli meyvə bağlarının salınmasında seçilən və tövsiyə olunan yüksək rentabelli yerli Nüs-Nüs, Sarı gilas, Şirin qara, Əbrəş, Əndəmic, Qara gilas, Qırmızı növrəst sortlarının əkilməsi məqəsədəuyğun hesab edilmişdir.

ƏDƏBİYYAT

1. Bağırov O.R., Talıbov T.H. Naxçıvan Muxtar Respublikasının gilas və albalı genofondu. Bakı: Elm və təhsil, 2013, 180 s.
2. Bağban nəyi bilməlidir/ Tərt. Z.M.Həsənov. Bakı: MBM-R, 2009, 368 s.
3. Həsənov Z.M., Əliyev C.M. Meyvəçilik. Dərslik. Bakı, MBM, 2011, 520 s.
4. Rəcəbli Ə.C. Azərbaycan meyvə bitkiləri. Bakı: Azərnəşr, 1966, 247 s.
5. Tağıyev T.M. Naxçıvan MR-də qiymətli meyvə sortlarının morfoloji-bioloji xüsusiyyətləri. Naxçıvan Kompleks Zonal Təcrübə Stansiyasının Elmi Əsərləri. VII Buraxılış, 1969.
6. Дуброва П.Ф. Экономика и организация промышленного садоводства. Москва: Колос, 1981, 255 с.
7. Овсянников А.С. Фотосинтетическая продуктивность и урожайность плодовых и ягодных культур. А.С.Овсянников // Сб. науч. тр. ВНИИ садоводства, 1986, Вып. 46, с. 3-8
8. Учеты, наблюдения, анализы, обработка данных в опытах с плодовыми и ягодными растениями (методические рекомендации). Под ред. Карпечука Г.К. и Мельника А.В. Уман: Уман с.-х. ин-т., 1987, 115 с.

Орхан Рза оглы Багиров
доктор философии по аграрным наукам, доцент
Нахчыванского Отделения Национальной
Академии Наук Азербайджана

Оценивание экономической продуктивности местных сортов черешни

Резюме

В исследовательской работе вычислена экономическая продуктивность выращиваемых в Нахчыванской Автономной Республике 17 местных сортов черешни на основе хозяйственных показателей, рассчитанных на один гектар. В результате вычислений у 41,2% сортов урожайность оказалась высокой, что повлияло на повышение общего дохода. Выявлено, что рентабельность 70,6% местных сортов выше 100%-в. Для посадки новых фруктовых садов интенсивного типа, играющих роль в стимулировании производства конкурентоспособных продуктов были рекомендованы местные сорта черешни типа Нюс-Нюс, Желтая черешня, Сладкая черная, Эбреш, Андамидж, Черная черешня, Красная новраст.

Ключевые слова: черешня, местные сорта, биометрические показатели, урожайность, рентабельность.

Orkhan Rza Baghirov
doctor of philosophy (PhD) on agricultura, dosent
Nakhchivan Section of Azerbaijan National Academy of Science

To value the economic productıvıty of the local sweet-cherry sorts

Summary

In the thesis the author has investigated the economic productivity of 17 local sweet-cherry sorts cultivated in Nakhchivan Autonomous Republic on the basis of the farm parameters calculated for a hectare. Result of the calculation the productivity of the 41,2% of the sorts were high that this fact influenced the improving of the general income. It is determinate that in 70,6% of the local sorts the rentability was more than 100% . The local sorts as Nus-Nus, Sari gilas, Shiran gara, Abrash, Andamij, Gara gilas, Girmizi novrast which played an important role in stimulating the the production of the harvest are adviced for planting new fruit gardens.

Key words: sweet cherry, local sorts, biometric parameters, productivity, rentability.

Afət Ayyət qızı QASIMOVA
texnika üzrə fəlsəfə doktoru, baş müəllim,

Günel Samir qızı İBRAHİMOVA
magistr
Azərbaycan Texnologiya Universiteti (UTECA)

ZOĞAL PÜRESİNDƏN İSTİFADƏ ETMƏKLƏ MARMELAD İSTEHSALI TEXNOLOGİYASININ İŞLƏNMƏSİ

Xülasə

Elm və texnika yüksək bir pilləyə çatdıqca, sağlamlığı tam mənada təmin edən qida məhsulları istehsalı və onlar üçün müasir texnologiyaların işlənib hazırlanması problemləri irəli sürülür. Bu səbəbdən də qidalılıq və bioloji dəyəri yüksək olan, pəhriz və profilaktiki cəhətdən də diqqəti cəlb edən xammal və yarımfabrikatlardan həmin məhsulların hazırlanması üçün istifadə olunması, yeni çeşidlərin yaradılması günün əsas tələblərindəndir. Hazırda qənnadı sənayesində məmulatların istehsalında quruluşu yarımfabrikatlar və məhsullardan istifadə edilir. Orqanolep-

tiki və fiziki-kimyəvi xüsusiyyətlərini yaxşılaşdırmaq üçün pektin məhsullarından istifadə etmək lazım gəlir.

Bununla əlaqədar olaraq, zoğal meyvəsinin püresindən istifadə etməklə, qənnadı məmulatlarının hazırlanması resepturasının öyrənilməsi və texnologiyasının işlənməsi, əhalinin qidaya olan tələbatının yaxşılaşdırılması üçün mühüm əhəmiyyətə malikdir. Tərkibinə pektin və s. maddələr daxil olan pürelər isə müalicəvi xassələri ilə bərabər, həm də çoxsahəli təsir effektinə malikdir.

Açar sözlər: zogal, ekoloji təmiz məhsul, marmalad.

***

Hal-hazırda əhalinin ekoloji təmiz qida məhsulları ilə təmin olunması ölkə rəhbərliyi qarşısında duran ən başlıca vəzifədir. Son zamanlar xaricdən idxal olunan qida məhsullarının kimyəvi tərkibi mənşəyi bilinməyən maddələrlə zəngindir. Bu baxımdan yerli şəraitdə becərilən xammaldan istifadə etməklə müxtəlif çeşiddə qida məhsullarının hazırlanması mütəxəssislərin qarşısında duran ən vacib problemlərdən biridir. Qənnadı məmulatlarının texnologiyasına müsbət təsir göstərmək, sağlamlıq nöqteyi-nəzərdən diqqəti cəlb edə bilən yeni xassəli xammallar və pürelərdən istifadə edilməsi böyük maraq doğurur.

Zoğalın meyvəsi kimyəvi tərkibinə görə də zəngindir [1, səh. 23]. Onda 85% su, 10,4% şəkər, mikroelementlər, aşı maddəsi, limon və kəhraba turşusu, vitaminlər, efir yağı və s. vardır. Zoğal meyvəsində olan C vitamini qara qarağatda olduğundan 10-11% çoxdur. Zoğal çəyirdəyində (ləpəsində) 34%-ə qədər yağ vardır. Həmin yağdan sabun birləşməsində istifadə olunur. Maraqlı bir cəhəti də qeyd edək ki, zoğalın bitdiyi şərait onun meyvəsinin kimyəvi tərkibinə təsir göstərir. Açıq quru şəraitdə bitən ağacın meyvəsi isə nisbətən turş olur. Meyvəsinin yetişmə dərəcəsi də onun kimyəvi tərkibinə təsir göstərir [2, səh. 2].

Yetişməmiş (kal) meyvə büzdürücü olur, bu isə onun tərkibində aşı maddəsinin çox olması ilə əlaqədardır. Yetişməkdə olan (sütül) meyvələr turşməzə, yam yetişmiş meyvələr isə nisbətən şirin olur ki, bu da onun tərkibində şəkərin artması ilə əlaqədardır. Belə ki, yetişməmiş meyvəyə nisbətən yetişmiş meyvədə şəkərin mqidarı bəzən 75-80% artıq olur [4, səh. 304].

Azərbaycan meşələrində bitən zoğal formaları olduqca çoxdur. Tədqiqatçılar bəzən ölkəmizdə zoğalın 100-dən çox forma müxtəlifliyini qeyd edirlər. Bu formalar meyvənin rənginə, tamına, formasına, böyüklüyünə, lət hissəsinin çıxımına, yetişmə müddətinə və s. görə bir-birindən kəskin fərqlənir. Bunların arasında xalq seleksiyası nəticəsində seçilmiş və qəbul edilmiş aşağıdakı sortlar daha maraqlıdır.

Qara zoğal - Şəki-İsmayıllı, Qusar və Xanlar rayonlarının meşələrində yayılıb. Yerli əhali tərəfindən "qara zoğal" kimi tanınır və fərdi bağlarda əkilib becərilir. Meyvəsi qaramtıl, tünd qırmızı rəngli silindrik formadadır, lətli hissəsi qalın, tərkibində 12%-ə qədər şəkər vardır. Meyvəsinin uzunluğu 18-30 mm, diametri 5-7 mm, meyvənin bir dənəsinin çəkisi 3,20-4,59 qr. Çəyirdəyinin çəkisi 0,26-0,43 qr, lətli hissə çıxımı 80-85% təşkil edir. Mürəbbə bişirilməsi üçün dəyərli hesab olunur.

Armudu zoğal - Xanlar, Tovuz, Quba və Şamaxı meşələrində təsadüf olunur. Yerli əhali tərəfindən fərdi həyətlərdə, bağlarda əkilib becərilir. Gəncə və Şəmkir şəhələrində həvəskar bağbanlar tərəfindən əkilib çoxaldılır. Meyvəsinin tərkibində 11,5% şəkər vardır. Saplağı nisbətən uzun, meyvəsi saplağa doğru azacıq dartılmış armudu formada olur. Meyvəsinin rəngi tünd qırmızı, ətirli və lətlidir. Meyvənin uzunluğu 20-25 mm, meyvənin bir dənəsinin çəkisi 3,21-4,52 q, çəyirdəyin çəkisi 0,26-0,49q, lətli hissənin çıxımı 88-90% təşkil edir. Mürəbbə və kompot hazırlamaq üçün dəyərli sortdur.

Boçkavari zoğal - bu sorta respublikamızın meşə və zoğal bitən rayonlarında tez-tez rast gəlinir. Fərdi bağlarda əkilib becərilir. Meyvəsinin tərkibində 8,5% şəkər vardır. Meyvəsi boçkavaridir, meyvə saplağı qısadır, meyvənin uzunluğu 16-22 mm, diametri 10-14 mm, çəyirdəyinin çəkisi 0,58-0,79q, meyvəsindən lətli hissə çıxımı 72-76%, meyvəsinin rəngi açıq qırmızıdır. Lavaş və zoğal qurusu hazırlamaq üçün əlverişli hesab olunur.

Kəhraba zoğal - Şəki, Oğuz və Zaqatala rayonlarının meşələrində təbii yayılıb. Bir çox rayonlarda əkilib becərilir, xüsusən Şəki, Gəncə və Göygöl şəhərinin fərdi bağlarında əkilib be-

cərilir. Meyvəsi açıq limon rəngdədir, silindirvaridir. Avqust ayında yetişir, meyvəsinin uzunluğu 12-28 mm, diametri 8-12mm, çəyirdəyinin uzunluğu 4-8 mm, diametri 3-6 mm, meyvəsinin bir dənəsinin çəkisi 3,4-4,6 qr, çəyirdəyinin çəkisi 0,36-0,38 qr-dır. Meyvədən lətli hissə çıxımı 69-76% təşkil edir. Meyvəsində 11,3% şəkər vardır. Mürəbbə bişirilməsində çox dəyərli hesab olunur.

Zoğal meyvəsindən insanlar qida kimi təzə, qurudulmuş və bişirilmiş halda istifadə edir.

Zoğalın yetişmiş meyvələri çox tez xarab olur. Belə itkinin qarşısını almaq üçün yetişmiş və yumşalmış meyvələr birinci növbədə tez emal olunmalıdır. Əgər soyuducu olmasa, zoğal meyvəsi sərin, quru yerdə 5 gün saxlanıla bilər. Saxlanılma müddəti artdıqca xarab olan meyvənin miqdarı da çoxalır. Uzun müddət saxlanılan zoğal meyvəsi kiflənir, qaralır, qıcqırır və yararsız olur. Meyvənin salpaqlı dərilməsi onun saxlanma müddətini 1-2 gün artırır. Ağac başından dərilən meyvələr torpaq səthindən yığılan meyvələrə nisbətən daha dözümlü olur. Yetişməmiş halda dərilmiş meyvələr qablarda yetişir. Bu isə məhsulun emal müəssisələrinə vaxtında çatdırılmasına imkan verir.

Zoğal meyvəsi dərildikdən sonra itkini azaltmaq üçün ən doğru yol və tədbir onun daha tez emal olunmasıdır [3, səh. 45].

Zoğal meyvəsindən kompot, mürəbbə, cem, povidlo, kisel, şirə, şəkərlənmiş zoğal turşu, lavaş, quru axta, zoğal püresi, zoğal jelesi, zoğal marmeladı, zoğal dondurması, zoğal siropu, zoğal şirəsi və s. hazırlanır.

Qənnadı məmulatlarının hazırlanmasında zoğal püresindən istifadə etmək daha məqsədəuyğundur.

Marmelad, pastila, vafli və s. məmulatların istehsalında geniş istifadə olunan meyvə xammalıdır. Zoğal püresinin istehsal əməliyyatı aşağıdakı kimidir: növlərə ayrılması, yuyulma, isladılma, pörtlədilmə, sürtgəcdən keçirmə, konservləşdirmə və taralara qablaşdırma. Zoğalın isladılma müddəti ölçüdən, növdən, yetişmə dərəcəsindən və s. asılıdır. Tərkibində çoxlu miqdarda pektin maddələrinin olması, zoğal püresinin həlməşik əmələgətirmə va qatılaşdırma xüsusiyyətlərini genişləndirir və imkan verir ki, yeyinti sahələrində istifadə olunsun. Tətqiq edilmişdir ki, zoğal püresinə şəkərin əlavə olunması, onun struktur-mexaniki xüsusiyyətlərinə təsir göstərir. Zoğal püresində olan pektin maddələri yüksək metoksilləşmə dərəcəsinə malik olub çoxlu miqdarda quru maddələri özündə saxlaya bilir. Beləliklə, şəkərin zoğal püresinə əlavə olunması zamanı pektin həlməşiyinin əmələ gəlməsi üçün şərait yaranır.

Zoğal xammalı əsasında istehsal olunmuş qənnadı məmulatlarından biri də meyvə marmeladıdır. Meyvə marmeladının əsas xammalı zoğal püresidir. İstehsal olunan meyvə marmeladı hazırlanma üsuluna və formalanmasına görə iki qrupa bölünür:

- Formalanmış - yəni qəlibə tökülüb müxtəlif formaya salınmış halda;
- Lay şəkilli blok halında.

Marmelad jelevari konsistensiyası, xoşagələn turşaşirin dadı, istifadə edilmiş xammalın ətri ilə xarakterizə olunur.

Zoğal pastası marmelad kütləsinin həlməşik əmələgətirmə qabiliyyətinə müsbət təsir göstərir. Zoğal marmeladının resepturasına zoğal pastası əlavə etməklə reseptura qarışığı nəinki pektin maddələri ilə, həm də bitki hüceyrələri ilə zənginləşir, bu da marmelad kütləsinin texnoloji xassələrinə xüsusən qaynatma zamanı təsir edir. Nəticədə özlülüyü və həlməşikləşmə sürətinin artması kütlənin standart nəmliyə (30-33%) çatana qədər qaynadılmasını çətinləşdirir. Kütlə qəliblərə pis tökülür, pis həlməşikləşməsi nəticəsində qəliblərə pis dolur, marmeladın səthində yığıntı əmələ gəlir ki, bu da keyfiyyət tələblərinə cavab vermir.

Zoğal pastalı marmelad 3 saat quruduqdan sonra, onun tərkibində sabit nəmlik, 1,5-2 saatdan sonra səthində qabıq əmələ gəlir. Bu da onu göstərir ki, standart resept üzrə hazırlanmış marmelada nisbətən, zoğal pastalı marmeladın quruma prosesi daha tez gedir. Bu onunla izah edilir ki, zoğal pastalı marmeladdakı artıq nəmlik quruma prosesinin ilk 1-1,5 saatı ərzində əsas kütlədən ayrılır. Bu müddət ərzində həlməşikdən çoxlu miqdarda nəmlik ayrılır və struktur dəyişikliyi baş verir. Bu zaman marmelad elə bil suya salınmış kimi yaş olur. Təbiidir ki, üst səthdəki nəm-

lik daxili qatlardakına nisbətən daha tez buxarlanır. Ona görə də zoğal marmeladın səthində 1-1,5 saatdan sonra qabıq əmələ gəlir.

Zoğal pastalı marmeladın səthindəki qabıq, standart marmeladın səthindəki qabıqdan öz möhkəmliyi ilə fərqlənir [5, səh. 45]. Zoğal pastalı marmeladın qabığının möhkəmliyi, qabığın yaranmasında və formalanmasında iştirak edən pektin maddələrinin miqdarının artması ilə izah edilir. Zoğal pastalı marmeladın optimal nəmliyi 22-26% olana qədər qurutmaq lazımdır. Bu nəmlikdə olan marmeladın tərkibindəki reduksiyaedici maddələrin miqdarı 20-28% təşkil edir ki, bu da keyfiyyət tələblərinə cavab verir. 2 ay saxlama müddəti ərzində zoğal pastalı marmeladda baş verən dəyişikliyin xarakteri standart marmeladdan fərqlənmir. Zoğal pastalı marmeladı 22-26% nəmliyə qədər qurutmaq lazımdır ki, bu da saxlama dövründə məhsulun keyfiyyətinin saxlanmasına təminat verir.

Resepturaya uyğun olaraq zoğal püresi və pastası qarışdırıcıda yaxşı qarışdırılır. Zoğal qarışığının turşuluğu ölçülür və buna uyğun olaraq üzərinə natrium-laktat, sonra isə şəkər tozu, patka əlavə edilir. Şəkər tozu həll olana qədər qarışıq qarışdırılır və bişirilir. Qarışığın nəmliyi 48-50% təşkil edir. Qarışığın bişirmə aparatında nəmliyi 15-18 %, temperaturu isə 80-90 °C olur. Qarışıq bir daha yaxşıca qarışdırılır və qəliblərə doldurulur.

Marmeladın resepturasına zoğal pastasının əlavə edilməsi həlməşiyin mexaniki xassələrini yaxşılaşdırır. Hazır marmeladın nəmliyi artır və eyni zamanda reseptura üzrə marmelad kütləsinin 1-1,5%-ə qədər şəkərin miqdarı azalır. Marmelad istehsalının texnoloji prosesi tərkibində standartda nəzərdə tutulan qədər şəkər olan qəliblənmiş zoğal pastalı marmeladın istehsal texnologiyası ilə eynidir. Marmelad kütləsi nəmliyi 34-38% olana qədər qaynadılıb bişirilir. Bu reseptura üzrə bişirilmiş marmelad qəliblərdən yaxşı çıxır, 6-8 saat saxlandıqdan sonra qurudulmağa göndərilir. Qurudulduqdan sonra marmelad kütləsi 30-35°C temperatura qədər soyudulur. Tərkibində şəkəri az olan marmeladın 2 ay ərzində aparılmış keyfiyyət tədqiqatları göstərmişdir ki, standart marmelad kimi o da yaxşı saxlanılır.

ƏDƏBİYYAT

1. Ахмедов А.И. Лечебные свойства пищевых растений. Монография. Баку,Элм, 2014,468 с.
2. Касумова А.А. Изучение химического состава дикорастущих плодов и ягод Гянджа-Газахской зоны. Ж, Хранение и переработка сельхозсырья, №10, 2017, с. 34-36.
3. Тагиев М.М. Технология производства продукции питания. Баку, Экопринт, 2016, 436 с.
4. Набиев А.А. Биохимия пищевых продуктов. Баку, Элм, 2008, 444 с.
5. Фаталиев Х.К. Технология хранения и переработки растительной продукции. Баку, Элм, 2010, 432 с.

Афет Аяйт кызы Касумова
кандидат технических наук, ст.преподаватель,

Гюнель Самир кызы Ибрагимова
магистрант
Азербайджанский Технологический Университет

Разработка технологии приготовления мармелада с использованием пюре из кизила

Резюме

В настоящее время обеспечение населения экологически чистыми продуктами питания является основной задачей руководства страны. В последнее время химический состав продуктов, импортируемых из-за рубежа, богат неизвестными ингредиентами. С этой точки зрения производство экологически чистой продукции с использованием местного сырья является одной из наиболее важных проблем, стоящих перед профессионалами. В результате исследования стало известно, что для производства мармелада, кондитерских изделий, вафли и т.д. лучше использовать пюре из кизила. Мармелад приготовленный по рекомендуемой технологии обладает хорошими органолептическими свойствами.

Ключевые слова: кизил, экологически чистая продукция, мармелад.

PhD, c.t.s. Afet Ayat Gasimova,

master Gunel Samir Ibragimova
Azerbaijan Technological University (UTECA)

Development of the technology of preparation of marmalade using puree from dogwood

Summary

At present, providing the population with environmentally ecologically pure food is the main task of the country's leadership. Recently, the chemical composition of products imported from abroad is rich in unknown ingredients. From this point of view, the production of environmentally friendly products using local raw materials is one of the most important problems facing professionals. As a result of the research it became known that for the production of marmalade, confectionery products, waffles, etc. it is better to use mashed potatoes. Marmalade cooked according to the recommended technology has good organoleptic properties.

Key words: dogwood, ecologically pure products, marmalade.

t.e.n., dosent Rahib Ağagül oğlu SAİLOV,

magistr Rəhman Rafail oğlu KOSAYEV
Azərbaycan Kooperasiya Universiteti

SƏNAYE MƏHSULLARININ KEYFİYYƏT SƏVİYYƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN NƏZƏRİ VƏ METODOLOJİ MƏSƏLƏLƏRİ

Xülasə

Sənaye məhsulu dedikdə, müsbət xassələrə malik olan və istehlakçıların ictimai və şəxsi xarakterli tələbatlarının ödənilməsi məqsədilə istifadə edilən əmək fəaliyyəti prosesinin materiallaşdırılmış nəticəsi başa düşülür. Sənaye məhsulunun texniki səviyyəsinin qiymətləndirilməsi prosedurunun əsas əməliyyatlarından biri təyinetmə və qəbuldur. Bu, etalon kimi qəbul ediləcək və hazırkı dövr üçün ən yaxşı elmi-texniki nailiyyətləri özündə cəmləşdirən texnika nümunəsinin keyfiyyət göstəricilərinin ədədi qiymətlərinin nümunələr kimi təsdiq edilməsidir.

Hazırkı şəraitdə sənayedə keyfiyyət göstəricilərinin qüvvədə olan normativ-texniki sənədlərin tələblərinə uyğun gəlməsi ən aktual məsələlərdən biridir. Belə ki, sənayenin bir çox sahələrində malların keyfiyyətinin istehlakçıların tələblərinə cavab verməsi hər bir istehsal müəssisəsinin iqtisadi inkişafının əsasını təşkil edən ən vacib problemlərdəndir. Buna görə də keyfiyyət hər bir müəssisədə idarəetmə proqramının və texniki sənədlərin hazırlanmasında, onların həyata keçirilməsində əsas istiqamətlərdən sayılır.

Açar sözlər: sənaye məhsulu, keyfiyyət, etalon, normativ-texniki sənəd, qiymətləndirmə.

***

Bütün sənaye məhsulları keyfiyyət səviyyəsinin (texniki səviyyəsinin) qiymətləndirilməsi məqsədilə iki sinifə bölünür: birinciyə - istifadə zamanı sərf edilən məhsul; ikinciyə - öz ehtiyatını sərf edən məhsul daxildir.

Sənaye məmulatlarının texniki səviyyəsinin qiymətləndirilməsi məhsulun fəaliyyət tsiklinin sonrakı bütün mərhələlərində baxılan texnikanın keyfiyyətinə aid olan elmi-texniki, istehsal-texnoloji, kommersiya və digər idarəçilik qərarlarının qəbulu üçün həyata keçirilir. Buna əsaslanaraq sənaye məhsulunun texniki səviyyəsinin qiymətləndirilməsinin konkret məqsədindən asılı olaraq müqayisə üçün baza nümunələrinin müxtəlif tipləri müəyyənləşdirilir. Onlar üç tipdə ola bilərlər.

Perspektiv baza nümunələrinin birinci tipi mahiyyətcə məhsulun modeli olmaqla keyfiyyət və texniki səviyyə göstəricilərinin məcmusu ilə xarakterizə olunur. Bu da gələcək dövr üçün müəyyən edilmiş qabaqcıl elmi-texniki nailiyyətlərə və proqnozlaşdırılan istehsal imkanlarına uyğun gəlir. Perspektiv baza nümunələrinin keyfiyyət göstəricilərinin ədədi qiymətləri yeni

məhsulun buraxılışı planlaşdırılarkən, yeni texniki məmulatların işlənməsi üçün texniki tapşırıqlar işlənərkən, texnikanın layihələndirilməsi və konstruksiya edilməsi zamanı eyni cinsli qrup məhsula standart tələblər hazırlanarkən və bir sıra digər hallarda sənaye məhsulunun keyfiyyətinin (texniki səviyyəsinin) qiymətləndirilməsi üçün istifadə edilir.

Baza nümunələrinin ikinci tipi məhsul istehsala qoyularkən və modernləşdirilərkən, həmçinin məhsul attestasiya edilərkən və verilmiş məhsul üçün qüvvədə olan standartların və digər normativ-texniki sənədlərin elmi-texniki səviyyəsi qiymətləndirilərkən tətbiq olunur.

Baza nümunələrinin üçüncü tipi xarici analoq olmadıqda, müəssisənin istehsal imkanları qiymətləndirilərkən, məhsulun diferensiasiyası əsaslandırılarkən, yaxud eynicinsli məhsulun qruplarına, növlərinə və tiplərinə qoyulan müvafiq tələblərin dövlətdaxili standartlarına daxil edilməsi zamanı tətbiq edilir. [1. səh. 24-28]

Sənaye məhsulunun keyfiyyəti, onun istehlakçının bütün tələbatlarının təmin olunmasına yararlılığını müəyyən edir. Ona görə də keyfiyyət problemi istehlakçıların tələbatı kimi insan faktoru ilə birbaşa bağlıdır.İqtisadi tələblərdən irəli gələn enerji, xammal, əmək, material və digər ehtiyatların məhdudluğu şəraitində istifadəetmə fəaliyyətinin bütövlükdə hər şeylə təmin olunması vacib məsələdir. Ona görə də istehsal olunmuş məhsulun yüksək keyfiyyəti əvvəlcə ona təyinata uyğun olan tələbatın ödənilməsinin yüksəldilməsi ilə izah olunur. Odur ki, keyfiyyətin artırılması vəsaitin, əməyin və digər ehtiyatların qənətində özünü tapır. [2. səh. 256]

Məhsulun təyinatına uyğun olaraq məhsulun keyfiyyəti qarşıda qoyulan tələbatların yerinə yetirilməsi üçün istehsal olunmuş məhsulun yararlılığını təyin edən xassələrin toplusu olduğundan, tam konkret tələbat müəyyən edilməlidir. İnsanların tələbatlarının tarixi xarakteri vardır. Məhsuldar qüvvələrin və istehsal münasibətlərinin inkişafı ilə insanların maddi və mənəvi rifahı artdıqca, onların tələbatları artır və genişlənir. Tələbatların müxtəlif səviyyəsi, həmçinin hər hansı bir məmulatın istehlak şəraitindəki müxtəliflik məhsulun keyfiyyət səviyyəsinin nisbi xarakterini müəyyən edir. Əvvəllər yüksək keyfiyyət səviyyəsinə malik olan məhsullar, sonrakı dövrlərdə insanları təmin etmir. Demək olar ki, belə bir gedişat qanuni proses hesab olunur. [3. səh. 59]

ƏDƏBİYYAT

1. Герасимов Г.Е. 14 постулатов Э.Деминга // Стандарты и качество.-1991.- №1.-с.24-28.
2. Азгальдов Г.Г. Теория и практика оценки качества товаров.-М.; Экономика, 1989.256 с.
3. Məmmədov N.R., Ələkbərov E.B., Aslanov Z.Y. və b. Kvalimetriya və keyfiyyətin idarə edilməsi. Ali məktəblər üçün dərslik. - Bakı: «Elm», 2007. səh-59.

к.т.н., доцент Рахиб Агагюл оглы Саилов,

магистр Рахман Рафаил оглы Косаев
Азербайджанский Университет Кооперции

Теоретические и методологические вопросы оценки качества промышленной продукции

Резюме

Промышленный продукт понимается как материализованный результат процесса трудовой деятельности, который имеет положительные свойства и используется для удовлетворения социальных и личных потребностей потребителя. Одним из основных операций по оценке технического уровня промышленного продукта является назначение и принятие. Это означает подтверждение как примера численных значений показателей качества, воспринимаемый как эталон и включающий в себя все самые лучшие технические достижения современности.

В нынешних условиях одним из актуальных вопросов является соответствие показате-

лей качества в промышленной области требованиям действующих нормативно-технических документов. Таким образом, соответствие качества товаров во многих отраслях промышленности требованиям потребителей является одной из важнейших проблем, составляющих основу экономического развития каждого производственного объекта. Поэтому качество считается одним из ключевых направлений в разработке и внедрении программ управления и технической документации на каждом предприятии.

Ключевые слова: промышленный продукт, качество, эталон, нормативно-технический документ, оценка.

c.t.s., ass. prof. Rahib Aghaguloglu Sailov,

master Rahman Rafail oglu Kosayev
Azerbaijan Cooperation University

Theoretical and methodological issues of industrial products quality assessment

Summary

The industrial product is understood as a materialized result of the labor activity process, which has positive properties and is used to meet the social and personal needs of the consumer. One of the main operations for assessing the technical level of an industrial product is the appointment and acceptance. This means confirming as an example of numerical values of quality indicators, perceived as a standard and incorporating all the best technical achievements of our time.

In the current conditions, one of the topical issues is the compliance of quality indicators in the industrial area with the requirements of existing normative and technical documents. Thus, the conformity of the quality of goods in many industries to the requirements of consumers is one of the most important problems that constitute the basis of economic development of each production facility. Therefore, quality is considered one of the key areas in the development and implementation of management programs and technical documentation at each enterprise.

Key words: industrial product, quality, standard, normative and technical document, assessment.

Ayan Əmirəhməd qızı RZAYEVA
müəllimə, AKU

QİDA MƏHSULLARININ KEYFİYYƏTİNİN QORUNMASINDA LOGİSTİKANIN ROLU

Xülasə

Qida sənayesi kənd təsərrüfatının inkişafı ilə çox yaxından əlaqələndirilir. Belə ki, qida sənayesi ət, süd, taxıl, dəniz məhsulları, meyvələr, tərəvəzləri məhz kənd təsərrüfatından aldığı üçün, onunla sıx bağlıdır. Bu sənaye aqrar-sənaye kompleksinin bir hissəsidir.Qida sənayesinin inkişafı ölkənin müxtəlif bölgələrindəki əhaliyə ərzaq məhsullarının tədarükünün mövcud fərqlərini kompensasiya etməyə imkan verir.

Açar sözlər: qida sənayesi, logistik əməliyyatlar, tez xarab olan qida məhsulları, qida məhsullarının qablaşdırılması, qida məhsullarının soyudulması.

***

Qida məhsulları: meyvə və tərəvəz, ət və ət məhsulları (quş əti, qırmızı ət, sosiska, kolbasa, sucuq və s.) dənli bitkilər (lobya, mərci, düyü və s.), heyvan məhsulları (süd, pendir, yumurta və s.) və sənaye qida məhsulları (şokolad, biskvit, şirniyyat) olaraq təsnif edilir.

Qida məhsulları kifayət qədər diqqət edilmədiyi zaman qısa müddətdə xarab ola bilər. Buna görə də qida məhsullarının demək olar ki, hamısı əsasən korlanan və çürüyən məhsullar olaraq adlandırılır. Buna görə də qida məhsullarının logistika müddətlərində xüsusi şərtlərə ehtiyac

duyulur. Kənd təsərrüfatı və heyvandarlıq mənşəli qida məhsulları daxili və ya xarici səbəblərdən dolayı korlana bilər. Bu, məhsullardakı mikrob artımından qaynaqlanır. Qida məhsullarındakı korlanmaya səbəb olan daxili faktları aşağıdakı kimi sıralamaq olar: məhsulun PH dərəcəsində olan dəyişikliklər; rütubət itkisi; oksidləşmə; qida itkisi; anti-mikrobik dərmanların həddindən artıq istifadəsi. Bu cür məhsulların daşınmasında istilik nəzarəti olan maşınlar (friqorifik) mütləqdir.

Hər qrup logistika əməliyyatları fərqli şəkildə həyata keçirilir. Tez xarab olan qida məhsulları logistikada ilk ağlagələn soyuq zəncirdir. Soyuq zəncir məhsulların qorunması üçün lazım olan istilik dərəcələrinin daşınma, saxlama və digər loqistik fəaliyyətlərin sonunda təmin edilməsi və davam etdirilməsidir. Burada ən önəmli prinsip soyuq zəncirin qırılmasıdır. Məhsulun istehsal edilməsindən etibarən hədəf bazar və müştəriyə çatdırılması mərhələsində istər daşıma, istərsə də zəncirin son halqaları mərhələsində istehsalçı və pərakəndə firmanın məsuliyyəti çox böyükdür. Həyata keçirilən daşıma soyuducu sistemlə hərarətin dəyişməsi məhsulun xarab olmasına və onun içərisində zərərli mikroorqanizmlər və canlıların çoxalmasına səbəb olur. Logistik əməliyyatlar zamanı qida məhsulları mövcud risklər içərisində olan mikrob yoluxucular (viruslar, mikroskopik parazitlər, bakteriyalar), fiziki yoluxucular (təmizlik vasitələri, sənaye - kimyəvi maddələr və s.) mövcuddur. Qida məhsulları mütləq şəffaf "örtü" ilə bağlanmalıdır. Çünki lap təzə meyvə və tərəvəzlər dərildikdən sonra yaşamağa davam edir. Bu mərhələdə tənəffüs almaları üçün həmin mühitə oksigen, etilen, karbondioksod, solgidrik turşusu və ammonium kimi bir neçə qaz buraxılır. Beləliklə, soyuducu şəffaf daxili mühitdə lazım olan 3-5% nisbətində oksigen və 10-12% nisbətində karbondioksidin formalaşmasını təmin edir. Bununla da daxili şəraitdə bakteriyaların hərəkətinə son verilir.

Yuxarıda adını çəkdiyimiz soyuducu şəffaf lentlər qidanı xarici təsirdən qoruyan baryer olmaqla, qablaşdırma daxilində və xaricində dəyişən şərtlərə görə qida məhsullarının keyfiyyətini qoruyub mühafizə edir.

Dövlət və cəmiyyət tərəfindən əhalinin həmişə aktiv və sağlam tərzini saxlamaq üçün, müəyyən edilmiş keyfiyyət standartları çərçivəsində ərzaq, qida məhsullarına olan tələbatın fasiləsiz, uzunmüddətli ödənilməsini təmin edən tədbirlər kompleksi nəzərdə tutulur.

Qida məhsullarının qablaşdırılması istehsalçıdan istehlakçıya qədər olan müddətdə böyük bir önəm daşıyır. Bu daşımalar karton, saxta və plastik üzrə 1500-dən çox fərqli növ və ölçüdə istifadə olunur. Qablaşdırma olaraq istifadə ediləcək material məhsulun xaricdən və daxildən zərər görməsinin qarşısını almaqla yanaşı insan sağlamlığına zərər verməyən taxta, karton, plastik və s. materiallardan hazırlanmalıdır. Qablaşdırmaların hazırlanmasında istifadə edilən hər növ material ilə daxilinə qoyulan kağız və oxşar maddə insan sağlamlığına zərərsiz, yəni təmiz, quru və qoxusuz olmalıdır. Qablaşdırmada istifadə edilən kağız, marka kimi materialların çapı, etiketlənməsi insan sağlamlığına zərərli olmayan mürəkkəb və yapışqanla edilməlidir. Məhsulun üzərində olan etiket çıxarıldığı zaman məhsulun üzərində iz, ləkə yaranmamasına diqqət edilməlidir.

Təzə meyvə və tərəvəz məhsullarının tez xarab olması ixracatda bəzi çətinliklər yaradır. Belə məhsullar üçün xüsusi qutular və paketləmə texnikaları mövcuddur. Bu kimi daşımalar çox vaxt friqorovik (soyuducu) qutularla həyata keçirilir. Qida məhsulları yüklənmədən əvvəl yoxlanılaraq beynəlxalq standartlara görə ekstra, I Sinif, II Sinif olmaq üzrə 3 növə bölünür. Yükləmə zamanı aşağıdakılara diqqət etmək lazımdır:

- məhsul bütöv olmalıdır;
- məhsul çürümüş olmamalıdır;
- məhsul təmiz olmalıdır, yəni,onun üzərində gözlə görünə biləcək yad cisimlər olmamalıdır;
- məhsul özünə xas rəng və formaya malik olmalıdır.

Yuxarıda sadalanan xüsusiyyətlərə sahib olmayan məhsullar maşına yüklənməməli və saxlanılmalıdır.

Qida məhsullarının qablaşdırılmasından başqa onları daşıyan nəqliyyat vasitələri də mühüm rol oynayır. Nəqliyyatın hava sirkulyasiyası sisteminə sahib olma və sistemin düzgün işləməsi əsas şərtdir. Xüsusən də məhsula lazım olan dərəcənin məhsulun hər tərəfinə eyni yayılmasında hava sirkulyasiyası sisteminin rolu böyükdür. Bu sistemin olmadığı zaman nəqliyyat vasitəsinin içində olan temperatur bərabər paylanmaya bilər və nəticədə altda qalan məhsullar çürüyər,

korlanar. Nəqliyyatın içində yer alan məhsulların bərabər şəkildə soyudulması onların düzgün yerləşdirilməsindən də asılıdır. Məhsullar bir-birinin hava axını ilə təmasını kəsməyəcək şəkildə yüklənməlidir. Ət və ət məhsullarının daşınmasına gəldikdə isə məhsulun maşında olduğu müddət ən az müddətə endirilməli, daşınma ən uyğun şərtlərlə olmalıdır. Ət və ət məhsullarının daşınmasında diqqət ediləcək məqamlar:

- daşıma vasitələri istilik və rütubət baxımından məhsulun xüsusiyyətlərinə uyğun olmalıdır;
- soyuq zəncirdə olan daşıma vasitələrində də istilik və nəmlik ölçən cihazlar olmalıdır;
- daşıma öncəsi və sonrası nəqliyyat vasitələrinin ət və ət məhsulları üçün münasib olmasına nəzarət edilməli və lazımı gigiyenik testlər aparılmalıdır;
- işçilər məhsulların daşınması haqqında məlumatlandırılmalıdırlar;
- nəqliyyat vasitələri sadəcə ət və ət məhsullarının daşınması üçün hazırlanmalı və sadəcə bu məqsəd üçün istifadə edilməlidir;
- məhsulların nəqliyyat vasitələrinə yüklənməsindən öncə və ya nəqliyyat vasitəsindən boşaldılmasından sonra uyğunluğuna nəzarət edilməlidir;
- daşınma əsnasında boşaldılmasından sonra bir-birinə təsir edəcək məhsullar yan-yana qoyulmamalıdır.

Süd və süd məhsulları beynəlxalq hüquqi tənzimləmələrə görə tez xarab ola bilən məhsul olaraq tanınır. Bu səbəbdən məhsulun daşınması, saxlanması kimi logistik əməliyyatlarda mümkün olduğu qədər yüksək diqqətin göstərilməsi lazımdır. Südlərlə bağlı hər ölkə öz daxili qanunvericilik aktlarını həyata keçirir. Xüsusən də ABŞ və Avropa ölkələrinin bir bölməsində süd və süd logistikası ilə bağlı hüquqi aktlar qanunlar ilə təmin edilir.

Tez xarabolma xüsusiyyətinə görə süd və süd məhsulları həssas məhsullar olaraq tanınır. Buraya işlənməmiş süd, işlənmiş və paketlənmiş südlər, qatıq, pendir, ayran və s. aiddir. Adı çəkilən məhsullar xüsusiyyətlərinə və istifadə sahələrinə görə fərqli təchizat zənciri müddətlərinə sahib olurlar. Süd təchizat zəncirində süd istehsalı təməl olaraq 3 əsas mərhələdən ibarətdir. Birinci mərhələdə sağma prosesindən öncə südün keyfiyyət və xüsusiyyətlərini müəyyən edəcək testlərin həyata keçirilməsi, sağımda istifadə edilən təchizat və heyvanın təmizliyinin və dezinfeksiyasının təmin edilməsi kimi alt mərhələlər mövcuddur. Sağımdan əvvəl südün keyfiyyət və göstəricilərini müəyyən etmək üçün südün nümunəsi alınaraq test edilir. İkinci mərhələdə sağma prosesində istifadə edilən vakuum miqdarı seçilərək sabitlənir. Sağılan südü logistik əməliyyata təslim etmədən öncə toplama mərkəzinə gəlir və burda toplanır. Bu mərhələdə də soyutma işləri həyata keçirilir.

Südlər lazımi yoxlamalardan keçdikdən sonra 3-cü mərhələ olan daşınacağı nəqliyyat vasitələrinə yığılmasıdır. Doldurulma və boşaldılma zamanı maşınlar ilə avadanlıqlar daimi olaraq təmizlənməli və dezinfeksiya olmalıdır. Məhsul daşınması zamanı mövcud olan mineral və digər üzvi komponentlərin maşının dibinə çökməməsi üçün daşınma zamanı məhsulu daimi olaraq mikser ilə qarışdırmaq lazımdır. Mikser nəqliyyat vasitəsinə sabit olmalı və soyutma cihazının işləməsi ilə eyni zamanda işləməlidir. Məhsul yığımı zamanı süd 34-35^0 C olduğu halda daşındığı zaman 3-4^0 C-yə qədər soyudulur və bu dərəcədə daşınır.

Süd və süd məhsulları tez xarab olduqlarına görə təsiredici bir inventar idarə lazımdır. İstehsal mərhələsindən son istifadəçiyə çatana qədər məhsul haqqında məlumatlar qeyd olunur. Məhsulun gəldiyi ferma, alındığı heyvanlar və onların kodları, soyudulma, isidilmə və digər proseslər və daşındığı tankerlərlə bağlı məlumatlar adı çəkilən qeydlərdə yerləşir. Əlavə olaraq məhsulun istehsal və son istifadə tarixi qeyd olunur.

Meyvə-tərəvəz, ət və ət məhsulları, süd və süd məhsulları və digər qida məhsullarının saxlanılmasına gəldikdə isə onlar anbarlarda saxlanılarkən xüsusi paket və ya qablaşdırmalarda olmalı, daşınarkən yükqaldıran maşın istifadə edilməli, işçilər isə xüsusi gigiyena qaydalarına cavab verən təmiz paltarlar geyinməlidir. Anbar sistemində məhsulların qablaşdırıcı tara və etiketlərinin zərər görməsinin qarşısı alınmalıdır.

Bundan başqa soyutma sistemi də qida məhsullarının qorunmasında böyük rol oynayır. Məhsulların daşındığı nəqliyyat sistemində mövcud olan temperatur nəzarət cuhazları məhsulu soyutmur, sadəcə soyudulmuş məhsulun temperaturunu qoruyur. Qida məhsullarının soyudulması

üçün mexaniki soyutma, buzlaşdırma və kriogen proses olmaq üzrə 3növ soyudulma aparılır. Mexaniki soyutma ətraf mühitdə olan isti havanın sorularaq ətraf mühitin istiliyindən daha aşağı istiliyə sahib dərəcədə havanın mühitə verilməsi ilə həyata keçirilir. Mexaniki soyutma ilə nəqliyyatın içində -18°C-dən +38°C-yə qədər temperatur nəzarəti təmin edilir. Buzlama buz mühit və məhsulun temperturunu udmaq mövzusunda çox təsiredici bir ünsürdür. Məhsulun təzəliyini qorumaq üçün çox vaxt müraciət edilən metoddur. Lakin bu cür soyutma prosesində buzların məhsula birbaşa təmas etməsinin qarşısını almaq lazımdır. Kriogen proses maye və ya bərk karbondioksid ilə maye azot istifadə edilərək soyudulma prosesidir. Bu sistem evlərdə olan soyuducuların iş prinsipi ilə eynidir. Bu sistemin mənfi tərəfi odur ki, motor söndürüldüyü zaman soyutma sistemi dayanır. Digər tərəfdən, bu sistemin müsbət tərəfi müxtəlif qoşqularda istifadə edilə bilməsidir.

ƏDƏBİYYAT

1. E.A.Quliyev. “Aqrar iqtisadiyyat”. Bakı, 2015.
2. Ə-C.İ.Əhmədov, N.T.Əliyev. “Meyvə və tərəvəzin əmtəəşünaslığı”. 2009.
3. Тюрин Алексей Юрьевич. «Особенности решения задач транспортной логистики в пищевой промышленности». Журнал «Киберленинка». 2013.

Аян Амирахмед кызы Рзаева
преподаватель АУК

Роль логистики в защите качества пищевых продуктов

Резюме

Пищевая промышленность очень тесно связана с развитием сельского хозяйства. Пищевая промышленность тесно связана с ним, поскольку она импортирует мясо, молоко, зерно, морепродукты, фрукты и овощи из сельского хозяйства. Это часть индустриальной аграрной промышленности. Развитие пищевой промышленности позволяет компенсировать существующие различия в поставках продуктов питания населению в разных частях страны.

Ключевые слова: пищевая промышленность, логистические операции, упаковка продуктов питания, охлаждение пищевых продуктов.

Ayan Amirahmad Rzayeva
teacher of ACU

The role of the logistics in the protection of food products quality

Summary

Entrepreneurial production is very strongly associated with the development of the farming business. Essential foodstuffs are associated with it, as it imports the meat, molocho, zerno, apricot, fruity and oculos from the farming. It is the industrial agrarian industry. Development of raw materials allows to compensate for the differentiation of products in the product range in different parts of the plant.

Key words: food industry, logistics operations, food products, food packaging, cooling of food products.

Şakir Babayar oğlu QULİYEV
a.e..f.d., dosent, aqrokimya laboratoriyasının müdiri,
böyük elmi işçi Tatyana Qriqoryevna SOLUYANOVA,
böyük elmi işçi Əfruz Şirməmməd qızı ƏSƏDOVA
Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu

ÜZVİ VƏ MİNERAL GÜBRƏLƏRİ VERMƏKLƏ TƏHLÜKƏSİZ TƏRƏVƏZ MƏHSULU ALINMASI

Xülasə

Tərəvəz və bostan məhsullarında nitrat toplanması problemi qalmaqdadır. Peyin və mürəkkəb mineral gübrə olan NPK+ME-in müxtəlif dozaları istifadə olunmaqla alınan baş kələm, baş soğan və sarımsaq məhsullarının tərkibi öyrənilmişdir. Müəyyən edilmişdir ki, bu doza gübrələri verdikdə alınan məhsulların tərkibində nitratların miqdarı icazə verilən norma həddində olmuşdur.

Açar sözlər: nitratlar, peyin, mürəkkəb mineral gübrə, təhlükəsiz tərəvəz məhsulu.

***

Məlumdur ki, respublikamızın zəngin torpaq-iqlim şəraiti burada bütün ilboyu tərəvəz, bostan və kartof məhsulu yetişdirməyə imkan verir. Bu bitkilərdən əlverişli şəraitdə yüksək aqrotexniki qulluqlar və qida maddələrinin bitkilərə düzgün verilməsi nəticəsində maksimum məhsul almaq olar.

Tərəvəz və bostan bitkilərindən yüksək məhsul torpağa azot, fosfor və kalium kimi vacib qida elementləri verməklə alınır, amma burada azot elementinin rolu xüsusi qeyd olunmalıdır. Müxtəlif azot gübrələri şəklində istifadə olunan bu qida elementi suvarılan torpaqlarda müxtəlif çevrilmələrə uğrayaraq, bitkilər tərəfindən asan mənimsənilən formaya düşür.

Bilirik ki, azot elementi bitkilərin vegetativ orqanlarının əmələ gəlməsində, böyüməsində fəal rol oynayır və bitkilərin bu maddələrə böyük ehtiyacı vardır. Amma bu gübrələrin normadan artıq verilməsi bədbəxt hadisələrə səbəb ola bilir, məhsulda artıq miqdarda sərbəst nitratlar əmələ gəlir. Belə məhsullar insanlar tərəfindən istehlak edilərkən sərbəst nitratlar birbaşa qana sorulur, hemoqlobinin tərkibindəki ikivariantlı dəmirlə birləşir. Əmələ gələn üçvariantlı dəmir hüceyrələrə oksigen daşımaq qabiliyyətini itirdiyindən orqanizmdə zəhərlənmə baş verir [1, səh. 5, 2, səh. 51].

Ona görə də tərəvəz, bostan bitkiləri və kartof əkinləri üçün azot gübrəsinin normasını müəyyən edərkən, torpaqda əmələ gələ biləcək mineral azotun miqdarının mütləq nəzərə alınması çox vacibdir. Belə ki, torpaq nə qədər münbit olarsa, onda bir o qədər çox azot olur. Belə ki, məhsulda toplanan nitratların miqdarı torpağa verilən gübrə dozası ilə bərabər, torpaqdakı üzvi qalıqların minerallaşması prosesinin sürəti və bitkilər tərəfindən asan mənimsənilən azotun miqdarının artması ilə sıx əlaqədardır.

Aqrokimyəvi vasitələrin istifadəsinin əsas problemlərindən biri təsərrüfatçılıq-əkinçilik balansında üzvi və mineral gübrələrin bilavasitə düzgün tətbiqindən və balansın optimallaşdırılmasından ibarətdir. Başqa sözlə, başlıca məqsəd məhsulun azot birləşmələri-nitratlar və nitritlərlə çirklənməsinin qarşısını almaqla ekoloji cəhətdən təmiz, təhlükəsiz, yüksək tərəvəz, bostan və kartof bitkiləri məhsulu alınmasına nail olmaqdır [3, səh.110]. Bu isə respublikanın müxtəlif torpaq-iqlim şəraitlərində göstərilən bitkilərin altında gübrələrin öyrənilməsini vacib edir.

Bu məqsədlə 2015-2017-ci illərdə peyin və mürəkkəb mineral gübrə olan NPK+ME-dən (tərkibi 8% azot, 24% fosfor, 24% kaliumdan ibarətdir) istifadə edərək Abşeronda Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun sahələrində aşağıdakı sxemdə tarla təcrübələri aparılmışdır. 1. gübrəsiz (nəzarət), 2. 30 t peyin (fon), 3. Fon + $(NPK+ME)_{200}$, 4. Fon + $(NPK+ME)_{220}$, 5. Fon + $(NPK+ME)_{240}$, 6. Fon + $(NPK+ME)_{250}$.

Səpinlər, əkinlər, bitkilərə qulluq edilməsi işləri, məhsul yığımı bölgədə qəbul olunmuş aqronomiya qaydalarına müvafiq olaraq aparılmışdır. Peyinin hamısı, mürəkkəb gübrənin isə 50%-i əkinqabağı, qalan yarı hissə mineral gübrə isə iki dəfə yemləmə şəklində verilmişdir (5, səh.51,53,70,178). Alınan tərəvəz məhsullarında nitratların miqdarı SOEKS markalı nitromerlə müəyyən olunmuşdur, alınan nəticələr cədvəldə əks olunmuşdur.

Məlumdur ki, tərəvəz məhsullarında nitratlar torpağa yüksək dozada azot gübrələri veriləndən sonra, həmçinin qeyri-əlverişli şəraitdə toplana bilər. Təcrübələrimizdə ağbaş kələmin Apşeronskaya ozimaya, baş soğanın Sabir və sarımsağın Cəlilabad sortlarının məhsulunda nitratların miqdarı icazə verilən həddə olmuşdur (baş kələmdə 500, baş soğanda 80, sarımsaqda 80 mq/kq).

Ağbaş kələm və sarımsaqda bütün gübrə verilən variantlarda nitratların miqdarı gübrəsiz (nəzarət) varianta nisbətən yüksək olmuşdur. Baş soğandan isə başqa nəticələr alınmışdır-nitratların miqdarı verilən gübrələrin dozasından asılı olaraq qeyri-müəyyən dəyişilmişdir.

Üzvi və mineral gübrələrin istifadəsindən sonra alınan tərəvəz məhsullarında nitratların miqdarı (mq/kq, 3 illik orta)

Variantlar	***baş kələm Apşeronskaya ozimaya***	***baş soğan Sabir***	***sarımsaq Cəlilabad***
Gübrəsiz (nəzarət)	215	75	29
30 t peyin (fon)	304	74	46
Fon+$(NPK+ME)_{200}$	347	59	36
Fon+$(NPK+ME)_{220}$	388	58	32
Fon+$(NPK+ME)_{240}$	379	71	35
Fon+$(NPK+ME)_{250}$	432	65	37

Baş soğanın xırda (20-30 q), orta (40-60q) və böyük (100q-dan artıq) ölçülü soğanaqlarında nitratların miqdarı təyin edilmişdir. Soğanaqlarda nitratların miqdarı icazə verilən hədd daxilində dəyişilmişdir. Buna baxmayaraq böyük soğanaqlarda xırdalara nisbətən daha çox nitrat toplanması aşkar edilimişdir. Bu, mətbəx çuğunduru ilə aparılan tədqiqatların nəticələri ilə uyğun gəlir (4, səh. 44).

Qeyd etdiyimiz kimi, təcrübələrimizdə istifadə etdiyimiz mürəkkəb mineral gübrə olan NPK+ME-in tərkibində 8% azot, 24% fosfor, 24% kalium vardır. Əsas qida elementlərinin kompleks şəkildə torpağa verilməsi yüksək və keyfiyyətli məhsulun əmələ gəlməsini şərtləndirmişdir.

Bitkilərin inkişafının ilk dövrlərində mürəkkəb mineral gübrənin tərkibindəki fosfor, sonrakı dövrlərdə isə yemləmə şəklində verildikdə kalium nitratların artıq miqdarda toplanmasının qarşısını almış, təhlükəsiz, nitratsız tərəvəz məhsullarının yetişdirilməsinə imkan vermişdir.

ƏDƏBİYYAT

1. Mövsümov Z.R., Ağayev V.Ə. Bitki məhsullarında nitratların toplanması. Bakı. "Elm", 1994, 59 s.
2. Hüseyov A.M. Torpaqda azotun ekoloji problemləri. AKTA-nın 75 illiyinə həsr olunmuş elmi əsərlərin toplusu. Bakı, 2004, s. 50-51.
3. Борисов В.А. Особенности питания овощных культур и основные элементы технологии производства экологически безопасный овощной продукции. «Современные технологии и новые машины в овощеводстве». Материалы международной научно-практической конференции, М., 2007, с. 109-114.
4. Борисов В.А., Успенская О.Н., Васючков И.Ю., Коломиец А.А. Биохимический состав сортов и гибридов овощных культур в зависимости от применения удобрений цеолита и регуляторов роста. «Селекция, семеноводство и сортовая агротехника овощных, бахчевых и цветочных культур». Сб. научных трудов Международной научно-практической конференции, посвященной ВЫЫ Квасниковским чтениям. М., 2016, с.40-44.
5. Литвинов С.С. Методика полевого опыта в овощеводстве. М., 2011, 650 с.

д.с.н., доц. Шакир Бабаяр оглы Гулиев,
ст. науч. сотрудник Татяна Григоревна Солуянова,
ст. науч. сотрудник Афруз Ширмамед кызы Асадова
Научно-Исследовательский Институт Овощеводства

Получение безопасной овощной продукции при внесении органо-минеральных удобрений

Резюме

Проблема накопления нитратов в продукциях овощных и бахчевых культур остается нерешенной. Изучен состав продукции кочанной капусты, репчатого лука и чеснока, полученной от внесения различных доз навоза и сложного минерального удобрения НПК + МЕ. Выявлено, что в продукции, полученной от внесения этих доз удобрений, количество нитратов было в пределах допустимой нормы.

Ключевые слова: нитраты, навоз, сложное минеральное удобрение, безопасная овощная продукция.

PhD in agrarian, ass. prof. Shakir Babayar Guliyev,
senior scientific worker Tatyana Grigorevna Soluyanova,
senior scientific worker Afruz Shirmammed Asadova
Vegetable Scientific Research Institute

Safe vegetable production by the application of organic and mineral fertilizers

Summary

The accumulation of nitrates in vegetables and melon crops still remains a problem. The content of head cabbage, onion and garlic crops produced by the different doses application of manure and compound mineral fertilizer NPK+ME has been analyzed. It has been determined that the amount of nitrates in crops produced by the application of these dose fertilizers was in an acceptable normal range.

Key words: nitrates, manure, compound mineral fertilizer, safe vegetable production.

Sara Ramiz qızı RÜSTƏMZADƏ
Azərbaycan Kooperasiya Universitetinin magistri

QİDA KONSENTRATLARININ STANDARTLAŞDIRILMASININ VƏ UYĞUNLUĞUNUN QİYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Quru və preslənmiş halda hazırlanan hazır ərzaq məhsuluna konsentrat deyilir. Qida konsentratlarının keyfiyyətinin yüksəldilməsini təmin edən normativ sənədlər sistemində standartlar əsas yerlərdən birini tutur. Standartlarda keyfiyyətin əsas göstəriciləri və bu göstəricilərin ölçülərinin xarakteristikası verilir. Bundan əlavə, texniki normativ-hüquqi aktların tələblərinə uyğunluğu təsdiq edilmiş məhsullara milli uyğunluq nişanı vurulur. Qida məhsullarının könüllü sertifikatlaşdırılması isə sertifikatlaşdırma sistemində tətbiq edilən uyğunluq nişanı ilə damğalanır.

Açar sözlər: qida konsentratı, standartlaşdırma, uyğunluq nişanı.

***

Standartlaşdırma - məhsullar üçün norma, qayda və xarakteristikaları müəyyənləşdirən fəaliyyətdir. Standartlaşdırma həmçinin məhsulların insanların həyatı, sağlamlığı, əmlakı və ətraf mühit üçün təhlükəsizliyi təmin etmək məqsədini güdür [1, səh. 318].

Bildiyimiz kimi, ərzaq məhsullarının istehsaldan istehlaka qədər bütün mərhələlərində onun keyfiyyətinə təsir edən bir çox amillər vardır. Bu amillər ümumilikdə 2 yerə bölünür-ərzaq məhsullarının keyfiyyətinin formalaşmasına təsir edən amillər və keyfiyyəti qoruyub saxlayan amillər. Keyfiyyətin formalaşmasına təsir edən amillərə normativ-texniki sənədlərin keyfiyyəti, istehsalda istifadə olunan avadanlıqların keyfiyyəti, xammalın keyfiyyəti və s. aiddir.

Keyfiyyəti qoruyub saxlayan amillərə isə istehsaldan istehlaka qədər keyfiyyəti qoruyub saxlayan amillər aiddir ki, bunlara da markalanma, qablaşdırma, daşınma, saxlanma aiddir. Keyfiyyəti formalaşdıran amillər obyektiv və subyektiv ola bilər. Obyektiv amillərə xammal, yarımfabrikatlar, istehsal texnologiyaları və s. aid olsa da subyektiv amillər insan fəaliyyəti ilə əlaqədar olub onun iş qabiliyyəti və işə münasibəti ilə təyin olunur. Bu amillərə işçilərin təhsili, ustalıq dərəcəsi və s.-ni göstərmək olar. Əgər işçinin iş qabiliyyətləri nə qədər yüksək olsa məhsulun keyfiyyəti də bir o qədər yüksək olar. Keyfiyyətə təsir edən əsas amillərdən biri də standartlaşdırmadır. Məhsulların keyfiyyətinə verilən tələblər, zərərsizlik göstəriciləri standartlarda nizama salınır. Məhsulların keyfiyyəti üçün xammal da əsas amil rolunu oynayır. Xammal dedikdə isə hazır məhsul (fabrikat) və yarımfabrikatları fərqləndirmək lazımdır. Çünki bəzi hazır məhsullar da yarımfabrikat sayıla bilər. Xammal və yarımfabrikatların da keyfiyyəti qüvvədə olan normativ-texniki sənədlərin tələblərinə cavab verməlidir. Xüsusən də kənd təsərrüfatı xammalının keyfiyyətinə isə texnika ilə təchiz olunma, elmin inkişafı, gübrələrdən düzgün istifadə, məhsulun tədarükü və s. kimi təsir edən amillər var. Yüksək məhsuldarlıq üçün isə bitkilərin sortu, heyvanların cinsi nəzərə alınmalıdır. Torpaq iqlim şəraiti də məhsulların sortuna və keyfiyyətinə təsir göstərir. Məhsulların keyfiyyətinə təsir edən digər amillərdən biri də istehsal texnologiyası, maşın və avadanlıqların keyfiyyətidir. Məhsulların keyfiyyətini və məhsuldarlığı yüksəltmək üçün istehsalın avtomatlaşdırılması, müasir texnologiyanın tətbiqi ilə xammallardan səmərəli istifadə olunması, aztullantılı və ya tullantısız texnologiyaya keçmək də əsas amillərdəndir. Bu zaman qablaşdırmada da keyfiyyətli və zərərsiz materiallardan hazırlanmış tara məhsullarına yer verilməlidir.

Xaricə satış üçün və xaricdən ölkəmizə gətirmək üçün konsentrat əlavə edilmiş qidalar iqtisadi cəhətdən daha sərfəlidir. Ona görə də məhsulu uzun müddət saxlamaq üçün qidaların tərkibinə konsentratlar əlavə olunur. Amma elə qida əlavələri var ki, onların qidalara qatılması təhlükəli olsa belə, istehsalçılar tərəfindən istifadə olunur. Onlar ÜST-nin siyahısında insan orqanizmi üçün ciddi təhlükə sayılan qatqılar siyahısındadır. Bu gün bununla bağlı ən təhlükəli vəziyyət kolbasa və meyvə şirələrindədir.Meyvə şirələrinin əksəriyyəti, təəssüflər olsun ki, konsentratlardan hazırlanır. Həmin konsentratlar dad xüsusiyyəti xüsusi kimyəvi maddələrin köməyi ilə meyvələrin dad xüsusiyyətlərinə çatdırılır. Üstündə halal yazılan kolbasalara da bu cür təhlükəli konsentrat əlavə olunur. Natrium-nitrit $NaNO_2$ (E250) kolbasanın saxlama müddətini artırmaq, qızardıcı rəng vermək (üçün) məqsədi daşıyır. Natrium-nitrit bir çox hallarda onkoloji xəstəliklərə yol açır.

İngiltərədə qidalardakı standartlara nəzarət edən təşkilat yemək və içkilərdəki qida əlavələri ilə uşaqlarda hiperaktiv bir əlaqənin olduğunu üzə çıxarıb. Uyğunluğun bəyannamə formasında təqdim edilən məcburi sertifikatlaşdırmaya aid olan qida məhsullarına dair uyğunluğun təsdiqi barədə məlumat, uyğunluğun bəyannamə sisteminə aid tətbiq edilən uyğunluq nişanı ilə damğalanır. Qablaşdırılmamış qida məhsullarının uyğunluğunun təsdiqi haqqında məlumat müşayiətedici sənədlərdə verilir və ya ticarət salonuna vurulur [2, səh. 45].

ƏDƏBİYYAT

1. Məmmədov N. R. Standartlaşdırmanın əsasları. Bakı, «Çaşıoğlu», 2002.
2. Musayev N. X. Ərzaq malları əmtəəşünaslığının nəzəri əsasları. Bakı, «Çaşıoğlu», 2005.
3. Баячурская Л.Д., Гуляев В.Н. Пищевые концентраты. - М.: Пищевая промышленность, 1976. - 235 с.

Сара Рамиз кызы Рустамзаде
магистр Азербайджанский Университет Кооперации

Оценка стандартизации и соответствия пищевых концентратов

Резюме

Концентратами называются готовые пищевые продукт, приготовленные в сухом и прессованном виде. В системе нормативных документов, обеспечивающих повышение качества пищевых концентратов, стандарты занимают один из важных мест. В стандартах указываются основные показатели качества и характеристика параметром этих показателей. Кроме этого, продуктам, для которых подтверждены соответствие требованиям технически нормативно-правовых аутов, ставится знак национального соответствия. А добровольная сертификация пищевых продуктов, отмечается знаком соответствия, применяемым в системе сертификации. Иногда пищевые продукты, соответствующие стандартам, могут быть опасными для здоровья.

Ключевые слова: пища, концентрат, стандартизация, знак соответствия.

Sara Ramiz Rustamzada
holder of master's degree
Azerbaijan Cooperation University

Appreciation of standardization and adaptation of food concentrates

Summary

Concentrate is called a prepared food product made in dry and pressed order. Standards in the system of normative documents providing to advance the quality of food concentrates take one of the important places. Main indicators of quality and characteristics of measurements of these indicators are issued in standards. Moreover, the national compatibility mark is stamped / branded on the products which its compatibility to the requirements of technical normative legal acts was certified.

Voluntary certification of food products are branded/marked with a compatibility mark applied in the system of standardization. Sometimes foods due to the standards may cause a danger for healthy.

Key words: food, concentrate, standardization, compatibility mark.

Aygün Hüseyn qızı ŞƏFİYEVA
Azərbaycan Kooperasiya Universitetinin magistri

ƏT VƏ ƏT MƏHSULLARI VƏ KOLBASA MƏMULATLARI

Xülasə

Müasir dövrdə qida məhsullarına olan tələbat dünyada böyük əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası da başqa ölkələrdən fərqli olaraq iqtisadi islahatlarla bağlı beynəlxalq konvensiyalarda ərzaq təhlükəsizliyi ilə bağlı iştirak edir. Ərzaq məhsulu olaraq ət və ət məhsulları, kolbasa məmulatları zəruri qida məhsulu hesab edilir.

Açar sözlər: ət, əla sort kolbasalar - Neva, Xüsusi, Turest, Servelat, Polşa və s., natrium-nitrit, yeyinti boyaları.

***

Ət və ət məhsulları yüksək bioloji dəyərli qida məhsulu kimi insanların qidalanmasında mühüm əhəmiyyətə malikdir. Ətin tərkibində orqanizmin normal böyüməsi və inkişafı və eləcə də normal həyat fəaliyyəti üçün lazım olan zülal, yağ, vitamin və mineral maddələr vardır. F.Engels "Təbiətin dialektikası" əsərində göstərir ki, orqanizmdə maddələr mübadiləsi üçün ən

zəruri olan elementlər ət xörəklərinin tərkibində hazır şəkildə olur. Ətin tərkib hissələri insan orqanizminin tərkib hissələrinə daha yaxındır və ona görə də daha tez və asan mənimsənilərək hücüyrələrdə plastik və enerji mənbəyi kimi istifadə olunur. Tam bioloji dəyərliliyə malik olan ət zülalının tərkibində, insan orqanizminin toxumalarında zülalların sintezini maksimal təmin edən balanslaşdırılmış miqdarda bütün əvəzedilməz amin turşuları (leysin, izoleysin, lizin, valin, metionin, treonin, triptofan, fenilalanin) vardır. Ətin təkibindəki yağlar onun enerji dəyərini yüksəltməklə bərabər onun dad və ətrinin əmələ gəlməsində iştirak edir və tərkibində lazımi qədər doymamış yağ turşuları vardır. Əzələ toxuması ətin dadını əmələ gətirən ekstraktlı maddələrlə zəngindir və mədəaltı vəzilərin şirə ifrazının artmasına müsbət təsir edir. Ətin və subməhsulların tərkibində bir çox vitaminlər vardır. Tərkibində yağın və zülalın miqdarı bərabər olan ət ən yüksək dada malik olmaqla, həm də yaxşı mənimsənilir. Mal ətində 1:1, donuz ətində isə 1:2,5 nisbəti kimidir. Ətin tərkibində orta hesabla 17% zülal, 20% yağ, 62% su, 1% mineral maddə olduqda ət yüksək keyfiyyətli sayılır. [1. səh. 373]

Məlumdur ki, müasir dövrdə qida məhsullarına olan tələbat dünyada böyük əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası da başqa ölkələrdən fərqli olaraq iqtisadi islahatlarla bağlı beynəlxalq konvensiyalarda ərzaq təhlükəsizliyi ilə bağlı iştirak edir. Odur ki,qida təhlükəsizliyini təmin etmək üçün müasir dövrdə müxtəlif çeşidli tarixi metodologiyaya əsaslanaraq qida növləri mövcuddur. Başqa qidalardan fərqli olaraq kolbasa və kolbasa məmulatları mühüm yer tutaraq "Əlavə qida məhsulu" kimi geniş yer verilir. Kolbasa məmulatı müxtəlifdir və milli mentalitetə uyğun olaraq çox və az işlənən kolbasa növləri mövcuddur. Azərbaycan Respublikasında qoyun, mal ətlərindən müxtəlif növ kolbasa "Batonları" istifadə edilir. Məlumdur ki, istehsal müasir dövrün tələblərinə uyğun olaraq yeni avadanlıqlarla sadə və asan formada əlavə qatqılar qatılmaqla müxtəlif sortlu (əla, I s., II s.) kolbasalar dövlət təminatı, dövlət nəzarəti altında tam standarta cavab verən, tarixi metodologiyaya əsaslanaraq bişmiş kolbasalar, qiymələnmiş kolbasalar, paltova kolbasaları, hislənmiş kolbasalar, pəhriz kolbasaları və s. mövcuddur. Ticarətdə istehlakçı üçün bir qrup kolbasalar istehsal edilir ki, belə kolbasalara bərk kolbasalar deyilir.

Əla sort kolbasalara-Neva, Xüsusi, Turest, Servelat, Paytaxt, Moskva, Polşa və s. aiddir. II sorta- Həvəskar, Ukrayna və s. kolbasaları aiddir.

Məlumdur ki, adlı kolbasaların tarixi və istehsal kəşfi olmuşdur. Qədimdən bəri bütün dünya ölkələrində fövqəladə hal-müharibə şaraitində, hərbidə aparılması və gətirilməsi, qida kimi qəbulu asan olan qida növü kimi mühüm yer tutur. Hətta qədimdə insanlar bişmiş, qovrulmuş ət növlərini zirzəmi və soyuducuda qış ərzaq tədarükü kimi saxlayırdılar. Son dövrlərdə isə elmi-texniki tərəqqinin inkişafı, əhalinin miqrasiyası, turizm, gediş-gəliş yol azuqəsi kimi ən çox konserv və kolbasa məmulatlarına üstünlük verilməsini labüd edir.

Kolbasa istehsalında mal, donuz, qoyun və digər heyvanların ətindən, donuz piyindən, ət məhsullarından, yumurta və süd məhsullarından, fibrinlərdən təmizlənmiş qandan, xörək duzu, ədviyyat, sarımaq və başqa yardımçı xammallardan istifadə etməklə ət qiyməsi hazırlanır. Hazırlanmış ət qiyməsi təbii bağırsaqlara, süni örtücü pərdələrə, yaxud qəliblərə doldurulub termiki emaldan və ya fermentasiya əməliyyatından keçirməklə istifadə üçün hazır vəziyyətə gətirilir. Kolbasa məmulatının ətdən üstün sayılmasının əsas səbəbi kolbasa istehsalında ətin yeyilməyən və qidalılıq dəyəri aşağı olan tərkib hissələrindən təmizlənməsidir. Kolbasa qiyməsinə ədviyyat və müxtəlif tamlı qatmalar vurulur ki, bunlar da kolbasa məmulatına xoşagələn tam, iy və rəng verir, bu da öz növbəsində həmin məmulatın həzmini və mənimsənilməsini yaxşılaşdırır.

Kolbasa məmulatının qiyməsinin plastikliyini artırmaq üçün qiymənin tərkibinə müəyyən miqdarda donuz piyi, quyruq yağı və duzsuz inək yağı əlavə edilir. Bu zaman kolbasa məmulatının qidalılıq dəyəri və kaloriliyi yüksəlir. Yüksək sortlu kolbasaların istehsalında mal ətinin səthindəki piylər atılır və yerinə donuz piyi əlavə edilir.

Kolbasa məmulatının istehsalında əlavə xammal kimi ədviyyat və qatqılardan mixək, dəfnə yarpağı, muskat cövüzü, qara, ağ və ətirli istiot, qırmızı istiot, darçın, cəfəri və s. istifadə edilir. Kolbasaların xoş çəhrayı-kərpici rənginin əmələ gəlməsi üçün ona natrium-nitrit və yeyinti boyaları əlavə edilir. [2. səh. 399]

Kolbasa məmulatının istehsalının əsas texnoloji əməliyyatları aşağıdakılardır:

- xammalın qəbulu və cəmdəklərin doğranması;
- ətin sümükdən və qidalılıq dəyəri aşağı olan hissələrdən ayrılması;
- donuz piyinin tikəciklərə doğranması;
- yumşaq ətdən kolbasa qiyməsinin hazırlanması;
- ətin və ya qiymənin duzlanması və yetişmək üçün saxlanılması;
- qiymənin başqa əlavələrlə qarışdırılıb hazırlanması;
- hazırlanmış qiymənin örtücü pərdələrə və ya qəliblərə doldurulması;
- kolbasa batonlarının çökdürülməsi;
- məmulatın termiki emaldan keçirilməsi.

Kolbasa məmulatı xammalından, keyfiyyətindən, istehsal texnologiyasından, həmçinin kolbasa batonlarının spesifik zahiri və kəsik hissədəki görünüşündən asılı olaraq aşağıdakı qruplara bölünür:

- bişmiş kolbasalar;
- qiymələnmiş kolbasalar;
- ət çörəkləri;
- sosiska və sardelkalar;
- pəhriz kolbasaları;
- yarımhislənmiş kolbasalar;
- hislənmiş kolbasalar;
- içalat kolbasalar;
- paştetlər;
- zelslər və soyutmalar;
- qan kolbasaları;
- quş ətindən hazırlanan kolbasalar.

Respublikada qida ət məhsulu ilə yanaşı kolbasalardan fərqli olaraq ət konservlərdə istehsal edilir. Məsələn, Qafqaz konserv zavodunda 3 çeşiddə "Blendo", "Super Sun" və "Final" mal əti konservası hazırlanır. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin xüsusi sifarişi ilə zavodda pörtlədilmiş mal əti konservası istehsal edilir və orduda xidmət edən əsgərlərin qidalanmasında yüksək keyfiyyətli və qidalı ət məhsulu kimi istifadə olunur. [3. səh. 400]

Məhsulun hazırlanması və sterlizə edilməsi prosesi Almaniyadan və Türkiyədən gətirilən texnika və texnologiyanın müasir tələblərinə cavab verən avadanlıqlarda həyata keçirilir.

ƏDƏBİYYAT

1. Əhmədov Ə.M., Həsənova G.Ə. Ət və ət məhsullarının texnologiyası. "Maarif" nəşriyyatı. Bakı, 1996.
2. Əliyev M.M. Ət, ətin əlavə məhsullarının ekspertizası. Dərs vəsaiti. AKTA nəşriyyatı. Gəncə, 2005.
3. Musayev N.X. Ərzaq mallarının ekspertizası, Heyvanat mənşəli məhsulların ekspertizası. II hissə. Dərslik, "Çaşıoğlu" nəşriyyatı. Bakı, 2005.

Айгюн Хусейн кызы Шефиева
магистр Азербжанского Университета Кооперации

Мясо и мясопродукты и колбасы

Резюме

В современном мире спрос на продовольствие имеет большое значение. Азербайджанская Республика в отличие от других стран участвует в международных конвенциях по продовольственной безопасностью для экономических реформ. Мясо и мясные продукты и колбасные изделия в качестве пищевых продуктов считается необходимыми пищевыми продуктами.

Ключевые слова: мясо, отличного сорта колбаса - Нева, Хусуси, Турест, Сервелат, Полша и.т.д., нитрит натрия, пищевые красители.

Aygun Huseyn Shafiyeva
master of Azerbaijan Cooperation University

Meat and meat products and sausage products.

Summary

The demand for foodstufs in the modern world is of great importance in the world. The Republic of Azerbaijan in contrast to other countries is involved in food security in international conventions related to economic reforms.

Meat and meat products as food are the essential foodstuffs of sausage products.

Key words: meat, excellent sort of sausages Neva, Xususi, Turest, Servatel, Polsha and e.t.c. sodium nitrite, food dyes.

a.e.e.d. Vüqar Süleyman oğlu SƏLİMOV,
t.f.d. Mövlud Ərəstun oğlu HÜSEYNOV,
a.e.f.d. Hikmət Nəsir oğlu NƏSİBOV,
a.e.f.d. Azər Salman oğlu ŞÜKÜROV
Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu

BƏZİ ÜZÜM POPULYASİYALARININ KLON DƏYİŞKƏNLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ QİYMƏTLİ GENOTİPLƏRİN SEÇİLMƏSİ

Xülasə

Məqalədə bəzi yerli və introduksiya olunmuş qiymətli üzüm sortlarının (Əsgəri, Qırmızı kişmiş, Zeynəbi, Hüseyni, Sarıgilə, Bayanşirə, Xindoqnı, Kardinal, Üzümlüklərin kraliçası, Abşeron xatınısı) populyasiyasından klon seleksiyası yolu ilə seçilmiş yüksəkməhsuldar, keyfiyyətli 57 klon formasının məhsuldarlıq göstəricilərindən bəhs edilir. Yeni seçilmiş klonların salxımların sayına, kütləsinə, ölçüsünə, tənəyin və hektara düşən məhsuldarlığa görə nəzarət sortların adi tənəklərindən nəzərəçarpacaq dərəcədə üstün olduqları aydınlaşdırılmışdır. Belə ki, tənəyin məhsuldarlığı yeni klonlarda 5,6-8,3 kq arasında dəyişdiyi halda, həmin sortların adi tənəklərində isə bu göstərici 2,4-5,2 kq təşkil edir və valideynləri ilə müqayisədə 10,7-50,3% artım müşahidə edilmişdir..

Açar sözlər: üzüm sortu, klon, zoğ, keyfiyyət, əkin materialı, salxım, gilə, ampeloqrafik kolleksiya, ampeloqrafik xüsusiyyət, biomorfoloji xüsusiyyət, fenologiya.

Giriş

Üzüm bitkisinin mədəni halda yetişdirilən nümayəndələri yüksək mutabilliyə malik genotiplə səciyyələnirlər. Ona görə də *V.vinifera* L. növünə mənsub olan qədim üzüm sortlarının vegetativ çoxaldılması zamanı nəsildə (vegetativ nəsildə) spontan mutasiyalar nəticəsində yeni əlamət və xüsusiyyətlər meydana çıxır. Qədimdən becərilən qiymətli üzüm sortlarının hər birinin bir və ya bir neçə mutant formaları vardır ki, onlardan da ən yaxşıları, təsərrüfat əhəmiyyətliləri dünyanın müxtəlif üzümçülük ölkələrində geniş əkilib-becərilir. Hal-hazırda dünya üzümçülüyündə əksəriyyətinin məhsuldarlığı başlanğıc sortdan 1,5-2 dəfə yüksək olan 3 mindən çox mutant klon qeydə alınmış və təsvir olunmuşdur [1-4, 6, 7].

Respublikamız dünyada üzümçülüyün ən qədim mərkəzlərindən biri olmaqla, zəngin aborigen və introduksiya olunmuş üzüm sortları genefonduna malikdir. Müşahidələr göstərir ki, Azərbaycanda da yayılmış üzümün əksəp populyasiyalarında bir çox biomorfoloji və keyfiyyət göstəricilərində modifikasiya və mutasiya dəyişkənliyi baş verir ki, bunun nəticəsində də sort-populyasiyaların daxilində bir-birindən fərqlənən müsbət və mənfi xarakterli genotiplər meydana çıxır. Odur ki, bu üzüm sortlarının əksəriyyəti mənfi və müsbət göstəriciləri ilə səciyyələnən variasiyaların qarışığı şəklində əkilir və becərilir. Bu isə sahələrin məhsuldarlığının və keyfiyyətinin aşağı düşməsinə səbəb olur. Buna görə, aprobasiya, kütləvi, fərdi klon seleksiyası va-

sitəsilə qiymətli sortların mənfi xassəli variasiyaların qarışığından təmizlənməsi və müsbət təsərrüfat göstəriciləri ilə seçilən forma və variasiyaları müəyyənləşdirməklə məhsulun kəmiyyət və keyfiyyətinin yüksəldilməsi, sortun yaxşılaşdırılması işləri üzümçülükdə vacib tədqiqat işlərindən olub, aktuallığı ilə səciyyələnir.

Material və metodlar: Tədqiqat işinin materialını Abşeron şəraitində ampeloqrafik kolleksiya bağında əkilib-becərilən Əsgəri, Qırmızı kişmiş, Zeynəbi, Hüseyni, Sarıgilə, Bayanşirə, Xindoqnı, Kardinal, Üzümlüklərin kraliçası, Abşeron xatınısı sortlarının populyasiyasından seçilmiş ilkin protoklonlar təşkil etmişdir. Hazırda üzümdə feno- və genotipik dəyişkənliklər, o cümlədən qiymətli klon formalarının seçilməsi 1971-ci ildə klon seleksiyasına dair keçirilən Beynəlxalq simpoziumda (keçmiş AFD-də) təsdiq edilmiş ümumi (Schöffling, 1984) və təkmilləşdirilmiş [1-4, 6, 7] metodika əsasında həyata keçirilir. Alınmış təcrübi materialların riyazi-statistik hesablanması və təcrübələrin dəqiqliyi qeyri-parametrik (x^2-meyarı, Uilkokson-Manna-Uitni meyarı) və parametrik (Styudentin t-meyarı) üsullarla yoxlanılmışdır [5].

Tədqiqatın nəticələri və onların təhlili. Bunları əsas tutaraq tədqiqat illərində (2012-2016-cı illər) öyrənilən hər bir sortun (*yerli Əsgəri, Hüseyni, Zeynəbi, Qırmızı kişmiş, Sarıgilə, Bayanşirə, Xindoqnı və introduksiya olunmuş Kardinal, Üzümlüklərin kraliçası*) populyasiyasındakı tənəklərin məhsuldarlıq göstəriciləri (barlı zoğların miqdarı, salxımların miqdarı, zoğun bar əmsalı, salxımların orta kütləsi, kolun məhsuldarlığı, hektardan məhsuldarlıq) hər il ayrı-ayrılıqda hər bir genotip üzrə öyrənilmiş və bu əlamətlər üzrə dəyişkənlik dərəcəsi araşdırılmışdır. Məlum olmuşdur ki, həm illər üzrə, həm də ayrı-ayrı sortlarda, o cümlədən sortdaxili bitkilərdə məhsuldarlıq göstəricilərinə görə nəzərəçarpacaq dərəcədə bir-birindən seçilirlər.

Aydın olmuşdur ki, kolun məhsuldarlığı yüksəkməhsuldar protoklonlar üzrə Əsgəridə 5,9-6,9 kq ($\overline{X}$=6,3±0,41 kq), Qırmızı kişmişdə 4,6-6,2 kq ($\overline{X}$=5,6±0,44 kq), Zeynəbidə 5,0-8,2 kq ($\overline{X}$=6,7±0,51 kq), Hüseynidə 5,3-9,6 kq ($\overline{X}$=6,7±0,44 kq), Sarıgilədə 5,3-9,5 kq ($\overline{X}$=6,5±0,42 kq), Bayanşirədə 5,6-10 kq ($\overline{X}$=8,3±0,50 kq), Xindoqnıda 4,4-6,8 kq ($\overline{X}$=6,0±0,30 kq), Kardinalda 5,2-7,2 kq ($\overline{X}$=6,2±0,34 kq), Üzümlüklərin kraliçasında 4,7-7,8 kq ($\overline{X}$=6,3±0,39 kq), Abşeron xatınısında 5,2-7,0 kq ($\overline{X}$=5,6±0,50 kq) arasında dəyişir. Müəyyən edilmişdir ki, populyasiya üzrə ümumi orta göstəricinin yüksək məhsuldar tənəkləri ilə müqayisədə artım ($\overline{X}$ %) 10,7-50,3% arasında təşkil edir.

Qiymətli qədim sortların populyasiyasındakı bitkilərin təsərrüfat və seleksiya əhəmiyyətli əlamətləri üzrə potensial imkanlarını reallaşdıran, məhsuldarlığa və keyfiyyətə birbaşa təsir edən, klon dəyişkənliyinin və biotiplərin formalaşmasına səbəb olan əsas əlamət və göstəricilər morfometrik və riyazi-statistik üsullarla müəyyənləşdirilmiş, bunların əsasında ilk dəfə olaraq 10 populyasiyadan yüksəkməhsuldar, yüksəkkeyfiyyətli, xəstəlik və zərərvericilərə nisbətən davamlı 57 protoklon və klon seçilmişdir. Riyazi-statistik təhlillər zamanı müəyyən edilmişdir ki, öyrənilən sortların ayrı-ayrı tənəklərində salxımın sayı, salxımın kütləsi, tənəyin məhsuldarlığı üzrə populyasiyadaxili dəyişkənlik, variasiya əmsalı xeyli fərqlidir. Belə ki, üzüm sortlarının irsi xüsusiyyətlərindən asılı olaraq hər bir sortun populyasiyasında məhsuldarlığa görə dəyişkənlik (polimorfizm) xeyli yüksək olmaqla, variasiya əmsalının (*V,%)* qiyməti tənəklərdəki salxımın miqdarına görə 12,6-20,5%, salxımın kütləsi göstəricisinə görə 23,7-65,7%, tənəyin məhsuldarlıq göstəricisi üzrə isə 9,2-59,7% arasında tərəddüd etmişdir. Ümumiyyətlə, yüksəkməhsuldar (*kolun məhsuldarlığı 5 kq, yaxud hektardan məhsuldarlıq 120 s/ha-dan yuxarı*) genotiplərin miqdarı Əsgəri və Qırmızı kişmiş sortlarında 3, Xindoqnıda 5, Zeynəbidə 6, Hüseyni, Sarıgilə, Abşeron xatınısı sortunun hər birində 7, Üzümlüklərin kraliçası sortunda 12, Bayanşirə sortunda isə ən çox 15 forma təşkil edir.

Tədqiqat zamanı üzüm sortlarının, həmçinin seçilmiş yeni yüksəkməhsuldar klon formaların təsərrüfat-iqtisadi göstəriciləri (bir sentner məhsulun maya dəyəri, bi hektardan gələn ümumi gəlir, bir sentner və bir hektar üzümlükdən gələn xalis gəlir, rentabellik və s.) müəyyən edilmiş və nəzarət tənəklərlə müqayisəli təhlil edilmişdir. Seçilmiş klon formaların məhsuldarlığının nəzarət sortlara nisbətən yüksək olması onların iqtisadi göstəricilərinə də müsbət təsir göstərmişdir (cədvəl).

Belə ki, nəzarət sortlara məhsulun maya dəyəri 16,2-30,0 AZN, bir hektardan ümumi gəlir 5328-9996 AZN, bir sentner üzümdən gələn xalis gəlir 30,0-43,8 AZN, bir hektardan gələn xalis gəlir 2628-7296 AZN, rentabellik 100-270% arasında dəyişdiyi halda, bu göstəricilər seçilən yüksəkməhsuldar klon formalarda müvafiq olaraq məhsulun maya dəyəri 14,6-21,7 AZN, bir hektardan ümumi gəlir 7464-11064 AZN, bir sentner üzümdən gələn xalis gəlir 38,3-45,4 AZN, bir hektardan gələn xalis gəlir 4764-8664 AZN, rentabellik isə 176,5-311,0% arasında dəyişməklə, nəzarət sortlarla müqayisədə əhəmiyyətli dərəcədə yüksəkdir.

Cədvəl

Üzüm sort və klon formalarının iqtisadi səmərəlilik göstəriciləri

Sortlar	Məhsuldarlıq, s/ha	Bir sentner məhsulun maya dəyəri, man.	Bir ha-dan gələn ümumi gəlir, manat	Xalis gəlir (mənfəət), manat		Rentabellik, %
				bir sentner üzümdən	bir hektar üzümlükdən	
Əsgəri (nəz.)	88,8	30,0	5328	30,0	2628	100,0
3 protoklondan orta hesabla	140,0	19,3	8400	40,7	5700	210,8
Qırmızı kişmiş (nəz.)	100,0	27,0	6000	33,0	3300	122,2
3 protoklondan orta hesabla	124,4	21,7	7464	38,3	4764	176,5
Zeynəbi (nəz.)	111,0	24,3	6660	35,7	3960	147,0
6 protoklondan orta hesabla	148,6	18,2	8916	41,8	6216	229,6
Hüseyni (nəz.)	117,8	23,0	7068	37,0	4368	161,0
7 protoklondan orta hesabla	148,8	18,0	8880	42,0	6180	233,3
Sarıgilə(nəz.)	111,0	24,3	6660	35,7	3960	147,0
7 protoklondan orta hesabla	144,4	18,7	8664	41,3	5964	220,8
Bayanşirə (nəz.)	166,6	16,2	9996	43,8	7296	270,4
15 protoklondan orta hesabla	184,4	14,6	11064	45,4	8664	311,0
Xindoqnı (nəz.)	102,2	23,5	6132	36,5	3432	155,3
5 protoklondan orta hesabla	133,3	20,3	7998	39,7	5298	195,6
Kardinal (nəz.)	93,3	29,0	5598	31,0	2898	107,0
2 protoklondan orta hesabla	137,8	19,6	8268	40,4	5568	206,1
Üzümlüklərin kraliçası (nəz.)	120,0	22,5	7200	37,5	4500	166,7
12 protoklondan orta hesabla	140,0	19,3	8400	40,7	5700	211,0
Abşeron xatınısı (nəz.)	97,8	27,6	5868	32,4	3168	117,4
7 protoklondan orta hesabla	124,4	21,7	7464	38,3	4764	176,5

Qeyd: Hektara çəkilən xərc orta hesabla 2700 AZN-dir.

Aparılan klon seleksiyası (fərdi seleksiya) tədqiqatlarından məlum olmuşdur ki, seçilmiş və tədqiq olunan klonlarda əksər kəmiyyət və keyfiyyət göstəriciləri adi sortlardan üstünlük təşkil edirlər. Qeyd olunan klonların yeni yaradılacaq üzümçülük təsərrüfatlarında geniş becərilməsi məhsuldarlığı və məhsulun keyfiyyətini xeyli yaxşılaşdıracaqdır.

ƏDƏBİYYAT

1. Qurbanov M.R., Səlimov V.S. Abşeron şəraitində Çəhrayı kişmiş və Ağ kişmiş üzüm sortlarının populyasiyalarından klon seleksiyası üsulu ilə qiymətli genotiplərin seçilməsi. Məruzələr (AMEA), 2011, №5, s. 86-94
2. Səlimov V.S. Klon seleksiyası yolu ilə bəzi süfrə üzüm sortlarının yaxşılaşdırılması. Botanika İnstitutunun elmi əsərləri, 2008, XXVIII cild, s. 268-271
3. Səlimov V.S. Üzümçülükdə klon seleksiyası. Azərbaycan Aqrar Elmi, 2008, №2, s. 35-38
4. Səlimov V.S., Nəcəfova A.B. Bəzi süfrə üzüm sortlarının populyasiyalarından klon seleksiyası üsulu ilə qiymətli genotiplərin seçilməsi və öyrənilməsi. Azərbaycan Aqrar Elmi, 2010, № 6, s. 58-60
5. Гублер Е.В., Генкин А.А. Применение непараметрических критериев статистики в медико-биологических исследованиях. Ленинград: Медицина. 1973, 141 с.
6. Трошин Л.П. Методология клоновой селекции винограда / Формы и методы повышения экономической эффективности регионального садоводства и виноградарства. Организация исследований и их координация. Виноградарство. Краснодар, 2001, Часть 2, с. 92-94.
7. Трошин Л.П., Звягин А.С. Технология отбора лучших протоклонов винограда // Технологии производства элитного посадочного материала и виноградной продукции, отбора лучших протоклонов. Краснодар: АлВи-Дизайн, 2005, с. 75-95

д.с.н. Вугар Сулейманов оглы Салимов,
д.ф.т. Мовлуд Арастун оглы Гусейнов,
д.с.н. Хикмет Насир оглы Насибов,
д.с.н. Азер Салман оглы Шукюров
Научно-Исследовательский Институт
Виноградарства и Виноделия

Оценка свойств клоновой изменчивости некоторых популяций винограда и отбор ценных генотипов

Резюме

В статье рассказывается о показателях урожайности 57 высокоурожайной, качественной клоновой формы, отобранной путем клоновой селекции из популяции сортов Аскери, Кырмызы кишмиш, Зейнаби, Хусейни, Сарыгиля, Баяншира, Хиндогны, Кардинал, Королева виноградников, Абшерон хатынысы.

При оценке новых клоновых форм было установлено, что по количеству, массе, размеру гроздей, урожаю с куста и с гектара они в значительной степени превосходят обычные кусты контрольных сортов. Так, если у выведенных клонов урожайность куста варьировала в пределах 5,6-8,3 кг, то этот показатель у обычных кустов этих же сортов винограда составил 2,4-5,2 кг. Таким образом, у клоновых растений, по сравнению с их родительскими формами, наблюдалось увеличение урожайности на 10,7-50,3%.

Ключевые слова: сорт винограда, клон, побег, качество, посадочный материал, гроздь, ягода, ампелографическая коллекция, ампелографическая особенность, биоморфологическая особенность, феногогия.

PhD in agr. Vugar Salim Salimov,
PhD in tex. Movlud Arastun Huseynov,
PhD in agr. Hikmet Nasir Nasibov,
PhD in agr. Azer Salman Shukurov
The Research Institute of Viticulture and Wine making

Evaluation Of The Properties Of Clonal Variability Of The Different Of Populations Grapevine And Selection Of Valuable Genotype

Summary

The article tells about productivity features of the 57 high productive and qualitative clone forms chosen by the means of clone selection from the population of Esgeri, Gyrmyzy kishmish,

Zeynabi, Huseiyni, Sarygyla, Bayanshira, Khyndogny, Kardinal, Uzumluklarin kralichasy, Absheron khatynysy.

In the assessment of new clonal forms were found that they significantly differ from normal bushes of the control varieties in quantity, weight, size of bunches, yield per bush and per hectare. So, if yield of bush of the derived clones ranged between 5.6 and 8.3 per kg, the ratio of ordinary bushes of the same grape varieties was 2.4-5.2 kg. Clonal plants showed higher yield compared to their parent forms. So, an increase in yield made of 10.7 to 50.3 %.

Key words: grape varieties, clone, escape, quality, planting materials, bunch, berry, ampelographic collection ampelographic specification, biomorphological specification, phenology.

Xoşqədəm Bayram qızı İSMAYILOVA
Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu
Texnologiya şöbəsinin müdiri, böyük elmi işçi, dissertant

YERLİ İNTRODUKSİYA OLUNMUŞ PAMBIQ SORTLARININ MÜXTƏLİF TORPAQ İQLİM ŞƏRAİTİNDƏ ÖYRƏNİLMƏSİ

Xülasə

Kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının yüksəldilməsi və məhsulun keyfiyyətinin yaxşılaşdırılması istiqamətində tədbirlər sistemində sortların bölgələr üzrə düzgün seçilməsi və onun təsiri olaraq təsərrüfatlara tətbiq edilməsinin böyük əhəmiyyəti vardır. Aparılan tədqiqat nəticəsində Mil bölgəsində Gəncə-114, Şirvan bölgəsində Gəncə-103, respublikanın qərb bölgəsində Gəncə-160 pambıq sortlarının əkilməsinin daha əlverişli olması müəyyənləşdirildi.

Açar sözlər: qoza, xam-pambıq, lif çıxımı, sort, vegetasiya müddəti, adaptasiya.

***

Pambıqçılıq respublikamızın kənd təsərrüfatının aparıcı sahələrindən biri kimi inkişaf etmiş, möhkənlənmişdir. Dünya bazarında strateji məhsul kimi qiymətləndirilən pambıq lifi toxuculuq sənayesində müxtəlif assortimentli parça məmulatlarının hazırlanmasında istifadə edilir. Pambıq lifi yüksək texnoloji xüsusiyyətlərə malikdir. Ölkəmizdə də toxuculuq sənayesinin inkişaf etdirilməsi, xüsusilə müxtəlif təyinatlı iplik materiallar hazırlamaq üçün yüksək lif keyfiyyətinə malik pambıq sortlarının yaradılması ilə yanaşı pambıqçılıq bölgələrində adaptasiya etmiş pambıq sortlarının seçilməsinin aktuallığı yaranır [1, səh.101-102; 2, səh.156].

Kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının yüksəldilməsi və məhsulun keyfiyyətinin yaxşılaşdırılması istiqamətində tədbirlər sistemində sortların bölgələr üzrə düzgün seçilməsi və onun təsiri olaraq təsərrüfatlara tətbiq edilməsinin çox böyük rolu vardır. Lakin, hər hansı bir sort bir müddətdən sonra çırlaşır. Ona görə də sıradan çıxmış sortu daim yeni, daha yüksək təsərrüfat qiymətli əlamətlərə malik olan sortlarla əvəz etmək lazımdır [3, səh.39-40; 4, səh.200].

Bütün sortlar müəyyən ekoloji şəraitdə yaradılır. İstehsalatda bu sortlar yarandığı şəraitə uyğun olduqda öz xüsusiyyətlərini meydana çıxarır, yeni sortlar yüksək adaptasiya qabiliyyətinə malik olmalıdırlar. Ona görə də sortlar yüksək məhsuldarlıq potensialına malik olmaqla bərabər, müxtəlif torpaq-iqlim şəraitinə də tez uyğunlaşa bilməlidirlər. Bu səbəbdən də geniş plastikliyə malik olan sortların yaradılması daha böyük əhəmiyyət kəsb edir. Yalnız belə sortlar müxtəlif torpaq-iqlim şəraitinə malik olan bölgələrdə yayıla və yüksək məhsul alınmasını təmin edə bilər. Sortların ekoloji plastikliyi və ya müxtəlif torpaq-iqlim şəraitinə uyğunlaşma qabiliyyəti irsi xarakter daşıyır. Ona görə də seleksiyaçı bunu nəzərə alaraq və hibridləşmə üçün müvafiq valideyn cütləri, məqsədyönlü fərdi seçmə aparmaq yolu ilə bu əlaməti bitkilərdə möhkəmləndirməlidir [5, səh.78-79].

Tədqiqatın aparılmasında əsas məqsəd respublikamızda rayonlaşmış aborigen və xarici pambıq sortlarının təsərrüfat qiymətli əlamətlərini,respublikanın pambıqçılıq bölgələrinə daha çox adaptasiya etmiş pambıq sortlarını müəyyənləşdirməkdir.

Tədqiqat üç bölgədə - Gəncə Regional Elm və İnformasiya Məsləhət Mərkəzinin, Beyləqan rayonunda Mil Təcrübə Stansiyasının, Ucar rayonunun Şirvan Təcrübə Stansiyasının təcrübə sahələrində aparılmışdır. Təcrübədə 4 yerli: Gəncə-103, Gəncə-110, Gəncə-114, Gəncə-160 və iki xarici - Assos, Selekt pambıq sortlarından istifadə edilmişdir.

Pambıq sortlarının təsərrüfat qiymətli əlamətləri

Sıra sayı	Sortlar	Gəncə RAEİMM							Mil Təcrübə stansiyası					Şirvan Təcrübə stansiyası					
		Vegetasiya müddəti, gün	***Məhsuldarlıq, s/ha***	***Lifçıxımı, %***	***Lif məhsulu, s/ha***	***Bir qozada olan xam pambığın kütləsi, q***	***Lifin uzunluğu, mm***	***Vegetasiya müddəti, gün***	***Məhsuldarlıq,***	***Lifçıxımı, %***	***Lif məhsulu, s/ha***	***Bir qozada olan xam pambığın kütləsi, q***	***Lifin uzunluğu,***	***Vegetasiya müddəti, gün***	***Məhsuldarlıq,s/ha***	***Lif çıxımı,%***	***Lif məhsulu, s/ha***	***Bir qozada olah pambığın kütləsi, q***	***Lifin uzunluğu, mm***
1	Gəncə-103	125	27,5	37,2	10,2	5,7	34,4	123	42,6	39,0	16,6	6,0	34,5	125	35,3	38,8	13,7	35,2	35,2
2	Gəncə-110	123	30,1	38,0	11,4	6,1	35,0	123	50,9	40,1	20,4	6,1	35,5	128	34,4	39,3	13,5	6,0	34,5
3	Gəncə-114	122	28,9	37,5	10,8	6,0	34,8	120	52,0	40,4	21,0	6,2	35,7	128	30,3	37,0	11,2	5,8	35,0
4	Gəncə-160	120	31,5	39,0	12,3	6,0	35,4	121	51,7	40,0	20,7	6,3	35,0	126	31,6	37,4	11,8	6,0	34,7
5	Selekt	131	26,5	38,0	10,1	5,5	33,7	136	31,0	37,9	12,0	5,9	34,1	137	26,6	39,3	10,4	6,0	33,3
6	Assos	134	24,5	39,0	9,5	5,8	34,0	135	30,5	37,8	11,5	5,8	34,0	135	25,0	40,0	10,0	5,9	33,5

Hər pambıq sortu 2 cərgədə, 4 təkrarda, ləkin uzunluğu 15 m olmaqla, təkrarlar iki yarusda yerləşdirilmişdir. Səpin əl ilə 60x20-1 bitki sxemi üzrə aparılmışdır.

Vegetasiya dövründə cücərmənin, çiçəkləmənin və yetişmənin 50%-i tarla dəftərinə qeyd edilmişdir. Bitkilərin boy və inkişaf tempini aydınlaşdırmaq, simpodial budaqların miqdarını, bar toplama qabiliyyətini müəyyən etmək məqsədilə hər təkrarda 25 tipik bitki götürülmüşdür. Lif çıxımı, lifin uzunluğunu, bir qozada olan xam-pambığın kütləsini müəyyən etmək üçün hər təkrardan II-V bar budaqlarının birinci yerindən 50 qozadan ibarət nümunələr yığılmışdır. Toplanmış nümunələr 1,0 qr-a qədər dəqiqliklə çəkilib, qozaların sayına bölünərək 1 qozada olan xam-pambığın kütləsi müəyyən olunub. Nümunələrdən 25 uçağan götürməklə lifin uzunluğu, 50 uçağan götürməklə indeksləşmə yolu ilə lif çıxımı faizi müəyyən olunub.

Təcrübədə istifadə edilən yerli və xarici pambıq sortlarının toxumlarının tarla cücərməsi təcrübə variantlarında hər üç bölgədə 7-12 gün olduğu qeyd edilmişdir. Bitkilərdə çiçəkləmə fazasında aparılan fenoloji müşahidələrdən məlum olmuşdur ki, pambıq sortlarında çiçəkləmə 54-60 gün olmuşdur. Cədvəldən göründüyü kimi, Gəncə RAEİMM-nin təcrübə sahəsində bitkilərin vegetasiya müddəti 120-134 gün olmuşdur. Pambıq sortları arasında Gəncə-160 pambıq sortu daha tez (120 gün), Assos xarici pambıq sortu isə daha gec (134 gün) yetişmişlər. Həmçinin, yerli pambıq sortları təsərrüfat qiymətli əlamətlərinə görə xarici pambıq sortlarından üstündürlər. Xüsusən, Gəncə-160 pambıq sortu digər sortlardan tezyetişkənliyinə, yüksək məhsuldarlığına, lif çıxımına və keyfiyyətinə görə fərqlənir.

Mil təcrübə stansiyasında pambıq sortlarının müqayisəli öyrənilməsi göstərdi ki, yüksək aqrotexniki şəraitdə becərilən pambıq sortlarından yüksək və keyfiyyətli məhsul almaq olar. Məhsuldarlıq-fövqəladə mürəkkəb kompleks əlamət olmaqla, bir çox genetik və xarici mühit amillərindən, həmçinin bir sıra komponentlərdən-bir kolda olan qozaların sayından, bir qozadan alınan xam-pambığın kütləsindən, simpodial budaqların sayından və s. asılıdır. Yerli pambıq sortlarının məhsuldarlığı 30,5-31,6 sentner olmuşdur. Gəncə-114 pambıq sortu yüksək məhsuldarlığı- 52 sen/ha, lif çıxımı-40,4%,bir qozada olan xam-pambıq-6,2 qr, lifin uzunluğu-35,7 mm olmaqla

digər sortlardan fərqlənir və demək olar ki, Gəncə-114 pambıq sortu bölgənin torpaq-iqlim şəraitinə daha yaxşı uyğunlaşıb.

Cədvəldən göründüyü kimi, Şirvan Təcrübə Stansiyasında yerli pambıq sortlarının vegetasiya müddəti-125-128 gün, daha qısa,xarici Selekt və Assos pambıq sortlarının vegetasiya müddətləri daha uzun-135-137 gün olmuşdur. Yerli pambıq sortları arasında Gəncə-103 sortu tezyetişkənliyi, yüksək məhsuldarlığı (35,3 sen/ha), iri qozalılığı (6,1 q), pambıq lifinin uzunluğu (35,2mm) ilə fərqlənir. Lif çıxımı məhsuldarlığın əsas komponentlərindən biridir. Məhsuldarlığı artırmadan lif çıxımının yüksəlməsi pambığın əsas məhsulu olan lif məhsulunun azalmasına səbəb olur. Lif çıxımı sabit əlamətdir. Apardığımız tədqıqatda Şirvan bölgəsində Gəncə-103 pambıq sortunun lif çıxımı 38,8%, lif məhsulu 13,7 sen/ha, digər pambıq sortlarından daha üstün olmuşdur.

Beləliklə, aparılan tədqiqata əsasən demək olar ki, yerli pambıq sortları ölkəmizin torpaq-iqlim şəraitinə daha yaxşı adaptasiya edir və yüksək məhsul almaq üçün fermerlərə seleksiyaçılarımızın yaratdıqları pambıq sortlarını əkməyi tövsiyə edirik.

ƏDƏBİYYAT

1. Ələsgərov Q.N., Məmmədova Z.B. Pambığın seleksiyasında qiymətli materialın seçilməsi \ Biomüxtəlifliyin genetik ehtiyatları. I Beynəlxalq Elmi Konfransın materialları, 2006, s.101-102
2. Əsədov Ş.İ. Azərbaycanda pambığın seleksiyası. Elm, 2011, 208 s.
3. Həsənov R.Q., Marlamova D.S. Yeni rayonlaşmış Gəncə-103 və Cəncə-110 pambıq sortlarının optimal aqrotexnologiyası // Azərbaycan Aqrar Elmi, 2012, №1, s.39-40.
4. Hümbətov H.S., Xəlilov X.Q. Pambıq lifinin texnologiyası. Nurlan, 2012, 229 s.
5. Tağıyev Ə.Ə. və b. Yüksək lif çıxımlı pambıq sortlarının yaradılması // Azərbaycan Aqrar Elmi, 2011, s.78-79

Хошгадам Байрам гызы Исмаилова
Диссертант, ст. науч. Сотрудник
Научно-Исследовательский Институт
Защиты Растений и Технических Культур

Изучение местных и интродукцированных сортов хлопчатника в разных почвенно-климатических условиях

Резюме

В системе мероприятий, осуществляемых в направлении увеличения продуктивности сельскохозяйственных культур и улучшения качества продукции корректый выбор сортов по зонам и их экстренное внедрение в хозяйствах имеет большое значение.

В результате проведения исследовательской работы установилось, что выращивание сортов в Мильском регионе Гянджа-114, Гянджа-103 в Ширванском регионе и Гянджа-160 в западной зоне является наиболее выгодным.

Ключевые слова: коробочка, хлопок-сырец, выход волокна, сорт, вегетационный период, адаптация.

Khosqadam Bayram Ismayilova
candidate for a degree,
Plant Protection and Technical
Crops Scientific Research Institute

Studying of cotton varietus under different soil-climstic conditions

Summary

Correct choosing of the varietus over the regions and its urgent introduction in farms on direction of arrangement system increasing of productiveness of agricultural crops and improvement quality is of great signifficance. At the result of research work it has been defined that it is profitable to cultivate Ganja-114 in Mil-Gakh region, Ganja-103 in Shirvan region, Ganja-160 in the western regions of our republic.

Key words: ball, row-cotton, fibre output, variety, vegetation period, adaptation.

Səkinə Surxay qızı ZƏRBƏLİYEVA
Azərbaycan Kooperasiya Universitetinin magistri

SURAXANI RAYONU NÜMUNƏSİNDƏ ABŞERON YARIMADASI ƏRAZİLƏRİNDƏ TORPAQLARIN RADİOAKTİV ÇİRKLƏNMƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Məqalə Abşeron yarımadasının Suraxanı rayonu timsalında radioekoloji çirklənmənin qiymətləndirilməsinə həsr olunmuşdur. Bu məqsədə nail olmaq üçün bəzi müəlliflərin və ədəbi materialların ekoloji, eləcə də radioekoloji tədqiqatların nəticələri təhlil edilmişdir. Rayon ərazisində radiasiya fonunun, əsasən, seliteb ərazilər üçün müəyyən edilmiş norma (60 mkR/saat) daxilində olduğu qeyd edilmişdir. Ərazidə məskunlaşan əhali radioekoloji baxımdan nisbətən gərgin və riskli sahələrə yaxınlığına görə şərti olaraq 2 qrupa bölünmüş, ərazidə yaşayan əhali "risk qrupu" kateqoriyasına daxil edilmişdir.

Açar sözlər: radionuklid, radioekoloji tədqiqat, seliteb ərazilər, ekoloji risk.

***

Respublika ərazisində antropogen təsirlərin nəticəsində radiasiya səviyyəsinin nisbətən yüksək olduğu ərazilərdən biri Abşeron yarımadasıdır. Neftçıxarma, neft emalı və neft-kimya sənayesi müəssisələrinin sıx yerləşdiyi yarımadanın bəzi lokal sahələrində təbii radiasiya fonunun qəbul edilmiş normadan yüksək olmasının əsas səbəblərindən biri, Yerin təkindən çıxan radionuklidlərin lay suları vasitəsilə mühitə daxil olmasıdır [1, s. 91-104]. Digər təsirlərdən fərqli olaraq mühitin radiasiya səviyyəsinin normadan yüksək olması bilavasitə hiss olunmasa da, biosferə daha çox ziyan vuran amildir.

Hazırkı işin məqsədi Abşeron yarımadasının mərkəzində yerləşən və neftlə zəngin olan Suraxanı rayon ərazilərinin radioekoloji qiymətləndirilməsidir. Bu məqsədi həyata keçirmək üçün müxtəlif müəlliflər tərəfindən qeyd olunmuş ərazilərdə aparılmış ekoloji, eləcə də radioekoloji tədqiqatların nəticələri və mümkün ədəbiyyat materiallarının müqayisəli təhlili aparılmışdır.

Yaşayış mühitinin ekoloji keyfiyyəti baxımından Abşeron yarımadasının Suraxanı rayonunu antropogen pressinqə məruz qalan ərazi hesab etmək olar. İnfrastruktur elementləri sıx yerləşən və sənayesi sürətlə inkişaf edən bu rayonun Abşeron yarımadasının digər ərazilərində olduğu kimi xeyli ekoloji problemi mövcuddur ki, bunlardan da biri radioekoloji problemdir.

Dövlət Statistika Komitəsinin məlumatlarına görə, ümumi ərazisi 122 km^2 olan Suraxanı rayonunda 6 qəsəbə (Bülbülə, Hövsan, Əmircan, Qaraçuxur, Yeni Suraxanı, Zığ), 58 orta və iri sənaye müəssisəsi, 34 məktəbəqədər uşaq bağçası-körpələr evi, 34 ümumtəhsil məktəbi, 6 xəstəxana, 8 mədəniyyət obyekti vardır [2].

Qəsəbənin cənub və cənub-qərb hissəsində tikilmiş fərdi yaşayış evlərini keçmiş Bakı Yod Zavodunun (BYZ) yerləşdiyi sahədən Hövsan kanalı ayırır. Bu ərazidə yaşayan sakinlər müntəzəm olaraq zavodun tullantıları ilə çirklənmiş mühitin mənfi təsirinə məruz qalırlar.

İstənilən ərazinin radioekoloji qiymətləndirilməsini həyata keçirmək üçün öncə radioekoloji tədqiqatlar aparılmalıdır. Seliteb (şəhər) ərazilərdə radioekoloji tədqiqatlar əhalinin radiasiya təhlükəsizliyi normalarına («Əhalinin radiasiya təhlükəsizliyi haqqında» Azərbaycan Respublikasının Qanunu, 30 dekabr 1997-ci il) uyğun olaraq müvafiq metodika üzrə həyata keçirilir [3].

Şəhər ərazilərində əsas radioaktiv çirkləndiricilər texnogen radionuklidlər hesab edilir ki, bunlar da müxtəlif tullantıların basdırılma yerlərində, icazəli və icazəsiz zibilxanalarda toplanır, nəzarətsiz axınlar vasitəsilə torpağa, süxur və səth sularına daxil olur. Neftçıxarma və neft emalı müəssisələrinin yerləşdiyi ərazilərdə texnogen radionuklidlər lay suları vasitəsilə mühitə daxil olur.

Həyata keçirilən təhlil nəticəsində Suraxanı inzibati rayonu ərazisində yerləşən obyektlər radioekoloji təsirə həssaslığına görə şərti olaraq 4 qrupa bölünmüşdür:

- istehsal müəssisələri, neftçıxarma və emal sahələri;
- iaşə və ticarət müəssisələri, dövlət idarələri və kommersiya strukturları;

- mənzillər və fərdi yaşayış evləri;
- məktəblər, uşaq bağçası-körpələr evi, xəstəxana və poliklinikalar, sosial bərpa mərkəzləri və istirahət zonaları.

Əhali, məskunlaşma ərazilərinin nisbətən gərgin və riskli sahələrə yaxınlığına görə radioekoloji baxımdan şərti olaraq 2 qrupa bölünmüşdür:

- ən həssas qrup - radiasiya fonunun "Radiasiya təhlükəsizliyi normaları"ndan yüksək olduğu ərazilərdə yaşayan əhali;
- normal həssas qrup - radiasiya fonunun norma daxilində olduğu ərazilərdə yaşayan əhali.

Suraxanı rayonunun Bülbülə, Əmircan, Zığ, Hövsan, Qaraçuxur yaşayış massivlərində yerləşən sənaye müəssisələrində, magistral yol boyunca açıq torpaq sahələrində, qəsəbə zibilxanalarında (cəmi 31 məntəqədə) aparılan dozimetrik ölçmələrin nəticələri göstərmişdir ki, Suraxanı rayonu ərazisində radiasiya fonu əsasən seliteb ərazilər üçün müəyyən edilmiş norma (60 mkR/saat) daxilindədir.

Ekoloji risk sahəsi kimi qiymətləndirilən keçmiş BYZ-nun Yeni Suraxanı qəsəbəsində yerləşən ərazilərində radiasiya fonu normadan dəfələrlə yüksək olmuşdur (~388-400 mkR/saat) [4, s. 31-37].

Radiasiya fonunun yüksək olduğu nöqtələrdən götürülmüş süxur nümunələrinin, tikinti materialı qalıqlarının radionuklid tərkibinin analizindən alınan nəticələr onların I və II təhlükəlilik sinfinə aid olan radioaktiv tullantılar olduğunu göstərmişdir [4, s.31-37].

Nəticə

1. Tədqiqat ərazisində istehsal və qeyri-istehsal müəssisələri, sosial obyektlər radioekoloji təsirlərə həssaslığına görə şərti olaraq 4 qrupa bölünmüşdür.
2. Suraxanı rayonu ərazisində radiasiya fonunun, əsasən, seliteb ərazilər üçün müəyyən edilmiş norma (60 mkR/saat) daxilində olduğu qeyd edilmişdir.
3. Süxur nümunələrinin, tikinti materialı qalıqlarının radionuklid tərkibinin analizindən alınan nəticələr onların I və II təhlükəlilik sinfinə aid olan radioaktiv tullantılar olduğunu göstərmişdir.
4. Əhali radioekoloji baxımdan məskunlaşma ərazilərinin nisbətən gərgin və riskli sahələrə yaxınlığına görə şərti olaraq 2 qrupa bölünmüş, Yeni Suraxanı qəsəbəsində keçmiş BYZ-nun yerləşdiyi ərazidə yaşayan əhali "risk qrupu" kateqoriyasına daxil edilmişdir.

ƏDƏBİYYAT

1. Мамедов Р.Г., Надиров И.А. Экология Апшерона. Баку: Издат. БГУ, 1998, с.91-104.
2. www.surakhani-ih.gov.az
3. www.eco.gov.az
4. Hüseynova S.A., Zeynalova K.S., Bağırov R.E., Abdurəhmanov F.Y. Abşeron yarımadasının Suraxanı rayonu ərazisinin radioekoloji vəziyyətinin tədqiqi. "Azərbaycan Milli Aerokosmik Agentliyinin Xəbərləri", №1-2 (15), 2012, s.31-37.

Сакина Сурхай кызы Зарбалиева
Азербайджанский Университет Кооперации, магистр

Оценивание радиоэкологического загрязнения территории Апшеронского полуострова на примере Сураханского района

Резюме

Статья посвящена оцениванию радиоэкологического загрязнения территории Апшеронского полуострова на примере Сураханского района. Для достижения поставленной цели были проанализированы результаты экологических, а так же радиоэкологических исследований некоторых авторов и литературных материалов. Показано что уровень радиа-

ции в Сураханском районе соответствует нормам (60 мкР/ч) селитебных территорий. Население было условно разделено на две группы относительно близости к напряженным и опасным территориям.

Ключевые слова: радионуклид, радиоэкологические исследования, селитебные территории, экологические риск.

Sakina Surxay Zarbaliyeva
Azerbaijan Cooperation University, master

Evaluation of radioactive contamination in the territory of Absheron peninsula in Surakhany region

Summary

Maliyyə-təsərrüfat fəaliyyətinə dair məsələlərlə əlaqədar məlumatların yoxlanılması və daxili yoxlamaların aparılmasl zamanı,pul vəsaitlərinin, qiymətli kağızların və mal-material ehtiyatlarının hesablanmasının nəticələrinin mühasibat qeydləri ilə müqayisə edilməsi və daxili mənbələrdə əldə olunmuş məlumatların xarici mənbələrdən əldə olunmuş məlumatlarla müqayisə edilməsinə nəzarət prosedurları da dəqiq yoxlanılır.

Mühasibat uçotu və daxili nəzarət sistemləri üçün xas olan məhdudiyyətlər araşdırılarkən müəyyən edilir ki, daxili nəzarət sisteminin funksiyasına çəkilən xərclər gözlənilən mənfəətdən artıq olmamalıdır.

Bu prosedurlarda daxili nəzarət vasitələrinin əksəriyyəti nadir hallarda aparılan əməliyyatlara yox, cari əməliyyatlara yönəldilməlidir. Daxili nəzarət prosedurlarında insan faktoru vacib amillərdəndir. Çünki, insan amilinin movcudlugu muəyyən səhvlərin meydana çıxmasına, işçilərin əlbir olaraq daxili nəzarət prosedurlarını pozmasına və daxili nəzarətin həyata keçirilməsi üzrə öhdəlik daşıyan şəxslərin öz səlahiyyətlərindən sui-istifadə etməsinə səbəb ola bilər.

İqtisadi subyektin fəaliyyət şərtləri dəyişildiyindən, nəzarət prosedurları da qeyri-adekvat ola bilər.

Təlimatların düzgün başa düşülməməsi; səhv mühakimə irəli sürülməsi; işçi heyətinin səhlənkarlığı; nəzarət prosedurlarına görə məsuliyyət daşıyan şəxsin huşsuzluğu və ya yorğunluğu; ayrı-ayrı şəxslər arasında baş verən toqquşmalar; nəzarət prosedurlarının düzgün seçilməməsi və s. bu kimi amillər səbəbindən daxili nəzarət sisteminin effektivliyi son dərəcə azala bilər.

Mühasibat uçotu və daxili nəzarət sistemlərinin qiymətləndirilməsi mühasibat uçotu və daxili nəzarət sistemləri ilə ümumi tanışlıq, mühasibat uçotu və daxili nəzarət sistemlərinin etibarlılığının ilkin qiymətləndirilməsi və mühasibat uçotu və daxili nəzarət sistemlərinin etibarlılığının ilkin qiymətləndirilməsinin təsdiqi mərhələlərindən ibarətdir.

ƏDƏBİYYAT

1. "Daxili audit haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 29 iyun 2007-ci il.
2. "Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında" Azərbaycan Respublikasının Prezidentinin Fərmanı. 7 yanvar 1999.
3. V.T.Novruzova. Daxili audit. Bakı, 2002.
4. C.B.Namazova. Audit. Bakı, 2012.
5. İ.M.Abbasov. Audit. Bakı, 2013-cü il.
6. B.X.Ataşov, N.A.Novruzov . Maliyyə nəzəriyyəsi. Bakı, 2014 il.

Дж.Б. Намазова
д.э.н., проф. Азербайджанской Государственный Экономический Университет

Бухгалтерский учёт в хозяйственных субъектах и оценка внутреннего контроля

Резюме

Необходимо приобрести достаточную информацию с целью разработки эффективного подхода к ведению аудита при исследовании и оценке бухгалтерского учёта и систем внутреннего контроля. Система внутреннего контроля включает контрольную среду и контрольные процедуры. Контрольные процедуры являются составляющей внутреннего контроля в различных направлениях хозяйственной деятельности для обеспечения её эффективности и надёжности.

Ключевые слова: бухгалтерский учёт, система внутреннего контроля, планирование аудита, контрольная среда, контрольные процедуры

J.B.Namazova
doc.of.s. prof Azerbaijan State Economic University

The business account in economic subjects and assessment of the internal control

Summary

Itisnecessaryto acquire sufficient information in order to develop efficient attitude to implementation of audit during investigation and assessment of business account and the internal control systems. The internal control system includes the control environment and control procedures. The control procedures are integral part of internal control in different directions of economic activity for ensuring its efficiency and reliability.

Key words: business account, internal control system, audit planning, control environment, control procedures.

Elşən Əli oğlu İBRAHİMOV
iqtisad elmləri namizədi,
Azərbaycan Kooperasiya Universitetinin dosenti,
AMEA-nın İqtisadiyyat İnstitutunun doktorantı

DAVAMLI İQTİSADİ İNKİŞAFIN TƏMİN EDİLMƏSİNDƏ MALİYYƏ-İNVESTİSİYA MƏNBƏLƏRİNDƏN SƏMƏRƏLİ İSTİFADƏ İSTİQAMƏTLƏRİ

Xülasə

Davamlı iqtisadi inkişafın təmin edilməsi etibarlı maliyyə təminatı tələb edir. Bu baxımdan da, maliyyə-investisiya mənbələrindən səmərəli istifadə davamlı inkişafın zəruri şərti kimi qəbul edilir. Təqdim edilən məqalədə də maliyyə-investisiya mənbələri izah edilmiş və bu mənbələrdən səmərəli istifadə istiqamətləri tədqiq olunmuşdur. Məqalədə müxtəlif mənbələrdən maliyyələşən investisiyalardan və büdcə vəsaitlərindən səmərəli istifadə məsələləri araşdırılmışdır.Müəllif müvafiq ümumiləşdirmələr apararaq, vəsaitlərdən səmərəli istifadə istiqamətində müəyyən təklif və tövsiyələr irəli sürmüşdür.

Açar sözlər: maliyyə, investisiya, davamlı iqtisadi inkişaf, büdcə, gəlir, xərc.

Giriş

Aparılmış tədqiqatlar göstərir ki, hər bir sahədə davamlı uğurların əldə edilməsi maliyyə təminatından çox asılıdır. O cümlədən, iqtisadi uğur və inkişafın da davamlılığı maliyyə təminatından çox asılıdır. Bu mənada, maliyyə-investisiya mənbələrindən səmərəli istifadə davamlı iqtisadi inkişafın zəruri şərti kimi qəbul edilə bilər. Maliyyə-investisiya mənbələri kimi bir çox istiqamətlər göstərilə bilər. Xüsusilə, bazar münasibətləri şəraitində bu mənbələr ayrı-ayrı özəl mənbələr hesabına daha da artır. Bu kimi mənbələrin reallaşdırılması məqsədilə ayrı-ayrı mənbələrdən istifadənin səmərəliliyinin yüksəldilməsi zəruridir. Eyni zamanda, qeyd etmək yerinə düşər ki, bazar iqtisadiyyatı özəl təsərrüfat subyektlərinin inkişafına əsaslanan, dövlətin hərtərəfli və stimullaşdırıcı tənzimlənməsini zəruri edən bir sistemdir. Bu sistemdə, aparıcı mövqe ayrı-ayrı sahibkarlıq subyektlərinə məxsus olsa da, ümumilikdə onların fəaliyyəti dövlətin tənzimləyici funksiyaları ilə yönəldilir və tənzimlənir. Beləliklə də, dövlət stimullaşdırıcı addımlar atmaqla inkişafı ləng gedən sahələrə dəstək verməklə, həm də tarazlıq baxımından digər sahələrin də fəaliyyətini sanki əngəlləyir. Bu zaman bu kimi məqsədlərin reallaşdırılmasında dövlətin əsas maliyyə dayağı dövlət büdcəsidir. Yəni dövlətin maliyyə qərarları əsasən dövlət büdcəsinin vəsaitləri hesabına icra olunur. Həmçinin dövlət tərəfindən iqtisadiyyatın birbaşa tənzimlənməsi də büdcə-vergi siyasəti alətləri vasitəsilə həyata keçirilir. Bu siyasətin son məhsulu kimi dövlət büdcəsi və onun xərcləri həmişə sosial iqtisadi maraqların daşıyıcıları olan müxtəlif təbəqələr arasında tarazlığı əks etdirir. Ona görə də maliyyə-investisiya mənbələrindən səmərəli istifadə məsələlərini büdcə timsalında nəzərdən keçirmək məqsədəuyğun olardı.

Davamlı inkişafın təmin edilməsində maliyyə mənbələrindən səmərəli istifadə

Təcrübə göstərir ki, iqtisadiyyatın davamlı inkişaf səviyyəsindən və onun mövcud imkanlarından asılı olmayaraq istənilən ölkədə büdcə xərclərinin səmərəli idarə olunması bütün dövrlərdə ən vacib problemlərdən biri hesab edilir. Bu hər şeydən əvvəl ölkənin sosial həyatının və iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafının dövlət tərəfindən maliyyələşdirilməsi üçün ayrılan vəsaitlərin real tələbata uyğunluq səviyyəsi ilə əlaqədardır. Aydındır ki, büdcə xərcləri dedikdə dövlətin və yerli özünüidarəetmə orqanlarının vəzifə və funksiyalarının yerinə yetirilməsinə yönəldilən pul vəsaiti başa düşülür. Bu baxımdan da, xərclərin səmərəli bölüşdürülməsi və idarəedilməsi bütövlükdə dövlətin, o cümlədən dövlət büdcəsinin qarşısında duran vəzifələrə, eləcə də sosial-iqtisadi hədəflərə uyğun həyata keçirilməlidir .

Müasir dövrdə qloballaşma və inteqrasiya prosesləri nəticəsində dünyanın vahid bir orqanizmə çevrilməsi, ayrı-ayrı milli təsərrüfatlarda xarici təhdidlərin artması, kapital və maliyyənin beynəlxalq hərəkətinin sürətlənməsi və s. kimi məsələlər nəticəsində xərclərin idarəedilməsi prosesi daha da mürəkkəbləşmişdir, eləcə də daha məsuliyyətli yanaşma tələb edir. Ümumilikdə isə,

büdcə xərclərinin bölüşdürülməsi və səmərəli idarə edilməsi prosesi bir sıra mərhələləri əhatə edir. Belə ki, xərclərdən maksimum səmərə əldə etmək üçün, ilk növbədə, əsaslandırılmış büdcə siyasətinin olması, büdcənin başlıca məqsədlərinin aydınlaşdırılması və onların reallaşdırılması üçün lazımi qədər resursların olması vacibdir. Təbii ki, resursların optimal bölüşdürülməsi bundan sonrakı ən mühüm mərhələdir. Eyni zamanda, xərclərin bölüşdürülməsindən sonra ayrılmış vəsaitlərlə qarşıya qoyulmuş məqsədə nail olmaq üçün daha optimal variantın seçilməsi də mühüm əhəmiyyət kəsb edir.

Tədqiqatlar göstərir ki, praktikada bu məsələlər büdcənin tərtibi və icrası prosesində və ya digər səviyyələrdə bu və ya digər dərəcədə özünü büruzə verməklə nəzərə alınır. O cümlədən, xərclərin idarə edilməsində mədaxil və məxaric üzrə imkanların nəzərə alınması, dövlətin malik olduğu resursların bölüşdürülməsi, onlardan səmərəli istifadə edilməsi, zəruri informasiya sisteminin yaradılması kimi məsələlərin həll olunduğu proses kimi də baxmaq olar. Nəzərə alsaq ki, səmərəli bölüşdürmə olmadan düzgün idarəetmə də qeyri-mümkündür, onda elə xərclərin bölüşdürülməsi prosesinə, həm də yuxarıda qeyd edilən məsələlərin həlli yolu kimi baxa bilərik [3, s. 288-305].

Bütövlükdə, büdcə xərcləri idarəetmə, müdafiə və hüquq-mühafizə orqanlarının saxlanılması, dövlətin sosial - iqtisadi siyasətinin həyata keçirilməsi ilə bağlı xərclər olmaqla dörd qrupda təsnifləşdirilir. Büdcə prosesi ilə tanışlıqdan aydın olur ki, büdcə quruculuğunun inkişafının istənilən dövründə xərclərin təsnifatlaşdırılması zamanı təkcə xərclərin ümumi həcminin deyil, həm də onların səmərəli tərkibi və strukturunun müəyyənləşdirilməsinə böyük əhəmiyyət verilir. Ona görə ki, dövlət bu və ya digər sahədə müəyyən xərclər qoymaqla, vəsaitlər sərf etməklə öz məqsədinə nail olur. Bu baxımdan da, yalnız dövlət xərclərini bu parametrlərlə müəyyən etməklə dövlət tərəfindən qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gəlmək olar. Müasir dövrdə inkişaf etmiş ölkələrin dövlət xərclərinin strukturu sosial proqramların xeyrinə və ayrı-ayrı xidmət sahələrinin inkişafının dəstəklənməsinə doğru dəyişir. Demək olar ki, əksər ölkələrdə büdcə xəclərinin strukturunda birinci yeri sosial yönümlü: pensiya, təqaüd, təhsil, səhiyyə, mədəniyyət və s. kimi xərclər tutur. Bu da təbiidir, çünki dövlətin həyata keçirdiyi iqtisadi və ya büdcə siyasətinin başlıca məqsədləri - mövcud sosial-iqtisadi durumun stabilləşdirilməsi, möhkəmləndirilməsi və dəyişən şəraitə uyğunlaşdırılması istiqamətində özünü büruzə verir. Bu xərclər bazar iqtisadiyyatına xas olan sosial qruplar arasındakı kəskin fərqləri ciddi surətdə yumşaltmaq üçün şərait yaratmışdır [5, s. 28-54; 3, s. 282-304].

İqtisadi baxımdan yüksək inkişaf səviyyəsinə malik ölkələrdə bu qanunauyğunluq müşahidə olunmur, yalnız zəif inkişafa malik ölkələrdə qeyd edilənlər özünü daha bariz göstərir. Belə bir məhdudiyyətin mövcudluğu, ilk dəfə Richard Armey və Richard Rahn adlı iqtisadçı alimlər tərəfindən müəyyənləşdirilmişdir. Onlar göstərib ki, həqiqətən iqtisadi artım templəri ilə büdcə xərclərinin ÜDM-də payının artımı arasında parabolik asılılıq mövcuddur və müəyyən "təpə" nöqtəsindən sonra dövlət xərclərinin artımı iqtisadi artıma mənfi təsir göstərir. Bütün bunlarla yanaşı, uzun illər müxtəlif ölkələrin statistik məlumatları üzrə dövlət xərclərinin iqtisadi artıma təsirinin ən səmərəli səviyyəsi 23% səviyyəsində müəyyənləşdirilib. Bu nöqtə elmi ədəbiyyatda, alimin adına uyğun olaraq Skalli nöqtəsi kimi adlanır [1; 4,s.125-142; 6, s.32-58].

Mövcud vəziyyətdə, Skalli yanaşması əsasında Azərbaycan Respublikası üzrə təhlillər aparsaq, aydın olar ki, ölkəmizdə dövlət büdcəsi xərclərinin səviyyəsi iqtisadi artıma müsbət təsirin səmərəli həddini ötmüşdür. Lakin, ümumilikdə götürdükdə, iqtisadi artımın mümkün istiqamətləri və tənzimləmə mexanizmlərinin mahiyyəti araşdırılmadan, dövlət büdcəsi xərclərinin səviyyəsinin qiymətləndirilməsi, büdcə xərclərinin srtukturu haqqında fikirlər irəli sürülməsi özünü tam doğrultmaya da bilər. Bu isə alınmış nəticələrin praktiki istifadə baxımından əhəmiyyətini azaldır, qeyd edilənlərin tövsiyə xarakteri daşıdığını göstərir. Başqa sözlə, bu yanaşmalar ölkədə iqtisadi artımın sürətlənməsi ilə büdcə xərcləri siyasətinin keyfiyyətinin və büdcə xərclərinin səmərəliliyinin yüksəlməsi, daha məsuliyyətli büdcə xərcləri siyasətinin reallaşdırılması zəruriliyini ortaya qoyur. Digər tərəfdən, yuxarıda qeyd edilən büdcə xərclərinin ÜDM-də 23%-lik paya malik olması fikri də hər ölkə üçün düzgün olmaya bilər. Başqa sözlə desək, hər bir ölkənin sosial-iqtisadi şəraiti, durumu və maliyyə imkanlarından asılı olaraq bu rəqəm fərqli ola bilər.

Bundan əlavə, dövlət xərclərinin optimal səviyyəsi, heç də bu xərclərin minimum səviyyəsi və ya gəlirlərin sürətli artımına müvafiq olaraq xərclərin sürətli artırılmasının zəruriliyi anlamına gəlmir. Ölkədə, istər real, mövcud maliyyə vəziyyətindən çıxış etməyərək dövlət xərclərinin yüksəlməsi, istərsə də iqtisadi inkişafda xüsusi əhəmiyyətə malik istiqamətlərin tələb olunan səviyyədən az maliyyələşdirilməsi, orta müddətli perspektivdə iqtisadi artıma mənfi təsir göstərən amillərdəndir. Bu səbəbdən də, hər bir ölkədə yaranmış konkret iqtisadi şərait və perspektiv inkişaf meyilləri ÜDM-də dövlət xərclərinin payının optimal səviyyəsini müəyyənləşdirir [2,s.177-190; 4,s.124-132; 6, s. 37-57].

Azərbaycan Respublikasının dövlət büdcəsinin 2017-ci ildə gəlirləri 16.5 milyard manat, xərcləri isə 17.6 milyard manat təşkil etməklə, büdcə kəsiri 1.1 milyard manat və ya ÜDM-ə nisbətən 1.5% olmuşdur. Həmçinin ÜDM-də dövlət büdcəsinin gəlirlərinin xüsusi çəkisi 26.6%, xərclərinin xüsusi çəkisi isə 25.1% təşkil etmişdir.

2017-ci ilin dövlət büdcəsində investisiya xərclərinə 2.7 milyard manat vəsait yönəldilmişdir ki, bu da 2016-cı illə müqayisədə 4.0 milyon manat çoxdur. İnvestisiya xərclərinin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi isə 15.3% təşkil etmişdir [8].

Araşdırmalar göstərir ki, bazar münasibətlərinə keçid şəraitinin xüsusiyyətlərinə uyğun olaraq dövlət büdcəsi xərclərinin strukturu ciddi dəyişikliklərə məruz qalmış, bu da əsasən dövlətin iqtisadi proseslərə qarışmasının kəskin surətdə azalması, iqtisadiyyatla bazar qanunlarının, tələb və təklifin tənzimləyici rolunun artması ilə əlaqədar olmuşdur. Respublikamızda özəlləşdirmə proqramlarının həyata keçirilməsi və dövlət müəssisələrinin xeyli hissəsinin səhmdar cəmiyyətinə çevrilməsi ilə əlaqədar olaraq geniş təkrar istehsal getdikcə daha çox miqyasda xüsusi vəsaitlər və maliyyə bazarında toplanan digər vəsaitlər hesabına formalaşmağa başlamışdır. Lakin bazar mexanizminin fəaliyyəti şəraitində də ayrı-ayrı sahələrin, ərazilərin, dövlət investisiya proqramının, iqtisadiyyatın dövlət sektorunun maliyyələşdirilməsi öz əhəmiyyətini saxlamaqda davam edir. Konkret olaraq, Azərbaycan Respublikasının dövlət büdcə sisteminin bütün həlqələrinin xərc hissəsində icra hakimiyyəti orqanlarının və yerli özünüidaretmə orqanlarının ehtiyat fondu yaradılır. Dövlət büdcəsində ehtiyat fondunun həcmi növbəti büdcə ilinin gəlirlərinin 5%-dən artıq olmamalı, eləcə də ehtiyat fondunun vəsaiti büdcədə nəzərdə tutulmayan xərclərin maliyyələşdirilməsi və fövqəladə hallar üçün istifadə edilir. Ümumilikdə isə, büdcə xərclərinin funksional təsnifatı olduqca mühüm əhəmiyyətə malikdir və müxtəlif istiqamətləri əhatə edir ki, buraya da ümumi dövlət xidməti xərcləri, müdafiə xərcləri, məhkəmə hakimiyyəti, hüquq-mühafizə, təhlükəsizlik orqanlarının və prokurorluğun saxlanması xərcləri, təhsil xərcləri, səhiyyə xərcləri, sosial müdafiə və sosial təminat xərcləri, mədəniyyət, incəsənət, kütləvi informasiya, bədən tərbiyəsi və din sahəsində fəaliyyət xərcləri, mənzil-kommunal təsərrüfatı xərcləri, kənd təsərrüfatı, meşə və balıqçılıq təsərrüfatı xərcləri, sənaye və tikinti xərcləri, nəqliyyat və rabitə xərcləri, iqtisadi fəaliyyətlə bağlı digər xərclər, əsas bölməyə aid edilməyən digər xərclər, dövlət borcuna və öhdəliyinə xidmət edilməsi ilə bağlı xərclər daxildir [2, s.108-120].

Göründüyü kimi, büdcə xərcləri elə təsnifləşdirilmişdir ki, bu cür təsnifat ictimai həyatın müxtəlif sahələrində dövlətin fəaliyyətini əyani surətdə əks etdirir, eləcə də hər bir qrup xərclər inzibati əlamətlərinə görə bölünür. İnzibati təsnifləşdirmə, büdcə təxsisatı olan müvafiq nazirlikləri, digər dövlət idarələrini və hüquqi şəxsləri seçməyə imkan verir. Büdcə xərclərinin bu cür təsnifləşdirilməsi idaretmə sistemində baş verə biləcək dəyişikliklə əlaqədar xərclərin strukturunda da aparılmalı dəyişiklikləri özündə əks etdirir. Aydındır ki, büdcə xərcləri büdcədən maliyyələşdirmə vasitəsilə həyata keçirilir və bu, müəyyən prinsiplərə əsaslanır. Bu prinsiplər büdcə maliyyələşdirilməsinin səmərəli təşkilində və ümumilikdə maliyyə-investisiya mənbələrindən səmərəli istifadədə əhəmiyyətli rol oynayır. [3, s.289-301; 4, s.71-77].

Davamlı inkişafın təmin edilməsində maliyyə - investisiya mənbələrindən səmərəli istifadə meyarları

Davamlı inkişafın təmin etməsində ilk növbədə, az xərclə daha çox gəlir əldə etmək maliyyə-investisiya mənbələrindən səmərəli istifadənin başlıca meyarı kimi qəbul edilə bilər. Yəni vəsaitlər maksimum səmərəliliklə istifadə edilməli, vəsaitlərin istifadəsindən daha çox nəticə əldə olunması təmin edildiyi şəraitdə sərf olunmalıdır. Bu səmərə bir tərəfdən ölkənin inkişafının

müxtəlif sosial-iqtisadi məqsədlərinin həllində, digər tərəfdən isə büdcə vəsaitinin istifadə edilməsi nəticəsində gəlirlərin artması hesabına pul vəsaitinin büdcəyə əks axınında ifadə oluna bilər. Başqa sözlə desək, vəsaitlər həm sosial-iqtisadi tərəqqini təmin etməli, həm də büdcəyə daxilolmaların artmasında rol oynamalıdır.

Mənbələrdən səmərəli istifadədə vacib məsələlərdən biri də məqsədin düzgün və dəqiq seçilməsidir. Yəni, vəsaitlərdən istifadənin məqsədli xarakteri də uğurlu nəticə üçün çox önəmlidir. Bu, həm də vəsaitlərdən qeyri-səmərəli istifadə edilməsinin qarşısını alır, məqsədli istifadəni əsas tutur və prinsipə görə, yalnız bu halda vəsaitlərdən maksimum səmərəli istifadəyə nail olmaq mümkündür. Mənbələrdən səmərəli istifadənin başlıca şərtlərindən biri də hər sonrakı maliyyələşmə ilə əvvəlkinin əlaqələndirilməsidir. Əslində, bu maliyyə vəsaitlərindən istifadəyə nəzarət deməkdir. Bu prinsipə görə, hər sonrakı vəsaitin ayrılması özündən əvvəlki vəsaitlərdən istifadənin səmərəlilik səviyyəsindən asılıdır. Belə ki, verilmiş vəsaitlər məqsədəuyğun olaraq, səmərəli şəkildə sərf edilmişdirsə, bu halda növbəti vəsaitlərin ayrılması mümkündür. Bu prinsip həm vəsaitlərdən səmərəli istifadəni təşviq edir, həm də müvafiq qurumlara maliyyə nəzarətinin daha ciddi və keyfiyyətli təşkili üçün münbit şərait yaradır.

Göründüyü kimi, maliyyə-investisiya mənbələrindən səmərəli istifadənin başlıca prinsipləri vəsaitlərdən məqsədli və əlaqələndirilmiş şəkildə istifadəni nəzərdə tutur. Başqa sözlə desək, maliyyə vəsaitlərindən davamlı və səmərəli istifadə əvvəlki vəsaitlərdən istifadənin səmərəlilik səviyyəsindən çox asılıdır. Bütün bunlar mənbələrdən istifadənin başlıca prinsipi kimi qəbul edilə bilər.

Qeyd edilənlərlə yanaşı, müxtəlif maliyyə mənbələrinin fərqləndirici xüsusiyyətlərə malik olması da nəzərə alınmalıdır. Hansı ki, bu xüsusiyyətlər fəaliyyət dövrünün müxtəlif mərhələlərində formalaşır. Məsələn, büdcənin başlıca xüsusiyyətlərinin bir qismi büdcədən maliyyələşdirmə zamanı formalaşır, daha dəqiqi, maliyyələşdirmə forma və metodları ilə əlaqədardır.

Araşdırmalar göstərir ki, büdcə təxsisatı təcrübəsində büdcədən maliyyələşdirmənin netto və brutto büdcə olmaqla iki metodundan istifadə edilir. Pul vəsaitlərinin təqdim olunmasının netto metodu onunla xarakterizə edilir ki, büdcə təxsisatı təsdiq edilmiş büdcədə nəzərdə tutulmuş məsrəflərə ayrılır. Büdcədən maliyyələşən müəssisə və təşkilatlar üçün tətbiq olunan brutto metodu zamanı büdcə təxsisatı bütün xərclərə, yəni istər cari və istərsə də büdcə təşkilatının fəaliyyətinin genişləndirilməsilə əlaqədar məqsədlərə sərf edilir.

Beynəlxalq təcrübənin və müxtəlif yanaşmaların təhlili zamanı məlum olur ki, müəyyən dövrlərdə resurs ölkələrində gəlirlərin yüksək olması, asan yolla əldə edilməsi kimi faktorlar iqtisadi mühitin inkişafı, liberal iqtisadi dəyərlərin tətbiqi kimi mühüm məsələlərdə iqtisadi siyasətin nisbətən passiv olmasına səbəb olur. Çünki dövlət gəlirlərinin resurs hesabına təmin edilməsi digər istiqamətlərin inkişafına, rəqabət qabiliyyətli bazarın formalaşdırılmasına tələbi zəiflədir. Bu kimi ölkələrdə əksər hallarda mühafizəkar iqtisadi idarəetmə üstünlük təşkil edir. Belə ki, müşahidələr göstərir ki, resurs ölkələrində əsasən qərarvericilərlə biznes subyektləri əksər hallarda eyni insanlar olur ki, bu halda administrativ səlahiyyətlərdən istifadə edilərək iqtisadi proseslərə müdaxiləyə gətirib çıxarır. Nəticədə iqtisadiyyat daha çox illeqal qaydalarla idarə edilir və bu proses inhisarçılığın iqtisadiyyatın bütün sahələrinə sirayət etməsinə səbəb olur. Nəticədə real sektor daxili və xarici investisiya cəlbediciliyini itirir, birbaşa xarici investisiyaların həcmi məhdud səviyyədə olur ki, bu da öz növbəsində innovasiya axınını zəiflətməklə üfiqi diversifikasiya prosesi üçün əsas maneələrdən birinə çevrilir. Eyni zamanda himayədarlıq binasının təşəkkül tapması sonda gizli iqtisadiyyatın həcmini artırmaqla normal olmayan iqtisadi mühitdə daha ciddi qeyri-bərabərliyə, rəqabət imkanlarının məhdudlaşmasına və hüquqi idarəetmənin sarsılmasına yol açır. Beləliklə, mülk toxunulmazlığı, sahiblik hüququ real davranışlarda əhəmiyyətini itirməklə investor marağını azaldır, investisiyanın xaricə axınına, təşəbbüskarlığın zəifləməsi ilə idarəetməyə inamın itməsinə səbəb olur [7, s.262].

Ümumiyyətlə, iqtisadiyyatın şaxələndirilməsi prosesinə yuxarıda sadalanan məsələlər mənfi təsir göstərən amillərdəndir. Məhz bu səbəbdən də diversifikasiya proseslərinin əsas maliyyə mənbəyi hesab edilən investorları inandırmaq və ölkə iqtisadiyyatına yeni investisiyalar cəlb etmək məqsədilə Azərbaycan iqtisadiyyatının liberallaşması istiqamətində bir sıra addımlar atılma-

qdadır. Belə ki, investisiya cəlbediciliyinin artırılması və bu sahədə təşviqin gücləndirilməsində Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2016-cı il tarixli "İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihələrinin həcmi ilə bağlı minimal məbləğ və investisiya layihələrinin həyata keçiriləcəyi inzibati ərazi vahidləri" haqqında Fərmanı əhəmiyyətli rola malikdir. Həmçinin investisiya mühitinin optimallaşdırılması və stimullaşdırılması mexanizmlərinin təkmilləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 18 yanvar 2016-cı il tarixli "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanına əsasən Azərbaycanda "İnvestorun təşviqi sənədi"nin verilməsinə başlanıldı. "İnvestorun təşviqi sənədi" onu əldə edən sahibkar üçün əlavə güzəştlər müəyyən edir. Bu güzəştlərə vergidən azadolmalar və yaxud aşağı vergi dərəcələrinin tətbiqi, gömrük rüsumlarından yüngülləşdirici halların tətbiqi və s. kimi real şərtlər təklif edilir. Fərmana əsasən "İnvestisiyanın təşviqi sənədi"nin verilməsi meyarları kimi investisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahəsi, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ, investisiya layihəsinin həyata keçiriləcəyi inzibati ərazi vahidi müəyyən edilib.

Azərbaycanda investisiya mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən islahatların qlobal səviyyədə təbliği, beynəlxalq reytinqlərdə ölkənin nüfuzunun artırılması, bu sahədə mövcud problemlərin təsbit edilməsi və aradan qaldırılması, həmçinin bütün bunların xarici investorların nəzərinə çatdırılması məqsədilə 13 iyul 2016-cı ildə Azərbaycan Respublikası Prezidenti tərəfindən "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalanmışdır. Sərəncamda qeyd edilir ki, gələcək dövrlərdə iqtisadiyyatın neftdən asılılığının azaldılması, sahibkarlıq fəaliyyətinin dəstəklənməsinə əsaslanan rəqabətqabiliyyətli iqtisadiyyatın inkişaf etdirilməsi, biznes və investisiya mühitinin inkişaf etdirilməsinə hədəflənən fəaliyyətlərin davam etdirilməsi dövlətin əsas strateji hədəfi olaraq təsnifləşdirilir.

Nəticə

Beləliklə, davamlı inkişaf şəraitində maliyyə-investisiya mənbələrindən səmərəli istifadə olunması, vəsaitlərin düzgün bölüşdürülməsi və s. istiqamətlərə dair aparılan araşdırmalardan belə nəticəyə gəlmək olar ki, vəsaitlərin səmərəliliyinin və məqsədyönlülüyünün təmin olunması üçün qanunvericiliyə əməl olunması, vəsaitlərdən tələbata uyğun, mövcud tələblər çərçivəsində istifadə olunması, vəsaitlərdən istifadə üzərində nəzarətin gücləndirilməsi, hər sonrakı maliyyələşdirmənin əvvəlki nəticələrlə əlaqələndirilməsi böyük əhəmiyyət kəsb edir.

Bütün bunlarla yanaşı, müasir dövrün xarakterik cəhətləri, xüsusilə qloballaşma və inteqrasiya proseslərinin təsiri ilə xarici təhdidlərin kəskin şəkildə artığı bir şəraitdə büdcə gəlirlərinin və dövlətin borcalma imkanlarının məhdudluğunu nəzərə alaraq dövlət vəsaitlərinin büdcədənkənar aralıq və ya müvəqqəti bank hesablarında saxlanılmasının qarşısı qətiyyətlə alınmalı, büdcənin kompleksliyi təmin olunmalıdır. Dövlət vəsaitlərinin büdcədən başqa xüsusi təyinatlı əlavə büdcələrdə nəzərə alınmasının, bununla da vəsaitlərin müxtəlif proqramlar səviyyəsində xərclənməsinin qarşısı alınmalı, eləcə də bu istiqamətdə ardıcıl olaraq müvafiq institusional dəyişikliklər və ciddi təşkilati tədbirlər həyata keçirilməli, xəzinədarlıq xidmətləri müasirləşdirilməlidir. Büdcə xərclərinin optimallaşdırılması üzrə görülən tədbirlərin səmərəliliyi son nəticə kimi vəsaitlərdən məqsədyönlü istifadənin səviyyəsi ilə, başqa sözlə, xərclənən dövlət vəsaitinin hər bir vahidinin istifadə effektivliyi ilə müəyyən olunur ki, bu da dövlətin malik olduğu məhdud resursların, ilk növbədə strateji məqsəd və vəzifələrin yerinə yetirilməsini şərtləndirir. Bunun üçün, dövlət büdcəsinin kompleks xarakter daşıması, resursların bölüşdürülməsində obyektiv meyarlardan istifadə edilməsi, bölüşdürmə zamanı prioritetliyin gözlənilməsi üçün məlumat bazasının yaradılması, əvvəlcədən müəyyən edilmiş strategiyanın dövri olaraq təhlil edilməsi və s. zəruridir. Bütün bunlarla yanaşı, araşdırmalar göstərir ki, dövlət büdcəsi yalnız o zaman kompleks və əsaslandırılmış hesab edilir ki, onun tərtibi və təsdiqi zamanı bütün resurslara və xərclərə prioritetlik prinsipi əsasında baxılsın. Bu cür yanaşma büdcə xərclərindən səmərəli istifadə edilməsində göz-

lənilməz problemlərin və subyektiv çətinliklərin yaranması hallarının qarşısını almağa, əvvəlcədən müəyyən edilmiş istiqamətlər üzrə icranı təşkil etməyə real zəmin yaradır. Əslində isə, vəsaitlərin səmərəli bölüşdürülməsi və istifadəsi müəyyən nəticələrin əldə olunmasına yönəldilmiş konkret tədbirlərin həyata keçirilməsini tələb edir ki, bu da layihə-smeta sənədlərinin tərtibi, təsdiqi və icrası prosesində müvafiq standart proseduraların və işlərin müəyyənləşdirilməsini, bu proseslərin əlaqələndirilməsini və bir-birini tamamlamasını şərtləndirir.

ƏDƏBİYYAT

1. B.Ş.Qurbanov. "Büdcə gəlirləri və xərclərinin formalaşdırılmasının bəzi problemləri". AMEA İqtisadiyyat İnstitutu, Elmi əsərlər, 2009, № 4, s. 94-98;
2. Ə.Ə.Ələkbərov. "Sosial-iqtisadi inkişafın maliyyə-büdcə parametrlərinin tənzimlənməsi". Bakı, Elm, 2007, 448 səh.;
3. F.T.Quliyev. "Millət və dövlət gəlirləri". Bakı, "Nağıl evi", 2004, 328 səh.;
4. N.A.Novruzov, E.Ə.İbrahimov. "Büdcə sistemi". Bakı, "Adiloğlu", 2012, 472 səh.;
5. R.S.Abdullayeva, A.N.Muradov. "Sosial sferanın iqtisadiyyatı". Bakı, AMEA İqtisadiyyat İnstitutu, 2009, 237 səh.;
6. Z.T.Vəliyev. "Büdcə: nəzəriyyə və praktika". Bakı, 2010, 532 səh.;
7. V.İ.Bayramov. "Azərbaycanda iqtisadiyyatın diversifikasiyasının maliyyə təminatının gücləndirilməsi məsələləri" Bakı, 2018, 351 səh.
8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci ildə fəaliyyəti haqqında hesabatı. Bakı, 2018

Эльшан Али оглы Ибрагимов
к.э.н., доцент АУК, докторант ИЭ НАНА

Эффективное использование финансовых и инвестиционных источников для обеспечение устойчивое экономического развития

Резюме

Устойчивое экономическое развитие требует надежной финансовой поддержки. В этой связи эффективное использование финансовых и инвестиционных источников считается необходимым условием устойчивого развития. В представленной статье описываются источники финансирования и инвестиций, а также исследуются пути их эффективного использования. В статье рассматриваются инвестиции из различных источников и эффективное использование бюджетных средств. Автором разработаны соответствующие рекомендации и рекомендации и предложения по эффективному использованию средств.

Ключевые слова: финансы, инвестиции, устойчивое экономическое развитие, бюджет, доходы, расходы.

Elshen Ali Ibraghimov
c.e.s., ass. prof. in ACU,
PhD of the Economic Institute of ANSA

The effective use of financial and investment sources in ensuring sustainable economic development

Summary

Sustainable economic development requires reliable financial support. In this regard, the efficient use of financial and investment sources is considered as a necessary condition for sustainable development. The presented article describes the sources of financial and investment, and

explored areas for the efficient use of these sources. The article examines the investment in various sources and the efficient use of budget funds. The author making relevant generalizations and has made some relevant recommendations for the efficient use of funds.

Key words: finance, investment, sustainable economic development, budget, income, expense.

Çingiz Əbülfəz oğlu HƏSƏNOV
Azərbaycan Kooperasiya Universitetinin doktorantı

EMAL SƏNAYESİNDƏ İNSAN RESURSLARININ İSTİFADƏ XÜSUSİYYƏTLƏRİ

Azərbaycanda iqtisadi potensialdan istifadə prosesi təbii, əmək, kapital, intellektual və texnoloji resurslardan məqsədyönlü istifadəyə və bu baxımdan mənəvi dəyərlər çərçivəsində fəaliyyətə əsaslanır. Həmin potensiallar içərisində əmək və onun üzvi, tərkib hissəsi olan insan resurslarından istifadə ən vacib şərtlərdən biridir. Son on ildə bu istiqamətdə həyata keçirilən geniş-miqyaslı islahatlar yeni iş yerlərinin yaradılması, fəal məşğul əhalinin maddi rifah halının yaxşılaşmasına təminat yaratsa da, Azərbaycanda fəaliyyət göstərən bir çox emal müəssisələrində işçi axıcılığının səviyyəsi yüksək olaraq qalmaqdadır. Araşdırmalarımızla müəyyən edilmişdir ki, bunun başlıca səbəbi ayrı-ayrı emal müəssisələrində istehsalın son nəticəsi ilə əməyin ödənişi və motivləşdirilməsi arasında əlaqənin düzgün təşkil edilməməsi, əmək münasibətlərinin uğursuz təşkili, idarə edən və idarə olunan sistemlər arasında tarazlığın pozulması və digər sosial-psixoloji mühitin düzgün formalaşmamasıdır. Bu məqsədlə emal müəssisələrində insan potensialının idarə olunması sisteminin beynəlxalq təcrübəyə uyğun formalaşmasına, kadrların seçilməsi prosesinin səmərəli təşkilinə və bu zaman əsaslandırılmış prinsiplərə riayət olunması istiqamətində nəzəri - metodoloji tövsiyələrin işlənilməsinə zəruri ehtiyac duyulur.

Bazar münasibətlərinin dəyişən kəskin tələbləri müəssisələrdə digər iqtisadi potensiallardan səmərəli istifadə etməklə yanaşı insan resurslarının düzgün idarə edilməsi sisteminin rasional təşkilini ön plana çəkir. İnsan resurslarının idarə edilməsinə həsr edilmiş, beynəlxalq təcrübəni özündə əks etdirən ədəbiyyatların [4;5;6;7] öyrənilib, ümumiləşdirilməsi göstərir ki, insan potensialının idarə edilməsində əsasən, əmək resurslarından istifadə, heyətin idarə olunması, insan resurslarının idarə edilməsi; insanın idarə edilməsi konsepsiyalarından istifadə olunmaqdadır. Bu baxımdan iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə (ABŞ, Yaponiya, Almaniya və s.) müxtəlif metod, metodologiya və konsepsiyalardan istifadə edilir.

Heyətin idarə edilməsi prinsipləri, iqtisadi münasibətlərə əsaslandırmaqla, insanların şüurlu, məqsədli fəaliyyət sahələrini əhatə edən münasibətlərdir. Bu münasibətlər insanların yaşaması və inkişaf etməsi üçün olduqca zəruri həyat tələbatıdır. Qeyd olunmalıdır ki, idarəetmə prinsiplərinə dünya təcrübəsində çoxsaylı yanaşmalar mövcuddur. Onların daha dolğun təfərrüatı Q.L.Kunts və S.O'Donnelin əsərlərində göstərilir. Həmin müəlliflər öz tədqiqatlarında idarəetmə təcrübəsinə aid on planlaşdırma; on beş təşkilat; on motivləşmə; on dörd nəzarət prinsiplərini araşdırır və sonra öz dövrünün iqtisadi, sosial şəraitinə uyğun gələn heyət üzrə idarəetmə variantları təklif edirlər [4]. Bununla belə onu da qeyd etmək vacibdir ki, idarəetmənin ümumi metodologiyasını bilmədən müəssisədə heyətin korporativ idarə edilməsinin əsas prinsiplərini müəyyən etmək, idarəetmənin obyektləri və subyektlərinin qarşılıqlı əlaqəsinin başlıca qanunauyğunluqlarını, idarəetmənin üslubu və metodlarını təyin etmək, rəhbər işçilərin tabeliyində olan işçilərə təsir üsulları və qaydalarını işləmək, müəssisədə heyətin idarə edilməsinin səmərəli sistemini yaratmaq, işçilərin əmək fəaliyyətinin idarə edilməsi prosesini tənzimləmək mümkün deyildir. Bunlar isə öz növbəsində, idarəetmənin klassik prinsiplərinə əsaslanmalıdır. Bu baxımdan A. Fayolun təklif etdiyi prinsiplər bu gun də idarəetmə təcrübəsində geniş istifadə edilir. Həmin prinsiplər aşağıdakılardır: işə görə əməyin bölünməsi, nüfuz və cavabdehlik, intizam, vahid rəhbərlik, xüsusi marağın ümumi marağa tabe olması, əməyə görə təklif, mərkəzləşmə və qeyri-mərkəzləşmə arasında balans, eyni səviyyədə olan idarəetmə heyəti üzvlərinin işlərinin əlaqə-

ləndirilməsi, qaydalılıq, düzgünlük, yaxşılıq, işçilərin dayanıqlığı, işgüzarlıq keyfiyyətlərini qiymətləndirmək və .s [7].

İdarəetmə heyəti quruluşunun təşkil edilməsi elə optimal olunmalıdır ki, o gələcəkdə normal fəaliyyət göstərmək qabiliyyətinə malik olsun. Buna görə də idarəetmə quruluşunun tətbiqində aşağıdakı bir sıra zəruri tələblər nəzərə alınmalıdır: heyətin quruluşu çevik və bacarıqlı işçilərdən seçilməlidir, heyət idarə aparatı fəaliyyətinin etibarlılığı təmin olunmalıdır, heyətin quruluşuna daxil olanlar bütün sahələrdə qənaətcil olmalıdır.

Məlum olduğu kimi, Azərbaycanın emal sənayesinin aparıcı müəssisələri uzun müddət planlı təsərrüfat sisteminin tələblərinə uyğun fəaliyyət göstərmiş və müvafiq idarəetmə strukturu formalaşdırılmışdır. 2001-ci ildən başlayaraq həmin müəssisələrin səhmdar cəmiyyəti idarəetmə formasına keçməsinə baxmayaraq onların idarəetmə sistemi az təkmilləşmiş, hətta aşağı güclə işlədikləri şəraitdə belə sərt inzibati struktur saxlanılmışdır. Hazıradək Azərbaycanın kimya, neft emalı, maşınqayırma, yeyinti və digər sənaye müəssisələrində menecer vəzifəsi təsis edilməmiş və səlahiyyətli menecerlərə rast gəlmək olmur. Bir çox hallarda əmək müqavilələrinin məzmununda işçinin hüquq və vəzifələri, motivləşdirmə sistemləri bütün reallıqları özündə əks etdirmir. Bu faktlar isə, öz növbəsində, insan resurslarından tələb olunan səviyyədə istifadə olunmasına mənfi təsir göstərir.

Müvafiq istiqamətdə mövcud olan nöqsanları aradan qaldırmaq üçün heyətin idarə edilməsində aşağıdakı spesifik prinsiplərə riayət olunmalıdır: emal müəssisələrinin rəhbərliyi ilə işçilər arasında qarşılıqlı hüquqları, vəzifələri özündə əks etdirən əmək müqaviləsinin imzalanması; müəssisə rəhbərliyi və işçilər arasında qarşılıqlı cavabdehliyin və səlahiyyətlərin bölüşdürülməsi; hər bir işçiyə şəxsiyyət münasibətlərinin göstərilməsi; maddi və qeyri-maddi amillər arasında balans yaratmaqla işçilərin motivləşmə sisteminin yaradılması və onun düzgün təşkili; müəssisədə korporativ mədəniyyətin səviyyəsinin yüksəldilməsi. Bu prinsiplərin icrası çərçivəsində idarəetmə işçilərinin (menecerlərin) əməyinin səmərəliliyi müəssisədə istehsal sahibkarlığının səmərəliliyinin tərkib hissəsi kimi çıxış etməlidir. Odur ki, idarəetmə işçilərinin əməyinin səmərəliliyini müəyyən edərkən, ona müxtəlif metodoloji yanaşmadan-predmet, məhsul, məzmun və nəticə - istifadə etmək lazımdır.

Yeni iqtisadi sistemin ən aktual problemlərindən biri məhz insan resurslarının idarə edilməsinin müasir strukturunun yaradılmasıdır. Tədqiq edilən aspektə həsr edilən mövcud ədəbiyyatların öyrənilib ümumiləşdirilməsi əsasında belə qənaətə gəlmək olar ki, müəssisədə insan resurslarının idarə edilməsi sisteminin səmərəliliyini aşağıdakı bir sıra kəmiyyət və keyfiyyət göstəricisinin səviyyəsi ilə xarakterizə etmək olar: heyətin öyrədilməsinə və inkişafına çəkilən xərcin məbləği; müəssisədə əmək haqqının səviyyəsi ilə rəqib müəssisənin işçilərinin əmək haqqı səviyyəsi arasındakı nisbət; rəhbər işçilər və mütəxəssislər tərəfindən istehsal prosesinin təkmilləşdirilməsi üzrə işləyib hazırladıqları təklif və tövsiyələrin sayı; peşəkarlığın inkişafı üzrə əməli iş planı olan işçilərin sayı; test yolu ilə işə qəbul edilən əməkdaşların sayı; köhnə işçilər tərəfindən istifadə edilən yeni iş yerlərinin sayı; yerinə yetirilən işin nəticələrinə görə mükafatlandırılan işçilərin sayı; keçirilən treninqlərdə iştirak edən işçilərin sayı; vəzifədə il ərzində irəliləyən işçilərin sayı; əmək haqqı əmək məhsuldarlığından asılı olan işçilərin sayı; yüksək və aşağı məhsuldarlıq səviyyəsinə görə əmək haqqı ödənilən işçilərin sayı; attestasiya olunan işçilərin xüsusi çəkisi; "öz-özünü idarəetmə "prinsipi ilə işləyən işçilərin xüsusi çəkisi; heyətin idarə edilməsi xidmətinin işçilərinin sayı ilə müəssisələrdə işçilərin sayı arasındakı nisbət; bir xətti rəhbərə düşən ümumi işçilərin sayı; bir xətti rəhbərə tabe olan struktur bölmənin sayı; ali və orta ixtisas təhsilli mütəxəssislərin nisbəti və s. [1;2]

Azərbaycanın emal müəssisələrində insan resurslarının idarə olunması sisteminin formalaşmasının mövcud vəziyyətinin tədqiqi aşağıdakı nəticəyə gəlməyi sövq etmişdir. Ölkədə həyata keçirilən sosial-iqtisadi islahatlar bir çox emal müəssisələrində çalışan işçilərin maddi rifah halının yaxşılaşdırılmasına təminat yaratmışdır. Yeni müəssisələrin yaradılması və sahibkarlığın inkişafı məşğulluq səviyyəsinin artmasına imkan vermişdir. Lakin, buna baxmayaraq respublikanın emal sənayesinin bir çox sahələrində işçi axıcılığı yüksəkdir. Bu isə öz növbəsində kadrlardan səmərəli istifadəyə öz mənfi təsirini göstərir. Dünyada baş verən qloballaşma prosesi rəqabət mübarizəsini güc-

ləndirməklə çoxçeşidli məhsul istehsal edən emal müəssisələri qarşısında innovativ iqtisadiyyatın inkişafını bir vəzifə kimi qarşıya qoymuş və onun həlli üçün insanın hərtərəfli inkişafını vacibləşdirmişdir. İnsanın inkişafına sərmayə qoyan millət rəqabətə daha davamlı olacaqdır.

ƏDƏBİYYAT

1. Muradov Ş. M. "İnsan potensialı: əsas meyillər, reallıqlar, problemlər (monoqrafiya)" Bakı, "Elm", 2004, 656 s.
2. Məmmədov X. R. Neft emalı müəssisələrində insan resurslarından səmərəli istifadə edilməsi məsələləri. "İqtisadiyyat və audit" № 11 (101), Bakı, 2008, s. 54-58
3. Бухалков М. И. Управление персоналом. М, ИНФРА-М, 2009, 400с.
4. Кунц Г.Л., О'Донелл С. Управление: системный и ситуационный анализ управленческих функций. М, "Экономика", 1995, 250с.
5. Одегов Ю., Журавлев П. Упрвление персоналом. М, ИНФРА-М, 1997, 385с.
6. Шагиев Р.Р., Дьяконова Н.А. Человеческие ресурсы нефтегазовых компаний. М, ИНБ, 2006, 328с.

dos. Xanoğlan Əndəlif oğlu HÜSEYNOV
AKU,

dos. Cəmaləddin Camo oğlu ZƏRBƏLİYEV
ADİU (UNEC)

BÜDCƏ GƏLİRLƏRİNİN FORMALAŞMASININ MÜASİR VƏZİYYƏTİ: REALLIQLAR VƏ PROBLEMLƏR

Xülasə

Məqalədə Dövlət büdcəsinin rolu və əhəmiyyəti, Dövlət büdcəsinin gəlirlərinin mənbələri,büdcə gəlirlərinin formalaşmasında Neft fondundan və qeyri-neft sektorundan daxilolmaların rolu, ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar və qeyri- neft sektorunun inkişafı ilə əlaqədar olaraq son illər büdcə gəlirlərində qeyrl-neft sektorundan daxil olan gəlirlərin rolunun artması konkret statistik materiallar əsasında şərh edilmiş və bununla əlaqədar bəzi təkliflər verilmişdir.

Açar sözlər: dövlət büdcəsi, büdcə gəlirləri, neft fondu,qeyri-neft sektoru, iqtisadiyyatın şaxələndirilməsi, bank sektoru, kredit qoyuluşu.

***

Büdcə dövlətin həyata keçirdiyi iqtisadi və sosial siyasətin güzgüsüdür, dövlət tapşırığına çevrilmiş iqtisadi siyasətin reallaşma forması və dövlətin əsas maliyyə planıdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün yekunlarına həsr edilmiş iclasındakı çıxışında iqtisadiyyatın şaxələndirilmiş formada inkişafını və ölkənin ixrac potensialının artırılmasını mühüm bir vəzifə kimi qarşıya qoyur. [2, s. 3] Ölkə Prezidentinin həyata keçirdiyi iqtisadi islahatlar daxili bazarın qorunmasına, ölkədə azad rəqabət şəraitinin yaradılmasına, ixracı stimullaşdıran pul-kredit və vergi siyasətinin həyata keçirilməsinə, ölkədə investisiya mühitinin yaxşılaşdırılmasına,sahibkarlıgın inkişafına, dövlət büdcəsinin gəlirlərinin artmasına və büdcə gəlirlərində qeyri-neft sektorunun rolunun artmasına əlverişli şərait yaratmışdır. Nəticədə istər ÜDM-də və istərsə də vergi daxilolmalarında qeyri-neft sektorunun payı xeyli artmışdır. 2017-cı ildə ÜDM-in 84,0%-i özəl sektorun, 57,1%-i qeyri-neft sektorunun payına düşmüşdür. [5, s. 55]

İqtisadi və sosial inkişafa maliyyə təminatının yaradılması üçün ölkəmizdə sistem xarakterli tədbirlər görülür. Belə ki, son on beş ildə dövlət büdcəsinin gəlirləri 16,7 dəfə artaraq 2003-cü ildəki 1,2 mlrd.manatdan 2018-ci ildə 20,1 mlrd.manata, dövlət büdcəsinin gəlirlərində qeyri-neft sektorundan daxil olan gəlirlərin həcmi isə 11,4 dəfə artaraq 8,6 mlrd. manata çatmışdır. Bütün maliyyə mənbələri hesabına 2017-ci ildə əsas kapitala investisiya qoyuluşu 15.6 mlrd.

man.təşkil etmişdir ki, bunun da 57,0%-i xarici, 43,0%-i isə daxili investisiyalardan ibarət olmuşdur. [1, s. 4]

Büdcə prosesində başlıca məsələ Dövlət büdcəsinin gəlirlərinin formalaşmasından ibarətdir. Hazırda Dövlət büdcəsinin gəlirləri ÜDM-in 23,5 %-ni təşkil edir. [5, s. 6]

Vergi daxilolmalarının strukturunda qeyri-neft sektorunun payının 80,0 faizə yaxınlaşması dövlət büdcəsinə daxilolmalarda neft-qaz sektorunun payının azaldığını göstərir. Fiziki şəxslərdən gəlir vergisi və məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların bazasının genişləndirilməsi, vergi daxilolmalarının yığım əmsalının artırılması, respublikanın şəhər və rayonları üzrə gəlir və xərclərin tarazlaşdırılması, neftdənkənar sahələrdə iqtisadi fəallığın güclənməsi, qeyri-neft sektorundan dövlət büdcəsinə vergi daxilolmalarının artımında mühüm rol oynayır. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən siyasət ölkənin müxtəlif bölgələrində iqtisadiyyatın və sahibkarlığın daha intensiv inkişafına münbit şərait yaratmış, regionlardan vergi ödənişlərinin payının əhəmiyyətli dərəcədə artmasına səbəb olmuşdur. Hazırda Azərbaycan Respublikası dövlət büdcəsinin gəlirləri aşağıdakı mənbələr hesabına formalaşır.

Cədvəl 1.

2015-2017-ci illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsinin gəlirləri

Göstəricilər	2015		2016		2017	
	mln.man	xüsusi çəki%	mln.man	xüsusi çəki%	mln.man	xüsusi çəki%
Gəlirlərin cəmi	17498.0	100,0	17499.1	100,0	16446,9	100,0
o cümlədən:						
Vergilər Nazirliyi	7118.3	40,7	7015,6	40,1	6972,0	42,4
Dövlət Gömrük Komitəsi	1591,9	9,1	2291.6	13,1	2608,8	15,9
Dövlət Neft Fondu	8130.0	46,5	7615.0	43,5	6100,0	37,1
Sair daxilolmalar	657,8	3,7	576,9	3,3	766,1	4,6

Mənbə: Dövlət büdcəsi haqqında qanunlar.

Göründüyü kimi, 2015- 2017-ci illərdə dövlət büdcəsinin gəlirlərinin müvafiq olaraq 40,7 faizi, 40,1 faizi və 42,4 faizi Vergilər Nazirliyi, 9,1 faizi, 13,1 faizi və 15,9 faizi Gömrük Komitəsi, 46,5 faizi, 43,5 faizi və 37,1 faizi Neft Fondundan ayırmalar, 3,7 faizi, 3,3 faizi və 4,6 faizi isə sair daxilolmalar hesabına formalaşmışdır.

Göründüyü kimi, Dövlət büdcəsinin gəlirlərinin tərkibində qeyri- neft sektorundan daxilolmaların həcmi ildən-ilə artaraq büdcə gəlirlərinin əsas mənbəyinə çevrilir. Lakin buna baxmayaraq Neft Fondundan daxil olan gəlirlər büdcə gəlirlərində hələ də mühüm yer tutur. Belə ki, büdcə gəlirlərinin 2015-ci ildə 8130,0 mln.manatı, 2016-cı ildə 7615,0 mln. manatı, 2017-ci ildə isə 6100,0 min. manatı Neft Fondundan ayırmalar hesabına formalaşdırılmışdır. Bu göstərici istər məbləg və istərsə də xüsusi çəki etibarı ilə getdikcə azalsa da hələ böyük məbləğ təşkil edir. Dövlət büdcəsinin gəlirlərində neft fondundan daxilolmaların həcmi neftin beynəlxalq bazarda qiyməti nəzərə alınmaqla müəyyən edilir. Belə ki, 2016-cı və 2017-ci illərin Dövlət büdcəsində neftin qiyməti 40 ABŞ dolları nəzərdə tutuldugu halda, 2018-ci ilin Dövlət büdcəsində 45 dollar nəzərdə tutulmuşdur. Son illər dövlət büdcəsinin gəlirlərində Neft Fondundan daxil olan vəsaitin rolunu aşagıdakı cədvəl məlumatlarından daha aydın görmək olar.

Cədvəldən göründüyü kimi, 2015-2017-ci illərdə qeyri-neft sektorundan daxilolmalarin xüsusi çəkisi 53,7 faizdən artaraq 57,2 faizə çatmışdır. Ölkəmizdə son illər qeyri -neft sektorunun inkişafı ilə əlaqədar görülən tədbirlər bu göstəricinin daha da artmasına əlverişli şərait yaradacaqdır.

Lakin qeyd etmək lazımdır ki, iqtisadiyyatın dinamik inkişafı vergi, gömrük, pul-kredit və investisiya siyasəti sahəsində kompleks tədbirlərin həyata keçirilməsini tələb edir. Vergi və gömrük rüsumlarının milli iqtisadiyyatın inkişafına təsiri digər iqtisadi vasitələrlə, xüsusilə pul-kredit siyasətilə kifayət qədər dəstəkləndikdə, həmçinin bu siyasət iqtisadiyyatda struktur islahatları aparılmasından dəstək aldığı halda iqtisadi artımın daha sürətlə inkişafı təmin edilə bilər.

Cədvəl 2

2015-2017-ci illərdə Dövlət büdcəsinin gəlirlərində Neft Fondundan daxilolmaların həcmi

Göstəricilər	2015		2016		2017	
	mlrd. man	xüsusi çəki%	mlrd. man	xüsusi çəki%	mlrd. man	xüsusi çəki%
Dövlət büdcəsinin gəlirləri – cəmi:	17,5	100,0	17,5	100,0	20,1	100,0
o cümlədən:						
a) Qeyri-neft sektorundan daxilolmalar	9,4	53,7	9,9	56,6	11,5	57,2
b) Neft Fondundan ayırmalar	8,1	46,3	7,6	43,4	8,6	42,8

Mənbə: Mərkəzi Bankın internet saytı stat. bülleten, səh. 6.

İqtisadiyyatın pula tələbatının ödənilməsi iqtisadi inkişafa dinamizm gətirməyin vacib şərtlərindən biridir. İqtisadiyyatın pula tələbatının ödənilməsi dövriyyədə olan pul kütləsinin ÜDM-ə olan nisbətilə müəyyən edilir.

İqtisadiyyatın normal inkişafı və dövlət büdcəsinin icrası üçün bu göstərici 70-80 faiz təşkil etməlidir. Qərbi Avropa ölkələrində dövriyyədə olan pul kütləsinin ÜDM-ə nisbəti 80 faiz, ABŞ-da isə 120 faiz təşkil edir. Azərbaycanda bu göstərici 2017-ci ildə 17,8 faiz təşkil etmişdir. Göründüyü kimi, bu göstərici inkişaf etmiş ölkələrdən 4-5 dəfə geri qalır.

ÜDM istehsalının artımı ilə pul kütləsi arasında optimal nisbətin təmin olunmaması iqtisadiyyatın dinamik inkişafına mənfi təsir edir. İqtisadiyyatın inkişafına şərait yaratmaq və iqtisadi aktivliyi artırmaq məqsədilə ÜDM-in artım tempi ilə dövriyyədə olan pul kütləsinin həcminin artım tempi arasında optimal nisbətin yaradılması məqsədəuyğun olar. Belə ki, 2017-ci ildə ÜDM istehsalı 2016-cı ilə nisbətən 16,0% artdıgı halda tədavüldəki pul kütləsinin həcmi 8,7% artmışdır. Göründüyü kimi, burada əsas məqsəd pul qıtlığı yaratmaqla manatın sabitliyinin qorunmasından ibarətdir. Lakin sərt pul-kredit siyasəti qısamüddətli bir dövr üçün özünün müsbət nəticələrini verir. Uzunmüddətli dövrdə iqtisadi fəallığı artırmaq, sosial-iqtisadi inkişafa dinamizm gətirmək, xalqın rifahının daha da yüksəldilməsinə nail olmaq, yeni iş yerlərinin açılmasına nail olmaq pul-kredit, büdcə-vergi siyasətini təkmilləşdirməyin əsas istiqamətini təşkil etməli, pul kütləsilə ÜDM istehsalı arasında optimal nisbətin yaradılması üçün radikal tədbirlər görülməlidir.

Dünya təcrübəsi göstərir ki, etibarlı bank sistemi olmadan və əlverişli faizlərlə kreditlər verilmədən iqtisadiyyatı dinamik inkişaf etdirmək, büdcə gəlirlərini artırmaq qeyri-mümkündür.

Azərbaycan iqtisadiyyatına kredit qoyuluşunun həcmi 2017-ci ildə 11,8 mln. man. təşkil etmiş və onun ÜDM-ə nisbəti isə 16,8 faiz olmuşdur. Halbuki bu göstərici 2014-cü ildə 31,3 faiz, 2015-ci ildə 40.0 faiz, 2016-cı ildə isə 27,2 faiz təşkil edirdi [5 s.17]. 2015-ci ildə ölkəmizdə keçirilən devalvasiyadan sonra 11 bankın bağlanması və kreditlərin verilməsi qaydalarında edilən dəyişikliklər iqtisadiyyata kredit qoyuluşunun həcmində azalmaya səbəb olmuşdur ki, bu da iqtisadi aktivliyə mənfi təsir edən amillərdən biridir.

Mərkəzləşdirilmiş kredit resurslarına görə Mərkəzi Bankın müəyyən etdiyi faiz dərəcəsi hazırda 11% təşkil edir. İnflyasiyanın səviyyəsini də nəzərə alsaq kreditlər 20-25 faizdən yuxarı başa gəlir. Bu da müəssisələrin orta rentabellik səviyyəsindən xeyli yüksək olduğuna görə sahibkarlar üçün böyük maliyyə çətinliyi yaradır, kreditlərin qayıtmamasına və problemli kreditlərin həcminin daha da artmasına səbəb olur. Nəticədə son illərdə problemli kreditlərin həcmi ildənilə artaraq 2014-cü ildəki 1,0 mlrd manatdan 2017-ci ildə 1,6 mlrd. manata çatmışdır ki, bu da ümumi kredit qoyuluşunun 13,6%-ni, ÜDM-in isə 2.4%-ə qədərini təşkil edir. [5 s.17]

Kreditlərin ödənilməsi xüsusilə ölkədə həyata keçirilən devalvasiyadan sonra xeyli çətinləşmişdir. Bu, banklara da böyük problem yaradır. Problemi ancaq üçtərəfli qaydada (dövlət, banklar və borcalanlar) həll edilməsi kredit borclarının xeyli hissəsinin qaytarılmasına və iqtisadi fəallığın artmasına şərait yarada bilər. Problemin həllinin ləngiməsi iqtisadi inkişafa son dərəcə mənfi təsir edən amillərdən biridir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri, "İqtisadiyyat" qəzeti, 19-25 aprel 2018-ci il.
2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübündə sosial-iqtisadi inkişafın yekunları və qarşıda duran vəzifələrə həsr edilmiş iclasında çıxışı, "Azərbaycan" qəzeti,13 aprel 2018-ci il s.1-4.
3. Qeyri-neft sektorunun artımı iqtisadi inkişafa təkan verir."Vergilər" qəzeti, 2 may 2018-ci il, s. 5.
4. Qeyri- neft sektoru üzrə ixrac yüksələn templə davam edir." Vergilər" qəzeti, 24 yanvar 2018-ci il, s. 3.
5. Azərbaycan Respublikasi Mərkəzi Bankının internet saytı, statistik bülleten, 12/2017 s. 3, 6, 17.

Ханоглан Анделиф оглы Гусейнов

доц. АУК;
Джамаледдин Джамо оглы Зарбалиев
доц. АГЭУ

Современное состояние формирования доходов бюджета: реальности и проблемы

Резюме

В статье на основании конкретных статистических материалов изложены роль и значение Государственного бюджета,источнили доходов бюджета,роль поступлений из Нефтяного фонда и ненефтяного сектора в формировании доходов бюджета, повышение роли ненефтяного сектора, в результате осшествляемые экономической реформы и развитие ненефяного сектора и в связи с этим представлены некоеорые предложения.

Ключевые слова: Государственный вюджет, вюженые доходы, Нефтяной фонд, ненефтяной сектор, разветвление экономики, банковский сектор, кредитные вложения.

Khanoglan Andalif Huseynov
ass. prof. ACU;
Jamaleddin Jamo Zarbaliyev
ass. prof. UNEC

Modern state of the formation of budget incomes: realities and problems

Summary

In the article,the role and significance of State budget ,income sources of State budget, the role of profits received from oil fund and nonoil sector in the formation of budget income, economic reforms and increase of the role of profits recently received from non- oil sector in budget incomes in connection with the development of non-oil sector have been discussed on the basis of certain statistic materials and some proposals have been forwardedin this respect.

Key words: state budget, budget incomes, oil fund, non-oil sector, enhancement of economy, bank sector, credit investments.

prof. Əfşan Əsəd qızı MƏMMƏDOVA,
dos. Sara İbrahim qızı SƏFƏROVA,
Kifayət Sobəddin qızı QULİYEVA
Azərbaycan Kooperasiya Universiteti

MADDİ – TEXNİKİ RESURSLARA OLAN TƏLƏBATIN PROQNOZLAŞDIRILMASI

Xülasə

Məqalə maddi-texniki resurslara olan tələbatın proqnozlaşdırılmasında müəyyən üsullar sisteminin tətbiqinə həsr edilib. Resurslara olan tələbatın proqnozlaşdırılmasının müəyyən üsullar sisteminin tətbiqilə həyata keçirilməsinin daha məqsədəuyğun olduğu qeyd edilib. Bu və ya digər üsulların seçilməsinin planlaşdırmanın, idarəetmənin səviyyəsindən, vaxt aspektindən, hesablamaların aparılması üçün zəruri olan başlanğıc verilənlərin mövcudluğundan asılı olduğu göstərilir.

Açar sözlər: normativ üsul, makrosəviyyədə, mezosəviyyədə, ekstrapolyasiya üsulu, indeks üsulu, nümunəvi təmsilçilər üsulu.

***

Maddi-texniki resurslarla təchizatın təşkilati-iqtisadi mahiyyəti ondan ibarətdir ki, o, məhsuldar qüvvələrin, istehsal münasibətlərinin inkişafının müəyyən mərhələsinə və cari zamanda qüvvədə olan iqtisadiyyatı idarəetmə mexanizminə uyğun olan müxtəlif formalarda istehsal vəsaitlərinin tədavülü və bölüşdürülməsi proseslərini əks etdirir. Təsərrüfat mexanizminin üzvi hissəsi olmaqla, maddi-texniki resurslarla təchizat iqtisadiyyatın inkişafına bilavasitə təsir göstərir və böyük əhəmiyyət kəsb edir. [1, s.76]

Maddi-texniki resurslara olan tələbat, onların istifadəsinin bütün istiqamətləri üzrə təyin edilməlidir: əsas istehsal, kapitaltutumlu tikinti üçün, təmir-istismar ehtiyaclarının təmin edilməsinə, elmi-tədqiqat işlərinə, ixracata, istehsal ehtiyatlarının yaradılmasına.

Kommersiya işinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi, reallığı, əlbəttə, həm xərcin və həm də həmin xərcin gətirdiyi səmərənin düzgün müəyyən edilməsindən asılıdır. [3, s. 515]

Resurslara olan tələbatın proqnozlaşdırılmasını müəyyən üsullar sisteminin tətbiqi ilə həyata keçirmək daha məqsədəuyğundur. Bu və ya digər üsulların seçilməsi planlaşdırmanın və idarəetmənin səviyyəsindən, vaxt aspektindən, hesablamaların aparılması üçün zəruri olan başlanğıc verilənlərin mövcudluğundan asılıdır. [2, s. 6]

Başlanğıc mərhələlərdə *qısamüddətli proqnozların* işlənib hazırlanması zamanı, *ekstrapolyasiya üsullarından* istifadə etmək daha məqsədəuyğundur. Bu üsullar arasında ən kiçik kvadratlar üsulunu istifadə etməklə müəyyən zaman ərzində resursların əsas istehlak meyillərini (tendensiyasını) təyin etməyi nəzərdə tutan seçmə funksiyalar üsulunu fərqləndirmək lazımdır. [2, s.79]

Ən kiçik kvadratlar üsulunun modifikasiyaları da tətbiq edilə bilər: adaptiv hamarlama, tənzimlənən trendli eksponensial hamarlama, xətti trendli sürüşən orta və s.

A materiallarına olan tələbatın proqnozlaşdırılması üçün, bir – və çoxfaktorlu modellərdən istifadə etmək olar. Birfaktorlu modelin köməyi ilə maddi resursların istehlakının məhsul istehsalının həcmindən asılılığını müəyyən etmək olar:

$$A = a_0 + a_1 x_1,$$

burada a_0 və a_1 – reqressiya əmsalları; x_1 – isə istehsalın həcmidir.

Proqnozun dəqiqliyini artırmaq məqsədilə, verilmiş modelə zaman faktorunu də əlavə etmək olar:

$$A = a_0 + a_1 x_1 + a_2 t.$$

Bu tip ikifaktorlu model proqnozlaşdırılan dövrdə maddi-texniki resurslara olan tələbatı daha dəqiq əks etdirə bilir. Belə ki, o, istehsal üçün tələb olunan resursların miqdarına bilavasitə təsir edən yalnız istehsalın həcmini deyil, həmçinin zaman meyillərini nəzərə alan zaman faktorunu da əks etdirir. Modelə digər amilləri da əlavə etmək olar. Ekspert qiymətləndirmələri ilə uyğun şəkildə modelləşdirmə üsullarını, həmçinin perspektivdə resurslara olan tələbatı proqnozlaşdırmaq üçün də istifadə etmək məqsədəuyğundur.

Hazırda praktikada maddi-texniki resurslara olan tələbatın təyin edilməsi üçün istifadə edilən *normativ üsul* da geniş tətbiq edilir. O, iqtisadi idarəetmənin bütün mərhələlərində tətbiq edilir: makro-, mezo- və mikro səviyyələrdə.

Makrosəviyyədə, *j*-ci istehlakçı- sahənin məhsulunun vahidinə düşən *i*-ci istehsalçı-sahənin məhsullarının orta sahəvi məsrəf normativlərinin istifadəsini-a_{ij} nəzərdə tutan, artırılmış normativlər üsulu tətbiq edilir. Sahələrarası balansın işlənib hazırlanması zamanı, onların əsasında sahələrarası təchizatlar və hər bir sahənin digər məhsullarına olan tələbatı (A_i) təyin edilir:

$$A_i = a_{ij}x_j,$$

burada x_j , *j*-ci istehlakçı sahənin istehsalının həcmidir.

Mezosəviyyədə (regional və sahəvi) maddi resursların məsrəflərinin qrup normaları tətbiq edilir, məsələn, bir ton şirniyyat məmulatına düşən şəkərin məsrəf norması. Qrup çeşidində məhsul istehsalının proqnozlaşdırılan həcmlərini və qrup üzrə məsrəf normalarını bilərək, müəyyən dövr üçün konkret resursa olan tələbatı hesablamaq olar.

Mikrosəviyyədə resurslara olan tələbatın təyin edilməsinin normativ üsulu, "birbaşa hesab üsulu" adlanır. Bu üsul məhsul (işin) vahidinə düşən məhsul istehsalının həcminin (yerinə yetirilən işlərin) və maddi resursların məsrəf normalarının istifadəsinə əsaslanıb. Konkret maddi resursa olan tələbat (A_i), aşağıdakı formul ilə təyin edilir:

$$A_i = \sum_{j=1}^{n} H_{ij}q_j, \quad i = \overline{1,m},$$

burada *n* – verilmiş materialın istifadə edildiyi işlərin və ya məhsulların növlərinin miqdarı; H_{ij} – işlərin və məhsulun j – ci növünün vahidinə düşən i- materialın sərfiyyat norması; q_j – j-ci növ məhsulun istehsalının proqnozlaşdırılan həcmidir.

İşlərin və məhsulun vahidinə düşən material resursların məsrəf normalarının təyin edilməsi zamanı, norma yaradan elementlər üzrə normanın strukturuna və tərkibinə istinad edirlər. Bir qayda olaraq normanın tərkibinə üç element daxildir:

- xalis məsrəf – məhsul vahidinin istehsalına materialların, enerjinin bilavasitə faydalı məsrəfdır;
- texnoloji tullantılar və itkilər – istehsal texnologiyasının (yonqar, yonulma, dəm qazı, qatışıqlar və digər tullantılar) xüsusiyyətlərindən asılı olan məsrəfdir;
- elm və texnikanın inkişafının cari səviyyəsində və hazırda tətbiq edilən təsərrüfatçılıq üsulları vasitəsilə aradan qaldırılması mümkün olmayan digər texniki – təşkilati tullantılar və itkilər.

Normaların hər bir əsas elementi üzrə onların azaldılmasının mümkün ehtiyatları aşkar edilməli və daha proqressiv normaların tətbiqi məsələsi həll edilməlidir.

Məsrəf normasının təyin edildiyi obyektdən asılı olaraq, məmulat və detal normaları fərqlənir. Birinci halda tələbat məmulat istehsalı proqramına və bir məmulatın istehsalına düşən konkret materialın məsrəf normasına əsasən, ikinci halda isə detalların istehsalı proqramına və bir detala (istehsalına) düşən məsrəf normasına əsasən təyin edilir. Birinci üsul əsasən planlaşdırmanın ilkin mərhələsində, resurslara olan tələbatın iriləşdirilmiş nomenklaturada hesablandığı halda, ikincisi isə - növbəti mərhələlərdə, sexlərin material buraxılışının limitlərinin müəyyən edilməsi üçün, spesifikasiya üzrə resurslara olan tələbatın hesablanması zamanı istifadə edilir.

Proqnozlaşdırma və planlaşdırma praktikasında birbaşa hesablama üsulunun modifikasiyaları da tətbiq edilir. Xüsusən, maddi resurslara olan tələbat analogiya (tipoloji təmsilçiləri) üzrə də təyin edilə bilinir.

Materialların zəruri miqdarının analogiya üsulu ilə hesablanması, istehsalı planlaşdırılan yeni məmulat üçün hələ məsrəf normalarının təyin edilmədiyi zaman həyata keçirilir. Bu halda verilmiş məmulat, məsrəf normalarının təyin edildiyi hər hansı bir digər analoji məmulata bərabər tutulur. Bu zaman yeni məmulatın istehsalı ilə əlaqədar olaraq materialın məsrəfinin xüsusiyyətləri, həmçinin düzəliş əmsalının daxil edilməsi yolu ilə analoji məmulatla müqayisədə verilmiş məmulatın özünün xüsusiyyətləri də nəzərə alınır. *i*-ci resursa olan tələbatın (A_i) hesablanması üçün, növbəti düstur istifadə edilir:

$$A_i = N_{ai}q_jK_j,$$

burada N_{ai} – analoji məmulatın istehsalına düşən i-materialın məsrəf norması; q_j – istehsalı üçün i-materialına olan zəruri tələbatın hesablandığı j-məmulatının istehsal planı; K_j – düzəliş əmsalıdır.

Məmulatların geniş çeşidinin mövcud olduğu halda, istehsal proqramı ümumilikdə məmulatların qrupu üzrə qurula bilər. Ayrı-ayrı məmulatların material tutumluluğunda nəzərəçarpacaq fərqlər mövcud olduğu halda, məsrəf norması orta qəbul edilmiş varianta daha yaxın olan məmulatlar qrupunun nümunəvi təmsilçisində istifadə edilir.

Nümunəvi təmsilçilər üsulu yüngül sənayenin radiotexnika, elektrotexnika, instrumental və digər sahələrində geniş yayılmışdır. Bu üsula əsasən konkret materiala olan tələbat, nümunəvi təmsilçinin materialının məsrəf norması bütün məmulatların ümumi istehsal proqramının hasili şəklində təyin edilir:

$$A_i = N_{in}Q,$$

burada N_{in} – verilmiş məmulatlar qrupunun nümunəvi təmsilçisinin vahidinə düşən i-materialının istehlak norması; Q – verilmiş məmulatlar qrupunun istehsal planıdır.

Qeyd etmək lazımdır ki, bu üsul üzrə hesablamaların dəqiqliyi, bazis dövrü ilə müqayisədə plan dövründə istehsalın strukturunun dəyişməsi zamanı azalır.

İdarəetmənin bütün səviyyələrində, maddi-texniki resurslara olan tələbatın təyin edilməsinin də *indeks üsulunu* tətbiq etmək olar.

Hesablama növbəti formul əsasında yerinə yetirilir :

$$A_{ni} = A_{bi}J_QJ_{Ni},$$

burada A_{ni}, A_{bi} – plan dövründə i-materialına olan tələbat və uyğun olaraq bazis dövründə onun faktiki məsrəfi; J_Q – plan dövründə məhsul istehsalının həcminin dəyişməsinin indeksi; J_{Ni} – plan dövründə i-materialının məsrəf normalarının dəyişməsinin indeksidir.

İndeks üsulu maddi resurslara olan tələbat üzrə aparılan hesablamalarda çox sadəliyi və operativliyi ilə fərqlənir. O, həm müəssisə (təşkilat), həm də digər səviyyələrdə idarəetmə üzrə qərarların qəbul edilməsi məqsədilə bu və ya digər resursa olan tələbat haqqında çox qısa müddətdə zəruri informasiyanı əldə etməyə imkan verir. Verilmiş üsulun çatışmamazlığı ondan ibarətdir ki, onun tətbiq edilməsi zamanı plan dövründə maddi resursların sərfiyyatının bütün xüsusiyyətlərini nəzərə almaq mümkün olmur, buna görə də bazis dövrünün materiallarının istifadəsində mövcud olmuş qüsurlar, avtomatik olaraq plan dövrünə keçir.

Yeyinti, metallurgiya sənayesində, tikinti materialları sənayesində maddi resurslara olan tələbatı təyin etmək üçün, *reseptur tərkib* üsulundan istifadə edilir, yəni müəyyən edilmiş məhsul buraxılışı planı və məhsulun hazırlanma reseptinə uyğun olaraq, məhsulun hər bir növü üçün *tələb olunan konkret materialın miqdarının hesablanması həyata keçirilir.* Məsələn, reseptə əsasən çörək və çörək məmulatlarının bir tonuna düşən un məsrəfi *a* kq təşkil edir. *Q* plan dövründə bu məhsulun mövcud olacaq istehsal həcmində una olacaq tələbat *A*, aşağıdakı şəkildə hesablanacaqdır:

$$A = a \cdot \frac{Q}{K_b},$$

burada K_b – məhsulun buraxılış əmsalıdır.

Müasir şəraitdə xammal, material və yanacaq-energetika resurslarına olan tələbatı təyin etmək üçün, resursların rasional istifadəsini nəzərə alaraq məhsulun çeşidli buraxılışının strukturunu formalaşdırmağa imkan verən *optimallaşdırma üsullarını* tətbiq etmək məqsədəuyğundur. Onların tətbiqi mütləq surətdə xüsusilə vacib, çatışmayan resurslar üzrə məhdudiyyətləri tərkibinə daxil edən iqtisadi-riyazi modelin yaradılmasını nəzərdə tutur. *i* –materialına olan tələbat məsrəf normaları a_{ij} və planın optimal variantında məhsulun axtarılan miqdarı x_j əsasında təyin edilir.

Materiallara olan tələbatın proqnozlaşdırılması zamanı, *ehtiyatların təyin edilməsinə* xüsusi yer verilməlidir. Ehtiyatların yaradılmasının vacibliyinin əsas səbəbi, maddi resursların istehsalı və istehlakı proseslərinin məkan və zaman etibarilə üst-üstə düşməməsidir. Ehtiyatlar, maddi nemətlərin onların aktiv istifadə sferasından minimal kənarlaşdırılması zamanı, istehsal prosesinin dayanıqlılığını təmin etməyə xidmət edirlər. Ehtiyatların həcminin azalmasına istehlak yerlərinə

resursların çatdırılmasının sürəti, etibarlılığı və müntəzəmliliyi, vaxtında maliyyə hesablamalarının və bir sıra digər amillərin (işlərin mövsümiliyi, iqtisadi vəziyyətin stabilliyi və s.) həyata keçirilməsi təsir edir.

Ehtiyatların normalaşdırılması, ehtiyatların norması N_E-in öz tərkib elementlərinə - cari N_c, sığorta N_s və hazırlıq N_h normalarına bölünməsinə əsaslanmışdır, yəni :

$$N_E = N_c + N_s + N_h.$$

Cari ehtiyatlar, resursların intervallarla daxil olduqları təqdirdə istehsal prosesinin stabilliyini təmin etmək üçün nəzərdə tutulur; *sığorta ehtiyatları* – resurslarla faktiki təchizat şərtlərinin və digər gözlənilməz hadisələrin baş verməsi zamanı nəzərdə tutulan şərtlərdən meyil etdiyi halda istehsal prosesinin təchizatna nail olmaq üçün vacibdir; *hazırlıq ehtiyatları*– xammal və material partiyalarının istehsal xərclərinə hazırlanması üçün tələb olunur.[1, s.85]

Deməli, proqnoz hesablamaları əsasında müəssisələr, təşkilatlar, sahələr səviyyəsində və makrosəviyyədə, balans hesablamaları prosesində tələbatın resurslarla əlaqələndirilməsi zamanı daha da dəqiqləşdirilə bilən təsərrüfat miqyasında resurslara olan ümumi tələbat formalaşır.

ƏDƏBİYYAT

1. Məmmədova Ə.Ə. Sosial-iqtisadi proseslərin proqnozlaşdırılması. Bakı, 2005, s.184.
2. Musayev A.F., Qəhrəmanov A.Q. İqtisadiyyatda riyazi modelləşdirmə və proqnozlaşdırma. Bakı, Kür nəş.tı., 1998, s.452.
3. Telman Hüseynov. Müəssisənin İqtisadiyyatı. Bakı, 2005, s.661.
4. www. iqtisadiyyat.com

проф, Афшан Асед кызы Мамедова,
доц, Сара Ибрагим кызы Сафарова,
Кифаят Собеддин кызы Кулиева
Азербайджанский Университет Кооперации

Прогнозирование спроса на материально-технические ресурсы

Резюме

В статье основное внимание уделяется применению конкретной методологии прогнозирования материально-технических ресурсов. Было отмечено, что прогнозирование спроса на ресурсы более целесообразно с внедрением системы конкретных методов. Выбор тех или иных методов зависит от уровня планирования, уровня управления, временного аспекта и наличия загрузочных данных, необходимых для расчетов.

Ключевые слова: нормативный метод, макроэкономика, мезо-уровень, модель экстраполяция, индексный метод, образцовые представители.

prof. Afshan Assed Mamedova,
ass.professor Sara Ibrahim Safarova,
Kifayat Sobeddin gizi Guliyeva
The Azerbaijan University of Cooperation

Predicting demand for material and technical resources

Summary

The article focuses on the application of a specific methodology for forecasting material and technical resources. It was noted that the forecasting of the demand for resources is more expedient with the implementation of a system of specific methods. The choice of these or other methods depends on the planning, management level, time aspect, and the availability of startup data required for calculations.

Key words: normative method, macroeconomics, mezzo-level, model of extrapolation, index method, exemplary representatives method.

Elnarə Nəbi qızı ƏHMƏDOVA
i.f.d., Azərbaycan Kooperasiya Universiti

MİLLİ İQTİSADİYYATDA SAHİBKARLIQ FƏALİYYƏTİNİN STİMULLAŞDIRILMASINDA VERGİ İSLAHATLARININ ROLU

Xülasə

Tezisdə milli iqtisadiyyatda sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasında vergi islahatlarının rolu haqqında məlumat verilir. KOS-un inkişafına vergi mexanizmlərinin təsiri və bu islahatların keçirilməsinin üstünlüyü əks olunur. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsindən irəli gələn vergi islahatlarının stimullaşdırılmasına dair məsələlər araşdırılır.

Açar sözlər: milli iqtisadiyyat, vergi islahtları, kiçik və orta sahibkarlıq, könüllü vergi açıqlamaları.

***

"Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi" (bundan sonra - Strateji Yol Xəritəsi) ölkə iqtisadiyyatında rəqabətqabiliyyətliliyin, inklüzivliyin və dayanıqlılığın təmin olunması istiqamətində bütün ölkə üzrə həyata keçirilən tədbirlərin bir hissəsi olaraq hazırlanmışdır. Bu tədbirlər ölkə iqtisadiyyatının on bir müxtəlif sektorunu, eləcə də hər bir sektor üzrə ümumi mövzuları əhatə edən Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivləri üzrə strateji yol xəritələrini özündə birləşdirir. Milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə, ümumilikdə, 12 strateji yol xəritəsi Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" Sərəncamının icrası məqsədilə hazırlanmışdır. Strateji Yol Xəritəsi KOS-da iqtisadi islahatların və inkişafın qısa, orta və uzunmüddətli perspektivdə əsas istiqamətlərini müəyyənləşdirir. Bu sənəd 2020-ci ilədək strateji baxışdan, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışdan və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdir. Strateji Yol Xəritəsində 2016-2020-ci illər üçün inkişaf strategiyası və tədbirlər planında yalnız müvafiq dövr üçün strateji məqsəd və hədəflər deyil, eyni zamanda, həmin illər ərzində qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün müəyyənləşdirilmiş prioritetlər və həmin prioritetlər çərçivəsində həyata keçiriləcək tədbirlər qeyd edilmiş və hər bir tədbirin adı, əsas və digər icraçıları, nəticə indikatorları və konkret icra müddəti əks olunmuşdur. Həmin prioritetlərin qısamüddətli dövrdə effektiv icrası orta və uzunmüddətli dövrdə həyata keçirilməsi nəzərdə tutulan növbəti addımların əsasını təşkil edəcək və bununla da icra prosesinin səmərəliliyi təmin ediləcəkdir. Strateji Yol Xəritəsinin icrası qeyri-hökumət təşkilatları, yerli və beynəlxalq özəl sektor tərəfdaşları ilə kommunikasiya və əməkdaşlıq şəraitində təmin ediləcəkdir. Ölkədə sahibkarlığın inkişafı ilə əlaqədar Strateji Yol Xəritəsində müəyyənləşdirilən strateji məqsədlərə nail olmaq və müvafiq imkanlardan maksimum istifadəni təmin etmək məqsədi ilə KOS sahəsində stimullaşdırıcı vergi islahatlarının davam etdirilməsi strateji hədəf olaraq müəyyənləşdirilmişdir. [1, səh. 4]

Əsas fəaliyyət Azərbaycanda KOS subyektlərinə münasibətdə qanunvericilik bazasının təkmilləşdirilərək maliyyə və vergi siyasətinin stimullaşdırıcı təsirinin gücləndirilməsi, maliyyə resurslarına əlçatanlığın artırılması, texniki və informasiya bazasının gücləndirilməsi və KOS subyektlərinin ərazi üzrə optimal yerləşdirilməsi, daxili bazarın qorunması, bazar infrastrukturlarının inkişaf etdirilməsi, zəruri sənədlərin alınmasında "bir pəncərə" prinsipinin tətbiq edilməsi, bu sahəni təmsil edən subyektlər arasında qarşılıqlı fəaliyyətin gücləndirilməsi və s. kimi istiqamətlərə yönəldiləcəkdir.

Müəyyən edilmiş strateji hədəflərə nail olmaq üçün təxminən 700 milyon manat investisiya tələb olunur ki, nəticədə 2020-ci ildə iqtisadiyyatda təxminən 1 milyard 260 milyon manat əlavə dəyərin və 34240 yeni iş yerinin yaradılması gözlənilir.

Strateji yol xəritələrindən irəli gələn vəzifələrdən biri Azərbaycanda sahibkarların hüquqlarının və qanuni mənafelərinin qorunması və müxtəlif dövlət orqanları tərəfindən yoxlamaların sayının azaldılmasıdır ki, bu məqsədlə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanunda yoxlamaların qanuniliyi, məqsədi və prinsipləri, yoxlayıcı orqanların səlahiyyətləri, risk qiymətləndirilməsi sistemi, yoxlamaların qeydiyyatı kimi məsələlər öz əksini tapmışdır. Qanunda, ilk dəfə olaraq, yoxlayıcı orqan tərəfindən sahibkarlara məsləhət xidmətlərinin göstərilməsi, yoxlamaların risk qiymətləndirilməsi prinsipi əsasında təyin edilməsi, yoxlamaların elektron uçotu və yoxlamalar həyata keçirilərkən yoxlama suallarının siyahısının tətbiqi nəzərdə tutulur. Qanuna əsasən, sahibkarlıq subyektlərində yoxlamalar risk qrupları üzrə bölgüyə uyğun olaraq həyata keçirilir. Risk metodologiyasına əsasən aşağıriskli qruplarda yoxlamaların sayı minimuma, yəni üç ildə bir dəfəyə endirilmişdir. Bundan əlavə, yoxlayıcı orqanlar yoxlama predmetini təşkil edəcək sualları əvvəlcədən onlayn resurslar vasitəsilə sahibkarlıq subyektinə çatdırmalıdırlar. [2] Eyni zamanda, strateji yol xəritələrindən irəli gələrək "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Qanun qəbul edilmiş və Azərbaycan Respublikası ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 (iki) il müddətinə dayandırılmışdır. Biznes və investisiya mühitinin yaxşılaşdırılması istiqamətində sistemli tədbirlər həyata keçirilmiş, sahibkarlığın inkişafı ilə bağlı bir sıra mühüm qərarlar qəbul edilmiş, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin müraciətlərinə baxılması sahəsində çoxpilləliyin təmin edilməsi, mərkəzi və yerli hakimiyyət orqanlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən yuxarı orqana şikayət verilməsi mexanizminin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında, habelə mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuraları yaradılmışdır. Vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın yüksəldilməsi və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması və ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun olaraq real vergi potensialının müəyyən edilməsi üçün vergi sistemində islahatların davam etdirilməsi, verginin stimullaşdırıcı təsirinin önə çəkilməsi və vergi inzibatçılığının daha da təkmilləşdirilməsi zəruridir. Bu istiqamətdə atılan mühüm addımlardan biri də "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamıdır. Həmin Sərəncamda vergi sahəsində 21 istiqamət üzrə islahatların aparılması nəzərdə tutulmuşdur ki, bu da vergi sahəsində əsaslı aparılacaq islahatlara yol açacaq. [3]

Strateji yol xəritələrindən irəli gələrək, kiçik və orta sahibkarlığı stimullaşdırmaq, pərakəndə ticarətdə rəqabət mühitini təmin etmək və vergi yükünü optimallaşdırmaq məqsədilə, pərakəndə ticarət fəaliyyəti ilə məşğul olanlardan ƏDV ticarət əlavəsindən tutulacaq.

Aydın olur ki, qarşıda duran məqsəd vergi ödəyiciləri və vergi orqanları arasında təması minimuma endirmək, elektron audit kimi məsafədən nəzarət tədbirlərinə üstünlük verməkdir. Vergi yoxlaması əlavə vergi toplamaq üçün vasitə yox, vergidən yayınmanın qarşısını almaq üçün çəkindirici tədbir olmalıdır. İstər kameral, istərsə də səyyar vergi yoxlamalarının aparılma əsaslarında konkretlik yaradılmalı, yoxlamaların təyin edilməsi üçün konkret meyarlar müəyyən edilməli və başlanılan yoxlamanın əsasları barədə vergi ödəyicisinə məlumat verilməsi təmin edilməlidir. Aparılacaq islahatlar vergi ödəyiciləri tərəfindən tam və düzgün uçotun qurulmasını da zəruri edəcək. Dövlətin bu sahədə olan resursları qənaətlə istifadə edilməli və yoxlamalar mümkün qədər selektiv aparılaraq onların tez bir zamanda başa çatdırılması təmin edilməlidir. Bu sahədə mümkün qədər obyektiv yanaşmanı təmin etmək məqsədilə hökumət bir sıra qabaqcıl tədbirlər görmək niyyətindədir. Bu cür tədbirlərə vergi öhdəliklərinin məbləğinin əvvəldən vergi orqanları ilə razılaşdırılması (Advance tax ruling), "rəqəmsal iqtisadiyyatın" (digital economy) vergiyə cəlb edilməsi, vergidən yayınma hallarının qarşısını almaq məqsədilə ictimai məlumatlandırma (Whistleblow) və könüllü vergi açıqlaması (Voluntary tax disclosure) kimi mütərəqqi tədbirlər misal göstərilə bilər. Könüllü vergi açıqlaması sisteminin maraqlı cəhəti ondan ibarətdir ki, bu bazarda fəaliyyət göstərən əksər sahibkarlıq subyektləri üçün maraqlı ola bilər. Könüllü vergi açıqlaması müqaviləsi bağlandığı zaman keçmişdə baş vermiş pozuntulara görə vergi ödəyicisi məsuliyyətə cəlb olunmur və gələcəkdə qanunvericiliyə tam əməl edəcəyi barədə öhdəlik götürür. Bu isə bir növ vergi amni-

stiyasını xatırladır. Təəssüf ki, Azərbaycanda hələ də kölgə iqtisadiyyatı böyük çəkiyə malikdir. 2016-cı ildən etibarən aparılan islahatların əsasən kölgə iqtisadiyyatının şəffaflaşdırılmasına yönəldiyini nəzərə alsaq, bu sistemin tətbiqi vergi ödəyiciləri tərəfindən əvvəllər uçotdan gizlədilən və ya aşağı dəyərlə uçota alınan aktivlərin, habelə dövriyyə vəsaitlərinin şəffaflaşdırılmasında xüsusi əhəmiyyət kəsb edəcəyi şübhəsizdir. [6]

Nağd pul dövriyyəsinin məhdudlaşdırılması, habelə elektron qaimə kimi qabaqcıl sistemlərin tətbiqi də kölgə iqtisadiyyatının aradan qaldırılması və şəffaflaşmanın təmin edilməsində əsas faktorlardan biri olacaqdır. İstər ticarət, istərsə də xidmət sektorunda böyük nağd pul dövriyyəsinin mövcudluğu, habelə avtomatlaşdırılmış informasiya sistemlərindən istifadə edilməməsi həm sahibkarlıq subyektlərinin işinə çətinlik törədir, həm də dövlət tərəfindən nəzarət tədbirlərinə böyük resurs cəlb edilməsini tələb edirdi. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev elektron cəmiyyətin formalaşmasını yüksək qiymətləndirərək demişdir: "Elektron hökumət prinsiplərinə keçməyimiz korrupsiyaya qarşı mübarizədə çox təsirli amil olacaqdır. Bütövlükdə çalışmalıyıq ki, nə qədər mümkündür, məmur-vətəndaş təmaslarını aradan qaldıraq." Məmur-sahibkar təmaslarının azaldılması istiqamətində illər üzrə aşağıdakı tədbirlərin həyata keçirilməsi xüsusilə diqqətəlayiqdir:

Kontaktsız bəyannamələr 2003

E - bəyannamələr 2007

"Bir pəncərə" 2008

On-layn kargüzarlıq 2010

Fiziki şəxslərin on-layn qeydiyyatı 2011

Hüquqi şəxslərin on-layn qeydiyyatı 2012

AVİS vasitəsilə həm vergi xidmətində sənəd dövriyyəsi elektron formata keçirilmiş və operativ informasiya mübadiləsi təmin olunmuş, həm də vergi bəyannamələrinin qəbulu və emalı prosesi sadələşdirilmiş, iqtisadi təhlilin həyata keçirilməsi və proqnozların tərtibinə imkan yaradılmışdır ki, bu da vergi xidmətinə daha səmərəli nəzarət mexanizmlərini tətbiq etməyə imkan verir. Qeyd olunan qabaqcıl tədbirlərin tətbiqi həm də yerli müəssisə və təşkilatlarda vəzifə saxtakarlıqlarının, mənimsəmə və dələduzluq hallarının qarşısının alınmasına kömək edəcək. [4, səh. 22]

Strateji yol xəritələrindən irəli gələn vəzifələrdən biri də Azərbaycan iqtisadiyyatının strateji sahələrindən olan kənd təsərrüfatı sahəsində mövcud olan problemli vergi məsələlərinin aradan qaldırılması ilə bağlıdır. Məlum olduğu kimi, hal-hazırda kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən, sənaye üsulu ilə) şəxslər bu fəaliyyətləri üzrə gəlir vergisi, mənfəət vergisi, əlavə dəyər vergisi, əmlak vergisi, həmçinin də sadələşdirilmiş vergidən azad olunmuşdur. Təəssüf ki, Azərbaycan Respublikasının qanunvericilik aktlarında "kənd təsərrüfatı məhsullarının istehsalı" və "kənd təsərrüfatı məhsullarının emalı" anlayışlarının olmaması qeyd olunan vergi güzəştinin tətbiqi dairəsi ilə bağlı praktiki çətinliyə gətirib çıxarmışdır. Bu isə öz növbəsində kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən vergi ödəyicilərinə öz vergi öhdəliklərinin müəyyən edilməsində çətinliklər yaradır. Qeyd olunan anlayışların müəyyən olunması iqtisadiyyatın bu strateji sahəsinə böyük töhfə verəcək.

Strateji yol xəritələrindən irəli gələrək mövcud bazar iştirakçıları arasında ədalətli rəqabətə imkan yaradacaq mühiti formalaşdırmaq vəzifə olaraq qarşıya qoyulmuşdur. Bu məqsədlə nəzərdə tutulan nəzarət-kassa aparatları tətbiq etmədən fəaliyyət göstərən fiziki şəxslərin vergi öhdəliklərinin aylıq sabit vergi formasında müəyyən edilməsi, diferensiallaşdırılmış ƏDV dərəcələri, topdan və pərakəndə ticarətlə məşğul olan vergi ödəyicilərini fərqləndirən meyarların müəyyən edilməsi tələbləri bu qəbildən olan tədbirlərdəndir.

Vergiqoyma iqtisadiyyatı tənzimləyən əsas alətlərdən biri olduğu üçün bu sahədə aparılacaq islahatların nə qədər müvəffəqiyyətlə başa çatdırılması Azərbaycanın gələcək iqtisadi həyatına həlledici təsirə malik olacaqdır. Hökumət tərəfindən Azərbaycanın iqtisadiyyatı üçün müəyyən olunmuş strateji hədəflərə nail olmaq tamamilə olmasa da əhəmiyyətli hissədə sahibkarlıq fəaliyyəti üçün əlverişli vergi mühitinin formalaşdırılması ilə mümkün olacaqdır. Buna görə də aparılacaq islahatlar iqtisadiyyatın maksimum şəffaflaşdırılmasına xidmət etməli və Azərbaycan Respublikasının investisiya mühitini inkişaf etmiş ölkələr səviyyəsinə çatdırmalıdır. [5, səh 128]

Ümumiyyətlə, diferensiallaşma iqtisadiyyatın optimallaşmasına, prioritet sektorların inkişafına və bu da, nəticədə, sahibarklara və istehlakçılara faydalı olacaq.

Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması məqsədilə vergi islahatları davam etdiriləcək və bu islahatlar zamanı əsas diqqət KOS subyektlərinə yönəldiləcəkdir. Vergilər Nazirliyi tərəfindən vergi dərəcələrinin optimal səviyyəsinin müəyyənləşdirilməsi və KOS-un dinamik inkişafı məqsədilə KOS nümayəndələri, biznes assosiasiyaları, ictimai təşkilatlar da cəlb edilməklə məsləhətləşmələr aparılacaqdır. Azərbaycanın vergi siyasətində əsas diqqət əməkhaqlarına, habelə KOS subyektlərinin öz dövriyyələrini leqallaşdırmağa təşviq edilməsinə yönəldiləcəkdir

Həyata keçiriləcək islahatlar nəticəsində KOS subyektlərində dövlət orqanlarının apardıqları yoxlamalar daha da optimallaşdırılacaq və KOS-un dinamik inkişafı üçün daha əlverişli şərait yaranacaqdır. Eyni zamanda, KOS subyektlərində aparılan səyyar vergi yoxlamalarının sayı məhdudlaşdırılacaq və elektron audit metodu tətbiq ediləcəkdir. Vergi islahatlarının davamlılığı KOS subyektlərinin rəqabət qabiliyyətini daha da artıracaq, xüsusilə yeni yaranan müəssisələrin dayanıqlılığına müsbət təsir göstərəcək, ölkədə 30 xarici şirkətin nümayəndəliklərinin açılmasını təşviq edəcək və iqtisadiyyatın qeyri-neft sektoruna investisiyalar cəlb edilməsi üçün daha əlverişli şərait yaranacaqdır.

ƏDƏBİYYAT

1. 16 mart 2016-cı il tarixli 1897 №- li Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
2. 2 iyul 2013-cü il tarixli 714-IVQ nömrəli Azərbaycan Respublikası Qanunu.
3. 2016-cı il 4 avqust tarixli 2257 nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
4. Vergiyə giriş. Dərslik. Bakı, 2014-cü il.
5. Vergilər və vergitutma. Dərslik. Bakı-2010.
6. www.taxes.gov.az

Эльнара Наби кызы Ахмедова
АУК, доктор философии по экономике

Роль налоговой реформы в развитии стимулирование предпринимательской деятельности в национальной экономике

Резюме

В тезисе даются сведения о роли налоговых реформ в стимулировании предпринимательской деятельности в национальной экономике. Показываются влияние налоговых механизмов на развитие малого и среднего предпринимательства. Кроме этого отражаются результаты проведения этих реформ. Изучаются стимулирование налоговых реформ вытекающих из стратегических дорожных карт по основным секторам национальной экономики и экономики.

Ключевые слова: национальная экономика, налоговые реформы, малое и средние предпринимательство, добровольные налоговые раскрытие.

Elnara Nabi Ahmadova
ACU, PhD in economics

The role of tax reform in the development promotion of entrepreneurial activity in the National Economy

Summary

In a assertion provides information about the role of tax reforms to stimulate entrepreneurial activity in the national economy. Shows the influence of the tax arrangements for the development of small and medium-sized businesses. In addition reflects the results of these reforms. Explores the snimulation promotion of tax reforms arising from the strategic road maps by major sector of the national economy and the economy.

Key words: the national economy, tax reform, small-and medium-sized enterprise, voluntary tax disclosure.

Elnurə Bünyat qızı MƏMMƏDOVA
iqtisad üzrə fəlsəfə doktoru, AKU-nun
«Maliyyə və bank işi» kafedrasının müdiri, doktorant

AZƏRBAYCANDA İNVESTİSİYA MÜHİTİNİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI YOLLARI

Xülasə

Azərbaycanda investisiya mühitinin səmərəliliyinin artırılması yolları araşdırılır. Bu məqsədlə, ölkədə investisiya mühitinin formalaşdırılması və inkişafı üçün zəruri olan qanunvericilik bazasının və digər iqtisadi mexanizmlərin mövcud vəziyyəti təhlil olunur. Ölkə iqtisadiyyatına yatırılan daxili və xarici investisiyaların strukturu və əhəmiyyəti baxılaraq qiymətləndirilmişdir. İnvestisiya mühitinin səmərəliliyinin artırılması problemlərinin dərindən öyrənilməsi və buna uyğun tədbirlərin sistemli şəkildə görülməsinin vacibliyi bildirilmişdir. Yaxın perspektivdə ölkəmizdə investisiya mühitinin səmərəliliyinin artırılması yolları üzrə tövsiyələr hazırlanmış və təkliflər irəli sürülmüşsür.

Açar sözlər: investisiya mühiti, investisiya fəaliyyəti, investisiya cəlbediciliyi, investisiya mühitinin səmərəlilik problemləri, investisiya mühitinin səmərəliliyinin artırılması yolları.

***


Qlobal iqtisadi təhdidlər və dünya iqtisadiyyatının əsas mexanizmlərinin əhəmiyyətli səviyyədə transfomasiyalara uğradığı bir şəraitdə hər bir ölkənin investisiya mühitinin cəlbediciliyinin və səmərəliliyinin artırılması vacib şərtlərdəndir. Bunun üçün dövlətlər özlərinin investisiya siyasətini müasir dövrün tələblərinə uyğun təkmilləşdirməli və yaxın, həmçinin uzaq perspektiv üzrə strateji hədəflər nəzərə almaqla yeniləməlidirlər. Azərbaycan özünün müstəqilliyini bərpa etdikdən sonra ilk müstəqil addımlarından biri xarici investisiyalar üzrə dövlət siyasətinin qanunvericilik bazasının formalaşdırılması və bu sahədə dünya təcrübəsinə uyğun investisiya mühitinin yaradılması cəhdləri olmuşdur. Buna görə də, 1992-ci il yanvar ayının 15-də "Xarici investisiyanın qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur [1]. Bu qanunun missiyası xarici investisiya qoyuluşunun hüquqi və iqtisadi əsaslarının təmin edilməsi və xarici investorların Azərbaycana investisiyaların yatırılması ilə bağlı fəaliyyətinin tənzimlənməsi, həmçinin investorların ölkəmizə gəlməsinə əlverişli mühitin yaradılması ilə bağlı olmuşdur. Sonrakı illərdə ölkəmizdə neft strategiyasının formalaşdırılması və reallaşdırılması ilə bağlı tarixi proseslərdə bu qanun böyük əhəmiyyət kəsb etmişdir. Ölkədə investisiya fəaliyyətinin genişləndirilməsi və investisiya mühitinin səmərəlilik problemlərinin həll edilməsi məqsədilə 1995-ci il yanvarın 13-də başqa bir qanun - "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasinin Qanunu qəbul olunmuşdur [2]. Bu qanunun qəbul edilməsindən əsas məqsəd ölkə iqtisadiyyatının müxtəlif sahələrinə investisiyaların intensiv cəlb olunması, investisiyalardan sosial-iqtisadi problemlərin həllində fəal istifadə edilməsi və ümumilikdə ölkədə investisiya mühitinin daha da yaxşılaşdırılması olmuşdur. Ölkəmiz inkişaf etdikcə, investisiya mühitinin səmərəliliyinin artırılması ilə bağlı mütərəqqi dünya təcrübəsindən bəhrələnməyə nail olmuş və investisiya fəaliyyətinin iqtisadi-təşkilati mexanizmlərinin həlli istiqamətində kompleks və silsilə tədbirləri reallaşdıra bilmişdir. Bu məqsədlə qanunvericilik bazasının da təkmilləşdirilməsinə xüsusi önəm verilmiş və 22 oktyabr 2010-cu ildə növbəti bir ölkə qanunu - "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir [3]. Bu qanunun qəbul edilməsindən sonra ölkədə investisiya fondlarının təşkili, idarə olunması, investisiya fondlarının fəaliyyəti ilə bağlı məsələlərin tənizmlənməsinin hüquqi və iqtisadi əsaslarının müəyyən edilməsi üçün güclü hüquqi baza formalaşdırılmışdır.

Qeyd edək ki, görülmüş kompleks tədbirlər, o cümlədən qanunvericilik bazasının gücləndirilməsi, institusional islahatların dərinləşdirilməsi hesabına Azərbaycan iqtisadiyyatına qoyulmuş investisiyaların həcmi durmadan artmqda davam etmişdir və bu investisiyaların əhəmiyyətli hissəsini xarici investisiyalar təşkil edir. Təkcə 2004-2017-ci illər ərzində ölkə iqtisadiyyatına inve-

stisiyaların həcmi 230 mlrd. dollar səviyyəsində olmuşdur və bundan 107,2 mlrd. xarici investisiyaların payına düşür [4]. Bu onu göstərir ki, ölkəmizdə investisiya mühitinin səmərəlilik problemləri dövlətin investisiya siyasətinin mühüm strateji vəzifələrindən biri kimi baxılmaqdadır. Ölkədə dayanıqlı və tarazlı iqtisadi inkişafın təmin olunmasında daxili və xarici investisiyaların fəal şəkildə iqtisadiyyatın müxtəlif sahələrinə yönəldilməsi vacib şərtlərdəndir. Bu məqsədlə Azərbaycanda dövlət investisiya siyasətinin əsas istiqamətləri sırasında investisiya axınının qeyri-neft sektorunun və regionların sosial-iqtisadi inkişafına yönəldilməsi prioritet hesab olunur [5]. Bundan əlavə, məlumdur ki, qanunvericilik bazasının təkmilləşdirilməsi və dövlət siyasətinin optimallaşdırılması avtomatik olaraq investisiya mühitinin yaxşılaşdırılması anlamına gəlmir. Bunlarla bərabər, Azərbaycanda sahibkarlıq fəaliyyətinin və biznes mühitinin yaxşılaşdırılması məqsədilə ardıcıl təsirli tədbirlər görülməkdədir. Sahibkarlıq fəaliyyətinə əsaslı müdaxilələrin qarşısının alınması təmin edilib və bu sahədə yoxlamalar 2021-ci ilədək dayandırılmışdır. Ölkədə elektron xidmətlərin, müasir texnologiyaların və mütərəqqi beynəlxalq təcrübənin tətbiqi hesabına sahibkarlıq subyektlərinin "bir pəncərə" sistemi tətbiq edilməklə qeydiyyatı həyata keçirilir. Gömrük və vergi sistemlərində şəffaflaşdırma prosesləri sürətləndirilməkdədir [6]. "Bir pəncərə" sisteminin tətbiqindən sonra ölkəmizdə sahibkarlıq fəaliyyətinə başlamaq üçün tələb olunan prosedurların sayı 15-dən 2-yə və bütün bunlar üçün itirilən günlərin sayının 30-dan 2 günə endirilməsi təmin olunmuşdur. Təsadüfi deyildir ki, bu tədbirlərin həyata keçirilməsindən sonra xarici investorlar tərəfindən Azərbaycana maraq əhəmiyyətli səviyyədə artmışdır. Həmçinin, ölkəmizdə sahibkarlıq fəaliyyətinə və biznesin inkişaf etdirilməsinə maraq xeyli yüksəlmişdir [7]. Son illərdə investisiya mühitinin səmərəliliyinin yüksəldilməsi ilə əlaqədar olaraq, ölkəmizdə sosial-iqtisadi inkişafın modelləşdirilməsi və iqtisadi inkişafın yeni mərhələyə keçirilməsi istiqamətində xeyli işlər görülməkdədir və strateji hədəflər müəyyənləşdirilmişdir. Dünyada baş verən iqtisadi və maliyyə böhranlarının mənfi fəsadlarının davam etdiyi bir şəraitdə Azərbaycan özünün iqtisadi inkişaf tempini sabit saxlamağa nail olmuş və makroiqtisadi sabitliyi təmin etmişdir. 2017-ci ilin yekununda ölkə üzrə ÜDM-in cari qiymətlərlə həcmi 70,1 mlrd. manat, adambaşına düşən ÜDM isə 7205 manat səviyyəsində olmuşdur. 2017-ci il ərzində iqtisadiyyatın müxtəlif sektorlarının, o cümlədən qeyri-neft sektoru və onun əlavə dəyər yaratmaq potensialı yüksək olan sahələrinin inklüziv inkişafının təmin edilməsi məqsədilə investisiya mühitinin səmərəliliyinin yüksəldilməsi tədbirləri reallaşdırılmışdır. Bunun üçün, ölkədə iqtisadi islahatların daha da dərinləşdirilməsi, institusional islahatlar çərçivəsində bir çox yeni qurumların yaradılması və daha səmərəli iqtisadi mexanizmlərin tətbiqi ilə bağlı davamlı tədbirlər görülmüşdür. 2017-ci ildə ölkə iqtisadiyyatının bütün sahələrinə ümumilikdə 15,6 mlrd. manata yaxın əsas kapitala investisiyalar yatırılmışdır. Bu vəsaitin 44,6 %-i daxili investisiyaların, 55,4 %-i isə xarici investisiyaların payına düşür. Maraqlıdır ki, 2017-ci ildə ölkə iqtisadiyyatına yönəldilmiş ümumi investisiyaların 45,7 %-i və yaxud 7,1 mlrd. manatı qeyri-neft sektoru sahələrinin inkişafının sürətləndirilməsi məqsədi daşımışdır. Neft-qaz sənayesinə yönəldilən investisiyaların həcmi 8,5 mlrd. manata yaxın və yaxud ümumi investisiyaların 54,3 %-i qədər olmuşdur [8]. Müxtəlif iqtisadiyyat sahələrinə, o cümlədən sənaye sahələrinə investisiyaların həcminin artırılması kifayət qədər aktuallığı ilə diqqət çəkir. Heç də sirr deyildir ki, hazırda ölkəmizdə iqtisadiyyatın neftdən asılılığının azaldılması istiqamətində əhəmiyyətli addımlar atılmaqdadır. 2017-ci il ərzində neft sektorunda məhsul istehsalının 5% azalmasına baxmayaraq, qeyri-neft sektorunda artım 2,7% təşkil etmişdir. 2017-ci ilin yekununda milli iqtisadiyyatda formalaşmış əlavə dəyərin 63%-ə yaxını qeyri-neft sektorunun payına düşmüşdür. Sənayenin qeyri-neft sektorunda ümumi məhsul istehsalının artımı 3,7% artmış və bu sektorda 9,5 mlrd. manata yaxın məhsul istehsal olunmuşdur. 2017-ci il ərzində bu sektora yönəldilmiş əsas kapitalın həcmi 1,5 mlrd. manata yaxın təşkil etmişdir [9].

Qeyd edək ki, müasir dövrdə ölkəmizdə investisiya mühitinin səmərəliliyinin yüksəldilməsi istiqamətində əsas hədəflərdən biri xarici investisiyaların strukturunda qeyri-neft sektoru sahələrinin payının artırılmasıdır. Amma, təəssüf ki, bu sahədə hələlik real nəticələr müasir dövrün tələblərinə və ölkəmizin investisiya siyasətinin strateji hədəflərinə uyğun deyildir. Belə ki, Azərbaycana yatırılan xarici investisiyaların strukturunda qeyri-neft sektorunun payı kifayət qədər

aşağıdır və bütün bunlar Şəkil 1-də verilmiş Azərbaycanda xarici investisiyaların sahələr üzrə bölgüsündə əyani olaraq görünür.



Şəkil 1. Azərbaycanda xarici investisiyaların sahələr üzrə bölgüsü, mlrd. ABŞ dolları (2011-2016-cı illər).

Qeyd: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır. http://www.stat.gov.az

Şəkil 1-in təhlili əsasında qeyd etmək olar ki, 2011-ci ildə qeyri-neft sektoru sahələrinə yatırılan investisiyaların həcmi 0,9 mlrd. manat təşkil etmişdirsə, bu göstərici 2012-ci ildə 1,1 mlrd., 2015-ci ildə 0,86 mlrd. manat və 2016-cı ilin yekununda isə 1,7 mlrd. manat təşkil etmişdir. Bu isə, ümumi xarici investisiyaların payında 16,7 %-ə yaxındır.Ölkə iqtisadiyyatının qarşısında duran strateji hədəflərin yerinə yetirilməsində başlıca problemlərdən biri qeyri-neft sektoru sahələrin xarici investisiyaların cəlbi proseslərinin sürətləndirilməsidir. Ölkə iqtisadiyyatının inkişafının təmin olunması böyük investisiya qoyuluşları tələb etdiyinə görə, xarici investisiyalar da daxil olmaqla, daha səmərəli investisiya qoyuluşu istiqamətlərini, maliyyələşmə mənbələrini müəyyənləşdirmək vacibdir [s.7, 10]. Digər tərəfdən, inklüziv xüsusiyyətlərə malik qeyri-neft sektoru sahələrinin inkişafının intensivləşdirilməsi üçün xarici investisiyaların həcminin artırılması obyektiv tələbat kimi qalmaqdadır. Belə ki, ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin gücləndirilməsi və onun diversifikasiyasının başa çatdırılması tədbirlərinə iri həcmdə xarici investisiyalar tələb olunur [11].

Beləliklə, yaxın perspektivdə ölkəmizdə investisiya mühitinin səmərəliliyinin artırılması və bununla bağlı mövcud problemlərin həll edilməsi istiqamətində bir sıra məsələlərə xüsusi diqqətin yetirilməsini vacib sayırıq:

- ilk növbədə, ölkəmizdə investisiya fəaliyyətinin mövcud mexanizmlərinin təkmilləşdirilməsi tədbirləri həyata keçirilməli və iqtisadi-təşkilati tənzimləmələr aparılmalıdır;
- investisiyaların cəlbi proseslərinin genişləndirilməsi məqsədilə ölkədə investisiya mühitinin səmərəliliyi istiqamətində fundamental tədqiqatlar aparılmalı və hər bir regionun investisiya mühitinin səmərəlilik pasportu hazırlanmalıdır;
- dünya ölkələrini investorlarının və investisiya kompaniyalarının ölkəmizin müxtəlif iqtisadiyyat sahələrinə, xüsusilə qeyri-neft sektoru sahələrinə məqsədli şəkildə gətirilməsi tədbirləri görülməli, investisiya fəallığını təmin edən proqramlar hazırlanmalı və reallaşdırılmalıdır və s.

ƏDƏBİYYAT

1. “Xarici investisiyanın qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 15 yanvar 1992-ci il. № 57.
2. “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 13 yanvar 1995-ci il. № 952.
3. “İnvestisiya fondları haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 22 oktyabr 2010-cu il. № 1101-IIIQ
4. Azizov A. Summarnıe investiüii v gkonomiku Azerbaydjana v 2004-2017 qq. sostavili $225 mlrd. - министр экономики. http://www.interfax.az/view/716085
5. Dövlət investisiya siyasəti. http://economy.gov.az/.
6. Azərbaycan Respublikasının investisiya mühiti haqqında. http://economy.gov.az/article/azerbaycan-respublikasinin-investisiya-muhiti-haqqinda/21336#.
7. Azərbaycan Respublikasında xarici investisiyalar üçün əlverşli vergi mühiti. http://www.taxes.gov.az/modul.php?name=pages&page=230
8. 2017-ci ildə Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafina dair Arayış. http://economy.gov.az/article/azerbaycan-respublikasinin-sosial-iqtisadi-inkishafi-2017-ci-ilin-i-rubu-uzre/28196#.
9. 2017-ci il üzrə Azərbaycan Respublikasında sənayenin inkişafı http://economy.gov.az/article/azerbaycan-respublikasinda-senayenin-inkishafi-haqqinda-2017-ci-ilin-1-ci-rubu-uzre/28197#
10. Namazova C.B. İnvestisiya mühitinin təhlili və onun formalaşmasında vergi siyasətinin rolu. İ.e.d. dissertasiyasının avtoreferatı. Bakı, 2011.
11. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt Dövlət Universiteti, 2018.-384 s.

Елнура Бюнят кызы Мамедова
д.ф.э. АУК

Способы повышения эффективности инвестиционного климата в Азербайджане

Резюме

В статье исследуются пути повышения эффективности инвестиционной среды в Азербайджане. С этой целью анализирована нынешняя ситуация по формированию законодательной базы инвестиционной среды в стране и другие экономические механизмы, связанные с инвестиционной деятельностью. Оценена структура внутренних и иностранных инвестиций, вложенных в экономику страны. Отмечена важность глубокого изучения проблемы повышения эффективности инвестиционной среды и осуществления системных мероприятий по их решению. Подготовлены рекомендации и дан ряд предложений по повышению эффективности инвестиционной среды в стране в ближайшей перспективе.

Ключевые слова: инвестиционная среда, инвестиционная деятельность, инвестиционная привлекательность, проблемы эффективности инвестиционной среды, пути повышения эффективности инвестиционной среды.

Elnura Bunyat Mammadova
Doctor of Philosophy in Economics,
ACU Head of the Department of
Finance and Banking, PhD student of ACU

Ways to Increase the Effectiveness of an Investment Environment in Azerbaijan

Summary

The article explores ways to improve the efficiency of the investment environment in Azerbaijan. The current situation on the formation of the legislative framework for the investment environment in the country and other economic mechanisms related to investment activities is analyzed with this purpose. The structure of domestic and foreign investments invested in the economy of the country is estimated. The importance of in-depth study of the problem of increasing the effectiveness of the investment environment and the implementation of systemic measures to address them is noted. A number of proposals and recommendations to improve the efficiency of the investment environment in the country in the short term are prepared and made.

Key words: investment environment, investment activity, investment attractiveness, problems of investment environment effectiveness, ways to improve the efficiency of the investment environment.

Mansur Akif oğlu MƏDƏTOV
i.f.d. AMEA-nın İqtisadiyyat İnstitutu

İNSAN KAPİTALINA "AİLƏ" İNVESTİSİYALARININ TƏHLİLİ

Xülasə

Məqalədə insan kapitalına ailə investisiyaları nəzərdən keçirilir. Burada müxtəlif nəzəriyyələr, o cümlədən klassik iqtisadi nəzəriyyələr müasir reallıqlar baxımından təhlil edilir. Belə bir nəticəyə gəlinir ki, ailə investisiyalarına əvvəlki baxışlarla müasir yanaşmalar arasında köklü fərqlər mövcuddur.

Açar sözlər: ailə, insan kapitalı, investisiyalar, ev təsərrüfatı, milli gəlir, ümumi milli məhsul.

***

İnsan kapitalının formalaşması prosesi əhəmiyyətli dərəcədə ailədə baş verir. Ailənin başlıca iqtisadi funksiyası yeni nəsillərin insan kapitalının istehsalından və artıq fəaliyyətdə olanın dəstəklənməsindən ibarətdir. Ona görə də müasir iqtisadçılar son onilliklərdə ailənin iqtisadiyyatına xüsusi önəm verirlər. Belə təhlil iqtisadi inkişafın uzunmüddətli meyillərini, disproporsiyaları və ictimai təkrar istehsalda digər mənfi halları vaxtında aşkarlamaq üçün vacibdir.

Qeri Bekkerin zamanın allokasiyası (1965) və Cakob Mintserlə Qeri Bekkerin doğum göstəriciləri haqqında əsərləri ev təsərrüfatının yeni iqtisadi nəzəriyyəsinin inkişafının başlanğıcını qoymuş oldu. Bu nəzəriyyə ailənin müxtəlif bazar və bazardankənar fəaliyyətini vahid metodoloji mövqedən təhlil etməyə imkan verir: nikaha girmək haqqında qərar, uşaqların olması haqqında qərar, ev öhdəliklərinin ər və arvad arasında bölüşdürülməsi, əmək bazarında iştirak səviyyəsi və hətta ailənin boşanma yolu ilə dağıdılması [5; s. 336].

Bu nəzəriyyədə ailə istehsal vahidi kimi nəzərdən keçirilir. Onun məqsədi yeni nəsillərin insan kapitalının yaradılması və ailənin böyük üzvlərinin malik olduqları insan kapitalının saxlanılmasından ibarətdir. Belə spesifik istehsalda ailə resursları ailənin zamanı, bilik və bacarıqları şəklində, həmçinin bazardan alınan əmtəə və xidmətlər xərclənir.

Q.Bekkerin yazdığı kimi, "ev təsərrüfatının yeni nəzəriyyəsi - faydalılığın qarşılıqlı asılılıq funksiyalı çoxlu üzvlərdən ibarət olan ailə nəzəriyyəsidir və bu özünü nikahın bağlanması, uşaqların olması, evdə əmək bölgüsü, ailə üzvlərinin risklərdən qorunması haqqında qərarın qəbulu zamanı üzvlər arasında koordinasiya və qarşılıqlı fəaliyyət məsələlərində göstərir"

Ailə üzvləri istehlakçı kimi öz faydalılıq funksiyalarını maksimallaşdırırlar. Onlar tərəfindən əldə edilən faydalılığın miqdarı ailə daxilində ailədən kənardakından çoxdur və təkcə istehlak edilən bazar nemətlərinin həcmindən deyil, həmçinin ailənin digər üzvlərinin xüsusiyyətlərindən də asılıdır. Ailədaxili istehsalın səmərəliliyi (başqa sözlə, faydalılığın maksimallaşdırılması) bir çox parametrlərdən asılıdır. M.Blauqun qeyd etdiyi kimi, ev təsərrüfatının həcmi, yaş strukturu, təhsil, irqi mənsubiyyət, peşə yönümü və sosial-iqtisadi statusun digər göstəriciləri ailədaxili xidmətlər istehsalının kölgə qiymətlərinə təsir göstərir və beləliklə, qiymətlər və gəlir kimi ənənəvi dəyişənlərə əlavə şəklində ailə istehlakının izahedici dəyişəninə çevrilirlər (5; s. 337.).

İnsan kapitalı nəzəriyyəsindən çıxış etsək, ev təsərrüfatlarının davranışı rasionaldır, yəni bu və ya digər davranış variantının gəlir və xərclərinin müqayisəsinə əsaslanır. Ailənin iqtisadi təhlili sahəsinə birbaşa və alternativ xərclər, ailə əməyi və asudə vaxtın dəyəri anlayışları daxil edilir.

İnsanın hazırlanmasının xərcləri konsepsiyasından istifadə etməklə ev əməyini (xüsusilə, uşaqların tərbiyəsi və onlara baxmaq) kəmiyyətcə qiymətləndirmək olar [8]. İnsan "istehsalı"na çəkilən xərclərə onun tərəfindən istehlak edilən mal və xidmətlərin alışına çəkilən birbaşa xərclər, təhsil zamanı "itirilmiş gəlirlər", hamiləlik zamanı və ya uşağa baxmağa görə məzuniyyətlər (valideynlərin əmək xərcləri) və digər xərclər daxildir. Ümumi xərclərin qiymətləndirilməsi zamanı ölümü (ölmüş uşaqların xərcləri sağ qalmışların üzərinə gəlinir), işsiz, əlil qalmaq və s. ehtimalını da nəzərə almaq lazımdır. Bunun özü də işləyən insanın orta xərc səviyyəsini artırmış olur.

İ.Y.Kalabixinanın fikrincə, insana çəkilən tam xərclərə aşağıdakılar aiddir: fiziki tələbatların ödənilməsi xərcləri, müəyyən sosial kateqoriyaya aid olan ailədə uşağa çəkilən faktiki xərclər və uşağın anadan olmasından ailənin həyat səviyyəsinin aşağı düşməməsi üçün əlavə xərclərin məbləği [7]. Göründüyü kimi, İ.Y.Kalabixina insanın istehsal xərclərinə birbaşa faktiki xərclərlə yanaşı, uşaqlı ailələrin adət etdikləri həyat səviyyəsini saxlamağa imkan verən "kompensasiya" xərclərini də daxil edir. Lakin bu xərclərə Qərb iqtisadçıları üçün ənənəvi olan "itirilmiş gəlirləri" daxil etmir. Müəyyən mənada bu iki anlayış ekvivalent və qarşılıqlı əvəzlənə biləndir.

O, həmçinin qeyd edir ki, milli siyasətlərin formalaşması zamanı artıq ev əməyinin yenidən qiymətləndirilməsi baş verir. Bu əmək milli sərvəti istehsal edir və ona daxil edilməlidir (2). Göründüyü kimi, belə yanaşma məntiqidir. Belə ki, ev əməyi qismən olsa da, insan kapitalına investisiyalar, həmçinin artıq yaradılmış insan kapitalının bərpasına, yenilənməsinə, saxlanmasına çəkilən xərclərdir (əsas fondlara investisiyalar, onların təmirinə və yenilənməsinə çəkilən xərclərə analoji olaraq). Ona görə də əsaslı surətdə ümumi milli məhsulun hesablanmasında nəzərə alınmalıdır. Lakin ev təsərrüfatlarının milli məhsula töhfəsini tam və dəqiq hesablamağa mane olan ciddi statistik çətinliklər vardır. Bu problem A.Smitin zamanından bəri "aşbaz paradoksu" adlanır. Onun mahiyyəti bundan ibarətdir ki, əgər qadın subay kişiyə muzdla aşbaz işləyirsə, onda onun əməyi ödənilir və müvafiq xidmətlərin həcmi milli gəlirə (MG) və ümumi milli məhsula (ÜMM) daxil edilir. Lakin həmin kişiyə ərə gedən kimi onların əməyinin ödənilməsi dayandırılır və müvafiq xidmətlər elə bil yoxa çıxır (statistika tərəfindən nəzərə alınmır), müvafiq olaraq MG və ÜMM azalır. Tədqiqatçı-feministlər milli gəlir konsepsiyalarına əsaslanaraq ev təsərrüfatında qadınların əməyinin uçota alınmasının vacibliyini əsaslandırmağa cəhd göstərirlər. Onlar bu əməyin məhsulunu statistik cəhətdən "görünən" etməyə çalışırlar [3]. Qeyd etmək lazımdır ki, bu problem MG-də ev xanımlarının əməyinin nəzərə alınmasından daha geniş problemdir. Belə ki, bu zaman ev təsərrüfatı ilə məşğul olan kişilərin, özünəxidmətlə məşğul olan, kiçik bacı və qardaşlarına baxan böyük uşaqların, həmçinin analoji xidmətlər göstərən baba və nənələrin də əməyini nəzərə almaq lazımdır.

İqtisadçı-feministlər ev əməyini ödənişli etməyi təklif edirlər. Bununla yanaşı, belə bir təklifin nüfuzun yüksəldilməsi üçün edildiyi bildirilir. Müasir dövrümüzdə isə o utopiya kimi səslənir. Bizim fikrimizcə, ev təsərrüfatında istehsal olunan xidmətlər bazara daxil olmadığından ev təsərrüfatının digər üzvləri tərəfindən ödənilməlidir. Digər tərəfdən, ailədaxili əməyin məhsulu uşaqların insan kapitalının artımıdırsa, onda cəmiyyət gələcəkdə həmin uşaqların ictimai istehsalda iştirakından müsbət xarici səmərə əldə etmiş olacaq. Uşaqların insan kapitalının artımı cəmiyyətin insan kapitalının artımı deməkdir və dövlət tərəfindən müavinətlər, hamiləlik və doğuş üzrə

məzuniyyətlər, gəlir vergisi üzrə güzəştlər və digər şəkildə (inkişaf etmiş ölkələrdə geniş tətbiq olunan) stimullaşdırılmalıdır.

İnsan kapitalı nəzəriyyəsi mövqeyindən doğum sahəsində ailənin qərarını nəzərdən keçirən Q.Bekker qeyd edir ki, ailə məhdud gəlirlər çərçivəsində uşaqların kəmiyyəti və "keyfiyyəti" arasında tərəddüd edərək faydalılıq funksiyasını maksimallaşdırmağa çalışır. Valideynlər üçün uşaqların sayının artması əvvəlcə ümumi faydalılığı yüksəldir, sonra isə azaldır. Uşaqların sayından əldə edilən xalis faydalılıq (ümumi gəlirdən ümumi xərclər çıxılmaqla) uşaqların müəyyən sayında maksimuma çatır. Ailənin yaşadığı iqtisadi şəraitin dəyişməsi, məsələn, ailənin və ya onun ayrı-ayrı üzvlərinin (ər və ya arvadın) gəlirlərinin artması, təhsil xərclərinin artması, istehlak mallarının qiymətinin, asudə vaxtın dəyərinin yüksəlməsi, kontrasepsiya vasitələrinin qiymətinin aşağı düşməsi və s. xərc və gəlir nisbətini dəyişə bilər ki, bu da doğumun artmasına (azalmasına) səbəb ola bilər. Uşaq malları və qidalarına qiymətlərin aşağı düşməsi, təhsil xərclərinin azalması, uşaqlı ailələrə dövlət yardımının, vergi güzəştlərinin artması uşaqlardan gələn faydanı artıracaq, onlara olan xərcləri azaldacaq və demək doğum səviyyəsini yüksəltmiş olacaqdır. Ailə gəlirlərinin azalması, uşaqların tərbiyə və təhsil xərclərinin artması, uşaqlı ailələrə dövlət yardımının azalması isə əks-nəticəyə gətirib çıxara bilər [1].

Yüksək "keyfiyyətli" uşaqlar yüksək keyfiyyətli əmtəələr kimi bahalı olurlar və az miqdarda da valideynlərin tələbatını ödəyə bilirlər [9]. Uşaqların uzunmüddətli istifadə olunan əmtəələrdən fərqi onların valideynlərin işdən sonra çoxlu asudə vaxtlarını almalarıdır. Uşaqlara vaxt ayırmağın dəyəri valideynlərin asudə vaxtının dəyərindən asılıdır.

Q.Bekker ailə iqtisadiyyatının iqtisadi təhlilinə altruizm və ya uşaqlara sevgi anlayışını daxil edir. Altruizm valideynlərin faydalılığının hər bir uşaq tərəfindən əldə edilən faydalılıqdan asılı olduğu deməkdir. Bir uşağa düşən altruizm uşaqların sayı ilə tərs mütənasib asılılıqdadır. Belə ki, əlavə uşaq valideynlər tərəfindən hər bir uşaqdan alındığından orta faydalılığı azaldır. Beləliklə, altruizm faydalılığın neoklassik funksiyasını təsvir edir. Belə ki, valideynlərin həyatdan əldə etdikləri faydalılığın ümumi səviyyəsi bir sıra amillərdən asılıdır: həyat tsikli dövründə onların istehlakı, onların hər bir uşağa düşən altruizm səviyyəsi, uşaqların sayı və hər bir uşaq tərəfindən əldə edilən faydalılıq səviyyəsi [4].

Ümumilikdə, ailə gəlirlərinin, əmtəə və xidmətlərin qiymətlərinin və digər amillərin uşaqların kəmiyyəti və "keyfiyyəti"nə təsiri problemi sonacan öyrənilməmiş olaraq qalmaqdadır. Bu nəzəriyyənin həll olunmamış məsələlərindən biri uşağın "keyfiyyəti" anlayışının müəyyən edilməməsi, həmçinin statistik məlumatların kifayət qədər olmamasıdır.

Ailənin "Çikaqo" modeli bazarlar, valideyn arzuları, ailədaxili münasibətlər sahəsində çox sərt ehtimalları nəzərdə tutur. 1970-1980-ci illərdə bu modelin ABŞ (B.Bisvoz, R.Rem, D.Konqer, M.Kempbell) və Qərbi Almaniya (Q.Tsimmerman, İ.Klizinq, C.Siqers, N.Keylmen, L.Qrut) materialları əsasında əsaslandırılması üçün tədqiqatlar həyata keçirilmişdi. Tədqiqatların əksəriyyəti bu müddəaları təsdiq etmədi. S.Vestof və N.Rayder sübut etdilər ki, model mədəni və texnoloji amilləri nəzərə almır. X.Leybenşteyn, R.İsterlin, R.Li, R.Bulatao təhlilə psixoloji-sosioloji aspektlərin daxil edilməsini vacib sayıblar [6].

Ailənin iqtisadi nəzəriyyəsini hazırlamış bir çox iqtisadçılar bu problemə abstrakt-liberal yanaşma ilə kifayətlənmirlər. R.Fridman və X.Leybenşteyn istehlak davranışını müəyyən edən valideynlərin sosial vəziyyətinə fikir verirlər. Həmçinin, istəklərin dəyişilməsi, iqtisadi və demoqrafik informasiyaların əlçatanlığı, uşaqların doğulmasının iqtisadi motivlərinin dəyişməsi prosesi, ailə qurmaq, onun üzvləri arasındakı münasibətlər nəzərdən keçirilir.

Doğumun azalmasının tarixi meyillərinin təhlili ailənin təsərrüfat funksiyalarının dəyişilməsi ilə əlaqədar olaraq uşaqların dünyaya gəlməsinin motivlərinin dəyişməsini müəyyən edir. Natural təsərrüfatın hakim olduğu dövrlərdə müxtəlif ailələrin ev təsərrüfatı işçi qüvvəsi, müvafiq olaraq uşaqların doğulmasını tələb edirdi. Uşaqların dünyaya gəlməsinin iqtisadi motivləri çox vacib rol oynayırdı. Belə ki, valideynlərin təminatlı qocalığı uşaqların olması ilə müəyyən edilirdi. Kəndli və ya sənətkarın təsərrüfatını verdiyi övladı ona baxmalı idi. Uşaqlar ailə üçün əvvəl işçi, sonra isə qocalığında valideynlərə baxacaq varis kimi iqtisadi cəhətdən faydalı idi. Ailənin sərvətinin

və sosial statusunun yüksəlməsi uşaqların sayı ilə əlaqədar idi. Yüksək uşaq ölümü şəraitində isə bu, yüksək doğum səviyyəsini tələb edirdi.

Uşaqların sosial və iqtisadi faydalılığı qarşılıqlı əlaqəli idi. Belə ki, çoxuşaqlı ailə təkcə iqtisadi baxımdan deyil, həmçinin sosial baxımdan səmərəli idi. Uşaqların nikaha girməsi qohumların sayını artırırdı, təhlükəsizliyi təmin edirdi, ailənin sosial çəkisini və çoxuşaqlı ailə başçısının nüfuzunu artırırdı.

Müasir cəmiyyətdə qohumluq əlaqələri öz aparıcı mövqeyini daxili istehsal və sosial funksiyalara güzəştə getmişdir. Ailə istehsal ocağı statusundan imtina etdi, işləyən uşaqlar valideynlərdən asılı olmamağa başladılar, qocalmış valideynlər isə iqtisadi cəhətdən uşaqlardan asılı deyillər. Doğum sferasında ictimai və şəxsi (qrup) maraqlar arasında ziddiyyət meydana çıxır. Cəmiyyət və dövlət əhali artımında iqtisadi baxımdan maraqlıdırlar, ailə isə uşaqların sayının artımına iqtisadi marağı itirir. Çünki valideynlərin uşaqlardan əldə etdiyi fayda azalır, onların tərbiyə və təhsil xərcləri isə artır. İnkişaf etmiş ölkələrdə valideynlərin uşaqlara olan tələbatının motivasiya strukturunda dəyişikliklər baş verir. Bu, doğumun aşağı düşməsinə, cəmiyyətin qocalmasına və məntiqi olaraq ciddi problemlərin yaranmasına səbəb olur.

Dünyada baş verən iqtisadi böhran bizim ölkəmizə də təsirsiz ötüşmür. Öz növbəsində məşğulluğun və gəlirlərin azalması da doğumun aşağı düşməsinə səbəb olur. Ona görə də bu sahədə ciddi qanunvericilik tədbirləri həyata keçirilir. Ənənəvi olaraq Azərbaycanda kənd yerlərində əhali artımı həmişə nəzərəçarpacaq dərəcədə olurdu. Bütün bunlar nəzərə alınaraq xüsusən regionlarda yeni iş yerlərinin açılması, uşaqlara verilən müavinətlərin artırılması, kənd təsərrüfatının gəlir vergisindən azad edilməsi və güzəştlərin tətbiqi, gənc ailələrə güzəştli ipoteka şərtlərinin təqdim edilməsini qeyd etmək olar.

ƏDƏBİYYAT

1. Becker, G.A. Treatise on the Family. Oxf., 1983. p. 90-99.
2. Dumon, W. National family policies in EC-countries in 1991. Brussels, 1992.
3. Warning, M. Counting for nothing. N.Y., 1988.
4. Беккер Г. Экономика семьи и макроповедение // США: экономика, политика, идеология. 1994. № 2. с. 102-103.
5. Блауг М. Методология экономической науки, или как экономисты объясняют. Вопросы экономики. М., 2004.
6. Зверева Н.В. Семья и воспроизводство человеческого капитала // Вестник МГУ. Сер. 6 «Экономика», 1998. с. 83.
7. Калабихина И.Е. Некоторые аспекты теоретического анализа домохозяйства // Вестник МГУ. № 5. Сер. 6 «Экономика», 1995. с. 32.
8. Сови А. Общая теория населения. Т. 1, 2. М.: Прогресс, 1977.
9. Шульц Т. Ценность детей // ТЩЕСЫС. 1994. Вып. 6. с. 43-45.

Мансур Акиф оглы Мадатов
д.ф.э. ЭИ НАНА

Анализ «семейных» инвестиций в человеческий капитал

Резюме

В статье рассматриваются семейные инвестиции в человеческий капитал. Различные теории, в том числе классические экономические теории, анализируются с точки зрения современных реалий. Сделан вывод о принципиальных различиях между предыдущими и современными подходами к семейным инвестициям.

Ключевые слова: семья, человеческий капитал, инвестиции, домашнее хозяйство, национальный доход, общий национальный продукт.

Mansur Akif Madatov
PhD in economy İE ANSA

Analysis of "family" investments in human capital

Summary

The article considers family investments in human capital. Various theories, including classical economic theories, are analyzed from the point of view of modern realities. A conclusion is made about the fundamental differences between previous and modern approaches to family investment.

Key words: family, human capital, investments, household, national income, common national product.

Sara İbrahim qızı SƏFƏROVA
Azərbaycan Kooperasiya Universitetinin dosenti

AZƏRBAYCANDA QLOBALLAŞMA ŞƏRAİTİNDƏ İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARI

Xülasə

Məqalə İnformasiya Kommunikasya Texnologiyalarının tətbiqilə idarəetmənin metod, mexanizmlərinin təkmilləşdirilməsi, səmərəliliyin artırılması, təqdim edilən elektron xidmətlərin keyfiyyətinin artması, dövlət orqanları arasında, tədris prosesində səmərəli, təhlükəsiz informasiya mübadiləsinin təmin olunması, tədrisin keyfiyyətini yüksəltməklə onun əyaniliyinin təmin edilməsinə həsr edilib.

Açar sözlər: e-tibb, elektron imza, elektron ticarət, elektron kommunikasiya, teleişin, elektron kənd təsərrüfatı informasiya sistemi, e-turizm.

***

XX əsrin sonu XXI əsrin əvvəllərindən başlayaraq cəmiyyətin inkişafına təsir göstərən amillərdən biri olan informasiya kommunikasiya texnologiyaları dövlət, elm, təhsil, mədəniyyət, səhiyyə, sosial-iqtisadi, iqtisadi-biznes, ümumiyyətlə, insanların həyat fəaliyyəti sahələrini əhatə edir, onların həyat tərzini dəyişir.

İnformasiya Kommunukasiya Texnologiyalarının (İKT) imkanları olmadan inkişaf edən, daima yeniliyə doğru irəliləyən dünyamızı təsəvür etmək mümkün deyil. Dünyada gedən qloballaşma prosesləri baş verən dəyişikliklərə hazır olmağı, onlara adaptasiya olmağı, dünya iqtisadi məkanında baş verən prosesləri yaxından öyrənməyi, baş verəcək dəyişiklikləri əvvəlcədən müəyyən etməyi tələb edir. Cəmiyyətin inkişafına müsbət təsir göstərmək imkanlarına malik olan İKT mühüm vasitə kimi artıq özünü doğrultmuşdur. Bəşəriyyətin müasir inkişaf mərhələsinin bütün xüsusiyyətlərinin informasiya kommunikasiya texnologiyalarının imkanlarına əsaslandığı, həmçinin sivilizasiyanın inkişaf xüsusiyyətlərinin də həmişə texnoloji yeniliklərlə bağlı olduğu görünür.

İKT inkişafı hər bir ölkənin intellektual və elmi potensialının vacib göstəricilərindən biridir. Əgər ondan səmərəli istifadə edilərsə o hər bir ölkənin sosial-iqtisadi inkişafına müsbət təsir göstərən vasitəyə çevrilər. Qloballaşma dövründə onun zəruriliyi və texnologiyaların sürətli inkişafı, bəşəriyyətin inkişafı üçün geniş imkanlar yaradır.

Mütəxəssislərin fikrincə, informasiya və kommunikasiya texnologiyaları sistemi, turizm, nəqliyyat, yerli xammalla işləyən rəqabət qabiliyyətli, ixrac yönümlü emal müəssisələri, onların istehsal və sosial infrastruktur sahələrinin inkişafı birlikdə neft sektorunun yükünü daşıya bilər [1, s. 238].

Müasir dövrdə sürətlə inkişaf edən İKT tətbiq sahələrindən biri də səhiyyədir. Bütün dünyada səhiyyə sisteminin ənənəvi xidmətləri daha keçmişdə qalıbdır. Tibbi informatika əsasında və İnternetlə əlaqəli texnologiyalar vasitəsilə Elektron səhiyyə, həmçinin səhiyyədə digər istiqamətlər meydana gəldi. Səhiyyə sistemində tibbi informasiya sistemləri adi hala çevrildikcə, tibbi qeydlərin aparılması texnologiyası və digər tibbi xidmətlərin göstərilməsində əldə edilən yeni-yeni

nailiyyətlər pasiyentlərə göstərilən xidmətlərin təbiətini də dəyişir. E-tibbin yaranması da bunun bariz nümunəsidir.

Elektron tibb informasiya kommunikasiya texnologiyaları, tibbi xidmətlərin göstərilmə prosesləri, informasiya mübadiləsi üzrə xidmətlərin təşkili və s. üçün vasitələr kompleksidir. Səhiyyənin təkmilləşdirilməsi üçün zəruri olan yeni münasibətlər, e-səhiyyənin meydana gəlməsi, e-tibbin tətbiqi istiqamətləri, səhiyyənin informasiyalaşdırılması mərhələləri, yeni düşüncə tərzi, tibbi heyyət üçün yaradılan imkanlar İKT-dən istifadə etməklə əldə edilə bilinir. Elektron tibbin yaradılması, elektron tibb kartlarının tətbiqi, sənədləşdirmə, qeydiyyat işinin aparılmasının avtomatlaşdırılması, arxivləşdirmənin elektron formada aparılması, həkimin iş yerinin kom-püterləşdirilməsi, teletibbin inkişafı, vahid informasiya sisteminin yaradılması və s. kimi bir sıra əsas istiqamətlər üzrə əhəmiyyətli nəticələrin əldə olunmasına imkan verir. Digər sahələrdə olduğu kimi səhiyyə sahəsində də İKT tətbiqi və istifadəsi, e-tibbin formalaşması, e-tibb kartlarının (ETK) reallaşması müvafiq bacarıq və biliklərə malik insan resurslarının olmasını tələb edir.

E-tibbin formalaşması üzrə qabaqcıl ölkələrdə hazırda əsas diqqət ümumi səhiyyə informasiya-şəbəkə sisteminə qoşulan müəssisələrə, regionlara, insanlara daha yaxşı xidmət göstərən əlverişli infrastrukturun yaradılmasına yönəlmiş və e-tibb xidmətlərinin keyfiyyətinin artırılması üçün mühüm tədbirlər görülür.

Azərbaycanda da bu istiqamətdə müvafiq işlər aparılır. Bu gün səhiyyə sisteminin müasir tələblər səviyyəsində qurulması, tibdə qabaqcıl texnologiyaların tətbiqi, bu sahədə mövcud problemlərin həlli istiqamətində əməli addımlar atılır, dünyanın qabaqcıl ölkələri ilə əməkdaşlıq əlaqələri yaradılır, birgə layihələr reallaşdırılır.

İnternet texnologiyaları elekrton biznesin, ümumiyyətlə, onun tərkibinə daxil olan elektron kommersiyanın sürətli inkişafına güclü təkan verməklə İnternet-iqtisadiyyat, virtual iqtisadiyyat yaranmışdır. Elektron imza, elektron ticarət haqqında olan qanunların tənzimlənməsi elektron kommersiyanın həyata keçirilməsini reallaşdırır. Elektron kommersiyanın yaradılmasında və tətbiqində əsas məqsəd məhsulun qiymətinin aşağı salınması ilə bazarın genişləndirilməsi, rəqabətin güclənməsinə şərait yaratmaqla yüksək iqtisadi səmərənin əldə edilməsinə nail olmaqdır.

Elektron kommersiya əmtəə və xidmətlərin, elektron kommunikasiya vasitələrindən istifadə etməklə, reklamın, satışın, marketinq müşayiətini həyata keçirməyə imkan verən iqtisadi tədbirlər sistemidir. Elektron kommersiyanın tətbiqi ilə əmtəə və xidmət bazarlarının marketinqini, əmtəələrin xüsusiyyətlərinin formalaşdırılmasını, əmtəə və xidmətlərin reklamını, satış bazarlarının monitorinqini, kommersiya fəaliyyətinin maliyyə təminatını, əmtəələrin istehlakçıya çatdırılmasındakı aralıq vasitələrin (distribyütorların, topdansatış təşkilatlarının) ləğvini, əmtəə və xidmətlərə servis xidmətini və s. əldə etmək olar.

Elektron-biznes, elektron-kommersiyanın iqtisadiyyatın inkişafına təsiri artıq cəmiyyətin bütün sahələrini əhatə etməkdədir. Elektron-kommersiya sifarişçinin tələblərinin formalaşdırılmasına radikal təsir edə bilmə imkanı təklif edir ki, bu da bazarları ya kökündən dəyişdirir, ya da tamamilə yeni tipli bazarlar yaradır [2,s.41]

Əmək münasibətlərinin İnternetin virtual məkanına köçürülməsi məsafədən işin inkişafı, iqtisadi səmərəliliyi, nəqliyyat və enerji xərclərinin azalması hesabına əldə edilir. Eyni zamanda, əmək məhsuldarlığı və işin keyfiyyəti azalmır, bir çox hallarda hətta artır. Bununla da iş yerlərinin saxlanmasına xərclərə qənaətə, məhsuldarlığın artırılmasına (iş zamanı fasilələrin aradan qaldırılmasına, yerdəyişmə ilə əlaqədar vaxt itkisinin azaldılmasına), əməyin təşkilinin yaxşılaşdırılmasına nail olmaq olar. Həmçinin, yaşayış yerindən asılı olmayaraq yüksək ixtisaslı işçilərin cəlb edilməsi, daimi ştatların müvəqqəti icraçılarla əvəz edilməsi və s. də mümkündür.

Deməli, əmək münasibətlərinin İnternetin virtual məkanına köçürülməsinin cəmiyyətə nəqliyyat problemindəki gərginliyin azaldılması, həmçinin atmosferin, ətraf mühitin çirklənməsinin azalması, məsafədən təhsil vasitəsilə yaşayış yerindən asılı olmayaraq, keyfiyyətli təhsil almaq üçün hamıya bərabər imkanların yaradılması kimi sosial-iqtisadi və s. faydaları var.

İKT tətbiqi ilə "Elektron hökumət"in yaradılmasında isə əsas məqsəd idarəetmənin metod, mexanizmlərinin təkmilləşdirilməsi, səmərəliliyin artırılması, təqdim edilən elektron xidmətlərin keyfiyyətinin, istifadəsinin artması, dövlət orqanları arasında səmərəli, təhlükəsiz informasiya

mübadiləsinin təmin olunması, informasiya bərabərsizliyinin aradan qaldırılmasıdır.

Tədris prosesində də informasiya kommunikasiya texnologiyalarının imkanlarından geniş istifadə edilməsi tədrisin keyfiyyətini yüksəltməklə onun əyaniliyini təmin edir, mövzunun tez bir zamanda mənimsənilməsinə şərait yaradır.

Təhsil sahəsində müasir İKT tətbiqi əsas vasitədir demək olar. Bu baxımdan təhsil sahəsinin informasiyalaşdırılması sürətli inkişaf dövrünü yaşayır. Tam əminliklə demək olar ki, bu gün qloballaşan dünyada ölkələrin rəqabət qabiliyyəti xeyli dərəcədə onların İKT-dən səmərəli istifadəsi ilə şərtlənir. Ona görə də, inkişaf etmiş ölkələrdə təhsilin informatlaşması təhsilin prioritet məsələsi kimi qiymətləndirilir. Təhsil prosesinə, pedaqoji sahəyə informasiya texnologiyalarının tətbiqi müasir təhsildə informatlaşma istiqaməti kimi formalaşmaqdadır.

İKT kənd təsərrüfatı sahələrinə tətbiqində isə "Elektron kənd təsərrüfatı" informasiya sisteminin (EKTİS) yaradılması torpaq sahələrinin rəqəmsallaşdırılması, ilkin coğrafi məlumatlar bazası, aparılacaq əkinlərin planlaşdırılması və təşkili məqsədi ilə dəqiq uçotun aparılması, həmin torpaq sahələrinin yerinin, ölçüsünün, mülkiyyət formasının, təyinatının məqsədli istifadə növünün müvafiq qaydada müəyyənləşdirilməsi, vahid coğrafi məlumatlar bazasının formalaşdırılması üçün əsas məqsəd kimi qarşıya qoyulmuşdur.

Müasir dövrdə turizm iqtisadiyyatın bir sahəsi kimi beynəlxalq aləmdə dünya iqtisadiyyatının yüksək gəlirli sahələrindən biri hesab edilir. O, hətta neft hasilatı və maşınqayırma sənayesilə rəqabətə də qoşula bilir. Turizmin uğurla inkişaf etdirilməsi nəqliyyat, tikinti, kənd təsərrüfatı, mehmanxana və restoran xidmətləri, xalq istehlakı mallarının istehsalı kimi əsas iqtisadi fəaliyyət sahələrinə müsbət təsir göstərir. Bu səbəbdən turizm sahəsinin yaradılması ölkə iqtisadiyyatının inkişaf etdirilməsi istiqamətlərindən biridir. Kompüter texnologiyasının və sürətli informasiya mübadiləsinin tətbiqi turizmin təşkilində aparıcı rola malik olan turoperatorların fəaliyyətinə təsir edir.

Təşkilati cəhətdən istənilən turizm müəssisəsinin informasiya texnologiyaları ilə təchiz olunması daxili informasiya şəbəkəsinin, elektron sənəd dövriyyəsinin, biletlərin, otelin, onun müxtəlif xidmətlərinin əvvəlcədən sifariş olunması, səyahətlər haqqında informasiyanın əldə edilməsi, müəssisənin struktur bölmələri arasında operativ əlaqənin yaradılması, mühafizə sisteminin formalaşması və s. həyata keçirilə bilinir. Bu da turizmin informasiya iqtisadiyyatı ilə bağlı olduğunu göstərir.

Bu gün ölkəmizdə e-turizmin inkişaf etdirilməsi üçün turizm sahəsinə yeni texnologiyaları tətbiq etməklə onu zənginləşdirmək və daha da təkmilləşdirilməsini əldə etmək olar. Eyni zamanda turizm əhalinin məşğulluğuna da ciddi təsir etməkdədir.

Beləliklə, müasir qloballaşma dövründə İKT tətbiqi hər bir müəssisədə informasiya sistemlərinin yaradılmasında olan problemləri meydana çıxarır. Çünki bu gün istənilən müəssisə iqtisadi bazarda öz yerini saxlamaq üçün İKT istifadə etməklə effektiv işləyən, müasir tələblərə cavab verən informasiya sisteminə malik olmalıdır. İKT tətbiqilə müasir xidmət növlərinin geniş istifadəsinə nail olunur, ətraf mühitin mühafizəsi, kənd təsərrüfatı, topoqrafiya və kartoqrafiya, eləcə də elm, təhsil və digər sahələrdə fəaliyyətin səmərəliliyinin yüksəldilməsini əldə etmək olar.

Deməli, əgər müasir dövrdə istehsalat və qeyri-istehsalat sahələrinə İKT tətbiqi əsas məqsəd kimi qəbul edilirsə, burada ilk növbədə İKT-nin öyrənilməsi də əsas şərtlərdən biridir.

ƏDƏBİYYAT

1. S.İ.Səfərov. İlham Əliyev- dinamik inkişafın uğurlu gələcəyinin təminatçısı. Bakı, 2008, s. 535.
2. Ə.Q.Əliyev, V.Ə.Abbasov. Elektron kommersiya texnologiyalarının həyata keçirilməsinin tənzimlənməsi məsələləri. İnformasiya cəmiyyəti problemləri, №1, 2010.
3. www.ict.az
4. www.rabitə.az

Сара Ибрагим кызы Сафарова
доцент Азербайджанский Университет Кооперации

Информайионные коммуникационные технологии в условиях глобализации в Азербайджание

Резюме

В статье основное внимание уделяется применению технологий информационных технологий для совершенствования его методологии, механизмов, повышения эффективности, повышения качества предоставляемых электронных услуг и обеспечения того, чтобы государственные органы имели эффективный, безопасный обмен информацией в процессе обучения и улучшали качество обучения.

Ключевые слова: электронная медицина, электронная подпись, электронная коммерция, электронная связь, телекоммуникации, электронные сельскохозяйственные информационные системы, электронный туризм.

Sara Ibrahim Safarova
ass. prof. of Azerbaijan University of Cooperation

Informatıon communication texnologies in globalization condition in Azerbaıjan

Summary

The article focuses on the application of Information Technology Technologies to improve its methodology, mechanisms, improve efficiency, improve the quality of the electronic services provided, and ensure that public authorities have an effective, secure exchange of information in the learning process, and improve their teaching quality.

Key words: e-medicine, electronic signature, e-commerce, electronic communications, telecommunications, electronic agricultural information systems, e-tourism.

Sədaqət ƏHMƏDOVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,

Cavadxan QASIMOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFINDA QADINLARIN ROLU

Xülasə

Məqalədə Naxçıvan Muxtar Respublikasının uzunmüddətli və davamlı sosial-iqtisadi inkişafında demoqrafik siyasətin səmərəliliyindən bəhs edilmişdir. Göstərilmişdir ki, muxtar respublika iqtisadiyyatı demoqrafik tarazlığın təmin edilməsindən, savadlanma səviyyəsinin artmasından, mədəni keyfiyyətlərin inkişafından, dünyagörüşün yüksəlməsindən və digər üstünlüklərdən ibarət sosiallaşma potensialına malikdir. Bütün bunların nəticəsində isə muxtar respublika ölkənin milli iqtisadi quruculuq proseslərində çevik iştirak etməkdədir.

Açar sözlər: sosial-iqtisadi inkişaf, milli iqtisadi quruculuq, sosiallaşma, iqtisadi perspektivlər, demoqrafik siyasət.

***

Naxçıvan Muxtar Respublikası ölkənin milli iqtisadi quruculuq proseslərində qətiyyətlə iştirak etməkdədir. Bütün dövrlər üzrə sosial-iqtisadi inkişafa təkan olan bu məsələlər əhalinin və onun bütün təbəqələrdən olan nümayəndələrinin maddi rifah halının, firavan yaşayışının və sosial məmnunluğunun artmasına istiqamətlənmişdir. Son iyirmi iki ildə həyata keçirilən məqsədyönlü tədbirlər və tənzimləmələr burada sosial-iqtisadi proseslərin gedişində əhalinin iştirak və yarar-

lanma səviyyəsini daha da fəallaşdırmışdır. Bu isə öz növbəsində demoqrafik tarazlığın təmin edilməsində mühüm amilə çevrilmişdir. 2016-cı ilin statistik məlumatlarına görə muxtar respublikada kişilər üzrə doğulanlar (3390 nəfər) ölənlərdən (973 nəfər) 3,5 dəfə, qadınlar üzrə (müvafiq olaraq 3120-877) isə 3,6 dəfə çox olmuşdur. Təbii artım isə kişilər üzrə 2417, qadınlar üzrə isə 2243 nəfər təşkil etmişdir.


Eyni müqayisəni şəhər və kənd yerləri üzrə aparsaq, onda müvafiq olaraq, kişilər üzrə şəhər yerlərində doğulanlar ölənlərlə (müvafiq olaraq, 955-350) müqayisədə 2,7 dəfə, kənd yerlərində (2435-623) 4 dəfəyə yaxın artmışdır. Təbii artım isə şəhər yerlərində 605 nəfər, kənd yerlərində isə 1812 nəfər olmuşdur [1].

Müvafiq olaraq bu artım qadınlar üzrə şəhər yerlərində (880-295) 3 dəfəyə yaxın, kənd yerlərində isə (2240-582) 3,8 dəfə təşkil etmişdir. Burada təbii artım göstəricisi isə birincilər üzrə 585 nəfər olmuşdursa, ikincilər üzrə 1658 nəfər kimi qərarlaşmışdır.

Fikrimizi muxtar respublikanın ümumi əhalisi üçün ifadə etsək görərik ki, doğulanlar (6510) ölənlərlə (1850) müqayisədə 3,5 dəfə çox olmuşdur. Burada təbii artım isə 4660 nəfər təşkil etmişdir. O cümlədən, ümumi şəkildə şəhər yerlərində doğulanlar (1835) ölənlərlə (645) müqayisədə 2,8 dəfə, kənd yerlərində isə (müvafiq olaraq, 4675-1205) 4 dəfə çox olmuşdur. Təbii artım isə birincilərdə 1190, ikincilərdə isə 3470 nəfər təşkil etmişdir.


Naxçıvan Muxtar Respublikasının ərazi xüsusiyyətlərinə görə aqrar bölgə olması, bununla yanaşı mezoiqtisadi baxımdan iqtisadiyyatın sənaye əhəmiyyətinin yüksəldilməsi burada əhalinin məskunlaşma siyasətinin təşkili və idarə olunmasında məqsədyönlü tədbirlərin həyata keçirilməsini stimullaşdırmışdır. Araşdırmalar göstərir ki, muxtar respublikada müəyyən olunan sağlam iqtisadi siyasət əhalinin artım dinamikasının sağlam təminatına əmanət vermişdir. Əhalinin illər üzrə artım göstəricilərinə diqqət edərkən bunu aydın şəkildə görmək mümkündür.

Naxçıvan Muxtar Respublikasında əhalinin artım vəziyyəti (ilin əvvəlinə, min nəfər)



Hazırda bu göstərici 452 min nəfərdən artıqdır. Müasir müstəqillik şəraitində muxtar respublikanın əldə etdiyi möhkəm sosial-iqtisadi dayanıqlılıq burada əhalinin rifah halının yaxşılaşdırılmasına, sosial məmnunluğunun yüksəlməsinə, bununla da ömür uzunluğunun artmasına səbəb olmuşdur. Aşağıdakı şəklə diqqət edəndə son iyirmi ilə aid müxtəlif illərdə muxtar respublika üzrə cins bölgüsündə doğulanda gözlənilən ömür uzunluğu haqqında məlumat verilmişdir:


Müxtəlif illərdə Naxçıvan Muxtar Respublikasında cins bölgüsündə doğulanda gözlənilən ömür uzunluğu (yaş sayı)



Naxçıvan Muxtar Respublikasında qeyd edilən məsələlərin təşkili və idarə olunmasındakı proseslər nəticəsində ana ölümünün sayı 1996-cı ildə 1, 1997-ci ildə 2, 1998-ci ildə 1 və 2003-cü ildə 2 nəfər olmuş, 1999, 2000, 2001, 2002-ci illərdə və 2004-cü ildən etibarən bu günlərə qədər sıfıra bərabər olmuşdur [3, s. 120].

Ölkəmizdə qadınların əmək potensialı olmaq etibarı ilə dövlətin sosial siyasətindən bəhrələnmələri davamlı iqtisadi məqsədlərə aid edilmiş və bu, regionların, o cümlədən də Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında özünü göstərməkdədir. Həm də səmərəli məşğulluq siyasətinin hərəkətverici qüvvəsinə çevrilən bu amillər muxtar respublikanın iqtisadi perpesktivlərini göstərməkdədir. Aşağıdakı şəkildə bunu aydın görə bilərik:


İqtisadi fəaliyyət növləri üzrə muzdla işləyən qadınların sayı (nəfər)



Göründüyü kimi, 2005-2016-cı illərdə iqtisadi fəaliyyət növləri üzrə muzdla işləyən qadınların sayında 1,5 dəfəlik artım qeydə alınmışdır. Şübhəsiz ki, bu sahədə regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının səmərəli icrasının da mühüm təsiri olmuşdur.

İqtisadiyyatın sosiallaşma istiqamətlərindən birini bütün tərəfləri ilə yanaşı, həm də cəmiyyətin təhsil səviyyəsinin yüksəldilməsindən ibarət məqsədyönlü tədbirlər təşkil etməkdədir. Qeyd etmək lazımdır ki, bu həm də güclü sosial dayanıqlıq təmin etməkdədir. İnsanların təhsil almaq imkanlarının genişləndirilməsi, təhsil şəbəkəsinin əhatə dairəsinin genişlənməsi, bu sahədəki fəaliyyətin düzgün təşkili və idarə olunması muxtar respublikanın dövlət siyasətinin ən çevik tərkib hissələrindən birinə çevrilmişdir. Elektron təhsildən istifadə onun keyfiyyətcə dəyişməsinə səbəb olmuş, bununla da müasir dövrün ən yeni çağırışlarının və tələblərinin əsasında yer alan inkişaf muxtar respublikanın bütün ali və orta ixtisas məktəblərində öz əksini tapmış və bu sahədə qadınların da rolu yüksək olmuşdur.

Naxçıvan Muxtar Respublikasında təhsil sahəsi üzrə muzdla işləyən qadınların sayı (nəfər)



Hesablamalar göstərir ki, muxtar respublikada 2005-2016-cı illər arasındakı dövr ərzində müvafiq sahə üzrə muzdla işləyən qadınların sayında 1,3 dəfəlik artım özünü göstərməkdədir.

Təbii ki, bütün bunlar ümumi olaraq muxtar respublikada dövlətin əhalinin sosial müdafiəsinin təmin edilməsi, qorunması və gücləndirilməsi sahəsindəki tədbirlər sistemini ifadə etməkdədir.

Sosial müdafiə bütün dövrlərdə strateji mahiyyət kəsb etməklə, insanın yaşadığı yerdən, milliyyətindən, cinsindən, yaşından asılı olmayaraq, konstitusion hüquqların və minimum zəmanətlərin təmin olunması üzrə dövlətin apardığı siyasətdir [1, s. 19]. Buradan da görünür ki, qadınların da sosial-iqtisadi inkişafın hərəkətverici qüvvəsi olaraq çevik fəaliyyət göstərməsi ölkənin milli iqtisadi maraqlarını dolğun şəkildə ifadə edir, onun sosial siyasətinin səmərəliliyinə istiqamətlənib və ona xidmət etməkdədir.

Qadınların sosial-iqtisadi proseslərdə əhəmiyyətli rolu onu deməyə əsas verir ki, onlar:

- müasir dövrün çağırışlarına tez uyğunlaşmaqda maraqlıdır və makroiqtisadi proseslərə öz töhfələrini verməkdədirlər;
- prioritet kimi seçilən özünüməşğulluğun inkişafının dəstəklənməsində və səmərəliliyinin yüksəldilməsində mühüm rola malikdirlər;
- ev təsərrüfatlarının idarə edilməsində və bu sahə üzrə məhsuldarlığın təminatında fəaliyyətləri böyükdür;
- mədəni keyfiyyətlərin, dünyagörüşün, təhsilin inkişafında, eləcə də sosial həyatın əksər sahələrində həlledici mövqeləri vardır;
- milli iqtisadi inkişafın davamlılığının və artan perspektivlərinin təminatçılarındandır və s.

Sadalanan amillər muxtar respublikada insanların rifah halının artımının, sistemli olaraq onların potensialından iqtisadiyyatın və sosial sferanın davamlı inkişafının təmin edilməsindəki rolunun öyrənilməsindən ibarət olan sosial iqtisadiyyatın [2, s. 71] təşəkkülündə mühüm təsirə malikdir.

ƏDƏBİYYAT

1. Əliyev A. Ə., Quliyev A. S. Sosial sferanın iqtisadi və metodoloji əsasları. Bakı: "Adiloğlu", 2005, 304 s.
2. İbadov S. A. İqtisadi nəzəriyyə. Dərslik. Bakı: "Şərq-Qərb", 2009, 414 s.
3. Qasımov C.Y., Ələsgərova F.Q. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı: tarixilik və müasirlik. Dərs vəsaiti. Naxçıvan: "Əcəmi", 2017, 186 s.
4. http://www.statistika.nmr.az/

д.ф.э., доц. Садагат Ахмедова,
д.ф.э., доц. Джавадхан Гасымов

Роль женщин в социально-экономическом развитии Нахчыванской Автономной Республики

Резюме

В статье обсуждается эффективность демографической политики в долгосрочном и продолжительном социально-экономическом развитии НАР. Указано на то, что Автономная Республика обладает потенциалом социализации, в которую входят повышение мировоззрения, развитие культурных качеств, повышение уровня образования, обеспечения демографического равновесия АР.В результате этого автономная республика принимает участие в образовантт процессов национальной экономики страны.

Ключевые слова: социально-экономическое развитие, строение национальной экономики, экономические перспективы, демографическая политика.

PhD in economy, ass. prof. Sadagat Ahmedova,
PhD in economy, ass. prof. Javadkhan Gasimov

The role of women in the socio-economic development of Nakhchivan Autonomous Republic

Summary

This article deals with the efficiency of demographic policy in long term and stable socio-economic development of NAR. It is pointed out that the Autonomous Republic has the potential of socialization, which includes increasing the world view, developing cultural qualities, raising the level of education, ensuring the demographic balance of the AR. As a result, the autonomous republic participates in the formation of the processes of the national economy of the country.

Key words: socio-economic development, the structure of the national economy, economic prospects, demographic policy.

Larisa TAKALANDZE
professor, Sokhumi State University, Georgia

THE ISSUES OF MANAGEMENT İN GEORGİAN COMPANİES

The issues of corporative management are relatively new ones for Georgian companies. At the outset of market reforms, most of them developed based on their own assets. Though, at the rapidly growing market, in the conditions of dynamically changing technologies and severe competition, the own assets are apparently insufficient. The companies inevitably face the issue of attraction of the external financial assets, and in quite significant quantities. This requires from the companies organization of its operation in accordance with the state-of-art management principles.

As we have stated, the corporative management institute is quite weakly developed in our country. Currently, in Georgia, there are numerous problems related to corporative management; among them - unawareness of the shareholders in their rights, negligence with respect of the established procedures, ineffective management bodies, non-public nature of information, legislation weaknesses etc.

To deal with this problem, the International Finance Corporation IFC (WB Group member, operating for private sector and supporting formation of open and competitive markets in the developing countries) has performed wide-scale and effective work; it has already completed the corporative management project in Georgia, intending assistance to Georgian companies in the sphere of improvement of corporative management practices. Introduction of responsibility, accountability and transparence principles in the company's activities promoted the profitability and attraction of the investments. IFC provided assistance in improvement of legislative environment regulating corporative management, as well as adoption of voluntary corporative management code by the Georgian Banks' Association. IFC has also conducted seminars and individual consultations on legal and financial aspects of corporative issues and implemented the pilot program for the selected companies and banks. In result, in numerous companies and banks improvement of the corporative management practice led to improvement of effectiveness. One of such entities is JSC "Tbilaviamsheni" (former Tbilisi Aviation Factory). Thus, it would be interesting to discuss the corporative management issues on the example of Tbilaviamsheni (TAM).

JSC "Tbilaviamsheni" (former Tbilisi Aviation Factory) was established on 15th December 1941. In the first days of World War II< the aviation factories of Taganrog and Sevastopol were evacuated to Tbilisi, Georgia. At that time the factory was the only supplier of attack aircraft to the Caucasian front. JSC Tbilaviamsheni is the largest engineering works in Caucasus, with 70-year experience and its key sphere of activities is aircraft construction. Experience gained for 70 years of operation in aviation business allows TAM to be the leader in this sphere. The company

has the reputation of the manufacturer of high quality and reliable products. Unique infrastructure and wide material-technological basis allow, with minor modernization, production of the military and civil products of various purposes and technical complexity. One of the most significant guarantors of TAM success is high qualification of employed engineering-technological staff and workers. For the purpose of business diversification and better adjustment to the market requirements the company commenced production of various civil products in 90-ies and later it invested into the growing segment of civil aircraft construction.

One of the most important scientific achievements of nineties was implementation of the joint project of TAM and Georgian Institute of Space Structures - designing and production of the movable antenna-reflector, first test of which was completed at Russian space station MIR.

For the nearest 5-10 years the major efforts of the company will be directed towards new projects in civil aircraft construction and development of the other aviation services (aviation transportation, development of the relevant infrastructure and services). In addition, for the same period, the company attempts to fully implement the market capacities of its key product, SU-25 and ensure its improvement to comply with the international (NATO) standards, for the purpose of maximization of the product's life time. As of today, the company's activities include two key spheres: aircraft construction (both, military and civil) and manufacturing of the civil products of various purposes. Key consumers of the aviation products are the military-air forces of CIS, African, South American and former socialist countries, which have the SU-25 aircrafts intending to procure and modernize or repair them. The target consumers of the civil aviation products are large corporations of USA, Europe, Near East, Asia, CIS countries, private airlines and private persons.

Foreign partners of JSC TAM-Tbilaviamsheni are: "Elbit Systems" (Israel) - avionics and electric systems for the modernized SU-25; Israel Aircraft Industries (IAI) (Israel) - avionics for the helicopters; production of various elements of GULFSTREAM aircraft; Aircraft Investor resources (AIR) (USA) - assembly of 7-seater light business JETS of Tam-Air type, production and design of various parts and Growth Management Limited (GML) (Great Britain) - investments and financial service;

JSC TAM implements consistent politics of corporative management improvement, ensuring planned regulation of the relations between shareholders, supervisory board members and corporation management. For the purpose of adjustment of the corporative management system to the international standards, the supervisory board has made number of significant decisions. The following could be regarded as the most significant of these decisions: 1. establishment of the audit committee under the supervisory board for improvement of internal control system, providing internal control and periodic reporting of results to the supervisory board and the president of company; 2. establishment of the temporary committee for corporative management serving to improvement of activities with respect of corporative management; 3. introduction of the institute of corporative secretary ensuring proper relations between shareholders, supervisory board members and corporation management. Introduction of this institute ensured transparency and information availability systems in the corporation.

Based on the corporative management principles, the short-term dividend politics was adopted, the board of directors, as well as the consultancy body of the board of directors - executive committee were established. The latter is subordinated directly to the general director and provides weekly monitoring of the technological and production issues, as well as contracts implementation and ensures undelayed implementation of the current works; the following statutes were prepared and adopted: "On Supervisory Board", "On Board of Directors" and "On Audit Committee". These statutes were developed based on the best international corporative management principles.

Structure, composition and charter of internal audit were approved.

Supervisory board, composed of four members, appoints the chairman of the board of directors, who, at the same time, is general director. Director's authorities include all those issues not included into the competence of the general shareholders' meeting and supervisory board and regulated by the statute on Board of Directors. Director considers all issues requiring approval of the super-

visory board, in accordance with the legislation and charter and makes preliminary decisions thereon.

Supervisory board, within its competence, attempts to complete its composition so that:

a) Its members acted critically towards one another, director and any interested party, as well as independently from them;

b) Each member os supervisory board was able to evaluate general layout of the common policies;

c) Each member of the supervisory board, within the profile of supervisory board, had the experience required for fulfillment of his/her obligations;

d) Supervisory board, as a whole, were in compliance with the supervisory board profile and its composition was such that it was able to properly fulfill its obligations;

e) At list one member of the supervisory board was the expert in the sphere of finance, with proper knowledge and experience in financial administration and accounting with the company of similar scale and complexity or the Company;

f) At least one member of supervisory board was the expert in the sphere of corporative law.

Supervisory board members are elected at the general shareholders' meeting. Nomination or recommendation to the general meeting for the candidate in the supervisory board shall contain information about the candidate's age, his/her profession, number and types of shares held in the Company, as well as such information as criminal record, containing deception, fraud and/or non-fulfillment of his/er obligations. List of the positions held for the last 5 years and any other information required fore assessment of the candidate in supervisory board.

For the purpose of effective communication between corporation and supervisory board it is planned to develop and introduce regulations for material or moral award of the supervisory board members, for performed work. Their remuneration shall be set by the general shareholders meeting. Regarding that award (material compensation) takes place only when the corporation gains net profit, the share capital would increase and the meeting will make decision on dividend distribution, consequently, the supervisory board members will be motivated to increase of the share capital and improvement of effectiveness of corporation's business. Agreements were made with each board member, stating functions, obligations and, what is most important, responsibilities for their activities. Inspection of the quality of the mentioned activities is provided by means of the special questionnaire specially prepared for analysis of the company management, in the end of each year. This allows evaluation of effectiveness of the company management, identify management weaknesses and plan measures to be taken for the purpose of improvement of effectiveness of the company management.

We believe that the example of JSC TAM-Tbilaviamsheni, with the management based on the corporative management principles, will be useful for the companies attempting to gain their place in the permanently changing dynamic and competitive world.

LİTERATURE:

1. Baratashvili E., Takalandze L., Management and Administration, Tbilisi, 2011
2. Maryska M., Doucek P., Nedomova L., Corporate Informatics and Strategic Management, Procedia Economics and Finance 26 (2015) 651 - 656

Vilayət Bədir oğlu MİRZƏYEV
i.e.n., dos. Azərbaycan Kooperasiya Universiteti,

Rauf Qəzənfər oğlu MƏMMƏDOV
i.e.n., dos. Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCAN İQTİSADİYYATININ İNKİŞAFINDA VERGİLƏRİN ROLU

Xülasə

Azərbaycan iqtisadiyyatının inkişafında və tənzimlənməsində vergilərin rolu, vergi sisteminin yenidən qurulması, vergilərin iqtisadiyyatın maliyyə tənzimlənməsinin mühüm vasitəsi kimi çıxış etməsi, son illər ayrı-ayrı vergi növləri üzrə dövlət büdcəsinə vergi daxilolmalarının təhlili aparılır, iqtisadiyyatın tənzimlənməsində vergilərin rolunun yüksəldilməsi yolları araşdırılır.

Açar sözlər: vergi sistemi, strateji yol xəritəsi, vergi islahatları.

***

Respublikamızda son illər güclü iqtisadi potensialın yaradılmasında, dövlətçiliyin möhkəmləndirilməsində, azad və demoqrafik cəmiyyət quruculuğunda görülən işlər Azərbaycanın iqtisadi qüdrətini və beynəlxalq nüfuzunu xeyli artırmışdır. Bütün bunlar ulu öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yorulmaz fəaliyyətinin nəticəsidir. Azərbaycan Respublikasında həyata keçirilən çoxşaxəli islahatlar yeni inkişaf modelinin formalaşdırılmasına, onun dünya iqtisadiyyatına inteqrasiyasına, həm neft, həm qeyri-neft sektorlarının dinamik inkişafına, əhalinin rifahının yaxşılaşdırılmasına, iqtisadiyyatın tarazlı və mütənasib tərəqqisinə səbəb olmuşdur. Dünyada gedən böhran proseslərinə və bir sıra aparıcı ölkələrdə iqtisadi artım sürətinin aşağı düşməsinə baxmayaraq, ölkə başçısının çevik və işlək mexanizmlər üzərində qurulmuş uğurlu fəaliyyəti nəticəsində son illər iqtisadi artım tempinə görə lider mövqedə olan milli iqtisadiyyatımızda, çox az ölkələrin nail olduğu, artıq nümunə göstərilən yüksək və dayanıqlı sabitlik təmin edilmişdir.

Yeni inkişaf dövründə ölkəmizin qarşısında duran məsələlərin həlli və dayanıqlı inkişafa nail olmaq istiqamətində mühüm addımlardan biri də «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri»nin təsdiq olunmasıdır. Bu xəritə, eləcə də iqtisadiyyatın 12 əsas sektoru üzrə təsdiq edilmiş strateji yol xəritələri Azərbaycanın yaxın gələcək üçün hədəflərini və prioritet inkişaf istiqamətlərini müəyyən edən fundamental sənəd toplusu olmaqla, ölkənin yeni iqtisadi modelinin əsasını təşkil edir. Strateji yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövr üzrə qarşıya qoyulmuş hədəfləri özündə əks etdirir. İqtisadiyyatın mövcud vəziyyətinin dərin təhlilinə əsaslanan bu sənədlərdə ayrı-ayrı sektorların inkişaf istiqamətləri, rəqabətqabiliyyətliliyin daha da artırılması, investisiyaların cəlbi, azad rəqabət mühiti, dünya bazarlarına çıxış, Azərbaycanın dünya iqtisadiyyatında mövqeyinin və etibarlı tərəfdaş imicinin gücləndirilməsi əsas vəzifələrdən biri kimi müəyyən edilib. [2]

Ölkə iqtisadiyyatının hərtərəfli inkişafı, xüsusilə, real sektora xarakterik olan yüksək artım tempi və aparılan islahatlar müasir dövrdə də vergi sisteminin inkişafına təkan vermis, gələcək inkişaf üçün yeni perspektivlər və imkanlar müəyyənləşdirmişdir. Milli iqtisadi inkişaf strategiyasında mühum rol oynayan vergi xidməti orqanlarında son illər vergi sisteminin təkmilləşdirilməsi, vergitutma bazasının genişləndirilməsi, vergi xidmətinin müasir Avropa standartlarına uyğunlaşdırılması sahəsində əhəmiyyətli işlər görülmüş, vergi qanunvericiliyi və vergi inzibatçılığının müasir tələblər baxımından qurulmasında bir sıra müvəffəqiyyətlərə nail olunmuşdur. [3, s. 21]

Qeyd etmək lazımdır ki, ölkənin vergi sistemi ictimai istehsala, onun strukturuna, iqtisadi resursların səmərəli bölüşdürülməsinə, elmi-texniki tərəqqinin sürətləndirilməsinə iqtisadi təsir mexanizmi kimi çıxış edir. Vergilər vasitəsilə, sahibkarlıq fəaliyyətinin bu və ya digər sahələrinin inkişafının stimullaşdırılmasına və əksinə, onların istehsal fəaliyyətinin məhdudlaşdırılmasına, dünya bazarında yerli müəssisələrin rəqabət qabiliyyətinin yüksəldilməsinə, bir sözlə, səmərəli iqtisadiyyatın formalaşdırılmasına nail olunur. Vergilər iqtisadiyyatın maliyyə tənzimlənməsinin

mühüm vasitəsi kimi çıxış edir. Dövlət vergi sistemindən istifadə edərək iqtisadiyyata maliyyə təsirini həyata keçirir.

Qeyd etmək lazımdır ki, ölkədə həyata keçirilən köklü sosial-iqtisadi dəyişikliklər nəticəsində vergilər iqtisadiyyatın tənzimlənməsinin və idarə olunmasının başlıca amilinə çevrilmişdir.

Bazar iqtisadiyyatına transformasiyanın sosial-iqtisadi problemləri vergi sistemində həyata keçirilən iqtisadi islahatlar, struktur dəyişiklikləri, istehsalın prioritet sferalarının stimullaşdırılması, ölkənin ixracat potensialının genişləndirilməsi, yerli və xarici sahibkarların investisiya fəallığının gücləndirilməsi kimi proseslərin vergi tənzimlənməsinin forma və metodlarının müəyyən edilməsinə tabe etdirilməsini tələb edir. Bu baximdan «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri»ndən irəli gələn vəzifələrlə əlaqədar vergi qanunvericiliyinə beynəlxalq təcrübəyə əsaslanan bir sıra mütərəqqi yeniliklərlə bağlı müddəalar əlavə edilib. Bunların sırasına vergi öhdəliklərinin hüquqi nəticələr doğurmazdan əvvəl vergi orqanları ilə razılaşdırılması qaydası və vergi ödəyicilərinin hüquqlarının qorunmasına xidmət edən «Könüllü vergi açıqlaması» sisteminin tətbiqi, transfert qiymətlərinə və ofşor zonalarda qeydiyyatdan keçmiş müəssisələrlə aparılan əməliyyatlara nəzarət mexanizmlərinin qurulması, rəqəmsal iqtisadiyyatın, xüsusilə elektron ticarət üzərində vergi mexanizmlərinin yaradılması daxildir. E-ticarət üzərində vergi mexanizmlərinin yaradılması hazırda dünya vergi administrasiyalarının qarşısında duran həlli mürəkkəb problemlərdən biridir. Bu sahədə vergi mexanizmlərinin qurulması məqsədilə bir çox ölkələrin, xüsusilə aparıcı Avropa dövlətlərinin təcrübəsi öyrənilib və MDB məkanında problemin ən effektiv və spesifik həlli məhz Azərbaycanın vergi qanunvericiliyində öz əksini tapıb. [1, s. 43-47]

Son dövrdə ölkədə iqtisadi şəraitin əlverişli olması, mövcud sosial-iqtisadi vəziyyətin sabitliyi, ölkənin iqtisadi inkişafının dinamikliyi, onun bazar və resurs potensialının cəlbedicilik dərəcəsi dinamik inkişafa şərait yaratmışdır. Görülən tədbirlərin nəticəsidir ki, son 15 ildə Azərbaycanda ümumi daxili məhsul 12,5 dəfə, qeyri-neft ÜDM-in artımı 10,5 dəfə, vergi daxilolmaları 14 dəfə, qeyri-neft vergi daxilolmaları 14,4 dəfə, regionlardan vergi daxilolmaları 14,8 dəfə, vergi ödəyicilərinin sayı 6 dəfədən çox artmışdır. [4]

Bu dövr ərzində vergi ödəyicilərinin fəaliyyətini stimullaşdırmaq, investisiya mühitini yaxşılaşdırmaq, sosial rifahı gücləndirmək məqsədi ilə vergi növləri üzrə dərəcələr aşağı salınmışdır: mənfəət vergisinin dərəcəsi 27%-dən 20%-ə, ƏDV 20%-dən 18%-ə, fiziki şəxslərdən gəlir vergisinin yuxarı həddinin dərəcəsi 35%-dən 25%-ə endirilmiş, fiziki şəxslərdən gəlir vergisinin tutulmasında yuxarı həddi 1000 AZN-dən 2500 AZN-dək dəyişdirilmişdir. [3, s. 19]

İllər	Vergi və digər ödənişlər Daxilolmalar (min AZN)
2017	**6971679,6**
2016	**7 015 165,4**
2015	**7 118 196,7**
2014	**7 113 622,4**
2013	**6 663 633,4**
2012	**6 025 366,5**
2011	**5 475 062,0**
2010	**4 292 800,0**
2009	**4 113 400,0**
2008	**5 746 565,8**
2007	**4 549 259,0**
2006	**2 706 282,3**
2005	**1 427 452,9**

2017-ci il ərzində vergi ödəyiciləri tərəfindən dövlət büdcəsinə 6 milyard 971 milyon 679,6 min manat məbləğində vəsait ödənilmişdir. www.taxes.gov.az

Vergi sisteminin 2000-2017-ci illər üzrə əsas göstəricilərinin müqayisəli təhlili aparılaraq, bir vergi əməkdaşına düşən vergi ödəyicilərinin sayı 48 vahiddən 264 vahidə, bir vergi əməkdaşına düşən vergi daxilolmasının məbləği isə 0,16 milyon manatdan 3,08 milyon manata yüksəlmişdir. Təqdim edilmiş elektron bəyannamələrin sayı 1,2 milyondan çox olmuşdur. Bu isə o deməkdir ki, elektron bəyannamə sisteminin tətbiqi həm vergi orqanlarının, həm də vergi ödəyicilərinin işində səmərəliliyi artırır. Hazırda bəyannamələrin 90%-dən çoxu elektron formada təqdim edilir.

Dünya Bankının «Doing Business-2015» hesabatında Azərbaycan vergilərin ödənilməsi indikatoru üzrə 189 ölkə arasında 32 pillə irəliləyərək 33-cü yerdə qərarlaşmışdır və hesabatda Azərbaycan «Biznesə başlama» indikatoru üzrə 189 ölkə arasında 12-ci yerdədir.

Hal-hazırda ölkədə fəaliyyət göstərən vergi sistemi investisiya qoyuluşu sahəsində daxili mənbələrin prioritetliyinin təmin edilməsinə imkan yaradır. Bunun üçün üç prinsipial mövqe nəzərə alınır. Birincisi, Azərbaycanın sosial-siyasi inkişafının spesifik xüsusiyyəti, onun iqtisadiyyatının bazar prinsipləri əsasında təşəkkül etməsi, maliyyə resurslarının dövlət büdcəsində həddindən artıq mərkəzləşməsi və s. İkincisi, mülkiyyətə olan münasibətin dəqiq müəyyənləşdirilməsi zəruriliyi. Buna nail olmadan müəyyən ölkənin iqtisadi inkişafının sabit strategiyasını müəyyən etmək, bütün istehsal sferalarında, xüsusilə vergi sistemində islahatlar aparmaq olmaz. Üçüncüsü, bazar münasibətləri şəraitində dövlət xərclərinin səmərəliliyi məsələsinə də ciddi fikir vermək lazımdır

Ölkədə vergi sistemini, o cümlədən büdcə gəlirlərinin optimal nisbətini, büdcə xərclərinin səmərəli istiqamətlərini formalaşdırmaq üçün hökumət əsaslandırılmış büdcə-vergi siyasəti həyata keçirir. Vergi islahatlarının həyata keçirilməsi zamanı qarşıya çıxan mühüm problemlərdən biri də dövlət büdcəsi ilə yerli büdcələr arasındakı optimal əlaqənin formalaşdırılmasıdır. 2000-2016-ci illər ərzində respublikamızın vergi sistemində həyata keçirilən çoxsaylı islahatların tərkib hissəsi kimi yeni vergi qanunvericiliyinin təbliği, vergi mədəniyyətinin yüksəldilməsi, sahibkarlar və vergi əməkdaşları arasında işgüzar münasibətlərin yaradılması məqsədilə 2000-ci ilin sonundan vergi orqanlarında vergi ödəyicilərinin məlumatlandırılması şöbələri yaradılmışdır. Bundan əlavə, dövlət büdcəsinə vergilər və digər daxilolmalar üzrə müəyyən edilmiş proqnoz tapşırığın yerinə yetirilməsi məqsədi ilə vergi yığımının sistemləşdirilməsi, vergi bazasının genişləndirilməsi üçün potensial mənbələrin müəyyənləşdirilməsi sahəsində irimiqyaslı tədbirlər həyata keçirilir, sahibkarlığın inkişafına süni maneələrin qarşısının alınması, onların fəaliyyətinə lüzumsuz müdaxilələrə son qoyulması, bir sözlə, sağlam vergi münasibətlərinin qurulması ilə bağlı məqsədyönlü iş aparılır. Ölkəmizdə iş adamlarının maraqlarına mənfi təsir etdiyini nəzərə alaraq ayrı-ayrı ölkələrlə - Qazaxıstan, Moldova, Ukrayna, Gürcüstan, Özbəkistan, Belarus və bir sıra Qərb ölkələri- Böyük Britaniya, Norveç, Türkiyə ilə ikiqat vergiqoymanın aradan qaldırılması barədə sazişlər imzalanmış və digər ölkələrlə danışıqlar aparılır. İnkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycanda da aparılan islahatların və vergi sisteminin təkmilləşdirilməsinin əsas prinsipi vergi yığımının sivil üsullarla aparılmasıdır. Deməli, vergi islahatının keçirilməsi prinsiplərinin seçilməsi yalnız vergiqoymanın optimallaşdırılması məqsədindən deyil, həm də ölkədə islahatların sosial və iqtisadi imkanlarından çıxış etməlidir.

ƏDƏBİYYAT

1. Vergi Məcəlləsi 2018.
2. "Milli İqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri." Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı.
3. Vergiyə Giriş.
4. www.taxes.gov.az

Вилаят Бадир оглы Мирзоев
к.э.н., доц. Азербайджанского Университета Кооперации,
Рауф Газанфар оглы Мамедов
к.э.н., доц. Азербайджанского Университета Кооперации

Роль налогов в развитии экономики Азербайджана

Резюме

Роль налогов в развитии и регулировании экономики Азербайджана, структуризация налоговой системы, выступление налогов как важного инструмента финансового регулирования экономики, привели в последнии годы к анализу налоговых поступлений в государственный бюджет по отдельным видам налогов, исследованию путей (способов) повышения роли налогов в регулировании экономики.

Ключевые слова: налоговая система, стратегическая дорожная карта, налоговые реформы.

Vilayet Badir Mirzayev
c.e.n. ass. prof. Azerbaijan Cooperation University,
Rauf Gazanfar Mammadov
c.e.n. ass. prof. Azerbaijan Cooperation University

The role of taxes in the development of the economy of Azerbaijan

Summary

The role of taxes in the development and regulation of the economy of Azerbaijan, the structuring of the tax system, the presentation of taxes as an important instrument of financial regulation of the economy, led in recent years to the analysis of tax revenues to the state budget for certain types of taxes, research ways (ways) to increase the role of taxes in regulating the economy.

Key words: tax system, strategic road map, tax reforms.

Elnur Rahim oğlu XANKİŞİYEV
Azərbaycan Dövlət Aqrar Unversitetinin dissertantı

BÜTÜN NÖV BİRİLLİK VƏ ÇOXİLLİK ALAQ OTLARINA QARŞI TƏTBİQ EDİLMİŞ HERBİSİDLƏRİN BİOLOJİ VƏ TƏSƏRRÜFAT SƏMƏRƏLİLİYİNİN ÖYRƏNİLMƏSİ

Xülasə

Kartof əkinlərində kompleks alaqlanma (birillik və çoxillik alaqlarla sirayətlənmə) zamanı, hər iki növə qarşı yüksək səmərəli herbisidlərdən Afalon, Pantera, Taviaan-Forte, Linocel, Efsane, Qezoqart və Fyuzilad Förte istifadə etməklə hektardan kartofun məhsuldarlığı artar və əlavə məhsul əldə edilər ki, bu da ekoloji, həm də iqtisadi baxımdan çox səmərəlidir.

Tətbiq edilmiş herbisidlərin bütün növ azillik və çoxillik alaq otlarına qarşı bioloji səmərəliliyi 78.3-84.7% arasında dəyişmişdir. Onlara qarşı alaq otlarında davamlılıq (rezistentlik) müşahidə olunmamışdır. Məhsuldarlığın artması mühafizə olunan məhsulun artımına səbəb olur ki, bu da kartof əkinlərində tətbiq olunan herbisidlərin təsərrüfat səmərəliliyinin yüksək olduğunu göstərir.

Açar sözlər: kartof, alaq otları, preparat, təsərrüfat səmərəliliyi, məhsuldarlıq.

***

Azərbaycanda kartofçuluğun davamlı inkişaf etdirilməsi dövlətimizin diqqət mərkəzindədir. Belə ki, Respublika ərazisinin təqribən 60 faizindən çox ərazisi kartof bitkisinin becərilməsi üçün əlverişli torpaq-iqlim şəraitinə malikdir. Əkinə yararlı sahələrin 40,1 faizi suvarılan (aran), 16 faizi dağətəyi, 33 faizi dağlıq, qalan hissə isə yüksək dağlıqdır. Bu baxımdan Dövlət başçımızın kənd təsərrüfatına dair verdiyi fərman, tapşırıq və tövsiyələr aqrar sektorun inkişafını stimullaşdırmaq məqsədi daşıyır. "Azərbaycan Respublikası regionlarının sosial- iqtisadi inkişafı üzrə Dövlət Proqramı", "Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında", "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və digər sərəncamlar kənd təsərrüfatının, o cümlədən kartofçuluğun inkişafı üçün etibarlı zəmin yaratmışdır. [1, səh. 238]

Kartof əkinlərində torpaq yumşaq və münbit olduğundan alaq otlarının güclü inkişaf etməsinə əlverişli şərait yaranır. Torpaq-iqlim şəraitindən asılı olaraq kartof yetişdirilən sahələrdə müxtəlif növ alaq otları geniş surətdə yayılır. Suvarılan kartof əkinlərində torpağın istiliyi və nəmliyi yüksək olduqda alaq otları sürətlə inkişaf edir və alaq otlarına qarşı herbisid verilmiş sahələrdən ən yüksək səmərə alınır. Odur ki, kartof əkini sahələrində alaq otları ilə mübarizə aparılması vacib aqrotexniki tədbirlərdən biridir. [2, səh 5]

Kartof əkinlərində torpaq yumşaq və rütubətli olduğundan alaq otlarının güclü inkişaf etməsinə əlverişli şərait yaranır. Birillik və çoxillik alaq otlarına qarşı tətbiq edilmiş herbisidlərin bioloji və təsərrüfat səmərəliliyini öyrənmək qarşıya məqsəd olaraq qoyulmuşdur. Odur ki, təcrübələr Gəncə-Qazax bölgəsinin, Şəmkir rayonunun, Sabirkənd qəsəbəsinin kartof əkinlərində 2016-cı ildə qoyulmuşdur. Təcrübə sahəsində herbisidlərin çilənməsindən əvvəl əsas alaqlarla sirayətlənmə dərəcəsi öyrənilmişdir.

Təcrübə 8 variantdan və 4 təkrardan ibarətdir. Alaq otlarına qarşı herbisidlərin çilənməsi meteoroloji amillərdən asılı olaraq aprelin birinci ongünlüyündə aparılmışdır.

Çiləmə aparılan vaxtı alaq otlarının hündürlüyü 8-10 sm olmuşdur. Çiləmədə işçi məhlul olaraq 400 l/ha su götürülmüşdür. Çiləmə səhər və axşam vaxtlarında aparılmışdır. Çiləmə arxa çiləyici olan "MATABİ" aparatı vasitəsilə həyata keçirilmişdir.

Çiləmə işçi proqramda göstərilən qaydada yəni, Fyuzilad Forte (etalon) -2,0 l/ha, Afalon-2,0 l/ha, Pantera-2,0 l/ha, Tuviaan-Forte-2,0 l/ha,Linocel- 2,5 l/ha, Efsane- 1,0 l/ha,Qezaqart-4/0 l/ha normalarda aparılmışdır. [3, səh 49]

Kartof əkinlərində qoyulmuş təcrübə sahəsində aşağıdakı birillik və çoxillik alaq otları üstünlük təşkil etmişdir - Yaşıl qıllıca, çöl noxudu dilqanadan, vələmir, qanqal, türpəng, lalə, çayır, kalış tarla sarmaşığı, şahtərə, çəhrayı qanqal və s.

2016-cı ildə Gəncə-Qazax bölgəsinin, Şəmkir rayonunun, Sabirkənd qəsəbəsinin kartof əkinlərində aparılmış tədqiqatlardan aydın olmuşdur ki, kartof əkinlərində çiləmənin tətbiqindən 25 gün sonra tətbiq edilən Afalon və Qezaqart herbisidlərinin hektara 2,0 və 4,0 litr məsarif normalarında bioloji səmərəliliyi 81.1-81.4 % olmaqla ən yüksək və Fyuzilad Forte herbisidinin hektara 2,0 litr məsarif normasında 78.3% olmaqla ən aşağı olmuşdur. Qalan variantlarda isə bioloji səmərəlilik 78.6-81.4%- arasında olmuşdur (Cədvəl 1).

Kartof əkinlərində herbisidlərin tətbiqindən 50 gün sonra aparılan hesabatdan aydın olmuşdur ki, bioloji səmərəlilik Afalon herbisidinin 2,0 l məsarif normasında 81.3% olmaqla ən yüksək və Fyuzilad Forte herbisidinin 2,0 l məsarif normasında 76.9%, olmaqla aşağı həddə olmuşdur. Qalan variantlarda isə bioloji səmərəlilik 77.2- 80.8 % arasında olmuşdur.

1 saylı cədvəldən göründüyü kimi, kartof əkinlərində məhsul yığımından qabaq aparılmış axırıncı hesabatdan məlum olmuşdur ki, tətbiq edilən herbisidlərin bioloji səmərəliliyi çiləmənin 25-ci və 50-ci günlərində olduğu kimi öz yüksək təsirini saxlamışdır. Belə ki variantlar arasında fərq 78.6- 81.4 % arasında olmuşdur. Varintlar içərisində ən aşağı səmərəlilik Pantera herbisidinin 2,0 litr məsarif normasında 78.2% olmuşdur. Nəzarətdə alaq otlarının sayının azalması (günlər üzrə) körpə yazlıqların vegetasiya müddətinin qısa olması ilə əlaqədardır. [4, səh 112]

Cədvəl 1

Kartof əkinlərində alaq otlarına qarşı tətbiq edilmiş herbisidlərin bioloji səmərəliliyi Şəmkir rayonu, Sabirkənd qəsəbəsi.

№	Təcrübənin variantları	Herbisidin məsarif norması (kq/ha; l/ha)	Nəzarət variantı ilə müqayisədə alaq otlarının ölüm faizi (%), günlər üzrə		
			25-ci gün	50-ci gün	Məhsul yığımından qabaq
1	Afalon	2,0	81.1	81.3	81.2
2	Pantera	2.0	78.6	77.2	78.2
3	Tuviaan	2.0	78.9	78.3	78.9
4	Lioncel	2.5	79.5	78.8	79.5
5	Efsane	1.0	80.5	79.1	80.5
6	Qezaqart	4,0	81.4	80.8	81.4
7	Fyuzilad Forte (etalon)	2,0	78.3	76.9	78.3
8	Nəzarət	Su	63.4 ədəd	72.6 ədəd	63.6 ədəd

2016-cu ildə Şəmkir rayonunun Sabirkənd qəsəbəsində aparılmış tədqiqatlardan aydın olmuşdur ki, kartof əkinlərində çiləmənin tətbiqindən 25 gün sonra bioloji səmərəlilik bütün variantlarda yüksək olmuşdur. Xüsusilə, Afalon 2.0 l/ha və Qezaqart 4.0 l/ha məsarif normasında 81.2-81.4%, olmuşdur. Fyuzilad - Forte variantında-(etalon) herbisidin hektara 2,0 l məsarif normasında 78.3% bioloji səmərəlilik olmuşdur. Aşağı bioloji səmərəlilik Pantera herbisidinin hektara 2,0 l/ha məsarif normasında 78.2% olmuşdur.

Herbisidlərin səmərəliliyi onun təsiredici maddəsinin preparativ formasından, məsarif normasından, dərmanları tətbiqetmə müddətindən və qaydasından, həmçinin verilmiş mühafizə üsulunun tətbiq edildiyi zonanın torpaq - iqlim xüsusiyyətlərini və hava şəraitini də daxil etməklə bəzi digər amillərdən asılıdır. [5, səh 248]

Tədqiqat ilində variantlar üzrə əldə etdiyimiz məhsuldarlığı nəzarət variantı ilə müqayisə edərək təsərrüfat səmərəliliyi müəyyən edilmişdir.

2016-cı ilin vegetasiya dövründə kartof əkinlərində herbisidlərin tətbiqindən sonra 1-ci, 2-ci, 3-cü, 4-cü, 6-cı və 7-ci variantlarda kartofun məhsuldarlığı nəzarət variantı ilə müqayisədə daha yüksək olmuşdur (9,3-12,1 sent/ha). Hətta Reqlon-Super variantında Fyuzilad Forte (etalon) variantına nisbətən -4,6 sent./ha çox olmuşdur (Cədvəl 2.) [6, səh 89].

Cədvəl 2.

Kartof əkinlərində herbisidlərin təsərrüfat səmərəliliyi

№	Təcrübənin variantları	Herbisidlərin məsarif norması l/ha,	Məhsuldarlıq, sent./ha	Mühafizə olunan məhsul, sent./ha
			Tədqiqat ilində	
			2016	2016
1	Afalon	2,0	135.3	8.0
2	Pantera	2.0	134.8	7.5
3	Tuviaan	2.0	134.5	7.2
4	Linocel	2.5	134.9	7.6
5	Efsane	1.0	134.2	6.9
6	Qaraqart	4,0	134.2	6.9
7	Fyuzilad-Forte	2,0	134.6	7.3
8	Nəzarət	su	127.3	-

2016-cı ilin vegetasiya dövründə mühafizə olunan məhsul artımı 6.9-8.0 sent/ha olmuşdur. Fyuzilad-Forte (etalon) variantında artım nəzarət variantı ilə müqayisədə 7,3 sent./ha olmuşdur.

ƏDƏBİYYAT

1. Babayev A.H.,Babayev V.A. Ekoloji kənd təsərrüfatlarının əsasları. Bakı, «Qanun», 2011. s. 543.
2. Əlizadə F.H., Mehdiyev İ.T. Alaqlara qarşı aparılan bioloji mübarizə üsulları // Akademiyanın Elmi əsərləri, I buraxılış, Gəncə, 2008, s. 5-6.
3. Hacıyev C.Ə., Hüseynov M.M. Alaq bitkiləri və onlarla mübarizə. Gəncə, 2003, 78 s.
4. Həsənova M.M. Kartof qiymətli ərzaq bitkisidir. ADAU- nun Elmi Əsərləri. ADAU nəşriyyatı. Gəncə. 2012. №2. 173 s.
5. Иванюк В.Г., Банадысев С.А., Журомский Г.К. Защита картофеля от болезней, вредителей и сорняков// Минск.: «Белпринт». 2005. 696с.
6. Кузнецова М.А. Защита картофеля// Защита и карантин растений. 2007. № 5. С. 61-102.

Эльнур Рахим оглы Ханкишиев
диссертант Азербайджанский Государственный Аграрный Университет

Изучение биологической и экономической эффективности примененных против всех видов однолетних и многолетних сорняков гербицидов

Резюме

При комплексной засоренности (однолетними и многолетними сорняками) посадок картофеля, применение гербицидов Авалон, Пантера, Тавиан-Фортэ, Линоцел, Эфсейн, Гезогард и Фузилад Фортэ дает возможность повышения продуктивности и надбавки урожая, что в свою очередь эффективно с экологической и экономической точек зрения.

Биологическая эффективность применяемых гербицидов против всех видов однолетних и многолетних гербицидов варьировала от 78,3 до 84,7%. Мы не наблюдали резистентности в сорняках. Увеличение производительности приводит к увеличению производства защищенного продукта, что указывает на высокую экономическую эффективность гербицидов, используемых в посадках картофеля.

Ключевые слова: картофель, сорняки, препараты, производительность, хозяйственная эффективность, продуктивность.

Elnur Rahim Khankisiyev
candidate for a degree of Azerbaijan State Agricultural University

Study of the biological and economical effectiveness of the applied herbicides on all annual and perenial weeds

Summary

The application of herbicides Avalon, Panther, Tavian-Forte, Linocel, Efsane, Gezogard and Fuzilad Forte against complex weeds (annual and perennial) on potatoe fields, makes it possible to increase productivity and the yield, which in turn is effective from ecological and economic points of view.

The biological effectiveness of herbicides applied against all types of annual and perennial herbicides ranged from 78.3 to 84.7%. We did not observe resistance in weeds. The increase in productivity leads to an increase in the production of the protected product, which indicates the high economic efficiency of the herbicides used in potatoe fields.

Key words: potatoes, weeds, preparations, production, economic efficiency, productivity.

Kifayət Aslan qızı XUDAVERDİYEVA
Azərbaycan Dövlət İqtisad Universiteti
"Mühasibat uçotu və audit" kafedrasının dosenti, i.e.n.

TURİZMDƏ MÜHASİBAT UÇOTU VƏ AUDİTİN TƏŞKİLİ

Xülasə

Hazırda turizmin inkişafına beynəlxalq maliyyə qurumları və təşkilatları öz maraq və diqqətlərini artırırlar. Keçirilən sosioloji tədqiqatlardan məlum olmuşdur ki, hələ keçən yüzilliyin sonlarında turizm sahəsindən dünyada əldə olunan gəlirin həcmi ABŞ dolları ilə 450 milyardı ötüb keçmişdir. Onun inkişafının orta illik artım faizi isə 4,3 faizdən çox olmuşdur. Aparılmış tədqiqatdan belə bir nəticəyə gəlmək mümkün olmuşdur ki, hal-hazırda turizm müəssisələrində gəlirlərin və xərclərin uçotunun təkmilləsdirilməsi aktual məsələlərdən biridir.

Açar sözlər: Turizm, audit, satışdan gələn gəlir, mühasibat hesabatı, Milli Mühasibat Uçotu, kommersiya xərcləri.

***

Turizm sənayesi - turistlərin yerləşdirilməsi və nəqliyyat vasitələri ilə təmin edilməsi, bir sıra obyektlər olan ictimai iaşə, əyləncə, dərketmə, işgüzar, sağlamlıq, idman, turoperator, turagent, ekskursiya və bələdçi-tərcüməçi xidmətləri göstərən təşkilatların məcmusudur. Turizm sənayesinin yüksək texnoloji standartlara cavab verən maddi-texniki bazaya malik olması əlaqədar yüzlərlə vətəndaşları işlə təmin edir və bununla da turizm sənayesini bütün sahələr ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərən bir sənaye hesab etmək olar. Turizm məhsulunun bir sıra fərqləndirici xüsusiyyətləri aşağıda qeyd edilmişdir:

- turizm xidmətlərinin hər biri cismani xarakter daşıyır;
- istehsal və istehlak yalnız birgə baş verir;
- xidmət keyfiyyətləri daim dəyişməsi mümkündür;
- xidmətlər istənilən an saxlanıla bilməz.

Məkanca tamam başqa yerdə, zamanca başqa vaxtda istehlak edilən turməhsulu istehlakçı əvvəlcədən və daimi yaşadığı yerdə alır, lakin burada informasiyanın doğru olub-olmaması təyin edilir [2, səh 35-38].

Hazır məhsulun buraxılması ilə bağlı olaraq **auditin** əsas məqsədi məhsulun tam həcmdə mədaxil olunması, satılmış məhsul üzrə satış pul vəsaitinin və satılmış məhsulun maya dəyərinin hesablanmasının həyata keçirilməsidir. Qeyd edilənlərlə bağlı olaraq auditor yoxlama dövrü ərzində aşağıdakı göstərilənləri yerinə yetirməlidir:

- hazır məhsulların qiymətləndirilməsi üsulunun nə üçün seçilməsini əsaslandırmaq;
- istehsal olunmuş məhsulların tam mədaxil olunmasını yoxlamaq;
- alıcıya yüklənmiş və satılmış məhsulların həcminin təyin edilməsi;
- yüklənmiş və satılmış məhsulların maya dəyərinin dəqiqləşdirilməsi.

Auditin turizm məhsullarının uçotunun yerinə yetirilməsi üçün əsas informasiya mənbəyi mühasibat uçotunun hesabları üzrə aparılan yazılışlar hesab olunur. Onlar aşağıdakılardır:

Hazır məhsulun anbar uçotu kartı, preyskurantlar, məhsul satışı üzrə təsdiqlənmiş müqavilələr, məhsul buraxılışına aid -qaimələr, satış uçotu jurnalı, alıcıların məhsul almalarına dair vəkalətnamələr, satışdan pul vəsaitinin daxil olmasına dair ilkin bank və kassa mədaxil sənədləri (ödəmə tapşırığı, ödəmə tələbnaməsi, kassa mədaxil orderi və s.) [3, səh.7-8].

Turizm sənayesinə bir-birini tamamlaya bilən tərkib hissələri daxil olmalıdırlar. Turməhsulun bölüşdürülməsinə turizm sənayesində təqdim olunan xidmətlərin müxtəlifliyi təsir göstərir. Turizm sənayesində xidmətlər 2 qrupa ayrılır və bunlar turizm xidməti istehsalçıları hesab edilirlər:

➢ Özəl bölmə 1-ci dərəcəli xidmətlər göstərir - turizm məhsulunun təşkili üzrə xidmətlər, turistsığortası, turizm sahəsində peşə təhsili, turizm məlumat mərkəzləri, bələdçi xidməti, marketinq, reklam, ictimaiyyətlə əlaqələr, maliyyə xidməti və s.

➢ İctimai bölmə 2-ci dərəcəli xidmətlər göstərir - Dövlət və ictimai bölməyə bunlar daxildirlər: milli turizm təşkilatları, yerli turizm təşkilatları, vizaların təqdim edilməsi, hava və dəniz limanlarının xidmət göstərməsi, turizm təhsil müəssisələri, sərgi, festival, yarmarkaların təşkili və s. Turizmin ödənişli xidmət sahələri də vardır ki, onlar aşağıda qeyd edilmişdir:

Turistlərin yerləşdirilməsinə aid olan xidmətlər (mehmanxana, motel, otel, pansionat, sanatoriya, turist bazarları və s.); turistlər həmçinin yerli əhalidən icarəyə götürülən şəxsi mənzillərdə və evlərdə, eyni zamanda çadır, avtomobilə qoşulan qoşqu evlərində , karvaninqlər, gəmi, qatar, yaxta, və s. -də yerləşdirilə bilərlər; turistin qidalanmasının təmin edilməsinə aid olan (restoran, yeməkxana, kafe, qəlyanaltı, kafeteri, bar və s.) xidmətlər; turistin qonaq olduğu ölkədə sərnişin nəqliyyatının müxtəlif növləri (qatar, dəniz və çay gəmiləri, avia-çarter reysləri, avtobuslar və s.) üzrə hərəkətinə göstərilən xidmətlər; reklam xidməti; turist agentlikləri tərəfindən yerinə yetirilən xidmətlər; turistlərin mənəvi tələbatlarının təmin edilməsi (teatr, kino, konsert zalları, muzey, sərgi, rəsm qalereyası, parklar, tarixi və təbiət qoruqlarına gedişlərin təşkili, musiqi festivallarında iştirakı, tarix və mədəniyyət abidələrinə ekskursiyaların təşkili, idman yarışlarında və digər tədbirlərdə iştirakın təmin edilməsi) üzrə göstərilən xidmətlər; turistlərin işgüzar və elmi maraqlarının ödənilməsi (konqress, assambleya, konfrans, simpozium, toplantı, seminar, yarmarka və sərgilərdə iştirak etmək) üzrə fəaliyyət göstərən xidmətlər; ticarət müəssisələrinin həm ümumi, həm də məqsədli şəkildə (suvenir, hədiyyə, açıqca və s. satışı) göstərdiyi xidmətlər; inzibati-nəzarət orqanlarının (sərhəd, valyuta, karantin, polis xidmətləri, pasport,viza və s. sənədlərin hazırlanması) yerinə yetirdiyi xidmətlər; təbiətin mühafizəsinə dair, tarixi və mədəni irsin qorunması sahəsindəki bir sıra xidmətlər; informasiya vasitələrinin yerinə yetirdiyi (qəzet, jurnal, radio, televiziya və s.) xidmətlər; dövlət turizm idarələrinin (komitə, departament, nazirlik və s.) göstərdikləri xidmətlər [4 səh.16-18].

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş vergilər xidmətlərin (məhsul) və malların satışından əldə olunan mənfəət (zərər) və digər məcburi ödənişlər nəzərə alınmadan qüvvədə olan qiymətlərlə məhsulların (iş və xidmətlərin) satışından gələn gəlirlə onların istehsalına və satışına çəkilən xərclər arasındakı fərq kimi müəyyənləşdirilir.

Azərbaycan Respublikasının «Müasibat uçotu haqqında» Qanununda müəyyən edildiyinə görə, müəssisələrdə satışdan əldə edilən gəlirin təyin edilməsinin müxtəlif formaları mövcuddur:

Satışdan gələn gəlir müəssisənin təsərrüfat xüsusiyyətlərindən və bağlanmış müqavilələrin şərtlərindən asılı olur, o ya satılmış (yəni nağdsız hesablaşma zamanı cari hesabına ödəniş sənədləri əsasında daxil olan məbləğlər üzrə və ya nağd hesablaşma zamanı müəssisənin kassasına daxil olan məbləğlər üzrə), dəyəri ödənilmiş məhsullara, mallara, işlərə, xidmətlərə görə yüklənib alıcılara göndərilmiş məhsullara, mallara, təhvil verilmiş işlərə, görülmüş xidmətlərə görə ödəniş sənədləri alıcıya (sifarişçiyə) təqdim edildikcə müəyyən edilir.

Hesabatın yerinə yetirildiyində məlum olmuş, lakin keçmiş illərdə baş verən əməliyyatlara aid olan mənfəət, yaxud zərər hesabat ilinin təsərrüfat fəaliyyətinin nəticələrinə daxil edilir.

Xidmət göstərilməsi ilə əlaqədar olaraq 601-2 N-li «Xidmətlərin göstərilməsi üzrə gəlir», 204 N-li «Hazır məhsul», 221 N-li «Kassa», 223 N-li «Hesablaşma hesabı», 211 N-li «Alıcılar və sifarişçilərlə hesablaşmalar», 443 N-li «Alınmış uzunmüddətli avanslar üzrə hesablaşmalar» hesablarında qeyd edilmiş mühasibat uçotu əməliyyatlarının qeydlərini daha dərindən yoxlamaq lazımdır.

Kommersiya xərclərinin uçotda əks olunması xidmətinin göstəricilərinin audit yoxlamasında bilavasitə satışla bağlı olması da yoxlanılmalıdır. Xidmət satışı ilə əlaqədar sərf olunan xərclər kommersiya xərcləri olmaqla istehsal maya dəyəri ilə birlikdə hazır məhsulun tam maya dəyərini təşkil edir. Bu zaman auditor xüsusilə mühasibat uçotu yazılışında qeyd olunmuş göstəricilərin **kommersiya xərclərinə** aid edilməsinin doğruluğunu təyin etməlidir [5, səh. 5].

Auditor 711 N-li «Kommersiya xərcləri» hesabı üzrə ilkin hesablaşma ödənmə sənədlərinə və uçot yazılışlarına bir daha nəzər salaraq, müqayisə edilir və analitik uçot göstəricilərinin doğru qeyd edildiyi təyin edilir və həmin xərclərin satılmış məhsullar üzrə doğru təyin edilməsi dəqiqləşdirilir.

Auditor xidmət göstərilməsi ilə bağlı olaraq mütləq əlavə dəyər vergisini (ƏDV) və maliyyə nəticəsinin doğru təyin edilməsini yoxlamalıdır. Yoxlama nəticəsində ƏDV üzrə çatışmazlıqlar aşkarlansa, onda onun səbəbləri mütləq müəyyən olunmalı və buraxılan nöqsana düzəliş edilməlidir.

Hər bir turizm fəaliyyəti, idarəetmə qərarlarının qəbul edilməsi vacib olduğundan, müəyyən informasiyalar əsasında formalaşır.

İlk əvvəl təşkilatın maliyyə vəziyyətini və onun kontragentlərini xarakterizə edən məlumatlar üçün zəruriyyət hiss edilir. **Mühasibat hesabatında** təşkilatın əmlak və öhdəliklərinin səviyyəsi, onun gəlirləri, xərcləri və fəaliyyətin maliyyə nəticələri haqqında informasiyalar qeyd edilir.

Qüvvədə olan qanunvericiliyə əsasən mühasibat hesabatlarının tərkibi müəyyənləşdirilir. Hesabata əlavə olaraq auditor qərarlarında və auditor rəylərində onun etibarlılığı, dəqiqliyi və şəffaflığı qeydə alınır.

Mühasibat hesabatının tərkibinə təşkilat, mühasibat hesabatlarının auditinin aparılmasına aid olan sərbəst qərar çıxaran hallarda, mühasibat hesabatının etibarlılığını təsdiq edən auditor qərarı da daxil edilməsi mümkündür.

Azərbaycan Respublikasının 29 iyun 2004-cü il tarixli "Mühasibat uçotu haqqında" Qanununda uçot siyasətinin əsas istiqamətləri müəyyən edilmişdir. Həmin Qanunda konseptual baxımdan standartlara uyğun uçotun aparılması qaydaları qeyd olunmuşdur. Bu Qanunun tələblərinə əsasən 2006-cı ilin versiyası üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının Azərbaycan dilinə tərcümə olunmuş rəsmi mətnlərinin Mühasibat Uçotunun Beynəlxalq Standartları Komitəsi Fondu tərəfindən təsdiq edilməsi işi təşkil olunmuşdur. Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına adı çəkilən Fondun müəyyən etdiyi qaydalara uyğun olaraq beynəlxalq audit şirkətləri (PricewaterhouseCoopers, Ernst&Young, Moore Stephens) tərəfindən rəy verilmişdir. Milli standartlar "Mühasibat uçotu haqqında" Qanunun 7-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 avqust 2005-ci il tarixli 250 s nömrəli Sərəncamı ilə yaradılmış Mühasibat Uçotu üzrə Məsləhət Şurası tərəfindən rəy verildikdən sonra təsdiq edilmişdir. Qanunun 6.0.2 və 6.0.3-cü maddələrinə əsasən Milli Mühasibat Uçotu Standartları Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanaraq Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ilə nizamlanan bütün məsələləri əhatə etməlidir. Lakin milli standartlarla beynəlxalq standartlar arasında konseptual baxımdan fərq olmasa da müəyyən texniki fərqlər mövcuddur. Belə ki, beynəlxalq standartlarda maliyyə hesabatlarının nümunəvi forması əks etdirilməmiş, yalnız bu hesabatlar üzrə minimum tələblər göstərilmişdir [1 səh.110-122].

"Mühasibat uçotu haqqında" Qanunun 10.1-ci maddəsinə uyğun olaraq ictimai əhəmiyyətli qurumlar və kiçik sahibkarlıq ilə məşğul olan subyektlər istisna olmaqla, kommersiya təşkilatları maliyyə hesabatlarını Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun tərtib etməlidirlər. Kommersiya Təşkilatları üçün müəyyən edilmiş Milli Mühasibat Uçotu Standartları Maliyyə hesabatlarının Beynəlxalq Standartlarının əsasında hazırlandığı üçün bu təşkilatlar aşağıda adı çəkilən maliyyə hesabatlarını tərtib etməlidir:

- Mühasibat balansı; Pul vəsaitlərinin hərəkəti haqqında hesabat; Uçot siyasəti və izahlı qeydlər; Mənfəət və zərər haqqında hesabat; Kapitalda dəyişikliklər haqqında hesabat.

Eyni zamanda Qanunun 9.0.2-ci maddəsinə əsasən kiçik sahibkarlıq subyektləri Kommersiya Təşkilatları üçün **Milli Mühasibat Uçotunu** öz seçimlərindən asılı olaraq Standartlara əsaslanaraq tərtib edə bilərlər. Turizm təşkilatlarında mühasibat uçotunun aparılması zamanı Milli Mühasibat Uçotu Standartlarına əsaslanan ehtimallara (prinsiplərə və maliyyə hesabatları elementlərinin qiymətləndirmə metodlarına), həmçinin maliyyə hesabatlarının keyfiyyət xüsusiyyətlərinə üstünlük verilir. Maliyyə hesabatlarında mühasibat uçotunun hesablama qaydalarına əsasən uçota alınan maliyyə hesabatlarının elementləri (aktivlər, öhdəliklər, xalis aktiv/kapital, gəlirlər və xərclər) onların yerinə yetirildiyi zaman dövrlər üzrə tanınır. Təşkilatın fəaliyyətinin fasiləsizliyi konsepsiyasına malik olması təşkilatın fəaliyyətinin davam edəcəyini və onun fəaliyyətinin dayandırılması və ya fəaliyyətinin həcminin əhəmiyyətli şəkildə ixtisara salınması zərurətinin və ya məqsədinin olmadığını nəzərdə tutur. Dövlət büdcəsindən maliyyələşən təşkilatın fəaliyyətinin fasiləsizliyi barədə ehtimal aktivlərin və öhdəliklərin ilkin dəyəri ilə qiymətləndirilməsinin tət-

biq edilməsinə imkan yaradır. Əgər ehtimal olunursa ki, təşkilat ləğv ediləcək, onda aktivlərin qiymətləndirmə əsası kimi bu aktivlərin alınması üçün çəkilmiş məsrəflər deyil, onların ehtimal olunan satış dəyərindən (yəni satış üzrə xərclər çıxılmaqla, satış qiyməti) istifadə olunmalıdır.

ƏDƏBİYYAT

1. Anar Bayramov. "Mühasibat uçotu". "Monitor Konsaltinq". Bakı, 2013 (səh 110-122).
2. B.Ə. Bilalov, Ç.G.Gülalıyev. "Turizmin Əsasları ". Bakı, 2015 (səh. 35-38).
3. Soltanova H.B., Hüseynova Ş.H. "Turizmin Əsasları". Bakı - 2007, "Mütərcim" nəşriyyatı (səh 7-8).
4. Bilalov B.Ə. Turizmin Menecmenti – Bakı, 2005 Mütərcim nəşriyyatı.
5. Bilalaov B.Ə. "Turizm Fəaliyyətinin Tənzimlənməsi", Bakı, 2006 (səh16-18).
6. Агеева Ю.Б., Агеева А.Б. Аудиторская проверка: практическое пособие для аудитора и бухгалтера - М.: Бератор-Пресс, - 2006 (с.5).

Кифаят Аслан кызы Худавердиева
доц., гафедра «бухгалтерский учет и аудит» АГЭУ

Организация бухгалтерского учета и аудита в туризме.

Резюме

В настоящее время международных финансовых структур и организаций свой интерес к развитию туризма и повышают интерес. Проводимых социологических исследований стало известно, что еще в конце прошлого столетия объем дохода, полученного от туристической сферы в мире превысило миллиард долларов США, с 450. Ее развития, а среднегодовой рост превысил 4,3 процентов, а процента. По результатам проведенного исследования удалось прийти к выводу, что в настоящее время на туристических объектах учета доходов и расходов оптимизация является одним из актуальных вопросов.

Ключевые слова: туризм, аудит, доходы от продаж, бухгалтерский отчет, национальный учет, коммерческие расходы.

Kifayat Aslan Khudaverdiyeva
c.e.s., ass. prof. "Accounting and Finance"
faculty ASUE

Organization of accounting and audit in tourism

Summary

At present, international financial institutions and organizations are increasing their interest and attentions for the development of tourism. According to sociological surveys, it has been defined that for the end of the last century, the volume of income from tourism in the world has exceeded 450 billion US dollars. Average annual growth rate of its development was more than 4.3 percent. As a result of the held research, improvement of the accounting of the income and expenses in tourism enterprises is one of the topical issues at present.

Key words: tourism, audit, sales revenue, accounting report, National Accounting, commercial spending.

Yasəmən Əli qızı ƏLİYEVA
i.e.n., dos. Azərbaycan Kooperasiya Universiteti

SAHİBKARLIQ FƏALİYYƏTİ VƏ MENECMENT NƏZARƏTİ

Xülasə

Məqalədə Azərbaycanda sahibkarlığın inkişafının mövcud vəziyyəti, sahibkarlıq fəaliyyətinin təşkilinin və menecment fəaliyyətinin həyata keçirilməsinin məqsədəuyğunluğu əsaslandırılır. Məqalədə həmçinin sahibkarlıq strukturlarına səmərəli menecment xidmətinin göstərilməsi üçün konkret təkliflər irəli sürülür.

Açar sözlər: sahibkarlıq, sahibkarlıq fəaliyyəti, sahibkarlıq mühiti, menecment nəzarəti.

***

Azərbaycanda sahibkarlıq mühitinin formalaşması və inkişafı dövlət tərəfindən müntəzəm şəkildə dəstəklənir, sahibkarlara göstərilən qayğı və diqqət ölkə rəhbərliyinin bilavasitə nəzarətindədir. Ümummilli liderimiz Heydər Əliyevin 2002-ci il aprel-may aylarında yerli və xarici sahibkarlarla görüşməsi, bu görüşdə "Azərbaycan prezidenti bütün sahibkarların himayədarıdır və dayağıdır" deməsi və nəhayət, iş adamlarını narahat edən problemlərin aradan qaldırılması üçün müvafiq tədbirlərin həyata keçirilməsi onlarda böyük ruh yüksəkliyi yaratmışdır. Bu gün isə həmin kurs ölkə prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycan Respublikasının 15 dekabr 1992-ci il tarixli "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda deyilir ki, "Sahibkarlıq fəaliyyəti (sahibkarlıq) fiziki şəxslərin, onların birliklərinin, habelə hüquqi iəxslərin mənfəət və ya şəxsi gəlir əldə edilməsi məqsədilə özlərinin cavabdehliyi və əmlak məsuliyyəti ilə, yaxud hüquqi və fiziki şəxslərin adından qanunvericiliklə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən, məhsul istehsalı, satışı və xidmətlər göstərilməsi formasında həyata keçirdikləri müstəqil təşəbbüskarlıq fəaliyyətidir." [1]

Həmin qanuna görə sahibkarlığın qanun çərçivəsində həyata keçirilən bütün formalarına icazə verilir.

Sahibkarlıq iqtisadiyyatın mənfəət gətirə bilən bütün sahələrində öz fəaliyyətini təşkil edə bilər. Sahibkarların ən çox fəaliyyət göstərmək istədikləri sahələr istehsal, kommersiya, maliyyə-kredit, intellektual komplekslərdir.

Müasir şəraitdə fəaliyyət göstərən hər bir sahibkar firma daimi olaraq sahibkarlıq mühitinin xarici amillərinin təsirinə məruz qaldığından və bu təsir daxili amillərin xarakterinə təsir etdiyindən o, bu amillərin dəyişməsini həmişə nəzarət altında saxlamalıdır. Hər bir sahibkar firma özünün normal fəaliyyətini təmin etmək, qarşısına qoyduğu məqsədə nail olmaq və vəzifələrini yerinə yetirmək üşün daxili sahibkarlıq mühitində olan amilləri daimi olaraq təhlil etməli və onun nəticəsindən asılı olaraq idarəetmə qərarları qəbul etməlidir.

Firmanın idarəetmə mexanizmi elə qurulmalıdır ki, o, idarəetmə sisteminin bütün səviyyələri arasında optimal münasibət yaratsın, daxili mühit amilləri arasında elə çevik və dəqiq əlaqələr qurmağa imkan versin ki, onların qarşılıqlı fəaliyyətinin nəticəsində firma istehsalın rentabellik səviyyəsinin və əmək məhsuldarlığının yüksəldilməsi hesabına nəzərdə tutduğu qədər mənfəət əldə edə bilsin.

Firmanın fəaliyyətinin son nəticəsinə təsiri bazar münasibətlərinin vəziyyəti və inkişafından asılı olan sahibkarlıq mühitinin amilləri göstərir. Menecmentin vəzifəsi həmin amillərin təsir dairəsini müəyyən etmək və firmanın sabit fəaliyyəti və inkişaf artımının təmin olunması üçün idarəetmə qərarları qəbul etməkdir.

Sahibkarlıq fəaliyyəti mühitinin amillərinə nəzarət və onların təhlili firmanın fəaliyyətinin bütün mərhələlərində - marketinq tədqiqatları və marketinq proqramının hazırlanması, planlaşdırma, əməyin motivasiyası, satış, operativ idarəetmə, nəzarət - sistematik olaraq həyata keçirilməlidir.

Sahibkarlıq fəaliyyətinin daxili mühitinin hərtərəfli və dərindən təhlili optimal idarəetmə qərarları qəbul edilməsinin zəruri şərtlərindəndir. Çünki, bu təhlil nəticəsində əldə edilən məlumatlar firma daxilində gedən prosesləri əks etdirir.

Hər bir sahibkar firma istehsalın xarakterindən asılı olaraq çoxlu sayda faktorları özündə birləşdirən özünəməxsus xarici əhatə amillərinə malik olur ki, bunlar da istər-istəməz firmanın fəaliyyətinə öz təsirini göstərir. Qərar qəbul edilməsi xarici mühit amillərinin firmaya göstərdiyi və göstərə biləcəyi təsirlər barədə olan məlumatların dolğunluğundan asılıdır.

Menecmentdə xarici mühit amilləri firmanın fəaliyyətinə birbaşa və dolayısı ilə təsir edən amillərə bölünür.

Firmanın fəaliyyətinə birbaşa təsir edən sahibkarlıq mühitinin xarici amilləri aşağıdakılardır:

- Bazar münasibətlərinin xarakteri və vəziyyəti amilləri;
- Firmanın təsərrüfat əlaqələri amilləri;
- Demoqrafik amillər.

Beləliklə, hər bir sahibkar firma daxili və xarici mühit amillərinə müxtəlif alət, üsul və metodlardan istifadə etməklə təsir edir və onlara uyğunlaşır.

Yuxarıda söylənilənləri ümumiləşdirərək müasir şəraitdə sahibkarların qarşılaşdıqları əsas problemlər və onların potensial imkanları aşağıdakılarla xarakterizə olunur.

1. Sahibkarlıq sahələri üzrə yüksək standartlara malik və rəqabətə davamlı məhsulu istehsal etmək üçün kənd təsərrüfatının həm xammal ehtiyatları, həm də investisiya imkanları yetərincə qiymətləndirilməlidir. 2. Kiçik sahibkarlıqla məşğul olan təsərrüfatların səmərəli fəaliyyətini təmin etmək üçün məqsədli proqramlar hazırlanmalıdır. 3. Müxtəlif sahələrdə fəaliyyət göstərən sahibkarlıq qurumlarına əlverişli şərait yaradılmalıdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının 15 dekabr 1992-ci il tarixli "Sahibkarlıq fəaliyyəti haqqında" Qanunu (Azərbaycan Respublikasının İqtisadi inkişafını tənzimləyən qanunlar 1991-1995-ci illər). Bakı – 1996.
2. Z.Ə.Səmədzadə və başqaları "Sahibkarlığın əsasları". Bakı 2000.
3. T.Ə.Quliyev. "İstehsal sahibkarlığının inkişafının sosial-iqtisadi problemləri". Bakı 2007.

Ясаман Али кызы Алиева
к.э.н., доц.АКУ

Предпринимательская деятельность и контроль менеджмента

Резюме

В статье обосновывается современное состояние развития предпринимательства в Азербайджане, организация предпринимательской деятельности, а также целесообразность осуществления менеджмента. В статье сделаны конкретные предложения по оказанию эффективных услуг менеджмента предпринимательским структурам.

Ключевые слова: предпринимательство, предпринимательская деятельность, предпринимательская среда, менеджмент; контроль.

Yasaman Ali Aliyeva
candidate of economic sciences, ass.prof. ACU

Ownership activity and management control

Summary

The real position of the ownership in Azerbaijan, the organization of ownership activity and realization of management has been written in this article. The concrete offers on the effective management on the ownership structures have been also written in the article.

Key words: ownership; ownership activity; ownership condition; management; control.

Sadiq Binyamin oğlu NƏZƏRƏLİYEV
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
"Nəzəri və praktiki iqtisadiyyat" kafedrası, i.e.n., dosent

AZƏRBAYCAN SAHİBKARLARININ XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

Xülasə

Hazırkı mühitdə ticarət siyasətinin alətlərindən istifadə etməklə sahibkarlıq sferasında birbaşa vəziyyəti öyrənmək, ölkədə sərmayə şəraitini təmin edən iqtisadi və qanunvericilik bazasını yaxşılaşdırılmasına böyük ehtiyac duyulur. Sahibkarların iqtisadi maraqlarının təminatı üçün ticarət siyasətinin alətlərindən istifadə yollarının araşdırılması böyük əhəmiyyət kəsb edir.

Açar sözlər: beynəlxalq bazar, rəqabətədavamlı məhsul, ticarət siyasəti.

***

Hazırkı dövrdə ölkəmizin ticarət münasibətləri sferasında reallaşdırılan islahatlar respublikanın beynəlxalq bazara çıxmaq imkanlarını genişləndirir və xarici dövlətlərlə sağlam əməkdaşlıq mühitinin formalaşması ilə nəticələnir. Ticarət münasibətlərinin tənzimlənməsinə dair reallaşdırılan islahatlar bazar iqtisadiyyatının üstünlükləri və çatışmazlıqlarını özündə əks etdirir [1, 2, 3, 9]. Keçmiş ittifaq dövründən fərqli şəkildə xarici ticarət münasibətlərinin formalaşdırılması zamanı respublika suverenlik mövqeyindən çıxış edir. Bu məqsədlə Azərbaycan iqtisadiyyatını müasir bazar sisteminə uyğun formalaşdırmaq məqsədilə respublikada önəmli iqtisadi islahatlar reallaşdırılmışdır. Ölkəmizdə suverenlik əldə edildikdən sonra ölkəni böhrandan çıxarmaq, iqtisadiyyatı sabitləşdirmək, əhalinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq məqsədilə iqtisadi islahatlar reallaşdırıldı.

Ölkə iqtisadiyyatında baş verən müsbət inkişaf tempini gücləndirmək və sosial sferadakı çətinliklərin həllini sürətləndirmək üçün 24.11.2003-cü il tarixdə «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» ölkə başçısı çox önəmli fərman imzalamışdır [4]. Fərmanda regionların yerli resursları və digər faktorlar nəzərə alınmaqla onların sosial-iqtisadi inkişafını təmin etmək üçün müvafiq dövlət proqramının layihəsinin hazırlanması; sahibkarlıq subyektlərində beynəlxalq standartlara cavab verən məhsul istehsalını və onların dünya bazarlarına ixracını stimullaşdıran müvafiq tədbirlərin görülməsi; əhalinin sağlamlığını qorumaq üçün yuxarı keyfiyyətli məhsul istehsalını və idxalını təmin edən tədbirlərin (keyfiyyətə nəzarətin maddi-texniki bazasının gücləndirilməsi də daxil olmaqla) hazırlanıb reallaşdırılması; inhisarçılığın məhdudlaşdırılması və haqsız rəqabətin qarşısının alınması üçün qanunvericilik çərçivəsində zəruri tədbirlərin reallaşdırılması və s. problemlər öz əksini tapmışdır. Bu fərmandan irəli gələn müddəalara uyğun şəkildə regionlarda biznesin inkişafını sürətləndirməklə oradakı əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli bəhrələnməklə iqtisadiyyatın davamlı inkişafına, əhalinin məşğulluğunun artırılmasına və dövlətdə yoxsulluğun səviyyəsinin azaldılmasına nail olmaq məqsədilə 11.02.2004-cü il tarixdə «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında» ölkə başçısı təzə fərman imzalamışdır [5]. Hazırda bu tədbirin davamı olaraq qəbul olunmuş 3-cü dövlət proqramı icra olunur [7, 8].

2016-cı il ərzində qanunvericiliklə aşkarlanmış hüquq və vəzifələrin reallaşdırılması, dövlət rəhbərliyinin tapşırıqlarının icrası, dövlət proqramlarının yerinə yetirilməsi, ölkəmizin qoşulduğu dövlətlərarası və hökumətlərarası müqavilələrdən irəli gələn məsələlərə aid olan öhdəliklərin təmin olunması üçün müvafiq işlər aparılmışdır. Xarici ticarət əməkdaşlığının inkişafında normativ-hüquqi və normativ-texniki bazanın yaxşılaşdırılması istiqamətində bir sıra işlər görülmüşdür.

Hazırkı şəraitdə məhsulların ixracını artırmaq, xarici bazarda rəqabətədavamlı məhsul satmaq məqsədilə çeşidləmə, qablaşdırma, saxlama, reklam, nəqliyyat məsələləri həll olunmalı, istehsala və ixraca stimul yaradan tədbirlər reallaşdırılmalıdır. Ölkədə bəzi məhsulların emalı müəssisələrinin olmaması və bəzilərinin hazırkı tələbatdan geri qalması, onların istehsalının inkişaf səviyyə-

sinin ləngiməsinə, məhsulların müəyyən hissəsinin itkisinə səbəb olur, istehlakçıların çeşidli yerli məhsullarla təminatına mənfi təsir göstərir.

Ölkəmizdə son illər bir sıra məhsulların keyfiyyətinin artırılması, ixrac potensialının artırılması sferasında xeyli işlər görülmüşdür. Görülmüş tədbirlərə baxmayaraq, hələ də ticarət, ictimai iaşə, məişət və digər xidmət sferasında fərqli məhsullar normativ-texniki sənədlərin tələblərinə uyğun deyil, onların saxlanma müddətinə və imkanına əməl olunmur, satışda mənşəyi bilinməyən məhsullar aşkar edilir. Bu halların aradan qaldırılması məqsədilə keyfiyyətə nəzarətin, idarəetmə sisteminin yaxşılaşdırılmasına, bununla bağlı qanunvericilik bazasına müvafiq dəyişikliklərin edilməsinə, milli standartların beynəlxalq tələblərə tam uyğunlaşdırılmasına, modern laboratoriyalar şəbəkəsinin genişləndirilməsinə və beynəlxalq qurumlarla əməkdaşlığın dərinləşdirilməsinə ehtiyac vardır. Beləliklə, məhz bu məqsədlərə nail olmaq məqsədilə müvafiq tədbirlərin reallaşdırılmasını nəzərə alaraq ölkə başçısının 1.05.2008-ci il Sərəncamı ilə «2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı» imzalanaraq qüvvəyə minmişdir [6].

Ölkəmizin regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları çərçivəsində başlanmış işlər davam etdirilməkdədir və təzə qəbul olunmuş Dövlət Proqramının əsas məqsədi dövlətdə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olmaqdır [5, 6, 7].

Dövlət Proqramının ümumi müddəalarına uyğun şəkildə milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə inteqrasiyasının sürətləndirilməsi üçün perspektivdə ölkəmizin nüfuzlu beynəlxalq qurumlarla, iqtisadi qurumlarla əməkdaşlığının genişləndirilməsi məqsədilə qanunvericiliyin, standartların beynəlxalq tələblərə uyğunlaşdırılması prosesi sürətləndiriləcəkdir. Xarici ticarət siyasəti istehsal olunmuş məhsulların ixracı məqsədilə faydalı imkan formalaşmasına, həmçinin daxili bazarın haqsız rəqabətdən qorunmasına yönələcəkdir.

Ölkəmizdə suverenliyin ilk illərində iqtisadiyyatın böhran vəziyyətə düşməsi hesabına sahibkarlığın səviyyəsinin xeyli aşağı düşməsi müşahidə olunurdu. Reallaşdırılan uğurlu islahatlar hesabına 1995-ci ildən milli iqtisadiyyatda böhranlı vəziyyət aradan qaldırılmışdır. Ölkəmizdə bu ildən başlayaraq ictimai-siyasi sabitlik bərpa olduqdan sonra bütün dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığın inkişafına yönəldilmiş xarici ticarət siyasəti formalaşmışdır. Ticarətin liberallaşması, düzgün qiymət və gömrük siyasətinin yeridilməsi, ticarətin inkişafına rəvac verən tədbirlərin reallaşdırılması sonrakı ildən başlayaraq bu sferada dönüş əldə edilməsinə imkan vermişdir.

В жизни современного общества технологии занимают значительное место. Важность технологического компонента современной цивилизации состоит в том, что именно он определяет во многом устойчивое развитие общества. Практически все процессы в обществе, так или иначе, происходят в сопровождении технологии. Ее влияние на социальные процессы приводит к существенным трансформациям последних. Так, стремительное развитие информационно-коммуникационных технологий служит ключевым фактором, определяющим ускоряющийся процесс информационной глобализации, которая становится характерным явлением настоящего времени [1, с. 125-128].

Под информационными и коммуникационными технологиями предлагается понимать комплекс объектов, действий и правил, связанных с подготовкой, переработкой и доставкой информации при персональной, массовой и производственной коммуникации, а также все технологии и отрасли, интегрально обеспечивающие перечисленные процессы . Информационные и коммуникационные технологии - это обобщающее понятие, описывающее различные устройства, механизмы, способы, алгоритмы обработки информации. Важнейшими современными устройствами ИКТ являются компьютер, снабженный соответствующим программным обеспечением, и средства телекоммуникаций вместе с размещенной на них информацией [5, с. 95-98].

21 век считается веком информационных технологий, несмотря на то, что информационные системы и ЭВМ появились ещё в середине 20 века. На то есть ряд причин.

Во-первых, в 20 веке информационные технологии находились в зачаточном состоянии, и далеко не все возлагали на их развитие большие планы и надежды, вследствие чего финансирование этой индустрии, так же как и её ранние достижения были весьма скромными по сравнению с теми же показателями в 21 веке.

Во вторых, развитие этой индустрии тормозилось непониманием со стороны общества, обычные люди не придавали должного значения достижениям в области развития информационных технологий, и консерватизм и невежество подобных людей мешали развитию этой индустрии. Однако, даже в наше время ещё остаются люди которые разделяют подобные взгляды на эту научную область, однако теперь их слишком мало для того, чтобы создать препятствие для развития этой молодой, но крайне быстро развивающейся науки.

Вернёмся к современным реалиям. Сейчас за окном 2019 год, и достижения в области ИКТ на несколько порядков выше и технологичнее, чем в период зачатия в середине 20 века. Более того, большинство жителей современных развитых стран уже не могут представить себе жизнь без этих достижений. Сейчас уже почти у каждого человека есть смартфон, домашний компьютер или ноутбук и выход в интернет, и это далеко не все разработки, которые уже плотно вошли в обиход обычного человека, а только те, которые есть почти у каждого. Среди других инноваций можно выделить так называемые «умные дома», роботов, протезы конечностей и многое другое, о чём мы даже не мечтали всего то 20 лет назад [2, с. 207-210].

Однако, стоит отдельно подчеркнуть, что такой уровень информатизации ограничивается только границами развитых стран, страны же третьего мира переживают серьёзную отсталость в этом вопросе. Но глобальные корпорации вроде Google уже серьёзно планируют заняться внедрением достижений компьютерной техники в страны Африки на бесплатной основе. И не смотря на то, что Google может преследовать цель расширить сферу своего географического влияния и, соответственно, потенциальной клиентской аудитории, это поможет слаборазвитым странам идти в ногу со временем, и возможно решит часть проблем, связанных с различными сферами жизни людей в них проживающих [3, с. 58-61].

Информационно-коммуникационные технологии сегодня занимают центральное место в инновационном развитии ключевых сфер жизненной деятельности общества: муниципального и государственного управления, образования, бизнеса, здравоохранения, обеспечения безопасности, культуры и общественной жизни [8, с. 12-13].

Стоит также отметить способность информационных технологий вступать в симбиоз с другими технологиями. Сейчас ИКТ уже существует в симбиозе с сотнями сфер. В больницах уже давно устанавливается компьютеризированное оборудование, на производстве используются станки с числовым программным управлением, даже в наших домах уже можно встретить бытовую технику, которая имеет большую вычислительную мощность, которую в 60-х годах прошлого века имели суперкомпьютеры. Сферы приложения информационно коммуникационных технологий настолько разнообразны, что в перечне оборудования, где они используются, могут спокойно сосуществовать обычный кухонный холодильник с возможностью программной настройки, и такая интеграция произошла сравнительно недавно, каких то 10 лет назад мы такое только представляли. С учётом такого темпа развития и жизнеспособности этих технологий, вполне уместно будет предположить, что к концу 21 века на планете не останется места, где не будет всего того, что сейчас есть только в развитых странах. И более того, если всего за 20 лет информационные технологии уже абсолютно поменяли обыденную жизнь людей, то тяжело делать предположения о том чего достигнет эта индустрия через 80 лет [7, с. 16-18].

В обозримой перспективе уже есть технологии виртуальной реальности и дополненной реальности, беспроводные сети со скоростью подключения в три раза большей, чем в настоящее время, и развитие, так называемой, 3d-печати. Причём эти разработки уже частично доступны людям со средним заработком. Однако, даже знания о существовании таких разрабок не даёт возможности предугадать, что может быть изобретено уже завтра. Почему же технологии развивается с такой скоростью? Ответ на этот вопрос скрыт в самой роли этих технологий. Как и любое достижение инженерии, инновации в области ИКТ существуют и пользуются спросом за счёт того, какие преимущества они предоставляют своим владельцам. На данный момент роль ИКТ в жизни общества уже заняла фундаментальную позицию, т.е. если прямо сейчас пропадут все достижения в области одного только ИКТ, то мы вернёмся обратно в начало 20 века. Таким образом, можно сделать вывод, что мы зависим от ИКТ и это необходимая плата за прогресс [6, с.75-78].

Ключевой тенденцией является последовательное возрастание роли информации и знания в современном обществе. Информация и знания становятся все более важным фактором производства, движущей силой экономического развития и процветания общества. Основываясь именно на этой особенности современного общества, многие исследователи и называют его "информационным" (Й.Масуда, Д.Белл, О.Тоффлер) или "обществом знания" (П.Дракер), или обществом, основанным на "информационной экономике" или "экономике знания" (М.Порат). В информационном обществе экономические успехи все больше зависят от наличия и эффективности национальной, региональной, локальной или корпоративной системы инноваций (М.Портер) и налаженной системы непрерывного образования. На данный момент благодаря ИКТ, мы имеем возможность связаться с человеком почти в любой части земного шара не выходя из дома, мы заставляем автоматизированные механизмы выполнять ту работу, на которую раньше требовались люди, мы создали целое новое сообщество в сети Интернет, образовав принципиально новую культуру. Таким образом, технологии стали не только техническим оборудованием для упрощения расчётов или заменой физического труда, но и стали неотъемлемой частью социальной жизни огромного количества людей [5, с. 134-137]

Учитывая такое влияние на общественную жизнь и перспективы развития ИКТ, очевидным становится факт того, что потенциал информационных технологий раскрыт далеко не полностью, а темпы и направления развития ограничиваются только лишь финансированием новых разработок и оригинальных технологических решений. Идея глобальной информатизации с каждым годом становится всё менее невозможной стараниями людей, прини-

мающих активное участие в развитии этой сферы. Мир находится на начальном этапе перехода в новую эру стараниями учёных, и на этом пути становления совершенно иного мира, их повсеместно сопровождают информационные технологии, они развиваются и позволяют развивать все сферы нашей жизни, мы реализуем мечты наших предков и оставляем бесценное наследство нашим потомкам. Согласно мировому опыту в настоящее время можно заметить, что увеличение добавленной стоимости в экономике происходит в значительной мере благодаря интеллектуальной деятельности, повышения технологического производственного уровня и распространения коммуникационных и информационных технологий [4, с.76-77].

Таким образом, мы убедились, что для развития человеческого общества наряду с материальными, инструментальными, энергетическими и другими ресурсами необходимы в том числе и информационные. Настоящее время характеризуется небывалым ростом объема информационных потоков. Это относится практически к любой сфере деятельности человека. Наибольший рост объема информации наблюдается в промышленности, торговле, финансово-банковской и образовательной сферах. Например, в промышленности рост объема информации обусловлен увеличением объема производства, усложнением выпускаемой продукции, используемых материалов, технологического оборудования, расширением внешних и внутренних связей экономических объектов в результате концентрации и специализации производства [3, с.87]

В 20 веке люди мечтали о мире, наполненном технологией, мы в 21 веке видим, как мир постепенно ими наполняется, наши потомки уже будут жить в таком мире, и в нём роль информационных технологий вероятнее всего будет продолжать расти, но мы этого уже не увидим.

Список литературы

1. Абдеев Р.Ф. Философия информационной цивилизации. - М.: ВЛАДОС, 1994.-336 с
2. Лазаревич А.А. Глобальное коммуникационное общество. Минск: Белорусь, «Наука», 2008: - 350 с.
3. Ракитов А.И. Философия компьютерной революции. М,. 1991.с.125.
4. Кастельс М. Информационная эпоха: экономика, общество и культура. М., 2000, с. 87
5. Печенкин В.В. Информационные технологии в структуре информационного общества. Саратов, Изд-во СГУ. 2001, с. 189.
6. Женова Н.А. Электронная коммерция: цифры и факты//Информационное общество: состояние, проблемы, перспективы Материалы III-ой ежегодной всероссийской научно-практической интернет-конференции. 2016. С. 75-78.
7. Новые информационные технологии и судьбы рациональности в« современной культуре (материалы «круглого стола»)// Вопросы: философии; 2003. № 12. С. 3-52.
8. Медведева Е.А. Основы информационной культуры// Социологические исследования. 1994. № Г-1. С. 59-67.

Firudin Əli Hüseyn oğlu Hüseynov
İnformatika və ÜTF kafedrasının baş müəllimi, AKU

Müasir cəmiyyətdə informasiya-kommunikasiya texnologiyalarının rolu və mahiyyəti

Xülasə

Müasir insanın həyatı müxtəlif texniki vasitələrlə daha aktiv ünsiyyət yolları sayəsində həyata keçirilir. İnformasiya və kommunikasiya texnologiyaları qlobal səviyyədə xüsusi mövqe tutur. Kompüter sahibinin bacarığı, gündəlik işlərdə informasiya və kommunikasiya texnologiyalarının istifadəsi, İnternetin imkanlarından istifadə etmək qabiliyyəti - bu günün reallığıdır. İctimai həyatın bütün sahələrində məlumat cəmiyyətin və vətəndaşın həyatına əhəmiyyətli dərəcədə təsir göstərir.

Açar sözlər: informasiya və kommunikasiya texnologiyaları, qloballaşma, məlumatlandırma, informasiya, cəmiyyət, kompüter, bilik, perspektiv.

Firudin Ali Huseyn Huseynov
head teacher of ACU

The role and essence of information-communication tenologies in modern society

Summary

The life of modern man is realized on the paths of ever more active communication with diverse technical devices. Information and communication technologies occupy a special position on a global scale. The skills of the computer owner, the use of information and communication technologies in everyday work, the ability to use the capabilities of the Internet - this is the reality of today. In all spheres of public life, information has a significant impact on the life of society and the citizen.

Key words: information and communication technologies, globalization, informatization, information, society, computer, knowledge, perspective.

Rəna Mahmudağa qızı AĞAYEVA
Azərbaycan Kooperasiya Universitetinin baş müəllimi

MÜASİR ŞƏRAİTDƏ ƏMƏK BAZARININ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Xülasə

Məqalədə əmək bazarının bazar iqtisadiyyatı şəraitindəki vəziyyəti, formalaşması öz əksini tapmışdır. Həmçinin əmək bazarında əhalinin demoqrafik vəziyyətinin, əmək qabiliyyətinin iqtisadiyyatın inkişafında əsas rol oynaması göstərilmişdir.

Açar sözlər: bazar iqtisadiyyatı, əmək bazarı, işsizlik, iqtisadi islahat, əmək ehtiyatları.

***

Əmək bazarı bazar iqtisadiyyatının çox mürəkkəb tərkib hissəsi olmaqla cəmiyyətin ictimai-siyasi və sosial-iqtisadi həyatında vacib sahədir. Əmək bazarı işçi qüvvəsinə olan tələb və təklifi müəyyən edən amillərin təsiri altında formalaşır. Bazar iqtisadiyyatı şəraitində respublikada əhalinin həyat səviyyəsinin yaxşılaşmasına əmək bazarının təsiri böyükdür.

Əhalinin demoqrafik vəziyyəti, yaş strukturu, əmək qabiliyyəti, təhsil səviyyəsi işçi qüvvəsinin təklifinin, ölkənin iqtisadiyyatının inkişafı isə tələbin müəyyənləşdirilməsində əsas rol oynayır.

Respublikada aparılan sosial-iqtisadi siyasətin uğurlu inkişafı mühüm makroiqtisadi göstəricilərin artmasına səbəb olmuşdur. Bu baxımdan əmək bazarında da bir sıra nailiyyətlər əldə edilib. Belə ki, ölkəmizdə işçi qüvvəsinin əmək bazarının tələblərinə uyğunlaşdırılması, vətəndaşların peşə hazırlığının təşkili işsizliyin kəskin şəkildə azaldılmasına, əmək bazarında sabitliyin qorunub saxlanmasına imkan verib. Məsələn, son illərin statistik məlumatlarına nəzər yetirsək görərik ki, 2005-2017-ci illər ərzində məşğul əhalinin sayı 17.2% artıb. [3]

Gender bölgüsündə isə səhiyyə və təhsil sahəsində qadınların üstünlüyü, tikinti və mədənçıxarma sənayesində isə kişilərin üstünlüyü özünü göstərir. Ölkədə işsizlik səviyyəsi davamlı şəkildə azalaraq 2017-ci ildə 5% təşkil etmişdir. 2017-ci ildə iqtisadiyyatda muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2016-cı ilə nisbətən 5.7% artaraq 528.2 manat təşkil etmişdir. Əməkhaqqı neft sektorunda 3079.2 manat, qeyri-neft sektorunda 468.3 manat təşkil etmişdir. Dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 396.0 manat, özəl müəssisələrdə isə 710.4 manat olmuşdur. Ölkə əhalisinin gəlirləri isə 2017-ci ildə əvvəlki ilə nisbətən 8.3% artmış, yəni əhalinin hər nəfərinə düşən gəlirlər 5050.5 manat və ya ayda orta hesabla 420.9 manat təşkil etmişdir. Yaşayış minimumunun həddi 2018-ci ildə 173 manat təsdiq edilmişdir ki, bu da 2017-ci ilə nisbətən 11.6%-dən çoxdur. [1, s. 26, 28]

Dövlətin apardığı sosial siyasət, əmək bazarının inkişafında, vətəndaşların məşğulluğunun təmin edilməsində hazırlanmış proqramların həyata keçirilməsi müsbət amillərdən hesab olunur və bunların nəticəsi olaraq statistik məlumatlara istinad edərək demək olar ki, Azərbaycan "2017-2018 Qlobal Rəqabətlilik hesabatı"nda əmək bazarının səmərəliliyi üzrə 17-ci yerdədir.

Hazırda ölkəmizdə əmək bazarının tənzimlənməsi sahəsində dünya təcrübəsində özünü doğrultmuş metodlardan istifadə olunur. Bunlar iqtisadi, təşkilati və inzibati metodlardır.

İqtisadi metodlar - iş yerlərinin yaranması, sahibkarlığın möhkəmlənməsi üçün güzəştli kreditləşdirmə, vergitutma və büdcə siyasəti yeridilməsi.

Təşkilati metodlar - məşğulluq və işədüzəltmə xidmətinin, kadrların hazırlanmasının həyata keçirilməsi.

Qanunvericiliklə nəzərdə tutulan inzibati metodlara - əmək müqavilələrinin bağlanması, məşğulluğun təmin olunması ilə əlaqədar sahibkarlıq tərəfindən müxtəlif fondlara ödəmələrin tətbiqi, iş vaxtından artıq işlədikləri hallarda əməyin haqqının ödənilməsi və s. aid edilir.

Ölkəmizdə hazırda tətbiq olunan iqtisadi islahatlar təsərrüfat mexanizminin və idarəetmənin bütün həlqələrinin yenidən qurulmasına şərait yaradır və bütün sahələrə təsir göstərir. Sosial siyasətin sürətləndirilməsi, insan amilinin rolunun artırılması və əmək ehtiyatlarından istifadənin səmərəliliyinin yüksəldilməsi də bilavasitə iqtisadi islahatlardan asılıdır. [2, s.11]

Müasir şəraitdə iqtisadi münasibətlərdə insan amilinin rolunun artırılması və əmək ehtiyatlarından istifadənin səmərəliliyinin yüksəldilməsi məsələləri əmək bazarının formalaşması prosesinə elmi yanaşma tələb edir. İqtisadiyyatın yenidən qurulmasında insan amilinin aparıcı rol oynaması cəmiyyətin başlıca məhsuldar qüvvəsi olan iş qüvvəsinin təkrar istehsalının müxtəlif aspektlərinin, habelə formalaşmaqda olan əmək bazarının, onun əsas elementlərinin və kateqoriyalarının, həmçinin də Azərbaycan Respublikasında onun spesifik xüsusiyyətlərinin tətbiq edilməsinə aparıcı xarakter verir.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci ildə fəaliyyəti haqqında hesabat". Bakı, 2018.
2. Rəşad Muradov. "Müasir şəraitdə Azərbaycan Respublikasında əmək bazarı problemləri". Bakı, "Elm" - 2000.
3. "Əmək bazarı: islahatlar, çağırışlar və perspektivlər" mövzusunda konfrans. 20.12.2017. www.edu.gov.az
4. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi www.stat.gov.az

Рена Махмудага кызы Агаева
старший преподаватель
Азербайджанского Университета Кооперации

Спецификации развития рынка труда в современных условиях

Резюме

В статье отражаются ситуация и формирование рынка труда в условиях рыночной экономики. Также, демографическая ситуация населения на рынке труда, основная роль трудоспособности в экономическом развитии показаны в статье.

Ключевые слова: рыночная экономика, рынок труда, безработница, экономическая реформы, трудовые ресурсы.

Rena Mahmudagha Aghayeva
head teacher Azerbaijan Cooperation University

The developing feafures of labour market in modern conditions.

Summary

The article expresses the situation and formation of labour market in market economy conditions. Also the demographic situation of the population in the labour market, the main role of labour ability in the economic development are shown in this article.

Key words: market economy, labour market, unemployment, economic reform, labour resources.

Polad Murtuzəli oğlu QARAYEV
dosent, Azərbaycan Kooperasiya Universiteti

İKİTƏRTİBLİ QEYRİ-XƏTTİ İNTEQRO-DİFERENSİALTƏNLİKLƏR SİSTEMİNİN TƏQRİBİ HƏLLİ

Xülasə

İşdə Splayn funksiyalarının tətbiqi ilə ikitərtibli qeyri-xətti inteqro-diferensial tənliklər sisteminin təqribi həllinin tapılması üsulu göstərilmiş və tapılmış təqribi həllin xətası hesablanmışdır.

Açar sözlər: qeyri-xətti, Splayn-funksiya, inteqro-diferensial, xəta, tənlik.

***

Aşağıdakı qeyri-xətti məsələyə baxaq:

$$\begin{cases} y_1(x)=\int_0^1 \mathrm{K}_1(x,t,L_1[y_1(t)],L_2[y_1(t)],...,L_n[y_n(t)])dt+f_1(x) \\ y_2(x)=\int_0^1 \mathrm{K}_2(x,t,L_1[y_1(t)],L_2[y_1(t)],...,L_n[y_n(t)])dt+f_2(x) \\ \ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots \\ y_n(x)=\int_0^1 \mathrm{K}_n(x,t,L_1[y_1(t)],L_2[y_1(t)],...,L_n[y_n(t)])dt+f_n(x) \end{cases}$$

$$a_i y_i(0)+b_i y_i^{\mathrm{I}}(0)=c_i; \qquad m_i y_i(1)+n_i y_i^{\mathrm{I}}(1)=r_i$$

$$|a_i|+|b_i|\neq 0 \ \ (i=\overline{1,n}) \qquad |m_i|+|n_i|\neq 0 \ \ (i=\overline{1,n})$$

burada

$$\begin{cases} L_1[y_1(x)]=y_1^{\mathrm{II}}(x)+P_1(x)y_1^{\mathrm{I}}(x)+q_1(x)y_1(x) \\ L_2[y_2(x)]=y_2^{\mathrm{II}}(x)+P_2(x)y_2^{\mathrm{I}}(x)+q_2(x)y_2(x) \\ \ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots \\ L_n[y_n(x)]=y_n^{\mathrm{II}}(x)+P_n(x)y_n^{\mathrm{I}}(x)+q_n(x)y_n(x), \end{cases}$$

$\mathrm{K}_i(x,t,s_1,s_2,...,s_n)$ $(i=\overline{1,n})$ verilmiş nüvələr, $f_i(x)$ $(i=\overline{1,n})$ isə verilmiş sərbəst hədlərdir.

Tutaq ki, verilmiş məsələnin $y_i(x)\in C^2[0,1]$ $bi=\overline{1,n}$ şərtini ödəyən yeganə həlli var.

Məsələni təqribi üsulla həll edək. Bunun üçün $[0,1]$ parçasını hissələrə bölək:

$$\Delta:\ 0=x_0<x_1<...<x_{\mathrm{N}}=1$$

$$h_k=x_k-x_{k-1}(k=1,2,...,\mathrm{N})$$

və aşağıdakı sərhəd şərtləri ilə bağlı olan fundamental splaynlar quraq [2]:

$x=0$ olduqda

$$2M_0+M_1=\frac{6}{h_1}[\frac{y_1-y_0}{h_1}-y_0^{\mathrm{I}}]$$

$x=1$ olduqda

$$M_{\mathrm{N}-1}+2M_{\mathrm{N}}=\frac{6}{h_{\mathrm{N}}}[y_{\mathrm{N}}^{\mathrm{I}}-\frac{y_{\mathrm{N}}-y_{\mathrm{N}-1}}{h_{\mathrm{N}}}]$$

burada $M_i=S_\Delta^{\mathrm{II}}(x_i)$ $(i=0,1,\ldots,\mathrm{N})$ «momentlər» işarələnmişdir.

Bütün kubik splaynlarda bazis təşkil edən Δ bölgüsündə təyin edilmiş $\mathrm{N}+1$ sayda

$A_{\Delta k}(x)$ $(k=0,1,\ldots,N)$ və $B_{\Delta k}(x)$ $(k=0,N)$

kubik splaynlar aşağıdakı şərtlərə əsasən tapılır [2].

$$\mathrm{A}_{\Delta k}(x_j)=\delta_{ki}(j=0,1,...,\mathrm{N})$$

$A^{I}_{\Delta k}(x_i) = 0$ $(i = 0, N)$ $(k = 0,1..., N)$

$B_{\Delta k}(x_j) = 0$ $(j = 0,1,..., N)$

$B^{I}_{\Delta k}(x_i) = \delta_{ki}$ $(i = 0, N)$ $(k = 0, N)$

burada δ_{ki} - Kroneker simvoludur. Sərhəd şərtlərini ödəyən həllin splayn interpolyasiyası olan kubik splaynı

$$S_{\Delta}(x, y) = \sum_{j=0}^{N} A_{\Delta j}(x) y(x_j) + y^{I}(0) B_{\Delta 0}(x) + y^{I}(1) B_{\Delta N}(x)$$

şəklində axtarmaq olar.

$E_{\Delta}(x, y) = y(x) - S_{\Delta}(x, y)$

işarə edək. Əgər tənliyin $C^2[0,1]$ sinfində yeganə həlli varsa, onda

$E^{\alpha}_{\Delta}(x, y) = 0(\|\Delta\|^{2-\alpha})$ $(\alpha = 0,1,2)$

burada

$\|\Delta\| = \max\limits_{1 \le i \le N} |x_j - x_{j-1}|$.

Onda $S_{\Delta}(x, \bar{y}^*)$ kubik splaynı üçün

$y^*(x) = S_{\Delta}(x, \bar{y}^*) + 0(\|\Delta\|^{2-\alpha})(\alpha = 0,1,2)$ olacaq.

Burada $y^*(x)$ tənliyin dəqiq həllidir.

Beləliklə , nəticədə

$y_i^*(x) = S_{\Delta}(x, \bar{y}_i^*) + 0(\|\Delta\|^{2-\alpha})$ $(\alpha = 0,1,2)$

$(i = \overline{1,n})$ olduğunu alarıq.

ƏDƏBİYYAT

1. А.Ф. Верлань, В.С. Сизиков. Методы решения интегральных уравнений с программами для ЭВМ, Киев «Наукова Думка» 1978г., стр. 282
2. Дж. Алберг, Э.Нильсон, Дж. Уолш «Теория сплайнов и ее приложения», «Мир», Москва 1972 год.
3. П.М.Гараев. «Приближенное решение интегро-диференциальных уравнений», «Депонир». ВИНИТИ №1569-80.

Полад Муртузали оглу Гараев
доцент Азербайджанский Университет Кооперации

Второстепенний нелинейных интегро-дифференциальных уравнений системы ориентировочная решения

Резюме

Ниже приведен метод нахождения приближенного решения системы нелинейных интегро, дифференциальных уравнений с применением функций сплайна и рассчитанной с учетом расчетной ошибки решения.

Ключевые слова: нелинейная сплайн-функция, интегро-дифференциальные уравнения, ошибка, уравнение.

Polad Murtuzali Garayev
ass. professor of the Azerbaijan
University of Cooperation

Secondary nonlinear integro-differential equations of the system of approximate solutions

Summary

Below is a method for finding an approximate solution of a system of nonlinear integro-differential equations with the use of spline functions and the solution calculated with allowance for the calculated error.

Key words: nonlinear spline function, integro-differential equations, error, equation.

Asya Xalid qızı MEHBALIYEVA
"Menecment və ticarət" kafedrasının müəllimi, AKU

AZƏRBAYCANDA KORPORATİV QANUNVERİCİLİYİ VƏ KORPORATİVLƏRİN İNKİŞAFINDA ONUN ROLU

Xülasə

Məqalədə Azərbaycanda korporativ idarəetmənin mövcud vəziyyəti və problemlərindən söz açılır. Korporativ idarəetmə sahəsində olan qanunvericiliyin onun inkişafında mühüm rolu olduğu qeyd olunur. Korporativ məcəllə və digər qanunvericilik aktları təhlil olunur.

Açar sözlər: korporativ idarəetmə, korporasiya, korporativ məcəllə.

***

Azərbaycanda korporativ idarəetmə ilə bağlı hazırkı vəziyyət qeyri-adekvatdır və mühüm dəyişikliklərin həyata keçirilməsini tələb edir. Adekvat qanunvericilik strukturunun qəbul edilməsi Azərbaycanda korporativ idarəetmənin təkmilləşdirilməsinə dair əsas addımdır. Azərbaycanda korporativ idarəetmə ilə bağlı problemlər sadəcə daha mükəmməl korporativ idarəetmə qaydalarının qəbul edilməsi ilə həll edilə bilməz. Buna əsas səbəb Azərbaycanda qaydaların tətbiqinə müvafiq orqanların adekvat nəzarətinin olmaması, o cümlədən şirkətlərin qabaqcıl təcrübələrini tətbiq etməmələridir. [1, s. 24]

Korporativ münasibətlərin əhəmiyyəti və ümumilikdə korporativ qanunvericiliyin inkişafı elə bir səviyyəyə çatıb ki, korporativ münasibətlər mülki hüquqla tənzimlənən münasibətlərin əsas məsələlərindən biri olub. Ona görə də müasir şəraitdə korporativ münasibətləri mülki hüquqla tənzimlənən münasibətlərin əsas növlərindən biri olaraq nəzərə almamaq mümkün deyil.

Azərbaycan Respublikasında fəaliyyət göstərən dövlət və özəl müəssisələrin idarəetmə sisteminin təkmilləşdirilməsində müasir beynəlxalq standartların tətbiqi məqsədilə Azərbaycanın Korporativ idarəetmə məcəlləsinin hazırlanmasına ehtiyac duyulmuş və bunun üçün İqtisadi İnkişaf Nazirliyinin nəzdində dövlət orqanları, şirkətlər və Beynəlxalq Maliyyə Korporasiyasının nümayəndələrindən ibarət müvafiq işçi qrupu yaradılmışdır. Korporativ idarəetmə məcəlləsi ¾ - ü korporativ münasibətləri tənzimləmək məqsədilə əsasən könüllü şəkildə qəbul olunan standart və daxili normalar əsasında hazırlanıb.

Səhmdar cəmiyyətlərində korporativ idarəetmənin inkişaf etdirilməsi və səhmdarların huquqlarının qorunması sahəsində mühüm addımlardan biri şirkətdə korporativ münasibətləri tənzimləyən standart və daxili normalar külliyyatından ibarət olan korporativ idarəetmə məcəlləsinin işlənib hazırlanması və açıq səhmdar cəmiyyətləri tərəfindən tətbiq edilməsidir. [3, s. 35]

Korporativ idarəetmə sahəsində gedən sürətli inkişaf və islahatları nəzərə alaraq, gələcəkdə Məcəllənin strukturunda dəyişikliklər ola biləcəyini də qeyd etmək lazımdır.

Bununla yanaşı, Dövlət Müəssisələrinin Korporativ İdarəetməsinə dair İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) Təlimatları istinadı əsas kimi götürülərək dövlət müəssisələrində korporativ idarəetmə prinsiplərinin tətbiqinə dair müddəalar da Məcəllədə öz əksini tapacaqdır.

[2, s. 32]

Azərbaycanın Korporativ idarəetmə Məcəlləsi Azərbaycan Respublikasının qanunvericiliyi, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının 1999-cu ildə ilk dəfə qəbul etdiyi və 2004-cü ildə yenidən baxılaraq daha da təkmilləşdirilən Korporativ İdarəetmə Prinsipləri və bu sahədə mövcud olan beynəlxalq standartlara əsaslanaraq hazırlanmışdır. Məcəllə 5 fəsildən ibarətdir:

- Müşahidə Şurası.
- İdarə Heyəti.
- Maliyyə hesabatı, şəffaflıq və açıqlama.
- Payçıların hüquqları və onlara münasibət.
- Payçıların korporativ idarəetmədə rolu.

Azərbaycanda bank sistemi digər iqtisadi institutlardan fərqli olaraq göstərilən sahədə, o cümlədən korporativ idarəetmənin tətbiqində və daxili nəzarət sisteminin təkmilləşməsində daha proqressivdir. Göstərilən tələblərin yerinə yetirilməsi istiqamətində Mərkəz Bank tərəfindən hazırlanmış və tətbiq olunan normativ sənədləri təqdirəlayiq hesab etmək olar. Ümid edirik ki, yaxın gələcəkdə sığorta şirkətləri də qabaqcıl təcrübələrin tətbiq olunması, ciddi institusional dəyişikliklərin aparılması, o cümlədən mükəmməl korporativ idarəetmə sisteminin yaradılması üçün bütün mövcud resurslardan səmərəli istifadə edəcək.

Korporativ idarəetmənin inkişafında Azərbaycan Respublikasının Mərkəzi Bankının proqressiv addımları bununla məhdudlaşmır. Mərkəzi Bank qanunvericiliyi təkmilləşdirilmiş və banklarda korporativ idarəetmənin yaxşılaşdırılmasını prioritet elan etmişdir. Təəssüf ki, qeyri-bank sektorunda belə bir lider hələ ki mövcud deyil. Qeyri-bank sektorunda korporativ idarəetmənin yaxşılaşdırılması üçün Mülki Məcəllənin müvafiq müddəaları təkmilləşməlidir. Lakin, təkmilləşdirilmiş qanunvericilik və onun tətbiq edilməsi Azərbaycanda korporativ idarəetmənin yaxşılaşdırılmasına kifayət etmir. Azərbaycan şirkətləri korporativ idarəetmə prinsiplərinin icra olunmasına cavabdeh olan orqan və ya korporativ katib kimi vəzifə yaratmalıdır. Şirkətin rəhbərliyi (məsələn,müşahidə şurası) işçilər və menecment üçün korporativ idarəetmənin vacibliyini vurğulamalıdırlar. [4, s.12]

Mərkəzi Bank ilə yanaşı İqtisadi İnkişaf Nazirliyi ölkədə fəaliyyət göstərən təsərrüfat subyektləri üçün müasir korporativ idarəetmə sistemi modelinin hazırlanması və tətbiqi ilə bağlı müvafiq tədbirlər görür və dövlət aktivlərinin səmərəli idarə edilməsi və korporativ idarəetmə sahəsində dövlət siyasətinin formalaşması və həyata keçirilməsinə dair təkliflər hazırlayır, korporativ idarəetmə sahəsində normativ - hüquqi bazanın hazırlanmasında iştirak edir. Nazirliyin bu sahədə əsas vəzifələrindən biri də inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsini öyrənməklə müasir korporativ idarəetmə sistemlərinin hazırlanması və tətbiqi, beynəlxalq əməkdaşlığın qurulması istiqamətində müvafiq tədbirləri həyata keçirməkdir. Pis korporativ idarəetmə o deməkdir ki, bu şirkət investisiyalar cəlb edə bilməyəcək, kredit ala bilməyəcək və deməli, kapital bazarına çıxa bilməyəcək.

ƏDƏBİYYAT

1. Korporativ idarəetmə müşaviri. Azərbaycan şirkətləri üçün tövsiyələr. Təlimat. Bakı, 2010, s. 36.
2. Dövlətə məxsus müəssisələrin korporativ idarəetmə təcrübələrinə dair İƏİT-in Qaydaları. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı. Bakı, 2007, s. 48.
3. Azərbaycan Şirkətlərində Korporativ idarəetmə. Sorğu nəticələri. Beynəlxalq Maliyyə Korporasiyası. Bakı, 2006, s. 62.
4. Azərbaycan Respublikasının Mərkəzi Bankının "Banklarda korporativ idarəetmə standartları". Mərkəzi. Bakı, 2013, s. 18.

Ася Халид кызы Мехбалиева
предподаватель кафедры
«Менеджмент и торговля» АУК

Корпоративное законодательство в Азербайджаие и его роль в развитии корпораций

Резюме

В тезисе идет речь о современном состоянии корпоративного управления Азербайджана. Отмечается роль законодательства в сфере корпоративного управления в его развитии. Анализированы корпоративный кодекс и другие законодательные акты.

Ключевые слова: корпоративное управление, корпорация, корпоративный кодекс.

Asya Halid qızı Mehbaliyeva
department of
"Management and trade" teacher ACU

The corporative legislation and its role in the development of corporations of Azerbaijan

Summary

Thesis is about modern condition of corporate management of Azerbaijan.The importance of legistation in corporate management sphere and its development are noticed here. Corporate codex and other legistative documents are studied in this thesis.

Key words: corporate management, corporation, corporate codex.

Nigar VAHABZADƏ
i. f.d. Azərbaycan Dövlət İqtisad Universiteti

AZƏRBAYCANDA ƏHALİNİN SOSİAL MÜDAFİƏSİNİN GÜCLƏNDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Dünya təcrübəsində sosial qayğı formaları dedikdə əhalinin həssas qruplarına göstərilən yardım və müavinətlər, eyni zamanda bir sıra sosial xidmətlər nəzərdə tutulur. Respublikamızda sosial təminat sisteminin, onun alt sistemi olan sosial müavinət və güzəştlərin digər hissəsi kimi çıxış edən təqaüdlər digər ölkələrdə olduğu kimi bizdə də tətbiq olunur.

Açar sözlər: sosial müdafiə, sosial təminat, sosial sığorta, təqaüd.

***

Məlumdur ki, sosial qayğı müasir cəmiyyətimiz üçün mühüm əhəmiyyət kəsb edən sahə kimi qiymətləndirilir. Burada özlərindən asılı olmayan səbəblərdən, iqisadi, sosial və digər səbəblərdən öz zəruri tələbatlarını ödəyə bilməyən yoxsul, əlil və ya digər həssas qruplardan olan insanların təminatı nəzərdə tutulur. Ümumiyyətlə, dünya təcrübəsində sosial qayğı formaları dedikdə həssas qruplara göstərilən yardım və müavinətlər, eyni zamanda bir sıra sosial xidmətlər nəzərdə tutulur. Əhalinin aztəminatlılığının təyin edilməsi fonunda göstərilən pul formasında qayğı, sosial yardımlar, digər istiqamət isə sosial müavinətləri əhatə edır. Mövcud sosial müavinətlər sistemi, müxtəlif kateqoriyadan olan insanlara birdəfəlik, yaxud aylıq pul formasında transferlərin verilməsini özündə əks etdirir. Sosial müavinətlərin təyinatında sosial yardımlardan fərqli olaraq aztəminatlılıq göstəricisi əsas meyar kimi istifadə edilmir.

Bildiyimiz kimi, Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra sosial təminat sistemində, o cümlədən onun alt sistemi olan sosial müavinətlər sistemində bir sıra hüquqi aktlar qəbul edilmişdir ki, bu da bir çox yeni növdə sosial müavinətlərin yaranmasına səbəb olmuşdur. Qəbul edilmiş normativ-hüquqi aktların tətbiq edilməsinə baxmayaraq 2006-cı ilə qədər olan dövrdə müavinətlər sistemi ayrı-ayrı qanunvericilik aktları ilə tənzimlənmiş, bu isə beynəlxalq nor-

malara tam olaraq uyğunlaşdırılmamışdır. Sosial təminat sisteminin dayanıqlığının artırılması və sistemin təkmilləşdirilməsi məqsədilə 2006-cı ilin 01 yanvar tarixində "Sosial müavinətlər haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunları qəbul edilmişdir. Bu qanunların qəbul edilməsindən sonra sosial müavinətlər və sosial yardım sistemlərinin eyni zamanda sığorta pensiya sisteminin bir-birindən ayrılması nəticəsində sosial təminat sistemi daha təkmil və beynəlxalq standartlara uyğun formada tətbiq edilməyə başlamışdır.

Respublikamızda təyin edilən müavinət növlərindən biri də müxtəlif səbəblərdən əlilliklə bağlı olan sosial müavinətlərdir. Xatırladaq ki, qanunvericiliklə müəyyən edilmiş qaydada əlilliklə bağlı sosial müavinətlər əmək qabiliyyəti olmayan şəxsin əmək pensiyası hüququ olmadıqda təyin edilir. Burada isə əsas diqqət edilən məqam əmək qabiliyyətinin itirilmiş faizinin təyin edilməsi və buna uyğun olaraq əlilliyin dərəcəsinin və müavinətin məbləğinin təyin edilməsidir.

Diqqətinizə çatdırım ki, Azərbaycan Respublikası «Məşğulluq haqqında» Qanununda, eyni zamanda «Sosial sığorta» haqqında Qanunda işsizlik müavinətinin verilməsi qaydaları və zərurəti qeyd edilmişdir. Belə ki, sözügedən birinci qanunda müavinətin verilməsi üçün işsiz statusunun müəyyən edilməsi qaydaları, digərində isə bunun sığorta hadisəsi hesab edilməsi və işsiz statusu alan vətəndaşlara onların itirilmiş əmək haqlarının kompensasiya edilərək ödənilməsi zərurəti təsbit edilmişdir.

Respublikamızda bundan başqa birdəfəlik müavinətlərin sırasına uşağın anadan olmasına görə verilən birdəfəlik müavinət və dəfn üçün ödənilən birdəfəlik müavinətlər daxildir. Respublika qanunvericiliyinə görə əgər anadan olan uşağın valideynlərindən ən azı bir nəfəri işləyən, yaxud məcburi sosial sığorta ödəyicisidirsə, o zaman müavinət Dövlət Sosial Müdafiə Fondunun hesabına valideynin iş yerindən ödənilir. Əks halda isə valideynlərin hər ikisinin hər hansı səbəbdən işləmədiyi vəziyyətdə müavinət valideynin yaşayış yeri üzrə əhalinin sosial müdafiə mərkəzi tərəfindən ödənilir. Bu müavinətin məbləği 2006-2014-cü illərdə təqribən 200 faiz artırılmış və 2015-ci ildə 90 manat müəyyən olunmuşdur. Lakin, qeyd etmək lazımdır ki, beynəlxalq normalara baxsaq bu məbləğin yaşayış minimumuna, yaxud uşaqlar üçün yaşayış minimumunun müəyyən misliləri ilə təyin olunduğunu müşahidə etmək olar. Müavinətin mərhələli şəkildə artırılmasına baxmayaraq hal-hazırda yaşayış minimumunun 69 faizi məbləğindədir.

Qeyd edək ki, sosial müavinətlərlə bağlı qanunvericilikdə bəzi şəxslərə kommunal, nəqliyyat və digər xidmətlərə görə müavinət nəzərdə tutulmuşdur. Xatırladaq ki, bu müavinətlər bəzi şəxslərə nəqliyyat, kommunal və digər xidmətlərə görə nəzərdə tutulmuş güzəştlərin əvəzinə tətbiq edilir. Bu müavinət növlərinin tarixçəsinə nəzər salsaq müxtəlif illərdə onların tərkibinin dəyişdiyini, genişləndiyini və bəzilərinin isə ümumiyyətlə dayandırıldığını müşahidə etmək olar. Qanunvericiliklə güzəşt formasında nəzərdə tutulmuş bu müavinətlər vətəndaşların yalnız pensiya almaq hüququ olmadıqda təyin oluna bilir. Əgər vətəndaş pensiya almaq hüququnu qazanarsa onda bu müavinətin verilməsi dayandırılır.

Müasir dövrdə Respublikamızda sosial təminat sisteminin və xüsusilə də onun alt-sistemi olan sosial müavinət və güzəştlərin digər hissəsi kimi çıxış edən təqaüdlər bir sıra ölkələrdə olduğu kimi Respublikamızda da tətbiq edilir və bəzən təqaüdlərin ayrıca bir alt-sistem kimi qiymətləndirilməsi də mümkündür. Respublikamızda təqaüd sisteminə nəzər salsaq burada əsasən 3 növ əsas təqaüd və bunlara daxil olan təqaüdlər mövcuddur. Qeyd edək ki, bu təqaüdlərin hər biri özündə müxtəlif növ təqaüdləri birləşdirir. Burada birinci növ Azərbaycan Respublikası Prezidentinin təqaüdləri, ikinci növ Azərbaycan Respublikası fəxri adlarına görə təqaüdlər və doktorantlara, ali, orta ixtisas və peşə məktəbləri, peşə liseylərinin tələbələrinə və sonuncu şagirdlərinə verilən təqaüdlərdir.

Azərbaycan Respublikası Prezidenti təqaüdünün digər növü isə şəhid ailələrinə və milli qəhrəmanların ailələrinə təyin edilən prezident təqaüdüdür. Bu təqaüd Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə təsis edilmişdir. Bu müavinət şəhidin ailə üzvlərinin arasında bərabər bölünməklə təyin edilir.

ƏDƏBİYYAT

1. “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 2006.
2. Sosial təminata dair Qanunvericilik toplusu. Bakı, 2010.
3. Ə.Q.Əlirzayev. Sosial sferanın iqtisadiyyatı və idarəedilməsi. Bakı, 2010.
4. H.Rəcəbli. Azərbaycan Respublikasının Sosial Müdafiə sistemi. Bakı, 2012.
5. R.Mürşüdov. Sosial müavinət və təqaüdlərin hüquqi tənzimi. «Avropa» nəşriyyatı, 2013.

Нигяр Вахабзаде
д.ф.э.н. Азербайджанский Государственный Экономический Университет

Укрепление направления социальной защиты населения Азербайджана

Резюме

Формы социальной заботы в мировой практике предусматривает помощь и пособия, предоставляемые уязвимым группам населения, а также ряд социальных услуг. Стипендии, выступающие в качестве других частей социальных пособий и льгот, являющихся подсистемой системы социального обеспечения в Азербайджанской Республике, применяются как в других странах, так и у нас.

Ключевые слова: социальная защита, социальное обеспечение, социальная страховка, стипендия.

Nigar Vahabzadeh
PhD in economics Azerbaijan State Economic University

Strengthening social protection of the population in Azerbaijan directions

Summary

The forms of the social care in the world practice envisage aid and allowances provided to the vulnerable groups of inhabitants as well as several social services. The fees acting as other parts of social allowances and facilities deemed as subsystem of the social procurement system in Azerbaijan Republic are applied in both other countries and Azerbaijan.

Key words: social protection, social procurement, social insurance, fee.

Aydana Zakir qızı QASIMOVA
Azərbaycan Kooperasiya Universiteti

İQTİSADİYYAT İXTİSASINDA TƏHSİL ALAN TƏLƏBƏLƏRƏ İNGİLİS DİLİNİN TƏDRİSİ

Xülasə

Məqalədə iqtisadiyyat ixtisasında təhsil alan tələbələrə ingilis dilinin tədrisi məsələləri araşdırılıb. Burada əsas diqqət tələbələrdə oxu bacarıqlarının formalaşdırılmasına yönəldilib və bu işdə kompyuter əsaslı dil təliminin əhəmiyyəti vurğulanıb.

Açar sözlər: öyrənmə üsulları, kompyuter əsaslı dil təlimi, oxu bacarıqları, ingilis dilinin tədrisi.

***

Tələbələr tərəfindən xüsusi sözlərin öyrənilməsi bəzən yavaş, bəzən məyusedici və hətta sinirpozucu olur. Bütün tələbələr xarici dildə öz ana dilində olduğu kimi inamla və rahat şəkildə danışmaq istəyir. İqtisadiyyat ixtisasında təhsil alan tələbələrlə çalışan müəllim onları daha yaxşı tanımaq üçün onların hərtərəfli təhlilini aparmalıdır. Tələbələrin xarakteri haqqında, onların hər hansı dili öyrənməsi ilə bağlı öyrənmə strategiyaları haqqında məlumat toplamaq tədris kursunu

düzgün təşkil etmək üçün zəruridir. Məktəblilərdən fərqli olaraq tələbələr həyata keçirilən aktivitilərdə daha seçicidirlər. Məsələn, onlar həyat təcrübələrinə görə rollu oyunları və quraşdırılmış hekayələri sevmirlər. Onlar qrammatik tapşırıqları yerinə yetirməyi sevdiklərini iddia etsələr də, əslində bu aktivitilərdən də istifadə etmirlər. Öyrənmə üsullarının digər vacib cəhəti isə odur ki, onlar ümumiyyətlə ev tapşırığı və ya onlara iqtisadi tərkibləri və sözləri möhkəmlətməyə kömək edən əlavə tapşırıqlardan imtina edirlər. Dinləmə və danışma aktivitiləri onların üstünlük verdiyi fəaliyyət növləridir. Tədris prosesində tələbələr öyrənmə strategiyalarına görə qruplaşdırılmalıdır. Çoxsaylı öyrənmə strategiyalarından istifadəetmə ümumiyyətlə tədrisə yeni yanaşmadır [4, s. 240]. Öyrənmə strategiyalarını araşdıran bir çox tədqiqatçılar aşağıdakı əsas kateqoriyaları qəbul edir. 1.Vizual; 2. Eşitmə; 3. Kinestetik.

Vizual öyrənənlər - görmə ilə öyrənirlər, buna görə də şəkillərdən istifadəyə və məkan anlayışına üstünlük verirlər. Onlar dərsin məzmununu tam anlamaq üçün müəllimin bədən dilini və üz ifadəsini görməlidirlər. Belə tələbələr vizual maneələrdən qaçmaq üçün qabaq sıralarda əyləşməyə üstünlük verirlər. Vizual öyrənənlər dərsi diaqramlar, videolar və illüstrasiyalı kitablardan istifadə etməklə daha yaxşı mənimsəyirlər.

Eşitmə ilə öyrənənlər - adından da məlum olduğu kimi, dinləmə ilə öyrənənlərdir. Onlar səslərdən, musiqidən istifadə etməyə üstünlük verirlər, belə ki, onlar şifahi mühazirələr, müzakirələr və başqalarının danışığına qulaq asmaq vasitəsilə daha yaxşı öyrənirlər. Eşitmə ilə öyrənənlər nitqdəki əsas mənanı səsin tonuna, sürətinə və başqa nüanslara diqqət yetirməklə başa düşürlər. Bundan başqa, belə tələbələr mətni ucadan oxumağa və səs yazılarına üstünlük verirlər.

Fiziki, toxunma və ya kinestetik öyrənənlər - hərəkət edərək və toxunaraq öyrənirlər, buna görə də bədəni və əlləri istifadə etməyi üstün tuturlar. Onlar əllə yanaşma ilə daha yaxşı öyrənirlər, ətrafdakı fiziki dünyanı aktiv şəkildə araşdırırlar.

Xarici dili öyrənərkən əsas məqsədlərdən biri dinləmə bacarığını inkişaf etdirməkdir. Dinləmə fəaliyyətləri çox zaman vaxt itkisi kimi qiymətləndirilir. Dinləmə fəaliyyətlərini yerinə yetirərkən hər hansı bir hissəni dinlədikdən sonra tələbələrin çoxu adətən səs yazısındakı danışığın sürətli olmasından şikayət edirlər. Yaxud tələbələr müxtəlif hissələri yenidən dinləməyə ehtiyac duyurlar. Bu halda ən yaxşı yanaşma dinləmə fəaliyyətində fasiləni uzatmaqdır. Bu fasilələr tələbələrə informasiyanı anlamaq üçün lazım olan "düşünmə vaxtı"nı verir. İlk vaxtlar tələbələr qısa dinləmədən sonra uzun fasilələrə ehtiyac duyacaqlar, lakin zaman keçdikcə onlar uzun hissələri fasiləsiz dinləmə və düzgün informasiya əldəetmə bacarığını inkişaf etdirəcəklər.

İqtisadiyyat ixtisasında təhsil alan tələbələrdə ingilis dilində danışıq bacarığını inkişaf etdirmək xüsusilə çətindir. Bunun əsas səbəbi isə danışıq və dinləmə bacarığının bir-biri ilə bağlı olmasıdır: daha yaxşı dinləmə bacarığı, daha yaxşı danışıq bacarığı deməkdir. Buna görə də onlar eyni vaxtda inkişaf etdirilməlidir. Fikrimizcə, dinləmə şifahi dili anlamaq bacarığıdır. Dinləmə danışıq bacarığı üçün vacibdir, çünki o, uğurlu ünsiyyət mübadiləsi üçün yaxşı əsas yaradır. Buna görə də dinləmə bacarığını inkişaf etdirmək dil öyrənmədə ilk addım hesab edilə bilər.

İngilis dilində iqtisadi mətni oxumaq da çətin ola bilər. Bir çox tələbələr bunu etməkdən asanlıqla imtina edirlər, belə ki, onlar bütün sözləri bilmədiklərini və buna görə də hər zaman lüğətə ehtiyac duyduqlarını düşünürlər. Onlar oxu fəaliyyətlərini vaxtalıcı və darıxdırıcı hesab edirlər. Müəllimlər tələbələrin oxu fəaliyyətlərindən faydalanması üçün aşağıdakı üsullardan istifadə edə bilərlər: tələbələrin mətni oxumaqda məqsədini müəyyənləşdirmək; oxumaq üçün mətndə düzgün yeri tapmaq; əgər mətndə tələbələrə tanış olmayan sözlər varsa onları onlayn lüğətdə axtarmaq; oxu zamanı hər bir paraqrafın əsas ideyasını ümumiləşdirməyə çalışın və əgər orada heç bir yarımbaşlıq yoxdusa özünüz əlavə edin.

Tələbələrə oxu bacarığını aşılamağın digər bir yolu Kompyuter Əsaslı Dil Təlimindən istifadə etməkdir. Bu dil təlimi düzgün istifadə edildikdə dil öyrənməni asanlaşdırır. Pedaqoji yanaşmalara görə KƏDT-nin tarixi üç mərhələyə bölünür: tərbiyəvi KƏDT, kommunikativ KƏDT və inteqrativ KƏDT [2, s. 23]. 1960-1970-ci illərdə tətbiq olunan tərbiyəvi KƏDT əsasən tədqiqat-təcrübə məşğələlərini təşkil edən dil tədqiqatlarına əsaslanırdı. Kompyuter burada "mexaniki tərbiyəçi" kimi qəbul olunmuşdu. Kommunikativ KƏDT 1970-ci illərin sonu və 1980-ci illərin əvvəllərində tətbiq olundu və o, tələbələrə hazır formaları təkrarlamağa deyil, özlərinin cümlə və

ifadələrini yaratmağa imkan verirdi. Kommunikativ KƏDT-nə görə öyrənmə kəşf və inkişaf prosesidir. Kommunikativ KƏDT-nin prinsipləri əsasında tərtib olunmuş proqramlar mətnlərin qurulması proqramlarını əhatə edirdi. Üçüncü mərhələnin tərəfdarları əvvəlki mərhələləri əsas dil bacarıqlarını ayırdığına görə tənqid edirdilər. Bu mərhələnin əsasını oxu, yazı, danışıq və dinləmə bacarıqlarının inteqrasiyası təşkil edir.

Kompyuter Əsaslı Dil Təlimindən oxu bacarıqlarının inkişafında istifadə edilməsinin üstünlüyü kompyuter tərəfindən təklif olunmuş fərdi təlimatdır. Tələbələr eyni dil öyrənmə qruplarına təyin olunsalar da öyrənmə üsullarına və öyrənmə tempinə görə fərqli olurlar. Öyrənənlər həmçinin dil bacarıqlarını inkişaf etdirmə səviyyəsinə görə fərqlənə bilərlər. Belə ki, bir qrupda danışıq bacarığı yaxşı, lakin oxu bacarığı ilə problemi olan tələbə ola bilər. Kompyuterdən istifadə tələbələrə öz tempində işləməyə imkan verir. Kompyuter mətnləri müxtəlif üsullarla təqdim edə bilər. Mətnlər həm mətni, həm də oxunu maraqlı edən animasiyalar və səslərlə təqdim olunur. Belə mətnlər lüğətlərə birbaşa istinadlar da verə bilər. Sözün üstündə klikləməklə tələbə sözün izahını və ya onun ana dilində ekvivalentini ala bilər. Belə olduqda tələbə həm də vaxta qənaət etmiş olar. Bu üsul həm də oxu tapşırıqlarını yetinə yetirmək üçün lüğətdən istifadə etməyə tənbəllik edən tələbələri də həvəsləndirə bilər.

Oxuyub anlama tapşırıqları həmişə həm müəllimlər, həm də tələbələr tərəfindən lazımi şəkildə yerinə yetirilmirdi. Müəllimlər belə hesab edirdilər ki, qrammatika, danışıq və dinləmə daha əhəmiyyətlidir və tələbələr oxuyub anlama testlərini mənasız hesab edirlər. Bu cür testlərin kompyuterləşdirilmiş variantları vəziyyəti əhəmiyyətli dərəcədə dəyişib. Bu faktın müəllimlərin fikrini dəyişməsə də, tələbələrin fikrini dəyişmək şansı var.

Kompyuterlərin ənənəvi dil qruplarının əksinə təklif etdiyi digər bir cəhət gizlilikdir.Belə ki, tələbə kompyuterlə işlədikdə onun səhvlərini yalnız müəllim və kompyuter bilir, bununla da tələbə səhvlərinə görə yoldaşları tərəfindən ələ salınma qorxusundan azad olur. Ənənəvi dil qruplarında oxuyub anlama ilə bağlı problemi olan tələbələr nadir hallarda onların anlamasını yoxlayan suallara cavab verməyə həvəsli olurlar, belə ki, onlar oxu bacarıqlarına yüksək səviyyədə yiyələnmiş tələbələrin onlara gülməsindən ehtiyat edirlər. Bu da onları passiv oxuculara çevirir. [2, s. 29]. Kompyuter belə tələbələri həvəsləndirir və onları daha aktiv edir. Kompyuter Əsaslı Dil Təlimindən istifadənin digər üstün cəhəti ondan ibarətdir ki, qruplarda bütün tələbələrin mətni oxumasına vaxt ayırmaq mümkün deyil, buna görə mətni oxumaq üçün daha çox vaxta ehtiyacı olan tələbələr sərbəst şəkildə mətni oxuya bilərlər.

ƏDƏBİYYAT

1. Higgins C. “Computer-assisted Language Learning: Current Programs and Projects”, ERIC Digest, 1993.
2. Aleksandra Klidecka-Nadera - “Application of Computer Assisted Language Learning in the Development of Reading Comprehension Skills.
3. Brown H.D. Principles of Language Learning and Teaching. Longman Publication, 2002.
4. Richards J.C. and Rodgers Th.S. 2003. Approaches and Methods in Language Teaching, Cambridge: Cambridge University Press.

Айдана Закир кызы Гасымова
Азербайджанский Университет Кооперации

Преподавание английского языка студентам изучающим экономику

Резюме

В статье рассматривается преподавание английского языка для студентов, изучающих экономику. Основной акцент делается на создании навыков читателей и подчеркивается важность компьютерного обучения языку в этом отношении.

Ключевые слова: стили обучения, компьютерное обучение языку, навыки чтения, преподавание английского языка.

Aydana Zakir Gasimova
Azerbaijan Cooperation University

Teaching English to students in economics

Summary

The article examines the teaching of English language for students studying in economics. The main emphasis is on the formation of reading skills and the importance of computer assisted language learning in this regard.

Key words: learning styles, computer assisted language learning, reading skills, teaching English.

Aynur Mobil qızı QASIMOVA
müəllim ADPU

PASCAL PROQRAMLAŞDIRMA DİLİNDƏ REKURSİYA

Xülasə

Bu məqalədə ilk kurslarda proqramlaşdırma dillərinin öyrədilməsində yaranan bəzi çətinliklərə baxılmışdir. Burada həmçinin birinci proqramlaşdırma dilinin seçimi haqqında da yazılmışdır.

Proqramlaşdırma dilini təzə öyrənməyə başlayanlarda rekursiyanı (altproqram) anlamaq çətinlik törədir. Əgər sadə dildə desək, o elə funksiyadır ki, öz-özünə müraciət edir. Rekursiya bir çox məsələlərdə istifadə olunduğu üçün, bu məqalədə onun işləmə alqoritmi haqqında məlumat verilib. Burada Pascal dilində altproqramın ***function*** növünə aid proqram kodu nümaiş etdirilərək, hər addımın izahı verilmişdir.

Açar sözlər: rekursiya, funksiya, Fibonacci ədədləri.

***

Riyaziyyat kursunda bəzi anlayışlar özü vasitəsilə təyin olunur. Proqramın tərtibində istifadə olunan prosedur və ya funksiyada onun özünə müraciət rekursiya adlanır.

Proqram sətirlərinin sayı artdıqca işin ümumi məntiqi itərək, əməliyyatların elementar olmasına baxmayaraq, onların ümumi məqsədini başa düşmək çətinləşir. Proqramın strukturu və onun yerinə yetirilmə ardıcıllığı o qədər də aydın olmur. Belə alqoritmlərdə səhvlər buraxılarsa, onları dəyişdirmək, yaxud da düzəltmək çox çətin olur. Bu problemi həll etmək üçün alqoritm sadə əməliyyatları yerinə yetirən ayrı-ayrı alqoritmlərə bölünür. Belə ayrıca alqoritmləri yerinə yetirən proqrama altproqram deyilir. Belə yardımçı alqoritmə (altproqrama) müraciət etmək üçün onu çağırmaq lazımdır. Yekun alqoritm ayrı-ayrı operatorlardan deyil, hər birinin öz adı olan bitkin kod bloklarından ibarət olur. Bu halda altproqramlara proqramçıların təyin etdiyi yeni operatorlar kimi baxmaq olar. Standart altproqramlar yəni, bir çox yardımçı alqoritmlərdən tez-tez və müxtəlif məsələlərdə istifadə edilir. Məsələn, tez-tez tipik riyazi funksiyaları hesablamaq, yaxud sətirlər üzərində standart əməliyyatlar aparmaq çox böyük vaxt itkisinə səbəb olur.


Belə problemlər standart altproqramların tətbiqı ilə aradan qaldırılır. Qeyd edək ki, adətən standart altproqramlar proqramlaşdırma dilində deyil, proqramlaşdırma sistemində (mühitində) təyin edilir. Onlar translyatora əlavə edilən altproqramlar kitabxanasına daxil olaraq, işi əhəmiyyətli dərəcədə yüngülləşdirir. Altproqramlar adətən, iki kateqoriyaya, prosedurlar və funksiyalara bölünür. Prosedur, sadəcə hər hansı operatorlar ardıcıllığını yerinə yetirir. Funksiya isə müəyyən qiyməti hesablayır və həmin qiyməti çağıran proqrama (yaxud altproqrama) ötürür (qaytarır). Altproqramın işinin bir mənası olması üçün o, onu çağıran proqramdan verilənlərdən istifadə olunur. Verilənlər altproqrama parametrlər şəklində ötürülür. Hər bir altproqram parametr kimi konkret tipli müəyyən verilənlər yığınını almağı gözləyir. Qeyd edək ki, əslində parametrsiz altproqramlar da mümkündür.

Altproqram yaradılarkən onun parametrlərinə ötürülən qiymətlər hələ məlum olmur. Təsvir zamanı altproqramın başlığında formal parametrlər göstərilir. Formal parametrlər ötürülən veri-

lənlərin tipini müəyyən edən ixtiyari identifikatorlardır. Onlar yalnız altproqramın yerinə yetirdiyi əməliyyatları təsvir etmək üçün lazımdır. Altproqram çağırılarkən ona ötürülən faktik parametrlər göstərilir. Altproqramın operatorlarının yerinə yetirilməsi zamanı formal parametrləri faktik qiymətlər təmsil edir.

Altproqramı çağıran operatorun növü altproqramın tipindən və konkret proqramlaşdırma dilinin sintaksisindən asılıdır. Altproqramı çağırmaq üçün onun adını göstərmək lazımdır. Ondan sonra mötərizədə faktik parametrlərin siyahısı gəlir. Faktik parametrlərin tipi və onların sayı altproqramda formal parametrlərin təsvirinə uyğun gəlməlidir. Faktik parametrlər təkcə dəyişənlər deyil, həm də konstantlar, yaxud ifadələr ola bilər [4].

Bildiyimiz kimi, rekursiya proqramlaşdırma dillərində - proqramın öz-özünü çağıra bilməsidir. Eyni növ məsələlərdən ibarət olan məsələləri həll etməyin təbii yolu rekursiyadan istifadə etməkdir. Məsələn, müəyyən növ fraktalların (FRACTAL) çəkilməsi; sintaktik təhlil (PARSİNG); çeşidləmə (SORT); matrisi oxşar matrislərə parçalamaqla onun determinantının hesablanması zamanı rekursiyalar çox səmərəli olur. Tam ədədin faktorialının (FACTORİAL) hesablanmasında da rekursiyadan istifadə edilə bilər.



Qeyd etmək lazımdır ki, altproqramdan istifadə nəticəsində proqram təkrarlarının fraqmentlərindən xilas olunaraq, onun strukturunu daha yığcam, başadüşülən edir. Belə proqramların yazılması səhvlərin saylarının azalmasına gətirib çıxardır. Proqramlar daha kompakt olaraq kompyuterin yaddaşında da az yer tuturlar.

Xatırladaq ki, Leonardo Fibonaççi (Pizalı Leonardo, Leonardo Pisano, əsasən Fibonaççi deyə tanınan) - orta əsrlərin ən istedadlı riyaziyyatçısı olaraq qəbul edilən italyan riyaziyyatçıdır və onun adı ilə Fibonaççi ədədləri bağlıdır. Fibonaççi ədədlərinin ortayaçıxma səbəbi isə olduqca maraqlıdır [2]. O, nəzəri cəhətdən mövcud olan, lakin bioloji tərəfdən mümkün olmayan dovşanların nəsil artımını müşahidə etmək istəyirdi. O, qeyd edir ki, əvvəlcədən götürülmüş yeni doğulan 1 cüt dovşan var (dişi və erkək). Doğulandan iki ay sonra dovşanlar cütləşir və hər ay yeni dovşan cütü dünyaya gətirirlər. Dovşanlar heç zaman ölmürlər. Bir ildən sonra neçə dovşan cütü olacaq?

1, 1, 2, 3, 5, 8, 13, 21, 34, 55, 89, 144, 233, 377, 610, 987, 1597, 2584, 4181, 6765, 10946, …

Silsilənin hər bir sonrakı həddi ondan əvvəl gələn iki həddin cəminə bərabərdir və beləliklə də, **n** qədər aydan sonra dovşan cütlərinin sayı olan cütlərin sayı ilə iki ay əvvəl olan yeni doğulan cütlərin cəminə bərabər olacaq. Beləliklə, ortaya bu düstur çıxır:

F(n)=F(n-2) + F(n-1)

Təbiətdə bir çox yerdə Fibonaççi silsiləsinə rast gəlmək mümkündü. Bitkilərin yarpaq yerləşməsi Fibonaççi sisteminə əsaslanır. Günəbaxan toxumu, həmçinin, güllərin ləçəklərinin quruluşu Fibonaççi ədədi silsiləsinə əsaslanır. İnsan barmaqlarının falanqa sümüklərinin uzunluğu və s. Fibonaççi silsiləsinə nümunədi. Xatırladaq ki, **F(n+1)/ F(n)= 1,618…**

"Qızıl nisbət", "Qızıl proporsiya" və ya "Qızıl kəsik" riyaziyyat və incəsənətdə bir bütünün parçaları arasında gözlənilən, uyğunluq baxımından ən dəqiq ölçüləri verdiyi düşünülən geometrik və riyazi nisbətlərin bərabərliyidir. Memarlıqda və incəsənətdə istifadə edilmişdir. Bu, tamın iki qeyri-bərabər, lakin proporsional hissələrə bölünməsinin nəticəsidir. Müasir dövrdə riyaziyyatda, texnikada, musiqidə, estetikada, şəkillərdə, kinoda və s. geniş elmi tətbiqini tapmışdır [1].

İndi isə Fibonaççi ədədlər silsiləsinin tapılmasına Pascal proqramlaşdırma dilində function altproqramı vasitəsilə baxaq.

```
program fibonachi_;
var
n, i: integer;
function fib (n : integer) : word;
begin
```

```
if n<=2 then
fib:=1
else
fib:=fib(n-1)+fib(n-2);
end;
begin
writeln ('Neçə Fibonaççi ədədinin hesablanmasını isteyirsiz?: '));
write ('N=');
readln (n);
if n<1 then
writeln ('Bele ededi daxil etmek olmaz')
else    begin
for i:=1 to n do
writeln (i,'-ci element = ',fib(i));
readln;    end;
end.
```

Onun işləmə alqoritmi aşağıdakı kimi olacaq. Məsələn, **F(10)-**u hesablamaq üçün , funksiya aşağıdaki kimi, öz-özünə müraciət edir. O vaxta qədər ki, **F(2)=1, F(1)=1** olsun. Bundan sonra, qiymətləri aşağıdan yuxarıya doğru yerinə qoyaraq, **F(3)=F(2)+F(1)=2** və s. alır.

(10)=F(9)+F(8)=? 55

F(9)=F(8)+F(7)=? 34 ←
F(8)=F(7)+F(6)=? 21 ←
F(7)=F(6)+F(5)=? 13 ←
F(6)=F(5)+F(4)=? 8 ←
F(5)=F(4)+F(3)=? 5 ←
F(4)=F(3)+F(2)=? 3 ←
F(3)=F(2)+F(1)=? 2

F(2)=1
F(1)=1

İlk dəfə planetlərin Günəş ətrafında ellipsvari hərəkətini açıqlayan Johannes Kepler (1571-1630) qızıl nisbət barədə demişdir: “Geometriyanın iki böyük xəzinəsi vardır; biri Pifaqorun teoremi, digəri bir düz xəttin qızıl nisbətə görə bölünməsidir [2]”.

ƏDƏBİYYAT

1. http://greenword.ru/2009/06/fibonacci-sequence.html
2. https://matemonline.com/2010/09/nas-okruzhajyt-4isla-fibona44i/
3. http://mf.grsu.by/Kafedry/sp_cs/academic_process/umo/001/lect_006
4. https://sites.google.com/site/aygunpasayeva99/lahi/informatika/altproqramlarfunksyalar-v-prosedurlar

Айнур Мобиль кызы Касумова
преподаватель АГПУ

Рекурсия на языке программирования Паскал

Резюме

В данной статье расмотриваются некоторые важнейшие проблемы связынные в обучении программирования, особенно в начальных курсах. А также обсуждается выбор первого языка программирования.

Рекурсию порой сложно понять, особенно новичкам в программировании. Если говорить просто, то рекурсия - это функция, которая сама вызывает себя. Поскольку рекурсия используется во многих алгоритмах, очень важно понять как она работает. В статье приведен пример программного кода на языке Паскал с использованием подпрограммы и описывается каждый шаг.

Ключевые слова: рекурсия, фунътион, числа Фибоначчи.

Aynur Mobil Gasimova
teacher ASPU

Recursions in Pascal programming language

Summary

In this paper we overview some of the most important issues relevant for programming education, specially for introductory courses, and we discuss the problem of choosing the first programming language.

Recursion is rather hard to understand especially for beginners in programming. Recursion is considered to be a function to call itself. It is very important to understand how it works as recursion is used in many algorithms. The article shows an example of Pascal programming code using a subroutine and describes each step.

Key words: recursion, function, Fibonacci numbers.

Rafiq Əlif oğlu BAYRAMOV
Azərbaycan Dövlət Aqrar Unversitetinin dissertantı

TƏTBİQ EDİLMİŞ HERBİSİDLƏRİN QARĞIDALI BİTKİSİNİN BOY VƏ İNKİŞAFINA TƏSİRİNİN ÖYRƏNİLMƏSİ

Xülasə

Tətbiq edilmiş herbisidlər dənin keyfiyyət göstəricilərinə müsbət təsir göstərmiş, nəzarət variantı ilə müqayisədə qarğıdalının yağ, zülal və finil turşusu 2 - 3% yüksəlmişdir. Tətbiq edilmiş herbisidlərin bitkilərin vegetativ orqanlarında və məhsulda qalığı aşkar edilməmişdir. Qarğıdalı əkinlərində birillik və çoxillik alaq növlərinin çoxluq təşkil etdiyi sahələrdə Otason, Nikomeks+Aqroneks, Pendimeks, Bazaqran, Bestamin, Veed Killer və Milaqro herbisidlərindən birinin tətbiq edilməsi tövsiyə olunur.

Açar sözlər: qarğıdalı, herbisid, keyfiyyət göstəricisi, yağ, zülal.

***

Dənli taxıl bitkiləri içərisində öz əhəmiyyətinə görə qarğıdalı xüsusi yer tutur. Onu ərzaq, yem və yüngül sənaye üçün xammal kimi istifadə edirlər. Qarğıdalı dəni və ondan hazırlanan un müxtəlif xarakterli qənnadı məmulatların hazırlanmasında geniş istifadə edilir. Dəndə olan şəkərdən yüksək keyfiyyətli bal alınır. Qarğıdalı dəni və onun qıcasının saçaqları müxtəlif dərmanların hazırlanmasında istifadə edilir [1, s. 226].

Vətəni Mərkəzi və Cənubi Amerikanın tropik və subtropik zonaları sayılır. Bu bitki XV əsrdə İspaniyaya gətirilmiş və Avropada bir tərəvəz bitkisi kimi becərilməyə başlanmışdır. XVI əsrin axırı, XVII əsrin əvvəllərində Rusiyaya yayılmışdır. Güman edilir ki, XVII əsrin əvvəllərində İtaliya tacirləri tərəfindən Türkiyə ərazisini keçərək Gürcüstana gətirilmişdir. Azərbaycan Respublikasına XVIII əsrin axırı XIX əsrin əvvəllərində Gürcüstandan gətirilərək Qazax və Zaqatala rayonlarının ərazisində becərilməyə başlanmışdır [2, s. 38].

Qarğıdalı əkinlərində alaq otlarını məhv edərkən tətbiq edilmiş herbisidlər, qarğıdalı bitkisinin boy və inkişafına müsbət təsir edirlər. Qarğıdalı əkinlərində tətbiq edilmiş herbisidlərin mədəni bitkilərə mənfi təsirinin olmadığı qeyd olunmuşdur [3, 4 s. 25].

Qarğıdalı əkinlərində tətbiq edilmiş herbisidlər bitkinin boy və inkişafına mənfi təsir göstərmirlər. Qarğıdalı əkinlərində tətbiq edilmiş herbisidlər bitkinin boy və inkişafının nəzarət variantı ilə müqayisədə daha yüksək olmasına səbəb olur [5, s. 122].

Qarğıdalı əkinlərində alaq otlarına qarşı tətbiq edilmiş herbisidlərin mədəni bitkiyə müsbət təsir etməsini başqa tədqiqatçılar da qeyd edirlər.

2016-ci ildən qarğıdalı əkinlərində alaq otlarına qarşı tətbiq edilmiş herbisidlərin, qarğıdalı bitkisinin boy və inkişafına təsirinin müəyyən edilməsi üçün bitkinin boyunun ölçülməsi, gövdəsinin diametri və bitkinin inkişaf fazaları öyrənilmişdir.

Aparılmış tədqiqatlardan aydın olmuşdur ki, tətbiq edilmiş herbisidlər qarğıdalı bitkisinin boy və inkişafına mənfi təsir göstərmirlər. Belə ki, təcrübə variantında qarğıdalı bitkisinin boyunun təsərrüfat - nəzarət variantı ilə müqayisədə 7.1-13,3%; gövdənin diametrinin 12,2-32,6 % yüksək olduğu müəyyən edilmişdir.

Müəyyən olunmuşdur ki, herbisidlərin tətbiqi qarğıdalıda yağın, zülalın və filin turşusunun artmasına səbəb olur (Cədvəl 1.).

Cədvəl 1.

Qarğıdalı əkinlərində tətbiq edilmiş herbisidlərin qarğıdalı bitkisinin boy və inkişafına təsiri

s/s	Təcrübənin variantları	Herbisidlərin məsarif norması (l/ha)	Herbisidlərin tətbiqindən 25 gün sonra		Herbisidlərin tətbiqindən 50 gün sonra		Məhsul yığımından qabaq		Nəzarətlə müqayisədə bitkinin boy və inkişafı, %	
			Bitkinin boyu, sm	Gövdənin diametri, mm	Bitkinin boyu, sm	Gövdənin diametri, mm	Bitkinin boyu, sm	Gövdənin diametri, mm	Bitkinin boyu, sm	Gövdənin diametri, mm
1.	Otason	1,5	24.6	0.78	85.2	11.3	163.2	22.4	107.1	119,7
2.	Nikomeks+ Aqroneks	60qr+ 150ml	23.8	0.74	91.8	10.8	160.2	21.4	110.5	114,4
3.	Pendimeks	4,0	25.6	0.90	92.8	11.2	164.4	23.2	107.9	124.0
4.	Bazaqran	3,0	24.6	0.72	96.6	11.8	163.8	22.0	107.5	117.6
5.	Bestamin	2,0	27.6	0.96	87.0	11.5	163.4	21.0	107.2	112.2
6.	Veed Killer	2,0	23.6	0.78	86.1	10.9	169,2	23.1	111.0	123.5
7.	Milaqro (etalon)	1,5	28,8	0.96	96,3	12,1	172.6	24.8	113.3	132.6
8.	Nəzarətə təsərrüfat	-	15.0	0.65	73.8	9.7	152.3	18.7	100,0	100,0

Aparılan analizlər nəticəsində müəyyən olunmuşdur ki, herbisidlərin tətbiqi qarğıdalının dənəsində yağın, zülalın və filin turşusunun miqdarının 2-3% artmasına gətirmişdir. 2016-cı ildə qarğıdalı əkinlərində tətbiq edilmiş herbisidlərin qarğıdalının dənində keyfiyyət göstəricilərinə təsiri BM və TB ETİ - nin zəhər qalığının təyini və alaqlarla mübarizə laboratoriyasında öyrənilmişdir (Cədvəl 2.)

Cədvəl 2.

Qarğıdalı əkinlərində tətbiq edilmiş herbisidlərin qarğıdalının keyfiyyət göstəricilərinə təsiri (2016-cı il.) sort-Boro və Nido.

№	Təcrübənin Variantları	Herbisidin məsarif norması (l/ha)	Keyfiyyət göstəricilərinə təsiri		
			Yağ, %-lə	Zülal, %-lə	Filin, %-lə
1	Otason	1,5	4,3	1,3	4,8
2	Nikomeks+ Aqroneks	60 qr + 150 ml	4,5	1,5	4,9
3	Pendimeks	4,0	4,5	1,4	5,0
4	Bazaqran	3,0	4,5	1,4	5,0
5	Bestamin	2,0	4,4	1,3	5,0
6	Veed Killer	2,0	4,3	1,5	4,8
7	Milaqro (etalon)	1,5	4,5	1,4	4,9
8	Nəzarət – təsərrüfat	-	su	1,2	4,7

2 saylı cədvəldən göründüyü kimi, qarğıdalının texnoloji xüsusiyyətləri torpaq-iqlim şəraitinin təsiri altında dəyişildiyi kimi, tətbiq olunan herbisidlərin təsiri altında da dəyişir. Alaq otlarına qarşı tətbiq olunmuş herbisidlər bütün variantlarda qarğıdalının dənində yağın, zülalın və filin turşusunun artmasına səbəb olmuşdur.

Herbisidlər tərəfindən alaqların məhv edilməsi bitkilərin qidalanma şəraitini dəyişməklə qarğıdalının keyfiyyət göstəricilərinə müsbət təsir göstərmişdir.

ƏDƏBİYYAT

1. Babayev A.H., Babayev V.A. Ekoloji kənd təsərrüfatlarının əsasları. Bakı, Qanun, 2011. s. 543.
2. Hacıyev C.Ə., Hüseynov M.M. Alaq bitkiləri və onlarla mübarizə. Dərs vəsaiti, Gəncə, 2003, 78 s.
3. Багринцева В.Н., Кузнецова С.В., Губа Е.И. Эффективность применения гербицидов на кукурузе // Кукуруза и сор го, 2011, № 1, с. 24-27.
4. Захаренко В.А. Экономические пороги вредоносности сорных растений в посевах основных сельскохозяйственных культур/Б.А.Захаренко, Г.С.Груздев, А.Б.Воеводин: М.: Агропромиздат, 1989. - 25 с.
5. Ломовской Д.В. Урожайность кукурузы в зависимости от применения гербицидов / Д.В.Ломовской, Р.В.Ласкин. В.Ю.Пацкан // Применения средств химизации в современных технологиях возделывания с-х культур: Сб. науч. Тр. Москва, 2012. с. 122-124.

диссертант Рафик Алиф оглы Байрамов
Азербайджанский Государственный Аграрный Университет

Изучение влияния на рост и развитие кукурузы примененных гербицидов

Резюме

Применяемые гербициды оказали положительное влияние на качественные характеристики кукурузы, а также содержание жира, белка и финиловой кислота увеличилось на 2 - 3% по сравнению с контролем. Остатки применяемых гербицидов не обнаружены в растительных органах растений и продукте. Рекомендуется использование одного из нижеследующих гербицидов: Отасон, Никомекс + Агронекс, Пендимекс, Базагран, Бестамин, Вит Киллер и Милагро на полях, где обычно широко представлены однолетние и многолетние виды сорняков.

Ключевые слова: кукуруза, гербицид, индикатор качества, жир, белок.

candidate for a degree Rafik Alif Bayramov
Azerbaijan State Agriculture University

Study of the influence of used herbicides on growth and development of corn

Summary

The herbicides used had a positive effect on the qualitative indicators of corn, as well as the fat, protein and acid content increased by 2 - 3% compared to the control. Residues of applied herbicides are not found in plant organs and plants. It is recommended to use one of the following herbicides: Otasone, Nicomix + Agronex, Pendimex, Bazagran, Bestamin, Weed Killer and Milagro in the fields, where annual and perennial weeds are usually widely represented.

Key words: corn, herbicide, quality indicator, fat, protein.

Günel İntizam qızı CABBAROVA
Azərbaycan Kooperasiya Universitetinin doktorantı

İNVESTİSİYA FƏALİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Bazar münasibətləri şəraitində istehsalatda köhnəlmiş texnologiyanın fasiləsiz olaraq yenisi ilə əvəz edilməsi və istehsalın müasir dövrün tələbləri səviyyəsində idarə edilməsi problemi getdikcə aktuallaşır. İstehsalda texnologiyanın yeniləşməsi prosesi inteqrasiya xarakterli olub, insan, maliyyə, maddi və intellektual resursların cəlb edilməsi və onların birgə tətbiqini tələb edir. Məhz iqtisadi inteqrasiyanın ən yüksək inkişaf səviyyəsinə innovasiya proseslərində nail olmaq olar. Bu prosesin səmərəliliyi belə resursların uğurlu kombinasiyasının formalaşmasına kömək edən şəraitdən asılıdır. İnnovasiya fəaliyyəti iqtisadi inkişafı və rəqabətqabiliyyətliliyi təmin etmək üçün yeni ideyaların, elmi biliklərin, texnologiya və məhsulların müxtəlif istehsal və idarəetmə sahələrinə tətbiq edilməsidir. İnnovasiya bir fəaliyyət novü kimi nəinki iqtisadiyyatın keyfiyyət göstəricilərinin təkmilləşdirilməsinə xidmət edir, eyni zamanda yeni fəaliyyət mühiti yaradır. İnnovasiya yolu ilə inkişafa, milli və xarici elmi yeniliklərdən tam istifadə olunmasına nail olmaq üçün bu sahəyə maliyyə ayırmaları xüsusilə vacibdir. Maliyyə ayırmaları rəqabətqabiliyyətinin artırılması və innovasiyaların stimullaşdırılması üçün zəruri şərtdir. Son illərdə iqtisadi yüksəliş hesabına ölkəmizin maliyyə ehtiyatlarının artması innovasiyaya investisiya qoyuluşu imkanlarını da artırır.

Bazar münasibətləri şəraitində dayanıqlı və davamlı iqtisadi inkişafa nail olmaq üçün investisiyaları iqtisadiyyatın prioritet sahələrinə yönəltmək və iqtisadiyyatın quruluşunda elmtutumlu sahələrin payını artırmaq mühüm vəzifə kimi qarşıya qoyulur. İnvestisiyaların innovasiya yönümlü olması makroiqtisadi sabitliyin və iqtisadi artımın təmin olunmasında əsas şərtlərdən biridir. İnvestisiya imkanlarının, xüsusilə də innovasiya yönümlü investisiyaların artması iqtisadiyyatın sürətli inkişafına və əhalinin həyat səviyyəsinin artırılmasına gətirib çıxarır. Lakin bəzi hallarda innovasiyalı sahələrin inkişafı itkilərlə müşahidə olunur. Məsələn, fundamental elmə qoyulan vəsait geri qaytarılmaya da bilər. Bəzən elə olur ki, nanotexnologiyalara qoyulan vəsait gözlənilən səmərə vermir. Odur ki, innovasiya yönümlü investisiyaların səmərəliliyi mütləq nəzərə alınmalıdır. Bundan başqa, investisiyaları innovasiyaya qoyarkən ölkə iqtisadiyyatının xüsusiyyətlərinin də nəzərə alınması vacib şərtlərdən biridir.

İnnovasiya yönümlü investisiyalar müasir dövrdə yəni, elm və texnologiyanın, informasiya və kommunikasiyanın yüksək səviyyəli inkişafı dövründə çox mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan investisiya qoyuluşlarının artırılması ölkəyə külli miqdarda vəsait axınını təmin edə bilər. Azərbaycan bu sahədə hələ yeni olsa da, müvafiq layihələri həyata keçirmək üçün maliyyə imkanları vardır. Azərbaycanın informasiya kommunikasiya texnologiyaları sahəsində regionun aparıcı ölkəsinə çevrilməsi üçün məqsədyönlü dövlət siyasəti həyata keçirilir. XXI əsr müasir informasiya cəmiyyətinin yaradılması, regionların zəngin təbii sərvətlərinin təsərrüfatçılıq dövriyyəsinə cəlb edilməsi, insan kapitalına xidmət etməsi yüksək intellektual səviyyənin formalaşması baxımından keyfiyyətcə yeni eranın başlanğıcı sayıla bilər. Müasir şəraitdə yeni artım mənbəyi kimi informasiya-kommunikasiya texnologiyalarının inkişafına diqqət ayrılması nəticəsində səmərəli iqtisadi münasibətlərin formalaşması üçün güclü zəmin yaranmış və yeni iqtisadiyyatın əsasını təşkil edən bilik iqtisadiyyatının güclənməsinə təkan vermişdir. Respublikamız innovasiyaların və texnologiyaların keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuş, yeni texnologiyalar sahəsində tərəqqiyə nail olmuşdur. Respublikada mövcud olan siyasi sabitlik, dinamik sosial-iqtisadi inkişaf, cəmiyyətdə demokratik proseslərin daha da inkişafı dünya iqtisadiyyatına inteqrasiyanın dərinləşməsinə əlverişli şərait yaratmışdır. Bir çox nəhəng enerji və nəqliyyat layihələrinin reallaşması, mütərəqqi təcrübənin mənimsənilməsi, müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqi, rabitənin inkişafı Azərbaycanın qabaqcıl dövlətlər sırasına çıxmasına imkan yaratmışdır. Bütün bunların nəticəsidir ki, Davosda keçirilən Ümumdünya İqtisadi Forumunun texnoloji hesabatında Azərbaycanın informasiya və kommunikasiya texnologiyalarının inkişaf səviyyəsinə görə MDB ölkələri arasında birinci yeri tutduğu qeyd olunmuşdur. Bun-

dan başqa, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı tərəfindən "2014-cü il qlobal innovasiya indeksi: innovasiyada insan amili" adlı hesabatda da Azərbaycanın sözügedən sahədə uğur əldə etdiyi vurğulanmışdır.

İnformasiya-kommunikasiya texnologiyalarının inkişaf dinamikası, ona olan dövlət qayğısı və beynəlxalq qurumlarla əməkdaşlığımız, uğurla həyata keçirilən neft strategiyası ölkəyə olan inamın artmasına müsbət təsir edir və bizim yüksək texnologiyaya əsaslanan iqtisadiyyatımız üzrə qarşıya qoyduğumuz vəzifələrimiz beynəlxalq investisiya cəmiyyəti tərəfindən müsbət qarşılanacaqdır. İnnovasiya yönümlü investisiyalar ölkəmiz üçün hələ yeni olduğu üçün onun stimullaşdırılması sahəsində dövlətimizin təcrübəsi azdır. Buna görə də bu sahədə xarici dövlətlərin yürütdüyü siyasətin öyrənilməsi respublikamız üçün çox mühüm məsələdir [1]. Xarici dövlətlər innovasiya proseslərini öz iqtisadiyyatlarına tətbiq etməklə yüksək gəlir əldə etmiş, davamlı inkişafa nail olmuşlar.

Ölkə iqtisadiyyatının səmərəliliyini artırmaq üçün investisiyalarla innovasiyalı inkişafı təmin etməlidirlər. Qloballaşan iqtisadi münasibətlər şəraitində belə model əsasında səmərəsiz iqtisadi strukturdan rəqabət qabiliyyətini təmin edən yüksək elmtutumlu postindustrial iqtisadi quruluşa keçmək mümkündür. Bilik iqtisadiyyatının güclü inkişafına nail olmaq üçün Prezident İlham Əliyevin sərəncamı ilə təsdiqlənən "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası da innovasiya yönümlü institutların yaradılması və müasir modelin formalaşdırılması, sosial infrastrukturun təkmilləşdirilməsi üçün geniş imkanlar açır. Vacib məqsədlərə nail olmaq üçün ilk növbədə təbii resurslardan asılılığın azaldılması və qeyri-neft sektorunun inkşaf etdirilməsi ilə yanaşı, elmtutumlu istehsal sahələrinə, innovasiyalara diqqətin artırılması nəzərdə tutulmuşdur. İnnovasiyalı inkişaf tipi həmçinin ölkənin iqtisadi və hərbi-siyasi təhlükəsizliyini təmin edə bilər. Mikrosəviyyədə innovasiyaların tətbiqi müəssisə üçün kəskin rəqabət şəraitində üstünlük verir, makrosəviyyədə isə ölkənin rəqabət qabiliyyətinin artmasına, beynəlxalq aləmdə onun nüfuzunun möhkəmlənməsinə şərait yaradır [2].

Respublikamızda sənaye sahələrində innovativ islahatların aparılması istehsal olunan məhsulların kəmiyyət və keyfiyyətinin artmasına şərait yaradır ki, bu da ixracyönümlü istehsalın inkişafına səbəb olmaqla ölkənin iqtisadi qüdrətinin artmasına gətirib çıxarar. Müasir dövrdə iqtisadi nailiyyətlərin əldə olunmasının hər bir ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyindən əhəmiyyətli dərəcədə asılılığı danılmaz faktdır. Bu amil qloballaşmanın dərinləşdiryi bir şəraitdə öz əhəmiyyətini bir daha artırmaqdadır. Belə ki, yüksək rəqabətqabiliyyətli iqtisadiyyata malik ölkələr beynəlxalq bazara güclü və daha çox fayda əldə edən subyekt kimi qoşulduğu halda, müvafiq parametr üzrə zəif olan ölkələr isə əksər hallarda istehlakçı qismində iştirak edirlər. Ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyi isə, şübhəsiz ki, onun əsasını təşkil edən elementlərin rəqabətqabiliyyətliliyi ilə şərtlənir. Burada xüsusi diqqət yetirilən məqam, iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin hansı vasitələrdən istifadə edilməsi ilə təmin olunmasından ibarətdir. Bu baxımdan innovasiya fəaliyyəti bütün səviyyələrdə ön plana çıxmış olur. Beynəlxalq bazarlarda iştirak payına görə nisbətən kiçik dövlətlərin müvafiq məkanda iştirakının dayanıqlılığının təmin olunması aspektindən isə innovasiya obyektiv xarakter daşıyır. Müasir dövrdə makroiqtisadi tarazlığın, həmçinin dayanıqlı və davamlı iqtisadi inkişafın əsasını təşkil edən, eyni zamanda istər dövlətin, istərsə də təsərrüfat subyektlərinin rəqabət mübarizəsində dayanıqlılığını təmin edən əsas element kimi məhz innovasiya çıxış etməkdədir.

İnvestisiya və innovasiya arasında nisbət xüsusi əhəmiyyətə malikdir. Bu xüsusilə iqtisadi inkişafın dövriliyi ilə şərtlənir. İnnovasiya təbii və digər resurslardan qənaətlə istifadə üçün yeni imkanlar açır. Əlbəttə, resursqoruma nə qədər aktual məsələ olsa da, bütün hallarda investisiyaları innovasiyalara yönəltmək imkan xaricindədir. Buna edilən cəhdlərin reallığı isə məqsəd və vasitələrin müvafiqliyindən həlledici dərəcədə asılıdır. İstehsal vasitələrinin yeniləşməsi sürəti onların köhnəlməsi tempi ilə şərtlənir. Digər tərəfdən, yeniləşmə tempi məhsulun maya dəyərini aşağı salmağa maneədir. Bu vəziyyətdən çıxış yollarından biri fondlardan istifadə intensivliyinin yüksəldilməsinin optimal həddinin tapılmasıdır. Təcrübə göstərir ki, bank sektoru praktik olaraq kiçik müəssisələrin həyata keçirdiyi innovasiya layihələrinin kreditləşməsində iştirak etmir. Çünki, bu yönümdə fəaliyyətin qarantı rolunda çıxış edən girov sistemi kiçik innovasiya müəssi-

sələri üçün yararlı hesab olunmur. Belə firmaların daşınmaz əmlakı olmadığından, əməkdaşlara məxsus maşın və mənzillərdən savayı girov saxlamağa heç bir əmlakları olmur. Ona görə də texnoparkda innovasiya layihələrinin maliyyələşməsinə vəsaitlər əsasən ixtisaslaşmış fondlardan və donor təşkilatlardan cəlb olunur.

Ölkədə qeyri-neft sektorunun əsas sahələrindən olan qeyri-neft sənayesinin inkişafına xüsusi diqqət yetirilir. Bu sahənin inkişafının intensivləşdirilməsi məqsədilə sənaye müəssisələrinin müasir texnologiyalar əsasında yenidən qurulması, onların modernləşdirilməsi, yerli resurs və xammalla işləyən, ixrac qabiliyyətli məhsullar istehsal edən müasir sənaye komplekslərinin yaradılması, rəqabətədavamlı sənaye istehsalının genişləndirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Bu prosesdə dövlət sektoru ilə yanaşı, özəl sektor da fəal iştirak edir.

İnvestisiya qoyuluşlarının əsas maliyyələşmə mənbəyi müəssisələrin öz vəsaitləridir və iqtisadi artıma, xüsusilə də, qeyri-neft sektorunun artımına təkan verən ən ciddi vasitələrdən biri məhz dövlətin investisiyalarıdır. Milli iqtisadiyyatın inkişafına qoyulan hər cür investisiya qoyuluşu heç də müsbət rol oynamır. Milli iqtisadiyyatın nisbətən az perspektivli sektorlarına qoyulan investisiya qoyuluşları iqtisadiyyatın perspektiv sahələrinə yönəldilən investisiyalar ilə əlaqələndirilməlidir. Milli iqtisadiyyata investisiya qoyuluşu haqqında qərarlar qəbul edilərkən hər şeydən əvvəl hansı sahənin və ya hansı məhsulun iqtisadiyyatın inkişafında daha sərfəli olacağını düzgün müəyyənləşdirmək lazımdır. İnnovasiya məhsulunun yaradılmasını bu baxımdan daha məqsədəuyğun hesab etmək olar.

ƏDƏBİYYAT

1. Qasımov F.H., Nəcəfov Z.M. İnnovasiyaların yaranması, yayılması və inkişaf perspektivləri. Bakı, Elm, 2009.
2. Əzizova G.A. Dövlətin investisiya-innovasiya siyasəti. Bakı, İqtisad Universitetinin nəşriyyatı, 2012.
3. Musayev A.F. İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırması. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 2014.
4. Dövlət Statistika Komitəsinin məlumatları. www.stat.gov.az

Əli Həmid oğlu HƏMİDOV
Azərbaycan Kooperasiya Universitetinin baş müəllimi

ELMİ - TEXNİKİ TƏRƏQQİNİN İQTİSADİ STİMULU

Xülasə

İqtisadi stimul, mənafe stimullaşdırmanın obyektiv əsasını təşkil edir. İqtisadi mənafe iqtisadi tələbat kimi obyektiv xarakter daşıyır və ona görə də iqtisadi kateqoriyalar sırasına daxildir.

Açar sözlər: elmi - texniki tərəqqi, intensivləşdirmə, iqtisadi stimullaşdırma, təkmilləşdirmə, iqtisadi mənafe, layihələndirmə.

***

Azərbaycan Respublikasında elmi-texniki tərəqqinin iqtisadi stimulu ilə əlaqədar iqtisadiyyatın idarə olunmasını əsaslı surətdə yenidən qurmaq sahəsində mühüm təxirəsalınmaz problemləri nəzərdən keçirilmişdir. İqtisadiyyatın idarə olunmasını kökündən yenidən qurmağın əsas müddəalarını müəyyən etmiş, təsərrüfat mexanizmini əsaslı surətdə dəyişdirməyi, təkmilləşdirməyi zəruri hesab etmişdir. Azərbaycan Respublikasının iqtisadi və sosial inkişaf konsepsiyasının hazırlanması ideyası irəli sürülmüş, iqtisadi metodlar əsasında xalq təsərrüfatına mərkəzləşdirilmiş rəhbərliyin səmərəliliyini yüksəltməyin konkret yolları müəyyən edilmişdir. Elmi - texniki tərəqqi əsasında istehsalın hərtərəfli intensivləşdirilməsi və iqtisadi inkişafda müəyyən keyfiyyət dəyişikliklərinin həyata keçirilməsi avtomatik olaraq həyata keçirilmir. Bu, elmi - texniki tərəqqinin planlaşdırılması, idarə edilməsi və iqtisadi cəhətdən həvəsləndirilməsinin daha da təkmilləşdirilməsini tələb edir. Elmi - texniki tərəqqinin stimullaşdırılmasının iqtisadi mexanizminə

aşağıdakılar daxildir: a) yeni müasir texnika üçün qiymətlərin stimuledici rolunun artırılması, yüksək kateqoriyalı maşın və avadanlıqlar üçün güzəştli qiymətin və əlavələrin müəyyən edilməsi; b) texnikanın layihələndirilməsi, hazırlanması və tətbiqi ilə əlaqədar əlavə xərclərin ödənilməsi, konsepsiyası mexanizmi; c) elmi - texniki tərəqqinin yeni qaydada planlaşdırılması və idarə edilməsi ilə əlaqədar olaraq maliyyə - kredit sistemi mexanizminin daha da təkmilləşdirilməsi; d) maşın və avadanlıqları layihələndirən, sınaqdan çıxaran və istehsalını təşkil edən layihə - konstruktor büroları, layihə - texnoloji institutların, laboratoriyaların və habelə müəssisə kollektivlərinin və ayrı - ayrı texniki - yaradıcı işçilərin texnikanın yaradılması və tətbiqinə görə mükafatlandırılması; e) elmi - texniki tərəqqinin iqtisadi məsuliyyətin artırılması yolu ilə sürətləndirilməsinin stimullaşdırılması, burada istehsalçı və istehlakçı müəssisələr arasında qarşılıqlı münasibətlərin qaydaya salınmasında iqtisadi cərimələrdən geniş istifadə edilməsi [1, s. 71].

Yuxarıda göstərilən elmi - texniki tərəqqinin stimullaşdırılma sistemi müvafiq iqtisadi vasitələr və iqtisadi təsiretmə metodları ilə həyata keçirilir. Bu metodların və iqtisadi vasitələrin mərkəzləşdirilmiş qaydada müəyyən edilməsi, habelə onlardan istifadə olunmasında müəssisə və birliklərin mövcud hüquqlarının genişləndirilməsi elmi - texnika sahəsində vahid dövlət siyasətinin yeridilməsi üçün ümumi əhəmiyyətə malikdir. Ona görə də səmərəlii fəaliyyət göstərən stimullaşdırma sisteminin təkmilləşdirilməsi elmi - texniki tərəqqinin sürətləndirilməsinin ən mühüm amillərindən biridir [1, s. 71].

Göründüyü kimi, elmi - texniki tərəqqinin stimullaşdırılması çoxcəhətlidir. Bu, stimullaşdırma prinsipləri, forma və metodları sistemini, habelə stimullaşdırma obyekti və subyektini əhatə edir. Ona görə də elmi - texniki tərəqqinin stimullaşdırılması iqtisadi münasibətlər, iqtisadi qanunlar və mənafelər sistemi ilə bilavasitə bağlıdır. Elmi - texniki tərəqqinin stimullaşdırılmasını aşağıdakı əlamətlər üzrə qruplaşdırmaq olar: elmi - texniki tərəqqinin ayrı - ayrı istiqamətləri üzrə; stimullaşmanın forma və sistemləri üzrə; stimullaşmanın mənbə və formaları üzrə; elmi - texniki tərəqqinin ayrı - ayrı texniki - iqtisadi göstəriciləri üzrə [1, s. 71].

Elmi - texniki tərəqqinin iqtisadi cəhətdən stimullaşdırılması bütövlükdə istehsalın stimullaşmasının əsas tərkib hissəsidir. Bununla belə, göründüyü kimi, elmi - texniki tərəqqinin stimullaşmasının özünəməxsus xüsusiyyətləri vardır. İqtisadi stimullaşdırma elmi - texniki tərəqqi sahəsində baş verən ziddiyyətlərin həll edilməsi formasıdır. Ona görə də iqtisadi stimulları tətbiq etməzdən əvvəl elmi - texniki tərəqqi ilə əlaqədar olan spersifik xüsusiyyətlərin mahiyyətini, məzmununu və xarakterini, onun sürətlənməsinə əks-təsir edən səbəbləri dərindən dərk etmək, öyrənmək lazımdır. Bunsuz stimullaşdırma sistemi, onun ünsürləri və vasitələri nə öz funksiyasını icra edər və nə də lazımi sosial iqtisadi səmərə verə bilər. Elmi - texniki tərəqqi sahəsində ziddiyyətlər çoxcəhətli, mürəkkəb və obyektiv olmaqla əsasən aşağıdakı formalarda təzahür edir:

a) maşın və avadanlığı, onların hissələrini istehsal edən müəssisə ilə onu istehsal edən müəssisələr arasındakı ziddiyyətlər; b) müəssisələrin iqtisadi mənafeyi ilə xalq təsərrüfatının son nəticələrini əsas götürən cəmiyyətin mənafeyi arasındakı ziddiyyətlər; ç) ayrı - ayrı idarəetmə, təsərrüfat vasitələrinin, iqtisadi mənafeləri arasındakı ziddiyyətlər; d) yeni maşın və avadanlıqların iqtisadi və sosial səmərəliliyi, iqtisadi və sosial məzmunu arasındakı ziddiyyətlər; e) yeni texnikanın iş cizgilərinin hazırlanmasından tutmuş onun tətbiqinə qədər texnoloji mərhələlər və bu mərhələlər üzrə çalışan işçi kollektivlərinin mənafeləri arasındakı ziddiyyətlər; ə) yeni texnikanın optimal bir səviyyədə və müddətdə tətbiq edilməsi, onun istehsalın intensivləşdirilməsinə müsbət təsir etməsi zəruriyyəti ilə həmin texnikaya mühafizəkarcasına, qeyri - həssas, formal münasibət, psixoloji sədd arasındakı ziddiyyətlər [1, s. 72].

İqtisadi stimul, mənafe stimullaşdırmanın obyektiv əsasını təşkil edir. Qeyd etmək lazımdır ki, iqtisadi mənafe iqtisadi tələbat kimi obyektiv xarakter daşıyır və ona görə də o iqtisadi kateqoriyalar sırasına daxildir. Lakin maddı maraqlandırmanı və stimullaşdırmanı başqa proseslərdən təcrid olunmuş müstəqil bir iqtisadi kateqoriya hesab etmək düzgün deyildir, bu müxtəlif iqtisadi mənafelərdən irəli gəlir və onun həyata keçirilməsinə xidmət edir. Elmi - texniki tərəqqi məsələlərində müxtəlif mənafe növlərinin obyektiv olaraq optimal bir şəkildə əlaqələndirilməsi və təmin olunması zəruriyyəti meydana çıxır. Bu isə yeni texnikanın yaradılması nəticəsində əldə edilmiş əlavə mənfəətin istehsalçı, istehlakçı müəssisə, habelə bu texnikanı yaradan kollektivlər və

bütövlükdə cəmiyyət arasında düzgün bölüşdürülməsini, maşınların və avadanlığın topdansatış qiymətinin stimullaşdırıcı funksiyasının artırılmasını, elmi - texniki tərəqqinin sürətləndirilməsinin təşkilati - texniki əsaslarının daha da möhkəmləndirilməsini tələb edir [2, s. 120].

ƏDƏBİYYAT

1. Q.A.Quliyev. Elmi - texniki tərəqqinin iqtisadi problemləri. Azərbaycan dövlət nəşriyyatı. Bakı - 1988, səh. 70 - 73
2. Ə.Ə.Məmmədova. Sosial - iqtisadi proseslərin proqnozlaşdırılması. Bakı - "Elm" 2005. səh 120.

ст.пред. Али Гамид оглы Гамидов
кафедра "Стандартизации и технологии" АУК

Экономический стимул научно - технического прогресса

Резюме

Экономический стимул организует объективные основы прибыльного стимулирования. Экономическая прибыль, как экономический сирос носит объективный характер и потому относится к ряду экономических категорий.

Ключевые слова: научно - технический прогресс,интенсифицирование, экономическое стимулирование, совершенствование, экономическая прибыль, проектирование.

Ali Hamid Hamidov
head teacher of Azerbaijan Cooperation University

Economic stimulus of scientific and technical progress

Summary

The economic stimulus organizes the objective foundations of profitable incentives. Economic profit, as an economic Syros, is objective and therefore belongs to a number of economic categories.

Key words: scientific and technical progress, intensification, economic stimulation, improvement, economic profit, design.

Zakir Murtuz oğlu ƏLİYEV
t.e.n., dosent, AKU

MİLLİ DÖVLƏTÇİLİYİN QORUNUB MÖHKƏMLƏNDİRİLMƏSİ

Xülasə

Müstəqilliyimizin, milli dövlətçiliyimizin möhkəmlənməsi və inkişafı Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Açar sözlər: əsrin müqaviləsi, iqtisadi inkişaf, neft strategiyası, milli dövlətçilik.

***

XX əsrin 80 - ci illərinin sonu, 90 - cı illərinin əvvəllərində çox mürəkkəb, ziddiyyətli və gərgin vəziyyət mövcud idi. Respublika dərin ictimai - siyasi və sosial - iqtisadi böhran içərisində idi. Müəssisələrin istehsal gücünün yalnız 25-30 faizindən istifadə olunurdu. Respublika sənayesinin aparıcı sahəsi olan neft sənayesində vəziyyət daha ağır idi. Mədənlərdə 4000 - dən çox neft quyusunda hasilat dayanmışdı. Qazma dəzgahlarının 80 faizi işləmirdi. Kolxoz və sovxozların maşın - traktor parkı, meliorasiya qurğuları köhnəlmiş, çoxu sıradan çıxmış, suvarma kanalları bərbad hala düşmüşdü.

Bu illərdə (1991 - 1993) respublikanın mövcud iqtisadi və mədəni potensialından, zavod və fabriklərdən, kommunikasiya vasitələrindən, yüksək ixtisaslı mütəxəssislərdən də səmərəli istifadə olunmurdu. İqtsadiyyatda hərc - mərclik baş alıb gedirdi. Respublika talanır, onun sərvətləri dağıdılırdı. Müəssisələrin avadanlıqları sökülüb xaricə daşınırdı. Hətta, Bakı metrosunun ehtiyat

kabelləri də oğurlanıb satılmışdı. 1992 - ci ildə 100 min tondan çox xam pambıq yığılmamış, sahələrdə qalmışdı. Üzümçülük və digər sahələrdə də vəziyyət bundan pis idi. İstehsal olunan məhsul bazar olmadığından anbarlarda yığılıb qalmışdı.

Müəssisələr bağlanır, işsizlik artır, əhalinin güzəranı getdikcə pisləşirdi. Əhali regionlardan şəhərlərə, xüsusən Bakıya axırdı. İri şəhərlərdə ucuz işçi qüvvəsi satılan qeyri-rəsmi bazar meydana gəlmişdi. 100 minlərlə gənc respublikanı tərk etmişdi. Təminatsızlıq üzündən alim və mütəxəssislər dolanacaq dalınca xaricə getməyə məcbur olmuşlar.

Minimum əmək haqqı rəsmi istehlak minimum həcmindən 20 dəfə az idi. Manatın illik inflyasiya səviyyəsi dörd rəqəmlə (1000 faiz) ölçülürdü. Şəhərlərin küçələri xırda alverçilər və dilənçilərlə dolmuşdu.

Ümumi daxili məhsul hər il orta hesabla 18 - 20 faiz azalırdı. Bu, sənayedə 20 - 25 faiz, kənd təsərrüfatında 7 - 10 faiz təşkil edirdi. Dövlət büdcəsi böyük kəsrlə icra olunurdu. Xarici ticarətdə barter əməliyyatlarına geniş yer verilirdi. Ölkəni, cəmiyyətin ən böyük bəlası olan korrupsiya və rüşvətxorluq bürümüşdü. Kriminal qruplar arasında silahlı toqquşmalar başlamışdı. Axşam və gecə vaxtlarında Bakının küçələrində, park və xiyabanlarında vaxtaşırı silah səsləri eşidilirdi. Gecə vaxtlarında küçələrə çıxmaq qeyri-mümkün idi. Respulikaya rəhbərlikdə çaşqınlıq, qeyri-müəyyənlik vəziyyəti daha da çıxılmaz edirdi.

Azərbaycan xalqı, xüsusən əhalinin gələcəyə sağlam baxan hissəsi, respublikaya qətiyyətli, iradəli, müdrik və işgüzar rəhbər axtarışında idi. Onların nəzəri və diqqəti, hələ 1987 - ci ilin noyabrında uğursuz M.Qorbaçovun qısqanclığı, antiazərbaycan ətrafının təsiri üzündən SSRİ rəhbərliyi sıralarından kənarlaşdırılmış, xalqımızın qeyrətli, vətənpərvər, müdrik oğlu və ümummilli lideri Heydər Əliyevə yönəlmişdi.

Ulu öndərimiz hələ 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə Bakıda törədilmiş "qanlı yanvar" hadisələrindən sonra, yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, təşkil olunmuş yığıncaqda çıxış etdi. O, baş vermiş hadisəyə düzgün siyasi qiymət verdi. 1991-ci il fevralın əvvəlində Azərbaycan SSR Ali Sovetinin sessiyasındakı nitqində respublikanın düşdüyü vəziyyəti müdrikliklə təhlil edərək ondan çıxmağın yollarını göstərdi. 1990 -1993-cü illərdə sərt blokada şəraitində Naxçıvan əhalisinə hayan durdu, MR Ali Məclisinin sədri olaraq dövlət quruculuğu, sahəsində xeyli iş gördü. Cəsarətli və məqsədyönlü tədbirləri ilə xalqın ona olan ümidlərini daha da artırdı. Xalq ona Azərbaycanın yeganə xilaskarı kimi baxmağa başlamışdı.

1992 - ci il oktyabrın 16 - da Azərbaycanın 91 nəfər ziyalısı "Səs" qəzeti vasitəsilə Heydər Əliyevə "Azərbaycan sizin sözünüzü gözləyir" - deyə müraciət etmişdi H.Əliyev oktyabrın 24 - də sözü gedən müraciətə cavabında respulikadakı siyasi durumu təhlil edərək bildirdi ki, cəmiyyətin bütün qüvvələrini birləşdirməklə yaranmış ağır vəziyyətdən xilas olmaq mümkündür. Məhz bunu nəzərə alaraq, 1992 - ci il noyabrın - 21 də Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı oldu. 55 nəfərdən çox nümayəndəni təmsil edən konfrans YAP - ın təsis olunması barədə qərar qəbul etid. Partiyanın proqram və Nizamnaməsi qəbul edildi. Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi.

Yenidən respublika rəhbərliyinə gəlmiş Ulu öndərimiz Heydər Əliyev hələ iki il əvvəl xalqın bərpa etdiyi milli müstəqilliyi itirmək təhlükəsi qarşısında qalan Azərbaycanı siyasi böhrandan xilas etmək üçün ciddi fəaliyyət göstərməyə başladı. O, ilk növbədə, ölkənin rəhbər eşelonunu formalaşdırdı. Prezident H.Əliyev güclü, intizamlı milli ordu yaratmaq məqsədi ilə tədbirlər görməyə başladı. Prezidentin fərmani ilə 1993-cü il noyabrın 1-də Dövlət Müdafiə Şurası yaradıldı. Noyabrın 2-də Prezident H.Əliyev televiziya və radio vasitəsilə "hər kəs Vətənin əsgəri olmalıdı" çağırışı ilə xalqa müraciət etdi. Xalqı ölkənin azadlığı naminə birləşib düşmənə qarşı mübarizəyə qalxmağa çağırdı. Onun çağırışına cavab olaraq könüllülərdən ibarət taborlar yaradılıb, cəbhəyə göndərildi. Vaxtilə Əfqanıstanda xidmət etmiş döyüşçülər Prezidentə müraciət edib alay yaratmaq təşəbbüsünü irəli surdülər.

Belə şəraitdə, Rusiyanın səyi ilə 1994-cü il mayın 8-də Bişkekdə müharibədə iştirak edən tərəflərin, o cümlədən Dağıq Qarabağın azərbaycanlı və erməni icmalarının arasında atəşkəs protokolu imzalandı. 1994 - cü il mayın-12-də cəbhələrdə atəşkəsə nail olundu.

1993-cü il avqustun 7-də respublikanın cənub bölgəsində "Talış Muğan Respublikası" (TMR) yaradıldığı elan olundu. Lakin, avqustun 23-də Talış Muğan Respublikası ləğv olundu. Ə.Hümbətov qaçmağa məcbur oldu.

Respublikada hökm sürən gərgin vəziyyətdən istifadə edən erməni hərbi hissələri avqustun 18-də Cəbrayıl, avqustun 23-də Füzulini, avqustun 31-də Qubadlını və oktyabrın 29-da Zəngilanı işğal etdilər.

1994-cü ilin oktyabrın 4-də Gəncədə Surət Hüseynovun tərəfdarları olan 300 nəfərə yaxın silahlı şəhər İcra Hakimiyyətinin binasını və digər strateji əhəmiyyətli obyektləri ələ keçirdi. Həmin gecə Bakıda iki hərbi hissənin əsgərləri artilleriya qurğularını Prezident aparatı, Ali Sovet və Müdafiə Nazirliyi binalarına tərəf yönəltmişdilər.

1995-ci ilin yayında, habelə 1996-cı ilin dekabrında respublikada daha bir neçə siyasi terror və dövlət çevrilişi planları ifşa olundu.

Müstəqilliyimizin, milli dövlətçiliyimizin möhkəmlənməsi və inkişafı yolunda atılan ən mühüm addımlardan biri Azərbayacanın, memarı Ulu öndərimiz Heydər Əliyev olan yeni neft strategiyasının ortaya qoyulmasıdır.

"Əsrin müqaviləsi" müstəqil Azərbaycanın tarixində mühüm hadisə idi. Ümummilli liderimiz Heydər Əliyev bu tarixi hadisənin əhəmiyyətindən bəhs edərək demişdi: "Biz bu müqaviləni hazırlamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olunduğu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya nümayiş etdiririk. Biz müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradır, Azərbaycanın iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq".

1995-ci ilin aprelində "Əsrin müqaviləsi"ni gerçəkləşdirmək üçün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ), 1996-cı ilin aprelində Qarabağ strukturu üzrə müqaviləni həyata keçirmək üçün "Xəzər" Beynəlxalq Neft Şirkəti, habelə digər müqavilələr üzrə əməliyyat şirkətləri təşkil olundu. 1994-cü ildən başlayaraq hər il Bakıda yüzlərlə xarici firma və şirkətləri təmsil edən beynəlxalq neft-qaz sərgiləri keçirilməyə başladı.

"Əsrin müqaviləsi"nin həyata keçirilməsi sayəsində Azərbaycan neft sənayesi dirçəldi və sürətlə inkişaf etməyə başladı. Neft müqavilələri gəlir verməyə başladı. 1999-cu ilin dekabrında Prezident Heydər Əliyevin fərmanı ilə "Azərbaycan Dövlət Neft Fondu" təsis olundu.

Memarı Ümummilli liderimiz olan Heydər Əliyev olan yeni neft strategiyası, onun əsas çıxış nöqtəsi olan "Əsrin müqaviləsi" təkcə sırf iqtisadi əhəmiyyət daşımır. O, həm də böyük siyasi, geostrateji və beynəlxalq əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. 7-ci cild. Bakı-1996.
2. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Bakı-1997.
3. Əliyev H.Ə. Azərbaycan neft dünya siyasətində. Bakı-1997.
4. Hüseynova İ. Müstəqilliyimizin təminatçısı. Bakı-1997.
5. Məmmədov İ. Azərbaycan tarixi. Bakı-2005.

Закир Муртуз оглы Алиев
к.и.н., доц. АУК

Укрепление и сохранение национальной государственности

Резюме

Независимость, укрепление и развитие национальной независимости связан с имением общенационального лидера Гейдара Алиева

Ключевые слова: контракт века, экономическое развитие, нефтяная стратегия, национальная стратегия.

Zakir Murtuz Aliyev
c.h.s., ass prof. ACU

The protection and strengthening of the national government

Summary

The strengthening and developing of the independent government is associated with the name of our Great seeder Haydar Aliyev.

Key words: contract of the century, economic development, oil strategy, national government.

Vüsalə Zakir qızı ƏLİYEVA
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCANLILARIN SOVET HAKİMİYYƏTİ İLLƏRİNDƏKİ XALQ MƏRASİMLƏRİNƏ DAİR

Xülasə

Sosial mühitdə mərasimlər bütövlükdə xalqımızın mənəvi həyatının zənginləşməsində, yeni nəslin tərbiyəsində, möhkəm iradəli olmasında, xalqa, vətənə məhəbbət hissinin yaranmasında mühüm əhəmiyyət kəsb edir.

Açar sözlər: mərasimlər, dini dəyərlər, sosialist məişəti, ümumxalq dəyərləri.

***

Xalqın milli mənlik şüurunun yeni mərhələyə daxil olduğu bir dövrdə tarixi keçmişə, milli və mənəvi dəyərlərə qayıdış meyilləri güclənməkdədir. SSRİ-nin dağılması ilə keçmiş sovet respublikalarında kommunizm ideologiyasına son qoyulduqdan sonra sovet dövrü tarixinə, eləcə də, dövlət, ictimai-siyasi, o cümlədən keçirilən mülki və qondarma bayramlara obyektiv münasibət üçün şərait yarandı. Bolşevik işğalı dövründə xalqın milli-mənəvi, dini dəyərlərinə vurulmuş zərbələri, həqiqətə qarşı yönəldilmiş saxtakarlıqları aşkara çıxarmaq, tarixi gerçəklikləri bərpa etmək tədqiqatçıların mənəvi borcudur. Eyni zamanda sovet dövrünün obyektiv surətdə araşdırılması da, tarixi etnoqrafiyamızın problemlərindən biri kimi qiymətləndirilməlidir. Bu baxımdan Sovetlər dövründə keçirilən mülki və ideologiyaya uyğun qondarma bayramların tədqiqata cəlbi də mühüm əhəmiyyət kəsb edir.

Sovet hakimiyyətinin ilk illərindən başlayaraq xalqın mənəvi həyatında bir sıra köklü dəyişikliklər baş verdi. Mədəni-məişət prosesləri sovet quruluşu üçün xas olan qondarma "yeniləşdirmə", "beynəlmiləlləşdirmə" istiqamətində gedirdi. Ölkədə dini bayramlar əleyhinə aparılan mübarizə formalarından biri də "yeni sovet məişəti uğrunda mübarizə" idi.

Sosialist həyat məişətinin tərkib hissəsi olan yeni sovet tərzi mənəvi dəyərlərin aşılanması nəticəsində uzun inkişaf yolu keçdi. Sənayeləşdirmə və kollektivləşdirmə illərində mədəni dəyərlərin "ictimailəşdirilməsi" istiqamətində bir sıra işlər görüldü. Həmin illərdə məişətin xüsusiyyətləri sosializm quruculuğunun praktik vəzifələrindən irəli gəlirdi. Bu proseslər, eləcə də süni surətdə "milli mədəniyyətlərin yaxınlaşdırılması", "xalqlar dostluğu" şüarları sənayeləşdirmə və kənd təsərrüfatının kollektivləşdirilməsi illərində daha intensiv həyata keçirilirdi. Vaxtilə, (Sov.İKP) MK-nın SSRİ-nin yaranmasının 60 illiyi qərarında deyilirdi ki, "...Ölkəmizin xalqlarının birliyi sənayeləşdirmə və kənd təsərrüfatının kollektivləşdirilməsi, mədəni inqilab və sosializm uğrunda mübarizə gedişində möhkəmləndi, bərkidi və inkişaf etdi. Məhz bunun nəticəsidir ki, sosializm məişəti xalqın özünə inanan həyat tərzidir" [3, s. 1].

Muğanda sovetlərin ilk illərində baş vermiş dəyişikliklər köhnə və yeni məişətin qarşı-qarşıya durması şəraitində baş verirdi. Burada ancaq köçürülən ruslar sosialist məişətini müdafiə edirdilər. Bu baxımdan partiya, ənənələrin zaman-zaman kök saldığı məişətdə, məsələni qısa müddətdə həll etməyin mümkün olmadığını başa düşürdü. Eyni zamanda, ənənəvi məişəti bütövlükdə əsassız inkar etmək də asan proses deyildi. Bir tərəfdən köhnə adət-ənənələr tənqid edilir, digər

tərəfdən də din əleyhinə mübarizədə xalqın mədəni-məişət xüsusiyyətlərini nəzərə almağın vacibliyi qeyd edilirdi. Artıq bolşeviklər başa düşməyə başladılar ki, əhalinin adət-ənənələri ilə hesablaşmadan, yeni məişəti qurmaq çətin prosesdir.

"Fasiləsiz iş həftəsi", istehsalatda "çoxnövbəli iş rejiminin" tətbiq edilməsi, xüsusilə də, qadınların istehsalata cəlb edilməsi ailə məişətində köklü dəyişikliklərə səbəb olurdu. Kollektivləşmə dövründə hər şey, o cümlədən ailə məişəti, istehsalatın və əməyin şərtlərinə tabe edildi. Məişətin ictimailəşdirilməsi yolunda atılan addımlardan biri də qadını ev qayğılarından azad etmək idi. O dövrün şüarlarından biri də "Azad şərq qadını" ifadəsi idi. Kommunal evlərdə ümumi məsələlər-yeməkxanalar, camaşırxanalar, uşaq evləri, pioner düşərgələri və s. təşkil etmək nəzərdə tutulurdu. 1930-cu illərdə mətbuatda 500-1000 nəfərlik kommunal evlərdə yaşamaq üçün çağırışlar yerli əhali tərəfindən qəbul edilmədi. Əhalinin milli və dini-məişət xüsusiyyətlərindən irəli gələrək bu kampaniya o qədər də böyük müvəffəqiyyət qazanmadı [2, s. 50].

"Yeni məişət"lə bərabər qadağan olunmuş dini bayram və mərasimləri əvəz etmək üçün süni surətdə sovet mərasim və adətləri də formalaşdırıldı. Din əleyhinə aparılan mövsümi kampaniyalarla yanaşı, "yeni sosialist məişəti uğrunda" - "oktyabrçılar", "qırmızı toylar", "din xadimlərinin öz dini vəzifələrindən ictimaiyyət qarşısında imtina etmələri", "ilahiyyat müəllimlərini ifşa etmək məqsədilə, allahsız müəllimlərin müsabiqəsi" və s. bu kimi kampaniyalar keçirilirdi. 70 yaşlı Salyan sakini Əzizov Mircəfər həmin illəri qanlı-qadalı günlər sayaraq bildirir ki, babam o illərdə rayonda din xadimi kimi tanınırdı. O, məscidin anbara çevrilməsinə etiraz etdiyinə görə "qulaq" adlandırılaraq sürgünə göndərilmişdir. Qurbanlıq kəsmək, Oruc tutmaq gizli şəkildə həyata keçirilirdi. Müqəddəs bayramlarımızı ancaq öz evlərimizdə, qohumdan-qardaşdan gizli şəkildə edirdik.

Şəhərlərdə "oktyabrçılar"a həsr edilmiş mərasimlər geniş yayılmışdı. Bu tədbirə əsasən "oktyabrçılar" tədbiri "İnternasional" himni ilə açır, daha sonra partiya və ya sovet rəhbərlərindən birinin yeni məişət haqqında məruzəsi ilə davam edirdi. Bu mərasimdən sonra uşaq hər hansı bir onu hamiliyə götürmüş təşkilata təhvil verilirdi. Uşağa dəftər, qələm, adyal, habelə üzərində "oraq və çəkic", "idmançı", "qırmızı ulduz" və ya S.Kamonun şəkli olan gümüş nişanlar və s. hədiyyə edilirdi. Tədbirdə "Yaşasın komintern!", "Yaşasın sovet hökuməti, yeni məişət və onun yaradıcıları!" şüarları səslənirdi. Valideynlərin çıxışı daha təsirli olurdu. Məsələn, 1924-cü ildə Qadınlar Şurasına uşağını təhvil verən ana bu sözləri demişdi: "Biz qadınlar yeni məişət quruculuğu məsələsinə xüsusi diqqət yetirməliyik. Çünki, bu "oktyabrçılar" yalanın, zülmün və nadanlığın hökm sürdüyü kilsələrdən uşaqlarımızı uzaqlaşdıracaq". Buna uyğun digər bir tədbir təzə doğulmuş uşaqların "qırmızı xaç suyuna salınması" mərasimi idi. Bu mərasim doğum evlərinin nəzdində keçirilirdi. Mərasimdə uşaqlara inqilabçıların adları verilir, komsomol və həmkarlar ittifaqlarının özəkləri onları hamiliyə götürürdü. Mərasim bitdikdən sonra isə səhərədək davam edən "rəqs gecələri" keçirilirdi.

Belə tədbirlərin keçirilməsində məqsəd dini qayda-qanuna əsaslanan məişətdən "sovet məişətinə" keçmək idi. Mətbuatda "yeni məişət köhnəliyi süpürüb atır, körpə uşaqlara qaranlığın nişanəsi olan qələm, dəftər veririk" kimi yazılar çap olunurdu. İslamda xaç suyuna salma mərasimi olmadığından, bu tədbirə əsasən Muğanda yaşayan xristian konfessiyalarının nümayəndələri məruz qalırdılar. Yeni sovet bayramları hökumətin sosial proqramını əks etdirirdi. Bu proqrama yeni "dinsiz quruluş" qurmaq planı daxil idi. Məsələn, həmin dövrdə keçirilən digər mərasim - "komsomol karvanları", "azad edilmiş insan şüurunun bayramı" olmalı idi. "Komsomol karvanları" yalnız dini bayramlara qarşı təbliğat məqsədi daşıdığından və bu tədbirlərdə dindarlar açıq-aşkar təhqir edildiyindən ənənəyə çevrilə bilmədi [2, s. 51].

Bu mənada xalq mərasimləri, onların yaratdığı adət-ənənələr insanların həyat fəaliyyətinin tənzimlənməsində mühüm rol oynayaraq, əsrlər boyu etnik-milli tərbiyənin əsasını təşkil edir [1, s. 141].

Beləliklə, sosialist məişəti yetmiş illik bir dövrdə yerli əhalinin milli-mənəvi xüsusiyyətlərinə öz mənfi təsirini göstərə bilməmiş və ümumxalq dəyərlərini qoruyub saxlamışdır.

ƏDƏBİYYAT

1. İsmayılzadə P.Ə. Muğanın təsərrüfat həyatı (XIX-XX əsrin əvvəlləri: tarixi-etnoqrafik tədqiqat). Bakı: "Xəzər Universiteti" nəşriyyatı, 2009, 240 s.
2. Nuruzadə Ş. XX əsrin 20-30-cu illərində Azərbaycanda etnokonfessional şərait. Bakı: "Xəzər Universiteti" nəşriyyatı, 2010, 218 s.
3. Постановление ЦК КПСС «О 60-й годовщине образования Социалистических Республик». Газет «Коммунист», 1980, 20 февраля, № 33.

Вюсаля Закир кызы Алиева
Азербайджанский Университет Кооперации

Народные обряды азербайджанцев в годы Советской власти

Резюме

В социальной жизни обряды в основном важное значение в обогащении духовной жизни нашего народа, в воспитании и развитии у молодого поколение силу воли и в побуждении любви к народу и Родине.

Ключевые слова: обряды, религиозные ценности. Социальное благосостояние, общенациональные ценности.

PhD Vusala Zakir Aliyeva
Azerbaijan Cooperation University

Due to Azerbaijanians in public ceremonies dining the Soviet power

Summary

Ceremonies in development of our spiritual life in social environment, the education of new generation, being strong willed people in the creation of love motherland are of great importance.

Key words: ceremonies, religious values, social welfare, public values.

Elmidar Bəbir oğlu ƏLƏKBƏROV
professor,
Rövşən Elmidar oğlu ƏLƏKBƏROV
doktorant
Azərbaycan Kooperasiya Universiteti

BAZAR TİPLİ SÜDÇÜLÜK KOOPERATİVLƏRİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Xülasə

Məqalədə təsərrüfat işlərini aparan subyektlərin qarşılıqlı hərəkət forması kimi, kooperasiyanın üstünlükləri verilir. Kooperativ hərəkatın beynəlxalq təcrübəsinə söykənərək süd satışının, təsərrüfat funksiyalarının mürəkkəblik dərəcəsi nəzərə alınmaqla mümkün olan kooperativ modelləri təklif edilir. Marketinq istiqamətli südçülük kooperativinin idarə edilməsinin təkmilləşdirilməsi və səmərəliliyinin qaldırılması üçün onun təşkilati strukturunun yeni modeli göstərilir.

Açar sözlər: südçülük kooperativi, süd satışı, kənd təsərrüfatı xidmət kooperasiyası.

Giriş

Tədqiqatlar göstərir ki, alimlərin əhəmiyyətli işlərinə baxmayaraq südçülük istiqamətində marketinqli kooperativlərinin mərhələlərlə inkişafını açan tədqiqatlar azlıq təşkil edir. Süd satışının marketinq həlqəsi kimi kooperativlərin funksiyaları daxilində onların mövqeyini möhkəmlədən məsələlər praktiki olaraq tədqiq edilməmiş qalmaqdadır. Bunu nəzərə alaraq işdə tədqiqatın

elmi yeniliyini müəyyən etməyə cəhd göstərilmişdir. Burada məqsəd satış südçülük kooperativinin marketinqli fəaliyyətinin inkişaf prosesində onun üstünlük təşkil edən funksional xüsusiyyətlərini təyin etməkdən ibarətdir.

Tədqiqatların və nəşrlərin təhlili. Aparılan tədqiqatlar və ədəbiyyat mənbələri göstərir ki, hazırda kənd təsərrüfatı məhsullarının bazarda bölüşdürülməsinin səmərəli sisteminin yaradılması aktual olaraq qalmaqdadır. Xarici mühitin dinamik dəyişməsi kənd təsərrüfatı mal istehsalçılarından yeni şəraitə uyğun bazarda qarşılıqlı münasibətlərin səmərəli formalarını axtarmağa vadar edir. Beynəlxalq təcrübə göstərir ki, süd və süd məhsullarının satış probleminin həlli marketinqli südçülük kooperativlərinin təşkili yolu ilə mümkündür.

Bütövlükdə kənd təsərrüfatı xidməti, fərdilikdə ayrı-ayrı südçülük satış kooperativlərinin inkişaf problemləri müasir Azərbaycan alimlərinin işlərində əksini tapmışdır. Məsələn, Ə.Q.Əlirzayevin, E.A.Quliyevin, B.X.Ataşovun nəşrlərində kənd təsərrüfatı kooperasiya nəzəriyyəsinin və praktikasının ümumi problemləri işıqlandırılır.

R.E.Ələkbərov, R.N.Tahirov kimi iqtisadçılar ümumi baxımdan südçülük istiqamətli satış kooperativinin mahiyyətini açmağa müvəffəq olmuşlar.

Dünya təcrübəsi göstərir ki, satış kooperasiyası, təsərrüfat subyektlərinin birgə fəaliyyət növləri kimi aşağıdakı üstünlüklərə malikdir. Kooperativin üzvünə, ona məxsus təsərrüfatın gəlir səviyyəsini qaldırmağa, südün saxlanması və nəqli hesabına fərdi xərcləri aşağı salmağa, üzvlərini ortaq satış strukturlarının inhisarçılığından qorumağa. Bu gün «Friesland Campina» Avropanın ən iri südçülük kooperatividir. Hollandiyanın, Belçikanın və Almaniyanın 14000 fermeri onun üzvüdür. Dövriyyəsi 12 mlrd evro təşkil edir.

Onun südün tədarükü, saxlanması və emalı üçün möhkəm maddi-texniki bazası vardır, o, məhsul istehsalının və satışının tam tsiklinə malikdir, nəqliyyat və anbar təsərrüfatı yüksək səviyyədə təşkil edilmişdir. Belələrindən biri də fransız kooperativi «Sodial» və Danimarka kooperativi «Arla» sayılırlar.

Hazırda Azərbaycanda kənd təsərrüfatı kooperativləri vasitəsilə məhsulun yığılması, sortlaşdırılması, keyfiyyətinə nəzarət və soyudulması funksiyaları daxil olmaqla süd və süd məhsullarının satışının səmərəli kooperasiya modeli mövcud deyildir.

Xarici təcrübədən istifadə etməklə südün bazar tipli bəzi satış kooperativ modellərini vermək olar. Təsərrüfat funksiyalarının mürəkkəbliyinə görə onlar aşağıdakılardan ibarətdir. Birinci halda südçülük kooperativi südün toplanmasını, onun sortlaşdırılmasını, keyfiyyətinə nəzarəti və soyudulmasını həyata keçirir. Bu variantda südün daşınması zavodun nəqliyyatı ilə həyata keçirilir.

Bu model öz sadəliyi ilə kiçik mal istehsalçılarını tez ələ alsa da, öz maddi-texniki bazası olmadığından süd satışı prosesində bir sıra problemlər, çətinliklərlə rastlaşır. Məsələn, satılmış südün dəyərinin ödənilməsindəki gecikdirmələr, süd daşıyan avtoçənlərin hərəkətinin sabitsizliyi və s.

Xidmət kooperativinin vasitəsilə süd satışının növbəti modelinin fərqləndirici cəhəti, kooperativin funksiyalarının genişləndirilməsindədir. Bu modeldə südün pasterizasiyası və onun zavoda çatdırılması kooperativin özünə məxsusdur.

Bu modelin üstünlüklərinə aiddir - yaşayış məntəqələrində nəqliyyatın hərəkətinin nizamlanması hesabına məhsulun satış prosesinin yaxşılaşdırılması, südün yığımı üçün dəqiq qrafikin qoyulması.

Lakin kooperativ tərəfindən süd satışı üzrə təkcə bir zavodla kontraktın bağlanması, zavod tərəfindən alış qiymətinin əsassız aşağı salınması, yaxud südün qəbulundan imtina edilməsi hesabına süd kooperativinin öz rəqabətliliyinin itməsinə səbəb ola bilər.

Belə olduqda kooperativ məhsulunu satmaq üçün alternativ ixrac bazarı olmadığından o, öz təsərrüfat fəaliyyətini dayandırmaq məcburiyyətində qalacaqdır.

Məhsulun ixrac modelinin sonrakı variantında südçülük kooperativi göstərilən funksiyalardan başqa, artıq südün ilkin emalını aparmağa başlayır.

Modelin başlıca üstünlüyü ondadır ki, kooperativ südün ixracı ilə əlaqədar bir neçə süd zavodu ilə müqavilə bağlıyır. Bu ona ixrac bazarını genişləndirməyə, ixrac həcmini artırmağa, inhisar

təzyiqlərin risklərini azaltmağa və təsərrüfat fəaliyyətinin səmərəliliyini qaldırmağa imkan verir. Onları diversifikatlaşdırmağa imkan verən çatışmamazlıqlar ondan ibarətdir ki, burada süd zavodlarının öz aralarında südün alış qiymətinin aşağı salınması üçün sadələşmənin apara biləcəyini istisna etmir.

Kənd təsərrüfatı xidmət kooperativi vasitəsilə, süd məhsulunun ixracı sahəsində tətbiq edilən modellərin hər üç variantının üstünlükləri və çatışmamazlıqları deməyə imkan verir ki, şəxsi maddi-texniki bazası olan, südün ilkin emalını aparan, zavod tərəfindən istehsal olunan süd məhsullarını sata bilən, bir neçə istehlakçısı olan kooperativ daha optimal model sayılır.

Müştəri bazarının genişləndirilməsi südçülük kooperativinə uşaq bağçalarının, məktəblərin və digər sosial obyektlərin tələbatını tam ödəməyə, əhaliyə parakəndə ticarət xidməti göstərməyə imkan verir.

Beləliklə, kooperativ süd məhsulların ixrac səmərəliliyini qaldırmaq üçün aşağıdakı şərtlərə əməl etməlidir:

1) özünün şəxsi maddi-texniki bazasını yaratmalı. Əks təqdirdə kənar təşkilatlardan müqavilə əsasında binalar icarəyə götürülməlidir;

2) Şəxsi nəqliyyat vasitələri əldə edib, südün toplanması üçün səmərəli sxemlər və marşurutlar hazırlamalı;

3) kooperativin genişləndirilmiş müştəri bazarı olmalıdır. Bu hər hansı bir müştəri tərəfindən müqavilə şərtləri pozulduqda, digər müştəri ilə məhsulun ixracını aparmağa imkan verməklə istehsal etdiyi məhsuldan daha çox gəlir götürməyə şərait yaradır.

Bizim fikrimizcə, südçülük kooperativinin davamlı ixrac fəaliyyətinin mühüm amilləri aşağıdakılardır:

• Avropa standartlarına uyğun gələn məhsulun yüksək keyfiyyəti;

• düşünülmüş reklam və piar-aksiya siyasətinin həyata keçirilməsi;

• məsləhət xidmətləri ilə sıx əməkdaşlığın yaradılması, peşəkarlıqla verilmiş məsləhət məhsulun keyfiyyətinin yaxşılaşdırılması və onun ixrac həcminin artırılmasında çox xeyirli olacaqdır.

• yağlılığa görə südün geniş çeşidinin olması (ixraca südün başqa çeşidləri-qaymaq, qatıq, ryajenka, yoqurt, xama, kəsmik və digəriləri daxil edilməlidir);

• təşkilati strukturda marketinqin peşakar xidmətinin olması;

• yerli bazarın mənimsənilməsi üçün müntəzəm işin aparılması (məsələn, kənd, qəsəbə və rayonun inzibati orqanlarının razılığı ilə sosial obyektlərin südlə təminatı);

• çevik qiymət siyasətinin aparılması. Burada istehlakçının kateqoriyasından asılı olaraq diferensiallaşdırılmış güzəşt sistemi və ödəniş qaydaları qoymaq olar.

Südçülük kooperativinin səmərəliliyinin qaldırılması əhəmiyyətli dərəcədə idarəetmə sisteminin düzgün təşkilindən asılıdır.

Bu, qoyulmuş məqsədlərə uyğun olaraq kooperativin strukturunun, onun elementlərinin fəaliyyətinin düzgün qurulması ilə bağlıdır [3]. Fəaliyyətin başlanğıcında kooperativdə üzvlərin sayı işin həcminə müvafiq olmalıdır. İş prosesində toplanmış təcrübə əsasında dəyişən xarici amillərin təsiri nəzərə alınmaqla onların sayının artırılıb-azalma məsələsinə baxmaq olar. Lazım gəldikdə yeni struktur bölmələr yaratmaq olar.

Satış südçülük kooperativinin işinin səmərəli təşkilində mühüm rol marketinqə və logistikaya məxsusdur. Çünki lazımi marketinq tədqiqatları aparmadan yeni ixrac bazarlarının tapılmasında mürəkkəbliklər yarana bilər. İxrac həcminin, satış bazarının, kooperativdə işçilərin miqdarından asılı olaraq marketoloqların sayı müxtəlif ola bilər.

Beləliklə, Azərbaycanda südçülük istiqamətində marketinqli kooperativlərin inkişafı və səmərəliliyinin qaldırılması üçün onların xidmət sahələri tədricən genişləndirilmədir. Bu halda onların hər birinin strateji məqsədi daha da məqsədyönlü modelin formalaşdırılması olmalıdır. Eyni zamanda südçülük kooperativi şəxsi maddi-texniki bazaya, xammalın emalını, məhsulun ixracını aparmağa, geniş müştəri şəbəkəsinə malik olmalıdır. Həmçinin, belə kooperativin təşkilati strukturu, onun maliyyə imkanlarından asılı olaraq tədricən qurulmalıdır. Bu təcrübədən gələcəkdə kənd təsərrüfatı kooperasiyasının inkişaf perspektivlərinin əsaslandırılması üçün elmi işləmələrdə və süd satışı üzrə marketinqli kooperativlərin praktiki işində istifadə etmək olar.

Nəticə

Südçülük istiqamətində fəaliyyət göstərən marketinqli kooperativlərin inkişafı və səmərəliliyinin qaldırılması üçün onların xidmət sahələrinin tədricən genişləndirilməsini təklif edirik. Bu halda hər bir südçülük kooperativinin əsas məqsədi maddi - texniki bazaya, südün emalını və satışını aparmağa malik, geniş müştəri şəbəkəsi olan südçülük kooperativ modelinin yaradılmasından ibarət olmalıdır. Göstərmək lazımdır ki, belə kooperativin təşkilati strukturu, onun maliyyə imkanları nəzərə alınmaqla tədricən inkişaf etdirilməlidir. Tədqiqatın nəticələri kənd təsərrüfatı xidmət kooperativinin inkişafının əsaslandırılmasında və marketinqli süd satışı kooperativlərinin praktiki fəaliyyətində istifadə edilə bilər.

ƏDƏBİYYAT

1. «2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı». Bakı, 2008.
2. «Kənd təsərrüfatı kooperasiyası haqqında» Azərbaycan Respublikasının Qanunu. Azərbaycan qəzeti, 29 iyul 2016).
3. Azərbaycanda kənd təsərrüfatı kooperasiyasının 2017-2022-ci illərdə inkişaf etdirilməsinə dair Dövlət Proqramı. Bakı, 2017.
4. İbrahimov İ. Kənd təsərrüfatı istehsalı kooperativlərinin yaradılmasının mövcud vəziyyəti və stimullaşdırılması istiqamətləri. «Kooperasiya» elmi-nəzəri jurnal. № 01(23) 2011, s. 20-25.

профессор Эльмидар Бабир оглы Алекберов,
докторант Ровшан Эльмидар оглы Алекберов
Азербайджанский Университет Кооперации

Пути развития молочных кооперативов рыночного типа

Резюме

В статье дается преимущества кооперации, как взаимодействующая форма субъектов хозяйственной деятельности. Учитивая сложность хозяйственных функций предлагается возможные кооперативные модели по реализации молока. В целях совершенствования управления и повышения эффективности молочного кооператива рыночного типа показывается его новая организационная структура.

Ключевые слова: молочный кооператив рыночного типа, реализация молока, сельско хозяйственная обслуживающая кооперация.

professor Elmidar Babir Alakparov,
doctoral student Rovshan Elmidar Alakparov
Azerbaijan Cooperation University

Ways of development of market - type cooperatives

Summary

The article gives the advantages of cooperation as an interacting form of businessentities. Taking into account the complexity of economic functions, wesuggest possible cooperative models for selling milk. In order to improve the management and increase the efficiency of the market type dairy cooperative, its new organizational structure is shown.

Key words: dairy cooperative of market type, milk sales, agricultural servicing cooperation.

i.e.n., dos. Yasəmən Əli qızı ƏLİYEVA,
magistr Nail Kazım oğlu HÜSEYNOV
Azərbaycan Kooperasiya Universiteti

MENECMENTDƏ İNNOVASİYA YÖNÜMLÜ İNKİŞAFIN ƏSAS İSTİQAMƏTLƏRİ

Xülasə

Məqalədə məqsəd innovasiya yönümlü inkişafın idarə edilməsinin təşkilati-iqtisadi mexanizmini müəyyən etmək və onun əsas istiqamətlərini təhlil etməkdən ibarətdir. Məqalədə həmçinin, innovasiya yönümlü müxtəlif inkişaf strategiyaları açıqlanmış və idarəetmə prosesinin təşkilati-metodiki mexanizminin qiymətləndirilməsi həyata keçirilmişdir.

Açar sözlər: innovasiya, innovasiya prosesi, idarəetmə sistemi, prioritet istiqamətlər, rəqabətqabiliyyətli, kommersiya, istehsal.

***

İnnovasiya menecmentinin öyrənilməsinə hər şeydən əvvəl onun bir sıra ümumi cəhətlərini nəzərdən keçirməkdən başlamaq lazımdır. Dünya iqtisadi ədəbiyyatlarında "innovasiya" potensial elmi-texniki tərəqqinin yeni məhsul və texnologiyalarda öz əksini tapması kimi şərh olunur.

Müxtəlif alimlər "innovasiya" anlayışını öz tədqiqat obyekti və predmetlərindən asılı olaraq təhlil edirlər. Məsələn, Y.P.Morozov geniş mənada innovasiya dedikdə, yeni məhsullar, istehsal, maliyyə, kommersiya və s. xarakterli sosial - iqtisadi və təşkilati - texniki qərarlar şəklində yeniliklərdən mənfəətli, yeni səmərəli istifadəni nəzərdə tutur. A.İ.Priqojin hesab edir ki, innovasiyalar yeni texnika və texnologiyaların yaranması, onların inkişafı, mənimsənilməsi və digər obyektlərə inteqrasiyası ilə şərtlənir.

"Elmi - Texniki Tərəqqi" (ETT) lüğətində innovasiya yeni məmulat növlərinin, texnologiyaların, yeni təşkilati formaların tətbiqinin və s. işlənib hazırlanmasına, yaradılmasına yönəldilmiş yaradıcılıq fəaliyyəti kimi də nəzərdən keçirilir.

Əslində innovasiya - texnikanın və ya ideyanın iqtisadi məzmun aldığı prosesdir. İnnovasiyanın dərk edilməsinə müxtəlif yanaşmaların təhlili belə bir qənaətə gəlməyə imkan verir ki, innovasiyanın məzmunu dəyişikliklərdən ibarətdir və innovasiya menecmentinin əsas funksiyası isə dəyişiklikləri optimal idarə etməkdir.

Müvafiq olaraq innovasiya menecmenti dedikdə "əmək məhsullarında, istehsal vasitələrində, xidmət sahələrində və digər fəaliyyətlərdəki əsaslı dəyişikliklər"in elmi idarəedilməsi bacarığı başa düşülür.

İnnovasiya fəaliyyəti iqtisadi inkişaf və rəqabətliliyi təmin etmək üçün yenu ideyaların, elmi biliklərin, texnologiya və məhsulların müxtəlif istehsal və idarəetmə sahələrinə tətbiq edilməsidir.

İnnovasiya fəaliyyətinin məqsədləri, həyata keçirilməsi üsulları, forma və müddətləri hər şeydən əvvəl ayrı-ayrı təsərrüfat subyektlərinin və bütövlükdə cəmiyyətin resurs imkanları ilə müəyyən olunmuşdur. İnnovasiya fəaliyyətinin gedişində təsərrüfat subyektləri tərəfindən seçilən məqsədlərin məcmusu və onların reallaşdırılması üsulları innovasiya siyasətinin məzmununu müəyyən edir. İnnovasiya fəaliyyətinin spesifik xüsusiyyətlərindən və ümumi iqtisadi vəziyyətdən asılı olaraq təsərrüfat subyektləri gözlənilən nəticəni təmin etmək üçün müvafiq istiqamətləri müəyyən etməlidirlər.

İnnovasiya təşkilatın təmin olunması və bu sahədə effektivliyin əldə edilməsi mövcud sahədə müvafiq stimullaşdırma tədbirlərinin təşkilindən, eləcə də idarəetmənin bütün səviyyələrində fəaliyyətin qarşılıqlı əlaqələndirilməsindən asılıdır. Fəaliyyətin effektivliyi mövcud sahədə əlverişli şəraitin yaradılması ilə müşayiət olunur.

İnnovasiya fəaliyyətinin effektivliyi bazara çıxarılan yeni məhsulların satışından əldə edilən gəlirlə onun istehsalına sərf olunmuş xərclərin fərqi kimi müəyyən edilir.

İnnovasiya fəaliyyətinin inkişafı üçün əlverişli şəraitin yaradılması dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindəndir. Dövlətin innovasiya siyasətinin əsas istiqamətlərinə ölkənin sosial - iqtisadi inkişafının təmin edilməsi ilə yanaşı, dünya iqtisadiyyatında milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi də daxildir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrü-

bəsi sübut edir ki, qlobal rəqabət şəraitində iqtisadiyyatın dayanıqlı artımı istehsala yeni texnologiya və işləmələrin yüksək tətbiqi səviyyəsi ilə şərtlənir. Bütün innovasiya cəhətdən aktiv olan ölkələrə xas olan ümumi cəhətləri aşağıdakı kimi ayırmaq olar:

- həm müəyyən innovasiya layihələrinin maliyyələşdirilməsində, həm də bütövlükdə innovasiya fəaliyyətinin inkişafında dövlətin güclü rolu;
- innovasiya fəaliyyətinin inkişafına kömək edən dayanıqlı hüquqi baza.

Azərbaycan iqtisadiyyatının qarşıya qoyduğu tələblərə daha düzgün cavab verən metodlar aşağıdakılar sayılır:

- vergi stimullaşdırılması - elmi-tədqiqat və təcrübi konstruktor işlərinə xərclər ölçüsündə mənfəət vergisindən güzəştlər;
- aşağı dərəcələrlə mənfəətin tutulması;
- amortizasiya siyasəti vasitəsilə stimullaşdırma.

Nəticə

Bazar iqtisadiyyatında rəqabət mübarizəsinin üsullarından birinə çevrilən innovasiyanın başlıca nəticəsi əmək məhsuldarlığını artırmaq və mənfəəti yüksəltməkdən ibarətdir. Yəni innovasiya, sadəcə, iqtisadi artım sürətinin artırılması baxımından deyil, həm də iqtisadi inkişafın istiqamətinin dəyişdirilməsi və həyat standartları səviyyəsinin yaxşılaşdırılması baxımından böyük əhəmiyyət kəsb edir.

Bazar münasibətləri şəraitində elmi - texniki potensialdan səmərəli istifadə etməklə, iqtisadiyyatda innovasiyalara əsaslanan inkişaf istiqamətlərinin müəyyən edilməsi aktual problemlərdən biridir. İnnovasiyaların yaradılması spesifik xüsusiyyətə malik biliklər tələb edir. Əslində, intellektual potensialın cəmiyyətdə miqyası daha genişdir. Bu da onu elmi - texniki potensialdan fərqləndirən əsas cəhətdir. Çünki intellektual potensial cəmiyyətin intellekt səviyyəsini səciyyələndirir və bütövlükdə təhsil səviyyəsinin əsas göstəricisi hesab olunur.

Elmi-texniki potensial isə cəmiyyətdə sosial-iqtisadi inkişafa nail olunması üçün elmi-tədqiqat işlərinin aparılması, tətbiqi, təcrübədən keçirilməsi və s.proseslərdə bilavasitə iştirak edən resurslarla səciyyələndirilir. Qeyd olunan məqamların spesifik xüsusiyyətləri hər bir ölkədə bu və ya diğər formada təzahür edən münasibətlər sistemi ilə müəyyənləşdirilir, bu isə "Milli innovasiya" sistemi kimi xarakterizə edilir.

ƏDƏBİYYAT

1. K.A.Şahbazov, M.H.Məmmədov, H.S.Həsənov. Menecment. Bakı, 2005.
2. A.B.Abbasov. Biznesin əsasları. Bakı, 2005.
3. M.C.Atakişiyev. İnnovasiya menecmenti. Bakı, 2010.

Ясаман Али кызы Алиева
к.э.н., доц. АУК,
магистр Наиль Казим оглы Гусейнов

Основные направления инновационной пазвития в менеджменте

Резюме

В статью цель заключается в том, чтобы обсудит и определить его направления основной механизм управления организационно-экономических развития инновационной направленности. В статье также различные стратегии развития и организационной методической оценки механизма процесса управления организационной направленности были осуществлены.

Ключевые слова: Инновации, инновационный процесс, система управления, конкурентоспособной, приоритетным направлениям, коммерческие, пройзводсево

Yasaman Ali Aliyeva
candidate of economic sciences, ass. prof. ACU
masters Nail Kazim oglu Huseynov

The main directions of development of innovation managment

Summary

The organizational-economic mechanism to determine the main directions of development of innovative management and its aim is to analyze the article.

The article also published a variety of innovative development strategy and mechanism of management of organizational and methodological assessment held out.

Key words: innovation, innovation pricess, control system, competitive, priority areas, commercial, production.

Seymur Əliyar oğlu YUSİFOV
Azərbaycan Dövlət İqtisad Universiteti
Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi

ƏHALİNİN SOSİAL MÜDAFİƏSİNİN TƏNZİMLƏNMƏSİ MƏSƏLƏLƏRİ

Xülasə

Məqalədə əhalinin sosial müdafiəsinin tənzimlənməsi məsələləri, nəzəri müddəaları araşdırılmış, əhalinin sosial müdafiəsinin tənzimlənməsinin məntiqi sxemi, iqtisadi sistemin sosial istiqamətləri və tənzimləmə prosesləri tədqiq olunmuş, Azərbaycanda sosial müdafiənin mövcud vəziyyəti öyrənilmiş, ÜDM və əhalinin gəlirlərinin artım dinamikasının müqayisəli təhlili aparılmış, o cümlədən yoxsulluq həddi və yoxsulluğun səviyyəsi, iqtisadi fəaliyyət növləri üzrə orta aylıq nominal əmək haqqının dinamikasının makroiqtisadi aspektləri haqda mülahizələr irəli sürülmüş, müvafiq nəticələr əldə olunmuşdur.

Açar sözlər: əhalinin sosial müdafiəsi, əhali gəlirləri, sosial rifah, sosial-iqtisadi tənzimləmə mexanizmləri, yoxsulluq həddi və yoxsulluğun səviyyəsi.

Giriş

Əhalinin sosial müdafiəsinin makro və mikroiqtisadi səviyyəli araşdırma obyekti kimi təsviri, onun təsnifatı ilə əlaqədardır. Əhalinin sosial müdafiəsinin konseptual yanaşma obyekti halında onun gələcəyə baxış kontekstində ali məqsədidir. 2020-ci ilə baxış konsepsiyasında və 2016-cı il dekabr ayının 6-da qəbul edilmiş, iqtisadiyyatın 11 sektorunu əhatə edən 12 Strateji Yol Xəritəsində iqtisadiyyatın çatılmış səviyyəsi və qeyri-neft sektorunun inkişafı strategiyası iqtisadi və sosial artımın əsas hədəfi kimi müəyyən olunur. Əhalinin sosial müdafiəsinin konsepsiyası, məqsədi və əsas vəzifələri müvafiq olaraq bu qeyd olunan inkişafı əsaslandıran və təmin edən potensialları və onların sosial-iqtisadi dövriyyəyə cəlb edilməsi metodlarını və mexanizmlərini özündə ifadə etdirir. Əhalinin sosial müdafiəsi sahə və əhali problemləri ilə bağlı olduğu üçün prioritet məqsədlərə yönəlir. Bu qeyd olunan yönəlmələrə müvafiq resurslar və mexanizmlər tapılır. Kompleks və sistemli təsvir metodikasının tətbiqi müvafiq əhalinin sosial müdafiəsi problemlərinə müvafiq istiqamətlər baxımından təsnifatlaşdırılır. Bir prioritetdən digərinə keçid bu qeyd olunan prioritetlərin iqtisadi-sosial rolu və onların effekti ilə hesablanılır. Xalis istiqamətlər iqtisadi sistemin əsas istiqamətləri və əhalinin sosial müdafiəsi indeksinə müvafiq təsnifatlaşması ilə müəyyən olunur.

İstənilən ictimai sistemin əsas sərvəti insan potensialını iqtisadçı alimlər əsas inkişaf faktorunun insan amili olduğunu qeyd edirlər. İnkişafın əsas amili - insan faktorudur qeyd edən alimlər hər şeydən qabaq sosial indikatorları araşdırıb, onların formalaşma və sosial nəticələrini tədqiq etməklə müxtəlif idarəetmə məsələlərini həll etməyi tövsiyə edirlər.

Nəzəri müddəalar

Əhalinin sosial müdafiəsinin təminat sistemi ədalətli prinsiplər və dövlət nəzarəti altında dövlət tənzimləməsinin əsas yollarını müəyyən edir və konkret əhalinin sosial müdafiəsinin mexanizmlərini əsaslandırır.

Əhalinin sosial müdafiəsi bütün vətəndaşları müəyyən həyat səviyyəsi ilə təmin edən və ayrı-ayrı qrupların xüsusi dəstəklənməsinin həyata keçirilməsinə xidmət edən iqtisadi, sosial və hüquqi tədbirlər kompleksidir [4, s. 366]. Sosial müdafiəni dövlətin əsas funksiyası hesab etməklə, həyata keçirilməsinin həmişə, istənilən şəraitdə zəruri olduğunu göstərirlər [7, s. 132]. Bəzən isə, əhalinin sosial müdafiəsinin təşkilində əsas yeri minimal sosial zəmanət, sosial standartlar və sosial sığorta; pensiya təminatı; aztəminatlı və sosial cəhətdən zəif əhali qruplarına yardım tutur [7, s. 133]. Sosial müdafiə sistemin elə bir mexanizmi olaraq qəbul edilir ki, onun köməyi ilə gəlirlərin yenidən bölgüsü həyata keçirilir [6, s.7]. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, sosial müdafiə yalnız sosial sığorta və sosial təminat istiqamətində sosial tədbirləri deyil, dövlət sosial infrastrukturu sahələrinin formalaşdırılmasını da özünə daxil edir [8, s.10]. Sosial müdafiə sistemi dedikdə, qanunvericiliklə müəyyən edilmiş iqtisadi, sosial, hüquqi təminatların və hüquqların reallaşmasını təmin edən və əhalinin müxtəlif sosial, xüsusən də ən zəif təbəqələrinin və qruplarının təminatlı və fəaliyyətli yaşaması üçün şərait yaradan sosial institut və müəssisələrin cəmi nəzərdə tutulur [1, s. 90]. Bəzi müəlliflər əhalinin sosial müdafiəsini dövlətin sosial siyasətinin əsas mexanizmlərindən biri kimi qəbul edir. Bir sözlə, əhalinin sosial müdafiəsi - cəmiyyətin bütün üzvlərinin müəyyən olunmuş standartlar üzrə yaşayış səviyyəsinin təmin edilməsi deməkdir [3, s. 196]. Sosial müdafiə həm makroiqtisadi, həm də sosial problem hesab edilir[5, s. 247]. Onun fikrincə, sosial müdafiə iqtisadi və sosial yoxsulluqdan müdafiəni nəzərdə tutur. O, həm də hesab edir ki, əhalinin sosial müdafiəsi sistemi dövlətin ictimai sabitləşdirmə siyasətinin həyata keçirilməsinin nəticəsində yaradılır [5, s. 221]. Sosial müdafiə müxtəlif sosial-demoqrafik qrupları əhatə etməklə, onların maddi rifah halının yaxşılaşdırılmasına, həyat səviyyəsinin yüksəldilməsinə istiqamətləndirilmiş və dövlət tərəfindən həyata keçirilməsi vacib olan kompleks tədbirlərin məcmusunu təşkil edir [2, s. 108-109].

İlk növbədə sahə və ərazilər arasında olan dövlət resurslarının istehsalı və istifadə edilməsi arasında olan bölgü sisteminin təkmilləşməsi yolu ilə daha effektli dövlət tənzimləməsi strategiyası yaradılır. Dövlət tənzimləməsi bazar tipli inkişafda baş verən inflyasiya, qiymət dəyişməsi və istehsala stimulu formalaşdırmaq, əhalinin sosial müdafiəsi sistemi arasında olan münasibətlərin dəyərləndirilməsini tələb edir.

Dövlət tənzimləməsinin obyekti olaraq istənilən sosial sahənin fəaliyyətinin effektinin artırılması məqsəd qəbul edilir. Dövlət tənzimləməsi müxtəlif sosial-demoqrafik əhali qrupları, o cümlədən regional aspektləri nəzərə almaqla həyata keçirilir.

Azərbaycanda iqtisadi inkişaf dinamikası onun əsas iqtisadi və sosial sahələrinin, iqtisadi artım indikatorlarının kompleks və sistemli bağlılığı ilə yaranır. Makroiqtisadi tarazlıq hər şeydən qabaq iqtisadi və əhalinin sosial müdafiəsi üçün vacib olan resursların dinamikasını və ehtiyatlarını ifadə edir.

Azərbaycanda sosial müdafiənin mövcud vəziyyəti

Makroiqtisadi dövlət tənzimləməsi iqtisadi inkişafın sahələri arasında olan tarazlıqla və təsirlərlə müəyyən olunur. ÜDM, investisiya və əhalinin gəlirləri, o cümlədən istehlak arasında olan tarazlıq dövlət tənzimləməsi üçün ümumi spesifik xüsusiyyətləri, maddi əsasları və bölgü resurslarını formalaşdırır.

Ümumi daxili məhsul cəmi milyon manatla 2016-cı ildə 2000-ci ilə nisbətən 12,80 dəfə, 2005-ci ilə nisbətən 4,82 dəfə, 2010-cı ilə nisbətən 1,42 dəfə, 2015-ci ilə nisbətən 1,11 dəfə artmışdır. Ümumi daxili məhsul cəmi milyon dollarla 2016-cı ildə 2000-ci ilə nisbətən 7,18 dəfə, 2005-ci ilə nisbətən 2,86 dəfə artmış, 2010-cı ilə nisbətən 28%, 2015-ci ilə nisbətən 29% azalmışdır. Ümumi daxili məhsul cəmi milyon avro ilə 2016-cı ildə 2000-ci ilə nisbətən 6,01 dəfə, 2005-ci ilə nisbətən 3,23 dəfə artmış, 2010-cu ilə nisbətən 14%, 2015-ci ilə nisbətən 28 % azalmışdır.

Ümumi daxili məhsul adambaşına manatla 2016-cı ildə 2000-ci ilə nisbətən 10,56 dəfə, 2005-ci ilə nisbətən 4,19 dəfə, 2010-cı ilə nisbətən 1,32 dəfə, 2015-ci ilə nisbətən 1,10 dəfə artmışdır.

Ümumi daxili məhsul adambaşına dollarla 2016-cı ildə 2000-ci ilə nisbətən 5,92 dəfə, 2005-ci ilə nisbətən 2,49 dəfə artmış, 2010-cu ilə nisbətən 34%, 2015-ci ilə nisbətən 29% azalmışdır. Ümumi daxili məhsul adambaşına avro ilə 2016-cı ildə 2000-ci ilə nisbətən 4,96 dəfə, 2005-ci ilə nisbətən 2,80 dəfə artmış, 2010-cı ilə nisbətən 21%, 2015-ci ilə nisbətən 29% azalmışdır.

Cədvəl 1.

Ümumi daxili məhsul və əhalinin gəlirləri

	Ümumi daxili məhsul - manat, dollar və avro ilə						Əhalinin gəlirləri - manat və dollar ilə					
	Cəmi			Adambaşına			Cəmi		Adambaşına		1$= manat	1avro= manat
	Milyon manatla	Milyon dollarla	Milyon avro ilə	Manat-la	Dollar-la	Avro ilə	Milyon manatla	Milyon dollarla	Manat-la	Dollar-la		
1999	3775,1	4583,7	4299,2	480,1	582,9	546,8	3687,7	4477,5	468,5	568,8	0,8236	0,8781
2000	4718,1	5272,8	5687,2	593,2	662,9	715,1	4047,3	4523,1	508,9	568,7	0,8948	0,8296
2001	5315,6	5707,7	6373,6	661,7	710,5	793,5	4301,6	4618,9	535,5	575,0	0,9313	0,8340
2002	6062,5	6235,9	6603,3	747,5	768,9	814,2	5018,6	5162,1	618,8	636,5	0,9722	0,9181
2003	7146,5	7276,0	6431,9	872,7	888,5	785,4	5738,1	5842,1	700,7	713,4	0,9822	1,1111
2004	8530,2	8680,4	6980,0	1030,4	1048,5	843,2	6595,1	6711,2	796,7	810,7	0,9827	1,2221
2005	12522,5	13238,7	10603,3	1494,3	1579,8	1265,3	8063,6	8524,8	962,2	1017,2	0,9459	1,1810
2006	18746,2	20983,0	16713,8	2208,2	2471,6	1968,8	10198,5	11415,4	1201,3	1344,6	0,8934	1,1216
2007	28360,5	33050,3	24126,3	3296,6	3841,7	2804,4	14558,2	16965,6	1692,3	1972,1	0,8581	1,1755
2008	40137,2	48852,5	33174,0	4603,7	5603,3	3805,1	20735,4	25237,8	2378,3	2894,7	0,8216	1,2099
2009	35601,5	44297,0	31738,9	4033,2	5018,2	3595,6	22601,1	28121,3	2560,4	3185,8	0,8037	1,1217
2010	42465,0	52909,3	39952,0	4753,0	5922,0	4471,7	25607,0	31905,1	2866,1	3571,0	0,8026	1,0629
2011	52082,0	65951,6	47377,4	5752,9	7285,0	5233,3	30524,6	38653,4	3371,7	4269,6	0,7897	1,0993
2012	54743,7	69683,9	54180,2	5966,1	7594,3	5904,7	34769,5	44258,5	3789,3	4823,4	0,7856	1,0104
2013	58182,0	74164,4	55826,1	6258,3	7977,4	6004,9	37562,0	47880,2	4040,3	5150,2	0,7845	1,0422
2014	59014,1	75234,7	56581,1	6268,0	7990,8	6009,6	39472,2	50321,5	4192,4	5344,7	0,7844	1,0430
2015	54380,0	52996,8	47785,6	5706,6	5561,5	5014,6	41744,8	40683,0	4380,7	4269,3	1,0261	1,1380
2016	60393,6	37843,0	34199,9	6266,3	3926,5	3548,5	45395.1	28444.8	4709.8	2951.2	1,5959	1,7659
Mənbə: www.stat.gov.az												

Əhalinin gəlirləri cəmi milyon manatla 2016-cı ildə 2000-ci ilə nisbətən 11,22 dəfə, 2005-ci ilə nisbətən 5,63 dəfə, 2010-cu ilə nisbətən 1,77dəfə, 2015-ci ilə nisbətən 1,09 dəfə artmışdır. Əhalinin gəlirləri cəmi milyon dollarla 2016-cı ildə 2000-ci ilə nisbətən 6,29 dəfə, 2005-ci ilə nisbətən 3,34 dəfə artmış, 2010-cu ilə nisbətən 11%, 2015-ci ilə nisbətən 30%azalmışdır.

Əhalinin gəlirləri adambaşına manatla 2016-cı ildə 2000-ci ilə nisbətən 9,25 dəfə, 2005-ci ilə nisbətən 4,89 dəfə, 2010-cu ilə nisbətən 1,64 dəfə, 2015-ci ilə nisbətən 1,08 dəfə artmışdır. Əhalinin gəlirləri adambaşına dollarla 2016-cı ildə 2000-ci ilə nisbətən 5,19 dəfə, 2005-ci ilə nisbətən 2,90 dəfə artmış, 2010-cu ilə nisbətən 17%, 2015-ci ilə nisbətən 31% azalmışdır.

Əhalinin nominal gəlirləri, milyon manatla 2015-cı ildə 2005-ci ilə nisbətən 5,18 dəfə, 2010-cu ilə nisbətən 1,63 dəfə, 2014-cü ilə nisbətən 1,06 dəfə artmışdır. Əhalinin sərəncamında qalan gəlirləri, milyon manatla 2015-ci ildə 2005-ci ilə nisbətən 5,35 dəfə, 2010-cu ilə nisbətən 1,62 dəfə, 2014-cü ilə nisbətən 1,06 dəfə artmışdır. Orta aylıq əmək haqqı, manatla 2015-cı ildə 2005-ci ilə nisbətən 3,78 dəfə, 2010-cu ilə nisbətən 1,41dəfə, 2014-cü ilə nisbətən 1,05 dəfə artmışdır. Əhalinin sərəncamında qalan gəlirləri, milyon manatla 2015-ci ildə 2005-ci ilə nisbətən 5,64 dəfə, 2010-cu ilə nisbətən 1,65 dəfə, 2014-cü ilə nisbətən 1,03 dəfə artmışdır.

Cədvəldən aydın olunduğu kimi, inkişaf tendensiyaları dinamik olaraq artır. Amma hər şeydən qabaq sənaye məhsullarının neft ixracatı və o cümlədən tikinti kompleksinin xidmət sferasının dəyişmə tendensiyası daha sürətlə artır. Əhalinin iqtisadi artımda rolu və onların qazandıqları gəlirlər bölgü və istehlak sferasında mövcud mexanizmlər və perspektiv sosial-iqtisadi siyasətlə əlaqədar olaraq dəyişir.

ÜDM-in adambaşına düşən həcmi, makroiqtisadi səviyyədə yoxsulluğun azaldılmasının və əhalinin həyat səviyyəsinin maddi meyarı kimi qəbul olunanlar qeyd edilir. Belə ki, adambaşına düşən ÜDM, onun əhalinin rifah halına effektiv təsiri bölgü və yenidənbölgü sistemindən asılıdır.

Əhalinin muzdlu əmək haqqına əsasən və əhali gəlirlərinin səviyyəsinə əsasən diferensiasiyalı orta illik gəlir səviyyəsindən fərqlənmə dərəcəsi ilə xarakterizə edilir. Sosial tələbat və onun yaranmasına təsirli olan əsas amili əhalinin gəlirləri, xərcləri və adambaşına düşən yığım vəsaitləri təşkil edir.

Əhalinin sosial müdafiəsinin makroiqtisadi şəraiti hamı üçün eyni səviyyədə təsir etmir. Bölgü sisteminə təsirli olan faktorların və əhalinin həyat səviyyəsinin əsas şərtləri təsir edir. Əhalinin gəlir əldə etmək qabiliyyəti ilə hesablanılır. Sosial-demoqrafik tərkib, təbii artım və yeni iş yerlərinin açılması, əhalinin həyat səviyyəsinin artırılması və sosial mühitin yaxşılaşdırılması yollarını müəyyən etmək sosial dövlət tənzimləməsi sayəsində yaranır. Sosial mühitin dəyişməsi sosial tələbin quruluşu ilə müəyyən olunur.

Nəticə

İqtisadi və sosial tənzimləmənin hər şeydən qabaq sintetik effektini nəzərə almaqla prioritetlərin tərtibi əsas rol oynayır. Zənnimizcə, prioritetləri, rifah, sağlamlıq, intellektual inkişaf, mədəni yüksəliş iyerarxiyaları baxımından tərtib etmək mümkündür.

Sosial tənzimləmə mexanizmlərinin təsnifatlaşması, zənnimizcə, müxtəlif kriteriyalar, məqsədlər və təminatlar əsasından qurula bilir. Bu məqsədlə təsir gücünə və təşkilati idarəetmə quruluşuna əsasən bu qeyd olunan mexanizmləri qruplaşdırmaq, onların təsir gücünə əsasən effektiv təsirini dəyərləndirmək və proqnozlaşdırmaq vacibdir. Müasir islahatlar şəraitində struktur və keyfiyyət dəyişiklikləri zamanı sosial yükün miqdarı və onun əsas parametrləri müəyyən olunur. Sosial infrastrukturun obyektlərinin pullu və pulsuz xidmətlər baxımdan təsnifatlaşması və tənzimlənməsi üçün əhalinin alıcılıq qabiliyyəti və onun sosial statusunda baş verən maddi-maliyyə dəyişiklikləri, alıcılıq qabiliyyəti proqnozlaşdırılır.

ƏDƏBİYYAT

1. Əliyev A., Quliyev A. Sosial sferanın iqtisadi və metodoloji əsasları. Bakı: «Adiloğlu», 2005, 304 s.
2. Əşrəfova R.S. Azərbaycanda pensiya təminatı sisteminin formalaşması və təkmilləşdirilməsi. Bakı: «Elm», 2007, 260 s.
3. Hüseynova Z. İqtisadi nəzəriyyə. Struktur-məntiqi sxemlər. Bakı: ADU, 2007. 265 s.
4. Юрьева Т.В. Социальная рыночная экономика. Учебник для ВУЗов. М.: Русская деловая литература, 1999, 416 с.
5. Левашов В.И. Социальная политика доходов и заработной платы. М.: Центр экономики и маркетинга, 2000, 360 с.
6. Римашевская Н.М. Социальное обеспечение в процессе перехода к рынку. // Народонаселение, 2000, № 3, с.6-20.
7. Жеребин В.М., Романов А.Н. Уровень жизни населения. М.: ЮНИТИ - ДАНА, 2002. 592 с.
8. Социальная политика: Учебник / Под общ.ред. Волгина Н.А., М.: РАГС, 2003, 548 с.

Сеймур Алияр оглы Юсифов
АГЭУ

Вопросы регулирования социальной защиты населения

Резюме

В статье раскрыта социальная защита населения, вопросы регулирования, теоретическое состояние социальной защиты населения, логические схемы регулирования экономической системы, социальная направленность регулирования экономики. Далее исследована социальная защиты населения в Азербайджане, взаимосвязь ВВП и доходов населения, проведен сравнительный анализ между уровнем бедности и среднемесячной номинальной заработной платой.

Ключевые слова: социальная защита населения, доходы населения, социальное благополучие, социально-экономические механизмы регулирования, уровень бедности.

Seymur Aliyar Yusifov
ASEU

Issues of regulating social protection of the population

Summary

In the article social protection regulatory issues, theoretical positions araşdırılmış social protection of the population, control logic circuits, economic systems, social direction and regulation of the processes of research, Azerbaijan social protection current situation learned, GDP and per capita income, growth dynamics of comparative analysis, including the poverty level and the poverty level, economic activities, the average monthly nominal wage on the dynamics of the macroeconomic aspects of the views put forward, the corresponding results have been achieved.

Key words: social protection of the population, incomes, social welfare, socio-economic regulation mechanisms, the level of poverty and the poverty line.

Рена Насируллаевна АКБЕРОВА
Ветеринарный Научно-Исследовательский Институт

ВОЗБУДИТЕЛИ ГЕЛЬМИНТОЗОВ ОВЕЦ В ЮЖНОЙ ЗОНЕ АЗЕРБАЙДЖАНА

Резюме

2015-2017гг. впервые нами были изучены возбудители гельминтозов овец в южной части Азербайджана (Масаллы, Лянкяран, Астара). При полном гельминтологическом вскрытии 20-ти овец разных возрастов была обнаружено 57 видов гельминта. Из них выявлено 4 вида трематод, 7 - цестод и 46 - нематод.

Ключевые слова: Гельминт, вид, возбудитель, овец, трематод, цестод, нематод.

Введение

Руководствуясь подписанным Президентом Республики от 31 мая 2005г. законом о Ветеринарии, где указывается, создать… коллекцию возбудителей паразитарных заболеваний и «Распоряжение»от 26 января 2018 г., о создание Агентство безопасность пищевых продуктов, является важным документом для создания ветеринарно-санитарного контроля по улучшению пищевых продуктов, реализуемой населением.Чтобы выполнить требование указанных документов, мы поставили перед собой цель, выявить видовой состав и создать коллекцию возбудителей паразитарных заболеваний- гельминтозов. Гельминты широко распространены в природе. Многие из них являются зоонозами, паразитируют у человеке и животных в разных органах и тканях, в том числе и таких важных органах для жизни, как мозг, сердце, печень, легкие. Тем самым они являются причиной многочисленных, весьма опасных заболеваний, могущих принимать характер эпидемий и эпизоотий в ряде случаев оканчивающихся смертью.

Гельминтозы часто вызывают массовый падеж животных, особенно молодняка, снижают упитанность, плодовитость и шерстную продуктивность овец (происходит истончение и выпадение волос), повышают процент яловости. Снижается усваивание кормов, паразиты понижают резистентность организма, способствуют большей восприимчивости животных к различным заболеваниям. Теряется мясная продуктивность, вследствие выбраковки отдельных органов. В результате хронической интоксикации происходит задержка роста и развитие молодняка. Многие заболевания вызываемые отдельными видами гельминтов, как возбудители фасциолеза, эхинококкоза, финноза, алвеококкоза и ценуроз попадают в

организм человека при употреблении загрязненной воды яйцами и личинками, продукты питания (растительного и животного происхождения), которые без соотвествующего лечения приводят к тяжелой заболеваемости, а в запущенных стадиях заканчивается летальным исходом. Различные сельскохозяйственные животные, особенно овцы, выделяя яйца желудочно-кишечных нематодозов в окружающую среду, являются источником инвазии животных, в том числе и для человека. Широко распространенные гельминтозы причиняют огромный экономический ущерб народному хозяйству.

В литературе имеются данные исследований азербайджанских ученых, посвященные описанию гельминтофауны возбудителей отдельных гельминтозов. [1, с.46-76; 2, с.218-222; 3, с.26-29; 4, с.11-24; 5, с.35-37; 7, с.11-15; 8, с.318-324]. Следует отметить, что до наших исследований видовой состав гельминтов в южной зоне республики никем не был изучен. Таким образом, мы решили подробно изучить возбудителей, тем самым создать коллекцию.

Материалы и методы

Для изучения видового состава гельминтов в 2015-2017 гг. нами были проведены полные гельминтологические вскрытия по методу академика К.И.Скрябина, павших и вынужденно убитых животных в двух характерных для низменного и предгорного овцеводства в южной части Азербайджанской республики [6, с.15]. Вскрытию были подвергнуты 20 овец разных возрастов. При этом было собрано 53542 экземпляров гельминтов. Из собранных гельминтов, трематоды, цестоды были фиксированы в 70^0 спирте, а нематоды (после определение самцов и самок) в жидкости Барбагалло для дальнейшего исследования.

Результаты исследований и обсуждение

В период 2015 – 2017 гг. в овцеводческих хозяйствах в южной части республики нами было изучено распространение главнейших гельминтозов (трематод, цестод, нематод) и их видовой состав. В органах павших и вынужденно прирезанных животных было установлена степень зараженности и интенсивность инвазии.

При исследовании некоторые виды гельминтов отличались высокой интенсивностью. Наоборот, виды из рода *Cooperia - C. pectinata, C.punctata* были обнаружены в единичных количествах. Поэтому, сочли нужным дать более подробное объяснение наиболее распространенных гельминтов.

Вид *Fassiola hepatica*. При полных гельминтологических вскрытиях этот вид обнаружили в печени у 9-ти (45%) овец. Интенсивность инвазии колебалось в пределах от 6-ти до 96 экземпляров.

Вид *Fassiola gigantica*. Гельминт был обнаружен в печени у 7 (35%) овец. Интенсивность инвазии отмечалось от 4-х до 352 экземпляров.

Вышеуказанные виды в основном были зарегистрированы в низменной зоне.

Вид *Dicrocoelium lanceatum* обнаружен нами в печени у 14 овец (70%). Количество гельминтов у овец было от 10-ти до 266 экземпляров.

Вид *Moniezia expansa.* При полных гельминтологических вскрытиях этот вид был обнаружен в тонком отделе кишечника у 10 (50%) овец. Интенсивность инвазии колебалось от 1-го до 5-ти экземпляров.

Вид *Ostertagia circumcincta*. Гельминт встречался в тонком отделе кишечника и сычуге у 11овец (55%) из числа 20 вскрытых. Интенсивность инвазии варьировала в пределах от 11 до 105 экземпляров.

Вид *Ostertagia trifurcata.* Гельминт был обнаружен в сычуге и тонком отделе кишечника у 9 овец (45%). Интенсивность инвазии варьировала от 10-ти до 128 экземпляров.

Вид *Ostertagia Lyrata*. Этот вид обнаружили в сычуге 5-ти овец (25%)в количестве 9-116 экземпляров.

Вид *Cooperia oncophora* обнаружили в сычуге4-х овец (20%) в количествеот 2-х до 91экземпляров.

Вид *Ostertagia trifurcata.* Гельминт был обнаружен в сычуге и тонком отделе кишечника у 9 овец (45%). Интенсивность инвазии варьировала от 10-ти до 128 экземпляров.

Вид *Ostertagia Lyrata*. Этот вид обнаружили в сычуге 5-ти овец (25%) в количестве 9-116 экземпляров.

Вид *Cooperia oncophora* обнаружили в сычуге 4-х овец (20%) в количестве от 2-х до 91экземпляров.

Вид *Marshallagia marshalli*. При вскрытиях этот гельминт обнаружили в сычуге и тонком отделе кишечника у 20 вскрытых животных. Интенсивность инвазии во всех случаях была на высоком уровне, так как количество гельминтов у каждой овцы колебалось в пределах от 30-ти до 406 экземпляров.

Вид *Marshallagia mongolica*. Этот вид встречался у 11 (55%) овец в количестве 1539 экземпляров.

Вид *Haemonchus contortus* обнаружили в сычуге у 12 овец (60%) из числа 20 вскрытых. Интенсивность инвазии варьировала в пределах от 25-ти до 165 экземпляров. Следует отметить, что этот вид распространен повсеместно.

Вид Nematodirus oiratianus. Этот вид был обнаружен в тонком отделе кишечника у 5- ти (25%) овец. Количество гельминтов было от 10-ти до 152 экземпляров.

Перечень гельминтов, обнаруженных у овец в южной зоне Азербайджанской Республики

№	Виды гельминтов	овцы		
		Количество зараженных животных	ЭИ (%)	ИИ
1	*Fasciola hepatica*	9	45	6-96
2	*Fasciola gigantica*	7	35	4-152
3	*Dicrocoelium lanceatum*	14	70	10-352
4	*Paramphistomum sp.*	5	25	12-45
5	*Moniezia expansa*	10	50	1-5
6	*Moniezia benedeni*	9	45	1-3
7	*Avitellina centripunctata*	2	10	3
8	*Thysaniezia giardi*	5	25	2-4
9	*Cysticercus tenuicolis*	3	15	4-11
10	*Echinococcus granulosus*	13	65	4-26
11	*Coenurus cerebralis*	2	10	1
12	*Chabertia ovina*	9	45	2-20
13	*Bunostomum trigonacephalum*	5	25	2-18
14	*Bunostomum phlebotomum*	7	35	1-12
15	*Oesophagostomumcolumbianum*	7	35	4-12
16	*OesOesophagostomum venvenulosum*	11	55	4-19
17	*Oesophagostomum radiatum*	3	15	1-5
18	*Trichostrongyluscolubriphormis*	13	65	10-48
19	*Trichostrongyluscapricola*	10	50	6-32
20	*Tichostrongylus probolurus*	8	40	7-43
21	*Trichostrongylusaxei*	12	60	4-77
22	*Trichostrongylus vitrinus*	13	65	4-51
23	*Trichostrongylus skrjabini*	11	55	6-33
24	*Trichostrongylus longispicularis*	10	50	9-60
25	*Ostertagiaostertagi*	3	20	1-4
26	*Ostertagiacircumcincta*	14	70	14-105
27	*Ostertagia belockani*	1	5	2
28	*Ostertagia lasensis*	2	10	1-14
29	*Ostertagiatrifurcata*	11	55	10-128
30	*Ostertagia occidentalis*	7	35	1-66

31	*Ostertagia trifida*	3	15	1-7
32	*Ostertagia Lyrata*	5	25	9-116
33	*Cooperia oncophora*	4	20	2-91
34	*Cooperia pectinata*	2	10	1-2
35	*Cooperia punctata*	2	10	4-8
36	*Marshallagia dentispicularis*	4	20	3-28
37	*Marshalagia mongolica*	11	55	5-39
38	*Marshallagia marshalli*	14	70	30-146
39	*Haemonchus contortus*	12	60	5-165
40	*Nematodirus spatiger*	8	40	2-19
41	*Nematodirus filicollis*	5	25	4-14
42	*Nematodirus andreevi*	2	10	1-12
43	*Nematodirus helvitianus*	7	35	3-33
44	*Nematodirus oiratianus*	5	25	10-152
45	*Nematodirus abnormalis*	9	45	1-25
46	*Nematodirusschulzi*	1	5	1-16
47	*Nematodirusarchari*	1	5	1
48	*Nematodirus davtiani*	2	10	1-8
49	*Dictyocaulus filaria*	15	75	8-75
50	*Protostrongylus kochi*	3	15	2-6
51	*Protostrongylus hobmaieri*	2	10	3
52	*Muellerius capillaris*	2	10	4
53	*Cystocaulus nigrescens*	3	15	4-8
54	*Skrcabinema ovis*	1	5	2-6
55	*Gongylonema pulchrum*	12	60	1-9
56	*Trichocephalus skrjabini*	9	45	3-12
57	*Trichocerhalus ovis*	16	80	6-35

Заключение

Таким образом, впервые нами были изучены возбудители гельминтозов овец в южной части Азербайджана. При полном гельминтологическом вскрытии 20-ти овец разных возрастов нами была обнаружено 57 видов гельминта. Из них выявлено 4 вида трематод, 7 - цестод и 46- нематод.

ЛИТЕРАТУРА

1. Асадов С.М. Гельминтофауна жвачных животных СССР и ее эколого-географический анализ. АН АзССР, 1960. – 510 с.
2. Гаибов А.Д. Гельминты и гельминтозы овец Азербайджана. Труды. Гелан,1949.Т.2, - с. 218-222.
3. Джавадов М.К. Гельминтофауна овец и коз Азербайджана. Труды. Азерб. НИВИ, 1935.Т.2, - с. 26-29.
4. Исмаилов Д.К.Гельминтофауна овец и коз высокогорных районов малого Кавказа Азербайджанской ССР и динамика главнейших гельминтозов: Автореф. дисс. … канд. биол. Баку,1961.- 24с.
5. Касимов Г.Б. Характеристика фауны трихостронгилид овец и коз Азербайджанской ССР, как источника трихостронглидозных инвазии для человека. Изв. Азерб. филиала,1942, №3,- с. 35-37.
6. Котельников Т.А. Гельминтогеографичесие исследования животных и окружающей среды. М.: «Колос» 1984. - 204с.
7. Мамедов А.Т. Хабертиоз, буностомоз и эзофагостомоз овец в Азербайджанской ССР: Автореф. дисс. … канд. биол. - Тбилиси, 1968. - 24с.

8. Сеидов Я.М. Гельминтофауна овец и коз Нахичеванской АССР. Труды Азерб. НИВИ, 1965.Т.19, - с. 318-324.

Rəna Nəsirulla qızı Əkbərova
Baytarlıq Elmi-Tədqiqat İnstitutu

Azərbaycanın cənub zonasında qoyunların helmintozlarının törədiciləri

Xülasə

2015-2017-ci illərdə ilk dəfə bizim tərəfimizdən Azərbaycanın cənub zonasında (Masallı, Lənkəran, Astara) qoyunların helmintfaunası öyrənilmişdir.Nəticədə, 57 növ helmint aşkar edilmişdir. Bunlardan 4-ü trematod,7-si sestod, 46 növ isə netmatodlardan ibarət olmuşdur.

Açar sözlər: helmint, növ, törədici, qoyun, trematod, sestod, nematod.

Rena Nasirullah Akbarova
Veterinary Scietific-Research İnstitute

Causative agents of helminthisms of sheep are in the south zone of the Azerbaicanian

Summary

For the first time, helminths of sheep have been studied by us in the south part of Azerbaijan (Masally, Lankaran, Astara) during 2015-2017. As a result, 57 types of helminths were detected. It was consist of 4 trematods, 7 cestodes and 46 species of nematodes.

Key words: helminth, kind, causative agent, sheep, trematode, cestode, nematode.

Рамиз Аташ оглы АЛИЕВ
Азербайджанский Университет Кооперации

ОБ ОПРЕДЕЛЕНИИ НЕИЗВЕСТНЫХ КОЭФФИЦИЕНТОВ В ЛИНЕЙНОМ ЭЛЛИПТИЧЕСКОМ УРАВНЕНИИ

Обратные задачи по определению коэффициентов дифференциальных уравнений с частными производными представляют интерес во многих прикладных исследованиях Эти задачи приводят к необходимости приближенного решения обратных задач ма-тематической физики, которые некорректны в классическом смысле. К ним относятся задачи идентификации неизвестных плотностей источников и коэффициентов. Большое значение имеют коэффициентные задачи для эллиптических уравнений,в которых неизвестные коэффициенты не зависят от одной переменной.Такие модели характерны для задач теории фильтрации. В частности, определение теплофизических харак-теристик сред в стационарном случае приводит к обратным задачам для эллиптических уравнений [1-4]. Исследования таких задач вызвано как теоретическим интересом,так и практической необходимостью.

Исследуется обратная задача нахождения коэффициентов и решения линейного эллиптического уравнения. В качестве переопределения,необходимого в обратной задаче,неизвестные коэффициенты входят в дополнительные условие.Доказаны теоре-мы существования,единственности и устойчивости решения поставленной обратной задачи. С помощью метода последовательных приближений построен регуляри-зирующий алгоритм для определения нескольких коэффициентов

Пусть D, D_1 –ограниченные области в $(n-1)$–мерном и $n-$ мерном евклидовом пространствах соответственно и произвольную точку области D_1 можно представить в виде $(x, y) = (x_1, x_2, ..., x_{n-1}, y)$, где $x = (x_1, x_2, ..., x_{n-1}) \in D$.Через Γ обозначим границу об-ласти D.

Пусть $\gamma-(n-1)-$мерная гиперповерхность,принадлежащая области $\overline{D}_1$ и пусть существует достаточно гладкая функция $F(x)$ такая,что $\gamma=\{(x,y): y=F(x), x\in\overline{D}\}$. Очевидно,что γ можеть быть,например,куском границы Γ таким,что его проекция на $(n-1)-$мерное пространство покрывает область $\overline{D}$. Пусть $I=\{1,2,...,n\}$, $i_0\in I$.

Рассмотрим задачу об определении функций $\{a_{i_0}(x), u(x,y)\}$ из следующих условий

$$-\sum_{i=1}^{n-1}a_i(x)u_{x_ix_i}-a_n(x)u_{yy}+c(x)u=h(x,y),\ (x,y)\in D_1, \tag{1}$$

$$u(x,y)\big|_{\Gamma}=f(\xi,\eta),\ (\xi,\eta)\in\Gamma, \tag{2}$$

$$a_{i_0}(x)u_{\nu}(x,y)\big|_{\gamma}=g(\xi,\eta),\ (\xi,\eta)\in\gamma, \tag{3}$$

где $0<c(x)\in C^{\alpha}(\overline{D})$, $0<a_i(x)\in C^{\alpha}(\overline{D})$,

$i=1,2,...,i_0-1,i_0+1,...,n, h(x,y)\in C^{\alpha}(\overline{D}_1)$, $f(\xi,\eta)\in$

$\in C^{2+\alpha}(\Gamma), g(\xi,\eta)\in C^{\alpha}(\gamma)$ –заданные функции, $0<\alpha<1$, ν – направление внутренней нормали поверхности γ, $u_{\nu}(x,y)\big|_{\gamma}\equiv\dfrac{\partial u}{\partial\nu}(x,y)\big|_{\gamma}$.

При совпадении коэффициентов $a_i(x)$, $i=1,2,...,n$ постановка задачи совпадает с постановкой задачи работы [1].

Определение. Функции $\{a_{i_0}(x), u(x,y)\}$ назовем решением задачи (1) – (3) ,если $0<a_{i_0}(x)\in C(\overline{D}), u(x,y)\in C^2(D_1)\cap C(\overline{D}_1)$ существуют пределы функций $u_{x_i}(x,y)$, $i=1,2,...,n$, $x_n=y$ при $(x,y)\to(\xi,\eta)\in\gamma$ и удовлетворяются соотношения (1) – (3).

Задачу (1) также можно записать в следущей форме

$$-\sum_{i=1}^{i_0-1}a_i(x)u_{x_ix_i}-a_{i_0}(x)u_{x_{i_0}x_{i_0}}-\sum_{i=i_0+1}^{n}a_i(x)u_{x_ix_i}+c(x)u=h(x,y),(x,y)\in D_1.$$

Аналогично можно рассмотреть задачу об определении $\{a_1(x),a_2(x),...,a_n(x), u(x,y)\}$ из условий (1) – (2) и следующих условий

$$a_i(x)u_{\nu}(x,y)\big|_{\gamma_{i_i}}=g_i(\xi,\eta),\quad (\xi,\eta)\in\gamma_i,\ i=1,2,...,n, \tag{4}$$

где ν – направление внутренней нормали поверхности γ_i, $u_{\nu}(x,y)\big|_{\gamma_{i_i}}\equiv\dfrac{\partial u}{\partial\nu}(x,y)\big|_{\gamma_{i_i}}$,

$g_i(\xi,\eta)\in\tilde{N}^{\alpha}(\gamma_i)$, $i=1,2,...,n$.

Здесь γ_i, $i=1,2,...,n$ $-n-$мерные гиперповерхности,принадлежащие области $\overline{D}_1$ и пусть существуют достаточно гладкие функции $F_i(x)$ такие, что $\gamma_i=\{(x,y): y=F_i(x), x\in\overline{D}\}, i=1,2,...,n$. Очевидно,что γ_i можеть быть,для каждого i например,куском границы Γ таким,что его проекция на n–мерное пространство покрывает область $\overline{D}$.

Определение. Функции $\{a_1(x),a_2(x),...,a_n(x), u(x,y)\}$ назовем решением задачи (1) – (3) ,если $0<a_i(x)\in C(\overline{D}), i=1,2,...,n, u(x,y)\in C^2(\overline{D}_1)\cap C(\overline{D}_1)$ существуют пределы функций $u_{x_i}(x,y)$, $x_n=y$ при $(x,y)\to(\xi,\eta)\in\gamma_i$, $i=1,2,...,n$ и удовлетворяются соотношения (1) – (3).

БИБЛИОГРАФИЧЕСКОЙ СПИСОК

1. Искендеров А.Д. Обратная задача об определении коэффициентов эллиптического уравнения. Диф.уравнения. 1979.- Т.20, №11. с.858 -867.
2. Клибанов М.В. Обратные задачи в целом и Карлемановские оценки. Диф. уравнения. 1984.- Т.20 № 6. с.1035-1041.
3. Вахитов И.С. Обратная задача идентификации старшего коэффициента в уравнении диффузии- реакции. Дальневосточный матем. жур. 2010.- Т10, № 2. – с. 93- 105.
4. Алиев Р.А. Об определении неизвестных коэффициентов при старших производных в линейном эллиптическом уравнении. Вест. Сам. гос. тех. ун-та. сер. физ. -мат. науки. 2014, № 3 (36), с.31–43.

Ramiz Ataş oğlu Əliyev
Azərbaycan Kooperasiya Universiteti

Xətti elliptik tənlikdə məlum olmayan əmsalların təyini haqqında

Xülasə

İşdə xətti elliptik tənliklərdə məlum olmayan əmsalların təyininə dair tərs məsələsinə baxılır. Varlıq,yeganəlik və dayanıqlıq teoremləri isbat olunmuşdur. Ardıcıl yaxınlaşma metodundan istifadə edərək həllin tapılması alqoritmi qurulmuşdur.

Açar sözlər: tərs məsələ, elliptik tənlik,nizamlayıcı alqoritm

Ramis Atash Aliyev
Azerbaijan Cooperation University

About the determination of unknown coefficiens in the linear eliptic equation

Summary

Inversion problems on restoration of coefficients to the differential equations with is inverstigated under varions boundary conditions private derivatives are of interest in many applied reseaches.Theorems of existence, uniqueness and stability are proved. Using a metod consecutive the alqorithm for definition of several factors is constucted.

Key words: inversion problem, elliptic equation.

Sevda Elşən qızı ƏLİYEVA
Azərbaycan Kooperasiya Universitetinin doktorantı

İNNOVASİYA SFERASINDA DÖVLƏT-ÖZƏL ƏMƏKDAŞLIĞININ HƏYATA KEÇİRİLMƏSİNİN MÜASİR FORMALARI

Xülasə

Məqalədə dövlət-özəl sektor əməkdaşlığının mahiyyəti açılır, bu əməkdaşlığın əsas formaları nəzərdən keçirilir, dünya ölkələrinin də təcrübəsinə əsasən bu əməkdaşlığın faydalı olduğu diqqətə çatdırılır. Xüsusilə innovasiya sahəsində qarşılıqlı əməkdaşlığın, bu mühüm məsələdə özəl biznesin rolunun artırılması ölkəmizdə də innovativ iqtisadiyyatın formalaşdırılmasına müsbət təsir göstərəcəyi əsaslandırılır.

Açar sözlər: innovasiya, dövlət-özəl sektor əməkdaşlığı, dövlətin innovasiya siyasəti, dövlət və özəl sektor arasında dialoq, innovativ biznes mühiti, R&D xərcləmələri, Strateji Yol Xəritəsində dövlət-özəl tərəfdaşlığı.

***

Müasir dövrdə satış bazarları, xammal resursları, eyni zamanda, insan kapitalına çıxış uğrunda dövlətlər arasında qızğın mübarizə aparıldığı bir dövrdə ölkənin rəqabətə tab gətirməsi onu təm-

sil edən şirkətlərin davamlılığından xeyli dərəcədə asılıdır. Bu baxımdan yerli sahibkarlığın inkişafında şirkətlərlə yanaşı dövlət strukturları, ictimai təsisatlar da maraqlı olmalıdırlar. Dövlət qurumlarının özəl sektorla birgə fəaliyyəti yerli şirkətlərin və biznes mühitinin inkişafına, onların bazarda dayanıqlı mövqe tutmasına, işsizliyin azalmasına və əhalinin sosial rifah halının yüksəlməsinə gətirib çıxaracaqdır.

İqtisadi ədəbiyyatlarda və təcrübədə dövlət və özəl sektorun əlaqələri, əməkdaşlıq münasibətləri geniş spektrli bir mövzu kimi iqtisadi, sosial, hüquqi, mədəni, siyasi və s. cəhətləri özündə əks etdirir. Bu münasibətləri dövlətin özəl sektora yardımları, əlverişli qanunvericiliyin formalaşdırılması, maliyyə resurslarının təqdim olunması və əlçatanlığının asanlaşdırılması, özəl sektorun korporativ sosial məsuliyyəti və s. fəaliyyətlər kimi xarakterizə etmək mümkündür. Yəni, burada qarşılıqlı əməkdaşlıq və dialoqdan söhbət gedir. Bu dialoq dövlətlə, onu təmsil edən strukturlarla özəl sektorun, sahibkaların bir-birilərini yaxından anlamaları, problemlərin həllinə birgə səy göstərmələri, təşəbbüs və təkliflərlə çıxış etmələri baxımından ciddi əhəmiyətə malikdir. Bu proses dövlətə yerli biznes mühitinin, özəl sektorun, sahibkarlığın inkişafı ilə bağlı həyata keçirdiyi tədbirlərin dərinə nüfuz etməsinə şərait yaratmaqla yanaşı, eyni zamanda, özəl sektora da fəaliyyəti zamanı qarşılaşdığı çətinlikləri və problemlərini birbaşa olaraq dövlətə çatdırması və tez bir zamanda onların həllinə nail olmağa imkan verir.

Qeyd edək ki, müasir anlamda "dövlət-özəl sektor əməkdaşlığı" ("public-private partnership - PPP") dedikdə, ictimai məzmun daşıyan beynəlxalq və yerli layihələrin həyata keçirilməsi məqsədi ilə dövlət və biznes arasında yaradılmış institusional və təşkilati alyans başa düşülür. Adətən, belə alyanslar müvəqqəti xarakter daşıyır, yəni konkret layihənin həyata keçirilməsi məqsədi ilə müəyyən bir müddətə yaradılır və layihənin icrası başa çatdıqdan sonra fəaliyyətini dayandırır. Müxtəlif sosial-iqtisadi inkişaf mərhələsində olan ölkələrin təcrübəsinin təhlili göstərir ki, bu tip əməkdaşlıqlar sosial infrastruktur (səhiyyə, təhsil, istirahət və turizm), nəqliyyat (avtomobil yolları, dəmir yolları, hava limanları, dəniz limanları, boru nəqliyyatı və sair), kommunal (su təchizatı, elektrik təchizatı, suyun təmizlənməsi, qaz təchizatı və sair) sektorlarında daha uğurla tətbiq edilir. Bununla belə, bu sektorlar içərisində nəqliyyat infrastrukturu daha yüksək xüsusi çəkiyə malikdir [1].

Qeyd edilən iri infrastruktur layihələrinin həyata keçirilməsinin irihəcmli investisiya tələb etməsi və dövlətin və ya özəl sektorun ayrılıqda maliyyə resurslarının bunu qarşılamaq imkanının məhdud olması səbəbindən həmin layihələrin icrası zamanı qarşılıqlı əməkdaşlığa ehtiyac yaranır. Dünya Bankının məlumatlarına əsasən, 2016-cı ildə dünya üzrə infrastruktur layihələrinə dövlət-özəl tərəfdaşlığı mexanizmi ilə 52,3 milyard ABŞ dolları həcmində investisiya yatırılmışdır. Dünyada bu mexanizm vasitəsilə, hava limanlarının, dəmir yollarının, dəniz limanlarının, magistral yolların, elektrik, su, qaz kimi kommunal xidmətlər üzrə infrastruktur obyektlərinin, telekommunikasiya xətlərinin təmir və tikintisinin maliyyələşdirilməsi təmin edilmişdir [2].

Son dövrlərdə əksər inkişaf etmiş ölkələr əsasən dövlət paternalizmindən imtina edərək, bərabər hüquqlu dövlət -özəl sektor əməkdaşlığına xüsusi önəm verirlər. Dünya təcrübəsində dövlətlə biznesin konkret hər hansı formada əməkdaşlığının iki sektor arasında işbirliyinə aid edilməsi ilə bağlı ümumi fikir yoxdur. Dövlət-özəl sektor əməkdaşlığı dövlətin biznes layihələrinə qoşulmasını deyil, ictimai əhəmiyyətli layihələrə dövlət tərəfindən özəl sektorun cəlb olunması mexanizmlərinin tətbiqini nəzərdə tutur.

İnnovativ məhsulların istehsalı və ixracı, yüksək texnologiyaların yaradılması sahəsində dövlət və özəl sektor arasında əməkdaşlıq innovasiyalı iqtisadiyyatın inkişaf etdirilməsində mühüm əhəmiyyət kəsb edir.

Bilindiyi kimi, innovasiyalar 5 əsas faktora əsaslanır: sərmayələr, institutlar, insan kapitalı, mövcud olan infrastruktur və biznes mühit. Hazırda bu məsələlərin aktuallığı ən mühüm dövlət sənədlərində öz əksini tapmışdır. Belə ki, bir sıra dövlət proqramlarında və normativ-hüquqi sənədlərində innovasiyalarla bağlı müddəalar vardır. İlk növbədə "Elm haqqında" Azərbaycan Respublikasının Qanunu (14.06.2016) Azərbaycanda elmi fəaliyyətin təşkili, idarə edilməsi və inkişafı sahəsində dövlət siyasətinin əsas prinsiplərini, elmin və elmi-innovasiya fəaliyyətinin məqsədlərini, elmin maliyyələşdirilməsi mexanizmlərini, elmi nailiyyətlərin stimullaşdırılmasını

müəyyən edir. Qanunun "Elmi innovasiya sahəsində dövlət siyasətinin əsas istiqamətləri" adlanan 4-cü maddəsinə əsasən övlət elmi innovasiya fəaliyyətini həyata keçirən bütün müəssisə və təşkilatlar üçün bərabər şərait yaradır və onların fəaliyyətini stimullaşdırır. Həmin maddəyə əsasən elmi innovasiya sahəsində dövlət siyasəti bu istiqamətlərdə reallaşır: dövlət innovasiya sisteminin formalaşması və inkişafının strateji istiqamətlərinin müəyyən edilməsi; innovasiya layihələrinin maliyyələşməsi, investisiyaların cəlb edilməsi və təşviqi üzrə əlverişli şəraitin yaradılması; elmi innovasiya subyektlərinin - inteqrativ elm, təhsil və sahibkarlıq mərkəzləri, texnopolislər, elmi texnologiya parkları, texnoloji inkubator, innovasiya fondları, innovasiyalar üzrə məlumat informasiya bankının yaradılması; yüksək texnologiyalara əsaslanan istehsal sahələrinin yaradılması, satış bazarlarının təmin edilməsi və xarici bazarlara çıxışı; innovativ xarakterli inkişaf təcrübəsinin öyrənilməsi, inkişaf strategiyasının hazırlanmasında ondan istifadə edilməsi.

Bundan başqa, "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasında Azərbaycanda innovasiya əsasli iqtisadiyyatın qurulması gələcək üçün əsas prioritet sahələrdən biri kimi nəzərdə tutulmuşdur.

Sahibkarlıq fəaliyyətinin davamlı inkişafı Azərbaycanda dövlətin iqtisadi siyasətinin mühüm tərkib hissəsidir. Son illərdə qanunvericilik bazasının, inzibati prosedurların və dövlət-sahibkar münasibətlərinin təkmilləşdirilməsi istiqamətində dövlət tərəfindən kompleks tədbirlər həyata keçirilmişdir. Azərbaycanda həyata keçirilən iqtisadi islahatların səmərəliliyinin artırılması özəl sektorla sıx əməkdaşlığın qurulmasını da zəruri edir ki, bu istiqamətdə diqqət tələb edən əsas məsələ dövlət-özəl tərəfdaşlığıdır.

Belə ki, Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsində dövlət-özəl tərəfdaşlığının inkişafı ilə bağlı konsepsiyanın hazırlanması nəzərdə tutulmuşdur.

Sahibkarlığın inkişafı problemlərinin bir-biri ilə əlaqədar olması, onların həllinin müəyyən bir sistemin daxilində reallaşmasını zəruri edir. Belə ki, müəyyən bir istiqamətdə sahibkarların problemlərinin həllinə nail olmaqla ölkədə işgüzar fəaliyyətin əlverişli mühitini təmin etmək mümkün deyil. Dünya iqtisadi təcrübəsi göstərir ki, sahibkarlığın zəruri iqtisadi mühitinin formalaşmasına yönəldilmiş tədbirlərin xüsusi sistem çərçivəsində reallaşması məqsədəuyğundur. Bu, qarşıya qoyulmuş strateji məqsədə çatmağı təmin edir.

Ölkəmizdə sahibkarlığın inkişafı üzrə qəbul edilmiş Dövlət Proqramları bu sahənin inkişafı istiqamətində həyata keçirilən tədbirlərin sistemliliyini təmin etmiş, bu tədbirləri vahid strategiyanın həyata keçirilməsinə yönəltmişdir.

Qeyd edək ki, dövlət innovasiya siyasətində dövlət-özəl sektor əməkdaşlığını təşviq etməlidir. Bu zaman texniki və bilik dəstəyi ilə çalışılmalıdır ki, yeni şirkətlərdə innovasiya strategiyası daimi qiymətləndirmədən keçən ümumi biznes inkişaf planının tərkib hissəsi olsun. İnnovasiya strategiyası bazarın tələblərinə və istehlakçıların gözləntilərinə uyğun qurulmalıdır. İnnovasiya siyasəti qlobal trendləri də nəzərə almalıdır. Belə ki, tədqiqatlar göstərir ki, R&D xərcləmələrinə görə 2018-ci ilə qədər olan dövrün dünyada öncül sektorları süni intellekt, böyük məlumat bazaları ilə iş ("big data analysis"), bio-nanotexnologiya, informasiya texnologiyaları, biomühəndislik, fərdi tibbi diaqnostika alətləri, nanotexnologiya, bərpa olunan enerji, proqram təminatı, robot sənayesi olacaq [4].

Dünya Bankının inkişaf etməkdə olan ölkələr üçün innovasiya siyasəti tövsiyələrinə uyğun olaraq innovasiya siyasəti bütün hökumətin öhdəliyinə çevrilməli, innovator fərd və şirkətləri müəyyən edən və dəstəkləyən mexanizmlər hazırlanmalı, vençur kapitallaşması üçün zəruri normativ-hüquqi baza formalaşdırılmalı, həm özəl, həm də dövlət sektorunun tədqiqat və işləmə xərclərinin artımı daha çox qeyri-dövlət və xarici maliyyə mənbələri hesabına stimullaşdırılmalı, təhsil sistemi innovativ düşüncəni dəstəkləyən şəkildə yenidən dizayn edilməli, xarici ticarət və investisiya fəaliyyətləri stimullaşdırılmalıdır.

Beləliklə, innovasiya sahəsində dövlət-özəl tərəfdaşlığı formalaşdırmaq üçün ilk növbədə bütün səviyyələrdə - dövlət, özəl biznes və elmi ictimaiyyət səviyyələrində fəal dialoqun inkişaf etdirilməsi vacibdir. Ölkəmizin innovasiya inkişafı modeli çərçivəsində dövlət və özəl biznesin rolunu müəyyənləşdirmək və konsolidasiya etmək, dünya təcrübəsinə əsaslanaraq innovasiya sa-

həsində dövlət və biznes ittifaqının inkişafı üçün əlverişli mühit yaratmaq üçün bütün vasitələrdən istifadə etmək mühüm əhəmiyyətə malikdir.

ƏDƏBİYYAT

1. Майданик В.И., Савельева И.Н. Известия УрГЭУ, 4(30), 2010.
2. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi.
3. PWC. "2016 Global Innovation 1000 Study".
4. Bakıda "Açıq İnnovasiyalar üzrə Startap Turu" keçiriləcək. "AzərTAc" İA. 04.04.2017. http://azertag.az/xeber/Bakida_Achiq_Innovasiyalar_uzre_-Startap_Turu_kechirilecek-

Севда Эльшан кызы Алиева
докторант Азербайджанского Университета Кооперации

Современные формы государственно-частного сотрудничества в инновационной сфере

Резюме

В статье раскрывается сущность государственно-частного партнерства, обсуждается ключевые формы сотрудничества и подчеркивается полезность этого сотрудничества на основе опыта стран мира. Особенно в области инноваций роль частного бизнеса в этом важном вопросе окажет положительное влияние на формирование инновационной экономики в нашей стране.

Ключевые слова: инновации; сотрудничество между государственным и частным секторами, инновационная политика государства; диалог между государственным и частным секторами; инновационная бизнес-среда, расходы на НИОКР, государственно-частное партнерство в Стратегической дорожной карте.

Sevda Elshan Aliyeva
PhD candidate of Azerbaijan Cooperation University

Modern forms of public-private cooperation in the innovation sphere

Summary

The article reveals the essence of public-private partnership, discusses the key forms of cooperation and emphasizes the usefulness of this cooperation based on the experience of the countries of the world. Especially in the field of innovation, the role of private business in this important issue will have a positive impact on the formation of an innovative economy in our country.

Key words: innovation; state-private sector cooperation, innovation policy of the state; dialogue between public and private sectors; innovative business environment, R&D spending, public-private partnership in the Strategic Road Map.

Aida Şükür qızı ŞÜKÜROVA
baş müəllim, Azərbaycan Dövlət
İqtisad Universiteti (UNEC)

AQROBİZNESDƏ İŞGÜZAR İNGİLİS DİLİNİN ROLU VƏ ƏHƏMİYYƏTİ

Xülasə

Məqalədə aqrar sahədə mütəxəssis hazırlığında işgüzar ingilis dilinin rolu, tədrisi, kənd təsərrüfatına aid terminlərin öyrənilməsi və ilkin mənbədən tərcümənin əhəmiyyəti ilə əlaqədar məsələlərə baxılmışdır. ASK-da ixtisaslı mütəxəssis hazırlığı sisteminin yaxşılaşdırılmasının əsas istiqamətləri xarakterizə edilmişdir.

Açar sözlər: aqrobiznes, kənd təsərrüfatı, ingilis dili, mütəxəssis hazırlığı, tədris.

***

Aqrar sahə sferasında beynəlxalq əməkdaşlığın intensiv inkişafı xarici dillərin aktiv mənimsənilməsini zəruri edir. Ali məktəb məzunlarına verilən tələblərdən biri xarici dil biliklərinə elə səviyyədə yiyələnməkdir ki, bu onlara gələcək peşə fəaliyyəti sferasında onlardan aktiv və sərbəst istifadə etməyə imkan versin.

Ölkəmizdə aqrar biznes xarici şirkətlərlə-malgöndərənlərlə, alıcılarla, beynəlxalq elmi mərkəzlərlə və s. sıx əlaqədardır. Xarici tərəfdaşlarla qarşılıqlı münasibətlərin qurulmasında tərcüməçilərin və ya vasitəçi şirkətlərin iştirakı olmadan şəxsən birbaşa iştirak biznesdə və işgüzar münasibətlərdə mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, yeni layihələr, texnologiyalar və aqrar sahədə baş verən dəyişiklikləri tərcümə edilmiş media məqalələri və nəşrlərdən deyil, birbaşa ilkin mənbədən öyrənmək daha yaxşı nəticə verir.

Son illər ölkəmizdə xarici dillərin öyrənilməsinə böyük maraq yaranmışdır. Bununla yanaşı, xarici dil həm də insanların şüuruna və peşə fəaliyyətinə xeyli dərəcədə təsir edir.

Dünyada gedən qloballaşma və inteqrasiya nəticəsində həyatın bütün sferalarında mədəniyyətlərarası əlaqələrin kəskin artımı baş verir. Bu baxımdan hal-hazırda xarici dilin öyrənilməsinin mühüm əhəmiyyəti vardır. O, sosial məkana uyğunlaşmanın şərtlərindən biridir.

Xarici dili bilmək hər bir şəxsin təhsilinin ayrılmaz tərkib hissəsidir. Hazırkı şəraitdə işəgötürənlər xarici dil, xüsusilə ingilis dili bilən mütəxəssislərə üstünlük verirlər.

İngilis dili - beynəlxalq ünsiyyət dilidir. Bütün ali təhsil müəssisələrində və ixtisaslarda ingilis dili tədris edilir. Digər sahələr kimi, aqrar sektoru əhatə edən ixtisaslı mütəxəssislər də ingilis dilini bilməklə, xarici ölkələrin təcrübəsindən yararlanmalıdırlar. [1]

Kənd təsərrüfatı sferasında ingilis dili bilikləri aqrar bazarda rəqabətqabiliyyətli olmağa kömək edir.

Bu məqsədlə kənd təsərrüfatı ixtisaslarında təhsil alan tələbələr, həmçinin aqrar biznes sferasında peşə fəaliyyəti göstərən mütəxəssis və menecerlər üçün "Aqrobiznes üçün işgüzar ingilis dili" kursunun proqramının hazırlanması və tədrisi böyük əhəmiyyətə malikdir. Müasir kənd təsərrüfatı mütəxəssisi həm gündəlik həyatda, həm də peşə sferasında ingilis dilinin tərbiqi üçün xarici dildə danışıq nitqinə malik olmalıdır.

Gələcək mütəxəssis hazırlığının keyfiyyətinin yüksəldilməsi üçün məşğələlərin aparılmasının fərqli metod və formalarından istifadə edilməlidir. Bu, müsabiqə, olimpiada, konfrans və s. kimi ola bilər. Burada başlıca məqsəd tələbələrdə öz ixtisaslarına marağı artırmaq, bilik dairəsini genişləndirmək və onların tədris prosesində aktiv iştirakını təmin etməkdir. Bu məşğələlər tələbələrə yüksək ixtisaslı mütəxəssis kimi, tələbləri formalaşdırmağa imkan verir.

Müasir dünyada ingilis dili insanların həyatında əhəmiyyətli yer tutur. Əvvəllər bu dilə sadəcə xarici dil kimi yanaşılırdı. Lakin hazırkı qlobal və inteqrasiya şəraitində o, beynəlxalq ünsiyyət vasitəsi hesab edilir.

Kənd təsərrüfatı müəssisələri, digər sahələr kimi, beynəlxalq proseslərə daha çox cəlb olunmuşdur. Odur ki,"Aqrobiznes (və ya kənd təsərrüfatı) üçün işgüzar ingilis dili" aqrar-sənaye kompleksi mütəxəssislərinin hazırlanmasına və bu sahədə xarici ölkə təcrübəsindən səmərəli istifadəyə imkan verir.

Son illər ölkəmizdə ixtisaslı mütəxəssislərin böyük çatışmazlığı müşahidə edilir. 2016-cı ildə ölkəmizdə məşğul əhalinin 36,3 faizi kənd təsərrüfatı, meşə və balıqçılıq sahələrində çalışanlardır ki, onlardan da 3,1 faizi muzdla işləyən işçilərdir.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən hər il bu sahə üzrə təxminən 300 nəfər ali təhsilli mütəxəssis ali məktəbi bitirir. [2]

Nəzərə almaq lazımdır ki, bu məzunların təxminən 30 faizi kənd yerlərinə getmədən, şəhərdə qalıb uyğun və ya qeyri-ixtisas sahələrində çalışırlar.

Bu nöqteyi-nəzərdən sahə mütəxəssislərinin və məzunların hələ ali məktəb illərindən kənd yerlərində kənd təsərrüfatı işlərinə cəlb edilməsi üçün onlarla maarifləndirmə işləri aparılması və həvəsləndirmənin müasir metodlarından istifadə edilməlidir.

Kənd təsərrüfatında və aqrobiznesdə işgüzar ingilis dili kursu torpağın hazırlanması, əkinin aparılması, bitkilərə qulluq , fermer təsərrüfatı, avadanlıqlar və texnika, məhsuldarlığın yüksəldilməsi, torpağın münbitliyinin yaxşılaşdırılması və s. kimi mövzular üzrə ixtisaslaşdırılmış leksikanın öyrənilməsini özündə əks etdirməlidir.

Məlum olduğu kimi, bakalavriat səviyyəsinin ixtisaslar üzrə "Təhsil Proqramı"nda xarici dil üçün 13 kredit ayrılmışdır. [3] Bu kreditlərin 6-7-sini və ya təxminən 90 auditoriya saatını kənd təsərrüfatı və ya "Aqrobiznes üçün işgüzar ingilis dili" kursunun tədrisinə ayırmaq məqsədəuyğundur. Bu proqram ixtisasa aid xarici dildə olan ədəbiyyatı oxuyub başa düşməyə və onları tərcümə etməyi bacarmağa imkan verməklə işgüzar münasibətlərin qurulması zamanı kommunikativ əlaqələrin yaradılmasına hazır olmaq və beynəlxalq arenada fəaliyyət göstərə bilmək potensialına yiyələnmək kimi ümummədəni kompetensiyaları təmin edir.

"Aqrobiznes üçün işgüzar ingilis dili" peşə fəaliyyətində və uyğun səviyyələr üzrə SAT, TOEFL, İBT və BULATS beynəlxalq test imtahanlarında müvəffəqiyyət qazanmaq üçün tələbələrə kömək etməyə yönəlmişdir. [4]

Aqrar sahədə mütəxəssis hazırlığı üçün ingilis dilinin öyrənilməsinin üstünlükləri əsasən aşağıdakı kimi xarakterizə edilə bilir:

1. Original dildə elmi ədəbiyyatları öyrənmək olar. Bu, xarici ölkələrdə aqrar sahənin inkişafı ilə əlaqədar yenilikləri birbaşa ilkin mənbədən əldə etməyə imkan verir.

2. İngilis dili bilikləri xaricdə rahat istirahəti təmin edir, həmçinin o, xaricdə stajkeçmə üçün çox faydalı olacaqdır. Odur ki, xarici dil biliklərinə malik olmayan şəxs bir yerə getmək üçün özünə məhdudiyyət qoymağa məcbur olur.

3. Sosial statusun yüksəldilməsi nöqteyi-nəzərdən ingilis dili bilikləri işə qəbulda və iş tapmaqda həlledici amil ola bilər.

4. Müxtəlif kənd təsərrüfatı texnika və texnologiyaları, beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi imkanlarından tərcüməçinin iştirakı olmadan birbaşa yararlanmaq və s.

Beləliklə, aqrar sahə üçün ixtisaslı mütəxəssislərin hazırlanmasında və məzunların peşə fəaliyyətində işgüzar ingilis dilinin tədrisi, öyrənilməsi və tətbiqi beynəlxalq təcrübədən və elmi yeniliklərdən səmərəli istifadə etməyə imkan verir.

ƏDƏBİYYAT

1. Английский язык для специалистов сельского хозяйства. - Електрон ресурс. English 4 real.com.
2. Azərbaycanın Statistik Göstəriciləri. Bakı, 2017.
3. Bakalavriat səviyyəsinin ixtisas üzrə təhsil Proqramı. (Dövlət Standartı). Bakı, 2014.
4. Şükürova A.Ş. Universitetdə ingilis dilinin tədrisinin müasir metodları. Filologiya məsələləri. -Toplu. №16, Bakı, 2017.

Аида Шукюр кызы Шукюрова
ст. пред. Азербайджанский Экономический Университет

Роль и значение делового английского языка в агробизнесе

Резюме

В статье раскрываются вопросы, связанные с подготовкой квалифицированных специалистов, роль и обучение делового английского языка в сельском хозяйстве, знание терминов отраслей и значение перевода первоисточников и др. Охарактеризованы основные направления улучшения системы подготовки специалистов в АПК.

Ключевые слова: агробизнес, сельское хозяйство, английский язык, подготовка специалистов, обучение.

Aida Shukur Shukurova
senior Lecturer Department of Azerbaijan
State Economic Universities

The role and importance of business English in agribusiness

Summary

In article the problems connected with preparation of qualified staff in agriculture are revealed. The main directions of improvement of system of training in agrarian and industrial complex are characterized. The role of an assessment of young specialists in system of preparation and at traction of qualified staff in agrarian and industrial complex.

Key words: agribusiness, agriculture, English Language, specialist, teaching.

Nurlan Bəfa oğlu VERDİYEV
magistr

ƏRZAQ MƏHSULLARININ TƏDARÜKÜ VƏ SATIŞINDA LOGİSTİKANIN ROLU

Xülasə

Bazarın kompleks öyrənilməsi üçün məhsul satışı bazarında marketinq tədqiqatlarının aparılması, hazır məhsulların fiziki bölüşdürülməsinin təşkili, müxtəlif səviyyəli bölgü kanallarının yaradılması, məhsulların istehlakçılara çatdırılması üçün nəqliyyat növlərinin seçilməsilə əlaqədar müxtəlif xarakterli məsələlərin həlli, istehlakçılara göstərilən xidmətlər üzrə qrafiklərin yaradılması və beynəlxalq standartlara uyğun xidmətlərin göstərilməsinin təmin edilməsi, ilkin xammal və materialların, eləcə də bazar üçün nəzərdə tutulan hazır məhsulların keyfiyyətli formada istehlak yerlərinə çatdırılması məqsədilə anbarların seçilməsi və onların çevikliyinin artırılması, anbar əməliyyatlarının avtomatlaşdırılması, məhsulların fiziki bölüşdürülməsi zamanı bölgü kanallarının iştirakçılarının stimullaşdırılmasının həyata keçirilməsi mütləq mənada bu idarəetmənin obyektləri hesab olunurlar.

Açar sözlər: ərzaq məhsulları, tədarük, satış, logistika, istehlakçının tələbinin ödənilməsi, keyfiyyət.

***

Məhz hər bir təsərrüfat subyektinin iqtisadi baxımdan fəaliyyətinin ali məqsədi də təchizat-satış fəaliyyətini yaxşılaşdırmaqla məqsəd bazarda fəaliyyət dairəsini genişləndirmək, bazar seqmentlərini artırmaq, məhsul istehsalı və satışı üzrə bazar liderliyinə sahib olmaq kimi yüksək nəticələri əldə etməkdən ibarətdir.

Açar logistik funksiyalara aşağıdakılar aid edilir:

- istehlakçılara göstərilən xidmətlərin standartlara uyğunluğuna riayət olunması;
- tədarükatın idarə olunması;
- xammal, material və dəstləşdirici məmulatların nəql edilməsi;

- ehtiyatların idarə edilməsi;
- sifariş prosedurlarının idarə edilməsi;
- istehsalın material resursları ilə təminatı və istehsalın idarə edilməsi;
- qiymətin əmələ gəlməsi;
- məhsulların fiziki bölüşdürülməsi.

Logistik nöqteyi-nəzərdən əməli menecmentin əhəmiyyəti hazır məhsul buraxılışı üçün texnoloji proseslərdə material axınlarının və bitməmiş istehsalın məhsulun keyfiyyətinin yüksəldilməsi və məsrəflərin azaldılması baxımından effektiv idarə edilməsindən ibarətdir. Bu zaman əsas təqvim planlaşdırması, bitməmiş istehsalın və material resursları üzrə ehtiyatların səviyyəsinin minimumlaşdırılması, material resurslarına tələbatın proqnozlaşdırılması, istehsal dövrünün qısaldılması və s. logistik məsələlər böyük əhəmiyyət kəsb edir. Əməli menecmentin bu və ya digər məsələləri KANBAN, "optimal istehsal texnologiyaları", resurslara tələbatın planlaşdırılmasına şərait yaradan istehsaldaxili mikrologistik sistemlər vasitəsilə həll edilir.

Açar logistik funksiyalardan biri də qiymətin əmələ gəlməsidir. Qiymətin əmələ gəlməsi strategiyası istehsalçı firmaların marketinq və logistik strategiyaları ilə sıx əlaqədardır. Hər şeydən əvvəl logistik strategiya hazır məhsulun baza qiymətini təşkil edən ümumi logistik xərclərin səviyyəsini müəyyənləşdirirsə, marketinq strategiyası rentabelliyin planlaşdırılan səviyyəsini və bazar konyunkturasını, rəqiblərin qiymət siyasətini və proqnozlaşdırılan tələbə əsaslanan hazır məhsulların son satış qiymətlərini təyin edir.

İnkişaf etmiş xarici ölkələrdə logistik missiyaları marketinq miksinə uyğun olaraq logistik miks və ya "yeddi R" adlandırırlar: "ensuring the availability of the right product, in the right quantity and the right condition, at the right place, at the right time, for the right customer, at the right cost". "Yeddi R" qaydalarında logistik missiyanın keyfiyyət, vaxt və məsrəf kimi əsas cəhətləri əks edilmişdir.

Rəqabətə əsaslanan bazar iqtisadiyyatı şəraitində göstərilən bu cəhətlər böyük logistik əhəmiyyət daşıdıqlarından belə bir şəraitdə fəaliyyət göstərən firmalar (müəssisələr) özlərinin logistik missiyalarını hazırlayan zaman marketinq və məhsul istehsalı ilə əlaqədar ümumi strategiyanı bu missiyaya uyğunlaşdırmalıdırlar. Bu zaman firmanın (müəssisənin) missiyası əsasında müəyyənləşən logistikanın məqsədi isə təsərrüfat fəaliyyətinin ümumi nəticələri üzrə yüksək nailiyyət əldə etmək üçün material və maliyyə axınlarının optimal idarə edilməsindən ibarətdir.

Bölgü kanallarının köməyilə *"dartma"* (pull strategy) marketinq strategiyası adətən məhsulların satış həcmini artırmaq, istehlakçıları həvəsləndirmək, onlarda bu məhsullara qarşı motivasiya yaratmaq üçün istehsalçı firmaların özləri tərəfindən kütləvi informasiya vasitələrində geniş miqyaslı reklam kompaniyalarının aparılmasını nəzərdə tutur. Reklam istehlakçıların istehsalçı firmalardan (müəssisələrdən), topdan və ya pərakəndə satış ticarətilə məşğul olan vasitəçi strukturlardan ala biləcəyi məhsullara tələbi stimullaşdırır. Bu zaman sifariş paketinə müvafiq olaraq istehlakçıların bu tələbi məhsulların fiziki bölüşdürülməsi kanallarının səviyyəsinə uyğun formada pərakəndə satış şəbəkəsinə, oradan topdansatış strukturlarına, sonuncu mərhələdə isə istehsalçı firmalara ünvanlanır.

Beləliklə, reklam tədbirlərinin həyata keçirilməsi nəticəsində satışı stimullaşdırılan məhsulların istehsalçı firmadan (müəssisədən) müxtəlif bölgü kanalları vasitəsilə son istehlakçılara çatdırılması üçün bu və ya digər dərəcədə "dartma" qapalı sistemi formalaşır. Bu zaman bölgü kanallarının belə "dartma" qapalı sisteminə (strategiyasına) aid olub - olmamasından asılı olmayaraq bölüşdürmə şəbəkələrində bir qayda olaraq böyük həcmdə hazır məhsul ehtiyatının yaradılmasına bir o qədər də ehtiyac olmur.

"İtələmə" (push strategy) strategiyasının əsasını topdan və pərakəndə satış ticarətini həyata keçirən vasitəçi strukturlarla hazır məhsul istehsalçıları arasında kooperasiya əlaqələri təşkil edir. Məqsəd bazarı və ya onun konkret seqmenti üçün nəzərdə tutulan hazır məhsullar istehsalçı firmalar (müəssisələr) tərəfindən tələbin stimullaşdırılması formasından və ya dərəcəsindən, demək olar ki, asılı olmayaraq istehsal sferasından (sahələrindən) tədavül sferasına (vasitəçilərin bölgü kanallarına) "itələnir". Bu zaman məhsulların reklam olunması ilə əlaqədar tədbirləri (rek-

lam xərclərini) vasitəçi strukturlar müstəqil formada, bəzi hallarda isə istehsalçı firmalarla (müəssisələrlə) birlikdə aparırlar (çəkirlər). Çox vaxt alıcılar üçün xüsusi güzəştlər müəyyənləşdirmək və ya pərakəndə satış ticarəti şəbəkələrində əlavə hazır məhsul ehtiyatı yaratmaqla istehsalçı firmalar məhsulların bazara çıxışı və satışını həvəsləndirirlər. Qeyd olunan strategiyada əsas məqsəd ağırlıq mərkəzi topdan və pərakəndə satış ticarəti şəbəkələrində yerləşən hazır məhsul ehtiyatını tənzimləməkdən ibarətdir

Logistik nöqteyi-nəzərdən baxılan hər bir strategiya prinsip etibarı ilə fərqli xüsusiyyətlərə malikdir. Buna görə də burada nəqletmə, anbarlaşdırma və ehtiyatların idarə edilməsi kimi müxtəlif funksiyalara xüsusi diqqət yönəldildiyindən logistik menecment logistik kanallarda böyük həcmdə hazır məhsul ehtiyatı yaratmağa meyilli olan «itələmə» strategiyasına daha çox üstünlük verir. Lakin bu strategiya bir tərəfdən böyük həcmdə maliyyə vəsaitlərinin müxtəlif bölgü kanallarında əmtəəlik məhsul ehtiyatı formasında dondurulması baxımından optimal hesab edilməsə də, digər tərəfdən logistik menecment qarşısında çoxlu sayda problemlər yaradan, tələbi həvəsləndirməyə o qədər də səy göstərməyən «dartma» sistemi ilə müqayisədə olduqca əlverişlidir. Odur ki, bölüşdürmə şəbəkələrində strateji marketinq və logistik planları mütəmadi olaraq əlaqələndirmək lazım gəlir. Beləliklə, logistika təchizat, istehsal, marketinq, bölüşdürmə və satışın təşkili kimi firmanın baza funksiyaları arasında qarşılıqlı əlaqələrə vəhdət halında yanaşmaq və bu əlaqələri yaxşılaşdırmaq üçün həm aktiv, həm də inteqrativ potensiala malikdir. Məsələn, marketinq informasiyalarını formalaşdıran zaman logistik menecment istehsala təsir edir, istehsal-texniki tsikli optimallaşdırır və məhsulların xarakteristikasını yaxşılaşdırır. Təchizat, istehsal və satış mərhələlərində material resursları və hazır məhsul ehtiyatlarının rasional idarə edilməsini həyata keçirən logistika ümumi məsrəfləri azaldır, hazır məhsulun qiymətini aşağı salır və nəticədə firmanın bazardakı strateji mövqeyini möhkəmləndirir. Logistik menecment marketinq tədqiqatlarının aparılması nəticəsində satışın pronozlaşdırılan həcminə uyğun olaraq material resurslarının tədarükat həcmilə hazır məhsulun istehsal həcmi arasında funksional əlaqələrin səmərəliliyinə təminat verir.

Dünya təsərrüfat sistemində ən geniş yayılmış mikrologistik konsepsiyalardan biri JIT (just - in-time) «dəqiq vaxtında» konsepsiyası hesab edilir. Bu sistem ilk dəfə yapon istehsalçıları tərəfindən təklif edilmiş və verdiyi iqtisadi səmərə baxımından özünü ABŞ-da da təsdiq etmişdir. Daha doğrusu, bu konsepsiyanın meydana gəlməsi Yaponiyanın Toyota Motors və digər avtomobil şirkətlərinin KANBAN mikrologistik sisteminin geniş tətbiq edilməyə başlandığı ötən əsrin 50-ci illərinə təsadüf edir. Bir qədər sonra KANBAN mikrologistik sistemindən avtomobil sənayesində istifadə etməyə cəhd edən amerikalılar da onu «dəqiq vaxtında» konsepsiyası adlandırmışlar. Bu konsepsiyanın tətbiq edildiyi ilk illərdə başlıca məqsəd avtomobil və ya onun ehtiyat hissələrinin hazırlanması ilə bağlı istehsal prosesinin fasiləsiz getməsi üçün istənilən növə və təyinata malik material resursları üzrə ehtiyatların yaradılmamasından ibarət idi. Başqa sözlə, «dəqiq vaxtında» konsepsiyası məntiqi baxımdan əmtəəlik məhsulun istehsalı üçün lazım olan material resursları üzrə ehtiyatların səviyyəsini mövcud məhsul partiyasının istehsalına lazım olan həddə qədər minimumlaşdırmaqdan ibarətdir. Bu isə öz növbəsində məhsulgöndərənlərdən 100% keyfiyyətli məhsulların göndərilməsini tələb edir.Son illərdə bir sıra Qərb ölkələrinə məxsus firma və şirkətlər istehsalın təşkilində və əməli menecmentdə ***«lean production»*** logistik konsepsiyasını geniş tətbiq etməyə başladılar. Bu konsepsiya mahiyyət etibarı ilə «dəqiq vaxtında» konsepsiyasının inkişaf etməsi nəticəsində meydana çıxıb və özünə KANBAN və «resurslara / tələbatın planlaşdırılması» sistemlərindən ibarət elementləri birləşdirir. «Lean production» istehsaldaxili logistik konsepsiyası mahiyyət baxımından bir - birilə qarşılıqlı əlaqədə olan aşağıdakı komponentləri özündə birləşdirir:

- yüksək keyfiyyət;
- məhsul partiyasının kiçik ölçüdə olması;
- ehtiyatların minimum səviyyəsi;
- yüksək ixtisaslı işçi heyətinin mövcudluğu;
- çevik istehsal texnologiyaları.

ƏDƏBİYYAT

1. Telman İmanov. “Logistikanın əsasları.” Bakı- 2005.
2. Т.В.Алесинская. “Основы логистики.” Общие вопросы логистического управления. Учебное пособие. Таганрог: Изд-во ТРТУ, 2005.
3. http://unec.edu.az/application/uploads

Нурлан Бафа оглу Вердиев
магистр

Роль логистики в поставках и продаже пищевых продуктов

Резюме

Исследование на рынке сбыта продукции, организация физического распределения готовой продукции, создание различных уровней каналов сбыта, решение различных вопросов, связанных с выбором видов транспорта для доставки продукции потребителям, предоставление услуг потребителям и предоставление международных стандартов выбор складов и повышение их гибкости для доставки первичного сырья и материалов, а также готовой продукции для рынка, автоматизации складских операций, поощрения участников каналов сбыта при физическом распределении продуктов считаются объектами этого управления.

Ключевые слова: продукты питания, снабжение, сбыт, логистика, удовлетворенность клиентов, качество.

Nurlan Bafa Verdiyev
master

The role of logistics in the supply and sale of food products

Summary

Research in the sales market, the organization of the physical distribution of finished products, the creation of different levels of distribution channels, the solution of various issues related to the choice of modes of transport for delivery of products to consumers, the provision of services to consumers and the provision of international standards, the choice of warehouses and their flexibility for the delivery of primary raw materials and materials, as well as finished products for the market, automation of warehouse operations, encouragement of participants in sales channels for the physical distribution of pr The products are considered to be the objects of this control.

Key words: food, supply, marketing, logistics, customer satisfaction, quality.

Eşqin İlham oğlu HƏSƏNOV
ADİU-nun magistri

BÖHRAN ŞƏRAİTİNDƏ PƏRAKƏNDƏ SATIŞ SEKTORUNDA MARKETİNQİN İDARƏ OLUNMASI

Xülasə

Bazar iqtisadiyyatına keçid müasir iqtisadi strategiyanın ana xəttini təşkil edir və iqtisadi inkişaf da bu istiqamətdə formalaşır. Getdikcə bazar münasibətləri daha geniş xarakter alaraq bütünlükdə istehsal münasibətlərinin mahiyyətini dəyişir və ona yeni məzmun verir. Bu baxımdan bu gün sürətlə genişlənən bazarlarda istehsalçı firmalar, alıcılar, yaxud da istehlakçılar arasında əlaqələr daha da genişlənir. Bu əlaqələrin genişlənməsi isə pərakındə ticarət müəssisələrinin sayının artmasına səbəb olur. Böhran şəraitində anti-böhran strategiyalarının işlənib hazırlanması nə qədər önəmlidirsə, onun realizasiyası, həyata keçirilməsi də bir o qədər önəmlidir.

Açar sözlər: böhran, pərakəndə ticarət, satış sektoru, marketinqin idarə olunması.

***

Məlum oldu ki, istənilən böhran şəraitində ilkin tədbir və düzgün qiymətləndirmə, yalnız onun nəzəri əsaslarına tam yiyələndikdən sonra mümkündür. Marketinqin özü, vəzifələri və prinsiplərini öyrənmədən müəssisələr strateji marketinq addımlarını düzgün müəyyən edə bilməzlər. Böhran şəraitində müəssisələrin strateji marketinq idarəetməsinin nəzəri əsaslarını daha yaxşı mənimsəmək üçün tədqiqat dairəmizi bir az daha konkretləşdirərək, qısaldaraq pərakəndə satış sektorunda istehsal-satış prosesinin təşkilini bazar konsepsiya amili kimi təhlil etdik. Müəyyən olundu ki, Azərbaycanda pərakəndə satış sektoru böhran ərəfəsində, digər sektorlar ciddi təsirlərə məruz qaldığı halda, daha az mənfi təsirə məruz qalmışdır. Bunun əsas səbəblərindən biri kimi isə orta sahibkarlıq fərdlərinin əsasən iştirakçısı olduğu pərakəndə satış sektorunda Azərbaycanda olduğu kimi dünyada da kəskin rəqabətin olduğunu göstərmək olar.

Böhran şəraitində müəssisələrin strateji marketinq idarəetməsinə Azərbaycan şirkətlərində biri timsalında dissertasiya işində təhlillər aparılmışdır. Konkret olaraq pərakəndə satış sektorunun özəllikləri və böhran şəraitində atılmış addımlar təhlil edilmişdir. Araşdırmalar göstərir ki, Azərbaycan müştəriləri böhranın ən çox təsir etdiyi 2009-cu ildə özlərinin ancaq əsas ehtiyaclarına pul xərcləməyə üstünlük vermişlər. Əvəzində böhran illərində yığımın səviyyəsi artmışdır. Bütün deyilənləri nəzərə alaraq, dissertasiya işinin sonunda aldığımız nəticələr əsasında məhz bizim üçün daha prioritet olan Azərbaycanda pərakəndə satış sektorları daxil olmaqla bütün sektorlar, böhran şəraitində fəaliyyət göstərən müəssisələr üçün aşağıdakı kimi təkliflər verə bilərik:

- süni qiymət artımlarına, inhisarçılığa və haqsız rəqabətə qarşı dövlət nəzarət tədbirlərinin gücləndirilməsi;
- xaricdə saxlanılan valyuta ehtiyatlarının bir hissəsinin güzəştli şərtlərlə yerli bankların istifadəsinə verilməsi, ümumiyyətlə, banklararası və əhaliyə ünvanlanmış güzəştli kreditlərin stimullaşdırılması;
- fermerlərə və digər sahibkarlara (xüsusən satış və ya istehsal dövriyyəsi azalan) dövlət köməyinin artırılması, regional və sektoral vergi güzəştlərinin tətbiqi, qeyri-neft sektoru üzrə ixracın stimullaşdırılması;
- dövlət investisiya proqramının prioritetlərinə yenidən baxılması, büdcə vəsaitlərindən səmərəli istifadənin və dövlət maliyyə intizamının gücləndirilməsi;
- problemli borc öhdəliklərinin bəziləri üçün seçməli qaydada dövlət zəmanətinin tətbiqi və qeyri-formal iqtisadiyyatın uçota götürülməsi;
- sayı getdikcə artan işsizlərin təkrar peşə hazırlığını təmin edən layihələrin maliyyələşdirilməsi və onlara verilən müavinətlərin artırılması;
- ev təsərrüfatlarında və mülkiyyətindən asılı olmayaraq müəssisələrdə bütün növ qənaətin stimullaşdırılması üçün məlumatlandırma kampaniyalarının aparılması;
- qiymətli kağızlar bazarında korporativ borc kağızları sektorunun inkişafının iqtisadi yollarla təşviq edilməsi;
- anti-inflyasiya tədbirləri kimi fiskal və monter alətlərdən heç birinə birmənalı üstünlük verməmək və onların kombinasiyasına çalışmaq lazımdır.
- Böhranın davam etdiyi müddətdə və böhrandan sonra da hər bir müəssisədə "böhran komandaları" böhranla effektiv mübarizə üçün formalaşdırılmalıdır.

"Müştəri marketinqi modeli"nin yeni elmi-praktiki anti-böhran aləti kimi müəssisələrdə tətbiqinə başlanılmalıdır.

Böhran şəraitində müəssisələrin strateji marketinq idarəetməsinə dair dissertasiya işində bir çox aspektlərdən istər böhran, istərsə də böhran şəraitində idarəetmə anlayışı, idarəetmədə marketinqin yeri və rolunu aydınlaşdırdıq. Məlum oldu ki, istənilən böhran şəraitində ilkin tədbir və düzgün qiymətləndirmə, yalnız onun nəzəri əsaslarına tam yiyələndikdən sonra mümkündür. Marketinqin özü, vəzifələri və prinsiplərini öyrənmədən müəssisələr strateji marketinq addımlarını düzgün müəyyən edə bilməzlər. Böhran şəraitində müəssisələrin strateji marketinq idarəetməsinin nəzəri əsaslarını daha yaxşı mənimsəmək üçün tədqiqat dairəmizi bir az daha konkretləşdirərək, qısaldaraq pərakəndə satış sektorunda istehsal-satış prosesinin təşkilini bazar konsepsiya amili kimi təhlil etdik. Müəyyən olundu ki, Azərbaycanda pərakəndə satış sektoru böhran ərəfəsində, digər sektorlar ciddi təsirlərə məruz qaldığı halda, daha az mənfi təsirə məruz qal-

mışdır. Bunun əsas səbəblərindən biri kimi isə orta sahibkarlıq fərdlərinin əsasən iştirakçısı olduğu pərakəndə satış sektorunda Azərbaycanda olduğu kimi dünyada da kəskin rəqabətin olduğunu göstərməkdədir.

Satış müəssisələrində strateji marketinqin təşkili və anti-böhran strategiyalarını təhlil edərkən marketinq idarəetməsinin nə qədər önəmli olduğu aydınlaşdı.

Marketinqin idarə edilməsi prosesi həm marketinq fəaliyyətinin təhlilini və planlaşdırılmasını, planların realizasiyasını və ona nəzarətin həyata keçirilməsini özündə birləşdirir, həm bütün məhsulları, ideyaları, xidmətləri, bütün bazarları əhatə edir, həm də mübadilə prosesinə əsaslanaraq mübadilədə iştirak edən bütün tərəflərin tələbatının ödənilməsinə xidmət edir. Həmçinin böhran şəraitində marketinq idarəetməsinin tək-tək deyil, kompleks formada tətbiq olunmasının effektli olduğu aydınlaşmışdır. Böhran şəraitində marketinq idarəetməsi nə qədər önəmlidirsə, strateji marketinq planlaşdırması da bir o qədər önəm kəsb edir. Strateji marketinq planları və illik marketinq planları isə strateji marketinq planlaşdırmasının əsas formalarından biridir. Strateji planlaşdırma - müəssisədə digər planlaşdırma prosesləri üçün fundament rolunu oynamaqla bir-birilə əlaqəli mərhələlərdən ibarətdir. Konkret məqsədlərin təyin edilməsi strateji planlaşdırmada əsas mərhələ hesab edilir. Bunun üçün müəssisənin daxili və xarici mühiti, rəqibləri, bazardakı vəziyyət və ümumilikdə təsərüfat fəaliyyətinə təsir edən və gələcəkdə təsir edə biləcək bütün amillər haqqında məlumatlar toplanılır və SWOT - təhlil aparılır.

Satış müəssisələrində marketinq xidmətinin təşkili böhrandan qorunmanın ən açar vasitəsidir. Marketinq xidmətinin və onun işçilərinin vəzifə və funksiyaları müəssisənin marketinq fəaliyyətinin vəzifə və funksiyaları, müəssisənin Nizamnaməsi və marketinq xidmətinə dair Əsasnamə ilə müəyyən olunur və onlardan irəli gəlir. Müəssisənin marketinq xidmətinin əsas vəzifəsi müəssisə qarşısında qoyulan məqsədi (məsələn, təchizat və satışın yaxşılaşdırılması kimi) daha yüksək effektlə həyata keçirməyə imkan verən marketinq fəaliyyəti təşkil etməkdir. Baş verən son böhran bütün müəssisələrdə böhran komandalarının yaradılmasını zəruri etmişdir. Anti-böhran strategiyaları içərisində "müştəri marketinqi modeli"nin nəzəri və praktiki əsaslarının öyrənilməsi olmuşdur. Çünki ancaq bu halda böhranı öncədən duymaq və ona hazır olmaq mümkündür.

ƏDƏBİYYAT

Hal-hazırda iqtisadi parametrlər arasındakı asılılıqların müəyyən edilməsi və onun təhlilində ekonometrik modellər geniş şəkildə tətbiq edilir. İqtisadi ədəbiyyatda və elmi tədqiqatlarda istifadə olunan ekonometrik modellərin böyük əksəriyyəti yalnız müşahidə oluna bilən amillərin əsasında qurulur. Lakin vergi daxilolmaları yalniz ÜDM-in artım dinamikasından, kölgə iqtisadiyyatının miqyasından yox, eyni zamanda vergi inzibatçılığından, ölkədəki rəqabət qabiliyyətli mühitin formalaşması səviyyəsindən, əhalinin istehlak davranışından və hətta cəmiyyətin düşüncə tərzindən belə asılıdır. Ona görə vergi daxilolmalarının hansı amillər hesabına daha çox artması sualına cavab verilməsi xüsusi təyinatlı tədqiqatların aparılması zərurəti yaradır.

Qeyd edildiyi kimi, vergi daxilolmaları çoxlu sayda amillərdən asılıdır. Vergi inzibatçılığının səmərəliliyi vergi orqanında çalışan əməkdaşların peşə bacarığından, normativ-hüquqi aktların real praktiki tələblərə uyğunlaşma səviyyəsindən və digər amillərdən asılıdır. Lakin, vergi inzibatçılıgı vasitəsilə vergi daxilolmalarının artırılması imkanları praktiki cəhətdən məhduddur. Vergi daxilolmaları ilə iqtisadi artım arasında asılılıqların təhlili zamanı makroiqtisadi səviyyədə hesablanan vergi yükü anlayışından da istfadə edilir. Makro səviyyədə vergi yükü dedikdə vergi gəlirlərinin ümumi daxili məhsuldakı xüsusi çəkisi başa düşülür. Bu göstərici beynəlxalq aləmdə

iqtisadiyyatın əsas vergi yükü kimi qəbul edilir və ölkələr arasında müqayisəli təhlil zamanı əsas götürülür. İnkişaf etmiş ölkələrlə müqayisədə Azərbaycanda bu göstərici çox aşagıdır. 2017-ci ildə Azərbaycanda makro səviyyədə vergi yükü 9,8% təşkil etmişdir. OECD (İqtisai İnkişaf və Əməkdaşlıq Təşkilatı) təşkilatına üzv olan ölkələr arasında Meksikada bu göstərici ən aşağı olaraq 22%, Danimarkada isə 50%-ə yaxındır [8] Göründüyü kimi, hətta Meksika ilə müqayisədə Azərbaycanda iqtisadiyyatın vergi yükü 2,2 dəfə aşağıdır.

İqtisadiyyatın vergi yükü ilə yanaşı mikro səviyyədə də vergi ödəyicilərinin vergi yükü hesablanır. Vergi ödəyicilərinin müəyyən dövr ərzində həyata keçirdikləri təsərrüfat fəaliyyəti ilə bağlı ödədikləri vergilərin məcmusu vergi yükü hesab olunur və bu göstəricinin səviyyəsi vergi ödəyicisinin ödədiyi vergilərin onun əldə etdiyi gəlirlərə nisbəti kimi müəyyən edilir.

Bir sıra beynəlxalq təşkilat və qurumlar dünya ölkələrinin müxtəlif metodologiyalar əsasında hesablanmış illik vergi yükü barədə məlumatları mütəmadi olaraq dərc etdirirlər. Dünya Bankının «Doing business» hesabatı (ümumi vergi dərəcəsi), Heritage Fondunun «İqtisadi azadlıq indeksi» kimi məlumatlar da bu qəbildəndir. «Doing business 2017» hesabatının Vergilərin ödənilməsi (Paying Taxes) indikatoru üzrə Azərbaycanın ümumi vergi dərəcəsi (o cümlədən sosial sığorta ödəmələri daxil olmaqla) 39,8% göstərilmişdir. Həmin hesabatda Portuqaliya (39,8%), Niderland (40,4%), Türkiyə (41,1%), ABŞ (44%), Avstraliya (47,6%), Almaniya (48,9%), İspaniya (49,0%), Avstriya (51,6%), İtaliya (62%) və Fransa (62,8%) kimi inkişaf etmiş ölkələrin vergi yükü daha yüksək olmaqla əks etdirilmişdir. Bu göstərici keçmiş sovet dövlətlərindən Moldovada 40,4%, Litvada 42,7%, Rusiyada 47,4%, Estoniyada 48,7%, Ukraynada 51,9%, Belarusda 54,8%-dir. Qeyd etmək lazımdır ki, bura sosial sığorta ödəmələri də daxildir [9] . Lakin qeyd etmək lazımdır ki, vergi ödəyicilərinin vergi yükünün orta göstəricilər əsasında hesablanması bir çox ziddiyyətli məqamlara gətirir. Belə ki, Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalına məsul olan təsərrüfat subyektləri, demək olar ki, tam şəkildə vergilərdən azaddır. Sadələşdirilmiş vergi ödəyicilərinin də vergi yükü xeyli aşağıdır. Ona görə vergi ödəyicilərinin vergi yükünün təhlili diferensiallaşdırılmış şəkildə aparılmalıdır.

İstər inkişaf etmış, istərsə də inkişaf etməkdə olan ölkələrdə vergidən yayınma halları mövcuddur, lakin onun variasiyası müxtəlifdir. Deməli, vergi daxilolmalarının ən əsas faktoru davamlı iqtisadi inkişafın təmin edilməsi, yeni iş yerlərinin açılması, sahibkarlığın inkişafı və s. iqtisadi amillərdən ibarətdir.

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra bazar iqtisadiyyatına keçid prosesi başlanıldı. Bir çox siyasi, iqtisadi, sosial amillərin təsiri nəticəsində müstəqilliyin ilkin illərində ölkə iqtisadiyyatında tənəzzül müşahidə edildi. İlk öncə müşahidə olunan kiçik inflyasiya hiper inflyasiyaya çevrildi, vergidən yayınma halları kütləvi xarakter daşıdı. O illərdə vergi sistemi tam şəkildə formalaşmadığına görə bu asılılıqları təhlil etmək, demək olar ki, mümkün deyildir. Ona görə bu təhlil metodologiyasının 1995-2016-cı il göstəriciləri əsasında aparılması daha məqsədəuyğun olardı. Cədvəl 1 də Azərbaycanda ÜDM-in dinamikası göstərilmişdir.

Cədvəl 1

Azərbaycanda ÜDM-in dinamikası

İllər	2005	2006	2009	2010	2011	2012	2013	2014	2015	2016
Milyon manat	12522,5	18746,2	35601,5	42465,0	52082,0	54743,7	58182,0	59014,1	54380,0	60393,6
Milyon ABŞ dolları	13238,7	20983,0	44297,0	52909,3	65951,6	69683,9	74164,4	75234,7	52996,8	37843,0

Cədvəldən göründüyü kimi, bütün baxılan dövr ərzində ÜDM-in dinamikasında artım meyilləri müşahidə olunur. Son 14 il ərzində ÜDM real qiymətlərlə 3,3 dəfə artmışdır

Cədvəl 2 - də həmin ərzində tədiyyələr üzrə vergi daxilolmalarının dinamikası göstərilmişdir.

Cədvəl 2

Vergi daxilomaları və onun dinamikası (mln manatla)

İllər	2005	2006	2007	2008	2009	2010	2011	2012	2013	2014
Vergi gəlirləri	1427,27	2690,8	4510,6	5695,4	4113,4	4292,8	5471,9	6025,5	6664,0	7113,6
ƏDV üzrə	346,1	386,5	644,1	1135,6	1180,3	1271,5	1387,7	1483,6	1723,9	2048,7
Mənfəət vergisi	357,0	1373,5	2457,7	2862,3	1329,2	1429,9	1387,7	1483,6	1723,9	2048,7
Fiziki şəxslərin gəlir vergisi	319,2	407,3	588,6	627,2	581,9	590,2	715,7	813,0	859,7	980,2
Aksizlər			330,5	395,7	417,4	452,0	417,4	454,6	512,0	740,3
Digər daxil olmalar	284,2	359,5	489,7	674,6	604,6	549,2	817,1	1022,3	1193,6	1041,5

Cədvəldən göründüyü, kimi həmin illərdə vergi daxilolmaları sürətlə artmışdır. Onlar arasında qurulan reqressiya asılılığı göstərir ki, korrealyasiya əmsalı vahidə yaxındır [5]. Lakin bir amildən asılı xətti reqressiya modelləri vasitəsi ilə bu asılılıqları tam şəkildə araşdırmaq mümkün deyildir. Bu baxımdan, çoxölçülü reqressiya modelləri tətbiq edilməlidir. Bu isə digər amillərin nəzərə alınmasını tələb edir.

Bir ölkədə iqtisadi artımı təmin edən vergi siyasətinin digər ölkədə tətbiqi fərqli nəticələrə gətirir. İqtisadi Əməkdaşlıq və İqtisadi İnkişaf Təşkilatının apardığı tədqiqatların nəticələrinə görə vergi siyasətinin iqtisadi inkişaf baxımından formalaşmasının ümumi və xususi cəhətləri mövcuddur [6]. Ümumi cəhətlərə aşağıdakılar aiddir:

- Vergi qanuvericiliyinin iqtisadi stimullaşdırma istiqamətində formalaşması;
- Müvafiq normativ-hüquqi bazanın təkmilləşdirilməsi;
- Vergi yükünün istehsaldan istehlaka keçirilməsi;
- Vergi inzibatçılığının sadələşdirilməsi;
- Kiçik və orta sahibkarlıgın inkişafında vergi güzəştlərinin tətbiqi və s.

Xüsusi cəhətlər hər bir ölkə üçün fərdi xarakter daşıyır. Bu zaman ölkənin mövcud sosial-iqtisadi vəziyyəti, hüquqi-institusional baza, iqtisadi inkişaf istiqamətləri, demoqrafik inkişaf xüsusiyyətləri, əmək ehtiyatlarının yerləşdirilməsi və digər xüsusiyyətlər əsas götürülür.

İqtisadi artım yalnız vergi siyasəti ilə deyil, müxtəlif xarakterli digər amillərdən də asılıdır. Bu faktorlar sırasına aşağıdakıları aid etmək olar:

- ölkəyə qoyulan investisiyaların dinamikası və strukturu;
- ölkənin iqtisadi modernləşdirilməsi və innovativ inkişaf potensialı;
- sahibkarlığın mövcud vəziyyəti və inkişaf perspektivləri;
- əmək ehtiyatlarının strukturu və onun iqtisadi inkişaf tendensiyalarına uyğunluğu;
- sosial-iqtisadi infrastrukturun səviyyəsi;
- əmək bazarının çevikliyi və mobilliyi;
- sosial kapitalın, institusional mühitin iqtisadi inkişaf baxımından üstünlükləri;
- əsas ticarət partnyorlarının iqtisadi inkişaf templəri;
- rəqabətqabiliyyətli mühitin formalaşma səviyyəsi.

Göründüyü kimi, iqtisadi artıma təsir edən amillər müxtəlif olmaqla, demək olar ki, iqtisadiyyatın və cəmiyyətin bütün sahələrini əhatə edir. Bu amillərin formalaşmasında və son nəticədə iqtisadi artıma təsir dərəcəsində vergi sistemi xüsusi rol oynayır. Müxtəlif vergi növlərinin və vergi dərəcələrinin tətbiqi, vergi inzibatçılığının keyfiyyəti, vergi qanunvericiliyinin təkmilləşdirmə dərəcəsi bilavasitə iqtisadi artıma təsir göstərir. İqtisadi ədəbiyyatda bu problemlər daimi diqqət mərkəzində olmaqla çoxlu sayda tədqiqatlardan ibarətdir.

ƏDƏBİYYAT

1. Musayev A.F., Qarayev İ.Ə. Sosial siyasət və iqtisadi inkişaf. Azərbaycanın vergi jurnalı 2013 № 6.

2. Musayev A.F., Qarayev İ.Ə. Elektron kommersiya və vergitutma. Azərbaycanın vergi jurnalı 2013 № 2.
3. Тарасов В.Ф., Владыка М.В., Сапрыкина Т.В., Семыкина Л.Н. Налоги и налогообложение. Учебник, Москва, 2012.
4. Алиев Б.Х. Налоги и налогообложение. Учебник, Москва – 2007.
5. Qarayev İ., Rəcəbov B., Rəsulova G. Vergi siyasəti və iqtisadi artımın stimullaşdırılması. Azərbaycanın Vergi Jurnalı , 2015, №6 .
6. OECD (2010) *Tax Policy Reform andEconomic Growth,* OECD Tax Policy Studies, No. 20
7. The Journal of Private Enterprise, The Impact of Economic Growth, Tax Policy and Economic Freedom on İncome İnequality. 24 (1), 2008, 23-31.
8. Matthijs Alink, Victor Van Kommer The Dutch Approach/ IBFD 2012
9. www.taxes.gov.az

Имран Алияр оглы Караев,
кандидат экономических наук
Учебный Центр Министерства Налогов Азербайджана

Особенности анализа зависимости налоговых поступлений и экономического роста

Резюме

В статье рассматриваются зависимость между экономическим ростом и налоговыми поступлениями. Анализированы налоговые нагрузки на макроуровне и рассмотрены их сравнения с другими странами. Рассмотрены также зависимость налоговых доходов от других факторов.

Ключевые слова: экономический рост, налоговые поступления, налоговая бремя.

Aliyar Imran Garayev
candidate of economic sciences,,
Training Center of the Ministry of Taxes,
Head of the Department

Comparative analysis of economic growth and tax revenues

Summary

The article examines the relationship between economic growth and tax revenues. Tax burden at the macroeconomic level are analyzed and their comparisons with other countries are considered. Dependence of tax revenues on other factors is also considered.

Key words: economic growth, tax revenues, tax burden.

Jalə Rəhman qızı ƏLİYEVA
AMEA-nın İqtisadiyyat İnstitutu, elmi işçi

YOXSULLUĞUN AZALDILMASI ƏHALİNİN HƏYAT SƏVİYYƏSİNİN YÜKSƏLDİLMƏSİNİN İSTİQAMƏTİ KİMİ

Xülasə

Məqalədə son illər ərzində dövlətin yoxsulluğun azaldılması istiqamətində qəbul etdiyi proqramlar əsasında həyata keçirdiyi tədbirlərdən bəhs edilir və onların nəticələri təhlil edilir. Həmçinin, respublikada yoxsulluğun azaldılması istiqamətində təklif və tövsiyələr irəli sürülmüşdür.

Açar sözlər: yoxsulluq səviyyəsi, yoxsulluq həddi, xarici investisiya, təhsil və səhiyyə xidmətləri, peşə-ixtisas təhsili.

***

Respublikamızda yoxsulluq problemi keçən əsrin 90-cı illərindən başlayaraq qonşu təcavüzkar dövlətin ölkəmizə qarşı hərbi təcavüzü və bunun nəticəsində yaranan iqtisadi tənəzzül, çoxsaylı məcburi köçkünlərin yaranması, müstəqilliyimizin ilk illərində yaranan qeyri-sabit ictimai-siyasi vəziyyət və s. ilə səciyyələnir. Qeyd edilən bu və ya digər səbəblər milli iqtisadiyyatımızın bütün sahələrində inkişaf tempinin, əhalinin, xüsusilə kənd əhalisinin həyat səviyyəsinin aşağı düşməsinə gətirib çıxarmışdır.

Son illər ölkədə yoxsulluğun səviyyəsinin azaldılması və əhalinin sosial müdafiəsinin gücləndirilməsinə yönəlmiş ardıcıl tədbirlər həyata keçirilməkdədir. Görülən tədbirlər sayəsində mühüm nəticələr əldə olunmuş, 2005-2015-ci illəri əhatə edən dövr ərzində respublikada yoxsulluğun səviyyəsində 24,4 faiz bəndi qədər azalma baş vermiş, başqa sözlə, bu göstərici 29,3%-dən 4,9%-ə enmişdir. Yoxsulluq həddi göstəricisinin həcmində isə 3 dəfə və ya 93 manat artım baş vermişdir [1].

Bütün dünyada olduğu kimi respublikamızda da yoxsulların əksəriyyəti kənd yerlərində yaşayır. Şəhər əhalisi ilə müqayisədə kənd əhalisinin əksəriyyətinin torpaq mülkiyyətçisinə çevrilməsinə və istehlak etdikləri məhsulları fərdi təsərrüfatlarından əldəetmə imkanının olmasına baxmayaraq kənd yerlərində infrastrukturun aşağı səviyyədə olması, maliyyə əldəetmə imkanlarının aşağı olması, enerji və qaz təchizatındakı problemlər və s. bu kimi məsələlər onların torpaqdan istifadəetmə imkanlarını aşağı salır.

Məlum olduğu kimi, yoxsulluqla mübarizədə əhalinin gəlirlərinin, gəlir əldə edə bilmə imkanlarının artırılması ən effektiv vasitədir. Statistik məlumatların təhlilinə əsasən dövlət son illərdə sosial transferlərin həcmini artırmaqla yoxsulluq həddindən aşağı yaşayan əhalinin sayının azaldılması istiqamətində müsbət nailiyyətlər əldə etsə də yoxsulluqla mübarizədə dövlətin passiv sosial müdafiə tədbirlərinin ünvanlılığının artırılması, həmçinin aktiv tədbirlər vasitəsilə yoxsulluğun azaldılması istiqamətində fəaliyyətin davam etdirilməsi məsələlərinə daha çox diqqət yetirməsi məqsədəuyğun olardı.

Xarici ölkələrin təcrübəsi göstərir ki, yoxsulluqla mübarizədə istifadə edilən aktiv tədbirlər arasında mikromaliyyə proqramları xüsusi əhəmiyyət daşıyır.Yoxsulluqla mübarizədə kənd əhalisinə pul qazanmaq imkanı yaratmaq, bunun üçün isə kiçik və orta biznesdə kreditləşmənin inkişafı, fərdi təsərrüfat müəssisələrinin yaradılmasında maneələrin aradan qaldırılması ilə yeni iş yerlərinin yaradılmasının stimullaşdırılması zəruridir.

Qeyd etmək lazımdır ki, kənd yerlərində yoxsulluğun azaldılmasında yerlı investisiya ilə yanaşı xarici investisiya da vacib rol oynayır. Bu məqsədlə kənd təsərrüfatının maliyyələşdirilməsində həm dövlət və xarici investisiyalardan, həm də yerli sahibkarların investisiyalarından istifadə məqsədəmüvafiqdir.

Məlumat üçün bildirək ki, DB-nin 1990-cı il «Dünya inkişafı haqqında hesabat»ında yoxsulluqla mübarizədə təhsil və səhiyyə sferasına diqqətin artırılmasının zəruriliyi qeyd olunmuşdur [2, s. 173]. Kənd yerlərində sağlamlığın qorunması və əhaliyə keyfiyyətli səhiyyə xidmətlərinin göstərilməsində:

- kənd yerlərində ilkin tibbi xidmətin səviyyəsinin yüksəldilməsi;
- kənd əhalisi arasında sağlam həyat tərzinin təşviq edilməsi;
- kənd yerlərində səhiyyə müəssisələrində həm maddi-texniki bazanın təkmilləşdirilməsi, həm də ixtisaslı kadr çatışmazlıqlarının aradan qaldırılması zəruridir.

Kənd yerlərində məşğulluğun artırılmasında, yoxsulluqdan qorunmada gənclərin peşə təhsilinin artırılması böyük əhəmiyyətə malikdir. Statistik materialların təhlili göstərir ki, müvafiq peşə-ixtisasa yiyələnmiş gənclər arasında işsizlik səviyyəsi təhsili ibtidai və ondan aşağı olan gənclərlə müqayisədə aşağıdır. Hazırda respublikada peşə-ixtisas təhsili sistemində tədris bazasının müasir bazar standartlarına tam cavab verməməsi, təhsil sistemində əsasən ucqar kənd yerlərində kadr çatışmazlıqları, mövcud kadrların hazırlıq səviyyəsi, o cümlədən onların öz peşələrinə motivasiyanı təmin edən əmək haqqının onların tələbatlarını tam ödəyə bilməməsi, peşə məktəblərində təkmil istahsalat təcrübəsinin təşkilində çatışmazlıqlar kimi həllini gözləyən məsələlər qalmaqdadır. Qeyd edək ki, peşə-ixtisas təhsili ilə bağlı problemlərin həlli istiqamətində Azərbaycan Respublikasında peşə təhsili və təliminə dair hazırlanmış sənəddə peşə təhsili inkişafına əlavə

dövlət, özəl, hətta beynəlxalq maliyyələşdirmə mənbələrinin müəyyənləşdirilməsi, peşə təhsilində motivasiya mexanizmlərinin tətbiqi, əmək bazarında monitorinqlərin aparılması, həmçinin işəgötürənlərlə tərəfdaşlıqların qurulması kimi nəzərdə tutulan prioritetlərə çatmaq gələcəkdə müsbət nəticə verəcək.

Kənd yerlərində yoxsulluğun azaldılmasında məşğulluğun artırılması həm ənənəvi kənd təsərrüfatının, həmçinin, qeyri-kənd təsərrüfatı sahələrinin inkişafı hesabına da təmin olunması məqsədə uyğundur. Bu baxımdan alternativ qeyri-kənd təsərrüfatı sahəsi kimi kənd turizmi kənd iqtisadiyyatının diversifikasiyasında və kənd yerlərində yoxsulluğun azaldılmasında müstəsna rol oynaya bilər.

ƏDƏBİYYAT

1. 2015-ci ildə ev təsərrüfatları tədqiqatının əsas yekunları, Bakı,2016;
2. Доклад о мировом развитии 2000/2001. Наступление на бедность / Пер с англ. - М: Издательство «Весь Мир», 2001-376 с.

Jale Rahman Aliyeva
Institute of Economics of ANAS, scientist

Poverty reduction as a direction improve of the quality life of the population

Summary

In the article events and its results which was adopted in line by government's poverty reduction programs are analyzed in the recent years.Alsohave been put forwardsuggestions and recommendations direction of poverty reductionin the republic.

Key words: poverty, poverty, foreign investments, education and health services, vocational education.

Жаля Рахман Алиева
Институт экономики НАНА, научный сотрудник

Снижение бедности как направление улучшения уровня жизни населения

Резюме

В соотвействии принятой правительством за последные годы ра основених программ по сокращено бедности в статье аналзируются их результаты.Также выдвинуты предложения и рекомендации по снижению уровня бедности в стране.

Ключевые слова: бедность, нищета, иностранные инвестиции, образование и медицинское обслуживание, профессиональное образование.

Kəmalə Əziz qızı HAQVERDİYEVA
dissertant, Azərbaycan Kooperasiya Universiteti

İSTEHLAK BAZARININ İNKİŞAFI

Xülasə

Əhalinin istehlakının fizioloji normalar əsasında yaxşılaşdırılması Azərbaycan dövlətinin həmişə diqqət mərkəzində olan mühüm problemlərindən biridir. “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”, ölkədə istehlak bazarının keyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasında əsaslı dəyişikliklərin əmələ gəlməsinə səbəb olmuşdur.

Əhalinin istehlakının yaxşılaşdırılması problemi “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri” - Azərbaycan Respublikası Prezidentinin 16 mart 2016-cı il tarixli sərəncamı ilə təsdiq olunmuş bu tarixi sənəddə öz əksini tapmışdır.

Məhz bunun nəticəsidir ki, respublikamızda istehlak bazarının inkişafında və əhalinin zəruri ərzaq məhsulları ilə tələbatının ödənilməsində müsbət meyillər özünü büruzə verməyə başlamışdır.

Məqalədə Strateji yol Xəritəsinin istehlak bazarının inkişafına təsiri ilə bağlı məsələlər işıqlandırılır.

Açar sözlər: istehlak bazarı, inkişaf, tələb, təklif, təkmilləşdirmə, yaxşılaşdırma, istiqamətlər, optimal.

Giriş

Məqalədə son illərin statistik məlumatları əsasında respublikamızda ərzaq məhsullarına tələb və təklifin dəyişilməsi meyilləri öyrənilir. Əhalinin təbəqələri üzrə gəlir və istehlak olan məhsullar arasında dəyişikliklər araşdırılır, bu istiqamətdə özünü büruzə verən irəliləyişlərin dinamikası öyrənilir.

İstehlak bazarının inkişafının ümumi məsələləri

Qeyd etmək lazımdır ki, ticarət formatı kimi, ərzaq bazarı əlavə geniş xidmətlər spektri olduqda səmərəli fəaliyyət göstərə bilər. Satıcılar - fermerlər, kənd təsərrüfatı məhsullarının istehsalçıları, yardımçı təsərrüfatlar, bağ sahələrinin sahibləri və digər subyektlər üçün bütün xidmətlərin bir yerdən alınması çox vacibdir. Çünki qüvvələrə, vaxta, maliyyə vəsaitlərinə qənaət olunur. Təqdim edilən xidmətlərdən məmnunluq səviyyəsi müasir ticarət formatının sosial cəlbediciliyini qiymətləndirməyə imkan yaradır, bazara çoxsaylı satıcıların cəlb edilməsini mümkün edir.

Ərzaq bazarının işi həmçinin alıcıların maraqlarının təmin olunmasına xidmət edir. Bütün bunlar təqdim edilən göstəricilər əsasında bazarın sosial fəaliyyətinin səmərəliliyini qiymətləndirməyə imkan yaradır.

İstehlakçılar üçün ərzaq bazarının cəlbediciliyinin əsas kriteriyası təklif edilən məhsulun yüksək keyfiyyəti və qiymətlərin aşağı olmasıdır. Bütün bunlar bazar istehlakçılarının maraqlarının tam təmin olunmasına yönəldilmiş sosial proqramlar hazırlanarkən özünü büruzə verir.

Əlavə xidmətlərin yetərli olmasının qiymətləndirilməsi həmin subyektin bütün tərəflərinin maraqlarının nisbətən tam olaraq nəzərə alınması ilə sosial fəaliyyətini xarakterizə etməyə imkan yaradır. Həmin tərəflər geniş çeşiddə bazara məhsul çıxarırlar. Bazar administrasiyası təklif edilən əmtəələrin həcmi və keyfiyyətini tənzimləyir. Burada alıcıların bütün istehlakçı maraqları nəzərə alınır.

Sahibkarlarla müqayisədə istehlakçı istehlak tələbinin idarə olunmasının sosialyönümlülüyündən daha məmnundur (yəni tələb cəmiyyətin rifahı istiqamətində yönləndirilir). Lakin digər tərəfdən də nəzərə almaq lazımdır ki, bazar təqdim edilən tələbi və təklif edilən əmtəələrin həcmini tənzimləyir. Bu səbəbdən də ərzaq bazarının sosial fəaliyyətinin qiymətləndirilməsi üçün mövcud məhsul çeşidlərinin istehlak maraqlarını nə qədər təmin etdiyini təsbit etmək lazımdır. Ərzaq məhsulları istehlakçıları hər şeydən öncə təzə məhsul almaqda maraqlıdırlar. Təzə məhsul isə birbaşa istehsalçıdan istehlakçıya təklif oluna bilər. Göründüyü kimi, bazarda yerli istehsalçıların da iştirakı mühüm əhəmiyyət kəsb edir. Nəticədə alıcılar əldə etdikləri məhsulu daha ucuz alır, bununla da maraqlarını təmin edərək iqtisadi effektə nail olurlar.

Ərzaq bazarının müasir ticarət formatı kimi səmərəli fəaliyyət göstərməsi üçün mühüm tədbirlərdən biri də alıcı tələblərinin stimullaşdırılması ilə (dequstasiya, yarmarkalar, reklam aksiyaları, əyləncə tədbirlərinin keçirilməsi) bağlı həyata keçirilən tədbirlərdir. Bütün bunlar təkcə alıcıların iqtisadi maraqlarını (məhsulun əldə edilməsi) təmin etmir, eyni zamanda bazara əlavə alıcı axınına səbəb olur.

Bazarın sosial fəaliyyətinin qiymətləndirilməsi kriteriyalarından biri kimi təmin ticarət formatı ilə təmasda olarkən psixoloji rahatlıq da hiss olunur [2. s. 35]. Qeyd edilən situasiya əmtəələrin satın alınması zamanı özünü büruzə verir. Bazarda təmizlik və səliqə-sahmanın yaradılması üçün xüsusi personal operativ fəaliyyət göstərir. Eyni zamanda sanitar-gigiyenik normalara əməl olunur, alqı-satqı prosesində keyfiyyətli xidmət göstərilir, məhsul reallaşdırılarkən göstərilən xidmətlərdə komfortun səviyyəsinin yüksəldilməsi üçün xüsusi avadanlıqlardan da istifadə olunur. Həyata keçirilən yeni stimullaşdırıcı tədbirlər alıcıların bazara axınını gücləndirir və əsas müba-

dilə göstəricilərinin güclənməsinə əlverişli iqtisadi təsir göstərir - xidmətlərin göstərilməsi və əmtəə satışından əldə edilən gəlirlər xeyli artır. Ərzaq bazarında sosial fəaliyyətin parametrlərinin araşdırılmasının əhəmiyyəti müəyyənləşdirildikdən sonra seçmə üsulu ilə müvafiq formada anket sorğusunun keçirilməsi tələb olunur. Əldə olunmuş ilkin informasiya əsasında müəyyən tiplər üzrə ərzaq bazarının sosial iqtisadi fəaliyyətinin inteqral göstəricilərini müəyyənləşdirmək mümkündür. Həmin informasiya əsasında alıcı və satıcıları bazarın xüsusiyyətlərinin fərqli cəhətləri ilə tanış etməyə şərait yaranır.

Beləliklə, iqtisadi təhlilin təqdim edilən göstəriciləri və bazarların sosial yönümlülüyünü xarakterizə etməyə imkan yaradan parametrlər məcmusu onların müasir ticarət formatı kimi real vəziyyəti barədə fikir yarada bilər. Eyni zamanda ərzaq bazarının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi, gələcəkdə iqtisadi inkişafının davam etdirilməsi, bazar münasibətlərinin bütün iştirakçılarının funksiyalarında sosial vektorun dəqiqləşdirilməsi üçün idarəetmə fəaliyyətinin istiqamətlərinin işlənməsi mərhələsi başlanır.

Müasir dövrdə ölkə və xarici ölkələrin elmi ədəbiyyatlarında tez-tez yeni tip cəmiyyətin formalaşması və fəaliyyət göstərməsi problemi müzakirə olunur. Burada söhbət istehlak cəmiyyətindən və sözügedən cəmiyyətə xas olan sosial-iqtisadi münasibətlərdən gedir. Yəni müasir dövrdə cəmiyyətin yeni tipi istehlak cəmiyyətidir. İstehlak cəmiyyəti - sosial-mədəni əlaqələrin yeni sistemidir və sosial identifikasiya (mənsubiyyət) əmək bölgüsü və istehsal sisteminə, iş yerinə əsasən deyil, istehlak üsuluna görə təsbit olunur. Qeyd etmək lazımdır ki, istehlak indiki dövrdə spesifik mədəni simvol və dəyərlər məcmusundan ibarət deyildir - burada bağlılıq bu və ya digər cəmiyyətin strukturu ilə əlaqədar özünü büruzə verir [3. s. 45]. İstehlak sferası elə bir fəaliyyət sahəsidir ki, əhalinin bütün təbəqələri - kasıblar, varlılar, orta təbəqə də əmtəə və xidmət növlərinin istehlakçısına çevrilir. Bütün bunlar isə o deməkdir ki, istehlak sferası sosial-mədəni xüsusiyyətləri fəlsəfə, kulturologiya, sosiologiya elmlərinin tədqiqat obyektidir. Bazar iqtisadiyyatı münasibətlərinin inkişaf etdiyi cəmiyyətlərdə iqtisadiyyat üçün istehlakın çox böyük əhəmiyyəti vardır.

Müasir vəziyyət və inkişaf istiqamətləri

Statistik məlumatlar əsasında aparılmış hesablamalar göstərir ki, əmək qabiliyyəti yaşında olan, istehlak səbətinə nisbətdə orta gəlir səviyyəsindəki şəxslər indiki dövrdə ölkənin iş qabiliyyətli əhalisinin 30%-ni təşkil edir.

Əvvəlki dövrlərdə muzdlu işçilər içərisində ən yüksək əmək haqları alanlar hasilat sənayesində, maliyyə, metropoliten, sığorta sektorlarında, həmçinin rabitə və informasiya texnologiyaları sferasında çalışanlar idi.

Eyni zamanda beynəlxalq təcrübə göstərir ki, həmin göstərici Qərbi Avropa ölkələrində 60%, Rusiyada isə rəsmi məlumatlara görə 20-22%-dir.

Azərbaycan Respublikasında orta təbəqənin istehlak davranışlarının müəyyənləşdirilməsinin olduqca böyük əhəmiyyəti vardır, çünki o, sosial inkişafın təsbit olunması meyarı kimi çıxış edir. Sözügedən inkişafın istehlak standartının strukturu və dinamikası haqqında informasiyanın da xüsusi əhəmiyyəti vardır. Onun formalaşması Qərb ölkələri ilə müqayisədə xeyli ləngiyir, bu isə öz növbəsində inkişaf trayektoriyasına, eyni zamanda sosial yenilənməyə daban-dabana ziddir. Yəni respublikada formalaşan orta təbəqə özünün nəzəri modeli ilə Qərb ölkələrindəki sosial təbəqəyə bənzəmir. Yuxarıda deyilən fikirlərin ümumiləşdirilməsi, həmçinin Azərbaycan cəmiyyətinin sosial strukturu ilə istehlak arasındakı qarşılıqlı əlaqəni təhlil edərək dəyərləndirmələrin aparılmasına imkan yaradacaqdır.

Azərbaycan Respublikasında faktiki istehlakın və qida məhsullarının tövsiyə edilən normalarının müqayisəli təhlili 10 əsas ərzaq məhsulunun yalnız 6-sı üzrə təmin olunmasından xəbər verir (çörək, tərəvəz, ət, balıq, şəkər, bitki yağları). Ölkədə əsas problem kartofun kifayət qədər istehlak edilməməsidir -18,5%, meyvə-15,3%, süd- 8%, yumurta-2,7%, balıq məhsulları-5,6% və digər məhsullar tövsiyə edilən normada istehlak olunur.

Belə bir nəticəyə gəlmək olar ki, ölkə əhalisinin qida rasionu əsas və insan həyatı üçün xüsusi əhəmiyyət kəsb edən ərzaq məhsulları üzrə kifayət qədər balanslaşdırılmamışdır. Deyilənlərin təsdiqi kimi, əhalinin, müxtəlif sosial qrupların gəlirləri və ödəniş qabiliyyətinin ərzaq məhsul-

larının rasionunun strukturuna təsirini nəzərdən keçirək. Əhalinin sosial qruplar üzrə gəlirlərindəki kəskin fərqlər istehlak tələbinin əsas tənzimləyicisidir, həmçinin qida və digər istehlak malları üzrə pul vəsaitlərinin yönəlməsi və bölgüsünü də müəyyən edir.

2015-ci ildə Azərbaycan Respublikasında əhalinin 1-ci kvintili üzrə ərzaq məhsullarına xərclərinin istehlak xərclərinin ümumi tərkibində xüsusi çəkisi 51,9% olmuşdur. Əhalinin gəlirlər üzrə 3-cü desil qrupunda bu göstərici 42,5%, əhalinin ən yüksək gəlirləri olan 5-ci kventildə isə həmin göstərici - 31,4 % olmuşdur.

Müxtəlif sosial qrupların ərzaq məhsulları ilə təminat səviyyəsinin təhlili göstərir ki, son 10 ildə əhalinin kasıb təbəqəsi daha yaxşı qidalanmağa başlamış, yəni həyat keyfiyyətində sıçrayış baş vermişdir. Lakin varlıların rasionu dietologiya baxımından kasıblamışdır.

Əgər məhsulların qiymətinə deyil, ən varlı və ən kasıbların qidalarının strukturuna baxsaq görərik ki, fərq olduqca böyükdür və ona təkcə gəlirlərin səviyyəsi təsir göstərmir. Əhalinin gəlirləri az olan hissəsi, demək olar ki, tamamilə təminatlı ailələrə çatmışlar. Müqayisə üçün demək lazımdır ki, 2000-ci ildə əhalinin aztəminatlı qrupunun nümayəndələri orta hesabla gündə 1525 kkal istehlak edirdilərsə, bu göstərici 2016-cı ildə 2200 kkal olmuşdur. Kasıb təbəqənin qida məhsulları istehlakında ən böyük fərq zülal, tərəvəz, meyvə və giləmeyvələrin istehlakında özünü büruzə vermişdir. Bu istiqamətdə 10 il ərzində əhəmiyyətli dərəcədə azalma müşahidə olunur.

2010-2016-cı illəri əhatə edən araşdırmalarımız göstərdi ki, əhalinin real gəlirləri praktiki olaraq 5,6 dəfə artmışdır. Bunun nəticəsi olaraq əhalinin ərzaq məhsulları istehlak göstəriciləri də artmışdır. Məsələn, tərəvəz məhsullarının istehlakı 13,2%, ət -23,6%, süd - 9,4% artmışdır, eyni zamanda inferion əmtəələr (əhalinin gəlirləri artdıqda bu məhsullara tələb azalır, gəlirlər azaldıqda isə tələb artır). Qeyd etmək lazımdır ki, tələb və təklif praktiki olaraq aşağıdakı məhsullar üzrə artmışdır: çörəyin istehlakı 8,6%, kartofun istehlakı 12.0%.

Lakin dünya ölkələrinin praktikasından da bəllidir ki, istehlakçının gəliri artdıqca o, qənaət etməyə meyilli olur. C.Keynsin əsas psixoloji qanunu burada özünü büruzə verir. İnsanlar gəlirin artmasına əsasən istehlakın artırılmasına meyilli deyildirlər. Qeyd etmək lazımdır ki, gəlirlərin tələb və təklif dinamikasına təsiri birmənalı deyildir [2, s. 43].

Gəlirin artması ilə ərzaq məhsulları istehlakında baş verən dəyişikliyi mütləq və nisbi dəyişikliyə bölmək olar. Gəlir mütləq olaraq artır, nisbi olaraq isə azalır (aşağı düşür). Nisbi azalma ümumi xərclərdə qida məhsullarına çəkilən xərclərin çəkisinin aşağı düşməsində özünü büruzə verir. Bu isə onunla əlaqədardır ki, ərzaq məhsullarına tələb elastikliyi aşağı düşür, qeyri-ərzaq məhsullarına və vəsaitlərə qənaət elastikliyi də aşağı düşür.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasının Strateji Yol Xəritəsi". Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli Fərmanı.
2. Əhmədov N.H. "Azərbaycanda xarici iqtisadi əlaqələrin inkişafı və istehlak bazarının formalaşdırılması". Bakı, 2005, səh. 81.
3. Əhmədov N.H. "Regional ərzaq bazarı və onun formalaşması istiqamətləri". Bakı: ADPU, 2015, səh. 160.
4. http://sputnik.az./ufe/20151015/402368067./html#ixrr3r6f6NsFB
5. http://www.insov-Russia.ru/news/aboutinsorv/377
6. http://www.stat.gov7az/souree/budgethousehdds/ar/052-53.xls
7. http://www.e-veading.club/chapter.php/89712/3/Petrova Drh.M.Keiins.html

Камала Азиз кызы Хагвердиева
диссертант, Азербайджанский Университет Кооперации

Развитие потребительского рынка

Резюме

Улучшение потребления населения на основе физиологических норм является одной из самых больших проблем азербайджанского государства. «Государственная программа обеспечения надежной доставки продуктов питания в Азербайджанской Республике на 2008-2015 годы» привела к значительным изменениям в обеспечении качественных продуктов питания и потребительского рынка в стране.

Проблема улучшения потребления населения «Основные направления стратегической дорожной карты для национальной экономики и ключевых отраслей экономики» отражены в этом историческом документе, утвержденном Указом Президента от 16 марта 2016 года.

Это связано с тем, что наметились позитивные тенденции в развитии потребительского рынка и спрос населения на спрос на продовольственные товары.

В статье описывается влияние Стратегической дорожной карты на развитие потребительского рынка.

Ключевые слова: потребительский рынок, развитие, спрос, предложение, улучшение, улучшение, направления, оптимальные.

Kamala Aziz Hagverdiyeva
candidate for a degree, Azerbaijan Cooperation University

Sonsumer market development

Summary

Improving the consumption of the population on the basis of physiological norms is one of the biggest problems of the Azerbaijani state. "The state program to ensure reliable delivery of food products in the Republic of Azerbaijan for 2008-2015" led to significant changes in the provision of quality food products and the consumer market in the country.

The problem of improving population consumption "The main directions of the strategic roadmap for the national economy and key sectors of the economy" are reflected in this historical document approved by the Presidential Decree of March 16, 2016.

This is due to the fact that there have been positive trends in the development of the consumer market and the demand of the population for demand for food products.

The article describes the impact of the Strategic Roadmap on the development of the consumer market.

Key words: consumer market, development, demand, supply, improvement, improvement, directions, optimal.

Mehman Ağababa oğlu RZAYEV
“Menecment və ticarət” kafedrası, b/m

SƏHMDAR CƏMİYYƏTLƏRDƏ KORPORATİV İDARƏETMƏ PROBLEMLƏRİNİN YARANMASI SƏBƏBLƏRİ VƏ ONLARIN HƏLLİ YOLLARI

Xülasə

Məqalədə səhmdar cəmiyyətlərdə korporativ idarəetmə sahəsində yaranan problemlər və həlli yolları barəsində söz açılır. Səhmdar və kreditorların maraqlarının ziddiyyətli olduğu qeyd olunur. Korporasiyanın idarəetmə sistemindəki təmsilçilik probleminin maliyyə investorlarının mövcudluğu faktı sona yetmədiyi göstərilir.

Açar sözlər: səhmdar cəmiyyət, korporasiya, idarəetmə.

***

Şirkətlərin fəaliyyətinə kapital qoyan müxtəlif qrup investorlar mövcuddur. Maliyyələşdirilmə həm səhmdar və həm də borc kapitalın hesabına həyata keçirilir. Belə şəraitdə isə, səhmdarların və kreditorların maraqlarının müxtəlifliyi daha xüsusi əhəmiyyət kəsb edir. Səhmdarların qalıq mənfəət adlanan bir şeyi, yəni şirkətin gəlirindən onun kreditorlar, təchizatçılar, əməkdaşlar, hökumət və s. qarşısındakı bütün öhdəlikləri üzrə məbləğlər çıxıldıqdan sonra qalan vəsaiti almağa hüquqları vardır. [1, s. 13] Beləliklə, korporasiya tərəfindən bu və ya digər qərarın qəbul edilməsi nəticəsində gözlənilən mənfəətin səviyyəsi artdıqca səhmdarlar daha yüksək mənfəət götürməyə ümid edirlər. Korporasiyanı borc kapitalla təmin edənlər (istiqrazların sahibləri və banklar) isə, səviyyəsi onlar ilə korporasiya arasındakı müqavilədə təsbit olunmuş mənfəəti götürürlər. Buna görə də kreditorlar korporasiyanın yüksək gəlir almasında maraqlı olmaya da bilərlər. Onları qoyduqları vəsaitlərin mütləq özlərinə qaytarılması daha çox maraqlandırır. Elə buna görə də, kreditorlar investisiya alternativlərinin müəyyənləşdirilməsində müəyyən konservatizm göstərməyə meyillidirlər və səhmdarlardan fərqli olaraq yüksək mənfəətlərin alınmasına aparan, lakin eyni zamanda riskin yüksək səviyyəsi ilə bağlı olan qərarlara çox az üstünlük verirlər. Maraqların ziddiyyəti borc kapitalın payı çox olan və sahibləri yüksək riskli investisiya qoyuluşuna meyilli olan korporasiyalar üçün xüsusilə səciyyəvidir. Bu ona görə baş verir ki, uğurlu kapital qoyuluşu və yüksək gəlirlərin alındığı halda mənfəət yalnız sahibkarların payına düşür, investisiya proqramı iflasa uğradıqda isə ən çox zərər çəkən kreditorlar olur. Hər necə olursa olsun, şirkətin səhmdarları və kreditorlarının maraqlarının xarakterindəki fərqlər onu ehtimal edir ki, bu qruplarda korporasiyanın idarə edilməsinə nəzarət üzrə fərqli üsullar yarana bilər, eləcə də onları bu nəzarətin icrasına sövq edən bir-birindən fərqli səbəblər əmələ gəlir.

Korporasiyanın idarəetmə sistemindəki təmsilçilik problemi maliyyə investorlarının mövcudluğu faktı ilə sona yetmir. Şirkətin fəaliyyətində bu və ya digər formada öz payları olan investorların digər kateqoriyaları da vardır. Belə ki, mütəxəssislər şirkət çərçivəsində uğurla istifadə oluna biləcək (şirkət xaricində isə az dəyərli olurlar) özlərinə məxsus səciyyəvi vərdiş və bacarıqlarını şirkətin ixtiyarına verməklə bu investisiyaları həyata keçirirlər. Əgər şirkətlər məşğulluq üçün optimal şərait yaratmaq iqtidarında deyilsə, şirkət və ya sənaye sahəsi üçün belə səciyyəvi investisiya tipləri uğurla gerçəkləşdirilə bilməz. Əgər mütəxəssislər həqiqətən investordılarsa (insan kapitalının təchizatçıları), onda onların maraqları maliyyə investorları olan səhmdarların maraqlarından mühüm dərəcədə fərqlənə bilər. [2, s.17]

Korporasiyanın idarə edilməsi üzrə «qeyri-maliyyə» investorlarının hüquqlarının tanındığı halda etiraf etməliyik ki, korporasiyanın yalnız qulluqçuları bu cür investorlardan sayılmırlar. Belə ki, bu və ya digər korporasiyanın təchizatçıları çox hallarda başqa məqsədlərə yönəldilməsi mümkün olmayan və yalnız korporasiyanın sifarişlərinin yerinə yetirilməsi üçün istifadə olunan avadanlığa vəsait sərf edirlər. [3, s.15] Məsələn, avtomobil sənayesi üçün hissələr hazırlayan və konkret avtomobil müəssisəsini bu və ya digər detal və ya hissə ilə təchiz edən istehsalçını təsəvvür edək. Bu detal və hissələr konkret istehsalçının buraxdığı yalnız bir avtomobilin tipində istifadə oluna bilər. Təchizatçı da bu nadir detal və hissələrin hazırlanması üçün zəruri olan avadanlığa vəsait sərf etməyə məcburdur. Beləliklə, təchizatçının gəliri avtomobil istehsalçısının fəaliyyəti ilə elə sıx bağlanır ki, ona da istehsalatın investoru kimi baxmaq olar.

ƏDƏBİYYAT

1. Korporativ idarəetmə müşaviri. Azərbaycan şirkətləri üçün tövsiyələr təlimat. Bakı, 2010 səh. 36.
2. Dövlətə məxsus müəssisələrin korporativ idarəetmə təcrübələrinə dair İƏİT-in Qaydaları. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı. Bakı, 2007 səh. 48.
3. Azərbaycan Şirkətlərində Korporativ İdarəetmə. Sorğu nəticələri, Beynəlxalq Maliyyə Korporasiyası. Bakı 2006, səh 62.
4. Azərbaycan Respublikasının Mərkəzi Bankının "Banklarda korporativ idarəetmə standartları", Bakı, 2013, səh 18.

Мехман Агабаба оглы Рзаев
департамент «Менеджмент и торговля» ст. препод

Причины появления проблем корпоративного управления в акционерных обществах и пути их решения

Резюме

В тезисе идет речь о проблемах возникающих в сфере корпоративного управления в акционерных обществах и путях их решения .Отмечается противоречивость интересов акционеров и кредиторов. Указывается что представительность в системе управления корпораций не решается наличием финансовые инвесторов.

Ключевые слова: акционерное общество, корпорация, управление.

Mehman Aghababa Rzayev
h/t Department of "Management and trade"

The cause of occurring problems in corporate management in joint stocr company and ways of their solving

Summary

Thesis covers problems occurring in the corporate management sphere in joint stocr company and the ways of the solving. The contradiction of sharehdders' and creditors' interest is noticed here.Representativeness in the system of corporation management is not solved by existence of financial investors -it is pointed in the thesis.

Key words: joint-stock company, corporation, management.

Yeganə Seyfəl qızı ƏLİXANLI
Azərbaycan Kooperasiya Universitetinin doktorantı

AZƏRBAYCANDA XARİCİ TİCARƏTİN İQTİSADİ ARTIMA TƏSİRLƏRİNİN EKONOMETRİK QİYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Tədqiqatın əsas məqsədi xarici ticarət fəaliyyətinin Azərbaycanda bəzi makroiqtisadi göstəricilərə təsirinin qiymətləndirilməsindən ibarətdir. Reqresiya analizindən istifadə edərək Azərbaycanın idxal, ixrac və ticarət balansının ÜDM həcminə olan təsirlərinin ekonometrik hesablanması aparılıb. Hesablamalar göstərir ki, hər üç göstəricinin ÜDM həcminə təsirləri pozitivdir. Azərbaycanda xarici ticarət həcminin, xüsusilə idxalın artırılması üçün hər hansı tədbirlərin, o cümlədən liberallaşma tədbirlərinin ÜDM həcminə mənfi təsiri ilə bağlı arqumentlərin əsası yoxdur.

Açar sözlər: tədiyyə balansı, xarici ticarət balansı, ümumdaxili məhsul, idxal, ixrac.

Giriş

Xarici ticarətin iqtisadi artıma təsirləri ilə bağlı iqtisadi ədəbiyyatda yanaşmalar müxtəlifdir. Bu yanaşmaların bəzi nəticələrini aşağıdakı kimi qruplaşdırmaq olar: 1) xarici ticarət ölkənin daxili istehsalının ixtisaslaşmasına səbəb olur; 2) xarici ticarət əməliyyatları iqtisadiyyatda xarici amil rolunu yerinə yetirərək müasir texnologiyanın ölkə iqtisadiyyatına daxil olmasına şərait yaradır; 3) iqtisadiyyatın miqyasının böyüməsinə səbəb olur.

Xarici ticarətin iqtisadi inkişaf üçün rolu ilə bağlı Azərbaycanda da birmənalı yanaşma yoxdur. Son 25 ildə Azərbaycanın xarici iqtisadi əlaqələri sürətlə genişlənsə də bəzi mal və xidmətlərə qoyulan məhdudiyyətlər xarici ticarətin iqtisadi təhlükəsizlik və daxili bazar üçün yarada biləcəyi təhdidlərlə bağlıdır. Belə olan şəraitdə xarici ticarətin iqtisadi artımla və digər makroiqtisadi göstəricilərlə əlaqəsinin izlənilməsinə ciddi ehtiyac var.

Ədəbiyyata baxış

ÜDM həcminin ixrac həcmindən asılılığı ilə bağlı geniş tədqiqatlar aparılıb. İxracın iqtisadi artım üçün birbaşa təsiri və zəruriliyi merkantilistlərdən başlayaraq əksər iqtisadçılar tərəfindən təsdiq edilir. Məsələn, Baldvin [1] , Bonelli [2], Haddad [3], Ueinhold və Rauch [4], Yean [5], Sjoeholm [6] və sair tədqiqatçılar ixracın iqtisadi artıma təsirlərini ixracın əmək məhsuldarlığına olan təsirləri ilə əlaqələndirirlər. Baxmayaraq ki, bu iki göstərici arasında əlaqənin ümumi trendi pozitivdir, amma hər bir ölkə üçün onun xarakteri və asılılıq dərəcəsi universal deyil.

Tədqiqatın metodologiyası

Azərbaycanın xarici ticarətinin bəzi makroiqtisadi göstəricilərə, xüsusilə Ümumdaxili Məhsul həcminə və onun artımına təsirlərini müəyyən etmək üçün ən kiçik kvadratlar metodu ilə reqresiya analizindən istifadə ediləcək. Qurulacaq model birinci yaxınlaşmada ÜDM həcminin ticarət balansından, məcmu idxal həcmindən, məcmu ixrac həcmindən asılılıq tənliyi kimi xarakterizə ediləcək. İkinci yaxınlaşmada isə modelə tədiyyə balansı da daxil ediləcək. Birinci yaxınlaşma üçün modeli

$$GDP_t = a_0 + a_1 * \dot{I}M_t + a_2 * EX_t + a_3 * TB_t + \mu_t \quad (1)$$

İkinci yaxınlaşma üçün isə

$$GDP_t = b_0 + b_1 * \dot{I}M_t + b_2 * EX_t + b_3 * TB_t + b_4 * BP_t + \gamma_t \ (2)$$

kimi ifadə edə bilərik. Burada $\dot{I}M_t$ - məcmu idxal həcmi; EX_t - məcmu ixrac həcmi; TB_t- ticarət balansı; BP_t - tədiyyə balansı; μ_t və γ_t- qalıqlardır. $a_0, a_1, a_2, a_3, b_0, b_2, b_3, b_4$ isə əmsallardır.

Bəzi qiymətləndirmələr:

İdxalın iqtisadi artıma təsiri ilə bağlı fikirlər iqtisad elmində birmənalı qəbul edilmir. Əksər tədqiqatçılar hətta belə təsirlərin neqativ olması qənaətindədirlər. Ona görə də idxalın iqtisadi artım və iqtisadi inkişaf üçün zərərli ola biləcəyi fikrini və idxalın məhdudlaşdırılması ideyasını daha çox müdafiə edirlər. Lakin tədqiqatlar göstərir ki, idxal əməliyyatı da əmək məhsuldarlığına və beləliklə iqtisadi artıma təsir göstərərək iqtisadi artımı stimullaşdıra bilər. İdxalın iqtisadi artıma təsirlərini də bütün ölkələr üçün universal hesab etmək olmaz. Bu iki göstərici arasındakı əlaqələrin xarakteri ölkədən ölkəyə dəyişir. Bu fərqlər nəinki əlaqənin trendində, hətta nə dərəcədə güclü olmasında özünü göstərir.

Son 26 il üçün (1991-2016) Azərbaycana idxal həcmi ilə ÜDM həcmi arasındakı əlaqənin ekonometrik hesablamaları göstərir ki, bu iki göstərici arasında korrelyasiya əlaqəsi çox güclüdür (R=0,9616) və reqressiya tənliyini

$$\widehat{GDP} = -6068.853 + 7.220 * \dot{I}M_t \quad (4)$$

kimi ifadə edə bilərik.

Azərbaycanda idxal həcminin ÜDM həcminə pozitiv təsir etməsi idxalın məhdudlaşdırılması ilə bağlı arqumentləri üstələyir. Lakin nəzərə almaq lazımdır ki, Azərbaycanda idxalın artımı ixracın artması ilə paralel baş verib və bu, neft gəlirlərinin hesabına əhalinin gəlirlərinin artması ilə daha çox bağlıdır.

kimi ifadə etsək, onda bu iki göstərici arasındakı əlaqə üçün H_0 hipotezi də inkar edilmiş olur.

$$\widehat{GDP}=5853.761 + 1.7136 * EXP \quad (6)$$

Xarici ticarətin hər iki komponeti ilə ÜDM həcminin ayrı-ayrılıqda əlaqəsinin pozitiv olması Azərbaycan dövlətinin son 26 ildə xarici ticarət fəaliyyətini genişləndirməsi üçün həyata keçirdiyi iqtisadi siyasətin doğru olduğu qənaətinə gətirir. Xarici ticarət rejimlərinin sadələşdirilməsi və xarici iqtisadi fəaliyyətinin liberallaşması Azərbaycanın dünya təsərrüfat sisteminə sürətlə inteqrasiyasına səbəb olub.

Azərbaycanda ÜDM həcminin ticarət balansından asılılığının ekonometrik hesablanması da göstərir ki, bu iki göstərici arasında əlaqə güclüdür (R=0,83).

Nəticə

Azərbaycanın idxal, ixrac və ticarət balansının ÜDM həcminə olan təsirlərinin ekonometrik hesablanması göstərir ki, hər üç göstəricinin ÜDM həcminə təsirləri pozitivdir. Azərbaycanda xarici ticarət həcminin, xüsusilə idxalın artırılması üçün hər hansı tədbirlərin, o cümlədən liberallaşma tədbirlərinin ÜDM həcminə mənfi təsiri ilə bağlı arqumentlərin əsası yoxdur.

ƏDƏBİYYAT

1. Baldwin, R. 2003. Openness and Growth: What's the Empirical Relationship? NBER Working Paper No. 9578, National Bureau of Economic Research, Cambridge.
2. Bonelli, R. 1992. "Growth and Productivity in Brazilian Industries: Impacts of Trade Orientation." Journal of Development Economics 39:85–109.
3. Haddad, M., J. De Melo, and B. Horton. 1996. "Trade Liberalization, Exports and Industrial Performance." In M. Roberts and J. Tybout, eds., Industrial Evolution in Developing Countries: Micro Patterns of Turnover, Productivity and Market Structure. Washington, DC: Oxford University Press.
4. Weinhold, D., and J. Rauch. 1997. Openness, Specialization and Productivity Growth in Less Developed Countries. NBER Working Paper No. 6131, National Bureau of Economic Research, Cambridge.
5. Yean, T. 1997. "Determinants of Productivity Growth in the Malaysian Manufacturing Sector." ASEAN Economic Bulletin 13:333–43.
6. Sjoeholm, F. 1999. "Exports, Imports and Productivity: Results from Indonesian Establishment Data. World Development 27:705–15.

Егана Сейфал кызы Алиханлы
докторант Азербайджанского
Университета Кооперации

Эконометрическая оценка воздействия внешней торговли на экономический рост в Азербайджане

Резюме

В исследовании проведена оценка воздействия импорта и экспорта на объем ВВП в Азербайджане. Применяя регресссионного анализа и метода наименших квадратов была определена, что есть позитивная взаимосвязь между импортом и ВВП Азербайджана, вопреки аргументам защиты внутреннего рынка. А также найдена позитивная взаимосвязь между ВВП и экспортом и торговым балансом в Азербайджане.

Ключевые слова: торговый баланс, ВВП, экспорт, импорт.

Yegana Seyfal Alikhanlı
ðoctoral student Azerbaijan
University of Cooperation

Econometric assessment of foreign trade impacts on economic growth in Azerbaijan

Summary

Purpose of the research is to assess of import and export impacts on GDP volume in Azerbaijan. By appling of regression analysis, as well as least of squares method has been defined that there is a positive interrelation between import and GDP of Azerbaijan, contrary to arguments for protection of domestic market. As well as the positive interrelations between GDP and export and trade balance in Azerbaijan are found.

Key words: trade balance, GDP, export, import.

Qeys Valeh oğlu MƏMMƏDOV
Azərbaycan Kooperasiya Universiteti
"Aqrar sahənin və sənayenin iqtisadiyyatı"
kafedrasının baş müəllimi

MİLLİ İQTİSADİYYATIN DAYANIQLI İNKİŞAFI BAXIMINDAN AZƏRBAYCANDA XARİCİ İQTİSADİ FƏALİYYƏTİN TƏŞKİLİ VƏ İDARƏ EDİLMƏSİ

Xülasə

Məqalə ölkə iqtisadiyyatının dayanıqlı inkişafına xarici iqtisadi fəaliyyətin təsiri istiqamətlərindən bəhs edir. Məqalədə göstərilir ki, xarici iqtisadi fəaliyyətdə gömrük tarif tənzimləmələri kənd təsərrüfatının inkişaf istiqamətlərinə bu gün məhz proteksionist siyasət vasitəsilə təsir göstərir. İdxal-ixrac məhsullarına tətbiq edilən yumşaq proteksionizm siyasəti kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətini artırmaqla yanaşı, ölkənin xarici iqtisadi fəaliyyətdə rolunun artırılmasına nail olunur. İxracatın stimullaşdırılması; xarici iqtisadi fəaliyyətin tənzimlənməsi heç də həmişə idxalın məhdudlaşdırılmasına yönəlmir. Əsas məqsəd ixracatın və ya ümumən valyuta gətirən sahələrin stimullaşdırılmasından ibarətdir. Bunun üçün isə dövlət sahibkarlara müxtəlif maliyyə köməkliyi göstərir.

Açar sözlər: kənd təsərrüfatı, bazar iqtisadiyyatı, bazar qiymətləri, gəlir, bazar.

***

Müasir dövrdə dünya təsərrüfat sistemində baş verən köklü keyfiyyət dəyişiklikliyi birmənalı mürəkkəb və dinamik bir sistemə çevrilmiş və bu sistemin ayrılıqda hər bir ölkədə milli iqtisadiyyatın inkişafına təsiri xeyli güclənmişdir. Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı iqtisadi əlaqələrinin həyata keçirilmə mexanizminin müasir konsepsiyası belə bir fakta da əsaslanmalıdır ki, milli iqtisadiyyatımız dünya iqtisadiyyatı sisteminə üzvi bağlı olaraq onun ayrılmaz bir hissəsini təşkil edir. Elə bu səbəbə görə də milli iqtisadiyyatımız dunya iqtisadiyyatı sisteminə inteqrasiya yolunu xarici iqtisadi əlaqələrin inkişaf etdirilməsi strategiyasında ana xətt kimi götürməlidir. Milli gəlirin artırılması isə ölkəmizin sosial-iqtisadi vəzifələrinin həyata keçirilməsində əsas mənbə kimi çıxış edir.

Daxili bazarın qorunması vasitəsi kimi çıxış edən proteksionizm (himayəçilik) siyasəti dövlətin xarici iqtisadi fəaliyyətə fəal surətdə müdaxiləsini nəzərdə tutur. Ölkə məhsullarının xarici rəqabətlə mübarizədə üstünlüklər əldə etməsi, iqtisadi gücün artması və daha çox mənfəət əldə edilməsi əhəmiyyətli dərəcədə xarici iqtisadi əlaqələrdən asılıdır. Bu siyasətin əsasını ixrac yönümlu istehsal məhsullarının həcminin artırılması üçün milli sahibkarların xarici bazarlarda bütün vasitələrlə himayə edilməsi, onların həvəsləndirilməsi, yardımlar və subsidiyalar verilməsi təşkil edir. Proteksionizm siyasəti ölkənin iqtisadi inkişafını hərtərəfli təmin edən kompleks tədbirlər sistemidir. Belə siyasət zəif inkişaf etmiş ölkələr üçün olduqca faydalı görünür. Proteksionizmin digər əsas prinsiplərindən biri də idxalın məhdudlaşdırılması üçün gömrük və qeyri-gömrük tarif tənzimlənmələrinin geniş tətbiq olunmasıdır.

Qeyd etmək lazımdır ki, idxal ilə rəqabət vəziyyətində olan mal istehsal edən yerli istehsalçılar idxalın azalmasına təsir edən tarifin tətbiqindən uda bilirlər. İdxal olunan məhsullar istehlakçıya nə qədər baha başa gəlirsə, o bir o qədər çox yerli mala üz tutmalı olur.

Bundan başqa, əgər himayəçilik siyasəti uzun müddət və birtərəfli qaydada tətbiq edilərsə, gömrük divarları arxasında gizlənən yerli istehsalçılar istehsalın məhsuldarlığının, çeşidinin, keyfiyyətinin artırılması qayğısına qalmır, onların yeni və ən yeni texnologiyaların tətbiqinə marağı azalır.

Bunlar da milli iqtisadiyyatın kənar təsirlərdən qorunmasını, onun beynəlxalq ixtisaslaşmada iştirakının optimallaşdırılmasını, dünya bazarında milli istehsalçıların mövqelərinin möhkəmləndirilməsini tələb edir. Məhz bu məqsədlər xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsini zəruri edir. Muasir dövrdə dünya təsərrufat sistemində baş verən köklu keyfiyyət dəyişiklikləri nəticəsində xarici iqtisadi fəaliyyət mürəkkəb dinamik bir sistemə çevrilərək hər bir ölkədə milli iqtisadiyyatın sabit inkişaf səviyyəsinin təmin olunmasında xeyli güclü təsirə malikdir. [2. s. 27]

Bu baxımdan müasir dövrdə milli iqtisadiyyatın inkişaf səviyyəsinin yüksəlməsi və ölkənin dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyası hər bir ölkədə məqsədyönlü şəkildə həyata keçirilən xarici iqtisadi siyasətdən çox asılıdır.

Müasir dövrdə xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi bütün ölkələrdə qəbul edilən ümumi iqtisadi metodlara, hüquqi-normativ aktlara və təşkilati-texniki sistemə əsaslanır. İqtisadi vasitələrin ən qədim və ən geniş yayılmış forması, şübhəsiz ki, gömrük tarifləridir. Gömrük tariflərinin həyata keçirilməsində iki əsas məqsəd - dövlət xəzinəsinin gəlirlərini artırmaq və milli sənayeni xarici rəqabətdən qorumaq məqsədi mövcuddur. Lakin zaman, dövr keçdikcə gömrük tariflərinin təsiri azalmış və onun yerinə çoxlu sayda yeni-yeni vasitələr və qaydalar ortaya çıxmışdır ki, bunlara da qeyri-tarif tənzimlənmələrini aid etmək olar. Qeyri-tarif tənzimlənmələri ölkədən valyuta çıxmasına yol açan əməliyyatları azaltmaq üçün dövlətin birtərəfli qərarları ilə məsələyə müdaxilə etməsidir.

Milli iqtisadiyyatın inkişafının təmin olunması baxımından daxili iqtisadi siyasətlə xarici iqtisadi siyasət arasında sıx bir əlaqə vardır. Daxili iqtisadi siyasət xarici iqtisadi siyasətə təsir etdiyi kimi bunun əksi də ola bilər. Azərbaycanda xarici iqtisadi fəaliyyətin tənzimlənməsi sistemi inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə geniş istifadə olunan prinsiplərə, üsullara və vasitələrə əsaslanan liberal dövlət tənzimlənmə sisteminə uyğun formalaşdırılır.

Müstəqillik əldə edilən dövrdən başlayaraq xarici iqtisadi əlaqələrin həyata keçirilməsi mexanizminin yenidən formalaşmasına başlanıldı. Hal-hazırda Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi xarici iqtisadi əlaqələrin təşkili və idarə edilməsi sahəsində aşağıdakı əsas funksiyaları həyata keçirir:

1) Xarici dövlətlərlə ticarət münasibətlərinin inkişafına yönəldilmiş ümumi tədbirlərin hazırlanıb həyata keçirilməsi;

2) Xarici ticarət məsələlərinə dair ticarət müqavilələri, saziş və konvensiya layihələrinin hazırlanması, xarici dövlətlərlə danışıqların aparılması və öz dövlətinin tapşırığı ilə ticarət sazişləri və müqavilələrinin bağlanılması, dövlətlərarası ticarət sazişlərinin və müqavilələrinin yerinə yetirilməsinə nəzarət edilməsi;

3) İdxal-ixrac və digər xarici ticarət planlarının layihələrinin qurulması, xarici ticarətə dair planların yerinə yetirilməsinin tənzimlənməsi və nəzarətdə saxlanması, idxal-ixrac mallarının keyfiyyətinin yaxşılaşdırılması üçün müəyyən tədbirlərin həyata keçirilməsi;

4) Xaricdə ticarət nümayəndəliklərinin, öz ölkəsinin diplomatik heyəti və səfirliklər nəzdində olan ticarət məsləhətçilərinin, idxal-ixrac təşkilatlarının fəaliyyətinin tənzimlənməsi və nəzarətdə saxlanması;

5) Gömrük siyasətinin bəzi məsələləri ilə məşğul olmaq;

6) Maliyyə-valyuta məsələlərinə dair tədbirlərin hazırlanaraq həyata keçirilməsi və xarici ticarət əməliyyatlarına görə ödəmələrin daxil olmasının tənzimlənməsi;

7) Xarici ticarət yüklərinin göndərilmə məsələlərinin öyrənilməsi və malların daşınma layihələrinin yerinə yetirilməsinin nəzarətdə saxlanılması;

8) Xarici ticarətə aid sərəncam, əmr və qanunların icrasına nəzarət edilməsi;

9) İdxal və ixrac lisenziyalarının verilməsi, müqavilələrin qeydiyyatdan keçirilməsi;

10) Yeni kadrların seçimi və hazırlığı ilə bağlı məsələlərin həll edilməsi.

Xarici iqtisadi əlaqələrin həyata keçirilməsi mexanizminin ən vacib tərkib hissələrindən biri kimi fəaliyyət göstərən Dövlət Gömrük Komitəsi dövlətin gömrük sərhəddində idxal-ixrac axınına bilavasitə nəzarət edən dövlət idarədir. O gömrük statistikasını aparır, gömrük qayda və üsullarını hazırlayır, gömrük rüsum və vergilərini yığır.

Ölkəmizin xarici iqtisadi əlaqələrinin milli iqtisadi mənafelərin optimal şəkildə reallaşdırılmasının təmin edilməsi baxımından təşkili və idarə edilməsi sistemi duzgun formalaşdırılmışdır. Lakin, xarici iqtisadi fəaliyyətin səmərəliliyinin yüksəldilməsi mövqeyindən yanaşdıqda bu sistemin təşkil olunmasına yanaşma prinsipinin dəyişilməsi zəruriyyəti ortaya çıxır. Təcrubə göstərir ki, ictimai munasibətlərin bütövlükdə transformasiya olunduğu müasir Azərbaycan gerçəkliyində qabaqcıl ölkələrin təcrübələrinin öyrənilərək mexaniki olaraq sözügedən sahəyə tətbiq olunması əksər hallarda gözlənilən müsbət nəticələri vermir. Bu baxımdan xarici iqtisadi əlaqələrin

həyata keçirilməsi mexanizminin formalaşdırılması və hərəkətə gətirilməsi prosesində ölkəmizin qabaqcıl elmi mərkəzlərinin və ayrı-ayrı tanınmış elm xadimlərinin potensial imkanlarından maksimum istifadə edilməlidir.

Azərbaycanın xarici iqtisadi əlaqələrinin təşkili və idarə edilməsi prosesində elmilik prinsipi müəyyənedici amil kimi qəbul edilmədikdə xarici iqtisadi sektorun səmərəli fəaliyyət göstərməsinin uzunmüddətliyinin təmin olunması çətinləşir. Ona görə də, bu prosesdə elmilik prinsipi müəyyənedici amil kimi qəbul edilməli və bu zaman milli iqtisadiyyatın xarici iqtisadi sektorunun fəaliyyət göstərməsinə beynəlxalq iqtisadiyatın ayrılmaz tərkib hissəsi kimi yanaşılmalıdır. Belə yanaşmanın nəticəsində, əlbəttə, milli, regional və qlobal səviyyələrdə tənzimlənən iqtisadi proseslərin ölkəmizin xarici iqtisadi sektorunun fəaliyyətinə təsirinin kəmiyyət və keyfiyyət aspektləri üzə çıxar ki, bu da xarici iqtisadi əlaqələrin həyata keçirilməsinin səmərəliliyi baxımından son dərəcə vacib bir məqamdır.

Ümumiyyətlə, Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin təşkili və idarə edilməsi sisteminin mövcud vəziyyətinin təhlili aşağıdakı qənaətə gəlməyə imkan vermişdir:

- dünyada fəaliyyət göstərən ölkələrin xarici iqtisadi əlaqələrinin təşkili və idarə edilməsinin müəyyən fərqli xüsusiyyətlərlə səciyyələndiklərinə baxmayaraq, onlar üçün ümumi fəaliyyət prinsipləri mövcuddur.

ƏDƏBİYYAT

1. İ.A.Kərimli. Milli iqtisadiyyatın əsasları. Bakı, 2001 səh. 31.
2. C.H.Kərimov. "Beynəlxalq İqtisadi münasibətlər" Bakı, 2002. səh. 27.
3. A.Ə.Əliyev. Azərbaycanın xarici ticarət-iqtisadi əlaqələri, Bakı, 2001. səh 120.
4. C.Q.Nuriyev. Beynəlxalq iqtisadi əlaqələrin hüquqi tənzimlənməsi. Bakı, 2000. səh 142.
5. R.M.Cəbiyev. Azərbaycanda bazar infrastrukturunun formalaşması və inkişafı, Bakı, 2000. səh 177.
6. K.F.Heydərov. "Azərbaycan Gömrüyü sabit inkişaf yolunda" Bakı 2005. səh. 93.

Гейс Валех оглы Мамедов
ст. пред. АУК

С точки зрения формирования национальной экономики организация и управление иностранной экономической деятельности в Азербайджане

Резюме

С точки зрения формирования национальной экономики в современный период возникла проблема организации и управления иностранной экономической деятельности. По этой причине иностранные экономические отношения страны должен быть разработан и усовершенствован механизм их осуществления. В настоящее время в экономике Азербайджана проводится политика открытой рыночной экономики, применяемый в экономически развитых странах и он должен быстро реагировать на экономические нов шества, происходящи в мире. С целью защита национальной экономики от побочных влияний, оптимизации его участия в международной специализации, укрепления позиций национальных производителей на мировом рынке, либерализация таможенно-тарифной системы, применяемая во всех странах используется и в Азербайджане. Сегодня иностранная экономическая деятельность, превращаясь в сложную динамическую систему, оказывает большое воздействие на обеспечение стабильного экономического уровня национальной экономики. С этой точки зрения в современный период повышение уровня развития национальной экономики и рациональной интеграции страны в мировую хозяйтсвенную систему зависит от целенаправленной иностранной экономической политики страны.

Ключевые слова: селъское хозяиство, рыночная экономика, рыночная стоимостъ, прибыль, рынок, конкуренция.

Geys Valekh Mamedov
h/t of Azerbaijan Cooperation University

Formation and management with foriegn economic activity in Azerbaijan from point of view of forming of national economy

Summary

In the modern period appeared the problem of formation and management with foreign economic activity from point of view of forming of national economy. Therefore the foreign economical relations of the country. İmprovement of its realization mehanism should be investigate and determined. As the open market politics which was applied in other developed countries, is carried oud now in Azerbaijan economy, Azerbaijan should qusckly respond to the economical news that happened in the world. In order to avoid the national economy from strange influences, optimization of his presence in international specialization, and strengthening of national producers position in the world market, the liberal taxes regulations system of the foreign economical activity regulation that aplied all over the world now is successfully used in Azerbaijan as well. Foreign economic activity changing into a complicated dynamic system, made a profound effect to provide the constant developing level of the economy. From this proint of view increase of the development level of national economy and productive integration of the country to the world economy system in modern period closely depend on foreign economical politics that purposefully carried out in all countries.

Keywords: agriculture, national economy, market price, profit, market.

Tahir Əli oğlu SADIQOV
Azərbaycan Dövlət İqtisad Universiteti
"Maliyyə və maliyyə institutları"
kafedrasının dosenti, i.e.n.

MƏNFƏƏT VERGİSİ ÜZRƏ DAİMİ VƏ MÜVƏQQƏTİ FƏRQLƏRİN VERGİ UÇOTU

Xülasə

Məlumdur ki, mühasibat mənfəəti (zərəri) göstəricisi mühasibat uçotu üzrə normativ aktlarda müəyyən olunmuş qaydada, vergitutulan mənfəət (zərər) isə Vergi Məcəlləsinin X Fəslinin normaları üzrə müəyyən edilir. Nəticədə mühasibat uçotu və hesabatının məlumatlarına əsasən müəyyən edilmiş mənfəət məbləğini vergitutma məqsədləri üçün korrektə etmək lazım gəlir.

Mühasibat uçotu və vergi qanunvericiliyi üzrə normativ-hüquqi aktlarda gəlir və xərclərin müəyyən edilməsinin fərqli qaydalarının müəyyən edilməsi nəticəsində, mühasibat mənfəət (zərəri) və vergitutulan mənfəət (zərər) arasında yaranan fərq iki cür olur: daimi və müvəqqəti. Bu məqalədə məhz bu anlayışların mahiyyəti və yaranma səbəbləri açıqlanmışdır.

Açar sözlər: Vergi Məcəlləsi, mühasibat uçotu, vergi qanunvericiliyi, vergi uçotu, daimi fərqlər, mənfəət vergisi, gəlirlər və xərclər.

***

Məlumdur ki, mühasibat mənfəəti (zərəri) göstəricisi mühasibat uçotu üzrə normativ aktlarda müəyyən olunmuş qaydada, vergitutulan mənfəət (zərər) isə Vergi Məcəlləsinin X Fəslinin normaları üzrə müəyyən edilir. Nəticədə mühasibat uçotu və hesabatında mühasibat uçotunda qəbul edilmiş mənfəət vergisini, mühasibat uçotu məlumatlarına əsasən hesablanmış və vergi bəyannaməsində əks olunmuş vergitutulan mənfəətə görə hesablanmış vergi kimi, həmçinin onların uyğun gəlməyən məbləğlərini əks etdirmək imkanı yaranır [1, səh. 17].

Mühasibat uçotu üzrə mövcud milli standartlarda sonrakı hesabat dövrlərində mənfəət vergisinin həcminə təsir edə biləcək məbləğlərin mühasibat uçotunda əks etdirilməsi qaydası əks olunmuşdur. Bu məqsədlə daimi fərq, müvəqqəti fərq, daimi vergi öhdəlikləri və müvəqqəti vergi öhdəliklərinin hesablanması nəzərdə tutulmuşdur.

Mühasibat uçotu və vergi qanunvericiliyi üzrə normativ-hüquqi aktlarda gəlir və xərclərin müəyyən edilməsinin fərqli qaydalarının müəyyən edilməsi nəticəsində, mühasibat mənfəəti (zərəri) və vergitutulan mənfəət (zərər) arasında yaranan fərq iki cür olur: daimi və müvəqqəti.

Daimi fərq mühasibat və vergi uçotlarında gəlir və xərclərin müəyyən edilməsi eyni olduqda yaranır, lakin onun həcmi mühasibat uçotunda daha çox olur.

Daimi fərq dedikdə, hesabat dövrünün mühasibat mənfəətini (zərərini) formalaşdıran, lakin hesabat və sonrakı hesabat dövrlərində mənfəət vergisi üzrə vergitutma bazasından çıxılan gəlir və xərclər nəzərdə tutulur. Müvəqqəti fərqlərin yaranma səbəbləri kimi aşağıdakıları qeyd etmək olar [2, səh. 35]:

- *mühasibat mənfəəti (zərəri) formalaşarkən nəzərə alınan xərclərin, vergitutma məqsədləri üçün qəbul edilmiş məhdudlaşdırılan xərclərdən çox olması.* Bu qəbildən olan xərclərə aşağıdakıları aid etmək olar: əsas vəsaitlərin alınmasına və qurulmasına çəkilən və kapital xarakterli digər xərclər; qeyri-kommersiya fəaliyyəti ilə bağlı olan xərclər; əyləncə və yemək xərcləri (müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş normalar daxilində müalicə-profilaktik yeməklərə, süd və ona bərabər tutulan digər məhsullara və vasitələrə sərf olunan xərclər, həmçinin dəniz nəqliyyatında üzücü heyətə verilən yemək xərcləri istisna olmaqla); habelə işçilərin mənzil və digər sosial xarakterli xərcləri; fiziki şəxsin fərdi istehlak və ya əmək haqqının alınması ilə bağlı olan xərcləri (əmək haqqı kartlarının alınmasına çəkilən xərclər istisna olmaqla); faktiki ezamiyyə xərclərinin normadan artıq olan hissəsi; nümayəndəlik xərcləri; bəzi reklam xərcləri; təsərrüfat fəaliyyətinin bəzi sahələrinin əsas vəsaitlərinin təmirinə çəkilən xərclər; alınmış borc vəsaitlərinə görə faizlərin ödənişi üzrə məsrəflər (müqayisəli şərtlərlə həmin hesabat dövründə verilmiş borc öhdəlikləri olmadıqda); öz işçilərinin xeyrinə bağlanmış könüllü fərdi sığorta müqaviləsi üzrə ödənişlər; pensiya sığortası və qeyri-dövlət pensiya təminatı işçilərinin uzunmüddətli həyat sığortası müqaviləsi üzrə ödənişlər; xidməti məqsədlər üçün fərdi minik avtomobillərindən istifadəyə görə kompensasiyalar.
- *əmlakın digər təşkilatın nizamnamə (yığım) kapitalına verilməsi zamanı, onun qiymətləndirilən və əmlakı verən tərəfin mühasibat balansında əks olunan dəyərləri arasında fərqin yaranması ilə bağlı zərərin vergitutma məqsədləri üçün nəzərə alınmaması;*
- *əvəzsiz olaraq verilmiş əmlakın (malların, işlərin, xidmətlərin) dəyərinin və onun verilməsi ilə əlaqədar xərclərin vergitutma məqsədləri üçün nəzərə alınmaması;*
- *hesabat və sonrakı hesabat dövrlərində vergitutma məqsədləri üçün nəzərə alınmayan və gələcək dövrlərə keçirilən zərər;*
- *sair analoji fərqlər.*

Daimi fərqlər haqqında informasiya ilkin uçot sənədlərinə, mühasibat uçotu registrlərinə, yaxud müəssisələr tərəfindən müəyyən edilmiş qaydada formalaşa bilər.

Hesabat dövrünün daimi fərqi mühasibat uçotunda ayrıca uçota alınır (onların yaranma dəyərində aktiv və öhdəlikləri uçota alan hesabların analitik uçotunda).

Mühasibat və vergitutulan mənfəət arasındakı daimi fərq məbləğini müəyyən etmək üçün vergitutulan mənfəətin tərkibinə daxil edilən və edilməyən gəlir və xərclərin ayrıca uçotu təşkil olunmalıdır. Mühasibat uçotu normalarına əsasən bu informasiyanı ilkin uçot sənədlərinin, mühasibat uçotu registrlərinin məlumatlarına, yaxud müəssisə tərəfindən müəyyən edilmiş və mühasibat uçotu məqsədləri üçün uçot siyasəti haqqında sərəncamda təsdiq edilən digər qaydada formalaşdırmaq lazımdır. Fikrimizcə, uçotun aparılması qaydasının vergi uçotunun Vergi Məcəlləsinin X Fəslinin normalarına müvafiq müəssisə tərəfindən qəbul edilmiş metodikasına əsasən müəyyən edilməsi daha məqsədəuyğun olar.

Əgər vergi uçotunu mühasibat uçotuna əsasən aparırsa, onda mühasib gəlir və xərclərin vergi və mühasibat uçotları haqqında aydın təsəvvürə malik olur. Belə ki, bu zaman gəlir və xərclərin

mühasibat uçotunda vergi və mühasibat uçotlarının siyasəti maksimumu uyğunlaşır: əsas vəsait və qeyri-maddi aktivlər üzrə amortizasiya hesablanmasının, mal-material ehtiyatlarının istehsalata silinməsinin, bitməmiş istehsalat qalığı və hazır məhsulun qiymətləndirilməsinin eyni üsulu tətbiq olunur və s. Eyni zamanda mühasibat uçotu registrləri əlavə rekvizitlərə malik olur ki, bu da əlavə iş görmədən vergitutulan mənfəətin hesablaması üçün lazımi məlumatları almaq imkanı verir.

Məhz bu səbəbdən mühasibat və vergi uçotlarında daimi fərq məbləğlərinin ümumi məbləğini hesablamaq heç də çətin olmur. Bu cür yanaşma daimi fərqlərin yaranma qiymətləndirməsində, fərqləri aktiv və öhdəlikləri uçota alan müvafiq hesabların analitik uçotunda ayrıca almağa imkan verir.

Vergi qanunvericiliyinə əsasən təşkil olunmuş vergi uçotunun registrlərində aşağıdakı göstəricilər haqqında məlumatlar əks olunur:

- vergitutma məqsədləri üçün hesabat dövrünün gəlir və xərcləri;
- cari hesabat dövründə vergitutma məqsədləri üçün nəzərə alınan xərclər;
- vergitutma məqsədləri üçün növbəti hesabat dövrlərində nəzərə alınacaq xərclər;
- növbəti hesabat dövrlərinə aid edilən xərclər (zərər);
- yaradılmış ehtiyatların məbləği;
- mənfəət vergisi üzrə büdcəyə olan borc.

Daimi fərqlərin uçotu üçün formalaşmış müvafiq registrdə mühasibat və vergi uçotu məlumatlarını müqayisə etməklə, həmçinin daimi fərqlərin məbləği haqqında məlumat almaq olar.

Mövcud qanunvericilik mühasibat uçotunda daimi vergi öhdəliklərini hesablamaq və əks etdirməyə imkan verən daimi fərqlərlə yanaşı, mənfəət vergisi hesablanarkən müvəqqəti fərqlərin də hesablanmasını tələb edir.

Müvəqqəti fərqlər - bir hesabat dövründə mühasibat mənfəətini (zərərini), digər hesabat dövründə (dövrlərində) isə mənfəət vergisi üzrə vergi bazasını formalaşdıran gəlir və xərclərdir [3, səh.44].

Vergitutulan mənfəətə təsiri xarakterindən asılı olaraq müvəqqəti fərqlər iki qrupa ayrılır: vergiyə cəlb edilən müvəqqəti fərqlər və vergiyə cəlb edilməyən müvəqqəti fərqlər.

Vergiyə cəlb edilməyən müvəqqəti fərqlər vergitutulan mənfəət formalaşarkən təxirə salınmış mənfəət vergisinin yaranmasına səbəb olmaqla və sonrakı hesabat dövrlərində büdcəyə ödəniləcək mənfəət vergisinin məbləğini azaldır [1, səh. 56].

Vergiyə cəlb edilməyən, başqa sözlə, vergitutma zamanı nəzərə alınmayan müvəqqəti fərqlər aşağıdakı hallarda və səbəblərdən yaranır:

- mühasibat uçotu və vergitutma məqsədləri üçün amortizasiya hesablanması üçün müxtəlif üsullardan istifadə edildikdə;
- mühasibat uçotu və vergitutma məqsədləri üçün hesabat dövründə kommersiya və idarəetmə xərclərinin malların (məhsulların, işlərin, xidmətlərin) maya dəyərinə daxil edilməsi və mənfəət vergisinin hesablanması üzrə müxtəlif üsulların tətbiq olunması;
- artıq ödənilmiş vergi məbləğinin müəssisəyə geri qaytarılmayıb, növbəti hesabat dövründə (dövrlərində) vergitutulan mənfəət formalaşarkən əvəzləşdirilməsi;
- hesabat dövründə mənfəət vergisinin azaldılması üçün istifadə olunmayıb gələcək dövrə keçirilən və sonrakı hesabat dövrlərində nəzərə alınacaq vergitutma məqsədləri üçün nəzərə alınacaq zərərin yaranması;
- əsas vəsait obyektləri satılarkən onların qalıq dəyərləri və satışı üzrə xərclərin mühasibat uçotu və vergitutma məqsədləri üçün müxtəlif qaydalarda hesablanması;
- vergitutma məqsədləri üçün gəlir və xərclərin kassa metodu ilə, mühasibat uçotu məqsədləri üçün isə təsərrüfat fəaliyyəti faktlarının aparıldığı vaxt üzrə müəyyən edildiyi zaman, alınmış mallara (işlərə, xidmətlərə) görə kreditor borclarının yaranması;
- mallara (işlərə, xidmətlərə) görə kreditor borcları olduğu hallarda, vergitutma məqsədləri üçün kassa metodu istifadə olunduqda, mühasibat uçotunun isə təsərrüfat fəaliyyəti faktlarının müvəqqəti müəyyən edilməsi prinsipi üzrə aparıldıqda;
- sair analoji fərqlər.

Vergiyə cəlb edilən müvəqqəti fərqlər vergitutulan mənfəət formalaşarkən təxirə salınmış vergi öhdəliyi yaradır. Sonrakı hesabat dövrlərində büdcəyə ödənilməli olan mənfəət vergisinin məbləği təxirə salınmış vergi öhdəliyinin məbləği qədər artırılır.

Vergiyə cəlb edilən müvəqqəti fərqlər aşağıdakı hallarda yaranır:

- mühasibat uçotu və vergitutma məqsədləri üçün amortizasiya hesablanması üçün müxtəlif üsullardan istifadə edildikdə;
- məhsulların (işlərin, xidmətlərin) satışından olan pul vəsaitlərinin hesabat dövrünün əsas fəaliyyətdən olan gəlirləri kimi qəbul edilməsi;
- faiz gəlirlərinin mühasibat uçotu məqsədləri üçün təsərrüfat fəaliyyəti faktlarının müvəqqəti müəyyən edilməsi prinsipi üzrə (hesablama metodu), vergitutma məqsədləri üçün isə kassa metodu ilə uçota alınması;
- mənfəət vergisi üzrə möhlət verildikdə;
- müvəqqəti istifadə üçün alınmış pul vəsaitlərinə görə ödənilən faizlərin mühasibat uçotu və vergitutma məqsədləri fərqli qaydada əks etdirildikdə;
- sair analoji fərqlər.

Daimi fərqlər haqqında informasiya ilkin uçot sənədlərinə əsasən ya mühasibat uçotu registrlərində, yaxud müəssisə tərəfindən müstəqil olaraq müəyyən edilmiş digər qaydada formalaşa bilər.

Hesabat dövrünün daimi və müvəqqəti fərqləri mühasibat uçotunda ayrıca əks olunur (fərqlərin yaranma qiymətləndirilməsində müvafiq aktiv və öhdəliklərin uçotu hesabının analitik uçotunda).

Bir hesabat dövründə mühasibat, digər hesabat dövrlərində isə vergitutulan mənfəəti (zərəri) artıran və ya azaldan, mühasibat uçotunda təxirə salınmış mənfəət vergisi yaradan müvəqqəti fərqlərin analitik uçotu ayrıca aparılır. Bunun üçün aktiv və öhdəliklərin analitik uçotunda vergiyə cəlb olunan və olunmayan müvəqqəti fərqlərin əks etdirilməsi üçün hesablar açılmalıdır.

Təxirə salınmış mənfəət vergisi mühasibat uçotunda təxirə salınmış vergi aktiv və öhdəliklərini ayrıca sintetik hesablarda əks etdirməyə imkan verir.

Əgər müəssisə hesabat dövrünün yekununa görə zərər əldə etmişsə, onda növbəti hesabat dövrlərində mənfəətin alınması ehtimalını qiymətləndirmək lazımdır. Növbəti dövrlərdə belə bir ehtimal olmazsa (biznes-plan, təşkilatın kommersiya xidməti tərəfindən yeniləşmiş və təsdiq edilmiş inkişaf proqnozuna əsasən), onda müəssisə təxirə salınmış vergi aktivini formalaşdırmaq lazım deyil.

Daimi fərqlər haqqında informasiya ilkin uçot sənədlərinə əsasən ya mühasibat uçotu registrlərində, yaxud müəssisə tərəfindən müstəqil olaraq müəyyən edilmiş digər qaydada formalaşa bilər.

Hesabat dövrünün daimi və müvəqqəti fərqləri mühasibat uçotunda ayrıca əks olunur (fərqlərin yaranma qiymətləndirilməsində müvafiq aktiv və öhdəliklərin uçotu hesabının analitik uçotunda).

Daimi və müvəqqəti fərqlər mühasibat uçotu üçün tamamilə yeni olan aşağıdakı obyektlərlə əlaqədardır:

- daimi vergi aktivləri;
- daimi vergi öhdəlikləri;
- təxirə salınmış vergi öhdəlikləri.

Mənfəət vergisi formalaşarkən yaranan müvəqqəti fərqlər təxirə salınmış mənfəət vergisinin yaranmasına səbəb olur, başqa sözlə, növbəti hesabat dövründə (dövrlərində) büdcəyə ödəniləcək mənfəət vergisinin həcminə təsir edir.

ƏDƏBİYYAT

1. Sadıqov T.Ə., Rzayev İ.M. Vergi uçotu və audit. Dərslik, Bakı, 2014. - 350 s.
2. Мандрощенко О.В., Пинская М.Р. Налоги и налогообложение. - М.: Дашков и К, 2010. - 344с.
3. Митюкова Э.С. Налоговое планирование: анализ реальных схем. - М.: ЭКСМО, 2010. - 282с.

Тахир Али оглы Садыгов
Азербайджанский Государственный
Экономический Университет
к.э.н., доцент кафедры
«Финансы и финансовые институты»

Налоговый учет постоянных и временных разниц налога на прибыль

Резюме

Известно, что бухгалтерская прибыль (убыток) определяется в порядке, установленном нормативными актами, а налогооблагаемая прибыль (убыток) определяется положениями главы X Налогового Кодекса. В результате необходимо скорректировать сумму прибыли, определенную для целей бухгалтерского учета и для целей налогообложения.

В результате определения доходов и расходов в бухгалтерском и налоговом законодательстве, разница между бухгалтерской прибылью (убытком) и налогооблагаемой прибылью (убытком) образуется разница двух видов: постоянные и временные. В этой статье объясняется суть этих понятий и причины их образования.

Ключевые слова: Налоговый Кодекс, бухгалтерский учет, налоговое законодательство, налоговый учет, постоянные разницы, налог на прибыль, доходы и расходы.

Tahir Ali Sadigov
cand. of econ., ass. prof.
Azerbaijan State University of Economics
Department "Finance and Financial institutions"

Tax accounting for permanent and temporary income tax differences

Summary

It is known that accounting profit (loss) is determined in accordance with the procedure established by regulatory enactments, and the taxable profit (loss) is determined by the provisions of Chapter X of the Tax Code. As a result, it is necessary to adjust the amount of profit, determined for accounting purposes and for tax purposes.

As a result of determining income and expenses in accounting and tax legislation, the difference between accounting profit (loss) and taxable profit (loss) is formed by a difference of two types: permanent and temporary. This article explains the essence of these concepts and the reasons for their formation.

Key words: Tax Code, accounting, tax legislation, tax accounting, permanent differences, income tax, income and expenses.

Mehriban Mirqasım qızı İSGƏNDƏROVA
Azərbaycan Kooperasiya Universitetinin doktorantı

KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFINDA MALİYYƏ NƏZARƏTİNİN TƏTBİQİ

Xülasə

Ölkədə sahibkarlığın inkişafına maliyyə nəzarəti sisteminin inkişafına konseptual yanaşma inkişaf etdirilməlidir. Maliyyə nəzarətinin əsas məqsədi kiçik və orta sahibkarlıqda maliyyə planlarının və maliyyə siyasətində baş verən kənarlaşmaların və maliyyə cinayətlərinin vaxtında aşkar edilməsi, gələcəkdə bunlara yol verilməməsi üçün tədbirlərin görülməsidir. Sahibkarlığın inkişafını stimullaşdırmaq məqsədilə maliyyə nəzarətini təkmilləşdirmək və sabit investisiya mühitini yaratmaq lazımdır.

Açar sözlər: sahibkarlıq, maliyyə nəzarəti, maliyyə nəzarəti, prosedurları, maliyyə resursları.

***

Azərbaycan Respublikası iqtisadi inkişafının nailiyyətlərinin qorunması üçün sahibkarlıq fəaliyyətinin gələcəyi daim elmi-akademik dairələrin diqqət mərkəzində olmalıdır. Sahibkarlığın inkişafının proqnozlaşdırılması onun yeni istiqamətlərinin yaranmasına və ənənəvi sahələrdə məhsuldarlığın artırılmasına gətirib çıxara bilər. Bunun üçün sahibkarlıqla əlaqədar proqnoz və tövsiyələri nəzəri və praktiki olaraq diferensiasiya etmək zəruridir. Azərbaycanın liberal-iqtisadi münasibətlər sisteminə daxil olmasının tarixi o qədər də qədim deyil. Bununla əlaqədar olaraq Azərbaycan elmi dairələri tərəfindən sahibkarlıqla bağlı nəzəri problemlər bir çox istiqamətləri ilə özünün ətraflı tədqiqini gözləməkdədir. Belə olan təqdirdə iqtisadçı mütəxəssislərin sahibkarlığın mahiyyəti, məqsədləri və xüsusiyyətləri ilə əlaqədar araşdırmalarını artırması gərəkdir. Sahibkarlıq fəaliyyəti özlüyündə ictimai-iqtisadi münasibətlərin tərkib hissəsi olduğu üçün ictimai problemlərdən onun kifayət qədər asılılığı vardır.

Sahibkarlığa nəzarət sahəsində xeyli elmi işlərin mövcud olmasına baxmayaraq, nəzarətin iqtisadi məzmunu ilə bağlı bir çox nəzəri məsələlər hələ də müzakirə mövzusu olaraq qalmaqdadır və hazırkı iqtisadi şəraitin dəyişdiyi bir zamanda yetərincə işlənib hazırlanmamışdır. İndıyədək nəzəriyyədə və təcrübədə nəzarətin formaları, növləri, tipləri, metodları və vasitələrinin birbirinə qarışdırılması prosesi baş verir. Ölkədə vahid nəzarət, o cümlədən maliyyə nəzarəti sistemlərinin yaradılmasına konseptual yanaşma hələlik tam işlənib hazırlanmamış və bu, özünün ictimai təsdiqini tapmamışdır.

Hər bir biznesin uğurlu təşkili qəbul olunan qərarların doğru-düzgünlüyündən asılıdır ki, bu da sistemli şəkildə təhlil aparılmadan və yaranmış vəziyyətə nəzarət etmədən mümkün deyildir. Biznesin təşkilinin yaxşılaşdırılması üçün ehtiyatların aşkar edilməsindən ötrü idarəetmə qərarlarından irəli gələn resursların hərəkəti haqqında etibarlı informasiyaya malik olmaq lazımdır. Hadisələrin mahiyyətinin və qarşılıqlı əlaqələrinin başa düşülməsi, biznesin vəziyyəti və inkişaf perspektivlərinin öyrənilməsi yalnız xüsusi nəzarət metodlarının və iqtisadi təhlilin kompleks tətbiqi əsasında mümkündür.

Vaxtlı-vaxtında nəzarətin həyata keçirilməsi və məlumatların təhlili diferensial qiymətləndirmənin əldə olunmasına və müxtəlif investorların, borcverənlərin, tədarükçülərin, istehlakçıların, mülkiyyətçilərin, müəssisənin müdiriyyəti və işçilərinin maraqları nəzərə alınmaqla, biznesin səmərəliliyinin artırılması yollarının müəyyənləşdirilməsinə imkan verir. Nəzarətin zəruri olan metodlarının seçilməsi biznesin idarə olunmasında optimal qərarların qəbul edilməsinin əsaslandırılması və təminatı üzrə qarşıya qoyulan məqsədlərə daha tez nail olmağa şərait yaradır.

Maliyyə nəzarətinin əsas məqsədi makro və mikro səviyyədə maliyyə planları və maliyyə siyasəti parametrlərindən kənarlaşmaların, habelə maliyyə cinayətlərinin vaxtında aşkar edilməsi, aradan qaldırılması və gələcəkdə bunlara yol verilməməsi üzrə tədbirlərin görülməsidir.

Son dərəcə mürəkkəb və mahiyyəti etibarilə hüquqi hadisə olan maliyyə nəzarəti aşağıdakı elementlərdən ibarətdir və məhz həmin elementlərə əsasən bunları tədqiq etmək olar: predmet

(kimə nəzarət edir); obyekt (nəyə nəzarət edir); subyekt (kim nəzarət edir); məzmunu; fəaliyyət sahəsi.

Maliyyə nəzarətinin predmetləri bilavasitə göstərilən prosesləri şərtləndirən konkret təşkilatlar, müəssisələr, idarəetmə orqanları, təsərrüfat fəaliyyəti deyildir. Maliyyə nəzarəti aparılan qurumlar: dövlət hakimiyyət orqanları, dövlət müəssisələri və idarələri, dövlət büdcə müəssisələri və təşkilatları, dövlət büdcə və büdcədənkənar orqanları, yerli özünüidarə orqanları; ictimai birliklər, qeyri-dövlət fondları və başqa qeyri-dövlət kommersiya təşkilatları, kommersiya (sahibkarlıq) strukturları, dövlət tərəfindən nizamlanmayan fəaliyyətin həyata keçirilməsi cəhətdən fiziki şəxslər.

Dövlətin (və onun təşkilatlarının) sərəncamında maliyyə resurslarının yaradılması ilə bağlı baş verən maliyyə münasibətləri və həmin vəsaitlərin dövlətin və bütün cəmiyyətin ehtiyaclarının ödənilməsi üçün istifadə edilməsi maliyyə nəzarətinin obyektidir. Başqa sözlə desək, bütövlükdə ölkə səviyyəsində, eləcə də ayrı-ayrı təsərrüfat subyektlərində maliyyə resurslarının yaradılması və onların istifadəsi ilə bağlı maliyyə və bölgü prosesləri maliyyə nəzarətinin obyekti kimi çıxış edir. Maliyyə nəzarətinin subyektləri onu həyata keçirirlər, səlahiyyətli orqanlar sisteminin köməyi ilə reallaşdırılır. Dövlət maliyyə nəzarəti orqanları bu sistemdə xüsusi yer tuturlar və onlar ölkədə bütün maliyyə nəzarəti sisteminə rəhbərlik edərək, bu sahədə fəaliyyətin bütün istiqamətlərini müəyyənləşdirirlər.

Respublikada sahibkarlığın inkişafını stimullaşdırmaq və ona əlverişli şərait yaratmaq məqsədilə sabit investisiya mühiti yaradılmalı və tənzimlənməlidir.

Respublika iqtisadiyyatına xarici ölkələrdən, banklardan investisiya axını o vaxt güclü ola bilər ki, onun geri qaytarılmasına güclü təminat verilsin, stimullaşdırılsın. Eyni zamanda cəlb olunan investisiyanın həcmi ilə əldə olunan gəlir arasında müsbət fərq əmələ gəlsin.

Azərbaycanda sağlam investisiya mühitinin yaradılması və onun stimullaşdırılması milli kapitalın xarici ölkələrə axınının qarşısını alır və ondan milli iqtisadiyyatın inkişafı naminə istifadə olunmasına şərait yaradır. Kiçik və orta sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasında qiymətlərin liberallaşdırılması və düzgün qiymət siyasəti yürüdülməsi mühüm yer tutur.

ƏDƏBİYYAT

1. «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu.
2. Abbasova S.T. Bazar iqtisadiyyatı şəraitində sahibkarlığın inkişafına dövlət dəstəyi. Bakı, 2004.
3. Ataşov B.X., Novruzov N.A., İbrahimova E.Ə. Müəssisələrin maliyyəsi. Bakı, 2009.
4. Кудратов Д.А. Препринимательсьтво: развитие, государственное регулирование, перспективы малого и среднего бизнеса в некоторых развитых странах.

Мехрибан Миргасым кызы Искендерова
докторант Азербайджанского Университета Кооперации

Применение финансового контроля в развитии малого и среднего предпринимательства

Резюме

Необходимо развить концептуальный подход к развитию системы финансового контроля над развитием предпринимательства в стране. Основная цель финансового контроля заключается в финансовом планировании малого и среднего предпринимательства, а также своевременном выявлении отчуждений в финансовой политике и финансовых преступлений, и принятии мер для дальнейшего их предотвращения. С целью стимулирования развития предпринимательства необходимо усовершенствовать финансовый контроль и создать стабильную инвестиционную среду.

Ключевые слова: предпринимательство, финансовый контроль, процедуры финансового контроля, финансовые ресурсы.

Mehriban Mirgasim İskenderova
doctoral student Azerbaijan Cooperation University

Application of financial control in development of the small and medium entrepreneurship

Summary

It is necessary to develop the conceptual attitude to development of the system of financial control on development of entrepreneurship in the country. The main target of the financial control is financial planning of small and medium entrepreneurship as well as opportune discovery of alienations in the financial policy and financial crimes and, taking measurements for their further prevention. In order to stimulate development of entrepreneurship it is necessary to improve the financial control and establish a stable investment environment.

Key words: Entrepreneurship, financial control, procedures of financial control, financial resources.

Emil Mehrəli oğlu MİRZƏYEV
AKU, "Menecment və ticarət" kafedrasının baş müəllimi,

Bahəddin Məhyəddin oğlu YUSİFOV
AKU, "Standartlaşdırma və texnologiya" kafedrasının müəllimi

MÜASİR ŞƏRAİTDƏ MÜƏSSİSƏLƏRİN TƏSƏRRÜFAT FƏALİYYƏTİNİN SƏMƏRƏLİLİYİ VƏ ONUN YÜKSƏLDİLMƏSİ YOLLARI

Xülasə

Tezisdə müasir şəraitdə müəssisələrin təsərrüfat fəaliyyətinin səmərəliliyi və onun yüksəldilməsi yolları açıqlanmışdır. O cümlədən, iqtisadi səmərəliliyin tərkib elementləri təhlil edilmiş və formalaşmasına təsir edən amillər müəyyənləşdirilmişdir. Həmçinin prioritet istiqamətlər müəyyənləşdirilərkən yerli və beynəlxalq təcrübəyə istinad olunmuşdur.

Açar sözlər: təsərrüfat subyektləri, təsərrüfat fəaliyyəti, əmək məhsuldarlığı, istehsal.

***

Gündən - günə qloballaşan mühit, iqtisadi, sosial və s. proseslərin xarakterində baş verən dəyişikliklər müəssisələrin istehsal-təsərrüfat fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Bu baxımdan, təsərrüfat subyektləri müəssisələrin iqtisadi dayanıqlılığını artırmaq və rəqabətdə qalib gəlmək üçün təsərrüfat fəaliyyətinin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması istiqamətində daim düşünməlidirlər. Müəssisələrin təsərrüfat fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi yollarını şərh etməzdən əvvəl "səmərə və səmərəlilik" anlayışları təhlil edilməlidir.Bu anlayışlar bir-birinə oxşar olsalar da, mahiyyət baxımından bir-birindən fərqlənirlər."Səmərə" ümumi anlayışdır və istənilən fəaliyyətin uğurlu, müsbət nəticəsini əks etdirir.Səmərəlilik isə konkret iqtisadi göstərici olub, fəaliyyət növünün son nəticəsi ilə onun təşkilinə çəkilmiş xərclərin müqayisəli təhlilinə əsaslanır.Bunu riyazi qanunauyğunluq şəklində aşağıdakı kimi ifadə etmək olar.

$$\dot{I}_{ş} = \frac{\dot{I}_{sn} - \dot{I}_{tx}}{\dot{I}_{tx}} \cdot 100\%$$

Burada - $\dot{I}_s$ -istehsalın və ya hər hansı fəaliyyət növünün ümumi səmərəliliyi

$\dot{I}_{sn}$ - istehsalın və ya hər hansı fəaliyyət növünün son nəticəsi, $\dot{I}_{tx}$ - isə dərin fəaliyyət növünün təşkilinə çəkilmiş xərclərdir.

Müəssisələrin təsərrüfat fəaliyyətinin səmərəliliyinin əsas göstəricisi əmək məhsuldarlığıdır.

Əmək məhsuldarlığı anlayışını iki istiqamətdə təhlil etmək olar: Vaxt vahidi ərzində yaradılmış məhsulun (istehlak dəyərinin) miqdarı kimi, eləcə də məhsul vahidinə sərf olunmuş vaxtın

miqdarı kimi. Əmək məhsuldarlığı anlayışını təhlil edərkən onun 2 əsas növünü: Fərdi və ictimai əmək məhsuldarlığını bir-birindən fərqləndirmək lazımdır.Fərdi əmək məhsuldarlığı mikroiqtisadi göstərici olub, canlı əməyin məhsuldarlığını əks etdirir.Bu özünü aşağıdakı riyazi qanunauyğunluqda daha aydın ifadə edir:

$$F_{\partial M} = \frac{S_{İF}}{\partial_t}$$

Burada $F_{\partial M}$ – fərdi əmək məhsuldarlığı, $S_{İF}$ – səmərəli iş vaxtı fondu, ∂_t – isə məhsulun əmək tutumluluğudur.Əmək resurslarından istifadə ilk növbədə iş vaxtı fondundan istifadə dərəcəsindən asılıdır . [1, s. 387]

İctimai əmək məhsuldarlığı makroiqtisadi göstəricidir, özünü MHS (Milli Hesablar Sisteminin) elementlərində daha aydın əks etdirir, ÜDM, ÜMM və s.xarakterində təzahür edir. Bu aşağıdakı kimi müəyyənləşdirilir.

$$İ_{\partial M} = \frac{M_d}{C_m + \partial_m}$$

Burada $İ_{\partial M}$ – ictimai əmək məhsuldarlığı, M_d – istehsal olunan məhsulların dəyəri

C_m – canlı məsrəflər ∂_m - isə əşyalaşmış məsrəflərdir.

Respublikamızın və dünya ölkələrinin iqtisadiyyatında əmək məhsuldarlığı və onun səviyyəsinin yüksəldilməsi iqtisadi siyasətin prioritet istiqamətlərindəndir.Əmək məhsuldarlığının yüksəldilməsi istiqamətində dünya ölkələrinin müxtəlif məhsuldarlıq mərkəzləri fəaliyyət göstərir. Bu istiqamətdə Avropa, Asiya və Latın Amerikası milli məhsuldarlıq mərkəzlərinin fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Bu mərkəzlərdə təsərrüfat subyektlərinə əmək məhsuldarlığını yaxşılaşdırmaq istiqamətində müəyyən tövsiyələr verilir. Prosesin daha genişmiqyaslı xarakter alması üçün məhsuldarlıq mərkəzlərinin sayının artırılması və icra edilən əməliyyatların xarakterinin təkmilləşdirilməsi məqsədəuyğundur.

Burada aşağıdakı əməliyyatları qeyd etmək olar:

1.Xidməti kommunikasiya əməliyyatları

2.Koordinasiya əməliyyatları

3.Analitik-konstruktiv əməliyyatlar

4.İnformasiya texnologiyalar əməliyyatları

Təsərrüfat fəaliyyətin səmərəliliyinin artırlması istiqamətlərinə fəaliyyətin düzgün planlaşdırılması və təşkili, idarəetmə və nəzarətin mükəmməliyi, maddi, material, əmək və informasiya resurslarına qənaəti, fəaliyyətdə yenilikçi ideyaların və innovasiyaların tətbiqini, əmək kollektivinin sosial müdafiəsinin gücləndirilməsini, onların intellektual potensialının artırılmasını aid etmək olar. Xüsusilə, qeyd etmək lazımdır ki, ümumi səmərəliliyin, eləcə də əmək məhsuldarlığının yüksəldilməsi ictimai istehsalın həcminin artırılmasına, insanların rifah halının yüksəldilməsinə, eləcə də milli iqtisadiyyatın dayanıqlılığının təmin edilməsinə əlverişli şərait yaradacaqdır. Əmək məhsuldlarlığının yüksəldilməsi və bütövlükdə səmərəliliyin artırılması dövlət səviyyəsində dəstəklənən tədbirlərdəndir. Azərbaycan Respublikasında Milli iqtisadiyyat və onun sahələrinin inkişafına dair «Strateji yol xəritəsi»ndə də İqtisadiyyatin real sekrorunda əmək məhsuldarlığının yüksəldilməsinin təmin edilməsi prioritet istiqamət kimi müəyyənləşdirilmiş, texnika və texnologiyanın modernləşdirilməsi, intellektual potensialın artırılması - insan kapitalının inkişafının təmin edilməsi , eləcə də əmək fəaliyyətinin stimullaşdırılması başlıca istiqamətlər kimi seçilmişdir.

ƏDƏBİYYAT

1. İ.M.Mahmudov, T.Ş.Zeynalov, N.M.İsmayılov. "İqtisadi təhlil". Dərslik. Bakı-2010.
2. T.Quliyev. "İnsan resurslarının idarə olunması" Bakı -2013.

Емиль Мехрали оглы Мирзоев
старший преподаватель кафедры
«Менеджента и торговли» АУК,

Бахяддин Мехяддин оглы Юсифов
преподаватель кафедры
«Стандартизации и технологий» АУК

Пути повышения эффективности хозяйственной деятельности предприятий в современных условиях

Резюме

В тезисе отмечены проблемы эффективности хозяйственной деятельности, в особенности проблемы повышения производительности труда. Также отмечены пути повышения эффективности хозяйственной деятельности предприятий в современных условиях. В частности, были проанализированы компоненты экономической эффективности и определены факторы, влияющие на его формирование. Кроме того, приоритетные тенденции основаны на местном и международном опыте.

Ключевые слова: хозяйствующие субъекты, производительность труда, производство.

Emil Mehrali Mirzeyev
head teacher of
"Management and Trade" chair ACU,

Baheddin Mehyeddin Yusifov
teacher of "Standardization and Technology" chair

In modern condition the efficiency and directing ways of enterprises' economic activity

Summary

The thesis deals with the efficiency and its growth problems of enterprises' economic activity in modern condition. In particular, the components of economic efficiency have been analyzed and the factors influencing the formation have been identified. Also, prioritized trends are based on local and international experience.

Key words: economic subjects, labour productivity, economic activity, production.

Könül Sahib qızı MURADOVA
Azərbaycan Kooperasiya Universiteti
"İqtisadiyyat" fakültəsinin tyutoru

AZƏRBAYCANDA NEFT-QAZ YATAQLARININ İSTİSMARI VƏ YARANAN EKOLOJİ PROBLEMLƏR

Xülasə

Respublikamızda neft-qaz yataqlarının istismarı və onun ekoloji problemlərinin həlli mühüm elmi-praktik əhəmiyyət kəsb edir. Ətraf mühitin çirklənməsi prosesi neft - qaz yataqlarının kəşfiyyatından, istismarından və s. çox asılıdır. Bu məqsədlə ölkədə neft - qaz yataqlarının istismarı zamanı yaranan ekoloji gərginliklər tədqiqat obyektinə çevrilmişdir.

Açar sözlər: neft-qaz yataqları, ekoloji problem, ətraf mühitin mühafizəsi, fəaliyyət koordinasiyası.

***

Azərbaycan ərazisində neft-qaz ehtiyatları və inkişafı. Azərbaycan ərazisinin 2/3 hissəsi neft və qaz yataqlarından ibarətdir. Əsas neft və qaz yataqları Abşeron yarımadasında, Xəzər dənizinin şelf zonasında, Bakı və Abşeron arxipelaqlarındadır. Bundan başqa, cənub-şərqi Şirvan, Mərkəzi Aran, Qobustan, Ceyrançöl, Acınohur, Siyəzən zonası da neftlə zəngindir. Son dövrdə iki böyük neft yatağı - "Şahdəniz" və "Ümid" kəşf olunmuşdur. "Şahdəniz" platformasında 4 istismar quyusu qazılmış və onlardan biri fəaliyyət göstərir. "Ümid" yatağının üzən qurğu vasitəsilə 9 quyu qazılıb. Kəşfiyyat quyusunun qazılması Dövlət Neft Şirkəti (DNŞ) tərəfindən "Ümid - 1" platformasında aparılmışdır.

Azərbaycan nefti yüksək keyfiyyətli, azkükürdlü və azparafinlidir. Respublikada çıxarılan yanar qazlar karbohidrogen tərkiblidir. Onlar neftin tərkibində həll olmuş, sərbəst, xalis qaz halında olur. Son 30-50 il ərzində qaz-kondensant yatağı kəşf olunub istifadəyə verilmişdir. Azərbaycan Respublikası ərazisində 8 neftli-qazlı (Abşeron, Şamaxı-Qobustan, Aşağı Kür, Bakı arxipelaqı, Gəncə, Yevlax-Ağcabədi, Quba-Xəzəryanı, Kür-Qabırrı çaylararası) və 2 perspektivli (Acınohur və Cəlilabad) rayon ayrılır. Ən böyük neft-qaz-kondensant yataqları Abşeron, Bakı arxipelaqları və Aşağı Küryanı rayonlarındadır. Respublika ərazisində Maykop - Abşeron yaşlı çöküntülərində bir sıra yanar şist və liqnit-qonur kömür təzahürləri aşkar edilmişdir. [2, səh. 102]

Azərbaycan Respublikası neft - qaz yataqlarının istismarı və istehsalı gəlirlərinin həcmi ölkənin təsdiq olunmuş neft və qaz ehtiyatlarının emal olunan qiymətləri əsasında müəyyən edilir. Neft və qaz ehtiyatlarının həcmi Azəri-Çıraq-Günəşli, Şahdəniz yataqlarından, hasilatın pay bölgüsü sazişlərində nəzərdə tutulmuş digər yataqlardan, eləcə də Azərbaycan Respublikası Dövlət yataqlardan gözlənilən neft və qaz ehtiyatlarının qiymətləndirilməsi əsasında müəyyən edilir.

Azərbaycanda 150 ildən çoxdur ki, sənaye üsulu ilə neft və qaz çıxarılır. Bu müddətdə 67 neft, qaz və kondensant yatağı kəşf edilmişdir ki, hazırda onlardan 55-i istismar olunur. Yerin təkindən 1365.5 milyon ton, o cümlədən dəniz yataqlarından təqribən 430 milyon ton neft və 443.8 milyard kubmetr qaz çıxarılmışdır. 1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mənası, əsas prinsipləri ölkəmizin zəngin, təbii sərvətlərindən səmərəli istifadə etməkdən ibarətdir. [3]

Neft hasilatının ən yüksək səviyyəsi 1997-ci ildəki 9 milyon tondan 2010-cu ildə 50.7 milyon tona, qaz hasilatı isə 2004-cü ildəki 5 milyard kubmetrdən 2013-cü ildə 29.5 milyard kubmetrə çatdırıldı. Saziş üzrə "Çıraq", "Azəri" və "Günəşli" (dərinsulu hissə) sahələrində quraşdırılmış dəniz özüllərindən 60-dan artıq istismar quyusu qazılmışdır. Bu quyulardan gündə orta hesabla 91 min tondan çox neft və 35 milyon kubmetr qaz çıxarılır. Həmin yataqlardan işlənilmənin əvvəlindən, yəni 1997-ci ildən 2013-cü ilədək 298.4 milyon tondan artıq neft və 81.4 milyard kubmetrdən çox qaz hasil edilmişdir.

Neft və qaz gəlirlərinin istifadə strategiyası makroiqtisadi sabitliyin qorunub saxlanılması əsasında aşağıdakı əsas istiqamətləri əhatə edir:

- iqtisadiyyatın qeyri-neft sektorunun, regionların, kiçik və orta sahibkarlığın inkişafı;
- infrastruktur sahələrin genişmiqyaslı inkişafı;
- yoxsulluğun azaldılması üzrə tədbirlərin həyata keçirilməsi və digər sosial problemlərin həlli;
- iqtisadiyyatın intellektual və texnologiya bazasının səviyyəsinin yüksəldilməsinin stimullaşdırılması;
- "insan kapitalı"nın inkişafı (yüksək ixtisaslı kadrların hazırlanması);
- ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi;
- azad edilmiş ərazilərin yenidən qurulması və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması ilə bağlı tədbirlərin həyata keçirilməsi.

Ekoloji siyasətin əsas istiqamətləri. İndiki dövrdə ətraf mühitlə bağlı mövcud vəziyyət hər bir ölkəni ekoloji problemləri ümumbəşəri kontekstə çıxarmağa məcbur etmişdir. Neft - qaz yataqlarının istismarı, ətraf mühitin mühafizəsi məsələləri aparıcı beynəlxalq təşkilatların proqram sənədlərində öz əksini tapmışdır. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra dünya-

da gedən proseslərdən kənarda qalmamış və 1992-ci ilin iyun ayında qeyd olunan Çərçivə Konvensiyasına qoşulmuşdur. Ətraf mühiti çirkləndirən müəssisələr içərisində neft sənayesi müəssisələri əsas yerlərdən birini tutur. Praktiki olaraq neft sənayesinin əsas obyektləri - neftin çıxarılması, nəqli, onun emalı, emaldan alınmış məhsulların istifadəçiyə çatdırılması prosesləri ətraf mühiti çirkləndirən potensial mənbələrdir. Bir ildə çıxarılan neftin ümumi miqdarının 2-3%-i itkiyə gedir. Neftçıxarma rayonlarında torpağın neftlə çirklənməsinin əsas səbəbləri aşağıdakılardır:

- neftin çıxarılmasında köhnə texnologiyaların tətbiqi və istifadə olunan avadanlıqların ətraf mühitin çirklənməsinin qarşısını ala bilməməsi;
- neftin nəqli zamanı boru kəmərlərində baş verən qəzalar (boruların 48%-dən çoxunun işləmə müddəti 20 ildən artıqdır, yalnız 7%-nin işləmə müddəti 10 ildən azdır) və s.

Bundan başqa, aparılan tədqiqatlara müvafiq olaraq neft-qaz sənayesi obyektlərində torpaq sahəsinin pozulması bəzi regionlarda sənaye meydançaları üçün ayrılmış sahələrdən çoxdur. [5]

Bu gün ölkənin yanacaq-enerji kompleksinin qarşısında duran əsas vəzifə son on ildə qazanılmış uğurları möhkəmləndirməkdən, iqtisadiyyatın və əhalinin enerji resurslarına olan tələbatının daha dolğun ödənilməsini təmin etməkdən ibarətdir. Bu mühüm vəzifənin yerinə yetirilməsi məqsədilə hazırlanmış "Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı (2005 - 2015-ci illər) üzrə "Dövlət Proqramı"nda bu kompleksə daxil olan sahələrin inkişaf istiqamətləri müəyyənləşdirilmiş və onların reallaşması üçün konkret tədbirlər həyata keçirilmişdir. Dövlət Proqramının məqsədi Azərbaycan Respublikasının yanacaq-enerji kompleksini inkişaf etdirməklə, əhalinin və iqtisadiyyatın elektrik enerjisinə, qaza və digər enerjidaşıyıcılarına olan tələbatının daha dolğun ödənilməsinə nail olmaqdan ibarət olmuşdur.

Ümumi nəticələr:

1. Ölkədə neft - qaz yataqlarının istismarı və müasir tələblərə uyğun inkişafının əsas istiqamətləri dövlət proqramlarında əsaslandırılmışdır.
2. Yanacaq-enerji kompleksinə daxil olan neft - qaz istismar sahələrinin fəaliyyətinin səmərəliliyinin artırılması üçün müvafiq elmi-texniki və təşkilati tədbirlər həyata keçirilir.
3. Neft - qaz yataqlarının istismarı, istehsalı, emalı, nəqli, saxlanması və s. proseslər, mütərəqqi texnoloji tədbirlərin həyata keçirilməsi dövlət siyasətinin tərkib hissəsidir.
4. Yanacaq-enerji kompleksində ekoloji təhlükəsizliyin təmin edilməsi beynəlxalq səviyyədə həyata keçirilir.

Ölkədə aydın və birmənalı ekoloji siyasətin formalaşdırılması və onun həyata keçirilməsi üçün müvafiq dövlət strukturları yaradılmışdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Ekologiya İdarəsi, "Ekol Mühəndislik Xidmətləri" Qapalı Səhmdar Cəmiyyəti (2008-ci ildə), "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti dövlətin ekoloji siyasətini həyata keçirən qurumlardır.

ƏDƏBİYYAT

1. Q.S.Məmmədov. "Ekologiya və ətraf mühitin mühafizəsi", 2005-ci il.
2. R.N.Nurəliyeva. "Azərbaycanın yanacaq-enerji kompleksinin inkişafının iqtisadi-ekoloji problemləri". 221 səh, 2010-cu il.
3. "Respublika neft sənayesinin problemlərinin həlli yolları". Az NSETLİ-nin e/ə toplusu1997-ci il.
4. www.preslib.az. Azərbaycan Respublikasi Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. "Ekoloji məqalələr"
5. www.eco.gov.az. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi.

Конуль Сахиб кызы Мурадова
тютор экономического факультета
Азербайджанского Кооперативного Университета

Эксплуатация нефтегазовых месторождений в Азербайджане и возникающие экологические проблемы

Резюме

Эксплуатация нефтегазовых месторождений и решение их экологические проблем в нашей республике имеет научно - практическое значение. Процесс загрязнения окружающей среды во многом зависит от эксплуатации нефтегазовых месторождений, их добывании и т.п. В ходе эксплуатации нефтегазовых месторождений возникшиеся экологические напряженности в стране стала объектом исследования.

Ключевые слова: нефтегазовые месторождение, экологическая проблема, охрана окружающей среды, координация действий.

Konul Sahib Muradova
tutor of the faculty of economics
at Azerbaijan Cooperation University

Exploitation of oil - gas deposits in Azerbaijan and emerging environmental problems

Summary

The exploitation of oil - gas deposits and the solution its ecological problems has important scientific - practical value in our pepublic. The process of pollution of the environment highly depends on the exploitation (investigation) and soon of oil - gas deposits. So the ecological tension arising during the exploitation of oil - gas deposits country has become the subject of research.

Key words: oil and gas deposits, environmental problems, environmental protection, coordination of activities.

Şahzadə Qafar qızı MƏDƏTOVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, doktorant

MÜASİR MƏRHƏLƏDƏ VERGİ SİYASƏTİNİN PRİORİTET İSTİQAMƏTLƏRİ

Xülasə

Dövlətin vergi siyasəti dedikdə, dövlət tərəfindən işlənib hazırlanmış, vergi sahəsində cəmiyyətin qarşısında duran bu və ya digər vəzifələri həyata keçirməyə yönəlmiş tədbirlər sistemi başa düşülür. Vergi siyasəti dövlət orqanlarının elmi cəhətdən əsaslandırılmış hüquqi fəaliyyəti kimi geniş təkrar istehsalın tələbatını təmin etməlidir. Onun əsas məqsədi vergi ödəyicilərindən vergilərin tutulmasının hüquqi qaydalarını təmin etməklə bərabər vergitutmanın təsiri altında formalaşan iqtisadi münasibətlərin hərtərəfli qiymətləndirilməsidir. Vergi qanunvericiliyinə riayət olunmasına nəzarət və onu pozan hüquqi və fiziki şəxslərə dair iqtisadi və inzibati sanksiyaların sərtləşdirilməsi iqtisadi islahatları müşayiət edir

Açar sözlər: vergi qanunvericiliyi, vergi inzibatçılığı, vergi siyasəti, vergiqoyma, vergi inzibatçılığının/qanunvericiliyinin təkmilləşdirilməsi

***

Vergi siyasəti dövlətin maliyyə siyasətinin ayrılmaz tərkib hissəsidir. Ölkənin vergi sistemini yaradarkən, dövlət ondan müəyyən maliyyə siyasətinin məqsədləri üçün istifadə etməyə can atır. Vergilər iqtisadiyyatın dövlət tənzimlənməsinin əsas elementlərindən biridir. Vergi siyasəti cəmiyyətin ayrı-ayrı sosial qruplarının və dövlətin maliyyə vəsaitlərinə olan ehtiyacının ödənilməsi,

maliyyə ehtiyatlarının yenidən bölüşdürülməsi hesabına ölkə iqtisadiyyatının inkişafının təmin edilməsi məqsədilə ölkənin vergi sisteminin formalaşdırılması sahəsində dövlətin həyata keçirdiyi iqtisadi, maliyyə və siyasi tədbirlərin məcmusudur.

Dövlətin vergi siyasəti dedikdə, dövlət tərəfindən işlənib hazırlanmış, vergi sahəsində cəmiyyətin qarşısında duran bu və ya digər vəzifələri həyata keçirməyə yönəlmiş tədbirlər sistemi başa düşülür.

Vergi siyasətinin məqsəd və vəzifələri konkret iqtisadi şəraitdən asılıdır. Məqsəd və vəzifələri müəyyən edildikdən sonra dövlət onların həyata keçirilməsi üsullarını işləyib hazırlayır.

Vergi siyasətinin əsas məqsədi vergilərin mahiyyəti və funksiyalarından irəli gəlir və məcmu ictimai məhsulun bir hissəsinin dövlət tərəfindən alınmasından və bu vəsaitlərin büdcə vasitəsi ilə yenidən bölüşdürülməsindən ibarətdir. Beləliklə, vergilər öz təyinatlarını və funksiyalarını vahid büdcə prosesində həyata keçirirlər. Hər bir maliyyə ili üçün büdcə qəbul edilərkən vergi siyasətinin əsası qoyulmuş olur. Onun həyata keçirilməsi isə uyğun qanunvericilik və normativ aktların qəbul edilməsi yolu ilə aparılır.

Vergi siyasəti həyata keçirilərkən dövlət büdcəsinin tənzimlənməsi, planlaşdırılması və ona nəzarətin qanunla müəyyən edilmiş hüquqi normaları reallaşdırılır. İqtisadi cəhətdən əsaslandırılmış vergi siyasəti vəsaitlərin vergi sistemi vasitəsi ilə toplanmasının optimallaşdırılması məqsədini güdür. Vergi siyasəti dövlət orqanlarının elmi cəhətdən əsaslandırılmış hüquqi fəaliyyəti kimi geniş təkrar istehsalın tələbatını təmin etməlidir. Onun əsas məqsədi vergi ödəyicilərindən vergilərin tutulmasının hüquqi qaydalarını təmin etməklə bərabər vergitutmanın təsiri altında formalaşan iqtisadi münasibətlərin hərtərəfli qiymətləndirilməsidir.

Vergi siyasətinin əsas subyekti dövlətdir. Dövlətin vergi siyasətinin əsas vəzifələri aşağıdakılardır:

- sahə və ərazi nöqteyi-nəzərindən ölkə iqtisadiyyatının tənzimlənməsi üçün şəraitin yaradılması;
- dövlətin maliyyə ehtiyatları ilə təmin edilməsi;
- bazar münasibətləri şəraitində əhalinin gəlir səviyyələri arasında yaranmış qeyri-bərabərliyin hamarlanması.

Vergi siyasətinin həyata keçirilməsi üsulları dövlətin bu siyasəti aparmaqla əldə etməyə çalışdığı məqsədlərdən asılıdır. Yüksək inkişaf etmiş bazar münasibətləri şəraitində dövlət tərəfindən vergi siyasəti istehsalın, ərazilərin iqtisadi inkişafının, əhalinin gəlirlilik səviyyəsinin strukturunun dəyişdirilməsi məqsədilə ÜDM-in bölüşdürülməsi üçün istifadə edilir və bu siyasəti həyata keçirməyin aşağıdakı üsullarından istifadə olunur:

- vergi ödəyicisinin üzərinə düşən vergi yükünün dəyişdirilməsi;
- vergitutmanın bir üsul və formalarının digəri ilə əvəz edilməsi;
- bu və ya digər vergilərin yayılma dairəsinin dəyişdirilməsi;
- vergi güzəştlərinin daxil edilməsi və ya ləğvi;
- diferensiasiyalı vergi dərəcələri sisteminin tətbiqi və s.

Vergiqoyma nəzəriyyəsində hər zaman belə bir məsələ öz aktuallığını saxlayır: büdcənin formalaşmasını sırf fiskal metodlarla təmin etmək, yoxsa vergilərin azaldılması yolu ilə sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına və vergi bazasının genişləndirilməsinə nail olmaq?

Tarixi sənəd kimi, məşhur Avstriyalı dövlət xadimi K.Metternihin (1773-1859) hazırladığı və 15 dekabr 1820-ci ildə növbəti Vyana Konqresi zamanı rus çarı I Aleksandra təqdim etdiyi sənəddən bir parçanı göstərmək olar. Hökumətlər nə etməlidir sualına cavab axtaran Metternih yazır: Onlar öz ölkələrinin maliyyəsinin vəziyyətinə diqqət yetirməlidirlər ki, ictimai vəzifələrin və vergilərin yüngülləşdirilməsi yolu ilə öz xalqlarına təsəvvür edilən yox, real dünyanın nailiyyətlərini dadmağa imkan versinlər. [1]

I Aleksandrın və I Nikolayın dövründə 20 ildən çox Rusiyanın maliyyə naziri olmuş qraf E.F.Kankrin (1774-1845), yeni vergilərin təyin edilməsi zamanı çox ehtiyatlı olmağı tövsiyə etmişdir. [2]

Lakin, vergi yükünün real azaldılması, hakimiyyətdə olanların arzusu ilə deyil, yalnız möhkəm iqtisadi əsaslarla baş verə bilər. Əks halda, yeni vergilərdən qaçmaq cəhdi tamamilə əks nəticə-

lərə gətirib çıxara bilər. Belə ki, 1673-cü ildə Fransaya təcili hərbi xərclər tələb olunurdu. Yuxarıda adı çəkilən J.B.Kolber vergilərin artırılmasına tərəfdar olduğunu bildirmişdir. Lakin, istiqrazlar hesabına maliyyələşdirmə fikri üstün gəldi. Bu səbəbdən, Kolber demişdir: Bax belə. İstiqrazlar üçün yol açıqdır. İndi kralın xərclərinin qarşısını nə ala bilər? İstiqrazlar üzrə hesablaşmalar vergilərin artırılmasını tələb edəcək, və əgər istiqrazların bir sərhəddi yoxdursa, vergilərin də artımına məhdudiyyət olmayacaq. [3]

Lakin, qayıdaq XX-ci əsrə. Müharibədən sonrakı Almaniyanın dövlət xadimi, professor Lüdviq Erhard (1897-1977) yazırdı: Həm bütövlükdə vətəndaşların, həm də təsərrüfat dairələrinin vergi yükünün azaldılmasına istiqamətlənmiş arzularını kifayət qədər ədalətli hesab etmək lazımdır. [4]

Lakin eyni zamanda, o, məqsədə nail olmaq üçün vasitələrdən də bəhs edir: əgər xərclərin stabilləşməsinə nail olmaq mümkün olsa və məhsuldarlığın inkişafı həmin templərlə artsa, vergilərin nə dərəcədə azaldıla bilməsini təsəvvür etmək və hesablamaq olar. Yalnız bu yolla, bizim hər birimizi məyus edən vergi probleminin həqiqi və real həllinə nail olmaq olar.

Qeyd etmək lazımdır ki, Lüdviq Erhardın Təsərrüfat naziri və sonradan Kansler olduğu dövrdə yürütdüyü vergi siyasəti, onun təşəbbüsü ilə qəbul edilən tədbirlər sırasında, müharibədən sonrakı Almaniyanın iqtisadi inkişafında böyük rol oynamışdır.

70-80-ci illərdə Qərb ölkələrində amerikan iqtisadçısı A.Lafferin büdcə konsepsiyası təşəkkül tapmışdır. O belə bir mövqedən çıxış edirdi ki, vergi daxilolmaları - iki əsas amilin məhsuludur: vergi dərəcəsi və vergi bazası. Vergi yükünün artımı dövlət gəlirlərinin yalnız müəyyən həddə qədər artımına gətirir. Bu, milli istehsalın vergi tutulan hissəsi azalana qədər davam edir.

Bu həddi keçəndən sonra, vergi dərəcəsinin artımı büdcə gəlirlərinin artmasına deyil, azalmasına gətirib çıxaracaq (Laffer əyrisi). Bununla əlaqədar olaraq, işgüzar aktivliyin canlanması məsələsini vergi yükünün yüngülləşdirilməsi yolu ilə həll etmək lazımdır. Vergi yükünün azaldılması istehsalın artmasına gətirib çıxarır ki, bu da sonradan müvəqqəti olaraq daxilolmaların azaldılmasını kompensasiya edir. İnflyasiya olmadan istehsal artımının sürətləndirilməsinə, əsasən, vergi dərəcəsi, vergi güzəştləri və proqressiv vergiqoymanın bacarıqla tənzimlənməsi vasitəsi ilə nail olmaq olar.

XX əsrin 80-ci illərinin ikinci yarısı - 90-cı illərin əvvəllərində ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, Yaponiya, İsveç və dünyanın bəzi digər aparıcı ölkələri kapitalın yığımına və işgüzar aktivliyin stimullaşdırılmasına istiqamətlənmiş vergi islahatları keçirmişdirlər. Bu məqsədlə, korporasiyaların gəlirinə vergi dərəcələri azaldılmışdır. Məsələn, ABŞ-da korporasiya vergisi 46%-dən 34%-ə qədər azaldılmışdır; Böyük Britaniyada - 45%-dən 35%-ə qədər, sonradan isə - 33%-ə qədər; Fransada - 1986-cı ildə 50%-dən 45%-ə qədər, 1991-ci ildə 42%-ə qədər, sonradan isə - 34%-ə qədər; Yaponiyada - 1989-cu ildə 42%-dən - 40%-dən də aşağıya (prefektura və yerli vergilər nəzərə alınmaqla). 1994-cü ildə Danimarkada vergi islahatlarının mərhələlərlə aparılması başlanmışdır. Eyni zamanda, bu ölkələrdə fiziki şəxslərin fərdi gəlirlərinin yuxarı vergiqoyma həddi azaldılmış, vergidən azad olan gəlir intervalları genişləndirilmişdir.

Qeyd etmək lazımdır ki, birbaşa gəlirlərin azaldılması, əlavə dəyər vergisi, satış vergisi kimi dolayı gəlirlərin bir qədər artmasını gündəmə gətirmişdir. Belə ki, 90-cı illərin ortalarında Almaniyada ƏDV-nin ümumi dərəcəsi 14%-dən 15%-ə qədər, sonradan isə - 16%-ə qədər artırılmışdır. Yaponiyada, satışdan əldə edilən vergilər 3%-dən 5%-ə qədər artmışdır. İsveçrədə də ƏDV-nin tətbiqinə başlanmışdır. Bir sıra ölkələrdə torpaq vergisinin artması müşahidə olunur.

Vergi qanunvericiliyinə riayət olunmasına nəzarət və onu pozan hüquqi və fiziki şəxslərə dair iqtisadi və inzibati sanksiyaların sərtləşdirilməsi iqtisadi islahatları müşayiət edir.

ƏDƏBİYYAT

1. Валлотон А., Aleksandr I. - M.: Прогресс, 1991. - C.271
2. Бизнес и банки. - 1991. - №6. - C.8.
3. Малов В.Н., Кольбер Ж.Б. C.90.
4. Эрхард Л. Благосостояние для всех. M. 1991.

Шахзаде Гафар Мадатова
докторант, АГУН и П

Приоритетные направления налоговой политики на современном этапе

Резюме

Налоговая политика государства означает систему мер, направленных на реализацию некоторых или всех задач, стоящих перед государством в налоговом поле, разработанном государством. Налоговая политика должна обеспечивать широкий спектр потребностей в воспроизводстве, таких как научно обоснованные правовые действия государственных органов. Его основная цель обеспечить всестороннюю оценку экономических отношений, сформированных под влиянием налогообложения, при обеспечении правовых положений сбора налогоплательщиков. Контроль соблюдения налогового законодательства и экономических и административных санкций в отношении физических и юридических лиц, нарушающих закон, сопровождается экономическими реформами.

Ключевые слова: налоговое законодательство, налоговое администрирование, налоговая политика, налогообложение, налоговое администрирование / совершенствование законодательства.

Shahzade Qafar Madatova
PhD student ASO and IU

Priority requirements of tax policy in modern steps

Summary

The tax policy of the state means the system of measures designed to implement some or all of the tasks faced by the state in the tax field developed by the state. Tax policy should provide a broad range of reproduction needs, such as scientifically justified legal action by public authorities. Its main purpose is to provide a comprehensive assessment of the economic relations formed under the influence of taxation, while ensuring the legal provisions of the taxpayer levy. Control of compliance with tax legislation and economic and administrative sanctions on individuals and legal entities violating the law are accompanied by economic reforms.

Key words: tax legislation, tax administration, tax policy, taxation, improvement of tax administration/legislation.

Nicat Hafiz oğlu MUXTARLI
Qərb Universiteti

AZƏRBAYCANDA BEYNƏLXALQ ƏMƏK BÖLGÜSÜNÜN ÜSTÜNLÜKLƏRİNDƏN İSTİFADƏ

Xülasə

Dünya təsərrüfatının subyekti kimi Azərbaycan Respublikası da bu sistemin üstünlüklərindən səmərəli istifadə etmək istiqamətində genişmiqyaslı islahatlar həyata keçirir. Bu məqsədlə son 10 ildə Azərbaycanda bir neçə Dövlət Proqramları həyata keçirilmişdir. Bazar iqtisadi münasibətlərinin inkişafı üçün yaradılan əlverişli şəraitin məntiqi nəticəsidir ki, respublikamızda iqtisadi inkişafın dayanıqlılığı təmin edilmiş, ölkəmizin dünya bazarında mövqeyi xeyli yaxşılaşmış və xarici ticarət dövriyyəsinin həcmi artmışdır.

Açar sözlər: Beynəlxalq bazarlar, əmək bölgüsü, imkanlar, üstünlüklər, imkan, potensial, resurslardan istifadə, bölgü, səmərəli, artırmaq.

Giriş

Azərbaycanda ixrac potensialından səmərəli istifadə etmək yolu ilə dünya bazarında mövqeyini yaxşılaşdırmaq üçün dövlət səviyyəsində ardıcıl tədbirlər həyata keçirilir. Azərbaycan brendinin dünya bazarında yerini gücləndirmək üçün Prezident İ.H.Əliyev müvafiq fərmanlar, sərəncamlar vermiş və bu istiqamətdə mükəmməl hüquqi-normativ baza yaradılmışdır.

Respublikamızın ixracyönlü ölkəyə çevrilməsində beynəlxalq əmək bölgüsü böyük rol oynamaqla, daxili bazarın idxaldan asılılığının minimumlaşdırılmasında mühüm yer tutur. Xüsusilə, Azərbaycanda neft-kimya, kənd təsərrüfatı məhsullarının dünya bazarına ixracı sahəsində respublikamızın Beynəlxalq Əmək Bölgüsündə iştirakının genişləndirilməsi sahəsində böyük imkanlar vardır. Başlıca vəzifə bu imkanları təsərrüfatçılıq dövriyyəsinə daxil etmək və onlardan səmərəli istifadəyə şərait yaratmaqdan ibarətdir.

Azərbaycanın beynəlxalq əmək bölgüsündə mövqeyinin inkişaf amilləri və stimulları

Problemlə bağlı ümumi məsələlərə yer vermədən qeyd edək ki, Azərbaycanın BƏB-də mövqeyinin inkişafına təsir edən stimulların yaradılması üçün səyləri, fikrimizcə, 5 əsas istiqamətdə cəmləşdirmək lazımdır:

1) İxracyönlü BƏB modelinin ölkə iqtisadiyyatına hərtərəfli tətbiqinə nail olmaq;

2) Respublikamızı xarici birbaşa investisiyaların yatırılmasının dünya miqyasında ən cəlbedici obyektlərindən birinə çevirmək;

3) Ölkədə elmi-texniki prosesləri hərəkətə gətirmək, sürətləndirmək, Azərbaycanı əmtəə idxalçısından müasir texnologiyaların idxalçısı və istehsalçısına çevirmək;

4) Milli təsərrüfatın fəaliyyətinin əsas hissəsinin resursların təkrar emalı üzərində qurulmasına nail olmaq;

5) Milli təsərrüfatın bütün həlqələri və fazalarında rəqabətqabiliyyətliliyin beynəlxalq miqyaslara qədər artırılması üçün zəruri tədbirləri hazırlamaq və reallaşdırmaq.

Respublikamızın BƏB-də mövqeyinin yaxşılaşdırılması yolunda atılmalı ən birinci addım iqtisadi artımın ixracyönlü modelə əsaslandırılmasıdır [4. s. 138]. Bu sahədə dünya təcrübəsinə əsaslanan effektiv dövlət proqramının yaradılması artıq zamanın tələbinə çevrilmişdir. Fikrimizcə, ixracın stimullaşdırılması üçün aşağıda göstərilən təklifiər həmin proqramın bəzi elementləri rolunu oynaya bilər:

1) Yalnız emal sənayesinə aid ixracçıların fəaliyyətinin stimullaşdırılması;

2) İxracın kommersiya bankları ilə dövlət tərəfindən birgə kreditləşdirilməsi;

3) Milli ixracçıları kreditləşdirən banklara dövlət qarantlarının verilməsi;

4) Azərbaycan məhsullarını alan xarici firmalara dövlət tərəfindən, yaxud dövlət qarantı ilə kommersiya bankları tərəfindən kreditlərin təqdim edilməsi;

5) İxracçıların kreditlərə görə kommersiya banklarına ödədikləri faizlərin bir hissəsinin dövlət tərəfindən subsidiyalaşdırılması;

6) İxracçılara milli nəqliyyat tarifləri ilə beynəlxalq nəqliyyat tarifləri arasındakı fərqin ödənilməsi;

7) İxracın birbaşa dövlət tərəfindən sığortalanması;

8) İxrac kreditlərinin dövlət tərəfindən sığortalanması;

9) İxracçı müəssisələrin idxal etdikləri əsas fondlardan tutulan gömrük rüsumlarının azaldılması və ya ləğvi;

10) İxracçı firmaların əsas fondlara görə ödədikləri əmlak vergisinin ləğvi;

11) İxracçı firmaların malların reklamlaşdırılmasına görə vergidən azad edilməsi;

12) İxracçı firmaların qiymətli kağızlarından gələn gəlirə qoyulan verginin azaldılması və ya ləğvi;

13) İxracçı müəssisələrdə əsas fondların amortizasiya müddətinin qısaldılması;

14) İxrac artımından tutulacaq mənfəət vergisinin ləğv edilməsi;

15) İxracçılara müəyyən əlavə imtiyazlar verilməsi (məsələn, su, elektrik, qaz və sair tariflərdən bir qədər güzəştlər);

16) Dövlət tərəfindən ixracçılara informasiya, marketinq, məsləhət istiqamətli aşağıdakı xidmətlərin göstərilməsi;

a) Azərbaycan müəssisələrinin "tam məlumat bazası"nın yaradılması; b) xarici ölkələrin belə bazarları ilə əlaqələrin təşkili; c) milli ixracçıların xarici ölkələrin qanunvericiliyi, bazar fəaliyyətinin qaydaları, mövcud standartlar və əmtəənin keyfiyyətinə olan digər tələblər haqqında konsultasiya edilməsi.

17) İxracçı firmaların xarici bazarların tədqiqi üzrə marketinq proqramlarının dövlət tərəfindən maliyyə cəhətdən dəstəklənməsi;

18) İxracyönlü müəssisələrin elmtutumlu, mürəkkəb avadanlıqların quraşdırılması, mənimsənilməsi, eləcə də onların istismar olması ilə bağlı kadr hazırlığı xərclərini dövlətin öz üzərinə götürməsi;

19) Beynəlxalq tender və torqlarda milli fırmaların iştirakı ilə əlaqədar xərclərin dövlət tərəfindən konpensasiya olunması;

20) Bilavasitə dövlətin təşəbbüsü ilə faktorinq əməliyyatlarının təşkili və genişləndirilməsi, bu sahədə müvafiq qanunvericilik bazasının formalaşdırılması [2. s. 139];

21) Fəaliyyətini xarici lisenziyalar əsasında qurmuş ixracyönlü firmalara əlahiddə güzəştlərin tətbiqi;

22) Elmi-tədqiqat institutlarının, ali təhsil ocaqlarının kadr potensialının dövlət tərəfindən fəal surətdə xarici iqtisadi fəaliyyətin problemlərinin araşdırılması məsələsinə cəlb edilməsi və onların elmi araşdırmalarının nəticələrinin aktiv şəkildə ixracyönlü firmalara ötürülməsi.

Qeyd etmək lazımdır ki, ölkə iqtisadiyyatında ekstensiv ixrac modelinin istifadə olunması üçün zəruri resursların əksər hissəsi xeyli azalmışdır. Dünya bazarına xammal ixracının genişləndirilməsi imkanları getdikcə ölkənin mövcud resurs potensialı ilə daha ciddi neqativ halların əmələ gəlməsinə səbəb ola bilər [1. s. 138].

Qeyd edilən şərtləri nəzərə almaqla, Azərbaycanın ixrac potensialının sonrakı genişləndirilməsi yalnız o zaman haqlı, əsaslandırılmış olar ki, bu genişləndirilmə yüksək səviyyədə əlavə edilmiş dəyərə malik məhsulların ixracının artırılması istiqamətində inkişaf etdirilmiş olsun.

Hazırda Azərbaycanın rəqabət üstünlüklərinə malik olduğu sahələrdə ixracın stimullaşdırılması ilə bərabər, yumşaq idxalın əvəzlənməsi siyasətinin də yeridilməsinə ehtiyac vardır [3. s. 141]. Burada dünya ölkələrinin təcrübəsindən hərtərəfli bəhrələnmək olar. Məsələn, Cənubi Koreya və Braziliya iqtisadi inkişaflarının ilkin etaplarında yalnız o məhsulların idxalına əlverişli şərait yaradırdılar ki, ixrac üçün nəzərdə tutulmuş əmtəələrin hazırlanmasından istifadə olunsun. Digər məhsulların idxalı isə ya məhdudlaşdırılır, ya da qadağan olunurdu.

İxracyönlü BƏB modelinin tətbiqinin ən vacib şərtlərindən biri də odur ki, ixracın stimullaşdırılması mütləq məhsul istehsalından sonrakı servisədək əmtəə yeridilməsinin bütün mərhələlərini əhatə etməlidir [5. s. 94]. Əks halda təkrar istehsalın I mərhələsində əldə edilmiş effekt sonrakı mərhələlərdə heçə enəcəkdir və həyata keçirilən tədbirlər real səmərə verməyəcəkdir. Nəticədə ixracı stimullaşdırmaq üçün ixracçılara verilən güzəştlər ixracın artmamasilə əlaqədar büdcəyə geri dönməyəcək və dövlət üçün ağır yükə çevriləcəkdir.

ƏDƏBİYYAT

1. G.Ə.Gənciyev. Beynəlxalq iqtisadi münasibətlər. Bakı, 2012, səh.138.
2. G.Ə.Gənciyev. Həmin kitabda. Bakı, 2012. səh. 139.
3. Həmin kitabda, səh.141.
4. G.Ə.Gənciyev, A.Qurbanzadə. İxrac ehtiyatlarından istifadənin yaxşılaşdırılması istiqamətləri. Bakı, 2003. səh.122.
5. C.H.Kərimov və b. Beynəlxalq iqtisadi münasibətlər. Bakı, 1998. səh. 94.
6. www.Referat.Ru - "Международное разделение триада в конце XX века".

Ниджат Хафиз оглы Мухтарлы
«Западный» Университет

Преимуществ использования международного разделения труда в Азербайджане

Резюме

Азербайджанская Республика как субеект мирового хозяйственной системы для эффективного использования преимущества данной системы осуществляет широкомащтабные реформы.

С этой целью за последние 10 леть в Азербайджане осуществеены несколько Государственных Программ. Как резултать осуществленных этих переприприятий созданы благоприятные условия для развитие рыночных отношений, обеспечена устойчивой экономический рост, усилился интеграционные процессы, увеличился внешнеторговой оборот и повысился конкурентоспособность республики на мировом рынке.

Ключевые слова: международные рынки, разделения труда, возможностей, преимущества, потенсиал, ресурсы, распределение, увеличение, эффективность.

Nijat Hafiz Mukhtarly
«Western» University

Azerbaijan international division of labor benefits of using

Summary

The world economy, as a subject of the Republic of Azerbaijan in the benefits of the system, effective use of in the direction of large-scale reforms were carried out. With this purpose, over the last 10 years in Azerbaijan, several State Programs that have been implemented. Market, economic relations, development of favorable conditions, the logical result is that in our Republic, economic development, stability of our country on the world market position significantly improved the foreign trade turnover has increased.

Key words: international markets, division of labor, benefits, opportunities, the potential use of resources, distribution of, effectively, increase.

Elina Xaqani qızı RZAYEVA
doktorant, Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCANDA REALLAŞDIRILAN SOSİAL TƏYİNATLI DÖVLƏT PROQRAMLARI VƏ ONLARIN ƏHALİNİN RİFAHININ ARTIRILMASINDA ROLU

Xülasə

Məqalədə Azərbaycanda sosial sahənin müasir vəziyyəti tədqiq olunur. Müəllif sosial sahənin tənzimlənməsinin nəticələrini, bu prosesdə dövlət sosial proqramlarının əhəmiyyətini təhlil edir. Məqalədə bir sıra göstəricilərin - dövlət büdcəsinin xərclərində sosialyönlü xərclər, məşğulluq səviyyəsi, ümumdaxili məhsul və s. göstəricilərin statistik tədqiqi aparılır və mövcud meyillər müəyyən edilir. Yekunda müəllif əsaslandırılmış nəticələrini vermişdir.

Açar sözlər: sosial sahə, sosial proqramlar, ərzaq təhlükəsizliyi, region, sosial-iqtisadi inkişaf.

Giriş

Sosial siyasət ölkənin qlobal sosial-iqtisadi inkişaf strategiyasının ayrılmaz hissəsidir. Sosial siyasət özündə sosial və iqtisadi münasibətləri əks etdirir. Eyni zamanda, həmin komponentlər bir-biri ilə sıx təmasda olub, bir-birinə qarşılıqlı nüfuz edirlər. Bu kontekstdən kənarda sosial siyasət dedikdə qocalması, xəstələnməsi və s. səbəblərdən bazar iqtisadiyyatı münasibətlərindən kənarda qalanlara yardım göstərilməsi nəzərdə tutulur. Sosial siyasət həmçinin dövlətin daxili siyasətinin tərkib hissəsidir, sosial proqram və praktikada reallaşdırılır və ölkə əhalisinin əsas qruplarının maraqları baxımından münasibətləri tənzimləyir. Sosial siyasətin geniş anlamda məzmununa aşağıdakılar daxildir:

- dövlət quruluşundan asılıdır;
- cəmiyyətin sosial strukturu kontekstində formalaşır;
- ölkənin sosial inkişaf konsepsiyası kimi çıxış edir;
- dövlətin iqtisadi siyasətindən asılıdır və onunla sıx bağlıdır;
- cəmiyyətin maraqları baxımından resursların bölgüsünün tədbirlər sistemindən ibarətdir.

XXI əsrdə rus alimi T.Sidorina qeyd edir ki, sosial siyasət elmi araşdırmalar sahəsi kimi, dövlətin daxili siyasətinin istiqaməti, yəni dövlətin sosial doktrinası kimi meydana gələrək cəmiyyətin inkişaf strategiyası və məqsədlərini, həmçinin müxtəlif qeyri-dövlət institutlarının fəaliyyət sferasını müəyyənləşdirir. Sosial siyasət mürəkkəb obyektlər sistemi, tədbir və mexanizmlər sistemidir, zəruri qanununvericilik normaları ilə dəstəklənir və onların vasitəsi ilə əmək bazarı, səhiyyə, pensiya təminatı və digər sahələr də tənzimlənir [3, s. 54].

Hazırda Azərbaycanda uğurlu sosialyönümlü siyasət həyata keçirilir və ölkədə sosial təminatın və sosial infrastrukturun yaxşılaşmasına yönəldilmiş ardıcıl sosial proqramlar reallaşdırılır. Son illər ərzində ölkədə sürətli iqtisadi inkişaf və büdcə gəlirlərinin artımı sosial xərclərin planlı şəkildə artırılması, həmçinin dünyada enerji daşıyıcılarının qiyməti düşdüyü şəraitdə yoxsulluq səviyyəsinin azalması üçün şərait yaradılıb. Bu günə sosial təyinatlı xərclər ölkənin büdcə xərclərinin mühüm hissəsini təşkil edir. Belə ki, 2018-ci il dövlət büdcəsinin xərclərində sosialyönlü xərclərin, yəni əməyin ödənişi, pensiya və müavinətlər, dərman, sarğı ləvazimatları və materiallarının, ərzaq məhsullarının alınması xərclərinin xüsusi çəkisi 33,5 faiz olmaqla, 7004,8 milyon manat vəsait proqnozlaşdırılmışdır ki, bu da 2017-ci illə müqayisədə 147,9 milyon manat və ya 2,2 faiz çoxdur [2, s. 26].

Ölkənin ortamüddətli iqtisadi və sosial inkişaf proqnozuna uyğun olaraq, maliyyə siyasətinin həyata keçirilməsi üçün 2017-ci ildə büdcə-vergi siyasəti üzrə bir sıra sosialyönlü tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bunlara hesablanmış məcburi dövlət sosial sığorta haqları üzrə yığım faizinin artırılması istiqamətində işlərin davam etdirilməsi və sosial siyasəti davam etdirməklə, dövlət büdcəsində nəzərdə tutulan bütün sosial öhdəliklər, əsas dövlət proqramları, elm, təhsil, səhiyyə, mədəniyyət və idman infrastrukturu layihələri üçün maliyyə təminatının yaradılmasını da aid etmək olar.

Son 7-8 il ərzində ölkədə 11-dən çox sosial təyinatlı dövlət proqramı həyata keçirilib. Bu proqramların böyük hissəsi ölkənin bölgələrinin, Bakı və onun ətraf qəsəbələrinin sosial-iqtisadi inkişafını əhatə edir. Ölkədə güclü iqtisadi potensiala və yüksək sosial standartlara malik cəmiyyətin qurulmasına yönələn sosial-iqtisadi siyasətin strateji hədəflərindən biri də əmək bazarının inkişafına və hər bir əmək qabiliyyətli vətəndaşın səmərəli məşğulluğuna şəraitin yaradılmasıdır.

Belə ki, icrasına 35 milyon manat vəsaitin ayrılması nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 7 aprel 2016-cı il tarixli "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" sərəncamı əsasında qəbul edilmiş özünüməşğulluq proqramının icrasına da artıq başlanılmışdır. 2018-ci ildə proqramın 35 minə yaxın şəxsi əhatə edəcəyi planlaşdırılmışdır. Eyni zamanda "İşsizlikdən sığorta haqqında" Qanunun qəbul olunması ilə yaranacaq yeni maliyyə mənbələri özünüməşğulluq proqramının əhatə dairəsini əhəmiyyətli şəkildə genişləndirəcəkdir. Bundan başqa, proqram nəticəsində ünvanlı sosial yardım alanların sayının azalması və bu şəxslərin dövlət tərəfindən biznes üçün lazım olan bütün vasitələrlə təmin edilməsi gözlənilir.

Eyni zamanda, "Azərbaycan Respublikası Regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nı xüsusi olaraq vurğulamaq lazımdır. Proqram çərçivəsində 2017-ci ildə iqtisadiyyatın və sosial sahələrin inkişafına bütün maliyyə mənbələri hesabına 14,6 milyard dollar vəsait yönəldilmişdir. Bundan başqa Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bölgələrə mütəmadi səfərləri Dövlət Proqramının icrasını sürətləndirməklə, regionların tarazlı inkişafının təmin edilməsi, yeni iş yerlərinin yaradılması və əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi sahəsində görülən işlərə təkan vermişdir. Ölkə başçısı regionların inkişafını 2017-ci il ərzində də diqqət mərkəzində saxlamış və bölgələrə mütəmadi səfər edərək 130-dək infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirak etmiş, istehsal təyinatlı müəssisələrin fəaliyyəti ilə tanış olmuş, yerlərdə ictimaiyyətin nümayəndələri ilə görüşlər keçirmiş, onların problem və qayğıları ilə yaxından maraqlanmışdır. Nəticədə ölkə başçısı 2017-ci ildə bütün regionlar əhatə olunmaqla müxtəlif rayon və şəhərlərin sosial-iqtisadi inkişafının sürətləndirilməsi və bəzi mühüm layihələrin icrası istiqamətində 368 milyon manat vəsaitin ayrılması ilə bağlı 74 Sərəncam imzalamışdır. Nəticə olaraq 2017-ci ildə ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fiziki şəxslər tərəfindən 70,1 milyard manat Ümumi Daxili Məhsul (ÜDM) istehsal edilmiş, ÜDM-in hər nəfərə düşən həcmi 7205 manat təşkil etmişdir. Eyni zamanda Dövlət Proqramı çərçivəsində cari il ərzində təhsil, ticarət, nəqliyyat vasitələrinin təmiri, tikinti, peşə, elmi və texniki fəaliyyət, inzibati və yardımçı xidmətlərin göstərilməsi, emal sənayesi, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, informasiya və rabitə sahələrini əhatə edən 177 mindən çoxu daimi olmaqla, 221 min yeni iş yeri yaradılmışdır [4, s.23].

Bazar iqtisadiyyatı münasibətləri şəraitində sosial müdafiənin əsas hissəsi yerli idarəetmə orqanlarının üzərinə düşmüşdür. Bu baxımdan, yerli idarəetmə yerli təyinatlı məsələlərin həll edilməsi məqsədini daşıyır, özünü təşkiletmə, özünümaliyyələşdirmə prinsiplərinə əsaslanır, həyata keçirdikləri tədbirlər müəyyən ərazilərdə əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılmasına, bütünlükdə cəmiyyətdə rifahın yüksəlməsinə xidmət edir. Həyat keyfiyyəti haqqında danışarkən qeyd etmək lazımdır ki, yerli idarəetmənin mühüm vəzifəsi, əhalinin sağlamlığının yaxşılaşdırılması, insanların aktiv ömür fəaliyyətlərinin uzaldılmasına nail olunmasıdır. Müvafiq olaraq ön plana ərazilərin kompleks inkişaf etdirilməsi problemi çıxır, buraya həmçinin həyati baxımdan mühüm məsələlər, məsələn, yaşayış məskənlərində insanların sağlamlığı, məişət, ticarət, mənzil-kommunal, fiziki tərbiyə və idman xidmətlərinin göstərilməsinin yaxşılaşdırılması və s. daxildir.

İnsanların həyat keyfiyyətinin yaxşılaşdırılması sahəsində önə çıxan məsələlərdən biri də ərzaq təhlükəsizliyidir. Ölkə başçısının daim diqqət mərkəzində olan bu məsələ ilə bağlı qəbul etdiyi sərəncamlar nəticəsində kənd təsərrüfatının bizim üçün ənənəvi olan texniki sahələri inkişaf edərək ərzaq təhlükəsizliyi sahəsində mövcud olan problemlərin də həllinə münbit şərait yaradır. Sovet dövründə üzüm, pambıq, gül, meyvə, tərəvəz ölkəmizdə istehsal edilirdi, lakin yağ, ət, un kimi kənd təsərrüfatı malları başqa respublikalardan gətirilirdi. Dövlət başçısının son illər ərzində uğurla həyata keçirdiyi daxili siyasəti nəticəsində ölkəmiz son illər geniş miqyasda özünün ərzaq təhlükəsizliyini təmin edir və hətta gələcəkdə bu 150-160 min hektar yeni suvarılacaq əkin sahələrinin hesabına çox böyük ixracat üçün də geniş imkanlara yol açılır. Statistik məlumatlara görə, 2017-ci ildə kənd təsərrüfatı göstəricilərində 4,1 faiz artım müşahidə olunmuşdur.

Hər il olduğu kimi 2018-ci ildə də idxaldan asılılığı azaltmaq və ixracyönümlü məhsulların artırılması məqsədilə bölgələrdə taxılçılıq, pambıqçılıq, baramaçılıq, fındıqçılıq, tütünçülük, çayçılıq, çəltikçilik, sitrusçuluq və s. kənd təsərrüfatı sahələrinin sürətli inkişafını təmin etmək məqsədilə müşavirələr keçirilmiş və nəticə olaraq bir neçə yeni fərman və sərəncamlar qəbul edilmişdir. Bu isə öz növbəsində yeni iş yerlərinin açılması və əhalinin həyat rifahının hərtərəfli artırılması deməkdir. Xüsusilə qeyd etmək yerinə düşərdi ki, Davos Ümumdünya İqtisadi Forumunun ərzaq təhlükəsizliyi ilə bağlı apardığı hesablamaları nəticəsində ərzaq təhlükəsizliyi indeksinə görə Azərbaycan 57-ci yerdədir. Bu isə region üzrə olduqca yaxşı göstəricidir.

Eyni zamanda ölkənin sosial həyatında fəal surətdə iştirak edən Azərbaycan qeyri-hökumət təşkilatlarının fəaliyyətini də xüsusi qeyd etmək lazımdır. Onlar sosial həyatın mühüm ünsürü olaraq sosial siyasət üzrə nəzərdə tutulmuş dövlət proqramlarının daha səmərəli şəkildə reallaş-

dırılmasına kömək edir. Belə ictimai baxımdan əhəmiyyətli QHT arasından Heydər Əliyev Fondunu xüsusi qeyd etmək olar. Fond uşaqlara, gənclərə, əhalinin aztəminatlı təbəqələrinə qayğı göstərməklə sosial sahədə mühüm iş aparır. 2004-cü ildən fəaliyyətə başlamış Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir. Fond uşaqlara, gənclərə, əhalinin aztəminatlı təbəqələrinə qayğı göstərməklə sosial sahədə mühüm iş aparır. Fondun fəaliyyəti valideyn qayğısından məhrum olmuş və internat məktəblərində və uşaq evlərində tərbiyə alan uşaqları əhatə edir. 2005-2015-ci illərdə "Uşaq evlərinin və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində respublika üzrə əsaslı şəkildə 36 uşaq müəssisəsi təmir olunmuş və yeni avadanlıqla təchiz olunmuşdur, əlavə yardımçı binalar inşa edilmişdir. Belə ki, ümumrespublika layihələri arasında valideyn himayəsindən məhrum uşaqların "Şahdağ" turizm mərkəzində istirahəti, Xırdalan şəhərində məcburi köçkün ailələri üçün yaşayış binalarının, Masazır qəsəbəsində uşaq evlərinin və internat məktəblərinin məzunları üçün yaşayış binalarının, Daun sindromlu şəxslərin Reabilitasiya Mərkəzinin inşa edilməsi, Salyan şəhərində Qarabağ müharibəsinin veteranlarının, əlillərin, aztəminatlı və çoxuşaqlı ailələrin yaşayış probleminin həll olunması üçün 8 hektarlıq sahədə yeni yaşayış massivinin istismara verilməsi kimi tədbirləri qeyd etmək olar [5]. Uşaqların müəyyən peşələrə yiyələnməsi və asudə vaxtının maraqlı keçirilməsi üçün rəsm və rəqs kursları, müxtəlif dərnəklər təşkil edilib. Fond valideyn himayəsindən məhrum uşaqlar üçün müntəzəm şəkildə bayram təşkil edir. Heydər Əliyev Fondu tərəfindən Bakıda və Azərbaycanın bölgələrində tibb müəssisələrinin yenidən qurulması və inşası üzrə bir çox layihələr reallaşdırılıb. Türkan qəsəbəsində poliklinika, təcili yardım stansiyası, Şüvəlan qəsəbəsində 31 saylı birləşmiş şəhər xəstəxanası, Zirə qəsəbəsində Müalicə-Diaqnostika Mərkəzi, Pirşağı qəsəbəsində 34 saylı şəhər səhiyyə mərkəzi, Mərkəzi Neftçilər Xəstəxanasında Cərrahiyyə və Orqan Transplantologiya Mərkəzi, Qala qəsəbəsində 29 saylı birləşmiş şəhər xəstəxanasının filialı, Uşaq Psixo-Nevroloji Mərkəzi, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün reabilitasiya mərkəzi yenidən tikilib və müasir avadanlıqlarla təchiz edilmişdir. Eyni zamanda, 2017-ci il aprelin 3-də "2016-cı ilin aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsi çərçivəsində döyüşlərdə xəsarət almış əsgər və zabitlərimiz dünyanın müasir protez istehsalçılarının yüksək texnologiyalı məhsulları ilə 20 gün ərzində təmin olunmuşlar [5].

Nəticə

Nəticə olaraq, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın sosial siyasətin inkişafında xüsusi rolunu bir daha vurğulamaq lazımdır. Bu proqramın əsas məqsədi ölkədə qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın şaxələnməsi, bölgələrin yüksək templə inkişafının təmin edilməsi üçün tədbirlərin davam etdirilməsi, eləcə də regionun inkişafını təmin edən sosial xidmətlərin və infrastrukturun daha da təkmilləşdirilməsi ilə əhalinin rifah halının yüksəldilməsindən ibarətdir.

Dövlət Proqramında nəzərdə tutulmuş məqsədə çatmaq üçün bölgələrdə infrastruktur təminatının, həmçinin bölgə sakinlərinin kommunal xidmətlərlə təminat məsələlərinin həlli, qeyri-neft məhsullarının istehsalı və kənd təsərrüfatının inkişafı sahəsində sahibkarlığa münbit şəraitin yaradılması, əhalinin, ilk növbədə kənd əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi və yoxsulluğun azaldılması tədbirlərinin sürətləndirilməsi, bunun davamı kimi digər əhəmiyyətli vəzifələrin yerinə yetirilməsi əsas məqsəd kimi qarşıya qoyulmuşdur.

ƏDƏBİYYAT

1. Akademik Ziyad Səmədzadənin 70 illik yubileyinə həsr edilmiş «Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr». Respublika elmi-praktiki konfransının materialları. Milli inkişaf modelinin formalaşması problemləri. AMEA-nın İqtisadiyyat İnstitutu, Azərbaycan İqtisadçılar İttifaqı, Beynəlxalq İqtisadçılar İttifaqı, Azərbaycan Dövlət İqtisad

Universiteti. Bakı: «Şərq-Qərb», 2010, 982 s.
2. http://www.maliyye.gov.az/sites/default/files/Budce-19.10.2017.pdf - Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin saytı.
3. Сидорина Т.Ю. Структура Российского общества: вызовы социальной политики. Мир России. 2005, Т. 14., № 4. с. 49-63.
4. http://economy.gov.az/uploads/fm/files/dp_2017-icra.pdf - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin saytı.
5. https://heydar-aliyev-foundation.org/az/content/blog/93/Sosial - Heydər Əliyev Fondu

Элина Хагани кызы Рзаева
докторант Азербайджанский Университет Кооперации

Государственные социальные программы в Азербайджане и их роль в повышении благосостояния населения

Резюме

В статье исследуется современное состояние социальной сферы Азербайджана. Здесь автор анализирует результаты регулирования социальной сферы, значение государственных социальных программ в данном процессе. В статье проводится статистическое исследование и выявляются тенденции развития различных социальных показателей, таких как социальные расходы в государственном бюджете, уровень занятости, валовой внутренний продукт и т.д. В конце статьи автор приводит свои обобщенные выводы.

Ключевые слова: социальная сфера, социальные программы, безопасность пищевых продуктов, регион, социально-экономическое развитие.

Elina Khagani Rzayeva
Azerbaijan University of Cooperation
PhD student

State social programs in Azerbaijan and their role in improving of the population well-being

Summary

In article the current state of the social sphere of Azerbaijan is investigated. Here the author analyzes the results of regulation of the social sphere, role of the state social programs in this process. In article the statistical research is conducted and tendencies of development of various social indicators, such as social expenditures in the state budget, employment level, gross domestic product etc. are highlighted. At the end of the article the author gives the generalized conclusions.

Key words: social sphere, social programs, food safety, region, socio-economic development.

Шакира-ханум Рамиз кызы ДАДАШЕВА
диссертант Азербайджанского
Университета Кооперации

РОЛЬ ВНУТРЕННЕГО АУДИТА В ПОВЫШЕНИИ ЭФФЕКТИВНОСТИ ДЕЯТЕЛЬНОСТИ В СФЕРЕ ТУРИЗМА

Резюме

Внутренний аудит является важнейшим звеном управленческой структуры любой организации. Внедрение системы внутреннего аудита на туристических предприятиях необходимо для повышения эффективности работы всех его подразделений. Правильно организованный внутренний аудит позволяет существенным образом снизить количество финансовых ошибок, свести к минимуму размеры штрафных санкций, что, в свою очередь, способствует улучшению финансовых показателей предприятия.

Ключевые слова: внутренний аудит, анализ хозяйственной деятельности, туристический бизнес, экономическая эффективность, туризм.

***

Туризм является фундаментальной основой экономики развитых и развивающихся стран. Туризм превратился в индустрию международного масштаба, занимающую по доходам третье место среди крупнейших экспортных отраслей экономики, уступая место лишь нефтедобывающей промышленности и автомобилестроению. Анализ отечественного туристского рынка подтверждает тот факт, что туризм в Азербайджанской Республике еще находится на стадии развития. Это обусловлено несовершенством нормативно-правовой базы, невысокой платежеспособностью граждан, скудностью ассортимента туристских услуг, недостаточным развитием инфраструктуры отрасли, неудовлетворительной работой транспортных предприятий, не эффективностью внутреннего управления, ограниченностью рекламы отечественных туристских направлений за рубежом и т.д.

В последние годы в результате принятых государственных программ экономического развития приоритетных отраслей экономики, концепции развития «Азербайджан -2020: взгляд в будущее» возросло внимание и интерес к развитию не нефтяного сектора экономики Азербайджана. Одним из приоритетных отраслей экономики Азербайджана выступил туризм.

Проблемы эффективности управления туристической фирмой в современных условиях приобретают особую актуальность с появлением новых требований, предъявляемых формирующимся рынком туристических услуг. Эффективное функционирование туристического предприятия в современных условиях предполагает адекватное реагирование на изменения ситуации на рынке, оценку, анализ, предупреждение кризисных ситуаций финансово-хозяйственной деятельности, предлагая управленческому аппарату альтернативные решения выхода из них. Этим и обусловлена необходимость создания эффективной системы внутреннего контроля на каждом объекте туристического бизнеса.

Внутренний контроль является одной из функций управления, это часть и элемент управленческого процесса. В мировой хозяйственной практике существует аксиома: «Внутренний контроль должен существовать на всех уровнях организации, так как невозможно делегировать вниз ответственность за контроль» [7]. К системе внутреннего контроля можно отнести внутренний аудит, который в ней занимает особое место.

Существенные изменения в туристической отрасли привели к количественным изменениям на рынке туристских услуг, что потребовало перестройки самой системы управления. Многие предприятия создавались 20 лет назад и работали по старой модели управления, не соответствующей новым законам функционирования отрасли. В настоящее время туристская организация должна быть адаптивной не только к росту оборотов и рынка, но и к его падению. Поэтому грамотно построенная система внутреннего аудита позволяет упорядочить бизнес-процессы, получить объективную информацию о состоянии дел на предприятии, просчитать и минимизировать риски, повысить эффективность деятельности и стои-

